SƏRDAR CƏLALOĞLU

XÜSUSİ METAFİZİKA

2026

II Cild

ONTOLOGİYA

VARLIĞIN ABSTRAKT TƏYİNİ

Metafizikanın əsas ideyalarından biri
Varlıq haqqında ideyadır, metafizikanın
osntologiya bölməsi bu ideyanın izharını özündə təqdim edir.

Haşiyə: A.N.Uaythed "Kosmologiya ideyası":

> *"Bilavasitə müşahidə olunanın sərhədlərindən spekulyativ kənaraçıxma, metafizik anlayışların eksplisit düşüncənin strukturuna aydın şəkildə daxil edilməsinin çətin olmasına baxmayaraq, metafizikaya müəyyən inamsız mümkün olmazdı. Bizim metafizik bilgilər hədsiz az, səthi və yarımçıqdır. Buna görə də, yanılmalarla doludur. Amma belə metafizik idrak öz arxasınca təsəvvürləri aparır və məqsədə bəraət qazandırır. Metafizikasız sivilizasiya ola bilməzdi."*

A.N.Uaythedin bu fikirlərindən görünür ki, metafizikanın məqsədi təcrübədənkənar elə bilgilər əldə etməkdir ki, elm və fəlsəfə həmin bilgilərə istinad edərək təcrübədə həqiqətin aşkarlanmasında daha ciddi rasional nailiyyət qazana bilsin.

Buradan da ontologiyanı Ruhun məhsulu olmayanın - "özündə şey" kimi Varlığın - şeyin intuitiv (xalis rasional) idrakı haqqında elm kimi təyin etmək olar. Rasional idrak - təcrübədənkənar, hissi qavramanın iştirak etmədiyi, bilavasitə xalis zəkadan həqiqətin aşkarlanmasını özündə ifadə edir.

Təbiəti təşkil edən hər bir şey təcrübə sahəsində bilavasitə öz keyfiyyətlərindən (hissi təsirlərindən) hissi qavranılan maddilikdir. Əgər şeyin maddiliyini onun ümumi hissi təsirlərindən fikrən ayırsaq və ümumi keyfiyyətləri də öz növbəsində ayrı-ayrı tərkib hissələrinə

ayıraraq, sonra hər bir xüsusi keyfiyyəti bir hissəcik kimi təsəvvür etsək, onda varlıq hissi qavranılmayan xalis keyfiyyətlə mahiyyətin vəhdəti olacaqdır. Beləliklə, biz varlığı ayrı-ayrı keyfiyyətlərin hissəcik kimi özündə həqiqətin yalnız bir tərəfini daşıması kimi təyin edirik. Varlığı olmamaq belə hissəciklərə malik olmamağı özündə ifadə edir, hansı ki yoxluq kimi təsəvvür edirik. Ontologiya "birformalı və ya çoxformalı substansiya varmı?", "dünya hansı maddədən və ya substansiyadan düzəldilib?" və s. kimi suallara cavab axtarır.

Biz ontologiyanın ən ümumi suallandırılmasını belə təyin edirik: "Hissi təcrübədən kənar, hisslərin iştirakı olmadan, hissi qavranılan ayrılıqda götürülmüş əbədi, maddi şeyləri necə idrak etmək olar, yəni təbii şeylər metafizik üsulla necə dərk edilə bilər?". Bu suala cavab olaraq demək olar ki, hissi təcrübədən kənar ayrılıqda götürülmüş tək şeyləri dərk etmək yalnız onların sərhədlərindən kənara çıxmaqla və ya şeyi hissi təcrübənin ümumi sərhədlərindən çıxarmaqla mümkündür.

Beləliklə, şeylərin metafizik dərkinin iki üsulunu ayırd edə bilərik:

1. Ayrılıqda götürülmüş tək əbədi şeyləri hissi təcrübədən çıxarmaq üsulu: Bu o deməkdir ki, hissi təsirə malik şeyi elə parçalamaq tələb olunur ki, o artıq hissi təsirə malik olmasın. Təcrübədə hər hansı bir şeyi hissi təcrübədən çıxanadək parçalamaq mümkün olmadığından, şeyləri yalnız fikrən parçalamaqla hissi təcrübədən çıxarmaq olar. Əgər qəbul etsək ki, bütün şeylərin minimumu kimi atomu qəbul edirik, onda atomun hissəciklərə parçalanması ilə həmin atomlardan təşkil olunmuş mövcudluq hissi təcrübədən çıxmış olur. Hissi təcrübə çoxluqdan, mürəkkəbliklərdən və müxtəliflikdən təşkil olunduğundan, mövcudluğun hissi təcrübədən çıxarılması onu çoxluqdan, mürəkkəblikdən və müxtəliflikdən azad etməyi özündə ifadə edir.

Buradan da çoxluğun, mürəkkəbliyin və müxtəlifliyin inkarı ilə təklik, sadəlik və eynilik alınır ki, bu da ontoloji olaraq universal kimi

təsəvvür olunur. Beləliklə, biz ontologiyanın predmetini universal noumen kimi təyin edə bilərik.

Universal noumenlər kvant fizikasını, fizikaönü varlığı təşkil edirlər. Buradan da biz ən sadə ideyalardan ibarət hissəciklər aləmini - kvant dünyasını əldə etmiş oluruq.

Biz Varlığı - yalnız fikrən dərk edilməsi mümkün olan konkretlik və ya bilavasitəlik kimi təyin edirik. Beləliklə, varlıq bizim təfəkkürün yaratdığı daxili predmet yox, bizim təfəkkürün yalnız özü-özündən aşkarlaya biləcəyi xarici predmetdir.

2. Ayrılıqda götürülmüş tək əbədi şeyləri onların öz sərhədlərindən kənara çıxarmaq üsulu: Hissi təcrübədə hər bir şey konkret sərhədlər daxilində, özünə xas ölçülükdə aktuallaşır. Əgər biz hissi təcrübədənkənar şeyi dərk etmək istəyiriksə, onda onu həm də özünün sərhədlərindən çıxarmaqla buna nail ola bilərik. Mövcudluğun üç müxtəlif sərhədi vardır: məkan, zaman və idrak sərhədləri. Məkan sərhədi mövcudluğun məkanda yerini (faktını), zaman sərhədi onun sürəkliliyini (aktını), idrak ölçülüyü onun mücərrədliyini özünə təqdim edir. Burada məkan və zaman ölçülüyü mövcudluğun öz ölçülüyü - təfəkkürdən kənarda özü üçün varlıq kimi, idrak ölçülüyü özündənkənar yalnız təfəkkürə xas ölçülüyüdür. Beləliklə, mövcudluğu öz sərhədlərindən çıxarmaq onu məkanda yerdən, zamanda sürəklilikdən azad etməyi və xalis idraki ölçülüyə keçirilməsini ifadə edir.

İdrak ölçülüyünə keçirmə üsulunu biz mücərrədləşdirmə adlandırırıq. Beləliklə, birinci üsul mövcudluğun mütləq faktını dağıtmaqla şeyi qeyri-hissi qavramaya, ikinci üsul əksinə şeyi - aktuallaşmamış mövcudluğu - mütləq faktı fikrən təsəvvür etməklə, onun qeyri-hissi fikrən idrakına imkan verir.

Mücərrədləşdirmə konkretliyin dəf olunması, yəni şeyin daha ümumi anlayışlarla ifadə edilməsini özündə təqdim edir.

Haşiyə: Corc Berkli "İnsan biliklərinin prinsipləri haqqında traktat."

> *"Başqa insanlar özlərinin hamıdan yaxşı deyə biləcəyi mücərrəd ideyalar yaratmaq kimi möcüzəvi qabiliyyətə malikdirlərmi? Mən, məhz mücərrədləşmənin iki xüsusi əhəmiyyətini təşkil edən, ayrılıqda mümkün ola bilməyən keyfiyyətləri bir-birindən mücərrədləşdirə bilməni və ya yuxarıda göstərilən üsulla, xüsusi anlayışlardan ümumi anlayışlar yaratmaq qabiliyyətimi inkar edirəm. Mən mütləq şəkildə ümumi ideyaların mövcudluğunu yox, yalnız mücərrəd ümumi ideyaları inkar edirəm."*

C.Berklinin bu fikirləri ilə razılaşmaq olmaz. Təcrübədə idrak obyektlərini mücərrədləşdirməyə uyğun olaraq bir neçə səviyyədən anlayışla ifadə edirik və bu zaman bu anlayışlardan yalnız biri sintetik olur, yəni bilavasitə idrak predmeti ilə əlaqələnir, digər anlayışlar isə yalnız təfəkkürün özü-özündə təcrübənin vəhdət səviyyələri kimi yaradılır.

Məsələn, "Qızıl Əhməd alması" - bu anlayış həm ayrılıqda götürülmüş tək şeyi, bilavasitə idraka təqdim edilmiş bir konkret almanı, həm çoxlu alma sortundan birini, həm meyvə növünü, həm gerçəkliyin sırasını, yəni bioloji varlığı, həm ümumi vəhdətdə olan reallığı, həm də ümumi şəkildə mövcudluğu ifadə edir. Buradan görünür ki, "Qızıl Əhməd alması" anlayışı yalnız bir halda bizə konkret və bilavasitə idrakdan əldə etdiyimiz ideyanı verir. Digər ideyaları biz artıq təcrübədənkənar mücərrəd yolla daha mürəkkəb və dolayı yolla əldə edirik.

Elmi nəzəriyyələr ayrı-ayrı adamlar tərəfindən mücərrəd ideyalar kimi kəşf edilir və yalnız həmin adamların özləri bu ideyaları hamıdan yaxşı deyə və ya şərh edə bilir. Məsələn, Eynşteynin Nisbilik nəzəriyyəsi yalnız onun tərəfindən mücərrəd ideya kimi kəşf edilmiş və onun tərəfindən bu ideya ən yaxşı şərh olunmuşdur. Buna baxmayaraq, hətta bu gün də çoxları üçün bu ideya hələ də qaranlıq qalmaqdadır.

Varlığın mücərrədləşməsi ilə mücərrəd ideyalar eynilik təşkil etmir. Varlığın mücərrədləşdirilməsi mövcudluqda bilavasitə əldə edilmiş, faktdan törəyən sadə ideyalar əsasında reallaşdırılır, amma mücərrəd ideyalar ağıldan törəyir və əsası təcrübədə yox, metafizikada yerləşir. Belə ideyaların özündə təqdim etdiyi sadə ideyaların çıxarıldığı predmet də daxili predmet kimi təfəkkürün özü-özündən yaradılır. Ontologiya təfəkkürün özü-özündən yaratdığı mücərrəd predmet kimi varlığı ən ümumi ideyalar əsasında həqiqətini aşkarlamağa cəhd edir.

Beləliklə, metafizikanın ontoloji və kosmoloji ideyaları xarici mücərrədləşdirilmiş predmetləri, pnevmatoloji və rasional teoloji ideyaları isə xalis mücərrəd daxili predmetləri özlərində təqdim edirlər.

"Varlıq" anlayışı isimdən düzələn sifəti bildirir. Bu anlayışda isim kimi "var" çıxış edir. Beləliklə, biz varlığı "var"a malik olan, "var" olmaq kimi təyin edə bilərik. Bəs var noumen kimi özündə nəyi ifadə edir? Biz ümumi metafizikanı şərh edərkən "var"ın mənalarını geniş şərh etmişdik. Burada yalnız onu qeyd etmək lazımdır ki, var obyektin statusunun əsasını, başlanğıcını təşkil edən metafizik noumendir. Başqa sözlə, var - mütləq universal predikatdır, hansı ki onsuz hər hansı bir predikat mümkünsüzlükdür. Buradan da var-ı bütün predikatların başlanğıcı, ilkin səbəbi kimi təyin edirik. "Var" olmayan və "var"ı olmayan hər şey heçlikdir, yəni mənadan məhrumdur, statusu yoxdur. Bundan da "var"ı mütləq universal noumen kimi təyin edə bilərik, hansı ki mənaya malik olmağı, yəni özündə həqiqət saxlamağı ifadə etmək üçün fikrən bütün idrak obyektlərinə şüur tərəfindən implikasiya edilir.

Var bütün predikatların başlanğıcı və ilkin səbəbi olduğundan, özündə ilahiliyi ifadə edir. Yəni var-ı olmaq Allahın onun olması ilə bağlı istəyi - həqiqəti özündə refleksiya etmək deməkdir. Universallıq dedikdə biz həqiqətin özü-özündə sayrışan vəziyyətini, artma və azalma meyllərinin vəhdətini nəzərdə tuturuq, hansı ki aydınlaşmayan və buna görə də aşkarlanmayandır. Həqiqətin meylləri əksliklərin başlanğıcını

təşkil etdiyindən, universal əksliklərin hər iki tərəfini - təkrarlananları (daimi olanlar) və dəyişənləri (keçici olanlar), "şeyin növlərini" - ruhu (varlığın mövcudluğunu - mövcudluğu olmayan varlığı) və maddəni (mövcudluğun varlığını - mövcudluğu olan varlığı) eyni vaxtda, bir yerdə, tək məna kimi ifadə etməyini nəzərdə tuturuq; hansı ki, qeyri-universallar yalnız əksliyin bir tərəfini, fərqli vaxtlarda, ayrı-ayrılıqda, çox məna kimi özündə təqdim edir.

Buna görə də, ontologiyanı həm də universal haqqında bilgi kimi təyin etmək olar. Ontologiya həm də şeylərin necə yaranması sualına cavab verməlidir. Beləliklə, biz şeyi əsasınadək parçalamaqla onu necə hissi təcrübədən çıxarırıqsa, eynilə hissi təcrübədən kənar varlığın şərhi ilə ondan şeylərin yaranmasını şərh edə bilərik. Buradan da, ontologiyanın predmeti kimi varlığı həm də maddi şeylərin yaranması haqqında ideya kimi təyin etmək olar.

Şeylərin təcrübədən kənar - metafizik ideyası varlıq ideyasından ibarətdir. Buradan da ontologiyanı varlıq ideyası haqqında elm kimi təyin etmək olar. Varlıq anlayışını biz subyektin özündən kənar şeyi özü-özündə, qeyri-hissi qavrama ilə idrak etməsi kimi təyin edirik. Beləliklə, metafizik varlıq düşünən məndən kənarda olan, amma idrakı yalnız təfəkkürün özü-özündən mümkün olanı özündə təqdim edir. Biz istənilən şeyi hissi təcrübədən çıxarmaqla varlığı əldə etmiş oluruq.

Biz Varlığı Metafizikanın əsas predmetlərindən biri, mövcudluqların özlərindənkənar ilkin başlanğıcı, ən ümumi əsası və idrak prosesinin dərk etməli olduğu sonuncu obyekti kimi təyin edirik. Beləliklə, idrak olunan və ya idrak olunması mümkün olan ilk başlanğıc Varlığı təşkil edir. Varlıq iki yolla aşkarlanır: birincisi, yaranışın materiyaya qədərki səviyyəsindən (ümumi şəkildə); ikincisi, hər hansı bir şeyin qurulma ərəfəsindən, yəni şeyin formasının başlanğıcından (xüsusi şəkildə). Hegel Varlığı Allahın metafizik təyini kimi qəbul edir. Bundan əvvəlki fəsillərdə biz "var" noumenini şərh edərkən göstərdik ki, var idrakın

minimasıdır, yəni həm ən dəqiq idrakla ən sadə həqiqətin və ya özündə düşünənlə özündənkənarı düşünənin vəhdətidir.

Biz bunu mövcud varlıqla mümkün varlığın vəhdəti kimi də təyin edə bilərik, hansı ki mahiyyətin varlığının iki tərəfi kimi çıxış edir. Mahiyyətin varlığı özündə mütləq nisbi həqiqəti ifadə edir, hansı ki mütləq həqiqətin birbaşa refleksiyası kimi təyin oluna bilər. Buna görə də, var Allahın yox, Allahın ilkin refleksiyasının metafizik təyini kimi şərh olunmalıdır, hansı ki bütün mövcud və mümkün varlıqlar İlahi istək və İlahi iradə ilə var edilmişlər, yəni mövcud və mümkün varlıqlar kimi yaradılmışlar. Beləliklə, varlıq sadəcə bir ilahi xarakteristika - ilahi istəklə eynilik təşkil edən xarakteristika daşıyır. Əgər Varlıq Allahın tam metafizik təyini olsaydı, onda Varlıq həm ilahi iradəyə, həm ilahi bacarığa malik olardı, nəticədə özü Yoxluqdan özünü və ya başqa nəsəni var edərdi. Halbuki, Varlıq özü Yoxluğun əksliyi kimi ondan "var olan"dır.

Bəs, "var olmaq" sözü özündə nəyi ifadə edir?

Haşiyə: Aristotel "Metafizika"

> *"Mövcud olan haqqında bir tərəfdən onun təsadüfi göstəriciləri mənasında danışılır, başqa tərəfdən o özü-özlüyündə verilən kimi. başqa tərəfdən, müstəqil mövcud olmaq özündə müxtəlif forma deyimlərdən bildirilənləri təqdim edir: məhz nə qədər belə deyimlər müxtəlif adlarda yaranırsa, bir o qədər yolla onlar varlığı göstərir. Belə ki, bir deyim şeyin mahiyyətini, digər - keyfiyyətini, bəziləri kəmiyyəti, başqaları münasibəti, bəziləri fəaliyyəti və ya təsirə məruz qalmaqlığı, bəziləri harada?*

Bəziləri "nə zaman?" suallarına cavabları bildirir. şeylərə "varlığ"ı aid etmək və demək ki, o "var", onu bildirir ki bu - həqiqətdir, "qeyri-varlıq" aid etmək isə bunun həqiqət olmadığını bildirir. varlıq və mövcudluq yuxarıda göstərilən hallarda onu bildirir ki, varlıq təklikdə mümkünlükdə mövcud olur, başqası - həqiqətdə."

Göründüyü kimi, Aristotel "o vardır" anlayışının dörd mənasını ayırd edir

1. Birinin təsadüfi göstəricilərinin başqasında olması kimi "var olmaq": Belə "var olmaq" təsadüfə görə mövcudluğu bildirir. Hansı ki, eyni bir varlıqdan biri təsadüfə görə həmin formaya malik ola bilər, digəri yox. Məsələn: "adam qadındır". Burada "qadın" təsadüfə görə adamı xarakterizə edir. Eyni təsadüflə "kişi" də adamı bildirə bilər. "kişi" və "qadın" hər ikisi yalnız adama aid olsa da, yalnız təsadüfə görə konkret adama aid olur. Bu zaman birinin olması, digərini inkar edir. Nəticədə, hər iki təsadüf "var olanın" zəruri mövcudluğunu bildirir.
2. Belə ki, nə kişi, nə qadın adamdan başqa heç bir mövcudluğun varlığını bildirmir. Beləliklə, belə "var olmaq" zəruri olanın təsadüfi olanla vəhdətdə təzahür kimi meydana çıxır.
3. Şeyin öz xüsusi təbiətində real təyini kimi "var olmaq": Belə "var olmaq" zərurətə görə mövcudluğu bildirir. Hər bir şey müxtəlif kateqoriyalarla ümumi şəkildə idrak edilir. Buradan da kateqoriyalarla ifadə edilənlər zərurətə görə "var olanı" özündə təqdim edir. Belə "var olmaq"lıq ən müxtəlif formalarda, kateqoriyaların sayına uyğun olaraq ifadə edilir. Məsələn, 3 kitab - kəmiyyətə görə var olmaqlığı, stolun üstündə kitab - yerə görə var olmaqlığı, fizika kitabı - mahiyyətə görə var olmaqlığı, əlyazma kitab - fəaliyyətə görə var olmaqlığı, qədim kitab - vaxta görə var olmaqlığı və s. bildirir.
4. Təsdiq və ya inkarla həqiqiliyi və ya inkarı bildirmə kimi "var olmaq": Təfəkkürdə hər bir varlıq ya təsdiq, ya inkar yolu ilə refleksiya edir. Belə "var olmağ"ı biz idraki mövcudluq kimi təyin edirik. Yəni, belə "var olmaq" obyekt-subyekt münasibətində yalnız subyektdən asılı olaraq mövcud olanı bildirir. Məsələn: Bu almadır, armud deyildir. Burada armudun inkarı ümumiyyətlə özündə varlıq kimi armudun mövcudluğunu yox, armudun subyektə münasibətində

inkarını bildirir. Hansı ki, subyektə münasibətdə alma başqa subyekt üçün inkar olunan varlıq ola bilər.

5. Mümkünlük və ya həqiqilik kimi "var olmaq": Belə "var olmaq" varlığın mövcudluq forması kimi meydana çıxır. Biz iki cür mövcudluq aşkarlaya bilərik. Mümkün mövcudluq və real mövcudluq. Mümkün mövcudluq yalnız ideya ilə, intuitiv idrakla qavranılan, hissi qavrayışla inkar olunan, yəni hissi idrakdan kənarda olan mövcudluqdur. Real mövcudluq həm ideya ilə təsdiq olunan, həm də hissi idrakla qavranılan mövcudluqdur. Bizcə metafizik olaraq "var olmaq" yalnız "var olmağ"ın dördüncü mənasını təşkil edir. Digər üç məna varlığın ayrı-ayrı təyinləri və idrakla şərtlənmiş var olmaqlıqdır. Belə ki, birinci mənada "var olmaq" özü-üçün-varlıq təyini, ikinci mənada mövcud varlıq təyini, üçüncü mənada qavrayışla bağlı varlıq təyinlərinin başlanğıcı kimi çıxış edir. Yalnız mümkünlük və həqiqilik - potensial varlıq kimi "var olmaq" xalis varlıq təyinini bildirir ki, məhz Varlığın yalnız xalis varlıq təyini olduğundan belə "var olmaq" başlanğıc var olmaqdır. Var olmaq həm də sərhəddir, hansı ki bu sərhəddən kənarda Yoxluqdur.

İdrak prosesinə münasibətdə Varlıq ən ümumi "düşünən Mən"in - Vahid İnsanlıq Ruhunun - əksliyi kimi çıxış edir. Əksliklər bir-birini qarşılıqlı təyin etdiyindən, varlıq ən ümumi düşünən məni - ümumi şüurluluğu təyin edən və eyni zamanda ən ümumi şüurluluqla təyin olunandır. Buna görə də, "var olanın mövcudluğu, mütləq şəkildə bizim bilgimiz ola bilməz". Əgər bunun əksi olsaydı, onda düşünən mən - varlıq, varlıq - düşünən mən olardı. Burada "şüurla təyin olunan" şüurdan asılı olaraq mövcud olan mənasını vermir. Şüurla təyin olunan aydınlaşan həqiqətin aşkarlanma mümkünlüyünü göstərir, yəni şüurdan kənarda mövcud olan şeydə aydınlaşan həqiqətin təfəkkürdə ideya kimi ifadə edilməsini özündə təqdim edir.

O obyektlərin aydınlaşdığı həqiqət şüurda aşkarlanmır ki, həmin obyektlər şüurla təyin olunmazdır. Məsələn, Allah şüurla təyin olunmazdır, buna görə də təfəkkürdə bilavasitə və zərurətə görə aşkarlanmır. Varlıq yalnız idrak olunmaq üçün yaradılmadığından, Varlığın şüurla təyin olunması zərurət deyil, ona görə də biz şüurla təyin olmaqlığı təsadüfə görə, bunun əksinə var olmaqlığı zərurətə görə müəyyənləşdiririk. Şüurla təyin olunan ona görə təsadüfə görə mövcud olandır ki, birincisi insan özü təsadüfi varlıqdır, ikincisi idrak prosesində əvvəl mövcud varlıq - *Ens natura* (və ya Haydeqerə görə *Dasein* - olmaq, iştirak etmək, gerçək mövcudluq) - sonra hissi qavrama (şüur) baş verir.

Amma zərurətə görə varlıq idrak prosesində şüurdan sonra gəlir və o indi şüura təqdim edilmədiyindən, gələcəkdə təqdim edilə biləcəyindən və ya heç vaxt təqdim edilməyəcəyindən özünə görə varlıq - *Ens ase* - kimi mövcuddur. Belə varlıq şüurla təyin olunmaq zərurətindən azaddır və buna görə də təsadüfə görə şüurla təyin olunandır. Varlıq haqqında Metafizik bilgilər özündə bu cür təsadüfə görə əldə edilən bilgilərdən ibarətdir.

Şüurlu insan varlığı düşünən mövcudluq - *Ens cogitans*, varlığı düşündüyü dərəcədə mövcud olur. Buna görə də, ölmüş insan - cəsəd *Ens cogitans*a xas substansiyaya - keyfiyyətə, yəni fəaliyyətə, yaradıcılığa, düşüncəyə, məqsədəyönlü hərəkətə və s. malik olmadığından özündə insanın xalis forması kimi heçliyi təqdim edir. Cəsəddə şüurlu insan mövcud deyil.

Beləliklə, Varlıq anlayışı - düşünmədən məhrum var olmaqlığı, Ruh - varlıqdan məhrum olmaqla, düşüncəyə malik olmaqlığı özündə ifadə edir.

Necə ki, mövcud varlıq şüuru təyin edəndir, buna görə də ondan kənardadır və eləcə də şüur varlığı təyin edən kimi ondan kənardadır.

İlahi Nurun hissələrinin yenidən tamlaşması, yəni emansiyanın əks istiqamət alması, canın cisimlə, Ruhun canla vəhdət təşkil etməsi ilə

mümkün olur. Belə üçlü birləşmədə cisim özündə İlahi Nurun ideyasını - həqiqəti aydınlaşdıran vasitə, can (canlı bədən) cisimdə aydınlaşan həqiqəti özünə keçirən vasitə, Ruh cana keçən həqiqəti özündə refleksiya edən vasitə kimi çıxış edir. Beləliklə, hər üç sondan - cisimdən, candan və Ruhdan - onların başlanğıclarının - həqiqətin aşkarlanması İlahi Nurun yenidən totallıq əldə etməsini - başlanğıca qayıtmanı özündə təqdim edir.

İnsan ağlının vəzifəsi həqiqətin aydınlaşmasını aşkarlamaq və aşkarlanmış həqiqətin nizamına uyğun nizamlanaraq özünün xaotikliyindən - xalis *causa transitorias* vəziyyətindən - xilas olmaq, yəni Ruhun azad nizamlı varlığına nail olmaqdır. Başqa sözlə, Ruhun varlığı özündə Varlıqda aydınlaşan ən ümumi həqiqəti refleksiya etməsi ilə aktuallaşır. Buradan da, həqiqəti idrak cəhdini Ruhun aktı kimi təyin etmək olar. Dərk edilmiş həqiqətin məcmusu isə strukturlaşmış ağıl kimi Ruhun faktını özündə təqdim edir. Ağıl idrak prosesində, cari şüurla, həqiqəti özündə aydınlaşdıran subyektə (fərdə) münasibətdə sonuncu vasitədən başlayır. Sonuncu vasitə - gerçəklik özündə ən nisbi həqiqəti - sonuncu nizamı, ən pis həqiqəti, emansiya prosesinin sonunu və ən ideal formanı özündə təqdim edir.

Ən nisbi həqiqətin idrakı ilə ağıl xaotiklikdən tam azad ola bilmir, yəni özündə ən pis nizama malik olur. Ona görə də, ağıl şüurun başqa formaları ilə daha kamil nizamı, o cümlədən, fəlsəfi şüurla ən ümumi həqiqəti - başlanğıc nizamı aşkarlamaq istiqamətində idraka cəhd edir. Sonuncu nizam insanla bilavasitə qarşılıqlı əlaqədə olan gerçəklikdən aşkarlanır. Başlanğıc nizam isə, gerçəkliyin başlanğıcını təşkil edən başlanğıc vasitədə aydınlaşır. Bütünlükdə həqiqətin idrak sahəsi gerçəkliklə gerçəkliyin başlanğıcı arasındakı məsafəni əhatə edir.

Gerçəkliyin başlanğıcının müəyyənləşdirilməsi metafizikanın prioritetlərindən biridir. Şüur mövcudluğa çevrilməyən sıranın faktlarına - materiyaönü vəziyyətdə olan reallıqlara, o cümlədən, hər bir mövcudluğun özünün daxilində saxladığı materiyaönü vəziyyətə

bilavasitə münasibət göstərmək imkanında deyil. Bu baxımdan metafizika şüurun bilavasitə münasibətdə olmadığı həqiqətləri dolayısı ilə aşkarlamağa cəhd edir.

Başqa sözlə, təcrübədə idrak prosesi, fəlsəfənin əsas məsələsinin təyininə görə yalnız "şüurun materiyaya münasibətindən" ibarətdir.

Şüurun materiyaya münasibətindən posterior - təcrübi bilgilər əldə edilir. Bu baxımdan biz metafizikanın əsas məsələsi kimi "şüurun materiyaya münasibətinin əksliyi" kimi təyin edə bilərik.

Şüurun materiyaya münasibətinin əksliyi haqqında məlumatları isə yalnız aprior olaraq əldə etmək olar. Artıq elmi şüur bilavasitə cari şüurun münasibətdə olmadığı həqiqətləri xüsusi nəzəri və eksperimental metodlardan istifadə etməklə təfəkkürün materiyaönü sırasının obyektlərinin aşkarlanmasına nail olmuşdur. İndi yeni metafizika məhz bu obyektlərdə aydınlaşan həqiqətləri, aprior olaraq, aşkarlamalıdır.

Fəlsəfədə gerçəkliyin başlanğıcı Varlıq anlayışı ilə ifadə olunur. Beləliklə, Varlığı - ən ümumi həqiqəti özündə aydınlaşdıran başlanğıc vasitə - gerçəkliklərin başlanğıcı kimi qəbul etmək lazım gəlir.

Haşiyə: Hegel "Varlıq haqqında təlim"

> *"Varlıq - bu yalnız özündə anlayışdır, bu təyin mövcudluğun təyininin mahiyyətinin anlayışıdır; özlərinin fərqliliyində onlar (mövcudluqlar - S.C.) bir-birinə münasibətinə görə başqasının mahiyyətidir və onların sonrakı təyini (dialektik forma) başqasına keçiddir. Bu sonrakı təyin eyni zamanda xaricdən aşkarlanandır və nəticədə özündə mövcudluq anlayışının açılmasıdır və bununla yanaşı varlığın özünə dalması, özü-özündə dərinləşməsidir. Varlıq sferasında anlayışın ayırd edilməsi özündə nəsə ikiliyi təqdim edir: o nə qədər o varlığın totallığı olur, bir o qədər varlığın bilavasitəliyini və ya elə-belə varlığın formasını ondan çıxarır. Varlığa özü və həmçinin növbəti təyinlərin, Allahın metafizik təyini kimi, mütləqlik təyini kimi baxmaq olar. Xalis varlıq başlanğıcı təşkil edir, ona görə də o bir və eyni vaxtda xalis fikirdir.*

Və qeyri-müəyyən bilavasitəlikdir, birinci başlanğıc nəsə müəyyənlik və bilavasitəlik ola bilməz. mütləq - varlıqdır. fəlsəfə tarixində hər birinin əsasında mütləqin xüsusi definisiyası duran bir-birinin arxasınca çıxış edən fəlsəfi sistemlərin formasında məntiqi ideyaların müxtəlif pillələrini tapırıq. xalis varlıq xalis abstraksiyadır və nəticədə mütləq inkardır, hansı ki bilavasitə götürülmüş, heçlikdir. Buradan mütləqin ikinci definisiyası çıxır, hansı ki buna görə o heçlikdir. heç nə bilavasitəlik kimi özü-özünə bərabər, əksinə, varlıqla eynidir. Həqiqət varlıq kimi belə heç nə onların hər ikisinin vəhdətini təqdim edir, bu vəhdət qurulmadır."

Hegelin "Varlıq haqqında təlim"indən gətirdiyimiz bu sitatlar Varlıq haqqında Hegelin əsas müddəalarını özündə əks etdirir və tərəfimizdən bu sitatdan seçilmiş ayrı-ayrı müddəaları inkişaf etdirməklə burada Varlığın metafizikasını şərh etməyi məqsədə müvafiq hesab edirik.

Təbiətdə həqiqətin aydınlaşma vasitələri bir-birindən əmələ gəlməklə bir zəncir təşkil edir və idrak prosesində həmin zəncirin hər bir həlqəsi fərqli anlayışlarla ifadə olunaraq, həmin həlqədə aydınlaşan həqiqətin aşkarlanması idrakın bir pilləsi kimi meydana çıxır. Beləliklə, biz istənilən metafizik anlayışda iki tərəf - birinci tərəf kimi, həqiqəti özündə aydınlaşdıran vasitə; ikinci tərəf kimi, həmin vasitədə aydınlaşan həqiqətin aşkarlanması ilə təfəkkürdə refleksiya ilə yaranan ideyanı başa düşürük. Bu baxımdan Varlıq anlayışı da ikili mənaya malikdir. Birinci mənada, Varlıq - şüurdan asılı olmayaraq ən ümumi həqiqəti özündə aydınlaşdıran başlanğıcı - müstəqil xarici ideyanı, ikinci mənada, ən ümumi həqiqətin aşkarlanmasında təfəkkürdə refleksiya ilə yaranan abstrakt daxili ideyanı özündə ifadə edir. Bu ideyaların eyniliyi ən ümumi həqiqətin aydınlaşmasının aşkarlanmasını özündə təqdim edir.

Varlıq anlayışı fəlsəfədə "şüurdan asılı olmayaraq mövcud olan obyektiv aləmi, materiyanı ifadə edən" kimi təyin olunub. Metafizika başlanğıcı öyrəndiyindən, materiya isə başlanğıcı ifadə etmədiyindən, metafizik anlayış kimi Varlığı - obyektiv aləmin şüurdan asılı olmayaraq

mövcud olan başlanğıcı özündə ifadə edən kimi təyin edə bilərik. Burada "şüurdan asılı olmayaraq mövcud olan" ifadəsi iki mənalıdır. Birinci məna, şüurdan kənarda, şüurla şərtlənmədən, amma onunla qarşılıqlı əlaqədə, təfəkkürdə refleksiya edən özü-üçün-mövcudolan kimi; ikinci məna, şüurla bilavasitə qarşılıqlı əlaqədə olmayan və şüurla dərk edilib-edilməməsindən asılı olmayaraq mövcud olmağı özündə təqdim edir.

FAKTİKİ VARLIQ

Faktiki varlıq xarici, bilavasitə və zərurətə malik varlıqdır.

Faktiki sözü fakt sözünün şəkildəyişmələrindən biridir. Fakt sözünün şəkildəyişmələrindən əmələ gələn sözlər özlərində olmaq, hadisə, mövcud, əsaslanan, mümkün olan şey, icraçı yəni formallığı icra edən, faktlaşdıran yəni qeydə alan, başqasının tapşırığını icra edən, tapşırığı hissəvi yerinə yetirən, çoxaldan (riyazi mənada), mürəkkəb, nəticəyə girən, hesab və s. kimi mənalara malikdir. Beləliklə, faktiki varlığı - təzahürlərə əsaslanan, mahiyyətin formallığını hissəvi icra etməklə onu çoxaldan son nəticə kimi təyin edirik. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Faktiki varlıq - təzahürlər əsasında hissi qavranılan, özündən mahiyyətin nizamının aşkarlanmasına nisbi olaraq imkan verən, idraka münasibətdə başlanğıc, əmələgəlməyə münasibətdə sonuncu nəticədən ibarətdir.

VARLIĞIN YARANMASI

(QURULMA - FLUX (CAUSAS TRANSITORIAS)

Həqiqəti özündə aydınlaşdıran istənilən idrak predmeti **Varlıq** anlayışı ilə ifadə olunur. Varlıq idrak obyektinin statusunu yaradan və idrak prosesində istənilən növ qavramanın başlanğıcı kimi çıxış edir. İdrak prosesi yalnız "var" kimi qəbul edilən şeydən başlaya bilir. Belə ki, varlığı olmayan nəyisə hər hansı bir idrak forması ilə qavramaq mümkün deyil; başqa sözlə, varlığı olmayan yoxluq kimi təsəvvür olunur. Biz Varlığın əksliyi kimi Yoxluğu nə hissi, nə demonstrativ, nə də intuitiv idrakla qavranılması mümkün olmayan, idraka qapalı gizli həqiqət kimi təyin edirik. Gizli həqiqət aydınlaşmadığından özü-özündə mütləqdir.

İdrak nöqteyi-nəzərindən varlığı elə-belə idrak obyektinin ən ümumi keyfiyyəti - predikatı kimi təyin edə bilərik, hansı ki, obyektin digər bütün xüsusi predikatları ondan çıxır və onun sərhədlərində aşkarlanır.

Varlıq anlayışı bir sifət kimi təyin oluna bilənliyi göstərir. "Təyin etmək" əlaməti yalnız təfəkkürə xas olduğundan, deyə bilərik ki, varlıq təfəkkürə münasibətdə idrak obyektinin sifətidir. Varlıq - təfəkkürdə inikas edən xarici müəyyənlikdir. Aktuallaşmış müəyyənlik, yəni təbiət sferasına keçmiş varlıq, mövcud varlıq kimi təzahür edir.

Mövcud Varlığın başlanğıcını biz **"nə"** kimi təyin edirik. "Nə"nin başlıca xarakteristikasını "duyğuyaradan" kimi müəyyənləşdirmək olar. Beləliklə, "nə" özündə şeysiz xalis hissi təsirlərin - profenomenlərin məcmusu kimi çıxış edir. Biz "nə"ni təsirin təsir edənlə eyniyyət təşkil etdiyi universallıq səviyyəsi kimi təyin edirik. Yəni, "nə" həm təsir edən, həm də eyni zamanda bilavasitə təsirin özüdür. Buna görə də, "nə"ni ikilitəbiətli olduğundan metafizik anlayış kimi təyin edirik. Təsir həm də

idrakın səbəbi olduğundan, "nə" həm də idrakın başlanğıcıdır. Hansı ki, buna görə də demək olar ki, "nə" - hiss üzvlərində duyğu yaratmaqla müəyyənləşən ən ümumi gerçəklikdir.

Beləliklə, "nə"ni konkretliyin və mücərrədliyin ən ümumi universal sadə ideyası kimi təyin etmək olar. Bu mənada "nə" həm faktdan, həm də ağıldan törəyən ideya kimi çıxış edir. "Nə" real varlığın başlanğıcı olub (hissəcik kimi), idrak prosesində ruhda ideya və ya fikrə (dalğa funksiyası kimi) - "nə" sualına çevrilən ikilitəbiətlilikdir. Buradan da, varlıqla bağlı başlanğıc sualların və cavabların "nə"də yerləşdiyini söyləmək olar.

Haşiyə: U.Arntc, B.Ceys, M.Visente "Dovşan yuvası və ya biz özümüz və Kainat haqqında nə bilirik?"

> *"Eynşteyn necəsə demişdir: "Ağılsızlığın təyinlərindən biri - bir və eyni fəaliyyəti bir çox dəfə etmək və əvvəlkindən fərqli nəticəni gözləməkdir". Burada artıq Nəhəng Suallar vermək lazımdır. Nəhəng Suallar. Onlar ona görə Nəhəngdir ki, bizim reallığın üfüqlərini sərhədsiz genişləndirir və sonsuz çox inkişaf variantları təqdim edir. Onlar sual formasında ona görədir ki, Məlumun sərhədlərindən kənardan gəlir. Orada Nəhəng Cavablar nahiyəsi yerləşir. Bu sərhədlərdən kənara düşmək üçün dəyişmək lazımdır.*

"Məlumun sərhədlərindən kənar" və "reallığın üfüqlərinin sərhədsiz genişlənməsi", yəni varlığın öz sərhədlərindən çıxarılması özündə metafizik aləmi təqdim edir. Beləliklə, Nəhəng Suallar metafizik statuslu obyektlərə verilən suallardır, hansı ki, eynilə həmin nahiyədə, "məlumun sərhədlərindən kənarda" Nəhəng Cavablar nahiyəsi yerləşir. Eynşteynin fikirlərindən görünür ki, həm sual, həm cavab məlumun sərhədlərindən kənardadır. Beləliklə, "Nəhəng"lik özündə təbiətin ölçülüyündən üstünlüyü, onun sərhədlərindən kənar sərhədsizliyi - sonsuzluğu, bir sözlə metafizikanı xarakterizə edir. Buradan da istənilən metafizik sual və cavab nəhənglik xarakteristikasına malik olur. Məlum - mövcudluğun

varlığından aydınlaşır, onda sual və cavabların yerləşdiyi naməlumluq varlığın mövcud olduğu nahiyəni - metafizikanı təqdim edir. Göründüyü kimi, Varlıq "nə"lərdən təşkil olunduğundan həm suallar (formadan çıxan) "nə"dədir, eyni zamanda "nə" idrakın başlanğıcı olduğundan Nəhəng cavablar - mahiyyət haqqında ideyaların yerləşdiyi yer də "nə"dədir. Beləliklə də, Varlığı metafizik olaraq Sualların və Cavabların vəhdət təşkil etdiyi nahiyə kimi də təyin edə bilərik, hansı ki, idrak prosesində Ruh gerçəkliklərin formasından sualı, onun dərinliyindən, gerçəkliklərin mahiyyətindən, ideyasından, varlıqdan - "nə"dən cavabı aşkarlayır, nəticədə mövcud olan varlığı idrak edir.

Varlığın aydınlaşmasını isə Ruhun özündə yerləşən Suallardan və Cavablardan, yəni Ruhun Varlığından aşkarlamaq olar. Beləliklə, Materiyanın başlanğıcını təşkil edən Varlığı Ruh idrak prosesində özü-özündən aşkarlayır.

Haşiyə: U.Arntc, B.Ceys, M.Visente "Dovşan yuvası və ya biz özümüz və Kainat haqqında nə bilirik?"

> *"Elm ölü elan edilmiş Kainatı öyrənməkdə davam edərkən qəflətən böyük sirr açmışdır. XX əsrin başlanğıcında Albert Eynşteyn, Nils Bor, Verner Heyzenberq, Ervin Şredinger və başqaları kvant nəzəriyyəsini yaradaraq dünyaya demişlər: "Əgər biz materiyanın həqiqi dərinliklərinə ensək, onda görərik ki, orada o enerjiyə çevrilir. Əgər bunu riyazi təsvir etsək, onda belə alınacaq ki, materiya ümumiyyətlə material deyil. Fiziki Kainat fiziki deyil. O, enerjidən, daha nazik sahədən - daha çox məlumat və ya şüur sahəsinə oxşar sahədən əmələ gəlir".*

XX əsrin fiziklərinin bu elmi məlumatları əslində özündə universallığın mövcudluğunu - fiziki Kainatın fiziki olmaması, materiyanın ümumiyyətlə material olmaması, materiyanın dərinlikləri, yəni əsası məlumat və şüur sahəsindən ibarət olması kimi təsdiq edir. Başqa sözlə, bu elmi məlumatlar bir daha Varlıqla - materiyanın əsası ilə, Ruhun - şüurun əsasının eyniyyət təşkil etdiyini sübut edir. Ona görə də, Varlıq

haqqında həqiqəti Ruh özü-özündən, abstrakt təfəkkürdən, amma özündən kənarda özü-özündə var olanın təbiəti kimi aşkarlayır ki, Varlığın metafizik aşkarlanması özündə bundan ibarətdir. Bunun əksinə, Ruh varlıqların həqiqətlərini idrak edərkən onların Varlığını özünə cəmləyir ki, yuxarıda qeyd etdiyimiz kimi bu da İlahi Nurun totallaşmasını özündə təqdim edir.

Varlıqla yoxluğun əlaqəsindən belə bir definisiya əldə etmək olar: Var olmayan - məkan-zaman əlaqəsinə girmək imkanı olmayan - yox ola bilməz (yəni məkandan və zamandan çıxa bilməz); yox olmayan - məkan-zaman əlaqəsindən çıxmaq imkanı olmayan - var ola bilməz (yəni məkan-zaman əlaqəsinə girə bilməz). Buna görə də, Varlıq və Yoxluq təfəkkürün varlığa münasibətində gerçəkliyin vəhdətdə olan bir-birindən fərqli iki xarakteristikası kimi çıxış edir. Varlıq həqiqətin gerçəklikdə artma meylinin, yoxluq azalma meylinin predikatıdır. Artma azalma ilə vəhdət təşkil etdiyindən, varlıqla yoxluq da gerçəkliklərdə vəhdət təşkil edərək həqiqəti özlərində aydınlaşdırırlar. Buradan da Varla Yoxun bir və eyni mənaya malik olduğunu, yəni özlərində universallığın iki fərqli anlayışı olduğunu deyə bilərik.

Varlıqla Yoxluğun əlaqəsindən aşağıdakı iki prinsipial hal meydana çıxır:

1. "Heç nə"dən - yoxluqdan, "nə" - varlıq əmələ gəlir: Bu definisiyaya görə mövcudluq mövcud ola biləndən yaranır. Bu, hissəciklər aləmində yaranmanın tabe olduğu prinsipdir. Məsələn: dalğa funksiyasından hissəcik əmələ gəlir. Dalğa funksiyası xalis ideyadan ibarət "heç nə"dir, çünki dalğa "nə"yə malik deyildir. Bu prinsip səbəb-nəticə əlaqəsində olmayan proseslərə aiddir.

2. "Heç nə"dən - yoxluqdan "nəsə" - mövcudluq əmələ gələ bilməz: Bu, material dünyanın tabe olduğu əmələgəlmənin - qurulmanın əsas prinsipidir. Yəni material aləmdə mövcudluqlar bilavasitə dalğa funksiyasından əmələ gələ bilməz; mövcudluq yalnız başqa mövcudluqdan əmələ gələ bilər ki, bu da "enerjinin saxlanması və itməməsi

qanunu"na tabe olur. Bu prinsip səbəb-nəticə əlaqəsində olan proseslərə xasdır.

Haşiyə: Epikur "Məktublar və fraqmentlər"

> *"Heç nə mövcud olmayandan əmələ gələ bilməz (əgər belə olsaydı, onda heç nə toxuma ehtiyac duymadan hər şey hər şeydən əmələ gələrdi); əgər itən olmayanda ölsəydi, onda bütün şeylər ölmüş olardı və heç nə olmazdı ki, ondan yaransınlar.*

Epikurun bu fikirləri yalnız təbiət sferasında, yəni əmələgəlmə ilə bağlı həqiqətdir. Halbuki, qeyd etdiyimiz kimi Varlıq sferasında nələr mövcud olmayandan - dalğa funksiyasından - Yoxluqdan əmələ gəlir.

VARLIQLARIN ƏMƏLƏGƏLMƏSİ

Mövcud Varlığın ən mühüm xarakteristikası prosesdir. Biz prosesi varlığın predikabiliyası kimi təyin edirik. Proses ən ümumi şəkildə vəhdət yaradan hadisələrin məcmusundan ibarətdir. Hansı ki, yalnız vəhdət təşkil edən obyektlər varlıq kimi idraka təqdim olunur və qavranılır. Vəhdətdən kənar obyekt idraka təqdim olunmur və buna görə də qavranılmır. Məsələn, Allah vəhdətdən kənar olduğundan bilavasitə idraka təqdim olunmur və buna görə də qavranılması mümkünsüzlükdür.

Proses özündə Heraklit tərəfindən təyin edilmiş "bütün şeylər dəyişir" müddəasını təqdim edir. "Bütün şeylərin dəyişməsi"nin başlanğıcı nədən ibarətdir, yəni nə üçün bütün şeylər dəyişir? Bu sualı cavabı Kainatın yaranma üsulundadır. A.N.Uaythed "bütün şeylər dəyişilir" müddəasını "şeylərin qurulması (flux)" kimi ifadə etmişdir. Biz elə-belə qurulmanı vəhdət təşkil etmə kimi təyin edirik. Vəhdət sonsuz çoxluqda təzahür edən idrak obyektlərinin tək bir mümkünlüyə aidiyyəti-ni özündə ifadə edir.

Buradan da iki cür vəhdət aşkarlayırıq. Daxili vəhdət - belə vəhdət hər hansı bir ayrıca tək idrak obyektinin qurulması kimi vəhdətdir, hansı ki obyekti ayrılıqda - tək kimi idraka təqdim edir. İkincisi, xarici vəhdət -

kosmosun qurulması kimi vəhdət, hansı ki bütün obyektləri birlikdə çoxluq kimi idraka təqdim edir.

XVII və XVIII əsrin filosofları iki növ qurulma kəşf etmişlər; onlardan biri Lokun təbirincə "ayrıca mövcud olanın real daxili qurulması"nı ifadə edən "birləşmə (concrescence)", digəri Lokun "daimi durdurulma" adlandırdığı keçid - bir ayrıca mövcudluqdan başqa ayrıca mövcudluğa keçiddir.

"Real daxili qurulma" mümkünlüyün zərurətə görə mövcudluq əldə etməsini özündə təqdim edir, hansı ki ən sadə tək imkanla şərtlənmişdir və buna görə də mümkünlük mövcudluq əldə etməyə bilmir. Keçid təsadüfə görə mövcudluq əldə etməni özündə ifadə edir. Təsadüfə görə mövcudluq əldə etmə çoxlu mürəkkəb imkanla şərtlənmə zamanı mümkünlüyün əldə etdiyi mövcudluğu əvəzləməsi kimi meydana çıxır.

Biz birləşməni daxili vəhdət təşkil etmə, keçidi xarici vəhdət təşkil etmə kimi təyin edirik. Birləşmə ən müxtəlif səviyyələrdə baş verir. Biz başlanğıc birləşmə kimi kvant fizikasında hissəciklərin metafizik hadisələrlə bir-biri ilə birləşib ən ümumi kəmiyyət və keyfiyyət, zaman və məkan əmələ gətirməsi kimi təsəvvür edirik, hansı ki nəticədə profenomenlər fikrən təsəvvür olunan şeysiz hisslər kimi mövcud olur. Profenomenlərin əmələ gəlməsi obyektifikasiya nəzəriyyəsi ilə izah olunanları özündə təqdim edir. A.N.Uaythed obyektifikasiyanı şərh edərək yazır: "Bu nəzəriyyəyə görə ayrıca aktual hadisələr yeni yaranış üçün çıxış elementləri olur və belə hadisələr məcmui şəkildə yaradıcı birləşmənin əsasını təşkil edirlər. Müəyyən bağlılıq dərəcəsi əldə edərək onların daxili qarşılıqlı münasibətlərində strukturun bir elementi eliminasiyalaşır və başqasını yaradır. Beləliklə, obyektifikasiya mücərrədləşmənin qarşılıqlı razılaşdırılmış əməliyyatıdır və ya eliminasiyadır, hansı ki buna görə real dünyanın bir çox hadisələri bir mürəkkəb ölçü təşkil edir".

Göründüyü kimi, obyektifikasiya özündə xalis profenomenlərin, hadisələrin başlanğıcının yaranması kimi təsəvvür olunur. Profenomenlərin

müxtəlif kombinasiyalarda birləşərək nəyə keçməsi ilə hissəciklər - elektron, proton və neytron meydana çıxır. Hissəciklərin bir-biri ilə birləşməsindən atom əmələ gəlir, hansı ki istənilən ayrılıqda götürülmüş material şeyin başlanğıcı kimi çıxış edir. Bununla da birləşmənin metafizik səviyyəsi başa çatır. Təbiətdə birləşmə özündə eyni hissələrin qarşılıqlı bir-birinə keçidi kimi meydana çıxır, hansı ki buradan yeni varlıq əmələ gəlmir və varlıq zamanda özü-özündə təkrarlanaraq sıralanır, yəni aktuallaşır. Keçid müxtəlif mövcudluqların bir-birinə keçidini ifadə edir və məkanda özündən kənarda təkrarlanaraq sıralanır. Buradan da, vəhdətin əsası kimi qurulma zamanı dəyişilməyən predikat götürülə bilər ki, bunu da varlıq kimi təyin edirik. Beləliklə, vəhdət varlığın təzahür forması kimi çıxış edir.

Birləşmənin iki formasını ayırd etmək olar:

a) **Tərkib hissələrinin birləşməsi:** Buradan ayrılıqda tək mövcudluq - təklik meydana çıxır. Tərkib hissələrinin birləşməsi başlanğıc birləşmədir. Belə ki, tərkib hissələrinin birləşməsi baş vermədikcə konkret mövcudluq təzahür etmir.

b) **Hissələrin birləşməsi:** Buradan tamlıq meydana çıxır. Hissələrin birləşməsi əvvəl birləşmiş eyni tərkib hissələrinin bir-biri ilə ikincili - sonrakı birləşməsindən ibarətdir. Tamı təşkil edən hissələrin birləşməsi mövcudluğun idrakına təsir etmir.

Biz burada keçid kimi dəyişilməni yeni termin düşünmədən B.Spinozanın istifadə etdiyi **Causas Transitorias** termini ilə ifadə edirik. Causas Transitorias-ın da iki formasını ayırd edə bilərik:

1. **Məkanın bir yerində olan mövcudluqdan məkanın başqa yerində mövcudluğa keçid:** Biz bunu çoxluqda keçid kimi təyin edirik. Çoxluqda keçid əmələgəlmədən ibarətdir. Belə keçid nəticəsində müxtəlifliklər meydana çıxır. Çoxluqda keçid başqasına keçiddir. Belə keçidlə keçid edən mövcudluq özünü inkar edir, öz mövcudluğuna xitam verir; başqa sözlə, onun mövcudluğu durdurulur.

Məkanın bir yerində olan mövcudluğun məkanın başqa yerində olan mövcudluğa keçidinin iki formasını ayırd etmək olar:

a) **Yalnız formanın keçidi:** Buradan fərqliliklər meydana çıxır.
b) **Mahiyyətlə formanın vəhdətdə keçidi:** Buradan müxtəlifliklər meydana çıxır. Məkanda keçiddə ayrılıqda bir mövcudluq eyni zamanda yalnız bir ayrılıqda mövcudluğa keçə bilər.

2. **Zamanın bir vaxtından başqa vaxtına keçid:** Biz bunu təklikdə keçid kimi təyin edirik. Təklikdə keçid özü-özündə keçiddir. Təklikdə keçid ayrıca bir mövcudluğun özü-özündə özünün bir mövcudluğundan başqa mövcudluğuna keçməsindən ibarətdir. Bunun da iki formasını ayırd etmək olar:

a) **Özü-özündə mahiyyətin başqasına keçidi:** Belə keçiddə eyni bir mahiyyət ayrı-ayrı özündən kənar müstəqil formalarla vəhdət təşkil edir.
b) **Özü-özündə bir formadan başqa formaya keçid:** Belə keçiddə eyni bir mahiyyət özündə ayrı-ayrı formalara keçir. Beləliklə, eyni bir mahiyyət müxtəlif formalarla vəhdətdə eyni bir ayrıca obyekti təqdim edir. Belə keçiddə mövcudluq durdurulmur, o sadəcə özünün heçlik kimi bir formasını inkar edir, mahiyyətini başqa forma ilə vəhdətə gətirir. Zamanda keçiddə mahiyyət saxlandığından ayrılıqda bir mövcudluq özündə çox sayda ayrılıqda mövcudluğa keçə bilir.

Bəs, birləşmə (concrescence) - fərdi vəhdəti yaradan proses, ümumi vəhdəti yaradan keçiddən (causas transitorias-dan) nə ilə fərqlənir və bu iki prosesdən hansı əsas, hansı qeyri-əsasdır və ya hansı əvvəl-başlanğıc, hansı sonra-sondur? A.N.Uaythedin "bütün şeylər dəyişir" frazasının izah edilməsi metafizikanın başlıca məsələsidir" fikri məhz bu suallandırma ilə bağlıdır.

Bizim dünya mümkünlüklərin mövcudluq əldə etməsi ilə təşkil olunur. Leybnicin "mümkünlüklər mövcudluq əldə etməyə meyl edir"

müddəasındakı "meyl etmə" metafizikadan təbiətə keçidi özündə refleksiya edir. Beləliklə, keçidi metafizik hadisə kimi təyin etmək lazımdır. Keçid təzahürsüz "özündə şey" kimi əmələgəlmədir. Keçid daxili zərurəti olmayanın, yəni xalis təsadüfün, zərurətə, yəni daxili olana keçməsini özündə ifadə edir. Birləşmə təbiətdə artıq metafizikadan çıxmış və immanentlik keyfiyyəti - zərurətə görə mövcudluq əldə etmiş mövcudluğun dəyişilməsidir.

Buradan da, causas transitorias-ı - keçid kimi dəyişilməni aralıq proses kimi metafizika ilə təbiəti əlaqələndirən və bütün təbii proseslərin ilk başlanğıcı kimi təyin etmək olar. Keçid prosesindən aşkarlanan istənilən həqiqət ikili təbiətlidir. Yəni həm metafizik, həm fiziki təbiətlidir. Bunu tikinti nümunəsində şərh etmək olar. Tikinti özündə xalis keçid kimi dəyişilmədən ibarətdir. Hər bir inşaatçı konkret bir binanın tikintisində əvvəl tikəcəyi binanın layihəsinə - mövcud olmayan, amma mümkün olan binaya, yəni binanın mümkünlüyünə və həmin binanın tikintisində zərurətə görə istifadə ediləcək tələb olunan materiallara - keçid prosesinə daxil olacaq mövcudluqlara malik olur. Tikinti prosesində tikinti materiallarının layihə əsasında bir-birinə münasibətindən mövcud bina meydana çıxır. Beləliklə, mövcud tikinti materialları mümkünlük kimi yeni mövcudluğa keçir. Beləliklə, bina özündə həm metafizik statuslu obyekti - binanın layihəsi kimi mümkünlüyü, həm də təbii statuslu obyekti - tikinti materialları kimi mövcudluğu özündə təqdim edir. Əgər biz binanı dağıtsaq, yəni tikinti materiallarının mövcudluğunu binanın mümkünlüyündən ayırsaq binanın varlığı yox olacaqdır, yəni xalis mümkünlük kimi - mövcudluğu olmayan mümkünlük kimi metafizikaya keçəcəkdir, hansı ki biz onu yalnız bizdən kənarda təbiətdə yox, xalis zəkada ideya-layihə kimi aşkarlaya bilərik.

Birləşmə - concrescence, "ayrıca mövcud olanın daxili qurulması" causas transitorias-a münasibətdə ikincili və ya sonrakı dəyişilmədir. Belə ki, birləşmə yalnız mümkünlük real mövcudluğa keçidi başa

çatdıqdan sonra başlayır. Belə ki, daxili qurulma üçün "immanentlik" xarakteristikası yaranmalıdır, hansı ki yalnız mümkünlüyün mövcudluğa meylində mövcudluğun təzahür xarakteristikası kimi meydana çıxır. Beləliklə, keçid birləşmənin başlanğıcına, onun əsas şərtinə çevrilir.

Keçidsiz birləşmə mümkünsüzlükdür. Keçid birləşməni inkar edə bilir, amma birləşmə keçidi inkar edə bilmir. Keçidin özü isə şərtsiz baş verir və başlanğıc kimi çıxış edir. Biz metafizikada heç bir birləşmə aşkarlaya bilmərik. Bunun səbəbi metafizik statuslu obyektlərin tək kimi tam var olmasıdır. Hansı ki, metafizikadan fizikaya keçiddə mümkünlük imkana uyğun çoxluq formasında və hissələri olan mövcudluqlara keçir. Mümkünlüyün mövcudluq əldə etməsi imkanla şərtləndiyindən, imkanın dəyişilməsindən asılı olaraq mümkünlük müxtəlif mövcudluqlara keçir. İmkan yalnız təbiət sferasında - şərtlərin məcmusu kimi olduğundan mümkünlüklərin müxtəlif mövcudluqlara keçməsi də təbiətdə aşkarlanır. Sadəcə metafizikada mövcud olan mövcudluq əldə etməmiş mümkünlükdən fərqli olaraq, təbiətdə hər bir mövcudluq özündə onu əldə etmiş mümkünlüyü özündə gizlədərək saxlayır və imkan həmin gizlilikdən mümkünlüyün yeni mövcudluğa keçidinə təkan verir.

Beləliklə, xalis metafizik hadisə olan keçidlə xalis təbiət hadisəsi olan birləşmə vəhdətdə bizim dünyanı təşkil edirlər. Keçid prosesinin birləşmə prosesi ilə əlaqəsindən İlahi Nurun özü-özündə üç müxtəlif causa transitorias (keçid) xarakteristika əldə etməsi ilə mövcudluğa meyl edən mümkünlüyün Varlığının üç müxtəlif forması meydana çıxır.

1. Cisimlərin başlanğıcını təşkil edən Varlıq - cisim varlığı: Cisimlər zərurətə görə birləşmə, yalnız təsadüfə görə keçid prosesinə daxil olan varlıq formasıdır. Təsadüfə görə keçid xarici olub çoxluqda meydana çıxan keçiddir. Cisimlərin keçidi məkanla şərtlənmişdir. Yəni belə keçid məkanla şərtlənmənin dəyişilməsini özündə ifadə edir. Buradan da birləşmə daxili, keçid xarici dəyişilmə kimi meydana çıxır. Cisimlər ən sadə zərurətə görə mövcud olan imkanda dönməz mövcudluq əldə

etmiş mümkünlüklərdən ibarətdir. Belə varlıqlar İlahi Nurun dalğa və hissəcik təbiətinin bir-birinə keçmədən ayrı-ayrılıqda hərəkətdən qalması və ya öz bərabər sürətli hərəkətlərini saxlaması - daxili causa transitorias keyfiyyətindən məhrum olması, yalnız xarici causas transitorias xarakter-istikasına malik olması ilə yaranır. Biz bunu birdəfəlik qurulma kimi, yəni qurulmanın başa çatması kimi təyin edirik. Beləliklə, cisim qurulmanın sonunu özündə təqdim edir. Daxili birləşmə sadəliklərin, xarici causas transitorias mürəkkəbliklərin yaranması kimi təzahür edir. Başqa sözlə, mümkünlük başlanğıcda mövcudluğa keçərək yalnız ən sadə mövcudluq əldə edir, sonra sadə mövcudluqlar xarici keçidlə mürəkkəb-likləri əmələ gətirir. Beləliklə, biz cisimlərin başlanğıc varlığını özündə ideya ilə hissəciyin sabit vəhdətini təqdim edən sonlu dalğa kimi təsəvvür edirik, hansı ki dayanıqlı vəziyyətlə xarakterizə olunur.

Cisimlərin başlanğıcını təşkil edən Varlıqda dalğanın uzanması istiqamətində onun ideyası-mahiyyəti, ifrat qısalması istiqamətində şeyi-hissəciyi əmələ gəlir. Beləliklə, hər bir hissəcik konkret bir ideya ilə vəhdət təşkil edir. Mütləq nisbi ideya haqqında məlumat daşıyan dalğanın uzunluğunun başlanğıcdan fərqli ifrat uzanması ilə ideya mahiyyətə çevrilir. Beləliklə, mahiyyət entropiyaya qalmış ideya kimi meydana çıxır. Mahiyyət özündə fərqlilik xarakteristikasına malik olur. Yəni dalğanın uzanması istiqamətində hər bir dalğa müxtəlif səviyyələrədək uzana bilir. Buradan mahiyyətlərin müxtəlifləşməsi əmələ gəlir. Dalğaların ifrat qısalması da müxtəlif dərəcələrdə baş verdiyindən müxtəlif hissəciklər yaranır. Nəticədə, müxtəlif mahiyyətlərin müxtəlif hissəciklərlə vəhdətindən materiyaönü vəziyyəti təşkil edən hissəciklər aləmi meydana çıxır. Hissəciklərin müxtəlifləşməsi ilə onlar ilkin məkanda müxtəlif yer tuturlar. İlkin məkanın müxtəlifləşməsi varlığın məkanı sərhədləndirməsi, onu təşkil etməsi kimi meydana çıxır. Təşkil olunmuş məkan təşkil olunmamış ilkin məkandan, təşkil olunanlar arasındakı gərginliklərin təzahür etməsi ilə fərqlənir. Beləliklə, hər hansı

bir şeyin mahiyyəti özündə ümumi tamdan ayrılmış sonlu dalğalardan ibarətdir.

Varlıq aləmində hissəciklər formanın başlanğıcını, mahiyyət substansiyanın başlanğıcını təşkil edir. Təcrübədə mahiyyətin dərk edilməsi - gerçəkliyi təqdim edən maddənin, şeyin ideyası haqqında məlumat daşıyan dalğanın ifrat qısalmış hissəsinin vəhdət təşkil etdiyi və öz başlanğıc qısalığını saxlamış hissəsinin təfəkkürdə ifrat uzadılması ilə onun yenidən ideyaya çevrilməsindən ibarətdir; hansı ki bu cür sonsuz uzanmış dalğaların məcmusu ruhun mahiyyətini təşkil edir. Burada, sonsuz qısa dalğanın sonsuz uzadılması idrak prosesini təqdim edir. Beləliklə, idrak prosesi varlıqdan onu təşkil edən ideyanın təfəkkürə-ruha keçirilməsindən ibarətdir; hansı ki, bu cür dalğaların təfəkkürə daxil olması ilə ruh təbiət əldə etmiş olur, yəni var olur.

Ruhun həqiqəti idrak etməsi onu təzahür etdirir. Buna görə də, idrak qabiliyyəti olmayan heç bir insanda ruhi təbiət təzahür etmir. Eyni bir dalğanı özlərində təqdim etdiklərindən - həmin dalğanın ifrat uzanması və qısalması kimi - mahiyyət və forma qarşılıqlı refleksiya vəziyyətindədir. Buna görə də formadan məzmunu, məzmundan formanı aşkarlamaq olur. Mahiyyət - qanunauyğunluqlar - ideya kimi, forma qanunauyğunluqların - ideyanın maddiləşməsi kimi aktuallaşır. Mahiyyət dalğa, forma maddə ilə aydınlaşır. Qurulmanın başlanğıcı varlıq, sonu mövcudluqdur. Hər bir cisim özündə mövcudluğun varlığı kimi başlanğıcla sonu vəhdətdə təqdim etdiyindən tam həqiqətə malikdir və biz hər bir cisimdən bilavasitə hissi qavrama ilə onun həqiqətini tam kimi qavrayırıq. Cisimlərin həqiqəti yalnız faktdan törəyən ideyalardan ibarətdir.

2. Canlılığın başlanğıcını təşkil edən Varlıq - canın varlığı: Təkin özü-özündə keçidi canlılıq kimi təzahür edir. Canlılar həm zərurətə, həm təsadüfə görə causas transitorias-a, yalnız zərurətə görə birləşməyə malik

olan varlıq formasıdır. Beləliklə, canlılıqda iki keçid, bir birləşmə prosesini aşkarlamaq olar.

Canlılıq özü-özündə zamanın bir vaxtından başqa vaxtına sürəkli daxili keçiddən ibarətdir. Belə keçidin mümkünlüyü üçün zəruri olaraq mümkünlüyün varlığı sabit qalır, mövcudluğun varlığı zamandan asılı olaraq dəyişir. Təklikdə özündə keçid inkişaf kimi meydana çıxır. İnkişaf ayrılıqda bir varlığın özü-özündə bir mövcudluq vəziyyətindən başqa vəziyyətə keçməsi kimi təzahür edir. Əgər biz hər hansı bir canlının mövcudluğunu zaman üzrə sıralasaq, onda görərik ki, ayrılıqda tək mövcudluq kimi canlılar sonsuz sayda mövcudluq vəziyyətlərində meydana çıxır. Təklikdə keçid sonlu prosesdir və prosesin sonunda canlı bütünlüklə zamanda keçiddən məkanda keçidə keçir. Nəticədə, ölüm baş verir. Canlı cismə məkanda xarici causas transitorias-a malik olur. Beləliklə, canlılıq keçici və ya müvəqqəti mövcudluq əldə etmiş mümkün varlıqdır. Mümkünlüyün keçici mövcudluq əldə etməsi ölüm kimi təzahür edir.

Belə mümkünlüklər müvəqqəti olaraq mövcudluğa keçir və müəyyən zamandan sonra yenidən öz əvvəlki vəziyyətlərinə - mövcudluğa cəhd edən mümkünlüyə keçirlər. Canlıların xarici keçidi nəsilvermə kimi təzahür edir. Nəsilvermə məkan və zamanda paralel keçid kimi tək mövcudluqdan başqa çox mövcudluğa keçidi özündə təqdim edir. Çox mövcudluğa keçid ayrılıqda mövcud olanın ayrı tək mövcudluğa keçidində cisimlərdən fərqli olaraq özünü saxlamasını şərtləndirir, hansı ki bunun əksi olsaydı, başqa ayrılıqda mövcudluqlara keçid istisna olunardı. Belə keçiddə tək ayrılıqda mövcudluq özünü inkar etmir, çünki zamanda keçidliyini saxlayır, amma məkanda özündən başqasına - yeni nəslə keçir. Canlıların həm özündə daxili keçidi, həm də başqasına xarici keçidi irsiyyətlə vasitəli reallaşır. Daxili keçid artma, böyümə, xarici keçid çoxalma kimi təzahür edir. Canlı fərd keçici mövcudluq olduğundan ondan əbədi mahiyyəti aşkarlamaq mümkün olmur. Buna görə də,

heç bir canlı fərd qurulmanın sonunu - durdurulmasını özündə təqdim etmədiyindən, konkret statusa, yəni mənaya malik deyil. Canlılarda qurulmanın sonunu yalnız növ özündə təqdim edir, hansı ki metafizik statuslu obyekt kimi yalnız fikrən aşkarlanır. Növ özündə xalis mümkünlüyü ifadə edir. Buna görə də, canlılar yalnız demonstrativ idrakla, yəni bir tərəfdən hissi qavrama ilə qurulmanın sürəkliliyini özündə təqdim edən konkret ayrıca canlı fərddən, faktdan törəyən ideya ilə, digər tərəfdən onun mövcudluğunun sübutu kimi qurulmanın sonunu özündə təqdim edən və fikrən aşkarlanan ağıldan törəyən ideya ilə - növdən qavranılır.

3. Ruhun başlanğıcını təşkil edən Varlıq - Ruhun varlığı: Ruh birləşməsi olmayan, yalnız təsadüfə görə keçidə malik, başqa mövcudluqlardan ikincili mövcudluğa cəhd edən mümkün varlıqdır. Birləşməsi olmadığından Ruh "ayrılıqda daxili qurulan" varlıq deyil. Ruhun birləşməsinin olması üçün onun keçidi durdurulmalıdır. Amma Ruh əbədi keçid vəziyyətini saxladığından onun keçidi durdurulmur. Yəni Ruhun tək ayrıca mövcudluğu yoxdur, başqa sözlə Ruh metafizikadan müstəqil mövcud varlıq kimi təbiət sferasına keçmək imkanına malik deyil. Ruh yalnız xalis özündə causas transitorias xarakteristikasına malik olan, yəni əbədi mövcudluq əldə etməyə cəhddə olan mümkün varlıqdır. Yəni Ruhun keçidi yalnız zamanda keçiddən ibarətdir. Ruh ayrılıqda mövcudluq olmadığından məkanda keçiddən məhrumdur, ayrılıqda mövcud olanlardan şərtlənmiş şəkildə məkanda və zamanda keçid edir, özü isə bilavasitə birbaşa nə məkanda, nə də zamanda keçid etmir. Başqa sözlə, Ruhu əbədi mümkünlüyün mövcudluq əldə etmə cəhdində olan varlıq kimi təyin etmək olar.

Təsadüfə görə causas transitorias xarakteristikasına malik olduğundan Ruhun sabit daxili quruluşu yoxdur, o, sürəkli qurulma vəziyyətindədir. Ruhun sürəkli qurulması bilik əldə etmə kimi meydana çıxır. Beləliklə, demək olar ki, Ruh özündən əvvəlki varlıq formalarının

həqiqətini idrak etməklə özündə qurulmağı davam etdirir. Ruh bütün cisim və canlıların tam həqiqətinə yiyələnməklə öz qurulmasını başa çatdıra bilər ki, bu da mümkünsüzlükdür, çünki onlarla şərtlənmiş şəkildə təbiət sferasına daxil olaraq biliklənir. Ruhun müstəqil olması cisim və candan şərtsizləşməni tələb edir ki, belə olan halda onun bilik əldə etmə imkanı istisna olunur, yəni Ruh təbiət sferasından çıxır. İnsan ölümü fərdi səviyyədə bunu özündə ifadə edir. Ölüm - Ruhun cisim və candan şərtsizləşməsi kimi təzahür edir, hansı ki ölmüş insan hər hansı bilik əldə etmək imkanına malik olmur.

Belə, təbiətinə görə Ruhi varlıq yalnız dalğa təbiətinə malik olub, özündən əvvəlki varlıqların causa transitorias xarakteristikası ilə şərtlənmiş formada təzahür edir. Xalis Ruh daxili causas transitorias vəziyyətində olduğundan onun xarici görüntüsü, yəni forması yoxdur. Forması olmadığından hissi qavranılmayandır, yəni Ruhun ideyası faktdan törənməyən ideyadır. Bunun əksinə Ruh yalnız intuitiv idrak oluna bilir, hansı ki xalis ruhdan törəyən ideya kimi meydana çıxır. Ruh qurulmanın sonsuz olduğu, yəni sonu aşkarlanmayan, təsəvvür olunmayan olduğundan biz Ruh haqqında konkret həqiqəti ifadə edə bilmirik. Bizim Ruh haqqında məlumatlarımız yalnız onun başlanğıcı, yəni varlığı haqqındadır. Ruhun mövcudluğu yoxdur, deməli onun həqiqəti haqqında tam bilgi də ola bilməz.

Hər bir başlanğıc öz növbəsində Varlığın müxtəlif sıralarını əmələ gətirir. Varlıq sıraları mütləq həqiqətin xarakteristikalarının bir-birindən ayrılaraq fərqli - mütləq nisbi həqiqət kimi təzahür etməsi ilə yaranır. İlahi Nurun üç müxtəlif başlanğıc - ilkin səbəb təşkil etməsi ilə refleksiya sürəkli prosesə çevrilir, yəni hər bir nəticə özü də öz növbəsində səbəb kimi çıxış edərək yeni nəticəni, o da öz növbəsində yeni səbəbi refleksiya edir. Varlıq aləmində bir-biri ilə fərqli xarakteristikalara malik iki paralel proses aşkarlamaq olar:

1. Yaranma - başlanğıc səbəbin, ideyanın, mövcudluğu olmayan varlıq formasına keçməsi.

2. Əməlgəlmə - bir mövcud varlıq formasının başqa mövcud varlıq formasına keçməsi.

Birinci proses əsasında Kainatda yaranma, ikinci proses nəticəsində təbiətdə qurulma davam edir. Yaranma İlahi İradə ilə, qurulma mövcudluğun iradəsi ilə aktuallaşır. Beləliklə, təbiəti yaranışı başa çatmış kimi, Kainatı yaranmaqda olan kimi təyin edə bilərik.

Varlıq aləmində əmələ gələnlər özündən əvvəlki nisbi həqiqətdən yaranır və özü də özündən sonrakı nisbiləşmə üçün səbəb rolu oynayır. Hər hansı bir şeyin varlığı dedikdə həmin şeyin özünün dərin qatlarında Varlıq vəziyyətini saxlamasını nəzərdə tuturuq. Beləliklə, Varlıq ya zaman baxımından materiyadan əvvəlki səviyyəni, ya da hər hansı real şeyin əsasını təşkil edən materiyanın əsasını - mövcudluğa münasibətdə əsasın əsasını özündə təqdim edir. Özündə Var-a malik hər bir şey varlıq xarakteristikası əldə edir. Varlıq xarakteristikası özü-özündə var olmaqlığı ifadə edir. Həqiqətin vasitəli aydınlaşmasının üsulu - qurulmanın təzahürü mövcud olmaqdır. Mövcud olmaq mövcud varlığın - mövcudluğun başlıca xarakteristikasıdır.

Varlıq mövcud olduqda mövcudluğa çevrilir. Mövcud olmaq məkanda mücərrəd yerə - məkan ölçülüyünə, zamanda mücərrəd vaxta - zaman ölçülüyünə malik olmaq deməkdir. Beləliklə, biz mövcudluq dedikdə yalnız fikrən qeyri-müəyyən yerə və vaxta malik olan, yəni idrakın özündə varlığı məkan və zamanla ümumi şəkildə şərtləndirməsini ifadə edirik. Biz bunu özündənkənar şərtlənmə kimi təyin edirik. Mövcudluq özü-özündə şey kimi konkret yerə və zamana malik olduqda reallığa çevrilir. Reallıq özü-özündə məkan və zamanla şərtlənmiş mövcudluqdur. Biz bunu özündə şərtlənmə kimi təyin edirik. Reallıq idraka təqdim edildikdə gerçəkliyə çevrilir. Gerçəkliyə çevrilmə ilə reallıq idraki ölçülük əldə edir.

İdraki ölçülük reallığın şərtləri ilə - özündə şərtlənmə ilə özündənkənar şərtlənmənin vəhdəti kimi meydana çıxır. Başqa sözlə, idraki ölçülük mövcudluğu və reallığın vəhdətini özündə təqdim edən gerçəkliyin ölçüsü kimi çıxış edir. Buradan da, gerçəklik həm reallıq, həm də mövcudluq olur. Reallığı və ya mövcudluğu olmayan nəsə gerçəklik statusuna malik ola bilməz. Mövcudluğu olmayan varlıq buna görə də gerçək deyil.

Haşiyə: İ.Kant "Xalis zəkanın tənqidi"

> *"Məkan və zaman idrakın iki mənbəyinin mahiyyətidir, hansı ki onlardan aprior olaraq müxtəlif sintetik biliklər əldə etmək olar."*

Göründüyü kimi, İ.Kant məkan və zaman şərtlərindən aprior sintetik biliklərin əldə edildiyini göstərir, hansı ki hər bir sintetik bilgi idraki ölçülük kimi mövcud olur. Məkan və zaman insan iradəsinə tabe olmadığından və öz növbəsində ruh məkan və zamanüstü olduğundan məkan və zamandan əldə edilən sintetik biliklər təfəkkürdə avtonom və spontan qaydada meydana gəlir. Belə bilgilər bilavasitə məkan və zaman şərtindən əldə edildiyindən birincilidir, xaricidir, yəni faktdan törəyən ideyalardan təşkil olunur. Faktdan törəndiyindən belə ideyalar insan tərəfindən şərh və izah olunmazdır. Məsələn, "alma" sözü ilə alma kimi tanınan meyvə arasında əlaqəni biz izah edə bilmərik. Necə ki, alma sözü almanın mahiyyətini ifadə edir, deməli metafizik anlayış olur. Bəs sintetik bilgilər necə insanda spontan və avtonom aydınlaşır? Mümkünlük mövcudluğu konkret həqiqət haqqında məlumat daşıyan dalğa funksiyası ilə vəhdətə gətirir.

İdrak prosesində konkret obyektə istiqamətlənmə ilə özü-özündə xalis dalğa funksiyası kimi Ruh da öz növbəsində həmin dalğa funksiyası ilə vəhdət təşkil edir. Beləliklə, iki dalğa funksiyasının öz-özlüklərində üst-üstə düşməsindən - sintezindən sintetik bilik yaranır. Kantın fikirlərini başqa formada ifadə etsək, məkan-fakt və zaman-akt idrakın

iki mənbəyidir, hansı ki onların vəhdətindən aprior biliklər - sintetik biliklər spontan və avtonom yaranır, həmin biliklərin ruhun məqsədyönlü sintezindən təbiətin dialektikasına uyğun posterior biliklər - dialektik biliklər əmələ gəlir.

Mövcud olmaq var olmaqdan zamanla şərtlənməyə görə fərqlənir. Var olmaq özündə zamanın bir anını - zamansızlığı, Yoxluğun Varlığa çevrildiyi anı və ya "nə"nin birincili məkana keçdiyi anı - faktın yaranmasını ifadə edir. Başqa sözlə, var olmaq - xalis məkanla şərtlənmə deməkdir. Bu anda zaman ölçülüyü yaranmır, varlıq yalnız xalis məkan ölçülüyü əldə edir. Zaman ölçülüyü olmadığından mövcud olma meydana çıxmır və fakt aktsız aşkarlanır. Mövcud olmaq - mümkünlüyün mövcudluğa keçid anının sıralanmasını, yəni var olmanın sürəkliliyini - aktı - causas transitorias xarakteristikasını özündə təqdim edir, yəni mövcud olmaqla "nə" zamanla şərtlənir. Var olanın mövcud olması özündə "nə"nin məkan-zaman şərtlənməsinin başlanğıcını təşkil edir.

"Nə"nin məkan və zamanla şərtlənməsi bir tərəfdən onun yalnız məkanla şərtlənmiş xarakteristikasını - formasını və ya Hegelin təbirincə "özü-üçün varlıq" təyinini, zamanla şərtlənməsi onun yalnız zamanla şərtlənmiş xarakteristikasını, yəni Hegelin təbirincə desək "Xalis Varlıq" təyinini və ya xalis fikrini - substansiyasını vəhdətə gətirir; hansı ki, forma ilə substansiyanın vəhdətindən "Mövcud Varlıq" təyini meydana çıxır ki, hissi idrak məhz bu təyin əsasında baş verir. İdrak prosesi özündə məkan və zamanla şərtlənmiş "nə"ni məkan şərtlənməsindən azad edib, onu xalis substansiya kimi yalnız zamanla şərtlənmiş və buna görə də xalis mahiyyət kimi mümkün olan ruhla qovuşdurmağı, onları bir-birində əritməyi təqdim edir. Bu ərintidən həqiqət aşkarlanır, hansı ki xalis fikir şəkildə nə obyektdə, nə də Ruhda aydınlaşmır.

Burada, idrakın iki mənbəyi kimi Məkan özündə Varlığın, Zaman özündə Ruhun refleksiyası kimi çıxış edir. Zaman - Ruhun məlumatı, Məkan - Varlığın aidiyyətidir. Ruh Varlıqla vəhdətdə özündə olan məlu-

matla aidiyyətdən ondakı nisbi həqiqəti refleksiya edir. Bu vəhdətdə Varlıq ruh tərəfindən zamanlaşdırılır və hər bir mövcudluq ruha münasibətdə zamanla şərtlənmiş olur.

Varlığın əmələ gəlməsi, yəni nə-nin - mütləq nisbi həqiqətin Yoxluqdan çıxıb məkana və zamana keçidini necə təsəvvür etmək olar? Biz Yoxluğun causa transitorias vəziyyətini aşağıdakı kimi təsəvvür edərik. İlahi Nurun üç müxtəlif causa transitorias xarakteristikasının başlanğıc təşkil etməsindən Yoxluq təşkil olunur; yoxluq İlahi Nurun İlahi təbiətlə eyniliyini özündə ifadə edir. Hansı ki, bütün mövcud olanlar ondan var olduğundan o özü yoxdur və əksinə o var olduğundan ondan başqa heç bir varlıq yoxdur. İlahi Nur şüalandıqca İlahi Təbiətdən uzaqlaşır. Beləliklə, biz İlahi Nurun İlahi təbiətə doğru gedişində İlahi təbiətin aydınlaşmasının azalma meylini, ondan uzaqlaşdıqca artma meylini, yəni aydınlaşmasını ayırd edə bilərik. Bu iki meylin bir-birinə təsir etməsindən emanasiya - həqiqətin pisləşməsi və ya nisbiləşməsi başlayır. Nəticədə, ən ümumi həqiqəti özündə gizləyən Yoxluğu təşkil edən xalis fikir - həqiqət haqqında məlumat daşıyan sonlu dalğaların hər birinə mane olması ilə dalğaların bir hissəsində dalğa uzunluğu ifrat qısalmağa başlayır. Dalğa uzunluqlarının sabit qaldığı hissə xalis ideya - promahiyyət, dalğa uzunluğunun ifrat qısalması hissəcik - proforma kimi təzahür edir. Hissəcik həm fikrin, həm də Varlığın metafizik miniması kimi çıxış edir. Başqa sözlə, hissəcik eyni anda fikir kimi yoxluq, ideya kimi varlıqdır. Ona görə hissəciklə heç bir əqli əməliyyat aparmaq, onu analiz etmək mümkün deyildir.

Həqiqətin artma və azalma meylinin vəhdətinin pozulması ilə hər bir meyl azad olaraq **yük** kimi təzahür edir. Yükü material keyfiyyətlərə malik olmayan, sintetik mühakimə ilə aşkarlanan həqiqətin meyllərinin təzahür forması kimi təyin edə bilərik. Azalma meylini - Yoxluğu təzahür etdirən yük şərti olaraq mənfi yük, artma meylini - Varlığı təzahür etdirən yük müsbət yük təşkil edir. Yük - materiyaönü vəziyyətdə

həqiqətin aydınlaşmasının ilkin vasitələridir. Artma meylinin üstünlüyü Varlığı yaradır, azalma meylinin üstünlüyündə Varlıq Yoxluğa çevrilir.

Beləliklə, Yoxluqla Varlığın ziddiyyəti mənfi və müsbət yüklər arasındakı ziddiyyətdə refleksiya olunur. Yüklər bir-birinə əks iki meyli özlərində daşıdığından, səbəb olduqları bütün proseslər və mövcudluq aktları da özlərində əkslik xarakteristikası daşıyır. Hissəciklərin ideya ilə vəhdətindən - xalis aydınlaşmanın artma meyli müsbət yük, azalma meyli mənfi yük kimi hissəciklərlə assosiasiya olunur. Nəticədə, ilkin yüklü hissəciklər meydana çıxır. Buradan da, yükü - xalis meyl kimi təyin etmək olar. Biz bu cür fərqli uzunluqlu sonlu dalğanı Varlığın başlanğıcı adlandırırıq.

Varlıq nə zaman, nə məkan baxımından təcrübə sahəsinə birbaşa daxil olmaq xarakteristikasından məhrumdur. Zaman baxımından təcrübəyə daxil olmamaq yaranışın pilləliliyi ilə bağlıdır. Yəni görünən dünya ən müxtəlif mərhələlərdən keçərək formalaşır və formalaşmanın müəyyən dövründə təcrübəyə daxil olmaq imkanı əldə edir. Məkan baxımından təcrübəyə daxil olmamaqlıq hər bir şeyin özündə ən müxtəlif təyinatları vəhdətdə təqdim etməsi ilə bağlıdır. Bu təyinatlardan yalnız ikisi - mövcud varlıq və özü-üçün varlıq təyinləri məkanda təcrübə üçün aktuallaşır. Amma xalis varlıq təyini öz-özündə heç bir halda məkanda müstəqil yer tutmadığından təcrübəyə açılmır. Beləliklə, Varlıq təcrübədə Subyektlə - Düşünən Mənlə bilavasitə münasibətdə olmadığından, o yalnız fikrən idrak oluna bilən özü-üçün "özündə şey"dir.

Varlığın mahiyyətini yalnız dolayı yolla, ya mövcudluğun vəhdətindən, ya Yaranışın gedişindən anlamaq mümkündür. Mövcudluğun vəhdəti kimi reallıqlara şüurun münasibəti ilə çatmaq olar, hansı ki şüurda inikas edərək gerçəkliyə çevrilir. Varlıq isə şüurdan asılı olmayaraq ən ümumi həqiqəti özündə aydınlaşdıran Xarici totallıq kimi mövcuddur və Ruh həmin xarici totallığı özündə refleksiya edərək onun əsasında özünün Daxili totallığını yaradır və onun köməyi ilə bədənlə

şərtlənmədən azad olaraq özü müstəqil var olur. Buradan görünür ki, Varlıq gerçəklik istiqamətində pillə-pillə açılır, idrak prosesində əksinə subyekt gerçəklikdən Varlığa doğru mərhələ-mərhələ həqiqətin müxtəlif dərəcələrini mütləq nisbi həqiqət istiqamətində aşkarlayır.

Həqiqətin meyllərinin bir-birinə münasibəti qüvvə kimi təzahür edir. Artma meyli qurulmaya xidmət edən - əks yüklər arasında cəlbetmə qüvvəsini, azalma meyli dağılmaya xidmət edən - itələmə qüvvəsini təzahür etdirir. Cəlbetmə-itələmə qüvvələri materiyaönü vəziyyətdə, cazibə materiyasonu vəziyyətdə üzə çıxır. Hər bir cazibə və cəlbetmə kütlənin, həcmin, ölçülərin, enerjinin totallaşması ilə həqiqəti daha aydın aşkarlayan vasitələrin yaranmasına səbəb olur. Cazibə və cəlbetmənin zəifləməsi həqiqəti aydınlaşdıran vasitələrin yoxsullaşmasını özündə ifadə edir. Özündə cəlbetmə və cazibə gücü olmayan xalis yoxluq kimi idrak olunur.

Fəlsəfədə və elmdə yaranışın "Böyük Partlayış" adlandırılan ilkin hadisədən başlandığı təsəvvür olunur. Dini inanclara görə isə dünyanın yaranması İlahi İradə ilə başlanıb. Biz Böyük Partlayışı sonsuzun sonluya, təkin çoxluğa, İlahi istəyin İlahi İradə - İlahi enerji ilə bu enerjinin Varlıqda tükədilməsi nəticəsində Yaradılana keçməsi - həqiqətin qurulmaya keçməsi, yəni Həqiqət haqqında məlumat daşıyan dalğaların bir hissəsində onların uzunluqlarının ifrat qısaldılmasına sərf olunması kimi qəbul edirik. Başqa sözlə, sonsuz enerjinin sonlu enerjiyə keçidində sonsuzun sonludan fərqi qədər enerji azad olub, bu da özlüyündə idrakla təsəvvür edilməsi mümkün olmayan nəhənglikdə enerji azad olmasını - Böyük Partlayışı yaradıb. Yoxluq İlahi İradənin enerjisi ilə Varlığa çevrilir. Nəticədə, Varlıq özündə nəhəng enerji saxlayır. Əks istiqamətdə, Varlığın Yoxluğa çevrilməsində həmin enerji yenidən azad olur. Beləliklə, Böyük Partlayış həm də Varlığın Yoxluğa çevrilməsi anında yenidən azad olur, hansı ki din bunu qiyamət kimi müəyyənləşdirib. Qiyamət Yaranışın əksinə Varlığın Yoxluğa çevrilmə anında Varlıqda saxlanan

enerjinin total şəkildə azad olmasını özündə təqdim edir. Artıq Varlığın Yoxluğa çevrilməsi ilə İlahi enerjinin azad olunmasının eksperimentdə müşahidə etməyin mümkünlüyü ilə bağlı elmi iddialar yaranmışdır. Biz Böyük Partlayışı sxematik olaraq istənilən kiçik partlayışlarda- əməlgəlmədə, məsələn, ən kiçik ölçüdə, atomun - sonsuz var olanın yoxluğa çevrilməsində - parçalanmasında və bununla mövcudluğun Varlığa çevrilməsində müşahidə edə bilərik.

Böyük Partlayışı özündə ilkin başlanğıcı - azalma ilə artma meyllərinin bir-birindən ayrılması, həqiqətin sayrışmasının differensiasiya olması, yoxluq vəziyyətinin varlıq vəziyyətindən ayrılması kimi təsəvvür etmək olar. Varlıqla yoxluğun vəhdətinin pozulması, yəni vəhdətin ziddiyyətə keçməsi yaranışın əsasında durur. Varlıq meyli (artma) ilə yoxluq meylinin (azalma) bir-birindən ayrılması onlar arasında qarşılıqlı təsir yaradır. Təsir - bir meylin başqa meyli dəf etməsi kimi təzahür edir. Meyllərarası qarşılıqlı təsir ilkin sahəni təşkil edir.

Sahə təcrübə sahəsində təfəkkür tərəfindən bilavasitə aşkarlanmayan materiyanın qurulmamış formasıdır. Buna görə də, sahə hiss üzvləri ilə bilavasitə aşkarlanmayan, yalnız gerçəkliyin materiya forması ilə ondan vasitəli aşkarlanan mövcudluq kimi təyin oluna bilər. Sahə Varlığın yaratdığı materiyaönü formadır. Sahə iki əks yük və onlar arasında qarşılıqlı təsirin mövcud olduğu materiyaönü reallığın bir forması - ən sadə, dayanıqsız, homogen, formasız növüdür.

Sahədə bir-birinə əks yüklərin qarşılıqlı təsiri başlanğıc xaos vəziyyətini yaradır. Başlanğıc xaos xalis təsadüfə görə baş verir. Xalis təsadüf zərurətin istisna olunduğu, yəni təzahür etmədiyi vəziyyətdir. Xaos necə yaranır? Xaos nizamın əksliyidir və onunla qarşılıqlı inkar vəziyyətindədirlər. Nizam - faktın məkanda yerləşməsi və zamanda aktuallaşması ilə idrak olunur. Əgər məkanda konkret yerləşmə və zamanda konkret aktuallaşma vaxtı yoxdursa, onda nizam itir, əvəzinə xaos yaranır. Fakt mövcudluğun təzahür forması kimi özündə fərqlilik və

müxtəliflik xarakteristikasından məhrumdur. Varlıq aləmində müxtəliflikliklər və fərqliliklər meydana çıxmadığından konkret fakt da meydana çıxmır. Fakt olmadığından zaman və məkanla konkret şərtlənmədə aşkarlanmır. Məkan və zamanla konkret şərtlənmənin olmadığı vəziyyət xaos vəziyyəti kimi təzahür edir. Xaos xalis causa transitorias vəziyyətidir. Ağlın başlanğıcı özündə bu vəziyyəti təqdim edir.

Varlıq aləmində xaos bir hissəciyin eyni anda fərqli yerlərlə və eyni yerdə fərqli zamanlarla şərtlənmə kimi meydana çıxır. Halbuki təbiətdə hər bir mövcudluq eyni zamanda bir yerlə və eyni yerdə bir zamanla şərtlənir. Bu cür şərtlənmə ilə metafizikada varlıq tək kimi, təbiətdə mövcudluq çoxluq kimi təzahür edir. Beləliklə, mövcudluq tək varlığın çoxluq formasında təzahürü olur. Hansı ki, çoxluq formasında təzahür edən mövcudluqdan yalnız təkə aid mahiyyət aşkarlanır. Buradan da substansiyanın birformalı olduğunu, amma çoxformalı təzahür etdiyini deyə bilərik. Sahə indifferentdir, bu və ya başqa şəkildə təfəkkürə toxunmur, ona görə də təcrübə sahəsindən bilavasitə aşkarlanmır. Təfəkkür başlanğıc xaosu aşkarlamaq imkanına malik deyil, çünki başlanğıcı yalnız idrakın başlanğıcı ilə qavramaq mümkün olduğundan idrakın başlanğıcı da xaotikdir. Başlanğıc xaosa görə əks meyllər sürəkli olaraq inkarı inkar və başlanğıc vəziyyətə qayıtma qanununa uyğun olaraq birbirini neytrallaşdırmağa cəhd edir.

Belə qarşılıqlı təsirdən ilkin nizam və hərəkət yaranır. Əksilmə meyli özü ilə eyniyyət təşkil edən meyllə, artma meyli özünə eyniyyət təşkil edən meyllə birlikdə güc yaradır. Güc materiyaönü vəziyyətin təzahürlərindən olduğundan bilavasitə təfəkkürdə aşkarlanmır. Yük və güc birlikdə sahədə materiyaönü "nəsnə"ni təşkil edir. Nəsnənin əmələ gəlməsi ilə sahənin gərginliyi artır. Gərgin sahədə yüklər bir-birini neytrallaşdırmağa cəhd edərkən dayanıqlı başlanğıc strukturlara çevrilir. Başlanğıc struktur - əks yüklərin bir-birini neytrallaşdırması ilə ikincili nisbi vəhdətdən - dayanıqlı neytral vəziyyətdən ibarətdir. Başlanğıc

strukturun mürəkkəbləşməsi materiya ilə sahə arasındakı keçid reallığı kimi təzahür edən neytronun yaranması ilə başa çatır. Neytron iki əks yükün vəhdətini özündə təqdim edir, hansı ki sonsuz və əbədi qarşılıqlı inkar vəziyyətində mövcud olurlar. Neytron promaddəni təşkil edir. Promaddə yüklülükdən azad olmuş "nəsə"dir. Neytronların yaranması ilə elektronlarla protonların sonsuz hərəkəti məhdudlaşır, ilkin kütlə əmələ gəlir. İlkin kütlə ikincili - material kütlədən çəkisinin olmaması ilə fərqlənir.

İnsan təfəkkürünün həqiqəti bilavasitə aşkarlamasının sərhədləri məhz keçid vəziyyətləri ilə məhdudlaşmışdır. Keçid vəziyyəti bir qanun-auyğunluğun pozulması, digərinin isə formalaşmağa cəhd etdiyi elə vəziyyətlərdir ki, bu vəziyyətdə həqiqət şüalanmır və buna uyğun olaraq həqiqət aşkarlanmır. Buna görə də, biz keçid vəziyyətlərini, o cümlədən enerjinin hərəkətə, hərəkətin enerjiyə, enerjinin kütləyə, kütlənin enerji-yə, promaddənin materiyaya, materiyanın sahəyə və s. çevrilməsini təcrübədən dərk etmək imkanında deyilik. Yalnız intuitiv idrakla keçidlər haqqında aprior bilgi əldə etmək olar. Eynşteyn məhz bu yolla enerjinin kütləyə çevrilməsinin düsturunu müəyyənləşdirmişdir. Həmin düstura görə işıq sürətindən böyük sürətlə hərəkət zamanı enerji kütləyə çevrilir. Halbuki işıq sürəti təbiətdə ölçülüyə malik son sürətdir. İşığın son sürətə malik olması onun idrak prosesində maddə ilə ruh arasında əlaqə yarat-masını da təsdiq edir, hansı ki işıqlanma ilə idrak obyektlərinin xarici görüntüsünü görməyə ötürməklə onları əlaqələndirir və bununla həqiqətin idrakında iştirak edir. Biz belə hesab edirik ki, işıq Varlığın həqiqətini özündə şüalandıran təbiət sferasındakı ən sürətli dalğadır. Təbiətdə işıq dalğasından sürətli heç bir dalğa yoxdur. Çünki həqiqətin varlıqdan işığın daşıdığından daha dəqiq təzahür imkanı yoxdur. Buna görə də işıq sürətindən böyük sürət yalnız Yoxluqla bağlı olub xalis ideyanın - öz sonsuz uzunluğunu saxlamış dalğanın - sürəti ola bilər, hansı ki sonsuz hərəkətliliyi özündə təqdim edir. Xalis ideya İlahi Nuru

özündə təqdim etdiyindən biz işıq sürətindən böyük sonsuz sürətlə hərəkət edənin İlahi Nur olduğunu və İlahi Nurun hərəkətində öz enerjisinin kütləyə çevrildiyini qəbul edə bilərik, hansı ki sonsuz dalğa uzunluğunun ifrat qısalması ilə hissəciyə çevrilməsini özündə refleksiya edir.

Artma meylinin üstünlük təşkil etməsindən proton yaranır. Artma meyli strukturlaşmaya təkan verərək strukturlaşmış enerjini - kütləni yaradır. Nəticədə, proton müəyyən kütləyə malik olur. Bundan fərqli olaraq, azalma meylinin yükü elektron kütləsizdir. Əks yüklərin materiyaönü vəziyyətdə müxtəlif ilkin strukturlar yaratması yüklərin fərqliliyinə görə başlanğıc mürəkkəbləşmə ilə müşayiət olunur. Buradan sadədən mürəkkəbə doğru inkişaf qanunu meydana çıxır. Materiyaönü mövcud olan qanunlar materiyanın bütün formaları və təzahürləri üçün ümumi və universaldır. Ona görə bu qanunları Varlığın ən ümumi qanunları kimi qəbul etmək olar.

Başlanğıcda sahədə strukturlar qəflətən, birdən və bəlli qanunauyğunluqla yaranmır. Xaotik vəziyyət xalis təsadüfə görə təzahür edir. Buradan da biz xalis təsadüfü - həqiqətin xaosda təzahür forması kimi təyin edirik. Xalis təsadüfə görə varlıq daxili olmayan, məkan və zamanla şərtlənməyən, özündə yalnız səbəb olan, mütləq azad varlıqdır.

Yaranış davam etdikcə elektron, proton və neytron bir-biri ilə vəhdət təşkil edərək daxil yaradırlar. Daxilə malik olmaq özündə səbəb-nəticə vəhdətini təzahür etdirmə və bununla məkan və zamanla şərtlənmə imkanı əldə etməni özündə ifadə edir. Daxili olan varlıqlar artıq zərurətə görə varlıq xarakteristikasını təzahür etdirirlər. Daxili varlıqlar zərurətə görə immanentlik əldə edərək yalnız xarici azadlığı saxlayırlar. Buradan da daxili zərurətlə xarici azadlığın - təsadüfün vəhdəti meydana çıxır və varlığın xalis təsadüflüyü xalislikdən məhrum olur. Nəticədə, təsadüf forma kimi xarici olduğundan zərurətin təzahür (xarici) formasına çevrilir. Yəni, təsadüf - xarici zərurət, zərurət - daxili təsadüf kimi mövcud olur.

Yaranışın başa çatması ilə təsadüf zərurətlə, xaos nizamla əvəzlənir və material vəziyyətdə təzahür edən əməlgəlmə yalnız zərurətə görə inkişaf edir. Təsadüfi yaranış xaotik vəziyyəti tədricən nizamlı vəziyyətlə əvəzlənməsi ilə zərurətə keçir. Beləliklə, zərurəti - həqiqətin nizamda təzahür forması kimi təyin edirik.

Nizamda aşkarlanma bir şeyin eyni zamanda yalnız bir qanuna tabe olmasını, yəni birtəbiətliliyi özündə ifadə edir. Birtəbiətlilik özündə mövcudluğun məkan və zaman şərtlənməsini ifadə edir. Yəni mövcudluğun eyni zamanda bir yerdə olması və eyni yerdə bir vaxtda olması onun qanunun bir kimi əsasını təşkil edir. Metafizikada isə əksinə, varlıq eyni vaxtda müxtəlif yerlərdə, eyni yerdə müxtəlif vaxtlarda olduğundan metafizik obyektlərin tabe olduğu qanunun əsası çoxlu olur, nəticədə eyni bir varlıq sonsuz sayda qanuna tabe olmaqla aktuallaşır ki, biz bunu xaos kimi dərk edirik. Buna uyğun olaraq, həqiqətin aydınlaşma mənbəyindən asılı olaraq təfəkkürdə aşkarlanmada iki cür mühakimə meydana çıxır: Təsadüfi mühakimə - kanonik mühakimə və zəruri mühakimə - orqanonik mühakimə. Kanonik mühakimə xaos vəziyyətində olan həqiqətin aşkarlanmasını, orqanonik mühakimə nizamda həqiqətin aşkarlanmasını reallaşdırır. Buna görə də kanon təsadüfi olub mühakimə edən subyektin fərdi şüurundan - xüsusidən, orqanon zəruri olub mühakimə edənin ictimai şüurundan asılıdır. Xüsusilər ümumini təşkil etdiyindən kanonik olanlar orqanonik olanları təşkil edir. Yəni, bütün sintetik mühakimələr dialektik mühakimənin əsası kimi çıxış edir. Buradan da, Varlığı dialektik inkişafda mövcudluğa keçən mümkünlük kimi təyin edə bilərik.

Haşiyə: İ.Kant "Xalis zəkanın tənqidi"

> *"- mühakimələr dünyası ya kor təsadüfə görə, ya da daxili zərurətə görə və ya xarici səbəbə görə mövcud olur. Bu mühakimələrdən hər biri ümumiyyətlə dünyanın mövcudluğu haqqında mümkün bilik sferasının hissəsini, hamısı bir yerdə isə - bu biliyin bütün sferasını tutur."*

Kantın bu fikirlərini inkişaf etdirərək demək olar ki, Varlıq kor təsadüfə, mövcudluq daxili zərurətə görə idrak olunur. Buna görə də Varlıq haqqında mühakimələrdə qanunauyğunluq axtarmaq mənasızdır. Varlığın iki tərəfi vardır: bir tərəfdən, o xarici, obyektiv olanın daxili keyfiyyətidir; ikinci tərəfdən, o subyektdə xarici olanın təfəkkürdə obraz yaradan xarici keyfiyyətidir. Birinci mənada varlıq təfəkkürdən kənarda özü-özündə şeydir, ikinci mənada xaricdə özü-özündə şeyin daxildə - təfəkkürdə abstrakt obrazlaşdırılmasıdır. Buna görə də, İdrak prosesində varlıq təfəkkürə münasibətinə görə başlanğıcı, mütləq həqiqətə münasibətinə görə sonu bildirir. Beləliklə, varlıq eyni zamanda başlanğıc və sondur. Başlanğıc və sonun eyniliyi mütləqlik keyfiyyəti kimi təzahür edir. Buradan da, varlığın əsas əlamətini mütləqlik kimi təyin edə bilərik. Başqa sözlə, mütləqlik bir sifət kimi, bir sifət olan varlığın sifətidir. Məsələn, "qara qaradır" dedikdə biz bir sifəti - qaranı, təkrarlanan sifətlə - qara ilə təyin etmiş oluruq. "Qara - qaradır" anlayışı özündə mütləq varlıqda varlığın mütləqliyini göstərir.

Haşiyə: Hegel "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Əgər biz varlığı mütləqin predikatı kimi deyiriksə, biz mütləqin birinci definisiyasını almış oluruq: mütləq varlıqdır."*

Hegelin təyin etdiyi kimi, mütləqin varlıq olması varlığın özündə mütləq hansısa səviyyədə həqiqətə malik olmasını göstərir. Mütləq şəkildə həqiqətsiz varlıq mütləq ola bilməz. Başqa sözlə, bu definisiya həqiqətin mütləq şəkildə varlıqdan aydınlaşdığını özündə ifadə edir. Mütləq var olmaq, heçliyə hər hansı yer verməmək deməkdir. Heçliyə yer verməmək forma ilə vəhdətdən imtinadır. Beləliklə, Varlıq özündə heçliyin - formanın mütləq inkarıdır. Halbuki, Yoxluğa münasibətdə keçici inkar kimi çıxış edir. Heçlik Varlıq və Yoxluqla əkslik təşkil etdiyindən, həm də onlarla vəhdətdədir.

Haşiyə: Hegel "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Eyni dəqiqliklə heçlik bilavasitə kimi, özü-özünə bərabər əksinə varlıq kimi o özüdür. Həqiqət həm varlıq kimi, həm də heçlik kimi özündə onların hər ikisinin birliyini təqdim edir, bu birlik qurulmadır."*

Hegelin yuxarıdakı fikrindən görünür ki, heçliyin varlıqla vəhdətindən qurulma əmələ gəlir. Onda biz belə hesab edə bilərik ki, heçliyin yoxluqla vəhdəti özündə dağılmanı ifadə edir.

Xalis heçlik mahiyyətlə vəhdət təşkil etməyən xalis forma - özü-özündə formadır, hansı ki özündə şeyin inkarıdır. Özündə forma hər hansı mahiyyət tərəfindən yaradılmayan, buna görə də mahiyyətlə vəhdət təşkil etməyən formadır. Məhz mahiyyətlə vəhdət təşkil etmədiyindən özündə heç bir həqiqətə malik deyil. Başqa sözlə, heçlik həqiqətə malik olmayan xalis mənasızlıqdır. Xalis mənasızlıq olduğundan təfəkkürdə hər hansı bir formada aşkarlanmayandır - refleksiya etməyəndir. Heçlikdən fərqli olaraq, Yoxluq - mahiyyətin formasız aydınlaşmasıdır. Mahiyyət forma ilə aydınlaşanda yoxluq varlığa çevrilir. Beləliklə, yoxluq hər bir mövcudluqda olan Varlıqdır. Varlıqla yoxluq əksliklər kimi vəhdətdə olduğundan, mahiyyətli forma - varlıq, mövcudluq, formasız mahiyyət - yoxluq kimi çıxış edir. Forma ilə mahiyyətin vəhdətində həqiqətin aydınlaşması konkretlik əldə edir. Buna görə də mövcudluğun əsas xarakteristikası kimi konkretliyi müəyyən edirik. Forma ilə vəhdət təşkil etməyən mahiyyətdə həqiqətin aydınlaşması abstraktlıqdır. Başqa sözlə, mahiyyətin xalis xarakteristikası abstraksiyadır. Heçlik - nə konkretdir, nə abstraktdır. Yəni heçliyi konkretlik və ya abstraktlıq xarakteristikalarından şərh etmək mümkün deyildir.

Varlıq anlayışı gerçəklikdən ayrılmayan keyfiyyətlərin məcmusunu özündə təqdim edir. Gerçəklik "indi və burada" prinsipinə tabe olur. Yoxluq Varlıqla vəhdətdən ayrılaraq təfəkkürə keçən, paralel olaraq eyni zamanda gerçəklikdən və təfəkkürdən aydınlaşan həqiqətdir. Bu mənada ideya Yoxluqdur.

Antik filosoflar belə hesab edirdi ki, "heç nədən nəsə əmələ gəlmir" və ya "nəsə yalnız nədənsə əmələ gəlir". Bu müddəalara aydınlıq gətirmək üçün yaranma və əmələgəlmə anlayışlarını şərh etmək lazım gəlir. "Yaranma" anlayışı var olana qədərki, "əmələgəlmə" anlayışı var

olandan sonrakı prosesləri özündə ifadə edir. Beləliklə, varlıq yaranma ilə əmələgəlməni bir-birindən ayıran sərhəd noumeni kimi təyin oluna bilər. Yaranma anlayışı xarici güclə təzahürü özündə ifadə edir. Buna görə də yaranmada mütləq şəkildə özündə gücü olmayandan (yoxluqdan-heç nədən) İlahi güclə varlıq (nə) meydana çıxır. Əmələgəlmə anlayışı daxili güclə təzahürü ifadə edir. Xarici güc daxili gücə münasibətdə var olan üçün heç nədir, yəni ona aidiyyəti yoxdur. Daxili güc var olana - aidiyyata aiddir, yəni nəsədir. Beləliklə, var olandan (daxili gücü olandan) qabaq nəsə olmadığından var olan heç nədən əmələ gələ bilməz. Yoxluqda daxili güc olmadığından, "nə" xarici güclə - "heç nə"dən yaranır. Buna görə də demək olar ki, "Varlıq heç nədən yaranıb".

Haşiyə: Leybnic "Cismin təbiəti və hərəkətverici güc haqqında"

> *"Güc və ya potensiya iki növdür - passiv və aktiv. Passiv güc xüsusi olaraq materiyanı, başqa sözlə kütləni təşkil edir, aktiv güc entelexiyanı, başqa sözlə formanı yaradır. Passiv güc müqavimətin özüdür, hansı ki buna görə cisim yalnız daxilolmaya yox, həm də hərəkətə müqavimət göstərir, buna görə də başqa cisim onun yerini tuta bilmir."*

Leybnicin bu fikirləri mövcudluqların enerji qurulmasını özündə ifadə edir. Burada passiv güc - kütləni təşkil edən güc, özündə daxili causa transitorias xarakteristikasına malik olmayan, tangensial enerjini, yəni şeyi əmələ gətirən enerjinin; aktiv güc formanı, yəni causa transitorias xarakteristikasına malik radial enerjinin gücü kimi çıxış edir. Forma causa transitorias xarakteristikasına malik olduğundan müvəqqətidir, yəni şeylə mütləq vəhdət təşkil etmir, buna görə də heçlikdir. Daxili gücü olmayandan əmələgəlmə baş verə bilməz. Daxili gücü olmaq var olmaq deməkdir.

Beləliklə, yaranma prosesində daxili gücü olmayana xarici güc təsir edərək onu yaradır; bu zaman yaradıcı güc yarananda qalmaqda davam edərək daxili gücə çevrilir. Sonrakı bütün əmələgəlmələr Yaradıcı gücün

çevrilməsi nəticəsində meydana çıxan daxili gücün spontan və avtonom fəallaşması ilə baş verir. Buradan da "Allahın istəmədiyi nəsə (həqiqətə malik olmayan) özündə yarana bilməz, yaranan hər bir şey başqasını əmələ gətirə bilər" definisiyasını müəyyənləşdirə bilərik. Buradan da deyə bilərik ki, mövcudluq yalnız mövcudluqdan əmələ gələ bilər. Bunu izah etmək üçün təbiətdə əmələ gələnləri və insanın yaratdıqlarını müqayisə edək. Təbiətdə hər şey bir-birindən əmələ gəlir. Rəssam isə təbiətdəkilərin rəsmini çəkərkən əsər yaradır. Əsər heç vaxt öz-özünə yarana bilmir. Amma varlıqlardan öz-özünə əmələgəlmə baş verir. İnsanın yaratdığı ilə Allahın yaratdığı onunla fərqlənir ki, Allahın yaratdığı sonra özündən başqa bir şeyi əmələ gətirə bilir, amma insanın yaratdığı heç bir halda özündən başqa bir əsəri spontan və avtonom yarada və ya əmələ gətirə bilmir. Buradan aşağıdakı nəticələri alırıq:

a) Nə heç nədən yaranır, amma heç nədən nəsə əmələ gəlmir.

b) Nədənsə nə yarana bilməz, amma nədənsə nəsə əmələ gəlir.

Beləliklə, Yoxluğun Varlığa çevrilməsi ilə Yaranma Əmələgəlməyə keçir. Varlıq özündə əmələgətirmə potensiyası olan nə kimi meydana çıxır. Başlanğıc əmələgəlmədə nənin bir hissəsi ideya kimi qalır, digər hissəsi hissəciyi əmələ gətirir.

Mövcudluğun varlığının Mütləq həqiqətə - İlahi Nura münasibətdə son olması özündə həqiqətin hissəvi olaraq onda aydınlaşmasının başa çatmasını təqdim edir. Mövcudluğun varlığı son nəticə və ya səbəb-nəticə axınının başa çatdığı reallıqdır. Mövcud varlıq həqiqətin aydınlaşma vasitəsi olduğundan onun özü vasitəsiz - yəni bilavasitə dərk ediləndir. Digər tərəfdən, həqiqət mövcud varlıq vasitəsi ilə aydınlaşdığından - müəyyənləşdiyindən (özü qeyri-müəyyən olduğundan), mövcud varlıq həqiqətin müəyyənliyidir. Beləliklə, mövcud varlıq qeyri-müəyyənliyi müəyyənləşdirən vasitəsiz vasitədir. Müəyyənliyi obyektivlik kimi təyin etmək olar.

Haşiyə: Hegel "Fəlsəfi elmlərin ensiklopediyası"

“"Obyektivlik" sözünün üç mənası vardır. Birincisi, yalnız subyektivdən - rəydən, arzulamaqdan və s. fərqli olaraq xarici aləmdə mövcud olmaq mənasında işlədilir. İkincisi, o Kantın müəyyən etdiyi, bizim təsadüfi, partikulyar və subyektiv hisslərimizə məxsus olandan fərqli olaraq ümumi və zəruri mənasını daşıyır. Üçüncüsü, o, göstərilən axırıncı mənada, "özündə" düşünülən mənasında, yalnız bizim düşündüklərimizdən fərqli olan və bununla da şeyin özündən fərqlənən, başqa sözlə, şeydən özündə olan kimi işlədilir.”

Hegelin şəhrindəki birinci mənada obyektivlik Özündə şeyi ifadə edir, hansı ki ən ümumi şəkildə mövcudluğun varlığının başlıca xarakteristikasıdır. Buna görə də bizim idrakımızdan asılı olmayaraq vardır. İkinci mənada obyektivlik hissi qavramada olan, amma hissi qavranılmayan xarakteristikanı bildirir. Belə obyektivlik gerçəkliyi reallıqdan fərqləndirən obyektivlikdir. Belə ki, hissi qavramada subyekt idrak obyektini hissi olaraq tam, hərtərəfli, dəqiq və düzgün qavraya bilmir. Ona görə idrak obyektində dəqiq, düzgün, tam və hərtərəfli həqiqət saxlanılır ki, bu da ikinci mənada obyektivliyi özündə ifadə edir. Üçüncü mənada demonstrativ idrakla qavranılandan fərqliliyi özündə ifadə edir, hansı ki belə həqiqət qarışıq olub ağıldan və faktdan törəndiyindən, ağıldan törəyən ideyalar qədər idrak obyektinin obyektivliyini təşkil edir. Biz obyektivliyin həm də dördüncü mənasını ayırd edirik. Belə obyektivlik ideyanın obyektivliyidir, hansı ki özündə ağıldan törəyən ideyalardan təşkil olunmuş xalis mücərrədliyi özündə ifadə edir. Belə obyektiv olan yalnız xalis zəkada mövcuddur, təcrübəyə münasibətdə qeyri-obyektivdir.

Varlıq birinci üç mənada obyektiv deyildir, mövcud varlıq dördüncü mənada obyektiv deyildir. Mövcud Varlığın obyektiv olmaması onun subyektiv olmasını təsdiq etmir. Bu baxımdan Varlıq subyektivdən obyektivə, obyektivlikdən subyektivliyə keçid edən kimi aktuallaşır.

Bunu necə anlamaq olar? Hegelin obyektivliklə bağlı verdiyi mənalardan Varlığı şərh edək:

1. Rəydən fərqli olaraq xarici aləmdə olmaq: Varlıq aktuallaşdığı səviyyədə təcrübəyə daxil olmadığından Varlığı daxildə və xaricdə mövcudluğa görə təyin etmək mümkün deyildir. Belə obyektivlik yalnız obyekt-subyekt münasibətindən aşkarlana bilər. Halbuki biz Varlığı subyekt-subyekt münasibətində subyektdən əvvəl olan kimi təyin edirik. Beləliklə, obyektiv gerçəkliklər məkana, Varlıq zamana görə təyin olunur.

2. Bizim subyektiv hisslərimizə məxsus olandan fərqli olaraq ümumi və zəruri mənasını daşımaq: Varlıq bu mənada obyektivdir, çünki bizim subyektiv hisslərimizə məxsus deyil, amma bizim subyektiv hisslərimizə məxsus olmayan digər obyektiv olanlardan fərqli olaraq bizim təfəkkürümüzə məxsus olan kimi çıxış edir. Bu keyfiyyətində də obyektivliyin ikinci mənasını da olduğu kimi özündə ifadə etmir.

3. Bizim düşündüklərimizdən fərqli olan və bununla da şeyin özündən fərqlənən - şeydən özündə olan: Şey materiyadan sonra meydana çıxdığından, Varlıq materiyaönü var olduğundan buna görə də şeyi yoxdur. Şeyi olmadığından şeydən özündə olan deyil. Əksinə, Varlıq yalnız təfəkkürdən aşkarlandığından buna görə də bizim düşündüklərimizlə eyni olandır.

Buradan da Varlığı obyektiv-subyektiv kimi - ikili olan kimi - təyin edirik.

VARLIĞIN MÖVCUDLUĞU

Müasir təcrübi elmlər inkişaf edərək təbiətin sərhədlərində bir çox metafizik obyektləri aşkarlamağa nail olmuşdur. Belə obyektlər xaosda mövcud olan metafizik obyektlərə aiddir. Xaosda olan metafizik obyektlər empirik obyektlərdən heç bir nizama tabe olmaması və ya eyni zamanda çoxlu qanuna tabe olması və xalis təsadüflə şərtlənmiş

obyektlərdir. Əsas xarakteristikaları çoxtəbiətli olmaları, məcmui keyfiyyətlər təzahür etdirməmələri, müstəqil empirik təbiətdə mövcud ola bilməmələri və reallıqları fikrən müəyyən edilməsi mümkün olmaqdır. Belə obyektlər noumenlərdən fərqli olaraq hissiz (şeysiz) obyektlər kimi mövcuddur. Bunları biz yeni ad fikirləşmədən elmin anlayışları ilə adlandırırıq. Belə metafizik predmetlər özlərində nəyi təqdim edirlər? Fiziki dünyada reallıq təzahürlərin məcmusu kimi meydana çıxır. Əgər biz hər hansı bir reallığı yalnız bir təzahürə görə təsəvvür etsək və onda digər heç bir təzahür meydana çıxmasa, onda biz xalis təzahürləri - hər hansı bir predmetdən asılı olmayan tək-tək təzahürləri almış oluruq. Yəni obyektin bir kəmiyyət xarakteristikası, məsələn, hərəkət təyin edildikdə onun digər parametrlərinin, məsələn, koordinatları - yeri və zamanının əhəmiyyətini təyin etmək olmur. Buradan da həmin predmetlər ayrı-ayrı xalis təzahürlər kimi meydana çıxır.

Məsələn, gerçəklikdə istənilən şey hissiyyatsız "özündə şey" kimi mövcuddur. Özündə şey aktuallaşmamış mövcudluq, yəni xalis faktdır. Xalis fakt aktuallaşmadığından təcrübəyə daxil olmur, ona görə də biz onu yalnız aprior olaraq idrak edə bilirik. Özündə şey təfəkkürə bilavasitə hissiyyatın iştirakı olmadan avtonom və spontan şəkildə refleksiya edir. Hissiyyatla qavranılmadığından hissi qavramanın heç bir mərhələsindən keçmir. Yəni özündə şeyin nə obrazı, nə estetikası, nə təsviri, nə də onun haqqında obrazla assosiasiya təşkil edən təsəvvürlər meydana çıxır. Sadəcə özündə şey ideya səviyyəsində refleksiya edir və abstrakt təsəvvürlə izah olunur. Özündə şeyin təfəkkürdə avtonom və spontan refleksiyasından sintetik sözlər - adlar meydana çıxır. Əslində bizim şeylərin hər hansı bir dildəki sintetik adlarının mənasını açа bilməməyimiz səbəbi həmin sözlərin özündə metafizik varlıq kimi mütləq faktları refleksiya etməsi ilə bağlıdır. Beləliklə, əgər dialektik sözlər sintetik sözlərin əsas təşkil etməsinə görə konkret məna daşıyırsa, başlanğıc kimi sintetik sözlərin heç birinin mənası bizə aydın olmur. Sin-

tetik sözlərin mənası şeylərin özündə gizlətdiyi mütləq həqiqətdən ibarətdir. Belə şeylərə daha çox idrak vasitələri, məsələn, söz aiddir. Noumenlər həqiqi dünyadan metafizik aləmə keçidi təmin edir. Daha doğrusu noumenlər metafizikanın dərkində istifadə olunan anlayışlardan, terminlərdən, kateqoriyalardan ibarətdir. Məsələn: yox, var, nəsə, nə, heç nə, məkan, zaman və s.

Varlığın mövcudluğu - hissi təcrübədən kənar ideya kimi dərk edilən, xarici aydınlaşma ilə - görüntü ilə mövcud varlığa çevrilən və ya keçən kimi hissi təcrübəyə daxil olan mövcudluqların ən ümumi universal başlanğıcıdır. Hansı ki, bütün mövcudluqlar birlikdə özündə Varlığın mövcudluğunu təşkil edir. Varlığın mövcudluğu kvant fizikasını təşkil edir. Kvant fizikası fizikadan fərqli qanunlara tabe olduğundan onu fərqli aləm kimi təyin etmək lazımdır. Beləliklə, təbiətdən fərqli aləm olduğundan kvant fizikası metafizikanı özündə təqdim edən bilgiləri aşkarlamış olur. Kvant fizikası şeydən ayrılıqda götürülmüş keyfiyyətlərin bir-birindən ayrılaraq ən sadə tək keyfiyyət kimi müstəqil mövcudluğu fikrən qəbul edilən varlığın mövcudluqlarından təşkil olunmuşdur. Bura aşağıdakıları aid etmək olar:

1. Kvant - Xalis kəmiyyət: Kvant fizikasına görə fiziki dünyanın əsasında mütləq "qeyri-fiziki" reallıq durur. Bu ya məlumatın, ya "ehtimal dalğalarının", ya da şüurun reallığıdır. Başqa sözlə, bizim dünya özünün ən dərinliklərində şüurun fundamental sahəsinə malikdir, o, dünyanın mövcud olmasını müəyyən edən məlumat saxlayır. Kvant sözü fiziklər tərəfindən miqdar, yəni təzahür etməyən ən az miqdar materiya və ya enerji kimi işlədilir. Təzahürlər ölçüyə görə güclənir, əksinə ölçünün azalmasına uyğun yavaşıyır. Məsələn, bir kilo pambığın yanmasında alınan istilik, işıq və his bir ton pambığın yanmasından alınanlardan min dəfə azdır. İndi fikrən maddəni və ya enerjinin miqdarını elə həddədək azaldaq ki, bütün hissi təsirlər sıfra bərabər olsun.

Belə mütləq az həcm və ya ölçü kvantdan, yəni xalis kəmiyyətdən ibarət olacaqdır.

2. Metafizik hissəciklər - mütləq tamlıq - xalis keyfiyyət: Fiziki aləmdə mövcud olmayan, yalnız fiziki maddənin fikrən parçalanması ilə alınan mütləq tamlığı biz metafizik hissəciklər kimi təyin edirik. Beləliklə, metafizik hissəciklər fiziki dünyada fikrən hissəcik, metafizik aləmdə mütləq tam kimi mövcuddurlar. Belə hissəciklər fizikada elementar hissəciklər adlandırılır və belə təyin olunmuşdur:

> *"Elementar hissəciklər o hissəciklər adlandırılır ki, fizikanın müasir inkişaf səviyyəsində, başqa hissələrin sadə birləşməsi kimi daxili strukturu təsvir olunması mümkün deyildir. Elementar hissəciklər başqa hissəciklərlə və sahələrlə qarşılıqlı təsirdə özlərini bir tam kimi aparırlar".*

Metafizik hissəciklər mütləq şəkildə sadə hissəcikləri olmayan və buna görə də mütləq tam kimi təyin edilən hissəciklərdir. Elementar hissəciklərə Leptonlar (yüngül hissəciklər), Mezonlar (aralıq hissəciklər), Barionlar (ağır hissəciklər), Pionlar, Kaonlar (spinsiz hissəciklər), spini olan Fotonlar, Hiperonlar, sahə kvantları Bozonlar, cazibə sahəsinin kvantları hipotetik Qravitonlar aiddir. Sahə hissəciklər həqiqi hissəciklərdən kütlənin sıfra bərabər olması ilə fərqlənir. Başqa sözlə, kütləsi olmayan, yalnız təzahürdən ibarət olan hissəciklər sadə hissəciklər kimi vardır.

Haşiyə: C.Berkli "İnsan biliyinin prinsipləri haqqında traktat."

> *"Hamı tərəfindən keyfiyyət və ya şeylərin vəziyyətinin gerçəklikdə ayrılıqda, hər biri özü-özünə, xüsusi və digərlərinin hamısından ayrı mövcud olmaması və həmişə bir neçəsinin bir və eyni predmetdə öz aralarında birləşməsi etiraf olunur. Bizə deyirlər ki, ağıl hər bir keyfiyyətə ayrılıqda baxa bilər və ya onların birləşdiyi digər keyfiyyətlərdən mücərrədləşdirərək bununla mücərrəd ideyalar yaradır. Ağıl buna uyğun özü-özü üçün keyfiyyət və vəziyyətlərin mücərrəd ideyalarını yaradaraq, belə xüsusiləşdirmə və ya*

fikrən mücərrəd ideyaları ayırmaqla özündə müvafiq müxtəlif keyfiyyətlər saxlayan daha mürəkkəb şeylərə çata bilər.

C.Berklinin şərhindən göründüyü kimi, təbiətdə həqiqətən hər bir reallıq bu və ya başqa sayda müxtəlif keyfiyyətlərin məcmusu kimi mövcuddur, hansı ki həmin keyfiyyətlərdən hər hansı biri başqa bir kombinasiyada başqa bir reallıqdan təzahür edir. Ağıl ayrılıqda götürülmüş tək bir şeydən hər hansı bir keyfiyyəti elə-belə ayırmır, çünki təbiətdə reallıqda faktiki olaraq ayrılıqda heç bir şey mövcud deyildir, hər şey bir-biri ilə qarşılıqlı təsirdə və vəhdətdədir; insan sadəcə təcrübədə özü-özündə şeyləri bir-birindən fikrən formal olaraq ayıraraq tək şey kimi idrak edir. Bunun əksinə, bəzi filosoflar, məsələn "İnsan ağlı haqqında təcrübə"nin müəllifi belə hesab edir ki, "bütün şeylər ayrılıqda mövcuddur", hansı ki belə yanaşma ümumiyyətlə mövcudolmaya zidd olduğundan, bu əsasda aparılan fəlsəfi mühakimələr də müvafiq olaraq daha bulanıq ideyaların və ya anlaşılmazlıqların meydana çıxmasına gətirib çıxarır. Eyni üsulla o, keyfiyyətləri də bir-birindən ayıraraq mücərrədləşdirir; bunun üçün o, ən müxtəlif şeylər üçün ümumi olan bir keyfiyyəti həmin şeylərin hər birində fərqli olan keyfiyyətlərin kombinasiyalarından ayıraraq mücərrəd ideya yaradır və bu ideyalarla dünyanı dərk edir. Ağlın bu cür konkret keyfiyyətləri reallıqlar əsasında mücərrədləşdirməsinə uyğun özü-özündən mücərrəd ideyalar yaratmaq qabiliyyəti də mövcuddur. Əgər ağıl reallıqlar əsasında ayrı-ayrı keyfiyyətləri mücərrədləşdirirsə, onda özündən yaratdığı mücərrəd ideyaların da əsası varmı və ya ola bilərmi? Biz belə hesab edirik ki, ağlın özü-özündən yaratdığı mücərrəd ideyaların əsası metafizikadadır və metafizikada hər bir keyfiyyət ayrılıqda bir hissəcik kimi təzahür edir. Beləliklə, biz iki cür mücərrədləşdirmə ilə - təcrübədən çıxarılan mücərrədləşmə və təfəkkürün özü-özündə metafizikadan çıxardığı mücərrədləşmə haqqında danışa bilərik. Nə qədər ki birinci qrup təcrübədən çıxarıldığı qədər əsaslıdır, bir o qədər də metafizikadan əldə

edilən mücərrədləşmə əsaslıdır. Sadəcə birinci hissi qavrayışla, ikinci qeyri-hissi qavrayışla əldə edilir.

Belə ayrılıqda tək keyfiyyətlərə aşağıdakı hissəciklər aid edilə bilər:

1. Hiqqs hissəciyi - Xalis ağırlıq: Bu hissəcik xalis, təklikdə, yalnız ağırlıq keyfiyyətini özündə təqdim edən noumendir. Bu hissəcik nəzəri-fikrən aşkarlanmış, kütləni Kainatda başqa hissələr arasında bölən elementar hissəcikdir. O hələ ki eksperimentlərdə əldə edilməmişdir. Çünki, o hədsiz "ağırdır" və öz ağırlığını digər hissəciklərin "ağırlığına" bölür. Hiqqs hissəciyinin özünə ağırlığı nəyin verməsi hələ ki tapılmamışdır. Biz belə hesab edirik ki, Hiqqs hissəciyinə ağırlığı İlahi Nurdan çıxan ideya vermişdir. Biz Hiqqs hissəciyini metafizik noumen kimi təyin edirik, hansı ki özündə təbiətdəki bütün şeylərin ağırlığının məcmusunu təqdim edir. Başqa sözlə, o eyni zamanda həm hissə - hər bir fərdi əbədi şeyin ağırlığı və həm də tam - bütün mövcud olan şeylərin ən ümumi məcmui ağırlığı, yəni "xalis ağırlıqdır".

2. Dalğa patternləri - Xalis maddilik: Dalğa patternləri müvəqqəti "qatılşmış" elektrik sahələrindən ibarət olub, bütün şeylərə maddilik verən və özü-özündə xalis maddilik kimi çıxış edən və atomun nüvəsini və elektronları təşkil edən noumenlərdir. Burada "xalis qatılşma" keyfiyyət kimi xalis maddilikdir.

3. Xalis məkan: Biz fikrən məkandan bütün material şeyləri kənarlaşdırsaq, onda mütləq vakuumu və ya xalis məkanı alarıq. Xalis məkan bəzi müdriklərə görə boş anlayışdır və özündə heç nə saxlamır. Amma artıq müasir dövrdə elmi şəkildə sübut olunub ki, boş məkan boş deyil, o nəhəng enerji ilə doludur və onun hər bir kub santimetrində bizim Kainatın bütün material obyektlərində olan qədər enerji saxlanılır. Biz buradan fiziki ölçülüklə metafizik ölçülüyün əksliyini aşkarlaya bilərik. Fiziki dünyada kütlə ilə enerji düz mütənasibdir. Yəni maddi şeyin fiziki ölçüləri artdıqca maddi şeyin daşıdığı enerji artır. Amma

metafizikada əksinə, qeyri-maddi şeyin ölçülüyü kiçildikcə enerji yükü artır.

4. Xalis zaman: Məkanla vəhdətdən ayrılıqda götürülmüş xalis sürəkliliyi biz xalis zaman kimi təyin edirik.

5. Xalis sürət - Kvant sıçrayışları: Xalis sürət fiziki hərəkətdən fərqli olaraq cismin yox, metafizik predmetin informasiyasının hərəkəti kimi meydana çıxır. Biz xalis sürəti fikrin sürəti kimi təyin edirik. Sonsuzluq və sonluluq fikirlə müəyyən olunduğundan (onun tərəfindən yaradıldığından) fikir sonluüstü olur, buna görə də sonsuz sürətə malik olur. Kvant fizikası sübut edir ki, subatom hissəciklər bir-birindən istənilən məsafədə - o cümlədən sonsuz uzaqlıqda yerləşərək məlumat mübadiləsi edə bilirlər. Fiziki dünyada sürət o ölçüdədir ki, bir şey məkanda eyni vaxtda yalnız bir yerdə ola bilər (istənilən sabit maddi şeylər bu qanuna tabe olur) və ya eyni vaxtda məkanda bir yerdə ola və ümumiyyətlə məkanda olmaya bilər (işıq özünün ikili təbiətinə görə belədir; foton kimi çıxış etdikdə məkanda yerə malikdir, dalğa kimi çıxış etdikdə məkanda əriyərək yox olur). Buna görə də fiziki dünyada məlumatın ötürülməsi məkanda yerdəyişmə və zamanda sürəklilik tələb edir. Amma metafizikada xalis sürətdə metafizik predmet eyni anda məkanda müxtəlif yerlərdə və eyni yerdə müxtəlif vaxtlarda ola bildiklərindən, hərəkətə və sürəkliliyə ehtiyac qalmır. Belə sürət özündə sükunəti, hərəkətsizliyi təqdim edir. Biz bunu pərin fırlanmasında müşahidə edirik. Pərin qanadları sürətlə fırlandıqca onun fırlanmadığı təsəvvürü yaranır, yəni sanki pər sükunətdə olur. Metafizikada xalis sürət sürətin təsəvvür olunan son həddini özündə təqdim edir, buna görə də mütləq sükunətlə eyniyyət təşkil edir. Nəticədə xalis sürətlə hərəkət zamanı hərəkət edən predmet bir anda bütün məkanı qət edir, bir yerdə bütün zamanın sürəkliliyinə malik olur. Bununla da metafizik predmet məkandan və zamanda şərtlənmədən azad olur. Ona görə də kvant fizikası "itən elektronun yeni orbitdə harada və nə zaman olacağını dəqiq təyin edə bilmir".

6. Xalis dalğa: "Cismə" malik olmayan, yəni dalğa uzunluğunun ifrat qısalması istisna olunan və buna görə də hissəcik təbiətindən azad olan dalğanı xalis dalğa kimi təyin edə bilərik. Biz lokalizə olunmayan, yəni məkanı olmayan, buna görə də özü məkan kimi çıxış edən məkanda yayılan metafizik predmeti dalğa kimi təyin edirik. Fiziki dünyada çoxlu sayda dalğa növü var. Hər bir dalğa daşıdığı məlumata uyğun - işıq dalğası, səs dalğası, elektromaqnit dalğası, rentgen dalğası və s. kimi adlandırılır. Metafizik xalis dalğa bütün dalğalara dalğalıq verən, eyni zamanda bütün dalğaların məcmusu kimi meydana çıxan dalğadır. Başqa sözlə, ayrı-ayrı siqnalların məcmusu xalis dalğada daşınır, hansı ki fiziki dünyadakı bütün siqnallar birlikdə təbiətin mütləq həqiqətini özündə təqdim edir. Buradan xalis dalğanı təbiətin, Kainatın həqiqətini özündə daşıyan dalğa kimi təyin edə bilərik.

7. Metafizik strukturlar - Xalis qurulma: Biz atoma qədər fikrən təsəvvür edilən bütün strukturları metafizik strukturlar adlandırırıq. Fizikada belə strukturlar kimi Myuonium (qamma müsbət mezonun ətrafında elektronun fırlanmasından əmələ gələn atomaqədər struktur), rezonanslar (bura rezonans hissəciklər, rezonans vəziyyət və ya re-zonanslar aiddir). Təbiətdə qurulma hissəciklərin bir-biri ilə əlaqələnməsi ilə meydana çıxır. Xalis qurulmada hissəciklər olmadığından qurulma yalnız xalis dalğaların əlaqələnməsi kimi meydana çıxır. İnsan beynində ideyaların assosiasiyasından yeni fikrin yaranması özündə xalis qurulmanı ifadə edir.

8. Xalis zəka: Xalis zəka bütün "düşünən Mən"lərin zəkasına paylanan və eyni zamanda onların məcmusu kimi mövcud olan zəkanı adlandırırıq. Əgər fiziki dünyada xalis zəka bədənlə və ətraf şeylərlə şərtlənmiş şəkildə sıra şəklində mövcud olursa, metafizikada xalis zəka digər metafizik obyektlərdən şərtlənmədən onlara paralel mümkünlük kimi mövcud olur. Belə mövcudluqda metafizik predmetlər xalis zəkaya görə kənar predmetlər kimi mövcuddur. Belə paralel mövcudluqda xalis

zəka metafizik predmetlərlə qarşılıqlı təsirdə olur. Bu təsir şərtlənmiş zəkada da mövcuddur. Fiziki aləmdə material çoxluq bir şərtlənmiş zəkaya təsir etdiyindən, bu təsirlər məcmu şəkildə - bilik kimi meydana çıxır. Bizim material dünyaya əks-təsirimiz bütün mövcud şeylərə paylandığından onlarda aşkar olunmaz dərəcədə əks olunur. Amma metafizik aləmdə xalis zəka xalis faktlarla bərabər təsir-əks təsirə məruz qalır. Nəticədə xalis zəkanın şüuru metafizikada əməlgəlməyə təsir edir. Yəni xalis zəka metafizik predmetləri yaradır və ya məhv edir. Bunu kvant fizikası da təsdiq edir, yəni kvant fizikasında müşahidəçi müşahidə obyektinə təsir edir.

9. Ehtimal sahələri: Xalis dalğanın ayrı-ayrı həqiqət siqnallarını daşıyan dalğalara ayrılmasından "ehtimal sahələri" yaranır, hansı ki belə dalğaların özünə xas dəqiq yerləri olmur. Hissəcik vəziyyətində ehtimal sahələri "əlləşərək" (kollapslaşaraq) bərk obyektə - hissəciyə çevrilir. Bu cür hissəciklərin müxtəlif qanunauyğunluqlar əsasında aqreqasiya olunmasından fiziki dünyanın əsası - materiya əmələ gəlir.

10. Süni radioaktiv maddələr: Belə maddələr təbiətdə müstəqil mövcudluq kimi yoxdurlar. Onlar yalnız nüvə reaksiyalarında radioaktiv izotoplar kimi meydana çıxır. Biz məkan və zamanda keçici şərtlənmiş elementləri də metafizik statuslu obyektlərə aid edirik. Belə obyektlər fizika ilə metafizika arasında mövcud olan varlıqlardır. Buna görə də onları həm metafizik aləmdə intuitiv idrakla dərk etmək olur. Buna sübut həmin elementlərin varlığının mövcudluğunu Mendeleyevin qabaqcadan aşkarlamasıdır. Həm də hissi idrakla dərk olunur, belə ki atomun parçalanmasında təbiətdə aşkarlanır.

11. Antimateriya: Biz antimateriyanı qurulmanın əks istiqamətdə inkişafının sonunu özündə təqdim edən noumen kimi təyin edirik. Beləliklə, materiya ilə antimateriya bir-biri ilə son və başlanğıc kimi mövcuddur. Əgər metafizikadan baxılırsa antimateriya əvvəl, materiya sondur; yox təbiətdən baxılırsa materiya əvvəl, antimateriya sondur.

METAFİZİK HADİSƏLƏR

Metafizik aləmdə varlığın mövcudluqları arasında münasibətdən metafizik hadisələr meydana çıxır. Fiziki aləmdə baş verən hadisələr sərt determinə olunur. Metafizikada determinasiya yoxdur. Determinasiyanın olmaması metafizik aləmdə baş verən hadisələri fiziki hadisələrdən kəskin fərqləndirir. Belə hadisələrə aşağıdakıları aid etmək olar:

1. Metafizik təzahür: Təbiətdə hər bir şey bilavasitə təzahürlərindən hissi qavranılır. Bəs metafizik obyektlər bilavasitəlikləri olmadığından necə təzahür edərək intuitiv qavranırlar?

Haşiyə: A.N.Uaythed "Kvant nəzəriyyəsi"

> *"Ehtimal nəzəriyyəsinin ən əhəmiyyətli məqamı onu hesab etmək olar ki, guya tədricən artma və azalma meylinə qabiliyyətinə malik təzahürlər həqiqətdə sıçrayışla artır və azalır. Bu ona oxşayır ki, siz saatda üç və ya dörd kilometr yol gedə bilərsiz, amma saatda 3,5 km sürətlə hərəkət edə bilməzsiz. Sonrakı bölünməyə tabe olmayan minimum miqdar enerji vardır. Bir tam kimi və strukturun özündə vibrasion dəyişilmə kimi strukturların titrəyişli hərəkəti mövcuddur."*

Beləliklə, Ehtimal nəzəriyyəsinin şərhi ilə bağlı Uaythedin fikirlərini bir qədər geniş izah edək. Fizikada hərəkət məkanda yerdəyişmə kimi, zamanda sürəklilik kimi baş verir. Beləliklə, hərəkət edən fiziki şey məkanın hərəkət istiqamətində bütün nöqtələrini ardıcıl şəkildə bir-bir keçməyə məcbur olur, çünki məkanla şərtlənmə bunu ona məcbur edir. Əgər hərəkət edən şey məkanda hərəkət edərkən məkanın hansısa nöqtəsində olmursa, bu o deməkdir ki, həmin nöqtədə şey məkanla şərtlənmir. Eləcə də zamanla şərtlənmə buna uyğun fiziki hərəkətin təbiətinə təsir edir, belə ki zamanla şərtlənməyə görə də hərəkət yalnız sürəkliliklə baş verir. Sürəklilik zamana ardıcıl anların birindən digərinə keçid kimi təsəvvür oluna bilər. Əgər bu anlardan hansısa keçilmirsə, bu o deməkdir ki, həmin anda şey zamanla şərtlənmir. Metafizik obyektlər

ümumiyyətlə məkan və zamanla şərtlənmədiyindən metafizikada təzahürlər tədricilikdən azad olur. Yəni bizim zaman və məkan şərtimizə münasibətdə məkanın bütün nöqtələri və zamanın bütün anlarından keçid tələb olunur, hansı ki biz təbiətdə belə hərəkəti sıçrayış kimi dərk edirik. Amma məkanda sıçrayışlı hərəkət məkanla nisbi şərtsizləşməni ifadə etdiyindən əslində mütləq məkani şərtlənmə ilə təzahür edir. Metafizikada bir şey eyni zamanda müxtəlif yerlərdə olduğundan onun məkanda ardıcıl hərəkətinə ehtiyac qalmır, biz sadəcə öz məkan və zaman şərtimizə görə belə hissəciklərin sıçrayışlı təzahürünü aşkarlayırıq. Üçüncü tərəfdən, təbiətdə strukturlar daxili hərəkətsizlikdə xarici hərəkətlilik edirlər. Metafizikada daxilik olmadığından hərəkət yalnız xarici kimi baş verir. Nəticədə metafizik noumen sanki şeyin öz xarici sərhədlərindən çıxıb daxili ilə hərəkət etməsi kimi baş verir, hansı ki belə hərəkətdə hərəkətlərdən biri ixtisara düşür. Beləliklə, biz "birdən yada düşmək" hadisəsini metafizik təzahür kimi təyin edə bilərik. Birdən yada düşmədə yada düşən, yada düşənə qədər heç bir məsafə qət etmir, amma buna baxmayaraq yaddaşdan kənardan yada düşür. Beləliklə, məsafə və zaman ixtisara salınmaqla hərəkət meydana çıxır. Metafizik obyektlərin təfəkkürdə refleksiyası belə sıçrayışlarla baş verir.

2. Möcüzə - Metafizik radioaktivlik: Heç bir fiziki qanunla izahı mümkün olmayan hadisəni möcüzə kimi təyin edirik. Biz möcüzəni mövcudluq əldə etməyə cəhd edən mümkünlüyün ixtiyari mövcudluğa heç bir imkan olmadan keçməsi kimi təyin edirik. Məsələn, Musa peyğəmbərin əsasının ilana çevrilməsi möcüzəsini şərh edək. Fiziki dünyada tutaq ki əsa ağacdan olubsa, fiziki hadisələr nəticəsində kömürə, istiliyə, işıq mənbəyinə, hisə, sonda karbon qazına və s. çevrilə bilər. Heç bir halda əsanın - cismin canlıya çevrilməsi mümkün olmaz, çünki səbəbilik prinsipinə görə nə yalnız nədən əmələ gələ bilər. Yəni cisim cisimdən, canlı canlıdan yarana bilər. Amma metafizik aləmdə mümkünlük təklik olduğundan istənilən çoxluqda mövcudluq tək bir

mümkünlükdən yarandığından imkandan asılı olaraq bir şeydən istənilən ixtiyari şey əmələ gələ bilər. Burada imkandan asılılıq özündə təbiətin bütün qanunlarının gücünü ifadə edir, hansı ki bu güclərə görə mümkünlük ağlabatan mövcudluğa keçir.

Niyə? Metafizika mümkün varlıqlardan, fiziki aləm mövcud varlıqlardan təşkil olunub. Mövcud varlıq alternativsizdir, yəni tək bir variantdır, ona görə də eyni sıradan olan mövcudluqlar bir və yeganə qanuna tabe olur. Metafizikada mümkün varlığın mövcud varlığa keçidi mümkünlüyün sayı ilə bağlı alternativlidir və hər bir variant özünəxas qanunlarla mövcud varlığa çevrilərək sıra təşkil edə bilər. Biz buna oxşar hadisəni radioaktivlik hadisəsində müşahidə edirik. Biz təbii radioaktivliyi metafizik radioaktivlikdən fərqləndirərək fiziki radioaktivlik və ya zərurətə görə nisbi radioaktivlik adlandırırıq. Burada "zərurətə görə" termini radioaktivliyin immanentliyini, yəni daxili səbəbilik prinsipinə tabe olduğunu, "nisbilik" müəyyən səviyyəyədək davam etdiyini ifadə edir. Amma təsadüfə görə mütləq radioaktivlik bundan fərqli olaraq xarici səbəbiyyətə tabe olduğundan təsadüfi və determinasiya olmadığından sonsuz prosesi özündə təqdim edir.

Fizikada radioaktivlik "bir kimyəvi elementin dayanıqsız izotoplarının, bəzi hissələri buraxmaqla başqa elementin izotoplarına çevrilməsi" kimi təyin olunub. Burada "başqa elementin izotopu" zərurətə görə mövcud olduğundan fiziki radioaktivlikdə bir kimyəvi maddənin izotopunun başqa kimyəvi maddənin izotopuna çevrilməsi müəyyəndir, yəni nizamlıdır. Amma metafizik radioaktivlikdə bir noumenin başqasına çevrilməsi xaotik və nizamsızdır. Buradan da mütləq təsadüflüyə görə bir noumendən mümkün olan istənilən noumenin əmələ gəlməsi mümkün olur. Beləliklə, Musanın möcüzəsi yalnız metafizik hadisə kimi həqiqətdir, təbii hadisə kimi qeyri-həqiqətdir.

3. Metafizik təsir - "Nəzər": Bu metafizik hadisə kvant fizikasında kvant sahələrinin hissəciklərinin virtual mübadiləsi hadisəsinə uyğundur.

Bu hadisə bir-birindən sonsuz uzaqlıqda olan hissəciklərin birinin özü-özündə dəyişilməsinin digərinin spontan özü-özünə dəyişilməsinə səbəb olmasını özündə təqdim edir. Fiziki dünyada qarşılıqlı təsirdə iki cisimdən yalnız biri həm də digərinin bilavasitə ona təsirindən dəyişir. Amma metafizikada bir hissəciyin özü-özündə xarici təsir olmadan dəyişilməsi digər hissəciyin xarici təsir olmadan spontan dəyişilməsinə səbəb olur. Belə "təsir"də informasiya ötürülmədiyindən təsir mütləq təsir kimi meydana çıxır. Mütləq təsiri biz ötürülmə vasitəsi və ötürülmə mühiti olmadan qəbul edilən təsir kimi təyin edirik. Bu cür təsiri "nəzər"in mahiyyətindən anlamaq olar. "Nəzər" bir insanın görmə ilə başqa şeylərə məhvedici təsir gücünü özündə ifadə edir. Başqa sözlə, fiziki dünyada virtual mübadilə kimi təyin edilməsi mümkün olan "nəzər", metafizik aləmdə əsas təsir forması kimi mövcuddur.

4. Annihilyasiya - Metafizik məhvolma: Fiziki dünyada enerjinin saxlanması qanunu hökm sürür. Bu qanuna görə enerji heçdən yaranmır və heçdən yox olmur, sadəcə bir formadan başqa formaya keçir. Metafizikada bunun əksinə enerji heçdən yaranır və heç olur. Enerjinin heç olması kvant fizikasında annihilyasiya adlanır. Annihilyasiya hissəciklərlə antihissəciyin toqquşmasında hissəciyin məhv edilməsindən ibarətdir. Burada məhv edilmə fiziki aləmdə olduğu kimi bir varlıq sırasından başqa varlıq sırasına keçid kimi yox, ümumiyyətlə varlıqdan yoxluğa keçid kimi baş verir. Buradan da biz antimateriyanı - antihissəciyi yoxluğun təzahür forması kimi təyin edirik.

5. Hissəciklərin doğulması: Kvant fizikasında annihilyasiyanın əks prosesi hissəciklərin doğulması adlanır. Metafizik doğulma sahənin hissəciyə keçməsini və ya dalğanın hissəcik yaratması kimi təsəvvür oluna bilər. Kvant fizikasında bu hadisə vakuumla hissəciyin qarşılıqlı təsirinin nəticəsini izah edən Dirakın nəzəriyyəsi ilə şərh olunur.

6. Metafizik yaranış - Vakuumun polyarizasiyası: Metafizik anlamda vakuum fiziki vakuumdan fərqlənir. Belə ki, metafizik vakuumun

bir kub santimetrində bizim Kainatın bütün şeylərinin özündə saxladığı qədər enerji saxlanılır. Beləliklə, mütləq vakuumdan sonsuz sayda Kainatların yaranması mümkündür. Vakuumdan hissəciyin yaranması vakuumun polyarizasiyası ilə mümkün olur. Kvant fizikasında iki cür vakuum müəyyən edilmişdir: elektromaqnit sahələrinin vakuumu və elektron-pozitron sahəsinin vakuumu. Bu vakuumların qarşılıqlı nisbətinin qeyri-müəyyənliyindən vakuumda sahə sıfra meyllənir, hansı ki virtual yaranan və yox olan fotonların və elektron-pozitron sahələrin - antihissəciyin vəziyyəti kimi təsəvvür edilir. Biz vakuumun polyarizasiyasını yoxun vardan aralanması, yəni antimateriyanın itməsi nəticəsində onun məhv etdiyi hissəciyin görünməsi kimi təyin edirik. Başqa sözlə, mütləq vakuumda yaranma həqiqətin azalma meylinin - antihissəciyin daşıdığı meylin onun artma meylindən ayrılması kimi, yəni yoxdan varın əmələ gəlməsi, yoxun yox etdiyi vardan çıxması kimi təsəvvür edirik.

7. Metafizik tənzimlənmə - Radiasion təshih: Fiziki dünyada bütün hadisələrin tənzimlənməsi immanent səbəblərlə bağlıdır. Metafizikada belə tənzimləmə mexanizmləri transsendentaldır, yəni metafizik predmetlərdən kənardadır. Kvant fizikası belə tənzimlənməni radiasion təshih adlandırır. Radiasion düzəliş - elektronun anomal maqnit sahəsinin meydana çıxması, səviyyələrin Lembov meyllənməsi - elektronların enerji səviyyəsi ilə hidrogenə oxşar sistemlərin enerjisi arasında fərqin yaranmasıdır. Hissəciklərlə vakuumun qarşılıqlı təsiri universal qarşılıqlı təsirin və maddənin hissəcikləri və kvant sahəsinin qarşılıqlı çevrilməsinin aşkarlanmasını özündə təqdim etməsini ifadə edir.

XALİS AKTLAR

Fiziki dünyada bütün mövcudluqlar məkan və zaman şərtində mövcuddurlar. Metafizik aləmdə noumenlər tək şərtli, yəni ya sıfır zamanla, ya sıfır məkanla şərtlənərək mövcud olurlar. Yəni metafizik noumenlər ya zamansız, ya məkansız mövcudluqlardır. Zamansız mövcud

olma atom nüvəsinin spontan parçalanmasından da görmək olar. Belə ki, atomun nüvəsinin spontan parçalanması $N(t) = N_0 e^{-\lambda t}$ burada N_0 - zamanın sıfır məqamında (t=0) mövcud həcmdə maddənin nüvəsinin sayıdır, N - vaxtın məqamında həmin həcmdə olan nüvələrin sayıdır. $t\lambda$ - daimi parçalanmadır. Düsturundan görünür ki, zamansızlıqdan (t=0) zamanlılığa keçiddə daimi parçalanma fiziki dünya üçün xarakterik olmayan dayanıqsızlıq əmələ gəlir; hansı ki metafizik aləm üçün xarakterikdir. Eləcə də M=0 (məkanı sıfra bərabər olan) halında meydana çıxan aktlar metafizik təbiətlidir.

VARLIĞIN İDRAKI

Varlığın metafizik idrakı özündə nəyi təqdim edir?
Başqa sözlə, varlıq necə idrak olunur?

Haşiyə: Əbu Əli İbn Sina "Danişnamə"

> *"Varlıq ağılla təyinsiz və təsvirsiz idrak olunur. Belə ki, onun təyini yoxdur, onun növü, cinsi, özündən daha ümumi şeyi yoxdur. O, ona nisbətən daha aydın olan şey olmadığından təsvir olunur."*

İbn Sinanın varlığa verdiyi təyində iki məsələyə aydınlıq gətirək:

1. Təyinsiz idrak olunmaq: Təyin etmək özündə nəyi bildirir?

Təyin etmək - ruhun xarici predmetləri özündən yadlaşdırmasından, özünə əks qoymasından ibarətdir. Yəni biz nə qədər xarici predmetləri özümüzə - ruhi təbiətimizə - yadlaşdırırıqsa, bir o qədər onları idrak üçün təyin etmiş oluruq.

Təyin etməyin bir çox mənaları vardır:

Birinci məna: Yerini təyin etmək, başqa sözlə, məkan şərtini aşkarlaq. Biz idrak etdiyimiz obyektləri bizim yerimizə və bir-birinin yerinə görə təyin edirik. Yeri təyin olunmadan konkret predmetə istiqamətlənmək mümkün deyildir. Məkanda konkret yeri olmayan şey fərdi şey kimi mövcud deyil. Əgər varlıq təyinsiz idrak olunursa, bu o deməkdir ki, varlığın məkanda konkret yeri yoxdur və ya bütün məkan bütün varlığın yeri kimi çıxış edir. Buradan da yerlə xarakterizə olunan hüdudluluq istisna olunur, yəni varlığın konkret hüdudları yoxdur, hüdudları yoxdursa, deməli, o sonsuzdur.

İkinci məna: Zamanını təyin etmək, başqa sözlə, zaman şərtini aşkarlamaq. Biz istənilən fərdi şeyi idrak edərkən onu vaxtla - keçmiş, indi və gələcəyə görə təyin edib sonra idrak edirik. Əgər varlıq təyinsiz idrak olunursa, deməli, onu vaxtla təyin etmək mümkün deyil. Vaxtla təyin olunmursa, deməli, o əbədidir.

Üçüncü məna: Formaya görə təyin etməkdir. Xalis forma heçlikdir. Heç bir həqiqət xalis heçlikdən təyin oluna bilməz. Digər tərəfdən, varlıq sonsuz olduğundan, forma sonsuzun sonluya keçidini özündə təqdim etdiyindən, sonsuz varlığın forması yoxdur.

Dördüncü məna: Mahiyyətə görə təyin etmək. Mahiyyət özündə forma ilə vəhdət yaradan gerçəkliklərdən aşkarlanır. Gerçəklik hissi qavranılan maddi şeylərdən ibarətdir. Əgər varlıq təyinsiz idrak olunursa, onda varlıq gerçəklik deyil, yəni hissi qavranılmayan qeyri-maddilikdir.

Bəs onda varlıq necə təyinsiz idrak olunur? İdrak olunma həqiqətin təfəkkürdə aşkarlanmasıdır. Həqiqət təfəkkürdə iki cür aşkarlanır: a) Xarici predmetlərin təfəkkürə təsirindən hissi qavrayışla; b) Daxildə təfəkkürün özü-özünə təsirindən intuitiv qavrayışla.

Deməli, əgər varlıq təyinsiz idrak olunursa, onda varlıq haqqında həqiqət yalnız təfəkkürün özü-özünə təsirindən intuitiv idrakla qavranıla bilər. Təfəkkürün özü-özünə təsiri dedikdə nə başa düşülür? Təfəkkür hissi təcrübədə mövcud varlıqlar haqqında hissi qavrayışla müəyyən bilik əldə edir. Hissi qavrama xarici əşyalarla əqli əməliyyat aparmağı özündə təqdim edir. Biz bunu başlanğıc bilgi adlandırırıq. Başlanğıc bilgi xüsusi şeylər haqqında, emanasiyaya məruz qalmış həqiqətlərdən ibarətdir. Təfəkkürdə bilginin entropiyadan təmizlənməsi ilə emanasiyaya əks istiqamətdə inkişaf etdirilməsindən daha sadə başlanğıc - mütləq-nisbi həqiqət haqqında məlumat əldə edilir ki, varlığın təyinsiz idrakı da bu üsulla baş verir. Beləliklə, mövcud varlıqdan mövcudluğun predikatlarının kənarlaşdırılması ilə varlığın mövcudluğu haqqında bilgi əldə etmiş oluruq.

2. Təsvirsiz idrak olunmaq:

Təsvir sözü şəklini çəkməyi bildirir. İdrakda təsvir predmetin sözlərlə şəklinin çəkilməsindən ibarətdir. Beləliklə, təsvirli idrak olunmaq - təfəkkürdə xarici gerçəkliklərin xarici görüntüsünün sözlə təşkil olunan abstrakt görüntüsündən həqiqətin aydınlaşmasını özündə ifadə edir, hansı ki həmin aydınlaşmadan həqiqət idrak olunur. Beləliklə, təsvir etmək predmetin söz portretini - sözlü obrazını yaratmağı özündə ifadə edir. Əgər varlıq təsvirsiz idrak olunursa, onda onun sözlə təsvir olunacaq xarici görüntüsü yoxdur. Xarici görüntü rəng, həndəsi forma və saydan ibarətdir.

Buna görə də, təsvirsizlik özündə üç mənanı ifadə etmiş olur:

Birinci məna: Həndəsi formaya malik olmamaqlıq. Həndəsi forma xətt, səth və həcm kimi elementlərdən təşkil olunur. Əgər varlıq təsvirsiz təyin olunursa, deməli, varlığın xətləri, səthləri və həcmi yoxdur.

İkinci məna: Rəngi olmamaqlığı ifadə edir. Rəngi olmamaq özündə ya işığın düşmədiyi - mütləq qaranlıqda olmaqlığı, ya da işığın heç bir entropiyaya məruz qalmadan predmetdən keçməsini - mütləq şəffaflığı ifadə edir. Yalnız şey özü-özünü entropiya etmir - entropiya etsəydi, onda özü olmazdı, başqa mövcudluğa çevrilmə cəhdində olardı ki, bu da olmaqlığı istisna edərdi. İşıq yalnız öz təbiətinə uyğun şeydən olduğu kimi keçə bilər. Buradan da varlığın rəngi olmadığından təsvirsiz idrak olunması varlığın işıq təbiətli olması mənasını verir.

Nəhayət: Sayı olmaqlıq mənasını ifadə edir. Hər hansı bir şeyin sayı yoxdursa, deməli, tək fakt kimi mövcuddur və onun aktuallığı buna görə mümkünsüzlükdür. Bu mənada təsvirsiz idrak olunduğundan varlığın tək fakt kimi mövcud olmasını özündə ifadə edir. Varlığın aktı olmadığından təzahür etmir, yəni keyfiyyətləri aşkarlanmır.

Bununla da biz təyinsiz və təsvirsiz idrak olunmasından varlığın ümumi xarakteristikasını aşkarlamış oluruq. Varlıq anlayışı - əbədi, sonsuz, formasız, mahiyyətsiz, işıq təbiətli, aktuallaşmamış fakt kimi

bütün mövcudluqların ən ümumi əsasını təşkil edən ilk yaradılanı özündə ifadə edir.

Varlığın mövcudluqları yaratmasından iki xarakteristika meydana çıxır:

a. Aksidensiya: Aksidensiya şeydən ayrılan təbiəti özündə ifadə edən anlayışdır. Şeydən ayrılmağın iki mənası vardır. Birincisi, bir şeydən ayrılıb başqa şeyə keçmək mənasında. Məsələn, biz bir şeyin rəngi ilə başqa şeyi rəngləyirik. Bu zaman rənglənən şeyin rəngi birinci şeydən asılı olur. İkinci mənada, şeydən ayrılıb subyektə keçmək mənasında. Belə keçmədə şeyin təfəkkürdə obrazları yaranır. Bu zaman obrazlar obraz yaradan şeyin xarici görüntüsündən asılı olur.

Haşiyə: Əbu Əli İbn Sina "Danişnamə"

> *"Aksidensiya - nəyinsə varlığının başqasının varlığından asılı olmasıdır, onsuz (aksidensiyasız) və ya özü-özündə, və ya da başqa nədənsə dolğun və həqiqidir."*

Beləliklə, İbn Sinanın yuxarıdakı fikirlərindən görünür ki, aksidensiya elə xarakteristikanı ifadə edir ki, o, mövcudluğun özündən zərurətə görə çıxmır və buna görə də yalnız onu ayrılıqda təyin etmir, təsadüfə görə mövcudluqdan kənar mövcud olur, amma mövcudluqda birlikdə, bir yerdə təsvir olunur. Bununla da mövcudluğa kənardan implikasiya edildiyindən onun həqiqətini qaranlıqlaşdırır, emanasiyaya məruz qoyur və buna görə də mövcudluq onsuz dolğun və həqiqi olur.

Bəs aksidensiyanın ilk başlanğıcını nə təşkil edir? Bizə görə, sonsuz və əbədi olan varlığın keçici və sonlu mövcudluğa keçidində, varlığın hər iki xarakteristikası - sonsuzluq və əbədilik aksidensiyaya çevrilir. Yəni aksidensiya əbədiliyin və sonsuzluğun keçici və sonluya keçməsi ilə dəf edilən, mövcudluğun dərinliyinə sıxışdırılan, bununla da onlardan kənarlaşdırılan sonsuzluğun və əbədiliyin təzahürləridir.

Aksidensiya başqasının olmasını tələb edir, varlığın yalnız təklik xarakteristikası olduğundan başqası istisna olunur, buna görə də

başqasından gələn keyfiyyətə malik olmur, yəni aksidensivlik əldə etmir. Buradan da biz aksidensivliyi vəhdətin əlaməti kimi təyin edə bilərik. Beləliklə, vəhdətdən kənar varlığın aksidensivliyi də inkar olunur. Başqa sözlə, aksidensivlik birləşmənin təzahürü kimi meydana çıxır və özündə də birləşmənin mövcudluğunu ifadə edir.

Varlıq ayrı-ayrı mövcudluğa keçdikdə onun ən ümumi xarakteristikası ayrı-ayrı mövcudluqdan ayrılır və yalnız onların birliyində - vəhdətdə yenidən, amma çoxluq və fərqlilik formasında aydınlaşır. Yəni necə ki hər bir mövcudluq varlıq kimi idrak olunur, eləcə də mövcudluqların ümumiliyindən meydana çıxan varlığa xas xarakteristika aksidensiya kimi idrak olunur. Aksidensiya şeylərin ümumi keyfiyyətləridir, hansı ki qarşılıqlı refleksiyada idrak edilir. Məsələn, rəng. Rəng heç bir şeyin özündən çıxmır, amma şeylər biri-birinə münasibətdə fərqli rənglər alırlar. Buna görə də, müxtəlif şeylər eyni rəngli ola bilir. Şey məhv olduqda rəng özü-özlüyündə ondan ayrılan olduğu üçün məhv olmur. Beləliklə, aksidensivlik keçiddən - mövcudluqların faniliyindən və sərhədliliyindən azad, özü-özünə mücərrəd mövcudluq, şeysiz hissi başlanğıclar - profenomenlər kimi çıxış edir. Buradan da aksidensivliyi profenomenlərin təzahürü kimi təyin edə bilərik. Aksidensivlik başqasından asılı olduğu kimi, başqası üçün də ondan asılıdır. Məsələn, rəng işıqdan əmələ gəlir. Deməli, şeyin rəngi işıqdan asılıdır, yəni aksidensivdir. Amma şey olmadan ağ işıqdan rəng meydana çıxmır, deməli rəng həm də şeyə görə aksidensivdir. Əgər aksidensivlik şeylərdə saxlanmırsa, haradan çıxır? Aksidensivlik idrak prosesində şeylərin qarşılıqlı refleksiyasından vəhdətin əlaməti kimi idrakda aşkarlanır. Buradan da aksidensivliyi - birləşməni, vəhdəti təzahür etdirən ən ümumi xalis profenomenlər kimi təyin edirik.

b. Substansiya: Şeydən ayrılmayan təbiət substansiya kimi təyin olunur.

Haşiyə: Əbu Əli İbn Sina “Danişnamə”

"Aksidensiya olmayan hər şey və mövcudluğu subyektə təklif olunmayan, əksinə mahiyyət olan və mövcudluğu başqa bəzi şeyləri tələb etməyən nəsə substansiyadır."

İbn Sinanın substansiya ilə bağlı fikirlərindən üç məqama şərh verək:

Aksidensiya olmayan hər şey: Aksidensiya olmayan o şeydir ki, varlığın mövcudluğa çevrilməsində sıradan çıxmır və varlıqda olduğu kimi mövcudluqda da saxlanılır. Aksidensivlik xarici görüntüdən aşkarlanır, deməli, substansiya daxili görüntüdən aşkarlanandır.

Subyektə təklif olunmayan: Hissi qavrayışda şeylər aksidensivlikləri ilə özlərini subyektə təklif edirlər. Başqa sözlə, aksidensivlik kimi meydana çıxan keyfiyyətlər - say, rəng, ölçülülük subyektə təklif olunur, subyekt təklifi qəbul edərək şeyə istiqamətlənir və şeyi idrak etməyə başlayır. Gerçəkliklərdə birbaşa subyektə təklif olunmayan mövcudluqların daxili görüntüsü, yəni mahiyyətidir.

Mövcudluğu bəzi başqa şeylər təklif etməyən: Mövcudluğu başqa şeylər təklif etməyən, buna görə də yalnız özünü təklif edən, yəni yalnız konkret mövcudluqdan, bilavasitə idrak olunan varlıq substansiyadır. Beləliklə, yuxarıda varlığı müəyyən etdiyimiz işıq təbiətinin mövcudluğa keçməsi ilə onda aktuallaşması mövcudluğun substansiyasını təşkil edir, hansı ki yalnız mövcudluğun özündən aşkarlanan varlıqdan ibarətdir.

Göründüyü kimi, aksidensiya təzahürləri, substansiya mahiyyətləri ümumi şəkildə ifadə edir. Hansı ki təzahürlərin vəhdətindən forma, mahiyyətdən materiya meydana çıxır ki, gerçəkliklərin varlığı forma ilə (aksidensiya - varlığın sonsuzluq və əbədilik xarakteristikası) mahiyyətin vəhdəti materiya (substansiya - işıq təbiətinin varlığı) kimi idraka təqdim olunur.

VARLIĞIN İDRAK FORMALARI

Varlıqları ən ümumi şəkildə təfəkkürə münasibətdə iki yerə ayırmaq olar:

a. Təfəkkürün özü-özündə yaranan varlıqlar: Biz bu cür varlıqları təfəkkürə münasibətdə daxili varlıqlar adlandırırıq. Daxili varlıqlar təfəkkürdən asılı olaraq mövcud olur və buna görə də yalnız ağıldan törəyən ideyalarla dərk olunur. Daxili varlıqlar varlığın mövcudluğu kimi meydana çıxır.

b. Təfəkkürdən kənarda özü-özündə yaranan varlıqlar: Biz bu cür varlıqları təfəkkürə münasibətdə xarici varlıqlar adlandırırıq. Xarici varlıqlar təfəkkürdən asılı olmadan avtonom mövcud varlıqlar kimi təzahür edir. Belə varlıqlar faktdan törəyən ideyalarla dərk olunur.

Təfəkkürə münasibətdə varlıqlar bir-birindən necə fərqlənir? Obyekt-subyekt münasibətindən tərəflərin birinciliyinə görə iki cür varlıq forması ayırd etmək olar:

1. Müəyyən olunan varlıq: Obyekt-subyekt münasibətində obyektin birinciliyində, ondan asılı olaraq aşkarlanan varlığı biz müəyyən olunan varlıq adlandırırıq. Müəyyən varlıq özündə həqiqətin aydınlaşması ilə xarakterikdir. Belə varlığa zərurətə görə mövcud olan, bilavasitə təzahür edən, hissi qavranılan maddi şeylər aiddir. Zərurətə görə mövcudluq özündə mümkünlüyün ən ideal forması kimi meydana çıxır, hansı ki ən sadə, ən ümumi şərtlərdə mövcud varlığa keçməməsi mümkünsüzlükdür. Başqa sözlə, mümkünlüyün aktuallaşması imkan kimi meydana çıxır və mümkünlük imkanın sayı qədər alternativ mövcudluqlara keçə bilir, yəni mümkün varlığın mövcud varlığa keçməsi alternativli olub, mümkünlüyün imkanlarının sayına bərabərdir.

Mümkün varlığın imkanları qeyri-bərabərdir. Əgər bütün imkanlar eyni bərabərlikdə olsaydı, onda mümkünlük istisna olardı, yəni mümkünlük mövcudluğa bərabər olardı. Mümkünlüyün mövcudluğa bərabərliyi potensiallığı inkar etdiyindən, o da aktuallaşma ilə qarşılıqlı əlaqədə olduğundan, onda aktuallaşma da inkar olunardı. Yəni mövcudluq mövcud olana keçməzdi və nəticədə təbiət yaranmazdı. Təbiətin mövcudluğu aktuallaşmanı, aktuallaşmanın mövcudluğu özünün

əksliyi kimi potensiallığı, öz növbəsində potensiallıq isə mövcudluqla mümkünlüyün fərqliliyini sübut edir. Mümkünlük xarici şərtlərdən asılı olan potensiallıqdır, hansı ki hər bir imkan üçün xüsusi şərtlər tələb olunur. Həmin şərtlərin sadədən mürəkkəbə doğru inkişafında müxtəlif mövcudluqlar təzahür edir. Təbiət ən sadə, ən ümumi şərtlərdə mümkünlüyün mövcud varlığa keçmə imkanını özündə təqdim edir və təbiətin birinci yaranması məhz bunu bir daha sübut edir.

Artıq bu gün təbii materialın əmələgəlmə şərtlərini dəyişdirməklə onun alternativ imkanı kimi süni materiallar kəşf olunmuşdur, hansı ki özünün bütün keyfiyyətlərinə görə təbii şəkildə mövcud olan eyni mümkünlüyün təbii mövcudluğundan fərqlənir. Süni maddələr insan tərəfindən imkanın planlaşdırılması ilə mümkünlüyün mövcudluq əldə etmə meylini idarə etmə kimi meydana çıxır. Nəticədə, obyektifikasiya pozulur, yəni hadisələrin təbii kombinasiya yaratmasına müdaxilə edilir, hansı ki obyektifikasiyanın paradiqmalarını dəyişməklə qeyri-təbii, daha mürəkkəb və xüsusi mövcud varlıq formaları yaranır.

Zərurətə görə mövcud olma ən sadə və ən ümumi şərtlərdən asılı yarandığından, bütün mövcudluqlar üçün ən sadə və ən ümumi keyfiyyətləri daimidir, sonsuzdur və immanentdir, yəni daxilidir. Mümkünlüyün bilavasitə təsiri onun hissi qavranılma xarakteristikasıdır, hansı ki təcrübədə obyekt-subyekt münasibətində heç bir vasitə olmadan bilavasitə subyektə təsir edərək onda refleksiya edir. Mövcud olmanın öz növbəsində ən ümumi və ən sadə forması maddilikdir, hansı ki bütün cisimlərin əsasını təşkil edir. Maddilik məkanda və zaman asılılığından ölçülülük əldə edərək ən sadə və asan, həm də ən aydın və dəqiq şəkildə təfəkkürdə aşkarlanır. Lakin bundan fərqli olaraq qeyri-maddi can və ruh məkan və zaman ölçülülüyünə malik olmadığından bilavasitə təyin oluna bilmir və daha mürəkkəb şəkildə bulanıq və qeyri-dəqiq şəkildə aşkarlanır.

2. Təyin olunan varlıq: Obyekt-subyekt münasibətində subyektin birinciliyində, ondan asılı olaraq meydana çıxan varlığı biz təyin olunan varlıq adlandırırıq. Təyin olunan varlığın əsas xarakteristikası aşkarlanmadır. Belə varlıqlara təsadüfə görə mövcud olan, dolayısı yolla təfəkkürdə refleksiya ilə təzahür edən, qeyri-hissi qavranılan qeyri-maddi varlıqlar aiddir.

Təsadüfə görə mövcudluq xarici şərtlənməni özündə təqdim edir və xarici şərtlərin sayı nə qədər çoxdursa, təsadüflük bir o qədər daha çox təsadüfə görə şərtlənmiş varlığı üzə çıxarır. Təsadüfə görə şərtlənmə xarici olduğundan bilavasitə idraka təsir etmir, həmin varlıqlar xarici şərtlərin ümumi məcmusundan dolayısı ilə aşkarlanır. Belə varlıqlar dolayısı ilə aşkarlandığından bilavasitə hissi qavranılmır və buna görə də qeyri-maddi varlıqlar kimi mövcud olur. Bütün zərurətə görə varlıqlar konkret, bütün təsadüfə görə varlıqlar mücərrəddir.

Beləliklə, obyekt-subyekt münasibətində hər bir real varlıq həm müəyyən, həm təyin olunan olur, amma metafizik statuslu obyektlər isə yalnız təyin olunan olur.

XARİCİ VARLIQLAR

Obyekt-subyekt münasibətində müəyyənliyi birincili, təyinliliyi ikincili olan, zərurətə görə vəhdətdə mövcud olan, hissi qavranılan varlıqları biz təfəkkürə münasibətdə **xarici varlıqlar** adlandırırıq. Beləliklə, xarici varlıqların həm özü-özündə müəyyənliyi, yəni substansiyası, həm də özündən kənarda təfəkkürdə təyini, yəni aksidensiyası vardır. Xarici varlıqlar ən ümumi şəkildə özündə mövcudluğun varlığını təqdim edir.

Varlıq yalnız insanın idrakı naminə yaradılmadığından və bir-birindən fərqli iki prosesdə - yaranma və əmələgəlmə proseslərində aydınlaşdığından, varlığın totallığı bilavasitə hissi qavrama ilə şüur tərəfindən idrak olunmur. Total varlığın hissi qavramadan kənarda qalan tərəfləri qeyri-hissi qavrama ilə dərk olunur. Beləliklə, biz varlığın totallığı haqqında məlumatı iki müxtəlif yolla - hissi və qeyri-hissi yolla əldə etdiyimiz məlumatların məcmusundan idrak edə bilərik.

Haşiyə: B.Spinoza, "Metafizik fikirlər"

> *"Varlığın təyinindən və ya əgər xeyirlidirsə, varlığın təsvirindən asanlıqla görmək olar ki, varlığı öz təbiətinə görə zəruri mövcud olan varlıq, yəni mahiyyəti mövcudolmanı özünə daxil edən varlıq və mahiyyəti mövcudolmanı mümkünlük kimi özünə daxil edən varlıqdır. Sonuncu substansiya və modusa bölünür."*

Deyilənləri yaxşı anlamaq üçün mahiyyətin varlığı (*esse essentiae*), mövcudolmanın varlığı (*esse existentiae*), ideyanın varlığı (*esse ideae*) və mümkünlüyün varlığı (*esse potentiae*) adı altında nəzərdə tutulanları başa düşmək lazımdır.

Biz varlığın idrakında yeni terminlərdən istifadə etmədən B.Spinozanın və Hegelin varlıq təyinlərini ifadə edən terminlərdən istifadə etməyi məqsədəuyğun hesab edirik. B.Spinoza tərəfindən təyin

edilmiş varlığın hər bir forması bir-birindən fərqli üsul və metodlarla aşkarlana bilər. Ona görə də onların hər birini ayrılıqda şərh etmək lazım gəlir. Bütün varlıq formaları birlikdə özündə total varlığı təqdim edir. Varlığın yaranma prosesində təyini bilavasitə İlahi ağılla rabitədə, əmələgəlmə prosesindəki təyini insan ağlı ilə rabitədə aşkarlanır.

FORMAL VARLIQ

Formal varlıq daxili bilavasitəliyi olmayan, amma özündə zərurəti olan varlıqdır. Formal sözü forma sözündən əmələ gəlmişdir. Forma sözü - xarici görünüş, fiqura və obraz mənalarına, formal sözü isə özündə - müəyyən edilmiş nizamla hazırlanan, formallığa riayət etməklə hazırlanmış mənalarını verir. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Formal varlıq - özlüyündə şeylərin xarici görüntüsünü bəlli nizamla əmələ gətirmək, obrazların - daxili görüntüsünü nizamla hazırlamaq və formallığa əməl etməklə xaricdə fiqura yaratmaq şərtlərinin məcmusundan ibarətdir.

Buradan üç cür formal varlıq meydana çıxır. Xarici görüntünü bəlli nizamla əmələ gətirən mövcud varlığın daxili formal varlığı - mahiyyət, canlıları biri digərindən əmələ gətirməklə mövcud edən formal varlıq - növ, obrazların daxili görüntüsünü bəlli nizamla yaradan ruhun daxili formal varlığı - təfəkkür və xaricdə bəlli nizamla fiqura yaradan fiktiv ruhun formal varlığı - insanlıq.

MAHİYYƏTİN VARLIĞI - ESSE ESSENTIAE - ÖZÜNDƏ FİKİR

Biz mahiyyətin varlığını, yəni **özündə fikir** anlayışını varlıqdan və təfəkkürün özü-özündən aşkarlanmayan, yəni nə faktdan, nə ağıldan törəməyən, eləcə də Allahın İlahi Ağlından törəyən ideya - Allahın fikri kimi təyin edirik. Buna görə də mahiyyətin varlığının nə müəyyənliyi, nə

təyini vardır. Müəyyənliyi olmadığından özündə şey deyil, təyini olmadığından idraka qapalıdır. Buna görə də mahiyyətin varlığı haqqında yalnız dolayı yolla mühakimələr apara bilərik.

Biz Allahın özündən şüalanan İlahi Nurun şaquli dalğalarını mahiyyətin varlığı kimi təsəvvür edirik. Belə dalğalar İlahi Nur kimi fasiləsiz şüalandığından biz belə dalğaları **şaquli dalğalar** adlandırırıq. Şaquli dalğalar sonsuz şüalanan dalğalardır və təbiətlə təbiətdənkənar arasında rabitə yaradan dalğalardır. Ona görə də mahiyyətin varlığı özündə Allah ideyasının ifadə etdiyi həqiqəti təqdim edir. Şaquli dalğalar ilkin məkanı təşkil edir və onların şüalanması ilkin zamanı meydana çıxarır. Buradan da zaman istənilən hərəkətliliklə idrak olunan olur.

Yaranmanın başlanğıcında varlıq mahiyyətin varlığı kimi var olur. Yaranma prosesinin başlanğıcında var olduğundan, mahiyyətin varlığı Allahın təbiətinə ən yaxın varlıq kimi meydana çıxır, buna görə də onun özündə saxladığı həqiqət mütləq həqiqət olur.

Haşiyə: B.Spinoza, "Metafizik fikirlər"

> *"Mahiyyətin varlığı yalnız yaradılmış şeylərin Allahın atributlarında saxlanmasına xidmət edən modusdur."*

Beləliklə, B.Spinozanın fikirlərindən də görünür ki, mahiyyətin varlığı Allaha münasibətdə ilkin varlıq, idrak prosesinə münasibətdə idrakın dərk etməli olduğu sonuncu, ideal mahiyyətdir. Mahiyyətin varlığı Allahın istəyi - mütləq həqiqət və iradəsinin, var olmaq zərurəti və bacarığının məcmusu kimi var olur, hansı ki Allahın atributlarından ibarətdir.

Var olmaq zərurəti Allahın istəyinin əksinə olan hər şeyin mütləq şəkildə istisna olunduğunu göstərir. Beləliklə, Allah nəyi ki yaratmaq istəyir, o şeylər özlərində var olmaq zərurətinə malik olurlar, yəni Allahın istəyinin əksinə var olmaya bilmirlər. Mahiyyətin varlığı özündə Allahın atributlarını bilavasitə saxladığından ən ümumi, sonsuz, əbədi, mütləq fakt kimi var olur. Mahiyyətin varlığı həqiqət daşıyan sonsuz

dalğalardan ibarətdir, hansı ki sonsuz məkanla və əbədi zamanla şərtlənmiş mütləq faktdır.

Mahiyyətin varlığını Hegel **xalis varlıq** və ya **xalis fikir** kimi təyin etmişdir. Burada "xalislik" sözü varlığın və ya fikrin forma və şüurun kamilliyindən şərtlənmədiyini göstərir. Yəni xalis varlıq forma yaratmayan mahiyyət və xalis fikir, xalis zəka ilə idrak olunan ideyanı özündə ifadə edir.

Konkretlik forma ilə mahiyyətin vəhdəti kimi meydana çıxdığından, forma ilə vəhdət təşkil etməyən mahiyyəti, buna görə də **xalis abstraksiya** təyin etmək lazım gəlir. Beləliklə, mahiyyətin varlığı aprior olaraq yalnız təfəkkürdə aşkarlanan xalis abstrakt ideya kimi mövcuddur.

Aprior biliklər təfəkkürdə aşkarlandığından və aşkarlanmış bilgilər sözlə ifadə edildiyindən, metafizik həqiqətlərin tədqiqat vasitəsi kimi sözü seçmək lazım gəlir. Başqa sözlə, cari şüurla həqiqətin idrakının nəticələrini ifadə etmək üçün yaranmış sözlərdən yenidən metafizik həqiqəti idrak etmək üçün istifadə etmək tələb olunur. Buna görə də mahiyyətin varlığının təbiətinə varmaq üçün dildə əqli əməliyyatlarda istifadə olunan ən ümumi sözlərdən istifadə etmək lazımdır.

Mahiyyətin varlığı total varlığın başlanğıcını təşkil edir və varlığın digər formaları mahiyyətin varlığından sonra meydana çıxmır. Mahiyyətin varlığı haqqında mühakiməyə başlamaq üçün həqiqətin başlanğıc idrakında zəruri olaraq meydana çıxan üç müxtəlif anlayışa - **varlıq, yoxluq və heçlik** anlayışlarına aydınlıq gətirmək tələb olunur. Çünki bir qayda olaraq təcrübi həqiqət yalnız "var olanla" təsdiqlənir, "yox olanla" inkar olunur.

Haşiyə: Tomas Hobbs, "Fəlsəfənin əsasları"

> *"Təbiətin fəlsəfəsinin şərhini hər şeydən yaxşı qeyri-varlıqdan (yoxluqdan - S.Ç.), yəni universumun təsəvvür olunan məhv edilməsindən başlamaq lazımdır. Beləliklə, belə hesab edək ki, bütün şeylər məhv edilib; onda soruşmaq olar, belə məhv olmadan*

xilas olması hesab edilən insana fəlsəfi düşüncə predmeti keyfiyyətində nə qalardı və o, düşünmə imkanına malik olmaq üçün nəyə o adı verə bilərdi? Mən təsdiq edirəm ki, bu insana onun öz gözləri ilə gördüyü və ya digər hiss orqanları ilə hiss etdiyi bütün şeylərin və dünyanın ideyası qalardı. Bütün şeylər məhv olduqdan sonra bizim ehtimalımıza görə sağ qalan insan yalnız keçmiş olan şeyləri xatırlamağa, təsəvvür etməyə və düşünməyə davam edərdi. Şeylər iki şəkildə elmi tədqiqatların predmeti ola bilər: onlar ya belə, ya söhbət bizim ruhi qabiliyyətlərimizdən və ya xarici şeylərin obrazlarından, real mövcud olmayan obrazlardan, yalnız mövcudluğu ehtimal edilən, yəni bizdən kənar varlığı olan şeylərdən getdikdə, bizim ruhumuzun daxili vəziyyəti keyfiyyətində ola bilər."

Biz Hobbsun yuxarıdakı fikirlərini bir qədər fərqli ifadə edək: Universum yarananadək olanları bu gün real mövcudluqların əhatəsində olduğumuz bir vaxtda düşünməyə cəhd etsək, onda biz nə haqda düşünə bilərik? Hansı ki, bizim əvvəlki təcrübəmizdən hissi qavranılanlarla heç bir oxşarlıqları yoxdur, biz onları necə adlandırardıq və onların həqiqətini necə aşkarlayardıq? Universumun yaranması xarici şeyin əmələ gəlməsini özündə təqdim edir. Hansı ki, Hobbsa görə elmi tədqiqatlarda şey "necə var" şəklində tədqiq olunur. Əgər biz xarici şeyin yaranmasından əvvəlki vəziyyətdən həqiqəti aşkarlamaq istəyiriksə, onda şeyin "necəvarlığı" olmadığından, yalnız bizim ruhumuzun daxili keyfiyyəti şəklində həqiqəti aşkarlamağımız lazım gəlir. Yəni universuma qədərki "şey" Ruhla eyni keyfiyyətlərə malik olduğundan, biz Ruhun özü-özünün idrakının üsul və metodları ilə onu idrak edə bilərik.

Buradan da deyə bilərik ki, universuma qədərki vəziyyətdən həqiqətin aşkarlanması yalnız təfəkkürün özü-özündə mümkündür, çünki Ruh özü-özünü məhz bu üsulla, yəni təfəkkürün özü-özündən daxili yolla aşkarlayır. Bu zaman aşkarlanan həqiqətlərə verilən adlar xarici şeylərin idrakının başlanğıcında olduğu kimi ixtiyari adlar olacaqdır. Belə adların ardıcıllığı əsasında meydana çıxan fikirlərlə yalnız həmin adlarla adlanan obyektlərin ardıcıllığının qanunlarını aşkarlaya bilərik və ya tərsinə,

həmin şeylərin ardıcıllığını təfəkkürün özü-özündən aşkarlanan həqiqəti - fikri ifadə edən adların ardıcıllığına uyğun ardıcıllıqla müəyyən edə bilərik. Metafizik tədqiqat üsulu özündə məhz bunu ifadə edir.

Buradan da mahiyyətin varlığı, yəni varlığın xalis varlıq təyini - *esse essentiae* - təfəkkürdə yaranan xalis fikirlə eynilik kimi aşkarlana bilər. Mahiyyətin varlığı yaranışda - yaranma prosesinin daxilində var olan varlıqdır.

Haşiyə: B.Spinoza, "Metafizik fikirlər"

> *"Allah yaradılmış şeylərdə formal saxlananları eminent olaraq özündə saxlayır. Allah özündə o atributlara malikdir ki, bütün yaradılan şeylərdə eminent olaraq saxlanılır."*

B.Spinozanın fikirlərini qəbul etsək, onda yaradılan şeylərdə formal saxlanılanları faktiki olaraq Allah özündə saxlayır. Buradan da Allahla yaradılanlar bir-birindən formallıqla faktikliyin fərqləndiyi qədər fərqlənir. Şeylərdə saxlanan formal şeylərin Allahda faktiki saxlanması ikincinin birincidən daha kamil olduğunu və ondan asılı olaraq var olduğunu özündə təqdim edir; yəni Allah şeylərdə formal-nisbi saxlananları faktiki-kamil şəkildə özündə saxlayır. Digər tərəfdən, Allahın atributlarının şeylərdə eminent saxlanması həmin atributların nisbiləşməsini özündə əks etdirir. Buradan da deyə bilərik ki, nə Allahda saxlanılanlar bütün şeylərdə var, nə də bütün şeylərin atributları Allahın atributları ilə eynilik təşkil edir.

B.Spinozanın mahiyyətin varlığı ilə bağlı fikrindən çıxış edərək demək olar ki, mahiyyətin varlığını yalnız düşüncə modusları kimi dərk edə bilərik, hansı ki xaricdən vasitəsi olmadığından bilavasitə aşkarlanmayan moduslarla eynilik təşkil edir. Yəni mahiyyətin varlığı modusların məcmusudur, hansı ki varlığın açılmasına - inkişafına uyğun şeylərdə Allahın atributlarını formal olaraq özündə təqdim edən modulara çevrilir.

Mahiyyətin mümkünlüyü yalnız təfəkkürün özü-özündən aydınlaşdığından xalis mücərrədlikdir. Mahiyyətin varlığı Allahın yaradıcılığından çıxmaqla yaranma prosesindən əmələgəlmə prosesinə keçid edir və bu zaman iki bir-birindən fərqli varlıq formasına keçir: əmələgəlməyə daxil olan varlıq forması, əmələgəlməyə daxil olmayan varlıq forması. Allahın yaradıcı iradəsi elə nəhəng və rəngarəngdir ki, mahiyyətin varlığının bir tam kimi əmələgəlmə prosesinə daxil olması mövcud varlıqların sayının və müxtəlifliyinin sonsuz həddə çatmasına səbəb olardı ki, bu da mövcudluqların fərqli məkan və zamanla şərtlənməsinə imkan verməzdi. Məkan və zamanla şərtlənə bilmədiyindən mövcud varlıqlar - reallıqlar meydana çıxmazdı, yəni görünən dünya təzahür etməzdi.

Haşiyə: B.Spinoza, "Metafizik fikirlər"

> *"Varlıq (varlıq, mövcud olan - ENS) anlayışı altında mən bütün o şeyləri düşünürəm ki, aydın və dəqiq qavramada zəruri olaraq mövcud olur və ya heç olmasa mövcud ola bilər."*

B.Spinozanın fikirlərindən də göründüyü kimi o da belə hesab edir ki, varlıq (mahiyyətin varlığı) bir-birindən fərqli iki formada: zəruri olaraq mövcud olan və heç olmasa mövcud ola bilən varlıqlara bölünür. Zəruri olaraq mövcud olan o varlıqlardır ki, onlar mövcud olmaya bilməzlər və buna görə də olmaqları zəruridir. Mövcud ola biləcək varlıqlar o varlıqlardır ki, onların olması zəruri yox, təsadüfdür. Buna görə də təsadüfə görə ola da bilərlər, olmaya da bilərlər.

Zəruri varlıqların var olmaq səbəbi daxilidir, ona görə də qeyri-şərtsizdir. Ola biləcək varlıqların səbəbi xaricidir, yəni şərtidir. Zəruri olaraq mövcud olan varlıqların təzahür forması mövcudolmanın varlığını, təsadüfə görə mövcud ola biləcək varlığın təzahür forması mümkünlüyün varlığını təşkil edir.

İDEYANIN VARLIĞI - ESSE IDEAE

Biz müəyyənliyi olmayan, yalnız təyini olan xarici varlığı **ideyanın varlığı** adlandırırıq. Müəyyənliyi olmadığından belə varlığın özündə şeyliyi yoxdur, yalnız təyin olunduğından təfəkkürün özü-özündə xalis fikir və ya ideya kimi aşkarlanır. Beləliklə, mahiyyətin varlığının idraka açılmasının başlanğıcı kimi təyin olunmaqlıq xarakteristikasına malik varlıq - ideyanın varlığı yaranır. Belə varlıq yalnız intuitiv qavranıldığından mahiyyətin varlığının idraka açılmasının, yəni təyin olunmaq xarakteristikasının yaranmasının təfəkkürdə baş verdiyini deyə bilərik.

İdeya sözü anlayış, təsəvvür deməkdir, hansı ki məna, əhəmiyyət və mahiyyəti ifadə edən termindir. Buradan da ideyanın varlığını mənanın varlığı kimi də təyin etmək olar. Bəs məna sözü özündə nəyi ifadə edir? Məna işarə (söz) ilə işarə olunanın (xarici obyektin) əlaqələndirilməsidir. Buradan da mənanı özündə şey kimi mövcud olanla fikrən mövcud olanın eyniliyi kimi təyin edə bilərik.

İdeya fərdin ağlı - subyektiv intellektlə kainatın ağlının - şeylərin intellektabilliyinin əlaqəsini özündə ifadə edir. Hər iki ağıl İlahi Ağıldan meydana çıxdığından, onda ideyanı İlahi Ağlın şeydə və ruhda formal saxlanması kimi təyin edə bilərik.

Haşiyə: B.Spinoza, "Metafizik fikirlər"

"İdeyanın varlığı Allah ideyasında obyektiv saxlanılan adlandırılır."

Əgər B.Spinozanın dediyi kimi ideyanın varlığı Allahın ideyasında obyektiv saxlanılandırsa, onda Allahın varlığı ideyanın mənasında subyektiv saxlanılan olur. İdeya heç bir halda Allahdan aşkarlanmadığından (çünki Allah şüura təqdim olunmur, buna görə də nə hissi, nə də qeyri-hissi qavranılmır), Allah ideyasında obyektiv saxlanılan, şeylərdə subyektiv saxlanılan ideyadan ibarət olur. Burada subyektiv saxlanılan

subyektin aşkarlanması ilə şərtlənməni özündə ifadə edir. Başqa sözlə, ideya aşkarlanma ilə aydınlaşan həqiqətə malikdir. Aydınlaşma və aşkarlanma xarakteristikasına görə ideyanın varlığı mahiyyətin varlığından fərqlənir.

İdeyanın varlığı bir tərəfdən şeylərdə subyektiv saxlanılan kimi, digər tərəfdən Ruhda obyektiv saxlanılan kimi aşkarlanır. İdeyanın xarici varlıqla daxili varlıq arasında bu cür əlaqə yaratmasına görə varlıqlar təfəkkürdə refleksiya olunaraq idrak olunur.

İdeya haqqında baxışlar Heraklitin "Bütün hissi şeylər daimi axındadır; ona görə də əgər bilik və ağıllı fikir hansısa bir predmetə malik olacaqsa, onda hissi şeylərdən kənarda olan başqa davamlı reallıq da olmalıdır" müddəası ilə bağlı meydana çıxıb. Heraklitin fikirlərini başa düşmək üçün təsəvvür edək ki, hissi qavranılmış şey hissi qavrama başa çatandan sonra məhv edilir, yəni qeyri-hissi qavranılana çevrilir. Onda hissi qavramadan sonra təfəkkürdə qalan həmin şeyin refleksiyası ideyanın varlığı olacaqdır. Hissi qavranılan şeyin məhv olması - şeyin əməlegəlmə xarakteristikasının itməsini özündə ifadə edir. O şey ki əmələ gəlmir, deməli, məhv olur. Buradan da hissi qavranılan şeyin məhv edilməsi özündə əməlegəlmənin məhv olmasını təqdim edir. Şeyin yaradılma xarakteristikası isə bundan fərqli olaraq məhv olmur. (Enerjinin saxlanması və itməməsi qanununun əsasını bu təşkil edir - əgər yaranan yenidən yarandığı başlanğıca qayıtsaydı, enerji mütləq itərdi). Yaranma proses olmadığından proseslərə xas paradiqmalara malik deyil. Yəni yaranmada birləşmə və keçid inkar olunur. Nəticədə ideyanın varlığı bir-birinə keçmir və bir-biri ilə birləşmir. Ən sadə formada tək kimi mövcud olur, prosesdə olmadığından əbədi varlıq kimi var olur və buna görə də yenidən əbədi olan Allaha qayıtmır. Buradan da ideyanın varlığını yaranmanın başlanğıcı kimi dəyərləndirmək olar.

Haşiyə: Aristotel, "Metafizika"

"Bu müxtəlif mahiyyətlər - tam tərkib və anlayış (mən demək istəyirəm ki, bir halda mahiyyət bu mahiyyətlə birləşdirilmiş anlayışdır, başqa halda anlayış - ümumiyyətlə elə belədir); buna görə də birinci mənada mahiyyət məhv edilməyə, belə ki əmələgəlməyə də məruz qalıb, onun anlayışına münasibətdə olmur - o mənada ki, o dağıla bilər (əmələgəlmə də burada yoxdur), əksinə belə mahiyyət əmələgəlmə və dağılma prosesi olmadan mövcud olur və mövcud olmur. Hissi şeylər üçün nə təyin, nə sübut ola bilməz. Təyinin qayğısına qalan şəxslərdən kimsə ayrılıqda götürülmüş tək şeylərə təyin verirsə, yaddan çıxarmaq olmaz ki, belə təyini həmişə geri çevirmək olar. Həmçinin, əlbəttə, heç bir ideyanı təyin etmək olmaz. Bu təlimin tərəfdarlarına görə ideya ayrı-ayrı şeylərə məxsusdur və müstəqil mövcudluğa malikdir."

Aristotelin fikirlərindən görünür ki, o, iki cür anlayış ayırd edir: birincisi, tam tərkiblə - şeylə birləşdirilmiş anlayış və şeysiz, ayrılıqda götürülmüş anlayış. İdeyanın varlığı şeylə birləşdirilmiş anlayışdan ibarətdir. Şeylə birləşdirilməmiş, şeysiz ayrılıqda götürülmüş anlayış Ruhun müstəqil varlığının ideyasıdır, hansı ki şeylərdən aşkarlanmır. Ona görə də Aristotelin dediyi kimi, şey məhv edildikdə onunla birləşdirilmiş və Ruhda olan şeylə birləşdirilməmiş anlayış məhv olmur.

Məhz ideyanın bir tərəfdən şeydə, digər tərəfdən ruhda mövcud olması tərəflərdən birinə edilən təsirin digər tərəfə təsir etməməsinə səbəb olur. Buradan da şey məhv edilsə də, onun ideyası Ruhda qalır; idrak baş tutmasa da, şey özündə ideyanı saxlayır.

Beləliklə, mövcudolmanın varlığının iki xarakteristikasını ayırd etmiş oluruq. Birincisi, özünəxas xarakteristika - mütləq xarakteristika; bu onun şüurdan kənarda var olmaq mümkünlüyüdür, ideyasıdır. İkincisi, ağıla xas xarakteristika - nisbi xarakteristika; ağılda refleksiya etmək - şüurda olmaq - ideya kimi imkanıdır. Yalnız şüurda olmaq imkanı özündə formal İdeyanin varlığını təqdim edir, yalnız obyektdə olan ideya faktiki ideyanın varlığını özündə təqdim edir. Hər iki ideyanın eyniliyindən ideyanın mütləq varlığı çıxır. Beləliklə, şüurdan kənarda var olmaqla

şüurda var olmağın vəhdətinin pozulmasından xalis şüurda olan varlıq meydana çıxır ki, bu da İdeyanin Varlığını özündə təqdim edir. Mahiyyətin varlığı bilavasitə yarananın gücünü, ideyanın varlığı idrak subyektinin gücünü özündə saxlayır və ideyanın varlığı bu güclər arasındakı əlaqədən meydana çıxır. İdeyanın varlığı Hegelin **xalis fikir** təyini ilə ifadə olunanı özündə təqdim edir.

Xalis varlıq idrak obyektlərinin əsasını, başlanğıcını təşkil edir. Belə ki, hər bir idrak obyekti özü-özündə müəyyən ideyadan ibarət əsasa malikdir. Belə əsası olmayan idrak obyekti mümkünsüzlükdür. Buradan da mümkünlüyü ideyanin təzahür forması kimi təyin etmək olar. Buradan da xalis varlıq mümkünlüyün varlığına keçid edən varlıq kimi çıxış edir. Yəni istər mövcud varlığın mümkünlüyü, istərsə də xalis mümkün varlığın vahid bir əsası vardır; həmin əsası Hegel xalis fikir və ya xalis varlıq kimi təyin edir. Xalis fikir bilavasitə yaradışla Yoxluqdan - mahiyyətin varlığından Varlığa keçdiyindən özündə İlahi İstəyi - Xalis həqiqəti refleksiya edir. Xalis varlıq təyinində bütün varlıqlar ideya kimi məkanı doldurur və bir-birini fərqlilik və özü-özləri ilə eynilik təşkil edərək müstəqil ideyalar kimi mövcud olurlar.

Haşiyə: Platon, "Dialoqlar"

> *"Əlavələr; Albin: Sadə biliklərdən təbiətdən mövcud olan, təbii elmi ağıl təşkil olunmuşdur. Amma nə qədər ki elmi ağılla yanaşı düşünən ağıl və düşüncə ilə yanaşı hissiyyat mövcuddur, onların obyektləri fərqlənir: ağlaçatan və hissi. Nə qədər ki ağlaçatan birincili (ideya) və ikincili (materiyadan ayrılmayan eydos) olur, düşüncə də ikili olur: biri birincini, biri ikincini düşünür. İdeya ilahi düşüncənin əbədi və müstəqil aktlarının mahiyyətidir. İdeyanın mövcudluğuna belə əmin olmaq olar: ağıl ya Allah, və ya nəsə düşünən - fikrə, əbədi və dəyişməz - malik olmalıdır; əgər belədirsə, deməli ideya mövcuddur."*

Haşiyə: Aristotel, "Metafizika"

"Əsl həqiqətdə ideya onlar üçün səbəb axtarılan şeylər qədər və ya şeylərdən az deyil. Bununla belə bu axtarış şeylərdən ideyalara gətirib; belə ki, hər bir növ üçün nəsə eyniadlılıq vardır və vahid olan, çoxluğa aid olan, buradakı və əbədi şeylər nahiyəsində olan bütün başqaları üçün mahiyyət vardır. Əgər ideyalar reallığa malikdirsə və canlı varlıq həm insanın, həm atın tərkib hissəsidirsə, onda o ya bir, ya da fərqlidir."

Haşiyə: Q.V.Leybnic, "İdeya nədir?"

"Hər şeydən əvvəl ideya altında biz bizim ağlımızda olanı düşünürük: beləliklə beyində həkk olunan izlər ideya deyil, belə ki mən qəbul edirəm ki, "ağıl" beyindən fərqli nədirsə və ya beynin substansiyasının daha incə hissəsidir. İdeya hansısa qabiliyyətə və ya şeylər haqqında düşünmə bacarığına yaxın olanı özündə təqdim edir."

Haşiyə: D.Yum, "İnsan təbiəti haqqında traktat"

"İnsan ağlının bütün qavrayışları bir-birindən fərqli iki növdə cəmləşir, hansı ki mən təəssürat və ideya adlandırıram. İdeya altında düşüncədə və mühakimədə təəssüratların zəif obrazlarını nəzərdə tuturam."

Haşiyə: Hegel, "Məntiq elmi"

"Konkret özündə azad və həqiqi fikir beləliklə hansısa ideyadır, özünün başa çatmış ümumiliyində o belə və ya mütləq ideyadır. Cari şüur həmçinin müəyyən etiraf edir ki, mahiyyət olmaqdan ötəri bir yalnız hissi materialdan nəsə çox olan tələb olunur və bu çox olan fikirdən başqa bir şey deyildir. İdeya özündə və özü üçün həqiqətdir, anlayışlarla obyektivliyin mütləq vəhdətidir. Onun ideal mahiyyəti onun təyinlərində anlayışlar kimi başqa bir şey deyil, onun real mahiyyəti xarici mövcud varlıq formasında anlayışın özünü açmasıdır və öz ideallığında bu formada qapanan ideya onu öz hakimiyyətində tutur, beləliklə özünü onda saxlayır. İdeyaya ağıl kimi, sonra subyekt-obyekt kimi, idealla realın, sonlu ilə sonsuzun, bədənlə ruhun vəhdəti kimi, özü-özündə öz həqiqətinə malik mümkünlük kimi, yalnız mövcud olan kimi dərk edilənin təbiəti kimi çatıla bilər.

Haşiyə: A.N.Uaythed, "Elm və fəlsəfi oçerklər"

> *"Ölməzlik" terminina baxaq və onu onun antitezisinin "ölümlülük"ün köməyi ilə başa düşməyə cəhd edək. Hər iki söz kainatın o iki aspektini göstərir ki, hansı ki bizim yaşadığımız hər bir təcrübədə təqdim olunur. Mən bu aspektləri "iki aləm" adlandırıram. Aləmlərin qeyd olunan qarışması tələb edir ki, onlardan hər biri yalnız onların hər ikisi üçün ümumi olan faktorların köməyi ilə təsvir etmək mümkün olsun. Bu faktorlar məşhur İdeyalardır. Əsl həqiqətdə elə mövcudluq yoxdur, belə ki hər bir mövcudluq onun yerdə qalan kainatla bağlanmasından başa düşülə bilər. Təəssüf ki, bu əsas fəlsəfi doktrina nə Allah anlayışına, nə ideya anlayışına tətbiq olunmayıb."*

İdeyanın varlığı haqqında ən qədim təsəvvürlər Platona məxsusdur. Platonun şərhindən görünür ki, o, üç cür ağıl - xarici idrak obyektlərinin intellektabilliyini təşkil edən təbii elmi ağıl, ondan həqiqəti aşkarlayan fərdin intellektuallığı kimi düşünən ağıl və İlahi düşüncənin ağlını ayırd edir. İnsan ağlı emanativ, ən pis keyfiyyətli sonuncu ağıldır. Emanativliyin səbəbi hissiyyatdır. Belə ki, insan ağlını təbii ağıl kimi mövcud olmaqdan məhrum edən hissiyyat vardır. Əgər hissiyyat olmasaydı, düşünən ağıl təbiət ağlı kimi mövcud olardı. Təbii elmi ağıl yalnız təbiəti təşkil edən şeylərdən aşkarlanan ağıldır və belə ağıl forma ilə vəhdət təşkil edən mahiyyət kimi meydana çıxdığından, özündə heçliklə birlikdə təqdim olunur, buna görə nisbi olur.

İlahi ağıl ən kamil ağıldır və birinci iki ağılda refleksiya edir. Platona görə ideya məhz Allahın düşüncəsinin - İlahi Ağlın mahiyyətidir. Buradan da ideyanı Allahın istəyinin fikir forması kimi təyin etmək olar. Başqa sözlə, ideya mahiyyətin varlığının başlanğıc aydınlaşmasının təzahürüdür, hansı ki sonuncu aydınlaşma kimi təbii və insan ağlından meydana çıxır.

İdeya anlayışı fəlsəfədə ən çox mübahisə doğuran anlayışlardandır. Yuxarıda bir neçə filosofdan gətirdiyimiz sitatlardan da görünür ki, fəlsəfədə ideya anlayışı birmənalı təyin olunmayıb.

İdeya düşüncənin əsası kimi çıxış etdiyindən, biz ideyanın fəlsəfi anlayışlarından onun əsas-başlanğıc anlayışını təyin edə bilərik ki, bu da ideyanın metafizik anlayışından ibarət olar.

Antik filosoflar bu məsələdə iki cəbhəyə bölünür. Platon və tərəfdarlarına görə "əbədi və dəyişməz" ideyalar olmalıdır ki, onların əsasında idrak mümkün olsun. Aristotel isə belə hesab edir ki, şeylər ideyalara aparıb çıxarır; başqa sözlə, şey birincili, ideya ikincilidir.

Bizcə ideya haqqında A.N.Uaythedin fikirlərinə istinad etməklə daha asan ideyanın metafizikasına işıq salmaq olar. Uaythedin ideya haqqında fikrindən görünür ki, ideya iki müxtəlif aləmin - abstraktla konkretin, realla mümkünlüyün, dünyəviliklə İlahiliyin, obyektivlə subyektivin, dərk olunan predmetlə dərk edən subyektin hər ikisi üçün ortaq olan anlayışdır. Hansı ki Hegel də öz növbəsində ideyanı "anlayışlarla obyektivliyin" vəhdəti kimi təyin etmişdir. Leybnic və Yum ideyanı daha çox subyektlə bağlayır və belə hesab edirlər ki, ideya yalnız düşüncədə mövcuddur.

Beləliklə, ideyanın mövcudluğu ilə bağlı üç fərqli sual meydana çıxır:

1. İdeya ümumiyyətlə mövcuddurmu? Bu suala iki cür cavab ermək olar: a) İdeya mövcudluqdur; b) İdeya mövcudluq deyil. Əgər ideya mövcudluq olmasaydı, onda biz ideya anlayışını mənalandıra bilməzdik, çünki məna yalnız mövcudluğa xasdır. Deməli, ideya mövcudluqdur. Əgər o mövcudluqdursa, onda hansı formada mövcuddur? Bunun da iki formasını ayırd etmək olar: a) İrreallıq kimi mövcuddur; b) Mümkünlük kimi mövcuddur. Əgər reallıq kimi mövcuddursa, onda ideyanın mövcud varlığı - ideyanın forması ilə vəhdət təşkil edən mahiyyəti olmalıdır. İdeyanın mövcud varlığı yoxdur. Deməli, ideya mümkün varlıq kimi,

yəni xalis fikir və ya xalis varlıq kimi forması olmayan varlığın mövcudluğudur.

2. İdeyanın varlığı ağıldan kənar mövcuddurmu? Əgər şey özü-özündə varlıq kimi mövcuddursa, ideya da ağıldan kənarda şeyin xalis varlıq təyini və ya xalis fikri - həqiqəti kimi mövcuddur. İdeyanın belə mövcudluğu ağıl üçün gizlidir.

3. İdeya şeydən kənarda ağılda mövcuddurmu? Əgər ideya şeyi idrak etmək vasitəsidirsə, onda şeydən kənarda ağılda olan ideya yalnız ağlı dərk etmək vasitəsi kimi çıxış edə bilər; belə ideya şeyin iştirakında vasitə ola bilməz. Buradan da deyə bilərik ki, ideya iki cürdür: şeydə olan ideya və şeydən kənarda, ağılda müstəqil mövcud olan ideya.

4. İdeyanın varlığı eyni zamanda ağılda və şeydə mövcuddurmu? İdrak prosesində şeyin mahiyyəti *causa transitoria* xarakteristikasına görə refleksiya yolu ilə şeydən ağıla keçir və bu keçiddə şey idrak olunur. Beləliklə, ideya şeydə olan və idrak prosesində refleksiya yolu ilə şeydən ağıla keçən başlanğıc mümkünlükdür.

Biz ideya dedikdə özündə xalis fikir haqqında məlumat daşıyan dalğanın xüsusi formasını nəzərdə tuturuq. Hərçənd ki, hələ elm fikir dalğalarını aşkarlamağın üsul və metodlarını kəşf etməyib, amma bizə görə İlahi Nurla işıq dalğaları arasında işıq sürətindən daha böyük sürətə malik dalğa forması mövcuddur ki, biz bunu **fikir dalğası** kimi təyin edirik. Hansı ki düşüncə prosesində təfəkkürdə əmələ gələn ideyalar da məhz belə xüsusi dalğalar kimi başqalarına ötürülür. Varlıqlardan şüalanan belə dalğalar birbaşa təfəkkürə təsir etməklə ideyaların və fikirlərin intuitiv və ya təhtəlşüur aşkarlanmasına səbəb olur. Hissi qavrayışda fikir dalğaları formadan keçməklə yayıldığından entropiyaya məruz qalır və şüurda refleksiya edən bilgilərin əsasını təşkil edir.

MÜMKÜNLÜYÜN VARLIĞI - ESSE POTENTIAE

Formal müəyyənliyə və təyinə malik xarici varlığı biz **mümkünlüyün varlığı** adlandırırıq. Mümkünlüyün varlığının formal müəyyənliyə malik olması mümkünlüyün mövcudluq əldə etmə meylini, cəhdini özündə təqdim edir.

Mümkünlüyün varlığı o varlıqdır ki, o özündə şərtlərdən asılı olaraq xüsusi imkanlar saxlayır, hansı ki hər bir imkan müvafiq şərtlərdə ya mövcud varlıq kimi hissi qavranılan, və ya rasional varlıq kimi qeyri-hissi qavranılana çevrilir. Mümkün varlığın imkanlarından asılı olaraq üç müxtəlif təzahür formasını aşkarlamaq olar:

1.Bilavasitə mövcud varlığı ilə potensial varlığın vəhdəti kimi mümkün varlıq: Bura bütün cisimlər aiddir; cismin təki mövcud varlığı, onun çoxluğu potensial varlığını özündə təzahür etdirir. Belə vəhdətdə həqiqət paralel olaraq ya ayrılıqda götürülmüş fərdi şeydən, ya da fərdi şeyin aid olduğu növdən aşkarlanır. Məsələn, hər hansı bir ayrılıqda götürülmüş şeyin həqiqətini onun keyfiyyətlərinin təzahürünə görə aşkarlayırıq. Ya da şeyin hansı növə aid olduğunu təyin edərək həmin növ haqqında bilgilərimizi birbaşa ona şamil edirik; bu zaman əldə edilmiş həqiqətlə ayrılıqda şeydən götürülmüş həqiqət eynilik təşkil edir.

2. Mövcud varlığı ilə potensial varlığı vəhdət təşkil etməyən mümkün varlıqlar: Belə varlıqlarda ayrılıqda götürülmüş fərddən yalnız orijinal həqiqət aşkarlamaq mümkündür; həmin fərdin tabe olduğu ümumi həqiqət isə yalnız onun növündən aşkarlana bilər. Bura canlılar aiddir. Canlılar zamandan çoxparametrli asılı olduqlarından konkret canlı fərddən nə onun özü haqqında tam həqiqət, nə ümumi, nə də mütləq həqiqət aşkarlamaq mümkün deyil. Məsələn, fərd müxtəlif yaşlarda müxtəlif qanunauyğunluqlara tabe olur. Eləcə də hər bir cinsin özünün tabe olduğu qanunlar vardır. Üçüncü tərəfdən, eyni yaşda, eyni cinsdə olan fərdlər müxtəlif antropoloji fərqliliklərə malik olur ki, buradan da onların orijinal qanunlara tabe olması meydana çıxır. Əgər fərdin təkli-

yindən həqiqəti qavramağa cəhd etsək, onda yaşına, cinsinə və antropologiyasına görə sonsuz sayda qanunauyğunluq aşkarlaya bilərik. Bu isə substansiyanın tabe olduğu qanunlara ziddiyyət təşkil edir, hansı ki bir substansiya özündə eyni zamanda bir qanunauyğunluğa tabe olur. Fərd xaosda olan, yəni xalis təsadüfə görə mövcudluq kimi təzahür edir, hansı ki yalnız metafizik aləm üçün xarakterikdir. Təbiətdə olan hər şey zərurətə görə mövcudluq olduğundan, deməli, insan bir tək kimi bütün yaş dövrlərinin, bütün cinslərin və antropoloji fərqliliklərin ən ümumi bir qanunu ilə təyin olunan varlıq kimi qavranıla bilər. Heç bir fərd özündə bütün cinsi, antropoloji və yaş fərqliliklərini eyni zamanda, bir yerdə özündə təzahür etdirmədiyindən canlılığın həqiqəti bütün bu fərqlilikləri sərhədləndirən mücərrəd varlıq formasından, yəni fərddənkənar olan növündən aşkarlamaq mümkün olur. Növ - fərdiliyin əldə etməyə cəhd etdiyi mövcud varlıqdır. Ona görə də zamandan asılı olaraq dəyişən varlıqlarda onların həqiqətini yalnız ümumi növdən aşkarlamaq mümkündür. Yəni cisimlərdən fərqli olaraq canlıların fərdi həqiqətləri ilə onların növünün tabe olduğu həqiqətlər eynilik təşkil etmir.

3. Başqa mövcudluqların mövcud varlığına münasibətindən ona münasibət kimi aşkarlanan mümkün varlıq: Bura Ruhu aid edirik. Ruhun müstəqil özünəxas mövcud varlığı yoxdur. O, yalnız mümkünlüyün başqa mövcud varlığa keçidində onunla dolayı şərtlənmiş mövcud varlıq əldə edir ki, belə mövcud varlıq kimi eyni zamanda ikili təbiətdə: mövcud varlıqla - bədən kimi və mümkün varlıqla - ruh kimi düşünən varlıq kimi qavranılır.

Beləliklə, ruhun təzahürü xalis metafizik təzahür olur, hansı ki təbiəti təşkil edənlərin heç birindən onu aşkarlamaq olmur, əksinə Ruh təbiəti təşkil edənlərə münasibətindən dolayısı ilə mümkün varlıq kimi aşkarlanır.

İlahi Nurla rabitəsini kəsmiş, amma eyni zamanda emanasiya prosesinə daxil olmamış dalğalardan ibarət varlıq mümkünlüyün varlığıdır.

Azad mövcudluğa - tək (fakt) kimi aktuallaşmaya və təfəkkürdə refleksiya imkanına - obraz yaratmaq imkanına malik varlığı **real varlıq**, azad mövcudluğa malik olmayan, faktı olmayan - təklikdə mövcudluğu olmayan, amma təfəkkürdə refleksiya etmək - ideya yaratmaq imkanı olan varlığı **mümkün varlıq** kimi təyin etmək olar. Buradan görünür ki, hər iki qrup üçün ümumi varlıq xarakteristikası "təfəkkürdə refleksiya" imkanının olmasıdır, hansı ki yuxarıda bunu mümkünlük kimi təyin etmişdik. Buradan da mümkünlüyü başlanğıc Varlığın əsas xarakteristikası hesab etmək olar. Mümkünlük İlahi İstəyi özündə ifadə etdiyindən bütün yaranışın totallığını özündə ifadə edir.

Beləliklə, mümkünlüyün varlığını materiyaönü vəziyyətdə özündə ən ümumi həqiqəti aydınlaşdıran total vasitə kimi təyin edirik. Mümkünlüyün varlığı mövcudolmanın varlığından təsadüfə görə aydın və dəqiq qavramada olması ilə fərqlənir. Başqa sözlə, mümkünlüyün varlığı şüurda təsadüfə görə aşkarlanır. Biz zərurətə görə olmayan, təsadüfə görə ola biləcək varlığı, yəni mümkünlüyün varlığını **potensial varlıq** kimi təyin edirik. Potensial varlıq zərurətə görə gələcəkdə mövcud olacaq, amma indi eyni həmin cisimdə əks tərkib hissəsi olmayan varlıqdır. Beləliklə, potensial varlıqda nə əks tərkib hissə, nə də öz tərkib hissəsi yoxdur. Heç bir hissəsi olmadığından tamlığı - faktı yoxdur, buna görə də hissi qavranılmayandır və xalis *Ens entiumdur* (mövcud mahiyyətdir).

Burada "gələcək" ifadəsi zaman baxımından yox, şüurla təyin olunma ardıcıllığı baxımından şərh olunmalıdır. O şeylər ki aktualdır, onlar birincili olaraq - əvvəl bilavasitə hissi qavranılan maddi şeylər kimi şüur tərəfindən təyin olunur. Sonra idrakın ikinci pilləsində - hissi qavranılmaya görə sonrakı - gələcəkdəki qeyri-hissi qavrama ilə təyin olunan mahiyyət idrak olunur.

Aktuallıqla potensiallığın bir-birinə münasibətindən aşağıdakı definatlar meydana çıxır:

Hər bir aktual varlıq eyni zamanda həm də potensial varlıqdır. Çünki zərurətə görə mövcudluğu olmayan heç nə təsadüfə görə mövcud ola bilməz və heç bir varlığın mahiyyəti mütləq şəkildə idrak oluna bilməz.

Heç də bütün potensial varlıqlar həm də eyni zamanda aktual varlıq deyil. Zərurətlə təsadüf bir-birindən fərqlidir və zərurətə görə mövcud olacağın mütləq həm də eyni zamanda təsadüfə görə də mövcud olması tələb olunmur. Belə ki, zərurətə görə mövcudluq həm də təsadüfə görə mövcudluğu öz sərhədlərinə alır. Buradan da "təsadüf zərurətin təzahür forması" olur.

1. **Bəzi potensial varlıqlar aktual varlıq ola bilməz və ya zəruri varlıqların mütləq aktual varlığa çevrilməsi zəruri deyil.** Çünki zərurətə görə potensial varlıq xüsusi hallarda təsadüfə görə aktual varlığa çevrilir, ümumi halda isə zəruri olaraq potensial varlıq kimi qalır. Əgər bütün potensial olanlar həm də mütləq aktual olsaydı, onda bütün zəruri olanlar həm də təsadüfə görə mövcud olardı ki, onda zərurətə və təsadüfə görə mövcud olma eynilik təşkil edərdi, bu da təcrübəyə ziddir.
2. **Heç bir aktual varlıq heç vaxt potensial varlıq ola bilməz.** Aktual varlıq potensial varlığın emanasiyası nəticəsində meydana çıxır. İnkişaf sadədən mürəkkəbə, ibtidaidən aliyə, kamilləşmə isə tərsinə mürəkkəbdən sadəyə, alidən ibtidaiyə doğru getdiyindən və bütün şeylər təbiətdə yalnız inkişaf prosesində olduğundan və kamilləşmə yalnız təfəkkürdə baş verdiyindən, heç bir aktual varlıq təfəkkürə daxil olaraq potensial varlığa çevrilə bilməz. Başqa sözlə, əmələgəlmə prosesində aşağı keyfiyyətin ali keyfiyyətə keçməsi mümkünsüzlükdür.

O şey ki gələcəkdə şüura təqdim olunacaq, o demək deyil ki, o gələcəkdə yaradılacaq. Şüura şeyin intellektabilliyi - həqiqəti təqdim olunduğundan və şüur mütləq həqiqəti dərk etmədiyindən, istənilən ak-

tual varlıq potensial varlıq kimi mövcuddur və gələcəkdə onda şüura təqdim ediləcək intellektabillik saxlanılır. Əksinə, zərurətə görə mövcud olanlar əmələgəlmədən öncə yarandığından, şüura bilavasitə təqdim olunmur, çünki həmin vaxt hələ şüur təzahür etmir; şüur əmələgəlmədən başlayaraq yaranmaya doğru şeyləri təyin etdiyindən həmişə potensial varlıq aktual varlığa nisbətdə gələcəkdə mövcud olacaq kimi şüura təqdim olunur.

Varlığın şüurla təyin olunmasından *Ens* - həqiqətən mövcud olan, var olan - **gerçək varlıq** meydana çıxır. Burada "həqiqətən" sözü varlığın həqiqətinin şüur tərəfindən aşkarlanması, yəni onun təfəkkürdə refleksiya edərək ideyaya - ruhun həqiqətinə çevrilməsini özündə ifadə edir. Yəni "həqiqətən" sözü şeydə həqiqətin aydınlaşması ilə onun təfəkkürdə aşkarlanmasının eyniliyini özündə ifadə edir. Heç bir real şey - *Ens reale* - təfəkkürdə mütləq idrak edilmədiyindən, həqiqətən mövcud olan şey nisbi olaraq mövcuddur. Bunun əksinə, bütün reallıqların mütləq mahiyyəti *Ens Realissimum* (ən real bütün reallıqların mahiyyəti) özündə Allah ideyasını refleksiya edir. O şey ki *Ens a se* - özünə görə vardır, o həqiqətən, gerçək mövcudluq deyil, çünki bizim təfəkkürümüzdə refleksiya edərək ideyaya çevrilmir.

B.Spinozanın varlıq anlayışından görünür ki, bu anlayış konkret var olan yox, həm də var olması ehtimal olunan, yəni abstrakt mövcud olanların məcmusunu özündə ifadə edir. Spinozanın yuxarıdakı fikrində "mövcud ola bilər" ifadəsi məhz Varlığın əsas xarakteristikasını aydınlaşdırır. Mövcud ola bilər ifadəsi özündə mövcud olmaq imkanını saxlamaq deməkdir.

Haşiyə: B.Spinoza, "Metafizik fikirlər"

> *"Mümkünlüyün varlığı yalnız Allahın gücünü bildirir, hansı ki o iradənin şərtsiz azadlıq əsasında bəzi hələ mövcud ola bilməyənləri yarada bilər."*

Mümkünlüyün varlığı Allahın özündə saxlanan, onun iradəvi azadlıqla yarada bilmək imkanını yox, ondan kənarda yaratdığı şeylərdə həmin yaradıcı mümkünlüyün saxlandığını özündə təqdim edir. Bu cür mümkünlük aktuallaşma ilə potensiallığın fərqini özündə təqdim edir, hansı ki hər bir potensial varlıq müxtəlif dərəcədə və formada aktuallaşa bilir. Başqa sözlə, ümumi potensial varlığın xüsusi aktuallaşmış varlıqlara çevrilməsi mümkünlüyün varlığını özündə təqdim edir. Mümkünlüyün varlığı aktual şeylərdə saxlanılır, amma təzahür etmir. Mümkünlüyün varlığının aktuallaşması xüsusi xarici şərtlərlə bağlıdır, hansı ki artıq aktuallaşmış varlıqdan qaynaqlanır. Belə şərt aktuallıqla potensiallıq arasında mürəkkəb vəhdət yaradır, hansı ki ən aşağı keyfiyyətli vəhdət kimi çıxış edir.

Yəni biz Varlığı mümkünlüyü idrak olunan kimi təyin edə bilərik. B.Spinoza mümkünlüyün varlığını Allahın gücü kimi təyin etmişdir. Buna uyğun biz Varlığın mümkünlüyünü **Əqlin gücü** və ya **Ruhun gücü** kimi təyin edirik.

Buradan da mümkünlük İlahi İstəyi ifadə etdiyindən, idrakın özü də İlahi istəyin təzahürü kimi çıxış etmiş olur. Başqa sözlə, İdrak prosesi özündə Ruhun mümkünlüyünü təqdim edir. Buna görə də insan idrakı İlahi İstəklə sərhədlənmişdir və özü İlahi İstəyi təqdim etdiyindən, Allahın digər predikabiliyalarına malik olmadığından, bu istəkdən kənarda olanı - Allahın Mütləq İdeyasını idrak etmək gücündə deyil.

MÖVCUDOLMANIN VARLIĞI - ESSE EXISTENTIAE

Müəyyənliyi olan, amma təyini olmayan xarici varlığı biz **mövcudluğun varlığı** və ya **varlığın mövcudluğu** adlandırırıq. Mövcud olan varlıq - ayrılıqda hər bir gerçəkliyin və bütünlükdə Kainatın ən ümumi əsasıdır.

İlahi Nurun Yaradanla əlaqəsini kəsərək özü-özündə şüalanmasından xalis nur meydana çıxır. Xalis Nur Yaradanla əlaqəli olmadığından sonluluq xarakteristikası əldə edir. Biz Yaradanla əlaqəsi kəsilmiş, özü-özünə mövcud olan İlahi Nuru **üfüqi dalğalar** adlandırırıq. Üfüqi dalğalar şaquli dalğaları kəsərək kəsişmə nöqtələrində ilkin məkanın ikincili məkana, ilkin zamanın ikincili zamana keçməsinə səbəb olur. Hər bir kəsişmə nöqtəsi özündə mövcudluğun varlığının başlanğıcını təşkil edir, hansı ki xalis məkan və zaman şərti, yəni mümkünlüyün mövcudluq əldə etməsi üçün imkan kimi mövcud olur. İlahi Nur Yaradanla rabitəsiz şüalandığından Allahın mütləq azadlığından, mütləq kamilliyindən məhrum olur və buna görə də **emanasiya** prosesi meydana çıxır. Emanasiya özündə mütləq kamilliklə əlaqənin kəsilməsini özündə ifadə edir, hansı ki Allahdan başqa hər şeyi nisbi kamillik kimi təqdim edir.

İlkin emanasiya üfüqi şüalanan dalğaların şaquli dalğaların təsirindən dalğa uzunluqlarının ifrat qısalma meyli kimi meydana çıxır. Leybnic Emanasiyanın səbəbini mümkünlüklərin mövcudluğa keçmə meylində bir-birinə mane olması kimi göstərmişdir. Bizə görə, emanasiyanın səbəbi həqiqətin artma və azalma meyllərinin vəhdəti ilə bağlıdır, hansı ki bu vəhdətdə həm də ziddiyyət təşkil edərək iki müxtəlif istiqaməti özlərində təqdim edirlər. Belə dalğaların bir hissəsində dalğa uzunluğunun ifrat qısalması hissəciyi yaradır. Nəticədə hissəciklə dalğa funksiyasının vəhdəti mövcudolmanın varlığının başlanğıcını, varlığın mövcudluğunu yaradır. Varlığın mövcudluğundan Allahın ideyasına çatmaq olmaz, çünki Yaradanla rabitəsi kəsilmiş Nurdan təşkil olunur. Mahiyyətin varlığı başqa varlıqlara keçidi yaranma prosesindən uzaqlaşdıqca özündə ilahi atributların daha aşağı keyfiyyətlərdə təzahür etməsinə səbəb olur. Əgər yaranma anında mahiyyətin varlığı ilə Allahın atributları eyni kamillikdə olursa, yaranmadan çıxmaqla Allahın atributları ilə mahiyyətin atributları arasında fərq meydana çıxır. Allahın atributları öz kamilliklərini saxlayır, mahiyyətin varlığı atributlarının

kamilliyi zəifləyir. Fəlsəfədə bu proses emanasiya prosesi kimi təyin olunmuşdur. İlahi atributlar mütləq kamil olduqlarından Allahdan çıxmırlar. Amma mahiyyətin atributları nisbi kamil olduqlarından ondan kənara çıxmağa cəhd edirlər. Hansı ki, biz bu cəhdə görə mövcud olanları dərk edirik.

Nisbi kamil atributların mahiyyətin varlığından çıxması ilə varlığın mövcudluğundan mövcud olan varlıq meydana çıxır və nisbi kamil atributların mahiyyətin varlığından çıxması - *existentiae* - **təzahür** kimi aşkarlanır. Beləliklə, mövcud olan varlığı təzahür edən varlıq kimi də təyin edə bilərik. Təzahür - astarın üzə çevrilməsi, yəni öz daxilini (mahiyyətini) xaricinə (formasına) çevirmək gücüdür; hansı ki, bunun əksinə idrak prosesində biz mövcud olanların xaricini yenidən mücərrəd şəkildə daxilinə çevirməklə (formadan mahiyyəti dərk etmək kimi) onların daxilini, yəni mahiyyətini idrak etməyə cəhd edirik. Mahiyyətin varlığından atributların çıxması ilə forma əmələ gəlir, forma xarici görüntünü, mahiyyətin varlığı isə mövcud olanın varlığının daxili görüntüsünü təşkil edir. Mahiyyətin pisləşməsi - formanın yaranması ilə varlığın mövcudluğu abstrakt olandan konkret olana keçir.

Mahiyyətin varlığının inkişaf etməsi nəticəsində formanın əmələgəlməsi ilə varlığın xalis fikri emanasiyaya məruz qalır və nəticədə varlığın yeni forması *Esse existentiae* - mövcudolmanın varlığı meydana çıxır.

Haşiyə: B.Spinoza, "Metafizik fikirlər"

> *"Mövcudolmanın varlığı Allahdan kənar və özü-özündə baxılan şeylərin mahiyyətidir: onlar şeylərə Allah yaradandan sonra aid edilir. Varlıq (varlıq, mövcud olan - Ens) anlayışı altında mən bütün o şeyləri düşünürəm ki, aydın və dəqiq qavramada zəruri olaraq mövcud olur və ya heç olmasa mövcud ola bilər."*

B.Spinozanın fikirlərindən görünür ki, mövcudolmanın varlığı Allahdan kənar və yaradılandan sonra avtonom mahiyyətin varlığının

yaratdığı kimi meydana çıxan varlıqdır. Burada "Allahdan kənar" məsafə mənasını vermir. Çünki Allahdan kənar heç nə yoxdur. Allahdan kənar mövcudolmanın varlığının atributlarının Allahın atributlarından fərqlənməsi - nisbi kamilliyi özündə ifadə edir. Yaranandan sonra aid edilənlər əmələgəlmə prosesindən sonra təzahürlər əsasında təyin olunmaqlığı bildirir. Yəni mövcudolmanın varlığı nisbi kamil həqiqətə malik və təzahürləri ilə təyin olunan varlıq formasıdır. Mövcudolmanın varlığı hissi qavranılan bütün maddi şeyləri təşkil edir. Hansı ki, "aydın və dəqiq qavramada zəruri olaraq mövcud olur". Biz bu cür varlığı **aktual varlıq** kimi təyin edirik. Aktual varlıq mütləq faktın - mahiyyətin varlığının aktuallaşması - akta keçməsi ilə meydana çıxan bütün varlıqları özündə ifadə edir. "Aydın və dəqiq obrazlı qavramada zəruri olaraq mövcud olan" ifadəsindəki "zəruri" sözü varlığın mövcudluq zərurətini yox, qavranılma keyfiyyətini göstərir. Qavrama şüura xas olduğundan, varlıq üçün bu keyfiyyət yalnız şüur üçün xüsusidir və ona görə də varlığın nisbi həqiqətini özündə ifadə edir.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Əmələgəlmə və məhv olma prosesindən keçmədən təzahür edib və itə bilən başlanğıc və səbəbin mövcud olması aydındır. Bu olmasaydı, bütün hər şey zəruri olaraq mövcud olardı; əgər nəsə əmələ gəlir və məhv olursa, hər dəfə hansısa təsadüfi xarakter daşımayan səbəb olmalıdır. Nə ki gələcəkdə olacaqdır, zəruri şəkildə olacaqdır. Belə ki, eyni həmin cisimdə əks tərkib hissəsi əmələ gəlmişsə, nəsə artıq baş vermişdirsə (təsadüfdür)."*

Göründüyü kimi, Aristotel Spinozadan fərqli olaraq zəruri olanı aydın və dəqiq obrazlı qavrama ilə yox, şüurdan kənarda mövcudolma ilə əlaqələndirir. Aristotelin fikirlərindən görünür ki, yaranmadan sonra - əmələgəlmədən əvvəl başlanğıcı və səbəbi olan hər şey zəruri şəkildə olacaqdır. Yaranmadan sonra ona görə hər şey zəruri şəkildə olacaqdır ki, burada yalnız bir proses, yaradılan tərəfindən yaranma vardır və hər şey istisnasız olaraq yalnız bir prosesin iştirakçısıdır. Yaranma biristiqamətli,

dönməz prosesdir; yaranmanın əksliyi yarananın yenidən Allaha qayıtması ola bilər, hansı ki, yaranma İlahi güclə, Allaha qayıtma yaradılanın gücü ilə mümkün ola biləcəyindən, heç bir yaradılan (xüsusi güc kimi) özündə yaradanın gücünü (ən ümumi gücü) təmsil etmədiyindən, yenidən onun iradəsindən kənar - yaradana qayıda bilməz. Ona görə də yaranma nahiyəsində təsadüf yoxdur. Buna görə də deyə bilərik ki, o şey ki Allah tərəfindən yaradılır, o mütləq zəruridir.

Bundan fərqli olaraq, əmələgəlmə prosesi bir-birinə əks iki prosesdən - qurulmadan və dağılmadan ibarət olduğundan və hər bir şey öz xüsusi gücünə uyğun olaraq, eyni yerdə və eyni zamanda bunlardan yalnız birinə daxil ola biləcəyindən, bunlardan hansının olması onu məhv olmağa və ya qurulmağa məcbur edən təsirdən, xarici səbəbdən asılıdır. Buradan da deyə bilərik ki, o səbəblər ki immanentdir (daxili, sabit, dəyişməz səbəb), o zəruridir və immanent səbəbə görə nə ki vardır, zərurətə görə vardır. İmmanent səbəb emanasiya prosesinə məruz qalmış kamilliyi özündə təqdim edir.

Haşiyə: Benedikt Spinoza, "Metafizik fikirlər"

> *"Allah yaradılan şeylərdə formal şəkildə olan eminentlikdən ibarətdir; yəni Allah bütün yaradılan şeylərin eminent olaraq malik olduğu atributlara malikdir."*

Başqa sözlə, Allah bütün şeylərdəki emanasiyaya məruz qalanların emanasiyaya məruz qalmamış vəziyyətindəki atributlara malikdir. Buna görə də "hər bir şeydə Allahın müəyyən atributu saxlansa da", heç bir şeydən Allahın atributu dəqiq şəkildə aşkarlanmır, amma şeylər Allahın atributlarının pisləşmiş vəziyyətini özündə təqdim edir, hansı ki idrak prosesində həmin pisləşmə yenidən təfəkkürdə yaxşılaşdırılmağa cəhd edilir ki, biz bunu idrakın dərinləşməsi və ya həqiqətin nisbilikdən azad edilməsi kimi təyin edirik. İmmanent səbəb təkdir və şeyin faktı - mövcudluğu ilə şərtlənmişdir. O səbəblər ki xaricidir, təsadüfidir. Xarici səbəblərə görə nə ki vardır, təsadüfə görə vardır. Xarici səbəblər çoxluq

təşkil edir və şeyin aktı - mövcudolma ilə şərtlənmişdir. Digər tərəfdən, indi və gələcəkdə eyniyyət təşkil edən hər şey, yəni zamanla şərtlənməyənlər zəruri olanlardır. Gələcəkdə olanla fərqlilik təşkil edən indi olanlar - zamanla şərtləndiklərindən təsadüfidir. Beləliklə, biz aktual varlığı təsadüfə görə mövcud olan varlıq kimi təyin edə bilərik. Təsadüfə görə mövcud olan indi mövcud olan olduğundan bilavasitə şüura təqdim olunaraq onun tərəfindən hissi qavrayışla təyin olunan bütün maddi şeyləri özündə təqdim edir. Şüurun yalnız bilavasitə təsadüfə görə mövcud olanları qavraması varlığın ondan kənar zərurətə görə mövcud olduğunu özündə təqdim edir.

B.Spinozanın fikirlərindən görünür ki, mövcudolmanın varlığı qeyri-təkmil olduğundan "Allahdan kənardadır", hansı ki Allahda yalnız mütləq kamil olanlar saxlanılır. Digər tərəfindən, yaranış başa çatdıqdan sonra şüur tərəfindən ona aid edilir. Buradan da mövcudolmanın varlığı özündə qeyri-kamil və formal həqiqəti ifadə edir. Mövcudolma yalnız xarici səbəblə meydana çıxdığından hissi qavranılan maddi şeylərdən aşkarlanır.

B.Spinozanın var olmaqla bağlı yuxarıda sitat gətirdiyimiz fikirlərindən görünür ki, Varlığın iki müxtəlif predikabiliyasını - var olmaqlığı və qavrayışda olmaqlığı ayırd etmək olar. Var olmaqlıq özündə olmaqlığı, qavrayışda olmaqlıq özündən kənar refleksiya yolu ilə təfəkkürdə olmaqlığı ifadə edir. Birinci konkretliyin, ikinci abstraktlığın əsasını təşkil edir. Bu iki olmaqlıq - konkretliklə abstraktlıq bir-biri ilə vəhdət təşkil edir. Yəni istənilən qavranılan şey var olur, istənilən var olan qavranılır. Biz bunu mövcud varlığın definatı kimi müəyyən edirik.

Qavrayışda olmaqlıq bir tərəfdən hissi təsirə malik olmaqlığı, digər tərəfdən intellektabilliyi özündə təqdim edir.

"Hissi təsir" ifadəsi özündə nəyi ifadə edir və mövcudolmanın varlığından hissi təsir necə meydana çıxır? Təbiətdə bütün şeylər bir-birinə təsir və əks-təsir vəziyyətindədir və bu zaman təsir və əks-təsir

keyfiyyətinə və kəmiyyətinə görə eynilik təşkil edir. Məsələn, səda (səs) əks-səda doğurur, işıq təsiri əks-təsir kimi işığın sınmasına, qayıtmasına səbəb olur; fizikada bu, təsir-əks-təsir qanunu kimi şərh olunur. Təsir-əks-təsir eyni sıradan olan varlıqlar arasında baş verir. Amma bunun əksinə müxtəlif sıralardan olan varlıqların təsir-əks-təsir əlaqəsində kəmiyyət və keyfiyyət dəyişilməsi baş verir. Beləliklə, əks-təsirin təsirdən fərqi özündə həmin şeylərin fərqliliyini özündə təqdim edir. Hissi təsir də məhz təsirlə əks-təsirin fərqliliyi kimi iki müxtəlif sıradan olan varlıqlar arasında baş verən təsir-əks-təsir əlaqəsi kimi meydana çıxır.

Təsir nə üçün baş verir? Təsirin əmələgəlməsi xüsusi mövcud olan varlıqdan qaynaqlanır, hansı ki hər bir varlıq özündə daha çox mövcudolma varlığını saxlamağa cəhd edir. Mahiyyətin varlığı ümumi və universal olduğundan və kəmiyyət ayrılması baş verməyindən təsir yaranmır. Təsir tamın hissələrə, ümuminin xüsusilərə ayrılmasını özündə təqdim edir. Hansı ki ayrılmamışdan onların birliyini təmin edən güc ayrılma ilə azad olur və bu azad olmuş birləşdirici güc təsiri təşkil edir. Başqa sözlə, təsir aşağı keyfiyyətli vəhdət yaradır və bununla da akti keyfiyyətli vəhdətdən - Allahda saxlanan mahiyyətlərin varlığının vəhdətindən fərqli olaraq ondan kənarda olur.

Spinoza varlığın predikabiliyası kimi həm də "qavrayışda zəruri olaraq mövcud olmaq və ola bilməkliyi" müəyyənləşdirib. "Qavrayışda zəruri olaraq mövcud olmaq" ümumi şəkildə obyektin intellektabilliyini, yəni özündə aydınlaşdırdığı həqiqətin təfəkkürdə aşkarlanma imkanını bildirir. "Qavrayışda olmaq" özü-özündə olmaqdan fərqli xarakteristikadır. "Qavrayışda zəruri olaraq mövcud olan" yalnız təcrübədə, obyekt-subyekt münasibətində aşkarlanan gerçək varlığı ifadə edir. "Qavrayışda zəruri olaraq mövcud ola bilən" təcrübə sahəsində olan, amma obyekt-subyekt münasibətində təsadüfə görə olmayan real varlığı özündə təqdim edir. "Qavrayışda olması zəruri olmayan" təcrübəyə qədər varlığı mövcudluq

kimi təyin etmək olar. Bütün mövcudluqlar insan yarananadək, yəni qavrayış başlanana qədər mövcud varlıq kimi var olmuşlar. Buradan mövcudluğu qavrayışın başlanğıcını təşkil edən ümumi varlıq kimi təyin edə bilərik. Mövcudluq - idrak prosesindən kənardakı zərurətə görə qavrayışda olmayan varlıqdır və buna görə də "özü-özündə varlıqdır". Beləliklə, var olmağın Təfəkkürə münasibətinə görə dörd cür formasını - gerçək, real, mövcud və Xalis Varlıq formalarını ayırd edə bilərik. Hər bir varlıq forması zəruri olaraq özündə eyni zamanda özündən əvvəlki formaları daşıyır. Bu baxımdan, gerçəklik həm də eyni zamanda real, mövcud və Xalis Varlığa; reallıq həm də eyni zamanda mövcud və Xalis Varlığa; mövcudluq həm də eyni zamanda Xalis Varlığa; Xalis Varlıq eyni zamanda yalnız xalis varlığa malikdir. Buradan da Varlığın digər bir definatını - **"Var vardır"** kimi müəyyən edirik.

Qavrayışın iki zəruri tərəfi vardır: Qavrayışı stimullaşdıran obyekt, qavrayışı reallaşdıran subyekt. Obyektlər iki cürdür.

1. Obyekt-subyekt münasibətində hiss üzvlərinə bilavasitə təsir edib, qavrayışda zəruri olaraq mövcud olan kimi çıxış edən obyektlər; biz belə varlıqları **bilavasitə varlıq** adlandırırıq.

2. Obyekt-subyekt münasibətində olan, amma hiss üzvlərinə bilavasitə təsir etməyən, buna görə də qavrayışda zəruri mövcud olmayan Varlıqlar; biz belə varlıqları **vasitəli varlıq** adlandırırıq. Məsələn, mikroorqanizmlər qavrayışda zəruri olaraq mövcud olmur, amma biz mikroskopun köməyi ilə onları qavrayışda zəruri hala gətiririk.

3. Üçüncü qrup varlıqlar da var ki, biz onları heç bir halda hissi təcrübəyə daxil edə bilmirik, amma nəzəri olaraq aşkarlaya bilirik. Məsələn, sahə, ruh və s. Biz bunları **ixtiyari varlıqlar** - heç bir üsulla aşkarlanmayan varlıqlar kimi təyin edirik.

Mövcud varlıq əmələgəlmə prosesində meydana çıxır. Əmələgəlmə hər bir varlığın ideyasının özündən forma yaratması ilə özündə olan yaradıcı gücü tükəndirməsi prosesidir, hansı ki Hegelə görə mövcud

varlıq təyinini təşkil edir. Mövcud varlıq İlahi İradəni ən pis şəkildə özündə refleksiya edir. Hər bir mövcud varlıq özündə bəlli bir iqtidarlıq saxlayır, hansı ki həmin iqtidarla mövcud olur və başqa mövcudluqları özündə istisna edir.

Yəni mövcud varlıq əmələgəlmə prosesində olan, başqa varlıqlarla vəhdət təşkil edən, həm ideyaya, fikrə - substansiyaya, həm də formaya malik mövcudluqdur. Mövcud varlıqda dalğanın bir hissəsi ifrat qısalaraq hissəcik təşkil etdiyindən mövcud varlıqlarda xalis fikir emanasiyaya məruz qalaraq mahiyyətə çevrilir.

Özündə reallıq və mümkünlük xarakteristikalarını vəhdətdə təqdim edən istənilən real varlığı mövcud varlıq kimi təyin etmək olar. Burada mövcud varlığın reallığı şeyin mahiyyətinin forma yaratması ilə, mümkünlüyü həmin formanın təfəkkürə təsiri nəticəsində mahiyyəti hissi qavranılan etməsi ilə müəyyənləşir. Birinci tərəf təfəkkürə münasibətdə xaricidir və bunu **özündə şey** kimi təyin etmək olar. İkinci tərəf özündə şeyin əksliyi kimi mövcud varlığa münasibətdə daxilidir və bunu **özündən şey** kimi təyin etmək olar.

Heçliklə - forma ilə, Varlığın - xalis fikrin vəhdətindən mövcudluq mövcud varlığa çevrilir. Mövcud varlıq mövcudluğun xüsusiləşməsi - konkretləşməsi ilə meydana çıxır. Xüsusiləşmə keyfiyyətlə xarakterizə olunduğundan. Hegelin dediyi kimi "mövcud varlıq keyfiyyətdir".

Haşiyə: Aristotel, "Metafizika"

> *"Keyfiyyətlə mövcudluğun növ fərqliliyi adlandırılır. Keyfiyyət mövcudluqda növ fərqliliyini bildirir. Bu keyfiyyətin hissəsini rəqəmlərdə olan kəmiyyət təşkil edir. Keyfiyyət fərqlilikləri hərəkətlərinin fərqliliyindən ibarət, hərəkətdə olan mövcudluğun mahiyyətidir. Fəaliyyət formasının yaxşı və ya axmaq olması belə vəziyyətlərin rəqəmlərinə aiddir. Onlar hərəkətə və hərəkətdə olan şeylərin yaxşı və ya axmaq fəaliyyət göstərməsindən asılı olaraq, fərqliliyə münasibətdə şeylər arasındakı fərqi aşkarlayır."*

Aristotelin keyfiyyətin dörd mənası haqqındakı fikirlərini bir qədər geniş şərh edək:

Növ fərqliliyi kimi keyfiyyət: Biz bunu faktın keyfiyyəti kimi təyin edirik. Belə keyfiyyət sükunətdə şeydən təzahür edən keyfiyyətlərdir. Sükunət şeyin mövcudluqla vəhdətini özündə təqdim edir. Əgər şeylə mövcudluq vəhdətdə olmasaydı, onda onların fərqli hərəkətliliyindən şeysiz mövcudluq, mövcudluqsuz şey meydana çıxardı ki, birinci mümkünlük kimi, ikinci irreallıq kimi təzahür edərdi. Şey isə real mümkünlük olduğundan özündə mövcudluqla vəhdət təşkil edir. Bu vəhdət şeyin sükunəti kimi meydana çıxır. Belə keyfiyyət şeyin hərəkətindən asılı olmayaraq sabit keyfiyyətlərdir.

Kəmiyyət kimi keyfiyyət: Belə keyfiyyət hərəkətlərin kəmiyyəti ilə müəyyən olunan keyfiyyətdir. Kəmiyyət ölçülülüyü özündə ifadə edir. Hər bir şeyin təki ilə cəmi eyni dərəcədə keyfiyyətə malik deyil. Cəm təkin keyfiyyətini şiddətləndirir, onu yəqinləşdirir. Təbiətdə modifikasiya nəticəsində fərqli forma - canlı təzahür edə bilər. Əgər o canlı təkrar-lanmırsa, o xüsusi növ təşkil etmir və buna görə də onun keyfiyyəti anormallıq kimi inkar olunur. Amma bu keyfiyyət məkanda və zamanda təkrarlanırsa, onda yeni növ meydana çıxır, hansı ki həmin növün sükunətindən keyfiyyət təzahür edir. Birinci və ikinci mənalarda keyfiyyət faktdan aşkarlanan keyfiyyətlərdir.

Hərəkət fərqliliyi kimi keyfiyyət: Forma hərəkətdən əmələ gəlir. Forma digər tərəfdən mahiyyətlə vəhdətdədir. Mahiyyət özü yaradılır və özü yaradır. Buradan belə alınır ki, hər bir şeyin mahiyyətindən təzahür edən keyfiyyəti forma vasitəsi ilə hərəkətlə şərtlənmişdir. Başqa sözlə, belə keyfiyyət yaranma ilə əmələgəlmənin fərqliliyini özündə təqdim edir.

Hərəkətin kəmiyyəti kimi keyfiyyət: Hərəkətin kəmiyyəti formanın fərqliliyində əks olunur. Eyni sürətli hərəkətlə bir, yavaş hərəkətlə başqa forma meydana çıxır. Nəticədə hərəkətin kəmiyyəti formada əks olunur.

Məsələn: Vertolyotun pərləri yavaş-yavaş fırlananda bir-birindən ayrılıqda üç pər görürük. Amma pərlər sürətlə fırlanmağa başladıqda pərlər ayrı-ayrılıqda görünmür, bir ümumi dairəvi "şey" görünür. Üçüncü və dördüncü növ keyfiyyətlər aktdan aşkarlanan keyfiyyətlərdir.

Buradan Hegelin "mövcud varlıq keyfiyyətdir" müddəası ilə Aristotelin keyfiyyət haqqındakı fikirlərini əlaqələndirib mövcud varlıq haqqındakı aşağıdakı definatı almış oluruq: **Mövcud varlıq** - konkret ölçülülüklə müəyyən olunan növ fərqliliyini və öz növünün başqa növlərdən fərqli hərəkətliliyini özündə təzahür etdirən faktın aktuallaşmasıdır.

Keyfiyyət obyektin subyektə münasibətində hissi qavrayışda aşkarlanan həqiqətin şüalanmasıdır. Buradan Varlığı həqiqətin şüalanmadığı vəziyyəti, mövcud varlığı şüalanma vəziyyəti kimi təyin edə bilərik. Buradan da mövcud olmaq - keyfiyyət təzahür etdirmək deməkdir. Keyfiyyət təzahür etdirmək dərkolunmaqlıq deməkdir. Beləliklə, mövcud varlıq dərkolunmaqlıq xarakteristikasına malikdir. Dərkolunmaqlıq ruha münasibətdə yarandığından mövcud varlığı təfəkkürə münasibətdə olan varlıq kimi təyin edə bilərik.

Bundan fərqli olaraq, xüsusiləşməmiş ümumi mövcudluqdan həqiqətin şüalanması "özü-üçün-varlıq" təyinini meydana çıxarır. Özü-üçün-varlıq şüalanma ilə tükənməyən və özü-özü ilə eynilik təşkil edən, idraka qapalı bilavasitəlilikdir.

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Özü-üçün mövcudluq özü-özü ilə münasibət kimi bilavasitəlilikdir. Özü-özü ilə inkar münasibəti kimi o özü-üçün-varlıqdır, vahiddir, birdir; nə ki özü-özündə fərqlənmir, nəticədə başqasını özündə istisna edir."*

Hegelin şərhindən görünür ki, onun "özü-üçün varlıq" anlayışı özündə faktı təyin edir, hansı ki yuxarıda faktın idrak olunmazlığının

səbəblərinə aydınlıq gətirmişdik. "Özü-üçün-varlıq" təfəkkürə münasibətdən asılı olmayaraq özü-özündə keyfiyyət kimi çıxış etməkdir.

Beləliklə, hər dörd anlayış eyni bir obyekti ən müxtəlif vəziyyətdə xarakterizə edir. Varlığın ümumi təyini mövcudluqda üç müxtəlif təyinə ayrılır, hansı ki həmin təyinlərdən ikisi - reallıq və gerçəklik kimi şüurla münasibətdə olur və yalnız biri - gerçəklik idrakda inikas olaraq həqiqətin aşkarlanmasına səbəb olur.

Gerçəklik inikasla şərtləndiyindən onunla məhdudlaşır. Yəni gerçəkliyin sərhədləri ilə şüurun sərhədləri üst-üstə düşür. İnsan nə qədər çox həqiqəti aydınlaşdırırsa, bir o qədər reallıq gerçəkləşir. Reallıq təcrübə ilə məhdudlaşdığından insanın təcrübəsi artdıqca daha çox mövcudluq reallığa çevrilir. Real mövcudluğun təcrübə sahəsində hissi qavrayışla idrak olunması onu mövcud varlığa çevirir. Mövcud varlıq - ayrılıqda tək kimi götürülmüş real varlıqdır.

Heç bir mövcudluq təklikdə bir kimi mövcud olmadığından, mövcud varlıq yalnız abstrakt formada - təfəkkürdə refleksiya ilə meydana çıxır. Yəni təfəkkürdə real varlıq totallıqdan azad edilməklə mövcud varlığa çevrilir.

İdrak prosesində varlıq anlayışı mövcud varlığın məkandan birbaşa təfəkkürə alınmasını özündə təqdim etmir. Real varlığın birbaşa təfəkkürə keçmək imkanı yoxdur. Həm xarici mövcudluğun, həm bədənin mövcudluğu öz mövcudluqlarını saxladıqca, varlığın keçilməzlik prinsipinə görə, onlar bir-birini istisna edir. Əgər bunun əksinə, real mövcudluqlarda keçiricilik olsaydı, onda xarici mövcudluğun bədənin mövcudluğuna daxil olması ilə bədənin mövcudluğu inkar olunardı; və ya bədən xarici mövcudluğa keçsəydi, onda real mövcudluq inkar olunardı. Birinci halda subyektin inkarı, ikinci halda obyektin inkarı təcrübədə obyekt-subyekt münasibətinə imkan verməzdi. Nəticədə idrak prosesi başlamazdı. İdrak prosesinin başlaması təcrübədə obyekt-subyekt

münasibətində idrakın tərəflərinin öz mövcudluqlarını qorumaları şərtində mümkün olur.

KEÇİCİ VARLIQ - ESSE CAUSA TRANSITORIAE - ŞEYİN VARLIĞI

Biz Spinozanın varlığın növləri ilə bağlı təsnifatına əlavə bir varlıq formasını - *esse causa transitoriae* - **keçici varlıq** formasını ayırd edirik. Keçici varlıq bizi əhatə edən, bizə və bir-birinə münasibətdə keçici olan şeylərdən ibarətdir.

Konkret xüsusi müəyyənliyi və ümumi təyini olan xarici varlığı biz **şeyin varlığı**, qısa şəkildə **şey** kimi adlandırırıq. Konkret müəyyənliyi olduğundan hər bir şey fikrən ayrılıqda götürülmüş tək kimi mövcuddur, amma ümumi təyini olduğundan (təyin isə yalnız vəhdətdən aşkarlandığından) gerçəklikdə heç bir şey yalnız çoxluq kimi varlıqdır.

Keçici varlıq ifadəsindəki keçici sözünün bir neçə mənası vardır:

a. **Keçici - fani:** Bu məna özündə zamanla çoxparametrli şərtlənməni təqdim edir. Yəni o varlıqlar ki, zamanla çoxparametrli asılı olaraq vardırlar və buna görə də zamandan asılı olaraq yox olurlar, yəni əbədi şeylərlə əkslik təşkil edirlər, biz onları **fani varlıqlar** adlandırırıq.

b. **Keçici - keçid edən:** Bu məna varlığın özündə bir varlıq formasından başqa varlıq formasına keçid imkanı saxladığını ifadə edir. Əgər varlıq özündə bir varlıq formasından başqa varlıq və ya varlıqlar formasına keçid imkanını saxlayırsa, belə varlıqlar keçici varlıqları təşkil edir. Məsələn, hər bir canlı eyni anda həm fərdi şey kimi varlıq, həm də mahiyyəti özündən kənarda növdə olduğundan yoxluqdur. Başqa sözlə, hər bir canlı varlıqdan yoxluğa keçid imkanına malik varlıq kimi mövcuddur.

c. **Keçici - keçirici:** Başqasını özündə bir varlıqdan digərinə keçirən. Canlılıq özündə iki varlıq formasının vəhdətindən ibarət olduğundan Ruhun mümkün varlığı ilə eyniyyət təşkil etdiyi mümkün varlığından onu özünün mümkün varlığı ilə vəhdət təşkil etdiyi mövcud varlığa, ruhun mümkün varlığı ilə fərqlilik təşkil edən və buna görə də ruhun bilavasitə keçə bilmədiyi mövcudolmanın varlığına keçirir. Ruhun mümkünlüyün varlığından mövcudolmanın varlığına keçməsi bilik kimi təzahür edir.

Keçici varlıq reallığın mümkünlüyünə və əksinə mümkünlüyün reallığa keçidini özündə təqdim edən varlıqdır. Belə varlıqlar **canlılar aləmini** təşkil edirlər. Canlılıq növ kimi mümkünlükdür, amma reallıq deyil; yəni növ mümkünlüyün varlığıdır, ona görə canlıların həqiqəti yalnız növdən aşkarlanır. Fərd kimi mövcudolmanın varlığıdırlar, çünki mövcud varlığa malikdirlər, yəni reallıqdırlar, amma özlərinin xüsusi mahiyyəti yoxdur. Hər bir canlı fərd dünyaya gələnədək mümkün varlıq kimi mövcuddur, dünyaya gəlməklə həm də mövcudolmanın varlığına malik olurlar. Öldükdən sonra vəhdət pozulur və mümkün varlıq mövcud olan varlıqdan ayrılır, canlının yerində yenidən fiziki kütlə qalır. Şellinq bu prosesi "özünə qayıdan hərəkət" kimi təsəvvür edir.

Haşiyə: Fridrix Şellinq, "Dünya ruhu haqqında"

> *"Hər bir özünə qayıdan hərəkət öz mümkünlüyünün şərti keyfiyyətində müsbət güc, hansı ki (impuls kimi) hərəkəti oyandırır və mənfi güc, hansı ki (məsafəli keyfiyyətində) hərəkəti özü-özünə qaytarır, tələb edir. Bu müsbət başlanğıc təbiətin birinci gücüdür. Mənfi başlanğıc təbiətin ikinci gücüdür. Eyni zamanda vəhdətdə və mübarizədə olan hər iki mübarizə aparan güc dünyanı sistemlərdə formalaşdıran, təşkil edən başlanğıcın ideyasına aparır. Ola bilsin qədim mütəfəkkirlər onu nəzərə alaraq dünya ruhundan danışmışlar."*

Biz müsbət güc kimi potensiallığı, reallaşmamış enerjini, yəni mümkünlüyün varlığının gücünü təyin edirik. Reallaşma prosesində

mümkünlüyün varlığının müsbət gücü mövcud olanın varlığı ilə vəhdət yaratmasında - canlılığın əmələgəlməsində sərf olunur, nəticədə müsbət güc mənfi gücə çevrilir. Canlı öldükdən sonra vəhdət pozulur, qurulmaya sərf olunan güc yenidən azad olur, yəni öz əvvəlki müsbət güc vəziyyətinə qayıdır. Əslində qayıdan hərəkət eyni bir gücün iki müxtəlif vəziyyətini - qurulmanı və dağılmanın məcmusunu özündə təqdim edir.

Heç bir canlı fərdin mövcud varlığında onun özü-üçün varlıq təyini, yəni forması ilə vəhdət təşkil edən mahiyyəti həmin fərdin xüsusi mahiyyəti deyil. Məsələn, "bu atdır" ifadəsində "bu" atın fərdiliyini göstərir, "at" sözü bütünlükdə ən ümumi şəkildə at sözünün ifadə etdiyi canlı növün ideyasını bildirir. Yəni istənilən ata "bu atdır" deyirik. Yəni "at olmaq" konkret fərdi atdan aksidensiya edir. Beləliklə, biz mövcud varlığın iki formasını - **əbədi şey** və **keçici şey** formalarını təyin edə bilərik. Əbədi şeylər mahiyyətin varlığı ilə mövcudolmanın varlığının vəhdətindən, keçici şeylər mümkünlüyün varlığı ilə mövcudolmanın varlığının vəhdətindən təşkil olunub. Buradan da canlılığı sonsuzluğun (hər bir canlı mövcud varlıq kimi özündə əbədi şey kimi təzahür edir - bədənindəki cismə görə) sonluya (hər bir canlı zamandan asılı olaraq müəyyən vaxt ərzində mümkün varlıqdan mövcud varlığa çevrildiyindən) keçidi kimi təyin edə bilərik. Bu keçiddə nə sonluluq, nə sonsuzluq biri digərini istisna etmir, sadəcə vəhdətdə təzahür etdiklərindən heç biri müstəqil təzahür etmir. Sonsuzluq əbədiliklə, sonluluq faniliklə şərtləndiyindən biz canlılığı əbədilikdən faniliyə keçid varlığı kimi də təyin edə bilərik. İstənilən metafizik varlıq fikrən varlıqdır və buna görə mücərrəddir. Canlılar yeganə konkret metafizik varlıqlardır, hansı ki özlərində sonlunu sonsuzla, əbədiliyi faniliklə əlaqələndirirlər. Bu əlaqə özündə təbiətlə təbiətdənkənarın vəhdətini təqdim edir, hansı ki, bu vəhdətsiz insan heç bir metafizik bilgi əldə edə bilməz.

Mümkün varlıqla mövcudolmanın varlığının vəhdəti **hissiyyat** kimi təzahür edir.

Haşiyə: Fridrix Şellinq, "Dünya ruhu haqqında"

> *"Əgər başlanğıcda müsbət güc sonsuz olubsa, o bütünlükdə mümkün qavrayışın sərhədlərindən kənarda olub. Əks güclə məhdudlaşdıqda o sonlu ölçülü olur - qavrayışın obyekti olmağa başlayır və ya təzahürləri aşkarlanır. Seyrin bilavasitə obyekti müsbətdir, mənfi (yalnız hissi olunanın səbəbi keyfiyyətində) haqqında yalnız əqli mühakimə aparmaq olar."*

Burada Şellinqin fikirlərini bir qədər geniş şərh etmək lazım gəlir. Hissiyyat bir tərəfdən canlılığın təzahürü, digər tərəfdən hissi qavrayışın səbəbidir. Bütün canlılarda hissiyyat vardır, yalnız şüurlu insan hissiyyatla qavramaq imkanına malikdir. Bizcə müsbət güc seyrin bilavasitə obyekti deyil, hissiyyatın səbəbidir. Belə ki, müsbət güc potensiallığın, mümkünlüyün varlığının gücüdür və forma ilə vəhdətdə var olmadığından xarici seyr edilmə imkanı yoxdur. Çünki mövcud olan varlıqla vəhdət təşkil etdikdə bu vəhdətdən hissiyyat təzahür edir. Əslində bilavasitə seyrin obyekti varlığın xarici görüntüsüdür, hansı ki mövcud olan varlıqlarda mənfi gücdən təzahür edir. Beləliklə deyə bilərik ki, əqli mühakimə ilə müsbət güc, xarici seyrlə mənfi güc aşkarlanır.

Hissiyyat obyektlərin - ayrılıqda götürülmüş mövcudolma varlıqların canlı varlığa - vəhdətdə təzahür edən varlığa təsirinə canlıda vəhdətdə olan mümkün varlığın münasibətindən ibarətdir. Beləliklə, xarici obyektlərin canlıya təsirinə canlıda olan varlığın hər ikisi - mümkünlüyün və mövcudolmanın varlığı ayrı-ayrılıqda cavab vermirlər. Belə olsaydı, bir tərəfdən hər bir canlı fiziki cisim kimi xarici obyektin təsirinə həmin təsirin özü ilə eyniyyət təşkil edən əks-təsir göstərərdi, digər tərəfdən mümkün varlıqla eyniyyət təşkil etmədiyindən onunla təsir-əks-təsir əlaqəsinə girməzdi. Lakin təcrübədə canlı fərd mümkün varlıqla mövcudolma varlığının vəhdəti kimi mövcud olduğundan xarici təsirə vəhdətdə əks-təsirdən fərqli olaraq cavab verilir. Biz cavabı mürəkkəb əks-təsir kimi təyin edirik. Cavab mövcud varlıqla mümkünlüyün

varlığının müştərək əks-təsiridir, hansı ki hissiyyatın əsasında meydana çıxır.

Haşiyə: Fridrix Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Sonsuzdan sonluya keçid hansısa bir yox, istənilən fəlsəfənin problemidir. Heç bir sistem sonsuzdan sonluya keçidi reallaşdıra bilməz - fikirlərin sadə oyunu ola bilər, əlbəttə, hər yerdə, harda olursa olsun, bu işin mahiyyətinə az kömək edir. Heç bir sistem onları ayıran uçurumu doldura bilməz. Ağıl öz biliyini vəhdətə gətirməkdən ötəri sonsuzdan sonluya keçidi reallaşdırmaq istəmişdir. O, sonsuzla sonlu arasında aralıq həlqəni tapmağa cəhd etmişdir ki, onları biliyin vəhdətində birləşdirsin. Necə ki, ağıl belə aralıq həlqəni tapmaq vəziyyətində deyil, o, idrakın vəhdətindən ibarət olan öz ali maraqlarından imtina etmir, belə aralıq həlqəyə ümumiyyətlə ehtiyac hiss etməməyi istəyir. Buna görə də ağlın belə keçidi reallaşdırmaq cəhdi öz ifadəsini mütləq tələbdə tapır: sonsuzdan sonluya keçid olmamalıdır. Bu tələb əks tərəfdən xeyli fərqlənir - belə keçid olmalıdır. Bu sonuncu transsendentdir, o gücü çatmadığı yerə hökmranlıq etmək istəyir - sonsuzluq nahiyəsinə. Fəlsəfə həqiqətən sonsuzdan sonluya keçə bilməz, amma əksinə həyata keçirə bilər - sonludan sonsuza."*

F.Şellinqdən gətirdiyimiz bu uzun sitatdan görünür ki, ağıl biliyin vəhdətini sonlu ilə sonsuzun həqiqətindən əldə edə bilər və yalnız biliyin vəhdətindən Allah ideyasına çata bilər. Bəs bilik ümumiyyətlə necə əldə edilir? Bilik mümkünlüyün varlığı ilə mövcudolmanın varlığının vəhdətindən meydana çıxır, hansı ki birinci sonsuz, ikinci sonludur. Beləliklə, biliyin mahiyyətini təfəkkürdə mücərrəd şəkildə sonsuzun sonluya keçirilməsi təşkil edir.

Ağıl sonsuzdan sonluya ona görə konkret xaricdə keçid edə bilmir ki, sonsuz olan - mahiyyətin varlığı təbiətə qədər, o cümlədən ağlın təzahürünə qədər mövcuddur və ağıl özü olmadıqca sonludan sonsuza keçid etməsi absurddur. Bundan fərqli olaraq ağıl təzahür etdikdə sonludan təzahür edir və sonlunun biliyindən keçməklə ondan əvvəlki sonsuzun

biliyinə yiyələnir. Bu keçid mücərrəd keçid kimi transsendentallığı - zəkada mövcudolmanın varlığının sərhədlərindən çıxıb mümkünlüyün varlığının sərhədlərinə nüfuz etməyi özündə təqdim edir. Bəs ağıl bu keçidi harada edə bilər?

Bu keçid ayrılıqda təfəkkürün özü-özündə baş verə bilməz, çünki təfəkkür mümkünlüyün varlığının atributudur və yalnız sonsuzluğu özündə təqdim edir. Bu keçid həm də ayrılıqda xarici şeylərdə də mümkün deyil, çünki xarici şeylər yalnız sonluluğu özündə təqdim edir. Beləliklə, ağıl belə keçidi yalnız eyni zamanda həm sonlu, həm sonsuz olanda edə bilər, hansı ki təcrübə sahəsində vəhdətdə təzahür edirlər, yəni canlılıqda edə bilər. Beləliklə, canlılıq ağıla (Ruha) sonludan sonsuza keçid etməsinə imkan verən keçici varlıq formasıdır.

Haşiyə: Fridrix Şellinq, "Dünya ruhu haqqında"

> *"Təbiətdə ən ümumi dəyişilmələrin tədqiqi, həmçinin orqanik aləmin inkişafı və vəziyyəti həqiqətən təbiətşünasları qeyri-üzvi və üzvi təbiət arasında bərabər paylı olan ümumi başlanğıca gətirir; birincisi bütün dəyişilmələrin ilksəbəbindən və bütün fəaliyyətin son əsasından ibarətdir, ikincisi, bu başlanğıc hər yerdə olduğundan, o heç yerdə yoxdur və necə ki o hər şeydir, o heçə müəyyən və xüsusi ola bilməz."*

Biz Şellinqin təbiətşünasların gəldiyi "qeyri-üzvi və üzvi təbiət arasında bərabər payı olan ümumi başlanğıcın olması" fikri ilə razılaşmırıq. Belə ki, qeyri-üzvi təbiət əbədi şeylərdən, üzvi təbiət əbədi və keçici şeylərin vəhdətindən təşkil olunub. Başqa sözlə, üzvi təbiət keçici tərəfi ilə qeyri-üzvi təbiətdən fərqlənir. Bu fərq qədər hər iki aləmin başlanğıcı onlar arasında bərabər ola bilməz və canlılarda olan, onları fani şeyə çevirən tərəf, əbədi şeyləri əbədi edən tərəfi ilə əkslik təşkil edir. Əksliklərin eyni başlanğıcı yalnız Allah ola bilər. Beləliklə, Allahdan aşağı qeyri-üzvi aləmlə üzvi aləmin başlanğıcları eyni və bir deyil. Buradan da biz canlıları varlığın xüsusi sırası kimi təyin edirik.

Haşiyə: Fridrix Şellinq, "Dünya ruhu haqqında"

"Həyatın səbəbi materiyadan əvvəl mövcud olmalıdır, hansı ki yaşamır, amma canlanır və bu səbəbin özünü canlanan materiyada yox, ondan kənarda axtarmaq lazımdır."

Əgər F.Şellinqin dediyi kimi həqiqətən həyatın səbəbi materiyadan kənardadırsa, deməli metafizikdir. Biz də belə hesab edirik ki, həyatın səbəbi mümkünlüyün varlığıdır, hansı ki mövcudolmanın varlığı kimi materiyaya sonradan birləşərək canlanma yaradır.

DAXİLİ VARLIQLAR

ŞÜUR TƏRƏFİNDƏN BİRTƏRƏFLİ TƏYİN OLUNAN DAXILI VARLIQLAR

Özündə müəyyənliyi olmayan, yalnız təyinə malik varlıqlar **daxili varlıqları** təşkil edir. Biz ideyanın varlığını da müəyyənliyi olmayan, yalnız təyini olan varlıq kimi adlandırmışdıq. Daxili varlıqlardan fərqli olaraq, ideyanın varlığının təyini xaricidir və iradidir (iradəvidir); yəni biz belə varlığı təfəkkürdən kənarda, iradənin iştirakı ilə zərurətə görə təyin edirik. Amma daxili varlıqlar təfəkkürdə qeyri-iradi, öz-özünə, spontan və avtonom, təsadüfə görə təyin olunur. Bizim iradəmiz iştirak etmədiyindən, belə ağıldan törəyən ideyalar sistemsiz yaranır, yəni bir-biri ilə vəhdət təşkil etmir və buna görə də belə varlıqlar özündə həmişə həqiqəti ifadə edən varlıqlar kimi çıxış etmir.

Daxili varlıqlar heç bir xarici təsir olmadan, daxili təsirlərə təfəkkürün birtərəfli münasibətindən aşkarlanır. Daxili varlığın yaradanı Allah yox, subyekt olduğundan (subyekt özü isə Allah tərəfindən yaradıldığından), daxili varlıqlar **ikincili varlıqlar** kimi meydana çıxır. Daxili varlıqları subyekt yaratdığından, başlanğıc kimi subyekt özü çıxış edir və Allahın yaratdıqlarından fərqli olaraq qeyri-dəqiq, müvəqqəti, sonlu, qeyri-təkmil və nisbi xarakteristikalara malikdirlər. Belə varlıqlar ikincili varlıqlar kimi, xarici varlıqların qavranılmasından sonra və onların əsasında meydana çıxdığından, həm də ikincili və ya dialektik varlıqlardan ibarətdir.

Haşiyə: B. Spinoza, "Metafizik fikirlər"

"Xülya, uydurma varlıq və fikrən varlıq heç bir şəkildə varlığa (entiya - mövcudluq) aid edilə bilməz. Xülya öz təbiətinə görə

mövcud ola bilməz. Uydurma varlıq aydın və dəqiq qavrayışı istisna edir; belə ki, burada insan özbaşına hərəkət edir və xüsusən düşüncəli olaraq səhvlərdə olduğundan fərqli olaraq, əsas olmadan, niyyətlə nəyi əlaqələndirmək istəyirsə onu əlaqələndirir, nəyi ayırmaq istəyirsə onu ayırır. Fikrən varlıq isə yalnız daha asan yadasalmalar, izah və idrak olunan şeylərin təsəvvürü üçün düşüncənin vəziyyətidir."

B. Spinozanın təyininə uyğun olaraq daxili varlıqların - varlığın mövcudluğunun üç növünü: metafizik **tuhaflığı** (və ya təzahürü) - xülyanı, uydurma varlığı və fikrən varlığı, bundan əlavə hipnotik varlığı **şərh** etməklə daxili varlıq haqqında şərhimizi kifayət hesab edirik.

XÜLYA - ENS FORMAE

Hissi qavramada xarici varlıq həm formasından - hiss yaratma vasitəsindən, həm də mahiyyətindən, intelligibelliyindən (anlaşıla bilənliyindən), forma yaratma qabiliyyətindən, mahiyyətinin vəhdətindən idrak olunur. Xarici təsir edən hisslər daxildə hissiyyatın yaranması ilə formanın və mahiyyətin birlikdə təfəkkürdə uyğun olaraq obraz və təsəvvür kimi refleksiya olunmasını təmin edir. Nəticədə, bir tərəfdə xarici varlıq konkretlik kimi xaricdə saxlanılır, onun obraz və təsəvvürləri mücərrədlik kimi təfəkkürdə refleksiya edir. Əgər hər hansı bir varlıq yalnız daxili hissiyyatla qavranılırsa, bu zaman qavranılan varlığın xaricdə nə forması, nə mahiyyəti saxlanılmır; xalis hissiyyat özü xalis formanı refleksiya edir, hansı ki, biz xalis formanı mahiyyətdən kənar heçlik kimi təyin edirik. Beləliklə, xalis daxili hissiyyatla təfəkkürdə refleksiya edən xalis forma daxili varlıq kimi xülyaları təşkil edir. Buradan da xülyanı - **mahiyyətsiz forma** kimi təyin etmək olar.

Haşiyə: B. Spinoza, "Metafizik fikirlər", Əlavələr:

"Xülya nə ağıla, nə təsəvvürlərə aid olmadığından və yalnız sözlə ifadə edildiyindən "söz varlıqları" kimi adlandırmaq olar. Xülya yalnız sözdür və xalis inkar olduğundan, qeyri-mümkünlük varlığın vəziyyətinə aid edilə bilməz."

Biz Spinozadan fərqli olaraq, xülyanı xalis görüntünün varlığı kimi təyin edirik. Əgər Spinozanın dediyi kimi xülya yalnız söz olsaydı, onda xülya üçün xüsusi söz olmalı idi; halbuki xülya obyektiv varlıqları bildirən sözlərlə təsvir və izhar olunur. Spinoza xülyanı qeyri-mümkünlüklə eyniləşdirir, hansı ki, özündə əksikliklərin vəhdətini təqdim edir. Biz xülyanı insan beynində daxildə hissi yaradılan xalis formadan ibarət varlıq kimi (refleksiyadan kənar yaranan obrazlar kimi) təyin edirik. Xülya bir tərəfdən xarici hissi qavranılan maddi şeylərdən onunla fərqlənir ki, onların maddiliyi yoxdur; digər tərəfdən, daxili qeyri-hissi qavranılan qeyri-maddi şeylərdən onunla fərqlənirlər ki, onun hissiliyi vardır. Beləliklə, xülya obyektsiz, xalis hisslərdən - profenomenlərin qavranılmasından ibarət varlıq kimi təyin olunmalıdır. Daxili hissi təsirdə intelligibellik olmadığından, xülyada heç bir həqiqət aydınlaşmır. Buna görə də, xülyanın yaranmasında ağıl iştirak etmir və xülya öz-özünə, spontan və avtonom yaranan xalis hissi varlıqlar kimi meydana çıxır. Xülyanın fakti-mövcudluğu olmadığından, "o mövcud ola bilməz". Ona görə də xülya qalıcılıq keyfiyyətindən məhrumdur və yalnız bu keyfiyyətinə görə Spinozanın dediyi kimi "varlığın (mövcudluğun) vəziyyətinə aid edilə bilməz".

İnsan ağlında "aydın və dəqiq qavrayışda zəruri olaraq mövcud olan və ya mövcud ola bilənlərdən" başqa, həm də "aydın və dəqiq qavrayışda mövcud olmayan və ya ola bilməyənlər" - xülyaların aşağıdakı formaları vardır:

1. **İlğım:** Daxili varlığın xarici proyeksiya kimi yaranması ilğımı təşkil edir. İlğım iki şərtlə yaranır. Birincisi, ilğımın yaranmasında profenomen - obyektsiz hissiyyat xarici olur, ona görə də daxili varlıq xaricdə proyeksiya kimi qavranılır. İkincisi, hissiyyat ümumi olduğundan, heç bir ayrıca xarici varlıq haqqında təfəkkürdə zərurətə görə obraz və təsəvvür yaratmır. Nəticədə, təfəkkürdə xarici xalis hissiyyatdan təsadüfə görə refleksiya baş verir. Məsələn, ilğımlar

havanın temperaturu çox kəskin fərqlənən yerlərdə yaranır. Havanın hərarəti özündə ayrılıqda konkret şeyin refleksiyasını zəruri etmədiyindən, həmin təsirdən təfəkkürdə təsadüfə görə istənilən obraz və təsəvvür meydana çıxır ki, bunlar da ilğımı təşkil edirlər. Təsir fərdi olduğundan, ilğım da fərdi daxili varlıq kimi yaranır; yəni ilğım iki fərqli adama eyni cür görünmür.

2. **İllüziya:** Xarici varlığın hissi qavranılmasında təfəkkürdə özünə uyğun olmayan obraz yaratması illüziya kimi meydana çıxır. İllüziyalarda əvvəlcə iradəvi qavrama durdurulur, sonra qeyri-iradəvi qavrama ilə xarici varlığa daxili varlığın ağıl tərəfindən avtomatik proyeksiyası kimi yaranan görüntü implikasiya edilir. Nəticədə, xarici reallıq irreallıq kimi qavranılır. Buradan da hissi qavranılan xarici varlıq daxili varlıqla təfəkkürdə refleksiya olunur. Belə görüntülər təfəkkürdə bilavasitə xarici obyektdən alınmayan, amma hissiyyatın özündən daxilən yaranaraq xarici obyektə proyeksiya edilən xarici görüntü kimi meydana çıxır.
3. **Hallüsinasiya:** İllüziyaya oxşar, amma onlardan fərqli yaranan daxili varlıqlardır. Belə varlıqların yaranması daxili ümumi hərarətin kəskin dəyişilməsi ilə bağlı meydana çıxır, amma varlıq xarici varlıq kimi qavranılır. Məsələn, qızdırmalı xəstələrdə daxili hərarətin təsirindən hallüsinasiyaların meydana çıxması. Qızdırma daxili hissiyyat kimi çıxış edir və daxildən təfəkkürə təsiri **intelligibellik** (əqli əsas) olmadan baş verir. Ona görə də qızdırmadan əmələ gələn obrazlar hallüsinasiyalar - xəyali varlıqlar, yəni xülya kimi meydana çıxır.
4. **Hipnotizmdən yaranan xülya:** Başqasının iradəsi ilə daxildə yaradılan daxili varlıqlar hipnotik daxili varlıqlar kimi təzahür edir. Burada hissiyyat birbaşa subyektə təsir etmir, sadəcə subyektə hissiyyatın təsiri haqqında məlumat verilir və subyekt həmin xalis məlumat əsasında spontan daxili varlıqları özündə yaradır. Belə varlıqların yaranması xaricdən idarə olunur; halbuki əvvəlki xülya formalarında

varlıqların yaranması kortəbii olur və nə şəxs, nə də başqası tərəfindən idarə olunmur.

FİKTİV VARLIQ - ENS FİCTUM (və ya Ens Fictivae)

Fiktiv varlıqlara noumen kimi sözlərdən spontan yaranan varlıqlar aiddir. Biz söz yaradıcılığında iki sadə sözün məqsədyönlü şəkildə birləşməsindən istifadə edərək yeni aşkarlanmış şeyləri adlandırmaq üçün istifadə edirik. Bu zaman birləşən sözlər arasında məntiqi əlaqə mövcud olur və hər bir ayrıca söz konkret xarici varlığı ifadə edir. Buna uyğun olaraq onların birləşməsi də konkret xarici varlığı özündə təqdim edir. Fiktiv varlıq da terminlərin birləşməsindən yaranır. Amma düzəltmə sözlərdən fərqli olaraq, xarici varlıq mövcud olmadan, bir-biri ilə əlaqəsi olmayan terminlərin kortəbii birləşməsindən yaranır və buna görə də belə terminlər özlərində fiktiv varlıqları - saxta daxili varlıqları ifadə edir.

> ***Haşiyə:*** *B. Spinoza: Mən fiktiv və ya uydurma varlıq kimi ağıl tərəfindən rəhbərlik edilməyən iki ifadənin (terminin) xalis kortəbii birləşməsini adlandırıram. Ona görə də uydurulma varlıq yalan və ya həqiqi ola bilər.*

B. Spinozanın fikirlərindən görünür ki, o, fiktiv varlığı terminlərin kortəbii birləşməsindən meydana çıxan varlıqlar kimi təyin edir. Terminlərin kortəbii birləşməsindən iki cür fiktiv varlıq meydana çıxa bilər:

1. **Zərurətə görə mövcud olanları ifadə edən terminlərin kortəbii birləşməsindən əmələ gələn fiktiv varlıqlar:** Belə varlıqlar ikidir. Birincisi, həqiqi olan fiktiv varlıqlar: Belə fiktiv varlığı təşkil edən hər bir termin özündə zərurətə görə mövcud olur. Ona görə də onların birləşməsi özündə zərurətə görə mövcudluq xarakteristikası saxlayır və idraka bilavasitə təqdim edilməmiş, amma özündə həqiqət saxlayan varlığı ifadə etmiş olur. Məsələn: *uçan tülkü*. Uçan tülkü həqiqətə malik fiktiv varlıqdır. İkincisi, yalan fiktiv varlıqlar:

Zərurətə görə təbiətdə mövcud olanları ifadə edən terminlərin kortəbii birləşməsindən təsadüfə görə mövcud olanın yaranması. Məsələn, *Qrifon* və ya *Kentavr*. Birinci fiktiv varlıq zərurətə görə mövcud olan balıqla insanı ifadə edən terminlərin kortəbii birləşməsini, ikinci atla insanın birləşməsini özündə ifadə edir ki, hər iki halda yaranan fiktiv varlıqlar - qrifon və kentavr - özündə yalanı təqdim edir.

2. **Təsadüfə görə mövcud olanları ifadə edən terminlərin və ya biri təsadüfə görə, biri zərurətə görə mövcud olan terminlərin kortəbii birləşməsindən əmələ gələn fiktiv varlıqlar:** Belə varlıqlar hər iki halda özündə yalanı təqdim edir. Xalis təsadüfə görə mövcud olanlar metafizik statuslu obyektlərdən təşkil olunduğundan, belə kortəbii birləşmədə əmələ gələn fiktiv varlıq özündə ya xalis metafizik statuslu obyektləri, ya da metafizik və fiziki statuslu varlığı təqdim edəcək ki, bu da yalandır. Çünki xalis metafizik obyektlər təbiətdə müstəqil mövcud ola bilməz (məsələn, mələklər, cinlər), ya da müxtəlif qanunlara tabe olduqlarından metafizik statuslu obyektlə fiziki statuslu obyekt sadəcə birləşə, yəni daxili vəhdət təşkil edə bilməzlər.

Nə bilavasitəliyi, nə zərurəti olan, buna görə də xarici faktiki, daxili formal varlığa malik olmayan, xaricdən götürülməsi mümkün olmayan, yalnız fikrən daxildə götürülməsi mümkün olan, buna görə də təsəvvürə gətirilən varlıqlar fiktiv varlıqları təşkil edir. Fiktiv varlıq təbii yolla nə yaranmadan, nə əmələgəlmədən aşkarlanmır. Yalnız insan şüurunun məhsulu kimi meydana çıxır. Fiktiv sözünün uydurma, təsəvvür olunan, görünməyən, təsəvvürün məhsulu, müəmma, ağlın azması, ən kiçik iş, şey kimi mənaları vardır. Buradan aşağıdakı ontoloji ideya aşkarlanır:

Fiktiv varlıq - öz xüsusi mövcud varlığı olmayan, buna görə də başqa mövcud varlıqların faktiki və formal varlığından təfəkkürdə fikrən sintez edilərək təsəvvür edilən varlıqlardan ibarətdir.

Üç növ fiktiv varlıq aşkar etmək olar:

1. **Obyektiv fiktiv varlıq:** Yalnız obyektiv varlığın faktiki və formal varlıqlarının sintezindən yaradılan fiktiv varlıqlar: məsələn, söz. Obyektiv fiktiv varlıqlar obyektin formal varlığı əsasında yaradılır.
2. **Subyektiv fiktiv varlıq:** Yalnız subyektiv varlığın faktiki və formal varlığından yaradılan fiktiv varlıqlar: fiktiv fərdi kişi ruhu, transseksual ruh və s. Subyektiv fiktiv varlıq ruhun formal varlığının nizamı əsasında yaradılır.
3. **Qarışıq fiktiv varlıqlar:** Obyektlə subyektin formal və faktiki varlığının sintezindən yaradılan fiktiv varlıqlar: məsələn, şeytan, iblis, cin və s. Qarışıq fiktiv ruhi varlıqlar ya obyektin nizamı əsasında faktiki ruhi varlıq kimi, ya subyektin nizamı əsasında formal ruhi varlıq kimi yaradılır.

Mövcud varlıqlar fikirdə mübtəda kimi çıxış edir, buna görə də predikata malik olur. Biz mübtədanı - mövcudluğun nitq hissəsi ilə ifadə olunması kimi təyin edirik. Bundan fərqli olaraq, formal ruhun mövcudluğu olmadığından, fikirdə o mübtəda kimi çıxış etmir, əvəzində yalnız mövcudolma - fel kimi, cümlədə isə xəbərlə ifadə olunur. Aristotel məntiqində "xəbər vermənin" cinsləri predikabiliya kimi təyin olunub.

FİKRƏN VARLIQ - ENS VERBALE (və ya Ens Rationis)

Fikrən varlığa - **Entia rationis** - təfəkkürün öz-özündən zərurətə görə iradəvi yaratdığı və idrak prosesində gerçək varlığın təfəkkürdə refleksiya olunmasına kömək edən mücərrəd varlıqlar - adlar, terminlər, anlayışlar, simvollar, işarələr və nişanlar, yəni düşüncə modusları aiddir.

Haşiyə: B. Spinoza, "Metafizik fikirlər", Əlavələr:

> *"Fikrən varlıq xalis kortəbiilikdən asılı deyil və iki hər hansı ifadənin birləşməsi deyil."*

B. Spinozanın fikirlərinə əlavə olaraq demək olar ki, fikrən varlıq ağlın rəhbərliyi altında zərurətə görə gerçək varlıqla bilavasitə əlaqələndirilir. Uydurma varlıq fikrən varlıqdan intelligibelliyinin özündə və süni olması ilə fərqlənir; hansı ki, fikrən varlığa aid edilən intelligibellik özündən kənarda - başqasında və gerçək varlıqda olduğu üçün təbiidir. Buna görə də biz fikrən varlığı intelligibelliyi özündən kənarda, başqasında olan, qeyri-hissi, qeyri-maddi qavranılan varlıq kimi təyin edirik. Fikrən varlıqların obyektləri olmadığından, buna görə də xarici şeylərin ideyası kimi çıxış etməsələr də, onlar belə hesab edilir; çünki hər bir fikrən varlıq xarici obyekti ifadə etməklə onun intelligibelliyini özündə təzahür etdirir. Məsələn, "Alma" sözü özündə ifadə etdiyi şeyin obyektivliyini daşımır, yalnız ideyasını daşıyır. Amma biz almanın ideyasını "alma" sözünə proyeksiya edirik və onu konkret meyvənin özü kimi qəbul edirik və bu sözlə onun idrakını dərinləşdiririk. Yəni daxili varlıq kimi yaradılan ad, xarici yaradılan varlıqla eynilik kimi qavranılır. Nəticədə, bununla istənilən xarici varlıq fikrən varlığa çevrilir, hansı ki, bu mücərrədləşdirmə kimi meydana çıxır. Beləliklə, fikrən varlıq uydurma varlıqdan onunla fərqlənir ki, uydurma varlıq heç bir xarici şeylə vəhdət təşkil etmir, amma fikrən varlıq konkret xarici varlıqla vəhdət təşkil edir. Belə əlaqəyə görə gerçək varlıqların ideyası fikrən varlıqlara köçürülərək onların köməyi ilə təfəkkürdə abstraksiya olunur.

Haşiyə: B. Spinoza, "Metafizik fikirlər", Əlavələr:

> *"Mən təəccüblənirəm ki, yalnız sözə və nitqin formasına əsaslanan filosoflar səhvə yol verirlər; belə ki, onlar şeyləri adlarına görə mühakimə edirlər, nəinki adları şeylərə görə. Fikrən varlığın xalis heçlik olmadığını təsdiq edənlər də ağıllı danışmırlar. Gerçək varlıqla fikrən varlığın mahiyyəti (İdeata) arasında heç bir uyğunluq yoxdur."*

B. Spinoza ilə razılaşmaq lazımdır ki, fikrən varlıq xalis forma kimi özündə mahiyyətlə vəhdət təşkil etmədiyindən özlüyündə heçlikdir və

yalnız o, xarici şeyin mahiyyəti ilə **formal** vəhdətdə varlıqdır. Başqa sözlə, gerçək varlıqla fikrən varlığın mahiyyəti formal uyğundur. Burada formal uyğunluq təbii olmayan, yalnız şüurda "elə-belə" qəbul edilən uyğunluğu özündə təqdim edir. Formal uyğunluq ona görə meydana çıxır ki, fikrən varlıqla gerçək varlığın başlanğıcları fərqlidir. Birinin başlanğıcı onu yaradan subyektdə, digərinin başlanğıcı subyekt də daxil olmaqla hər şeyi yaradan Allahdadır.

Spinozanın "adları şeylərə görə mühakimə etmək lazımdır" fikrini birmənalı qəbul etmək olmaz və bu fikir yalnız dialektik yolla yaranan adlara aid etdikdə düzdür. O şeylərin ki adı sintetik yolla yaranır, belə halda adları şeylərə görə mühakimə etmək mümkün deyil, çünki sintetik sözlərin necə yaranması subyektə məlum olmur. Məsələn: biz nə üçün "alma" sözünün alma kimi tanıdığımız meyvəni adlandırmasını izah edə bilmərik. Sintetik adlar şeylə təsadüfə görə vəhdət təşkil etdiyindən xalis metafizikdir. Bundan fərqli olaraq, dialektik adlar zərurətə görə yarandığından təbiidir və insan özü bu adları yaratdığından onların mənasını şərh edə bilir. Buradan da söz şeyə görə mühakimə olunan olur. Əgər fikrən varlıq təfəkkürdə şüurlu şəkildə insanın özü tərəfindən yaradılırsa - dialektik sözlər, şeylər isə ondan kənarda onun iradəsindən asılı olmayaraq yaradılırsa, onda insan öz yaratdığı sözləri şeylərə görə mühakimə etməlidir. Bunun əksinə, sintetik sözlər insan iradəsindən asılı olmayaraq kortəbii xarici şey tərəfindən yaranırsa, onda şeylər həmin sözlərə görə mühakimə edilməlidir, çünki yaradıcısı mühakimə edilən şeyin özüdür. Əgər şeylərə görə sintetik adlar mühakimə olunsaydı, onda bir şeyin adı bütün dillərdə eyni olmalı idi, çünki şey bütün xalqlar üçün eynidir; hansı ki, şeylərin adlarına görə mühakiməsindən müxtəlif dillər yaranır. Əslində dialektik sözlər şeylərə görə fikrən yaradılır və sonra şeylər onlara görə mühakimə olunur. Fikrən varlıqlar şeyləri simvolizə edərək onları mühakimə prosesinə daxil edir. Fikrən varlıqlar xarici obyektiv şeylərsiz xalis forma kimi heçlikdir. Xalis heçlik mahiyyətlə

vəhdət təşkil etməyən, buna görə də şeydən **aksidensiya** edən özü-üçün-varlıq təyinidir, yəni xalis formadır. Eyni bir şeyin adının müxtəlif dillərdə müxtəlif sözlərdən ibarət olması da fikrən varlığın şeyin mahiyyəti ilə vəhdət təşkil etmədiyini sübut edir. Gerçək varlıqla fikrən varlığın mahiyyəti arasındakı formal uyğunluğa görə fikrən varlıqlar özlərində gerçək varlığın ideyasını saxlayır.

Buradan belə bir **tərif** (definit) əldə edə bilərik: Heç bir gerçək varlıq olduğu kimi təfəkkürdə refleksiya olunmur, heç bir fikrən varlıq gerçək varlığın təfəkkürdə refleksiyasını olduğu kimi özündə təqdim etmir. Buna görə də nə şeylərə görə sözləri, nə sözlərə görə şeyləri mühakimə etmək düzgün tələb kimi çıxış etmir.

KOS-MOLOGİYA

KOSMOLOGIYA ƏMƏLƏGƏLMƏ

Kosmologiya kosmos haqqında metafizik təsəvvürlərin məcmusundan ibarətdir. Kosmologiya haqqında metafizik bilgilər yəhudilərin dini kitabı Tövratdan çıxarılan belə bir suala cavab kimi meydana çıxmalıdır: *"Sən tədqiqatla Allahı tapa bilərsənmi?"* (İov. 11, 7). Buradan da kosmologiyanın metafizik məqsədi kosmosun bir tam olaraq, ayrılıqda götürülmüş tək kimi idrakından Allahın təbiətinin idrakına cəhddir.

Biz kosmologiyanı ümumi şəkildə kosmosun metafizik idrakı haqqında ideyalar sistemi kimi təyin edirik. Hegel kosmologiyanın predmetinə dünya (burada dünya kosmosun sinonimi kimi qəbul edilməlidir - S.C.), təsadüflər və zərurətlər, əbədilik, məkan və zamanda məhdudluq, onların dəyişilməsindəki formal qanunlar, insan azadlığı və şərin mənşəyi haqqında təsəvvürləri aid edir. Biz Hegelin şərhini də nəzərə almaqla belə hesab edirik ki, metafizik kosmoloji təsəvvürlər - kosmologiya haqqında ümumi anlayışdan, kosmosun strukturlaşması, təşkil olunması və təbiət qanunları haqqında metafizik bilgilərdən ibarət olmalıdır.

Buradan da kosmologiyanın suallarını müəyyən edə bilərik. Beləliklə, kosmologiya aşağıdakı sualların cavablarından ibarət ideyalar sistemi təşkil etməlidir:

1. Ümumiyyətlə, "Kosmos" anlayışı özündə hansı mənanı ifadə edir? Kosmosun metafizik qavranılması kimi kosmoloji bilgilər necə, haradan və nədən əldə edilə bilər?
2. Kosmos öz-özündə necə strukturlaşıb və təşkil olunub?
3. Kosmosun səbəbi vardırmı? Varsa, ilk səbəb və son nəticə nədən ibarətdir?

4. Kosmos məkan və zamanda necə şərtlənib? Yəni kosmos əbədi və sonsuzdurmu, yoxsa keçici və sərhədlidir?
5. Kosmosda universallıq aşkarlamaq mümkündürmü? Yəni kosmosun ayrılıqda tək şey kimi götürülməsi mümkündürmü, yoxsa çoxluqda mövcuddur? Yəni bizim mövcud olduğumuz kosmosdan başqa kosmoslar da vardır?
6. Kosmosun ayrılıqda mövcudluqların tabe olduğu daxili qanunlardan başqa, özünün bir tam kimi tabe olduğu xarici qanunları vardırmı? Yəni Kosmos Allahın iradəsi iləmi mövcud olur, yoxsa immanent səbəblərdən mövcuddur?
7. Kosmosla metafizik aləm arasında hər hansı bir əlaqə vardırmı? Kosmos öz-özündə zərurətə görə, yəni yaradılmadan əbədi mövcuddur, yoxsa xalis təsadüfə görə keçici mövcudluq kimi yaranmışdır və buna görə də onun yaradıcısı özündən xaricdədir?
8. Kosmosdan metafizik aləmin idrakı mümkündürmü? Kosmosun mövcudluğundan Allahın varlığı idrak oluna bilərmi?
9. Ruhla kosmosun əlaqəsi necədir? Ruh kosmosdan azaddır, yoxsa onunla şərtlənmiş varlıqdır?

Bu sual "şeylərin sxemində insan ruhunun statusu" məsələsi ilə bağlıdır. Biz Ruhun metafizikasını ayrıca bölmədə - "Pnevmotologiya" bölməsində şərh edəcəyik. Burada sadəcə onu qeyd etmək lazımdır ki, Ruh bilavasitə mövcudluq əldə etməmiş mümkün varlıq kimi, mövcudluq əldə etmiş mümkün varlıqla, dolayısı ilə Kosmosla əlaqələnir və buna görə də birbaşa kosmoloji qanunlara tabe olur; buradan da kosmoloji təlimin sərhədlərindən kənarda qalır. Burada şeylərin sxemində insan ruhunun statusu yalnız obyektiv gerçəkliklərdən həqiqətin aşkarlanması ilə əlaqələnir. Hansı ki, mövcud dünya təfəkkürdə refleksiya edərək, mücərrədləşdirmə ilə yenidən mövcud varlıqdan mümkünlüyün varlığına keçirilir və bununla da mövcud varlığa keçmiş mümkün varlıq - həqiqət aşkarlanır.

KOSMOLOGİYA HAQQINDA ÜMUMİ ANLAYIŞ

Kosmologiyanın predmeti Kosmosdur. Bəs Kosmos (Kainat) termini özündə nəyi ifadə edir?

Haşiyə: Cordano Bruno, "Səbəblər, başlanğıclar və tək haqqında"

> *"Kainat təkdir, sonsuzdur, hərəkətsizdir. Təkdir, - deyirəm mən, - mütləq mümkünlükdür, tək reallıqdır, tək formadır və ya ruhdur, tək materiyadır və ya cisimdir, tək şeydir, tək varlıqdır, tək nəhəng və ən yaxşıdır. O, heç bir şəkildə əhatə olunmayandır, buna görə də sayılmayandır və sərhədsizdir; bununla sonsuz və sərhədsizdir, beləliklə, hərəkətsizdir. O, məkanda hərəkət etmir, belə ki, hardasa yerdəyişmək üçün özündən kənar heç nəyə malik deyil, o hər şeydir. O doğulmur, belə ki, başqa mövcudluq yoxdur ki, o arzulasın və gözləsin, belə ki, o bütün mövcudluqlara malikdir. O məhv edilmir, belə ki, başqa şey yoxdur ki, o çevrilə bilsin, belə ki, o hər şeydir. Bütün şeylər olduğundan və özündə bütün mövcudluqları əhatə etdiyindən, o elə edir ki, istənilən şey istənilən şeydə olsun. Kainatla kainatdakı şeylər arasındakı fərq belədir: birinci bütün mövcudluğu və mövcudluğun bütün moduslarını əhatə edir; ikincilərdən isə hər biri bütün mövcudluğa malik olur, amma mövcudluğun bütün moduslarına yox. Sonra, birinci bütün mövcudluğu bütövlükdə əhatə edir, belə ki, ondan kənarda sonsuz mövcudluqdan başqa heç bir şey mövcud olmur (belə ki, xarici və başqası olmur); ikincilərdən isə hər biri bütün mövcudluğu əhatə edir, amma tam yox, belə ki, ondan kənarda sonsuz sayda başqaları qalır."*

C. Brunonun fikirlərindən görünür ki, o, Kainatı **tək şey** kimi təyin edir. Biz təkliyi "Düşünən Mən"in əksiliyi kimi təyin edirik. "Düşünən Mən" öz-özündə mütləq təklik kimi mövcud olduğundan, düşündüyü istənilən başqa şeyi də öz əksiliyi kimi, tək kimi götürür. Buradan da tək kimi götürülmüş üç cür təklik ayırd edirik:

Faktiki ayrılıqda götürülmüş təklik - şey: Faktiki ayrılıqda götürülmək - təbiətdə posterior, çoxluqda olan konkret xarici şeyi yerdə qalanlardan ayırmağı və onu xüsusi şey kimi hissi qavramaya təqdim edilməni özündə ifadə edir. "Düşünən Mən"in bilavasitə hissi qavradığı ayrılıqda götürülmüş təklikdən ibarətdir. Biz belə təki **şey** kimi təyin edirik. Şey - elə-belə özünün onu bütün digər belə təklərdən və ən ümumi çoxluqdan ayırmağa imkan verən xüsusi sərhədləri olan, "Düşünən Mən"ə münasibətdə xarici, bilavasitə qavranılan, konkret idrak obyektidir. Təcrübədə çoxluqda mövcud olan şeyin çoxluqdan ayrılıqda götürülməsi "ayrılıqda götürülmüş tək" kimi çıxış edir; hansı ki, təbiətdə yalnız çoxluqda mövcud ola bilir. Məsələn, bir səbət almadan birini götürüb onu qavradıqda ayrılıqda götürülmüş təklik alınır. Məhz buna görə ayrılıqda götürülmüş təklikdən aşkarlanan həqiqət təbiətdə ayrılıqda mövcud olmadığı çoxluğa birbaşa şamil olunur. Belə ki, idrak prosesi sonsuz çoxluq kimi mövcud olan varlıqlardan birini abstrakt olaraq vəhdətdən ayırır və onun özünə hissi təsirinə görə obyekti qavramağa cəhd edir. Belə təklik özündə bütün mövcudluğa, yəni materiyaya malikdir, lakin ayrılıqda götürüldüyündən bütün mövcudluğun bəzi moduslarına malikdir; hansı ki, onu digər belə təklərdən ayırmağa imkan verir. Belə təklik konkretdir və başqa təklərdən aşkarlanandır.

Fikrən və ya formal ayrılıqda götürülməyən təklik - Kosmos: Fikrən və ya formal ayrılıqda götürülmək - təbiətdən kənar, aprior olaraq, yalnız xalis zəkada dolayısı ilə şeyin anlayışından ayrılıqda, intuitiv qavranılan şey kimi götürülməni özündə ifadə edir. "Düşünən Mən"in qeyri-hissi qavradığı ən ümumi təklik ayrılıqda götürülməyən təklikdən ibarət olur. Belə təklik çoxluqda mövcud olmayan və buna görə də öz-özündə tək kimi mövcud olan, ayrılıqda götürülməyən, elə-belə fikrən təklik kimi təsəvvür olunan təklikdir. Belə təklik özündən başqası olmadığından ayrılıqda götürülməsinə zərurət yoxdur və özündən kənarda başqasının mövcudluğunu istisna etdiyindən mövcud olan və mövcud ola biləcək hər

şeyi öz sərhədlərinə alır; yəni bütün ayrılıqda götürülmüş hissi qavranılan maddi tək şeylərin məcmusunu özündə təqdim edir. Hansı ki, C. Brunonun yuxarıdakı fikirlərində Kainata-Kosmosa aid edilən bütün mövcudluqları və varlığın bütün moduslarını əhatə edən və özündən başqası olmadığından yalnız özündən aşkarlanan təklik məhz belə təklikdir.

Faktiki və ya formal ayrılıqda götürülməsi mümkün olmayan Təklik - Allah: "Düşünən Mən"lə "Düşünən Mən"in əksiliklərinin məcmusuna əksilik kimi düşünülən təkliyi biz faktiki və formal ayrılıqda götürülməsi mümkün olmayan təklik kimi təyin edirik. Belə təklik "Düşünən Mən"dən və "Düşünən Mən"in qavramağa cəhd etdiyi təkliklərdən üstün olan təklikdir və "Düşünən Mən" belə təkə daxil olduğundan, özü onu xarici tək kimi qavraya bilmir. Buna görə də, yalnız daxili təklik kimi aşkarlayır. Burada "tək kimi götürülməsi mümkün olmayan" dedikdə, biz idraka cəlb edilməsi mümkün olmayan təkliyi nəzərdə tuturuq və ayrılıqda götürülməsi mümkün olmadığından idrakı da mümkün deyil. Allahı xarakterizə edən təklik maddi və qeyri-maddiliyin ilkin başlanğıcı kimi mövcud olan elə-belə təkliyi özündə ifadə edir. Reflektiv prosesdə Allahın təkliyi Kainatın, Kainatın təkliyi şeyin, şeyin təkliyi "Düşünən Mən"in təkliyində refleksiya edir.

Biz metafizikanın xüsusi bölməsi kimi kosmologiya haqqında təsəvvürləri İ. Kantın transendental ideyalar sistemi kimi şərh etdiyi Kosmologiya haqqındakı fikirlərini inkişaf etdirməklə əldə etməyi məqsədə müvafiq hesab edirik. Belə ki, İ. Kant özünün izharında kosmologiyanın metafizik ideyalarına çox yaxınlaşmışdır. Beləliklə, kosmologiya kosmosun bir tam olaraq fikrən tək şey kimi idrakı ilə bağlı həqiqətləri özündə ifadə edən metafizik ideyalar sistemi kimi təyin oluna bilər. Hansı ki, Kosmos bir tək kimi mümkünlüyün mövcudluq əldə etmə meylində meydana çıxan sonsuz sayda fərqliliklərin, oxşarlıqların və eyniliklərin məcmusu kimi, yəni mümkünlüyün mövcudluq əldə etmə

meylinin totalığı kimi mövcuddur. Kosmosda aşkarlanmayan və aşkarlanması gözlənilməyən nəsə özündə mümkünlüyün mövcudluq əldə etmə meylini saxlamadığından qeyri-reallıqdır.

Mümkünlüyün mövcudluq əldə etmə meyli imkanla şərtləndiyindən, Kosmologiya özündə tək mümkünlüyün, tək mövcud Kosmosda açılma imkanlarının totalığının bilgisini təqdim edir. Burada "imkanı" İlahi İradənin özündə refleksiya edən anlayış kimi təyin edirik. O, ilahi təbiətdə Allahın digər atributu İlahi İstəkdən - mütləq həqiqətdən ayrılıqda müstəqil Güc olduğundan, mümkünlüyün (mütləq nisbi həqiqətin) mövcudluq meylində mümkünlükdən ayrılıqda mövcuddur və mümkünlüyün mövcudluğa keçidində şərt kimi təzahür edir. Buradan Kosmosda aşkarlanan bütün şərtlərin totalığını İlahi İradə və ya mümkünlüyün totalığının mövcudluğun totalığına keçirən total imkan kimi təyin edə bilərik; hansı ki, bu imkanın təzahürü kimi Kosmos mövcuddur. Hər bir mövcudluq yalnız bir imkanda mövcudluq əldə etdiyindən, mövcudluqların bütünlüyü, hamılığı kimi Kosmos özündə mümkün imkanların totalığını təqdim edir.

İ. Kant Kosmosun transendental ideyasını bizim təsəvvürlərin malik olduğu "bütün şeylərə ümumiyyətlə" münasibətindən aşkarlanan "ümumiyyətlə düşüncə predmetlərinin şərtlərinin mütləq vəhdəti" kimi təyin edir. O, bu ideyaları çıxarılan əqli nəticə ilə aşkarlamağın mümkün olduğunu göstərir:

> *"Nə qədər ki onlar (transendental ideyalar - S.C.) yalnız transendental anlayışlardan bilmədiyim şeylərdən, bilavasitə transendental ideya hələ mənə daha az məlum olan bütün mahiyyətlərin mahiyyətinə və özümə heç bir ideya tərtib edə bilmədiyim şərtsiz zərurət haqqında, ümumiyyətlə mümkünlüyünün bütün şərtlərinin mütləq sintetik vəhdətindən mənə verilə biləndən."*

Beləliklə, kosmologiya anlayışı haqqında aydın təsəvvür əldə etmək naminə, İ. Kantın transendental kosmologiya ilə bağlı ideyaların çıx-

arıldığı əqli nəticə haqqında fikrini özündə ifadə edən bəzi əsas terminlərin, anlayışların ayrı-ayrılıqda şərh etmək lazım gəlir:

1. **Bütün şeylər ümumiyyətlə:** Burada "bütün" sözü kosmosu təşkil edən mövcud olan və ola biləcək potensial şeyləri özündə ifadə edir. "Ümumiyyətlə" sözü şeylərin ən ümumi həqiqətindən, yəni sonsuz sayda fərqli şeylər üçün eyni olan həqiqətləri özündə ifadə edir. Beləliklə, "bütün şeylər ümumiyyətlə" ifadəsi özündə "kosmosda mövcud olan və mövcud ola biləcək istənilən şey üçün ən ümumi həqiqət" mənasını verir.
2. **Ümumiyyətlə düşüncə:** Biz idrak prosesinin dərketmədən və düşüncədən ibarət olduğunu, dərketmənin hissi qavrama, düşüncənin intuitiv qavrama ilə aktuallaşdığını qeyd etmişdik. Buradan da "ümumiyyətlə düşüncə" ifadəsi özündə hissi və demonstrativ idrakdan kənar, elə-belə intuitiv qavrama ilə müşayiət olunan idrak prosesini özündə təqdim edir. Başqa sözlə, "ümumiyyətlə düşüncə" konkret şeyin abstrakt şey kimi idrak edilməsini, yəni mücərrədləşdirməni özündə ifadə edir.
3. **Şərtlərin mütləq vəhdəti:** Kosmosda ayrılıqda mövcudluq mövcud olmadığından, mümkünlüyün mövcudluq meylində imkan kimi çıxış edən şərtlər vəhdət təşkil edir. Hansı ki, şərtlərin mütləq vəhdəti özlüyündə Kosmosun tək kimi mövcudluğunun şərti olur.
4. **Bütün mahiyyətlərin mahiyyəti:** Kosmosu təşkil edən hər bir mövcudluğun özünəməxsus mahiyyəti - xüsusi həqiqəti vardır. Bütün mövcudluqlar tək mümkünlüyün çoxlu mövcudluq əldə etməsi kimi yarandığından, mümkünlüyün varlığı bütün mövcudluqların mahiyyətinin mahiyyəti - ən ümumi həqiqət kimi çıxış edir.
5. **Şərtsiz zərurət:** Kosmosda hər bir şey təsadüflə zərurətin vəhdətində meydana çıxır. Biz təsadüflə vəhdət təşkil edən zərurəti şərti zərurət kimi təyin edirik; hansı ki, təsadüflə şərtlənmişdir. Buradan da şərtsiz zərurət - təsadüflə vəhdət təşkil etməyən zərurət, başqa sözlə xalis

zərurət olur. Təsadüf zərurətin təzahür forması olduğundan, şərtsiz zərurət təzahür etməyən zərurət olur. Hansı ki, biz bunu özündə-şey və ya fikrən ayrılıqda götürülmüş şey, yəni aktuallaşmamış fakt kimi təyin edirik. Şərtsiz zərurət özündə ilahi atributları saxlayan və yalnız bu atributlardan intuitiv idrak olunan mövcudluqdur.

6. **Ümumiyyətlə mümkünlüyün bütün şərtlərinin mütləq sintetik vəhdəti:** Mümkünlüyün mövcudluq əldə etmə meylində ya mövcudluğu olan mövcudluq, ya da mövcudluğu olmayan mövcudluq (yəni mövcud ola biləcək, mövcud olması olmayan mövcudluq, şərti mövcudluq) yaranır. Beləliklə, mümkünlüyün bütün şərtləri özündə həm mövcud olması olan mövcudluqların - şərtsiz mövcudluqların, həm də mövcud olması olmayan mövcudluqların - şərti mövcudluqların şərtlərinin məcmusunu ifadə edir. Birinci qrup mövcudluqla ikinci qrup bir-birindən vəhdətə görə fərqlənir; belə ki, şərtsiz mövcudluqlar vəhdət təşkil edir, şərti mövcudluqlar vəhdət təşkil edə bilər, amma indi və burada mövcud olmadıqlarından vəhdət təşkil etmir. Başqa sözlə, bu iki şərt fərqli aləmlərə xas olduğundan, onları eyni bir vəhdətdə dialektik mühakimə ilə idrak etmək mümkün deyil. Buradan da mümkünlüyün bütün şərtlərinin yalnız mütləq sintetik vəhdəti meydana çıxır; hansı ki, yalnız xalis zəkada mövcud olan mövcudluqların və mövcud olmayan mövcudluqların şərtlərinin vəhdətə gətirilməsi ilə əldə edilir. Təbiətdə mövcudluqlar ayrılıqda idraka təqdim olunduğundan, onların şərtləri də ayrılıqda idrak olunur. Potensial mövcudluqlar ayrılıqda bilavasitə idraka təqdim edilmədiyindən, bütün şərtlərin mütləq sintetik vəhdəti xalis zəkada, təbiətdə mövcudluqların xüsusi şərtlərinin məcmusu ilə mümkünlüyün mövcud olma meylinin ən ümumi şərtinin vəhdətinin yaradılmasını özündə ifadə edir. Bu zaman özündə mövcudluq əldə etməmiş mümkünlüyün şərti, mövcudluq əldə etmiş mümkünlüyün ən ümumi şərti kimi aşkarlanır.

7. **Şeylərin predmetlərini ümumiyyətlə düşünmək üçün şərtlərin məcmusu:** "Şeylərin predmetləri ümumiyyətlə" özündə mövcudluq əldə etməyə meyl edən mümkünlüyün varlığını ifadə edir. Beləliklə, bu fikir mümkünlüyün varlığının düşünmək üçün şərtlərin məcmusunun aşkarlanmasını tələb edir. "Düşünmək üçün şərt" özündə iki prosesin məcmusundan əldə edilir. Birincisi, dərketmədən aşkarlanan empirik şərtlər; belə şərtlər mümkünlüyün varlığını mövcudluğun varlığı kimi təsəvvür etməyə imkan verir. İkincisi, elə-belə xalis düşüncənin şərtləri; bu şərtlər xalis zəkada ruhun mümkünlüyünün şərtləri kimi aşkarlanır. Beləliklə, Kantın "şeylərin predmetlərini ümumiyyətlə düşünmək üçün şərtlərin məcmusu" fikri özündə təbiətin və ruhun şərtlərinin məcmusunu ifadə edir; hansı ki, Kosmos məhz bu şərtlərdə aktuallaşır.

Burada "şərtlərin məcmusunu" "şərtlərin vəhdətindən" fərqləndirmək lazım gəlir. Şərtlərin vəhdəti qarşılıqlı keçid prosesində mövcud olan mövcudluqlardan, yəni bilavasitə təbiətdən - əməlgəlmədən - aşkarlanır; hansı ki, buna görə kosmosda mövcudluqlar çoxluqda müxtəliflik təşkil edir. Şərtlərin məcmusu yalnız birləşmədən - yaranmadan aşkarlanan, yəni mövcudluğu olmayan mövcudluqdan - mütləq faktdan aşkarlanan tək şərtlərin summasiyasını özündə ifadə edir; hansı ki, tək şərtlər bir-birinə keçmir. Beləliklə, İ. Kantın fikirlərindəki terminlərin mənalarından çıxış etsək, onda metafizikanın Kosmologiya bölməsini - Kosmosda mövcud olan (aktual) və mövcud ola biləcək (potensial) mövcudluqlar üçün ən ümumi həqiqəti, mücərrədləşdirmə ilə, fikrən ayrılıqda götürülmüş mütləq fakt kimi Kosmosun mövcudluğunun tək şərtinin mümkünlüyün varlığından, xalis zəkada təbiətin və ruhun mövcudluqlarının şərtlərinin sintetik mütləq vəhdətinin yaradılması ilə, İlahi İradəni özündə refleksiya edən mümkünlüyün mövcudluq əldə etmə meylinin bilgilərindən ibarət ideyalar sistemi kimi təyin edə bilərik.

Bu ideyalar kosmosun strukturlaşması, təşkili və qanunlarının təbiətindən əqli nəticə ilə əldə edilir. Buna görə də, bir tam kimi Kosmosun idrakı, Kosmosda mövcudluqların başlanğıcı, mövcud olmanın ilkin prinsipləri, Kosmosda mövcud varlıq sıralarının əmələgəlməsi ilə bağlı sualları cavablandırmaq lazım gəlir. Kosmologiya Kosmosun bir tək tam kimi tabe olduğu ən ümumi qanunauyğunluqlarını öyrənərək təbiətin sərhədlərindən kənara çıxır; hansı ki, təbiət həmin qanunların çərçivəsində mövcud olur.

Haşiyə: Epikur, "Məktublar və fraqmentlər"

> *"Kim ki tama baxışda kifayət qədər müvəffəqiyyət əldə edib, onun əsas cizgilərində bütün sistemin sxemini yadda saxlamalıdır: sistemlərin ümumi xülasəsinə biz tez-tez ehtiyac hiss edirik, hissəvi izahda isə bir o qədər tez-tez yox. Beləliklə, bu ümumi prinsipə müraciət etmək lazımdır və həmişə yaddaşda onların elə sayını saxlamaq lazımdır ki, onların köməyi ilə ən ümumi həqiqətin idrakı mümkün olsun. Əgər ən ümumi prinsiplər düzgün mənimsənilsə və yaddaşda saxlansa, beləliklə detalların dəqiq biliyini tam tapmaq olar."*

Epikurun fikirlərindən görünür ki, o, tamın ən ümumi qanun və prinsiplərini öyrənməklə onu təşkil edən hissələrin qanunlarını mənimsəməyin mümkünlüyünü və vacibliyini qəbul edir. Fikrən götürülmüş bir tam kimi Kosmosun ən ümumi qanunlarını isə yalnız ona bir tam kimi baxmaq üçün Kosmosdan "kənara çıxmaqla" aşkarlamaq mümkün ola bilər. Kosmosdan "kənara çıxan" idrak mütləq nəsəyə istinad edir, əks halda Kosmosdan kənara çıxa bilməz. Kosmosdan "kənara çıxmaqla" ona tam kimi baxmaq üçün səbəb olan nəsənin şərhi metafizikanın Kosmologiya bölməsinin predmetinə daxildir.

Kosmos anlayışının metafizik mənası nədir? Biz tək mümkünlüyün sonsuz çoxluqda, ayrılıqda götürülə bilən tək şeylərdən təşkil olunmuş mövcudluq əldə etməsi ilə yaranan aləmi Kosmos adlandırırıq. Buradan Kosmosun aşağıdakı predikatlarını əldə edirik:

1. Əgər kosmos sonsuz sayda şeylərdən təşkil olunubsa, deməli o özündə təşkilatlanmanı təqdim edir. Buradan *"Kosmos necə təşkilatlanmışdır?"* sualı meydana çıxır.
2. Əgər o sonsuz sayda şeylərdən təşkilatlanıbsa, onda onların hər biri ilə qarşılıqlı əlaqədədir. Buradan *"Kosmos necə strukturlaşmışdır?"* sualı meydana çıxır.
3. Hər bir şey öz-özündə tamlıq kimi çıxış edirsə, onda onunla qarşılıqlı əlaqədə olan Kosmos da tamlıqdır. Buradan *"Kosmos necə ayrılıqda tək tam kimi götürülə bilər?"* sualı meydana çıxır.
4. Hər bir tamlıq sərhədlidirsə, deməli bir tam kimi Kosmos da sərhədlidir. Buradan *"Kosmosun sərhədi vardırmı, varsa bu sərhəd kosmosu nədən ayırır?"* sualı meydana çıxır.

Kosmosun tək tam kimi götürülməsi onun sonlu, sərhədli və sonluluğu ilə şərtlənmiş keçici olmasını qəbul etməyi şərtləndirir. Əks halda sonsuz və əbədi kosmos ayrılıqda tək kimi götürülə bilməz. Kosmosun tək kimi götürülməsinin əksiliyindən, yəni tək kimi götürülməsinin mümkünsüzlüyündən kosmosun əbədiliyi və sonsuzluğu ideyası yaranır. Kosmologiya kosmosu tək kimi götürdüyündən, kainatın sonsuzluğu haqqında fikrin necə əmələ gəlməsi sualına cavab verməlidir.

Təbiətdə mövcud olan hər bir ayrılıqda götürülmüş tək şey sonsuz sayda atomlardan ibarətdir. Buna baxmayaraq, onların təşkil etdiyi konkret şey sonludur. Şeyin sonluluğu, konkret şeyin ölçülülüyü, şeyin subyektə münasibətdə xarici olmasını özündə ifadə edir. Yəni subyekt yalnız özündən xaric olanı ölçə bilir. Beləliklə, şeyin ölçüləri idrak subyektinə görə ölçülən olduğundan, o, başqa şeylərin ölçülülüyündən - məkanın sonsuzluğundan və zamanın əbədiliyindən çıxarılaraq qavranılır və buradan idraki ölçülülük meydana çıxır. Kosmos da ayrıca şey kimi mövcud olan sonsuz sayda şeylərdən - "atomlardan" təşkil olunub. Amma şeydən fərqli olaraq, subyektə münasibətdə Kosmos xarici deyil, çünki subyekt özü kosmosa münasibətdə daxilidir, yəni kosmosda

mövcud varlıqdır. Buradan da, bir tərəfdən mövcud varlıq kimi subyekt tək kimi götürülən kosmosla münasibətdə olmur, digər tərəfdən kosmos subyektə görə xarici olmadığından təcrübədə subyekt üçün Kosmosun ölçülülüyü əbədi olaraq naməlum qalır. Nəticədə, Kosmos idrak subyekti tərəfindən ölçülən olmur və subyekt tərəfindən onu təşkil edənlərin sayının sonsuzluğu avtomatik olaraq Kainata keçirilir və nəticədə Kainatın sonsuzluğu haqqında ideya meydana çıxır.

Haşiyə: Epikur, "Məktublar və fraqmentlər"

> *"Kainat sərhədsizdir. Belə ki, məhdudlaşan hüdudi nöqtəyə malik olmalıdır, kənar nöqtə isə başqa bir şey tərəfindən görülməlidir. Buna görə də, Kainat kənar nöqtəyə malik olmadığından sərhədləri yoxdur; sərhədi olmadığından o sərhədsiz olacaq, sərhədli yox. Sonra cisimlərin sayına görə və boşluğun ölçülərinə görə Kainat sərhədsizdir. Belə ki, əgər boşluq sərhədsiz olsaydı, cisim sərhədli, onda cisim heç yerdə dayanmazdı, daşınaraq sərhədsiz boşluğa yayılardı, onu saxlayan və əks zərbə ilə dayandıran başqa cismə malik olmazdı. Əgər boşluq məhduddursa, onda sərhədsiz cisim dayanmaq üçün yer tapmazdı."*

Kainatın sərhədsiz olması ilə bağlı Epikurla razılaşmaq olarmı? Epikurun birinci - *"məhdudlaşan hüdudi nöqtəyə malik olmalıdır, kənar nöqtə başqa şey tərəfindən görülməlidir"* - müddəası aşağıdakılara görə qəbuledilməzdir:

a. Əgər məhdudlaşanın hüdudi nöqtəsi eyni zamanda başqa şeyin də hüdudi nöqtəsidirsə (Kosmologiyada bu bir qanunauyğunluqdur), onda başqa şey həmin hüdudu necə görə bilər? Və ya başqa şeyin hüdudu kimi gördüyü eyni zamanda həm də öz hüdudi olduğundan, onu yadlaşdıra, yəni başqasına aid olub-olmamasını dəqiqləşdirə bilməz. Məsələn, fəzada olan hər bir şeyin sərhədləri bir tərəfdən həmin şeyin öz sərhədləri, digər tərəfdən həmin şeyi əhatə edən fəzanın onunla sərhədidir. Bu sərhədin yalnız fəzaya və yalnız şeyə aid olmasını iddia etmək mümkün deyildir, çünki fəza olmadan şeyin sərhədi, şey olmadan fəzanın sərhədi ay-

dınlaşmır. Ona görə də, Kainatın başqa şey tərəfindən sərhədinin görünməməsinə görə sərhədsiz olması müddəası əsaslı deyil.

b. Kainatda bütün şeylər bir-biri ilə vəhdətdədir. Vəhdətin təzahür forması hüdudilikdir, yəni vəhdətdə olmaq ümumi bir sərhədə malik olmağı təzahür etdirir. Ümumi sərhədin əsası xüsusi sərhəddir; buna görə də xüsusi sərhədi olmayanların ümumi sərhədi olmur və vəhdət təşkil etmirlər. Beləliklə, əgər kainatda mövcud olan bütün şeylər vəhdətdirsə, deməli vahid bir sərhəd daxilindədirlər və bu sərhəddən kənarda nəsə vardır.

Epikurun ikinci - *"cisimlərin sayına və boşluğun ölçülərinə görə Kainat sərhədsizdir. sərhədli cisim sərhədsiz boşluğa yayılardı"* - müddəası ilə də aşağıdakılara görə razılaşmaq mümkün deyil:

a. Əvvəla, "cisimlərin saya görə sonsuzluğu" bizim saymaq imkanımızın sonlu olmasını - idrakın məhdudluğunu - özündə ifadə edir, nəinki sayılan şeylərin sonsuz sayını. Yəni əgər biz kəmiyyəti sayla tam ifadə edə bilmədikdə sonsuz say meydana çıxır. Eyni çətinlik nominativ iş zamanı da meydana çıxır; hansı ki, mövcud sözlərin yetərsizliyi aşkarlanmış və yaradılmış yeni şeylərin sintetik adlandırılmasına imkan vermir. Bunu A.N. Uaythed belə ifadə edir: *"Heç bir sonlu say məkanın sonsuzluğunu, zamanın əbədiliyini və varlığın hüdudsuzluğunu əhatə gücündə deyil"*. Bunun iki səbəbi vardır. Birincisi, saymanın proses olması, sayın isə özündə başa çatmış prosesi təqdim etməsidir. Sonsuzluğu yalnız sonsuz saymaq mümkündür, amma bu zaman saymada başa çatma olmadığından konkret say meydana çıxmır. İkincisi, sonsuz sayma üçün sonsuz sayda rəqəmlər tələb olunur. Beləliklə, sonsuz saya uyğun sonsuz sayda rəqəmə malik olmalıyıq. İnsanın simvollaşdırma imkanı məhdud olduğundan, biz məhdud sayda rəqəmə malikik, hansı ki, sonsuz sayda olanı işarələməyə imkan vermir. Yəni rəqəmin sonsuzluğunun mümkünsüzlüyü özündə sayın sonsuzluğunun mümkünlüyü kimi refleksiya olunur. Məsələn, 9-un sakramental mənası sonsuzluqdur, çünki tək rəqəmlər

9-da başa çatır və 9-dan sonra tək rəqəm yoxdur (yerdə qalan bütün rəqəmlər 1 və 9-dan təşkil olunur). Digər tərəfdən, sonsuz say özündə Kainatın sərhədsiz olduğunu sübut etmir. Məsələn, maddələr sonsuz sayda atomlardan ibarətdir, lakin biz bilirik ki, istənilən sonsuz sayda atomdan təşkil olunmuş şey bir tam kimi sərhədlidir, yəni sonludur.

b. Cisimlərin sayı və boşluğun ölçülərinə görə cismin bütün boşluğa yayılması da zərurət deyil. Biz ideal qaz qanunundan bilirik ki, normal şəraitdə istənilən qazın bir molu 22,4 l həcm tutur; baxmayaraq ki, qaz molekulunun ixtiyari həcm tutmasına heç bir maneçilik olmur. Buradan belə nəticə alınır ki, boşluğun ölçülərinin necə olmasından asılı olmayaraq, şeylər bütün boşluğa yayılmağa meyl etmir. Bunun iki səbəbi vardır. Birincisi, zərurətə görə mövcud olmaq. Bu səbəb immanentdir və mövcudluğun mövcud olmasının şərtləri kimi şeyin daxilindədir. Əgər şey sonsuz boşluğa yayılsaydı, onda onun daxilik xarakteristikası, yəni immanentliyi itərdi; hansı ki, yalnız qapalılıqla hüdud təşkil etmə ilə təzahür edir. İkincisi, vəhdətdə mövcud olmaqdır; hansı ki, bütün şeylər bir-biri ilə vəhdətdə mövcud olur. Şeyin boşluğa yayılması onu bu vəhdətdən məhrum edərdi, nəticədə mövcud olma istisna olardı. Beləliklə, bütün boşluğa yayılmaqla mövcudluqlar həm daxili zərurətdən, həm də xarici vəhdətdən məhrum olur ki, bu da Kosmosun ümumi şərtdən məhrum edərdi. Yəni mütləq boşluğa yayılmağa meyl edən cisim zərurətə görə yox olur. Buradan da cismin bütün boşluğu tutmamasının iki gücü aşkar olunur. Birincisi, cismin bütün boşluğu tutmamasının, yəni sonsuz boşluğa yayılmamasının dayandıran özünün daxili və xarici vəhdət təşkil etməsinin gücü; hansı ki, şey həmin güclə zərurətə görə mövcud olur. İkincisi, cismin boşluğa yayılmasının qarşısını alan xarici güc, boşluğun öz xüsusi gücü. Epikurun dövründə boşluq heç bir enerjiyə malik heçlik kimi təsəvvür olunurdu. Halbuki boşluq xalis yoxluqdur; hansı ki, varlığın enerjisi məhz yoxluğun enerjisindən təzahür edir. Müasir elmi tədqiqatlar sübut edib ki, boşluq öz-özündə şeydir və

boşluğun bir sm.kub həcmində yerləşən enerji bütün kainatın enerjisindən qat-qat artıqdır. Deməli, Kosmos özündə nə qədər "sonsuz" olsa da, boşluğun nəhayətsizliyi ilə müqayisədə sonludur və ya nisbi sonsuzdur. Beləliklə, Kosmosun sonsuzluğu boşluğa görə yox, yalnız onu təşkil edən şeylərin sayına görə, o cümlədən onların əlaqəsini müəyyənləşdirməyə cəhd edən subyektin imkanlarının məhdudluğuna görə qəbul edilə bilər.

Epikurun üçüncü - *"boşluq məhduddursa sərhədsiz cisim dayanmaq üçün yer tapmazdı"* - müddəası ilə də razılaşmaq olmaz. Biz boşluğu cismin əksiliyi kimi təyin edirik. Buradan da məhdudluq cismə xas xarakteristika olduğundan, onun əksiliyinin - boşluğun xarakteristikası ola bilməz. Deməli, boşluğun məhdudluğu mümkünsüzlükdür. Cismin məhdudluğu onun mümkünlüyüdür. Mümkünlüyü mümkünsüzlüyə yerləşdirmək mümkün olduğundan, sonsuz sayda cisim dayanmaq üçün boşluqda yer tapır.

5. Hər bir tam başqa tama nisbətdə tam kimi mövcuddur. Əgər biz kosmosu ayrılıqda tam kimi götürə biliriksə, deməli Kosmos Metafizikaya münasibətdə tək bir tam kimi mövcud ola bilər. Onda metafizik aləm də öz qanunları ilə başqa bir tamdır.

6. Tamlaşma özündə sonu təqdim edir. Mütləq tam mütləq sondur. Sonu olanın başlanğıcı da olmalıdır. Əgər Kainat bir tam kimi sondursa, onda onun başlanğıcı da olmalıdır. Başlanğıc sondan kənarda olmalıdır ki, onda son olsun. Deməli kosmosun başlanğıcı ondan kənarda, metafizikadadır. Buradan deyə bilərik ki, kosmos metafizikadan yaradılmışdır.

7. Kosmosda yaranma yox, yalnız əmələgəlmə müşahidə olunur. Əgər kainat özündə yalnız əmələgəlməni saxlayırsa, deməli yaranma ondan kənardadır; bu da kainatın özündənkənar güc tərəfindən yaradıldığını göstərir.

8. Mümkünlüyün mövcudluq əldə etmə meylində mövcud olan hər şey bu meylə münasibətdə ən son nəticədir. Əgər kosmos özü-özlüyündə bir tam kimi son nəticədirsə, onda onun özündən kənar ilkin səbəbi də olmalıdır. Bu səbəb kosmosu təşkil edən bütün mövcud olan və ola biləcək mövcudluqlara keçən mümkünlüyün varlığıdır.

9. "Təsadüf zərurətin təzahür formasıdır" müddəasına görə Kosmosun mövcud olması, yəni təzahürü forma kimi təsadüfi, mövcudluğu həmin formada təsadüfən təzahür edən zərurətdir. Yəni kosmos faktiki olaraq mövcud olmasına görə təsadüfi şərtlərin məcmusu ilə, mövcudluğuna görə zəruri şərtlərin məcmusunun vəhdətindən ibarətdir. Formal olaraq Kosmosun mövcud olmasının və mövcudluğunun şərtləri ayrı-ayrılıqda Kosmosun xalis təsadüfünün və xalis zərurətinin şərtləri kimi metafizikadadır. Buradan da Kosmosun yaranması xalis təsadüfün metafizik şərtləri ilə xalis metafizik zərurətin şərtlərinin vəhdətə gətirilməsindən ibarət olur. Burada xalis zərurətə görə şərtlər - passiv İlahi Gücün refleksiyası kimi İlahi İstəkdən, yəni həqiqətdən; xalis təsadüfə görə şərtlərin məcmusu aktiv İlahi Gücün refleksiyası kimi İlahi İradədən; və hər ikisinin vəhdəti mahiyyətin forma yaratması kimi İlahi Yaradıcılığın refleksiyası kimi İlahi Bacarıqdan ibarətdir. Yəni Kosmos özündə üç müxtəlif ilahi predikaliyanın refleksiyası kimi mövcuddur.

İlahi bacarığın şərtləri müstəqil şərtlərin məcmusu kimi, təsadüfi şərtlərlə zəruri şərtlərin vəhdətinin şərtlərindən ibarətdir. Beləliklə, Kosmos - mövcudluqların sonsuz çoxluqda, qarşılıqlı əlaqədə, mütləq vəhdətdə təşkilatlanaraq, başlanğıcı metafizikada olan, özündənkənar güc tərəfindən - Allah tərəfindən yaradılan bir tam mövcudluqdur; hansı ki, özündə tək mümkünlüyün imkanlarının məcmusu kimi təzahür edir.

Kosmologiya ilə bağlı transendental ideyanı İ. Kant "təzahürlərin şərtlərinin sıralarının mütləq vəhdəti" kimi müəyyən etmişdir və belə hesab etmişdir ki, bu transendental ideyanın anlayışlarını "sıranın üzvlərinin şərtsiz hipotetik sintezindən" əldə etmək olar. Kanta görə kosmoloji transendental ideyanın əqli nəticələrini "ümumiyyətlə mövcud

təzahürün şərtlər sırasının mütləq məcmusunun transendental anlayışlarından əldə etmək olar". Kant, sıranın bir tərəfindən şərtsiz sintetik vəhdət haqqında özü-özünə ziddiyyət təşkil edən anlayışlara və haqqında heç bir anlayışı olmamasına baxmayaraq, ona əks olan digər tərəfindən vəhdətin düzlüyü haqqında nəticə çıxarmağı, transendental nəticəni, xalis ağlın antinomiyası adlandırır. Antinomiyanın bir tərəfi Kosmoloji ideyalar, digər tərəfi teoloji ideyalardır; yəni İ. Kantın təbirincə birinci tərəf - kosmos antitetika ideyaların, ikinci tərəf - metafizika tetik ideyaların mənbəyidir. Buradan da deyə bilərik ki, kosmosun metafizik idrakı özündə antitetika ilə tetikanın vəhdətini - əksiliklərin bir-birini inkar etmədiyi, əksinə bir-birini təsdiq etdiyi vəziyyəti haqqında təsəvvürlərdən ibarətdir.

Nə üçün metafizik kosmologiya transendental kosmoloji ideyalar sistemindən fərqli olaraq ağlın antinomiyasına məruz qalmır? Əgər transendental ideyaları "ümumiyyətlə mövcud təzahürün şərtlər sırasının mütləq məcmusunun transendental anlayışlarından əldə etmək" olarsa, metafizik ideyaları ümumiyyətlə mövcud təzahürün və potensial təzahürün şərtlər sırasının mütləq məcmusunun metafizik anlayışlarından əldə edilir. Hansı ki, ümumi metafizikada biz belə anlayışları transendental anlayışlar kimi mövcud olan bir-biri ilə əlaqəli cüt kateqoriyalardan fərqli olaraq, xalis kateqoriyalar - tək kateqoriyalar kimi şərh etmişdik.

METAFİZİK KOSMOLOJİ İDEYALAR SİSTEMİ

Fəlsəfədə kosmologiya ilə bağlı ideyalar mövcuddur. Belə ideyalardan biri Platona məxsusdur. Platona görə *"mövcud olanlar qabiliyyətdən başqa bir şey deyildir"*. Buradan görünür ki, Platonun kosmoloji ideyası yalnız İlahi Bacarığın refleksiyasını özündə təqdim edir. Biz aşağıdakılara görə Platonla razılaşmırıq:

1. İlahi bacarığın refleksiyası xarici görüntü kimi, o cümlədən Kosmosa münasibətdə Kosmosun illüstrasiyası kimi refleksiya olunduğundan, İlahi iradədən və istəkdən ayrılıqda özündə xalis heçlikdir.

Heçlikdən heç bir ideya aşkarlamaq mümkün olmadığından, mövcud olanlar yalnız qabiliyyətdən ibarət deyil. Platonun fikirlərini insana tətbiq etdikdə aşağıdakı alınır: "İnsan qabiliyyətdir". Amma biz bilirik ki, qabiliyyət insanın atributlarından yalnız biridir və onun bundan başqa atributları da vardır.

2. Qabiliyyət özlüyündə predikatdır; əgər predikat varsa, həmin predikatın aid olduğu obyekt də olmalıdır. Buradan da, "mövcud olan (akt) - mövcudluğun (faktın) qabiliyyətidir" müddəasını çıxara bilərik. Platonun şərhindən görünür ki, o, öz ideyalarını yalnız kosmosun aktından aşkarlayır. Bu zaman fakta diqqət edilmir. Halbuki fakt akta münasibətdə səbəbdir, əsasdır. Fakt olmadan akt meydana çıxmır.

3. Platon öz mühakiməsini dərketmə prosesindən əldə etdiyindən, varlığı yalnız prosesdə olan kimi qəbul edir. Buradan da, təbiət sferasında yalnız keçid prosesi müşahidə olunduğundan, birləşmə (yəni yaranma) metafizikadan təbiətə keçiddə baş verdiyindən, Platon var-ı yaranmada keçiddən sonrakı mərhələdən - əmələgəlmədən aşkarlayır ki, bu da fərqli qanunlara tabe olan metafizik yox, empirik ideya kimi mövcud olur.

Metafizika yalnız xalis faktdan həqiqətləri aşkarlamağa cəhd etdiyindən, metafizik ideya yalnız aktuallaşmamış varlıqdan - xalis faktdan əldə edilə bilər. Kosmosun xalis faktı haqqında ideya, aktuallaşmış faktın - Kosmosun bizə təqdim olunan sonuncu illüstrasiyasının aktuallaşmasının təzahürlərinin ideyalarının çıxılması ilə əldə edilə bilər. Bu mənada fakt qabiliyyətdən təyin oluna bilməz, belə ki, fakt xalis müəyyənlikdir və özündə heç bir qabiliyyət saxlamır. Kosmosu yaranmadan - birləşmədən aşkarlanan ideyaları, əmələgəlməyə xas keçiddən aşkarlanan ideyalardan əvvəldir və buna görə də yalnız təcrübədənkənar düşüncə ilə intuitiv idrakla qavranıla bilər.

5. Platon belə hesab edirdi ki, *"dərketmə ilə idrak, nə qədər ki dərk edilir, sükunətdə olanda əmələ gəlməsi mümkün olmayan öz əzabi gücündə bir o qədər hərəkətdədir"*. Beləliklə də, Platon yalnız hərəkətdən

varlığın mənasını çıxarır və bu zaman sükunət hərəkətin əksiliyi kimi, bu halda mənadan məhrum olur. Bu da təbiət haqqında fəlsəfi bilgilərin yalnız əksiliklərin ziddiyyətdə olan tərəflərindən birindən əldə edilməsinin mümkünlüyü ilə, yəni ya inkar, ya təsdiq edilməsi ilə bağlıdır. Mütləq fakt fikrən sükunətdə götürüldüyündən, Platonun fikirlərindən yanaşıldıqda heç bir mənaya malik deyil. Faktın belə mənasızlığı onun təbiətdən bilavasitə aşkarlanmasının mümkünsüzlüyünü özündə ifadə edir. Əgər biz fikrən bu keçidi zamanın bir anında və ya məkanın bir nöqtəsində durdursaq, onda həmin an və nöqtə özündə mütləq sükunəti təqdim edəcək; hansı ki, mütləq faktından ibarət olacaq. Buradan da, faktdan məna faktın anından əldə edilir, hansı ki, mütləq sükunətdə olur. Platon hərəkətdə olandan həqiqəti necə əldə edir? Metafizika faktı fikrən götürdüyündən, bununla onu təbiətdən çıxarır və bununla onu təbiətdə malik olduğu mənasızlıqdan azad edir.

Biz iki cür hərəkət ayırd edirik:

- **Birincisi, xarici hərəkət:** Xarici hərəkət faktdan kənar güclərin iştirakı ilə baş verən hərəkətdir. Belə hərəkəti faktın məkanın bir nöqtəsindəki sükunət halından, digər nöqtəsindəki sükunət halına keçid kimi təsəvvür edirik. Beləliklə, xarici hərəkət faktın sükunətinin məkanda sırasını özündə təqdim edir.
- **İkincisi, daxili hərəkət:** Daxili hərəkət daxili güclərin iştirakı ilə faktın daxilində təzahür edən hərəkətdir; hansı ki, aktuallaşma və ya mövcud olma adlandırırıq. Aktı - faktın özü-özündə hərəkət kimi zamanın bir anından başqa anına keçid kimi təsəvvür edirik. Buradan da, daxili hərəkəti faktın sükunətinin zamanda sırasını özündə təqdim etmiş olur.

Mövcudluqlar zaman-məkan şərtində faktın aktuallaşması kimi mövcud olduğundan, özündə hər iki sıranın - məkanda və zamanda sükunətin sıralanmasının vəhdətini təqdim edir. Kosmologiyanın metafizik ideyasını məhz buradan, Kosmosun sükunətinin məkanda və zamanda sıralarının vəhdətindən əldə etmək olar.

Daxili hərəkətin formalarına həm də canlılığı və düşüncəni aid etməliyik. Belə ki, dərketmədə idrak bir tərəfdən subyektin həyatını - yəni subyektin mövcud varlıq kimi sürəkliliyini təqdim edir (hansı ki, zamanla çoxparametrli asılılıqdadır), digər tərəfdən düşüncəni - mühakimənin aparılmasını təqdim edir. Buradan da, mövcudluğun varlığının empirik təyini üç müxtəlif hərəkətin məcmusundan mənanın aşkarlanmasını özündə təqdim edir. Əgər biz fikrən həyatı və düşüncəni xarici predmetin daxili hərəkətindən ayırsaq, onda yalnız bu halda subyektə münasibətdə xarici varlığın öz mütləq hərəkəti qalacaq ki, bu da özüözündə sükunəti təqdim edəcək. Xarici şeyin sükunəti onun faktının xarakteristikası edəcək. Beləliklə, biz metafizik mənanı subyektə münasibətdə xarici sükunətlə daxili hərəkətin vəhdətindən aşkarlamış oluruq; burada, obyektə münasibətdə sükunət immanent qanunların mənbəyi, hərəkət xarici qanunların mənbəyi kimi çıxış edir. Beləliklə, kosmos xarici hərəkət verilməklə yarandığını deyə bilərik; hansı idrak prosesində subyekt tərəfindən fakta belə hərəkət verilməklə o dərk edilir-yaradılır. Xaricdən verildiyindən kosmosun tək kimi tabe olduğu qanun da xaricidir və kənardan ona yazılmışdır; bu qanunlar kosmosun təsadüfə görə mövcudluğunun qaydalarından ibarətdir. Təbiət metafizikadan fərqli qaydalarla mövcud olduğundan, təbiətdə metafizik statuslu obyekt kimi sükunətdə olan mütləq fakt, metafizik aləmdə xalis hərəkətdə olan metafizik statuslu obyekt kimi mövcud olur. Məhz buna görə faktlarının mütləq sükunət vəziyyətləri olmadığından məsələyin, şeytanın və cinin varlığından məna çıxarmaq mümkün deyil. Təbiət sferasında mövcud olmadıqlarından, təbiətdə mütləq sükunətdə olurlar və hərəkətdən çıxarılan məna ilə təyin olunmurlar.

Metafizik statuslu obyektlər xalis təsadüfə görə mövcud olduqlarından, hissəciklərin hərəkət trayektoriyası xalis təsadüfdür və bir-biri ilə zərurətə görə əlaqəsi yoxdur, yəni vəhdət təşkil etmir. Yaranma anında hissəciklər təsadüfə görə bir-biri ilə birləşirlər və bu prosesdə bir tərəfdən

ayrılıqda götürülmüş tək tamlar yaranır. Tam - sadənin mürəkkəbə keçidinin təzahürü kimi meydana çıxır; hansı ki, sadələrin tabe olduğu qaydalar mürəkkəblərin tabe olduğu qaydalardan tamamilə fərqlənir. Məhz buna görə də, ayrı-ayrılıqda sadə maddə kimi mövcud olan və insan orqanizmi üçün təhlükəli olan Na və Cl birləşərək mürəkkəb maddə olan xörək duzunu əmələ gətirdikdən sonra NaCl orqanizm üçün zəruri əhəmiyyətli maddə kimi çıxış edir. Buna paralel, NaCl-un heç bir kimyəvi xassəsi Na və Cl-un ayrı-ayrılıqda malik olduqları kimyəvi xassələri ilə eynilik təşkil etmir.

Tamın yaranması ilə tamı təşkil edən hissəciklər onunla şərtlənirlər, şərtlənmə dərəcəsinə görə öz xüsusiliklərindən məhrum olurlar. Yəni tamı təşkil edən sadə maddələr tamın daxilində öz xüsusi azadlıqlarından - xalis təsadüfə görə mövcudluqdan məhrum olurlar və daxildə məcburiyyətə görə mövcud olana keçirlər. Hissələrin tamla şərtlənməsi nəticəsində daxili vəhdət yaranır. Vəhdətdə olan hissəciklər tamın daxilində təsadüfi hərəkətdən məhrum olurlar və zəruri trayektoriya ilə hərəkət edirlər. Hissələrdən çıxarılan təsadüflük-azadlıq dərəcəsi bütünlüklə tama keçir və tam, daxildə zəruri trayektoriyaya malik hissəciklərin vəhdətində, xaricdə təsadüfə görə trayektoriyaya malik mövcudluqların vəhdətində mövcud olma əldə edir.

Buradan da zərurətlə təsadüf bir-biri ilə əlaqələnir və təbiət sferasının, yəni kosmosun daxili qanunları meydana çıxır; hansı ki, zərurətin təsadüf formasında təzahürünü özündə ifadə edir. Kosmosun daxili qanunları birləşmə prosesində, yəni yaranmadan meydana çıxdığından, xaricdən verilən əbədi qanunlar kimi mövcuddur. Kosmosun özü İlahi İstək kimi xarici qanuna tabedir. Çünki tək olduğundan vəhdətdən kənardır. Kosmosun tabe olduğu ən ümumi qanunu belə formulyasiya etmək olar: *"Metafizikada xalis təsadüfə görə mövcud olan ən sadə hissəciklərin birləşməsindən zərurətə görə mövcudluq əmələ gəlir; hansı*

ki, digər mövcudluqlarla zərurətin təsadüf formasında təzahürü ilə vəhdətdə Kosmosu təşkil edir."

Nə üçün hissəciklərin birləşməsindən yeni qanunlar - empirik qanunlar meydana çıxır; hansı ki, metafizikadakı mütləq azadlığın məhdudlaşdırılmasının ən müxtəlif dərəcələrini özündə ifadə edirlər? Bundan əvvəlki bəhsdə kvant fizikasını şərh edərkən göstərmişdik ki, təbii obyektləri xarakterizə edən hər bir predikat metafizikada müstəqil, ayrıca bir hissəcik kimi mövcuddur; hansı ki, xalis aksedensivlik kimi, təbiətdən aşkarlanan aksidensivliyin başlanğıcı və səbəbini özlərində təqdim edirlər. Həmin hissəciklərin müxtəlif kombinasiyalarda birləşməsi ilə hər bir hissəcik öz mütləq azadlığından məhrum olur. Hissəciklərin müxtəlif kombinasiyalarda birləşməsindən onlar arasında yaranan vəhdət substansiyanı təşkil edir. Meydana çıxan azadlıq dərəcəsi - şərti azadlıq - yaranan şeyin daxili azadlığı-mövcud olma imkanını təşkil edir; hansı ki, biz bunu **substansiya** kimi anlayırıq. Beləliklə, substansiya şərti azadlıq olub hissəciklərin mütləq azadlığının məhdudlaşmasından yaranır. Bunun əksinə, birləşmə prosesində hissəciklər öz azadlıqlarını saxlamaları həddində aksidensiv olurlar. Biz bunu obrazlı olaraq səhrada baş verənlərlə müqayisə edə bilərik. Səhrada qum dənələri küləyin təsirindən təsadüfə görə hərəkət edir və hər dəfə küləkdən sonra səhranın ümumi xarici görüntüsü dəyişir. Əgər qum dənələri bir-biri ilə birləşib daha iri kütlələr əmələ gətirirsə, onda külək birləşməmiş qum dənələrindən fərqli olaraq onlara təsadüfi hərəkət verə bilmir; onlar yalnız zərurətə görə küləyin istiqamətinə uyğun bəlli trayektoriya üzrə hərəkət edirlər. Buradan da, külək əsdikdə qum dənələri xaotik hərəkət edərək qum fırtınası yaradır, birləşmiş qumlar isə zəruri trayektoriya ilə nizamlı hərəkət edir. Yaranma prosesində metafizikadakı hissəciklər qum dənəsi, keçid prosesində kosmosda olan mövcud olanlar birləşmiş qum kütləsi kimi çıxış edir.

Kosmologiya ilə bağlı mövcud müddəalardan biri belədir: *"Keçmiş faktiki olaraq gələcəyi şərtləndirir"*. Bəs keçmiş gələcəyi necə şərtləndirir? Əgər keçmiş gələcəyi şərtləndirirsə, gələcək də öz növbəsində keçmişi şərtləndirirmi və biz necə gələcək haqqında ehtimallar irəli sürə bilirik?

Metafizik obyektlər eyni yerdə müxtəlif vaxtlarda, empirik faktlar eyni yerdə, eyni vaxtda mövcud olur. Mümkünlüyün mövcudluq əldə etmə meylində eyni yerdə müxtəlif vaxtlarda mövcud olma xarakteristikası, keçid prosesində mövcudluqda eyni vaxtda, eyni yerdə olmaq xarakteristikasına keçir və müxtəlif vaxtlarda olma potensiallıq kimi mövcudluğun dərinliyinə enərək, orada metafizik gizliliyi təşkil edir. Bu dərinlikdə eyni yerdə müxtəlif vaxtlarda olmaq "keçmiş gələcəyi şərtləndirir" qaydasının başlanğıcını təşkil edir. Eyni prinsiplə təbiətdə həm də gələcək keçmişi şərtləndirir. Əgər gələcək keçmişi şərtləndirməsəydi, keçmiş konkret gələcəyə doğru istiqamətlənmiş hərəkətdən məhrum olardı. Onda iki eyni şey inkişaf prosesində müxtəlif mövcudluqlara keçərdi; bu da Kosmosun təşkilatlanmasına zidd olduğundan onu xaosa salardı. Canlıların mövcudluğu bunu özündə daha illüstrativ əks etdirir. Hər bir canlı özünün gələcək formasına doğru inkişaf edir və bu zaman gələcək mövcudluğun planı qabaqcadan irsi məlumatlar kimi onun indisində saxlanılır. Gələcəyin indini - özünə münasibətdə keçmişi şərtləndirməsini təsdiq edən digər bir fakt kimi Şopenhauerin cinsi məhəbbətin metafizikası haqqında şərhini göstərmək olar. O, iki əks cinsin cinsi yaxınlaşmasını gələcəkdə doğulacaq nəslin sifarişi kimi şərh edir. Gələcəyin keçmişi şərtləndirməsini bəzi empirik hadisələrdən də müşahidə etmək olar. Yağış yağmamışdan qabaq hava soyuyur. Havanın soyuması gələcəkdə yağacaq yağışın indiyə (amma onun özünə görə keçmişi) şərtləndirməsi kimi təzahür edir; buradan da proqnozlaşdırma meydana çıxır. Proqnozlaşdırma - gələcəyin keçmişə təsirinin indidə aşkarlanmasını özündə ifadə edir. Bunun səbəbi meta-

fizikada keçmişin gələcəklə eyni yerdə, eyni vaxtda meydana çıxmasıdır; bu həm də gələcəyi görmək ehtimalının səbəbi kimi çıxış edir.

Beləliklə, Kosmosun indisi onun gələcəyi ilə şərtlənmişdir. Gələcəyin indiyə münasibətində ya eynilik, ya fərqlilik aşkarlamaq olar. Bizcə, Kosmosun gələcəyi indisi ilə eyniyyət təşkil etdiyindən Kosmosun əbədi mövcudluğu haqqında təsəvvürlər yaranıb. Kosmosun subyektə təqdim edilən illüstrasiyaları - dərk edilən şəkli - dəyişkəndir. Beləliklə, burada "gələcək indini şərtləndirir" müddəası həm də idrak prosesinə aid olur; hansı ki, Kosmosun bizə indi təqdim edilmiş illüstrasiyasından əldə etdiyimiz ideyalar gələcək illüstrasiyalardan əldə edəcəyimiz ideyalarla şərtlənmişdir. Buradan da, kosmosun tamlığı ideyası meydana çıxır.

İsgəndəriyyə teologiyasından məlum olan *"Allahın dünyada immanent olması"* fikri də kosmologiyanın şərh verməli olduğu məsələlərdəndir. Bu teologiya metafizika ilə təbiəti eyni qanunlara tabe olan iki paralel mövcud olan aləm kimi götürür və determinizmə uyğun Allahın qanunlarının öz yaratdıqlarının qanunları ilə eynilik təşkil etdiyi qənaətinə gəlir. Ümumiyyətlə, üç cür proses ayırd etmək olar: Refleksiya, birləşmə və keçid.

a. **Refleksiya:** Bir qanunlara tabe olanın başqa qanunlara tabe olanı təzahür etdirməsindən ibarətdir; bu zaman refleksiya edənlə refleksiya olunan qarşılıqlı əlaqədə olmur. Nəticədə, refleksiyanın bir tərəfindən heç bir halda digər tərəf haqqında heç bir formada həqiqəti qavramaq mümkün olmur. Kosmos Allahı özündə refleksiya etdiyindən, Allahla Kosmosun qaydaları eynilik təşkil etmir; buradan da Kosmosda Allahın qanunları aşkarlanmır. Allahın özünəməxsus heç bir qanunu (hansı ki, bizim idrakımız üçün qapalıdır) təbiətə keçmir. Əgər belə keçid olsaydı, onda birbaşa təbiətdən Allah aydınlaşardı və dərk edilərək aşkarlanardı. Amma Allah təbiətdən aydınlaşmadığından, biz onu təbiətdən dərk edə bilmirik və yalnız Kosmosdan metafizikaya transendensiya ilə Allah

ideyasını aşkarlamağa müvəffəq oluruq və bu ideyanı kosmosun xarici qanunları kimi aşkarlayırıq.

b. **Birləşmə:** Birləşmə prosesində birləşən tərəflər öz əvvəlki qanunlarından məhrum olub yeni qanun əldə edirlər; hansı ki, birləşmədən əvvəlki qanunla eynilik təşkil etmirlər. Əvvəlki qanunlar mövcudluğun gizliliyi kimi potensial varlığında saxlanılır. Kosmosda mövcudluqlar birləşmədən qurulduqlarından, bundan əvvəl metafizikada mövcud olan hissəciklərin tabe olduqları qanunları özlərində gizlədirlər, amma təzahür etdirmirlər. Deməli, yaranma prosesindən sonra mövcudluqlardan metafizik qaydaları aşkarlamaq olmaz. Birləşmədən əvvəlki qanunları buna əks proseslə - parçalama və ya təbiətdən çıxma ilə xalis zəkadan potensiallığın varlığından aşkarlamaq olar.

c. **Keçid:** Keçid prosesi yalnız mövcudluqlara aid edilə bilər. Qarşılıqlı keçid yalnız tərəflərin eyni qanunlara tabe olmasında mümkün olur. Buna görə də kosmosu təşkil edən mövcudluqların birinin qanunundan digərinin qanununu aşkarlamaq mümkün olur.

Nə üçün kosmosun daxili qanunları ona münasibətdə xarici qanunlarla - metafizik qanunlarla, o cümlədən Allahın özünəməxsus qanunları ilə eynilik təşkil edə bilməz?

1. Kosmos Allaha - başlanğıcların başlanğıcına - münasibətdə sonların sonudur. Başlanğıcdan sona doğru hərəkət emanasiya - pisləşmədən ibarətdir. Bu o deməkdir ki, əgər Allah özündə mütləq kamilliyi ifadə edirsə, onda Kosmos mütləq qeyri-kamilliyi özündə ifadə edir. Buna görə də mütləq kamil olanla mütləq qeyri-kamil olan eynilik təşkil edə bilməz və buradan da həmin qanunlar arasında fərqlilik meydana çıxır.
2. Kosmosun daxili qanunları onun daxilində, obyekt-subyekt münasibətində aşkarlanır. Bu zaman immanent qanunlar ikiqat entropiyaya uğrayır: bir tərəfdən obyektin daxilində (forma əmələgəlməsi prosesində) və xaricində (təzahür prosesində ötürücü mühitdə olan)

Maksvel iblisləri onu entropiyaya məruz qoyur; digər tərəfdən subyektin daxilindəki Maksvel iblisləri, qavrama prosesində, həmin qanunları təkrar entropiya edir. Nəticədə, biz kosmosun daxili qanunlarını üçqat entropiyadan sonra aşkarlayırıq. Kosmosda şərin mənbəyini biz Maksvel iblisləri kimi görürük; hansı ki, həqiqətin təhrif olunmasını təmin edir. Həqiqətin təhrifi isə şər kimi təzahür edir. Xarici qanunlar intuitiv qavrama ilə, obyekt-subyekt münasibətindən kənarda, subyektin öz daxilindən aşkarlanır; hansı ki, obyektin Maksvel iblislərinin təsirinə məruz qalmaqdan sığortalanıb. Və yalnız subyektin daxili Maksvel İblislərinin təsirinə məruz qalır. Bu yolla əldə edilən qanunlar da Allahın qanunlarına görə eminent olur, amma Kosmosun qanunlarına nisbətən Allahın qanunları ilə oxşarlıq təşkil edir. Ruhun özündə İlahi atributlara malik olması fikri özündə belə oxşarlığı ifadə edir.

3. Kosmosun daxili qanunları heçliyin-formanın, məna ilə-mahiyyətlə vəhdətindən meydana çıxır; hansı ki, həmin qanunlar özlərində bilavasitə heçliyin iştirakı ilə alındığından əbədilik və dəqiqlik xarakteristikasından məhrumdur. Hansı ki, əbədilik və dəqiqlikdən heçlik qədər fərqlənir. Allahın öz qanunları isə varlığın iştirakı olmadan mütləq yoxluqda saxlanılır; hansı ki, əbədi və mütləqdir. Buradan da Allahın qanunlarının yalnız özü-özü ilə eynilik təşkil etməsi müəyyən olunur.

Kosmosu həm metafizika, həm fəlsəfə, həm də elm öyrənir. Buna görə də, kosmoloji ideyalar sistemini təsəvvür edərkən fəlsəfi və elmi şərhlərə istinad etmək lazım gəlir.

Haşiyə: A.N. Uaythed, "Kosmologiya"

> *"Öz xüsusi qanunları, qaydaları və terminləri olan sonsuz çoxlu sayda mücərrəd elmlər vardır, amma hamısı özünün işlənməsini gözləyir. Təbiətin öz təzahürlərində belə çoxlu elmə illüstrasiya vermək qabiliyyətinə malik olması haqqında nəticədən çətin ki,*

qaçmağımız mümkün olsun. Biz bu illüstrasiyaları görmədiyimizə görə onların tabe olduğu qanunlar tipini bilmirik. Beləliklə, insan şüurunda Qanun anlayışının əmələgəlməsi bəzi dərəcədə konvensionaldır. Təbiətin qanunlarının mümkün çoxformalığının mühakiməsi diqqəti üç səviyyəyə cəmləşdirir, hansı ki, fəlsəfi diskussiyalarda unutmaq olmaz. Bu aşağıdakılardır: 1. Bizim bilavasitə intuisiyamız istənilən verbalizasiyanı üstələyir. 2. Bu intuisiyaların söz ifadəsinin hərfi forması onların dialektik nəticələrlə birlikdə söz formulyasiyasıdır. 3. Çoxlu xalis deduktiv elmlər elə dərəcədə işlənib ki, onların işi olan mümkün münasibətlər toru sivilizasiya şüurunda adi olur."

A.N. Uaythedin Təbiət Qanunları haqqında fikirlərini bir qədər geniş şərh edək. Doğrudan da, potensial mücərrəd elmlərin olmasını qəbul etməliyik. Bunun bir çox səbəbləri vardır.

Birincisi: Əgər elm tarixini nəzərdən keçirsək, empirik elmlərdən sonra tədricən müxtəlif mücərrəd elmlərin yarandığını görmüş olarıq. Və mücərrəd elmlərin sayı bizim mücərrədləşdirmə imkanımızla şərtlənib. Biz nə qədər mücərrədləşdirməni dərinləşdirsək, bir o qədər yeni elmlər meydana çıxacaq.

İkincisi: Mövcudluğa əldə etməyə meyl edən mümkünlük Kosmosda mövcudluqların dərinliyində potensiya kimi saxlanılıb. Bu potensiallıqda həm mövcud ola biləcəklərin (amma hələ mövcud olmayanların) ideyası, həm də heç bir halda mövcud olmayacaqların ideyası gizlənib. Birincilərə bağlı yaranan nəzəri elmlərə nümunə kimi kvant fizikasını və polimerlər kimyasını göstərmək olar. Kvant fizikası şeyin fikrən parçalanması ilə metafizikaya keçərək potensiallıqdan yeni həqiqətlər aşkarlayır. Polimerlər kimyası polimerlərin potensiallığının qanunlarını aşkarlamaqla elm forması alıb. Mümkünlüyün mövcudluğunu şərh edən elmlərə psixologiyanı və digər bu qəbildən olan elmləri göstərmək olar ki, mövcudluğu olmayacaq mümkünlük kimi ruhun qanunlarını özündə təqdim edir.

Kosmos idraka ən müxtəlif illüstrasiyalar formasında təqdim olunur. Təbiətin illüstrasiya vermək imkanı bizim ondan illüstrasiya almaq bacarığımızla şərtlənib. Nümunə kimi mikrobiologiya elmini göstərmək olar. Mikroskopun kəşfindən sonra dünyanın ona kimi görmədiyimiz yeni illüstrasiyası kimi mikroaləm insanlığa aydınlaşıb və indi mikrobiologiya ciddi elm kimi inkişaf edir. Elektron mikroskopun kəşfi ilə histologiya inkişaf edib və s. Gələcəkdə də bizim təbiətin verə biləcəyi potensial illüstrasiyaları qəbul etmək bacarığımız yarandıqca yeni elmlər meydana çıxacaq.

Yeni mücərrəd elmlərin meydana çıxması həm də aşkarlanan həqiqətin izharı və şərhi ilə bağlıdır. Bu belə bir qanunauyğunluqla bağlıdır ki, insan gördüyü həqiqətin bir hissəsini dərk edir, dərk etdiyi həqiqətin bir hissəsini dəqiq izhar edir, izhar etdiyi həqiqətin bir hissəsini aydın şərh edir. Biz təbiətin qavranılma prosesində ifadə edə biləcəyimizdən daha çox şey qavrayırıq və ifadə edə biləcəyimizdən daha az söz ehtiyatına malik oluruq və həmin sözlərdən formulyasiya edə biləcəyimizdən daha az dəqiq formulyasiya edə bilirik. Bununla yanaşı, bizim qavradığımızı ifadə edən ideya həm də özündə bizim düşüncəmizdən aşkarladığımız həqiqətin formulyasiyasını özündə ifadə edir; nəticədə biz xalis faktdan törəyən ideyalara yox, ağıldan törəyən ideyaların təsirinə məruz qalmış faktdan törəyən ideyaları sözlə formulyasiya edirik.

Nəhayət, mövcud elmlər öz mühakimələrini elə net şəkildə ifadə edir ki, bundan başqa həqiqətin olmadığı qənaəti yaranır. Nyuton fizikası ilə baş verənlər bunun əyani sübutudur. Eynşteyn nisbilik nəzəriyyəsini irəli sürənədək elmdə Nyutonun dünyanı təsviri haqqında mühakimələri ideal həqiqət kimi qəbul edilirdi. Amma Eynşteynin nisbilik nəzəriyyəsindən sonra Nyuton fizikasına şübhə yarandı, nəticədə yeni nəzəri elmlər - Kvant fizikası, Ehtimallar fizikası və s. meydana çıxdı. Beləliklə, bizim

Təbiətin İmmanent Qanunları haqqında elmlərimiz o dərəcə həqiqətdən uzağa düşüb ki, sonda metafizika inkar edilən olub.

İ. Kant, transendental fəlsəfənin kosmoloji ideyalarını Ruhun metafizik ideyasından əldə edir.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Mən düşünürəm və ya mən mövcudam müddəası, nə qədər ki düşünürəm, empirik müddəadır. Amma belə müddəanın əsasında empirik müşahidə durur, deməli, düşünən obyekt təzahür kimi; buna görə də ola bilsin bizim nəzəriyyəyə görə belə görünə bilələr ki, ruh düşüncədə tamamilə təzahürə çevrilir və beləliklə bizim şeyrimiz, görüntünün uçurumu kimi, həqiqətdə heç nəyə aid olmamalıdır. Düşüncə özü-özündə məntiqi funksiyadır. O heç cür yalnız o səbəbdən ki, seyr üsulunu təsəvvürə qəbul etmədiyindən şüurun subyektini, hissi və ya intellektual, təzahür kimi göstərmir. Transendental paroloqizm bizim düşüncəmizin subyektinin ideyasına münasibətdə yalnız birtərəfli görüntü yaradır, əksinə təsdiqi üçün ağlın anlayışlarından çıxış edərək hər hansı görüntü tapmaq mümkün deyildir. Ağlı təzahürlərin obyektiv sintezinə tətbiq etdikdə tamamilə başqa cür alınır; düzdür burada ağıl niyyətlidir ki, özünün şərtsiz vəhdətini prinsipinə həqiqətə bənzər şəkil verməklə sübut etsin, ancaq dərhal belə ziddiyyətlərdə azır və özünün kosmologiyaya olan iradından imtina etməyə məcbur olur. Təzahürlərin sintezində mütləq tamlığa aid olan bütün transendental ideyaları mən kosmoloji anlayışlar adlandırıram; həm də dünya evinin anlayışını əsaslandıran, təzahürlərin sintezinə istinasız olaraq aid olduğundan, daha çox özü yalnız ideya təşkil edən, məhz bu şərtsiz tamlıq, empirik sintez olmalı halda, bunun əvəzinə bütün mümkün şeylərin şərtlərinin mütləq tamlığı kimi, tamamilə kosmoloji ideyalardan fərqlənən, baxmayaraq ki onunla bağlı, xalis ağlın idealına gətirir."*

Bizə görə, metafizik kosmoloji ideyalar sistemini İ. Kantın transendental fəlsəfəsinin kosmoloji ideyaları şərh edərkən istinad etdiyi əsas müddəaları tənqid etməklə əldə etmək olar:

1. **"Mən düşünürəm, mən mövcudam" müddəası:** İnsan nə özü-özünü düşünəndə tamamilə təcrübədən çıxmır (çünki şərtləndiyi bədən buna imkan vermir), nə də özündənkənar şeyi düşünəndə tamamilə özünü unudur (çünki düşünmə üçün mütəmadi özündən yaratdığı anlayışları idraka daxil etməklə düşünür). Nəticədə hər iki halda "mən düşünürəm, deməli mövcudam" mühakiməsindəki "mövcudam" ifadəsi eyni zamanda həm özündə şeyə, həm özündənkənar şeyə aid olur. Başqa sözlə, insan obyekt-subyekt əlaqəsində düşünərkən idrak prosesi obyektlə subyekti bir-birinə bağlayır (şərtləndirir). Bu bağlılıqdan subyektin özü-özünü düşüncəsindən əldə etdiyi bilgilərdən obyekt üçün transendental ideyalar çıxarmaq, eləcə də obyektdən əldə edilmiş bilgilər hesabına subyekt üçün transendental ideyalar əldə etmək mümkün olur. Transendental fəlsəfə subyektdən obyekt üçün anlayışlar çıxararaq təcrübəyə, metafizika obyektdən subyekt üçün anlayışlar çıxarmaqla metafizikaya - təcrübədənkənara istiqamətlənir. Transendental fəlsəfə subyektin totalığından varlığın totalığına qayıtdığından xalis ağıl antinomiyaya düşür, amma metafizika obyektin totalığından subyektin totalığına, oradan da metafizikanın ənginliklərinə istiqamətləndiyindən bu ideyalardan biri digəri üçün əsas təşkil etdiyindən, buna görə də metafizikada xalis ağıl antinomiyadan azad olur. Beləliklə, transendental fəlsəfədən fərqli olaraq metafizika üçün "nə qədər ki düşünürəm, bir o qədər mövcudam" həm empirik, həm də eyni zamanda transendental ideyadır.
2. **"Ruh düşüncə prosesində təzahürə çevrilir" müddəası:** Təzahür - hər hansı obyektiv varlığın, immanent vəhdətdə olan, xarici vəhdətdə olduğu şeylərlə şərtlənməsini özündə təqdim edir və xarici şərtlənmə təsadüfə görə yarandığından, istənilən təzahür şərtidir. Təzahürlər radial enerjidən meydana çıxır, tangensial enerji isə özündəşeyi təşkil edir. Başqa sözlə, obyektiv gerçəkliklərin tangensial enerjisi ilə radial

enerjisi qarşılıqlı transfer etmir; çünki reallıqlar dalğa funksiyasının bir hissəsinin hissəciyə çevrilməsi ilə mövcuddurlar. Buna görə də, obyektiv gerçəkliklər (cisimlər) təzahür edərkən, həm də özündə şey kimi mövcudluqlarını saxlayırlar və təzahürlər heç bir halda özündə şeyi azaltmır və ya artırmır. Başqa sözlə, səbəbi formada saxlanan təzahürlər xarici şərtlərdən asılı olaraq dəyişir, amma səbəbi mahiyyətdə saxlanan özündə şey yalnız daxili şərtlərin dəyişməsindən dəyişir. Kosmos xarici şərtlənmənin totalığı kimi mövcud olduğundan, biz Kosmosun idrakını təsadüfə görə, dəyişkən təzahürlər əsasında reallaşdıra bilərik; hansı ki, kosmoloji ideyalar məhz bu üsulla əldə edilir.

Obyektiv gerçəkliklərdə sabitləşmiş hissəcik öz həcmində dalğa funksiyasının azadlığını məhdudlaşdırır. Amma Ruh xalis dalğa funksiyasında olduğundan, onun radial enerjisi ilə tangensial enerjisi qarşılıqlı sürəkli çevrilmə vəziyyətindədir. Bu vəziyyət işığın ikili təbiətinə çox yaxındır; hansı ki, işıq yayılarkən entropiya şərtlərindən asılı olaraq ya dalğa, ya hissəcik kimi mövcud olur və işığın hər iki təbiəti eyni vaxtda təzahür etmir. Ruhun "düşünməsi", yəni onun şüalanması, ruhun qarşısında "manea durmasını" özündə təqdim edir. Ona görə də fəal özündənkənar düşünmə vəziyyətində olan ruhla, sakit vəziyyətdə (yəni düşünməyən vəziyyətdə) olan ruh - xalis zəka, işıq kimi ikili, amma işıqdan fərqli olaraq eyni vaxtda hər iki təbiətli mövcud olur. Yəni konkret düşüncə aktında xalis təzahürə çevrilən ruh həm də xalis mahiyyət olur. Buradan da, düşüncə özündə şüurun subyektinin hissi və ya intellektual təzahürünü göstərmir, çünki təzahür mahiyyəti, mahiyyət təzahürüdür. Buradan da, metafizika üçün də "düşüncədə ruh xalis təzahürə çevrilir" müddəası düzgün müddəa kimi çıxış edir; hansı ki, düşüncəsiz özü-özündə xalis mahiyyətdən ibarət olur.

3. **Ağlın görüntü yaratma imkanı:** Bu, düşüncənin məntiq forması ilə şərtlənmişdir. Beləliklə, yalnız səlis (ardıcıl) məntiqlə ağıl özündə birtərəfli görüntü yaradır; amma qeyri-səlis və ya paralel məntiqlə ağıl

eyni vaxtda ikitərəfli və ya çoxtərəfli görüntü yarada bilir və bu zaman məntiqin paralel inkişafına görə ideyaların çarpazlaşması baş vermədiyindən ağıl antinomiyadan azad olur və xalis zəkanın evtanaziyası baş vermir. Beləliklə, metafizikada xalis ağıl çoxtərəfli görüntü yaratdığından kosmoloji ideyalar antitetika kimi çıxış etmir.

4. Yuxarıda da qeyd etdiyimiz kimi, kosmoloji anlayışlar transendental fəlsəfədə təcrübəyə tətbiq edildiyindən ağıl özündə antinomiyasını hifz edir. Lakin xalis metafizikada transendental anlayışlar idrakı Kainatdan uzaqlaşdırır və bu zaman əldə edilən anlayışlar transendental fəlsəfədə əldə edilən ideyalarla antinomiya təşkil etmir; çünki heç bir halda bu ideyalar qarşılaşdırılmır, sadəcə yaranışa münasibətdə biri başlanğıcı, digəri sonu, idraka münasibətdə əksinə, son olan başlanğıcı, başlanğıc olan sonu özündə təqdim edir.

KOSMOLOJİ İDEYALARIN ƏLDƏ EDİLMƏSİ

Metafizik kosmoloji ideyalar necə əldə edilə bilər?

Kosmos - fikrən götürülmüş tək tam (bütöv) bir mövcudluq kimi, mümkünlüyün varlığının bütün imkanlarında mövcud olan mövcudluqların məcmusundan ibarətdir. Buradan da, mümkünlüyün mövcudluq əldə etmə meylinin aktuallaşmasını aşağıdakı bərabərliklə ifadə etmək olar:

Tək tam mövcudluğun varlığı (Kosmos) = Mümkünlüyün varlığı (metafizik statuslu obyektlər) + Bütün imkanlar (mövcudluq şərtləri)

Bu bərabərlikdən mümkünlüyün varlığı özündə İlahi İstəyi-həqiqəti ifadə edərək metafizik statusu, imkanlar - İlahi İradəni ifadə edərək keçidin (metafizikadan təbiətə keçidin) statusunu, Kosmos - obyektiv gerçəkliyin statusu kimi İlahi Bacarığı özündə refleksiyası kimi meydana çıxır.

ŞƏRTLƏR, İMKANLAR - İLAHİ İRADƏ

Əgər Leybnicin *"mümkünlüyün varlığı mövcudluq tələb edir"* müddəasını qəbul ediriksə, onda buna paralel *"mümkünlüyün varlığına mövcudluq təklif edilir"* müddəasının da doğruluğunu qəbul etməliyik. Əks halda mümkünlüyün varlığının mövcudluq tələbi mənasızlıq olardı. Bəs mümkünlüyün varlığına mövcudluq tələbi mümkünlüyün varlığına münasibətdə xarici və ya daxilidir? Əgər mümkünlüyün varlığına mövcudluq təklifi mümkünlüyün varlığının özündən çıxsaydı, yəni ona münasibətdə daxili olsaydı, onda mümkünlüyün varlığının belə tələbi olmazdı və mümkünlüyün varlığı tam şəkildə bir anda mövcudluq əldə etməklə inkar olunardı; nəticədə mövcudluğun varlığından mümkünlüyün varlığı-həqiqət aşkarlanmazdı. Onda belə mövcudluq mənasız olardı. Amma mövcud Kosmos belə mənasızlığı inkar etdiyindən, deməli mümkünlüyün varlığına mövcudluq tələbi ona münasibətdə xaricidir. Buradan belə bir hökm alınır: **Mümkünlüyün varlığı ilə mövcudluğun varlığı bir-birini inkar etmir.**

Ona görə də istənilən mümkünlüyün varlığı-həqiqət mövcudluğun varlığından aydınlaşır, eləcə də istənilən mövcudluğun varlığı mümkünlüyün varlığına görə mümkün olur, yəni ondan həqiqət aydınlaşır. Mövcudluq tələbi özündə gözləntini, yəni mövcudluğa keçmək üçün tələb olunan Gücün meydana çıxmasını özündə ifadə edir.

Mümkünlüyün mövcudluq tələbi sonsuz və əbədidir; çünki metafizik statuslu obyektlər məhz obyektiv statuslu obyektlərdən buna görə fərqlənir. Tələbin sonsuzluğu - sonsuz sayda mövcudluqların meydana çıxması kimi, əbədi olması - mövcud olma kimi, proseslərin meydana çıxması kimi aktuallaşır. Biz mümkünlüyün varlığına mövcudluq təklifini imkan, şərt kimi təyin edirik; hansı ki, bütün ağla gələn şərtlərin və imkanların məcmusu kimi İlahi İradənin mənasına daxil olur.

Yuxarıdakı bərabərlikdən görünür ki, mümkünlüyün varlığı mövcudluğun varlığından imkanlar-şərtlər qədər fərqlənir. Yəni Kosmosun ideyasından şərtlər çıxıldıqda Kosmosdan aşkarlanan həqiqət mümkünlüyün varlığına bərabər olur. Buradan da, Kosmosu imkanların və ya şərtlərin məcmusu kimi təyin etmək olar. Biz şərti - həqiqətin aydınlaşmasının imkanı kimi təyin edirik.

Kosmoloji ideyalar kosmosdan yalnız mümkünlüyün mövcudluğa keçidinin şərtlərinin ideyalarının çıxılması ilə, dolayısı ilə mümkünlüyün varlığından əldə edilə bilər. Buna görə də, Kosmologiyanın əsas vəzifəsi mümkünlüyün mövcudluğa keçidin şərtlərinin ideyalarını - İlahi İradəni özündə refleksiya edən ideyaları aşkarlamaqdan ibarət olur; hansı ki, mümkünlüyün varlığını mövcudluğun varlığına keçidini Kosmos kimi var edir.

Şərt özündə nəyi ifadə edir? Təbiət qurulma ilə, idrak sintezlə reallaşdığından, istər təbiətin qurulması, istərsə də təbiətin idrakı vəhdət təşkil etmə kimi meydana çıxır. Vəhdət özündə şərtlərin müxtəlif kombinasiyaları kimi təzahür edir. Elə-belə iki cür vəhdət aşkarlamaq olar:

a. **Daxili vəhdət - mövcudluğun vəhdəti:** Daxili vəhdət qurulma və sintez prosesində meydana çıxan birincili vəhdətdir. Belə vəhdətsiz nə mövcudluq meydana çıxır, nə də mövcudluğun qavramasından sintez etmək mümkün olur. Buna görə belə vəhdəti zərurətə görə vəhdət adlandırırıq. Zərurətə görə vəhdət mütləqdir, yəni məkan və zamanla şərtlənməmişdir. Belə vəhdət zərurətlə şərtlənmişdir. Xarici vəhdətdən ayrılıqda götürülmüş daxili vəhdət şərtsiz zərurətə görə mövcud olur.

b. **Xarici vəhdət - mövcud olmanın vəhdəti:** Xarici vəhdət təşkil olunma və analiz prosesində meydana çıxan vəhdətdir. Belə vəhdət ikincili olub mövcudluqla şərtlənmişdir. Biz xarici vəhdəti təsadüfi vəhdət adlandırırıq. Təsadüfi vəhdət şərti vəhdətdir, yəni keçici vəhdətdir. Belə vəhdət təsadüflə şərtlənmişdir. Daxili vəhdətdən ayrılıqda götürülmüş vəhdət şərti zərurətə görə mövcud olur.

Kosmosu təşkil edən mövcudluqlar hər iki vəhdətin birliyində təzahür edir. Nəticədə, hər bir mövcudluq şərtsiz zərurətlə şərti zərurətin məcmusu kimi mövcud olur. Kosmos bir tək mövcudluq kimi özündə bütün mövcudluqların ən ümumi şərtsiz zərurətlə şərti zərurətin birliyini təqdim edir. Kosmos tək tam bir mövcudluq kimi daxili vəhdətə malikdir, amma tək olduğundan mövcudluqlardan fərqli olaraq xarici vəhdətə malik deyil. Buradan da kosmosu şərtsiz zərurətə görə əbədi mövcudluq kimi təyin edə bilərik.

Ümumiyyətlə şərtləri elə-belə iki qrupa bölmək olar:

Subyektiv şərtlər: Subyektiv şərtlər kosmosun idrakında onun təfəkkürlə şərtlənməsini özündə ifadə edir; hansı ki, təfəkkürün iştirakı olmadan heç bir ideya özü-özünə aşkarlanmır.

Ümumiyyətlə idrak prosesi məntiqi təfəkkür üsulları kimi analiz və sintezlə aktuallaşır. Buradan da kosmosun analiz üsulunda subyektiv şərtlənməsini və sintez üsulunda subyektlə şərtlənməsini ayırd etmək olar.

- **Analiz:** Ən ümumi mənada bütövün fikrən, yaxud faktiki olaraq tərkib hissələrinə bölünməsindən ibarət məntiqi təfəkkür üsuludur. b. **Sintez:** Bütövün tərkib hissələrinin birləşib bütövü əmələ gətirməsi proseslərindən ibarət məntiqi təfəkkür üsuludur. Analiz və sintez təfəkkür üsulları olduğundan bilavasitə Kosmosu idrak prosesində subyektin imkanları ilə şərtləndirirlər. Bəs, analizin və sintezin təyinində istifadə etdiyimiz terminlər özündə nəyi ifadə edir?
- **Bütöv:** Bütöv - daxili vəhdətə malik, bununla da başqa obyektlərin daxili bütövlüyündən ayrılan obyekti özündə xarakterizə edir. Necə ki, obyektlər mövcud olmada həm də başqa obyektlərin bütövlüyündən ayrılmadan təklikdə mövcud ola bilmədiklərindən bir-biri ilə xarici vəhdətdədir; buradan da təbii bütövlük nisbi məna daşıyır. Çünki təbiətdə heç bir bütöv başqa bütövlərdən kənarda mövcud ola bilməz və hər bir bütöv daha böyük bütövün hissəsi kimi idrak olu-

nur. Digər tərəfdən, təbii bütövlük təbiətdən aşkarlandığından keçici prosesdə aşkarlanır, buna görə anlayışın mənası da keçici olur, yəni tam mənanı ifadə etmir. Yəni təbiətdən aşkarlanan istənilən bütöv keçici olaraq bütöv kimi mövcud olur. Buradan da təbii bütövlüyü nisbi bütövlük kimi təyin edə bilərik. Təbii bütövlük nisbi olduğundan, onun analizi nəticəsində əldə edilən istənilən nəticə də nisbidir. Buradan da, təbiətdən aşkarlanan həqiqətin nisbiliyi meydana çıxır.

Fəlsəfədə bütövlük bir tərəfdən obyektin tamlığı, onun bütün xassələrinin, tərəflərinin və əlaqələrinin hərtərəfli əhatə olunmasını - konkretlik kimi; digər tərəfdən obyektin daxili şərtliyi, onun xüsusiyyətini və nadirliyini-orijinallığını müəyyən edən bir şey kimi - mahiyyətə yaxınlaşdığından - abstraktlıq kimi təyin oluna bilər. Buradan da, birinci mənada bütöv formaya aid olub, heçliyin bütövlüyünü; ikinci mənada mahiyyətə aid olub özündə həqiqətin bütövlüyünü ifadə edir. Beləliklə, bu iki tərəf - konkretlik və abstraktlıq bir-birindən fərqli olduğundan, biri faktiki, digəri fikrən götürülən və analiz prosesində fərqli qaydada - birinci xaricdə, ikinci daxildə bölünən olur. Beləliklə, Kosmosun analizində bütövlüklə bağlı aşağıdakı nəticəyə gələ bilərik:

Bütövlük, mütləq mənada, onu təşkil edən mövcudluqlardan fərqli olaraq, yalnız Kosmosun xarakteristikasıdır; hansı ki, yalnız daxili vəhdətə malikdir və özündən başqası olmadığından mütləq tamlıqdır. Kosmos yaranma prosesindən meydana çıxdığından keçici proseslərdən azaddır, buna görə də Kosmosun bütövlüyü tam mənalıdır.

Buradan da, analiz və sintez Kosmosdan Kosmoloji ideyaların əldə edilməsində daha dəqiq təfəkkür üsulu kimi istifadə oluna bilər. Kosmosun analizi bir bütöv kimi onu fikrən tərkib hissələrinə ayırmağı tələb edir. Kosmosun tərkib hissələri mövcudluqlardan ibarətdir. Buradan da Kosmosun analiz yolu ilə biz mövcudluqların mövcud olduğu təbiətə enmiş oluruq. Eyni qaydada sintez yolu ilə Kosmosun tərkib hissələri kimi mövcud olan mövcudluqları birləşdirərək Kosmosun tamlığını əldə

edirik; hansı ki, sintez belə tamlığa münasibətdə bizi kosmosdan kənara çıxmağa - metafizikaya keçməyə və kənardan ona baxmağı tələb edir. Beləliklə, analiz və sintezlə biz təbiətlə metafizika arasında keçid etməklə kosmoloji ideyaları aşkarlaya bilərik. Yəni Kosmosun analizi ilə onun birinci mənası kimi təbiəti, sintez yolu ilə onun ikinci mənası kimi dünyanı qavrayırıq.

Bütövlük daxili vəhdətin təzahürü kimi zərurətə görə şərtlənmədən meydana çıxır. Mövcudluqlar həm də xarici vəhdətdə mövcud olduğundan təsadüfə görə şərtlənməni özlərində ifadə edir. Beləliklə, Kosmosun zərurətə görə şərti özündə mövcudluqlara münasibətdə onların təsadüfə görə şərtlərinin - Kosmosda azadlıqlarının məcmusuna bərabərdir. Kosmos yalnız daxili vəhdətə malik olduğundan kosmoloji ideyaları mövcudluqların xalis zərurətə görə şərtlərinin məcmusu ilə bərabərlik təşkil edən onların təsadüfə görə şərtlərinin məcmusundan aşkarlamaq olar. Kosmos özündən başqa mütləq bütöv olmadığından xarici vəhdət təşkil etmir və buna görə də Kosmosun bir tam kimi özünün təsadüfə görə şərti yoxdur. Bu o deməkdir ki, Kosmos təsadüfən yaranmayıb.

Fikrən və ya faktiki tərkib hissələrə ayırmaq: Ümumiyyətlə tərkib hissələrə ayırmaq mürəkkəbdən sadəyə keçidi özündə ifadə edir. Hər hansı bir şeyin təcrübədə, subyektdən xaricdə, bilavasitə onu təşkil edən hissələrə ayrılması - faktiki tərkib hissələrə ayırmaqdan ibarətdir. Faktiki tərkib hissələrə ayrılma ayırmanın şərtləri - mövcud imkanlarla şərtlənib. Bu imkanların məcmusu təbiətdən ibarətdir. Fikrən tərkib hissələrə ayırmaq - hər hansı bir şeyi təcrübədənkənar, xalis zəkada, subyektə münasibətdə daxildə, bilavasitə, yəni onun ümumi anlayışını onu təşkil edən tərkib hissələrin anlayışlarına ayrılmasından ibarətdir. Fikrən ayrılma təfəkkürün imkanları ilə şərtlənib; hansı ki, bu imkanların məcmusu xalis zəkadan ibarətdir.

Təcrübədənkənar istənilən şeyi istənilən qədər faktiki bölmək imkansızlıqdır. Kosmos dünya kimi təcrübədənkənar olduğundan, biz Kos-

mosu faktiki bölməklə analiz edə bilmərik. Buradan da, Kosmosu faktiki bölməklə Kosmoloji ideyalar əldə etmək mümkün deyildir.

Fikrən bölmək - özündə təcrübədənkənar, xalis zəkada bölməni ifadə edir. Hansı ki, belə bölmə xalis zəkanın imkanları ilə mümkünlük kimi şərtlənib. Bəs fikrən istənilən şeyi istənilən qədər tərkib hissələrinə bölmək olarmı? Yəni ümumiyyətlə analiz sonsuz prosesdirmi? Biz fikrən bölməni mütləq tamı dağıtmaqla, yəni təbiətdən çıxaraq metafizikaya keçməklə başa çatdırırıq. Məhz analizin başa çatdığı hüduddan əldə edilən son anlayışlar kosmoloji ideyalardan ibarət olur. Buradan da, kosmoloji ideyalar Kosmosun fikrən bölünməsi ilə metafizikaya keçidi və buradan da metafizik ideyaları aşkarlamağı özündə ifadə edir.

Sintez tərkib hissələrinin faktiki və fikrən bir-biri ilə birləşərək bütövü əmələ gətirməsi üsulundan ibarətdir. Buradan da *"bütövləşdirməyin sonu varmı?"* sualıa cavab vermək lazım gəlir. Analiz üsulunda olduğu kimi, təcrübədə faktiki sintez subyektiv imkanlarla məhdudlaşıb və faktiki sintezdən mütləq bütöv almaq imkansızlıqdır. Amma təcrübədənkənar xalis zəkada sintezlə mütləq bütöv almaq mümkündür. Xalis zəkada mütləq bütövün alınmasında sintez subyekti Kosmosun "kənarına" - metafizikaya çıxarır və biz buna görə də, həm də sintezin sonundan Kosmoloji ideyaları əldə etmiş oluruq. Analiz və sintez yalnız təcrübəyə görə fərqli həqiqətlərin aşkarlanmasına xidmət edir. Amma apardığımız təhlildən göründüyü kimi, mütləq bütöv Kosmosun analizi və sintezi bizə metafizik ideyaları verir. Çünki metafizik statuslu obyektlərdə bütövlük xarakteristikası yoxdur; çünki metafizika mütləq hissəciklərdən təşkil olunub.

Obyektiv şərtlər: Obyektiv şərtlər obyektin fakti və aktinin şərtləri kimi mövcuddur. a. **Mövcudluğun - xalis faktın şərtləri:** Xalis fakt təbiətdən aşkarlanmadığından Kosmosa münasibətdə xaricidir, metafizikdir və xalis faktın şərtləri yalnız təsadüfə görə mövcud olan şərtlərdir. Bura Kosmosun təfəkkür üsulları ilə şərtlənməsini aid etmək

olar. b. **Mövcud olmanın - aktın şərtləri:** Akt təbiətdən aşkarlandığından - Kosmosa münasibətdə daxilidir və buna görə də, zərurətə görə aşkarlanan şərtlərdir.

Beləliklə, mövcudluğun mövcud olmasında, yəni faktın aktuallaşmasında təcrübədə aşkarlanan şərtlər faktla aktın şərtlərinin məcmusundan ibarət olur. Hansı ki, belə məcmui şərtlərdən təzahür meydana çıxır.

Faktla aktın şərtlərinin məcmusunu fikrən ayrılıqda götürülmüş xalis məkanın, xalis zamanın, xalis təsadüfün, xalis zərurətin və bunların vəhdətini özündə təqdim edən təzahürlərin şərtlərinin məcmusundan əldə etmək olar. Kosmos özündə fikrən götürülmüş tək faktın aktuallaşması kimi mövcuddur. Buradan da, metafizik kosmoloji ideyalar kosmosun faktının-mövcudluğunun və aktının - mövcud olmasının və təzahürünün şərtlərinin məcmusunun ideyalarından və bu ideyaları aşkarlayan subyektin ideyalarının məcmusundan ibarət olmalıdır.

Buradan da, Kosmosun bir-birindən fərqli üç müxtəlif təyinini müəyyən etmək olar:

1. **Dünya:** Dünya - zərurətə görə mövcud olan, əbədi tək özündə şey kimi Kosmosdur. Burada "əbədi tək şey" özündə mümkünlüyün ən sadə imkanında mövcudluq əldə etmiş cismi ifadə edir. Buna görə də, dünya tək bütöv bir cisim kimi Kosmosdur. Kosmos mümkünlüyün mövcudluq tələb etməsinin başa çatmasını özündə təqdim etdiyindən yalnız proqressiv ideya kimi mövcuddur.
2. **Təbiət:** Təbiət - zərurətə görə mövcud olan, əbədi və keçici tək mövcud şey kimi Kosmosdur. Bu mənada təbiət cisimlərdən və növ kimi təyin olunan reqressiv ideya ilə proqressiv ideyanın vəhdətini özündə təqdim edən canlılardan ibarət Kosmosdur. Burada proqressiv ideya canlıların özlərində gələcəklə-irsiyyətlə şərtlənmələrini ifadə edir.

3. **Təcrübə:** Təcrübə - zərurətə görə mövcud olan əbədi və keçici tək mövcud şeylə, təsadüfə görə mövcud olan tək şeyin vəhdətindən ibarət Kosmosdur. Bu mənada təcrübə təbiətlə və idrak qabiliyyətinə malik Ruhun vəhdətindən ibarət Kosmosdur.

Beləliklə, Hegelin Kosmologiyanın predmetinə aid etdiyi - təsadüflər və zərurətlər, əbədilik, məkan və zamanda məhdudluq, onların dəyişilməsində formal qanunlar dünya və təbiət kimi Kosmosun metafizik idrakından; insan azadlığı və şərin mənşəyi təcrübə kimi Kosmosun idrakından əldə edilə bilər. Biz Kosmosun mütləq faktını dünya, dünyanın aktuallaşmasını təbiət və təbiətin hissi empirik inikasını təcrübə kimi təyin edirik. Biz öz şərhlərimizdə, ənənəyə sadiq qalaraq, burada transendental fəlsəfənin ideyalarını inkişaf etdirməklə metafizik kosmoloji ideyaların əldə edilməsinə cəhd edəcəyik.

Haşiyə: İ. Kant, "Xalis zəkanin tənqidi"

> *"Bizim bəzən üst-üstə düşən iki terminimiz var: dünya və təbiət. Dünya bütün təzahürlərin riyazi tamını və onların həm böyük, həm kiçik sintezinin məcmusunu, yəni sintezin cəmləmə, eləcə də bölmə yolu ilə irəliləməsini bildirir. Eyni dünyanı biz həm də təbiət adlandırırıq, belə ki, biz ona dinamik tam kimi baxırıq və onu ölçü kimi həyata keçirmək üçün məkanda və ya zamanda aqreqat kimi yox, təzahürlərin mövcudluğunun vəhdətində baxırıq. Baş verənlərin şərtləri burada səbəb, təzahürlərdə səbəblərin şərtsiz kauzallığını - azadlıq adlanır; beləliklə, şərtlənmiş səbəbilik sözün dar mənasında təbii səbəb adlandırılır. Mövcudolmada şərtlənmiş ümumiyyətlə təsadüfi, şərtsiz - zərurət adlanır. Təzahürlərin şərtsiz təzahürünü təbii zərurət adlandırmaq olar. Dünya termini altında bütün təzahürlərin məcmusu düşünülür və tərəfinizdən baxılan ideya həmçinin təzahürlərin şərtsiz mühitinə istiqamətlənib, ən çox ona görə ki, dünya sözü transendental mənada bütün mövcud olan şeylərin məcmusunu özündə bildirir və biz istinasız olaraq sintezin tamlığına diqqət edirik. Bütün bu ideyalar transendentaldır və baxmayaraq obyektin hüdudlarından kənara çıxmır, məhz təzahürlər, onda söhbət onların növündən*

gedir, yalnız hisslər (noumenlərlə yox) dünyası ilə işi olur; hər halda sintezi istənilən mümkün təcrübədən yüksək dərəcəyə qaldırır, məhz buna görə bütün bu ideyaları kosmoloji anlayışlar adlandırmaq olar. Reqressin məqsədini təşkil edən, riyazi şərtsizlə dinamik şərtsiz arasında fərqə gəldikdə, mən iki ilk anlayışı sözün dar mənasında kosmoloji, axırıncı ikisini isə təbiətin transendental anlayışı adlandırıram."

İ. Kantın dünya və təbiət haqqında fikirlərində onun ideyalarının formulyasiyasını təşkil edən müddəaların şərhi ilə metafizikanın kosmoloji ideyalarını əldə etməyə cəhd edək.

Dünya və təbiət: "Dünya" termini ilə biz xalis zəkada təbiətin mövcudluğunu - Kosmosun xalis tamını; "təbiət" termini ilə xalis zəkada dünyanın mövcud olmasını - Kosmosun aktuallaşmasını başa düşürük. Hansı ki, təcrübədə dünya - mövcudluq, təbiət - dünyanın mövcud olmasından ibarətdir. Buradan da, təcrübədə posterior Kosmoloji ideyalar dünya ilə təbiətin şərtlərinin məcmusundan əldə edilən olur. Təbiətdən ayrılıqda götürülən dünya özündə statik tam, təbiət - dinamik tam kimi sintez olunur. Dinamika - zaman və məkanla dəyişən şərtlənməni, statika - məkan və zamanda təkrarlanan şərtlənməni özündə ifadə etdiyindən; təbiətin ideyası məkan və zamanda şərtlərin dəyişilməsinin məcmusundan, dünyanın ideyası isə məkan və zamanın təkrarlanan şərtlərinin məcmusundan əldə edilir. Dəyişilən şərtləri təsadüfə görə şərt, təkrarlanan şərtləri zərurətə görə şərt kimi təyin edirik. Nəticədə, kosmoloji ideyanı biz məkan və zamanın dəyişən və təkrarlanan şərtlərinin məcmusundan əldə edirik.

Bəs hansı halda dünya ilə təbiət termini üst-üstə düşür, hansı halda düşmür? Əgər biz hər iki terminin mənasını aprior aşkarlayırıqsa, onda hər iki termin üst-üstə düşür; onda onların hər ikisindən metafizik kosmoloji ideya əldə etmək olur. Amma əgər biz mənanı yalnız posterior olaraq təcrübədən aşkarlayırıqsa, bu zaman Kosmos təcrübə kimi çıxış edir, dünya özündə şey kimi təcrübədən sürüşür. Bu halda dünya ilə

təbiət terminlərinin mənası üst-üstə düşmür. Belə ki, birinci hisslər vasitəsi ilə hissi qavranılan, ikinci qeyri-hissi intuitiv qavranılan olur.

Dünya özü-özündə reqressiv ideyadır, çünki bu termin altında yalnız keçmişdə baş vermişlər düşünülür və indi mövcud dünya bu keçmişdə baş verənlərlə şərtlənir. Təbiət bundan fərqli olaraq həm də proqressiv ideyadır, çünki həm də gələcəkdə baş verəcəklər potensiya kimi indidə düşünülür. Təbiət - kosmosun mövcud olması kimi özündə vəhdətdə təzahürləri ifadə edir; bu mənada dünya təbiətlə eynilik kimi "bütün təzahürlərin məcmusundan" ibarət olur, amma ayrılıqda dünya özündəşey kimi mövcudluq olduğundan "bütün mövcud olan şeylərin məcmusundan" ibarət olur və bu mənada təbiətdən fərqlənir. Göründüyü kimi dünya ilə təbiətin fərqi onların subyektə münasibəti ilə bağlıdır. Təcrübə bir qayda olaraq həmişə təcrübə ilə üst-üstə düşür. Belə ki, təcrübə təbiətin hissi-empirik inikası olduğundan, təbiətsiz təcrübə mümkünsüzlükdür. Başqa sözlə, təcrübə təbiətlə qarşılıqlı şərtlənmədə mövcud olur və Kosmologiyanın üçüncü qrup ideyalari bu şərtlərin məcmusundan - inikasın məcmusundan əldə edilir.

O halda ki, hər iki termin subyektin iştirakı olmadan "bütün mövcud olan (əbədi) şeylərin məcmusu kimi" idrak olunur, onda onlar üst-üstə düşür. O yerdə ki, subyektin bilavasitə iştirakı ilə düşünülür, onda subyekt əbədi olmadığından dünya anlayışından sürüşür, yalnız keçici mövcud olma kimi təbiətə aid olur. Bununla da, dünya təbiətdən fərqlənir.

"Bütün təzahürlərin riyazi tamı": Ümumiyyətlə "riyazi" ifadəsi xalis abstraksiyalaşdırmanı özündə ifadə edir. Buradan da, bütün təzahürlərin riyazi tamı - bütün konkret təzahürlərin abstraksiyalaşdırılması ilə əldə edilən tamı özündə ifadə edir. Abstraksiyalaşdırma sintezlə həyata keçirildiyindən, bütün təzahürlərin riyazi tamı özündə sintezin ən son anlayışı mənasını verir. Sintez yalnız subyektə xas olduğundan, onda bütün

təzahürlərin riyazi tamı yalnız təcrübədən əldə edilənləri özündə təqdim edir.

"Baş verənlərin şərtləri - səbəb": Baş vermək - özündə prosesi təqdim edir. Biz iki cür proses haqqında yazmışdıq: birləşmə və keçid. Birləşmə yaranma, keçid əmələgəlmə proseslərini özündə ifadə edir. Baş verənlər mövcudluqların iştirakını tələb etdiyindən, yalnız mövcudluqdan sonrakı, yəni aktuallaşmada meydana çıxanları özündə ifadə edir. Buradan da baş verənlərin şərtləri kimi səbəb səbəblərin səbəbindən ibarət olur. Baş verənlərin şərti-səbəb kimi, nəticə kimi çıxış edən mövcudolmadan əvvəl - mövcudluqda olur. Buradan da xalis faktın - bizim təhlilimizdə Kosmosun mövcudluğunun ümumi şərti - özündə baş verənlərin ümumi şərtini, başlanğıc səbəbi təqdim edir. Başlanğıc səbəb metafizik olduğundan Kosmologiyanın ideyasını özündə təqdim edir. Bu şərtlər mümkünlüyün mövcudluq tələb etməsində Kosmosun mövcud olmasından əvvəl aşkarlanan bütün imkanların məcmusundan ibarətdir.

Səbəblərin şərtsiz kauzallığı - azadlıq: Səbəblərin şərtsiz kauzallığı ifadəsində səbəblərin bundan əvvəlki mənasını qoysaq, onda bu ifadə "mütləq faktın şərtlərinin şərtsiz kauzallığı" fikrini almış oluruq. Hansı ki, mütləq fakt metafizik statuslu olub xalis təsadüfə görə mövcud olur və buna görə də özündə mütləq azadlığı təqdim edir. Buradan da, Kosmosun şərtlərinin şərtsiz kauzallığı Kosmosun azadlığıdır - yəni xalis təsadüfülükdür. Yəni, mövcud Kosmos - mümkünlüyün mövcudluq tələbində meydana çıxan təsadüfi formadır; hansı ki, başqa formada da yarana biləcəyi fikrən istisna olunmur. Amma Kosmos mövcud olduqdan sonra zərurətə görə mövcud olana keçir və buna görə də, yeganə forma kimi çıxış edir; çünki mümkünlük Kosmosun mövcud formasına keçməklə özünün mövcudluq tələbini tükəndirir və başqa Kosmosların mövcudluğuna yer qoymur.

Şərtlənmiş səbəbilik - təbii səbəb: Əgər şərtsiz səbəb mütləq faktla bağlı olduğundan metafizikdirsə, onda şərtlənmiş səbəb bunun əksiliyi

kimi empirik olmalıdır. Buradan da, şərtlənməmiş səbəbin şərtlənmiş səbəbə keçidini anlamaq lazım gəlir. Təbiətdə hər şey vəhdətdə mövcud olduğundan aktuallaşmış fakt başqa belə faktlarla vəhdət təşkil edir, vəhdət isə qarşılıqlı şərtlənmədən ibarət olur. Beləliklə, təbiətdə vəhdətdə mövcud olma əldə edən mövcudluqlar özündə yalnız şərtlənmiş səbəbilik saxlayır. Hansı ki, istinasız olaraq yalnız təbiətdən aşkarlanır. Belə səbəbilikdən kosmoloji ideyanı almaq üçün onu fikrən vəhdətdən çıxarıb xalis zəkada aprior idrak etmək lazım gəlir.

Mövcud olmada şərtlənmə ümumiyyətlə təsadüfi şərtsiz zərurət: Əgər mövcudluq özü-özündə mütləq fakt kimi xalis zərurətə, yəni təsadüfsüz şərtsiz zərurətə görə mövcuddursa, onda aktuallaşmada təsadüfi şərtsiz zərurətə görə mövcud olur. Mövcud olma özündən başqasının mövcudluğunu tələb edir. Bu tələbə görə mövcud olmada şərtlənmə meydana çıxır və bu zaman başqası özündə şərtsiz zərurətə görə, amma mövcudluğa münasibətdə təsadüfə görə mövcudluq olur. Buradan da mövcud olmada şərtlənmə ümumiyyətlə təsadüfi şərtsiz zərurət kimi meydana çıxır. Burada, təsadüfülük - xarici şərtlənmə kimi başqa mövcud olanların şərtlərini, şərtsiz zərurət özü-özündə öz daxili şərtləri ilə mövcud olmanı ifadə edir. Kosmosdan başqa Kosmos olmadığından, kosmosun təsadüfsüz şərtsiz zərurətə görə mövcud olduğunu deyə bilərik. Beləliklə, təsadüfsüz Kosmosun tək kimi mövcud olmasını, şərtsiz zərurətə görə mövcud olması daxili strukturlaşmaya və təşkilatlanmaya görə mövcud olduğunu göstərir. Bununla da, Kosmosun mövcudluğu onu təşkil edən mövcudluqların mövcud olmasından fərqlənir; hansı ki, mövcudluqlar təsadüfi şərtsiz zərurətə görə mövcud olur və belə təsadüfi şərtsizlərin məcmusu özündə Kosmosun təsadüfsüz şərtsiz zərurətini təşkil edir.

Təzahürlərin şərtsiz təzahürü - təbii zərurət: O təzahürlər ki, zərurətə görə təbiətdə aydınlaşır, belə təzahürlər şərtsiz təzahürlərdir və reqressiv sıra təşkil edirlər. Şərtsiz təzahür məkan və zaman şərtlərinə

tabe olmayan, yəni məkan və zamanın fərqliliklərində eynilik kimi təkrarlanan təzahürlərdir. Biz belə təzahürü substansiyanın təzahürü kimi təyin edirik. O təzahürlər ki, şərti təzahür edir, yəni məkan və zamanın dəyişilmələrində fərqlilik kimi təzahür edir, qeyri-təbii və ya ikincili təzahürlərdir. Biz belə təzahürləri aksidensial təzahürlər adlandırırıq. Belə təzahürlər proqressiv sıranı təşkil edirlər. Məsələn, təbiətdəki şeylərin özü-özündə rəngi yoxdur. Yalnız işıqlanma zamanı şeylər "rənglənirlər". Beləliklə, şeylər indiyə münasibətdə keçmişdə olan kimi, onların rəngləri indiyə münasibətdə gələcəkdə olan - işıqlanma kimi təzahür olunur. Buradan da aksidensiv olanlar indiyə münasibətdə indini şərtləndirən proqressiv ideyaları, substansial olanlar indini şərtləndirən reqressiv ideyalar kimi çıxış edir.

Kosmos - təbiət kimi - təzahürlərin şərtsiz təzahürünün məcmusundan, dünya kimi - təzahürlərin şərti təzahürünün məcmusundan aşkarlanır; buradan da kosmoloji ideyaları təzahürlərin hər ikisinin vəhdətindən aşkarlamaq mümkün olur. Kosmosun indisinə münasibətdə keçmişi mümkünlükdür. Yəni Kosmosun reqressiv ideyası xalis metafizikdir. Kosmosun indisinə münasibətdə gələcəyi təbiətdir. Beləliklə, Kosmosun proqressiv ideyası yalnız təbiətdən aprior aşkarlanan proqressiv ideyaların məcmusundan ibarət ola bilər.

Obyektin hüdudlarından çıxmayan transendental ideyanın təzahürü: Transendental ideya özü-özündə obyektin hüdudlarından çıxmaqla xalis zəkada ideyanın əldə edilməsini ifadə edir. Onda, Kantın fikrindəki bu müddəadan "obyektin hüdudlarında saxlanılan və buna görə də xalis zəkadan yox, bilavasitə dərketmədən qavranılan transendental ideyanın təzahürü" müddəasını almış oluruq. Obyektdə transendental ideyanın saxlanması özündə obyektdə metafizik statusun obyekt statusu ilə vəhdət təşkil etdiyini göstərir; hansı ki, bu vəhdətə görə obyektdən çıxmır, amma metafizik statuslu olduğundan transendental ideya kimi təzahür edir. Bura aksidensivliyin ideyaları aiddir. Aksidensivlik bir

tərəfdən transendentaldır, çünki obyektdən fikrən ayrılandır; digər tərəfdən obyektin hüdudlarından çıxmayandır, çünki faktiki konkret obyektdən aşkarlanandır.

Təcrübəni yüksək səviyyəyə qaldırdığından kosmoloji ideya: Təcrübə təbiətin hissi empirik inikası kimi təfəkkürdə mövcud olan kosmosdur. Təcrübənin yüksək səviyyəyə qaldırılması özündə təbiət termininin mənasının dünya termininin mənası ilə eyniləşdirilməsini, yəni təbiətin tam mücərrədləşdirilməsini özündə ifadə edir; hansı ki, məna baxımından dünya təbiətə münasibətdə yüksək səviyyədir, çünki təbiətə görə metafizik aləmə - öz mümkünlüyünün varlığına daha yaxındır. Buradan da, elə-belə dünya terminindən əldə edilən ideya kosmoloji olur.

Riyazi şərtsiz - kosmoloji: Elə-belə dünya, Kosmosun mütləq faktı kimi, riyazi şərtsizdir; hansı ki, təbiətin şərtlərinin dəf edilməsi - mücərrədləşdirmə ilə ondan alınır. Buradan da, kosmoloji ideyanın konkret təbiətin şərtlərinin kənarlaşdırılması ilə onun mücərrədləşdirilməsindən kosmoloji ideyaların əldə edilməsinin mümkünlüyü ortaya çıxır.

Dinamik şərtsiz - transendental: Elə-belə Təbiət Kosmosun aktı kimi dinamik şərtsizdir. Dinamik şərtsiz proses və hərəkətin xalis təsadüfə görə mövcudluğunu özündə ifadə edir; hansı ki, məhz bu dinamikaya görə təfəkkürdə refleksiya edərək təcrübənin sərhədlərindən çıxır və transendental olur.

Təzahür - mövcudluğa keçmiş mümkünlüklə aqreqat təşkil edən xalis mümkünlüyün ondan şüalanmasıdır. Mümkünlük özündə şərtsiz olanı, mövcudluq (mümkünlükdən əmələ gəldiyindən) şərti olanı özündə təqdim edir. Buradan da təzahür - şərtsiz olanla şərtli olanın təşkil etdikləri aqreqatdakı fərqliliklərini özündə əks etdirir; hansı ki, şərtsizdən şərti və əksinə şərtlidən şərtsiz aşkarlanır. Obyektdə şərti təzahür edən - aksidensiya, şərtsiz təzahür substansialdır. Şərti təzahür o təzahürdür ki, o başqasından da təzahür edə bilər. Şərtsiz təzahür o təzahürdür ki, o yal-

nız mövcudluqdan təzahür edir və başqasından təzahürü istisnadır. Məsələn, Əli insandır. Burada insan şərtsiz təzahürdür, çünki tək mövcud varlıq kimi konkret mövcud varlığın təzahürüdür. Əli şərti təzahürdür, çünki insan olmaq yalnız ona xas deyil (belə ki, "Vəli də insandır"). Təzahür mövcud olmada mövcudluqların qarşılıqlı təsirində meydana çıxır və mövcudluğun təyin edilməsində rol oynayır. Kosmos mütləq tək olduğundan Kosmosun öz xüsusi təzahürü yoxdur. Biz Kosmosun ümumi təzahürünü, ümumiyyətlə, elə-belə təzahürlərin məcmusundan aşkarlaya bilərik.

Hər hansı bir mövcudluğun şərtlərinin məcmusu onun mövcud olmasının imkanından ibarətdir. Buradan da, şərtsizləşmə təzahür kimi meydana çıxır və şərtsizləşmə təzahür etməməklə, yəni özündə şeyə keçməklə başa çatır. Özündə şey şərti təzahürlərdən tamamilə ayrılmış şərtsiz təzahürdür; hansı ki, substansial olduğundan yalnız ayrıca mütləq fakta xasdır. Buradan da mütləq fakt təbiətdə aşkarlanmadığından, özündə şeyin şərtsiz təzahürünü biz ideya şəklində xalis zəkadan aşkarlamış oluruq. Beləliklə, Kosmosun ümumiyyətlə təzahürünün ideyasını xalis zəkada aşkarlaya bilərik.

Şərtlənmə təzahürün qarşısında maneə durmasını özündə ifadə edir. Əgər biz kosmoloji ideyaları əldə etmək istəyiriksə, onda şərtsizləşmədən, yəni təzahür imkanından, bu ideyaları əldə edə bilərik. Hər bir mövcud fakt məkan və zamanla, xarici və daxili güclərlə (təsadüfə və zərurətə görə) şərtlənmiş mövcud olur və faktın aktuallaşması - təzahür etməsi - təzahür etmənin şərtlərindən asılı olur. Buradan da, kosmoloji ideyaları kosmosun məkan və zaman şərtindən, onun təsadüfə və ya zərurətə görə mövcudluğundan və təzahürünün şərtlərindən aşkarlamaq lazım gəlir.

Şərhə keçməmişdən qeyd etmək lazımdır ki, şərt özündə vəhdətdə qarşılıqlı təsir - ək-təsir əlaqəsində olan imkanı özündə ifadə edir. İ. Kant da transendental kosmoloji ideyaları məkan və zaman şərtlərindən və

təzahürlərin şərtlərindən əldə edilməsini zəruri hesab etmişdir. O, belə hesab edir ki, transendental kosmoloji ideyalar sisteminin ideyalarının cədvəlinin tərtibi kateqoriyalar cədvəlinə uyğun əldə edilməlidir və bu zaman sistematik dəqiqliklə bəzi prinsiplərə görə transendental fəlsəfənin kosmoloji ideyalarını (kosmoloji ideyalar sistemini təşkil edən ideyaları) saymaq üçün aşağıdakıları nəzərə almaq lazımdır:

1. **Şərtlərin mütləq tamlığından metafizik ideyaların əldə edilməsi:**
   Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Xalis və transendental anlayışların yalnız mühakimədən yarana biləcəyini və ağlın heç bir anlayış yaratmadığını, mühakimə anlayışlarının ən mümkün təcrübənin qaçılmaz məhdud sferasından böyük həcmdə azad etdiyini və bununla da onun onunla bağlı, empirik sərhədlərdən kənarda genişləndirməyə cəhdini. Buna onunla çatılır ki, ağıl, mövcud şərtlənmiş üçün şərtlərin tərəflərindən mütləq tamlıq tələb edir və şərtsizə qədər davam etdirmək yolu ilə empirik sintezə mütləq dolğunluq verməkdən ötəri, bununla kateqoriyaları transendental ideyaya çevirir. Ağlın bu tələbi "əgər şərtlənmiş verilmişsə, onda bütün şərtlər verilmişdir, mütləq şərtsiz olmalı olan, buna görə yalnız mümkün şərtlənmiş olmuşdur" əsas müddəasına görə qoyur."*

Doğrudanmı İ. Kant qeyd etdiyi kimi, ağıl heç bir anlayış yaratmır və ya ən azından buna qabil deyil? Bəs sintetik anlayışlar - mühakimənin iştirakı olmadan yaranan anlayışlar, o cümlədən ağıldan törəyən ideyaları ifadə edən anlayışlar haradan meydana gəlir? Əgər idrak prosesində ağıldan heç bir anlayış yaranmırsa, onda mühakimə necə başlayır? Hansı ki, empirik faktların ideyalarının ağıldan yaranan anlayışlarla inkişaf etdirilərək onlardan həqiqətin aşkarlanmasını özündə təqdim edir. Əgər bəzi anlayışlar hissi qavranılanların mühakiməsini ifadə edirsə, onda xalis intuitiv qavranılanları ifadə edən anlayışlar haradan alınır? Bizcə anlayışla predmet arasında qarşılıqlı bağlılıq vardır. Anlayış varsa predmet var, predmet varsa anlayış var. Buradan da intuitiv qavranılanlarla bağlı anlayışlar da olmalıdır. Hissi qavranılanların anlayışı hissi predmetlərlə

şərtlənibsə, onda qeyri-hissi qavranılanların anlayışı da onlarla şərtlənməlidir; hansı ki, ağıl belə predmetləri özündə təmsil edir, çünki onlar yalnız xalis zəkadan aydınlaşırlar. Əgər *"ağıl, mövcud şərtlənmiş üçün şərtlərin tərəflərindən mütləq tamlıq tələb edir və bununla kateqoriyaları transendental ideyaya çevirirsə"*, onda ağıl potensial şərtlənmiş üçün mütləq tamlığı necə əldə edir və belə tamlığı özündə nə ifadə edir?

Düzdür, Kant ixtiyari kateqoriyanın yox, yalnız bir-birinə tabe olan sintezin sıra əmələ gətirməsinin kateqoriyalarını aid edir və ikincisi bu kateqoriyalar şərtsizə qədər genişləndirildiyindən müvafiq kateqoriyalar cədvəli şəklində yerləşə bilər. Biz yuxarıda qeyd etdik ki, mövcud şərtlənmişlə şərtlənməsi gözlənilən - potensial şərtlənənin fərqi kateqoriyaların xalisliyi ilə bağlıdır. Əgər mövcud şərtlənmiş cüt kateqoriyalar cədvəli ilə təyin olunursa, potensial şərtlənmiş xalis kateqoriya cədvəli ilə təyin olunur. Cüt kateqoriyaların bir tərəfi mümkün varlığı, bir tərəfi isə mövcud varlığın tamlığını təyin edir. Bu baxımdan fikrən ayrılıqda götürülmüş mümkün varlıq cüt kateqoriyaların yalnız bir tərəfi ilə - bizim xalis kateqoriya kimi adlandırdığımız kateqoriyalarla təyin oluna bilər. Buradan da, xalis kateqoriyalar metafizik ideyaya çevrilir; hansı ki, transendental ideyadan fərqlənir. İkincisi, metafizik kateqoriyalar yalnız şərtlənmişdən alınmış və şərtsizə qədər genişləndirilmiş kateqoriyalar yox, məhz bilavasitə fikrən götürülmüş şərtsizin özündən alınmış və buna görə də özündə metafizik genişliyi, yəni kateqoriyanın sonuncu mənasını ifadə edərək metafizik ideyaya çevrilir. Əslində ağlın heç bir anlayış yarada bilməməsini qəbul etmək antitetizmin əsasını təşkil edir ki, bu da metafizikanı inkar edir.

2. **Xalis zaman kateqoriyasının cədvəlinə uyğun metafizik ideyalar cədvəli:**

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

"Mövcud məqama nisbətdə tamamilə keçmiş zaman mövcud zaman kimi düşünülməsi zəruridir. Gələcək zamana gəldikdə isə

mövcud vaxta çatmağa imkan verən şəraitə xidmət etmədiyindən, buna görə də indinin anlanılmasında tamamilə laqeyddir. Şərtə tərəf sıranın sintezini, mövcud təzahürə yaxın şərtdən başlayaraq və daha uzaq şərtlərə hərəkət edəni, mən reqressiv; yaxın nəticədən başlayaraq və daha uzaq nəticələrə hərəkət edən şərtlənmişə tərəf sıranın sintezini proqressiv adlandırıram. Birinci sintez in antecedentia-ya (keçmişin şərti), ikinci in consequentia-ya (gələcəyin şərti) istiqamətlənib. Kosmoloji ideyalar, beləliklə, reqressiv sintezin tamlığı ilə məşğul olur və in antesedentiya-ya istiqamətlənir, nəinki consequentia-ya."

Yuxarıda qeyd etdik ki, mümkünlüyün - şərtsizin zaman xarakteristikası ilə mövcudluğun - şərtlənmişin zaman xarakteristikası bir-birindən fərqlənir. Mümkünlük - eyni yerdə müxtəlif zamanlarda, amma mövcudluq - eyni yerdə və yalnız eyni zamanda aydınlaşır. Beləliklə, mövcudluq əldə etmiş mümkünlüyün indi ilə eyni yerdə aydınlaşan keçmiş və gələcəyi indiyə münasibətdə mövcudluğun dərinliyinə enir və orada gizlədilərək saxlanılır; və hər iki zaman indini şərtləndirir. Keçmiş mövcud vaxta çatmağa imkan verən şəraitə xidmət edir, gələcək isə mövcud vaxtın düzgün istiqamətdə inkişafının şərtinə xidmət edir. İndi - bu iki şərtin bir-birinə keçidi kimi təzahür edir. Belə ki, potensialın aktuala, yəni gələcəyin keçmişə keçidi indi kimi təzahür edir. Buradan da, indini - mövcud şərtlənmişi düşünərkən biz həm də gələcəyi düşünməyə məcburuq. Çünki indidə nə baş verdiyini və keçmişdə olanın özündə nəyi təqdim etdiyini biz həm də gələcəkdən aşkarlaya bilərik. Buna görə də, metafizik ideya gələcəyə şərtin başlanğıcı və ya səbəbi kimi baxır; hansı ki, indidən keçməklə keçmişdə son və nəticə olur. Buradan da, bizim indini keçmişdən keçməklə düşünməmizin əksinə, yaranış indidən keçib keçmiş olan gələcək kimi təsəvvür oluna bilər. Buradan da mümkün varlığın - potensial varlığın mövcud varlıqdan əks istiqamətdə zaman sıralanmasına malik olduğu aşkarlanır. Potensial varlıqda - gələcək, indi

və keçmiş; mövcud varlıqda - keçmiş, indi və gələcək kimi zaman sıra təşkil edir.

İ. Kantın bütün sıraların formal şərti adlandırdığı zaman yalnız məkandan ayrılıqda özü-özündə sıralanmanı, yəni aktuallığın formal şərtini yaradır. Bu sırada gələcək aktuallığının davam etməsinin şərtlərini özündə saxlayır. Mütləq faktda zaman sıra təşkil etmədiyindən, zaman mütləq faktın formal şərti kimi çıxış etmir; hansı ki, bununla zamanüstü olur. Buradan da demək olar ki, metafizik ideyalar hər iki sintezin məcmusunun tamlığı ilə məşğul olur; hansı ki, proqressiv sintez metafizikadan, reqressiv sintez təbiətdən əldə edilərək xalis zəkada məcmui hala salınır.

Zaman sıralanması özündə zamanda şərtlənməyə görə fərqliliyi özündə ifadə edir. Zamanda şərtlənməyə görə eynilik sıra təşkil etmir və özündə tam zamanla şərtlənməni təqdim edir. Kosmos mümkünlüyün mövcudluq tələbində mümkün mövcudluq kimi yarandığından və zamanda sıralanma yalnız əmələgəlmə prosesində meydana çıxdığından Kosmosun zamanda sırası yoxdur, yəni Kosmos zamanla bir tam kimi şərtlənmişdir. Tam zamanın xarakteristikası əbədilikdir. Buradan da Kosmosun zamandan alınan Kosmoloji ideyası Kosmosun əbədi olmasıdır.

3. **Xalis məkan kateqoriyası cədvəlinə uyğun metafizik ideyalar cədvəli:**

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Məkanda proqreslə reqress arasında heç bir fərqlilik yoxdur: o aqreqat yaradır, sıra yox; belə ki, onun hissələri hamısı bir yerdə və eyni zamanda mövcud olur. Məkanın hissələri elə-belə bir-birinə tabe deyil, öz aralarında koordinasiya olunub, onun bir hissəsi başqasının imkanının şərtinə xidmət etmir və özü-özündə məkan zamandan fərqli olaraq sıra təşkil etmir. Ancaq məkanın bilavasitə məkandan tutduğumuz çoxformalı hissələrinin sintezi hər halda ardıcıldır, deməli zaman üzrə baş verir və özündə sıra*

saxlayır. Amma necə ki, məkanın hissəsi bilavasitə başqa hissəsi kimi verilməyib, yalnız onunla məhdudlaşıb, o istənilən məhdud məkana o mənada şərtlənmiş kimi baxmalıyıq ki, o öz sərhədlərinin şərti keyfiyyətində təklif edir. Məkanda reallıq, yəni materiya nəsə şərtlənmədir: onun daxili şərti hissələrdir, onun hissələri isə daha uzaq şərtlərinin hissələridir; belə ki, burada reqressiv sintezin yeri vardır və ağıl onun mütləq tamlığını tələb edir, hansı ki, başa çatmış bölünmə kimi çatıla bilər, bundan materiyanın reallığı və ya tamamilə itir və belə nəyəsə çevrilir, artıq materiya deyil məhz sadədir (nəsə)."

Metafizik olaraq Xalis məkan fikrən zamandan ayrılıqda götürülmüş və bütün mövcudluqların fikrən kənarlaşdırıldığı məkan kimi təsəvvür edilir. Belə məkan mütləq tamdır və onun heç bir hissəsi yoxdur və ya onun fikrən götürülə biləcək bütün şərti hissələri bir və eynidir. Ona görə də, belə məkanda mümkünlük "eyni zamanda müxtəlif yerlərdə olmaq" imkanı əldə edir; hansı ki, mövcudluğun təbiətdə "eyni zamanda bir yerdə olmaq" tələbi ilə ziddiyyət təşkil edir. Məkan zamandan fərqli olaraq təşkil etdiyi sıralar bilavasitə yox, mövcudluq sıraları kimi dolayi sıralardır. Buradan da biz mövcudluq sıralarını məhz məkani sıraların refleksiyası kimi təsəvvür edirik; hansı ki, məkansız mövcudluqlar mümkünsüzlükdür. Əgər zamanın təşkil etdiyi sıralar formalırsa, məkan sıraları faktikdir. Beləliklə, kosmos - formal tam zamanla, faktik tam məkanla şərtlənmiş təklik kimi mövcuddur.

Məkan özündə mövcud olan mövcudluq sıralarının sərhədlərinin şərtini təklif edir, bununla da özü bütün mövcud varlıq sıralarının vahid şərtinə çevrilir və biz istənilən mövcudluq sırasını yalnız məkan şərtindən müəyyən edirik. İstənilən "məhdud məkan" mövcudluq yerləşdirilmiş məkandır. Məhz buna görə mövcudluq sıralarına uyğun məhdud məkanların sırası meydana çıxır. Kosmosda tam məkanda yerləşdirilmiş tək şey kimi təsəvvür oluna bilər. Buradan da Kosmosun məhdud məkanı tam məkanla eynilik təşkil edir. Hansı ki, tam məkan sonsuz olduğundan, belə

məkanla şərtlənmiş Kosmosun kosmoloji ideyası da sonsuzluqdan ibarət olur. Beləliklə, Kosmosun məkan və zaman şərtindən kosmoloji ideya kimi kosmosun sonsuzluğu və əbədiliyi ideyası meydana çıxır.

Kosmosun ən ümumi məkan və zaman şərtində, bütün mövcudluğun ən ümumi əsası kimi materiya aşkarlanır. Materiya - təzahürlərsiz elə-belə mümkünlüyün ən ümumi şəkildə mövcudluğa keçməsini özündə ifadə edən anlayışdır. Başqa sözlə, materiya mütləq faktdır. Reallıq - təzahürlə birlikdə götürülmüş ayrıca mövcudluğun anlayışıdır. Buradan da materiya heç bir təzahürü olmayan elə-belə mövcudluğun ən ümumi əsası kimi çıxış edir; hansı ki, vahid məkan və vahid zamanla şərtlənmiş mövcud varlıq kimi götürülür. Buradan da materiya özündə məkan və zaman sıralarının şərtlərinin vəhdətinin məcmusunu özündə saxlayır. Materiyanın reqressiv sintezi mümkünlüyün varlığında, proqressiv sintezi mövcudluğun varlığındadır. Çünki zamanda formal sıralanmaya görə mümkünlüyün varlığı materiyadan - mövcudluğun varlığının ən ümumi əsasından - keçmişdədir. Mövcudluğun varlığı isə materiyadan zamanda formal sıralanmaya görə gələcəkdədir.

Materiyanın öz-özündə İlahi İradə ilə - zərurətə görə şərtlərlə bölünməsi mövcudluqları meydana çıxarır. Materiyanın bölünməsi materiyada saxlanan şərtlərin qruplaşaraq müxtəlif kombinasiyalarda materiyanı hissəvi olaraq özündə təzahür etdirməsini təqdim edir. Beləliklə, hər bir mövcudluq materiyadan öz mövcud olmasının xüsusi şərtlərini çıxarır. Buradan da, hər bir mövcudluqdan materiyada saxlanan ümumi şərtlərin müəyyən xüsusi dəstini aşkarlamaq mümkündür; hansı ki, həmin şərtlərin ən ümumiliyindən materiyanın tək kimi şərti aşkarlanır. Bununla materiya mövcudluqlar kimi hissələrə bölünür. Hər bir hissədə materiya bir tam kimi itir, əvəzində hissə kimi meydana çıxır və özündə saxladığı şərtləri hissəvi olaraq mövcudluğun mövcud olmasının daxili şərti kimi ona təklif edir. Kosmosun materiyası bütün mövcudluqların xüsusi materiyasının məcmusundan ibarətdir və onun metafizik ideyasını əldə

etmək üçün bütün mövcudluqların materiyasını zərurətə görə şərtlərdən azad etmək lazım gəlir. Beləliklə, Kosmosun materiyası özündə təsadüfə görə şərtlərin məcmusundan ibarət olur.

4. **Substansiyanın və aksidensiyanın və ya xalis zərurətin və xalis təsadüfün kateqoriya cədvəlinə uyğun metafizik ideyalar cədvəli:**

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

"Təzahürlər arasında real münasibətlər kateqoriyasına gəldikdə, substansiyanın və onun aksidensiyasının kateqoriyası transendental ideyalar olmaq üçün uyğun gəlmir, başqa sözlə ağıl ona münasibətdə heç bir şərtə yenmək üçün əsasa malik deyil; belə ki, bir-biri ilə koordinasiya olan aksidensiya (nə qədər ki onlar bir və eyni substansiyaya xasdır) sıra təşkil etmir, amma substansiyaya münasibətdə, xüsusi olaraq tabe olmurlar, amma özündə onun mövcud olmasını təqdim edirlər. Transendental ağlın ideyası burada əlavə olaraq substansial anlayış kimi görünə bilər. Amma nə qədər ki, transendental subyekt istənilən predikatsız düşünülür, elə-belə yalnız müstəqil mövcud olan predmet haqqında ümumiyyətlə anlayışı bildirir. Burada isə söhbət təzahürlərin şərtsiz sırasından gedir, aydındır ki, substansial belə sıranın üzvü ola bilməz. Bu irad sadə aqreqatlar təşkil edən sıranın heç bir göstəricisi olmaya, substansiya ilə ünsiyyətdə olana aiddir, elə onlar öz imkanlarının şərti kimi bir-birinə tabe deyil, sərhədləri həmişə özü-özünə təyin olunmayan, başqa məkanla təyin olunan, məkan haqqında təsdiq edə bilər. Beləliklə, yalnız mövcud fəaliyyət üçün bu və başqa səbəblərin sırasını verən səbəbilik kateqoriyası qalır, hansı ki fəaliyyətdən səbəblərə şərtlənmiş fəaliyyətdən şərt kimi çıxır və ağlın qoyduğu suallara cavab verir. Mümkünlüyün anlayışı, həqiqətən və zəruri olaraq heç bir sıraya gətirmir, yalnız o istisna ilə ki, mövcudluqda təsadüf şərtlənmiş kimi baxmaq lazımdır və mühakimənin bəzi qaydaları şərtləri göstərir, hələ ki ağıl yalnız bu sıranın məcmusunda şərtsiz zərurətə rastlaşmayıb, daha uzaq şərtlər göstərmək lazımdır."

Təzahür şərtlənmişdir və bu şərtlər bir tərəfdən substansiya ilə daxildən, digər tərəfdən mühitdən və başqa substansiyanın təzahürləri ilə xaricdəndir. Aksidensiya təzahürlər kimi meydana çıxır və aksidensiyanın ikili şərtlənməsi bir tərəfli şərtlənmişlərdən çıxarılan ideyalardan fərqli olaraq, özündə ikili təbiətli ideya kimi mövcud olur. Buradan da, aksidensiyadan nə xalis transendental, nə də metafizik ideya çıxmır.

Aksidensivlik təbiətdə mövcud olan və mövcudluqla şərtlənmiş mümkünlüklə birgə, amma bilavasitə mövcudluq əldə etməmiş müstəqil mümkünlükdür; yəni mövcudluqla şərtlənməmiş mümkünlükdür. Məsələn, rəng belə mümkünlükdür. Bir tərəfdən obyektlərdən təzahür edir, digər tərəfdən obyektdən kənar müstəqil təzahürü yoxdur. Ağıl da başqa mövcud varlıqla şərtlənmiş mümkünlüklə ikincili şərtlənmişdir. Buradan ağlın şərtə enməsinin əsası özündə yox, özündən kənardadır; hansı ki, bilgi sıralarını təşkil edir. Beləliklə biz formal zaman, faktiki məkan sıralarına paralel formal-faktiki bilgi sıralarını müəyyən etmiş oluruq ki, bu da elmləri özündə təqdim edir.

Transendental fəlsəfə kateqoriyaların dörd dərəcəsinə uyğun aşağıdakı dörd kosmoloji ideyanı aşkarlayır:

1. **Bütün təzahürlərin mövcud tamlığının toplanmasının mütləq dolğunluğu:** Bizcə, "təzahürlərin toplanması" özündə metafizik mütləq dolğunluğu verə bilməz. Çünki mövcud olma Kosmosda mexaniki aqreqat kimi yox, təşkilatlanma kimi təzahür edir. Təşkilatlanmış mövcudluqların təzahürlərini sublimasiya etməklə mütləq dolğunluq əldə etmək olar; hansı ki, entropiyanın əksinə entropiyadan təmizlənmə kimi meydana çıxır. Bu da sofistikanın başlıca tələbini - pisin yaxşılaşdırılmasını - özündə ifadə edir. Burada "pis" entropiya olunmuş təzahürlərdir, hansı ki, onların cəmlənməsindən mütləq dolğunluq əldə etmək mümkün deyil; amma yaxşılaşma entropiyadan təmizlənmiş təzahürlərdir, hansı ki, onların sublimasiyasından həqiqi mütləq dolğunluq əldə etmək mümkündür. Biz bunu riyazi əməllərdə

daha aydın görə bilərik. Məsələn: -3+5=2 və 3+5=8. Burada əslində birinci əməl sublimasiya, ikinci əməl cəmləmədir. Birinci əməl müxtəlifliklərin təşkilatlanmasını, ikinci eyniliklərin mexaniki aqreqatını özündə ifadə edir. Təbiət müxtəliflikləri özündə təqdim etdiyindən, biz yalnız onun təzahürlərinin sublimasiyasından mütləq dolğunluğa çata bilərik.

2. **Bütün təzahürlərin mövcud tamlığının bölünməsinin mütləq dolğunluğu:** Ümumiyyətlə biz nəyi və haradək bölə bilərik? Bölmə aksidensiya və ya substansiyaya münasibətdə aparılır. Aksidensiyaya münasibətdə bölmə şərtidir və buradan şərtsizin dolğunluğuna çatmaq olmaz. Deməli, bölmə yalnız substansiyanın təzahürlərinin tamlığının bölünməsi ilə mütləq dolğunluğa çatmaq olar. Hansı ki, mümkünlüyün mövcudluq tələbində yaranış məhz xalis substansiyanın - mümkünlüyün varlığının bölünməsi ilə mövcudluğun varlığı meydana çıxmışdır. Beləliklə, biz metafizik kosmoloji ideyanı bütün təzahürlərin mümkün tamlığının bölünməsinin mütləq tamlığına çatırıq ki, bu da Kosmosun tək ideyasından ibarətdir.
3. **Təzahürlərin ümumiyyətlə əmələgəlməsinin mütləq dolğunluğu:** Əmələgəlmə bir mövcudluğun başqa bir mövcudluğa keçidini özündə ifadə edir. Kosmos tək bir mövcudluq olduğunda başqa mövcudluğa keçmir, deməli əmələgəlmə prosesində iştirak etmir. Kosmosun metafizik ideyasını "təzahürlərin ümumiyyətlə əmələgəlməsindən" yox, "təzahürlərin ümumiyyətlə yaranmasının mütləq dolğunluğu" kimi aşkarlamaq olar. Təzahürlər ümumiyyətlə Kosmosun məkan və zamanla şərtlənməsindən yaranır; hansı ki, ayrı-ayrı mövcudluqların məkan və zaman şərtlərinin məcmusunu özündə ifadə edir.
4. **Təzahürlərdə dəyişkənliyə mövcudluğun asılılığının mütləq dolğunluğu:** Burada belə bir suala cavab vermək lazımdır: Təzahürlər mövcudluqdan asılıdır, yoxsa təzahürlər mövcudluqdan? Mövcudluq xalis substansiyadır. Təzahürlər mövcud olmada meydana çıxan

substansiya ilə aksidensivliyin vəhdətidir. Təzahürlərdə dəyişkənlik yalnız aksidensivliyə aiddir, mövcudluğa aid olan təzahürlərdə dəyişkənlik yox, mahiyyətdə keçiddir; hansı ki, tamamilə yeni təzahürlərlə müşahidə olunur. Digər tərəfdən, dəyişkənlik yalnız zamanda və məkanda sıralanan mövcudluğa xasdır. Kosmos məkan və zaman sırası təşkil etmədiyindən, biz Kosmosun metafizik ideyasını "təzahürlərdə dəyişkənliyə mövcudluğun asılılığının mütləq dolğunluğu" kimi çata bilmərik. Buradan da, mahiyyətdə keçiddə mövcudluğun asılılığının mütləq dolğunluğu özündə metafizik Kosmoloji ideya kimi aşkarlanır.

Transendental fəlsəfədən fərqli olaraq metafizikada substansiya və aksidensiyanın kateqoriyaları metafizik kosmoloji ideyalar olur. Kanta görə bu transendental fəlsəfədə ona görə mümkün olmur ki, *"ağıl ona münasibətdə heç bir şərtə yenmək üçün heç bir əsasa malik deyil"* və *"aksidensiyaların bir-biri ilə koordinasiyasından sıra əmələ gəlmir"*.

METAFİZİK KOSMOLOJİ İDEYALARIN MÜƏYYƏNLƏŞMƏSİ

Kantın kosmoloji ideyalarla bağlı fikirlərinin tənqidi əsasında metafizik kosmoloji ideyaları aşağıdakı əsaslarla müəyyənləşdirmək lazım gəlir:

İstənilən transendental ideya bilavasitə empirik ideya ilə bağlı (amma bilavasitə ondan yox, refleksiv ideya kimi ondan) meydana çıxır, amma ondan fərqli olaraq təcrübədən kənara çıxan daha geniş həqiqətlərin idrakına kömək edir. Transendental fəlsəfənin kosmoloji ideyaları kateqoriyalarla müəyyən edildiyindən, biz də metafizikanın ideyalarının müəyyənləşməsində kateqoriyalardan istifadə etməyi məqsədə müvafiq hesab edirik. Biz iki cür kateqoriyalar cədvəli müəyyən edə bilərik:

A. Xalis təsadüfə görə şərtlənmənin tamlığından əldə edilən anlayışlar: Bura zaman, məkan, kəmiyyət və keyfiyyət aiddir.

B. Təsadüflə zərurətin vəhdətinə görə immanent şərtlənmədən - daxili vəhdətdən əldə edilmiş anlayışlar: Bura materiya, mövcudluq, reallıq, gerçəklik və fərdi şey kimi kateqoriyalar aiddir.

1. Təsadüfə görə şərtlənmənin tamlığından əldə edilən anlayışlar-kateqoriyalar:

Kosmologiyanın öyrəndiyi Kosmos bir-biri ilə şərtlənmiş mövcudluqlardan ibarətdir. Bir-biri ilə şərtlənmə təsadüfə görə şərtlənmədir və belə şərtlənmə zərurətə görə daxili şərtlənmənin əksiliyidir. Beləliklə, Kainatda hər şey təsadüfə və zərurətə görə şərtlənmənin vəhdətindən ibarətdir. Metafizika bu vəhdəti dağıdaraq onların hər birindən ayrı-ayrılıqda anlayışlar əldə edərək öz kosmoloji ideyalarını müəyyən edir. Transendental fəlsəfə təsadüfə və zərurətə görə vəhdətin sərhədlərində kosmoloji ideyalar müəyyən etdiyindən, bu ideyalar özündə eyni zamanda yalnız bir sıranın - mövcud sıranın aktuallığından anlayışlarını yaradır. Amma metafizikada xalis təsadüfə görə ideyalar müəyyən edildiyindən eyni zamanda mümkünlüyün potensiallığından ən müxtəlif sıraların anlayışlarını yaradır. Buradan da, transendental fəlsəfənin inkar etdiyi cinlər, mələklər və s. haqqında ideyalar metafizik statuslu obyektlərin ideyaları kimi təsdiq olunur.

Təcrübədə idrak sonlu və müvəqqəti şeylərlə məhdudlaşdığından, transendental ideyalarla təcrübəyə qayıdan transendental fəlsəfənin kosmoloji ideyaları özündə bu məhdudluğu ifadə edir. Amma metafizika təcrübədən metafizikanın dərinliklərinə endiyindən öz kosmoloji anlayışlarını təcrübənin məhdudluğundan azad etməyə - onlara əbədi və sonsuzluq xarakteristikası verməyə cəhd edir. Yəni metafizik kosmoloji ideyalar sonsuzluq və əbədilik ilə şərtlənmiş predmetləri haqqında anlayışlar yaradır. Bunun üçün ağıl empirik mövcudluqlardan uzaqlaşaraq, onların daxili və xarici şərtlərinin məcmusu ilə bağlı anlayışlar yaradır. Bu anlayışlar mövcudluqların özü ilə əlaqəli olmadığından yalnız mühakimədən yaradılır. Metafizika mövcudluqla

anlayış arasındakı əlaqənin qoparılması ilə elə anlayışlar yaradır ki, həmin anlayışlar düşüncəni genişləndirməyə imkan verir ki, həmin genişlənmə idrakı təcrübədən kənara çıxarır. Başqa sözlə, necə ki, yalnız kosmik sürətlə insan yerin cazibəsini dəf edərək açıq Kosmosa çıxır, buna uyğun metafizika da öz anlayışlarının mövcudluqlarla əlaqəsini kəsməklə elə Kainatın məhdudluğunu dəf edərək metafizikaya istiqamətlənir. Buradan da, ağıl əbədi fərdi şeylərdən Kosmosun tamlığını ala bilməməsini, onları şərtləndirən şərtlərinin tamlığından əldə etməklə irəliləyir. Məsələn, məkan və zaman kateqoriyaları bütün mövcudluqların xarici şərtləri kimi mövcuddur və mövcudluqlarsız xalis məkan və zaman transendental anlayışa çevrilərək sonsuz çoxluqda olan Kosmosun idrak edilməsinə kömək edir. Metafizika məkan və zaman anlayışlarının xarakteristikalarını - sonsuzluq və əbədiliyi həmin kateqoriyalardan çıxarmaqla bir daha təcrübəyə qayıtmamaq şərti ilə metafizikanın ideyalarını aşkarlamağa cəhd edir.

2. Zərurətə görə immanent şərtlənmədən - daxili vəhdətdən əldə edilmiş anlayışlar-kateqoriyalar:

Empirik anlayışlar kimi zərurətə görə vəhdəti özündə təqdim edən kateqoriyalar həm təcrübəni, həm də metafizikanı şərh etməyə imkan verən anlayışlar kimi yaranır və bu zaman həmin anlayışlar daxili tamlığın ən müxtəlif səviyyələrini, sonda materiyanın dəf edilib ondan kənara çıxmağa - materiyaönü Varlıq aləminə nüfuz etməyə kömək edir. Beləliklə, metafizik kosmoloji ideyaların müəyyənləşməsinin bir yolu da mövcudluqların daxili şərtlənməsindən əldə edilmiş totallıqların dağıdılması ilə əldə edilən anlayışlarla onların aşkarlanmasıdır. Yəni fərdi əbədi şeyin daxili dərinliyindəki tamlıqdan elə anlayışlar əldə etmək olar ki, o şeyin daxilində saxladığı təbiəti dəf edərək metafizikaya keçməyə kömək etsin. Belə anlayışların əldə edilməsi, birinci üsuldakı məcmudan əldə etmək üçün birləşdirmənin - cəmləmənin, bütövləşdirmənin əksi kimi bölünmə - parçalanma və ya çıxılma ilə mümkün olur. Hansı ki, xalis transendental elm olan riyaziyyat elminin

əməliyyatları kimi məlumdur. Daxili şərtlənmə özündə hissələrin bir-biri ilə şərtlənməsini təqdim edir. Təcrübədə hissələrə bölmə ən kiçik həddə qədər aparıldığından bir səviyyədə bölünmədən meydana çıxan hissə digər səviyyədən olan hissələr üçün tam kimi çıxış edir. Yəni təcrübədə bölünmə ilə bir nisbi tamlıqdan digər nisbi tamlığa keçid mümkün olur. Bu proses təcrübədə şeyin mütləq tamlığında, yəni mütləq sonuncu hissədə başa çatır. Hansı ki, bundan sonra bölünmə mümkünsüzlüyə çevrilir. Metafizika məhz bu sərhəddən bölünmənin empirik mümkünsüzlüyündən başlayaraq bundan sonrakı bölünməni fikrən bölünmənin mümkünlüyü kimi davam etdirir və şeyin mütləq tamlığını bölməklə onu məhv edir (yox edir); nəticədə yoxluq aləminə, fiziki aləmdən hissəciklər aləminə, oradan dalğa funksiyası aləminə, oradan Ali Ağıl aləminə, yəni sakral aləmə keçir.

3. Kateqoriyalar yalnız təcrübi sıraları (obyektiv varlıqlardan təşkil olunmuş) şərh etməyə imkan verir. Subyektin özü-özünü idrakı bu zaman kateqoriyalardan kənarda qalır. Bununla da real gerçəkliklə mümkün gerçəkliyin idrak üsulları bir-birindən fərqlənir. Kateqoriyalar yalnız özündə çoxluq saxlayan təklərin şərtlərinin məcmusunu ifadə edir. Substansiya özündə çoxluq saxlamayan təklik olduğundan, onun təkliyinin xarici şərti də tək olduğundan (ruh yalnız bir bədənlə şərtlənir) məcmusuzdur, buna görə subyektin xarici şərtindən kateqoriya əldə etmək mümkün olmur. Başqa sözlə, təcrübənin idrakına kömək edən kateqoriyalardan fərqli anlayışların yaranması ilə subyekt idrak olunur; hansı ki, belə anlayışlar təcrübi sıralar üçün keçərli olmasa da metafizikanın digər ideyaları üçün ortaq anlayışlar kimi çıxış edir. Buradan da, məsələn, məhz kvant fizikasının anlayışları əsasında digər metafizik anlayışları, eləcə də əksinə digər metafizik ideyaların anlayışları ilə kvant fizikasını, və ya da Ruhun atributlarından dolayısı ilə Allahla bağlı metafizik ideyaları və əksinə metafizik Allah ideyasından Ruhun ideyasını aşkarlaya bilirik. Bu xüsusiyyət bir metafizik ideyadan başqasına keçid,

təcrübədən aşkarlanan anlayışların bir sıradan başqa sıraya keçidinə imkan verməməsinin tam əksi kimi meydana çıxır.

4. Kosmoloji ideyalar mövcud varlıqla mümkün varlığın ziddiyyətindən aşkarlanır: Təcrübi həqiqətlər zərurətə görə şərtlənmədən aşkar edildiyindən ağıl təsadüfə görə şərtlənmədən zərurətə görə şərtlənməyə doğru inkişaf edir və bu zaman həqiqi və gerçək təsadüfə görə - immanent şərtlənməyə rast gəlməyənə qədər yalnız təsadüfə görə şərtlənmə sferasında qalır; hansı ki, xalis təsadüfə görə şərtlənmə kimi mümkün varlıqdan bir sıra yaranmır. Ən azından ona görə ki, mümkünlük fərqli sıralar üçün bir və eyni başlanğıcı təşkil edir. Buradan da subyektlə obyektin bir sıraya gətirilməsi, yəni maddi olanla qeyri-maddinin bir kateqoriya ilə ifadə olunması mümkün olmur.

5. Kainatda mövcud olan bütün şeylər vəhdətdə olduğundan ardıcıl mövcuddurlar; yəni bir şey nəticə kimi öz səbəbindən sonra meydana çıxır və bu səbəbiliklə mövcud olur.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Xalis zəkanın bütün transendental görüntüləri dialektik nəticələrə əsaslanır; hansı ki, sxemini məntiq özünün üç formal şəkildə əqli nəticələrində ümumiyyətlə verir. Birinci növ belə əqli nəticələr ümumi şəkildə bütün təsəvvürlərin subyektiv şərtlərinin şərtsiz vəhdətinə aiddir və kateqorik əqli nəticələrə aiddir, prinsip kimi predikatın subyektə münasibətini ifadə edir. İkinci növ, hipotetik əqli nəticələrlə analogiya təşkil edən dialektik arqument öz mahiyyətini təzahürlərdə obyektiv şərtlərin şərtsiz vəhdətini edir. Üçüncü növ öz mövzusunu ümumiyyətlə predmetlərin mümkünlüyünün obyektiv şərtini şərtsiz vəhdətini edir."*

Kantın fikirlərindəki əqli nəticələrdən birincisini metafizik ideya kimi Ruha, ikinci əqli nəticəni metafizik ideya kimi Kosmosa, üçüncünü metafizik ideya kimi Allaha aid etmək olar.

Beləliklə, xalis zəkanın transendental görüntüsü kimi - Kosmosun totalığının görüntüsünü - "hipotetik əqli nəticələrlə analogiya təşkil edən

dialektik arqument öz mahiyyətini təzahürlərdə obyektiv şərtlərin şərtsiz vəhdətini etməsi ilə" əldə edir. Beləliklə, Kosmosun totalığının görüntüsünü transendental fəlsəfə Kosmosun mövcudluğu kimi meydana çıxan "təzahürlərdə obyektiv şərtlərdən" şərtsiz vəhdət almaqla dialektik arqument kimi əldə edir. Metafizika bunun əksinə Kainatın görüntüsünü sintetik arqumentlə şərtsiz vəhdətlərin vəhdətindən, yəni Ruhla Allahın, Kosmosla Allahın, Varlıqla Kosmosun vəhdətindən əldə edir; hansı ki, fizika ilə metafizikanın vəhdəti kimi təyin edə bilərik. Məhz bu vəhdətə görə transendental fəlsəfənin əksinə biz Varlıqdan və Ruhdan Allah ideyasını, Allahdan Kosmosun, varlığın və ruhun ideyasını çıxara bilirik.

İ. Kanta görə kosmoloji anlayışlar sıra yaradan anlayışlardır və bura zaman, məkan, materiya, səbəbilik kateqoriyalarına uyğun dörd kosmoloji ideyanı aid edir:

1. Bütün təzahürlərin mövcud tamlığının cəmlənməsinin mütləq dolğunluğu.
2. Mövcud tamın təzahürlərə bölünməsinin mütləq tamlığı.
3. Təzahürlərin ümumiyyətlə əmələgəlməsinin mütləq dolğunluğu.
4. Təzahürlərdə dəyişkən olan mövcud olmanın asılılığının mütləq dolğunluğu. O cümlədən dünyanı, təbiəti aid edir.

Metafizik Kosmoloji ideya sıra yaratmayan predmetlərin ideyasına çatmağa cəhd etdiyindən:

a. Transendental fəlsəfənin əksinə, bütün təzahürlərin mövcud tamlığının cəmlənməsindən alınan mütləq dolğunluğu, bütün təzahürlərin mövcud tamlığını inkar etməklə mütləq dolğunluğu əldə edir. Buradan da, heç bir təzahürə malik olmayan, yəni aktuallaşmayan mütləq fakt anlayışı yaranır. Mütləq fakt - təzahürü mütləq şəkildə olmayan fakti özündə təqdim edir. Hansı ki, belə mütləq fakt anlayışı ilə Allah ideyası aşkarlanmağa başlayır. Buradan belə bir metafizik müddəa alınır: *"Vardır, amma mövcud deyildir"*; hansı ki, transendental fəlsəfədə *"nə ki mövcud-*

luqdur o mövcud olandır" müddəası hökmə malikdir. Buradan da sıra yaratmayan dörd mütləq fakt - Allah, Ruh, Varlıq və Kosmos müəyyən edilir.

b. Metafizikada mütləq tamın təzahürlərə bölünməsi onun fikrən bölünməsinə keçirilir və mütləq tam dağıdılaraq onun əsasında duran dolğunluq axtarılır. Buradan da, metafizik ideyaların sonsuz dolğunluğuna çatılır.

c. Metafizika təzahürlərə laqeyd qalmaqla, yəni mahiyyətin təzahürlərsiz idrakına, yəni xalis varlığa istiqamətlənmə ilə metafizik ideyaları müəyyənləşdirməyə cəhd edir. Hansı ki, transendental fəlsəfədə təzahürlər entropiya olduğundan, təzahürlərə ayrılmanın mütləqliyindən ən nisbi - emanasiyaya məruz qalmış sonuncu mütləq nisbi kosmoloji həqiqət əldə edilir. Metafizikanın kosmoloji həqiqəti transendental fəlsəfəyə görə başlanğıc kosmoloji ideyalar kimi nisbi mütləq həqiqəti özündə təqdim edir.

d. Transendental fəlsəfə təzahürlərdə dəyişkən olan mövcud olmanın asılılığının mütləq dolğunluğundan kosmoloji ideyanı müəyyən edir; başqa sözlə transendental fəlsəfədə illüzor kosmoloji ideyalar aşkarlanır; hansı ki, təzahürlərin dəyişilməsindən mövcud olmanın asılılığının mütləq dolğunluğu ilə müəyyən olunur. Metafizika heç bir dəyişilməyə yer vermədən öz ideyalarını mütləq - sonsuz və əbədi təkrarlanmadan aşkarlayır; nəticədə metafizik kosmoloji ideyalar dəyişməz əbədi olanın ideyasını verir. Başqa sözlə, metafizika daxildən dəyişən Kosmosun kosmoloji ideyasını, metafizika xaricdən dəyişməz - əbədi təkrarlanmada olan kosmoloji ideyaları müəyyən edir.

XALİS ZƏKANIN NOMİYASI:

METAFİZİK İDEYALARIN SİNTEZİ

Metafizika ilə fizikanın fərqli aləmlər kimi fərqli qanunlara tabe olması idrak prosesində ağlın antinomiyasına səbəb olur. Xalis zəkanin antinomiyası nədən meydana çıxır?

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Xalis zəkanın bütün antinomiyası aşağıdakı dialektik arqumentə əsaslanır: əgər şərtlənmiş verilibsə, onda onun bütün şərtlərinin sıraları da verilmişdir."*

Transendental fəlsəfədən fərqli olaraq metafizikanın predmetləri qeyri-şərtsiz xalis zəkadan alındığından heç bir şərt verilmir. Ona görə də, metafizik statuslu obyektləri ixtiyari idrak etmək və həm də paralel məntiqlə idrak etmək lazım gəlir. Məsələn, Allahın bacarığı ilə gücünün ardıcıl məntiqlə idrakından belə bir antinomiya alınır: *"Əgər Allah hər şeyə qadirdirsə və qabildirsə, onda o özünün qaldıra bilməyəcəyi bir ağırlıq yaratmağa qadirdirmi?"* Əgər hər şeyə qadirdirsə cavab "hə"dir. Onda ikinci sual: *"Əgər o hər şeyə qadirdirsə, necə öz yaratdığı daşı qaldırmağa qabil deyil?"* Burada cavab "hə"dirsə, onda Allahın qadirliyi, yoxdursa qabilliyi şübhə altına alınır və bu antinomiyadan belə alınır ki, ya Allah hər şeyə qadirdir, amma hər şeyə qabil deyil, ya hər şeyə qabildir, amma hər şeyə qadir deyil. Bu da Allahın mütləqliyinə ziddir. Amma metafizika ağlı antinomiyadan xilas etdiyindən ağıl paralel məntiqlə idraka cəhd edir; yəni qadirlik və qabillik bir-birinə paralel inkişaf etdirilir. Onun qadirliyin dialektikasında Allahın hər şeyə qadir olduğu, ona paralel inkişaf etdirilən qabilliyin dialektikasından hər şeyə qabilliyi aşkarlanır; bu da Allahın mütləqliyi xarakteristikasına cavab verir.

Elm xalis zəkanın antinomiyasını fakültələrə bölünməklə həll edir; belə ki, hər bir mövcudluq sırası özünəməxsus qanunlarla həqiqəti dərk edən elmin obyektinə çevrilir və bu zaman onlar ayrı-ayrı elmlər kimi yalnız bir-birinə münasibətdə ağlın antinomiyasını saxlayır, amma özüözündə heç bir antinomiyaya düşmür. Transendental fəlsəfədə xalis zəkanın antinomiyası onunla bağlıdır ki, idrak iki sistem arasında - fiziki

təbiətlə metafizika arasında transendensiya edir. Nəticədə, eyni bir elm - transendental fəlsəfə - iki bir-birindən fərqli sistemin qanunlarını bir idrak prosesində - eyni bir məntiqlə dərk etməyə cəhd edərkən antinomiyaya düşür.

Metafizikada xalis ağıl antinomiyadan azad olduğundan, biz bunu **xalis zəkanın nomiyası** adlandırırıq. Metafizik ideyalar tezisə və antitezisə bölünmür və buna görə də həmin ideyaları transendental ideyaların tezis və antitezisindən sintez etməklə əldə etmək olar. Buna görə də, Transendental fəlsəfədə Kantın xalis zəkanin antinomiyasından çıxan transendental ideyaların ziddiyyətlərinin tezis və antitezislərinin sintezi nəticəsində metafizik ideyaların mütləq vəhdətini almış oluruq. Biz sintezlə-antisintezin sintezindən alınan müddəaları xalis zəkanın nomiyaları kimi adlandırırıq:

1. Kantın xalis zəkanın antinomiyasına aid transendental ideyanın birinci ziddiyyəti:

- **Tezis:** Dünya zamana görə başlanğıca malikdir, həmçinin məkanda məhduddur.
- **Antitezis:** Dünyanın zamana görə başlanğıcı və məkanda sərhədləri yoxdur.

Xalis zəkanın nomiyasının metafizik ideyasının birinci sintezi: Metafizik predmetlər məkan və zaman şərtlərindən azad olduğundan metafizik ideyaları məkan və zamanla müəyyən etmək olmaz. Yəni belə ideyalar eyni zamanda həm məkanda məhduddur, həm sonsuz; zamanda həm başlanğıcı olan, həm də əbədi ideyalardır. Yəni metafizik kosmoloji ideyaya görə dünya daxildən mütləq zərurətə görə məkanda məhdudiyyətə və zamanda başlanğıca malikdir, amma xaricdən mütləq təsadüfə görə məkanda qeyri-məhdud, zamanda başlanğıcsızdır. Ona görə də ki, məkan və zaman anlayışları məhz Kosmosda mövcudluqların təsadüfə görə şərtlənməsinin məcmusundan çıxarılır. Beləliklə, ondan çıxarıldığına görə kosmoloji ideyalar Kosmosaltı, onu şərh etdiyinə görə

(təcrübəyə qayıtdığı üçün) kosmosüstü olur. Metafizika təcrübəyə qayıtmadığından Kosmosaltı olan ideyaları metafizikaya keçirərək öz kosmoloji ideyasının əsasına qoyur.

Metafizik sintez: Təsadüfə görə aşkarlanan kosmoloji ideyaya görə Kosmos xalis təsadüfə görə yaradılandır, yəni Kainatın totalığında immanent səbəbilik yoxdur. Təsadüf alternativliyi şərtləndirdiyindən mövcud Kosmosla yanaşı çoxlu sayda potensial kosmoslar vardır, amma mövcud deyildir. Bu kosmoslar ancaq var olan kimi təsəvvürə gətirilir; hansı ki, özü-özündə məkana görə sonsuz, zamana görə əbədi, yəni başlanğıcı olmayandır. Buradan da, metafizik kosmologiyanın paralel Kosmoslar - bu dünya və axirət kimi - ideyası meydana çıxır.

2. Transendental ideyanın ikinci ziddiyyəti:

- **Tezis:** Bütün mürəkkəb substansiyalar sadə hissələrdən ibarətdir və ümumiyyətlə yalnız sadə və ya sadədən yaranmış mövcuddur.
- **Antitezis:** Heç bir mürəkkəb şey dünyada sadə hissələrdən ibarət deyil və dünyada heç bir sadə yoxdur.

Xalis zəkanın nomiyasının metafizik ideyasının ikinci sintezi: Birincisi, substansiya subyektiv, şey obyektiv olduğundan heç bir kateqoriya özündə subyektiv sıra ilə obyektiv sıranı özündə təqdim etmədiyindən, substansiyaya aid tezis şeyə aid ola bilməz və əksinə şeyə aid tezis substansiyaya aid olmaz. İkincisi, substansiya yaranma, şey əmələgəlmə nahiyəsindədir. Yaranma ilə əmələgəlmə fərqli prinsiplərə tabe olduğundan, eyni bir tezislə iki fərqli nahiyənin həqiqətini aşkarlamaq olmaz. Beləliklə, bütün substansiyalar mahiyyətin varlığı kimi bir və yeganə həqiqəti özündə təqdim edir, yəni substansiyalar sadədir və yalnız sadədən yaranmışlar. Mahiyyətin varlığı mövcud olan varlığa, şeyə - təsadüf aləmindən zərurət aləminə keçərkən, təsadüfdən asılı olaraq müxtəlif varlıqlar yaradırlar; mövcudluq yalnız zərurətə görə var olan şeydir. Sadənin müxtəlif varlıqlar yaratması ilə müxtəlifliklərin məcmusundan mürəkkəblik meydana çıxır.

Metafizik sintez: İstənilən mürəkkəb şey eyni sadə substansiyaya malik müxtəlif sadə hissələrdən ibarətdir və yalnız sonuncu hissə mütləq tam hissədən məhrumdur, çünki eyni vaxtda həm sonuncu hissə, həm mütləq tamdır. Biz bunu metafizik kosmologiyanın transendental sərhədi adlandırırıq.

3. Transendental ideyanın üçüncü ziddiyyəti:

- **Tezis:** Təbiətin qanunlarına görə səbəbilik yeganə səbəbilik deyil; hansı ki, ondan dünyadakı bütün təzahürləri çıxarmaq olsun. Təzahürləri izah etmək üçün azad səbəbiliyin mövcudluğunu qəbul etmək lazımdır.
- **Antitezis:** Heç bir azadlıq yoxdur, dünyada hər şey təbiətin qanunu əsasında baş verir.

Xalis zəkanın nomiyasının metafizik ideyasının üçüncü sintezi: Təbiətdə hər şey daxili zərurətə, xarici təsadüfə tabedir. Ona görə də şeylərin immanent səbəbiliyinə görə daxili azadlığı yoxdur, amma xarici səbəbilik təsadüfə görə olduğundan mümkün səbəblə şərtlənmə mümkünlüyünə malikdir; hansı ki, mümkünlük azadlığın səbəbidir. Buradan da dünyadakı şeylərin xarici azadlığa malik olduğunu deyə bilərik. Məsələn, biz eyni sıradan olan bir şeyi müxtəlif yerlərdə, müxtəlif zamanlarda, müxtəlif hallarda və vəziyyətlərdə aşkarlaya bilirik. Bu zaman şey özü-özündə eyniliyini saxlayır. Təzahürlər bir-birini qarşılıqlı şərtləndirmədən meydana çıxdığından, bütün şərtlərin məcmusu məhz ayrı-ayrı təzahürlərin ümumi səbəbi kimi meydana çıxır ki, bu da ayrı-ayrı təzahürlərin səbəblərinin məcmusu kimi meydana çıxdığından onlardan asılıdır; yəni dünyada azad səbəbilik yoxdur. Azad səbəbilik yalnız dünyanın totalığına aiddir; yəni Kosmos bir tam kimi təzahürü azad səbəbiliklə izah edilə bilər. Hansı ki, ona görə azad səbəbilik həm də fərqli qanunlara tabe olan paralel Kosmosların mümkünlüyünün səbəbidir. Yəni metafizik ideya kimi şeylər daxildən qeyri-azad, xaricdən azaddırlar; bu da mövcudluğun yeganə şərtidir. Əgər əksinə olsaydı (yəni şey daxili azadlığa, xarici qeyri-azadlığa malik olsaydı), onda bir şey

mütəmadi olaraq başqa şeyə çevrilərdi və ya hər bir xarici şərt onu öz təsirinə uyğun dəyişdirərdi; bu da şeyin məhv olması və ya itməsi demək olardı. Təbiətin qanunları təbiətdə müəyyən səviyyəyədək qüvvədədir. Parametrlərin dəyişilməsi ilə dünya qanunları dəyişir. Eynşteynin nisbilik nəzəriyyəsi sübut edir ki, dünyada təbiət qanunları məhdud çərçivədə həqiqidir. Məsələn, sürət işıq sürətindən artıqda və ya ifrat qısa məsafədə (atomun nüvəsinin ölçüsü kimi) və sıfra yaxın zamanda baş verən hadisələr təbiətin qanunlarına yox, xaosa tabe olurlar. Sinergetika nizamın xaosa, xaosun nizama keçidi ilə bağlı xeyli elmi nailiyyətlər əldə etmişdir. Təbiətdə baş verənlərə substansiyanın təsiri ilə də bağlı çoxlu elmi faktlar vardır. Məsələn: nümunə kimi "suyun mesajı"nı götürək. Eksperimentdə iki müxtəlif hisslər ifadə edilmiş kağızlar salınmış eyni suların donmasında fərqli kristallar alınmışdır. Və ya kvant fizikasında müşahidəçinin müşahidə olunana təsiri. Biz bunu təcrübədə nəzər kimi anlayırıq. Bütün bunlar kosmosda yalnız təbiət qanunlarının hökm sürmədiyini göstərir.

Metafizik sintez: Metafizik predmetlər yalnız təsadüfə görə vardırlar, yəni həm daxili, həm xarici azadlığa malikdirlər; yəni şeylikləri yoxdur.

4. Transendental ideyanın dördüncü ziddiyyəti:

- **Tezis:** Dünyaya şərtsiz zəruri mövcudluğun ya səbəbi, ya onun hissəsi aiddir.
- **Antitezis:** Heç yerdə heç bir mütləq zəruri mövcudluq yoxdur.

Xalis zəkanın nomiyasının metafizik ideyasının dördüncü sintezi: Şərtsiz zəruri mövcudluq iki mənada şərh oluna bilər: Dünyanın özündə olan şərtsiz zəruri mövcudluq var ki, bütün şərti mövcudluqlar ondan əmələ gəlir. Əgər əmələgəlmə varsa, onda "nəsə nədənsə əmələ gəlməlidir"; deməli şərtsiz zəruri səbəbin də dünyada səbəbi olmalıdır, bu isə artıq onu şərtsizlikdən çıxarır. İkinci mənada, şərtsiz zəruri mövcudluq metafizikada olmalıdır ki, təbiət hadisələrinin başlanğıcı kimi çıxış etsin. Əgər belə bir başlanğıc varsa (bizə görə var), o yalnız dünyadakı

təzahürlərə refleksiv səbəb kimi təsir edir, yəni onun özü-özündə dəyişilməsi dünyanın özü-özündə özünü dəyişməsinə səbəb olur.

Birincisi, şərtsiz zəruri mövcudluq metafizikadadırsa, hər hansı bir şey şərtsiz zəruri mövcudluqdursa, onda onun hissələri də şərtsiz zəruri mövcudluq olmalıdır. Deməli dünyada olan hər şey təsadüfə görə mövcud olmaya malik olmamalıdır, yəni mövcudluq istisna olmalıdır. İkincisi, şərtsiz zəruri mövcudluq hər hansı bir şərtlənmədən azad mövcudluqdur. Əgər dünyadakı şeylər şərtsiz zəruri mövcudluğun hissəsidirsə, tam hissələrdən şərtləndiyindən deməli o şərtsiz ola bilməz; əgər şərtsiz ola bilərsə, onda hissəsi ola bilməz. Zəruri mövcudluq immanent səbəbiliyə görə mövcud olandır, yəni hər bir şey özündə şey kimi yalnız zərurətə görə mövcudludur.

Metafizik sintez: Dünyaya şərtsiz zəruri varlığın yalnız refleksiv səbəbi aiddir; hansı ki, dünyanın yaranmasında iştirak edir. Dünyada zəruri şərtsiz mövcudluğun heç bir səbəbi və ya hissəsi yoxdur, çünki əməlegəlmədə nəsə nədənsə əmələ gəlir.

Beləliklə, metafizik kosmologiyaya görə Fiziki aləm Metafizik aləm tərəfindən yaradılmışdır, yəni Kosmoloji ideyalar İdealin ideyalarından çıxır.

KOSMOSUN STRUKTURLAŞMASI - MÖVCUDLUĞU

Kosmologiyanın əsas məsələlərindən biri Kosmosun strukturlaşmasının - qurulmasının metafizik şərhidir. Kosmosun strukturlaşması Kosmosun mövcudluğunun yaranmasından - İlahi Bacarığı özündə refleksiya edən hərəkət, fəaliyyət və qabiliyyətlərin birgə iştirakı ilə həqiqətlə formanın vəhdət yaratmasını özündə ifadə edir. Kosmos İlahi İradənin İlahi Bacarıqla İlahi İstəkdən onun formasını çıxarması ilə strukturlaşır. Kosmosun strukturlaşması onu təşkil edən mövcudluqların xüsusi strukturlaşmasının məcmusundan ibarətdir; hansı ki, Kosmosu təşkil edən hər bir xüsusi mövcudluq ondan strukturlaşmanın üsulunu mənimsəməklə mövcudluq kimi yaranır. Yaranma mahiyyətlə formanın vəhdət təşkil etməsi ilə meydana çıxır. Beləliklə, Kosmosun mövcudluğunu İlahi predikabiliyaların refleksiyası kimi təyin etmək olar.

Kosmos necə strukturlaşır? Struktur sözünün bir çox mənası vardır.

Birinci məna: Qurma, qurulmadır. Təbiətdə aşkarlanan qurulma birləşmə və keçid kimi meydana çıxır. Bu mənada Kosmosun strukturlaşması - mümkünlüyün mövcudluq əldə etməsi ilə metafizikadan fizikaya keçidi və Kosmosu təşkil edən obyektlərin özü-özündə qurulmasını - birləşmə prosesinə daxil olmalarını özündə ifadə edir. Burada qurma - mümkünlüyə, qurulma - mövcudluğa aiddir. Yəni mümkünlük özündən xaricdə refleksiya etməklə mövcudluğu qurur, mövcudluq isə özü-özündə daxildə qurulur. Bu mənada strukturlaşma

Kosmosun əsasını təşkil edən nəsnənin birləşməsi prosesini özündə təqdim edir.

Metafizikada mümkünlüyün varlığı xalis təsadüfə görə mövcud olduğundan, mümkünlüyün varlığı qurmada mütləq azaddır; mövcudluq mümkünlüyün ona özündə ziddiyyət saxlayan əksiliyi kimi təbiətdə xalis zərurətə görə mövcud olur, yəni mövcudluq qurulmada mütləq asılıdır. Qurulmada mütləq asılılıq təbii qanun kimi meydana çıxır. Buradan belə bir hökm alınır: Hər bir mövcudluq yalnız bəlli bir qanunauyğunluqla mövcud olma əldə edə bilər. Kosmos da fikrən götürülmüş tək bir mövcudluq kimi bəlli bir qanunauyğunluqla mövcuddur.

Haşiyə: A. N. Uaythed, "Kosmologiya"

> *"Tərəfimizdən qavranılan dünya hərəkət edən hissəciklərin təsadüfi birləşməsi kimi təsəvvürə gətirilir."*

A. N. Uaythedin fikirlərindəki "hərəkət edən hissəciklər" kvant fizikasında əbədi, yəni mütləq azad, xaotik hərəkətliliyə malik, özündə xalis enerji kimi çıxış edən hissəciklərdir; hansı ki, mümkünlüyün varlığının mövcudluğun varlığına keçidində birləşmə nəticəsində azad hərəkətlilikdən məhrum olub, şərtlənmiş hərəkətliliyə keçirlər. Buradan da, Kosmosu hissəciklərin azad hərəkətliliyini məhdudlaşdıran şərtlərin məcmusu kimi təyin etmək olar.

Nə üçün hərəkət edən hissəciklər təsadüfən birləşir? **Birincisi**, metafizik hissəciklər ən sadə - mütləq tamlığa malik olduqlarından onların daxili vəhdəti yoxdur, buna görə də, zərurətə görə şərtlərdən azaddırlar, yəni zəruri şərtləri yoxdur. Hissəciklər bir-biri ilə birlikdə yalnız xarici vəhdət təşkil etdiyindən təsadüfə görə şərtlərə malikdir. Buradan da, azad hərəkətliliyə malik hissəciklərin birləşməsi yalnız təsadüfi şərtlərə görə mümkün olur. **İkincisi**, metafizik statuslu obyektlər xalis təsadüfə görə mövcud olduqlarından (çünki metafizikada eyni bir hissəcik eyni bir yerdə müxtəlif vaxtlarda və eyni bir vaxtda müxtəlif yerlərdə olur - buradan da eyni zamanda və eyni yerdə müxtəlif hissəciklərin olması şərti

yaranır, hansı ki, Kosmosda bu inkar olunur), onların hərəkət trayektoriyası ixtiyaridir, yəni xaotikdir. Xaotik hərəkətdə olan hissəciklərin mütəmadi olaraq bir-biri ilə toqquşması zəruri olur, yəni toqquşma zəruri şərt kimi meydana çıxır. Zəruri şərtə görə meydana çıxdığından daxili vəhdətin əsasını təşkil edir. Beləliklə, mümkünlüyün varlığının mövcudluğun varlığına keçiddə təsadüfi şərtlərə görə var olan hissəciklərin zəruri şərtlə toqquşmasının məcmusundan ən ümumi elə-belə mövcudluq meydana çıxır; hansı ki, həm xarici, həm də daxili vəhdətdə mövcud olur.

Buradan belə bir qanunauyğunluq aşkar olunur: Metafizikada hərəkət təsadüfi, toqquşma zəruri; təbiətdə əksinə, hərəkət zəruri, toqquşma təsadüfidir. Toqquşma anında toqquşma momentindən asılı olaraq hissəciklər ya öz əvvəlki ayrılıqda xaotik hərəkətliliklərini davam etdirir (əgər hissəciklər eyni yüklüdürsə bir-birini itələyir), ya da toqquşduqları digər hissəciklərlə birlikdə nisbi nizamlı hərəkəti davam etdirir (əgər hissəciklər əks yüklüdürsə bir-birini cəlb edir). Bu sonuncudan da hissəciklərin azadlıq hərəkəti ilə onların toqquşma zərurəti vəhdət təşkil edir; hansı ki, təbiətdə mövcud olan ən sadə şeyin əsası - təsadüfi şərtlərlə zəruri şərtlərin məcmusu kimi çıxış edir.

Təsadüf və zərurət kateqoriyası özündə nəyi ifadə edir?

Haşiyə: Q. V. Leybnic, “Zərurət və təsadüf haqqında” (Kosta məktub)

> *“Həqiqət onda zərurət olur ki, onun əksiliyi ziddiyyət saxlayır; əgər o zəruri deyilsə, onda o təsadüfi adlanır. "Allah mövcuddur", "Bütün düzbucaqlar bir-birinə bərabərdir" - bu zəruri həqiqətdir; əksinə "mən mövcudam" və "təbiətdə düzbucağı özündə təqdim edən şeylər var" - bu təsadüfi həqiqətdir.”*

Leybnicin təsadüf və zərurət haqqında fikirlərindən görünür ki, o, təsadüfü aksidensivlik kimi, zərurəti substansiallıq kimi təsəvvür edir. Aksidensivlik o şərtdir ki, o mövcud olmadan aşkarlanır, amma bilavasitə mövcudluğu şərtləndirmir. Buna görə də, xarici şərt kimi təsadüfi olur.

Məsələn: alma ağ, qırmızı, sarı və yaşıl ola bilər. Burada almanın rəngi təsadüfidir və almanın alma olmasını şərtləndirmir, yəni rəng almanın təsadüfi şərtidir. Əgər rəng zəruri şərt olsaydı, onda alma yalnız bir rəngdə olardı. Digər tərəfdən, rənglər həm də başqa mövcudluqların rəngləri kimi aşkarlanır. Buradan da əgər rəng almanın mövcudluğunu şərtləndirsəydi, onda alma eyni zamanda həm də başqa mövcudluq olardı ki, bu da Kosmosun strukturlaşmasına - substansiyanın qanununa zidd olardı.

Leybnicin fikirlərində nümunə kimi gətirdiyi "Düzbucaqlı üçbucaqlar bir-birinə bərabərdir" müddəasında "düzbucaq" şərti aksidensiyadır - təsadüflükdür. Aksidensiya olduğundan o eyni zamanda müxtəlif substansiyalardan aşkarlana bilər. Deməli konkret substansiyaya münasibətdə təsadüfi, amma özü-özünə münasibətdə zəruridir. Belə ki, düzbucaqlı üçbucağın "təbiətdə bəzi şeylərdən" aşkarlanması üçün substansiyada şərtsiz zərurət olmalıdır. Məsələn, mayelər heç bir halda, o cümlədən təsadüfə görə özlərində düzbucağa malik ola bilməzlər, çünki onların substansiyasında düzbucaqlı olmaq üçün zərurətə görə şərt yoxdur. Düzbucaqlı olmaq üçün şərtsiz zərurət sabit bərk formaya malik olmaqdır. Mayelər keçici formaya malik olduqlarından deməli onlarda şərtsiz zərurət yoxdur. Təbiətdə bəzi şeylər təsadüfə görə düzbucaqlı ola bilər və buna paralel istənilən bərk şeyə düzbucaqlı forması vermək olar, çünki belə forma almaq üçün şərtsiz zərurətə malikdirlər. Beləliklə, təbiətdə bəzi mövcudluqların düzbucaqlı olması daxili vəhdətlə şərtləndiyindən zərurətə görə şərtlənmiş təsadüfülükdür.

Substansiallıq zərurətə görə şərtlərin məcmusudur. Zərurətə görə şərtlər mövcud olmadan aşkarlanır, amma aksidensivlikdən fərqli olaraq bilavasitə mövcudluğu şərtləndirir; hansı ki, bu şərtlər olmadan mövcudluğun mövcud olması mümkünsüzdür. Bizə görə, zərurət - daxili vəhdətin, substansiyanın; təsadüf - xarici vəhdətin, aksidensivliyin şərtlərinin ən ümumi məcmusudur. Məsələn, xörək duzunun tərkibində

Na və Cl-un olması şərtsiz zərurətdir, çünki xörək duzu yalnız Na və Cl-un vəhdətindən təşkil oluna bilər və onların hər hansı birinin olmamasında xörək duzu mümkünsüzlükdür. Beləliklə, zərurət - tərkib hissənin şərtlərinin məcmusudur.

Təbiətdə NaCl istənilən başqa maddələrlə birlikdə - xarici vəhdətdə mövcuddur. Bu zaman hər hansı bir başqa maddənin olmaması NaCl-u mümkünsüz etmir. Buradan da görünür ki, daxili vəhdət mütləq, dəyişməz, təkrarlanan, mövcudluq üçün tələb olunan şərt; xarici vəhdət nisbi, dəyişkən, təkrarlanmayan, mövcud olma üçün tələb olunan şərtlərdən ibarətdir. Başqa sözlə, aksidensivlik mövcudluq əldə etməmiş mümkün varlığın, substansiallıq mövcudluq əldə etmiş mümkün varlığın şərtləridir. Buradan da demək olar ki, təbii mövcudluqlar özlərində iki cür mümkünlük saxlayır: birincisi, mövcudluq əldə etmiş mümkünlük - buradan zəruri şərtlər aşkarlanır; ikincisi, mövcudluq əldə etməmiş mümkünlük - buradan təsadüfi şərtlər aşkarlanır. Biz daxili vəhdətin şərtlərinin məcmusunu zərurət, xarici vəhdətin şərtlərinin məcmusunu təsadüf adlandırırıq. O şeyin ki, daxili vəhdəti istisna olunur, yəni o tərkib hissələrə malik deyil, o yalnız xarici vəhdətə malik olur; biz həmin şərtlərin məcmusunu xalis təsadüf və ya zərurətsiz şərt, və ya şərti zərurət adlandırırıq. Mütləq tamın - mütləq hissəciyin tərkib hissəsi istisna olunduğundan, hissəciyin daxili vəhdəti yoxdur; buna görə də metafizikada hissəciklər xalis təsadüfə görə, yəni zərurətsiz şərtlə və ya şərti zərurətə görə mövcuddur, yəni mütləq azaddırlar. Buradan belə bir hökm alınır: *O şeyin ki tərkib hissəsi yoxdur, yəni ən sadədir, buna görə də daxili vəhdəti yoxdur, deməli o xalis zərurətsiz təsadüfi şərtə malikdir.*

Fikrən ayrılıqda götürülmüş hər hansı bir şeyin mütləq faktı, bunun əksinə, tərkib hissəyə malik olduğundan daxili vəhdətə malikdir; amma fikrən başqa mövcudluqlardan ayrılıqda götürüldüyündən, başqa heç bir şeylə xarici vəhdətə malik olmadığından, biz belə zərurəti xalis zərurət və ya təsadüfsüz zərurət, zəruri şərt adlandırırıq. Yəni mütləq fakt mütləq

azadlıqdan məhrumdur və buna görə də qavrama ilə şərtlənərək yalnız xalis zəkada mövcud ola bilər. Buradan belə bir hökm alınır: *O şey ki mürəkkəbdir, tərkib hissəyə malikdir, buna görə də daxili vəhdətə malikdir, deməli o xalis zəruri şərtə malikdir.* Kosmos sonsuz sayda ayrı-ayrı mövcudluqlardan təşkil olunduğundan Kosmosun mövcudluğu zərurətə görə şərtə malikdir.

Hissəciklər metafizik aləmdə, fikrən götürülmüş xalis fakt xalis zəkada mümkün olduğundan, təbiətdə mümkünsüzdürlər. Buradan belə bir hökm alınır: *Təbiətdə xalis təsadüfi şərtə və xalis zəruri şərtə malik heç nə yoxdur.*

Beləliklə, hissəciklər xalis təsadüfə görə, onların birləşməsindən əmələ gələn fikrən götürülmüş mütləq fakt xalis zərurətə görə mövcuddur. Xalis zərurət xarici şərtə, yəni təsadüfə görə şərtə malik deyil. Mütləq fakt xalis zərurətə görə mövcud olduğundan, bir faktdan başqa faktın əmələ gəlməsi zərurətdir; hansı ki, bu müddəa təbiətdə enerjinin saxlanması və itməməsi qanunu kimi qüvvəyə malikdir. Faktın aktuallaşmasında mütləq fakt mütləqlikdən azad olur, xalis zəkadan təbiətə keçir və başqa mövcudluqlarla vəhdətdə nisbi mövcud olur. Mövcud olmada başqa mövcudluqlarla vəhdətdə mövcudluq təsadüfə görə şərt əldə edir. Nəticədə, zərurətlə şərtlənmiş təsadüf və təsadüflə şərtlənmiş zərurət əmələ gəlir. Buradan da, istənilən mövcudluq daxili və xarici şərtlərin məcmusunda - təsadüflə zərurətin vəhdətində mövcud olur; hansı ki, birinciyə daxili zərurət, ikinciyə xarici təsadüf deyirik. Buradan da belə bir hökm alınır: *Heç bir mütləq faktın daxilində təsadüfi şərtlənmə, heç bir faktın aktuallaşmasında xaricində zəruri şərtlənmə ola bilməz.* Buradan da belə hökm alınır: *Kosmosun xaricində zəruri şərtlənmə yoxdur, yəni kosmos təsadüfə görə mövcuddur.* Bu dörd hökm birlikdə Kosmosun strukturlaşmasının əsasında durur.

Xalis təsadüf necə nisbi təsadüfə və xalis zərurət necə nisbi zərurətə keçir? Metafizikada xaotik - mütləq azad hərəkət edən hissəciklərin

təsadüfi birləşməsi ilə mümkünlüyün varlığı mövcudluq əldə edir. Mövcudluğun yaranması ilə daxili vəhdət meydana çıxır. Artıq vəhdət təşkil edən hissəciklər eyni trayektoriya ilə hərəkət etməyə bir-birini qarşılıqlı məcbur edir; yəni bir-birinin azadlığını, xarici ixtiyari xaotik hərəkətini məhdudlaşdırır. Bu məhdudlaşdırma dərəcəsində birləşmiş hissəciklər mövcudluğun daxilində zəruri şərtə görə nizamlı hərəkət əldə edir. Hansı ki, mövcudluğun dayanıqlığının və onun daxili qanunlarının səbəbi kimi çıxış edir. Daxildə hissəciklərin nizamlı hərəkəti nəticəsində mövcud olan mövcudluq, başqa mövcudluqlara münasibətdə təsadüfi şərtə görə ixtiyari hərəkətlilik əldə edir. Buradan da, metafizikadan fərqli olaraq təbiətdə mövcud olma səbəb-nəticə əlaqəsinə tabe olur. Burada səbəb - təsadüfülük, nəticə - zərurətlə şərtlənir. Başqa sözlə, səbəb - azad və ya xarici, nəticə - asılı və ya daxili olur. Deməli, Kosmosun səbəbi xarici, özü nəticə kimi daxilidir. Yəni, Kosmos özündən kənar səbəbdən yaranmışdır. Kosmosdan kənar başqa mövcudluq təsəvvür olunmadığından, Kosmosun mövcudluğunun özündən kənar səbəbinin metafizikada olması aşkarlanır. Yəni Kosmosu Allah yaratmışdır.

İkinci məna: Qaydalaşdırmadır. Qayda azadlığın əksiliyi kimi özündə asılılığı ifadə edir. Biz qaydanı özündə zərurətə görə şərtlənmə kimi təyin edirik. Təsadüfə görə şərtlənmədən qayda meydana çıxmır. Bu mənada struktur Kosmosun əsasını təşkil edənlərin birləşmə prosesində bir-birini vəhdətdə qarşılıqlı şərtləndirərək xüsusi qaydalara tabe olması, yəni xaosdan nizama, xalis təsadüfdən zərurətə görə mövcud olmaya keçidlərini özündə ifadə edir. Bu qaydaların ümumi məcmusundan Kosmosun tək bütövlüyünün qaydası meydana çıxır. Deməli, Kosmos zərurətə görə şərtlənmişdir, yəni onun mövcud olması öz daxili qaydalarının (immanentliklə) mövcudluğu ilə bağlıdır. Kosmosda mütləq azad heç nə yoxdur. Buradan da Ruhun Kosmosdan asılı olması aşkarlanır.

Üçüncü məna: Quruluşdur. Bu mənada strukturlaşma kosmosu təşkil edənlərin sabit daxili quruluş əldə etməsini özündə ifadə edir.

Quruluş tərkib hissədən fərqli olaraq, tamın hissələrinin bir-biri ilə birləşməsindən əmələ gəldiyindən və daxili olduğundan zəruri, amma tərkib hissə olmadığından şərti olur. Buradan da Kosmosun quruluşunun şərti zərurətdən, yəni təsadüflə zərurətin vəhdətindən meydana çıxdığını deyə bilərik.

Dördüncü məna: Sistem, rejim, üsul, nizam, sıra, düzülüş, kök (tonların uyğunluğu). Bu mənada strukturlaşma kosmosda mövcudluq sıralarının yaranması, bu sıraları təşkil edənlərin və sıraların arasında uyğunluğun yaranması, kosmosu təşkil edənlərin nizamlı düzlənməsi ilə müxtəlif sistemlərin təşkil olunmasını ifadə edir. Sıralar bir-birinə görə xarici - təsadüfi, Ümumi Kosmosa görə daxili - zəruridir. Buradan da, Kosmik sistem təsadüflə şərtlənmiş zəruri sistemə malik olur.

Beşinci məna: Struktur, düzgünlük, rabitəli, qəşəng. Bu mənada strukturlaşma kosmosu təşkil edənlərin estetikasının, yəni xarici görüntülərinin - formanın təzahür etməsi və bu zaman hər bir obyektin formasının onun mahiyyəti ilə düzgün əlaqələnməsini özündə ifadə edir. Forma - aksidensiv, xarici, buna görə də təsadüfi; mahiyyət - substansial, daxili, buna görə də zəruridir. Buna görə də, biz eyni bir Kosmosdan müxtəlif illüstrasiyalar əldə edirik; hansı ki, təsadüflə şərtlənmiş zərurət kimi aşkarlanır. Buradan da Kosmosun strukturunun düzgünlüyü - zərurətlə şərtlənmiş təsadüfülükdür.

Beləliklə, Kosmosun strukturlaşması - mümkünlüyün mövcudluq əldə etməsi ilə metafizikadan fizikaya keçidindən və kosmosu təşkil edən obyektlərin ayrılıqda özü-özündə qurulmasından - birləşmə prosesinə daxil olmaları ilə bəlli qaydalara tabe olmalarından, yəni xaosdan nizama, xalis təsadüfə görə mövcud olmadan zərurətə görə mövcud olmaya keçidin nəticəsində kosmosu təşkil edən obyektlərin sabit daxili quruluş əldə etməsindən, həmin obyektlərin müvafiq mövcudluq sıraları yaratması, bu sıraları təşkil edənlərin və sıraların arasında uyğunluğun yaranması ilə nizamlı düzlənməsi, nəticədə müxtəlif sistemlərin təşkil

olunmasından və sonda kosmosu təşkil edənlərin estetikasının, yəni xarici görüntülərinin təzahür etməsindən, hər bir obyektin formasının onun mahiyyəti ilə düzgün əlaqələnməsindən, görünən aləmin meydana çıxmasından ibarətdir.

Hər bir varlıq özündə iki cür həqiqət - mütləq və nisbi həqiqəti vasitələndirir. Varlıqda nisbi həqiqət onun materiyasından - xüsusi həqiqətindən, mütləq həqiqət enerjisindən təzahür edir. İstənilən nisbi həqiqət mütləq həqiqətdən yarandığı kimi, istənilən materiya da enerjidən təşkil olunur. Buna görə də, Kosmosun strukturlaşmasının təbiətinə varmaq üçün enerjinin və materiyanın mahiyyətinə varmaq lazım gəlir.

ENERJİ

Mümkünlüyün varlığının iki növünü ayırd etmək olar:

1. **Həqiqətin artma meylində - mövcudluq tələb etməyən mümkünlüyün varlığı:** Buradan mövcudluğu olmayan varlıqlar aşkarlanır. Bütün metafizik varlıqlar - cinlər, mələklər, uydurulma və fiktiv varlıqlar və s. mövcudluq tələb etməyən mümkünlüyün varlıqları kimi yalnız aprior, intuitiv qavrama ilə metafizikadan aşkarlanır.
2. **Həqiqətin azalma meylində - mövcudluq tələb edən mümkünlüyün varlığı:** Buradan mövcud varlıqlar aşkarlanır. Mövcud varlıqlar hissi qavranılan və Kosmosu təşkil edən bütün mövcud varlıqlara aiddir.

Beləliklə, mövcudluq tələb edən mümkünlüyün varlığını Kosmosun özündənkənar ilkin başlanğıcı kimi təyin etmək olar. Biz Kosmosun ilkin başlanğıcı kimi mümkünlüyün varlığını xalis enerji, onun mövcudluq tələbini xalis hərəkət kimi təyin edirik. Xalis enerji - metafizik anlayış olub, özündə mövcud Kosmosu təşkil edən bütün təbii enerjilərin ilkin başlanğıcından ibarətdir. Bütün təbii enerji formaları üçün vahid başlanğıc olduğundan təbii enerji formaları biri digərinə çevrilir, amma

ümumi enerjinin sərhədlərində mövcud olduğundan itmir və saxlanılır. Beləliklə, enerjinin itməməsi və saxlanması təbiətdən kənarda mövcud olan səbəblə - bütün enerjilərin metafizik enerjidən forma alması ilə bağlı yəqinləşir. Xalis enerji anlayışı özündə Kosmosu təşkil edən bütün mövcudluqların fikrən metafizik statuslu obyektlərədək bölünməsi ilə alınan ən son ümumi əsası, yaranışa görə qurulmanın ən ümumi başlanğıc əsası, yəni strukturönü vəziyyəti özündə ifadə edir.

Mümkünlüyün varlığının mövcudluq tələbi xalis enerjinin xalis hərəkətliliyidir; hansı ki, bütün təbii hərəkət formalarının ilkin başlanğıcı kimi çıxış edir. Necə ki, Kosmosun strukturlaşması aktuallaşmayıb, deməli daxili xalis enerji kimi Kosmos daxili vəhdətə malik olmur və enerji buna görə də xalis xarici vəhdət kimi, yəni xalis təsadüflük kimi mövcud olur. Xalis təsadüflük özündə zərurətsiz təsadüfi şərtlərin məcmusunu ifadə edir. Buradan da, xalis enerji təsadüfi şərtlərin və ya şərti zərurətin məcmusu kimi təyin olunur. Enerji mövcudluq tələb edən mümkün varlığın o mahiyyətidir ki, o mövcudluq əldə edir və ya əldə edə bilər. Mövcudluq tələb etməyən mümkünlüyün varlığı xalis enerjinin əksiliyi kimi mövcud olur; hansı ki, idraka təqdim olunmayan mahiyyətdədir. Buna görə də biz belə mahiyyəti ən ümumi formada mövcudluğun yoxluğu kimi təsəvvür edirik. Beləliklə, enerji xalis formada metafizik statuslu obyekt kimi çıxış edir. Biz enerjini istənilən mövcud varlıqdan onu strukturlaşmadan azad edənədək bölməklə əldə edə bilərik.

Təcrübədə xalis enerji atomu təşkil edən hissəciklərin - proton və neytronun parçalanmasından azad olan enerji kimi təzahür edir; hansı ki, biz məhz bu hissəciklərin parçalanmasından azad olan enerjini konkret atomun mümkün varlığının təzahürü kimi təsəvvür edirik. Buradan da xalis enerjini vasitəsiz aydınlaşan həqiqətin təzahürü kimi təyin etmək olar.

Mümkünlüyün varlığının mövcudluq tələb etməsi ilkin başlanğıcı kimi özü-özündə mövcudluq əldə etmir. Əgər bunun əksi olsaydı, onda

mümkünlüyün varlığı mövcudluq tələbinin özü-özündə təmin etdiyindən mövcudluq tələb edən olmazdı. Buradan aydın olur ki, "tələb" yalnız başqasına münasibətdə təyin oluna bilər. Yəni mümkünlüyün varlığının mövcudluq tələbi özündən kənara ünvanlanıb; hansı ki, mümkünlüyün varlığının mövcudluq tələbini ödəyəcək güc kimi ondan kənarda mövcuddur. Biz bu gücü Kosmosun ilkin səbəbi kimi təyin edirik. İlkin səbəblər mümkünlüyün varlığını mövcudluğun varlığına keçirən güc kimi təsəvvür oluna bilər. Biz ilkin səbəbləri, yəni nəticə kimi Kosmosu mümkünlüyün varlığından mövcud varlığa çevirən səbəbləri imkan və ya metafizik şərtlər adlandırırıq. Bu şərtlər mümkünlüyün varlığına münasibətdə xarici və azad gücü təşkil edir; hansı ki, bunların məcmusu İlahi İradə kimi təyin oluna bilər. Kosmologiyanın ümumi şərhində qeyd etdik ki, Kosmos özü-özündə şərtlərin məcmusundan ibarətdir. Bəs, şərtlərin məcmusu özündə nəyi ifadə edir? Yaranışda İlahi İradəni İlahi Bacarıqla İlahi İstəyi əlaqələndirən, onların hər ikisinə hərəkət verən Aktiv Güc kimi təsəvvür etmişdik.

Mümkünlüyün varlığının mövcudluq tələb etməsi özü-özündə mütləq passivlikdir, çünki mümkünlüyün varlığı özü-özündə mövcudluğa keçmir. Əgər mümkünlüyün varlığının tələb etməsi mütləq passivlikdirsə, onda onun mövcudluq tələbini ödəyən ondan kənardakı güc özü-özündə İlahi İradə - onun əksiliyi kimi İlahi İstəyi İlahi Bacarıqla əlaqələndirən şərt kimi çıxış edən xalis hərəkətlilik kimi təyin olunmalıdır. Təbii hərəkət hər hansı bir şeyin hərəkəti kimi qavranılır. Bundan fərqli olaraq, xalis hərəkət - fikrən, şeysiz təsəvvür olunan hərəkətdir. Hərəkət enerji sərfindən meydana çıxdığından, biz özü-özündə xalis hərəkəti - mütləq aktivliyi, xalis enerji ilə qarşılıqlı əlaqədə olan kimi təsəvvür edirik. Təbiətdə hər hansı bir mövcudluğun hərəkəti onun bəlli enerjiyə, aktivliyə, yəni mövcud olma üçün şərtlərin məcmusuna malik olmasını özündə ifadə edir. Buradan da təbiətdə Hərəkət - enerjinin təzahür forması kimi meydana çıxır. Buradan da biz metafizik hərəkətli-

liklə metafizik enerjinin vəhdətini mümkünlüyün varlığının mövcudluq tələbinin ödənməsi kimi təsəvvür edirik; hansı ki, mütləq passivlik kimi mövcudluq tələb edən mümkünlüyün varlığı, mütləq hərəkətlilik kimi İlahi İradə ilə - ilkin səbəblərlə birləşərək mövcudluq əldə etmək kimi hərəkətlənir. Buradan da, mövcudluqda xalis passivliklə xalis hərəkətliliyin vəhdətində xalislikdən məhrum, yəni biri digəri ilə şərtlənmiş nisbi passivlik və nisbi hərəkətlilik meydana çıxır. Bu da Kosmosun mövcudluğunu - metafizikadan fizikaya keçiddə təsəvvür olunan ilkin Kosmosun qurulmasından ibarət olur.

Enerjini necə elə-belə təyin etmək olar? Biz ümumiyyətlə hər hansı bir şeyi şüura münasibətinə görə təyin edirik. O şey ki, bilavasitə şüura münasibətdə olmur, onu təyin etmək mümkün deyil. Şüura münasibət yalnız mövcud olmaqla mümkün olur. Buradan da, enerji mövcud olmanın səbəbi kimi ondan kənarda olduğundan şüura münasibətdə olmur. Şeyin şüura münasibətdə olması onun özündə hissi qavramanın başlanğıcını saxlamasını ifadə edir. Enerji elə-belə ən ümumi şəkildə "şüura bilavasitə münasibətdə olmayan", intuitiv qavramanın başlanğıcına malik idrak obyekti kimi təyin oluna bilər. Hansı ki, hissi qavrama başlanğıcını özündə saxlamadığından bilavasitə qavranılmır, intuitiv qavrama başlanğıcına malik olduğundan avtonom və spontan aşkarlanır. Başqa sözlə, şüur xalis enerji ilə, yəni mövcudluqdan təzahür etməyən enerjiyə, heç bir münasibətdə olmur. Bunun səbəbi, mütləq enerjinin ruhla (psixi enerji ilə) əksilik təşkil etməməsi və bununla da onunla yadlaşmadığından şüurda inikas olunmamasıdır (İnikas məqamında ruha təsir edən enerji psixi enerjiyə çevrildiyindən onunla eyniləşir, eynilikdən inikası aşkarlamaq olmur).

Bəs enerji necə elə-belə təsəvvür oluna bilər? Mütləq həqiqətin - vahid sonsuz dalğanın sonsuz sayda sonlu dalğalara keçməsi ilə görünən aləmin yaranışı başlayır. Təbiətdə hər bir işıq topası özündə enerji daşıdığı kimi, İlahi Nurun emanasiyasından yaranan hər bir sonlu dalğa

da əbədi hərəkətlilikdə özündə enerji topası kimi var olur. Enerji - yaranışın əsası olan ideyanın - sonsuz uzunluqlu dalğanın qısalması kimi təzahür edən və yalnız spekulyativ mühakimə ilə dərk edilən mücərrəd anlayışdır. Enerji həqiqətin təzahürünün əsasını təşkil edir. Həqiqəti təzahür etdirən güc isə səbəb və ya İlahi İradə kimi mövcud olur.

Enerjiyə və xarici səbəbə malik olmayan nəsə mövcud deyil və özü-özündə xalis heçlikdir. Mütləq enerji - mütləq passivlik - həqiqət kimi mümkünlüyün mövcudluq əldə etməsi ilə mütləq hərəkətliliklə - İlahi İradə ilə vəhdət təşkil edərək Kosmik enerjiyə - Kosmosun mövcudluğunun şərtlərini özündə saxlayan enerjiyə keçir. İlahi İradədən mümkünlüyün varlığının mövcudluq tələbini ödəyən iki cür şərtlər meydana çıxır. Birinci qrup şərtlər birdəfəlik verilən şərtlər, ikinci qrup şərtlər təkrar-təkrar fasiləsiz, arası kəsilmədən verilən şərtlərdən ibarətdir. Mümkünlüyün varlığı mövcudluğun varlığına keçdikdə özü sabit, dəyişməz, birdəfəlik fasiləsiz verilən şərtlərlə vəhdət təşkil edərək mahiyyət və ya **potensial enerji** - sükunət enerjisi (passivliyin təbii forması) kimi mövcudluğun dərinliyinə enir, yəni mövcudluğun daxili enerjisini təşkil edir; hansı ki, məhz bu enerjiyə görə fakt mövcud olur. Mövcudluğun varlığına keçmiş mümkünlüyün varlığı fasiləli verilən şərtlərlə vəhdət təşkil edərək mövcudluğun səthində saxlanılan akta - mövcud olmaya, yəni mövcudluğun xarici hərəkətlərinin məcmusuna, yəni aktuallaşmış enerjiyə, **kinetik enerjiyə** çevrilir. Beləliklə Kinetik enerji - fasiləli şərtlərlə vəhdətdə olan təbii enerjidən, Potensial enerji - birdəfəlik şərtlərlə təsəvvür olunan təbii enerjidən ibarətdir. Buradan da, hər bir mövcudluq potensial enerji ilə kinetik enerjinin məcmusundan ibarət olur. Birdəfəlik verilən şərtlər təsadüfsüz, yəni zərurətə görə şərtlərin; fasiləli verilən şərtlər zərurətsiz təsadüfi şərtlərin məcmusundan ibarətdir.

Biz potensial enerjini mövcudluq əldə etmiş mümkünlüyün varlığı, kinetik enerjini mövcudluq tələb edən, amma əldə etməmiş

mümkünlüyün varlığı kimi təyin edirik. Buradan da, fikrən tək kimi götürülmüş Kosmosun potensial enerjisini - Kosmosun faktını mövcud edən təsadüfsüz zəruri şərtlərin məcmusu kimi, Kosmosun kinetik enerjisini kosmosun aktını reallaşdıran zərurətsiz təsadüfi şərtlərin məcmusu kimi təyin etmək olar. Yəni Kosmos zərurətə görə mövcudluq olub təsadüfə görə aktuallaşan reallıqdır.

Həqiqətin istənilən gerçəklikdə təzahüründə həqiqətin artma meyli gerçəkliyin nəsnəsini, azalma meyli nəsnə haqqında məlumatların şüalanmasını təşkil edir. Buna uyğun, varlığın enerjisi iki yerə ayrılır:

a. **Nəsnənin enerjisi - sıxılmış və strukturlaşmış tangensial enerji - potensial enerji:** Bu enerji dalğa funksiyasının hissəcik təbiətinə keçidi ilə meydana çıxır və özündə hissəciyin enerjisindən ibarət olur. Biz tangensial enerjini daxili vəhdətin, zəruri şərtlərin məcmusu kimi təyin edirik. Hissəcik dalğadan fərqli olaraq mütləq sükunətliliyə malikdir. Ona görə də, biz potensial enerjini sükunət enerjisi - həqiqətin formasız aydınlaşması kimi də adlandıra bilərik.

b. **Nəsnənin strukturlaşmasını təmin edən, strukturun hissələrini bir-biri ilə əlaqələndirən radial enerji - kinetik enerji:** Bu enerji özündə İlahi Nurun dalğa funksiyasının enerjisi kimi çıxış edir. Xalis dalğa funksiyasının enerjisi olduğundan xaricidir və biz radial enerjini xarici vəhdətin şərtlərinin - təsadüfi şərtlərin məcmusu kimi təyin edirik. Kinetik enerji dalğa funksiyasının əbədi hərəkətliliyini özündə təqdim edir, biz bunu hərəkətin enerjisi - həqiqətin forma ilə aydınlaşması kimi də adlandıra bilərik.

Nəticədə, konkret mövcud olmanı daxili sükunətlə xarici hərəkətliliyin vəhdəti kimi təyin etmək olar. Buradan da, sükunət - şərtsiz zərurətin, hərəkət - şərti zərurətin məcmusu kimi meydana çıxır. Beləliklə, şeyin materiyasını - nəsnəsini təşkil edən strukturlaşmış enerjisi - tangensial, strukturun hissələrini və bütünlükdə şeyin başqa şeylə vəhdətini təşkil edən əlaqə enerjisi radial enerjini təşkil edir. Tangensial enerjinin radial

enerji ilə məcmusu mövcudluq aktını - cismin ümumi enerjisini təşkil edir. Mümkünlüyün mövcudluq əldə etməsində İlahi Nurun dalğa funksiyası ilə hissəcik eyni anda, paralel, birlikdə və biri digərinə keçmədən mövcud olduğundan, mümkünlüyün varlığının ən birinci şərtlərdə mövcudluq əldə etməsində meydana çıxan cisimlərdə tangensial enerji radial enerjiyə keçmir. Buna görə də, cisimlərdə daxili dəyişilmə müşahidə olunmur və onlar sabit formada və özü-özündə əbədi sükunətdə mövcud olur. Cisimlərin əbədiliyi daxili şərtlərdən doğan əbədilikdir, hansı ki, xarici şərtlər cisimləri keçici edir. Buradan da, Kosmosun əbədiliyi haqqında təsəvvürlərin onun daxili şərtlərinin məcmusundan, Kosmosun keçici olması haqqında təsəvvürlərin xarici şərtlərin məcmusundan əldə edilən təsəvvürlər olduğunu deyə bilərik. Yəni Kosmos özü-özündə əbədi mövcudluqdur, amma onun əbədiliyi özündən kənar şərtlərə görə nisbidir. Buradan da, Kosmosu Allah yaratmışdır və Allah da məhv edə bilər hökmü alınır.

Ümumi enerji özündə ümumi həqiqəti təzahür etdirir. Varlıqda tangensial enerji - şeyin məkanla əlaqəsini, radial enerji - zamanla əlaqəsinin şərtlənməsinin başlanğıcı kimi çıxış edir. Beləliklə, hər bir gerçəklik öz tangensial enerjisinə görə məkanla, radial enerjisinə görə zamanla şərtlənmişdir.

Haşiyə: E. Levinas, "Zaman və başqası; başqa adamın humanizmi"

> *"Zaman - təklənmiş subyektin faktı deyil, subyektin başqaları ilə əlaqəsinin özüdür."*

Levinasın fikirlərindən görünür ki, fikrən ayrılıqda götürülən mövcud subyekt - azad Ruh - zamanüstüdür. Bundan fərqli olaraq, mövcud varlıqla münasibətdə subyekt zamanla şərtlənmişdir və bu şərt Levinasın qeyd etdiyi kimi "subyektin başqaları ilə", yəni mövcud varlıqlarla - bədən və digər mövcud varlıqlarla - əlaqəsinin özüdür. Buradan da, zaman obyektlə subyektin əlaqəsinin şərtlərinin məcmusu kimi çıxış edir. Beləliklə, radial enerji həm də obyektin subyektlə, varlığın

təfəkkürlə əlaqə enerjisi, yəni zaman enerjisi (zaman şərtlərinin məcmusu kimi) kimi çıxış edir.

Hər bir mövcudluğun enerjisi təzahür etdirdiyi həqiqətin təbiətinə uyğun xüsusi xarakteristikaya malikdir. Biz xarakteristikanı şərtlərin kombinasiyaları, yəni xüsusi məcmui şərt kimi təyin edirik. Beləliklə, nisbi həqiqət son, xüsusi, dayanıqlı, müəyyən olduğundan tangensial enerji heç bir başqa şeyin enerjisinə və ya əlaqə enerjisinə çevrilmir.

Haşiyə: E. Levinas, "Zaman və başqası; Başqa insanın humanizmi"

> *"Mövcudluqlar öz aralarında mövcudluq aktı istisna olmaqla hər şeyi "mən varam, mən monadayam ölçüsündə" mübadilə edə bilərlər."*

Nə üçün mövcudluqlar E. Levinasın qeyd etdiyi kimi, "mövcudluq aktı istisna olmaqla" hər şeyi, o cümlədən mövcudluq faktını "mən monadayam ölçüsündə" mübadilə edə bilər? **Birincisi**, mövcudluq aktı təsadüfə görə şərtlərin məcmusundan ibarətdir. Mövcud olma xarici vəhdəti özündə ifadə edir; hansı ki, bir mövcudluq digərinin qarşılıqlı şərti kimi çıxış edir. Başqa sözlə, hər bir mövcudluğun mövcudluq aktı eyni zamanda başqa mövcudluğun aktı olur. Buna görə də, bir mövcudluq öz mövcudluq aktını başqa mövcudluqla mübadilə edə bilmir, çünki o eyni zamanda həm də başqasının mövcudluq aktı olur. Beləliklə, mövcud olma özündə saxlanan, amma başqalarına da aid olan təzahür kimi çıxış edir. **İkincisi**, monada Leybnicə görə, mövcudluğun başlanğıcını özündə saxlayan anlayışdır. Monada ölçüsündə heç bir mövcudluq ayrılıqda tək fakt kimi mövcud olmur, ona görə də monada səviyyəsinə endikdə mövcudluq faktı itir, nəticədə mövcudluq faktının başqasına keçidi mümkün olmur. Monada mümkünlüyün varlığını özündə təqdim edən xalis enerji kimi təsəvvür oluna bilər; hansı ki, onun dəyişməsi - həqiqətin qaranlıqlaşması - varlığın yoxluğa çevrilməsi, yəni mövcud varlığın mümkünlüyün varlığına qayıdışı kimi baş verə bilər ki, bu da mümkünlüyün varlığının mövcudluq tələbinə zidd olduğundan maddi

aləm - birincili mövcudluqlar üçün mümkünsüzlükdür. Buradan da, enerjinin itməməsi və saxlanması qanunu meydana çıxır.

Monada yalnız tangensial enerjiyə malik olduğundan özündə zərurətə görə şərtlərin məcmusunu təqdim edir; hansı ki, ondan ən müxtəlif zərurətə görə şərtlərin kombinasiyaları meydana çıxaraq mövcudluqların əsasını təşkil edirlər. Şeylərin tangensial enerjisi artıq zəruri şərtlərin məcmusu olduğundan mübadilə olunmayan, başqa enerjilərə çevrilməyən, hərəkətə səbəb olmayan, sabit, statik, ölçülülük xarakteristikalarına malikdir. Biz tangensial enerjini mövcud varlıqda saxlanan mümkünlüyün varlığının enerjisi - daxili görüntünü təzahür etdirən başlanğıc kimi təsəvvür edirik; hansı ki, həmin enerjinin mübadiləsində konkret mövcudluq mümkünlükdən məhrum olur, yəni yox olur. Tangensial enerjini - faktın enerjisi - məkani şərtlərin məcmusu - təsadüfsüz zəruri şərtlərin məcmusu kimi təyin edirik. Tangensial enerji strukturlaşmanın daxili enerjisidir; hansı ki, strukturu təşkil edən tərkib hissələrin əbədi hərəkəti kimi aşkarlanır.

Radial enerji - aktın enerjisi - tamlaşdırıcı, birləşdirici, əlaqələndirici, ümumiləşdirici, universallaşdırıcı, çevrilməyə, dəyişilməyə, əvəzlənməyə açıq olan radial enerjidir. Radial enerji vəziyyətdən asılı olaraq arta və azala bilər. Buradan təzahürlər meydana çıxır; hansı ki, zamandan və məkandan asılı olaraq şeyin həqiqəti müxtəlif keyfiyyətlərin kombinasiyasından dolayısı ilə bir və eyni mahiyyət kimi aşkarlanır. Radial enerji vəhdətdə aktuallaşdığından, ümumi həqiqəti təzahür etdirdiyindən, varlıqlar arasında, o cümlədən obyektlə subyekt arasında mübadilə olunandır. Bu mübadilə çevrilmələr, dəyişilmələr, artma-azalmalarla, hərəkətə səbəb olmaqla, sabit ölçüsünün olmaması və s. kimi keyfiyyətlərlə xarakterizə olunur. Radial enerjini xarici görüntünün başlanğıcı kimi təyin etmək olar. Radial enerji açıqdır, yəni həm şeyin daxilində tamın hissələri arasında, həm də xarici başqa şeylər arasında mübadilə olunur, bir formadan başqasına çevrilir. Radial enerjinin bir

formadan digərinə çevrilməsi varlığın hissələri və başqa varlıqlarla əlaqəsinin müxtəlif formalarını təzahür etdirir.

ENERJİYƏ GÖRƏ MÖVCUDLUQ SIRALARI

Mövcudluqlar tangensial enerji ilə radial enerji arasındakı əlaqələrə görə bir-birindən fərqli üç sıra təşkil edirlər:

Cisim sırası: Cisimlərdə tangensial enerji sabitdir, sərf olunmur, daxilidir, mübadilə olunmur, mövcudluq anında yaranır, başqa faktın enerjisinə çevrilmir, artmır, azalmır, radial enerji ilə sərhədlənmişdir. Buna görə də, cisimdən istənilən vaxt, məkanın istənilən yerində bir və eyni həqiqət aşkarlanır. Cisimlərdə bu keyfiyyətlərdən hər hansı biri itdikdə mövcudluğun forması dəyişir, yəni fakt başqa faktla əvəzlənir. Faktın əvəzlənməsi bir daha göstərir ki, mütləq heçlik vəziyyəti reallıq deyil, çünki gerçəkliyin heçliyə çevrilməsi baş vermir. Cisimlərdə radial enerjinin mübadiləsi ilə cismin aqreqasiya halları - bərk, maye, qaz, plazma halları meydana çıxır.

Can sırası: Canlılar cisimlərlə ikincili şərtlənmiş mövcudluqlardır; yəni canlılar təsadüfsüz zəruri şərtlərin məcmusu ilə şərtlənmiş zəruri şərtlərin məcmusundan ibarət mövcudluqlardır. Yəni, canlılığın öz xüsusi monadoloji əsası yoxdur. Canlılar yalnız cismə qədər bölünəndir. Monadoloji əsasları olmadığından, özü-özündə əbədi tək şeylər kimi əbədi mövcud deyillər, buradan da canlıların keçici mövcudluqlar olduğu müəyyənləşir. Canlılığın əsasını cisim təşkil edir; hansı ki, elə-belə təsadüflə zərurətin vəhdətində mövcud olurlar. Canlılıq cisimlərlə şərtləndiyindən onların daxili şərtlənməmiş zərurəti şərtlənmiş zərurətin təsadüfi şərtlərinin məcmusu kimi meydana çıxır; hansı ki, bu şərtlər keçicilik, fanilik kimi canlıların mövcudluğunu müəyyən edir. Buna görə də canlılarda tangensial enerji cisimlərdən fərqli xarakteristikaya malik olur və monadoloji əsasa malik olmadığından canlılar öz tangensial enerjilərini həm öz daxili radial enerjiləri ilə, həm də özü ilə başqa varlıqlar

arasındakı radial enerji ilə mübadilə edirlər. Radial enerjinin tangensial enerji ilə qarşılıqlı çevrilməsi nəticəsində can dünyasında maddələr mübadiləsi, böyümə, artma, çoxalma kimi bioloji hərəkətlilik meydana çıxır.

Ruh sırası: Ruh canlılıqla üçüncü səviyyədən şərtlənmiş, öz xüsusi mövcud varlığı olmayan və canlılığın mövcud varlığından dolayısı ilə mövcud varlıq əldə edən xalis mümkünlüyün varlığıdır. Buradan da, ruhun mövcudluğunun şərtsiz zərurətlə (cisimlə) şərtlənmiş, şərti zərurətlə (canın) şərtlənmiş zəruri şərtlərin məcmusu kimi təyin edə bilərik. Əgər biz ruhun mövcudluğunu başqa cür ifadə etsək, onda aşağıdakı təyin alınar: Ruh - mümkünlüyün varlığının əldə etdiyi mövcudluğun varlığı (cisim) ilə şərtlənmiş mövcudluğun mümkünlüyü (canlılıq) ilə üçüncülü şərtlənmiş mövcudluq tələb edən mümkünlüyün varlığıdır. Yəni ruh özü-özündə xalis enerji və ya hərəkətlilik kimi, özündən kənarda canlılıqla şərtlənmiş enerji və ya şərti hərəkətlilik kimi mövcuddur. Mümkünlüyün varlığı kimi ruhda enerji potensial və kinetik enerjiyə bölünmür və ruhun enerjisi xalis hərəkətin şərtlərinin məcmusundan ibarət olur. Buna görə, ruh ya xalis radial enerji kimi, ya da xalis tangensial enerji kimi ikili mövcudluq olur. Ruhun xalis tangensial enerji, xalis hərəkətliliyindən psixika, psixologiya, xarizma və xalis ağıl və ya müstəqil ruh halları, yəni şüurluluq meydana çıxır. Xalis radial enerjiliyindən hissi qavrama - təbiətin idrakı, yəni şüurun materiyaya münasibəti təzahür edir. Ruhun özü-özündə xalis hərəkəti özünü dərk, yəni özü-özü ilə əlaqə; özü-özündən xalis hərəkəti başqalarını dərk, yəni başqaları ilə əlaqə kimi meydana çıxır.

MATERİYA ANLAYIŞI HAQQINDA

Xalis Enerjinin - İlahi İradə ilə - özü-özündən iki yerə, həqiqətin artma meylində İlahi Bacarıqla həqiqəti əlaqələndirmə gücü kimi və həqiqətin azalma meylində onu İlahi Bacarıqla əlaqələndirmə gücü kimi -

iki yerə ayrılması ilə şərtlər özü də müvafiq olaraq, bir-birinə münasibətdə daxili və xarici olmaqla iki yerə ayrılır. Həqiqətin azalma meylinin şərtləri metafizikaya münasibətdə xarici şərtlərdən ibarət olur; hansı ki, məhz bu şərtlərə görə mümkün varlıq mövcudluq əldə edir. Həqiqətin artma meylinin şərtləri mövcudluğa münasibətdə daxili şərtlərdən ibarət olur, hansı ki, buna görə hər bir mövcudluqda həqiqət saxlanılır. Mümkünlüyə münasibətdə xalis xarici şərtlərin məcmusu materiya - ilkin məkan kimi meydana çıxır. Mövcudluğa münasibətdə xarici şərtlərin məcmusu isə nisbi azad enerji - ilkin zaman kimi meydana çıxır.

Bəs materiya anlayışı özündə nəyi ifadə edir? Materiya özü-özündə iki mənaya malikdir. Birincisi, mücərrəd anlayış kimi yalnız xalis zəkada özü-özündə təsəvvür kimi mövcuddur və birincili materiya kimi çıxış edir. İkincisi, konkret təsəvvürün predmeti kimi materiya; belə materiya xalis zəkadan xaricdə, təbiətdə mövcud olan materiya kimi çıxış edir.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Fəlsəfə ilə ilk məşğul olanların çoxu başlanğıcı, bütün şeylərin bir başlanğıcı yalnız materiya şəklində hesab etmişlər: bütün şeylərin ibarət olduğu, ilk dəfə onlar nədən əmələ gəlir və son nəticədə dağılan, bu zaman əsas mövcudluq qalır, öz xüsusiyyətlərinə görə isə dəyişir - onlar bunu element hesab edirlər - bu şeylərin başlanğıcıdır. Bunun nəticəsində onlar hesab edirlər ki, nəsə əmələ gəlmir və məhv olmur, belə ki, əsas təbiət həmişə saxlanılır. Hansısa təbii təbilik olmalıdır ki - bir və ya birdən çox - ondan bütün qalanlar əmələ gəlsin, bu zaman həmin təbilik qorunan qalsın. Yeganə səbəb kimi materiya şəklində göstəriləni hesab etmək olar. Maddiliyin mahiyyətinə gəldikdə, nəzərdən qaçırmaq olmaz ki, əgər hətta hər şey bir və eyni əsasdan və ya bir çox eyni birincili elementlərdən əmələ gəlir və bir və eyni materiya baş verən onlar üçün başlanğıc kimi çıxış edir ki, hər halda hər bir şeyin özünün bir qədər materiyası var. Bir materiyadan hərəkət edən səbəbin fəaliyyətinə görə müxtəlif şeylər alınır - məsələn, ağacdan həm çarpayı, həm yeşik alınır."*

Haşiyə: Dekart, “Fəlsəfənin başlanğıcı”

“Əgər biz öz fantaziyamızla özümüzə materiyanı dərk etmək cəsarəti götürmüşüksə, onu hamı üçün tamamilə aydın və başa düşülən təbiətlə bölək: bunun üçün ehtimal edək ki, onun heç bir forması yoxdur, həmçinin hesab edək ki, bu materiya təbiətə aid olan keyfiyyətə malik deyil, hansı ki, demək mümkün olsun ki, aydın hər bir adama aydınlıqla onda nəsə naməlumun olmasından ibarətdir. Həmçinin onu filosofların o ilk materiyası hesab etməyək ki, tamamilə özünün bütün formalarından, keyfiyyətlərindən məhrum olsun, aydın qavrayışa əlçatmayana çevrilsin. Bizim materiyanı, tamamilə bərk, eyni dərəcədə bizim fikrin dayandığı nəhəng məkanın eni, uzunu və dərinliyi dolduran mövcud cisim kimi təsəvvür edək. Universumu təşkil edən Dünya və ya məsafəlilik heç bir sərhədə malik deyil, beləliklə, hətta düşünmək ki, o haradasa mövcuddur, biz nəinki məkanın sərhədsiz məsafəliliyini təsəvvür edə bilərik, və ona çatarıq ki, biz onu təsəvvür etdiyimiz kimidir. Beləliklə o, qeyri-müəyyən məsafəli cismə malikdir, hansı ki biz istənilən məkanda çatırıq və cismin həqiqi və uyğun ideyasıdır.”

Haşiyə:Dekart, “Dünya və ya işıq haqqında traktat”

“Bizim materiya təsəvvür oluna bilən istənilən forma ilə bütün mümkün hissələrə bölmək olar və onun hər bir hissəsi istənilən mümkün yolverilən hərəkət əldə edə bilər.”

Haşiyə: Q. V. Leybnic, “Özündə götürülmüş materiya”

“Aristotelə və Dekarta görə, materiya sonsuza qədər bölünən, formadan və həqiqətdən məhrum, hərəkətdən forma alan, hərəkəti ruhdan alan kimi təsəvvür olunur. Materiya özündə götürülmüş, yəni çılpaq antitipiya və məsafəlilikdən əmələ gəlir. Antitipiya o atributu adlandırıram ki, ondan materiya məkandadır. Məsafəlilik - məkanda fasiləsizlik olur. Nə zaman ki, antitipiya fasiləsiz ayrılır və ya yerə görə dartılır və başqa heç nə təklif olunmur, özü-özündə materiya və ya çılpaq materiya əmələ gəlir. Materiya nəsə xalis passivlikdir, belə ki, onun atributları və onların şəkildəyişmələri özündə heç bir fəaliyyət saxlamır. Nə qədər ki, hərəkətə biz yalnız

yerdəyişmə kimi baxırıq, xalis passivlikdən başqa biz onda heç nəyə baxmırıq. Doğru hesab etmək olar ki, yalnız bir mexanizmdən, yəni çılpaq materiya və onun modifikasiyasında qavrayışı izah etmək fəaliyyətin və hərəkətin başlanğıcından artıq ola bilməz. Buna görə də, zəruridir ki, belə ki materiyadan başqa nəsə nəzərdə tutulsun ki, yəni daxili hərəkət, eləcə də hərəkət, yəni xarici fəaliyyət. Belə başlanğıcı biz substansiyal, həmçinin ilkin güc, birinci entelexiya, bir sözlə ruh (anima) adlandırırıq.

Haşiyə: Q. V. Leybnic, "Birincili materiya haqqında"

"Birinci materiya, əgər sakitlikdədirsə nəsədir - hiss olunmayan nəsədir. O şeydə ki heç bir dəyişiklik yoxdur, o hiss olunmur. Ən ümumilik doludur, belə ki ilkin materiya və məna bir və eynidir."

Haşiyə: Hegel: "Məntiq elmi"

"Varlığın nəsəyə keçidi və nəsənin varlığa keçidi olması qurulma haqqında müddəası, "heç nədən nəsə əmələ gəlmir" və ya "nəsə nədənsə əmələ gəlir" - materiyanın əbədiliyi, panteist müddəaya əks dayanır. Kanta materiya anlayışının itələmə və cəzbetmənin vəhdəti kimi başa çatdırılması xidməti məxsusdur. Kant aydın şəkildə onun üstündə durmuşdur ki, materiyaya özü üçün mövcudluq kimi baxılsın və yalnız bundan sonra iki güclə təchiz edilərək, ona onların vəhdətində istinasız mövcudluq kimi baxılsın. İtələmə haqqında əsasən materiyaya baxışda danışılır və bu ifadə altında məhz o başa düşülür ki, materiya çox olan bu çoxun hər birindən biri yerdə qalan başqalarından özünün istisnası kimi aparır. Materiya, mücərrəd götürülsə, məhz odur ki, baxmayaraq ki forması var, amma yalnız fərqsizlik və xarici təyin kimidir. Başqasında refleksiya əsas sferasında bilavasitə özü-özündə, həmçinin özü-özünü refleksiyadır. Buna görə də xüsusiyyət özü ilə eynilikdir, şeylə əlaqələrindən azad və müstəqildir. Amma nə ki bir-birindən şeyin təyininin fərqli mahiyyətidir, onlar özü şeyin mahiyyəti deyil, belə ki şeylər konkretdir, özündə mövcud olmanı refleksiyanın mahiyyəti isə mücərrəd müəyyənlikdir, materiyadır. Materializmə görə, elə-belə obyektiv materiyanı həqiqət kimi qəbul edir."

Haşiyə: L. F. Feyerbax: “Leybnicin fəlsəfəsinə əlavələr, inkişafı və tənqidi”

> *“Əgər materiyaya təsəvvür kimi yox, təsəvvürün predmeti kimi baxılsa, onda o sadə substansiyaların məcmusu başqa heç nə kimi, bizi əhatə edən sonsuz dünyanın fəaliyyətinin qarışığı olacaq. Ədalətli olaraq birincili və ikincili materiya ayırd edirlər. Birinci başlanğıc passiv qabiliyyətdir və ya müqavimət prinsipidir; o kütlədə yox, yalnız mümkünlükdə və ölçülülüyün təməlindədir. Birincili materiya o vəziyyətlə şərtlənir ki, bir cisim başqasına müqavimətlə qarşılaşmadan keçə bilməz; bu o materiyadır ki, onun haqqında əvvəllər deyirdilər ki, o mahiyyətcə ayrılmaz olaraq istənilən entelexiya ilə əlaqəlidir və entelexiyanı dolduraraq və ya başlanğıc fəaliyyət qabiliyyəti dolduraraq və bu yolla təkmil substansiya və ya monada əmələ gəlir: materiya substansiyada başa çatan tamda passiv qabiliyyətdir. İkinci materiya isə sonsuz sayda başa çatmış substansiyaların nəticəsidir, ondan hər biri öz entelexiya və ilkin materiyasını alır.”*

Aristotelin şərhindən görünür ki, o, materiyanı mövcud şeylərin ən ümumi başlanğıcı kimi təsəvvür edir. Bu mənada materiya bütün mövcud tək şeylərin dağılmasından sonra qalan ən ümumi əsas kimi təyin oluna bilər. Əgər biz mövcudluqları fikrən məkandan çıxarsaq, onda xalis məkan qalacaq; bu da bütün şeylərin dağılmasından sonra meydana çıxan ən ümumi enerjiyə, yəni birincili materiyaya eynilik təşkil edəcəkdir. Birincili Materiya faktiki tək kimi götürülən ayrı-ayrı şeylərdə mövcud olan ikincili materiyanın fikrən götürülmüş formal tək şeydir. Buradan da faktiki ayrılıqda götürülən ikincili materiya ilə formal ayrılıqda götürülən birincili materiya bir-birindən fərqlənir. Şeylərin əsası kimi İkincili materiya təbiətdə ayrılıqda götürülən faktiki təbii təklik, birincili materiya Kosmosun əsası kimi xalis zəkada formal olaraq ayrılıqda götürülən metafizik təklikdir. Bu mənada birincili materiya tək Kosmosun tək başlanğıcıdır. Buradan belə bir Kosmoloji ideya müəyyən etmək olar: **Kosmos tək bir başlanğıcdan meydana çıxmışdır.**

Materiya tək Kosmosun tək başlanğıcı olduğundan özü də təkdir. Yəni çoxlu birincili materiyaların mövcudluğu istisnadır. Əks halda çoxlu materiya çoxlu başlanğıc kimi çoxlu tək Kosmoslar yaradardı; hansı ki, bu da ümumiyyətlə Kosmosun götürülən anlayışına zidd olardı. Biz yuxarıda birincili materiyanı Kosmosun aktuallaşmamış mövcudluğu kimi təyin etdik. Belə ki, Mövcudluq kimi Kosmos birincili materiya kimi təsəvvür olunur, amma mövcud olmadığından konkret tək kimi idrak olunmur. Birincili materiya mütləq fakt olduğundan bölünməzdir, bölünmədiyindən sərhədsizdir və sərhədsiz olduğundan bütün məkanı tam tutmuşdur. Buradan da, ilkin məkan birincili materiya olur.

Nə üçün ilkin materiya ilkin məkan kimi təsəvvür olunur? Zəruri şərtlər ölçülülüyün əsasını təşkil edir. Buna görə də, birincili materiyanın ən mühüm xarakteristikasını ən ümumi ölçülülük kimi təyin edə bilərik. Ən ümumi ölçülülük istənilən xüsusi ölçülülüyün ondan çıxdığı ölçülülükdür. Belə ki, Kosmosu təşkil edən bütün mövcudluqlar xüsusi ölçülülüklə mövcud olur və idrak olunur. Beləliklə, məkan özündə birincili materiyanın zəruri şərtlərinin məcmusunun refleksiyası olaraq ən ümumi ölçülülük kimi mövcud olur. Buna görə də, "ilkin materiya ilkin məkandır" müddəası meydana çıxır. İlkin məkan və ya ilkin materiya şərti zərurətlə vəhdət təşkil etməyən, yəni zaman şərtləri ilə əlaqələnməmiş şəkildə mövcud olur. Buradan da, ilkin materiyanın xarakteristikaları aşkarlanır. İlkin materiya zamanüstüdür, yəni zamansızdır, əbədidir.

Mümkünlüyün varlığının mövcudluq əldə etməsi özündə həqiqətin başlanğıc xarakteristikası kimi xalis ölçülülük əldə etmə kimi təsəvvür oluna bilər. Birincili materiya zəruri şərtə görə məkani ölçülülüyün məcmusu kimi meydana çıxır; hansı ki, ikincili materiya məkanda xüsusi ölçülülük əldə etməklə mövcudluqlara ayrılır.

Dekartın fikirlərindən görünür ki, o, materiyanı formasız, təbiətə xas keyfiyyətlərə malik olmayan, tamamilə bərk, eyni dərəcədə bizim fikrin dayandığı nəhəng məkanın enini, uzununu və dərinliyini dolduran

mövcud cisim, Universumu təşkil edən, Dünya və ya məsafəlilik kimi heç bir sərhədə malik olmayan şey kimi təsəvvür edir. Dekartın bu fikirləri özündə ikincili materiyanı xalis məkanlılıqdan çıxmış, zamanla şərtlənmiş, məkanda mövcud olan konkret materiyanı şərh edir. Əslində Dekartla Aristotelin materiyaya baxışı bir-birinə çox yaxındır. Sadəcə Dekart ikincili materiyanı tək şey-cisim kimi təsəvvür edir. Əgər materiya şey olsaydı, onda ona təbilik xas olmalı idi; hansı ki, Dekart materiyada təbiətə xas keyfiyyətlərin olmasını istisna edir. Bizə görə, Dekartın bu fikirləri o mənada bölüşdürmək olar ki, təbiətə xas olan bütün keyfiyyətlərin saxlanma kimi materiyaya xas olması, amma həmin xüsusiyyətlərin təzahür etməsinin istisna olunduğu qəbul olunsun. Çünki təzahür mövcudolmadan meydana çıxır, birincili materiya isə özü-özündə tək mücərrəd mövcudluqdur və özündən başqası olmadığından mövcud olması istisnadır. Mövcud olmadığından təzahürü də istisnadır. Təzahür həm də başqası ilə öz arasında məsafəlilik, yəni ötürücü mühit tələb edir; ilkin materiya məkanı tam doldurduğundan məsafəliliyə, yəni ötürücü mühitə yer qoymur və buna görə də təbilik materiyadan təzahür etmir. Məhz buna görə də, heç bir şey özü-özündə öz daxilinə təzahür etmir.

Materiyanın "bərk" olması haqqında Dekartın fikirlərini də qəbul etmək olmaz. **Birincisi**, bərklik cismin ən sonuncu emanativ halıdır; hansı ki, bərklikdən sonra hal yoxdur. Materiya isə cismə münasibətdə ən başlanğıc olduğundan, elə halda olmalıdır ki, sonrakı hallar ondan sonra sıralana bilsin. Əgər materiya başlanğıcda bərk olsaydı, onda ondan sonra gələn başqa emanativ hallar olmalı idi, hansı ki, bizə məlum deyil. **İkincisi**, əgər materiya bərk olsaydı, onda onu ayrı-ayrı mövcudluqlara bölmək üçün xüsusi güc tələb olunardı; hansı ki, məkan materiya ilə tam tutulduğundan bu güc yalnız materiyanın özündən çıxmalı idi. Əgər materiyada belə güc saxlansaydı, onda o heç zaman bərk ola bilməzdi. Buna görə də, materiyadan ayrı-ayrı mövcudluqların təşkil olunması üçün materiya özündə ən son hala - bərkliyə münasibətdə başlanğıc hala, mad-

diliyin başlanğıc halına malik olmalı idi. Buna görə də, biz maddiliyin elmə məlum sonuncu halı plazma olduğundan, Dekartdan fərqli olaraq belə hesab edirik ki, materiya məhz plazma halında məkandır. Plazma halı formasız, ölçüsüz, heç bir təzahürü olmayan, özündə sərhədi inkar edən və buna görə də məkana sonsuz yayılma imkanına malik hal kimi təyin oluna bilər. Dekartın "bərklik" kimi nəzərdə tutduğu keyfiyyəti biz dayanıqlılıq kimi anlayırıq. Yəni materiya dayanıqlılıq kimi məkanı tam doldurur; hansı ki, başlanğıcda belə dayanıqlıqdan digər sıralar meydana çıxır.

Leybnicin fikirlərindən göründüyü kimi o, iki cür materiya - **özündə götürülmüş materiya** və **birinci materiya** ayırd edir. O, hər iki materiyanı bir-birindən fərqli xarakteristikalarla şərh edir. Özündə götürülmüş materiya, çılpaq materiya, Leybnicə görə, atributları və onların şəkildəyişmələri özündə heç bir fəaliyyət saxlamayan xalis passivlikdir. Materiyanın özündə heç bir təzahürə malik olmaması ilə bağlı fikirlərində Leybniclə Dekartın fikirləri üst-üstə düşür. Leybnicə görə materiyanın passivliyi fəaliyyətin və hərəkətliliyin başlanğıcı kimi çıxış edir. Leybnic Dekartdan fərqli olaraq passivlik kimi materiyanı hərəkətə gətirmək və onu fəaliyyət vermək üçün materiyadan kənar başqa nəsənin nəzərdə tutulmasını tələb edir; hansı ki, həmin materiyadan başqa nəsə nəzərdə tutulan daxili hərəkət, eləcə də hərəkət, yəni xarici fəaliyyət olmalıdır. Leybnic belə başlanğıcı substansiyal, həmçinin ilkin güc, birinci entelexiya, bir sözlə ruh (anima) adlandırır. Leybnicin fikirlərindən görünür ki, çılpaq materiya tək başlanğıc deyil, o həm də başqa başlanğıcla paralel başlanğıcdır və ikisi birlikdə Kosmosu təşkil edir. Leybnicin birinci materiyanı, ilkin materiya və ya məna kimi təsəvvür edir. Buradan da, Leybnicə görə materiya özü-özündə aydınlaşan həqiqət olur; hansı ki, mümkünlüyün varlığı kimi metafizik statuslu olduğundan təbiətin başlanğıcı kimi ondan kənarda olmalıdır. Bizə görə, materiyada səbəblərə-şərtlərə - xalis hərəkətliliyə ziddiyyət kimi saxlanılan məhz

materiyanın mütləq passivliyidir; hansı ki, elə-belə imkanlar materiyadan kənar xalis mütləq hərəkətlilikdir. Buradan da, materiyanı mövcudluğun zəruri şərtlərinin məcmusu kimi təyin etmək olar.

Hegelin şərhindən görünür ki, O Kantla razılaşaraq onun belə bir fikrini bölüşdürür ki, əvvəl "materiyaya özü üçün mövcudluq" kimi baxılsın (hansı ki bu Leybnicin birinci, çılpaq materiya anlayışına uyğundur), və yalnız bundan sonra "iki güclə - itələmə və cəzbetmə - təchiz edilərək, ona onların vəhdətində istinasız mövcudluq kimi baxılsın (bu da Leybnicin ikincili materiya anlayışına uyğundur). Burada "istinasız mövcudluq" anlayışını mövcud olan mövcudluq kimi anlamaq lazım gəlir; hansı ki, mövcudolmasız özündə "özü üçün mövcudluq", yəni mütləq fakt olur. İtələmə və cəlbetmə xarici güclər kimi mövcud olduğundan təsadüfi şərtlərin məcmusunu özlərində ifadə edirlər, təsadüfə görə mövcud olduqlarından ayrılıqda metafizik güclər kimi hissəciklərin xaotik hərəkətində qurulmanın başlanğıc gücləri kimi çıxış edir; hansı ki, maddəni təşkil edən ən kiçik hissəcik - atomlar kimi təbiəti təşkil edirlər. Bu mənada biz ikincili materiyaya cəzbetmə və itələmə güclərini özündə saxlayan maddiliyin ən kiçik hissələrindən - atomlardan ibarət plazma halında mövcud olan maddiliyin əsası kimi baxırıq. Plazma halında hər hansı təşkilatlanma meydana çıxmır. Buradan da, özü üçün baxılan materiya əslində özündə bu güclərin məcmusu kimi mövcud olur, ona görə də bu güclərdən kənarda mövcud olmadığından, ona baxmaq da mümkün olmur.

Hegel belə hesab edir ki, *"materiya çox olan bu çoxun hər birindən biri yerdə qalan başqalarından özünün istisnası kimi aparır"*. Burada söhbət ayrılıqda götürülmüş şeydə olan ikincili materiya ilə ondan kənarda yerdə qalan bütün şeyləri təşkil edən potensial birincili materiyadan gedir. Bu şərhlə razılaşmaq olmaz. Başlanğıc materiya tək kimi mövcud olduğundan onda çoxluq aşkarlanmır, yalnız mövcudluqlar qurulduqdan sonra Hegelin dediyi vəziyyət yaranır ki, Hegelin müddəası da yalnız

ikincili materiyaya aiddir. Hegelə görə *"materiyanın forması var amma yalnız fərqsizlik və xarici təyin kimidir, şeylə əlaqələrindən azad və müstəqildir. Özündə mövcud olmanı refleksiyanın mahiyyəti isə mücərrəd müəyyənlikdir"*. İlkin materiya məkanı tam tutduğundan məsafəliliyə yer qoymur, məsafə meydana çıxmadığından konkret forma da meydana çıxmır. Burada materiyaya aid edilən forma yalnız onun idrak formasına aid edilə bilər; hansı ki, həmin forma ilə yalnız mücərrəd materiya şərh olunan olur.

L. F. Feyerbax Leybnicin baxışlarını şərh edərək belə qənaətə gəlir ki, materiyaya ya təsəvvür kimi (yəni xalis abstrakt anlayış kimi), ya da təsəvvürün predmeti kimi baxıla bilər. Təsəvvür kimi baxılan materiya birincili abstrakt, xalis məkana bərabər mənadan ibarətdir; hansı ki, intuitiv idrakla yalnız xalis zəkadan, obyektə münasibətdə daxildən "mümkünlüklə ölçülülüyün" təməli kimi qavranılır. Birincili materiya entelexiyasız (zaman kimi çıxış edən xalis enerjisiz, təsadüfi şərtlərin - şərti zərurətlərin - məcmusu kimi) ayrılıqda mövcud olur və entelexiya ilə əlaqələnərək ikincili materiya statusu alır; buradan da ikincili materiya kimi "sonsuz sayda başa çatmış substansiyaların nəticəsidir, ondan hər biri öz entelexiya və ilkin materiyasını alır". Təsəvvürlərin predmeti kimi baxılan materiya İkincili materiya kimi, subyektə münasibətdə xaricdən hissi idrakla qavranılan və buna görə də konkret olan sadə substansiyaların məcmusunu özündə təqdim edir.

BİRİNCİLİ MATERİYA - XALİS MƏKAN - ZƏRURİ ŞƏRTLƏR KOSMOSUN MÖVCUDLUĞU

Əgər biz məkan-zaman şərtində mövcud olan Kosmosu fikrən zamandan ayrılıqda təsəvvür etsək, yəni təsadüfi şərtləri ondan kənarlaşdırsaq, ancaq zəruri şərtlər qalsa, onda yalnız məkanla şərtlənmiş Kosmosun mütləq faktını, elə-belə mövcudluğunu alarıq; hansı ki, özündə xalis məkanla eynilik kimi təsəvvür olunur. Beləliklə, birincili materi-

ya yalnız zərurətə görə şərtlərin məcmusu olan Kosmosun məkanı kimi təyin oluna bilər.

Biz birincili materiyanı ilkin mövcudluq əldə etmiş mümkünlüyün varlığı kimi təyin edirik. Biz ilkin mövcudluğu elə-belə mövcudluğun başlanğıcı kimi təyin edirik. Mövcudluğun başlanğıcı özündə nəyi ifadə edir? Hər hansı bir konkret mövcudluğun hissi qavranılması həmin mövcudluğun məkanda yer tutması ilə şərtlənmişdir. Məkanda olmayan mövcudluq hissi qavranılma keyfiyyətindən məhrumdur. Bu mənada mövcudluğun başlanğıcı dedikdə elə-belə bütün mövcudluqların yerinin məcmusu kimi ən ümumi məkanı nəzərdə tuturuq. Beləliklə, mümkünlüyün varlığının mövcudluq tələbində ona İlahi İradədən təklif olunan ilkin zəruri şərtlərin məcmusunu xalis məkanın şərtləri kimi təyin etmək olar. Hansı ki, bu şərtlərin məcmusu Kosmosun mövcudluğu kimi çıxış edir. Xalis məkan özü-özlüyündə mücərrəd xalis ölçülülükdür; hansı ki, istənilən mövcudluq öz konkret ölçülülüyünü ondan əldə edə bilir. Mücərrəd ölçülülük kimi xalis məkanın öz ölçülülüyü yoxdur, amma ondan istənilən ölçülülük almaq mümkündür.

Biz mücərrəd ölçülülüyü özü-özündə təkrarlanmaqla sıralanan nöqtə kimi təsəvvür edirik. Nöqtəni məkansızlıqla birincili məkanın sərhədi kimi təsəvvür etmək olar. Yəni nöqtə bir tərəfdən məkansızlığın - məkanın sonunun, digər tərəfdən məkanın başlanğıcının anlayışıdır. Yəni nöqtə məkanın başlanğıc və sondan ibarət noumenidir. Beləliklə, nöqtə metafizik statuslu obyektdir. Nöqtədə başlanğıcla sonun İlahi İradə ilə bir-birindən üç istiqamətdə ayrılması ilə ilkin məkani ölçülülüklər - en, uzun və hündürlük meydana çıxır. Burada nöqtə mücərrəd mövcudluq, en, uzun və hündürlük nöqtənin sıralanması ilə yaratdığı formal mövcudluğun mücərrəd ölçülülüklərindən ibarətdir.

Mövcudluq əldə etmiş mümkünlüyün varlığı özündə mütləq faktdan ibarətdir. Mütləq fakt mümkünlüyün mövcudluq tələbinə mümkün varlığa mövcudluq təklifinin vəhdətindən meydana çıxır. Yəni İlahi

İstəklə İlahi İradə başlanğıc vəhdət təşkil edir. Bu səviyyədə İlahi Bacarıq İlahi İstək və İlahi İradə ilə vəhdət təşkil etmədiyindən, birincili materiya metafizik statusda olur və ondan təbiət meydana çıxmır.

Platon öz "Dialoq"unda materiyanı və məkanı *"istənilən şəkli (izi) qəbul edən, hər şeyi qəbullanan, yemləyici, özünün cizgiləri, növlərin qavranılması naminə keyfiyyəti və növü olmayan, növləri tam yerləşdirmək üçün substrat olan, tamamilə onlardan məhrum, nə cisim, nə qeyri-cisim olan kimi"* təsəvvür edir. Biz Platonun materiya ilə bağlı şərhini yalnız birincili materiyaya aid qəbul edirik.

Birincili Materiyanın istənilən şəkli qəbul etmək xarakteristikasına görə onu xarici görüntünün ən ümumi əsası kimi təyin etmək olar. Beləliklə, birincili materiya özündə başlanğıc heçliklə mahiyyətin vəhdəti kimi mövcuddur. Yəni birincili materiya bir tərəfdən heç nədir - bu mənada o abstrakt anlayışdır; digər tərəfdən o nəsədir - bu mənada anlayışın predmetidir.

Xalis materiya, birincili materiya - özü-özündə xalis enerjinin onunla ziddiyyət saxlayan əksiliyidir; buna görə də enerji xalis şərtsiz passivlik kimi təsəvvür olunduğundan, birincili materiya məkan kimi zəruri şərtlərin məcmusunu özündə saxlayan şərti passivlik kimi təyin olunur. Zaman təsadüfi şərtlərin məcmusu kimi özündə xalis hərəkətlilik olduğundan, zamanla şərtlənməmiş birincili materiya xalis passivlik olur. Xalis passivlik - metafizikanın xalis hərəkətliliyinin özündə ziddiyyət saxlayan əksiliyi kimi təbiliyin, yəni Kosmosun ən ümumi keyfiyyətidir; hansı ki, məhz belə xalis passivliyə görə Kosmosda dayanıqlılıq keyfiyyəti təzahür edir.

Xalis passivlik üç səbəbdən meydana çıxır:

Birincisi, təbii hərəkətlilik məkanda yerdəyişməni özündə ifadə edir. Yerdəyişmə məkanda məsafəliliklə şərtlənir. Yəni mövcudluğun məkanda məsafə qət etməsi təbii hərəkətlilikdir. Birincili materiya məkanı tam

tutduğundan, yəni məkana bərabər olduğundan, buna görə də məkanda məsafə meydana çıxmadığından, məkanda yerdəyişmə istisna olunur.

İkincisi, təbii hərəkət məkan və zamanla ikili şərtlənmədə meydana çıxır. Birincili materiya zamansız meydana çıxdığından, zaman şərtləri olmadığından, birincili materiyanın təbii hərəkətliliyi istisna olunur.

Üçüncüsü, təbii hərəkətlilik bir şeyin başqa şeyə nisbətindən aşkarlanır. İlkin materiya tək mövcudluq olduğundan və ondan başqası məkanda olmadığından ilkin materiyanın başqasına nisbətdə hərəkətliliyini də aşkar etmək mümkün deyildir. Beləliklə, birincili materiyanın nə hərəkətliliyinin, nə də onun hərəkətliliyinin idrakının səbəbləri olmadığından nəticə kimi meydana çıxmır. Yəni birincili materiya mütləq passivlik kimi meydana çıxır.

Xalis məkan xalis ölçülülük olduğundan, bütün istənilən sonsuz sayda xüsusi ölçülülük xalis ölçülülükdən çıxdığından xalis ölçülülük sonsuzluq xarakteristikasına malik olur. Yəni, elə-belə ilkin məkan kimi çıxış edən birincili materiya sonsuzdur. Materiyanın sonsuzluğu onun mümkünlüyün varlığının əbədilik xarakteristikalarının əksiliyi kimi mövcud olması ilə bağlıdır. Belə ki, mövcudluq əldə etmiş mümkünlüyün varlığı əbədi olduğundan, onun əldə etdiyi mövcudluq da sonsuz olmalıdır ki, onun əbədiliyi şərtində mövcud olsun. Mümkünlüyün varlığı xalis təsadüfə görə şərtlərin məcmusu kimi mütləq azad-əbədi olduğundan, birincili materiya ondan-həqiqətdən mütləq asılı və sonsuzdur.

Leybnicin təbirincə birincili materiya "özündə götürülmüş materiya"dır. "Özündə götürülmə" anlayışı xaricdən idraka təqdim edilməsi - özündən götürülməsi - mümkün olmadığından, yalnız daxildən intuitiv idrakla qavranılması mümkün olan və buna görə də subyektin özündən götürdüyü mücərrədliyi ifadə edir; hansı ki, obyektə münasibətdə "özündə götürülən" olur. İdraka təqdim olunmamaq - təzahürlərə malik olmamaqdır. Beləliklə, birincili materiya təzahür etməyən mahiyyət kimi mövcud olur. Buradan da, birinci materiyanı mücərrəd materiya kimi

təyin etmək olar. Mücərrəd materiya - məkana bərabər, zamanla (təsadüfi şərtlərlə) şərtlənməmiş, xalis zəruri şərtlərin (təsadüfsüz zəruri şərtlərin) ən ümumi məcmusu kimi təsəvvür olunur; hansı ki, gələcəkdə bütün mövcud olanlar və ola bilənlər öz mövcudluqlarının zəruri şərtlərini birincili materiyadan - zəruri şərtlərin ən ümumi məcmusundan xüsusi zəruri şərtlər kimi əldə edərək mövcud olurlar. Buradan da, Kosmosun ilkin məkan kimi metafizik ideyasını aşkarlamış oluruq.

BİRİNCİLİ ZAMAN - XALİS ZAMAN - TƏSADÜFİ ŞƏRTLƏR

KOSMOSUN MÖVCUD OLMASI

Mümkünlüyün varlığı Kosmos kimi başlanğıc mövcudluq əldə etdikdən sonra mümkünlüyün varlığının mövcudluq tələbi Kosmosun mövcudluğunda davam edir. Bu tələbə təklif kimi İlahi İradədən təkrar şərtlər təklif olunur. Nəticədə Kosmosun mövcudluğu özü-özündə təkrarlanır. Kosmosun mövcudluğunun özü-özündə təkrarlanmasından Kosmosun mövcud olması - mövcudluğun özü-özündə hərəkətliliyi meydana çıxır. Özü-özündə mövcud olma sürəklilik kimi qavranılır. Sürəklilik zamanın əsas xarakteristikasıdır. Kosmosun ilkin mövcud olması onun ilkin mövcudluğu kimi mücərrəd olur. Mücərrəd sürəklilik vaxt kimi təzahür etməyən, yəni vaxta - ayrı-ayrı hərəkətliliyə bölünməyən tam zamanın xarakteristikasıdır. Biz Kosmosun mücərrəd mövcud olmasının şərtlərinin məcmusunu birincili və ya xalis zaman kimi, mücərrəd sürəklilik kimi təyin edirik. Bu şərtlər özündən əvvəl verilmiş zərurətə görə şərtlərə verildiyindən, ona münasibətdə təsadüfi şərtlərin məcmusundan ibarət birincili zaman şərtləri kimi təyin etmək olar. Birincili zaman özü-özlüyündə heç bir sürəkliliyi olmayan, amma bütün mövcud olmaların ondan sürəklilik - vaxt - hərəkətlilik əldə etdiyi məcmui vaxtdır. Beləliklə Kosmosun mövcud olması Kosmosun vaxtından, onun özü-özündə hərəkətliliyindən ibarətdir.

İKİNCİLİ ZƏRURİ ŞƏRTLƏR İKİNCİLİ MATERİYA - MADİLİK

Mümkünlüyün varlığının mövcudluq tələbi əbədi və sonsuz olduğundan, mümkünlüyün varlığının mövcudluq əldə etmə tələbi mücərrəd mövcud olan mövcudluqda - ilkin məkanla ilkin zamanın vəhdətində mövcudluq əldə etmə tələbi kimi davam edir. Bu tələbin İlahi İradədən yeni təkliflə - ikincili zərurətə görə şərtlərlə ödənməsindən konkret ölçülülük - mövcudluqların ölçülülüyü meydana çıxır. Konkret ölçülülük birincili məkana proyeksiya olunan ikincili materiyanın ölçülülüyü kimi meydana çıxır; hansı ki, birincili mücərrəd ölçülülüyün əksinə konkret ölçülülük olur. Konkret ölçülülük nəyinsə ölçüsü olduğundan, ikincili zərurətə görə şərtlərin məcmusundan "nəsə" meydana çıxır. Nəsəni biz "hissisiz nə" - fakt kimi təyin edirik. Hissisiz nə mövcud olması olmayan mövcud nədir; hansı ki, hissi təfəkkürdə maddilik kimi qavranılır. Nəsədə mümkünlüyün varlığının mövcudluq tələbində ona ikincili zəruri şərtlərə münasibətdə ikincili təsadüfi şərtlər - konkret zaman şərtləri verilir və nəticədə mövcud olan nə, yəni hisslərlə vəhdətdə mövcud olan aktuallaşmış nəsə meydana çıxır. Aktuallaşmış nəsənin şərtlərinin məcmusundan Kosmosun reallığı aşkarlanır.

Beləliklə, mücərrəd mövcudluğun daxilində ikincili zəruri şərtlərlə, xaricində ikincili təsadüfi şərtlərlə şərtlənməsindən ikincili materiya maddiliyin şərtlərinin məcmusu ilə vaxtın şərtlərinin məcmusunun vəhdətindən konkret Kosmos - görünən maddi aləm meydana çıxır.

Birincili zərurətə görə şərtlər ən ümumi olduğundan, ikincili zərurətə görə şərtlər ümumi olar. Nəticədə, Birincili materiya bir tam kimi ikincili materiyaya keçmir. Nəticədə, ikincili materiya birincili materiyanın üzərinə ölçülülüyünə görə ondan məhdud olan məkan kimi proyeksiya olunur. İkincili materiya birincili materiyanın əsasında meydana çıxdığından və ölçülülüyünə görə ondan fərqləndiyindən, ikincili materiya birincili materiyada, yəni xalis məkanda yerləşir. Yerləşmək - özündə

mücərrəd məkanın konkret məkana keçməsini, maddiliyin xalis məkandan özündə ölçülülük əldə etməsini ifadə edir. Birincili materiya özüözündə zamanla şərtlənməmiş ikincili məkan kimi, ikincili materiya onunla və təsadüfi şərtlərlə, zamanla şərtlənmiş mövcud olma kimi meydana çıxır. Beləliklə, birincili məkan xalis, mücərrəd mövcudluq, ikincili məkan xalis mücərrəd mövcudluğun aktuallaşması kimi konkret mövcudluq olur. Konkret mövcudluğu biz maddilik kimi hissi idrakla qavrayırıq. Biz ikincili materiyanı özündə zəruri şərtə görə mövcud olan maddiliyin başlanğıcı kimi təyin edirik. Buradan da belə bir hökm alınır: *İkincili materiyasız heç bir maddi mövcudluq mümkün ola bilməz.* Beləliklə, ikincili materiyanı Kosmosun mövcudluğunun, maddiliyinin ən ümumi əsası kimi təyin etmək olar. Başqa sözlə, Kosmosun maddi mövcudluğunun başlanğıc səbəbləri elə-belə materiyadadır. Burada elə-belə materiya özündə birincili və ikincili materiyaların mənalarını saxlayan ümumi materiya anlayışıdır; hansı ki, birincili və ikincili zərurətə görə şərtlərin məcmusundan ibarətdir.

İkincili materiya xalis məkan və xalis zamanla şərtləndiyindən ən ümumi konkretlik olur, yəni özündən götürülən materiya kimi təzahür edir. İkincili materiya birincili materiyaya münasibətdə məhdud ölçülülük kimi mövcud olduğundan, onu bütünlüklə əhatə etmir və nəticədə birinci məkanda ikincili materiyaya münasibətdə məsafəlilik yaranır. Bu məsafəliliyə görə ikincili materiya "özündən (birincili materiyadan) götürülən" olur. Birincili materiya ilə ikincili materiyanın fərqliliyindən birincili materiyanı məkani boşluq kimi, ikincili materiyanı maddiliklə dolmuşluq kimi təsəvvür edirik.

İkincili materiyanın ikincili təsadüfə görə şərtlərlə təmin edilməsindən ikincili təsadüfə görə sürəklilik meydana çıxır. İkincili sürəklilik ən ümumi, birincili sürəklilik ümumi olduğundan, ikincili materiya birincili zamandan ümumi məhdud sürəklilik - vaxt əldə edir. Nəticədə ən müxtəlif formalı hərəkətlər - konkret hərəkətlilik formaları

yaranır. İkincili materiyanın vaxt əldə etməsi ilə maddilik mövcud olmağa, yəni təzahür etməyə başlayır. Buradan da, təzahür - ikincili materiya ilə ikincili zamanın şərtlərinin məcmusundan ibarət olur. Təzahür konkret formalı hərəkətdə olan materiyanın mövcudluq formasıdır. İkincili materiya həm birincili materiya (yəni məkanla), həm də ikincili zamanla iki tərəfli şərtləndiyindən, bir tərəfdən özündə daxildə şərti passivliyə (xarici aktivliklə şərtlənmiş passivliyə) və xarici şərti aktivliyə (daxili passivliklə şərtlənmiş aktivliyə) malik olur. Passivliklə şərtlənmiş aktivlik təbii hərəkətlər kimi aşkarlanır.

Beləliklə, birincili materiya Kosmosun mütləq faktı, yəni mövcud olmasısız mövcudluğunu; ikincili materiya Kosmosun aktuallaşmasını - mövcud olan mövcudluğunu özündə ifadə edir. Bu ikisinin vəhdətindən Kosmosun dünya kimi kosmoloji ideyası aşkarlanır: *Kosmos dünya kimi maddi mövcudluğun mövcud olmasının şərtlərinin məcmusundan ibarətdir.*

Mümkünlüyün varlığının mövcudluq tələbi mücərrəd mövcudluqda konkret mövcudluq əldə etdikdən sonra da davam edir. Konkret mövcudluqda yenidən mövcudluq əldə etmə tələbinə təklif kimi İlahi İradədən üçüncülü zərurətə və təsadüfə görə şərtlər verilir. Üçüncülü zərurətə görə şərtlərdə ikincili materiya ayrı-ayrı mövcud varlıqlara ayrılır. Ayrı-ayrı mövcudluq forma ilə mahiyyətin vəhdətinin şərtlərindən ibarət olur. Forma ilə mahiyyətin vəhdətinin məcmusu kimi ayrı-ayrı mövcudluqlarda mümkünlüyün varlığının mövcudluq tələbinə verilən üçüncülü təsadüfə görə şərtlərə görə ayrı-ayrı mövcudluğun mövcud olması - mövcud varlıqlar meydana çıxır. Mövcudluqlar yalnız bir-biri ilə mövcud olduğunda, mövcud olan ayrıca mövcudluqda mümkünlüyün varlığının mövcudluq tələbinə zərurətə və təsadüfə görə şərtlər başqa mövcudluqdan verilir; hansı ki, bir mövcudluq formasından başqa mövcudluq formasına keçidin şərtlərinin məcmusundan ibarət olur. Beləliklə, bu şərtlər bilavasitə İlahi İradədən yox, başqa mövcudluqdan dolayısı ilə

verilir, nəticədə təbiət meydana çıxır. Buradan da belə bir kosmoloji ideya aşkarlanır: *Kosmos təbiət kimi ayrıca bir mövcudluğun başqa bir ayrıca mövcudluğa keçidinin şərtlərinin məcmusundan ibarətdir.*

Bununla da, mümkün varlığın mövcudluq tələbi əbədi şəkildə təbiətdə bir mövcudluqdan başqa mövcudluğa keçid kimi təbii prosesləri meydana çıxarır. Bir mövcudluqdan başqa mövcudluğa keçid özündə üçüncü qrup şərtlərin məcmusunu - təsadüflə şərtlənmiş zəruri şərtlərin məcmusundan ibarət olur; hansı ki, təbiətdə təsadüf zərurətin təzahür forması kimi meydana çıxır.

Mümkünlüyün varlığının, yəni xalis enerjinin daxilində meydana çıxan birincili materiya xaricdən xalis enerji ilə - təsadüfi şərtlərin məcmusu ilə əlaqələnir. Nəticədə, xalis təsadüflə xalis zərurət qarşılıqlı olaraq xalislik xarakteristikasından məhrum olur, yəni təsadüflə zərurətin vəhdəti meydana çıxır. Bu vəhdətdə təsadüf zərurətin təzahür forması, zərurət təsadüfün mahiyyəti kimi çıxış edir. Təsadüf - özündə zaman kimi şərtlərin məcmusu, zərurət - özündə məkan kimi şərtlərin məcmusunu təqdim edir. Buna görə, zamanla təsadüf, məkanla zərurət eynilik kimi çıxış edirlər. Yəni biz xalis materiyanı, ilkin məkanı, zəruri şərtlərin məcmusu kimi xalis passivlik-dayanıqlılıq; ilkin zamanı, xalis enerjini, təsadüfi şərtlərin məcmusunu xalis hərəkətlilik kimi - dəyişkənlik kimi təsəvvür edirik. Məkan-zaman şərtlərinin məcmusundan meydana çıxan hərəkətliliyi və passivliyi təbii passivlik və təbii hərəkətlilik kimi təyin edirik; hansı ki, hər ikisinin məcmusundan təzahür meydana çıxır.

Başqa sözlə, təsadüfi şərtlərlə zəruri şərtlərin vəhdətindən mövcudluğun təzahürü meydana çıxır. Beləliklə, təzahür - Kosmosun üçüncü qrup şərtlərinin məcmusundan ibarət olur; hansı ki, görünən Kosmosun illüstrasiyalarını təşkil edir.

Mümkünlüyün varlığı tam kimi mövcudluq əldə etmədiyindən, mövcudluq əldə etmiş mümkünlüyün varlığı - materiya - mümkünlüyün

varlığının daxilində əmələ gəlir. Ona görə də, metafizika ilə fizikanı - Kosmosu bir-birindən ayıran sərhəd istisna olunur. Yəni əslində Kosmos metafizikanın, metafizika da öz növbəsində təbiətin daxilindədir. Təbiətin daxilində olan xalis metafizik statusu biz zaman şərtləri, yəni təsadüfi şərtlərin məcmusu kimi; metafizikanın daxilində mövcud olan fizikanın - Kosmosun mütləq faktının zəruri şərtlərinin məcmusu, yəni məkan şərtlərinin məcmusu kimi təyin edirik. Hansı ki, metafizika ilə fizikanın əlaqəsindən - məkan-zaman şərtlərində görünən Kosmos dərk olunan olur. Buradan da, mövcudluğun sərhədlərini mümkünlüyün daxilində istənilən qədər geniş təsəvvür edilməsindən məkanın sonsuzluğu haqda təsəvvür yaranır. Buradan Kosmosun belə bir metafizik ideyasını aşkarlamış oluruq:

> *Kosmosun mövcud olması özbaşına buraxılmamışdır, Kosmosda metafizik güclər fasiləsiz iştirak edir və bu iştiraka görə Kosmos özündən kənar güclərlə tənzimlənir.*

Biz ikincili materiyanı şüura münasibətinə görə enerjinin özündə ziddiyyət saxlayan əksiliyi kimi təyin edirik. Buradan da, əgər enerji özündə qavramanın heç bir əsasını saxlamırsa, onda materiya qavramanın ən ümumi əsasını - idrakın şərtlərinin məcmusunu özündə saxlayan başlanğıc gerçəklik kimi təyin olunmalıdır. Əgər xalis enerji xalis hərəkətlilik şərtlərinin məcmusudursa, onda materiya xalis passivliyin şərtlərinin məcmusu kimi çıxış edir. Materiya bütün ayrı-ayrı mövcudluqların bir ümumidə əriməsi, itməsi kimi ən ümumi fikrən götürülmüş formal mövcudluqdur; hansı ki, mövcudluqlara ayrılmadığından obyekt-subyekt əlaqəsinə girmir, yəni zamana malik deyil. Buradan da, birincili materiya özündə xalis məkan şərtlərinin məcmusu kimi çıxış edir. Buna görə, bəzi mütəfəkkirlər materiyanı elə-belə xalis məkanın bərabərliyi kimi təsəvvür edir. Bizə görə, məkan xalis materiyanın ölçülülüyüdür; hansı ki, ona münasibətdə xarici şərtlərin - metafizikada saxlanan İlahi İradənin (təsadüfi şərtlərin məcmusu kimi) təsirindən ikincili materiyaya,

mövcud olan faktiki mövcudluğa - hissi qavranılan mövcudluğa keçir. Hansı ki, bu məqamda zamana malik olur. Buradan da, zamanı metafizikada saxlanılan və materiyaya xarici təsir edən təsadüfi şərtlərin məcmusu kimi təyin etmək olar. Zamanın şərtlərinin məcmusu Leybnicin şərhindəki birincili entelexiyanı - xalis enerjini özündə təqdim edir. Buradan da zamanın yalnız boş abstraksiya olması haqqında fikirlər qəbuledilməz olur.

İkincili materiya təzahürə malik olduğundan subyektə münasibətdə həm də duyğuların əsası kimi çıxış edir. Buradan da, mövcud materiya hiss üzvlərinə təsir edərək duyğu əmələ gətirən şey kimi təyin olunur. Beləliklə, materiya, həm özündən əvvəlki bütün materiya sırasının tabe olduğu ümumi qanunlarla, həm də mürəkkəbləşmə dərəcəsi ilə müəyyən olunan məkan və zamanla şərtlənən, yalnız ayrıca bir materiyanın növünə aid olan xüsusi qanunları ilə birlikdə Kosmosu təqdim edir.

Fəlsəfənin əsas məsələsindən görünür ki, materiya "şüura münasibətdə olandır". Beləliklə şüura münasibətin başlanğıc şərtlərinin məcmusu materiyada saxlanılır. Bu münasibətdə materiya xalis enerjinin və o cümlədən xalis enerji kimi müstəqil təsəvvür olunan Ruhun əksiliyi kimi çıxış edir və bu əksilikdə özündə ruha ziddiyyət saxlayan materiya şüurda xarici şey kimi inikas olunur. Əksilik təşkil etməyən və ya eyniliklər bir-birini eyni cür refleksiya etdiyindən bir gerçəklikdən digərinin refleksiyasını aşkarlamaq mümkün deyildir; amma əksilik təşkil edən gerçəkliklərdə refleksiya olunan refleksiya edəndən fərqləndiyindən bu fərqliliyə görə yaranan inikasdan aşkarlanandır. Buradan da, Kosmologiyanın növbəti metafizik ideyası aşkarlanır:

> *Ruhla Kosmos bir-birindən fərqli mahiyyətə malikdir, amma Ruh yalnız Kosmosla şərtlənmiş mövcudluq, Kosmos isə Ruhda refleksiya ilə şərtlənmiş mövcudluqdur; buna görə də Ruha münasibətdə ruhsuz Kosmos, Kosmosa münasibətdə Kosmossuz Ruh özü-özündə yoxluqdur.*

Hər bir təkin öz xüsusi başlanğıcı olduğu kimi, hər bir ümuminin də öz birinci başlanğıcı vardır. Əgər Kainat bir tam kimi gerçəkliklərin ən ümumi məcmusudursa, onda onun da ən ümumi birinci başlanğıcı olmalıdır. Biz, metafizik olaraq ikincili materiyanı vahid Kosmosun birinci ümumi başlanğıcı kimi təyin edirik. Başqa sözlə, materiya bir tərəfdən hissi qavranılmanın, digər tərəfdən maddiliyin başlanğıcıdır. Bu keyfiyyətinə görə materiya həm subyektiv - hissi qavranılanların başlanğıcı kimi, həm də obyektiv - maddi olanların başlanğıcını təşkil etdiyindən ikili təbiətlidir.

Haşiyə: Cordano Bruno, "Səbəblər, başlanğıclar və tək haqqında"

> *"İncəsənətə oxşar təbiət öz fəaliyyəti üçün mütləq materiyaya malikdir, belə ki ola bilməz ki, nəsə etmək istəyən hansısa yaradıcı mövcuddur, amma etmək istədiyi üçün nəsə olmasın və ya yaratmaq istəsin amma nə yaratmaq istəməsinə malik olmasın. Beləliklə, təbiətin öz fəaliyyətini, öz işini həyata keçirdiyi predmet növü vardır; və o, ondan, onunla və onda müşahidəçinin gözündə müxtəlif növlər kimi görünən qədər formalar alır. Materiya özü-özündə və öz təbiətinə görə heç bir təbii formaya malik deyildir, amma onlardan istəniləni aktiv fəaliyyətdən, təbiətin fəaliyyətdə olan başlanğıcından ala bilər. Formasız şey təbiətin materiyasıdır. Bir və eyni hisslə rəngi və səsi qavramadığımıza uyğun olaraq, biz bir və eyni gözlə sənət predmetlərini və təbiət predmetlərini görmürük. Sənət formasının öz materiyasına münasibətinə və nisbətinə uyğun, təbiətin öz materiyasına zəruri proporsiyası və forması vardır. Təbiət özünün sonsuz dəyişilmələrində və nəticədə bir-birinin arxasınca müxtəlif formalarda həmişə bir və eyni materiyaya malikdir. Heç bir şey məhv edilmir və varlığını itirmir, yalnız təsadüfi xarici və material formasını itirir.*

Plotin materiya haqqında yazır: Əgər intelligibel dünyada çoxluq və çoxlu növ vardırsa, onda ordaca onların hər birindən fərqli xüsusiyyətləri olan hansısa ümumi şey olmalıdır; o ki ümumidir, materiyanın yerini tutur, o ki xüsusidir və fərqlilikləri yaradır, formanın yerini tutur. Əgər bu dünya ikincinin təqlidində mövcuddursa, onda birincinin

tərkibində ikincinin tərkibinin təqlidi mövcuddur, bundan başqa fərqliliklər, nizam olmayan, nizamı olmadığından gözəlliyi və bəzəyi də yoxdur: bütün bunlar materiyaya aiddir.

Beləliklə, C. Brunonun sitat gətirdiyimiz fikirlərindən görünür ki, o, materiyanı təbiətin öz fəaliyyətini həyata keçirdiyi predmet kimi təyin edir və bu zaman təbiət materiyadan vasitə (onunla), başlanğıc (ondan) və məkan (onda) kimi istifadə edir. Beləliklə təbiət materiya ilə öz fəaliyyətini həyata keçirir. Materiya ilə öz fəaliyyətini təbiət qarşılıqlı təsirlə reallaşdırır. Buradan da, materiyanı qarşılıqlı təsiri yaradan ilkin səbəblərin - şərtlərin məcmusu kimi təyin edə bilərik. Təbiət əmələgəlməni məhz materiyadan təzahür etdirir, yəni təbiətdə bir şey başqa şeydən əmələ gəlir və materiya bu prosesdə başlanğıc şey kimi çıxış edir. Buradan da, ikincili materiyanı şeylərin maddi - hissi qavranılan başlanğıcı kimi təyin edə bilərik. Nəhayət təbiət özünün bütün fəaliyyətini materiyada həyata keçirir, yəni ayrılıqda götürülmüş bütün tək şeylər məhz ikincili materiyadan ayrılır. Burada ikincili materiya özü vahid maddi şey kimi çıxış edir.

Plotin yuxarıdakı sitatdan göründüyü kimi, materiyanı bütün xüsusilərin əsası olan ümumi kimi təşkil edir; hansı ki, bütün xüsusilər özündə materiya saxlamaqla ümumi təyin olunana çevrilir, eyni zamanda materiya bütün xüsusilərdən fərqli yalnız özünə xas xüsusiyyətlərə malik olur ki, bu xüsusiyyətlərinə görə ayrı-ayrılıqda götürülmüş istənilən şeydən fərqlənir.

Bir tərəfdən, materiyada nizam olmadığından, onun həqiqəti xaotikdir və buna görə də, təfəkkürdə fikir kimi formalaşdırılması mümkün deyildir; digər tərəfdən formasız olduğundan xalis fikirdir. Buradan belə alınır ki, materiya təfəkkürdə fikir kimi formalaşdırılması mümkün olmayan xalis fikirdir.

Haşiyə: F. Şellinq, “Dünya ruhu haqqında”

"Təbiətşünaslığın birinci prinsipi ondan ibarətdir ki, heç bir başlanğıca mütləq baxmamaq və hər bir gücün təbiətdə bilavasitə material başlanğıcdan çıxış etdiyini hesab etməkdir.

Beləliklə, təbiətşünaslığın əksinə metafizika ilkin başlanğıca mütləq baxaraq müxtəlif güclərin materiyadan asılı olmayaraq təzahür etməsindən həqiqətləri aşkarlamağa cəhd etdiyindən "materiyanın sərhədlərini" keçməklə buna nail olur. Əgər materiya sərhədsizdirsə, onda materiyanın sərhədlərini necə keçmək olar? Burada materiyanın sərhədləri dedikdə onun ideyasının sərhədlərini nəzərdə tuturuq. Beləliklə materiyanın ideyasını aşkarlamaq fəlsəfə ilə yanaşı həm də metafizikanın vəzifəsinə çevrilir. Yəni materiya nisbi metafizik obyektlərdəndir. Buna görə də, biz materiyanı fərdi şeylərin ən ümumi başlanğıcı kimi təyin edirik. Başqa sözlə, materiya qaydalaşmamış, formalaşmamış, hissi qavranılma qabiliyyəti olmayan ən ümumi total şeydir. Əgər hər bir ayrılıqda götürülmüş tək xüsusi şeyin başlanğıcı atomdursa, atom - mövcudluğun miniması, materiya - maksimasıdır.

MÖVCUDLUQ - ENTİA
FORMAL MÖVCUDLUQ - MÜTLƏQ TAM - FAKT

İlahi İstəklə İlahi İradənin vəhdəti mövcudluq kimi refleksiya edir. Yəni mövcudluq bilavasitəlikdən məhrum və buna görə də formasız təsəvvür olunan mövcud varlıqdan ibarətdir; hansı ki, varlığın mövcudluğunun refleksiyası kimi yaranır. Mövcud varlıq varlığın mövcudluğunun əksiliyi kimi yarandığından ondan fərqli qanunlarla yaranır. Varlığın mövcudluğu mövcudluğun varlığının başlanğıcı kimi mövcudluğa xas bir çox xarakteristikaları ən ümumi şəkildə özündə saxlayır və sonra həmin xarakteristikalar əməlegəlmə ilə meydana çıxan mövcudluqlarda açılır və onların forma və mahiyyəti ilə təzahür edir.

Haşiyə: Leybnic, "Birinci materiya haqqında"

"Aristotelin birinci materiyası Dekartın nazik (subtilis) materiyası ilə eynidir. Bu və digəri sonsuzluğa qədər bölünəndir, bu

və o birisi özü-özündə formadan və hərəkətdən məhrumdur, bu və o birisi hərəkətdən forma əldə edir. Bu və digəri hərəkəti ruhdan (mente) əldə edir, bu və digəri hansısa axın və kiçik bərklik (soliditas) təşkil edir. Bunlara mən, birinci materiyanın sükunətdə olmasında, heç nə olmasını birləşdirirəm. Nəsə hiss olunmur, o heç nədir. Nədəsə dəyişkənlik yoxdursa, onda o hiss olunmur. Beləliklə: əgər birinci materiya birformalı hərəkət edirsə, yəni paralel düzxətli, onda o sakitlikdə olur, ona görə də heç nədir. Ümumilik doldurulmuşdur, belə ki, birinci materiya və məkan - bir və eynidir."

Leybnicin və digər müdriklərin "materiyanın sonsuzluğa qədər bölünməsi" fikri aşağıdakılara görə həqiqətə uyğun deyildir:

1. Əgər materiya sonsuzluğa qədər bölünən olsaydı, onda heç bir şey özündə sonu təqdim etməzdi. Halbuki, hissi qavrayışda hər bir şey özündə sərhədi olan, yəni özü-özündə qurtaran və özündə sonu təqdim edən gerçəklik kimi mövcuddur. Əgər şey özündə sondursa, yəni son nəticədirsə, onda şeydə sonsuzluq xarakteristikası ola bilməz.
2. Yaranışın çoxsəviyyəliliyinə görə deyə bilərik ki, bölünmənin sonsuzluq istiqamətində aparılmasının müəyyən mərhələsində bölünmə Yaranışın bir səviyyəsindən başqa səviyyəsinə keçidlə başa çatır. Beləliklə, materiyanın sonsuzluq istiqamətində bölünməsi onun əsasını təşkil edən Varlıq aləminə - Kvant fizikasına keçidlə başa çatır. Kvant fizikası adi fizikadan - təbiətdən fərqli qanunlara, o cümlədən bölünməzlik xarakteristikasına malikdir. Bölünməzlik xarakteristikası olanı bölmək mümkün olmadığından "sonsuzluğa qədər bölmək" absurddur.
3. Bölmək hissələrə ayırmaq deməkdir. Sonsuzluq istiqamətində materiyanın bölünməsi mütləq hissəyə qədər mümkündür; hansı ki, eyni zamanda mütləq tamla eynilik təşkil edir. Mütləq hissə ilə mütləq tamın eyniliyinə görə sonsuzluğa görə bölmə mənasızlıqdır.

Beləliklə demək olar ki, "materiyanın sonsuz bölünməsi" müddəası özündə heç bir həqiqəti ifadə etmir. Buradan belə bir Kosmoloji ideya aşkarlanır: *Kosmos Varlıq aləmindən yaranır və ondan fərqli qanunlara tabe olur. Kosmosda faktiki bölmə ilə mövcudluğun varlığından varlığın mövcudluğuna keçid mümkünsüzlükdür.*

Mövcudluq bir tərəfdən özündə Varlığa xas olan "şüurdan asılı olmayaraq mövcud olmaq" xarakteristikasını, digər tərəfdən Varlıqdan fərqli olaraq şüurla qarşılıqlı əlaqə imkanını saxlayır. Mövcudluğun ikinci tərəfinin təzahürü - mövcudluğun şüura qarşılıqlı əlaqədə olması və bu əlaqədə onun şüura təsir imkanı reallıq kimi meydana çıxır. Fəlsəfədə reallıq anlayışı - yoxluqla və ya varlığın başqa formaları ilə (mümkün olan, ehtimali və s.) müqayisədə şeylərin varlığı kimi təyin olunub.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Nəyəsə münasibət" haqqında bir halda yarıya münasibətdə ikiqat olan nümunə haqqında danışılır, və o ki, ikinci böyükdür - ona ki, ikinci kiçikdir, həmçinin ümumiyyətlə - o kimi, bir neçə dəfə böyük olan, bir neçə qat kiçik olana aiddir, nə ki artıqlıq edir - artıqlıq etdiyinə münasibətdə. Başqa halda bu o nümunəyə uyğun ki, qızma qabiliyyəti qızma iqtidarındakına aid edilir. Nəhayət münasibət haqqında o mənada danışılır ki, ölçülən ölçüyə aiddir, idrak olunan - elmə və hissi qavranılan - hissi qavrayışa aiddir."*

Göründüyü kimi Aristotel münasibətin üç mənasını təyin etmişdir:

Tərəflərin qeyri-müəyyən və ya miqdari-müəyyən qeyri-bərabərliyini vurğulayan münasibət: Aristotel bunu "say münasibəti" kimi təyin etmişdir. Bura üç cür münasibət - bərabərlik, uyğunluq və eyniliklər aiddir. Beləliklə, reallıq bir məlum şeyə bərabərliyinə, uyğunluğuna və eyniliyə görə aşkarlanması mümkün olan başqa şeyi özündə ifadə edir. Təcrübə sahəsində bütün şeylər bir-birinə bu üç cür münasibətdən biri ilə münasibətdədir. Buradan iki hal alınır:

a. Bir şey eyni bir şeylə eyni zamanda hər üç münasibətdə ola bilməz. Yəni bir şey başqa bir şeyə həm bərabər, həm eyni, həm uyğun ola

bilməz. Şeylər yalnız özü-özü ilə hər üç forma münasibətdədir. Buradan da şeylərin bir-birini özündə istisnası meydana çıxır. Yəni əgər bir şey varsa o həm də digər şey ola bilməz. Yəni A A-dırsa, deməli A B deyil.

b. Bir şey bir şeylə yalnız bu münasibətlərdən biri ilə münasibətdə olarkən digər münasibətlərlə başqa şeylərlə münasibətdə olur. Məsələn, A B ilə bərabər, C-yə uyğun, D ilə eynidir. Bu münasibətə görə A, B, C və D-ni vəhdətə gətirmiş olur. Buradan da, şeylər başqa şeylərə münasibətə görə vəhdət təşkil edirlər.

Hər iki tərəfi çıxış edən, fəaliyyətdə olan və fəaliyyəti hiss edənə münasibət: Bura mümkün-potensial və real proseslər aid edilir. Qabiliyyətlər həqiqi şeylərdə realizə olunur. Nəticədə, qabiliyyət şeyin həqiqiliyini müəyyən edir. Qızma hadisəsi yalnız qızan cisimlərdə baş verir. Buradan qızmanın qızana münasibəti həmin şeyin qızan şey olduğunu müəyyən edir. Buradan, keyfiyyətlərinə görə şeylərin mövcudluğunun aşkarlanması meydana çıxır. Məsələn "quru buz" - donmuş karbon qazı maye halına keçmədən birbaşa buxara çevrilir. Halbuki bütün donmuş cisimlər yalnız maye hala keçdikdən sonra buxarlanır. Buradan da, bu keyfiyyət donmuş karbon qazının mövcudluğunu təyin etmiş olur.

Predmetin idraka münasibətinə görə yox, idrakın predmetə münasibətinə görə predmetin idrakı ilə onun predmeti arasındakı münasibət: Təcrübədə, hissi qavrayışda insan eyni vaxtda ən müxtəlif predmetlərin ən müxtəlif təsirlərinə məruz qalır. Amma idrak prosesində istiqamətlənmə yalnız bir şeydən həqiqəti aşkarlamaq məqsədi ilə ona digər hissi obyektlərdən fərqli yanaşma ilə baş tutur. Buradan da, idrakın predmetə münasibəti meydana çıxır. Belə münasibət subyektin obyektə münasibətini təşkil edir. Göründüyü kimi birinci iki qrup münasibət obyektlər arasında, üçüncü münasibət isə obyektlə subyekt arasında olan münasibət kimi təyin olunur. Obyekt-obyekt arasındakı münasibət hər ikisi eyni sıradan olduğundan zəruri, obyekt-subyekt arasındakı münasi-

bət fərqli sıralardan olduqlarından təsadüfidir. Ümumi şəkildə bu fəlsəfənin əsas məsələsinin bir tərəfi kimi "şüurun materiyaya münasibəti" kimi təyin olunmuşdur. Buradan da, şüurun materiyaya münasibəti təsadüfi şərtlərin məcmusu kimi təzahür etdiyindən materiya zərurətə görə şüurla müəyyən olunan olmur.

Materiyanın özü-özündə hissələrə ayrılması, yəni hüdudlanması və ya ölçülənməsi nəticəsində mövcudluq əmələ gəlir. Mövcudluq özündə kütlə ilə həcmin şərtlərinin məcmusundan ibarətdir; hansı ki, birincili və ikincili məkani şərtlər kimi təzahür edir. Bu mənada, materiyanı ölçülənməmiş, hissəsiz total mövcudluq kimi təyin edə bilərik. Beləliklə, sərhəd, hüdud mövcudluğun əsas səbəbi, yəni başlanğıc predikatı kimi təyin oluna bilər. Sərhədə malik olmaq sərhədlənmə feli nəticəsində meydana çıxdığından, sərhədlənməni mövcudluğun predikabiliyası kimi təyin etmək olar. Görmə zamanı biz hər bir şeyi görməmizlə sərhədləyərək konkret şeyin xarici görüntüsünü başqalarının xarici görüntüsündən ayırırıq. Bizim görmə ilə sərhədləməmizlə, mövcudluğun özündə sərhədlənməsi bir-birindən fərqlidir. Biz hər dəfə görmədə mövcudluğun sərhədlərini nəzərimizlə yenidən reallaşdırırıq. Mövcudluq bunun əksinə özünün sərhədlənməsini təkrarlamır. Mövcudluğun sərhədi indi və burada prinsipinə uyğun birdəfəlik baş verir. Əgər belə olmasaydı, görmədə bizim mövcudluğun sərhədlərini təkrarlamamızla mövcudluğun özünün sərhədlənməsini təkrarlaması arasında ziddiyyət meydana çıxardı. Nəticədə heç bir şey özündə sabit forma təzahür etdirməzdi, bu da şeyin təfəkkürdə konkret obraz yaratmaq imkansızlığını ortaya çıxarardı. Sabit sərhədi olmayanı görmə zamanı nəzərimizlə sərhədləyə bilmirik. Bu da onu göstərir ki, şeyin idrakı şeyin xarakteristikalarının dəyişilməzliyini tələb edir. Mayelərin forması sürəkli dəyişildiyindən bizdə onların forması ilə bağlı obraz yaranmır. Sərhəd xarici görüntünün elementlərindən birini - həndəsi forma kimi təzahür etdirir.

Haşiyə: Aristotel, “Metafizika”

> *“Hər bir şeyin kənarı hüdud, sərhəd adlanır; hansı ki, o birincidir ki, ondan kənarda heç nə tapmaq olmaz və o birincidir ki, hər şey daxilindədir. Həmçinin - hər şey, ölçü və ya cismin ölçüyə malik fiqurudur və bərabər şəkildə hər bir predmet üçün son məntəqədir; həmçinin - hər bir şeydə olan və hər bir şeyin mövcudluğunun mənası olan mahiyyətdir; bu sonuncu probel idrak üçündür; əgər idrak üçündürsə, onda şey üçündür. Belə ki, başlanğıc bəzi hüduddur, amma istənilən hüdud başlanğıc deyil.”*

Sərhədlə bağlı Aristotelin fikirlərini şərh etməklə mövcudluq haqqında metafizik biliklər əldə edə bilərik. Beləliklə:

1. **Ondan kənarda şeyin tapılmadığı kənar kimi - hüdud:** Bu mənada hüdud - şeyin xarici başqa şeylərə görə təyin olunmasına görə müəyyən olunur. Hər bir şey hüdudlarından kənarda sonsuz çoxluqda müxtəlif şeylərlə vəhdət təşkil edir. Sonsuz çoxluq özündə abstrakt kimi çıxış edir. Beləliklə, sonsuz çoxluqda - abstraktda aşkarlanmanı istisna edən hüdud, hüdudun birinci mənasını özündə təqdim edir. Bu mənada hüdudla, başqa heç bir şeydə aşkarlanmayan abstrakt olaraq, konkret hüdud daxilində aşkarlanan şeylə eyniləşdirilir. Belə aşkarlanmada şey onu özündə istisna edən başqa şeylərdən - vəhdətdən təyin olunur. Xarici başqa şeylər sonsuz çoxluqda olduğundan, ondan kənarda şeyin tapılmadığı hüdud özündə konkretlə abstraktı, təklə cəmi bir-birindən ayıran hüdud kimi çıxış edir. Belə hüdud xarici vəhdəti özündə təqdim edir. Məhz bu mənada biz idrakda şeylərin bir-birindən fərqliliyini ayırd edirik.
2. **Hər şeyi öz daxilinə alan kimi - hüdud:** Bu mənada hüdud - şeyin yalnız özünə görə təyin olunmasına görə müəyyən olunur. Hər bir şey öz xüsusi həcminin istənilən nöqtəsində hissə kimi aşkarlanır və həmin həcm daxilində hər hansı başqa şey və ya şeyin hissəsi aşkarlanmır. Məsələn, bir alma dedikdə o nəzərdə tutulur ki, almanın sərhədləri daxilində almadan başqa digər heç bir meyvə yoxdur. Bu

mənada hüdud şeyin başqa şeyləri istisnası prinsipini meydana çıxarır. Şey tək olduğundan, ümumidən ayrılıqda götürülmüş konkretlik xarakteristikasına malikdir. Biz bu təyini aşkarlanmaya münasibətdə hüdud adlandırırıq. Belə hüdud başqa kənar şeylərin konkret şeyin daxilinə keçməsinin istisna edildiyini müəyyən edir. Məhz belə hüduda görə biz şeyi konkret şey kimi qəbul edirik. Belə hüdud daxili vəhdəti özündə təqdim edir. Hər bir şeyi təşkil edən hissələr bir-biri ilə vəhdət təşkil edir. Bu vəhdətdən kənarda hissə aşkarlanmır. Biz bunu şeyin özünə münasibətdə hüdud adlandırırıq. Belə hüdud başqa kənar şeyin həmin şeyin daxilinə keçməsinin istisna olunduğunu bildirir. Belə hüduda görə, şey - özündəşey kimi, yəni xalis özü-özü ilə eynilik kimi çıxış edir. Hüdudun bu mənasında şeyin özü-özü ilə eynilik təşkil etməsini müəyyən edirik.

3. **Forma kimi - hüdud:** Bu mənada hüdud - şeyin xarici görüntüsünü, onun həndəsi formasını yaradan kimi təyin olunur. Hər mövcud varlıq özündə forma ilə mahiyyətin vəhdətindən ibarətdir. Bu vəhdətdən kənarda şeyin mahiyyəti aşkarlanmır. Başqa sözlə, forma şeyin özündə sonu kimi meydana çıxır. Hər bir şeyin sonu əməlegəlmənin başa çatdığı vəziyyətdir. Forma şeyə münasibətdə - özü üçün varlıq təyini kimi - son, idraka münasibətdə - xarici görüntü, yəni şeyin başlanğıcıdır. Buradan formanı obyektlə subyekt, xalis fikirlə heçlik arasındakı hüdud kimi təyin edə bilərik. Digər tərəfdən, forma həm də vəhdətdə olduğu mahiyyətin başqa forma ilə vəhdətini istisna edərək mahiyyətlərarası hüdud rolunda çıxış edir. Yəni mahiyyət vəhdətdə olduğu formadan kənarda, başqa formalardan aydınlaşmır. Buradan da, bir şeyin iki substansiyaya malik olmasının istisnası meydana çıxır.
4. **Mahiyyət kimi - hüdud:** Hər bir mövcudluq əvvəllə son arasında mövcuddur. Əvvəl mövcudluğun mənasını - daxili görüntünü, ideyanı; son həmin mənanın təzahürünü - xarici görüntünü, formanı

özündə təqdim edir. İdrak prosesində mahiyyət - idraka münasibətdə əvvəl olan formadan sonradır; mövcudluğun özünə münasibətdə isə sonra olan formadan əvvəldir. Özü əvvəl olduğundan özündən əvvəl yoxdur. Özündən sonrakı olduğundan, özü sonra deyil. Beləliklə mahiyyət sonralar və əvvəllər arasındakı hüduddur. Hansı ki, idrakın başa çatmasını təmin edir. Əks halda, bir sonradan başqa sonraya keçid olsaydı və bir əvvəldən qabaq başqa əvvəl olsaydı, onda ümumiyyətlə idrak baş tutmazdı.

Beləliklə, mövcudluğu - müəyyən ölçülü sərhəd daxilinə alınmış, bununla da başqa belə ölçülü sərhədlərdən ayrılmış, idraka münasibətdə forma ilə mahiyyət arasında əlaqədən aşkarlanan materiya kimi təyin edə bilərik.

Hüdud eyniliklə fərqliliyi bir-birindən ayıran metafizik anlayışdır. Yalnız hüduda görə şeylər başqalarından fərqlənir və yalnız hüduda görə özü ilə eynilik təşkil edir. Fərqlilik və eynilik həqiqətin xarakteristikaları olduğundan hər ikisi birlikdə mövcudluğun mahiyyətində vəhdət təşkil edirlər. Məsələn: A B-dən fərqlidir və A A-ya bərabərdir. Hər iki müqayisədə eyni bir A iştirak edir. Eyni bir A-nın fərqli müqayisələrdə iştirakı həmin müqayisələri vəhdətə gətirməsinə səbəb olur. Beləliklə, hüdud - bilavasitə şeyin əsası - onun mahiyyətinin xarakteristikasına keçərək onun sonrakı emanasiyasına imkan vermir. Hər bir mövcudluğun özündə aydınlaşdırdığı həqiqətin emanasiyası onun sərhədlərində başa çatır.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Əsas eyniliklə fərqliliyin vəhdətidir, o, fərqlilik və eynilik olanın həqiqətidir, özü-özündə refleksiya və bir o qədər də başqasında refleksiyadır və əksinə. O totallıq kimi qoyulmuş mahiyyətdir."*

Hegelin fikirlərindən görünür ki, mövcudluğun əsası eyniliklə fərqliliyin vəhdətindən ibarətdir. Əgər mövcudluğun əsası yalnız eynilik-

dən ibarət olsaydı, onda o özündəşey olardı və buna görə də idraka bilavasitə təqdim olunmazdı. Yox əgər mövcudluğun əsası yalnız fərqlilikdən ibarət olsaydı, o xalis forma kimi heçlik olardı, yəni heç bir həqiqətə malik olmazdı. Buradan da, mövcudluğun əsası - eyniliklə fərqliliyin vəhdəti - özündə mahiyyətlə formanın vəhdətinin şərtlərinin məcmusu kimi çıxış edir; hansı ki, eyniliyə görə şey özündəşey kimi mövcudluq, fərqlilik kimi özündənşey kimi mövcud olan olur.

Mövcudluğun özü-özündə refleksiyası ilk növbədə onun "özü" olmasını tələb edir. Mövcudluq yalnız hüduda münasibətdə özü olur, yəni başqasına keçmir və başqasını öz daxili həcminə buraxmır. Beləliklə, özündə refleksiya ümumidən ayrılma kimi təzahür edir. Beləliklə konkret mövcudluq Kosmosdan ayrılıqda götürülən konkret şeyi özündə ifadə edir. Bütün mövcudluqlar eyni əsasa malik olduğundan, hər bir mövcudluq həm də öz hüdudundan kənarda olanlarda refleksiya edir. Kənarda olanlar da öz növbəsində öz sərhədləri daxilində özü-özü ilə refleksiya və başqası ilə refleksiya edir. Beləliklə, birinin özü-özü ilə refleksiyası digərinin onda refleksiyası ilə vəhdət təşkil edir. Özü-özünü refleksiya eynilik, başqasının onda refleksiyası fərqlilik kimi qavranılır. Bu vəhdət Hegelin dediyi kimi, eyniliklə fərqliliyin vəhdətini yaradır.

Metafizik olaraq mövcudluğu həm də idrak prosesinin sonu - mahiyyət kimi, gerçəkliyin başlanğıcı - xarici görüntü yaradan forma kimi təyin edə bilərik. İdrak prosesinin sonu idrakın nəticəsi ilə eyniyyət təşkil edir. İdrak prosesinin nəticəsi həqiqətin təfəkkürdə aşkarlanmasıdır. Onda mövcudluğu həqiqətin aydınlaşmasının başlanğıcı kimi təyin edə bilərik. Beləliklə, materiyada həqiqətin aydınlaşmasının müxtəlif dərəcəli entropiyasından mövcudluq meydana çıxır.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Mövcudluq haqqında düzdür müxtəlif mənalarda, amma bu zaman həmişə hansısa təkə və bir əsas reallığa münasibətdə danışılır. Beləliklə burda təkcə yalnız adın ümumiliyi deyil. Bir*

halda bu ad ona görə işlədilir ki, biz mahiyyətlə üz-üzəyik, başqa halda - ona görə ki bu mahiyyətin vəziyyətidir, bəzən ona görə ki bu mahiyyətə yoldur və ya onun məhv edilməsi və ya onun olmamasıdır, bəzən mahiyyətin hansısa keyfiyyəti və ya mahiyyətin özünü yaradan və ya doğurandır, beləliklə o ona hansısa münasibətdədir: nəhayət, bu mahiyyətin hansısa uyğun xüsusiyyətinin və ya onun özünün inkarıdır, ona görə də biz qeyri-mövcudluq qeyri-mövcudluqdur, deyirik."

Aristotelin mövcudluq haqqında şərhlərindən görünür ki, o mövcudluğun mənasına münasibətdə onun müxtəlif formalarını ayırd edir; hansı ki, baxmayaraq ki mövcudluq müxtəlif formalarda çıxış edir, amma mövcudluğun bütün bu formaları onun bir əsas mənası ilə əlaqədə olur:

1. **Təkə və bir əsas reallığa münasibətdə mövcudluq:** Mövcudluq həqiqəti özündə aydınlaşdıran istənilən vasitədir. Həqiqətin aydınlaşmasını biz onun aşkarlanmasına görə təyin edirik. Buradan da, mövcudluğu həqiqəti özündə aydınlaşdıran konkret, ayrılıqda götürülmüş şey kimi təyin edə bilərik. Tək özündə faktı, reallıq - həmin faktın məkanda və zamanda sıralanmasını özündə təqdim edir. Ona görə də bir şeydən aşkarlanan mahiyyət həmin faktların təşkil etdiyi çoxluqdan da eynilik kimi aşkarlanır. Beləliklə, təcrübədə obyekt-subyekt münasibətində, hissi qavrayışla qavranıla bilən istənilən ayrılıqda götürülmüş konkret tək bir şey mövcudluq kimi çıxış edir.
2. **Mahiyyətə münasibətdə mövcudluq:** Ayrılıqda tək kimi hissi qavrayışla qavranılmayan, lakin təfəkkürdə nəzəri olaraq mümkünlük kimi aşkarlanan hər bir şey mövcudluqdur. Belə mövcudluq forma ilə mahiyyətin vəhdətinin pozulması ilə təyin olunur. Belə ki, hər bir mövcud varlıq xalis fikirlə - mahiyyətlə, özü-üçün-varlığın - formanın vəhdətini özündə təqdim edir. Burada, ayrılıqda forma heçlikdir və yalnız formaya münasibətdə mövcudluq təyin oluna bilməz. Məsələn, kölgə və ya hallüsinasiya zamanı görünən obrazlar xalis

formadır, amma mahiyyətləri olmadığından mövcudluq deyillər. Bunun əksinə, mövcud varlıq formasız ayrılıqda mahiyyətindən idrak oluna bilər. Beləliklə, şeyin mövcudluğu yalnız mahiyyətə malik olması ilə təyin olunur.

3. **Mahiyyətin vəziyyətinə münasibətdə mövcudluq:** Mövcud varlıqda eyni şeylər mühitdən asılı olaraq eyni həqiqəti eyni cür özlərində aydınlaşdıra bilmirlər. Buradan da, həqiqətin nisbiləşməsi meydana çıxır. Həqiqətin mütləqləşmə istiqamətində inkişafı mahiyyətin vəziyyətinə münasibətdə mövcudluğu meydana çıxarır. Başqa sözlə, belə mövcudluq həqiqətin aydınlaşmasının aydınlığına görə müəyyən olunan mövcudluqdur.
4. **Mahiyyətin yoluna münasibətdə mövcudluq:** Şeylərin müxtəlif halları özlərində bir və eyni mahiyyəti aydınlaşdırsa da, idrakda onlar fərqli üsullarla aşkarlanır. Məsələn, maye, qaz və bərk halında eyni bir maddə müxtəlif qanunlara tabe olur. Amma halların qanunları müxtəlif olsa da, həmin qanunlar eyni bir mahiyyəti özündə aşkarlayır. Belə mövcudluq mahiyyətin yoluna münasibətdə mövcudluq kimi təyin olunur. Məsələn Su, buz, buxar - bunların hər üçü eyni bir mahiyyətə malik olsa da, fərqli xarakteristikalardan özlərindəki mahiyyəti aydınlaşdırırlar.
5. **Mahiyyətin keyfiyyətinə və ya onu yaradana münasibətdə mövcudluq:** Əmələgəlmə prosesində nəsə nədənsə əmələ gəlir. Bu zaman "nədənsə"nin mahiyyəti "nəsə"nin mahiyyətinə keçir. Nəticədə, nəsə nədənsəyə görə mahiyyətə malik olur və nədənsənin mahiyyəti nəsədən aşkarlanır. Məsələn, Xörək duzu Na və Cl-dan əmələ gəlir. Xörək duzunun mövcudluğu Na və Cl atomlarına münasibətdə təyin olunur.

Aristotel buradan belə nəticəyə gəlir ki, mövcudluğun formaları müxtəlif olsa da eyni bir mahiyyəti özlərində təqdim etdiklərindən mövcudluq yalnız bir elmin - fəlsəfənin predmeti olmalıdır.

Varlığın mövcudluq üsulu - yaranış, mövcudluğun varlıq üsulu - əmələgəlmədir. Buna görə də, materiyaya münasibətdə Varlıq başlanğıc və ya səbəb, mövcudluq - son və nəticədir. Varlıq başlanğıc kimi təkdir, mövcudluq son kimi çoxluqdur. Buradan da, Varlığın təkliyinin mövcudluğun totalığında refleksiya etməsi aşkarlanır. Yəni Varlığın mövcudluğu mövcudluqların varlığının totallığıdır. Buna görə də, Varlığın mövcudluğu mövcudluğun varlığının çoxluğunun vəhdətindən idrak olunur.

İdrak Yaranışın sonundan - gerçəklikdən başlayıb, onun başlanğıcına, mərhələ-mərhələ gerçəkliyin dərin qatlarına doğru irəliləyir. Hər bir mərhələdən əldə edilmiş həqiqət təfəkkürdə daha ümumi kimi refleksiya edir. Beləliklə, idrak prosesində insan sanki gerçəkliyin daxilinə - onun dərinliyinə endikcə, öz daxilində təfəkkürün yüksəkliyinə qalxır və gerçəkliyin dərinliyi-həqiqəti idrakın yüksəkliyində refleks olunur. Sanki gerçəklik tərsinə çevrilmiş təfəkkürü özündə təqdim edir.

Həqiqət konkret faktdan təzahür etdiyindən, idrak prosesi də faktdan həqiqəti aşkarlayır. Beləliklə, faktı xüsusi həqiqətin başlanğıcı kimi təyin edə bilərik. Bəs fakt özündə nəyi təqdim edir? Təfəkkürdə yalnız bölünməsi mümkün olanlar refleksiya olunur. Ona görə də deyə bilərik ki, idrakın başlanğıcı istənilən nisbi tamlıqdır. Nisbi tamlıq faktiki və formal olaraq hissələrə bölünmək xarakteristikasına malikdir. İdrak prosesi analizdən induksiya ilə başlayıb sintezdə deduksiya ilə başa çatır. Buna görə də analiz edilməsi - fikrən bölünməsi mümkün olmayan, yəni induksiya olunmayan - tək fakt kimi çıxış etməyən heç nə idrakın başlanğıcı kimi çıxış edə bilmir. Yəni idrak hissələrə bölünməyən tamlıqdan başlaya bilmir, yəni hissələrə bölünməyən tamlıq idrak üçün qapalıdır.

Haşiyə: C. Berkli, “Fəlsəfi qeydlər”

"Aksioma. Bizdə ideyası olmayan şeylər haqqında, buna görə də - sonsuz kiçiklər (infinitesimals) haqqında heç bir mühakimə ola bilməz."

C. Berklinin bu fikirləri ilə razılaşmaq çətindir. Belə ki, bölmə təfəkkürdə aparıldığından, təfəkkürdə isə bu əməliyyat yalnız ideya formasında aparıldığından, nəzəri olaraq, nisbi sonsuz kiçik (infinitesimalis) haqqında mühakiməyə malik ola bilərik. Sonsuz kiçiyin ideyasız qəbul edilməsi təfəkkürdə bölünmənin mahiyyətinə ziddir. İdeyasız reallıq olmadığından reallığın bölünməsindən irreallıq alınmaz, deməli sonsuz kiçiyin də ideyası olmalıdır. Əgər sonsuz kiçik ideyaya malik olmasaydı, onda reallıq öz başlanğıcında irreallıqdan təşkil olunmasını qəbul etmək lazım gələrdi. Əgər sonsuz kiçik ölçüdə reallıq irreallığa keçirsə, bunun əksinə, sonsuz böyük ölçüdə irreallıq reallığa keçməlidir; bu isə reallığın mahiyyətinə ziddir.

Əslində yaranış müxtəlif səviyyəli olduğundan, və bir səviyyə başqa bir səviyyəyə keçdiyindən (casa transitorias), təbiətdə sonsuz heç nə yoxdur. Deməli sonsuz bölünmə də absurddur. Buradan da bölünməni sonlu qəbul etmək lazım gəlir. Bölmə sonlu olduğundan sonuncu kiçiyi - mütləq hissəni aşkarlamaq mümkündür. Biz gerçəkliyi xaricdə konkret olaraq o həddə qədər hissələrə ayıra bilərik ki, həmin hissə özündə mövcudluğun əsasını - başlanğıcını təqdim etsin. Bu həddən sonra tamlıq fikrən bölünə bilər və mövcudluq fikrən bölünməsi o həddə qədər davam etdirilə bilər ki, o Yoxluğu özündə təqdim etsin. Hissənin özündə Yoxluğu təqdim etməsi ilə idrak prosesi dayanır. Beləliklə, biz idrak prosesinin dayandıran sonuncu hissəni **mütləq tam** kimi təyin edirik. Beləliklə, İdrak nisbi tamla mütləq tam arasında mövcudluğun qurulma qanunauyğunluqlarını aşkarlamaqla mövcudluğun həqiqətini aşkarlayır. Göründüyü kimi, idrak prosesində ən son hissə - Yoxluq bütün mövcudluqlar üçün eynidir, çünki ən ümumi həqiqət yalnız eynilik kimi mövcuddur.

Haşiyə: Leybnic, “Mütləq birinci həqiqət”

> *“Ağlın həqiqətləri arasında mütləq birinci eyni həqiqətlərdir, faktın həqiqətləri arasında olan - aprior olaraq bütün təcrübələri sübut edə biləndir.”*

Leybnicin fikirlərindən görünür ki, həm ağlın, həm də faktın birinci həqiqəti təfəkkürdə mövcud olan eyni və ümumi olan həqiqətdir. Burada ümumilik bütün faktlara münasibəti, eynilik bütün faktlardan aşkarlanmanı özündə təqdim edir. Mütləq fakt məhz özündə eyni və ən ümumi həqiqəti aydınlaşdırdığından, özündə mütləq birinci həqiqət kimi aşkarlanır. Mütləq birinci həqiqət mütləq həqiqət deyil; hansı ki, mütləq birinci həqiqət mütləq həqiqətin nisbiləşməsinin başlanğıcı kimi çıxış edir. Nisbiləşmə nəticəsində faktlar fərqliləşməyə, müxtəlifləşməyə başlayır.

Fəlsəfədə mütləq tam müxtəlif formalarda təsəvvür edilir. Belə təsəvvürlərə atom haqqında qədim filosofların təsəvvürləri, Leybnicin Monada haqqındakı təsəvvürləri daxildir. Kainatın metafizikası həm də mütləq tam haqqında təsəvvürlərin yaranmasını şərh etməlidir. Mütləq tam haqqında təsəvvürlər, mütləq hissə haqqında təsəvvürlərin əksiliyi kimi meydana çıxır. Mütləq hissə - nisbi tamı təşkil edən ən kiçik hissədir. Biz tamı təşkil edən mütləq hissəni görünən ən kiçik fakt kimi - xarici görüntünün başlanğıcı kimi təsəvvür edirik. Görünən ən kiçik xarici görüntü nöqtə formasından ibarətdir. Buradan da, mütləq tam fikrən kürə-nöqtə formasında təsəvvür edilir. Buna görə də, istər atom, istər monada özündə kürə formasında təsəvvür edilir.

Haşiyə: Leybnic, “Monadologiya”

> *“Monada mürəkkəbə daxil olan sadə substansiyadan başqa bir şey deyil; sadə, yəni hissəsi olmayan. O yerdə ki hissə yoxdur, orada məsafəlilik, fiqura və bölünənlik yoxdur. Monadın təbii dəyişilmələri daxili prinsipdən çıxır, xarici prinsip monadın daxilinə nüfuz edə bilməz. Ancaq monadlar zəruri olaraq hansısa xüsusiyyətlərə malik olmalıdırlar, başqa cür onlar mövcudluq olmazdı.”*

Biz mütləq tamı - faktı Leybnicin monadı kimi təsəvvür edə bilərik. Monad mövcuddursa, onun xüsusiyyətləri də olmalıdır. Amma monad o ölçüdə mövcuddur ki, o ölçüdə xüsusiyyətlərini aşkarlamaq - C. Berklinin təbirincə "fikir yaratmaq qabiliyyətinə" malik deyildir. Deməli monadın xüsusiyyəti özü ilə eynilik təşkil edən digər monadların cəmindən - nisbi tamlıqdan aşkarlamaq olar. Buradan da, hər hansı bir şeyin xarakterik xüsusiyyətini onun mütləq tamının xüsusiyyəti kimi, ümumi xüsusiyyətini isə nisbi tamının xüsusiyyəti kimi təyin edə bilərik.

MATERİYANIN FORMALAŞMASI - MÖVCUD VARLIĞIN ƏMƏLƏ-GƏLMƏSİ

Elə-belə materiya ayrılıqda götürülmüş konkret şeydən yox, yalnız abstrakt götürülmüş bütün mövcudluqların totallığından - ən ümumidən abstrakt aşkarlanandır. Konkret mövcudluqdan aşkarlanan materiya formalaşmış materiyadır. İkincili materiyanın ikincili təsadüfə görə şərtlərlə təmin edilməsindən maddilik hərəkətliliklə vəhdət təşkil edir. Maddiliyin hərəkətlə vəhdətindən formalaşmış materiya meydana çıxır.

Plotinə görə xüsusi - forma, ümumi - materiyadır. Buna görə Bruno materiyanı "formasız şey" kimi təsəvvür edir. Burada "forma" anlayışının mənalarına baxmaq və materiya hansı mənada "formasızdır" fikrinə aydınlıq gətirmək lazımdır.

Fəlsəfədə forma məzmunla vəhdətdə "təbii və sosial reallığın iki tərəfinin: predmet və ya hadisənin əmələgətirən ünsür və predmetlərin müəyyən qaydada nizama salınmış məcmusunun, yəni məzmunun və bu məzmunun mövcud olması və ifadə üsulunun, onun müxtəlif modifikasiyalarının, yəni formanın qarşılıqlı əlaqəsini ifadə edən" kateqoriyalar kimi təyin edilmişdir. Fəlsəfədə forma anlayışı həmçinin materiyanın daxili təşkili mənasında işlədilir və bu mənada forma struktur kateqoriyasında inkişaf etdirilir. Forma obyektin dəyişən, yəni məzmunun inkişafına sürət verən tərəfidir. Forma ilə bağlı fəlsəfi təyindən etdiyimiz

seçmələr - hadisəni əmələ gətirən ünsür, nizama salma, mövcud olma, ifadə etmə, daxili təşkil, dəyişən tərəf, inkişafa sürət verən - söz birləşmələrinin hamısı istinasız olaraq fəaliyyət və hərəkət kimi qavranılan anlayışın predikatları kimi mövcuddur. Buradan da formanın məhz hərəkətin - fəaliyyət və aktivliyin təzahürü olmasını demək olar. Başqa sözlə, forma ikincili təsadüfə görə şərtlərin məcmusudur; hansı ki, əmələ gəlmədə konkret məzmuna - konkret mövcudluğa təklif olunur, amma həmin məzmunla keçici vəhdət təşkil edir və məzmunun inkişafında - yəni yeni mövcudluq tələbində artıq bir forma başqası ilə əvəzlənərək məzmunun inkişafını təmin edir. Təsadüfi şərtlərin zəruri şərtlərlə vəhdətindən emanasiya prosesi başlayır. Emanasiya təsadüfün zərurətə təsiri və zərurətdən aydınlaşan həqiqətin entropiyaya məruz qalmasını özündə təqdim edir. Başqa sözlə, emanasiya eyni bir məzmunun müxtəlif formalarla vəhdət təşkil etmə imkanından meydana çıxır; hansı ki, fərqli formalar eyni bir məzmunu fərqli dəqiqlikdə özündə ifadə edir.

Forma mahiyyəti-həqiqəti entropiyaya məruz qoyduğundan, biz formanı emanativ mahiyyət kimi təyin edirik. Emanasiya prosesinin sonunda xalis forma - mövcudluqların özü-üçün-varlıq təyini meydana çıxır ki, heç bir mahiyyətə malik olmadığından xalis heçliyi özündə təqdim edir. Emanasiyanın ayrı-ayrı səviyyələrində formadan ayrı-ayrı dərəcəli həqiqətlər meydana çıxdığından, formanın çoxmənalılığı yaranır. Emanasiya həqiqətin totallığının dağılması və onun ayrı-ayrı dərəcələrdə meydana çıxmasına səbəb olur. Beləliklə forma - parçalanmanın, ayrılmanın və parçalamağın, ayırmağın, yəni hərəkətliliyin nəticəsi kimi təzahür edir.

Haşiyə: Cordano Bruno, "Səbəblər, başlanğıclar və tək haqqında"

> *"Daimi başlanğıc olan forma materiyanın varlığına uyğuna xas onda mövcud olan deyil; onun mövcudluğu cisimdən və materiyadan asılı deyil. Bundan başqa mən materiya ilə müşayiət olunan bütün formaları təyin etmirəm, o zaman ki materiyaya aid*

kimi mən artıq əminliklə təsdiq edirəm ki, o faktiki olaraq formadan məhrum hissə deyil; əgər onu Aristotelin ehtimal etdiyi kimi xalis məntiqi təyin etməsək, hansı ki, heç vaxt ağılla, təbiət və həqiqətə uyğun ayrılmayanı ayırmaqdan dayanmayacaq."

C. Brunonun fikirlərindən görünür ki, o formanı materiyadan kənar, ondan asılı olmayan və onunla eyni dərəcədə müstəqil başlanğıc kimi təyin edir. Biz Bruno ilə qismən razılaşırıq; belə ki, konkret formanın səbəbi - xalis hərəkətlilik (yəni təsadüfə görə şərtlər, zaman şərtləri) materiyadan - zərurətə görə şərtlərdən (yəni məkan şərtlərindən) ayrıdır, ikincilidir və müstəqil şərtlərdən ibarətdir. Amma nəticə kimi konkret forma bu iki şərtin vəhdətindən - zaman şərtlərinin məkan şərtlərinə verilməsindən - maddiliyin hərəkətliliyindən alındığından konkret forma həm də bir tərəfdən də maddiliklə - ikincili materiya ilə bağlıdır. Maddilikdən kənar forma - mücərrəd formadır. Belə formanı biz əlimizin hərəkəti ilə fəzada və ya hər hansı bir predmetdə cıza bilərik; buradan da həndəsi forma alınar. Beləliklə, həndəsi forma - mücərrəd forma materiyadan kənardır, yəni aksidensivlikdir. Həndəsi formanın materiyaya verilməsi ilə maddi şeyin konkret forması meydana çıxır ki, bu da materiyadan kənarda mümkünsüzlükdür. Əgər konkret forma materiyadan kənar, ondan asılı olmayan müstəqil başlanğıcdırsa, onda necə və hansı zərurətə görə forma maddi şeylərdən təzahür edir və nəyə görə təbiət və həqiqətə uyğun ayrılmayanı ağılla ayıra bilmirik? Hansı ki, təbiətin əsası materiyaldır və həqiqət hissi qavranılma yolu ilə materiyadan aşkarlanır. Bizcə konkret forma başlanğıc - ilk səbəb yox, ilk səbəbin - mücərrəd formanın ilk və ya başlanğıc nəticəsidir. Başlanğıc nəticə olduğundan sonrakı bütün nəticələr - ayrı-ayrı formalar da ondan çıxır.

Forma emanativ mahiyyət olduğundan formadan yalnız nisbi həqiqət aşkarlamaq mümkündür. Emanasiya dialektik proseslə vəhdətdə meydana çıxdığından, forma analitik yolla aşkarlanandır; yəni forma varlığın müxtəlif pillələrində, müxtəlif dərəcələrdə meydana çıxır. Ona görə də

forma çoxmənalılıq əldə edir. Emanasiyanın ən ümumidən orijinallığa doğru inkişafına uyğun, forma da öz növbəsində ən ümumi mənalılıqdan orijinal mənalılığa doğru inkişaf edir. Ümumidən ayrılma predmetə ayrılıqda götürülmüş tək şey keyfiyyəti verir. Beləliklə, konkret maddi forma ayrılıqda götürülmüş tək şeydə təzahür edən keyfiyyətdir. Forma vəhdətin əksiliyi kimi çıxış edir. Başqa sözlə, vəhdət mahiyyətdən, ayrıca təklik - vəhdətdən kənar təzahür formadan çıxır. Emanasiya nəticəsində mövcudluqlar reallıqlara - konkret maddi forması olan şeyə çevrilir. Buradan da, formanı reallıqların başlıca xarakteristikası kimi təyin edə bilərik. Beləliklə, reallıqların forması konkret, mövcudluqların forması abstraktdır.

Bu baxımdan biz formanı mənasına görə abstrakt-qeyri-maddi və konkret-maddi olmaqla iki qrupa ayıra bilərik. Konkret maddi forma ayrılıqda götürülmüş təki yerdə qalan ümumidən sərhədləndirən formadır. Abstrakt qeyri-maddi forma hissi qavranılma ilə ayrılıqda götürülmüş şeyin formasının təfəkkürdə refleksiya ilə obraz yaratmasıdır. Buradan da fəlsəfədə təyin olunduğu kimi forma "sosial reallığın" tərəfi kimi çıxış edir.

Konkret forma termini özündə üç mənanı - növ, görünüş və obrazı ifadə edir. Burada obraz təfəkkürdə aydınlaşdığından abstrakt, görünüş və növ obyektdən aydınlaşdığından konkretdir.

Ən sonuncu forma, yəni heç bir mahiyyəti olmayan emanativ mahiyyət obraz olduğundan, obrazın şərhindən onun ilkin mənalarına varmaq olar. Beləliklə, formanın sonuncu mənası obrazı özündə təqdim edir. Biz obraz vasitəsi ilə ayrılıqda götürülmüş şey haqqında özümüzdə təsəvvür yaradırıq. Buna görə də, obraz orijinal forma kimi təyin oluna bilər. Ən nisbilik orijinallığın xarakteristikasıdır. Deməli obraz orijinallığın təzahürüdür. Orijinallıq ayrılıqda götürülmüş təkin həqiqətidir. Beləliklə obrazı təsəvvürlə vəhdət təşkil edən abstrakt təfəkkür elementi kimi təyin edə bilərik. Obraz formanın şeydən aksidensiyası ilə meydana çıxır.

Obraz şeyin görüntüsünün təsvirindən əldə edilir. Buna görə, rəssam istənilən şeyin obrazını abstraksiya edərək şeydən kənarda, onun mahiyyəti ilə vəhdətdən qoparılmış şəkildə başqa şeyin formasına proyeksiya edə bilir.

Formanın ikinci mənası, **görüntüdən** ibarətdir. Görüntü şeyin işıqlanması ilə görmə analizatoruna şeyin təsirindən meydana çıxır. Görüntü rəngdən, saydan və həndəsi formadan ibarət mürəkkəb tərkibli-dir. Mürəkkəb olduğundan ən müxtəlif ayrılıqda götürülmüş şeydən aşkarlanır, buna görə də belə formanı xüsusi forma kimi təyin etmək olar. Burada həndəsi forma təsadüfi, rəng və say görüntünün zəruri element-idir. Həndəsi forma sonuncu, ayrılıqda götürülmüş fərdi şeyin xarici görüntüsündən aşkarlanır. Həndəsi forma şeyin obrazıdır; hansı ki, şeyin xarici görüntüsündən aşkarlanır və təfəkkürdə refleksiya edərək şeyin abstrakt obrazını yaradır. Obraz varlığın özü-üçün-varlıq təyini təşkil edir və mahiyyətdən ayrılıqda xalis heçlikdir. Həndəsi forma dayanıqlıdır, ölçülülüyə malikdir, hissi qavranılandır, abstrakt dərk ediləndir, aksiden-sivdir, xaricidir, ümumidir, keçicidir, təsadüfidir. Həndəsi forma görmə hissi ilə qavranılandır. Yəni biz həndəsi formanı görmə ilə ayırd edirik. Həndəsi forma xətlərin məkanda fərqli bucaq altında birləşməsindən əmələ gəlir, nəticədə formanın müxtəlif nöqtələri gözlə müxtəlif məsafələrdə yerləşir. Müxtəlif məsafələrdən gələn şüa müxtəlif inten-sivlikdə qəbul edilir. Bu da təfəkkürdə hər bir formanın obrazının yaranmasını təmin edir.

Dayanıqlıdır ona görə ki, daxili strukturla əlaqəlidir; daxili strukturu olmayan maddənin öz həndəsi forması olmur. Məsələn qazların daxili strukturu olmadığından həndəsi formaları da yoxdur. Forma məkanla şərtlənməni özündə əks etdirdiyindən və zamanla bir məqamlı, bir para-metrli şərtləndiyindən zamandan asılı olaraq dəyişilmir. Həndəsi forma yalnız məkan şərtlərindən yarandığından məkan şərtlərinin dəyişilməsi ilə dəyişilir. Məkanla birtərəfli şərtləndiyindən ölçülülüyə malikdir. Yəni

həndəsi formanın üç ölçüsü - eni, uzunu və hündürlüyü vardır və bu ölçülər bir-birinə münasibətdə fərqli ölçülülüyə malikdir.

Həndəsi forma aksidensivdir, yəni şeydən ayrılandır. Buna görə də, hər hansı bir şey müxtəlif həndəsi formalarda mövcud ola bilər və formanın dəyişilməsi şeyin mahiyyətinə təsir etməz. Həndəsi forma aksidensiv olduğundan abstraksiya olunandır; yəni əgər hər hansı bir həndəsi forma təfəkkürdə konkret obraza malikdirsə, insan həmin formanı abstrakt təsvir etmək imkanına malikdir. Həndəsə elmi həndəsi formanı abstraksiyalaşdırmaqla onun tabe olduğu qanunauyğunluqları öyrənir.

Həndəsi forma, xarici və aksidensiv olduğundan zərurətə görə yox, təsadüfə görə təzahür edir. Yəni hər hansı bir şeyin təbiətdə konkret həndəsi forma alması təsadüfi şərtlərdən asılıdır.

Həndəsi forma keçicidir. Həndəsi forma iki cür keçicilik əldə edir: Təbii yolla keçicilik - şeyin həndəsi formasına təsir edən şərtlər dəyişdikdə forma dəyişir. İkinci süni yolla - insan abstraksiya etdiyi formanı istənilən şeyə proyeksiya etməklə onun həndəsi formasını dəyişdirə bilir. Həndəsi forma xaricidir, yəni şeyin konkret həndəsi forması onun daxili forması ilə eyniyyət təşkil etmir. Həndəsi forma materiyanın müxtəlif növləri üçün ümumidir, yəni şeyin sırası ilə şərtlənməmişdir, hər bir həndəsi forma şeyin sırasından asılı olmayaraq eynidir. Məsələn, kub həm metal, həm taxta, həm rezində eyni bir forma kimi təzahür edir. Belə forma yalnız hissi qavranılan maddi şeylərin bərk aqreqat halından meydana çıxır.

Formanın üçüncü mənası **növü** özündə təqdim edir. Növ mövcudluğun mövcudluq üsulundan aşkarlanır və eyni sıra varlıqlar üçün ümumidir. Növ də öz-özlüyündə bir çox dərəcələrə ayrılır. Sonuncu növ maddənin halıdır. Hal - xüsusi formanın şəkildəyişilmələrindən ibarətdir. Hər bir maddə üç müxtəlif halda mövcud olur və eyni zamanda bu haldan yalnız birində təzahür edir, digər iki hal isə potensiya kimi şeydə

saxlanılır. Hallar maddənin ümumi növündən çıxdığından sadə növ kimi çıxış edir. Şeyin halı xarici şərtlərdən asılı olaraq təzahür etdiyindən, halı da təsadüfi forma kimi qəbul etmək olar. Bu haldan birincisi - bərk hal şərtsiz həndəsi formanın başlanğıcını təşkil edir. Maye halı formadan formasızlığa keçid halıdır. Belə ki, maye töküldüyü qabın formasını alır və bununla da başqa şeyin forması ilə görüntüyə daxil olur; yəni maye halının forması şərti həndəsi formadır. Nəhayət üçüncü hal, qaz halıdır. Qaz halı nə müstəqil-birincili, nə də şərtlənmiş-ikincili həndəsi formaya malik deyildir. Beləliklə, maddə aqreqat halından asılı olaraq şərti olaraq formasızlaşır.

Formanın ən ümumi mənası mövcudluqların mövcudluq üsulunu özündə təqdim edir. Mövcudluq üsulu əbədi və sonsuz mövcudluq istiqamətində varlığın cəhdini özündə təqdim edir. Mövcudluq üsuluna görə mövcudluqlar özü-özündə özü ilə mövcudluğa cəhd üsuluna malik cisimlər, özü-özündə və özündən olanla mövcudluğa cəhd üsuluna görə canlılar və özündənkənar başqaları ilə mövcudluq üsuluna malik ruhlu insan kimi üç ən ümumi formada - növdə meydana çıxır. Belə forma mövcudluğun - faktın yox, faktın aktuallaşmasının - mövcud olmasının, yəni aktın formasıdır. Akt faktın aktuallaşması kimi meydana çıxdığından, ikincilidir və faktdan asılıdır.

Haşiyə: Cordano Bruno "Səbəblər, başlanğıclar və tək haqqında"

> *"Yəhudilər arasında ən müdrik hesab edilən Süleyman deyir: Olan nədir? Nə ki olmuşdur. Olmuş olan nədir? Odur ki vardır. Günəş altında heç nə təzə yoxdur. Materiya kimi forma da həmişəlik başlanğıclardır. Bu forma materiyanın mövcudluğu ilə eyni obraza xas materiyada mövcud olmayandır. Birinci forma formalaşdırır, uzanır və materiyadan asılı olur; belə ki, o hər şeyi formalaşdırır, o hər şeydədir; belə ki, o uzandığından, tamın təkmilliyini hissələrə çatdırır; belə ki, o asılıdır və özü-özünə fəaliyyət göstərmir, o tamın fəaliyyətini, həmçinin onun adını və mövcudluğunu hissələrə çatdırır. Material forma belədir. İkinci növ forma formalaşdırır, asılı olur, amma yayılmır; beləliklə hər şeyi təkmil*

edir və hər şeyi realizasiya edir, hər şeydə və onun istənilən hissəsində yerləşir; beləliklə o uzanmır, ondan o əmələ gəlir ki, tamın həqiqətini o hissələrə bildirmir, amma o necə ki asılıdır, tamın fəaliyyətini hissələrə çatdırır, bitki və hissi ruh belədir. Üçüncü növ forma hər şeyi aktuallaşdırır və təkmil edir, uzanmır və öz fəaliyyətindən asılı deyil. Necə ki o aktuallaşdırır və təkmil edir, o hər şeydə və bütün hissələrdədir; necə ki o uzanmır, o təkmillik hissələrə bildirilmir; necə ki o asılı deyil, fəaliyyət bildirmir. Ruh belədir, belə ki, nə qədər ki o intellektual potensiyanı oyandıra bilər və o intellektual adlanır;. bu formalardan biri material formadır, hansı ki materiyasız mövcud ola bilməz və dərk edilə bilməz; digər iki növ özündə material başlanğıcda fərqli başlanğıcları təqdim edir. Bundan başqa, mən xəbərdar etmək istəyirəm ki, ifadənin adi üsuluna görə biz deyirik ki, formanın beş dərəcəsi vardır, yəni elementar, qarışıq, bitki, hissi və intellektual, biz, ancaq bunu vulqar mənada başa düşmürük, belə ki bu fərqləndirmə, ruhi həyatın və bu formanın birinci və əsas mövcudluğuna yox, hər şeyi bir-bir və eyni üsulla yox, özü dolduran predmetdən təzahür edən və meydana çıxan fəaliyyətə uyğun gücə malikdir."

Göründüyü kimi, C. Bruno formaları formalaşdırmaya, uzanmaya-yayılmaya və materiyadan asılılığa görə üç növə ayırır. Burada formalaşdırma materiyanı ən ümumi şəkildə sərhədləndirərək ondan ayrılıqda götürülmüş faktiki mövcudluqları ayırmaq qabiliyyətini bildirir.

Haşiyə: Cordano Bruno "Səbəblər, başlanğıclar və tək haqqında"

"Formayaradan ideal növlər üçün intellektdir və onları formalaşdırır; əgər o onları materiyadan çıxarmırsa, hər halda onları ondan kənardan yalvarıb almır, belə ki bu ruh hər şeyi doldurur."

C. Brunonun fikirlərindən görünür ki, formayaradan güc intellektual gücdür. Biz intellektin üç növü haqqında yazmışdıq: İlahi, dünyəvi və insani intellekt.

İlahi intellekt və ya Ali Ağıl - bütün mümkünlüklərin və reallıqların ideyasını formalaşdırır. Belə forma bilgi kimi ideyalarla sıx bağlı olur.

Belə forma ideyaların forması kimi mövcuddur. İdeya forması ən ümumi, mütləq, əbədi və sonsuzdur. İdeya formasından reallıqların əsası materiya əmələ gəlir. Materiyanın əmələ gəlməsi ilə İlahi intellekt formayaratma fəaliyyətini dayandırır və dünyəvi intellekt - təbiətin ağlı işə düşür.

Dünyəvi intellekt və ya Təbiətin ağlı - iki cür - daxili (zəruri) və xarici (təsadüfi) - forma əmələ gətirir. Daxili, zəruri forma - mahiyyətlə vəhdət təşkil edən, şeyin başlanğıc formasıdır. Belə forma ən sadə formadır. Daxili olduğundan sabitdir, xarici təsirlərdən dəyişilməyə meyilli deyildir. Sadə olduğundan başqa formaların özündən çıxmasına imkan vermir. Növ belə forma kimi təzahür edir, biz belə formanı daxili görüntü kimi təyin edirik. Xarici forma təsadüfidir, aksidensivdir və xarici şərtlərdən asılı olaraq dəyişkəndir. Belə forma xarici görüntüdən aşkarlanır.

İnsan intellekti və ya insan ağlı - süni forma-obraz yaradır. Belə ki, insan təfəkküründə şeylərin təbii xarici, təsadüfi formasını abstraksiya edərək başqa şeylərin xarici formasına köçürür. Belə forma fərdin qabiliyyət və bacarığından asılıdır. Süni olduğundan şeyin mahiyyəti ilə heç bir əlaqəsi yoxdur, yəni xalis heçlikdir.

Üç cür formalaşdırma ayırd etmək olar:

a. **Özü-özünü formalaşdırma:** Özü-özünü formalaşdırma emanasiya prosesində mahiyyətin pisləşməsi ilə formanın əmələ gəlməsini özündə təqdim edir. Biz bunu daxili formalaşdırma adlandırırıq. Mahiyyətin vəhdət təşkil etdiyi forma daxili formadır.

b. **Başqası tərəfindən formalaşdırma:** Biz bunu xarici formalaşdırma adlandırırıq. Xarici forma şeylərin xarici görüntüsünü təzahür etdirir. Başqası tərəfindən formalaşdırmaq mövcudluqların vəhdətindən meydana çıxır; hansı ki, vəhdətdə varlıqlar bir-birinə təsir edir və bu təsir onların xarici görüntüsündə əks olunur.

c. **Başqasını formalaşdırmaq:** Belə formalaşdırma birtərəfli təsiri özündə əks etdirir. Belə formalaşdırma ilə obraz meydana çıxır. Rəssam

və ya heykəltəraş hər hansı formanın müxtəlif təbii şeylərin xarici görüntüsünə proyeksiya etməklə onların görüntüsünü dəyişdirir.

Beləliklə, Materiyanın hüdudlara salınması - təklərə ayrılması formalaşdırmanı özündə təqdim edir, hansı ki, belə hüdudsuz materiya ən ümumi və formasız varlıq kimi çıxış edir. Formalaşdırma formasızlıqdan formaya keçid kimi baş verir. Formalaşmanın aşağıdakı mərhələlərini ayırd etmək olar:

a. **Uzanma və ya yayılma:** Biz yayılmanın iki formasını ayıra bilərik:

Birincisi, tamın hissələrə bölünməsi ilə yayılma: Belə yayılma, tamın öz formasını uyğun olaraq hissələrə verməsini özündə ifadə edir. Hissələrə bölünmə ilə yalnız növ kimi forma hissələrə verilir. Məsələn: bir cisim hissələrə ayrılarkən hər bir hissə həmin cismin tamının bütün keyfiyyətlərini özünə təzahür etdirir.

İkincisi, tamın məkanda təkrarlanması ilə yayılma və uzanma: Belə yayılmada tam məkanda müxtəlif yerlərdə eyni zamanda təkrarlanır, amma məkan şərtlərindən asılı olaraq eyni bir tam müxtəlif formalarda meydana çıxır. Belə yayılmada tamlar yalnız xarici görüntüyə görə fərqlənir, amma növ formasına görə eynilik təşkil edir.

Materiyadan asılılıq özündə ümumi əsası - başlanğıcı saxlamağı, formanın materiya ilə dolmasını, yəni konkretliyini - hissi qavranılan olmasını özündə təqdim edir. Materiyasız xalis forma özü-üçün-varlıq kimi heçliyi, materiyadan asılılıq isə özündə "nəsə"liyi təqdim edir.

Beləliklə, C. Brunonun təyin etdiyi birinci forma - mahiyyətə ən yaxın, onunla vəhdət təşkil edən və Brunonun ifadə etdiyi kimi, materiya kimi həmişəlik olan, ən ümumi forma - **material forma (maddilik)** ikincili materiyadan yaranır. Maddilik həm cisimlərin, həm canlıların və həm də Ruhlu insanın ən ümumi növ kimi formasıdır. Biz maddiliyi başlanğıc forma kimi təyin edirik, başlanğıc forma olduğundan maddilik digər formaların əsasını və ya başlanğıcını təşkil edir. Maddilik və ya material

forma əbədi formadır və materiya ilə vəhdətdədir. Maddilik başlanğıc forma olduğundan bütün mövcud olanlardan aşkarlanır, ümumidir, zərurətə görə mövcuddur və daxilidir, yəni mahiyyətlə vəhdət təşkil edir və buna görə də qeyri-aksidensivdir. Maddi olanın bütün hissələri də maddidir. Maddi olan hər bir şey özündə "nəsə"yə malikdir, yəni, ən ümumi şəkildə materiya ilə bağlıdır. Maddi olanlar özü-özünə daxili fəaliyyətdə olmadığından, dəyişilməyə məruz qalmır, buna görə də, öz adını və mövcudluq üsulunu olduğu kimi hissələrə verir. Məsələn: Bir parça dəmir nə qədər çox hissələrə bölünsə də, hər bir hissə dəmir kimi qalır və dəmirə xas mövcudluğa malik olur.

C. Brunonun təyin etdiyi ikinci formanı biz **canlılıq** kimi təyin edirik. Canlılıq ikincili formadır və maddilikdən asılıdır. Canlılıq da formalaşdırır və maddi forma əsasında yeni forma meydana çıxır. Canlılıq maddilikdən çıxır, amma ondan fərqli olaraq hissələrinə yayılmır, yəni canlı cisimdən fərqli olaraq öz ümumi formasını hissəsinə ötürmür, buna görə də canlının hər bir hissəsi tamdan fərqli formaya malik olur. Məsələn: meymunun qaraciyəri meymunun adını daşımır və meymunun ümumi heç bir keyfiyyətinə malik deyildir. Canlılıq həm də daxili fəaliyyətdədir və daxili fəaliyyət zamana görə dəyişilmə yaradır, nəticədə zamandan asılı olaraq canlılıq özü-özündən fərqli formalar alır. Canlılıq da materiya ilə bağlıdır və materiyasız canlılıq təzahür etmir. Cisimlərdən fərqli olaraq canlılıq hər şeydə aşkarlanmır, təsadüfə görə meydana çıxır, buna görə də keçicidir. Canlının əsasında üç cür xarici görüntü - forma (antropoloji, androloji-yaş, və seksoloji-cinsi forma) meydana çıxır ki, canlılığın mahiyyəti ilə birbaşa vəhdət təşkil etmirlər və buna görə də özlərində heçliyi təqdim edirlər.

Üçüncü forma canlının əsasında meydana çıxan, bununla da maddiliklə ikiqat şərtlənmiş formadır. Biz bunu **ruhilik** kimi təyin edirik. Ruhilik əbədidir, ümumidir, materiya ilə birbaşa bağlılığı yoxdur, yəni

qeyri-materialdır. Ruh başqasını formalaşdırır, hissələri yoxdur, buna görə də yayılmaq imkanı yoxdur.

Nəhayət, formanın sonuncu mənası Varlığın şüurda ideya kimi təsəvvür olunmaqlığını özündə ifadə edir ki, bütün mümkünlükləri əhatə edir.

Materiya reallıqların ən ümumi əsası və başlanğıcıdır. Biz belə hesab edirik ki, C. Brunonun dediyi kimi ikincili materiya formasız şey deyil, çünki forma mahiyyətlə vəhdətdədir və formasız yalnız xalis mahiyyət mövcuddur. Xalis mahiyyət isə hissi qavranılmayandır. İkincili Materiya reallıq olduğundan deməli o xalis varlıq deyil, onun forması vardır və bu forma hissi qavranılan maddi şeylərin hamısı üçün ən ümumi olan və hər bir xüsusi formanın əsasını təşkil edən formadır. Ən ümumi forma dərk edən subyekti də öz sərhədlərinə aldığından, insan ağlı tərəfindən dərk olunmayandır. Beləliklə formasızlığın birinci mənası onun dərkolunmazlığını, təsvir və təsəvvür olunmazlığını özündə təqdim edir. Bütün formalar materiyadan yarandığından materiyanın formasızlığı özündə bütün formaların məcmusunu təqdim edir. Başqa sözlə, materiyanın forması xaotik formadır, hansı ki, hər bir nizamlı formaya keçərək konkret şeylərin formasına çevrilir. Buradan da materiyanın keçid formaya malik olması kimi formasızlığı aşkarlanır. Belə keçid forma mayelər üçün xasdır. Necə ki mayenin öz xüsusi forması yoxdur və töküldükləri qabın formasını alırlar, eləcə də materiyanın heç bir forması yoxdur, yalnız ayrılıqda götürüldükdə konkret şeydə konkret formada təzahür edirlər. Materiya ən ümumi formaya malik olduğundan özündə bütün formaların başlanğıcı kimi çıxış edir. Yəni həm mövcudluq forması, həm aqreqat halı, həm həndəsi forma materiyanın ən ümumi formasının xüsusiləşməsi nəticəsində ikincili meydana çıxır.

Mahiyyətin forma əldə etməsi ilə - vəhdət təşkil etməsi ilə - qurulma, yəni əmələgəlmə başlayır. Əmələgəlmənin başlanğıcı kimi birincili materiyanı qəbul etmək olar. Beləliklə, öz növbəsində başlanğıc olduğundan

materiya da özünəxas metafizik anlayış kimi çıxış edir. İkincili materiya birincili materiyadan yaranır və öz növbəsində özündən konkret mövcudluqları əmələ gətirir. Buradan da birincili materiya ilə konkret mövcudluqların qanunları bir-birindən fərqlənir. Fəlsəfədən fərqli olaraq, metafizik yanaşma ilə materiya Varlığın açılmasının birinci pilləsini təşkil edir. Materiya bir tərəfdən Varlıqla, digər tərəfdən Mövcudluqla şərtlənmişdir. Belə ki, Varlığa münasibətdə materiya son, mövcudluğa münasibətdə materiya başlanğıcdır. Başlanğıcla sonun materiyada bir-biri ilə vəhdət təşkil edərək birlikdə təzahür etməsi ilə materiya idrak olunma keyfiyyəti əldə edir. Buna görə də, ikincili materiyanı idrak olunan Kosmos kimi qəbul etmək olar.

BİRİNCİLİ MÖVCUD VARLIQLAR - CİSİM

Mümkünlüyün varlığının mövcudluq tələbinin İlahi İradə ilə təmin edilməsində verilən birincili və ikincili zəruri şərtlərin məcmusuna - ölçülülüyə (birincili materiyanın zərurətə görə şərtlərinin məcmusundan əldə edilmiş) və maddiliyə (ikincili materiyanın zərurətə görə şərtlərinin məcmusundan əldə edilmiş) malik, idrak obyekti statusu almış mövcudluğun varlığını **cisim** adlandırırıq. Cisim termini həm anlayış, həm anlayışın predmeti mənasını verir. Biz anlayış mənasında cismi **formal cisim**, anlayışın predmeti mənasında cismi **faktiki cisim** adlandırırıq.

STATİK "ÖZÜNDƏŞEY" - FORMAL CİSİM

Fikrən qavranılan cismi biz formal cisim adlandırırıq. Fikrən qavradığından belə cisim hisslərsiz elə-belə obyekt kimi cisimdir.

Formal cisim özündə yalnız zərurətə görə şərtləri ifadə etdiyindən və təsadüfə görə şərtlər ondan xaricdə olduğundan və buna görə də zaman şərtləri ilə təsadüfə görə şərtləndiyindən elə-belə daxili hərəkətlilikdən məhrum statik özündəşey kimi mövcudluqdur. Daxili hərəkətlilikdən məhrum olduğundan özündəşey bizim şüurumuzdan və digər mövcud-

luqların iştirakından asılı olmayaraq özü-özündə mövcudluğu bildirir. Başqa sözlə, özündəşey - mövcud olmayan mövcudluqdur, yəni mücərrəd mövcudluqdur.

Konkret cisim birincili və ikincili materiya ilə şərtləndiyindən birincili materiyadan ölçülülük, ikincili materiyadan maddilik xarakteristikalarını özündə təzahür etdirir. Maddilik əldə etdiyindən konkret şey kimi mövcud olur. Beləliklə, konkret cismi özünəxas məkani ölçülülüyü olan, maddi şey kimi təyin edə bilərik. Buradan da, mücərrəd mövcudluğu yalnız birincili məkanla şərtlənmiş xalis ölçülülükdən ibarət qeyri-maddi şey kimi təyin etmək olar.

Haşiyə: Tomas Qobbs "Fəlsəfənin əsasları"

> *"Cisim bütün o şeylər adlanır ki, bizim düşüncəmizdən asılı deyil, məkanın hansısa bir hissəsi ilə üst-üstə düşür, yəni onunla bərabər məsafəliliyə malikdir. Bizdən kənarda mövcud olduğundan o həm də xarici mövcudluq kimi bildirilir, o həmçinin subyekt adlanır, belə ki, o təsəvvür olunan məkanda yerləşdirilir və sonuncuya tabe olur ki, hisslərlə yox, yalnız ağılla çatıla bilər."*

T. Qobbsun cisimlə bağlı fikirlərindəki ayrı-ayrı müddəaları şərh etməklə cismin metafizik mənasını aşkarlamaq olar.

1. "Düşüncəmizdən asılı olmamaq": Bu müddəanın bir çox mənası vardır. Birinci mənası: bizim şüurdan xaricdə olandır, ona görə də bizim şüurumuzda olanlarla vəhdət təşkil etmir; belə ki, bizim şüurumuzda yalnız abstrakt olanlar mövcuddur, deməli cisim konkret mövcud olandır. İkincisi: bizim Ruhumuzun mövcudluq üsulundan fərqli müstəqil mövcudluq üsuluna malikdir və Ruhun mövcudluq üsulu ilə rabitədə deyil, buna görə də Ruhdan öncə olandır. Əgər hissi idrak olunan bütün maddi şeylər üçün ən ümumi xarakteristika müəyyən etməyə cəhd etsək, cismə aid olan təyini özündə ifadə edəni almış oluruq. Buradan da, hissi qavranılan maddi şeydən fərqli olaraq cisim fikrən qavranılan olur. Bu da düşüncəmizin ondan asılı olduğunu özündə ifadə edir. Yəni cisimsiz biz

heç bir mövcudluğu hissi idrakla qavraya bilmərik. Buradan cismin iki xarakteristikası - statiklik və özündəşeylik meydana çıxır.

- **Statiklik:** Varlığın bütün cəhdlərini - öz mövcudluq aktını əbədi saxlamaq cəhdini özündə təqdim edir. Statikliyə görə cisimlərin mahiyyəti sabitdir və forma ilə mahiyyəti vəhdətdədir. Heç bir cisim öz-özünə, özündə daxili şərtlərdən zərurətə görə dəyişilməyə, inkişafa və tərəqqiyə məruz qalmır. Buradan da belə bir kosmoloji ideya aşkarlanır: *Dünya kimi Kosmosun dəyişilməsinin, inkişafının və tərəqqisinin zərurətə görə şərtləri yoxdur.*
- **Özündəşey:** Mövcud varlığın təcrübədən kənar dünyadan qavranılması özündəşey kimi xarakteristikadan ibarətdir. Özündəşeylik - öz mövcudluq faktını özündə akta çevirən, öz-özündən təzahür edən, mövcudluq aktını mübadilə etməyən və bu aktla təyin olunan, təfəkkürdən asılı olmayaraq mövcud olan, özü-öz sərhədlərində başa çatan, mövcudluq səbəbi özündən qaynaqlanan, özü-özü ilə eynilik təşkil edən, yalnız vəhdətdə reallığa çevrilən və subyektlə münasibətdən idrak edilən həqiqətin mücərrəd aydınlaşma vasitəsidir.

”Özündəşey”in əsasını şey təşkil edir. Şey - gerçəkliyin mahiyyətini özündə saxlayan, onunla vəhdət təşkil edən və təfəkkürə təsirdə vasitə rolu oynayan, hissi dərk edilən, təfəkkürə münasibətdən asılı olmayaraq - yəni təcrübədənkənar - reallıq kimi mövcud olandır. Reallıq kimi şeyin əsasını şeyin mövcudluğu təşkil edir. Mövcudluq reallıqdan təzahürün olmaması ilə fərqlənir. Buradan da, şeyin təcrübədən və təbiətdən asılı olmadan varlığı onun “özündəşey”liyi olur. Özündəşey - təzahür etməyən mövcud şeydir. Hər bir obyektiv gerçəklik şeylə ifadə olunan mahiyyətə və şeylə təfəkkürə təsir edən təzahürə malikdir. Şeylə təfəkkürə təsir - formadan ibarətdir. Forma burada ümumi anlayış olub özündə formanın bütün növlərinin (həndəsi, fiziki, kimyəvi, məntiqi və s.) məcmusu kimi çıxış edir. Mahiyyətlə forma vəhdətdə təzahür edir. Bu vəhdətdə mahiyyət - səbəb, zaman, zərurət, cəm, ümumi kateqoriyaları ilə; forma -

nəticə, məkan, təsadüf, tək və xüsusi kateqoriyaları ilə aşkarlanan həqiqətin aydınlaşmasının iki tərəfidir.

Özündəşey fikrən təzahürsüz və formasız götürülən obyektin mahiyyətidir; hansı ki, onun mahiyyəti həm də onun idrak formasıdır. Özündəşey kimi obyekt mücərrəd obyektdir. Obyektin hisslərlə birgə götürülməsindən konkret obyekt meydana çıxır.

2. "Məkanın hansısa bir hissəsi ilə üst-üstə düşür, yəni onunla bərabər məsafəliliyə malikdir": Buradan cismin özündə xüsusi məkani şərtlərin məcmusu olduğu aşkar olunur. Hansı ki, birincili materiyanın ən ümumi ölçülülüyündən xüsusi ölçülülüyünü - xarici görüntüsünü, ikincili materiyanın ölçülülüyündən maddiliyin - formanın əsasının şərtlərini özündə təqdim edir. Məkanla üst-üstə düşdüyündən cisim zamanla üst-üstə düşmür, yəni zamanın sürəkliliyindən kənar mövcud olur və yalnız ikincili materiyanın şərtləndiyi zamandan xüsusi sürəklilik əldə edir. Buradan da cisim təsadüfi şərtlərlə şərtlənmir və xalis daxili zəruri şərtlərin məcmusu kimi çıxış edir. Beləliklə, zamandan bir parametrli asılı olur və zamanın dəyişilmələrində cisimlər dəyişmir. Təzahür sürəklilik kimi meydana çıxdığından, deməli cisim elə-belə təzahürlərdən məhrumdur.

3. "Bizdən kənarda mövcud olduğundan o həm də xarici mövcudluq kimi bildirilir, o həmçinin subyekt adlanır, belə ki, o təsəvvür olunan məkanda yerləşdirilir və sonuncuya tabe olur ki, hisslərlə yox yalnız ağılla çatıla bilər": Bu fikir cismin idrakını özündə mənalandırır. Belə ki, cisim bizdən (burada biz Ruhu mahiyyəti özündə ifadə edir; hansı ki, mövcud varlıq kimi biz cismə malik olduğumuzdan o heç bir halda bizdən xaric olmur) - Ruha münasibətdə xarici olan cisim özündə xalis təsadüfi şərtlərin məcmusundan ibarət olur. Buradan da, cismin təcrübəyə daxil olmasının və hissi qavranılmasının təsadüf olduğu aşkarlanır. Yəni cisimlər zərurətə görə idraka təqdim edilmir. Buna görə də düşüncədən asılı olmayaraq mövcud olurlar. Cisimlər özlərində məkanı təqdim etdiyindən yalnız mövcudluqlarından dərk olunur və buna görə də,

mövcud olmalarından hisslərlə dərk olunmadığından yalnız "özündəşey" kimi ağılla çatılan olurlar.

Cismin - statik özündəşeyin bütün əlamətləri ölçülülük xarakteristikasından meydana çıxır. Ölçülülük cismin xarici görünüşünü təzahür etdirir; hansı ki, təcrübə sahəsində idrak görüntü ilə başlanır. Görüntü məhdudlaşma-sərhədləşmə ilə xarakterizə olunur. Sərhəd səbəb-nəticə əlaqəsində son nəticənin başa çatmasını özündə ifadə edir. Sərhəd obyekti subyektdən, eləcə də digər obyektlərdən ayıran ölçülülüyün son həddidir.

Mümkünlüyün varlığının mövcudluq tələbinə İlahi İradədən sabit məkan və zaman şərtləri verilməsindən birincili mövcudluqlar - cisimlər yaranır. Başlanğıc məkan çoxparametrli - en, uzun, hündürlüyün məcmusunu özündə ifadə edən "burada" kimi, başlanğıc zaman tək parametrli - yalnız "indi" kimi mövcud olduğundan, cisimlərin mövcudluğu burada-indi prinsipinə tabe olur. Burada olmaq bilavasitəliyi, obyekt-subyekt münasibətindən xarici obyekt kimi "düşünən mən"ə münasibətdə olmağı; indi olmaq - hərəkətsizliyi, yəni keçmişin və gələcəyin indini şərtləndirməməsini, sürəkliliyin təzahür etmədiyini özündə ifadə edir. Beləliklə cisimlər İlahi İradədən verilən sabit məkan və zaman şərtlərinin məcmusu kimi mövcud olurlar. Cisim maddilik kimi mürəkkəb şərtlərin məcmusundan - birincili zərurətə və təsadüfə görə sabit şərtlərin məcmusundan ibarətdir.

A. Birincili zərurətə görə şərtlərin məcmusu - həcm: Cismin ayrılıqda birincili zəruri şərtlərinin məcmusunu - ölçülülüyünü **həcm** kimi təyin edirik. Həcm daxilə malik olmağı özündə təqdim edir, hansı ki, daxili olmaqla özündən sonra gələn zərurətə görə şərtləri özündə saxlayır və buna görə də maddiliyi təzahür etdirir. Buradan da, həcmi maddiliyin təzahür forması kimi təyin edirik. O şeyin ki həcmi yoxdur, onun təzahürü mümkünsüzlükdür. Daxili olmadığından daxili zərurətə görə şərtlərə malik olmur, deməli qeyri-material anlayış olur. Məsələn,

səthi fiqurların həcmi olmadığından belə fiqurlar özündə qeyri-maddi anlayış kimi mövcud olur. Buradan da, həcmi birincili materiyanın - xalis məkanın zəruri şərtlərin məcmusu kimi təyin etmək olar. Həcm kütlədən əvvəl mövcud olur və onu ölçüləndirir. Buna görə də, hissi idrak prosesində kütlə bilavasitə həcmdən qavranılır. İkincili materiyanın xüsusi halda birincili materiyaya proyeksiyası elə-belə konkret şeyin həcmliliyini özündə ifadə edir. Buradan da, həcmi xalis məsafəlilik kimi təyin edə bilərik.

B. İkincili zərurətə görə şərtlərin məcmusu - kütlə: Cisimlərin ikincili materiyadan əldə etdiyi maddiliyi - zəruri şərtlərlə təsadüfi şərtlərin məcmusunu biz **kütlə** kimi təyin edirik. Kütlə həqiqəti özündə aydınlaşdıran maddiliyin ölçülülüyüdür. Kütləsiz maddilik elə-belə təzahür etmir. Buradan da, kütlə maddiliyin təzahür forması olur. Kütlə - sonsuz xalis hərəkətliliyin - xalis enerjinin, xalis sürəkliliyin sonlu formaya keçməsi, yəni maddilikdə saxlanması kimi təzahür edir. Buradan da kütləni daxilində enerjiyə, potensial sürəkliliyə malik maddilik kimi təsəvvür etmək olar. Hərəkətin sonsuz formadan sonlu formaya keçməsi xalis enerjinin azalması ilə mümkün olur. Enerji itmədiyindən (çünki özündə ümumi həqiqəti təzahür etdirir, ümumi həqiqət isə sonsuzdur; itməklik isə sonluluğun xarakteristikasıdır), enerjinin azalması onun sıxlaşması kimi meydana çıxır və sıxlaşaraq azalan enerji kütlə şəkli alır. Bundan fərqli olaraq sərf olunaraq azalan enerji kütlə yaratmır. Enerjinin kütləyə çevrilməsini A. Eynşteyn "işıq sürətindən yüksək hərəkətdə enerjidən kütlənin əmələ gəlməsinin riyazi düsturu" əsasında baş verdiyini sübut edib. İşıq sürəti təbii sürətin son ölçülülüyüdür. Beləliklə işıq sürətindən böyük sürət yalnız təbiətdən kənar - metafizikada mövcud ola bilər. Buradan da xalis enerjinin kütləyə çevrilməsini metafizikadan təbiətə keçid kimi təyin etmək olar; hansı ki, xalis enerji kütləyə çevrilməklə xalislikdən azad olur və zərurətə görə şərtlərlə vəhdət təşkil

edərək təbii enerjiyə, sürəti işıq sürətindən və ondan aşağı sürətə malik maddiliyə çevrilir.

Metafizik sürət təbii sürətlə münasibətdə hərəkətsizlikdir. Biz bunu təcrübədən - fırlanan pərlərin müşahidəsindən görə bilərik. Ayrı-ayrı pərlərin hərəkəti sürətləndikcə əvvəlcə onların ayrılığı "itir", yəni görünməz olur; daha böyük sürətdə isə ümumiyyətlə pərlərin hərəkətdə olması hissi qavranılmır. Metafizik sürət isə təbii sürətdən o qədər nəhəng ölçülərdədir ki, bu sürətdə hərəkət nəinki hissi qavranılmayan hərəkətsizliyə, sadəcə elə-belə hərəkətsizliyə keçir; nəticədə enerji kütlə kimi qavranılır. Beləliklə, enerjinin qeyri-təbii metafizik sürətlə, yəni xalis hərəkət zamanı kütləyə çevrilməsi yalnız intuitiv idrakla xalis zəkadan qavranıla bilər. Buradan Kosmosun yaranışının kosmoloji ideyalarını aşkarlamaq olar: *Kosmos metafizik sürətlə hərəkət edən xalis enerjinin özü-özündə kütləyə çevrilməsi ilə maddi forma alır.*

Xalis enerjinin kütləyə çevrilməsi ilə başlanğıc kütlə - hərəkət edən kütlə meydana çıxır. Başlanğıc kütlənin hərəkəti substansialdır, yəni kütlədən ayrılmazdır. Başlanğıc kütlə - enerji kimi hərəkətdən, kütlə kimi şeydən ibarətdir. Buradan da başlanğıc kütlə ikili təbiətliliyə malik olur. Başlanğıc kütlənin əsas predikatı dönərlikdir. Yəni, enerji kütləyə çevrildiyi anda bunun əksinə kütlə də enerjiyə çevrilir; hansı ki, biz bunu işıq kimi qavrayırıq. İşıq - hərəkət edən başlanğıc kütlə kimi metafizika ilə təbiətin sərhədində mövcud olan, ikili təbiətli reallıqdır; hansı ki, xalis dalğa funksiyasına görə metafizik, xalis hissəcik təbiətinə görə təbii faktdır.

Enerjidən əmələ gələn başlanğıc kütlənin miqdarı artdıqca ikincili kütlə - hərəkəti aksidensiya edən kütlə meydana çıxır. Hansı ki, hərəkətin kütlədən ayrılması ilə kütlənin yenidən enerjiyə çevrilməsi istisna olunur. Beləliklə də, işıqdan - başlanğıc kütlədən ikincili kütləyə malik maddələr yaranır. Maddələrin kütləsi artdıqca buna əks istiqamətdə hərəkət sürəti

azalmağa başlayır və nəticədə kütlənin miqdarı ilə şərtlənmiş hərəkət - fiziki hərəkət meydana çıxır. Fiziki hərəkət aksidensiv hərəkətdir.

Kütlənin ən ilkin təzahürü protonlardan aşkarlanır. Protonlar maddilikdən sonrakı səviyyədə mövcud olur. Buradan məlum olur ki, kütlə maddiliyə başlanğıcdan verilən xarakteristikadır; hansı ki, metafizik statuslu obyekt kimi maddilikdən əvvəl var olur. Protonun kütləsi kütlənin ən kiçik vahidi kimi meydana çıxır. Biz bunu mütləq kütlə adlandırırıq. Mütləq kütlə özü-özündə mövcud olan noumendir; hansı ki, hissəciklər aləmində müstəqil hissəcik kimi yaranmışdır. Protonlar təcrübə sahəsində müstəqil təzahür etmədiyindən protonun kütləsi görünməz şərti kütlə kimi mövcuddur. Protonun kütləsi materiyaönü vəziyyətdə müstəqil mövcud olan yüklərin bir-birini neytrallaşmasında onların enerjilərinin "sıxlaşması" ilə - birləşməsi ilə əmələ gəlir.

Kütlə ilə həcmin vəhdətindən mövcud varlığın xarici görüntüsü aşkarlanır. Beləliklə, xarici görüntü bir tərəfdən özündə kütləni, digər tərəfdən həcmi təqdim edir; hansı ki, hər ikisi birlikdə maddiliyin təzahürlərindən ibarətdir. Maddilik - kütlə ilə həcmin vəhdəti necə təzahür edir?

Cismin maddiliyini təşkil edən ən kiçik bölünməz hissəcik kimi qəbul edilən atomun kütləsi özündə müəyyən gücə malik yüklərin (elektron, neytron və proton) enerjilərinin məcmusunu təqdim edir. Materiyaönü vəziyyətdə təsadüf nəticəsində neytron eyni vaxtda həm elektron, həm də protonla əlaqələnir. Əlaqə - müəyyən məsafə ilə şərtlənmiş birləşmə formasıdır. Beləliklə, məsafəlilikdən həcm yaranır; hansı ki, məsafəlilik ilkin məkanın əsas xarakteristikasıdır. Bu əlaqə onlar arasında müəyyən məsafədən yaranır. Başqa sözlə, mövcudluq aktının dəyişdirilməməsi qanunauyğunluğuna görə əlaqəyə girən yüklər öz mövcudluq aktlarını da qoruyub saxlayırlar. Beləliklə, müxtəlif yüklərin öz mövcudluq aktlarını saxlamaqla bir-biri ilə sıx əlaqələnməsindən **atom** meydana çıxır. Atom qapalı daxili sahəsi olan əks yüklərin birlikdə

mövcud olduğu ən kiçik hissəcikdir. Atomlar başlanğıc mövcudluq faktını təşkil edirlər. Bu cür birləşmə ilə bu üçlük arasında xüsusi qarşılıqlı təsir - daxili sahə yaranır. Atomun əmələ gəlməsi ilə daxili sahə qapalı vəziyyətə keçir. Daxili sahənin yaranması ilə başlanğıc sahə sadə vəziyyətdən mürəkkəb vəziyyətə keçir. Nəticədə, başlanğıc sahə daxili və xarici sahə kimi iki yerə ayrılır.

Sahənin mürəkkəbləşməsi ilə materiyaönü vəziyyətin yeni sırası meydana çıxır. Atomların birincili məkanda bir-biri ilə müəyyən məsafədə rabitəyə girməsi nəticəsində onlar arasında məkan ölçüsü meydana çıxır; hansı ki, biz bunu **həcm** kimi dəyərləndiririk. Həcm birincili materiyadan ikincili materiyanın ayrılmasının təzahürüdür; hansı ki, xalis ölçülülük maddiliklə vəhdətə girərək cismin görünən formasını yaradırlar. Beləliklə həcm sahədən onunla fərqlənir ki, sahə yüklərin vəhdətindən, həcm mütləq kütlələrin vəhdətindən əmələ gətirir. Həcm - faktın daxili məkan əldə etməsidir. Həcm və kütlə birlikdə materiyanın maddi formasının iki elə əsas şərtini təşkil edirlər ki, bu şərtlərsiz gerçəklik təzahür etmir. Həcm daxili sahə kimi təzahür edir. Daxili sahə xüsusi olub yalnız konkret cismin təsir güclərinin yayıldığı, keçiriciliyə malik olmayan, sərhədlənmiş qapalı məkandır. Buna görə də, məkanla şərtlənmə həcmlənmə kimi də dəyərləndirilə bilər. Xarici sahə ümumi olub, abstrakt cismin və ya vəhdətdə olan bütün varlıqların təsir güclərinin yayıldığı sərhədsiz, açıq, müştərək məkandır. Bütün daxili və xarici həcmlərin məcmusu məkanı təşkil edir. Hər bir mövcudluq faktı özündə kütlə ilə həcmin müəyyən nisbəti kimi mövcud olur. Bu nisbət cismin aqreqat hallarını müəyyən edir.

CİSİMDƏ CANIN ƏMƏLƏGƏLMƏSİ

Canlılar necə əmələ gəlmişdir? Mümkünlüyün varlığının faktiki cisimdə mövcudluq tələbinə İlahi İradədən verilən növbəti zərurətə və təsadüfə görə şərtlərdən ikincili mövcudluqlar - canlılar əmələ gəlir.

Beləliklə, canlılıq - sabit və dəyişən zəruri və təsadüfi şərtlərin məcmusundan ibarət cisim - bədən kimi çıxış edir. Buradan da, canlılıq iki fərqli zərurətə və təsadüfə görə şərtlərlə müstəqil mövcudluq statusu alır. Əgər sabit daxili zəruri və xarici təsadüfi şərtlərin məcmusundan ibarət olan faktiki cisimlər daxili statik mövcudluqlar kimi təzahür edirsə, canlılar dəyişən zəruri və təsadüfi şərtlərdə mövcud olduğundan bir şərtdən digər şərtə keçidlə - sürəkli daxili keçid vəziyyətində olan mövcudluq, inkişafda olan, sürəkli daxili və xarici dəyişilmələrə məruz qalan cisim kimi təzahür edir. Təbiətdə ikili təbiətə malik və bir təbiətdən başqa təbiətinə keçidlə mövcud olan yeganə fakt işıqdır. İşığın ikili təbiətinin və bir təbiətindən başqa təbiətinə keçidinin səbəbi - işıq şüasının qarşısında duran və onu təbiətini dəyişdirməyə məcbur edən maneələr - özündən kənarda, işıq mənbəyində və işığın ötürülmə mühitində olduğundan və buna görə də yalnız nəticə kimi mövcud olduğundan, canlılıqdan fərqli ikili təbiətə malik fiziki fakt kimi mövcuddur. Bundan fərqli olaraq, canlılığın ikili şərtlərdə keçid vəziyyətində olmasının səbəbi bilavasitə özündə və daxilidir. Başqa sözlə, canlılıq şərtlərinin əvəzlənməsinin səbəbləri və nəticələri özündə olan müstəqil işıq - özü-özündə işıq kimi təsəvvür oluna bilər.

Cisimlərdə canlılığın meydana çıxması ilə təbiət kimi Kosmos meydana çıxır. Bəs cisimlərdə canlılıq necə yaranır?

Mümkünlüyün varlığı - əbədi və sonsuz olaraq mümkün qədər, mümkün müddətə, mümkün mövcudluq tələb edir və bu tələb həqiqətin aydınlaşmasının mahiyyətini özündə təqdim edir. Hər bir mövcudluq əldə etmiş mümkünlük yalnız bir mövcud varlıqda aktuallaşır. Bu da həqiqətin vasitəli aydınlaşmasında mövcudluqlar arasında əksilik kimi meydana çıxır. Beləliklə mümkünlüyün varlığının mövcudluq tələbinin İlahi İradə tərəfindən ödənməsi inkari inkar kimi təzahür edir. İnkari inkarın iki formasını ayırd etmək olar:

a. **Mövcudluğunda başqa mövcudluğun mümkünlüyünün - potensial şərtlərin saxlanmasının inkarı - başqasını inkar:** Başqasını inkar özündə başqa şərtlərin istisna edildiyini bildirir, buradan da birtəbiətlilik xarakteristikası yaranır. Başqa sözlə, istənilən birtəbiətli mövcud varlıq özündə özünün mövcudluq şərtlərinin təsdiqi və bunun əksinə, özündə yerdə qalan bütün mümkün mövcud varlıqların şərtlərinin inkarı kimi aktuallaşır, yəni mövcud olur. Cisimlər məhz birli şərtlərlə mövcud olduğundan özündə özünü təsdiq, başqasını inkar edən mövcudluqlar kimi mövcud olur. Buradan da cisimlərin idrakı təsdiq və inkar prinsipinə əsaslanır. Məsələn, əgər konkret cisim kağızdırsa, bu o deməkdir ki, o kağızdan başqa mümkün olan və mümkün ola biləcək sonsuz sayda mövcudluqlardan heç biri ilə eynilik təşkil etmir. b. **Mövcudluğunda özü-özünün mümkünlüyünün inkarı - özünü inkar:** Özü-özünü inkar - özündə öz mövcud şərtləri ilə yanaşı həmin şərtləri inkar edəcək "başqa mövcudluq" şərtlərinin saxlanmasından ibarətdir. Başqa mövcudluq şərtləri mövcud olan mövcudluqda potensial şərtlər kimi saxlanılır və əlverişli şərtlərdə aktual şərtləri inkar etməklə mövcudluğun yeni şərti kimi çıxış edir və özündə yeni potensial şərtilik saxlayır. Başqa sözlə, özü-özünü inkar çoxtəbiətliliyin - sinergizmin, yəni ikili şərtlərdə mövcudluğun xarakteristikası kimi təzahür edir. Özü-özünü inkar nəticəsində varlıq sürəkli olaraq özü-özündə müxtəlif formalar alır, yəni sürəkli forma dəyişdirir. Bu cür özü-özünü inkarla mövcudluğu biz **canlı varlıq** kimi təyin edirik. Beləliklə, canlılar özü-özünü inkar yolu ilə sürəkli forma dəyişdiyindən mövcud olan sinergetik mövcud varlıqdır. Sinergetiklik mürəkkəbliyi ifadə edən anlayışdır. Beləliklə, canlılığın mövcudluğunun şərtlərini mürəkkəb şərtlər kimi dəqiqləşdirmək olar.

Bəs canlılarda sinergetik təbiət necə yaranır və canlılıq özündə nəyi ifadə edir? Canlıların mövcudluğu həyat kimi təzahür edir. Elmdə və fəlsəfədə hələ ki həyatın - canlılığın - yaranmasının hamı tərəfindən qəbul edilmiş izahı yoxdur. Biz həyatı yaranışın müxtəlif vəziyyətlərinin

müştərək təzahürü kimi təsəvvür edirik. Yəni, bizə görə, canlılıq material vəziyyətlə materiyaönü vəziyyətin müştərək mövcudluğunun təzahüründən ibarətdir. Başqa sözlə, canlılarda həqiqət eyni bir vasitədə, canlıda, həm material vəziyyətdə - cisimlərdə olduğu kimi birdəfəlik, başa çatmış nəticə kimi; həm də materiyaönü vəziyyətdə - hissəcik aləmində olduğu kimi yaranmanın davam etməsi, konkret nəticədə başa çatmamış sürəkli mövcud səbəbilik kimi aydınlaşır. Bu cür ikili vəziyyətdə aydınlaşma həyatın mahiyyətini təşkil edir. Yəni həyat azadlıqla asılılığın qarşılıqlı əvəzlənməsi ilə mövcudluq formasıdır.

Mümkünlüyün varlığının mövcudluq tələbi İlahi İradədən müəyyən prinsiplərlə zəruri və təsadüfi şərtlərlə təmin edilməklə, ümumi halda yaranışın müxtəlif vəziyyətlərindən keçərək maddi formada mövcudluqda başa çatır. Maddi formanın yaranması metafizikada baş verdiyindən biz mövcud dünyadan onun təzahürlərini seyrlə qavraya bilmirik. Amma mümkünlüyün varlığının mövcudluq tələbinin mövcud varlıqda ödənilməsi prosesini, yəni cisimlərdə canın yaranmasını təbiətdə mövcud varlıqlarda seyr edə bildiyimizdən onu qavrayırıq və bu qavrayışın nəticəsi olaraq biz belə vəziyyəti canlılıq kimi anlayırıq. Buradan da canlılığı təbiətdən aşkarlanan metafizik hadisə, yəni təbiətdə yaranma kimi təyin edirik. Bu zaman təzahür edən ikincili mövcudluq - canlılar, özündə mümkünlüyün varlığının mövcudluq tələbinin ödənilməsi prosesinin sürəkliliyini təqdim edir.

Bu vəziyyət birincili materiyada yenidən materiyaönü vəziyyəti, yüklərin qarşılıqlı təsirdə olduğu vəziyyəti yaradır. Yüklü sahələrin qarşılıqlı əlaqəsindən materiya əmələ gəldiyi kimi, qarşılıqlı inkar vəziyyətində olan materiyada materiyaönü vəziyyət yarandıqda həqiqət özünü aydınlaşdıracaq yeni sıradan olan vasitələr yaratmağa başlayır. Buradan ikincili materiya - birincili materiya ilə vasitəli təzahür edən, amma birincili materiyadan fərqli məkan və zaman asılılığında olan, öz mövcudluğunu fərqli üsulla davam etdirən, xarici təsirlərə dəyişilmə ilə cavab

verən, forma və hərəkətinə görə cisimdən fərqlənən və özünəxas qanunauyğunluğu olan varlıq sırası yaranır. Biz bunu **can sırası** adlandırırıq. Buradan təbiət kimi kosmosun belə Kosmoloji ideyası aşkarlanır: *Canlılar cisimlərdən əmələ gəlmir, sadəcə cisimlərdə yaranma kimi təzahür edir.*

Mövcud Varlıqlar bir-birindən üç ümumi əlamətinə görə fərqlənir: a. **Aktuallaşma üsuluna görə:** Mövcudluq faktı statik və ya dinamik olmaqla iki cür təzahür edir. Mövcudluq faktının statik təzahürü özündə, dinamik təzahürü özündən keçməklə digər faktda akta çevrilir. Buna görə varlığın müxtəlif formaları mövcudolmanı davam etdirmə üsuluna görə bir-birindən fərqlənir. b. **Aktuallığa, yəni zaman-məkan əlaqəsinə görə:** Bütün varlıqlar özündə həqiqətin aydınlaşmasını məkan və zaman əlaqəsində təzahür etdirir. Lakin faktın akta çevrilməsinə uyğun olaraq varlıqlar məkan və zamanla asılılıq parametrlərinin sayına görə bir-birindən fərqlənir. c. **Xarici təsirlərə əks təsirinə görə:** Bütün varlıqlar bir-birinə təsir edir. Amma zaman və məkan şərtlənməsində müxtəlif olduqlarından onların xarici təsirlərə - onların mövcudluğuna əngəl olan təsirlərə müxtəlif formada əks təsir edirlər.

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Təbiətə pillələrin sistemi kimi baxılmalıdır, hər birindən zəruri olaraq digəri çıxır və çıxdığından yaxın həqiqət olur; bu halda ancaq burada yaranmanın təbii prosesi yoxdur, yalnız təbiətin əsasını təşkil edən daxili ideyanın bətnində yaranma vardır."*

Hegelin fikirlərindən görünür ki, Kosmos daxili ideyanın bətnində yaranma kimi müxtəlif pilləli ümumi sistem kimi mövcud olur. Yəni Kosmosda mövcudluq şərtlərinə - zəruri şərtlərin məcmusuna və mövcud olma üsuluna - təsadüfi şərtlərin məcmusuna görə mövcud varlıqlar müxtəlif pillələr təşkil edir. Bu pillələr bir-biri üzərində yarandığından bir-birinə yaxın həqiqət olur. Biz daxili ideyanı mümkünlüyün varlığı

kimi təsəvvür edirik; hansı ki, mövcudluq tələbində İlahi İradədən iki pilləli şərtlər alaraq iki cür mövcudluğa və mövcudluq tələbinin növbəti pilləsində gözləmə vəziyyətində üçüncü pillə kimi mövcud olmayan mövcudolma kimi təzahür edən subyektiv varlığa keçir.

Hegelin fikirlərindəki "yaxın həqiqət" ifadəsi özündə nəyi ifadə edir? Biz həqiqətin münasibətə görə fərqlilik, eynilik və oxşarlıq tələb etdiyini şərh etmişdik. Bəs yaxın həqiqət nə deməkdir? Bizcə oxşarlıq, eynilik və fərqlilik vəhdətdə meydana çıxan münasibətdir; hansı ki, yalnız eyni pillədə olan mövcudluqlar arasında aşkarlanır. Yaxın həqiqət müxtəlif pillədə mövcud olan varlıqların münasibətini özündə təqdim edir; hansı ki, nə eyni, nə fərqli, nə də oxşarlıq münasibətində olur, yəni vəhdət təşkil etmir. Bu cür vəhdət təşkil etməməsinə görə yaxın həqiqət ifadəsi yalnız yaranmanın pilləliliyini özündə ifadə edə bilər. Yəni müxtəlif pilləli sistemlər əmələgəlmə ilə yox, yaranma ilə meydana çıxmışdır. Buradan da cismin, canın və ruhun müstəqil başlanğıclara malik olması sübut olunur.

KOSMOSUN TƏŞKİL OLUNMASI - MÖVCU-DOLMA

Kosmosun təşkil olunması haqqında şərh verməmişdən öncə elə-belə mövcudolma anlayışının özündə nəyi ifadə etdiyini izah etmək lazımdır. Kosmosda mövcudluqların iştirak etdiyi bütün proseslərin şərtlərinin məcmusu həmin mövcudluğun mövcud olmasından ibarətdir.

Hər bir mövcudluğun başlıca xarakteristikası - onun mütləq hərəkətliliyi, yəni mövcud olmasıdır. Mövcudolma - "təbiətdə hər şey dəyişir" müddəasını özündə ifadə edir. Yəni, təbiətdə mövcud olanlar dəyişir, dəyişilənlər mövcud olur. Buradan da, mütləq aktın dəyişilməsini, aktuallaşmasını mövcudolma kimi təyin edə bilərik. Mövcudolmaya malik olmayan mövcudluq abstraktdır. Mövcudluğun dəyişilməsi dəyişən zaman şərtlərində mövcudluğun təzahüründən ibarətdir, hansı ki, zamanın dəyişilməsi vaxt kimi təzahür edir. Bu mənada, mövcudluq predikabiliyadan - mövcudolmadan təyin olunur.

Haşiyə: Hegel "Məntiq elmi"

> *"Mövcudolma bilavasitə özü-özündə və başqasında refleksiyadır. Buna görə də, o, qeyri-müəyyən çoxlu mövcudluğun özü-özündə refleksiya etməsi və eyni zamanda başqasında, qarşılıqlı bağlılıq aləmini və əsasların və əsaslandırılanların sonsuz bağlılığını əmələ gətirən nisbi mövcud olanda görünəndir. Əsas mövcudolmanın mahiyyətidir və mövcud olan çoxlu tərəfdən bir o qədər əsas və əsaslandırılandır."*

Hegelin mövcudolma haqqında müddəasından görünür ki, o, mövcudolmanı mahiyyət kimi təyin edir. Biz də belə hesab edirik ki, mövcudolma həqiqətin mövcudluqdan şüalanma sürəkliliyini ifadə edir.

Başqa sözlə, sabit məkan şərtlərinin zamanda sıralanması faktın zamana keçməsi, yəni zamanla şərtlənməsi mövcudolma kimi meydana çıxır. Buna görə də mövcudluq özündə məkani xarakteristika - ölçülüklə, forma ilə təyin olunduğu kimi, mövcudolma mahiyyətlə və vaxtla təyin olunur. Beləliklə, mahiyyətin zamanla şərtlənməsi mövcudolmanı meydana çıxarır, hansı ki, məkanla şərtlənmiş forma ilə vəhdətdə mövcud aləmi - qarşılıqlı bağlılıq aləmini təşkil edir. Qarşılıqlı bağlılıq aləmini nisbi mövcud olanlar təşkil edir.

Nisbi mövcud olan iki cür təyin oluna bilər:

a. Sonsuz çoxluq kimi nisbi mövcud olan: Başqasında refleksiya - konkret tək kimi başqasında yox, ümumi kimi başqasında refleksiyadır. Yəni istənilən sonsuz sayda mövcudluq eyni zamanda başqası olur, beləliklə, konkret mövcudluqların sonsuz çoxluğunda hər bir mövcudluq nisbi mövcud olan olur. Buradan da, nisbi mövcud olanı xarici totalıq kimi təyin etmək olar. Nisbi mövcud olan - təsadüfə görə mövcud olandır. Yəni başqasında refleksiya başqasının zərurətə görə mövcud olmasını tələb etmir.

b. Mümkünlük kimi nisbi mövcud olan: Başqasının mövcud olması zəruri olmadığından o, abstrakt mövcud olan kimi çıxış edir. Abstrakt mövcud olan təfəkkürdə mümkünlük kimi refleksiya edən mövcudluqdur. Beləliklə, nisbi mövcud olan özündə xalis varlıq təyininə malik olanı təqdim edir.

Nisbi mövcud olanların əmələ gətirdiyi qarşılıqlı bağlılığı da daxili və xarici olmaqla iki formada təyin etmək olar:

a. Daxili bağlılıq: Hər bir mövcudluğun mahiyyəti ilə formasının vəhdəti daxili bağlılıq kimi meydana çıxır. Daxili bağlılıq xarici bağlılığın əsasını təşkil edir. Yəni daxili bağlılıq olmadan heç bir mövcudluq xarici bağlılıq təşkil etmir. Buradan da, daxili bağlılığı sabit zərurətə görə bağlılıq kimi təyin etmək olar.

b. Xarici bağlılıq: Həmin vəhdətin sonsuz çoxluqda başqa mövcudluqların belə vəhdətində refleksiyası kimi təyin oluna bilər. Burada sonsuz sayda çoxluqda hər bir konkret mövcudluq nisbi mövcud olan kimi çıxış etdiyindən xarici bağlılığı təsadüfə görə dəyişən bağlılıq kimi təyin edirik.

Buradan da, mövcudolmanı konkret mövcud olanın nisbi mövcud olana münasibəti kimi təyin etmək olar. Mövcudolma - varolmadan fərqlidir. Varolma məkan və zamanla şərtlənməməni ifadə edir. Yəni varolma konkret yer və zaman şərtlərindən yox, bilavasitə Varlığın özündən çıxır. Bunun əksinə, mövcudluq ən çox saylı şeylərin ən ümumi şəkildə varlığın məkan və zamanla şərtlənməsini özündə ifadə edir. Yəni mövcudolmanı məkan və zaman şərtlərinin vəhdətinin məcmusu kimi təyin etmək olar.

Yaranış anı bir momentli olduğundan, yəni varlıq Yoxluqdan, "heç nədən" yarandığından, heç nəyin zamanı və məkanı olmadığından sürəklilik xarakteristikasından azaddır. Yəni yaranmada zaman sıfra bərabərdir. Zamanın sıfra bərabər olduğu nöqtədə məkan da sıfra bərabər olur. Ona görə də, yaranış məkandan kənarda baş verir. Yaranışın əmələgəlməyə keçməsi ilə "nəsə nədənsə" əmələ gəlir. Nəsə özündə məkan və zamanla şərtlənmə kimi meydana çıxır. Nəticədə, Varlıq mövcudluğa çevrilir. Mövcudluğun varlığı - məkan və zamanla şərtlənmiş varlığın mövcudluğudur. Zaman yaranışın əmələgəlmə ilə başa çatmasının ölçülüyüdür. Beləliklə, mövcudluqda iki ölçülük aşkarlanır:

1. Mövcudluğu Varlıqdan fərqləndirən və ondan sərhədləndirən sonluluq ölçülüyü - biz bunu **məkani ölçülük** adlandırırıq. Hər bir şeyin özünəxas məkan ölçülüyü vardır və bu onun təyininə daxildir, buna görə də mövcudluqlar məkani ölçülükdən dərk olunur.
2. Mövcudluğu Varlıqdan fərqləndirən fanilik ölçülüyü - biz bunu **zaman ölçülüyü** adlandırırıq. Hər bir şeyin zaman ölçülüyü vardır,

yəni zamanda bəlli vaxt ərzində mövcuddur və zaman ölçülüyü onun təyininə daxil olur və buna görə də onunla dərk olunur.

Buradan da, mövcudluğun iki əsas xarakteristikası - sonlu və zamanlı olması meydana çıxır, yəni Allahın istədiyi və yaratdığı mövcudluqlar məkan və zamanda yerləşdirilmə kimi mövcud olur, hansı ki, həmin məkan və zaman şərtləri ilə idrak olunur.

Mövcudolma faktların akta keçməsini - aktuallaşmasını özündə təqdim edir. Faktın aktuallaşması özü-özünü özündə zamanda təkrarlanmadan ibarətdir. Kainat - müxtəlif faktların eyni zamanda paralel təkrarlanması kimi mövcudluqdur. Başqa sözlə, Kainat mövcudluqların ən ümumi mövcudluq formasıdır.

Haşiyə: Leybnic "Mütləq birinci həqiqət"

> *"Bütün mümkünlüklər mövcud olmağı tələb edir, buna görə də istənilən mümkünlük başqa mümkünlük mane olmasaydı mövcud ola bilərdi, hansı ki, həmçinin birinci ilə bir araya sığmayan mövcudolma tələb edir. Buradan belə nəticə çıxır ki, istənilən halda şeylərin elə kombinasiyası həyata keçir ki, hansı ki, onların ən çox sayı mövcuddur."*

Leybnicin fikirlərindən görünür ki, heç də bütün mümkünlüklər mövcud olmur. Başqa sözlə, mövcudolma mümkün olmanın hissəsi kimi təzahür edir. Mümkün olub mövcud olmayanlar Varlıq aləmini - metafizikanı, mümkün olub mövcud olanlar isə Kainatı təşkil edirlər. Yalnız Kainat özündə şeylərin ən çoxsaylı mövcudluğunu özündə təqdim edir. Beləliklə, Kainatı metafizik olaraq şeylərin - çoxsaylı mövcudluqların - həyata keçmə forması kimi təyin edə bilərik. Mövcudolma özündə olmaq iradəsi olmanı ifadə edir. O şeydə ki olmaq iradəsi - gücü yoxdur, o şey mövcud deyil və ya mövcud ola bilməz. Mövcudolma gücü İlahi iradənin üçüncü səviyyədən refleksiya edir. Mövcudolma iki müxtəlif enerjinin - tangensial və radial enerjinin - eyni bir şeydə vəhdət təşkil etməsini təqdim edir. Burada tangensial enerji

varolmanın, radial enerji mövcudolmanın enerjisi kimi təyin oluna bilər. Cisimlərdə tangensial enerji radial enerji ilə mübadilə etmədiyindən cisimlərin sabit var olması, radial enerji ətrafla mübadilə olduğundan cisimlərin dəyişkən mövcud olması müəyyən etmiş oluruq. Bundan fərqli olaraq, canlılarda tangensial enerji ilə radial enerji qarşılıqlı mübadilə edir. Nəticədə, canlıların var olması da dəyişkənlik əldə edir, hansı ki, belə dəyişkənlik ölümlə başa çatır. Radial enerjisiz xalis tangensial enerji mümkünlük enerjisi kimi yalnız Varlıqda mövcuddur. Tangensial enerjisiz Radial enerji ayrılıqda yalnız reallıq enerjisi kimi Kainatda mövcuddur, hansı ki, Kainatı təşkil edən çoxsaylı şeylərin biri-biri ilə vəhdətini təmin edir.

Haşiyə: B.Spinoza "Ağlın təkmilləşməsi haqqında Metafizik fikirlərə olan əlavələr"

> *"Mövcudluğun varlığı - Allahın gücüdür. Allahdan kənar özü-özündə baxılan şeyin, mövcudolmanın varlığı - şeylərin mahiyyətidir."*

B.Spinozanın fikirlərindən görünür ki, mövcudluq özündə Allahın gücünü refleksiya edir. Biz bu gücü Passiv Güc və ya Allahın İstəmək Gücü kimi təyin edirik. Onda mövcudluğun mövcud olması mövcudluqda olan Allahın gücünün yeni səviyyədən refleksiyası olur. Buradan da mövcudluq mövcudolmaya nisbətən özündə daha çox mütləq həqiqətə yaxın həqiqət saxlayır. İdrak mövcudolmadan baş verdiyindən hissi qavrayışla əldə edilmiş heç bir bilik mövcudluğun özü-özündə saxladığı həqiqəti olduğu kimi özündə təqdim etmir, yəni mövcudolmadan yalnız nisbi bilik əldə etmək mümkündür. Beləliklə, şeylərin mahiyyəti - onların özlərində aydınlaşdırdıqları həqiqətin enerjisinin yaratdığı güc İlahi gücün refleksiyasıdır, hansı ki, eyni güclə təfəkkürdə şeyin həqiqəti haqqında ideyanın yaranmasını təmin edir.

B.Spinozanın şərhindən görünür ki, Allahın gücü mövcudluğun varlığı kimi təzahür edir və bu zaman, Allahdan kənar baxılan şeyin,

mövcudolmanın varlığı, yəni mövcudluğun aktı şeylərin mahiyyətini təşkil edir. Mövcudluğun varlığını biz mütləq fakt kimi, mövcudolmanın varlığını mütləq akt kimi təsəvvür etdiyimizdən, akt faktın zamanda özü-özündə sıralanması kimi meydana çıxdığından, biz şeyin mahiyyətini Allahın gücünün zamanla şərtlənməsi kimi dəyərləndirə bilərik, hansı ki, özlüyündə emanativdir. Biz ayrılıqda aktsız faktı hissi idrakla qavramaq imkanında deyilik. İstənilən baxılan şey özündə faktın təkrarlanması, Allahın gücünün emanasiyasıdır. Ayrılıqda götürülmüş, zamanı sıfra bərabər olan fakt - faktın başlanğıcı idrak üçün qapalıdır. Buna görə də, mövcudluq faktından ilahi təbiət aşkarlanmır. Mövcudluğun başlanğıcı, yəni fakt təbiətdən hissi qavrayışla idrak olunmadığından yalnız onun haqqında metafizik bilgilər əldə etmək olar.

FAKTİKİ MÖVCUDLUQ - MÖVCUDOLMANIN (AKTİN) ŞƏRT-LƏRİ

Fəlsəfədə Mövcudluq anlayışı özündə - bir-biri ilə əlaqədə və qarşılıqlı təsir halında dəyişən şeylərin rəngarəngliyi kimi qəbul edilib. Bu mənada mövcudluq özündə mövcud olan mövcudluğu - mövcudolmanı özündə ifadə edir. Buradan göründüyü kimi mövcudluğun üç əsas xarakteristikası vardır:

a.Bir-biri ilə əlaqədə olmaq: Biz bunu mövcudolmada vəhdət adlandırırıq. Yəni mövcudluğun əsas xarakteristikası vəhdət təşkil etməkdir. Vəhdət təşkil etməyən mövcudluq gerçəkləşmir. Çünki gerçəkliyin idrakı onun vəhdətinin pozulması ilə mümkün olur, buna görə də vəhdət təşkil etməyənin vəhdətini pozmaq absurd olduğundan, vəhdət təşkil etməyən heç bir halda təcrübədə idrak olunmur - vəhdət təşkil etmək, idrak olunma, yəni intellektibellik xarakteristikasını təşkil edir. Mövcud olan mövcudluq daxili vəhdətlə xarici vəhdətin vəhdətindən ibarətdir. Burada daxili vəhdət mövcudluğu, xarici vəhdət mövcudolmanı özündə təqdim edir.

b. Qarşılıqlı təsirdə olmaq: Qarşılıqlı təsir təklikdə mövcudluğun inkarı kimi meydana çıxır. Beləliklə, qarşılıqlı təsir metafizik təklərin inkarı ilə təbii çoxluq kimi mövcudolmanı özündə ifadə edir. Buradan da, mövcudluqlar tək kimi həm Allahı, həm Varlığın mövcudluğunu, həm də Ruhu inkar edir. Yəni bilavasitə mövcudluqdan nə Allah, nə Ruh, nə də Varlıq aydınlaşmır. Qarşılıqlı təsir varlığın özündə aydınlaşan həqiqəti şüalandırması ilə reallaşdığından bu xarakteristikanı təzahürün şərtlərinin məcmusu kimi dəyərləndirmək olar. Qarşılıqlı təsir qarşılıqlı olmağı şərtləndirir və qarşılıqlı təsir yalnız məkanı müştərək bölüşdürdükdə meydana çıxır ki, buradan da məkanla şərtlənmə meydana çıxır. Beləliklə, mövcudluğun ikinci mühüm xarakteristikası kimi məkanla şərtlənməni qəbul etmək olar. Məkanla şərtlənmə zəruri sabit şərtlərin məcmusundan ibarətdir.

v. Dəyişkənlik: Qarşılıqlı təsirdə bir mövcudluq başqa mövcudluğun təsirindən asılı olaraq ona əks təsir göstərir. Təsir-əkstəsir əlaqəsində vəziyyət meydana çıxır. Vəziyyət - təsir-əkstəsir əlaqəsinin reallaşdığı məqamdır. Təsir-əkstəsirin nəticəsi dəyişkənlik kimi təzahür edir. Dəyişkənlik - elə əkstəsirdir ki, növbəti xarici təsir artıq mövcudluqda əks təsir yaratmır. Yəni mövcudluğun xarici təsirlərə əks təsir yaratması ilə, belə təsirlərə laqeyd qalması vəziyyətləri arasındakı fərq dəyişkənlikdir. Mövcudluğun bir vəziyyətdən digər vəziyyətə keçməsinin ölçüsü zamanlılıq kimi təzahür edir. Zamanlılıq özündə vəziyyətlərin əvəzlənməsinin təsadüfi şərtlərin məcmusunu təqdim edir. Beləliklə, dəyişkənliyi mövcudluğun üçüncü mühüm xarakteristikası kimi, yəni zamanla şərtlənmə kimi müəyyən edə bilərik.

Haşiyə: Martin Haydeqqer “Zaman və Varlıq”

> *“Hər şeyin öz vaxtı var. Bununla düşünürük ki, nəsə nə vaxtsa mövcud olur, işimiz olan mövcudluq ona aid olan vaxta qədər gedir və ona ayrılan vaxt gedişində olur. Varlıq və zaman bir-birini qarşılıqlı müəyyən edir və varlığa müvəqqəti, zamana varlıq*

kimi baxmaq olmaz. Varlıq - işimiz olan şeydir, amma nəsə mövcudluqdur. Zaman - işimiz olan şeydir, amma nəsə müvəqqətidir."

Biz M.Haydeqqerin fikirlərini şərh etmədən qeyd etməliyik ki, dil həqiqətin mütləq idrak olunmasını mütləq izhar etməyə tam yetərli vasitə deyil. Yəni biz dillə yalnız konkret dilin imkan verdiyi qədər dərk etdiyimiz həqiqəti izhar etmiş oluruq. Bu baxımdan, sözlər metafizik təbiətli olduğundan çoxmənalılıqdan xali deyil, ona görə də istənilən sözün konkret halda özünün hansı mənası ilə çıxış etdiyini təyin etmək çətinlik törədir. Çünki Varlığın mövcudluğunun mövcudluğun varlığına keçiddə sintetik söz dialektik sözə çevrilir və necə ki tək bir varlıq çoxluq kimi mövcud olur, eləcə də tək sintetik söz çoxmənalı dialektik sözə çevrilir, hansı ki, çoxmənalılıq kimi meydana çıxır. Sözün çoxmənalılığının yaratdığı çətinliyi aradan qaldırmaq üçün biz dialektik məntiqdən istifadə edirik. Yəni məntiq idrak obyektinin dialektikasına uyğun dialektik anlayışlar tapır və həmin anlayışların müqayisəsi ilə birindən digərinin mənasını dəqiqləşdirir. Amma bundan fərqli olaraq, dialektik inkişafda olmayan idrak obyektinin mənasını dəqiqləşdirmək üçün dialektik anlayışlardan istifadə etmək imkanımız olmadığından, belə obyektləri ifadə edən anlayışları da dəqiqləşdirə bilmirik. Məsələn: biz Varlığı şərh edərkən bir-birindən fərqli bir çox anlayışlarla - mövcudluq, reallıq, gerçəklik və s. anlayışlarla - tutuşdurmaqla onun həqiqi mənasını təyin edirik. Bundan fərqli olaraq, Zamanı bu cür təyin etmək imkanımız yoxdur. Çünki Varlıqdan fərqli olaraq Zaman dialektik inkişaf edən idrak obyekti deyil, yəni Zaman mənaya görə pillələnmir və öz mənasını növbəti pillələrdə fərqli dərəcələrdə açmır. Zaman anlayışı birmənalı və birpilləli anlayışdır. Bu baxımdan zamanın mahiyyətini şərh etmək, onun dəqiq mənasını çatdırmaq çətindir.

Haydeqqerin şərhindən göründüyü kimi Varlıqla Zamanın bir prinsipial fərqi var. Varlıq bizim işimiz olmasa da, özü-özündə, özü-üçün

mövcuddur. Amma Zaman bizim işimiz olmadan özü-özü üçün mövcud deyil. Bizcə zamanın bu cür təsəvvürü onun həqiqi mənasına ziddir. Biz zamanı təsadüfi, dəyişən və xarici şərtlərin məcmusu kimi, məkanı sabit, daxili zəruri şərtlərin məcmusu kimi təyin edirik. Buradan da sabit, zəruri daxili şərtlərin məcmusu kimi mövcudluq - mütləq fakt, dəyişən, xarici və təsadüfi şərtlərin məcmusu mövcudolma - akt kimi meydana çıxır. Bizim işimiz yalnız mövcud olanla olduğundan həm məkan, həm zamanla işimiz olur. Eləcə də bizim işimiz olmadan da mövcud olan mövcudluq həm məkanı, həm zamanı özündə ifadə edir. Zaman qarşılıqlı təsir və təzahürdə ifadə olunur, hansı ki, məcmusu dəyişkənlik kimi qavranılır. Buradan da dəyişkənlik zamanın təzahür forması olur. Yəni qarşılıqlı təsirdə dəyişkənliyin olması şüurla idrak olunur, amma şüurdan kənarda bu dəyişkənlik "indi və burada" prinsipi ilə heçlikdir. Mövcudluq anlayışı materiyanın əmələ gətirdiyi hər şeyin varlığını ifadə edən anlayışdır. Başqa sözlə, varolmanın başlanğıcı mövcudluğu təşkil edir. Bu baxımdan, mövcudluq da metafizik dərk olunandır.

Kosmoloji ideyalar həm də Kosmosun təşkil olunmasından aşkarlanır. Mövcudluqların bir-birinə münasibətindən Kosmosun təşkil olunması - mövcudolması meydana çıxır. Kosmos yalnız daxili vəhdətə - zəruri şərtlərin məcmusu kimi mövcud olur. Kosmos tək bir mövcudluq olduğundan, ondan başqa mövcud Kosmos olmadığından təsadüfə görə şərtləri yoxdur, buna görə xarici vəhdət təşkil etmir. Buradan da Kosmosun təşkil olunması yalnız zəruri şərtlərin məcmusu kimi mövcuddur, hansı ki, onu təşkil edənlərin təsadüfi və zəruri şərtlərinin məcmusundan ibarət olur.

Təşkilolunma - strukturlaşmış mövcudluqların yenidən İlahi İradə ilə bir-biri ilə vəhdətdə təzahüründən ibarətdir. Beləliklə, təşkilolunma İlahi İradə ilə meydana çıxdığından bu iradədən kənarda ayrılıqda tək bir mövcudluğun mövcudolması istisna olunur. Buradan da belə bir kosmoloji ideya aşkarlanır:

Kosmosun mövcudolması onu təşkil edən bütün mövcudluqların vəhdətinin şərtlərindən ibarətdir və bu vəhdətdən kənarda Kosmosda mövcudluqların mövcudolması istisnadır.

Kosmosu təşkil edən İlahi İradənin Mütləq Xalis Güc kimi refleksiyası nəticəsində ən müxtəlif təbii güclərin iştirakı ilə mövcudluqlar vəhdətdə aktuallaşaraq Kosmosu təşkil edirlər. Kosmosun mövcudolması zərurətə görə şərtlərlə təsadüfə görə şərtlərin, yəni Kosmosun ən ümumi şəkildə məkan və zaman şərtlərinin məcmusundan ibarətdir. Başqa sözlə, dəyişən və sabit şərtlərin məcmusunun iyerarxiyalaşmasını biz Kosmosun təşkilatlanması adlandırırıq. Hansı ki, bu şərtlər Kosmosu təşkil edən mövcudluqların xüsusi şərtləri kimi görünən kosmosu yaradır.

Kosmos fikrən ayrılıqda götürülmüş tək fakt olduğundan və ondan başqa digər kosmoslar olmadığından, hissi qavranılan maddi şeylərə xas münasibətlərdən məhrumdur. Kosmosun mövcudluğunu elə-belə münasibətsiz idrak etmək üçün kosmosdan ümumiyyətlə münasibəti - kosmosu təşkil edən mövcudluqlardan eynilikləri, fərqlilikləri və oxşarlıqları fikrən kənarlaşdırmaqla tək kimi Kosmosun xalis mövcudluğu haqqında təsəvvür əldə etmək və sonra Kosmologiyanın metafizik ideyalarını həm də Kosmosun mövcudolmasından aşkarlamaq olar.

Təcrübədə hissi qavrayışda eyni bir şey ən müxtəlif anlayışlarla simvollaşdırılır və bu simvollar bilavasitə faktiki tək kimi ayrılıqda mövcud olan şeydən formal tək kimi ayrılıqda götürülmüş ən ümumi tək şeyə - Kosmosa doğru uzaqlaşdıqca sonda özündə tək kosmosun anlayışına çevrilir.

Kosmosun təşkilatlanması mümkünlüyün mövcudluq tələbinin mövcudluqlarda davam etməsi - bir mövcudluğun başqa mövcudluğa keçidi kimi təzahür edir və bu özündə mümkünlüyün mövcudluğa keçidinin refleksiyası kimi metafizika ilə təbiəti əlaqələndirir.

Təşkilolunma sözü bir çox mənalara malikdir:

1. **Qaydaya salmaq:** Bu mənada kosmosun təşkilatlanması kosmosda qaydalaşma mənasını verir. Qaydalaşma mənasında kosmosun təşkilatlanması - xaotik şəkildə birincili məkanı doldurmuş mövcudluqlardan görünən kaleydoskopik dünyanın yaranmasını, yəni mümkünlüyün varlığının xaosundan - mütləq azadlığından, xalis təsadüfdən, mövcudluğun varlığının nizamlı mövcudolmasına, zərurətə, qarşılıqlı asılılığa, yəni mövcudolmaya keçidi özündə ifadə edir. Buradan da, kosmosu kosmosun mövcudolmasının qaydalarının şərtlərinin məcmusu kimi təyin etmək olar.
2. **Tərtib etmək:** Kosmosun tərtib edilməsi onu təşkil edən mövcudluqların eyni zamanda məkanın müxtəlif yerlərində yerləşdirilməsini özündə ifadə edir, hansı ki, ən ümumi şəkildə Kosmosun məkan və zaman şərtlərinin məcmusu kimi meydana çıxır. Beləliklə, buradan da Kosmosun mövcudolması mövcudluqların məkan və zaman şərtlərinin məcmusunun şərtlərindən - ən ümumi məkan, ən ümumi zaman şərtlərindən - ibarət olması ideyası meydana çıxır.
3. **Quraşdırmaq, təsis etmək, təyin etmək, qanuna salmaq, meydana çıxarmaq:** Quraşdırma, təsis etmə özündə hissələrdən tamın alınmasını təqdim edir. Bu mənada xüsusi qanunlara tabe olan obyektlərin Kosmosun hissələri kimi ümumi qanunlara tabe etdirilməsi və Kosmosun bir tam şey kimi meydana çıxması mənasını verir. Ümumi qanunlar xüsusi qanunlara münasibətdə xaricidir. Beləliklə, xüsusi qanunlar strukturlaşmada daxili qanunlar kimi, ümumi qanunlar təşkilatlanmada xarici qanunlar kimi təzahür edir. Bu mənada kosmos təsis edilmə kimi özündə varlıq sıralarının ümumi zərurətə görə şərtlərlə onların hər birinə münasibətdə ən ümumi təsadüfə görə şərtlərin məcmusunun vəhdətindən ibarət tamlıq olması ideyası meydana çıxır.

4. **Razı salmaq, uzlaşdırmaq, yoluna qoymaq:** Kosmosda razı salmaq mövcudluqların biri-birinə münasibətdə mövcud olmasını özündə ifadə edir, hansı ki, hər bir mövcudluğun zərurətə görə şərtlərinə uyğun təsadüfə görə şərtlənmədən ibarət olur. Beləliklə, bu mənada kosmosun təşkilatlanması kosmosu təşkil edən obyektlərin mövcud olmasını elə şərtləndirməyi özündə ifadə edir ki, kosmosda mövcudluqların paralel mövcudolması meydana çıxsın. Platona görə "Mövcudolan onunla təyin olunur ki, o qabiliyyətə malikdir və qabiliyyətin təsirini hiss edir". Mövcudolmanın mahiyyəti mövcudluğun başqa mövcudluqlarla səbəb-nəticə əlaqəsində olmasından ibarətdir. Səbəb-nəticə əlaqəsi özündə səbəblə nəticənin qarşılıqlı yerdəyişməsi vəziyyətidir, hansı ki, yalnız təbiət üçün xarakterikdir. Buradan da təbiətin ardıcıllıq məntiqinə uyğun idrakı meydana çıxır. Metafizika bundan fərqli olaraq ilkin başlanğıclar və ilkin səbəblər kimi çıxış edən metafizik statuslu obyektlərdən ibarət olduğundan, metafizik statuslu obyektlər özlərində nəticə saxlamır, yəni özü-özündə başlanğıc səbəb kimi nəticəni inkar edirlər. Buna görə də səbəblə nəticə qarşılıqlı yerdəyişmir. Beləliklə, metafizik həqiqətlər ardıcıllıq məntiqi ilə dərk olunmaz olur, hansı ki, yalnız qeyri-məntiqi müdrikliklə, yəni sofistika ilə dərk olunan olur. Beləliklə, Mümkünlüyün mövcudluq tələbində mövcudluğun meydana çıxması ilə mümkünlüyün varlığının başlanğıc səbəbiliyi - metafizik səbəbilik, mövcudluğun varlığında başlanğıc nəticəyə - təbii səbəbiliyə keçir. Təbii səbəbilik refleksiv səbəbilik - emanativ metafizik səbəbilik olub özündə həm mümkünlüyün varlığının mövcudluq tələbinin təmin edilməsindən meydana çıxan ilkin nəticə olur və həm də bu tələbin mövcudluqda davam etməsində təbiətdə bir mövcudluğun başqa mövcudluğa keçidində özü digər mövcudluğa münasibətdə səbəb kimi çıxış edir ki, məhz bu keyfiyyətinə görə metafizik səbəbilikdən fərqlənir. Beləliklə, səbəb-nəticə əlaqəsi bir

mövcudluğun başqa mövcudluğa keçidində meydana çıxır. Bu keçid qarşılıqlı təsir üsulu ilə reallaşır. Buradan da Kosmosu mövcudluqların ən ümumi qarşılıqlı təsir-əkstəsir şərtlərinin məcmusundan ibarət olması ideyası meydana çıxır.

5. **İnkişaf etdirmək, düzgün saxlama, buraxılma:** Bu mənada təşkilatlanma mövcudolmada mövcudluğun qorunmasını, saxlanmasını özündə ifadə edir. Başqa sözlə, təsadüfə görə şərtlərdə zərurətə görə şərtlərin dayanıqlığı Kosmosda inkişaf etdirməni, düzgün saxlamanı ifadə edir. Təsadüfə görə şərtlərdə zərurətə görə şərtlərin dayanıqlığı mövcudluğun iradəsi kimi meydana çıxır, hansı ki, Kosmos onu təşkil edən hər bir mövcudluğu öz iradəsinə buraxır. Öz iradəsinə buraxılmaq bir obyekti başqa obyektin iradəsindən azad etməkdən ibarətdir, hansı ki, bunu strukturlaşmış obyektin özü yox, yalnız təşkil olunmuş kosmos təzahür etdirir. Mövcudluqların iradəsi onların təzahüründən ibarətdir. Əgər Kosmosun təşkilində buraxılma olmasaydı, onda heç bir mövcudluq avtonom mövcudolmaya malik olmazdı, onda bir mövcudluğun məhvi bütün mövcudluqların məhvi ilə nəticələnərdi. Bu da kosmosun mümkünsüzlüyünü meydana çıxarardı. Kosmos mümkün olduğundan bu hal inkar olunur və hər bir mövcudluğun mövcudolması onun öz iradəsinə buraxılmasını təsdiq olunur. Beləliklə, buradan kosmologiyanın belə bir ideyası aşkarlanır: Kosmos onu təşkil edən mövcudluqların azadlıqlarının, yəni təzahürlərin şərtlərinin məcmusudur.

Beləliklə, kosmosun təşkil olunması - mümkünlüyün mövcudluq əldə etmə meylində sonsuz sayda çoxluqda xaotik meydana çıxan strukturların - mövcudluqların məkan və zamanla şərtlənməklə qaydaya düşməsi ilə kaleydoskopik dünyanın yaranması, kosmosda strukturlaşan kosmik sıraların və sistemlərin ən ümumi xarici şərtlərlə bir-biri ilə əlaqələndirilməsi nəticəsində, kosmosun tam kimi mövcud olması, kosmik vəhdətin yaranması, strukturların xüsusi daxili vəhdətləri ilə

xarici ümumi vəhdətin əlaqələnməsi, kosmosu təşkil edən obyektlərin mövcud olmasını mövcudluqların kosmosda avtonom mövcudolması və inkişafının təmin edilməsi şərtlərinin məcmusundan ibarətdir.

Buradan da təşkilatlanmadan Kosmosun əsas xarakteristikaları - şərtlərin məcmusu olması, xarici vəhdət kimi çıxış etməsi, ən ümumi qanunları özündə təqdim etməsi, tamlığa malik olması, mövcudolmanın və inkişafın əsası kimi çıxış etməsi meydana çıxır. Kosmosun təşkil olunması strukturlaşmaya paralel ən müxtəlif səviyyələrdə fərqli üsulla aktuallaşır. Kosmos bir tam kimi mövcudluqlar və onlar arasında münasibətlərin şərtlərinin məcmusundan ibarətdir. Mövcudluqlar ayrı-ayrı mövcud varlıqların sıraları kimi təşkil olunur.

MÖVCUD VARLIQ - MÖVCUDLUĞUN VARLIĞI

(ESSE EXISTENTIAE)

İlahi istəyin İlahi İradə ilə şərtlənmə ilə birləşməsindən əmələ gələn mücərrəd mövcudluq - maddilik ən ümumi maddilikdir, hansı ki, abstrakt maddilik kimi konkret formalılıqdan, yəni xarici görüntüdən məhrumdur. Yalnız İlahi Bacarığın - Yaradıcılıq Gücünün ikincili materiyaya təsirindən ikincili materiya şəkillənməyə - ayrı-ayrı mövcudluqlar kimi forma almağa, bununla da birincili məkanda potensiya kimi saxlanılan xarici görüntünü təzahür etdirməyə səbəb olur. Xarici görüntü İlahi Bacarıqla daxili görüntüden - mövcudluğun mahiyyəti ilə şərtlənmədən meydana çıxır. Yəni ikincili materiya ilə birincili materiyanın əlaqəsi ölçülük (məkan-yer) və sürəklilik (zaman-vaxt) kimi meydana çıxır. Sürəklilik mövcudluğun zaman şərtlərinin məcmusunu, ölçülük məkan şərtlərinin məcmusunu özündə təqdim edir. İlahi İstəklə və İlahi İradənin birliyi kimi ikincili materiyaya İlahi bacarığın - özündə ixtiyari formalılıq yaratmaq gücünün təsirindən ikincili materiya ayrı-ayrı mövcudluqlar kimi şəkillənərək görünən Kosmosun illüstrasiyasını meydana çıxarır.

Buradan da görünən Kosmosun konkret illüstrasiyasını mövcudluqların məkan və zaman şərtlərinin məcmusundan ibarət olduğu aşkarlanır.

Hər bir konkret mövcudluğun ən ümumi əsasını ikincili materiya təşkil edir. Hansı ki, həmin mövcudluğun mövcudolması ilə şərtlənərək bölünməzlik xarakteristikasına malik olur. Mövcudluq aktının əsası elə bölünməz şeydir ki, materiyanın minimum təzahürünə imkan verir.

Haşiyə: Epikur "Məktublar və fraqmentlər"

> *"Zəriridir ki, ilk başlanğıc bölünməz maddi təbiətə (substansiyaya) malik olsun."*

Epikurun fikirlərindəki bölünməz maddi təbiət özündə mövcudluğun əsasında duran ikincili materiyanın bölünməzliyini özündə ifadə edir, hansı ki, ikincili materiyanın bölünməsi məkandan zamanın ayrılması kimi baş verir, hansı ki, hər ikisinin vəhdətindən konkret mövcudolmanın şərtləri meydana çıxır. Bu cürə bölünməzlik materiyada aydınlaşan həqiqətin şüalanmasında dalğaların elə proporsional ifrat qısalması ilə maddəyə çevrilməsi və həmin maddədən vasitəli şüalanmasını özündə ifadə edir ki, yalnız bu proporsiyada konkret varlıq təzahür edir. Bu proporsionallıq həm də varlığın tabe olduğu qanunauyğunluğu - onun substansiyasını təşkil edir.

İki cür bölünməzlik ayırd etmək olar:

a. Özü-özündə bölünməzlik, yəni nə faktiki, nə də formal, yəni fikrən bölünməsi mümkün olmayan kimi bölünməzlik. Elə-belə bölünməzlik yalnız Allaha xasdır, hansı ki, nə faktiki, nə də formal götürülməsi mümkün olmadığından bölünməsi də mümkünsüzlükdür.

b. Bölünməsi ilə bölünənə xas keyfiyyətlərdən, o cümlədən bölünənlik keyfiyyətindən məhrum olan bölünməzlik: Bu mənada bölünməzlik təbiət qanunlarının mövcud olduğu idraka münasibətdə ən sonuncu, yaranışa münasibətdə Kosmosun ən başlanğıc olanın xarakteristikası kimi çıxış edir. Hansı ki, bölünmənin davam etməsində

bölünənlik keyfiyyəti itdiyindən bölünməz olur, yəni təbii sferadan çıxaraq metafizikaya keçir.

Mümkünlüyün varlığının mövcudluq tələb etməsinə görə təbiətdə özü-özündə faktiki bölünməzlik - təbii bölünməzlik mövcuddur, hansı ki, bu səviyyədə bölünməzlik özündə mövcudluq əldə etmiş mümkünlüyün varlığının - mövcudluğun varlığı və mümkünlüyün varlığı kimi iki yerə bölünməzliyini ifadə edir. Hansı ki, belə bölünməzlik olmadan mövcudluğun itməsi, yəni onun təkrar metafizikaya - mümkünlüyün varlığının mövcudluq tələb etməsinə keçməsi baş vermir. Bu mənada bölünməzlik Kosmosun yenidən metafizikaya keçidinin mümkünsüzlüyünü özündə ifadə edir. Buradan belə bir kosmoloji ideya aşkarlanır: Kosmos təkrar metafizikaya keçidə imkan verməyən şərtlərin məcmusundan ibarətdir. Yəni Kosmos İlahi iradə ilə əbədi mövcudluqdur. Bu ideya özündə Kosmosun əbədiliyini təqdim edir.

Təbii bölünməzliklə fikrən bölünənlik əkslik kimi mövcuddur. Yəni təbii bölünməzlər fikrən bölünəndir. Məsələn, ruhun müdaxiləsi ilə insan təbii bölünməzliyi dəf edərək mövcudluğu dağıdır və bununla da metafizik statuslu obyektlər əldə edə bilir. Bunun nümunəsi kimi atomu təşkil edən hissəciklərin parçalanmasında alınan nəzəri və ehtimali hissəcikləri göstərmək olar ki, belə hissəciklər haqqında ümumi metafizika bölməsində geniş şərh vermişdik. Beləliklə, bölünməz maddi təbiət - metafizik statuslu obyektlərlə, mümkünlüyün varlığı ilə, obyektiv statuslu obyektlərin - mövcudluğun varlığının sərhədində mövcud olan və özündən bir tərəfdə metafizikaya, digər tərəfdən təbiətə keçid imkanı saxlamayan mövcudluq faktı kimi təyin etmək olar, hansı ki, təzahür etmədiyindən bölünənliyin başlanğıcı - bölünməz kimi mövcud olur.

İkincili Materiya zaman-məkan asılılığına, yəni təsadüfi şərtlərlə zəruri şərtlərin əlaqəsinə görə bir neçə səviyyədən mövcud varlıqları - reallıqları meydana çıxarır:

a.Birincili mövcudluq: Mümkünlüyün mövcudluq tələbində ona İlahi iradədən ən sadə birincili sabit şərtlər təklif olunur, hansı ki, biz bu şərtlərin məcmusunu birincili məkan kimi təsəvvür etmişdik. Birincili şərtlər olmadan digər şərtlərin verilməsi mümkün olmadığından belə şərtlər zəruri şərtləri təşkil edir. Zəruri şərtlər - ən sadə, ilkin, dəyişməz və mütləq asılılıqda mövcud olan şərtlərdir. Birincili mövcudluqların zəruri şərtlərin məcmusu Kosmosun mövcudluğunun ən ümumi şərtlərindən ibarətdir. Mövcudluq tələbi sürəkli olduğundan, ilkin şərtlərlə mövcudluq əldə etmiş ilkin məkanda mövcudluq tələbi davam edir, bu zaman İlahi iradədən birincili təsadüfə görə sabit şərtlər - zaman şərtləri verilir. Təsadüfə görə şərtlər daxildən mütləq asılılıqda olan mövcudluğa xaricdən azadlıq verən şərtlər kimi verilir. Beləliklə, təsadüfə görə şərtlər hər bir mövcudluğun başqa mövcudluqlardan asılı olmadan azad mövcudolmasının şərtləri kimi verilir. Nəticədə, birincili məkan birincili zamanla vəhdət təşkil edir, bu vəhdətdən ikincili materiyaya malik maddi varlıqlar - birincili mövcudluqlar meydana çıxır. Birincili mövcudluqlar daxili şərtlərə görə asılı, xarici şərtlərə görə azad olan mövcud varlıqlardan ibarətdir. Sabit zəruri və təsadüfi şərtlərin məcmusu kimi "burada və indi" prinsipi ilə Kosmos Dünya kimi mövcud olur. Kosmos tək kimi özündən başqası olmadığından özündə mövcudluqların daxili şərtlərinin məcmusundan ibarət olur. Yəni Kosmosun mövcudluğu onu təşkil edən birincili mövcudluqlarla şərtlənmişdir. Yalnız Zəruri şərtlərin məcmusuna görə mövcud olan, təsadüfi şərtlərə görə təzahür edən mövcudluqlar birincili mövcudluqları təşkil edir.

Məkan üç ölçülü olduğundan sabit zəruri şərtlər çox parametrli, zaman sabit olduğundan sabit zaman bir parametrli olur. Buradan da birincili mövcudluqların məkandan bir momentli (şərtlərin verilmə məqamı kimi) çoxparametrli, zamanla bir momentli bir parametrli şərtlənərək mövcud olması meydana çıxır. Bir parametrli zaman Andan,

yəni ən kiçik zaman vahidindən ibarətdir, hansı ki, anın bölünməsi istisna olduğundan özü-özündə dəyişməzdir. Buradan da, birincili mövcudluqların zamanüstü olması, yəni əbədilik xarakteristikası aşkarlanır. Birincili mövcudluğun məkanda təkrarlanmasından çoxluqda, özü-özündə sıralanmasından tək kimi mövcudolma meydana çıxır. Zamanla bir parametrli asılılığa görə, birincili mövcudluqlar özü-özündə özünü olduğu kimi təkrarlamaqla mövcud olur. Buradan da, birincili mövcudluqların məkan və zaman şərtlərinin təkrarlanması meydana çıxır. Birincili mövcudluq öz təbiətinə görə birincili materiyaya çox yaxındır və buna görə də, belə mövcudluqlar əbədi tək şeylər kimi təzahür edir və mövcudolma yalnız zərurətə görə məkani şərtlərdən asılı olur. Bura cisimlər aiddir. Cisimlər zamandan bir momentli asılı olaraq məkanla çox parametrli şərtlərdə mövcud olurlar. İlkin materiya ilə şərtləndiklərindən Mövcudluğun digər sıraları üçün bazis mövcudluq rolu oynayır. Belə mövcudluqların forma ilə məzmunu vəhdətdədir və hər ikisi sabit şərtlərdən yarandıqlarından sabitdir, yəni dəyişməzdir.

b.İkincili mövcudluq: Mümkünlüyün varlığının mövcudluq əldə etməsində mövcudluq tələbinin davam etməsində İlahi İradədən birincili mövcudluğa zərurətə və təsadüfə görə ikincili şərtlər verilir. Birincili şərtlər sabit olduğundan ikincili şərtlər dəyişən şərtlərdən ibarət olur. Əgər ikincili şərtlər də sabit şərtlərdən ibarət olsaydı, onda hər bir mövcudluq eyni anda iki müxtəlif şey kimi mövcud olardı ki, bu da Kosmosda substansiyanın tabe olduğu qanunlara zidd olduğundan mümkünsüzlükdür. Beləliklə, ikincili mövcudluq birincili mövcudluğun əsasında ikiqat zərurətə görə və ikiqat təsadüfə görə şərtlərdə meydana çıxır. Buradan da, ikincili mövcudluq sabit və dəyişən zəruri və təsadüfi şərtlərdə əvəzlənən mövcudolma əldə edir, hansı ki, həyat kimi qavrayırıq. Həyatda, ikincili mövcudluqların mövcudolması kimi, həm məkan, həm zaman şərtləri iki səviyyə təşkil edir. Bu cür iki səviyyəli məkan və zaman şərtlərindən forma və mahiyyətin, yəni mövcudluğun

daxili və xarici dəyişilmələri - qeyri-sabit mövcudluq meydana çıxır, hansı ki, bu cür mövcudluqları canlılar kimi təyin edirik. Canlı - ikincili mövcudluq, həyat - canlının mövcud olmasından ibarətdir. Bu sıraya daxil olan mövcudluqlar yalnız ikincili materiyanın əsasında əmələ gəlir, yəni birincili materiya ilə bilavasitə şərtlənmirlər, buna görə də, birincili zəruri şərtlərlə keçici olaraq şərtlənir, yəni məkanda əbədi mövcud olmur. Canlılar özünün bütün qanunları ilə dolayısı ilə birincili materiyanın qanunlarına, bilavasitə ondan fərqlənən öz xüsusi qanunlarına - zamanla dəyişən şərtlənmə qanunlarına tabe olur. Buna görə də, zamanda keçici olurlar. Canlılıq özündə həm məkanda çoxluq kimi, həm özündə təklik kimi, həm də özündən olandan nəsil kimi üçlü sıra təşkil edən mövcudluqlardan ibarətdir. Canlılıq özündə təbii xaosla nizamın qarşılıqlı bir-birinə keçid vəziyyətini təqdim edir, hansı ki, bədən bir nizamlılıqdan xaosa, oradan başqa nizama keçməklə inkişaf edir. Belə mövcudluqların forması ilə məzmunu nisbi vəhdətdədir, belə ki, forması dəyişkən, mahiyyəti sabitdir. İkincili mövcudluqlar birincili mövcudluqlara görə keçici olduğundan bəlli zaman çərçivəsində mövcudolma əldə edirlər və sonradan mümkünlüyün varlığının mövcudluğun varlığından əldə etdiyi şərtlər itdiyindən canlılıq yenidən cisim vəziyyətinə keçir, bu da ölüm kimi meydana çıxır.

v.Üçüncülü mövcudolma - subyektiv mövcudluq: Mümkünlüyün varlığının canlılıqda mövcudluq tələbinin davam etməsində ilahi iradədən ona üçüncülü səviyyədən yeni şərtlər verilmir, çünki təbilik təkrarlanma və dəyişilmələrdən ibarət olur. Təkrarlanma cisimlərə, dəyişilmə canlılara verilən şərtlərin məcmusundan ibarət olduğundan və bu bir-birinə əks prosesdən fərqli üçüncü bir təbii proses olmadığından, əksliklərin vəhdəti və ziddiyyəti qanununa görə mümkünlüyün varlığının ikincili mövcudluqda mövcudluq tələbinə ilahi iradədən xüsusi şərtlərin verilməsi istisna olunur. Yəni təbiətdə üçüncü vəziyyət mümkünsüzlük olduğundan, nəticədə mümkünlüyün varlığının üçüncü səviyyədən

mövcudluq tələbində o, təklif gözləmə vəziyyətində mövcud olur, nəticədə mövcudluqsuz mövcudolma - mövcudluğu olmayan varlıq meydana çıxır. Mövcudluğu olan mövcudolanı biz obyektiv varlıq kimi, mövcudluğu olmayan mövcudolmanı subyektiv varlıq kimi təyin edirik. Hansı ki, subyektiv varlıq Ruhun mahiyyətini təşkil edir. İkincili mövcudluqda təklif gözləmə vəziyyətində olan mümkünlüyün varlığı özündən əvvəl mövcud olan mövcudluqların şərtlərindən öz mövcudluğu üçün şərtlər əldə etməklə təzahür edir. Belə imkanlar insan iradəsindən təklif edilir və bilavasitə İlahi İradədən çıxmadığından qeyri-təbii şərtlər kimi meydana çıxır. Ruhun İlahi İradədən xüsusi özünəməxsus şərtlər alması istisna olduğundan, o, bu şərtləri özü birincili və ikincili mövcudluqlara verilmiş şərtlərdən dolayısı ilə əldə etməyə cəhd edir. Beləliklə, Ruh İnsan İradəsi ilə cisimlərin və canlıların mövcudluğunun tabe olduğu qanunları öyrənməklə özü-özünə mövcudluq əldə etməyə cəhd edir. Bu mövcudluq forması İlahi İradənin verdiyi mövcudluq formasının əksinə olaraq qeyri-təbii olur. Buradan da, Ruhi fəaliyyət nəticəsində meydana çıxan süni mövcudluqların təşkil etdiyi taksis meydana çıxır. Ruh mümkünlüyün mövcudluq tələbinin canlılarda davam etməsi və bunun üçün mövcudluğa keçmək üçün zəruri şərtlərlə təmin edilməməsini özündə təzahür etdirir. Ruhun nə özünəxas təsadüfə görə şərtləri, nə də zərurətə görə zəruri şərtləri yoxdur. Başqa sözlə, ruh - təbiətdə mümkünlüyün mövcudluq tələb etməsində gözləmə vəziyyətində olan və buna görə də metafizikadan çıxan, amma mövcudluğa keçməsi üçün mövcudluq təklif edilməyən və buna görə də təbiətdə mövcudluğu olmayan, özü mövcudluq şərtləri əldə etməyə cəhd edən mövcudluğu olmayan mövcud olan varlıqdır. Biz bura əmələgəlməsi birincili və ikincili materiya və gözlənti ilə, yəni tarixlə şərtlənmiş, bilavasitə müstəqil faktı olmayan, yalnız akt kimi mövcud olan sıranı - ruhu sıranı əmələ gətirənləri aid edirik. Ruhi mövcudolma mümkünlüyün varlığının təmin edilməmiş mövcudluq tələbinin sürəkliliyi kimi mövcudluq

tələbində gözlədiyindən Yeganə bir formalı və bir növlüdür. Müstəqil mövcudluqdan məhrumdur. Yalnız birincili və ikincili mövcudluğun əsasında təzahür edir. Buna görə də onun mövcudluğu birincili və ikincili mövcudluğa münasibətdən dolayısı ilə təyin olunandır. Buna görə də, öz qanunları ilə onlardan fərqlənir. Ruhi mövcudluğu olmadığından qeyri-maddidir, dayanıqlılığı yoxdur, metafizik xarakteristika ilə təbii xarakteristikanın vəhdətindən təzahür edir. Təzahürləri birincili və ikincili mövcudluğun təzahürlərinə münasibətdən ibarətdir, hansı ki, ən ümumi şəkildə aydınlaşan həqiqətin aşkarlanmasından öz həqiqətini aydınlaşdırmağa cəhd edir. Dayanıqlılığı olmadığından yalnız mahiyyətdən, yəni formasızdır.

q.Dördüncülü mövcudluq və ya qeyri-təbii mövcudluq: Qeyri-təbii mövcudluq mümkünlüyün varlığının ikincili mövcudluqda mövcudluq tələb etməsinin sürəkliliyində üçüncülü mövcudluğun özü-özünə mövcudluq təklif etməsi nəticəsində meydana çıxan mövcudluqlara aiddir. Qeyri-təbii mövcudluqlar - birincili, ikincili mövcudluqlara və ruhi mövcudolmaya ilə şərtlənmiş varlıqlardan ibarətdir. Qeyri-təbii mövcudluqlar mümkünlüyün mövcudluq tələbinin təklifini metafizikadan ilahi iradədən yox, insan iradəsindən alır, buna görə də, hər cür mümkün varlıqdan məhrum, xalis mövcudluq və ya forma kimi mövcud olur. Belə mövcudluqlara sintetik sıranı təşkil edən bütün taksisi təşkil edən şeylər, maddi mədəniyyət nümunələri, bir sözlə şüurlu fəaliyyətin bütün məhsulları aiddir, hansı ki, yalnız forma kimi təbii mövcudluqlardan fərqlənirlər, yəni özlərində yalnız xalis formalığı təqdim edirlər. Mahiyyətləri olmadığından bütün bu mövcudluqlar mütləq heçlikdən başqa bir şey deyillər. Qeyri-təbii mövcudluqların mahiyyəti ruhda, formaları birincili və ikincili mövcudluqlardadır. Buna görə də nə mövcudluqları, nə də mövcudolmalarının xüsusi şərtləri yoxdur. Buradan da, qeyri-təbii şeyləri ruhun özündənkənar forması kimi təyin etmək olar. Ruhi mövcudolmanı - mahiyyəti özündə, forması

özündənkənarda olan və buna görə də mövcudolması başqa mövcudluqlara münasibətindən təyin olunan varlıq kimi təyin oluna bilər. Buradan belə bir ideya alınır: Ruh metafizik statuslu obyekt kimi forması Kosmosla şərtlənmiş mövcud olan varlıqdır. Mahiyyəti metafizik olduğundan təbii mövcudluqların tabe olduğu heç bir qanuna tabe olmur, forması təbiətdə olduğundan Kosmosdan kosmosa münasibətindən dolayısı ilə aşkarlanandır.

Birincili mövcudluqlar, cisimlər - Dünya kimi; dünya və ikincili mövcud varlıqlar, canlılar vəhdətdə - təbiət kimi; təbiət və subyektiv mövcudluqlar - şüurlu insan, subyekt təcrübə kimi; təcrübə və qeyri-təbii varlıqlar - simvolik varlıqlar taksis, sosial aləm kimi Kosmosu təşkil edirlər. Buradan da biz Kosmoloji ideyaları dörd müxtəlif səviyyədən - Dünyadan yalnız cisim sırasından; Təbiətdən cisim və canlıların sırasından; Təcrübədən cisim, canlı və subyektiv varlıqların sıralarından və nəhayət Taksisdən - cisim, canlı, subyektiv və simvolik varlıqların sıralarından əldə edə bilərik. Bu səviyyələrdən dünya kimi Kosmos anlayışı onun başlanğıc ideyalarını, taksis kimi onun sonuncu ideyalarını özündə təqdim edir. Kosmosu təşkil edənləri biz mövcudluqlar, təbiəti təşkil edənləri reallıqlar, təcrübəni təşkil edənləri gerçəkliklər, taksisi təşkil edənləri mücərrədliklər və ya simvoliklər adlandırırıq. Buradan da cisimlər həm mövcudluqdur, həm reallıqdır, həm gerçəklikdir, həm də simvolikdir. Canlılar - reallıqdır, gerçəklikdir və simvolikdir. Şüurlu insan - gerçəklikdir və simvolikdir. Taksisi təşkil edən şeylər yalnız simvolikdir. Konkretin mücərrədləşdirilməsi və ya mücərrədin konkretləşməsi kosmosun təşkil olunmasını özündə ifadə edən anlayışların birindən digərinə keçməklə əldə etmək olar.

Konkretin mücərrədləşməsi: Mövcudluq - reallıq - gerçəklik - simvoliklik - Kosmos. **Mücərrədin konkretləşməsi:** Simvoliklik - gerçəklik - reallıq - mövcudluq - Kosmos.

Buradan da aydın olur ki, kosmoloji ideya ya yaranışın ardıcıllığından, ya dərketmənin ardıcıllığından əldə edilir.

"ÖZÜNDƏNŞEY" - FAKTİKİ CİSİM - FİZİKİ CİSİM

Mövcud olan cisim - faktiki cisimdir. Buradan da mövcudolma faktiklik xarakteristikası kimi çıxış edir. Təcrübədə obyekt-subyekt münasibətində gerçəklikdən hissi idrakla qavranılan cismi biz özündənşey, yəni faktiki cisim kimi təyin edirik. "Özündənşey" anlayışı özündəşeydən fərqli olaraq cismin özündən bilavasitə şeyi - məkan və zaman şərtlərinin məcmusunu təqdim etməsini, Hegelin təbirincə özündən fərqliliyi itələməsini ifadə edir. Belə itələnmə olmadan özündəşey başqası üçün mövcud olmur, yalnız özü üçün mövcud olur və buna görə də "özündə" olur. Özündənşey daxili sabit şərtlərin məcmusu ilə xarici dəyişən şərtlərin - təbii hərəkətliliyin şərtləri ilə vəhdətində maddiliyin formalaşması, yəni kütlənin strukturlaşması, şeyin qurulması, cismin formalaşması nəticəsində meydana çıxır. Beləliklə, daxildə zəruri şərtlər, xaricdə təsadüfi şərtlərlə maddilik formalaşır və konkret cisim ayrılıqda götürülmüş faktiki tək şeyləri özündə təqdim edir.

Cismin mövcudluğunun mövcud olmasını biz faktiki cisim kimi təyin edirik. Faktiki cisim ilahi iradənin refleksiyası kimi mövcuddur, hansı ki, iki bir-birinə əks güc kimi təbiətdə mövcud olur:

a. Cəzb etmə gücü: Biz bu gücü cisimləri bir-biri ilə vəhdət yaratmaq gücü kimi təyin edirik, hansı ki, heç bir mövcudluq təklikdə mövcud ola bilmədiyindən başqaları ilə vəhdətə cəhd edir və bu cəhdin gücü cazibəni meydana çıxarır. Hər bir mövcudluq vəhdətə cəhd etdiyindən hər bir mövcudluq belə bir güclə mövcud olur. Bu təbiətin tabe olduğu ümumdünya cazibə qanunu kimi mövcuddur. Kosmosun mövcudolması cisimlərin ayrı-ayrılıqda mövcud olmasını şərtləndirir. Buradan da, ümumdünya cazibə qanununu dünyanın mövcudolmasının ən ümumi qanunu kimi müəyyən etmək olar.

b. İtələmə gücü: Təbiət əksliklərin vəhdəti və ziddiyyətində mövcud olduğundan, cəzb etmənin əksliyi itələmə gücü kimi meydana çıxır. Bu güc mövcudluğun saxlanması kimi mövcuddur. Belə ki, vəhdətdə mövcudolma üçün cəzb etmə gücü nəhayətsiz olaraq cisimləri bir-birinə cəlb etmir. Bu güc o yerə qədər qüvvədə olur ki, hər bir mövcudluq ayrılıqda tək bir şey kimi mövcud ola bilsin. Əgər itələmə gücü olmasaydı, onda kosmosdakı bütün cisimlər cəzb etmə gücünə görə tək bir mövcudluğa çevrilərdi. Yəni kosmos özü tək bir cisim olardı, hansı ki, özündən başqası olmadığından mövcud olmazdı. Buradan da, Leybnicin müəyyən etdiyi daxili həcmin keçirilməzliyi qanunu meydana çıxır, hansı ki, heç bir mövcudluq başqa mövcudluğun daxilinə keçə bilmir. Biz bu qanunu ümumdünya cazibə qanunu kimi, Kosmosun mövcudluğunun ikinci ən ümumi qanunu kimi müəyyən edirik.

Bu iki gücün vəhdətindən faktiki cisim təzahür edir. İtələmə gücü birincili məkanın ölçülərində refleksiya edir. Yəni en, uzun və hündürlük özü-özündə bir nöqtənin başqa nöqtədən itələnməsi kimi yaranır. Burada nöqtə konkret mövcudluğun mücərrəd işarəsidir. Cəzb etmə gücü əksinə itələnmə nəticəsində meydana çıxan ölçülərin vəhdətini təşkil edir, yəni en, uzun və hündürlük itələndiyi son nöqtədən bir-biri ilə birləşir. Bu birlikdən elə-belə həcm meydana çıxır. Uzunluq, en və hündürlük itələmə gücü ilə yarandığından həcm məhz bu gücə görə müəyyən olur, hansı ki, daxili keçirilməzlik kimi təzahür edir. En, uzun və hündürlüyün məsafə yaranmasından sonra, itələmə ilə əkslik təşkil edən cəzb etmə gücü onları yenidən bir-biri ilə vəhdətə gətirir. Nəticədə başlanğıc həcmlilik yaranır. Başlanğıc həcmlilik piramida formasının şərtlərindən ibarətdir. Beləliklə, piramida həcmin başlanğıc forması kimi ikincili məkanı təşkil edən hər bir mövcudluğun xüsusi formasının əsasını təşkil edir. Yəni hər bir forma piramidanın şərtlərinin dəyişilməsi kimi meydana çıxır. Başlanğıc həcm kütləsiz həcmdən ibarətdir. Misir ehramlarının məhz piramida formasında tikilməsi həmin ehramların kosmosun əsasını təşkil etməsini

simvolizə edir. İkincili materiyanın meydana çıxması ilə başlanğıc həcm kütlə ilə doldurulur, nəticədə ikincili həcmlilik - kütlənin həcmi meydana çıxır. Kütlənin başlanğıc həcmə dolması ilə onun şərtləri dəyişir və bu dəyişilmənin mütləq azadlığında ilk maddi forma - kürə meydana çıxır. Beləliklə, piramida xalis məkanın başlanğıc həcmliliyi, kürə materiyanın başlanğıc həcmliliyi kimi yaranır.

Bəs, aydınlaşmasına və aşkarlanmasına görə hansı güc birincili, hansı ikincili güc kimi yaranır? Həqiqətin aydınlaşması ilə aşkarlanması bir-birinə əks olduğundan aydınlaşmada birincili olan idrakda ikincili, aydınlaşmada ikincili olan subyektdə birincili olur. Hər bir formal şey özündəşeydir. Özündəşeylik özü-özü ilə eyniliyi saxlamaq kimi aydınlaşmada birincilidir. Biz eyniliyi özündə saxlamağı, yəni özü-özü ilə eyniliyi daxili cazibə kimi təyin edirik. Cəzb etmə mövcudluğun gücüdür. Yəni aydınlaşmada birinci olan şeyin eynilik kimi özü-özünü cəzb etməsindən ibarətdir. Hər bir şey özündənfərqlilik itələməklə təzahür edərək özündənşeyə çevrilir. Deməli, aydınlaşmada özündənşeylik şeyin fərqliliyini özündən itələməsi kimi ikincilidir. Özü-özü ilə fərqliliyi, yəni təzahürü biz daxili itələmə kimi təyin edirik. Beləliklə, mövcudluq daxili cəzb etmə gücü ilə itələmə gücünün vəhdətində mövcud olur.

Aşkarlanma şeyin özündənitələnən fərqliliyini özünə cəzb etməsi - subyektin özü-özü ilə eynilik təşkil etməsi kimi başlandığından aydınlaşmaya görə ikincili olan itələmə, aşkarlanmaya görə birincili amma subyektə aşkarlanan cəzb etmə kimi mövcud olur. Yəni özündənşeyin itələdiyini subyekt özünə cəlb etdiyinə görə, şeyin ikincili gücü, yəni mövcudolmasının gücü idraka münasibətdə birincili olur, hansı ki, onun təfəkkürdə daxili obrazını təşkil edir. Şeyin təfəkkürdə obrazı təfəkkürün özündə eynilik kimi cazibə gücünü, təfəkkürdən xarici obyektin özündə saxladığı cazibə gücü isə subyektdən itələnən güc kimi ikincili olur. Beləliklə, elə-belə ilk kəşf olunan cazibə qanunu özündə

həm aydınlaşmada mövcudluğun birinci gücü, həm də aşkarlanmada mövcudolmanın birinci gücü kimi meydana çıxır. Buna görə də, Kosmosda cazibə mövcudluğun mövcudolmasının birinci gücü kimi aşkarlanır.

İdrak prosesi ikincili, yaranma birincili olduğundan bizim idrak prosesində aşkarladığımız birincili güc yaranmada ikincili, əksinə idrak prosesində ikincili aşkarlanan güc yaranmada birincili gücdür. Beləliklə, Kosmosun idrakında birincili güc kimi cazibə aşkarlanır, çünki məhz cazibəyə görə idrak ayrılıqda götürülən tək şeyi idrak etməyə başlayır. Yəni idrakın idrak obyektinə istiqamətlənməsi özündə cazibənin refleksiyası kimi mövcud olduğundan bu güc idraka münasibətdə birincili gücdür. Fizikada cazibə qanununun itələmə qanunundan əvvəl kəşf edilməsinin də səbəbi budur.

Biz dünyanın yaranmasında qeyd etdik ki, İlahi Nur İlahi Yaradandan ayrılmaqla yaranışın əsasında durmuşdur. Beləliklə, itələmə lap başlanğıcda İlahi Nurun Yaradandan ayrılmasının refleksiyası kimi meydana çıxır. Yaradandan ayrılan İlahi Nur həm də ayrılma anında yenidən Yaradana Qayıtmağa cəhd edir. Bu cəhdin refleksiyası da cəzb etmə kimi refleksiya olunur. Buradan da Yaradılışda birincili, yəni başlanğıc gücün itələmə olduğu aşkarlanır. Hansı ki, mövcudluqları mövcudolmasına, yəni varlığın mövcudluğunu mövcudluğun varlığına çevirir.

Beləliklə, Kosmosun mövcudolması özündə İlahi Nurla yaradan arasındakı əlaqənin refleksiyası kimi aktuallaşır. İtələmə və cəzb etmənin müxtəlif nisbətdə vəhdət təşkil etməsindən kaleydoskopik Kosmos mövcud olur. Beləliklə, buradan aşağıdakı Kosmoloji ideya alınır: **Kosmosun mövcudolması mövcudluqların itələmə və cəzb etmə güclərinə tabe olmasının şərtlərinin məcmusundan ibarətdir.**

İtələmə gücünün - başlanğıc, cəzb etmə gücünün - son kimi çıxış etməsindən zaman ölçülüyü meydana çıxır. Zaman - başlanğıcla sonun

vəhdətinin şərtlərindən ibarətdir. Zaman ölçülüyü məkanın böyük və kiçik kimi ölçülüklərində refleksiya olunur. Böyüklük və kiçiklik - itələmə gücü ilə cəzb etmə gücünün biri-birindən hansı nisbətdə vəhdət təşkil etməsini göstərir. Buradan da zamanı İlahi Nurun Yaradandan ayrılması ilə ona qayıtması cəhdinin ölçülüyü kimi təyin etmək olar. İstər məkan, istər zaman İlahi Nurun Yaradana münasibətindən meydana çıxdığından Kosmos məkan və zaman vəhdətində onların hər ikisi ilə şərtlənmə ilə mövcud olur. İtələmə və cazibə gücləri həm cisimlərin daxilində - hissələr arasında, həm də Kosmosun hissələri kimi özü-özündə tamlıq kimi çıxış edən mövcudluqlar arasında təzahür edir. Daxili itələmə və cəzb etməni biz daxili təşkilatlanma - formalaşma kimi qavrayırıq. Formalaşma qurulmaya münasibətdə ikincili kosmik hadisədir. Formalaşma cismi təşkil edən hissələrin biri-biri ilə elə vəhdət təşkil etməsindən ibarətdir ki, hissələr bir-birinin daxilinə keçmədən bir-birini cəzb edərək xarici tamlıq - ayrılıqda götürülən tək şeyləri təşkil etsin.

Kütlənin həcmə nisbətindən formalaşma meydana çıxır. Formalaşma - forma almaq müəyyən miqdar kütlənin müəyyən həcmə yerləşməsini özündə ifadə edir. Belə ki, formalaşma nəticəsində maddilik özünün bir təzahürünü başqa təzahürü ilə elə vəhdətdə təqdim edir ki, hissi idrak prosesində maddilik tək şey kimi qavranılır. Eyni kütlə eyni həcmlə ən müxtəlif nisbətlərdə ola bilər və əksində eyni forma özündə müxtəlif kütlə və həcm nisbəti kimi meydana çıxa bilər. Beləliklə forma kütlə ilə həcmin nisbətinin şərtlərinin məcmusundan ibarət olur. Məsələn, eyni həcmdə və çəkidə su donarkən əmələ gələn buzun - bərk suyun həcmi artır və ya eyni həcmə daha çox miqdarda bərk, ondan az maye, ondan da daha az miqdar qaz halında olan eyni bir maddəni yığmaq mümkün olur.

Biz Kosmosun onu təşkil edən sonsuz sayda mövcudluqların kütlələri ilə həcmlərinin məcmusu kimi ən ümumi kütləsi ilə ən ümumi həcmin nisbətinin şərtlərinin məcmusunu - İlahi Bacarıq kimi təyin

edirik. İlahi Bacarıq elə-belə formanın şərtlərindən ibarətdir, hansı ki, nəhayətsiz şərtlər kimi kosmosu təşkil edən sonsuz sayda şeydə, sonsuz müxtəlif formalar kimi meydana çıxır. Başqa sözlə, formalaşma kütlənin özü-özündə həcmdə hissələrə ayrılması və həmin hissələrin eyni daxili nizamla həcmi tam doldurması, cismin nizamını özündə təqdim edir. Kütlənin həcmlə əlaqəsindən maddənin halları meydana çıxır. Cisim son daxili nizam kimi təzahür edir, hansı ki, kütlə sabit həcmdə daxili dayanıqlı vəziyyətdə maddiliyi özündən təzahür etdirir. Cismin daxili nizamının pozulması ilə maddənin digər halları meydana çıxır. Beləliklə, bərk cismi maddənin sonuncu ən nizamlı forması kimi təyin etmək olar, hansı ki, şeyləri təşkil edir. Ən nizamlı forma özündə ən ümumi həqiqəti təzahür etdirdiyindən cisimləri ən ümumi həqiqətə malik maddilik kimi təyin edə bilərik.

İlahi Bacarıqdan şərtlər mövcudluqlara necə və hansı üsullarla verilir? Kütlənin həcmə yerləşdirilməsi özündə fəaliyyəti və ya hərəkəti ifadə edir. Buradan da formalaşmanın şərtlərinin məhz hərəkətlə verildiyini deyə bilərik, hansı ki, bütün təbii hərəkətlərin başlanğıcı metafizikada xalis hərəkətdədir. Xalis hərəkət təbii hərəkətə keçərkən kütlə ilə həcm təbii hərəkət nəticəsində forma almağa başlayır. Mütləq sükunət hərəkətsizlik olduğundan mütləq sükunətdə heç bir formalaşma baş vermir. Təbiətdə bir-birini əvəzləyən çoxlu sayda hərəkətlər olduğu kimi bu hərəkətlərdən kütlə ilə formaya ən müxtəlif formalar verilir ki, bu da faktiki mövcudluqların xarici görüntüsü, canlılarda isə obrazı kimi təzahür edir. Beləliklə, Formalaşma maddiliyin şərtləri ilə hərəkətliliyin şərtlərinin məcmusundan ibarətdir. Yəni, konkret həcmdə, konkret hərəkətdə olan kütlədə hərəkətin saxlanması - donması forma kimi təzahür edir.

Haşiyə: F.Şellinq “Dünya ruhu haqqında”

"Mənim anlamama görə qurulma ümumiyyətlə səbəb və fəaliyyət axınının hərəkətinin dayanmasından başqa bir şey deyildir."

F.Şellinqin qeyd etdiyi "səbəb və fəaliyyət axının hərəkətini dayandırması" ifadəsində səbəb özündə zəruri şərtləri, fəaliyyət axını təsadüfi şərtləri özündə ifadə edir. Buradan da zəruri şərtlərlə təsadüfi şərtlərin vəhdət təşkil etməsi - hərəkətin dayandırılması kimi qurulmanı özündə təqdim edir, hansı ki, formalaşma kimi anlayırıq. Buradan da, zaman xalis hərəkət kimi maddilikdə saxlanmaqla formanı təzahür etdirir. Hansı ki, maddilikdə xalis heçlik kimi mövcud olur. Buradan da formanı dayanmış hərəkət kimi təyin edə bilərik, hansı ki, hərəkətin yenidən davam etməsi ilə öz-özünə itir, yəni konkret şeydən çıxır - aksidensiya edir. Həqiqətin özünü müəyyən formada olan vasitələrlə aydınlaşdırdığından forma varlığın təsadüfə görə şərtlərinin məcmusu kimi aşkarlanır.

Buradan da belə bir Kosmoloji ideya aşkarlanır: Kosmosun təsadüfə görə şərtləri olmadığından forması da yoxdur. Forması olmadığından o, özü-özündə hərəkət kimi mövcuddur. Formalaşmanın nəticəsi tamlıq keyfiyyətini təzahür etdirir. Tamlıq həqiqəti özündə aydınlaşdıran vasitələrdə həqiqətin artma meylinin təzahür etdirməsini özündə ifadə edir. Beləliklə, demək olar ki, həqiqətin artma meyli tamlıq istiqamətindədir. Tamlıq faktın təzahür formasıdır. Bundan fərqli olaraq, həqiqətin azalma meyli hissədə təzahür edir və buna görə də hər bir hissə digərləri ilə birləşərək tamlaşmağa cəhd edir. Buradan da, hissə aktın təzahürü kimi meydana çıxır. Beləliklə, həqiqətin meyllərinin vəhdətinə görə, istənilən varlıq özündə eyni vaxtda tam və hissənin vəhdətindən ibarətdir və özündə bunu ifadə edir. Formalaşmanın başa çatması tamlığı təzahür etdirir. Forma strukturlaşmanın dayanıqlı vəziyyətində meydana çıxır.

Bəs forma hərəkətdən necə yaranır? Elə-belə hərəkətliliyi iki yerə ayırmaq olar: **Birincisi, təkrarlanan hərəkətlilik.** Belə hərəkətlər sadə hərəkətlər olub, təkrarlanmaqla ya ayrı-ayrılıqda, ya da birlikdə təbiətdə cisimlərdə forma yaradır. Buradan düzgün həndəsi formalar meydana çıxır. **İkincisi, dəyişilən hərəkətlilik.** Belə hərəkətlilik müxtəlif sadə hərəkətlərin bir-birini nizamlı və ya xaotik əvəzləməsi ilə təbiətdə cisimlərdə forma yaradır. Buradan qeyri-düzgün həndəsi formalar yaranır.

Formanın başlanğıcı birincili materiyadadır, amma birincili materiya formasızdır. Birincili məkanın birincili zamanla vəhdət təşkil etmədiyi vəziyyət - materiyaönü vəziyyətdə - sahədə mövcud olan əks yüklər arasında qarşılıqlı təsir xəttidir. Yəni ayrılıqda istər itələmə, istər cəzbetmə iki yük arasında düz xətt üzrə baş verir. Amma iki yük arasında cəlbetmə və itələmə gücləri - ilahi iradədən mümkünlüyün varlığının mövcudluq tələbinə verilən zərurətə görə şərtlər kimi - vəhdətdə düz xəttdə əyilmə yaradır. Düz xətt özündə forma təqdim etmir və sonsuz deyil. İstənilən düz xətli cismi götürüb ona elastiklik versək, həmin cismin "əyildiyini" müşahidə edərik. Əyilmə kütlənin öz-özünü cəzbetməsindən - bir-birindən ən uzaq məsafədə olan hissələrin bir-birini cəzb edərək tamlaşma cəhdindən yaranır. Əyilmə hərəkəti ən sadə hərəkətdir, hansı ki, ən sadə mücərrəd formanı - əyri xətti meydana çıxarır. Əyilmənin başa çatması, yəni əyilmə hərəkətinin saxlanması çevrə kimi təzahür edir. Bu hərəkətin saxlanmasının pozulmasından çevrə yenidən düz xəttə çevrilir və buna görə də çevrənin forması itir. Çevrə proporsional kamil əyilmədir. Çevrənin birincili məkanı sərhədləndirməsi - müstəvi əldə etməsi dairəni meydana çıxarır. Müstəvi - sonsuz düz xətlərin sonsuz paralelliyini özündə təqdim edir. Dairə çevrə ilə sərhədlənmiş müstəvidir. Başqa sözlə, sonsuz paralel düz xətlərin kəsilməsi ilə sonlu düz xəttə çevrilməsi müstəvi kimi təzahür edir. Müstəvinin xarici görünüşü səthdən ibarətdir.

Dairənin fəzada, müxtəlif müstəvilərdə, öz diametri ətrafında fırlanmasından - dairəvi hərəkətindən - kürə meydana çıxır. Kürə özündə fırlanma hərəkətini saxlayan formadır. Buna görə də kürənin azad hərəkəti yalnız fırlanma hərəkəti kimi təzahür edir. Kürə ən kiçik həcmə malik, ən ümumi və ən ideal azad hərəkət qabiliyyətinə malik, kamil formadır. Kürənin səthləri qeyri-məhdud, maneəsiz, bərabər qaydalarda bir-birinə keçdiyindən onun hərəkətinə özündən heç bir məhdudiyyət yoxdur. Buna uyğun, onun istənilən səthinin hərəkəti eyni bir hərəkət formasını - fırlanma hərəkəti yaradır. Kürə - həqiqəti özündə ideal dəqiqliklə aydınlaşdıran gerçəkliyin formasıdır. Kürə müstəvidə xarici məhdudiyyət olmadığı mütləq azad şərtlərdə bütün istiqamətlərdə eyni qaydada hərəkət etmək müstəqilliyinə malikdir. Başqa sözlə, kürə hərəkətin heç bir istiqamətdə məhdudlaşmadığı və ya bütün istiqamətlərdə eyni dərəcədə məhdudlaşdığı formadır. Kürə forması sonsuz formadır və mütləq həqiqət sonsuz olduğundan kürə forması özündə sonsuzluğu təqdim edir. Mütləq azadlıq metafizik olduğundan Kürənin sakramental mənası onu metafizika ilə əlaqələndirilməsinə səbəb olub. Beləliklə, küreni mütləq forma kimi qəbul etmək olar. Digər bütün formalar kürənin şəkildəyişmələri - nisbi formalar kimi meydana çıxır. Buna görə də, kürə formasından istənilən formanı almaq mümkündür. Bu formanın görmə effekti ilə də bir daha təsdiq olunur. Belə ki, istənilən forma görmə məsafəsindən uzaqlaşdıqca kürə formasını alır. Buna görə də, deyə bilərik ki, kürə ən sadə başlanğıc mütləq formadır. Kürənin yalnız eyni bir sferik səthi vardır. Bu da kürənin həm də özündə vahidliyin forması kimi meydana çıxdığını göstərir. Kürədən əmələ gələn digər formalar - piramida, kub, silindir, konus və s. mürəkkəb elementlərə - müxtəlif səthlərə, kənarlara, bucaqlara, zirvələrə, oturacaqlara, hündürlüklərə malikdir. Beləliklə, kürə sadə, digər fiqurlar mürəkkəb formaları təşkil edir. Bu formaların siqnallarının daşıdığı məlumat mürəkkəb olduğundan yalnız yaxın məsafəyə dəqiq ötürülür.

Məsafə uzaqlaşdıqca, formanın qeyri-bərabər ölçüləri və ya məkani parametrləri müxtəlif uzaqlıqlara ötürüldüyündən müxtəlif məsafələrdən eyni forma müxtəlif formalar kimi görünür. Bütün formalar kürə formasından yarandığından görmə effektində istənilən forma sonda başlanğıc forma kimi yaranan kürə şəkli alır. Şəkil almaq - həqiqi formanın entropiyaya məruz qalmasını, onun görünüş qradiasiyalarını özündə təqdim edir. Yəni formalar görünüşdə və reallıqda özü-özündə bir-birinə çevrilmək imkanına malikdir. Bu da formanın entropiyaya məruz qalmasının başlıca səbəbidir. Biz məhdudlaşdırılmış görmə ilə baxdıqda müxtəlif formaları eyni bir kürə forması kimi görürük. Kürə forması həm də görmə orqanının formasıdır. Yəni kürə forması həm gözün öz forması, həm də istənilən formanın entropiyasını özündə təqdim edir. Görmə zamanı müxtəlif formaların eyni bir formaya - "kürəyə" çevrilməsi təfəkkürün hissi yolla mürəkkəbliliyi - nisbi həqiqəti - sadələşdirməsi, yəni mütləq həqiqətə çevirməsinin qanunauyğunluqlarından biridir. Kürə mütləq, digər formalar nisbidir. Kürənin səthi sonsuzluğu özündə təqdim edir. Hərəkətin mürəkkəbləşməsi ilə kürədən aşağıdakı müxtəlif formalar yaranır:

a. Silindir: Dairəvi hərəkətin qarşılıqlı yalnız ikitərəfli məhdudlaşmasından yaranan hərəkətin saxlanmasından kürə silindir formasına keçir. Nəticədə silindirin iki üz-üzə səthi ilə digər səthləri bir-birindən fərqli görünüşə malik olur. Dairəvi hərəkətin ikitərəfli məhdudlaşmasının saxlanmasına görə silindirin oturacaqları ilə yan səthlərinə birbaşa keçid məhdudlaşır, yəni kürənin sonsuzluq xarakteristikası silindir formasında sonluluğa keçid kimi meydana çıxır. Belə ki, oturacağın hərəkəti yan səthlərə birbaşa keçə bilmədiyindən, öz hərəkətini yan səthlərə verə bilmir. Yan səthlər kürədə olduğu kimi öz hərəkətini qeyri-məhdud bir-birinə keçirə bilir. Silindirin oturacaqlarına hərəkət verərkən sükunətlə əvəzlənən yarımqövsü hərəkət alınır. Beləliklə, silindir oturacaqlarının yarımqövsü hərəkət ilə, yan səthlərinin

tam dairəvi hərəkətin məcmusunu özündə təqdim edir. Silindirin oturacaqlarında hərəkətlilik azad deyildir. Yan səthləri bundan fərqli olaraq azad hərəkətliliyə malikdir. Buna görə də, silindirin oturacağının hərəkəti yan səthlərinin hərəkətindən fərqli güc tələb edir.

b. Kub: Silindirin yan səthlərinin azad hərəkətinin paralel olaraq qarşılıqlı tam məhdudlaşmasından kub forması alınır. Kubun hər bir səth üzrə hərəkəti bir yarımçıq qövs cızır və səthlərin hərəkətləri birbaşa biri digərinə keçmir. Beləliklə, kub forması altı yarımqövsü hərəkətin dayandırılmasını özündə ifadə edir və buna uyğun kub formalı cismin məkanda sərbəst xarici hərəkəti altı yarımqövsü hərəkət kimi meydana çıxır.

Beləliklə, dairəvi hərəkətin şəkildəyişməsinin entropiyasının birinci sırası və quruluşların formasının birinci sırası başa çatır. Bu sıraya kürə, silindir və kub formaları aiddir. İstər cisimlərin, istər canın birinci sırasına aid olan mövcud varlıqların hərəkəti dairəvi və onun entropiya olunmuş şəkildəyişmələrindən ibarətdir.

Dairəvi hərəkətin daha da mürəkkəbləşməsindən, hərəkəti məhdudlaşdıran yeni təsadüfə görə şərtlərin verilməsi ilə formanın ikinci sırası - kubun dağılması və ya dairəvi hərəkətin daha sərt məhdudlaşması ilə aşağıdakı ikinci sıra mücərrəd formalar-fiqurlar yaranır:

a. Piramida: Piramida kubun zirvələri üzrə parçalanmasından yaranır və bu parçalanma kubun hərəkət formasını təkrar deformasiya edir. Piramidanın hərəkəti həm səthləri üzrə, həm də hər bir səthdə hündürlük boyunca məhdudlaşır. Nəticədə, piramida burulma hərəkəti edir. Özü də öz növbəsində burulma hərəkətinin maddilikdə saxlanması kimi təzahür edir.

b. Prizma: Silindirin yan səthlərinin hərəkətinin hündürlük boyunca konsentrik məhdudlaşmasından prizma yaranır. Prizmanın hündürlüyünə uyğun onun səthlərinin hərəkət yolu-trayektoriyası onun oturacağından zirvəsinə doğru tədricən azalır. Bununla da, silindirin yan səthlərinin

hərəkət məhdudluğu qeyri-bərabər olur. Silindirdə qeyri-bərabər məhdudluq nəticəsində az məhdudluqla çox məhdudluq arasındakı fərq iki müxtəlif radiuslu qövsü hərəkət yaradır. Zirvə kiçik qövs, oturacaq böyük qövs hərəkət edir. Nəticədə, silindirin zirvəsinə doğru hərəkətin sürəti oturacağın hərəkətinin sürətindən artıq olur və oturacağın hərəkəti ilə müqayisədə prizmanın zirvəsi nisbi hərəkətsiz qalır. Buradan da rəqsi hərəkət yaranır. Bununla da hərəkətin sadə forması və ya sadə quruluşların formaları başa çatır. Bu formalar həm üzvi, həm də qeyri-üzvi quruluşların formalarını təşkil edir.

4. Qeyri-həndəsi formalaşma: Təbiətdə bir mövcudluğun başqasına keçidinin şərtləri - dəyişən hərəkətliliyin saxlanmasından görünən aləmdə cisimlərin forma müxtəlifliyi aşkarlanır. Başqa sözlə, faktiki cisimlər özlərində dəyişilən çoxformalı hərəkətliliyin məcmusunu saxlanması kimi mövcud olur. Buna görə də, faktiki cisimlərdə sadə hərəkətlərin yaratdığı düzgün formalar təsadüfə görə aşkarlanır və həndəsi forma qeyri-düzgün olur.

Beləliklə maddiliyin zərurətə şərtlərinin təsadüfə görə şərtlərinin vəhdətindən cisim dünyasının müxtəlifləşməsi baş verir. Faktiki cisim - varlığın formalarından və idrak obyektlərindən biridir. Cisim - konkret ölçüsü, daxili həcmi, kütləsi, forması və bununla şərtlənmiş xarici hərəkətliliyi olan və başqa varlıqlarla təsir və əks təsir əlaqəsində olan təfəkkürün həqiqətin aşkarladığı vasitələrindən biridir. Cismin aktı əbədi sükunət halındadır və dəyişməzdir. Cismin özündən meydana çıxan hərəkətliliyi yoxdur və cisim vəziyyəti nisbi sükunət materiyanın maddi formasının təşkil etdiyi, insanın duyğu üzvlərinə təsir edib, onda duyğu əmələ gətirən hər şey fiziki cisimdir. Sahə materiyanın bir forması kimi ölçüsü olsa da, daxili həcmi və kütləsi olmadığından cisim sırasına aid deyil və insanın hiss üzvlərinə təsir etmir. Hər bir gerçək varlıq bilavasitə öz cismi ilə reallığa çevrilir. Hər bir cisim özünəxas daxili quruluşa malikdir. Cismin daxili quruluşunu təşkil edən həcm və kütlənin ən kiçik

ölçüsü cismin hissəsini təşkil edir. Cisimlərin hissələri bir-biri ilə həm də bir tam kimi başqa cismin hissəsi və ya tamı ilə qarşılıqlı təsirdədir.

Cisimlərin enerji quruluşu: Hər bir fiziki cismin ümumi enerjisi iki qismə - tangensial enerjiyə (nəsnəni təşkil edən enerji) və radial enerjiyə (cismin daxildə - hissələrinin bir-biri ilə əlaqəsində, xaricdə - bir tam kimi cismin başqa cisimlərin hissə və ya tamı ilə əlaqəsində meydana çıxan radial enerjidən ibarətdir). Cismin **tangensial enerjisi** - sabitdir, ölçülüdür, qapalıdır, xarici enerjilərlə, o cümlədən cismin radial enerjisi ilə mübadilə olunmayandır. Xarici təsir olmadan özü-özündə heç bir başqa növ enerjiyə çevrilməyəndir. Başqa növ enerjilərin çevrilməsindən əmələ gəlməyəndir. Yalnız şeyin "nəsnəsini" təşkil edən, varlığın mahiyyəti ilə şərtlənmiş, sabit, mübadilə olunmayan, ölçülü, artıb-azalmayan, kimyəvi xassə kimi təzahür edən enerjidir. Nisbi həqiqət-mahiyyət gerçəkliyin "nəsnə"sini təşkil edən tangensial enerji ilə təzahür edir. Cismin **radial enerjisi** qeyri-sabit, ölçüsüz, dəyişkən, xarici enerjilərlə mübadilə olunan, başqa enerji növlərinə çevrilən daxili enerji ilə - tangensial enerji ilə mübadilə olunmayandır. Zamanda təzahür edir. Radial enerji - cismin formasını şərtləndirir, eyni varlıqda hissələr və ya kosmosda ayrı-ayrı varlıqlar arasında tamlıq yaradır. Onları bir-biri ilə əlaqələndirir. Həqiqət vahid olduğundan bütün vasitələrdə aydınlaşan həqiqət məcmusu olaraq vahid həqiqəti ifadə edir. Bütün mümkünlükləri bir-biri ilə əlaqələndirən enerji həqiqətin tamlıq keyfiyyətinin təzahürüdür və bu enerji radial - əlaqə enerjisi kimi təzahür edir. Radial enerji formal enerjidir, radial enerjinin dəyişilmələri cisimlərin müxtəlif hallarını meydana çıxarır. Cisimlərdə radial enerji ilə tangensial enerji birlikdə əlaqəli, eyni bir forma daxilində bir yerdə və eyni vaxtda təzahür edir.

Mövcudolma varlığın tabe olduğu qanunlar sistemidir. Mövcudolmanın davam etməsi bu sistemin stabilliyinin saxlanmasıdır.

Cisimlərin mövcudolmasının ən ümumi qaydaları aşağıdakılardan ibarətdir:

1. Cisimlərin mövcudluq faktı özündə akta çevrilir və öz materiyası ilə bağlıdır. Hər bir cisim özündən asılı olduğu qədər öz formasını hifz etməyə əbədi meyl edir. Hərəkət formanın dağılmasına səbəb olduğundan cisimlər əbədi sükunətdə mövcuddurlar. Cismin başlıca mövcudluq şərti xarici hərəkəti dəf etməkdən ibarətdir. Cisimlərin hərəkətinin mənbəyi və təzahürü xaricidir. Hər bir cisim öz mövcudluğunu özü-özündə, öz şeyi ilə əbədiyyətə qədər davam etdirməyə cəhd edir.
2. Heç bir cisim təklikdə mövcud deyil və birlikdə mövcudluğu davam etdirmədə eyni zaman və məkan şərtlərində başqa cisimlərə təsir edir. Başqa cisimlərin təsirinə əks təsirlə cavab verir. Cismin təsirinin yaranması ilə özündə əks təsir yaratması bir və eyni qanunauyğunluqlara tabe olur. Yəni təsir hansı kəmiyyətdə və keyfiyyətdə olursa, əks təsir də eyni keyfiyyətdə və kəmiyyətdə olur. Məsələn, başqa cismin istilik təsirinə daxili istiliyin dəyişilməsi ilə, elektrik təsirinə avtoinduksiya ilə əks təsir yaranır və s.
3. Cisimlər məkandan bir məqamlı çox parametrli, zamandan bir məqamlı bir parametrli asılılıqdadır. Buna görə də, cisimlər zaman şərtlərinə tabe olmur. Zamanın gedişi cismə təsir etmir. Əksinə, məkanla çox parametrli asılılıqda olduğundan məkani parametrlərin - zərurətə görə şərtlərin - dəyişilməsi cismin mövcudluq formasına təsir edir, ya onun mövcudluq faktını məhv edir, ya da mövcudluq aktının sürəkliliyini artırır. Məsələn, məsafə, istiqamət və ya həcmin dəyişilməsi ilə cisimlərin aktı dəyişir. İstiqamətlə bağlı cisim skalyar və ya vektorial təsirlərə malik olur. Skalyar təsirlər ümumi - bütün istiqamətlərdə eyni qiymətli, vektorial təsirlər xüsusi fərqli istiqamətlərdə fərqli qiymətlidir.

Faktiki cisimlərin həcmi, daxili məkan və ya elə-belə həcm cismin xüsusi mövcudluq güclərinin mövcud olduğu məkandan ibarətdir. Həcm

konkret formanı yaradır, həcmsizlik formasızlığa səbəb olur və s. Məkanla əlaqələnmə, kimyəvi xassə, zamanla əlaqələnmə fiziki xassələri yaradır. Beləliklə, məkani şərtlərin dəyişməsi kimyəvi xassələrin dəyişilməsinə, yəni bir mövcudluqdan başqa mövcudluğun əmələgəlməsinə səbəb olur. Beləliklə, statik "özündəşey" - faktı və aktı özündə olan, təsir-əkstəsir əlaqəsini özündən yaradan, əbədiyyətə özü ilə cəhd edən məkandan bir məqamlı çoxparametrli, zamandan bir məqamlı bir parametrli şərtlənən, varlığın birinci sırasını təşkil edən həqiqətin aşkarlandığı vasitədir.

Faktiki cisimlərin həcm və kütlələrinə görə mövcudolmada qarşılıqlı təsir vəziyyətindən sistemlər meydana çıxır. **İki cür sistem ayırd etmək olar: a. Sadə sistemlər:** Sadə sistemlərdə xüsusi əlaqə ilə bir cismin təsiri eyni vaxtda yalnız bir cisimlə əks təsir yaradır. **b. Mürəkkəb sistemlər:** Mürəkkəb sistemlər ümumi əlaqə - bir cismin təsirinin eyni vaxtda müxtəlif obyektlərlə əks təsir yaratmasından meydana çıxır. Fərqli sistemlər fərqli qanunlara tabe olur və təfəkkürdə fərqli qaydada aşkarlanır.

MÖVCUDOLMA - ƏN ÜMUMİ KOSMİK HADİSƏ

Mövcudluğun mövcudolmasının bütün şərtlərinin məcmusu mövcudolma hadisəsi kimi meydana çıxır. Başqa sözlə, mövcudolma ən ümumi hadisədir, hansı ki, Kosmosdakı bütün hadisələr mövcudolmanın xüsusi hadisələri kimi meydana çıxır. Fəlsəfədə hadisə "gerçəkliyin xarici, zahiri tərəflərini ifadə edən və müəyyən mahiyyətin təzahürü və aşkara çıxarılması formasından ibarət konkret hadisə, xassə və ya proses" kimi təyin olunub. Buradan da hadisənin bir tərəfdən təzahürdən, digər tərəfdən gerçəkliyin xarici tərəflərini ifadə edən prosesdən ibarət olduğu aydınlaşır. Beləliklə, Kosmosun gerçəkliyinin onun zahiri tərəflərini ifadə edən proseslərdən və mahiyyətinin təzahüründən ibarət olduğu aşkar olunur. Kosmosun mahiyyətinin təzahürü onu təşkil edən

mövcudluqların təzahürünün şərtlərinin məcmusundan, onun zahiri tərəfi onu təşkil edən mövcudluqların zahiri tərəfinin şərtlərinin məcmusundan ibarət olur.

Mövcudluğun mövcudolması mövcudluğun həqiqətinin aydınlaşması və idrak prosesində onun həqiqətinin aşkarlanması üçün özü-özündə və özündənkənar təşkilatlanması kimi meydana çıxır. Özündə təşkilatlanmanın nəticəsi kimi daxili vəhdət, özündənkənar təşkilatlanmanın nəticəsi kimi xarici vəhdət meydana çıxır. Mövcudolma - təşkilatlanma - özündə daxili və xarici vəhdətin şərtlərinin məcmusundan ibarətdir. Yəni mövcudluqlar təşkilatlanmaqla vəhdət yaradırlar və həqiqət yalnız vəhdətdə aydınlaşır və vəhdətdən aşkarlanır. Daxili vəhdətin şərtlərinin məcmusu - təzahür, xarici vəhdətin şərtlərinin məcmusu - təsir-əkstəsirdən ibarətdir. Təşkilatlanmanın birinci mərhələsində Kosmos Dünya kimi mövcud olur. Biz dünyanı yalnız birincili mövcudluqların daxili və xarici vəhdətinin şərtlərinin məcmusu kimi təyin edirik. Dünya təzahür və təsir-əkstəsir şərtlərinin məcmusu kimi Kosmosdur.

KOSMOSUN TƏZAHÜRÜ

Daxili vəhdət mütləq faktın - formal tamın daxili həcmdə təkrarlanması ilə hissələrdən ibarət faktiki tama keçməsini özündə təqdim edir. Faktiki tam faktiki olaraq ayrılıqda mövcud olmayan mövcudluqdur. Beləliklə, faktiki tam posterior mövcudluqdur, hansı ki, xalis zəkaya münasibətdə ondan bilavasitə kimi xaricidir. Fəlsəfədə hissə və tam "predmetlərin məcmusu ilə bu predmetləri həmin məcmuda birləşdirən və ayrı-ayrılıqda predmetlərə xas olmayan yeni xassə və qanunauyğunluqların meydana gəlməsinə gətirib çıxaran əlaqə arasındakı münasibəti ifadə edən və bu əlaqənin vasitəsi ilə tamın təşkil olunmasını təmin edən" fəlsəfi kateqoriya kimi təyin olunub. Beləliklə, bu tərifdən çıxış etsək, onda aydın olur ki, hissələr arasındakı əlaqə ilə başlanğıcda

mütləq tama xas olmayan xassə və qanunauyğunluqlar meydana gəlir. Başlanğıcda mütləq tama yalnız metafizik xassə və qanunauyğunluqlar xas olur, hansı ki, həmin xassə və qanunlar aprior aşkarlanan qanunlardan ibarət olur. Deməli, təşkilatlanma nəticəsində sonradan mütləq tamın malik olduğu xassə və qanunlar onun təbii xassə və qanunlarıdır, hansı ki, mövcudluğun həqiqətinin posterior aşkarlanmasına gətirib çıxarır. Təcrübə hər üç mövcudluğun mövcudolması kimi Kosmosu özündə ifadə edir. Başqa sözlə, posterior xassə və qanunauyğunluqlar hissələrin biri-biri və faktiki tamın başqa faktiki tamlarla əlaqələnməsi və bunların da öz növbəsində subyektiv varlıqla - ruhla əlaqələnməsi ilə meydana çıxır.

Faktiki tam özündə mahiyyətlə formanın daxili vəhdəti kimi mövcud olur. Buradan da daxili vəhdəti mahiyyətlə formanın vəhdətinin şərtlərinin məcmusu kimi təyin etmək olar. Hər bir mahiyyət özünəxas forma yaratdığından, hər bir mövcudluq formasından özünəxas təzahür edir. Beləliklə, forma həqiqətin aydınlaşma vasitəsi kimi çıxış edir. Həqiqətin aşkarlanmasında təzahürlər əsasında forma ilə mahiyyətin vəhdətinin şərtləri aydınlaşdırılır, həmin şərtlər əsasında təfəkkürdə varlığın özündən fərqlilik kimi itələdiyi forma mahiyyətdən kənarlaşdırılır və mövcudluğun özü-özü ilə eyniliyi - həqiqəti aşkarlanır. Təzahür - özündəşeyin özündən itələdiyi fərqliliklərin - formanın şərtlərinin məcmusundan ibarətdir.

Faktiki tam özündə fərqliliyi - özündənşeyliyi itələməsi ilə ikiləşir. Bir tərəfdə özündəşey kimi eynilik, digər tərəfdə özündənşey kimi fərqlilik meydana çıxır. Özündəşeylə özündənşeyin bir-birindən itələnməsi təzahürün mahiyyətini özündə təqdim edir. Özündənşey xalis formadan ibarətdir, hansı ki, özündəşeyə münasibətdə heçlikdir. Buradan da təzahür heçliyin mövcudluğu kimi çıxış edir.

Təzahür - mahiyyətin formanı dəf etməklə özünü aydınlaşdırmasıdır. Buradan da, təzahür özündə mahiyyətlə formanın

şərtlərinin məcmusu kimi çıxış edir, hansı ki, daxili vəhdəti özündə ifadə edir. Təzahür - mövcudluq faktının özündə aydınlaşdırdığı həqiqət haqqında məlumatın məqsədəyönlü şəkildə məkan-zaman əlaqəsində olduğu digər mövcudluq faktlarına bilavasitə təmasla və ya dolayısı ilə məsafədən siqnal formasında ötürülməsindən ibarətdir. Forma elə-belə xarici görüntüdən ibarətdir, hansı ki, özündə üç predikata malikdir: Həndəsi ölçülük, rəng və say. Birincili mövcudluqlar təzahürünə görə, yəni xarici görüntünün elementlərinin kombinasiyasına görə biri-birindən fərqlənir. Biz birincili mövcudluqların üç cür mövcud olmasını aşkarlaya bilərik, hansı ki, elmdə maddənin halları kimi təyin olunmuşdur. Maddənin halı maddənin mövcudolma formasından ibarətdir:

1. **Bərklik:** Belə mövcudolma həm həndəsi forma, həm rəng, həm sayın təzahürü kimi meydana çıxır. Yəni bərklik - tam təzahür kimi mövcudolmadır. Bərk halında olan maddələrin mahiyyəti sabit forma ilə vəhdət təşkil edir, buradan da bərkliyin təzahürünü zəruri şərtlərin məcmusu kimi təyin etmək olar.
2. **Mayelilik:** Belə mövcudolma elə-belə forma və rəngin təzahürü kimi meydana çıxır. Mayeliliyin say təzahürü yoxdur. Həndəsi formaları özündənkənardır. Buna görə də, yalnız töküldükləri xarici qabın formasını alırlar. Mayelər dəyişkən forma ilə mahiyyətin vəhdətindən ibarətdir. Dəyişkən forma təsadüfi şərtlərin məcmusundan ibarətdir.
3. **Qazlıq:** Belə mövcudolma yalnız rəngin təzahürü kimi meydana çıxır. Qazlıq formasız və saysız təzahürdür. Qaz halında maddənin nə zəruri, nə təsadüfi şərtləri yoxdur. Qazlıq mahiyyətlə formanın şərtlənməməsi kimi meydana çıxır.

Mövcud Varlıq sıraları biri-biri ilə əlaqəli və biri-biri ilə vəhdətdə yarandığından bütün varlıq sıralarında aydınlaşan aşağıdakı eyni qanunauyğunluqları aşkarlamaq olar:

1. Hər bir sıra özündən əvvəlki sıranın əsasında yarandığından onun xüsusi təzahürləri özündən əvvəlki sıranın təzahürlərini ikincili öz

arxasından təzahür etdirir. Yəni, hər bir sıranın təzahürü əməlgəlmə ardıcıllığının əksinə baş verir. Belə ki, ruh əvvəl özünün, sonra canın, daha sonra isə cismin təzahürlərini üzə çıxarır.

2. Hər bir sıra özündən əvvəlki sıranın təzahürlərini öz təzahürləri ilə əvəzləyərək təzahür etdirir.
3. Hər bir sıra özündən əvvəlkindən daha aydın həqiqəti təzahür etdirir, amma onun özünün aşkarlanması özündən əvvəlkindən daha da az dəqiq olur. Beləliklə, ruh candan, can cisimdən daha çox həqiqətə yaxındır, amma cisim candan, can ruhdan daha dəqiq vasitə kimi təzahür edir.
4. Bütün sıraların tabe olduğu eyni qanunlar ayrı-ayrı sıralarda müxtəlif formalarda təzahür edir.

TƏBİƏTDƏ TƏZAHÜR - ERSCHEINUNG

Təbiət dünyadan fərqli olaraq bütün pillələrdən olan mövcudluqlardan təşkil olunur. Belə çoxpilləli təzahür dünya kimi birpilləli təzahürlərdən fərqlənir. Buradan da iki cür - dünyada və təbiətdə təzahür meydana çıxır. Dünyada təzahür birpilləli, təbiətdə təzahür çoxpilləli Kosmosu təşkil edir.

a. Şeyin öz həqiqətini başqa şeylərə aydınlaşdırması: Aşkarlanmayan təzahür. Biz bunu mütləq təzahür kimi təyin edirik. Yəni mütləq təzahür hər hansı bir şeyin təcrübədənkənar özündə olan həqiqət haqqında məlumatı şüalandırmasını özündə ifadə edir. Belə təzahür mövcudolma mənasını verir, çünki mövcudolmada - faktın akta keçməsi, aktuallaşma nəticəsində mövcudluqda olan həqiqət şüalanmağa başlayır. Ayrıca bir fakt akta keçənə qədər özündə həqiqəti şüalandırmadığından biz faktı yalnız abstrakt olaraq düşüncədə müəyyən edirik. Başqa sözlə, fakt təzahür etməyən varlıqdır.

b. Şeyin özündə olan həqiqəti ruha aydınlaşdırması: Belə təzahür təfəkkürə münasibətinə görə şeydə aydınlaşan həqiqəti özündə təqdim edir.

Təzahür refleksiyanın ikinci səviyyədən meydana çıxmasıdır. Əgər birinci səviyyədən meydana çıxan refleksiyada həm mahiyyət, həm də forma birlikdə refleksiya olunursa, təzahürlərdə yalnız mahiyyət refleksiya olunur. Nəticədə, təzahürlərdən mahiyyət haqqında bilgi-məlumat yaranır. Biz bunu gerçəkliyin ağıllılığı - intellektibelliyi və ya kanonik olması, yəni ona ağılla forma vermək mümkünlüyü kimi də dəyərləndirə bilərik. Buradan da təzahür nə qədər çoxsaylı və aydın olursa, gerçəkliyin mahiyyəti haqqında məlumat bir o qədər yəqin və onun aşkarlanması dəqiq olur. Buradan da təzahürləri ikincili mahiyyətə aid olan, onlarda yerləşən və onlar haqqında məlumat verən anlayışlar kimi şərh edə bilərik. Məsələn, "qara rəng" konkret obyektlərin rəngini bildirir və təkrar-təkrar həmin obyektlərdən aşkarlandığından onlarda "yerləşir" və yalnız yerləşdiyi obyektin mahiyyəti haqqında məlumat verir. Təzahürlər çoxluqda təkliyin ayrılıqda dərk edilməsinə imkan verir. Başqa sözlə, təzahür vəhdətdənkənar əlamətlər haqqında məlumatlardan ibarətdir. Özü vəhdətdənkənar məlumat daşıdığından hər hansı bir təzahürdən vəhdəti aşkarlamaq mümkün deyil. Məsələn, "qara rəng" həm insanın, həm cismin, həm də hansısa bir heyvanın tüklərinin rəngini ifadə edir. Amma qara rəngdən ayrılıqda bir gerçəkliyin nə olduğunu aşkarlamaq olmur. Yalnız digər təzahürlərin məcmusunda vəhdət aşkarlanır və biz cismin nisbi həqiqətini bu vəhdətdən dərk edirik. Beləliklə, təzahür həm obyektlə - xassə nümayiş etdirən gerçəkliklə, həm də subyektlə - gerçəkliyin xassələrinə uyğun hisslər yaranan subyektlə bağlıdır. Bundan fərqli olaraq mahiyyət yalnız obyektlə bağlıdır, obyektdə olandır. Təzahür etmək mahiyyətin aidiyyətdə olduğunu bildirir və necə ki mahiyyət aid olandadır, gerçəklik təzahür edir. Təzahür gerçəklikdən nəyinsə ayrılması demək deyil.

Bəs onda təzahürlər əsasında necə təfəkkür gerçəklik haqqında bilgi əldə edir? Bizcə təzahür gerçəkliyin təfəkkürə təsiri yox (belə olsaydı bu təsir sonsuz ola bilməzdi, çünki istənilən təsir müəyyən enerji itkisi tələb etdiyindən təzahürlə şey azalar və nəhayətdə yoxluğa çevrilərdi), əksinə təzahür təfəkkürün gerçəkliyə təsirində yaranan əkstəsirdir, hansı ki, həmin əlaqəyə görə təfəkkürdə gerçəklik haqqında bilgi əmələ gəlir. Beləliklə, təzahürü təfəkkürün şeyin həqiqətinə gedən yolu kimi qiymətləndirmək olar. Ona görə də, konkret gerçəkliklərin təzahürlərinin dərk edilməsi subyektin imkanları ilə şərtlənir, nəinki obyektin. Mahiyyət - daxili görünüş, təzahür - xarici görünüşü təqdim edir. Xarici görünüşlə daxili görünüş əksliyin tərəfləri olduğundan, xarici görünüş konkret, daxili görünüş abstraktdır. Və ya təzahür - obyektiv, mahiyyət - subyektivdir.

Hər bir varlıq mümkün qədər öz mövcudluğunu aşkarlayan məlumatı daha geniş məkana və uzağa göndərməyə cəhd edir. Bilginin özündənkənara göndərilməsi şüalanmanı təqdim edir. Həqiqətin Kosmosda şüalanması təzahür kimi meydana çıxır. Cisimlərin özlərindən şüalandırdıqları şüalar hamısı birlikdə məlumat sahəsini təşkil edir. Məlumat sahəsində üç cür şüalanma aşkarlamaq mümkündür:

a. Siqnal: Həqiqətin hər hansı bir tərəfi ilə bağlı məlumatı aydınlaşdıran şüalanma. Siqnal - yalnız özündə bir sıradan olan obyektlər və ya hadisələr haqqında sadə məlumatları daşıyır. Məsələn, işıq siqnalı yalnız işıqla bağlı məlumatı, səs siqnalı səslə bağlı məlumatı daşıyır. Siqnallar hissəvi həqiqət haqqında məlumatlardan ibarətdir. Siqnallardan konkret həqiqəti aşkarlamaq qeyri-mümkündür. Siqnal sadəcə həqiqət təzahürünü özündə təqdim etdiyindən siqnalları mütləq həqiqət haqqında ən kiçik məlumat vahidləri kimi dəyərləndirmək olar.

Haşiyə: N.Vinner - quruluşun forması siqnaldır.

Buradan da, quruluş mövcudluğun başlanğıcı olduğundan siqnalı məlumatın başlanğıcı və ya başlanğıc təzahür kimi təyin etmək olar.

Müxtəlif gerçəkliklər eyni siqnalları şüalandıra bildiyindən siqnallarda konkret obyekt haqqında dəqiq məlumat əldə etmək mümkün deyildir. Məsələn, istilik siqnalından həmin siqnalı göndərən obyekt haqqında təsəvvür yaranmır. Siqnal mürəkkəbləşdikcə entropiyanın artması baş verir. Ona görə də, mürəkkəb siqnallar yaxına ötürüldükdə az entropiyaya məruz qalır və daha mütləq şəkildə həqiqəti çatdırır. Gerçəkliyin özündən şüalandırdığı siqnallar həqiqətin nisbilik dərəcəsinə uyğun olaraq yeddi növdən və hər bir növ də yeddi dərəcədən ibarətdir.

Gerçəklikdən şüalanan siqnallara hiss üzvləri tərəfindən tutulan beş əsas siqnal aiddir:

1. İşıq siqnalı: İşıq siqnalının dərəcələri ağ işıqla qara işıq arasında yeddi fərqli uzunluqlu dalğalardan ibarət rənglər kimi təzahür edir. Ağ işıq ən mürəkkəb, qara rəng ən sadə rəngdir. Buna görə də, istənilən rəngli gerçəklikdən uzaqlaşdıqca o, qara rəngdə görünür. İşıq siqnalı ən sürətli və ən uzağa - neytral zonaya istiqamətlənmiş şüalanmadır.

İşıq siqnalı həm də forma və say haqqında məlumat daşıyır, hansı ki, biz məkani məlumatlar kimi təyin edirik. Hər bir fakt məkanda konkret həcm tutaraq özünəməxsus forma alır. Eyni zamanda eyni bir fakt məkanda sıralanmaqla müxtəlif yer tutur. Buradan say meydana çıxır. Forma və sayla bağlı məlumat daşıyan siqnallar məkani siqnalları təşkil edir. Məkan siqnalına görə cismin ölçülərini, vəziyyətini, ona qədər olan məsafəni, bir sözlə məkanla şərtlənməni aşkarlamaq mümkündür. İşıq siqnalı həm də zamanla şərtlənmə haqqında məlumatları daşıyır. Hər bir varlıq məkanla yanaşı zamanla şərtlənməni özündən şüalandırır. Zamandan asılılıq qanunlarına uyğun olaraq zaman siqnalları hərəkət, dəyişilmə, inkişaf və tərəqqi ilə bağlı siqnalları şüalandırır. Forma və hərəkətlə bağlı məlumat işıq siqnalı ilə dolayı şüalandırıldığından, məkan və zamanla şərtlənmə haqqında məlumatlar digər siqnallarla şərtlənmiş şüalandığından funksional siqnallar kimi adlandırmaq olar. Məsələn, qaranlıqda formanı və hərəkətliliyi aşkarlamaq mümkün deyildir.

2. Səs siqnalı: Gerçəkliyin ən mühüm əlamətlərindən biri də səslənmədir. Səslənmə səs siqnalları vasitəsi ilə şüalanır. Səs də sükutla küy arasında qradiasiyaya məruz qalır. Sükut - ən mürəkkəb, küy - ən sadə səsdir. Səsin strukturlaşmış forması musiqi səsləri kimi təzahür edir. Musiqi səslərinin tonallığı ilə onların şüalanması arasında əlaqə vardır. "Do" səsi ən uzağa, "lya" ən yaxına ötürülən səsdir. İşıq siqnalından fərqli olaraq səsin sürəti az və ötürülmə məsafəsi qısadır. Səs siqnalı mövcudluq zonasına göndərilən siqnaldır. Musiqi səsləri (strukturlaşmış səslər) də öz növbəsində müvafiq olaraq yeddi cürdür.

3. İy siqnalı: İy siqnalı xüsusi vasitəli - efirlərlə ötürülür. Vasitəli ötürüldüyündən işıq və səsdən daha yaxın məsafəyə və kiçik sürətlə şüalandırılır. İy siqnalı şüalandıran obyektlə konkret əlaqədə olub, səs kimi mövcudluq zonasına göndərilir. İy siqnalının da yeddi dərəcəsini ayırmaq mümkündür.

4. Taktil siqnallar: Cismin öz sərhədinə - təmas zonasına göndərdiyi siqnallar taktil siqnalları - cismin hərarəti və halı, konsistensiyası, bərkliyi, boşluğu ilə bağlı şüalandırdığı siqnallardan ibarətdir. Taktil siqnallar cismin bilavasitə öz şeyi ilə şüalandırılır. Bilavasitə cismin səthinə ötürülür və cisimdən ayrılmır.

5. Dad siqnalı: Cismin öz daxili zonasına şüalandırdığı siqnallardan ibarətdir. Dad bir cismin daxilindən bədənə daxil olmaqla hiss edildiyindən, dad siqnalları daxili siqnal hesab edilə bilər.

b. Kod: Bir neçə siqnal öz aralarında bir-biri ilə xüsusi nizamla əlaqələnərək mürəkkəb şüaları - kodları yaradır. Siqnaldan fərqli olaraq kod strukturlaşmış şüalanmadır. Kod - obyektin nisbi həqiqəti haqqında məlumatı struktur şəklində özündə daşıyır. Başqa sözlə, kod - əşyanın əlamətlərini kompleks simvollar - hərəkət, rəng, forma, səs, iy, dad, taktil hissiyyat kimi daşıyan və təfəkkürə çatdıran məlumat formasıdır. Kod nə qədər yaxına göndərilirsə, bir o qədər az entropiyaya məruz qalır. Hər bir

gerçəkliyin özünəməxsus kodları vardır. Koddan gerçəkliyin ümumi sırasını aşkarlamaq mümkündür.

v. Bilik: Kodların biri-biri ilə əlaqələnib sistem təşkil etməsi bilik kimi meydana çıxır. Hər bir elm müxtəlif bilik vahidlərinin müxtəlifləşməsi və çoxalmasından yaranır. Bilik hər hansı bir gerçəkliyin forma və mahiyyətinin vəhdətdə bütün mümkün təzahürlərinin məcmusundan ibarət şüalanmasıdır. İdrak prosesində mahiyyət haqqında siqnallar forma ilə bağlı siqnallardan ayrılır və mahiyyət haqqında siqnallar təfəkkürdə ideyalara çevrilir. İdeyalar bilgi vahidləri kimi mövcud olur. Həmin ideyaların təfəkkürdə bir-biri ilə əlaqələnməsindən həqiqət haqqında bilgi meydana çıxır. Biliklə konkret obyekt təfəkkürdə aşkarlanır. Bilik həm də həqiqətin şüalanmasının təfəkkürdə aşkarlanmasından yaranan mürəkkəb məlumat toplusudur. Bilik - konkret obyektlə şərtlənmiş şüalanmanı özündə əks etdirir. Siqnal və kod obyektlə, bilik həm də subyektlə şərtlənmişdir. Mahiyyətlə formanın əlaqəsi mahiyyətin bilik təşkil etməsi kimi meydana çıxır, hansı ki, şeyin intellektibelliyindən ibarətdir. Həmin bilgi haqqında şüalanan ayrı-ayrı siqnallar təfəkkür tərəfindən tutulur, yenidən abstrakt şəkildə strukturlaşdırılır. Bilik - varlığın əlamətləri, hadisələr, onlar arasında məkan və zaman asılılığı haqqında mürəkkəb kodlar kompleksinin təfəkkürdə qalıcı aşkarlanmasıdır. Bilik müxtəlif gerçəkliklərin tabe olduğu ümumi qanunauyğunluqlar haqqında şüalanmadan ibarətdir. Varlığın özündən şüalandırdığı həqiqətin aydınlaşmasının aşkarlanması siqnal istiqamətində azalma, bilik istiqamətində artma meylindədir. Bu özündə təfəkkürün varlığa münasibətini təqdim edir.

q. MƏLUMAT: Siqnalların, kodların və biliyin abstraksiyasından - obyektdən asılı olmadan analitik mühakimə ilə əldə edilməsindən məlumat meydana çıxır. Məlumat təfəkkürlə həqiqət arasında obyektsiz əlaqədən ibarətdir. Məlumata malik olmaq konkret həqiqət haqqında təfəkkürdə qalıcı strukturlaşmanın olması deməkdir. Entropiyanın

yarandığı sahəni informatika, neytral zonaya ötürülən varlıq haqqında həqiqəti fəlsəfə öyrənir. Cisimlərin mövcudluq aktları haqqında məlumatları qarşılıqlı mübadilə etməsi ilə informasiya məkanı yaranır. Təfəkkür məhz informasiya məkanı ilə qarşılıqlı mübadilədə həqiqəti idrak edir. Belə idrak nəticəsində semantik əhəmiyyətli informasiya yaranır.

Haşiye: N.Vinner ”İdarəedən insan”

> *“Semantik əhəmiyyətli informasiya - maşında, eləcə də insanda, fəaliyyətdə olan mexanizmlərdən və qəbul edən sistemdən, onların bəzi xüsusiyyətlərinin dağıtmasına baxmayaraq, keçən informasiyanı təqdim edir.”*

Semantik əhəmiyyətli informasiya, həm də təfəkkürdən keçərək onu dağıdan informasiyadır. Beləliklə, informasiya qəbuledənin də informasiyanı entropiyaya məruz qoyduğundan, heç bir maşının və ya özündən keçən informasiyanı qəbul edən insanın mütləq həqiqəti aşkarlamaq imkanı yoxdur. Həqiqət nə qədər bu informasiya bədəndən keçmədən qəbul edilməsindən asılı olaraq aşkarlandıqda mütləqə yaxın olur. Başqa sözlə, ətraf və hisslərlə şərtlənməmiş məlumatın avtoentropiyaya məruz qalmayan təfəkkürdə aşkarlanması mütləq həqiqətə yaxındır. Şüurun materiyaya münasibəti bununla məhdudlaşır. İnsan bundan kənarda həqiqətin aydınlaşmasının hər hansı şüalanması haqqında doskaya, təəssürata, duyğuya və bilgiyə malik ola bilməz və ya insan üçün dərk edilən həqiqət yalnız bu yolla aşkarla bilər.

Entropiya hadisəsi: Gerçəklik özündə aydınlaşdırdığı nisbi həqiqəti - mövcudluq qanunauyğunluqları haqqında məlumatı, bilgini və ya siqnalları öz daxilində strukturlaşdırır. Həmin strukturlar iki qrupa ayrılır. Konkret struktur - gerçəkliyin təşkilolunması kimi, abstrakt struktur - gerçəkliyin konkret strukturlaşması haqqında məlumatın təfəkkürdə strukturlaşması. Konkret struktur abstrakt strukturu gerçəklik faktından kənara göndərməklə özünü aydınlaşdırır, yəni təzahür edir.

Hər bir məlumat mühitdən və ya başqa gerçəklikdən keçərkən dəyişilir - entropiyaya məruz qalır. Termodinamikada enerjinin çevrilməsi ilə onun artıb-azalması entropiya termini ilə ifadə olunur. Siqnalların deformasiyasını - həqiqətin aydınlaşmasının artma və azalma meyllərinin əvəzlənməsini də - entropiya termini ilə ifadə etmək məqsədəmüvafiqdir. Entropiya özündə həqiqətin meyllərinin bir-birini əvəzləməsini təqdim edir. Mütləq həqiqətin nisbi həqiqət kimi təzahür etməsi həqiqətin entropiyaya məruz qalmasının nəticəsidir. Beləliklə, əslində biz görünən dünyada görünənləri yox, görə bildiklərimizi görürük, görünənlər isə öz növbəsində olduqları kimi görünmürlər. Nəticədə subyektin gördüyü dünya ikiqat entropiyaya - aydınlaşmanın və aşkarlanmanın entropiyasına - məruz qalmış halda təzahür edir.

Haşiyə: Jil Delez "Fərqlilik və təkrarlanma"

> *"Müasir dünya - simulyakrlar dünyasıdır. İnsan onda Allahı yaşamır, subyektin eyniliyi substansiyanın eyniliyi yaşamır. Bütün eyniliklər fərqliliklərin və təkrarlanmaların oyunu kimi, daha dərin oyunların optik "effekti" kimi yalnız simulyasiya olunub."*

J.Delezin optik effekt adlandırdığı hadisə xarici görüntünün işıqlanması və onun görülməsi nəticəsində entropiyaya məruz qalmasını ifadə edir.

Həqiqətin aydınlaşdığı gerçəklikdən məlumatların kənara göndərilməsi zamanı siqnalların entropiyaya məruz qalması keçirici mühitdən asılıdır. Hər bir mühit özündən keçən məlumatları özünəxas şəkildə və həcmdə entropiyaya məruz qoyur, eyni entropiya təsiri göstərən iki müxtəlif mühit mövcud deyil. Həqiqətin vasitəli aydınlaşması haqqında məlumat vasitənin təzahürünə uyğun nizamlı və ardıcıllıqla ətrafa verilir. Məlumatın siqnallarının nizamlı verilməsi təşkilatlanma - forma, ardıcıl verilməsi mahiyyət haqqında məlumatı özündə təqdim edir. Müxtəlif mümkünlüklər özlərindən heç bir halda eyni ardıcıllıqla və sıra ilə siqnallar şüalandırmır. Eyniliklərin özlərindən

şüalandırdığı siqnallar homogen, müxtəlifliklərin özlərindən şüalandırdığı siqnallar heterogendir. Siqnalların ardıcıllığı və sıralanmasına uyğun fərqli siqnal strukturları yaranır. Məlumatın strukturlaşması - siqnalların sayı, hər bir siqnalın entropiyaya müqaviməti, yayılma məsafəsi, əks-təsir effekti yaratma qabiliyyəti və s. ilə bağlıdır. Bu baxımdan kibernetikaya görə siqnallar forma-pattern və təşkilatlanmadır-quruluşdur. Beləliklə, siqnallar mahiyyətlə vəhdət təşkil edən bilgi formasıdır, hansı ki, özü-üçün-varlıq təyini kimi formadan fərqli olaraq birbaşa təfəkkürə keçir və orada abstrakt özü-üçün-varlıq təyininə uyğun obrazlar yaradır. Həqiqət haqqında məlumatın ötürülməsi siqnallaşma - onun formalaşması və təşkilatlanmasından, onun təfəkkürdə aşkarlanması - qəbul edilməsi həmin siqnal əsasında onu göndərən mənbənin forması və təşkilatlanmasının idrak edilməsindən ibarətdir.

Həqiqətin entropiyaya məruz qalması, həm də onun mütləq dərk olunmasına imkan vermir. Nəticədə insan ehtimali gerçəkliklər dünyasında yaşamağa məcbur olur. Başqa sözlə, bir tərəfdən mütləq həqiqət nisbi təzahür edir, digər tərəfdən nisbi həqiqət nisbi idrak olunur. Biz bunu ikiqat nisbilik prinsipi adlandırırıq. İkiqat nisbilik prinsipinə görə mütləq həqiqət nisbi dərk olunandır. Buna görə də, bizi əhatə edən adi gözlə görünən dünya ilə xüsusi vasitə ilə gördüyümüz dünyanın reallıqları üst-üstə düşmür. Eləcə də ayrı-ayrı şüur formaları ilə idrak olunan dünya haqqında təsəvvürlər bir-birindən fərqlənir. Buradan da mütləq həqiqətin təcrübədən, konkretdən idrak olunmasının mümkünsüzlüyü meydana çıxır. Fəlsəfə mütləq həqiqəti mümkün dəqiqlik və yəqinlikdə idrak etmək üçün mütləq həqiqəti konkretdən yox, abstraksiyadan anlamağa cəhd edir.

Mühit yalnız məlumatı keçirmir, həm də bu zaman məlumatı entropiyaya məruz qoyur - ya onları gücləndirir, ya zəiflədir, ya da quruluşlarını pozur. Məlumatın ötürülmə məsafəsi ilə onların

mürəkkəbliyi arasında və mühitin siqnalların quruluşunu pozması düz mütənasibdir. Yəni göndərilən siqnallar nə qədər mürəkkəbdirsə, nə qədər uzağa göndərilirsə, həmin siqnallar mühitdə bir o qədər çox entropiyaya məruz qalır. Məlumat nə qədər sadədirsə, bir o qədər onu uzaq məsafəyə göndərmək mümkündür. Ən sadə siqnal ən az entropiyaya məruz qalır. Hər bir gerçəklik özündə aydınlaşan həqiqət haqqında məlumatı maksimum itkisiz və aydın şəkildə özündən daha uzağa şüalandırmağa cəhd edir. Bu zaman ən məqbul yol və vasitə seçilir. Həqiqət haqqında siqnalların yolu və vasitəsi kommunikasiya kimi təzahür edir. Kommunikasiya ilə entropiya arasında da birbaşa əlaqə vardır.

Entropiyanın aşağıdakı formalarını aşkarlamaq olar:

1. Siqnalların seçilməsi: Siqnalların seçilməsi - mühitdən asılı olaraq siqnalların müxtəlif məsafələrə yayılmasından ibarətdir. Siqnalların seçilməsi də öz növbəsində iki cürdür. **a.** Cismin şüalandırdığı mürəkkəb siqnalların sadələşməsi. Mühit özündən keçən mürəkkəb siqnalları tərkibə ayıraraq, bəzi tərkiblərini buraxır, bəzilərini saxlayır. Hər bir siqnal özündə müəyyən təsirə malikdir. Təsir siqnalların təbiəti ilə şərtlənmişdir. Gerçəkliyin özündən şüalandırdığı hər bir siqnal yeddi cür təzahür edir. Səsin yeddi notu, işığın yeddi dalğası, rəngin əsas yeddi çaları, formanın əsas yeddi növü və s. vardır. Belə mürəkkəb tərkibli təsir mühitdən keçərkən onun tərkib elementləri müxtəlif entropiya torlarında müxtəlif deformasiyalara məruz qalır. **b.** Sadə siqnalların seçilməsi. Mühit özündən keçən bir sadə siqnalı buraxır, digərini saxlayır. Mühitin siqnalları seçmə mexanizmlərini kibernetikada istifadə edilən terminologiyaya uyğun olaraq "Maksvel iblisləri" adlandırmaq məqsədəmüvafiqdir.

"Maksvelin iblisləri" - müxtəlifliklərin yaratdığı entropiyadır. Maksvel iblisləri - şüalanmaya qapını açan və ya bağlayan xarici "şeylər"dir. Siqnallar sadələşdikcə "Maksvel iblislərinin" seçici

təsirindən azad olur. Siqnalların seçilməsi ilə onların sürəti arasında asılılıq vardır. Siqnalların tərkibi ilə onların yayılma sürəti düz mütənasibdir. Ən sadə siqnallar üçün ən böyük sürət və ən uzaq yayılma məsafəsi xasdır. Siqnallar içərisində ən uzağa ötürülən işıq siqnalıdır. Bəzi "Maksvel iblisləri" mürəkkəb siqnallara müxtəlif seçici təsir göstərir. Məsələn, işıq siqnalı üç cür entropiyaya məruz qalır. Belə ki, mühitdən keçən işıq şüasının bir hissəsi mühitdən keçir. Bir hissəsi geri qaytarılır. Bir hissəsi isə mühit tərəfindən udulur. Bu cür "Maksvel iblislərini" entropiya toru adlandırmaq olar. Tutaq ki, biz sudan müəyyən ölçüdə balıq tutmaq istəyirik. Bunun üçün suya bizə lazım olan ölçülərdə tor atırıq. Suya atdığımız torun arasından müəyyənləşdirdiyimiz ölçüdən kiçik balıqlar keçib gedəcək. Böyük balıqlar isə tora ilişmədən geri qayıdacaq və ya toru dağıdaraq ondan keçəcək. Yalnız qabaqcadan müəyyənləşdirdiyimiz ölçüdəki balıqlar tora ilişib qalacaq. Nəticədə biz balıqları tor vasitəsi ilə üç yerə ayırmış oluruq: a) toru keçən kiçik balıqlar; b) torda ilişən istədiyimiz ölçüdəki balıqlar və toru dağıdan və ya tordan geri qayıdan iri balıqlar. İstənilən mühitdə sonsuz sayda təsiri bu cür seçən-sortlaşdıran çoxlu torlar mövcuddur. "Maksvel iblisləri" qeyri-tarazlıqda - xaosda meydana çıxır və siqnalların yayılmasını nizamlayır.

2. Siqnalların deformasiyası: Mühitdə xüsusi deformatorlar məlumata təsir edərək orqanizasiya olunma dərəcəsindən asılı olaraq onların quruluşunu dağıdır. Nəticədə deformasiyaya uğramış şüa həqiqət haqqında təhrif olunmuş məlumat daşıyır. Belə siqnallar əsasında həqiqətin alternativləri - səhvlər meydana çıxır. Deformasiyaya məruz qalmış istənilən siqnal dezorqanizasiya olunur. Nəticədə belə siqnallardan konkret məlumat əldə etmək mümkün olmur. Belə siqnallar həqiqət haqqında xaotik məlumat daşıyırlar. Entropiya, həm də dezorqanizatorlar vasitəsi ilə baş verir. Məsələn, şüalanma ilə qızma özündə siqnalın deformasiyasını təqdim edir. Belə ki, səthə düşən işıq

cismin daxili enerjisinə çevrilərək onun qızmasına səbəb olur. Beləliklə, işıq şüası deformasiyaya məruz qalır. Deformatorların təsirini əyani olaraq dumanda işığın yayılmasında və ya qıyılmış gözlə işığa baxdıqda aşkarlamaq olar. Dumanlı havada işıq düzxətli yox, dairəvi yayılır və işıq mənbəyinin ətrafında dairə əmələ gətirir. Eləcə də qıyılmış gözlə işığa baxdıqda işığın parlaqlığı azalır, işıq yayılır, xəttiliyini itirir. Bununla da qıyılmış göz işığı deformasiyaya məruz qoyur. Hər hansı bir siqnal mühitdən keçərkən deformatorlar onları mütləq deformasiyaya uğratmır, yalnız yayılma intensivliyini, gücünü, formasını, ardıcıllığını, müddətini dəyişir. Təsirin mühitdən keçərkən deformasiyaya məruz qalması birinci sıra effektləri və ya xarici effektləri təşkil edir. Belə məşhur effektlərdən biri astronomiyada Dopler effekti kimi tanınan qalaktikaların bir-birindən uzaqlaşması zamanı müşahidə edilən effektdir. Dopler effekti Habblın qırmızı yerdəyişmə qanununa uyğun baş verir. Qırmızı yerdəyişmə - uzaq obyektlərin işığının şüalandırılması zamanı tezliyin kiçilməsindən ibarətdir (deformasiya olunur). Bu zaman spektrin görünən hissəsinin xətləri onun qırmızı kənarına doğru yerini dəyişir. Obyekt nə qədər uzaqdırsa, yerdəyişmə bir o qədər böyükdür. Başqa bir effekt yüksək sürətlə hərəkət zamanı qırmızı rəngin yaşıl işıq kimi görsənməsidir. Və ya çox uzaq məsafədən müxtəlif rənglərin qaraya çalması və s.

3. Siqnalların əngəllənməsi: Bəzən mühit siqnalları özündən buraxmır. Məsələn, ifrat qara cisim işığı ötürmür. Belə halda siqnal deformasiya və seçilməyə məruz qalmır. Siqnalları yayılmayan cisimlər avtoeffekt yaradır. Başqa sözlə, öz-özünü şüalandırır. Özü-özünü şüalandırma təcrübə sahəsində aşkarlanmır. Siqnalların xarakterindən asılı olaraq mühitdə bu yollardan biri və ya bir neçəsi aktiv olur. Siqnal nə qədər uzaq məsafəyə ötürüləndirsə, onun entropiyaya məruz qalması yolu bir o qədər mürəkkəbdir.

Məlumatların entropiyasının üç mərhələsi vardır:

1. Birincili daxili entropiya: Hər bir varlıq öz həqiqətini daxildə siqnallar şəklində orqanizasiya edərkən orqanizatorun daxili mühitində onlar entropiyaya məruz qalır.

2. Xarici entropiya: Varlıqdan kənara şüalanan məlumatlar mühitdən keçərkən xarici təsirlərdən entropiyaya məruz qalır.

3. İkincili daxili entropiya: Məlumat daşıyan siqnallar qəbul olunduğu effektorların daxili mühitində entropiyaya məruz qalır.

Həqiqətin nisbiliyi özündə entropiyanın mütləqliyini ifadə edir. Entropiya sistemlərdən asılı olaraq fərqli qanunauyğunluqlara tabedir. Üç cür sistem ayırd etmək olar:

a. Qapalı sistem: Qapalı sistemə cisimlər aiddir. Qapalı sistem tangensial enerjisi ilə radial enerjisi qarşılıqlı mübadilə etməyən sistemlər aiddir. Ölü halında və statik halda olan hər bir şey qapalı sistem təşkil edir. Qapalı sistemdə həm məlumatın göndərilməsi və qəbul edilməsi sabit entropiyaya məruz qalır. Bu zərurətə görə entropiya kimi meydana çıxır.

b. Açıq sistem: Açıq sistem ətraf mühitlə sürəkli mübadilə edən sistemdir. Açıq sistemlərdə entropiya dəyişkəndir və təsadüfə görə meydana çıxır. Açıq sistemlərdə entropiya xarici şərtlərdən asılıdır.

c. Açılan sistemlər: Qapalı sistemlə açıq sistem bir-birinə keçid vəziyyətində olan sistemdir. Belə sistemlərdə entropiya həm daxili, həm də xarici şərtlərdən asılı olduğundan zərurətlə təsadüf birlikdə təzahür edir ki, buradan da xaotik entropiya yaranır. Açılan sistemlərin bəlli qanunauyğunluqlarını aşkarlamaq mümkün deyildir. Qapalı sistemlər sadə, açıq sistemlər mürəkkəb sistemlər kimi təzahür edir və hər biri özünəxas fərqli qanunauyğunluqlara tabe olur.

Entropiyanın həqiqətin təzahüründə rolu aşağıdakılardan ibarətdir:

a. Daxili entropiya siqnalları göndərilmək üçün yararlı hala salır. Mahiyyəti qoruyur, gerçəkliyin idrak olunmasına xidmət edir. Daxili entropiya nəticəsində nisbi həqiqət haqqında məlumat formalaşır.

b. Xarici entropiya siqnalların daha uzağa göndərilməsini təmin edir. Məlumatların təfəkkürdə aşkarlanması üçün həqiqətin aydınlaşması ilə bağlı siqnalları sadələşdirərək təfəkkür üçün qəbul edilən hala salır. Xarici entropiya vəhdətdə təzahür edən məlumatları strukturlaşdırır.

v. Effektorlarda entropiya effektorun seçici əkstəsir yaratmasına imkan verir. İdraka mane olan siqnallar sıradan çıxarılır. Entropiya həm başqa məlumatın təsirindən, həm bu məlumatın keçdiyi sahədən, həm də məlumatı göndərən cismin özünün özünə təsirindən yaranır. Biz bunu elektrik hadisəsində daha əyani görə bilərik. Naqildən elektrik keçərkən naqilin səthindən müəyyən məsafəyədək elektrik şüalandırılır. Bu şüalar elektrik sahəsini yaradır. Bu sahəyə düşən başqa bir naqil elektrik sahəsinin təsirindən induksiya hadisəsinə məruz qalır və onda elektrikləşmə baş verir. Eyni zamanda bu sahə təkrar bilavasitə elektrik keçən naqilə təsir edir və onu induksiyalaşdırır. Bu birinci induksiyadan fərqli olaraq avtoinduksiya adlanır. Biz bütün cisimlərdə buna uyğun entropiyanın yaranması səbəblərini üç yerə bölə bilərik. a) mühitdə baş verən entropiya; b) operatorda baş verən entropiya; v) orqanizatorda baş verən entropiya. Mühitin və operatorun yaratdığı entropiya - heteroentropiyanı, orqanizatorun yaratdığı entropiya avtoentropiyanı təşkil edir.

TƏSİR-ƏKSTƏSİR

Hər bir faktiki tamın təzahürünün xarici təsadüfi şərti başqa tamların mövcudluğunun zəruri şərtlərinin məcmusudur. Beləliklə, mövcudluqların özlərindən fərqliliklərini itələməsi və öz eyniliklərini özlərində saxlamasından xarici vəhdətin şərtləri meydana çıxır, hansı ki, bu şərtlərin məcmusunu təsir-əkstəsir kimi qavrayırıq. Təsir-əkstəsir

şərtlərinin məcmusu itələnən fərqliliklərin yaratdığı xarici vəhdəti təşkil edir.

Platon "Dialoq"unda yazır:

> *"Mən indi təsdiq edirəm ki, öz təbiətinə görə qabiliyyətə malik hər şey ya başqasına təsir etmək, ya da nəsə ən əhəmiyyətsiz şeydən və yalnız bir dəfə olsa, az da olsa təsirə məruz qalmaqdır, - bütün bunlar həqiqətən mövcud olurlar. Mən mövcudolmaya belə təyin verirəm: o, qabiliyyətdən başqa bir şey deyil".*

Burada qabiliyyəti özündə həqiqət aydınlaşdırmaq və buna görə də idrak prosesində aşkarlanmaq kimi anlamaq lazımdır. Təsir etmək feldir, buradan da mövcudolmanı mövcudluğun feli - fəaliyyəti, hərəkətliliyi və ya inkişafı kimi müəyyən etmək olar. Beləliklə, təsir və əks təsiri istənilən mövcudluğun predikabiliyası - mövcudolmasının başlıca əlaməti kimi təyin edirik. Burada mövcudolmanın mövcudluqdan ayrılıqda fikrən təsəvvür edilməsindən təsir haqqında xalis fikir əldə etmiş oluruq. Təsir - mövcudluq əldə etmiş mümkünlüyün varlığının eyni mövcudluqda həmin mövcudluq tələbini təkrarlaması kimi meydana çıxır. Yəni belə bir tələb mümkünlüyün varlığının mövcudluq tələbinin ödənilməsinin sürəkliliyində mövcudluğun varlığına keçir. Əgər mövcudluq tələbi birdəfəlik ödənsəydi, onda mümkünlüyün varlığının mövcudluq tələbinin davam etməsi ilə mövcudluğun varlığı yenidən varlığın mövcudluğuna keçərdi, nəticədə mövcud aləm - Kosmos olmazdı, yəni yaranış baş tutmazdı. Mümkünlüyün varlığının əldə etdiyi mövcudluq şərtlərində mövcudluq tələbini davam etdirməsində mövcud varlığın mövcudluq ölçülərini dəyişdirmə cəhdi yaradır. Beləliklə, təsir artıq mövcudluq şərtləri əldə etmiş mümkünlüyün varlığının həmin mövcudluqda mövcudluq tələbinin refleksiyasıdır, hansı ki, mümkünlüyün sonsuz və əbədi mövcudluq tələbi kimi meydana çıxır. Biz təsiri mövcudluğun özü-özündə saxladığı mümkünlüyün mövcudluq tələbi kimi təyin edirik. Belə tələb olmadan mövcudolma

mümkünsüzlükdür. Yəni mövcudluqla mümkünlüyün mövcudluq tələbinin vəhdəti mövcudolmanı meydana gətirir.

Hər bir mövcudluq təsirlə əbədi mövcudluğa cəhddə - mövcudluq aktını sürəkli olaraq genişləndirmək meylindədir. Mövcudluq aktı mövcudluğun zaman və məkan ölçülüyünün genişləndirməsindən ibarətdir. Mövcudluqlar eyni bir məkan və zaman şərtlərini bölüşdürdüklərindən heç bir mövcudluq məkanın sonsuzluğu, zamanın əbədiliyində mövcud ola bilmir və sonsuz məkan, əbədi zaman mövcudluqlar arasında bölünür, buradan konkret mövcud varlığın sonluluq və fanilik ölçülüyü meydana çıxır. Beləliklə, mövcudluqlar sonlu və fani ölçülüklərini sonsuzluq və əbədilik istiqamətində genişləndirmək cəhdində başqa bütün mövcudluqların birlikdə bölüşdürdüyü məkan və zaman şərtlərini əldə etməyə meyl edir və bu zaman bütün mövcudluqların onun belə cəhdinə müqaviməti ilə rastlaşır. Nəticədə, bir mövcudluğun təsirinə bütün mövcudluqlar ən ümumi şəkildə əks təsir göstərir. Bu zaman o, həm də onun mövcudluğuna son verəcək başqa mövcudluqların analoji təsirlərindən özünü qorumağa cəhd edir, bu cəhdə konkret mövcudluqda əks təsir kimi meydana çıxır. Buradan da mövcudluqda təsirlə əks təsir vəhdət yaradır. Təbiətdə yalnız təsir edən və yalnız əks təsir edən heç bir reallıq yoxdur. Təsir bütün fiziki hərəkətlərin məcmusu kimi meydana çıxır. Buradan da "hərəkət varlığın təzahür forması" kimi çıxış edir. Əks təsirin başlıca təzahürü "daxili həcmin keçirilməzliyidir", hansı ki, təbiətdə heç bir mövcudluq başqa mövcudluğun daxili həcminə malik ola bilmir. Bu metafizikanın "eyni anda, eyni yerdə, müxtəlifliyin birliyi" qanununun kosmik refleksiyasıdır, hansı ki, metafizikadan fizikaya keçiddə Kosmik qanunlar metafizik qanunun əksliyi kimi meydana çıxır və həmin qanun kosmosda "burada və indi prinsipi ilə iki müxtəlif mövcudluq ola bilməz" kimi aşkarlanır.

Təsir mövcudolmanın xarakteristikası olduğundan, mövcudluğun daxilində təşkilolunma ilə meydana çıxır. Hər bir mövcudluğun daxili vəhdətinin şərtlərinin məcmusu özündə təsiri təqdim edir. Yəni təsir məkanla zaman ölçülüyünün vəhdətə girməsi ilə təşkil olunur. Buradan da, təsirdən mövcudluğun məkan və zaman ölçülüyü haqqında bilgi əldə edilir. Təsir mövcudluğun özündən çıxdığından zəruri şərtlərin məcmusundan ibarətdir. Buna görə də, əsasa aiddir, sabitdir, dəyişməzdir. Mövcudluqların əsasını cisimlər təşkil etdiyindən təsir yalnız birincili mövcudluqlarda zəruri şərtlərin məcmusu kimi təşkil olunur. Amma təsir bütün mövcudluqlara yayılır və nəticədə müxtəlif mövcudluqlar təsirə müxtəlif əks təsir təşkil edirlər. Əks təsirin əsası başqa mövcudluqlarda olduğundan özündə təsadüfi şərtlərin məcmusundan ibarət olur. Beləliklə təsir-əkstəsir əlaqəsi zəruri şərtlərlə təsadüfi şərtlərin vəhdətini özündə refleksiya edir.

Təsirin aşağıdakı formaları vardır:

1. Ümumi təsir: Çoxluğa təsiri biz ümumi təsir adlandırırıq. Belə təsirə bir cismin bütün digər cisimlərə və mövcudluqlara elə-belə təsiri aiddir. Belə təsir istiqamətsiz, məqsədsiz, mövcudluq aktından spontan və avtonom çıxır.

2. Xüsusi təsir: Bir cismin yalnız başqa bir cismə və ya başqa bir mövcudluğa təsiri. Belə təsir istiqamətli və məqsədli təsir kimi təzahür edir.

3. Qarşılıqlı təsir: Eyni vaxtda bir cismin başqa cismə və əksinə başqa cismin ona təsiri qarşılıqlı təsir kimi meydana çıxır. Mövcudluq faktlarının bir-birinə eyni kəmiyyətdə və keyfiyyətdə etdiyi təsir qarşılıqlı təsirdir. Qarşılıqlı təsir əks təsirə səbəb olmur. Belə ki, qarşılıqlı təsirdə hər bir təsir digəri üçün əks təsir rolu oynayır. Qarşılıqlı təsirdə qarşılıqlı şərtlənmə və rabitə yaranır. Qarşılıqlı təsir varlıqların inteqrəedici və strukturlaşdırıcı gücüdür.

Təsir-əkstəsir əlaqəsi həm eyni sıradan olan mövcudluqlar arasında, həm də müxtəlif sıradan olan mövcudluqlar arasında yaranır:

A. Cisim sırasında təsir-əkstəsir əlaqəsi: Birincili mövcudluqlar arasında - dünyada - təsir-əkstəsir əlaqəsinin aşağıdakı formalarını ayırd etmək olar:

1. Kəmiyyət və keyfiyyətinə görə eyni və bərabər əks təsir yaradan təsir - sadə təsir-əkstəsir əlaqəsi: Sadə təsirlərdə bir təsir bir eyni və bərabər əks təsir yaradır. Fizika elmində belə təsir-əkstəsir əlaqəsi "təsir əks təsirə bərabərdir" qanunu kimi şərh edilir. F=-F. Yəni, elektrik qüvvəsi elektrikləşmə kimi, maqnit qüvvəsi maqnitləşmə kimi, fiziki qüvvə fiziki qüvvə kimi əks təsir yaradır. Birincili mövcudluqlar arasında sadə təsir-əkstəsir əlaqəsində həm kəmiyyət, həm keyfiyyət bərabər və eyni olur. Buna səbəb birincili mövcudluqların sabit şərtlərdə mövcud olmasıdır, hansı ki, sabit təsir sabit əks təsir yaradır.

2. Kəmiyyət və keyfiyyətinə görə özü ilə bərabər və eyni təsir yaratmayan mürəkkəb təsir-əkstəsir əlaqəsi: Mürəkkəb təsir-əkstəsir əlaqəsinin iki formasını ayırd etmək olar. Birincisi, sadə təsirin mürəkkəb əkstəsir yaratması. Belə təsir əlaqəsində bir təsirə müxtəlif əks təsirlər yaranır, nəticədə sadə təsir mürəkkəb əks təsirlərlə əlaqələnir. Məsələn, çəkiclə müxtəlif tərkibli metala vurduqda metallar sıxlığına görə eyni təsirə müxtəlif əks təsir göstərəcəklər. Nəticədə, mürəkkəb cismin əks təsiri kəmiyyət və keyfiyyətinə görə sadə təsirdən fərqlənəcək. Əyani olaraq boş və su dolu vedrəyə çəkiclə vurduqda fərqli nəticələrin alındığını müşahidə etmək olar. İkincisi, mürəkkəb təsirin sadə şeydə əks təsir yaratması. Belə təsir-əkstəsir əlaqəsində təsirin bir hissəsi əkstəsir yaratmır, yalnız mürəkkəb təsirin sadə tərkibi əks təsir yaradır, digər təsirlər isə sonsuz davam edir.

B. Müxtəlif sıradan olan mövcudluqlar arasında təsir-əkstəsir əlaqəsi: Bunun da öz növbəsində iki formasını ayırd etmək olar.

1. Cisimlərin canlılarla təsir-əkstəsir əlaqəsi: Birincili mövcudluqların ikinci mövcudluqlara təsirində əks təsir kəmiyyətinə görə təsirə bərabər, amma keyfiyyətinə görə ondan fərqlənir, yəni təsir əks təsirə bərabər və fərqli olar. Bunun iki səbəbi vardır: Birincisi, təsir birincili - bir təbiətli mövcudluqda, əks təsir ikili mövcudluqda təşkil olunur. Nəticədə, eyni bir təsirə iki müxtəlif əks təsir təşkil olunur. Biz bunu əkstəsirin ikiləşməsi - mürəkkəbləşməsi adlandırırıq. İkinci səbəb, təsirin sabit şərtlərdən, ikincili mövcudluqda təşkil olunan əks təsirin bundan fərqli olaraq dəyişən şərtlərdən təşkil olunmasıdır. Şərtlərin dəyişilməsi keyfiyyət dəyişilmələri kimi təzahür edir. Beləliklə, birincili mövcudluqların canlılara təsirində əks təsir həm mürəkkəbləşir, həm də dəyişkən olur. Biz ikincili mövcudluğun cisimlərin əks təsirini cavab kimi qavrayırıq. Birincili mövcudluqların ikincili mövcudluqlara təsiri onlarda təsirdən fərqli vaxtda, fərqli yerdə, mürəkkəb əkstəsir yaradır. Belə sadə təsir mürəkkəb təşkilolunmuş mövcudluqlarda mürəkkəb təsir kimi qəbul edilir. Məsələn, qida heyvana həm görünüşünə, həm iyinə, həm dadına görə təsir edir və canlıda buna uyğun cavab yaranır. Məsələn: tutaq ki, bir fiziki cisimlə heyvan orqanizminə zərbə endirilir. Cisim bədənə dəydikdə dəydiyi hissədə təzyiq edərək üç cür əks təsir yaradır. Birincisi, fiziki cismə müəyyən həcmdə eyni keyfiyyətlə əks təsir yaranır. İkincisi, təsirin bir hissəsi orqanizmin zərbə nahiyəsində müvəqqəti olaraq formanı dəyişdirir. Bir hissəsi isə hissi reseptorları qıcıqlandırır. Qıcıqlanmış hissi reseptorlar qıcığı impulsa çevirir. İmpulsa çevrilmiş qıcıq mərkəzəgedən neyronlarla təsir yerindən fərqli məsafədə olan impulsu mərkəzə çatdırır. Mərkəzdə konkret impulsa uyğun cavab yaranır. Həmin cavab mərkəzdəngələn sinirlə işçi orqana qayıdır və həmin orqana çatdırılır. İşçi orqan təsirə uyğun konkret iş görür - yəni zərbədən yayınmaq üçün lazımi fəaliyyətə gəlir. Buradan da görünür ki, təşkilatlanmış varlığa olan təsir müəyyən vaxt intervalında yaranan

təsirdən təmamilə keyfiyyətinə və kəmiyyətinə görə fərqlənən əkstəsirlə təsirə cavab verir.

2. Cisimlərin subyektiv varlıqla - ruhla təsir-əkstəsir əlaqəsi: Subyektiv mövcudluğun təşkil etdiyi əks təsir nə kəmiyyətinə, nə keyfiyyətinə görə təsirə bərabər və eyni olmur. Yəni təsir-əkstəsir əlaqəsi qeyri-bərabər və müxtəlif olur. Belə ki, təsir mövcudluğun varlığında, əks təsir varlığın mövcudluğunda təşkil olunur. Mövcudluğun varlığı zaman-məkan şərtlərində mövcud olduğundan təsir də məkan və zamanla şərtlənir. Varlığın mövcudluğu zaman və məkanla şərtlənmir, buna görə də onda hazırlanan əks təsir məkan və zaman şərtlənmədən, yəni şərtsiz meydana çıxır. Buradan da bir məkan və zamanda subyektə olan təsir başqa zaman və məkanda əks təsir yaradır, hansı ki, bu da insanın şüurlu fəaliyyətinin tarixiliyi və ictimailiyinin əsasında durur. Beləliklə, cismin subyektə təsirinə şərtsiz əks təsiri biz münasibət kimi qavrayırıq.

Təsir-səbəb, əkstəsir nəticə kimi meydana çıxır. İki mövcudluğun eyni vaxtda, eyni məkanda qarşılıqlı təsirdə olması onlar arasındakı sahədə müxtəlif güclərin toqquşması ilə müşayiət olunur. Bu müxtəlif sahələrin - cazibə, elektrik, maqnit, aura, biopoliya və s. kimi ikincili sahələrin yaranmasını şərtləndirir. İkincili sahə materiyaönü birincili sahədən onunla fərqlənir ki, materiyaönü sahə məkanı bütünlükdə doldurur, amma ikincili sahə məkanın yalnız müəyyən hissəsini - obyekt ətrafı məkanı zəbt edir. Təsir - aktivdir, mövcudluğun faktının başqa faktları məkanda sıxışdırma, üstünlük əldə etmə, mövcudluq sahəsini genişləndirmə cəhdinin təzahürüdür. Biz bunu cazibə gücü kimi qavrayırıq. Əks təsir passivdir, bir varlığın digər varlıqların təsirinə cavabı kimi meydana çıxır, hansı ki, biz bunu itələmə gücü kimi qavrayırıq. Təsir birincili - öz əsası ilə şərtlənir, buna görə zəruridir. Əks təsir ikincili olub, başqasının əsası ilə şərtlənir, buna görə təsadüfidir. Təsir öz əsası ilə şərtlənmiş olduğundan zəruri şərtlərin məcmusu, əks təsir başqasının təsiri ilə şərtləndiyindən təsadüfi şərtlərin məcmusundan

ibarətdir. Təsir müstəqil, azad, əks təsir asılı və qeyri-müstəqildir. Varlıqlar təsir və əks təsirlə bir-biri ilə əlaqələnir və vəhdət təşkil edirlər.

Təsirin aşağıdakı növlərini ayırd etmək olar:

a. Cəzb etmə: Mövcudluq faktının kütləsinin başqa kütləsi olan mövcudluq faktına təsiri cazibə kimi təzahür edir. Cazibə cisim sırasından olan mövcudluqların qarşılıqlı təsiridir. Kütləsi olan hər şey kütləsi olan başqa şeyi cəzb edir. Kütlə zəruri şərtlərin məcmusundan meydana çıxdığından biz cazibəni zəruri təsir kimi təyin edirik.

b. Cəlbetmə: Yükün təsiri - yüklənmiş hissəciklərin bir-birinə təsiri. Yüklər əkslik təşkil etdiyindən, onların qarşılıqlı təsirindən iki hal meydana çıxır. Eyniadlı yüklər bir-birini itələyir, əksadlı yüklər bir-birini cəlb edir.

c. Maqnitləşmə: Maqnitik təsir - metalların maqnitləşməsi keyfiyyəti əsasında maqnitin metalı özünə cəlb etməsi.

q. Keçiriciliyin dəyişilməsi: Yarımkeçiricilərin bir-birinə keçiriciliyə görə təsiri.

d. Effekt: Cismə edilən təsirin özündə passiv, sükunətdə əksetdirməsi effekt kimi təzahür edir.

e. Asılılıq: Təsir nəticəsində bir cismin müəyyən təzahürlərinin başqa cismin təsiri ilə əlaqədar meydana çıxması asılılıq kimi təzahür edir. Asılılıq iki formada - funksional və qeyri-funksional asılılıq formalarında təzahür edir. Funksional asılılıq dinamik vəziyyətdə, qeyri-funksional asılılıq statik vəziyyətdə yaranır.

n. Təzyiq: Bir cismin başqa cismin təzahürünü məhdudlaşdırması təzyiq kimi meydana çıxır.

m. Dezorqanizasiya: Təsirin müəyyən həddindən sonra bir cisim digərinin daxili həcmini tutur. Nəticədə həcmi başqa varlıq tərəfindən zəbt edilən varlıq quruluşunu dəyişir - dezorqanizasiya baş verir.

ƏKSTƏSİR: Mövcudluğun mahiyyəti öz mövcudluq aktını əbədi davam etdirmək olduğundan heç bir mövcudluq öz mövcudluq aktını

başqasına vermir, mübadilə etmir və ya dəyişmir. Mövcudluğun öz mövcudluğunu başqasının əldə etməsinə, mübadilə etməsinə və dəyişdirməsinə yönəlmiş istənilən təsirinə müqaviməti əkstəsir kimi meydana çıxır. Əks təsir təsirlə eyni mahiyyətli, amma əksistiqamətli olur. Məsələn, bir cisim istilikvermə ilə başqasına təsir edərkən özü soyuyur, başqası isə belə təsirə əks təsir kimi qızır. Təsir gerçəklikdə həqiqətin aydınlaşmasının artma meylini, əkstəsir azalma meylini özündə ifadə edir. Təsirlə əks təsir arasındakı əlaqə bərabər və ya qeyri-bərabər, adekvat qeyri-adekvat ola bilər. Təsir-əks təsir mərhələli prosesdir və müxtəlif mərhələlərdə müxtəlif əks təsirlər yaranır.

Əkstəsirin formaları:

a. Əksetdirmə: Təsirə məruz qalan obyektin təsiri öz sərhədində əks təsir göstərməsini biz əksetdirmə kimi təyin edirik. Məsələn, işıq şüası parlaq səthə düşdükdə səth işığı qaytarır.

b. Müqavimət: Bir cisim başqa cismin təsirini mümkün qədər özünün dezorqanizasiya etməməsinə imkan verməməsi müqavimət kimi təzahür edir.

c. Deformasiya: Bir cisim başqa cismin təsirini dəf etmək üçün öz formasını dəyişir.

d. Hərəkət: Təsirin təsir obyektinin zəruri şərtləri dəyişmədən təsadüfi şərtlərinin dəyişməsi kimi əks təsir göstərilməsidir. Belə əks təsir təsir obyektinin məkanda yerdəyişməsi, halını dəyişməsi və s. kimi meydana çıxır.

e. Aqreqat halının dəyişilməsi: Müəyyən təsirlər müəyyən hallarda nəticə yaratdığından bir cisim başqa cismin təsirini neytrallaşdırmaq üçün öz halını dəyişir. Məsələn, bərk haldan maye halına və ya maye halından qaz halına və əksinə keçir. Aqreqat halının dəyişməsi daxili hərəkətlilik kimi meydana çıxır.

f. Dağılma: Təsirin təsir obyektinin təsadüfi şərtlər dəyişmədən zəruri şərtlərini dəyişdirməsi dağılma kimi meydana çıxır. Dağılma tamı

təşkil edən hissələrin bir-birindən ayrılması, daxili vəhdətin pozulması kimi meydana çıxır.

g. Çevrilmə: Təsirin təsir obyektinin eyni vaxtda həm zəruri, həm təsadüfi şərtlərini dəyişdirməsi çevrilmə kimi meydana çıxır. Çevrilmə təsirin daxili həcmə daxil olması ilə maddənin tərkib hissələrini bir-birindən ayrılması kimi meydana çıxır, hansı ki, çevrilmə nəticəsində meydana çıxan yeni maddə təsirə məruz qalmır.

Beləliklə, bir cismin başqasına təsiri, başqa cismin əkstəsirinin başa çatması ilə cisim başqa cismə çevrilir. Bununla da təsir-əkstəsir əlaqəsi başa çatır. Çevrilmə təsirin əkstəsirdən böyük və sürəkliliyində meydana çıxır. Təsir və əks təsir arasındakı əlaqə təsirin ötürülmə zonasından və təsir edənlərin müxtəlifliyindən asılıdır.

MƏKANİ ŞƏRTLƏNMƏYƏ GÖRƏ TƏSİR

Məkani şərtlənməyə görə təsirin üç formasını ayırd etmək olar:

1. **Məsafədən təsir:** Bir cisim başqa cismin təmas zonasına daxil olmadan, məsafədən ona təsir etməsindən ibarətdir. Məsələn, şüalanma yolu ilə Günəş uzaq məsafədən yerdəki cisimləri qızdırır.
2. **Təmasla təsir:** Bir cisim başqasına yalnız bilavasitə toxunmaqla - təmasla təsir edir. İstiliyin istilikötürmə yolu ilə cismin bir hissəsindən digər hissəsinə və ya bir cisimdən başqasına verilməsi təmasla təsirdən baş verir.
3. **Vasitəli təsir:** Bir cismin digərinə üçüncü cisim və ya mühit vasitəsi ilə dolayı təsir etməsi. Məsələn, istiliyin konveksiya üsulu ilə bir cisimdən digərinə ötürülməsi. Bu zaman istilik istilikverəndən havaya verilir, hava qızır, sonra qızmış havadan istilik başqa cismə verilir.

Təsir mənbəyinə görə iki cürdür:

a. Xarici təsir: Mənbəyi varlıq faktından xaricdə olan və yalnız kənar varlıqlardan qaynaqlanan təsir. Belə təsir təsadüfi şərtlərin məcmusu kimi meydana çıxır.

b. Daxili təsir: Mənbəyi varlıq faktı ilə şərtlənmiş və öz-özünə təsir. Belə təsir zəruri şərtlərin məcmusu kimi meydana çıxır.

Eyni cisimlərin qarşılıqlı təsiri aşağıdakı qanunauyğunluqlara tabe olur:

1. Eyni cisimlər özlərindən xaricdə, məsafədən bir-birinə neytral təsir edir, yəni təsir əkstəsirə bərabər olur. Nəticədə Kosmosun dayanıqlığı meydana çıxır.
2. Eyni cisimlər kontakt sahəsində bir-birinə təsir edir və əks təsir təsirlə kəmiyyət və keyfiyyətinə görə bərabər olur. Eyni cisimlərin təmasla təsiri bir-birinin daxili zonasına yayıldıqda əks təsir təsirdən formaca fərqlənir. Məsələn, çəkici zindana vuranda çəkicin zindana təzyiqi səsə çevrilir və zindan səs çıxarır.
3. Eyni cisimlər bir-birinin daxili zonasında təsir etdikdə əks təsir yalnız formada dəyişikliyə səbəb olur, substansiya dəyişməz qalır.

Müxtəlif cisimlərin qarşılıqlı təsiri eyni cisimlərin qarşılıqlı təsirindən fərqli olaraq daha mürəkkəb formalarda təzahür edir. Belə təsir cisimlərin ya xassələrinin dəyişilməsinə, ya da substansiyasının dəyişilməsinə səbəb olur. **Xassənin dəyişilməsinin aşağıdakı formaları mövcuddur:**

a. Təsir əks təsirə bərabər olduqda **tarazlıq vəziyyəti** yaranır. Tarazlıq - əlavə təsir olmadan müxtəlif mövcudluqların bir-biri ilə qarşılıqlı təsirdə özlərinin sükunətini və ya hərəkətini sabit saxlanmış vəziyyətidir.

b. Əgər bir cisim digərinə təsiri səthdə - kontakt zonasında baş verirsə, onda bir cisim digərinin sadəcə formasını dəyişdirir - deformasiyaya uğradır.

c. Əgər təsir daxili həcmdə baş verirsə, digərinin daxilinə keçən və ya onun daxili məkan və zaman şərtini pozan həmin cismin mövcudluq faktını məhv edir - onun mövcudluğuna xitam verir və onun daxili məkan və zamanını zəbt edir.

Şüalanma zonalarından asılı olaraq cisimlər bir-birinə müxtəlif formada təsir edir. Neytral zonada heç bir cisim başqasına təsir etmir. Bu zonada ən sadə şüalar varlığın mövcud olması haqqında ən ümumi - varlığın mənsub olduğu sıraya xas əlaməti ötürür. Mövcudluq zonasında cismin bilavasitə konkret mövcudluğunu bildirən xüsusi məlumat ötürülür və zonada istənilən təsir həmin məlumatları dezorqanizasiya edir, onların yayılmasını ləngidir və ya qarşısını alır. Bu zonaya müdaxilə mövcudluğu təhlükəyə saldığından təhlükəsizlik zonası və ya təsir zonası kimi də adlandıra bilərik. Üçüncü zona cismin forması haqqında məlumatın bilavasitə onun öz sərhədlərinə ötürdüyü məlumatın yayıldığı zonadır. Bu zonaya kənar müdaxilə təzyiq kimi yalnız kontaktla mümkündür və ən müxtəlif deformasiyalara səbəb olur. Kontaktla qarşılıqlı təsiri fizika elmi öyrənir. Dördüncü zonaya müdaxilə bir varlığın digərinin daxilinə keçməsi ilə mümkün olur ki, bu da daxilinə keçilən mövcudluğun mövcudluq aktını ləğv edir - cisim məhv olur.

İnikas: Təsir-əkstəsir əlaqəsinin bir forması da inikasdır. Mövcudolmada bir mövcudluğun başqa mövcudluğa təsiri nəticəsində ikinci mövcudluqda təsirin saxlanması inikas kimi meydana çıxır. İnikas əksetmənin xüsusi forması olub, formanın dəyişilməsi kimi meydana çıxır. Başqa sözlə, təsir edənin öz formasını bilavasitə təsirə məruz qalana verməsi ilə inikas yaranır. İnikas inikasedənin təbiətindən asılı olaraq ən müxtəlif formalarda meydana çıxır. Eyni sıxlıqlı şeylərin qarşılıqlı təsirində inikas baş vermir, yəni iz qalmır. İnikas sıxlığı fərqli cisimlərin biri-birinə təsirində sıxlığın fərqi qədər iz buraxmağı özündə təqdim edir. Qazlarda molekullar o qədər seyrək və bir-birindən uzaq məsafədədir ki, yəni sıxlığı azdır ki, sərbəst qaza edilən təzyiq qazda görünən inikas yaratmır, təzyiq qazın daxili səthinə yayılaraq itir. Qapalı qazlarda inikas ölçülülüyün dəyişilməsi ilə əks təsir yaradır: ya qazın həcmi, ya kütləsi, ya da temperaturu dəyişir. Buradan məlum qaz qanunları aşkarlanır. Mayelər keçid vəziyyətində olduğundan sıxlıqdan asılı olaraq müxtəlif

dərəcədə inikas edirlər. Məsələn, qatı mayelər müvəqqəti qalıcılığa malik inikas edirlər. Bundan fərqli olaraq duru mayelərdə həcmin dəyişilməsi kimi inikas yaranır. Bərk elastik maddələr təsir edən şeyin cizgilərini özündə əks etdirir. Plastik maddələr təzyiqi ən müxtəlif formalarda inikas edirlər, bu zaman inikasla təsirin forması arasında uyğunluq görünmür. Canlılarda inikas duyğuların və hərəkətsiz təsəvvürlərin yaddaşa həkk olunması kimi baş verir və obraz predmeti, predmet obrazı yaradır. Bir predmetin digərinə təsiri nə qədər hərtərəfli və dərindirsə, obrazlar da bir o qədər aydın olur.

Mövcudolmada təsir üç səviyyədə baş verir:

Birincisi, yalnız formanın təsiri. Yalnız formanın təsiri birincili mövcudluqlarda təsir-əkstəsir əlaqəsi yaradır. Forma ilə mahiyyətin birlikdə təsiri canlılarda təsir-cavab əlaqəsi yaradır.

İkincisi, forma ilə mahiyyətin vəhdətinin təsiri.

Üçüncüsü, yalnız mahiyyətin təsiri. Yalnız mahiyyətin təsiri subyektiv varlıqda münasibət yaradır.

Cisimlər bir-birinə kontakt səthinə bilavasitə təsir etdikdə, yəni məsafə sıfra yaxın olduqda inikas edir. Canlılarda inikas təsirlərin hiss yaratmaq imkanı olan məsafədən baş verir. Bununla da predmetlə onu inikas edən bir-birindən müəyyən məsafədə olur. Ruhda inikas bundan fərqli olaraq məsafəsizdir. Buna görə də, insan sonsuz uzaqlıqda olduğu predmetlər haqqında da inikas edə bilir. Lakin bu cür inikaslar qeyri-müəyyən olur. Mələklər və cinlər haqqındakı obrazlar da bu qəbildən olub qeyri-müəyyəndir. Eləcə də bizdən çox-çox qabaq yaşamış insanların obrazları bu cür qeyri-müəyyən obrazların yaranmasına səbəb olur. Ruhda inikas bundan fərqli olaraq dinamik obrazların yaranması ilə xarakterizə olunur.

Haşiyə: Epikur “Məktublar və fraqmentlər”

“Bərk cisimlərin görünüşünə uyğun, amma incəliyinə görə əşyalardan çox geri qalan, hissi təsəvvürlər üçün əlçatar olan iz,

əks, ümumi şəkil mövcuddur. Belə ki, mümkündür ki, belə izlər havada da əmələ gəlsin, dərinləşmə və incələşmənin əmələ gəlməsi üçün münbit şərait yarana bilər, elə də izlər əmələ gələ bilər ki, onlar bərk cisimlərdə olan müvafiq vəziyyəti və nizamı saxlasın, bu izləri biz "obrazlar" adlandırırıq. Obrazların keçilməz incəliyə malik olması hissi təsəvvürə əlçatar olan heç bir predmetlə ziddiyyət təşkil etmir. Bunun nəticəsində onlar keçilməz sürətə malikdir, belə ki, istənilən yol onlar üçün əlverişlidir. Onların izlərinə heç nə mane olmur, və ya bir az mane olur, və ya böyük və sonsuz sayda izə nəsə mane olur. Bu həmçinin ziddiyyət təşkil etmir ki, obrazların əmələ gəlməsi fikir sürətinə uyğun baş verir, belə ki, cismin səthinin izləri fasiləsizdir. Obrazların axını vəziyyəti və atomların nizamını uzun müddət özündə saxlayır, baxmayaraq ki, bəzən nizamsızlığa keçir."

Epikurun fikirləri cismin xarici görünüşünün daxili görünüş kimi refleksiyasını özündə təqdim edir. Yəni hər bir cismin xarici görünüşü ruhda refleksiya edərək daxili görünüş yaradır. Daxili görünüş şeyin olmadığı halda onun qabaqcadan inikası nəticəsində ruhda yaranmış izlərin yenidən canlandırılmasından ibarətdir. Bununla yanaşı hər bir varlığın həm də mahiyyəti ruhda refleksiya olunur. Mahiyyətin inikasından-cismin substansiyasını təşkil edən və təfəkkürdə obrazlar yaradan formadan fərqli olaraq, ideyalar kimi iz qoyan dalğaların inikasından - bilik yaranır. Bu bilik özündə predmetin həqiqətini təqdim edir. Mahiyyətin inikası obrazlardan fərqli olaraq həm də abstraksiya yolu ilə təfəkkürdə təkrar-təkrar inikas edərək yeni ideyalar yaratmaq qabiliyyətinə malikdir ki, bu da düşüncənin mahiyyətini təşkil edir.

Təsirin əks təsirə keçməsi inkarı yaradır. İnkar bir faktın digər faktı və ya bir aktın digər aktı elə istisnasıdır ki, istisna olunan faktda əks təsir sıfra bərabər olur. Başqa sözlə, əkstəsirin təzahür etmədiyi vəziyyət inkar kimi meydana çıxır.

İnkar iki cür təzahür edir:

a. Özündənkənar inkar: Belə inkar birmahiyyətli varlıqların təzahürüdür. Birmahiyyətli istənilən gerçəklik onunla hər hansı əlaqəsi olmayan özündənkənarda olan istənilən ixtiyari gerçəklikləri inkar edir. Cisim dünyasında başqasını inkar birləşmə, parçalanma; can dünyasında assimilyasiya, dissimilyasiya, adaptasiya, modifikasiya, mutasiya, generasiya, degenerasiya; ruh aləmində isə davranış, münasibət və s. kimi təzahür edir.

b. Özü-özündə inkar: Özündə iki və daha çox mahiyyətə malik obyektlər həm özündənkənar istənilən ixtiyari gerçəkliyi inkar edir, həm də özü-özündə bir mahiyyəti digər mahiyyətini inkar edir. Cisimlər birmahiyyətli olduğundan cisimlər özü-özünü inkar qanununa tabe olmur. İkili mahiyyətli canlılarda mahiyyətlərin bir-birini inkarı - özü-özünü inkar həyatı təzahür etdirir. Subyektiv varlıq üçlü mahiyyətdə olduğundan ruhun özü-özünü inkarı ikili təzahür edir və özü-özünü inkarı tərəqqi prosesini doğurur. Beləliklə, başqasını inkar hərəkət, özü-özünü inkar dəyişilmə, inkişaf və tərəqqi kimi təzahür edir.

İnkarı inkar qanunu ilə yanaşı kosmosda "hər bir inkar olunanın yenidən öz əvvəlki vəziyyətinə qayıtma meylində olması" qanunu mövcuddur. Biz bu prosesi aşağıdakı qanun formasında ifadə edə bilərik: **Hər bir əmələ gələn, dərhal yenidən əmələ gəldiyi başlanğıc vəziyyətə qayıtmağa - özü-özünü inkara - meyl edir.** Özü-özünü inkar dağılma, ölüm, tənəzzül, reaksiya kimi proseslərlə təzahür edir. İnkarı inkar və başlanğıc vəziyyətə qayıdış yaranışın tabe olduğu əsas səbəblər kimi çıxış edir.

DÜNYANIN TƏBİƏTƏ KEÇİDİ - GEOLOJİ ORQANİZM

Mümkünlüyün varlığının bir səviyyədən mövcudluq tələbinin tam ödənilməsinin başa çatmasından sonra ikincili mövcudluq tələbi meydana çıxır. Bu mənada birincili mövcudluqların yaranmasının başa çatmasından sonra həmin mövcudluqlarda mümkünlüyün varlığının mövcudluq

tələbinə təklif kimi ikincili mövcudluq şərtlərinin verilməsi ilə yeni varlıq sıralarının - canlıların yaranması kimi təzahür edir. Beləliklə, ikincili mövcudluqların əvvəli birincili mövcudluqların sonu Kosmosun dünya kimi tam formalaşmasının başa çatması, təbiət kimi yaranmasının, ikincili mövcudluqların mövcudolmasının başlanğıcını təşkil edir. Həyatın yer kürəsində meydana çıxması aşağıdakı iki ideyanı doğurur:

1. Yer kürəsindən başqa Kosmosda heç bir obyektdə birincili mövcudluğun yaranması - sabitləşmə, yəni mövcudolmanın şərtlərinin təkrarlanması baş vermədiyindən, Dünya yalnız yer kürəsində Təbiətə keçir.
2. Həyat yalnız yer kürəsində meydana çıxdığından, yalnız Dünya yer kürəsində sabitləşmişdir.

Beləliklə, bu səviyyədə cisim dünyası - təbiətə, canlıların mövcud olduğu Kosmosa keçir. Dünya kimi Kosmosdan Təbiət kimi Kosmosa keçid mövcudluqda mümkün varlığın yeni mövcudluq tələbinə verilən yeni şərtlərlə mümkün olur. Ən ümumi şəkildə bu şərtlərin məcmusu özündə dünyadan təbiətə keçidin şərtləri kimi mövcuddur. Cisim dünyasının sonu, canlılar aləminin başlanğıcını yeni termin yaratmadan Hegelin təbirincə, cisim dünyası ilə can dünyasının sərhədində meydana çıxan keçid vəziyyətini **geoloji orqanizm** kimi adlandırırıq. Hegel geoloji orqanizmi həyatın ən ümumi şəklinin obrazı - həyat prosesinin cəsədi kimi təyin edir. Geoloji orqanizm həyata bilavasitə təsir edən və mübadilə prosesində xaricdən orqanizmə daxil olan və çıxan qeyri-üzvi aləmin elementlərindən bir qisminin məcmusundan ibarətdir. Bura antik dövrün sofistlərinin həyatın başlanğıcı kimi qəbul etdiyi dörd ünsür - hava, su, torpaq və özündə müxtəlif təbii enerjilərin məcmusu kimi çıxış edən günəş enerjisi (obrazlı şəkildə alov) daxildir, hansı ki, həmin ünsürlərdən hər hansı birinin çatışmazlığında həyat mümkünsüzlük olur. Geoloji orqanizm Kosmosun dünya kimi mövcudluğunun tamamlanması ilə yaranmanın və formalaşmanın başa çatmasını özündə təqdim edir.

Geoloji orqanizm Kosmosun ona qədər olan xaotik vəziyyətindən canlı orqanizmləri təşkil edən və orqanizmlə mübadilədə iştirak edən maddələrin elə nizamlı xüsusi sabit nisbətində meydana çıxır ki, həyat yalnız o nisbətdə mövcud olur. Buradan da belə bir Kosmoloji ideya aşkarlanır: **Təbiət - həyatın mövcudluğu kimi Kosmos, geoloji orqanizmin sabit şərtlərinin biri-birinə nisbətinin məcmusu kimi zəruri şərtlərlə dəyişən zaman şərtlərinin vəhdətindən ibarətdir.**

Buradan da həyatın qeyri-üzvi aləmdən əmələgəlməsi istisna olunur. Çünki qeyri-üzvi aləm yalnız sabit zaman və məkan şərtlərinin məcmusundan ibarətdir. Geoloji orqanizmi təşkil edən elementlərin nisbəti qeyri-üzvi aləmdə aydınlaşan həqiqətin xüsusi forması kimi meydana çıxır, yəni həmin nisbətə daxil olan hər bir element ayrılıqda özlərində aydınlaşdırmadıqları özlərinin elə gizli həqiqətlərini, potensial şərtlərini həmin nisbətdə elə aydınlaşdırırlar ki, belə müştərək aydınlaşmadan geoloji orqanizmin həqiqəti meydana çıxır. Məsələn, havada oksigenin miqdarı digər qazlarla müqayisədə 20% təşkil etdikdə həyat mümkünlük olur. Həmin faizin bir neçə dəfə artması və ya bir neçə dəfə azalması həyatı məhv edir. İkincisi, geoloji orqanizm qeyri-üzvi aləmin elementlərinin xüsusi sabit tərkibinin nizamlı nisbətindən ibarətdir və bu tərkibin pozulması, yəni ora yad elementlərin daxil olması və ya həmin tərkibə daxil olan elementlərinin hər hansı birinin çıxması da həyatı məhv edir. Məsələn, havadan azot qazının tam çıxması ilə hava özündə geoloji orqanizmin həqiqətini aydınlaşdırmır, başqa sözlə həmin qazlar artıq hava kimi yox, bir neçə elementdən ibarət qaz qarışığını təşkil edirlər. Beləliklə, biz geoloji orqanizm dedikdə həyat üçün bazis təşkil edən qeyri-üzvi maddələrin elə tərkibini və həmin tərkibdə onların biri-birinə elə nisbətini nəzərdə tuturuq ki, yalnız həmin şərtlərin sabitliyində həyat təzahür edir.

Geoloji orqanizmi təşkil edən şərtlər özlərində iki qrupa bölünür: a. Geoloji orqanizmin zəruri şərtləri - mühit: Dünyanın əmələgəlməsinin sonunda məkanın sabit, mürəkkəb, zəruri şərtlərinin

məcmusu mühitdən ibarətdir. Mühit - elə məkani şərtlərdən - məkani ölçülükdən ibarətdir ki, bu şərtlər maddilikdə biri-biri ilə vəhdət təşkil etməyən həcmliliyin və kütlənin şərtlərinin məcmusu ilə müəyyən olunur. Yəni mühit qeyri-sabit, mürəkkəb dəyişən zəruri məkani şərtlərin məcmusudur. Məkani şərtlərin mürəkkəbliyi tərkib kimi meydana çıxır. Hansı ki, canlılar yalnız xüsusi tərkibli qeyri-üzvi aləmin dəyişən zəruri şərtlərinin məcmusunu özündə təqdim edir. Hansı ki, buna qədər qeyri-üzvi aləm sadə, sabit zəruri şərtlərin məcmusu kimi mövcud olur. Başqa sözlə, məkanın zəruri şərtlərinin mürəkkəbləşməsi və dəyişkən olması geoloji orqanizmin zəruri şərtlərini təşkil edir. Yəni, müəyyən tərkibli mürəkkəb məkanda kütlənin həcmdə yenidən paylaşdırılması imkanları özündə mühiti təqdim edir, hansı ki, bu imkanlarda qeyri-üzvi aləmdə maddələrin əmələgəlməsi baş verir. **b. Geoloji orqanizmin təsadüfi şərtləri - şərait:** Geoloji orqanizmin təsadüfi şərtlərinin məcmusu şəraitdən ibarətdir. Şərait mühitin dəyişən şərtlərlə vəhdətindən ibarətdir, hansı ki, kütlənin həcmə yenidən yerləşdirilməsi imkanlarında tangensial enerjinin yenidən ölçülənməsini, bununla da qeyri-üzvi aləmə xas olmayan tangensial enerji ilə radial enerji arasında qarşılıqlı mübadilənin imkanlarını təmin edir.

Buradan da qeyri-üzvi aləmin üzvi aləmə əsas təşkil etməsi başa çatır. Hansı ki, bu əsasda mümkünlüyün varlığının mövcudluq tələbində ona İlahi iradədən verilən dəyişən təsadüfi və zəruri şərtlərin mühit və şəraitin şərtlərinə verilməsi ilə həyat yaranır. Bəs qeyri-üzvi elementlərin belə tərkibi və nisbəti necə meydana gəlib: təsadüfi və ya zəruri? Təsadüf - təkrarlanmayan, zərurət təkrarlanandır. Geoloji orqanizmin milyon illər ərzində təkrarlanması ilə dünyada zərurətə görə şərtlər yaradır. Bu zəruri şərtlər ümumi həyatın həqiqətinin aydınlaşması zərurətindən ibarətdir, hansı ki, başqa heç bir halda bu həqiqət aydınlaşmır. Beləliklə, təbiətin əmələ gəlməsində dünyanın təbiətə keçidində aralıq bir mərhələnin olmasını qeyd etmək lazımdır, hansı ki, bu mərhələdəki Kosmosun mənası

geoloji orqanizmdən ibarət olur. Geoloji orqanizm cisim dünyasının canlı təbiətə keçid vəziyyəti almasıdır ki, bu dünyanın mövcudluq şərtlərinə İlahi İradədən yeni şərtlərin verilməsi ilə mümkün olur. Həqiqətin özünü aydınlaşdırmağa meyilli olması onun aydınlaşmasını zərurətə çevirir. Beləliklə, həyatın əsasını təşkil edən geoloji orqanizmin tərkibi və tərkibdəki nisbət ən ümumi qanunauyğunluğun - mütləq həqiqətin təzahür formalarından biri kimi təzahür edir. Buradan da, geoloji orqanizmin əsas xarakteristikası kimi mühitin və şəraitin sabitliyini qeyd edə bilərik. Yəni həyat yalnız dünyanın yaranmasının sonunda, maddələrin tərkibinin və nisbətinin sabitləşməsindən sonra, mühit və şəraitin meydana çıxmasından sonra yaranır. Buradan belə bir kosmoloji ideya aşkarlanır: Kosmosda tərkibin və nisbətin qeyri-sabit olduğu, mühitin və şəraitin olmadığı heç bir obyektdə həyatın mövcudolması mümkünsüzlükdür. Geoloji orqanizm bir tərəfdən də həyatın bütün təzahürlərinin şərtlərinin məcmusu ilə vəhdət təşkil edir. Belə ki, ümumi həyatda baş verən dəyişilmələr məcmusu olaraq geoloji orqanizmdə dəyişilmələrə və əksinə geoloji orqanizmdə baş verənlər həyatda baş verən dəyişilmələrə səbəb olur. Cisim dünyasının bir hissəsinin həyatla bu cür vəhdət təşkil etməsi geoloji orqanizmi yaradır. Geoloji orqanizm canlı orqanizmlərdən - avtonom dəyişilmə qabiliyyətlərinin olmamasına görə fərqlənir. Belə ki, geoloji orqanizm cismin əsas xarakteristikasına - ətalət prinsipinə tabe olur. Canlılıq geoloji orqanizmin üstqurumu kimi meydana çıxır, buna görə də həyatın kökləri geoloji orqanizmdə özünə yer tutur. Başqa sözlə, geoloji orqanizmin təzahür formalarından biri kimi canlılıq meydana çıxır. Canlılıq özündə həyata malik faktdır.

DİNAMİK ÖZÜNDƏNŞEY - CANLILAR

Geoloji orqanizmdə mümkünlüyün varlığının mövcudluq tələbində ona İlahi İradədən yeni mövcudluq şərtləri verilir. Əgər birincili şərtləri sabit şərtlər kimi təyin ediriksə, onda ikincili şərtləri yalnız dəyişən

şərtlər kimi qavramaq lazımdır. Beləliklə, geoloji orqanizmə İlahi İradədən dəyişən şərtlərin verilməsi ilə onda canlılıq - həyat yaranır. Buradan belə bir Kosmoloji ideya aşkarlanır: **Həyat - cisimlərdə İlahi iradə ilə onlara verilmiş şərtlərdən fərqli - dəyişən şərtlərdən ibarət yeni müstəqil başlanğıc kimi yaranmışdır.** Dəyişən şərtlər sabit şərtlərdən fərqli olaraq, özlərində mürəkkəb zaman və məkan şərtləri kimi meydana çıxır.

Sadə zaman şərti - başlanğıc zamandır, hansı ki, ondan keçmiş yoxdur, gələcək isə potensiya şəklində hələ təzahür etmir. Beləliklə, sadə zaman - xalis indidir, hansı ki, özündən əvvəl keçmiş yoxdur və gələcək gəlməmişdir. Buna görə də, sadə zamanı - xalis indini - keçmişlə şərtlənməmiş, gələcəyi şərtləndirməyən zaman kimi dərk etmək olar, hansı ki, zamanın ən kiçik vahidi kimi "an"dan ibarətdir. **Mürəkkəb zaman şərtləri** - sadə zamanın fikrən vaxta - keçmişə, indiyə və gələcəyə bölünməsi ilə özü-özündə müxtəlifləşməsi və müxtəlif vaxtların yenidən bir-biri ilə əlaqələnərək ikincili mürəkkəb zamanı təşkil etməsi ilə keçmişin indini, indinin gələcəyi şərtləndirməsindən ibarətdir. Biz mürəkkəb zamanı anların sıralanması kimi təyin edirik. Beləliklə, canlıların dəyişən şərtləri - biri-birini şərtləndirən zamanın fikrən bölünmüş üç hissəsinin vəhdətindən ibarət olur, hansı ki, hər bir zaman parçası vaxt kimi canlının özünəxas formada təzahürünü şərtləndirir. Nəticədə, canlılar zamana görə özü-özü ilə fərqlilik təşkil edən mövcudluqlar kimi mövcud olur.

Sadə məkan "burada" kimi məkandır. Başqa sözlə, sadə məkan - ayrılıqda götürülmüş mövcudluğun məkanda zəbt etdiyi sabit yerdən ibarətdir. Bundan fərqli olaraq, **mürəkkəb məkan** - ayrılıqda götürülmüş mövcudluğun yerdəyişməsinin, yəni məkanda müxtəlif vaxtlarda özü-özündə zəbt etdiyi müxtəlif yerlərin məcmusundan ibarətdir, hansı ki, mürəkkəb zamanla şərtlənmiş canlılar "burada"ların - keçmiş burada, indiki burada və gələcək burada - şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, mürəkkəb məkan və zaman şərtləri eyni bir mövcudluğun özü-özündə keçmişdə, indidə və gələcəkdə burada prinsipi ilə mövcud olmasını təmin edir, hansı ki, ayrı-ayrı vaxtlarda olan eyni mövcudluq fərqli məkan ölçülüyündə təzahür edir. Biz bu şərtlərin məcmusunu **bioloji hərəkətlilik** kimi qavrayırıq, hansı ki, özü-özündə böyümə, artma və çoxalma kimi üç müxtəlif bioloji hərəkətin vəhdətindən ibarətdir. Bioloji hərəkətlilik fiziki hərəkətlilikdən xarici hərəkətlə - məkanda hərəkətlə, daxili hərəkətin - zamanda hərəkətin vəhdət təşkil etməsi ilə fərqlənir, hansı ki, birinci daxili hərəkətliliklə vəhdət təşkil etmir. Bioloji hərəkətliliyə malik mövcud varlıq faktiki canlılar kimi qavranılır. Canlılıq buna görə də, ən ümumi elə-belə hərəkətlilikdən ibarətdir. Məhz buna görə də, biz canlıları "dinamik özündənşey" adlandırırıq. Özündənşeyin başlıca əlaməti sürəklilikdir. Sürəklilik özündə şeyin özündən itələdiyi fərqlilik kimi mövcudluqdur, hansı ki, sürəkli olaraq formanın dəyişilmələri kimi təzahür edir. Buna görə də canlılar cisimlərdən - özündəşeyin olmaması ilə fərqlənir, hansı ki, xalis özündən itələnmə kimi "özündənşey" olur. Sürəklilik əmələgəlmə prosesinin davam etməsini, yəni başa çatmamış əmələgəlməni özündə təqdim edir. Beləliklə, cisimlərdə ani, başaçatmış, təkrarlanan əmələgəlmədən fərqli olaraq, canlılarda sürəkli, başa çatmamış və təkrarlanmayan əmələgəlmə təzahür edir. **"Dinamik özündənşey"** - məkandan bir məqamlı çox parametrli, zamandan çox məqamlı çox parametrli asılı olan, faktı özündə, aktı özündən əmələgələndə olan - buna görə də özündən olanla əbədiyyətə cəhd edən, xarici və daxili təsirlərə proseslərlə cavab verən, varlığın xüsusi sırasını təşkil edən, həqiqətin aşkarlandığı vasitədir. Dinamik özündənşey bir tərəfdən dinamika nəticəsində xaosa, digər tərəfdən özündə olan statik özündəşeyin keyfiyyətinə uyğun nizama meyl edir. Beləliklə, canlılar xaosla - dağıdıcılıqla, nizamın - quruculuğun növbələşməsi ilə əmələgəlmə prosesinin davamlılığı kimi təzahür edir.

Birincili mövcudluqların əsasında, onlardan dolayısı ilə təzahür edən mövcudluqları biz ikincili mövcudluqlar kimi təyin edirik. Əsasında birincili mövcudluqlar olduğundan belə mövcudluqlar birincili məkanla şərtlənmirlər, buna görə də, onların birincili məkan şərtlərinə uyğun zərurətə görə şərtləri, yəni sabit ölçülükləri yoxdur. İkincili məkanla şərtləndiklərindən - ikincili məkan təsadüfə görə şərtlərlə vəhdət təşkil etdiyindən, buna görə də dəyişən ölçülüyə malik olduğundan canlıların məkani ölçülüyü dəyişkən ölçülükdən ibarətdir. Dəyişkən ölçülüyü biz daxili və xarici hərəkətlilik, yəni inkişaf kimi anlayırıq. Buradan da inkişafı canlılığın əsas predikatı kimi müəyyən etmək olar. Məkanla dəyişkən şərtlərlə şərtləndiyindən canlıların təsadüfə görə şərtlənməsi bərabər əsasda canlılığın mahiyyətini təşkil edir. Buradan da, canlılığın mahiyyəti konkret fərddən, amma bilavasitə onun özündən yox, fərdin zamanda abstrakt mövcudluğundan aşkarlamaq olur. Zamanla şərtlənməyə görə canlıların zamandan asılılıq qanunları meydana çıxır. Canlılar məkanla birincili şərtlənmədiyindən məkana xas əbədilikdən məhrum olur, ona görə də canlılar keçici - fani varlıqlar kimi mövcud olur. Canlıların zəruri məkan şərtləri olmadığından onların faktiki varlığında formal varlıqları yoxdur. Cisimlərdən fərqli olaraq zamanla çox parametrli zəruri şərtlənməyə görə faktiki canlı özü-özünə münasibətdə fərqlilik kimi mövcud olur, buradan da canlılar bilavasitəlikdən məhrum olur. Canlının mahiyyəti - formal varlığı - onun faktından yox, zamanda çoxluq kimi sıralanmasından, yəni faktiki canlının ümumi çoxluğundan - növündən aşkarlamaq olur. **Növ** - canlıların zamanla şərtlənməsinə uyğun keçmişi indisini, indisi gələcəyini şərtlənməsindən ibarətdir, hansı ki, növün mahiyyəti faktiki canlının mənsub olduğu çoxluğun keçmişdə, indidə və gələcəkdə mövcud olacaq fərdləri üçün bir və eynidir. Faktiki canlı keçici olduğundan onun yalnız formal canlılığı, növü, abstrakt varlıq kimi faktiki canlıdan kənar mahiyyət kimi mövcud olur. Növ - faktiki canlının özündənkənar abstrakt mövcud olan

ideyasıdır, hansı ki, hər bir faktiki canlı keçici olaraq bu ideyanı keçmiş faktiki canlıdan alır, özündə indidə saxlayır və gələcək potensial faktiki canlıya ötürür. Bu ötürülən ideya özündə irsi məlumatlardan ibarət olur. Beləliklə, faktiki canlıya nisbətdə irsiyyət əsasında mövcud olan növ formal canlılıq kimi aşkarlanır.

CİSİMLƏRDƏN CANLILARIN AYRILMASI

Yaranma ardıcıllığına və qaydalarına görə cisimlər canlılardan həm özü-özündə, həm də özündənkənarda bir-birindən ayrılır. Cisimlərin canlılardan ayrılması özündə Dünyanın Təbiətdən ayrılması kimi qavranılır. Cisimlərin canlılardan ayrılması onların idrak üsulunun da bir-birindən fərqlənməsinə səbəb olur. Bu cür ayrılma nəticəsində biz cisimləri canlılardan fərqli mövcudluqlar kimi qavrayırıq. Cisimlərlə canlılar həm faktına - mövcudluğa, həm də aktuallaşmaya - mövcudolmaya görə bir-birindən fərqlənir.

A. Mövcudluğa görə fərqlər: Kosmosu təşkil edən mövcudluqların başlanğıcı kimi "özündəşey"in əsas xarakteristikası özü-özünə münasibətdir.

Haşiyə: Hegel "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Varlıq sferasında özü ilə münasibət eynilik formasıdır, özü-özündə refleksiyadır; sonuncu burada varlığın bilavasitəliyinin yerini tutur: hər ikisi eyni mahiyyətdir və özü ilə münasibətin abstraksiyasıdır. Mütləq özü ilə eynilikdir."*

Hegelin fikirlərində "özü ilə münasibət" ifadəsi hansı mənanı özündə ifadə edir? Yuxarıda qeyd etdik ki, mövcudluqlar bir-biri ilə xarici vəhdətdə mövcud olur. Xarici vəhdət - təsadüfi şərtlərin məcmusundan ibarətdir. Xarici vəhdətdə - təsadüfi şərtlər əldə etməklə mövcudolmadan - mövcudluqların biri-birinə münasibəti meydana çıxır. Məsələn, tutaq ki, kitab oxuyan oxucunu götürək. Təsadüfi oxucunun təsadüfən oxuduğu kitabla vəhdətindən oxucu özü-özünə, kitab da öz növbəsində özü-özünə

münasibətdə eynilik kimi çıxış edir. Amma kitabın oxucuya münasibəti fərqlilik kimi aşkarlanır. Əgər eyni bir kitabı təsadüfən iki oxucu oxuyursa, onda kitabın özü-özünə münasibəti əvvəlki kimi eynilik, oxucuların hər ikisinə münasibəti fərqlilik, oxucuların bir-birinə münasibəti oxşarlıq, özlərinə münasibəti eynilik kimi aşkarlanır.

Əgər hər hansı bir mövcudluq "özü ilə münasibətdən" təyin olunursa, bu o deməkdir ki, həmin mövcudluq fikrən digər mövcudluqlarla vəhdətdən, yəni təsadüfi şərtlərdən kənarda götürülmüş mövcudluqdur. Belə mövcudluq təsadüfi şərtlərə malik olmadığından və yalnız zərurətə görə şərtlərdə mövcud olduğundan, mövcudluğunun sürəkliliyi - mövcudolması istisnadır. Buradan da, özü-özünə münasibəti mütləq fakt kimi, yəni mövcud olmayan mövcudluq kimi - mücərrəd mövcudluq kimi anlamaq lazım gəlir. Özü-özünə münasibət eyni anda yalnız bir yerdə, başqa sözlə "indi və burada" prinsipi kimi bilavasitəliyi özündə ifadə edir. Buradan da deyə bilərik ki, formal cisim faktiki cismin bilavasitəliyindən ibarətdir. Canlılar ikincili mövcudluq kimi faktiki cisimlərdə yarandığından özlərinə xas formal varlıqları, yəni bilavasitəlikləri yoxdur, buna görə də cisimlərdən bilavasitəliklə aşkarlanırlar. Özündəşey vəhdətdənkənarda götürülmüş yalnız abstraksiya ilə aşkarlanan reallıqdır. Lakin konkretlikdə bütün varlıqlar həm də yalnız vəhdətdə mövcud olduqlarından, mövcudolmağın digər bir xarakteristikası başqasına münasibət kimi təzahür edir. Beləliklə, mövcudolmaq özü-özünə və başqasına münasibətin məcmusunu özündə təqdim edir. Varlığın həqiqəti vəhdətdə olduğu başqasına münasibətdə aydınlaşdığından və aşkarlandığından, başqasına münasibət özünə münasibətin inkarı kimi meydana çıxdığından, bütün varlıqlar yalnız vəhdətdə mövcud olduqlarından, özünə münasibət olmadan başqasına münasibət meydana çıxmır, başqa sözlə, mümkünlük gerçəkləşmir, yəni mümkün olanlar mövcud olmur. Özünə münasibət başqasına münasibətə prioritet təşkil edir və cisim buna görə də özünə münasibətlə təyin olunan olur. Bunun əksinə canlıların özünə

münasibətindən onların mahiyyətini aşkarlamaq mümkün olmadığından, dolayısı ilə onları fikrən faktiki cisimsiz götürülən mahiyyətindən aşkarlamaq olur ki, biz faktiki cisimsiz canlılığı formal canlı - növ kimi qavrayırıq. Hər hansı canlının növü faktiki canlıya münasibətdə formal canlıdır, hansı ki, onun özündəşeyi kimi yalnız xalis zəkada mövcuddur.

Özünə münasibət istənilən varlığın əsas xarakteristikasıdır, hansı ki, bunsuz başqasına münasibəti aşkarlamaq mümkün deyil. Hər bir mövcudluq fakt və aktın məcmusu kimi təzahür edir. Fakt məkanda sıralanmanı, akt zamanda sıralanmanı özündə təqdim edir. Buradan da, mövcudluğu məkan-zaman şərtində paralel sıralanma kimi təyin edə bilərik. **Belə ikili sıralanmada mövcudluq faktının aktına münasibətinin iki fərqli formasını aşkarlamaq olar:**

A. Təkrarlanma: Təkrarlanma zamanın gedişində - təsadüfə görə şərtlərin dəyişilməsində məkan şərtlərinin sabit qalmasını özündə ifadə edir. Təkrarlanma aktuallaşmada özü-özü ilə eynilik təşkil etməklə mümkün olur. Bu özündəşeyin vəziyyətidir. Özündəşey məkan və zaman şərtlərindən asılı olmayaraq məkanın istənilən yerində, zamanın istənilən məqamında özü-özü ilə eynilik təşkil edir, yəni mövcudluq faktı mövcudluq aktında olduğu kimi təkrarlanır. Təkrarlanmanın təzahür forması daimilik və ya sabitlikdir. Daimilik əbədiliyin, mütləq həqiqətin təzahürü kimi, onun varlıqda nisbi aydınlaşmasını özündə təqdim edir. Başqa sözlə, daimilik əbədiliyin təzahür forması kimi meydana çıxır. Daimilik əbədiliklə buna görə də eynilik təşkil etmir və heç bir daimilik əbədi deyildir. Daimilik mahiyyətin əsas xarakteristikalarındandır.

B. Dəyişilmə: Dəyişilmə - zamanın gedişindən asılı olaraq təsadüfi şərtlərin dəyişilməsinə paralel ondan asılı olaraq məkanla şərtlərin dəyişilməsi, yeniləşməsi və ya hərəkətlənməsini özündə ifadə edir. Canlıların özündəşeyi özündən aşkarlanmadığından canlılar özü-özünü təkrarlamadan mövcud olurlar, yəni zamandan və məkandan asılı olaraq dəyişilirlər. Zamandan asılı dəyişilmə - böyümə, məkandan asılı

dəyişilmə - modifikasiya kimi təzahür edir. Biz bunu zəruri şərtlərin təsadüfi şərtlərlə ikincili şərtlənməsi kimi təyin edirik.

Haşiyə: A.N.Uaythed "Fəlsəfə üzrə seçilmiş əsərləri"

> *"Bütün şeylər dəyişilir" frazasının əhəmiyyətinin izahı metafizikanın başlıca vəzifəsidir. Hegel "Fəlsəfi elmlərin ensiklopediyası" - Varlıq yalnız xalis eynilikdir və özü-özündə görünüşdür, çünki o özünə münasibətdə inkardır, beləliklə də özü-özünü özündən itələmədir; o, nəticədə əhəmiyyətli dərəcədə özündə müəyyən fərqlilik saxlayır."*

Dəyişilmə aktuallaşmada özü-özü ilə fərqlilik təşkil etməklə təzahür edir. Bəs bütün şeylərdə dəyişən nədir? Əgər şeylərin mahiyyəti dəyişirsə, onda heç bir şey özündəşey olmur, çünki başqa şeyə çevrilir. Buradan da bütün şeylərin dəyişilməsinin mahiyyətə yox, formaya aid olduğunu deyə bilərik. Beləliklə, cisimlər yalnız formaca, canlılar həm formaca, həm də mahiyyətcə dəyişilir. Elə-belə dəyişilmənin əksliyi dəyişilməmə kimi çıxış edir. Deməli, bütün şeylərin dəyişilməsinin əksində bütün şeylərin dəyişilməyən tərəfi vardır. Biz şeylərin dəyişilən tərəfini özlərinə münasibətdə özü-özü ilə fərqlilik, dəyişilməyən tərəfini özünə münasibətdə özü-özü ilə eynilik kimi təyin edirik. Bütün cisimlər özü-özü ilə münasibətdə eynilik, bütün canlılar özü-özü ilə münasibətdə - həm də mahiyyəti dəyişildiyindən fərqlilik kimi mövcud olur. Canlıların özü-özü ilə fərqliliyi - zərurətə görə şərtlərin dəyişilməsi onların artmasını özündə ifadə edir. Cisimlər artmır. Əgər hər bir şey forma ilə mahiyyətin vəhdətindən ibarətdirsə, onda şeyin özü-özü ilə eyniliyi ilə özü-özü ilə fərqliliyinin vəhdət təşkil etdiyini qəbul etmək lazımdır. Hansı ki, məhz bu vəhdətdən şeyin həqiqəti qavranılır. Cisimlər özü-özü ilə eyniliklə fərqliliyin vəhdətindən, canlılar yalnız özü-özü ilə fərqlilikdə mövcuddur. Yuxarıda fərqliliyin yalnız vəhdətdən, yəni mövcudolmadan meydana çıxdığını qeyd etmişdik. Başqa sözlə, formal cisim faktiki cismə o halda keçir ki, o başqa faktiki cisimlərlə birlikdə təzahür etsin. Təzahür xarici görüntüden meydana çıxır. Beləliklə, faktiki cisim formal

cisimdən xarici görüntü ilə fərqlənir. Yəni formal cisim görüntüsüz, faktiki cisim xarici görüntüsü olan cisimdir. Əgər formal cismi özündəşey kimi özü-özü ilə eynilik kimi təyin ediriksə, onda faktiki cisim görüntüsü olduğundan özünün formal cisimliyinə münasibətdə fərqlilik kimi çıxış edir. Bu fərq xarici görüntüden ibarət olur, hansı ki, Hegel bunu "özündə müəyyən fərqlilik saxladığına görə. özü-özündən itələnmə" adlandırır. Şey öz fərqliliyini özü-özündə hara və nə üçün itələyir? İdrak prosesində faktiki şeyin özündən itələdiyi fərqlilik başqa şeylərə və təfəkkürə doğru itələnir, nəticədə təfəkkürə itələnən fərqlilik şeyin obrazını, başqa şeylərə itələnən fərqlilik həmin şeyin başqa şeydən fərqliliyi kimi qavranılır. Faktiki şeyin özündən itələdiyi fərqliliyi təfəkkürdə ondan ayırmaqla cismin özündən itələmədiyi və özündə saxladığı eyniliyi - formal şey özü-özü ilə eynilik alınır ki, bu da şeyin həqiqətindən - mövcudluğun zəruri şərtlərinin məcmusundan ibarət olur. Canlılar yalnız özü-özü ilə fərqlilik münasibətində olduğundan özündən fərqliliyini itələməsi ölüm kimi meydana çıxır. Hansı ki, fərqlilik canlılıqdan ayrıldıqdan sonra canlıda özündəşey saxlanmadığından cismə çevrilir. Cismin mövcudluq üsulu canlılığın əksliyi kimi ölülükdür. Ölülük ölümsüzlük kimi meydana çıxır, hansı ki, biz bunu əbədilik kimi qavrayırıq.

Özü-özü ilə fərqlilik təşkil etmənin iki formasını ayırd etmək olar:

1. Məkan şərtlərinin dəyişilməsinə görə özü-özü ilə fərqlilik təşkil etmək: Belə fərqlilik sabit mahiyyətdə yalnız formanın fərqliliyi kimi təzahür edir. Cisim dünyasında müşahidə edilən dəyişilmələr məhz bu cür xarici dəyişilmələrdən - həndəsi formanın dəyişilmələrindən ibarətdir.

2. Zaman şərtlərinin dəyişilməsinə görə faktın və aktın eyni zamanda özü-özü ilə fərqlilik təşkil etməsi: Bu cür dəyişilmə canlı aləm üçün xarakterikdir. Məsələn, toxum, meyvə və ağac eyni bir bitki faktının üç müxtəlif forma və mahiyyətdə meydana çıxmasının nəticəsində yaranır. Uşaqlıq, gənclik, qocalıq da özündə eyni bir fərdi faktın üç

müxtəlif forma və mahiyyətdə meydana çıxması ilə təzahür edir. Bu sonuncu dəyişilməni - faktın mahiyyət və formasının zamandan asılı olaraq özü-özü ilə fərqlilik təşkil etməsini biz inkişaf adlandırırıq. İnkişaf özü də bir çox formalarda meydana çıxır:

a. Metamorfoza: Bu cür dəyişilmə eyni bir faktın özü-özü ilə fərqlilik təşkil edən müxtəlif mahiyyətdə və formada meydana çıxmasını özündə təqdim edir. Başqa sözlə, özü-özü ilə eyniliyin inkar olunduğu özü-özü ilə fərqliliyi biz metamorfoza kimi qavrayırıq. Məsələn, kəpənək metamorfoza ilə təşəkkül tapır. Belə ki, kəpənək üç müxtəlif yaşam formasında-faktında təzahür edir: sürfə, tırtıl, kəpənək.

b. Törəmə (generation): Bu cür dəyişilmədə bir fakt özündən fərqlənən, amma özü-özü ilə eynilik təşkil edən müstəqil akta malik öz mövcudluğuna paralel yeni mövcudluq yaradır. Məsələn, sağlam bədəndə bədxassəli şişlərin yaranması bu cür bədəndən fərqlilik təşkil edən özü-özü ilə eynilik kimi meydana çıxır.

v. Keçid: Bir faktın özü-özündən fərqli fakta və akta dəyişilməsi - bunu əməlgəlmə kimi də adlandırmaq olar. Maddələrin birləşməsi nəticəsində keçid dəyişilmə forması meydana çıxır. Həyatın ölümlə əvəz olunması da özündə keçidi təqdim edir, belə ki, ölüm nəticəsində canlı cismə keçir.

İnkişaf canlılığın proseslərinin məcmusunu özündə ifadə edir. İnkişaf bir-biri ilə zəncir təşkil edən ən müxtəlif proseslərin məcmusu kimi meydana çıxır.

q. Təşəkkül: Dəyişilmənin nəticəsi kimi təşəkkül meydana çıxır. Təşəkkül yeni forma və məzmun əldə etməni özündə ifadə edir. Təşəkkülün kamil formasını doğulma kimi təyin etmək olar. Doğulma yalnız canlılara xas olub, sadə dəyişilmələrin məcmusundan - mürəkkəb dəyişilmədən ibarətdir. Doğulma ölümdən fərqli olaraq özündə fərqliliyini saxlamaqla özündən fərqliliyi itələmədir. Belə ki, canlılarda metamorfoza, törəmə və keçid prosesi kimi dəyişilmələrin eyni anda eyni

yerdə vəhdətdə baş verməsi nəticəsində bir canlıdan başqa bir canlı meydana çıxır, hansı ki, biz bu prosesi canlıların çoxalması kimi qavrayırıq. Məsələn, cinsi hüceyrələr mayalanaraq ziqota əmələ gətirir. Cinsi hüceyrələrin ziqotaya keçidi metamorfozadır. Ziqota sürətlə törəmə prosesinə daxil olaraq dəyişilir və artır, sonra bir formadan başqa formaya keçməklə artmış bioloji kütlə orqanizmə çevrilir. Orqanizm tam formalaşdıqda müstəqil həyat qabiliyyəti əldə edir və anadan doğulur. Bəzi canlılarda bu canlının bilavasitə daxilində, bəzi canlılarda prosesin bir hissəsi daxildə, qalan hissəsi xaricdə gedir. Belə ki, bütün canlılarda metamorfoza daxildə gedir, amma törəmə və keçid məməlilərdə daxildə, quşlarda və balıqlarda xaricdə davam edir.

Cisimlər və canlılar mövcudolma üsuluna görə də bir-biri ilə əlaqədədir.

B. Mövcudolmaya görə fərqlər: Yuxarıda mövcudolmanı təsir-əkstəsir şərtlərinin məcmusu kimi təyin etmişdik. Varlıqlar aləmində təsirlə əks təsir iki cür vəhdət təşkil edir:

a. Təsirdən bilavasitə asılı olaraq - eyni məkan və zamanla şərtlənmiş əks təsir əlaqəsi: Belə təsir-əkstəsir əlaqəsi fiziki hadisələri meydana çıxarır və əks təsir təsirdən funksional asılı olur. Təsirin məkan-zaman şərtlərinin dəyişilməsinə uyğun əks təsir də müvafiq qaydada dəyişir. Biz bunu mühitdə entropiya kimi təyin edirik. Entropiya təsirlə əks təsirin asılılıq şərtlərinin məcmusundan ibarətdir.

b. Təsirlə fərqli zaman-məkanla şərtlənmiş təsir-əkstəsir əlaqəsi: Belə əlaqədə təsirin məkan və zaman şərtlərinin dəyişilməsindən asılı olmayaraq, əks təsir azad şəkildə meydana çıxır. Başqa sözlə, əks təsir təsirlə funksional asılılıqda olmur. Belə ki, təsir-əkstəsir əlaqəsindən proseslər meydana çıxır. İki cür proses aşkarlamaq olar:

a. Kimyəvi proseslər: Belə proseslər yalnız məkan şərtlərinin dəyişilməsindən asılı olaraq əks təsirin dəyişilməsi ilə meydana çıxır. Cisimlərin tabe olduğu proseslər belə təsir-əkstəsir əlaqəsindən ibarətdir.

b. Bioloji proseslər: Belə proseslər yalnız zaman şərtlərinin dəyişilməsində təsirlə əks təsirin əlaqəsindən meydana çıxır. Bioloji proseslərin bir zəncir təşkil etməsi canlılığı - bioloji hərəkətliliyi təzahür etdirir.

Canlılar aləmində canlılar zamanla çoxparametrli şərtləndiyindən və xarici təsirə həm də daxili cavab verildiyindən əks təsir sürəklilik əldə edir. Sürəklilik əldə edən əks təsiri biz cavab kimi qavrayırıq. Cavab - təsir kəsildikdən sonra əks təsirin müəyyən zaman intervalında - təsadüfə görə şərtlərdən asılı olaraq meydana çıxır, hansı ki, bioloji proseslər zənciri formasında təzahür edir. Beləliklə, bioloji proseslərin məcmusundan canlılıq - həyat meydana çıxır. Buradan belə bir Kosmoloji ideya aşkarlanır: Kosmos təbiət kimi kimyəvi proseslərlə **bioloji proseslərin şərtlərinin məcmusundan ibarətdir.**

Haşiyə: A.N.Uaythed "Fəlsəfə üzrə seçilmiş əsərlər"

> *"Orqanizm" anlayışı özündə ikili olaraq "proses anlayışı" ilə əlaqəlidir. Aktual şeylərin birliyi orqanizmdir, amma bu orqanizm statik deyil. Yeninin yaranması prosesində o, həmişə başa çatmamışdır. Buradan kainatın aktual şeylərinin genişlənməsi "prosesin" birinci əhəmiyyətidir; kainatın özü isə özünün istənilən genişlənməsində "orqanizmin" birinci əhəmiyyətidir. Bu mənada istənilən orqanizm bağlayıcı həlqədir (nexus)."*

Biz cisimlərdə proseslərin iştirakı ilə meydana çıxan ikincili mövcudluğu - canlıların faktiki mövcudluğunu - orqanizm kimi təyin edirik. Dinamik özündənşeyin özü-özündə nizamlanması orqanizm kimi təzahür edir. Orqanizm - həyatla ölümün əksliyi və vəhdətini özündə təqdim edir. Canlı sistemlər mürəkkəbləşə-mürəkkəbləşə ən mürəkkəb quruluşların - orqanizmlərin yaranması ilə nəticələnir. Orqanizmlər canlıların ali sırasını təşkil edir. Orqanizm ətrafla qarşılıqlı mübadilə prosesində olan, müstəqil funksiyalaşan, zamanla xüsusi asılılıqda olan, özündə həyatilik xarakteristikasına malik dinamik özündənşey kimi meydana çıxır. Buradan da, orqanizm, A.N.Uaythedin qeyd etdiyi kimi,

özündə ikili proseslərin şərtlərinin məcmusu kimi təyin olunduğundan özündə hər iki prosesin anlayışlarını daşıyır. Bu anlayışlardan biri kimyəvi proses kimi cismə xas olub, özündə orqanizmdə gedən maddələr mübadiləsini, ikincisi bioloji proses olub, özündə maddələr mübadiləsi nəticəsindən hasil olan enerjinin bioloji hərəkətliliyini ifadə edir. Beləliklə, orqanizm - bioloji hərəkətliliyin şərtləri ilə kimyəvi proseslərin şərtlərinin məcmusundan ibarət olur. Proseslər başa çatma formasından asılı olaraq da özü-özlüyündə müxtəlif formalarda meydana çıxır. Məsələn, birləşmə, parçalanma və s.

Prosesin əsas xarakteristikası qeyri-müəyyənlikdir. Başqa sözlə, yaranmada və ya əmələgəlmədə bilavasitə mövcudluq meydana çıxmadığından predikatlar potensial olaraq mövcud olur. Predikatın özü-özünə mövcudluğu, yəni obyektsiz predikatı biz qeyri-müəyyənlik kimi təyin edirik. Məsələn, ”qırmızı” anlayışını götürək.

Burada qırmızı sözünün özündə nəyi ifadə etməsi qeyri-müəyyəndir. Amma “qırmızı alma” ifadəsi konkret mövcudluq kimi, almanın predikatı kimi meydana çıxır, nəticədə qırmızı alma özündə müəyyənliyi ifadə edir. Yalnız əmələgəlmə və ya yaranma başa çatdıqda konkret mövcudluq meydana çıxdıqda predikatlar mövcudluqla birlikdə obyektiv reallığı təqdim edir. Prosesin başa çatması qeyri-müəyyənliyin müəyyənləşməsi, mövcudluğun reallığa keçməsini - “satisifikasiya”nı özündə təqdim edir.

Haşiyə: A.N.Uaythed “Fəlsəfə üzrə seçilmiş əsərlər”

> *“Satisifikasiya” sadəcə istənilən qeyri-müəyyənliyin itməsinin kulminasiya nöqtəsidir: belə ki, “satisifikasiyaya” çatmış bütün növ hiss edilənlərə və kainatda aktual mövcudluqların mahiyyətlərinə münasibətdə qəti şəkildə “hə” və ya “yox” təcəssüm olunur. Prosesin iki müxtəlif forması - makroskopik və mikroskopik forması vardır. Makroskopik proses - bu əldə edilmiş aktuallıqdan əldə edilmənin aktuallığına keçiddir; mikroskopik proses sadəcə real şəraitin müəyyən aktuallığa çevrilməsidir. Birinci proses “ak-*

tualdan" sadəcə "reala" keçidə təsir edir; sonuncu proses realdan aktuala çıxmaya təsir edir."

A.N.Uaythedin proses haqqındakı fikirlərindən görünür ki, proses təsadüfə görə şərtlərin dəyişilməsinin başa çatması ilə onların zərurətə görə şərtlərlə vəhdət təşkil etməsi ilə konkret nəticəyə - qeyri-müəyyənliyin müəyyənliklə əvəz olunmasına gətirib çıxarır, hansı ki, müəyyənlik xarici obyektiv reallığın əsas xarakteristikası kimi çıxış edir. Buradan da, satisifikasiyanı mövcudluğun mövcudolmaya başlaması kimi təyin etmək olar, hansı ki, məhz buna görə mövcud varlıq müəyyən və təyin olunan olur. Yəni, obyektiv reallıqdan konkret həqiqət təzahür edir və gerçəklikdən qavranılır.

Beləliklə, proses inkarı inkarla - özü-özü ilə fərqlənmə ilə başlayır, özünü təsdiqlə, özü-özü ilə eynilik təşkil etməklə başa çatır. **Makroskopik proseslər** bir mövcudluğun başqa mövcudluğa, yəni bir sıradan başqa sıraya keçidini özündə ifadə etdiyindən daha çox mümkünlüyün varlığının mövcudluqda mövcudluq tələbi kimi metafizik təbiətlidir. Beləliklə, makroskopik proseslərdə zərurətə görə şərtlər - zəruri şərtlər başqa zəruri şərtlərlə əvəzlənir. **Mikroskopik proseslər** eyni sırada varlığın bir görünüşdən başqasına keçidini təmin edir. Bu cür keçid təsadüfə görə şərtlərin dəyişilməsi ilə baş verdiyindən zəruri şərtlər dəyişilmir. Ona görə də mikroskopik proseslər forma dəyişilməsinə səbəb olan heçlik kimi proseslərdir. Buradan da, canın cisimdə yaranmasını, yəni varlıq sırasının yaranmasını makroskopik proseslərin məcmusu kimi, canlının təsadüfi şərtlərdən asılı meydana çıxan artmasını və böyüməsini mikroskopik proseslərin məcmusu kimi təyin edə bilərik.

Varlıq sıralarında makroskopik proseslərlə mikroskopik proseslərin vəhdətindən üç ən ümumi vəziyyət meydana çıxır: dəyişilmələr, inkişaf və tərəqqi. Burada dəyişilmə - cisim dünyasında, inkişaf - can dünyasında, tərəqqi - ruhi sferada baş verən proseslərin məcmusunu özündə təqdim edir.

Mövcud varlığın dəyişilmələrinin aşağıdakı formalarını ayırd etmək olar:

1. Öz yerində təzahürün dəyişilməsi: Mövcud varlığın ayrıca bir faktına olan xüsusi təsirlərə əkstəsirdən baş verən dəyişilmələr həmin faktda həqiqətin təzahürlərinin dəyişilməsi kimi meydana çıxır, yəni fakt aktuallaşmada özü-özü ilə fərqlilik nümayiş etdirir, lakin faktında özü-özü ilə eyniliyini saxlayır. Xarici təsir nəticəsində cismin öz sərhədinə və ondan kənara göndərdiyi şüaların kəskin entropiyaya məruz qalması təzahürlərin dəyişilməsi kimi meydana çıxır. Bu zaman cismin mahiyyəti sabit qalır, amma mahiyyət haqqında şüalanan məlumatın həcmi dəyişir. Təzahür dəyişilmələri - eyni sıradakı eyni gerçəklik faktında baş verən dəyişilmələri özündə təqdim edir. Məsələn: yüksək hərarətin təsirindən cismin aqreqat halı və buna uyğun xarici forması dəyişir. Və ya yüksək qızmış cisimlərdə elektrik keçiriciliyi azalır və s. Belə dəyişilmələrdə tangensial enerji sabit qalır, radial enerji dəyişilir.

2. Öz sırasında mahiyyətin dəyişilməsi: Mövcud varlığın ümumi növ mövcudluğuna həm faktına, həm də aktına eyni zamanda təsirlərdən baş verən dəyişilmələr mahiyyətin dəyişilmələrinə səbəb olur. Belə ki, burada faktın öz aktını dəyişdirməsi onu təsirdən azad etmir, nəticədə fakt özü-özü ilə fərqlilik təşkil etməklə yeni fakta çevrilir. Başqa sözlə, xarici təsirin müəyyən həddində varlıq təsirə uyğun əks təsir yaratmır, nəticədə bilavasitəlikdən məhrum olur, hansı ki, təsirə məruz qalan mövcud varlıq özünün potensial varlığına uyğun öz sırasında yerini - zəruri şərtlərini - mahiyyətini dəyişməklə, mövcud mahiyyətinə olan təsirdən azad olur. Mahiyyətin dəyişilməsi əmələgəlmə prosesi kimi meydana çıxır və belə dəyişilmələrdə bir mövcudluqdan başqa digər mövcudluq əmələ gəlir, hansı ki, əvvəlki mövcudluğa olan təsir yeni mövcudluq üçün təsirsiz olur. Yəni varlıq öz sırasında bir yerdən başqasına keçməklə əvvəlki yerdə özünə olan təsirlərdən azad olur. Belə yerdəyişmə zamanı eyni sıra daxilində cismin mahiyyəti - kimyəvi

xassələri dəyişilir. Cisim sıra daxilində mövcudluq faktını dəyişir. Məsələn, maddələrin parçalanması və birləşməsi kimi. Belə dəyişilmələrdə tangensial enerji radial enerjiyə paralel dəyişilir.

3. Öz sırasını dəyişmə - mövcud varlıq sırasının dəyişilməsi: Konkret sıraya olan təsirə əks təsirin bir forması mövcud varlığın bütünlüklə öz sırasını dəyişdirməsidir. Xarici təsirin müəyyən səviyyəsində varlıq eyni vaxtda yeni forma və mahiyyət alaraq bir sıradan digər sıraya keçir. Belə dəyişilmə həm təzahürdə, həm də mahiyyətdə elə dəyişilmələri özündə ifadə edir ki, dəyişilmələr yeni varlığın yaranması ilə müşayiət olunur. Belə dəyişilmələr çevrilmə prosesləri kimi təzahür edir. İki cür çevrilmə aşkarlamaq olar:

a. Öz sırasını dəyişməklə təzahürlərin çevrilməsi: Belə çevrilmələr radial enerjinin ayrılıqda xarici təsirdən çevrilməsini özündə təqdim edir. Radial enerjinin çevrilmələri **effekt** kimi meydana çıxır. Təzahürlərin dəyişilməsinin mahiyyətin dəyişilməsinə keçidində meydana çıxan xüsusi təzahürlər effektləri təşkil edir. Ayrı-ayrı növdən olan cisimlərin xüsusi hallarda xarici təsir nəticəsində adi ümumi şərtlərdə təzahür etdirmədiyi, yalnız xüsusi şərtlərdə yeni təzahür göstərməsi effekt kimi meydana çıxır. Effekt materiyada materiyaönü vəziyyətin yenidən təzahürü kimi - materiyanın bir hissəsinin materiyaönü vəziyyətə qayıtması nəticəsində meydana çıxır. Başqa sözlə, effekt - mövcudluqda mümkün varlığın mövcudluq tələbini canlandıran, oyandıran şərtlərin məcmusu kimi meydana çıxır. Birinci sıra varlıqlarda elektrikləşmə, maqnitləşmə, işıqlanma, qızma və s. kimi effektlər aşkarlamaq olar. Effekt eyni sıradan yalnız ayrıca qrup üçün funksional asılılıqda olan xarakterik xüsusi xassədir. Effekt xassə dəyişilmələrinin son həddi, yəni sonuncu xassə kimi dəyərləndirmək olar. **Effektləri də öz növbəsində iki qrupa bölmək olar:**

1. Birsəbəbli effektlər: Belə effektlər yalnız bir xarici təsirdən - sadə səbəblərdən yaranır. Cisim dünyasında sadə təsirlərdən bir neçə el-

ektrikləşmə effekti mövcuddur. Pyezoelektrik effekti - elastik cisimlərə hər iki tərəfdən təsir-təzyiq etdikdə, həmin cisim elektrikləşir. Bəzi cisimlər bir-birinə sürtünmə təsirindən elektrikləşir. Məsələn, ebonitin yun parçaya sürtülməsi və ya tükün elektriklərlə daranmasında elektrikin yaranması və ya işığın bəzi cisimlərin səthinə düşməsi ilə də təsiri qəbul edən fotohəssas cisimdə elektrikləşmə baş verir ki, bu da fotoeffekt hadisəsini yaradır.

2. Çoxsəbəbli effektlər: Belə effektlər ən müxtəlif təsirlərdən - mürəkkəb səbəblərdən meydana çıxır. Məsələn, cismin eyni vaxtda həm elektrikləşməsi, həm maqnitləşməsi, həm qızması müxtəlif səbəblərdən baş verən mürəkkəb effekt kimi meydana çıxır. Effekt materiyanın özü-özündə yenidən materiyaönü vəziyyəti təzahür etdirməsi kimi meydana çıxır. Yəni cisimlər daxili qapalılıqdan açıqlıq vəziyyətinə keçir. Buradan iki xüsusi hal meydana çıxır. Birincisi, qapalılıqdan açıqlığa keçiddə cismin keçirilməzliyi pozulur və bir şey başqasının daxilə keçmə imkanı əldə edir. İkincisi, mürəkkəb səbəbilikdən sadə nəticəyə keçid alternativlik əldə edir. Buradan da daxilə keçmə və alternativliyin şərtlərinin məcmusu əməlgəlməni təzahür etdirir.

b. Öz sırasını dəyişməklə mahiyyətin çevrilməsi: Belə çevrilmələr tangensial enerjinin eyni növ daxilində çevrilmələri kimi təzahür edir. Belə ki, xarici təsirin sürəkliliyində effektlə əks təsir kifayət etmədikdə təsir daxilə keçir və təsirə məruz qalanın mahiyyətini dağıdır. Mahiyyətin dağılması açıq hala keçmiş mövcudluğun tangensial enerjisinin mübadilə olunması kimi baş verir. Entropiyanın son həddi - bütün şərtlərinin məcmusu, mütləq təzahürü - enerji çevrilmələri kimi təzahür edir. Enerji çevrilmələri müxtəlif enerjilərin biri-birinə keçməsindən ibarətdir. Enerji çevrilmələri mümkün varlığın mövcudluqda mövcudluq tələbinin sürəkliliyində yeni mövcudluq şərtləri əldə etmədən tələbin öz-özünə dəyişilmələrini özündə ifadə edir. Təzahür və mahiyyətin çevrilmələri varlıq sıralarının dəyişilməsinə səbəb olur. Varlıq sıralarının

dəyişilmələri - cisimdən canın, candan ruhun və əksinə baş verən dəyişilmələr çoxsaylı mürəkkəb proseslərlə müşayiət olunur.

q. Özündə mahiyyətin təzahürə, təzahürün mahiyyətə çevrilməsi: Bu cür çevrilmə material aləmdə baş vermir və buna görə də görünən aləmdə təzahürün mahiyyətə, mahiyyətin təzahürə çevrilmə prosesini təcrübədən aşkarlamaq mümkün deyildir. Mahiyyətin təzahürə və əksinə çevrilmələri enerjinin kütləyə çevrilməsi kimi təzahür edir. Xarici təsirin müəyyən həddindən sonra enerji materiyaya və əksinə materiya enerjiyə çevrilir. Enerjinin sürətdən asılı olaraq kütləyə çevrilməsi spekulyativ mühakimə ilə Eynişteyn tərəfindən kəşf edilmişdir. Belə ki, Eynişteynə görə işıq sürətindən böyük sürətlə hərəkət zamanı (belə hərəkət hissəciklərə xas olduğundan yalnız materiyaönü vəziyyətdə mümkündür) enerji (cismin radial enerjisi - təzahür enerjisi) kütləyə (tangensial enerjiyə - mahiyyət enerjisinə) çevrilir. Biz belə hesab edirik ki, hərəkət sürətindən asılı olaraq enerji kütləyə çevrildiyi kimi kütlə də enerjiyə çevrilə bilər. Yəni, Eynişteynin təsəvvür etdiyi vəziyyəti biz dönər proses kimi qəbul edirik. Əgər enerji işıq sürətindən böyük sürətlə hərəkət zamanı kütləyə çevrilirsə, onda kütlənin də mütləq kiçik sürətli hərəkətdə enerjiyə çevrildiyini ehtimal edə bilərik. Mütləq kiçik sürət - işıq sürətindən böyük sürətin əksliyi kimi meydana çıxır. Mütləq kiçik sürətə malik olmaq daxili enerjinin sıfra bərabər olmasını özündə təqdim edir. Daxili enerjisiz mövcudluq aktuallaşmadığından belə vəziyyətdə mütləq kiçik sürətdə olan kütlənin bir hissəsi mövcudluq aktını saxlamaq naminə enerjiyə çevrilərək daxili enerjini təşkil edir. Bu proses, cisim dünyasının energetik quruluşunun tabe olduğu qanunların pozulması ilə müşahidə olunur, hansı ki, cisimlərdə tangensial enerji sabit qalır və heç bir kənar enerji ilə mübadilə olunmur. Təzahür və mahiyyətin çevrilmələrinin vəhdətindən yeni varlıq sırası meydana çıxır. Bu iki hadisə - effektin əmələ gəlməsi və enerjinin kütləyə çevrilməsi - cismin özündə daxili materiyaönü vəziyyətə qayıtması və radial enerjinin tangensial enerjiyə

çevrilməsi birlikdə materiyanın yeni formasını - birincili mövcudluqda ikincili mövcudluğun yaranması ilə maddələrin tamamilə yeni bir sırasının, ikincili maddənin - üzvi maddələrin, biomaterialın yaranmasına səbəb olur. Biomaterial və həmin maddələrdən ibarət yeni varlıq sırası can sırasını təşkil edir. İkincili materiyadan fərqli olaraq ikincili maddə sürəkli təsir-əks təsir əlaqəsində olduğundan sürəkli dəyişilmə prosesi kimi təzahür edir, hansı ki, biz bunu canlılıq kimi qavrayırıq. Canlılar cisimdən fərqli olaraq eyni zamanda daxili (özündə olan birinci materiyanin ikincili materiyaya - cana təsiri) və xarici təsirə məruz qalır. Bu ikili təsirə əkstəsir cavab kimi meydana çıxır.

DİNAMİK "ÖZÜNDƏNŞEY" - FAKTİKİ CANLI

Mütləq həqiqət özü haqqında məlumatın şüalanmasını öz yaratdıqlarının entropiyasından (ikincili xaosdan) qoruma - öz dəqiqliyinə cəhdi onların "Maksvel iblislərinin" ən az olduğu yollarla yayılma meylini - ağıllılığını üzə çıxarır. Bu cür ağıllılığın nəticəsi olaraq qeyri-üzvi aləmdə mövcud olan "Maksvel iblislərindən" xilas olmaq üçün həqiqət canlılıq yolu ilə şüalanmağa başlayır. Canlılıq yolu necə yaranır və canlılıq özündə həqiqəti necə aydınlaşdırır?

Cismin xarici təsirə cavabı kimi enerjinin kütləyə çevrilməsi və yüklənməsi (effektlər), yəni ikincili materiyada materiyaönü vəziyyətin meydana çıxması, maddənin - cisim dünyasının malik olmadığı özü-özündə artma xarakteristikasına malik yeni sıra varlıqların yaranmasına səbəb olmuşdur ki, bu cür varlıqlar can sırasını təşkil edir. Can sırası bir tərəfdən cisimlərə xas nizamlılığı, digər tərəfdən hissəciklərin tabe olduğu keçiciliyi - xaosdan nizama keçid vəziyyətini özündə təqdim edir. Nizamlılıq xarakteristikası canlının bir fakt kimi mövcudluğunu müəyyən edir, hissəcik xarakteristikası keçicilik kimi aktını müəyyən edir. Buradan da canlıda aydınlaşan həqiqət onun faktından müəyyənləşir, aktı

özündə konkret nizam daşımır, çünki dəyişkən qanunauyğunluqları özündə təzahür etdirir.

Özü-özünü artıran və təsirlərə əks təsiri özünün dəyişilməsi ilə əks etdirən ikincili maddələri üzvi maddələr sırasını təşkil edir. Cisimlərdə xətti əlaqə kimi təzahür edən təsir-əks təsir əlaqəsinin qeyri-xətti və mürəkkəb forma almasından üzvi maddələr - sadə can sırası yaranır. Beləliklə, üzvi maddələr xarici təsirlərə ən müxtəlif və mürəkkəb formalarda qeyri-xətti əks-təsirlə cavab verən xüsusi maddələrdən ibarətdir. Sadə üzvi maddələr qeyri-üzvi maddələrin mürəkkəbləşməsinin xarakteristikalarının yeni quruluş yaratması ilə əmələ gəlir.

Üzvi maddələrin yaranması cisim dünyası üçün xarakterik olan iki müxtəlif xarakteristikanın vəhdət təşkil etməsi ilə baş verir:

1. Dayanıqsızlıq xarakteristikası: Cisim dünyasının iki mühüm keyfiyyəti - kütlə ilə həcm - məkanda sonluluq və zəruriliklə şərtlənmişdir və buna paralel bir-birinə müəyyən hədlərdə nisbət təşkil edir. Yəni müəyyən həcm təbiətdə mümkün miqdarda kütləni həcmləndirə bilər. Bu qanunauyğunluq kütlənin həcmə nisbəti kimi sıxlığı təzahür etdirir. Cisim dünyasında sıxlıq bir tərəfdən "daxili həcmin keçirilməzliyi" ilə, digər tərəfdən qaz qanunları ilə, sərbəst həcmlənmənin məhdudluğu ilə şərtlənmişdir. Bu sərhəddən kənara çıxan sıxlıq qeyri-reallıqdır və dayanıqsızlığı yaradır. Biz bunu sıxlığın məhdudluğu qanunu adlandırırıq. Təbiətdə qeyri-üzvi maddələrin mürəkkəbləşməsinin müəyyən həddində kütlə ilə həcmin nisbətindən - sıxlıqdan, özündəşeydə özündən-özünə daxili təsirlər meydana çıxmağa başlayır. Burada daxili təsirlərə iki müxtəlif əks təsir meydana çıxır:

a. Kütlənin sabitliyində həcmin dəyişilməsi. Bu təbiətdə aqreqat halları kimi təzahür edir. Aqreqat halı eyni bir mövcudluqda özü-özündə kütlənin müxtəlif həcm alması ilə meydana çıxır.

b. Həcmin sabitliyində kütlənin dəyişilməsi. Bunun ən sadə təzahürü şüalanma ilə parçalanma kimi meydana çıxır. Cisim dünyasında bu cür

daxili təsir kütlə ilə həcmin uyğunsuzluğundan - məkanla şərtlənmənin ziddiyyətindən yaranır. Belə ki, təbiətdə elementlərin kütləsi tədricən artaraq uranın kütləsinə çatdıqda kütlə ilə mümkün həcm arasında daxili ziddiyyət yaranır. Bu ziddiyyət kütlə ilə həcmin mütənasibliyinin yaranması istiqamətində yenidən parçalanmaya səbəb olur, nəticədə cisim dünyasının mürəkkəbləşməsi uranla məhdudlaşır və uran dayanıqsızlıq əldə edir. Eyni ilə cisim dünyasında maddələrin mürəkkəbləşməsi də sərhədlidir və ikiqat duzların yaranması ilə məhdudlaşmışdır. Materiyaönü vəziyyətin material vəziyyətlə vəhdətində dayanıqsızlığın müstəqil sürəkli xarakteristikaya çevrilməsi ilə maddələrin özü-özündə yeni həcm və ya yeni kütlə əldə etmə istiqamətində inkişafı ilə qeyri-sabit maddələr - sürəkli dayanıqsız vəziyyətdə olan üzvi maddələr yaranır.

2. Şəkildəyişmə xarakteristikası - alleqoriya: Cisimlərdə bütün bəsit maddələr - eyni bir atomdan təşkil olunmuş maddələr - sabit yeganə bir quruluşa malikdir və buna görə də cisimlər təsirlərə quruluşun dəyişilməsi ilə əks təsir yaratmır, çünki quruluş mövcudluq aktını şərtləndirir. Burada karbon istisna təşkil edir. Belə ki, eyni karbon atomları bir-birindən fərqli - almaz, qrafit və kömür kimi - bir çox fərqli quruluş yaradır ki, bu da alleqoriya - şəkildəyişilmə kimi meydana çıxır və bu xarakteristika əsasında karbon duran bütün maddələrin ümumi xarakteristikasına çevrilir ki, buradan da eyni atomlardan təşkil olunmuş maddələr ən müxtəlif quruluşlar almaqla fərqli xassələrə malik üzvi maddələr sırasını yaradır. Eyni atomların müxtəlif quruluşlar əmələ gətirməklə fərqli xassə təzahür etməsi üzvi maddələrin yaranması ilə nəticələnir. Beləliklə biz, can sırasını dayanıqsızlıqla şəkildəyişmənin şərtlərinin məcmusu kimi təyin edə bilərik.

Bəs üzvi maddələrin müxtəlif quruluşlar - orqanizmlər yaratması necə baş verir? Quruluş - kütlənin həcmdə yerləşməsi qaydasından ibarətdir. Hər bir atom müəyyən həcmli maddədə fərqli qaydalarda yer-

ləşir. Bu, həmin atomların çəkisindən, nüvəsinin yükündən və s. kimi materiyayaqədərki keyfiyyətləri özündə əks etdirməsi ilə şərtlənmişdir. Qeyri-üzvi aləmdə maddənin kütləsi ilə həcmi bir-biri ilə vəhdət təşkil etdiyindən onların dəyişilməsi eyni məqamlıdır, yəni biri dəyişildiyi anda digəri də dəyişilir. Bundan fərqli olaraq, üzvi maddələrdə kütlə ilə həcm vəhdət təşkil etmədiyindən, onlar arasındakı tənasübün yaranması çoxməqamlıdır, yəni ya sabit kütlədə həcmin dəyişilməsi - böyümə kimi, və ya da həcmin sabitliyində kütlənin dəyişilməsi - artma kimi təzahür edir. Artma və böyümənin nəticəsində orqanizasiya - qurulma baş verir. Orqanizasiyanın meydana çıxması ilə dayanıqsız - daxili hərəkətli maddələrdə - üzvi maddələrin inkişafının müəyyən mərhələsində daxili təsir həm də qurulmanın formasından meydana çıxır. Beləliklə, həcmlə kütlə arasındakı ziddiyyətlə yanaşı, qurulmanın xarakteri də daxili təsirlərə səbəb olur. Kütlə ilə həcmin uyğunsuzluğundan yaranan daxili təsir xarici təsirlə şərtlənir, qurulmanın təbiəti ilə bağlı daxili təsir xarici təsirlərlə şərtlənmir. Nəticədə, müstəqil daxili təsir-əkstəsirə malik varlıqlar sırası yaranır, hansı ki, biz bunu faktiki canlılar adlandırırıq. Canlılarda daxili təsirlərin xarici təsirlə şərtlənməməsi qapalılıq xarakter-istikasını üzə çıxarır. Beləliklə, bir tərəfdən xarici təsirlə şərtlənmiş daxili təsir açıq sistemi, xarici təsirlə şərtlənməmiş daxili təsir qapalı sistemi təşkil edir. Eyni bir varlıqda bu iki müxtəlif sistemin vəhdətdə təzahür etməsi və həmin təsirlərin bir-biri ilə əlaqələnməsi canlılığın mahiyyətini təşkil edir. Orqanizmin qapalı və açıq sistem kimi mövcudluğunda bəzən dolayı yollarla xarici təsir daxildə əks təsir, bəzən də daxili təsir xaricdə əkstəsir yaradır ki, bu ikisinin vəhdəti canlılığın təzahürləri kimi qav-ranılır.

Hər bir hərəkət enerjidən yarandığı kimi bioloji hərəkətlilik də bioloji enerjidən meydana çıxır. Hərəkət varlığın üsulu olduğundan hər bir varlığın özünəməxsus üsulu vardır. Hər bir üsul isə uyğun quruluşda meydana çıxır. Beləliklə, canlıların üsulu kimi təzahür edən bioloji

hərəkətlilik canlılara xas xüsusi energetik quruluşdan yaranır. Bioloji hərəkətlilik fiziki hərəkət formalarından fərqli olaraq dəyişkən enerji tutumu tələb edir. Bioloji hərəkətliliyi təmin etmək üçün canlıların tangensial enerjisi radial enerji ilə sürəkli mübadilə halındadır. Bu mübadilə iki bir-birinə əks bioloji proseslə - dağılma və qurulma ilə aktuallaşır. Tangensial enerjinin radial enerjiyə çevrilməsi dağılma, radial enerjinin tangensial enerjiyə çevrilməsi qurulmanı təzahür etdirir.

İnkişaf - qurulma kimi mütəmadi olaraq ətrafla enerji mübadiləsi nəticəsində baş verir. Bu zaman canlını təşkil edən ikincili materiya - bədənin şeyi - ətrafdan təbii enerjinin müxtəlif növlərini udur, həmin enerji daxildə bioloji enerjiyə çevrilərək varlığın daxili radial enerjisini təşkil edir. **Canlıların radial enerjisi üç cür realizə olunur:**

a. Radial enerjinin böyük bir hissəsi xüsusi mürəkkəb proseslərlə tangensial enerjiyə çevrilərək canlının biokütləsini təşkil edir.

b. Radial enerjisinin bir hissəsi məkanda yerdəyişmə kimi hərəkətliliyə sərf olunaraq yenidən fiziki enerjiyə çevrilərək azad olur.

c. Böyümə nəticəsində radial enerjinin bir hissəsi xüsusi bioloji hərəkətə - nəsil vermək üçün əks cinslə cütləşməyə sərf olunaraq bədəndən kənara çıxır.

Canlıların tangensial enerjisi də üç cür sərf olunur:

a.Orqanizmdə tangensial enerjinin bir hissəsi yeni nəslin başlanğıc materialına - cinsi ifrazatlara çevrilərək bədəndən ayrılır. Nəticədə, yeni varlıq forması meydana çıxır ki, bu da çoxalma prosesini təzahür etdirir.

b.Müəyyən şərtlərdə tangensial enerji yenidən radial enerjiyə çevrilir. Nəticədə, canlı daxili maddələr mübadiləsi ilə - bədənin şeyinin enerjiyə çevrilməsi ilə fəaliyyət göstərir - həyatı davam etdirir.

c. Tangensial enerjinin bir hissəsi bədəndə "istehsal" və ifraz olunan, müxtəlif bioloji maddələrin - hormonların, fermentlərin, vitaminlərin, şirələrin və s. maddəsinə çevrilir. Hansı ki, müxtəlif proseslərdə son nəticədə bədəndən xaric olur.

Canlıların tangensial enerjisi qeyri-sabitdir və radial enerji ilə qarşılıqlı mübadilə olunur. Faktiki canlının radial enerjisi qarşılıqlı olaraq, öz növbəsində bir tərəfdən də ətrafdan təbii enerji növlərinə çevrilir. Beləliklə, canlıların energetik quruluşu iki sürəkli prosesin - mübadilə və çevrilmənin müştərək təzahürü ilə formalaşır. Canın radial enerjisi ilə tangensial enerjisi bir yerdə fərqli zamanlarda fərqli qarşılıqlı əlaqədə olur.

Canlılığın aşağıdakı iki əsas xarakteristikasını ayırd etmək olar:

Həyat - canlının mövcudolması: Birincili mövcudluqda ikincili mövcudluğun yaranması nəticəsində birincili mövcudluqla ikincili mövcudluq arasında özündəşeydə daxili təsir yaranır, amma ikincili mövcudluq belə ikili təsirlərə birli müştərək əks təsir - cavab verir ki, bu da Həyat kimi təzahür edir.

Haşiyə: Hegel: "**Fəlsəfi** elmlərin ensiklopediyası"

> *"Cismin real totallığı sonsuz prosesdir, hansı ki, fərdilik özünü xüsusiliyə və sonluluğa təyin edir, həmçinin onu inkar edərək özünə qayıdır, prosesin sonunda özünün başlanğıc formasında bərpa olunur və beləliklə təbiətin birinci ideallığının yüksəlməsidir; amma belə yüksəlmə, hansı ki, o, inkari vəhdətin özünün-özünə münasibəti kimi qeyri-tam, əhəmiyyətli dərəcədə özünəməxsus və subyektiv olur. İdeya bununla mövcudluğa gəlir - əvvəlcə bilavasitə mövcudluğa, həyata gəlir. İdeya həqiqətə və gerçəkliyə o dərəcədə malik olur ki, o dərəcədə də özündə subyektiv olsun; həyat bilavasitə ideya keyfiyyətində beləliklə özündənkənar qalır, həyat olmur, yalnız həyat prosesinin cəsədi olur - orqanizm totallıq kimi canlı deyil, mexaniki və fiziki təbiətdir.*

Hegelin şərhindən görünür ki, orqanizm və həyat bir-birinə fərqlilik münasibətindədir. Yəni orqanizm - faktiki canlının mövcudluğu, həyat - orqanizmin mövcudolmasıdır. Buna görə də həyatsız orqanizm "həyat prosesinin cəsədi. mexaniki və fiziki təbiət" kimi qavranılır. Eləcə də orqanizmsiz təsəvvür olunan xalis həyat metafizik statuslu obyektdir,

noumendir. Biz həyatı növün faktiki canlılar sırasını yaratması ilə canlıların daxilindən keçib-gedən xüsusi metafizik hərəkətlilik kimi təyin edirik. Hansı ki, təzahürləri görünən və hissi qavranılan həyatdan ibarətdir.

Haşiyə: Q.Rikkert "Həyatın fəlsəfəsi"

> *"Həyat dünyəvi tamın mərkəzinə qoyulmalıdır və fəlsəfənin şərh etməli olduğu onda baş verən hər şey həyata aid edilməlidir. həyat dünyanın xüsusi "mahiyyəti" və eyni zamanda onun idrak orqanı elan olunur."*

Q.Rikkertin fikirlərindən həyatın iki müxtəlif təyinini aşkarlamaq olar:

1. Dünyanın xüsusi mahiyyəti kimi həyat: Biz yuxarıda Kosmosu şərh edərkən onu dünya və təbiət mənalarında şərh etmişdik. Q.Rikkertin fikirlərindəki "həyat dünyanın xüsusi mahiyyəti" fikri özündə Kosmosun təbiət kimi dünya ilə həyatın vəhdətindən ibarət olmasını ifadə edir, hansı ki, bu vəhdətdə dünya kosmosun ətalətli maddəsi kimi ölülüyü - ikinci məkanın maddiliyinin şərtlərinin hərəkətsizliyi, xalis həyat isə zaman şərtlərinin məcmusu kimi xalis hərəkətliliyi özündə ifadə edir ki, onların vəhdəti Kosmosun təbiət mənasını təşkil edir. Xalis Həyat xalis hərəkətlilik kimi təsadüfi şərtlərin məcmusundan ibarət olur, hansı ki, məkani şərtlərin məcmusu kimi orqanizmlə vəhdətdə faktiki canlılığı - ikincili mövcud varlıqları yaradır.

2. Dünyanın idrak orqanı kimi həyat: Həyat nə üçün və necə dünyanın idrak orqanı kimi çıxış edir? Həyatın ən kiçik vahidi yaşantıdır. Yaşantı həyatın konkret məkan və zaman şərtindəki təzahüründən ibarətdir. Yaşantı əks təsirin xüsusi forması olub qalıcılıq və yenidən canlandırılmaq xarakteristikasına malikdir. Başqa sözlə, xarici və daxili təsirlərə dəyişilmə ilə verilən cavabın özü-özündə refleksiyası yolu ilə avtonom təsir olmadan, yenidən canlandırılması yaşantını özündə təqdim edir. Məkan-zaman şərtləri dəyişkən olduğundan, dəyişkənlik yaşantının

əsas xarakteristikalarındandır. Yaşantı şərtlərinin məcmusu özündə təbii həyatı - dünya ilə həyatın vəhdətini - təbiəti təqdim edir. Başqa sözlə, təbii həyatı yaşantıların şərtlərinin məcmusu kimi anlamaq lazım gəlir. Hansı ki, biz yaşamaq kimi təyin edirik. Yaşamaq yeni-yeni yaşantıları özünə yığmaq, yaşantı vahidlərini summasiya etmək, bir yerə toplamaq, ondan tam həyat təşkil etməkdən ibarətdir. Hər hansı bir maddə atomlardan təşkil olunduğu kimi istənilən həyat da müxtəlif yaşantılardan təşkil olunan mürəkkəb can vahidləridir.

Haşiyə: Q.Rikkert "Həyatın fəlsəfəsi"

> *"Dərisini dəyişə bilməyən heyvan ölü qalır. Cisimdə həyatın yubanmasını görmək lazımdır. Onları atmaq və onlardan keçərək həyatın daima böyüyən hərəkətdə canlı qalmağının qayğısına qalmaq lazımdır."*

Q.Rikkertin fikirlərindəki "dərisini dəyişə bilməyən" ifadəsi özündə məkani ölçülüyün dəyişilməsindən məhrum faktiki canlını ifadə edir, hansı ki, dəyişən zaman şərtləri ilə vəhdətdən ayrılır və bu da ölüm kimi "cisimdə həyatın dayanması" kimi təzahür edir. "Canlı qalmağın qayğısına qalmaq" daima böyüyən hərəkətdə - dəyişən məkan və zaman şərtlərinin paralel dəyişilməsinə nail olmağı tələb edir, hansı ki, bu şərtlərin sonsuz təmin olunması ilə həyat cisimlərdə əbədi hərəkətlilik kimi çıxış edir ki, bu da ölməzliyi özündə ifadə edir. Ölməzlik faktiki canlı ilə faktiki cismin mövcudluğunun eyniliyini özündə ifadə edir. Faktiki canlıdan mahiyyət aşkarlanmadığından ölməzlik faktiki canlının əbədiliyi mənasızlıqdan ibarət olur, hansı ki, növ mahiyyət kimi ondan hərəkət edə bilmir.

Həyatın mürəkkəb proses kimi aşağıdakı bir çox əlamətlərini aşkarlamaq olar:

a. Permanent dəyişiklik: Canlıların məkan-zaman şərti cisimlərdən onunla fərqlənir ki, cisimlər məkanla, canlılar zamanla çoxməqamlı şərtlənmişdir. Beləliklə, cisimləri məkanda, canlıları zamanda mövcud

olan fakt kimi dəyərləndirmək olar. Zaman axıcı olduğundan canlılıq da axıcılıq keyfiyyətinə malikdir. Yəni cisimlərdən fərqli olaraq canlıların zamanda elə iki anını tapmaq olmaz ki, o özü-özü ilə eyniyyət təşkil etsin. Bu cür zamandan asılı olaraq özü-özü ilə sürəkli fərqlilik təşkil etmək permanent dəyişikliyi - fasiləsiz tədrici dəyişilmələri - meydana çıxarır.

Haşiyə: Q.Rikkert "Həyatın fəlsəfəsi"

> *"Bizim hamımızın yaşadığımız real həyat vaxt üzrə axır, o keçmişi və gələcəyi yuyur və bu zaman onun sonu görünmür. Buna görə də, bizim vaxtla seyr etdiklərimiz həmişə dünyanın tamlığının yalnız bir hissəsidir. Dünyanın tamlığını biz yalnız nəsə dünyanın vaxt hissəsini əhatə edən kimi, beləliklə həm də vaxtın özünü düşünə bilərik ki, beləliklə zamanı və qeyri-zamani olanın əksliyinə çatırıq. Dünyanın hissəsi zamandadır."*

Rikkertin "dünyanın hissəsi zamandır" müddəasını bir qədər dəqiqləşdirmək lazımdır. Dünya zəruri şərtlərə görə mövcud Kosmos olduğundan onun zamanda hissəsi yoxdur. Yalnız Kosmosun həm məkan, həm zaman şərtlərinin məcmusu kimi mövcud olan təbiət kimi hissəsi - xalis həyat kimi hissəsi - zamandadır, təbiətin bir hissəsi isə - xalis məkan ölçülüyü isə məkandadır, dünyadadır. Real həyat keçmişdən gəlib indidən keçərək gələcəyə getdiyindən, biz həqiqətən indi və gələcəkdən onun sonunu görə bilmərik. Amma onun sonu keçmişə münasibətdə görünəndir. Məsələn: biz konkret növ haqqında həqiqəti məhz yalnız keçmişə münasibətdə aşkarlayırıq, hansı ki, həmin növ gələcəkdə sonsuz olaraq faktiki canlılardan keçərək öz hərəkətini davam etdirəcək. Bizim keçmişdən növü aşkarlamağımız elə-belə növün hərəkətliliyini fikrən indiyə münasibətdə, keçmişdə mövcud olmuş faktiki canlıda dondurmağımız, dayandırmağımızla mümkün olur. Buna görə də, real həyatın sonu - ölüm məqamı - dünyanın tamlığını özündə ifadə edir. Yəni ölüm anında faktiki canlı ölməklə faktiki fiziki cismə çevrilir ki, həmin anda ölmüş canlı eyni zamanda bir yerdə özündə

faktiki canlı və faktiki cismin vəhdətində dünyanın tamlığını özündə təqdim edir. Bu canlılığın son metafizik təzahürü olur, hansı ki, ölüm məqamından sonra orqanizm cəsəd kimi Q.Rikkertin qeyd etdiyi "totallıq kimi canlı deyil, mexaniki və fiziki təbiətdir."

b. Dövrü dəyişilmələr: Permanent dəyişilmələr müəyyən sərhədlər daxilində baş verir və sonludur. Yəni hər hansı bir dəyişilmə özünün ibtidai vəziyyətindən ali vəziyyətinə qədər inkişaf etdikdən sonra dayanır. Bu cür sonlu dəyişilmələrin nəticələri bir tam kimi başqa dövrdə baş verən analoji üsulla baş verən dəyişilmələrdən fərqlənir. Bu fərqlilik canlılıq dövrlərini təşkil edir. Dövrülülük - özlüyündə başlanğıcla sonun müəyyən zaman intervalında yenidən yerdəyişməsi, sonun başlanğıc, başlanğıcın son olmasından ibarətdir. Buradan da çıxış edib demək olar ki, metafizik aləmdə heç bir dövrülük aşkarlamaq mümkün deyil, çünki metafizik statuslu obyektlər heç bir halda son olmurlar və yalnız ilk başlanğıc kimi çıxış edirlər. Buna görə də dövrülülüyü yalnız təbii kosmik hadisə kimi dəyərləndirmək olar. Məsələn, günəşin çıxması və batması təbii kosmik dövrülük kimi mövcuddur. Bu cür dövrülük zamanla bir parametrli asılılıqda olduğundan təkrarlanan dövrülükləri yaradır. Canlılarda isə zamanla çox parametrli asılılıq olduğundan dünyəvi dövrülüklərdə olduğu kimi təkrarlanmır, əksinə fərqlənən dövrülüklər meydana çıxır, yəni dövrü prosesdə sonla başlanğıc heç bir halda qarşılıqlı əvəzlənmir. Buna görə də, məsələn, insan heç bir halda yenidən öz uşaqlıq dövrünə qayıtmır, yaşamır. Bu cür fərqliliklər yaş dövrlərini təşkil edir.

v. Bioloji hərəkətlilik: Cisimlərin əsas xarakteristikası ətalətdir. Yəni xarici təsir olmadan - birmahiyyətli olduqlarından onlarda daxili təsir meydana çıxmır - cisim öz hərəkətdə və sükunətdə olan vəziyyətini əbədi saxlamağa cəhd edir. Bundan fərqli olaraq, canlılara həm də daxildən təsir olduğundan, onlar xarici təsir olmadıqda belə daxili təsirlərdən öz sükunət və hərəkət vəziyyətini saxlamır və mütəmadi

olaraq bir vəziyyətdən başqa vəziyyətə keçir. Canlının sürəkli olaraq bir vəziyyətdən başqa vəziyyətə keçməsi bioloji hərəkətlərlə aktuallaşır. Biz yuxarıda inkişafın nəticələri kimi bioloji təzahürlərlə bağlı qısa şərh vermişdik. Burada həmin şərhləri davam etdirmək lazım gəlir. **Beləliklə, üç cür bioloji hərəkət aşkarlamaq olar:**

1. Artma: Canlıların xarici və daxili təsirlərə əks təsir kimi cavab formalarının biri öz məkani ölçülərini - çəkisini, həcmini, antropoloji ölçülərini özü-özündə dəyişməsidir. Canlılara xarici və daxili təsirdən baş verən bu cür dəyişilmələrin məcmusu artma kimi təzahür edir. Artma daxili və xarici təsirlərin müəyyən həddində cavabın maddi forma alması ilə aktuallaşır. Başqa sözlə, canlılar bədənin məkani ölçülərini dəyişməklə ümumi təsirlərə cavab verirlər. Canlıların bədəninin məkani ölçülərinin dəyişilməsi maddələr mübadiləsi vasitəsi ilə həyata keçirilir. Canlılar ikili sistem kimi mövcud olduğundan onlarda açıq sistemdə ətrafla maddələr mübadiləsi baş verir və eyni həyat funksiyaları sürəkli olaraq fərqli kütlə və həcmdə meydana çıxır ki, bu **artma** adlanır. Artma bədəndə radial enerjinin tangensial enerjiyə çevrilməsi ilə reallaşır. Artma canlının həyat tələbatlarını ödəmək üçün bədənin yeni məkani forma almasını özündə təqdim edir. Canlılar zamanla bir məqamlı çox parametrli şərtləndiyindən zamanın hər bir anında onların bədəni yeni vəziyyətə keçir. Yeni vəziyyət kütlə ilə həcm arasında nisbəti pozur, nəticədə canlının məkan ölçüləri zamandan asılı olaraq dəyişir. Bu dəyişilmə artma kimi təzahür edir. Artma canlının özü-özündə zamandan asılı olaraq yeni məkani ölçüləri əldə etməsini özündə təqdim edir. Dəyişən məkan ölçüləri **antropoloji əlamətləri** meydana çıxarır. Antropoloji əlamətlər artma ilə bağlı canlı varlığın bədəninin ölçülərinin dəyişilmələrindən ibarətdir. Bədənin antropoloji ölçülərinin dəyişilməsi daxili və xarici təsirlərin həyata mane olmasını məhdudlaşdırır. Artma zaman şərtlərinin dəyişilmələrinin yox, yalnız məkan şərtlərinin dəyişilməsindən bədənin yeni məkani ölçülər əldə etməsindən ibarətdir.

2. Böyümə: Yalnız təsadüfə görə şərtlərin dəyişilməsindən və bu dəyişilmələrin bədənə təsirindən canlılarda baş verən dəyişilmələr böyümə kimi təzahür edir. Zamanın dəyişilməsi canlılarda baş verən funksiyaların dəyişməsi - yeni təzahürlərin meydana çıxması böyümənin mahiyyətini təşkil edir. Yeni funksiyalar mövcud orqanlarda yeni ölçülər tələb edir. Eyni bir canlıda fərqli funksional və orqanik əlamətlərin məcmusu böyümə kimi təzahür edir. Hər bir canlı müəyyən yaşda fərqli qaydada funksiyalaşır. Canlı bir yaş dövründən başqa yaş dövrünə keçdikdə əvvəlki yaş dövrünə olan təsirlər yeni yaş dövrü üçün təsirsiz olur. Böyümə artmaya əks olub, yalnız zaman şərtlərinin dəyişilməsi ilə bədənin yeni ölçülər əldə etməsindən ibarətdir.

3. Çoxalma: Xarici və daxili təsirlərə cavabın bir forması çoxalmadır. Çoxalma canlıların özükimilərlə mövcudluq aktını davam etdirmənin üsulu kimi meydana çıxır.

Haşiyə: Q.Rikkert "Həyatın fəlsəfəsi"

> *"İstənilən həyat fasiləsiz axır. Forma isə əksinə məhdudluğu bildirir, o özü qoyulmuş sərhəddir. Həyat daimi hərəkətdədir, forma isə ona nəsə bərk və hərəkətsizliyi əks təqdim edir. Beləliklə həyatın formasını həyati mahiyyətin bütün axını ilə kontrasta görə düşünmək olar, buna baxmayaraq biz dünyanı necəsə dərk etməyə cəhd ediriksə onlardan imtina edə bilmərik."*

Q.Rikkertin fikirlərini inkişaf etdirərək demək olar ki, məkan və zaman şərtlərinin dəyişilmələri qeyri-məhdud deyil, çünki forma heçlik kimi "məhdudluğu" ifadə edir, yəni formasına görə faktiki canlı istənilən qədər arta və böyüyə bilmir. Və proseslər formanın hüduduna çatdıqda forma dağılır, heçlik təzahür edir. Bu kosmik qanun kimi, kütlə ilə həcmin nisbətində mövcudluğun məhdudlaşması kimi meydana çıxır. Beləliklə, faktiki canlı müəyyən həddədək böyüyür və artır. Bu həddən sonra elə-belə böyümə və artma potensiallığa çevrilir, hansı ki, faktiki canlının hərəkətdə olan mahiyyəti həmin potensiala keçir. Faktiki canlıda

potensial canlının olması və müəyyən dövrdən sonra faktiki canlıdan potensial canlının ayrılaraq mövcud faktiki canlıya keçməsi özündə nəsilvermə - faktiki canlının çoxluq təşkil etməsi kimi təzahür edir. Başqa sözlə, son nəticədə hər hansı canlı fərdə - formada daxili və xarici təsirlər onun ölümünə səbəb olduğundan, həyatı davam etdirmək üçün hər bir canlı özündə olan məlumatı özündən fərqli məkan şərtində olan digər fərdə - formaya ötürür. Nəticədə özünə olan təsirlər onu məhv etsə də, həmin təsirlər fərqli məkan-zaman əlaqəsində olan fərdə təsir edərək yenidən böyümə və artmaya səbəb olur. Beləliklə həyat yeni nəsildə davam edir. Fiziki cisimlərin mexaniki hərəkətliliyindən fərqli olaraq, çoxalma kimi hərəkət bir faktiki canlıdan başqa faktiki canlıya keçir. Bu da canlı mövcudluqlarda mümkünlüyün varlığının mövcudluq tələbinin ödənilməsinin sürəkliliyi kimi baş verir. Çoxalmada mahiyyət sabit, forma dəyişilən olur.

2. Ölüm: Canlıda sürəkli olaraq vəhdət təşkil edən zəruri şərtlərlə məkani şərtlərin vəhdətinin pozulması ölüm hadisəsi kimi təzahür edir. Başqa sözlə, ölüm həyatın əksliyi kimi yalnız xalis formada faktiki cisimlərə xasdır. Faktiki cisimlər əbədi ölü vəziyyətindədir. Canlılar bundan fərqli olaraq, əbədi ölü vəziyyətindən müvəqqəti olaraq çıxaraq həyatla vəhdətdə mövcud olan və müəyyən vaxtdan sonra yenidən həmin vəziyyətə qayıdan mövcud varlıqlardır. Buna görə də, biz ölümü yalnız canlılıqdan qavrayırıq və ona xas proses kimi dəyərləndiririk.

Haşiyə: N.VİNNER - orqanizm - xaosda, dağıdıcılığa və ölümə əksilikdir:

> *"N.Vinnerin fikirlərindən də görünür ki, ölüm dezorqanizasiya, kimyəvi və bioloji proseslərin vəhdətinin və nizamlanmasının pozulması kimi təzahür edir və burada orqanizm dedikdə yalnız canlı orqanizm nəzərdə tutulmalıdır. Elə-belə orqanizm yuxarıda qeyd etdiyimiz kimi fiziki və mexaniki təbiətdir. Ölüm həyatın əksliyi kimi onunla vəhdət təşkil etdiyindən canlılığın*

əsas xarakteristikası kimi çıxış edir. Ölüm nədir və həyatla ölümün nə kimi əlaqəsi vardır?"

Haşiyə: Hegel "Fəlsəfi elmlərin ensiklopediyası"

"Təbiət özündə hansısa canlı tamdır. Konkret olaraq, onun inkişafın pillələri üzrə doğması ondan ibarətdir ki, ideya özünə özündə olan kimi və ya onun özünün ölüm olan bilavasitəliyindən və xariciliyindən çıxışının özü kimi ehtimal edir və özü-özünə daxil olur, ondan ötrü ki, əvvəlcə canlı varlıq olsun, sonra həmçinin yalnız həyat olan bu müəyyən formanı çıxarsın və özünü ruhi varlıq kimi yenidən yaratsın, hansı ki, həqiqətdir və təbiətin son məqsədi və ideyanın tam reallığıdır."

Hegelin ölüm haqqında şərhindən də görünür ki, ölüm canlılıqda həyata münasibətdə əvvəli, başlanğıcı təşkil edir, hansı ki, birincili mövcudluq kimi canlılığa təqdim olunur. Birincili mövcudluqlar bilavasitəliyə və xariciliyə malik olduğundan, ölüm bilavasitəlik və xaricilikdən çıxmaqla həyatla vəhdət təşkil edir və buna görə də, lavasitəlik və daxilik kimi faktiki canlılığın xarakteristikası meydana çıxır. Hegelin şərhinin ikinci hissəsindən görünür ki, canlılıq yaradılmasında məqsəd məhz "təbiətin ondan özünü ruhi varlıq kimi yenidən yaratmaqdır, hansı ki, təbiətin son məqsədi kimi həqiqətdir və dünyanın tam reallığıdır". Biz yuxarıda canlılığın mümkünlüyün varlığının mövcudluqda mövcudluq tələbinə verilən şərtlərdən yarandığını, ruhun isə canlılıqda mümkünlüyün varlığının mövcudluq tələbində gözləməsi kimi təyin etmişdik. Buna görə də biz Hegellə razılaşmırıq ki, canlılığın məqsədi məhz "təbiətin ruhi varlıq kimi özünü yenidən yaratmasıdır." Belə ki, istər dünyanın, istər təbiətin, istər təcrübənin yaranması onlardan kənarda olub metafizikdir və məqsəd də yalnız yaradana məlumdur.

Əgər biz canlılığın mahiyyətinə nəzər salsaq görərik ki, canlılarda məkanla bir məqamlı bir parametrli şərtlənmə, zamanla bir məqamlı çox parametrli şərtlənmə ilə ziddiyyət təşkil edir. Bu ziddiyyətin həlli -

barışması - canlının inkişafı kimi meydana çıxır. İnkişaf - canlının bir tam kimi özü-özündə bir məkani ölçülərdən - məkanla şərtlənmədən, digər məkani ölçülərə - məkanla şərtlənməyə keçidi kimi baş verir. Yəni zamanla çoxparametrli asılılıq məkanla bir parametrli kimi, amma çoxlu sayda bir parametrli asılılıqla vəhdət yaradılır. Başqa sözlə, canlı özü-özündə daxili məkanda yerdəyişmə - hərəkət edir. Bu cür özü-özündə daxili məkanda yerdəyişmə inkişafın mahiyyətini təşkil edir. Bir ölçüdən digər ölçüyə keçid, bir ölçünün digərinin inkarı ilə baş verir. Bu cür inkar **nisbi ölümün** - permanent ölümün mahiyyətini təşkil edir. Nisbi ölüm - bir tam zamanda - ömürdə və ya individual həyatda canlının özü-özündə daxili yerdəyişməsidir. Beləliklə, biz həyatı - canlılığı ölüm həlqələrinin zənciri kimi də qəbul edə bilərik. Bu həlqələrin qopması və ya həyat zəncirinin əmələgəlməsinin dayanması **mütləq ölümü** üzə çıxarır. Mütləq ölüm canlıda məkanın zamandan ayrılması, zamanla məkan şərtlənməsinin ziddiyyətinin barışmazlığı kimi təzahür edir. Mütləq ölüm də öz növbəsində əkslik təşkil etdiyi nisbi həyatla vəhdətdə meydana çıxır. İnkişaf prosesində yenidən həyat ölümü inkar edir və mütləq ölüm nisbiləşərək yenidən həyat zəncirinə daxil olur. Bu cür ölüm yalnız canlılığa aiddir, yəni bioloji ölümdür. Amma insan üçlü varlıq olduğundan konkret insanın ölümündə həm də onda olan "ruh" ölən kimi dərk olunur. Ruh əbədi olduğundan o ölmür və ölmədiyinə görə ölən bədəndən ayrılır. Ruhun bədəndən ayrılması ilə ruhda onunla şərtlənmiş bütün məlumatlar yox olur, yəni ruh bədənlə yadlaşır. Belə yadlaşma nəticəsində ölümdən təkrar həyatın yaranmasında ruh yenidən təzahür etmir. Yəni ruh yenidən eyni canlılıq həlqəsinə daxil olmadığından ruhlu insanın ölümü mütləq ölüm kimi qəbul edilir. Buradan da klinik ölüm, bioloji ölüm və mənəvi ölüm formaları meydana çıxır. Qeyd etmək lazımdır ki, bu cür həyat və ölüm individual səviyyədə baş verir. Ümumi səviyyədə təbiətdə ölüm həyatla vəhdət təşkil etdiyindən nə real ölüm, nə

də real həyat yoxdur. Ümumi şəkildə təbiətdə bir-birini əvəzləyən ölümlə həyatın vəhdəti vardır.

Birincili mövcudluqda ikincili mövcudluğun yaranması dönər proses olub daxili və xarici təsirlərlə şərtlənmişdir. Beləliklə, dinamik özündənşeyin yenidən statik "özündəşeyə" çevrilməsi ölüm, əksinə statik özündənşeyin dinamik özündəşeyə çevrilməsinin davamlılığı həyat kimi təzahür edir. Burada məhz hərəkətliliyə görə özündənşey özündəşeyə və əksinə keçir. Ölüm birincili dayanıqlı mövcudluğun - forma və mahiyyətin ikincili mövcudluqdan - dəyişən forma və mahiyyətdən geridönməz ayrılmasını özündə ifadə edir. Cisimlərin ölmüşlərdən fərqi hər bir ölmüşün özündə həyat izlərini əks etdirməsindən ibarətdir.

Haşiyə: Q.Rikkert "Həyatın fəlsəfəsi"

> *"Ən mühüm olan odur ki, həyatın özü ölümü yaradır və beləliklə ölümlə həyat bir-biri ilə bağlanmış zəncir təşkil edir. Yalnız canlılar ölü və yalnız ölənlər sözün həqiqi mənasında ölüdürlər."*

Q.Rikkertin fikirlərinə onu əlavə etmək lazımdır ki, həyatla ölüm bir zəncir təşkil edə bilməz, çünki ölüm yaranışa görə həyatdan əvvəl və təbiətə görə ondan sonradır. Yəni həyata qədər ölüm özü-özündə mövcud olur. Sadəcə təbiətdə canlı mövcudluqlarda həyat ölüm aktlarını bir-biri ilə bağlayaraq canlılığı meydana çıxarır. Canlılarda həyat da öz növbəsində iki formada: xüsusi formada - ayrıca bir individdə faktı ilə aktının vəhdətində, eləcə də ümumi formada - növdə faktının müxtəlif müstəqil aktlarda aktuallaşması ilə təzahür edir. Buradan da növ fərdi faktlarının müstəqil aktlarının sıralarından keçərək ümumi həqiqəti təzahür etdirir. Ayrıca bir individual fakt müvəqqətidir, zamanla şərtlənmişdir, sonludur, özündə yalnız orijinal, təkcə əlamətlər təzahür etdirir, müvəqqətidir və özü-özünün sonu kimi çıxış edir. Başqa sözlə, eyni bir aktla şərtləndiyindən individ təkrarlanmayan faktı təşkil edir və buna görə də kəmiyyət kateqoriyası ilə müəyyən olunmur. Yəni elə bir

canlı individi tapmaq mümkün deyildir ki, başqası ilə eyniyyət təşkil etsin. Keyfiyyətin kəmiyyətə keçməməsindən modifikasiya - şəkildəyişmə, xarici əlamətlərin - fenotipin dəyişilməsi təzahür edir. Kəmiyyətin keyfiyyətə keçmə qanununa görə kəmiyyəti olmadığından təkcə keyfiyyət kimi mövcud olur. Bundan fərqli olaraq növ abstraktdır, daimidir, ümumidir, ayrı-ayrı müstəqil aktlarda fərqli faktlar kimi təzahür edərək əbədiliyə doğru cəhd edir, buna görə də özündə ən ümumi həqiqəti aydınlaşdırır. Buradan da canlılığı növdə təzahür edən ümumi mövcudluq kimi təyin edə bilərik, hansı ki, konkret növün ümumi həqiqətini özündə təqdim edir. Beləliklə, canlılıq ümuminin xüsusidə, cəmin təkdə refleksiyası kimi əmələ gəlir və ümumi çoxlu sayda xüsusidə refleksiya etdiyindən xüsusi həyatın ölümü ümumi həyatın ölümü ilə nəticələnmir. Yəni canlılarda ölüm individual, həyat bundan fərqli olaraq ümumidir.

FAKTİKİ CANLILARIN SIRALANMASI

Faktiki canlılığın sıraları faktiki canlını təşkil edən şərtlərinin biri-birinə münasibətdə təbiətdə iyerarxiya təşkil etməsi ilə meydana çıxır. Bəs canlıların sıralanmasının başlanğıcı və səbəbi nədən ibarətdir?

Haşiyə: Hegel: "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Həyat olan proses özünün bütün vahidliyində proseslərin üçlüyünə dağılmalıdır. Üç əqli nəticəyə düşən: bitkilərin proseslərində, birinci qeyd edildiyi kimi, ən ümumi prosesdir. ikinci, özünün başqasını özü-özündə yox, müstəqil başqası kimi. üçüncüsü - növ prosesi əvvəlki iki prosesin birləşməsi kimi - individlərin biri-birinə və növə qarşılıqlı təsiri, nəsil vermək və saxlamaqdan ibarətdir."*

Hegelin ümumi həyat haqqında dediyi fikirləri bir qədər geniş şərh edək. Bütün canlıların həyatından ümumi həyat meydana çıxdığından ümumi həyatın hissələrə bölünməsi ilə ayrı-ayrı canlılar meydana çıxır. Eyni hissə həyat şərtlərini özündə ifadə edən faktiki canlıların zamanda

və məkanda təkrarlanması ilə canlı sıraları təşkil olunur. Biz dedik ki, xalis həyat özü-özündə zaman kimi xalis dəyişən şərtlərin məcmusundan ibarətdir, hansı ki, dəyişən məkan şərtlərində fiziki və mexaniki fakt kimi orqanizmlə vəhdətdə canlılığı yaradır. **Buradan da xalis həyat üç müxtəlif dəyişən şərtlərin məcmusu kimi təyin oluna bilər:**

a. İndini şərtləndirən keçmişin şərtləri: İndini şərtləndirən keçmişin şərtləri mikroorqanizmlərdən ibarətdir, hansı ki, bütün canlı aləm məhz mikroorqanizmlərin əsasında əmələ gəlir və onların keçmişi məhz qeyri-üzvi aləmin şərtlərindən - geoloji orqanizmi təşkil edən şərtlərin məcmusundan ibarətdir. Mikroorqanizmlərdə gələcəyi şərtləndirən indi olmadığından onlar zamanda asılı olaraq özü-özü ilə fərqlilik təşkil etmirlər. Buradan da mikroorqanizmləri canlılığın başlanğıc şərtləri, onun səbəblərini isə geoloji orqanizmin şərtlərindən ibarət olduğunu deyə bilərik.

b. İndini şərtləndirən indinin öz şərtləri: İndini şərtləndirən indinin şərtlərinin məcmusu bitkilərdən və onların bitdiyi yerin və vaxtın dövrülük şərtlərindən ibarətdir, hansı ki, faktiki bitki burada və indi mövcud şərtlərlə şərtlənmiş mövcudluqdur.

v. İndinin şərtləndirdiyi gələcəyin şərtləri: İndinin şərtləndirdiyi gələcəyin şərtləridir, hansı ki, irsiyyət kimi heyvanlardan aşkarlanır və heyvanlar irsi şərtlərinin məcmusu kimi mövcud olur.

Ümumi həyat beləliklə özündə bir tam kimi həm mikroorqanizmlərin, həm makroorqanizmlərin - ibtidailərin, bitkilərin və heyvanların mövcudluğunun şərtlərinin məcmusu kimi təzahür edir. Faktiki canlıların təşkil etdiyi sıralar növ kimi aşkarlanır, hansı ki, keçmişdə, indidə və gələcəkdə mövcud olur.

Faktiki canlıların aşağıdakı sıralarını ayırd etmək olar:

A. Mikroorqanizmlər: Qurulmamış və təşkilatlanmamış canlıları biz mikroorqanizm kimi təyin edirik. Burada qurulmama anlayışı özündə mikroorqanizmlərin maddələr kimi fərqli başlanğıclardan meydana

çıxmadığını ifadə edir, hansı ki, buna görə mikroorqanizmləri metafizik təbiətli mövcudluqlar kimi təyin etmək olar. Mikroorqanizmlər ən sadə canlılığı özlərində təqdim edirlər. Başqa sözlə, mikroorqanizm mütləq tam canlıdır. Yəni hissəsi olmayan tamlıqdır. Biz mütləq tam canlılıq anlayışını orqanizasiya olunmamış, üzvlərə və hissələrə ayrılmamış, özü-özündə bir tam canlılıq kimi təyin edirik. Buradan da mikroorqanizmlərdə digər canlılara xas orqanik hissələr və orqanizmə xas üzvlər aşkar olunmur. Mikroorqanizm bir tam kimi mövcud olduğundan daxili və xarici hərəkətlilik bir və eyni hərəkətlilik kimi meydana çıxır və bu zaman mikroorqanizm fiziki cismə xas hərəkətlilik nümayiş etdirir. Mikroorqanizmlər zəruri dəyişən şərtlərin məcmusundan ibarətdir. Təsadüfi şərtlərlə şərtlənmədiyindən canlılara xas özü-özü ilə fərqlilik nümayiş etdirmir, amma zəruri şərtləri dəyişkən olduğundan özü-özü ilə eyniliyi dəyişkən olur. Buradan da mikroorqanizmlərdə yarımçıq bioloji hərəkətlilik aşkarlanır. Yəni digər canlılara xas təsadüfi şərtlərlə şərtlənmədiyindən mikroorqanizmlərdə artma və böyümə təzahür etmir, yalnız çoxalma kimi bioloji hərəkətlilik aşkarlanır və yalnız bununla mikroorqanizmlər qeyri-üzvi aləmlərdən fərqlənir, hansı ki, çoxalma qabiliyyətinə malik deyillər. “Həyatın xüsusi şəklinin obrazı”nı adi gözlə görünməyən formada təzahür etdirən canlılar mikroorqanizmlərdən ibarətdir. Mikroskopun kəşfinə qədər həyatın fəlsəfəsini yaradan filosoflar, o cümlədən Hegel, öz dövrlərində mikroorqanizmlər, eləcə də üzvi maddələr haqqında elmi bilgilərə malik olmadığından, onların həyat haqqında fəlsəfi izharları yarımçıq və qeyri-kamil olmuşdur. Bu baxımdan üzvi maddələrin və mikroorqanizmlərin mövcudluğunun fəlsəfi şərhinə bu filosofların həyatın fəlsəfəsi ilə bağlı mühakimələrində rast gəlmirik. Buna görə də, üzvi maddələrin və mikroorqanizmlərin kəşfinə qədər yaradılmış həyat fəlsəfələrini natamam izhar kimi qəbul etmək məcburiyyətindəyik.

Mikroorqanizmlər məkani ölçülərinə görə görünən dünyada təcrübə sahəsinə daxil olmur, yəni bilavasitə təcrübə sahəsində obyekt-subyekt münasibətində aşkarlanmır, yalnız xüsusi vasitələrin köməyi ilə və təbiətdə yaratdıqları dəyişilmələrlə dolayısı ilə aşkarlanır. Dolayı münasibət bilavasitə münasibətdən fərqli olaraq xarici hissi təsirlə yox, daxili hissi təsirlə qavranılır. Yəni mikroorqanizmlər orqanizmlərdə patoloji vəziyyət yaratmaqla, orqanizmin daxilindən ona təsir edir və buna müvafiq orqanizm tərəfindən xəstəlik kimi müvafiq cavab alınır. Xarici təsirlər təfəkkürə mərhələli və forma dəyişikliyi ilə - təsir-qıcıq-impuls-cavab xətti əlaqəsi üzrə - nizamlı təsir edir, buna uyğun cavab da bilavasitə təfəkkürün iştirakı ilə mərhələli və dəyişkən formalarda - ayrı-ayrı orqanların işi kimi - nizamlı hazırlandığından belə cavab normal intellektual fəaliyyətlə həyata keçirilir. Amma daxili hissi təsirlər bilavasitə forma dəyişikliyinə məruz qalmadan mərhələsiz və xaotik baş verdiyindən təfəkkürün bu təsirlərə münasibəti də total və xaotik olur. İnfeksion xəstəliklərdə psixoz vəziyyətin yaranması, eləcə də somatik xəstəlikləri müşahidə edən psixikada baş verən dəyişilmələr mikroorqanizmlərin daxili hissi təsiri ilə bağlıdır. Mikroorqanizmlər canlı orqanizmlərlə geoloji orqanizmlər arasında əlaqə yaradan canlılığın ən sadə təzahür formasıdır. Məhz mikroorqanizmlər geoloji orqanizmin elementlərindən üzvi maddələr sintez edir və əksinə üzvi maddələrdən geoloji orqanizmi yaradırlar. Mikroorqanizmlər sabit məkan şərtlərinə görə cisimlərə, dəyişən zaman şərtlənmələrinə görə canlılığa aiddir. Yəni mikroorqanizmlər cisimlərin və canlı orqanizmlərin ortaq keyfiyyətlərini təzahür etdirir. Buna görə də, onlar təbiətdən kənarda, dünyada mövcud ola bilir, yəni mikroorqanizmlər heç bir makroorqanizmin yaşaya bilməyəcəyi məkani şərtlərdə - təxminən 450 dərəcəlik temperatur fərqində, atmosferin yuxarı qatlarında, yerin təkində və heç bir makroorqanizmin yaşaya bilməyəcəyi müddətdə - bəzi mikroorqanizmlərin sporları minillər yaşama qabiliyyətini saxlayır -

yaşayır. Eləcə də bəzi mikroorqanizmlər heç bir makroorqanizmin dözə bilməyəcəyi xarici təsirlərdə həyatı davam etdirirlər. Məhz bu üç keyfiyyətinə - məkan-zaman şərtlərinin daha nəhəng intervalı ilə şərtlənməyə və xarici təsirlərə dözümlülüyünə görə mikroorqanizmləri cisimlərdən canlılığa keçid mövcudluqlar kimi təsnif etmək olar. Mikroorqanizmlər sabit məkan şərtləri ilə şərtləndiklərindən mikroorqanizmlər indi və burada prinsipi ilə sabit ölçülükdə və sadə zamanda mövcud olur, yəni böyümə və artma mikroorqanizmlər üçün xarakterik deyildir, bu keyfiyyətinə görə onlar "cisimdir", əvəzində daxili və xarici təsirlərə çoxalma ilə cavab verirlər və bu keyfiyyətlərinə görə canlıdırlar. Mikroorqanizmlər aktiv daxili hərəkətliliyə, passiv xarici hərəkətliyə malikdir. Yəni mikroorqanizmlər daxili və xarici məkanda yerdəyişmə etmirlər. Daxili hərəkətlilik yalnız kəmiyyət dəyişmələri kimi təzahür edir. Mikroorqanizmlər ümumi formaya - məsələn, çöplər və ya kürəciklər kimi xüsusi mahiyyətə malikdirlər. Mikroorqanizmlər cisimlər kimi özü-özü ilə eynilik kimi mövcuddur və onlarda zamandan asılı olaraq forma dəyişilmələri baş vermir. Bu xüsusiyyətinə görə mikroorqanizmlər canlılardan daha çox cisimlərə oxşayır. Bu canlılarda bədən bir tam kimi fəaliyyət orqanı - üzv kimi çıxış edir. Yəni mikroorqanizmlər özü-özündə həm üzv, həm də orqanizasiyadır, yəni bədəndir. Başqa sözlə, mikroorqanizmlər üzv kimi orqanizasiyadır, buna görə mikroorqanizmlərdə üzvlərə bölünmə yoxdur və cisimlər kimi bir və eyni bədənə malik olurlar. Mikroorqanizmlərin üzvlərə bölünməməsinin səbəbi sadə bioloji hərəkətliliyə - yalnız çoxalma hərəkətliliyinə malik olmaları ilə bağlıdır.

B. Üzvü qurulmuş, daxili təşkilatlanmamış, üzvlərə ayrılmış orqanizmlər: Bura birhüceyrəlilər və ya ibtidai canlılar aiddir. İbtidai canlılar iki cür hərəkətliliyin - çoxalma və artma kimi ikili bioloji hərəkətliliyin şərtlərinin məcmusundan ibarətdir. Belə ikili hərəkətliliyə görə ibtidailər daxildə ayrı-ayrı üzvü hissələrdən qurulur, amma həyat

fəaliyyəti orqanizmə yayılaraq ayrı-ayrı fəaliyyətlər kimi differensasiya olunmadığından, orqanizasiya mərhələsində qalaraq biri-birinə münasibətdə xarici üzvlərə ayrılmırlar, yəni təşkilatlanmırlar. Bura hidra, amöb, tərlik kimi canlılar aiddir.

C. Makroorqanizmlər: Qurulmuş və təşkilatlanmamış, yəni üzvlərə ayrılmış canlıları biz makroorqanizm kimi təyin edirik. Makroorqanizmlər mürəkkəb bioloji hərəkətliliyin forması kimi mövcud olur. Yəni makroorqanizmlər - həm çoxalma, həm artma, həm də böyümə kimi bioloji hərəkətlərin şərtlərinin məcmusundan ibarət olur. Makroorqanizmlər necə təşkilatlanır, yəni özü-özündə üzvlərə ayrılır? Makroorqanizmlər mürəkkəb bioloji hərəkətliliyə malik olurlar. Mürəkkəb bioloji hərəkətlilik qurulmanı başa çatdırmış orqanizmin daxilində paylanır, yəni ayrı-ayrı sadə bioloji hərəkətliliyə ayrılır. Nəticədə eyni bir orqanizmin müxtəlif yerləri biri-birindən fərqli bioloji hərəkətlilik əldə edir. Fiziki dünyanın formalaşmasının məhz hərəkətlə bağlı olduğunu və formanın hərəkətin maddilikdə saxlanması kimi təzahür etdiyini, fərqli hərəkətlərin fərqli formalar yaratdığını qeyd etmişdik. Makroorqanizmlərdə mürəkkəb həyat fəaliyyəti - bioloji hərəkətlər - eyni bir orqanizmin ayrı-ayrı yerinə yayılaraq müxtəlif müstəqil hərəkətlər kimi təzahür edir və uyğun olaraq, fəaliyyətdə olduğu orqanizmin hissəsini digər hissələrdən fərqli formaya salır. Belə fərqli formalaşma üzvləri əmələ gətirir. Beləliklə, mürəkkəb bioloji hərəkətlilik üzvlərə ayrılmış orqanizmi - makroorqanizmləri yaradır. Makroorqanizmlər görünən dünyada mövcud olan və geoloji orqanizmlə vəhdət təşkil edən, dəyişən məkan-zaman şərtləri ilə şərtlənmiş canlı sırasını təşkil edirlər. Makroorqanizm anlayışı özündə orqanizasiyaya, yəni üzvü qurulmaya və üzvlərə ayrılmaya, yəni təşkilatlanmaya malik orqanizmləri ifadə edir. Makroorqanizmlər ali canlılardan ibarətdir. Ali canlılarda daxildə qurulmaya paralel fəaliyyətin bədənin ayrı-ayrı hissələrə verilməsi ilə həmin hissələrdə fəaliyyətə uyğun xüsusi bədən

formasının əmələ gəlməsi ilə üzvlər meydana çıxır. Üzvlər həm elə-belə digər üzvlərlə vəhdətdə ümumi bədən, həm də bədənin digər hissələrinə nisbətdə xüsusi bədəndir. Buradan da üzv ümumi bədəndə xüsusi mövcud olan üzvü struktur kimi mövcud olur.

Hegelin təbirincə, makroorqanizmlər mikroorqanizmlərdən fərqli olaraq "Həyatın xüsusi obrazının şəklini" özündə təqdim edən canlılar kimi meydana çıxır. Makroorqanizm görünən dünyada təcrübə sahəsində ikili - daxili və xarici obyekt kimi çıxış edərək obyekt-subyekt əlaqəsində müvafiq münasibət yaradırlar. Burada xarici makroorqanizm bütün canlılar, daxili orqanizm kimi mövcud insan - konkret subyekt çıxış edir. Mütləq həqiqət canlılıq yolu ilə şüalandığından, canlılıq həqiqət şüalarının bir çoxunu özündən şüalandırır. Belə ki, canlılar özlərindən iy, səs, dad, forma və s. kimi siqnallar şüalandırır. Siqnalların canlılarda orqanizasiyası onların formalarından fərqli olaraq müxtəlif formalarda meydana çıxır. Bu formalar canlının konkret xarici obrazını yaradır.

Haşiyə; Hegel: Fəlsəfi elmlərin ensiklopediyası

> *"Obraz, yalnız özü-özünə münasibətdə tam kimi heyvani subyektdir; o, özündə onun inkişaf etmiş və onda təyinin mövcudluğunu alan anlayışdır."*

Hegelin fikirlərini bir qədər geniş şərh edək. Beləliklə, müxtəlif makroorqanizmlərin xarici görünüşü (canlılarda obraz adlanır) dəyişən şərtlərdə dəyişən formalar seriyası kimi təzahür edir. Ona görə də, heyvanın obrazı onun zamandan və məkandan asılı olaraq dəyişən xarici görünüşünün məcmusundan aşkarlanır, hansı ki, Hegel bunu "özü-özünə münasibətdə tam kimi heyvani subyekt" adlandırır. Burada "tam kimi heyvani subyekt" ifadəsi özündə heyvanın cansız xarici obyektlərə xas sabit xarici görüntüyə malik olmamasına görə məhz subyektin iştirakı ilə onun dəyişən formalılığından fikrən sabit forması haqqında təsəvvürlərin yaradılmasını özündə ifadə edir. Buradan da heyvan burada və indi prinsipi ilə aşkarlanmayan olduğundan əslində heyvanın obrazı da

bilavasitə heyvandan alınmır, əksinə heyvanın dəyişən formalılığına uyğun inkişaf edən və subyekt tərəfindən müəyyən edildiyindən "təyinin mövcudluğunu" alan anlayış kimi çıxış edir. Başqa sözlə, heyvanların xarici görüntüsünün obrazlığının müəyyənliyi olmadığından o yalnız təyin olunan olur, hansı ki, obraz anlayışı ilə ifadə olunur.

Makroorqanizmlər üzvlərin biri-birinə münasibətinə görə özü-özündə iki böyük qrupa ayrılır:

Üzvü qurulmuş, üzvlərə ayrılmış, yəni təşkilatlanmış və üzvləri özündən ayrılmış canlılar: Bu sıranı təşkil edən canlıları **bitkilər** kimi qavrayırıq. Canlıların təşkilatlanması, yəni üzvlərə ayrılması və üzvlərin biri-birindən ayrılması bitkinin həyat fəaliyyətindən meydana çıxır. Bitkinin həyat fəaliyyəti mürəkkəb bioloji hərəkətliliyin şərtlərinin biri-birindən ayrılıqda mövcud olması ilə fərqlənir. Yəni təzahür formasına görə ayrı-ayrı bioloji hərəkətlər bitkilərdə eyni bir bioloji hərəkəti təşkil edirlər. Yəni bitkilərə xas müxtəlif bioloji hərəkətlər biri-birindən ayrılıqda təzahür etdiyindən, bir-birindən ayrılan müxtəlif orqanik formalar - üzvlər yaradır. Buradan da bitkinin mövcudluğu ayrılıqda mövcud olan üzvlərin zəruri şərtlərinin məcmusundan ibarət olur. Yəni bitki mürəkkəb mövcudluğa malik ikincili mövcud varlıqdır, hansı ki, özünədək mövcud olan mikroorqanizmlər və ibtidailər bundan fərqli olaraq sadə mövcudluğa malik canlılar kimi mövcud varlıqlar kimi çıxış edirlər.

BİTKİLƏRİN MÖVCUDOLMASI

Bitkilər - həyat fəaliyyətinin paylandığı üzvlərinin biri-birindən ayrılıqda mövcud olmasının şərtlərindən ibarət ali canlılardır. Yəni bitkilərdə təşkilatlanma həm üzvlərə ayrılma kimi, həm də üzvlərin bir-birindən ayrılması kimi baş verir. Hər bir bitki böyümə və artma fəaliyyətinin forması kimi orqanizmdən, çoxalma fəaliyyətinin forması kimi toxumdan ibarətdir, hansı ki, toxum yalnız bitki orqanizmindən

ayrılıqda ayrıca bitkinin bədən üzvü kimi müstəqil mövcudluq olur. Toxumun bitki orqanizmi ilə vəhdəti meyvə kimi təzahür edir. Meyvə - bitki üzvlərinin biri-birinə keçid vəziyyəti, yəni orqanizmi ilə toxumunun keçici vəhdəti kimi mövcuddur. Buna görə də, meyvə özü-özündə nə orqanizm, nə toxumdur. Buradan da meyvə də keçici üzv kimi qavranılır. Meyvə - bitkinin mahiyyətinin ondan keçib toxumda potensial varlıq təşkil etməsində forma kimi heçlikdir. Buna görə də toxum və bitki orqanizmi bitki üçün daimi mövcudluq, meyvə isə keçici mövcudluq formasıdır. Meyvənin keçiciliyinin şərtləri geoloji orqanizmin təsadüfə görə şərtlərindən çıxır, hansı ki, mövsüm kimi qavranılır. Bitki orqanizmi və toxum meyvədən fərqli olaraq keçici olmadığından, mövsümdən asılı olmayaraq mövcud olur.

Bitkinin çoxalmasının onun artma və böyüməsindən ayrılıqda mövcud olmasından bitkilərin yayılması meydana çıxır. Yayılma metafizikada eyni bir varlığın eyni anda müxtəlif yerlərdə olmasının, bitkilərin xüsusi mövcudluğunda təkliyin çoxluqda mövcudolma üsulu kimi təzahür edir. Bitkilərin yayılması bitkilərin məkanda xarici hərəkətlilik kimi təsadüfi şərtlərin məcmusunu özündə təqdim edir. Bitki üzvlərinin bir-birindən ayrılması üzvlərin biri-birinə nisbəti kimi meydana çıxır. Ayrılma məkanda məsafə qət etməni, yəni məkanın bir nöqtəsindən başqa nöqtəsinə keçmə hərəkətini - mexaniki hərəkəti bildirir. Qeyri-üzvi aləmdə mexaniki hərəkət "bir cismin nisbi sükunətdə olan başqa cismə nisbətən məkanda yerdəyişməsi" kimi təyin olunur. Buradan da bitki üzvlərinin biri-birindən ayrılması üzvlərdən birinin nisbi sükunətdə, digərinin ona nisbətdə yerdəyişməsindən ibarətdir. Bitkinin nisbi sükunətdə olan üzvü orqanizmi, ona nisbətdə hərəkətdə olan üzvü toxumdur.

Bitki orqanizminin nisbi sükunətdə olması özündə **bitmə** anlayışı ilə ifadə olunur. Bitmə - bitki orqanizminin konkret mühit və şəraitdə, geoloji orqanizmdə nisbi sükunətin şərtlərinin məcmusunu ifadə edən

anlayışdır. Burada nisbi sükunət bitki orqanizminin bir hissəsinin - torpaqdan yuxarıdakı hissəsinin, yəni gövdəsinin nisbi hərəkətdə olmasını özündə ifadə edir. Yəni bitki orqanizmi kök kimi sükunətdə, gövdə kimi nisbi mexaniki - xarici hərəkətlilikdədir. Buradan da, bitki orqanizminin nisbi sükunəti nisbi hərəkətlə vəhdətdə meydana çıxır, hansı ki, toxuma nisbətdə mütləq sükunət kimi qavranılır. Bitmə - bitkinin məkandan asılılıq şərtlərinin məcmusundan ibarətdir. Hansı ki, hər bir bitki bitdiyi yerin şərtlərindən asılı olaraq canlılıq - həyat əldə edir.

Haşiyə: Hegel: "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Bitki - özündəolmayan varlıq kimi, əlavə olaraq mahiyyətini təşkil etdiyi öz üzvlərinə bölünən - fərddir."*

Əslində Hegelin bitkilər haqqındakı fikirləri elə-belə ali faktiki canlılığa aiddir, hansı ki, faktiki canlılıqda mahiyyət yoxdur, onların mahiyyəti növdədir, buradan da "özündəolmayan varlıq" kimi mövcuddurlar. Heyvanlardan fərqli olaraq bitkilər yalnız öz daxilindən keçib nəslində davam edən mahiyyət kimi yox, həm də onun faktiki mövcudluq formalarından keçib gedən öz xüsusi mahiyyətinə malikdir. Məsələn, hər hansı bir bitki həm toxum, həm meyvə, həm orqanizm formalarında faktiki mövcudluq kimi çıxış edir. Buradan da, hər bir bitkinin anlayışı onun həm meyvəsini, həm toxumunu, həm də orqanizmini ifadə edir. Yəni həm meyvə, həm toxum, həm də orqanizm eyni bir bitkini özündə təqdim edir. Buradan da "mahiyyətini təşkil etdiyi öz üzvlərinə bölünmə" kimi fərdilik meydana çıxır. Bitkinin toxumu onun potensial mövcudluğundan, meyvəsi və orqanizmi onun aktual mövcudluğundan ibarətdir.

Bitkilər təkamül prosesində mikroorqanizmlərlə heyvanlar arasında müstəqil sıra təşkil edir. Bununla da bir tərəfdən özlərində mikroorqanizmlərə xas keyfiyyət, digər tərəfdən heyvan orqanizmlərinə xas əlamət daşıyırlar. Belə ki, bitkilər də bilavasitə mikroorqanizmlər

kimi geoloji orqanizmlə qarşılıqlı mübadilə prosesində qeyri-üzvi maddələrdən üzvi maddələr sintez edir. Məsələn: fotosintez bu cür proseslərdəndir. Belə ki, mikroorqanizmlərin qeyri-üzvi maddələrdən sintez etdiyi daha sadə quruluşlu üzvi maddələr bitkilərin materialını, bitkilərin qeyri-üzvi maddələrdən sintez etdiyi üzvi maddələr heyvan orqanizmlərinin əsasını təşkil edir. Bitkilər bir-birindən ayrılan üzvlər kimi mövcud olduğundan üzvlərin hər birindən və həm də onların məcmusundan təkcə formada təzahür edən ümumi, tam kimi meydana çıxır.

Bitkilərdə həyat müstəqil mövcudluq formasına malik bir-birindən fərqlənən və eyni zamanda ardıcıllıqla biri digərindən əmələ gələn, bununla da qapalı dövran təşkil edərək təkrarlana-təkrarlana özündə növün ümumi həqiqətini aydınlaşdıran mövcudluq formasıdır. Belə ki, hər bir bitki toxumdan, bitki orqanizmindən və meyvədən ibarət hissələrə bölünmüş üçlüyü özündə təqdim edir. **Toxum** - bitki orqanizmi ilə dolayı - meyvə ilə əlaqələnmiş və müstəqil potensial həyata malik bitkinin başlanğıcını özündə saxlayan bitki üzvüdür. **Bitki orqanizmi** öz növbəsində bir-birindən ayrılan amma biri-birindən aralanmayan, bir-biri ilə bilavasitə bağlı bir tam kimi funksional asılılıqda olan hissələrdən - kök, gövdə, yarpaqlardan ibarət mövcudluğudur. Hansı ki, özündə toxumda saxlanan başlanğıcı inkişaf etdirərək onu konkret forma kimi təzahür etdirir. Bitki orqanizminin üzvlərə ayrılmasından iki cür daimi və müvəqqəti-mövsümü üzvlər meydana çıxır. Bitki orqanizmində kök və gövdə daimi, yarpaqlar mövsümü üzvlər kimi mövcuddur. **Meyvə** - bitkinin nəticə kimi son forması olub, öz bilavasitə mahiyyətini özü ilə bağlı təzahür etdirdiyi keçid üzvüdür.

Bitkinin digər bir xüsusi əlaməti öz üzvlərinin fərqli məkan və zaman şərtlərində mövcud olmasıdır. Buradan da bitki sanki fərqli faktiki mövcudluqların məcmusu kimi qavranılır. Belə ki, bitki orqanizmi bitkinin həyatını özündə davamlı təzahür etdirir, meyvə yalnız mövsümü

həyat əldə edir, toxum isə "indi və burada" prinsipi ilə mövcud olan bitkinin həyatı ilə heç bir əlaqəsi olmayan müstəqil şəkildə ondan kənarda həyatı potensiya kimi mövcud olur. Buradan da, bitkinin "özündə olmamaq" və "hissələrinə bölünmə" xarakteristikası yaranır. Bitki müstəqil həyata, formaya və zamanla fərqli şərtlənməyə malik hissələrə bölündüyündən heç bir bitki orqanizmi bilavasitə özündə tam ümumi həyatını təqdim etmir. Buna görə də, bitkilərin faktiki mövcudluğundan onların ümumi həqiqətini aşkarlamaq mümkün deyildir.

> ***Haşiyə:*** *Hegel - Bitkinin obyektivləşdirilməsi təmamilə formaldır, bu həqiqi obyektivlik deyildir: bitki ümumiyyətlə xarici inkişaf edir, həm də individum kimi onun tamlığını saxlayaraq yeni individin üzərinə daima qoymaqla həyata keçirilir.*

Hegelin fikirlərindəki "bitkinin obyektivləşdirilməsinin formallığı" fikri özündə hansı mənanı ifadə edir? Obyektivlik - sabit zəruri şərtlərdə mövcudluğu özündə ifadə edir. **Obyektivliyin iki mühüm predikatını ayırd etmək olar:**

a. Özü ilə eynilik təşkil etmək və buna görə də özündən fərqliliyi itələmək.

b. Burada və indi prinsipi ilə mövcud olmaq.

Buradan da bilavasitəlik meydana çıxır, hansı ki, obyektin təcrübədə subyektə təqdim olunmasını ifadə edir. Beləliklə, obyektiv mövcudluq - zəruri şərtlərdə mövcudluq kimi burada və indi prinsipi ilə mövcud olur. Canlılar dəyişən zəruri şərtlərlə mövcud olduğundan və keçmiş burada, indi burada, gələcək buradanın məcmusu prinsipi ilə mövcud olduğundan, obyektivlikdən məhrumdur. Yəni canlılar özü-özü ilə fərqlilik təşkil edən və özündə eynilik saxlamayan, buna görə də özündən fərqlilik itələmək imkanı olmayan, yəni bilavasitəlikdən məhrum mövcudluqdur. Buna görə də, canlıların obyektivliyi yalnız formal - subyekt tərəfindən ona verilən mücərrəd - obyektivlikdən ibarət olur.

Hansı ki, canlının fərqliliyinin itələnməsi ilə özü ilə eyniliyini və burada və indi prinsipi ilə mövcudluğunu bilavasitə konkret faktiki canlıdan yox, növdən mücərrədləşdirmə yolu ilə əldə edilən təsəvvürlərdən alır. Buradan da bitki burada - konkret sabit məkan şərtlərində mövcud orqanizasiya kimi və vaxtda - keçmiş, indi, gələcəyin vəhdətində - mövcud varlıq kimi təyin oluna bilər.

Bitkilər ikincili mövcudluqlar kimi xarici təsirlərə əks təsiri **cavab** kimi təzahür edir. Bitkilərdə əks təsirə verilən cavab sadə cavabdır. Sadə cavab bitkilərin də hissə malik olmasını təsdiq edir. Bitki hissiyyatı heyvani hissiyyata görə sadədir. Öz təbiətinə görə daha çox təsir-əkstəsir əlaqəsinə yaxındır. Bitkilərdə xarici təsirlər bitki orqanizmində qıcıq yaradır, amma bitki bir-birindən ayrılan üzvlərə bölündüyündən ayrı-ayrı üzvlərə təsir digərlərinə ötürülmür, buna görə də qıcığın impulsa çevrilməsi istisna olunur. Yəni xarici təsir bitkinin bütün üzvlərinə yayılmır və cavab qıcıq nahiyəsində təsirə məruz qalan ayrıca üzvdə cavaba səbəb olur. Bu da bitkilərdə hissiyyatın olmaması kimi qavranılır.

Bitkilərin çoxalması faktiki canlılığın iki əks cinsə ayrılması və ayrılmış cinslərin yenidən bir-biri ilə birləşərək yeni başlanğıc təşkil etməsinin şərtlərinin məcmusundan ibarətdir. Buradan da cinslərə ayrılmanın bitkinin çoxalma fəaliyyətinin forması kimi meydana çıxdığını deyə bilərik. Yəni cinslərə ayrılma çoxalmanı yox, çoxalma fəaliyyəti cinslərə ayrılmanı şərtləndirmişdir. Buradan da çoxalma cinslərə ayrılmadan əvvəl xalis hərəkətlilik kimi metafizik hadisədir. Yəni hər bir canlı çoxalma prosesində yaranır. Yaranmış canlı artma və böyümə ilə əmələ gəlir. Buradan da canlıların metafizik proseslə təbii prosesin vəhdəti kimi təsəvvür etmək lazım gəlir. Bunu necə izah etmək olar? Metafizikaya xas çoxtəbiətlilik təbiətə keçiddə çoxluqda təktəbiətliliyə keçir. Buradan da, faktiki canlının cinslərə ayrılması baş verir. Yəni mümkünlüyün birincili mövcudluqlarda mövcudluq tələbinin təmin edilməsi şərtlərində faktiki canlının mövcudluq şərtləri ümumi

şəkildə mümkünlüyün varlığına verilir və meydana çıxan faktiki canlının mövcudluğunda mümkün varlığa ümumi şəkildə verilən şərtlər mövcud canlı varlıqda eyni zamanda eyni varlıqda, amma başqa faktiki mövcudluq kimi meydana çıxır. Yəni, metafizikada eyni zamanda bir yerdə olan əkslik, ikincili mövcudluqlarda eyni zamanda, bir-birinə əks eyni bir faktiki mövcudluq kimi meydana çıxır. Yəni canlının faktiki mövcudluğu ikilikdə təzahür edir. Buradan da faktiki canlılığın təkliyi istisna olunur. Yəni ayrılıqda nə erkək, nə də dişi canlı mövcud ola bilmir. Biz bunu canlıların **cinslərə ayrılması** kimi qavrayırıq. Cins eyni bir faktiki mövcudluğun biri-birinə əks predikatda mövcud olmasıdır, hansı ki, hər ikisindən fərqliliklərin kənarlaşdırılması ilə onların faktiki canlılığının təsəvvürü yaradılır. Məsələn, dişi şirlə erkək şirin faktiki mövcudluqlarının ikisi birlikdə ümumi şirin formal mövcudluğunu yaradır, hansı ki, həmin formal mövcudluq faktiki erkək və dişidən biri-birinə əkslik edən keyfiyyətlərin aksidensiya edilməsi ilə əldə edilir. Buradan da cins faktiki canlıya münasibətdə aksidensivlik kimi təzahür edir. Ona görə də bütün bitki və heyvanlarda erkək və dişi kimi eyni cinslər ayırd edilir. **Bitkilərin cinslərə ayrılması iki cürdür: Birincisi,** özü-özündə cinslərə ayrılma. Buradan meyvəli bitkilər təyin olunur. Özü-özündə cinslərə ayrılma çiçək formasında təzahür etdirir. Beləliklə çiçək bitkinin çoxalma üzvü kimi qavranılır. **İkincisi,** özündən cinslərə ayrılma: bu zaman eyni bir bitki orqanizmi iki müxtəlif cins kimi mövcud olur, buradan dənli bitkilər kimi qavranılır. Bitkilərdə cinslərə ayrılma dişicik və erkəkcik kimi meydana çıxır və bu iki əks cinsin qarşılıqlı əlaqəsində müstəqil həyat qabiliyyətinə malik və özündə potensiallıq saxlayan toxum əmələ gəlir. Toxum bitkinin təbii başlanğıcıdır, hansı ki, metafizik başlanğıcı özündə refleksiya edir.

Üzvlərin orqanizasiyada iştirakına görə bitkilər öz növbəsində bir neçə qrupa bölünür:

a. İbtidai bitkilər: Üzv kimi mövcud olan bitkilər - mamırlar və şibyələr aiddir. Bu cür bitkilərin gövdəsi, kökü olmur. İbtidai bitki yalnız yarpaqlardan ibarət olur. Yarpağın bu cür müstəqil formada təzahürü göstərir ki, bitkinin ən ümumi həqiqətini yarpaq özündə aydınlaşdırır. Bunun səbəbi yarpağın geoloji orqanizmlə üzvi aləm arasında mübadilə vasitəsi kimi çıxış etməsidir. Belə ki, qeyri-üzvi maddələr günəş işığının təsiri ilə yarpaqda üzvi maddəyə çevrilir, yalnız bundan sonra yaranmış üzvi maddələr bitkinin digər hissələri tərəfindən mənimsənilir.

b. Otlar: Yalnız kök və yarpaqlardan ibarət olan bitkilərdir. Otların forması göstərir ki, yarpaqlardan sonra köklər bitkinin həqiqətini özündə aydınlaşdırır.

v. Kollar: Birbaşa kökdən ayrılan çoxlu gövdədən, kökdən, yarpaqlardan və meyvədən ibarət bitkilər. Kolların forması göstərir ki, bitkilərin xüsusi həqiqəti meyvənin formasında aydınlaşır.

q. Ağaclar: Üzvlərə ayrılmış və üzvləri biri-birindən ayrılmış bitkilərin son formasını ağac kimi təyin edirik. Ağaclar özlərində bitkinin ən ümumi həqiqətini aydınlaşdırır.

Üzvlərə ayrılma həm də üzvlərin biri-birinə görə iyerarxiyasını meydana çıxarır. Buradan da iki cür üzv aşkarlanır:

a. Əsas üzvlər və ya daimi üzvlər: Bu elə üzvlərdir ki, onların ayrılıqda ölümü faktiki bitki orqanizminin məhvinə səbəb olur. Bura bitki orqanizmində kök və gövdə, toxum aiddir.

b. İkinci dərəcəli və ya mövsümü üzvlər: Bu elə üzvlərdir ki, onlar mövsümü olaraq meydana çıxır, müəyyən funksiyanı yerinə yetirdikdən sonra məhv olur və onun məhv olması faktiki bitkinin ölümünə səbəb olmur. Bura çiçəyi, yarpaqları və meyvəni aid etmək olar. Əsas üzvlərlə keçici üzvlər faktiki bitkidə keçici vəhdət təşkil edirlər. Beləliklə, faktiki bitki daimi və keçici vəhdətin şərtlərinin məcmusu kimi mövcud olur.

HEYVANİLİK

Qurulması və təşkilatlanması başa çatmış, yəni üzvlərə ayrılmış, amma üzvləri biri-birindən ayrılmamış, başqa sözlə bir-biri ilə üzvi vəhdətdə olan ali orqanizmləri biz **heyvanlar** kimi təyin edirik. Heyvanlar bitkilərdən üzvə ayrılmanın üzvi vəhdətdə olması ilə fərqlənir. Buradan da, heyvanları özü-özündə üzvlərə ayrılma ilə meydana çıxan canlı kimi təyin etmək olar. Bioloji hərəkətlərin - artma, çoxalma və böyümənin bir-biri ilə əlaqələnmiş şəkildə eyni bir orqanizmdə mövcudluq üsulu kimi çıxış etməsi heyvaniliyi yaradır. Bitkilərdə üzvlər bir-birindən ayrılmadığından bitkilərə xas bitmə və yayılma şərtləri istisna olunur. Bunun əvəzində bitkilərdə xarici hərəkətlilik daxili şərtlərlə vəhdətdə meydana çıxır, hansı ki, heyvani fəaliyyətin əsasını təşkil edir. Beləliklə, heyvani mövcudluğun zəruri şərtlərini fəaliyyətin şərtlərinin məcmusu kimi təyin edə bilərik. Heyvanlar həyatın heyvanilik xarakteristikasını təqdim edən həyat obrazlarının xüsusi şəkilləridir. Heyvanilik avtonom hərəkətliliyə malik, bitkilərin sintez etdiyi üzvi maddələri təkrar sintez edərək daha mürəkkəb üzvi maddələrdən qurulmanı özündə təqdim edir.

Haşiyə: Hegel: “Fəlsəfi elmlərin ensiklopediyası”

> *“Necə ki bitki özündə-şeyə qədər qalxmağa cəhd edir, iki cür müstəqil qeyri-ideal varlıq əmələ gətirir: bitki və torpaq; bu ikisinin şərtləşdirilməsi heyvanilikdir. Heyvani orqanizm beləliklə, subyektivliyinin ikiqat artmasıdır, bitkilərdə olduğu kimi müxtəlif formalarda yox, belə ikiqatlaşma mövcudluq əldə etməsi kimi. Necə ki heyvanda həqiqi subyektiv vəhdət, xarici cisimdə açılan və sonra qeyri-orqanik təbiətlə, xarici aləmlə bağlanan, özü-özündə formanın sonsuzluğu kimi sadə ruh mövcud olur.”*

Hegelin heyvaniliklə bağlı şərhindəki bəzi fikirləri izah etməklə heyvaniliyin mahiyyətinə çatmağa cəhd edək: Hegelə görə bitki ilə torpağın şərtləndirilməsi heyvanilikdir. Bizə görə geoloji orqanizm kimi

torpaq bitkidə təsadüfə görə şərtlərdə vəhdət təşkil edir və buna görə də heyvan bilavasitə elə-belə torpaqla şərtlənmir. Heyvanın zərurətə görə şərtləri bitkilərin mövcudluq şərtlərindən ibarət olur. Yəni bitkilərin mövcudluq şərtləri heyvanilik üçün zərurətə görə şərt kimi çıxış edir. Amma bundan əlavə heyvanilik xüsusi təsadüfə görə şərtlərin məcmusunda yaranır. Buradan da Hegeldən fərqli olaraq biz heyvaniliyi bitki mövcudluğunun ümumi şərtləri ilə yeni zaman şərtlərinin məcmusu kimi təyin edə bilərik. Beləliklə heyvanilik bir tərəfdən bitki ilə şərtlənir, digər tərəfdən təsadüfə görə şərtlərlə şərtlənir. Buradan da heyvanilik ikiqat subyektivlik kimi yox, yeni subyektivlik kimi meydana çıxır, hansı ki, onun obrazı zamanda özü-özündə dəyişən çoxformalılıqdan subyekt tərəfindən müəyyən olunur. Buradan da heyvanilikdə sadə ruhun mövcudluğu haqqında Hegelin fikirləri ilə razılaşmaq olmur. Hegel məhz ikiqat subyektivliyə görə - dərk edən insanın subyektivliyi və dərk olunan heyvanın subyektivliyinə görə - heyvanla ruhlu insanı aşağı səviyyədə eyniləşdirir, buradan da heyvanda sadə ruhun mövcudluğunu qəbul edir. Forma heçlik olduğundan, Hegelin "formanın sonsuzluğu kimi sadə ruh" ifadəsi özündə heçliyin sonsuzluğu kimi ruhun heyvanda olmasını izhar edir. Bu da heyvandakı sadə ruhun heçlik olmasını özündə ifadə etmiş olur. Heyvanda sadə ruhun olması heyvanilikdə təşkilatlanmanın ideal formada təzahürü ilə bağlıdır, hansı ki, qarşılıqlı əlaqəlilik və paralel inkişafla xarakterikdir. Bitkilərdə üzvlərə ayrılma həm də bir-birindən ayrılma kimi baş verdiyindən bir üzvün fəaliyyəti ondan ayrılmış üzvə verilməsi istisna olunur. Heyvanlarda əksinə bir-birindən ayrılmış üzvlər üzvi vəhdət təşkil etdiyindən bir üzvün fəaliyyəti başqa üzvə ötürülür və fəaliyyət digər üzvün formasına uyğun dəyişilir, yəni fərqli formada davam edir. Fəaliyyətin bu cür daxildə ötürülməklə forma dəyişilməsinə məruz qalması xüsusi daxili şərtlərin məcmusu kimi aktuallaşır, hansı ki, səbəbi daxili yox, üzvi fəaliyyətin səbəbi kimi xaricidir. Buradan da

heyvanlarda sadə ruhun - "heyvan orqanizmlərinin ayrı-ayrı konkret subyektivliyi olması" - haqqında Hegelin fikirləri inkar olunur.

Ağacların əmələ gəlməsi ilə bitki həyatında gövdənin xüsusi həqiqəti özündə aydınlaşdırması gövdənin əhəmiyyətini artırır. Obrazlı olaraq heyvanlar yalnız gövdədən ibarət və özü-özündə üzvlərə ayrılmış və üzvi vəhdətdə olan "bitkilər" kimi yaranır. Tək bir gövdə - heyvani bədən - heyvanları ayrılıqda özlərində orijinal həqiqəti aydınlaşdırdığını göstərir.

Haşiyə: Hegel: "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Orqanik fərdilik subyektivlik kimi mövcud olur, belə ki obrazın müstəqil xarici görünüşü üzvlər formasında idealizə olunur və orqanizm öz prosesində daxildə özü-özündə məxsusi birliyini saxlayır. Bu heyvani təbiətdir, hansı ki, həqiqətdə və özü-özündə subyektiv ümumiliyin mövcudluğudur."*

Hegelin fikirlərindəki ifadələr hansı mənanı verir?

a. Orqanik fərdilik subyektivlik kimi mövcud olur: Nə üçün orqanik fərdilik subyektivlik kimi mövcud olur? Biz subyektivlik anlayışının mənalarını yuxarıda qeyd etmişdik. Orqanik fərdilik iki anlayışdan - orqanik və fərdilik anlayışlarından ibarətdir. Orqanik olmaq qurulma və təşkilatlanmanın məcmusu deməkdir, hansı ki, bitkilərdə də orqaniklik aşkarlanır. Fərdilik faktiki tam canlı kimi mövcudolmanı göstərir. Və cinslərə ayrılma zamanı qeyd etdik ki, cinslərə ayrılma ilə heç bir faktiki fərdilik özündə tam faktiki canlını təqdim etmir. Buradan da, heyvani faktiki mövcudluğun formal fərdilik olduğunu və onun faktiki fərdiliyinin yalnız subyekt tərəfindən müəyyən edildiyini, yəni mücərrəd olduğunu deyə bilərik. Bu mənada heyvanların orqanik fərdiliyi yalnız formal olaraq subyektivlik kimi mövcud olur. Hansı ki, formal mövcudluq faktiki mövcudluğu müəyyən etmir, sadəcə təyin edir. Buradan da, orqanik fərdiliyin xarici müəyyənlik olduğundan, onun subyektiv təyin olunmasına görə subyektiv mövcudluq, yəni ruha malik varlıq olmasını demək mümkün deyil.

b. Obrazın müstəqil xarici görünüşü üzvlər formasında idealizə olunur: Obrazın müstəqil forması yalnız bitkilərdə üzvlər formasında idealizə olunur. Yəni, biz eyni bir bitkini ya toxumundan, ya meyvəsindən, ya orqanizmindən aşkarlaya bilərik. Məsələn, "alma" anlayışı həm alma ağacını, həm alma meyvəsini, həm alma toxumunu özündə idealizə edir. Amma "şir başı" və ya "şir ürəyi" anlayışı özündə şiri yox, konkret üzvü idealizə edir. Yəni "şir ürəyi" şir kimi yox, "ürək" kimi idealizə olunur və burada şir aksidensivlik kimi çıxış edir. Ürək isə substansiya kimi özündə ayrıca üzvün mahiyyətini ifadə edir. Digər tərəfdən obrazın müstəqil xarici görünüşü özü-özündə fərqlilik kimi yalnız növ kimi idealizə olunur, hansı ki, faktiki fərdiliyə görə formal fərdilikdir. Məsələn, biz şiri onun başı, ayağı və ya ürəyinə görə təyin etmirik. Biz döl vəziyyətindən yetkin formayadək inkişafda olan şirin varlığını şir kimi təyin edirik. Bunun əksinə olsaydı, üzvlərə ayrılmamış döl vəziyyətindəki şir kimi aşkarlamamalıydıq.

Bitkilərdə olduğu kimi heyvanlarda da üzvlərə ayrılma bioloji hərəkətliliyin vacibliyi ilə bağlı iyerarxiyaya məruz qalır. **Nəticədə heyvanlarda iki cür üzvlər aşkarlanır:**

a. Həyati vacib üzvlər: Bura o üzvlər daxildir ki, onların ayrılıqda ölümü orqanizmin ümumi ölümünə səbəb olur. Bura beyin, ürək, qaraciyər, böyrək, mədə-bağırsaq aiddir.

b. Həyati vacib olmayan üzvlər: Bura elə üzvlər aiddir ki, onların ayrılıqda ölümü ümumi orqanizmin ölümünə səbəb olmur. Bura hərəkət orqanları, çoxalma orqanları, endokrin vəzlər və s. orqanlar aiddir. Həyati vacib orqanların vəhdəti daxili totallıq, həyati vacib orqanlarla həyati vacib olmayan orqanların vəhdəti ümumi totallıq təşkil edir.

Haşiyə: Hegel: "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Heyvan orqanizmi formanın o fərqliliklərinədək inkişaf edib ki, hansı ki, yalnız onun orqanları kimi mövcud olur, onlara görə o subyektiv olur. Həyatilik təbii təzahür kimi qeyri-müəyyən çoxlu*

canlı varlığa parçalanır, hansı ki, ancaq özü-özündə subyektiv orqanizmlərdən ibarətdir; yalnız ideyada onlar bir həyatı, həyatın bir orqanik sistemini təqdim edirlər."

Hegelin heyvan orqanizmi ilə bağlı fikirlərini bir qədər dəqiqləşdirək. Orqanlar faktiki heyvanların çoxluğunda təklik kimi mövcud olduğundan subyektiv deyil. Məsələn, insan qaraciyəri bütün faktiki insan varlıqları üçün eyni mücərrəd quruluşa və eyni funksiyaya malikdir. Yalnız insanların orijinallığı ilə bağlı konkret olaraq bir-birindən fərqlənir. Buradan Hegelin orqanların subyektiv olması fikri orqanların konkretliyinə aiddir, hansı ki, həqiqət yalnız mücərrədlikdən aşkarlanır. Buradan da orqanlar subyektiv olmur. Ümumi həyat özündə bütün canlıların həyatının məcmusu, faktiki canlı isə ayrı-ayrı orqanların məcmusu olduğundan biz ümumi həyatı hər bir orqana yayılmış orijinal həyatın məcmusu kimi təyin edirik. Yəni orqanlar faktiki ayrıca canlılığı təşkil etdiyi kimi, bütün canlılar birlikdə ümumi həyatı təşkil edir. Buradan da həyat kosmosda formal mövcud tək canlı kimi təyin olunur.

HEYVANİLİYİN MÖVCUDOLMASI

Cisimlər sabit kütlə və həcmə, yəni sabit zəruri şərtlərə malik olduqlarından sabit və dəyişməz xassələrə malikdirlər. Bundan fərqli olaraq, canlılar dəyişən şərtlərlə sabit zəruri şərtlərin vəhdətində mövcud olduqlarından onların zərurətə görə şərtləri dəyişkən təzahür edir. Zərurətə görə şərtlərin dəyişilməsinin təzahürü **əlamət** anlayışı ilə ifadə olunur. Beləliklə, əlamət dəyişən təzahürlərdən ibarətdir. Buradan da heyvan zamanın və məkanın müxtəlif yerlərində və vaxtlarında fərqli əlamətlərə malik olur, hansı ki, bütün bu əlamətlərin subyektiv məcmusundan heyvanların ümumi əlamətləri aşkarlanır və buna görə heyvan cinsləri, növləri, sortları bölünür. Əlamət təzahürün zamandan asılılığının şərtlərinin məcmusunu özündə təqdim edir. Buna görə də, canlının ümumi, eyni və sabit əlamətləri yoxdur, onun həyatının konkret

dövründə meydana çıxan zamanla şərtlənmiş dövrü əlamətləri vardır. Buna görə də, xassədən fərqli olaraq əlamətlər - müvəqqəti, qeyri-sabit və dəyişkəndir. Xassə birincili mövcudluğun, əlamət ikincili mövcudluğun təzahür formalarıdır. Xassənin itməsi cismin gerçəkliyinin dəyişilməsinə səbəb olur, amma əlamətin itməsi canlının gerçəkliyinə təsir etmir.

Heyvani mövcudolma bir-biri ilə əlaqələnmiş zərurətə görə dəyişən mürəkkəb şərtlərlə təsadüfə görə şərtlərin məcmusundan ibarətdir. **Bu şərtlərə aşağıdakılar aiddir:**

a. Tələbat: Canlılarda dəyişən şərtlərə uyğun sabit zəruri şərtlərin təmin edilməsi tələbat kimi təzahür edir. Tələbat canlılığın çıxış nöqtəsi olub, indini şərtləndirən keçmişin şərtlərinin məcmusundan ibarətdir. Hansı ki, "burada və indi" prinsipi ilə mövcudluq keçmiş şərtlərin indidə yeni ölçülərdə əldə edilməsini zəruri edir, hansı ki, biz bunu tələbat kimi qavrayırıq. Tələbat özündə bioloji hərəkətliliyin sürəkliliyinin - məkan və zaman şərtlərində dəyişən ölçülüyünə uyğun enerji mübadiləsinin zəruri şərtlərinin məcmusudur. Tələbat müəyyən fəaliyyətin keyfiyyətli həyata keçirilməsinə canlını oyandıran, onda mübadilə və ya konkret fəaliyyət üçün meylləri oyandıran bioloji keyfiyyətdir.

b. Ehtiyac: Tələbatlar ehtiyacları doğurur. Ehtiyac tələbatdan fərqli olaraq özündə maddi şərtlərin məcmusundan ibarətdir. Tələbatın ehtiyaca keçməsi enerjinin kütləyə çevrilməsini özündə refleksiya edir. Hansı ki, ikisi birlikdə canlılığın sürəkliliyinin əsasında durur. Tələbatla ehtiyac bir-biri ilə vəhdətdə təzahür edən heyvaniliyin elə iki şərtlər məcmusudur ki, bunlarsız canlılıq təzahür etmir. Canlılıq dəyişən zəruri və sabit şərtlərin məcmusundan ibarət olduğundan, dəyişən şərtlər sabit şərtlərin elə yenidən ölçülənməsini tələb edir ki, özünün dəyişilməsi ilə vəhdəti davam etdirə bilsin. Məsələn, bir yaşında uşaq zaman şərtlərinə görə iki yaşına keçəndə onun bədəninin zəruri şərtlərinin məcmusu kimi kütləsi və həcmi də buna uyğun ölçülərini dəyişməlidir. Bədənin kütləsinin və

ölçüsünün dəyişilməsi isə keçmişdə mövcud olan kütlə və həcmə indidə əlavə kütlə və məkani ölçülük şərtlərinin verilməsi ilə mümkün olur. Məhz bu yeni ölçülük əldə etmə cəhdinin səbəbini tələbat və ehtiyaclar təşkil edir. Buna görə tələbat metafizik təbiətli olub özündə mümkünlüyün varlığının mövcudluq tələbini refleksiya edir, ehtiyac təbii təbiətli olub tələbata uyğun verilməli olan şərtlərin məcmusunu ifadə edir. Buradan da, canlının həyatının davam etməsi metafizik və təbii təzahür kimi meydana çıxır. Canlıların təsadüfi, yəni dəyişən şərtlərlə şərtlənməsinə görə həyat, yəni yaşama aktı mütəmadi olaraq faktiki canlının məkan ölçülüyünü dağıdır və sonra onu yeni ölçülərdə qurur. Bu dəyişilmələrin əsasında kütlə ilə həcm arasındakı nisbətin şərtlərinin məcmusunun saxlanması durur, hansı ki, bu nisbətin pozulmasında ya kütlə həcmə, ya həcm kütləyə uyğun gəlmədiyindən qurulma prosesi dağılma prosesinə keçir. Bu cür nisbətin şərtləri maddələr mübadiləsi ilə tənzimlənir. Hansı ki, tələbat və ehtiyacların yeni ölçülük tələbinə uyğun şərtlərin verilməsindən ibarət olur. Mübadilə canlıların ikili energetik sistem təşkil etməsinə görə ətrafdan açıq sistemlə əlavə enerji və maddi şey - qida alır, sonra onu qapalı sistemə daxil edərək orqanizmin qapalı tamlığını təşkil edir və əksinə qapalı tamlıqdan enerji və maddə daxildə açıq sistemə keçir və oradan orqanizmdən xaricə çıxarılır.

c. Psixika: Canlılarda üzvlərə ayrılma, ayrılmış üzvlərin üzvi vəhdət təşkil etməsi ilə bir üzvə olan təsir başqa üzvlərə yayılır və eyni bir təsirə müxtəlif üzvlər müxtəlif cavablar verir. Eyni bir təsirə müxtəlif üzvlərin müxtəlif cavablarının şərtlərinin məcmusunu biz psixika kimi qavrayırıq. Psixika bir tam kimi faktiki canlının yaşamasının şərtlərinin məcmusudur. Hansı ki, canlıların fəaliyyətini və istiqamətini təmin edən, onların həyat fəaliyyətinin məhsulu kimi təzahür edir. Canlılar tələbatların təsiri altında öz ehtiyaclarını ödəmək üçün məqsədyönlü bioloji hərəkətlilik əldə edirlər. Bioloji hərəkətliliyin tələbatları ödəyəcək şərtləri əldə etməyə istiqamətləndirilməsinin şərtləri psixika kimi təzahür

edir. Canlı orqanizmin xarici aləmlə qarşılıqlı təsirində fizioloji proseslərdən fərqli, amma onlarla şərtlənmiş psixi vəziyyətdir. Psixika canlının daxili və xarici təsirlərə cavab verməklə ona davranış və fəaliyyətdə müəyyən mövqe tutmağı müəyyən edir.

v. İnstinkt: Canlıların fəaliyyəti onların təbiətinə uyğun bir-birindən fərqli iki istiqamətlidir. Birinci istiqamət canlılığa əsas təşkil edən birincili mövcudluğun şərtlərinin təmin edilməsi istiqamətindəki fəaliyyətin şərtlərindən ibarətdir. İkincisi, birincili mövcudluqdan asılı olmayaraq ikincili mövcudluq kimi öz mövcudluğunu təmin edən şərtlərin ödənilməsinə istiqamətlənmiş fəaliyyətdir. Fəaliyyətin bu cür istiqamətlənməsi heyvani instinktlər kimi təzahür edir. Canlılığın əsasının şərtlərinin təmin edilməsinə yönəlmiş cəhdlər özünüqoruma instinkti kimi, yalnız özü-özünün şərtlərini qoruma kimi - nəsilvermə instinkti kimi təzahür edir. Canlılığın özünəxas şərtlərinin təmin edilməsi əsasın dəyişdirilməsi, əvəzlənməsi kimi baş verir. Özünüqoruma isə eyni bir əsasın şərtlərinin təmin edilməsinə istiqamətlənmədir. Buradan da biz xalis canlılığı, yəni birincili mövcudluqdan fikrən ayrılıqda götürülən xalis ikincili mövcudluğu **nəsil** kimi təyin edirik. Nəsli - keçmiş faktiki canlıdan başlayaraq indiki faktiki canlıda davam edən və gələcək faktiki canlıya ötürüləcək bioloji hərəkətliliyin potensiallığı kimi təyin etmək olar. Hansı ki, bu hərəkətin enerji və maddi təminatı nəsilvermə kimi təzahür edir. Buradan da faktiki canlı formal növ formasında mövcudluq kimi aşkarlanır.

q. İrsiyyət: Faktiki canlının formal canlının - növün həqiqətini keçici olaraq özündə təzahür etdirməsi irsiyyət anlayışı ilə ifadə olunur. İrsiyyət özündə formal canlılığın şərtlərinin məcmusundan ibarətdir, hansı ki, faktiki canlıda keçici olaraq təzahür edir və biz bu təzahürləri irsi əlamətlər adlandırırıq. İrsi əlamətlər xüsusi olub yalnız ayrıca canlı növ üçün xarakterikdir. Hansı ki, canlılığın ümumi əlamətləri bütün növlər üçün eynidir, yəni özündə ümumi həqiqətin təzahürü kimi meydana çıxır.

Növ bir faktiki canlıdan digərinə keçməklə təzahür etdiyindən, keçdiyi hər bir faktiki canlıya onun orqanizminin quruluşu və funksiyalaşması haqqında məlumatı verir. Belə məlumatın verilməsi daxildə xüsusi bioloji mexanizmlərlə həyata keçirilir. Daxili ötürülmə qapalı ötürülmə olduğundan ətrafdan ötürülən məlumatlara nisbətən daha az entropiyaya məruz qalır. Nəticədə, canlılar xarici əlamətlərinə görə fərqlənsələr də, daxildə bir-birini irsi məlumat əsasında minillər boyu kopiyalaşdırırlar. İrsi kodlar material formada enqramma - hüceyrə yazısı şəklində bir nəsildən digərinə ötürülür. İrsi məlumat - bioloji yaddaş kimi mövcuddur. Belə yaddaşa növ daxilində faktiki canlı fərd müdaxilə edə bilmir. Yalnız ümumi növün birlikdə ətraf mühitlə uzunmüddətli qarşılıqlı təsirindən bioloji yaddaşda tədrici dəyişilmələr baş verir. Növ - irsi məlumatla canlıların zamanda bir-biri ilə əlaqəsindən, yəni təsadüfi şərtlərin məcmusundan ibarətdir. Beləliklə, hər bir canlı növün substansiyası haqqında məlumat, onu öz daxilində saxladığı həqiqət - irsi kodlaşdırılmışdır. İrsi kodun dağılması ilə konkret növ məhv olur. İrsi əlaqənin ötürülməsi nə şəraitlə cisimlərdə olduğu kimi, nə mühitlə canlıların digər əlamətlərində olduğu kimi yox, üzvi maddə ilə orqanizmin elə qarşılıqlı əlaqəsində yaranır ki, bu zaman başlanğıc material həyat haqqında informasiyanı özü ilə yeni nəsilə verir və varlığın növünün həyatının təkrar yaşamasını təmin edir. Buradan da, can sırasının mövcudluq üsulu - özündən olanla həyatı əbədiliyədək davam etdirmə cəhdi meydana çıxır. Canın mövcudluq aktı kimi təzahür edən həyatın cismin mövcudluq aktından mühüm fərqi özündə özündən ayrılaraq müstəqil davam edəcək akt yaratmasıdır. Cisimlər mövcudluq aktını özlərindən kənarda yenidən yaradıb təkrarlamaq xassəsinə malik deyil. Canlı mövcudluq mürəkkəb şərtlərdən təşkil olunduğu kimi özündə mürəkkəb ideya kimi mövcudluqdur.

Haşiyə: Hegel “Fəlsəfi elmlərin ensiklopediyası”

> *"Orqanizmə baxılmalıdır: birincisi, individual ideya kimi, hansı ki, özünün prosesində yalnız özü-özünə aiddir və öz daxilində özü-öz obrazı ilə qovuşur; ikincisi, öz başqasına, öz qeyri-üzvi təbiətinə onu özü-özündə ideal hesab edənə aid olan ideya kimi - assimilyasiya; üçüncüsü, başqasına aid olan ideya kimi, hansı ki, canlı individdir və beləliklə başqa özü-özünə aid olan kimi - növ prosesi."*

Hegelin orqanizm haqqındakı şərhindəki ayrı-ayrı fikirləri şərh etməklə heyvani mövcudluq haqqında ümumi fikrə gəlmək olar.

1. Özü-özünə aid individual ideya: Faktiki canlını özündə ifadə edən ideya individual ideyadır. Faktiki canlı özündə heç bir həqiqət ifadə etmədiyindən orqanizmin individual ideyası forma kimi heçlikdən ibarətdir, hansı ki, heç bir mənası yoxdur.

2. Öz qeyri-üzvi təbiətinə aid olan ideya: İkincili mövcudluqlar birincili mövcudluqlar əsasında mövcud olduğundan hər bir canlı orqanizm həm də mexaniki və fiziki şey kimi mövcud olur. Yəni orqanizmin kütləsi və ölçülüyü onun qeyri-üzvi təbiətinə aid olan ideyadan ibarətdir. Məsələn, filin ölçüləri və bədəninin quruluşu fil orqanizminin qeyri-üzvi təbiətinə aid olan ideyanı özündə ifadə edir. Necə ki bu ideya qeyri-üzvi təbiətə aiddir, canlının özünə münasibətdə yad ideyadır, ona görə də onunla canlını təyin etmək olmaz.

3. Başqasına aid olan ideya: Yuxarıda qeyd etdik ki, canlılıq keçmişin indini, indinin gələcəyi şərtləndirməsi kimi, yəni növ kimi həqiqətdir. Buradan da növün ideyası faktiki canlı orqanizmdən aşkarlanan, amma başqasına - keçmişə və gələcəyə aid olan ideya olur. Beləliklə, üçlü ideyadan ibarət orqanizm özündə məxsus olduğu faktiki canlı haqqında heç bir mənanı ifadə etmir, yəni faktiki canlılıq, yəni canlı individ heçlikdir, mənasızlıqdır.

Biz mövcudolmanı vəhdətin və qarşılıqlı təsir şərtlərinin məcmusu kimi təyin etmişdik. Heyvanlar da mövcud varlıqlar kimi yalnız vəhdətdə və qarşılıqlı təsirdə mövcud olur. Elə-belə təsirlər iki qrupa bölünür:

Heyvani orqanizmə xaricdən təsir və heyvani orqanizmə daxildən təsir. Heyvani orqanizmə xaricdən təsir nəticəsində heyvani orqanizm xarici təsir obyektinə münasibət göstərir: ya ona yaxınlaşır, ya da uzaqlaşır. Beləliklə, xarici təsiri itələmə və cəlb etmə güclərinin məcmusu kimi, ona heyvani əks təsir kimi uzaqlaşma və yaxınlaşma hərəkətləri kimi təyin etmək olar. Daxildən təsir iki cürdür. Birincisi, xarici təsir obyektinin heyvani orqanizmə daxil olmasından sonra orqanizmlə qarşılıqlı təsiri özündə ifadə edir. Belə təsir qidanın və ya zəhərin şərtlərinin məcmusundan ibarət olur. Qida - həyat şərtləri ilə eynilik təşkil edən şərtlərin məcmusundan, zəhər - həyat şərtləri ilə ziddiyyət təşkil edən şərtlərin məcmusundan ibarətdir. Buradan da qidanı daxili cəzbetmə, zəhəri xarici itələmə kimi təyin etmək olar. İkincisi, üzvlərə ayrılmış heyvan orqanizmində üzvlərin bir-birinə təsiri. Belə təsir bir üzvün fəaliyyətinin başqa üzvdə fəaliyyət yaratması kimi meydana çıxır.

HEYVANİ MÖVCUDOLMADA QARŞILIQLI TƏSİR VƏ VƏHDƏT

Heyvani mövcudolmada qarşılıqlı təsir və vəhdətdə mövcudolma özü-özündə iki səviyyəlidir:

1. Özü-özündə vəhdətdə və qarşılıqlı təsirdə mövcudolma - individual mövcudolma: İkincili mövcudluğun birincili mövcudluqla vəhdətdə və qarşılıqlı təsirdə mövcud olmasını biz fərdi heyvani mövcudolma kimi təyin edirik. Belə mövcudolma özü-özündə mövcudolma olub, heyvani orqanizmin ətraf mühitlə vəhdətinin və qarşılıqlı təsirin şərtlərinin məcmusunu özündə ifadə edir və heyvani individ kimi qavranılır.

2. Özü-özündən başqa canlılarla vəhdətdə və qarşılıqlı təsirdə mövcudolma - kollektiv mövcudolma: Özü-özündən başqa canlılarla vəhdətdə və qarşılıqlı mövcudolmanın bir çox formaları vardır:

a. Özü-özündən əks cins kimi öz növündə olan başqa canlılarla vəhdətdə və qarşılıqlı əlaqədə mövcudolmaq: Bu cür mövcudolma heyvani cütləşmə və nəsilvermə şərtlərinin məcmusundan ibarətdir.

b. Özü-özündən öz növündən olan başqaları ilə vəhdətdə və qarşılıqlı təsirdə olmaq: Bu cür mövcudolma növdaxili həyatın şərtlərinin məcmusundan ibarətdir.

v. Özü-özündən başqa növdən olan başqa canlılarla vəhdətdə və qarşılıqlı təsirdə mövcudolmaq: Belə mövcudolma növlərarası bioloji mübarizənin şərtlərinin məcmusundan ibarətdir.

Heyvani orqanizmə təsirləri iki qrupa bölmək olar:

Xarici təsirlər: Xarici təsirlər canlını əhatə edən ətrafdan onun mövcudluq aktına mane və ya kömək olan istənilən şərtlərin məcmusundan ibarətdir. Heyvani mövcudolma - xarici təsirlər kimi geoloji orqanizmin şərtləri ilə başqa canlıların şərtlərinin məcmusundan ibarətdir. Buradan da aşağıdakı təsir formaları aşkarlamaq olar:

A. Cisimlərin canlılara təsiri: Cisimlərin canlılara təsiri özündə cisimlərin cisimlərə təsiri kimi baş verir. Amma canlılar ikili mövcudluq olduğundan cisimlərin canlılara təsirinə əks təsir daxildə birincili və ikincili mövcudluqlara yayılır, nəticədə canlı bir cisim kimi təsirə bərabər və eyni təbiətli əks təsir göstərmir. Yəni əks təsir təsirdən həm kəmiyyət, həm də keyfiyyət dəyişilmələrinə məruz qalır, hansı ki, bu, bir cisim kimi canlıları cisimlərdən təsir və əks təsirə görə fərqləndirir. Əks təsirin kəmiyyət və keyfiyyət dəyişilmələrinə görə cisimlərin canlılara təsirləri cisimlərin cisimlərə təsirlərindən fərqli qanunlara tabe olur. Təsirə əks təsirin kəmiyyət və keyfiyyət dəyişilmələrinə məruz qalmasından əks təsir **reaksiya** kimi meydana çıxır. Məsələn, tutaq ki, havanın hərarəti eyni anda həm cismə, həm canlıya təsir edir. Bu zaman cisimlərdə əks təsir kimi qızma, canlılarda tərləmə meydana çıxır. Qızmanın tərləmədən fərqi özündə canlılığın cisimlərdən fərqini əks etdirir. Reaksiya xarici təsirə fəallıq kimi əks təsir göstərməkdən ibarətdir.

B. Geoloji orqanizmin canlı orqanizmə təsirinin şərtləri: Bu şərtlər iki qrup təşkil edir. *Birincisi,* xarici təsirlər. Biz bu şərtləri canlı orqanizmin mövcudolmasının zəruri şərti kimi təyin edirik. Hansı ki, özü-özündə birincili mövcudluq kimi sabit məkan və zaman şərtlərinin məcmusundan ibarətdir. Geoloji orqanizmin xarici təsirləri aksidensiv şərtlərin - şəraitin və mühitin parametrlərinin şərtlərindən ibarətdir. Bu təsirlərin məcmusu **iqlim** və **landşaft** adlanır. İqlim - şəraitin, landşaft - mühitin ən ümumi məcmu şərtlərindən ibarətdir. Hər bir heyvani orqanizm özünəxas iqlim və landşaft şərtlərində yaşaya bilir ki, bu da heyvani arealı təşkil edir. Hansı ki, heyvani orqanizm yalnız o şərtlərdə ümumi həyatı bölüşdürə bilir. Heyvani orqanizmlə arealın məcmusundan **fauna** - heyvan aləmi meydana çıxır. Fauna bir tərəfdən geoloji orqanizm, digər tərəfdən həmin orqanizmin müəyyən xarici şərtlərində mövcud olan faktiki heyvani çoxluqdan ibarətdir.

Geoloji orqanizmi təşkil edən şərtlərin təsir kimi xaricdən canlı orqanizmə verilməsi - təbii şərtlər kimi - canlı orqanizmin xüsusi hiss üzvləri tərəfindən qəbul edilir. Nəticədə, geoloji orqanizmin təsirləri canlının hiss üzvlərinə uyğun müxtəlif kombinasiyalarda bir neçə yerə ayrılaraq geoloji orqanizmin xüsusi şərtləri kimi çıxış edir. Geoloji orqanizmin xüsusiləşmiş şərtləri konkret canlı orqanizmin hiss üzvlərində - analizatorlarda - analizatorun quruluşunun və təşkilatlanmasının şərtləri ilə vəhdət təşkil edərək **qıcığa** çevrilirlər. Beləliklə, qıcıq - bir tərəfdən geoloji orqanizmin zəruri şərtlərindən, digər tərəfdən analizatorların quruluşunun və təşkilatlanmasının dəyişən zəruri və təsadüfi şərtlərinin məcmusundan ibarət mürəkkəb qarışıq şərtlərdən ibarət olur. Mürəkkəb qarışıq şərtlər əvvəl mövcud olan orqanizmin özü-özündə mövcudluğunun şərtləri ilə summasiya edir, nəticədə də qıcığı qəbul edən canlı orqanizmdə qıcığa qədərki vəziyyət mövcud olandan fərqli yeni daxili bioloji hərəkətlilik yaranır. Belə bioloji hərəkətlilik xarici təsirlərə

əkstəsir kimi müxtəlif forma və üsullarda təzahür edən **cavab** kimi meydana çıxır.

Geoloji orqanizmin canlı orqanizmə xarici təsirindən iki cür cavab yaranır:

İtələmə - uzaqlaşma: Xarici təsirlər canlı orqanizmin qurulmasının və təşkilatlanmasının şərtlərinə zidd olduqda orqanizm xoşagəlməz xarici təsirdən xilas olmaq üçün ondan uzaqlaşır, yəni məkan və zaman şərtlərini dəyişdirir. Məsələn, yüksək hərarət, pis iy, parlaq işıq, yüksək səs-küy, xoşagəlməz tam canlını belə şüalara malik olan şeydən kənarlaşmağa məcbur edir.

Cəlbetmə - yaxınlaşma: Geoloji orqanizmin təsirləri orqanizmin tələb və ehtiyacının şərtlərinə uyğun olduqda canlı məkan və zaman şərtlərini dəyişdirməklə geoloji orqanizmə cəlb edilir, canlı ona yaxınlaşır və onunla maddələr və ya enerji mübadiləsinə daxil olur.

İkincisi, geoloji orqanizmin daxildən təsiri. Biz belə təsiri **substansial təsir** kimi təyin edirik. Daxildən təsir xaricdən təsirdən fərqli olaraq ya canlının geoloji orqanizminin hissəsinin daxilinə keçməsi kimi, ya da geoloji orqanizmin bir hissəsinin canlı orqanizmə daxil olaraq bilavasitə onun daxili mövcudluq şərtlərinə təsir etməsi kimi meydana çıxır. Daxildən təsir xarici təsirdən fərqli olaraq heyvan orqanizmə daxil olan geoloji orqanizmin hissəsinə əks təsirlə müşayiət olunur. Heyvan orqanizminin geoloji orqanizmə daxildən əks təsiri geoloji orqanizmin təsirinə cavab kimi ona doğru hərəkət edib, ona təmas etməsi və onun sərhədlərindən daxilinə keçməyə cəhdi kimi meydana çıxır. Bu zaman canlılar iki üsuldan istifadə edirlər: ya cismin xarici sərhədlərini daxilə doğru basaraq onu əzir, ya da əksinə cismin sərhədlərini xaricə doğru genişləndirərək parçalayır və onun substansial zonasına daxil olmağa cəhd edirlər. Hər iki halda canlı geoloji orqanizmin hissəsinin kütləsi ilə həcmi arasındakı mövcud nisbəti dəyişdirir, hansı ki, heyvani orqanizmə təsir kimi mövcud olur. Geoloji orqanizmin hissəsinin dağıdılması ilə

xaricdən təsir itir. Daxildən təsir bundan fərqli yolla baş verir. Belə ki, ya heyvani orqanizm xarici təsir obyektinin qurulmasını və təşkilatlanmasını pozaraq onun kütləsi ilə həcmi arasındakı nisbəti elə dəyişir ki, ya kütlə həcmdən ayrılır, ya həcm dəyişilir, nəticədə geoloji orqanizm canlı tərəfindən daxilə qəbul edilən vəziyyətə - **assimilyasiya** vəziyyətinə düşür. Assimilyasiya geoloji orqanizmin hissəsinin kütləsi ilə həcminin nisbətinin pozulmasında ona daxildə elə şərtlərin daxil edilməsini özündə ifadə edir ki, xarici şeyin kütləsi daxildə orqanizmin kütləsi ilə vəhdət təşkil edərək yeni ölçülüyə keçir, şeyin əvvəlki həcmi isə heçlik kimi itir. Nəticədə canlı orqanizm geoloji orqanizmin hesabına özünün dəyişən təsadüfi və zəruri şərtlərini yenidən ölçüləndirir. Heyvani orqanizmin geoloji orqanizmi təşkil edən şeylərin həcmliliyini pozması ilə sanki onun mahiyyətini üzə çıxarır. Amma heyvanlarda idrak qabiliyyəti olmadığından xarici geoloji orqanizmin tamlığını pozmağa cəhdlə geoloji orqanizmin təsirinə cavab başa çatır. Bu üsul heyvani "idrakın" mahiyyətini təşkil edir.

C. Canlıların canlılara təsiri: Bura mikroorqanizmlərin, ibtidailərin, bitkilərin və başqa heyvani orqanizmlərin faktiki heyvani orqanizmə xarici təsirləri aiddir.

Mikroorqanizmlərin heyvani orqanizmə təsiri: Mikroorqanizmlərin təsirləri də geoloji orqanizmin təsirləri kimi iki yerə ayrılır. *Birincisi,* heyvani orqanizmin həyat şərtlərinə uyğun təsirlər. Belə təsirlər mikroorqanizmlərlə heyvani orqanizmlərin simbioz həyatının şərtləri kimi mövcud olur. Hansı ki, iki müxtəlif həyat forması bir-birinə qarşılıqlı təsir etməklə həyatı davam etdirirlər. Belə mikroorqanizmlər vegetativ mikroorqanizmlər adlanır. *İkincisi,* təsirinin şərtləri canlı orqanizmin şərtlərinə zidd olan mikroorqanizmlərlə qarşılıqlı təsir. Belə mikroorqanizmlər patogen mikroorqanizmlər adlanır, hansı ki, heyvani orqanizmdə üzvi və ümumi dağılma prosesləri yaradaraq xəstəlik və sonda ölümlə nəticələnir.

İbtidai canlıların heyvani orqanizmə təsiri: İbtidailərin canlı orqanizmə təsiri də mikroorqanizmlərdə olduğu kimi ikilidir. Canlı orqanizmin həyatının şərtlərinə uyğun ibtidailərin təsirləri. Belə təsirli ibtidailər qida kimi mövcud olur. Məsələn, planktonlar balinalar üçün qida rolu oynayaraq onların həyatının sürəkliliyini təmin edir. İkincisi, bəzi ibtidailərin təsiri heyvani orqanizmin həyat şərtlərinə zidd olur. Nəticədə belə ibtidailərin təsirindən xəstəlik və sonda ölüm baş verir. Məsələn, dizinteriya amöbü insan orqanizminə düşdükdə amöblü dizinteriya xəstəliyi yaradırlar.

Makroorqanizmlərin heyvani orqanizmə təsiri: Belə təsirləri də uyğun olaraq iki böyük qrupa bölmək olar. *Birincisi,* bitkilərin heyvan orqanizmlərinə təsiri. Belə təsirlər də ikilidir. Xarici təsiri heyvani orqanizmin həyat şərtlərinə uyğun bitkilərin təsiri. Belə bitkilər konkret heyvan növü üçün qida kimi çıxış edir. Otyeyən heyvanlar məhz qidalandıqları bitkilərin təsiri ilə həyatı davam etdirir. Şərtləri heyvani orqanizmə zidd olan bitkilərin təsiri. Belə təsirinə görə bəzi növ canlılar ya konkret bitki ilə, ya da ümumiyyətlə bitki ilə qidalanmır. *İkincisi,* heyvanların bir-birində təsiri. Belə təsirlər də bir neçə yerə ayrılır.

a. Növdaxili təsir: Növdaxili təsir instinktlərə uyğun iki yerə bölünür:

Birincisi, nəsilvermə instinktinə uyğun cinsi təsir. Belə təsir növ daxilində bir-birinə əks iki cinsin bir-birinə təsir edib yeni nəsil verməsinin şərtlərindən ibarətdir. Canlıların cinsi münasibəti materiyaönü vəziyyətdəki hissəciklərin tabe olduğu qanunlara tabe olur. Eyni cinslər bir-birini itələyir, əks cinslər bir-birini cəlb edir. Əks cinslərin bir-birinə təsiri iki yolla - xarici yolla (cisimlərdə olduğu kimi xüsusi fiziki əlamətlərlə) və daxili yolla (xüsusi iylərin buraxılması ilə) baş verir. Birinci yolla təsirə görə canlıların eyni növündə əks cinslərdə fərqli xarici əlamətlər formalaşır. İkinci yolla təsirdə hər bir cins özünəməxsus xüsusi cinsi hormonlar hazırlayır və həmin hormonlarla bir-birinə təsir edərək

cütləşməyə nail olurlar. Cinsi əlamətlər daxili təsirlərin şərtlərinin məcmusu kimi meydana çıxır. Heyvan orqanizmində üzvlərə ayrılma və üzvi təşkilatlanma nəticəsində bir üzvün fəaliyyəti digər üzvə ötürülür, ya həmin üzvü fəallaşdırır, ya onun formasını dəyişir. Cinsi əlamətlər məhz bu cür forma dəyişdirməklə başlayır, sonra üzvi fəallığa keçir. Üzvi təsir həm də xarici formada əks cinsin heyvani orqanizmə cəlb olunmasına xidmət edir. Əks cinslər ilk növbədə zahiri antropoloji əlamətlərinə görə bir-birindən fərqlənir və bu əlamətlər onları bir-birinə xaricdən təsir kimi cəlb edir. Cəlbetmə - passivliyin şərtlərinin məcmusu kimi dövrü olaraq daxili sekresiya vəzlərinin - cinsi hüceyrələrdə hormonların hazırlanması və ətrafa - bədəndən kənara yayılması ilə cəzbetməyə - aktivliyin şərtlərinin məcmusuna keçir. Nəticədə aşağıdakı mərhələlərdən ibarət proses başlayır: Əvvəlcə cinsi vəzlərdən buraxılan xüsusi efir havaya yayılaraq əks cinslər arasında qarşılıqlı təsir yaradır. Nəticədə onlarda bir-birini cəzb edərək bir-birini axtarmağa, tapmağa və bir-biri ilə cütləşməyə istiqamətlənmiş bioloji hərəkətlilik kimi cavab yaranır. Cütləşmə eyni növ daxilində əkscinslilikdən doğan növdaxili təsirin neytrallaşdırılmasına səbəb olur. Cütləşmə prosesi də geoloji orqanizmin daxildən təsirinə uyğun olaraq bir çox mərhələlərdən keçir. Belə ki, cinsi təsir nəticəsində bir-biri ilə təmas edən cinslər bir-birinin substansial zonasına keçərək, bir-birinin həqiqətinə çatmağa cəhd edirlər. Belə keçid üzvlərə ayrılmış orqanizmin xüsusi üzvləri vasitəsi ilə mümkün olur. Təmas zamanı bədənin müxtəlif hissələri müxtəlif qıcıq göndərərək erkəyin dişinin daxilinə keçməyə istiqamət yaradır. Cütləşmə prosesində təmas halında erkək cütləşmə üzvlərini dişinin daxilinə keçirir. Bu cəhdlərin nəticəsində erkəyin bədənində ifraz olunmuş toxum dişinin bədəninə axır. Dişinin bədəninə axan toxum onun xüsusi fərqli cinsliyi ilə bağlı siqnalları entropiyaya məruz qoyur. Nəticədə dişinin dişiliyini erkəyə çatdıran efir neytrallaşır. Bununla da, erkəyin dişinin daxilinə keçmə cəhdi başa çatır. Dişinin bədənində bir-birinə əks iki hüceyrə -

sperma və yumurta bir-birini cəlb edərək ortaq mövcudluq əldə edirlər, nəticədə mayalanmış hüceyrə meydana çıxır, hansı ki, yeni nəslin başlanğıc şərtlərinin məcmusundan ibarət olur. Mayalanmış hüceyrə özündə hər iki cinsə xas şərtlər daşıdığından nəsilvermə prosesində meydana çıxan yeni nəsil hər iki cinsə təsir edir. Bu təsir şərtlərinin məcmusu heyvanlarda **nəslə qayğını** təşkil edir. Nəslə qayğı hər bir cinsin özü-özünə qayğısı kimi meydana çıxdığından hər iki cins özünüqoruma instinkti ilə yeni nəsli qidalandırır. Nəslə qayğı heyvani cütləşmənin forması ilə şərtlənmişdir. Belə ki, xarici mayalanma üsulu ilə meydana çıxan heyvani orqanizmlərdə nəslə qayğı yaranmır. Yalnız daxili mayalanma ilə yaranan canlılarda nəslə qayğı şərtləri meydana çıxır. Bunun səbəbi xarici mayalanmada xarici şərtlərin mayalanmanın şərtlərini entropiyaya məruz qoyması ilə bağlıdır, hansı ki, yeni nəsildə valideynlər özlərini olduğu kimi görə bilmir. Daxili mayalanma ilə nəsil verən heyvanlarda bala erkəyə nisbətən dişiyə daha güclü təsir edir. Bunun səbəbi dişinin erkəkdən fərqli olaraq bala ilə qarşılıqlı təsirdə olmasıdır. Belə ki, mayalanmada daxili bərabər təsirdə olan erkək və dişi dişinin ana bətnində saxladığı və inkişaf etdirdiyi bala ilə daha uzun müddət təsirdə olması və eyni zamanda eyni məkanı dişinin daxili məkani şərtləri müştərək təşkil etməsi ilə bağlıdır. Bu şərtlərin məcmusu bala və dişi arasında doğuşdan sonrakı qarşılıqlı təsir şərtlərinin əsasını təşkil edir. Məməlilərdə doğuşdan dərhal sonra balalayan ana balanın bədənindən göndərilən siqnallara uyğun ona yaxınlaşır, ona təmas edir. Bala özündən tələbatları ilə bağlı anaya siqnallar göndərir. Ana da o siqnallara uyğun balanın ehtiyaclarını ödəyir. Bəzən mühit bu siqnalların şüalandırılmasını entropiyaya qoyur. Onda ana ilə bala arasında qarşılıqlı təsir baş vermir. Müvafiq siqnallar baladan şüalandıqca bala ilə ana arasında qarşılıqlı əlaqə yaranır. Bala böyüyüb yetkinləşəndə onun cinsi sekresiyası ananın onda olan siqnallarını entropiyaya məruz qoyur. Həmin andan ana bala ilə yadlaşır, ondan ayrılır.

İkincisi, həyatı saxlama instinktinə uyğun qida uğrunda mübarizədə növdaxili təsir. Belə təsir həyatı davam etdirilməsinə kömək edən xarici təsirlərin müştərək olmasında meydana çıxır. Belə ki, eyni qida ilə qidalanan canlı orqanizmlər həmin qidanı əldə etmək üçün bir-birinə təsir edir. Bu təsirlərin məcmusundan növdaxili qida uğrunda mübarizənin şərtləri meydana çıxır. Qida uğrunda mübarizənin şərtləri qidanın və eyni növdən, amma başqasının mövcudluğunun şərtlərinin məcmusundan ibarətdir. Növ daxilində həyatın müştərək davam etdirilməsinin xüsusi forması kimi - heyvani həmrəylik kimi **sürü** meydana çıxır. Sürü hər iki instinktin şərtlərinin məcmusunda birgə yaşayış şərtlərini özündə təzahür etdirir. Heyvanlar qida və ərazi ilə bağlı növdaxili təsir olmadıqda bir-birinə laqeyd qalır. Bu onlara sürü halında yaşamağa imkan yaradır. Sürü heyvanlar aləmində birlikdə yaşamanın xüsusi forması olub, heyvanlarda qeyri-universal və zəif instinktlərdəndir. Xüsusən növlərarası təsirlərə cavab sürü yaratmağı şərtləndirir.

b. Növlərarası təsir: Növlərarası heyvani təsirlər də özlüyündə iki qrupa bölünür. *Birinci növ təsir* bir heyvanın digər heyvan üçün qida kimi şərtlərinin məcmusundan ibarətdir. Belə təsirdən ovçu və ov meydana çıxır. *İkincisi,* eyni qida ilə qidalanan müxtəlif növdən olan heyvanlararasındakı təsir. Belə təsirlər qidanın şərtlərindən dolayı ikincilidir və təhlükə şərtləri kimi mövcuddur. Heyvanların bir-birinə təsirinin məcmusu bioloji mübarizənin şərtləri kimi mövcuddur.

Dinamik özündəşey kimi canlılar müştərək materiya və materiyaönü vəziyyətdə olduğundan hər iki vəziyyətin qanunlarına tabe olurlar.

v. Heyvani orqanizmin özü-özünə daxili təsirləri: Bu cür təsirlər iki cürdür: **a. Üzvlərin bir-birinə daxili təsiri:** Üzvlərə ayrılma və üzvi vəhdət təşkil edən heyvan orqanizmində üzvlər bir-birindən həm formasına, həm də fəaliyyətinə görə fərqlənir. Bu cür fərqlilikdə vəhdət təşkil etmə nəticəsində heyvani orqanizmin daxilində üzvlərin bir-birinə daxili təsirləri meydana çıxır. Belə təsirləri də iki qrupa bölmək olar. *Bi-*

rincisi: bir üzvün digər üzvlə müştərək mövcudolmasına uyğun şərtlərin məcmusundan ibarət təsir. Belə təsirlərin məcmusu orqanik funksiyalaşma kimi mövcud olur, hansı ki, heyvan orqanizminin ümumi mövcud olmasını təmin edir. Məsələn, həzm üzvləri qida ilə bütün üzvlərin qurulması və təşkilatlanması üçün zəruri olan maddələri onlara çatdırır. Əvəzində qan-damar sistemindən öz mövcudluğu üçün lazım olan müxtəlif şirələri, hormonları, oksigeni və s. alır və özündəki ziyanlı təsirə malik maddələri onunla xaricə göndərir və s. Bu cür qarşılıqlı təsirlə bir orqan həm də başqa orqanın formalaşmasına təsir edir. Yuxarıda cinsi üzvlərin digər qeyri-cinsi orqanlara təsir edib cinsi antropologiyanı formalaşdırdığını qeyd etmişdik. *İkincisi,* ziyanlı təsir. Bir orqanın başqa orqanın mövcudluğuna zidd şərtlər təqdim etməsi nəticəsində həmin üzvün ya formasının, ya funksiyasının pozulması müşahidə olur. Bunu xəstəlik kimi qavrayırıq. Xəstəlik - üzvlərə ayrılmış və üzvi vəhdətdə olan heyvani orqanizmdə bir üzvün digər üzvün mövcudluğuna zidd şərtlər verməsi ilə onun formasının və ya funksiyalaşmasının şərtlərini dəyişdirməsindən ibarətdir. Məsələn, mədəaltı vəzin az insulin ifraz etməsi nəticəsində beynin şəkərsiz qalması və şoka düşməsi kimi.

KOSMOSUN QANUNLAR

Təkamül, İrsiyyət və Varlıq Fəlsəfəsi

Beləliklə, faktiki canlı **nəticə**, formal canlı isə **səbəb** kimi çıxış edir. Forma təkliyi, mahiyyət çoxluğu meydana çıxardığından, hər hansı bir növ sonsuz sayda fərqli formalarda təzahür edir.

İrsi Əlaqə Nəzəriyyələri

İrsi əlaqə haqqında üç müxtəlif nəzəriyyə mövcuddur:

a. İrsi qabiliyyətlər irsən verilən nəsil əlamətlərini özündə saxlayır və əcdadlarda olduğu kimi eyni ardıcıllıqla üzə çıxır. Bu nəzəriyyə ikincili mövcudluqların xarici təsir və əlaqələrə reaksiyasını və cavabını nəzərə almır. Halbuki, məhz bu cür xarici təsir və əlaqəyə görə irsən verilən əlamətlər ardıcıllıqla olduğu kimi meydana çıxmır. Yəni formal canlı ilə faktiki canlının vəhdəti eynilik kimi yox, oxşarlıq kimi meydana çıxır ki, bu da **modifikasiyanı** özündə təqdim edir. Yəni eyni formal canlı, dəyişən faktiki canlı ilə vəhdət təşkil edir. Dəyişən forma mahiyyəti əcdadlarda olduğu kimi meydana çıxarmaq imkanına malik olmur. Beləliklə, bu nəzəriyyə ilə tam razılaşmaq olmaz.

b. Nəsil üçün yararlı olanların seçilməsi nəticəsində saxlanması fərd və nəsil üçün bioloji məqsədəyönlülüyə uyğun ardıcıllıqla təzahür edir. "Təbiətdə hər şey dəyişir" prinsipinə görə, dəyişən təbiətin əsasında yaranan canlılıq da əsasda baş verən dəyişilmələrə uyğun dəyişilməyə məcburdur. Buradan da dəyişən növ yox, növün əsası olur. Bu nəzəriyyə heyvani mövcudluğun mahiyyətinə daha yaxındır. Belə ki, növ səbəb, forma nəticədir. Səbəb-nəticə əlaqəsinə görə, heyvanın forma dəyişilmələri özündə növ dəyişilmələrini əks etdirir; hansı ki, növ

dəyişilmələri birincili mövcudluğun dəyişilmələrinə uyğun olaraq növün sabit şərtlərinin əvəzlənməsi kimi mövcud olur.

c. Fərd bütün mərhələləri keçir; ən ibtidaidən başlanır və hər birində ona xas forma reaksiya verir. Bizcə, keçmişin indini şərtləndirməsinə görə bu nəzəriyyə nisbətən həqiqətə uyğun olsa da, indinin gələcəyi şərtləndirməsinə görə dəqiq deyil. Yəni növ keçmişdə, indidə və gələcəkdə olan bütün formalardan keçərək onları şərtləndirən formal canlılıqdır. Əgər forma məhz belə şərtləndirməyə görə bütün mərhələləri keçirsə, onda gələcək mərhələləri də keçməlidir. Heç bir forma gələcək mərhələləri keçməyə məcbur olmadığından (bu yalnız kənara çıxma - anormallıq kimi müşahidə olunur), bu nəzəriyyə irsiyyətin tam mahiyyətinə uyğun deyil.

Ştern: Konvergensiya nəzəriyyəsi

> *" Psixi inkişaf sadə anadangəlməyə qabil deyil. Eləcə də xarici təsirlərin sadəcə qavranması deyil. O, daxili qabiliyyətlərlə inkişafın xarici şərtlərə konvergensiyasının nəticəsidir."*

Bizcə irsi əlaqə konkret bioloji növdə gerçəkləşəcək son həqiqətə istiqamətləndirici və entropiya qanunauyğunluqlarının məlumatlarından ibarətdir. Yəni bir tərəfdən irsi əlaqə individin məxsus olduğu növün inkişafının yolu haqqında məlumatdır. Bu məlumat entropiyadan təmizlənmiş xalis bilgidir - **Heyvani yaddaş**. İkincisi, bu yolda onda aydınlaşan həqiqəti entropiyaya məruz qoyacaq konkret şərtlərdə necə reaksiya vermək haqqındakı məlumatın məcmusudur - **Qoruyucu məlumat**. Burada birinci mütləqdir - keçmişdir və başa çatmış gerçəkliyin məlumatıdır, hansı ki, indini şərtləndirir. Bioloji inkişafın zamandan asılılığına görə əks istiqamətdə getməsi istisna olduğundan, individual həyat ona təsir edə bilmir. Digər tərəfdən, məlumat qapalı və daxili olduğundan, xarici və kənar olanlar ona müdaxilə etmək imkanına malik deyil. İkinci şərtidir - individin düşə biləcəyi təsadüfi vəziyyətlə şərtlənmişdir.

Bioloji varlıqlarda nəsil əlaqəsi həm də irsi informasiya şəklində daxili təsir yaradır. İrsi əlaqə özündən əvvəlki iki əlaqədən daxili və qapalı olması ilə fərqlənir. Daxili əlaqə xarici əlaqəyə nisbətən daha az entropiyaya məruz qalmış məlumat mübadiləsinə əsaslanır. Heyvanların əlaqəsi qapalı sistem daxilində səbəb-nəticə əlaqəsi zənciri kimi **instinktləri** meydana çıxarır. İnstinkt heyvanlarda daxili və xarici təsirlərə nəsli yaşam təcrübəsindən əldə edilmiş cavabların spontan və avtonom meydana çıxmasıdır. İnstinkt birinci siqnal sisteminə aid bioloji təzahürdür.

Ç. Sürü əlaqəsi: Heyvanın xarici mövcud olmasının bir forması sürüdür. Canlılar arasında üçüncü əlaqə növü, ən ümumi keyfiyyətlərdə eyniliyə görə başqa fərqli eynilikdən kollektiv ayrılmadır. Bu, canlılarda sürülərin yaranmasını şərtləndirir. Sürü - növlərarası eyniliklə fərqliliyin şərtlərinin məcmusundan ibarət xarici heyvani mövcudolmadan ibarətdir. Yəni eyni növdən olan heyvanlar sürünün daxili təşkil edən üzvləri, başqa növdən olan heyvanlar isə sürünün xarici vəhdət təşkil edən üzvləri kimi mövcud olur. Sürü həm də növdaxili fərqliliklərlə növlərarası fərqliliyin şərtlərinin məcmusunu özündə təqdim edir. Növdaxili fərqlilikdən sürünün daxili iyerarxiyalaşması baş verir. Yəni heyvani sürü antropoloji, cinsi və yaş fərqliliklərinə görə iyerarxiyalaşır. Beləliklə, sürüdaxili mövcudolmanın şərtləri yaranır. Sürünü biz cəmiyyətin prototipi kimi təyin edirik; belə ki, Ruhun yaranması ilə heyvani sürü insan cəmiyyətinə keçir.

Heyvanlararası əlaqə və əks-əlaqənin mümkün və mövcud olduğu sahə, xüsusi geoloji orqanizmin təşkil etdiyi birincili mühitdən fərqli olaraq **ikincili mühiti** təşkil edir. İkincili mühit heyvani mövcudolmanın sürəkliliyi üçün zəruri şərtlərin - canlıların əmələgəlməsi və təşkilatlanmasının şərtlərinin - məcmusundan ibarətdir. İkincili mühit heyvanların mövcudluqları haqqında məlumatlardan ibarət olub, ətrafa göndərdiyi və başqalarının bu cür siqnallarına verdiyi cavab siqnallarının

məcmusundan ibarətdir. Belə siqnallardan ibarət mühit olmadan canlı mövcudolmanın sürəkliliyi mümkünsüzdür. Mühitin əmələ gəlməsi ilə canlılar cansızlardan, buna paralel olaraq, sahə mühitdən ayrılır. Canlılar yalnız mühitdə mövcud olduqlarından, onlar sahəni və fiziki mövcudluğun fərqində deyillər.

Canlılarda Növlərarası Əlaqə

Canlılarda həm də həyata - ümumi canlılığa görə növlərarası əlaqə mövcuddur. Növlərarası əlaqəyə aşağıdakı formaları aid etmək olar:

a.Simbioz: İki müxtəlif canlının müştərək həyat yaşaması və bu zaman birinin digərinin yaşaması üçün zəruri şərtləri ödəməsi simbioz kimi meydana çıxır.

b.Anabioz: Qarşılıqlı şərtlənmədə bir canlının həyatının digər canlının həyatını inkar etməsi anabioz kimi meydana çıxır.

c.Parazitizm (Parazitlik): Bir canlının həyat fəaliyyətinə görə başqa canlının yaşaması parazitizm kimi meydana çıxır. Parazitizm mövcudolmasının şərtlərinin özündənkənarda olması ilə mövcudolma təşkil edir. Hansı ki, başqa canlı olmadan parazitlər mövcud ola bilmir. Buradan da parazitləri daxili zəruri şərtləri olmayan canlılar kimi təyin etmək olar.

PARABIOZ

Üzvlərə ayrılmış orqanizmdə üzvlərarası əlaqənin xüsusi bir forması **parabioz** hadisəsi kimi təzahür edir. Biz bunu ayrılmış üzvlərarası əlaqə kimi təyin edirik. Üzvlərə ayrılmış canlı orqanizmdə üzvlərin ümumi həyatı bölüşdürərək ayrı-ayrılıqda müstəqil həyata malik olması parabioz kimi təzahür edir. Parabioza görə, rus alimi Virxovun qeyd etdiyi kimi, "hər bir orqan ayrılıqda doğulur, ayrılıqda ölür". Buradan da xronoloji yaşla (orqanizmin yaşı - təsadüfə görə şərtlərin məcmusu kimi) bioloji yaş (üzvlərin yaşı - zəruri şərtlərin məcmusu kimi) arasında fərqliliklər meydana çıxır. Hansı ki, bu orqanik və funksional patologiyanın səbəbi

kimi çıxış edir. Parabioz nəticəsində ikincili üzvlərin ölümü ümumi orqanizmin ölümünə səbəb olmur. Parabiozun tam orqanizmdə şərtlərinin məcmusundan **klinik ölüm** təzahür edir.

CAVAB SİSTEMLƏRİ

Üzvlərə ayrılmış canlılarda xarici təsir üzvlər arasında paylandığı kimi, hər bir üzv ona ötürülən təsirə özünəxas şəkildə cavab hazırlayır. Bu cavabların şərtlərinin məcmusundan **siqnal sistemləri** əmələ gəlir. **Siqnal sistemi** - ali heyvani orqanizmdə təsirin müxtəlif analizatorlar tərəfindən hissə-hissə qəbulu, qəbul edilmiş təsirin impuls formasında ayrı-ayrı üzvlərə çatdırılması, hər bir üzvün ayrılıqda ona çatan təsirə xüsusi cavab hazırlamasının orqanizmdə vəhdət təşkil edərək xüsusi üzvlərin fəaliyyəti kimi təzahür etdirilməsindən ibarətdir.

Canlılarda təsir-əks-təsir qapalı sistemdə baş verdiyindən kənar təsirlərin təsiri minimumlaşdırılır, nizamlaşdırılır və strukturlaşdırılır. Cismin xarici təsiri quruluşunu refleksiya edir. Canlının başqasına təsiri və xarici təsirlərə verdiyi cavab isə onun bioloji tələbatları və ehtiyaclarına uyğunlaşdırılaraq meydana çıxır. Ona görə də, istənilən cavab bədənin qidaya, təhlükəsizliyə və nəsilverməyə yaranan tələbatlara uyğun strukturlaşır ki, bu da siqnal sistemi kimi meydana çıxır.

Cisimlərdə təsir kimi əks-təsir də xaotik entropiyaya məruz qalır. Bundan fərqli olaraq, heyvani orqanizmlərdə əks-təsirdən fərqli olaraq cavab nizamlı və məqsədyönlü entropiyaya məruz qalır. Canlılar eyni vaxtda daxili və xarici təsirə məruz qaldığından istənilən cavab həm daxilə, həm də xaricə verilir. Daxilə ötürülən cavab daxili orqanlara təsir edir. Nəticədə, cavabın ikinci pillədən olan alternativi meydana çıxır. Canlılarda təsiri entropiyaya məruz qoyan seçici torlar və deformatorlar həm bədənin səthində, həm də daxilində yerləşmişdir. Bədən səthi özü bir tam kimi ən ümumi təsirləri tutur və ona əks-təsir göstərir. Bununla yanaşı, bədənin quruluşu təsir toru rolu oynayır. Belə ki, bədəndə xarici

təsirləri ayrı-ayrılıqda tutan xüsusi orqanlar - **analizatorlar** mövcuddur. Analizatorlar özləri də ikincili təsir torları kimi təsiri seçir. Məsələn, göz yalnız görmə dalğalarını qəbul edir, infraqırmızı və infrabənövşəyi spektri qəbul etmir. Qulaq yalnız eşitmə səslərini qəbul edir, ultra və infra səsləri qəbul etmir və s.

Xarici təsir bədən səthindən daxilə ötürülərkən qıcığa çevrilir. **Qıcıq** ikili - həm üzvi, həm də qeyri-üzvi təbiətli təzahür olmaqla, canla cismi əlaqələndirən şərtlərdən ibarətdir. Hər bir qıcıq daxildə, hiss üzvlərində bir daha entropiyaya məruz qalaraq **impulsa** çevrilir. Xarici təsirlərin hiss orqanlarına təsir edərək onda qıcıq yaratması **stimul** kimi meydana çıxır. Stimul - fiziki reallığa malik, hiss orqanlarını stimullaşdıran, orqanizmdə hansısa reaksiya yaradan, daha çox xarici və daxili mənşəli təsirlərdən ibarətdir. Hər bir stimul orqanizmdə müəyyən müddət saxlanan **oyanma** vəziyyəti yaradır. Bu vəziyyət oyanıqlıq kimi cavabdan ibarətdir. **Oyanma** - xarici qıcığın xüsusiyyətləri və həm də bütün orqanizmin aktivliyini tənzimləyən tormozlayıcı şərtlərin məcmusundan ibarətdir. Oyanıqlıq bioelektrik təzahürlə bağlıdır.

Daxili istiqamətlənmə ilə yanaşı, həm də təsir deformasiyaya uğrayır. Nəticədə, təsirin bir qismi daxili şirələrin ifrazına sərf olunaraq neytrallaşır. **İfrazat** - cavabın bioloji formasının şərtlərindən ibarətdir. İfrazat sintezdən onunla fərqlənir ki, təsir daha mürəkkəb entropiyaya məruz qalır. Belə ki, təsir heyvanın ya bilavasitə analizatoruna təsir edib əks-təsir yaradır, ya beyinə keçməklə dolayı yolla hormonal vəzlərin fəallaşmasına səbəb olur. Onlarda hazır şirəni ifraz etdirir, ya da vəzləri sintezə sövq edir. Təzyiqin belə ayrılmasına cavab da ayrılıqda verilir. Vəzi şirə buraxır və ya sintez edir, şirələr üzvlərə daxili təsir edərək işlək orqanları qıcıqlandırır. Qıcıq orqanizmdən əks-təsir kimi xaricə çıxır. Belə üçlü cavab heyvanlarda reaksiyaların - təsirə mürəkkəb cavabların yaranmasına səbəb olur. Beləliklə, xarici təsirlər orqanizmdə kəmiyyət və keyfiyyət baxımından ondan fərqlənən cavaba səbəb olur ki, bu cavabın

verilməsi **refleksdən** ibarət olur. Refleks - bioloji orqanizmin daxilində təzahür edən refleksiyadan ibarətdir. Refleks - reseptorların qıcıqlanmasına adekvat qarşılıqlı cavabdan ibarətdir. Refleks - impulsun iştirakı ilə həyata keçirilən aktdır.

Refleks növləri

Heyvani orqanizmlərdə iki cür refleks mövcuddur: Şərti və şərtsiz.

a. Şərtsiz refleks (və ya anadangəlmə refleks): Anadangəlmə şərtsiz reflekslər xarici aləmin orqanizmə təsirinə irsi təsbit olunmuş stereotip, sadə, birincili reaksiya formasıdır. Stereotip reaksiya mexaniki reaksiya kimi mövcuddur və özündə təsir-əks-təsir əlaqəsinin ikincili mövcudluqlarda təzahür forması kimi meydana çıxır. Orqanizmdə xalis şərtsiz refleks təzahür etmir. Buna görə də öyrənmə zəruri şərt kimi meydana çıxır. Öyrənmə, təsir-əks-təsir əlaqəsinə görə ikincili mövcudluqları birincili mövcudluqlardan fərqləndirən daxili şərtlərin məcmusundan ibarətdir.

b. Şərti refleks: Anadangəlmə reflekslər özündə fiziki cisimlərə xas təsir-əks-təsir əlaqəsində olmadığından, canlı orqanizmdə təsirlə cavab arasında fərqlilik meydana çıxır. Belə ki, orqanizm xarici təsirin bir hissəsinə şərtsiz reflekslə dərhal sadə cavab verir. Təsirin bir hissəsi isə orqanizmin başqa üzvlərinin birgə iştirakı ilə şərtsiz refleksdən gecikməklə - müəyyən zaman fasiləsindən sonra - mürəkkəb cavaba səbəb olur. Məhz belə mürəkkəb cavab ikincili cavab kimi şərti refleksin əsasında meydana çıxır. Şərti refleks şərtsiz reflekslə bilavasitə əlaqələndiyindən və ikinci birinci üçün əsas təşkil etdiyindən, birinci şərtsiz, ikinci şərti olur. Şərti refleksin şərtləri birincili refleksin şərtlərindən (zəruri şərtlər kimi) və ondan fərqli təsadüfi şərtlərin məcmusundan (təsadüfi şərtlər kimi) ibarət olur. Təsadüfi şərtlər özündə cavabın zamanla şərtlənməsinin məcmusunu təqdim edir. Beləliklə, şərti reflekslə şərtsiz refleks özlərində heyvani orqanizmdə vəhdətdə mövcud

olan birincili mövcudluqla ikincili mövcudluğun fərqliliyindən meydana çıxır. Şərti reflekslər qazanılma olub, vaxta görə yaxınlaşmada istənilən başlanğıc fərqsiz qıcığın sonrakı qıcığın təsiri ilə şərtsiz refleksi oyatması nəticəsində əmələ gəlir. Şərtsiz refleks yeni, müvəqqəti əlaqələrin yaranmasına səbəb olur, qarşılıqlı funksional asılılıqla müəyyən olunur. Şərti reflekslər - neytral stimulun şərtsiz reflekslərlə birləşməsidir ki, bu da arzulanan reaksiya yaradır.

İnsan orqanizmində refleksin bir forması **avtomatizm** kimi təzahür edir. Avtomatizm və ya dərkedilməzin avtomatizmi - şüurun iştirakı olmadan öz-özünə baş verən, şüurlu nəzarətdən kənar icra olunan fəaliyyətdir. Avtomatik cavabda vəziyyətə və belə vəziyyətlərdə stereotiplərə istiqamətlənmə tələb olunmur. Belə vəziyyətin yaranması ardıcıl əməliyyatların işə düşməsinə səbəb olur. Avtomatizm anadangəlmə (şərtsiz-reflektor) və ya ikincili (keçmişdə şüurdan keçərək öyrənmə ilə yaranan vərdiş formalarında) təzahür edir. Avtomatizm şüurdan sonra şüursuzluq kimi təzahür edir.

Canlılara xarici təsir daxildə təsir torlarından keçir. Bu zaman təsirlər ayrı-ayrı orqanlara istiqamətləndirilir. Biz bunu daxili istiqamətlənmə adlandırırıq. İstiqamətlənmiş təsir **siqnal** kimi meydana çıxır. Siqnal - zərurətə görə cavab tələb edən, onunla funksional asılılıqda olan xarici təsirdir. Reflekslərin təzahürü - təsirlə cavabın daxildə əlaqələnməsi, yəni siqnalların alınması və onlara cavabların verilməsi **siqnal sistemi** ilə reallaşır. Siqnal sistemi - canlı varlıqların xarici aləmdə davranışlarını tənzim edən, xarici aləmin təsirlərinə istiqamətləndirən, heyvani orqanizmi canlı aləmdən ayıran keyfiyyətdir.

İki cür siqnal sistemi ayırd edilir:

a. Birincili siqnal sistemi: Xarici qıcıqlara səbəb-nəticə əlaqəsində orqanizmin birbaşa cavab hazırlaması birinci siqnal sistemini təşkil edir. Birinci siqnal sistemində şərtsiz reflekslər cavab kimi meydana çıxır. Bi-

rinci siqnal sistemi heyvani orqanizmin xarici təsirlərə sadə cavabını təşkil edir.

b. İkincili siqnal sistemi: Canlı orqanizmlərdə xarici və daxili təsirə mürəkkəb cavabların hazırlanması və verilməsi ikincili siqnal sistemini təşkil edir. Beləliklə, ikincili siqnal sistemində cavab ikiqat funksional asılılıqda meydana çıxır.

HEYVANİ ORQANİZMDƏ CAVABIN FORMALARI

Canlı orqanizmlərdə xarici təsirə ilk şərtsiz cavab təsiri yönləndirmək, onu daxili entropiyaya məruz qoymaqdan ibarətdir. Canlılara müxtəlif daxili və xarici təsirlər müxtəlif cavab formalarının yaranmasına səbəb olur. Cavab formaları təsirin intensivliyindən asılı olaraq tədricən mürəkkəbləşir, intensivləşir və həcmləşir. Aşağıdakı cavab formalarını ayırd etmək olar:

A. Birinci siqnal sistemində hazırlanan cavablar:

a. Qıcıq: Xarici təsir analizatorlara təsir edərkən həmin orqanlarda deformasiya və entropiyaya məruz qalır. Təsirin qəbul edilməsinə canlının verdiyi ilkin cavab fiziki təsirləri qıcığa çevirməsi kimi meydana çıxır. Qıcıq, xarici təsirin şərtləri ilə analizatorların şərtlərinin məcmusundan ibarətdir. Təsirin qıcığa çevrilməsi periferik sinir uclarında baş verir.

b. İmpuls: Sinir uclarında meydana gələn qıcıq, analizatorların daxilində onlara təsadüfi şərtlərin verilməsi ilə substansional zonaya göndərilmək üçün impulsa çevrilir. İmpulslar məlumatın daxili nəqletmə forması kimi meydana çıxır. İmpulslar daxilə keçərək daşıdıqları məlumatı müvafiq orqanlara çatdırır.

c. Reaksiya: İmpulsların orqanlara çatması ilə hər bir orqan xarici təsirə xüsusi qaydada cavab hazırlayır. Bu cavab reaksiya kimi meydana çıxır. Reaksiya, ayrı-ayrı üzvlərin funksional asılılıqda olduğu ayrı-ayrı qıcığa verdiyi xüsusi cavabın şərtlərindən ibarətdir.

B. İkinci siqnal sistemində hazırlanan cavablar: 1. Refleksiya: Canın xarici təsirlərə daha mürəkkəb və strukturlaşmış cavabı refleksiya kimi təzahür edir. Reaksiya orqan səviyyəsində, refleks tam orqanizm səviyyəsində verilən cavabdır. Orqanizmin bir tam kimi cavab verməsi bir fəaliyyət kimi mərkəzi cavab orqanını formalaşdırır. Nəticədə, ali heyvani orqanizmlərdə mərkəzi sinir sistemi - beyin meydana çıxır. Refleksiya - mərkəzi sinir sisteminin iştirakı ilə xarici qıcığa belə qıcıqlar üçün qabaqcadan hazırlanmış və orqanizmin avtomatik meydana çıxardığı cavabdır. Refleksiya - xarici qıcığa bəlli və qanunauyğun cavabdır.

Refleksiya aşağıdakı xüsusiyyətlərə malikdir:

a. **Qıcıqlanma və reaksiyanın nisbi sadəliyi:** Mürəkkəb və xaotik qıcıqlara və reaksiyalarda refleks yaranmır. Mürəkkəb qıcıqlanmada analizatorlarda təsirin qıcığa çevrilməsi baş tutmur. Məsələn, eyni vaxtda həm istilik, həm soyuğun təsiri qıcıq yaratmır, çünki analizatorlarda qıcığa keçmədən bir təsir digərinə əks-təsir kimi bir-birini neytrallaşdırır. Reaksiya ayrıca bir üzv tərəfindən verildiyindən iki müxtəlif üzv eyni reaksiya verir. Buna görə də reaksiya bir üzvün verə biləcəyi reaksiya kimi mövcud olmalıdır.

b. **Refleks qeyri-iradi eyniölçülü baş verir:** Sadə cavablar özündə təsir-əks-təsiri refleksiya etdiyindən və təsirlə əks-təsir eyniölçülü olduğundan, refleks qeyri-iradi eyniölçülü olur; çünki belə refleksin şərtləri xaricidir, təbiətdədir, orqanizmin ona müdaxiləsinə imkan olmur. Başqa sözlə, canlı orqanizmlərdə eyni qıcıqlara standart cavab yaranır. Məsələn, istilik təsirinə istənilən vaxt canlıda eyni reaksiya yaranır. Belə olmasaydı, eyni bir qıcığa fərqli reaksiya həm də ölümə xidmət edərdi.

c. **Reaksiya qıcığın məlum istiqamətdə dəyişməsində yaranır:** Qıcıq qeyri-müəyyən və ya naməlum istiqamətdə dəyişdikdə refleks yaranmır, çünki reaksiya verən üzv orqanizmdə müəyyən və məlumdur. Qıcığın məlum istiqaməti özündə konkret üzvə istiqamətlənməni

ifadə edir. Əgər qıcıq başqa üzv istiqamətində dəyişirsə, onda əvvəlki üzvdə reaksiya yaranmır. Buradan da bir heyvani orqanizmə istiqamətlənmiş təsirin başqa heyvani orqanizmdə cavab yaratmaması meydana çıxır ki, heyvani laqeydlik bununla bağlıdır.

d. **Reflekslər bir tərəfdən xarici qıcıqla, digər tərəfdən xarici qıcığa veriləcək cavabın irsi məlumatla əlaqələnməsi ilə yaranır:** Bunun nəticəsində, eyni bir növdən olan canlı anadangəlmə xarici qıcığa eyni reflekslər göstərir. Reflekslərin faktiki canlıda heç bir xüsusi şərti yoxdur. Şərtlər xaricdə və formal canlılıqdadır. Məsələn, heyvan doğulan andan həyatı üçün təhlükələri və həyatına yardım edəcək hər şey haqqında anadangəlmə bilgiyə malik olur.

e. **Qıcığın məlum istiqamətdə dəyişilməsi refleksiyanın həmin istiqamətdə dəyişilməsinə səbəb olur:** Bu refleksiyanın xarici qıcıqla şərtlənməsi ilə bağlıdır. Yəni qıcığın kəmiyyətində və keyfiyyətində dəyişilmə baş verdikdə ona uyğun refleksiyada da dəyişilmə meydana çıxır.

f. **Refleksiya məqsədəyönlülüklə bağlıdır:** Refleksiyanın məqsədəyönlülüyünün şərtləri formal canlıdadır. Belə ki, növ bir faktiki canlıdan keçərək digər canlıda davam etməsi üçün faktiki canlılarda elə refleksiyalar meydana çıxarır ki, onun keçidinə xidmət etsin, yəni növ saxlanılsın. Buna görə də, reaksiyadan fərqli olaraq refleks irsi məlumatlara uyğun şəkildə təzahür edir. Reflekslərin irsiyyətlə şərtlənməsinin məcmusu **instinktlərdən** ibarətdir.

İnstinktiv hərəkətlər xarici qıcıqla şərtlənmiş irsi şərtlərə əsaslanan mürəkkəb refleksiyalardan ibarətdir. İnstinktiv hərəkətlər anadangəlmə reflekslərı təşkil edir. Bununla da canlıların xarici qıcığa fərdi cavabı özünün yüksək səviyyəsinə çatır və öz yerini növ cavablarına verir. Növ cavablarını substansial cavablar kimi dəyərləndirmək olar, hansı ki, onlarsız canlı mövcudluq mümkünsüzdür. Xarici qıcığa bu növ cavabı, irsiyyətlə şərtlənmiş hər hansı bir növün həyat təcrübəsi ilə şərtlənmiş

meydana çıxır. İnstinkt - növün faktiki canlıdan bilavasitə onun müdaxiləsi olmadan təzahürlərindən ibarətdir. İnstinkt davranışın canlılarda anadangəlmə komponentidir. İnstinktlər özlüyündə mürəkkəb reflekslər kimi təzahür edir. Canlılarda üç cür instinkt ayırd etmək olar: özünüqoruma, nəslisaxlama, canlı kimi insanda həm də sosial instinkt. Sosial instinkt insanın anadangəlmə icma halında yaşama meylidir. Məhz sosial meylə görə fərd icmaya inteqrasiya edir. İnstinktlər xarici təsirlərə formal canlının cavabları kimi daxili tələbat və ehtiyaclardan və ya xarici təsirlərdən meydana çıxır. İnstinktlərin inkişafı - daxili, qapalı, ümumi; instinktiv hərəkətlərin inkişafı - xarici və orijinaldır. Refleks - faktiki canlı, instinkt - formal canlı, yəni növlə şərtlənmişdir. İnstinktlər orqanizmin özü-özündən aldığı qıcığa reaksiyası kimi meydana çıxır. Hər bir canlının qıcığa cavabı instinkt şəklində orijinaldır və həmin cavab növü müəyyən edir.

İNSTİNKTİV HƏRƏKƏTLƏR

Xarici və daxili təsirlərin orqanizmin ayrı-ayrı bioloji hərəkətlərini aktivləşdirməsi nəticəsində bioloji hərəkətlər meydana çıxır. İki cür bioloji hərəkətlər ayırd etmək olar: **A. Sadə bioloji hərəkətlər:** Belə hərəkətlər məkanda hərəkətin şərtlərinin məcmusundan ibarətdir. Başqa sözlə, belə hərəkətlər özündə məkani şərtləri təqdim edir. Hərəkət - təsiri azaltmaq naminə canlının məkanda təsir obyektindən məsafəsini, mövqeyini dəyişməklə azad olmasından ibarətdir. Canlılar həm özləri özlərində, həm də biri digərində hərəkətlilik yaradırlar. Nəticədə bir canlı təsir haqqında özünün bilavasitə aldığı məlumatı digər canlıya ötürərək ikinci canlıda hərəkətə səbəb olur. Beləliklə, siqnalın başqa canlıya ötürülməsindən siqnalizasiya meydana çıxır. Siqnalizasiya - siqnalların bir heyvandan digərinə xarici mühitdən ötürülməsindən ibarətdir. Canlılar arasında təsir-cavab həm də siqnalizasiya ilə həyata keçirilir. Siqnalizasiya - bir canlının digərinin hiss orqanlarına təsir edərək onun

davranışlarını dəyişdirməsindən ibarətdir. Müxtəlif siqnalizasiya üsulları vardır: görmə, eşitmə, hərəki və feromonlar (kimyəvi siqnallar) mövcuddur.

Canlıların xarici təsirlərə ali səviyyədə cavabı hərəkət kimi meydana çıxır. Hərəkət aktını həyata keçirən psixofizioloji prosesdir. Hərəkət zamanı heyvani orqanizmdə fizioloji aktivlik yaranır. Canlılar yalnız məkani təsirlərə yox, cisimlərdən fərqli olaraq, həm də zamanın təsirlərinə cavab verir.

2. Poza - özü-özündə bioloji hərəkətlilik: Heyvani orqanizmin məkanda yer dəyişmədən öz-özündə məkani ölçüləri dəyişməsi ilə hərəkətliliyin saxlanması poza kimi meydana çıxır. Poza, məkanda yerdəyişmədən xarici təsiri azaltmaq məqsədi ilə canlının öz bədəninin forma və vəziyyətini müvəqqəti dəyişməsinin şərtlərinin məcmusundan ibarətdir.

3. Fəaliyyət: Daxili və xarici təsirlərə cavab olaraq orqanizmin daxilində və ətrafda baş verən məqsədyönlü mürəkkəb hərəkətlərin dəsti fəaliyyət kimi meydana çıxır. Fəaliyyət bir neçə mərhələdən keçir. Öncə alışmaq - aktual icra olunan fəaliyyətə uyğunlaşma əmələ gəlir. Alışma zamanı dinamik stereotiplərin aktuallaşması hesabına bütün psixoloji funksiyalarda kökləmə baş verir. Alışmaqdan sonra orqanizmdə davamlı iş vəziyyəti yaranır. Alışmadan sonra aktivləşmə meydana çıxır. Aktivləşmə - xarici təsirə cavab formasıdır. Tonus, oyanma reaksiyası və MSS-nin (Mərkəzi Sinir Sistemi) həyəcanlanması - orqanizmin reaksiya qarşısında hazırlığıdır; hansı ki, bioloji əks-əlaqə - reaksiyaların təzahür etməsinə görə bu reaksiyalar haqqında həqiqətin əldə edilməsidir. Faktiki canlıda reaksiyalar haqqında məlumat formal canlılıqdan əldə edilir. Kifayət qədər təcrübə qazanan insan bu reaksiyaları idarə etməyi öyrənir. Bunun formalarından biri boşalmadır. Boşalma ilə insan reaksiyalarını dəyişə bilir.

4. Uyğunlaşma: Canlının məkanın ətraf təsirlərdən özünün bioloji xarici əlamətlərini daimi dəyişməsi ilə mövcudluğunu davam etdirməsidir. Uyğunlaşmada canlı xarici təsirlərə həmin təsirlərin azalması istiqamətində orqanik dəyişilməyə məruz qalır. Belə dəyişilmələrin şərtlərinin məcmusu **modifikasiyadan** ibarətdir. Modifikasiyanın birinci mərhələsi **adaptasiyadan** ibarətdir. Canlının bir tam kimi ətrafın təsirlərinə cavabı adaptasiya kimi təzahür edir. Adaptasiya - orqanizmin homeostazı saxlamaq istiqamətində quruluşunun və funksiyasının, onun orqanlarının və hüceyrələrinin mühit şərtlərinə uyğunlaşmasıdır. Bunun əsasında fərdin cəmiyyətin dəyər və normalarını qəbul etməklə sosial mühitə uyğunlaşması psixoloji adaptasiya kimi təzahür edir. Fərdin cəmiyyətə daimi inteqrasiyası ilə sosial mühitin şərtlərinə aktiv uyğunlaşması və bunun nəticəsində özünüdərkin, rol davranışlarının formalaşması, özünənəzarət, özünəxidmət və ətrafdakılarla adekvat əlaqələr qurması sosial adaptasiya kimi təzahür edir.

Zaman şərtlərin dəyişilməsinin heyvani orqanizmə təsirindən aşağıdakılar meydana çıxır:

a. Böyümə: Eyni bir canlı faktın özündə müxtəlif zamanlarda ola bilməsi təbiətdə böyümə kimi təzahür edir. Böyümə, dəyişən zaman şərtlərinə uyğun orqanizmin əsasını təşkil edən birincili mövcudluğun zəruri şərtlərinin bir-birini əvəzlənməsindən ibarətdir. Başqa sözlə, zamanın ayrılıqda cana təsirindən məkani əlamətlərini eyni bədən quruluşu daxilində dəyişməsi böyümədir. Böyümə zamanla gələn təsirləri neytrallaşdırmaq istiqamətində bədənin forma dəyişilməsinə məruz qalmasından ibarətdir. Böyümənin sonu **qocalma** - orqanizmin zamanın dəyişən şərtlərinə cavab imkanının tükənməsi kimi təzahür edir. Qocalma orqanizmin təsiri qəbul edəcək mexanizmlərin sıradan çıxması ilə təsirə cavabdır. Qocalıqda göz işığı, qulaq səsi, dil dadı və s. siqnalları ya qəbul etmir, ya da çox zəif qəbul edir. Xarici təsirlərə cavabın hazırlanma mexanizmlərinin sıradan çıxması ilə təsirlə canlı təşkilolunmanı dezor-

qanizasiyaya məruz qoyur, nəticədə ya ayrı-ayrı üzvlər, ya da bütünlükdə orqanizm məhv olur ki, biz bunu ölüm kimi qavrayırıq. **Ölüm** - orqanizmin zaman və məkan şərtlərinə uyğun cavab vermək imkanını itirməsini özündə ifadə edir. Yəni ikili mövcudluqdan birli mövcudluğa keçid orqanizmin ölümü kimi meydana çıxır.

b. Artma: Xarici təsirlərin məkan və zaman təsirlərini azaldılması istiqamətində mövcudluq aktının davam etdirilmə üsulu - özü-özünün məkani ölçülüyünü dəyişdirməkdir. Belə dəyişkənlik artma kimi meydana çıxır. Artma həm zamanla şərtlənmə, həm də məkanla ayrılıqda şərtlənmə ilə təzahür edir.

İkincili siqnal sistemində cavabların hazırlanması iki yolla həyata keçirilir:

1. Humoral yol: Canlılar mürəkkəbləşdikcə və xarici təsir artdıqca orqanizm aldığı impulsların bir hissəsini daxili analizatorlara göndərir. Belə analizatorlar daxili sekresiya vəzləri adlanır. İnsanda vəzlərin sayı ilə analizatorların sayı arasında funksional asılılıq vardır. Beləliklə, xarici təsir impulsa, impuls qıcığa, qıcıq ya orqanizmin hərəkəti, ya da daha mürəkkəb orqanizmlərdə daxili şirələrin əmələ gəlməsinə səbəb olur. Daxili sekresiya - ali orqanizmlərin xarici təsirin impulsa, impulsun qıcığa, qıcığın xüsusi daxili analizatora təsirinə cavab kimi ifraz olunan xüsusi şirələrin hazırlanmasından ibarətdir ki, bu şirələrin həcmindən asılı olaraq orqanizm eyni xarici qıcığı müxtəlif intensivlikdə qəbul edir. Orqanizmdə vəzlər ümumi orqanizmin inkişafının müxtəlif mərhələlərində yarandığından, onların qıcıq qəbul etməsi yaşdan asılı olur. Qıcıq nəticəsində xüsusi şirələrin ifrazı nəticəsində iki cür cavab yaranır. Şirə ya xaricə atılır (əgər o tələb olunandan artıqdırsa), ya başqa üzvi fəaliyyətə, hərəkətə və işə sərf olunur, bundan artığı isə yeni təsir kimi daxildə qıcığın gəldiyi mərkəzə göndərilir. Mərkəzə gələn daxili qıcıq orqanizmin xüsusi hərəkətlərinə, xarici fəaliyyətinə səbəb olur.

2. Mərkəzi Sinir Sistemi yolu: Bu yolla meydana çıxan cavablar beyinə - Mərkəzi Sinir Sisteminə - ötürülən impulsların daha mürəkkəb fəaliyyət, hərəkət və s. formalar yaratması ilə əmələ gəlir.

Haşiyə: A.Berqson - "Materiya və yaddaş"

> *"Bizim faktlardan çıxardığımız və mühakimə ilə təsdiq etdiyimiz ideya ondan ibarətdir ki, bizim bədənimiz özündə fəaliyyət və yalnız fəaliyyət alətini təqdim edir. Heç bir ölçüdə, heç bir mənada, heç bir aspektdə o təsəvvürlərin işlənməsində və xüsusən izah edilmələri üçün xidmət etmir."*

Beləliklə, A.Berqsonun fikirlərindən görünür ki, heyvani orqanizm Kosmik mövcudluğun ən ali təşkil olunmuş forması kimi mövcuddur. Heyvani bədən - özü-özündə istənilən mürəkkəb hərəkəti həyata keçirməyə imkan verən alət, həyat isə həmin alət vasitəsi ilə həyata keçirilən mürəkkəb bioloji hərəkətlərin məcmusundan ibarətdir. Fiziki cisimlərdən fərqli olaraq canlı orqanizmdə hərəkət tam saxlanmadığından, canlılarda bir tərəfdən bioloji hərəkətlər qismən saxlanılaraq orqanların formasını, qismən sürəkliliyini davam etməklə həmin orqanların funksiyalarını meydana çıxarır. Belə ki, orqanla onun funksiyası özündə bir və eyni hərəkətin iki müxtəlif təzahür formasının şərtlərindən ibarət olur. Heyvaniliyin təkamülünün sonunda ən nisbi mahiyyətə, amma ən kamil formaya malik növ - insan orqanizmi yaranmışdır. İnsan orqanizmi elə daxili heyvani şərtlərin məcmusundan ibarətdir ki, geoloji orqanizmdə mümkünlüyün varlığı yenidən mövcudluq tələb etməsi kimi, özündə mümkünlüyün varlığının yenidən mövcudluq tələbini aktuallaşdırır.

İnsan mövcud varlıq kimi ən təkmil, ən son formadır və özündə heç bir xüsusi mahiyyətə malik deyil və yalnız özündən əvvəlki canlılığın, heyvaniliyin mahiyyətini saxlayır, hansı ki, digər bütün formalarda daha aydın təzahür edir. Yəni heyvani insani mövcudluqda heç bir xüsusi mahiyyət yoxdur. Təbiətdə mahiyyətsiz mövcud varlıq olmadığından, bu cür mahiyyətsizlik insanın ən dəqiq forma və ən mahiyyətsiz varlıq kimi

mahiyyət əldə etmək zərurətini meydana çıxarmışdır. Bu mərhələdə, bir tərəfdən bədənin özünə mahiyyət əldə etmə zərurəti, digər tərəfdən ruhun özündə özü-üçün-varlıq təyini əldə etmə zərurəti hər ikisinin birləşməsinə - bədənin ruhlanması ilə insanın ruha görə şüur əldə etməsinə - ruhun bədənin formasından istifadə edərək mövcud varlığa çevrilməsinə səbəb olmuşdur. Nəticədə ruhlu insan yaranmışdır. Ruhun cana keçməsi ilə ilk növbədə canda canın iştirakı ilə onun həm passiv, həm də aktiv gücünü refleksiya etməyə, yəni ruh candan istifadə etməklə materiyanın nizamını aşkarlamağa başlamışdır.

Canlılığın bütün əlamətləri konkret xarici şərtlərdən və daxili təsirlərdən asılı olaraq spontan və avtonom təzahür kimi meydana çıxır və buna görə də heç bir şüurluluq keyfiyyətinə malik deyildir. Yalnız Homo sapiensin meydana çıxması ilə fəaliyyətin əlaqələnməsi, nizamlanması, nəzarət edilməsi kimi yeni keyfiyyətlər meydana çıxır ki, biz bunu Ruhun təzahürü hesab edirik. Bəs ruh nədir və dinamik özündəşeydən ruha keçid necə baş verir?

REAL VARLIQ

Mövcudluğun aktuallaşması ilə **real varlıq** meydana çıxır. Real varlıq mövcudluğun mövcud olmasını özündə ifadə edir. Beləliklə, kosmosun təşkil olunması real varlıqların vəhdətindən ibarətdir. Real varlıq - konkret, tək, ayrılıqda götürülə bilən, bilavasitə özü-özünü təsdiq edən və bu zaman özündə başqasını və dolayısı ilə başqalarında özünü inkar edən kimi təyin oluna bilər. Real varlıq özü-özündə və başqasında refleksiya edən özü-üçün-mövcudluqdur.

Haşiyə: Hegel ”Məntiq elmi”

> *“Özü-özü ilə münasibət kimi özü-üçün-varlıq bilavasitəlikdir, özü-özü ilə inkar münasibəti kimi isə o özü-üçün-mövcudluqdur, təkdir, birdir (das Eins) - o ki, özü-özündə fərqliliyə malik deyil, nəticədə başqasını özündə istisna edir.”*

Hegelin şərhindən görünür ki, varlıq təyini münasibətə görə müəyyənləşir. Üç cür münasibət aşkar etmək olar:

a. Özü-özünə münasibət: Biz bunu eynilik kimi də təyin edə bilərik. Hər bir mövcudluq özü-özünə münasibətdə özü-özü ilə eynilik təşkil edir. Bunu Hegel özü-üçün-varlıq kimi təyin edir.

b. Başqasına münasibət: Biz bunu fərqlilik kimi təyin edə bilərik. Fərqlilik bir mövcudluğun nisbi mövcud olanları özündə inkar etməsi və buna paralel özünün onlarda inkar etməsi kimi təyin oluna bilər. Hegel bunu özü-üçün-mövcudluq kimi təyin edir.

c. Təfəkkürə münasibət: Təfəkkürə münasibətdə varlıq, təfəkkürün forması olmadığından, onu özündə və özünü də onda inkar edə bilmir. Nəticədə, özü-özünü təsdiqini təfəkkürdə təsdiqə keçirir, buradan mövcud varlıq təyini meydana çıxır. Təfəkkürdə təsdiq bərabərlik kimi meydana çıxır. Yəni bir şeyin başqa şeyə bərabərliyi yalnız hər iki mövcudluğun təfəkkürdə refleksiyalarının üst-üstə düşməsi kimi təyin olunur. Təfəkkürdən kənarda, mövcudluqlar bir-birini istisna etdiyindən, bərabərlik mövcud deyil.

Beləliklə, özü-özünə münasibətdə eynilik, başqasına münasibətdə fərqlilik təşkil edən özü-üçün-varlıqla özü-üçün-mövcudluğun vəhdətindən Real varlıq təşkil olunur, hansı ki, Real varlıq özü-üçün-mövcudluq tərəfi ilə təfəkkürdə refleksiya edərək idrak olunur. Real varlıq xarici totallığı təşkil etdiyindən, təfəkkürdə ümumi kimi aşkarlanır. Beləliklə, Real Varlıq ayrılıqda götürülə bilən tək şeylərin başlanğıcını təşkil edir.

Mövcudluq - istənilən şeyin başlanğıc şərtidir. Mövcudluğun iki əsas xarakteristikasını ayırd etmək olar - **reallıq** və **mümkünlük**. Reallıq - mövcudluğun təbii şərtlərindən, mümkünlük - metafizik şərtlərindən ibarətdir. Reallıq - mövcudluğun varlığının, mümkünlük - varlığın mövcudluğunun təyinidir, hansı ki, ikisi vəhdətdə mövcud olan mövcudluqları təşkil edir. Beləliklə, aktuallaşan mövcudluğun iki əsas xarakteris-

tikası reallıq və mümkünlük kimi aşkarlanır. Reallıq - Kosmik şərtlərin məcmusu, mümkünlük - metafizik şərtlərin məcmusundan ibarət olduğundan, reallıq təbiətdən, mümkünlük yalnız təcrübədənkənar xalis zəkadan aşkarlanır. Reallıq özündə aydınlaşmanın sonu, aşkarlanmanın başlanğıcıdır. Aşkarlanmanın başlanğıcı kimi reallıq gerçəklikdir. Amma mümkünlük yalnız aşkarlanmanın başlanğıcıdır. Mövcudluq Varlıqdan fərqli olaraq həm onu təsdiq edən xarakteristikadan - **predikatdan** (zəruri şərtlər kimi), həm də inkar edən xarakteristikadan - **predikabiliyadan** (təsadüfi şərtlər kimi) müəyyənləşə bilər. Bəs reallıq və mümkünlük nədir və bunlar öz əksliklərindən - irreallıqdan və mümkünsüzlükdən nə ilə fərqlənir?

Reallıq - obyektin subyektdən asılı olmayaraq özü-özündə mövcud olmasını, mümkünlük onun aydınlaşmasının aşkarlanmasını - onun haqqında bilginin təfəkkürdə mövcud olmasını özündə ifadə edir.

> *Haşiyə: İ.Kant "Xalis zəkanın tənqidi" - Predmetin dərk edilməsi üçün mənim onun mümkünlüyünü sübut etməyim zəruridir.*

Göründüyü kimi idrak mümkünlüklə şərtlənmişdir. Yəni mümkünlüyün şərtlərinin məcmusu idrak prosesinin xarici şərti kimi çıxış edir, hansı ki, idraka görə təsadüfi şərtlərin məcmusudur. İdrak həm də daxili şərtlərin - öz zəruri şərtlərinin məcmusu kimi mövcuddur. Mümkünlük - ağılla formalaşdırma vermək imkanını bildirir. Başqa sözlə, ideyanın qanun kimi ifadə olunma keyfiyyəti mümkünlük kimi təzahür edir. Reallıq - bizim idrak edib-etməməyimizdən asılı olmayaraq özü-özündə qarşılıqlı təsirdə mövcud olan hər şeyin birinci keyfiyyətidir. Reallığın aşağıdakı əlamətlərini aşkarlamaq olar:

a. Vəhdətdə aktuallaşmaq: Özündə reallıq keyfiyyəti daşıyan heç nə təklikdə mövcud olmur və yalnız başqa gerçəkliklərlə vəhdətdə təzahür edir. Buradan da, reallıq analitik dərk edilən keyfiyyət alır.

b. Kanonik olmaq: Fakta malik olmaq, yəni aşkarlanmış həqiqətə ağıllı forma verilməsinin mümkünlüyünə malik olmaq. Hər hansı bir gerçəklik çoxluqdan birbaşa ona istiqamətlənmiş suallandırma ilə idraka cəlb edilməsi imkanına malik olmalıdır. Vəhdətdən ayrılmayan və ağılla forma verilməsi mümkün olmayan və ayrıca fakt kimi təzahür etməyən reallıq yoxdur.

c. Doqmatik olmaq: Orqanondan (dialektik idrakdan) asılı olmayaraq ilkin mahiyyətini dəyişdirməməsi. İstənilən reallıq özü haqqında bilginin dəyişilməsindən asılı olmayaraq özündə dəyişməz həqiqətləri təqdim edir.

ç. Özü-özü ilə eynilik təşkil etmək: Özü-özü ilə eynilik özü-özünü təkrarlama kimi qavranılır. İki cür özü-özünü təkrarlama aşkarlaya bilərik. Birincisi, zamanda özü-özünü özündə təkrarlama. buradan şeyin ayrılıqda götürülən təkliyi meydana çıxır. İkincisi, məkanda özü-özünü özündənkənar təkrarlama. Buradan, şeyin ayrılıqda götürülməsi mümkün olmayan çoxluğu meydana çıxır. Reallıqlar xarici şərtlərin dəyişilməsindən asılı olmayaraq, istənilən yerdə, istənilən vaxt, istənilən subyekt tərəfindən dərk edilməsindən asılı olmayaraq, özü-özü ilə eyniliyini saxlayır.

d. Subyektdən asılı olmamaq: Reallıq təcrübəyə daxil olmaqla obyekt-subyekt münasibətində gerçəkliyə çevrilir. Buna görə də gerçəkləşməyən reallıq subyektdən asılı olmadan mövcud olur. Beləliklə, subyektdən asılı olmadan mövcudolma, gerçəkliyin idrak edilib-edilməməsindən asılı olmayaraq özü-özündə mövcudolmanı, yəni subyektlə şərtlənməməni özündə ifadə edir. Reallıq bu keyfiyyəti ilə Berklinin (George Berkeley) dediyinin əksinə, bizim subyektiv varlığımızdan asılı olmadan mövcud olan olur.

e. İctimai şüurla təsdiq edilməsi: İstənilən reallığın müxtəlif vaxtlarda müxtəlif subyektlər tərəfindən aşkarlanması mümkündür və müxtəlif yerlərdə, müxtəlif vaxtlarda, müxtəlif insanların idrak pros-

esində aşkarlanmasından asılı olmayaraq reallıq özü-özü ilə eyniliyini saxlayır.

ə. Sərhədli olması: Hər hansı bir reallıq özünəxas konkret sərhədlərə malikdir və bu sərhədlərdən kənarda irreallıqdır. Eləcə də, başqa reallıqlar onun sərhədlərində irreallıqdır. Məsələn: Mifik varlıq olan Kentavr - yarı insan, yarı at olduğundan at kimi bütün atların mövcudluq sərhədlərindən kənardır, çünki bədənin bir hissəsi insandır; insan kimi bütün insanların sərhədindən kənardır, çünki bədəninin yarısı atdır, buna görə də irreallıqdır.

f. Vasitəli - formadan aydınlaşması: Hər bir reallıq hansısa bir formada təzahür edir. Bütün reallıqların özünəxas forması vardır və forma reallıqda aydınlaşan həqiqətin vasitəsi kimi çıxış edir. Beləliklə, substansiya reallığın məqsədi, forma onun vasitəsi olur.

g. Sürəklilik: Hər bir reallıq konkret zamanla şərtlənmişdir. Reallıqlar zamanda aydınlaşma müddətinə görə müxtəlifdir, lakin zamanla şərtlənməmiş heç bir reallıq yoxdur. Zamansızlıqda reallıq meydana çıxmır. Buradan da istənilən irreallığı zamanla şərtlənməmə kimi təyin edə bilərik.

ğ. Təzahürünün mahiyyətdən asılılığı: Hər bir reallıq yalnız mahiyyətdən asılı olan təzahürləri meydana çıxarır. Mahiyyətlə əlaqəsi olmayan təzahür reallıqda meydana çıxmır.

h. Təkrarlılıq - özü-özünü sübut etmək: Hər bir reallıq məkanda təkrarlanmaq imkanına malikdir. Məkanda təkrarlanmayan, yəni tək bir fakt kimi mövcud olan reallıq yoxdur. Beləliklə, reallıq çoxluq xarakteristikasına malikdir.

x. Mövcudluqda azadlıq: Reallığın özü istisna olmaqla heç bir xarici asılılıq olmadan azad şəkildə mövcud olur. Başqasından asılı mövcudluq buna görə irreallıq olur. Məsələn, kölgə irreallıqdır, çünki işıq və mövcudluğun birgə təzahürüdür və özünün müstəqil təzahür imkanı yoxdur.

İrreallıq və Mümkünsüzlük

Reallığın əksi irreallıq, mümkünlüyün əksi mümkünsüzlük kimi meydana çıxır. Reallığın əksliyi kimi irreallığın da bir çox əlamətlərini aşkar edə bilərik, hansı ki, həmin əlamətlər əsasında həqiqət inkar üsulu ilə aşkarlamağa imkan verir.

a. Təzahürünün ikiqat şərtlənməsi. İrreallıqlar eyni zamanda iki və daha çox obyektin mahiyyəti ilə şərtlənir. Məsələn, kölgə həm hər hansı bir obyektlə şərtlənir və onun formasına uyğun forma alır, həm də işıqla şərtlənir, belə ki, yalnız işıq şüalarının düşməsi ilə meydana çıxır. Beləliklə, eyni vaxtda işıq və obyektin mahiyyəti kölgənin təzahüründə bərabər əsasda iştirak edir. Ayrılıqda işıqsız və ya obyektsiz kölgə meydana çıxmır.

b. Xüsusi məkan-zaman şərtlənməsinin olmaması: İrreallıqlar ikiqat şərtləndiyindən onların öz zaman və məkan asılılığı olmur. Kölgə yalnız kölgəsi olduğu obyektin və işığın məkan və zaman şərtlərini özündə ifadə edir.

c. Mahiyyəti olmayan formaya malik olmaq: İrreallıqların forması olsa da konkret mahiyyəti yoxdur. Məsələn, hallüsinasiyalarda görünən obrazların konkret mahiyyəti yoxdur, həmin obrazlar mahiyyətsiz forma kimi meydana çıxır.

ç. Davamsızlıq: Heç bir irreallığın sürəklilik xarakteristikası, yəni zamanla şərtlənməsi yoxdur və ya eyni cür irreallıq müxtəlif vaxtlarda olduğu kimi meydana çıxmır, yəni zamanda təkrarlanmır, özü-özündə sıra təşkil etmir.

d. Məkanla şərtlənməmə: İrreallıqlar konkret məkan şərtlərinə tabe olmur, yəni irreallıqların çəkisi, ölçüsü, həcmi və çoxluq xarakteristikası yoxdur. Buradan da irreallıqlar zəruri şərtlərə malik olmadığından yalnız xarici şərtlərə görə təsadüfi şərtlərin məcmusuna görə təzahür edir.

e. Özü-özü ilə eynilik təşkil etməmə - təkrarlanma keyfiyyətinə malik olmamaq: Hər bir irreallıq heç bir halda özü-özü ilə eynilik təşkil

etmir və eyni bir irreallıq müxtəlif vaxtlarda və yerlərdə özü ilə fərqli formalarda meydana çıxır. Buradan da məkanda sıra təşkil etməmə meydana çıxır. Yəni irreallıqların çoxluğu olmur.

ə. Özünün hərəkətinin olmaması: İrreallıqlar yalnız reallıqların hərəkəti ilə hərəkət edir. Gerçəklik olmadığından enerjisi yoxdur və buna görə də hərəkəti yoxdur. İrreallıqların görünən hərəkətliliyi obrazların təfəkkürdə hərəkətliliyinin özündə refleksiya edir. Məsələn, kölgənin hərəkəti.

f. Sərhədsizlik: Heç bir irreallığın konkret sərhədi yoxdur, yəni irreallığın bir obrazı digər irreallığın obrazının sərhədlərində mövcud ola bilir. Və ya özü-özündə bir obrazdan digər obraza keçməklə mövcud olur, buradan da qarışıq və ya xaotik obrazlılıq meydana çıxır.

g. İctimai şüurla idrak olunmaması: İrreallıqlar yalnız fərdi şüurda aşkarlanır. Heç bir irreallıq heç vaxt ictimai şüurda aşkarlanmır, çünki irreallıqlar eyni cür, eyni vaxtda və eyni yerdə təzahür etmir.

İrreallığa - kölgə, yuxu, illüziya, ilğım, hallüsinasiyalarda aşkarlanan obrazlar aiddir. Kölgə təfəkkürdən kənarda - xarici irreallıq kimi, digər irreallıqlar isə təfəkkürdə - daxili irreallıq kimi meydana çıxır. Kosmosda irreallıq yoxdur, buna görə obyektiv deyillər, yalnız idrak prosesinin özü-özündə aprior meydana çıxırlar, buna görə də xalis subyektivdirlər.

- **Kölgə** - xarici aşkarlanan, reallıqla keçici vəhdət təşkil edən, özündə mahiyyəti olmayan, yalnız obyektin formasından asılı şərti formaya malik, öz xüsusi hərəkəti olmayan, inikas etməyən, müvəqqəti, dəyişən ölçülü təzahürdür. Kölgənin subyektə münasibəti ümumidir, yəni müxtəlif subyektlər tərəfindən eyni vaxtda eyni qaydalarda aşkarlanır. Başqa sözlə, kölgə kollektiv şüurla aşkarlanan irreallıqdır.
- **Yuxu** - təfəkkür strukturlarının - obrazların, təsəvvürlərin və fikirlərin daxildə aydınlaşan "kölgə"sidir. Reallıqla hər hansı bir əlaqəsi yoxdur. Xarici kölgədən fərqli olaraq daxilidir, buna görə də

kənar şəxslərin müşahidə etməsi mümkün deyil, başqa sözlə, kollektiv formada təzahür etmir, ictimai formada seyr edilmir. Subyektə münasibətinə görə fərdidir, xüsusidir. Kölgə kimi yuxu da mahiyyəti olmayan formalı obrazlardan təşkil olunur. Yuxu hərəkəti olmayan, konkret mahiyyətdən təzahür etməyən hadisədir. Kölgədən fərqli olaraq yuxunun ikiqat şərtlənməsi eyni bir mənbə ilə bağlıdır. Başqa sözlə "işıq" da, "obyektlər" də eyni bir təfəkkürdən qaynaqlanır. Yuxunun işıqlanması xarici işıqlanma ilə ziddiyyət təşkil edir, belə ki, yuxu yalnız xarici aləm qaranlığa büründüyü təqdirdə işıqlanır. Kölgədən fərqli olaraq bir yuxu eyni dəqiqliklə təkrarlanmır, bu da təfəkkürün dinamizmi ilə bağlıdır. Təfəkkürün iki müxtəlif vaxtdakı halı eyniyyət təşkil etmədiyi kimi, eyni insanın gördüyü yuxular da eyniyyət təşkil etmir. Yuxu da kölgə kimi inikas qabiliyyətinə malik deyil, özü inikasın nəticəsi olduğundan, inikas üçün səbəb təşkil etmir.

- **Hallüsinasiya** - hallüsinasiya yuxu kimi təfəkkürün daxili kölgəsinin təfəkkürün özü tərəfindən aşkarlanmasından meydana çıxır. Digər bütün əlamətləri yuxu ilə eynidir. Yuxudan yalnız onunla fərqlənir ki, hallüsinasiyalar xarici işıqlanma ilə ziddiyyət təşkil etmir, əksinə onunla vəhdətdə meydana çıxır. Nəticədə insan hallüsinasiyalarda ikiqat işıqlanmanın təsirində olur. Başqa sözlə, hallüsinasiyalarda reallıqla irreallığın sərhədləri yuyulur, nəyin reallıq, nəyin irreallıq olmasını ayırd etmək mümkün olmur. Hallüsinasiyalar da məkan və zamanla şərtlənmir.
- **İlğım** - xarici hallüsinasiyalardan ibarətdir. Bütün əlamətləri hallüsinasiyalarla eynidir, yalnız təfəkkürdən xaricdə proyeksiya olunur.
- **İllüziya** - illüziya irreallığın reallıq və əksinə reallığın irreallıq kimi idrak olunmasında meydana çıxır. İllüziya təfəkkürdə idrakın tormozlanması kimi meydana çıxır. İdrak prosesində qavrama ilə təsəvvür arasında vəhdətin pozulmasından illüziya yaranır.

Mümkünlüyün - varlığın mövcudluğunun da özünəxas aşağıdakı əlamətlərini ayırd etmək olar:

a. Eyni bir həqiqətin yalnız eyni növ gerçəkliyin predikatı (təsdiqləyici mühakimə) ilə münasibətdə olması: Belə ki, bir həqiqət müxtəlif növ gerçəkliyin predikatı ilə münasibətdə ola bilməz. Belə olsaydı eyni bir obyektdə müxtəlif həqiqətlər təsdiq olunardı və ya bir həqiqət müxtəlif obyektlər kimi reallaşardı.

b. Vəhdət prinsipi ilə aşkarlanma imkanının olması: Mümkünlüklərin konkret forması olmadığından, forması olan reallıqlarla vəhdət təşkil etmir, buna görə də başqa bir real gerçəklikdən aşkarlanmır. Belə ki, bütün mümkünlüklər yalnız analitik mühakimə yolu ilə başqa mümkünlükdən aşkarlanandır. Mühakimə bu üsulla işləyir.

Mümkünsüzlük mümkünlüyün əksliyi kimi onun inkar yolu ilə müəyyənləşməsində mühüm əhəmiyyət kəsb edir. Mümkünsüzlüyün aşağıdakı əlamətlərini ayırd etmək olar:

a. Eyni vaxtda iki müxtəlif həqiqətə malik olmamaq: Hər bir gerçəklik özündə yalnız bir həqiqət saxlayır. Eyni vaxtda iki fərqli həqiqətə malik gerçəklik mümkünsüzlükdür.

b. Konkret predmetin predikatı ilə münasibətdə olmamaq: İstənilən mümkünlük hər hansı bir obyektin predikatı ilə münasibətdə təzahür edir. Predikatla münasibətdə olmamaq mümkünsüzlükdür.

c. Kanonik olmamaq: Ağıllı forma verilməsi mümkün olmayanlar mümkünsüzlükdür. Hər hansı bir fakt mütləq ağılla forma almaq keyfiyyətinə malikdir. Ağlın sərhədlərindən kənarda, başqa sözlə, ağılla təsvir və təsəvvür olunmayanlar mümkünsüzlükdür.

ç. Müxtəlif vaxtlarda müxtəlif həqiqətlərə malik olmaq: Hər bir reallıq zamandan asılı olmayaraq yalnız eyni bir həqiqətə malikdir, zamandan asılı olaraq mahiyyətini dəyişən mümkünsüzlükdür.

d. Özündə hər hansı bir həqiqət saxlamamaq: Hər bir gerçəklik mütləq özündə konkret həqiqət saxlayır. Belə keyfiyyətə malik olmayan, yəni sürəkli olaraq həqiqəti olmayan mümkünsüzlükdür.

e. Əksliyi ilə eyni həqiqətə malik olmaq: İstənilən mümkünlük onunla əkslik təşkil edəndən fərqli həqiqətə malikdir. Öz əksliyi ilə eyni həqiqət daşımaq mümkünsüzlükdür. Məsələn, ağ eyni zamanda qara ilə eyni tələblərə cavab vermir. Bu əksliklərin mövcudluğu qanununa - qütblülüyə uyğundur.

Haşiyə: F.Şellinq ”Dünya ruhu haqqında” - Qütblülük qanunu dünya yaranışının ümumi qanunudur.

l. Əşyanın predikatı ilə münasibətdə ziddiyyətdə olmaq: Hər bir mümkünlükdə həqiqət obyektin predikatı təsdiq olunur. Obyektin predikatı ilə inkar olunmaq mümkünsüzlükdür.

f. Özü-özü ilə əkslik təşkil etmək: Heç bir mümkünlük özü-özü ilə ziddiyyət təşkil etmir, ziddiyyət yalnız xarici obyektlərlə münasibətdə aşkarlanır. Özü-özü ilə ziddiyyət təşkil etmək mümkünsüzlükdür.

g. Vəhdət təşkil etməmək: Bütün mümkünlüklər bir-biri ilə vəhdət təşkil edir. Vəhdətdə olmayanlar mümkünsüzlükdür. Başqa sözlə, başqa gerçəkliklərdən aşkarlanmayan təzahür mümkünsüzlükdür.

GERÇƏK VARLIQ

Real varlıq təbiətdən təcrübəyə keçməklə obyekt-subyekt münasibətinə daxil olur və bu münasibətdə **gerçək varlıq** kimi çıxış edir. İdrak prosesi hissi qavrayışda real varlıqla subyektiv varlığın (mövcudluğun yoxluğu) vəhdətindən başlayır. Bu vəhdətdə real varlıq təfəkkürdə refleksiya etdiyi qədər, yəni subyektiv varlıqla eynilik kimi, gerçək varlığa çevrilir. Beləliklə, gerçək varlıq - dərk olunan real varlıqdır. Həqiqət mütləq dərk olunmadığından, heç bir gerçək varlıq real varlıqla eynilik təşkil etmir. Beləliklə, gerçəklik subyektin və real varlığın şərtlərinin məcmusundan ibarət olur; burada real varlıq gerçəkliyin zəruri şərtlərin-

in, subyekt təsadüfi şərtlərinin məcmusunu özündə təqdim edir, hansı ki, hər iki şərtin vəhdəti bilik, yəni aşkarlanmış həqiqət kimi meydana çıxır. Real varlıq gerçəkliyin zəruri şərtlərini təqdim etdiyindən biliyin sabit əsası kimi çıxış edir. Subyekt gerçəkliyin təsadüfi şərtlərini təqdim etdiyindən biliyin dəyişən tərəfindən ibarət olur. Gerçəkliyin dəyişən tərəfi özündə həqiqətin nisbiliyini ifadə edir, hansı ki, məhz həqiqət nisbiliyinə görə mütləq həqiqət istiqamətində dəyişir.

Haşiyə: Uilyam Arntc, Betsi Ceys, Mark Visente ”Dovşan yuvası və ya biz özümüz və Kainat haqqında nə bilirik”

> *“Fəlsəfə doktoru Kendis Pert (Candace Pert): “Bizə nəhəng həcmdə məlumat daxil olur. Onlar bizə hiss orqanlarından fasiləsiz daxil olur və biz onun çox hissəsini atmağa məcburuq. Şüura qədər yalnız ona mütləq zəruri olanlar çatır”. Fəlsəfə professoru Henrik Skolimovski (Henryk Skolimowski): “Göz reallığı ağlın təchiz etdiyi bilgilərin və hisslərin sərhədində qəbul edir. Məhz ağıl gözün gördüyü Kainatı yaradır. Başqa sözlə, bizim ağlımız bizə “görmək” lazım olanlara əsaslanır.”*

Beləliklə, real varlıqda “gözün gördüyü” və “ağla zəruri olaraq lazım olan” varlığın gerçəkliyini müəyyən edir. Real varlıqla gerçək varlıq arasında görə bilmədiyimiz və ağla zəruri olaraq lazım olmayan çoxlu məlumat qalır, hansı ki, həmin məlumata görə həqiqət nisbi dərk olunur. Real varlığın özündə aydınlaşdırdığı həqiqəti bilavasitə təfəkkürə şüalandırması ilə, özündə daşıdığı ideya haqqında məlumatı təfəkkürə ötürməsindən gerçəklik yaranır. Beləliklə, gerçəklik bir tərəfdən xaricdə real varlıqdan, digər tərəfdən daxildə təfəkkürdən təyin olunur. Gerçəklik varlığın sonu, təfəkkürün başlanğıcını, başqa sözlə, abstraktla konkretin vəhdətini özündə təqdim edir ki, mövcudluqdan fərqli olaraq özündə ikinci səviyyədən İlahi Nurun vəhdətini təşkil edir. Ağıl yalnız özünə zəruri olmayan həqiqətlərdən imtina etmir, həm özündən çıxan məlumatları onlara əlavə edərək onları özü və başqaları üçün dərk olunan hala salır.

Haşiyə: Uilyam Arntc, Betsi Ceys, Mark Visente ”Dovşan yuvası və ya biz özümüz və Kainat haqqında nə bilirik”

> *“ Co Dispenza: “Sizin beyniniz xarici aləmlə sizin təsəvvürlərinizin aləmi arasında fərq görmür”. Fəlsəfə doktoru Fred Alan Wolf (Fred Alan Bolf əvəzinə Wolf): “Bizdən kənarda, bizim təsəvvürlərdə - “burada” baş verməsindən asılı olmayaraq, heç bir “orada” yoxdur.”*

Beləliklə, bizdən kənarda “orada” mövcud olan gerçək varlıq bizim təsəvvürlərimizlə “burada” vəhdətdə Varlıq təyinlərinə ayrılır. Həmin ayrılmış təyinlərin başqa gerçəkliklərin təyinləri ilə müxtəlif vəhdətindən idrak baş tutur. İdrak istisnasız olaraq yalnız şüurlu insana xas olduğundan, bizim istənilən müddəamız özümüzə münasibətlə bağlıdır, yəni heç bir halda biz idrak obyektindən tamamilə yad deyilik: ya onu idrak edən, ya da onunla birgə idrak olanıq. Burada müqayisə aparan subyektdir, hansı ki, subyektin mövcudluqla təcrübədə vəhdətində təzahür edir. Beləliklə reallıq - şeylərin biri-biri ilə vəhdəti, gerçəklik - şeylərin subyektlə vəhdətini özündə ifadə edir. Reallığın metafizik anlamı yoxdur, çünki heç bir reallıq birinci başlanğıc xarakteristikasına malik deyildir. Belə ki, reallıqlar biri-biri ilə müqayisədə bu xarakteristikaya malik olur. Yəni hər bir reallıq eyni zamanda həm başqası üçün başlanğıc, həm də başqasında olan başlanğıca görə özündə sonu təqdim edir. Varlığın metafizik idrakından çıxaraq fəlsəfi idraka daxil olması reallıq səviyyəsində mümkün olur.

Reallığın şüura təsirindən iki hal meydana çıxır:

a. Reallıq idrak prosesində şüura təsir edir, amma onda refleksiya olunmur. Bunun iki səbəbi ola bilər. Birincisi, reallığın **intelligibelliyinin** (mətndə *intellektibellik* gedirdi, Kant fəlsəfəsinə uyğun *intelligibellik* olmalıdır) zəifliyi. Yəni, həqiqət konkret reallıqda tam aydınlıqla aydınlaşmır. İkincisi, subyektin intellektuallığının zəifliyi, yəni fərd reallıqda aydınlaşan həqiqəti dəqiq aşkarlaya bilmir.

b. Konkret reallıq şüura təsir edərək təfəkkürdə refleksiya olunur. Yəni idrak prosesində reallıqda aydınlaşan həqiqət təfəkkürdə aşkarlanır. Reallığın şüura təsir edərək təfəkkürdə refleksiya olunması gerçəklik xarakteristikası yaradır. Fəlsəfədə gerçəklik anlayışı - real mövcud olub inkişaf edən, özündə xüsusi mahiyyət və qanunauyğunluğu olan, həmçinin xüsusi təsir və inkişaf nəticələrinə malik olan şey kimi təyin olunur.

Bəs, gerçəklik anlayışına daxil olan xarakteristikalar ayrı-ayrılıqda özündə nəyi ifadə edir?

1. Real mövcud olmaq: Reallığın iki tərəfi vardır. Bu tərəflərdən biri həqiqətlə bağlı olub təfəkkürdən asılı olmayaraq meydana çıxan xarakteristikadır. İkinci tərəfi təfəkkürlə bağlıdır. Belə ki, təfəkkürdə yaranan obrazlar ya obyektiv gerçəkliyin obrazları kimi xaricdən alınma kimi meydana çıxır, ya da təfəkkürün özü-özündə yaranır və daxildən alınma kimi meydana çıxır. Real olan - özündə təfəkkürdə xaricdən alınan obrazları ilə dərk ediləni bildirir, hansı ki, həmin obrazlar həmin varlıqdan əldə edilir.

Haşiyə: B.Spinoza "Ağlın təkmilləşməsi haqqında"

> *"Aydın və dəqiq qavrayışda olan hər şey zəruri olaraq mövcuddur və ya ən azı mövcud ola bilər. Bu təyindən və ya təsvirdən belə çıxır ki, uydurulmuş varlıq, fikir varlığı və xəyal heç bir şəkildə varlığa aid edilə bilməz. Hegel "Varlıq haqqında təlim" - Mövcudolanla mövcudolmanın və ya daxili ilə xaricinin vəhdəti gerçəklikdir."*

B.Spinozanın fikirlərindən də görünür ki, mövcudluq yalnız qavrayışda olduqda varlığa aid edilə bilər. Qavranılmayan mövcudluq ya reallıq deyil, ya da potensiya kimi mövcudluqdur, yəni mümkün varlıqdır. Bundan fərqli heçlik olan - qavranılmayandır və buna görə də irreallıqdır. Hegelin fikirlərindən görünür ki, gerçəklik iki vəhdəti - şüurdan asılı olmayaraq idrak prosesindən kənarda reallığın forması ilə mahiyyətinin

vəhdətini və şüurdan asılı olaraq idrak prosesində reallıqda aydınlaşan həqiqətlə onun təfəkkürdə aşkarlanmasının vəhdətini ifadə edir. Burada "qavrayışda mövcud olmaq" özündə qavrayışla şərtlənmə zərurətini bildirmir, aydın və dəqiq qavrayış (aydın və dəqiq olmayan qavrayışda real olmayanlar da varlıq kimi dərk olunur) yalnız təsdiqedici rolda çıxış edir, hansı ki, reallıq özü-özündə qavrayışın təsdiqinə ehtiyac duymadan mövcud olur. Beləliklə, real mövcud olmaq həqiqətin vasitədə aydın və dəqiq aydınlaşmanın təfəkkürdə aydın və dəqiq aşkarlanma keyfiyyəti kimi meydana çıxır. Bəs nə üçün xəyal və fikir varlığı reallıq keyfiyyətinə malik olmur? Yuxarıda qeyd etmişdik ki, xəyal mahiyyətsiz forma kimi, fikri varlıqlar formasız mahiyyət kimi təzahür edir. Reallıq isə mahiyyətlə formanın vəhdətində meydana çıxır, hansı ki, insan varlığın formasından onun mahiyyətini qavrayışlarla idrak edir.

2. İnkişaf etmək: İnkişaf səbəb-nəticə əlaqəsini özündə bildirir və iki tərəfi vardır. Birinci tərəfi, istənilən gerçəklik nəyinsə səbəbi və eyni zamanda nəticəsidir. Beləliklə, eyni bir gerçəklikdə səbəb-nəticə vəhdəti inkişafın mahiyyətini təşkil edir. İnkişafda olmaq səbəb-nəticə əlaqəsində olmaq deməkdir. İkinci tərəfi, hər hansı bir gerçəkliyin idrakı sürəkli prosesdir. Belə ki, gerçəkliyin idrakı onda aydınlaşan nisbi həqiqətdən mütləq həqiqətə doğru inkişafdadır.

3. Qanunauyğunluğu olmaq: Bu xarakteristikanın da iki tərəfi vardır. Birincisi, müəyyən sabit nizamla yaranmaq. Hər hansı bir gerçəklik məkan və zaman şərtindən asılı olmayaraq yalnız bir və eyni dəyişməz nizamla əmələ gəlir. İkincisi, hər hansı bir gerçəklik subyektdən asılı olmayaraq bir və eyni yəqin nizamla aşkarlanır. Buradan da varlığın dəqiq aşkarlanmış qanunauyğunluğundan həmin varlığı dəqiq yaratmaq mümkündür.

4. Təsir və inkişaf nəticələrinə malik olmaq: Bunun da iki tərəfi vardır. Birinci tərəf, bir gerçəkliyin vəhdətdə olduğu digər gerçəkliklərə təsirini bildirir. İkinci tərəf, digər gerçəkliklərin vəhdətdə həmin

gerçəkliyə təsiri və bu təsir nəticəsində gerçəkliyin öz təzahür formalarını dəyişdirməsini ifadə edir.

5. Şey olmaq: "Şey" səbəb-nəticə əlaqəsində meydana çıxan və hiss üzvlərinə təsir edərək onda duyğu yaradan materiyanın təşkilatlanmış ayrılıqda götürülmüş təzahürüdür. Başqa sözlə, şey olmaq - özündə konkret struktur-forma təqdim etmək deməkdir.

Haşiyə: Hegel "Varlıq haqqında təlim"

> *"Şey - əsasın və mövcudluq təyininin vəhdətdə inkişafına qoyulmuş totallıqdır."*

Hegelin fikirlərindən görünür ki, şey xalis varlıqla - Varlığın və mövcudluq təyinlərinin vəhdətdə inkişafının totallığı kimi meydana çıxır. Başqa sözlə, varlığın mövcudluğunun mövcudluğun varlığına keçməsi şey kimi təzahür edir. Buradan da, gerçəkliyi belə də ifadə edə bilərik. Gerçəklik - özündə səbəb-nəticənin vəhdətini təqdim edən, konkret sabit mahiyyətə və dəyişkən formaya malik, təfəkkürdə xaricdən alınma obrazlar yaradan, şeyin təşkilolunmasının şərtlərinin məcmusundan ibarətdir. Beləliklə, gerçəklik mövcud varlıqla mövcudluğu yoxluq olan Ruh arasında sərhəd təşkil edir, hansı ki, gerçəkliyin refleksiyası ilə təbiətdən ruha - xalis zəkaya keçid baş verir və varlıq bu mərhələdən sonra təfəkkürə açılır; hansı ki, biz bunu həqiqətin aşkarlanması kimi qavrayırıq.

Kosmosu təşkil edən varlıqlar reallığa və gerçəkliyə görə aşağıdakı kimi fərqlənir:

Cisimlər özlərində həm mövcudluq, həm reallıq, həm gerçəklikdir.

Canlılar həm reallıq, həm gerçəklikdir. Canlıların faktiki mövcudluğu yoxdur.

Ruh yalnız gerçəklikdir. Ruhun faktiki mövcudluğu və real varlığı yoxdur.

Daxili təsirlər bir tərəfdən xarici təsirləri entropiyaya məruz qoyan mexanizmlərlə, digər tərəfdən daxildə yaranıb xarici təsir yaratmaq üçün

meydana gələn təsirlərdən ibarətdir. Bu təsirlər həyat prosesində orqanizmin daxilində müxtəlif təsirlərə cavab kimi meydana çıxan siqnalların yenidən orqanizmə təsir edib, onda ikincili cavab yaratmasından ibarətdir. Canlı orqanizm özü xüsusi bir mühitdir və mühit kimi özündən keçən siqnalları entropiyaya məruz qoyur. Amma sahədən və ətraf mühitdən fərqli olaraq bədən mühitinin entropiyası idarə olunan və nizamlıdır. Bədəndə siqnalların entropiyası xüsusi daxili "Maksvel iblislərinin" iştirakı ilə baş verir. Buna uyğun cavablar da entropiya olunur. Cavabın entropiyası differensasiya, ixtisaslaşma, əlaqələnmə və s. kimi bioloji mexanizmlər formalaşır. "Maksvel iblisləri" - hiss üzvləri - analizatorlar vasitəsi ilə qəbul etdiyi siqnalları entropiyaya məruz qoyaraq onları ikincili siqnallar vəziyyətinə salır və müvafiq orqanlara göndərir. Ali canlılarda analizatorların sayı göndərilən siqnalların sayına bərabərdir. İstənilən varlıq beş cür siqnal göndərdiyindən, buna uyğun ali canlılarda beş analizator - göz, qulaq, burun, dil və dəri formalaşmışdır. Hər bir analizator yalnız bir növ siqnalı qəbul edib, onu entropiyaya məruz qoyaraq ikincili siqnal şəklində bədənin daxilinə göndərmək imkanına malikdir. Siqnalları tutma qabiliyyətinə görə və analizatorlar üçün əlçatarlığına görə siqnallar müxtəlif həcmlərdə ötürülür.

Canlıların təsirə cavabının xüsusi bir forması maddi forma kimi təzahür edir. Canlılar yalnız həyatla bağlı məlumatı maddi formada - xüsusi efirlər şəklində şüalandırır. Belə efirlərin yayıldığı sahənin xüsusi formasını - **bioloji mühiti** yaradır. Həyat prosesində orqanizmdə ifraz olunan müxtəlif efirlər vasitəsi ilə hər canlı öz bioloji vəziyyəti - reallığı ilə bağlı informasiyanı mümkün qədər özündən uzağa ötürməyə cəhd edir. Bu informasiyalara nəsil verməyə hazırlıq, fiziki sağlamlıq, yaş, həyatın davam etməsi, təhlükələr və s. aiddir. Birincili mövcudluqda maddə özünü mübadilə etmir. Çünki maddə varlığın gerçəkliyini təqdim edir və onsuz varlıq gerçəkliyə çevrilmir. Amma canlılarda ikincili mövcudluğun mübadiləsi canlının gerçəkliyini ləğv etmədiyindən təsir və

əks təsirdə ikincili mövcudluğa görə ətrafla maddələr mübadiləsi yaranır. Maddələr mübadiləsi orqanizmin ətrafda konkret təsirlə təsir obyektini daxilə qəbulundan və xüsusi təsir daşıyan, təbiətdə orqanizmin iştirakı olmadan mövcud ola bilməyən xüsusi maddələr - daha mürəkkəb və qarışıq maddələri xaricə atmaqdan ibarətdir. Bu proses bir-birinə iki əks cavabla müşahidə olunur: **Assimilyasiya - dissimilyasiya**. Assimilyasiya canlı varlıqlarda həqiqətin aydınlaşmasının azalma meylini, dissimilyasiya artma meylinin xüsusi formaları kimi təzahür edir. Assimilyasiya-dissimilyasiya canlılığın başlıca cavab üsuludur. Maddələr mübadiləsi canlıların ikili sistemdən - bir tərəfdən cisim kimi orqanik formada qapalı sistemdən, digər tərəfdən materiyaönü vəziyyətə uyğun açıq sistemdən ibarət olmasından qaynaqlanır.

Canlılar haqqında məlumat siqnalları müxtəlif səviyyələrdə və dərəcələrdə entropiya olunur. Canlılarda həm də idarəolunan daxili entropiya mexanizmləri mövcuddur. Entropiya da maddi və ya qeyri-maddi olur. Maddi entropiya pis iylər, pis dadlar, pis görünüşlər, təhlükəli maddələr - zəhərlər və s. aiddir. Belə entropiya daimidir. Bununla yanaşı canlılar eyni məlumatı müvəqqəti olaraq hazırlayıb ətrafa yaya bilirlər. Siqnalların qeyri-maddi entropiyası antropoloji, cinsi və yaş haqqındakı məlumatları keçici və situasiyadan asılı olaraq entropiyaya məruz qoyulmasından ibarətdir. Məsələn, ov ovçu heyvandan xilas olmaq üçün tüklərini qabardaraq bədən ölçülərini böyük göstərməyə, xüsusi poza almaqla və ya rəngini dəyişməklə başqa heyvanın məlumatını çatdırmağa cəhd edir. Belə entropiyanı - yalançı entropiya adlandırmaq olar. Yalançı entropiya həqiqi entropiyadan idarəolunmaqlığı ilə fərqlənir.

b. Mövcudluqların bir-birinə daxili təsiri: Canlılar birincili mövcudluqda - orqanizmdə mövcud olan ikincili mövcudluq kimi - həyat kimi mövcud olduğundan, orqanizm həyata, həyat orqanizmə sürəkli təsir edir və faktiki canlı belə daxili qarşılıqlı təsirdə fərdi mövcudluğunu davam etdirir. Orqanizmin həyata, həyatın orqanizmə təsiri zaman şərtlərin-

in məcmusundan ibarətdir. Orqanizm - ölülüyün, həyat - canlılığın şərtlərindən ibarət olduğundan, birincili mövcudluğun ikinci mövcudluğa daxili təsirini ölümlə canlılığın vəhdətinin şərtlərinin məcmusu kimi təyin etmək olar. Heyvanilikdə birincili mövcudluğun ikincili mövcudluğa və ikincili mövcudluğun birincili mövcudluğa sürəkli təsiri heyvani mövcudolma üçün ardıcıl təhlükələr yaradır. Heyvani orqanizmdə belə daxili təsirlərin təhlükəsizliyini təmin edən xüsusi yeni əlamətlər - tənzimləmə və idarəetmə şərtlərinin meydana çıxması ilə heyvani mövcudolmanın sürəkliliyi təmin edilir. Biz belə mexanizmləri həqiqəti entropiya edən "Maksvel iblislərinin" əksinə həqiqəti entropiyadan azad edən, qoruyan "Qoruyucu Mələklər" kimi təyin edirik. Tənzimləmə və idarəetmə ilə maddələr mübadiləsi ilə həyat müəyyənlik əldə edir. Canlılar həm birinci mövcudluq kimi, həm də ondan fərqli olaraq ikincili mövcudluq kimi öz mövcudluqları haqqında məlumatı ətrafa şüalandırırlar. Materiya və həyatın vəhdətdə şüalanması - **biosahəni** yaradır. Biosahə - hər bir orqanizmin ətrafında adi gözlə görünməyən, canlı orqanizmdən ayrılmayan, onu xarici təsirlərdən qoruyan xüsusi biofiziki sahədir.

Heyvani canlılarda təsirlə cavabın funksional asılılığından əlaqə meydana çıxır. Əlaqə özündə konkret təsirin şərtləri ilə ona uyğun cavabın şərtlərinin məcmusunu özündə ifadə edir. Burada təsir xarici olduğundan təsirin şərtləri təsadüfi şərtlər, cavab daxili olduğundan zəruri şərtlər kimi çıxış edir. Əlaqəyə görə heyvana təsadüfən xaricdən olan istənilən məkan və zaman şərtlərinə görə dəyişən təsirə orqanizmdə daxildə zərurətə görə bir və eyni sabit cavab verilir. Əlaqə xarici təsiri qəbul etmək, ona istiqamətlənmək və ona münasibət göstərmək kimi üç mühüm elementdən malikdir. Belə qarşılıqlı təsir həm maddi, həm də qeyri-maddi əlaqə formasının növbələşməsi formasında yaranır. Əlaqə cavab kimi yalnız özündən kənara istiqamətlənmiş xaricə yönəlik təzahürdür. Əlaqə imprintinqlərlə bağlıdır. **İmprintinq** - təcəssüm və ya dərin iz bu-

raxmaq - ali onurğalılarda obyektlərin fərqləndirici əlamətlərinin anadangəlmə davranış aktları ilə öyrənilməsini özündə ifadə edir. Heyvanlarda anadangəlmə qida və təhlükə ilə bağlı davranışlar imprintinqə əsaslanır. İmprintinqlər sonradan əlaqənin əsasını təşkil edir.

Canlılarda əlaqənin bir neçə forması vardır:

a. Geoloji orqanizmlə canlı orqanizm arasında xarici əlaqə: Canlılar birincili mövcudluqda ikincili mövcudluq kimi yarandığından bir tərəfdən də öz bədənlərinin fiziki şeyi ilə ümumi Kosmik qanunauyğunluqlarına tabe olur. Bu qanunauyğunluqlara canla cisim arasındakı əlaqələr aiddir. Bu əlaqə nəticəsində Kosmik ritmə uyğun canlı orqanizmlərdə bioritmlər meydana çıxır. Bioritm ikincili mövcudluqların birincili mövcudluqlarla sinxronluq təşkil etmə şərtlərinin məcmusundan ibarətdir. Heyvanların bir-birinə canlı kimi təsir-əks təsiri əlaqə və əks-əlaqə kimi təzahür edir. Yəni xarici və daxili təsirlərin heyvan orqanizmində meydana çıxardığı cavab xarici təsir obyektinə yox, elə-belə digər canlıya yönəlirsə, onda ikinci canlıda əlaqəyə əks əlaqə yaranır, hansı ki, ikiqat təsirə cavab kimi şərtlərin məcmusundan ibarət olur. Beləliklə, canlıya xarici təsir üç formanın - fiziki təsir, əlaqə və əks-əlaqənin şərtlərinin - siqnalların, məlumatların, kodların şərtlərinin məcmusundan ibarət olur. Hər bir canlı geoloji orqanizmin ən ümumi xarici təsirlərinə müxtəlif formalarda cavab verir. Canlıların geoloji orqanizmlə əlaqəsinin xüsusi mürəkkəb forması **ərazi ilə əlaqədən** ibarətdir. Hər bir canlı yalnız müəyyən məkani şərtlərdə mövcudluq aktını davam etdirə bilər. Məkanla əlaqə ərazi hissi ilə bağlıdır. Yəni ərazinin bəlli təsirləri uyğun cavabla funksional asılı olanda ərazi hissi təzahür edir. Heyvanlar öz ərazisi istisna olmaqla məkana laqeyddir. Onların dünyası əraziləri boydadır. Ərazi ilə əlaqə qidalanma və təhlükəsizliklə müəyyən olunur. Buna görə də, canlıların ərazi əlaqəsi instinktivdir. Heyvani orqanizmlə geoloji orqanizmin əlaqəsi iki zonanı təzahür etdirir.

1. Məskunluq zonası: Hər bir heyvani canlının mövcudolması üçün zəruri xarici şərtlərin olduğu ərazi həmin heyvanın məskunluq zonası kimi mövcuddur, hansı ki, özündə geoloji orqanizmlə canlı orqanizmin şərtlərin vəhdəti kimi mövcud olur. Bu zonanı biz qidalanma zonası kimi də təyin edə bilərik. Məskunluq zonası heyvani həyata yardım edən şərtlərin mövcudluğundan ibarətdir.

2. Təhlükəsizlik zonası: Hər bir canlının özünüqorumasını reallaşdırdığı zonanı biz təhlükəsizlik zonası adlandırırıq. Təhlükəsizlik zonası geoloji orqanizmin heyvani varlıqla arasında bölüşdürülməsindən meydana çıxır, hansı ki, həmin zona daxilində heyvani mövcudolma davam edir. Bu zonanı heyvanlar işarələyir və aktiv şəkildə qoruyurlar. Başqa heyvanların bu zonaya müdaxiləsi qarşılıqlı aqressiyaya səbəb olur. Ərazi canlı üçün bədənin refleksiyasıdır. Buna görə də, əraziyə müdaxilə daxilə müdaxilə kimi qəbul olunur. Aqressiya canlı mövcudluq aktının kəskin entropiyası nəticəsində yaranır. Vəhşiliyin dərəcəsi belə aqressiyanın intensivliyi ilə bağlıdır.

b. Həyatın orqanizmlə daxili əlaqəsi: Belə əlaqədə həyat təsadüfə görə şərtlərin məcmusunu, orqanizm zəruri şərtlərin məcmusu kimi çıxış edərək, vəhdətdə canlı heyvan orqanizmi yaradırlar. Həyatın orqanizmə əlaqəsinin xarici forması antropoloji əlaqəni təşkil edir. Antropoloji əlaqə özündə heyvan obrazının şərtlərinin məcmusundan ibarətdir. Yəni hər bir heyvanın obrazı özündə zəruri şərtlərin məcmusu kimi orqanizmin təsadüfi şərtlərin məcmusu kimi həyatla necə əlaqələndiyini təzahür etdirir. Heyvanlarda antropoloji əlaqə yaş dəyişilmələri kimi qavranılır.

c. Heyvani canlılığın fiziki cisimlərlə əlaqəsi: Yuxarıda qeyd etdik ki, Kosmosun inkişafının sonunda qeyri-üzvi aləmin müəyyən tərkibə və nisbətə geoloji orqanizmi meydana çıxarır. Geoloji orqanizmə daxil olmayan və buna görə də qeyri-müəyyən tərkibə və dəyişən nisbətdə mövcud olan birincili mövcudluqların heyvani orqanizmlə əlaqəsini bir ümumi şəkildə canın xarici cisimlə əlaqəsi kimi təyin edirik. Fiziki cisim-

lər o cisimlərdir ki, həmin cisimlər bilavasitə canlının mövcud olması ilə şərtlənmir, yəni heyvani mövcudluğa yad şeylər kimi mövcud olur. Belə şeylər heyvanlar üçün nə qida, nə təhlükə rolu oynamır. Canlıların belə şeylərlə əlaqəsi obrazlı olaraq həqiqətin fəlsəfi aşkarlanmasına oxşayır. Yəni canlının heç bir tələbatı və ehtiyacı olmadan fiziki şeylə daxili təsadüfə görə əlaqəyə girməsi sanki onun xarici şeyin həqiqətini aşkarlamaq cəhdi kimi meydana çıxır. Bu cür əlaqə heyvani destruktivliyin başlanğıcı kimi meydana çıxır. Yəni canlılar təsadüfən ehtiyac və tələbat olmadan diqqətlərini təsadüfən cəlb edən fiziki cismi dağıtmağa, onun daxilə keçməyə, bununla da sanki onun həqiqətini aşkarlamağa cəhd edir. Belə heyvani aşkarlama zamanı əldə edilən həqiqət heyvan tərəfindən şüuru olmadığından obrazlaşdırılmır, yaddaşa alınmır, istifadə edilmir, təkrarlanmır, başqa obrazlarla əlaqələndirilmir. Biz bu cür əlaqəni heyvani analiz kimi təyin edirik, hansı ki, sintezdən ayrılıqda xalis formada meydana çıxdığından heç bir bilgi ilə nəticələnmir. Heyvani aşkarlama şeyin formasını dağıtmaq, onu ən kiçik hissələrə ayırmaq, onun daxilinə keçməyə cəhd, obyekti hərəkətə və ya hərəkətsiz hala salmaqdan ibarət fiziki hadisələrin şərtlərinin məcmusundan ibarətdir.

Haşiyə: N.Vinner ”İdarəedən insan”

> *“Bəzi tip maşınlar və bəzi canlı orqanizmlər, xüsusən canlı orqanizmlərin ali növləri, öz davranışlarının formasını keçmiş təcrübəyə görə xüsusi antientropik məqsədləri nəzərə alaraq dəyişir. Orqanizmin indisi - keçmiş kimi deyil, gələcəyi isə indiki kimi deyil. Canlı orqanizmdə, eləcə də kainatda dəqiq təkrarlanma mütləq mövcud deyil.”*

N.Vinnerin fikirlərindən göründüyü kimi canlılarda əlaqələr təsadüfə görə xaotik olduğundan, təsirlər dəyişkən olduğundan əlaqələr də təkrarlanmayan olur. Buradan da canlılarda təsadüfə görə dəqiq təkrarlanma yaranmır, hansı ki, yaddaş kimi qavrayırıq. Dəqiq təkrarlanma olma-

dığından heyvani orqanizmdə təkrarlanan əlaqələri həyata keçirən konkret bədən üzvü də yoxdur.

d. Heyvanların heyvanlarla əlaqəsi: Belə əlaqə ən mürəkkəb kombinasiyalarda mövcud şərtlərin məcmusu kimi meydana çıxır, hansı ki, hər bir heyvan başqa heyvana həm geoloji orqanizm, həm fiziki cisim, həm də onlardan fərqli özü kimi heyvani varlıq kimi əlaqəyə daxil olur. Canlının canlı ilə əlaqəsindən aşağıdakı mövcudluq zonaları meydana çıxır:

1. **Canlılıq və ya yaşam zonası:** Hər bir canlı orqanizmin həyat fəaliyyəti haqqında məlumatın yayıldığı zonanı biz canlılıq zonası kimi təyin edirik, hansı ki, bu zonaya görə canlılar bir-birinin yaşadığı haqqında məlumata malik olurlar. Canlıların özlərindən ən uzağa göndərdiyi şüa həyat haqqında - canlılıq haqqında ən ümumi məlumatdır. Bu məlumat nizamlı, ardıcıl, dövrü verilən məlumatlardan ibarətdir. Ölüm bu məlumatları entropiyaya məruz qoyaraq onları xaotik, fasiləli, qeyri-periodik hala salır. Ona görə də, canlılar asanlıqla cəsədi canlı orqanizmdən fərqləndirirlər. Cəsədin canlıdan fərqi onun göndərdiyi məlumatın başlanğıcdan entropiyaya məruz qalmasıdır. Canlılarda entropiya mühitin təsirindən baş verdiyindən canlılar mühitdə manipulyasiya etməklə bir-biri ilə əlaqə qurur. Canlılarda ölüm və həyat kimi iki bir-birini inkar edən proses canlı haqqında ən sadə və ümumi məlumatı təşkil edir.
2. **Cinsi zona:** Bu zona nəsil vermək üçün cütləşmənin həyata keçirildiyi zonadır. Bu zonada əks cinsi özünə cəzb edən və cütləşməyə hazırlıqla bağlı informasiyalar yayılır. Bu informasiyanı cinsi hazırlıqla bağlı orqanizmin ifraz etdiyi xüsusi efirlər daşıyır. **3. İntim zona və ya antropoloji zona:** Faktiki canlının antropoloji əlamətləri ilə bağlı məlumatın yayıldığı zona onun bədəni kimi təzahür edir. Bu zonada həm cinsi mənsubiyyət, həm konkret növ, həm yaş, həm də antropoloji ölçülərlə bağlı məlumat ötürülür. Bu məlumatlar heyvanın bədən quruluşu, dərisinin rəngi, tük örtüyü və s. bağlı informasiyalar-

dan ibarətdir. Bu zonaya görə heyvanlar növdaxili və növlərarası əlaqə üçün hücum edirlər.

Heyvanların heyvanlarla aşağıdakı əlaqə formaları vardır:

A. Qida əlaqəsi: Qida əlaqəsi özündə eyni vaxtda həm başqa canlılarla, həm də geoloji orqanizmlə əlaqənin şərtlərindən ibarətdir. Canlılar maddələr mübadiləsində bir-biri ilə daha mürəkkəb və ali səviyyəli əlaqəyə girir. Biz bunu qida əlaqəsi adlandırırıq. Qida elə xarici təsirdir ki, o maddi məlumat kimi canlının daxilinə alınır və orqanizm ondan həm məlumat, həm də xammal kimi istifadə edir. Heç bir məlumat daşımayan və ya ikincili mövcudluğun yaranmasında təsiri olmayan şey qida deyil. Qida həyatın davam etdirilməsinə, bioloji artım meylinə kömək edir. Qida əlaqəsi həm üfüqi, həm şaquli xətt üzrə qurulur. Şaquli xətt üzrə qidalılıq maddələr mübadiləsinin fərqliliyinə, üfüqi əlaqələr eyniliyinə əsaslanır. Şaquli xətt üzrə qida əlaqəsinin üç həlqəsi vardır. Qida öz sərhədlərindən kənara buraxdığı kodlarla heyvanları özünə cəlb edir. Bu zaman heyvanla qida mənbəyi arasında əks əlaqə yaranır. Əvvəlcə heyvanın qida mənbəyindən gələn və ən uzaq məsafəyə ötürülən sadə məlumatları tutur. Sonra özündən qida mənbəyinə informasiya göndərərək onun istiqamətini müəyyən edir. İstiqamət məkanın dərk edilməsinin birinci mərhələsini təşkil edir. İstiqamət müəyyən edildikdən sonra heyvan məsafəqətetmə instinktiv fəaliyyətə başlayır. Qidaya doğru hərəkətdə getdikcə qida mənbəyindən gələn və fərqli məsafələrə ötürülə bilən məlumatlar tutulur və konkretləşmə başlayır. Nəhayət heyvan qi-daya çatır. Təhlükədən uzaqlaşma da eyni prinsiplə həyata keçirilir. Amma bu dəfə əks əlaqədən imtina olunur. Heyvan təhlükəyə göndərdiyi siqnallar vasitəsi ilə özünün ondan təhlükəsizlik həddinədək uzaqlığını müəyyənləşdirir. Bir qayda olaraq heyvanın təhlükədən uzaqlaşması təhlükə mənbələri müxtəlif istiqamətdə olduğundan xaotikdir. Xaotik uzaqlaşmanın duyğusu kimi ərazi müxtəlif istiqamətlərdən göndərilən

mürəkkəb informasiyanın xaotik yayıldığı məkanın bir hissəsi kimi mənimsənilir.

Qida əlaqəsinin üç forması vardır:

a. Geoloji orqanizmin qida kimi canlı orqanizmlə əlaqəsi. Buradan **biotransformatorlar** meydana çıxır. Bitkilər və bəzi mikroorqanizmlər geoloji orqanizmin xarici təsirinə cavab kimi özlərində yeni ikincili materiya - üzvi maddə yaratmaqla cavab verir. Bu sıranı biotransformatorlar təşkil edir. Məsələn, fotosintez hadisəsi belə biotransformasiyalardandır. Biotransformatorlar geoloji orqanizmi təşkil edən qeyri-üzvi maddələrdən üzvi maddələr sintez edərək canlı aləmin üzvi əsasını təşkil edirlər.

b. Biotransformatorlarla heyvani orqanizmin qida əlaqəsi: Biotransformatorlarla qida əlaqəsindən avtotrof heyvani orqanizmlər - otyeyən heyvanlar meydana çıxır.

c. Canlı orqanizmin qida kimi canlı orqanizmlə əlaqəsi: Heyvani canlıların bir-biri ilə qida əlaqəsindən heterotrof canlılar meydana çıxır. Heterotrof canlılar yalnız üzvi əsasdan yeni daha mürəkkəb üzvi maddə sintez edərək həyatın son formasını təzahür etdirirlər.

Canlılar arasında qidanın üfüqi əlaqəsi nadir hallarda rast gəlinir və yalnız daxili təsirin xarici təsirdən gücləndiyi vaxtlarda və ya canlı növlərində müşahidə olunur. Bunun iki forması var: **a.** Özü-özünü həzm etmək. Heyvanlar qida tapmadıqda orqanizmin ehtiyatları qida təsiri göstərir. **b.** Öz növündən olanla qidalanmaq: Qida əlaqəsində olduğu başqa heyvan orqanizmi olmadıqda heyvanlar tələbatlarını ödəmək üçün öz növləri ilə qida əlaqəsinə girirlər.

B. Cinsi əlaqə: Bu əlaqə forması nəsilvermə instinkti əsasında əks cinslər arasındakı qarşılıqlı asılılığı özündə ifadə edir. İki bir-birinə əks cinsin qarşılıqlı təsiri cinslərarası əlaqə yaradır. Cins - özündə bioloji ziddiyyət daşıyan varlıq formasıdır. Cins bir tərəfdən eyni növdən olan vahid irsi informasiya daşıyan əks cinslə eynilik, həm də kontakt sa-

həsinə və daxili sahənin strukturlaşmasına görə ondan fərqlilik nümayiş etdirən heyvani formadır. Cinslər arasında əlaqə növdaxilidir. Əksliklərin bir-birini dəf etmə meylinə uyğun əks cinslər bir-birini cəlb edib "bir-birinin cinsi fərqini məhv etməyə" cəhd edirlər. Lakin bu məhvetmə total yox, hissəvi və ifrazat şəklində reallaşır. Bir cins başqası ilə əlaqəyə girdikdə hər ikisi qarşılıqlı olaraq özlərindən ifraz olunan "şey"i ortaq bir sahəyə buraxır. Erkəklərdən toxum, dişilərdə yumurta bir-biri ilə birləşərək əkslikdən vəhdətə keçir. Beləliklə, ikincili mövcudluqda eyniliyin müxtəlifliyi entropiyaya məruz qoyması nəticəsində eyniliklə fərqliliyin mürəkkəb kombinasiyası cinsi hiss yaranır. Cinsi hiss iki əks cinsi elə bir-birinə cəlb edir, birləşmə və ayrılmanın növbələşməsi ilə bir-biri ilə əlaqələnir. Canlıların cinslərarası əlaqəsi cütləşmə kimi təzahür edir. Cütləşmə dörd mərhələdən ibarət mürəkkəb əmələgəlmə prosesindən ibarətdir: Cinsi aqressivlik mərhələsi - iki əks cinsin növ daxili cinsi fərqlilikləri onlar arasında aqressivlik yaradır və cütləşmənin başlanğıcında bir-birini neytrallaşdırmaq üçün bir-birinə hücum edir. Cinsi aqressivlikdən sonrakı mərhələ təmas mərhələsini təşkil edir. Təmas mərhələsində əks cinslərin bədənləri arasında daha az entropiyaya məruz qalmış əlaqə yaranır. Təmas prosesində kontakt təsirlər heyvanların üzvlərini fərqli fəaliyyətə gəlməsinə səbəb olur və onlar müvafiq şəkildə istiqamətləndirilir. Sonra əks cinsin daxili boşluğu tutmağa cəhd mərhələsi - əks cinsin mövcudluğuna son qoymaq üçün biri digərinin daxilinə keçir. Mayalanma mərhələsi - əksliklərin barışması - hər iki cins bir-birində eyniyyət hiss edir və gərginlik azalır. Belə əlaqə hər iki cinsdə təsirin maddi formasını yaradır. Nəticədə, xüsusi substansiyaya malik nəsil yaranır. Nəsilvermə - eyni həyat şərtlərinin fərqli orqanizmlərdə vəhdət təşkil etməsindən ibarətdir. Nəsil onu yaradanı irsi məlumat əsasında kopyalamaqdır. Belə ki, həyat prosesində canlıların maddələr mübadiləsi elə səviyyəyə çatır ki, artıq gerçəklik bir tam kimi kopyalanır. Nəsilvermə geoloji orqanizmdən üzvi maddələr sintezinin ən ali və tək-

mil refleksiyası kimi mövcuddur, hansı ki, canlıdan canlı yeni həyat sintez olunur. Kopyalama - müştərək şəkildə mövcudluq aktı kimi həyatın başqa varlıqda davam etdirilməsidir. Bu proses mürəkkəbləşmə və təkmilləşmə istiqamətində elə səviyyəyə çıxır ki, ikincili mövcudluqlar özləri həyatı müstəqil yaradır.

C. Nəsil əlaqəsi: Canlılar arasında əlaqənin bir forması səbəb-nəticə əlaqəsi ilə müəyyən olunan nəsillərarası əlaqədir. Nəsli əlaqə özündə səbəb-nəticə əlaqəsinin heyvanilikdə təzahürüdür, hansı ki, törədici heyvanilik zəruri şərtlərin məcmusu kimi, bala təsadüfi şərtlərin məcmusu kimi mövcud olur. Bala doğulduğu anda cinsindən asılı olmayaraq özündə ana ilə tam eyniyyət təşkil edən şərtlərin məcmusu kimi təzahür edir. Sonradan təsadüfi şərtlərin məcmusu kimi özü-özündə zəruri şərtlərin məcmusu ilə vəhdətdə mövcudluq yaranır, törədici heyvanla törəyən arasında fərqlilik yaranmağa başlayır. Yaşa dolma hər iki tərəfdə elə ciddi orqanik və fizioloji xüsusiyyətlər yaradır ki, bir müddətdən sonra ana-bala əlaqəsi qırılır və hər iki tərəf yenidən həyatı təkrarlamaq prosesinə daxil olur. Balanın bədənindəki yeni ifrazatlar onun haqqında anaya verilən məlumatı entropiyaya uğradır. Ana onu tanımır və onu özünə yadlaşdırır. Bioloji varlıqlar mövcudluq aktını özündən olanla davam etdirməsindən nəsil əlaqəsi yaranır. Nəsil əlaqəsi eyni irsi məlumatların iki müxtəlif varlıqda şüalanması kimi təzahür edir. Heyvanlarda bala münasibətdə fərqli əlaqələr mövcud olur. Doğuluş anında heyvanın öz balasına yaxınlaşması və onu tanıması balanın ananın bədənindən aldığı bulaşıqla doğulması səbəb olur. Ana balasını yalamaqla onun özü ilə eyniliyini aşkarlayır. Sonra qidalandırma prosesi başlayır. Məməlilərdə bala anasından süd əmdikcə ana-bala əlaqəsi öz möhkəmliyini saxlayır. Süd ananın bədəninin xüsusi əlamətlərini balaya keçirməklə ondan olanla mövcudluğu davam etdirməyin münasibətini yaradır. Quşlar süd vermədiyindən onlarda ana-bala münasibəti məməlilərə nisbətən qeyri-intensivdir. Məməlilərdə südlə yaranan əlaqə quşlarda ağızla qidalandır-

ma əvəzləyir. Süd məməlilərdə hansı maddi əlaqə yaradırsa, quşlarda da ağızla qidalandırmada ağız şirəsi eyni rolu oynayır. Suda yaşayanlarda isə demək olar ki, ana-bala münasibəti südlə qidalananlar istisna olmaqla yox dərəcəsindədir.

V. İrsi əlaqə: Faktiki canlının formal canlı ilə vəhdətinin şərtlərinin məcmusu irsi əlaqə kimi təyin edirik. İrsi əlaqə növün faktiki canlıdan keçərkən müəyyən müddət faktiki canlı ilə vəhdət təşkil etməsinin şərtlərinin məcmusunu özündə ifadə edir, hansı ki, bu əlaqə nəticəsində faktiki canlı formal canlıdan heyvani forma alır, formal canlı isə faktiki canlı üçün mahiyyət kimi çıxış edir. Beləliklə irsiyyəti canlının forma ilə mahiyyətinin vəhdətinin şərtləri kimi də təyin etmək olar. Faktiki canlı forma kimi - təsadüfi, xarici, dəyişən şərtlərin, formal canlı mahiyyət kimi - zəruri, daxili, sabit şərtlərin məcmusundan ibarət olur, hansı ki, hər ikisinin vəhdəti faktiki canlı individ kimi təzahür edir. Bu iki şərtlərin fərqliliyinə görə canlının forması ilə mahiyyəti keçici vəhdət təşkil edir, buradan da canlıların zamandan asılılıq qanunları meydana çıxır. Yəni hər bir faktiki canlı bəlli vaxt ərzində həyat və fəaliyyətinə görə növlə vəhdətdə müxtəlif əlamətlər təzahür edən canlı kimi mövcud olur. Beləliklə, faktiki canlı nəticə, formal canlı səbəb kimi çıxış edir. Forma təkliyi, mahiyyət çoxluğu meydana çıxardığından hər hansı bir növ sonsuz sayda fərqli formalarda təzahür edir.

İrsi əlaqə haqqında üç müxtəlif nəzəriyyə mövcuddur: a. İrsi qabiliyyətlər irsən verilən nəsil əlamətlərini özündə saxlayır və əcdadlarda olduğu kimi eyni ardıcıllıqla üzə çıxır: Bu nəzəriyyə ikincili mövcudluqların xarici təsir və əlaqələrə reaksiyasını və cavabını nəzərə almır, hansı ki, məhz bu cür xarici təsir və əlaqəyə görə irsən verilən əlamətlər ardıcıllıqla olduğu kimi meydana çıxmır. Yəni formal canlı ilə faktiki canlının vəhdəti eynilik kimi yox, oxşarlıq kimi meydana çıxır, bu da modifikasiyanı özündə təqdim edir. Yəni eyni formal canlı dəyişən faktiki canlı ilə vəhdət təşkil edir. Dəyişən forma mahiyyəti əcdadlarda

olduğu kimi meydana çıxarmaq imkanına malik olmur. Beləliklə bu nəzəriyyə ilə tam razılaşmaq olmaz. b. Nəsil üçün yararlı olanları seçilməsi nəticəsində saxlanması fərd və nəsil üçün bioloji məqsədəyönlülüyə uyğun ardıcıllıqla təzahür edir: "Təbiətdə hər şey dəyişir" prinsipinə görə dəyişən təbiətin əsasında yaranan canlılıq da əsasda baş verən dəyişilmələrə uyğun dəyişilməyə məcburdur. Buradan da dəyişən növ yox, növün əsasi olur. Bu nəzəriyyə heyvani mövcudluğun mahiyyətinə daha yaxındır. Belə ki növ səbəb, forma nəticədir. Səbəb-nəticə əlaqəsinə görə heyvanın forma dəyişilmələri özündə növ dəyişilmələrini əks etdirir, hansı ki, növ dəyişilmələri birincili mövcudluğun dəyişilmələrinə uyğun olaraq növün sabit şərtlərinin əvəzlənməsi kimi mövcud olur. Bu nəzəriyyə heyvani mövcudolmanın mahiyyətinə uyğundur. v. Fərd bütün mərhələləri keçir. Ən ibtidaidə başlanır və hər birində ona xas forma reaksiya verir: Bizcə keçmişin indini şərtləndirməsinə görə bu nəzəriyyə nisbətən həqiqətə uyğun olsa da, indinin gələcəyi şərtləndirməsinə görə dəqiq deyil. Yəni növ keçmişdə, indidə və gələcəkdə olan bütün formalardan keçərək onları şərtləndirən formal canlılıqdır. Əgər forma məhz belə şərtləndirməyə görə bütün mərhələləri keçirsə, onda gələcək mərhələləri də keçməlidir. Heç bir forma gələcək mərhələləri keçməyə məcbur olmadığından, bu yalnız kənara çıxma - anormallıq kimi müşahidə olunur, bu nəzəriyyə irsiyyətin tam mahiyyətinə uyğun deyil.

Ştern: Konvergensiya nəzəriyyəsi - Psixi inkişaf sadə anadangəlməyə qabil deyil. Eləcə də xarici təsirlərin sadəcə qavranması deyil. O, daxili qabiliyyətlərlə inkişafın xarici şərtlərə konvergensiyasının nəticəsidir.

Bizcə irsi əlaqə konkret bioloji növdə gerçəkləşəcək son həqiqətə istiqamətləndirici və entropiya qanunauyğunluqlarının məlumatlarından ibarətdir. Yəni bir tərəfdən irsi əlaqə individin məxsus olduğu növün inkişafının yolu haqqında məlumatdır. Bu məlumat entropiyadan təmizlənmiş xalis bilgidir - **Heyvani yaddaş**, ikincisi bu yolda onda ay-

dınlaşan həqiqəti entropiyaya məruz qoyacaq konkret şərtlərdə necə reaksiya vermək haqqındakı məlumatın məcmusudur - **Qoruyucu məlumat**. Burada birinci mütləqdir - keçmişdir və başa çatmış gerçəkliyin məlumatıdır, hansı ki, indini şərtləndirir. Bioloji inkişafın - zamandan asılılığına görə əks istiqamətdə getməsi istisna olduğundan individual həyat ona təsir edə bilmir. Digər tərəfdən, məlumat qapalı və daxili olduğundan xarici və kənar olanlar ona müdaxilə etmək imkanına malik deyil. İkinci şərtidir - individin düşə biləcəyi təsadüfi vəziyyətlə şərtlənmişdir. Bioloji varlıqlarda nəsil əlaqəsi həm də irsi informasiya şəklində daxili təsir yaradır. İrsi əlaqə özündən əvvəlki iki əlaqədən daxili və qapalı olması ilə fərqlənir. Daxili əlaqə xarici əlaqəyə nisbətən daha az entropiyaya məruz qalmış məlumat mübadiləsinə əsaslanır. Heyvanların əlaqəsi qapalı sistem daxilində səbəb-nəticə əlaqəsi zənciri kimi - instinktləri meydana çıxarır. İnstinkt heyvanlarda daxili və xarici təsirlərə nəsli yaşam təcrübəsindən əldə edilmiş cavabların spontan və avtonom meydana çıxmasıdır. İnstinkt birinci siqnal sisteminə aid bioloji təzahürdür.

Q. Sürü əlaqəsi: Heyvanın xarici mövcud olmasının bir forması sürüdür. Canlılar arasında üçüncü əlaqə növü ən ümumi keyfiyyətlərdə eyniliyə görə başqa fərqli eynilikdən kollektiv ayrılmadır. Bu canlılarda sürülərin yaranmasını şərtləndirir. Sürü - növlərarası eyniliklə fərqliliyin şərtlərinin məcmusundan ibarət xarici heyvani mövcudolmadan ibarətdir. Yəni eyni növdən olan heyvanlar sürünün daxilini təşkil edən üzvləri, başqa növdən olan heyvanlar isə sürünün xarici vəhdət təşkil edən üzvləri kimi mövcud olur. Sürü həm də növdaxili fərqliliklərlə növlərarası fərqliliyin şərtlərinin məcmusunu özündə təqdim edir. Növdaxili fərqlilikdən sürünün daxili iyerarxiyalaşması baş verir. Yəni heyvani sürü antropoloji, cinsi və yaş fərqliliklərinə görə iyerarxiyalaşır. Beləliklə, sürüdaxili mövcudolmanın şərtləri yaranır. Sürünü biz cəmiyyətin proto-

tipi kimi təyin edirik, hansı ki, Ruhun yaranması ilə heyvani sürü insan cəmiyyətinə keçir.

Heyvanlararası əlaqə və əks-əlaqənin mümkün və mövcud olduğu sahə xüsusi geoloji orqanizmin təşkil etdiyi birincili mühitdən fərqli olaraq ikincili mühiti təşkil edir. İkincili mühit heyvani mövcudolmanın sürəkliliyi üçün zəruri şərtlərin canlıların əmələgəlməsi və təşkilatlanmasının şərtlərinin məcmusundan ibarətdir. İkincili mühit heyvanların mövcudluqları haqqında məlumatlardan ibarət ətrafa göndərdiyi və başqalarının bu cür siqnallarına verdiyi cavab siqnallarının məcmusundan ibarətdir, hansı ki, belə siqnallardan ibarət mühit olmadan canlı mövcudolmanın sürəkliliyi mümkünsüzlükdür. Mühitin əmələ gəlməsi ilə canlılar cansızlardan, buna paralel, sahə mühitdən ayrılır. Canlılar yalnız mühitdə mövcud olduqlarından onlar sahəni və fiziki mövcudluğun fərqində deyillər.

Canlılarda həm də həyata - ümumi canlılığa görə növlərarası əlaqə mövcuddur. Növlərarası əlaqəyə aşağıdakı formaları aid etmək olar:

a. Simbiozluq: İki müxtəlif canlının müştərək həyat yaşaması və bu zaman biri digərinin yaşaması üçün zəruri şərtləri ödəməsi simbiozluq kimi meydana çıxır.

b. Anabioz: Qarşılıqlı şərtlənmədə bir canlının həyatının digər canlının həyatını inkar etməsi anabioz kimi meydana çıxır.

c. Parazitarlıq: Bir canlının həyat fəaliyyətinə görə başqa canlının yaşaması parazitarlıq kimi meydana çıxır. Parazitarlıq mövcudolmasının şərtlərinin özündənkənarda olması ilə mövcudolma təşkil edir. Hansı ki, başqa canlı olmadan parazitarlar mövcud ola bilmir. Buradan da parazitarları daxili zəruri şərtləri olmayan canlılar kimi təyin etmək olar.

Üzvlərə ayrılmış orqanizmdə üzvlərarası əlaqənin xüsusi bir forması **parabioz** hadisəsi kimi təzahür edir. Biz bunu ayrılmış üzvlərarası əlaqə kimi təyin edirik. Üzvlərə ayrılmış canlı orqanizmdə üzvlərin ümumi

həyatı bölüşdürərək ayrı-ayrılıqda müstəqil həyata malik olması parabioz kimi təzahür edir. Parabioza görə, rus alimi Virxovun qeyd etdiyi kimi, "hər bir orqan ayrılıqda doğulur, ayrılıqda ölür". Buradan da xronoloji yaşla - orqanizmin yaşı ilə - təsadüfə görə şərtlərin məcmusu kimi, bioloji yaş - üzvlərin yaşı - zəruri şərtlərin məcmusu kimi arasında fərqliliklər meydana çıxır. Hansı ki, orqanik və funksional patologiyanın səbəbi kimi çıxış edir. Parabioz nəticəsində ikincili üzvlərin ölümü ümumi orqanizmin ölümünə səbəb olmur. Parabiozun tam orqanizmdə şərtlərinin məcmusundan klinik ölüm təzahür edir.

CAVAB SİSTEMLƏRİ

Üzvlərə ayrılmış canlılarda xarici təsir üzvlər arasında paylandığı kimi, hər bir üzv ona ötürülən təsirə özünəxas şəkildə cavab hazırlayır. Bu cavabların şərtlərinin məcmusundan siqnal sistemləri əmələ gəlir. **Siqnal sistemi** - ali heyvani orqanizmdə təsirin müxtəlif analizatorlar tərəfindən hissə-hissə qəbulu, qəbul edilmiş təsirin impuls formasında ayrı-ayrı üzvlərə çatdırılması, hər bir üzvün ayrılıqda ona çatan təsirə xüsusi cavab hazırlamasının orqanizmdə vəhdət təşkil edərək xüsusi üzvlərin fəaliyyəti kimi təzahür etdirilməsindən ibarətdir.

Canlılarda təsir-əks təsir qapalı sistemdə baş verdiyindən kənar təsirlərin təsiri minimumlaşdırılır, nizamlaşdırılır və strukturlaşdırılır. Cismin xarici təsiri quruluşunu refleksiya edir. Canlının başqasına təsiri və xarici təsirlərə verdiyi cavab isə onun bioloji tələbatları və ehtiyaclarına uyğunlaşdırılaraq meydana çıxır. Ona görə də, istənilən cavab bədənin qidaya, təhlükəsizliyə və nəsilverməyə yaranan tələbatlara uyğun strukturlaşır ki, hansı ki, siqnal sistemi kimi meydana çıxır. Cisimlərdə təsir kimi əks təsir də xaotik entropiyaya məruz qalır. Bundan fərqli olaraq, heyvani orqanizmlərdə əks təsirdən fərqli olaraq cavab nizamlı və məqsədyönlü entropiyaya məruz qalır. Canlılar eyni vaxtda daxili və xarici təsirə məruz qaldığından istənilən cavab həm daxilə, həm də xaricə

verilir. Daxilə ötürülən cavab daxili orqanlara təsir edir. Nəticədə, cavabın ikinci pillədən olan alternativi meydana çıxır. Canlılarda təsiri entropiyaya məruz qoyan seçici torlar və deformatorlar həm bədənin səthində, həm də daxilində yerləşmişdir. Bədən səthi özü bir tam kimi ən ümumi təsirləri tutur və ona əks təsir göstərir. Bununla yanaşı bədənin quruluşu təsir toru rolu oynayır. Belə ki, bədəndə xarici təsirləri ayrı-ayrılıqda tutan xüsusi orqanlar - analizatorlar mövcuddur. Analizatorlar özləri də ikincili təsir torları kimi təsiri seçir. Məsələn, göz yalnız görmə dalğalarını qəbul edir. İnfraqırmızı və infrabənövşəyi spektri qəbul etmir. Qulaq yalnız eşitmə səslərini qəbul edir, ultra və infra səsləri qəbul etmir və s.

Beləliklə, faktiki canlı nəticə, formal canlı səbəb kimi çıxış edir. Forma təkliyi, mahiyyət çoxluğu meydana çıxardığından hər hansı bir növ sonsuz sayda fərqli formalarda təzahür edir.

İrsi əlaqə haqqında üç müxtəlif nəzəriyyə mövcuddur:

a. İrsi qabiliyyətlər irsən verilən nəsil əlamətlərini özündə saxlayır və əcdadlarda olduğu kimi eyni ardıcıllıqla üzə çıxır: Bu nəzəriyyə ikincili mövcudluqların xarici təsir və əlaqələrə reaksiyasını ve cavabını nəzərə almır, hansı ki, məhz bu cür xarici təsir və əlaqəyə görə irsən verilən əlamətlər ardıcıllıqla olduğu kimi meydana çıxmır. Yəni formal canlı ilə faktiki canlının vəhdəti eynilik kimi yox, oxşarlıq kimi meydana çıxır, bu da modifikasiyanı özündə təqdim edir. Yəni eyni formal canlı dəyişən faktiki canlı ilə vəhdət təşkil edir. Dəyişən forma mahiyyəti əcdadlarda olduğu kimi meydana çıxarmaq imkanına malik olmur. Beləliklə bu nəzəriyyə ilə tam razılaşmaq olmaz.

b. Nəsil üçün yararlı olanların seçilməsi nəticəsində saxlanması fərd və nəsil üçün bioloji məqsədəyönlülüyə uyğun ardıcıllıqla təzahür edir: "Təbiətdə hər şey dəyişir" prinsipinə görə dəyişən təbiətin əsasında yaranan canlılıq da əsasda baş verən dəyişilmələrə uyğun dəyişilməyə məcburdur. Buradan da dəyişən növ yox, növün əsası olur. Bu nəzəriyyə

heyvani mövcudluğun mahiyyətinə daha yaxındır. Belə ki növ səbəb, forma nəticədir. Səbəb-nəticə əlaqəsinə görə heyvanın forma dəyişilmələri özündə növ dəyişilmələrini əks etdirir, hansı ki, növ dəyişilmələri birincili mövcudluğun dəyişilmələrinə uyğun olaraq növün sabit şərtlərinin əvəzlənməsi kimi mövcud olur. Bu nəzəriyyə heyvani mövcudolmanın mahiyyətinə uyğundur.

v. Fərd bütün mərhələləri keçir. Ən ibtidaidə başlanır və hər birində ona xas forma reaksiya verir: Bizcə keçmişin indini şərtləndirməsinə görə bu nəzəriyyə nisbətən həqiqətə uyğun olsa da, indinin gələcəyi şərtləndirməsinə görə dəqiq deyil. Yəni növ keçmişdə, indidə və gələcəkdə olan bütün formalardan keçərək onları şərtləndirən formal canlılıqdır. Əgər forma məhz belə şərtləndirməyə görə bütün mərhələləri keçirsə, onda gələcək mərhələləri də keçməlidir. Heç bir forma gələcək mərhələləri keçməyə məcbur olmadığından, bu yalnız kənara çıxma - anormallıq kimi müşahidə olunur, bu nəzəriyyə irsiyyətin tam mahiyyətinə uyğun deyil.

Ştern: Konvergensiya nəzəriyyəsi - Psixi inkişaf sadə ana-dangəlməyə qabil deyil. Eləcə də xarici təsirlərin sadəcə qavranması deyil. O, daxili qabiliyyətlərlə inkişafın xarici şərtlərə konvergensiyasının nəticəsidir.

Bizcə irsi əlaqə konkret bioloji növdə gerçəkləşəcək son həqiqətə istiqamətləndirici və entropiya qanunauyğunluqlarının məlumatlarından ibarətdir. Yəni bir tərəfdən irsi əlaqə individin məxsus olduğu növün inkişafının yolu haqqında məlumatdır. Bu məlumat entropiyadan təmizlənmiş xalis bilgidir - **Heyvani yaddaş**, ikincisi bu yolda onda aydınlaşan həqiqəti entropiyaya məruz qoyacaq konkret şərtlərdə necə reaksiya vermək haqqındakı məlumatın məcmusudur - **Qoruyucu məlumat**. Burada birinci mütləqdir - keçmişdir və başa çatmış gerçəkliyin məlumatıdır, hansı ki, indini şərtləndirir. Bioloji inkişafın - zamandan asılılığına görə əks istiqamətdə getməsi istisna olduğundan individual

həyat ona təsir edə bilmir. Digər tərəfdən, məlumat qapalı və daxili olduğundan xarici və kənar olanlar ona müdaxilə etmək imkanına malik deyil. İkinci şərtidir - individin düşə biləcəyi təsadüfi vəziyyətlə şərtlənmişdir. Bioloji varlıqlarda nəsil əlaqəsi həm də irsi informasiya şəklində daxili təsir yaradır. İrsi əlaqə özündən əvvəlki iki əlaqədən daxili və qapalı olması ilə fərqlənir. Daxili əlaqə xarici əlaqəyə nisbətən daha az entropiyaya məruz qalmış məlumat mübadiləsinə əsaslanır. Heyvanların əlaqəsi qapalı sistem daxilində səbəb-nəticə əlaqəsi zənciri kimi - instinktləri meydana çıxarır. İnstinkt heyvanlarda daxili və xarici təsirlərə nəsli yaşam təcrübəsindən əldə edilmiş cavabların spontan və avtonom meydana çıxmasıdır. İnstinkt birinci siqnal sisteminə aid bioloji təzahürdür.

Q. Sürü əlaqəsi: Heyvanın xarici mövcud olmasının bir forması sürüdür. Canlılar arasında üçüncü əlaqə növü ən ümumi keyfiyyətlərdə eyniliyə görə başqa fərqli eynilikdən kollektiv ayrılmadır. Bu canlılarda sürülərin yaranmasını şərtləndirir. Sürü - növlərarası eyniliklə fərqliliyin şərtlərinin məcmusundan ibarət xarici heyvani mövcudolmadan ibarətdir. Yəni eyni növdən olan heyvanlar sürünün daxili təşkil edən üzvləri, başqa növdən olan heyvanlar isə sürünün xarici vəhdət təşkil edən üzvləri kimi mövcud olur. Sürü həm də növdaxili fərqliliklərlə növlərarası fərqliliyin şərtlərinin məcmusunu özündə təqdim edir. Növdaxili fərqlilikdən sürünün daxili iyerarxiyalaşması baş verir. Yəni heyvani sürü antropoloji, cinsi və yaş fərqliliklərinə görə iyerarxiyalaşır. Beləliklə, sürüdaxili mövcudolmanın şərtləri yaranır. Sürünü biz cəmiyyətin prototipi kimi təyin edirik, hansı ki, Ruhun yaranması ilə heyvani sürü insan cəmiyyətinə keçir.

Heyvanlararası əlaqə və əks-əlaqənin mümkün və mövcud olduğu sahə xüsusi geoloji orqanizmin təşkil etdiyi birincili mühitdən fərqli olaraq ikincili mühiti təşkil edir. İkincili mühit heyvani mövcudolmanın sürəkliliyi üçün zəruri şərtlərin canlıların əmələgəlməsi və təşki-

latlanmasının şərtlərinin məcmusundan ibarətdir. İkincili mühit heyvanların mövcudluqları haqqında məlumatlardan ibarət ətrafa göndərdiyi və başqalarının bu cür siqnallarına verdiyi cavab siqnallarının məcmusundan ibarətdir, hansı ki, belə siqnallardan ibarət mühit olmadan canlı mövcudolmanın sürəkliliyi mümkünsüzlükdür. Mühitin əmələ gəlməsi ilə canlılar cansızlardan, buna paralel, sahə mühitdən ayrılır. Canlılar yalnız mühitdə mövcud olduqlarından onlar sahəni və fiziki mövcudluğun fərqində deyillər.

Canlılarda həm də həyata - ümumi canlılığa görə növlərarası əlaqə mövcuddur. Növlərarası əlaqəyə aşağıdakı formaları aid etmək olar:a. Simbiozluq: İki müxtəlif canlının müştərək həyat yaşaması və bu zaman biri digərinin yaşaması üçün zəruri şərtləri ödəməsi simbiozluq kimi meydana çıxır.**b. Anabioz:** Qarşılıqlı şərtlənmədə bir canlının həyatının digər canlının həyatını inkar etməsi anabioz kimi meydana çıxır.**c. Parazitarlıq:** Bir canlının həyat fəaliyyətinə görə başqa canlının yaşaması parazitarlıq kimi meydana çıxır. Parazitarlıq mövcudolmasının şərtlərinin özündənkənarda olması ilə mövcudolma təşkil edir. Hansı ki, başqa canlı olmadan parazitarlar mövcud ola bilmir. Buradan da parazitarları daxili zəruri şərtləri olmayan canlılar kimi təyin etmək olar.

Üzvlərə ayrılmış orqanizmdə üzvlərarası əlaqənin xüsusi bir forması **parabioz** hadisəsi kimi təzahür edir. Biz bunu ayrılmış üzvlərarası əlaqə kimi təyin edirik. Üzvlərə ayrılmış canlı orqanizmdə üzvlərin ümumi həyatı bölüşdürərək ayrı-ayrılıqda müstəqil həyata malik olması parabioz kimi təzahür edir. Parabioza görə, rus alimi Virxovun qeyd etdiyi kimi, "hər bir orqan ayrılıqda doğulur, ayrılıqda ölür". Buradan da xronoloji yaşla - orqanizmin yaşı ilə - təsadüfə görə şərtlərin məcmusu kimi, bioloji yaş - üzvlərin yaşı - zəruri şərtlərin məcmusu kimi arasında fərqliliklər meydana çıxır. Hansı ki, orqanik və funksional patologiyanın səbəbi kimi çıxış edir. Parabioz nəticəsində ikincili üzvlərin ölümü ümumi or-

qanizmin ölümünə səbəb olmur. Parabiozun tam orqanizmdə şərtlərinin məcmusundan klinik ölüm təzahür edir.

CAVAB SİSTEMLƏRİ

Üzvlərə ayrılmış canlılarda xarici təsir üzvlər arasında paylandığı kimi, hər bir üzv ona ötürülən təsirə özünəxas şəkildə cavab hazırlayır. Bu cavabların şərtlərinin məcmusundan siqnal sistemləri əmələ gəlir.**Siqnal sistemi** - ali heyvani orqanizmdə təsirin müxtəlif analizatorlar tərəfindən hissə-hissə qəbulu, qəbul edilmiş təsirin impuls formasında ayrı-ayrı üzvlərə çatdırılması, hər bir üzvün ayrılıqda ona çatan təsirə xüsusi cavab hazırlamasının orqanizmdə vəhdət təşkil edərək xüsusi üzvlərin fəaliyyəti kimi təzahür etdirilməsindən ibarətdir.

Canlılarda təsir-əks təsir qapalı sistemdə baş verdiyindən kənar təsirlərin təsiri minimumlaşdırılır, nizamlaşdırılır və strukturlaşdırılır. Cismin xarici təsiri quruluşunu refleksiya edir. Canlının başqasına təsiri və xarici təsirlərə verdiyi cavab isə onun bioloji tələbatları və ehtiyaclarına uyğunlaşdırılaraq meydana çıxır. Ona görə də, istənilən cavab bədənin qidaya, təhlükəsizliyə və nəsilverməyə yaranan tələbatlara uyğun strukturlaşır ki, hansı ki, siqnal sistemi kimi meydana çıxır. Cisimlərdə təsir kimi əks təsir də xaotik entropiyaya məruz qalır. Bundan fərqli olaraq, heyvani orqanizmlərdə əks təsirdən fərqli olaraq cavab nizamlı və məqsədyönlü entropiyaya məruz qalır. Canlılar eyni vaxtda daxili və xarici təsirə məruz qaldığından istənilən cavab həm daxilə, həm də xaricə verilir. Daxilə ötürülən cavab daxili orqanlara təsir edir. Nəticədə, cavabın ikinci pillədən olan alternativi meydana çıxır. Canlılarda təsiri entropiyaya məruz qoyan seçici torlar və deformatorlar həm bədənin səthində, həm də daxilində yerləşmişdir. Bədən səthi özü bir tam kimi ən ümumi təsirləri tutur və ona əks təsir göstərir. Bununla yanaşı bədənin quruluşu təsir toru rolu oynayır. Belə ki, bədəndə xarici təsirləri ayrı-ayrılıqda tutan xüsusi orqanlar - analizatorlar mövcuddur. Analizatorlar

özləri də ikincili təsir torları kimi təsiri seçir. Məsələn, göz yalnız görmə dalğalarını qəbul edir. İnfraqırmızı və infrabənövşəyi spektri qəbul etmir. Qulaq yalnız eşitmə səslərini qəbul edir, ultra və infra səsləri qəbul etmir və s.

Xarici təsir bədən səthindən daxilə ötürülərkən **qıcığa** çevrilir. Qıcıq ikili - həm üzvi, həm də qeyri-üzvi təbiətli təzahür olmaqla canla cismi əlaqələndirən şərtlərdən ibarətdir. Hər bir qıcıq daxildə hiss üzvlərində bir daha entropiyaya məruz qalaraq impulsa çevrilir. Xarici təsirlərin hiss orqanlarına təsir edərək onda qıcıq yaratması stimul kimi meydana çıxır. Stimul - fiziki reallığa malik, hiss orqanlarını stimullaşdıran, orqanizmdə hansısa reaksiya yaradan, daha çox xarici və daxili mənşəli təsirlərdən ibarətdir. Hər bir stimul orqanizmdə müəyyən müddət saxlanan oyanma vəziyyəti yaradır. Bu vəziyyət oyanıqlılıq kimi cavabdan ibarətdir. Oyanma - xarici qıcığın xüsusiyyətləri və həm də bütün orqanizmin aktivliyini tənzimləyən tormozlayıcı şərtlərin məcmusundan ibarətdir. Oyanıqlılıq bioelektrik təzahürlə bağlıdır. Daxili istiqamətlənmə ilə yanaşı həm də təsir deformasiyaya uğrayır. Nəticədə, təsirin bir qismi daxili şirələrin ifrazına sərf olunaraq neytrallaşır. İfrazat - cavabın bioloji formasının şərtlərindən ibarətdir. İfrazat sintezdən onunla fərqlənir ki, təsir daha mürəkkəb entropiyaya məruz qalır. Belə ki, təsir heyvanın ya bilavasitə analizatoruna təsir edib əks təsir yaradır, ya beyinlə keçməklə dolayı yolla hormonal vəzlərin fəallaşmasına səbəb olur. Onlarda hazır şirəni ifraz etdirir, ya da vəzləri sintezə sövq edir. Təzyiqin belə ayrılmasına cavab da ayrılıqda verilir. Vəz şirə buraxır və ya sintez edir, şirələr üzvlərə daxili təsir edərək işlək orqanları qıcıqlandırır. Qıcıq orqanizmdən əks təsir kimi xaricə çıxır. Belə üçlü cavab heyvanlarda reaksiyaların - təsirə mürəkkəb cavabların yaranmasına səbəb olur. Beləliklə, xarici təsirlər orqanizmdə kəmiyyət və keyfiyyət baxımından ondan fərqlənən cavaba səbəb olur ki, bu cavabın verilməsi refleksdən ibarət olur. **Refleks** - bioloji orqanizmin daxilində təzahür edən re-

fleksiyadan ibarətdir. Refleks - reseptorların qıcıqlanmasına adekvat qarşılıqlı cavabdan ibarətdir. Refleks - impulsun iştirakı ilə həyata keçirilən aktdır.

Heyvani orqanizmlərdə iki cür refleks mövcuddur: Şərti və şərtsiz.

a. Şərtsiz refleks - və ya anadangəlmə refleks. Anadangəlmə şərtsiz reflekslər xarici aləmin orqanizmə təsirinə irsi təsbit olunmuş stereotip, sadə, birincili reaksiya formasıdır. Stereotip reaksiya mexaniki reaksiya kimi mövcuddur və özündə təsir-əkstəsir əlaqəsinin ikincili mövcudluqlarda təzahür forması kimi meydana çıxır. Orqanizmdə xalis şərtsiz refleks təzahür etmir. Buna görə də öyrənmə zəruri şərt kimi meydana çıxır. Öyrənmə təsir-əkstəsir əlaqəsinə görə ikincili mövcudluqları birincili mövcudluqlardan fərqləndirən daxili şərtlərin məcmusundan ibarətdir.

b. Şərti refleks. Anadangəlmə reflekslər özündə fiziki cisimlərə xas təsir-əks təsir əlaqəsində olmadığından canlı orqanizmdə təsirlə cavab arasında fərqlilik meydana çıxır. Belə ki, orqanizm xarici təsirin bir hissəsinə şərtsiz reflekslə dərhal sadə cavab verir. Təsirin bir hissəsi isə orqanizmin başqa üzvlərinin birgə iştirakı ilə şərtsiz refleksdən gecikməklə - müəyyən zaman fasiləsindən sonra mürəkkəb cavaba səbəb olur. Məhz belə mürəkkəb cavab ikincili cavab kimi şərti refleksin əsasında meydana çıxır. Şərti refleks şərtsiz reflekslə bilavasitə əlaqələndiyindən və ikinci birinci üçün əsas təşkil etdiyindən birinci şərtsiz, ikinci şərti olur. Şərti refleksin şərtləri birincili refleksin şərtlərindən - zəruri şərtlər kimi, və ondan fərqli təsadüfi şərtlərin məcmusundan - təsadüfi şərtlər kimi ibarət olur. Təsadüfi şərtlər özündə cavabın zamanla şərtlənməsinin məcmusunu təqdim edir. Beləliklə, şərti reflekslə şərtsiz refleks özlərində heyvani orqanizmdə vəhdətdə mövcud olan birincili mövcudluqla ikincili mövcudluğun fərqliliyindən meydana çıxır. Şərti reflekslər qazanılma olub, vaxta görə yaxınlaşmada istənilən başlanğıc

fərqsiz qıcığın sonrakı qıcığın təsiri ilə şərtsiz refleksi oyatması nəticəsində əmələ gəlir. Şərtsiz refleks yeni, müvəqqəti əlaqələrin yaranmasına səbəb olur, qarşılıqlı funksional asılılıqla müəyyən olunur. Şərti reflekslər - neytral stimulun şərtsiz reflekslərı ilə birləşir, hansı ki, arzulanan reaksiya yaradır.

İnsan orqanizmində refleksin bir forması **avtomatizm** kimi təzahür edir. Avtomatizm və ya dərkedilməzin avtomatizmi - şüurun iştirakı olmadan öz-özünə baş verən, şüurlu nəzarətdən kənar icra olunan fəaliyyətdir. Avtomatik cavabda vəziyyətə və belə vəziyyətlərdə stereotiplərə istiqamətlənmə tələb olunmur. Belə vəziyyətin yaranması ardıcıl əməliyyatların işə düşməsinə səbəb olur. Avtomatizm anadangəlmə - şərtsiz-reflektor və ya ikincili - keçmişdə şüurdan keçərək öyrənmə ilə yaranan vərdiş formalarında təzahür edir. Avtomatizm şüurdan sonra şüursuzluq kimi təzahür edir.

Canlılara xarici təsir daxildə təsir torlarından keçir. Bu zaman təsirlər ayrı-ayrı orqanlara istiqamətləndirilir. Biz bunu **daxili istiqamətlənmə** adlandırırıq. İstiqamətlənmiş təsir siqnal kimi meydana çıxır. Siqnal - zərurətə görə cavab tələb edən, onunla funksional asılılıqda olan xarici təsirdir. Reflekslərin təzahürü - təsirlə cavabın daxildə əlaqələnməsi, yəni siqnalların alınması və onlara cavabların verilməsi **siqnal sistemi** ilə reallaşır. Siqnal sistemi - canlı varlıqların xarici aləmdə davranışlarını tənzim edən, xarici aləmin təsirlərinə istiqamətləndirən, heyvani orqanizmi canlı aləmdən ayıran keyfiyyətdir.

İki cür siqnal sistemi ayırd edilir:

a. Birincili siqnal sistemi: Xarici qıcıqlara səbəb-nəticə əlaqəsində orqanizmin birbaşa cavab hazırlaması birinci siqnal sistemini təşkil edir. Birinci siqnal sistemində şərtsiz reflekslər cavab kimi meydana çıxır. Birinci siqnal sistemi heyvani orqanizmin xarici təsirlərə sadə cavabını təşkil edir.

b. İkincili siqnal sistemi: Canlı orqanizmlərdə xarici və daxili təsirə mürəkkəb cavabların hazırlanması və verilməsi ikincili siqnal sistemini təşkil edir. Beləliklə, ikincili siqnal sistemində cavab ikiqat funksional asılılıqda meydana çıxır.

HEYVANİ ORQANİZMDƏ CAVABIN FORMALARI

Canlı orqanizmlərdə xarici təsirə ilk şərtsiz cavab təsiri yönləndirmək, onu daxili entropiyaya məruz qoymaqdan ibarətdir. Canlılara müxtəlif daxili və xarici təsirlər müxtəlif cavab formalarının yaranmasına səbəb olur. Cavab formaları təsirin intensivliyindən asılı olaraq tədricən mürəkkəbləşir, intensivləşir və həcmləşir. **Aşağıdakı cavab formalarını ayırd etmək olar:**

A. Birinci siqnal sistemində hazırlanan cavablar: Bu cavablara aşağıdakılar aiddir:**a. Qıcıq:** Xarici təsir analizatorlara təsir edərkən həmin orqanlarda deformasiya və entropiyaya məruz qalır. Təsirin qəbul edilməsinə canlının verdiyi ilkin cavab fiziki təsirləri qıcığa çevirməsi kimi meydana çıxır. Qıcıq xarici təsirin şərtləri ilə analizatorların şərtlərinin məcmusundan ibarətdir. Təsirin qıcığa çevrilməsi periferik sinir uclarında baş verir.**b. İmpuls:** Sinir uclarında meydana gələn qıcıq analizatorların daxilində onlara təsadüfi şərtlərin verilməsi ilə substan-sional zonaya göndərilmək üçün impulsa çevrilir. İmpulslar məlumatın daxili nəqletmə forması kimi meydana çıxır. İmpulslar daxilə keçərək daşıdıqları məlumatı müvafiq orqanlara çatdırır.**v. Reaksiya:** İmpulsların orqanlara çatması ilə hər bir orqan xarici təsirə xüsusi qaydada cavab hazırlayır. Bu cavab reaksiya kimi meydana çıxır. Reaksiya ayrı-ayrı üzvlərin funksional asılılıqda olduğu ayrı-ayrı qıcığa verdiyi xüsusi cavabın şərtlərindən ibarətdir.

B. İkinci siqnal sistemində hazırlanan cavablar: Bura aşağıdakılar aiddir:

1. Refleksiya: Canın xarici təsirlərə daha mürəkkəb və strukturlaşmış cavabı refleksiya kimi təzahür edir. Reaksiya orqan səviyyəsində, refleks tam orqanizm səviyyəsində verilən cavabdır. Orqanizmin bir tam kimi cavab verməsi bir fəaliyyət kimi mərkəzi cavab orqanını formalaşdırır. Nəticədə, ali heyvani orqanizmlərdə mərkəzi sinir sistemi - beyin meydana çıxır. Refleksiya - mərkəzi sinir sisteminin iştirakı ilə xarici qıcığa belə qıcıqlar üçün qabaqcadan hazırlanmış və orqanizmin avtomatik meydana çıxardığı cavabdır. Refleksiya - xarici qıcığa bəlli və qanunauyğun cavabdır.

Refleksiya aşağıdakı xüsusiyyətlərə malikdir:

a. Qıcıqlanma və reaksiyanın nisbi sadəliyi: Mürəkkəb və xaotik qıcıqlara və reaksiyalarda refleks yaranmır. Mürəkkəb qıcıqlanmada analizatorlarda təsirin qıcığa çevrilməsi baş tutmur. Məsələn, eyni vaxtda həm istilik, həm soyuğun təsiri qıcıq yaratmır, çünki analizatorlarda qıcığa keçmədən bir təsir digərinə əks təsir kimi bir-birini neytrallaşdırır. Reaksiya ayrıca bir üzv tərəfindən verildiyindən iki müxtəlif üzv eyni reaksiya verir. Buna görə də reaksiya bir üzvün verə biləcəyi reaksiya kimi mövcud olmalıdır.

b. Refleks qeyri-iradi eyniölçülü baş verir: Sadə cavablar özündə təsir-əkstəsiri refleksiya etdiyindən təsirlə əks təsir eyniölçülü olduğundan refleks qeyri-iradi eyniölçülü olur, çünki belə refleksin şərtləri xaricidir, təbiətdədir, orqanizmin ona müdaxiləsinə imkan olmur. Başqa sözlə, canlı orqanizmlərdə eyni qıcıqlara standart cavab yaranır. Məsələn, istilik təsirinə istənilən vaxt canlıda eyni reaksiya yaranır. Belə olmasaydı, eyni bir qıcığa fərqli reaksiya həm də ölümə xidmət edərdi.

v. Reaksiya qıcığın məlum istiqamətdə dəyişməsində yaranır: Qıcıq qeyri-müəyyən və ya naməlum istiqamətdə dəyişdikdə refleks yaranmır, çünki reaksiya verən üzv orqanizmdə müəyyən və məlumdur. Qıcığın məlum istiqaməti özündə konkret üzvə istiqamətlənməni ifadə edir. Əgər qıcıq başqa üzv istiqamətində dəyişirsə, onda əvvəlki üzvdə

reaksiya yaranmır. Buradan da bir heyvani orqanizmə istiqamətlənmiş təsirin başqa heyvani orqanizmdə cavab yaratmaması meydana çıxır, hansı ki, heyvani laqeydlik bununla bağlıdır.

q. Reflekslər bir tərəfdən xarici qıcıqla, digər tərəfdən xarici qıcığa veriləcək cavabın irsi məlumatla əlaqələnməsi ilə yaranır: Bunun nəticəsində, eyni bir növdən olan canlı anadangəlmə xarici qıcığa eyni reflekslər göstərir. Reflekslərin faktiki canlıda heç bir xüsusi şərti yoxdur. Şərtlər xaricdə və formal canlılıqdadır. Məsələn, heyvan doğulan andan həyatı üçün təhlükələri və həyatına yardım edəcək hər şey haqqında anadangəlmə bilgiyə malik olur.

d. Qıcığın məlum istiqamətdə dəyişilməsi refleksiyanın həmin istiqamətdə dəyişilməsinə səbəb olur: Bu refleksiyanın xarici qıcıqla şərtlənməsi ilə bağlıdır. Yəni qıcığın kəmiyyətində və keyfiyyətində dəyişilmə baş verdikdə ona uyğun refleksiyada da dəyişilmə meydana çıxır.

e.Refleksiya məqsədəyönlülüklə bağlıdır: Refleksiyanın məqsədəyönlülüyünün şərtləri formal canlıdadır. Belə ki, növ bir faktiki canlıdan keçərək digər canlıda davam etməsi üçün faktiki canlılarda elə refleksiyalar meydana çıxarır ki, onun keçidinə xidmət etsin, yəni növ saxlanılsın. Buna görə də, reaksiyadan fərqli olaraq refleks irsi məlumatlara uyğun şəkildə təzahür edir. Reflekslərin irsiyyətlə şərtlənməsinin məcmusu **instinktlərdən** ibarətdir.

İnstinktiv hərəkətlər xarici qıcıqla şərtlənmiş irsi şərtlərə əsaslanan mürəkkəb refleksiyalardan ibarətdir. İnstinktiv hərəkətlər anadangəlmə refleksləri təşkil edir. Bununla da canlıların xarici qıcığa fərdi cavabı özünün yüksək səviyyəsinə çatır və öz yerini növ cavablarına verir. Növ cavablarını substansial cavablar kimi dəyərləndirmək olar, hansı onlarsız canlı mövcudluq mümkünsüzlükdür. Xarici qıcığa bu növ cavabı irsiyyətlə şərtlənmiş hər hansı bir növün həyat təcrübəsi ilə şərtlənmiş meydana çıxır. İnstinkt - növün faktiki canlıdan bilavasitə onun müdaxiləsi

olmadan təzahürlərindən ibarətdir. İnstinkt davranışın canlılarda anadangəlmə komponentidir. İnstinktlər özlüyündə mürəkkəb reflekslər kimi təzahür edir. Canlılarda üç cür instinkt ayırd etmək olar: özünüqoruma, nəslisaxlama, canlı kimi insanda həm də sosial instinkt. Sosial instinkt insanın anadangəlmə icma halında yaşama meylidir. Məhz sosial meylə görə fərd icmaya inteqrasiya edir. İnstinktlər xarici təsirlərə formal canlının cavabları kimi daxili tələbat və ehtiyaclardan və ya xarici təsirlərdən meydana çıxır. İnstinktlərin inkişafı - daxili, qapalı, ümumi, instinktiv hərəkətlərin inkişafı - xarici və orijinaldır. Refleks - faktiki canlı, instinkt formal canlı, yəni növlə şərtlənmişdir. İnstinktlər orqanizmin özü-özündən aldığı qıcığa reaksiyası kimi meydana çıxır. Hər bir canlının qıcığa cavabı instinkt şəklində orijinaldır və həmin cavab növü müəyyən edir.

İNSTİNKTİV HƏRƏKƏTLƏR

Xarici və daxili təsirlərin orqanizmin ayrı-ayrı bioloji hərəkətləri aktivləşdirməsi nəticəsində bioloji hərəkətlər meydana çıxır. İki cür bioloji hərəkətlər ayırd etmək olar.

A. Sadə bioloji hərəkətlər: Belə hərəkətlər məkanda hərəkətin şərtlərinin məcmusundan ibarətdir. Başqa sözlə, belə hərəkətlər özündə məkani şərtləri təqdim edir. Hərəkət - təsiri azaltmaq naminə canlının məkanda təsir obyektindən məsafəsini, mövqeyini dəyişməklə azad olmasından ibarətdir. Canlılar həm özləri özlərində, həm də biri digərində hərəkətlilik yaradırlar. Nəticədə bir canlı təsir haqqında özünün bilavasitə aldığı məlumatı digər canlıya ötürərək ikinci canlıda hərəkətə səbəb olur. Beləliklə, siqnalın başqa canlıya ötürülməsindən siqnalizasiya meydana çıxır. Siqnalizasiya siqnalların bir heyvandan digərinə xarici mühitdən ötürülməsindən ibarətdir. Canlılar arasında təsir-cavab həm də siqnalizasiya ilə həyata keçirilir. Siqnalizasiya - bir canlının digərinin hiss orqanlarına təsir edərək onun davranışlarını dəyişdirməsindən ibarətdir.

Müxtəlif siqnalizasiya üsulları vardır: görmə, eşitmə, hərəki və feromonlar - kimyəvi siqnallar mövcuddur. Canlıların xarici təsirlərə ali səviyyədə cavabı hərəkət kimi meydana çıxır. Hərəkət aktını həyata keçirən psixofizioloji prosesdir. Hərəkət zamanı heyvani orqanizmdə fizioloji aktivlik yaranır. Canlılar yalnız məkani təsirlərə yox, cisimlərdən fərqli olaraq, həm də zamanın təsirlərinə cavab verir.

2. Poza - özü-özündə bioloji hərəkətlilik: Heyvani orqanizmin məkanda yer dəyişmədən öz-özündə məkani ölçüləri dəyişməsi ilə hərəkətliliyin saxlanması poza kimi meydana çıxır. Poza məkanda yerdəyişmədən xarici təsiri azaltmaq məqsədi ilə canlının öz bədəninin forma və vəziyyətini müvəqqəti dəyişməsinin şərtlərinin məcmusundan ibarətdir.

3. Fəaliyyət: Daxili və xarici təsirlərə cavab olaraq orqanizmin daxilində və ətrafda baş verən məqsədyönlü mürəkkəb hərəkətlərin dəsti fəaliyyət kimi meydana çıxır. Fəaliyyət bir neçə mərhələdən keçir. Öncə alışmaq - aktual icra olunan fəaliyyətə uyğunlaşma əmələ gəlir. Alışma zamanı dinamik stereotiplərin aktuallaşması hesabına bütün psixoloji funksiyalarda kökləmə baş verir. Alışmaqdan sonra orqanizmdə davamlı iş vəziyyəti yaranır. Alışmadan sonra aktivləşmə meydana çıxır. Aktivləşmə - xarici təsirə cavab formasıdır. Tonus, oyanma reaksiyası və MSS-nin həyəcanlanması - orqanizmin reaksiya qarşısında hazırlığıdır, hansı ki, bioloji əks əlaqə - reaksiyaların təzahür etməsinə görə bu reaksiyalar haqqında həqiqətin əldə edilməsidir. Faktiki canlıda reaksiyalar haqqında məlumat formal canlılıqdan əldə edilir. Kifayət qədər təcrübə qazanan insan bu reaksiyaları idarə etməyi öyrənir. Bunun formalarından biri boşalmadır. Boşalma ilə insan reaksiyalarını dəyişə bilir.

4. Uyğunlaşma: Canlının məkanın ətraf təsirlərdən özünün bioloji xarici əlamətlərini daimi dəyişməsilə mövcudluğunu davam etdirməsidir. Uyğunlaşmada canlı xarici təsirlərə həmin təsirlərin azalması istiqamətində orqanik dəyişilməyə məruz qalır. Belə dəyişilmələrin

şərtlərinin məcmusu modifikasiyadan ibarətdir. Modifikasiyanın birinci mərhələsi adaptasiyadan ibarətdir. Canlının bir tam kimi ətrafın təsirlərinə cavabı adaptasiya kimi təzahür edir. Adaptasiya - orqanizmin homeostazı saxlamaq istiqamətində quruluşunun və funksiyasının, onun orqanlarının və hüceyrələrinin mühit şərtlərinə uyğunlaşmasıdır. Bunun əsasında fərdin cəmiyyətin dəyər və normalarını qəbul etməklə sosial mühitə uyğunlaşması psixoloji adaptasiya kimi təzahür edir. Fərdin cəmiyyətə daimi inteqrasiyası ilə sosial mühitin şərtlərinə aktiv uyğunlaşması və bunun nəticəsində özünüdərkin rol davranışlarının formalaşması, özünənəzarət, özünəxidmət və ətrafdakılarla adekvat əlaqələr qurması sosial adaptasiya kimi təzahür edir.

Zaman şərtlərin dəyişilməsinin heyvani orqanizmə təsirindən aşağıdakılar meydana çıxır:a. Böyümə: Eyni bir canlı faktın özündə müxtəlif zamanlarda ola bilməsi təbiətdə böyümə kimi təzahür edir. Böyümə dəyişən zaman şərtlərinə uyğun orqanizmin əsasını təşkil edən birincili mövcudluğun zəruri şərtlərinin bir-birini əvəzlənməsindən ibarətdir. Başqa sözlə, zamanın ayrılıqda cana təsirindən məkani əlamətlərini eyni bədən quruluşu daxilində dəyişməsi böyümədir. Böyümə zamanla gələn təsirləri neytrallaşdırmaq istiqamətində bədənin forma dəyişilməsinə məruz qalmasından ibarətdir. Böyümənin sonu qocalma - orqanizmin zamanın dəyişən şərtlərinə cavab imkanının tükənməsi kimi təzahür edir. Qocalma orqanizmin təsiri qəbul edəcək mexanizmlərin sıradan çıxması ilə təsirə cavabdır. Qocalıqda göz işığı, qulaq səsi, dil dadı və s. siqnalları ya qəbul etmir, ya da çox zəif qəbul edir. Xarici təsirlərə cavabın hazırlanma mexanizmlərinin sıradan çıxması ilə təsirlə canlı təşkilolunmanı dezorqanizasiyaya məruz qoyur, nəticədə ya ayrı-ayrı üzvlər, ya da bütünlükdə orqanizm məhv olur, hansı ki, biz bunu ölüm kimi qavrayırıq. Ölüm - orqanizmin zaman və məkan şərtlərinə uyğun cavab vermək imkanını itirməsini özündə ifadə edir.

Yəni ikili mövcudluqdan birli mövcudluğa keçid orqanizmin ölümü kimi meydana çıxır.

5. Artma: Xarici təsirlərin məkan və zaman təsirlərini azaldılması istiqamətində mövcudluq aktının davam etdirilmə üsulu - özü-özünün məkani ölçülüyünü dəyişdirməkdir. Belə dəyişkənlik artma kimi meydana çıxır. Artma həm zamanla şərtlənmə, həm də məkanla ayrılıqda şərtlənmə ilə təzahür edir.

İkincili siqnal sistemində cavabların hazırlanması iki yolla həyata keçirilir.

1. Humoral yol: Canlılar mürəkkəbləşdikcə və xarici təsir artdıqca orqanizm aldığı impulsların bir hissəsini daxili analizatorlara göndərir. Belə analizatorlar daxili sekresiya vəzləri adlanır. İnsanda vəzlərin sayı ilə analizatorların sayı arasında funksional asılılıq vardır. Beləliklə, xarici təsir impulsa, impuls qıcığa, qıcıq ya orqanizmin hərəkəti, ya da daha mürəkkəb orqanizmlərdə daxili şirələrin əmələ gəlməsinə səbəb olur. Daxili sekresiya - ali orqanizmlərin xarici təsirin impulsa, impulsun qıcığa, qıcığın xüsusi daxili analizatora təsirinə cavab kimi ifraz olunan xüsusi şirələrin hazırlanmasından ibarətdir ki, hansı ki, bu şirələrin həcmindən asılı olaraq orqanizm eyni xarici qıcığı müxtəlif intensivlikdə qəbul edir. Orqanizmdə vəzlər ümumi orqanizmin inkişafının müxtəlif mərhələlərində yarandığından onların qıcıq qəbul etməsi yaşdan asılı olur. Qıcıq nəticəsində xüsusi şirələrin ifrazı nəticəsində iki cür cavab yaranır. Şirə ya xaricə atılır - əgər o tələb olunandan artıqsa, ya başqa üzvi fəaliyyətə, hərəkətə və işə sərf olunur, bundan artığı isə yeni təsir kimi daxildə qıcığın gəldiyi mərkəzə göndərilir. Mərkəzə gələn daxili qıcıq orqanizmin xüsusi hərəkətlərinə, xarici fəaliyyətinə səbəb olur.

2. Mərkəzi Sinir Sistemi yolu: Bu yolla meydana çıxan cavablar beyinə - Mərkəzi Sinir Sisteminə - ötürülən impulsların daha mürəkkəb fəaliyyət, hərəkət və s. formalar yaratması ilə əmələ gəlir.

Haşiyə: A.Berqson - “Materiya və yaddaş”

"Bizim faktlardan çıxardığımız və mühakimə ilə təsdiq etdiyimiz ideya ondan ibarətdir ki, bizim bədənimiz özündə fəaliyyət və yalnız fəaliyyət alətini təqdim edir. Heç bir ölçüdə, heç bir mənada, heç bir aspektdə o təsəvvürlərin işlənməsində və xüsusən izah edilmələri üçün xidmət etmir."

Beləliklə, A.Berqsonun fikirlərindən görünür ki, heyvani orqanizm Kosmik mövcudluğun ən ali təşkil olunmuş forması kimi mövcuddur. Heyvani bədən - özü-özündə istənilən mürəkkəb hərəkəti həyata keçirməyə imkan verən alət, həyat isə həmin alət vasitəsi ilə həyata keçirilən mürəkkəb bioloji hərəkətlərin məcmusundan ibarətdir. Fiziki cisimlərdən fərqli olaraq canlı orqanizmdə hərəkət tam saxlanmadığından, canlılarda bir tərəfdən bioloji hərəkətlər qismən saxlanılaraq orqanların formasını, qismən sürəkliliyini davam etməklə həmin orqanların funksiyalarını meydana çıxarır. Belə ki, orqanla onun funksiyası özündə bir və eyni hərəkətin iki müxtəlif təzahür formasının şərtlərindən ibarət olur. Heyvaniliyin təkamülünün sonunda ən nisbi mahiyyətə, amma ən kamil formaya malik növ - insan orqanizmi yaranmışdır. İnsan orqanizmi elə daxili heyvani şərtlərin məcmusundan ibarətdir ki, geoloji orqanizmdə mümkünlüyün varlığı yenidən mövcudluq tələb etməsi kimi özündə mümkünlüyün varlığının yenidən mövcudluq tələbini aktuallaşdırır. İnsan mövcud varlıq kimi ən təkmil, ən son formadır və özündə heç bir xüsusi mahiyyətə malik deyil və yalnız özündən əvvəlki canlılığın, heyvaniliyin mahiyyətini saxlayır, hansı ki, digər bütün formalarda daha aydın təzahür edir. Yəni heyvani insani mövcudluqda heç bir xüsusi mahiyyət yoxdur. Təbiətdə mahiyyətsiz mövcud varlıq olmadığından bu cür mahiyyətsizlik insanın ən dəqiq forma və ən mahiyyətsiz varlıq kimi mahiyyət əldə etmək zərurətini meydana çıxarmışdır. Bu mərhələdə, bir tərəfdən bədənin özünə mahiyyət əldə etmə zərurəti, digər tərəfdən ruhun özündə özü-üçün-varlıq təyini əldə etmə zərurəti hər ikisinin birləşməsinə - bədənin ruhlanması ilə insanın ruha görə şüur əldə etməsinə - ruhun bədənin formasından istifadə edərək mövcud varlığa

çevrilməsinə səbəb olmuşdur, nəticədə ruhlu insan yaranmışdır. Ruhun cana keçməsi ilə ilk növbədə canda canın iştirakı ilə onun həm passiv, həm də aktiv gücünü refleksiya etməyə, yəni ruh candan istifadə etməklə materiyanın nizamını aşkarlamağa başlamışdır. Canlılığın bütün əlamətləri konkret xarici şərtlərdən və daxili təsirlərdən asılı olaraq spontan və avtonom təzahür kimi meydana çıxır və buna görə də heç bir şüurluluq keyfiyyətinə malik deyildir. Yalnız Homo sapiensin meydana çıxması ilə fəaliyyətin əlaqələnməsi, nizamlanması, nəzarət edilməsi kimi yeni keyfiyyətlər meydana çıxır ki, biz bunu Ruhun təzahürü hesab edirik. Bəs ruh nədir və dinamik özündəşeydən ruha keçid necə baş verir?

REAL VARLIQ

Mövcudluğun aktuallaşması ilə real varlıq meydana çıxır. Real varlıq mövcudluğun mövcud olmasını özündə ifadə edir. Beləliklə, kosmosun təşkil olunması real varlıqların vəhdətindən ibarətdir. Real varlıq - konkret, tək, ayrılıqda götürülə bilən, bilavasitə özü-özünü təsdiq edən və bu zaman özündə başqasını və dolayısı ilə başqalarında özünü inkar edən kimi təyin oluna bilər. Real varlıq özü-özündə və başqasında refleksiya edən özü-üçün-mövcudluqdur.

Haşiyə: Hegel ”Məntiq elmi”

> *“Özü-özü ilə münasibət kimi özü-üçün-varlıq bilavasitəlikdir, özü-özü ilə inkar münasibəti kimi isə o özü-üçün-mövcudluqdur, təkdir, birdir (das Eins) - o ki, özü-özündə fərqliliyə malik deyil, nəticədə başqasını özündə istisna edir.”*

Hegelin şərhindən görünür ki, varlıq təyini münasibətə görə müəyyənləşir. Üç cür münasibət aşkar etmək olar:

a. **Özü-özünə münasibət:** Biz bunu eynilik kimi də təyin edə bilərik. Hər bir mövcudluq özü-özünə münasibətdə özü-özü ilə eynilik təşkil edir. Bunu Hegel özü-üçün-varlıq kimi təyin edir.

b. **Başqasına münasibət:** Biz bunu fərqlilik kimi təyin edə bilərik. Fərqlilik bir mövcudluğun nisbi mövcud olanları özündə inkar etməsi və buna paralel özünün onlarda inkar etməsi kimi təyin oluna bilər. Hegel bunu özü-üçün-mövcudluq kimi təyin edir.
c. **Təfəkkürə münasibət:** Təfəkkürə münasibətdə varlıq, təfəkkürün forması olmadığından, onu özündə və özünü də onda inkar edə bilmir. Nəticədə, özü-özünü təsdiqini təfəkkürdə təsdiqə keçirir, buradan mövcud varlıq təyini meydana çıxır. Təfəkkürdə təsdiq bərabərlik kimi meydana çıxır. Yəni bir şeyin başqa şeyə bərabərliyi yalnız hər iki mövcudluğun təfəkkürdə refleksiyalarının üst-üstə düşməsi kimi təyin olunur. Təfəkkürdən kənarda, mövcudluqlar bir-birini istisna etdiyindən, bərabərlik mövcud deyil.

Beləliklə, özü-özünə münasibətdə eynilik, başqasına münasibətdə fərqlilik təşkil edən özü-üçün-varlıqla özü-üçün-mövcudluğun vəhdətindən **Real varlıq** təşkil olunur, hansı ki, Real varlıq özü-üçün-mövcudluq tərəfi ilə təfəkkürdə refleksiya edərək idrak olunur. Real varlıq xarici totallığı təşkil etdiyindən, təfəkkürdə ümumi kimi aşkarlanır. Beləliklə, Real Varlıq ayrılıqda götürülə bilən tək şeylərin başlanğıcını təşkil edir. Mövcudluq - istənilən şeyin başlanğıc şərtidir. Mövcudluğun iki əsas xarakteristikasını ayırd etmək olar - **reallıq** və **mümkünlük**. Reallıq - mövcudluğun təbii şərtlərindən, mümkünlük - metafizik şərtlərindən ibarətdir. Reallıq - mövcudluğun varlığının, mümkünlük - varlığın mövcudluğunun təyinidir, hansı ki, ikisi vəhdətdə mövcud olan mövcudluqları təşkil edir. Beləliklə, aktuallaşan mövcudluğun iki əsas xarakteristikası reallıq və mümkünlük kimi aşkarlanır. Reallıq - Kosmik şərtlərin məcmusu, mümkünlük - metafizik şərtlərin məcmusundan ibarət olduğundan, reallıq təbiətdən, mümkünlük yalnız təcrübədənkənar xalis zəkadan aşkarlanır. Reallıq özündə aydınlaşmanın sonu, aşkarlanmanın başlanğıcıdır. Aşkarlanmanın başlanğıcı kimi reallıq gerçəklikdir. Amma mümkünlük yalnız aşkarlanmanın başlanğıcıdır. Mövcudluq Varlıqdan

fərqli olaraq həm onu təsdiq edən xarakteristikadan - predikatdan - zəruri şərtlərdən, həm də inkar edən xarakteristikadan - predikabiliyadan - təsadüfi şərtlərdən müəyyənləşə bilər. Bəs reallıq və mümkünlük nədir və bunlar öz əksliklərindən - irreallıqdan və mümkünsüzlükdən nə ilə fərqlənir? Reallıq - obyektin subyektdən asılı olmayaraq özü-özündə mövcud olmasını, mümkünlük onun aydınlaşmasının aşkarlanmasını - onun haqqında bilginin təfəkkürdə mövcud olmasını özündə ifadə edir.

Haşiyə: İ.Kant ”Xalis zəkanın tənqidi”

> *“Predmetin dərk edilməsi üçün mənim onun mümkünlüyünü sübut etməyim zəruridir.”*

Göründüyü kimi idrak mümkünlüklə şərtlənmişdir. Yəni mümkünlüyün şərtlərinin məcmusu idrak prosesinin xarici şərti kimi çıxış edir, hansı ki, idraka görə təsadüfi şərtlərin məcmusudur. İdrak həm də daxili şərtlərin - öz zəruri şərtlərinin məcmusu kimi mövcuddur. Mümkünlük - ağılla formalaşdırma vermək imkanını bildirir. Başqa sözlə, ideyanın qanun kimi ifadə olunma keyfiyyəti mümkünlük kimi təzahür edir.

Reallıq - bizim idrak edib-etməməyimizdən asılı olmayaraq özü-özündə qarşılıqlı təsirdə mövcud olan hər şeyin birinci keyfiyyətidir. **Reallığın aşağıdakı əlamətlərini aşkarlamaq olar:**

a. Vəhdətdə aktuallaşmaq: Özündə reallıq keyfiyyəti daşıyan heç nə təklikdə mövcud olmur və yalnız başqa gerçəkliklərlə vəhdətdə təzahür edir. Buradan da, reallıq analitik dərk edilən keyfiyyət alır.

b. Kanonik olmaq: Fakta malik olmaq, yəni aşkarlanmış həqiqətə ağıllı forma verilməsinin mümkünlüyünə malik olmaq. Hər hansı bir gerçəklik çoxluqdan birbaşa ona istiqamətlənmiş suallandırma ilə idraka cəlb edilməsi imkanı olmalıdır. Vəhdətdən ayrılmayan və ağılla forma verilməsi mümkün olmayan və ayrıca fakt kimi təzahür etməyən reallıq yoxdur.

v. Doqmatik olmaq: Orqanondan (dialektik idrakdan) asılı olmayaraq ilkin mahiyyətini dəyişdirməməsi. İstənilən reallıq özü haqqında bilginin dəyişilməsindən asılı olmayaraq özündə dəyişməz həqiqətləri təqdim edir.

q. Özü-özü ilə eynilik təşkil etmək: Özü-özü ilə eynilik özü-özünü təkrarlama kimi qavranılır. İki cür özü-özünü təkrarlama aşkarlaya bilərik. Birincisi, zamanda özü-özünü özündə təkrarlama. buradan şeyin ayrılıqda götürülən təkliyi meydana çıxır. İkincisi, məkanda özü-özünü özündənkənar təkrarlama. Buradan, şeyin ayrılıqda götürülməsi mümkün olmayan çoxluğu meydana çıxır. Reallıqlar xarici şərtlərin dəyişilməsindən asılı olmayaraq, istənilən yerdə, istənilən vaxt, istənilən subyekt tərəfindən dərk edilməsindən asılı olmayaraq, özü-özü ilə eyniliyini saxlayır.

d. Subyektdən asılı olmamaq: Reallıq təcrübəyə daxil olmaqla obyekt-subyekt münasibətində gerçəkliyə çevrilir. Buna görə də gerçəkləşməyən reallıq subyektdən asılı olmadan mövcud olur. Beləliklə, subyektdən asılı olmadan mövcudolma, gerçəkliyin idrak edilib-edilməməsindən asılı olmayaraq özü-özündə mövcudolmanı, yəni subyektlə şərtlənməməni özündə ifadə edir. Reallıq bu keyfiyyəti ilə Berklinin dediyinin əksinə bizim subyektiv varlığımızdan asılı olmadan mövcud olan olur.

m. İctimai şüurla təsdiq edilməsi: İstənilən reallığın müxtəlif vaxtlarda müxtəlif subyektlər tərəfindən aşkarlanması mümkündür və müxtəlif yerlərdə, müxtəlif vaxtlarda, müxtəlif insanların idrak prosesində aşkarlanmasından asılı olmayaraq reallıq özü-özü ilə eyniliyini saxlayır.

c. Sərhədli olması: Hər hansı bir reallıq özünəxas konkret sərhədlərə malikdir və bu sərhədlərdən kənarda irreallıqdır. Eləcə də, başqa reallıqlar onun sərhədlərində irreallıqdır. Məsələn: Mifik varlıq olan Kentavr - yarı insan, yarı at olduğundan at kimi bütün atların mövcudluq

sərhədlərindən kənardır, çünki bədənin bir hissəsi insandır; insan kimi bütün insanların sərhədindən kənardır, çünki bədəninin yarısı atdır, buna görə də irreallıqdır.**m. Vasitəli - formadan aydınlaşması:** Hər bir reallıq hansısa bir formada təzahür edir. Bütün reallıqların özünəxas forması vardır və forma reallıqda aydınlaşan həqiqətin vasitəsi kimi çıxış edir. Beləliklə, substansiya reallığın məqsədi, forma onun vasitəsi olur.

n. Sürəklilik: Hər bir reallıq konkret zamanla şərtlənmişdir. Reallıqlar zamanda aydınlaşma müddətinə görə müxtəlifdir, lakin zamanla şərtlənməmiş heç bir reallıq yoxdur. Zamansızlıqda reallıq meydana çıxmır. Buradan da istənilən irreallığı zamanla şərtlənməmə kimi təyin edə bilərik.

l. Təzahürünün mahiyyətdən asılılığı: Hər bir reallıq yalnız mahiyyətdən asılı olan təzahürləri meydana çıxarır. Mahiyyətlə əlaqəsi olmayan təzahür reallıqda meydana çıxmır.

k. Təkrarlılıq - özü-özünü sübut etmək: Hər bir reallıq məkanda təkrarlanmaq imkanına malikdir. Məkanda təkrarlanmayan, yəni tək bir fakt kimi mövcud olan reallıq yoxdur. Beləliklə, reallıq çoxluq xarakteristikasına malikdir.

t. Mövcudluqda azadlıq: Reallığın özü istisna olmaqla heç bir xarici asılılıq olmadan azad şəkildə mövcud olur. Başqasından asılı mövcudluq buna görə irreallıq olur. Məsələn, kölgə irreallıqdır, çünki işıq və mövcudluğun birgə təzahürüdür və özünün müstəqil təzahür imkanı yoxdur.

Reallığın əksi irreallıq, mümkünlüyün əksi mümkünsüzlük kimi meydana çıxır. Reallığın əksliyi kimi **irreallığın** da bir çox əlamətlərini aşkar edə bilərik, hansı ki, həmin əlamətlər əsasında həqiqət inkar üsulu ilə aşkarlamağa imkan verir.

a. Təzahürünün ikiqat şərtlənməsi. İrreallıqlar eyni zamanda iki və daha çox obyektin mahiyyəti ilə şərtlənir. Məsələn, kölgə həm hər hansı bir obyektlə şərtlənir və onun formasına uyğun forma alır, həm də işıqla

şərtlənir, belə ki, yalnız işıq şüalarının düşməsi ilə meydana çıxır. Beləliklə, eyni vaxtda işıq və obyektin mahiyyəti kölgənin təzahüründə bərabər əsasda iştirak edir. Ayrılıqda işıqsız və ya obyektsiz kölgə meydana çıxmır.

b. Xüsusi məkan-zaman şərtlənməsinin olmaması: İrreallıqlar ikiqat şərtləndiyindən onların öz zaman və məkan asılılığı olmur. Kölgə yalnız kölgəsi olduğu obyektin və işığın məkan və zaman şərtlərini özündə ifadə edir.

v. Mahiyyəti olmayan formaya malik olmaq: İrreallıqların forması olsa da konkret mahiyyəti yoxdur. Məsələn, hallüsinasiyalarda görünən obrazların konkret mahiyyəti yoxdur, həmin obrazlar mahiyyətsiz forma kimi meydana çıxır.

q. Davamsızlıq: Heç bir irreallığın sürəklilik xarakteristikası, yəni zamanla şərtlənməsi yoxdur və ya eyni cür irreallıq müxtəlif vaxtlarda olduğu kimi meydana çıxmır, yəni zamanda təkrarlanmır, özü-özündə sıra təşkil etmir.

d. Məkanla şərtlənməmə: İrreallıqlar konkret məkan şərtlərinə tabe olmur, yəni irreallıqların çəkisi, ölçüsü, həcmi və çoxluq xarakteristikası yoxdur. Buradan da irreallıqlar zəruri şərtlərə malik olmadığından yalnız xarici şərtlərə görə təsadüfi şərtlərin məcmusuna görə təzahür edir.

m. Özü-özü ilə eynilik təşkil etməmə - təkrarlanma keyfiyyətinə malik olmamaq: Hər bir irreallıq heç bir halda özü-özü ilə eynilik təşkil etmir və eyni bir irreallıq müxtəlif vaxtlarda və yerlərdə özü ilə fərqli formalarda meydana çıxır. Buradan da məkanda sıra təşkil etməmə meydana çıxır. Yəni irreallıqların çoxluğu olmur.

x. Özünün hərəkətinin olmaması: İrreallıqlar yalnız reallıqların hərəkəti ilə hərəkət edir. Gerçəklik olmadığından enerjisi yoxdur və buna görə də hərəkəti yoxdur. İrreallıqların görünən hərəkətliliyi obrazların təfəkkürdə hərəkətliliyinin özündə refleksiya edir. Məsələn, kölgənin hərəkəti.

k. Sərhədsizlik: Heç bir irreallığın konkret sərhədi yoxdur, yəni irreallığın bir obrazı digər irreallığın obrazının sərhədlərində mövcud ola bilir. Və ya özü-özündə bir obrazdan digər obraza keçməklə mövcud olur, buradan da qarışıq və ya xaotik obrazlılıq meydana çıxır.

l. İctimai şüurla idrak olunmaması: İrreallıqlar yalnız fərdi şüurda aşkarlanır. Heç bir irreallıq heç vaxt ictimai şüurda aşkarlanmır, çünki irreallıqlar eyni cür, eyni vaxtda və eyni yerdə təzahür etmir.

İrreallığa - kölgə, yuxu, illüziya, ilğım, hallüsinasiyalarda aşkarlanan obrazlar aiddir. Kölgə təfəkkürdən kənarda - xarici irreallıq kimi, digər irreallıqlar isə təfəkkürdə - daxili irreallıq kimi meydana çıxır. Kosmosda irreallıq yoxdur, buna görə obyektiv deyillər, yalnız idrak prosesinin özü-özündə aprior meydana çıxırlar, buna görə də xalis subyektivdirlər.

Kölgə - xarici aşkarlanan, reallıqla keçici vəhdət təşkil edən, özündə mahiyyəti olmayan, yalnız obyektin formasından asılı şərti formaya malik, öz xüsusi hərəkəti olmayan, inikas etməyən, müvəqqəti, dəyişən ölçülü təzahürdür. Kölgənin subyektə münasibəti ümumidir, yəni müxtəlif subyektlər tərəfindən eyni vaxtda eyni qaydalarda aşkarlanır. Başqa sözlə, kölgə kollektiv şüurla aşkarlanan irreallıqdır.

Yuxu - təfəkkür strukturlarının - obrazların, təsəvvürlərin və fikirlərin daxildə aydınlaşan "kölgə"sidir. Reallıqla hər hansı bir əlaqəsi yoxdur. Xarici kölgədən fərqli olaraq daxilidir, buna görə də kənar şəxslərin müşahidə etməsi mümkün deyil, başqa sözlə, kollektiv formada təzahür etmir, ictimai formada seyr edilmir. Subyektə münasibətinə görə fərdidir, xüsusidir. Kölgə kimi yuxu da mahiyyəti olmayan formalı obrazlardan təşkil olunur. Yuxu hərəkəti olmayan, konkret mahiyyətdən təzahür etməyən hadisədir. Kölgədən fərqli olaraq yuxunun ikiqat şərtlənməsi eyni bir mənbə ilə bağlıdır. Başqa sözlə "işıq" da, "obyektlər" də eyni bir təfəkkürdən qaynaqlanır. Yuxunun işıqlanması xarici işıqlanma ilə ziddiyyət təşkil edir, belə ki, yuxu yalnız xarici aləm qaranlığa büründüyü təqdirdə işıqlanır. Kölgədən fərqli olaraq bir yuxu

eyni dəqiqliklə təkrarlanmır, bu da təfəkkürün dinamizmi ilə bağlıdır. Təfəkkürün iki müxtəlif vaxtdakı halı eyniyyət təşkil etmədiyi kimi, eyni insanın gördüyü yuxular da eyniyyət təşkil etmir. Yuxu da kölgə kimi inikas qabiliyyətinə malik deyil, özü inikasın nəticəsi olduğundan, inikas üçün səbəb təşkil etmir.

Hallüsinasiya - hallüsinasiya yuxu kimi təfəkkürün daxili kölgəsinin təfəkkürün özü tərəfindən aşkarlanmasından meydana çıxır. Digər bütün əlamətləri yuxu ilə eynidir. Yuxudan yalnız onunla fərqlənir ki, hallüsinasiyalar xarici işıqlanma ilə ziddiyyət təşkil etmir, əksinə onunla vəhdətdə meydana çıxır. Nəticədə insan hallüsinasiyalarda ikiqat işıqlanmanın təsirində olur. Başqa sözlə, hallüsinasiyalarda reallıqla irreallığın sərhədləri yuyulur, nəyin reallıq, nəyin irreallıq olmasını ayırd etmək mümkün olmur. Hallüsinasiyalar da məkan və zamanla şərtlənmir.

İlğım - xarici hallüsinasiyalardan ibarətdir. Bütün əlamətləri hallüsinasiyalarla eynidir, yalnız təfəkkürdən xaricdə proyeksiya olunur.

İllüziya - illüziya irreallığın reallıq və əksinə reallığın irreallıq kimi idrak olunmasında meydana çıxır. İllüziya təfəkkürdə idrakın tormozlanması kimi meydana çıxır. İdrak prosesində qavrama ilə təsəvvür arasında vəhdətin pozulmasından illüziya yaranır.

Mümkünlüyün - varlığın mövcudluğunun da özünəxas aşağıdakı əlamətlərini ayırd etmək olar:

a. Eyni bir həqiqətin yalnız eyni növ gerçəkliyin predikati (təsdiqləyici mühakimə) ilə münasibətdə olması: Belə ki, bir həqiqət müxtəlif növ gerçəkliyin predikati ilə münasibətdə ola bilməz. Belə olsaydı eyni bir obyektdə müxtəlif həqiqətlər təsdiq olunardı və ya bir həqiqət müxtəlif obyektlər kimi reallaşardı.

b. Vəhdət prinsipi ilə aşkarlanma imkanının olması: Mümkünlüklərin konkret forması olmadığından, forması olan reallıqlarla vəhdət təşkil etmir, buna görə də başqa bir real gerçəklikdən aşkarlanmır.

Belə ki, bütün mümkünlüklər yalnız analitik mühakimə yolu ilə başqa mümkünlükdən aşkarlanandır. Mühakimə bu üsulla işləyir.

Mümkünsüzlük mümkünlüyün əksliyi kimi onun inkar yolu ilə müəyyənləşməsində mühüm əhəmiyyət kəsb edir. Mümkünsüzlüyün aşağıdakı əlamətlərini ayırd etmək olar:

a. Eyni vaxtda iki müxtəlif həqiqətə malik olmamaq: Hər bir gerçəklik özündə yalnız bir həqiqət saxlayır. Eyni vaxtda iki fərqli həqiqətə malik gerçəklik mümkünsüzlükdür.

b. Konkret predmetin predikati ilə münasibətdə olmamaq: İstənilən mümkünlük hər hansı bir obyektin predikati ilə münasibətdə təzahür edir. Predikatla münasibətdə olmamaq mümkünsüzlükdür.

v. Kanonik olmamaq: Ağıllı forma verilməsi mümkün olmayanlar mümkünsüzlükdür. Hər hansı bir fakt mütləq ağılla forma almaq keyfiyyətinə malikdir. Ağlın sərhədlərindən kənarda, başqa sözlə, ağılla təsvir və təsəvvür olunmayanlar mümkünsüzlükdür.

q. Müxtəlif vaxtlarda müxtəlif həqiqətlərə malik olmaq: Hər bir reallıq zamandan asılı olmayaraq yalnız eyni bir həqiqətə malikdir, zamandan asılı olaraq mahiyyətini dəyişən mümkünsüzlükdür.

m. Özündə hər hansı bir həqiqət saxlamamaq: Hər bir gerçəklik mütləq özündə konkret həqiqət saxlayır. Belə keyfiyyətə malik olmayan, yəni sürəkli olaraq həqiqəti olmayan mümkünsüzlükdür.

z. Əksliyi ilə eyni həqiqətə malik olmaq: İstənilən mümkünlük onunla əkslik təşkil edəndən fərqli həqiqətə malikdir. Öz əksliyi ilə eyni həqiqət daşımaq mümkünsüzlükdür. Məsələn, ağ eyni zamanda qara ilə eyni tələblərə cavab vermir. Bu əksliklərin mövcudluğu qanununa - qütbülülüyə uyğundur.

Haşiyə: F.Şellinq ”Dünya ruhu haqqında” - Qütbülük qanunu dünya yaranışının ümumi qanunudur.

n. Əşyanın predikati ilə münasibətdə ziddiyyətdə olmaq: Hər bir mümkünlükdə həqiqət obyektin predikati təsdiq olunur. Obyektin predi-

kati ilə inkar olunmaq mümkünsüzlükdür.**l. Özü-özü ilə əkslik təşkil etmək:** Heç bir mümkünlük özü-özü ilə ziddiyyət təşkil etmir, ziddiyyət yalnız xarici obyektlərlə münasibətdə aşkarlanır. Özü-özü ilə ziddiyyət təşkil etmək mümkünsüzlükdür.

f. Vəhdət təşkil etməmək: Bütün mümkünlüklər bir-biri ilə vəhdət təşkil edir. Vəhdətdə olmayanlar mümkünsüzlükdür. Başqa sözlə, başqa gerçəkliklərdən aşkarlanmayan təzahür mümkünsüzlükdür.

GERÇƏK VARLIQ

Real varlıq təbiətdən təcrübəyə keçməklə obyekt-subyekt münasibətinə daxil olur və bu münasibətdə **gerçək varlıq** kimi çıxış edir. İdrak prosesi hissi qavrayışda real varlıqla subyektiv varlığın (mövcudluğun yoxluğu) vəhdətindən başlayır. Bu vəhdətdə real varlıq təfəkkürdə refleksiya etdiyi qədər, yəni subyektiv varlıqla eynilik kimi, gerçək varlığa çevrilir. Beləliklə, gerçək varlıq - dərk olunan real varlıqdır. Həqiqət mütləq dərk olunmadığından, heç bir gerçək varlıq real varlıqla eynilik təşkil etmir. Beləliklə, gerçəklik subyektin və real varlığın şərtlərinin məcmusundan ibarət olur; burada real varlıq gerçəkliyin zəruri şərtlərinin, subyekt təsadüfi şərtlərinin məcmusunu özündə təqdim edir, hansı ki, hər iki şərtin vəhdəti bilik, yəni aşkarlanmış həqiqət kimi meydana çıxır. Real varlıq gerçəkliyin zəruri şərtlərini təqdim etdiyindən biliyin sabit əsası kimi çıxış edir. Subyekt gerçəkliyin təsadüfi şərtlərini təqdim etdiyindən biliyin dəyişən tərəfindən ibarət olur. Gerçəkliyin dəyişən tərəfi özündə həqiqətin nisbiliyini ifadə edir, hansı ki, məhz həqiqət nisbiliyinə görə mütləq həqiqət istiqamətində dəyişir.

Haşiyə: Uilyam Arntc, Betsi Ceys, Mark Bucente ”Dovşan yuvası və ya biz özümüz və Kainat haqqında nə bilirik”

> *“Fəlsəfə doktoru Kendas Pert: “Bizə nəhəng həcmdə məlumat daxil olur. Onlar bizə hiss orqanlarından fasiləsiz daxil olur və biz onun çox hissəsini atmağa məcburuq. Şüura qədər yalnız*

ona mütləq zəruri olanlar çatır". Fəlsəfə professoru Henrik Skolimovski: "Göz reallığı ağlın təchiz etdiyi bilgilərin və hisslərin sərhədində qəbul edir. Məhz ağıl gözün gördüyü Kainatı yaradır. Başqa sözlə, bizim ağlımız bizə "görmək" lazım olanlara əsaslanır."

Beləliklə, real varlıqda "gözün gördüyü" və "ağla zəruri olaraq lazım olan" varlığın gerçəkliyini müəyyən edir. Real varlıqla gerçək varlıq arasında görə bilmədiyimiz və ağla zəruri olaraq lazım olmayan çoxlu məlumat qalır, hansı ki, həmin məlumata görə həqiqət nisbi dərk olunur. Real varlığın özündə aydınlaşdırdığı həqiqəti bilavasitə təfəkkürə şüalandırması ilə, özündə daşıdığı ideya haqqında məlumatı təfəkkürə ötürməsindən gerçəklik yaranır. Beləliklə, gerçəklik bir tərəfdən xaricdə real varlıqdan, digər tərəfdən daxildə təfəkkürdən təyin olunur. Gerçəklik varlığın sonu, təfəkkürün başlanğıcını, başqa sözlə, abstraktla konkretin vəhdətini özündə təqdim edir ki, mövcudluqdan fərqli olaraq özündə ikinci səviyyədən İlahi Nurun vəhdətini təşkil edir. Ağıl yalnız özünə zəruri olmayan həqiqətlərdən imtina etmir, həm özündən çıxan məlumatları onlara əlavə edərək onları özü və başqaları üçün dərk olunan hala salır.

Haşiyə: Uilyam Arntc, Betsi Ceys, Mark Bucente "Dovşan yuvası və ya biz özümüz və Kainat haqqında nə bilirik"

"Co Dispenza: "Sizin beyniniz xarici aləmlə sizin təsəvvürlərinizin aləmi arasında fərq görmür".

Fəlsəfə doktoru Fred Alan Bolf: "Bizdən kənarda, bizim təsəvvürlərdə - "burada" baş verməsindən asılı olmayaraq, heç bir "orada" yoxdur."

Beləliklə, bizdən kənarda "orada" mövcud olan gerçək varlıq bizim təsəvvürlərimizlə "burada" vəhdətdə Varlıq təyinlərinə ayrılır. Həmin ayrılmış təyinlərin başqa gerçəkliklərin təyinləri ilə müxtəlif vəhdətindən idrak baş tutur. İdrak istisnasız olaraq yalnız şüurlu insana xas olduğun-

dan bizim istənilən müddəamız özümüzə münasibətlə bağlıdır, yəni heç bir halda biz idrak obyektindən təmamilə yad deyilik: ya onu idrak edən, ya da onunla birgə idrak olanıq. Burada müqayisə aparan subyektdir, hansı ki, subyektin mövcudluqla təcrübədə vəhdətində təzahür edir. Beləliklə reallıq - şeylərin biri-biri ilə vəhdəti, gerçəklik - şeylərin subyektlə vəhdətini özündə ifadə edir. Reallığın metafizik anlamı yoxdur, çünki heç bir reallıq birinci başlanğıc xarakteristikasına malik deyildir. Belə ki, reallıqlar biri-biri ilə müqayisədə bu xarakteristikaya malik olur. Yəni hər bir reallıq eyni zamanda həm başqası üçün başlanğıc, həm də başqasında olan başlanğıca görə özündə sonu təqdim edir. Varlığın metafizik idrakından çıxaraq fəlsəfi idraka daxil olması reallıq səviyyəsində mümkün olur.

Reallığın şüura təsirindən iki hal meydana çıxır:

a. Reallıq idrak prosesində şüura təsir edir, amma onda refleksiya olunmur. Bunun iki səbəbi ola bilər. Birincisi, reallığın intellektibelliyinin zəifliyi. Yəni, həqiqət konkret reallıqda tam aydınlıqla aydınlaşmır. İkincisi, subyektin intellektuallığının zəifliyi, yəni fərd reallıqda aydınlaşan həqiqəti dəqiq aşkarlaya bilmir.

b. Konkret reallıq şüura təsir edərək təfəkkürdə refleksiya olunur. Yəni idrak prosesində reallıqda aydınlaşan həqiqət təfəkkürdə aşkarlanır. Reallığın şüura təsir edərək təfəkkürdə refleksiya olunması gerçəklik xarakteristikası yaradır. Fəlsəfədə gerçəklik anlayışı - real mövcud olub inkişaf edən, özündə xüsusi mahiyyət və qanunauyğunluğu olan, həmçinin xüsusi təsir və inkişaf nəticələrinə malik olan şey kimi təyin olunur.

Bəs, gerçəklik anlayışına daxil olan xarakteristikalar ayrı-ayrılıqda özündə nəyi ifadə edir?

1. Real mövcud olmaq: Reallığın iki tərəfi vardır. Bu tərəflərdən biri həqiqətlə bağlı olub təfəkkürdən asılı olmayaraq meydana çıxan xarakteristikadır. İkinci tərəfi təfəkkürlə bağlıdır. Belə ki, təfəkkürdə yaranan

obrazlar ya obyektiv gerçəkliyin obrazları kimi xaricdən alınma kimi meydana çıxır, ya da təfəkkürün özü-özündə yaranır və daxildən alınma kimi meydana çıxır. Real olan - özündə təfəkkürdə xaricdən alınan obrazları ilə dərk ediləni bildirir, hansı ki, həmin obrazlar həmin varlıqdan əldə edilir.

Haşiyə: B.Spinoza ”Ağlın təkmilləşməsi haqqında”

> *“Aydın və dəqiq qavrayışda olan hər şey zəruri olaraq mövcuddur və ya ən azı mövcud ola bilər. Bu təyindən və ya təsvirdən belə çıxır ki, uydurulmuş varlıq, fikir varlığı və xəyal heç bir şəkildə varlığa aid edilə bilməz. Hegel ”Varlıq haqqında təlim” - Mövcudolanla mövcudolmanın və ya daxili ilə xaricinin vəhdəti gerçəklikdir.”*

B.Spinozanın fikirlərindən də görünür ki, mövcudluq yalnız qavrayışda olduqda varlığa aid edilə bilər. Qavranılmayan mövcudluq ya reallıq deyil, ya da potensiya kimi mövcudluqdur, yəni mümkün varlıqdır. Bundan fərqli heçlik olan qavranılmayandır və buna görə də irreallıqdır. Hegelin fikirlərindən görünür ki, gerçəklik iki vəhdəti - şüurdan asılı olmayaraq idrak prosesindən kənarda reallığın forması ilə mahiyyətinin vəhdətini və şüurdan asılı olaraq idrak prosesində reallıqda aydınlaşan həqiqətlə onun təfəkkürdə aşkarlanmasının vəhdətini ifadə edir. Burada “qavrayışda mövcud olmaq” özündə qavrayışla şərtlənmə zərurətini bildirmir, aydın və dəqiq qavrayış (aydın və dəqiq olmayan qavrayışda real olmayanlar da varlıq kimi dərk olunur) yalnız təsdiqedici rolda çıxış edir, hansı ki, reallıq özü-özündə qavrayışın təsdiqinə ehtiyac duymadan mövcud olur. Beləliklə, real mövcud olmaq həqiqətin vasitədə aydın və dəqiq aydınlaşmanın təfəkkürdə aydın və dəqiq aşkarlanma keyfiyyəti kimi meydana çıxır. Bəs nə üçün xəyal və fikir varlığı reallıq keyfiyyətinə malik olmur? Yuxarıda qeyd etmişdik ki, xəyal mahiyyətsiz forma kimi, fikri varlıqlar formasız mahiyyət kimi təzahür edir. Reallıq

isə mahiyyətlə formanın vəhdətində meydana çıxır, hansı ki, insan varlığın formasından onun mahiyyətini qavrayışlarla idrak edir.

2. İnkişaf etmək: İnkişaf səbəb-nəticə əlaqəsini özündə bildirir və iki tərəfi vardır. Birinci tərəfi, istənilən gerçəklik nəyinsə səbəbi və eyni zamanda nəticəsidir. Beləliklə, eyni bir gerçəklikdə səbəb-nəticə vəhdəti inkişafın mahiyyətini təşkil edir. İnkişafda olmaq səbəb-nəticə əlaqəsində olmaq deməkdir. İkinci tərəfi, hər hansı bir gerçəkliyin idrakı sürəkli prosesdir. Belə ki, gerçəkliyin idrakı onda aydınlaşan nisbi həqiqətdən mütləq həqiqətə doğru inkişafdadır.

3. Qanunauyğunluğu olmaq: Bu xarakteristikanın da iki tərəfi vardır. Birincisi, müəyyən sabit nizamla yaranmaq. Hər hansı bir gerçəklik məkan və zaman şərtindən asılı olmayaraq yalnız bir və eyni dəyişməz nizamla əmələ gəlir. İkincisi, hər hansı bir gerçəklik subyektdən asılı olmayaraq bir və eyni yəqin nizamla aşkarlanır. Buradan da varlığın dəqiq aşkarlanmış qanunauyğunluğundan həmin varlığı dəqiq yaratmaq mümkündür.

4. Təsir və inkişaf nəticələrinə malik olmaq: Bunun da iki tərəfi vardır. Birinci tərəf, bir gerçəkliyin vəhdətdə olduğu digər gerçəkliklərə təsirini bildirir. İkinci tərəf, digər gerçəkliklərin vəhdətdə həmin gerçəkliyə təsiri və bu təsir nəticəsində gerçəkliyin öz təzahür formalarını dəyişdirməsini ifadə edir.

5. Şey olmaq: "Şey" səbəb-nəticə əlaqəsində meydana çıxan və hiss üzvlərinə təsir edərək onda duyğu yaradan materiyanın təşkilatlanmış ayrılıqda götürülmüş təzahürüdür. Başqa sözlə, şey olmaq - özündə konkret struktur-forma təqdim etmək deməkdir.

Haşiyə**:** Hegel "Varlıq haqqında təlim"

> *" Şey - əsasın və mövcudluq təyininin vəhdətdə inkişafına qoyulmuş totallıqdır."*

Hegelin fikirlərindən görünür ki, şey xalis varlıqla - Varlığın və mövcudluq təyinlərinin vəhdətdə inkişafının totallığı kimi meydana çıxır.

Başqa sözlə, varlığın mövcudluğunun mövcudluğun varlığına keçməsi şey kimi təzahür edir. Buradan da, gerçəkliyi belə də ifadə edə bilərik. **Gerçəklik** - özündə səbəb-nəticənin vəhdətini təqdim edən, konkret sabit mahiyyətə və dəyişkən formaya malik, təfəkkürdə xaricdən alınma obrazlar yaradan, şeyin təşkilolunmasının şərtlərinin məcmusundan ibarətdir. Beləliklə, gerçəklik mövcud varlıqla mövcudluğu yoxluq olan Ruh arasında sərhəd təşkil edir, hansı ki, gerçəkliyin refleksiyası ilə təbiətdən ruha - xalis zəkaya keçid baş verir və varlıq bu mərhələdən sonra təfəkkürə açılır, hansı ki, biz bunu həqiqətin aşkarlanması kimi qavrayırıq.

Kosmosu təşkil edən varlıqlar reallığa və gerçəkliyə görə aşağıdakı kimi fərqlənir:

Cisimlər özlərində həm mövcudluq, həm reallıq, həm gerçəklikdir.

Canlılar həm reallıq, həm gerçəklikdir. Canlıların faktiki mövcudluğu yoxdur.

Ruh yalnız gerçəklikdir. Ruhun faktiki mövcudluğu və real varlığı yoxdur.

PNEVMATOLOGİYA

Mən - mənə görə Mənəm,
Sənə görə - Sən,
Sən - mənə görə Sənsən,
Sənə görə - Mən,
Onda bəs Sən kimsən, Mən kiməm?

RUH HAQQINDA ƏN ÜMUMİ ANLAYIŞ

Metafizikanın Pnevmatologiya bölməsinin predmeti fikrən tək kimi götürülən Ruhdur. Ruh anlayışının mənası nədir?

O özündə həqiqəti necə aydınlaşdırır? Ruhu nədən və necə aşkar etmək olar? Ruh bədənə necə keçir? Ruh bədəndə harada yerləşir? Ruhun bədənlə qarşılıqlı əlaqəsi nədən ibarətdir? Ruhun digər mövcudluqlara, o cümlədən ayrı-ayrı metafizik təklərə - Kosmosa, Varlığa və Allaha münasibəti necədir? Ruh dərkediləndirmi? Nə üçün biz ruhu dərk edə bilmirik? Ruhun idrakı nə üçün vacibdir?

Bütün bu və digər bu qəbildən olan sualların cavabını metafizikanın pnevmatologiya bölməsi təşkil edir.

Fransız bioloqu və humanisti Pyer Teyyar de Şarden "İnsan fenomeni" adlı kitabında yazır:

> *"Anlamaq vaxtı gəlmişdir ki, Universumun kafi şərhində, hətta pozitivist şərhindən ötrü, şeylərin yalnız xarici yox, həm də daxili tərəfi, yalnız materiya yox, həm də ruh əhatə olunmalıdır".*

Ruhun əhatə olunması yalnız Universumun şərhi üçün vacib deyil. Əksinə, ruhun həqiqətinin aşkarlanması insanın praktik məqsədləri üçün yeni üfüqlər açır. Biz belə hesab edirik ki, insan özünü yalnız materiyanın imkanları ilə məhdudlaşdırmamalıdır. Bugünkü elmlər məhz materiyanın imkanlarının istifadəsi üzərində təşəkkül tapıb və artıq bu imkanlar insanın yer həyatının davam etdirilməsi üçün yetərli deyil. Ayrı-ayrı alimlərin bəşəriyyəti gözləyən fəlakətlərdən söz açması, yer resurslarının tükənməsi, elmlərdə durğunluq, yeni kəşflərin azalması və s. əslində özündə materiyanın istifadə imkanlarının tükənməsindən xəbər verir.

Ruhun imkanları isə əl dəyməmiş şəkildə qalmaqdadır və ruh özündə materiyadan qat-qat nəhəng potensiala malikdir. Buna görə də insan materiya ilə yanaşı, həm də ruhun imkanlarından istifadə etmək şansına malik olmalıdır və bundan sonrakı elmlər məhz ruhun qanunlarını kəşf edərək insanın yaşam təcrübəsini genişləndirməlidir. Lakin bunun üçün ilk növbədə ruhun özünün mahiyyəti haqqında səhih məlumata malik olmaq lazımdır.

Ruhun imkanlarından istifadə olunma ehtimalı ruhi enerji ilə fiziki enerjinin qarşılıqlı əlaqəsinin mümkünlüyü ilə bağlıdır. Belə ki, insan bədəni ilə əlaqələnmiş ruh bu əlaqədə bədənə, bədən də öz növbəsində ruha təsir edir. Məsələn, bədənə fiziki təsir ağrı kimi qavranılır və ağrı ruhi fəallıq yaradır. Buradan, ağrıya səbəb olan təsir ruha keçərək onda tərəddüd yaradır, ruh bir səviyyədən başqa səviyyəyə keçir. Şarden belə hesab edir ki, "şübhəsiz maddi və ruhi enerji nəiləsə öz aralarında bağlıdır və biri-birini davam etdirir. Onlar daima əlaqəlidir və hansısa şəkildə biri digərinə keçir".

Məlumdur ki, təbiətdə maddi enerjinin saxlanması qanunu hökm sürür. Əgər maddi enerjinin saxlanması qanunu varsa, onda təbii enerji necə ruhi enerjiyə - qeyri-maddi enerjiyə çevrilə bilər? Şardenin fikirlərindən görünür ki, maddi enerji ruhi enerjiyə çevrilmir, sadəcə ona keçir. Maddi enerjinin ruhi enerjiyə keçidi maddi enerjinin kosmik qanunlardan azad olması və metafizik qanunlara tabe olmasını özündə ifadə edir. Metafizik qanunlara tabe olmaqla maddi enerji ölçülülükdən azad olur, nəticədə az miqdar maddi enerji nəhəng enerjiyə çevrilir. Şarden belə hesab edir ki, "ən əsasda hansısa şəkildə dünyada vahid enerji mövcud olmalı və fəaliyyət göstərməlidir". Lakin Şarden onda yanılır ki, "ən əsas" Kosmosdan kənarda, metafizikadadır və dünyanın vahid enerjisi - obyektin və subyektin vahid enerjisi mümkünlüyün varlığının enerjisi kimi metafizikada mövcuddur. Əgər biz maddi varlığı təbiət qanunlarından metafizik qanunlar sisteminə və ya əksinə, ruhu metafizik

qanunlardan fiziki aləmin qanunlar sisteminə keçirmək imkanı əldə etsək, onda bu iki fərqli enerji arasında çevrilmələr edə bilərik. Nəticədə metafizikadan Kosmosa, ruhdan material aləmə sonsuz enerji axını təmin edə bilərik.

Maddi enerji mövcud varlığın enerjisidir, hansı ki, tangensial və radial enerji formaları kimi mövcuddur. Mövcudluğun enerjisi - tangensial, mövcud olmanın enerjisi - radial enerjidir. Mövcud varlıqlar eyni zamanda özlərində hər iki fərqli formadan enerjini saxlayır. Ruhi enerji bundan fərqli olaraq, eyni zamanda yalnız bir enerji formasında olur, bununla da maddi enerjidən fərqlənir.

Qeyd etmək lazımdır ki, elmi şüur istisna olunmaqla cari, dini və fəlsəfi şüurda ruh haqqında çoxlu fikir və ideyalar mövcuddur.

Cari şüurda Ruh haqqında təsəvvürlər tanınma səviyyəsində mövcud olub, mistifikasiyanın - hər bir mövcudluğun özünəməxsus ruhu olması haqqında ideyaların meydana çıxmasına səbəb olub. Cari şüur mövcudluğun daxilinə nüfuz etmədən, yalnız özü ilə xarici fərqliliyinə görə mövcudluqların daxilində də ruh olmasını qəbul etmişdir. Cari şüurda ruhun mənası aşkarlanmamış şəkildədir. Yəni cari şüura ruhun mənası aydın deyil.

Dini şüur formalarında ruh haqqında məlumatlar təhtəlşüurdan - kollektiv düşüncədən əldə edilib. Uzun əsrlər boyu ruh haqqında bilgilər demək olar ki, daha çox teologiyanın predmeti hesab edilib. Hətta bəzi dinlər ruh haqqında tədqiqatı eres-bidət elan edir və insan ağlının Ruhun mahiyyətini anlamaq üçün yetərli imkana malik olmadığını iddia edir. Dinin Ruhun təbiətinin suallandırılmasını qadağan etməsi ruh haqqında məlumatların əldə edilmə üsulu ilə bağlıdır. Belə ki, bütün dinlər onlara məlum olan məlumatların vəhy yolu ilə - idrak prosesindən keçmədən aydınlaşma yolu ilə, düşüncənin sonundan - bilavasitə Allahdan gələn məlumatlarla aşkarlandığını iddia edir. Beləliklə, bu məlumatlar idrak prosesindən əldə edilmədiyindən, onların təbiətini də idrak prosesində

suallandırma ilə, yəni dialektik mühakimə ilə aşkarlamaq mümkün deyildir.

Fəlsəfədə ruh haqqında həqiqətlər real varlıq haqqında məlumatların aşkarlanma üsuluna uyğun əldə edildiyindən, dialektik mühakimə ilə dərkolunan qəbul edilir və onun şərh edilməsi ilə bağlı bir çox fəlsəfi izahlar mövcuddur. Biz burada bütün filosofların ruh haqqındakı baxışlarını tənqid etmək fikrindən uzağıq və çalışacağıq ki, ruh haqqında öz mühakimələrimizi şərh edək.

Fəlsəfədə təcrübənin tərəfləri **subyekt** və **obyekt** anlayışları ilə ifadə olunur.

Subyekt - latın dilində *subjectum* sözündən götürülmüş mübtəda, **obyekt** latın dilində *objectum* sözündən götürülmüş əşya mənasını verir. Aristotel subyekti xassələrin, vəziyyətlərin, hərəkətlərin daşıyıcısı mənasında işlətmişdir və bu mənada subyekt anlayışı substansiya anlayışı ilə eyniyyət təşkil etmişdir.

Qnoseoloji mənada subyekt - fəal hərəkət edən, dərk edən, şüura və iradəyə malik fərd və ya sosial qrup, obyekt isə subyektin yönəldiyi şeydir.

Yuxarıda substansiya və forma kateqoriyalarını şərh edərkən qeyd etdik ki, obyektiv gerçəkliklərin forması özündə saxlanmış hərəkətdən, substansiyası sürəkliliyini davam etdirən hərəkətdən ibarətdir. Beləliklə, biz hər bir obyekti daxili fəal və xarici passiv hərəkətin vəhdətindən ibarət mövcud varlıq kimi təsəvvür edirik.

Biz ruhu subyekt kimi təyin edirik. Pnevmatoloji subyekt anlayışı fəlsəfi subyekt anlayışından onunla fərqlənir ki, fəlsəfi subyekt mövcud insan - şüura, iradəyə, fəal və dərk edən bioloji varlıq kimi təyin edilir.

Pnevmatoloji subyekt mövcud insandan ayrılıqda, yəni bədəndən kənar, fikrən tək kimi götürülmüş, özü-özündə xalis fəaliyyətdən ibarət varlıq kimi götürülür. Obyektin əksi kimi bədəndən fikrən ayrılıqda tək götürülmüş subyekt forması olmadığından, özündə saxlanmış hərəkətə

malik deyildir və yalnız xalis substansiyadan, yəni hərəkətlərin daşıyıcısından ibarət varlığın mövcudluğudur. Obyekti olmadığından ruhun müəyyənliyi və təyini yoxdur. Ona görə, metafizik ruh anlayışını biz **Formal Ruh** kimi təyin edirik.

Formal ruh özündə zəruri şərtləri olmadığından bilavasitəliyi və obyektliyi olmayan, buna görə də idrakın heç bir üsulu ilə dərk olunmayan obyektsiz xalis fəaliyyət kimi təyin oluna bilər.

FORMAL RUHUN VARLIĞININ SÜBUTU

Ruhun reallığı "Ruh vardırmı?" sualının cavablarından ibarətdir. Ruh Kosmosda aşkarlandığından, Kosmosda varlıqlar reallıq xarakteristikasına malik olduğundan, ruh da ya bilavasitə, ya da dolayısı ilə reallığa malik olmalıdır. Ruhun reallığı Kosmosun mövcudluğundan iki yolla sübut oluna bilər:

Kosmosda hər bir mövcudluq "eyni anda bir yerdə, bir yerdə bir vaxtda və ya var, ya yox olmaq" qanununa tabe olur. Yəni hər hansı bir varlıq eyni yerdə varsa, onda o başqa yerdə yoxdur və başqa yerdə olan onda yoxdur. Ruh və materiya ayrı-ayrılıqda bu qanuna görə şərh olunsa, onda kosmik qanunlara görə, əgər obyektiv gerçəklik reallıqdırsa, onda ruh irreallıqdır, yəni ruh yoxdur, insanın uydurmasıdır. Mövcud varlıq zəruri şərtlərə malik olduğundan, materiyası var, buna görə ruhu yoxdur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Materiyaya münasibətdə ruh yoxluqdur.**

Yəni ruhun maddiliyi yoxdur. Buradan materializm təlimi meydana çıxır. Bu təlimə görə materiya əbədidir və materiya əbədi var olduğundan, onda ikinci bir varlıq ola bilməz, yəni materiyada ruh yoxdur.

Əgər ruhu reallıq kimi qəbul etsək, onda mövcudluğu irreallıq kimi qəbul etməliyik, yəni ruhda materiya yoxdur, mövcudluq ruhun özündə yaratdığı mücərrədlikdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruha münasibətdə materiya yoxluqdur.**

Yəni materiya ruhun özündə yaratdığı subyektivlikdir. Ruh Kosmosa keçərək insan bədəni ilə - mövcud varlıqla əlaqələndiyindən - bu əlaqədə ruh bədəni, bədən (obyektiv reallıq) də ruhu yox etməklə var olur.

Kosmosun tabe olduğu "hər bir obyektin əksliklərə malik olması" qanununa görə əksliklər vəhdətdə və mübarizədə insan təfəkküründə dərk olunur. Buradan belə bir müddəa aşkarlanır: əgər ən ümumi şəkildə mövcud varlıq varsa, onda kosmik qanuna görə "mövcud varlıq əksliyə malik olmalıdır". Biz mövcudluğun varlığının malik olduğu əksliyi varlığın mövcudluğu, yəni formal ruh kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Varlığın mövcudluğu, formal ruh - mövcudluğun varlığının, obyektiv reallığın ona özündə ziddiyyət saxlayan əksliyidir və əksinə, obyektiv gerçəkliklər ruhun malik olduğu əkslikdir; hansı ki, ruhsuz obyektivlik, obyektivsiz ruh təklikdə təzahür etmir.**

Yəni biri reallıqdırsa, digəri də onun malik olduğu əkslik kimi reallıqdır.

Mövcud varlıq İlahi iradədən zəruri şərtlər alaraq mövcud olur, amma Formal Ruh İlahi iradədən yalnız mövcud olmanın şərtlərini alaraq metafizikadan fizikaya, təbiətə keçir və mövcud varlıqlardan onların mövcudluğunun zəruri şərtlərini əldə edərək özünə mövcudluq yaradır. Ruhi mövcudluqla ruhi mövcudolmanın vəhdətindən ruhun mövcud varlığı təzahür edir. Buradan da, ruhi mövcudluq var olanda, mövcud varlıq yox olmalıdır (ruh onun zəruri şərtlərini ondan əldə etdiyinə görə) və əksinə, mövcud varlıq var olduqda, onda ruh yox olur (çünki heç bir zəruri şərt almır). Əksliklərin vəhdətinə görə həm də ruhla materiya vəhdət təşkil etməlidir və eyni zamanda bu vəhdətdə bir-biri ilə mübarizə aparmalıdır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruhla materiyanın vəhdəti şüurlu insan kimi meydana çıxır.**

Burada insan anlayışı mövcud insanı yox, mövcud insandan aşkarlanan daxili insanı - insanlığı özündə ifadə edir. Yəni materiya ilə formal

ruhun vəhdətindən insanlıq təzahür edir. Əksliklərin mübarizəsinə görə əksliklərin tərəfləri bir-birini yox etməklə - inkar etməklə var olmaq kimi meydana çıxır. Məsələn, "acı şirinin əksliyidir" o deməkdir ki, acıda şirinə xas heç bir keyfiyyət yoxdur, yəni şirin acının yoxluğudur və eyni zamanda özünün varlığıdır. Yəni yoxluq - varlıqda, varlıq isə yoxluqda gizlədilən xarakteristikadan ibarətdir.

Mövcud varlığın özündə ruhu yox etməsinin - inkarının üsulu təzahürdür. Yəni obyektiv gerçəklik təzahür etməklə özündə ruhu inkar edir. Yəni obyektlər ruhun yoxluğu kimi var olur. Buradan aşağıdakı pnevmatoloji ideya alınır: **Ruh - təzahür etmədiyindən, materiyaya münasibətdə yoxluqdur.**

Mövcud varlıqlar varlığın mövcudluğuna görə əvvəl yarandığından cisimlər və canlılar sürəkli olaraq özlərində ruhu inkar etməklə reallığa çevrilirlər. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Cisimlərdə və canlılarda ruh inkar olunur.**

Varlığın mövcudluğu kimi ruh mövcudluğun varlığından sonra yarandığından və onun zəruri şərtlərini mənimsəməklə fakta çevrildiyindən, özündən əvvəlki mövcudluğun varlığını yox etməklə özü var ola bilər. Yəni ruh obyektivliyin yoxluğu kimi var olur. Varlığın mövcudluğunun mövcudluğun varlığını özündə yox etməsi idrak prosesi ilə mümkün olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruh obyektiv gerçəkliklərin obyektivliyini və bilavasitəliyini idrak prosesində yox edərək özü reallıq kimi var olur.**

İdrak prosesində ruh necə mövcud varlığı yox edir? Mövcud varlıq mahiyyətlə formanın daxili vəhdət təşkil etməsi ilə təzahür edir, yəni var olur. Onda ruh mövcud varlığın daxili vəhdətini pozaraq onun formasını mahiyyətdən ayırmaqla, yəni təzahürdən məhrum etməklə və onları özündə ayrı-ayrı üsullarla saxlamaqla onu özündə yox edə bilər. Elə belə biz idrakı mövcudluğun varlığının təzahürdən məhrum etmə prosesi kimi təyin edə bilərik. Buradan da idrak prosesinin mahiyyəti aşkarlanır:

İdrak prosesi - mövcud varlığın təfəkkürdə refleksiyasının - reflektiv mövcud varlığın formasının mahiyyətdən ayrılması ilə onun daxili vəhdətinin pozulması və onun ruhda təzahür etməsinin qarşısının alınması, yəni yox edilməsindən ibarətdir.

Reflektiv varlığı biz özündəsaxlananla - özündə eynilik kimi özündəşeylə, başqasında əks olunanın - formanın eyniliyi kimi təyin edirik; hansı ki, təbiətdə əkslə əks olunan eyniyyət təşkil edir. Mövcud varlıq təfəkkürdə də refleksiya edərkən refleksiv varlıq kimi həm özündə saxlanır, həm də təfəkkürdə əks olunur. Amma təbii əksolunma prosesi olmadığından, əksolma əksin yaranması ilə başa çatır. Amma idrak prosesi olduğundan, əks təfəkkürdə ruh tərəfindən inkişaf etdirilir və reflektiv varlığın əksində formanı mahiyyətdən ayırır; formasını obraz kimi, mahiyyətini ideya-fikir kimi yaddaşa alır və ayrı-ayrılıqda özündə saxlayır. Bu cür ideyası formasından ayrılmış mövcud varlığın daxili vəhdəti dəf edildiyindən təzahürdən məhrum olur, yəni obyektin obyektivliyi ruhda yox olur, idrak olunan gerçəklik özündəsaxlanan mövcud varlıqla eynilik təşkil etmir. Buna görə də, özü reallığa, obyekt irreallığa çevrilir. Əksinə, forması istənilən başqa mövcud varlıqdan alınan obrazla, ideyası başqa mövcud varlıqdan ayrılmış ideyalarla əlaqələndirilərək ruhun öz xüsusi mövcudluğu - ruhi faktlar yaradılır, hansı ki, mövcudluğun varlığının inkarı kimi mövcud olur.

Bu da subyektiv idealizmin başlıca ideyasını təşkil edir, hansı ki, subyektin iradəsindən və şüurundan asılı olmayan obyektiv reallığın mövcudluğunu inkar edir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **İnsan - özündə mövcudluğun varlığının - bədənin, varlığın mövcudluğunu - ruhu; varlığın mövcudluğunun - ruhun, mövcudluğun varlığını - bədəni sürəkli özündə inkar edən fenomendir.**

Yəni, insan biri-birinə qarşılıqlı müqavimət göstərən ruhdan və bədəndən ibarət mövcudluğun və varlığın vəhdətindən ibarət formadır.

Ruh və onun təzahürləri elə belə subyektivlik anlayışı ilə ifadə olunur və təcrübə sahəsində subyektivlik obyektivliyin əksliyi kimi qavranılır. Beləliklə, biz ruhun təbiətinə onun əksliyi kimi obyektivlikdən çata bilərik.

Haşiyə: Hegel "Məntiq elmi"

> *"Bir tərəfdən, mühakimənin mücərrəd nəzəriyyəsinə qarşı, öz xüsusi gücü ilə özünün ümumiliyindən xüsusiyə və təyinə keçmək vəziyyətində olmayan konkret mahiyyətə tələbat; digər tərəfdən, mahiyyətdə hər şeyi sübut etmək imkanını istisna edən və son təyin metodu ilə. fikirlərdə həqiqəti axtarmağın yerinə daxili və xarici məlumatları təcrübədən çıxarmağa cəhd edən möhkəm dayağa olan tələbat, empirizmə gətirir. Xarici özündə həqiqətdir, belə ki, həqiqət həqiqidir və mövcud olmalıdır. Empirizm prinsipinə münasibətdə düzgün irad tutulmuşdur ki, nə ki biz təcrübə adlandırırıq və tək faktları tək qavrayışlardan ayırmağa məcburuq, iki elementə malikdir: bir element - özü-özünə dağınıq, sonsuz çoxformalı material, digəri - forma, ümumiliyi və zəruriliyin təyini. Kritik fəlsəfə mahiyyətə və düşüncənin təyinlərinin biri-birinə müəyyən münasibətinə daxil olmur, onlara ümumiyyətlə subyektivliklə obyektivliyin arasındakı əkslik tərəfindən baxır. Burada götürülən kimi, bu əkslik təcrübənin daxilində elementlərin fərqlərinə aiddir. Obyektivlik burada ümumiliyin və zəruriliyin elementi, başqa sözlə, düşüncənin aprior adlanan təyini adlanır. Düşüncənin həqiqi obyektivliyi ondan ibarətdir ki, fikirlər yalnız bizim fikirlərimiz deyil, eyni zamanda özündəşeyin və ümumiyyətlə predmetliyindir."*

Hegelin fikirlərindən görünür ki, o, obyektivliyi konkret mahiyyəti olan, daxili və xarici məlumatları ondan çıxarılmasına xidmət edən möhkəm dayaq, mövcud olan, tək qavrayışdan ayrılan tək fakt, sonsuz çoxformalı material, ümumiliyi və zəruriliyin elementindən ibarət, mühakimənin mücərrəd nəzəriyyəsinə qarşı qoyulmuş xarakteristika kimi təyin edir.

Əgər təcrübədə subyektivlik obyektivliyin əksliyi kimi çıxış edirsə, onda subyektivliyi aşağıdakı kimi təyin edə bilərik:

Subyektivlik - konkret mahiyyəti olmayan, daxili və xarici məlumatların ondan çıxarılmasına xidmət etməyən, tək faktla ayrılmayan tək qavrayış, heç bir forması olmayan qeyri-material, xüsusiliyin və təsadüfiliyin elementindən ibarət mühakimənin mücərrəd nəzəriyyəsində qoyulmuş xarakteristikadan ibarətdir.

Buradan da, subyektivlik xarakteristikasına malik Ruhun təbiətini aşağıdakı kimi aşkarlaya bilərik:

Konkret mahiyyəti olmamaq: Konkret mahiyyətin əksliyi mücərrəd mahiyyətdir. Beləliklə, əgər obyekt konkret mahiyyətə malikdirsə, onda subyekti mücərrəd mahiyyətə malik varlıq kimi təyin etmək lazım gəlir. Konkret mahiyyət konkret faktdan aşkarlandığından konkret mahiyyəti olmamaq fakta malik olmamağı özündə təqdim edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruh faktı olmayan, yalnız xalis aktdan ibarət mücərrəd mahiyyətli varlıqdır.**

Daxili və xarici məlumatların ondan çıxarılmasına imkan verməmək: Obyektiv gerçəkliklərdə məlumat həm substansiyadan - daxildən, həm də aksidensiyadan - xaricdən çıxarılır. Daxildən məlumat təsirlə, xaricdən təzahürlə çıxarılır. Ruhun xarici olmadığından, daxili də yoxdur. Buna görə də, ruh daxildən və xaricdən özündən məlumatlar çıxarılmasına imkan vermir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruh daxili və xarici məlumatların ondan çıxarılmasına imkan vermədiyindən, ruhun mahiyyəti bilavasitə aşkarlanmır.**

Tək faktla ayrılmayan, tək qavrayış: Obyektiv gerçəkliklərin faktı təfəkkürdə refleksiya edərək müvafiq qavrayış yaradırlar. Bu zaman obyektin faktı təfəkkürə münasibətdə - xarici, qavrayış - daxili olur, nəticədə tək fakt tək qavrayışdan ayrılır. Ruhun xarici faktı olmadığından, təfəkkürə münasibətdə daxilidir və ruhun təfəkkürdə, yəni özüözündə qavranılmasında ruhun aktı ilə ruhun qavrayışı biri-birindən ayrılmır. Buradan aşağıdakı pnevmatoloji ideya meydana çıxır: **Ruh**

təfəkkürdə tək faktla ayrılmayan tək qavrayış kimi mövcuddur. Yəni ruhun faktı onun qavrayışından ibarətdir.

Forması olmamaq, qeyri-material: Hər bir obyektiv gerçəklik xalis varlıqla - mahiyyətlə, özü-üçün-varlıq təyininin - formanın daxili vəhdətindən ibarətdir. Ruha İlahi iradədən mövcudluğun zəruri şərtləri verilmədiyindən, onda daxili vəhdət yoxdur. Yəni ruhun forması və maddiliyi yoxdur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruh qeyri-maddi və formasız varlıqdır, buna görə də ruhun xarici çox-formalılığı yoxdur, yəni bütün insanlarda bir və eyni formal ruh mövcuddur.**

Xüsusiliyin və təsadüfiliyin elementi olmaq: Obyektiv gerçəkliklər mümkünlüyün varlığının mövcudluq tələbində İlahi iradədən zəruri şərtlər alaraq mövcud varlığa keçdiyindən, hər bir mövcud varlıq, yəni obyekt, özündə zəruriliyin elementini saxlayır. Obyektiv faktların aktuallaşmasında xarici ən ümumi təsadüfi şərtlərin təsirindən eyni daxili zəruri şərtlərə malik mövcudluqlarda müxtəlifləşmə baş verir; hansı ki, müxtəlifliyin hər bir forması özündə xüsusilik təqdim edir və onların hamısının xüsusiliyindən onları müxtəlifləşdirən təsadüfün ümumiliyi aşkarlanır. Ruha İlahi iradədən mövcudluğun zəruri şərtləri verilmədiyindən varlığın mövcudluğu kimi ruhda daxili zəruri elementlər saxlanılmır və mövcud insan varlığı ilə şərtlənmiş ruh yalnız bütün varlıqlarla təsadüfə görə şərtlənir. Ruh Kosmosu təşkil edən mövcud varlıqlara münasibətdə varlığın mövcudluğu kimi Kosmosda yalnız xüsusi kimi mövcud olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruh təsadüfiliyin və xüsusiliyin elementidir.**

Mühakimənin mücərrəd nəzəriyyəsində qoyulmuş xarakteristika: Təcrübənin tərəfi kimi obyektivlik mühakimənin mücərrəd nəzəriyyəsinə qarşı, öz xüsusi gücü ilə özünün ümumiliyindən xüsusiyə və təyinə keçmək vəziyyətində olmayan konkret mahiyyətə tələbatdan ibarətdir. Ruh subyektivlik kimi mücərrəd mahiyyətdir, buna görə də öz

xüsusi gücü ilə öz xüsusiliyində özü-özündə təyinə keçmək vəziyyətindədir və buna görə də, mühakimənin mücərrəd nəzəriyyəsinə uyğundur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruh mücərrəd mahiyyətə malik mühakimənin mücərrəd nəzəriyyəsi ilə aşkarlanan və özü-özündə öz xüsusi gücü ilə xüsusiliyində təyinə keçərək aşkarlanan idrak obyektidir.**

Ruhun faktiki və fikrən götürülməsinə görə onun suallandırılmasından müxtəlif cavablar alınır, bu da ruh haqqında fərqli təyinlərin yaranmasına səbəb olur. Belə ki, bəzi filosoflar ya canla cismi eyni başlanğıclı qəbul edib, ruhu fərqli başlanğıc kimi təsəvvür ediblər, bəzi filosoflar əksinə, ruhla canı eyni başlanğıclı qəbul edib, cismi fərqli başlanğıc kimi qəbul ediblər. Buna paralel, bəzi filosoflar cismi, canı və ruhu eyni bir vahid başlanğıcdan yarandığını və materialistlər bu vahid başlanğıcın materiya, idealistlər bunun əksinə ideya olduğunu qəbul ediblər. Buradan da ən müxtəlif fəlsəfi izahlar meydana çıxmışdır. Bu cür qavramağa görə bəzi xalqlar insanlarla canlılara, bəzi xalqlar canlılarla cansızlara eyni sual verirlər. Məsələn, Azərbaycan dilində "heyvanlar" cisimlərə verilən "nə?" sualına cavab verir. Amma rus dilində "heyvan" insanla eyni - "kim?" sualına cavab verir. Buradan görünür ki, Azərbaycan türklərinin kollektiv düşüncəsinə görə canlı cisimlərlə eynidir və ruha malik deyil, rusların kollektiv düşüncəsinə görə canlılar insanla eynidir və buna görə də insan kimi ruhludur.

Bizə görə "kim" sualının cavabı fikrən bədəndən ayrılıqda götürülmüş subyektdə, yəni ruhdadır. Yəni "kim" sualı özündə yalnız xalis ruhi fəaliyyətə verilə bilər. Bədən isə digər obyektiv gerçəkliklər kimi "nə" sualına cavab verir. Nə - özündə daxili zəruri şərtlər saxlayan obyektivliyin başlanğıcıdır. Ruhda zəruri şərtlər saxlanmadığından o "nə" sualına cavab vermir və yalnız "kim" sualı ilə cavablandırılır. Buradan da Ruhun mübtəda olması meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji

ideya aşkarlanır: **Mövcud insan "nə" kimi obyektdən və "kim" kimi subyektdən ibarət gerçəklikdir.**

Bəs Ruh haqqında metafizik ideyaları necə aşkarlamaq olar? Bu suallara cavab axtarmadan öncə "başlanğıc" anlayışına məna vermək və onun aşkarlanma üsulunu müəyyənləşdirmək lazım gəlir.

Biz, başlanğıc kimi varlığın yalnız substansiyasından aydınlaşan, onun mövcudluq faktının əsasında duran, onun bütün daxili hərəkətlərinin - fəaliyyətinin və onların digər varlıqları inkar edən əlamətlərin təzahürünün səbəbi kimi çıxış edən və heç bir halda dəyişməyən gücü - potensiyanı - nəzərdə tuturuq.

Cisimlərin mütləq faktı sabit, dəyişməyən zəruri şərtlərin məcmusundan ibarətdir və onların mahiyyəti faktiki mövcudluqlarından, yəni bilavasitə özündəşeyliyindən aşkarlanır. Buradan cisimlərin başlanğıcını **Passiv Güc** kimi təyin edə bilərik, hansı ki, bilavasitə İlahi istəyi özündə ifadə edir və buna görə də istənilən cisimdən həqiqət aşkarlamaq mümkündür. Passiv gücün ən ümumi təzahürü məkan və zamanın sabit zəruri şərtləridir.

Canlıların faktiki mövcudluğu dəyişən zəruri şərtlərin məcmusundan ibarət olduğundan, onların mahiyyəti yalnız dəyişməyən formal mövcudluqlarından, yəni növdən aşkarlanır, hansı ki, bir faktiki canlıdan daxili yolla başqasına keçməklə aktuallaşır. Faktiki canlı isə sürəkli hərəkətliliyə malik fakt kimi mövcuddur. Buradan da canlılığın başlanğıcını **Aktiv Güc** kimi təyin etmək olar, hansı ki, metafizik xalis hərəkətliliyi - İlahi İradəni özündə refleksiya edir. Aktiv güc dəyişən zəruri şərtlərin məcmusundan ibarətdir və ən ümumi təzahürü zaman və həyatdır.

Mümkünlüyün mövcudluq tələbinə İlahi İradədən verilən şərtlər daxili şərtlər olub, hər bir ayrıca mövcudluğu təşkil edən - qurulmanı reallaşdıran - zəruri güclərdən ibarətdir; hansı ki, konkret mövcudluğun hüdudları daxilində qüvvəyə malikdir və buna görə də orijinaldır. İlahi

İradədən həm də mümkünlüyün varlığına mövcud olmanın şərtləri - imkanların şərtlərinin, yəni təsadüfi şərtlərin məcmusu verilir; hansı ki, mümkünlüyün varlığı mövcudluq tələbində eyni zəruri şərtlər imkanın xüsusi şərtlərində vəhdətdə ayrı-ayrı fərqli formalı mövcudluqlar yaradır. İmkan şərtləri bütün mövcudluqlara münasibətdə ümumi xarici şərtlər kimi meydana çıxır və özündə İlahi bacarığı refleksiya edir. Təsadüfi şərtlərin məcmusundan mövcudluğun mövcud olmasında mövcudluqların estetikası - xarici görüntüsü meydana çıxır. Mövcud olma xarici vəhdətdə meydana çıxdığından estetik şərtlər xarici vəhdətin şərtlərindən ibarət olur. Hər bir mövcudluğun orijinal şərtlərinin ümumi mövcudolma şərtlərinə nisbəti xarici vəhdəti təşkil edən mövcudluqlardan asılı olduğundan təsadüfi şərtlər kimi meydana çıxır. Buradan aşağıdakı ideya aşkarlanır: **Mövcudluqların estetikası - xarici görüntüsü daxili zəruri şərtlərlə vəhdət təşkil edən təsadüfi şərtlərin məcmusundan ibarətdir.**

Təsadüfi şərtlər zəruri şərtlərdən fərqli olaraq keçici və əvəzlənəndir, buna görə də təbiətdə xaricdə bir mövcudluqdan başqa mövcudluğa keçid prosesi baş verir.

Mümkünlüyün varlığının canlılığın ən ali, sonuncu mövcudluğunda yenidən mövcudluq tələbində İlahi İradədən ona bilavasitə daxili zəruri şərtlər verilmir, çünki Kosmos əksliklərə görə mövcud olduğundan, zəruri şərtlər cisim və canlılıq əksliyini təşkil edir. Əvəzində ona mövcud varlıqların zəruri şərtləri əsasında özünə mövcudluq əldə etmənin şərtləri verilir, hansı ki, bu şərtlərin məcmusu təfəkkür kimi meydana çıxır. İnsan bədəni ilə şərtlənmiş fərdi ruh mövcud varlıqlar üçün ümumi olan xarici təsadüfi şərtlərlə şərtlənir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruhi mövcudolma daxili təfəkkürün zəruri şərtlərinin məcmusu ilə xarici təsadüfi şərtlərin məcmusunun vəhdətindən ibarətdir.**

Ruhda mövcudluğun daxili zəruri şərtləri olmadığından, mövcudluğun təsadüfi şərtləri ilə vəhdətdən kənar, təklikdə şərtlənir və buna görə də dayanıqlı xarici görüntü təşkil edə bilmir. Yəni obyektlərdə yaradıcı güc onların zəruri şərtləri əsasında xarici görüntünü yaradır. Amma ruhda mövcudluğun daxili zəruri şərtləri olmadığından, yaradıcı güc özündə zəruri şərtlər saxlayan özündənkənar mövcudluqlarda xarici görüntü yaradır ki, biz bunu insan yaradıcılığı kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: İnsan yaradıcılığı ruhun yaradıcı gücünün özündən kənar şeylərdə özünə xarici görüntü yaratmaq cəhdi kimi meydana çıxır.

Başqa sözlə, Ruhun özünəməxsus heç bir zəruri mövcudluq şərti yoxdur. Buna görə, Ruhun mövcud varlığı yoxdur. Ruhun mövcudluğu süni şəkildə, özündənkənar başqa mövcudluqlara ikincili proyeksiya kimi meydana çıxır ki, biz bunu yaradıcılıq kimi qavrayırıq. Buradan da ruhun başlanğıcını Yaradıcı Güc kimi təsəvvür etmək olar, hansı ki, ruhi fəaliyyətin mahiyyətini təşkil edir. Yaradıcı güc - özündə ümumi xarici təsadüfi və başqa mövcudluqların xüsusi zəruri şərtləri əsasında yeni qeyri-təbii zəruri şərtlərin vəhdətini təşkil etmə imkanı kimi meydana çıxır və ən ümumi şəkildə forma və yaradıcılıq kimi təzahür edir.

İnsanı cisimlərdən və digər bütün canlılardan fərqləndirən başlıca xarakteristika da məhz yaradıcılıqdır. Yaradıcılıq iradəvi və məqsədyönlü şəkildə özünün və başqasının formasını iradəvi dəyişdirmək - yeni forma yaratmaq qabiliyyətini özündə təqdim edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

> *Hər bir mövcud varlıq - mahiyyətin özündə hərəkətin saxlanması ilə əmələgələn forma ilə vəhdətindən ibarətdir; ruhi mahiyyət öz fəaliyyəti ilə başqa mövcudluqlarda öz hərəkətliliyini saxlamaqla, onlarda özünə ikincili olaraq, özündənkənar forma yaratmaqla onunla vəhdətdə keçici mövcud varlığa malik olur.*

Biz belə hesab edirik ki, Ruh - Allahın Yaradıcı gücünü - İlahi Bacarığı özündə refleksiya edən, başlanğıc varlığın Yaradan gücün təzahür formasıdır. Yəni Allahın Passiv Gücü cisimlərdə ətaləti, Aktiv güc canlılarda daxili hərəkətliliyi - inkişafı yaratdığı kimi, Yaradıcı Gücü də ruhda refleksiya edərək ətalətlə hərəkətliliyin sürəkli əvəzlənməsi kimi meydana çıxan yaradıcılığı təzahür etdirir.

Haşiyə: Leybnits "Cismin təbiəti və hərəkətverici güc haqqında"

> *"Aktiv güc iki növdür - birincili və törəmə; başqa sözlə və ya substansional və ya aksidensial. Aristotelin birinci entelexiya adlandırdığı, birincili aktiv güc adətən substansiyanın forması adlanır; təbiətin ikinci başlanğıcı, hansı ki, materiya ilə birlikdə, yəni passiv güclə, özündə vəhdəti təqdim edən, bədən substansiyasını təşkil edir, bu entelexiya ya ruhdur, ya da ruha analoji olandır və o həmişə üzvü cismi həmişə fəaliyyətə gətirir; hansı ki, özü-özlüyündə götürüldükdə ruhdan məhrumdur. Törəmə güc - bəzilərinin cəhd (impetus) və ya səy, və ya da demək olar ki, hansısa müəyyən hərəkətə meyl adlandırır, hansı ki, həm də birinci gücü modifikasiya edir."*

Leybnitsdən fərqli olaraq, biz belə hesab edirik ki, Aktiv Gücün növü kimi təsəvvür edilən cismi fəaliyyətə gətirən törəmə güc - Yaradıcı Güc kimi aktiv və passiv güclə paralel müstəqil İlahi başlanğıcdır. Biz bu güclərin paralel müxtəlif başlanğıclar olduğunu həmin güclərin təzahürlərindən də müşahidə edə bilərik:

1. **Cisim mövcudluğu:** Təbiətdə cisimlər sabit şərtlərin məcmusu kimi mövcud olduqlarından, mövcud olmaları öz şərtlərinin sabitliyini, mahiyyətlə formanın vəhdətini - mövcudluq formasını - qorumaqdan ibarətdir. Buradan da cisimlərdə təsir-əks-təsir, müqavimət, daxili həcmin keçirilməzliyi, ətalət və s. kimi qanunauyğunluqlar meydana çıxır.
2. **Canlı mövcudluq:** Canlılar dəyişən zəruri şərtlərin məcmusu kimi mövcud olduğundan, zamanda müxtəlifləşən formalar eyni bir

bədəndə biri-birini sıxışdırıb çıxarır. Nəticədə, eyni bir mahiyyət dəyişən formalarla vəhdətdə canlılığı meydana çıxarır. Məsələn: gənclik uşaqlıq formasını, qocalıq gənclik formasını sıxışdırıb orqanizmdən çıxarır. Amma konkret fərd hər üç formanın keçmiş - aktuallaşmış, indiki - gerçək və gələcək - potensial formanın məcmusu kimi dərk edilir. Zamandan asılı olaraq formaların eyni bir bədəndən biri-birini sıxışdırıb çıxarılması nəticəsində hərəkətin ən müxtəlif formaları, o cümlədən dəyişilmə, böyümə, artma, çoxalma və inkişaf meydana çıxır.

3. **Ruhi mövcudluq:** Ruha İlahi İradədən zəruri şərtlər verilmədiyindən özündə daxili vəhdət təşkil etmir, xalis fəaliyyət kimi yalnız xarici vəhdətə malikdir. Nəticədə forma mahiyyətdən ayrılıqda xaricdə müstəqil şəkildə yaradılır; hansı ki, mahiyyətlə keçici vəhdət təşkil etdiyindən, heçlik kimi mövcud olur. Bununla da, insanın ruhi fəaliyyəti nəticəsində yaratdıqları təbii yaradılanlardan fərqlənir. Yəni insanın yaratdığı forma başqa mövcudluğun formasını sıxışdırmadan, yəni inkar etmədən, onunla müştərək mövcud olur. Biz bunu **proyeksiya** adlandırırıq.

Proyeksiya - bir formanın digər formaya kənar güc tərəfindən köçürülməsidir; başqa sözlə, təbii xarici görüntüyə süni xarici görüntü vermək hərəkətindən ibarətdir. Bu hərəkətin saxlanmasından süni formalar - ruhi formalar meydana çıxır. Bir forma başqa formaya həm də əksetmə ilə keçir. Bəs, proyeksiya əksetmədən necə fərqlənir?

Əksetmə - əks edənlə əks olunanın şərtlərinin məcmusundan ibarətdir, yəni əks olmanın şərtləri bilavasitə əks edənlə əks olunanın özlərindən çıxır. Məsələn: hava güzgüdə əks olunmur, bu o deməkdir ki, havada əks olunma şərtləri yoxdur; və ya nahamar və ya tutqun əşyalar əksetdirmir, yəni bu formalarda əksetmə şərtləri yoxdur. Amma proyeksiya əks olunan və əks edənin şərtlərindən bilavasitə asılı deyil. Əksetmədən fərqli olaraq köçürülmə iradəvi aktiv proses olub, proyeksi-

ya olunan formanın proyeksiya olunduğu formaya köçürülməsi üçün üçüncü kənar bir gücün mövcudluğunu tələb edir. Hər hansı bir şeyin xarici görüntüsünün başqa bir şeyin xarici görüntüsünə proyeksiya etmək üçün mütləq zərurətə görə üçüncü bir şərt - proyeksiya edən güc lazımdır. Buradan görünür ki, iki formanın biri-birinə proyeksiya olunmasının şərtləri onların hər ikisindən kənarda, üçüncü müstəqil mövcud olmadadır. Biz bu şərtlərin məcmusunu müstəqil **Yaradıcı Güc** kimi təyin edirik, hansı ki, xalis ruhi fəaliyyətin gücü kimi təzahür edir.

Proyeksiya üçüncü güc tərəfindən yaradıldığından nə passiv gücün, nə də aktiv gücün qanunlarına tabe olmur. Yəni proyeksiyada təsir-əks-təsir, ətalət, daxili həcmin keçirilməzliyi, dəyişilmə, artma, böyümə, çoxalma, inkişaf və s. müşahidə olunmur. Məsələn, rəsm əsərində təsvir olunanlar üzərində çəkildiyi kətanın xarici görüntüsünü yerindən sıxışdırıb çıxarmır - inkar etmir, eləcə də özündə proyeksiya olunan xarici görüntünü dəyişdirmir, yalnız öz xarici görüntüsü dəyişildikdə özünə proyeksiya olunmuş görüntü də dəyişikliyə məruz qalır. Məsələn, heykəl hazırlandığı qranitin mövcudluq aktını sıxışdırmır, onun daxili həcminə daxil olmadan, süni xarici görüntü kimi onun xarici görüntüsü ilə müştərək mövcud olur və zamanın təsirindən hərəkətlənmir.

Kətan və ya qranit özündə həm özünü, həm də özündəki başqa varlığın xarici görüntüsünü eyni məkanda və eyni zamanda əks etdirir. Bundan sonra, kətana və qranitə olan bütün təsirlər kətan vasitəsi ilə dolayısı ilə əsərə də təsir edir. Bununla, reallıqda konkret və obyektiv olanın - kətanın və ya qranitin, abstrakt və subyektiv olanla - şəkil və ya heykəllə, elə əlaqələnməsi baş verir ki, biz bunu yaradıcılıq adlandırırıq. Yaradıcılıq ruhun ekzistensiyasının xarici obyektlərə keçməsinin təzahürü kimi meydana çıxır.

Əgər passiv güc kütləni və bununla müəyyən olunan ölçülülüyü - məkanda yer tutmağı təqdim edirsə, aktiv güc isə hərəkəti - məkanda yer tutanı yerindən sıxışdırıb çıxarmağı, yəni dəyişilməni, zamanı, özündə

təqdim edirsə, onda yaradıcı güc məkan-zaman vəhdətində abstraksiya olunmuş dəyişilmənin - obrazın, başqasını sıxışdırmadan müştərək yer tutmanı - yəni insan tərəfindən yaradılanları - özündə təqdim edir.

Ruh məhz bu yaradıcılıq gücünü təzahür etdirən, formalaşmamış üçüncülü materiya və ya entelexiya kimi meydana çıxır. Ruhun yaradıcılıq prosesində şeydən onun xarici görüntüsünü abstraksiya edərək, başqa məkan və zaman şərtlərinə konkretlik kimi köçürməsi özünün konkret xarici görüntüsünün olmaması və bədənin xarici görüntüsündən canla müştərək şərtlənməsi ilə bağlıdır; hansı ki, bədənin xarici görüntüsü onun mahiyyətinə görə ikincili və yaddır. Digər varlıqların xarici görüntüsü isə bədəndən keçməklə ruhla ikiqat yadlaşır; yəni hər hansı bir şeyin xarici görüntüsü ruhun əlaqələndiyi bədənin formasına yaddır və bu yadlıq bədənin ruhla yadlığı ilə cəmləşərək ikiqat yadlılıq yaradır. Ruhda xarici görüntünün yadlığı onun ruh tərəfindən itələnməsinə, yəni aksidensiyasına imkan verir, hansı ki, belə itələnmə ilə proyeksiyalaşdırmanın vəhdəti ruhi fəaliyyətin - yaradıcılığın mahiyyətini təşkil edir.

RUHUN İDEYALARI

Elə belə ruhda iki cür ideya saxlanılır. Birincisi, bizim biliklərimizin ideyaları (faktdan doğan ideyalar), ikincisi, ruhun öz xüsusi ideyaları (ağıldan törəyən ideyalar).

Bizim biliklərimizin ideyaları xarici hissi qavrama ilə dərk edilən mövcud varlıqların həqiqətindən ibarətdir, hansı ki, idrak prosesindən aşkarlanır. Ruhun öz xüsusi ideyaları daxili intuitiv qavrama ilə, ruhun özü-özündən düşüncə prosesindən əldə etdiyi ideyalardan ibarətdir. Ruhun ideyalarını Həqiqətin aydınlaşmasının aşkarlanmasından əldə edilən ideyalar kimi də təyin etmək olar. Bu ideyalar mövcud varlıqların ideyalarından ibarətdir və həqiqətin bilavasitə aşkarlanmasından əldə edilən ideyalar - bu ideyalar varlığın mövcudluğunun ideyalarından

ibarətdir. Birinci qrup ideyalar başqalarını dərkdən, ikinci qrup ideyalar özünüdərkdən aşkarlanır.

A. Bizim biliklərimizin ideyaları:

TABULA RASA yoxsa PALIMPSEST?

Bizim biliklərimizin ideyaları ilə bağlı belə bir sual meydana çıxır: Bizim biliklərimizin ideyaları anadangəlmə ağılda saxlanılır, ya yalnız hissi təcrübədən, sonradan qazanılır?

Ruhla bağlı pnevmatologiyanın cavablandırması tələb olunan və fəlsəfədə birmənalı öz həllini tapmamış mühüm suallardan biri Ruhda bizim biliklərimizin ideyalarının anadangəlmə olub-olmaması məsələsidir. Yəni Ruh mövcud varlıqların ideyalarına anadangəlmə malikdir, yoxsa Ruhda başlanğıcdan heç bir ideya yoxdur və Ruhun əldə etdiyi bütün ideyalar hissi təcrübədən qazanılmadır? Əgər bizim biliklərimizin bütün ideyaları hissi təcrübədən qazanılırsa, onda hissi qavranılmayan və təcrübə sahəsində obyektiv reallıq kimi çıxış etməyən ruhun özü haqqında ideyalar necə yaranır?

Fəlsəfədə Ruhun anadangəlmə heç bir ideyaya malik olmaması - **Tabula Rasa**, ruhun anadangəlmə ideyalara malik olması - **Palimpsest** anlayışları ilə ifadə olunur.

Tabula Rasa və Palimpsest anlayışlarını şərh etməmişdən öncə "Ruhun anadangəlmə ideyaları" fikrindəki "Ruh" anlayışının mənasını aydınlaşdırmaq lazımdır. Yəni, biz ruh anlayışı altında konkret olaraq nəyi nəzərdə tuturuq?

Əgər ruh anlayışı hissi təcrübə ilə əlaqəli anlayış kimi qəbul olunsa, onda idrak fərdi proses olduğundan burada Ruh yalnız "fərdi ruh" - hər bir fərdə aid edilən ruh mənasında işlədilə bilər. Fərdi ruh konkret bədənlə şərtlənmiş və buna görə də fiktiv varlığa çevrilmiş formal ruhdur. Yox, əgər biz elə belə hissi təcrübədən kənar ruh haqqında danışırıqsa, onda Formal ruhdan - bədənlə şərtlənməmiş, mümkünlüyün varlığının mövcudluq tələbində meydana çıxan, metafizik qanunlara tabe

olan, varlığın mövcudluğundan danışa bilərik; hansı ki, konkret bədənlə şərtlənmədiyindən obyektiv gerçəkliklərdən hissi qavrayışla aşkarlanan hər hansı bir qazanılma ideyaya malik olması istisna olunur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Formal ruh - heç bir qazanılma ideyaya malik olmayan və özündə yaranışdan (anadangəlmə) total ideyaya malik varlığın mövcudluğudur.**

Formal ruh bədənlə şərtləndikdə fiktiv ruha çevrilir. Beləliklə, fiktiv ruh bir tərəfdən özündə formal ruhun anadangəlmə total ideyasını daşıyır, amma konkret fərdi bədənlə şərtləndiyindən, həmin ideyaları azad şəkildə özündə total formada aşkarlaya bilmir; buna görə də, həmin ideyaların totallığı onun gizlini kimi mövcud olur. Digər tərəfdən, bədənin iştirakı ilə hissi qavramada qazanılma konkret fərdi ideyalar əldə edir, hansı ki, həmin ideyaların məcmusu formal ruhun total ideyasını təşkil etdiyindən, öz gizlinində saxladığı total ideyadan uyğunluq təşkil edən ayrı-ayrı xüsusi ideyalarla eyniyyət təşkil edir. Biz bunu yaddaş kimi anlayırıq. Yaddaş - qazanılma ideyaların anadangəlmə ideyalara uyğunluğundan ibarətdir. Beləliklə, bizim istənilən qazanılma ideyamız eyni anda həm də bizim anadangəlmə ideyamız olur, yəni əslində fiktiv ruhda bir və eyni ideya həm qazanılma, həm də anadangəlmədir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Bizim biliklərimizin ideyaları yaranışdan - anadangəlmə total şəkildə formal ruhda mövcuddur, amma həmin ideyalar fiktiv ruhda hissi qavrama ilə sonradan tədricən hissə-hissə aşkarlanır.**

Yəni, formal ruhun "ideyalarının mövcudluğu ilə onların aşkarlanması" anadangəlmə şərti ilə bağlıdır. Bədənsiz formal ruhun anadangəlmə ideyaları özü-özünə aydınlaşır, amma aşkarlanmır. Beləliklə, aydın olur ki, Tabula Rasa və Palimpsest anlayışları yalnız fiktiv ruha aid edilə bilər.

Ruhun anadangəlmə ideyalara malik olub-olmaması məsələsinə görə mütəfəkkirlər iki böyük qrupa ayrılır. Birinci qrupa **inmativistlər** aiddir.

İnmativistlərə görə ayrıca insan fərdi anadangəlmə və ya qurulmuş əqli mahiyyətlə doğulur, yəni onun bilgi resursu təcrübədən xaric aləmin hissi qavranılmasından doğur. İnmativistlərin banisi Platonu hesab etmək olar. Platon fərdin anadangəlmə ideyaya malik olmasını palimpsest kimi təsəvvür edir. Bu söz "başqa yazılı forma üçün yer eləmək üçün yazılı materialda və ya əlyazmada orijinal yazının pozulması" mənasını verir. Yəni inmativistlərə görə bizim biliklərimizin ideyaları anadangəlmə fərdi zəkada mövcuddur və təcrübədə hissi qavramada bizim anadangəlmə ideyalarımız pozulur, onların yerinə qazanılma - təcrübədən əldə edilmiş ideyalar yazılır. Fərdin anadangəlmə ideyalara malik olması ideyası sonrakı dövrlərdə Dekart və Leybnits tərəfindən inkişaf etdirilmişdir. Leybnits ruhun anadangəlmə ideyaya malik olmasını xalis imkan və ya potensiya kimi şərh edir. Leybnitsə görə elmin zəruri ideyaları potensiya kimi fərdlərdə anadangəlmə mövcuddur və hissi təcrübədə həmin ideyalar aktuallaşma kimi aşkarlanır.

Haşiyə: Pyer Teyyar de Şarden "İnsan fenomeni"

> *"İnstinktiv olaraq fiziklər və naturalistlər başlanğıcda belə fəaliyyət göstərirdilər ki, elə bil onların baxışı yuxarıdan dünyaya düşür, onların şüuru isə onun təsirinə məruz qalmadan və onu dəyişmədən ona nüfuz edir. İndi onlar başa düşməyə başlayıblar ki, hətta onların ən obyektiv müşahidələri belə qəbul edilmiş başlanğıc müddəalarla, həmçinin, elmi tədqiqatların tarixi gedişində hazırlanmış düşüncənin forması və vərdişləri ilə bütünlüklə hopmuşdur. Obyekt və subyekt idrak aktında bir-birinə keçir və qarşılıqlı yenidən əmələ gəlir. İstər-istəməz insan yenə də özü-özünə gəlir və nə ki görür, özü-özünə baxır."*

P. Şardendən gətirdiyimiz sitatdan görünür ki, Şarden bir qədər də uzağa gedərək insanın obyektiv gerçəkliklərdən dərk etdiyi ideyaların elə onun özünəməxsus ideyalardan ibarət olduğunu iddia edir və obyekt-subyekt əlaqəsində idrak prosesində obyekt subyektə təsir edərək onu dəyişdirdiyi kimi, subyekt də obyektə təsir edərək onu dəyişdirir. Obyek-

tin subyekti dəyişdirməsi onun biliklənməsi, subyektin obyekti dəyişməsi onun konkretlikdən mücərrədliyə keçirməsindən ibarətdir. Hissəciklər aləmində isə subyekt hətta müşahidə obyektinin mövcud olmasına təsir edir və onun öz istəyinə uyğun dəyişilməsinə nail olur, yəni öz ideyasını ona verir. Nəticədə, hissəcik subyektin ideyası əsasında mövcud olur. Bu lap başlanğıcda subyekt də daxil olmaqla hər şeyin Allahın ideyası əsasında mövcud olmasının ən aşağı keyfiyyətli refleksiyasından ibarətdir.

İnsanın anadangəlmə ideyalara malik olmasının digər bir sübutu kollektiv şüurla aşkarlanan ideyaların mövcudluğudur. Kollektiv şüur - müxtəlif fərdlərdə, fərdi hissi təcrübədən asılı olmayaraq, eyni vaxtda bir və eyni həqiqəti aşkarlayan şüurdur; hansı ki, hissi qavrama istisna olduğundan, kollektiv şüurla aşkarlanan bütün ideyalar qeyri-hissi obyektin - subyektin özü-özündən aşkarladığı ideyalar olur, hansı ki, anadangəlmə onda mövcud olur, sonradan fərd tərəfindən özündən aşkarlanır.

Haşiyə: Pyer Teyyar de Şarden "İnsan fenomeni"

> *"Özünün mövcudluğunun lap başlanğıcından insan görünüşü özü-özünə təqdim edir. Faktiki olaraq on əsrlərdir özü-özünə baxır. İnsana, sona qədər insanı kəşf etmək üçün, bir sıra tədricən əldə edilən "hisslər" zəruri olmuşdur ki, ruhun mübarizə tarixini doldursun və hissələrə ayırsın".*

Beləliklə, Şardenin şərhindən də göründüyü kimi, bizim biliklərimizin qazanılma ideyaları əslində başlanğıcda total şəkildə formal ruhda mövcuddur; yalnız Formal ruh bədənlə əlaqələnərək fiktiv ruha çevrildikdə bədənin ayrı-ayrı hissləri onun daxili totallığını hissələrə ayırır və bu hissələri özündən kənara çıxaraq ətrafı həmin ideyalar kimi qavrayır. Fiktiv ruhun özündən obyektə çıxardığı ideyalar gizlin, yəni aşkarlanmamış ideyalar olduğundan, subyekt üçün qaranlıqdır, yalnız hissi qavrama prosesində həmin ideyalar ayrı-ayrı obyektiv gerçəkliklərlə

təmasda, onlar tərəfindən işıqlandıqda subyekt həmin ideyaları məhz xarici obyektlərin ideyası kimi qavrayır; əslində isə həmin ideyalar onun öz daxili totallığını təşkil edən və daxili qaranlıqda saxlanan anadangəlmə ideyalardan ibarət olur. Hissi qavrama məhdud olduğundan, ruhun anadangəlmə ideyalarının total şəkildə kənara çıxarılmasına imkan vermir. O ideyalar ki kənara çıxarılıb obyektin təsirindən aşkarlanmır, idrakın müəyyən səviyyəsindən sonra "qazanılma" ideyalarla assosiasiyada onlar tərəfindən işıqlandıqda intuitiv idrak olunur. Başqa sözlə, intuitiv idrak olunan ideyalar hissi yolla qavranmadığından, anadangəlmə mövcud olan və sonradan aşkarlanan ideyalar olur.

Fərdin anadangəlmə ideyalara malik olmamasını iddia edən filosoflara Aristotel başçılıq edir. Aristotel insan ruhunu Tabula Rasa adlandırır və bu ifadə özündə üzərində heç bir yazı yazılmamış təmiz lövhə mənasında işlədilir. Tabula Rasa tərəfdarlarına sensualistlər,empiriklər aiddir.

Sensualizmə görə Tabula Rasa "insan şüurunun vəziyyəti, xarici hissi təcrübənin olmaması nəticəsində hər hansı bir biliyə malik olmaması"nı ifadə edir.

Xüsusən Aristoteldən sonra bu ideya Lokk, Qassendi tərəfindən inkişaf etdirilmişdir. Biz ruhun anadangəlmə prinsiplərə malik olub-olmamasını obrazlı olaraq, "insan ağıllanır, yoxsa ağılla doğulur?" kimi suallandırırıq.

Haşiyə: Con Lokk "İnsanın ağıllanması haqqında təcrübə"

> *"İdeya" sözü nəyi bildirir?. bu termin, mənim baxışıma görə, başqalarından daha yaxşı insan düşüncəsinin obyektlərini bildirir, mən bunu "fantom", "anlayış", "növ" və ya düşüncə zamanı ruhun məşğul ola biləcəyi hər şeyi ifadə edən sözlər altında düşünülənləri bildirmək üçün istifadə edirəm. Mən düşünürəm ki, asanlıqla mənlə razılaşarlar ki, belə ideyalar insan ruhunda vardır. Hər kəs onu özündə dərk edir, başqalarının sözləri və fəaliyyəti isə onun başqalarında da olduğunu sübut edir. Bəziləri*

belə düşünür ki, ağılda hansısa anadangəlmə prinsiplər, hansısa birincili anlayışlar vardır, şüurda işarələr həkk olunub, hansı ki, ruh öz varlığının başlanğıcında alır və özü ilə dünyaya gətirir. Bu müddəanın yalan olmasını inandırmaq üçün göstərmək kifayətdir ki, insanlar müstəsna olaraq öz təbii qabiliyyətlərinin köməyi ilə, anadangəlmə təəssüratların hər hansı iştirakı olmadan, öz bütün bilgilərinə malik ola bilər və ilkin anlayışlar olmadan onların həqiqiliyinə çata bilər. Ümumi razılaşma anadangəlməni təsdiq etmir. "Nə ki var, o vardır" və "mümkün deyil ki bir şey həm olsun, həm olmasın" müddəaları - hamı tərəfindən etiraf edilmir. Bu müddəalar ruhda anadangəlmə həkk olunmayıb, belə ki, onlar uşaqlara, idiotlara və başqalarına məlum deyil. Həqiqətin ağlın açması yalan fikirdir."

Haşiyə: Dekart "Ağlın rəhbərliyi üçün qayda"

"Bizim bütün biliklərimiz ağıllı ruha gəlir; amma ağıllı ruhla təbiətə baxışdan və onun fəaliyyətindən biz onun yaradıcısına keçirik; dünyada olan hər şeyin onun necə yaratdığını anladıqdan sonra biz ən həqiqi olanları görürük. Mən düşünürəm eyni zamanda cisim deyiləm. Mənim "mən"im nəsə qavranılmayan kimi hesab edilməlidir. Yalnız düşüncə məndən ayrılmazdır. O şey ki mən özümdən ayıra bilmərəm bu odur ki, mən - düşünən şeyəm. Bəzi şeyləri təyin etməyi arzuladıqda, biz onların mənasını qaranlıqlaşdırırıq, belə ki onlar özü-özündə kifayət qədər sadə və aydındır. Mən təsdiq edirəm ki, biz onları özümüz özümüzdən yaxşı dərk edə bilmərik. Mənim şübhəm yalnız məndənkənar şeyləri əhatə edir, inam isə mənim şübhəmə, mənim özümə aid olur."

Haşiyə:Q. V. Leybnits "Anadangəlmə anlayışlar haqqında"

"Beylin "Lüğəti" hər tərəfdən (burada biri-birinə əks baxışlara malik filosoflar - Platon və Aristotel, Dekart və Lokk və s. nəzərdə tutulur - S.C.) ən yaxşılarını götürür, sonra indiyə qədər gediləndən uzağa gedir. Mən onda ruhla bədənin əlaqələrinin rasional izahını tapıram. Mən şeylərin həqiqi prinsiplərini substansial vahidlərdə və onların ilkin substansiya ilə müəyyən edilmiş harmoniyasında tapıram. Mən onda təəccüblü sadəlik və vəhdət tapıram, hansı ki, buna görə demək olar ki, hər yerdə və həmişə bir

və eyni şey müxtəlif təkmillik dərəcəsində mövcuddur. Mən başa düşürəm ki, ilkin həqiqətlər və həqiqi aksiomalar necədir, zəruri həqiqətlə faktiki həqiqət, insanların mühakimələri ilə birincilərin kölgəsi olan heyvanların nəticələri arasındakı fərqi anlayıram. Bütün insanların qəbul etdiyi məlum prinsiplər vardır; məhz buna görə onlar, ümumi qəbul edilmiş anlayışlar adlanır, buradan belə nəticə çıxır ki, bu prinsiplər bizim ruhun mövcudluqla birlikdə aldığı təəssüratlara əsaslanır. Zəruri həqiqətlərin mənbəyi olan intellektual ideyalar, heç də hisslərdən əmələ gəlmir, özü-özündə refleksiya edən ruhun refleksiyasına görə mövcud olan ideyalar vardır. Hisslərdən gələn ideyalar ən azından hissəvi olaraq hisslərdən asılıdır. Amma intellektual ideyalar və onlardan asılı olan həqiqətlər aydındır, bu və digəri hisslərdə kök salmır."

Biz burada Tabula Rasa müddəasının tərəfdarı Lokkdan və palimpsest tərəfdarı olan Dekartdan və Q. Leybnitsdən gətirdiyimiz sitatları şərh etməklə tərəflərin mövqelərinə aydınlıq gətirə bilərik.

İlk növbədə əsərlərinin adından göründüyü kimi Lokk insanı "ağıllanan varlıq", Dekart "qaydalara əsaslanan ağla malik varlıq" kimi təsəvvür edir. Yəni, Lokka görə insan ağlında heç bir anadangəlmə ideya yoxdur və ağılda aşkarlanan bütün ideyalar doğulduqdan sonra hissi təcrübədən qazanılmadır. Dekart Lokkun əksinə, belə hesab edir ki, insan ağlı anadangəlmə prinsiplərə malikdir, biz bəzən bəzi şeylərin həqiqətini onları qaranlıqlaşdırma ilə dərk edirik və insanda şübhə - obyektiv gerçəkliklərin həqiqətinə, inam isə yalnız düşünən mənin, yəni ağlın özünün özündən aşkarlamasına aiddir.

Gətirdiyimiz sitatdan göründüyü kimi, Q. Leybnits bu məsələyə daha çox aydınlıq gətirir və ağılda anadangəlmə ideyaların olmasını həm ruhun, həm də bədənin substansiyasının eyni bir başlanğıc substansiyadan əmələ gəlməsi ilə izah edir. Həm ruh, həm bədən, o cümlədən bütün mövcudluqlar bir ilkin substansiyadan əmələ gəlməsinə görə Leybnits belə hesab edir ki, hər yerdə və həmişə bir və eyni şey müxtəlif təkmillik dərəcəsində mövcuddur. Təkmillik dərəcəsinə görə

Leybnits iki cür həqiqət - **zəruri həqiqət** və **faktiki həqiqət** ayırd edir. Zəruri həqiqət - mütləq həqiqət, faktiki həqiqət - entropiyaya məruz qalmış həqiqət kimi təzahür edir. Başqa sözlə, zəruri həqiqət - substansial həqiqət, faktiki həqiqət - hissi qavranılan həqiqətdir. Leybnits belə hesab edir ki, ruh bədənlə əlaqələndiyi ilk andan "mövcudluqla birlikdə aldığı təəssüratlara" əsaslanan ideyalara malikdir, hansı ki, bu ideyalar bir tərəfdən ruha, digər tərəfdən bədənə aiddir. Q. Leybnits anadangəlmə ideyaların mövcud olmasını həm də ideyaların hissi və intellektual bölgüsünə görə təsdiq edir. Belə ki, o qeyd edir ki, hissi yolla alınan ideyalar hissəvi olaraq hisslərdən asılıdır, amma intellektual ideyalar yalnız ağlın özü-özündə refleksiyasından əldə edildiyindən yalnız ağlın özündən asılıdır. Buradan da belə nəticə alınır ki, intellektual ideyalar anadangəlmə ideyalar kimi mövcuddur. Bunu intellektual ideyaların və onlardan asılı olan həqiqətlərin aydın olmasına və hisslərdə kök salmamasına görə iddia edirlər.

Haşiyə: Plotin "Üç ilkin başlanğıc və ya substansiya haqqında"

> *"Vahid Ağılı, Ağıl ruhu yaradır. Bu üç başlanğıc bizə də yad deyil: əksinə hamısı birlikdə bizim təbiətimizə daxil olur və bizim daxili insanı təşkil edir, belə ki, son üç hissüstü prinsipə bizim canlı ruhumuz, ortaya - bizim mühakiməmiz, birinci ən aliyə - bizim seyrçi ağlımız uyğun gəlir. Bizim çox vaxt bu başlanğıcları dərk etməməmiz hələ o demək deyil ki, onlar bizə xas deyil və bizdə fəal deyil."*

Plotinin fikirlərindən görünür ki, fərdin daxili insanı (insanlıq ruhun formal varlığı) özündə bütün mövcudluqların substansiyalarına malikdir. Başqa sözlə, bizim bütün biliklərimizin ideyaları qabaqcadan ruhda mövcuddur.

Pnevmatologiya da ideyaların anadangəlmə olub-olmaması sualına cavab verməlidir. Biz bu sualı aşağıdakı suallar şəklində ifadə edə bilərik: Əgər, ağılda anadangəlmə hər hansı prinsip olmasaydı, insan özü-özündən necə şeydən aşkarlanan daha dəqiq və aydın həqiqəti aşkarlaya

bilərdi? Əgər, ağılda qabaqcadan belə prinsiplər yoxsa, onda müxtəlif fərdlər necə eyni prinsiplərlə düşünür və həqiqəti dərk edir? Eyni bir həqiqətin eyni dəqiqlikdə və aydınlıqda hamıda aşkarlanmasının prinsipləri ağılda yoxsa, ondan xaricdə hissi qavranılan obyektdə mövcuddurmu? Faktiki varlıqla formal varlıq və onlardan aşkarlanan faktiki həqiqətlə formal həqiqət, konkretlə mücərrəd necə biri-birinə əkslik təşkil edir və bu əksliklərin tərəfləri bir yerdə, ya başqa-başqa yerlərdədir?

"Anadangəlmə ideyaların mövcudluğu" ifadəsinin aşağıdakı mənalarını ayırd etmək olar:

1. **Ruhda obyektiv gerçəkliklərin ideyalarının əvvəlcədən hissi təcrübədən qabaq, yəni anadangəlmə olması:** Bu mənaya görə obyektiv gerçəkliklərin ideyası hissi təcrübədən qabaq fərdi ruhda mövcuddur və insan doğulduqdan sonra hissi qavramada obyektiv gerçəkliklərin xarici təsiri ilə həmin ideyalar təfəkkürdə aktuallaşaraq aşkarlanır.
2. **Ruhda obyektiv gerçəkliklərin ideyalarının hissi qavranılması üçün hər hansı bir anadangəlmə əsasın olması:** Ruhda obyektiv gerçəkliklərin ideyası ilə eynilik təşkil edən ideyalar yoxdur, amma fərdi ruhda obyektiv gerçəkliklərin ideyalarının aşkarlanması üçün əsas mövcuddur; hansı ki, məhz həmin əsasa görə biz xarici obyektlərin ideyasını özümüzdə aşkarlayırıq.
3. **Ruhda yalnız onun özünə xas anadangəlmə ideyaların olması:** Bu mənada Ruhda anadangəlmə yalnız özünə aid ideyalar vardır və biz obyektiv gerçəkliklərin ideyalarını obyektlə subyektin əksliyindən - ruhun ideyalarından onların əksliyi kimi gerçəkliklərin ideyalarını aşkarlayırıq.

Əgər ruh anadangəlmə özünəxas ideyaya malik deyilsə, deməli, birincisi, o, əbədi deyil; ikincisi, o ikincili olaraq bədənlə şərtlənmiş təbiətlidir, yəni müstəqil mahiyyət deyil. Əbədi və müstəqil mahiyyətə malik olmaq özündə heçliyin əksliyini təqdim etdiyindən, buradan belə

nəticə çıxır ki, əgər ruh anadangəlmə xüsusi ideyaya malik deyilsə, deməli heçlikdir, yəni mənasızlıqdır.

Biz belə hesab edirik ki, anadangəlmə ideyaların mövcudluğu bu fikrin hər üç mənasının məcmusundan şərh edilməlidir.

Məsələyə aydınlıq gətirmədən, fərdi ruhun elə belə mücərrəd tək formal ruha münasibətinə aydınlıq gətirək. Mümkünlüyün varlığının mövcudluq tələbində İlahi iradədən verilmiş hər bir imkan bir mövcud varlığın yaranmasını şərtləndirir, əvəzində digər bütün mümkün mövcudluqların imkanları onda gizlədilir və ya inkar edilir. Ayrılıqda fikrən götürülmüş tək ruh - Formal Ruh mümkünlüyün varlığının mövcudluq tələbində bilavasitə İlahi iradədən mövcudluq əldə etməmiş varlığın mövcudluğu kimi təzahür edir və buna görə özündə bütün mövcudluqların imkanlarını eyni dərəcədə saxlayır. Başqa sözlə, ayrılıqda götürülmüş tək ruh Kosmosun bütün ideyalarına malik olur. Amma formal ruh konkret insan bədəni ilə şərtlənəndə fərdi ruh kimi çıxış edir və özündə şərti olaraq hissi qavranılan xüsusi biliklərin müəyyən ideyalarına malik olur. Məhz buna görə də, insanlar biri-birindən fərqli qaydada həqiqəti aşkarlamaq qabiliyyətinə malik olurlar. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Bizim biliklərimizin ideyaları qabaqcadan hissəvi olaraq fərdi ruhda, total şəkildə fikrən tək kimi ayrılıqda götürülmüş formal ruhda mövcuddur.**

Əgər ruhda şeylərin ideyaları anadangəlmə yoxdursa və bu ideyalar yalnız hissi təsirlə aşkarlanırsa, onda hər hansı hissi qavrayışı olmayan insanlarda, məsələn korlarda - şeylərin ideyası necə mövcud olur?

Əgər ideyalar yalnız hissi qavranılırsa, onda hissiyyata malik heyvanlar nə üçün şeylərin ideyasını aşkarlamır? Bunun əksinə, əgər şeylərin ideyası anadangəlmə ağılda mövcuddursa, onda təcrübənin zəruriliyi nə ilə bağlıdır, nə üçün insan xarici obyektlərin ideyalarını təcrübədən kənar özü-özündən qavraya bilmir? Əgər şeylərin ideyaları həm şeylərdə, həm

də ağılda anadangəlmə mövcuddursa, onda dərketmə özündə nəyi təqdim edir, başqa sözlə, idrak prosesinin şərtləri nədən ibarətdir?

Biz Q. Leybnitslə razılaşırıq ki, varlıq bir və eyni İlahi Nurdan Allahın istəyi və iradəsinə uyğun yaranıbsa, onda İlahi Nur səviyyəsində həqiqət bir və tam kimi mövcuddur. Sonradan varlıqdan mövcudluğun yaranma prosesində eyni bir həqiqət mümkünlüyün varlığının mövcudluq tələbində İlahi İradədən şərtlər alaraq faktiki həqiqət kimi mövcud varlıqların ideyalarını təşkil edir. Ümumi həqiqət mövcudluq şərtlərinə - zəruri şərtlərin məcmusuna görə xüsusiləşir, mövcud olma şərtlərinə - təsadüfi şərtlərin məcmusuna görə orijinallaşır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Formal Ruhun mövcudluğu olmadığından ruhda yalnız ümumi həqiqətin ideyaları qabaqcadan mövcuddur. Xüsusi və orijinal həqiqətin ideyaları mövcudluqlardan qazanılma ideyalar kimi əldə edilir.**

Mümkünlüyün varlığının mövcudluq tələbində bilavasitə belə şərtlər almayan eyni bir həqiqət isə varlığın mövcudluğunun həqiqətini, yəni özünün başlanğıc tamlığında zəruri həqiqəti təşkil edir. Başqa sözlə, ruhun həqiqəti şərtlənməmiş, mövcudluğun həqiqəti həmin həqiqətin şərtlənməsi kimi mövcud olur. İdrak prosesi - şərti həqiqəti şərtsizləşdirilmə ilə zəruri həqiqətin aşkarlanmasını özündə təqdim edir. Ona görə də demək olar ki, mövcud varlıqda daha bulanıq və qeyri-dəqiq faktiki həqiqət, ruhda aydın və dəqiq zəruri həqiqətin ideyaları mövcuddur. Buradan da, mövcud varlıqdan aydınlaşan həqiqətlə, ruhda mövcud olan həqiqətin fərqlənməsi meydana çıxır, hansı ki, idrak prosesi bu fərqliliyi dəf edərək şeyin faktiki həqiqətinin əsasında duran zəruri həqiqəti ruhda anadangəlmə saxlanan zəruri həqiqətlə eynilik kimi aşkarlayır. İdrak prosesi isə bu iki forma arasındakı fərqin dəf edilmə şərtlərindən - prinsiplərdən ibarətdir. Yəni əslində ruh özündə total həqiqət saxlayır, sadəcə həmin həqiqət hissəvi olaraq hissi təcrübədən, hissəvi olaraq özü-özünü refleksiyadan və hissəvi olaraq hər ikisinin vəhdətindən aşkarlayır.

Əgər şeylərin həqiqəti qabaqcadan ağılda mövcuddursa, onda dərk etmənin zəruriliyi nə ilə bağlıdır, yəni insan nə üçün təcrübədən keçmədən, özündə heç bir ideya aşkarlaya bilmir, başqa sözlə nə üçün hissi qavranılan ideyalar intellektual və qarışıq yolla qavranılan ideyalardan əvvəl, başlanğıc ideyalar kimi aşkarlanır?

Əgər obrazlı olaraq idrak prosesini - ağlın obyektin həqiqətini özündə aşkarlamasını güzgüdə əksetməyə bənzətsək, aydın olar ki, əks olunan olmadan əks edən özündə nəyisə əks etmək imkanına malik deyil. Buradan da, ağıl əgər əks edəndirsə, onda əks olunan olmadan özündə heç nəyi əks edə bilməz. Yəni ağıl xarici obyektlərin ideyalarını onların bilavasitə iştirakı olmadan aşkarlaya bilməz. Ağılda ideyaların aşkarlanması güzgüdə əksetmədə olduğu kimi eyniyyət təşkil etmir. Belə olmasaydı onda istənilən əks edən dərk edən olardı. Deməli ağılda güzgüdən fərqli elə şərtlər vardır ki, həmin şərtlər güzgüdən fərqli olaraq əks olunanın ideyalarının ağılda aşkarlanmasına imkan verir.

Buradan da biz belə hesab edirik ki, bütün mümkün mövcud varlıqların ideyaları - faktiki həqiqətlər və mövcudluq əldə etməmiş mümkünlüyün varlığının digər ideyaları - zəruri həqiqətlər və birinci forma həqiqətin ikinci forma həqiqətə keçməsinə yardımçı olan prinsiplər məcmu şəkildə qabaqcadan insan ağlında - varlığın mövcudluğunda - xaotik və avtonom aydınlaşmayan formada mövcuddur. Yəni, obrazlı ifadə etsək, Ruh qarmaqarışıq, yəni xaotik yazılmış **Yazılı Taxtadır** və ruhda üç cür ideya: xarici obyektlərdə hissi təsirlə aşkarlanan faktiki həqiqətin ideyaları, hissi təsirdən kənarda ruhun özü-özündə refleksiyasından meydana çıxan intellektual ideyalar və zəruri ideyalarla faktiki ideyaları əlaqələndirən, onların vəhdətini təşkil edən ümumi prinsiplərin ideyaları mövcuddur.

Haşiyə: Stanislav Qrof "Şəxsiyyətüstü görünmə"

"Xolotrop vəziyyətin tədqiqatı insanın təbiətinə aid tapmacanı çılpaqlaşdırır. O aydın şəkildə göstərir ki, hansısa gizli və hələ ay-

dınlaşmamış üsulla bizim hər birimiz özümüzdə bütün dünya haqqında və bütün mövcud olanlar haqqında məlumat daşıyırıq və onun bütün hisslərinə çatan yaşantıların mümkünlüyünə malikik."

Amerikan psixoloqu S. Qrof da təsdiq edir ki, "bizim hər birimiz özümüzdə bütün dünya haqqında və bütün mövcud olanlar haqqında məlumat daşıyırıq və onun bütün hisslərinə çatan yaşantıların mümkünlüyünə malikik."

Ruh - mümkünlüyün varlığının mövcudluq tələbi kimi mövcud olur. Mümkünlüyün varlığı tək olduğundan, bütün dünya və bütün mövcud olanlar tək bir mümkünlüyün varlığının mövcudluq tələbindən yarandığından, ruh özündə bütün mövcudluqlar və dünya haqqında məlumat daşımış olur. Başqa sözlə, ruhla bütün dünya və bütün mövcudluqlar bir və eyni həqiqətə malikdir. Başlanğıcda bu həqiqətlər mövcudluqlarda aydınlaşan formada meydana çıxır, hansı ki, sonradan ruhda aşkarlanan həqiqətlərdən ibarət olur.

Haşiyə: Stanislav Qrof "Şəxsiyyətüstü görünmə"

"Şüurun qeyri-adi vəziyyətinin böyük və çox mühüm yarımqrupu üçün müasir psixiatriyada xüsusi ad yoxdur. Amma mən təklif edirəm ki, özünün tamamilə orijinal cizgilərinə görə bu vəziyyət digər bütün qalan vəziyyətlərdən ayrılmağa və xüsusi kateqoriya ilə müəyyən olunmağa layiqdir. Onları təsvir eləməkdən ötrü mən xolotrop adını fikirləşmişəm. Bu mürəkkəb sözdür və hərfi olaraq "tamlığa istiqamətlənmə" və ya "tamlıq istiqamətində hərəkət edən" bildirir. Beləliklə, xolotrop anlayışı şüurun öz gündəlik vəziyyətində biz həqiqətdə olduğumuzun çox kiçik bir fraqmentini eyniləşdiririk. Xolotrop vəziyyət hansısa bütün hissi sferalarda qavrayışın həyəcanlandırıcı dəyişilməsi, hədsiz güclü və çox vaxt qeyri-adi hisslərlə, düşüncə fəaliyyətinin gedişində dərin dəyişikliklərlə bağlı şüurun xüsusi şəkildəyişməsidir. xolotrop vəziyyətin epizodları müxtəlif sürəklilikdə hər hansı müəyyən olunmamış səbəblə və çox vaxt insan iradəsinin ziddinə öz-özünə əmələ gələ bilər."

S. Qrofun şərhindən görünür ki, şüura "tamlığa istiqamətlənmə və ya tamlıq istiqamətində hərəkət" vəziyyəti xasdır. Buradan belə sual meydana çıxır: İnsan şüuru hansı əsasa görə tamlığa istiqamətlənir və ya tamlıq istiqamətində hərəkət edir? Əgər şüurda tamlığa meylin əsası yoxdursa, onda belə istiqamətlənmə nə üçün meydana çıxır?

S. Qrofun şərhindən görünür ki, bu vəziyyət "müxtəlif sürəklilikdə hər hansı müəyyən olunmamış səbəblə və çox vaxt insan iradəsinin ziddinə öz-özünə əmələ gələ bilər". İnsan iradəsinin ziddinə verilənlər yalnız İlahi İradədən verilə bilər, hansı ki, məhz mövcud dünya - həqiqəti bizim biliklərimizdən ibarət olan aləm kimi mövcuddur. Beləliklə, ruhun tamlığa istiqamətlənməsi İlahi iradə tərəfindən verilən şərtlərlə bağlıdır. Başqa sözlə, tamlığın əsası insan ruhunda qabaqcadan mövcuddur.

Biz S. Qrofun xolotrop vəziyyət adlandırdığı psixoloji formalaşmanı fəlsəfi terminlə - preposterior bilgi əsasında formalaşma kimi müəyyənləşdirmişik. Hətta S. Qrof öz yeni psixoloji mühakimələrini doğuşətrafı və doğuş yolundakı yaşantı ilə məhdudlaşdırmış - ruhun bu vəziyyətlərdəki yaşantı əsasında həqiqəti özündə refleksiya etməsi ilə əlaqələndirmişdir. Bizcə, xolotrop vəziyyət məhz döllənmiş hüceyrənin orqanizasiyanın mayalanma anında ona keçən ruhun özündə refleksiya etməsi ilə əldə etdiyi məlumatın sonradan öz-özünə xaotik şüurda canlanması ilə bağlıdır. Buradan həm qeyri-adi psixi hallar, həm də qurulma-orqanizasiya ilə bağlı ən dəqiq və aydın elmi və fəlsəfi bilgilər aşkarlanır.

Hissi qavranılan hər şeyin ideyaları ağılda "anadangəlmə" saxlanılır və həmin ideyalar hissi təcrübədə qavrayış prosesində obyektlərin hissi təsirindən xaotik haldan nizamlı hala keçərək aşkarlanır. Mümkünlüyün mövcudluq tələbinə şərtlərin verilməməsi nahiyəsinin, yəni ruhun öz ideyaları isə yalnız intuitiv olaraq insanın özü-özündən aşkarlanır. Varlığın mövcudluğu əbədi olduğundan, hər bir fərddə əmələ gəlmə anında ona keçən ruhda ideyalar başlanğıcdan vardır; hansı ki, doğulma prosesi ilə həmin ideyalar bu dünyaya gətirilir. Ruhda əbədi saxlanılan

varlığın mövcudluğunun ideyaları Dekartın təsəvvür etdiyi, ağılda saxlanılan prinsiplərdən ibarətdir; hansı ki, məhz həmin prinsiplərə görə obyektlərin xarici hissi təsirindən ruhda əbədi saxlanan mövcud varlıqların müvafiq ideyası aşkarlanır, nizamlanır və bilik əldə edilir. Ona görə də bizim biliklərimizin ideyası eyni zamanda həm xarici hissi təsir edən obyektlərin ideyalarından, həm də ağlın ruha aid ideyalarından ibarət olur. Bunsuz, yalnız xarici şeylərin hissi təsiri ilə yaranan ideyalar sadə əksetmə kimi meydana çıxardı ki, bu zaman onların aşkarlanması mümkün olmazdı. Bütün bunları nəzərə aldıqda **Tabula Rasa** ideyası ilə aşağıdakılara görə razılaşmaq mümkün deyil:

1. **Düşüncənin hamıda eyni əsaslardan və təxminən eyni yaş dövründən başlanması:** Anadangəlmənin əsas xarakteristikası orijinallıqdır. Əgər bütün insanlarda təcrübədən asılı olmayaraq düşüncə ən ümumi qanunlara tabe olursa, onda orijinal olmadığından anadangəlmir. Əgər bütün insanlarda təcrübədən asılı olmayaraq nəsə ruh varsa, bu onu göstərir ki, həmin vəziyyət ruhun palimpsestinə aiddir.
2. **Kollektiv düşüncə:** Əgər müxtəlif insanlar təcrübədən asılı olmayaraq eyni vaxtda eyni bir şeyi düşünürlərsə, bu deməkdir ki, bütün insanların müxtəlif vaxtlarda bir və eyni düşüncəvi əsası vardır.
3. **Ürəyə damma - həqiqətin spontan aşkarlanması:** Əgər təcrübədən asılı olmayaraq ürəyə damma ilə həqiqət aşkarlanırsa, bu ruhun təcrübədən kənar mövcudluğunu, yəni anadangəlmə ideyalara malik olduğunu göstərir.

AĞILDAN TÖRƏYƏN İDEYALAR - FİKTİV RUHUN XÜSUSİ MAHİYYƏTİ

Ruh - mümkünlüyün varlığının mövcudluq tələbində özü-özünə mövcudluq şərtləri əldə etməyə cəhd edən varlığın mövcudluğudur. Beləliklə, ruhun öz ideyaları varlığın mövcudluğunun ideyalarının

mənimsənilməsinə kömək edən öz xüsusi ideyalarından ibarətdir. Obyektiv gerçəkliklər özündə belə ideyalar saxlamadığından dərketmə qabiliyyətlərinə malik deyillər. Biz obyektiv gerçəkliklərin ideyasını faktdan törəyən ideyalar kimi təyin edirik, hansı ki, kosmoloji ideyaları təşkil edirlər. Ruhun, xarici şeylərdən fərqli ideyalarını biz ağıldan törəyən ideyalar kimi təyin edirik, hansı ki, təfəkkürün idrak prosesinin ideyaları kimi mövcuddur.

Varlığın mövcudluğu özündə mövcudluğu olmayan varlığı ifadə edir. Hansı ki, Kosmosu təşkil edən obyektiv gerçəkliklər mövcudluğu olan varlıqlardan ibarətdir. Beləliklə, varlıq sözü özündə həqiqətə malik olmağı ifadə edir. Yəni varlığın mövcudluğu - həqiqətin mövcudluğu mənasını verir, hansı ki, mövcudluğu olmadığından, mövcudluğun varlığından aydınlaşan həqiqətdən fərqli olaraq, bilavasitə ruhun özüözündən daxildə aşkarlanır.

Ruhun xüsusi ideyalara malik olması aşağıdakılara görə təsdiq olunur:

İdrak prosesinin təbiətinə görə: İdrak prosesi istənilən proses kimi başlanğıca, ara gedişata və sona malikdir və prosesin təbiətinə uyğun olaraq ideyalar fərqli başlanğıclardan aşkarlanır. İdrakın sonu mütləq qeyri-müəyyənlik kimi Allah ideyasından ibarətdir. Yəni Allah ideyası idrak prosesinin sonundan - Yaradıcı Gücün özündən; İdrakın gedişi hissi qavranılan maddi şeylərin ardıcıllığına uyğun mövcud varlığın - Kosmosun ideyasından ibarət olur və bu ideyalar hissi qavranılma prosesinin gedişində mövcud varlıqdan aşkarlanır. Bəs onda idrak prosesinin başlanğıcı hansı ideyadan ibarətdir və həmin ideyalar necə aşkarlanır?

Yuxarıda qeyd etdik ki, fikrən təklikdə götürülən düşüncə prosesində - Kosmosun mövcudluğunun istisnası şərtində - başlanğıc "mən düşünürəm" kimi mütləq müəyyənlikdən ibarətdir. "Mən düşünürəm" kənardan dərk edilmədiyindən və yalnız daxili özünüdərk kimi meydana çıxdığından, bəlli bir ideyanın qabaqcadan mövcud olması şərtində

mümkündür. Yəni özünüdərk Ruhda mənin mövcudluğunun anadangəlmə ideyasının dərkindən ibarətdir, hansı ki, başqalarını və başqasını dərkdən fərqli olaraq daxilidir və Dekartın dediyi kimi, yeganə inanılan ideyadır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruhun özünəxas anadangəlmə ideyası "mən düşünürəm" ideyasının şərtlərindən ibarətdir.**

İdrak qanunlarının təbiət qanunlarından fərqlənməsinə görə: Fəlsəfə "varlığın və təfəkkürün idrak prosesinin ən ümumi qanunauyğunluqlarını" öyrənir. Təbiət mövcudluğun, təfəkkür Ruhun mövcudluq əldə etmə şərtlərinin məcmusundan ibarət olduğundan, demək olar ki, təbiətin başa çatmış qanunları təfəkkürdə yaranmaqda olan qanunlara çevrilir; hansı ki, həmin qanunların yaranmasının ideyaları - təfəkkürün idrak prosesinin qanunları özündə ruhun anadangəlmə ideyalarından ibarətdir, çünki idrak prosesinin tabe olduğu qanunlar yalnız bu prosesə aiddir və Kosmosda idrak qabiliyyətinə malik heç bir mövcudluq yoxdur. Buradan da, idrakın prinsipləri ruhun anadangəlmə ideyalarını özündə təqdim edir.

İnsanın bədənlə şərtlənmiş aşkarladığı ideyalar ruhun yox, ruhun özündə refleksiya etdiyi reallıqların ideyasıdır, amma ruhun özü-özündən aşkarladığı ideyalar - özünüdərk ideyaları - məhz ruhun özünəxas anadangəlmə ideyalardır, hansı ki, onların aşkarlanması üçün müəyyən ruhi təcrübə - cəmiyyətdə yaşamaq, başqa insanlarla ünsiyyət, təhsil və digər ruhi qabiliyyətlərin inkişaf etməsi tələb olunur. Ruhun anadangəlmə ideyaya malik olması məsələsinin çətinliyi ruhun həm idrak edən, həm də idrak olunan olması ilə bağlıdır. Belə ki, ruh əvvəl idrak etməyi öyrənir, sonra özünü dərk edir. İdrak prosesi isə özündən başqasını dərk kimi başlayır. Nəticədə, ruhun öz anadangəlmə ideyalarını başqa şeylərdən qazanılma ideyalardan sonra, ikincili və onların əksliyindən idrak olunduğundan, həmin ideyaların anadangəlmə olmasına şübhə yaranır.

Təzahürün zamanla şərtlənməsinə görə: İnsanın bir çox qabiliyyətləri, məsələn, cinsi qabiliyyəti də anadangəlmədir, lakin onun

təzahürü üçün orqanizmin həddi-buluğa çatması zəruridir. Bu o demək deyil ki, cinsi qabiliyyət qazanılmadır. Sadəcə belə qabiliyyətləri zamanla şərtlənmiş anadangəlmə qabiliyyət kimi anlamaq lazımdır. Ruhun anadangəlmə ideyaları da idrak prosesi ilə şərtlənmiş ideyalar kimidir. Ruhun ideyaları başqa varlıqla - bədənlə şərtləndiyindən bədənin mövcudluq üsuluna uyğun aydınlaşır. Ruhun Tabula Rasa olmaması irsiyyətlə də inkar olunur. Belə ki, irsi əlamətlər faktiki canlıdan əvvəl, anadan olmamışdan öncə, valideynlərində zərurətə görə saxlanılır və yalnız təsadüfə görə (mayalanma ilə şərtləndiyindən) onda aydınlaşır.

Təhtəlşüurluluğa görə: Ruhun Tabula Rasa olmaması həm də təhtəlşüurla inkar olunur. Təhtəlşüur düşüncə və idrakdan kənar həqiqətin insan təfəkküründə spontan və avtonom aydınlaşmasından ibarətdir, hansı ki, xalis ağıldan törəyən ideyalar kimi meydana çıxır. Əgər ideyalar ağıldan törəyirsə, onda ağıl ruhun materiyası olduğundan, onda ruhda anadangəlmə ideyalar mövcuddur.

Ruhla bədənin "anadangəlmə mövcud olmamada" eynilik təşkil etməməsinə görə: "Anadangəlmə ideya" ifadəsindəki "anadangəlmə" sözü ruha aid edilə bilməz. Belə ki, Ruha İlahi İradə ilə dəyişən zəruri şərtlər verilməmişdir, yəni ruh bədən kimi bioloji proseslərə daxil olmur, bunun əksinə, bədən dəyişən şərtlərə malik olduğundan başlanğıcını doğulma təşkil edən bioloji proseslərə daxil olur. Buna görə bədən anadangəlmə olur, amma ruh anadangəlmə olmur. Beləliklə, anadangəlməyə görə bədən ruhla eyniyyət təşkil etmir. Yəni ruh anadan gəlmədiyindən və bədənə münasibətdə əbədi olduğundan, bədəndə yarandığından, ruhda qazanılma - Kosmosun ideyaları ilə yanaşı, əbədi ideyalar da mövcuddur; hansı ki, yalnız həmin ideyaların aşkarlanması anadangəlmə ilə şərtlənmişdir.

Ruhun ictimai təbiətinə görə: Ayrıca bir adamda ruhun mövcudluğu yoxdur, yalnız xalis ruhi mövcudolma vardır. İdeyalar mövcudluqda saxlandığından, fərddə ruhi mövcudluq olmadığından, ümumiyyətlə

“fərdi ruh” yoxluqdur. Ruh metafizik qanunlara tabe olduğundan, eyni zamanda müxtəlif yerlərdə və müxtəlif zamanlarda eyni yerdə ola biləcəyindən, və eyni zamanda həm var - mövcud olma kimi, həm yox - mövcudluq kimi olduğundan insan doğulmamışdan “onun ruhu” mövcud olur. Yəni Ruhun özünün anadangəlmədən qabaq ideyaları vardır və onlar anadangəlmə ideyalar kimi doğulduqdan sonra hissi təcrübədə aşkarlanır.

Ruhun anadangəlmə ideya və ya prinsiplərə malik olub-olmamasını dəqiqləşdirmək üçün mövcudluğun varlığı ilə - ağlın düşüncə obyekti olan hər şeylə, varlığın mövcudluğu - düşünülən şeylərin ideyalarını aşkarlayan və özünə yığan subyekt arasındakı münasibəti aşkarlamaq lazım gəlir.

Mövcudluğun varlığı - mümkünlüyün varlığının mövcudluq tələbində İlahi iradədən zəruri şərtlərin verilməsi ilə yaranır. **Varlığın mövcudluğu** eyni mümkünlüyün varlığının mövcudluq tələbində İlahi iradədən zəruri şərtlər verilmədiyindən, əvəzində ona belə şərtlərin qazanılmasının şərtləri verildiyindən, özü-özünə şərt əldə etməklə mövcudluq tələbini təmin etməklə yaranır. Buradan da, mövcudluğun varlığını şərtlənmiş mümkünlüyün varlığı, varlığın mövcudluğunu - şərtlənməmiş, şərtlənməyə özü cəhd edən mümkünlüyün varlığı kimi təyin edə bilərik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Mövcudluğun varlığı ilə varlığın mövcudluğu mümkünlüyün varlığına görə eyniyyət, amma zəruri şərtlənməyə görə fərqlilik təşkil edir.** Yəni, ağlın obyektiv gerçəkliklərdən aşkarladığı ideyalar şərtlənməmiş şəkildə onun özündə anadangəlmə mövcuddur.

İdeyalar yalnız mümkünlüyün varlığından aşkarlandığından, hissi təcrübədə obyektiv gerçəkliklərdən aşkarlanan qazanılma ideyalar, hissi təcrübədən kənar varlığın mövcudluğunda anadangəlmə mövcud olan ideyalarla eynidir. Amma mövcudluğa malik olmasına görə, obyektiv gerçəkliklərin ideyası ruhun anadangəlmə ideyasına görə daha qaran-

lıqdır, yəni qeyri-dəqiqdir. Mövcudluq əldə etdiyinə görə, eyni bir ideya gerçəklikdən bilavasitə aydınlaşır, amma ruh mövcudluq əldə etmədiyindən, həmin ideyaları gerçəkliyin mövcudluğundan dolayısı ilə aşkarlayır. Buna görə də ruhun anadangəlmə ideyalara malik olmaması fikri yaranır. Biz obyektiv gerçəkliklərdən ruhun öz əbədi ideyalarını dolayı yolla aşkarlamasını fotoqrafik neqativlə izah edə bilərik. Belə ki, obrazlı olaraq Ruhu anadangəlmə ideyaya malik, amma hissi təcrübədən kənar, özü-özündə ideya aşkarlamayan vəziyyətini **neqativə**, ideyası ruhda refleksiya edən Obyektiv gerçəkliyi isə fotosu alınacaq **obyektə**, İdrak prosesini isə neqativin aşkarlanmasına bənzədə bilərik; hansı ki, obyektin şəklini işığın təsiri ilə işığa həssas neqativə köçürərək ondan aşkarlayır. Fotoqrafik neqativ formanın köçürülməsi ilə bağlıdır və neqativdə hər hansı konkret forma yox, istənilən formanın şərtlərinin məcmusu kimi işığa həssas maddə saxlanılır. Amma ruhda ideyanın aşkarlanmasında hər bir xaricdə aydınlaşan ideyaya uyğun ruhda anadangəlmə ideya neqativ şəkildə mövcud olur; hansı ki, aşkarlanma prosesində hər bir xarici ideya özünəxas ideya ilə üst-üstə düşəndə dərk edilən olur. Həqiqətin nisbiliyi özündə mövcudluğun varlığından aydınlaşan həqiqətlə varlığın mövcudluğunda saxlanan həqiqətin - ideyaların üst-üstə düşməməsini özündə ifadə edir; hansı ki, mövcudluğa görə heç bir vaxt heç bir halda üst-üstə düşə bilməz. Buna görə də, obyektiv gerçəkliklərin ideyası yalnız xalis zəkada dəqiqləşdirilə bilir.

Bəs, metafizika təcrübədən kənar bilgini - ruhun xüsusi ideyalarını haradan və necə əldə edir? Yuxarıda qeyd etdik ki, faktdan törəyən ideyalar - dərketmədən, ağıldan törəyən ideyalar - düşüncədən əldə edilir. Metafizik mühakimənin başlanmasını nə stimullaşdırır, yəni insan niyə düşünməyə başlayır?

Bu suallara cavab verməmişdən bir suala - "düşüncə nədir?" sualına cavab vermək lazım gəlir. Bu suala cavab vermək üçün ümumiyyətlə fəlsəfi fikrin başlanma səbəbləri və qaydalarına diqqət etmək lazımdır.

Həqiqət yalnız şüurlu insan tərəfindən dərk olunduğundan və şüurluluq insanın daxili keyfiyyəti olduğundan, demək olar ki, idrak prosesinin başlanğıcı idrak edənin özündədir, daxildədir - subyektdədir.

Haşiyə: Dekart: "Fəlsəfənin ilkin başlanğıcı" - mən fikirləşirəm müddəası mən mövcudam deməkdir.

Dekartın "Düşünürəm, demək mövcudam" müddəasını bir qədər geniş şərh edək. "Mövcudam" ifadəsi özündə insanın fiziki yoxsa, mənəvi mövcudluğunu özündə ifadə edir? Yəni, mövcudam sözü mövcudluğun varlığındakı mövcudluğu və ya varlığın mövcudluğundakı mövcudluğu ifadə edir? Mövcudluğun varlığı faktın aktuallaşması, varlığın mövcudluğu aktın faktuallaşmasından meydana çıxır. Yəni mövcud varlıqda fəaliyyət formadan və maddilikdən meydana çıxır, varlığın mövcudluğunda fəaliyyət formanı və maddiliyi yaradır. Buradan da, düşünmə prosesinin nəticəsində ideyalar yarandığından, "mən düşünürəm" yalnız varlığın mövcudluğuna aid ola bilər.

Biz Dekartın fikrini əksinə - "mövcudamsa demək düşünürəm" kimi ifadə edə bilərikmi? Əgər, "mövcudamsa demək düşünürəm" müddəasını qəbul etsək, onda bu müddəa insanın fiziki mövcudluğuna aid olacaq və insanın fiziki mövcudluğuna uyğun, bütün mövcudluqların "düşüncəyə" malik olmasını qəbul etməliyik. Halbuki, mövcudluqlar içərisində yalnız bioloji növ kimi insan, onun da yalnız təkamül prosesinin müəyyən mərhələsində meydana çıxan *homo sapiens* (şüurlu insan) növü düşünə bilir. Buna görə də, "mövcudamsa demək düşünürəm" müddəası yanlışdır. Digər tərəfdən, insanın fiziki bədəni mövcudluqdur və mövcud olması üçün düşünməsi zəruri deyil, yəni düşüncə insan bədəninin mövcudluğunun predikatı deyil.

Onda bəs, "düşünürəm demək mövcudam" müddəasındakı "düşünürəm" nəyin predikabiliyası kimi çıxış edir? Bizə görə, "düşünürəm demək mövcudam" müddəası insanın fiziki mövcudluğuna yox, onun bədənə münasibətdə ikincili təzahür edən, bilavasitə mövcud

olmayan, bədənin mövcudluq üsulundan fərqli və yalnız düşüncə ilə aşkarlanan tərəfinə - Ruh adlandırdığımız mövcud olmasına aiddir. Beləliklə, "düşünürəm demək mövcudam" fikri özündə Ruhun mövcud olmasını ifadə edir.

İnsan necə - fasiləli ya fasiləsiz, zəruri ya təsadüfi, ümumi ya xüsusi düşünür? İnsan fasiləli düşünürsə, deməli onun düşünən mövcudluğu sürəkli deyil. Sürəklilik keyfiyyətinə malik olmadığından o başqaları ilə əbədi vəhdətdə deyil. Bu o deməkdir ki, o zaman-zaman yoxluqdur. Amma o mövcuddursa varlıq olmalıdır, yəni insanın düşüncəsi sürəkli, fasiləsiz prosesdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **İnsan - Ruhi mövcud olma kimi düşünür və düşündükcə ruhi mövcudluq olur.**

RUHUN TƏBİƏTİ - İCTİMAİLİK

Ruhun mənası, başqa sözlə özünəxas ideyaları vardırmı? Yəni ruh xüsusi varlıq formasıdır, yoxsa mövcudluğun varlığının xüsusi funksiyalarının məcmusundan ibarətdir? Bu suallar pnevmatologiyanın əsas suallarından olub, onların cavabları ruhun təbiətinə aydınlıq gətirmək üçün vacibdir.

Haşiyə: Corc Berkli: "Görmənin yeni nəzəriyyəsinin təcrübəsi"

> *"Mənim məqsədim - görmə vasitəsi ilə məsafəni, ölçünü və obyektlərin vəziyyətini necə qavramağımızı göstərmək, həmçinin görmə ideyası ilə hissiyyatı arasındakı fərqin nədən ibarət olmasına və hər ikisi üçün ümumi olan hansısa bir ideyanın olmasına baxmaqdır. məsafə özü-özlüyündə bilavasitə görünən ola bilməz. Mən belə hesab edirəm ki, obyektlərin kifayət qədər uzaq məsafəsinə bizim verdiyimiz qiymət hissiyyatdan çox təcrübəyə əsaslanmış, daha çox mühakimə aktıdır. aydındır ki, ruh hansısa ideyanı bilavasitə və özü-özündən qavramadıqda, onda bu hansısa başqa ideyanın vasitəsi ilə baş verir. bundan daha üstün, aydındır ki, özü-özündə qavranılmayan heç bir ideya başqa hansısa ideyanın qavranılması üçün vasitə ola bilməz."*

C. Berklinin fikirlərindən görünür ki, insan sadəcə hər şeyi özündə passiv şəkildə əks edən güzgü kimi deyil, əksinə insan özü idrak prosesində aktiv tərəfdir və o yalnız hissiyyatla xarici predmeti dərk etmir, dərketmədə həm də öz ideyası ilə iştirak edir, hansı ki, özü-özünə bilavasitə qavranılır. Belə ideyalar qeyri-hissi, qeyri-maddi olanların ideyasıdır, hansı ki, qeyri-hissi, qeyri-maddi olduqlarından yalnız metafizikaya aid ola bilərlər.

Hissi qavramada görmə ilə hissiyyatın fərqinin aşkarlanmasında iştirak edən, özü-özündə bilavasitə qavranılan, üçüncü ideyanı ruha aid etmək lazım gəlir. Əgər ruh özü-özünə qavranan ideyaya malikdirsə, onda başlanğıcdan yaranma anından belə ideyalara malik olmalıdır. Sadəcə belə ideyalar hissi qavramada meydana çıxan ideyaların aşkarlanması ilə şərtlənmiş meydana çıxdığından, hissi qavramadan əvvəl onların mövcudluğu aydınlaşmadığından, ruhun anadangəlmə ideyalara malik olmasını təsdiq etmək mümkün olmur.

Ruh yalnız Kosmosla yox, həm də metafizika ilə şərtləndiyindən, bu şərtlərin məcmusunu biz anadangəlmə ideyalar kimi təyin edirik.

Bəs özündənkənar şeyin təbiəti nədən ibarətdir? Həqiqətin başlanğıc aydınlaşma vasitəsi dalğa olduğundan, insan şüuruna gerçəkliyin başqa təbiəti bəlli olmadığından, ruhun başlıca xarakteristikasını da dalğa təbiətli kimi təyin edə bilərik.

Fizika elmində dalğa aşağıdakı kimi təyin olunur: sahədə və ya maddədə bu maddənin və ya sahənin vəziyyətinin qasırğasının yayılması dalğa adlandırılır. Beləliklə, yaranma dalğanın - vəziyyətin (mahiyyətin) qasırğasının - hərəkət enerjisinin, dalğanın uzunluğunun - ifrat qısalması ilə tangensial enerjiyə keçərək hissəcik (forma) yaratması ilə, ifrat sakitləşməsi - ətalət əldə etməsi kimi baş verir. Burada “vəziyyət” anlayışına aydınlıq gətirmək lazım gəlir.

Haşiyə: Benedikt Spinoza: “Ağlın təkmilləşməsi haqqında”

"Varlığın vəziyyəti kimi məlum atributları başa düşmək lazımdır, hansı ki, onların altında biz istənilən varlığın ondan yalnız nəzər nöqtəsi ilə fərqlənən, mahiyyətini və ya mövcudolmasını düşünürük."

Bəs Spinozanın "Nəzər nöqtəsi ilə fərqlənmə" ifadəsi özündə nəyi təqdim edir? Bizcə "nəzər nöqtəsi ilə fərqlənmə" xarici görünüşün reallığını - nöqtənin olmasını özündə əks etdirir. Yəni hər bir forma nəzər nöqtəsi kimi təzahür etdiyindən, onun xarici görünüşü var, hansı ki, biz bunu reallıq kimi dəyərləndiririk. Amma mahiyyət nöqtə kimi təzahür etmədiyindən, xarici görünüşü yoxdur, yəni qeyri-reallıqdır. Bəs onda reallıqla qeyri-reallıq necə vəhdətdə təzahür edir və eyni qaydada paralel olaraq idrakda dərk olunur? Burada ruhun qeyri-reallığı əslində abstrakt reallığı özündə ifadə edir. Yəni, mahiyyət təfəkkürdə abstrakt görünüşün nöqtəsi kimi təzahür edir. Ona görə də, hər hansı bir varlıq konkret formadan və abstrakt mahiyyətdən paralel eyni bir nöqteyi-nəzərdən idrak olunur.

Göründüyü kimi vəziyyət dedikdə Spinoza varlığın aktuallaşmasını və bu aktuallaşmadan onda aydınlaşan həqiqətin idrak olunmasını nəzərdə tutur. Beləliklə, vəziyyət həqiqətin təzahür məqamını özündə ifadə edir. Buradan da, belə nəticəyə gəlmək olur ki, dalğa - mahiyyətin təzahür məqamını, onun qasırğasını və ya ifrat hərəkətliliyinin təzahürüdür. Təbiətdə aşkarlanan istənilən dalğa - səs, işıq, elektrik, maqnit və s. varlıqla şərtləndiyindən, istənilən varlıq ən pis - nisbi həqiqətə malik olduğundan, həmin dalğalar dalğa mahiyyətini nisbi şəkildə özündə təqdim edir. Bundan fərqli olaraq, mütləq dalğalar mövcud varlığa qədərki vəziyyətdə meydana çıxır, hansı ki, mütləq həqiqəti - vəziyyətin ifrat hərəkətliliyini - özündə təqdim edir. Bu cür dalğalar mövcud varlıqdan kənar olduğundan, ona xas xarakteristikalardan məhrumdur; yəni, belə dalğalar hiss üzvlərinə təsir etməyən və buna görə də qavranılmayan və təsəvvür edilməyən, həqiqətin aydınlaşma formasıdır. Belə

dalğaları ideya kimi də adlandırmaq olar, hansı ki, bu keyfiyyətlər bilavasitə ruhun təbiəti üçün xarakterikdir.

Dalğanın əsas keyfiyyətlərindən biri yayılmaya meyl etməkdir. Təbiətdə dalğaların yayılması təsir edilən obyektin formasından - aqreqat halından və dalğanın gücündən asılıdır. Birinci halda dalğaların yayılması təsir edilənin sərhədlərində başa çatır, məsələn, bərk maddələrdə elastiki dalğalar kimi; ikinci halda yayılma obyektin sərhədlərində keçərək ətrafa yayılır. Məsələn, bərk mühitdə zəif qasırğaların səs dalğaları yaratması kimi. Hər iki halda onlarda dalğaların yayılması xarici təsirlə obyektin mahiyyətinin hərəkətləndirilməsinə səbəb olan başqa obyektin təsiri ilə bağlıdır. Beləliklə, təcrübədə aşkarlanan kiçik amplitudalı dalğalar özündəşeydən kənara çıxma xarakteristikasına malik olur. Yəni xarici təsirin obyektdə yaratdığı dalğa obyektin sərhədlərindən kənara çıxaraq yayılmaqda davam edir. Məsələn, İşıq, radioaktiv dalğalar və s. Hissəcikönü vəziyyətdə, yəni Özündəşey olmadan özündənçıxma keyfiyyəti daşıyan varlıq "özündənkənarşeyi" meydana çıxarır. Başqa sözlə, mütləq həqiqətin özü-özündə dalğalanması ondakı dalğaların özündən kənara yayılmasını stimullaşdırır. Ruhun mövcudluq üsulu da məhz buna uyğundur.

Yəni ruhu təbiət özündənkənarşey kimi təsəvvür ediləndir. "Özündəşey"dən çıxan dalğalar, başqa "özündəşey" sərhədində ya onların daxilinə keçərək onlar tərəfindən udulur, ya entropiyaya məruz qalmaqla onlardan keçərək yayılmaqda davam edir, ya da onların sərhədlərindən geri qayıdır. Ruhi dalğalar bundan fərqli olaraq başqa analoji dalğalarla qarışaraq yeni amplitudalı dalğaya çevrilir və yayılmaqda davam edir ki, biz buna **empatiya** adlandırırıq. Empatiya biri-birinin daxilinə keçmə və biri-biri ilə qarışıb yeni eyni mahiyyətdə təzahür etməyi özündə ifadə edir. Buradan da özündənkənarlılığın başlıca xarakteristikalarından biri - daxili həcmin keçiriciliyi hesabına empatiyanı göstərə bilərik. Özündənkənarşey özü ilə məsafədə təzahür kimi meydana çıxır, hansı ki,

özündəşeyin təzahürü özü ilə məsafəsiz təzahür edir. Buradan da məsafə özündənkənarlılığın xarakteristikasına çevrilir.

Beləliklə, ruhun digər bir xarakteristikası başqa ruhla məsafədən ibarətdir. Başqa ruhla məsafədə təzahür ruhun özündənkənarşey kimi xarakteristikasını təşkil edir. Dalğanın müstəqil təzahüründən fərqli olaraq, ruhlu insanda ruh bədənlə şərtlənmiş dalğa kimi meydana çıxır. Bədənlə şərtlənmə də bədən dalğanın başlanğıcı - mənbəyi rolunu oynayır. Bunu günəşdən işığın şüalanmasına bənzətmək olar. İşıq şüaları günəşdən çıxır, yəni onların başlanğıcı günəşdə olur, amma sonsuzluğa yayılır, yəni sonu konkret hər hansı bir obyektdə olmur. Biz bunu başlanğıcı olan, sonu olmayan təzahür kimi təyin edirik. Başlanğıcı olub, sonu olmamaq keçid xarakteristika kimi - metafizikadan fizikaya keçid kimi - təyin olunmalıdır. Ruh da bədənlə işıqla günəşin əlaqəsinə oxşar əlaqədədir. Yəni ruhun başlanğıcı bədən, sonu yoxdur. Bədən dalğanın hazırlanması, yayılması və başqa bədəndən gələn dalğanın qəbuledicisi rolunda çıxış edir.

Əgər ruh təbiətin tədqiq üsul və vasitələri ilə aşkarlanmırsa, onda ruhun mahiyyətini necə təyin etmək olar?

Haşiyə: Leybnits: "Ateistlərə qarşı təbiətin şahidliyi"

> *"İnsan ruhu bəzi fəaliyyətləri düşüncədə olan varlıqdır. Əgər hər hansı şeyin bəzi fəaliyyətləri düşüncədirsə, onda bu varlığın bəzi fəaliyyəti hissələri təqdim olunmadan bilavasitə dərk edilən şeydir. Əgər hər hansı bir mövcudluğun bəzi fəaliyyəti, hissələr ilə təqdim olunmadan bilavasitə dərk olunan şeydirsə, onda onun bəzi fəaliyyəti hissəsi olmayan şeydir. Əgər hər hansı bir predmetin bəzi fəaliyyəti hissəsi olmayan şeydirsə, onda bu predmetin bəzi fəaliyyəti hərəkət deyil. Əgər bəzi predmetin bəzi fəaliyyəti hərəkət deyilsə, onda bu predmet cisim deyildir. nə ki hərəkət qabiliyyətinə malik deyil, o parçalanması mümkün deyil. bütün parçalanmayanlar əbədidir. beləliklə insan ruhu ölməzdir."*

Leybnitsin ruh haqqında fikirlərindən görünür ki, o Ruhu hissəsi olmayan, hissədə təzahür etməyən, hərəkəti olmayan, parçalanmayan, cismi olmayan, əbədi mövcudluq kimi təsəvvür edir. Buradan da, hissəsi olmadığından və hissədə təzahür etmədiyindən Ruhu mütləq tam - vahid bir mövcudluq kimi təyin edə bilərik. Əgər Ruhun cismi yoxdursa (həqiqətən onun öz cismi yoxdur, əgər olsaydı təbiətin tədqiq üsulları ilə tədqiq olunardı), onda ruh özündəki həqiqəti hansı vəziyyətdə şüalandırır?

Biz əvvəlki fəsildə yaranış haqqında şərhimizdə göstərmişdik ki, həqiqətin aydınlaşması üç vəziyyətdə aktuallaşır, hansı ki, bu vəziyyətləri təbiət kimi də adlandıra bilərik: Dalğa təbiəti, hissəcik təbiəti və materiya təbiəti.

Varlıq formaları özlərində aydınlaşdırdıqları təbiətlərə uyğun biri-birindən fərqlənir və eyni zamanda biri-biri ilə vəhdətdə mütləq həqiqəti aşkarlayır. Yəni cisimlər material təbiətli, canlılar həmin birincili materiyada hissəcik təbiətinin vəhdət təşkil etməsi ilə, ruh isə cisim və canla dalğa təbiətinin vəhdət təşkil etməsi ilə aktuallaşır. İlahi həqiqəti öz nuru ilə şüalandırır. İlahi nur başlanğıcda dalğa təbiətli olduğundan bütün yaradılanların ən ümumi əsasının dalğa təbiətindən ibarət olduğunu demək olar.

Fəlsəfə və tibb doktoru S. Norman Şili yazır ki, kvant fizikası həyatın əsasında intuitivistlərin hiss etdiyi vibrasiya modelinin durduğunu təsdiq etmişdir. Vibrasiya - dalğa təbiətinin təzahürüdür. Hansı ki, mümkünlüyün varlığının forması kimi meydana çıxır.

Mümkünlüyün varlığının birincili mövcudluqlarda mövcudluq tələbinə İlahi İradədən verilən dəyişən zəruri şərtlər əsasında ikincili mövcudluqların yaranması mövcud insan varlığının yaranması ilə başa çatır. Yəni insan orqanizmi mümkünlüyün varlığına İlahi İradədən verilən dəyişən zəruri şərtlərin sonuncu imkanı kimi meydana çıxır. İnsan bədəni bioloji orqanizasiyanın sonuncu ali forması kimi meydana

çıxdığından, ən təkmil forma ilə ən pis mahiyyətin vəhdəti kimi mövcud olur. Məhz mahiyyətin yoxsulluğuna görə, mümkünlüyün varlığı, İlahi İradədən aldığı dəyişən zəruri şərtlər əsasında özünə mövcudluq əldə etmə imkanlarını tam tükəndirdiyindən, yenidən mövcudluq tələb etməyə başlayır. Lakin İlahi İradədən ona bilavasitə şərtlər verilmir. Çünki Kosmos əksliklərin vəhdətində mövcud olduğundan, biri-biri ilə əkslik təşkil edən yalnız iki cür - sabit və dəyişən zəruri şərtlərdə mövcud varlıq mümkün olur. Sabit zəruri şərtlərin mümkünlüyün varlığına verilməsi ilə cisimlər, dəyişən zəruri şərtlərin verilməsi ilə canlılar meydana çıxır. Bu vəziyyətdə insan orqanizmində mümkünlüyün varlığının mövcudluq tələbi sürəklilik vəziyyətində meydana çıxır. Bu vəziyyət xalis metafizik fəaliyyət kimi təzahür edir. Biz xalis metafizik fəaliyyəti mövcudluqsuz mövcud olma və ya varlığın mövcudluğu kimi təyin edirik; hansı ki, mövcud varlıqlarda əvvəl mövcudluq, sonra mövcud olma meydana çıxır, bunun əksinə ruhda əvvəl mövcud olma meydana çıxır, sonra ruh mövcudluq əldə etməyə cəhd edir. Buradan Pnevmatologiyanın aşağıdakı ideyası aşkarlanır: **Xalis fəaliyyət kimi Ruh - özü-özünə, birincili mövcudluqlarla ikincili mövcudluqların zəruri şərtləri əsasında mövcudluq təmin etməklə mövcud varlığa çevrilmə cəhdində olan varlığın mövcudluğudur.**

Ruhun özü-özünə zəruri mövcudluq şərtləri əldə etmə cəhdini biz insan iradəsi kimi qavrayırıq.

Haşiyə: Kerolayn Miss "Ruhun anatomiyası"

> *"Varlıq kitabı Adəmin bədənini "Allaha oxşar və onun şəklində" yaradıldığını təsvir edir. Bu o deməkdir ki, insan İlahi gücün energetik dublikatıdır. güclə seçimi idarə etməyi öyrənmək - Bizə İlahi çağırışdır, yer üzərində yerinə yetirməli olduğumuz Müqəddəs sazişdir. O, o zaman dərhal qüvvəyə minir ki, biz fikirlərimizi və baxışlarımızı təyin etməyə başlayırıq. insanın məqsədi - öz ruhi idealı ilə ayrılmamaqdır."*

Əslində təkcə Varlıq kitabı yox, digər müqəddəs kitablar da Ruhun Allahla rabitəsinin mövcudluqlardan fərqli olduğunu və Ruhun özündə bilavasitə yaradanın bəzi sifətlərini emanativ formada özündə refleksiya etdiyini izhar edirlər. M. Kerolaynın fikirlərindən də görünür ki, insan - Ruh - öz idealı ilə vəhdətdə mövcud olur. Beləliklə deyə bilərik ki, ruh bir tərəfdən metafizik aləmlə, digər tərəfdən Kosmosla vəhdətdədir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Biri-biri ilə əkslik təşkil edən iki aləmlə vəhdət təşkil etdiyinə görə Ruh bir aləmdən - təbiətdən, başqa bir aləmə - metafizikaya keçid edən varlıqdır.**

Halbuki, Kosmosda mövcudluqlar yalnız biri-biri ilə vəhdət təşkil etdiyindən Kosmosun sərhədlərində bir mövcudluqdan başqa bir mövcudluğa keçid etməklə mövcud olurlar və mövcudluqların metafizikaya keçidi mümkünsüzlükdür. Ruhun Yaradanla vəhdəti - daxili vəhdət - xalis zəkanın yaratdığı vəhdət kimi təzahür edir, hansı ki, mənəviyyatın şərtlərinin məcmusu kimi mövcud olur. Əgər ruhun vəhdət təşkil etdiyi ideal Kosmosdan kənardadırsa, onda Ruh Kosmosda təzahür etsə də yalnız metafizik qanunlara tabe olmaqla öz idealı ilə vəhdət təşkil edə bilər. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruh metafizik qanunlara tabe olmaqla özünə mövcudluq şərtləri əldə edərək tədricən təbiət qanunlarına uyğun mövcud olmağa cəhd edir.**

Ruhun öz iradəsi ilə mənimsəməyə cəhd etdiyi zəruri şərtlər ikincili emanativ zəruri şərtlər kimi meydana çıxır; hansı ki, Yaradan tərəfindən birincili olaraq yaranış anında mövcudluqlara verilir. Emanasiyaya görə ruhi fəaliyyət nəticəsində aşkarlanan istənilən şərt heç də Ruhi mövcudluq şərtləri kimi çıxış etmir və belə şərtlər Ruhun mövcudluq əldə etməsinə mane olur. Beləliklə, obyektiv gerçəkliklərə mövcudluq şərtləri bilavasitə İlahi İradədən verilir, ruh isə mövcudluq şərtlərini özü-özünə - İnsan iradəsi ilə təmin etməyə cəhd edir. Buna görə birinci mütləq kamillikdə verildiyindən təkmilləşməyə məruz qalmır, ikinci birincili ilə müqayisədə nisbi kamillikdə verildiyindən sürəkli təkmilləşməyə məruz

qalır. Bu, tərəqqi prosesi kimi təzahür edir. İnsanın İradəvi fəaliyyəti Ruhun birincili və ikincili mövcudluqlarının şərtlərini aşkarlamaqdan və onlar əsasında özünə mövcudluq yaratmaqdan ibarətdir.

İnsan iradəsinə tabe olan fəaliyyətlərin məcmusunu biz Ruhun fəaliyyəti kimi təyin edirik. Buradan pnevmatologiyanın aşağıdakı ideyası aşkarlanır:

Ruh - mövcudluğu olmayan insan bədəninin mövcudluğunda xalis mövcud olmadan, yəni fəaliyyətdən ibarətdir; İlahi İradədən mümkünlüyün varlığı kimi mövcudluq tələbinə uyğun şərtlər almadan mövcud olduğundan, öz metafizik təbiətini saxlayır və buna görə də kosmik qanunlara yox, metafizik qanunlara tabe olur.

Kosmik qanunlara isə yalnız ruhun mövcudluğa cəhdində özündənkənar özünün iradəvi yaratdığı süni mövcudluq - yaradıcılıq məhsulları - tabe olur. Hansı ki, L. Qumilyov bunu "ruhun ölü kristalları" adlandırmışdır. Biz belə kristalları ruhun faktiki varlığı kimi təyin edirik.

Ruha yaranışda İlahi İradədən ayrıca mövcudluq şərtləri verilmədiyindən, sabit və dəyişən zəruri şərtlərin təşkil etdiyi varlıq təyini - özü-üçün varlıq təyini, yəni forması və mövcud varlıq təyini, yəni reallığı yoxdur. Mümkünlüyün varlığı kimi yalnız xalis varlıq təyininə malikdir. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır:

Ruh - reallığı olmayan mümkünlükdür və buna görə də yalnız xalis varlıq təyinində ideya kimi dərk edilən varlığın mövcudluğu kimi çıxış edir.

Tək xalis varlıq təyini mövcud varlığa çoxluq kimi keçir. Yəni Kosmosda eyni mahiyyətli tək şeyin mövcudluğu istisnadır. Hər bir şey sonsuz sayda çoxluq kimi mövcuddur. Ruhun mövcudluğu olmadığından, o obyektiv gerçəkliklərin xarici çoxluğunu özündə daxili potensial çoxluq kimi saxlayır. Hansı ki, biz bunu ruhun ictimailiyi kimi qavrayırıq. İctimailik - daxili çoxluqdan ibarətdir, hansı ki, obyektiv gerçəkliklər bunun əksinə daxili təkliyə, xarici çoxluğa malik olur.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruhun varlığı - mövcudluğun varlığının əksinə, daxili çoxluğa, xarici təkliyə malik varlığın mövcudluğunun şərtlərinin məcmusundan ibarətdir.**

Daxili çoxluğun - ictimailiyin - bir çox səbəbləri vardır:

1. Ruh özündə sürəkli müxtəlif fərqlilikləri itələmə vəziyyətində olduğundan, ruh özündən itələnən fərqliliklərin məcmusundan dərk edilə bilər. Obyektiv gerçəkliklər yalnız bir sabit fərqliliyə malikdirlər və özlərində bir fərqlilik itələdiklərindən ayrılıqda götürülən tək kimi mövcud olurlar. Amma ruh sürəkli olaraq özündən müxtəlif fərqliliklər itələdiyindən, ruhun mümkünlüyü, mahiyyəti çoxsaylı fərqliliklərin məcmusu ilə vəhdətdə, yəni özündə çoxluq kimi mövcud olur, hansı ki, bunu ruhun ictimailiyi kimi qavrayırıq.
2. Təbiətdə eyni bir mahiyyət sonsuz sayda ayrı-ayrı müxtəlif formalarla vəhdət təşkil edərək xarici çoxluq kimi mövcud olur. Yəni obyektiv varlıqlarda çoxluq xarici, ruhda daxilidir. Daxili çoxluq metafizikanın üçüncü qanununun təbiətdə təzahürü kimi meydana çıxır, hansı ki, bu qanuna görə "eyni vaxtda eyni yerdə müxtəlif varlıq ola bilər, yəni bir və eyni şey eyni vaxtda həm var, həm yox olur". Hansı ki, təbiətdə, Dekartın qeyd etdiyi kimi "bir və eyni şeyin eyni vaxtda həm var, həm yox olması ağlasığmazdır". Ruh metafizik təbiətli olduğu üçün, o eyni bədəndə həm var, həm yox olur. Ruhun varlığı onun xalis fəaliyyətindən - mövcud olmasından, yoxluğu - mövcudluğunun olmamasından aşkarlanır. Yəni ruh mövcud olma kimi eyni bir bədəndə var, eyni zamanda mövcudluq kimi həmin bədəndə yoxdur. Ruhun varlığı ataraksiya kimi, ruhun yoxluğu yuxululuq və ya şüursuzluq kimi təzahür edir. Buradan da pnevmatologiyanın belə bir ideyası aşkarlanır: **İctimailik - eyni bir ruhi mahiyyətin sonsuz sayda əvəzlənən formalarla vəhdət təşkil etməsindən - daxili çoxluqdan ibarətdir.**

Haşiyə: Kerolayn Miss "Ruhun anatomiyası"

"Energetik təbabətlə məşğul olan həkimlər inanırlar ki, insan energetik sahəsi hər bir ayrıca fərdin enerjisini özündə əks etdirir. O bizi əhatə edir və bizim daxili və xarici yaşantılarımızın - həm mənfi, həm müsbət emosional enerjinin daşıyıcısıdır, bu emosional güc bizim bədənin fiziki toxumasına təsir edir; bununla da bizim tərcümeyi-hal - yəni bizim həyat təcrübəmizi təşkil edən - bizim biologiyamız olur. Bizim ruhumuz, bizim enerjimiz və bizim şəxsi gücümüz bir və eyni təbiətlidir."

Kerolaynın fikirlərindən görünür ki, bütün insanların vahid energetik sahəsi vardır və bu sahə hər bir fərdin enerjisini özündə əks etdirir. Bu enerji insanı hər tərəfdən əhatə edir, onun xarici və daxili yaşantılarının enerjisi kimi çıxış edir. Həmin enerji insanın fiziki mövcudluğuna təsir edir. Bəs insanın energetik sahəsi nədən meydana çıxır? Təcrübədən məlumdur ki, heyvanlarda belə energetik sahə yoxdur. Buradan aydın olur ki, energetik sahə insanı heyvanlardan fərqləndirən təbiətdən meydana çıxır. Biz bu fərqliliyi ruhi təbiət kimi qavrayırıq. Deməli insanı xaricdən əhatə edən, onun fərdi enerjisini özündə əks etdirən, insanın yaşantılarını özündə daşıyan energetik sahə ruhun bilavasitə iştirakı ilə bədəndən azad olan ikili təbiətli - ruhi və bioloji enerjidən ibarətdir; hansı ki, bioloji enerji ilə intellektual enerjinin vəhdətindən emosional enerji meydana çıxır. Ümumi insanlığın emosional enerjisindən cəmiyyət qurulur, hansı ki, ruhun quruluşu kimi təzahür edir. Fərd isə cəmiyyət həyatında iştirak etməklə, situasiyadan asılı olaraq bir daxili ruhi vəziyyətdən başqasına keçir. Daxili çoxluğa görə insanın şəxsi, sosial, milli, yaradıcı kimliyi və s. meydana çıxır, hansı ki, bu kimliklərin xarici çoxluğa açılması cəmiyyət kimi təzahür edir.

1. Ruhun mövcudluğu - faktı - xaricdə, başqa mövcudluqlarda, mövcud olması - aktı - daxildə, ayrıca bir şəxsdə olduğundan, ruh obyektiv gerçəkliyin əksliyi kimi meydana çıxır. Buna görə də obyektiv gerçəkliklərin mahiyyətlə - faktla formanın - aktın daxili vəhdəti, özünün əksliyi kimi ruhda xarici vəhdət kimi təzahür edir. Hansı ki, obyektiv

varlıqlarda faktla akt daxili vəhdət təşkil edərək bilavasitəlik xarakteristikası kimi meydana çıxır. Buradan da, obrazlı olaraq ruhu "astar üzə çevrilmiş obyekt" kimi təsəvvür etmək olar. Burada astar - daxili görüntü, üz - xarici görüntünü ifadə etdiyindən ruhun xarici görüntüsü - Mən, hansı ki insanın daxilindədir, daxili görüntüsünü - Mənin fəaliyyəti kimi təyin etmək olar, hansı ki insan bədənindən xaricdədir. Ruhun ekzistensiya nəticəsində əldə edilmiş bilgi əsasında obyektin daxili görüntüsü - onun qurulmasının və təşkil olunmasının qaydaları, ruhun xarici görüntüsünə - cəmiyyətin və şüurlu fəaliyyətin təşkil olunma qaydalarına keçir. Buradan da pnevmatologiyanın belə bir ideyası aşkarlanır: Cəmiyyət - ruhun xarici görüntüsü kimi özündə Kosmosun daxili görüntüsündən ibarətdir, hansı ki, ruh ekzistensiya etməklə dünyanın daxili görüntüsünü dərk etməklə yaradır.

"Mən"in daxili zəruri şərtləri olmadığından, o, yalnız bədənlə - xarici şeylə təsadüfi şərtləndiyindən, ruhun təklikdə təzahürü mümkünsüzlükdür. Yəni, ayrılıqda götürülmüş tək bir insanda ruh təzahür etmir. Ruhun təzahür etməsi üçün "Mən"in daxili təsadüfi şərtləri ilə xarici zəruri şərtlər vəhdət təşkil etməlidir. Xarici zəruri şərt kimi başqa Mən çıxış edir; hansı ki, obyektlərin daxili qurulmasına uyğun xarici qurulma ilə ruhu yaradırlar. Buradan da, Mən özünə münasibətdə təsadüfi şərtlərin, başqasına münasibətdə zəruri şərtlərin məcmusudur, hansı ki, obyektiv varlıqdan fərqli olaraq, özündə onların vəhdətini təşkil etmir. Buradan da, Ruhi mövcudluq fərddən kənarda fərdlərarasında aktuallaşır. Hansı ki, biz ruhun mövcudluğun qurulma qaydalarını ictimai münasibətlər kimi qavrayırıq. İctimai münasibətlər - ruhi mövcudluğun - ruhun zəruri xarici şərtlərinin məcmusundan ibarətdir. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır: **İctimai münasibətlərdən kənarda insan ruhi mövcudluq kimi təzahür etmir.**

Burada, cəmiyyət - məkan, zəruri şərtlərin; Mən - zaman, təsadüfi şərtlərin məcmusunu özündə təqdim edir, hansı ki, Mən cəmiyyətə görə

keçici təsadüfi şərtlərin məcmusudur. Bu əlaqədən, nəsə insan, yəni ruhlu insan, cəmiyyətlə Mənin şərtlənməsinin məcmusundan meydana çıxır. Burada cəmiyyət Mənin təzahür etdiyi məkanı, Mən isə həmin məkanda təzahür vaxtını özündə təqdim edir. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır: **Faktiki insan özündə ruhun təsadüfi şərtlərini təqdim etdiyindən, faktiki insanın ölümü ruhun zəruri şərtləri qaldığından, ruhun mövcud olmasına təsir etmir, yəni ruh ölümsüzdür.**

Ruhi mövcudluq xarici olduğundan, Mən yalnız başqaları ilə birlikdə - ictimai münasibətlərdə təzahür edir. Mənin öz mövcudluğu olmadığından, öz xüsusi forması da yoxdur, buna görə də başlanğıc ekzistensiya ilə bədənin formasından, dolayısı ilə təzahür etdiyindən, mahiyyəti formasına yad və ayrılan olur. Buna görə də, ruh bədənlə eyni zaman ölçüləri ilə şərtlənmir, fərqli zaman asılılığı məkan-zaman vəhdətinə uyğun olaraq fərqli məkan ölçülüyünü şərtləndirir. Buna görə də, məkan ölçülüyü fərqli olduğundan, Ruh ayrıca bir bədəndən təzahür etmir, fərdlərarası münasibətdən - hamının eyni vaxtda və bir yerdə mövcud olmamasından natamam, yarımçıq təzahür edir. Forması olmadığından obyektivlik keyfiyyətindən məhrumdur, yəni subyektivdir; ayrıca bir varlıq forması kimi, müəyyən sərhədlərdən təyin olunmadığından və hissi təfəkkürlə aşkarlanmadığından, konkret yox, abstraktdır. Fərdlər ruhun xarici çoxluğunu təşkil edir. Yəni eyni bir Vahid İnsanlıq Ruhu - formal ruh çoxluq kimi müxtəlif fərdlərdə mövcud olur. Bədənlər müxtəlif olduğundan, müxtəlifliklə şərtlənmiş eynilikdən fərdi Ruh meydana çıxır. Obyektlərdə eynilik - daxili, fərqlilik - xarici; ruhda fərqlilik - daxili, eynilik xaricidir. Buna görə də, ruh özündəşey kimi yalnız xaricdən konkret fərddən kənardan aşkarlana bilər. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır: **Ayrıca bir fərddən bilavasitə ruhun aşkarlanması mümkünsüzlükdür.**

Bəs ruh hansı xarakteristikalara malikdir?

Haşiyə: Q. Rikkert: "Həyatın fəlsəfəsi" - Həyatın əsas mahiyyəti eynicinsli funksiyanın özü-özünə üstünlük təşkil etməsidir.

Q. Rikkertin fikirlərini başqa formada belə ifadə etmək olar ki, həyat - onun konkret təzahür forması kimi nəsil, eyni bir xətlə biri-biri ilə daxilən əlaqələnmiş formaların - konkret təzahür forması kimi fərdlərin - biri-birinə üstünlük təşkil etməsi ilə təzahür edir. Cisimlərin forması yeganə üstün bir forma kimi çıxış edir və formanın əvəzlənməsi mahiyyətin dəyişilməsinə səbəb olur, ona görə də cisimlərin forması təkrarlanmaqla aktuallaşır. Canlılarda isə təkamül hesabına formanın təkmilləşməsi ilə bir forma özündən əvvəlkindən təkmilliyinə görə üstünlük təşkil edərək inkişaf edir. Başqa sözlə, cisimlərdə forma mahiyyətlə birlikdə inkişaf edir, canlılarda forma mahiyyətsiz inkişaf edir. Nəticədə, eyni bir mahiyyət özünün çoxsaylı formalarında təzahür edir ki, bunun nəticəsində forma özünün konkret əhəmiyyətini və aksidensivliyini itirir, hansı ki, cisim dünyasında forma mahiyyətə görə prioritet təşkil edir və varlıqda ifadə olunan həqiqət daha çox varlığın formasından dolayı, daha az onun mahiyyətindən bilavasitə şüalanır. Buna görə də, cisimlərdə forma mahiyyətə bərabər əhəmiyyətlilik kəsb edir və eyni bir mahiyyət yalnız eyni bir formada təzahür edir. Canlılarda forma ilə mahiyyətin əhəmiyyətlilik dərəcəsi qradasiyaya məruz qalır. Yəni mahiyyət prioritet təşkil edir, forma isə ikinci dərəcəli əhəmiyyətə malik olur. Buna görə də canlılarda eyni bir mahiyyət (irsiyyət) müxtəlif formalarda (individlər kimi) meydana çıxır. Formanın əhəmiyyətinin nisbiləşməsi və nəhayətdə itməsi ilə formasızlıq xarakteristikası yaranır. Formasız təzahürün mümkünlüyü ruhi mümkünlük kimi meydana çıxır.

Haşiyə: Jülyen Ofre de La Mettri "İnsan-maşın"

> *"Nə Aristotel, nə Platon, nə Dekart, nə də Malbranş sizə izah etmir ki, sizin ruhunuz nədir. insanın və heyvanın ruhunun mahiyyəti materiyanın və cismin mahiyyəti kimi naməlumdur və həmişə naməlum qalacaqdır. Bundan əlavə bədəndən abstraksiyanın*

köməyi ilə azad olmuş ruh, heç bir forması olmayan materiya qədər özünü təqdim etməkdən məhrumdur."

La Mettrinin "formasız təzahürün mümkün olmaması" fikri nə dərəcədə həqiqətə uyğundur?

La Mettrinin dövründə insanlarda materiyaönü vəziyyətlər haqqında, xüsusən dalğa və hissəcik təbiəti haqqında heç bir elmi və təcrübi məlumat yox idi. Bu gün hissəcik fizikası - kvant fizikası müstəqil bir elm sahəsi kimi mövcuddur və ehtimal nəzəriyyəsi qəbul edilən nəzəriyyələr sırasındadır, hansı ki, formasız təzahürün mümkünlüyünü sübut edirlər. Düzdür, formasız təzahür materiyaönü vəziyyət üçün xarakterikdir və ruh da əslində elə bu vəziyyətdə təzahür edən mümkünlükdür. Beləliklə, ruhun təsəvvür olunmazlığı formasızlığında özünü təqdim etmək imkanının olmaması ilə bağlıdır, hansı ki, istənilən formasız materiya da buna görə idrak edilmir. Digər tərəfdən, formanın əhəmiyyətinin itməsinə paralel formaların biri-birindən qeyri-xətti və xarici əlaqələr üzrə üstünlük təşkil etmə keyfiyyəti meydana çıxır. Qeyri-xətti xarici əlaqələr özündənkənarlılığın başlıca xarakteristikalarından biri kimi meydana çıxır. Buradan da, ruhu həqiqətin xüsusi aydınlaşma vasitəsi olan, amma özündəşeydən kənarda müstəqil təzahür etməyən (əslində ruh müstəqil təzahür edir, amma özü-özü ilə eyniyyət təşkil etmədiyindən özü-özünü özündən aşkarlaya bilmir) mümkünlük kimi qəbul edə bilərik. Beləliklə, müstəqil təzahür edən ruhda həqiqətin aydınlaşması aşkarlanmır və buna görə də, belə bir vasitə "yoxdur". Burada, yoxluq həqiqətin aydınlaşma keyfiyyətinin yox, aşkarlanma keyfiyyətinin inkarı kimi meydana çıxır. Ruhun özündənkənarlılıq xarakteristikası iki halla bağlıdır:

1. Xaotik yarandığından özünün mövcud varlıq təyini olmayan ruh özündənkənar əlaqələrdən həmin təyinləri əldə edir, nəticədə həm özünün, həm də real varlığın xalis-varlıq təyininə malik müştərək xalis varlığa çevrilir və ruhlu insan meydana çıxır.

2. Ruhun özü-üçün-varlıq təyini olmadığından, real varlığın özü-üçün varlıq təyinini özünküləşdirir. Beləliklə, ruhun forması özündənkənar forma kimi meydana çıxır. Nəticədə, fərdi "Mən" yaranır. Fərdi Mən ruhun konkret bədənin formasından təzahürü kimi meydana çıxır.
   Haşiyə: J.O. La Mettri "İnsan-maşın"

> *"Ruh əhəmiyyətli dərəcədə bədən orqanlarından asılıdır, onlarla birlikdə əmələ gəlir, inkişaf edir və qocalır."*

Biz La Mettrinin bu fikirləri ilə də razı deyilik. Özündəşeydən kənarda təzahür etmədiyindən, amma ondan fərqli xarakteristikalara malik olduğundan və yalnız başqasının iştirakı ilə mahiyyət əldə etdiyindən biz ruhu özündəşeyin əksliyi kimi "özündənkənarşey" kimi xarakterizə edirik. Bu əksliyə görə, ruh bədən orqanlarının mövcudluq üsuluna əks mövcudluq üsulla mövcud olur, buna görə də, bədənin doğulması, inkişaf etməsi və qocalmasına əks olaraq ruh doğulmur, tədricən formalaşır; inkişaf etmir, özündə nizamlanır; qocalmır, çünki əbədidir. Qocalıq dəyişən şərtlərin nəticəsində meydana çıxır. İnsan ruhuna İlahi iradədən təsadüfi şərtlər verildiyindən onun özünəməxsus heç bir dəyişən və sabit zəruri şərti yoxdur. İnsan qocaldıqca ruh qocalmış bədənə ekzistensiya edərək ondan fərqli münasibətdə olur, hansı ki, bu da guya ruhun qocalması kimi qavranılır. Beləliklə, ruhlu mövcud insan özündə ilahi vəhdəti refleksiya edən ən son reallıqdır. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır: **Yaranışın sonu - Allahdan uzaqlaşma - özü-üçün varlıq təyinindən, Allaha yenidən qayıdış xalis varlıq təyinindən aşkarlanır.** Ruh yenidən İlahi vəhdəti özündə yaratmaqla ona qovuşmağa cəhd edir ki, bu da şüurlu insanın yer həyatının yeganə məqsədi kimi meydana çıxır.

RUHUN DƏRKEDİLMƏZLİYİ

Ruhun əsas problemi ruhun dərkedilməzliyindən ibarətdir. Ruhi mövcudluğun mümkünsüzlüyü haqqında fikirlər də məhz ruhun

dərkedilməzliyi ilə bağlıdır. Ruhun dərkedilməzliyinin aşağıdakı səbəbləri vardır:

İdrak prosesi obyektiv gerçəkliyi alət və vasitələrin köməyi ilə onların mövcud varlıq təyinindən birbaşa və ya dolayısı ilə aşkarlayır. Ruh obyektiv gerçəklik olmadığından, onun yalnız xalis mövcudluq təyini olduğundan, onu heç bir alət və vasitə ilə aşkarlamaq olmaz.

Ruhun şərtsiz aktuallaşa bilməməsi: Ruhun yalnız xalis varlıq təyini olduğundan, bədən və xarici vasitələrin formasından dolayısı ilə aşkarlandığından, idrak prosesində müstəqim aşkarlamaq olmur. Başqa sözlə, real varlıqlara xas mövcud varlıq və özündəşey varlıq təyini olmadığından, ruh təcrübədən idrak edilə bilməz.

Ruhun energetik quruluşu: Birincili materiyanın bütün sıralarında radial enerji ilə tangensial enerji biri-birinə çevrilmədən, vəhdətdə təzahür edir və onların vəhdətindən cisimlər dərk edilir. Cisimlər yalnız o zaman təfəkkür prosesinə daxil olur ki, tangensial enerji ilə - kimyəvi xassələrlə, radial enerji - fiziki xassələr birlikdə təzahür etsin. İkincili materiyada radial enerji tangensial enerjiyə və əksinə zaman asılılığına görə çevrilir. Bu çevrilmə müəyyən sərhədlərdə baş verir və bu sərhədlərdən kənarda birincili materiyaya kimi təzahür edir. Beləliklə canlılar inkişaf, dəyişilmə və təkamülə görə idrak edilir. Ruhun tangensial enerjisi radial enerjidən ayrılıqda yalnız materiyaönü vəziyyətdə mövcud olur. Bu vəziyyətdə onda aydınlaşan həqiqət vasitəsiz aydınlaşdığından ruh təzahür etmir və bu vəziyyətində şüur ona münasibətdə olmur. Radial enerjisi ayrılıqda vasitədən kənar material sferada azad şəkildə təzahür etdikdə sahə enerjisi kimi meydana çıxır. Şüur sahə enerjisi ilə bilavasitə münasibətə girmir, yalnız dolayı yollarla onu vasitəli aşkarlayır. Beləliklə ruhun tangensial və radial enerjisi eyni vaxtda, eyni vəziyyətdə və vəhdətdə təzahür etmədiyindən idrak prosesində aşkarlanmır.

Ruhun tangensial enerjisi ilə radial enerjisi sürəkli və qarşılıqlı çevrilmə vəziyyətindədir. Buna görə də, ruh tangensial enerjisi forması alanda, radial enerjisi təzahür etmir, yəni konkret xassə göstərmir, ona görə də "ruhun strukturunu" şüur fiksə edə bilmir. Radial enerji kimi təzahür edəndə "Şüurun şeyi" olmur, yenə də şüur ona münasibətdə olmur. Ruhun quruluşu onun obyektiv gerçəkliklərlə eyni sırada və eyni qaydada idrak olunmasını istisna edir. Biz həqiqəti iki yolla: ya həqiqətin aydınlaşdırdığı vasitələrdə - obyektlərdə, xaricdə, ya da həqiqətin özünü aydınlaşdırdığı təfəkkürdə - subyektlərdə, daxildə aydınlaşdırırıq. Ruh özündənkənar şey olduğundan onu özündən - tangensial enerjisindən aşkarlamaq mümkün deyil. Ruh yalnız özündənkənar təzahürlərdə aşkarlanır ki, bu zaman da onun tangensial enerji formasında olmadığından "nəsnə"si olmur.

Buradan, Ruhi faktın öz aktı ilə qarşılıqlı inkarı meydana çıxır. Halbuki, dərk olunan varlığın bütün sıralarını təşkil edən gerçəkliklərdə mövcudluq faktı ilə aktı eyni bir formada, bir yerdə təzahür edir. Ruhun faktı ayrı-ayrı formalarda - fərdlərdə, aktı isə bütün insanların məkan və zaman birliyində onlararasında münasibətlərin enerjisi kimi təzahür edir. Buna görə də ayrıca bir şəxsdə ruh yalnız tangensial formada - materiyaönü vəziyyətdə olduğundan, aşkarlana bilmir. İctimai münasibətlərin enerjisi - ruhun radial enerjisi tangensial enerji ilə vəhdətdə olmadığından aşkarlanmır.

Ruhun ikili təbiətli olması: Ruh həqiqətə münasibətdə ikili təbiətlidir. Bir tərəfdən o digər gerçəkliklər kimi həqiqəti özündə aydınlaşdırır, digər tərəfdən özündə və başqa varlıqlarda aydınlaşan həqiqəti özündə refleksiya edərək aşkarlayır. Belə ikililiyə görə ruh həqiqətin aydınlaşmasını aşkarlayarkən özündə keçici olaraq həqiqəti aydınlaşdırmır, buna görə də, gerçəklik kimi çıxış etmir; həqiqəti özündə aydınlaşdırarkən, aşkarlanma yalnız ona məxsus olduğundan aşkarlanmır.

Hissi təcrübədən dərkedilməzliyi: İdrak prosesi real gerçəklikləri hissi təcrübədən dərk edir. Ruh hissi təcrübə sahəsinə daxil olmur, yəni hiss üzvlərinə təsir edərək duyğu yaratmır, duyğu yaratmadığından qavranılmır, buna görə də ruh obrazlaşdırma prosesindən kənarda qalır. Qavranılmadığına görə onun haqqında təsəvvürlər yaranmır, ruh haqqında təsəvvürlər olmadığından, onun haqqında mühakimə aparmaq olmur.

Ruhun təbiəti: Ruh ictimai təbiətlidir. Yəni bütün insanlardan təzahür edir. "Bütün insanlar" məkan və zaman sərhədlərinə paylandığından və idrak yalnız eyni məkan və zaman şərtində olan gerçəkliyi aşkarladığından, zaman-məkan əlaqəsində olmayan gerçəklikdə - insanlıqda ruhu aşkarlaya bilmir.

Ruhun forması ilə onun hərəkətinin ziddiyyəti: Hər bir forma hərəkətlə vəhdətdədir. Lakin ruhun forması olmadığından onun hərəkəti belə bir vəhdət təşkil etmir. Məhz formadan şərtlənməyən hərəkət tarixiliyi yaradır. Ruhun radial enerjisinin aşkarlanmaması ruhun tarixiliyinin təzahürüdür. Ruhun radial enerjisi insan birliyində təzahür edir. İnsanlar keçmişdə, indidə və gələcəkdə yaşamalarına görə biri-birindən fərqli birlik təşkil edir. Biz keçmiş insan birliklərini tam təsəvvür edə bilmədiyimizdən keçmiş ruhi radial enerjini mütləq şəkildə idrak edə bilmirik. Gələcəklə bağlı məsələ daha mürəkkəbdir. Genetika elmi insanın fərdiliyini müəyyən edən genlərin ehtimali sayının 70 milyard olduğunu və buna görə də hər hansı bir fərdin olduğu kimi yalnız 70 milyarda bir təkrarlana biləcəyini iddia edir. Radial enerji müxtəlif fərdlər arasında təzahür etdiyindən, onu yalnız 70 milyard müxtəlif insanın birliyindən aşkarlaya bilərik. Beləliklə insanların fərqlilikləri təxminən 70 milyard həddindədir. Bu 70 milyard insan kütləsi tarix boyu hissə-hissə həyata gəlir. Bu günədək həyata gəlmiş insanların sayı bundan xeyli azdır. Digər tərəfdən, dünyaya gəlmiş insanlar özlərinin tam həyatlarını yaşaya bilmir. İnsanların müxtəlif ömürlü olması da radial enerjinin mütləq təzahürünə imkan vermir.

Ruhun daxili həcminin keçirici olması: Birincili və ikincili materiyanın əsas qanunu daxili həcmin pozulmazlığıdır, yəni heç bir gerçəklik həqiqətin aydınlaşdığı daxili substansial sahəyə başqa varlığın nüfuz etməsinə imkan vermir. Buradan dayanıqlılıq yaranır. Ruh isə bütün gerçəkliklərin daxilinə nüfuz etmək qabiliyyətinə malikdir. Şüurun materiyaya münasibəti gerçəkliyin sabit həcminə nüfuz edib onun substansiyasının qanunlarını aşkarlamağı ilə yaranır. Bu prosesdə həm gerçəklik, həm də dərk edən şüur əvvəlki vəziyyətlərini saxlayırlar və şüur belə hərəkəti ilə əldə edilən fərq əsasında idrak baş verir. Fərdi ruhun fərdi ruhu idrak etməsi bundan fərqlənir. Bir fərdi ruh digərinin daxili həcminə keçir - empatiya olunur - bu zaman yeni ortaq həcm yaranır. Nəticədə, hər iki ruh əvvəlki vəziyyətlərindən fərqli vəziyyətə keçirlər. Bununla da müqayisə imkanı yaranmır və ruh idrak olunmur. Biz bunu yan-yana eyni sürətlə hərəkət edən qatarların pəncərəsindən biri-birinə baxan sərnişinlərin təəssüratına oxşada bilərik. Həmin sərnişinlər biri-birinə baxdıqda hər birində hərəkət etmədikləri təəssüratı yaranır, yəni hərəkət dərk olunmur. Əksinə, digər pəncərədən nisbi sakit vəziyyətdə olan cisimlərə baxanda hərəkətdə olduqlarını dərk edirlər. Biz də ruhu yalnız onun xarici təzahürləri - nisbi sakit vəziyyətdəki təzahürləri - faktiki varlığı ilə dərk edə bilərik.

Ruhun hərəkətliliyi: İdrakın təbiəti ruhun gerçəkliyi aşkarlamağa imkan vermir. Başqa sözlə idrak ruhu aşkarlamaq potensialında deyil. İdrak obyektin subyektə təsirinə təfəkkürün varlığa münasibətindən ibarətdir. Obyekt yalnız sabit halda təfəkkürə təsir edə bilir, yəni obyektin "ruhu" passivdir, dəyişməzdir və buna görə müəyyənləşmişdir. Təfəkkür idrak prosesində öz nizamını obyektin passiv ruhuna uyğun dəyişdirməklə özü-özündə iki vəziyyəti - idrakdan əvvəlki və sonrakı vəziyyətlərini tutuşduraraq fərqi anlayır, yəni onu dərk edir. Ruhun başqasında dərk edilməsi mümkünsüzdür. Çünki başqasında olan ruhun radial enerjisi olmadığından o məsafədən xassə ilə aşkarlanmır. Buna

görə də, onun aşkarlanması yalnız mahiyyətə nüfuz etməklə mümkün ola bilər. Bu zaman iki ruh elə qarşılıqlı biri-birinə keçir ki, hər ikisi öz nizamını dəyişərək əvvəlki vəziyyətlərindən fərqli vəziyyətə keçirlər və heç bir aktiv ruh fərqi anlaya bilmir - yəni idrak baş tutmur. İdrak prosesi əvvəlki vəziyyətlə - idrak prosesindən əvvəlki obyektin təsir etmədiyi təfəkkürün vəziyyəti, son vəziyyəti - obyektin təsirinə təfəkkürün münasibətini tutuşdurmaqla mümkün olduğundan qarşılıqlı dəyişilmədə dərk edilən və dərk olunan hər iki ruhda müqayisə alınmır, çünki hər ikisi vəziyyətini dəyişir.

Ruhun mümkünlüyü onun xüsusi hərəkət forması - şüurla bağlıdır. Şüur digər bütün hərəkət formalarından fərqlənir və yalnız ruha aid olduğundan istənilən gerçəkliyi şüurun hərəkətindən aşkarladığımız kimi ruhu da yalnız şüurla aşkarlaya bilərik. Biz şüuru obyektsiz hərəkətlilik kimi təyin edirik. Təbiətdə hər bir hərəkətin konkret obyekti var. Başqa sözlə, təbii hərəkət obyekt tələb edir. Ruh obyekt tələb etməyən hərəkətliliyə - metafizik hərəkətə malikdir. Buna görə də, fiziki hərəkətdən fərqli olaraq, şüurun hərəkət kimi ölçüsü, istiqaməti, sürəti, müstəvisi, məsafəsi yoxdur. Şüur ruhun hərəkəti kimi digər fiziki və bioloji hərəkət növləri ilə bu və başqa formada asılı deyil. Şüur digər hərəkət formalarını özü ilə müqayisədə idrak edir, amma özü-özü ilə müqayisə edə bilmədiyindən özünü idrak edə bilmir.

Ruhun şərtlənməsi: Ruhun məkan və zaman asılılığı ilə fərdin idrak subyektinin məkan zaman asılılığı uyğun olmadığından, insan eyni zaman və məkanda olduqlarını idrak imkanına malik olduğundan, başqa məkan və zaman şərtlərində təzahür edən ruhu aşkarlaya bilmir. Belə ki, Tangensial enerji məkanla şərtləndiyindən konkret yerdə - bədəndə, fərddədir. Radial enerji yalnız zamanla şərtləndiyindən məkansızdır, yəni konkret yerdə - bədəndə, fərddə meydana çıxmır. Yalnız fərdlərarası məkanda iki bədənlə eyni vaxtda kənarda təzahür edir və iştirakçıların dəyişilməsi ilə dəyişilir. Beləliklə radial enerjinin həqiqi görünüşü fərdin

bütün insanlarla - ölmüş, yaşayan və doğulacaq insanlarla münasibətindən aktuallaşa bilər, hansı ki, heç bir insan bütün insanlarla belə münasibətə girmək imkanına malik deyil. Çünki ölmüş insanlar bir, yaşayan insanlar başqa, doğulacaqlar da daha başqa qanunlara tabe olur. Münasibət isə yalnız bir qanuna tabe olmaqdan meydana çıxır. İnsanlararası münasibətlər dəyərlər kimi ümumiləşdirilir. Ona görə də ruhun radial enerjisi dolayısı ilə dəyərlərdən aşkarlana bilər.

Ruh bir tam gerçəklik kimi tam şəkildə bütün insanlarda birlikdə təzahür edə bilər və yalnız bu zaman idrak obyektiv gerçəklikləri dərk etdiyi qaydada onu aşkarlaya bilər. İnsanlıq tarixi dövrlərə səpələndiyindən və keçmiş, indiki və gələcək insanlar eyni vaxtda bir yerdə ola bilmədiklərindən, tam ruh obyektiv gerçəklik kimi təşəkkül etmir. Buradan da, biz ruhu yalnız potensiya kimi aşkarlaya bilərik. Ruh özündənkənarşey olduğundan o tərəqqi prosesində tədricən özündəşey kimi formalaşır. Buradan da, biz ruhun tarixi varlıq olduğunu qəbul etməliyik. Vaxtla şərtlənənin tarixlə şərtlənəni aşkarlamaması özündə tarixlə zamanın ziddiyyətini əks etdirir. Ruhun aşkarlanmaması həm də onun üçqat şərtlənməsi ilə bağlıdır. Biz birincili materiyada həqiqətin aydınlaşmasını sadə fiziki proseslərdə, məkan asılılığında asanlıqla idrak edirik. İkincili materiyada həm birincili, həm də onunla şərtlənmiş ikincili həqiqət zaman asılılığında aşkarlanır. Burada həqiqətin bir hissəsi potensiya kimi qalır. Məsələn, biz uşağı dərk edərkən yalnız onun konkret idrak anındakı gerçəkliyini qəbul edirik. Amma onun ana bətnindəki və gələcəkdəki gerçəkliyi bizim üçün qaranlıq qalır. Ruhun idrakında qaranlıq həm də tarixiliyinə görə artır. Ruh bir tərəfdən tarixlə şərtləndiyindən (çünki ruh bütün insanlıqda bir tam kimi aşkarlana bilər), həm də bütün olmuş, olan və olacaq insanlarla şərtləndiyindən onu müstəqil gerçəklik kimi idrak etmək çətinləşir.

Beləliklə, ruhun gerçəklik olmaması ilə bağlı fikirlər yalnız ruhun idrak prosesinin mümkün olmamasını ifadə edir. Amma biz sahəni necə

instrumental yolla aşkarlayırıq, eləcə də ruhu təfəkkürün başqa üsulları ilə həm onun ətrafdakı kristalları - taksisin yaranmasında iştirak edən və xaricə çıxarılmış ruhun "donmuş izləri" faktiki varlığından, həm insanlararası aktiv ictimai münasibətlərdə radial enerji kimi - formal varlığından, həm də tərəqqinin gedişində və ya tarixin mənasında - ruhun strukturlaşmasından - mövcud varlığa keçməsindən aşkarlaya bilərik; hansı ki, nə birincili, nə də ikincili materiya bu üsulların heç biri ilə aşkarlanmır.

FORMAL RUH - İDEAL

MƏN - İNSANLIQ

Ontoloji olaraq ruhun üç cür varlığını ayırd etmək olar:

- **Formal Ruh,**
- **Fiktiv Ruh,**
- **Faktiki Ruh**.

Mövcudluqların faktualaşması, daxili vəhdəti - İlahi iradədən verilən zəruri şərtlərlə; aktuallaşması, xarici vəhdəti isə belə şərtlərə malik mövcudluqların təsadüfi iştirakı və təsadüfi şərtlərdən ibarətdir. Yaranışda mümkünlüyün varlığının ikincili mövcudluqlardan yeni mövcudluq tələbinə İlahi iradədən mövcudluğun yox, **mövcud olmanın** zəruri şərtləri verilmişdir. Kosmosda əmələgəlmə prosesində ruh, mövcud olmasından özü-özünə mövcudluq əldə etməklə öz mümkünlüyünün mövcudluq tələbini təmin edir.

Biz mövcudluğu olmayan, yalnız xalis aktuallığından idrak edilən varlığı **Formal Varlıq** kimi təyin edirik. Buradan da, İnsan ruhu yaranışda **Formal Ruh** kimi meydana çıxır. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Formal Ruh - faktsız aktuallaşmadan, xalis fəaliyyətin zəruri şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, insan ruhunda yalnız başlanğıcdan aktuallaşmanın daxili zəruri şərtləri verilir və mövcudluğu başqa mövcudluqların, o cümlədən bədənin təsadüfi iştirakı ilə xarici vəhdətdən əldə edilir. Beləliklə, Formal Ruh bədənlə birləşərək **Fiktiv Ruha**, heyvan-insan bu birləşmədə fiktiv insana, hər ikisi birlikdə fiktiv mövcud varlıq kimi şüurlu insana çevrilir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

> *"Bədən formal ruh üçün təsadüfi şərtlərin məcmusundan ibarətdir, hansı ki, özünün zəruri şərtlərinin təzahür forması kimi çıxış edir və hər ikisinin daxili vəhdətindən şüurlu insanın fiktiv varlığı meydana çıxır."*

Ruhun xarici mövcudluq şərtləri ikincili olaraq şərtləndiyi mövcud varlıqların şərtlərindən əldə edilir. Buradan da, ruhi mövcud olmanın şərtlərini - fiktiv ruhun, formal ruhun faktiki varlığının, mövcudluğunun yaradılması şərtləri kimi təyin etmək olar.

Formal Ruh anlayışı altında biz metafizikadan təbiətə keçməmiş, elə-belə müəyyənliyi və təyini olmayan idrak obyektini nəzərdə tuturuq.

- **Müəyyənlik** - bu idrak obyektinin statusunun konkretliyindən, xarici aləmdən faktiki götürülməsinin mümkünlüyündən ibarətdir. Formal ruh təbiətə keçmədiyindən faktiki götürülməsi mümkün deyildir.
- **Təyin** - müəyyənin təfəkkürdə idrakından, xaricdən fikrə gətirilməsindən meydana çıxır.

Beləliklə, təbiətdə müəyyən olunmayan təyin də oluna bilməz. Müəyyənlik - mövcudluğun özünə münasibətində obyektivliyi; Təyin - subyektə münasibətdə mövcudluğun bilavasitəliyini özündə ifadə edir. Buradan da, Formal ruhun mövcudluğu olmadığından, özünə münasibəti (yəni obyektivliyi) yoxdur; obyektivliyi olmadığından təyini (yəni bilavasitəliyi) də yoxdur.

MÖVCUDLUQ VƏ İMKAN

Bəs onda formal ruh haqqında təsəvvürləri necə əldə etmək olar? Formal ruh haqqında həqiqət yalnız onunla özündə ziddiyyət saxlayan, təyini və müəyyənliyi olan əksiliyindən - ən ümumi şəkildə mövcud varlıqları təşkil edən **materiyadan** aşkarlana bilər.

Mövcud varlıqlara mövcudluğun zəruri şərtləri metafizikada İlahi iradə tərəfindən verildiyindən, metafizika elə-belə şərtlərin məc-

musundan ibarətdir, hansı ki, biz ümumi şəkildə bunu mümkünlüyün varlığı və ya mahiyyətin varlığı kimi təyin edirik. Mümkünlüyün varlığı bilavasitəliliklə vəhdət təşkil etməyən obyektivliyə malikdir. Biz bilavasitəliyi olmayan obyektivliyi subyektivlik kimi qavrayırıq.

Metafizikadan fizikaya keçiddə Kosmos mövcudluğa mövcud olma şərtlərini - başqa mövcudluqlarla vəhdətdən ibarət təsadüfi şərtləri - verərək mövcud varlığı təzahür etdirir. Biz mövcud olma şərtlərini **imkan** kimi təyin edirik. Buradan da, Kosmos elə-belə imkanların məcmusundan ibarət olur. Fəlsəfədə imkan maddi aləmin inkişafını əks etdirən kateqoriya kimi təyin olunur. İmkan şərtlərə görə ikincili olub, onların mövcudluğundan meydana çıxır. İmkanla şərtin vəhdətindən gerçəklik aşkarlanır. Biz imkanı kosmik şərt kimi də təyin edə bilərik. Kosmosun mövcudluğa mövcud olma şərtləri verməsi ilə mövcudluğun bilavasitəliyi meydana çıxır, hansı ki, obyektivliklə vəhdətdə mövcud varlığı xarakterizə edir.

Ruha İlahi İradədən yalnız mövcud olma şərtləri (imkanı) verildiyindən, obyektivliyi yoxdur, xalis mövcud olmanın şərtləri kimi yalnız xalis bilavasitəliyə - subyektivliyə malikdir. Əvəzində, Kosmosa keçiddə mövcud varlığa xas mövcudluq şərtlərini (obyektivlik) əldə edərək öz mövcudluq tələbini ödəməyə cəhd edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Formal ruh - Kosmosun mövcud olmasının özündə ziddiyyət saxlayan əksiliyinin, yəni xalis bilavasitəliyin şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, biz Formal ruhu mövcudluqların iştirakı ilə aşkarlanan mövcud olmanın şərtlərindən mövcudluqsuz təsəvvürə gətirilən "ikincili Kosmos" kimi təsəvvürə gətirə bilərik. Təbiətdə mövcudluğun şərti olmadığından, təbiətdə yaranma istisna olunur. Mövcud olma isə imkanla bağlı olan əməlegəlmə kimi meydana çıxır. Yəni, təbiətdə aşkarlanan bütün mövcudluqlar yaranma ilə metafizikadan kosmosa keçərək fiziki

aləmdə mövcud olur və mövcud olma ilə əməlegəlmə prosesinə daxil olur.

Beləliklə:

- **Metafizika** - mövcud varlığın mövcudluğunun şərtlərinin məcmusudur.
- **Fiziki aləm (Kosmos)** - mövcud olmasının şərtlərinin məcmusudur.

Biz mövcudluğun mövcud olmasından obyektiv gerçəklikləri dərk edirik. Ruh mövcudluğun varlığının əksiliyi olduğundan, onun yalnız mövcud olmasının şərtləri vardır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

> *Formal ruhun mövcudluğu - Metafizikada yaranışda İlahi İradədən verilmiş mövcud olmanın, Kosmosda əmələ gəlmədə insan iradəsi ilə əldə edilən mövcudluğun şərtlərinin məcmusundan ibarətdir.*

ANALOGİYA VƏ TƏZAHÜR

Mövcud varlığın İlahi iradədən verilən şərtləri ilə insanın şüuri prosesdə mövcud varlıqdan aşkarladığı şərtlər mütləq eynilikdən məhrumdur. Buradan da Formal Ruhun özünə mövcudluq tələbində öz iradəsi ilə əldə etdiyi şərtləri **nisbi mövcudluq şərtləri** kimi təyin etmək olar. Formal ruh yalnız bilavasitəliyə malik olduğundan, özü-özünü təyin kimi (yəni təfəkkürün özü-özündən fikrə gətirilən idrak obyekti), daxildə xalis bilavasitəlik kimi aşkarlana bilər. Deməli, biz formal ruh haqqında yalnız özümüz-özümüzdə başlanğıc təsəvvürlər yarada bilərik. Belə başlanğıc təsəvvürlər müəyyən və təyin olunanlar haqqında təsəvvürlərin əksiliyi kimi yaradıla bilər.

Haşiyə: Ditrix fon Qildebrand, "Məhəbbətin metafizikası"

> *"Biz şəxsi və mənəvi varlıqları tədqiq edərkən fiziki dünyadan analogiyalardan istifadə etməyə məcburuq, dilin özü bizi daimi olaraq buna itələyir. Beləliklə, şəxsi, ruhi varlıqların təzahürlərinin öyrənilməsində analogiyaya əl atmaq hətta qaçılmazdır."*

D.Qildebrandın fikirlərindən də göründüyü kimi, Formal Ruhun şərhində biz qaçılmaz olaraq mövcud varlıqla analogiya aparmalıyıq. Mümkünlüyün mövcudluq tələbində mövcudluqlar İlahi iradədən mövcudluğun zəruri şərtlərini alaraq Kosmosda bir-biri ilə mövcud olmanı təşkil edirlər. Bunun əksinə, varlığın mövcudluğu, yəni Formal Ruh İlahi iradədən mövcud olmanın şərtlərini alır, metafizikadan təbiətə keçərək insan bədəni ilə əlaqələnir, sonra mövcud varlıqların zəruri şərtlərindən özünə mövcudluq (faktiki varlıq) təşkil edir və daha sonra da bədəndən kənar öz mövcud varlığı ilə formal varlıq kimi vəhdətdə ruhi mövcudluğun varlığını yaradır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Ruhi mövcudluğun varlığı - təbii mövcudluğun əsasında, ikincili, ruhun özü tərəfindən yaradılan qeyri-təbii (süni), nisbi mövcudluq şərtlərinin məcmusundan ibarətdir.*

OBYEKTİVLİK VƏ SUBYEKTİVLİK

Kosmosda mövcudluğun şərtləri mövcudluğun daxili təkliyindən, mövcud olmanın şərtləri isə xarici çoxluğundan təzahür edir. Buradan da, təkliyin şərtlərini zəruri, çoxluğun şərtlərini təsadüfi şərtlər kimi aşkarlayırıq.

Hər bir obyektiv gerçəklik:

1. **Özündəşeylə** - daxili xüsusi zəruri şərtlərin məcmusu kimi faktla (mövcudluqla);
2. **Özündənşeyin** - xarici ümumi təsadüfi şərtlərin məcmusu kimi aktın (mövcud olmanın) vəhdətindən ibarətdir.

Özündəşey - özü ilə eyniliyin şərtlərinin; **Özündənşey** - özü ilə fərqliliyin şərtlərinin məcmusudur. Hər bir gerçək şey özü ilə eynilik kimi mövcudluğa malik olduğundan və eyniliyindən idrak olunduğundan, öz fərqliliyini özündən itələməklə mövcud olur və dərk olunur. Beləliklə, gerçəkliyin reallığı "özündəşey" kimi çıxış edir. Gerçəklik özündəşeylə

özündənşeyin, yəni mahiyyətlə formanın sabit vəhdətindən obyektiv varlığa çevrilir.

Buradan aşağıdakı pnevmotoloji ideyanı aşkarlamaq olar:

Obyektiv varlıq - özündə eyniliklə özündən fərqliliyin daxili vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Ruhun mövcudluğu olmadığından, daxili vəhdəti də yoxdur və buna görə də "özündəşey"liyi də yoxdur. Buna görə də obyektivlikdən məhrumdur, yəni subyektivdir. Subyektivlik - özü ilə eynilikdən məhrum olmağı, özü ilə fərqliliyin şərtlərinə malik olmağı özündə təqdim edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Subyektiv varlıq - özündə fərqliliklə özündən eyniliyin vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Formal ruh özü-özü ilə eynilikdən məhrumdur. Bu o deməkdir ki, ruh özündə özü-özü ilə xalis fərqlilik kimi mövcud olur və buna görə də həm də reallıq xarakteristikasına malik deyil. Özü ilə fərqlilik təşkil etmə Formal Ruhun idrak edilməsinin əsas çətinliyidir.

Biz Hegelin şərhindən gördük ki, şey özündən fərqliliyi itələməklə özündəşeyə çevrilir. Yəni hər bir real mövcudluq bir tərəfdən **özündəsaxlama** (eynilik) və **özündən itələmə** (fərqlilik) kimi hissələrdən ibarətdir.

- Özündənitələnmə - təzahür;
- Özündəsaxlanma - təsirin səbəbini təşkil edir.

O şey ki, özündən fərqlilik itələmir, o təzahür edə bilmir; özündəsaxlamaya malik olmadıqda təsirə malik ola bilmir. Yəni başqa mövcudluqlarla təsir-əks təsir əlaqəsində ola bilməz və buna görə də hissi qavranıla bilməz.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Formal Ruh - özündən fərqlilik itələmədiyindən, bilavasitə təzahürü yoxdur, buna görə də hissi qavranılmır və əksinə, özündən eynilik itələdiyindən digər mövcudluqlarla bilavasitə təsir-əks təsir əlaqəsinə girmir.*

Ruh özündə xalis fərqlilik kimi mövcud olduğundan, bir fərqlilikdən sürəkli olaraq başqa fərqliliyə keçməklə mövcud olur. Yəni sürəkli olaraq özü-özündən xalis daxili itələnmə ilə mövcuddur və özündə eynilik saxlamadığından, özündəşeylikdən məhrumdur, əvəzində özü-özü ilə fərqlilik kimi xalis özündənşeydir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Formal Ruh - sürəkli olaraq özü-özünü özündən eynilik kimi itələməyin, yəni özündənşeyin şərtlərinin məcmusundan ibarət özündənkənar varlıqdır.

Özündənkənar varlıq - mövcudluğun mövcud olma ilə vəhdət təşkil etmədən meydana çıxmasından, yəni ruhun mövcudluğunun (faktiki varlığının) ruhi fəaliyyəti özündə saxlayan mövcud insandan kənarda, xarici mövcud varlıqlarda, ikincili süni mövcudluqdan ibarətdir. Başqa sözlə, ruhun aktı - mövcud insan bədənində, faktı - ikincili mövcudluq kimi xarici obyektiv gerçəkliklərdən aşkarlanır. Ona görə biz fiktiv ruhun varlığını insandan kənarda, yalnız onun fəaliyyətinin nəticələrindən dolayısı ilə təsdiq edə bilirik.

MÖVCUD OLMA VƏ MƏN

Formal ruhun şərtlərinin mahiyyətinə keçmədən Formal ruhun mövcud olmasını təfəkkürün özü-özündən təsəvvürə gətirmək lazımdır. Biz təbiətdə əksiliklərin vəhdətindən və mübarizəsindən təfəkkürdə gerçəklikləri dərk etdiyimizdən, Ruhi mövcud olmanı da mövcudluqların mövcud olmasının əksiliyindən təsəvvürə gətirə bilərik.

Mövcudluqların mövcud olmasının aşağıdakı xüsusiyyətlərini ayırd etmək olar:

Mövcud varlıqların mövcud olması mövcudluqlarından sonra, onunla şərtlənmiş şəkildə meydana çıxır. Mövcudluqlar zəruri şərtlərdən təşkil olunduğundan, onların mövcud olması yalnız təsadüfi şərtlərin məcmusundan aşkarlanır. Yəni hər bir mövcud varlıq daxili zəruri və

xarici təsadüfi şərtlərin vəhdətində aktuallaşır. Bu vəhdətdə təsadüf zərurətin formasını təşkil edir. Beləliklə, təsadüflə zərurətin əlaqəsinə görə təsadüf zərurətlə şərtləndiyindən, Mövcud olma mövcudluqla şərtlənir.

Buradan aşağıdakı Kosmoloji ideya aşkarlanır: *Kosmosda mövcud olma - təbii təzahür, təsir, hərəkət, fəaliyyət və s. kimi aktlar mövcudluq, yəni fakt, obyekt tələb edir.*

Təbiətdə elə-belə obyektsiz hərəkət, fəaliyyət, təzahür, təsir və s. kimi mövcud olmaya xas predikatların təsəvvürə gəlməsi və ya gətirilməsi mümkünsüzlükdür.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Formal Ruh - mövcudluğun varlığının əksiliyi kimi özündə obyekt tələb etməyən xalis mövcud olmanın şərtlərinin (təzahür, təsir, hərəkət, fəaliyyət və s. aktların) məcmusundan ibarətdir.

Mövcudluq təklikdən, mövcud olma çoxluqdan aşkarlanır. Yəni mövcudluq özü-özü ilə eynilik kimi daxili vəhdətdən, mövcud olma özündən fərqlilik kimi yalnız digər mövcudluqlarla xarici vəhdətdə çoxluqdan meydana çıxır. Kosmosda ayrılıqda tək bir mövcudluq mövcud olmur və eyni bir obyekt eyni anda çoxlu sayda mövcud olmur.

Buradan aşağıdakı Kosmoloji ideya aşkarlanır: *Mövcudluqların mövcud olması - xarici təsadüfi çoxluğun şərtlərinin məcmusundan ibarətdir.*

Beləliklə, təbiətdə mövcud olma daxili təkliyin zəruriliyi ilə şərtlənmiş bir-birinə keçən xarici çoxluqdan aşkarlanır. Əgər Formal Ruha yaranışdan yalnız mövcud olmanın şərtləri verilmişdirsə, onda biz formal ruhu elə-belə özü-özündə daxili zərurətlə şərtlənməmiş, özü-özündə bir-birinə keçən **daxili çoxluq** kimi təyin edə bilərik. Bununla da, Formal ruhun daxili və xarici şərtlərinin vəhdət təşkil etməməsi aydın olur. Yəni Formal ruh daxillə xaricin vəhdət təşkil etməməsi ilə yaradılır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Formal ruh (Ruhi mövcud olma) - daxili çoxluq kimi bir formadan başqasına keçid edən təsadüfi şərtlərin məcmusundan ibarətdir.

Daxili çoxluq - "Mən"in müxtəlif növ kateqoriyalarının məcmusundan ibarətdir. **Mən** - formal ruhun özünü mövcud varlığın əksiliyi kimi dərk etməsinin şərtlərinin məcmusundan ibarətdir.

Formal ruh məhz "Mən"ə görə idrakda obyektiv gerçəkliyin əksiliyi kimi, onunla mübarizədə subyektiv varlıq kimi idrak olunur. Mən - özündə obyektivliyin və bilavasitəliyin inkarını saxlamaqla özünü təsdiq edir. Obyektivliyi və bilavasitəliyi olmadığından, Mən obyektivliyə və bilavasitəliyə cəhd edir. Belə cəhddə, obyektivlik əldə etmədən - Mənə mənsub olan obyektlər, bilavasitəlikdən - Mənim mənsub olduğum subyektlər aşkarlanır.

D.Qildebrand mənsubiyyətinə görə: özü-özünə məxsus olan, malik olmağa münasibətdən ibarət, nəyinsə hissəsi olmağa münasibətdən, bir insanın digərinə məxsus olmağından, vətənə məxsus olmaqdan, dinə məxsus olmaqdan, məhəbbətin formalarından yaranan "Mən"ləri ayırd edir. Beləliklə, obyektiv və subyektiv olanların sayından, kateqoriyasından asılı olaraq, insanın mənsubiyyətinə görə bir-birindən mahiyyətinə görə kəskin fərqlənən, fərqli qanunlara tabe olan, fərqli formalarda təzahür edən çoxlu sayda “Mən”i birlikdə formal ruhun daxili çoxluğunu təşkil edir. Obrazlı olaraq, biz formal ruhun daxili çoxluğunu “daxili aləm” də adlandıra bilərik, hansı ki, xarici aləm (Kosmos) mövcud varlıqlardan təşkil olunduğu kimi, formal ruh da fərqli “mən”lərin çoxluğundan təşkil olunmuşdur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Formal ruh - bütün insanların "mən"lərinin şərtlərinin məcmusundan ibarətdir.*

FORMAL RUHUN METAFİZİK QANUNLARI

Bədənlə əlaqələnməmiş Formal Ruh özü-özündə metafizik qanunlara (xaosa) tabe olur və buradan formal ruhun istənilən şərtinin üç qanun-auyğunluğu aşkarlanır:

1. **Məkan:** Formal ruhun şərtləri onun təzahürlərinin eyni vaxtda müxtəlif yerlərdə olmasına imkan verir. Buradan formal ruh eyni anda sonsuz sayda bədənlə əlaqələnərək təzahür edir.
2. **Zaman:** Formal ruh bir yerdə eyni anda özündə müxtəlif vaxtlarda olur. Buradan formal ruhun həm müxtəlif tarixi dövrlərdə yaşayan insanlarda, həm də eyni bir fərddə müxtəlif vitallıqda eyniyyət kimi təzahür etməsi imkanı meydana çıxır.
3. **Varlıq/Yoxluq:** Formal ruhun təzahürləri eyni anda həm var, həm yox olur. Belə ki, ruh fəallaşanda o varlıq kimi təzahür edir, ruhun passiv vəziyyətində təzahür etmir, yəni yox olur.

Formal Ruhun mövcud olmasının zəruri şərtlərinə Formal Ruhun mövcudluq tələbinin təmin edilməsinə xidmət edən şərtləri aid etmək olar, hansı ki, xaricdə Formal ruhun mövcudluğu - **Faktiki Varlığına** paralel həmin varlıqla vəhdətdə formal ruh yenidən təzahür edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Bədənlə vəhdətdə ruhi fəaliyyət kimi mövcud olan fiktiv ruhun özündən xaricdə yaratdıqlarından formal ruhun faktiki varlığı təşkil olunur və formal ruh həmin faktiki varlıqla vəhdətdə ruhun mövcud varlığını təzahür etdirir.*

Beləliklə, biz Formal Ruhu yalnız ruhi fəaliyyətin və ya ruhi mövcud olmanın zəruri şərtlərindən qavraya bilərik.

Mövcudluğun varlığından mövcudluqdan asılı olaraq hərəkətlilik meydana çıxır, hansı ki, mövcudluğun bütün hərəkətlərinin məcmusu aktuallaşma, yəni mövcud olma kimi təzahür edir. Varlığın mövcudluğuna (ruha) əksinə, yaranışda İlahi İradədən yalnız fəaliyyətin zəruri şərtləri verildiyindən, Formal Ruh xalis aktuallaşma kimi təsəvvürə gətirilə bilər. Buna görə də, biz formal Ruhu elə-belə **Aktual Varlıq** kimi təyin edirik. Ruh mövcud insanda dolayısı ilə, təsadüfi şərtlərin məcmusunda,

mövcud olma kimi, yəni xalis fəaliyyət kimi metafizikadan Kosmosa keçərək aydınlaşır. Başqa sözlə, ruhun mövcud olması öz xüsusi mövcudluğu olmadığından, bədənin mövcudluğu ilə keçici vəhdət təşkil edir. Buna görə də, ruhi fəaliyyət yalnız bədəndən dolayısı ilə təzahür edir. Bu təzahürlərin mahiyyəti ruha, forması bədənə aiddir.

Məsələn: Rəssam şəkil çəkərkən onun elə-belə əl hərəkətləri bədənin fəaliyyətini, amma həmin hərəkətlərin iradəvi, məqsədəyönlü idarə olunması, tənzimlənməsi və konkret ideyanı təsvir etməsi ruhun fəaliyyətini özündə təqdim edir. Beləliklə, şəkil bədənlə ruhun müştərək fəaliyyəti ilə meydana çıxır. Burada ruhun fəaliyyəti iradəvilik, məqsədəyönlülük, idarəetmə, ideyalılıq və s. kimi aşkarlanır.

Ruhun aktuallığı bir-biri ilə əlaqəli müxtəlif xalis hərəkətlilikdən (fəaliyyətdən) ibarətdir. Biz fəaliyyəti **forma yaratmayan hərəkət** kimi təyin edirik. Ona görə də, fəaliyyət mövcudluqlarda saxlanılmır. Necə ki, fəaliyyət forma yaratmır, eləcə də hər hansı elə-belə forma fəaliyyət göstərmir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Ruhi fəaliyyət - obyekt tələb etməyən və saxlanılmayan (dayandırılmayan) xalis hərəkətin şərtlərinin məcmusundan ibarətdir.

FORMAL RUHUN TƏSADÜFİ ŞƏRTLƏRİ

Əgər biz elə-belə Kosmosu xarakterizə edən anlayışları müəyyənləşdirsək, buraya: formanı, xarici və daxili vəhdəti, qurulmanı, təsiri, təzahürü, obyekt tələb edən hərəkəti, fəaliyyəti, məhdudiyyətləri (məkan və zaman ölçülüyünü), yəni obyektivliklə subyektivliyin əksiliyindən aşkarlanan xarakteristikaları aid edə bilərik.

Metafizikada isə varlığın mövcudluğu formasız mahiyyətdən ibarətdir. Buna görə formalaşması, forma olmadığından mahiyyətlə formanın daxili vəhdəti və bununla şərtlənmiş digər mahiyyətlə xarici vəhdəti, təsirləri, təzahürləri, obyekt tələb edən hərəkəti və fəaliyyəti, və

nəhayət hər hansı məhdudiyyəti (yəni konkret ölçülüyü) yoxdur. Formal ruhun mövcud varlıqla belə əksikliyinə görə, mövcud varlıqların dərk edilmə üsulları - hissi və demonstrativ idraklа dərk edilməsi mümkünsüz olur. Buradan da məlum olur ki, formal ruh yalnız **intuitiv idrak** üsulu ilə düşüncə prosesindən aşkarlana bilər. Beləliklə, Formal Ruhun mövcud olma şərtlərinə xalis formanın, vəhdətin, təsirin, təzahürün, obyektsiz fəaliyyət və hərəkətin potensial təsadüfi şərtlərini aid etmək olar.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Formal ruhun şərtləri - formalaşdırmanın, vəhdət təşkil etmənin, təzahür və təsirin, obyektsiz fəaliyyətin, ölçülüyün (məkan və zaman asılılığının) potensial təsadüfi şərtlərinin məcmusundan ibarətdir.*

Potensial şərtlər aktual şərtlərdən həyata keçməyə görə fərqlənir. Yəni aktual şərtlər artıq təcrübədə həyata keçmiş və bununla da gerçəklik xarakteristikası əldə etmiş şərtlərdən ibarətdir. Amma potensial şərtlər həyata keçməmiş, buna görə də gerçəkliklə ifadə olunmayan, sadəcə intuitiv idrakla həyata keçirilməsinin mümkünlüyü dərk edilən şərtlərdir. Başqa sözlə, Formal Ruh bədənlə əlaqələnmədikcə, yəni gerçəkləşmədikcə onun şərtləri yalnız potensial şərtlər kimi mövcud olur, hansı ki, hər hansı reallıq və gerçəklik xarakteristikalarından məhrumdur. Bu xarakteristikasına görə "indi və burda" prinsipinə görə Formal Ruh **yoxluq** xarakteristikası daşıyır. "Formal Ruh yoxdur" - bu müddəa ruhun konkret məkanda və konkret zamanda aşkarlanmasının mümkünsüzlüyünü özündə ifadə edir. Yəni, necə ki Formal Ruh bədənlə əlaqələnməyərək ondan təzahür etmir, o yalnız yoxluqdan ibarət mütləq qeyri-müəyyənlikdir.

Biz Formal Ruha İlahi İradədən verilmiş mövcud olmanın potensial təsadüfi şərtlərinə aşağıdakıları aid edirik.

a. VƏHDƏTİN ŞƏRTLƏRİNİN MƏCMUSU: EŞQ (ORDO AMORIS)

Biz bundan əvvəlki fəsillərdə mövcud varlıqların iki cür - daxili və xarici vəhdət təşkil etməsini göstərmişdik.

- **Daxili vəhdət** - "bir mahiyyət, bir forma" prinsipinə;
- **Xarici vəhdət** - "bir mahiyyət, çox forma" prinsipinə tabe olar.

Daxili vəhdətdə bir forma bir mahiyyət prinsipi özündə zərurətə əsaslanır. Yəni mahiyyət istənilən bir forma ilə yox, yalnız onun özü ilə şərtlənmiş və onun tələb etdiyi forma ilə vəhdət təşkil edir. Xarici vəhdətdə mahiyyət çoxlu forma ilə vəhdət təşkil etdiyindən və bu formalar özünə münasibətdə xarici olduğundan nə zərurətə, nə də onun tələbinə tabe olmur. Buna görə də xarici çoxluq təsadüfə görə mövcud olur. Beləliklə, daxili vəhdət - zərurətə görə təklikdən, xarici vəhdət - təsadüfə görə çoxluqdan aşkarlanır.

Bu o deməkdir ki, Kosmosda mövcud varlıqlarda hər hansı bir mahiyyət yalnız bir formadan aşkarlana bilər. Və hər bir mövcudluq yalnız xarici çoxluqda aktualaşa, yəni mövcud ola bilər. Buradan da, mövcud varlıqların gerçəkliyi daxili, reallığı xarici səbəblərdən meydana çıxır.

Formal ruhun təbiətdə öz müstəqil mövcudluğu olmadığından, o mövcudluğun varlığına özündə ziddiyyət saxlayan əksilik kimi dərk etdiyimizdən, ruhun xarici vəhdəti zərurətə görə təklikdən aşkarlanan **"bir mahiyyət bir forma"**, daxili vəhdəti təsadüfə görə çoxluqdan aşkarlanan **"bir mahiyyət çox forma"** prinsipinə tabe olur. Buradan da, xarici vəhdətdən fərd (ruhlu insanın təkliyi), daxildə isə fərddən təzahür edən **fərdi kimliyin çoxluğu** kimi ruhun mahiyyəti aşkarlanır.

Kimlik - fiktiv ruhu təşkil edən ayrı-ayrı "Mən"lərdən ibarətdir. Beləliklə, Ruhun daxili vəhdəti mövcud varlığın xarici vəhdətinə, xarici vəhdəti isə daxili vəhdətin prinsipinə uyğun meydana çıxır. Buna görə, ruhun mövcud varlığı aşkarlanmır, yəni ruh özündəşeyə malik olmur,

onun mövcud varlığı xaricdə aşkarlandığından, ruh **özündənkənarşeyə** malik olur. Özündənkənarşeyə malik olduğundan, özündənkənar şeylərdən dolayısı ilə təzahür edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Formal ruhun zəruri şərtləri - özündənkənar şeylərdən aydınlaşmanın şərtlərinin məcmusundan ibarətdir.*

Buradan da, eyni bir ruhi mahiyyətin daxildə çoxlu forma təşkil etməsi, yəni çoxlu formadan bir və eyni ruhun aşkarlanmasının mümkünlüyü meydana çıxır. Mövcud varlıqlar xarici çoxluq təşkil etdiyindən, eyni bir mahiyyət bir-birindən ayrılıqda xaricdə mövcud olan sonsuz sayda formadan eynilik kimi aşkarlanır. Formal ruh bunun əksinə, daxildə bir-birindən ayrılıqda təzahür edən çoxlu sayda formadan eynilik kimi aşkarlanır. Formal ruhun daxili çoxluq təşkil etməsi həm ayrıca bir fərddən, həm də eyni zamanda çoxlu fərddən müxtəlif formalarda təzahür etməsindən ibarətdir.

Bəs belə daxili çoxluqdan Fiktiv Ruh (İnsan Ruhu) necə təsəvvürə gətirilə bilər? Mövcud varlıqla əksilik təşkil edən Formal Ruh mövcud olma kimi, daxili təsadüfi şərtlərin məcmusundan daxili çoxluğa və zərurətə görə şərtlərin məcmusundan xarici təkliyə malik olmalıdır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Fərdlərin mövcudluğu təsadüfi, onların birlik təşkil etməsi zəruridir.*

Ruhun daxili çoxluğa malik olması, onun yalnız mövcud olma kimi yaradılması ilə bağlıdır, hansı ki, mövcud olma təsadüfi şərtlərin məcmusunda çoxluqdan aşkarlanır. Daxili çoxluğu biz **başlanğıc sosiallıq** kimi təyin edirik.

Haşiyə: Ziqmund Freyd, "Kütləvi psixologiya və insan 'Mən'inin analizi":

> *"İnsanın psixi həyatında həmişə 'başqası' mövcud olur; o bir qayda olaraq nümunə, obyekt, köməkçi və ya rəqib olur, ona görə*

də lap başlanğıcdan şəxsiyyətin psixologiyası eyni zamanda həmçinin sosial psixologiya olur."

Freyddən öncə bəzi filosoflar da şüurlu insanı ictimai varlıq kimi təyin edib. Bəs onda "ictimai" və ya "sosial" sözü özündə hansı mənanı verir? Şəxsiyyətin psixologiyası ayrıca bir adamı, onun ilkin istəklərinin çağırışlarını ödəmək cəhdindən öyrənməyə cəhd edir və bu zaman ayrıca adamın başqa fərdlərə münasibəti nəzərə alınmır. Əslində isə təcrübədə ruhlu insan kimi ayrıca fərdi faktiki götürmək mümkün deyildir. Məhz ayrıca fərdi xarici vəhdətdən ayrılıqda götürmək mümkün olmadığından, o yalnız fikrən fərd kimi götürülə bilər. Fikrən isə yalnız tək fakt götürülür. Ruhun öz faktı olmadığından o fakt kimi götürülə bilməz.

Bəs onda ayrıca adamın tək fakt kimi götürülməsi hansı mənanı verir? İnsanın ikili mahiyyətinə görə fərd fakt kimi fikrən götürüldükdə faktiki olaraq onun şərtləndiyi konkret bədən götürülür; bu zaman fiktiv ruh da avtomatik olaraq onunla əlaqədə fərddən faktiki götürülən olur. Nəticədə, ruhun aktı fərdlə birlikdə fakt kimi təsəvvürə gətirilir. Ruh daxili çoxluqda mövcud olduğundan, fakt kimi götürülən ruh da **sosial fakt** (çoxluq təşkil edən fakt kimi) qavranılır. Beləliklə, şəxsiyyətin sosiallığı ruhun daxili çoxluğunun xaricə çıxarılmasından ibarət olur. Fəlsəfədə sosial insan dedikdə insanın yalnız xarici çoxluqdan mövcud olması nəzərdə tutulur ki, bu da təbiət qanunlarına (mövcud varlıqların təklikdə mövcudluq olmasına) ziddiyyət təşkil edir.

Mövcud varlıqların mahiyyəti bir konkret forma təşkil etdiyindən, daxili çoxluqda Formal ruhun formaları mücərrəd olur. Konkret forma sərhədləri olduğundan başqa formaya keçmir. Mücərrəd forma bundan fərqli olaraq başqa formaya keçir. Məsələn, mücərrəd forma kimi həndəsi fiqurlardan birindən digərini əldə etmək mümkün olur. Amma təbiətdə mis heç vaxt təbii yolla qızılın formasını almır. Ruhun daxili mücərrəd formalarının bir-birinə keçməsini biz **Patiya** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Patiya - Formal Ruhun daxili çoxluq təşkil edən mücərrəd formalarının bir-birinə keçməsinin şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, formal ruhun mahiyyəti özü-özündə bir-birinə keçən çoxlu sayda mücərrəd formalarla vəhdət təşkil edir. Belə sürəkli keçid imkanına görə hər bir fərd konkret situasiyada eyni anda yalnız tək kimliklə təzahür edir. Biz formal ruhun İlahi iradədən verilən şərtlərini - təsadüfə görə daxili çoxluq formasında mövcud olmanın şərtlərinin məcmusu kimi təyin edirik. Burada, **"təsadüfə görə şərtlər"** hər hansı bir fərdin xarici situasiyadan asılı olaraq fərqli "Mən"lər kimi çıxış etməsini özündə ifadə edir.

Beləliklə, Formal ruh özü-özündə bir formadan başqa formaya keçməklə, mövcud varlıqlar isə xaricdə bir mövcudluqdan başqa mövcudluğa keçməklə mövcud olur. Biz ruhun mücərrəd forması dedikdə **kimliyi** nəzərdə tuturuq. Beləliklə, daxili çoxluğa görə hər bir fərddə eyni zamanda çoxlu sayda kimlik mövcud olur.

Haşiyə: Ziqmund Freyd,"Kütləvi psixologiya, insan Mən-inin analizi"

> *"Düzdür, şəxsiyyətin psixologiyası ayrıca bir adamı özlərinin ilkin istəklərinin impulslarını təmin etməsi yolu ilə, amma hər halda nadir hallarda, yalnız müəyyən müstəsna hallarda, ayrıca adamın başqa fərdlərə münasibətinin nəzərə alınmadığı vəziyyətlərdə tədqiq edir. İnsanın psixi həyatında həmişə 'başqası' mövcud olur. Bir qayda olaraq o nümunə və ya obyekt, köməkçi və ya rəqib olur. Buna görə də şəxsiyyətin psixologiyası lap başlanğıcdan eyni zamanda həmçinin sosial psixologiya olur. Hər bir ayrıca adam çoxlu kütlənin tərkib hissəsidir, o müxtəlif tərəfdən identifikasiya ilə bağlıdır və özünün 'İdeal Mən'ini ən müxtəlif nümunələr əsasında yaratmışdır. Beləliklə, ayrıca adam çoxlu kütlə ruhunun iştirakçısıdır (öz irqinin, təbəqəsinin, dövlətinin, kilsə icmasının və s.) və bundan artığına, orijinallığın və müstəqilliyin hissəciyinə qədər qalxa bilər."*

Ziqmund Freyddən gətirdiyimiz sitatdakı ayrı-ayrı fikirləri izah etməklə daxili çoxluğu şərh edək:

1. **"Ayrıca bir adamı özlərinin ilkin istəklərinin impulslarını təmin etməsi"**: Ayrıca adamın "ilkin istəkləri"nin başlanğıcı nədən ibarətdir? Əgər ayrıca adam canlı növ kimi götürülürsə, ayrıca adamın ilkin istəyi öz növünü davam etdirməkdən, yəni nəsil vermədən (cinsi cütləşmə meylindən) ibarət olacaqdır, hansı ki, bütün canlılar üçün zəruri şərtlərin məcmusu kimi mövcuddur. Əgər canlılıq başlanğıcı əsasında ayrıca adam şərh oluna bilərsə, onda bütün canlılar, ən azından insana ən yaxın canlılar da, məhz ilkin istəklərə görə şərh olunmalıdır. Amma psixologiya insan nəsil verməsini cütləşmə kimi yox, **seksuallıq** kimi tədqiq edir. Seksuallıq cinsi cütləşmənin şüurlaşması kimi təsəvvür olunur və psixologiya bunu yalnız şüurlu insana xas keyfiyyət kimi təyin edir. Beləliklə, buradan belə nəticə çıxır ki, ayrıca adamın ilkin istəkləri yalnız nəslisaxlama instinktindən ibarət deyil. İnsanda həm də canlılıqdan fərqli başlanğıc vardır, hansı ki, biz bunu ruhi başlanğıc kimi təyin edirik. Beləliklə, əslində psixologiyanın öyrəndiyi "ayrıca adamın ilkin istəkləri" bir-birindən fərqli iki başlanğıca - **canlı** və **ruhi** başlanğıca malik mürəkkəb təzahürdür. Buradan da insanın ilkin istəyi daxili çoxluqdan, yəni başlanğıc sosiallıqdan ibarət olur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Başlanğıc sosiallıq - şüurlu insanda fiktiv ruhun müvəqqəti əlaqələndiyi konkret bədənin instinktlərinə təsir etməsinin şərtlərinin məcmusundan ibarətdir.*

2. **"İnsanın psixi həyatında həmişə 'başqası' mövcud olur"**: İnsanın psixi həyatında həmişə mövcud olan "başqası" daxili və ya xarici başqası kimi mövcud olur? Z.Freydə görə, bu başqası xaricidir, hansı ki, insan nümunə kimi qəbul edir və ona çatmaq üçün psixi fəaliyyət göstərir. Bizə görə, bu başqası daxilidir, yəni fiktiv ruhun daxili çoxluq

kimi təzahür etməsindən meydana çıxır, hansı ki, fərqli forma kimliklərdən ibarətdir və bu kimliklərdən biri bütün insanlarda bir və eynidir, hansı ki, nümunə kimi xaricdə başqa fərddən təzahür edəndə fərd özü-özündə refleksiya yolu ilə onu özündə ayrımlaşdırır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İnsanın nümunə kimi çatmağa cəhd etdiyi başqası - bədənlə əlaqədə fiktiv ruha çevrilmiş formal ruhun şərtlərinin məcmusundan ibarətdir, hansı ki, fiktiv ruhun özünə münasibətdə "xarici" dir.*

Formal ruhun daxili çoxluq kimi mövcud olmasına görə hər bir kimlik çoxlu sayda başqa kimliklərlə birgə mövcud olur.

"Lap başlanğıcdan eyni zamanda": "Lap başlanğıc" fikri burada insanın heyvanlardan ayrılması və insanın psixi fəallaşmasını ifadə edir. "Eyni zamanda" fikri iki müxtəlif başlanğıcın lap başlanğıc təşkil etməsini bildirir. Yəni, heyvani cütləşmə meylinin seksuallığa keçməsi, eləcə də formal ruhun fiktiv ruha keçərək seksuallıqdan fərqli kimliklər kimi təzahür etməsi eyni zamanda baş vermişdir. Beləliklə, buradan aydın olur ki, insan şüurlaşan andan seksuallığa malik olmuşdur.

Şüurlu insan - bədənlə formal ruhun təzahürlərinin eyni zamanda, birlikdə meydana çıxmasının şərtlərinin məcmusundan ibarətdir.

3. **"Hər bir ayrıca adam çoxlu kütlənin tərkib hissəsidir"**: Mövcud varlıqlar təbiətdə "eyni zamanda yalnız bir yerdə" mövcud olma prinsipinə tabe olur. Yəni bir şey bir şeyin tərkib hissəsidirsə, o eyni zamanda başqa şeyin tərkib hissəsi ola bilməz. Bəs ayrıca adam eyni zamanda çoxlu kütlənin tərkib hissəsi necə ola bilər? Buradan aydın olur ki, ayrıca adamda təbiət qanunlarından fərqli metafizik qanunlara tabe olan mahiyyət vardır və məhz bu mahiyyətinə görə ayrıca bir adam eyni anda çoxlu kütlənin üzvü olur. Çoxlu kütlə eyni yox, fərqli kütlə mənasını verir. Beləliklə, demək olar ki, ayrıca bir adam eyni zamanda çoxlu müxtəlif kütlədə fərqli tərkib hissəsi kimi çıxış edir. Bu da ruhun daxili çoxluq kimi mövcud olması ilə bağlıdır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Formal ruhun daxili çoxluğuna görə, hər bir ayrıca adam eyni zamanda çoxlu sayda fərqli kütlələrdə fərqli tərkib hissə (Mən) kimi iştirak edir.*

4. **"Özünün 'İdeal Mən'ini ən müxtəlif nümunələr əsasında yaratmışdır"**: "İdeal Mən" ifadəsindəki "ideal" sözü kamilliyi bildirir. Buradan da, "özünün İdeal Mən"i dedikdə biz insanın özündə çata biləcəyi ruhi kamilliyi nəzərdə tuta bilərik. Ruhi kamillik daxili çoxluqda kimliklərin bir-birindən fərqindən aşkarlanır, hansı ki, bədənin tələblərinə tabe olmaqla təzahür edən kimlik Formal ruhun xarakteristikalarından ən uzaqda olan və buna görə formal ruhun həqiqətini ən pis keyfiyyətdə özündə təzahür etdirən kimlikdir. Ən ideal kimlik isə bədənin heç bir təsirinə məruz qalmadan, formal ruhun təbiətini özündə təzahür etdirən **Mən** kimi təyin oluna bilər. Buradan da, real Mənə (emanativ Formal Ruha) münasibətdə İdeal Mən - xalis Formal Ruhu özündə ifadə edir. Bütün insanların fiktiv ruhu tək bir Formal Ruhdan yarandığından, hər bir insanda daxildə eyni bir "İdeal Mən" vardır, hansı ki, bədənlə əlaqələnərək bədənlərin fərqliliyinə uyğun müxtəlifləşmişdir (emanasiyaya məruz qalmışdır) və fiktiv ruhlar bədənin təsirindən azad olma cəhdində yenidən tarixi proses kimi həmin İdeal Mənə - xalis Formal Ruha çatmağa cəhd edir. Biz İdeal Məni elə-belə **insanlıq** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İdeal Mən - tək və hər bir ayrıca adama münasibətdə xarici (hər bir ayrıca adamda formal ruh daxili çoxluq kimi təzahür edir), hamıya münasibətdə daxili Formal ruhun (hamı ayrıca adamların bir və eyni kimliyi kimi meydana çıxır) şərtlərinin məcmusundan ibarətdir.*

5. **"Ayrıca adam çoxlu kütlə ruhunun iştirakçısıdır"**: Çoxlu kütlə ruhu formal ruhun daxili çoxluğundan ayrıca adamlardan tək kimliklərin ekzistensiyasından (kənara çıxarılmasından) təşkil olunur. Buradan da, Formal ruhun daxili çoxluğunun xarici çoxlu kütlə ruhu kimi

təzahür etməsi aşkarlanır. "Çoxlu kütlənin tərkib hissəsi" olmaqdan fərqli olaraq, "çoxlu kütlə ruhunun iştirakçısı" olmaq bədənin iştirakına görə bir-birindən fərqlənir. Belə ki, çoxlu kütlənin tərkib hissəsi kimi çıxış etmək bədənin iştirakını tələb edir, amma çoxlu kütlə ruhunun iştirakçısı olmaq bədənin iştirakını tələb etmir. Ayrıca adamın çoxlu kütlə ruhunun iştirakçısı olması ruhun metafizik qanunlara tabe olması ilə bağlıdır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Ayrıca bir adamın çoxlu kütlə ruhunun iştirakı özündə fiktiv ruhun metafizik qanunlara uyğun aktualaşmasının şərtlərinin məcmusundan ibarətdir.*

Formal Ruhun daxili çoxluğunu necə təsəvvür etmək olar? Mövcud varlıqların mövcud olması xarici çoxluqda başqa mövcudluqlarla vəhdətdə aktualaşır. Buradan da, formal ruhun daxili çoxluğunun özündə daxili vəhdət təşkil etməsinin zərurəti aydınlaşır. Əgər Formal Ruhun çoxluğunu təşkil edən təkliklər bir-birindən asılı olmadan müstəqil aktlar kimi meydana çıxsaydı, onda Formal ruh öz daxili çoxluğuna dağılardı və bir insan öz daxilində sonsuz sayda müxtəlif müstəqil kimliklər kimi mövcud olardı və hər bir kimlik də öz növbəsində öz xüsusi bədənini tələb edərdi, bu isə bədənin təkliyinə görə mümkünsüzlükdür. Buna görə də, Formal ruh yaranışda öz daxili çoxluğunun bir-birinə bağlanmasını və bu bağlılığa görə tək kimi daxili vəhdət təşkil etməsinin şərtlərini tələb edir.

Deməli, formal ruhun daxili çoxluğu elə imkanlara malikdir ki, həmin imkanlar daxili çoxluğu vəhdətdə xarici təklik kimi təzahürünə imkan verir. Biz belə imkanın (şərtlərin məcmusunu) daxili çoxluğu təşkil edən tək formaların bir-birinə bağlanmasının şərtləri kimi təyin edirik; həmin şərtlərə görə daxili çoxluğu təşkil edən ruhi formalar bir-biri ilə vəhdətdə tək formal ruh kimi təsəvvürə gəlir. Bu əlaqədə bədən xarici şəraitdən və daxili tələbatlardan asılı olaraq ruhun yalnız bir təkliyini ekzistensiyasına imkan verir, nəticədə daxili çoxluq xarici təklik kimi

meydana çıxır. Başqa sözlə, fiktiv ruhun daxili təsadüfi şərtləri ilə xarici təsadüfi şərtlər uyğun gəldikdə hər bir fərddən təsadüfə görə yalnız bir kimlik təzahür edir. Hər bir insan orijinal olduğundan və xarici şərait təsadüfi şərtlərdən ibarət olduğundan, fərdlərin özlərindən ekzistensiya etdikləri tək fiktiv ruhlar sonsuz sayda fərqli xarici çoxluq kimi meydana çıxır. Belə xarici çoxluğun bir-birinə bağlanması ilə xaricdə Formal ruhun varlığı yaranır.

Digər tərəfdən, öz daxili çoxluğunun vəhdətində metafizikadan fizikaya keçən Formal Ruh, İlahi İradədən mövcudluq şərtləri almadığından, daxili zəruri şərtləri olmadan təbiətə keçir və təbiətdə öz xüsusi mövcudluğu olmadığından, xalis mövcud olma kimi zəruri şərtlərə - kənar mövcudluqlara, o cümlədən bədənə bağlanmaq tələb edir. Başqa sözlə, təbiətdə təzahür, təsir, proses və hərəkətlər obyektsiz hissi qavrama ilə təsəvvürə gəlməsinin və intuitiv qavrama ilə təsəvvürə gətirilməsinin mümkünsüzlüyünə görə, öz obyektivliyi (mövcudluğunun zəruri şərtləri) olmayan Formal ruh yalnız mövcudolma şərtləri ilə metafizikadan təbiətə keçiddə obyekt tələb edir, hansı ki, həmin obyektlərə bağlanmaqla aşkarlanır. Formal ruhun öz daxili çoxluğunun vəhdəti və təbiətdə obyekt tələbinə İlahi İradədən verilən şərtlərin məcmusu - **bağlanma şərtləri** - **EŞQ, ORDO AMORIS** kimi meydana çıxır.

Ordo Amoris (Eşq) - məcazi mənada məhəbbətdir, hansı ki, özündə bizim həyatımızdakı əhəmiyyətinə görə şeyin roludur, hansı ki, bizim ona hiss etdiyimiz bağlılıq gücüdür. **Eşq** - ərəb mənşəli söz olub müxtəlif bablarda birləşmək, qarşılıqlı möhkəm bağlanmaq, ilişkili bağlanmaq, ilişib qalmaq, möhkəm bağlanmaq, yapışmaq, sarmaşmaq mənalarını verir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Eşq - formal ruhun bədənə, fiktiv fərdi ruhların faktuallaşma prosesində ya başqa fiktiv fərdi ruhlarla, ya da xarici obyektiv gerçəkliklərlə birləşməklə, onlara yapışmaqla, onlarla qarşılıqlı möhkəm bağlanmaqla, onlara ilişərək*

qalmaqla faktiki ruhun və ya xarici formal ruhun təşkil olunmasının şərtlərinin məcmusundan ibarətdir.

Eşq - formal ruhu özünə, bədənə və xarici obyektlərə, eləcə də başqa fərdlərə bağlayan başlanğıc prafenomendən (ilkin ruhi istəkdən) ibarətdir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Eşq - öz xüsusi mövcudluğu olmadığından, kənar mövcudluqlardan təzahür etmək və daxili çoxluğundan özünün xarici təkliyini təşkil etmək üçün İlahi İradədən formal ruha verilən bağlanmanın zəruri şərtlərinin məcmusundan ibarətdir.*

Qeyd etmək lazımdır ki, bağlanmaqla vəhdət təşkil etmək bir-birindən fərqli mənalara malikdir. Biz:

- **Bağlanmağı** - müstəqil mövcud olmanın başqaları ilə birgə mövcud olmanı inkar etməməsi kimi **keçici əlaqə** mənasında;
- **Vəhdət təşkil etməni** - başqaları ilə birlikdə mövcud olmanın müstəqil mövcud olmanı inkar etməsi kimi **daimi əlaqə** mənasında işlədirik.

Eşq - bağlanmaq istəyi kimi yalnız formal ruha xasdır. Formal ruh bədənlə əlaqələndikdən sonra bağlanmaq istəyi bədənin başlanğıc istəyi ilə birlikdə fərdin başlanğıc istəyini təşkil edir. Eşq bədənin ilkin istəyi ilə birlikdə **bağlılıq hissi** kimi təzahür edir. Ruhun öz obyekti olmadığından, Formal ruhun mövcud olmasından yaranan hiss obyektsiz hisslərdən ibarət olur. Fəlsəfədə obyektsiz hissləri obyektli hisslərdən (fenomenlərdən) fərqləndirmək üçün onları **Prafenomen** adlandırırlar.

Prafenomen nədir? Hiss - obyektlərin təşkil olunmuş formasının təzahürüdür, buna görə də biz hissləri **təşkilolunmanın şərtləri** kimi təyin edirik. Beləliklə, mövcud varlıqlar təşkilolunmaqla (mövcudluqdan sonra) özlərindən hissi təsir edərək fenomenlər kimi təzahür edirlər. Obyektsiz hisslər - prafenomenlər isə əvvəl xalis hissi təsir kimi mövcud olur və sonradan mövcudluğu təşkil etməkdə iştirak etməklə təsir edirlər.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Fenomenlərdən hisslər, prafenomenlərdən ikincili fenomenlər təzahür edir.*

Təbiətdə mövcud varlıqlar əvvəl təşkil olunur, sonra hissi təsir edir və xarici vəhdətdə başqa varlıqlara təsir göstərir. Əvvəl obyektivləşmə, sonra təzahür və hissi təsir göstərmə **fenomen** kimi (təbii mövcudluqlar kimi) meydana çıxır. **Prafenomenlər** fenomenlərdən fərqli olaraq əvvəl təsir meydana çıxır, sonra həmin təsir mövcudluq (obyekt) təşkil edir. Fenomenlərdə obyekt-hiss əlaqəsində obyekt əvvəl və hiss sonra, və ya obyekt indi və hiss gələcək kimi meydana çıxır. Beləliklə, hiss həmişə gələcəyə istiqamətlənməni bildirir. Məsələn, obyektlərin hissi təsiri gələcəkdəki əks-təsiri yaradır. Eləcə də prafenomenlər indi olmayan və yalnız gələcəkdə mövcud olacağın təşkilinə xidmət edir. Hər bir fenomen hissi təsir etdikcə özündə gələcəyə doğru hərəkət edir. Prafenomenlər obyektsiz indidə meydana çıxan hisslər kimi sonra, yəni gələcəkdə mövcudluq təşkil etməyə, gələcəkdə meydana çıxacaq ruhun obyektivliyinə, ruhun mövcudluğuna istiqamətlənib.

b. ÖLÇÜLƏNDİRMƏNİN ŞƏRTLƏRİ: İRADƏ - SUPER EQO

Mümkünlüyün mövcudluq tələbinə İlahi tərəfindən zəruri şərtlərin verilməsi ilə mövcud varlığın yaranışı baş verdiyi kimi, formal ruh özündən öz xalis fəaliyyətinə şərt verməklə özünə mövcudluq əldə edir. Məhz bu cür özündən şərt verməni biz **İradə** kimi təyin edirik. İnsan iradəsi bədənlə əlaqədə İlahi İradəni ən pis keyfiyyətdə özündə refleksiya edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İradə - bədənlə əlaqədə formal ruhun ölçülülük verməklə özünə xarici mövcudluq əldə etmənin şərtlərinin məcmusundan ibarətdir.*

Formal Ruh İlahi İradədən bilavasitə zəruri şərtlər almadığından, təsadüfi şərtlərin məcmusu kimi ölçüsüzlüklə metafizikadan fizikaya keçir.

Eşqə malik formal ruh öz metafizik azadlığına - ölçüsüzlüyə görə metafizikadan təbiətə keçdikdə, sonsuz sayda mövcud varlıqlara eyni vaxtda bağlanmaq imkanı əldə edir. Bu da ruhun bütün mövcudluqlarda yayılmasına, onlara paralel onlarda mövcud olmasına səbəb olaraq, xaos kimi meydana çıxardı. Yəni hər bir mövcudluq özündə ruha malik olardı. Təcrübədən görünür ki, ruha aid edilən keyfiyyətlər yalnız şüurlu insana xasdır. Deməli, eşqlə yanaşı formal ruhda elə şərtlər vardır ki, həmin şərtlər eşqin azadlığını məhdudlaşdırsın və onu zərurətə görə mövcudluğa bağlasın. Digər tərəfdən, mövcudluğa paralel hər şeydə olan formal ruh öz xaosu ilə mövcudluğun nizamına paralellik təşkil edərdi. Lakin xaos təbiət nizamına ziddiyyət təşkil etdiyindən, ruha yaranışdan ona nizamlanmanın şərtləri (yəni xüsusi hallarda zərurətə görə bağlanmanın şərtləri) verilir. Biz bu şərtlərin (nizamlanma şərtlərinin) məcmusunu **İradə** kimi təyin edirik.

İradə - ruhun bədənlə əlaqəsində bu əlaqəni elə nizamlamağın şərtlərindən ibarətdir ki, eyni vaxtda həm bədənin, həm də ruhun məqsədlərinə xidmət edən təzahürlər meydana çıxsın.

Psixologiyada **SUPER EQO** bədənlə ruhun qarşılıqlı əlaqəsindən meydana çıxan tənzimləyici güc kimi təsəvvür olunur. Əgər Eqo bədənlə ruhun əlaqəsinin təzahürüdürsə, onda Super Eqo bu əlaqəni (Eqonu) tənzimləmək üçün bu əlaqədən üstdə olmalıdır. Buradan da aydın olur ki, İradə - Super Eqo kimi bədəndən ayrılıqda mövcud olan formal ruhun şərtlərindəndir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İradə - eşqin sonsuzluğunu və əbədiliyini, yəni ölçüsüzlüyünü məhdudlaşdıran, onu ölçüləndirən Formal ruhun şərtlərinin məcmusundan ibarətdir.*

Mövcud varlıqlarda Kosmosda ölçülənmə məkan və zaman şərtlərinin vəhdətindən meydana çıxır. Buradan da, İradəni məkan və zamandan asılı olaraq eşqin təzahürünü təmin edən daxili ruhi güc kimi təyin etmək olar.

A.Louen yazır: *"Eqonun nəzarətində yalnız obyektdir, mənbə, güc və istiqamət - bütün bunlar İd-in təzahürüdür."* Eqonun nəzarətdə saxladığı obyekt bədən, mənbənin, gücün və istiqamətin saxlandığı isə onun əksiliyi kimi formal ruhu hesab etmək lazımdır. Yəni, İd əslində Formal ruhu özündə ifadə edir.

Buradan da aşağıdakı pnevmotoloji ideya aşkarlanır: İradə - formal ruhun enerjisini həcmləndirən, gücünü istiqamətləndirən şərtlərin məcmusundan ibarətdir.

Bəs İradə necə ekspressiya olunur, yəni bədəndən kənara çıxarılır? Əgər ruhun bütün şərtləri bədənlə kənara çıxarılırsa, onda İradə də bədənin harasından kənara çıxarılır?

Haşiyə: A.Louen, "Bədənin dili"

> *"Seksual cəhd Eqonu ifadə etmək kimi başlayır. Fiziki təmasa çox qalmış iki şəxs arasında onların gözləri görüşür. Şindler, onun arxasınca Klapred Eqonu 'gözlərin arasında' yerləşdirmişdir. Mən də energetik titrəyişlərin yuxarı nöqtəsini gözlərarasına, burunun əsasına qoyardım."*

Gözlər obyektin xarici görüntüsü haqqında məlumat qəbul edir. Əgər iradə məlumatın ölçülənməsini təmin edirsə, o məhz gözlərarasından təzahür etməlidir ki, xarici görüntü ruh tərəfindən ölçüsüzləşdirilməsin; eynilə iki şəxs arasında seksual istəklərin tənzimlənməsində də eynilə iradə məhz gözlər arasında təzahür etməklə onların seksual cəhdlərini ölçüləndirir. Belə ölçüləndirmə olmasaydı, insanlar arasında seçimə görə seksuallıq meydana çıxmazdı. O ki qaldı Eqonun gözlərarasına yerləşdirilməsi, bu yanlışdır. Çünki Eqo bədənlə ruhun qarşılıqlı əlaqəsində bütün təzahürlərin məcmusu kimi təzahür edir, hansı ki, bu təzahürlərdə bir çoxu gözlə alınan məlumatlara aidiyyəti yoxdur.

Biz İlahi iradəni mümkünlüyün mövcudluq tələbində ona verilən zəruri şərtlərin məcmusu kimi təyin etmişdik. Buradan da, formal ruhun fiktiv ruha mövcudluq şərtləri verməsini iradə kimi təyin edə bilərik.

İnsan iradəsi özündə ilahi iradənin refleksiyası kimi mövcuddur. İlahi necə yaratdıqlarına məkan və zaman şərtləri verməklə onları var edir, onların enerjisini həcmləndirir, gücünü istiqamətləndirirsə, Formal Ruh da bədənlə əlaqələndikdən sonra öz fiktiv varlığına özündən məkan və zaman şərtləri verməklə, öz enerjisini həcmləndirməklə və öz gücünü istiqamətləndirməklə öz mövcudluğunu yaradır.

Haşiyə: Rollo Mey, "Məhəbbət və İradə"

"İradə - öz kimliyini təşkil etmək qabiliyyətidir, hərəkəti müəyyən istiqamətdə və ya müəyyən məqsədlə həyata keçirə bilər."

Formal ruhun kimliyi onun öz xüsusi mövcudluğudur, hansı ki, onu təşkil etmək onun öz iradəsinə həvalə edilmişdir. Təbiətdə mövcudluqlar determinizm prinsipinə tabe olur, hansı ki, biz determinizmi məkan və zaman ölçülüyünün zəruriliyi kimi təyin edirik. Yəni, təbiətdə hər bir mövcudluq müəyyən zaman və məkan şərtində bir mövcudluqdan başqasına keçməklə meydana çıxır. Buradan da, səbəblə nəticə əlaqəsi ölçülüklə müəyyən olunur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İlahi iradədən Formal Ruha mövcudluğun zəruri şərtləri (məkan və zaman ölçülüyü) verilmədiyindən, o, təbiətdə hökm sürən determinizmə tabe olmur.*

Bu o deməkdir ki, ruh materiya ilə səbəb-nəticə əlaqəsində deyil, buna görə də hər ikisi bir-birindən fərqli müstəqil başlanğıca malikdir və ruh bədənə, bədən də ruha keçmir. Sadəcə hər ikisi bir-biri ilə bağlanaraq əlaqələnir. Bədənlə əlaqələnmiş formal ruh fiktiv ruha çevrilməklə fərqli prinsiplərə tabe olur. Belə ki, ruhun bir tərəfdən öz xüsusi mövcudluğu yoxdur, buna görə də ölçüsüzdür; digər tərəfdən bədənlə əlaqədən təzahür edir, buna görə bədənin zərurəti ilə şərtlənmişdir. Biz ölçüsüzlüyü metafizik azadlıq və ya başlanğıc xaos kimi təyin edirik.

Buradan da:

- **Mümkünlüyün varlığı** - mütləq azadlığa;
- **Mövcud varlıqlar** - mütləq məhdudiyyətə;

- **Bədənlə şərtlənmiş fiktiv ruh** - məhdud azadlığa malik olur.

Mütləq məhdudiyyət - mövcudluğun istənilən forma ala bilməməsini özündə təqdim edir; hansı ki, məhz buna görə hər bir mahiyyət forma tələbində yalnız bir xüsusi forma əldə edir və Kosmos belə xüsusi formalara malik şeylərin vəhdətindən təşkil olunaraq nizamlanır.

Mahiyyət necə yalnız bir forma ilə vəhdət təşkil edir? Biz formanı **hərəkətin saxlanması** kimi təyin etmişdik. Hərəkətin mənbəyi enerjidir. Buradan aydın olur ki, mahiyyət mövcud varlığın enerjisini hərəkətə sərf edərək onu tükəndirməklə hərəkəti saxlamaqla forma yaradır. Əgər hər hansı bir səbəbdən varlığın daxili enerjisi tam hərəkətə sərf olunmursa, onda forma qeyri-təkmil inkişafda olan forma kimi meydana çıxır. Yox, əgər varlığın daxili enerjisi tükənməklə forma yarandıqdan sonra varlığa xaricdən yeni daxili enerji verilirsə, onda mahiyyət yenidən hərəkət yaradaraq onu yeni forma kimi saxlamaqla onu tükəndirir. Buradan **dəyişkən formallıq** yaranır, hansı ki, canlılar xaricdən yeni daxili enerji porsiyaları almaqla sürəkli olaraq öz formalarını yenidən ölçüləndirir.

Mövcud varlıqlarda hərəkətə enerji verilməsi və onun saxlanması İlahi iradə ilə mahiyyətə qoyulmuş şərtlərlə (məkan və zamanla) məhdudlaşmışdır. Ruh belə zəruri şərtlər almadığından Kosmosda özü-öz enerjisini hərəkətə çevirmək (psixi fəaliyyətin müxtəlif növləri kimi) və onu saxlamaqla forma yaratmaq (yaradıcılığın müxtəlif formalarının şərtlərini verərək) öz mövcud varlığını yaradır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İradə - psixi fəaliyyətin və yaradıcılığın ölçülənməsinin şərtlərinin məcmusundan ibarətdir.*

Nizam nə qədər sərt olursa, azadlıq bir o qədər məhdud olur və forma bir o qədər konkret olur. Azadlıq dərəcəsi nə qədər kiçilirsə, determinizm bir o qədər sərt olur. Təbiətdə mütləq məhdudiyyət olduğundan, mövcud varlıqlar xarici keçid prosesində sərt determinizmə tabe olur. Ruh başlanğıc xaosda mövcud olan, amma təbiətə keçiddə bədənlə əlaqələnir

və mövcud insan özündə nizamla xaosun vəhdətini - mahiyyətin tam azadlığı ilə formanın tam asılılığının vəhdətini - təzahür etdirir. Buradan da, ruhun təbii determinizmə tam tabe olmamasının, yəni ona müdaxilə etmək imkanının şərti aşkarlanır. Biz, Ruhi fəaliyyətin təbii determinizmə müdaxilə edərək təbii mütləq məhdudiyyəti azadlıq istiqamətində dəyişdirmək cəhdini **iradə** kimi təyin edirik.

Buradan da aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İradə - insan azadlıqlarının zəruri şərtlərinin məcmusundan ibarətdir.*

İradəyə malik olmayan insan təbii determinizmə tabe olan canlı növ kimi mövcud olur və buna görə təbiətin tam əsirinə çevrilir.

Psixologiyanın banisi Z.Freyd insanlığa çox böyük xidmətlər göstərərək şüurlu insanın tabe olduğu qanunların kəşf edilməsinin yollarını göstərmişdir. Lakin, Formal Ruhun varlığını qavraya bilmədiyindən, bir neçə ciddi səhvə yol vermişdir, hansı ki, nəticə etibarı ilə insanın psixi fəaliyyətinin başlanğıcının bioloji instinktlərlə izah edilməsinə gətirib çıxarmışdır. Əslində, Z.Freyd özü də dəfələrlə filosofların ruhla bağlı konkret şərh vermədiklərindən psixoloji analizin çətinlik yaratdığını qeyd etmişdir. Bu çətinliyə görə Z.Freyd iradəni boğucu güc kimi təsəvvür edir, hansı ki, psixi aparatı hərəkətə gətirən insanın istəklərinin əksiliyi kimi təsəvvür edir.

Biz, istəyi ölçüsüz mövcudluq tələbi kimi təyin edirik. Şüursuz heyvanların "istəyi" onların tələbatları ilə eynilik təşkil edir. Buna görə, psixologiya elmi "uyğunlaşma və təkamül istəyini" - "yaşamaq" və "çoxyaşamaq" istəyini etiraf edir. Yaşamaq istəyi özünüqoruma instinktindən, çoxyaşamaq istəyi nəsilvermə instinktindən meydana çıxır, hansı ki, hər iki instinkt bioloji mənşəli olub canlı bədəndən təzahür edir. Məsələn: bir yırtıcı aclıq tələbatını ödəmək üçün ov "istəyir" və ovlandıqdan sonra ovlamaq istəyi dərhal yox olur.

Rollo Meyə görə:

"İstəməyi dayandırmaq - ölməyi və ya ən azından ölülər aləmində yaşamağı bildirir. boşluq, vakuum və mənasızlıq bütün istəklərin yerinə yetdiyi yerdə daha böyükdür."

Bizcə, ruhi istəməyi birdəfəlik dayandırmaq Meyin fikirləri ilə şərh oluna bilər. Tələbat heyvanlarda dövri təzahür olduğundan, heyvanlarda istəməyi dayandırmaq müvəqqəti proses kimi meydana çıxır. Buna görə də, bu vəziyyəti ölmək kimi dəyərləndirmək olmaz.

Şüurlu insanda istək - başlanğıcda insanın bədən tələbatlarından meydana çıxır, amma insanda ruh olduğundan həmin tələbatlar, məna əldə edərək, Formal ruhun xalis metafizik qanunlarına uyğun təzahür edir. Metafizik qanunlara tabe olan istək **arzulamaq** forması alır, hansı ki, sürəklilik əldə etməklə, tələbatın ödənməsi istəyinin sərhədlərindən çıxaraq fantaziyalara keçir. Bəzən insan arzuları o dərəcədə inkişaf edir ki, biz bu arzularla bədən tələbatları arasında əlaqəni aşkarlamaqda çətinlik çəkirik. Məsələn, insanın Kosmosu fəth etmək arzusu və ya atomun sirlərini açmaq arzusu ilə "yaşamaq və çox yaşamaq arzusu" arasında əlaqəni tapmaq o qədər də asan deyil. Buna baxmayaraq, hər iki arzu məhz öz əsasında insanın yaşamaq və çox yaşamaq kimi bioloji "istəklərindən" çıxır. Fantaziyaları təmin etmək qeyri-real olduğundan, qeyri-məhdud arzulamaqla insan sonsuzluğa qərq olur və heç bir tələbatını ödəyə bilmədiyindən məhv olur. Məhz buna görə Freyd istəyi ölüm instinkti ilə, buradan da "orqanizmlərin qeyri-üzvi vəziyyətə qayıtma meyli" ilə əlaqələndirir və arzunu "kor güc" adlandırır.

Biz yalnız xalis fantaziyaları - xülyalara keçən arzulamağı "kor güc" adlandırırıq, hansı ki, xülyalar həqiqətən də insanı öz reallığından qoparır və onu "qeyri-üzvi vəziyyətə qayıtmağa meyl" yaradır. İnsanı sonsuz arzulamaqdan xilas edən güc məhz Formal Ruhdan meydana çıxan iradəvi gücdür. Məhz insan iradəsi Formal Ruhun İlahidən verilmiş zəruri şərti kimi, bədənin bu tələbinə qarşı özündən şərtlər verərək, insanı ölçülü mövcudluq tələbinə, istəyə, yəni reallığa istiqamətləndirir. Məhz

İradənin bu cür təsiri nəticəsində insan öz arzularını müəyyən ölçülərdə reallaşdırmaq üçün fəaliyyətə başlayır və bu fəaliyyətin nəticəsində ruh özünün faktik varlığının yaradılmasına nail olur. Buna görə də, Freyddən fərqli olaraq biz insan iradəsini neqativ yox, pozitiv güc kimi; arzulamağı isə neqativ güc kimi təyin edirik.

İnsan iradəsindən fantaziyalara aşağıdakı ölçülüklər verilir:

a. Məna ölçüsü - İdeya: İlahi iradədən mümkünlüyün varlığının mövcudluq tələbinə iki cür ölçü (mahiyyətin və formanın ölçülüyü) verilir, hansı ki, həmin ölçülüklər məkan və zaman şərtlərindən çıxarılır və nəticədə mövcud varlıq meydana çıxır. İnsan da öz iradəsi ilə öz-özünə şərtlər verərək öz mövcudluğunu yaradır. İlahi yaranışa uyğun mahiyyət verməni insan **məna vermək** kimi reallaşdırır. Yəni, insan iradəsindən istəyə məna verilərək onlar arzuya çevrilir. R.Mey yaşantılara məna verilməsini **intensionallıq** kimi şərh edir. Meyə görə intensionallıq şüurun əsasında dayanır və iki cür şərh edilə bilər:

1. **Rəydən çıxan intensionallıq** - "bizim niyyətlər ondan ötəri həlledici əhəmiyyət kəsb edir ki, biz dünyanı necə dərk edirik".
2. **Həqiqətən obyektdən çıxan intensionallıq.**

Meyə görə intensionallıq obyektlə bizim aramızda körpüdür. Başqa sözlə, məna ölçülüyü arzuya ideya verməyi özündə ifadə edir, hansı ki, ya faktdan çıxan ideya, ya ağıldan çıxan ideyadan ibarət olur. Yəni insan iradəsi ideya verməklə istəyi arzuya çevirir. İntensionallığa görə subyekt obyekti necə var elə görür və başa düşür.

b. Forma ölçüsü - Simvol: İnsan iradəsindən hər bir arzuya həm də formanın şərtləri verilir. Əgər İlahi iradədən mövcudluğa təbii formanın şərtləri verilirsə, insan iradəsindən arzulara süni forma - təsəvvürlərdə mövcud olan obrazlar verilir, hansı ki, təsəvvürdə mövcud olduğundan təbii formadan fərqli olaraq mücərrəd formalardan ibarətdir. Biz bu cür mücərrəd formaları **simvol** adlandırırıq. Simvol - süni və ya mücərrəd ölçülükdən ibarətdir. Beləliklə, Allah mümkünlüyün mövcudluq

tələbində ona şərtlər verərək mövcud varlıqları ayrı-ayrı ölçülərdə simvollar kimi yaradır. İnsan da öz növbəsində yaradılmışlarla əlaqəyə girmək üçün özündən simvollar yaradaraq mövcud varlıqlarla onların eyniliyindən dünyanı dərk edir. Simvol sözü "bir yerə yığmaq" mənasını verir. Bu mənada iradədən arzulara şərtlər verilməsi, arzuları bir yerə yığmaq, onları sonsuzluqdan xilas edərək konkret ölçülərə salmağı ifadə edir.

Haşiyə: Rollo Mey, "Məhəbbət və iradə"

> *"Şüurun təzahürü və inkişafı, qabiliyyətlərin yaranması ilə bağlı subyekt kimi dünyada obyektləri özündə qavramağın yeni üsulları meydana çıxır. Onlardan başlıcaları simvollardan istifadə və simvolik mənalarla dünya ilə rabitə müəyyən etməkdir. İnsanda şüur əmələ gəldikdən sonra arzu heç vaxt sadəcə tələbat, xalis təcrübi olmur. Arzu - bizim gələcəyə özünü istiqamətləndirmədir, onun etirafıdır ki, biz gələcək kifayət qədər müəyyən olsun; bu qabiliyyət özü-özünün dərinliyinə baxmaq və gələcəyi dəyişdirmək cəhdinə diqqəti cəmləməkdən ibarətdir."*

Meyin şərhindən də görünür ki, bədənlə bilavasitə əlaqədə təzahür edən, ruhun ətrafla əlaqəyə girməsi simvollar vasitəsi ilə artıq vasitəli olur. Sonradan insan bir simvoldan başqa simvolla əlaqəyə girərək ("Öz dərinliyinə baxaraq") yenidən təbiətdən kənara çıxmaq imkanı əldə edir və metafizik qanunlara uyğun olaraq indidə və gələcəkdə eyni yerdə olmaq və buradan da gələcəyi qavradığından onu dəyişdirmək imkanı əldə edir. Heyvanlar bundan fərqli olaraq, gələcəkdə ola bilmir. Heyvan indi və keçmişdə prinsipi ilə mövcud olur, hansı ki, keçmiş - növ kimi irsi məlumatlarla, indi - mövcud olan heyvani təbiətdən sürəkli olaraq təzahür edir. İnsanın gələcəyə getməsi və onu dəyişdirmək cəhdi arzulamaqla müşahidə olunur. Linc belə hesab edir ki, *"hər bir həqiqi arzu yaradıcılıq aktıdır"*. Buradan da arzulayan insan yaradan insana çevrilir. Simvollaşdırmaya görə subyekt özünə intensionallığa uyğun obyekt

(mövcudluq) yaradır. İstənilən yaradıcılıq aktı özlüyündə simvol yaratmaqdan ibarətdir.

Haşiyə: Rollo Mey, "Məhəbbət və İradə"

> *"Foma Akvinalıya görə "ağıl idrak prosesində özünəməxsus məlumat alaraq, dərk edilən şeyə nisbətdə özündə hansısa intensiya formalaşdırır". Biz görürük ki, "məlumat almaq" passivliyi, sonra "formalaşdırmaq" aktivliyi bildirir. Mən bunu belə başa düşürəm ki, idrak prosesində biz "məlumat alırıq", in-formalaşmış idrak şeyində oluruq, və bu hərəkətlə bizim ağlımız eyni zamanda şeyə forma gətirir, hansı ki biz dərk edirik."*

Biz bu prosesi R.Meydən fərqli təsəvvür edirik. Burada forma ilə bağlı üç müxtəlif anlayış ayırd etmək olar:

1. **İnformasiyalaşmaq (in-formasiyalaşmaq)** - formanı dəf etmək;
2. **Formalaşmaq** - forma yaratmaq.

Biz **in-formasiyanı** formaya laqeyd qalmaq, və ya formanı kənarlaşdırmaq, və ya formanın daxilinə keçməklə ondan azad olmaq kimi təyin edirik. Beləliklə, in-formasiyalaşmaqla ağıl gerçəkliyin formasından onun daxili aləminə keçir və burada mahiyyəti xarici seyr yolu ilə idrak edir.

İnformasiyalaşmaq - ağlın özündən doğan ideyalarla gerçəkliyin ideyalarını tutuşdurmaqdan ibarətdir, hansı ki, ağlın ideyaları gerçəkliyin ideyalarının formasını alır, yəni informasiya əldə edir. İnformasiya ağıldan törəyən informasiyasız ideyalarla həyata keçirilir. Yəni gerçəklik öz ideyalarını heç bir məlumat daşımayan ağıldan törəyən ideyalara həkk etməklə ağlı informasiyalaşdırır.

Formalaşdırmaq - forması olmayana forma vermək, forması olanın formasını dəyişməkdən ibarətdir. Əgər ağıldan törəyən ideyalar özlərində konkret məlumat daşıyırsa, onda faktdan törəyən ideya ağıldan törəyən ideyaya uyğunlaşdırılır, yəni formalaşdırma meydana çıxır. Beləliklə, formanın şərtlərinin məcmusundan formal ruh ya in-formasiyalaşır, ya

informasiya əldə edir, ya da formalaşdırmağa nail olur. Formalaşdırmaq özü-özlüyündə müəyyən ölçüyə salmağı təqdim edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İradə - in-formasiyanın, informasiya əldə etmənin və formalaşdırmanın şərtlərinin məcmusundan ibarətdir.*

R.Meyin qeyd etdiyi kimi, biz ağlımızla yalnız in-formalaşmış şeydə oluruq, bədənimizlə formalaşmış şeydə təmasda oluruq, sonra hisslərimizlə onu in-formasiya edirik. Bu mərhələdən ağıl bədəndən ayrılıqda gerçəkliyə daxil olur və məlumat əldə edir.

In-formalaşmaq özündə ruhun ekzistensiya edərək forması olan şeyin formasından onun daxilinə keçməsini və bununla formanı kənarlaşdırmağını bildirir. Biz in-formalaşmanı **formasızlaşdırma** kimi (mahiyyətin formadan soyundurulması və ya onunla vəhdətdən kənarlaşdırmaq kimi) təyin edirik. Şeyin mahiyyətini özündə refleksiya edən ağıl şeydən informasiya almış olur. Buradan, informasiyalaşmaq - ruhun şeyin mahiyyətini özündə refleksiya etməsini bildirir. Belə informasiya almış ruh özündə qavranılan şeyin mahiyyəti ilə eynilik təşkil edir. Mahiyyət forma tələbindən forma yaratdığı kimi, mahiyyətlə eynilik təşkil edən ruh da özündə özündən elə forma (mücərrəd forma-obraz) yaradır, hansı ki, formalaşdırma kimi meydana çıxır. Ruh həm də özünə dalaraq özündən informasiya alır. Bu zaman ruhun öz forması olmadığından, in-formlaşmaq təzahür etmir, ruh özü-özündən aldığı məlumata uyğun özündən obraz formalaşdırır. Belə formalaşdırma **sim-vollaşdırmanın** mahiyyətini təşkil edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Simvol - ruhun özü-özündən aldığı informasiyanı formalaşdırmağın şərtlərindən ibarətdir.*

İnsanın formalaşdırması İlahi formalaşdırmadan fərqlənir. İlahi iradədən mümkünlüyün varlığının mövcudluq tələbinə sonsuz məkanın və əbədi zamanın sərhədlərində məhdud məkan və zaman ölçüləri verilir və hər bir mövcudluq özünə xas ölçülərdə mövcud olur. Ruha İlahi iradədən

iradə şərtləri verilmişdir, hansı ki, ölçüsüz (yəni mücərrəd məkan və zaman şərtlərindən ibarətdir). Bu cür məkan və zaman şərtlərində ruh öz faktik varlığına mövcudluq verə bilmir. Bunu dəf etmək üçün İlahi iradədən mövcud varlıqlara verilmiş ölçülüyü bədən vasitəsi ilə mənimsəyərək həmin ölçülərlə öz formal varlığına mövcudluq verir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Bədən-ruh əlaqəsi - gerçəkliklərdən onların ölçülüyünün aksidensiya edilərək formal ruha ötürülməsinin və sonra ruhun həmin ölçülük əsasında öz xarici faktik varlığını yaratmasının şərtlərindən ibarətdir.

Haşiyə: Rollo Mey, "Məhəbbət və İradə"

"Allah formanı xaosdan yaratdı, biz isə formanı xaosa çevirmişik və nadir insanlar öz ruhunun gizli guşəsində ölümə qədər qorxmur ki, biz yenidən xaosu formaya çevirə bilərik."

R.Meyin fikirləri əslində İradənin mahiyyətini çox dəqiq ifadə edir. Allah Mümkünlüyün varlığının mövcudluq tələbinə şərtlər verməklə aydınlaşmayan və buna görə xaos kimi qavranılan həqiqəti formadan aydınlaşan həqiqətə çevirmişdir. Buradan da, forma sanki xaosdan yaranmışdır. İnsan ətrafın hissi qavranılması prosesində yenidən mövcud varlığı forma və mahiyyətə ayıraraq onları öz təfəkküründə ayrı-ayrı formanı (ölçülü obrazlar kimi), həqiqəti (ölçüsüz ideyalar kimi) refleksiya edir. Ölçüsüz ideyaların məcmusu yenidən mümkünlüyün varlığı kimi özündə xaosu təqdim edir. Bundan sonra, insan iradəsinin iştirakı ilə bədəndən alınan ölçülüklə təfəkkürdə xaosdan alınan konkret ideyalar xarici obyektlərə köçürülən ruhi faktlar kimi yaradılır. Nəticədə yenidən xaos formaya çevrilir. Biz formanın insan tərəfindən xaosa çevrilməsini **idrak**, yenidən xaosdan formaya keçidi **yaradıcılıq** kimi təyin edirik.

Buradan da, insan yaradıcılığı təbii şeylərin formasından faktiki ruhun formasının yaradılması kimi təyin oluna bilər.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İradə - Ruhi mövcudolmada mümkünlüyün ikincili mövcudluqlarda mövcudluq tələbinə Formal Ruhun özündən şərtlər verməklə mövcudluq əldə etməsindən ibarətdir.*

Fiktiv ruh insan İradəsinin gücü ilə xarici faktiki ruhu yaratdıqca, buna paralel onunla vəhdət təşkil edən xarici tək Formal insan ruhunu da yaradır. Məhz bu iki varlıqdan ruhun mövcud varlığı sintez olunur. Formal Ruhun varlığı ilə faktiki ruhi varlığın vəhdətinin pozulmasından ən müxtəlif fiktiv ruhi varlıqlar yaranır.

İnsanın yaradıcılığı Allahın yaranışı ilə şərtlənmiş yaradıcılıqdan ibarət olur. Əgər bütün mövcudluqların forması onların öz mahiyyətindən çıxırsa, insanın yaratdıqlarında forma kənardan insan tərəfindən ona verilir. İnsan iradəsi həm də xarici formal ruhun mövcudluğunu təmin etmək məqsədi güdür, hansı ki, hər bir fərdin cəmiyyətlə əlaqələrində üzə çıxır. Buradan da, insanın iradəsi onu başqa insanlarla qarşılıqlı bağlılığın ölçülüyünün şərtlərini özündə daşıyır. İradənin mövcudluğuna görə, heç bir fərd istənilən sayda insanla xarici bağlılıq yarada bilməz. Buradan da, ruhi enerjinin həcminə uyğun fərdin psixi fəaliyyətinin istiqamətlənməsi zərurəti meydana çıxır.

İnsan iradəsi ruhi fəaliyyəti faktuallaşmaya yönəldən ilahi şərtlərin məcmusundan ibarətdir. İlahi iradədən verilmiş ruhi fəaliyyətin şərtlərinin məcmusu, ruhun faktı olmadığından, elə-belə şərtlər kimi bədən faktı ilə vəhdətdə meydana çıxır, hansı ki, biz bunu insan iradəsi kimi dəyərləndiririk.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Ruhi fəaliyyətin şərtləri özünə münasibətdə zəruri, mövcud bədənə münasibətdə təsadüfi, mövcud insanla birgə ətraf şərtlərə münasibətdə zəruri şərtlərdən ibarətdir.*

Burada:

- **Özünə münasibətdə zəruri olmaq** - onu bildirir ki, belə şərtlər olmadan ruhi fəaliyyət yaranmır.
- **Bədənə münasibətdə təsadüfi olmaq** - onu bildirir ki, ruhi fəaliyyət bədəndən asılı olaraq, müxtəlif təkmillikdə meydana çıxır.
- **Mövcud insanla birlikdə ətraf şərtlərə münasibətdə zəruri olmaq** - onu bildirir ki, hissi qavrama üsulu ilə ruhi fəaliyyət bədənlə ruhun vəhdətinin zəruriliyini tələb edir, hansı ki, bu vəhdətdə bədən hissi qavrayan, ruh hissi qavranılanları dərk edən kimi çıxış edir.

İnsan iradəsi bədənlə şərtləndiyindən şərtsiz mütləq iradəyə nisbətən qeyri-kamildir. Yəni hər bir mövcudluq zəruri şərtlərdə mövcud olduğundan, özünün son kamilliyində meydana çıxır, amma insan iradəsi ilə təşkil olunan ruhi mövcudluq qeyri-kamil olur və buna görə də sürəkli olaraq təkmilləşmə tələb edir.

İradə problemi psixologiyanın əsas məsələlərindən biridir və "iradəvi güc" kimi təsəvvür olunur. XIX əsrdə "iradə gücü"nü qərar qəbul etmək qabiliyyəti, sonra məqsədəyönlü öz həyatını mədəniyyətlərinin göstərdiyi rasional və əxlaqi yola istiqamətləndirmə kimi başa düşmüşlər. İradəni özünü və başqasını idarə edən güc kimi təyin etmək olar, hansı ki, bu zaman iradəvi güc daxili ruhi güc kimi təzahür edir. Beləliklə, insanı mücərrəd xarici ruhi fakta uyğun əxlaqi-mənəvi və elmi inkişafa istiqamətləndirən, yəni onu idarə edən gücün şərtlərini biz ruhi fəaliyyətin iradəvi zəruri şərtləri kimi təyin edirik. İradənin təsiri ilə fərd özünün fərdi və kollektiv səyi ilə təbiətin fəth edilməsini - yəni onun idrakını reallaşdırır və bu reallığa uyğun özü-özündə ruhi fakta çevrilir. Dünyanın məşhur psixiatrlarından Rollo Mey insanın öz iradəsini şişirtməsini, özünü nəhəng güc kimi təsəvvür etməsini, özünü təbiətüstü elan etməsini, bununla da öz iradəsini ilahi iradə kimi dərk etməsini **iradənin korlanması, nizamsızlığı** adlandırır.

Haşiyə: R.Mey, "Məhəbbət və iradə": *"Bizim problemimiz ondan ibarətdir ki, müasir insanı belə güclü edən bir və eyni proses bizi gücsüzləşdirir."*

Buradan da məlum olur ki, elə-belə xalis iradəvi şərtlər bədənlə asılılıqda korlanmağa meyillidir. Korlanmış iradə isə ruhun faktuallaşmasına xidmət etmir. Beləliklə, bədəndən asılılığın azalması dərəcəsində insan iradəsi insanı gücsüzləşdirmədən gücləndirir. Buradan aydın olur ki, ruhi fəaliyyətə verilmiş zəruri şərtlərə həm də o şərtlər aiddir ki, həmin şərtlər bədənin məhdudlaşdırılmasını həyata keçirir. Bu güclər psixologiyada **"ruhi güclər"** adlandırılır. Ruhi güclər itaət və qəbul etmə kimi təzahür edir. İtaət və qəbul etmə gücünə görə insan başqa insanlarla və təbiətlə razılığa gəlir, hansı ki, başqaları ilə birlikdə təbiəti idrak edərək ruhun faktuallaşmasına nail olur. Bədənlə (fərdlə) ruhi güclərin ziddiyyətindən "iradənin iflici" baş verir, hansı ki, iflic olunmuş iradəyə malik insan ruhi varlıqdan daha çox heyvani varlıq kimi fəaliyyət göstərir. İnsan iradəsini xilas edən daxili şərtlərin məcmusu **günahın şərtlərini** təşkil edir, hansı ki, insan günaha görə bədən tələbatlarından azad olaraq ruhun faktuallaşmasında iştirak edir. Psixologiyada bu günahın proyeksiyası adlandırılır. Heyvanlarda ruh olmadığından, onlarda günah proyeksiya olunmur.

İradə həmişə fikirlə bağlıdır, fikirsiz təzahür etmir və bununla yanaşı bir-birindən kəskin fərqlənir. **Fikir** - ağılın formalaşması kimi meydana çıxır. İnsan sözlə fikirləşir. Bu prosesdə söz fikri təşkil edən mənaların mücərrəd ölçüsü kimi çıxış edir. Buradan da iradə sözlərin seçilməsi və onlar arasında zəruri əlaqə yaradaraq ağlın formalarının mücərrəd ölçüləndirməsini təmin edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İradə - sözlə fikrin ölçüləndirilməsinin şərtlərinin məcmusundan ibarətdir.*

İradənin şərtləri bədənlə ekspressiya edildikdə eşqdə olduğu kimi aşağıdakı qanunauyğunluqlar yaranır:

1. **Məkan:** Metafizikada İradə eyni anda müxtəlif yerlərdə ölçülənmə yaradan kimi təsəvvürə gəlir, kosmosa ekspressiya zamanı insan iradəsi eyni anda yalnız bir yerdə ölçülənmə yaradır.
2. **Zaman:** Eyni yerdə müxtəlif vaxtlarda olan iradənin şərtləri ekspressiya zamanı eyni yerdə yalnız bir vaxtda təzahür edir. Buradan da, insan iradəsi nə keçmişdə, nə də gələcəkdə olanlarla bağlı ölçüləndirmə yaratmır.
3. **Varlıq/Yoxluq:** Metafizikada iradə eyni vaxtda həm var, həm yox kimi mövcud olur. Ekspressiya zamanı iradənin varlığı tabe edən, yoxluğu tabe olan kimi meydana çıxır, buradan da siyasi hakimiyyət, idarəetmə, sosial iyerarxiya və s. təzahür edir.

c.FORMAL RUHUN TƏSİR VƏ ƏKS-TƏSİRİNİN ŞƏRTLƏRİ

Kosmos mövcud olmanın şərtlərinin məcmusundan ibarətdir, hansı ki, zəruri şərtlərə malik olan mövcudluqlardan meydana çıxır. Yəni, Kosmosda mövcudluqlar mövcudolma ilə vəhdət təşkil edir. Formal ruh zəruri mövcud olma şərtlərinə malik varlıq kimi metafizikadan kosmosa keçdikdə, özünəxas mövcudluğu olmadığından, Kosmosu təşkil edən bütün mövcudluqlarla vəhdət təşkil etməyə cəhd edir. Mövcud olma təsir-əks-təsir əlaqəsi ilə reallaşır. Bütün mövcudluqları ən ümumi şəkildə materiya kimi təyin etsək, onda formal ruhun Kosmosda materiya ilə vəhdətə cəhd etdiyini deyə bilərik, hansı ki, bu vəhdətdə ruhla materiya təsir-əks-təsir əlaqəsinə girir. Lakin, Ruhla obyektiv gerçəkliklərin təsir-əks-təsir əlaqəsi mövcudluqların öz aralarındakı təsir-əks-təsir əlaqəsindən fərqlənir. Bura aşağıdakı fərqlilikləri aid etmək olar:

1. **Bilavasitə təsirin mümkünsüzlüyü:** Ruh bədənlə şərtlənmiş daxili varlıq kimi mövcud olduğundan, ruhun xarici mövcudluqlara təsiri bədən təsirləri ilə birlikdə meydana çıxır. Yəni ruh əvvəl bədənə təsir edir, sonra bədən həmin təsiri xaricə ekspressiya edir. Nəticədə,

ruhun xarici mövcudluqlara təsiri dolayi təsir kimi - əvvəl bədənə, bədəndən də mövcudluqlara təsir kimi meydana çıxır. Ekspressiya olunmuş ruhi təsir bədəndən xaricdə bədənin təsirlərindən ayrılaraq xalis qalıcı, iz kimi mövcudluqlarda qalır və bu zaman mövcudluğun əks-təsiri bədənə olur, nəinki formal ruha.

2. **Qarşılıqlı olmamaq:** Formal ruh mövcudluqlarla əksilik təşkil etdiyindən, mövcud varlıqlarla ruh arasında təsir-əks-təsir əlaqəsi qarşılıqlı deyil. Mövcudluqlar ruhun onlara təsirinə əksilik kimi əks-təsir göstərir. Yəni ruhun xarici mövcudluqlara təsiri qeyri-maddi, mövcudluqların ruhun təsirinə əks-təsiri maddidir. Məsələn, heykəltaraş beynindəki ideyanı qranitin üzərinə köçürür. Bu zaman qranit həmin ideyaya uyğun maddi forma alır və heykəl yaranır. Beləliklə ruhun təsirinə əks-təsir təsir obyektindən kənara çıxarılmır, mövcudluğun özündə fiksasiya olunur. Təsirlə-əks-təsirin qarşılıqlı olmaması xarici mövcud varlıqlarla ruhun arasında bədənin baryer rolu oynaması ilə bağlıdır. Hər bir mövcudluq ona olan təsirə adekvat olaraq birli təbiətli əks-təsir göstərə bilir. Bədənin ruhla birlikdə xarici mövcudluğa təsirinə mövcudluğun əks-təsiri yalnız bədənə ötürülür. Ruha olan təsir isə ruhun obyektivliyi və bilavasitəliyi olmadığından mövcudluğun xarici səthinə çıxarılaraq orda saxlanılır.
3. **Əks-təsirin təsirdən azad olması:** Mövcudluqlar arasında təsir-əks-təsir əlaqəsində əks-təsir kəmiyyət və keyfiyyətinə görə təsirdən asılıdır. Təbiətdə mövcudluqlar yalnız mütləq məhdudiyyət prinsipi ilə mövcud olur, buna görə də təsirlə xarici təsir kəmiyyət və keyfiyyətinə görə bir-birindən asılı olur. Ruh azad olduğundan təbii qanunlara tabe olmur, nəticədə təsir iradəvi olaraq insanın seçimindən asılı olur; əks-təsir isə mövcudluğun iradəsi olmadığından buna adekvat olmur.

Mövcud varlıqlar təbiətdə konkret məkan və zaman şərtlərində təsir-əks-təsir əlaqəsinə girirlər və bu zaman təsir-əks-təsir təbiət qanunlarına

tabe olur. Lakin Formal ruh metafizik qanunlara tabe olduğundan mövcudluqların ruha təsiri təbiət qanunları ilə, ruhun ona əks-təsiri metafizik qanunlarla (və ya əksinə, ruhun xarici mövcudluqlara təsiri metafizik qanunlarla, onların ruhi təsirlərə əks-təsiri təbiət qanunlarına) tabe olur.

Buradan da, müxtəlif qanunlara tabe olan təsir-əks-təsir əlaqələrinin, yəni Formal ruhun Kosmosda mövcud varlıqlarla xarici vəhdətinin şərtlərinin məcmusunu biz **Təfəkkür** kimi təyin edirik. Təfəkkür - bir tərəfdən ruhun metafizik təsirinin mövcud varlıqlara verilməsi və onların təbii əks-təsirinin məcmusu kimi **yaradıcılığı**, digər tərəfdən mövcud varlıqların təbii təsirləri və onlara formal ruhun metafizik əks-təsirinin məcmusu kimi **idraki** özündə əlaqələndirir. Buradan da iki cür təfəkkür - **Bədii təfəkkür** və **Yaradıcı təfəkkür** meydana çıxır.

- Bədii təfəkkürün üsulu **təsvir**;
- Yaradıcı təfəkkürün üsulu **təsəvvürdən** ibarətdir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: Təfəkkür - bədii yaradıcılığın və elmi biliklərin bütün şərtlərinin məcmusundan ibarətdir.

Təfəkkürdə bir tərəfdən yaradıcılıq prosesində yaddaşda saxlanan forma və ideyalardan abstrakt mövcud varlıqlar yaradılır - buradan müxtəlif bədii əsərlər meydana çıxır; digər tərəfdən mövcud varlıqların in-formasiyalaması ilə əldə edilən obraz və ideyaların özündə inkişaf etdirilməsi ilə bir obrazın başqa ideyalara və bir ideyanın başqa ideyalarla assosiasiyası ilə təcrübi və elmi biliklər yaradılır.

Təfəkkür mövcud varlıqla ruhun təsir-əks-təsir əlaqələrinin bir-biri ilə vəhdətini təqdim edir, hansı ki, xarici mövcudluqlar nizama, formal ruh xaosa tabe olur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Təfəkkür - xaosun nizama, nizamın xaosa keçməsinin şərtlərinin məcmusundan ibarətdir.*

Beləliklə, formal ruhun təsiri və xarici mövcudluqların təsirinə əks-təsiri özündə xaosun şəklini, təsirinə mövcudluqların əks-təsiri və ona

olan xarici təsirlər nizamın şəklini özündə təqdim edir. Buradan da, ruhun təsiri və əks-təsiri, ruha təsirlə və ruhun təsirinə əks-təsirlə mahiyyətcə fərqli qanunlara tabe olduğundan, biz ruhun təsirini və əks-təsirini ayrı-ayrılıqda şərh etməliyik.

RUHUN XARİCİ MÖVCUDLUQLARA TƏSİRİ - ƏSƏR

Obyektiv gerçəkliklərin daxili qurulmasından daxili təzahür və ya substansial keyfiyyətlər kimi təsirlər meydana çıxır. Təsirlər - gerçəkliyin daxilində saxlanan və xarici vəhdətdə başqa varlıqlarla vəhdətin təşkilində iştirak edən daxili təzahürdür.

Formal Ruh - xalis dalğa təbiətli, materiya dalğa və hissəcik təbiətlidir. İşıq necə mövcudluğun xarici görüntüsünü "yaradırsa", ruh da eləcə öz faktiki varlığını yaradır. İşıqlanmada mövcudluqla işıq arasında qarşılıqlı təsir baş verir. Buna görə də, işıq özündən mövcudluğa heç bir forma vermir. Ruhun mövcudluğu işıqlandırmasında təsir birtərəflidir, buna görə ruh özündən mövcudluğa forma verir, amma ondan forma almır və buradan Əsər meydana çıxır. Dalğanın hissəcik təbiətinə keçməsi dalğa uzunluğunun sıxlaşması ilə baş verir. Ruh özündə sıxlaşmır, ona görə hissəcik təbiəti yoxdur. Xarici gerçəkliyə əsər edərək onun hissəcik təbiətinə keçmiş dalğa təbiətinə əlavə sıxlıq verir. Bu əlavə sıxlıq ikincili forma kimi əsərləri meydana çıxarır.

Ruhun təsirləri ya **ekzistensiya** və ya **ekspressiya** ilə xaricə çıxarılır.

- **Ekspressiya** ilə kənara çıxarılan ruhi təsir digər fərdlərə;
- **Ekzistensiya** ilə kənara çıxarılan təsirlər mövcud varlıqlarda əks-təsir yaradır.

Yəni mövcud varlıqlar emosiyalara, fərdlər isə ruhun ekzistensiyasına əks-təsir göstərmir. Ekspressiyada əsas bədənin təsirləri kənara çıxarıldığından, başqa fərd öz bədəninin təsirləri ilə onu dəf edir, formal ruhun təsirini isə özünə buraxır. Nəticədə emosional əlaqə yaranır. Emosional əlaqə hissi təsirlə insanların bir-biri ilə birləşməsinə səbəb

olur. Ekzistensiyada formal ruhun təzahürü birincilik təşkil etdiyindən, başqa bədən ona əks-təsir göstərmir, həmin təsiri fərd daxilə buraxır və daxildə bir fərdin ruhi təsiri digər fərdin ruhuna təsir edir, nəticədə hər iki təsir eynilik təşkil edərək yeni xüsusi ruhi təsirə çevrilir.

Formal ruhun bədəndən kənara çıxma cəhdində xarici mövcudluqlara təsirindən ruhun **faktiki varlığı**, başqa fərdlərə təsirindən **formal varlığı** yaranır. Ruhun faktiki varlığı ruhun ölü kristallarından, formal varlığı canlı ruhdan (həyatla vəhdət təşkil edən fərdi fiktiv ruhdan) ibarətdir, hansı ki, onların bir-biri ilə xarici vəhdətindən ruhun mövcud varlığı meydana çıxır.

Biz elə-belə formal ruhun özünə mövcud varlıq yaratmasını **yaradıcılıq** kimi təyin edirik. Buradan aydın olur ki, hər bir yaradıcılıq aktı iki bir-birinə ziddiyyət təşkil edən və vəhdətdə aşkarlanan tərəfdən ibarətdir. Biz ruhun ölü kristallarının meydana çıxmasını (yəni ruhun faktik varlığının yaranmasını) yaradıcılıq kimi, formal ruhun yaranmasını **birlik** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Yaradıcılıq - formal ruhun xarici mövcudluqlara, birlik - başqa fərdlərə bədən vasitəsi ilə xarici təsirin şərtlərinin məcmusundan ibarətdir.*

Ruhi fəaliyyət nəticəsində ruhi mövcudluğun yaradılması prosesi ən ümumi şəkildə özündə yaradıcılıqdan ibarətdir. Yaradıcılıq özündə İlahi Bacarığın emanativ refleksiyası kimi təzahür edir və Allah mövcud varlığı yaratdığı kimi, insan öz iradəsi ilə öz ruhi mövcudluğunu yaratmağa cəhd edir.

Biz yuxarıda Ruhu Yaradıcı Gücün şərtlərinin məcmusu kimi təyin etmişdik, başqa sözlə Ruh özündə yaradıcılığın şərtlərinin məcmusu kimi mövcud olur. Buradan da, elə-belə yaradıcılığı ekzistensiya və düşüncə kimi Ruhun predikabiliyası kimi təyin etmək olar.

Ruh öz-özünə mövcudluq şərtlərini həm cisimlərin, həm də canlıların mövcudluq şərtlərindən əldə etməyə cəhd etdiyindən yaradıcılığın iki üsulunu ayırd etmək olar:

a. Ekstrapolyasiya (başlanğıc süni mövcudluq şərtləri - canlılığın şərtlərinin mənimsənilməsi): Ruh özünə mövcudluq şərtləri təmin etmək üçün özünə ən yaxın mövcudluqdan başlayaraq tədricən daha uzaq mövcudluqlara doğru ekzistensiya edir. Ruha ən yaxın mövcudluq yarandığı konkret canlı orqanizm - bədəndir. Ruhun bədənin mövcudluq şərtlərinin mənimsəməsi ilə özündə mövcudluq tələbini təmin etmə cəhdini ekstrapolyasiya (bədənin daxili təşkilolunmasının şərtləri əsasında özünə xarici mövcudluq təşkil etmək kimi) təyin etmək olar. Bu prosesdə bədən həm mövcudluq, həm şübhə kimi çıxış edir.

Bu istiqamətdə ruh özünə yad olan bədənin və ya onun ayrı-ayrı orqanlarının xarici görüntüsünü bədəndən kənarda xarici obyektiv gerçəkliklərin xarici görünüşünə (formasına) köçürür. Nəticədə xarici obrazlar meydana gəlir. Ekstrapolyasiya üsulu ilə yaradılan istənilən xarici görüntü bədənin və orqanların xarici görüntülərinin surəti kimi yaradılır.

Ruh həm də bədənin fəaliyyətini, yəni həyatın (canlılığın) şərtlərini ekstrapolyasiya edərək xaricdə özünə mövcudluq şərtləri təmin etməyə cəhd edir:

- Bədənin və orqanların fəaliyyətinin ekstrapolyasiyası - **texnika**;
- Maddələr mübadiləsinin ekstrapolyasiyası - **texnologiya**;
- Onların fəaliyyətinin məlumatlarının ekstrapolyasiyası ilə - **bilik** meydana çıxır.
- Ruhun cisimlərə ekzistensiyası ilə onların xarici və daxili görüntüsünü ekstrapolyasiya etməsindən incəsənət, əmək və elm meydana çıxır.
- **Əmək** - cisimlərin daxili təşkilolunması qaydalarının ekstrapolyasiyası kimi;
- **İncəsənət** - xarici görüntünün ekstrapolyasiyası kimi;

- **Elm** - xarici görüntü ilə daxili görüntünün əlaqələrinin ekstrapolyasiyası kimi meydana çıxır.

b. İntropolyasiya (xarici obyektlərin xarici görüntüsünün şərtlərinin, cisimlərin mövcudluq şərtlərinin mənimsənilməsi): İntropolyasiya ekstrapolyasiyaya əks yaradıcılıq prosesi olub, mövcudluqların xarici görüntüsünü ruhun daxildəki xarici görüntüsünə köçürülməsindən ibarətdir. İntropolyasiya ilə öz xüsusi xarici görüntüsü olmayan ruh özünə bədənin daxilində xarici görüntü əldə etmiş olur. İntropolyasiya yadlaşdırmanın əksinə, daxilə proyeksiya kimi həyata keçirildiyindən, biz bunu itələmənin əksi kimi cəzb etmə, yəni **doğmalaşdırılma** adlandırırıq (ikiqat yadlaşmanı intropolyasiyası kimi doğmalaşdırma - ikiqat yadlaşdırmanı birqat yadlaşdırmaya çevirmək). Bunun nəticəsində bədəndən kənar şeylərin formasının hissi təfəkkürdən (bədənin analizatorlarından) keçirməklə daxilə təfəkkürə alınması ilə **daxili obrazlar** meydana çıxır.

Beləliklə, hissi qavrayışda xarici mövcudluqların xarici görüntülərinin bədəndən keçməklə təfəkkürə proyeksiya edilməsi ilə ruh özünə mücərrəd xarici görüntü əldə edir, hansı ki, insan bədəninə münasibətdə daxili olduğundan başqası tərəfindən xaricdə seyr edilmir, yalnız daxildə Ruhun özü tərəfindən seyr edilir; biz bunu **daxili görüntü** adlandırırıq.

Bu iki proses (bədənin nümunəsi əsasında bədəndən kənar xarici forma-obraz yaratmaq və bədəndən kənar şeylərin formasını bədəndən keçirməklə daxildə yaddaşa həkk etmək, yəni daxili obrazlar yaratmaq) ruhi yaradıcılığın əsas iki xarakteristikası kimi təyin edilə bilər.

"Allah dünyanı yaratmaq istəmişdir və yaratmışdır". Bu fikir yaranışın tək və yeganə izahıdır. Buradan "istəmək" və "yaratmaq" iki mühüm keyfiyyət kimi yaranışın başlıca xarakteristikaları kimi çıxış edir və yaratmağa qabil olan ruhun xarakteristikası özündə məhz bu iki xarakteristikanı refleksiya edir. Bu cür refleksiyada ilahi yaradıcılıq haqqında məlumatlar ətraf mühitdə (təbiətdə) və insanın bədənində entropiyaya

məruz qalır. Həm də buna görə, Allahın yaradıcılığı ilə müqayisədə insani yaradıcılıq **emanativdir**.

Emanativliyin aşağıdakı səbəblərini ayırd etmək olar:

a. Allah varlığı öz nurundan (mütləq substansiyadan) yaratmışdır, amma insan öz yaradıcılığında yaratdıqlarına öz substansiyası olmadığından nəsə vermir. Ona görə də, Allahın yaratdıqları onun atributlarına uyğun, avtonom və spontan mövcudluq kimi; insanın yaratdıqları iradəvi və asılı şey kimi meydana çıxır. Allah yaratdıqlarını öz ideyasından, substansiyasından yaratdığından hər şeyin öz xüsusi substansiyası (mahiyyəti) vardır; insanın yaratdıqları Allahın yaratdıqlarının formasından yaradıldığından substansiyasız xalis formadır, yəni heçlikdir.
b. Allah yaratdıqlarını vasitəsiz (refleksiya ilə) yaratmışdır. Yəni yaradılanlarla Allahın bilavasitə təması və əlaqəsi yoxdur. İnsan yaradıcılığı vasitəlidir, hər bir yaradılanla insan təmasdadır və onunla əlaqəlidir. Buna görə də insanı yaratdıqlarından bilavasitə tanımaq mümkündür, amma Allahla yaradılanlar arasında bilavasitə əlaqə olmadığından yaradılanlardan Onu bilavasitə tanımaq mümkünsüzlükdür və Allah buna görə kosmosdan dolayısı ilə tanına bilər, hansı ki, düşüncə ilə mövcudluq kimi kosmosun arasında şübhə olduğundan kosmosun mövcudluğundan yalnız nisbi olaraq Allah aşkarlana bilər.
c. Allahın yaratdıqları özündə səbəbilik saxlayan nəticədir. İnsanın yaratdıqlarında səbəbilik keyfiyyəti yoxdur. Buna görə də, Allahın yaratdıqları bir mövcudluq formasından digərinə keçir, amma insanın yaratdıqları heç bir başqa mövcudluğa keçmir, yəni əmələgəlmə prosesinə daxil olmur.
d. Allah öz yaratdıqlarına olmaq əzmi verir. İnsan yaratdıqlarına belə əzm verə bilmir. Nəticədə Allahın yaratdıqları olmaq istiqamətində meylə, səyə, cəhdə malik olur; insanın yaratdıqları bu keyfiyyətlərdən

məhrumdur, yəni cəhdsiz, meylsiz passiv mövcudluqlar kimi meydana çıxır.

e. İnsan özü Allahın yaratdığı olduğundan, onun yaratdıqları yaradılmışlardan ikincili olaraq yaradılanlardır. Buna görə də, Allahın yaratdıqları birincili yaradıldığından xüsusi xassələrə malikdir. İnsanın yaratdığı heç bir şeyin xüsusi xassəsi yoxdur. Onlar yalnız proyeksiya olunduqları şeylərin xassələrinə tabe olurlar.

f. Allahın yaratdığı hər bir şeydə ağıllılıq (İlahi nurun təcəssümü), yəni Allahın istəyi vardır. Şeylərin ağıllılığını onların özündə həqiqəti aydınlaşdırma keyfiyyəti kimi çıxış edir. İnsanın yaratdıqlarında ağıllılıq olmadığından, onun heç bir əsəri özündə müstəqil həqiqət aydınlaşdırmır.

Ruh öz mövcudluğunu özü yaratdığından, bədəndən xaricdə fəaliyyətlə (ruhi mövcud olma ilə) bunu reallaşdırır. Başqa sözlə, ruh xarici obyektiv gerçəkliklərə təsir edərək onlardan öz mövcudluğunu yaradır. Ruhun mövcudluqlara təsiri mövcudluqların bir-birinə təsirindən əks-təsirin olmaması və ya əks-təsirin təsir obyektindən kənara çıxarılmaması ilə fərqlənir.

Ruhi təsiri obyektiv gerçəkliklərin təsirindən ruhun xalis dalğa təbiəti olması ayırır, hansı ki, burada fiziki təsirlərdən fərqli olaraq biz ruhi təsiri **Əsər** adlandırırıq. **Əsər** - ərəb mənşəli söz olub, müxtəlif bablarda mənası təsir, kölgə, damğa, nişan, qalıq, iz salan, iş, toxunmaq, keçmək, işləmək, əsmək (yel), təsir bağışlamaq və s. mənalarını verir. Əsərin çıxarılma mənası yaradıcılıqdan ibarətdir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Əsər - ruhi fəaliyyətin obyektiv gerçəkliklərə əks-təsirsiz təsirinin şərtlərinin məcmusundan ibarətdir.*

Ruh bədənlə əlaqələndiyindən bədən təsiri ekspressiya edir, yəni öz hissləri ilə xaricə çıxarır. Ruh həm də başqa fərdlərə təsir edir. Biz fərdlərin bir-birinə qarşılıqlı təsirini **Münasibət** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Münasibət - bir fərdin başqa fərdə ruhi təsirinin şərtlərinin məcmusundan ibarətdir.*

Təsirin ekspressiyasının aşağıdakı qanunauyğunluqları aşkarlanır:

1. Ruhun eyni anda müxtəlif yerlərə təsirindən, eyni anda yalnız bir əsər meydana çıxır. Məsələn, formal ruhun müxtəlif fərdlərdən rəssamlıq fəaliyyətindən eyni bir əsər (rəsm əsəri) meydana çıxır.
2. Eyni yerdə, eyni bir obyektə müxtəlif vaxtlarda edilən təsirdən eyni yerdə yalnız bir vaxtda olan əks-təsir yaranır. Məsələn, rəssam bir əsəri müəyyən vaxt ərzində işləyir. Baxmayaraq ki, həmin əsər müxtəlif vaxtlarda təsir kimi yaranır, amma özündə yalnız indini təqdim edir. Yəni əsər həm keçmişdə, həm indidə, həm də gələcəkdə eyni olur. Buradan da, əsərin inkişaf etməməsi aşkarlanır. İnsanın yaratdığı heç bir əsərdə özündə inkişaf şərti yoxdur, çünki bir yerdə yalnız bir vaxtda olur. Buradan da əsər "burda və indi" prinsipinə tabe olur.
3. Ruhun mövcudluğa təsiri eyni anda həm var, həm də yox olur, nəticədə yaranan əsər eyni anda həm varlığı, həm də yoxluğu özündə təqdim edir. Təsirin varlığından əsərdəki fiqur, yoxluğundan onun mahiyyətinin olmaması aşkarlanır.

v. RUHUN ƏKS-TƏSİRİNİN (MÜNASİBƏTİNİN) ŞƏRTLƏRİ: DƏRKETMƏ

Bədənin və xarici mövcudluqların xarici təsirinə fiktiv ruh özünəxas əks-təsir göstərir. Ruhun mövcudluqlara təsirində olduğu kimi, mövcudluqların ruha təsirinə ruhun əks-təsiri də bədən vasitəsi ilə, dolayi yolla baş verir. Canlılarda xarici təsirlər bədənə ötürülür, bədən həmin təsirlərə əks-təsir kimi özündə təsirə əks istiqamətdə **cavab** hazırlayır. Formal ruh bədənlə əlaqələndikdən, bağlandıqdan sonra insan bədəninin xarici təsirlərə hazırladığı cavab (əks-təsir) iki istiqamətdə:

1. Təsirə əks istiqamətdə - təsir obyektinə;

2. Təsirlə eyni istiqamətdə - daxildə əlaqələndiyi fiktiv ruha ötürülür.

Beləliklə, Formal Ruhun xarici təsirlərə əks-təsiri bədəndən keçməklə, cavab vasitəsi ilə dolayi yolla baş verir. Bədən keçirici mühit kimi özündən ruha keçən təsirləri və ruhdan xarici obyektə keçən əks-təsirləri entropiyaya məruz qoyur.

Cavab - təsir obyektinin bədəndə **in-formasiyalaşmasından**, onun quruluşunun dağıdılmasından, daxilinin açılmasından ibarətdir. Bədəndə təsirin şərtləri aşkarlanır və bədən həmin şərtlərin tərəflərinə ayrı-ayrılıqda özündə əks-təsir hazırlayır. Belə ikili əks-təsiri cisimlərə xas birli əks-təsirdən fərqləndirmək üçün biz bunu **Cavab** adlandırırıq.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Cavab - təsirdən həm keyfiyyət, həm kəmiyyətcə bir-birindən fərqlənən ikili əks-təsirin şərtlərinin məcmusundan ibarətdir.*

Xarici təsirlərə bədənin obyektin formasına göstərdiyi əks-təsir:

- Formanı dağıtmaq, formasızlaşdırmaq (**in-formasiyalaşdırmaq**) - heyvani destruktivlik;
- Mahiyyətə göstərilən əks-təsir - **hiss etmə** (qeyri-müəyyən məlumat) kimi meydana çıxır.

Cavabın ruha ötürülməsi ilə xarici mövcudluq artıq informasiyalaşmış şəkildə ruha təsir edir. Bu zaman mahiyyətlə vəhdətdən kənar forma ruhda **obraz** kimi refleksiya olunur, yəni mücərrəd forma kimi yaradılır. Hiss etmə isə fiktiv ruha **hissiyyat** kimi daxil olur. Biz hissiyyatı müəyyənləşmə imkanına malik məlumat daşıyan hisslərin məcmusu kimi təyin edirik, hansı ki, mövcudluğun informasiyasından ibarətdir. Hissiyyatın ruha daxil olması ilə ruh informasiyanı hisslərdən ayrılıqda özündə refleksiya edir, yəni hissi məlumatdan ayrılır və məlumat ideyaya çevrilir.

İdeya - informasiyanın (fiktiv ruhda müvafiq mücərrəd quruluş yaratmasından) ibarətdir. Beləliklə, mövcud varlığın ruha dolayi təsirinə

əks-təsir kimi **obraz** və **ideya** yaranır. Əslində obyektiv gerçəkliyin ruha təsiri ruhun əsərinə uyğundur; sadəcə əsərdə obraz xarici predmetin xarici görüntüsünə ikincili proyeksiya kimi, ruhun əks-təsiri xarici obyektin ruhda mücərrəd əsər yaratması (obrazlaşdırmaq) kimi meydana çıxır.

Biz xarici mövcudluğun hissi təsirinə fiktiv ruhun əks-təsirini, forma və mahiyyətin vəhdətinin pozulması ilə onların hər birinin ayrı-ayrılıqda, müxtəlif qaydalarda ruhda refleksiya etməsini **Dərketmə** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

> *Dərketmə - xarici təsirə bədənin cavabının təsirlə eyni istiqamətdə fiktiv ruha ötürülməsi ilə təsir obyektinin vəhdətinin şərtlərinin pozulması, forma və mahiyyətin bir-birindən ayrılıqda və fərqli qaydada təfəkkürdə refleksiyasının şərtlərinin məcmusundan ibarətdir.*

Beləliklə, dərketmə nəticəsində:

- **İn-formasiyadan** - obraz;
- **İnformasiyadan** - ideya yaranır.

Biz **obrazı** xarici mövcudluqların ruha təsiri nəticəsində öz formalarının onda yaratdığı mücərrəd əsər kimi; **ideyanı** isə mövcudluğun mümkünlüyünün varlığının ruhun mümkünlüyün varlığında refleksiyası ilə onda eynilik yaratması kimi təyin edirik (hansı ki, biz bunu aşkarlanma kimi qavrayırıq).

- **İn-formasiya** - mahiyyətdən ayrılmış xalis forma;
- **İnformasiya** - formadan ayrılmış xalis mahiyyətdir.

Mahiyyət - mümkünlüyün varlığının İlahi iradə ilə şərtləndirilməsini özündə təqdim edir, hansı ki, həmin şərtlərə uyğun forma yaradır. Beləliklə, mahiyyət mümkünlüyün varlığına görə ruhla eynilik, amma ona verilmiş mövcudluq şərtlərinə görə fərqlilik təşkil edir. Dərketmə prosesində mümkünlüyün varlığı (eynilik) kimi ruhdan çıxarılır, yalnız fərqlilik, yəni mövcudluğun şərtləri ruhda saxlanılır (hansı ki, qavramanı özündə

təqdim edir). Beləliklə, obraz forma vasitəsi ilə mümkünlüyün varlığının şərtlərinin təfəkkürə ötürülməsi əsasında yaranır. Mahiyyət isə həmin formanı yaradan şərtlərdən ibarət olur.

Dərketmə prosesi - özündə gerçəkliyin mahiyyətinin formasından ayrılması ilə onların daxili vəhdətinin şərtlərini özündə aydınlaşdırmaqdan ibarətdir.

Dərketmə prosesində əldə edilən ideyaların məcmusundan **bilik**, obrazların məcmusundan **Kosmosun mücərrəd görünüşü** yaranır. Dərketmə prosesi mürəkkəb proses olub, bir-biri ilə bağlı bir çox psixi aktdan, mərhələlərdən (ruhun özü-özündə hərəkətliliyindən) ibarətdir.

- Bu prosesin bir mərhələsi (mövcud varlıqların və bədənin bilavasitə iştirakı ilə olan mərhələ) - **təsir və hiss etmə** - təbiət qanunlarına;
- Bir mərhələsi - **hiss etmənin hissiyyata çevrilməsi** - bu qanunların birindən digərinə keçidinə;
- Üçüncü mərhələsi - **hissiyyat və refleksiya** - metafizik qanunlara tabe olur.

Təsir - xarici çoxluqda mövcud olan, daxili təkliyə malik mövcud varlığın xarakteristikasıdır. Amma fiktiv ruh əksinə, xarici təkliyə, daxili çoxluğa malik olduğundan, özü-özünə təsir etmək imkanına malikdir (hansı ki, mövcud varlıqların belə imkanları yoxdur). Fiktiv Ruhun özü-özünə təsirinə özü-özündən hazırladığı əks-təsir **Düşüncə** kimi təzahür edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Düşüncə - fiktiv ruhun özü-özünə təsirinə özünün əks-təsirinin şərtlərinin məcmusundan ibarətdir.*

Xarici obyektlərin fiktiv ruha təsirinə fiktiv ruhun əks-təsirinin (**Dərketmənin**) və fiktiv ruhun daxildə özü-özünə təsirinə özünün əks-təsirinin (**Düşüncənin**) vəhdətindən **İdrak prosesi** meydana çıxır.

Buradan da aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İdrak prosesi - xarici təsirlərə və daxildə özü-özünə təsirə fiktiv ruhun xüsusi qaydalara*

tabe olan, bir-biri ilə vəhdət təşkil edən əks-təsirlərinin (dərketmənin və düşüncənin) şərtlərinin məcmusundan ibarətdir.

Düşüncə ilə dərketmənin vəhdəti özündə bədənlə ruhun vəhdətini refleksiya edir. İnsana yalnız xarici təsirlər olduqda idrak prosesi dərketmədən, yalnız özü-özünə təsir etdikdə düşüncədən, həm xaricdən, həm də daxildən təsir olduqda hər ikisinin vəhdətindən meydana çıxır. İdrak prosesinin əvvəli dərketmədən, sonu düşüncədən ibarətdir (və ya idrak prosesi dərketmə ilə başlayıb düşüncə ilə başa çatır).

İDRAK PROSESİNİN MƏRHƏLƏLƏRİ

İdrak prosesi - dərketmə və düşüncənin vəhdəti - bir-birindən fərqli qanunlara tabe olan mərhələlərdən ibarətdir. Həmin mərhələlər idrak pillələri kimi aşağıdakılardan ibarətdir:

a. DUYĞU

Dərketmə prosesinin təbiət qanunlarına tabe olan mərhələsini biz idrakın birinci pilləsi kimi təyin edirik. Bu pillənin başlanğıcı **duyğudan** ibarətdir. Canlılarda xarici təsir (qıcıq) hiss üzvlərinə təsir edərək müxtəlif hisslər yaradırlar. Hiss - xarici qıcığın bədəndə entropiya olunması kimi meydana çıxır. Fiktiv ruhla bədənin əlaqəsində hisslər həm də fiktiv ruhun təsirindən entropiyaya uğrayır. Fiktiv ruhun hissi entropiyaya məruz qoyması özündən hissə bağlılıq şərtləri verməsindən ibarətdir, hansı ki, bu şərtlərə görə hər bir hiss özündə məlumat daşımaq imkanı əldə edir. Belə imkanlar əldə etmiş, özündə məlumat daşıyan hissi biz **Duyğu** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Duyğu - məlumatla hissin vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.*

Duyğu hissi təsir haqqında məlumatı təsir istiqamətində bədəndən ruha ötürən mərhələni təşkil edir. Duyğu fiktiv ruha keçməklə özünün vəhdətindən məhrum olur.

b. QAVRAYIŞ

Formal ruhun bədənlə birlikdə xarici təsirlərə məruz qalmasından **yaşantı** meydana çıxır. Yaşantı - xarici mövcudluqların insana hissi və intellektual təsirindən ibarətdir, hansı ki, duyğu vasitəsi ilə ruha ötürülür. Yaşantını qəbul edən fiktiv ruhda yaşantı iki yerə - hissi və intellektual təsirə ayrılır.

- Hissi təsirə əks-təsir kimi **refleks**;
- İntellektual təsirə əks-təsir kimi **təəssürat** yaranır.

Bədəndə xarici təsirə qarşı hazırlanmış iki müxtəlif əks-təsir daxildə ruha ötürülür. Nəticədə, təəssüratla refleksiyanın ruha ötürülməsindən Qavrayış meydana çıxır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Qavrayış - formal ruhun mövcudluqların bədəndən keçərək ona daxil olan xarici təsirlərinə əks-təsirinin şərtlərinin məcmusundan ibarətdir.*

Qavrama səbəb-nəticə əlaqəsinə tabe olan, məkan və zaman şərtlərinin məcmusundan ibarət, bilavasitəlik və obyektivlik tələb edən təsir-hiss əlaqəsindən ibarət başlanğıc mərhələdir. Qavrama - mövcud varlığın bilavasitə iştirakı ilə təsirin ruha ötürülməsinədək olan mərhələsinin şərtlərindən ibarətdir.

Formal ruhun bədən vasitəsi ilə ətraf aləmlə dolayi əlaqəsini biz qavrayış kimi təyin edirik. A.Adlerə görə: "Qavrayış - fiziki təzahürdən daha böyükdür. Bu, fərdin daxili aləminə aid uzağa gedən nəticələr çıxara biləcəyimiz psixoloji funksiyadır." Qavrayış fiziki təsirdən ona görə böyükdür ki, fiziki təsir bədəndən keçərkən kəskin entropiyaya məruz qalır, nəticədə kəmiyyət və keyfiyyət dəyişilməsi baş verir. Yəni ölçülü xarici təsir metafizik ölçüsüzlük əldə etməklə qavrayış kimi çıxış edir. Burada, ölçülülük - xarici təsirə malik obyektiv gerçəklikdən, ölçüsüzlük - həmin obyektiv gerçəkliyi özündə refleksiya edən fiktiv ruhdan aşkarlanır. Birinci təbii, ikinci metafizik qanunlara tabe olur.

Adlerin fikirlərinə əlavə olaraq qeyd etmək lazımdır ki, **Qavrayış** - xarici təsirin fərdin daxili aləminə keçməklə təfəkkürdə əks-təsir kimi başa çatan psixoloji funksiyadır. Canlılarda ruh olmadığından, xarici təsirlər bədənə yayılaraq bədəndə bir istiqamətdə (təsirə əks istiqamətdə) cavablandırılır, ona görə də qavrayış meydana çıxmır. Şüurlu insanda bədənin cavabı həm də təsirlə eyni istiqamətli olub ruha ötürülür. Qavrayış - bədənə xarici təsirin üçüncü güc tərəfindən fiksə edilməsi kimi təsəvvürə gətirilə bilər. Heyvanlarda belə üçüncü (müşahidəedici) güc olmadığından, onlar xarici təsirləri qavramadan cavab verirlər. Qavrayışda təsir-cavab əlaqəsinə həm də fiktiv ruhun onlara münasibəti əlavə olunur. Beləliklə, qavrayış - təsir, cavab və birincili münasibətin vəhdətindən ibarət psixoloji funksiya kimi meydana çıxır. Qavrayış prosesində faktdan törəyən ideya təfəkkürdə refleksiya olunur. Buna görə də, təsir obyekti ilə qavranılan ideya vəhdət təşkil edir. Qavramada ruhun azadlığı yoxdur. Mərhələ bədənlə xarici təsirin şərtləri ilə məhdudlaşır. Qavrayış nəticəsində mövcud varlığın ən sadə ideyaları və xarici görüntüsünün obrazı (mücərrəd daxili görüntüsü) ruh tərəfindən aşkarlanır.

c. TƏSƏVVÜR

Qavrayış prosesində təfəkkürdə gerçəkliyin ayrı-ayrı üsullarla refleksiya etmiş obraz və ideyasının daxildə yenidən mücərrəd vəhdətə gətirilməsini biz **Təsəvvür** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Təsəvvür - təfəkkürdə obrazla ideyaların vəhdətə gətirilməsinin şərtlərinin məcmusundan ibarətdir.*

Əgər hər hansı bir səbəbdən gerçəkliyin ya obrazı, ya ideyası qavranılmırsa və ya təfəkkürdə onların gerçəkliyə uyğun mücərrəd vəhdəti yaradılmırsa, onda təsəvvürlər meydana çıxmır.

Elə-belə iki cür təsəvvür ayırd etmək olar:

1. **Birincili təsəvvür** (bilavasitə qavrayışla əldə edilən təsəvvürlər): Belə təsəvvür gerçəkliyin qavrayışının sürəkliliyində "indi və burda" prinsipi ilə cari proses kimi meydana çıxır. Məsələn, biz almanı qavrayırıq və onu qavraya-qavraya onun haqqında təsəvvür əldə edirik. İdrak prosesinin təbiət qanunlarına tabe olan mərhələsi birincili təsəvvürlərin yaranması ilə başa çatır. Birincili təsəvvürlərin yaranmasında zərurətə görə mövcud varlığın qavranılması, yəni onun idrak prosesində bilavasitə iştirakı tələb olunur.
2. **İkincili təsəvvürlər** (birincili təsəvvür əsasında əldə edilən təsəvvürlər): Belə təsəvvürlər artıq qavrayışla əldə edilmiş təsəvvürlərdən əldə edildiyindən təkrar qavrayışın, yəni obyektin bilavasitə iştirakı zərurətə görə tələb olunmur.

Biz təsəvvürü xarici təsir obyektinin mahiyyətinin fiktiv ruhda formasızlaşdırılması kimi təyin edirik. Beləliklə, təsəvvür obyektin formadan ayrılıqda mahiyyətinin təfəkkürdə refleksiyasını özündə təqdim edir. Mahiyyət təsir obyektinin xalis varlıq təyinini özündə təqdim etdiyindən və formal ruh yalnız xalis təyininə görə mövcud varlıqla eynilik təşkil etdiyindən, ikincili təsəvvürlər üçün formanın iştirakı zərurətə görə tələb olunmur. Burada da qavrayışdan fərqli olaraq təsəvvür həm də mücərrəd

formada, yəni konkret obyektin iştirakı olmadan, yalnız onun mahiyyəti əsasında dərketməyə təqdim olunur.

A.Adlerə görə: *"Təsəvvür - qavrayışa səbəb olan predmetin mövcudluğundan asılı olmayaraq qavrama imkanı kimi təyin edirik. təsəvvür nəticəsi - keçmiş qavrayışı təkrarlamaq yox, yeni və orijinal məhsuldur və fiziki hissiyyatlardan birincili qavrayış əmələ gəlməsi əsasında meydana çıxır."*

Beləliklə, biz ikincili təsəvvürü artıq yaddaşa alınmış, yəni təbiət qanunlarına tabe olmaqdan azad edilmiş qavrayışa, metafizik qanunlara tabe olan təkrar "qavrama", yəni ikincili ruhi münasibət kimi baxa bilərik. Buradan da, sxematik olaraq: **Təsəvvür = Qavrayış + İkincili münasibət**.

İkincili münasibət artıq yaddaşa alınmış qavrayış əsasında yarandığından, faktdan törəyən ideyanın refleksiyası əsasında ağıldan törəyən birincili ideyadan yeni ideyanın yaranmasından ibarət olur. Nəticədə, təsəvvür - ağlından törəyən ikincili ideya ilə assosiasiya təşkil edən birincili aktın ideyasının təkrar qavranılmasından ibarət olur. Nəticədə, ilkin fiziki təsirə malik mövcud varlıqdan fərqli olaraq mücərrəd varlığın qavranması baş verir. Bununla mücərrədin mücərrədləşdirilməsi baş verir. Mücərrədin mücərrədləşdirilməsi obraz və ideyaların metafizik qanunlar əsasında inkişaf etdirilməsi kimi meydana çıxır. Təsəvvürlərin yaranması ilə idrak prosesinin birinci pilləsi - təbiət qanunları ilə şərtlənmə başa çatır.

YADDAŞ

Təbiətdə cisimlər sabit zəruri şərtlərdə mövcud olduqlarından, sürəkli olaraq (xarici situasiyadan asılı olmayaraq) özündə bir və eyni həqiqəti aydınlaşdırır. Beləliklə, həqiqətin aydınlaşması mövcud varlıqda eyni bir həqiqətin özündə sürəkli olaraq təkrarlanması ilə baş verir. Belə özündə təkrarlanma mövcud varlığın həqiqəti özündə saxlaması kimi

qavranılır. Mövcud varlığın özü-özündə özü haqqında informasiya saxlamasını biz **həqiqətə malik olmaq** kimi təyin edirik. Həqiqətə malik olmaq özündə eynilik saxlanması, fərqliliyi itələnməsi kimi meydana çıxır. Bu cür özündə eynilik saxlanmasına görə cisimlərə xarici təsir mahiyyətə keçmir, yalnız formada fiksə olunur; biz bunu **İz** kimi qavrayırıq.

İz - özündə təsir obyekti haqqında konkret məlumat saxlamayan forma dəyişilməsindən ibarətdir. Fəlsəfədə belə iz qoyma **inikas** kimi təyin olunmuşdur. Biz cisimlərdə inikası **passiv inikas** (yəni hərəkətlilik şərtləri olmayan inikas) kimi təyin edirik. Cisimlərdə təsir müvafiq olaraq sabit şərtlərdə meydana çıxır. Sabitlik və forma məkani şərtlərin məcmusundan ibarət olduğundan, cisimlərə təsirin izləri məkani şərtlərin sabitləşmiş dəyişilməsi kimi meydana çıxır. Cisimlər xarici təsiri qəbul edərkən siqnalları onların daşıdığı məlumatdan ayırmadan birlikdə qəbul edir. Nəticədə, cisimdə təsir haqqında **yad məlumat** saxlanmır. Buna görə də, heç bir cisimdə başqa varlıq haqqında məlumata rast gəlinmir. Cisimlərdə həqiqətin saxlanmasının səbəbi mahiyyətlə formanın vəhdətinin zərurətinə görə mümkün olur. Burada mahiyyət - həqiqət, forma - onu öz daxilində saxlayan, məhdudlaşdıran, başqa həqiqətlərdən ayıran sərhəd kimi çıxış edir. Buradan da formanın kəskin dəyişilmələri mahiyyətin dəyişilməsini şərtləndirdiyindən, xarici təsir məhdud ölçülərdə iz qoyur və bu ölçülərdən kənarda təsir cismi dağıdır.

Dəyişən şərtlər zaman şərtlərindən ibarət olduğundan, canlılarda təsirin izləri zamanda dəyişilən şərtlər kimi saxlanılır. Biz bunu **aktiv inikas** kimi təyin edirik. Aktiv inikas **Heyvani Yaddaş** kimi təzahür edir.

“Yaddaş” sözü hansı mənanı verir? Əgər biz sözün tərkib hissələrinə ayırsaq, onda yaddaş sözünün “yad” və “daş” hissələrindən ibarət olduğunu görərik. “Daş” Azərbaycan dilində eynilik mənasını verir (məsələn: yol-daş - eyni yolda gedən, qar-daş/qarındaş - eyni qarında olan və s.). “Yad” sözü fərqli olan, başqası, özü ilə yaxınlığı olmayan

mənasını verir. Buradan yaddaş sözünü **"özü ilə yaxınlığı olmayanla - yadla - eyni yerdə olmaq"** kimi şərh etmək olar.

Cisimlər özündə eynilik saxlamaq, fərqliliyi özündən itələməklə mövcud olduğundan, cisimlərdə yaddaş aşkarlanmır.

Təsirin yad məlumat formasında, dəyişən zaman şərtlərində, mahiyyətdə saxlanması və ondan sonradan həyat fəaliyyətində istifadə olunması **heyvani yaddaş** kimi təzahür edir.

Buradan aşağıdakı ideya aşkarlanır: *Heyvani yaddaş - təsir haqqında yad məlumatın özündə saxlanması və ondan həyat fəaliyyətində istifadə edilməsinin şərtlərinin məcmusundan ibarətdir.*

Canlılar dəyişən zəruri şərtlərdə mövcud olduğundan, təsirin izlərini saxlamağa görə cisimlərdən aşağıdakılarla fərqlənir:

a. **İkili mövcudluq:** Canlılar cismə və cana malik olduqlarından, canlılıqda cismə xas yad həqiqət yaranışdan mövcud olur. Həmin yad həqiqət həm də əmələgəlmədən (həyatdan) canlıya daxil olur.
b. **Forma dəyişkənliyi:** Cisimlərdən fərqli olaraq formaları sürəkli dəyişildiyindən, formalarında xarici təsirin izlərini sabit şəkildə saxlaya bilmirlər; buna görə təsir mahiyyətə keçir, nəticədə xarici təsirin izləri yox, həmin təsir haqqında **məlumat** müəyyən vaxt ərzində orqanizmdə saxlanılır. *Məlumat - izin zamanla şərtlənməsinin məcmusundan ibarətdir.*
c. **Daxili təsir (Orqanik təsir):** Canlılarda cisimlərdən fərqli olaraq həm də daxili təsir meydana çıxır. Daxili təsir üzvlərə bölünmə və üzvlərarası əlaqələrə görə bir üzvün başqasının fəaliyyətinə müdaxilə etməsi kimi təzahür edir. Biz belə təsiri **üzvü** və ya **orqanik təsir** kimi təyin edirik. Orqanik təsir xarici təsirdən fərqli olaraq başqa orqanın fəaliyyətində fərqli daxili "izlər" buraxır.
d. **Tanınma (Canlandırma):** Canlılar həm də özlərində saxladıqları təsir haqqında məlumatdan həyat fəaliyyətində istifadə edirlər. Buradan da yad məlumatın canlandırılması meydana çıxır. Yad məlumatın

canlandırılması təsir obyektinin **tanınması** kimi təzahür edir. Tanınma - əvvəllər inikas edilmiş obyektiv reallığın izlərinə görə onun müəyyən edilməsi və ya inikas etməyən xarici reallığa əvvəlki inikasa görə cavab verilməsindən ibarətdir.

e. **Növ Yaddaşı:** Canlı fərdin mahiyyəti növdə olduğundan canlılarda xarici təsirin izləri fərdlərdə yox, növdə saxlanılır; fərdlər burada yalnız ötürücü rol oynayır. Beləliklə, yalnız eyni növdən olan bütün fərdlərə olan eyni təsir haqqında məlumat inikas olunaraq onun haqqındakı məlumat növə ötürülür və sonradan növ həmin məlumatı hər bir fərdə verməklə onların həyat fəaliyyətində ondan istifadə edilməsi üçün bərabər imkanlar yaradır. Bu cür yaddaşa alma mahiyyət etibarı ilə kollektiv şüura yaxındır.

Canlıların növündən asılı olaraq məlumatın saxlanma forması fərqlənir, buna görə də fərqli yaddaş formaları meydana çıxır. Məsələn, bitkilər fiziki ətrafla bağlı, heyvanlar bitkilər və bir-biri ilə bağlı yaddaşa malikdir. Buna görə də, hər bir canlı onun həyatı üçün vacib olan və əksinə, ona həyati təhlükə törədən şeylər haqqında anadangəlmə bilgi-məlumat saxlayır.

Yaddaş necə əmələ gəlir? Yəni fərqlilik haqqında məlumat necə eyniliklə birgə mövcud varlıqda saxlanılır? Hər bir gerçəklik mövcudluq aktında öz həqiqəti haqqında məlumat göndərərkən həmin məlumatı müəyyən enerji ilə şüalandırır. Bu enerji həm şüanı daşıyır, həm də şüa vasitəsi ilə başqa obyektə (qəbulediciyə) təsir edir.

Qəbuledicilər məlumata münasibətə görə aşağıdakı növlərə bölünür:

a. Məlumatı öz daxilindən keçirən və bu zaman onu entropiyaya məruz qoymayan qəbuledicilər: Belə qəbuledicilərə **ideal sadə cisimlər** aiddir. İdeal sadə cisimlər yalnız abstraksiya yolu ilə təsəvvür oluna bilər.

b. Məlumatı özündən keçirən, amma onu entropiyaya məruz qoyan qəbuledicilər: Bura **real cisimlər** aiddir. Real cisimlər gerçəklik və real-

lıq xarakteristikalarına malikdir. Məsələn, işıq şüası hər hansı bir cisimdən keçərkən müxtəlif cür entropiyalara məruz qalır.

c. Məlumatı olduğu kimi geri qaytaran qəbuledicilər: Belə qəbuledicilərə ifrat mürəkkəb və ya **ideal mürəkkəb cisimlər** aiddir. İdeal mürəkkəb cisimlər də ideal sadə cisimlər kimi yalnız fikrən təfəkkürə gətirilir.

v. Məlumatı daxilə buraxmayan, səthində qəbul edən qəbuledicilər: Bu cür qəbuledicilər də öz növbəsində iki yarımqrupa bölünür:

1. Məlumatı alıb, onun təsirindən deformasiyaya uğrayanlar - **plastik qəbuledicilər**. Belə materiallarda təsir qalıcı olur və təsir özündə təsir edicinin əlamətlərini öz formasında hifz edir.

2. Məlumatın təsirindən deformasiyaya uğrayıb, təsir kəsildikdən sonra yenidən əvvəlki vəziyyətinə qayıdan qəbuledicilər - **elastik qəbuledicilər**. Elastik qəbuledicilər xarici təsiri özündə keçici olaraq saxlayır. Təsirin izinin formada saxlanması **deformasiya** kimi təzahür edir. Deformasiyada təsir edən obyektiv reallığın həqiqəti əks olunmur.

Əgər biz fikrən eyni zamanda elastik və plastik olan bir cismi götürsək (təbiətdə belə xarakteristikaya malik material yoxdur), onda ona olan xarici təsir plastikliyinə görə onda qalıcı iz qoyacaq, elastikliyinə görə öz əvvəlki vəziyyətinə qayıdaraq həmin izi itirəcək. Əgər həmin cismin elastik və plastik təbiəti bir yerdə eyni anda yox, ardıcıl meydana çıxsa və onlar arasında əlaqələndirici mexanizm yaransa, onda həmin cisim özündə **canlanan yaddaşı** (itən və sonradan yenidən təzahür edən izi-deformasiyanı) özündə təqdim edəcəkdir. Yəni elastikliyin itirdiyi iz plastiklikdə yenidən görünəcək və sonra elastikliyə görə itəcək. Əgər bu cür canlanan yaddaş həm də xarici və daxili təsirlə şərtlənərək sürəkli olaraq təkrarlanarsa və onlar arasında nizamlayıcı mexanizmlər olarsa, onda **canlılığın yaddaşı** meydana çıxır.

Buradan aşağıdakı metafizik ideya aşkarlanır: *İnikas - xarici təsirlə daxili təsirin canlıların mahiyyətində iz qoymasının şərtlərinin məcmusundan ibarətdir.*

İnikas sözü fəlsəfədə xarici predmetin hiss üzvlərinə təsir etməsi ilə onların şüurda şəkillərinin əks olunmasını bildirir. Göründüyü kimi, cisimlərdə inikas bilavasitə, canlılarda dolayi yolla reallaşır. İnikasın dolayi yolla reallaşması təsirlə inikas arasında zaman fərqliliyini və təsirin keçdiyi yolda entropiyaya məruz qalmasına (həm kəmiyyət, həm də keyfiyyət dəyişilməsinə məruz qalmasına) səbəb olur.

İnikasın mahiyyətini anlamaq üçün "əksolunma" anlayışının mənasını təyin etmək tələb olunur. Əksolunma - bir şeydə kənar başqa bir şeyin şəklinin (xarici görüntüsünün) konkret və ya mücərrəd formada görünməsindən ibarətdir. Amma bu görünmə xarici görüntüyə əks istiqamətdə meydana çıxır. Buradan da, əks istiqamətlilik əksolunmanın mahiyyətinə keçir.

Əks etmənin mənasını biz iki sözdən - **"əksilik"** və **"əksiltmək"** sözlərindən ala bilərik.

- "Əksilik" sözünü *əks-lik* kimi tərkibinə ayırsaq, sözün kökü "əks" alınar. Əks bir mənada predikat kimi şəkil və ya boş forma mənasını daşıyır.
- "Əks" kökünü biz həm də başqa bir sözdən, feldən - *"əks-iltmək"* (yəni azaltmaq, yox etməyə cəhd etmək) sözündən müəyyən edə bilərik. Əksiltmək sözündən aşkarlanan "əks" bu sözdə felin kökü kimi çıxış edir.

Beləliklə, "əks" morfemi eyni zamanda özündə mübtəda və feli xəbər sözündə kök kimi çıxış edir. Nəticədə əks - **şəkil, boş forma** və **azaltmaq və ya yox etməyə cəhd** mənasını verir. Buradan da, əks morfeminin ayrı-ayrı mənaları özü bir-birinə ziddiyyət təşkil edir, nəticədə əks morfeminin çoxmənalılığı yaranır. Özündə çoxmənalılığa malik heç bir sözün idrak prosesində sadə həqiqəti ifadə etməsinin

mümkünsüzlüyünə görə biz əks sözünün birmənalılığını təyin etməliyik. Söz çoxmənalılığından təkmənalılığa keçirilməsi ilə anlayışa çevrilir. Buna görə də, əks sözünün özü-özündə ziddiyyət saxlamayan mənasını tapmaq lazım gəlir, hansı ki, əksilik sözünün mənasını təşkil edərək əksiliklərin idrakına anlayış kimi imkan versin. Biz əks sözünün vahid mənasını onun hər hansı bir mənasını ondan kənara çıxarmaqla təyin edə bilmərik, çünki əks halda idrak prosesində həmin fikrən kənarlaşdırılan məna gizli şəkildə, avtonom qaydada mütəmadi olaraq anlayışa daxil olmaq cəhdində yenidən çoxmənalılıq yaradaraq həqiqətin dəqiq idrakına imkan verməz. Buradan da, sözə çoxlu mənanın daxil olmasının qarşısını almaq üçün onun bütün mənaları eyni zamanda həm onda saxlanmalı, həm də onlardan vahid məna təyin edilməlidir. Anlayışlar məhz belə təyin olunur. Yəni, sözün çoxmənalıqdan təkmənalığa keçidi - onun bütün mənalarından sintez etməklə alınır ki, alınan sözdən kənarda ona aid məna qalmadığından anlayış məna ilə vəhdətdə həqiqəti təkmənalı söz kimi ifadə etmiş olur.

Əks morfemindən **Əksolunma** anlayışını və onun mənasını biz aşağıdakı kimi təyin edirik: **Əks - başqa şeyin şəklini özündə əks etdirməklə yaranan öz görüntüsündə yad görüntüdən ibarətdir.**

Bunu izah etmək üçün güzgüdə əksetmə hadisəsinə baxaq. **Hadisə** - özündə qurulma və keçidi istisna edən prosesdir. Yəni əksetmə hadisəsində əks nə özündə qurulma, nə də bir mövcudluqdan digərinə keçmə şərtlərinə malik olmur. Güzgüdə əksetmə güzgünün əks olunanın şəklini özünə köçürməklə onun şəklini əksiltmək cəhdi kimi təzahür edir. Əgər güzgüdə əksetmə hadisə yox, proses olsaydı (yəni əks keçmə və qurulma proseslərindən meydana çıxsaydı), onda əks olunan şeyin xarici görüntüsü şeydən ayrılaraq güzgüyə keçərdi və onda qurulmaqla meydana çıxardı. Buradan da, şey görüntüdən məhrum olardı, güzgüdə isə mahiyyətsiz xalis xarici görüntü yaranardı, hansı ki, qurulma prosesindən asılı olaraq əks olunanın xarici görüntüsü ilə eynilik və ya fərqlilik təşkil

edən görüntüyə malik olardı. Bununla da, güzgü şeyi özündə əks etməklə onun formasını tam əksildərək ondan çıxarardı. Nəticədə, əks olunanın forması həmişəlik güzgüyə keçərdi, əks olunanda isə forma qalmazdı.

Amma bundan fərqli olaraq, idrak prosesində əksolunma hadisəsi prosesə çevrilir. Nəticədə, şeyin forması şeydən təfəkkürə hissi yolla keçərək, təfəkkürdə mücərrəd forma - şeyin obrazı kimi qurularaq həmişəlik saxlanılır. Amma bu zaman idrak obyektinin forması yox olmur. Bu, fiktiv ruhla obyektiv reallıqların mövcudluq şərtlərinin fərqliliyi ilə bağlıdır. Belə ki, mövcudluqlara İlahi iradədən ölçülü, ruha ölçüsüz zəruri şərtlər verildiyindən, təfəkkürdə məkan və zaman şərtləri ölçüsüz olduğundan, təfəkkürə köcürülməklə şeyin formasının ölçülüyünü azaltmır. Biz bunu ədədlərdən sıfırın çıxarılması əməlinə oxşadırıq, hansı ki, belə əməlin nəticəsində fərq həmişə azalana bərabər olur. Təfəkkürə köcürülmə mücərrəd şəkildə "azalandan sıfırın çıxarılması" əməlindən ibarətdir, buna görə də təfəkkürə köcürülmə şeyin müəyyən ölçülüyündən sıfır ölçülüyünə malik formanın köçürülməsi ilə reallaşır. Köçürmədən sonra şeyin refleksiyasından sonrakı forması refleksiyadan əvvəlkinə bərabər olur, amma təfəkkürdə də yeni mücərrəd forma qurulur. Nəticədə, həm şeyin forması təfəkkürə obraz kimi köçürülür, həm də şey öz formasında təzahür etməkdə davam edir.

Əksetmə əksedənin təbiətindən asılı olaraq fərqli formalarda və dəqiqlikdə meydana çıxır. Güzgü bərk cisim kimi obyektiv reallığın formasını özündə dəqiq və aydın əks etdirir. Şəffaf su maye kimi eyni dəqiqliklə şəkli əks etdirir. Amma su bulandıqda və onun şəffaflığı azaldıqda əksetmə dəqiqliyini itirir, yəni entropiyaya məruz qalır. Suyun hərəkəti də entropiyaedici təsir göstərir. Durğun şəffaf su daha yaxşı əks etdirir, nəinki axan şəffaf su. Suyun hərarətinin artması da entropiyanı artırır. Su qaynadıqca o daha çox qaz halına yaxınlaşır və demək olar ki, şəffaf olmasına baxmayaraq əks etdirmir. Suyun buxarlanması ilə qəbuledici kimi xaotik vəziyyətə keçir, ona görə də nizama tabe olan

əksolunan xaotik qəbuledicidə əks olunmur. Buna görə, qazlarda əks olunma alınmır, amma hava çirklənəndə və ya çənli havada irreallığa yaxın reallığın əks olunması baş verir. Beləliklə, əksolunma hər şeydən əvvəl əksedənin nizamı ilə sıx bağlıdır.

Buradan aşağıdakı ideya alınır: *Əksolunma - obyektiv reallıqların eyni nizamlılığının şərtlərinin məcmusundan ibarətdir.*

Əksolunmanın iki formasını - **müvəqqəti (keçici)** və ya **daimi (qalıcı)** formalarını ayırd etmək olar. Güzgüdə əksolunma keçici, müvəqqəti əksolunmadan ibarətdir, hansı ki, əksolanla əksedən "burda və indi" prinsipinə tabe olduqca əksolma davam edir. Daimi və ya qalıcı əksolunma əksolanla əksedənin "burda və ya indi" prinsipinə tabe olmaları ilə baş verməsini özündə təqdim edir.

"Burda" prinsipi ilə əksolunmanın tipik nümunəsi **Foto** şəklidir. Foto statik vəziyyətdə olan məkanla şərtlənmənin əksi kimi meydana çıxır. Fotoda əks olunanın məkanı zamanından ayrılır. Əks olan - müxtəlif zamanlarla, əks - yalnız bir zamanla şərtlənir. Biz bunu **statik və ya məkani inikas** kimi təyin edirik. Foto şəkildə eyni bir obraz zamanın müxtəlif anlarında bir və eyni yerdə əks olunur. Beləliklə, foto şəkil metafizik qanunlara tabe olur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Foto - cismin səthində obyektin dəqiq obrazının (məkani ölçülüyünün) qalıcı əksolunmasının şərtlərinin məcmusundan ibarətdir.*

Foto və ya şəkil - obrazın elə irreallığıdır ki, həmin irreallıq reallıqla eynilik kimi qalıcı təsirə çevrilmişdir. Ardıcıl proseslərin ardıcıl şəklini çəkməklə proseslərin və hadisələrin əksini əldə etmək olar. Bunun klassik forması **Kino**dur.

Kino - hadisələrin, proseslərin və hərəkətin əksinin şərtlərinin məcmusundan ibarətdir.

Kinoda xarici hadisə, proses və hərəkətlər hansı tezlikdə, intensivlikdə və ardıcıllıqda baş verirsə, qəbuledicidə qalıcı seriyaları eyni sürət,

intensivlik və dəqiqliklə hərəkətə gətirməklə reallığa uyğun onların əksi alınır. Biz bunu **sürəkliliyin inikası** və ya **zamanın inikası** kimi təyin edirik. Kinoda eyni bir obraz zamanın müxtəlif vaxtlarında, müxtəlif yerlərdə olan vəziyyətlərdə əks olunur. Kino təbiət qanunlarına uyğun əksetməni özündə ifadə edir.

Canlılarda xarici təsirlər həm də **fizioloji fəallıq** kimi əks olunur. Elə-belə canlıların fizioloji fəallığı iki cürdür. Özünüqorumaya xidmət edən fizioloji fəallıq: Belə fəallıq canlı fərdin həyatının davam etdirmə şərtlərinin məcmusundan ibarətdir. Bura qidalanma və özünü xarici təhlükədən qoruma aiddir. Xarici təhlükə və qida kimi çıxış edən hər bir xarici təsir canlıların hiss üzvlərinə təsir edərək onlarda xüsusi fizioloji fəallıq yaradır. Fizioloji fəallıq mürəkkəb bioloji proses kimi təzahür edir. Canlılarda həm xarici predmetlər hiss üzvlərinə təsir etməklə onlarda əks olunur (yəni fizioloji fəallıq yaradır), həm də daxili təsirlər hiss üzvlərinə analoji təsir edərək eyni fizioloji fəallığa səbəb olur.

Xarici və daxili təsirlərdən canlılarda hansı fizioloji aktivliyin yaranması zərurətlə - mövcudluqla şərtlənmişdir. Canlılarda formal varlıq, yəni canlının zəruri şərtləri növdən təzahür etdiyindən, mövcudluğun zəruri şərtləri - **növ yaddaşı** kimi mövcud olur. Canlının növlə əlaqəsindən canlıların fizioloji fəallıqları anadangəlmə mexanizmlərlə tənzimlənir. Belə fəallıqların məcmusu **nəsil əlaqəsini** təşkil edir. Canlılar nəsil vermə ilə daxili yolla həyat təcrübəsi haqqında məlumatları yeni nəslə ötürür. Bu **irsiyyət** kimi təzahür edir. İrsiyyət - hər hansı bir növün xüsusi qəbuledici kimi xüsusiyyətlərinin məlumatının strukturlaşmasıdır. Cisimlərdən fərqli olaraq, hər bir canlı doğulduqdan sonra, düşdüyü xüsusi şərtlərin təsirinə məruz qalır və bu təsirlər altında onlara müxtəlif formalarda cavab verir. Bu cavablardan biri təsir haqqında məlumatın təsirdən ayrılaraq müxtəlif qaydada fiksə edilməsidir. Bu məlumat növbəti təsir zamanı canlı tərəfindən istifadə edilərək cavab təkmilləşdirilir. Nəticədə, **həyat təcrübəsi** meydana çıxır. Biz həyat

təcrübəsini "növ yaddaşı" kimi təyin edirik. "Növ yaddaşına" malik olmayan heç bir canlı fərd həyat qabiliyyətli ola bilməz. Növ yaddaşı xüsusi bioloji materiallarla - DNT ilə bir nəsildən digərinə daxili maddi siqnallar kimi ötürülür.

Təsir haqqında məlumat canlının təkmillik dərəcəsindən asılı olaraq onun bədəninin müxtəlif yerlərində fiksə olunur. Mikroorqanizmlərdə orqanizm (canlılığın ilkin təzahürü) üzvlərə bölünmədən bir tam kimi mövcuddur. Buna görə də mikroorqanizmlərdə yaddaş onların formasında saxlanılır. Makroorqanizmlərin hüceyrəvi quruluşa keçməsi ilə yaddaşın təbiəti dəyişir. Artıq yaddaş hüceyrənin müəyyən orqanellasında saxlanılır. Buradan da, hər bir hüceyrə özündə yaddaş saxlayan hissə kimi çıxış edir. Məşhur amerika filosofu və alimi R.Habbard (L. Ron Hubbard) iddia edib ki, canlının məruz qaldığı xarici təsirlər hüceyrələr tərəfindən yazılır və saxlanılır. Bunu o, **enqram** (inqramma) adlandırır. Enqram - hüceyrə yaddaşı kimi meydana çıxır. Təkhüceyrəlilərin yaddaşı məhz hüceyrə yaddaşından ibarətdir.

Xarici təsir haqqında məlumat aşağı pillədə duran canlılarda hüceyrə səviyyəsində bütün orqanizm tərəfindən fiksə olunur. Ali canlılarda üzvlərə bölünmə və üzvlərarası əlaqədən asılı olaraq təsir-əks-təsir əlaqəsi ilə bağlı məlumat (bioloji yaddaş) fərqli qaydalarda təzahür edir. Bitkilərdə üzvü bölünmə üzvlərarası daimi əlaqə ilə müşahidə olunmadığından, hər bir üzv mövsümi yaddaşa malik olur. Məsələn, çiçək bir cür, yarpaq başqa cür, meyvə onlardan da fərqli qaydada "orijinal yaddaşa" malikdir. Üzvlərin orijinal yaddaşlarının məcmusu bitki orqanizminin xüsusi yaddaşını meydana çıxarır.

Heyvanlarda üzvlərə bölünmə və üzvlərarası vəhdət formalaşdıqdan sonra funksiyaların üzvlər üzrə differensiasiyası baş verir. Nəticədə, hər bir orqan digərlərindən fərqli, yalnız ona xas funksiya daşıyır. Funksiya - bütün orqanizmin həyat fəaliyyətini təmin edən, amma yalnız bir üzv

tərəfindən icra olunan xüsusi fəaliyyət formasıdır. Heyvanlarda "yaddaş" daxildə xüsusi orqanda - mərkəzi sinir sistemində saxlanılır.

Təsir - özündə təsir obyektinin quruluşu (yaddaşı) haqqında məlumatdan ibarətdir. Həmin məlumat təsir-əks-təsir əlaqəsində canlıya ötürülür, canlı təsir obyektinin "yaddaşını" özündə saxlayır. Xarici obyekt bütöv orqanizmə təsir edərkən orqanizmin ayrı-ayrı analizatorları həmin təsiri tərkib hissələrinə ayıraraq sadə siqnallar şəklində qəbul edir. Təsirin bu cür sadələşdirilməsi təsir obyektinin quruluşu haqqında məlumatın dağıdılması kimi meydana çıxır. Hər bir sadə siqnal **qıcıq** kimi çıxış edir. Qıcıq hiss uclarına təsir edir. Hiss uclarında təsir haqqındakı məlumat daşıyan enerji hissi analizatorlarla qəbul edilərək entropiyaya məruz qalır. Nəticədə, təsir **impulsa** çevrilir. İmpulslar müxtəlif sinir yolları ilə beyinə ötürülür, beyində həmin entropiyaya uğramış siqnallardan (impulslardan) yenidən təsir obyektinin quruluşu haqqında məlumat sintez olunur və təfəkkürdə obyektin mücərrəd əksi yaranır. Xarici təsir obyekti canlılara hissi təsir etdiyindən obyektin həqiqəti hissəvi olaraq canlı tərəfindən yaddaşa alınır. Başqa sözlə, heyvani yaddaşda obyektin dəqiq və aydın forması haqqında məlumat saxlanılmır.

Canlıların yaddaşının aşağıdakı növlərini ayırd etmək olar:

- a. Bir tam kimi ümumi orqanizmin yaddaşı - **Orqanik yaddaş**;
- b. Hüceyrənin ayrı-ayrı orqanellasında saxlanan yaddaş - **Orqanell yaddaşı**;
- c. Bir tam kimi hüceyrədə saxlanan yaddaş - **Enqram (hüceyrə yaddaşı)**;
- v. Üzvlərə ayrılmış orqanizmlərdə ayrıca bir üzvdə saxlanan xüsusi yaddaş - **Üzvü yaddaş**;
- q. Bütün orqanizmdə yalnız bir orqanda saxlanan mərkəzləşdirilmiş yaddaş - **Beyin yaddaşı**;
- e. Ümumi növdə saxlanılan yaddaş - **Növ yaddaşı** və ya **İrsiyyət**.

Yaddaşın növündən asılı olaraq yaddaş müxtəlif üsullarla yaranır. Filogenezdə orqanların yaranma ardıcıllığına uyğun yaddaşa almanın təkmilliyi və yaddaşın canlandırılmasının sürəti dəyişir. Ən erkən yaddaş forması ən ləng və qeyri-dəqiq canlandırılır.

Heyvanlar obraz haqqında məlumatı iki mənbədən alır və strukturlaşdırırlar:

1. **Bilavasitə obyektin özündən:** Obyektdən məlumatın əldə edilməsi obyektin bilavasitə iştirakı və canlının həyati instinktlərinə uyğun təsiri ilə şərtlənmişdir.
2. **İrsi məlumatdan:** Əvvəlki nəslin əldə etdiyi və irsi məlumat halına saldığı obraz haqqında formalaşmış informasiya. Daxildən alınan informasiya ilə obyektdən alınan informasiya üst-üstə düşdükdə **tanınma** baş verir.

Heyvanlarda daxili irsi obrazların aktualaşmasına daxili sekresiya təsir edir. Daxili sekresiya irsi məlumatdakı obrazları oyandıran xüsusi maddələrdir. Narkotiklər şüuru entropiyaya məruz qoyduğu kimi, sekresiyalar hissləri entropiyaya uğradıb onları heyvani emosiyalara çevirirlər. Məsələn, qorxu nəticəsində heyvanın bədənində sekresiya artır, artan sekresiya heyvanın xarici obyektdən aldığı məlumatı entropiyaya məruz qoyur, nəticədə obraza xüsusi münasibət (aqressivlik) yaranır. Cütləşmə dönəmində cinsi vəzilərin ifrazı əks cinsin obrazını irsi informasiyadan alır, sonra o informasiyaya uyğun gələn obyekt axtarılır. Bu zaman əks cinsin buraxdığı efir məhz onun həmin obraz olduğuna istiqamətləndirir. Beləliklə, aşkarlama yaranır. Əgər iki əks cins daxildən və xaricdən aldıqları informasiyanı eyniləşdirirlərsə, onda cütləşmə başa çatır. Eyni hal qidalanma, təhlükə və digər bioloji irsi məlumatlarla bağlı baş verir.

İnsan canlıların ali pilləsində duran bioloji varlıq kimi özündə həyat təcrübəsi ilə bağlı bütün yaddaş formalarına malikdir, eyni zamanda fiktiv ruhun bədənlə əlaqəsinə görə həm də bədənlə ruhun ikisinə birlikdə

olan təsirə və onların əks-təsirləri ilə bağlı yaddaşa - **insan yaddaşına** malikdir. İnsan yaddaşı bioloji yaddaşdan insanın əksetməyə iradəvi müdaxilə etmə imkanına görə fərqlənir.

İnsan yaddaşı - fiktiv ruhun bədənə təsiri ilə onun heyvani yaddaşını entropiyaya məruz qoyması ilə meydana çıxır. İnsan yaddaşı heyvani yaddaşdan həm də yaddaşa almaya, saxlanmaya fiktiv ruhun müdaxiləsi və əlavə olaraq yadasalma (təsir olmadan, yəni obyektiv reallığın iştirakı tələb olunmadan inikasın canlandırılması) aiddir. Buradan da, fiktiv ruha xas şərtlər (bağlılıq, iradə, əsər və dərketmə) heyvani yaddaşı şərtləndirərək onu insani yaddaşa çevirir. Nəticədə, insani yaddaşı heyvani yaddaşdan fərqləndirən aşağıdakı özəlliklər meydana çıxır:

1. Heyvani yaddaşda bağlılıq şərtləri olmadığından yada alınan məlumat yalnız obyektiv reallığın bilavasitə iştirakı ilə şərtlənir və təsir itdikdə onun inikası da itir. İnsan yaddaşında inikas yaddaşa bağlanır. Nəticədə, obyektiv reallığın iştirakı olmadan da təsirin inikası yaddaşda saxlanılır. Obyektiv reallığın iştirakı tələb olunmadan yaddaşda canlandırılması faktdan törəyən ideyanın ağıldan törəyən ideya ilə bağlanması ilə əlaqədardır. Yaddaşda faktdan törəyən ideya ağılda törəyən ideya ilə **assosiasiya** təşkil edir. Assosiasiya bir şeyin ona oxşar, amma ondan fərqli qanunlara tabe olan şeyi təsəvvürə gətirməsindən ibarətdir. Məsələn, biz almanı gördükdə təsəvvürümüzdə onun adını və ideyasını, əksinə alma haqqında düşündükdə onun gerçək varlığının obrazını təfəkkürdə canlandırırıq.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İnsan Yaddaşı - təfəkkürdə aktuallaşmanın, mücərrəd mövcud olmanın təsadüfi şərtlərinin məcmusundan ibarətdir.*

Yəni, obyektiv gerçəkliyin təsiri zamanı təfəkkürdə refleksiya nəticəsində faktdan törəyən mücərrəd ideya yaranır, və əksinə obyektiv gerçəkliyə əks-təsir hazırlanarkən ağıldan törəyən ideya faktdan törəyən ideyanı canlandırır və əks-təsir buna görə konkret mövcud

varlığa istiqamətləndirilir və biz onu müəyyən edirik. Biz insan yaddaşını faktdan törəyən ideyaların ağıldan törəyən ruhun öz ideyaları ilə birlikdə saxlanması kimi təyin edirik. Hansı ki, bir ideya digəri ilə assosiasiya təşkil edir və bir ideya idrak prosesinə daxil olduqda digər ideyanı da yaddaşdan canlandırıb prosesə gətirir. Heyvani yaddaşda ağıl olmadığından faktdan törəyən ideya ağıldan törəyən ideya ilə assosiasiya təşkil etmir, buna görə də heyvanlarda yadasalma meydana çıxmır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İnsan yaddaşı - ağıldan törəyən ideyalarla faktdan törəyən ideyaların birlikdə eyni qaydalarla saxlanmasının şərtlərinin məcmusundan ibarətdir.*

2. Heyvani yaddaşda inikas təsir obyekti ilə səbəb-nəticə əlaqəsindədir və heyvanın bu əlaqəyə müdaxilə imkanı yoxdur. Başqa sözlə, canlılığın mövcudluğu birincili və ikincili mövcudluğun vəhdətindən meydana çıxdığından, təsirlə inikas vəhdət təşkil edir. Amma insan yaddaşında fiktiv ruh canlılıqdan fərqli qanunlara tabe olduğundan, onlarla vəhdət təşkil etmir, nəticədə azad şəkildə təsir-inikas əlaqəsinə müdaxilə edir. Bununla da, insan iradəvi olaraq yaddaşa alır və saxlayır.

3. Heyvani yaddaşda inikas şəkilləndirilmir. Yəni obyektiv reallıq ayrı-ayrı qıcıqlar kimi orqanizmə təsir edir və orqanizmdə hər bir qıcığa ayrı-ayrı reaksiyalar meydana çıxır. Başqa sözlə, obyektiv reallıq inikas prosesində hissələrə ayrılır. Heyvan təsir obyektinin tam obrazını yaddaşa almır. Ruhun müdaxiləsi ilə insan yaddaşında həm də **əsərin** şərtləri iştirak edir, nəticədə canlılıqda hissələr kimi inikas olunan təsir insani yaddaşda bir tam kimi - əsər kimi, obraz şəklində yaddaşa alınır.

4. Heyvani yaddaşda dərketmə olmadığından, heyvan yalnız təsir edən obyektiv reallığın formasını inikas edir. Buna görə də, heyvanlar hər hansı bir təsir obyektinin təbii və ya süni olmasını ayırd etmədən

formalarının eyniliyinə görə onlara eyni reaksiya verirlər. Amma insani yaddaşda dərketmənin şərtləri iştirak etdiyindən, insan həm də təsir edən obyektiv reallığın mahiyyətini də ideya kimi özündə inikas edir.

Fiktiv ruhun canlılığın yaddaşına münasibətini biz **Müşahidə** kimi təyin edirik. Müşahidə - idrak obyektinin tədqiq edilməsi, onun idrak olunma üsulunun və ardıcıllığının təyin olunmasından ibarətdir.

Fiktiv Ruhun öz forması olmadığından, onda həqiqətin saxlanması mövcud varlıqdan fərqli qaydalara əsaslanır. Belə ki, ruh mövcud varlıqların özündə həqiqət saxlamasını özündə refleksiya etməklə öz həqiqətini aydınlaşdırır. Ruhun özündə həqiqət saxlaması - mövcud varlıqların forma ilə mahiyyətinin vəhdətindən onları mücərrəd şəkildə təfəkkürdə bir-birindən ayrılıqda ayrı-ayrı saxlanmasından, sonra onların yenidən təfəkkürdə mücərrəd şəkildə vəhdətə gətirilməsindən ibarətdir. Beləliklə, mövcud varlıqlarda həqiqətin saxlanmasının refleksiyası insan yaddaşı kimi meydana çıxır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

> *İnsan Yaddaşı - təfəkkürdə mövcud varlıqların konkret forma və mahiyyətinin bir-birindən ayrılıqda saxlanması, sonra onların yaşam təcrübəsində mücərrəd şəkildə vəhdətə gətirilməsinin şərtlərinin məcmusundan ibarətdir.*

Heyvani yaddaşla insani yaddaşın aşağıdakı fərqliliklərini aşkar etmək olar:

1. **Sosiallıq:** Əgər heyvanların yaddaşı özündə saxladığı məlumatı həyat fəaliyyətində istifadə etməklə xarakterikdirsə, insan yaddaşındakı məlumat sonradan **yaşam** təcrübəsində istifadə etməklə xarakterizə oluna bilər. Yaşam - sosial həyatdır. Beləliklə, insan yaddaşında həm də başqaları ilə birlikdə tələb olunan fəaliyyətin şərtləri saxlanılır, hansı ki, canlılarda yalnız fərdi fəaliyyətin şərtləri saxlanılır.

2. **Fəaliyyətin vəhdəti:** Bəzi sosial heyvanların həyat təcrübəsi zahirən insanın yaşam təcrübəsinə oxşayır. Amma əslində heyvanların sosial həyatı fərdi fəaliyyətlərin xarici vəhdətindən meydana çıxır, insanın sosial fəaliyyəti fərddə daxili vəhdətdə təzahür edir. Buna görə də məsələn, arı ailəsində işçi arı ana arının və ya erkək arının funksiyalarını yerinə yetirə bilmir. İnsan isə ən müxtəlif funksiyaları iradəvi olaraq yerinə yetirmək şərtlərinə malikdir.

3. **Mahiyyətin refleksiyasına görə:** Heyvanlarda obyektiv reallığın bilavasitə forması inikas olunur və yaddaşda forma ilə bağlı məlumat saxlanılır. İnsan yaddaşında həm də obyektiv reallığın ideyası saxlanılır. Buradan da yaddaşda iki cür şərtlər - **obrazların saxlanmasının şərtləri** və **mahiyyətin (ideyaların) saxlanmasının şərtləri**ni ayırd edə bilərik.

4. **Mücərrədliyin inikası:** Heyvani yaddaşda yalnız konkret obyekt inikas olunur. İnsan yaddaşında həm də mücərrəd obyektlərin inikası baş verir. Buna görə də, heyvanların əhilləşdirilməsində sözlərin heyvan yaddaşında saxlanması müəyyən obyektiv reallıqlarla (məsələn, qida və s.) həyata keçirilir. Elə-belə söz mücərrəd varlıq kimi heyvan yaddaşında inikas olunmur.

5. **Yaddaşda simvollaşdırma:** Heyvani yaddaşda konkret predmetin yaddaşa alınması reallığa uyğun baş verir. İnsani yaddaşda obyektlər müxtəlif **simvollar** şəklində yaddaşa alınır. Buradan da, bir simvol xarici çoxluğu yaddaşa almağa imkan verir. Heyvani yaddaşda daxili təklik xarici təklik kimi yaddaşa alınır. İnsan yaddaşında xarici çoxluq daxili təklik kimi yada alınır. Məsələn, "alma" sözü ilə biz sonsuz sayda ən müxtəlif sort konkret alma meyvəsini yaddaşımızda simvollaşdırırıq. Yaddaşda obrazlar konkret mövcudluğun ya hissi təsiri, ya da mücərrəd simvolu (adı) ilə bağlı saxlanılır və canlandırılır. İdeyalar ağıldan törəyən ideyalarla assosiasiyada saxlanılır və canlandırılır. Beləliklə, biz obrazları ya konkret olaraq xarici görüntüsünü

hissi qavramadan (yəni görmədən - vizual yolla), ya da mücərrəd xarici görüntüsünün hissi qavramasından (adından - verbal yolla) yaradırıq. Amma ideyaları düşüncə yolu ilə, intuitiv olaraq ağıldan törəyən ideyalarla faktdan törəyən ideyaların assosiasiyasından aşkarlayır və saxlayırıq.

6. **Daxili canlandırma:** Canlılarda yadasalma yalnız konkret qıcıqla (xarici təsir obyektinin bilavasitə iştirakı ilə), insanda qıcıq obyektinin iştirakı olmadan baş verir. Başqa sözlə, insan yaddaşı heyvani yaddaşdan yadasalma, yəni daxildə özündə canlandırma prosesi ilə fərqlənir: Heyvani yaddaşda saxlanılan məlumatın canlandırılması yalnız xarici təkrar təsirlə mümkün olur (məsələn, ovçu heyvan öz ovunu təkrar inikas etdikdə onunla bağlı məlumatı canlandırır). İnsanda isə bundan fərqli olaraq daxili canlandırma mövcuddur. Yəni obyektiv reallıq təkrar inikas olmadan da həmin obyekt haqqında məlumat təkrarlanır.

İdrak prosesinin nəticələrinin fiksə olunma yerindən və qaydasından asılı olaraq özünə xas həcmdə və dəqiqlikdə yaddaşa alma, yaddaşda saxlama və müxtəlif aydınlıqda və intensivlikdə canlandırılır.

Canlandırma - fiktiv ruhun bədənin yaddaşına təsirinin şərtlərinin məcmusundan ibarətdir. Yaddaş nə qədər ümumi formada fiksə olunursa, onun yenidən canlandırılması bir o qədər çətin olur. İnsanda heyvanlardan fərqli olaraq yaddaşın bədənin harasında fiksə olunmasından asılı olmayaraq, onun canlandırılması yalnız ruhda baş verir. Hər bir formanın özündə fiksə etdiyi həqiqəti ruha ötürməsi müxtəlif həcmdə və dəqiqlikdə olur.

Yaddaşda canlandırma həm iradəvi, həm də qeyri-iradəvi formada meydana çıxır. Fiktiv ruhun bədənlə əlaqəsində yaddaşda canlandırma iradəvi proses kimi təzahür edir, amma fiktiv ruhla bədənin əlaqəsinin xəstəliklərdən, xarici situasiyadan və ya dərman preparatlarının təsirindən zəifləməsində qeyri-iradi canlanma və ya **öz-özünə canlanma**

meydana çıxır. Bu zaman canlanan məlumatlar xaotikliyi, irreallığı ilə iradəvi canlandırmadan fərqlənir. Qeyri-iradəvi canlandırmaya yuxugörmə, hallüsinasiya, ilğım və s. aiddir. Bundan başqa, insanda növ yadasalmanın xüsusi forması kimi İrsiyyətdən alınıb təfəkkürdə aşkarlanan əcdadların yaddaşı - **Arxetiplər** təzahür edir.

7. **İctimailik:** Heyvani yaddaşda saxlanan məlumatlar yalnız daxili yolla bir nəsildən digərinə (irsiyyətlə) ötürülür və canlı fərddən canlı fərdə yaddaşda saxlanılan məlumat xarici yolla ötürülmür. Buradan da heyvani yaddaş fərdi qapalı yaddaş kimi meydana çıxır. Amma insani yaddaşda saxlanılan məlumatlar həm də xarici yolla bir şəxsdən başqasına, bir nəsildən başqa nəsilə ötürülür. Nəticədə, yaddaş ictimailəşir. İnsan yaddaşının ictimailik xarakteristikasına görə məlumatlar həm də başqa adamın yaddaşından obyektiv reallığın bilavasitə fərddə inikası tələb olunmadan hazır şəkildə alınır. İnsani yaddaşda məlumatlar həm abstrakt obrazlar, həm təsəvvürlər, həm simvollar, həm də ideyalar şəklində saxlanılır. **Tam yaddaş** - ideya şəklində həqiqət haqqında məlumatın saxlanılmasıdır. Ən bəsit yaddaş obrazlar şəklində məlumatın təfəkkürdə saxlanmasından ibarətdir.

Öz-özlüyündə heyvan yaddaşından fərqli olaraq insan yaddaşı bir-birindən fərqli üç mərhələdən ibarətdir: **Yaddaşaalma, Yaddaşdasaxlama** və **Yaddaşdacanlandırma (yadasalma)**.

- Yaddaşaalma - təbiət qanunları ilə metafizik qanunların vəhdətinə;
- Yaddaşdasaxlama - metafizik qanunlara;
- Yadasalma - transendensiya (keçid) qanunlarına tabe olur.

İnsan canlılardan fərqli olaraq, fərqli mexanizmlərlə informasiyanı qəbul edir və əks-əlaqəyə girir. İnsan üç müxtəlif mənbədən - həm obrazdan, həm irsiyyətdən, həm də təfəkkürdən - informasiya alır. Əgər bu üç informasiya üst-üstə düşürsə, onda idrak prosesi adlandırdığımız həqiqətin aşkarlanması baş verir. Obrazın (formanın) və ideyanın

(mahiyyətin) təfəkkürə alınması və canlandırılması insan yaddaşını əmələ gətirir. İnsanda məlumatın alınma mənbələrinin alternativli olması imkan verir ki, məlumat obrazsız (yalnız irsi və təfəkkürdən), irsiyyətsiz (yalnız təfəkkürün özü-özündən) əldə edilsin.

8. **Yaddaşın obyektivizasiyası:** Heyvanlar həyat təcrübəsi ilə bağlı bəzi məlumatları bədəndən kənar ətraf mühitdə xüsusi üsullarla fiksə edirlər (məsələn, ərazinin sidiklə nişanlanması və s.). İnsan da öz yaşam təcrübəsi ilə bağlı yaddaşını (özündə saxladığı məlumatı) özündən kənar maddi obyektlərə proyeksiya etməklə saxlayır. Biz belə yaddaşda saxlamanı **özündənkənar yaddaş** və ya **obyektivizasiya olunmuş yaddaş** kimi təyin edirik. Obyektivizasiya olunmuş yaddaş fərdi yaddaşın xaricdə əks edilməsi kimi meydana çıxır. Həqiqətin bədəndən kənar yaddaşa alınmasının müxtəlif üsulları vardır:

a. Mətn: Hər hansı bir məlumatın söz işarələri formasında saxlanması - eşitmə və görmə yolu ilə bədəndən xaric yaddaşa alma.

b. Şəkil: Hər hansı bir məlumatın rəsm obrazları şəklində saxlanması - görmə yolu ilə əldə edilən məlumatların bədəndən xaric yaddaşa alınması.

v. Kino: Hər hansı məlumatın hərəkətli şəkil və səsli mətn yolu ilə bədəndən xaric yaddaşa alınması.

q. Kompyuter: Səs, mətn və şəkil formasında məlumatın bədəndən kənar yaddaşa alınması. Bu yolların hər birinin özünəməxsus yaddaş imkanı vardır.

İnsan yaddaşının aşağıdakı əlamətləri vardır:

1. **Xarici görüntünün bilavasitə təsəvvür yaratması - Tanıma:** Təcrübə sahəsində obyekt-subyekt münasibətində təfəkkürdə obyektin obrazı yaradılmadan onu təfəkkürdə abstrakt obrazla vəhdət təşkil edən mövcud təsəvvürlərlə əlaqələndirilməsidir. Yaddaş refleksiyanın təkrarlanmasında reflektiv yolun ixtisara salınmasıdır. Tanınma həmin

mərhələlərin qıcıq yaratdıqdan sonra birbaşa konkret təsəvvürlə assosiasiyasının yaradılmasıdır.

Haşiyə: A.Berqson, "Materiya və yaddaş"

> *"Mövcud predmetin tanınması bilavasitə hərəkətlə baş verir; nə zaman ki o obyektdən çıxır və o zaman təsəvvürlər vasitəsi ilə subyektdən çıxır."*

Birincili idrak prosesində obyektdən yalnız onun xarici görüntüsü ilə şərtlənmiş təsirləri çıxır, bədənə təsir etməklə hiss (qıcıq) yaradır, həmin qıcıq beyində yaşantıya, sonra yaşantıda emosiyaların təmizlənməsi ilə obraz kimi təfəkkürə, təfəkkürdə obrazların təkrar refleksiyası ilə təsəvvürlərə çevrilir və obrazla təsəvvür arasında vəhdət yaradılır. Amma A.Berqsonun dediyi kimi təkrar idrak prosesində tanınmada proses yalnız təsirlə başlayır və beyində yaşantı, təfəkkürdə obraz yaranmadan birbaşa təsir konkret obrazla vəhdətdə olan təsəvvürü oyadır. Sanki predmet bir daha idrak olunmuş kimi qəbul edilir ki, biz idrak olunmuş kimi qəbul edilməni tanınma adlandırırıq. Tanınma yaddaşın birinci pilləsində meydana çıxır. Tanıma - bir neçə variantdan birinin (düz olanın) seçilməsi kimi mürəkkəb psixoloji funksiyadır.

2. **Arxivləşdirmək:** Məlumatın uzunmüddətli fərdi yaddaşda strukturlaşdırılması və təşkil olunması arxivləşdirməyi özündə təqdim edir. Heyvani yaddaşda arxivləşdirmək növ yaddaşında aparılır və heç bir canlı fərd özündə cari fərdi yaddaşa malik olmur.

3. **Təkrarlama:** Yaddaş idrak prosesi nəticəsində təfəkkürdə yaranan obrazların yenidən canlandırılmasından ibarətdir. Beləliklə, yaddaş ruhun təkrarlamaq qabiliyyətini özündə əks etdirir. Yuxarıda qeyd etdik ki, obrazların qalıcılığı təkrarlanma ilə şərtlənib. Eyni təkrarlanma keyfiyyəti obrazla birlikdə ruhi nizama çevrilir və həmin nizam əsasında obraz yenidən canlandırılır.

4. **Köçürmə (Məlumatın mürəkkəb strukturlaşmasının təsbit olunması):** Yaddaş köçürülmə qabiliyyətinə malikdir. Yəni yaddaşa

alınmış məlumat başqa şəxsə müxtəlif formalarda ötürülür. Köçürmənin aşağıdakı formaları vardır:

a. İrsi məlumat kimi - daxili yolla növbəti nəslə köçürmə: Növ yaddaşı bir nəsildən digər nəsilə irsiyyət kimi ötürülür.

b. Xarici yolla başqa insanın yaddaşına köçürmə: Fərdi qaydada yaddaşa alınmış məlumat başqa fərdə köçürülür.

v. İnsandan obyektə (yaddaş saxlayan xüsusi materiala) köçürmə: Yazı belə kopyalaşmalardandır.

Təfəkkürün əldə etdiyi məlumatın köçürülməsi üçün təfəkkür ikincili simvollar - məlumat daşıyan süni kodlardan istifadə edir. Belə kodlara **hərflər** (səslərin simvolik siqnalları), **rəqəmlər** (sayın simvolik siqnalları), **rəsm** (formanın və rəngin simvolik siqnalları) və **mücərrəd simvollar** (elmi simvollar) aiddir. Abstrakt simvollar üzü köçürüləcək obrazla eyni olur; hərflər özündə konkret səs siqnalı göndərən formaya oxşayır, rəqəmlər saya oxşar olur və s. Bundan fərqli olaraq, mücərrəd simvollar gerçəkliklə oxşar olmur, amma gerçəkliklə xəyalda əlaqələndirilir. Məsələn, fizika elmində "F" yalnız qüvvəni simvollaşdırır. Mücərrəd simvolların nəyi ifadə etməsini bildirən siqnallar sistemi **anlayışlardır**. Anlayış hər hansı mücərrəd simvolun konkret obraz və ya hadisə ilə elə yaddaşa alınmasıdır ki, anlayış gerçəkliklə assosiasiya yaratsın - biri olanda o birisi haqqında məlumat avtomatik meydana çıxsın. Belə sadə anlayış **Addır**. Ad - obyektin gerçəkliyinin simvoludur. Biz itin obrazını görəndə "bu itdir" deyirik; eyni zamanda "İt" sözünü eşidəndə it haqqında xəyali obraz yaranır. Belə sadə assosiasiyalar getdikcə mürəkkəbləşir, daha da mücərrədləşir və ümumiləşir və informasiya sıraları təşkil edirlər.

- **Varlıq** - ən ümumi anlayışdır və birinci sıradan olan məlumatları daşıyır.
- **Can** - ikinci sıradan olan anlayışdır.
- **Heyvan** - üçüncü sıranı təşkil edir.

- **Növ** - dördüncü sıranı təşkil edir.
- **Konkret ad** - dedikdə konkret fərd anlaşılır.

Beləliklə, növlə ən abstrakt anlayış arasında beş sıra məlumat yerləşir. İdrak məlumatın aşkarlanma prosesində bu ardıcıl sıra ilə axtarmaqdan ibarətdir. Bu axtarmaq prosesi düşüncəni yaradır. Axtarış nəticəsində müvafiq məlumat tapıldıqda gerçəklik müəyyənləşir. Təfəkkürlə birbaşa obyekt arasında əlaqə yaranır.

5. **Yadasalma:** Obrazın konkret ideya ilə assosiasiya yaradaraq əvvəllər yaddaşa alınmış gerçəklik haqqında təsəvvür oyatmasını yadasalma kimi təyin edirik. Yadasalma təfəkkürün ikinci mərhələsinə uyğun yaddaş mərhələsidir. Tanınmadan fərqli olaraq yadasalmada artıq xarici təsir də ixtisara düşür. Yəni obyekt haqqında məlumat obyektdən yox, onun təfəkkürdəki obrazından tanınır. Məsələn, biz "alma" sözünü dedikdə almanı yaddaşa almış şəxsdə dərhal alma haqqında bu sözlə qabaqcadan vəhdət təşkil edən təsəvvür oyanır.

6. **Xatırlama (bir təsəvvürün başqa bir təsəvvürü oyandırması):** Xatırlama təfəkkürün ikinci mərhələsinə uyğun yaddaşın son mərhələsini təşkil edir. Artıq bu mərhələdə obyekt haqqında məlumat bir təsəvvürlə assosiasiya yaradan digər təsəvvürlərdən alınır. **Xatırlama** - təfəkkürdə abstrakt şəkildə obrazın yenidən canlandırılmasından ibarətdir. Məsələn, biz armud meyvəsi haqqında düşünəndə armudla eyni zamanda oxşar olan bir çox digər meyvələri, tutaq ki almanı xatırlayırıq. Bu zaman alma haqqında təsəvvür nə konkret mövcud almadan, nə almanın obrazından, nə simvolundan gəlmir. Yalnız başqa bir obyekt təsəvvürü ilə assosiasiya təşkil edən təsəvvürdən gəlir. Xatırlama yaddaşda saxlanan məlumata girişdir və xarici obyektin idrakının nəticəsində təfəkkürdə yaradılmış müvafiq obrazın eyni ardıcıllıqla yenidən canlandırılmasından ibarətdir. Xatırlamaq üçün xatırlananın təfəkkürün simvollarından (addan, anlayışdan) istifadə olunur. Bəzən xatırlama həm xarici siqnalın stimulu

ilə daxili proses kimi, bəzən isə sırf abstrakt proses kimi baş verir. Xatırlama assosiativliyə əsaslanır. Yada düşmədən fərqli olaraq, xatırlama məqsədəyönlü axtarışdır.

7. **Düşünmə (Eksplisit yaddaş):** İdrak prosesinin təkrarlamaqla abstrakt formada həqiqətin aşkarlanması. Eksplisit yaddaşda eyni vaxtda həm xarici görüntüdən, həm abstrakt obrazdan, həm simvoldan, həm də təsəvvürdən assosiativ olaraq müxtəlif təsəvvürlər oyanır və onlar bir-biri ilə avtomatik əlaqələnərək tam yaddaşı (idrak olunmuş həqiqət haqqında məlumatı) yenidən təfəkkürdə canlandırır. **Canlandırma** - xarici aktual təsəvvür göstəricisinin olmadığı şəraitdə uzunmüddətli yaddaşdan məlumatın çıxarılması, onun əvvəllər formalaşmış mahiyyətinin aktualizasiyası ilə təfəkkürdə aşkarlanmasını özündə təqdim edir. Beləliklə, eksplisit yaddaş aşkarlanmış həqiqətin təfəkkürdə təkrar özü-özündən aşkarlanmasıdır.

8. **Operativ yaddaş və ya Başa düşmə:** Bu yaddaşın elə bir formasıdır ki, yaddaşa alınmış məlumatlar əsasında yaddaşa alınmamış, yəni birincili idrak olunmamış həqiqət aşkarlanır. Belə yaddaşda təsəvvürlərin oxşarlıq və fərqliliklərinə görə yeni təsəvvürlər yaranır. Operativ yaddaş oyaq insanda sürəkli olaraq iradəvi davam edən, yuxuda spontan aktivləşən yaddaşdır.

9. **Unutma:** Unutma yaddaşla əksilik təşkil edərək həqiqətin təfəkkürdə aşkarlanmamasının (azalma meylini) ifadə edir. Unutmanın əsas səbəbləri:

- **Pozulma:** Xatırlama ya əvvəlki, ya da sonrakı hadisələrin təsirindən pozulur.
- **Sıxışdırma:** Motivasiya ilə bağlı insanın təfəkkürdən ona əzab verən məlumatları çıxarması.
- **Təkrar canlandırmanın yanlışlığı:** Stimula uyğun qıcığın yaranmaması və s.

- **Qarışma:** Məlumatların yaddaşda bir-biri ilə dolaşması. Bir məlumatın bir hissəsinin digəri ilə birləşdirilməsi.

Yaddaş idrak prosesinin mühüm tərəflərindən biridir. Yaddaşın idrakda rolu aşağıdakılardan ibarətdir:

a. İdrak məhz yaddaşın hesabına prosesə çevrilir. Yaddaşsız idrak proses kimi təzahür etmir. Beləliklə, yaddaş idrak prosesini təmin edən xüsusi psixoloji funksiyadır.

b. Yaddaş əvvəl aşkarlanmış həqiqətin əsasında yeni həqiqətin idrakına kömək edir. Nəticədə yaddaş idrak instrumenti kimi çıxış edir. Yaddaş idrak prosesi üçün paralel mənbə rolu oynayır. Başqa sözlə, idrak prosesində biz paralel olaraq həm obyektiv gerçəkliyə, həm də yaddaşa müraciət edirik. Yaddaşa aldığımız məlumatın köməyi ilə yeni məlumatı mənimsəyirik.

v. Yaddaş idrakın fasiləsiz işləməsinə xidmət edir. Yəni yalnız yaddaşa görə idrak hər dəfə başlanğıcdan başlamır. Hər bir idrak mərhələsi özündən əvvəlki mərhələdən başlayır.

q. Ayrı-ayrı vaxtlarda idrak olunmuş həqiqət yaddaşda bir-biri ilə əlaqələndirilir, nəticədə nisbi həqiqətin idrakından mütləq həqiqətin idrakına istiqamətlənmə baş verir.

Yaddaşın formaları:

1. **Epizodik yaddaş** (şəxsi hadisələrlə bağlı yaddaş): Belə yaddaş yaşam təcrübəsində istifadə edilən məlumatların əldə edildiyi yaddaşdır. Belə yaddaş daha çox formanın yaddaşa alınması ilə xarakterikdir. Epizodik yaddaş tanınma və xatırlama ilə canlandırılır.
2. **Semantik yaddaş** (mənimsənilmiş bilgilər haqqında yaddaş): Mahiyyətin yaddaşa alınması ilə semantik yaddaş meydana çıxır. Semantik yaddaş faktdan törəyən ideyaların ağıldan törəyən ideyalarla eyniliyini özündə ifadə edir.

3. **Deklarativ bilik** (nə haqdasa yaddaş): Digər biliklərlə assosiativ əlaqədə olmayan orijinal yaddaş. Belə yaddaş təsadüfi yaddaşa alınmış məlumatlardan ibarətdir.
4. **Prosedur bilgiləri** (necə olması haqqında): Zərurətə görə yaddaşa alınan məlumatlardan ibarət yaddaş. Prosedur yaddaşı təşkil edir.
5. **Permanent yaddaş** (müvəqqəti olaraq çatılması mümkün olmayan məlumatların saxlanması): Permanent yaddaş başlanmış, amma qurtarmamış yaddaşaalmadan ibarətdir. Belə yaddaşda yaddaş sürəkli proses kimi təzahür edir.

DÜŞÜNCƏ

İdrak prosesinin xalis metafizik qanunlara tabe olan pilləsi - fiktiv ruhun özü-özünə təsirinə əks-təsiri - **Düşüncə** kimi meydana çıxır. Düşüncə özündə idrak prosesinin ikinci ali mərhələsini təşkil edir. Biz düşüncəni dərketmənin yenidən dərk olunması kimi təyin edirik, hansı ki, düşüncə prosesində yaddaşa alınmış obyektiv reallığın obrazı və ideyası təfəkkürdə təkrar refleksiya edərək özlərində saxladıqları və birincili dərketmə ilə aşkarlanmamış həqiqətin aşkarlanmasına yardımçı olur. Buradan da mücərrədin mücərrədləşdirilməsi baş verir. Bu proses mütləq həqiqət istiqamətində mütləq mücərrədə çatanadək davam edir. Dərketmədən fərqli olaraq düşüncə xalis zəkada reallaşan idrak prosesindən ibarətdir.

İnsan digər bütün canlılardan **dərketmə qabiliyyətinə** (aydınlaşmış həqiqəti aşkarlamaq - həqiqəti ikincili aydınlaşdırmaq qabiliyyətinə) görə fərqlənir. Həqiqətin aşkarlanması bir-biri ilə vəhdət təşkil edən iki prosesdən - dərketmə və düşünmə qabiliyyətindən ibarətdir. İdrak prosesində dərketmə obyektiv gerçəkliklərdə aydınlaşan həqiqəti, düşüncə isə təbiətdən kənar, aprior həqiqətlərin aşkarlama fəaliyyətini özündə təqdim edir. İdrak prosesi daxili proses olub xalis ruhi fəaliyyət kimi meydana çıxdığından ilk aşkarlanan həqiqət ruhun öz həqiqəti olur. Buradan da,

düşüncəni idrak prosesinin başlanğıc təzahürü kimi təyin etmək olar. Düşüncə anlayışı özündə qeyri-müəyyənin müəyyənləşdirilmə fəaliyyətini ifadə edir. Ruh özü də başlanğıcda qeyri-müəyyən olub müəyyənləşməsini gözlədiyindən, insan düşüncəsinin nəticəsində ruh müəyyənləşən olur.

Buradan da növbəti pnevmotoloji ideya aydınlaşır: *İnsan düşünməklə ruhi varlığını təzahür etdirir.*

Ruh mövcud varlıqlardan fərqli olaraq, daxili çoxluq kimi mövcud olduğundan, formal ruhun özü-özündə kimlikləri bir-biri ilə təsir və əks-təsir əlaqəsində olur. Biz formal ruhun daxili çoxluğundan bir kimliyinin başqası ilə təsir-əks-təsir əlaqəsini düşüncə kimi təyin edirik. Düşüncə prosesində bir kimlikdən törəyən ideya ilə başqa kimlikdən törəyən ideyanın assosiasiyasından üçüncü, tamamilə yeni bir ideya aşkarlanır. Bu proses sonsuz proses kimi mövcud olur. Yəni başlanğıcı Kosmosda (düşünən Mən-də), sonu metafizikada (Düşünən-dədir). Düşünən Mən təbiət qanunlarına, Düşünən metafizik qanunlara tabe olduğundan, düşünən Mən düşünənə keçməklə düşüncəni sonsuz davam etdirə bilər, hansı ki, yalnız ölümdən sonrakı mümkünlük kimi meydana çıxır. Biz düşüncəni obrazlı olaraq belə sxematik təsəvvür edə bilərik: **Təsəvvür - üçüncülü münasibət.**

Düşüncənin formalarından biri **fantaziyadır**. Fantaziya - Psixi fəaliyyətdə yaradıcı qabiliyyətin (ruhun faktiki varlığının yaradılmasının) şərtlərindən ibarətdir. Fantaziyalaşdırmada qavrayışla əldə edilən ideya ixtisara düşür, ruh ağıldan törəyən ideya ilə ağıldan törəyən yeni ideyanın assosiasiyasını təşkil edir, hansı ki, fantaziyadan ibarət olur.

A.Adler belə hesab edir ki, *"hərəkəti bacaran hər bir orqanizm üçün vacib olan öncədəngörmə və öncədənhəlletmə fantaziyanın tərkib hissəsidir; fantaziya insan orqanizminin hərəkətliliyi ilə bağlıdır və mahiyyət etibarı ilə öncədəngörmənin metodlarındandır"*. Bizcə, **fantaziya** - bədənin iştirakı olmadan bədəndə psixi fəaliyyətdir, hansı ki,

hərəkətsiz bədənin hərəkətdə olması təsəvvürü hərəkətsiz bədəndə ruhun hərəkətliliyini özündə təqdim edir. Nəticədə, fərd "indi və burda" prinsipinə tabe olsa da, düşüncədə metafizik qanunlara tabe olaraq eyni vaxtda müxtəlif yerlərdə, eyni yerdə müxtəlif vaxtlarda həm var, həm yox olur.

Haşiyə: C.Lokk, "İnsanın ağıllanması haqqında təcrübə": *"Düşünməyən kimi mövcud olan nəsə düşünənin səbəbi ola bilməz."*

C.Lokkun fikirlərindən görünür ki, ağlın səbəbi Kosmosdan aşkarlana bilməz, çünki Kosmosda ağıldan əvvəl düşünən heç bir varlıq mövcud deyildir. Kosmosda mövcud varlıqların düşünməsinin istisna olunması onunla bağlıdır ki, onlar öz mövcudluqları üçün tələb etdikləri zəruri şərtləri bilavasitə İlahi İradədən, kosmosa keçiddə, yaranış anında almışlar və buna görə də, öz-özlərində müəyyən olduqlarından düşünməyə (müəyyənləşməyə) səbəbləri yoxdur. Amma ruha zəruri mövcudluq şərtləri verilmədiyindən o, qeyri-müəyyən varlıq kimi mövcud olur və müəyyənlik əldə etməsi üçün özündə səbəbə malikdir. Buradan da, düşüncəni - ruhun mövcudluq tələbində öz zəruri mövcudluq şərtlərini müəyyən etməsi kimi anlamaq olar. Düşüncənin nəticəsində **bilik** meydana çıxır. Bilik ağlın daxili nizamlanmasından ibarətdir. Nəticədə, ağıl həm səbəb, həm nəticə olur. Təbiətdə heç bir mövcudluq eyni anda özü-özünün həm səbəbi, və həm də nəticəsi kimi çıxış etmir. Ruh metafizik qanunlara tabe olduğundan, metafizikanın üçüncü qanununa görə, səbəb və nəticə eyni vaxtda, eyni yerdə paralel mövcud ola bilir.

Buradan pnevmotologiyanın aşağıdakı ideyasını aşkarlaq olar: *Düşüncənin səbəbi düşüncənin özündədir. Yəni, ağıl özü-özündə həm səbəb, həm də nəticədir.*

Təbiət sərt determinasiyaya tabe olduğundan, düşünməyən mövcud varlıq düşünən mümkün varlığın, yəni ağlın səbəbi ola bilməz. Əksinə, səbəb başlanğıcda olduğundan, mümkün varlıq mövcud varlığın səbəbi

kimi çıxış edir, hansı ki, süni yaradılanlar ruhun fəaliyyətinin nəticəsi kimi mövcud olur.

İlahi Yaranış özündə İlahi iradəni və bu iradəni meydana çıxaran ilahi fikri özündə ifadə edir. Buna uyğun olaraq yaradıcı gücü refleksiya edən ruh da iki başlanğıc xarakteristikaya: **düşüncəyə** və **iradəyə** malikdir.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

> *"İnsan ruhunu biz düşünən şey adlandırırıq, buradan da öz təbiətinə görə özü-özündə baxıldıqda o nəsə məhz düşünə bilər, başqa sözlə təsdiq və inkar edə bilər. insan ruhunun yeganə səbəbi kimi etiraf edilən düşüncə fəaliyyəti istək adlanır. Belə fəaliyyətlərin oyanması üçün kifayət qədər səbəb olduğunu hesab edən insan ruhu iradə adlanır."*

Göründüyü kimi, B.Spinoza da Dekart kimi insan ruhunu düşünən şey kimi təyin edir. Spinozanın "düşüncə fəaliyyəti istək adlanır" fikrindəki istək İlahinin "yaratmaq istəyinin" refleksiyasıdır, hansı ki, Allah bütün yaratdıqlarını istəyərək yaratmışdır. Buradan da biz, İstəyi düşüncənin məqsədi hesab edə bilərik, hansı ki, Allahın istəyini qavramaq istəyi kimi ikincilidir və təbiət sferasındadır. Məhz ikincili və təbiət sferasında olduğuna görə, düşüncə fəaliyyəti kimi istək İlahi istəkdən fərqlənir, yəni insanın aşkarladığı həqiqət Allahın yaratdığı həqiqətə münasibətdə emanativdir, yəni nisbidir. Allahın yaratdığı həqiqətin mütləqliyinə insanın heç cür çata bilməməsi, insanın təbiət sferasında metafizikaya bilavasitə keçə bilməməsi və həqiqətin aşkarlanma yolunun uzunluğudur.

Haşiyə: Dekart, "Həqiqətin bilavasitə təbii işıqda axtarılması"

> *"Bəzi şeyləri təyin etməyi arzulamaqla biz onların mənasını qaranlıqlaşdırırıq, belə ki, onlar özü-özünə olduqca sadə və aydındırlar və mən təsdiq edirəm ki, özü-özümüzdən daha yaxşı onları dərk edə bilmərik. Bundan başqa, elmdə buraxılan başlıca səhv odur ki, sadə qavrayışa əlçatar olan şeylərin təyin edilmə*

cəhdindən əmələ gəlir; kim ki bu səhvi buraxır, aydını qeyri-aydından təyin edə və təyin tələb edən və buna xidmət edən şeyləri və özü-özünə əla dərk edilən şeyləri fərqləndirə bilmir."

Dekartın fikirlərini necə anlamaq olar? Əgər fikrən idrak obyekti olan şeylərin də düşündüyünü qəbul etsək, yəni hər bir mövcud şeyi "mövcudluq və düşüncə" kimi təsəvvür etsək (canları olmadığından onlarda şübhə istisna olunur), onda belə şeylər ekzistensiya etmək imkanına malik olmadıqlarından, yalnız özləri-özlərini düşünürlər və bu düşüncə nəticəsində yalnız tək kimi özlərinin həqiqətini dərk edirlər, hansı ki, şübhə iştirak etmədiyindən tək bir həqiqət kimi ən aydın və sadə həqiqətdən ibarətdir. Buna görə də, hər bir şey özündəşey kimi dərk ediləndə, onun həqiqəti daha dəqiq və aydın olur.

"Düşünən Mən" "düşünən şeydən" fərqli olaraq, "mövcudluq, şübhə və düşüncə" kimi mövcud olur və düşüncə prosesində bədəndən ekzistensiya edir və bu zaman idrak obyektlərinin həqiqətini təyin etməyə cəhd edir. Belə cəhddən alınan həqiqət şeyin özü-özünü düşünməsindən aşkarlanan həqiqətə görə şübhənin iştirak etməsinə görə nisbi aydın olur. Beləliklə, mövcud həqiqətlə təyin olunan həqiqətin üst-üstə düşməməsindən **səhv** meydana çıxır. Əgər biz öz düşüncəmizdə səhvdən xilas olmaq istəyiriksə, onda mövcudluqsuz və şübhəsiz düşünməliyik, yəni yalnız "düşüncə" ilə idrak etməliyik. Bu zaman bizim obyektiv gerçəkliyi düşünməmiz, şübhə və mövcudluq iştirak etmədiyindən xalis zəkadan (yəni ruhun özü-özündən) həqiqəti idrak etməsi kimi meydana çıxır ki, bu zaman aşkarlanan həqiqət düşünən mövcudluğun özündə aydınlaşdırdığı həqiqətlə üst-üstə düşür.

Burada biz düşüncə anlayışını Spinozanın təbirincə istək-həqiqət mənasında işlədirik. Faktiki İnsan isə "mövcudluq, şübhə və düşüncə" kimi mövcud olduğundan, yalnız özü-özündən daha dəqiq həqiqəti aşkarlaya bilər; şübhədən keçməklə aşkarlanan həqiqət isə həmişə nisbi olaraq

qalır. İnsanın özü-özündən aşkarladığı həqiqət Ruhun öz həqiqəti olur, hansı ki, ruhi "mövcud olma - düşüncə" kimi meydana çıxır.

Bəs insanı düşünməyə nə məcbur edir?

Haşiyə: R.Dekart, "Həqiqətin bilavasitə təbii işıqla axtarılması"

> *"Mən özümdə bədənin mövcudluğunu tam inkar edə bilmərəm, amma bununla yanaşı, bu mən özümün mövcudluğuma əmin olmağa mane olmur; əksinə o məndə belə bir inamı möhkəmləndirir ki, mən mövcudam, amma eyni zamanda cisim deyiləm: belə ki, əks halda öz cismimə şübhələnərək mən özüm-özümə şübhələnmiş oluram - axı bu mümkün deyil, belə ki mən tam əminəm ki, mən mövcudam. Mən varam - o mən ki şübhələnir və bunu heç vaxt öz 'mən'im hesab etmədiyimlə qarışdırmır. mənim 'mən' dərkolunmayan hesab edilməlidir, baxmayaraq ki əvvəlcə mən əmin idim ki, mənim 'mən' - cisimdir. Məhz düşüncə məndən ayrılmazdır. özümdən ayıra bilmədiyim - bu odur ki, mən - düşünən şeyəm. Mən düşünürəm, deməli mən mövcudam. Biz bilməliyik şübhə, düşüncə və mövcudluq nədir."*

Müasir Avropa fəlsəfəsinin əsas qaynaqlarından biri kimi Dekartın fikirlərini şərh etməklə düşüncə və ruh probleminə aydınlıq gətirmək olar. Göründüyü kimi, R.Dekart üç anlayışın - **şübhə, mövcudluq** və **düşüncə** anlayışlarının mənalarından çıxış edərək özünün fəlsəfi təlimini yaratmağa cəhd edir.

Əslində şübhə, mövcudluq və düşüncə mövcud insanın ayrı-ayrı Mənlərinin atributlarından ibarətdir:

- **Mövcudluq** - "fiziki Mən"in (cisim Mənin);
- **Şübhə** - "hiss edən Mən"in (faktiki fərdin);
- **Düşüncə** - "dərk edən Mən"in (Ruhun) atributudur.

Cisimləri şərh edərkən onlarda substansiyalıq və aksidensivliyi ayırd etmişdik və göstərmişdik ki, cisimlərdən ayrılmaz keyfiyyətlər substansiyanı, ayrılan keyfiyyətlər aksidensivliyi göstərir. Cisimlərdə substansiya ilə aksidensivlik vəhdətdə mövcudluğu təqdim edir, hansı ki, aksidensivlikdən dolayısı ilə substansiyanı, substansiyadan aksidensivliyi təyin

etmək olur. Faktiki canlıda substansiya yoxdur, onun substansiyası formaldır və növdədir. Substansiyası olmadığından, xalis aksidensivliyə malikdir, yəni forması sürəkli dəyişkəndir. Beləliklə, canlının aksidensivliyi substansiyasız meydana çıxdığından və aksidensiv xassələr keçici və dəyişkən olduğundan, faktiki canlının aksidensivliyi şübhəlidir, çünki onu şübhədən azad edəcək əsas, yəni substansiyası yoxdur. Bu cür qeyri-sabitliyə görə hissi qavrama qeyri-dəqiqdir və Dekartın dediyi kimi, şeyin özü-özünü dərk etməsindən qeyri-dəqiqdir, hansı ki, şeyin özü-özünü dərki özündə aksidensivliyin substansiyanı təsdiq etməsi kimi meydana çıxır. Beləliklə, canlılarda aksidensivlik dəyişən olduğundan, substansiya ilə vəhdət təşkil etmədiyindən aksidensivlik dəqiq şəkildə substansiyanı təyin etməyə imkan vermir, hansı ki, qeyri-dəqiqlik şübhənin mənasını təşkil edir.

Canlılığın əksinə **"Düşünən Mən"** xalis substansiyadır, forması olmadığından aksidensivliyi yoxdur. Buradan da, düşüncə - ruhun substansiyasının təzahürü kimi təyin oluna bilər. Mövcud insan üç Mənin vəhdəti kimi meydana çıxdığından, biz mövcudluğu, şübhəni və düşüncənin vəhdətindən **şüurlu insanı** təyin etmiş oluruq. Mövcud insanda mövcudluq onun "fiziki Mən"inə, şübhə - onun "hiss edən Mən"inə, düşüncə - "dərk edən Mən"inə aiddir və vəhdət təşkil etdiklərindən: mövcudluqdan şübhə ilə düşüncəyə, düşüncədən şübhə ilə mövcudluğa nüfuz etmək mümkün olur. Ruh həm də bunun əks istiqamətində mövcudluqdan şübhəyə, oradan düşüncəyə keçir (özünə qayıdır), hansı ki, biz bunu **inteniya** kimi təyin edirik.

Ruhun **ekstensiyası** ilə **intensiyasının** vəhdəti **Şüur** kimi meydana çıxır. Buradan belə bir pnevmotoloji ideya aşkarlanır: *Şüur - ruhun ekstensiya ilə intensiya şərtlərinin məcmusundan ibarətdir.*

Bu qısa şərhdən görünür ki, düşüncə ya spontan başlayır (özü-özündən dərk kimi), sonra şübhə ilə (canlılıqla hissi qavrama kimi) mövcudluğa keçir, ya da mövcudluq canlılığa təsir edib şübhə yaradır və şübhədən

(bədəndən) təfəkkürə keçməklə ruha təsir edib onu düşündürür. Ruhun mövcudluğa şübhədən keçməsi - ruhun ekzistensiyası kimi təzahür edir, yəni Ruh bədən orqanlarına və xarici obyektiv varlıqlara keçməklə onların həqiqətini, mənasını aşkarlamaqla, onların əsasında özünə mövcudluq əldə etməyə cəhd edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Obyektiv gerçəkliklərə mövcudluq şərtləri bilavasitə metafizikadan (İlahi İradə ilə) verilir; ruh öz mövcudluq şərtlərini dolayısı ilə təbiətdən (İnsan iradəsi ilə şüuri prosesdə) əldə edir.*

Kosmos metafizikadan yarandığı kimi, insana təbiət haqqında ilk bilgi də (metafizik bilgilər) məhz **vəhy** şəklində aşkarlanıb. Ona görə də belə məlumatların çoxunun suallandırılması mümkün deyildir. Elmi postulatlar, aksiomalar və s. məhz belə həqiqətlərdəndir ki, onların izahı və sübutu yoxdur və ya buna ehtiyac yoxdur.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

> *"Baxmayaraq ki mələklər də yaradılıb, amma onlar təbii işıqla dərk olunmur, ona görə də metafizikaya aid deyillər. Onların varlığı və mövcudluğu vəhy vasitəsi ilə məlum olur. Buna görə də onlar yalnız teologiyaya aiddirlər, dərk edilmələri tamamilə başqa cürdür və öz xarakterlərinə görə təbii dərketmədən fərqlənirlər və buna görə də heç bir şəkildə axırıncı ilə qarışdırıla bilməz. Beləliklə, heç kim düşünməsin ki biz mələklər haqqında nəsə deyəcəyik."*

B.Spinoza nəyə görə mələklər haqqında nəsə deməyin mümkünsüz olduğunu iddia edir? Mələklər, cinlər, eləcə də Allah haqqında nəsə deməyin mümkünsüzlüyü insanın bilik əldə etmə (düşüncə) qabiliyyəti ilə bağlıdır.

Haşiyə: Dekart, "Həqiqətin təbii işıq vasitəsi ilə axtarılması"

> *"İnsan ağlının imkanlarını keçməyən bütün biliklər öz aralarında elə möcüzəvi zəncirlə bağlıdır və zəruri əqli mühakimənin köməyi ilə biri digərindən çıxarıla bilər ki, bunun üçün heç də xüsusi sənət və qavrayış tələb olunmur, ən sadə əqli müha-*

kimələrdən başlayaraq biz pillə-pillə ən yüksəyə qalxmağı bacararıq."

Dekartın fikirlərindən görünür ki: birincisi, insan ağlının imkanları hüdudludur və insan bu hüduddan kənardakı heç bir həqiqəti qavramaq imkanına malik deyildir. İkincisi, insan o bilikləri qavraya bilir ki, bu biliklər öz aralarında, həm də bilavasitə düşünən insan arasında, möcüzəvi zəncirlə bir-biri ilə bağlı olsun.

Bilikləri bir-birinə bağlayan "möcüzəvi zəncir" dedikdə nə başa düşülməlidir? Bizə görə bilikləri öz aralarında bir-birinə bağlayan möcüzəvi zəncir **səbəb-nəticə əlaqəsindən** (yəni xarici vəhdətdən) ibarətdir, hansı ki, təbiət bu əlaqəyə görə mövcud olur və təbiətdə bir səbəb başqa bir nəticəyə, o da başqa bir səbəbə keçir və bu keçiddə bir bilik əlaqədə olduğu digər bilikdən əqli mühakimə ilə eyni üsulla aşkarlanan olur. Başqa sözlə, təbiətdə bir mövcudluğun başqasına keçməsinə görə hər şey öz aralarında bir zəncirlə bağlanmışdır və idrak prosesində insan təbii keçməyə uyğun bir bilgidən digərinə keçməklə yeni həqiqətləri aşkarlayır. Buradan da aydın olur ki, mələklər mövcudluqlarla səbəb-nəticə əlaqəsində deyil, yəni mələklər təbii mövcudluqlara keçmir; başqa sözlə, mələklərin bilgisi təbii biliklərlə öz aralarında bir zəncirlə bağlanmayıb, buna görə də təbii şeylərin bilgisindən əqli mühakimə ilə mələklərin bilgisinə çatmaq olmaz. İnsan ağlının imkanları insanla bağlanan şeylərin bilgisi ilə məhdudlaşıb. O şeylər ki insan varlığı ilə bağlanmayıb, o şeylərin biliyi insan ağlının hüdudlarından kənarda qalır. Buradan da, mələklər insanla bağlanmadığından onların bilgisi də insan ağlının imkanlarından xaricdədir.

Haşiyə: F.Bekon, "Yeni Orqanon və ya təbiətin şərhi üçün həqiqi göstərişlər"

"Kim ki cəsarət edib təbiət haqqında artıq tədqiq olunmuş predmet kimi danışır - bunu özünəinamdan və ya təkəbbürdən və öyrətmək adətindən deməsindən asılı olmayaraq - fəlsəfəyə və elmə

böyük ziyan vurub. Həqiqətin axtarılmasının və kəşf edilməsinin iki yolu vardır. Biri duyğulardan və daha çox ən ümumi aksiomalardan ilhama gəlir və bu əsasdan onların təkzibedilməz həqiqiliyinə doğru gedərək orta aksiomaları müzakirə edir və kəşf edir. Bu yoldan indi də istifadə olunur. Başqa yol isə aksiomanı duyğulardan çıxarır və çox vaxt fasiləsiz və tədricən ən ümumi aksiomalara çatanadək qalxır. Bu yol həqiqidir, amma sınaqdan keçirilməmişdir."

F.Bekonun həqiqətin kəşf edilmə yolları ilə bağlı fikirlərini Dekartın fikirlərinə uyğun şərh etsək, onda həqiqətin aşkarlanmasının aşağıdakı yollarının mövcud olduğu aşkar olur:

1. **Mövcudluq, şübhə və düşüncə yolu:** Mövcudluq və şübhə birlikdə duyğunu yaradır, düşüncə isə xalis zəkadan ümumi aksiomaları təqdim edir. Nəticədə, təcrübi biliklərlə təcrübədənkənar biliklərin (transendental biliklərin) sintezindən həqiqət aşkarlanır. Bu yolla fəlsəfi həqiqətlər aşkarlanır. Bu **demonstrativ idrak** üsulunun əsasını təşkil edir.
2. **Mövcudluq və şübhə:** Bu yolda düşüncə iştirak etmir, xalis zəkadan ümumi aksiomalar iştirak etmədən həqiqət yalnız dərketmə ilə aşkarlanır. Bu yolla cari və elmi biliklər əldə edilir. Bu **hissi idrak** üsulunun əsasını təşkil edir.
3. **Xalis düşüncə:** Bizə görə həqiqətin aşkarlanmasının üçüncü bir yolu da xalis düşüncədir. Bu yolla aksioma xalis zəkadan çıxarılır. Bu yol **intuitiv idrak** üsulunun əsasını təşkil edir. Metafizik biliklər məhz xalis düşüncə yolu ilə intuitiv idrak üsulu ilə əldə edilir.

Buradan aşağıdakı ideya aşkarlanır: *Ruhun həqiqəti yalnız xalis düşüncə yolu ilə, intuitiv idrak üsulu ilə aşkarlana bilər.*

Beləliklə, Bekonun fikirlərinə istinad etsək, bir tərəfdən təbiətin tədqiq olunmasının başa çatmasının mümkünsüzlüyü, digər tərəfdən duyğulardan aksiomaların fasiləsiz və tədrici çıxarılması təbiət nizamı əsasında yaranan ruhun nizamlanmasının da başa çatmadığını, fasiləsiz və tədrici inkişafda olmasını sübut edir.

Düşüncə təfəkkürün gerçəkliyə münasibətində ruhun həqiqətə istiqamətlənməsidir.

Haşiyə: Edvard de Bono, "Lateral düşüncə"

> *"Düşüncənin vəzifəsi informasiya toplamaq və onu mümkün qədər daha yaxşı istifadə etməkdir. Bizim düşüncə aparatımızın davamlı anlayışlar yaratmaq qabiliyyətinin xüsusiyyətlərinə görə, biz, əgər köhnə modellərin yenidənqurulması və onların modernizasiyası üçün vasitələr dəstinə malikiksə, yeni məlumatlardan maksimal xeyir götürə bilərik."*

Düşüncə təfəkkürdə gerçəkliyin iştirakı olmadan gerçəklikdə aydınlaşan həqiqətin yaddaşa alınmış digər həqiqətlər əsasında aşkarlanmasından ibarətdir. Təcrübədən, dərketmədən fərqli olaraq düşüncədə obyektlə subyekt qarşılıqlı əlaqədə olmur. Obyekt rolunda gerçəkliyin xalis varlıq təyini - xalis fikir və ya ideya iştirak edir.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Kritik fəlsəfədə düşüncə yalnız subyektiv olan kimi başa düşülür və onun sonuncu ən ali təyini abstrakt ənümumilikdir, formal eynilikdir; beləliklə düşüncə konkret özündə ənümumilik kimi həqiqətə əks qoyulur. əks nöqteyi-nəzər düşüncəni yalnız xüsusini dərk edən fəaliyyət kimi başa düşür və bu əsasda onun həqiqətə çata bilməyəcəyi elan olunur."*

Beləliklə, fəlsəfədə düşüncə bir tərəfdən həqiqət kimi (abstrakt ənümumilik kimi), digər tərəfdən yalnız xüsusini dərk etmək qabiliyyəti kimi şərh olunur. Hər iki halda düşüncə ilə həqiqətin idrakı istisna olunur. Birinci halda, düşüncə özü həqiqətin əksiliyi olduğundan (əksliklərin birgə təzahürü isə irreallıq olduğundan) özündə yalnız özünü aşkarlayır; buna görə də öz əksiliyi dolayısı ilə özünün əksiliyindən aşkarlayır. İkinci halda fəaliyyət kimi yalnız xüsusini idrak etmə imkanı olduğundan, ən ümumini aşkarlamaq imkanına malik olmur. Əgər belə olsaydı, düşüncənin mövcudluğuna ehtiyac qalmazdı. Belə ki, subyektiv mövcud

olan düşüncənin əksiliyi kimi obyektiv mövcud olanlar da özü-özü ilə eynilik təşkil edir.

Haşiyə: İ.Kant:

> *"Xalis zəkanın həqiqi vəzifəsi aşağıdakı sualdan ibarətdir: aprior sintetik mühakimə necə mümkündür?"*

Bizcə, aprior sintetik mühakimə təfəkkürdə aydınlaşan həqiqətin düşüncə vasitəsi ilə aşkarlanmasından ibarətdir.

Düşüncə təfəkkürdə özü-özünə suallandırma (**kombinatorika**) və onu cavablandırmadan (analitika) ibarətdir. Suallandırma idrakı hərəkətə gətirmək, suala cavab idrak prosesini başa çatdırmaq üsuludur. Buradan da, düşüncə suallandırma ilə cavablandırma arasındakı vəhdətə çatmağı özündə təqdim edir. Düşüncəsiz nə idrak prosesi başlaya, nə də idrak konkret istiqamət götürə bilər.

Haşiyə: Leybnic, "Kəşf sənəti haqqında"

> *"Kəşf sənətində mən iki hissə görürəm: kombinatorika və analitika. Kombinatorika sualları tapmaq sənətindən, analitika məsələlərin həlli cavabını tapmaqdan ibarətdir."*

Düşüncə idrak prosesində təfəkkürdə nizamlanmaq - həqiqət haqqında fikrin formalaşmasıdır, başqa sözlə həqiqət haqqında məlumatların təfəkkürdə işlənməsidir. Düşüncə - həqiqətin məlum tərəfi əsasında onun qeyri-məlum tərəfinə və sonda onun mütləq formasına doğru təfəkkürün tədrici strukturlaşmasıdır. Düşüncə şüurun sürətindən, xarakterindən və formasından asılıdır. Fərdi düşüncə ilə təfəkkürün nizamlanması ictimai şüurla və kollektiv şüurla təfəkkürün nizamlanmasından fərqli xüsusiyyətlərə malikdir. Və ya təhtəlşüurdan alınan məlumatlar əsasında düşüncə şüursuzluqdan və ya şüurüstündən alınan məlumatlar əsasında düşüncədən fərqlidir. Düşüncənin əsasını **ilkin həqiqət** - düşüncə prosesinin qurulduğu bazis təşkil edir.

İLKİN HƏQİQƏT VƏ BİLMƏK

İlkin həqiqət varlığın yaranma ardıcıllığına uyğun olaraq gerçəklikdə aydınlaşdığından təbiətdədir, **təbiidir**; təfəkkürün ilk həqiqəti aşkarlaması bu həqiqətə qoşulması, onunla əlaqələnməsi (implikasiyasını) özündə təqdim edir. Beləliklə, təfəkkür "özündəşeydə" aydınlaşan həqiqəti bilməklə onu özündə inkişaf etdirərək, onun mütləq mənasına cəhd edir ki, bu da düşüncə prosesinin ümumi məzmununu təşkil edir.

Bilmək - təfəkkürdə aşkarlananın gerçəklikdə aydınlaşanın eyniliyi deməkdir. Bilməyin düzgünlüyü bir neçə yolla müəyyən edilir:

1. **Təkrarlamaqla:** Eyni bir həqiqətin təkrar aşkarlanmasının nəticələrini tutuşdurmaqla; nəticələr üst-üstə düşdükdə bilginin düzlüyü aşkarlanır.
2. **Başqalarının bilgisi ilə tutuşdurmaqla:** Hər hansı bir həqiqəti orijinal yollardan əldə edilmiş və hamı tərəfindən qəbul edilmiş həqiqətlə tutuşdurmaqla.

Haşiyə: Yozef Tişner, "Dəyərlər kateqoriyasında düşüncə"

"Düşüncə - bu kiminləsə düşünməkdir. Yəni düşüncə dialoq xarakterlidir."

3. **Bilgini başqa gerçəkliklərdən başqa şərtlərdə əldə edilmiş həqiqətlə tutuşdurmaqla.**
4. **Bilgini düşüncə prosesinin sonrakı mərhələlərində aşkarlanan və hamı tərəfindən qəbul edilmiş bilgi ilə tutuşdurmaqla.**

Bu dörd üsulun ikisi fərdi, ikisi fərdi şüurla ictimai şüurun qarşılıqlı fəaliyyəti ilə reallaşır.

Bilmək **tanımaqla** qarşılıqlı əlaqədədir. Bilmək və tanımaq öz əsaslarında eynidir, amma sonrakı gedişdə bilmək mahiyyətə endiyindən tanımaqdan yüksəyə qalxır və tanımaqdan fərqli olaraq düzgün həqiqətə istiqamətlənir. Məsələn: biz hər hansı bir şeyi tanıya bilərik, amma onun keyfiyyətlərini bilməyə bilərik.

Haşiyə: J.Delez: *"Bilinən - obyekt və onunla bağlı olan dəyərlərdir."*
Bilinmənin iki tərəfi vardır:

- **Reallıq:** Özündə həqiqətin sabit aydınlaşdıran obyektin və ya prosesin aktuallığı.
- **Yaddaş:** Həqiqətin təfəkkürdə aşkarlanmasının sabit təkrarlanması.

Bilinmə bir çox mənbələrdən qaynaqlanır:

a. **İrsi bilinmə:** Təfəkkürün bədənin irsi informasiya bankına daxil olması, irsi məlumata implikasiyası.

b. **Təhtəlşüurdan** təfəkkürdə aydınlaşan həqiqətə təfəkkürün implikasiyası.

v. **Şəxsi təcrübədə** həqiqətin aşkarlanmasının təkrarlanması.

q. **Başqalarının şəxsi təcrübəsində** aşkarlanan həqiqətə implikasiya.

d. **İctimai şüura** implikasiya.

Haşiyə: İ.Kant, "Mühakimə qabiliyyətinin tənqidi"

> *"Bütün hisslər üçün ümumi ideyanın üç maksimumu:*
>
> *1. Müstəqil düşünmə (xürafatdan azad düşüncə); 2. Özünü başqasının yerinə qoyaraq düşünmə (geniş düşünmə); 3. Həmişə özü-özü ilə razılıqda düşünmə (ardıcıl düşünmə). Biz deyə bilərik ki: bunlardan birincisi düşüncənin, ikincisi mühakimə qabiliyyətinin, üçüncüsü ağlın maksimasıdır."*

Aristotel, "Poetika":

> *"Yamsılamaq insanlara uşaqlıqdan xasdır: bununla insanlar başqa varlıqlardan fərqlənir, hamı yamsılamağa meyllənir və hətta ilk idrak yamsılamaq yolu ilə əldə edilir."*

Tanınma - formanın, **bilgi** - mahiyyətin anlanılmasıdır. Buna görə də, tanınma ilə bilik forma ilə mahiyyətin vəhdətini özündə refleksiya edir. Düşüncə biliyə əsaslandığından düşüncədə mahiyyətin idrakı davam etdirilir, tanınma isə düşüncə prosesindən kənarlaşdırılır. Bununla da,

düşüncə abstraksiya keyfiyyəti alır. Obyekt isə öz növbəsində abstraksiyaşdırılır. Forma məzmundan ayrılmaz olduğundan, düşüncə prosesində forma məzmundan ayrılmır. Sadəcə formanın idrakı təkrarlanır, mahiyyətin idrakı fərqliləşir. Düşüncədə formanın təkrarlanması hər dəfə formadan yeni bir başlanğıc həqiqətin aşkarlanaraq mahiyyətin düşüncədə inkişaf etdirilmiş bilgisi ilə əlaqələndirilir. Nəticədə, tam həqiqətin aşkarlanmasına cəhd edilir. Buna paralel düşüncə həm də özünün inkişaf etdirdiyi başlanğıc həqiqəti digər fərdi şüurlarda inkişaf etdirilənlərlə əlaqələndirərək mütləq həqiqəti aşkarlamağa cəhd edir.

Tanınma iki vəzifəni - həqiqətin aydınlığını və dəqiqliyini özündə ifadə edir. Buna görə də tanınma sabit, dəyişməzdir. Bundan fərqli olaraq, bilgidə aydınlıq və dəqiqlik olmadığından o, dəyişilməyə, inkişafa məruz qalır. Məhz bu əlamətinə görə bilgi düşüncə prosesində iştirak edir, tanınma isə bu prosesdə bir kənara sıxışdırılır.

SƏHV, YALAN VƏ ÇAŞMA

Düşüncə prosesində bilginin başlanğıc təbii bilgi ilə əlaqəsinin qopması **səhvi** doğurur. Səhv - düşüncənin təbii ilkin həqiqətdən fərqli başqa ilkin həqiqətin yoluna düşmək deməkdir. Səhv - həqiqətin başqa bir formasıdır, hansı ki, fərqli düşüncə ilə aşkarlana bilər. Səhv təbii əmələ gəlir və düşüncə subyekti səhvdə iradəvi iştirak etmir.

Bundan fərqli olaraq, düşüncə prosesində meydana çıxan **yalan** "süni" həqiqətdir. Subyektin düşüncə prosesinin gedişinə məqsədli iradəvi müdaxiləsi ilə yaranır. Yalan idrakın elə məhsuludur ki, ilkin təbii həqiqətin heç bir tərəfi ilə əlaqəsi yoxdur və yalnız təfəkkürdə yaradılan illüziyanın "həqiqətidir".

Məsələn: Tutaq ki, belə bir sual verilir: "2+2 neçə edər?". Burada bir düz və *n* sayda səhv cavab vermək mümkündür. Düz cavab 4, yerdə qalan bütün rəqəmlər səhv cavabdır. Amma bunlar yalan deyil, sadəcə başqa ədədlərin cəmidirlər. 4 təkrarlanan həqiqətdir. 2+2 istənilən vaxt,

istənilən yerdə 4-dür. Amma "2+2"nin digər bütün cavabları fərqliliklərdir. Yəni heç bir zaman və heç yerdə 4 olmayacaq cavablardır. Amma 2x0=2 **yalandır**. Çünki digər heç bir rəqəmin "0"-a vurulmasında sıfırdan başqa heç bir ədəd alınmır.

Beləliklə:

- **Yalan** - tutuşdurulması mümkün olmayan "həqiqət";
- **Səhv** - tutuşdurulması mümkün olan fərqli həqiqətdir.

Yalan inkişaf tendensiyasına malik deyil və düşüncənin inkişaf imkanlarından və qaydalarından istifadə etmir. Yalanın digər bir əlaməti ilkin başlanğıc həqiqətə implikasiya olunmamaqdır. Heç bir yalanın əsasında ilkin təbii həqiqət durmur. Yalan təkrarlanmadığından, öz ilkin əsası olmadığından daxili məntiqi əlaqədən məhrumdur. Yalanın zaman daxilində meydana çıxan formaları hər biri orijinaldır. Yalan orijinallaşma istiqamətindəki düşüncə məhsuludur. Halbuki həqiqət yalnız ümumiləşdirmə istiqamətində aşkarlanır. Yalan mənadan məhrumdur, yəni yalan həqiqətin orijinal aydınlaşmasının səbəbləri ilə əlaqələnmir. Yalan sırf subyektivdir və onu obyektiv olanla tutuşdurmaq mümkün deyil. Yalan obyektlə əlaqələnmədiyindən keçici və müvəqqətidir, bərpa olunmayandır. Eyni bir yalanı olduğu kimi təkrarlamaq mümkün deyil.

Səhv - çaşma nəticəsində meydana çıxan alternativ bilikdir. **Çaşma** - düşüncə prosesində idrakın bir düşüncə kanalından avtomatik və spontan digərinə keçidini özündə təqdim edir. Çaşma müxtəlif obyektiv və subyektiv səbəblərdən qaynaqlanır:

1. İlkin təbii həqiqətin təkrarlanması mümkün olmadıqda (yaddaşın pozulması kimi).
2. Düşüncə prosesinin müəyyən mərhələsində kənar subyektiv müdaxilə (diqqətin yayılması).
3. Düşüncə prosesində alternativ variantların meydana çıxmasında istiqamətin düzgün seçilməməsində (seleksiyanın düzgün aparılmamasında). Alternativlik iki müxtəlif ilkin təbii həqiqət əsasında ink-

işaf edən düşüncənin eyni bir həqiqətə çatmasında çarpazlaşmadır, hansı ki, bu zaman birindən digərinə keçid mümkün olur.

Haşiyə: J.Delez:

> *"Çaşma - yalnız rasional gizli tərəfdir, o onun xeyrinə şahidlik edir ki, nədən meyllənmişdir - xeyirxah təbiətli və xoş niyyətli, səhv etdiyi hesab edilənin düzlüyünün xeyrinə."*

Səhv gerçəklikdən yox, bilavasitə təfəkkürdən - onun gerçəkliyin digər sıralarından fərqli keyfiyyətlərə malik olmasından, onun keçid vəziyyətindən (xaosdan nizama keçid vəziyyətində olmasından) qaynaqlanır. Səhv təfəkkürdə xaosun mövcudluğunu göstərir. Səhv qeyri-iradi prosesdir. Təfəkkür tam nizamlanmadığından istənilən həqiqət müəyyən qədər "səhv"dir və ya səhv etməyən insan yoxdur. Səhvin əmələ gəlməsi təfəkkürün **şərh, ifadə etmə** və **işarələmə (simvollaşdırma)** keyfiyyətləri ilə bağlıdır. Hər üç keyfiyyət subyektiv olduğundan bütün səhvlər subyektivizasiya olunmuş həqiqətlərdir.

- Şərh ilkin həqiqətin inkişaf etdirilməsi nəticəsində aşkarlanan həqiqətin təfəkkürə köçürülməsi ilə bağlı olduğundan, səhvin birinci səbəbi bu köçürülmənin aparılmaması və ya qeyri-dəqiq aparılması ilə bağlıdır.
- Şərh həm də aşkarlanan həqiqətin ifadə edilməsi ilə bağlı olduğundan, köçürmə zamanı uyğun simvollardan istifadə edilmədikdə səhv meydana çıxır.
- Səhvin bir səbəbi də aşkarlanan həqiqətin ilkin təbii həqiqətlə əlaqələndirilməməsidir, hansı ki, işarələmə ilə reallaşdırılır. Başqa sözlə, işarələnmə yalanla həqiqətin bir-birindən ayrılmasını özündə təqdim edir. İfadə etmə isə mənanın ölçüsü kimi çıxış edir.

Heç bir düşüncə öz bazisindən fərqli nəticələrə gətirib çıxarmadığından düşüncənin əsası bütünlükdə düşüncə prosesini müəyyən edir. Düşüncənin düzgünlüyü hər dəfə başlanğıc həqiqətlə müqayisə ilə müəyyənləşdirilir. Dərketmə bilməməkdən, düşüncə bilməkdən başlayır.

- **Bilmək** - şüurun hər hansı bir forması ilə başlanğıc həqiqətin aşkarlanmasıdır.
- **Bilmək** - başlanğıc təbii düzgün fikrə malik olmaq deməkdir. Fikrin təbiiliyi şüuri prosesdən kənarda insana aşkarlanan həqiqətlə bağlıdır.

Haşiyə: J.Delez:

> *"Təsəvvürlərin ən geniş yayılmış forması, xeyirxah iradə və düzgün mahiyyət kimi adi şüurun kortəbiiliyindədir. fəlsəfənin implisit mümkünlüyü, fəlsəfənin nədən başlanmasının mümkünlüyündən çıxan, cogitatio natura universalis kimi gündəlik şüurdadır. Düşüncə tərzi - yalnız sifətdir, hansı ki bunun köməyi ilə doksa-təsəvvür universallaşır və rasional səviyyəyədək yüksəlir."*

İstənilən düzgün düşüncə **postulatdan** (düzgün həqiqət kimi qəbul edilmiş, adi şüura kortəbii aşkarlanan həqiqətdən) ibarətdir. Postulat düşüncəyə qədər təfəkkürdə aşkarlanmış qeyri-müəyyən həqiqətdir, hansı ki, düşüncə prosesində həmin postulatların üzərində qurulmuş fikirlə həqiqətin özü aşkarlanır.

Haşiyə: J.Delez:

> *"Fəlsəfədə postulatlar - fəlsəfənin cəhd etdiyi ehtimal deyil, əksinə ehtimalın mövzusunun implisitliyini saxlayan fəlsəfəyəqədər şəkildə anlanılandır. Bu mənada konseptual fəlsəfəni, düşüncənin implisit mümkünlüyü fəlsəfəyəqədər, təbii, adi şüurun xalis kortəbiiliyindən düşüncə tərzinin çıxarılmasından ibarətdir."*

Təbii fikir təbii adi şüurla aşkarlanır. Başqa sözlə, təbii fikir spontan və avtonom yaranır və adi şüur onu özü-özündə aşkarlayır. Bilməyin üçüncü komponenti təbii fikrin (adi şüurla aşkarlanmış həqiqətin) təfəkkürdə inkişafının davam etdirilməsindən ibarətdir. Təfəkkürdə fikrin inkişafı başlanğıc təbii fikrin qanunauyğunluqlarını aşkarlamaqdan başlayır. Yalnız təbii fikrin qanunauyğunluqlarına əsasən fikrin inkişafi **Düşüncə** kimi təzahür edir.

- **Düşüncə** - həqiqətə aparan yol;

- **Şüur** - bu yolda hərəkət;
- **Həqiqət** - bu yolun məqsədi;
- **Yolun başa çatması** - təfəkkürün yeni nizama keçməsidir.

Bilmək yalnız və yalnız fərdi şüura xasdır. Baxmayaraq ki, "sağlam şüurun və gündəlik şüurun xüsusi təklifinin imtinası. ayrılıqda heç nəyin qəbul edilməməsi" fəlsəfə üçün xarakterikdir, amma fəlsəfə fikrin yaranma başlanğıcından əsası, formanı, adi şüurdan isə kortəbiiliyi saxlayır. İlkin təbii həqiqətin aşkarlanması fərdi şüurla həyata keçirildiyindən orijinallıq əldə edir. Belə ki, hər bir düşüncə subyekti ilkin təbii həqiqəti özü üçün təyin edərək düşüncə prosesini davam etdirir. Beləliklə, düşüncə prosesinin digər mühüm komponenti - **təyindir**. Təyin etmək həqiqətə tərif verməkdir. Tərif özündə subyektin ilkin təbii həqiqəti necə şərh etməsini özündə ifadə edir. Düşüncə prosesinin sonu idrak prosesində **mənanın** çıxarılmasıdır. Məna həqiqətin refleksiyalarından biridir.

Haşiyə: J.Delez: *"Məna - həqiqi olanın istehsalıdır, həqiqət isə - mənanın empirik nəticəsidir."*

Məna nə üçün həqiqətin məhz konkret gerçəklikdə orijinal aydınlaşmasının mahiyyətini özündə təqdim edir? Mənasızlıq - həqiqətin gerçəklikdə orijinal aydınlaşmasının mümkünsüzlüyüdür. Beləliklə, məna universal olanın orijinal olanda təzahürüdür. Yəni həqiqətin gerçəklikdə aşkarlanması qanunauyğunluğudur.

Haşiyə: J.Delez:

> *"Filosof 'mən düşünürəm, deməli yaşayıram' dedikdə ola bilsin o özünün istiqamətinin implisit ümumiməlumluğunu, mövcudolmanın və düşüncənin əhəmiyyətini təsəvvür edir."*

Əslində **"düşünürəm, deməli yaşayıram"** insanın yalnız ruhi təbiəti ilə bağlıdır. Halbuki heyvanlar da yaşayır, amma düşünmürlər. Ruhun yaşayışı heyvani həyatdan həm də onunla fərqlənir ki, o varlığa münasibətdə yaşayır. İmbesil fərd yaşayır, amma düşünmür. Bu o deməkdir ki,

imbesil insan kimi mövcud deyildir. “Düşünürəm” - gerçəklikdə aydınlaşan həqiqəti aşkarlamağa cəhd edirəm deməkdir. “Düşünürəm” təfəkkürümün varlığa münasibətini özündə ifadə edir. Buna görə də varlıq əbədi, subyekt müvəqqəti olduğundan, yaşamaq yalnız müvəqqəti olanın əbədi olana münasibəti ilə aşkarlana bilər. Həqiqət əbədi olduğundan onu aşkarlayan ruh da əbədi olaraq mövcuddur. Həqiqət fərdin idrak fəaliyyətinin təzahürüdür.

Düşüncə təfəkkürdə həqiqətin aydınlaşmasının aşkarlanma yoludur. Düşüncə - analiz, sintez, şəraitin ümumiləşməsi, həll edilən məsələ və onun həlli üsullarının tapılmasını özündə təqdim edir. Düşüncə fəaliyyətlə bağlıdır, simvolikdir, müşahidə etmək mümkün deyil, düşüncə mənalarla manipulyasiyadır.

Düşüncənin aşağıdakı formalarını ayırd etmək olar:

a. Vizual düşüncə: Obraz modelləşdirilməsi planında problematik məsələnin həlli. Belə düşüncə dizaynerlər və arxitektorlar üçün xasdır.

v. İntuitiv düşüncə: Mərhələsiz, sürətli və şüurun zəif iştirak etdiyi düşüncə forması.

q. Məntiqəqədərki düşüncə: İbtidai insana xas düşüncədir.

d. Yaradıcı düşüncə: İdrak prosesinin gedişində yeni məhsulun yaradılması ilə müşahidə olunan düşüncə.

Düşüncə prosesi bir-biri ilə vəhdətdə olan təfəkkürün iki halının - **dinamik** və **statik** halının - qarşılıqlı əvəzlənməsi ilə baş verir.

- Təfəkkürün **statik halı** düşüncədə **suallanma** kimi;
- **Dinamik halı cavablanma** kimi təzahür edir.

Sual - həqiqətə implikasiya olunmuş düşüncənin istiqamət seçmə cəhdidir. Sual vermək məlum başlanğıc təbii həqiqətdən istiqamət seçməyi müəyyənləşdirməkdir. Başqa sözlə, sual qeyri-müəyyənlikdən müəyyənliyə keçidə cəhddir. Sual həqiqətin aşkarlanma prosesində sükunəti təqdim edir. İnsan sanki həqiqətlə üzləşərkən onun qarşısında dayanır və ona hansı istiqamətdə hərəkət edəcəyi ilə bağlı sual verir.

Cavab - müəyyənləşmədir. Cavab da ilkin təbii həqiqətə istinad edir. Amma sualdan fərqli olaraq artıq düşüncənin hərəkətini özündə ifadə edir. Beləliklə, sual-cavab həqiqətin iki halının (statik və dinamik halının) qarşılıqlı əlaqəsini özündə təqdim edir. Sual düşüncə prosesinin düzlüyünə əminliyi müəyyən edir. Cavab əminləşmədir. Hər bir cavab özündə sual, hər bir sual özündə cavabdır.

Tutaq ki, "2+2=?" və buradan da 8 alınması sualı qoyulub. Burada bərabərliyin sol tərəfi müəyyənləşmiş həqiqət, sağ tərəfi müəyyənləşməmiş, amma müəyyənləşməsi zəruri olan həqiqətdir. 8 isə son məqsəddir. 2+2=4 cavabı müəyyənləşdikdən sonra 4+3=?; 4+2=?; 4+5=?; 4+4=? və s. kimi sualları doğurur. Düşüncə prosesi bu əlaqə əsasında inkişaf edir. Göründüyü kimi, bir sualın bir cavabı sonradan sonsuz sayda cavabları doğurur. Bəs onda düşüncə necə inkişaf edir? Burada ikinci məqam son mütləq həqiqətin **məqsəd** seçilməsi meydana çıxır. Beləliklə, düşüncə prosesi təbii ilkin həqiqətlə son mütləq həqiqət arasındakı məqsədəmüvafiq yolu müəyyən edir. Düşüncə prosesində təkrarlanma həm ən aşağı əsasla, həm də son nəticə ilə həyata keçirilir.

Düşünmə həqiqətin aşkarlanmasının aktuallaşdırılmasıdır.

Haşiyə: J.Delez:

> *"Üç sıra aktuallaşma vardır: məkanda, zamanda və şüurda. İstənilən məkan-zaman dinamizmi istiqaməti qeyd edən, hərəkətdə və miqrasiyada artırılmış, şüurun obyektinə və ya cisimlə nisbətdə, xüsusiyyətlərin qatılaşmasının yaxınlığında doğulmuş elementar şüurun yaratdığıdır."*

Təfəkkürün varlığa münasibətində düşüncə iki formada - **analitik** və **sintetik** formalarda - meydana çıxır.

Haşiyə: İ.Kant:

> *"Analitik düşüncə - bu o mühakimədir ki, predikatın subyektlə əlaqəsi oxşarlıqlarla düşünülür; o mühakimə ki, bu əlaqəni oxşarlıqlarsız düşünür, sintetik düşüncə adlandırılmalıdır.*

Birincini izah edici, ikincini genişləndirici mühakimə adlandırmaq olar. bütün empirik mühakimələr sintetikdir. Ağıla istinad edən bütün nəzəri elmlərdə aprior sintetik mühakimə prinsipi kimi mövcuddur."

Düşüncə gerçəkliyin məkan-zaman asılılığına uyğun çox-istiqamətlidir. İstiqamətinə görə aşağıdakı düşüncə formalarını ayırd etmək olar:

a. Vertikal düşüncə: Həqiqətin aydınlaşmasının səbəb-nəticə əlaqəsinə uyğun baş verən düşüncə. Vertikal düşüncə səbəb-nəticə zəncirində nisbi həqiqətdən mütləq həqiqətə doğru istiqamətlənmiş düşüncədir. Belə düşüncədə məqsəd düzgünlüyü aşkarlamaqdır. Vertikal düşüncədə yeni kəşf edilir. Belə düşüncə innovasiyaya xidmət edir. Ardıcıldır, hər bir addımın düzlüyünü tələb edir.

b. Lateral düşüncə: Belə istiqamətli düşüncədə məqsəd daha çox məhsuldarlığı artırmaqdır. Başqa sözlə, lateral düşüncə biliyin zənginləşdirilməsinə (biliyin eninə inkişafına) xidmət edir. Lateral düşüncə köhnənin daha səmərəli, təkrar mənimsənilməsinə istiqamətlənib. Lateral düşüncə imkanı, vertikal düşüncə biliyi genişləndirir. Sıçrayışlıdır. Lateral düşüncədə bütün addımların düz olması tələb olunmur. Vertikal düşüncə görünməyən imkanların qarşısını almaq üçün inkara əl atır.

Haşiyə: Edvard de Bono:

"Lateral düşüncənin məqsədi ideyaların generasiyasıdır. yeni ideyalar - insan fəaliyyətinin bütün sahələrində (elmdən incəsənətə, siyasətdən öz xüsusi taleyini qurmağa qədər) tərəqqinin və yenidənqurulmanı hərəkətverici gücüdür. Lateral düşüncə mümkün qədər daha çox alternativ qərarların yaradılmasına istiqamətlənib. Lateral düşüncə vertikal düşüncənin imkanlarını genişləndirir, vertikal düşüncə lateral düşüncədə doğulmuş ideyaları inkişaf etdirir. Vertikal düşüncə verilmiş istiqamətdə inkişaf edir, lateral düşüncə özü istiqamət verir. Lateral düşüncədə əgər nəticə düzdürsə, heç də tələb olunmur ki, bizim hər bir

fəaliyyətimiz düz olsun. Lateral düşüncə inkar bilmir. Lateral düşüncə istənilən yaranan imkanı qucaqlayır. Vertikal düşüncədə biz məlumatdan hansısa qərara gəlmək üçün istifadə edirik; lateral düşüncədə biz informasiyadan oyandırıcı təkan kimi istifadə edirik ki, mövcud sxemi dəyişək. Lateral düşüncə heç vaxt hökm çıxarmır."

Lateral düşüncə - problemə müxtəlif tərəfdən baxmaqla onun həllinin ən yaxşı variantını tapmağa cəhddir.

Haşiyə: Eduard de Bono, "Lateral düşüncə"

"Lateral düşüncə sıx şəkildə intuisiya, yaradıcılıq qabiliyyəti və yumor hissi ilə bağlıdır. Lateral düşüncə də məntiqi düşüncə kimi xüsusi düşüncə aparatının tətbiqinin konkret üsuludur. Lateral düşüncənin məqsədi ideyaları generasiya etməkdir. Lateral düşüncə vertikal düşüncənin imkanlarını genişləndirir. Lateral düşüncə ilə vertikal düşüncə qarşılıqlı bir-birini tamamlayır. Vertikal düşüncə ardıcıldır, lateral düşüncə sıçrayışlar edə bilər."

Buradan da demək olar ki, vertikal düşüncə şərtlənmiş, lateral düşüncə şərtlənməmişdir.

v. Horizontal düşüncə: Horizontal düşüncə mütləq həqiqətin vəhdətdə aşkarlanmasına xidmət edir. Ona görə də horizontal düşüncə müxtəlif vertikal düşüncələri əlaqələndirərək onlar arasında vəhdətə nail olur. Horizontal düşüncə mürəkkəb sistemlərin idrakına xidmət edir. Vertikal və lateral düşüncədə alternativlər arasında əlaqəyə cəhd olunmur. Horizontal düşüncədə sintetik bilik və sahələrarası elm yaranır. Biofizika, biokimya, bionika və s. kimi elmlər horizontal düşüncə nəticəsində yaranır.

FORMAL RUHUN AŞKARLANMASI: RUHUN ATRİBUSİYASI

Hissi qavranılma xarakteristikaları olmayan, bədənlə əlaqələnməmiş Formal Ruh, təzahürsüz və təsirsiz Kosmosda necə mövcud olur və idrak

prosesində fikrə gətirilir, yəni biz müstəqil varlığın mövcudluğu kimi Formal Ruhun həqiqətini necə aşkarlaya bilərik?

Həqiqəti özündən aydınlaşdıran mövcud varlıqlardan həqiqətin aşkarlanmasının iki üsulu vardır:

1. **Obyektlərin bir-biri ilə əlaqəsindən həqiqətin aşkarlanması:** Biz obyektlərin bir-biri ilə əlaqəsini **təsir** kimi anlayırıq. Təsir sözü ərəb dilində daxilinə işləmə, iz buraxma, əsər etmək mənalarını verir. Təsir eyni statuslu idrak obyektləri (mövcud varlıqlar) arasında baş verir. Məsələn: əgər bir şey başqa şeyi özünə dartırsa, onda həmin şeylərdən birini metal, digərinin maqnit olduğunu aşkarlayırıq. Və ya iki yük bir-birini itələyirsə, onda həmin yüklərin eyniadlı olduğunu təyin edirik.
2. **Obyektlərin subyektlə əlaqəsindən həqiqətin aşkarlanması:** Obyektin subyektlə əlaqəsini biz **təzahür** kimi anlayırıq. Təzahür sözü ərəb dilində görünmə, zühur etmə, zahir olma, zahirə çıxma, bir şeyin ifadəsi olmaq, nümayiş etdirmə, sərgiləmə mənalarını verir. Təzahür görünmə ilə bağlı olduğundan, görmə qabiliyyəti olanla mövcud varlıq arasındakı əlaqəni özündə ifadə edir, hansı ki, canlılara xasdır. Canlılarda aşkarlama qabiliyyəti olmadığından, təzahürlə həqiqətin aşkarlanması yalnız mövcud varlıqla subyektin (şüurlu insanın) arasındakı əlaqədən mümkün olur.

Formal Ruhun mövcudluğu olmadığından, öz həqiqətini aydınlaşdırmır; başqa sözlə, Formal Ruhun həqiqətinin nə təsirlə, nə də təzahürlə aşkarlanması mümkün deyildir və onun həqiqətini yalnız subyekt-subyekt əlaqəsindən aşkarlamaq olar. Əgər təsir və təzahür mövcudluğun özündən çıxırsa, onda formal ruhdan onun həqiqətini aşkarlamağa imkan verən xüsusiyyətlərin çıxmadığı aydınlaşır və idrak obyektindən çıxan xüsusiyyət yoxdursa, onda həmin obyekti ona daxil olan xüsusiyyətlə aşkarlamaq lazım gəlir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: Formal Ruhun həqiqəti - ona daxil edilən və ya əlavə edilən xüsusiyyətlərin şərtlərinin məcmusundan aşkarlanması mümkündür.

İdrak obyektinə xüsusiyyət daxil etməklə ondan həqiqətin aşkarlanması üsulu **Atribusiya** adlanır. Atribusiya - latın dilində verirəm, ayırıram mənasını verən *"attribuo"* sözündən əmələ gəlmişdir. Beləliklə, atribusiya - predmetə atributlar (xüsusiyyətlər) vermək, onu atributlarla başqa idrak obyektlərindən ayırmaqdan ibarətdir. **Atribut** - predmetin təyin edilməsi üçün işarə və ya kimə və ya nəyəsə aid fərqləndirici xüsusiyyət, fərqləndirmə üçün predmet deməkdir.

Bəzən atribusiya üsulu ilə təsiri və təzahürü qeyri-müəyyən olan mövcud varlıqlar da idrak olunur. Məsələn, süni radioaktiv maddələr təbii şəkildə mövcud olmadığından, onları obyekt-obyekt əlaqəsindən aşkarlamaq mümkün olmur, buna görə də onlara müəyyən xüsusiyyətlər verilərək idraka cəlb olunur. Eləcə də, təzahür etməyən varlığı da atribusiya ilə dərk etmək olur. Məsələn, doğulmamış, ana bətnindəki uşağa verilən xüsusiyyətlər atribusiya kimi meydana çıxır. Atribusiya fəlsəfənin anlayışlarından biri kimi filosofların geniş şərh etdiyi məsələlərdəndir.

Atribusiyada atribut idrak obyektinə verilsə də, həmin atributun konkret idrak obyektinə verilməsinin mümkünlüyü olmalıdır. Buradan da, bəzi filosoflar, o cümlədən İbn Rüşd, belə hesab ediblər ki, atribut əlavə edildiyi varlıqdan fərqlənməməlidir. Məsələn, biliklə biliklənən bir-birindən fərqlənmir. Bu nə deməkdir? Bu o deməkdir ki, idrak obyektinin mahiyyəti ilə subyekt tərəfindən verilən atributun mahiyyəti eynilik təşkil etməlidir.

Formal Ruhun zəruri şərtləri olmadığından, Kosmosda bilavasitəliyi və obyektivliyi (yəni təsir və təzahürlərindən fikrə gətirilməsi) mümkünsüzlükdür və onun həqiqəti yalnız atribusiya ilə aşkarlana bilər.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Ruhi Atribusiya - hissi qavranılması mümkünsüzlük olan Formal ruhun bizim tərəfimizdən ona daxil edilən xarakteristikalarla fikrə gətirilməsi ilə onun həqiqətinin subyekt-subyekt əlaqəsindən aşkarlanmasının şərtlərinin məcmusundan ibarətdir.*

Beləliklə, atribusiya yalnız subyektə xasdırsa, onda subyektin özündən formal Ruha verdiyi atribut onun özündən çıxdığından, özü də həm də formal ruha xas xüsusiyyətlər saxladığından, həmin atributlar Formal Ruhdan fərqlənmir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Ruhun Atribusiyası - aşkarlayan subyektlə aşkarlanan subyektin eyniliyinin şərtlərinin məcmusundan ibarətdir.*

Yəni, biz Formal Ruha o atributları daxil edə bilərik ki, həmin atributları yalnız özümüzdən əldə edək.

Atribusiya mövcudluğa və ya mövcud olmaya xasdır? Mövcud varlığa İlahi iradədən zəruri şərtlər verildiyindən obyektiv reallığın bütün xüsusiyyətləri bu zərurətlə şərtlənmişdir, ona görə də obyektiv reallığın həqiqətini yalnız zərurətə görə, ondan çıxan xüsusiyyətlərdən aşkarlamaq olar. Belə xüsusiyyətlər mövcudluqdan çıxdığından, həm də substansial xüsusiyyətlərdir, hansı ki, idrak obyektindən ayrılmır və məkan-zaman şərtlərindən (yəni mövcud olmadan) asılı olmayaraq, eyni bir predmetdən eyni bir həqiqət aşkarlanır.

Formal Ruha yaranışdan bilavasitə zəruri şərtlər verilmədiyindən onda substansial xüsusiyyətlər yoxdur. Buradan da məlum olur ki, xalis fəaliyyət kimi mövcud olan Formal ruha mövcud olmaya görə, yəni təsadüfi şərtlərə görə atributlar vermək olar. Burada təsadüfi şərtlər Formal ruhla başqa varlıqlar arasındakı şərtləri özündə təqdim edir. Yəni Formal Ruhi atributları elə-belə Ruhun materiyaya və insanların birbirinə münasibətindən əldə edilə bilər. Formal Ruhun mövcud olması özünə mövcudluq əldə etmə cəhdi kimi meydana çıxdığından, biz yalnız

ona mövcudluq əldə etməsi ilə bağlı atributları verə bilərik, hansı ki, obyektiv reallıqlar yaranışdan mövcudluq əldə etdiklərindən onlara belə xüsusiyyətlər vermək mümkün deyil.

Beləliklə, Formal Ruhun mövcudluq əldə etmə cəhdindən onun atributlarını təyin etmək olar. Yəni formal ruha İlahi iradədən mövcud olmanın təsadüfi şərtləri verilir; metafizikadan fizikaya keçdikdən sonra formal ruh atributları (mövcudluğunun zəruri şərtlərini) əldə etməyə başlayır. Beləliklə, ekzistensiya etməyən formal ruhun atribusiya ilə aşkarlanmasının mümkünsüzlüyü aydın olur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Ruhun Atribusiyası - fiktiv ruhun ekzistensiya prosesindən formal ruhun aşkarlanmasının şərtlərindən ibarətdir.*

Atributla atribusiya olanın bir-birindən fərqlənməməsinə görə atributla mahiyyət bir-biri ilə qarışıq əmələ gətirir. Yəni, əslində atributların mahiyyəti ilə atribusiya edilənin mahiyyəti qarışıqdır. Burada atribut - bir subyektdən çıxan, atribusiya - başqa subyektə daxil edilən olur. Yəni, atribut - fiktiv ruhun özündən, özü-özünə əlavə etdiyi xüsusiyyətdir. Atribut yalnız subyektə əlavə edilməsi mümkün olduğundan, İbn Rüşdə görə, həm də "atributun subyektə ehtiyacı vardır". Subyektin atributa ehtiyacı - özündən öz həqiqətini aydınlaşdırması; atributun subyektə ehtiyacı - özünün yalnız ondan çıxarılmasının mümkünlüyü ilə bağlıdır. Bu ehtiyac həm atributu verən, həm də onun əlavə edildiyi subyektə aiddir. Buradan da aydın olur ki, atributun həm yaranması, həm də nəyəsə verilməsi subyektlə şərtlənmişdir. Əgər nəzərə alsaq ki, atribusiya subyektlərarası əlaqədə mümkün olur, buradan aydın olur ki, fiktiv ruhlar fərdilik xarakteristikasına malik olduğundan, atributla (atribut verən) subyektlə, subyekt (atribusiyaya məruz qalan) bir-birindən asılı olmadan mövcud olur. Bu o deməkdir ki, atribut - subyektə, fiktiv ruha münasibətdə ondan çıxdığından **aksidensiv**, amma Formal Ruha verildiyindən ona münasibətdə **substansialdır**. Buradan da məlum

olur ki, Formal Ruhun atributları Fiktiv Ruhların ən ümumi xüsusiyyətlərindən ibarətdir, hansı ki, atribusiya prosesində atribut verən öz xüsusiliyindən həmin ümumiliyi ayırır və Formal Ruha verir.

Mövcud varlıqlar yaranışdan zəruri şərtlərə malik olduqlarından təkmildirlər. Belə təkmillik özü-özü ilə şərtlənmiş təkmillikdir. Yəni, hər hansı bir mövcudluq yalnız sonuncu təkmillikdə təzahür edir. Lakin Formal Ruh İlahi İradədən belə şərtlər almadığından, qeyri-təkmildir və onun istənilən təzahürü son təkmil formaya nisbətdə yarımçıq və qeyri-kamildir. Buradan da, atribut **"subyektə təkmillik verən xüsusiyyət"** kimi çıxış edir. Fiktiv ruhlar bir-biri ilə faktuallaşdıqlarından onların təkmilliyi özü ilə şərtlənməmiş təkmillikdir, hansı ki, hər bir subyekt üçün özündənkənar təkmilləşmə şərti atributlardan asılı olur. Bu, təcrübədə ruhun atributlarının təkmilləşməyə məruz qalması ilə bağlıdır.

Mövcud varlıqların atribusiya ilə idrakı nə dərəcədə düzdür? Əgər atributun subyektə, subyektin də atributa ehtiyacı varsa, atributla subyekt qarışıq mahiyyətlidirsə, mövcud varlıq təkmil mövcud olduğundan, atribut isə təkmilləşdirən olduğundan demək olar ki, mövcud varlıqlara həqiqi atributlar vermək mümkünsüzlükdür. Yəni hissi qavranılan və ya hissi qavranılması mümkün olan varlıqların atribusiyası şərtidir.

Amma Formal Ruhun hissi qavranılması qeyri-mümkün olduğundan, biz onu yalnız atributlarla, intuitiv yolla qavraya bilərik. Formal ruhun atributları onu elə-belə mövcud varlıqdan ayıran və yalnız onun haqqında həqiqi olan xüsusiyyətlərdən ibarətdir. Psixologiya və sosiologiya elmində atribusiya anlayışı - qavrayış sahəsində təyin olunmayan sosial obyektə (adama, qrupa, sosial birliyə) xarakteristika yazılmasını özündə təqdim edir. Atribusiyaya o zaman zərurət yaranır ki, xarici müşahidə ilə verilən məlumatlar, sosial əhatə ilə adekvat göstəricilər kifayət etmir və "başaçatdırılmaya" ehtiyac yaranır. Beləliklə də, atribusiya - bilavasitə qavranılan məlumatı "başaçatdırmaq" üsuludur.

Elmdə **atribusiya** - davranışın səbəbi, şəxsiyyətin psixoloji xarakteristikası, qavranılan obyektin məna sisteminə daxil edilməsinə imkan verən sosial qavrayışın əsas mexanizmi, sosial-psixoloji fenomenləri öyrənmək və izah etmək üçün əsas kimi təyin edilir. İnsanın psixologiyası və sosial davranışları Formal ruhla bədənin əlaqəsindən meydana çıxdığından, bədən bioloji varlıq kimi əlamətlərindən hissi qavranıldığından, sosial davranışlarda və psixologiyada müşahidə yolu ilə qavranılmayan və sosial ətrafla tam izah edilməsi mümkün olmayan fenomenləri biz Formal Ruha aid edirik. Buradan da, Formal Ruhun yalnız atributlarından qavranılmasının mümkünlüyü meydana çıxır. Atribut idrak obyektinə bizim tərəfimizdən aid edilən elə xüsusiyyətlərdir ki, həmin xüsusiyyətlər müşahidə yolu və hissi qavrama ilə heç bir obyektdən heç bir halda aşkarlanmır.

Aristotel atributları həm aksidensiv, həm də substansial xüsusiyyətlərə aid etmişdir. Dekart bundan fərqli olaraq, atributları yalnız substansiyaya aid edir. Bizə görə, obyektin atribusiyasında atribut subyektdən çıxarılıb obyektə daxil edildiyindən, obyektin mahiyyəti ilə qarışmadığından, **obyektin atribusiyasında atribut - aksidensiv**, **subyektin atribusiyasında subyektdən çıxarılıb subyektə verildiyindən subyektin substansiyası ilə qarışdığından substansialdır**.

Əgər atribut predmetin ayrılmaz xüsusiyyətidirsə, onda aksidensiv xüsusiyyətlərə aid ola bilməz. Aksidensiya o əlamətlərdir ki, onlar mövcud olmadan (başqa predmetlərlə təsadüfi xarici vəhdətdən) aydınlaşır və buna görə də vəhdətin hər bir tərəfindən ayrılan olur. Aksidensiv atributlar birləşdirici, əlaqələndirici atributlar olduğundan Formal Ruhu digər idrak obyektlərdən fərqləndirmək üçün istifadə edilə bilməz. Substansial atribut isə mövcud olmanın səbəbi ilə bağlı olduğundan, mövcudluğa (yəni xalis fakta) substansial xüsusiyyətlərə aid edilə bilər. Substansial o əlamətlərdir ki, onlar mövcudluqdan, yəni daxili vəhdətdən aydınlaşır və ayrıca bir obyekti xarakterizə edir. Mövcud

varlıqlar hissi qavranılma imkanına malik olduğundan, mövcud varlıqların çox nadir və az xüsusiyyətləri atribusiya edilə bilər. Bundan fərqli olaraq, formal ruhun heç bir hissi qavranılma imkanı olmadığından, yalnız **xalis atribusiya** ilə (aksidensiv atribusiya istisna edilməklə) qavranıla bilər.

Mövcudluqla mövcud olma fərqli əlaqələrdən fikrə gətirilir.

- **Mövcudluğu** fikrə gətirən əlaqə **predikativ əlaqədən** ibarətdir. Predikativ əlaqə - mövcudluğun təsirlərlə (substansial keyfiyyətlərlə) əlaqəsini özündə ifadə edir. Başqa sözlə, isimlə sifətin əlaqəsi - predikativ əlaqə kimi meydana çıxır, hansı ki, nitqdə mübtədanın sifətlə təyin edilməsi kimi ifadə olunur. Məsələn: *"Sokrat insandır"* - burada Sokratın necə mövcud varlıq olduğunu bildirən "insandır" sözü predikatdır.
- **Mövcud olmanı** meydana çıxaran və fikrə gətirən əlaqə **atributiv əlaqə** adlanır. Mövcud olma elə-belə müxtəlif hərəkətlərin, fəaliyyətin məcmusundan, yəni feldən ibarətdir. İdrak obyektinin felindən idrakını biz **predikabiliya** kimi təyin edirik, hansı ki, cümlədə xəbərlə ifadə olunanı bildirir. Xəbərlə ifadə olunan sifət feli sifətdir. Məsələn: *"uçan tülkü"* - burada "uçan" predikabiliyadır. Canlıların formal varlığı növdən ibarət olduğundan, canlı fərdlər yox, növ təyinedici olur, hansı ki, bir fərddən başqasına keçməklə mövcud olur. Buna görə də, Aristotel növü predikabiliya kimi təyin edir. Formal ruh obyektsiz xalis fəaliyyətdən ibarət olduğundan biz onu yalnız predikabiliyadan təyin edə bilərik. Beləliklə, formal ruhun atributları eyni zamanda onun predikabiliyası olur. Yəni formal ruhun atribusiyası mövcud varlığa xas olmayan predikabiliyalardan mümkündür. Məsələn, Formal Ruhun xalis substansiya kimi atributunu düşüncə kimi təyin edirlər.

Biz həqiqətin keyfiyyətlərinə görə iki formasını ayırd edə bilərik:

1. **Aydınlaşma ilə aşkarlanan həqiqət:** Mövcud varlıqların həqiqəti aydınlaşmaqla aşkarlanan həqiqətlərə aiddir.
2. **Aydınlaşmadan aşkarlanan həqiqət:** Belə həqiqətlərdə aydınlaşmanı atribusiya əvəz edir. Buradan da, belə həqiqətləri **atribusiya ilə aşkarlanan həqiqət** adlandıra bilərik. Məsələn, modelləşdirmə ilə aşkarlanan həqiqətlər belə həqiqətlərdir. Əvvəlcə idrak obyektinin modeli yaradılır, sonra həmin modeldən aydınlaşan həqiqətlər idrak obyektinə müncər edilir. Modelləşdirmədə atribusiya bilavasitə predikata aid olur. Formal ruhun həqiqəti də bilavasitə aydınlaşmadan aşkarlanan həqiqətlərə aiddir və predikabiliyaya aiddir.

Formal ruhda həqiqətin aydınlaşmasını (təsir və təzahürlərin məcmusunu) əvəz edən xarakteristikanı biz **Atribut** kimi təyin edirik, hansı ki, onu mövcud varlıqların xarici çoxluğundan ayırır.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Formal Ruhun Atributasiyası - formal ruhun həqiqətinin aşkarlama xarakteristikasının şərtlərinin məcmusundan ibarətdir.*

Nə üçün Formal Ruh mövcud varlığı idrak etdiyimiz üsullarla dərk olunmur? Bu, varlıqların enerji quruluşundakı fərqliliklərlə bağlıdır. Mövcud varlığın enerji quruluşu ikili formada olub, tangensial enerjinin zəruri sabitliyi şərtində radial enerjinin dəyişilmələri baş verir və radial enerjinin iki müxtəlif vəziyyəti təzahür kimi xaricə çıxarılır. Mövcud varlığın tangensial enerjisi ilə radial enerjisinin nisbətindən keyfiyyət meydana çıxır. Formal Ruhun enerji quruluşu bundan fərqli olaraq elədir ki, o, yalnız eyni anda bir forma enerji kimi - ya tangensial, ya radial enerji kimi - mövcud ola bilir. Buradan da, formal ruhda nə keyfiyyət mövcud olur, nə də həmin keyfiyyət təzahür edir. Əvəzində ruhi enerjinin tam şəkildə bir formadan digər formaya keçməsində xüsusi xarakteristika meydana çıxır, hansı ki, bu xarakteristikaya görə Formal Ruh mövcud olan olur və fikrə gətirilir. Biz Formal Ruhu fikrə gətirən predikabiliyaları atribut adlandırırıq. Ruh yalnız tangensial enerji radial ruhi enerjiyə

tam çevrildikdə, özündənkənarda - şəxslərarası əlaqələrdən aşkarlanır. Aşkarlanma səbəbinin bu cür meydana çıxması, yəni özündənkənarda olması, həmin səbəbləri təzahür kimi dəyərləndirməyə imkan vermir. Buradan da, ruhda həqiqətin aydınlaşmasının şüalanmasını atribut kimi dəyərləndirmək lazım gəlir.

Biz burada Atributu - konkret xüsusi mahiyyətlə şərtlənmiş meydana çıxmayan (çünki ruhun mahiyyəti ümumidir və buna görə də xüsusi mahiyyətdən kənar təzahür edən), və buna görə də ona paralel dərk edilməsi zəruri olmayan, özündən dolayi yolla həqiqəti aşkarlamağa imkan verən və ayrılıqda öz abstrakt mahiyyəti olduğundan fəlsəfi izhara və elmi tədqiqatlara imkan verən həqiqətin şüalanma forması kimi təsəvvür edirik. Başqa sözlə, ruhun atributları, cismin xassələrindən və canın əlamətlərindən fərqli olaraq, özlərinin abstrakt mahiyyətləri vardır (təzahür və əlamətin isə öz mahiyyəti yoxdur və yalnız mahiyyəti fikrə gətirən vasitə kimi çıxış edirlər).

Reallığın təzahürü "eyni zamanda iki müxtəlif mahiyyətə malik olmama" qanununa əsaslanır. Amma fiktiv varlıq kimi insanın ikili mahiyyətdə olması fiktiv insanın reallıq olmadığını göstərir. Beləliklə, fiktiv insan reallaşdıqda o özündən öz formasını və ikincili mahiyyətini özündən kənara itələyir. Mahiyyət kənara itələndiyindən təfəkkürdə süni forma ilə vəhdətdə qavranılan olur, hansı ki, həmin formanın təzahür və təsirlərinin məcmusu atributlardan ibarətdir. Atributasiya - ikili mahiyyətli insan varlığını gerçəkləşdirmək üçün təfəkkürdə ondan ruhi mahiyyəti çıxarmağı və təfəkkürdə mücərrəd forma ilə vəhdətini yaratmaqla ondan fikrə gətiriləcək mücərrəd təzahür və təsirlərin məcmusunu əvəz edəcək işarəni, ona aid edilən xüsusiyyəti ona verməklə onu xüsusi idrak obyekti kimi qavramağı özündə təqdim edir.

Biz ruhun atributlarından onu yalnız dolayısı ilə, fiktiv insan varlığından kənarda aşkarlaya bilərik və ayrılıqda atributları elmi tədqiq

və fəlsəfi izhar edə bilərik. Bu da ruhu mövcud varlıqdan fərqləndirən xüsusi əlamətdir.

Beləliklə:

- **Cisimlər** - xassələri;
- **Canlılar** - əlamətləri;
- **Ruh** - atributları ilə təfəkkürdə aşkarlanır.

"Özündəşeyi" onun özündən təyin etmək mümkün olduğu halda, "özündənkənar" şeyin atributları özündən kənar meydana çıxdığından və onun "özü" ilə birbaşa əlaqəli olmadığından, biz Formal ruhu yalnız onun özündən kənardakı fəaliyyət və qabiliyyətləri ilə - atributları ilə aşkarlaya bilərik. Atribut - xassə və ya keyfiyyət kimi kateqoriyalardan fərqli olaraq, yalnız təfəkkürün özü-özündə, idrak vasitələri ilə müəyyənləşən əlamət hesab edilə bilər. Atribut varlığın heç bir sırası ilə qarşılıqlı təsirdə yaranmayan, yalnız subyektlərarası münasibətdən (sosial davranışlardan) meydana çıxan subyektiv əlamətlərdir. Halbuki istənilən təzahür və əlamət obyekt-subyekt əlaqəsindən aşkarlanır. Subyektiv əlamət olduğundan, konkret deyil və özünün buna görə də xüsusi mənası yoxdur, amma subyekt tərəfindən ona müncər edilən mənaları vardır. Buradan da, ruhun atributları həm onun predikabiliyası kimi onun mahiyyətini anlamaqda vasitə rolu oynayır, həm də ayrıca hər bir atributun özünəxas abstrakt mahiyyəti vardır.

Formal ruhun atributları ayrı-ayrı mütəfəkkirlər tərəfindən fərqli formalarda və sayda şərh edilmişdir. Bəs əsil həqiqətdə Formal Ruhun neçə həqiqi atributu ola bilər? Atributlar idrak obyektini tam idrak etməyə imkan verən sayda olmalıdır. Biz həmin sayı obyektiv reallığın tam dərk edilməsinə imkan verən xüsusiyyətlərin sayından tapa bilərik. Yəni atributların sayı mövcud varlığı fikrə gətirən xüsusiyyətlərin sayına bərabər olmalıdır. Biz mövcud varlığı fikrə onun mahiyyəti, forması, tangensial və radial enerjisi, yəni strukturlaşması və daxili qurulma qaydaları əsasında fikrə gətiririk.

- **Mahiyyət** - mövcud varlığın özündə həqiqət saxlamasını;
- **Forma** - özündə hərəkətin saxlanmasını;
- **Tangensial enerji** - daxili qurulmanın;
- **Radial enerji** - hissələrarası və mövcudluqlararası əlaqənin enerjisindən ibarətdir.

Buradan da, Formal ruhun mövcud varlıqlara uyğun dörd xüsusiyyətini - özündə həqiqət saxlamağı, hərəkəti saxlamağı, qurulma və əlaqə ilə bağlı xüsusiyyətləri atribusiya edə bilərik.

Beləliklə, bizdən öncə formal ruha dörd əsas atribut aid edən E.Frommla razılaşaraq, onun aşkarlanmasına xidmət edən aşağıdakı dörd əsas atributu aid edirik:

1. Formal ruhun nəsnəsi, yəni mahiyyəti kimi - **Ağıl**;
2. Ağlın formalaşdırma qabiliyyəti, idrakın aşkarladığı həqiqətin abstrakt formalaşdırma vasitəsi kimi - **Simvollaşdırma**;
3. Ağlın radial enerji formasının təzahürü kimi - **İctimai münasibətlər**;
4. Tangensial enerji formasının təzahürü kimi - **Sosial təşkilatlanma**.

1. AĞIL (REASON)

Təbiət əksiliklərin vəhdətində mövcuddur. Əksiliklər həqiqətin meyllərinin şərtlərinin məcmusundan ibarətdir. Əksiliklərin bir tərəfi özündə həqiqətin artma meylinin şərtlərinin məcmusunu, digər tərəfi azalma meylinin şərtlərinin məcmusunu təqdim edir. Beləliklə, mövcudluqlar əksiliklərin tərəfi kimi iki qrupa ayrılır:

- **Həqiqətin artma meylini özündə aydınlaşdıran mövcudluqlar** (Leybnicin təbirincə özündə müsbəti saxlayan mövcudluqlar);
- **Həqiqətin azalma meylini özündə aydınlaşdıran mövcudluqlar** (özündə mənfini saxlayan varlıqlar).

Həqiqətin azalma meyli ən təkmil formaya malik varlıqlarda, artma meyli ən pis formaya malik varlıqlardan aydınlaşır. Buradan da təbiəti təşkil edən mövcud varlıqlar ən təkmil konkret formaya malik olduqlarından özlərində ən pis həqiqəti, yəni həqiqətin azalma meylini özündə təqdim edirlər. Bunun əksinə, varlığın mövcudluğunun konkret forması olmadığından ən kamil şəkildə həqiqəti, həqiqətin artma meylini özündə aydınlaşdırırlar. Biz həqiqətin artma meylini özündə **müsbəti saxlamaq** kimi, azalma meylini özündə **mənfini saxlamaq** kimi təyin edirik. Müsbətlik (həqiqətin aydınlaşmasının artma meyli) bir tərəfdən varlığın yəqinliyinin, digər tərəfdən onun dərk edilməsinin dəqiqliyinin başlanğıc səbəbi kimi çıxış edir. Buna görə də, deyə bilərik ki, **ağıllılıq** müsbətin keyfiyyətidir. Mənfiliyə malik mövcud varlıqlar ağıllılığa malik deyildir. Formal Ruh özündə xalis ağıllılıq (obyekt tələb etməyən ağıl) təzahür etdirdiyindən, ruhun özündə həqiqətin bir meylini (artma meylini) təzahür etdirən, yalnız müsbət yüklərdən ibarət reallıq kimi qəbul edə bilərik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Ağıl - varlığın müsbətlik keyfiyyətinin şərtlərinin məcmusundan ibarətdir.*

Buradan da, ruh təbiətin əksiliyi kimi çıxış edir; buna görə də, təbiətin tədqiq üsul və vasitələri ilə ruhu aşkarlamaq mümkün olmur. Ruhun təbiətdən ağıllılığını həm də belə bir fakt sübut edir ki, təbiət yalnız özündən həqiqəti aydınlaşdırmaqla məhdudlaşır, amma ruh həm də bundan başqa, özündə başqa varlıqların həqiqətini aşkarlamaqla özündə həqiqətin saxlanmasının artma imkanına malikdir. Artma meyli müstəqil varlıq formasında təzahür etmədiyindən, ən nisbi formaya malik olduğundan, varlıqda qeyri-varlıq üsulu ilə aydınlaşır ki, biz bunu **ağıllı insan** kimi aşkarlayırıq.

Ağıl dedikdə nə nəzərdə tutulur? Hər bir şeyin mənasını aşkarlayan ağlın öz xüsusi mənası varmı? Biz ağıl haqqında dialektik mühakimələrimizdə bununla bağlı ilk mühakimələrin müəllifləri kimi Benedikt

Spinozanın *"Ağlın təkmilləşdirilməsi haqqında"*, C.Lokkun *"İnsani ağıllanma haqqında təcrübə"* və İ.Kantın *"Xalis zəkanın tənqidi"* adlı fəlsəfi traktatlarının tənqidinə istinad edəcəyik.

İ.Kant "ağlın öz əbədi və dəyişməz qanunlarına əsaslanmağı" **xalis zəkanın özünün tənqidi** adlandırırdı və tənqid dedikdə "ağlın qabiliyyətinin istənilən təcrübədən asılı olmayaraq cəhd etdiyi ümumiyyətlə bütün bilgilərə münasibətdə tənqidi" nəzərdə tuturdu.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi" (birinci nəşrə ön söz):

> *"İnsan ağlının onun dərk edilməsinin növlərindən birində payına təəccüblü tale düşüb: onu yayına bilməyəcəyi suallar əhatə edib, belə ki onlar ona öz xüsusi təbiəti ilə sırınıb, amma eyni zamanda onlara insan ağlının imkanlarını ötdüyündən cavab verə bilmir."*

"Ağlın qabiliyyətinin istənilən təcrübədən asılı olmayaraq cəhd etdiyi bilgilərin tənqidi" özündə istənilən təcrübənin ağlın dəyişməz və əbədi qanunlarını əks etdirmədiyini bildirir. Başqa sözlə, ağlın təbiəti təcrübi biliklərdən dərk edilə bilməz, çünki təcrübi biliklər təbiətin neqativliyinin qanunauyğunluqlarını özündə əks etdirir; ağıl yalnız həmin bilgilərin əksiliyindən, pozitivlik keyfiyyətindən doğan, "istənilən təcrübədən asılı olmayan bilgilərdən" aşkarlana bilər. Pozitivlik isə yalnız ağlın özündən bilavasitə meydana çıxan bilgilərin xarakteristikası olduğundan, ağlın həqiqətini təcrübədənkənar əldə edilmiş bilgilərdən aşkarlamaq olar. Bu cür bilgilər iki cürdür: **Dini bilgilər** və **Fəlsəfi bilgilər**. Beləliklə, ruh və onun təbiəti haqqında bilgiləri yalnız dini və fəlsəfi şüallandırma ilə aşkarlamaq olar.

- **Din:** Öz məlumatlarını təcrübədən keçmədən, vəhy yolu ilə aldığından, həmin məlumatlar mühakimə keyfiyyətinə malik deyil; buradan da dini bilgilər **ehkam** kimi meydana çıxır. Ehkam özündə iki keyfiyyətə - **dəyişməzlik** və **əbədilik** keyfiyyətinə malikdir ki, məhz bu iki keyfiyyəti İ.Kant həm də zəkanın tabe olduğu qanunların

keyfiyyəti kimi xarakterizə edir. Buradan da belə çıxır ki, dini məlumatlar xalis zəkanın bilavasitə özü-özündən meydana çıxmışdır, buna görə də vasitəli meydana çıxan elmi bilgilərdən fərqli olaraq, onları dialektik mühakimə yolu ilə dəqiqləşdirmək mənasızdır.

Fəlsəfə: Dindən fərqli olaraq öz məlumatlarını xüsusi təcrübədən keçərək təcrübənin o tərəfində, ayrıca bir təcrübədən asılı olmayan ən ümumi bilgilərdən aldığından, fəlsəfə ağlın (ruhun) təbiətinə aydınlıq gətirə və mühakimə yolu ilə ağıl (ruh) haqqında təsəvvürlər yarada bilər.

Elm: Öz məlumatlarını yalnız xüsusi təcrübədən aldığından, istənilən təcrübədən asılı olmayan həqiqət ayrıca xüsusi təcrübədə aydınlaşa bilmədiyindən, elm ağlın təbiətinə aydınlıq gətirə bilməz.

Doğrudanmı insan ağlı özü haqqında özünün yaratdığı suallara cavab verməyə acizdir? İnsan ağlının əbədi və dəyişməz qanunları vardırmı? Vardırsa onları necə və nədən müəyyənləşdirmək olar? Bəri başdan demək lazımdır ki, əbədilik və dəyişməzlik mütləq həqiqətin iki başlıca xarakteristikasıdır. Buna görə də, "xalis zəkanın tənqidi" özündə ağlın mütləq həqiqətini aşkarlamaqla aktuallaşa bilər. Əgər ağıl özü haqqında suallandırma edə bilirsə, onda cavabın tapılmasına özünü və başqalarını (obyektiv gerçəkliyin bütün formalarını) cəlb etməklə nail ola bilər.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: Formal Ruhun "şeyi" - ağlın şərtlərinin məcmusundan ibarətdir.

Formal ruhun İlahi iradədən verilən şərtlərin məcmusu onun "şey"ini, yəni ideyasını təşkil edir. Biz, Formal Ruhun ideya kimi şeyini - mövcudluq tələbində təzahür edən "şey"i - **Ağıl** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Ağıl - İlahi iradədən Formal ruha verilmiş mövcud olmanın şərtlərinin məcmusundan ibarət, özü-özündən təzahür edən, Formal Ruhun ideya kimi "şey"idir.*

Beləliklə, Ruhun birinci və ən əsas atributunu biz ağıl kimi təyin edirik. Ağıl - ruhi fəaliyyət nəticəsində özündən kənar mövcudluqların konkret zəruri şərtləri əsasında özünə mövcudluq təmin edilməsinin

mücərrəd zəruri şərtlərinin məcmusundan ibarətdir. Başqa sözlə, ağıl ruhun mövcudluğunun "materiyasıdır", hansı ki, ruhun istənilən mövcudluq forması ağlından əmələ gəlir. Buna görə də, ağıl ruhi fəaliyyətin ən ümumi əsasıdır. Ağıl mövcud varlıqların materiyasından aşağıdakı əlamətlərinə görə fərqlənir:

1. **Ölçüsüzlük:** Mövcud varlıqların materiyası məkan və zaman şərtlərində ölçülüklə xarakterizə olunur. Formal ruh məkan və zaman şərtlərinə tabe olmadığından ağıl ölçüsüzlük xarakteristikasına malikdir.
2. **Qeyri-maddilik:** Mövcud varlıqların şeyi birincili materiyanın ikincili materiyaya çevrilməsi ilə ölçülüyün maddiliklə vəhdət təşkil etməsi ilə yaranır. Formal ruhun "şey"i birincili və ikincili materiyanın müstəqil təzahür etməsi ilə yaranır. Ağıl birincili ölçüsüz materiya kimi mövcud olduğundan qeyri-maddidir.
3. **Formasızlıq:** Forma mümkünlüyün varlığının mövcudluq tələbində İlahi iradədən verilmiş şərtlərlə mümkünlüyün varlığının mövcudluq yaratmasından meydana çıxır. Formal ruha yaranışdan belə şərtlər verilmədiyindən formasızdır.
4. **Subyektivlik:** Materiya daxili zəruri şərtlərin mövcudluğuna görə obyektivliyə, xarici təsadüfi şərtlərin məcmusuna görə bilavasitəliyə malikdir. Ağlın daxili zəruri şərtləri olmadığından obyektivliyi yoxdur; daxili təsadüfi şərtlərin məcmusunda ikincili təsadüfi şərtlərlə əlaqədə meydana çıxdığından bilavasitəlikdən məhrumdur və **lavasitəliyə** malikdir. Biz obyektivsizliyi və lavasitəliyi ümumi bir anlayışla **subyektivliklə** ifadə edirik. Subyekt - özündəşeyi olmayan, buna görə də özündənkənarşey kimi qavranılan və özündənkənar mövcud varlıqlardan dolayısı ilə təzahür edən varlığın mövcudluğudur.
5. **Daxili qurulmanın, xarici keçidin inkar edilməsi:** Mövcud varlıqlar mahiyyətin forma tələbində İlahi iradədən verilmiş şərtlər

əsasında daxili qurulma prosesinə (formalaşmaya) məruz qalır. Formalaşmış hər bir mövcud varlıq xaricdə bir formadan digərinə keçməklə mövcud olur. Bu zaman başqasına keçən mövcudluq yeni mövcudluqda özünü inkar edir. Formal ruh materiya ilə əksilik təşkil etdiyindən, **daxili keçidə, xarici qurulmaya** malikdir. Ağılda daxili keçid - bir mənlikdən digərinə, bir abstrakt formadan (haldan) başqasına keçid kimi baş verir. Bu zaman başqa formaya keçən əvvəlki forma özünü inkar etmir. Ona görə də, hər iki forma arasında assosiasiya yaranır, hansı ki, idrak prosesi kimi təzahür edir. Xarici qurulma prosesində Formal ruhun formal varlığı - **sosial təşkilat** və faktiki varlığı - **ruhi kristallar (mədəniyyət)** yaranır.

6. **Xaosa tabe olmaq:** Materiya Kosmosun ümumi nizamı əsasında formalaşır və onun istənilən təzahürü Kosmik qanunlara tabe olur. Ağıl metafizik təbiətə malik olduğundan, təbiət qanunlarına tabe olmur, özündə mütləq xaos şəklini təqdim edir və buna görə də, təbii şeylərin nizamı əsasında ağlın idrak edilməsi mümkünsüzlükdür.

Haşiyə: Vilyam Arnts, Betsi Ceys, Mark Visente, "Dovşan yuvası":

> *"Fəlsəfə doktoru Con Xaqelin 'fizikanın gizli sektor' adlanan geniş nahiyəsi vardır, hansı ki superstrun nəzəriyyəsində təsvir olunur; bu - müstəqil aləmdir. O məkana nüfuz edir; biz ondan hərəkət edirik; biz prinsipcə ona bulanıq baxa bilərik. Ola bilsin, məhz onu biz Ağıl adlandırırıq. Ehtimal kimi demək olar ki, onda 'fikir cisimləri' yaşayır və həmçinin fiziki cisimlər kimi bizim dünyada məskunlaşır."*

Göründüyü kimi, doktor C.Xaqelin də ağlı "fikrən cisimlərin" (bizə görə fikrən varlıqların, yəni metafizik noumenlərin) mövcud olduğu yer - məkan kimi təsəvvür edir. Məkan həm də eyni zamanda birincili materiya kimi mövcud olduğundan, ağlı noumenlərin mövcud olduğu birincili materiya kimi təyin olunmalıdır. Əks halda "fikrən cisimlərin" nədən əmələ gəlməsini izah etmək mümkün olmazdı.

Başlanğıcda ən ümumi şəkildə mövcud olan ağıl idrak prosesində ayrı-ayrı anlayışların içərisini doldurараq, özündən "fərdi şeylər" fikirlər - **noumenlər** yaradır. Beləliklə, bütün noumenlərin malik olduğu ideyaların məcmusu özündə ağlı təqdim edir. Buradan da:

- **Materiya** - fenomenlərin;
- **Ağıl** - noumenlərin şeyi kimi təsəvvür etmək olar.

Mövcud varlıqların əsası - **materiya**, varlığın mövcudluğunun əsası - **ağıldır**. Əgər ağılla materiya səbəb-nəticə əlaqəsində deyilsə, onda Formal Ruhun başlanğıc səbəbi materiyadan kənardadır. Başqa sözlə, ruh müstəqil başlanğıca malikdir. Sadəcə materiya ilə ruh bədəndə bir-biri ilə iki müstəqil başlanğıcı olan varlığın mövcudluğu kimi bir-biri ilə əlaqələnir. Bu əlaqədən ruhun əksiliyi kimi materiya, materiyanın əksiliyi kimi ruh aşkarlanır.

Kosmosun yaranmasında birincili materiyadan (məkandan) ikincili materiyaya keçidə uyğun, birincili materiya (məkan) kimi ağıl idrak prosesində ikincili materiyaya - Formal ruhun materiyasına keçir. Biz:

- **Birincili materiya kimi ağlı - ƏQL** (potensial ağıl, yəni "maddiləşməmiş" ağıl, obyekt tələb etməyən xalis ağıl/zəka);
- **İkincili "materiya" kimi ağlı - İNTELLEKT** (aktuallaşmış, yəni "maddiləşmiş" ağıl, obyekt tələb edən şərtlənmiş ağıl) olaraq təyin edirik.

Ağıl - şüurlu insandan başqa heç bir mövcud varlığa xas olmayan, xarici təsirə dərketmə kimi münasibətin əsasında durur. Formal ruhun bütün şərtlərinin - eşqin, iradənin, əsərin və idrakın şərtlərinin - vəhdətindən sintez edilən atributu biz **Ağıl** kimi təyin edirik. Buradan da, ağıl ruhun digər bütün atributlarının başlanğıcı, yəni əsası kimi çıxış edir. Ağılsız ruhun digər atributlarının meydana çıxması mümkünsüzlükdür.

Haşiyə: C.Lokk, "İnsanın ağıllanmasının təcrübəsi haqqında"

"Ağıl sözünün fərqli mənası vardır. Bəzən o həqiqi və aydın prinsipləri ifadə edir, bəzən - belə prinsiplərdən aydın və düzgün

nəticə çıxarmağı bildirir, bəzənsə səbəbi - xüsusən son səbəbi bildirir. Burada mən bu sözü bütün bunlardan fərqli mənada, yəni insanı heyvanlardan fərqləndirən və buna görə də onlardan aydın üstünlük təşkil edən qabiliyyətini bildirən söz kimi baxıram. ağıl ruhun ən yüksək qabiliyyətidir."

Formal Ruhun enerji quruluşunun spesifikasına görə deyə bilərik ki, ağıl eyni anda həm **səbəb**, həm də **nəticədir**. Eyni anda həm səbəb, həm nəticə olmaq metafizik qanunlara uyğun meydana çıxır və kosmik qanunlara tabe olan səbəb-nəticə əlaqəsindən fərqli olaraq, özü-özünün səbəbi və nəticəsi kimi aşkarlanır. Başqa sözlə, biz ağlı özünün səbəbi olan nəticə kimi atribusiya edə bilərik. Buradan da C.Lokkun yuxarıdakı fikirlərinə aydınlıq gətirmək olar. Ağıl, həqiqi və aydın prinsipləri ifadə etməsinə görə **nəticə**, özündə atribusiya ilə eynilik təşkil etməsinə görə **səbəbdir**. Biz səbəb qismində ağlı - formal ruhun tangensial enerjisinin atributu kimi, nəticə qismində - formal ruhun radial enerjisinin atributu kimi təyin edirik. Beləliklə, Formal Ruhda determinasiya daxili prinsip kimi özünün tangensial enerji forması ilə radial enerji forması (yəni ağılla intellekt) arasında meydana çıxır.

Hələ Platonun vaxtından başlayaraq ağlın ikili təbiəti ayrı-ayrı anlayışlarla ifadə olunmuşdur:

Haşiyə: Hans Ayzenk və Leon Kamin, "İntellektin təbiəti, ağıl uğrunda döyüş"

"İntellekt anlayışının mənbələri qədim dövrlərdə itir. Biz bilirik ki, Platon və Aristotel insan təbiətinin koqnitiv aspekti ilə (hansı ki düşüncəyə, problemlərin həllinə, mühakiməyə, məntiqə və s. aiddir) insan davranışlarının hormik aspektlərini (emosiyaya, hisslərə, ehtirasların və iradənin əmələ gəlməsinə aid olan) fərqləndirmişlər. Sonralar Siseron 'intellekt' anlayışını gətirmişdir. Biz bu anlayışı əvvəlki kimi insanın koqnitiv və əqli qabiliyyəti kimi təyin edirik."

Koqnitiv qabiliyyətlər ağlın xalis şey kimi mövcudluğundan meydana çıxan əlamətlərdir. Bu əlamətlərin təbiətindən ruhun təbiətinə aydınlıq gətirmək mümkündür. Lakin insan davranışlarının hormik aspekti həm bədəni təşkil edən cismin, həm də canın təsirlərinə məruz qalmış cari ağlın əlamətləridir, hansı ki, bu əlamətlərdən ruhun təbiətinə birmənalı aydınlıq gətirmək mümkün deyil, çünki onlar özlərində eyni zamanda cismin və canın ayrı-ayrı təsirlərini özlərində daşıyırlar. Beləliklə biz ağıl dedikdə ruhun şeyini (ruhi enerjinin tangensial formasını), intellekt dedikdə ruhi enerjinin radial formasını nəzərdə tuta bilərik.

Beləliklə, ruhun enerji quruluşuna görə, ağıl özü-özündə ruhun iki enerji formasını - tangensial və radial formalarını - ayrı-ayrılıqda, fərqli qaydada atribusiya edir.

1. ƏQL (Formal ruhun tangensial enerji formasının atribusiyası kimi ağıl)

Biz Əqli mücərrəd ağıl kimi təsəvvür edirik. Yəni elə-belə ən ümumi şəkildə ağıl haqqında məlumatlar özündə əqli ifadə edir. Əql Formal Ruhun tangensial enerji formasından ibarətdir. Formal Ruhun tangensial enerjisi mövcud varlığın tangensial enerjisinə əks xarakteristikalara malikdir. Yəni, əql mövcud varlığın radial enerjisinin xarakteristikaları ilə təyin olunandır. Bura forma, daxili keçid, daxili təzahür, mübadilə, daxili əlaqə və s. aiddir.

Formal ruh daxili qurulmaya məruz qalmadığından, tangensial formanın atributu kimi ağıl hər hansı quruluşa malik olmayan, yəni xaos halında olan və buna görə də təsvir imkanı olmayan varlıq kimi təsəvvürə gəlir. Belə atribut kimi ağıl özündə formanı (ağlın hallarını), daxili çoxluqda bir haldan digərinə, bir kimlikdən digərinə keçidi, daxili təzahürü (yəni daxildən görünən daxili görüntünü - özünüdərki), özünün halları və başqa enerji formaları ilə mübadiləsini (yəni fiktiv ruhlar arası və mövcud varlıqlarla əlaqəni) özündə təqdim edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Əql - formanın (yəni ağlın hallarının), daxili çoxluqda bir kimlikdən digərinə keçidin, özünüdərkin (daxili təzahürün), intellektual və fiziki enerjilərlə mübadilənin, fiktiv ruhlar və mövcud varlıqlar arasında əlaqənin şərtlərinin məcmusundan ibarətdir.*

Əql nizamlanmamış, strukturlaşmamış, xaosda təzahür edir və "nəsə" kimi intuitiv idrakla dərk edilir, amma həmin ağlın özündə "nə"yi təqdim etdiyini müəyyən etmək olmur. Beləliklə, əql - qeyri-müəyyən ağıldır. Qeyri-müəyyən olduğundan insanda elə-belə ağlı təyin etmək mümkün deyil.

Ağlın formaları - Halları: Ruh bədənlə şərtlənmiş mövcudluq üsuluna malik olduğundan, ağıl müxtəlif şərtlərdən asılı olaraq xüsusi formalarda - hallarda meydana çıxır. Forma mahiyyətə görə xarici, materiyanın məkani ölçülüyü kimi heçlikdir. Hal, bundan fərqli olaraq, mahiyyətə görə daxili və ölçüsüzlük kimi təyin oluna bilər.

Haşiyə: L.R.Xabbard, "Saentologiya" və "Dianetika"

> *"Reaktiv ağıl. qıcıq-cavab əsasında işləyən, insanın iradəvi nəzarəti altında olmayan, güc tətbiq edərək insan ağlını, onun məqsədləri, fikirləri, cismi və fəaliyyəti ilə idarə edən ağlın hissəsidir. Analitik ağıl - bu ağlın problemlərin qoyuluşu və həlli üçün eksperimental məlumatları alıb saxlayan ağlın hissəsidir. Somatik ağıl - fiziki səviyyədə qərarları fəaliyyətə gətirən və analitik və ya reaktiv ağılla istiqamətlənən ağıldır."*

Biz L.R.Xabbardın fikirlərini ruhun şərtlənməsinə uyğun ifadə edərək, ağlın müxtəlif hallarını müəyyənləşdirə bilərik. Ağlın halı formal ruhun materiyasının kosmosda mövcud varlıqlarla əlaqəsində özü-özündə dəyişilməyə məruz qalmamasını ifadə edir. Biz elə-belə ağlın üç halını ayırd edə bilərik:

a. Bədənlə ruhu əlaqələndirən halı - Reaktiv ağıl: Reaktiv ağıl ruhun canla əlaqəsində təfəkkürün cana münasibətini müəyyənləşdirir. Reaktiv ağıl hiss üzvlərindən, bədənin daxilindən təfəkkürə ötürülən

məlumatları aşkarlayır. Reaktiv ağılla aşkarlanan məlumatlar özündə bədəndaxili entropiyanı əks etdirir. Reaktiv ağıl həm də enqramda (hüceyrə yazısında) saxlanan məlumatları və irsi məlumatların şifrəsini açır və təfəkkürə ötürür. Reaktiv halda idrak bədənlə şərtlənmiş və bədənin əldə etdiyi və bədənin özündə aydınlaşan həqiqətləri aşkarlamaqla onun mahiyyətinə varır. Buna görə də, reaktiv ağılda bədənin fərqlilikləri (cinsi mənsubiyyət, vitallıq və antropoloji fərqliliklər) öz təsirini buraxır. Nəticədə "uşaq şüuru", "qadın şüuru" və s. kimi şüur formaları yaranır. Reaktiv ağıl şüurun qeyri-iradəvi təzahürlərinin mənbəyidir.

b. Bədəndən kənar obyektiv olanlarla ruhu əlaqələndirən halı - Somatik ağıl: Somatik ağıl obyektiv olanla subyektiv olanı (təfəkkürü) əlaqələndirir. Burada somatik ağıl bir tərəfdən obyektin bədənə təsirini, digər tərəfdən bu təsirə təfəkkürün münasibətini özündə ifadə edir. Ağlın bu vəziyyətində meydana çıxan şüur formalarına cari və elmi şüuru aid etmək olar. Somatik ağıl iradəlidir, amma xarici aləmlə bədəndən dolayi şərtlənmişdir.

c. Təfəkkürün müxtəlif vəziyyətlərini (nizamlılıq vəziyyətlərini) bir-biri ilə əlaqələndirən halı - Analitik ağıl: Ağlın bu halında ağıl təfəkkürün özü-özündə iki vəziyyətini bir-biri ilə əlaqələndirir. Analitik ağıl düşüncənin əsasında durur. Məhz analitik ağılla həqiqətin abstrakt idrakı davam etdirilir. Analitik ağıl iradəviliklə sıx bağlıdır və fərd tərəfindən istiqamətlənən, tənzimlənəndir.

Ağlın halları bir-birindən xüsusi sərhədlərlə ayrılmamışdır. Çünki insan heç vaxt konkret bu vəziyyətlərin birində olmur. Yəni, reaktiv ağıl bir fon kimi sürəkli olaraq insan yaşadıqca onun bədəni ilə ruhunu əlaqələndirməkdə davam edir. Yalnız bu əlaqənin pozulmasında ya ruhi xəstələnmələrdə (yəni ruhun xaotik vəziyyətə düşməsində), ya da bədənin somatik xəstəliklərində, bu əlaqə pozulur və reaktiv ağıl zəifləyir. Buna görə də, istənilən xəstəlikdə ruhi fəallıqda dəyişikliklər aşkarlanır. Somatik ağıl müəyyən istiqamətlənmə ilə meydana çıxır. İn-

san yuxuda və ya xüsusi psixotrop maddələrin təsirində, xüsusən hipnoz vəziyyətində ağlın somatik halı dəyişir. Ruh obyektiv reallıqlarla əlaqəsini itirir. Ağlın somatik halının dəyişməsi yuxugörmə, illüziya, fantaziya, ilğım və s. kimi irreal obrazların və ideyaların meydana çıxması ilə müşahidə olunur. Yuxu somatik ağlın dəyişilməsinin ən bariz nümunələrindən biridir. Ağlın somatik halının dəyişilməsi nəticəsində ruhla obyekt arasında əlaqə birtərəfli olur. Obyektiv olanın təsiri ruha ötürülmür, amma təfəkkür varlığa münasibət göstərməkdə davam edir. Nəticədə, təfəkkürün öz nizamından müxtəlif obyektiv olanla əlaqəsi olmayan, obyektiv olanda aydınlaşan həqiqətlə bağlı obrazlar meydana çıxır. Analitik ağıl - iradəvi ağıldır. Xüsusi ruhi vəziyyətin ağlıdır. Belə vəziyyətdə dini və fəlsəfi şüur meydana çıxır. Analitik ağıl subyektin özü-özünə və ya başqa subyektə qarşılıqlı təsirinə təfəkkürün münasibətini müəyyən edir.

Ağlın heç bir halı sabit deyil. Bu hallar qarşılıqlı olaraq sürəkli biri digəri ilə əvəzlənir. Sadəcə fərdin həyat aktivliyindən asılı olaraq, bu və ya başqa hal yaranır və sürəkli olaraq ağıl o halda qalmaqda davam edir. Vital həyatda ağlın ayrı-ayrı halları xüsusən fəal olur. Yeni doğulmuşda ağıl yalnız reaktiv vəziyyətdə olur. İnsan formalaşdıqca onun ağlı daha çox somatik ağıl halına keçir, müdrik insanda isə ağıl analitik hal alır.

Əql - "özündənkənarşey"lə "özündəşeyi" (bədəni və obyektiv olanları) bir-biri ilə əlaqələndirir. Burada beynin rolu haqqında qısa da olsa müəyyən təsəvvürlər irəli sürmək lazım gəlir. Bizə görə, beyin kvant fizikasının mövcud ola biləcəyi yeganə makroaləm sahəsidir, hansı ki, makroaləmlə kvant aləmi arasında qarşılıqlı əvəzlənməni reallaşdırır. Elmi tədqiqatlar göstərmişdir ki, bir insanın beynində bütün Kainatın atomları arasındakı əlaqədən çox əlaqə vardır. Hansı ki, bu əlaqələrin qanunauyğunluqları özündən əvvəlki aləmdən - kvant dünyasından çıxır.

Refleksiya xarici təsirlə özündə özündən "nə" yaratmanı ifadə etdiyindən, xarici mövcudluqların təsiri ilə onların fiktiv ruhda re-

fleksiyasında yaranan obraz və ideyalar ruhun özündən, özündəki nəsədən yaranan “nə”lərdən ibarət olur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: Əql - təfəkkürdə mümkünlük olan obraz və ideyaların “nə”yinin (intellektin) şərtlərinin məcmusu kimi “nəsə”dən ibarətdir.

Biz, əqli Formal ruhun yaranışdan malik olduğu ideyaların məcmusu kimi təsəvvür edirik. Hansı ki, ağlından törəyən ideyalar kimi təzahür edir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: Əql - ağlından törəyən ideyaların şərtlərinin məcmusundan ibarətdir.

2. İNTELLEKT

Formal Ruhun radial enerji formasının atribusiyası kimi ağıl - **İntellekt**. Ruhun radial enerji forması kimi ağıl mahiyyət, xarici qurulma, təsir, materiya və ya "şey", xarici bağlılıq və s. kimi xarakteristikalara malikdir. Bu mənada ağıl atribusiya ilə eynilik təşkil edən Formal Ruhu ifadə edir.

Biz ağlın mahiyyətini **İntellekt** kimi təyin edirik. İntellekt - həqiqi və aydın prinsipləri ifadə etməsinə görə nəticə kimi ağıldır, hansı ki, ruhun radial enerjisinin atributu kimi xarici qurulmaya məruz qalır və nəticədə **bilik** meydana çıxır. Burada xarici qurulma biliyin xarici obyektiv reallıqlardan və başqa insanlardan əldə edilməsi ilə nizamlanmasını özündə ifadə edir. Beləliklə, səbəb kimi xaotik ağlın idrak prosesində nizamlı hala keçməsi nəticə kimi intellekti meydana çıxarır. Biz intellekti strukturlaşmış ağıl və ya nizamlı ağıl kimi təyin edirik. Ağıl obyektiv reallığı özündə refleksiya etməklə nizamlanır. Reflektiv ideyalar özündə faktdan törəyən ideyalar kimi mövcud olur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: İntellekt - faktdan törəyən ideyaların (biliyin) şərtlərinin məcmusundan ibarətdir.

İntellektin strukturlaşması ilə Formal ruhun "materiyası" təşkil olunur. Ruhun nizamlanmış materiyasını biz **Bilik** kimi təyin edirik. Bilik - müxtəlif ideyalar sistemi kimi meydana çıxır.

Haşiyə: L.R.Xabbard, "Saentologiya": *"İnsan ağlı - bu müşahidəni əmələ gətirən, biliyi postulaşdıran, yaradan və saxlayandır."*

R.Xabbardın fikirlərindən göründüyü kimi, ağıl müşahidəni (obyektin subyektə istiqamətlənməsini), biliyin postulaşdırılmasını (yəni strukturlaşdırmanı) və nəhayət davamlı strukturlar kimi saxlanmasını təmin edir. Biliyin saxlanması özündə həqiqət saxlamaqdan ibarət olub ağlın mahiyyətini özündə təqdim edir. Yəni biz ruhun varlığını yalnız biliyə görə təyin edə bilərik. Biz müşahidəni əmələ gətirən, biliyi postulaşdıran, yaradan və saxlayan ağlı **İntellekt** kimi təyin edirik. İntellekt

xalis dalğa təbiətli olub, konkret ideyalardan ibarətdir. İntellekt idrak prosesində formalaşdığından Formal ruhun bədənlə şərtlənmiş formasının (fiktiv ruhun) təzahüründən ibarətdir. Beləliklə, əql - bədənlə şərtlənməmiş Formal Ruhun birincili materiyası, intellekt - bədənlə şərtlənmiş Formal ruhun, yəni Fiktiv ruhun ikincili materiyası kimi çıxış edir.

Ayrı-ayrı ideyaların sistemləşdirilməsi (qurulması) biliyi əmələ gətirir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Bilik - ağlın xarici qurulmasının şərtlərinin məcmusundan ibarətdir.*

Bilik - ağıldan, Ruhun "materiya"sından təşkil olunmuş mücərrəd ruhi mövcudluqdan ibarətdir. Beləliklə, **əql** - Formal Ruhun "nəsə"si; **intellekt, bilik və ya ideya** - "nə"yini özündə təqdim edir.

Ağlın daxili keçidindən idrak prosesi, xarici qurulmasından bilik təzahür edir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İdrak prosesi - ağlın daxildə özünün bir formasından (halından) digər formasına (halına) keçidinin şərtlərinin məcmusundan ibarətdir.*

Ağlın daxili keçidi ilə xarici qurulmanın qarşılıqlı bir-birini əvəzləməsi **şüur** kimi təzahür edir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Şüur - idrak prosesində daxili keçidlə xarici qurulmanın qarşılıqlı bir-birini əvəzləməsinin şərtlərinin məcmusundan ibarətdir.*

İntellekt xarici qurulma prosesinə daxil olaraq, xarici mövcudluqların formasına proyeksiya edilmiş ikincili forma kimi öz faktiki varlığını yaradır və daxildə daxili çoxluqdan meydana çıxan formal varlıqla onun vəhdətində ruhun mövcud varlığını təşkil edir.

Haşiyə: Q.V.Leybnic, "İnsan ruhunun ölməzliyinin fasiləsiz soritlə sübutu":

> *"İnsan ruhu mövcudluqdur, bəzi fəaliyyəti düşüncədən ibarətdir. Əgər hansısa mövcudluğun bəzi fəaliyyətləri düşüncədirsə, onda bu mövcudluğun bəzi fəaliyyətləri şeydir,*

hisslərlə təqdim olunmayan (imaginatione), bilavasitə dərkolunandır (sensibilis)."

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi": "Ağlı prinsiplər vermək qabiliyyətinə malik olan adlandırırıq."

Leybnicin fikirlərindən görünür ki, ağlın materiyası mövcudluğun materiyasından onunla fərqlənir ki, ağıl - hissiz dərk olunan şeydir. Ağıl yalnız hissiz dərk olunmur, həm də özündən hiss yaradan şeydir, hansı ki, prafenomenlər kimi, yəni şeyə malik olmayan hisslər kimi meydana çıxır. Beləliklə, mövcud varlığın materiyası hisslərlə təqdim olunan şey, ağıl özü hiss təqdim edən şeydir. Kantın ağılla bağlı fikirlərindən çıxış edib demək olar ki:

Materiya - özündən həqiqət aydınlaşdırır, yəni ağla ideyalar verir;

Ağıl - həmin həqiqəti aşkarlayır, yəni onların idrakı üçün materiyaya prinsiplər verir.

Materiyanın varlıq forması hərəkətdir. Ağlın hərəkəti düşüncə kimi fəaliyyətdir. Buradan da, düşüncəni ağlın varlıq forması kimi təyin edə bilərik.

Beləliklə, istənilən həqiqət və o cümlədən ruhun öz həqiqəti yalnız ağılla aşkarlanır. Ağlın özü-özünü aşkarlaması məqamı ağlın özü-özündə forması mahiyyətinin aksidensivliyindən meydana çıxır. Gerçəkliyin həqiqətinin axtarılmasında isə ağıl yalnız mahiyyət kimi çıxış edir.

Biz, "ruh maddi olmadığından hissəsi də ola bilməz" müddəasını əsas götürüb, Leybnicin fikirlərindəki "ruhun müəyyən hissəsi şeydir" müddəasını "ruhun bir enerji forması şeydir" kimi ifadə edirik. Biz ruhun "şey"ini **İntellekt** kimi təyin edirik. İntellekt ruhun enerjisinin radial forması olub, "özündənkənarşey"lə "özündəşeyi" (bədəni və obyektiv olanları) ruhu əlaqələndirir. Ruhun "şeyi" - ağıl - varlığın şeyinin əksiliyi kimi təzahür edir. Belə ki, varlıqda həqiqət haqqında məlumat daşıyan dalğalar ifrat sıxlaşaraq şeyə - varlığın formasını təşkil edən hissəciyə (nəyə) - çevrilir və nə qədər çox belə sıxlaşma əmələ gəlirsə, şey bir o

qədər təkmil varlığı təşkil edir, amma buna paralel özündə bir o qədər az (sıxılmamış) dalğalar saxladığından daha az həqiqətə (nisbi həqiqətə) malik olur. Məhz buna görə, təbiətdəki istənilən şey bu mənada özündə neqativlik keyfiyyətinə - həqiqətin aydınlaşmasının azalma meylinə, yəni ağılsızlığa - malikdir. Ruhun öz xüsusi forması olmadığından, onun şeyi xalis pozitivlik keyfiyyətinə malikdir. Yəni ağlı təşkil edən dalğalar sıxlaşma (maddə əmələgətirmə) keyfiyyətinə malik deyil, əksinə həmin dalğalar ifrat uzanmaqla **ideyaya** çevrilirlər ki, bu da gerçəkliyin abstrakt formalarının əsasında durur.

Haşiyə: C.Lokk:

> *"Ağıl ideyalardan ibarətdir. bu termin hər şeydən daha yaxşı insan düşüncəsinin obyektinin nə olduğunu bildirir. Mən bu sözü 'fantom', 'anlayış', 'növ' və ya düşüncə zamanı ruhun məşğul ola biləcəyi hər şeyi ifadə etmək üçün istifadə edirəm. Belə ideyalar insan ruhunda var və hər kəs onu özündə dərk edir, başqalarının sözləri, hərəkətləri isə onun başqalarında olduğunu bildirir."*

Biz ideya dedikdə konkret həqiqət haqqında məlumat daşıyan dalğaları nəzərdə tuturuq. İnsan məhz bu cür dalğalar əsasında xarici gerçəkliklərdən həqiqəti dərk edir və öz ruhunu təşkil edən dalğalardan özünü dərk edir. Bu iki dalğa təbiət etibarı ilə bir-birindən fərqlidir. Gerçəklikdən şüalanan dalğalar gerçəkliyin forması ilə şərtlənərək entropiyaya məruz qalır; belə dalğalar eyni bir gerçəklikdən fasiləsiz və eyni qaydada yayılır və mövcudluq aktı ilə şərtlənmişdir. Ruhu təşkil edən dalğaların öz forması yoxdur, o yalnız bədənin forması ilə şərtlənir və bədən forması dağılandan sonra müstəqil şəkildə yayılmaqda davam edir. Buna paralel, ruhi fəaliyyətdə belə dalğalar gerçəkliyin xarici formasını dəyişdirməklə onlarda əks olunur. Beləliklə, intellekt varlığın şeyi ilə əksilik təşkil etdiyindən, intellekti varlığın əlamətlərinin əksiliyindən aşağıdakı qaydalarda aşkarlamaq olur:

Varlıq haqqında şərh verərkən varlığın bir forması kimi “özündəşey”liyi göstərdik. Özündəşey özündən (formasından) təzahür etmə keyfiyyətinə malikdir. Ruhun forması olmadığından ağıl özündəşey kimi təzahür etmir. Özündəşey olmadığından özündən aşkarlanmır. Ağlın öz xüsusi forması olmadığından yad formalardan təzahür edir. Bu zaman, həm həmin formaların təsirinə məruz qalır, həm də özü həmin formalara təsir edir. Beləliklə, intellekti gerçəkliyin formasının dəyişilmələrindən (onlara təsirindən) dolayısı ilə aşkarlamaq olar.

Elm sübut etmişdir ki, ağıllılığın bədəndəki yeri məhz beyindir. Başqa sözlə, orqanizmdə ağlın xüsusi təsir (seçmə təsir) edib bilavasitə formalaşdırdığı orqan beyindir. Əgər beynin xarici görünüşünə (formasına) diqqət etsək, onun bütünlüklə qırışlardan (dalğavari formadan) təşkil olunduğunu görə bilərik. Beyin qırışları (beynin dalğavari forması) ağlın - xalis dalğa təbiətli mahiyyətin - ona təsir etdiyini bilavasitə sübut edir; digər tərəfdən, obyektiv gerçəklikdən əldə edilmiş duyğuların beyində yenidən dalğaya (ideyaya) çevrilməsində də beynin formasının müstəsna rol oynadığını demək mümkündür.

Ağlın doğmalaşdırdığı (özününküləşdirdiyi) ümumi forma fərdin öz bədənidir. İstənilən ağıllı insan ağılsız insandan görünüşcə fərqlənir ki, bu fərqlilik ağlın bədənin ümumi formasından təzahür etdiyini sübut edir.

Haşiyə**:** Kosta Ben Likk: "İnsan şüuru vəziyyəti onun bədəninə təsir edir."

Kosta Ben Likkin yuxarıdakı fikri bir daha təsdiq edir ki, ağıl özününküləşdirdiyi formalara təsir edir. Buna paralel, bədən də ruha təsir edir ki, biz ayrı-ayrı yaş dövrlərinin ağıllılıq dərəcələrinin bir-birindən fərqlənməsinə görə bunu təsdiq edə bilərik.

Haşiyə: Hans Ayzenk və Leon Kamin, "İntellektin təbiəti, ağıl uğrunda döyüş"

"Həqiqətdə davamlı yaş qanunauyğunluğu müşahidə edilir: yalnız yaşla uşaqlar daha mürəkkəb fiqurları kopyalaşdıra bilir.

intellekt göstəriciləri təxminən 16-20 yaşlaradək yaxşılaşır, sonra onlar requlyar şəkildə pisləşir."

Burada bir məqam olduqca maraqlıdır və "ruh nə vaxt bədənlə əlaqələnir?" sualının cavabını tapmaqda açar rolu oynayır. İnsan bədəninin inkişafı bir qayda olaraq 25 yaşında tam başa çatır və 25 yaşından başlayaraq tədricən bədəndə qurulma dağılma ilə əvəzlənir. Və dağılma öz sürətinə görə qurulmadan dörd dəfə az sürətlə inkişaf edir. Buna görə də, insanın optimal yaşı kimi 100 il qəbul edilir. Eynilə intellektual inkişaf da 25 yaşınadək özünün zirvəsinə çatır və 25 yaşdan başlayaraq insanlarda kütləşmə başlayır. Məhz bu uyğunluğa görə demək olar ki, ruh bədənlə embriogenezin ilk anından (kişi və qadın hüceyrələrinin birləşdiyi andan) bədənlə əlaqələnir və onun bütün inkişafını izləyərək ondan ekstensiya edir. Buradan da, ana bətnində belə bədəndə ruhun olduğunu deyə bilərik. Buna paralel bədənin cinsi quruluşu və o cümlədən antropoloji quruluş ruha təsir edərək onun konkret bədəndən ekstensiyasını tənzimləyir.

Haşiyə: Hans Ayzenk və Leon Kamin, "İntellektin təbiəti, ağıl uğrunda döyüş":

"Bir qayda olaraq, kişilər qadınları vizual-məkan qabiliyyətlərinə (yəni vizual siqnalları onların məkan kontekstindən təşkil etmək qabiliyyətinə) görə üstələyir. belə sübutlar vardır ki, bu qabiliyyət nəinki genetik determinə olmuşdur, həm də bəzi dərəcədə cinslə ilişkili olmuşdur və o cinsi hormonların xüsusi nəzarəti altında inkişaf edir. əgər kişilər vizual-məkan qabiliyyətlərinə görə üstünlük təşkil edirsə, qadınlar verbal qabiliyyətlərdə demək olar ki eyni qabiliyyəti nümayiş etdirirlər."

Cinsi fərqliliklərin intellektual fəaliyyətə təsiri, elmdə, cinsi xromosomların (X - erkəklik məlumatlarını, Y - dişilik məlumatlarını daşıyan xromosomları simvollaşdırır) - məlumat daşıyan ən kiçik üzvü quruluşların - fərqli informasiya daşımaq imkanları ilə şərh olunur. An-

tropoloji fərqliliklərin intellektə təsirinin bilavasitə bədən-məkan əlaqələri ilə tənzim olunduğunu, yəni bədənin məkanda antropoloji ölçülərdən asılı olaraq hərəkətliliyi və fəaliyyət imkanları ilə tənzimləndiyini demək olar.

Ağıl həm də ağlın iştirakı ilə yaradılan ikiqat yadlaşdırılmış formalarda - xarici obrazlarda da öz izlərini buraxır ki, böyük türk tarixçi alimi L.Qumilyov bunu **donuq ruhi kristallar** adlandırır. Bununla da, ruhun təsirinə məruz qalmış istənilən özündəşey özündə ikincili ağıllılıq keyfiyyəti qazanır. Hansı ki, birincili ağıllıqdan müvəqqətiliyi, qeyri-sabitliyi, qeyri-təkmilliyi ilə fərqlənir. Ağıl təkmilləşdikcə daha çox yad formaya təsir edərək onu təkmilləşdirir və daha az onların təsirinə məruz qalaraq dəqiqləşir. Buna görə də ağlın ilkin dövrlərdəki vəziyyəti ilə onun haqqında dəqiq mühakimələr aparmaq mümkün deyil. Məsələn, uşaq ağlı demək olar ki, tam xaotik olduğundan dünya haqqında heç bir sağlam mühakimə apara bilmir, yalnız yaşa dolduqca, ağlı təkmilləşdikcə, həqiqət haqqında daha aydın təsəvvürlərə malik olur. Eləcə də ümumiinsanlıq ağlı tarixin əvvəlki dövrlərində uşaq ağıllığında təzahür etdiyindən həqiqət haqqında bulanıq və qarışıq mühakimələrə malik olur. Buradan belə nəticəyə gəlmək olur ki, ağlın təbiəti haqqında əsil həqiqət ağlın ən təkmil forması ilə aşkarlana bilər.

Digər tərəfdən, ağıl təcrübədə özünəyad (özündənkənar) formadan təzahür etdiyindən, həm də mümkün qədər daha yad formadan dəqiq aşkarlanır. Əgər formanın yadlaşdırılması ardıcıllığına baxsaq görərik ki, ağıl əvvəl konkret bədənin, sonra təbiətdəki obyektiv gerçəkliklərin formasından, sonda isə abstrakt və ya süni formalardan təzahür edir. Buradan da, ağlın təbiətinə ən son yadlaşdırmadan - süni formaların təbiətindən aydınlıq gətirmək olar. Süni formalar bütünlükdə **taksisi** əmələ gətirir; buna görə də ağlın təbiətinə taksisin ən son nailiyyətlərindən varmaq lazım gəlir. Bu gün kompyuter və biorobotlar insan ağlının ən son nailiyyətlərindəndir, hansı ki, özündə ağlın mövcud-

luq üsuluna ən yaxın təbiətdə yaradılmışdır. Beləliklə, biorobotlar və kompyuterin təbiəti ağlın təbiətinə açar rolu oynayır. Ağlın təbiətinə bilavasitə ağlın özündən və istənilən təcrübədən (obyektiv gerçəkliklərin təbii vəziyyətindən) yox, ağlın təsir edərək formalaşdırdığı gerçəkliklərin təbiətindən, həmin təsirlərə görə aydınlıq gətirmək olar ki, bu da İ.Kantın dediyi problemi həll etməyin yeganə düzgün yoludur.

.Ağlın istənilən təcrübədən kənar dərk edilməsinin yollarından biri də **sağlam düşüncədir**. Sağlam düşüncə istənilən təcrübədən kənar, amma istənilən təcrübə kimi reallaşmaq mümkünlüyü olan həqiqətlərin aşkarlanma üsuludur. Bu yolla aşkarlanan həqiqətlərdən də ağlın təbiətinə aydınlıq gətirmək olar.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

> *"Predmetin dərk edilməsi üçün zəruridir ki, mən onun mümkünlüyünü (və ya predmetin həqiqəti əsasında, və ya ağlın köməyi ilə a priori təcrübənin sübutlarına görə) sübut edə bilim. Mən özüm-özümə ziddiyyət təşkil etməsəm, yəni əgər mənim fikirlərim (baxmayaraq ki, onun obyektinin bütün mümkünlüklərin məcmusuna uyğun gəlib-gəlmədiyini həll edə bilmərəm) yalnız mümkün fikirlərdirsə, hər şey düşünə bilərəm."*

Beləliklə, sağlam düşüncə ilə məcmu mümkünlük kimi aşkarlanan həqiqətdən ağlın təbiətinə varmaq olar, hansı ki, bu məcmu mümkünlükdən kənarda istənilən həqiqətin mümkünlüyü inkar olunur.

Ağıl maddi şeydən fərqli olaraq özündə eyni zamanda həm mahiyyət, həm də forma olduğundan (və bununla da obyektiv gerçəkliklərə xas mahiyyətlə formanın vəhdətinə malik olmadığından), hissi təfəkkürlə idrak olunmur. Ağlın qanunları ağlın özü-özündən aydınlaşır.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

> *"Ağıl - aprior bilgilərin prinsiplərini vermək qabiliyyətidir. Buna görə də, xalis şərtsiz aprior bilgilərin prinsiplərini saxlayanı ağıl adlandırırıq. Xalis ağlın orqanonu o prinsiplərin məcmusu*

olmalıdır ki, hansı ki onun əsasında bütün xalis aprior bilgiləri əldə etmək və həqiqətən həyata keçirmək mümkün olsun."

Yəni, ağıl hiss üzvlərinə təsir edərək duyğu yaratmadığından hissi təfəkkürlə idrak olunmur. Beləliklə, bununla da varlıqdan (şeydən) fərqlənir. Ağıl özü-özünü strukturlaşması ilə bu cür aprior həqiqətləri meydana çıxarır. Beləliklə də, ağlın təbiətinə həm də ağlın özü-özündə özünün yaratdığı öz bilgilərindən varmaq olar.

Ağlın öz forması olmadığından (forma özündə qanunauyğunluğu əks etdirdiyindən), onun varlıqdan fərqli olaraq əzəli qanunauyğunluqları yoxdur.

Haşiyə: *C.Lokk, "İnsanın ağıllanması haqqında təcrübə": "Ruhda anadangəlmə prinsip yoxdur."*

C.Lokkun fikrindən də görünür ki, ruhun anadangəlmə prinsipi yoxdur. Burada **"anadangəlmə"** ifadəsinə aydınlıq gətirmək lazım gəlir. "Anadangəlmə" ifadəsi bir qayda olaraq, hər hansı bir canlı növün bir fərdindən digər fərdin üstünlük təşkil etməsi ilə əldə etdiyi qanunauyğunluqlar nəzərdə tutulur. Cisimlər yaranış anında yaranışdan prinsiplərə malik olur və cismin formaları bir-birinə üstünlük təşkil etmir; buna görə də forma sürəkli olaraq təkrarlanır. Canlıların yaranışı tədrici və sürəkli proses olduğundan, formalar bir-birinə üstünlük təşkil etmə prinsipinə tabe olduğundan, anadangəlmə prinsiplər formalaşmaya paralel yaranır, yəni canlıların bioloji prinsipləri mərhələ-mərhələ anadan doğulma ilə təzahür edir. Bəzi prinsiplər isə (məs. cinsi yetkinlik və s.) hətta həyatın müəyyən dövründən sonra yaranır.

Ruhun prinsipləri ruhun özündən və onun təkmilləşməsi ilə yaranır. Ruhun özündən və təkmilləşmə ilə yaranma idrak prosesində reallaşır. Beləliklə, ruh anadangəlmir, idrak prosesində formalaşır. Beləliklə, ruhun mövcudluq aktı bədəndən fərqli daxili proses deyildir, xaricidir. Digər tərəfdən eyni bir növün istənilən fərdi eyni bir irsi məlumatlar əsasında, yəni qabaqcadan bəlli prinsiplər əsasında yarandığından özlərində eyni

və ümumi prinsipləri təzahür etdirir. Amma ruhun təkmilləşməsində belə qabaqcadan bəlli prinsiplər olmur. Ruh xarici doğulma ilə yarandığından xarici şərtlərdən asılı olur. Xarici şərtlər isə fərqliliklə xarakterik olduğundan ətraf şərtlərin fərqlilikləri Fiktiv ruhun fərqli prinsiplərlə təzahürünə səbəb olur. Yalnız cəmiyyət həyatında yaşamaqla və digər insanlarla birlikdə təkmilləşdikcə ruh ümumi prinsiplər əldə etməyə başlayır. Ruhun prinsipləri anadangəlmə olmadığından (canlılar anadangəlmə prinsiplərə müdaxilə etmək imkanında deyil) ruh öz prinsiplərinin formalaşmasına müdaxilə edə, onları pisləşdirə və yaxşılaşdıra bilir. Buradan da ruh, özü-özünü özündən yaradan gerçəklik keyfiyyəti alır ki, bu nə cismə, nə də cana xas deyildir.

Ruh təkmilləşən gerçəklik kimi aktuallaşdığından onun şeyi də - ağıl - tədricən yaranır. Elm sübut edir ki, intellekt 18-20 yaşlarında maksimum həddə çatır. Yəni ağıllanma - Fiktiv ruhun fərddə tam reallaşması anadan olandan 20 il ərzində başa çatır.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

> *"Heç bir substansiya başlanğıca malik ola bilməz, bir substansiya digərini yarada bilməz. İki bərabər substansiya ola bilməz."*

B.Spinozanın da fikirlərindən görünür ki, əgər ruh müstəqil mahiyyətdirsə, onun başlanğıcı ola bilməz. Əgər başlanğıcı yoxdursa, onun başlanğıc prinsiplərindən danışmaq da mümkün deyildir. Anadangəlmə prinsiplər alınma prinsiplər olub doğuluşdan anadan doğulana veriləndir. Bədən ruhdan fərqli substansiyaya malik olduğundan anadangəlmə bədəndən ruha heç bir prinsip verilə bilməz. Nəhayət, ruhla bədən iki müxtəlif təzahür forması olduğundan, iki fərqli substansiyaya malikdirlər; fərqli substansiyaya malik olan heç nə eyni prinsiplərlə mövcud ola bilməz. Yəni ruh bədən kimi anadangəlmə prinsiplərə malik ola bilməz.

Ağlın konkret forması olmadığından xüsusilik keyfiyyətinə malik deyildir. Buna görə də, ağlın hər hansı təzahüründən onun konkret mənsubiyyətini təyin edə bilmərik. Ağıl konkret bədənlə şərtləndikdə nisbi olaraq onun konkret bədəndən təzahür etdiyi fiksə etmək olar. Beləliklə, ağlın təbiətinə bütün insanlar üçün eyni olan ağıllılıqdan aydınlıq gətirmək olar. Ən ümumini fəlsəfi şüur öyrəndiyindən ağlın təbiəti haqqında yalnız fəlsəfi təsəvvürlər (spekulyativ təsəvvürlər) yaratmaq mümkündür. Buna paralel, ağlın təsirindən dolayısı ilə də hər hansı təcrübədən yox, bütün təcrübələr üçün ən ümumi olan və təcrübədən kənar mümkünlük kimi aşkarlanan həqiqətdən ağlın təbiətini şərh etmək olar.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

> *"A priori müəyyən edilmiş istənilən dərketmə özü bildirir ki, özünün mütləq zəruriliyini etiraf edilməsini tələb edir: xüsusən, bütün xalis aprior bilgilər belə təyin olmalıdır, hansı ki ölçü kimi çıxış etməli və nəticədə istənilən apodiktiv (fəlsəfi) həqiqiliyin nümunəsi olmalıdır. aprior bilgiləri biz, bu və ya başqa təcrübədən yox, istənilən təcrübədən qeyri-şərtsiz asılı olmayan bilgiləri adlandırırıq. öz növbəsində aprior bilgilərdən xalis o bilgilər adlanır ki, tamamilə heç bir empirik bilgi ilə qarışmır."*

Bu cür bilgilər fəlsəfi kateqoriyalarla aşkarlanan bilgilərdir.

Ağıl xalis həqiqətin artma meyli kimi təzahür etdiyindən, şeydənkənar xalis ağıl kimi əbədidir, amma təzahür etməyəndir, çünki ağlın təzahürü özündəşeydən ikincilidir. Özündəşeydən kənarda ağıl özündə təzahür etməyən mövcudluqdur.

Bəs insan necə ağıllanır? İnsanın ağıllanması iki cürdür: b. Bədəndə ruhun yaranması; c. Bədəndə yaranmış ruhun kamilləşməsi.

Birinci növ ağıllanma ilə bağlı canda ruhun yaranma fəslində şərh vermişdik. Buna görə də burada ağıllanmanın ikinci mənasına - artıq yaranmış ağlın təkmilləşməsini təhlil etməyi üstünlük verəcəyik. İnsanın ağıllanmasının da özü-özlüyündə iki forması var:

a. Təcrübədə ağıllanmaq: Bu növ ağıllanma təcrübə sahəsində obyekt-subyekt əlaqəsində mövcud gerçəkliyin özündə aydınlaşdırdığı həqiqətin hiss üzvlərinə təsir edərək onlardan keçməklə insan ruhunun nizamlanmasında refleksiyası kimi baş verir. Burada, iki tərəf - obyektiv gerçəklik və obyektiv gerçəkliyin təsirlərini qəbul edən bədən - birincili rol oynayır. Obyektiv gerçəklik bədənə təsiri həmin gerçəkliyin özündə həqiqəti nə qədər dəqiq aydınlaşdırması ilə bağlıdır. Bədənin rolu obyektiv gerçəkliyin təsirini nə həcmdə qəbul etməsi ilə şərtlənmişdir. Buradan da, intensivlik meydana çıxır. Məsələn, hər hansı bir predmetin formasını görmə qabiliyyəti olan bir cür, görmə qabiliyyəti zəif olan başqa cür qavrayır, kor isə ümumiyyətlə bundan məhrum olur. Eləcə də sadə tərkibli və formalı gerçəklik daha asan qavranılır, nəinki mürəkkəb və çoxformalı şey. Hiss üzvlərindən keçərək fikrə çevrilmə affektlərdən reallaşır.

b. Təcrübədənkənar ruhun özü-özü ilə əlaqəsindən ağıllanmaq: Təcrübədənkənar insanın ağıllanması - ikincili olaraq ağlından törəyən ideyalarla ağıllanma. Belə ağıllanma düşüncə ilə reallaşır və nəzəriyyə kimi təzahür edir.

b. SİMVOLLAŞDIRMA

İradənin, əsərin və idrakın şərtlərinin vəhdətindən sintez edilən atributu **simvollaşdırma** kimi təyin etmək olar. Simvollaşdırma - Formal ruhun tangensial enerjisinin təzahürlərində olub, daxili mücərrəd forma yaratmağı özündə ifadə edir. Forma hərəkətin saxlanması ilə meydana çıxdığından, simvollar düşüncə fəaliyyətinin saxlanmasını özündə ifadə edir. Məsələn, fizika elmində qüvvənin simvolu kimi “F” qəbul edilmişdir. Qüvvə simvollaşdırıldıqdan sonra qüvvənin özü ilə bağlı mühakimə saxlanılır və sonrakı mühakimə “F”-in iştirakı ilə aparılır, hansı ki, bir fiziki düsturdan başqa fiziki düstura keçməklə qüvvənin digər fiziki parametrlərlə əlaqəsini aşkarlayırıq.

Simvol - mənadan, estetikadan və ölçülükdən ibarət abstrakt formadır. Simvollaşdırma ağlından eşqin şərtlərinin olmaması ilə fərqlənir. Eşqin şərtləri olmadığından simvollarda "nəyəsə" bağlanmaq keyfiyyəti yoxdur. Buna görə də, eyni bir simvol müxtəlif şeylərə aid edilə bilər və ya müxtəlif simvollar eyni bir şeyi ifadə edə bilər.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Simvollaşdırma - düşüncə prosesində ağlıda mücərrəd formalarının yaranmasının şərtlərinin məcmusundan ibarətdir.*

Ağılda forma iki yolla yarana bilər:

- Mövcud varlığın konkret formasının təfəkkürdə refleksiyası nəticəsində yaranan forma - **Obraz**;
- Ağlın özü-özündən yaranan mücərrəd forma - **Simvol**.

Beləliklə, simvol obrazdan başlanğıcın ağılda olması ilə fərqlənir. Obraz simvolla onunla fərqlənir ki, obraz konkret forma ilə şərtləndiyindən qeyri-ixtiyaridir, amma simvol şərtsiz olduğundan ixtiyaridir. Yəni, biz qüvvəni "F" yox, istənilən başqa bir hərflə və ya işarə ilə simvollaşdırsaq mahiyyət dəyişməyəcək, amma obraz dəyişdirilərsə, onda həmin obrazla konkret mövcud varlıq aşkarlana bilməz. Bu keyfiyyətinə görə bir simvol obrazdan fərqli olaraq özündə ən müxtəlif varlıqları ifadə edə bilər.

Simvol sözü bir yerə yığmaq, bütövləşdirmək, birləşdirmək, daha ümumi şəkildə ifadə etmək, ixtisara salma, siyahı, tam şəkil, az sayda sözün mənası və s. kimi mənalara malikdir. Ən müxtəlif - elmi, dini, siyasi, ictimai və s. kimi simvollar mövcuddur. Rene Qenon dini simvolları hiss etmə ilə hissiyyata ehtiyacı olan ali sferaya (metafizikaya) qalxmaq istəyən insanın qeyri-intellektual təbiətinin təzahürü hesab edir. Qeyri-intellektual təbiət özündə xalis zəkanı (əqli) ifadə etdiyindən məhz transendensiya ilə xalis zəkaya (metafizikaya) keçən insan dini simvolları aşkarlaya bilir. Hansı ki, belə simvollaşdırma **vəhy** kimi dərk olunur.

Bizə görə, simvollaşdırma mövcud varlıqda mahiyyətin konkret forma yaratmasına uyğun, əqlin abstrakt forma yaratmaq imkanından ibarətdir. Abstrakt forma - xalis fikirlə vəhdət təşkil edən mücərrəd obrazdır, hansı ki, təbiətdə eyniliyi yoxdur.

Simvollaşdırma ruhi mövcudluğun faktiki varlığının yaradılmasının şərtlərindən ibarətdir.

Simvollaşdırma qabiliyyətinə görə insan bütün digər canlılardan fərqlənir. Simvol müxtəlif idrak obyektlərinin hansısa bir tərəfini ifadə edən forma kimi yarandığından, konkret simvolla onun ifadə etdiyi reallıq arasında birbaşa əlaqə tapmaq çətindir. Simvollaşdırmanın ali forması **söz yaratmaqdan** ibarətdir.

Haşiyə: K.Yunq:

> *"Bizim düşündüyümüz materiya nitq və söz anlayışlarıdır, həmişə xarici tərəfdir və özünün yeganə təyinatına - ötürməyə xidmət edən körpüdür. Dil başlanğıcda mahiyyətinə görə, insan ruhundakı həqiqi hadisələri və ya onların əlamətlərini bildirən işarə və ya simvolların sistemindən başqa bir şey deyildir."*

Beləliklə, K.Yunqun fikirlərinə əlavə etmək olar ki, təbiətdə materiya ayrı-ayrı mövcudluq formalarından təzahür etdiyi kimi, formal ruhun materiyası kimi insan ağlı da fikirlərin **söz-simvol** formalarından təzahürü kimi meydana çıxır. Beləliklə, insan ruhunda obyekt tələb etməyən hərəkətin özündə saxlanmasından söz meydana çıxır. Söz - abstrakt ağıl formasıdır, hansı ki, mahiyyəti - ifadə etdiyi mənadır.

Özü üçün varlıq təyini kimi forma heçliyi ifadə etdiyindən, mənasız söz də xalis heçlikdən ibarətdir. Mövcud varlığın forması onun mahiyyətinə istiqamət verici olduğu kimi, simvollar da ifadə etdiyi fikrə istiqamət verir. Sözlər simvol kimi ağlın "həqiqi hadisələrini və ya onların əlamətlərini" bildirdiyindən, söz yaradıcılığından, yəni dilin təbiətindən ağlında baş verən hadisələri və onların əhəmiyyətini anlamaq olur. Simvollaşdırma kosmosla ruhu bir-biri ilə əlaqələndirən vasitə kimi

çıxış edir. K.Yunqun fikirlərindən görünür ki, söz ötürücü vasitədir. Yəni ətrafdan həqiqətin ruha, ruhdan ətrafa ötürülməsinin vasitəsidir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Simvol - həqiqətin fiktiv ruha və ruhdan başqa fiktiv ruhlara ötürülməsinin şərtlərinin məcmusundan ibarətdir.*

Simvollaşdırma İlahi bacarığı özündə refleksiyası kimi formal ruhun öz yaratdıqlarına forma vermək bacarığını özündə təqdim edir. Simvollaşdırmanı geniş mənada **yaradıcılıq** kimi də təyin etmək olar.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Simvollaşdırma - Kosmosun mövcudluğunun şərtləri əsasında formal ruhun özünə faktiki varlıq (forma) əldə etmək bacarığının şərtlərinin məcmusundan ibarətdir.*

Simvol ağlından törəyən forma olduğundan, insanlar arasında ağlın formalaşması haqqında məlumatı bir-birinə ötürən vasitə kimi çıxış edir.

Haşiyə: T.Hobbs, "Fəlsəfənin əsasları"

> *"Fəlsəfə ilə məşğul olmaqdan ötəri bəzi hissi predmetləri xatırlamaq lazımdır, hansı ki onların köməyi ilə köhnə fikirlər yaddaşda canlana bilər və onları necə ardıcıllıqla təsbit etmək olar. Xatırlamanın bu cür obyektlərini biz nişan (Notae) adlandırırıq."*

T.Hobbsun fikirlərindən yola çıxaraq biz simvolu obrazın hissəsi və ya sürreal obraz; simvollaşdırmanı - obrazın hissələrinin bir yerə yığmaqla obrazı tam təsəvvürə gətirmək, sürreallıqdan reallığa keçid kimi təyin edə bilərik. Buradan da, simvollaşdırma təfəkkürdə tamın obrazının formalaşdırılma şərtlərinin məcmusu kimi meydana çıxır.

Beləliklə, biz simvolu refleksiyanın nəticəsi, onu refleksiya aktından kənara çıxarılan qalıcı məhsul kimi qəbul edə bilərik. Buradan da, həqiqətin aydınlaşmasının aşkarlanması simvolların həcmi və keyfiyyəti ilə ölçülə bilər. Ruh xüsusi mahiyyətə və hissələrə malik olmadığından, yalnız ümumilərdən həqiqəti aşkarlaya bildiyindən (təcrübədə isə yalnız

xüsusilərin və hissələrin təsirinə məruz qaldığından), ruh ümumiləşdirmə qabiliyyəti ilə təcrübədən dərk etdiyi xüsusi və hissəvi həqiqətləri simvollaşdırmaqla - özündə ümumiləşdirməklə qavrayır. Bu cür ümumiləşdirmənin iki tərəfi vardır:

Obyektiv gerçəkliyə aid: Eyni bir həqiqət eyni bir sıradan olan çoxluqda eyni aydınlıqda aydınlaşdığından, kəmiyyətdən aşkarlanan eyni həqiqəti bir ümumi simvolla ifadə etmək olar.

Subyektə aid: Eyni bir həqiqət bütün adamlar tərəfindən eyni dəqiqlikdə aşkarlandıqda onları eyni bir simvolla ifadə etmək olar.

Beləliklə, ümumiləşdirmə təbiətdə və xalis zəkada təkrarlanmanın nəticəsində əldə edilir. Məsələn, acı dadının eyni qaydada təkrar-təkrar duyğusu "acı" sözü ilə simvollaşdırılır. Həqiqətin dərketmə prosesi bütöv həqiqəti aşkarlamaq meylindən ibarət olduğundan, simvollaşdırma ilə ruh bütöv həqiqət haqqında məlumat əldə etməyə cəhd edir, hansı ki, kosmosda heç bir şey özündə bütöv həqiqətə malik deyil.

İki cür simvol ayırd etmək olar:

1. **İlahi simvollar (Təbii simvollar):** Allahın yaratdıqlarında aydınlaşan, vəhdəti ifadə edən simvolları biz ilahi simvollar adlandırırıq. Məsələn, "İnsan" və ya "Cisim" ilahi simvollardır. İdrak prosesində ilahi simvollar, Kosmosun həqiqətlərinin təfəkkürdə idrakı nəticəsində ruhda refleksiya edir və sözlə ifadə olunaraq dil kimi meydana çıxır. Buradan da biz dili sözlərdən təşkil olunmuş **"İlahi simvolların kosmosu"** kimi qəbul edə bilərik. Kainat obrazlı olaraq İlahi dil, mövcud varlıqlar həmin dilin sözlərindən ibarətdir. Buradan da "Kainat Allahın yazısıdır" fikri meydana çıxır. İlahi simvollar ümumi mövcudluq formalarını təşkil edir. Forma mahiyyətdən yarandığından və onunla əksilik təşkil etdiyindən, ilahi simvolları onların əksiliyindən - mahiyyətdən aşkarlamaq olar. Məsələn, "cisim" anlayışı ilə dərk edilən gerçəklik özündə cisim qanunauyğunluqlarına tabe olan bütün mümkünlükləri və reallıqları ifadə edir. Beləliklə,

ilahi simvol anlayışın mənası kimi ruhdan qabaq, təcrübədə mahiyyətdən özü-özündə aydınlaşır. Şeyin mahiyyətindən çıxdığından, ilahi simvollar əbədi və kamildir. İlahi simvollar varlığın yaranışında ona paralel daxildə meydana çıxır, onun mahiyyətinin öz xalis təbiətini (mütləq həqiqəti) təşkil edir və buna görə də, bu simvolların yaranması haqqında mühakimə yürütmək mümkün deyildir. Biz ilahi simvolları varlığın xalis fikrini özündə təqdim edən, ümumi obrazlar kimi təyin edirik.

2. **Bəşəri simvollar (Sintetik simvollar):** İlahi simvolların dərk edilməsində insanın yaratdığı sintetik simvolları biz bəşəri simvollar adlandırırıq. Beləliklə, idrak prosesini bəşəri simvolların ilahi simvolları özündə refleksiya etməsi kimi də qiymətləndirmək olar. Yəni Allah öz yaratdıqlarına onlara müxtəlif forma verməklə simvollaşdırır, insan həmin formalara uyğun öz simvollarını yaradır, sonra formanın mahiyyətlə əlaqəsinə uyğun öz simvollarından onların yaranmasına səbəb olan mahiyyəti aşkarlayır. Beləliklə, dərketmə baş tutur. İnsan simvolları təcrübədən sonra yarandığından ikincilidir, ilahi simvollarla şərtlənmişdir və onlara nisbətən müvəqqəti və qeyri-kamildir. Buna görə də, ruh özünün yaratdığı simvolları sürəkli dəqiqləşdirməklə və onları ilahi simvollarla eyniləşdirməklə həqiqəti dərk edir.

Bəs bəşəri simvollar necə yaranır? Bu sualın cavabını varlıq anlayışının müxtəlif təyinlərə malik olmasında və ruhun varlığı refleksiyası üsulunda tapmaq olar. Yuxarıda Hegelə əsaslanaraq varlıq anlayışının üç fərqli təyini olduğunu (**xalis varlıq, mövcud varlıq** və **özü-üçün-varlıq** təyini) qeyd etmişdik. Həm də ruhi varlığın şərhindən aydın oldu ki, formal ruhun yalnız xalis varlıq təyini vardır, yəni ruh mövcud varlıq və özü-üçün-varlıq təyinindən məhrumdur. Əgər ruh obyektiv varlıqlar kimi eyni təyinli olsaydı, onda ruhun gerçəkliyi refleksiyası cismin cismi refleksiyası kimi qarşılıqlı, daxili və özündə olardı və aksidensivlik

keyfiyyətinə malik olmazdı. Ruhun mövcudluğu dəqiq refleksiya etməsi üçün o varlıqda olan, amma özündə olmayan varlığın digər iki təyinini (mövcud varlıq və özü-üçün-varlıq təyinini) süni yolla yaratmağa məcburdur, çünki refleksiya yalnız bərabərlər əsasında yəqinləşir. Beləliklə, Formal ruhun süni mövcud varlıq və özü-üçün-varlıq təyini yaratması simvollaşma kimi meydana çıxır. Formal ruh bu iki təyini yaratmaqla varlığın mövcudluğundan mövcudluğun varlığına keçir. Ruhi mövcudluğun varlığının faktiki varlığı, özü üçün varlıq təyini xaricdə konkret mövcud varlıqlarda ikincili forma kimi, formal varlığı insanların birliyində - cəmiyyətdədir. Halbuki obyektiv reallığın faktiki varlığı ilə formal varlığı bir və eyni yerdən aşkarlanır. Simvollaşdırma bu iki varlıq arasında körpüdür. Simvollaşdırmanı biz formal ruhun özünüreallaşdırma üsulu kimi də təyin edə bilərik. Mövcud varlıqlar özlərində qalmaqla aktuallaşırlar. Amma Formal Ruh faktuallaşmaq üçün bədəndən çıxır və ondan xaricdə mövcud varlıqlardan özünün faktiki varlığını yaradır. Bu proses, yəni ruhun faktuallaşması C.Franklinin **özünüeksternalizasiya** anlayışına uyğundur.

Haşiyə: Corc Frankl, "Ağlın arxeologiyası"

> *"İnsan - özünüeksternalizasiya etmək qabiliyyətinə malik orqanizmdir. İnsan həm daxildə, həm də xaricdə mövcud ola bilər."*

Özünüeksternalizasiya - ruhun özündə olmayan mövcud varlığa xas iki varlıq təyinini (mövcud varlıq və özü-üçün-varlıq təyinini) özündən (insandan) xaricdə yaratmaq qabiliyyəti kimi təzahür edir. Buna görə də, simvollardan ruhun sintetik mövcud varlığını və özü-üçün-varlıq təyinini aşkarlaya bilərik. Nə qədər ki, ruhun mövcud varlığı və özü-üçün-varlıq təyini ondan kənarda, onun yaratdığı simvollardan aşkarlanır, o özündənkənarşey kimi təyinə malik olur. Beləliklə, təcrübə sahəsində subyekt-obyekt əlaqəsində simvolların yaranması, obyektiv varlığın təyinlərinin ruhi varlığın təyinləri ilə eyniyyət təşkil etməməsi ilə

bağlıdır. Yəni, ruh gerçək varlığı refleksiya edərkən, onun özündə olmayan varlığının iki təyinini simvollar şəklində özündə yaradır və bununla mövcudluqla sintetik eyniyyət təşkil edərək, onu nizamına uyğun özünü nizamlayır. Həndəsi formalar ruhun mövcud varlığın özü-üçün-varlıq təyinində özündə özü-üçün-varlıq təyini əldə etməsini təqdim edir.

Buradan da aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Simvol - mövcud varlıqla sintetik varlığın eyniliyinin şərtlərinin məcmusundan ibarətdir.*

Bəs simvollar hansı ardıcıllıqla və necə yaranır? Simvollaşdırma mövcud varlığın təyinlərinə uyğun həyata keçirilir.

Varlığın mövcudluğunun "mövcud varlıq" təyininin simvollaşdırılması: Təcrübə sahəsində obyektiv gerçəklikdə ruhun refleksiya yolu ilə aşkarlaya biləcəyi varlığın birinci təyini "mövcud varlıq" təyinidir. Mövcud varlıq təcrübədən hissi qavranılan təyindir. Hegelin mövcud varlıq haqqındakı şərhindən göründüyü kimi, heç nə ilə eynilik təşkil edən varlıq və varlıqla eynilik təşkil edən heçlik itən məqamların mahiyyətidir; özünün daxili ziddiyyətinə görə (heçliklə varlığın ziddiyyəti) təşəkkül vəhdətə gəlir və hər iki moment çıxarılır. Və bunun nəticəsi olaraq mövcud varlıq təqdim olunur. Ruhun özünün mövcud varlığı olmadığından, varlığın mövcud varlıq təyininin refleksiyası bununla əksilik təşkil edir. Yəni ruh vəhdətdə ona təqdim edilən mövcud varlığı refleksiya edərkən, əvvəlcə onun vəhdətdə itən daxili ziddiyyətini aşkarlayır, yəni ziddiyyətlərin tərəflərini yenidən tapır (özündə bərpa edir), sonra həmin ziddiyyətin tərəflərini - varlığı və varlıqla eyniyyət təşkil edən heçliyi bir-birindən ayırır və daha sonra heçliyə özündən varlıq keyfiyyəti verərək irreal varlıq-simvol yaradır, sonra onu özündənkənar varlıq kimi özündəşey varlıqla eyniləşdirir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Simvollaşdırma - formal ruhun konkreti təfəkkürdə mücərrədləşdirilməsinin şərtlərinin məcmusundan ibarətdir.*

Simvollaşdırma mistik şüurun əsas xüsusiyyətlərindəndir. Yəni ruh varlığı simvollaşdırarkən, onun varlığın hiss üzvlərinə təsir edən tərəfi ilə eyniyyət təşkil edən, amma həm də onunla eyni zamanda ziddiyyət təşkil etdiyinə görə hiss üzvlərinə təsir etməyən tərəfini, özü-özlüyündə simvol formasında, analoji hissi təsir etməyən gerçəklik kimi abstrakt formada yaradır. Sonra həmin daxili abstrakt obrazı konkret predmetin formasına köçürməklə, xaricdə varlıqla vəhdət təşkil edən formaya salır ki, buradan da xarici simvolik əşyalar yaranır. Bu cür simvol varlığın mahiyyətinin ibtidai aşkarlanma formalarını təşkil edir. İbtidai simvollaşdırma mövcud varlığın mahiyyətinə irreal obrazın geyindirilməsini özündə təqdim edir. Beləliklə, simvolun forması ikiqatdır: birincisi, mövcud varlığın öz real forması; ikincisi, onun mahiyyətinin forma kimi təsəvvür edilməsi ilə yaradılan irreal forma. Simvol - həm də realla irreal arasında əlaqə vasitəsidir.

Haşiyə: Corc Frankl, "Ağlın arxeologiyası"

> *"İnsan özünün hərəkət orqanlarının istifadəsindən aldığı emosional təcrübəni xarici obyektlərə köçürə bilər və daşda potensial yumruğu və ya dırnağı görə bilər. Belə görməni konsepsiyanın obyektivizasiyası adlandırmaq olar. Platon kimi deyilsəydi, daşda alətin ideyası, onun mahiyyəti gizlənir, hansı ki fəhlə və ya heykəltaraş ondan çıxarır."*

Bu fikri belə də ifadə etmək olar. Fəhlə və ya heykəltaraş daşdan onun mahiyyətinin irreal formasını çıxararaq, onun real formasına geyindirir; nəticədə yaradıcılıq nümunələri (hansı ki, özündə simvollaşdırma kimi mövcuddur) yaranır. Buradan məlum olur ki, Platonun dediyi kimi daşda alətin ideyası saxlanmır, əksinə alətin ideyası ağılda saxlanır; ağıl özündən həmin ideyaya forma-simvol yaradır və sonra onu daşa köçürür, nəticədə təbii mövcud varlıq olan daş xarici obyektiv simvola çevrilir. Əgər Platonun dediyi kimi əgər daşda alətin ideyası gizlənsəydi, onda alət daşın özü tərəfindən avtonom yaradılmalı idi.

Özü-üçün varlıq təyininin simvollaşdırılması: Özü-üçün-varlıq təyini heçliyi təqdim edir və aksidensiv keyfiyyət kimi ən ümumi formanı özündə təqdim edir. Özü-üçün-varlıq təyini həndəsi formalardan ibarətdir, hansı ki, hər bir həndəsi forma istənilən varlıq formasında çıxarıla və ya ona verilə bilər. Həndəsi forma mahiyyəti olmayan forma kimi ixtiyari mövcudluğu simvollaşdırır. Məsələn, dairə və ya kub forması. Nə çevrənin, nə kubun özündə heç bir konkret mahiyyət yoxdur. Amma "kub şəklində daş" və ya "dairə formasında günəş" sözlərində həm kubun, həm də dairənin mahiyyəti simvollaşdırdıqları daşın və günəşin mahiyyətini özündə təqdim edir.

Varlığın "özündəşey" təyininin simvollaşdırılması: Mövcud varlığı simvollaşdırmasını başa çatdıran ruh eyni varlığın "özündəşey" təyinini refleksiya edərək, onun nizamı əsasında özünü nizamlamağa cəhd edir. Hegel "özündəşey" təyinini özü-özü ilə münasibətdə bilavasitəlik kimi, özü-özü ilə inkara münasibətdə özündə mahiyyət, vahid, bir olan (yəni özü-özlüyündə fərqliliyi olmayan) və başqasını özündə istisna edən kimi dəyərləndirir. Beləliklə, varlığın "özündəşey" təyinini refleksiya edərkən ruh varlığı vəhdətdə mahiyyətlə təzahürün birlikdə bir şeydə və bir-biri ilə əlaqəli götürür. Və onda onun inkarının istisna edilməsi əsasında, onda hər hansı bir qeyri-varlıq təbiətinin olmamasını anlayır. Buradan da **elmi simvollaşdırma** meydana çıxır. Elmi simvollar ibtidai və empirik simvollardan fərqli olaraq özlərində eyni zamanda özündəşeyin həm mahiyyətini, həm də onun təzahürünü təqdim edir. Elmi simvollar mahiyyəti və təzahürləri ayrı-ayrı simvollar kimi yaradır, varlıqdan aşkarladığı heçliyi özündəşey təyinində aşkarlamadığına görə, heçliyi abstraksiyadan real formaya köçürmədən imtina edir. Yəni elmi simvollar xalis abstraksiya kimi yaradılır. Elmi simvollar obyektiv gerçəklikləri "özündə başqasını istisna" prinsipinə görə təsnifləşdirir, onların fərdi və qrup xarakteristikalarını dəqiqləşdirir və bununla da təbiətin

xüsusi nizamını (bir, vahid, özündəmahiyyət olanın nizamından) özünü nizamlayır, yəni elmi qanunauyğunluqları aşkarlayır.

Varlığın xalis varlıq təyinindən simvollaşdırılması: Hegel xalis varlıq təyininə başlanğıcı təyin etmək, xalis fikir olmaq, qeyri-müəyyən sadə bilavasitəliyi aid edir. Ruh varlığın digər iki təyinindən fərqli olaraq özü xalis varlıq təyininə malikdir. Bu o deməkdir ki, ruhun xalis varlığın refleksiyasından çıxarılan simvollar bu təyinlə eyniliyə malikdir. Yəni ruh varlığın xüsusi varlığını aşkarlamağa cəhd edərkən, hər şeydən öncə başlanğıc haqqında simvollar yaradır. Bu simvollar yalnız xalis fikir şəklində meydana çıxır və qeyri-müəyyən sadə bilavasitəlik keyfiyyətinə malik olur; yəni bu cür simvollar hər hansı bir vasitə ilə yox, bilavasitə düşüncədə və düşüncənin özündən yaranır. Bunun kənara çıxarılması isə **doxa (rəy)** kimi təzahür edir. Beləliklə eyni bir varlığın xalis varlıq təyinini refleksiya edən formal ruh öz xalis varlığı kimi təbiətini nizamlayan fikir şəklində simvollar yaradır. Bu simvollar müxtəlif ideyalardan ibarət olur ki, hər bir belə ideya varlığın həqiqətini təşkil edən ideya ilə eyniyyət təşkil etdikdə varlıq fəlsəfi dərk edilir.

Bəs ruh varlıq sıralarını hansı ardıcıllıqla simvollaşdırır? Mövcud varlıqlardan ruhla ilkin və bilavasitə təmasda olan ruhun zəbt etdiyi **bədəndir**. Belə ki, yuxarıda şəhrimizdə göstərdik ki, ruh iki cinsi hüceyrənin birləşərək yeni bədənə başlanğıc verdiyi andan onunla əlaqələnir və ana bətnindən azad olanadək ruhun təcrübədə kontaktda olduğu yeganə mövcud varlıq insan bədəni olur. Buradan da deyə bilərik ki, ilk simvol bədənin formal ruhda refleksiyası ilə bağlı yaranmışdır. Yalnız bundan sonra bədənin davamı olan ətraf və həmin ətrafdakı predmetlər simvollaşdırılır.

Bəs simvollar formasına görə, mövcud varlığın təzahürlərinin simvollaşdırılmasına görə hansı ardıcıllıqla yaranır?

Haşiyə: *C.Frankl, "Ağlın arxeologiyası": "Biz həmişə xarici aləmdən siqnallar alırıq və onları şərh etmək tələbatı hiss edirik."*

C.Franklinin bu fikrinə əlavə etmək lazım gəlir ki, biz ətrafdan hansı ardıcıllıqda və intensivlikdə siqnalları qəbul ediriksə, o ardıcıllıqda və dəqiqlikdə həmin siqnalları interpretasiya etməyə cəhd edirik. Gerçəkliyin mövcudluq üsulu hərəkət olduğundan, mövcud varlığın da ilk refleksiya edən keyfiyyəti onun hərəkəti olmalıdır. Heyvanlar aləmində də heyvanlar prioritet olaraq hərəkətə görə obyektiv gerçəkliyə cavab verirlər. Xarici predmetin hərəkətinin dayanması ilə heyvanın həmin predmetə cavabı da dayanır. Beləliklə, deyə bilərik ki, refleksiya prosesində ruhun yaratdığı ilk simvollar bədən hərəkətləri ilə bağlı olmuşdur. Sonradan eyni prinsiplə obyektiv gerçəkliklərin (bədəndən xaricdəki predmetlərin) hərəkətlərinə görə simvollaşdırılmışdır. Refleksiya refleksiyaolunanın refleksiyaedəndə əks etməsi kimi baş verdiyindən, ilk hərəkətlə bağlı yaranan simvollar da **hərəki simvollar** olmuşdur. Yəni ruh mövcud varlığın hərəkətini bədənin hərəkəti ilə dolayısı ilə simvollaşdırır. Mövcud varlıq görünüşdən dərk edildiyindən mövcud varlıqla bağlı yaranan simvollar (hərəki simvollar) - **vizual simvollar** olmuşdur.

Haşiyə: Corc Frankl, "Ağlın arxeologiyası"

> *"Daşda və ya budaqda insan orqanının hərəkəti, 'görmək' qabiliyyəti, periferik orqanların hissləri və impulslarını xarici obyektə proyeksiyalaşdırma qabiliyyətini özündə subyektiv hisslərin xarici obyektlərə proyeksiyalaşdırılması bu obyektləri subyektivliklə doldurur: onları canlı, impuls və duyğulara malik şey kimi nəzərdə tutur. alət yaradarkən insan material obyektdən 'orqan yaradır' və ona həyat verir. Proyeksiyalaşdırma və eksternalizasiya prosesləri hərəkət orqanlarının obrazları və hissləri ilə məhdudlaşmır, eyni dərəcədə daha dərin emosiya və psixoloji proseslərlə bağlı ola bilər. simvollar özlərində hər iki konsepsiyanı, həmçinin vizual forma alan oyanma və hissləri təqdim edir. Hər bir ardıcıl yaşanan emosiya və hər bir ideya öz vizual təsəvvürlərini simvollarda tapır. İnsan cəhd edir ki, bu simvolik obrazları rəsm, heykəltaraşlıq və arxitektura təqdim etsin*

və bundan başqa o cəhd edir ki, onların təcəssümünü xarici təbii obyektlərdə tapsın."

Beləliklə, ruhun ilkin simvolları yaratmasında hərəkət və görmə orqanları iştirak etmişdir və bu dövrdə yaranan istənilən simvolun iki əsas xarakteristikası onların hərəki ifadə olunması və görməyə hesablanmasından ibarətdir. Ruh hərəki orqanların hissiyyatı əsasında özündə yaranan təəssüratı kənara, xarici predmetin formasına köçürməklə (proyeksiyalaşdırmaqla) özündənkənar bədən üzvlərini və orqanları - əmək alətləri, silahlar və məişət avadanlıqları kimi yaradır. Beləliklə, ruhun özünüeksternalizasiyası ruhun bir özünəyad forma kimi bədəndən istifadəsini, bədən orqanlarının obrazlarını xarici əşyalara köçürməklə onlardan məqsədəyönlü istifadə etmək imkanı qazandırır ki, bunun da məcmusu mədəniyyəti təşkil edir.

Haşiyə: Corc Frankl, "Ağlın arxeologiyası"

"Özünün bioloji tələbatlarını ödəməsi istisna olmaqla insan əşyalar yox, simvollar dünyasında yaşayır. Tamamilə aydındır ki, insan - mədəniyyətyaradan, simvollara istiqamətlənən, simvollardan istifadə edən və simvollarla heyvanları ram edəndir. İnsan ətraf mühiti əmək alətlərinin köməyi ilə özünə tabe etdirməyi, öz tələbatını şifahi, səs alətləri ilə (səs obyektləri) bilavasitə ifadə etməyi öyrənmişdir və sonra onları təkmilləşdirərək nitq səviyyəsinə çatdırmışdır. Əmək alətləri hazırlanmadan, yəni eksternalizasiya olmadan dil heç vaxt yaranmazdı."

C.Franklinin şərhindən görünür ki, simvollaşdırma fiktiv ruhun özünə mövcud varlıq əldə etmə qabiliyyətidir. İnsan bədəninin simvollaşdırılması nəticəsində yaradılan alətlər sonradan ətraf gerçəkliklərin simvollaşdırılmasına imkan verən ikincili bədən orqanları kimi istifadə olunur.

Simvollaşdırmanın növbəti dəsti mövcud varlığın refleksiyası əsasında yaradılır. Burada, istənilən xarici predmetdən şüalanan siqnallardan səs prioritet təsirə malik olduğundan, simvollaşdırmanın yeni

dəsti **səs simvolları** kimi yaranır. Əslində səs də özünün dərin qatlarında dilin, dodağın və boğazın (səs orqanlarının) hərəkət hissiyyatını ifadə edir. Səs orqanları hərəki orqanlardan fərqli olaraq, daha incə hərəkət hissiyyatı daşıyır, buna görə də səs orqanları ilə yaradılan simvollarda səs mühüm elementə çevrilir. Səs simvolları inkişaf edərək dilin və musiqinin əsasında durur. Beləliklə, nitq bir tərəfdən hərəki, digər tərəfdən səs siqnallarının simvollaşdırılması ilə formalaşır.

Nəhayət, ruh öz daxili psixoloji vəziyyətini simvollaşdırmaqla simvollaşdırmanın sonuna çatır.

Haşiyə: C.Frankl, "Ağlın arxeologiyası"

> *"Aqressiv libidonun artıqlığı aqressiv fantaziyalarda sublimasiya olunur, hansı ki, bilavasitə silahın və əmək alətlərinin yaradılmasına eksternalizasiya olmuşdur. İnsanın dünyası ən müxtəlif emosiyaları (müsbət, eləcə də mənfi emosiyaları, qorxu yaradan həm də sakitləşdirən) simvollar tərəfindən məskunlaşdırılmışdır. İnsan özünü xarici aləmə proyeksiya etdiyi ruhlardan tanımışdır və özünün onlarla əlaqəsini hiss edərək təhlükəsizlik hissi və ümumi tama daxilolmaqlıq keçirmişdir."*

Göründüyü kimi, Formal ruhun simvollaşdırmasında təkcə bədənin forması yox, həm də həyat enerjisi (**libido**) iştirak edir. Xüsusən silah və əmək alətləri kimi (yəni dağıdıcılığa xidmət edən hər şeyin) simvollaşdırılmasında aqressiv libidonun sərf edilməsi mühüm rol oynamışdır. Emosiyalarla ekspressiya olunan ruh, bədəndən kənar "ölü ruhi kristallar" kimi təbiətə mədəniyyətin (simvollardan ibarət ikinci kosmosun, taksisin) proyeksiya edilməsinə gətirib çıxarmışdır ki, bu da ruhla təbiət arasında sədd təşkil edərək mövcud varlıqla özündə ziddiyyət saxlayan və onunla mübarizə aparan formal ruhu ondan ayırmışdır. Məhz buna görə, mədəniyyətin inkişafına uyğun insan təbiət qarşısında qorxudan azad olmuş və bu qorxudan azad olmaq dərəcəsində eksternalizasiya etmişdir. Başqa sözlə, mədəni mühitdə formal ruhun təzahürləri daha qabarıq, aydın və dəqiq aşkarlanmağa başlamışdır. Libidonun bu formada

eksternalizasiyasına uyğun **mortidonun** da eksternalizasiyası özünəməxsus yaradıcılığın - simvollaşdırmanın meydana çıxmasına səbəb olmuşdur.

Daxili vəziyyətin simvollaşdırılması (özünüdərk) bir tərəfdən özünü özünün yaratdıqlarından vasitəli, digər tərəfdən vasitəsiz daxili şüuri vəziyyətlə reallaşır. Birincisi mədəniyyətin insana təsiri kimi, ikincisi insanın insana (özünün özünə və başqalarına) təsiri kimi meydana çıxır.

Haşiyə: C.Frankl, "Ağlın arxeologiyası"

> *"Bizim qavrayışlarla əks olunan reallıq mif və simvollarla dolmuşdur, hansı ki bizi mədəniyyət daşıyıcılarına və ya mürəkkəb cəmiyyətlərdə olduğu kimi, bütün subkulturaların subyektlərinə bölmüşdür. yalnız mədəniyyət özünü hər bir individdə yenidən yaratmır, öz növbəsində hər bir individ öz mədəniyyətini yaradır."*

İnsanın özü-özünü simvollaşdırması bir tərəfdən mənəvi dəyərləri, digər tərəfdən təfəkkürün ən ümumi qanunauyğunluqlarının aşkarlanmasını üzə çıxarır. Təfəkkürün özü-özünü simvollaşdırması refleksiv müdrikliyi təzahür etdirir.

Haşiyə: Pol Kurts, "O dünyaya şirnikləndirmə"

> *"Müxtəlif mühakimələrin artan çoxluğunda həqiqiliyi biz necə qiymətləndirə bilərik? Burada fəlsəfə mühüm rol oynayır, belə ki, o elmin inkişafı üçün tənqidi idrakın, refleksiv müdrikliyin və elmi şübhənin həyat qabiliyyətini saxlamağa kömək edə bilər."*

Refleksiv müdriklik simvollaşdırma ilə meydana çıxır. Belə ki, getdikcə daha çox müxtəlif gerçəkliyi özündə ifadə edən ümumi simvollar yaranır, hansı ki, müxtəlif mühakimələrin artan çoxluğunu özündə təklik kimi ifadə edir. Bu proses formal ruhun daxili çoxluğundan özünün xarici təkliyinə keçməsinə uyğun baş verir.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Simvollaşdırma - formal ruhun öz daxili çoxluğundan, xarici təkliyinə keçməsinin şərtlərinin məcmusundan ibarətdir.*

c. İCTİMAİ MÜNASİBƏTLƏR

Eşqin və iradənin vəhdətindən sintez edilən atributu biz **İctimai münasibət** kimi təyin edirik. Burada:

- **Eşq** - fərdlərarası bağlılığın şərtlərini;
- **İradə** - seçimin şərtlərini, bağlılığın ölçülənməsini və istiqamətini müəyyən edir.

İctimai münasibətlər formal ruhun tangensial enerji formasının təzahürüdür. Buna görə də, ictimai münasibətlərdə ruhun radial enerjisinin (ruhun "maddəsinin") təzahürləri iştirak etmir. Beləliklə, ictimai münasibət - seçimə əsaslanan, istiqamətli, ölçülü bağlılıqdan ibarət olur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *İctimai münasibətlər - iradənin şərtlərinə uyğun, fiktiv ruhun bir-birinə bağlanmasının şərtlərinin məcmusundan ibarətdir.*

İctimai münasibət - aidiyyətin aid olana aidliyini bildirir. Hər bir varlıq vəhdətdə mövcudluğunu özü-özü ilə eynilik təşkil etməklə təsdiq üsulu ilə (predikatlarla) və eyni zamanda özündə başqasını inkar etməklə inkar üsulu ilə (predikabiliyalarla) əbədi saxlamağa cəhd edir. Varlığın özündə özünü təsdiqi və özündə başqasını inkarı **münasibət** kimi meydana çıxır. Beləliklə, münasibət varlığın təzahürünün iki başlanğıc xarakteristikasının vəhdətini özündə təqdim edir.

- **Təsdiq** - özündə həqiqətin artma meylinin;
- **İnkar** - azalma meylinin predikatıdır.

Həqiqətin artma meyli mahiyyətdən, azalma meyli formadan təzahür edir. Buna görə də, münasibət emanativ keyfiyyət kimi meydana çıxır. Yəni, forma nə qədər kamilləşirsə onun mahiyyəti bir o qədər pisləşir, yəni nisbiləşir; belə varlıq bir o qədər formaya görə təyin olunur və varlıq nə qədər formadan təyin olunursa, onda aydınlaşan həqiqət bir o qədər inkarla təyin olunur. Əksinə, mahiyyət nə qədər mütləqə yaxındırsa forma bir o qədər qeyri-təkmil olur və buna görə də, belə mövcudluğun həqiqəti mahiyyətdən aşkarlanır, yəni daha çox təsdiqlə təyin olunur.

Təsdiqlə inkar bir-biri ilə əksilik təşkil etdiyindən, həm də bir-biri ilə vəhdətdədir. İstənilən həqiqət özündə təsdiqlə inkarın vəhdətinə aydınlaşır. Həqiqətin yəqin aydınlaşması - vasitəsiz, yəni formasız aydınlaşmadır, hansı ki, başlanğıc aydınlaşma üçün xarakterik olduğundan istənilən varlığın başlanğıc təyinindən də həqiqət məhz yəqin aydınlaşır. Başqa sözlə, təsdiq və inkarın təzahürü kimi aşkarlanan münasibət xalis mövcudluqdan təzahür edir. Buna görə də, münasibət xalis varlığın təzahürüdür. Mövcud varlıqda təsdiqlə inkar iki müxtəlif yolla təzahür edir: təsdiq (həqiqətin artma meyli) mahiyyətdə, inkar (həqiqətin azalma meyli) formadan aydınlaşır. Ona görə də, təsdiqlə inkarın vəhdəti pozulduğundan mövcud varlıqda münasibət meydana çıxmır. "Özündəşey" özü-özü ilə münasibət kimi son təkmil forma olduğundan, başqalarını özündə istisna ilə təyin olunur. Buna görə də daha çox inkarla aşkarlanır. Özündəşey özündə təsdiq keyfiyyəti daşımır, buna görə də özündəşeydə də münasibət meydana çıxmır.

Beləliklə, münasibət varlığın yalnız bir təyinində - xalis varlıqdan aydınlaşa və buna müvafiq aşkarlana bilər. Real varlıqların xalis mövcudluğu təcrübə sahəsində bilavasitə aydınlaşmadığından və mövcud varlıq özündəşey təyini ilə ikiqat pərdələndiyindən (gizləndiyindən), real varlıqlarda münasibət gizlidir. Yəni real varlıqların gizli münasibəti daxili, xaricə çıxarılmayan, yəni aydınlaşmayan və buna görə də xaricdən aşkarlanmayandır. Buna görə də, real varlıqların bir-birinə və ruha münasibəti yoxdur. Bundan fərqli olaraq, ruhun yalnız xalis varlıq təyini vardır. Onun mövcud varlığı sintetrikdir, yəni mahiyyəti özünün, forması özününküləşdirdiyidir. "Özündəşeyi" xalis abstraksiyadır, yəni yalnız təfəkkürdən aşkarlanandır. Yəni ruhun həqiqətinin təsdiqi özündən, ruhun özündə başqalarını inkarı dolayısı ilə bədəndəndir. Ruhun bu cür ikili mövcudluq təyini (həm özündən, həm də özündənkənardan təyini) inkarla təsdiqin **məsafə** xarakteristikasını üzə çıxarır. Məsafədən münasibətin yaranması ruhun münasibətinin xaricə çıxmasına, təzahür

etməsinə və ruhdan kənarda aşkarlanmasına səbəb olur. Yəni real varlıqlardan fərqli olaraq ruhun münasibəti bədəndən aydınlaşan və ruhdan aşkarlanandır.

Ruh varlığın nizamına uyğun nizamlanmaq üçün ona istiqamətlənir və özünün nizamlığını varlığın nizamlılığı ilə özü-özündə nümayiş etdirir ki, biz bunu **aşkar münasibət** adlandırırıq. Yəni, münasibət ruhun həqiqət və ya yalan əsasında nizamlılığının təzahürüdür.

Ruhun varlığa və özünə münasibəti (aşkar münasibət) bir-birindən fərqli olaraq iki cür təzahür edir:

1. **Fərdi münasibət:** Fiktiv ruhun özündə özünü təsdiqi və özündə varlığı, o cümlədən əlaqələndiyi bədəni inkarı fərdi münasibət kimi təzahür edir. Burada ruhun xarici varlığa münasibəti xarici, bədənə münasibəti daxilidir. Nəticədə ruhun konkret varlığa münasibəti başqası tərəfindən aşkarlanandır, ruhun bədənə münasibəti daxildən yalnız fərd tərəfindən aşkarlanandır. Fərdi münasibət birtərəfli, xüsusi və orijinaldır.
2. **İctimai münasibət:** Fiktiv ruhun fiktiv ruha münasibətində hər bir ruh öz növbəsində digərinin ona münasibətini xaricə çıxarır. Xaricə çıxarılan münasibətdən onun hansı fiktiv ruha xas olduğunu dəqiqləşdirmək qeyri-mümkündür, belə münasibətlər eyni zamanda hər iki ruha aid olduğundan ictimailik xarakteristikasına malik olur.

Beləliklə, cisimlər başqa varlıqların xarici təsirlərinə əks-təsir göstərməklə, canlılar cisimlərin və digər canlıların (o cümlədən özünün daxili təsirlərinə) cavab verməklə, ruh isə cismin və canın təsirlərinə, o cümlədən başqa fərdi fiktiv ruhların təsirinə münasibət bildirməklə mövcud olurlar. Ruhun münasibəti həm də **deklarativdir**. Yəni ruhi münasibət o zaman öz həqiqi xarakteristikasına malik olur ki, bir tərəfdən xarici təsirlərlə şərtlənsin və həmin şərtlərin yaratdığı ruhi oyanma xaricə çıxsın (eksternalizasiya olunsun) və həm də deklarasiya olunsun, yəni başqalarına bildirilsin, elan olunsun.

İctimai münasibətlər fiktiv ruhların qarşılıqlı təsirində onların bir-biri ilə bağlanmasının əlaqələnməsini təmin etməklə, onlarda **totallıq** xarakteristikası yaradır, hansı ki, bu cür totallıq almaqla ruh öz xalis mahiyyətini əldə edir, yəni özündə özünün mütləq həqiqətini aydınlaşdırır. Beləliklə, formal ruhun totallaşması hər bir fiktiv ruhun başqa ruhların təsirindən özü-özündə fiktivlik xarakteristikasından azad olmasını, yəni özündə-xarici formal ruh, Vahid İnsanlıq Ruhu kimi təzahür etməsi prosesini təşkil edir. Real varlıqlardan fərqli olaraq, ruhun özündəşey təyini (yəni tək kimi, vahid kimi olmaq imkanı) olmadığından və mövcud varlıq təyini (özündə heçliklə eynilik təşkil edən varlığı) olmadığından, qarşılıqlı təsirdə fiktiv ruhlar bir-birinə keçir (empatiya edir) və yaranan empatik ruh sonradan hər iki fiktiv ruh tərəfindən avtorefleksiya olunur. Beləliklə, fərdlər birləşərək öz aralarında ictimai münasibət yaradır, sonra həmin münasibətlər fərdlərə təsir edərək onlarda ruhi kamilləşməyə səbəb olur. Bu proses İnsanlıq ruhunun son təkmil variantı meydana çıxanadək davam edir.

Hegel varlıqlar arasında üç cür münasibət aşkarlayır: eynilik, fərqlilik və əsas.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Mahiyyət özü-özündə görünüşü işıqlandırır və ya xalis refleksiyadır; beləliklə o yalnız özü ilə münasibətdir, amma bilavasitə münasibət kimi yox, refleksiya etmiş münasibətdir, bu özü ilə eynilikdir."*

Varlıqlarda aydınlaşan həqiqət həm mahiyyət, həm də forma kimi aydınlaşdığından, mahiyyət formada refleksiya edir və bu refleksiyanı Hegel eynilik kimi şərh edir. Başqa sözlə, konkret mahiyyətin konkret formada əlaqələnmiş təzahürü özü-özünə refleksiv münasibət kimi eynilikdir. Ruhda aydınlaşan həqiqət yalnız xalis mahiyyət kimi aydınlaşır və ruhun forması özündənkənar olub, konkret bədənin özününküləşdirdiyi formadan ibarətdir. Artıq ruhun mahiyyətinin forma-

da refleksiyası, forma yad olduğundan, özü-özü ilə münasibət kimi meydana çıxmır. Ruhun özü "özündənkənar" olduğundan, formal ruh bilavasitə özü-özü ilə (bədənlə şərtlənmiş fiktiv ruhla) eynilik təşkil etmir. Ruhun öz forması olmadığından özündən görünüş işıqlandırmır. Beləliklə, formal ruh özü-özündə xalis fərqlilikdir. Yəni, məkan-zaman şərtinin elə bir məqamı yoxdur ki, ruh həmin məqamda özü-özü ilə eyniyyət təşkil etsin. Ruh xalis fərqlilik olduğundan, özü-özündən təyin olunmur. Formal Ruh yalnız bir fiktiv ruhun digər fiktiv ruha münasibətindən (ictimai münasibətlərdən) və ya ruhi kristallardan təyin olunur. Ruh özü müstəqil mövcud olmadığından (yəni özündəşey və mövcud varlıq təyinindən məhrum olduğundan), o varlığın (bədənin) mövcud varlığından və özündəşey təyinindən dolayısı ilə mövcud olur. Buradan da ruhun konkret situasiyadan asılı olaraq münasibəti meydana çıxır ki, həmin münasibət ruhun şərtləndiyi bədənin və ətrafın təsirlərini özündə təqdim edir; buna görə də fiktiv ruhun münasibəti xüsusi və orijinaldır.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Mahiyyət özü-özündə xalis eynilik və görünüşdür. Necə ki o özünə münasibətdə inkardır, nəticədə özü-özünü özündən itələyir, nəticədə özündə əhəmiyyətli fərqlilik təyinini daşıyır. Fərqlilik: 1. Bilavasitə fərqlilik, fərqli olmaq; başqa sözlə, hər bir fərqlinin özü-özündə özünün olduğu fərqlilik, özünün başqalarına münasibətinə laqeyddir. Fərqlilərin öz fərqliliklərinə laqeyd münasibəti nəticəsində sonuncu onlardan kənarda olur, necə üçüncü olur, müqayisə aparan. Bu xarici fərqlilik - əlaqələndirilmiş eynilik kimi uyğunluq, onlarla eynilik təşkil etməyən kimi uyğun olmamaqdır."*

Varlığın mahiyyəti onun forması ilə qarşılıqlı inkar vəziyyətindədir. Buradan da, ruhun öz xüsusi forması olmadığından onda özü-özünə inkar vəziyyəti və özünü özündən itələmək keyfiyyəti meydana çıxmır. Ruhun forması olmadığından ruh hər hansı özü-özünü inkardan məhrumdur. Ruh bədənin formasını özününküləşdirdiyindən, ruhi mahiyyət bədəni inkar edir və onu özündən itələyir. Nəticədə insanda daxili fərqlilik -

bədən və daxili mən meydana çıxır. Nəticədə, ruhun bədənə və başqalarına münasibətində laqeydlik itir, onun yerini onunla əksilik təşkil edən **maraqlılıq** tutur. Beləliklə, ictimai münasibətin xüsusi xarakteristikası maraqlılıq təyini kimi meydana çıxır.

Hegelin fərqliliklə bağlı fikirlərindən görünür ki, fərqliliklər iki cürdür:

1. **Birinci forma fərqlilik:** Özündə başqasını inkar və təsdiq etmənin nəticəsində meydana çıxan fərqlilik. Bu cür fərqlilik müxtəlif mahiyyətin eyni formalarda təzahüründə meydana çıxır ki, bu da varlığın **oxşarlıq** təyinini təşkil edir. Başqa sözlə, oxşarlıq - fərqli mahiyyətlərin eyni formalarda təzahürünün təyinidir. İnsanda əksinə, eyni bir ruhi mahiyyət ən müxtəlif bədənlərdə (formalarda) təzahür edir, buna paralel hər bir fərddə ruhla bədən eyni bir formada meydana çıxdığından, insan özü-özü ilə oxşarlıq, başqaları ilə fərqlilik keyfiyyətinə malikdir.
2. **İkinci forma fərqlilik:** Özündə başqasını yalnız inkar etməklə meydana çıxan fərqlilik. Özündə başqasını mütləq inkar, özündə başqasının həm mahiyyətini, həm də formasını birlikdə inkarından ibarətdir ki, buradan da mütləq fərqlilik və ya oxşamazlıq meydana çıxır.

Ruh varlıqdan fərqli olaraq, özündən başqa fiktiv ruhu, o cümlədən bədəni (birinci ilə eyni mahiyyətli, ikinci ilə eyni formalı olduğundan) inkar etmir; əksinə, başqa fiktiv ruhu özündə təsdiq etməklə, həm onu, həm də özünü bir daha paralel təsdiq edir ki, buradan da fiktiv ruhların ictimai münasibətlərdə mütləq eyniliyi meydana çıxır, hansı ki, ayrılıqda ruhda heç bir fərqliliyə yer vermir. Buna görə də, ruh birlik və eynilik xarakteristikasına malik olur.

Haşiyə: Hegel, "Məntiq elmi"

"Əsas - eyniliklə fərqliliyin birliyi, fərqlilik və eynilik kimi görünənin həqiqətidir, özü-özündə refleksiyadır və əksinə. O totallıq kimi qoyulmuş mahiyyətdir."

Ruhun əsas kimi münasibəti yoxdur. Çünki ruh fərqlilik və eyniliyin birliyini özündə nümayiş etdirmir. Ruh özü-özündə refleksiya etmədiyindən özü-özündən təzahür etmir, buna görə də ayrıca bir fərddən aydınlaşmır.

d. SOSİAL TƏŞKİLATLANMA

İradənin, eşqin və əsərin şərtlərinin məcmusundan **Sosial təşkilatlar** meydana çıxır. Burada:

- **Eşqin şərtləri** - sosial təşkilatın hissələrinin bir-birinə bağlanmasının;
- **Əsərin şərtləri** - hissələr arasındakı münasibəti şəkilləndirmə, ona forma verməyi, qurmağı;
- **İradənin şərtləri** - həmin şəkillənmənin ölçüləndirilməsini, fiktiv ruhların konkret sosial təşkilata istiqamətlənməni təmin edir.

Buradan da aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Sosial təşkilat - insan iradəsi ilə ölçüləndirilən, insanlararası bağlılığa görə qurulan, mücərrəd əsərlə formaya malik ruhi mövcudluğun formal varlığının şərtlərinin məcmusundan ibarətdir.*

Sosial təşkilat - formal ruhun tangensial enerji formasının təzahürüdür, yəni ruhun "maddəsidir". Başqa sözlə, fiktiv ruhlar arasında konkret ictimai münasibətin radial enerjisinin məcmusu sosial təşkilatın tangensial enerjisinə çevrilir. Buradan da, sosial təşkilat mücərrəd münasibət kimi təzahür edir.

Yuxarıda varlığı xarakteristika edərkən qurulmanı (təşəkkülü) və bunun son nəticəsi kimi **forma-struktur** yaratmanı varlığın əsas təyinlərindən olduğunu qeyd etmişdik. Struktur formanın tabe olduğu nizamdan ibarətdir, hansı ki, belə nizamsız, yəni struktursuz formasızlıq

meydana çıxır. Təbiətdə hər bir obyektiv varlığın özünə xas formasını müəyyən edən xüsusi strukturu vardır. Bu struktur konkretdir, dayanıqlıdır, sabitdir, formanın sərhədləri daxilindədir və əbədidir. Strukturun dəyişilməsi obyektin mövcudluq üsulunun dəyişilməsinə və ya məhv olmasına səbəb olur. Real varlığın təşkilatlanması daxilidir və özündədir. Bunun nəticəsində real varlıqda mövcud varlıq və özündəşey təyini meydana çıxır. Real varlıq hissələrdən təşkil olunur və strukturlaşma hissələrin bir-birinə münasibəti ilə müəyyən olunur.

Ruhun hissəsi yoxdur. O yalnız fiktivlik keyfiyyətinə, özündə ümumini təzahür etdirmək imkanı ilə müəyyən olunan xüsusi mövcudluq üsuluna malikdir. Fiktiv ruhun özündə ümumilik keyfiyyətini təzahür etdirməsi **totallıq** kimi təzahür edir. Beləliklə, ruhun qurulması dedikdə burada formal ruhun totallaşması nəzərdə tutulur.

Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır: *Formal Ruhun totallaşması - bədənlə əlaqələnərək ayrı-ayrı fiktiv ruhlar kimi təzahür edən formal ruhun yenidən fərdi bədənlərdən azad olaraq xarici təklik yaratması şərtlərinin məcmusundan ibarətdir.*

Sosial təşkilatlar totallaşmanın təzahür forması kimi meydana çıxır. Ruhun təşkilatlanması mövcud varlıq və özündəşey təyini olmadığından, özündənkənardır (yəni xaricidir), təsbit olunmamışdır (yəni dinamikdir) və buna görə də abstraktdır və onun forması yalnız özündən kənarda ideya şəklində özündəşeyə köçürülməklə vasitəli təzahür edir.

Totallıq mütləqliyi özündə təqdim edir. Beləliklə, insan ruhu özündə öz mütləq həqiqətini təzahür etdirməklə totallıq xarakteristikası daşıyır və bu totallığın eksternalizasiyası, yəni ruhi təşkilatlanmanın obyektivizasiyası (xarici obyektlərə köçürülməsi) sosial təşkilatları meydana çıxarır.

Haşiyə: *C.Frankl, "Ağlın arxeologiyası" (C.Lokk): "Cəmiyyətdə onun üzvlərinin şüurunda olandan başqa heç nə yoxdur."*

C.Franklinin bu fikirlərindən də görünür ki, sosial təşkilat mücərrəd forma kimi insan şüurunda, onun ruhunda mövcud olur. Buradan da sosial təşkilatı həm də fiktiv ruhun daxili strukturlaşması kimi təyin etmək olar. Fiktiv ruhun təşkilatlanması kamilləşdikcə onun bədən strukturuna tabe olması zəifləyir, yəni fiktiv ruh özündə mücərrəd şəkildə mövcud olan təşkilatlanma formasını ekzistensiya edir və özü kimi quruluşa malik digər fiktiv ruhlarla qarşılıqlı münasibətdə xarici sosial təşkilatları yaradır. Obyektivizasiya obyektiv gerçəkliyin dərk edilməsinin əksi kimi reallaşır. Belə ki, əgər ruh obyektiv olanın strukturunu abstraksiya yolu ilə özündə əks etdirərək obraz yaradırsa, sosial təşkilat bunun əksinə subyektiv varlıq kimi "cəmiyyət üzvlərinin şüurunda olan" ruhun quruluşunu obyektiv olana proyeksiya edərək ona abstrakt obraz verilməsi ilə yaradılır. Bu baxımdan sosial təşkilat həmin təşkilatların yaranmasında iştirak edən fiziki şəxslərin ruhunun refleksiyası kimi meydana çıxır. Beləliklə, gerçəklik təfəkkürdə, təfəkkür gerçəklikdə refleksiya edir. Gerçəkliyin təfəkkürdə refleksiyası **ideyaları**, təfəkkürün gerçəklikdəki refleksiyası **sosial təşkilatları** meydana çıxarır.

Beləliklə, sosial təşkilatlar özündə gerçəkliyin strukturlaşma prosesini ruhda refleksiya edərək onda bəlli nizam yaratması, sonra bu nizamın təkrar gerçəkliyin xarici formasına köçürülməsindən yaranır. Yuxarıda simvollaşdırmaya şərh verərkən heykəltaraşın işi haqqında yazmışdıq ki, heykəltaraşın işi daşın ideyasını ondan çıxarıb abstraksiya edərək onun birincili formasına köçürüb, onda ikincili forma verməkdən ibarətdir. Sosial təşkilatlar da məhz buna uyğun yaranır. Obyektivizasiya olunacaq predmetin nizamı ondan çıxarılır, abstraksiya olunur, sonra təkrar onun formasına ikincili olaraq köçürülür.

Obyektivizasiya yerinə görə sosial təşkilatları üç qrupa ayırmaq olar:

A. Canlılıqda ruhun təşkilatlanmasının obyektivizasiyası

Bu cür obyektivizasiya bioloji əsaslı sosial təşkilatların yaranmasına səbəb olur. Bioloji əsasda ruhi təşkilatlanmanın obyektivizasiyasının ən

sadə forması **“Kollektiv Mən”**dir. Biz kollektiv məni - formal ruhun daxili çoxluğunun özü-özünə refleksiyası kimi təyin edirik. Kollektiv mən aşağıdakı hallarda meydana çıxır:

1. **Başlanğıc Kollektiv Mən:** Formal ruh bədənlə əlaqələndiyi ilk andan refleksiyaya başlayır. Necə ki, obyektiv gerçəkliklər fiktiv ruhda qalıcı refleksiya etməyib, fiktiv ruh formal ruhla eyniyyət təşkil edir və fiktiv ruhun başlanğıc refleksiyası özü-özünü, yəni formal ruhun refleksiyasından ibarət olur. Beləliklə, özü-özünü refleksiyada formal ruhun daxili çoxluğu fiktiv ruhda kollektiv mən kimi meydana çıxır. Kollektiv mən - hamıda eynilik təşkil edən fərdi daxili çoxluqdan ibarət Məndir. Hamıda Mən o zaman eynilik təşkil edir ki, fərdi bədən ruha təsir edib onda refleksiya etməsin.
2. **Kütlənin Kollektiv Məni:** Kollektiv Mən həm də fiktiv ruhun xalis ekspressiyası zamanı meydana çıxır. Bunun klassik forması kütlə Mənidir. Kütlədə bədən özündəki fiktiv ruhu tam ekspressiya edərək onu xarici formal ruh vəziyyətinə salır. Belə vəziyyətə düşmüş fiktiv ruh bədənin iştirakı olmadan, yalnız özü-özünü refleksiya edir və bədəndən tam ekspressiya etdiyindən keçici olaraq, həmin vaxtda bədənin və xarici aləmin təsirlərinə məruz qalmır.
3. **Fərdin Kollektiv Məni:** Bütün insanlarda təcrid olunmuş fərdin fiktiv ruhu, başqa fiktiv ruhlar olmadığından, yalnız özü-özünü refleksiya etməyə məcbur olur. Yatmış insanın fiktiv ruhu da özü-özünü refleksiya edir. Başqaları olmadıqda insan “öz-özünə danışır”; bu da insanın “özü”nün çoxluqda olması ilə bağlıdır. Yəni daxili çoxluğun şərtlərinin məcmusu fərdin kollektiv mənini təşkil edir. Bu zaman fərdi fiktiv ruh daxildə öz çoxluğundan eyni vaxtda müxtəlif mənlər kimi təzahür edir. Eyni anda təzahür edən müxtəlif mənlər daxildə bir-biri ilə münasibətdə Kollektiv Məni təşkil edir.
4. **Kollektivin Kollektiv Məni:** Belə kollektiv Mən ayrı-ayrı fiktiv ruhların daxili çoxluqdan eyni bir tək kimlikləri ilə xaricdə yaradılır.

Belə kollektiv mənlə fərd konkret kollektivin (məs. xalqın, partiyanın, qrupun) üzvü olur.

"Kollektiv Mən" - Fiktiv ruhun özündə formal ruha xas müəyyən başlanğıc totallıq keyfiyyəti ilə bədənlə əlaqələnməsində meydana çıxır. Məhz belə totallıq əldə edən fiktiv ruh ayrı-ayrı sosial təşkilatlara qoşulmağa meylli olur ki, bunu da **başlanğıc sosiallıq** kimi dəyərləndirmək olar. Eyni bir fərdin, eyni zamanda, çoxlu sayda sosial təşkilata üzv olmaq imkanı, eyni bir fərdin fiktiv ruhunun daxili çoxluğa malik olması ilə bağlıdır, hansı ki, hər bir konkret vəziyyətdə fərd daxili təkliyə malik varlıq kimi bir sosial təşkilatın üzvü kimi çıxış edir.

"Kollektiv Mən" insanın heyvanlardan fərqli olaraq təklikdə yaşam imkanlarının məhdud olması, xüsusi qabiliyyətlərinin zamandan asılı olaraq yaranması və buna görə də bir-birindən fərqlənməsindən və təbii təhlükələr qarşısında acizliyindən yaranır. İnsan özündən Kollektiv Mən anadangəlmə totallığı özündə obyektivizasiyasını təzahür etdirir, hansı ki, belə totallığın olmaması ruhsuz insanların (debillərin, imbesillərin) doğulması ilə müşahidə olunur. Buna paralel yaşam prosesində ruhi totallığın təkrar pozulması şizofreniyaya (ağlın parçalanması nəticəsində ruhi xəstəliklərin yaranmasına) səbəb olur.

Yuxarıda, ruhla bədənin əlaqələrini şərh edərkən qeyd etdik ki, ruhun bədənlə əlaqəsi dişi və erkək hüceyrələrinin birləşdiyi anla bağlıdır. Buradan da, **başlanğıc totallıq** atadan və anadan alınan irsi məlumatların fiktiv ruhun özündə refleksiyasından və doğulduğu andan tədricən eksternalizasiya etməsindən yaranır. Buna görə də, başlanğıc totallıq daha çox bioloji əsaslıdır. Başlanğıc totallıq qabiliyyətinə malik olmayan heç bir fiktiv ruh sosial təşkilatlanmanın yaranmasında iştirak etmir və cəmiyyətdən kənar heyvani həyat təcrübəsi ilə mövcud olur və bələləri cəmiyyətdə yaşamağa məcbur olduqda, cəmiyyətlə uyuşmur və çox vaxt cəmiyyətlə əksilik təşkil edir ki, bunun da qradiasiyalanmasından ən müxtəlif sosial neqativliklər (cinayətkarlıq) meydana çıxır. Beləliklə,

başlanğıc totallığı heyvanı insanlardan ayıran başlıca keyfiyyət kimi qiymətləndirmək daha doğru olardı. Başlanğıc totallıq anadan olduqdan sonra özündə həm atanın, həm də ananın müəyyən irsi məlumatlarını daşıdığından yeni doğulmuşu öz atası və anası ilə bağlayır. Nəticədə, **birincili qazanılma totallıq** meydana çıxır. Bu cür totallığın obyektivizasiyası - ata, ana və uşağın üçlükdə təşkil etdiyi sosial təşkilat - **Ailə** kimi meydana çıxır. Ailədə başlanğıc totallıq daha çox bioloji əsasda olduğundan obyektivizasiya da daha çox bioloji təzahürlərdə (hisslərdə, duyğularda, emosiyalarda, affektlərdə, ehtiraslarda) reallaşır; başqa sözlə, ailə hiss və duyğular əsasında əlaqələnmədən meydana çıxır. Ruhi totallığın canlılığın əlamətlərində obyektivizasiyası ailəni yaradır. Ailədə iki cür əlaqə aşkarlanır:

a. Şaquli əlaqə (eyniliyə görə əlaqə): Hər bir övlad şaquli xətt üzrə özündə onların ruhunu refleksiya etdiyindən (yəni onlarla eynilik təşkil etdiyindən) ata və ana ilə bağlanır.

b. Üfüqi əlaqə (oxşarlığa görə əlaqə): Hər bir övlad özlərində daşıdıqları ata və ananın məlumatına görə oxşarlıq təşkil etdiyi bacı-qardaşları ilə əlaqələnir.

Bununla da, birincili ailə əlaqələri başa çatır. Sonradan ikinci nəslin əmələ gəlməsi ilə ailə əlaqələri mürəkkəbləşir. Belə ki, öz ata-anası ilə bilavasitə əlaqələnən fərd onlar vasitəsi ilə ikincili olaraq özündə nisbətən entropiya olunmuş şəkildə meydana çıxan (fərqliliklərə görə) nənə və babasının məlumatları əsasında şaquli xətt üzrə onlarla, üfüqi xətt üzrə eyni qaydada entropiyaya məruz qalmış üfüqi əlaqələrlə (oxşamazlıqla) qardaş və bacısının uşaqları ilə ikincili əlaqələnir. Bu əlaqələr fərddə irsi məlumatlar tam emanasiyaya məruz qalana, yəni irsi eyniliyin irsi fərqliliklə əvəzlənməsinə qədər genişlənir və böyüyür. Nəticədə belə əlaqələrdə həm iştirakçıların sayı, həm də refleksiya olunan fiktivlik artır. Bu cür əlaqələrin elə həddi yaranır ki, fərd özündən əvvəlkilərlə nə üfüqi, nə də şaquli doğmalıq keyfiyyəti daşımır, əksinə

özündə yadlıq keyfiyyəti təzahür etdirir. Beləliklə, bioloji əlaqələrin irsi eyniliyinin qradiasiyası əsasında doğmalıqla yadlığın sərhədlərində yaranan bioloji təbiətli sosial təşkilatlanma **Tayfanı** meydana çıxarır.

B. Cisimdə ruhi təşkilatlanmanın obyektivizasiyası

İnsan bədəni özündə formalaşdığı ətraf mühiti refleksiya etdiyindən, bu refleksiyaya uyğun ruh öz təşkilatlanmasını ilk öncə bədəndən torpağa köçürür, yəni öz totallığını fərdin bioloji təşkilatlanmasının aktuallaşdığı ərazidə obyektivizasiya edir. İnsanlar qan (irsi) əlaqələrinə paralel və eyni torpaqda təşəkkül tapdıqlarına görə, ruhun öz totallığını torpaqda obyektivizasiya etməsi **Qəbiləni** meydana çıxarır. Qəbilə bir tərəfdən qan ilə, digər tərəfdən torpaqla şərtlənməni özündə təqdim edir. Ruhun atributları bir-biri ilə əlaqəli inkişaf etdiyindən, qəbilənin yaranması ilə təşkilatlanmış ruhun öz ərazisini simvollaşdırması başlayır ki, buradan da **Mədəniyyət** meydana çıxır. Mədəniyyət - qan və torpaq əlaqələrinin abstraksiya edilmiş simvollaşdırmasını (maddi və mənəvi mədəniyyət nümunələrini) özündə təqdim edir. Mədəniyyətin yaranması həm də mədəniyyətin insani formalaşdırılması ilə müşahidə olunur. Belə ki, başlanğıcda yaranan mədəniyyət daha çox insanla şərtlənir və insanın xüsusi qabiliyyətlərini özündə əks etdirir. Amma sonradan insan mədəniyyətlə şərtlənir və hər fərd içində kamilləşdiyi mədəniyyətin ümumi nailiyyətlərinin məhsuluna çevrilir.

Haşiyə: Corc Frankl, "Ağlın arxeologiyası"

> *"İnsanların sosial reallığının istənilən tədqiqatı, onların mövcudluğunun xarici şərtləri və cavab reaksiyaları göstərir ki, bu şəraiti insanlar özləri yaradır; bundan da artığı, bunu əhəmiyyətli dərəcədə təhtəlşüur edirlər, sonra isə onlar tərəfindən yaradılan şəraitdən asılı olurlar. Sivilizasiya biofiziki obyektlərlə fikirlərin, dəyərlərin, normaların obyektivizasiyasında vasitəçi kimi istifadə olunan enerjinin vəhdətindən ibarətdir."*

Burada obyektivizasiyada vasitəçi kimi istifadə olunan enerji məhz ruhi enerjidir, hansı ki, onun iştirakı olmadan heç bir biofiziki obyekt

mədəniyyət nümunəsi kimi çıxış edə bilmir. Beləliklə, qan əlaqələrinin arxa plana keçməsi, torpaq əlaqələrinin isə abstraksiya edilməsi ilə mədəniyyət əsasında yeni sosial təşkilat - **Xalq** meydana çıxır. Xalqın yaranması ilə ruhi qurulmanın cisimdə obyektivizasiyası başa çatır.

V. Ruhun özü-özündə (subyektdə) obyektivizasiyası

Ruhun totallığının elə bir səviyyəsi yaranır ki, ruhi təşkilatlanmanı artıq obyektiv gerçəkliklərə obyektivizasiya etmək mümkün olmur. Buna görə də, bu cür totallıq ruhun özü-özündə obyektivizasiyası kimi təzahür edir. Ruhun özü xalis mövcudluq kimi ideyalardan ibarət olduğundan ruhun özü-özündə öz təşkilatlanmasını obyektivizasiyası abstrakt formada - ideyalarda aktuallaşır. Buradan **siyasi təşkilatlanma** meydana çıxır. Siyasi təşkilatlanmanın sadə forması **Dövlətdir**. Ruh müxtəlif ideyalara (həm həqiqətin artma meyli haqqında, həm də azalma meyli haqqında məlumat daşıyan ideyalara) malik olduğundan, ideyada obyektivizasiya özündə ideyaların fərqliliyini əks etdirir. Nəticədə müxtəlif dövlət formaları meydana çıxır. Ruhi totallığın daha ali səviyyəsində ruhi təşkilatlanmanın obyektivizasiyası yalnız ruhda aydınlaşan həqiqətin artma meylinin təzahürlərində - ruhi dəyərlərdə obyektivizasiya edilir. Beləliklə, ruhun totallığının siyasi təşkilatlanma kimi obyektivizasiyasının ideyalardan dəyərlərə keçməsi ilə **Açıq Cəmiyyət (Vətəndaş Cəmiyyəti)** yaranır. Vətəndaş cəmiyyəti özündə ən müxtəlif gücə malik və fərqliliklər daşıyan, ayrı-ayrı dəyərlər əsasında ruhi təşkilatlanmanın obyektivizasiyası kimi meydana çıxır. Başqa sözlə, dövlətdən fərqli olaraq, vətəndaş cəmiyyəti institutları fərdin özünüifadəsinə ən uyğun olan formaların yaranmasına imkan verir və fərdlər vətəndaş cəmiyyəti institutları ilə eyniləşir.

Haşiyə: C.Frankl, "Ağlın arxeologiyası" (Robert Musil):

> *"Demək olar ki, insan yalnız özünüifadəyə görə özü-özü olur və onun özünüifadəsi cəmiyyətin formasını və strukturunu özündə əks etdirir."*

Göründüyü kimi, mədəniyyətdə olduğu kimi insan əvvəl özünüifadə edərək sosial təşkilat yaradır, sonra həmin sosial təşkilatı özündə əks etdirərək, özü-özündə reallığa çevrilir.

Vətəndaş cəmiyyətlərinin qloballaşması ilə ruhun totallığı (təşkilatlanması) bütün insanlıqda obyektivizasiya olunur. Bunun nəticəsində **Total İnsanlıq Ruhu (Formal Ruh)** təzahür edir ki, bununla ruhun təkmilləşmə prosesi başa çatır, yəni tarix qurtarır, insanlıq tərəqqidən dayanır, yalnız real varlıq kimi özü-özünü təkrarlayır. Total İnsanlıq Ruhunun yaranması ilə ruh hər bir fərddə öz mütləq həqiqətini əldə edir, nəticədə xalis mövcudluq təyininə uyğun varlığa çevrilir. Bununla da, bədənlə şərtlənmədən azad olur və xalis varlıq kimi əbədi mövcudluq imkanı qazanır.

CANDA RUHUN YARANMASI

RUHLANMA

Formal Ruhun Kosmosda aşkarlanması ruhlanma kimi meydana çıxır. Biz ruhlanmanı Formal Ruhun bioloji insan bədəni ilə keçici vəhdət təşkil edərək, ondan ikincili təzahür etməsi kimi təyin edirik.

Formal Ruh digər metafizik varlıqlardan müstəsna şəkildə fərqlənir və bu fərqliliyinə görə, məsələn, mələklərdən fərqli olaraq, dərk ediləndir. Nə üçün metafizik varlıqlardan yalnız ruh dərk ediləndir? Bunun aşağıdakı səbəbləri vardır:

Birincisi, Ruh Təbiət sferasına keçir və bilavasitə "düşünən mən" kimi özü-özünü şərtləndirib bədənin əksiliyindən aşkarlaya bilir. İkincisi, ruh öz fəaliyyəti ilə bədəndən istifadə edərək özünə mövcudluq yaratmağa cəhd edir və onu özündən kənar şeylərin xarici görüntüsünə proyeksiya edərək onlarla bağlanır. Bu bağlılıqda təbii şeylərin xarici görüntüsündən özünün süni xarici görüntüsünü xarici seyr edilən edərək özünün hissi idrakına zəmin yaradır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Formal Ruh - xalis fəaliyyət kimi bədənlə şərtlənmiş təzahür edir və mövcud olmasından öz mövcudluğunu özündən kənarda - bədənlə vəhdətindən kənarda - yaratmaqla faktuallaşır.

Bizim ruha aid etdiyimiz qabiliyyətlərin bədənin yeni qabiliyyətləri olması ilə bağlı elmdə xeyli şərh, nəzəriyyə və baxışlar mövcuddur. Biz onlardan birini və daha xarakterik olanı təhlil etməklə məsələyə aydınlıq gətirməyi məqsədəmüvafiq hesab edirik.

Haşiyə: Pyer Teyyar de Şarden "İnsan fenomeni"

"Əgər həyatın tarixi, mahiyyət etibarilə, morfologiyanın varisiyalaşması ilə şüurun inkişafıdırsa, onda sıranın zirvəsində qaçılmaz olaraq insanla qonşuluqda psixikanın forması ağıl səviyyəsinə qədər çatmalıdır. Bu elə belə də baş verir. Onda "insan paradoksu" da aydınlaşır. Nə zaman ki, normal təzyiqdə su 100 dərəcəyə çatır, sonrakı qızmada dərhal temperatur dəyişilmədən molekullar xaotik olaraq azad olur və buxarlanır. Beləliklə, belə uzaq müqayisə ilə biz düşüncənin kritik mərhələsini təsəvvür edə bilərik. Üçüncü dövrün sonunda, 500 milyon il ərzində hüceyrə dünyasında psixi temperatur yüksəlmişdir. Şaxədən şaxəyə, qatdan qata biz daha da mürəkkəbləşən və konsentrasiya olunan sinir sistemini, pari passu, görürük. Son nəticədə, primatlarda elə dərin və zəngin alət formalaşmışdır ki, bilavasitə bunun ardınca gələn pillə yalnız bütün heyvan psixikasının tam konsolidasiyası və ərintisi şərtində əmələ gələ bilərdi. Amma inkişaf dayanmamışdır, belə ki, orqanizmdə buna mane olan heç nə olmamışdır. Antropoidlər "ağıla görə" 100 dərəcəyə çatdırılmış və bir neçə kalori əlavə edilmişdir. Bu kifayət edib ki, daxili tarazlıq atılsın, o ki səthdə mərkəzləşmişdir, mərkəzə çevrilmişdir. Əhəmiyyətsiz az "tangensial" artım nəticəsində "radial" sonsuzluğa, irəli sıçrayış kimi yenidən qurulmuşdur. Zahirən orqanlarda heç bir dəyişiklik olmamışdır. Daxildə nəhəng inqilab baş vermişdir: şüur hissüstü münasibətlərə və təsəvvürlərə coşmuş, sıçramışdır və özünün qabiliyyətlərinin kompakt ənginliyində o, özü-özünü görmək qabiliyyəti əldə etmişdir."

Şardenin fikirlərindən görünür ki, o, şüuru - ruhun əsas atributlarından birinin, ağlın təzahürünü - heyvani psixikanın təkamülü nəticəsində meydana çıxan fenomen kimi təsəvvür edir. Biz bu cür şərhin nə dərəcədə həqiqət olub-olmadığını bilmək üçün cisimlərdə canlılığın əmələ gəlməsinə nəzər salmalıyıq. Əgər hər hansı bir sıranın sonunda həqiqətən forma dəyişmədən mahiyyət dəyişsəydi (halbuki təbiətdə əksinə, mahiyyətin sabitliyində forma dəyişilmələrini müşahidə etmək olur), onda canlılar formaca cisim, mahiyyətcə canlı olardı. Amma göründüyü kimi, canlılar həm forma, həm də mahiyyətcə cisimlərdən

fərqlənir. Biz varlıq formasının mürəkkəbləşməsinin zirvəsində Şardenin iddia etdiyi kimi, radial enerjinin irəliyə və sonsuzluğa sıçramaqla yenidən qurulmasını müşahidə etmirik. Əksinə, məhz zirvədə əlavə "bir neçə kalorinin verilməsi ilə" geriyə qayıdış baş verir. Buradan belə bir kosmoloji ideya aşkarlanır:

Mümkünlüyün varlığının hər bir səviyyədən olan mövcudluq tələbinə verilmiş şərtlər-imkan tam tükəndikdən sonra həmin şərtlərdə reorqanizasiya baş verir.

Biz bunu qeyri-üzvi aləmin formalaşmasında müşahidə edirik. Belə ki, elementlərin mürəkkəbləşməsi Uran elementinə qədər davam edir. Uran əmələ gəldikdən sonra ona əlavə "bir neçə kalorinin" verilməsi Uranın şüalanmasına və qurğuşuna qədər parçalanmasına səbəb olur. Eləcə də mürəkkəb maddələrin əmələ gəlməsi ikiqat duzlaradək mümkün olur və yalnız süni yolla iki ikiqat duz əldə etmək mümkün olur. Buradan çıxan nəticə ondan ibarətdir ki, 100-dək qızmış obyektə əlavə kalorinin verilməsi radial enerjinin irəli sıçrayışı ilə yenidən qurulmasına yox, əksinə, 100-dək qızmadan əvvəlki vəziyyət istiqamətində reorqanizasiyasına səbəb olur. Yəni su, suyun buxar halının orqanizasiyası ilə suya çevrilir və 100-lük qızmada su yenidən əvvəlki hala - buxar halına keçir. İkincili mövcudluqlar - bioloji varlıqlar da kosmik qanunlara tabe olduğundan, mürəkkəbləşmə sonsuz proses kimi baş vermir və müəyyən həddən sonra reorqanizasiya baş verir. Bunun klassik formalarından biri atavizm (əcdada qayıtma) kimi təzahür edir.

Əgər insan bədəni Şardenin də təsdiq etdiyi kimi formaca heyvanlardan fərqlənmirsə, onda heyvanlardan fərqli mahiyyəti ola bilməz. Əgər olsaydı, bu, forma ilə mahiyyətin ziddiyyəti kimi mümkünsüzlük olardı. Əgər biz insanda heç bir canlıda təzahür etməyən xüsusi qabiliyyətlər aşkar ediriksə, onda həmin qabiliyyətlər heyvanlarla analoji quruluşa malik insan bədəninin təzahürü ola bilməz.

Buradan da belə nəticə alınır ki, şüur "heyvani psixikanın konsentrasiya olunması və yenidən qurulması" kimi təsəvvür edilə bilməz. Digər tərəfdən, bədənlə əlaqəsi olmayan, intuitiv idrakın - düşüncənin və təhtəlşüurun təzahürü, insanda "heyvani psixikadan əmələ gəlmiş şüurdan" fərqli başlanğıca malik şüurun olduğunu göstərir. Hansı ki, heyvani psixikadan əmələ gəlmiş şüurun da başlanğıcı kimi çıxış edir və onun xalis heyvani təbiətli olmadığını göstərir. Başqa sözlə, heyvani psixika yalnız ruhun bədənə keçməsi ilə şüura çevrilir. Hansı ki, ikili başlanğıca - psixikaya görə heyvani, özünüdərkə görə ruhi başlanğıca malik olur. Əks halda, heyvani psixikanın özünüdərki özü-özünü refleksiyadan ibarət olardı, hansı ki, istənilən mövcud varlıq özündə özünü düşünən varlıq kimi "özü-özünü görür". Əksinə, şüurun əsas xüsusiyyəti "başqasını görməkdir". İnsan bioloji varlıq ruha münasibətdə başqası olduğundan, şüur insanın öz bədənini də görür. Beləliklə, ruhun əsas təzahürlərindən olan şüurun bədəndə təkamül nəticəsində əmələ gəlməsi ilə bağlı fikirlərin həqiqətə uyğun olmadığını demək olar.

Əgər şüur heyvani psixikanın yox, ruhun təzahürüdürsə, onda "şüurlu (ruhlu) insan" fenomeni bir çox suallara cavab verilməsini tələb edir: Doğrudanmı insan bədənində sonradan təkamülün sonunda ona keçən fərqli mahiyyət, yəni ruh vardır? Ruh nə üçün məhz insan bədəninə keçir? Ruh nə zaman bədənə daxil olur? Ruh necə bədənə daxil olur? Ruh bədənin harasında, hansı orqanda "yerləşir"? Ruh bədənlə necə əlaqələnir?

1. Doğrudanmı canlı aləmin təkamülünün sonuncu varlığı olan insan bədənində sonradan ona keçən fərqli mahiyyət, yəni ruh vardır? Birincisi, insan bədənində sonradan ona keçən və onunla qarşılıqlı təsirdə olan başqa mahiyyətin olmasını insan bədəninin instinktlərinin idarə olunması sübut edir. İnstinkt - bioloji fərdin müdaxilə edə bilmədiyi daxili bioloji qanundur, hansı ki, hər bir canlı növ məhz özünəxas instinktlə xarakterizə olunan həyata malikdir. Anadangəlmə "ağılsızlarda", imbesillərdə

fərd bioloji varlıq kimi instinktiv həyata malik olur. Lakin ağla malik insanlarda ağıl itdikdən və ya parçalandıqdan sonra (məsələn, Altsheymer və şizofreniyada olduğu kimi) belə insanlar instinktiv fəaliyyətdən məhrum olur. Bu onu göstərir ki, ağıllı insanda onun instinktlərinə təsir etmiş mahiyyət olmuşdur. İkincisi, insanın bir çox elə qabiliyyətləri vardır ki, o, həyatın məqsədinə xidmət etmir. Hər bir canlıda həyatın məqsədi onu qorumaq və mümkün olduqca onu sonsuzluq istiqamətində davam etdirməkdən ibarətdir. İnsanların intihara əl atması, nəsilvermə enerjisini yaradıcılığa və başqa fəaliyyətlərə sərf etməsi, cinsi əlaqəni nəsilvermə funksiyasından ayırması göstərir ki, insanda bioloji məqsədlərə xidmət etməyən elə funksiyalar vardır ki, həmin funksiyalar eqonu dəf edərək insanı ictimai varlığa çevirir. Biz insan bədəninin bioloji instinktlərini idarə edən və bioloji məqsədi ötən fəaliyyətlərinin başlanğıcını ruh kimi təsəvvür edirik.

2. *Ruh nə üçün məhz insan bədənində yaranır?* Bu suala cavab verməmişdən öncə elə belə, ən ümumi şəkildə yaranışın necə baş verdiyini şərh etmək lazım gəlir.

Haşiyə: Pyer Teyyar de Şarden "İnsan fenomeni"

> *"Biz insana iki səbəbə görə universuma açar kimi baxmaq məcburiyyətindəyik, hansı ki, onu dünyanın mərkəzi edir. Hər şeydən öncə subyektiv olaraq, özümüz özümüz üçün biz qaçılmaz olaraq perspektivin mərkəziyik. Perspektiv mərkəz kimi insan, eyni zamanda universumu konstruksiya mərkəzidir. İnsan insanlıqdan kənarda özünü, insanlığı həyatdan kənarda, həyatı universumdan kənarda tam görə bilməz. Buradan bizim əsərin üç bölməsi meydana çıxır: həyatöncəsi, həyat, fikir - bu üç hadisə keçmişdə yaranır və gələcəkdə (həyatüstündə) bir və eyni trayektoriyanı - insanın əyri fenomenini təyin edir."*

P. Şardenin insanla bağlı fikirlərindən görünür ki, insan varlıq kimi sonuncu varlıqdır və ondan sonra yalnız varlıqüstü, yəni həyatüstüdür, hansı ki, varlığın bütün formalarının başlanğıcıdır. Əgər insanı in-

sanlıqdan, insanlığı həyatdan, həyatı universumdan kənar tam görmək mümkün deyilsə, bu həm də o deməkdir ki, universumsuz həyat, həyatsız insanlıq, insanlıqsız insan mümkünsüzlükdür. Buradan da yaranışın mərhələli olduğu meydana çıxır. Yəni bütün varlıqlar eyni anda paralel yaradılmayıb, yaranış mərhələli və ardıcıl olmuşdur, hansı ki, insan bu ardıcıllıqda sonuncu yaradılmış varlıq kimi mövcuddur və özündən əvvəlki bütün yaradılmışların əsasında yaradıldığından ən mərkəzi varlıqdır. "Əsasında yaradılmaq" hansı mənaya malikdir, yəni əsas, yəni zəmin mövcud olmaqla necə fərqlənir?

Kosmosdan aşkarlanan əsas qanunauyğunluq ondan ibarətdir ki, eyni bir şeyin iki müxtəlif substansiyası ola bilməz və bir substansiya yalnız bir forma ilə vəhdətdə təzahür edə bilər. Buna görə də mümkünlüyün varlığının - xalis substansiyanın - mövcudluq tələbi ən ali formada və ən pis mahiyyətdə tam ödənmiş olur. Mümkünlüyün mövcudluq tələbi metafizik tələb olduğundan sonsuz və əbədi tələbdir. Buna görə də mümkünlüyün mövcudluq tələbinə verilmiş şərtlər əsasında mövcudluq imkanının tükənməsindən sonra, mümkünlüyün varlığının mövcudluq tələbi yenidən aktuallaşır. Yaranışın mərhələli və ardıcıllığında əsas özündə mümkünlüyün mövcudluq tələbinin ödənmə formasından ibarətdir, hansı ki, onda yenidən mövcudluq tələbi aktuallaşır. Yaranışın ardıcıllığına görə iki cür forma ayırd edə bilərik. Birincisi, varlıqdan mövcudluğun yaranması. Bu mərhələdə metafizikadan kosmosa keçid baş verir. Bura cisim sırası aiddir. İkincisi, mövcudluqdan varlığın yaranması; bura canlılıq aiddir. Bu mərhələdə bir varlıqdan başqa varlığa keçid baş verir. Formal ruh mövcudluq şərtləri almadan kosmosa keçdiyindən o, hər hansı bir əsasda yaranmır (çünki əsasa ehtiyacı yoxdur), sadəcə yaranmış mövcudluğa keçir və onun vasitəsi ilə dolayı, keçici olaraq mövcud olur. Buradan yaranışın aşağıdakı qanunu aşkarlanır:

Yaranışın hər bir yeni səviyyəsi özündən əvvəlki səviyyənin tam başa çatmasından, imkanların tükənməsindən sonra sonuncu mövcudluq formasının əsasında meydana çıxır.

Buna görə də Ruh yeni substansiya kimi təbiətdə öz substansiyası olan mövcud varlıqların heç birində meydana çıxmır. Ruh yalnız substansiyasız və ya ən pis, aşağı səviyyəli mahiyyətə, amma ən ali təşəkkül səviyyəsində olan sonuncu mövcudluqda meydana çıxır və özünün bütün təzahürləri ilə onun obyektivliyini qaranlıqlaşdıraraq, əlahiddə varlıq kimi - subyekt kimi - təqdim edir. Təbiətdə təkamüllə emanasiya prosesləri bir-birinə əks istiqamətdə inkişaf edir, nəticədə təkamül prosesində forma nə qədər təkmilləşirsə, emanasiya prosesində məzmun bir o qədər yoxsullaşır. Dünyanın əmələ gəlməsi və təkamül prosesi göstərir ki, bioloji növ kimi insan mövcud varlıqlar içərisində ən təkmil formaya malik sonuncu mövcud varlıqdır. Ən təkmil formaya malik olduğundan, deməli, ən aşağı keyfiyyətli mahiyyətə malikdir.

Yəni bioloji insan özü-özündə heç bir xüsusi mahiyyətə malik deyil, yalnız özündən əvvəlki canlıların mahiyyətini özündə təzahür etdirir, hansı ki, biz bunu heyvanilik kimi təyin edirik. Heyvaniliyə görə mövcud insan bütün heyvanlarla eyni mahiyyətli, amma bədənin quruluşuna və funksiyalaşmasına görə bütün heyvanlar içərisində ən ali, ən universal və ən təkmil formaya malik canlıdır. Beləliklə, mümkünlüyün varlığının yeni səviyyədən mövcudluq tələbi dünyanın əmələ gəlməsinin və təkamülün sonuncu mövcud varlığı kimi yalnız insan bədənində meydana çıxır. Mümkünlüyün varlığının insan mövcudluğunda mövcudluq tələbinə İlahi iradədən ruha zəruri şərtlərin imkanları ilə cisim və canlılıq yaradıldığından ona mövcudluğun zəruri şərtləri verilmir; ona yalnız mövcudluğun təsadüfi şərtləri verilir, hansı ki, mövcudluğunun şərtlərini özünün təsadüfi şərtlərinin məcmusundan - azad fəaliyyətlə zəruri şərtlərə malik digər mövcud varlıqlardan əldə edir.

3. Ruh nə zaman bədənə keçir, başqa sözlə, mövcud insan nə zaman ruhlu insan kimi mövcud olmağa başlayır? "Ruhun bədənə keçməsi" fikri özündə ruhlu insanın başlanğıcını, ruhun yaranmasını, metafizikadan fizikaya keçidini ifadə edir. Təbiətdə mövcudluqlar yalnız xarici keçid prosesinə daxil olur. Ruhun başlanğıcda öz xüsusi mövcudluğu olmadığından, metafizikadan fizikaya keçidi yalnız özündə daxili proses kimi baş verir. Yəni ruh özü-özündə metafizikadan təbiətə keçir. Özü-özündə keçid - bir qanunlar sistemindən başqa qanunlar sisteminə tabe olmaq kimi baş verir, hansı ki, mövcud varlıqlarda daxili keçid olmadığından sabit qanunlar sistemində əbədi mövcud olurlar. Ruhun metafizikadan fizikaya keçidi özünün şərtsiz vəziyyətindən insan bədəni ilə ikincili şərtlənmiş vəziyyətinə keçid kimi baş verir. Burada ikincili şərtlənmə özündə bədənin birincili zəruri şərtlənməsi ilə ruhun şərtlənməsini bildirir. Biz ilk insana ruh nə vaxt və necə keçmişdir sualına, bu prosesi xarici seyr etmək imkanımız olmadığından, yalnız dolayısı ilə cavab verə bilərik.

Yaranma əmələgəlmədən əvvəl meydana çıxdığından, əmələgəlmə nahiyəsində yaranmanı seyr etmək mümkünsüzlükdür. Buna görə də biz yaranmanın qanunauyğunluqlarını aşağıdakı üç üsuldan biri ilə dolayısı ilə aşkarlaya bilərik:

a) Xalis zəkadan daxili seyr yolu ilə özündə fikirlərin, ideyaların yaranmasından - birincili, yəni xalis varlıq təyinindən.

b) Təbiətdə əmələgəlmədən dolayısı ilə ikincili - yəni mövcud varlıq təyinindən.

c) İnsanın öz yaradıcılığının mahiyyətindən - üçüncülü, yəni xalis özü-üçün-varlıq təyinindən.

Xalis özü-üçün-varlıq təyini mahiyyətlə vəhdətdən ayrılıqda heç bir mənaya malik deyil, yəni özü-özündə heçlikdir. Buna görə də heçlikdən çıxış edərək hər hansı bir üsulla həqiqətə çatmaq mümkün deyildir. Digər tərəfdən, insan yaradıcılığı təbiətdə daha mürəkkəb, qeyri-kamil

olduğundan və yaranış insan yaradıcılığında üçqat entropiya ilə refleksiya etdiyindən, ondan yaranış haqqında dəqiq məlumat əldə etmək çətindir. Təbiətdə əmələgəlmə prosesi özündə insan yaradıcılığına nisbətən yaranışa daha yaxın həqiqəti aşkarladığından, təcrübədən yalnız əmələgəlməni xarici seyr etmək mümkün olduğundan, əmələgəlmədən yaranış haqqında daha dəqiq məlumat əldə etmək olar. Buna görə də biz əmələgəlmə əsasında əldə etdiyimiz məlumatlardan çıxış edərək yaranma haqqında təsəvvürlər yaratmağı düzgün hesab edirik. Çünki mövcud varlıq özündə özü-üçün-varlıq təyinindən fərqli olaraq, xalis mövcudluqla vəhdət təşkil edir və həmin vəhdətdən onu aşkarlamaq mümkündür.

Təbiətdə əmələgəlmə mürəkkəb reallıqların ikincili sadə varlıqlardan və ya bir-birindən yaranmasını özündə təqdim edir. Nümunə kimi xörək duzunun əmələ gəlməsini seyr edək: Xörək duzu fərqli keyfiyyətlərə və hər ikisi müstəqil formada orqanizm üçün zəhər kimi təsir edən iki müxtəlif sadə mövcud varlıqdan - Natrium və Xlordan əmələ gəlir. Xörək duzu Natrium atomunun Xlor atomu ilə birləşməsi anında öz müstəqil keyfiyyətləri ilə, özü-özü ilə eynilik və həmin anda buna paralel onu yaradan natrium və xlorla fərqlilik təşkil edərək mövcud varlığa çevrilir. Nəticədə Natriumla Xlorun keyfiyyətlərini özündən kənarlaşdırır və insan həyatı üçün zəruri, xeyirli olan maddəyə çevrilir. Beləliklə, əmələgəlmənin xarici seyri ilə əldə etdiyimiz məlumatdan aydın olur ki, xalis varlıq təyinindən mövcud varlıq təyininə keçid məhz əmələgəlmə anı ilə bağlıdır. Buradan da ruhun bədənə bədənin əmələ gəldiyi anda keçdiyini demək olar.

Əmələgəlmə anını necə təsəvvür etmək olar? Xörək duzunun əmələgəlmə anında nə Na-un, nə Cl-un, nə də xörək duzunun heç bir mahiyyəti təzahür etmir. Sanki həmin anda ani mahiyyətsizləşmə baş verir, yəni heç bir forma - nə keçmiş, nə gələcək forma - mahiyyətlə vəhdət təşkil etmir. Vəhdət təşkil etmədən mövcud olma metafizik mövcudolmadır, hansı ki, metafizik qanunlara tabe olur. Belə vəziyyətdə

formalar istənilən mahiyyətlə, mahiyyətlər istənilən forma ilə vəhdət təşkil etmək imkanı əldə edir. Təbiətdə əmələgəlmə anı zərurətlə şərtləndiyindən, həm mahiyyət, həm də forma zərurətə görə vəhdət təşkil edir. Zərurət olmadıqda məhz bu cür mahiyyətsizləşmə anında eyni bir formaya fərqli mahiyyətlər vəhdətə cəhd edir. Bu zaman bir formada fərqli mahiyyətlərin vəhdəti özü-özündə mərtəbə təşkil edir. Birinci mərtəbə vəhdət zərurətə görə, ikinci mərtəbə vəhdət təsadüfə görə yaranır. Nəticədə birinci vəhdət daimi, ikinci vəhdət keçici olur. Ruh məhz insanın əmələgəlmə anında onun forması ilə keçir və bədənin varlıq forması ikincili-keçici vəhdət təşkil etməklə aşkarlanır.

Haşiyə: V.Frankl "İnsan məna axtarışında"

> *"Portmana müəssər olmuşdur ki, göstərsin ki, insaniliyi onun anatomik quruluşlarınadək izləmək olar. Belə ki, hətta insanın dölü həmişə onun ruhunun izlərini daşıyır."*

Göründüyü kimi, Portmanin tədqiqatlarının nəticələri də göstərir ki, ruhun izləri döldə də izlənir. Beləliklə də ruhun döllə eyni vaxtda, onun başlanğıcında onda yarandığını deyə bilərik. Biz ruhun döldə yaranmasını aşağıdakı kimi təsəvvür edirik.

Dölün başlanğıcı iki müxtəlif cinsi hüceyrənin - erkək və dişi hüceyrələrin - bir-birinə keçərək ortaq birmayalanmış hüceyrə əmələ gətirməsindən ibarətdir. Başqa sözlə, dölün başlanğıcı mayalanmış hüceyrədir, hansı ki, yetkin bədən hüceyrələrindən fərqli olaraq çox nəhəng sürətlə artma qabiliyyətinə malikdir. Eynşteynin nisbilik nəzəriyyəsinə görə, işıq sürətindən - təbii sürətin son həddindən - böyük sürətlə hərəkət zamanı enerji kütləyə keçir. Bunu bioloji hərəkətliliyə tətbiq etsək, məlum olar ki, mayalanmış hüceyrədə - embrionda - təbii artma sürətindən böyük sürətlə artma nəticəsində sonsuz sayda çoxlu hüceyrə əmələ gəlir və həmin hüceyrələr müxtəlifləşərək ayrı-ayrı orqanlar şəklində orqanizmi təşkil edir. Buradan da biz embrionun hərəkətliliyini də metafizik hadisə kimi dəyərləndirə bilərik, hansı ki, dölün for-

malaşması başa çatandan sonra təbiətdə heç bir hüceyrədə embrion hərəkətlilik müşahidə olunmur. Embrional inkişaf metafizik hadisə olduğundan, bizə görə ruh məhz mayalanma anında - embrionun əmələ gəldiyi anda, metafizik çoxalma prosesində olan mayalanmış hüceyrə ilə vəhdət təşkil etməklə yaranır. Mayalanma anı dedikdə nə nəzərdə tuturuq? İki əks cinsə məxsus hüceyrələr ana bətnində bir-biri ilə birləşdikləri anda hər biri öz xüsusi keyfiyyətlərindən məhrum olur və özlərində potensiya kimi saxladıqları yeni nəslə xas keyfiyyətlərdən yeni nəslin əsasını yaradırlar. Məhz bu anda - iki əks cinsə məxsus hüceyrənin keyfiyyətlərinin yeni nəslin başlanğıcı olan hüceyrənin dərinliyinə enməsi və həmin hüceyrələrin dərinliyində saxlanan potensial keyfiyyətlərin yeni nəslin başlanğıcını təşkil etməsi anında, hüceyrə özündə heç bir keyfiyyətə-mahiyyətə malik olmadığı anda, Ruh mayalanmış hüceyrəyə keçərək xalis mahiyyət kimi onunla vəhdət təşkil edir. Mayalanmış hüceyrə nəslə xas varlıq təyini əldə etməklə mövcud varlığa keçdikdə isə ruhla vəhdəti ikincili vəhdət kimi meydana çıxır. Buradan da embrion iki substansiyanın bir forma ilə vəhdəti kimi inkişaf etməyə başlayır, hansı ki, cisim dünyasının tabe olduğu qanuna - bir substansiyanın bir forma ilə vəhdət təşkil etməsi qanununa - ziddiyyət təşkil edir. Bu ziddiyyətə görə ruhlu insan digər bioloji növlərdən fərqlənir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Faktiki şüurlu insan - bioloji insan növü və Formal Ruhla ikili vəhdət təşkil etmənin şərtlərinin məcmusundan ibarətdir.

Ruh bədənə o anda keçir ki, mayalanmış hüceyrə o anda özündə heç bir mahiyyət təzahür etdirmir, mövcudluq mövcudolmasız-təzahürsüz meydana çıxır, hansı ki, ruh xalis mövcudolma kimi, xalis mövcudluq kimi onunla əlaqələnir. Başqa sözlə, mayalanma anında mayalanmış hüceyrə mütləq fakt (mövcudluq), ruh mütləq akt (mövcudolma) kimi bir-biri ilə əlaqələnir. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır: Ruhun insan bədənində yaranması - yəni ruhun xalis varlığının real

varlığın (bədənin) mövcud varlığını özününküləşdirməsi, ruhlu insanın yaranması - insanın əmələgəlməsinin başlanğıc anında baş verir.

İnsan bədəni ikili vəhdət təşkil etməsinə görə digər canlı orqanizmlərdən fərqlənir. Belə ki, ikili vəhdətdə formadan keçməklə növ ruha, ruh da növə təsir edir. Nəticədə digər bioloji varlıqlar üçün xas olan instinktiv hərəkətlilik ruhun təsirindən daxili entropiyaya məruz qalır. Bunun hesabına insanda heyvanlardan fərqli tənzimlənən, nəzarət olunan, təşkil olunan instinktlər - ikincili sosiallaşmış instinktlər yaranır. Bununla da şüurlu insanın instinktləri heyvani instinktlərdən tamamilə fərqlənir. Biz bu mərhələni ruhun ekzistensiyasına hazırlıq mərhələsi hesab edirik. Ruhun instinktlərə təsiri təcrübədən çox asanlıqla sübut olunur. Belə ki, imbesillərdə - anadangəlmə ruhun transfer etmədiyi heyvani təbiətində doğulanlarda - instinktiv fəaliyyət (heyvani həyat tərzi) saxlanılır. Lakin başlanğıcda ruhun keçdiyi bədəndən şizofreniklərdə olduğu kimi təkrar hissə-hissə və ya Altsheymer xəstəliyində olduğu kimi tədricən tamlıqda kənara axması nəticəsində insan bədənində instinktlər avtonom və spontan meydana çıxa bilmir, nəticədə belə şəxslər instinktiv fəaliyyətdən məhrum olur. Ruhun mayalanma anında bədəndə yaranmasını insanda bətndaxili həyatla bağlı məlumat və yaşantıların aşkarlanması da sübut edir.

Haşiyə: A.Şopenhauer "Cinsi məhəbbətin metafizikası"

> *"O ki adətən canlılıq xarakterinə malikdir, həm də qalib meyilliklə, müəyyən şəraitdə elə ehtiraslaradək böyüyə bilər ki, hansı ki, öz xüsusi gücü ilə istənilən başqasından üstünlük təşkil edir və onun qucaqladığı insanlar istənilən mülahizələrini bir kənara atır, inanılmaz güclə və inadkarlıqla bütün sədləri dəf edir və onun təmin olunması üçün öz həyatını riskə qoymağını düşünmür və hətta arzulanan təminolunmalıq heç nə ilə çatılmaz göründükdə şüurlu olaraq bu həyatı verir. Hansı efir formasında özünü təqdim etməsindən asılı olmayaraq, istənilən vurğunluğun kökləri istisnasız olaraq cinsi instinktdədir: bəli, mahiyyətcə o, dəqiq müəyyən edilmiş, ixtisaslaşmış, sözün ciddi mənasında*

fərdiləşdirilmiş cinsi instinktdən başqa bir şey deyildir. Məhz məhəbbət işinin gətirib çıxardığı şey, bu nə az, nə çox yeni nəslin yaradılmasıdır. Hər bir nəslin istənilən məhəbbət tarixçələri bütünlükdə götürüldükdə, beləliklə, özündə "öz növbəsində sonsuz sayda yeni nəsillərin başlanğıcı olan gələcək nəslin yaradılmasında bütün insanlığın fikrini" təqdim edir. Bu o dərin insani tələbatdır ki, yerdə qalan digər insani maraqlardan fərdi rifaha və ayrı-ayrı şəxslərin bədbəxtliyinə yox, həyata və gələcək əsrlərdəki bütün insanlıq nəslinin xarakterinə təsir edir. Və buna görə də fərdin iradəsi özünün artmış keyfiyyətində çıxış edir, nəslin iradəsi kimi - bu əhəmiyyətlilik pafosun əsaslandığı və məhəbbət münasibətlərinin aliləşmiş quruluşu və vəcdəgəlmənin transendental məqamı və məhəbbətlə əzab çəkmədir, hansı ki, şairlər minillərdir ki, yorulmadan sonsuz nümunələrdə onu vəsf edir və elə mövzu yoxdur ki, öz marağına görə bununla müqayisə olunsun. Nəslin xoşbəxtliyi və kədərini şərh edərək o həm də başqa mövzuya, coğrafi bədənin səthə aid olması kimi aid olur. İki sevgili varlığın artan meyli - yeni individuumun həyata xüsusi iradəsidir, hansı ki, onlar həyata keçirilməsini istəyir və bacararlar, və onların baxışları toqquşanda, ehtiraslar icra olunanda, o zaman artıq bu onun yeni həyatını yandırır və gələcək harmonik, ciddi qurulmuş fərdilik kimi özündən asır. Müxtəlif cinslərin iki fərdini istisnasız olaraq bir-biri ilə birləşməyə belə güclə cəlb edən axırıncı əsas bu - növün bütün məlumatlarını təzahür etdirən həyat əzmidir; burada o onun məqsədinə uyğun fərdə öz mövcudluğunun obyektivizasiyasını antisipasiya edir ki, o hər iki sevən fərdi dünyaya gətirə bilər. Bu fərd atadan xarakter və ya iradə, anadan intellekt, bədən quruluşunu isə hər ikisindən irsən alır. Məhəbbət ehtirası gələcək uşağın ətrafında və onun xüsusiyyətində cəmləşir və onun toxumu burada, müxtəlif cinslərdən olan iki gənc və sağlam arasında olur, onların baxışlarının, xarakterinin və ümumiyyətlə əqli qabiliyyətinin üst-üstə düşməsinə görə. Cinsi məhəbbətin heç bir qarışığı olmayan dostluq mövcud ola bilər. Qadının görünüşündə kişini əhatə edən ram edici vəsf, onunla birləşməklə ona ali xoşbəxtlik verən, məhz nəslin ruhudur, hansı ki, bu qadının da nəslin aydın izlərini tanıyaraq istəyir ki, yalnız onunla nəsil davam etsin."

A. Şopenhauerin cinsi məhəbbətin metafizikası ilə bağlı şərhi özündə nə dərəcədə həqiqəti ifadə edir? Bizə görə, A. Şopenhauerin aşağıdakı mühakimələri ilə razılaşmaq olmaz:

a) İki əks cinsə məxsus fərdlərin özündə fərqli başlanğıc daşıması - "qadının intellektuallığın, kişinin iradə və xarakterin başlanğıcı olması" haqqında fikir səhvdir. Belə ki, cins özü-üçün-varlıq təyininin təzahürü kimi xalis formadır və özündə heçliyi təqdim edir, yalnız mahiyyətlə vəhdət təşkil etdikdə bir-birindən fərqli iki fərqli faktiki canlılıq - erkəklik və dişilik - yaradırlar, hansı ki, hər ikisinin formal varlığı eyniyyət kimi növdə saxlanılır. Beləliklə, qadın və kişinin özlərinə xas fərqli mahiyyətləri olmadığından, müstəqil başlanğıclar kimi çıxış edə bilməzlər. Əksinə, hər iki cinsdən olanın formal varlığı eyniyyət təşkil etdiyindən, onlar ikisi də eyni başlanğıc kimi çıxış edə bilər. Eyni cinsdən olan insanlar arasında əks cinslər arasında olan məhəbbət kimi güclü homoseksual məhəbbətin olması və heyvanlarda əks cinslərin yeni nəslin təşkilində bərabər iştirakı da bunu bir daha təsdiq edir ki, güclü məhəbbətdə əks cinslərin başlanğıc təşkil etməsi zəruri deyildir.

b) "Canlılığın istənilən başqasından üstünlük təşkil etmə ehtirasının böyüyərək özünü qurban verməyə gətirib çıxarması" - Bu mühakimə ümumiyyətlə canlılığın mövcudluq üsuluna, "bir formanın digər formaya üstünlük təşkil edərək mövcud olması" üsuluna ziddir. Yəni canlılıqda özü-özündə bir forma kimi "öz-özünə üstünlük təşkil etmə" ilə nəsil əmələ gəlir. Yəni canlı yeni nəsil verir ki, bu üstünlükdə ata və ananın fərdi təcrübəsinin yeni formada sublimasiya olunaraq meydana çıxması və bütünlükdə canlılığın zamandan asılılıq qaydaları ilə bağlıdır, hansı ki, canlılar zamandan asılı olaraq, heç bir məhəbbət ehtirası olmadan da eyni üsulla nəsil verirlər. Yəni bu üstünlük xarici yox, daxili üstünlükdür. Digər tərəfdən, "həyatın qurban verilməsinə gəlib çıxmaq" yeni həyata başlanğıc təşkil etməklə - nəsilvermə instinkti ilə ziddiyyət təşkil edir.

Ona görə də tarixdə belə məhəbbəti olanların faciə ilə üzləşdiklərini və bir-birinə qovuşub nəsil verməmələrinin çoxlu nümunələri vardır.

c) "Yeni nəslin yaradılmasında bütün insanlığın fikrinin ifadə olunması" fikri ilə də razılaşmaq olmaz. Belə ki, onda heyvanlarda nəsilvermənin nəyə əsaslandığını şərh vermək mümkün olmazdı. Digər tərəfdən, canlılıq mahiyyətsiz xalis forma, yəni özü-üçün-varlıq təyininin təzahürü olduğundan, heç bir xalis fikir (yəni mahiyyət) özündə saxlamır, buna görə də canlı fərd bütün insanlığın, yəni ruhun xarici totalığını özündə refleksiya edə, yəni bütün insanlığın fikrini ifadə edə bilməz. Dekartın "bütün insan həyatı təcrübə yolu ilə dünyada olan hər şeyi dərk etməyə çatmır" fikri də bunu təsdiq edir. Əgər bütün insanlıq bütün təcrübi bilikləri dərk edirsə, ayrıca adam isə buna imkanı çatmırsa, onda nəyə görə yeni nəslin yaradılmasında bütün insanlığın fikri ifadə olunmalıdır? Digər tərəfdən isə fraqmentar ruh (yəni yeni doğulacaq insandakı ruh) daxili totalıq kimi mövcud olur, bütün insanlıq isə xarici totalıq kimi onunla ziddiyyət təşkil edir, yəni xarici totalıq daxili totalığın yaranmasını istəyə bilməz. Əksinə, fərd öz daxili totalığını xaricə çıxarmaqla xarici totalıqla eyniyyət təşkil edəndə onun fikrini ifadə edir ki, bu da yalnız yaşam prosesində aktuallaşır. Nəhayət, insan - mövcudluğun varlığı, insanlıq - varlığın mövcudluğudur. Mövcud insan bioloji qanunlara tabedir, ona görə də ruhun qanunlarına tabe ola bilməz. Yəni insanlığın arzusuna uyğun insan doğulmur; necə ki heyvanlar aləmində faktiki fərdin doğulması ümumi növün tələbindən meydana çıxır, eləcə də fərdin doğulması insan növünün tələbi kimi meydana çıxır.

d) "Qadının görünüşündə kişini əhatə edən ram edici vəsf, ona birləşməklə ona xoşbəxtlik verən məhz nəslin ruhudur" - bu fikir də qadın və kişinin özü-üçün-varlıq təyinindən heç bir mahiyyətə malik olmadığına və canlılığın mahiyyəti mövcud varlıq təyinində (nəsildə) olduğundan, nəslin ruhunun hər iki cinsin nümayəndəsi ilə əlaqələnməsi ilə onları birləşdirməsi məhz canlılıq üsulu üçün xarakterikdir.

4. Ruh bədənin harasında, hansı orqanda "yerləşir"? Ruhun varlığa münasibəti varlığın vəhdətindən çıxır. Belə ki, ruh mümkün varlıq kimi real varlıqda - bədən və ətraf mühitlə şərtlənmiş şəkildə aktuallaşır. Yəni ruh faktında müstəqildir (çünki ruhu fakt təzahür etməyən, müstəqil münasibətə girməyən özü özündən kənar şey kimi mövcuddur), amma aktında real varlıqdan asılıdır. Başqa sözlə, Ruh bədəndən kənar avtonom və spontan təzahür etmədiyindən, onun bədənin harasında proyeksiya olunması, bədənlə necə əlaqələnməsi və bədəndən necə təzahür etməsi, bədənə və bədənin davamı olan digər real varlığa münasibəti metafizikanın həll etməli olduğu ən ümumi məsələdir. Beləliklə, ruhun mahiyyəti ilə bağlı suallardan da biri ruhun bədəndə harada yerləşməsi məsələsidir. Burada iki ehtimal mövcuddur: a) Ruh bütün bədəndə - bədənin hər yerində yerləşir. b) Ruh yalnız bədəndə ayrıca bir orqanda yerləşir. Bu ehtimallardan hansı həqiqətə uyğundur?

Birinci ehtimala görə, ruh bədəndə konkret orqanda və ya üzvdə lokallaşmayıb və bütün bədənin daxili həcmində dinamik mövcudluq kimidir. Yəni Ruh bütün bədəndə, bədənin hər yerində yerləşir. Bu ehtimala görə, əgər ruh bütün orqanizmdə hər yerdə yerləşirsə, onda ruh da bədən kimi üzvlərə bölünmüş şəkildə mövcud olmalıdır, hansı ki, canlılığa xasdır. Ruh varlığın mövcudluğu olduğundan, mövcudluğun varlığına xas xarakteristikalara malik ola bilməz, deməli, üzvlərə və hissələrə ayrıla bilməz. Yəni Ruh - üzvlərə və hissələrə bölünməz və ayrılmaz olduğundan üzvlərə bölünmüş bədənin hər yerində ola bilməz.

Haşiyə: Kerolayn Miss "Ruhun anatomiyası"

> *"Bədənin hər bir sahəsi yalnız ona xas tezlikdə xüsusi enerji verir. Öz normal tezliyində enerji verməyən bədənin hissəsi problemlərin mövcudluğunu göstərir."*

Kerolayn Missin fikirlərindən də görünür ki, bədənin iki elə sahəsi yoxdur ki, eyni enerji versin. Ruh bir tam kimi təzahür etdiyindən, bədənin fərqli enerjilərə malik bütün həcmində yerləşsəydi, onda bədənin

hər bir hissəsinin enerjisinin təsirindən ruh özü-özündə hissələnərdi. Əgər ruh hissələrə və üzvlərə bölünsəydi və ya ayrılsaydı, onda hansısa səbəbdən bədənin bir hissəsinin və ya orqanın itirilməsində və ya zədələnməsində Ruh da zədələnərdi və ya hissəvi təzahür edərdi. Hər bir bədən üzvü fərqli forma və funksiyaya malik olduğundan eyni bir ruh fərqli quruluş və funksiya ilə eyni cür əlaqələnə bilməzdi. Nəticədə ruhda müxtəliflik meydana çıxardı. Amma təcrübədən görünür ki, bədəndə ətrafların, qoşa orqanların birinin itirilməsində insan öz normal ruhi fəaliyyətini saxlayır. Deməli, ruh orqanizmdə hər yerdə yerləşə bilməz.

İkinci ehtimala görə, ruh bədəndə lokallaşıb və ayrıca bir orqanla daha sıx bağlıdır, yəni ruh bədəndə yalnız ayrıca bir orqanda yerləşir. Bəs onda bu orqan hansı orqandır? Elmi araşdırmalar ruha aid edilən təzahürlərin daha çox beyinlə əlaqəli olduğunu deməyə əsas verir. Lakin beyin bədənin digər orqanları ilə əlaqəli mövcud olduğundan, ruhun da bədənin digər orqanlarla əlaqəli təzahür etdiyini ehtimal etmək olar. Bunu somatik nevrozların Ruhun bədənin digər orqanlarında və bütünlükdə bədəndə gedən proseslərlə halının dəyişməsindən meydana çıxması da sübut edir. Ruhun beyinlə əlaqəsi məsələsinin də iki tərəfi vardır. Birincisi, ruha aid edilən xüsusiyyətlər beyinin yeni xüsusiyyətləridir. Elmdə beyinlə bağlı belə fikir mövcuddur ki, iki cür beyin - qədim və yeni beyin vardır. Yeni beyin insan beynindən ibarət olub, xüsusi psixi fəaliyyətin mərkəzi kimi qədim beyindən - yalnız bədənin somatik fəaliyyətinin mərkəzindən ibarət olan beyindən quruluşuna görə fərqlənir. İkincisi, ruh beyinin xüsusiyyəti deyil, o, beyindən asılı təzahür edən, amma onun mahiyyəti ilə vəhdət təşkil etməyən, ondan törənməyən, ona aidiyyəti olmayan xüsusi mövcudolmanın xüsusiyyətidir.

Ruhun təzahürlərinin beynin funksiyaları ilə bağlı olmadığı aşağıdakılara görə inkar edilir: a) Ruha aid edilən heç bir təzahür bilavasitə beynin funksiyası deyildir. Bunu sübut etmək üçün canın mövcudluq üsuluna və xarici təsirlərə cavabının təbiətinə nəzər salmaq lazımdır.

Digər tərəfdən, orqanizmdə orqanların funksiyaları yalnız canın daxili ümumi məqsədi ilə şərtlənmişdir. Ağıl bu məqsədlə məhdudlaşmadığından və daha çox xarici ictimai məqsədlərə xidmət etdiyindən və hətta bəzən intihar hadisəsində olduğu kimi bədənin əleyhinə yönəldiyindən, demək olar ki, ağıl (Ruh) beynin funksiyası ola bilməz. b) İnsandan başqa beyinli heç bir canlını ruha uyğun atributsiya etmək mümkün deyil: Əgər ruha aid edilən keyfiyyətlər beynin funksiyasıdırsa, onda digər canlılarda beynin inkişaf səviyyəsindən asılı olaraq insanın şüurlu fəaliyyətinə uyğun daha aşağı səviyyədə də olsa təzahürlər aşkarlaya bilərik. Ruhun ən ümumi əlaməti həyat təcrübəsini yaşam təcrübəsinə çevirməkdir. Bütün canlıların fəaliyyəti isə instinktiv olaraq - təcrübənin dəyişməzliyi kimi, yalnız həyat təcrübəsinin saxlanmasına istiqamətlənib və bu onların yeganə məqsədidir. c) Beyinin anatomik inkişafı ilə ruhi atributların tarixi inkişafı paralellik təşkil etmir: Əgər doğrudan-doğruya ruhun atributları beynin funksiyasıdırsa, onda bu atributların tarixi inkişafı ilə beynin anatomik inkişafı arasında paralellik aşkarlanmalıdır. Başqa sözlə, beyin taksisin inkişaf tempinə uyğun inkişaf etməlidir. Amma elm sübut edir ki, beyin öz anatomik inkişafını taksisin yaranmasından çox-çox qabaq başa çatdırıb və indi o yeni formalarda - fərdi orqanizmlərdə eyni ilə təkrarlanır. d) Ruhi təzahürlər beynin funksiyalarının potensial keyfiyyəti kimi təzahür etmir: Çünki orqanizmlərdə tarixilik əlaməti olmadığından, beyin ayrılıqda tarixilik keyfiyyətinə malik ola bilməz. Bu, orqanizmin vəhdəti prinsipinə zidd olardı. Onda ruhun təzahürlərinin tarixiliyinə görə demək olar ki, o, candan fərqli mümkünlükdür. e) Ruhun atributlarının hamısı ictimai təbiətlidir: Beyin fərdidir. Orqanizmin heç bir orqanı ictimai funksiya yerinə yetirmir. Məsələn, mənim mədə şirəm kiminsə qidalanması ilə əlaqəli ifraz olunmur. Həyat və ölüm fərdi (individual) akt olduğundan, can individuallıq keyfiyyətindədir. Bundan fərqli olaraq, ruhun aktı ictimaidir və buna görə də ölməzdir və həyatın tabe olduğu zaman qanun-

larına tabe olmur. f) Ekzistensiya qabiliyyəti yalnız ruha xasdır: Orqanizmdə müxtəlif artıqlar ifraz olunur və bədəndən kənara atılır, həmin tullantılarla bədənin əlaqəsi birdəfəlik itir. Ruhun ekzistensiyası prosesində özündən kənara nəsə çıxarır, amma bədəndən fərqli olaraq öz ekzistenləri (ekzistensiya məhsulları) ilə əlaqəsini davam etdirir. Nəticədə bədəndən kənar ruhi atributların təkmilləşdirilməsi və başqaları tərəfindən inkişaf etdirilməsi mümkün olur. g) Ekstrapolyasiya imkanı yalnız ruhda mövcuddur: Ekstrapolyasiya ruhun bədənin daxili orqanlarının quruluşu haqqında məlumatı ekzistensiya edib həmin məlumat əsasında xaricdə alət, silahlar, texnika və bədəndə gedən biokimyəvi proseslərin məlumatı əsasında texnologiya prosesləri yaratmasını özündə ifadə edir. Şüurlu insandan başqa heç bir canlıda ekstrapolyasiya müşahidə olunmur. Ruh istənilən orqanın quruluş və funksiyasını nümunə kimi yaradıcılıqda - taksisin yaradılmasında - istifadə etsə də, özü-özünü ekstrapolyasiya etmir. Bu da göstərir ki, ruh bədənin orqan və funksiyalarından fərqli olaraq konkret formaya malik deyil. h) Varlıq üsulunu dəyişməsinə görə (daxili həcmin keçiriciliyinə görə) ruh bədəndən fərqlənir: Qeyd etdik ki, mövcudluq öz mövcudluq faktından başqa hər şeyi başqa mövcudluqla dəyişə bilər. Leybnitsin qeyd etdiyi kimi, monada daxili keçirilməzlik prinsipi ilə mövcuddur. Yəni mövcud varlıq öz daxili həcminə heç bir başqa mövcud varlığı buraxmır. Ruhda mövcudluq faktı mövcudolmadan ayrılıqda xaricdə yaradıldığından, həm mövcudluq faktını başqa mövcudluqla dəyişir (məsələn, eyni bir materialda təkrar faktiki mövcudluğunu yarada bilir), həm də bir fiktiv ruh digər fiktiv ruhun daxili həcminə keçir. Hansı ki, biz bunu empatiya kimi qavrayırıq. i) Can sırası vitallıqla, yəni zamanla çoxparametrli şərtlənib: Hər hansı bir orqan və ya bütün orqanizm yalnız müəyyən bir vaxt çərçivəsində yaşadıqca funksiyalaşır. Orqanizm məhv olduqdan sonra, bir tam kimi və ayrı-ayrı orqanlar kimi orqanizmin funksiyalarının inkişafı dayanır. Başqa sözlə, can yalnız özündə öz funksionallığını davam

etdirə bilir. Amma ruhun təzahürləri başqaları tərəfindən inkişaf etdirilir. Yəni mənim qaraciyərimin funksiyasını ondan ayrılmış şəkildə başqası davam etdirə bilməz. Eləcə də ağıl beynin funksiyası olsaydı, bir şəxsin ağlının məhsulları başqası tərəfindən inkişaf etdirilə bilməzdi.

Bütün bunlar göstərir ki, ruh beynin funksiyası kimi qəbul edilə bilməz və o, beyinlə funksional asılılıqda xüsusi mümkünlükdür, varlığın mövcudluğudur. Bir çoxları belə hesab edir ki, ruha aid edilən bütün keyfiyyətlər beynin funksiyasıdır. Bizə görə, insanlarda beynin digər canlılardan fərqli olması ruhun ona təsiri ilə bağlıdır. Bu məsələ əməklə insanın əmələ gəlməsi arasındakı əlaqədə də üzə çıxır. Əmək şüurun məhsuludur. Amma əmək prosesi bədənə təsir edərək onu formalaşdırır. Buradan çıxılan nəticə budur ki, əmək şüur yaratmır, əməyi şüur yaradır və əməyin vasitəsi ilə bədənə müvafiq forma verir. Necə ki üzün ifadəliliyi şüurluluğu ifadə edir, beynin quruluşu da özündə ruhun təsirini təqdim edir. Ayrı-ayrı dövrlərdə ruh müxtəlif funksiyalar daşıdığından yaş psixologiyası da funksiyalarına görə bir-birindən fərqlənir. Belə ki, uşaq psixologiyası ruhun intensiv fəaliyyətinin təzahürüdür. Bu mərhələdə özünüdərk və biliyin toplanması baş verir. Yaşlılıq psixologiyası xarici aləmi mənimsəmək və bilikdən istifadəsini, kamil ruh biliyin inkişafını ifadə edir.

Haşiyə: Dekart "Ruhun ehtirasları"

> *"Adətən belə hesab edirlər ki, ruhun daha çox fəaliyyət göstərdiyi bədən hissəsi beyindir, ola bilsin ürəkdir: beyin - ona görə ki, hiss orqanları onunla bağlıdır, ürək - ona görə ki, onda ehtiraslar hiss olunur. Amma mən bunu dəqiq tədqiq edərək belə hesab edirəm ki, ruhun öz fəaliyyətini əsasən həyata keçirdiyi bədənin hissəsi heç bir halda ürək və bütün beyin deyildir, yalnız hər şeydən dərində yerləşən onun hissəsidir; bu, beyin maddəsində, beyində mərkəzdə yerləşən çox balaca vəzdir."*

Dekartın şərhindən görünür ki, o, ruhun məhz beyində və beyindəki xüsusi bir vəzdə yerləşdiyini ehtimal etmişdir. Biz də belə hesab edirik

ki, Ruh məhz insan beynində fəaliyyət göstərir. Bunu necə sübut etmək olar? Biz mümkünlüyün varlığının yenidən mövcudluq tələb etməsinin İlahi iradədən verilən şərtlər əsasında mümkün mövcudluğun bütün imkanlarında yaranmasından və yaranmış mövcudluqların ən ali səviyyəsində, artıq mövcudluq əldə etmənin mümkünsüzlüyündən sonra meydana gəldiyini qeyd etmişdik. Bu mənada, mümkünlüyün ikincili mövcudluqlarda yenidən mövcudluq tələbi, həmin mövcudluqların ən ali nümayəndəsində - insanda və insan orqanizmində isə ən ali quruluşa və funksiyaya malik sonuncu, ən mürəkkəb orqanın mövcudluğunda meydana çıxa bilər. Elmi sürətdə müəyyən edilmişdir ki, İnsan bədənində ən axırıncı meydana gələn, ən ali təşkil olunmuş və ən mürəkkəb quruluşa və funksiyaya malik orqan beyindir, hansı ki, ondan sonra quruluşuna və funksiyasına görə yeni bir orqanın əmələ gəlməsi istisnadır. Buradan da aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Mümkünlüyün varlığının ikincili mövcudluqlarda yeni mövcudluq tələbi - Ruh - insan bədənində, onun beyni ilə funksional asılıdır.

Dekartdan fərqli olaraq biz belə hesab edirik ki, Ruh beyində hansısa mərkəzdə və ya vəzdə yerləşmir. Ruhun məkan şərtləri olmadığından onun yerləşmə yeri də ola bilməz. Ruh insan bədəninin və onun ən təkmil orqanı kimi beyində mümkünlüyün yeni mövcudluq tələbi kimi meydana çıxır. Beyin bir tam orqan kimi mövcud olduğundan, ruh beynin tamlığından təzahür edir. Bunu beynin zədələnməsi nəticəsində ayrı-ayrı ruhi fəaliyyətlərin itməsi də sübut edir. Əgər Dekartın dediyi kimi ruh ayrıca bir vəzdə olsaydı, onda beynin müxtəlif şöbələrinin zədələnməsi ruhi fəaliyyətin hissəvi pozulmasına səbəb olmazdı və ya beyinin bir nahiyəsi - Dekartın vəz adlandırdığı hissənin zədələnməsi ilə ruhi fəaliyyət tamamilə itərdi. Buradan da aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Təbiətdə İnsan beynindən kənarda ruhi mövcudolma mümkünsüzlükdür.

Ruhun məhz beyinlə asılılığı aşağıdakı səbəblərə görə sübut olunur: Birincisi, beynin yaranma müddəti və quruluşuna görə: Beyin ontogenezdə ən son yaranan, ən mürəkkəb və başa çatmamış quruluşa, özüüçün-varlıq təyininə malik olmayan orqan kimi mövcuddur. Quruluş nə qədər sadə, forma nə qədər konkretdirsə və dayanıqlıdırsa, mövcudluq bir o qədər əvvəldir; ona görə də ruh bir o qədər həmin mövcudluqdan kənardır (belə olmasaydı ruh cisimlərdə və aşağı pillədəki canlılarda refleksiya edərdi). Sonuncu canlı kimi insan orqanizmində ən son yaranan, ən mürəkkəb quruluşa malik və bununla da ən dayanıqsız və formalaşması başa çatmamış orqan beyindir. Beyin digər orqanlardan fərqli olaraq yaşdan və tarixi dövrdən asılı olaraq formalaşma prosesini davam etdirir və buna görə də müxtəlif yaş dövrlərində, tarixin müxtəlif dövrlərində insanlar fərqli psixi fəallığa - ruhi hərəkətliliyə malik olur. Buradan da demək olar ki, ruh bədəndə yalnız ən son meydana çıxan beyində refleksiya edir.

İkincisi, beynin bədənin daxili totalığı kimi çıxış etməsinə görə: Ruh hissələrə və üzvlərə ayrılmadığından daxili totalığa malikdir və yalnız daxili totalığa malik orqanda refleksiya edə bilər. Biz bunu Mənin bədəni bir tam kimi dərk etməsindən aşkarlayırıq. Baxmayaraq ki, bədən üzvlərə ayrılır, Mən bədəni bir tam kimi özündə refleksiya edir. Belə ki, zaman-məkan şərti ilə fərqlənən orqanlar vahid orqanizmi təşkil etmək zərurətinə görə orqanizmdə daxili vəhdət təşkil edirlər. Bu vəhdət həm üfüqi (hər bir orqan digərləri ilə ayrı-ayrılıqda vəhdət təşkil edir), həm də şaquli (bütün orqanlar birlikdə bir orqanla vəhdət təşkil etməklə) reallaşır. Belə vəhdət nəticəsində mərkəzi sinir sistemi - baş beyin əmələ gəlir. Baş beyin bütün orqanların qarşılıqlı funksiyalaşmasını və bir tam kimi bədənin xarici real varlıqlarla qarşılıqlı əlaqələrini təmin etmək funksiyasına malik olur. Müxtəlif orqanların eyni bir orqanla vəhdətindən bədənin daxili totalığı aşkarlanır, hansı ki, həmin orqanın zədələnməsi ilə ayrı-ayrı orqanların saxlanmasına baxmayaraq, bütün orqanizmin ölümü

baş verir. İnsan orqanizmində bütün orqanlar yalnız beyinlə vəhdət təşkil edirlər, hansı ki, beynin ölümündə orqanizm bir tam kimi ölür. Bütün orqanların birlikdə vəhdət təşkil etdiyi orqan kimi beyin bu vəhdətə görə orqanizmi bir tam kimi özündə refleksiya edir. Ruh da daxili totalıq kimi, beyin bədənin daxili totalığını özündə refleksiya etdiyindən, onda refleksiya olunur.

Üçüncüsü, beyinin formasına görə: Ruhun beyində yerləşməsi həm də beyinin xarici görüntüsü, yəni forması ilə sübut olunur. Biz formanın hərəkətin saxlanması kimi meydana çıxdığını və hər bir formanın özündə saxladığı hərəkətə uyğun azad hərəkətliliyə malik olduğunu və vəhdətdə mövcudolmada varlıqların bir-birinə təsir etdiyini və bu təsirin dərəcəsindən asılı olaraq bir-birindən inikas etdiyini qeyd etmişdik. Bu mənada, əgər ruh beyinlə funksiyalaşırsa, onda ruhun hərəkətliliyinin beyində saxlanması beynin formasını yaratmalıdır, eləcə də beynin forması ruhun azad hərəkətliliyinə imkan verməlidir. Başqa sözlə, ruh beyinlə asılılığına görə qarşılıqlı təsirlə öz hərəkətliliyinə uyğun beynin formasını yaradır. Bu, vəhdətdə mövcudolmanın əsas qanunudur. Ruhun öz forması olmadığından, beyin ruha təsir etmir və buna görə də inikas meydana çıxmır, amma əksinə ruh beyinə təsir edərək onun formalaşmasında iştirak edir, yəni onda inikas edir. Ruh xalis dalğa təbiətli olduğundan, dalğavari hərəkətin saxlanması beyinin xarici görüntüsünü təşkil edir, hansı ki, beyin qırışları kimi meydana çıxır. Və beyinin dalğavari quruluşuna görə ondan dalğavari hərəkətlilik mümkün olur. Elmdə beyin qırışları adlanan və bu gün də funksiyası elmi şəkildə tam dəqiqləşdirilməmiş beynin özü-üçün-varlıq təyini, yəni onun xalis forması - dalğavari görüntüsü - dalğavari hərəkətin saxlanması kimi meydana çıxır; hansı ki, bir tərəfdən ruhun dalğa kimi təbiətinin forması kimi çıxış edərək onu özündə refleksiya edir, digər tərəfdən hissi təfəkkürlə gerçəkliklərdən alınmış həqiqətlərin - onların dalğa kimi fikirlərinin - həmin qırışlardan ruhda refleksiya etməsində iştirak edir. Beyin qırışları

ilə şüurluluğun əlaqəsindən də məhz həmin şırımların meydana çıxmasında ruhun iştirak etdiyi sübut olunur.

Dördüncüsü, beyinin şüurlu fəaliyyətlə əlaqəsinə görə: Ruh öz atributlarından təzahür edir, hansı ki, biz onları insanın şüurlu fəaliyyəti kimi qavrayırıq. Ruhun məhz beyində lokallaşması orqanizmdən ayrı-ayrı orqanlarla ruhi fəaliyyət arasındakı əlaqədən də aydınlaşır. Belə ki, beyin istisna olmaqla heç bir orqanın anadangəlmə yaranmaması və ya sonradan itirilməsi insanın ruhi qabiliyyətlərinə təsir etmir. Bunun əksinə, beyinə təsir edən bütün daxili və xarici təsirlər ruhi qabiliyyətlərə təsir edir. Narkotiklərin, psixotrop maddələrin, o cümlədən orqanizmin somatik xəstəliklərinin və ya hormonal aktivliyin dəyişilməsinin beynə təsir etməsi ilə onun funksiyalaşmasını dəyişdirməsi ilə ruhi qabiliyyətlərin dəyişilməsinin paralellik təşkil etməsi ruhun məhz beyində lokallaşdığını sübut edir.

Bəs ruh beyinlə necə əlaqələnir?

Haşiyə: Q.Ebbinhauz "Psixoloji oçerklər"

> *"Beyinlə ruhi həyatın əlaqələrini necə başa düşmək olar, onların mövcudluğunu biz necə izah edə bilərik? Bununla bağlı bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən iki baxış vardır, hansı ki, özlərinin başlıca müddəalarına görə uzun illərdir mübarizə aparır! Birincisi, beyin ruhun orqanı kimi. Bu baxışa görə beyin onunla tamamilə fərqli mahiyyətə malik ruhun xarici aləmlə və başqa ruhlarla əlaqəyə girmək üçün istifadə etdiyi vasitədir. Amma beynin ruhun aləti kimi anlanılması lokallaşma faktı ilə çox pis uzlaşır. Ruh nə hər yerdə, nə beyində, nə bütün dünyadadır. Əsl həqiqətdə onun hissəsi burada, hissəsi ordadır; görən ruh kimi ənsə qırışlarında, eşidən ruh kimi gicgah qırışlarındadır. İkincisi, psixofizioloji paralelizm. Ruhla beyin arasında mövcud baxışlar qaçılmaz olaraq bizi çətinliyə və ziddiyyətə gətirir. Əgər beyin və ruh bir-birinə əks deyilsə, bir-birinə təsir edən müstəqil mahiyyət keyfiyyətində, onların bir mahiyyət təşkil etməsini necə etiraf etmək olar. Onları bir, amma ikili təzahür edən mahiyyət kimi düşünmək*

olar. Ruh beyinə və sinir sisteminə münasibətdə tamamilə yad deyil, müəyyən və əks mahiyyət kimi, daha çox təbiətinə görə onunla eynidir, ondan yalnız təzahür formasına görə fərqlənir. Bir halda biz ona bilavasitə varlıq kimi, özü-özündə varlıq, başqa halda - görmə, hissiyyat və s. vasitəsi ilə öz reallığını bildirən varlıq kimi malikik. Bununla yanaşı etiraf edirik ki, ruh bədən kimi qazanılan mahiyyətdir. Ruh hər şeydən əvvəl, orqanik vəhdətdir, qarşılıqlı əlaqəliliyin canlı toxumasıdır, bir-birinə keçən funksiyadır."

Assosiativ psixologiyanın nümayəndələrindən Q.Ebbinhauz yuxarıdakı fikirlərindəki bəzi müddəalara aydınlıq gətirək: a) Lokallaşma faktı ilə pis uzlaşma: Əgər ruh beyində Dekartın da dediyi kimi hər hansı bir yerdə və ya vəzdə yerləşirsə, bu o deməkdir ki, ruhun zərurətə görə şərtləri vardır. Əgər ruhun zərurətə görə şərtləri vardırsa, onda ruh da cisim və canlı kimi kosmik varlıqdır. Biz yuxarıda qeyd etdik ki, ruh İlahi iradədən mümkünlüyün varlığının mövcudluq tələbinin ödənilməməsi vəziyyətində təzahür edən mahiyyətdir, yəni ruhun zəruri sabit və ya dəyişən şərtləri yoxdur. Buradan da Ruhun hər hansı bir orqanda və ya orqanın bir hissəsində lokallaşması istisna olunur. Yəni ruh beyindən təzahür edir, amma onda yerləşmir. Belə ki, beyin ruhun yarandığı ali bioloji səviyyə kimi çıxış edir, hansı ki, canlılığın təzahüründə geoloji orqanizm eyni səviyyəni təşkil edir. Buradan, beyinlə ruhun belə bir əlaqəsini aşkarlamaq olar. Beyin ruhun yarandığı ən ali, mürəkkəb, sonuncu bioloji səviyyədir, hansı ki, bu səviyyəsiz ruh yaranmır. b) Ruhun hissəsi burada və hissəsi ordadır: Hissə yalnız daxili qurulma prosesindən meydana çıxır. Ruhda daxili qurulma yoxdur. Ruhun qurulması xaricidir. Belə halda ruhun bir "hissəsi" bir adamda, başqa "hissəsi" başqa adamdan təzahür edir və hər ikisi xaricdə bir-biri ilə "birləşərək" ruhun tamlığını təşkil edir. Ruh maddi olmadığından ruhun hissələri və onların birləşməsi maddi hissədən və onların birləşməsindən fərqlidir. Belə ki, maddi hissələr bir-birinin daxilinə

keçmədən məsafədən birləşir. Ruh qeyri-maddi olduğundan hissələrin birləşməsində hissələr bir-birinə keçir və birləşən hissələr yenə bir hissə kimi təzahür edir. Buradan da ruhun tamlığı ilə hissəsinin eyniliyi meydana çıxır. Yəni ruh eyni anda tam və hissədir. Buradan da beynin hər hansı bir nahiyəsində ruh eyni zamanda hissə və tam kimi yerləşir. Beyin qırışları ruhun təzahürünə imkan verən bioloji təşkilatlanmadır, hansı ki, Ruhun dalğa təbiətinə uyğun dalğavari formadadırlar. Yəni beyin qırışları ruhun yerləşdiyi yer sabit zəruri şərtlər kimi yox, sadəcə ruhun təzahür imkanlarının şərtlərindən - təsadüfi şərtlərin məcmusundan - ibarətdir. Beləliklə, Beyin qırışları ruha münasibətdə ondan xaricdir. c) İkili təzahür edən eyni bir mahiyyət; təbiətinə görə eyni, təzahürünə görə fərqli: Kosmosda təbii işıq istisna olmaqla heç bir mövcudluq ikili təzahür etmir. Təbii işıq ilk, beyin sonuncu əmələgəlmədir. Ona görə də ilk və son olduqlarından bir və eyni təbiətli ola bilməzlər. Bu, substansiyanın tabe olduğu qanuna ziddir. Belə ki, bir substansiya yalnız bir təzahürə malikdir. Təbii işıq kosmosla metafizikanın sərhədində olduğundan metafizik təbiətli kosmik təzahürdür. Buna görə də, bir mahiyyətə iki cür təzahürə - dalğa və hissəcik kimi təzahürə malikdir. Beyin yalnız maddi təzahürə malikdir. Əgər beyinlə ruh təbiətinə görə eyni olsaydı, onda beynin daxil olduğu proseslərə ruh da daxil olardı, amma ruh beynin daxil olduğu proseslərə əks qaydada daxil olur. Bu da ruhun beyindən fərqli təbiətə və buna uyğun fərqli təzahürə malik olduğunu göstərir. v) Bədən kimi qazanılan mahiyyət: Ruh bədən kimi qazanılan olsaydı bədən kimi keçici və müvəqqəti olardı. Ruhun təzahürü göstərir ki, o, bədəndən fərqli olaraq əbədidir. Əbədi olduğundan da, qazanılan ola bilməz. Məsələn, bədən məhv olanda onun bütün təzahürləri itir. Amma bir bədən öldükdən sonra ondan təzahür etmiş ruh başqa bədənlərin ruhlarında yaşamaqda davam edir (çünki eyni zamanda həm hissə, həm də tam, həm burda, həm ordadır). Nəticədə, bir şəxsin fikirləri başqası tərəfindən inkişaf etdirilən olur; hansı ki, bədənin heç bir

funksiyası başqası tərəfindən davam etdirilmir. q) Bir-birinə keçən funksiya, orqanik vəhdət, qarşılıqlı əlaqəliliyin canlı toxuması: Ruh həqiqətən də obyektiv gerçəkliklərin əksinə daxili keçid, xarici qurulma prosesinə daxil olduğundan və mövcudluqsuz mövcud olma, yəni xalis fəaliyyət olduğundan, özündə bir-birinə keçən funksiya kimi çıxış edir.

5. Ruh necə bədənə daxil olur? Bəs insan bədəni necə ruhlanır, yəni ruh insan bədənində necə yaranır? Ruh subyekt kimi obyektin əksiliyi kimi mövcud olduğundan, obyektlərin daxil olduğu xarici proseslər ruhda daxildə, obyektlərin daxilində gedən proseslər isə ruhdan xaricdə baş verir. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır: Obyektiv varlıqlarda daxildə qurulma, xaricdə keçid; subyektiv varlıqda, yəni ruhda daxildə keçid, xaricdə qurulma prosesi baş verir. Daxildə keçid prosesi nəticəsində insan özü-özündə bir kimlikdən başqa kimliyinə keçir, buna görə də bilavasitə aşkarlanmır. Xarici qurulma prosesində insan dayanıqlı sosial təşkilatlar yaradır, buna görə fərdi Mənin ruhu həmin təşkilatlarda iştirakından dolayısı ilə aşkarlanır. Bu fərqliliyə görə də ruh obyektiv varlıqların iştirak etdiyi heç bir xarici keçid prosesində iştirak etmir və obyektiv varlıqların daxilində ruha xas daxili keçmə müşahidə olunmur. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır: Ruh daxili qurulmaya məruz qalmır və yalnız xarici təşkilatlanma kimi qurulma prosesinə daxil olur, əvəzində daxili keçmə prosesinə girir və özü-özündə bir kimlikdən digərinə keçir. Mövcudluğu olmadığından, mövcudluqlara xas xarici keçid prosesində iştirak etmir, yəni bir mövcudluqdan başqa mövcudluğa keçmir, yəni müxtəlifləşmir. Əgər ruh Kosmosda obyektlərin tabe olduğu əmələgəlmə prosesinə - qurulma və keçid proseslərinə - daxil olmursa, deməli ruh bir mövcudluqdan başqasına keçmə kimi və eyni bir mövcudluqda qurulma kimi meydana çıxmır. Bəs onda fərddə ruh necə meydana çıxır? Biz ruhun bədənə keçməsini refleksiya prosesi - yaranma kimi izah edirik, hansı ki, refleksiya edəndə refleksiya olunanın iradəsinə uyğun yeni nəsə yaranır.

Beləliklə, əmələgəlmənin şərti əmələgələndə, yaranmanın şərti refleksiya edəndədir. Bu baxımdan insan bədənində ruhun yaranmasının şərtləri yoxdur, yəni ruh məhz ilahi İradə ilə insan bədənində yaranır. Yəni ruh İlahi istəklə - mümkünlüyün varlığı kimi canlılığın sonunda insan orqanizminə metafizikadan insan bədəninə İlahi İradə ilə refleksiya edir, yəni onda yaranır. Burada metafizikanın Varlığın təkliyi prinsipinə görə həm cisimlər, həm canlılar, həm ruh eyni bir mümkünlüyün varlığından - yəni vahid həqiqətdən yaranır. Məhz eyni bir mümkünlüyün varlığının mövcudluq tələbi əldə etmə meylində İlahi İradə ilə mövcudluq əldə etmə cəhdini yaranma kimi qavrayırıq. Yəni ruh mövcudluğun dərinliyində saxlanmış mümkünlüyün varlığının yenidən mövcudluq əldə etmə tələbi kimi meydana çıxır, hansı ki, refleksiyanın mahiyyətini təşkil edir. Buradan belə bir pnevmatoloji ideya aşkarlamaq olar:

Ruh insan bədənində əmələ gəlmir, sadəcə insan bədənində həqiqətin yeni səviyyəsi kimi İlahi İradə ilə özünü yaradır.

Dinamik "özündəşey" - can zamanla şərtləndiyindən dinamiklik keyfiyyəti - canlılıq qeyri-məhdud, sonsuz və əbədilik xarakteristikasına malik deyildir. Bu xarakteristikalar cismə xas olduğundan, canlılıq cisimlə əksilik təşkil etdiyindən, canlılığın bütün xarakteristikaları cisim xarakteristikalarının əksliyi kimi meydana çıxır. Ətalət - hərəkətliliklə, dəyişməzlik - dəyişkənliklə, xarici hərəkətlilik - daxili hərəkətliliklə, məkandan çoxparametrli asılılıq - zamandan çoxparametrli asılılıqla, əbədilik - faniliklə və s. əksilik təşkil edir (birincilər cismi, ikincilər canlıları xarakteristika edən əlamətlər kimi dərk olunur). Beləliklə, xarici və daxili təsirlərə canlılıq kimi əks-təsir göstərmək məhdud və sonlu prosesdir. Buna görə də sonsuz proses olan Həqiqətin aydınlaşması ilə canlılıqla həqiqətin sonlu aydınlaşması ziddiyyət təşkil edir. Başqa sözlə, dinamik "özündəşey"ə daxili və xarici təsirlərin artmasının müəyyən həddində - ölüm baş verdikdə və nəsil kəsildikdə (məsələn, dinozavrlarda olduğu kimi) - həqiqətin şüalanmasının tam entropiyası canlılıq üsulu ilə

həqiqətin aydınlaşmasına imkan vermir. Buradan da həqiqət əbədi aydınlaşma üsulu kimi ruhla təzahür edir.

6. Ruh bədənlə necə əlaqələnir? Biz ruhla bədənin əlaqəsini ikili vəhdət təşkil etmədə funksional asılılıq kimi təyin edirik. Funksional asılılıq özündə xalis ruhi fəaliyyətin yalnız bədəndə mümkünlüyünü özündə ifadə edir. Bizə görə, ruh nə bədəndən kənarda müstəqil mövcud olur, nə də mövcud varlıq kimi bədənin təzahürlərindən biridir. Ruh məhz mövcud varlıqla funksional asılılıqda olan varlığın mövcudluğudur. Belə asılılıq canlılıqla cisimlərin arasında da mövcuddur. Məsələn: Toxum torpağa düşmədikcə özünün heç bir təzahürünü üzə çıxarmır və toxum öz formasında daha çox cismin bir forması kimi təzahür edir. Amma torpağa düşdükdən sonra dərhal onda bioloji hərəkət yaranır və inkişaf edir. Belə asılılıqda torpaq toxum olmadan bitki əmələ gətirmədiyi kimi, toxum da torpaqsız inkişaf etmədiyindən, bitki toxumla torpağın funksional asılılığından meydana gəlir. Buna oxşar, ruh insan bədəni ilə belə asılılıqdadır. Bədənsiz ruh müstəqil təzahür etmir, amma ruhsuz da bədən özündə şüurluluğu təqdim etmir. Ruhla bədənin qarşılıqlı asılılığına görə bədən ruha, ruh da bədənə qarşılıqlı təsir edir. Ruhun mümkünlüyü yuxarıda qeyd etdiyimiz kimi onun cana və cismə təsir edərək onların formasının dəyişdirməsindən də aşkarlanır. Psixologiyanın tanınmış nümayəndələrindən Edinger və Fişer belə hesab edirlər ki, "üzün ifadəsi özündə şüurluluğu göstərir". Buna paralel, imbesillərdə - ruhsuz insanlarda üz heç bir ifadəyə malik olmur, o cümlədən şizofreniklərdə - ruhi totalığın parçalanmasında üz normal insanlardan fərqli xüsusi ifadə alır.

Haşiyə: J.O.Lamettri "İnsan-maşın"

> *" Özü-özlüyündə materiya özündə passiv başlanğıcı təqdim edir: o yalnız ətalət gücünə malikdir; məhz buna görə hər dəfə biz görəndə ki, o hərəkət edir, nəticə çıxarırıq ki, onun hərəkəti başqa başlanğıcdandır. Beləliklə, sağlam ağıl heç vaxt onu təşkil edən*

başlanğıcla qarışdırmır, başqa sözlə materiya və ya cismin substansiyası ilə. Hər iki ideya aktiv və passiv başlanğıcların bir-birindən fərqləndiyi qədər fərqlənən intellektual ideyadır. Buna görə də əgər cisimdə hərəkətverici güc varsa və əgər sübut olunubsa ki, sonuncu ürəyi döyünməyə, sinirləri hiss etməyə və beyni düşünməyə məcbur edir, onda buradan şübhəsiz belə çıxır ki, məhz bu başlanğıc ruh adlanır."

J.O.Lamettrinin ruhla bağlı bu fikirləri ilə razılaşmaq mümkün deyildir. Biz canlılığı şərh edərkən göstərdik ki, canlılıq cisimlərdən fərqli başlanğıc şərtlərdən - dəyişən məkan və zaman şərtlərindən ibarətdir və canlı mövcudluq üzvlərə ayrılma və üzvi vəhdətdə mövcudluq kimi meydana çıxır. Üzvlərə ayrılma məhz müxtəlif üzvlərin özlərində müxtəlif hərəkətlərin saxlanması kimi yaranır və bu saxlanmaya uyğun müxtəlif cür fəallıq - dəyişən şərtlərin məcmusu kimi - xarici hərəkətlilik təzahür etdirir. Buradan da orqanların xarici fəaliyyəti onların daxili quruluşu ilə - saxlanmış hərəkətliliklə vəhdət təşkil edir. Orqanizm üzvi vəhdət təşkil etdiyindən, bir üzvün fəaliyyəti - dəyişilməsi digər üzvün fəaliyyəti ilə spontan və avtonom harmoniya yaradır və buradan müştərək hərəkətlilik - canlılıq yaranır. İnsan orqanizmində bioloji hərəkətliliklə ruhi fəaliyyət bir-biri ilə vəhdət təşkil etmir, çünki ruh orqanizm üçün ayrıca bir üzv kimi mövcud deyil. Buna görə də Lamettrinin "ürəyi döyünməyə, beyni düşünməyə ruhun məcbur etməsi" ilə bağlı fikri əsassızdır. Ürəyi döyünməyə digər üzvlərin oksigenə və enerjiyə olan tələbatı, digər üzvlərin konkret fəaliyyətə gəlməsinə isə ürəyin tələbatı səbəb olur. Elm artıq sübut etmişdir ki, orqanların fəaliyyəti avtomatizm prinsipinə əsaslanır. Yəni hər bir orqanın işi - ürəyin döyünməsi, sinirin hiss etməsi və beynin düşünməsi avtonom proseslərdir və hər bir orqandakı xüsusi aktiv gücün - canlılığın potensiallığı - həyat enerjisinin tutumu ilə bağlıdır və bir-birindən fərqlidir. Orqanların fəallığının stimulu isə onlardan xaricdə və bir-birindədir.

Avtomatizm parabioz hadisəsinin nəticəsi kimi meydana çıxır. Parabioz - orqanizmi təşkil edən orqanların yaranma və ölmə vaxtlarının, yəni dəyişən zəruri şərtlərin - zaman şərtlərinin - fərqliliyini sübut edir. Parabioz nəticəsində həyat ölümlə tədricən əvəzlənir. Yəni insan orqanizmini təşkil edən orqanlar ayrı-ayrı müddətlərdə ölür. Buradan da iki cür ölüm aşkarlanır: klinik və bioloji ölüm. Klinik ölüm - bəzi orqanların öldüyü halda bəzilərinin həyatı davam etdirməsinin təzahürüdür və ölmüş orqanlara vaxtında müdaxilə ilə yaşayan digər orqanlarla onlar arasında harmoniya bərpa olunur və insan yenidən həyata qayıdır. Bioloji ölüm elə ölümdür ki, yaşayan orqanlarla ölmüş orqanlar təkrar harmoniya təşkil edə bilmir. Parabioz hadisəsinə görə orqanizm bir tam kimi öldükdən sonra ayrı-ayrı orqanlar müxtəlif müddətlərdə həyatilik xarakteristikalarını özlərində saxlayır. Belə orqanları digər orqanizmlərə köçürməklə onların həyatı davam etdirməsinə nail olmaq mümkündür. Buradan aydın olur ki, orqanizmlərin ölümü birməqamlı yox, çoxməqamlıdır və ayrı-ayrı orqanlarda ölüm ayrı-ayrı məqamlarda aktuallaşır. Rus alimi Virxov parabioz hadisəsi ilə sübut etmişdir ki, eyni bir orqanizmdə orqanların zaman şərtlənməsi fərqlidir. Yəni orqanlar embriona - filogenezdə ayrı-ayrı vaxtlarda əmələ gəlir və həyat prosesində - ontogenezdə ayrı-ayrı vaxtlarda ölür. Bu ona gətirib çıxarır ki, orqanizm bəzi orqanlarının, xüsusən qoşa orqanlardan birinin yaranmaması və ya itirilməsi şərtində də yaşamını davam etdirir. Xəstəliklərin yaranması da orqanların məhz belə fərqli məkan-zaman şərtlənməsi ilə bağlıdır. Belə ki, bəzi məkani şərtlər (istilik, soyuq və s.) bir orqana öldürücü təsir etdiyi halda, digərində patoloji vəziyyət yaradır, üçüncü orqana isə heç bir təsir etmir. Eləcə də, zamanla fərqli şərtlənmə nəticəsində bəzi orqanlar, məsələn çəngələbənzər vəz, yetkinlik dövrünədək yaşayır, ondan sonra fəaliyyətini dayandırır, cinsi orqanların fəaliyyəti isə orqanizmin müəyyən yaş dövründən sonra fəallaşmağa başlayır. Bütün bunlar göstərir ki, orqanizmdəki orqanların fəaliyyətini kənar və ümumi bir güc

- xüsusi başlanğıc kimi Ruh idarə etmir. Ruhsuz insanların - imbesillərin yaşaması da bunu bir daha sübut edir. Hər bir orqanın fəaliyyəti həmin orqanın mövcudluğunun məkan və zaman şərtlərinin məcmusundan ibarətdir. Heyvanlarda ruhun olmamasına baxmayaraq, onlarda həyatiliyin olması da bunu inkar edir. Ruh mövcud insandan aydınlaşdığından biz insanı fizika ilə (bədən) metafizikanın (ruh) keçici vəhdətindən - iki bir-birinin əksiliyi olan varlığın - mövcud varlıqla mümkün varlığın vəhdətindən ibarət mürəkkəb mövcudluq kimi təyin edirik. İnsanın cismani və ruhi problemi fəlsəfənin əbədi problemlərindəndir. Metafizikanın da əsas suallarından biri bədənin ruhla əlaqələnməsi və bu əlaqədə onlardan hər birinin ayrılıqda təzahür etməsinin mümkünlüyü ilə bağlıdır.

Haşiyə: V.Frankl "İnsan məna axtarışında"

> *"İnsan varlığının fərqli tərəfi onda antropoloji vəhdətlə ontoloji fərqliliyin vahid insan varlıq üsulunda, onun təzahür etdiyi varlığın müxtəlif formalarında həyata keçirilməsidir. Mənə həndəsi analogiyadan istifadə etməklə insan anlayışını "həndəsi nizamla sübut etməyə" imkan verilib. Söhbət dimenzional ontologiyadan gedir. Dimenzional ontologiyanın ilk iki qanunu belədir: Birincisi, öz ölçülərindən ona münasibətdə aşağı ölçüyə proyeksiya olunan bir və eyni predmet bu proyeksiyalarda elə əks olunur ki, müxtəlif proyeksiyalar bir-birinə zidd olur. İkinci qanuna görə, bir yox, müxtəlif predmetlər, ölçüləri fərqli yox, bir və eyni, ona münasibətdə aşağı ölçüdə proyeksiya olduqda, proyeksiya ziddiyyətli olmur, amma çoxmənalı olur. Dimenzional ontologiyanın işığında fizioloji reflekslərin və psixoloji reaksiyaların sisteminin qapalılığı insan mahiyyətinə ziddiyyət təşkil etmir. Ayrı-ayrı elmlər reallığı o dərəcədə fərqli təsəvvür edir ki, şəkillər bir-biri ilə ziddiyyət təşkil edir. Amma mən əminəm ki, bu əksiliklər reallığın vahidliyinə ziddiyyət təşkil etmir. Bu həm də insan reallığı üçün ədalətlidir. Bu günə kimi heç kəsə insanın somatik və psixoloji aspektlərinin ayrılığını dəf etmək müəssər olmayıb. İnsan vahidliyinə münasibətdə ədalətli olan onun*

açıqlığına münasibətdir. İnsanı qapalı sistem kimi təsəvvür edirlər, hansı ki, şərti və şərtsiz reflekslərin səbəb-nəticə əlaqəsi fəaliyyət göstərir. Bununla yanaşı insan varlığı öz dərinliyində dünyaya açıqlıq kimidir. Qapalılıq və açıqlıq biraraya sığandır. Bu azadlıq və determinizmə münasibətdə də ədalətlidir. İnsan azadlığı - sonuncu azadlıqdır. İnsan şərtlərdən azad deyil, amma o onlara mövqe tutmaqda azaddır. Şərtlər onu tam şərtləndirmir. İnsan azadlığı özündə insanın özü-özündən ayrılmasını düşünür. İnsan ruhu şərtlənib - nə az, nə ondan çox. Bədən heç nəyə təsir etmir, sadəcə şərtləndirir, amma insan ruhunun bu şərtlənməsi son nəticədə insan ruhunun insan bədəninə bağlanmasına səbəb olur."

V.Franklın bədənlə ruhun əlaqələri haqqında fikirlərinə şərh verməklə mövcud insanın təbiətini aşkarlamaq və onda bədənlə ruhun əlaqələrinə aydınlıq gətirmək olar. Hər şeydən əvvəl demək lazımdır ki, insan anlayışı ikimənalıdır. Birincisi bioloji varlıq, yəni mövcudluğun varlığı kimi insan; ikincisi ruhi varlıq, yəni varlığın mövcudluğu kimi insan. Birinci mənada insan özü hissi qavranılan obyektiv gerçəkliyin bir forması, ikinci halda insan intuitiv qavranılan subyektiv gerçəklikdir. Başqa sözlə, birinci mənada insanın heyvani mahiyyəti, ikinci mənada insanın ruhi mahiyyəti ifadə olunur. İnsan vahid bir varlıq forması kimi özündə eyni vaxtda iki cür fərqli və bir-birinə əksilik təşkil edən varlıq forması təzahür etdirir - mövcudluğun varlığı və varlığın mövcudluğu. Birinci bilavasitə və obyektiv dərk olunur, ikinci dolayısı və subyektiv dərk olunur. Birinci təbiət Franklın fikirlərindəki antropoloji vahidliyi, ikinci təbiət ontoloji fərqliliyi ifadə edir. Hansı ki, birinci bədən, ikinci ruh kimi təyin olunur. Buradan aydın olur ki, mövcud insan varlığı özündə bir-birinə əksilik təşkil edən iki mahiyyətə malikdir, hansı ki, həmin əksiliklər özündə ziddiyyət saxlamır. Kosmosda eyni mahiyyətli bütün əksiliklər bir-birinə ziddiyyət saxlamaqla təzahür edir və idrak olunur. İnsan varlığında bədənlə ruh fərqli mahiyyətli olduğundan, əksilik təşkil edir, amma ziddiyyət saxlamır. Bununla da mövcud insan Kosmosdan fərqli qanunlarda mövcud olur. V.Frankl öz şərhində dimenzional on-

tologiyanın qanunlarını tətbiq etməklə məhz bu nəticəyə gəlmişdir ki, müxtəlif predmetlər bir və eyni aşağı ölçüdə proyeksiya olduqda proyeksiya ziddiyyətli olmur, çoxmənalı olur. Bu qanun yalnız formaca müxtəlif, mahiyyətcə eyni predmetlərə şamil edilə bilər. Ruhun forması özündə yoxdur, özündən kənardadır, yəni mövcud insan özündə yalnız bir forma - bədən forması təzahür etdirir, hansı ki, daxildə iki mahiyyətlə - bədənin və ruhun mahiyyəti ilə vəhdət təşkil edir. Bu cür ikili vəhdətdə bir mahiyyətlə eyni forma paralel mövcud olur, buna görə də formadan mahiyyət hissi qavranılır, digər mahiyyətlə eyni forma fərqli mövcud olur, nəticədə hissi qavrama ilə formadan mahiyyət aşkarlanmır.

İki mahiyyətin eyni bir forma ilə müştərək vəhdət təşkil etməsinə görə formadan həm bədənin, həm də ruhun mahiyyətini - birini bilavasitə, digərini dolayısı ilə qavramaq olur. Ruhla bədən Vahid formada əlaqələnir. Bu əlaqədə bədənin mahiyyəti formadan keçməklə ruha, ruhun mahiyyəti formadan keçməklə bədənə təsir edir. Nəticədə bədənin somatik aspekti ruhun psixoloji aspektinə və əksinə ruhun psixoloji aspekti bədənin somatik aspektinə təsir edir. Bədənin forması bədənin mahiyyəti ilə daimi, ruhun mahiyyəti ilə keçici vəhdət təşkil edir. Buna görə də, bədən ruhun şərtinə çevrilir. Hansı ki, bədənin mahiyyətinin forması ilə vəhdəti birincili, bədənin forması ilə ruhun mahiyyətinin vəhdəti ikincili olur. Ruh özündən kənar mövcudluq əldə etdikcə, bədənin formasından, yəni insan mövcudluğundan uzaqlaşır, hansı ki, bunu özündən transendensiya kimi adlandırırlar. Əslində ruh bədəndən transendensiya etməklə özünə keçir. Ruhun öz mövcudluğuna keçidi insanın dərinliyində açıqlığı ilə bağlıdır. Başqa sözlə, mövcud insanın səthi tərəfi bədənin forması ilə mahiyyətinin vəhdəti, dərinliyi ruhun mahiyyəti ilə bədənin formasının vəhdətidir. Ruhun mahiyyəti ilə bədənin forması ikincili və keçici vəhdət təşkil etdiyindən, açıqlıq xarakteristikasına malik olur, hansı ki, ruh məhz bu açıqlığa görə bədənin mövcudluğundan transendensiya edərək öz xüsusi mücərrəd mövcudluğuna keçir. Buradan

aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Ruhla bədən bir-birinə ziddiyyət təşkil etməyən əksiliklər kimi mövcuddur. Ruh mövcud insan varlığında bədənin forması ilə onunla müştərək vəhdət təşkil etməklə fəaliyyət göstərir və bu fəaliyyətlə özünə özündən kənar mövcudluq yaratmaqla bədənin mövcudluğundan tədricən transendensiya edir. Başqa sözlə, Ruh bədəndən istifadə etməklə özünə mövcudluq yaradaraq onu tərk edir.

Ruhun varlığı bu vəhdətdən bədənin əksiliyi kimi aşağıdakı kimi aşkarlanır:

1. Bədən müvəqqəti mövcudluq, ruh onun əksiliyi kimi əbədi varlıqdır. Bədənin mövcudluğu əvvəl, mövcud olması sonradır. Yəni bədən aktuallaşmış varlıqdır. Ruhun mövcud olması əvvəl, mövcudluğu sonradır; yəni ruh faktuallaşmağa cəhd edən varlıqdır. Biz faktuallaşmanı aktuallaşmaya əks prosesi ifadə edən anlayış kimi təyin edirik. Əgər faktın akta keçməsi aktuallaşma prosesindən ibarətdirsə, onda ruhun aktının fakta keçməsi faktuallaşma prosesindən ibarətdir. Buradan da aşağıdakı pnevmatoloji ideya alınır: Bədən - aktuallaşmanın şərtlərinin məcmusundan, Ruh - faktuallaşmanın şərtlərinin məcmusundan ibarətdir.

2. Bədən hissi qavranılan maddi şey, ruh qeyri-hissi, qeyri-maddi qavranılan "şey"dir. Buradan da bədənin həqiqəti şübhə ilə, ruhun həqiqəti düşüncə ilə dərk olunan olur. Buradan aşağıdakı ideya aşkarlanır: Mövcud insanın dəqiq həqiqəti onun ruhi həqiqətidir, bədən həqiqəti isə şübhəli, yəni qeyri-dəqiq həqiqətdən ibarətdir.

3. Bədən tək kimi çoxluqla, fərqlilik kimi mövcuddur. Ruh tək kimi çoxluqda eynilik kimi mövcuddur, yəni ruh eyni zamanda tək-fərd və insanlıq kimi çoxluqdur. Buradan da ruhun daxili çoxluğu meydana çıxır, hansı ki, bunu ictimailik kimi qavrayırıq.

4. Bədən forma ilə mahiyyətin vəhdətindən ibarət mövcud varlıqdır, ruh yalnız mahiyyətə malik olub, mövcud bədənin forması ilə vəhdətdə onunla şərtlənmiş varlıqdır. Beləliklə, bədən bir tərəfdən vəhdəti, digər tərəfdən şərtlənməni özündə təqdim edir. Buradan aşağıdakı pnevma-

toloji ideya aşkarlanır: Bədən - ruha münasibətdə təsadüfi, özünə münasibətdə zəruri şərtlərin məcmusundan ibarətdir.

Bu cür əlaqələnmədə bədən həm özünü, həm ruhu təzahür etdirir, öz növbəsində ruhi fəaliyyət həm də bədənin təsirlərini xaricə çıxarır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Mövcud insan öldükdə bədənin daxili vəhdəti pozulur, onun mahiyyəti formasından ayrılır və forması yeni mahiyyətlə vəhdət təşkil edir, yəni cismə çevrilir, amma ruhla yalnız şərtlənməsi pozulur; fiktiv ruh formal ruh kimi varlığını davam etdirir. Bədəndən kənar ruh özü-özündə şey kimi xalis transendental varlıqdır, başqa sözlə şeydən kənar "şey"dir. Burada şeydən kənar o mənada işlədilir ki, şeylə heç bir ortaq tərəfi yoxdur. Buna görə də ruhu şeydən fərqləndirmək üçün obyektin əksiliyi kimi subyekt anlayışı ilə ifadə edirlər. Ruhun bədənlə birlikdə təzahürü subyekt kimi təzahür edir. Yəni ruhsuz insan - obyekt, Ruhlu insan - subyektdir. Beləliklə, xalis Ruhun ideyasını subyektin parçalanmasından - bədənlə ruhun bir-birindən ayrılmasından əldə etmək mümkündür. Subyekt bədən və ruhun vəhdətindən ibarət olduğundan, o bir tərəfdən metafizikadan fizikaya keçidi təmin edir (buna görə biz təbiət haqqında bilik əldə edirik və bunun qanunlarını transendental fəlsəfə öyrənir), həm də subyekt fizikadan metafizikaya keçidi təmin edərək xalis metafizik bilgilər əldə etməyə imkan verir. Metafizik bilgilərin məcmusundan metafizik ideyalar meydana çıxır, hansı ki, İ.Kant transendental ideyalar adlandırır və həmin ideyalardan biri kimi "özündə düşünən subyektin mütləq (şərtsiz) vəhdətindən ibarət olan" ideyanı müəyyən edir. Özündə düşünən subyektin şərtsiz vəhdətini biz İnsanlıq (Ruhun total formal varlığı) kimi təyin edirik. Şərtsiz vəhdət bədənin iştirakı olmadan Ruhun vəhdətini özündə ifadə edir. Burada "vəhdət" sözü empirik vəhdətdən fərqli mənada - fenomenoloji vəhdəti özündə ifadə edir. Empirik vəhdət hissi qavranılan fərdi əbədi maddi şeylərin ən ümumi mövcudluq üsuludur. Fenomenoloji vəhdət - qeyri-hissi, qeyri-maddi qavranılanların bir anlayışa daxil

edilməsindən yaranan vəhdətdir. Beləliklə, biz insanı digər bütün varlıqlardan fərqləndirən bütün anlayışların vəhdətini özündə təqdim edəni Ruh kimi təyin edirik. İnsanı digər varlıqlardan fərqləndirən bütün anlayışlar bir sözdə - "düşünən" sözündə cəmləndiyindən ruhu həm də düşünən varlıq kimi də təyin etmək olar. Beləliklə, "Mən düşünürəm, deməli, mövcudam" fikri bütünlükdə ruhun mövcudluğunu özündə təqdim edir.

Ruhun varlığı məsələsi fəlsəfənin məhək daşı kimi bu gün də öz aktuallığını saxlayır. Lakin metafizika üçün Ruh mütləq metafizik obyektdir. Ona görə də metafizika elmdən və fəlsəfədən fərqli olaraq Ruhu öyrənmək vəzifəsini yerinə yetirir. Deməli, Ruhun total formal varlığı - İnsanlıq - əsas metafizik ideyalardan biri kimi mövcuddur və metafizikanın əsas vəzifəsi bu ideyanı şərh etməkdən ibarətdir. Subyektin mütləq vəhdətini şərh etmək üçün istifadə edilən anlayışlar da məhz yalnız subyektin özündən sintez olunmalıdır ki, onun şərtsizliyinə cavab versin. Kant da belə hesab edir ki, ağlın xalis anlayışlarının bir növünü məhz "subyektdə şərtsiz kateqorik sintezlə" əldə etmək olar. Hər bir transendental ideya həm də özünəxas dialektik əqli nəticə ilə əldə edilə bilər. İ.Kant "düşünən subyektin mütləq (şərtsiz) vəhdətindən" əqli nəticənin növünü, özündə heç bir çoxluq saxlamayan subyektin transendental anlayışından, belə yolla heç bir anlayışa malik olmağın mümkün olmadığı, bu subyektin mütləq vəhdətindən çıxarılmasını transendental paraloqizm kimi təyin etmişdir. Beləliklə, İ.Kantın fikirlərindən aşağıdakı məsələyə aydınlıq gətirmək lazım gəlir: "Düşünən subyektin mütləq vəhdəti" özündə nəyi ifadə edir? Bunun üçün "mütləq vəhdət" anlayışına aydınlıq gətirmək lazımdır. Vəhdət - birinin digərinin şərti olmaqla mövcud olmanı ifadə edən metafizik anlayışdır. Belə ki, vəhdət - vəhdətdə olan şeylərdən yox, onların hər ikisindən kənarda, onların arasından, transendental anlayışla aşkarlanır. Təbiətdə şeylərin səbəb-nəticə əlaqəsində olması vəhdət kimi təzahür edir. İki cür vəhdət müəyyən edə bilərik: a)

Nisbi vəhdət və ya təsadüfə görə vəhdət - transendental vəhdət: Daxili vəhdətə - zəruri şərtlərin məcmusuna malik müstəqil şeylərin təşkil etdiyi təsadüfi şərtlərə görə xarici vəhdəti biz nisbi və ya təsadüfə görə vəhdət adlandırırıq. Nisbi vəhdət xarici səbəblə səbəb-nəticə əlaqəsində yaranan vəhdətdir, ona görə də xarici şərtlərin dəyişilməsindən vəhdətin mahiyyəti dəyişir. Nisbi vəhdətdə şey sabit qalır, onu şərtləndirən xarici təsadüfi şərtlər dəyişir. b) Mütləq vəhdət və ya zərurətə görə vəhdət - immanent vəhdət: Zəruri sabit və ya dəyişən şərtlərin məcmusundan ibarət daxili vəhdəti biz mütləq vəhdət və ya zərurətə görə vəhdət adlandırırıq. Mütləq vəhdət daxili səbəblə səbəb-nəticə əlaqəsində olmaqdan təzahür edir. Yəni bir şey eyni zamanda özü-özünün səbəbi və nəticəsi kimi mövcuddursa, deməli, mütləq vəhdətdədir. Mütləq vəhdətdə daxili şərtlərin dəyişilməsində şey özü dəyişir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Ruh - Düşünən subyekt - başqa subyektlərlə mütləq, yəni zərurətə görə, bədənlə nisbi, yəni təsadüfə görə vəhdət təşkil edir.

Bəs obyektiv varlıqla subyektiv varlığın mütləq vəhdəti bir-birindən necə fərqlənir? Kant substansiya kateqoriyası ilə ruhu belə təyin edir: "Ruh substansiyadır, öz keyfiyyətinə görə sadədir, öz mövcudluğunun müxtəlif vaxtlarında say eyniliyidir, yəni özündə vahidliyi (çoxluğu yox) təqdim edir, məkanda mümkün predmetlərlə münasibətdə olur". Buradan da belə bir metafizik nəticə çıxara bilərik ki, ruh forması olmayan xalis mahiyyətdir, o qədər sadədir ki, yalnız özündə bir təzahür - düşünmə təzahürü göstərə bilir, təkdir və tək eyniliyinə malikdir (yəni bütün təklərdə eynidir) və təcrübə sahəsində mövcudluqların yalnız mümkün varlıqlarına münasibətdə olur, yəni öz forması olmadığından heç bir halda forma ilə münasibətə girmir. Ruhun bu keyfiyyətlərinin bir çoxu kvantın xarakteristikaları ilə eynilik təşkil edir, hansı ki, kvantlar da yalnız say kimi mövcuddur, yalnız bir əlamətlə təzahür edirlər, məkanda eyni vaxtda bir neçə yerdə aşkarlanırlar və fiziki dünyanın heç bir qanun-

una tabe olmurlar. Kvantlardan Ruh onunla fərqlənir ki, heç vaxt ruh hissəcik kimi təzahür etmir, yəni xalis metafizik dalğa təbiətlidir. İ.Kant transendental fəlsəfədə Ruhun təyininin üsulu kimi paroloqizmi təklif etmişdir. Paroloqizm termini İ.Kantda yalan nəticə, yalan əqli nəticə mənasını verir.

Haşiyə: İ.Kant "Xalis zəkanın tənqidi"

> *"Məntiqi paroloqizm formasına görə ürəyin istəyən mahiyyətlə yalan əqli nəticədir. Transendental paroloqizm isə əqli nəticənin formasına görə yalan üçün transendental əsasa malikdir. Beləliklə, belə səhv əqli nəticə öz əsası ilə insan təbiətindədir və özündə qaçılmaz, baxmayaraq ki, həm də dəfedilməz, illüziyadır."*

Beləliklə, İ.Kant subyektin şərhi üçün istifadə etdiyi transendental paraloqizmi əsası insan təbiətində olan, məhz formaca yalan və istənilən mahiyyəti əlaqələndirmək mümkün olan kimi təyin etmişdir. Və bu zaman "mən düşünürəm" anlayışını forma kimi transendental paraloqizmlə şərh edərək bu qənaətə gəlmişdir ki, düşünən mövcudluq kimi Mən rasional psixologiyanın predmetidir və ruh haqqında bilgi heç bir təcrübədən asılı olmayaraq Mən anlayışından çıxır. Mən haqqında mühakimə yalnız metafizik predmetlərin bir növü olan kateqoriyalarla mümkündür.

Haşiyə: İ.Kant "Xalis zəkanın tənqidi"

> *"Dərk edilməyən müəyyən edən Mən, amma yalnız dərk edilən müəyyən olunan Mən, yəni mənim daxili seyrim (nə qədər ki, onun çoxformalılığı ümumi şərtə uyğun düşüncədə appersepsiyanın vəhdətində birləşə bilər) və obyektdir."*

Bütün mühakimələrdə Mən həmişə müəyyən edən o münasibətin subyektidir ki, düşüncəni təşkil edir. Ancaq bu o demək deyil ki, mən obyekt kimi müstəqil mahiyyəti və ya substansiyanı təşkil edirəm. Axırıncı mühakimə çox uzağa gedərək, düşüncədə heç də olmayan

məlumatlar tələb edir; ola bilsin o mənim nə vaxtsa tapa biləcəklərimdən daha çoxunu tələb edir.

1. Mən - appersepsiya müddəası bütün düşüncələrdə təkdir və bu təklik subyektlərin çoxluğuna bölünə bilməz, məntiqi sadə subyekti bildirməli idi - artıq düşüncə anlayışında verilmişdir və buna görə də analitik mühakimədən ibarətdir; ancaq bu o demək deyil ki, düşünən Mən sadə substansiyadır.
2. Mənim özümün eyniliyi haqqında mühakimə mənim bütün dərk etdiyim çoxformalılıqda mühakimədir, həmçinin anlayışların özünə qoyulmuşdur və analitik olmalı idi; ancaq onun bütün təsəvvürlərində mənim tərəfimdən dərk edilən subyektin bu eyniliyi, bilavasitə obyekt kimi verilmiş, onun seyrinə aid deyil; ona görə də bu eynilik. yalnız "mən düşünürəm" mühakiməsinin analizi ilə şəxsiyyətin eyniliyi ola bilməz.
3. Mən düşünən mövcudluq kimi öz xüsusi mövcudluğumu məndənkənar bütün şeylərdən (həmçinin mənim bədənim aiddir) fərqləndirirəm; bu da məndən fərqli düşündüyüm başqa şeylərin mahiyyəti kimi analitik mühakimədir. Buradan mən bilmirəm ki, məni idrak edən, bilavasitə təsəvvürlərin mənə verdiyi məndənkənar şeylərsiz mümkündürmü və yalnız düşünən mövcudluq kimi (insan olmadıqda) mövcud ola bilərəmmi. Beləliklə, mənim özümün dərketmənin analizi düşüncədə ümumiyyətlə obyekt kimi mənim özüm haqqında heç bir bilgi vermir.

Burada İ.Kantın xalis zəkanın paraloqizmi haqqında əsas mühakimələrini sitat gətirdik. Həmin sitatdan görünür ki, xalis zəka (biz xalis zəkanı Ruhun müstəqil mövcudluğunun materiyası kimi təyin edirik) İ.Kant tərəfindən "Mən düşünürəm" müddəası əsasında aparılmışdır. Kantın paraloqizminin əsasını "mən məni düşünə bilirəmmi?" sualı ilə suallandırmaq olar. Buradan da, birinci Mən müəyyən edən, ikinci Mən müəyyən olunan kimi çıxış edir. Yəni Mən

həm özü-özündə, həm də özü-özündənkənar şey kimi olmalıdır. Düşüncə yalnız bir halda mümkün ola bilər ki, obyekt yalnız müəyyən olunan kimi çıxış etsin, yəni məndənkənar şey olsun. Beləliklə, "mən məni düşünürəm" mühakiməsində eyni bir obyekt həm müəyyən edən - özündə olan, həm də müəyyən olunan - özündənkənarda olan kimi çıxış edir. Bu aşağıdakılara görə izah oluna bilər:

1. **Təbii varlıqların yalnız bir substansiyaya malik olması:** Empirik idrakla, mən müəyyən edənəmsə, onda eyni anda müəyyən oluna bilmərəm. Yox, mən müəyyən olunanamsa, onda eyni zamanda müəyyən edən ola bilmərəm. Metafizik idrakla düşünən Mən eyni anda iki bir-birinə əks, müxtəlif vəziyyətdə ola bilər. Bu özünüdərk Ruhun məkan və zaman asılılığının təbiəti ilə izah oluna bilər. Obyektiv gerçəkliklər eyni zamanda yalnız özlərinin bir vəziyyətində ola bilir. Məsələn, hər hansı bir maddə eyni zamanda həm bərk, həm maye, həm qaz halında ola bilməz. Çünki bu vəziyyətlər hər biri xüsusi xarici şərtlə bağlıdır. Ruhun xarici şərtlənməsi mövcud insana münasibətdə daxilidir və mövcudluqların bir-birinə keçidinə uyğun ruhda daxili keçid baş verir. Nəticədə ruh müəyyən olunandan müəyyən olunana keçir. Yəni eyni zamanda həm dərk edən, həm dərk olunan olur. Başqa sözlə, ruh eyni anda özünün müxtəlif vəziyyətlərində ola bilir. Buna görə də o müəyyən edən kimi çıxış edəndə həm də müəyyən olunan, müəyyən olunan kimi çıxış etdikdə müəyyən edən kimi olur. Buradan da "dərk edilməyən müəyyən edən Mənlə" "dərk olunan müəyyən edən Mənin" ziddiyyətindən meydana çıxan xalis zəkanın paraloqizminin əsası dağılır. Yuxarıda şərh etdiyimiz kimi, ruh eyni anda həm müəyyən edən, həm müəyyən olunan, yəni həm dərk olunan, həm dərk olunmayan olduğundan, müəyyən olunan kimi dərk etdiklərimiz müəyyən edən kimi dərk olunmayan məni və əksinə müəyyən edən kimi dərk olunmayan mən, dərk edilən müəyyən olunan mənə eynilik təşkil edir. Bununla da,

"düşünən Mən"də özündə antinomiya saxladığını aşkarlayırıq, hansı ki, kosmologiyada yalnız özündənkənar antinomiya aşkarlanır.

2. **İstənilən müəyyən edilən - özündənkənar şey kimi obyektdirsə,** müəyyən edən mənin "müəyyən etdiyi mən" də obyekt olmalıdır. Əgər obyekt deyilsə, onda müəyyən edilənlik xüsusiyyətinə malik deyil, yəni dərk olunmazdır. Kantın "müəyyən olunan mənin obyekt olması, mənim nə vaxtsa tapa biləcəklərimdən daha çox, düşüncədə olmayan çoxlu məlumatlar tələb edir" mühakiməsi əslində müəyyən olunan mənin obyekt olmaması ilə bağlı Kantın əsas arqumentidir. Artıq bu gün kvant fizikası elə məlumatlar əldə etmişdir ki, bu məlumatlar əsasında biz müəyyən olunan mənin və eyni zamanda müəyyən edən mənin obyekt olduğunu, yəni Kantın təbirincə desək, xalis zəkanın insandan kənar mövcud olmasını sübut etməyə kifayət qədər əsas verir.
3. **Düşünən mənin sadə substansiya olması,** onun bölünməzliyi haqqında fikirlər də əslində ruhun mahiyyətini anlamaqda çətinlik yaradır. Bölünənlik bir fiziki hadisə kimi real varlıqlara - hissəsi olan varlıqlara aid edilə bilər. Ruh mütləq tam olduğundan, onda bölünənlik keyfiyyəti olmadığından o, obyektiv gerçəkliklərdən aşkarlanan sadə substansiya kimi qəbul edilə bilməz. Belə ki, obyektiv gerçəkliklər "burada və indi" prinsipinə tabedir. Bu prinsip özündə onu ifadə edir ki, hər hansı bir reallıq eyni anda yalnız bir yerdə ola bilər. Ruh bundan fərqli "indi və hər yerdə" prinsipinə tabe olur. Yəni Ruh kvant hissəciklərinin təbiətinə uyğun olaraq eyni vaxtda müxtəlif yerlərdə ola bildiyindən, ayrı-ayrı insan bədənlərində eyni bir düşünən mən kimi mövcud olur, bu da özündə çoxluq saxlamayan təklik kimi meydana çıxır. Bu da düşünən mənin özündə mürəkkəblik saxlamayan sadə substansiya olduğunu və buna görə də özündə mürəkkəblik saxlayan sadə substansiyadan fərqli olaraq yalnız sintetik mühakimə ilə aşkarlanan olmasını deməyə əsas verir.

Kantın xalis zəkanın paraloqizmi ilə bağlı fikirlərinə aşağıdakı digər izahları vermək zəruridir:

Fenomenoloji vəhdətin empirik vəhdətdən fərqi: Empirik vəhdətdə özündə-şey eyni zamanda başqa özündə-şeyə görə özündənkənar şeydir. Buradan da, hər bir özündə-şey özündə zərurətə görə özündə-şeylə, təsadüfə görə özündən başqanın ziddiyyətini saxlayır. Ruh özündə-şey deyil, ona görə də onda antinomiya - empirik vəhdətdə olan şeyə xas əlamət yoxdur. Belə bir ziddiyyət olmadığından, idrak yalnız ziddiyyətlərdən əqli nəticə çıxara bildiyindən, transendental fəlsəfədə ruh haqqında bilgi transendental məntiqlə paraloqizm kimi idrak olunur.

Transendental fəlsəfə metafizikadan təbiətə qayıdışa xidmət edən anlayışlardan istifadə edir və bu zaman təcrübə sahəsinə uyğun gəlməyən anlayışları yalan hesab edir. Çünki belə anlayışlar təcrübədə şeydə başa çatır və dayanır, yəni dialektik idrakı sonlu olur. Metafizika əksinə transendental anlayışlardan istifadə edərək metafizikanın dərinliklərinə gedir və nəticədə metafizik anlayışların dialektikası sonsuzluq keyfiyyəti əldə edir.

"Düşünən mənin şərtsiz vəhdəti" necə təcrübədə fərdlər kimi - şərtlənmiş-nisbi vəhdət kimi çıxış edir? Xalis ruh mümkün varlıqdır. Mümkün varlıq olduğundan mövcud varlıqdan fərqli olaraq sonsuz sayda şərtlənmə potensialını özündə saxlayır. Necə təbiətdə sonsuz sayda fərdi əbədi şeylərin məcmusu "nə"ni əmələ gətirir, eləcə də eyni bir ruh sonsuz sayda ən müxtəlif bədənlərlə birləşərək məcmu şəkildə "kim"i əmələ gətirir. "Kim" - xalis ruhun bədənlə şərtlənməsini ifadə edən transendental noumendir. Hansı ki, bədəndən kənar xalis zəkanı - Ruhu özündə təqdim edir. "Düşünən Mən"in idrakına cəhd edərkən biz özümüz də düşünən Mən olduğumuzdan, formaca ona kənar şey kimi baxsaq da, yəni guya biz bizdən kənarda olan obyekt kimi düşünən məni tədqiq etsək də, əslində biz özümüz də həmin anda düşünən mən

olduğumuzdan, o bizim üçün yalan forma kimi kənar şey olur. Halbuki, həqiqətdə "sən" və "o" Mən özüməm. Buradan da, əslində biz "guya özümüzdən kənar" Düşünən mən haqqında əldə etdiyimiz məlumatlar da mahiyyətcə yalan olur. Yəni transendental paraloqizmdə Düşünən mən haqqında məlumatlar formaca düz, mahiyyətcə yalan, metafizik paraloqizmlə - transendental paraloqizmin paraloqizmi ilə əldə etdiyimiz məlumatlar formaca yalan - mən, sən, o kimi, mahiyyətcə düz olur. Yəni biz heç bir halda düşünən məni özümüzə münasibətdə kənar şey kimi düşünə bilmərik. Əgər bir şeyi düşünə bilmiriksə, bu bizim üçün idrakın qeyri-mümkünlüyü kimi təzahür edir. "Ruh yoxdur" müddəası da özündə Ruhun dərk edilməzliyini təqdim edir. Buradan da Ruhun empirik və transendental fəlsəfi idrakının mümkünsüzlüyü meydana çıxır. İ.Kantın "özündə düşünən subyektin şərtsiz vəhdəti" ilə bağlı paraloqizmi əslində elmin həmin dövrdəki inkişafı ilə bağlı meydana çıxmışdır. Lakin kvant fizikasının və digər elmlərin müasir elmi nəticələri göstərir ki, Ruh haqqında Kantın paraloqizminin özü paraloqizmdən başqa bir şey deyil.

Ruhun idrakı yalnız kvant fizikasının qanunlarından və kvant predmetlərinin xassələrinə uyğunluqdan mümkündür. Buradan da Ruhun həqiqəti ilə bağlı aşağıdakı definisiyaları müəyyən edə bilərik:

1) **Ruh** - materiyanın əksiliyi kimi xalis mümkün varlıq olan antimateriyadır. Hansı ki, özündə bədənin həqiqətinin azalma meylini daşıyan elektron-pozitron dalğa funksiyalarından ibarətdir.
2) **Ruh** - eyni vaxtda kvant hissəciklərinə xas olan, sonsuz müxtəlif yerdə ola bildiyindən, sonsuz insan çoxluğunda yalnız bir ruh, Ruhun total Formal varlığı - İnsanlıq vardır.
3) **Ruh** - eyni vaxtda özünün müxtəlif zamanlardakı vəziyyətində ola bildiyindən, keçmişdə yaşamış, indi yaşayan və gələcəkdə yaşayacaq bütün insanlarda formal ruh bir və eynidir.
4) **Ruh** - bədənlə şərtləndiyindən bədənlə şərtlənmiş vəziyyətində sonlu, bədənlə şərtsizləşəndə əbədidir.

5) **Ruh** - özündənkənar antinomiya saxlamadığından və özündə antinomiyaya malik olduğundan insanda Ruhu aşkarlamaq mümkün deyil.
6) **Ruh** xalis həyəcanlanmış dalğa funksiyası kimi mövcud olduğundan, Allahla birtərəfli virtual əlaqədədir. Yəni Allah virtual olaraq Ruha təsir edərək onu özünün istədiyi kimi dəyişdirir və bunun əksinə olaraq obyektiv gerçəkliklər bilavasitə Ruha təsir etmək imkanına malik deyil və onların ruha təsiri bədənlə, hissi qavrama ilə dolayısı ilə mümkündür.

"Mən düşünürəm" müddəasındakı "düşünürəm" - Mənin idrak obyektinə, "özü-özünə düşünənə" münasibətidir. Əgər düşünürəm münasibətdirsə, onda nəyinsə nəyəsə münasibətidir. Buradan da Mən ruhu özündə ifadə edən xalis metafizik anlayış kimi çıxış edir.

Ruhla bədənin təzahürləri onların vəhdətindən meydana çıxdığından, mövcud insanda nə xalis bədənin, nə xalis ruhun təzahürlərini aşkarlamaq mümkün deyil. Belə ki, bədənin istənilən təzahüründə ruhun təsirlərini, ruhun istənilən təzahürlərində bədənin təsirlərini aşkarlamaq mümkündür. Amma mövcud insanın təzahürlərindən hisslərin obyektlərlə əlaqəsinə görə hansı hissin ruhi əsasda olması, hansının bədən əsasında olmasını aşkarlamaq olar.

Haşiyə: Ditrix fon Qildebrand "Məhəbbətin metafizikası"

> *"Şəxsi mövcudluq istənilən impersonal mövcudluqdan müqayisə olunmaz dərəcədə iyerarxik yüksəkdir və əgər insan şəxsi mövcudluğuna tələb olunan əlahiddə xüsusiyyətlər verirsə, onda o elə belə varlığa və metafizikaya daha dərin nüfuz edir. Bizə bilavasitə verilmiş aktların - iradənin, məhəbbətin, kədərin, peşmançılığın mahiyyətini anlamaq üçün analoji fenomenlərdən, məsələn heyvanların instinktiv meyillərindən çıxış etməyin heç bir mənası yoxdur. Analogiyadan çıxış edərək və onlara növ keyfiyyətində baxaraq, hesab edərək ki, bununla iradənin tədqiqi daha ümumi və "daha metafizik" səviyyədə aparılır - bu düzgün üsul öncədən onun mahiyyətini qaranlıqlaşdıracaq və onun həqiqi*

spesifikliyini görməyəcək. Əgər biz insan həyatında xüsusi rol oynayan xüsusi şəxsi pra-fenomendən çıxış etməsək, məhəbbətin mahiyyətinin anlanılmasına yol əvvəlcədən bağlanacaqdır. Biz yalnız onda məhəbbətin mahiyyətini anlayacağıq ki, o hərfi mənada bizə veriləcək. Bundan başqa, məhəbbəti öyrənərkən özü-özünə məhəbbətdən başlamaq olmaz, biz bütün elementlərə malik başqa insana məhəbbətdən başlamalıyıq."

D.Qildebrandın fikirlərini şərh etməklə mövcud insanın təzahürlərindən ruhun xüsusi təzahürlərini daha aydın müəyyənləşdirmək mümkündür. Birincisi, ikili vəhdət təşkil edən bədəndən buna uyğun ikili təzahür meydana çıxır: bir tərəfdən bədənin öz xüsusi təzahürləri, digər tərəfdən bədənin forması ilə keçici şərtlənmiş ruhun təzahürləri meydana çıxır. Bədənin təzahürləri bədənin formasından dolayısı ilə bizə ümumi fenomenlər kimi verilir. Hansı ki, hisslə obyektin vəhdəti kimi mövcud olur. Fenomenin təzahürü özündən əvvəl mövcudluq tələb edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Ruhun mövcudluğu olmadığından, onun ona dolayı verilmiş fenomenləri yoxdur.

D.Qildebrandın şərhindən görünür ki, bizim ruha aid etdiyimiz təzahürlər - iradə, məhəbbət və s. bizə bilavasitə, yəni konkret mövcudluqsuz, pra-fenomenlər kimi verilir. Ruh obyektiv varlıqdan fərqli olaraq, mövcudluqsuz mövcudolma kimi yarandığından, ruhun təzahürləri də təbii olaraq pra-fenomenlər kimi meydana çıxır. İkincisi, pra-fenomenlər fenomenlərdən fərqli olaraq, özündən sonra mövcudluq tələb edir. Pra-fenomenin obyekt tələbi obyektin hissdən sonra və ondan yaranmasını şərtləndirir, buna görə də həqiqi məhəbbət fərddən kənarda, başqa insana olan məhəbbət kimi meydana çıxır, hansı ki, iki şəxsi bir-biri ilə bağlayaraq mücərrəd ruhi qurulmanı təmin edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Ruhdan yalnız pra-fenomenlər meydana çıxır, hansı ki, başqa insanlardan çıxan pra-fenomenlərlə birlikdə ruhun mövcudluğunu yaratmağa xidmət edir.

BƏDƏNLƏ RUHUN BİR-BİRİNƏ MÜNASİBƏTİ

Bədənlə ruh arasında münasibətin üç müxtəlif formasını ayırd etmək olar.

1. **Bədənlə ruhun paralel aktuallaşması:** Bədənlə ruhun bu cür münasibəti fəlsəfədə okkazionalistlər tərəfindən şərh edilmişdir. Okkazionalizmə görə bir sıra hadisələr maddi və əqli (ruhi) aləmdə paralel kurslarda elə şəkildə gedir ki, birindəki hadisələr həmişə digərinə uyğun olur. Ruhla bədənin bu cür əlaqələnməsi yaşam təcrübəsi ilə həyat təcrübəsinin vəhdəti kimi meydana çıxır. Başqa sözlə, bədənin təbii tələbatlarının şüurlu ödənilməsi okkazional proses kimi meydana çıxır, hansı ki, ruhi aləmlə maddi aləmdə baş verənlər məna baxımından bir və eyni olur. Şüurlu insanın mövcudluq üsulu məhz okkazional kimi meydana çıxır.
2. **Bədənlə ruhun ayrı-ayrılıqda müstəqil şəkildə aktuallaşması:** Nümunə kimi bura yuxuluqda ruhun bədənin iştirakı olmadan aktuallaşmasını (yuxugörməni) və ya parapsixoloji təzahürləri və ya ruhun iştirakı olmadan parasimpatik sinir sistemindən fərqli qaydada parasimpatik sinir sisteminin daxili orqanları idarə etməsi aid edilə bilər, hansı ki, avtomatizm və spontanlıq xarakteristikalarına malikdir. Başqa sözlə, insanda heyvaniliyin təzahürləri ruhun iştirakı olmadan, insanlığın təzahürləri bədənin iştirakı olmadan meydana çıxır.
3. **Bədənlə ruhun bir-birinə zidd aktuallaşması:** Bura ruhun bədəndən azad olma cəhdi (ekzistensiya) və bədənin ruhdan azad olma cəhdi (ekspressiya) aiddir.

BƏDƏNLƏ RUHUN OKKAZİONAL ƏLAQƏSİ - EQO

Kosmosda xarici vəhdətdən kənarda heç bir təzahür mümkün olmadığından, Formal Ruh təzahür etmək üçün obyektiv gerçəkliklərlə, yəni mövcud varlıqla xarici vəhdət təşkil etməyə meyl edir. Formal Ruh

metafizik qanunlara tabe olduğundan, yəni bilavasitəliyi və obyektivliyi olmadığından, onun təbiət qanunlarına tabe olan xarici obyektlərlə bilavasitə xarici vəhdət təşkil etməsi mümkünsüzlükdür. Belə ki, Formal Ruh özündə xaosu, xarici mövcudluqlar nizamı təqdim edir. Beləliklə, Formal Ruhun Kosmosda mövcud olması üçün onun elə bir vasitəyə ehtiyacı var ki, həmin vasitə özündə bir qanunlar sistemindən digərinə keçidi təmin edə bilsin. Belə vasitə rolunu insan bədəni oynayır. Formal Ruhun bədənlə əlaqələnməsində bədən Formal Ruhun xarici mövcudluqlara təsirində özündə ruhun xaosunu nizama, xarici mövcudluqların ruha təsirini də mövcudluqların nizamını xaosa keçirir. Nəticədə, bədən vasitəsi ilə fərqli qanunlar sisteminə tabe olan ruhla materiya xarici vəhdət təşkil edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: İnsan bədəni ilə ruhun əlaqəsi - metafizikanın qanunlarından fizikanın və əksinə keçidin şərtlərinin məcmusundan ibarətdir.

Bədənin özündə xaosu nizama, nizamı xaosa keçirməsinin təzahürlərindən xarakter, psixologiya, şüur, yaradıcılıq və s. kimi şüurlu insana xas olan predikabiliyalar meydana çıxır, hansı ki, nə xalis şəkildə Formal Ruha, nə də materiyaya xas deyildir. Bədən ikincili mövcudluq kimi dəyişən zəruri şərtlərdə daxili, digər mövcudluqlarla təsadüfi şərtlərdə xarici vəhdətdə mövcud olur. İlahi iradədən zəruri şərtlər verildiyindən bədən zərurətə görə mövcud olur. Beləliklə də bədən hər cür azadlıqdan, yəni xaosdan kənarda özündə xalis nizam və ya sərt məhdudiyyətdə mövcud olur. Daxili zərurətə görə mövcud olduğundan, bədənin özünün təzahür və təsirlərini bilavasitə müdaxilə imkanı yoxdur, yəni bədən iradəsizdir. Formal Ruh İlahi İradədən yalnız mövcud olmanın zəruri şərtlərini aldığından, mövcudluğun heç bir zəruri şərtinə malik deyil, yəni daxili zərurəti yoxdur; buna görə mütləq azaddır, yəni xaosa tabe olur. Metafizikadan təbiətə keçiddə fəaliyyətin obyekt tələbinə görə ruh bədənlə əlaqələnir. Bədənlə ruhun əlaqələnməsi həm birləşmə, həm də birlik kimi təzahür edir. Birləşmə formaların xarici vəhdətindən,

birlik mahiyyətlərin daxili vəhdətindən meydana çıxır. Məsələn, xörək duzunun tərkib hissələri Na və Cl birləşərək xörək duzunu əmələ gətirir, buna paralel Na və Cl mahiyyətlərinin bir-birinə keçməsindən bir ortaq mahiyyət kimi çıxış etməsindən xörək duzunun mahiyyəti meydana çıxır. Birləşmədə tərəflər özlərinin formasını itirir, mahiyyətlərini isə öz başlanğıc səviyyələrində gizlədilir; birlikdə mahiyyətlər itmir, sadəcə özünün yeni səviyyəsinə keçir. Təbiətdə yalnız birləşmə təzahür edir. Formal Ruhun metafizikaya keçidi ilə həm də birlik meydana çıxır. Əgər təbii birləşmələr "bir mahiyyət, bir formanın vəhdəti" prinsipinə tabe olursa, ruhla bədənin birləşməsi "iki mahiyyət, bir forma" prinsipinə tabe olur, hansı ki, mahiyyətlərdən biri forma üçün "doğma", ikincisi "yad" və ya birincisi əvvəl, ikincisi sonra, birincisi əsas, ikincisi ikincili olur. Bu cür birləşməyə görə şüurlu insan fəaliyyətində öncə bədənin tələbatları, sonra ruhun tələbatları ödənir. Bədənsiz Formal Ruh Kosmosda müstəqil mövcud olmur, amma ruhsuz bədən müstəqil mövcud olur. Bədənlə ruhun birləşməsindən birlik meydana çıxır, hansı ki, şüurlu insanın bütün əlamətlərinin məcmusu kimi təzahür edir. Psixologiyada ruhla bədənin birləşmiş təzahürlərinin məcmusu Eqo anlayışı ilə adlandırılır. Eqo - obyektiv reallıq kimi konkret bədənin əlaqələndiyi fiktiv ruhda inikasından ibarətdir.

Biz də başqa anlayış yaratmadan Eqo anlayışını ruhla bədənin birləşmiş təzahürlərinin məcmusu kimi təyin edirik.

Haşiyə: Georq Frankl "Naməlum MƏN"

> *"Hiss orqanlarının inkişaf etdiyi və məlumatın və daxili kommunikasiyanın qavranılmasının çoxlu mərkəzlərinin yaranması vaxtdan, onların funksiyalarını inteqrasiya etmək və bununla özünüdərki lazım olan səviyyədə saxlamaq üçün fərdə yeni vasitə və ya sistem tələb olunur. Məhz bu sistemi biz Eqo adlandırırıq. Eqo psixi quruluşdur, onu təşkil edən proseslərlə idarə edir. Eqonun vəzifəsi şəxsiyyətin tamlıq hissinin təmin etməkdən və qorumaqdan ibarətdir. Çox vacibdir ki, psixikanın çoxtəbəqəliliyi*

unudulmasın. A.Louen "Bədənin dili" - Eqo həm psixi və həm də somatik təzahür kimi səthidir."

G.Franklın şərhində ayrı-ayrı məqamları şərh etməklə bədənlə ruhun qarşılıqlı əlaqəsinə aydınlıq gətirmək olar. Heyvanlardan fərqli olaraq insanda hansı "mərkəzlər" yaranmışdır ki, insan heyvanlardan fərqli olaraq yeni sistem tələb etmişdir? Biz elə belə insana ən yaxın məməlilərlə heyvan-insan arasında analogiya aparsaq, görərik ki, məməlilərin hamısı üçün eyni həyat şərtləri verilmişdir. Buradan məlum olur ki, insan digər məməlilərdən fərqli olaraq, yalnız ona xas məlumatın və daxili kommunikasiyanın qavranılmasının yeni mərkəzlərinin yaranmasına görə yeni sistem tələb edir. Biz bu yeni mərkəzi "hissiyyatdan kənar məlumatın və daxili kommunikasiyanın qavrama mərkəzi" kimi təyin edirik, hansı ki, yalnız intuitiv qavrama üçün xarakterikdir. İntuitiv qavrama obyekt tələb etməyən qavrama kimi, yalnız obyektdən ayrılıqda qavrayan substansiyaya, yəni ruha xas ola bilər. Buradan da demək olar ki, ruh bədənlə əlaqələndikdən sonra ruhla bədənin tamlığını təşkil edən, yəni onların daxili vəhdətinin məcmusu Eqo kimi meydana çıxır. Beləliklə, Eqo da ruh - öz fəaliyyətləri ilə idarə edən, bədən - öz şərtləri ilə idarə olunan olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Eqo - fərddə daxili vəhdət təşkil edən ruhun bədəni idarə etməsinin şərtlərinin məcmusundan ibarətdir.

Ruhla bədənin əlaqəsindən əvvəl yalnız bədənin özü-özünü idarə etməsindən Eqoya-qədər idarəetmə meydana çıxır; biz bunu heyvani avtonomiya - somatik idarəolunma adlandırırıq. Bəzi fərdlərdə ağır psixi travmalarda Eqonun zəifləməsi dərəcəsində heyvani avtonomiya aşkarlanır, hansı ki, ən müxtəlif destruktiv fəaliyyətlər kimi meydana çıxır. Bəzi şəxslərdə psixi fəaliyyətin zəifliyində fərd somatik funksiyalardan asılı fəaliyyət göstərir və onun fəaliyyətini bədən tələbatları istiqamətləndirir. Bədənlə ruhun əlaqəsindən kənarda - bədənsiz ruhun özü-özünü idarə etməsindən Super-Eqo meydana çıxır.

Psixologiya Super-Eqonu şüursuzluq "o" və ya "İd"in tərkibinə daxil olan "valideyn qadağalarının daxili hiss edilməsi" kimi izah edir. Biz Super-Eqonu iradənin şərtlərinin məcmusu kimi təyin edirik, hansı ki, Formal Ruhun metafizik ölçüsüzlüyünü ölçüləndirərək onu Kosmosda mövcudluğuna imkan yaradır. Eqo mövcud fərdin təzahürüdür.

Haşiyə: A.Louen "Bədənin dili"

> *"Özünün ifadəsində şəxsiyyət tamdır. Ruh öz-özünə qəflətən nifrətə düşmür, bədən isə özü-özünə vuruşmağa girmir. Bütün bunlar özünü ifadə edən şəxsiyyətdir."*

Buradan da biz mövcud fərdin təzahürlərindən bütün heyvanlar üçün, ən azından məməlilər üçün xarakterik olan heyvani təzahürləri kənarlaşdırsaq, onda Formal Ruhun təzahürlərini aşkarlamış oluruq. A.Louendən gətirdiyimiz sitatda "nifrətə düşmək" insana xas olan, amma onu heyvanlardan fərqləndirən yeni hiss, "vuruşmağa girmək" heyvani vəhşilikdən fərqli yeni destruktivlikdir, hansı ki, birincidə nifrət ruhun iştirakı ilə yaranan hissdən, vuruşmaq bədənin iştirakı ilə yaranan ruhi fəaliyyətdən ibarət olur. Psixologiyanın başlanğıc səhvi ondan ibarət olmuşdur ki, fərddən təzahür edən bütün yeni təzahürləri köhnə təzahürlərin (yalnız bədənə xas olan vitallığın) inkişafı kimi qavrayır. Halbuki psixoloji aktlarda bədənin heç bir yeni təzahürü iştirak etmir, sadəcə ruhla əlaqədə bədənin köhnə təzahürləri yeni xarakteristika əldə edir, hansı ki, son məqsədi bədəni bir alət kimi ruhun məqsədinə - mövcudluq əldə etməsinə - istifadə etməkdən ibarətdir.

Haşiyə: A.Louen "Bədənin dili"

> *"Nə ağac, nə yeni doğulmuş xaosun şəklini kifayət qədər əks etdirmir. Xaos ruhun vəziyyətidir. Yeni doğulmuşda və ağacda, xüsusən cisimlərdə ruh olmadığından, onlar zəruri şərtlərdə mövcud olduğundan, onlar yalnız nizamı özlərində əks etdirirlər; xaosu yalnız ruh özündə əks etdirir, hansı ki, biz onun xaotik vəziyyətini ruhi xəstəlik kimi qavrayırıq."*

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Mövcud insanın bütün təzahürləri - bədənlə ruhun birliyinin şərtlərinin məcmusundan ibarətdir.

Formal Ruh bədənlə qarşılıqlı əlaqədə bədən ruhun azadlığına, ruh bədənin məhdudiyyətinə təsir edir. Nəticədə, bədənin ruha təsiri sıxışdırma, ruhun bədənə təsiri azadlıq kimi təzahür edir. Beləliklə, digər canlılardan fərqli olaraq ruhlu insanda bədən müəyyən qədər azadlıq əldə edir və heyvanlara xas daxili instinktiv məhdudiyyətlərdən, xarici sərt determinizmdən azad olur. Əvəzində özünün azadlığı qədər ruhu məhdudlaşdırır, nəticədə ruh xaosdan nizama keçir və bədən tələbatlarının zərurətinə görə nizamlı mövcud olur. Bununla da Formal Ruh fiktiv ruha - təbii metafizik nizama tabe olan ruhi varlığa, bədən fiktiv bədənə - təbii və metafizik qanuna tabe olan mövcud varlığa çevrilir. Hər ikisinin vəhdətindən insan - bioloji insanın fiktiv varlığı kimi homo sapiens meydana çıxır.

Haşiyə: Ditrix fon Qildebrand "Kommunikasiyanın metafizikası"

> *"Birliyin dəyərlərinin və mənasının uzun müddət anlaşılmamasından sonra, biz deyəsən, birliyə xiffətdə təzahür edən yeni formalarının axtarılmasında, onun mahiyyətinin yenidən dərkini müşahidə edirik. Amma eyni zamanda bununla çox vaxt yalan şərhlər və meyllərin yayılması meydana çıxır. Xüsusən ümumiyyətlə ayrıca adamın "nəhəng", guya "hərtərəfli" birliyə sədaqətində eqoizmin xüsusi dəf edilməsini görürlər. Bu zaman unudurlar ki, şəxsi həyat səviyyəsindən də aşağı enmək, fərdin şəxsiyyət kimi nəinki hüquqa, həm də onu tutmağa borclu olduğu ruhi mövqedən imtina etdiyi vaxtda, xalis vitallığa əsaslanmış "ictimailəşmiş şüura" dalmaq olar. Unudurlar ki, hər bir ayrıca ruh özündə istənilən yer birliyinin xüsusi dəyərlərini sonsuz olaraq ötən dəyər təqdim edir, və hər şeydən öncə unudurlar ki, insan eqoistik spazmlardan yalnız Allaha və yaxınlarına sədaqətə görə xilas olur."*

D.f.Qildebrandın fikirlərini şərh etməklə bədənlə ruhun qarşılıqlı əlaqəsinin mahiyyətinə varmaq olar. Mənası və dəyərləri uzun müddət anlaşılmayan və indi yanlış anlaşılan "birlik" anlayışı nə deməkdir? Elə belə, iki cür birlik ayırd etmək olar:

1) **Maddi birlik:** Maddi birlik - təbiətin təşkilinin və ondan həqiqətin aydınlaşmasının əsas üsullarındandır. Təbiət daxili təkliyin xarici çoxluğa keçməsi kimi mövcud olur, həqiqət bunun əksinə xarici çoxluğun daxili təkliyə keçməsi ilə aydınlaşır. Başqa sözlə, təbiət mütləq həqiqətin emanasiyası nəticəsində, sonsuz sayda mövcud varlıqların yaranması nəticəsində meydana çıxdığından, mütləq həqiqəti təzahür etdirmək istiqamətində mövcud varlıqlar təkamülə əks istiqamətdə çoxluqdan təkliyə keçməyə doğru inkişaf edir. Biz çoxluqdan təkliyə keçməni birlik kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Maddi birlik - xarici çoxluqdan daxili təkliyə keçidin şərtlərinin məcmusundan ibarətdir.

Maddi birlikdən həqiqət aydınlaşır. Təbiətdə xarici çoxluqdan daxili təkliyə keçid konkret və realdır. Belə keçid tərkib hissələrin və tamın hissələrinin bir-biri ilə birləşməsi ilə reallaşır, hansı ki, bu mürəkkəbləşmə və müxtəlifləşmə kimi təzahür edir. Həqiqətin təfəkkürdə aşkarlanması ruhun aydınlaşması prinsipinə uyğundur, amma ondan mücərrəd və qeyri-real olması ilə fərqlənir. Belə ki, ruh xarici mövcudluqları təfəkkürdə çoxluqdan təkliyə keçirərək onlardan həqiqəti aşkarlayır. Təfəkkürdə bu ümumi həqiqətin xüsusi həqiqətlərin məcmusundan aşkarlanması, yəni ümumiləşdirmə kimi təzahür edir. Varlığın təfəkkürdə xarici çoxluqdan təkliyə keçirilməsi intensionallıq kimi meydana çıxır.

Haşiyə: Ditrix fon Qildebrand "Kommunikasiyanın metafizikası"

> *"Daxili mövqe tutmaqla və dərk etməklə biz varlıqla intensional əlaqəyə giririk. İntensionallıq sözü ümumi şəkildə şəxsiyyətin aktlarda və istiqamətlənmələrdə obyektə münasibətində*

- obyektlə belə əlaqə inkar olunan xalis vəziyyətdən fərqli olaraq ruhi dərketməni bildirir."

Real keçiddə mövcud varlıq özünün bütün varlıq təyinləri ilə çoxluqdan təkliyə keçir. Yəni həm faktiki, həm formal varlığı başqaları ilə birləşir. İntensionallıqda real keçiddən fərqli olaraq, mövcud varlığın bilavasitə iştirak etməsinə baxmayaraq, qavrama prosesində bir-birindən ayrılan faktiki və formal varlığından varlıq yalnız formal varlığı digər formal varlıqlarla birləşir.

2) Ruhi birlik: Formal Ruh metafizikadan fizikaya keçiddə öz mövcudluğu olmadığından mövcud olma kimi obyekt tələbində sonsuz sayda fərddə daxili çoxluqdan xarici təkliyə keçərək fərdi ruh kimi mövcud olur. Buna görə də bunun əksinə xarici ayrı-ayrı tək fərdi ruhların daxili çoxluğa keçidi ilə yenidən Formal Ruh öz mahiyyətini aydınlaşdırır və özü-öz mahiyyətini təfəkkürdə aşkarlayır. Maddi birliklə ruhi birliyin fərqlənməsi varlıqların substansial xarakterləri ilə bağlıdır.

Təbiətə keçməyən, yəni mövcud varlıqlara yayılmayan substansiya özü-özündə ən təkmil substansiya kimi çıxış edir və buna görə də nə real, nə də intensional birliyə özündə yer qoymur. Formal Ruh belə təkmil substansiya kimi özündə hər hansı birliyi istisna edir. Lakin mövcud varlıqlarda metafizikadan təbiətə keçiddə mümkünlüyün varlığının mövcudluq tələbində ilahi iradədən verilmiş şərtlərlə təkmil substansiya şərtlənərək qeyri-təkmil substansiya kimi təzahür edir. Mövcudluqların ardıcıllığına və qarşılıqlı əlaqəsinə görə üç cür substansiya ayırd etmək olar:

a) **Cisimlərin substansiyası:** Cisimlər sabit zəruri şərtlərə malik olduğundan, onların substansiyasının öz əvvəlki vəziyyətinə - təkmilliyinə qayıtmaq imkanı yoxdur, buna görə də ən qeyri-təkmil substansiya kimi mövcuddur.

b) **Canlıların substansiyası:** Canlılara dəyişən sabit şərtlərdə mövcud olduqlarından onların öz əvvəlki təkmilliklərinə qayıtmaq imkanı vardır, hansı ki, yalnız növdən aydınlaşır. Növ canlılığın ən təkmil substansiyasıdır. Hər bir canlı fərd özündə növün formal varlığını daşımaqla mövcud olur və fərd məhv olduqdan sonra növ mücərrəd mövcudluğunu davam etdirir və yeni-yeni canlı fərdlərə formal varlıq verir.

> ***Haşiyə:*** *Ditrix fon Qildebrand "Kommunikasiyanın metafizikası" - Canlı varlıqlar sözün tam mənasında substansiyadır, nəinki maddi şeylər.*

c) **Şüurlu insanın substansiyası:** Biz şüurlu insanın substansiyası dedikdə insanın bədənindən fərqli, ondan aşkarlanan fərdi ruhi substansiyanı nəzərdə tuturuq, hansı ki, bədəndən kənar formal ruhi varlıq kimi ən təkmil substansiyadır. Bədənlə əlaqədə isə canlılığın substansiyasından təkmil, Formal Ruhun substansiyasından qeyri-təkmildir. İnsan məhz öz ruhunun təkmil substansiyasına çatmaq istiqamətində şüurlu fəaliyyətlə başqa insanlarla birliyə - xarici təkliyə cəhd edir. Biz belə cəhdi sosial aktlar kimi qavrayırıq.

D.f.Qildebranda görə "insan substansiyasının xarakterik cizgisi özündə tam təcrid olunmuş birlikdən ibarətdir, hər cür təsadüfi daxili qarşılıqlı əlaqədən azaddır, hər hansı bir başqa fərddən kəskin sərhədlənmiş və ayrılmışdır". İnsan substansiyasının "tam təcrid olunmuş birliyi" Formal Ruhun daxili çoxluğunun zəruri şərtlərindən ibarətdir, hansı ki, hər bir fərddə fərdi ruh eyni zamanda çoxlu sayda formada təzahür edir. İnsan substansiyasının "hər cür təsadüfi daxili qarşılıqlı əlaqədən azadlığı" onunla bağlıdır ki, Formal Ruh yaranışdan təsadüfi şərtlərin məcmusunu alaraq, xalis mövcudluq kimi yaranır və buna görə də o, özündə heç bir daxili təsadüfi qarşılıqlı əlaqəyə yer vermir, əksinə fərdi ruh hər cür daxili zəruri qarşılıqlı əlaqəyə girməklə məhdudlaşır; hansı ki, onu başqa fərdlərin fərdi ruhundan məhz zərurətə görə qarşılıqlı əlaqədə olduğu bədəni ayırır. Ruhun bədənlə əlaqəsindən şəxsiyyət

meydana çıxır. Şəxsiyyət - fərddən fərqli olaraq, başqaları ilə ruhi birliyə cəhd edən varlıqdır, hansı ki, insan substansiyasının xarakterini özündə təzahür etdirir. İnsan nə üçün zərurətə görə başqaları ilə birliyə cəhd edir? Formal Ruh təbiətdə müstəqil mövcud olmadığından bədənlə əlaqələnməyə məcbur olur. Bədənlə əlaqələndikdə isə artıq fiktiv ruha çevrilir. Formal Ruh kimi təzahür etmək üçün fiktiv ruh bədənlə şərtlənmədən azad olmağa cəhd edir. Nəticədə, birliyə cəhd - Formal Ruhun həqiqətinin müstəqil aydınlaşma cəhdindən ibarət olur. A.Adler yazır: "Əgər şəxsiyyət adamlar arasındakı ictimai münasibətləri heyvanlara və ya cansızlara köçürsə, onda şəxsiyyətin inkişafı tamamilə dayana bilər". Bunun əksinə şəxsiyyət nə qədər çox başqa insanlarla ünsiyyətə girərsə, bir o qədər onun şəxsiyyəti inkişaf edər. Bu inkişaf şəxsiyyətin sonuncu insanla ünsiyyətində başa çatır və nəticədə Formal Ruh aydınlaşır. Bir fərdin başqa vaxtlarda və başqa məkanlarda yaşayan sonsuz sayda fərdlərlə ünsiyyəti bilavasitə mümkünsüzlükdür. Buna görə də bir fərd başqaları ilə xarici ümumi dəyərlərlə ünsiyyətə girir, hansı ki, həmin dəyərlər ayrı-ayrı insan birliklərinin ümumi ruhundan təzahür edir.

Haşiyə: Ditrix fon Qildebrand "Kommunikasiyanın metafizikası"

> *"Şəxsiyyətin substansional xarakteri onun kamilliyindədir, sərhədlərin yuyulmasının tam istisnasından, şəxsiyyətin sərhədlənməsindən ibarətdir."*

Formal Ruhun substansiyasının təzahür etməsi üçün bədən sərhədlərinin dəf edilməsi və xarici təkliyə keçid tələb olunur. Bu cür ikili münasibətdə insanlararası birlikdən iki hal yaranır: birincisi, "iki şəxsiyyətin vahid substansiyaya təkamülünü istisna edən insanın orijinal" substansional xarakteri və "başqa insanın köməyi ilə mənəvi təkmilləşmənin xas olması, onun təyinatı başqa insanlarla birlik təşkil etməkdir". Ruhi birlikdə şəxsiyyətin münasibəti üçün obyekt tələb olunmur. Obyekti mücərrəd dəyərlər əvəz edir və şəxsiyyət dəyərə münasibətdə xarici təklikdən daxili çoxluğa keçərək Formal Ruhu təşkil

edir. Beləliklə, Formal Ruhun mövcudluğu üçün obyekt tələbində bədənlə əlaqələnməsinin zərurətinin əksinə olaraq, Formal Ruhun yenidən təşkilində fərdi ruhlara obyekt tələb olunmur və onlar xalis formal ruhi varlıqları ilə dəyərlərdə birləşərək Formal Ruhun birliyini yaradırlar. Birliyin təbiətinə görə varlıqlar müxtəlif təkmillikdə həqiqət-substansiya aydınlaşdırır.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Ruhi birlik - şəxsiyyətlərin bəşəri dəyərlərə münasibətində şüurlu insanların daxili fiktiv ruhlarının birliyindən xarici tək Formal Ruhun substansiyasına qayıdışın şərtlərinin məcmusundan ibarətdir.

Bəs bu dilemma - bir tərəfdən şəxsiyyətin konkret bədənlə sərhədlənməsinin zərurəti, digər tərəfdən Formal Ruhun bədəndən kənar mövcud olmaqla təzahür etmə zərurəti necə həll olunur? Şəxsiyyətin bədənlə əlaqələnmə zərurətinin şərtlərinin məcmusu - eqoizm kimi, onun bədəndə qalmaqla onun sərhədlərindən çıxıb digər fərdi ruhlarla birlikdə Formal Ruhu təşkil zərurətinin şərtlərinin məcmusu - altruizm kimi meydana çıxır. Eqoizm özündə "fərdin şəxsiyyət kimi nəinki hüquqa, həm də onu tutmağa borclu olduğu ruhi mövqedən imtina etdiyi vaxtda, xalis vitallığa əsaslanmış ictimailəşmiş şüura" malik olmasını, altruizm özündə "istənilən yer birliyinin xüsusi dəyərlərini sonsuz olaraq ötən dəyər" təqdim edir. Yer birliyinin xüsusi dəyərləri - şəxsiyyətlərin birliyindən aşkarlanan dəyərlər - maddi və mənəvi dəyərlərin vəhdətindən ibarətdir, amma onları ötən dəyərlər yalnız ruhi dəyərlər kimi metafizik dəyərlərdən ibarətdir.

Şüurlu insan eqoizmdən altruizmə, yer dəyərlərindən onları ötən dəyərlərə çatmağı, maddi və mənəvi birliyin vəhdətindən sintez olunan üçüncü növ birliklə - sosiallıqla həll edir. Beləliklə, sosiallıq bədənlə şərtlənmiş, konkret şəxsiyyətlərin təşkil etdikləri sosial birləşmələr, həmin sosial birləşmələrin daxilində meydana çıxan intensional birliklərin vəhdətindən ibarətdir. Məsələn, hər hansı bir xalq həm konkret

adamlardan ibarət birləşmədən (xarici görüntüdən), eyni zamanda həm də onların daxili birliyindən - mədəniyyətindən, dünyagörüşündən təyin olunan sosial birliyindən (daxili görüntüdən) təyin olunur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Sosiallıq - xarici real birləşmə ilə daxili intensional birliyin vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Formal Ruha fərdi səviyyədə qayıdış bədənlə əlaqənin pozulması ilə - bioloji ölümlə, bütün insanlıq səviyyəsində tarixlə reallaşır. Buradan da tarixi - insanlığın ölümü kimi təyin etmək olar. Başqa sözlə, tarixin başa çatması ilə Formal Ruhun başlanğıc təkmilliyinə qayıtmaqla yerdə şüurlu insanın mövcudluğu başa çatır. Sosiallaşma prosesində real birləşmə intensional birliyi özündə daşıyan vasitə kimi çıxış edir. Buradan da bədən - hər bir fərdi ruh üçün, sosial təşkilatlar - sosial bədən kimi qarşılıqlı əlaqədə olan fərdlər üçün kommunikasiya vasitəsi kimi, bütün insanların hamısı birlikdə tək bir Formal Ruhun daşıyıcısı kimi çıxış edir. Bədənin kommunikasiya vasitəsi kimi çıxış etməsi təbiətdə məlumat daşımağın yalnız fakta xas olması ilə bağlıdır. Başqa sözlə, zəruri şərtlər yalnız faktdan aşkarlandığından, həqiqətin ötürülməsi üçün mütləq fakt lazımdır. Formal Ruh metafizikadan fizikaya mövcud olma kimi (yəni zəruri şərtlərin istisna olunması ilə) keçdiyindən öz həqiqətini aydınlaşdırmaq üçün obyekt tələb edir və bu zaman onun həqiqətini özündə ikincili aydınlaşdıran hər şey təbii faktlardan ibarət olur. Hansı ki, başlanğıcda bədənin faktı, sonda isə Kosmos - mövcud varlıqların faktiki məcmusu özündə ruhi həqiqəti aydınlaşdırır. Bədənin ruhi həqiqəti bildirməsindən şüurlu insan (fiktiv ruhi varlıq), mövcud varlıqların ruhi həqiqəti aydınlaşdırmasından ruhun faktiki varlığı meydana çıxır. Bədən ruhun təsirlərini öz təzahürləri ilə xaricə çıxararaq ruhu başqası üçün aşkarlanan edir. Ruhun həqiqətinin bədən hissləri ilə aydınlaşmasından "emosional vəziyyət" meydana çıxır. Emosiya - canlılıqla ruhi substansiyanın ortaq təzahüründən ibarətdir, hansı ki, xalis

hisslərdən konkret mənaya, xalis mənadan isə mücərrəd hisslərə görə fərqlənir. Emosionallığın başqa fərdlərə ötürülməsindən fərdin daxilindəki fərdi ruhun vəziyyəti - onun fəallıq dərəcəsi - aşkarlanır. Bədənin emosionallığının mövcud varlıqlara yansımasından isə ruhun faktiki varlığı meydana çıxır. Ruhun məlumatını bədən bildirdiyindən, ruh həm ayrıca bir bədəndən, həm də çoxluq təşkil edən bədənlərin hamısından birlikdə aşkarlanır. Ruhun bədənlərarası əlaqədən aşkarlanması onu bədənsiz təsəvvürə gətirməyə əsas verir. Başqa sözlə, bir bədən özündə olan ruhu hissi yola kənara çıxararkən eyni zamanda başqa bədən eyni ilə emosional vəziyyətdə olursa, bu zaman hissi təsirlər təsir-əks təsir əlaqəsində bir-birini neytrallaşdırır və iki şəxsin əlaqəsindən Formal Ruhun məlumatı bildirilir. Formal Ruhun fərdlərarası əlaqədən bilinməsində tərəflərin hər biri obyekt və adresat kimi iştirak edir. Obyekt kimi iştirakda başqası ilə real təması özündə ifadə edir, hansı ki, digəri sadəcə bədəni ilə əlaqədə iştirak edir. Adresat kimi iştirakda bunun əksinə başqası intensional təması özündə ifadə edir, hansı ki, başqası ruhi əlaqəyə girir.

Fərdlərarası qarşılıqlı emosional əlaqədən çoxlu nəticələr - mənsubiyyətlər - Formal Ruhun formaları meydana çıxır, hansı ki, D.Qildebrand fərdlərarası əlaqənin ilkin modusları kimi təyin edir. Mənsubiyyət - fərdin birliyə münasibətini özündə ifadə edən anlayışlardan ibarətdir.

Başqasının iştirakı olmadan, bir fərdin başqa fərdlə qarşılıqlı birliyi: Belə əlaqədə başqası nə obyekt, nə adresat olur. Fərdin başqa şəxslə birliyi daxili birlik kimi meydana çıxır, hansı ki, biz bunu "hissbəsləmə" adlandırırıq. Məsələn, bir nəfər başqasını sevir. Belə sevgi hissinin bəslənməsi üçün ikinci şəxsin iştirakı tələb olunmur. Hissbəsləmə hiss bəslənən adresata çatdıqda hiss haqqında məlumat meydana çıxır. Belə birliyi sadə formal ruhi birlik adlandırmaq olar. Biz bunu mücərrəd şəkildə **Mən=Mən** kimi təsvir edə bilərik. Buradan

aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Formal ruhi birlik - bir fərdin digərinə müəyyən münasibəti ifadə edən hissbəsləməsinin və digər fərdin həmin hisslər haqqında məlumat almasının şərtlərinin məcmusundan ibarətdir.

Bədənin iştirakı ilə fərdlərin qarşılıqlı əlaqəsi - birləşməsi və birliyi: Belə əlaqədə başqası ya obyekt, ya adresat, ya da hər ikisinin vəhdəti kimi iştirak edə bilər. Başqasının necə iştirakından asılı olaraq üç cür birlik yaranır: a) Başqasının yalnız obyekt kimi iştirakı ilə yaranan birlik; biz bunu mexaniki aqreqasiya və ya təsadüfi birlik kimi təyin edirik. Belə birlikdə fərdlər bir-biri ilə ruhi əlaqəyə təsadüfə görə girir, buna görə də nəticədə dayanıqsız müvəqqəti birliklər yaranır. b) Başqasının obyektlə adresatın vəhdəti kimi iştirakı ilə yaranan birlik. Biz bunu ittifaq adlandırırıq. İttifaqda başqası ilə həm obyekt, həm adresat kimi əlaqə yaranır. Obyekt kimi əlaqədən ittifaqın görüntüsü, adresat kimi əlaqədən ittifaqın dəyərləri aşkarlanır. c) Başqasının adresat kimi iştirakından yaranan birlik - ruhi birlik. Belə birlik bədənin iştirakı tələb olunmadan yaranan mənəvi əlaqədən yaranır. Hissbəsləmə hissi tələb edən ruhi təzahürdür, hansı ki, bədəndən hissin şərtləri verilmədikcə ekzistensiya etmir. Bədənin iştirakı ilə hissbəsləməyə hissi şərtlər verildikdə, fərdlərarası ittifaqın sadə xarici forması meydana çıxır. İki cür sadə xarici birlik aşkarlamaq olar: Birincisi, özündə ziddiyyət saxlayan, əksilik təşkil edən hissi əlaqə. Belə birlikdə fərdlər konkret olaraq qarşılıqlı əlaqədə olsa da, onların bir-birinə bəslədiyi hiss əksilik təşkil edir. Məsələn, biri digərini sevir, o isə onu sevənə nifrət edir. Belə birlik konfliktli birlik kimi meydana çıxır. Bunun mücərrəd formulu: **Mən = - Mən = Sən**. İkincisi, özünə ziddiyyət saxlamayan, əksilik təşkil edən qarşılıqlı əlaqə. Bu zaman fərdlər bir-birinə adekvat qarşılıqlı hiss bəsləyir. Nəticədə şəxslərarası birlik - məhəbbət, dostluq və s. yaranır. Biz bunu emosional əlaqə kimi təyin edirik. Mücərrəd ifadəsi: **Mən = Sən**.

Bədənlərin iştirakı olmadan, adresat kimi iştirakdan yaranan fiktiv fərdi ruhların xarici qarşılıqlı əlaqəsi - birlik: Belə əlaqə sadə daxili əlaqə kimi bədənlərin iştirakı olmadan yaranan əlaqədir. Lakin ondan fərqi ayrıca bir fərdin daxilində yox, xarici Formal Ruhda yaranır. Belə əlaqə ya xarici faktik ruhi varlıqlarda (demonlarda), ya da formal ruhi varlıqlarda (dəyərlərdə) yaranır. Xarici ruhi əlaqələrdə bədən kommunikasiya vasitəsi kimi yox, sadəcə alət kimi çıxış edir, buna görə də emosional əlaqədən fərqli olaraq xalis intellektual əlaqə meydana çıxır. Ruhi əlaqə bədənlə şərtlənmədiyindən obyekt tələb etmir, buna görə də xalis azad birlikdən ibarət olur. Belə xalis ruhi birlik insanların baxışlarından yaranan əlaqələrdən də meydana çıxır, hansı ki, emosiyasız hisslər ifadə edilmir, amma məna qavranılır. Mücərrəd ifadəsi: **Mən = O**.

Fərdlərarası sadə mücərrəd əlaqələr mürəkkəbləşərək daha geniş birliklərin yaranması ilə nəticələnir. Fərdlərarası birliyin mürəkkəb formalarına aşağıdakılar aiddir:

Biz - insanlıq: Mən-lə Sən-in daxili və xarici ruhi birliyinin məcmusu "Biz" kimi meydana çıxır. Biz - elə belə artıq birləşmənin baş verməsini özündə təsdiq edir. "Biz" - eyni zamanda həm birlik, həm ittifaqdır. "Biz" - ittifaq kimi məkanla şərtlənmiş fiziki təmasla yaranır, hansı ki, Mən və Sən bir yerdə qarşılıqlı əlaqədə yaradır; birlik kimi intensional təmasdır, hansı ki, bədənin iştirakı olmadan mücərrəd şəkildə təsəvvürə gətirilir. İntensional təmasla yaranan birlik kimi Biz-də bədənlərin iştirakı tələb olunmadığından, bizə daxil olan Sən-lərin sayı qeyri-məhduddur. Sonuncu "Sən"in iştirakı ilə Biz insanlıqdan ibarətdir, hansı ki, bütün mövcud varlıqlara tək, vahid əksilik kimi yaranan daxili ruhi birlikdən - Formal Ruhdan ibarətdir. Mücərrəd formulu: **Biz = Mən + SƏN**.

Siz - qruplar: Siz birləşmənin inkarını bildirən birlikdir. Bizlərin dəyərlərlə məhdudlaşmasından Siz yaranır. Biz-lə Siz bir-birinə ziddiyyət saxlayan əksiliklər kimi vəhdət təşkil edir və təfəkkürdə Siz bizim birlik

yaratdığı dəyərləri inkar edən mücərrəd birlik kimi təsəvvür olunur. Belə ruhi birlik əsasında insanlar müxtəlif sosial təşkilatlar yaradır. Mücərrəd formulu: **Siz = Sən + Sən**.

Onlar - qeyri-müəyyən ruhi birlik: Bir-birinə ziddiyyət saxlayan əksiliklərin daxili birliyinin vəhdətinə münasibətdə xarici mürəkkəb ruhi birlik kimi təsəvvürdən "Onlar" yaranır. Onlar - əksiliklərin hər iki tərəfinin ilkin başlanğıcından ibarətdir, hansı ki, həm "biz"im birləşdiyi dəyərləri, həm də onun əksiliyi kimi "Siz"in birləşdiyi dəyərləri inkar edir. Onlar ittifaq yaratmır. "Onlar"ın birliyi bizə və sizə münasibətdə eyni dərəcədə qeyri-müəyyən ruhi birlikdir. Hansı ki, intensional təması inkar edir. Onların müəyyənləşməsi ya "Biz"ə münasibətdə "Siz" olmaqla, ya da "Siz"ə münasibətdə "Biz" olmaqla müəyyənləşir. Beləliklə, Onlar "Siz" və "Biz" üçün ideal ruhi birlik kimi meydana çıxır. Onların sonsuz mücərrədləşdirilməsi Allah kimi qavranılır. Mücərrəd ifadəsi: **Onlar = Biz + SİZ**.

İnsanların birləşməsindən birliyin yaranması mücərrədləşmə ilə baş verir, hansı ki, bilavasitə ruhun mövcud olma forması ilə şərtlənmişdir. Hər bir fərddən fiktiv ruh ekzistensiya ilə xaricə çıxarılır, şəxslərarası əlaqədə bədənin hisslərindən ayrılaraq bir-birinə keçir. Bu cür qarşılıqlı keçiddə hər bir fiktiv ruh öz bədəninin daxilində başqa fiktiv ruhu da saxlamaqla artıq birlik kimi mövcud olur. Bədənin ruhun məlumatını özündə bildirməsi psixi fəaliyyət kimi təzahür edir. Psixologiyada psixi fəaliyyət birtərəfli olaraq bədənlə əlaqələndirilir. Məsələn, məşhur psixoloq A.Adler "İnsan təbiətini anlamaq" adlı kitabında yazır: "psixi fəaliyyət - bu, sonuncu təyinatı mövcud orqanizmin mövcudluğunu davam etdirmək və ona təhlükəsiz inkişaf imkanı vermək olan aqressiv və müdafiə mexanizmlərinin kompleksidir". Əgər biz canlılığın mahiyyətinə baxsaq, məlum olar ki, mövcud canlı formal varlıqdan məhrumdur, onun formal varlığı özündənkənar elə belə mücərrəd formada ən ümumi növdədir. Buna görə də canlının mövcudluğunun

davam etdirilməsi növlə bağlı olduğundan, canlıdan aşkarlanan bütün fəaliyyətlər yalnız nəsilverməyə istiqamətlənməlidir. Onda nəsilvermə məqsədi daşımayan, başqa məqsədlərə cəhd edən psixi fəaliyyət canlılıqla necə əlaqələnir? Biz başqa məqsədləri məhz ruhun məqsədi kimi təyin edirik, hansı ki, nəsilvermə və özünüqoruma instinkti ilə əlaqəsi olmayan, bütün məqsədlərə istiqamətlənmiş fəaliyyətdən ibarətdir. Başqa sözlə, biz insanın psixi fəaliyyətindən özünüqoruma və nəsilvermə məqsədi ilə bağlı fəaliyyətləri fikrən çıxdıqda, ruhun xalis fəaliyyətini əldə etmiş oluruq. Ona görə də ruhun həqiqətini psixologiyadan sintez etməklə əldə etmək olar. Beləliklə, ruh o zaman insandan aydınlaşır ki, onun bədənin məqsədlərindən fərqli məqsədi olsun. A.Adler də təsdiq edir ki, "psixoloji inkişaf yalnız o zaman baş verir ki, şəxsiyyətin məqsədi olsun". Burada inkişaf məqsədlərin dəyişilməsinə uyğun fəaliyyətin dəyişilməsini özündə ifadə edir. Canlılar anadangəlmə məqsədə malik olduqlarından, onlarda psixoloji inkişaf istisna olunur. Ruh isə əksinə, insan anadan olduqdan sonra özünə mövcudluq əldə etməyə cəhd etdiyindən, tarixin müxtəlif dövrlərində və insanın müxtəlif vital yaşlarında yeni-yeni məqsədlər seçir və fərdin qarşısına qoyur, hansı ki, həmin məqsədlərə çatmaq üçün fərqli fəaliyyətlər - daha təkmil, daha mürəkkəb və başqaları ilə daha sıx əlaqədə meydana çıxan fəaliyyətlər - tələb edir. Bu tələbə cavab kimi bədənlə ruhun ittifaqının təbiəti dəyişir və biz bunu psixi inkişaf kimi qavrayırıq. Nə üçün insan anadan olan kimi ruh bütün məqsədlərini bir yerdə bədənə təqdim etmir? Başqa sözlə, psixi inkişafın zərurəti nə ilə bağlıdır? Bədən dəyişən zəruri şərtlərin məcmusundan ibarət olduğundan, bədənlə şərtlənmiş ruh da məhz də buna uyğun dəyişilən məqsədlərlə bədənlə əlaqələnir. Nəticədə, bizim hər birimizin ətraf aləmi hissəvi dərkimizi izah etməyə imkan verən belə bir şərt alınır: "bizim bütün fəaliyyətimizi müəyyən edən psixoloji məqsəd, həmçinin seçimə,

bizim ətraf aləmi qavramağımıza məna və forma verən psixoloji qabiliyyətlərin fəaliyyətinə və inkişaf dərəcəsinə təsir edir".

Mövcud olmanın obyekt tələbinə görə Formal Ruh mövcud varlıqlarla əlaqələnməyə məcbur olur. Buradan başlanğıc birləşmə və birlik meydana çıxır. Başlanğıc birlik qeyri-təkmil substansiya və təkmil formaya malik bədənlə təkmil substansiyaya malik formasız Formal Ruhun birliyindən ibarət olur, hansı ki, bu birlikdə Formal Ruh özündə birliyə yer verdiyinə görə öz başlanğıc təkmilliyindən məhrum olur. Həqiqətin əsas meyli özünü aydınlaşdırmaq olduğundan, təbiətə keçmiş Formal Ruh öz təkmil həqiqətini aydınlaşdırmaq istiqamətində bədənlə birliyindən ayrılmağa cəhd edir. Belə cəhddən ruhun ekzistensiyası meydana çıxır. Fərdi ruhların ekzistensiyası ilə bədəndən xaric fiktiv ruhların bir-birində qarşılıqlı refleksiyasından ruhun formal varlığı yaranır, hansı ki, biz bunu sosiallıq kimi dərk edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Sosiallıq - ayrı-ayrı fərdlərdə olan fiktiv ruhun eyni bir Formal Ruhu özündə refleksiya etməsindən ibarət mücərrəd birliyin şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, fiktiv və Formal Ruh bədənlə şərtlənmiş şəkildə təzahür etdiyindən, istənilən birlikdə bədən iştirak edir. Bədənin iştirakı ilə yaranan birliklər real birliklərdir. Əgər iki şəxs bilavasitə bir araya gəlib hansısa təmas təşkil edirsə, bu zaman onlar arasında real ruhi birlik meydana çıxır. Real birlikdə bədən iştirak etdiyindən, belə birliklər emosional əlaqə əsasında yaranır. Emosionallığı biz şüurlaşmış hiss kimi təyin edirik. Real birlikdə hər bir fərd həm bədən, həm ruhla iştirak etdiyindən, iki şəxs arasında real birliyin aşağıdakı formalarını ayırd etmək olar:

a) **Yalnız fiziki bədənlərin iştirakı ilə yaranan birlik:** Biz bunu mexaniki aqreqasiya kimi təyin edirik. Hər bir insan gündəlik həyatında təsadüfə görə başqa insanlarla "indi və burada" prinsipinə tabe olur. İndi və burada prinsipinə uyğun yaranan birliklər mexaniki aqreqasiya kimi

meydana çıxır. Mexaniki aqreqasiya cisimlərin yataq təşkil etməsini özündə refleksiya edir. Mexaniki aqreqasiyada aqreqatlar arasında heç bir qarşılıqlı əlaqə yaranmır.

b) **Ruhla bədənin birlikdə iştirakı ilə yaranan birlik - ünsiyyət:** Buradan ictimai münasibət meydana çıxır. Əgər mexaniki aqreqasiya təşkil edən insanlar arasında kommunikasiya-ünsiyyət yaranırsa, bu zaman həmin aqreqasiya ictimai münasibətlərlə bir-biri ilə əlaqələnmiş, nizamlı birliyə çevrilir.

c) **Fiktiv ruhların bədənin iştirakı olmadan qarşılıqlı empatiyadan yaranan intensional birlik:** Buradan mənəvi birlik yaranır. İki cür mənəvi birlik aşkarlamaq olar. Birincisi, kənara çıxarılmayan mənəvi birlik. Belə birlik hər bir fərdin daxilində özünü aid etdiyi birlikdir. Məsələn, hər hansı bir xalqın nümayəndəsi özündə özünü həmin xalqın nümayəndəsi kimi dərk edərək, digər insanlarla eyni bir xalqda mənəvi birlik yaradır. İkincisi, kənara çıxarılan birlik. Belə birlik həm də fərddən kənarda simvolik formadan aşkarlanır. Məsələn, hər hansı bir dövlətin vətəndaşı özünü xarici simvollarla seçilən müəyyən dövlətlə əlaqələrini xarici birlik kimi dərk edir. Əgər daxili birliyin nizamı fərdi iradədən asılıdırsa, xarici birliyin nizamı ictimai iradə ilə müəyyən olunur.

Buna görə də təbiətə keçməmiş metafizik varlıqlar birlikdən məhrumdur. Təbiətə keçməmiş xalis substansiya, yəni mümkünlüyün varlığı kimi varolmağı özündə ifadə edir. D.Qildebrand belə varlığı "substansial varlıq" adlandırır və belə varlığın özündə *complete* (ən təkmil) substansiyanı təqdim etdiyini qeyd edir.

Üçüncülü materiya kimi mövcud olan ruh vasitəli təzahür etdiyindən, həmin vasitələrdən (xüsusən beyindən) asılıdır və yalnız təzahür etdiyi vasitələrin idrakı prosesində avtomatik paralel dərk olunur.

OBYEKTİV REALLIĞIN İNSANDA İNİKASI

Bədəndən kənar obyektiv reallıqların insan bədənində inikasının üç müxtəlif formasını aşkar edə bilərik.

Psixika: Ruhdan kənarda yalnız canlılığın - ayrılıqda bədənin obyektiv reallığı inikası psixika kimi meydana çıxır. Psixika faktdan törəyən ideyaların ən müxtəlif kombinasiyalarından ibarət olub, təsir-cavab əlaqəsindən təzahür edir. İnsanda da bir canlı kimi ruhun iştirakı olmadan instinktiv fəaliyyətində psixika meydana çıxır. Psixikada iradə, bağlılıq, əsər və dərketmə şərtləri iştirak etmir. Ona görə də psixikanın nəticəsində ətrafın məqsədəyönlü dəyişilməsi baş vermir. Psixika passiv olub hərəkətlilikdən və fəallıqdan məhrumdur.

Psixologiya: Bədənlə fiktiv ruhun vəhdətinin obyektiv reallıqla əlaqəsi psixologiya kimi təzahür edir. Psixologiya ağıldan törəyən ideyalarla faktdan törəyən ideyaların vəhdətindən meydana çıxır. Fəlsəfədə psixologiya - insanın və heyvanların davranışı prosesində obyektiv reallığın psixi inikasının yaranması və fəaliyyət göstərməsi haqqında elm kimi təyin olunub. Biz belə hesab edirik ki, heyvanlarda ruh olmadığından onların fəaliyyəti və onlarda inikas psixologiya kimi təyin edilə bilməz. Psixologiya təsir-cavab-münasibətdən ibarət üçlü mahiyyətə malik təzahürdür.

Parapsixologiya: Bədənlə ruhun əlaqəsində, bədənin iştirakı olmadan, fiktiv ruhun ayrılıqda obyektiv reallıqla əlaqəsi parapsixologiya kimi təzahür edir. Parapsixologiya təsir-münasibət formasında təzahür edir. Göründüyü kimi parapsixoloji fenomen bədənin hissiyyat orqanı kimi iştirakı olmadan meydana çıxır. Buradan da parapsixologiyaya aşağıdakılar aid edilir: təbiətüstü psixi qabiliyyət; ölümdən sonra həyat fenomeni; transpersonal psixologiya; anormal psixologiya.

PSİXOLOGİYA

Normal psixologiyanın üç əsas formasını ayırd edə bilərik: ayıqlıq, yuxugörmə, anabətnində obyektiv reallıqla əlaqə və ya anabətnində dərketmə.

a. AYIQLIQ. Biz ayıqlığı bədənlə ruhun vəhdətinin obyektiv reallığı inikas etməsi kimi təyin edirik, hansı ki, düşünmə kimi təyin edirik. Ayıqlıqda inikas faktdan və ağıldan törəyən ideyaların birgə iştirakı ilə reallaşır. Ayıqlıqda dərketmə obyektin həqiqətlərinin bədəndən keçməklə ruhda refleksiya etməsindən ibarətdir. İnsan dərketməsi həm təsadüfi, həm də zəruri formalarda meydana çıxır. Təsadüfi dərketmə - cari şüura xarakterikdir. İnsan o şeylər haqqında düşünür ki, o şeylər təsadüfən fərdi təcrübəyə daxil olub, onunla obyekt-subyekt münasibətinə girir. Belə düşüncədə səbəb obyekt, düşüncə nəticədir. Zəruri dərketmə - insan məqsədəyönlü təcrübədə məhz ona lazım olan obyektə istiqamətlənməklə onu dərk etməyə cəhd edir. Belə dərketmə elmi düşüncənin əsasını təşkil edir. Belə düşüncədə səbəb subyekt, nəticə bilgidir. İnsan həm xüsusi, həm də ümumi düşünür. İnsanın xüsusi düşüncəsi fərdi şüurla reallaşır və hər bir adam yalnız özünəxas şüurla həqiqəti idrak etməyə cəhd edir. Xüsusi düşüncə hissi qavranılma ilə şərtləndiyindən fərddən asılıdır. Buradan fərdi şüur formaları meydana çıxır. İnsan həm də ümumi düşünür. İnsanın ümumi düşünməsi - qeyri-hissi qavramağa cəhd kimi, onda olan ümumi insanlıq şüuru ilə və başqaları ilə vəhdətdə düşünməsini göstərir. Birincini biz daxili ümumi düşüncə, ikinciyə xarici ümumi düşüncə adlandırırıq. Xarici ümumi düşüncə ictimai şüur kimi meydana çıxır. Daxili ümumi düşüncədə insan iki cür - həm xüsusi şeylər haqqında ümumi, həm də ümumi olanlar haqqında ümumi düşünür. Xüsusi şeylər haqqında ümumi düşüncə fəlsəfi düşüncə kimi meydana çıxır. Xüsusi şeylər təcrübədə

insana təqdim olunan bütün şeylərdir, hansı ki, fəlsəfə onları ümumi düşünərək onlardan ən ümumi həqiqətləri aşkarlayır.

Haşiyə: Dekart: "Birinci fəlsəfə haqqında düşüncələr"

> *"Daha sadə və ən ümumi olan bəzi şeylər həqiqidir və onların birliyindən, həqiqi rənglərin birləşməsinə uyğun, bizim fikrimizdə şeylər ya həqiqi obrazları olan bütün mövcud olanların təsəvvürləri yaradılır. Belə növ universal şeylər bütün maddi təbiətin məsafəliyidir."*

Dekartın fikirlərindən də görünür ki, "bütün şeylərin təsəvvürlərindən" universal şeylər yaradılır ki, fəlsəfə bu təsəvvürlərdə yaradılan universal şeylərdən həqiqəti aşkarlamağa cəhd edir. Ümumi olanlar ümumi şeylərdən fərqli olaraq birlik təşkil etmir, onlar özü-özündə özü ilə vəhdəti təqdim edir, belə ümumi olanların bizim fikrimizdə həqiqi obrazları yaranmır və ya olmur, ona görə də onlardan bütün mövcud olanların obrazları yaradılmır və birincilərdən fərqli olaraq maddi təbiətin məsafiliyi kimi çıxış etmir. Belə ümumilərdən həqiqətin aşkarlanması metafizikanın mahiyyətini təşkil edir.

Biz belə hesab edirik ki, Ruh özündənkənarşey kimi *Rasa Tabula*dır. Yəni ruhun mövcudluğu ruhun aktuallığından sonra özündənkənar meydana çıxdığından, anadangəlmə ruhun özündənkənarşeyliyi yoxdur. Yəni Ruh anadangəlmə anında mövcudluğa malik olmadığından, heç bir ideyaya da malik deyil. Başqa sözlə, *Rasa Tabula* fərdi yox, ictimai ruhun - Ruhun Formal varlığının vəziyyətidir, hansı ki, yalnız anadangəlmədən sonra yaranmağa başlayır. Yəni *Rasa Tabula* anadandoğulma xarakteristikadır, hansı ki, anadangəlmə ideyaların keçici qaranlıqlaşması ilə meydana çıxır. Başqa sözlə, insan doğularkən onun ağlındakı mövcudluqların bütün ideyaları təbii işığın təsirindən qaranlıqlaşır, sanki neqativə çevrilir, hansı ki, dərhal elə həmin andan hissi qavrama ilə yenidən pozitivləşir. Yalnız təcrübədə mövcudluq özündəşeyliyindən çıxaraq gerçəkliyə çevrildikdə, Ruh da özü-özündə

olmaqdan çıxır - ekzistensiya edir və təcrübədə gerçəkliyi özündə refleksiya edir. Bu zaman mövcudluğun ”var vardır” ideyası Ruhda refleksiya edərək Ruhun “düşünürəm, deməli mövcudam” ideyasına çevrilir. Burada belə bir sual meydana çıxır: Ümumi olanlar necə aşkarlanır? Düşüncəyə qədər və ya düşüncədən fərqli? Ruhun xüsusi mövcudluq üsulu vardırmı? Əgər varsa, o, “düşüncə ilə mövcudluq” üsulundan necə fərqlənir?

İdrak prosesinin təbiəti ilə bağlı belə bir sual doğur: Təfəkkürdə yaranan abstrakt strukturlar təfəkkürün özündən nisbi şərtlənmiş şəkildə doğulur (yəni əvvəlcədən təfəkkürdə mövcud olur, amma yalnız varlığın refleksiyası nəticəsində meydana çıxır), yoxsa təfəkkürdə heç bir strukturun əsası əvvəldən olmur və yalnız varlığın refleksiyası mexaniki olaraq təfəkkürdə struktur yaradır, və buna görə bu strukturlar varlıqla mütləq şəkildə şərtlənmişdir? Bu məsələni Leybnits “Anadangəlmə anlayışlar haqqında” adlı əsərində “ruhun bədənlə əlaqəsinin rasional izahı” kimi şərh edir. Əgər birinci ehtimalı qəbul etsək, onda ruhda anadangəlmə struktur əsaslarının olduğunu və bu strukturların varlıqla şərtlənmiş formada meydana çıxdığını qəbul etməliyik. Yox əgər, ikinci ehtimalı - ruhda anadangəlmə heç bir strukturun əsasının olmadığını qəbul etsək, onda təfəkkürün strukturlaşmasının özündə varlığı mexaniki əks etdirdiyini qəbul etməliyik. Belə olan halda: birincisi, təfəkkürdə həqiqətin aprior aydınlaşmasını izah etmək mümkün deyildir (hansı ki, təfəkkürün təcrübədə refleksiya yolu ilə yaranan sadə strukturları əsasında daha mürəkkəb strukturların yaranmasını); ikincisi, nəzəri yolla həqiqətin aşkarlanmasının mümkünlüyünü izah etmək mümkün olmaz (çünki nəzəri bilgilər hissi təcrübədə kənardan, yəni təbiətdən əldə edilmir); üçüncüsü, həqiqətin mərhələli idrakını izah etmək olmaz (halbuki təcrübədə idraka təqdim edilən şey tam şəkildə təqdim olunur, amma ondan həqiqət hissə-hissə əldə edilir, nəticədə eyni bir şeydən ən müxtəlif səviyyəli həqiqətlər əldə edilir); dördüncüsü, həqiqətin

fərdlərdən asılı olaraq idrakını izah etmək mümkün olmaz (belə ki, əgər ruhda qabaqcadan heç bir ideya yoxsa, onda hər şey hamıda eyni cür refleksiya etməliydi, çünki eyni bir şey fərqli fərdlərdə eyni cür refleksiya edir; amma insanlar eyni bir şeyi fərqli qaydada refleksiya edir); beşincisi, ən ümumi həqiqətin aşkarlanmasını izah etmək olmaz (əgər şeylər fərdi qaydada idraka təqdim edilirsə və ruhda başlanğıc heç bir ideya yoxsa, onda fərdi şeylərdən ümumi həqiqətin aşkarlanmasını izah etmək çətinlik törədərdi); altıncısı, eyni şeylərin müxtəlif fərdlərdə eyni və müxtəlif şeylərin eyni fərdlərdə müxtəlif ideyalar yaratmasını (bütün insanların həqiqət kimi qəbul etdiyi, ümumqəbul edilmiş anlayışlar, məlum prinsiplər mövcud olduğundan - Leybnits) izah etmək çətinlik törədir. Bu məsələ həm də Ruhun müstəqil varlıq olub-olmaması, Allahın varlığı, Yaranış və s. kimi fundamental metafizik obyektlərə yanaşmada da fikir ayrılığına gətirib çıxarır. Məsələn, əgər ruhun anadangəlmə ideyası yoxdursa, deməli o heçlikdir, yəni mənasızlıqdır; əgər ideya yalnız gerçəklikdən çıxırsa, onda Allah ya gerçəklikdir (çünki onun bizdə ideyası vardır), ya da Allahın bizdə heç bir ideyası yoxdur, onda biz onun haqqında mühakimə apara bilmərik. Allah haqqında mühakimə apara bilmərikso, onda onun fəaliyyətini, varlığı yaratmasını - Yaranışı da qəbul edə bilmərik. Əgər yaranışı qəbul etmiriksə, onda varlığın əmələgəlməsinin əsasını - ilk başlanğıcı haqqında ideyaya malik olmalıyıq, halbuki sonsuzluq və əbədilik xarakteristikası olan heç nəyin (materiyaya materialistlər belə xarakteristika etdiklərindən) materiyanın da ilk başlanğıcı yoxdur, buna görə də ideyası da ola bilməz.

Biz məsələyə öz mövqeyimizi şərh etmək üçün sualı bir qədər fərqli qoyuruq. Təfəkkür strukturları Yaranma nəticəsində meydana çıxır, yoxsa əmələgəlmə nəticəsində? Əgər yaranma nəticəsində meydana çıxırsa, onda bu strukturlar əvvəldən yoxluqdan var olmalıdır və sonra gerçəklikdən asılı olmadan müstəqil təzahür imkanına malik olmalıdır. Bu yaranmanın əsas şərtidir. Amma məlumdur ki, təfəkkür strukturları

varlığın refleksiyasından əmələ gəlir, yəni bu strukturlar öz-özünə yaranmır. Deməli əməlegəlmə nəticəsində meydana çıxırlar; onda əməlegəlmənin qanunauyğunluğuna əsasən "nə nədənsə əmələ gəlməlidir" müddəasına uyğun meydana çıxır. Burada "nə" xarici şeyin ideyasıdırsa, onda "nəsə" ağlın özündə saxlanan anadangəlmə ideyası olmalıdır. Əməlegəlməni şərh edərkən onun iki formasını göstərmişdik:

a) **Dönər əməlegəlmə:** Belə əməlegəlmədə əməlegətirən tam şəkildə əməlegələnə keçir. Təbiətdə maddələrin bütün əməlegəlmələri bu qanunauyğunluğa tabe olur. Buna görə də əməlegələn dönər yolla yenidən əməlegətirənə çevrilir. Təfəkkür strukturları belə əməlegəlmə ilə meydana çıxsaydı, onda dönər yolla təfəkkür strukturlarından mövcudluq əmələ gəlməli idi. Amma təcrübədə bu istisna olunur.

b) **Dönməz əməlegəlmə:** Belə əməlegəlmədə əməlegətirən tam şəkildə əməlegələnə keçmir və əməlegələn özündə həm əməlegətirənin hissəsini-təbiətini, həm də özündən olan tamı-öz təbiətini təqdim edir. Məsələn, təbiətdə canlıların əməlegəlməsi bu qanunauyğunluğa əsaslanır. Məsələn: erkək və dişinin cütləşməsindən bala əmələ gəlir. Bala erkəyin spermasından, dişinin yumurtasından yarandığından öz valideynlərinin hissəsini-təbiətini özündə daşıyır, amma bu hissələr müstəqil inkişaf edərək yeni tama çevrilir, hansı ki, yeni tamın bir çox hissələri erkək və dişinin hissələrindən fərqlənir və buna görə də bala heç vaxt yenidən öz valideynlərinə çevrilmir. Bizcə, təfəkkür strukturları da dönməz əməlegəlmə ilə meydana çıxır. Sadəcə canlıların əməlegəlməsindən fərqli olaraq əməlegətirən - gerçəklik, əməlegələnə - ideya və obrazlara hissəvi olaraq keçmir. Təfəkkürdə konkret gerçəklik abstrakt varlığı əmələ gətirir və təfəkkür strukturları bir tərəfdən real varlığın əlamətlərini-təbiətini özündə daşıyır, digər tərəfdən abstrakt olduğundan, onlardan kəskin fərqlənir və buna görə də təfəkkürün abstrakt strukturlarından real varlıq yaranmır. Təfəkkürdə strukturların meydana çıxmasında əməlegətirən - gerçəklik əməlegələnə - obraz, təsəvvür və ideyaya nə tam, nə hissəvi

keçmədiyindən, təfəkkürdə mövcud olan strukturların əsasının bütünlüklə qabaqcadan təfəkkürün özündə olduğunu deməyə əsas verir. Beləliklə, Ruhda təfəkkür strukturlarının anadangəlmə əsası varmı?

Biz belə hesab edirik ki, təfəkkürdə yaranan istənilən strukturun əsası qabaqcadan onda mövcuddur və onlar yalnız idrak prosesində - varlığın refleksiyasında meydana çıxır. Bu qanunauyğunluq istənilən əmələgəlmə üçün xarakterikdir. Məsələn, biz Na və Cl atomları götürüb qabaqcadan onların iştirakı ilə hansı maddələrin əmələ gələ biləcəyini qabaqcadan deyə bilərik. Lakin bizim qabaqcadan deyə biləcəklərimiz qabaqcadan Na və Cl-da olan və bizə məlum olan kimyəvi xassələrinə əsaslanır. Əgər belə xassələr onlarda olmasaydı, onda qabaqcadan onlardan hansı maddələrin əmələ gəlməsini demək mümkün olmazdı. Təfəkkürdə də heç bir əsas olmasaydı, heç bir gerçəkliyin onda konkret struktur yarada biləcəyi qeyri-müəyyən olardı. Ruhda anadangəlmə ideyaların olmasını yaddaşın mövcudluğu da sübut edir. Heyvanlarda irsi və hüceyrə yaddaşı sübut edir ki, yaddaş anadangəlmə qabiliyyətdir və bu yaddaş bədənin ideyalarının saxladığı yaddaş kimi mövcuddur. Əgər belədirsə, onda insanlarda anadangəlmə Ruhi ideyaların saxlandığı yaddaşın olmadığını inkar etmək çətinlik törədir. Bunu qəbul etdikdə, həqiqətin idrakını - refleksiya nəticəsində ideyaların anadangəlmə yaddaşdan qazanılma - ikincili yaddaşa keçməsi kimi də izah etmək olar. İkincili yaddaş başqaları ilə bölüşdürülməsi mümkün olan həqiqətlərin toplandığı yaddaş, anadangəlmə yaddaş isə belə imkanın olmadığı yaddaş olduğundan, biz anadangəlmə yaddaşda nələrin olduğunu başqaları ilə bölüşdürə bilmirik, bu imkansızlığı isə onların yoxluğu kimi dərk edirik. Yaddaşın əsas əlamətlərindən biri xatırlamadır. Xatırlama (*subvenire*) - əvvəllər refleksiya etmiş həqiqəti təfəkkürdə refleksiyasız təkrar aşkarlamaqdan ibarətdir. Əgər biz idrakı xatırlama ilə izah etsək, onda belə deyə bilərik ki, şeylərin refleksiyasından həqiqətin aşkarlanması da xatırlama kimi meydana çıxır, hansı ki, refleksiya edənin ideyası

qabaqcadan ruhda olan ideyanın xatırlanması kimi aşkarlanır. Gerçəklik sadəcə həmin ideyanın xatırlanmasını stimullaşdırır.

Anadangəlmə ideyaların olmasını aşağıdakılar sübut edir:

Bədən tələbatları ilə bağlı qarışıq ideyalar: Canlılarda bədən tələbatları instinktiv fəaliyyətlərə təkan verdiyi kimi, ruhda anadangəlmə ideyalara əsas təşkil edir. Yəni insanın bədən tələbatları ilə bağlı ideyalar bu tələbatlar anadangəlmə olduğu kimi anadangəlmədir.

Hamının cari şüurla dərk etdiyi ən sadə ideyalar: Elə ideyalar vardır ki, onlar istənilən fərddə spontan aşkarlanır. Əgər hər hansı bir ideya hamıda varsa və hamı təcrübədə eyni şərtlərdə idrak prosesinə daxil olmursa, bu onların ən ümumi əsasa - daxili əsasa malik olduğunu göstərir.

Potensial şəkildə mövcud olan xalis ideyalar: Belə ideyalara hissi təcrübədən əldə edilməyən ideyalar aiddir. Bura riyazi və həndəsi ideyaları aid etmək olar. **Haşiyə:** *Leybnits "Anadangəlmə anlayışlar haqqında"* - Bütün riyaziyyat və bütün həndəsə anadangəlmədir və bizdə potensial şəkildə mövcuddur; belə ki, biz onları ruhda olanlara diqqətlə baxa və qaydalaşdıraraq, heç bir təcrübə yolu ilə əldə edilən həqiqətə istifadə etmədən və ya başqa adamlardan almadan tapa bilirik. Leybnitsin fikirlərinə əlavə olaraq demək olar ki, obyektlərin aksidensiallıq xarakteristikasının ideyaları şeydən ayrılan olduğundan hissi qavrayışla şərtlənməmişdir, yəni hissi qavrayışdan kənarda da anadangəlmə ruha keçir.

Təhtəlşüurdan çıxan ideyalar: Ayrı-ayrı insanların və ya kollektiv şüurda meydana çıxan ideyalar anadangəlmə ideyalardır. Belə ideyalar ya fərdin iradəsindən kənar - şüurlu axtarışından yox, qəfləti aşkarlanma kimi, ya da yalnız bir fərddən yox kollektivdən - hamıda eyni qaydada meydana çıxır. Kollektiv şüur hissi qavrama ilə şərtlənmədiyindən biz kollektiv şüurun aşkarladığı bütün ideyaları anadangəlmə ideyalar kimi təyin edə bilərik.

Haşiyə: Leybnits "İnsanın ağıllanması haqqında yeni təcrübələr"

> *"Əgər ruh xalis lövhə olsaydı, onda həqiqət fiqur kimi birbaşa mövcud olardı, onda o, mövcud fiqurun bu və ya başqa forması olmasına mütləq laqeyd olardı. David Yum: "İnsan təbiəti haqqında traktat" - Bütün filosoflar özü-özündə kifayət qədər aydın olan faktı etiraf edir ki, ağıla onun qavrayışlarından və ya təəssüratından və ideyasından başqa heç vaxt real heç nə verilməyib, xarici obyektlər bizə yalnız onların yaratdığı qavrayışlarla məlum olur. Əgər heç vaxt heç nə verilməmişsə, əgər bütün ideyalar öncədən ona verilmiş nədənsə əmələ gəlirsə, onda buradan belə çıxır ki, biz özümüz üçün nəsə təqdim edə bilmərik və ideyadan və təəssüratdan fərqlənən xüsusi ideya yarada bilmərik. Mövcudluq ideyası mövcud olan kimi təsəvvür etdiyimizin ideyası ilə eynilik təşkil edir. Hər hansı bir şey haqqında düşünmək və onun haqqında mövcud olan kimi düşünmək tamamilə bir və eynidir. Biz nə təsəvvür ediriksə, onu mövcud olan kimi təsəvvür edirik."*

Leybnitsin fikirlərindən görünür ki, Ruhun *Rasa Tabula* olmaması onun həqiqətin aşkarlanması ilə inkar olunur. Belə ki, əgər Ruh özünəməxsus heç bir ideyaya malik deyilsə, onda həqiqət forma kimi ayrılıqda mövcud olardı və biz formanı hissi qavradığımız kimi həqiqəti də hissi qavrayardıq. Amma həqiqət hissi qavramada təfəkkürdə əlavə əməliyyatların aparılması nəticəsində qavranılır. Digər tərəfdən, əgər Ruhun anadangəlmə ideyası yoxsa, onda müxtəlif idrak üsulları ilə qavramanın meydana çıxmasını izah etmək mümkün deyil. Nəhayət, əgər ruh *Rasa Tabula* kimi yalnız hissi qavranılma nəticəsində ideyaları aşkarlayırsa, onda qeyri-hissi qavranılan ideyaların aşkarlanmasını izah etmək mümkün deyil. D.Yumun fikirlərindən görünür ki, biz mövcud olan kimi təsəvvür etdiyimizi mövcudluğun ideyası kimi qəbul edirik. Buradan da hər bir şeyin "anadangəlmə" ideyaya malik olmasını təsdiq edirik. Ruh mövcudluğu olmayan mövcud olduğundan, biz ruhun anadangəlmə ideyasını gerçəkliklərin ideyası kimi, onun

mövcudluğundan aşkarlaya bilmirik. Bu da Ruhun *Rasa Tabula* olması fikrinə gətirib çıxarır.

Beləliklə, Aristotellə Leybnitsin fikirlərindən iki nəticə çıxarmaq olar. Birincisi, Aristotelə görə, Ruh - "düşünmədən mövcudluq" üsuluna malikdir, bu onun *"Rasa Tabula"* vəziyyətidir. İkincisi, Leybnitsə görə Ruhun *"Rasa Tabula"* vəziyyəti reallıq deyil. Yəni onda anadangəlmə ideyalar vardır. Əslində həm Aristotel, həm də Leybnits ilk baxışdan fərqli mövqelərdən çıxış etdikləri görünsə də, bir-birini təkzib etmir. Əgər Ruh sadəcə mövcud varlığı özündə refleksiya edən bir güzgü kimidirsə, o gərək Aristotelin dediyi kimi *"Rasa Tabula"* olsun ki, özündə varlığı əks etdirsin. Yox əgər o, Leybnitsin dediyi kimi *Rasa Tabula* deyilsə, onda mövcud varlığı özündə refleksiya etməmişdən əvvəl, yəni təcrübəyə qədər Ruhda əks olunan nəsə olmalıdır - yəni bu lövhəyə kim, nə vaxt, necə və nə yazıb? Başqa sözlə, "ruhun anadangəlmə ideyaya malik olması" fikri geniş mənada özündə nəyi təqdim edir? Bütün yuxarıdakı şərhlərdən aşağıdakı ideya aşkarlanır: Fiktiv Ruh xarici gerçəkliyə münasibətdə *"Rasa Tabula"*, özü-özünə münasibətdə isə - palimpsest - anadangəlmə ideyaya malik varlığın mövcudluğudur.

D.Yumun yuxarıdakı fikirlərindən görünür ki, birincisi, bizim xarici mövcudluq haqqında ideyalarımız həmin mövcudluqların bizə təsirindən yaranan təəssüratlardan meydana çıxır və heç bir reallıq mütləq şəkildə öz həqiqəti ilə bağlı bizdə təəssürat yarada bilmədiyindən, bizim xarici mövcudluq haqqında ideyalarımız nisbi şəkildə onun ideyası ilə eynilik təşkil edir. İkincisi, bir şey haqqında düşünmək onun mövcudluğu haqqında düşünməkdir, halbuki bir şeyi dərk etmək onun mövcud olmasını dərk etmək deməkdir. Şeylərin ideyaları onların özündə-şeyində saxlandığından, özündə-şey hissi təcrübədən kənar aprior dərk edildiyindən, mövcudluğun ideyalarının aşkarlanması hissi təcrübədən kənar meydana çıxır. Üçüncüsü, bizim təsəvvür etdiklərimiz mövcud

olan kimi təsəvvürlərlə eynidir. Nə üçün insanın mövcudluq (fakt) haqqında düşüncəsi yalnız mövcud olan (akt) haqqında düşüncədən ibarət olur? Mövcudluq - fakt, mövcudolma - aktdır. Ayrılıqda götürülmüş fakt zamana və məkana malik olmadığından - mövcud olmadığından - təcrübədə şüura təqdim edilmir və biz onu yalnız abstrakt formada təsəvvür edirik. Fakt yalnız aktuallaşdıqda, yəni məkan və zamanla şərtləndikdə, bu şərtlərin təbiətindən biz faktı aşkarlayırıq. Ona görə də istənilən şeyin faktı haqqında düşüncə yalnız onun aktı haqqında düşüncədən ibarətdir. Bəs nə üçün bizim təsəvvürlərimiz yalnız mövcud olan kiminin təsəvvürlərindən ibarətdir? Düşüncə ruhun mövcud olmasının əlamətidir. Ruh öz mövcudluğunu düşündüyü istənilən xarici şeyin mövcud olmasına köçürür. Bununla da düşüncə (ruhun mövcud olması) özündə yalnız mövcud olma haqqında təsəvvür kimi meydana çıxır.

Əgər biz Ruh haqqında düşünürüksə, yəni onun *Rasa Tabula* olub-olmamasını düşünürüksə, deməli biz ruhu mövcud olan kimi düşünürük. Əgər mövcud olan kimidirsə, deməli mövcud olmasının qanunları vardır. Xarici varlıqda bu qanunlar vasitəli - formadan keçməklə təzahür edir. Ruhun forması olmadığından, onun qanunları - ideyaları vasitəsiz meydana çıxır. Biz xarici şeylərin ideyalarını vasitəsiz qavraya bilmədiyimizdən, ruhun vasitəsi olmadığından, onu ideyasız qəbul edirik. Ruhun *Rasa Tabula* olmaması belə bir faktla sübut olunur ki, idrak prosesi "düşünən mənin" idrakından başlanır və xarici mövcudluğun ideyası daxili mövcudluğun "düşünən mənin" ideyası ilə müqayisə edilməklə aşkarlanır. Düşünən mənin ideyası isə ona xaricdən yox, məhz daxildən - bədənlə ruhun fərqliliyindən aşkar olunur. Başqa sözlə, təfəkkürün özü-özündə ideya yaratması onun anadangəlmə (yaranmadan ona xas olan) ideyaya malik olmasını göstərir.

İnsanın idrak prosesinin başlanğıcında xarici əşyalardan həqiqəti dərk etməsi, əgər Aristotelin *"Tabula Rasa"* müddəasını qəbul ediriksə,

onda necə düşüncəli ola bilər? Artıq psixologiya elmi "düşüncənin" doğulmamışdan çox-çox qabaq başladığını iddia edir. Bəzilərinə görə düşüncə doğuş yollarından, bəzilərinə görə bətndaxilində, bəzilərinə görə mayalanma situasiyasında, bəzilərinə görə mayalanmamışdan qabaq hər iki valideynin yaşantılarının onun hüceyrə yaddaşına daxil olması ilə cinsi hüceyrələrə ötürülməsində başlayır. Biz belə hesab edirik ki, psixologiyanın təhtəlşüur, Kantın Xalis zəka adlandırdığı, məhz Aristotelin *"Tabula Rasa"* adlandırdığının, yəni düşünən mövcudluğun - Ruhun özü-özündə olan ideyasıdır; hansı ki, metafizik ideyalar məhz *Tabula Rasa*nın özü-özündə ideyası kimi anadangəlmə onda mövcuddur. Varlığın ideyası isə yalnız sonradan onda refleksiya yolu ilə meydana çıxır. Biz Ruhun anadangəlmə ideyalarının Formal Ruhun ideyalarından - mümkünlüyün varlığının ideyalarından ibarət olduğunu iddia edirik, hansı ki, təhtəlşüurdan şüura keçərək aşkarlanır.

> ***Haşiyə:*** *Hegel "Məntiq elmi" - Fəlsəfəni ilkin olaraq əşyalara düşüncəli baxış kimi təyin etmək olar.*

Əgər fəlsəfəni Hegelin dediyi kimi "əşyalara düşüncəli baxış" kimi təyin etsək, onda metafizikanı Ruhun özü-özünə düşüncəli baxışı kimi təyin edə bilərik; hansı ki, belə baxış nəticəsində Ruh "bədəndən qabaq" - müstəqil mümkün varlıq kimi mövcudluğundan əldə etdiyi bilgiləri bədəndə özünə düşüncəli baxışla aşkarlayır.

Ruhun anadangəlmə ideyalara malik olmasını aşağıdakılarla təsdiq etmək olar:

Həqiqət kimin üçün axtarılır? Əgər hər bir insan həqiqəti yalnız özü üçün aşkarlasaydı, onda aşkarlanmış bütün həqiqətlər xüsusi və sintetik olardı. Bununla da insanlıq ibtidai şüurdan çıxa bilməzdi. Deməli, insanlar həqiqəti bir-biri üçün aşkarlamaqla dialektik yolla ümumi həqiqəti tapa bilər. Buradan da düşüncə - əşyaya baxışın elə bir forması kimi çıxış edir ki, əşyadan başqası üçün həqiqəti aşkarlasın. Məhz bu, düşüncənin mahiyyətini təşkil edir. Biz bizim və ya başqasının

düşündüyünü necə müəyyən edə bilərik? Əgər "Mən düşünürəm, mən mövcudam" deməkdirsə, onda "sən düşünürsən, sən mövcudsan", "o düşünürsə, o mövcuddur" deməkdir. Amma mən bilavasitə sənin və ya onun nə düşündüyünü yalnız o halda bilirəm ki, sənin düşüncən sənə görə xarici olsun, yəni mənə məlum olsun; yəni yalnız "mən düşünüm ki, sən düşünürsən" vəziyyətində sən mövcudsan. Necə ki, bildirilməyib, mən sənin və ya onun düşündüyünü bilə bilmərəm. Nəticədə, sənin düşündüyünü bilmədiyimdən, mən də düşünə bilmərəm, yəni mövcud ola bilmərəm. Eləcə də anabətnində olan mənə nə düşündüyünü çatdıra bilmirsə, mən onun nə düşündüyünü bilə bilmərəm. Amma bu o deməkdir ki, bundan nəticə çıxaraq ki, o özü-özündə düşünmür? Belə nəticə çıxarsaq, onda sən də düşüncəni mənə bildirməyənə qədər deməli düşünmürsən, deməli mövcud deyilsən. Bu baxımdan da ruh anadan olmamış "düşünmədən mövcud" ola bilər və biz onun bu cür mövcudluq üsulu haqqında heç nə bilə bilmərik. Əslində *Tabula Rasa* vəziyyəti - yalnız ruhun özünə məlum olan və başqasına bildirilməsi mümkün olmayan düşüncə vəziyyətidir. Ruh həm də insan öləndən sonra eyni üsulla mövcudluğunu davam etdirir və biz ölümdən sonra ruhun mövcudluq üsulu haqqında da heç nə bilmirik. Yəni ölmüş insanın ölməmiş ruhunun nə düşündüyünü bilmirik. Niyə? Qeyd etdiyimiz kimi, Mənim düşündüyümü yalnız başqasının düşünməsi müəyyənləşdirir. Yəni düşüncə vəhdətdə meydana çıxan ümumi xarakteristikadır. Əgər yalnız mən düşünsəydim (bir fərddə olan və başqa heç kəsdə olmayan qabiliyyət kimi), onda anadan olmamış və öləndən sonra nə düşündüyüm mənə məlum olardı. Amma düşüncə vəhdətdə ümumi xarakteristika olduğundan yalnız ictimai formada təzahür edir. Anadanolma və ölmə mütləq fərdi proses olduğundan anadanolmamış və öləndən sonra düşüncə olmur. Buna görə də İnsan doğulmamışdan və öləndən sonra başqası ilə vəhdət təşkil etmədiyindən düşünmür; eləcə də anadan olan kimi başqa insanlardan təcrid olunmuş şüurlu insan düşüncə

qabiliyyətində olmur. Beləliklə, "düşünürəm, deməli, mövcudam" özündə yalnız təcrübə sahəsində ruhi vəhdəti ifadə edir.

Aprior ideyaların aşkarlanması əksər mütəfəkkirlər tərəfindən qəbul olunduğundan deyə bilərik ki, insanlıq mövcud olduqdan sonra aprior ideyalar kəşf edildiyi kimi, fərddə də təcrübəyəqədər, ondan kənar, yəni doğulana qədər anadangəlmə ideyalara malik olması mümkündür. Bu ideyalar Ruhun özündə Allah, özü və mümkünlüyün varlığı haqqında malik olduğu ideyalardan ibarətdir, hansı ki, varlığın özündəşey kimi mövcudluğuna uyğundur. Ruhun özü haqqında anadangəlmə ideyaları doğulduqdan sonra "düşünən Mən"i təşkil edir. Hansı ki, idrak prosesində məhz "düşünən Mən" varlığın özündəşeyliyindən onu idrak etməyə cəhd edərək onu mövcudluğa çevirir. Bununla da özü də "düşünürəm, mövcudam" üsuluna yiyələnir. Deməli, Aristotelin dediyi *"Tabula Rasa"* "anadangəlmə Mən" ideyasından başqa heç bir ideyaya malik olmayan ruhun vəziyyətidir. *Tabula Rasa* xarakteristikası yalnız mövcudluğun varlığının refleksiyasına münasibətdə fiktiv ruhun vəziyyətidir. Hansı ki, həqiqətən anadan olmamışdan insan təcrübədə obyekt-subyekt əlaqəsində varlığı özündə refleksiya etmədiyindən onda heç bir Varlıq ideyası yoxdur. Amma varlığın mövcudluğu hissi qavrama tələb etmədiyindən hissi təcrübəyədək Ruhda varlığın mövcudluğunun ideyalarının olmasını əngəlləyən və ya belə ideyaların olmasını inkar etməyə heç bir səbəb və ya əsas yoxdur.

Hər hansı bir fərd anadangəlmə cinsi kimliyə malikdir, amma o yalnız həyatının müəyyən dövründən sonra öz cinsi kimliyi ilə eyniyyət təşkil edir. Biz bunu həqiqətin zamanla şərtlənmiş təzahürü kimi qəbul edirik. Ruhun anadangəlmə ideyalara malik olması özündə onda zamanla aşkarlanan ideyaların olmasını təsdiq edir. Hansı ki, həqiqətin tarixiliyi özündə bunu əks etdirir.

Heç bir mövcudluq yalnız məkani şərtlərin dəyişilməsi ilə başqa şeyə çevrilmir və özünün əsas keyfiyyətlərini saxlayır, yalnız mövcudluq

mühitdən asılı olaraq xassələrini entropiya olunmuş formada təzahür etdirir. Biz bunu həqiqətin məkanla şərtlənmiş təzahürü kimi qəbul edirik. Ruh üçün anabətni bir, doğulduğu yer başqa məkandır. Əgər o xalis *Tabula Rasa* olsaydı, onda anadan olandan sonra da *Tabula Rasa* olaraq qalmalıydı.

Beləliklə, dediklərimizi ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki, metafizik bilgilər *Tabula Rasa*dan aşkarlanan ümumi olanlar haqqında bilgilərdən ibarətdir.

b. YUXUDA DƏRKETMƏ - YUXUGÖRMƏ

Yuxugörmə canlılığa xas ritmik bioloji prosesin - yatmağın yalnız şüurlu insanda aşkarlanan xüsusi təzahürü kimi meydana çıxır. Yatmaq bədənlə, yuxugörmə ruhla şərtlənir. Yatmaq bədənin keçici olaraq hissiyyatının zəifləməsindən və ətrafla hissi mübadilədən çıxmasından ibarət bioloji prosesdir. Ruh bədəndən fərqli olaraq zamandan asılı olmadığından ruhi fəaliyyət zamanla şərtlənmir.

> ***Haşiyə:*** *Reymond Moudi "Geriyə qayıdış" - Bizim təsəvvürlər, belə görünür ki, heç vaxt dincəlmir.*

Təsəvvürlərin dincəlməməsi bir təsəvvürdən digərinin yaradılması prosesi kimi baş verir və buna görə də insan heyvanlardan fərqli olaraq yatanda yuxu görür. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Yuxu - fiktiv ruhun yatmış bədənlə əlaqəsinin şərtlərinin məcmusundan ibarətdir.

Başqa sözlə, yuxugörmə zamanla fərqli şərtlənmələrinə görə bədənlə ruhun əlaqəsinin keçici olaraq pozulması və ruhun bədənin iştirakçılıq dərəcəsinin zəifləməsi ilə öz fəaliyyətini davam etdirməsindən ibarət ruhi prosesdir. Buradan da aşağıdakı suallar meydana çıxır: Əgər insan düşüncəsi sürəkli prosesdirsə, o, yuxuda da düşünürmü? Düşüncə nəticəsində müəyyən həqiqətlər aşkarlanırsa, onda insan yuxuda həqiqət aşkarlayırmı? Əgər aşkarlayırsa, ayıqlıqda həqiqətin aşkarlanması ilə

yuxuda həqiqətin aşkarlanması bir-birindən necə fərqlənir? Yəni yuxugörmədə ayıqgörmədəki kimi həqiqət dəqiq və aydın aşkarlanırmı?

Yuxuda düşünmə ayıqlıqda düşünmədən ilk növbədə obyektin mücərrədliyi ilə fərqlənir. Başqa sözlə, yuxu - ayıqlıqda hissi qavrama ilə təfəkkürdə əvvəllər refleksiya etmiş mövcud varlıqların yaddaşda saxlanan mücərrəd obraz və təsəvvürləri əsasında ruhun həqiqəti qavrama cəhdindən ibarətdir. Əgər ayıqlıqda təcrübədə subyekt konkret mövcud obyektə münasibətdə həqiqəti aşkarlayırsa, yuxugörmədə həqiqət mücərrəd obyektdən aşkarlanır, yəni obyekt real mövcudluğa malik olmur. Buradan da konkret mövcudluğu olmayan eyni bir mücərrəd mövcud varlıq əslində özündə mümkünlüyün varlığının istənilən həqiqətini aydınlaşdırmaq imkanına malik olur. Nəticədə, yuxugörmədə düşüncə xaotikliyi, spontanlığı və avtonomluğu ilə ayıqlıqdakı idrak prosesindən fərqlənir və belə düşüncənin aşkarladığı həqiqət yalnız təsadüfi şərtlərə görə dəqiq və aydın olur. Yuxugörmədə həqiqətin xaotik aşkarlanması idrak prosesinin ardıcıllığına və mərhələliyinə zidd, mövcud varlığın nizamına uyğun ardıcıl qavrayışın istisna olması ilə bağlı meydana çıxır. Ayıqlıqda qavrayış mövcud varlığın ardıcıllığına uyğun nizamlı və idrak prosesinin ardıcıllığına və mərhələliyinə tabe olur. Ayıqlıqda hissi qavrayışda həqiqətin aydınlaşması zərurətə görə hissi qavranılan obyektlə şərtləndiyindən yalnız həmin obyektin refleksiyasında aşkarlanır. Yuxuda obyekt bilavasitə idrak prosesinə təqdim edilmədiyindən, obyektin iştirakı olmadan həqiqət spontan və avtonom meydana çıxır.

Ayıqlıqda həqiqətin dəqiqliyi və aydınlığı mövcud varlığın zəruri şərtlərinə əsaslanır. Yuxugörmədə mövcud varlıq idraka cəlb edilmədiyindən, həqiqət yalnız təsadüfə görə dəqiq və aydın olur. İnsanın yatanda da düşünməkdə davam etməsi düşüncəsinin nəticələrini yaddaşa alması, yəni yuxusunu xatırlaması (əgər xatırlama varsa, deməli yaddaşa alma var, yaddaşa alma isə bilavasitə düşüncə prosesinin bir epizodunu

təşkil edir) ilə sübut olunur. İnsanın yuxuda düşünməsini necə izah etmək olar? Hissi qavrama kosmosu təşkil edən və təcrübədə bədənə təsir edən hissi qavranılan maddi şeylərin bədənə təsiri ilə şərtlənmişdir. Mövcudluqların təsiri sürəkli, fasiləsiz, amma onların qavranması ayıqlıqda iradədən asılı olaraq fasiləli və keçici prosesdir. İnsan bədəni həm ayıqlıqda, həm də yuxuda eyni hissi qavranılan maddi şeylərin təsirinə məruz qalsa da, onların qavranılması bir-birindən fərqlənir. Belə ki, ayıqlıqda maddi şeylərin hissi təsiri iradəvi hissi qavrama ilə müşayiət olunur və nəticədə insan obyektiv gerçəkliklərin həqiqətini nizamlı şəkildə və təsirlə təsir obyektinin vəhdətində qavrayır. İradəvi qavrama anlayışı özündə təfəkkürün idrak prosesinin qanunlarına uyğun qavranmanı ifadə edir. Yəni qavrayışla qavranılan fakt vəhdət təşkil edir. Yuxuda qavrama prosesi qeyri-iradi baş verir. Qeyri-iradi qavrama iradəvi qavramadan fərqli olaraq, təfəkkürün idrak prosesinin qanunlarına tabe olmadığından xaotik qavrama kimi meydana çıxır. Qeyri-iradəvi qavramada təsir təsir obyekti ilə əlaqələndirilmir və təfəkkürdə xaotik və ya təsadüfə görə ixtiyari təsir obyekti ilə vəhdətdə götürülmüş şəkildə qavranılır. Yəni yuxululuqda qavramanın səbəbi kimi çıxış edən xarici obyektlərin təsiri təfəkkürdə saxlanılan istənilən obyektin obrazı və təsəvvürləri ilə təsadüfə görə vəhdətdə götürülür, nəticədə yatmış adama ətraf mühitin konkret obyektlərinin təsirləri təfəkkürdə ən müxtəlif obyektlərlə assosiasiya edilir və yuxugörmə meydana çıxır. Yuxululuqda xarici təsirlə daxili obyektlərin - mücərrəd obrazların assosiasiyası yalnız təfəkkürün özü-özündə spontan meydana çıxdığından, yuxugörmə Ruhun tabe olduğu metafizik qanunlara tabe olur; nəticədə yuxugörmədə bir şey eyni vaxtda hər yerdə, bir şey eyni yerdə müxtəlif vaxtlarda və bir şey eyni vaxtda eyni yerdə həm var, həm yox kimi dərk edilir. Buradan aşağıdakı ideya aşkarlanır: Yuxu - Ruhun Kosmik qanunlara tabe olan mövcudluqları metafizik qanunlara uyğun qavramasından ibarətdir.

Yuxuda konkret təsirlə mücərrəd obyektin vəhdəti necə meydana çıxır?

Haşiyə: Leybnits "İnsanın ağıllanması haqqında yeni təcrübə"

"Sadə ideyaları bizim tərəfimizdən qəbul edilməsinə uyğun təsnif edək, belə ki, biz onları ya

1. bilavasitə bir yalnız hisslə, ya

2. bilavasitə birdən artıq hisslə, ya

3. bilavasitə refleksiya ilə, ya

4. bütün yollarla, həm hisslərlə, həm refleksiya ilə qəbul edirik."

Leybnitsin fikirlərindən görünür ki, ideyaların aşkarlanması qavramanın təbiəti ilə bağlıdır. Biz yuxarıda üç cür qavrama üsulunun olduğunu qeyd etmişdik: hissi, demonstrativ və intuitiv qavrama. İdeyalar aşkarlanmanın çətinliyinə uyğun qavrama üsullarının müxtəlif kombinasiyalarda iştirakını tələb edir. Belə ki, bəzi ideyalar yalnız hissi qavranılır, hansı ki, belə ideyalar ya bir, ya bir neçə hissin qavranması ilə aşkarlanır. Bəzi ideyalar yalnız intuitiv - yəni reflektiv üsulla qavranılır. Belə ideyalar hissi təsirdən kənar özündəşeydən mücərrəd şəkildə qavranılır. Nəhayət, bəzi ideyalar qarışıq üsulla - həm hissi, həm intuitiv üsulla qavranılır, hansı ki, biz bunu demonstrativ idrak üsulu kimi təyin edirik. Bir hisslə qəbul edilən sadə ideya özündə aksidensiallığın ideyasından ibarət olur və buna görə də həqiqətin yalnız bir ümumi tərəfi ilə bağlı məlumat daşıyır. Məsələn, taktil hisslə qəbul edilən istilik və ya bərklik. İstilik və ya bərklik sonsuz sayda mövcudluğun orijinal ideyalarının tərkib hissəsi kimi çıxış edir. Beləliklə, sadə ideya yalnız ayrıca bir keyfiyyəti özündə ifadə edən ideyalar kimi mövcud olur və ən sadə olduğundan ən ümumi təbiətə malik olur. Sadə ideyalardan fərdi şey haqqında tam təsəvvür yaranmır. İki və daha çox hissiyyatdan yaranan ideyalar assosiativ ideyaları təşkil edir. Məsələn: gözlə formanı görürük,

dəri ilə onun bərkliyini hiss edirik, burnumuzla iyini təyin edirik. Bu üç hissiyyatın yaratdığı assosiasiyadan maddi şeyin orijinal həqiqətini aşkarlayırıq. Daha sonra hissi qavranılan şey təfəkkürdə əvvəlki hissi qavranılmadan təfəkkürdəki reflektiv əlamətlərinə görə aşkar edilir ki, buradan artıq maddi şeyin xüsusi həqiqəti aşkarlanır. Nəhayət, həm hisslər, həm təfəkkürdə qalıcı strukturların birgə iştirakı ilə ideya yaranırsa, bu ideya özündə ümumi həqiqət haqqında məlumat daşıyır. Biz bura ideyaların əmələ gəlməsinin bir formasını - xalis və ya intellektual ideyaları əlavə edirik, hansı ki, ruhun özü-özündə refleksiyasından meydana çıxır.

İnsan yuxuda yalnız bir və ya bir neçə hisslə qəbul etdiyi ideyaları aşkarlayır. Yuxuda görmə hissiyyatı - şeylərin xarici görüntüsünün qavranılması iştirak etmir, nəticədə digər hisslərlə əldə edilən sadə ideyalar konkret xarici görüntüsü olan obyektlə assosiasiya edilmir. İnsan yuxuda xarici görüntünü görmə hissiyyatından məhrum olduğundan obyektlərin rənginin, formasının, sayının ideyasını qavramır. Amma digər analizatorlar hissi qavramanı davam etdirir. Məsələn: qulaq səsi qəbul edir, burun iyi hiss edir, dəri taktil hissiyyatını davam etdirir. Beləliklə, insan yuxuda sanki korların hissi qavramasına uyğun qavramasını davam etdirir. Oyaqlıqda insan qavradıqlarına münasibət göstərir, yəni təfəkkürdə hissi qavranılma refleksiv qavrama ilə assosiasiya olunur. İnsan qavradığının nə olduğunu özü üçün dəqiqləşdirir. Yuxuda hissi qavrama refleksiv qavrama ilə assosiasiya təşkil etmir, ona görə də yaranan ideyalar dəqiq və aydın olmur. Ayıqlıqda analizatorlar bir-biri ilə əlaqəli hissi qavramada iştirak etdiyindən, bir analizatorun əldə etdiyi ideya digər analizatorların əldə etdiyi ideyalarla assosiasiya təşkil edərək həqiqətin hissi qavrama ilə idrakını təmin edir. Yuxuda da eyni proses davam edir, lakin yuxuda görmə analizatoru hissi qavramada müvəqqəti olaraq iştirak etmədiyindən, digər analizatorların əmələ gətirdiyi ideya ayıqlıqda əvvəlki təcrübələrdən əldə edilmiş görmə ideyaları ilə nizamsız və xaotik assosiasiya təşkil edir. Ona görə də yatmış insanın dərisinə soyuq bir şey

toxundurduqda, o, bir qayda olaraq soyuqla assosiasiya olunan yaddaşda saxlanan ən müxtəlif obyektlərin və hadisələrin ideyaları əsasında yuxular görür. Ayıqlıqda konkret obyektin xarici görüntüsü həmin obyektin hissi və reflektiv ideyaları ilə assosiasiya təşkil edir, yuxugörmədə yaddaşdakı istənilən ixtiyari mücərrəd obraz hissi və reflektiv ideya ilə assosiasiya təşkil edir. Yuxuda qəbul edilən hissi və reflektiv ideyalar Ruhun tabe olduğu metafizik qanunlara uyğun olaraq eyni yerdə müxtəlif vaxtlardakı görüntülərlə və ya eyni bir görüntü eyni vaxtda müxtəlif yerlərdəki görüntülərlə assosiasiya təşkil edir. Məsələn: yatmış insanın yuxuda ölmüş insanı görməsi, onunla ünsiyyətə girməsi məhz metafizikanın - bir şeyin eyni yerdə, müxtəlif vaxtlarda olması qanununa uyğun baş verir; belə ki, yuxu görən reallıqda "indi və burada" prinsipinə, amma yuxuda gördüyü obraz "burada və keçmişdə" prinsipinə tabe olaraq keçmişdə ölmüş insanla yuxuda birlikdə olur.

c. ANABƏTNİNDƏ DƏRKETMƏ

Beləliklə, əgər insan fasiləsiz düşünürsə, deməli düşüncə ruhun anadangəlmə qabiliyyətidir. Anabətnində insan düşünürsə, deməli yalnız özü-özündə düşünür, çünki anabətnində insan hissi qavramadan məhrumdur. Əgər özü-özünə düşünürsə, deməli özü-özündə olan ideyalar əsasında düşünür. Anabətnində dərketmədə dölün fiktiv ruhu həm dölün bədəni, həm ananın bədəni ilə əlaqədə olur. Nəticədə obyektiv reallıq ananın bədənindən keçməklə dölün fiktiv ruhunda inikas olunur. Belə inikas ayıqlıqdan fərqli olaraq bədənlə ruhun əlaqəsi vəhdətdən yox, əlaqədən baş verir. Nəticədə dölün idrakı yaddaşa alınmayan inikasdan ibarət olur, hansı ki, dölün bədəni prosesdə bilavasitə iştirak etmədiyindən və yaddaş bədənlə şərtləndiyindən dölün obyektiv reallığı anabətnində necə refleksiya etməsi ona qaranlıq qalır. Anabətnində obyektiv reallığın inikasını kölgə teatrına bənzətmək olar, hansı ki, obyektiv reallığın inikası aydın və dəqiq olmur. Ruhun anadangəlmə

ideyaya malikdirsə, onda insan anabətnində də düşünməlidir. Q.Leybnitsdən gətirdiyimiz yuxarıdakı iqtibasdan görünür ki, o, belə hesab edir ki, "bütün insanların qəbul etdiyi məlum prinsiplər vardır; məhz buna görə onlar ümumi qəbul edilmiş anlayışlar adlanır; buradan belə nəticə çıxır ki, bu prinsiplər bizim ruhun mövcudluqla birlikdə aldığı təəssüratlara əsaslanır". Mövcudluqla birgə alınan təəssüratlar mövcudluqdan alınan təəssüratdan fərqlənir, belə ki, ikinci yolla alınan təəssüratlarda mövcudluq ruha münasibətdə xarici və yad olur. Amma mövcudluqla birgə alınan təəssüratlarda mövcudluq ruha münasibətdə daxili, doğma olur. Buna görə də ruh bu səviyyədən aldığı ideyaları özü-özündən aldığı ideya kimi dərk edir.

Yəni ruh ilk andan - mövcudluqla, o cümlədən bədənlə təsadüfə görə keçici vəhdət təşkil etdiyi andan - vəhdətdə alınmış ideyalara malikdir, hansı ki, həmin ideyalar bərabər ölçüdə həm ruha, həm də bədənə (mövcudluğa) aiddir. Yəni mövcudluqla birgə alınan təəssüratlardan çıxarılan ideya mövcudluqla ruhda eyniyyət təşkil edir, yəni həm mövcudluqda, həm də ruhda qabaqcadan saxlanılır, yalnız onların vəhdətində aşkarlanır. Ruhun mövcudluqla birlikdə aldığı təəssürat anabətnindən - ruhun bədənə keçdiyi andan başlanır. Buna görə də demək olar ki, insan anabətnində də düşünür. Anabətnində düşüncə ayıqlıqda və yuxudakı düşüncədən tam fərqlənir. Belə ki, bu səviyyədə ruhun daxildə mövcudluqdan aşkarladığı ideya həm də özünün ideyası olur və buna görə də kənar ideya kimi yaddaşa alınmır, sadəcə şüuraltına toplanır və anadan olandan sonra müəyyən yaş dövrlərində, müəyyən vəziyyətlərdə təhtəlşüurdan şüura keçərək mücərrəd ideyalar kimi aşkarlanır. Başqa sözlə, dölün düşüncəsi yalnız ağıldan törəyən ideyalarla reallaşır. Dölə faktdan törəyən heç bir ideya məlum olmadığından dölün düşüncəsi xalis zəkanın düşüncəsindən ibarət olur.

Anabətnində düşüncə prosesində ruhda hissi qavrayışla təcrübədən əldə edilmiş obraz və təsəvvürlər olmur. Xarici aləmin anabətnində dölə

təsiri ananın bədənindən keçməklə ikincili olur. Bilavasitə obyekt dölə təsir etmədiyindən döldə xarici mövcud varlıq haqqında heç bir məlumat yaddaşa alınmır. Başqa sözlə, anabətnində refleksiya yaranmır. Tanınmış Amerika psixoloqu S.Qrofa görə insan anabətnində də "düşünür" və bu düşüncə doğulandan çox-çox sonra müxtəlif yaş dövrlərində ruhi təzahürlərin - psixoloji yaşantıların əsasını təşkil edir. Bətndaxili düşüncəni biz metafizik düşüncə kimi təyin edirik. Bətndaxilində Ruh transfer etdiyi mayalanmış hüceyrənin necə inkişaf etdiyini, orqanizmin necə qurulduğunu, necə funksiyalaşmağa başladığını və s. daxildə "seyr edir". Onun belə seyri nəticəsində əldə etdiyi bilik onun təhtəlşüuruna toplanır, orada saxlanır və hifz olunur. Biz təhtəlşüuru qeyri-iradi şüuri proses kimi təsəvvür edirik. Təhtəlşüurda gerçəkliyin ideyası onun obrazı olmadan döl tərəfindən yaddaşa alınır. Belə ki, anaya hissi təsir zamanı obyektin obrazı anada refleksiya olunur, ideyası bundan fərqli olaraq həm anada, həm də dölün ruhunda refleksiya olunur. Beləliklə, döldə iki cür ideya - bədənlə vəhdətdə əldə etdiyi bədənlə bağlı ideyalar və ananın hissi qavramasından ona keçən xarici mövcud varlıqlara məxsus ideyalar toplanır. Bədənlə vəhdətdə əldə edilən ideyalar bətndaxili təcrübə ilə şərtləndiyindən, doğulduqdan sonra bətndaxili təcrübə itdiyindən və bir daha təkrarlanmadığından, insan özünün təhtəlşüuruna iradəvi müdaxilə etmək imkanına malik olmur. Doğulduqdan sonra insan ən müxtəlif yaşantılara malik olur, ətrafı xarici seyr yolu ilə dərk etməyə başlayır. Belə ikili - daxili və xarici seyr yolu ilə düşüncə nəticəsində əldə edilən bilik şüurun tərkib elementlərindən olan yaddaşa yığılır və insan yaşantıları təkrarladığından və xarici seyrdə müxtəlif bilgilər əldə etdiyindən iradəvi olaraq belə məlumatlara təkrar-təkrar daxil olur. Təhtəlşüura bətndaxili daxili seyrilə əldə edilmiş məlumatlar sonradan yalnız həyatın müxtəlif dövrlərində və xarici şərtlərdən asılı olaraq qəflətən şüura daxil olaraq aydınlaşır. Buradan insanın kəşfləri, ixtiraları və s. haqqındakı məlumatlar yaranır. Biz kəşfi - mövcudluğun ağlındakı

anadangəlmə ideyalarının aşkarlanması kimi dəyərləndiririk. Metafizik bilgilər də, bətndaxili düşüncədə olduğu kimi, insanın daxili seyr yolu ilə - yenidən Ruhun bədənin daxilində özü-özündə idraka cəhdi ilə, yəni qeyri-hissi təcrübədən əldə etdiyi bilgilərdən ibarət olur.

PSİXOLOGİYADAN PARAPSİXOLOGİYAYA KEÇİD

REQRESSİV DÜŞÜNCƏ - HİPNOZ

Bədənlə ruhun əlaqəsində keçici olaraq fiktiv ruhun bədənlə əlaqəsini zəiflədib, başqa bədənlə əlaqədə obyektiv reallığın inikasını biz hipnoz kimi dəyərləndiririk. Hipnoz parapsixologiyadan psixologiyaya keçid prosesi kimi həm təbii, həm də qeyri-təbii prosesdir. Hipnozun təbii tərəfi hipnoz edənlə, təbiətüstü tərəfi hipnoz olunanla şərtlənmişdir. Biz hipnoz prosesini fiktiv ruhun başqa bədəndəki fiktiv ruhla əlaqəsində düşünmə kimi təyin edirik. Hipnoz təbiət etibarilə anabətnində dölün obyektiv reallığı özündə inikas etməsinə uyğun baş verir. Sadəcə ananın bədənini hipnoz edənin bədəni əvəz edir. Beləliklə, hipnoz edənin cavabı ilə hipnoz olunanın fiktiv ruhunun münasibətindən reqressiv düşüncə meydana çıxır. Hipnoz prosesi zərurətə görə hipnoz edənlə şərtləndiyindən, hipnoz prosesində aşkarlanan məlumatların həm də hipnoz edənə aid olduğunu qeyd etmək lazımdır. Hipnoz, hipnoz olunanın ayıq vaxtı hipnoz vəziyyətə düşəcəyi ilə bağlı inamla başlayır. Robert Anton Uilsonun dediyi kimi: “inam - ağlın ölümüdür”. Ağlın ölümü - ağlın Formal Ruhun iradə şərtlərindən məhrum olmasının təzahürüdür. Buna görə də hipnoz olunanın fiktiv ruhu keçici olaraq bağlılığın, əsərin və dərketmənin şərtlərinin məcmusundan ibarət olur. Formal Ruha xas iradənin şərtləri isə hipnoz edən tərəfindən verilir. Buna görə də hipnoz olunan hipnoz edənin komandalarına uyğun düşünür, hipnoz vəziyyətində ona təlqin edilən yaradıcılığı nümayiş etdirir və ondan istənilən məlumatı dərk edir. Bu zaman hipnoz olunanın aldığı

informasiyalar hipnoz edənin fiktiv ruhunun əlaqələndiyi öz bədənindən aldığı informasiyaların təkrar entropiyaya məruz qalması ilə meydana çıxır. Əslində hipnoz prosesində hipnoz olunanın verdiyi məlumatları təhlil etsək, həmin məlumatların əsasını hipnoz edənin ideyalarının təşkil etdiyini görə bilərik. Hipnoz prosesində insan öz bədənindən daxil olan hissi informasiyaları müvəqqəti də olsa refleksiya etmir və bədəni başqa şəxs - hipnoz edən əvəz edir. Əgər normal psixoloji fəaliyyətdə düşüncə bədənin bilavasitə stimullaşdırması ilə reallaşırsa, hipnozda stimul rolunu başqa şəxs oynayır. Başqa şəxs özündə bədənlə fiktiv ruhun əlaqəsini təqdim etdiyindən, hipnoz prosesində hipnoz olunan hipnoz edənin bədən və ruhunun əlaqəsi ilə ikincili olaraq əlaqələnir.

Haşiyə: Reymond Moudi "Geriyə qayıdış"

> *"Əvvəllər biz yaşamışıqmı? Yenidən yaşayacağıqmı? Bir çox insanlar, dindar və inanmayanlar bu suallara müsbət cavab verirlər. Hinduslar belə hesab edir ki, biz ölürük və ölümün sonsuz sikllərinə və yenidən dirilməyə qayıdırıq. Bəzi insanlar belə hesab edir ki, keçmiş həyata demək olar ki, öz arzunla qayıda bilərsən. Onlar belə hesab edir ki, hipnozla onların yaşadığı həyatların tam və ya hissəvi saxlandığı beynin nahiyələrinə "çatmaq" olar. Bu keçmiş həyatlara hipnotik proseslə nüfuz etmə prosesi reqressiya adlanır. Reqressiv terapiya xəstənin anadan olan vaxtdan o tərəfə dərinləşmir. Amma belə olub ki, xəstələr mümkün kimi görünəndən daha uzağa sürüşüblər. Onlar birdən başqa həyat, yer, zaman haqqında danışmağa başlayıblar, elə bil ki, bu onların gözünün qarşısında olub. Təcrübə altında olanların əksəriyyəti keçmiş həyat təcrübəsinin hissi obrazlar şəklində olduğunu deyiblər. Adətən görmə obrazları, bəzən isə səs və iy şəklində olur. Keçmiş həyata reqressiyanın əlamətləri - palçıqlı yolda tormoz verməyə oxşayır: o sizə göstərir ki, burada hərəkət olub, amma hansı olduğunu deyə bilmir. Mən təsdiq edirəm ki, keçmiş həyata reqressiya hansısa şəkildə əqli konfliktlərlə bağlıdır, bunu keçmiş həyata inanmayanlar da dərk etməlidir. Albert Eynşteyn demişdir: "Hələ də bizə məlum olmayan şüalanmalar mümkündür. Yadınıza salın, elektrik cərəyanı və "görünməyən" dalğalara necə gülürdülər?*

İnsan haqqında bilgi öz uşaqlığını yaşayır". Psixiatriya və ədəbiyyatda ağlın bədən üzərində ağalığı ilə bağlı kifayət qədər məlumat vardır. Ağlın sirləri ilə işi olan, tibb elmləri doktoru kimi mən etiraf etməliyəm ki, reqressiyanın reinkarnasiyanın təsdiqi və ya inkarı olmasını deyə bilmərəm. Bəzi psixoloqlar və psixiatrlar belə hesab edir ki, ağıl bu tamaşaları insanın müxtəlif vəziyyətlərə sahib olması üçün yaradır. Mənə bunu təhtəlşüur dili adlandırmaq xoş gəlir. Kriptomneziya - bu, yaddaş bankında yaxşıca dondurulmuş nəyinsə yenidən canlandırılması deməkdir."

R.Moudinin şərh etdiyi "reqressiya - hipnotik proseslə keçmişə nüfuz etmə prosesi" əsl həqiqətdə özündə nəyi ifadə edir? Hipnoz - süni yuxudur, hansı ki, bədənə xas təbii yuxudan fərqli olaraq özündə səbəbi olmur və yalnız başqa şəxsin təlqini altında baş verir. Əgər təbii yuxu bədənin zamandan asılılıq qanunlarına uyğun baş verirsə, hipnozda əksinə, bədənin zamandan asılılıq qanunları pozulur. Bu da bədənin təbiət qanunlarından çıxıb metafizik qanunlara tabe olan yaşantılara keçməsinə səbəb olur, hansı ki, eyni bir adam özünü eyni vaxtda müxtəlif yerlərdə, eyni yerdə müxtəlif vaxtlarda və ya həm ölü, həm diri kimi dərk etməsinə səbəb olur. Bir qayda olaraq hipnoz edənlə hipnoz olunan "indi və burada" prinsipi ilə əlaqələnir və öz bədəni ilə əlaqəsini itirmiş hipnoz olunanın fiktiv ruhu metafizik qanunlara uyğun qaydada məlumat alır. Amma onun ruhu hipnoz edənlə şərtləndiyindən o, "eyni zamanda hər yerdə olmaq" qanununa tam tabe olmur. Yəni hipnoz olunan indi ilə şərtləndiyindən gələcəkdə ola bilmir. Buna görə də hipnoz edənin keçmişlə bağlı komandaları əsasında o, eyni anda həm indidə, həm də keçmişdə olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Hipnoz, reqressiv proses - eyni anda keçmişdə və indidə olmağın şərtlərinin məcmusundan ibarətdir.

Buradan da keçmiş həyatlar haqqında təsəvvürlər meydana çıxır. Hipnoz prosesində hipnoz olunan həm öz yaddaşında, həm də hipnoz olunan yaddaşında "yaxşıca dondurulmuş məlumatları canlandırır". Belə

məlumatlar sintetik olduğundan, konkret nə hipnoz edənə, nə hipnoz olunana aid olur. Biz bunu ikili kriptomneziya kimi təyin edirik.

PARAPSİXOLOGİYA

Fiktiv ruhun bədənin bilavasitə iştirakı olmadan və ya qeyri-sağlam iştirakı ilə qavrayışını biz parapsixologiya adlandırırıq. Parapsixologiya özündə şüurun ən müxtəlif dəyişilmiş vəziyyətlərindən ibarətdir. Şüur ruhun hərəkətliliyi olduğundan şüurun vəziyyətinin dəyişilməsi ruhun digər atributlarının - simvollaşdırmanın, ağlın, münasibətin və təşkilatlanmanın dəyişilməsi ilə müşahidə olunur. Buradan da şüurun vəziyyətinin fərqli dəyişilmələrində biz fərqli prinsiplərlə simvollaşdırma, münasibət, təşkilatlanma və ağla rast gəlirik, hansı ki, ayrı-ayrı parapsixoloji təcrübələr kimi qavranılır.

Haşiyə: Robert A.Uilson “Kosmik Trigger” (Gələcəyin tarixi)

“Tək reallığın çoxluq kimi modelləşdirilməsini

1. Bellin “bütün mövcudluğun fundamental ayrılmazlığı nəzəriyyəsi” ilə izah etmək olar. Bell üç yarım modelin yaradılması ilə bağlı əsas verir:

a) müşahidəçilər tərəfindən yaradılan model;

b) paralel kainatlar modeli;

v) enerjisiz məlumat modeli.

2. İnkişaf etmiş ali psixi qabiliyyətli bəzi insanlar başqa insanların psixikası ilə oynayır.

3. Xarici Kosmosdan Ali Ağıl həqiqətən bizimlə təmasa girərək bizim üzərimizdə təcrübə qoyur və ya bizimlə manipulyasiya edir.

4. Bizim planetdə bizimlə yan-yana başqa ağıllı növ yaşayır, hansı ki, bizim üçün görünməzdir ya da bizə özünün istədiyi formada görünür.

5. Bizim indiki orta səviyyəmizlə müqayisədə insanüstü varlığa çevirən, yeni neyroloji konturlardan istifadəyə keçməklə biz hamımız təkamül edirik.

6. Yuxarıda göstərdiklərimizin birgə kombinasiyası və ya qarşılıqlı qarışığı baş verir."

Məsələyə fəlsəfi və elmi yanaşdıqda, materialist-fundamentalistlərlə bir cəbhədə durub müəllifi özünün yazdığı kimi yalançı, fırıldaqçı, əclaf və şarlatan adlandırmamaq mümkün deyil. Amma həqiqətin metafizik qavranılması ilə yanaşdıqda, əslində müəllifin metafizik həqiqətləri kosmik həqiqətlərin qavrama qanunlarına uyğun qavramaq cəhdi aşkar olunur ki, bu da həqiqətən yalançılıqdan başqa bir şey deyil. Əslində Bellin nəzəriyyəsi mövcud olma haqqındadır, mövcudluq yox. Yəni biz bundan əvvəlki şərhlərimizdə qeyd etmişdik ki, kosmosda ayrılıqda götürülmüş tək mövcudluq mümkünsüzlükdür. Mövcudluqlar birlikdə, yəni mövcudolmada mümkünlüyə çevrilir, hansı ki, bir mövcudluq təsadüfə görə digərinin imkanı kimi çıxış edir. Bellin nəzəriyyəsində həqiqətin aşkarlanmasının informasiya mənbəyindən - paralel kainatlar, informasiyanın verilmə üsulu - enerjisiz verilmə və informasiya qəbuledicisinin - müşahidəçidən asılılığı şərh olunur. Əgər tək reallıq çoxluq kimi qavranılırsa, onda müşahidəçilərin şüur səviyyəsindən, məqsədindən və idrak üsulundan asılı olaraq müxtəlif modellər meydana çıxacaq. Enerjisiz məlumat yalnız ağlından törəyən ideyalardan əldə edilən məlumatlara aid ola bilər. Faktdan enerjisiz heç bir məlumat meydana çıxa bilməz. Bu o deməkdir ki, əslində bizim tək reallığı çoxluq kimi modelləşdirməyimiz reallıqdan yox, onu refleksiya edən ağılla şərtlənmişdir. Əgər tək reallığın çoxluq kimi qavranılması müşahidəçidən və ağıldan asılıdırsa, onda eyni qanunlara tabe olan paralel kainatların olması və başqa planetlərdən gələnlər haqqında məlumatlar - UFO-lar haqqında deyilənlər həqiqətə malik deyil. Robert A.Uilsonun yanılması qeyd etdiyimiz kimi metafizik həqiqətləri - ruhi prosesləri və təzahürləri

kosmik qanunlarla dərketmə cəhdi ilə bağlıdır və buna görə də əldə etdiyi həqiqət yalandan ibarətdir. Həqiqətlə üst-üstə düşən hallar isə təsadüfə görədir. Buradan da aşağıdakılar meydana çıxır:

- Bəzi inkişaf etmiş ali psixikaya malik adamların başqalarının psixikası ilə hipnozsuz və neyromimetik preparatlarsız oynaması mümkün deyildir.
- Ali Ağıl Xarici Kosmosdan (Ali Ağıl - Allah, Xarici kosmos - Metafizik Aləm) bizimlə manipulyasiya etmir, çünki Ali Ağıl başlanğıcların başlanğıcı, səbəblərin səbəbidir. Onun manipulyasiyası yaranma ilə başa çatır. Əgər yaranmadan sonra da manipulyasiya baş verirsə, onda o yalnız insanla (ağılla) yox, həm də bütün yaradılanlarla baş verməlidir. Onda biz tək reallığın özü-özündə dəyişilməsini də müşahidə etməliydik. Amma müəllifin də təsdiq etdiyi kimi, dəyişilmə bizim ağlımızın inkişafı ilə bağlıdır. Ağlın inkişafı isə başlanğıc səbəblə bağlıdır.
- Bizimlə yanaşı heç bir başqa növ ağıllı varlıq mövcud deyil. Bizim fiktiv ruhumuz çoxluq kimi tək Formal Ruhla (İnsanlıqla) yan-yanadır və bəzi hallarda bədənlə əlaqənin zəifləməsi ilə fiktiv ruh Formal Ruhla əlaqəyə girərək məlumatlar alır.
- Əslində insan növünün təkamülü başa çatıb və insan bioloji forma kimi ən təkmil formadadır. Ruh isə qeyri-maddi olduğundan, təkamül təbii hadisə olduğundan, onda təkamül baş verə bilməz. Əslində fiktiv ruhların ruhun mövcud varlığına çevrilmə istiqamətində proseslər gedir, bunun nəticəsində insanlıq yaranır, hansı ki, onu özündə təkrar refleksiya edən hər bir fərd özünə görə "özüüstü varlığa" çevrilir. Məsələn, biz hər hansı bəşəri dəyəri mənimsədikdə və ya müdafiə etdikdə özümüz də qat-qat güclü şəxsiyyətə çevrilirik. Biz normal psixoloji proseslərin tabe olduğu qanunlarla izahı çətin olan və ya mümkün olmayan hadisələrin yalnız metafizik qanunlarla şərh olunmasını yeganə düzgün yol hesab edirik.

Haşiyə: Q.Ebbinhauz "Psixoloji oçerklər"

> *"Ruh işi olacaq şeylərin maddi iştirakçılığına müstəsna şəkildə bağlanmayıb; o istənilən vaxt onların xüsusiyyətlərini yenidən yaratmaq və özü-özünü onların necə baş verməsini təsəvvür etmək imkanına malikdir; o onları özündə gəzdirir."*

Ruhun obyektiv reallıqların iştirakçılığına müstəsna bağlanmaması və şeylərin yaranmasının özü-özündə təsəvvür etmə qabiliyyəti əslində parapsixologiyanın başlıca səbəbidir. Beləliklə, psixologiya - obyekt tələb etmənin (yəni təbii varlıqların), parapsixologiya - obyekt tələb etməyən metafizik varlıqların inikasını özündə təqdim edir. Buna görə də psixologiya kosmik qanunlara, parapsixologiya metafizik qanunlara tabe olur.

Biz fiktiv ruhda inikasın təbiətinə görə parapsixoloji təzahürlərin aşağıdakı növlərini ayırd etmək olar:

Yalnız ağıldan törəyən, yəni Ruhun anadangəlmə ideyaları vasitəsi ilə düşünmə - görünmələr - təhtəlşüur həqiqətlər: Görünmələr təbiətüstü psixi qabiliyyətlərlə şərtlənmişdir, hansı ki, bədənin hər hansı bir iştirakı istisna olunur. Belə ideyalara ağıldan törəyən anadangəlmə ideyalarla, yəni ruhun özü-özünə təsirindən əldə edilən inikas aiddir.

Əvvəllər bədənlə əlaqədə əldə edilmiş faktdan törəyən ideyaların ağıldan törəyən ideyalarla assosiasiyasında düşünmək - hallüsinasiya, ilğım və ya narkomaniya: Biz hallüsinasiya, narkomaniya və s. kimi proseslərin məcmusunu transpersonal psixologiya kimi təyin edirik. Transpersonal psixologiya fərdin özü-özündən çıxmasının təzahürüdür, hansı ki, xüsusi əlavə faktorların - ya bədənin xüsusi vəziyyəti, ya xarici ekstremal situasiya, ya da xüsusi preparatların təsiri ilə baş verir. Bu zaman bədənlə ruhun əlaqəsi psixologiyada olduğu kimi qalır, amma fiktiv ruh bədənin cavabından daha fərqli münasibət göstərir. Nəticədə obyektiv reallıqla onun inikası,

yəni təsirlə ruhun münasibəti üst-üstə düşmür. Buradan da fiktiv ruhun münasibəti bədənin obyektiv reallığın təsirinə cavabı ilə şərtlənmir.

Formal Ruhla fiktiv ruhun əlaqəsində düşünmək - reinkarnasiya: Reinkarnasiya ölümdən sonra həyatın parapsixoloji təzahürlərinin məcmusundan ibarətdir. Reinkarnasiyada bədənlə fiktiv ruh normal psixologiyada olduğu kimi zərurətə görə yox, təsadüfə görə şərtlənir. Nəticədə, təsadüfə görə eyni bir şəxsə məxsus fiktiv ruh təsadüfi bədənlərin cavabları əsasında obyektiv reallığı özündə inikas edir.

Fiktiv ruhun daxili çoxluğunda düşünmə - şizofreniya: Şizofreniya anormal psixologiya kimi təzahür edir. Əgər normal psixologiyada fiktiv ruhun obyektiv reallığı inikası bədənin xarici təsirə verdiyi cavabla şərtlənirsə, şizofreniyada fiktiv ruhun obyektiv reallığı cavabla şərtlənmir. Nəticədə münasibətlə təsir arasında səbəb-nəticə əlaqəsi yaranmır, hansı ki, obyektiv reallığın gerçəkliyə uyğun gəlməyən ən müxtəlif formalarda inikasından ibarət olur.

a. XƏYAL - TƏBİƏTÜSTÜ PSİXİ İNİKAS

Fiktiv ruhun reallıqdan kənar inikası xəyal kimi təzahür edir. Xəyal - obyektivlikdən və bilavasitəlikdən məhrum fiktiv ruhun özü-özündən aşkarladığı daxili görüntüdən ibarətdir. Belə görüntülərin yaranması fiktiv ruhun ölmüş insan haqqında xatirələrə bağlanması ilə meydana çıxır. Biz elə belə xəyalı eyni vaxtda yalnız keçmişdə olmanın təzahürü kimi təyin edirik, hansı ki, metafizik qanuna uyğun olaraq fiktiv ruh keçici olaraq indidə və gələcəkdə ola bilmir.

Haşiyə: Reymond Moudi “Geriyə qayıdış”

> *“Başqa dünyaya gedən yaxınına görə darıxmaq - insanın ən əzablı iztirabıdır. Bəzən itkinin kədəri o dərəcədə onun sonrakı həyatını özünə tabe edir ki, dözülməz olur. Ölmüş yaxını ilə yenidən birləşmək onun həyatının yeganə mənası olur. Belə olur ki,*

bu istək görüntü şəklində və ya ölmüş adamın xəyalı kimi icra olunur. Müəyyən forma "xəyallarla görüş" adətən ölüm təcrübəsi olmuş şəxslərdə olur. Bu təcrübə çox vaxt "transformativdir", yəni yer həyatına qayıtmaqla saxlanılır və çox vaxt müsbət təsir edir."

R.Moudinin fikirlərindən görünür ki, xəyalın əmələ gəlməsinin səbəbi insanın əzablı iztirab çəkməsidir. Əzab fiktiv ruhun ətrafla əlaqəsini zəiflədən xüsusi emosional vəziyyətdir. Bədənlə və obyektiv reallıqla əlaqəsi zəiflədiyindən, fiktiv ruh özündə obyektiv reallığı inikas etməkdən dayanır; bununla "burada və indi" prinsipi pozulur, yəni fiktiv ruh "eyni anda indi də olmaqdan" məhrum olur və əzabın fərdin "sonrakı həyatını özünə tabe etdirməsi ilə" ruh həm də "eyni anda gələcəkdə olması" mümkün olmur. Nəticədə fiktiv ruh yalnız "burada və keçmişdə" prinsipinə tabe olur. Keçmiş - hər bir şəxsin yaddaşında indidə saxlanan məlumatların məcmusundan ibarətdir. Fiktiv ruhun "burada və keçmişdə" olmasına həm də "yaxını ilə birləşmək", yəni bağlılıq şərtlərinin aparıcılığı ilə ruhi vəziyyət qoşulur. Nəticədə "keçmişə bağlanmaq" şərti meydana çıxır. Bu zaman fiktiv ruhda dərketmə yalnız yaddaşda saxlanılan keçmiş haqqında məlumatların yenidən inikasından ibarət olur. Keçmişə bağlanan fiktiv ruh yaddaşdan ölmüş yaxınının obrazını və onun haqqında təsəvvürü sintez edərək yadda canlandırır. Burada əks-inikas prosesi meydana çıxır. Əks-inikas prosesi bədənin iştirakçılığının dəf edilməsi nəticəsində mümkün olur, hansı ki, normal vəziyyətdə bədənin iştirakçılığı ilə əks-inikas istisna olunur və yalnız inikas mümkün olur. Əks-inikas inikasa əks istiqamətdə baş verir. Əgər inikasda *konkret varlıq -> görmə -> inikas* xətti ardıcıllığı ilə baş verirsə, əks-inikasda *inikas -> görmə -> mücərrəd varlıq* ardıcıllığına tabe olur. Yəni inikasda obyektiv reallıq bədənə təsir etməklə fiktiv ruhda özü haqqında daxili görüntü yaradırsa, əks-inikasda daxili psixoloji təsirdən meydana çıxan daxili görüntü görmə orqanında mücərrəd obyektiv reallıq yaradır. Sanki xarici görüntünün əmələ gəlmə yolu ilə proses əks

istiqamətə axır və fərdin keçmişdə bağlandığı adam haqqında təsəvvürlər analizatorlara müvafiq qıcıq göndərir, nəticədə fərd ölmüş adamı "görür, səsini eşidir və ya onu taktil hiss edir, hətta iyini duyur". Əks-inikas vəziyyəti çox nadir psixoloji proses kimi xüsusi hallarda meydana çıxır. Bu prosesi xarici görüntüdən obrazın inikasının əksinə, obrazdan xarici görüntünün yaranması kimi təsəvvür etmək olar. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Xəyal - keçmişə bağlılıq nəticəsində fiktiv ruhun özü-özündən aşkarladığı təsəvvür və obrazların analizatorlara daxili təsiri ilə onlarda müvafiq xarici görüntü ilə bağlı qıcıq yaratmasının şərtlərinin məcmusundan ibarətdir.

Xəyalın obyektiv reallığın inikasından fərqi ondadır ki, obyektiv reallıq - konkret, onun təfəkkürdə inikası - mücərrəd olur, amma xəyalda həm inikas, həm "obyektiv reallıq" mücərrəd olur. Xəyal bağlılıq şərtinin ruhun digər şərtlərindən, o cümlədən iradə şərtlərindən üstünlük təşkil etməsi ilə meydana çıxır. İradəvi şərtlər olmadığından xəyal əsərin şərtləri ilə birlikdə ixtiyari təsəvvürün obrazını yarada bilir. Əgər obyektiv gerçəkliklərin xarici görüntüsü bilavasitə obyektin mahiyyəti ilə şərtlənirsə, xəyalın görüntüsü fiktiv ruhun mahiyyətindən meydana çıxır. Buradan da xəyalın ideyası xalis ağıldan doğan ideyalardan ibarət olur. İki cür xəyal aşkarlamaq olar: a) Birincisi, mövcud varlıqlara xas xəyallar. Belə xəyallar əvvəlki təcrübələrdən əldə edilmiş görüntülərdən və ya onların sintezindən ibarət ola bilər. b) İkincisi, təcrübi yolla əldə edilməsi istisna edilən varlığın mövcudluğunun xəyalları. Belə xəyallar qeyri-müəyyən xəyallar olub orijinal olur və fərdin fantaziyalaşdırma qabiliyyətindən asılı olur. Bütün xəyallar mənşəyindən asılı olmayaraq təhtəlşüurda hazırlanaraq şüura ötürülür. Buradan da aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Xəyal - fiktiv ruhun ağıldan törəyən ideyalarının görüntü yaratma şərtlərinin məcmusundan ibarətdir.

Xəyal metafizik aləmə transendensiyadan yaranır. Məhz buna görə də "ölmüşlərlə, keçmiş həyatlarla və özünün keçmiş dövrləri ilə" əlaqə

yaratmaq mümkün olur. Lakin Ruhun fiziki parametrləri olmadığından, bu cür şüurun dəyişilmiş vəziyyətlərində fiziki parametrlərlə xarakterizə olunan görüntülərin yəqinliyi ruhun təbiəti ilə ziddiyyət təşkil edir. Görüntü yalnız bir analizatorla alınan və başqa analizatorlarla təsdiq olunmayan məlumatdan ibarətdir. Xəyalın yalnız bir analizatorla qəbul edilməsi onun yaranma mexanizmi ilə bağlıdır. Faktdan törəyən ideyaların qavranmasında hissi predmet xaricdən eyni zamanda bütün analizatorlara təsir edir və hər bir analizator predmetə münasibətin hazırlanmasında iştirak edir. Xəyal daxili hissi obyekt kimi təsir edir. Bu zaman məlumat beyindən yalnız bir analizatora - çox vaxt görmə analizatoruna ötürülür. Buradan görüntü xarici görüntüyə əks istiqamətdə yaranması ilə xarakterizə olunur. Görüntüdə mücərrəd hissi predmet daxildən təsir edərək görüntünün xaricdə olan kimi yaranmasını stimullaşdırır.

Haşiyə: Reymond Moudi "Geriyə qayıdış"

> *"Milyonlarla insan bildirirlər ki, ölmüş yaxınlarını görürlər, buna səy etmədən spontan görürlər. Bu görüntülər öz-özünə baş verməsinə oxşayır, insanlar uyğun hala özlərini hazırlamırlar."*

Raymond Moudinin əsərinin adı özü-özlüyündə bir çox suallar doğurur: "Geriyə qayıdış". Burada "geri" sözü iki mənada başa düşülə bilər. Birincisi, ölmüş adamın geriyə - həyata qayıdışı. Bu zaman həyat əvvəl, ölüm sonra kimi qavranılır. İkincisi, sağ adamın geriyə - həyatdan əvvəlki vəziyyətə - "ölümə" qayıdışı; bu zaman ölüm əvvəl, həyat sonra kimi qavranılır. Əslində çətinlik belə bir sualla bağlıdır: Ölüm əvvəl, həyat sonra, yoxsa həyat əvvəl, ölüm sonradır? Parapsixoloji hadisələrin izahı bu sualın cavabından asılıdır. Əgər həyat əvvəl, ölüm sonradırsa, onda başlanğıcların başlanğıcı və səbəblərin səbəbi təbiətdədir. Belə halda yaranışı izah etmək mümkün deyil. Yox, əgər ölüm əvvəl, həyat sonradırsa, onda başlanğıcların başlanğıcı və səbəblərin səbəbi metafizikadadır. Burada həm də belə bir sual doğur: Ölüm həyatdan

əmələ gəlir, yoxsa həyat ölümdən? Bu sualın cavabı bizim ölüm haqqındakı təsəvvürlərimizlə sıx bağlıdır. Əgər ölümü birli proses kimi təsəvvür etsək, "ölüm həyatdan əmələ gəlir" cavabı düz olacaqdır. Amma biz ölümə ikili proses kimi baxırıq və iki cür ölüm ayırd edirik: a) Birincili ölüm: Hər bir fərdin həyat sferasına daxil olana qədər varlığının vəziyyətini biz birincili ölüm vəziyyəti kimi təyin edirik. b) İkincili ölüm: Doğulmuş insanın həyat sferasından çıxmasından sonrakı ölümü biz ikincili ölüm kimi təyin edirik. Buradan da həyat iki ölüm arasındakı keçici vəziyyət kimi təyin olunur.

Biz belə hesab edirik ki, ölüm həyatdan həm əvvəl, həm sonradır və geriyə qayıdış həyatdan ölümə qayıdışdan ibarətdir. Deməli, ölmüş adamların ruhunun həyata qayıdışı mümkünsüzlükdür. Yaranışla bağlı şərh etdik ki, mümkünlüyün varlığının mövcudluq tələbində ilahi iradədən verilən şərtlərlə metafizikadan fizikaya keçid baş verir. Əgər ruh metafizikadan təbiətə təbii varlıq kimi qayıtmırsa, onda onun təbiət qanunlarına tabe olan insanla əlaqəsi necə yarana bilər? Əgər ruh metafizik qanunlara, sağ insan təbiət qanunlarına tabedirsə, sağ adamla ruh heç bir qarşılıqlı əlaqəyə girə bilməz. Bu əlaqə yalnız ölmüş adamın ruhu hesab edilən ruhla sağ adamın fiktiv ruhu arasında baş verə bilər ki, belə əlaqə yalnız xalis zəkaya - Formal Ruha transendensiya nəticəsində mümkün ola bilər. Şüurda bu cür əlaqə şüurun özü-özündən xəyal və ya görüntü yaratması ilə mümkün ola bilər. Xəyalın spontan yaranması şəxsin iradəsinin xəyalın yaranmasında iştirak etmədiyini göstərir. Buradan da ölmüş adamın ruhu bağlılıqdan, əsərdən və dərketmədən ibarət olur ki, iradəvi şərtlərə malik olmadığından təsadüfə görə yaranır. Yəni xəyalın heç bir zəruri şərti yoxdur, yəni reallıq deyil.

b. TRANSPERSONAL PSİXOLOJİ İNİKAS

Ayrılıqda götürülmüş fərdin psixologiyası personal psixologiya kimi meydana çıxır. Personal psixologiya aşağıdakı səbəblərlə bağlı təzahür edir:

1. Hissi idrak prosesində iştirak edən hissi analizatorların hamısı xarici obyektiv reallığın inikasında bərabər dərəcədə iştirak etmir.
2. Ayrı-ayrı fərdlərin analoji hissi analizatorları bir-biri ilə eynilik təşkil etmir. Buna görə də eyni bir obyektiv reallığın müxtəlif fərdlərdə inikası bir-birindən fərqlənir.
3. Obyektiv reallıqlar bərabər təsirində bütün fərdlərdə eyni dəqiqliklə inikas etmir.
4. Obyektiv reallıqlar bütün fərdlərə fərqli təsir edərək fərqli inikas edir. Göründüyü kimi personal psixologiya həm daxili-qəbuledici ilə, həm də xarici ötürücü ilə şərtlənmiş şəkildə meydana çıxır. Əgər fərdi psixologiya obyektiv reallıqla şərtlənmədən onu inikas edirsə, buradan psixologiyanın fərdləşməsinə səbəb olan şərtlər aradan qaldırıldığından, transpersonal psixologiya - fərdi fərdiləşməməmiş psixologiya - aşkarlanır.

Hipnoz prosesində zərurətə görə iştirak edən hipnoz edəni hər hansı psixotrop preparat və ya xarici və daxili ekstremal vəziyyətlə əvəz etsək, onda fərdin düşüncəsi normal düşüncəsinin sərhədlərindən kənara çıxır. Xəyal "fiktiv ruhun indidə və gələcəkdə olmasının" məhdudlaşması ilə meydana çıxırsa, narkomaniyada "keçmişdə və indidə olmaq" imkanı məhdudlaşır və narkoman yalnız "burada və gələcəkdə" prinsipinə uyğun düşünür. Gələcək - qeyri-müəyyənliklərin məcmusundan ibarətdir. Buradan da narkomanlarda qeyri-müəyyən varlığın xəyalları meydana çıxır.

Əgər şizofreniya obyektiv reallıqla heç bir halda şərtlənmirsə, transpersonal psixologiyada əsas normal psixologiyadan ibarət olub, bədənlə şərtlənir, amma eyni zamanda yekun nəticə normal əsasın sərhədlərindən kənara çıxmaqla təzahür edir. Belə ki, fiktiv ruhun hissiyyat orqanı kimi bədənlə əlaqəsi hissi effektə malik preparatla və ya daxili hissiyyatın pozulmasına səbəb olan vəziyyətlə (məsələn: yüksək hərarət və əlverişsiz ətraf şərtlər) əlaqəsinə keçir. Bu zaman metafizik

qanunun pozulmasına görə, fiktiv ruh hipnozdan fərqli olaraq "eyni anda həm keçmişdə, həm indidə, həm də gələcəkdə olmaq" qanununa uyğun olaraq ən müxtəlif qeyri-müəyyən varlıqlar haqqında məlumatlar alacaqdır. Belə xaotik məlumatlar şizofreniyada əldə edilən məlumatlar kimi fraqmentasiyaya uğramış şəkildə dərk olunur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Narkomanik düşüncə - eyni bədəndə müxtəlif vaxtlarda olmanın şərtlərinin məcmusundan ibarətdir.

Bu keyfiyyətinə görə narkomaniya düşüncəsi daha çox şizofrenik düşüncəyə oxşayır. Əgər şizofrenik düşüncədə ağlın parçalanması qeyri-şüuri və təbii yolla baş verirsə, narkomaniya düşüncəsində eyni proses süni stimullaşdırma ilə şüurlu baş verir. Yəni narkomaniya fərdin özü-özünü şizofreniya vəziyyətinə salmasından ibarətdir.

Haşiyə: Robert A.Uilson "Kosmik Trigger" (Gələcəyin tarixi)

> *"Beynin dəyişilməsinin şüurlu dəyişdirilməsi bir çox ənənəvi cəmiyyətlərdə "inisiastiya" adlandırılır. Reallıq həmişə dəyişkən və çoxluqdan ibarətdir. Reallıq - tək halında isimdir. Buna görə düşüncə prosesinin özü bizi təhtəlşüur olaraq "reallığı" bir çoxmənzilli ev kimi "proqramlaşdırır", hansı ki, hər bir hissə eyni bir binada başqa otaqlardır. Əksər filosoflar bilirlər ki, bizim hiss orqanlarımızla qavradığımız dünya - "real" dünya deyil, bizim yaratdığımız konstruksiyadır. Bizim "reallıq" modelləri olduqca miniatür və qaydalaşdırılmışdır, təcrübə olunan kainat isə - nizamsız və əhatə olunmazdır və heç bir model heç vaxt, yetişməmiş şüurun qavradığı bu əhatəsizliyi və qaydasızlığı özünə toplaya bilməz."*

Əgər tək reallıq çoxluq modelləri kimi dərk olunursa, onda normal düşüncə ilə eyni qaydada tək reallığı çoxluq modelləri kimi qavrayan narkomaniya və şizofreniya düşüncəsi bir-birindən nə ilə fərqlənir? Burada üç fərq ayırd etmək olar:

1. Normal qavrayışda tək reallığı çoxlu fərd birlikdə çoxluq kimi modelləşdirir. Narkomaniya və şizofreniyada bir fərd tək reallığı eyni anda çoxluq kimi modelləşdirir.

2. Normal qavrayışda modellərin dəyişilməsi ictimai şüurun təkmilləşməsi ilə şərtlənir. Şizofreniya və narkomaniyada modellərin sürəkli dəyişilməsi şüurun təkmilləşməsindən asılı olmayaraq avtonom və spontan baş verir. Beləliklə, eyni təkmillik səviyyəsində olan bir şüur eyni bir reallığı sürəkli olaraq müxtəlif vaxtlarda dəyişik şəkildə modelləşdirir.
3. Normal qavrayışda reallığın modelləşdirilməsi zərurətə görə bizim öz təsəvvürlərimizdən kənarda olan reallıqla şərtlənir, amma narkomaniya və şizofreniyada qavrayış təsadüfə görə bizim öz təsəvvürlərimizin daxilində olan reallıqla, özümüzün yaratdığımız - çox vaxt xarici reallıqla eynilik təşkil etməyən - xüsusi reallıqla şərtlənir və buna görə də bir çox hallarda reallıq haqqında model şüurun özünün yaratdığı irreallıq əsasında yaradılır.

c. ANORMAL PSİXOLOGİYA - ŞİZOFRENİK İNİKAS

Psixiatriya elmində ağır ruhi xəstəliyi ifadə edən şizofreniya sözü "ağlın parçalanması" mənasını verir. "Ağlın ölümündən" fərqli olaraq fiktiv ruh özündə Formal Ruhun bütün şərtlərini saxlayır, amma onları vəhdətdə təzahür etdirə bilmir. Yəni "eyni vaxtda müxtəlif yerlərdə olmaq" (t(S1+S2+S3)) və "eyni yerdə müxtəlif vaxtlarda olmaq" (S(t1+t2+t3)), "həm var, həm yox olmaq" (t=0;S=0) qanunu pozulur, əvəzində paralel olmalıq qanunu işə düşür. Nəticədə şəxsiyyətin daxili çoxlaşması baş verir. Bunu simvolik olaraq belə ifadə etmək olar: (tS1;tS2;tS3) və ya (St1;St2;St3) (t0,S0).

Ağlın parçalanması özündə nəyi ifadə edir? Ağıl necə parçalana bilər? Parçalanmaq tama və hissələrə malik olanın hissələrə ayrılmasını özündə ifadə edir. Əgər ruh qeyri-maddidirsə, onda onun maddi olanlara xas tamlığı və hissəviliyi ola bilməz, deməli parçalana bilməz. Bəs onda ağlın parçalanmasını biz necə izah edə bilərik? Ruh obyektiv gerçəkliklərdən fərqli olaraq daxili çoxluğa malikdir və həmin daxili

çoxluq normal psixoloji proseslərdə xarici təklik kimi təzahür edir. Amma anormal psixoloji proseslərdə ruhun daxili çoxluğu xarici çoxluq kimi təzahür edir. Nəticədə fərd "eyni zamanda həm olmaq, həm olmamaq" qanununa uyğun olaraq çoxlu fərd kimi təzahür edir; hansı ki, tək kimi təzahürdə bütövlük kimi təzahür edən düşüncə şizofreniyada bir nəfərə xas ağıl çoxlu fərdə parçalanmış şəkildə meydana çıxır. Şizofreniya həm də eyni bir xarici gerçəkliyin fərd tərəfindən eyni anda çoxlu fərqli gerçəklik kimi refleksiyasından ibarətdir.

Haşiyə: Robert A.Uilson "Kosmik Trigger" (Gələcəyin tarixi)

> *"Kopenhagendə doktor Nils Borun və əməkdaşlarının formalaşdırdığı, daha çox "aqnostikliyin modeli" adlandırılan "Kopenhagen İnterpretasiyası" daha çox təsdiq edir ki, bizim dünya haqqında bilgilərimizi nizama salmaq üçün hansı sistemdən istifadə etməyimizdən asılı olmayaraq, bu sistem dünyanın modeli olaraq qalır, hansı ki, dünyanın özü ilə qarışdırmaq lazım deyil."*

Nils Borun və onun tərəfdarlarının şərhindən görünür ki, bizi əhatə edən bir və eyni dünya ən müxtəlif modellərin əldə edilməsində iştirak edir. Fəlsəfədə həqiqət kimi qəbul edilən dünya haqqında materialist və idealist modellər məhz bunu özündə təqdim edir. Normada bir adam eyni vaxtda yalnız bir, fərqli adamlar fərqli modellər əsasında dünyanı dərk edir. Əgər eyni bir adam eyni vaxtda dünyanın mümkün modellərini birlikdə qavrayırsa, onda onun dünya haqqında düşüncəsi şizofrenik düşüncə kimi təzahür edəcəkdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Şizofrenik düşüncə - bir fərdin eyni zamanda çoxlu fərd kimi düşünməsinin və ya bir fərdin eyni zamanda eyni bir şeyi müxtəliflik kimi dərk etməsinin şərtlərinin məcmusundan ibarətdir.

q. REİNKARNASİYA - ÖLÜMDƏN SONRA HƏYAT FENOMENİ

Reinkarnasiyanı biz özünühipnoz kimi təyin edirik. Hipnozdan fərqli olaraq burada fiktiv ruh özü-özünə təsir etməklə bədənlə bağlılığını

azaldır və özü-özündə tək Formal Ruhu refleksiya edir. Əslində, necə ki, bir fərd obyektiv gerçəkliklər haqqında tam məlumata malik ola bilməz, eləcə də onun əksiliyinin - tək Formal Ruhun malik olduğu məlumat heç bir fiktiv ruh tərəfindən tam refleksiya oluna bilməz. İstənilən adamın reinkarnasiyaya məruz qalmaması bununla bağlıdır. Amma xüsusi hallarda fiktiv ruh Formal Ruhda məhdud çərçivədə məlumat ala bilər ki, bu da keçmiş həyat haqqında məlumat kimi qavranılır. Bədəndən ayrılıqda Mən təzahür etmədiyindən konkret bədənlə əlaqəsini pozmuş fiktiv ruh "Mən" kimi çıxış edə bilməz. Yəni guya fərdin "Mən" kimi öz keçmiş həyatlarına qayıtması mümkün deyil. Reinkarnasiya haqqında mifoloq Cozef Kempel yazır: "Reinkarnasiya - sizin düşündüyünüzdən daha böyük olmanızı təqdim edir. Sizin mövcudluğun realizasiyası üçün ölçüləri və potensialı və sizin özünüz haqqında konsepsiyanıza daxil etmədiyiniz şüur mövcuddur. Sizin burada olan həyatınız ehtimal etdiyinizdən daha dərin və genişdir." Cozef Kempelin fikirlərində hansı məna ifadə olunur? İnsanın düşündüyündən özünün daha böyüklüyü nədən ibarətdir? "Ölçüləri və potensialı və sizin özünüz haqqında konsepsiyanıza daxil etmədiyiniz şüur" nəyin şüurudur? İnsanın burada olandan fərqli həyatı haradakı həyatdır? Buddizmin əsas müddəalarından biri reinkarnasiya əsl həqiqətdə özündə nəyi ifadə edir? "Özü" - fiktiv ruhun daxili çoxluğundan təşkil olunur. Bu da xarici təklik kimi təzahür edən, konkret Məndən daha böyük - çox Mənliklərdən ibarətdir. Hansı ki, məcmui olaraq Formal Ruhu - insanlığı təşkil edirlər. Yəni özü - fərdin insanlığı, onda olan Formal Ruhdur, hansı ki, bədənlə əlaqəsində fiktiv ruh kimi təzahür edir və insanın təsəvvür etdiyi "özü" olur.

Biz reqressiyanı bədənlə fiktiv ruhun əlaqəsinin iki forması - yuxu ilə ölüm arasında aralıq vəziyyət kimi təyin edirik. Belə vəziyyətdə fiktiv ruhla bədən nə yuxudakı kimi zəif də olsa bir-biri ilə əlaqələnmir, nə də ölüm prosesində olduğu kimi fiktiv ruh bədəndən birdəfəlik ayrılmır, ondan çıxmır. Nəticədə, insan bədənində fiktiv ruh Formal Ruh kimi

təzahür edir. Formal Ruh eyni zamanda sonsuz sayda bədənlə - həm keçmişdə, həm gələcəkdə, həm də indidə olan bədənlərlə - əlaqələndiyindən və bütün fiktiv ruhların bədənlə əlaqəsindən əldə etdiyi məlumatlara malik olduğundan, əslində insanlığın bütün məlumatları məcmui olaraq ondan aşkarlanan vəziyyətə düşür. Buradan da reqressiya prosesində fərdi fiktiv ruh keçici olaraq Formal Ruha çevrilir, nəticədə Formal Ruhun malik olduğu başqa fiktiv ruhların təcrübəsindən əldə etdiyi məlumatları hipnoz edənə və öz yaddaşına ötürür və reqressiyadan ayıldıqdan sonra guya özünün keçmiş həyatları haqqında məlumata malik olur. Bu məlumatlar Formal Ruhda saxlandığından anonim olur, yəni məlumatı alan fərd onun məhz özünün özündən aldığına inanır. Amma əslində onun keçmiş və ya gələcək həyatlar haqqındakı məlumatları onun öz fiktiv ruhunun müxtəlif bədənlərlə əlaqəsindən əldə etdiyi məlumatlar yox, öz fiktiv ruhunun hipnotik prosesdə müvəqqəti olaraq Formal Ruha çevrilməsi nəticəsində ondan aldığı və Formal Ruhun başqa bədənlərlə əlaqəsindən - yəni başqa yerdə, başqa zamanda, başqa situasiyada yaşamış başqa insanların həyat təcrübəsindən - aldığı məlumatlardan ibarət olur. Bədənlə əlaqədə alınan məlumat dəqiq və aydınlığı ilə fiktiv ruhun Formal Ruhdan aldığı məlumatdan fərqlənir. Əslində bu məlumat tarixdə yığılmış məlumatların daxilən fərdə ötürülməsindən ibarətdir, hansı ki, xarici ötürülmə zamanı biz bu məlumatların başqa zamanda, başqa yerdə və situasiyada yaşamış insanlara xas olmasını qəbul edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Reqressiya prosesi - insanlar haqqında xüsusi tarixi məlumatın daxili fiktiv ruha ötürülmə şərtlərinin məcmusundan ibarətdir.

Reqressiya prosesi yarımçıq transendensiya kimi təzahür edir. İnsan təbiətdən çıxır, amma metafizikaya daxil olmur. Beləliklə, metafizika ilə təbiət bilgilərinin sintezindən ibarət məlumat əldə edir. Təbiətdən əldə etdiyi məlumatlar “indi və burada” prinsipi ilə, metafizikadan əldə etdiyi məlumatlar “indi və burada” prinsipindən fərqli prinsiplə əldə

edildiyindən, başqa keçmiş həyatları haqqında məlumatdan ibarət olur, hansı ki, "eyni vaxtda müxtəlif yerlərdə, eyni yerdə müxtəlif vaxtlarda, eyni vaxtda həm var, həm də yox" qanunlarına tabe olur. R.Moudinin fikirlərindən görünür ki, reqressiya prosesi əqli konfliktin təzahürüdür. Biz əqli konflikti şüurun müxtəlif formalarının eyni vaxtda fəallaşması kimi başa düşürük. Adi halda insan ya şüuri, ya təhtəlşüur, ya da şüursuzluqla ətrafa münasibət göstərir. Əgər şüurluluqla təhtəlşüur eyni vaxtda fəallaşırsa, onda əqli konflikt yaranır; hansı ki, şüurluluq bilavasitə təcrübədə obyekt-subyekt əlaqəsindən, təhtəlşüur transendensiya prosesində subyektin özü-özü ilə əlaqəsindən aşkarlanır. Belə vəziyyətdə təhtəlşüurdan məlumat şüura axır, amma insan axan məlumatın mənbəyini aşkarlaya bilmir, buna görə də bunu keçmiş həyat təcrübəsinin məlumatı kimi qavrayır. Reinkarnasiya haqqında fikirlərin həqiqətə uyğun olmaması "fərdi ruhun mümkünsüzlüyü" ilə bağlıdır. Belə ki, fərdiləşmə təbii proses olub fiktiv ruhun fərdi bədənlə əlaqəsindən meydana çıxa bilər. Belə bir əlaqə itdikdə fiktiv ruh fərdiləşmə prosesindən azad olur və Formal Ruh halına keçir. Reinkarnasiya Formal Ruhun özündə yaddaşa malik olmasını və buna görə də qazanılma məlumatlara malik olmasını sübut edir. Hansı ki, biz bu şüuru təhtəlşüur kimi qavrayırıq. Beləliklə, reinkarnasiya reqressiya prosesində fərdin təhtəlşüura nüfuz etməsi və oradan Formal Ruha xas insanlıq məlumatları əldə etməsindən ibarət psixoloji proses kimi təzahür edir və bunun keçmişdəki və ya gələcəkdəki fərdi həyatlarla heç bir əlaqəsi yoxdur.

RUHUN MÖVCUDLUĞA (BƏDƏNƏ) MÜNASİBƏTİ

Bədənlə Ruhun qarşılıqlı asılılığında ruhun mövcudluğa, şüurun - ruhun hərəkətliliyinin - materiyaya münasibəti necədir? İnsan bədəni özündə həm birincili, həm də ikincili mövcudluq kimi var olduğundan, ruhun mövcudluqlara münasibəti onun bədənə münasibətindən aşkarlana

bilər. Ruhla bədənin qarşılıqlı əlaqəsində bədənin ruha və ya ruhun konkret bədənə aidliyi ruhun bədənə münasibətindən ibarətdir.

Aidiyyətin aid olana aidliyinin aşkarlanması: Aidiyyətin aid olana aidliyi münasibətlə aşkarlanır. Beləliklə, münasibət mövcud olmanın başlıca xarakteristikasıdır. Başqa sözlə, mövcud olmaq eyni zamanda özünə və başqalarına münasibətdə olmaq deməkdir. Münasibətdə olmaq nəyisə təsdiq etmək, nəyisə inkar etmək deməkdir. Münasibət iki cür təzahür edir: a) Bilavasitə münasibət - bu cür münasibət mahiyyətlə münasibətdir. b) Vasitəli münasibət - bu cür münasibət dolayısı ilə, yəni forma ilə münasibətdir.

Haşiyə: Hegel "Məntiq elmi"

> *"Mövcud olmaq özü-özündə refleksiya ilə başqasında-refleksiyanın birliyidir. Buna görə də o, qeyri-müəyyən çoxlu mövcudluğun özü-özündə refleksiyası və eyni zamanda başqasında görünəndir, mövcud olana nisbətdə, hansı ki, qarşılıqlı asılılıq və əsasın və əsaslananların sonsuz əlaqələnməsinin dünyasını əmələ gətirir. Əsas - mövcudluğun mahiyyətidir və mövcud olan çoxlu tərəfdən həm əsasın, həm də əsaslananın mahiyyətidir."*

Özü-özündə refleksiya - faktuallaşma, başqasında refleksiya - aktuallaşma kimi meydana çıxır. Beləliklə, Kosmosda mövcud olma faktın aktuallaşmasından ibarət olur. Mövcud varlıqlarda özü-özündə refleksiya başqasında refleksiya ilə vəhdət təşkil etdiyindən, xarici seyr edilməsi mümkün olmayan özü-özündə refleksiya - daxili qurulma, başqasında refleksiya kimi xarici seyr edilən, yəni görünən olur. Görünmənin əsası - mövcudluq, əsaslananlar - onunla xarici vəhdət təşkil edən istənilən təsadüfi başqa mövcud olanlardır. Başqa sözlə, görünmə daxili təkliklə xarici çoxluğun vəhdət təşkil etməsini özündə təqdim edir. Formal Ruh daxili çoxluğa, xarici təkliyə malik olduğundan görünmə ilə əksilik təşkil edir, yəni əsas - xarici, əsaslanan - daxili olur. Daxili olan xarici seyr olunmadığından ruh da görünməz olur.

RUHUN VARLIQ TƏYİNLƏRİNƏ MÜNASİBƏTİ

Biz ümumilikdə varlığın, İ.Kantın təbirincə özündəşeyin - təcrübədənkənar, yəni vəhdətdən ayrılıqda götürülmüş xalis varlığın bütün təyinlərinə malik olmağı Real Varlıq, ayrı-ayrı təyinlərinə malik olmaqlığı Mümkün Varlıq adlandırırıq. Real Varlığın (Hegelin təyin etdiyi hər üç varlıq təyini olan) münasibəti uyğun olaraq üçlüdür: a) **Xalis varlıq kimi münasibət:** Xalis varlıq kimi münasibət substansial münasibətdir, yəni xalis varlığın ideyasının uyğunluğu ilə müəyyən olunan münasibətdir. Məsələn, bütün cisimlər cismin mahiyyətinə münasibətdədir. Buradan da "bu cisimdir" dedikdə biz konkret şeyin mövcudluğunun hansı sıraya aid olmasını təyin etmiş oluruq. Göründüyü kimi belə münasibət yalnız xalis fikir səviyyəsində mövcud olur. b) **Mövcud varlıq kimi münasibət:** Belə münasibətdən görünmə meydana çıxır, hansı ki, hər bir mövcudluq eyni vaxtda xarici çoxluq təşkil edən mövcudluqlarda refleksiya edərək və eyni zamanda onları özündə refleksiya edərək görünür. c) **Özü-üçün-varlıq kimi münasibət:** Belə münasibət aksidensial münasibətdir və xalis forma ilə şərtləndiyindən xarici və itən təsadüfi münasibətdir.

Formal Ruh bundan fərqli olaraq Mümkün Varlıqdır, yəni yalnız xalis varlıq təyininə malikdir və onda Real Varlığın iki təyini - mövcud varlıq və özü-üçün-varlıq təyinləri yoxdur. Mövcud varlığı özündə refleksiya etməyə istiqamətlənmiş fiktiv ruh yalnız onunla eyni təyin əsasında onu total refleksiya edə biləcəyindən, özünə iki süni varlıq təyini yaradır ki, biz bu cür təşəkkül prosesində meydana çıxmayan, yalnız təşəkküldən sonra ruh tərəfindən yaradılan təyinləri varlığın sintetik təyini adlandırırıq. Buradan da ruhun aşağıdakı münasibətləri meydana çıxır:

a) **Real xalis varlıq kimi ruhi münasibət:** Belə münasibət təbii münasibət olub, bədənlə əlaqələrdə ruhun varlığa olan münasibətidir,

hansı ki, bədənin iki varlıq təyini əsasında real varlıq kimi təbii mövcudluqlara münasibətdə olur.

b) **Sintetik mövcud varlıq kimi ruhi münasibət:** Belə münasibəti biz mədəni münasibət kimi təyin edirik. Mədəni münasibətdə fərd yalnız taksisi təşkil edən varlığa münasibətdə olur. Məsələn, heykələ olan münasibət. Əgər heykələ təbii münasibət göstərilirsə, bu cismə olan münasibət olacaqdır. Yox, əgər həmin heykələ mədəni münasibət göstərilirsə, onda bu münasibət heykəldə təsvir olunan obraza abstrakt münasibət olacaqdır, hansı ki, cismə münasibətdən fərqlənəcək.

c) **Sintetik özü-üçün-varlıq kimi ruhi münasibət:** Belə münasibəti biz simvolik münasibət və ya simvollarla münasibət kimi təyin edirik. Simvolik münasibətdə münasibətin obyekti onu ifadə edilən simvolla dolayısı ilə münasibətə daxil olur. Məsələn, dövlət bayrağına münasibət bilavasitə həmin bayrağın özündə simvolizə edən dövlətə münasibət kimi meydana çıxır.

Hər bir varlıq təyinində iki bir-birinə əksilik təşkil edən təyin - predikat və predikaliya olduğundan, hər bir münasibət də özü-özlüyündə iki yerə ayrılır. Beləliklə, münasibətin aşağıdakı təsnifatı meydana çıxır:

1. **Mövcud varlığın xalis varlıq kimi münasibəti:** a) Mövcud varlığın xalis varlıq kimi təsdiq edən münasibəti. b) Mövcud varlığın xalis varlıq kimi inkar edən münasibəti.
2. **Mövcud varlığın mövcud varlıq kimi münasibəti:** a) Mövcud varlıq kimi təsdiq edən münasibət. b) Mövcud varlıq kimi inkar edən münasibət.
3. **Mövcud varlığın özü-üçün-varlıq münasibəti:** a) Özü-üçün-varlığın təsdiq edən münasibəti. b) Özü-üçün-varlığın inkar edən münasibəti.
4. **Ruhun - varlığın mövcudluğunun - xalis varlıq kimi münasibəti:** a) Ruhun xalis varlıq kimi təsdiq edən münasibəti. b) Ruhun xalis varlıq kimi inkar edən münasibəti.

5. **Ruhun sintetik mövcud varlıq kimi münasibəti:** a) Sintetik mövcud varlığın təsdiq edən münasibəti. b) Sintetik mövcud varlığın inkar edən münasibəti.

6. **Ruhun sintetik özü-üçün-varlıq münasibəti:** a) Sintetik özü-üçün-varlığın təsdiq edən münasibəti. b) Sintetik özü-üçün-varlığın inkar edən münasibəti.

Bundan fərqli mövcud varlıqların bir-birinə münasibətini də üç yerə ayırmaq olar:

1. **Real varlıqların bir-birinə münasibəti:** Real varlıqların münasibətinin də aşağıdakı formalarını aşkarlamaq olar: a) Cismin cismə münasibəti. b) Cismin cana münasibəti. c) Canın cana münasibəti.

2. **Varlığın mövcudluğunun mövcudluğun varlığına münasibəti:** Bu qəbildən olan münasibəti də üç qrupa bölmək olar: a) Ruhun cismə münasibəti. b) Ruhun cana münasibəti. c) Ruhun özünə münasibəti. Bu münasibəti özü-özündə dörd qrupa bölmək olar: * **Fiktiv ruhun özünə münasibəti:** Fiktiv ruhun özünə münasibəti özünüdərkdən ibarətdir. Özünüdərk fiktiv ruhun özünü əlaqələndiyi bədəndən fərqliliyini dərk etməsindən ibarətdir. Başqa sözlə, bədənlə fərqliliyin idrakı fiktiv ruhun özünə münasibəti kimi təzahür edir. * **Fiktiv ruhun Ruhun Formal Varlığına münasibəti:** Ruhun Formal Varlığı - xarici ruh - cəmiyyət kimi meydana çıxır. Buradan da fiktiv ruhun Ruhun Formal Varlığına münasibəti özündə cəmiyyətə münasibətdən ibarət olur. Belə münasibət ictimai münasibətlərdən ibarət olub fərdin cəmiyyətlə əlaqələrinə aid olan münasibətlərdir. * **Fiktiv ruhun Ruhun Mövcud Varlığına münasibəti:** Belə münasibət fərdin cəmiyyətə və taksisə - mədəni ətrafa birgə münasibətindən ibarətdir, hansı ki, fərd özünü cəmiyyət üzvü kimi konkret mədəni mühitin daşıyıcısı kimi dərk edir. * **Ruhun Formal Varlığının Formal Ruha münasibəti:** Belə münasibət insanlıqdan ibarətdir, hansı ki, bütün insan cəmiyyətlərinin tarixi inkişafının vəhdətindən Formal Ruh dərk edilir.

RUHLA BƏDƏNİN ZİDDİYYƏTİNİN HƏLLİ ÜSULLARI

Kosmosa keçmiş Formal Ruh bədənlə əlaqələnərək şüurlu insan varlığını əmələ gətirir, hansı ki, iki mahiyyətin bir formada vəhdəti kimi meydana çıxır. Şüurlu insan bu mənada Kosmosu təşkil edən mövcud varlıqların tabe olduğu ən ümumi prinsipə - "bir mahiyyət, bir formanın vəhdəti" prinsipinə ziddiyyət təşkil etdiyindən, ruhun bədənə keçdiyi andan ruh bədəndən, bədən isə ruhdan ayrılmağa, yəni kosmik qanunlarla mövcud olmağa cəhd edir. Biz bunu bədənlə ruhun ziddiyyətinin həlli kimi təyin edirik. Bədənlə ruhun ziddiyyətinin həlli üsulu ikidir.

1. **Bədənin ruhu özündən çıxarması ilə ruhla ziddiyyətdən azad olması:** Biz bu üsulu **ekspressiya** kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Ekspressiya - bədən hissləri ilə ruhun təzahürlərinin kənara çıxarılmasının şərtlərinin məcmusundan ibarətdir. Ekspressiyada hisslər əsas, ruhi təzahürlər ikincilidir. Bura ən müxtəlif emosiyalar - nifrət, kin, paxıllıq, həsəd, təkəbbür, əzab, zövq, kədər, qəm, sevinc, qüssə və s. aiddir. Emosiyaları ağılla hisslərin vəhdəti kimi təyin etmək olar. Emosiya - ideya daşıyan hisslərdir. Emosiyalar xarici təsirlərdən meydana çıxan hissiyyatdan - daxilə ideya daşıyan hisslərdən fərqli olaraq, daxildən xaricə ideya daşıyan hissiyyat kimi təzahür edir ki, nəticədə hər bir emosiya konkret məna-ya malik olur. Buradan aşağıdakı pnevmatoloji ideya meydana çıxır: Emosiya - hissiyyatla ideyaların vəhdətinin şərtlərinin məcmusundan ibarətdir. Hansı ki, bədən ən müxtəlif hisslərlə özündə olan ruhun "ma-teriyasını" - ağlı ideya kimi kənara çıxarmağa cəhd edir. Emosiyalar bədənə xüsusi daxili və xarici təsirlə bağlı yaranır, hansı ki, bu zaman əks-təsirin hazırlanmasında ya fiktiv ruh iştirak etmir, ya da zəif iştirak edir. Buradan da emosiyalar xarici təsirə bədənin ağılsız cavabı kimi meydana çıxır. Belə ki, adi vəziyyətdə bədənə xarici təsirin bir hissəsi bədənin özü tərəfindən cavablandırılır, digər hissəsi ruhi münasibətlə həll edilir. Lakin bəzən elə xarici təsirlər meydana çıxır ki, xarici təsirə

bədənlə ruhun birgə əks-təsiri yaranmır. Yəni xarici təsirə ruhi münasibət meydana çıxmır, əksinə xarici təsirə paralel ruh da eyni anda bədənə daxili təsir edir. Başqa sözlə, emosiyalar o zaman meydana çıxır ki, xüsusi vəziyyətdə xarici təsirlərə uyğun ruh bədənə daxili təsir edir. Bu cür ikili - daxili və xarici təsirə cavab kimi emosiya meydana çıxır. Emosiya bir tərəfdən özündə xarici təsirə əks-təsir kimi, digər tərəfdən ruhun daxili təsirinə əks-təsir kimi təzahür edir. Əgər xarici təsirə cavab təsirdən azad olmağa xidmət edirsə, ruhun bədəndən çıxarılması daxildən ruhdan azad olmağa xidmət edir.

2. **Ruhun bədəndən çıxmaqla onunla ziddiyyətdən azad olması:** Leybnits iddia edirdi ki, "insan çox asanlıqla bir sferadan başqasına (maddi sferadan ruhi, ruhi sferadan maddi) keçə bilər". Leybnits bu fikirlərini özünün təklif etdiyi monadologiyaya əsaslandırırdı, hansı ki, o, monadı ən ümumi mənada ruh kimi təyin etmişdi. Beləliklə, Leybnitsə görə həm maddi varlıqlar, həm də ruh monaddan təşkil olunduğundan lap əsasda maddi olanla ruhi olan bir və eynidir. Əgər maddi olanla ruhi olan əsasda bir və eynidirsə, ondan birindən digərinə keçid mümkündür. Biz Leybnitslə tam razılaşa bilmərik. Biz belə hesab edirik ki, maddi olanla ruhi olanın əsasını təşkil edən ideya bir-birindən fərqli ideyadır. Hansı ki, maddi olanları təşkil edən monad maddiləşmə imkanına malik substansiya-ideyadan ibarətdir. Ruhun ideyası isə maddiləşmə imkanına malik olmayan ideyadan ibarətdir, hansı ki, məhz bu təbiətinə görə Ruh kosmosdan daha çox Allaha yaxın mahiyyətdədir. Beləliklə, Leybnitsin dediyi kimi insan bir sferadan digər sferaya keçmir, əksinə şüurlu insanda bir-biri ilə əlaqələnən və özündə bir-birinə ziddiyyət saxlamayan əksiliklərin tərəfi kimi bu tərəflərdən xalis biri kimi, yəni ya konkret heyvan və ya mücərrəd insanlıq kimi təzahür edə bilər. İnsanın heyvani sferaya keçidi özündən ruhi tam kənarlaşdırması ilə, insanlığa keçidi ruhun bədəndən tam çıxması ilə reallaşır. Normal insanda şüurlu insan nə tam heyvanlığa, nə də tam insanlığa keçə bilmir. Tam heyvanlıq imbesilliklə, tam in-

sanlıq ölümlə mümkün olur. Ona görə də ruhun bədəndən azad olması dedikdə biz nisbi azad olmanı nəzərdə tuturuq, hansı ki, ölümdən fərqli olaraq bədənlə ruhun vəhdəti tam pozulmur. Biz ruhun bədəndən çıxmaqla ondan azad olmasını **ekzistensiya** kimi təyin edirik. Ekzistensiya bədənin ruha elə daxili təsiridir ki, ruh bu təsirə münasibət kimi bədəndən çıxmağa cəhd edir. Ekzistensiya bədəndən başa çatmamış çıxmadır, hansı ki, ölüm prosesində fiktiv ruhun bədəndən çıxmasından fərqli olaraq fasiləsiz həm də bədəndə qalmaqda davam edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: Ekzistensiya - bədənlə ziddiyyəti həll etmək üçün ruhun bədəndən çıxma cəhdi ilə bədəndən asılılıq şərtlərinin məcmusundan ibarətdir. Nə üçün ekzistensiya başa çatmış proses kimi təzahür etmir, yəni fiktiv ruh ekzistensiya edərək bədənlə asılılıqdan xilas olmur? Kosmosda mövcud olma mövcudluq (zərurət) tələb etdiyindən, öz mövcudluğu olmadığından bədəndən kənar fiktiv Ruh Kosmosda müstəqil mövcud varlığa çevrilə bilmir. Bu problem ekzistensiya etməklə özünə bədəndən kənar mövcudluq şərtləri - zəruri şərtlər əldə etməklə həll olunur. Beləliklə, ekzistensiyada məqsəd sadəcə bədəndən çıxmaq yox, bədəndən çıxmaqla özünə xüsusi mövcudluq (faktiki varlıq) əldə etməklə bədəndən azad olmaqdan ibarətdir. Necə ki fiktiv ruh bu məqsədə - bədəndən kənar özünə xas müstəqil mövcudluq şərtlərinə malik deyil, bədəndən çıxmaqla həm də bədəndə qalmağa cəhd edir.

FİKTİV RUH - NƏSƏ İNSAN

Allah - mütləq təsadüfün, şərtsiz təsadüfün şərtlərindən, yəni xalis mövcudolmadan; Varlıq - xalis zərurətin şərtlərindən, yəni xalis mövcudluqdan; Kosmos - şərtsiz zərurətlə şərtsiz təsadüfün şərtlərinin məcmusundan, yəni mövcudluqla mövcudolmanın vəhdətindən ibarətdirsə, onda Formal Ruh şərti təsadüflə (Allahın emanativ refleksiyası ilə) şərti zərurətin şərtlərindən, yəni mövcudluqsuz mövcudolmanın vəhdətindən ibarət olur. Başqa sözlə: Allah - mövcudluğu olmayan mövcud olan; Varlıq - mövcudolması olmayan mövcudluq; Kosmos - mövcudluqla mövcudolmanın vəhdəti; Formal Ruh - mövcudolma ilə mövcudluğun əlaqəsindən ibarətdir.

Formal Ruhun konkret bədənlə əlaqəsindən şüurlu insan varlığı meydana çıxır. Elmdə və fəlsəfədə şüurlu insanın mahiyyəti haqqında qəti bir fikir formalaşmayıb.

Haşiyə: Herbert Markuze, "Eros və sivilizasiya"

> *"İnsanabənzər heyvan yalnız bilavasitə onun təbiətinin (fundamental təbiətinin), yalnız onun instinktlərinin məqsədinə təsirlə yox, həmçinin onların "dəyərlərinə", yəni məqsədə çatmağı idarə edən prinsiplərə təsir edən transformasiyası ilə insana çevrilir. Dəyərlər sistemini istiqamətləndirmədəki dəyişilmələri Freyd həzz prinsipinin və reallıq prinsipinin transformasiyası kimi təsvir etmişdir."*

E.Fromm, "İnsanın ruhu" - İnsan mahiyyəti haqqında danışmaq olarmı sualı verərkən dərhal iki, bir-birinə əks nöqteyi-nəzərlə qarşılaşırsan. Biri deyir: insanın ümumiyyətlə heç bir mahiyyəti yoxdur. Bu nöqteyi-nəzər antropoloji relyativizmi təmsil edir; belə ki, insan onu formalaşdıran mədəni şəraitin məhsulundan başqa bir şey deyil. Digər

tərəfdən, Freyd və başqa alimlərin təsəvvürünə görə, insanın mahiyyəti var; bu müddəadan həqiqətdə bütün dinamik psixologiya çıxır. İnsan mahiyyətinin kafi təyinatının axtarılmasında çətinlik aşağıdakı dilemmadadır: əgər qəbul edilsə ki, insanın mahiyyəti müəyyən substansiya təşkil edir, onda asanlıqla qeyri-təkamül, qeyri-tarixi mövqeyə yuvarlanırsan ki, guya insan özünün ilk təzahüründən əhəmiyyətli dərəcədə dəyişməyib. Ancaq belə baxışı o faktla uyğunlaşdırmaq çətindir ki, bizim ali dərəcədə geridə qalmış əcdadlarımızla sivilizasiyalı adam arasındakı son 4-6 minillik tarix əhəmiyyətli dərəcədə fərqlənir. Digər tərəfdən, əgər özünü təkamül nəzəriyyəsinin tərəfdarı elan edib etiraf etsək ki, insan daim dəyişir, onda bu halda insanın "təbiətindən" və "mahiyyətindən" geriyə minimum nə qalır?

Herbert Markuzenin fikirlərində qeyd olunan "insanabənzər heyvanı" nə və necə şüurlu insana "transformasiya" edir? Transformasiya edən güclə instinktlərdə baş verən dəyişilmələr arasında nə kimi əlaqə vardır? Transformasiya nəticəsində meydana çıxan instinktlərin yeni məqsədləri və bu məqsədlərə çatmaq üçün nailiyyətləri idarə edən prinsip özündə nəyi ifadə edir? Bu suallar insanın metafizikası haqqında əsas suallardır. Bizcə, heyvani instinktlərin məqsədinə və məqsədə çatmağı idarə edən prinsiplərə təsir edərək, heyvan-insanı şüurlu insana çevirən güc məhz zərurətə görə bədənlə şərtlənmiş Ruhun gücüdür.

Beləliklə, bizim "insan" anlayışı ilə ifadə etdiyimiz varlıq, əslində mövcud varlıqla varlığın mövcudluğunun vəhdətindən ibarət sintetik varlıqdır. Bu varlıq onu təşkil edən tərəflərin heç birinin xalis həqiqətini özündə aydınlaşdırmır. Nəticədə, insan eyni zamanda həm heyvan, həm də qeyri-heyvan varlıq kimi mövcud olur. Freydin təsvir etdiyi həzz prinsipini - ən ümumi şəkildə bədən tələbatlarının ödənilməsi şərtlərinin məcmusu kimi; reallıq prinsipini isə fiktiv ruhun özü-özünə mövcudluq (reallıq) əldəetmə şərtlərinin məcmusu kimi təyin etmək olar. Yəni insanabənzər heyvanın insana, bədən tələbatlarının ödənilməsindən fiktiv

ruhun mövcudluq tələbinin ödənilməsi istiqamətində inkişaf edən prosesin nəticəsi kimi meydana çıxdığını demək olar.

Biz insan mahiyyəti ilə bağlı E.Frommun şərhində qeyd edildiyi kimi, elmdə və fəlsəfədə bir-birindən fərqli mülahizələri təhlil etmək niyyətindən uzağıq və insan mahiyyəti haqqında sualın həqiqi cavabının yalnız metafizikada olduğunu qeyd etmək istərdik. Əslində, elmdə və fəlsəfədə eyni güclə bir-birini inkar edən bütün müddəaların vahid, ümumi, universal həqiqəti metafizik həqiqətlərdən ibarətdir. İnsan təbiəti ilə bağlı dilemma da yalnız metafizika ilə həll oluna bilər.

Şüurlu insan nə xalis bioloji varlıq, nə də xalis ruhi varlıqdır. Buna görə də, şüurlu insanın konkret, dəqiq mahiyyəti yoxdur, "elə-belə" mahiyyəti var. İnsanın konkret mahiyyətinin olmaması aşağıdakı səbəblərlə bağlıdır:

1. İnsan bir forma (bədən) ilə iki substansiyanın (Ruh və can) vəhdətindən ibarətdir.
2. İnsanın bir substansiyası (canın formal varlığı - növ) İlahidən verilmiş dəyişən zəruri şərtlərdən; digər substansiyası (ruhun formal varlığı - insanlıq) birincili olaraq İlahi tərəfindən verilmiş təsadüfi şərtlərdən (mövcudolmadan), ikincili olaraq şüurlu insanın özü tərəfindən ruhi mövcudluq əldəetmə şərtlərindən ibarətdir.
3. İnsanın bir substansiyası (canı) “burada və indi” prinsipinə (konkretliyə), digər substansiyası (ruh) “cəmiyyətdə və tarixdə” prinsipinə (mücərrədliyə) tabe olur.
4. İnsanın bir təbiəti (can) aktuallaşmadan, digər təbiəti (ruh) faktuallaşmadan təzahür edir.
5. İnsanın təbiəti "nə"dən aydınlaşan mövcud varlıqla (bədənin təzahürləri), "nəyə malik olmayan nəsə"dən aydınlaşan varlığın mövcudluğunun (ruhun əsərləri) vəhdətindən aşkarlanır.

6. İnsanın mahiyyətləri bir-birinin təzahürünə qarşılıqlı müqavimət göstərərək entropiyaya uğradır və bunun nəticəsində şüurlu insana xas təzahürlər meydana çıxır.

Şüurlu insanın xarakteristikaları obyekt tələb etmədən meydana çıxdığından, onu "nəyə malik olmayan nəsə", yəni "nəsə insan" kimi təyin edirik. "Nəsə insan" anlayışı özündə nəyi ifadə edir?

Haşiyə: N.Abbanyano, "Ekzistensializmə giriş"

> *"Qeyri-müəyyənlik insana xas təbiətdir, belə ki, o nə təbiətə, nə də təbiətinin probleminə malik deyil. İnsan mövcudluğu özünün bütün aspektlərində, istər yüksəldilmiş, istər boğulmuş - bu varlığın axtarılmasından ibarətdir."*

Əgər N.Abbanyanonun qeyd etdiyi kimi, özünün bütün aspektlərində insanın mövcudluğu varlığı axtarmaqdan ibarətdirsə, deməli o, varlığa malik deyil. Bəs insanın axtardığı varlıq hansı varlıqdır? Bioloji insanın faktiki varlığı onun mövcudluğu (həyatı), formal varlığı onun növüdür. Deməli, insanın axtardığı varlıq onun bioloji təbiəti ilə bağlı deyil. İnsanda qeyri-müəyyən olan və onu "nəsə insan" kimi mövcud edən təbiətin varlığı isə onda anadangəlmə yoxdur və o məhz bu varlığı, özünün mövcudluq əldə etməmiş varlığını axtarır və ona mövcudluq verməklə onu tapır.

İnsan təbii varlıqlardan fərqli qeyri-müəyyənlikdir. Əgər təbiətdə qeyri-müəyyənlik mövcud varlığın həqiqətinin aşkarlanmasında meydana çıxırsa (yəni obyektə, insanın dünyaya münasibətində qeyri-müəyyənlikdirsə), insanın qeyri-müəyyənliyi varlığın mövcudluğunun - ruhlu insanın həqiqətinin aydınlaşmasında, subyektə, yəni insanın özü-özünə münasibətində meydana çıxır. Beləliklə, insanın qeyri-müəyyənliyi "nə"dən məhrum "nəsə"ni özündə ifadə edir.

Biz bundan əvvəlki fəsillərdə "nəsə"ni subyektə münasibəti reallıq, özünə münasibəti mümkünlük (imkan) olan idrak obyekti kimi təyin etmişdik. Şüurlu insan da subyektə - başqa şüurlu insanlara və obyektlərə

münasibəti real və özünə münasibəti mümkün olan, idrak obyekti kimi "nəsə varlıqdır". Buna görə də, şüurlu insanı mövcud insandan fərqləndirmək üçün onu "nəsə insan" kimi təyin etmək lazım gəlir. Nəsə insan - başqasına münasibətdə xarici atribusiyadan aşkarlanan, amma şüurun atribusiya etdiyi obyektin qeyri-müəyyən olduğunu və yalnız daxildə, özünə münasibətdə abstrakt dərk edilən mahiyyətin mövcudluğunu özündə ifadə edir. Başqa sözlə, "nəsə insan" bütün mövcud insanlardan keçən Formal Ruhun fərddəki formal varlığı kimi təyin olunan insanlıqdan ibarətdir.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *"XVIII-XIX əsrlərdə Spinozadan, Leybnisdən, Russodan, Herderdən və Kantdan tutmuş Höte və Marksa qədər belə bir fikir möhkəmlənmişdir ki, yalnız bir insanlıq mövcuddur və hər bir ayrıca adam özündə bütün insanlığı daşıyır. Öz iddialarını təbii üstünlük imtiyazına əsaslandıran heç bir imtiyazlı qrup olmamalıdır. Vahid Allahın mövcudluğu onu bildirir ki, adamlardan heç kim Allah ola bilməz, heç bir insan mövcudluğu hərşeyi bilən və hərşeye qabil ola bilməz."*

E.Frommun fikirləri ilk baxışdan ziddiyyətlidir. Bir tərəfdən, "bir insanlıq mövcuddur və hər bir ayrıca adam özündə bütün insanlığı daşıyır", digər tərəfdən "heç bir insan mövcudluğu hərşeyi bilən və hərşeyə qabil ola bilməz". Əgər hər bir insanda bütün insanlıq varsa, əgər bütün insanlar birlikdə hərşeyi bilə və hər şeyə qabil ola bilərsə, onda niyə ayrıca bir adam hərşeyi bilə və hər şeyə qabil ola bilmir? Bu sualın cavabı insanlığın fərdi bədənlərlə şərtlənməsidir; hansı ki, bədən öz orijinallığını fiktiv ruha yansıdaraq onu orijinallaşdırır. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Hər bir ayrıca adamın özündə daşıdığı insanlıq, bədənin Fiktiv Ruha təsirindən orijinallaşır.

Hər bir fərddə orijinallaşmış insanlıq, fərddən kənarda yenidən ən ümumilik xarakteristikası əldə edir. Bunu biz insanın yaradıcılığında

beynəlmiləllik kimi təyin edirik. İnsanlıq - hər bir şüurlu fərddən aşkarlanan "nəsə insan"dır, hansı ki, konkret obyekti - “nə”yi qeyri-müəyyən, amma “nəsə”si müəyyən olunan gerçəklikdir. Nəsə insan - insanlığın emanasiyaya məruz qalmış sonuncu varlığıdır. Əgər canlıların formal varlığı daxili olub, növdən mücərrəd aşkarlanandırsa, ruhun formal varlığı xarici olub, cəmiyyətdən aşkarlanandır. Herder belə hesab edirdi ki, əgər yer kürəsinə tək bir insan gəlsəydi, onda Allah insanlıqla bağlı bütün niyyətlərini həmin insanda gerçəkləşdirərdi. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Formal Ruh, İnsanlıq - bütün "nəsə insanlar"ın şərtlərinin məcmusundan ibarətdir.

Nəsə insan yalnız modelləşmə ilə idrak oluna bilər. O şey ki, bilavasitə xarici seyrlə aşkarlanmır və yalnız daxili seyrlə təsəvvürə gətirilir, onun mövcudluğu haqqında təsəvvürlər modelləşdirmədən ibarətdir. Məsələn, fiziklər fiziki qanunları aşkarlamaq üçün atom modelini təsəvvürə gətirirlər; halbuki, atomun modeli xarici seyrdən aşkarlanmayan süni görüntüdən ibarətdir. Bu cür fikrə gətirilmədən aşkarlanan görüntülər faktiki yox, fiktiv görüntülərdir. Ruhla bədənin əlaqəsindən qavranılan "nəsə insan" da məhz bu cür modelləşdirmə ilə təsəvvürə gətirildiyindən, özündə fiktiv varlıq kimi çıxış edir. Yəni fiktiv insan varlığı, ruhla bədənin əlaqəsinin modelləşdirilməsini özündə təqdim edir, halbuki həqiqətdə modellə reallığın bir-birinə uyğunluğu şübhəli həqiqətdir.

Haşiyə: Pyer Teyyar de Şarden, “İnsan fenomeni”

> *“Biologiya müvəffəq olub ki, bəzi sıralarını həyatın konstruksiyasına gətirsin. Fizika və biologiyaya istinad edərək, öz növbəsində antropologiya insan bədəninin strukturunu və onun fiziologiyasının bəzi mexanizmlərini necəsə izah edir. Amma bütün bu cizgilərin birləşdirilməsindən alınan portret, bu günkü elmin canlandırdığı şəkildə "başqa heyvanlara bənzər insan", aydın şəkildə həqiqətə uyğun deyil.”*

P.T.Şardenin fikirlərində "elmin canlandırdığı" ifadəsi özündə elmin şüurlu insan haqqında təsəvvürü modelləşdirdiyini göstərir ki, bu da Şardenə görə həqiqətə uyğun deyil. Nə üçün elmin canlandırdığı insan - "cizgilərin birləşdirilməsindən alınan portret. başqa heyvanlara bənzər insan" həqiqətə uyğun deyil? Çünki elm ruhun varlığını qəbul etmədiyindən, ruha xas cizgiləri bioloji insana birləşdirərək, onun başqa heyvanlara bənzər portretini modelləşdirməyə məcburdur. Başqa sözlə, elmin insan portretində bioloji insana aid edilən bir çox xüsusiyyətlərin əsası insan biologiyasında olmadığından, heyvana bənzər insan portreti də "nəsə insan"ı həqiqi şəkildə özündə əks etdirmir. Ona görə də, əslində insanın elmi portreti yəqin və dəqiq ola bilməz. Həqiqi "nəsə insan" portreti yalnız onda həqiqətə uyğun ola bilər ki, onun iki mahiyyətli bir formalı varlığının cizgiləri həmin portretdə birləşdirilsin. "Nəsə insan" bədənlə (mövcud varlıqla), ruhun (varlığın mövcudluğunun) keçici vəhdətindən ibarətdir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Nəsə insan - ölçülüklə ölçüsüzlüyün keçici vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Burada, insan ölçülüyü onun bioloji hərəkətliliyi, ölçüsüzlüyü ruhi hərəkətliliyi özündə təqdim edir. "Nəsə insan" nə xalis bioloji, nə ruhi varlıq olmadığından, fiktiv varlıqdır; hansı ki, fiktiv insan varlığında nə xalis bioloji ölçülük, nə də xalis ruhi ölçüsüzlük aşkarlamaq mümkün deyil. Yəni bədən ruha təsir edərək onu ölçüsüzlükdən məhrum edir, amma ona konkret ölçülük verə bilmir; ruh bədənə əks təsir edərək onu ölçülükdən məhrum edir, amma ona ölçüsüzlük verə bilmir. Nəticədə, fiktiv insan həm konkret ölçülükdən, həm də mücərrəd ölçüsüzlükdən məhrum varlıq kimi təsəvvürə gətirilir ki, bu da "elə-belə" nəsə varlıqdır. Fiktiv insan buna görə həm bioloji insandan (heyvanlardan), həm də Formal Ruhdan kəskin fərqlənir. Ölçülüklə ölçüsüzlüyün vəhdətindən fiktiv insanın təzahürləri meydana çıxır. Bura psixologiya, xarakter və şüuru aid etmək olar. Beləliklə, "nəsə insan" metafizikadan fizikaya və

əksinə keçid vəziyyətində mövcud olan varlıq kimi təsəvvürə gətirilə bilər.

Şüursuz insan şüurlu insana necə keçir?

Canlılarda bir formadan ona üstünlük təşkil edən başqa formaya keçid daxili olduğundan, təbiətdə xaricdə şüursuz insandan şüurlu insana keçid mümkünsüzlükdür. Biz şüursuz insanı - faktiki insan, şüurlu insanı - fiktiv insan varlığı kimi təyin edirik. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Fiktiv insan varlığı - daxildə faktiki insanda mümkünlüyün varlığının yeni mövcudluq tələbində İlahidən verilmiş mövcudolmanın şərtlərinin məcmusundan ibarətdir.

Əgər faktiki insandan fiktiv insana keçid daxildə baş veribsə, onda xarici təsadüfi şərtlərin təsirindən keçid inkar olunur; yəni insan xarici təbii təsirlərdən "meymundan əmələ gəlməyib". Başqa sözlə, faktiki insanın fiktiv insana keçidi yeni daxili zəruri şərtlərlə bağlı olub. Bu yeni şərtlər nə sabit, nə dəyişən zəruri şərtlərlə eynilik təşkil etmir və özünəşərt əldəetmənin şərtlərindən ibarətdir ki, müstəqil ruhu başlanğıcı təşkil edir. Bu iki şərt özündə İlahi ağılla insan ağlının fərqliliyini refleksiya edir. Belə ki, birinci bilavasitə, ikinci dolayı zəruri şərtlər kimi mövcud olur. Bilavasitə zəruri şərtlər kamil mütləq, dolayı zəruri şərtlər qeyri-kamil və nisbidir. İlahi iradədən verilmiş zəruri şərtlərlə, İlahi iradədən verilmiş özünəşərt əldəetmənin zəruri şərtləri bir-birindən ölçülüyə görə fərqlənir. İlahidən verilən zəruri şərtlər ekstensiv və intensiv ölçülüyə malikdir. Ekstensiv ölçülüyü biz məkani ölçülük, intensiv ölçülüyü zaman ölçülüyü kimi təyin edirik. Beləliklə, ekstensiv ölçülük mövcudluğun formasından, intensiv ölçülük daxildən onun zamanla asılılığından aşkarlanır.

Cisimlər tək daxili ölçülüyə, çox xarici ölçülüyə; canlılar tək xarici ölçülüyə, çox daxili ölçülüyə malikdir. Canlıların tək xarici ölçülüyə malik olması onların formasının dəyişilməsi ilə bağlıdır, yəni canlılarda

konkret sabit xarici ölçülük yoxdur. Sadəcə keçici, mücərrəd xarici ölçülük var. Canlının hər bir yeni forması özündə yeni yaranma anını təqdim edir. Beləliklə, bir mahiyyətə malik canlı fərdin çoxlu formaya malik olmasına görə, hər bir formanın intensiv ölçülüyü summasiya olunaraq daxili çoxölçülüyü yaradır. Məsələn: beş metr ağac və beş yaşında uşaq. Burada birinci "beş" ölçülük kimi ekstensivdir və xarici; ikinci "beş" ölçülük kimi intensivdir və daxili seyr yolu ilə əldə edilir və qavranılır. Beş yaşında uşaq eyni zamanda beş müxtəlif xarici ölçülüyü özündə təqdim etdiyini göstərir. Amma "bir metr" boyunda adam istənilən yaşda ola bilər.

Cisimlər sabit zəruri şərtlərdə mövcud olduğundan onların intensiv ölçülüyü təkdir, o da yaranma anından ibarətdir. Beləliklə, ekstensiv ölçülük sabit, intensiv dəyişən ölçülük olur. İstənilən mövcud varlıq ekstensiv və intensiv ölçüləri ilə xarici və ya daxili seyrlə qavranılır. Formal Ruha ilahi iradədən bilavasitə mövcudluğun zəruri şərtləri verilmədiyindən, onun özünün ekstensiv və intensiv ölçülüyü yoxdur. Buna görə, xarici və daxili seyr olunmur. Ruhun öz ölçülüyü olmadığından, yalnız belə ölçülüyə malik mövcudluqlardan özünə zəruri şərtlər əldə etdikdə mücərrəd ölçülüyü meydana çıxır. Ölçüsüz ruhun ölçülüyü yalnız ölçülüklə - mövcud varlığın özündənkənar seyr edilməsi ilə mümkün olduğundan, ruhun ölçülüyü ikincili olaraq mövcudluqların xarici ölçülüyünə proyeksiya edilmiş ölçülük kimi aşkarlanır. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Ruhun ekstensiv ölçülüyü mövcud varlıqların ekstensiv ölçülüyündən ikincili ölçülük kimi xarici seyr olunur. Ruhun intensiv ölçülüyü əlaqələndiyi bədənə proyeksiya edildikdə ayrı-ayrı yaş dövründəki "Mən" kimi aşkarlanır.

Fiktiv insan varlığı (şüurlu insan) özündə bədənlə ruhun əlaqəsində idraka bir faktiki, iki formal varlıq təqdim edir. Buradan, təfəkkürdə id-

rak prosesində insanın gerçəkliyi fiktiv insandan aşağıdakı həqiqətlər kimi qavranılır:

1. **Mövcud insan - individ:** Bədənin formal varlığının (mahiyyətinin) öz faktiki varlığını (formasını) itələməsi mövcud insan kimi qavranılır. Mövcud insan bioloji varlıq kimi formaca bədəndən, məzmunca bioloji insan növündən ibarət mövcud varlıqdır və canlıların tabe olduğu bütün bioloji qanunlara tabe olur. Yəni mövcud insanda digər məməlilərdən fərqli bioloji xüsusiyyətlər yoxdur. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

- **Mövcud insan - özündə xüsusi dəyişən zəruri şərtlərin məcmusundan ibarətdir.**
- Mövcud insanın digər canlılar kimi forması özündən, substansiyası növündən aşkarlanır. Yəni mövcud insanda bioloji mahiyyət yoxdur.

2. **Şüurlu insan - fərd:** Ruhun formal varlığının fiktiv insan varlığında bədənin faktiki varlığını özündən xaricə itələməsi ilə şüurlu insan (fərd) təzahür edir. Fərd - şüura malik mövcud insandır; hansı ki, təzahürlərindən forması, təsirlərindən ruhi varlığı aşkarlanır. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

- **Şüurlu insan - Fiktiv Ruhun özünə mövcudluq əldətmə şərtlərinin məcmusu ilə bədənin dəyişən zəruri şərtlərinin məcmusundan ibarət fiktiv varlıqdır.**
- Biz özünəşərt əldəetməni idrak prosesi kimi, mövcud varlıqdan bilavasitə şərt əldəetməni dərketmə kimi təyin edirik. Buna görə, mövcud insan bədənin dəyişilməsindən asılı olaraq, fiktiv insan özünəşərt əldə etməyə - dərk etməyə - cəhd edən varlıq kimi qavranılır.

3. **Şəxsiyyət:** Şüurlu insanda bədənin faktiki varlığı eyni zamanda iki formal varlıqla əlaqədə olduğundan, birincili əlaqələndiyi öz xüsusi formal varlığını daxilə, ruhun formal varlığını xaricə itələməklə daxili təsirə malik mövcudluq kimi qavranılır. Eyni bir mövcudluq eyni za-

manda yalnız bir substansiyaya malik olduğundan, bədənin faktiki varlığı yalnız bir formal varlığı daxilə itələyərək mövcud olur və bu zaman ikincili formal varlığı özündən xaricə itələməklə onunla əksilik təşkil edir. Bədənin faktiki varlığının ruhun formal varlığını özündən xaricə itələməsi ilə şəxsiyyət təzahür edir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

- **Şəxsiyyət - Fiktiv Ruhun, ruhun formal varlığının (cəmiyyətin) vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.**
- Başqa sözlə, şəxsiyyət fiziki bədənini cəmiyyətin əvəz etdiyi fərddir. Məhz buna görə şəxsiyyət cəmiyyətin tələbatları ilə şərtlənir və o, bu tələbatlara təsir edərək onları öz məqsədinə uyğun dəyişdirməyə cəhd edir.

Haşiyə: Nikola Abbanyano, "Fəlsəfənin müdrikliyi"

> *"Filosoflar insanı maraqlandıran problemlər haqqında nə deyə bilər? Bu problemlər arasında mərkəzi və hakim məhz insanın özüdür; yəni onun rolu, onun təbiəti və onun taleyidir. Amma insan yalnız fəlsəfənin adresatı deyil, həm də onun təbiətini başa düşməyə cəhd etdiyi başlıca obyektlərindəndir."*

Əslində şüurlu insanın təzahürü ilə "problem" anlayışı ilə ifadə olunan - həqiqətin idrakının çətinliyi meydana çıxmışdır. Buradan da, insan həm problemin səbəbi, həm də problemlərin mərkəzi fiqurudur. Nə üçün insan problemlərin mərkəzi fiqurudur? Çünki yalnız insan həqiqəti aşkarlamaq səlahiyyətindədir və bu zaman meydana çıxan çətinliklər həm faktdan, həm də insandan - ağıldan qaynaqlanır.

"İnsan" anlayışı çoxmənalılığı ilə insan probleminin başlanğıcını təşkil edir. Biz insan dedikdə nə nəzərdə tuturuq? İnsan anlayışının mənalarına aşağıdakılar aiddir:

1. **Mövcud insan:** Mövcud insan varlığından ibarət olub, mövcud varlıqlar kimi hissi qavranılan varlıq mənasını verir. Belə ki, mövcud insan xarici seyr olunan, konkret forması olan, bilavasitə və obyektivliklə xarakterizə olunan mövcud varlıqdır. Mövcud insan, cisimlərin

tabe olduğu qanunlara tabe olan (kütləsi, həcmi və hərəkəti ilə xarakterizə olunan) və dəyişən şərtlərdə xüsusi hərəkətliliyə malik canlı varlıqdır. Mövcud insanın təzahür forması fərddir.

2. **Sosial insan:** Yalnız xarici çoxluqdan qavranılan, öz fəaliyyəti ilə digər bütün canlılardan fərqlənən, yaşam təcrübəsinə malik fenomeni özündə ifadə edir. Hansı ki, canlılar aləminə xas quruluşa, lakin onlardan fərqli funksiyalara malikdir. Sosial insan həm mövcud insandan, həm də onun xarici fəaliyyətindən, xarici seyr yolu ilə qavranılan varlığından ibarətdir. Sosial insan bioloji insanla Formal Ruhun əlaqəsindən ibarət mürəkkəb varlıqdır. Sosial insanın təzahür forması şəxsiyyətdir.

3. **Nəsə insan:** Xarici seyr olunmayan, mövcud və sosial insanın vəhdətində onlardan daxildə gizlənən və yalnız daxili seyr yolu ilə aşkarlanan, intuitiv yolla qavranılan varlığı özündə ifadə edir. Biz "Nəsə insan"ı mövcud insanla əlaqələnmiş fiktiv ruhi varlıq kimi təyin edirik. "Nəsə insan"ın təzahür forması insanlıqdır.

Ruh yalnız mövcud insandan ekzistensiya etdiyindən biz onun təbiətini də insanın ümumi təbiətindən dolayısı ilə aşkarlaya bilərik. Əslində insan təbiəti özündə varlığın universallığını və həqiqətin vəhdətini təqdim edir. Bu mənada insan həm Kosmosun, həm də Metafizikanın qanunlarına tabe olan keçid varlığıdır. Ona görə, insan haqqında biliklər əslində mütləq bilgidən ibarətdir. İnsan təbiəti tam təzahür etmədiyindən, onun kamilləşməsi davam etdiyindən biz insanı yalnız "nəsə insan" kimi təyin edə bilərik. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Nəsə insan - mövcud insandan ekzistensiya edən Fiktiv Ruhun şərtlərinin məcmusundan ibarətdir.

Nəsə insan xarici seyr edilən mövcud insanın daxilində onun gizliliyi kimi mövcuddur. Biz nəsəliyinə görə onu intuitiv aşkarlayırıq, amma hissi qavraya bilmirik. Bizim hissi qavradığımız insan - mövcud insandır;

hansı ki, "nəsə insan"ın bilavasitə qavranılmasına imkan vermir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

İnsan problemi - mövcud insanda "nəsə insan"ın aşkarlanmasının şərtlərinin məcmusundan ibarətdir.

"Nəsə insan"ın "nə"yi ruhun faktiki varlığından ibarətdir ki, tarix boyu mövcud insandan kənarda, tərəqqi prosesində tədricən formalaşır. İnsanın "nə"sinin formalaşmasının başa çatması ilə "nəsə insan" var olan insana - insanlığa çevrilir. Hansı ki, bədəndən kənar - mövcud insandan azad ruhun mövcud varlığı kimi təsəvvür oluna bilər. "Var olan insan" mövcud insandan ruhun faktiki varlığı ilə formal varlığının vəhdət təşkil etməsi ilə fərqlənir. Halbuki, mövcud insanda Fiktiv Ruh bədənin faktiki varlığı ilə əlaqələnərək mövcud insanı təzahür etdirir. Beləliklə, biz "Nəsə insan"ı mövcud insandan tədricən ekzistensiya edərək təbiət sfer-asına keçən potensial insan kimi təyin edə bilərik.

Hər bir mümkünlüyün başlıca meyli reallığa çevrilmək olduğundan, mümkün varlıq kimi Formal Ruh da real varlığa çevrilmək istiqamətində əbədi cəhddədir. Bu cəhddə əvvəl bədənə daxil olmaqla özünün başlanğıc xarici totallığından (ruhun total xalis varlığından) ayrılır. Nəticədə başlanğıc xarici ruhi totallığını özündə refleksiya etdiyi Ali Başlanğıc haqqında məlumatlardan məhrum olur; hansı ki, bir vahid tam kimi yalnız ruhun xarici xalis varlığının totallığından aşkarlanır.

> ***Haşiyə:*** *Plotin, "Seçilmiş traktatlar" - Ruhun asılı olmayan mövcudluğa eqoistik cəhdi, onun Allahı unutmasının səbəbi kimidir.*

Plotinin bu sözlərində böyük həqiqət vardır. Xalis varlıq kimi özünə yaxın Başlanğıcı daha dəqiq refleksiya etmək imkanı olan Formal Ruh, real varlıqdan keçməklə, onun əsasında özünün real varlığa çevrilmə cəhdi onu Allahdan və mütləq həqiqətdən uzaqlaşdırır. Bədənə keçməklə başlanğıcda nə Allah, nə Həqiqət haqqında heç bir məlumata malik olmur, buna görə də tam xaos vəziyyətində təzahür edir. Plotinin

fikirlərindəki “Ruhun asılı olmayan mövcudluğa epizodik cəhdi” əslində ruhun xarici totallıqdan daxili totallığa keçməklə insanda keçici olaraq (epizodik hal kimi) fərdi təzahür etməsini özündə təqdim edir. Hansı ki, Formal Ruh fərdiləşməklə xarici ümumi totallıqdan ayrılır və yalnız belə totallıqla aşkarlanan Mütləq Həqiqət - Allah haqqında əvvəllər özünə məlum olan həqiqəti unudur və ya həmin həqiqət haqqında dəqiq məlumata malik olmur. Buradan da, hər bir fərd təklikdə Allah haqqında heç bir təsəvvürə malik olmur. İnsanlar yalnız kollektiv şəkildə Allah ideyasını kəşf edir. Buradan da Allah ideyasının təhtəlşüurdan insanlara aşkarlandığı məlum olur. Allahı unutmaq - Allahın onun üçün təyin etdiyi nizama uyğun mövcud olmaq imkanını itirməkdir. Hansı ki, ruhdan fərqli olaraq, bütün mövcud varlıqlar onlar üçün müəyyən edilmiş nizama uyğun əbədi mövcud olduqlarından, əbədi olaraq Allahın ideyasını - öz həqiqətləri kimi “yadlarında” (mahiyyətlərində) saxlayırlar. Ruh isə bədənə keçməklə başlanğıc xaosdan məhrum olur və bədənin nizamına tabe olmaqla, mövcud varlıqların nizamı əsasında özünü nizamlayır, yəni mövcud edir.

Buradan da, biz "nəsə insan"ı Allahı yaddan çıxaran, amma onu mütəmadi xatırlamağa cəhd edən, ruhi mövcudolma ilə (xaosla) bədən mövcudluğunun (nizamın) vəhdətindən ibarət varlıq kimi təyin edə bilərik.

Haşiyə: V.Frankl, “Naməlum Mən”

> *“Nitsşe - İstənilən insan öz mahiyyətindən uzaqdır; şüursuzluq fərdin ayrılmaz hissəsidir. Şüur isə şüursuzluğun formulasının açılmasından, dərkedilməmişin az və ya çox (güman ki, dərkedilməyən, amma hiss edilən) düşünülmüş kommentariyasından başqa bir şey deyil.”*

Haşiyə: F.Nitsşe, “Kosmoloji dəyərlərin qəzaya uğraması”

> *“İnsan heyvanaqədər olmayan və heyvanüstüdür; ali insan insanaqədər olmayan və insanüstüdür: beləliklə biri digərinə*

toxunur. İnsanın istənilən ölçüdə və boyda artımında o, həmçinin dərinə və vahiməyə böyüyür: biz birini digərindən ayrı istəməyə haqlı deyilik - və ya daha çox insan nə qədər əsaslı sürətdə birini istəyirsə, o əsasda da o, o birisinə çatır."

Haşiyə: Karl Qustav Yunq, "Bizim dövrün ruhunun problemləri"

"Həyat və Ruh iki gücü və ya zərurəti təqdim edir, onlar arasında insan yerləşir. Ruh onun həyatını mənalandırır və nəhəng çiçəklənmə imkanları verir. Həyat Ruh üçün zəruridir, belə ki, onun həqiqəti, əgər o həyat qabiliyyətli deyilsə, heç nədir."

Nitsşedən gətirdiyimiz sitatdan görünür ki, kosmoloji olaraq o, insanı həm antropologiyasına (bədəninə), həm də ruhuna görə təyin edir. Birinci təyində "heyvanaqədər olmayan və heyvanüstü" müddəası özündə insanın antropoloji təyinidir. Hansı ki, insan antropologiyasının (bədən) heyvan antropologiyasından sonra meydana çıxdığını, bununla birlikdə həm də ondan daha üstün keyfiyyətdə mövcud olduğunu bildirir. Biz bunu insan bədəninin orqanlarının heyvan bədəninin orqanlarından daha mükəmməl funksiyalaşmasında, insanın yeganə canlı kimi dik yeriməsində, əllərin ayaqlardan kəskin funksional differensiasiya etməsində, beyinin heyvan beynindən müqayisə olunmayacaq dərəcədə assosiativ quruluşa malik olmasında, analizatorların daha ümumi hissi qavrama qabiliyyətinə malik olmasında və s. görə bilərik. Yəni Nitsşeyə görə insan heyvandan əmələ gələn və ondan sonrakı ali antropologiyaya malik canlıdır. Bu o deməkdir ki, insan hər bir heyvan kimi yalnız canlılar sferasında yerləşmir; yəni insan heyvandan əmələ gəlsə də, öz təbiətinə görə heyvanlardan üstün antropologiyadadır və bununla da bütün heyvanlardan ayrılmışdır. Biz insan antropologiyasını canlılığın sonuncu forması - Ruhla materiyanın sərhədlərindən və eyni zamanda onların hər ikisini özündə əlaqələndirən fiktiv varlıq kimi təyin edirik. Bu üstün antropologiyaya malik olmaq insanda özündə Ruhu saxlamasında və onun özündə təkmilləşərək sonda azad mövcudluğa çevrilməsində əsas rolu

oynayır. Məhz şüurlu insan yalnız bu əsasın mövcudluğu şərtində meydana çıxa bilər.

İkinci təyin - ”Ali insan insanaqədər olmayan və insanüstüdür” müddəası Ruha aid olub, Ruhun insandan (bədəndən) əvvəl mövcudluğu olmayan, insandan sonra onda təzahür edərək mövcud insandan üstün olan mahiyyətini ifadə edir və onun kamil təzahürünün Ruhla insanın adi və ya sadə birliyindən (başlanğıc vəhdətindən) daha üstə olduğunu bildirir. Başqa sözlə, Ali İnsan Nitsşe tərəfindən adi insan təcrübəsindən inkişaf edərək ondan üstün olan, yəni adi insandan fərqli xalis ruhi təzahürlər göstərə bilən varlıq kimi təyin olunur. K.Yunqun fikirlərindəki “insan” anlayışı özündə fiktiv insan varlığını - mücərrəd insanı ifadə edir; hansı ki, bədənlə ruh arasında mövcuddur. K.Yunqun “bədənlə ruhun arası” fikri özündə bədənlə ruhun əlaqəsinin zərurətindən meydana çıxan insaniliyi ifadə edir. Buradan da aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Fiktiv İnsan - bədənlə Formal Ruhun əlaqəsinin şərtlərinin məcmusundan ibarətdir.

Haşiyə: F.Nitsşe, “Zərdüşt belə danışmışdır”

> *“ İndi mən Allahı sevirəm: insanları mən sevmirəm. İnsan mənim üçün həddən artıq qeyri-təkmildir. İnsana məhəbbət məni məhv edərdi. Mən sizə İnsanüstü haqqında öyrədəcəyəm. İnsan baş verəcək nəsədir. Siz qurddan insana doğru yol keçmisiz və sizdə qurddan çox şey qalıb. İnsanüstü - yerin mənasıdır. Yerə sədaqətli qalın, yerüstü ümidlər haqqında deyənlərə inanmayın. İnsan həqiqətən çirkli axındır. Natəmiz olmamaq üçün dəniz olmaq lazımdır ki, çirkab axınından çirklənməyəsən. İnsan - heyvanla İnsanüstü arasında çəkilmiş kəndirdir - uçurum üzərindəki kəndir. Üstündə gəzmək təhlükəlidir, yolda olmaq təhlükəlidir, geriyə baxış təhlükəlidir, qorxu və dayanmaq təhlükəlidir. İnsanda vacib odur ki, o məqsəd yox, o körpüdür: insanda yalnız onu sevmək olar ki, o keçid və məhv olmadır. Mən onlara ən şübhəli şey haqqında danışsam - bu sonuncu adam olacaq. Rəqs edən ulduzlar doğmaq*

üçün özündə hələ xaos daşımaq lazımdır. Sizdə hələ xaos var. Xoşbəxtlik bizim tərəfimizdən tapılıb - sonuncu adamlar deyir və göz vurur. Əvvəllər bütün dünya dəli olub. Kütlə qışqırır: "sonuncu adamı bizə ver, bizi bu sonuncu adama oxşar elə, biz sənə İnsanüstünü verək". İnsan varlığının mənası İnsanüstüdür. Ruhun üç çevrilməsi vardır: Ruh dəvə olur, dəvə şir, nəhayət şir uşaq olur. Ruh üçün çoxlu çətinliklər mövcuddur. Bütün ağırlıqlara və ən çətinliklərə onun gücü cəhd edir. Ruh şir olarkən azadlıq istəyir və özü öz səhrasında öz ağası olmaq istəyir. Şir ruhun vuruşduğu əjdaha "sən etməlisən"dir. Amma şirin ruhu deyir: "mən istəyirəm". Yeni dəyərlər yaratmaq lazımdır - bunu şir hələ bacarmır: özünə yeni yaradıcılıq üçün azadlıq əldə etmək - bunu yalnız şir gücü edə bilər. Uşaqlar günahsızdır, yeni başlanğıcdır, oyundur, özü hərəkət edən təkərdir, başlanğıc hərəkətdir, müqəddəs sözün təsdiqidir. "Mən bədən və ruham" deyir uşaq. Bilən isə deyir: "mən yalnız bədənəm", ruh yalnız bədən üçün nədən ötərisə sözdür. Mən deyirsən və bu sözlə fəxr edirsən. Bundan artıq - heç nəyə inanmaq istəmirsən - sənin bədənin onun böyük ağlı ilədir: o Mən demir, o Məni yaradır. Hiss və ağıl bədən üçün alət və oyuncaqdır: Onların arxasında əlavə olaraq Özü durur. O hökmranlıq edir və hətta Mənin də ağasıdır. Sənin fikirlərinin və hisslərinin arxasında, mənim qardaşım, daha güclü hökmdar dayanıb, naməlum müdrik - o Özü adlanır. Sənin bədənində o yaşayır və o sənin bədənindir. Bədən - böyük ağıldır. Yaradıcı bədən öz iradəsinə ovuc kimi özünə ruh yaradıb. Mənim Mən baş verməli olan nəsədir: Mənim Mən insana böyük şübhədir - onun gözləri belə deyir. Biri - fikir, başqası - iş, üçüncüsü - işin obrazı. Nə vaxtsa Ruh Allah olub, sonra insan, indi isə hətta o, qaragüruha çevrilir."

İnsan haqqında Nitsşenin fikirləri ya tam şəkildə, ya hissəvi olaraq demək olar ki, bu və ya başqa formada ondan əvvəlki əksər filosoflar tərəfindən deyilmiş və ya Nitsşedən sonrakı filosoflar tərəfindən təsdiq edilmişdir. Beləliklə, biz də burada insanın metafizik təbiətini Nitsşedən gətirdiyimiz sitat əsasında şərh etməyi daha münasib hesab edirik. Nitsşe mövcud insanı heyvandan İnsanüstü varlığa doğru hərəkət edən varlıq

kimi təyin edir. Başqa sözlə, mövcud insan Nitsşeyə görə "Nihil insan"dır, yəni ”nəsə insan”dır. Nitsşenin Nihil insanı qeyri-müəyyəndir, gizlidir, başa çatmamışdır, sabit mahiyyətli deyil, təkmil deyil, mürəkkəbdir; buna görə də özünün sadə mahiyyətindən çox uzaqdır. O heyvan deyil, çünki heyvandan artıq çıxıb; amma o hələ həqiqi insan - son nəticə - Sonuncu İnsan da deyil. Hansı ki, Sonuncu İnsandan İnsanüstü - nə müəyyən, aşkar, kamil, konkret təzahür edəcək.

Nihil və ya “Nəsə” insan nə deməkdir? Biz nəsəni “nə”siz mahiyyət kimi təyin etmişdik. Buradan da, ”nəsə insan” xüsusi mövcudluğu olmayan insan deməkdir; hansı ki, mövcud olduğu bioloji insanın bədəni ilə ikincili əlaqələnir və ondan dolayısı ilə təzahür edir. ”Nəsə İnsan”ın bütün xarakteristikaları Fiktiv Ruha xasdır. Həmin xarakteristikaları ayrı-ayrılıqda şərh etməklə Fiktiv Ruhun xarakteristikasını şərh edə bilərik:

1. **Qeyri-müəyyənlik:** Müəyyənlik - təbiətdə forma ilə mahiyyətin vəhdətində bilavasitəliyi bildirir. Hansı ki, müəyyənlik kimi yalnız mövcud varlıqlar reallığı təşkil edir. Qeyri-müəyyən - bilavasitəlikdir; hansı ki, subyektivdir, yəni obyektivlikdən məhrumdur.
2. **Gizlilik:** Gizlilik mahiyyətin xarakteristikası olub formadan dolayı ilə aşkarlanmasının mümkünlüyünü bildirir. Ruhun öz forması yoxdur. O yalnız bədənlə dolayısı ilə, onun formasından aşkarlanır. Buradan da, Fiktiv Ruh insan bədəninin gizliliyi olan mahiyyətində gizlənmişdir. Buradan da Ruhun ikiqat gizliliyi (həqiqi gizliliyi) aşkarlanır ki, insan bədəninin formasından onun aşkarlanması mümkünsüzdür. Gizlilik - “Nəsə insan”ın xarici seyr edilməsinin mümkünsüzlüyünü göstərir; hansı ki, yalnız daxili seyr yolu ilə, daxildən özüözündən, Mən tərəfindən seyr ediləndir. Buna görə də "nəsə insan" başqası üçün mütləq gizlidir.
3. **Başa çatmamışdır:** Başa çatmaq emanasiya və təkamülün dayanmasını özündə ifadə edir. ”Nəsə insan” - emanasiya prosesində olan insandır. Yəni Fiktiv Ruh ruhi mövcudluq əldə etmədiyindən və öz faktiki varlığını yaratmaqda davam etdiyindən (başqa sözlə tərəqqi

prosesi olduğundan) "nəsə insan" başa çatmamışdır. "Nəsə insan"ın başa çatması ilə o "nə insana" - Formal Ruhun mövcud varlığına çevrilir. "Nəsə insan"da başa çatan bioloji insanın təbiətidir.

4. **Sabit mahiyyətli deyil:** Ruha mövcudluğun zəruri şərtləri verilmədiyindən və yalnız təsadüfi şərtlərdə özünə zəruri şərtlər əldəetmənin şərtlərinin məcmusundan ibarət olduğundan, təsadüfdən asılı olaraq daxili çoxluq kimi təzahür edir. Digər tərəfdən, "nəsə insan" özündə həm bədənin, həm də Formal Ruhun mahiyyətini təzahür etdirdiyindən və bu mahiyyətlər xarici situasiya ilə şərtlənmiş şəkildə təsadüfə görə meydana çıxdığından, "nəsə insan"dan sabit mahiyyət aşkarlamaq mümkün deyil.

5. **Təkmil deyil:** Təkmillik idealı özündə ifadə edir. "Nəsə insan" ideala cəhddə özünün qeyri-təkmilliyini təzahür etdirir. "Nəsə insan"ın təkmilliyi onun tərəqqisinin başa çatması kimi meydana çıxır. Buradan da, insanlıq tərəqqi etdikcə "Nəsə insan"ın qeyri-təkmilliyi təzahür edir.

6. **Mürəkkəbdir, buna görə də özünün sadə mahiyyətindən çox uzaqdır:** "Nəsə insan"ın mürəkkəbliyi eyni vaxtda iki mövcud varlıqdan və bir varlığın mövcudluğundan təşkil olunması ilə bağlıdır. "Nəsə insan" həm cisim, həm can, həm də ruhdan ibarət mürəkkəb varlıqdır. Formal Ruhun mövcud varlığı yaranmayanadək, yəni Fiktiv Ruh bədənlə əlaqələndikcə (başqa sözlə idrak və yaradıcılıq potensialı qaldıqca) "nəsə insan" öz sadə mahiyyətindən uzaq olaraq qalacaqdır.

Nitsşeyə görə, Nihil İnsan "nə" insana çevrilmə prosesində bir-birini əvəzləyən üç vəziyyətdən keçir.

1. **Birinci vəziyyəti** Nitsşe obrazlı olaraq Ruhun **"dəvə"** vəziyyəti adlandırır. Dəvə ruh hər bir ağırlığa və çətinliyə dözən, həyatın tələblərinə baş əyən, üzərinə qoyulmuş istənilən yükü götürən, təbiətin əsiri olan, bir sözlə kor taleyi ilə barışan və "sən etməlisən" əmrinə sözsüz tabe olan insanı meydana çıxarır.

2. **İkincisi, Ruhun "şir" vəziyyətidir.** Şir ruh azadlıq istəyir, yaşadığı səhrada öz gücü ilə hər şeyə qalib gəlmək, özü özünün və hər şeyin ağası olmaq üçün vuruşur. Bu zaman onun qarşısına "sən etməlisən" əmri verən Əjdaha çıxır. Hansı ki, Ruhun dəvə vəziyyətinin sahibi, onun ağası, onu yükləyən və özünə hər cür məcburetmə ilə tabe etdirəndir. Bu Əjdaha özündə insanın həm öz bədəninin bioloji tələbatları, həm də xarici hakimiyyətin məcburetməsinin məcmusudur. Şir bu əjdahaya qalib gəlmədikcə azad olmur. Şir əjdahanın "sən etməlisən" əmrindən imtina edib, "mən istəyirəm" şüarını səsləndirir. Onun istədiyi azadlıqdır, hansı ki, əjdahaya qalib gəlməklə ona çatır. Şir Ruhun azadlıq istəyi hakimiyyət əzmi kimi təzahür edir. Şir ruh hakimiyyət istəyir: özü özü üzərində, təbiət-bədən üzərində və nəhayət həqiqət üzərində. Şirin hakimiyyət əzmi şirin gücü ilə əldə edilsə də, o, Dəvə ruhdan qalma "sən etməlisən" komandasını "mən istəyirəm"lə əvəzləsə də, artıq ona "nə etməlisən"in nə olduğunu göstərən Əjdaha məhv edildiyindən, indi o "mən istəyirəm" üçün "nə etməliyəm?" sualı qarşısında aciz qalır. Bu sualın cavabı şirin gücündən asılı olmur.

3. **Üçüncüsü, Uşaq Ruhu.** Bunun üçün ona başlanğıcdan başlamaq, yaratmaq qabiliyyəti və yaradıcılıq üçün oyun oynamağı öyrənmək lazımdır. Bu tələbat məhz bu keyfiyyətlərə malik olan Uşaq Ruhu meydana çıxarır. İnsan hər dəfə köhnədən imtina etdikdən sonra, yenini yaratmaq, onu dərk etmək üçün uşaq vəziyyətinə düşür. Uşağın reallığı dərkinə uyğun dünyanı yenidən, amma bu dəfə bir qədər köhnəyə nisbətən daha ali səviyyədən dərk etməyə cəhd edir. Uşaq ruh özünü bədən və ruhun vəhdəti kimi dərk edir.

Nitsşe bununla razılaşmır. O, insanı Ruhun üç vəziyyətinə uyğun üç kimlik kimi - Bədən, Mən və Özü kimi təyin edir. Burada:

- **Bədən** - ruhla əlaqələnməyən bioloji canlılıq, mövcud varlıq.
- **Özü** - bədənlə fiktiv ruhun əlaqəsindən meydana çıxan fiktiv insan.
- **Mən** - bədənlə əlaqəsiz təsəvvür olunan Fiktiv Ruhdur.

Nitsşeyə görə bədən böyük ağıldır. Bədənin böyük ağıl olması onun həm birincili, həm ikincili mövcudluq olması, yəni Kosmosun təşkilinin zəruri şərtlərinin məcmusundan ibarət olmasını özündə ifadə edir. Məhz bədən vasitəsilə Ruh təcrübi həqiqətləri dərk etdiyindən, Kainat ağlı bədəndə refleksiya olunmaqla Ruha ötürülür; buradan bədən böyük ağıl kimi çıxış edir. Bədən bütünlüklə həm də hissiyyat orqanı kimi çıxış edir. Onun funksiyası hissiyyatdan fikrin istehsalına Ruha yardımçı olmaqdan ibarətdir. Bədənin mövcudluq forması canlılıqdır. Biz canlılığı dalğa funksiyasına malik xüsusi varlıq forması kimi təyin edirik. Bədən mövcud varlıq kimi ayrılıqda götürülmüş tək şey olduğundan fərdidir. Bədənin fərdi mövcudluğunun funksiyalaşması - canlanması - "Özü" yaradır. "Özü" canlı bədəni (hissiyyata malik bədəni) özündə təqdim edir. "Özü" cisimlə canın vəhdətidir və bu vəhdət hətta bir çox hallarda Ruha ağalıq edir.

Nitsşenin şərhində Ruh "Mən" kimi təqdim edilir. Lakin bu Mən - "nəsə Mən"dir, yəni gizlidir, qeyri-müəyyəndir; o hələ yaradılışı başa çatmamış mümkünlükdür. O yalnız Sonuncu Adamda İnsanüstü olaraq meydana çıxacaq. İnsanüstü - hər bir indi və ümumiyyətlə nə vaxtsa mövcud olmuş və ya ola biləcək fərdə görə ən ümumi ideal Məndir; hansı ki, "Özü"ndən azad olur, bədənin böyük ağlını Özün iştirakı ilə mənimsəməklə yanaşı, həm də öz mümkünlüyündən (nəsəliyindən) həqiqətləri dərk etməklə mütləq ağla çevrilir. Nitsşenin şərhindən görünür ki, o, emanasiyanı - mahiyyətin pisləşməsi nəzəriyyəsini qəbul edir və buna görə də mövcud insana emanativ varlıq kimi baxır. Buna görə də, o belə hesab edir ki, İnsan əvvəl Allah, sonra insan, indi isə qaragüruh olmuşdur. Qaragüruh olmaqla bədənin formaca təkmilləşməsi (yəni təkamülü), buna paralel təkamüllə bir yerdə bədəndə Ruhun mahiyyətinin pisləşməsi - bədənin təkmil forması ilə şərtləndiyinə görə emanasiya da başa çatır. Bundan sonra Ruhun təkmilləşməsi prosesi başlayır, şüurlu insan qaragüruhdan İnsanüstü olmağa cəhd edir və tar-

ixin sonunda Ruh Sonuncu İnsandan azad olaraq öz azadlığına - özünün mütləq təbiətinə qovuşur.

V.Franklın yuxarıda diskurs etdiyimiz sitatdakı Nitsşenin fikirlərinə verdiyi şərh - ”insan öz mahiyyətindən uzaqdır” fikri də məhz Nitsşenin şərh etdiyi insanın mövcud varlığını özündə təqdim edir. Əgər insan Ali İnsana çevrilməyib, sadəcə insanaqədər olmayan vəziyyətdədirsə, yəni o bədənlə şərtlənmiş, yalnız hissi qavrayışa malik təcrübə sahəsində bir tərəfdirsə, yəni metafizikaya transendensiya edərək Ruhun mümkünlüyündən dərk edə bilmirsə, yalnız Ruhun dolayı mövcudluğu kimi mövcuddursa, deməli o həqiqətən öz mahiyyətindən - azad ruhi mövcudluqdan, xalis mümkün varlığından uzaqdır. Buradan da, biz metafizikanı həm də insanın öz mahiyyətinə cəhdi kimi təyin edirik; hansı ki, təcrübə sahəsində bədənlə və obyektiv aləmlə şərtləndiyindən, insan azad ruhi mahiyyətdən məhrumdur.

Bizə görə, təhtəlşüurluluq Formal Ruhun başlanğıc totallığının təzahürüdür; hansı ki, şüuri prosesdə, təcrübədə fərdin kaleydoskopik dünyanı dərk etməsi ilə Fiktiv Ruhda yaranan daxili totallığın onu refleksiya etməsi ilə aydınlaşır. Başqa sözlə, Formal Ruhun totallığı idrak prosesində tədricən Fiktiv Ruhun daxili totallığına çevrilir ki, nəticədə şüur təhtəlşüurun formulasını açmış olur və tam refleksiya edilməmiş (və buna görə də dərkedilməmiş) başlanğıc totallığın kommentariyası kimi meydana çıxır.

Ruh formal varlıq kimi yalnız xalis varlığı olmayan real varlığa keçə bilərdi ki, insan bədəni də məhz ən kamil quruluş, ən pis mahiyyətə malik forma kimi Ruhun məhz onun bədəninə keçməsini şərtləndirmişdir. Beləliklə, insan bədəninə keçən Ruh, bədəndə mövcud varlıq kimi şüurlu insanı təşkil edir. Bəs insan nədir? Onun mahiyyəti nədən ibarətdir? Ruh insan varlığından necə təzahür edir? Bədənin əlamətlərini ruhun əlamətlərindən necə ayırmaq olar? Bütün bu sualların cavabı İnsanı dəqiq sualandırmadan asılıdır.

İnsan real və konkret mövcudluqdur və bütün dillərdə konkret real mövcudluq "isim" anlayışı ilə ifadə olunur. Buradan da, insanın isim olduğu aydınlaşır. İsim üç cür sualandırılır: nə?, kim?, hara? Bəzi dillərdə canlılar və cansızlar birlikdə "nə?" ilə, bəzi dillərdə canlılar və şüurluluq "kim?" sualı ilə, bütün dillərdə yer adları "hara?" sualı ilə sualandırılır. Dillərdə anlayışlara verilən məna dilin daxilində yarandığı dünyagörüşü ilə müəyyən olunur. Beləliklə, ismə yönəlik suallar həmin dillərin daxilində mövcud empirik dünyagörüşü ilə şərtlənmişdir. O xalqlarda ki, canlılar cisimlərlə eyni mahiyyətli dərk edilir, o dillərdə cisimlər və canlılar eyni bir "nə?" sualı ilə, insan isə "kim?" sualı ilə sualandırılır (məsələn, türk dilində olduğu kimi). O dillərdə ki, canlılıq ruhla eynilik kimi dərk edilir, o dillərdə cisimlər "nə?" sualı ilə, canlılar və insanlar "kim?" sualı ilə sualandırılır (məsələn, ruslarda olduğu kimi). Fəlsəfə ən ümumi həqiqətləri aşkarlamağa istiqamətləndiyindən, müxtəlif dilləri yaradan empirik dünyagörüşlərinin ortaq sualandırılmasından insana yanaşmağı tələb edir. Belə bir orijinal sual yaratmaq mümkünsüzlük olduğundan, biz insana ismin bütün sualları ilə eyni vaxtda sualandırılan mövcudluq kimi baxırıq. Buradan da, insanın üçlü mahiyyətdə olması və hər bir mahiyyətin bir sualandırmaya cavab verdiyini və həmin cavabların məcmusunun insanın mahiyyətini ifadə etdiyini qəbul edirik. Yəni:

- **"Hara?"** - İnsan gerçəkliyinin məkani ölçülüyünün (birincili materiyasının); insanın ruhun yerləşdiyi yer, yəni məkan kimi.
- **"Nə?"** - İnsan gerçəkliyində canın, ikincili materiyanın xüsusi növünü; bədəndə ruha əksilik təşkil edən özünəmünasibət kimi can.
- **"Kim?"** - İnsan gerçəkliyini, ruhun varlığına yönəlmiş suallar kimi; insanı bütün varlıqlardan ayıran xüsusi mahiyyət - Ruh. Bütün bu cavabların məcmusundan aydınlaşan sinergetik varlıqdır.

Haşiyə: Plotin, "Seçilmiş traktatlar"

"Vahid Ağlı, Ağıl canı yaradır. Bu üç başlanğıc bizə yad deyil; əksinə hamısı birlikdə bizim təbiətimizə daxil olur və bizim

daxili insanımızı təşkil edir. Beləliklə, üç hissüstü prinsipdən axırıncısı bizim canlı ruhumuza, orta - bizim mühakimə qabiliyyətimizə, birinci isə ən ali - bizim seyrici ağlımıza uyğun gəlir. Bizim tez-tez bu başlanğıcları unutmağımız o demək deyil ki, onlar bizə xas deyil və bizdə fəaliyyətsizdir."

Plotinin insan təbiəti haqqında fikirlərində onun üçlü mahiyyətdə olması bu və ya başqa dərəcədə demək olar ki, bütün filosoflar tərəfindən təsdiq olunmuşdur. Sadəcə insanın trivial mahiyyətinin yozumunda filosofların fikirləri ayrılmış və konkret olaraq insanın təbiətinin nə təşkil etməsi bu günədək fəlsəfədə mübahisəli suallardan biri kimi qalmışdır. Bizcə, insanın metafizikası haqqında sualı - insan haradır, nədir, kimdir sualı - cavablandırmaqla "nəsə insan"ın mahiyyətinə aydınlıq gətirmək olar.

Yaranışı şərh edərkən müxtəlif materiyaların İlahi Yaranışın güclərinin müxtəlif tərəflərinin refleksiyasından yarandığını, hər bir gücün özünün son nəticəsində başa çatdıqdan sonra digər gücün onda reallaşdığını qeyd etmişdik. Yaranışda üç müstəqil gücün - Aktiv gücün, Passiv gücün və Yaradıcı gücün əmələ gəldiyini və hər bir gücün bir son nəticədə başa çatdığını, bu zaman birinin digərinin son nəticəsindən təkamül etdiyini qeyd etmişdik. Beləliklə, insan yaranışın son forması olduğundan, insanın üç müxtəlif materiyanın (iki formalaşması başa çatmış birincili və ikincili materiyanın və başa çatmamış üçüncülü materiyanın) məcmusundan ibarət sinergetik varlıq olduğunu qəbul edə bilərik. Birincili materiyanın son nəticəsi - cisim; ikincili materiyanın son nəticəsi - canlılar; üçüncülü materiyanın öz sonuna doğru hərəkət edən forması - insandan təzahür edən Ruhdur. Yəni insan cismin, canın və ruhun təşkil etdiyi sinergetik mövcudluqdur və onun bütün təzahürləri yalnız bu təbiətdən aşkarlana bilər.

Bəs insanın sinergetik təbiətindən onun mahiyyətini necə aşkarlaya bilərik?

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

"İnsan varlığının fərqli əlaməti, onda antropoloji vəhdətin ontoloji, vahid insan varlığının varlığın müxtəlif formalarında fərqliliklə mövcud olmasıdır; hansı ki, insan aşkarlanır. Qısası, insan varlığı - bu Foma Akvinalının sözləri ilə ifadə etsək "Unitas multiplex"dir. Mənə həndəsi analogiya ilə, "həndəsi qaydalarda" insanın başa düşülməsinə imkan verilmişdir. Söhbət dimensional ontologiyadan gedir. Dimensional ontologiyanın birinci iki qanunu belə səslənir:

Birinci qanun: bir və eyni predmet özünün ölçülərindən, onun ölçülərinə münasibətdə aşağı olan ölçülərə proyeksiya olunmasında, bu proyeksiyaları elə əks etdirir ki, proyeksiyaların fərqi bir-birinə zidd olur.

Ikinci qanun: Dimensional ontologiyanın ikinci qanununda deyilir: bir yox, bir neçə predmet, onların ölçülərindən müxtəlif yox, onun ölçülərinə münasibətdə eyni bir aşağı ölçüyə proyeksiyasında, öz proyeksiyalarını elə əks etdirir ki, proyeksiyalar ziddiyyətli yox, çoxmənalı olur.

İndi bütün bunları insana necə qoymaq olar? İnsan da həmçinin, əgər onun spesifik insani ölçülərini reduksiya edib biologiyaya, psixologiyaya proyeksiya etsək, onlar elə əks olunacaq ki, bu proyeksiyalar bir-biri ilə ziddiyyət təşkil edəcək. Bioloji ölçülərdə proyeksiya somatik təzahürləri, psixoloji ölçülərə proyeksiya psixi təzahürləri aşkarlayır. Amma dimensional ontologiyanın işığında bu ziddiyyətlik insanın vahidliyini şübhə altına salmır. Unutmamalıyıq ki, varlığın müxtəlif formalarının çoxformalığını dəf edən insan mövcudluğunun vahid üsulunu axtarmaq, həmçinin insanı proyeksiya etdiyimiz səthlərdə bədənlə ruhun antinomiyası kimi belə ziddiyyətlərini həll etmək mənasızdır. Onları yalnız ali ölçülərdə, spesifik insan təzahürlərinin ölçülərində aşkarlamaq olar.

Məncə, müdriklik tarixində insanın mahiyyətinin aşkarlanmasına bu qədər yaxınlaşmış və dəqiq ifadə edilmiş, həm də bu mahiyyətin aşkarlanmasının qanunauyğunluğunu göstərən ikinci belə bir fikir çətin

tapılsın. Lakin V.Frankl da insan haqqında baxışlarında həqiqətdən uzaq qalmışdır. V.Franklın nəzərdən qaçırdığı, insan mahiyyətində şüursuz insan bədəninin ölçülərinin aşkarlanmasıdır. Hansı ki, Ruhun bədənə keçməsindən əvvəl formalaşmışdır və Ruh üçüncülü olaraq bu ikili vəhdətlə əlaqə yaradaraq "nəsə insan"ı meydana çıxarmışdır.

İnsan bədəni cisimlərdən təşkil olunsa da (insanın bədəni 60% sudan, 40% minerallardan ibarətdir ki, hamısı birlikdə qeyri-üzvi maddə kimi cisim mahiyyətlidir), fərqli olaraq iki müxtəlif səthlərdə proyeksiya ilə aşkarlanır. Həmin ölçülərdən biri cisimlərə xas məkani ölçülükdür ki, biz bunu heçlik və ya varlığın mahiyyəti ilə aksidensiya etməyən substansial forma - **Cins kimliyi** kimi şərh edirik. İkinci ölçü canlılığın zaman ölçülüyüdür ki, biz bunu faktın zamanda sıralanmasından mahiyyətlə vəhdət təşkil edən forma, yəni bir-birinə üstünlük təşkil etməklə bir-birini əvəzləyən dəyişkən və ya aksidensiv forma - **Yaş kimliyi** kimi şərh edirik.

Buradan, cinslərin və yaş dövrlərinin əksiliyi aşkarlanır. Canlılarda bu iki forma vəhdət təşkil edərək dimensional ontologiyanın birinci qanununa əsasən, "özündən ona münasibətdə aşağı formanın ölçülərinə öz ölçülərini proyeksiya edən predmet (burada insan bədəni) bu proyeksiyalarda elə əks olunur ki, müxtəlif proyeksiyalar bir-birinə ziddiyyət təşkil edir". Hansı ki, canlı bədən özünə münasibətdə aşağı ölçülük olan cismin ölçülərinə proyeksiya olunduqda **Ölüm** aşkarlanır ki, bu da canlılığın təzahürü olan Həyatla ziddiyyət təşkil edən proses kimi meydana çıxır. Dimensional ontologiyanın birinci qanunu fəlsəfədə çoxsəbəblilik və nəticə əlaqələri ilə izah oluna bilər. Belə ki, bir çox səbəbin iştirak etdiyi nəticədə digər səbəblərin nəticələri əsas səbəbin nəticəsinin arxasında gizlənir və aşkarlanmır. Buradan, bu mühakimə əsasında deyə bilərik ki, cismin canla birləşməsində cismin bədəndəki nəticələri - ölüm, canın nəticəsi kimi canlı bədəndə - həyatın arxasında gizlənir və yalnız aşağı ölçülərə proyeksiya olunduqda, yəni can məkani ölçülərə

köçürüldükdə (başqa sözlə, həyat bədəndən uzaqlaşdırıldıqda) ölüm həyatın ziddiyyəti kimi meydana çıxır. Beləliklə, insanda başlanğıc vəhdət cisimlə canın vəhdətidir ki, bu vəhdətdən insanın heyvani təbiəti əmələ gəlir.

Ruhun bədənə keçməsi ilə artıq insan üçölçülü varlığa çevrilir. Bu ölçülərdən biri məkan ölçülüyü, biri zaman ölçülüyü, üçüncüsü Ruhun ölçülüyüdür ki, konkret məkan və zaman ölçülüyündən fərqli olaraq abstrakt ölçülük - konkret ölçüsüzlük kimi meydana çıxır. Hansı ki, biz bunu **Subyektivlik** kimi aşkarlayırıq. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Subyektivlik - insanın psixoloji müstəvidə proyeksiyasında meydana çıxan Ruhun ölçüsüzlüyünün şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, insanda psixoloji təzahürlərdən bilavasitə bədəndəki Ruhun təzahürləri aşkarlana bilər. Ruhun bədənin ikiölçülüyünə proyeksiyasında artıq dimensional ontologiyanın ikinci qanununa uyğun təzahürlər aşkarlanır. Həmin qanuna görə: "müxtəlif predmetlər (bizim şərhdə insanda vəhdət təşkil edən cisim, can və ruh) bir və eyni, onların ölçülərinə aşağı səviyyəli ölçüyə proyeksiya olunduqda, öz proyeksiyalarını elə əks etdirirlər ki, proyeksiya ziddiyyətli yox, çoxmənalı (yəni çoxölçülü) olur". Buradan da insanın bəzi əlamətlərinin biofiziki, bəzilərinin biofiziki-sosial, bəzilərinin sosial-ruhi mahiyyətli olduğunu aşkarlayırıq.

Haşiyə: A.Adler, "İnsan təbiətini anlamaq"

> *"Bizim bütün fəaliyyətimizi müəyyən edən psixoloji məqsəd, seçimə, bizim ətraf aləmi qavramağımıza məna və forma verən konkret psixoloji qabiliyyətlərimizin inkişaf dərəcəsinə və fəaliyyətinə təsir edir. Bu o faktı izah edir ki, bizim hər birimiz öz şəxsi təcrübəmizdə həqiqətin, ya hansısa hadisənin, ya da yaşadığımız bütün dünyanın məhdud hissəsini dərk edirik; biz hamımız tama məhəl qoymuruq, yalnız bizim məqsədə uyğun gələni*

qiymətləndiririk. Beləliklə, özüm üçün hansı gizli məqsədi güddüyünü bilməyəcəyimiz bu və ya başqa insanın davranışını biz axıra qədər başa düşə bilmərik. Həmçinin biz, onun bütün fəaliyyətinin bu məqsədə tabe olduğunu anlamadıqca, onun davranışlarının bütün sərhədlərini obyektiv qiymətləndirə bilmərik."

A.Adlerin qeyd etdiyi, insanların bir-birinin davranışlarını başa düşməməsinin səbəbi, çoxmənalı davranışların birölçülü müstəviyə proyeksiya edilməsi, başqa sözlə, onun üçlü təbiətinin konkret situasiyada bir mahiyyətli qəbul edilməsi ilə bağlıdır. İnsanda Ruh həmişə oyanıq halda olmadığından (burada oyanıqlıq bədənlə əlaqəyə aiddir; əslində Ruh metafizik varlıq olduğundan bədəndən fərqli olaraq kosmik dövriliyə malik deyil), məsələn: yuxuda, hipnoz vəziyyətində, narkotik trans vəziyyətində; yalnız yuxululuq və ya şüursuzluq vəziyyətində instinktiv meydana çıxan əlamətlər ikili xarakterdə olub, dimensional ontologiyanın birinci qanunu ilə izah edilə bilər. Məsələn: özünüqoruma instinktinin nəsilvermə instinkti ilə ziddiyyət təşkil etməsi kimi. Hansı ki, birinci cisimlərin passiv enerjisinin təzahürü kimi *olmaqlığı*, ikinci aktiv enerjinin təzahürü kimi *özündənyaratmaqlıqla* mövcudluğu ifadə edir. Buradan da insan varlığı və onun təzahürlərinin mürəkkəb olduğunu aşkarlayırıq.

Bəs "nəsə insan" varlığı hansı təyinlərinə malikdir və ya şüurlu insan necə təyin oluna bilər? Biz insanın iki cür təyinini ayırd edirik:

1. **Xüsusi təyin:** Yalnız konkret fərddən aydınlaşan təyin.
2. **Ümumi təyin:** Ümumiyyətlə abstrakt insanlıqdan, hamıdan aydınlaşan təyin.

İNSAN VARLIĞININ XÜSUSİ TƏYİNLƏRİ

İnsan varlığının xüsusi təyini, ayrıca götürülmüş tək bir mövcud insandan - konkret insandan aşkarlanması mümkün olan təyinlərdən ibarətdir. İnsan cisim, can və ruhun vəhdəti kimi meydana çıxdığından,

özündə hər üç varlığın varlıq təyinlərinə malikdir. Biz burada varlıq təyinlərini Hegelin müəyyən etdiyi mənada qəbul edirik. Beləliklə, konkret insanın aşağıdakı təyinlərini aşkarlaya bilərik:

1. **Cismə xas varlıq təyini:** Xalis varlıq, mövcud varlıq və özü-üçün-varlıq təyini.
2. **Cana xas varlıq təyini:** Mövcud varlıq və özü-üçün-varlıq təyini (canlı fərdin xalis varlıq təyini yalnız növdən aşkarlana bilər).
3. **Ruha xas varlıq təyini:** Xalis varlıq təyini.

Buradan insanın altı müxtəlif varlıq təyininin, yəni iki formasının, iki mövcudluğunun və iki mənasının (həqiqətinin) olduğu aşkarlanır. İnsan təzahürləri məhz bu altı varlıq təyinindən meydana çıxdığından, hər bir təyinlə bağlı ayrı-ayrılıqda şərh etmək lazım gəlir.

A: İnsanın özü-üçün-varlıq təyinləri

İnsanın iki cür özü-üçün varlıq təyini (forması) vardır. Birincisi, birincili mövcudluğa xas sabit fiziki forma - antropoloji forma. İkincisi, ikincili mövcudluğa xas dəyişən bioloji forma - androloji və cinsi forma.

1. Fiziki və ya antropoloji forma: Cisimlərin sabit forması mahiyyətlə vəhdət təşkil edən, ayrılıqda mənası olmayan, xalis məkani ölçülük kimi meydana çıxan, xarici görüntünü təşkil edən cismin özü-üçün-varlıq təyininin təzahürüdür. Biz iki cür - konkret və abstrakt fiziki forma aid edə bilərik. Konkret fiziki forma - xarici görüntü, abstrakt fiziki forma - ölçülükdən ibarətdir. İnsanın birincili sabit fiziki forması onun cəsədindən (cansız bədənindən) aşkarlanır. Biz cəsədi bir anda mövcud olan, yəni "burada və indi" prinsipi ilə aşkarlanan insan bədəni kimi təyin edirik. Başqa sözlə, cansız insan bədəni, cəsəd - burada və indi prinsipi ilə mövcud olan və fiziki parametrlərlə xarakterizə olunan cisim kimi mövcuddur. Həm bədən, həm cəsəd zamandan asılı olaraq dəyişildiyindən, insanın sabit fiziki forması cəsəddən yalnız bir anda aşkarlana bilər. Canlı bədəndə forma dəyişkən olduğundan, bədənin fiziki forması keçicidir. Ona görə də, canlı bədənin mücərrəd fiziki forması real forma

deyil. İnsanın mücərrəd forması cəsədin kütləsi, çəkisi, həcmi, ölçüləri (boyu, yəni hündürlüyü, gövdənin diametri və s.) fiziki parametrlərdən ibarətdir. Zamanın hər bir anında canlı bədən cəsədlə eynilik təşkil etdiyindən, bədənin istənilən anda aşkarlanan antropoloji forması onun cəsədinin formasını özündə təqdim edir. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Bədən - müxtəlif fiziki parametrlərə malik cəsədlərin şərtlərinin məcmusundan ibarətdir.

Antropoloji formaya həm də insan bədəninin xarici görüntüsü - konkret forması aiddir. Bura insanı digər canlılardan fərqləndirən dik yerimə, əlin hərəkət vasitəsi olmaqdan azad olması, bədənin ayrı-ayrı hissələrinin bir-birinə nisbətinin primatlardan fərqlənməsi, mimika, fizionomiya, dəri örtüyü, dəri törəmələrinin inkişafdan qalması və s. aiddir. Mücərrəd forma ilə konkret formanın vəhdətindən köklük-arıqlıq, hündürboyluluq-qısaboyluluq və s. meydana çıxır.

2. Bioloji forma: İnsan bədəninin bioloji forması da özlüyündə ikidir: Sabit bioloji forma - **Cinsi forma**; Dəyişən bioloji forma - **Androloji və ya Yaş forması**. Sabit bioloji forma konkret, dəyişən bioloji forma mücərrəd formadan ibarətdir. Beləliklə, birincili mövcudluqlarda meydana çıxan ikincili mövcudluğun formaları özündə həm də birincili mövcudluğun formalarını refleksiya edir. Buradan aşağıdakı bioloji formalar meydana çıxır: birincisi, insan bədəninin konkret fiziki forması - bədənin cinsi forması; ikincisi, mücərrəd fiziki forması - bədənin yaş forması. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Konkret bioloji forma - cinsi mənsubiyyətin şərtlərinin, mücərrəd bioloji forma - yaş şərtlərinin məcmusundan ibarətdir.

İnsan bədəninin cisim kimi sabit zəruri şərtlərinin ikincili mövcudluqda refleksiyasından bir-birindən fərqlənən iki sabit bioloji forma - cinsi forma meydana çıxır. Cinslər - bioloji forma kimi özündə bir-birinə keçici ziddiyyət saxlayan əksiliklərin tərəfi kimi mövcuddur. Beləliklə,

ali canlılarda (o cümlədən insanda) özü-üçün-varlıq təyini, sabit bioloji forma, cisimlərdən fərqli olaraq eyni bir mövcud varlığın iki fərqli fiziki formada - əks cinslərə bölünməklə bir-birindən fərqlənən iki müxtəlif xarici görüntü (erkəklik və dişilik) kimi təzahür edir. Buradan cinsi antropologiyadan insanın cinsi mənsubiyyəti ilə əlaqəli fiziki görünüşün fərqliliyi aşkarlanır. Cinsi forma anadangəlmə olub insanın bütün həyatı boyu sabit qalır, amma androloji formadan asılı olaraq fərqli əlamətlərdə təzahür edir. Biz bunu bədənin sabit formasının dəyişən formasından asılılığı kimi təyin edirik. Sabit bioloji formanın dəyişən bioloji forma ilə əlaqəsindən cinsi əlamətlər meydana çıxır. Buradan da cinsi formanı müəyyən edən əlamətlər iki qrupa ayrılır: Birincili və ikincili cinsi əlamətlər. Birincili cinsi əlamətləri biz şərtsiz əlamətlər adlandırırıq; hansı ki, androloji formadan asılı olmayaraq təzahür edir. İkincili cinsi əlamətlər şərti əlamətlər olub, androloji forma ilə şərtlənib. Birincili cinsi əlamətlər hər iki sabit formada görüntüyə görə fərqli, funksiyalaşmağa görə eynidir. Amma ikincili cinsi əlamətlər həm görüntüyə, həm də funksiyalaşmağa görə fərqlilik təşkil edir; hansı ki, orqanik və funksional fərqliliyin vəhdətində cinsi yetkinlikdən sonra, həyatın başlanğıcından 9-12 il sonra aydınlaşır və təxminən 45-60 yaşlarınadək davam edir.

İkincili mövcudluq kimi canlılıq dəyişən zəruri şərtlərin məcmusundan ibarət olduğundan, zamandan asılı olaraq hər bir cinsi forma bir-birinə üstünlük təşkil edən çoxlu sayda fərqli ölçülü formalarda meydana çıxır. Biz bu formanı Androloji, yəni yaş forması və ya yaş antropologiyası kimi təyin edirik. Yaş forması qazanılma forma olduğundan, zamandan asılı olaraq dəyişikliklərə məruz qalır. Yaş formasına uyğun bədənin mahiyyəti sabit qalsa da, eyni bir fiktiv insanda Ruhun fəallığı yaş formasından asılı olaraq dəyişir.

İnsanın yaş forması özü-özlüyündə xalis heçlikdən ibarətdir. Yaş forması özündə bədənin mücərrəd fiziki formasını refleksiya etdiyindən, özü də mücərrəd bioloji forma kimi aşkarlanır. Yəni yaş forması

müvəqqəti antropoloji ölçülükdən ibarətdir. Yəni dimensional ontologiyanın birinci qanununa görə, insanın hər hansı yaş dövründəki fiziki forması, özünün ölçülüyünə münasibətdə aşağı səviyyəli olan əvvəlki yaş dövrünün fiziki formasına proyeksiya edildikdə, bu proyeksiyalarda aşkarlanan proyeksiyalar bir-birinə ziddiyyət təşkil edir. Buradan yaş antropologiyası - insanın yaşına uyğun fiziki forma meydana çıxır. Hansı ki, müxtəlif yaş dövrlərinin formaları bir-birinə ziddiyyət təşkil edir. Eyni bir adamın dəyişkən fiziki formalılığı - yaş formaları: uşaqlıq, gənclik və qocalıq kimi meydana çıxır. Hər bir yaş forması bir-birindən fərqli xarici görüntüyə malik olur, lakin insan daxili seyrlə özünü bir və eyni vahid forma kimi dərk edir. Uşaqlıq, gənclik və qocalıq fiziki forma kimi ayrılıqda heçlikdir və bir formadan digər formaya keçiddə əvvəlki forma özündən sonrakının arxasında gizlənərək görünmür. İnsan öldükdən sonra bədənin çürüməsi ilə bütün formalar birdəfəlik heç olur.

B: İnsanın mövcud varlıq təyini

İnsanda həm də bir-birindən fərqli iki cür mövcud varlıq təyini vardır.

1. İnsanın cismə xas mövcud varlıq təyini - Cəsəd: Cəsəd - fiziki formanın qurulma prosesindən çıxması, yəni canın dəyişən zəruri şərtlərinin cismin sabit zəruri şərtlərindən ayrılmasının təzahürü kimi meydana çıxır. Buna görə də, cəsəd özündə xalis fiziki cismə xas mövcud varlıq təyinindən qavranılır. Cəsədin özü-üçün-varlıq təyini keçici, xalis varlıq təyini daimidir. Buna görə də cəsədin cismə xas mövcud varlığında xalis varlığın özü-üçün-varlıq təyini ilə vəhdəti keçici-dəyişkəndir. Cismin mövcud varlıq təyini xalis varlıq təyini (mahiyyətlə), özü-üçün-varlıq təyininin (aksidensiya edən formanın) vəhdətindən meydana çıxır və bu real varlıq kimi cismin faktını təşkil edir. Cismin faktı özü-özündə özünü eynilik kimi təkrarlayaraq aktuallaşır, özündənkənar eyni vaxtda məkanın müxtəlif yerlərində olan özükimilərlə eynilik təşkil edərək, öz eyniliyini məkanda təkrarlayır. Beləliklə, cismin faktı iki cür: özündə və özündənkənar eynilik kimi aktuallaşır. İnsanın cəsədi həm zamanda, həm

də məkanda özü-özünü təkrarlamaqdan məhrumdur. Bununla da, cəsəd xalis fiziki cisimlərdən fərqlənir. Cəsəd məkanda təkrarlamağından kosmosda əbədi müstəqil mövcud olmaq imkanına malik olmur, buna görə də çürümə prosesində dağılaraq fiziki cismə çevrilərək heç olur.

2. İnsanın cana xas mövcud varlıq təyini - Bədən: İnsanın cana xas bioloji mövcud varlığı iki xalis varlıqla, iki (dəyişən və sabit) özü-üçün-varlıq təyininin vəhdətindən ibarətdir. İnsanın mövcud varlığında bir xalis varlıq təyini onu təşkil edən birincili mövcudluğa (cismə) xas olub, faktiki varlığını təşkil edir; ikinci xalis varlıq təyini canlının növündən aşkarlanan formal varlığını təşkil edir. Buradan da, mövcud insanda özündə olan xalis varlıqla nəsildə olan xalis varlıq təyinləri aşkarlanır. İnsanın mövcud varlığının xalis varlıqları ilə vəhdət təşkil edən konkret və mücərrəd bioloji formaları konkret mövcud fərdin bədənindən aşkarlanır. Buradan, sabit əks bioloji formalar bir-biri ilə birləşərək vahid forma kimi (nəslə keçdikləri anda) insanın mövcud varlığın formal varlıqdan aşkarlanan xalis varlığı ilə keçici vəhdət təşkil edir. Dəyişən androloji formalar isə bədənin cismə xas xalis varlığı ilə vəhdət təşkil edir. Buradan mövcud insanda, cismə xas xalis varlıq təyini eyni bir fərddə dəyişən çoxlu forma ilə, canlı fərdə xas xalis varlıq təyini vahid forma ilə vəhdət təşkil edir.

İnsanın mövcud varlığının bu xüsusiyyətindən hər bir fərdin (konkret mövcud varlıq kimi insanın) orijinallığı meydana çıxır. Hansı ki, eyni zamanda dünyanın müxtəlif yerlərində yaşayan iki insanın mövcud varlığının xarici görüntüsünün (özü-üçün-varlıq təyininin) eyniliyinin mümkünsüzlüyünün şərtlərindən ibarətdir. Cismin faktı zamanda özü-özünü özündə və özündənkənarda (başqasında, məkanda) eynilik kimi təkrarlamaqla aktuallaşır və buna görə də, cismin mövcud varlığı əbədidir. Mövcud insan bir fakt kimi, həm özü-özünü zamanda özündə, həm də özündən kənarda məkanda fərqlilik kimi təkrarlayır. Beləliklə, insan faktı özündə və özündənkənarda (özündənolanla fərqlilik kimi) mövcud olur.

Birincidən, özü-özündə fərqlilik kimi özünü təkrarlamaq **böyümə** kimi; özü-özünü özündənkənar fərqlilik kimi təkrarlamaq **nəsilvermə** kimi təzahür edir.

Cisimlərdən fərqli olaraq fərdi səviyyədə mövcud insanın xalis varlığı faktiki özündə və eyni zamanda formal olaraq növdədir. Yəni insanın bioloji mövcud varlığı bir formanın özündə və özündənkənar xalis varlıqla vəhdət təşkil etməsindən ibarətdir. Fərdi insan varlığının mahiyyəti zaman ölçülüyünə malik nəsildədir. Yəni konkret bir fərddən canlının tam mahiyyəti aşkarlanmır. Buradan da hər bir fərd özündə növün zaman ölçülüyünün konkret məkan ölçülüyünə (cismin formasına) proyeksiya edilməsi kimi meydana çıxır; hansı ki, fərdilik kimi qavrayırıq. Fərdiliyin öz xalis mahiyyəti olmadığından, canlı xalis varlıq kimi cismin xalis varlığı ilə özünə xas özü-üçün-varlıq təyininin vəhdətində meydana çıxır. Buradan da fərdilikdən mahiyyət çıxarılmış olur. Bu baxımdan fərdiliyin ölümü növün mövcudluğunu inkar etmir. Ölüm - bədənin cəsədə çevrilməsi, yəni insanın mövcud varlıq formalarının bir-birindən qopması (ayrılması) kimi baş verir və insan öldükdə cismin xalis varlığı ilə onun özü-üçün-varlıq təyini vəhdətdə cəsədi meydana çıxarır. Cəsəd - mahiyyətinə görə cisim, mahiyyətsiz bədəndir.

V: İnsanın xalis varlıq təyinləri

İnsanın aşağıdakı iki xalis varlıq təyini vardır:

a. Cana xas xalis varlıq təyini: Biz yuxarıda canlılığı şərh edərkən qeyd etdik ki, canlı fərdin mahiyyəti (formal varlığı) onun özündə yox, növündədir. Bu mənada mövcud insanın bioloji varlığına xas xalis varlıq təyini bioloji insan növündən - Ali primatların sonuncu sinfindən aşkarlamaq olar. Növ - özündə genetik əlamətlərin məcmusu kimi mövcuddur. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

İnsanın cana xas xalis varlığı - Formal İnsan - insanın genetik xüsusiyyətlərinin şərtlərinin məcmusundan ibarətdir.

İnsanın cana xas varlıq təyini daxili seyr yolu ilə daxildə Ruh tərəfindən aşkarlanır. Buradan **Real Mən** aşkarlanır. Bədən də öz növbəsində təşkil olunduğu birincili mövcudluğun xalis mahiyyətini daşıdığından, Real Mən Ruhun bədəndə cismin xalis varlıq təyinini özündə refleksiya edərək, bədəni bir cisim kimi təzahür etdirməsindən meydana çıxır. Bədənin cisim kimi refleksiyası ilə Ruh bədənin (cismin həqiqəti) haqqında məlumat əldə edir. Ruhun həmin məlumat əsasında aşkarladığı bütün əlamətlər cismin bədəndə mövcud olan xalis varlığının əlamətləridir. Bu əlamətlər Ruh tərəfindən xaricə ekzistensiya edilərək **İş, Fəaliyyət və Əmək** kimi təzahür edir.

İş - bədənin daxilində daxili hərəkətliliklə orqanların, ətrafın mexaniki hərəkətliliyinin ekzistensiyası ilə xarici aləmdə predmetlərin yerini dəyişmək kimi meydana çıxır. Təbiətdə də cisimlər bir-birinin yerini kortəbii və təsadüfən dəyişdikdə iş görmüş olurlar. İş - cismin mahiyyəti əsasında onun məkandakı yerini dəyişdirməkdir.

Fəaliyyət - işlə cismin məkan ölçülüyünün Ruh tərəfindən dəyişdirilməsindən meydana çıxır. Fəaliyyət bədən orqanlarının daxili totallığına uyğun xaricdə işin totallığının təşkil edilməsidir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Fəaliyyət - işlərin bir-biri ilə əlaqələndirilməsinin şərtlərinin məcmusundan ibarətdir.

Cismin xalis varlığının Ruhun refleksiyası ilə eynilik təşkil etməsi ilə, Ruh xarici predmetlərdən yararlılığın kənara çıxarılmasına nail olur ki, biz bunu **Əmək** adlandırırıq. Başqa sözlə, əmək bədənlə ətraf arasındakı əlaqələrdə daxili maddələr mübadiləsinin xarici enerji mübadiləsinə çevrilməsindən yaranır. Buradan da, hər iki mübadilə (daxildə maddələr mübadiləsi, xaricdə enerji mübadiləsi) əmək prosesində vəhdət təşkil edərək, cismin bədəndəki canın zaman ölçülüyünün təsirindən bədəndə sürəkli pozulan məkan ölçülüyünün bərpasına səbəb olur. Yəni insan xaricdən enerji alır, onu bədəndə transformasiya edərək fəaliyyətə çevi-

rir, sonra həmin fəaliyyət nəticəsində xaricdə əmək prosesində yeni yararlılıq üzə çıxararaq daha ali səviyyədə onu istehlak edir. Beləliklə, əmək - bədənin məkani ölçülüyünün bərpasının daha ali formada üzə çıxan təzahürüdür. Canlılıq cismin xalis varlıq təyini ilə eynilik təşkil etdiyindən, cismin xalis varlığından həm də canın xalis varlığı refleksiya olunur. Əgər cismin xalis varlığının refleksiyasından Ruhu passiv güc ekzistensiya edərək passiv güclə ətrafa təsir edirsə, canın xalis varlıq təyinindən bədənin aktiv gücünü ekzistensiya edərək özünün yaradıcı gücü ilə ondan mədəniyyət yaradır. Beləliklə, əməkdə cisimlə Ruh, mədəniyyətdə canla Ruh vəhdət təşkil edir.

b. İnsanın Ruha xas xalis varlıq təyini: Bu təyin yalnız Ruha xas əlamətlərdən meydana çıxır; hansı ki, insanı digər bütün yerdə qalan varlıqlardan fərqləndirir. Təzahürlərinə fikir, ideya, dünyagörüşü, dəyər və s. aiddir. İnsanın Ruha xas xalis varlığını biz **İnsanlıq** kimi qavrayırıq. Ruhun xalis varlığı ağıldan törəyən ideyaların məcmusundan ibarətdir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

İnsanın Ruha xas xalis varlıq təyini (İnsanlıq) - ağıldan törəyən ideyaların şərtlərinin məcmusundan ibarətdir.

İNSANIN ÜMUMİ TƏYİNİ - UNITAS MULTIPLEX - HAMI

İnsanın ümumi təyini dedikdə biz ayrıca bir fərddən aşkarlanması mümkünsüzlük olan və yalnız hamıdan - bütün insanların (keçmişdə yaşamış, indi yaşayan və gələcəkdə yaşayacağı ehtimal edilən bütün insanların) hamısından - mücərrəd insandan aşkarlanan təyinləri nəzərdə tuturuq. Belə təyin cinsi, yaş və antropoloji fərqliliklərdən aşkarlanan ən ümumi eynilikləri özündə təqdim edir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

İnsanlıq - Unitas Multiplex - hamının eyniliyinin şərtlərinin məcmusundan ibarətdir.

Əgər insanlar mövcud varlıqlarına görə sonsuz sayda müxtəliflikləra və fərqliliklərə malikdirlərsə, onda hamının eyniliyi yalnız insanın varlığının mövcudluğundan aşkarlana bilər; hansı ki, fərqlilik və müxtəliflik onda inkar olunur. İnsan varlığının mövcudluğu isə onun Fiktiv Ruhundan ibarətdir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

İnsanlıq - Formal Ruhun (hamıda olan eynilik) şərtlərinin məcmusundan ibarətdir.

Bu baxımdan, insanın ümumi təyini reallaşmış, reallaşmaqda davam edən və reallaşması potensiya kimi mümkünlük olan xüsusiyyətlərin məcmusunu özündə ifadə edir. Biz "elə-belə" insan anlayışını ən ümumi mənada *Unitas Multiplex* adlandırırıq. Bəs Unitas Multiplex necə meydana çıxır? Biz Unitas Multiplex-i ən ümumi şəkildə Fiktiv Ruhların öz daxili çoxluqlarından təklik kimi ekzistensiya edərək xaricdə xarici çoxluq təşkil etməsi kimi təsəvvür edirik. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Ümumi insan - Fiktiv Ruhların daxili çoxluğundan təklik kimi ekzistensiyasından təşkil olunan Formal Ruhi Varlığın xarici çoxluğunun şərtlərinin məcmusundan ibarətdir.

Fərdlərin Fiktiv Ruhu öz daxili çoxluğundan, situasiyadan asılı olaraq yalnız təklik kimi ekzistensiya edir. Cəmiyyətdə qarşılıqlı ictimai əlaqələrdə müxtəlif fərdlərdən müxtəlif təkliklər ekzistensiya edərək, fərddən kənarda ikincili, xarici, formal ruhi çoxluğu yaradırlar. Beləliklə, hər bir fərddə mövcud olan Fiktiv Ruhun daxili çoxluğunun, ayrı-ayrı fərdlərdən təklik kimi təzahüründən xaricdə təşəkkül tapan Ruhun Formal Varlığı - *Unitas Multiplex* - meydana çıxır. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Unitas Multiplex, yəni İnsanlıq - Fiktiv Ruhun daxili çoxluğundan ekzistensiya edən təkliklərin vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

İnsanın ümumi təyini fərddən kənarda, ictimai birliklərdən aşkarlandığından, ictimai birliklərin vəhdətindən əmələ gələn cəmiyyəti özündə Ruhun Formal Varlığı kimi təyin etmək olar. Beləliklə, insanın ümumi təyini cismin, canın və Ruhun "burada və indi" prinsipi ilə aydınlaşmasından aşkarlanır; hansı ki, insanın gerçəkliyini təşkil edir. Gerçəkliyin iki əsas xarakteristikası - reallıq və mümkünlük olduğundan, insanın ümumi təyinindən onun gerçəkliyində iki fərqli reallıq (cisim və canın reallığı) və üç müxtəlif mümkünlük (cismin, canın və Ruhun mümkünlüyünü) aşkarlamaq olar.

Haşiyə: Kurt Hübner, "Millət"

> *"Qorqiy öyrətmişdir: əgər nəsə həm də mövcud olmuşdur, onda o dərk oluna bilməz; əgər mümkün olsa, onu kiməsə bildirmək olmaz. Protaqor öyrədirdi: insan - bütün şeylərin, mövcud olan varlıqların, mövcud olmayan qeyri-varlıqların ölçüsüdür. Olmaq - o deməkdir kiməsə aşkarlanmırsan. Antisfen öyrədirdi: heç bir yalan demək mümkün deyil, belə ki, olanı demək olar, olmayanı yox."*

Qədim dövrün sofistlərindən Qorqiyin fikirlərindən də təsdiq olunur ki, reallıqlar yalnız mövcud olur, amma öz mövcudluqlarını ifadə yolu ilə başqasına ötürmür. İnsan da reallıq kimi mövcud olur, amma öz mövcudluğu haqqında başqasına məlumat ötürdüyündən, real varlıqlardan fərqli təbiətə malik gerçəklik kimi çıxış edir. Protaqorun fikirlərindən aydınlaşır ki, insan həm mövcud varlıqların, həm də mövcud olmayan qeyri-mövcudluqların ölçüsüdür. Hansı ki, Ruh - mövcud olmayan (müstəqil) qeyri-varlıq kimi yalnız insanda onun mövcud olan varlığı - bədəni ilə vəhdətdə gerçəklik olduğundan, insandan hər iki tərəfi - bədəni və ruhu aşkarlamaq olur. Nəhayət Antisfenin fikirlərindən görünür ki, olmayan şey haqqında heç bir mühakimə yürütmək, yəni mütləq yalan demək olmaz. Əgər min illərdir ki, insan (düz və ya səhv olmasından asılı olmayaraq) Ruh haqqında mühakimə yürüdürsə, deməli Ruh insanda olan mümkünlükdür, yalan deyil.

Cisim və canın mümkünlükləri ilə reallıqları vəhdət təşkil etdiyindən, insan gerçəkliyinin xarici görüntüsündən vəhdətdə aydınlaşır və başqaları tərəfindən birbaşa, insanın özü tərəfindən dolayısı ilə (bədənin xarici predmetlərdəki əksindən) aşkarlanır. Ruhun reallıq xarakteristikası olmadığından, insan gerçəkliyinin xarici görüntüsündən yox, yalnız daxili görüntü kimi aydınlaşır və yalnız şəxslərarası qarşılıqlı münasibətdə həm insanın özü, həm də başqaları tərəfindən aşkarlanır.

Görüntüdən aydınlaşan cisim və can, dimensional həndəsənin birinci qanununa uyğun bir-birinə proyeksiya olunduğundan, insanın vahid reallığı ayrı-ayrı müstəvilərdən bir-birindən fərqli iki müxtəlif reallıq kimi təzahür edir. Bunun əksinə, cismin, canın və Ruhun mümkünlüyü eyni bir insan varlığına proyeksiya olunduqda, dimensional həndəsənin ikinci qanununa uyğun olaraq, eyni bir insanda eyni bir mümkünlük - ümumi insan mümkünlüyü kimi təzahür edir. Hansı ki, həmin mümkünlük Ruh tərəfindən ekzistensiya olunaraq kənara çıxarılır və başqa insanlarla qarşılıqlı ictimai münasibətlərdə aşkarlanır. Buradan da insanın ikili təbiəti haqqında fəlsəfədə və psixologiyada mövcud olan yanlış təsəvvürlər meydana çıxır.

Reallıq təcrübədə aydınlaşdığından, insanın cisim və canı təcrübədə obyekt-subyekt əlaqəsindən aşkarlanır. Yəni iki insan heç bir şəxslərarası münasibətə daxil olmadıqda, bir şəxsin subyekt, digərini obyekt kimi əlaqəsində (obyekt rolu oynayanda) subyektin xarici seyri ilə insan gerçəkliyinin cismi və canı aşkarlanır. Lakin mümkünlük daxili seyr yolu ilə Ruhda aydınlaşdığından, yalnız şəxslərarası münasibətdə (subyekt-subyekt əlaqəsində) qarşılıqlı empatiya yolu ilə hər iki şəxs tərəfindən eyni vaxtda aşkarlanır.

İnsanın reallığının aşkarlanmasında obyekt rolunda çıxış edən fərd, subyekt rolunda çıxış edən fərdlə ünsiyyətə girmədiyindən, onun Ruhu ekzistensiya etmir və həmin anda daxildə özü-özünün cismini və canını daxili seyr ilə aşkarlayır. İnsanın öz daxilində cisminin və canının öz Ru-

hu tərəfindən refleksiyasının əks etməsi **“Mən”** kimi təzahür edir. İnsan daxili seyr yolu ilə hər bir varlığına uyğun olaraq, eyni zamanda ayrı-ayrılıqda iki Mən - cismin refleksiyasından **“Real Mən”** və canın refleksiyasından **“Libido Mən”** aşkarlayır. Hansı ki, hər ikisi birlikdə insanın görünən ümumi varlığının daxildə müvafiq Ruh tərəfindən refleksiya edilməsinin əks olunması (idrak edilməsi) ilə meydana çıxır. Hər iki Mənin məcmusu kimi fərd, subyekt rolu oynayan şəxs tərəfindən **“O”** kimi aşkarlanır. Beləliklə, iki şəxsin obyekt-subyekt münasibətində aşkarlanan ümumi varlığı bir-birinə əksilik təşkil edən “Mən” və “O”-dur. ”Mən” öz cismi və canı haqqında məlumat aydınlaşdırdığından öz ümumi təyini haqqında müəyyənliyə; “O” xarici seyr yolu ilə aşkarlandığından və obyekt-fərdin Ruhunu (müstəqil mümkünlüyünü) aşkarlamadığından, qeyri-müəyyənliyə malik olur.

Subyekt-Subyekt əlaqəsində hər iki fraqmentar Ruh qarşılıqlı empatiya yolu ilə bir-biri ilə eynilik təşkil edir və buna görə də, hər bir fərdin digərində aşkarladığı mümkünlük özünün mümkünlüyü ilə eyniyyət təşkil edir, nəticədə **“Subyektiv Mən”** aşkarlanır. ”Subyektiv Mən”in eyni vaxtda iki fərqli bədəndə aydınlaşması və aşkarlanması “Mən” və **“Sən”** kimi meydana çıxır. ”Subyektiv Mən” özündə xalis ruhi təzahürlər göstərən iki fərdin qarşılıqlı münasibətində aşkarlanan ortaq sadə xarici ruhi totallıqdır. Hansı ki, hər bir fərd özü-özündə daxili totallığı ilə eyniyyət təşkil etdiyindən onu dəqiq aşkarlayır. Beləliklə, insanın Unitas Multiplex-i bir-birinə proyeksiya edilmiş vahid “Mən” kimi təzahür edən üç müxtəlif Məndən - “Real Mən”, “Libido Mən” və “Subyektiv Mən”dən (yəni “Mən”dən, “Sən”dən və “O”dan) ibarət sinergetik gerçəklikdir. Buradan aşağıdakı pnevmotoloji ideya aşkarlanır:

Unitas Multiplex - Formal Ruhun daxili çoxluğunun şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, insanın mahiyyətinin anlanılması onun bütün Mənlərinin təzahürlərinin məcmusundan mümkündür. **“Mən”** - daxildə həqiqətin

özünü aydınlaşdırdığı və bu aydınlaşmanı bilavasitə şəxsi təcrübəsi ilə aşkarlayan və xarici vasitəli aydınlaşan həqiqəti aşkarlayan Ruhun fiktiv abstrakt formasıdır. Beləliklə insan gerçəkliyindən üç forma - cismə xas konkret forma, cana xas dəyişkən forma, Ruha xas abstrakt forma (formasızlıq) aşkarlanır və hər üç forma eyni zamanda bir və eyni Fiktiv Ruhla vəhdət təşkil edərək Məni yaradır. Beləliklə, Mən - üç formalı, bir mahiyyətli gerçəklikdir. Ekzistensiyada insanın daxili Mənləri xaricdə bir-birindən ayrılıqda: cismə xas forma - Real Mən; dəyişən forma - Sən; mücərrəd forma - O kimi qavranılır.

Fiktiv Ruh "Mən" kimi mövcuddur. "Mən" - Ruhun tangensial enerjisinin idrakıdır; yəni Fiktiv Ruhun özü-özündə aydınlaşan həqiqətini özü-özündə aşkarlamasıdır. Fiktiv Ruhun radial enerjisinin idrakından Mən-Sən meydana çıxır. Ruhun tangensial formadan radial formaya keçidi isə "O" kimi təzahür edir. Sən - həqiqəti Mənə məlum olan; O - həqiqəti qeyri-məlum olan Məndir. Həqiqətin materiyanın digər sıralarında aydınlaşmasından fərqli olaraq, Ruhda aydınlaşması onu (cisimdən və candan dolayısı ilə Ruhda refleksiya etdiyindən) ikiqat entropiyaya məruz qoyur. Belə vəziyyətdə hətta bəzən onda həqiqətin aşkarlanması mümkün olmur. Bu da Ruhun idrak olunmazlığını təmin edir.

> ***Haşiyə:*** *E.Levinas - Filosoflar həmişə Mən-in ikililiyini başa düşüblər; o substansiya deyil və ancaq üstünlüklə (ağıl və şüur - s.c) mövcud olandır.*

E.Levinasın "Mən" haqqında fikirləri də, yuxarıda şərh etdiklərimizə görə, özündə dəqiq həqiqəti təqdim etmir. İnsanı yalnız bir mahiyyətini (Ruhun atributlarına - ağıla və şüura) görə dəyərləndirmək insan gerçəkliyinin təbiətini anlamaqda dolaşıqlıq yaradır. Çünki insan ağlında və şüurunda həmişə bədənin, cismin və canın refleksiyasının əks edilməsini müəyyənləşdirmək olar.

Haşiyə: V.Frankl, "Naməlum Mən"

"Freydin ən görkəmli nailiyyəti o kəşf olmuşdur ki, seksual enerji və ya libido orqanizmin bütün proseslərində iştirak edir və təkcə cinsiyyətlə məhdudlaşmır; bütün fiziki proseslər seksual çalarra malikdir və seksual pozğunluq orqanizmin fiziki funksiyalarının pozulmasının səbəbi ola bilər."

Freydin fikirlərindən çıxış etsək demək olar ki, libido həm də ruhi proseslərdə iştirak edir. Həqiqətin dərki - Ruhun daxili totallaşması hissi təfəkkürlə reallaşdığından, seksuallığın bədən funksiyalarına təsiri birbaşa təfəkkürün idrak prosesinə təsir edərək onu pozur. Bəzi ruhi xəstələrdə seksual pozğunluqlar bunu bir daha təsdiq edir. Eləcə də Real Mənin, Libido Mənin və Subyektiv Mənin bir-birindən ayrılmasından (yəni Mənin daxili vəhdətinin pozulmasından - psixi assosiasiyadan) Mənin parçalanması baş verir. Bu da Ruhun daxili totallığını dağıdır, onu hissələrə bölür və nəticədə şizofreniya meydana çıxır. Bu mənada Mən həm forma, həm də substansiyadır; hansı ki, insan mahiyyətinin dərk edilməsində hər ikisi bərabər əhəmiyyətə malikdir.

Ayrılıqda "Mən" daxili aşkarlanma kimi mövcuddur. "Mən"in xarici aşkarlanması onun digər fiktiv ruhlar tərəfindən qarşılıqlı refleksiyasını tələb edir. Hər bir bədən yalnız özü-üçün-varlıq təyininə malik olduğundan, mahiyyətə xas hər hansı bir totallıqdan məhrumdur. Buna görə də, həyatda bir-birini olduğu kimi təkrarlayan iki "Mən" yoxdur. "Mən" bədənin özü-üçün-varlıq təyinindən çıxan orijinallığın, təkliyin Ruhda vasitəli ifadə olunması, yəni Ruhun həmin təkliyi refleksiya etməsidir. "Mən" özündə xalis fərqlilik nümayiş etdirdiyindən, istənilən ayrı-ayrı "Mən"ə münasibətdə fərqlənir və yalnız onların mövcudluğunda Orijinal Mən kimi təzahür edir.

İndi və burada ekzistensiya edən iki "Mən" bir-birinə münasibətindən **"Sən"** aşkarlanır. Beləliklə, Mən eyni zamanda Sən kimi çıxış edir. Buradan da aydın olur ki, Mən və Sən daxili münasibətdir. Sən - Ruhun bədənlərin fərqliliyini bir-birinə münasibətdə təzahür etdirməsini özündə bildirir. Bu əlaqədə hər iki Fiktiv Ruh özü-özündə daxili "Mən",

eyni zamanda digərinə münasibətdə xarici "Sən"dir. "Sən" xarici "Mən"i təqdim etdiyindən özü-üçün-varlıqdır. Mən daxili Mən-i təqdim etdiyindən xalis varlıqdır. Sənlə Mənin birliyindən, yəni qarşılıqlı empatiyasından onlar arasında öz daxili mənləri ilə şərtlənmiş xarici totallıq - Ruhun Formal Varlığı yaranır ki, bu da **"Biz"** kimi təzahür edir. Biz - Sənlə Mənin birliyində yaranan xarici totallığı özündə təqdim edir. Hansı ki, son ölçülüyü insanlıq kimi bizdən ibarətdir.

Fiktiv Ruhun daxili totallığının xaricə çıxarılması - Özünü təsdiq formaları: Ruh yalnız ekzistensiyada yaradıcılıqla məşğul olmur; o, həm də məhz yaradıcılıq prosesində eyni qaydada ekzistensiya edən digər Fiktiv Ruhlara empatiya edərək bir-birinə qarışır, onunla qarşılıqlı refleksiya edir, özündə olan məlumatları ona verir, onda olanları ondan alır. Beləliklə, məlumat mübadiləsi yaranır.

MƏNLİK VƏ ONUN TƏZAHÜRLƏRİ

İnsanın özündə təzahür etdirdiyi ikinci qrup keyfiyyətlər, onun ruhunun bədəninin passiv gücünü refleksiya etməsindən təzahür edir. Belə təzahürlərdən ən mühümü **mənsubiyyətdir**. Mənsubiyyət **mənlik** kimi meydana çıxır. Mənlik - ruhun konkret bədənə əlaqəsini özündə təqdim edir. Mənliyin təzahürü ilə Fiktiv Ruh başqa Fiktiv Ruhla sərhədlənir. Fərdin fəaliyyətinin əsasını bədənin özü-üçün-varlıq təyininin saxlanması və qorunması təşkil edir. Başqa sözlə, heyvanlara xas olan özünüsaxlama instinkti insanda ruhlaşır və ruhi qabiliyyətlər kimi ikili mahiyyətdə meydana çıxır.

Mənlik bədənin ruhi keyfiyyəti kimi meydana çıxır. Fiktiv fərdi ruh nə hissə (hər hansı bir şeyin bir parçası), nə də ən kiçik bölünməzlik (cisimlərdəki atom, canlılardakı hüceyrə) kimi deyil. Başqa sözlə, Ruhun vahidi yoxdur. Fiktiv Ruh - Formal Ruhun eyni zamanda xarici çoxluq təşkil edən, konkret zaman və məkan şərtlərində bir bədənlə şərtlənmiş şəkildə təzahür etmə imkanıdır. Ona görə də Ruhun vahidi eyni zamanda

həm hissə, həm tamdır. Buradan da Fiktiv fərdi ruhu Formal Ruhun xarici totallığının ayrıca bir bədəndə daxili totallıq kimi təzahür etməsi kimi dəyərləndirmək olar. Buradan da insan varlığının məqsədi özündə Ruhun xalis varlığının xarici totallığını mütləq refleksiya etməkdir; hansı ki, biz bunu fərdin insanlaşması kimi qiymətləndiririk. Biz fərdin insanlaşmasının nəticəsini **Daxili İnsanlıq** kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Daxili İnsanlıq - Fiktiv Ruhun Formal Ruhu özündə refleksiyasının şərtlərinin məcmusundan ibarətdir.

Fərdin insanlaşması cisim və canın buna nə dərəcədə imkan verməsi ilə şərtlənmişdir. Biz daxili totallığın xarici totallığı özündə mütləq refleksiya etmə cəhdini **İnsanın Ali Məqsədi** adlandırırıq; hansı ki, bütün digər məqsədlər birbaşa və ya dolayısı ilə bu məqsədə xidmət edir.

Haşiyə: A.Adler, "İnsan təbiətini anlamaq"

> *"Özü-özümüzü tədqiq edərək bizim etdiyimiz birinci kəşf - bizim həmişə hansısa məqsədə cəhd etməyimizdir. Beləliklə, biz insan ruhunu özümüz üçün nəsə vahid və dəyişməz təsəvvür edə bilmərik. Hər şeydən yaxşı onu, ümumi mənbədən əmələ gələn və vahid məqsədə çatmağa cəhd edən, hərəkət edən hissələrin dəsti kimi təsəvvür etmək mümkündür. Bu teleologiya, məqsədə cəhd, insan ruhunun əsas uyğunlaşması və mövcudluğu bizim bütün cəhdlərimizin istiqamətləndiyi məqsədsiz ağlasığmazdır. Bu məqsəd şəxsiyyətin əqli həyatını müəyyən edir."*

A.Adlerin fikirlərindən göründüyü kimi, şəxsiyyətin əqli həyatı əslində vahid məqsədə çatmaqdan ibarətdir; hansı ki, ümumi mənbə kimi onun öz ilkin başlanğıcı kimi çıxış etmişdir. "Nəsə insan"ı təşkil edən varlıqlar eyni güclü və bərabər təzahür imkanlarına malik deyillər. Varlıq formaları şərtləndikləri amillərə görə bir-birindən fərqli təzahür edir, eyni zamanda yaranma ardıcıllığına uyğun olaraq, hər bir varlığın özündə məqsədi, özündən əvvəlki varlığın əsas məqsədinə çatıldıqdan sonra aktuallaşır. Buradan da gəlinən nəticə budur ki, bütünlükdə insanın qeyri-

iradi və şüursuz cəhd etdiyi əsas məqsəd - bədənin cisim varlığını saxlamaq; iradi, amma şüursuz cəhd etdiyi ikinci məqsəd - bədənin tamlığını təmin etmək; nəhayət üçüncü iradi və şüurlu cəhd etdiyi məqsəd - Ruhun xalis məqsədi - Formal Ruhun xarici totallığını özündə refleksiya edərək daxili totallığa çevirməkdən ibarətdir. Yalnız Fiktiv Ruhun daxili totallığı Formal Ruhun xarici totallığına yaxınlaşdıqca, əksinə insan öncə ruhi məqsədə, sonra canın məqsədinə, ən sonuncu cismin məqsədinə istiqamətlənir. Bu da Ruhla digər iki varlığın daxildə ziddiyyəti kimi meydana çıxır.

Hər bir fərdin Məni başlanğıcda **Kollektiv "Mən"** kimi təzahür edir. Biz Kollektiv Məni Fiktiv Ruhun Formal Ruhun daxili çoxluğundan təzahürü kimi təsəvvür edirik. İnsan həyatında həmişə başqasının olması həm də Ruhun təbiəti ilə bağlıdır.

1. Birincisi, hər bir şəxs digərlərinə münasibətdə həm "Mən", həm "Sən", həm də "O"dur. Yəni hər bir insan özündə eyni vaxtda üç müxtəlif nisbi ruhi gerçəklik kimi çıxış edir.
2. İkincisi, sonsuz sayda Fiktiv Ruhlar bir tək Formal Ruhun refleksiyası kimi meydana çıxır. Yəni ictimailik Formal Ruhun eyni vaxtda müxtəlif bədənlərdə olmasını özündə ifadə edir.
3. Üçüncüsü, bədən Ruhla birlikdə olsa da, Ruh bədənin özü-üçün-varlıq təyini ilə əlaqələndiyindən, özü-özündə başqasının - yad formanın olduğunu təsdiq edir.
4. Dördüncüsü, canlı varlıq kimi bədən həm də növün həqiqətini daşıyır və Fiktiv Ruhlar fərqli bədənlərdə olsalar da, özlərində bədəndən növün xalis varlığını təqdim edir. Nəticədə hər bir adam özündə sonsuz sayda insana xas növün məlumatına malik olur ki, buradan da **Kollektiv Şüur** meydana çıxır.

Kollektiv Şüur fərdin Kollektiv Məninin şüuru kimi - özündə olan növün bir mahiyyətdə sonsuz çoxluq formasında təzahüründən meydana çıxır. İnsan öz Kollektiv Mənindən ayrı-ayrı Mən kimi təzahür etməklə

Ruhun Xarici Totallığına cəhd edir. İnsanın ayrı-ayrı "Mən"ləri bir-birindən təzahür formalarına və aşkarlanma üsuluna görə fərqlənir.

A: REAL MƏN - "CİSİM İNSAN" (və ya CƏSƏD VƏ ONUN TƏZAHÜRLƏRİ)

Cisimlər birölçülü olub, zamandan birmomentli-birparametrli, məkandan birmomentli-çoxparametrli asılılıqdadır. Burada "moment" faktın məkan-zaman asılılığını, "parametrlər" aktuallaşmanın məkan-zaman asılılığını özündə ifadə edən anlayışlar kimi istifadə olunur. Beləliklə, cismin faktı ilə aktının zaman asılılığı eynidir, birdir, vahiddir. Yəni, eyni məkan asılılığında zamandan asılı olmayaraq cismin ölçülüyü sabitdir. Cismin faktı üç oxlu sistemdə meydana çıxdığından, aktuallaşmada məkan asılılığı bu parametrlərin - enin, uzunun və hündürlüyün hər biri ilə ayrı-ayrı şərtlənir və onların dəyişilməsi ilə məkan ölçülüyü də dəyişilir. Beləliklə, cismin məkan-zaman asılılığını sxematik belə təsəvvür etmək olar: ZM = ZM = ZM = ZM = ZM. sonsuzluq. Yəni cismin məkani ölçüləri sabit məkan şərtlərində sonsuz olaraq eynidir. Məhz bu eynilikdə cismin məkani ölçülüyünün həqiqəti aydınlaşır və təfəkkür yalnız həmin sonsuzluqdan onu aşkarlayır.

Bədənin gerçəkliyindən canlı insanda bədənin cisim varlığının ölçülüyünü zamanın sürəkliyində aşkarlamaq mümkün deyildir. Çünki zamanın hər bir dəyişilməsi canlı bədənin cismini, məkani şərtlər sabit qalsa belə, onu dəyişdirir. Beləliklə, biz bədənin xalis cisim varlığını yalnız həyatın bir anında aşkarlaya bilərik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Cəsəd - sabit zaman-məkan şərtlərinin məcmusundan ibarətdir.

Canlı insan gerçəkliyindən bir anda xarici görüntü ilə onun cisim varlığını aşkarlamaq görməklə aşkarlanır. Görmək - görüntü ilə eyni momentli qarşılıqlı əlaqədir. Görüntü ilə görmənin əlaqəsi məkani məsafədən asılıdır. Belə ki, bədənin cisim varlığının ölçüləri görmə

məsafəsindən asılı olaraq dəyişkəndir. Buradan da, görmə ilə bədənin cisim varlığının görüntüdən istənilən aşkarlanmasının nisbi olduğu meydana çıxır. Bunun əksinə, Ruh daxili seyr yolu ilə öz bədəninin cisim varlığını məsafədən asılı olmadan eyni cür aşkarladığından, canlı şəxsdə cisim varlığı mütləq şəkildə yalnız daxili seyr ilə aşkarlana bilər. Ruhun daxili seyr yolu ilə məskunlaşdığı bədənin cisim varlığını (məkani ölçülüyünü) refleksiyasının əks etdirməsi - yəni ekzistensiya etməsi - **Real Mən** kimi təzahür edir.

Bəs canlı bədəndən məkani ölçülük necə aşkarlana bilər? İnsan gerçəkliyindən onun cisim varlığının ölçülüyü yalnız bədən canlılıqdan çıxarılmaqla aşkarlana bilər. Real Mən zamanın bir anında Ruhun daxili seyr yolu ilə bədənin cisminin məkan ölçülərinin özündə aşkarlanmasından meydana çıxır. Cisimlərdə xarici şərtlərin sabitliyində zamandan asılı olmayaraq bir anda təzahür edən məkani ölçülər, zamanın bütün gedişində əbədi olaraq sabit qalır.

İnsanın Real Məni məkani ölçülüyü özündə refleksiya etdiyindən, məkan ölçülüyü ilə şərtlənir və məkan ölçülüyü sabitliyinə uyğun Real Mən zamandan asılı olmayaraq özü-özünü təkrarlayır. Nəticədə, böyümə nəticəsində fərqli məkan ölçülüyünü özündə refleksiya edən Fiktiv Ruh, eyni bir Real Mən kimi təzahür edir ki, bu da yaşından asılı olmayaraq eyni bir fərddə eyni bir Real Mənin olmasını şərtləndirir. Beləliklə, Real Mənin sabitliyi şərtində dəyişən hər şey Ruh tərəfindən öz Real Məninə münasibətdə fərqlilik kimi aşkarlanır; həmin fərqliliklərdən eyniliyin tapılması idrakın əsasını təşkil edir. Beləliklə, Ruh məkan ölçülüyünün refleksiyasından yalnız onun sabitlik xarakteristikasını özündə Real Mən kimi təsbit edir.

Əgər insanın Real Məni sabit olmasaydı, Real Mənlə aydınlaşan bütün həqiqətlər fərqli "Mən"lərin idrak məhsulu kimi meydana çıxardı. Bu da Ruhun daxili totallığını xaosa çevirərdi; yəni insanın Ruhu mozaik dünyanın xarici görünüşünə və ya da bədənin müxtəlif vaxtlardakı fərqli

ölçülüyünə uyğun mozaikləşərdi. Belə mozaikləşmə isə idrak prosesinə - vəhdətin aşkarlanmasına imkan verməzdi. Bəzi psixi xəstəliklərdə Real Mənin sabitliyinin pozulması (yəni Ruhun bədənin məkani ölçülərinin zamandan asılı olaraq dəyişkənliyinə uyğun dəyişik Real Mənlə refleksiyası) məhz Ruhun bu cür mozaikləşməsinə səbəb olur.

Real Mən məkani ölçülüyün ruhda refleksiyasının yalnız sabitlik xarakteristikasını özündə əks etdirdiyindən, Real Mən yalnız bir anda - ölüm anında bədənin tam məkani ölçülüyünü özündə əks etdirir. Yəni Real Mənin ayrılıqda xalis təzahürü cəsəddir. Cəsəd - bədənin mövcud varlığından ayrılmış məkani ölçülük kimi mütləq heçlikdir və yalnız özündə bədənin müvəqqəti məkani ölçülüyünü təqdim edir. Cəsəd - canlılıqdan və ruhdan məhrum bədənin zamanın bir anında donub qalmış, xarici şərtlərin sabitliyində əbədi qalan insanın məkan ölçülüyüdür. Canlı insan bədəni fərqli cəsədlərin özü-özündə zamanda sıralanmasından əmələ gəlir. Hər bir cəsəd digəri ilə əvəzlənməklə özündə təqdim etdiyi ölümlüyü insandan uzaqlaşdırır və belə ölüm anlarının bir-biri ilə zəncir təşkil etməsindən və bu zəncirin hər bir həlqəsindən ölümün çıxarılması Həyatı yaradır. Həyat - bədənin dəyişən məkan ölçülüyü kimi meydana çıxır.

Real Mənin ikinci xarakteristikası **orijinallıqdır**. Elmi surətdə sübut olunub ki, hər bir insan yalnız 79 milyard ildə bir dəfə olduğu kimi antropoloji təkrarlana bilər. Günəş sisteminin mövcudluq müddətinin bundan az olduğunu nəzərə alsaq, onda insanın Real Məninin olduğu kimi təkrarlanması mümkünsüzlükdür. Bu mümkünsüzlüyün aydınlaşması Real Mənin orijinallığıdır. Beləliklə, Real Mən sabitlik və orijinallıq xarakteristikasına malik olduğundan, Real Məndə aydınlaşan həqiqət də buna uyğun olaraq Mənin sabit və orijinal həqiqətidir. Real Mən cismə xas üç müxtəlif fərdi məkani ölçünün məcmusundan ibarətdir: **Boy, Çəki, Həcm.**

Boy: İnsanın boyu cisimlərin məkanda üçölçülüyünü özündə nümayiş etdirir. Cisimlərdə en və uzun eyni müstəvidə, hündürlük fərqli müstəvidə görüntünün sıralanmasından əmələ gəlir. İnsanda enlə hündürlük eyni bir müstəvidə, uzunluq ayrıca ondan fərqli müstəvidə meydana çıxır. Nəticədə, insanda uzunluq Ruhda **Boy** kimi refleksiya olunur.

Həcm: Uzunluğun boy təşkil etməsi ilə həcmliliklə boy arasında fərqlilik yaranır; yəni həcm boyun müəyyən hissəsində əmələ gəlir ki, biz bunu anatomik olaraq qarın, döş və kəllə boşluğu adlandırırıq. Başqa sözlə, Ruh bədənin daxili həcmlərini boşluqlar kimi özündə refleksiya edir. Ruh boşluqları adi vəziyyətdə ayrı-ayrılıqda refleksiya etmir. Yalnız bədən funksiyalaşanda və həmin funksiyaların pozulmasında bədən boşluqları (həcmlər) bir-birindən ayrılır və ayrıca bir boşluq kimi idrak olunur. Boyun çanaqdan aşağı hissəsində hündürlük olmadığından ümumi həcm yaranmır. Real Mənin boyu özündə refleksiyasından məkan ölçülüyü abstraksiya olunur və nəticədə uzunboyluluq, qısaboyluluq kimi bədəni xarakterizə edən abstrakt ölçülər meydana çıxır. Məkani ölçülüyün abstraksiyası riyazi ölçülükdür. İnsan bədənində məkani ölçülüyün özü abstraksiya ilə aşkarlandığından, məkani ölçülüyün riyazi abstraksiyası nisbi məna kəsb edir. Təkrar riyazi ölçülüyün abstraksiyası ilə uzunboyluluq və qısaboyluluq ölçüləri meydana çıxır.

Cəki: İnsanın bədənini təşkil edən kütlə Real Məndə cəki kimi meydana çıxır. Cəki bədənin yer tərəfindən cəzb edilməsindən yaranır. İnsanın çəkisinin onun boyuna nisbətindən yeni məkani ölçülər meydana çıxır. Boyda olduğu kimi insan bədəninin kütləsinin ikiqat abstraksiyası ilə bədənin daha iki abstrakt məkani ölçüsü - köklük və arıqlıq meydana çıxır və bunun ruhda refleksiyasından fərqli reallıqlar aydınlaşır.

Qeyd etdiyimiz kimi, cisimlərdə məkani ölçülüyün abstraksiyasından riyazi ölçülük meydana çıxır və hər bir cismin məkani ölçülüyü özündə həm də ümumi ölçülük kimi təzahür edir. Canlı insanda Real Mən özündə dəyişən məkani ölçülüyü eyni bir vahid kimi refleksiya etdiyindən,

Real Mənin riyazi ölçülüyü orijinaldır; yəni bir-biri ilə müqayisədə heçlikdir. Bədənin fərdi məkani ölçülüyü həm də xarici seyr yolu ilə (başqası və ya insanın özünü xarici predmetdə əks etdirməsi ilə) özü tərəfindən aşkarlanır. Hansı ki, Real Mənə münasibət kimi meydana çıxır.

Norma: Fərdi bədənlərin abstrakt ölçülüyünün bir daha abstraksiyası ilə bədənin ümumi riyazi ölçülüyü aşkarlanır. Bədənin abstrakt ölçülüyünün konkret riyazi ölçülüklə ifadə olunmasından **Norma** meydana çıxır. Norma - konkret yaşda və cinsdə olan ən müxtəlif ölçülüyə malik fərdlərin ən ümumi ölçülüyüdür; hansı ki, hər bir fərdin məkani ölçülüyü bu norma ilə müqayisədə konkretləşir və abstraksiya edilərək normadan fərqlilik kimi idrak edilir. İnsan varlığının bir cisim kimi ümumi məkani ölçülüyü norma ilə müəyyənləşir. İnsan həm özündə zamandan asılı olaraq eyni zaman ölçülüyündə fərqli məkani ölçülüklə, həm də eyni zamanda məkanın müxtəlif yerlərində sıralanan özü kimi faktlarla (eyni yaşda eyni cinsdə və eyni yaşda müxtəlif cinsdən olan fərdlərdə) fərqlilik nümayiş etdirir. Həqiqət yalnız eyniliklərdən aşkarlandığından, məkani ölçülüyün eyniliyi nə orijinal fərdin özünün xarici görüntüsündən, nə də fərdlərin konkret çoxluğundan aşkarlanmır. Bədənin riyazi ölçülüklə ifadə edilən məkani ölçülüyünü aşkarlamaq üçün Ruh bədənin ölçüyünü yalnız abstraksiya yolu ilə aşkarlayır. Bədənin məkani ölçülüyünün riyazi ölçülüklə konkretləşməsi normanı meydana çıxarır. Norma, eyni yaşda eyni cinsdə olan müxtəlif bədənlərin məkan və zaman təsirindən (bədənin bir andakı ölçülərinin fərqliliyindən) meydana çıxan abstrakt eyniliyin ölçülüyüdür. Norma abstraksiya ilə alınmış eyni yaşlı müxtəlif bədənlərin ideal məkani ölçülüyüdür. Norma iki hüdudi fərqliliyin məcmusundan əldə edilir. Yəni iki hüdudi ölçü cəmlənir, sonra ikiyə bölünərək hər bir hüdud üçün düzgün məkani ölçülük (həqiqəti aydınlaşdıran ölçülük) əldə edilir. Norma - özündə enerjinin saxlanması və bir formadan digərinə çevrilməsi qanunauyğun-

luğunun riyazi anlayışla ifadəsidir. Yəni insanın normal ölçülüyü heçlik deyil, sadəcə bir formadan digər formaya keçməklə fərqlilik kimi aydınlaşan abstrakt insan bədəninin ümumi ölçüsüdür. Buradan da, bədənin məkani ölçülüyündən aydınlaşan həqiqət ondan kənarda və abstrakt formada aşkarlanır. Buna görə də, normanın müəyyənləşdiyi konkret fərdlərin ölümü ilə bütünlükdə insan varlığının məkani ölçülüyünün - normanın saxlanması mümkün olur. Norma bununla da insan növünün ölçülüyünü özündə ifadə edir; hansı ki, insanın canlılığının həqiqəti məhz növdən aydınlaşır. Normaya münasibətdə iki hüdudi fərqlənmə aşkarlanır: Normadan kiçik məkani ölçülük, normadan böyük məkani ölçülük. Uyğun olaraq Real Mənin qısaboyluq-uzunboyluq, arıqlıq-köklük kimi abstrakt ümumi məkani ölçüləri yaranır. Real Mən antropoloji mənsubiyyəti - bədən cisminin ölçülüyünə görə insanların müxtəlif qruplarda sistemləşdirilməsinin mümkünlüyünü aşkara çıxarır; hansı ki, belə sistemləşmə ilə cisim dünyasının kaleydoskopluğu aradan qaldırılır və insan bədəni real gerçəkliklər aləmində xarici totallıq əldə edir.

Hər bir bədən fəzada ətraf məkandan öz ölçülüyü ilə fərqli qaydada həcmləşir. Beləliklə, bədənin ölçüləri ilə onu əhatə edən fəza bir-birinə əksilik təşkil edir. Buradan da, bədənin ölçülüyü onunla əksilik təşkil edən fəzadan da aydınlaşır. Yəni, bir bədənin aksidensiya etməyən bilavasitə bədəndən təyin edən ölçülüyü var, bir də bədənlə əksilik təşkil edən fəzadan aydınlaşan və bədəndən aksidensiya edən (ondan çıxarılan) bədənin ölçülüyü vardır. Bədəndən çıxarılan bədən ölçülüyü **Qəlibi** meydana çıxarır. Qəlibin meydana çıxması ilə insan bədəninin ölçülüyü xarici predmetlərə köçürülür. Buradan da **Paltar ölçülüyü** aşkarlanır. İnsanın paltarının ölçüsü onun bədəninin məkan ölçülüyünün əksiliyi kimi mövcud olur. Paltar ölçülüyü cismə köçürüldüyündən, bədəndən fərqli olaraq sabit ölçülükdür. Buradan da bədənin konkret andakı məkan ölçülüyü istənilən vaxt onun geyindiyi paltarın ölçülüyündən aydınlaşır.

Beləliklə, bədənin konkret andakı məkani ölçülüyü paltarda fiksə olunur və cisimlərdə olduğu kimi sonsuzluwadək eyni ölçülük kimi aydınlaşır.

"Nəsə insan"ın mahiyyətlərinin bir-birinə müqaviməti nəticəsində hər bir mahiyyət öz təzahürlərində ona müqavimət göstərən tərəfin təzahürlərini bu və ya başqa şəkildə özündən kənara çıxarır. Bədənin cisminin (eləcə də bədəndənkənar xarici cisimlərin) Fiktiv Ruha müqavimətindən Ruhun təzahürləri **Xarakter** kimi meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Xarakter - cismin Fiktiv Ruha təsirinin şərtlərinin məcmusundan ibarətdir.

Burada cisim anlayışı özündə həm bədəni, həm ətrafı özündə ifadə edir. Beləliklə, insan xarakteri həm bədənin forması, həm də ətrafla ikili şərtlənmiş şəkildə meydana çıxır. Bədən ətrafla maddələr mübadiləsində olduğundan, bədənin cismi özündə insanın məskunlaşdığı ətrafın cismindən təşkil olunur. Və bədənlər buna görə də öz tərkiblərinə görə fərqli cisimlərin ölçülüyünü summasiya edir. Nəticədə, məkan ölçülüyü bədən ölçülüyünə proyeksiya olunur. Buradan da Real Mən ətrafla şərtlənir. Nəticədə, insan bədəninin məkani ölçülüyü bədənin xüsusi ətrafının ümumi məkani ölçülüyünün məcmusu kimi meydana çıxır. Məkan ölçülüyünün Real Mənə refleksiyasından xarakter aşkarlanır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Xarakter - fərdlərin formalaşdığı ətraf mühitin Real Məndə refleksiyasının şərtlərinin məcmusundan ibarətdir.

Real Mən insanın mövcud varlığının təzahürüdür. “Mən” yalnız məkanla şərtlənmədiyindən onu vasitəsiz aşkarlamaq mümkün deyil. ”Mən” daxildə avtorefleksiya ilə (özü-özü ilə refleksiyada) aşkarlanır. ”Mən”in xarici seyr yolu ilə aşkarlanması fiziki bədənin aşkarlanması kimi meydana çıxır.

Haşiyə: *E.Levinas - Mənin Özü-özü ilə əlaqəsi - Ruhun özü-özündə ziyansız refleksiyası deyil, onda insanın bütün maddiliyidir.*

Başqa sözlə, Real Mən özü-özü ilə refleksiyada Ruhun bədənin cisminin daxili totallığını özündə refleksiya edərək daxili totallıq əldə etməsidir; yəni bədənin məkani ölçülüyünə ruhi münasibətdir. Hansı ki, xarakter kimi təzahür edir.

Haşiyə: Vilhelm Rayx, "Xarakteroanaliz"

> *"Xarakterin formalaşmasının sosioloji funksiyası haqqında sualla bağlı biz öz diqqətimizi o məlum, amma öz detallarına görə hələ az baxılmış vəziyyətə yönəltməliyik ki, müəyyən ictimai nizam insanların müəyyən ortaq psixi strukturası ilə müşayiət olunur; və ya başqa cür ifadə etsək, hər bir ictimai nizam özünün möhkəmlənməsinə lazım olan özünəxas xarakteri yaradır. Etnoqraf Malinovckinin məlumatından görünür ki, hər hansı ərazinin insanlarının xarakterik fərqlilikləri sosial struktur başqa cür olduqda nisbi olaraq sürətlə dəyişir. Xarakterik struktura müəyyən dövrün donmuş sosioloji prosesidir. Cəmiyyətin ideologiyası maddi güc o zaman ola bilər ki, əgər onlar faktiki olaraq insanların xarakterik strukturlarını dəyişir. Z.Freydin ilk kəşfi ondan ibarət olmuşdur ki, xarakterin müəyyən cizgilərini ətraf mühitin təsirindən, primitiv seksual meyllərin tarixi dəyişilməsi və davam etməsi kimi izah edilə bilər. Xarakterin hərəkətlilik dərəcəsi, situasiyadan asılı olaraq ətraf aləmə qarşı açılma və ya ondan qapanma qabiliyyəti - reallığa münasibətdə davamlı olan xarakterin strukturu ilə onun strukturunun nevrotikliyi arasında fərq bundan ibarətdir. Xarakterin əmələ gəlməsi Edip kompleksinin dəf edilmə forması kimi çıxış edir. Birinci psixoanalitik nəzəriyyənin əsasında instinktlə ətraf aləm arasında konflikt durmuşdur. Qəbul edilmiş nöqteyi-nəzərə görə, funksional olaraq insan intellekti istisnasız olaraq obyektivdir və həqiqətə istiqamətlənmişdir; etikada, xüsusən fəlsəfədə belə hesab edilir ki, intellekt reallığa "ehtirasla" çatır və bu münasibətdə o birbaşa affektə əksdir."*

V.Rayxdan gətirdiyimiz sitatdan görünür ki, ətraf aləm (həm fiziki, həm sosial) insana təsir edərək onda müəyyən xarakter strukturlaşdırır. Yəni insanın xarakteri Ruhun formal varlığı (cəmiyyətlə), dünyanın for-

mal varlığının qarşılıqlı əlaqəsini özündə əks etdirir. Bu zaman can cismin ruha təsirini özündən keçirməklə ona ötürür. Nəticədə, cismin Ruha təsiri həm də canın cismə və canın Ruha təsirini özündə ifadə edir. Buradan da xarakter "Edip kompleksinin dəf edilmə forması" kimi çıxış edir; hansı ki, canlılığın əsas təzahürlərindən olan libido (yəni seksuallıqla) sıx bağlıdır. İntellektin xarakterə təsiri Fiktiv Ruhun cismin təsirinə müqavimətini özündə əks etdirir; hansı ki, Fiktiv Ruh mövcudluq tələbində özünə mövcudluq şərtləri əldə etmək naminə "ehtirasla reallığa can atır". Beləliklə, biz xarakteri cismin candan keçməklə və ya fiziki ətrafın sosial ətrafdan keçməklə Fiktiv Ruha müqavimətinin təzahürü kimi dəyərləndirə bilərik. Hansı ki, fiziki və ya sosial ətrafın dəyişilmələri xarakterin dəyişilmələrində əks olunur. Cismin Ruha təsiri candan keçməklə dolayı baş verdiyindən, əslində xarakter üç müxtəlif mahiyyətin bir-birinə müqavimətinin nəticəsi kimi meydana çıxır.

Bədənlə Ruhun qarşılıqlı müqavimətinin təzahürlərindən biri də **Eqo**dur. Eqo bədənin Ruha müqavimətinin üstünlüyündə meydana çıxır. Bu zaman Fiktiv Ruh instinktlərə - bədən tələbatlarına xidmət etməklə məhdudlaşır. Fiktiv Ruhun özündə şərtləndiyi bədənin ölçülüyünü refleksiya edərək əks etdirməsi Eqonu yaradır. Eqo - bədənlə (o cümlədən ətraf mühitlə) Ruhun qarşılıqlı əlaqəsində təzahür edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Eqo - bədənlə, o cümlədən onda refleksiya edən ətraf mühitlə Ruhun əlaqələnməsinin şərtlərinin məcmusundan ibarətdir.

Eqo istənilən varlığın mövcudluğunun başlıca şərtidir və özündə olmaq istəyini - passiv gücü, yəni cismin varlıq üsulunu ifadə edir. Buradan da Eqo ilə xarakter vəhdət təşkil edir. Yəni insanın eqosu onun xarakteri ilə ekzistensiya edir. Eqosuz mövcudluğu davam etdirmə cəhdi təzahür etmir. Ekzistensiya prosesində başqası ilə ünsiyyət özündə insanın həm də Eqodan azad olmasını - bədən kimi mövcud olmaq cəhdindən azad olmasını və eyni zamanda Ruh kimi mövcud olmaq

istəyini özündə ifadə edir. Eqosu olan hər bir insan başqası ilə birliyində onda bədəninə əksilik təşkil edən "Mən" olduğunu aşkarlayır. Beləliklə, "Sən"də və ya "O"da Mənin olmasına inam **Alter-Eqo** kimi meydana çıxır. Fiktiv ruhlar qarşılıqlı refleksiyada mövcud olduqlarından Eqo, Alter-Eqo (başqa Eqo və eyni zamanda başqasında "Mən"in Eqosu) kimi təzahür edir.

> ***Haşiyə:*** *E.Levinas - Biri digəri üçün - digərinin onun üçün olması kimi, subyektin heç bir ayrılmaz mövqeyi yoxdur. Başqası mənim başqa Mənimlə yaşamaq kimi dərk edilir, alter-eqo kimi.*

Məhz Alter-Eqo ilə ekzistensiya etmiş ruhlar qarşılıqlı empatiya edərək xarici totallığa meyl edir. Başqa sözlə, insan birliyində hər bir fərdin eqosunun alter-eqo ilə əvəzlənməsi birliyə daxil olmaq vəziyyəti yaradır. Nəticədə, xarici totallığın təşkilində hər bir fraqmentar Ruh Alter-Eqodan azad olur və onlar arasında yaranmış totallıqdan **Eqosentrizm** yaranır. Eqosentrizm - mərkəzdə Mən, ətrafında başqaları olan ən kiçik istəyi özündə təqdim edir. Fiktiv Ruhla eyni məkan və zamanda ekzistensiya etməyən ruhlu insan özündə "O" kimi meydana çıxır. "O" ruhi potensiallığı ifadə edən, lakin "Mən" və "Sən"lə müqayisədə özündə ruhi qeyri-müəyyənliyi saxlayan insandır. "Mən" və "Sən"in ekzistensiyasında "O"nun iştirakı və eyni zamanda qeyri-müəyyənliyi ilə yaranan mövcudluq istəyi **Altruizm** kimi - qeyri-müəyyənə, mənlə sənə birbaşa toxunmayana münasibət meydana çıxır. Biz Səni "nə" insan, "O"nu "nəsə" insan kimi təsəvvürə gətirsək, onda "Mən" insan nəsnəsi - "nə" (yəni sən) ilə "nəsə"nin (yəni "o"nun) vəhdətindən ibarət olur.

Öz eqosu ilə aqreqasiya halında olan insanlar bədəndənkənar kütləvi bədən cismi əmələ gətirir. Hansı ki, **İnsan kütləsi** kimi meydana çıxır. Ruhun belə kütləni refleksiya edib özündə əks etdirməsi **"Kütlə Mən"**ini - Kütlə adamı yaradır. Kütlə məni Real Mənin çoxluğundan abstraksiya kimi - öz kimliyindən uzaqlaşmış Real Mən kimi meydana

çıxır. Beləliklə, kütlə də insan bədənlərinin ümumi cisminin təzahürlərindən biri kimi aşkarlanır.

Cisim insanın ruhunun ekspressiyası **Nekrofiliya** kimi təzahür edir.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *" "Nekrofiliya" hərfən "ölüyə məhəbbət" kimi tərcümə olunur. Adətən bu terminlə seksual perversiya, cinsi əlaqə üçün ölmüş qadının bədənini əldə etməyi və ya meyitlə patoloji yaxın olmağı ifadə edirlər. Nekrofil üçün gücə meyllənmək xarakterikdir. Güc insanı meyitə çevirmək qabiliyyətidir. Nekrofil məhəbbət böyüməyən, mexaniki olana məhəbbətdir. Nekrofili gecə və qaranlıq cəlb edir. İnsanın nekrofilliyini onun xarici təzahürlərindən və jestlərindən aşkarlamaq olar. O soyuqdur, onun dərisi elə bil cansızdır, çox vaxt onun üzünün ifadəsinə baxanda elə bil o pis iy hiss edir. Tamamilə aydındır ki, bu gün çoxlu kişi var ki, daha çox idman maşınları, tele və radioaparat, kosmik uçuş və mümkün texniki oyuncaqlarla maraqlanır nəinki qadınla, məhəbbətlə, təbiətlə və yaxşı yeməklə. Qeyri-üzvi, mexaniki şeylərlə məşğul olmaq onları həyatdan daha çox stimulə edir. Homo mexanikusu mexanika həyəcana gətirir və nəhayət o ölüyə və total dağıdıcılığa meyl edir."*

E.Frommun Nekrofil insan haqqındakı bu fikirlərindən görünür ki, nekrofil bir tərəfdən canlı olan hər şeyə əksilik, cansız olan hər şeyə eynilik təşkil edir. Burada: "ölü" - daxili hərəkətliliyin olmaması və ya sabit zəruri şərtlərdə mövcudluq; "fiziki güc" - cismə xas passiv güc; "mexaniki olan" - xarici hərəkətlilik; "gecə və qaranlıq" - hissəcik təbiətinin, maddənin, materiyanın xüsusiyyətləri; "soyuqluq" - yaranmanın başa çatması və dayanması; "mexanikaya bağlılıq-mexanikanın stimullaşdırması" - cisimlərə və şeylərə bağlılıq, əslində cismi xarakterizə edən anlayışlarla eyni mənalıdır. Buradan da aydın olur ki, nekrofil insan - cismə bağlanan insandır, yəni Cisim İnsandır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Real Mən, Cisim İnsan - Fiktiv Ruhla bədən şeyinin vəhdət təşkil etməsinin şərtlərinin məcmusundan ibarətdir.

Real Mənin ekspressiyası **Narsizm** kimi təzahür edir. Narsizmin ən ümumi mənası özü-özünə məhəbbət və ya özünəvurğunluqdur. Burada "özü" Fiktiv Ruhu yox, insanın fiziki varlığını ifadə edir. Beləliklə, narsist öz fiziki mövcudluğuna bağlanmış fərddir. Biz narsizmi Fiktiv Ruhun cana laqeyd qalmaqla birincili mövcudluqla - cisimlə bağlanması kimi təyin edirik.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *"Yenidoğulmuşun "birincili narsizmi". Yeni doğulmuş hələ xarici aləmə münasibətdə olmur. Yenidoğulmuş üçün xarici aləm yoxdur, istənilən halda o "Mən"lə "Qeyri-Mən" arasında fərq qoymaq vəziyyətində deyil. Yenidoğulmuş üçün yeganə reallıq - o özüdür; onun istiliyi və soyuğu, yuxuya və fiziki təmasa tələbatı, fiziki hiss etməsidir. Dəyərlər nöqteyi-nəzərincə narsizm ağıl və məhəbbətlə toqquşur."*

E.Frommun fikirlərindən də görünür ki, narsizmin əsası fiziki hissdir; hansı ki, cisimlərarası qarşılıqlı təsirlərdən meydana çıxır. Narsizmin məhz Cisim Mənin təzahürü olması, narsizmin ağıl (Ruhun əsas atributu) və məhəbbətlə (canlılığın əsas əlaməti - libido) ilə toqquşmasıdır. Buradan da narsizmi fiziki gücə uyğun təzahür kimi təyin etmək lazım gəlir. Narsizm ağıl və məhəbbətlə toqquşduğundan, o, yaradıcı və canlı deyil. Narsizm özü-özünü refleksiya vəziyyətində meydana çıxır; hansı ki, insanın özünüdərki idrak prosesini üstələyir. İnsanın özünü unutması, özü-özünü yadlaşdırması və yalnız başqalarını düşünməsi də narsizmin başqa bir forması kimi təzahür edir ki, K.Abraham bunu **Neqativ Narsizm** adlandırır. Neqativ narsizm ifadəsindəki "neqativ" sözü təbiəti, kosmosu, bir sözlə pozitivizmin - ağlın, ruhun əksiliyini ifadə edir. Beləliklə, neqativ narsizm xarici cismə vurğunluq kimi təyin oluna bilər.

B. GERCƏK İNSAN - KİMLİK MƏNİ - "CAN İNSAN" (və ya HOMOTRANSİTORİAS) VƏ ONUN TƏZAHÜRLƏRİ

Yaranışın ardıcıllığına uyğun olaraq insan gerçəkliyində Can Varlığı Cisim Varlığının əsasında təzahür edir. Nəticədə canın bütün təzahürləri Real Məndən aydınlaşır. Canlılığın əsas xarakteristikası zamanda özü-özü ilə fərqlilikdən ibarət olduğundan, canlı insanın elə vəziyyəti yoxdur ki, zamanın iki anında eynilik kimi təzahür etsin. Başqa sözlə, canlılıq zamandan asılı olaraq keçid vəziyyətində olmağı, sürəkli dəyişikliyə məruz qalmanı özündə təqdim edir. Biz mövcud insanı *Homotransitorias* - Keçid edən insan adlandırırıq. Canlılıq Real Mənlə şərtlənmiş formada təzahür edir. Buna görə də, canlılığın istənilən təzahürünün əsasını cəsədə xas təzahürlər təşkil edir. İnsan gerçəkliyindən canın reallığı iki fərqli formada - yaş və cinsi fərqliliklər kimi aydınlaşır. Həmin fərqliliklərin hər biri özünəxas "Mən" formasında Ruhda Real Mənin üzərinə proyeksiya edilərək, refleksiya edərək əks olunur. İnsanın Real Məni təkliyi, vahidliyi təzahür etdirir; hansı ki, cisim ölçülüyünün sabitliyinin refleksiyasının əks etdirilməsindən ibarətdir. Real Mənin fərqli yaşlarda və fərqli cinslərdə fərqli təzahürü **Kimlik Məni** kimi meydana çıxır. Yəni kimlik İnsan gerçəkliyində can varlığının iki cür fərqliliyinin bir Real Məndə vəhdəti kimi təzahür edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Kimlik - Real Mənin yaş və cinslə şərtlənməsinin məcmusundan ibarətdir.

Buradan, Real Mən kəmiyyət, Kimlik Məni xalis keyfiyyət kimi aydınlaşır. Hər bir insanda Can Varlığı eyni zamanda, paralel iki kimliklə təzahür edir. Kimlik Məni Real Məni fərqli yaş və cinsə görə təkrarlamasa da, eyni yaşa və cinsə görə təkrarlandığından, xüsusi Mən kimi meydana çıxır və insanın Kimlik Mənindən aydınlaşan həqiqət də buna uyğun xüsusi və ya nisbi həqiqət olur. Başqa sözlə, mütləq orijinal Real

Mən cinsə və yaşa görə təkrarlanmaqla orijinallıqdan azad olub xüsusiləşir. Kimlik Məni iki fərqliliyi ayrı-ayrılıqda təzahür etdirdikdə iki cür Kimlik Məni meydana çıxır: a. Yaş kimliyini (fərqliliklərini) özündə refleksiya edən daxili mən - **Tranzit Mən**. b. Cinsi kimliyin fərqliliyini özündə refleksiya edən daxili mən - **Libido Mən**. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Kimlik Məni - Tranzit Mənlə Libido Mənin Real Məndən təzahürlərinin şərtlərinin məcmusundan ibarətdir.

Canın varlığını təyin etməkdən ötəri bir-biri ilə vəhdətdə təzahür edən fərqli kimliklərin hər birini ayrı-ayrılıqda şərh etmək lazım gəlir.

1. Tranzit Mən və ya Yaş Kimliyi: Yaş kimliyi insan gerçəkliyində - can zamandan çoxparametrli asılılıqda dəyişkən olduğundan - keçici və ya nisbi mənlik kimi təzahür edir.

Haşiyə: V.Frankl, "Naməlum Mən"

> *"Zamanın psixoloji hissi nisbidir. Uşağın günü böyüyün günündən çox uzundur, baxmayaraq ki, hədsiz təhlükələrdə və sevincli anlarda böyüklərdə vaxtın dayanması hissi yaranır. Nə qədər böyük oluruq, bir o qədər intensivliklə istənilən təcrübəyə reaksiya veririk; vaxta görə o bizə çox qısa gəlir. Uşaq üçün gün - bu kiçik sonsuzluqdur və onun hər bir anı - nəhəng hadisədir."*

V.Franklın şərhində qeyd etdiyi "uşaq üçün gün - kiçik sonsuzluqdur" ifadəsində sonsuzluq (əslində zamanın ölçüsüzlüyü, əbədilkdən ibarətdir) metafizik ölçüsüzlük olduğundan, aydın olur ki, uşaq yalnız Fiktiv Ruh kimi mövcud olur və onun idrakında bədən və ətraf iştirak etmir. Buna görə uşağın başlanğıc məkan və zaman qavrayışı metafizik qavrayış kimi özündə metafizik qanunlara əsaslanır. Uşaq üçün həm də yerləşdiyi məkan - kiçik sonsuzluqdur. Nəticədə, uşaq üçün zaman - əbədi, məkan - sonsuz olur. Eləcə də insanlığın uşaqlığı - ibtidai insan üçün də analoji qaydada düşünmək xarakterikdir. Başqa sözlə, uşaq şüuru ilə ibtidai insan şüuru eynilik təşkil etdiyindən, ibtidai insan da metafizik

qanunlarla dünyanı dərk edir və buradan da Mifik Şüur meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Mif - dünyanın metafizik qanunlarla qavranılmasının şərtlərinin məcmusundan ibarətdir.

Böyüklərdə və tarixin sonrakı mərhələlərində, bədənlə Ruh daha sıx əlaqələndikcə (yəni idrak prosesi inkişaf etdikcə), bədənin və ətrafın dərketmədə iştirakı genişlənir. Nəticədə insan kosmik ölçülükdə düşünür, bununla da zamanın əbədiliyindən, məkanın sonsuzluğundan azad olub, məkan və zaman məhdudluğuna - ölçülüyə tabe olur. Buna görə, Yaş Kimliyinin nisbiliyi özündə ayrı-ayrı yaş ölçülüyünün refleksiyasının Real Məndə fərqli əks etdirilməsini təqdim edir. Yəni insan öz bədən ölçülüyünü xarici predmetlərin ölçülüyünə proyeksiya edərək onunla nisbətindən konkret yaşın abstrakt ölçülüyünü əldə edir. Başqa sözlə, eyni bir xarici predmetə fərqli yaşlarda fərqli bədən ölçülüyünün proyeksiyasından fərqli abstraksiyalar yaranır ki, yaş kimliyi məhz bu abstraksiyaları özündə əks etdirir. Buradan da, zaman və məkan ölçülüyü yaş kimliyindən asılı olaraq nisbiləşir. Reallıqda xarici predmetlərdə məkan və zaman ölçülüyü sabit olduğundan, yaş ölçülüyünün nisbiləşməsi öz bədən ölçülüyünün nisbiləşməsinin xarici predmetlərə proyeksiyasından aydınlaşmasının aşkarlanmasıdır. Canlılar məkandan birmomentli-birparametrli, zamandan birmomentli-çoxparametrli asılı olduğundan, zamanın dəyişilməsi ilə bədənin məkani ölçüləri sabit məkani şərtlərdə də dəyişilir. Bunu sxematik olaraq belə təsəvvür etmək olar: ZM---Z1M-Z2M-Z3M--. sonluq. Hər bir zaman kəsiminin insanın sonsuz məkani ölçülüyünü xüsusi ölçülərdə sonlu olaraq dəyişdirməsindən ayrı-ayrı yaş dövrlərinə xas bədən ölçülüyü meydana çıxır ki, buradan da Real Mənin həmin yaş ölçülüyünü özündə refleksiya edib əks etdirməsindən Yaş Kimliyi - Tranzit Mən aşkarlanır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Tranzit Mən - fərdin dəyişən yaş şərtlərinin məcmusundan ibarətdir.

Tranzit Mən müvəqqəti və keçicidir; müxtəlif yaşlarda bir-birindən fərqli kimliklər kimi meydana çıxır. Yaş Kimliyi (yaş) keçici olduğundan, onun Ruhda refleksiyası daimi olmur. Hər bir yeni yaş kimliyi özündən əvvəlkini inkar etməklə aydınlaşdığından, uyğun olaraq özündən əvvəlki yaş kimliyinin refleksiyasını da inkar edir. Nəticədə, Ruh əvvəlki yaş kimliyini özündən çıxarıb atır və yeni kimliyi onun yerində refleksiya edir. Beləliklə, Real Mənin ayrı-ayrı yaş dövrlərində xüsusi əlamətlər göstərməsi Tranzit Mən kimi meydana çıxır. Tranzit Mənin təzahür formaları uşaqlıq, gənclik, qocalıq və s. kimi Real Mənin xüsusi halları özündə təqdim edir; hansı ki, yalnız canlılığın Ruhda refleksiyasının əks olunması kimi aşkarlanır. Yəni zamanın ayrı-ayrı kəsimindəki ölçü, özündən əvvəlki və sonrakı ilə fərqlilik, özü-özü ilə eynilik təşkil etməklə Tranzit Məni yaradır. Tranzit Məndən iki yolla həqiqət aydınlaşır:

a. Fərqli Real Mənlərin eyni bir Tranzit Mənindən aydınlaşması: Həqiqət eyniliklərdən aşkarlandığından, fərdin xüsusi can varlığından ayrı-ayrı Tranzit Mənlərin həqiqətini aşkarlamaq qeyri-mümkündür. Bunun əksinə, ayrı-ayrı Tranzit Mənlərin həqiqəti eyni yaş kimliyində olan Müxtəlif Real Mənlərdən aşkarlanır ki, bu da Tranzit Mənin normaları kimi abstrakt təzahürlərdən ibarət olur. Biz bunu **Yaşdaşlıq** kimi qavrayırıq. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Yaşdaşlıq - müxtəlif Real Mənlərin Tranzit kimliklərinin şərtlərinin məcmusundan ibarətdir.

b. Eyni Real Mənin Fərqli Tranzit Mənlərindən aydınlaşması: Həqiqət həm də vəhdətdən aşkarlandığından, eyni bir Real Mənin fərqli Tranzit Mənlərinin vəhdətindən konkret fərdin Tranzit Mənlərinin ümumi həqiqətini aşkarlamaq olar. Tranzit Mənlərin eyni bir Real Məndən aydınlanması fərqli Tranzit Mənləri vəhdətə gətirir. Yəni bir-birini inkar

edən Tranzit Mənlər vahid bir Mən kimi təzahür edir. Biz bunu **Daxili Müasirlik** kimi qavrayırıq. Müasirlik - müxtəlif yaşdan olan insanların "burada və indi" prinsipi ilə mövcud olmasını özündə ifadə edir. Daxili müasirlik eyni bir fərdin ayrı-ayrı yaş kimliklərinin bir Real Məndə "indi və burada" prinsipi ilə mövcud olmasını özündə ifadə edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Daxili müasirlik - eyni bir Real Mənin müxtəlif Kimlik Mənlərinin şərtlərinin məcmusundan ibarətdir.

Yəni, hər bir fərdin uşaqlığı, gəncliyi və qocalığı daxildə bir Real Məndə proyeksiya olduğundan, bir-biri ilə müasirlik təşkil edir. Belə müasirliyə görə Real Mən öz uşaqlığı, gəncliyi və qocalığını bir-biri ilə əlaqələndirə bilir.

> ***Haşiyə:*** *A.Adler, "İnsan təbiətini anlamaq" - Psixi təzahürləri heç bir halda ayrılıqda analiz etmək olmaz, xüsusən - onlara bir tamın hissələri kimi baxılmasa, hətta başa düşmək olmaz.*

A.Adlerin də qeyd etdiyi kimi, ümumi insan yalnız psixi təzahürlərin məcmusundan bir tam kimi aşkarlana bilər. Tranzit Mənlərin məcmu həqiqəti ayrıca bir fərdin vahid həyatından, həmin fərdi həyatların məcmusundan isə Ümumi Can Varlığının ən ümumi Tranzit Məni aşkarlanır. Sonuncu özündə növün həyatını təqdim edir; hansı ki, canlı varlığın xalis varlıq təyini məhz növdə aydınlaşır.

2. Libido Mən - Cinsi Kimlik: Canlıların mövcud varlığında Canın xalis varlığı Cismin xalis varlığından dolayısı ilə aşkarlandığından, canlılarda bir substansiya iki müxtəlif məkani ölçülükdə - əks cinslərdə meydana çıxır. Canın bir-birinə əks iki müxtəlif cinsdə meydana çıxması, Ruhun hər bir cinsi fərqli varlıqlar kimi özündə refleksiya edib əks etdirməsi Libido Məni təzahür etdirir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Libido Mən - cinsi fərqliliyin şərtlərinin məcmusundan ibarətdir.

Libido Mən cinsi mənsubiyyət kimi təzahür edir. Cinsi mənsubiyyət insanın öz substansiyasının eyniliyini, formanın müxtəlifliyinin bir tərəfi ilə vəhdətini özündə refleksiya edərək əks etməsindən yaranır. Yəni eyni bir Fiktiv Ruh erkəkliyi bir cür, dişiliyi başqa varlıq forması kimi təzahür etdirir. Erkəkliyin ruhi refleksiyasının əks olunmasından **Kişilik**, dişiliyin ruhi refleksiyasının əks olunmasından **Qadınlıq** aydınlaşır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Kişilik - erkəkliklə Fiktiv Ruhun şərtlərinin; Qadınlıq - dişiliklə Fiktiv Ruhun şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, qadınlıqla kişiliyin substansiyası - eyniyyət (insanlıq kimi), formaları - fərqlilik nümayiş etdirir. Nəticədə, eyni Fiktiv Ruh ayrı-ayrı cinslərdə fərqli təzahürlər göstərir ki, buradan Cinsi Kimlik - Libido Mən meydana çıxır. Libido Mən öz fərqliliyini xarici aləmə proyeksiya edir və xarici aləmin idrak edilməsində də bu fərqliliyə görə cinslər arasında fərqlilik yaranır. Beləliklə, sanki eyni bir insan gerçəkliyi can varlığında iki müxtəlif gerçəklik kimi mövcud olur. Yalnız Ruhun təkmilləşməsi ilə insan cinsi kimliyi öz Real Mənindən süni yollarla kənarlaşdırmaq imkanı əldə etdikcə, Can Varlığında meydana çıxan Libido Mənlər arasında fərqliliklər azalır. Libido Mənlər arasında fərqliliklərin azalmasının bir yolu da libidoz enerjinin (bədənin Libido Məninin əsasını təşkil edən enerjinin) bədəndən xaricə çıxarılmasından - ekspressiyasından ibarətdir. Libidonun ekspressiyası ilə onun Fiktiv Ruha daxili təsiri zəifləyir; nəticədə yaradıcı şəxs yaradıcılıq prosesində "cinssizləşir". Libido enerjinin Fiktiv Ruhun iştirakı ilə bədəndən kənara axıdılması ilə **Mədəniyyət** yaranır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Mədəniyyət - libidonun bədəndən kənar Fiktiv Ruh tərəfindən formalaşdırılmasının şərtlərinin məcmusundan ibarətdir.

Mədəniyyət vasitəsilə Fiktiv Ruh bədəndənkənar faktiki ruhi varlığını yaradır; hansı ki, daxili formal ruhi varlıqla - Xalqla vəhdətdə Ruhun mövcud varlığını təşkil edir. Beləliklə, mədəniyyət özündə

bədəndənkənar Vahid Libido Məni - bədənin cinsi fərqliliyindən azad edilmiş insan gerçəkliyinin, ümumi can varlığının təzahürü kimi meydana çıxır.

Yaş kimliyindən fərqli olaraq, Cinsi Kimlik formaca sabit, mahiyyətcə dəyişkəndir. Yəni cinsi kimliyin forması fərdin bütün ömrü boyu dəyişmir, amma mahiyyəti yaş kimliyi ilə şərtlənərək təzahürlərini dəyişir. Cinsi kimliyin forması ilə mahiyyətinin vəhdətinin dəyişkən olmasına görə qeyri-təbii cinsi meyllər meydana çıxır. Halbuki yaş kimliyində forma ilə mahiyyətin vəhdəti paralel inkişaf etdiyindən qeyri-təbii yaşlılıq meydana çıxmır. Beləliklə, can kimlikləri birlikdə - Real Məndə, ayrılıqda - Cinsi Kimlik həm də Yaş Kimliyindən şərtlənmiş formada aydınlaşır.

Haşiyə: V.Frankl, "Naməlum Mən"

> *"İnsanın seksual həyatının ən diqqətəlayiq cizgisi odur ki, aralarında interval olan iki dalğa ilə inkişaf edir. Birinci cinsi seksuallığın dərki uşağa həyatının 4-5-ci illərində gəlir. Amma bu erkən inkişaf rüşeym halında, fizioloji başa çatmağa qalmış qarşısı kəsilir: əks cinsdən olan valideynə seksual meyl boğulur və cinsi yetkinlik dövrünədək gizli dövr başlayır."*

V.Franklın qeyd etdiyi seksuallığın boğulması özündə Can Varlığının yaş kimliyi ilə cinsi kimliyinin şərtlənməsini ifadə edir. Belə ki, seksuallığın erkən dərki xalis forma ilə - uşağın öz xarici görüntüsünün əks cinsdən fərqliliyini dərk etməsi ilə özünü ondan ayırması ilə bağlıdır. Və bu cür seksuallığın dərki xalis forma ilə bağlı olduğundan heçlikdir və V.Frankl bunu seksuallığın boğulması adlandırır. Hansı ki, əslində heç bir boğulma baş vermir, sadəcə Ruh bədənin heçliyini özündə refleksiya edərək, özündə heçliyi əks etdirir. Biz bunu **Yalançı Seksual Kimlik** adlandırırıq.

Yalançı seksuallıqda seksual kimlik passiv güc kimi təzahür edir və Real Mənin təzahürünə təsir etmir. Real Mən özündə özünəxas təzahürlər

göstərir. Cinsi yetkinlikdən sonra Seksual Kimlik Real Mənin təzahürlərini dəyişdirir və nəticədə ayrı-ayrı cinslərə müvafiq fərqli Real Mənlər təzahür edir. Biz Real Mənin cinsi kimlikdən asılı olaraq təzahürünü **Həqiqi Seksual Kimlik** adlandırırıq. Həqiqi seksual kimliyin iki formasını aşkarlamaq olar: **a. Paralel Həqiqi Seksual Kimlik:** Belə seksual kimlikdə erkək fərd öz həmcinsləri ilə paralel olaraq eyniyyət təşkil edərək öz erkəkliyini psixologiyada refleksiya edərək kişiliyi təzahür etdirir. Buna uyğun, dişi fərd qadınlığı təzahür etdirir. Paralel Həqiqi Seksual Kimlikdə hər bir cins özünü əks cinsdən mövcud varlığına görə, yəni həm substansiyasına, həm də formasına görə fərqləndirir. **b. Çarpaz Həqiqi Seksual Kimlik:** Real Məndə öz cinsi kimliyinin çarpaz eyniləşdirilməsinin refleksiyasından Çarpaz Həqiqi Seksual Kimlik təzahür edir. Çarpaz seksual kimlikdə fərd öz məninin substansiyasını əks cinsin forması ilə eyniyyətini yaradır, əvəzində öz mövcud cinsi eyniliyini fərqlilik kimi özündə əks etdirir. Nəticədə fərdin erkəkliyi - qadınlıq, fərdin dişiliyi - kişilik kimi təzahür edir. Çarpaz həqiqi seksuallıqda seksual meyl əks cinsə yox, özünün əks cinsin forması ilə substansiyanın vəhdətini təşkil etdiyindən, öz cinsinə meyllə xarakterizə olunur. Çarpaz həqiqi seksuallıq homoseksuallıq və lesbianlıq kimi təzahür edir.

Həqiqət substansiyadan aydınlaşdığından, Həqiqi Seksual Kimlik cinsi forma ilə substansiyanın vəhdətindən meydana çıxır. Substansional müstəvidə (Ruha proyeksiyada) seksual kimlik vahid bir təzahür kimi Kişilik və ya Qadınlıq; forma müstəvisində erkəkliyin və ya dişiliyin xarici əlamətləri, həmin əlamətlərin simvolları, həmin əlamətlərin xarici predmetlərə obyektivizasiyası və proyeksiyasından meydana çıxan mədəniyyət nümunələri, sosial rollar və s. kimi təzahür edir. Kişiliyin xarici totallığı bütünlükdə **Patriarxat** (Padərşahlıq), Qadınlığın xarici totallığı **Matriarxat** (Madərşahlıq) kimi aydınlaşır ki, bilavasitə cinsi varlığın tarixin yaranmasında rolunu özündə təqdim edir. Cinsi kimliyin

refleksiya etdiyi xarici totallığı, həmin totallıqda fərdə xarici cinsi kimlik donu geyindirir. Buradan da, cinsi kimliyin formalaşmasının mədəniyyətlə əlaqəsi meydana çıxır.

Ölçülüyün özündə qurtarması sonluğu ifadə edir. İnsan cismə paralel can olduğundan və onda məkani ölçülər zamanla şərtləndiyindən, zamanın hər bir anında xarici şərtlərin sabitliyində belə fərqli məkani ölçülərdə aydınlaşma baş verir. Bunu sxematik olaraq aşağıdakı kimi təsəvvür etmək olar:

1. Cismin məkani ölçülüyü: ZM = ZM = ZM = ZM = ZM. sonsuzluq.
2. Canlı cismin məkani ölçülüyü: ZM - Z1M - Z2M - Z3M - Z4M. sonluluq.

Beləliklə, canlı varlıqlarda cisimlərin sonsuzluğu canlılığın sonluğu ilə vəhdət yaradır. Sonlu, sonsuzluqla ziddiyyət təşkil etdiyindən, bu vəhdət müvəqqəti olur; buradan da fərdin konkret yaşam müddəti - Ömür təzahür edir. Beləliklə, insan varlığında Can Varlığının birinci definisiyası kimi "canlılarda məkani ölçülüyün müvəqqəti olmasını" aşkarlayırıq.

İnsan gerçəkliyində Can Varlığının zaman-məkan ölçülüyü iki cür meydana çıxır:

a. Anadan olandan cinsi yetkinliyə çatanadək hər iki cins üçün eyni olan zaman-məkan ölçülüyü. Fərdi həyatın birinci 9-12 ilində hər iki cinsin cinsi fərqliliyi xalis forma kimi özü-üçün-varlıq təyinindən formal olaraq təzahür etdirdiyindən, heçlik kimi fərddən təzahür etmir.

b. Cinsi yetkinlikdən klimakterik dövrədək (45-55 yaşlarınadək) olan fərqli zaman-məkan ölçülüyü. Cinsi yetkinlikdən klimakterik dövrə qədər fərqli cinslərin daxili hormonları fərqli olduğundan, daxili **Maksvel İblisləri** kimi cinsi kimliyi fərqli istiqamətlərdə entropiyaya məruz qoyaraq, hər iki cinsin substansiyasını bir-birindən fərqləndirir. Nəticədə, cinsi fərqlilik faktiki formadan, substansiya ilə vəhdət təşkil edən forma-

dan təzahür edərək, onları bir-birindən hətta iki fərqli canlı növü səviyyəsinədək fərqləndirir.

c. Klimakterik dövrdən sonra hər iki cins üçün eyni olan zaman-məkan ölçülüyü. Daxili Maksvel İblisləri öz fəaliyyətlərini dayandırdıqdan sonra yenidən hər iki cinsi substansional eynilik təşkil edir və cinsi fərqlilik formal olaraq yalnız formada ifadə olunduğundan heçlik kimi təzahür etmir.

Ruhla Canın qarşılıqlı əlaqəsində xarici reallıqların inikasından **Psixologiya** təzahür edir. Psixologiya Fiktiv Ruhun bədənlə şərtlənmiş mövcudolmasının qanunlarından ibarətdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Psixologiya - bədən kimliklərinin Fiktiv Ruhda refleksiyasının şərtlərinin məcmusundan ibarətdir.

Can İnsanın Fiktiv Ruhunun ekspressiyası **Biofil** kimi təzahür edir.

Haşiyə**:** E.Fromm, "İnsanın ruhu"

> *"Biofil - həyatsevərin elementar forması, istənilən canlı materiyaya xas olan, həyatı saxlamaq meyli və ölüm əleyhinə mübarizədir. Necə ki həyatı saxlamaq meylindən və ölümə qarşı mübarizədən söz gedir, bu yalnız bu həyata cəhdin bir aspektini təqdim edir. Digər aspekt, daha pozitiv, canlı substansiyanın inteqrasiyaya və birləşməyə meylindən ibarətdir; o birləşmə meyli və quruluşa uyğun böyümək meyli aşkarlayır. Birləşmə və birgə böyümə həyatın bütün prosesləri üçün xarakterikdir. İnsan həyatının məqsədi canlı olan hər şeyə meyl etmək və hər cür ölüdən və mexaniki olandan imtina etməkdir.*

E.Frommun fikirlərindən göründüyü kimi, biofiliya insanın canlı olanlara, həyata bağlılığını özündə ifadə edir; hansı ki, istənilən canlı varlıq üçün və bütünlükdə həyat üçün xarakterikdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Biofil İnsan, Can İnsan - Fiktiv Ruhla Canın vəhdət təşkil etməsinin şərtlərinin məcmusundan ibarətdir.

Biofilliyin hissi ekspressiyası ən müxtəlif məhəbbət formaları kimi çıxış edir. Məhəbbət - bir fərdi digər fərdlərlə bağlayan, dəyişən zəruri şərtlərdə onlarla birliyini təmin edən canlılığın xüsusi hissidir.

C. İDEAL İNSAN - SUBYEKTİV MƏN - "RUH İNSAN" (və ya FORMAL İNSAN) VƏ ONUN TƏZAHÜRLƏRİ

Formal Ruhun eyni zamanda müxtəlif yerlərdə (bədənlərdə) olması ilə təzahürünü biz **Subyektiv Mən** kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Subyektivlik - konkret bədəndən aşkarlanan (yəni həm var olan və eyni zamanda müstəqil aşkarlanmayan, yəni yox olan), eyni zamanda müxtəlif bədənlərdə və eyni bir bədəndə müxtəlif zamanlarda aşkarlanan Formal Ruhun təzahürlərinin məcmusundan ibarətdir.

Başqa sözlə, subyektivlik metafizik qanunlara tabe olan varlığın, kosmik qanunlara tabe olan mövcudluqlarla əlaqələnməsindən meydana çıxır. Subyektiv Mən Aristotelin təbirincə "özü-özünə görə" insandır, yəni öz daxilində mövcud olan insan. Öz daxilində olmaq ekzistensiya etməmək və ekspressiya olunmamaq və buna görə də entropiyaya uğramamağı, buna paralel bədənlə asılılıqdan azad, özü-özündə xalis mövcud olmağı təqdim edir. Belə bir vəziyyətdə Fiktiv Ruh **İdeal İnsan**ı özündə təqdim edir. İdeal İnsan ekzistensiya və ekspressiya ilə kənara çıxarılmadığından, Mücərrəd Məndir. Biz "Ruh İnsan" kimi hər cür fiziki və bioloji təzahürlərdən təmizlənmiş, yalnız azad şəkildə Ruhun xalis varlığına uyğun əlamətlərlə aşkarlanan mövcud olan insanı nəzərdə tuturuq. Ruh İnsan - bədənsiz təsəvvürə gətirilən insandır. Hansı ki, mövcud insana xas heç bir əlamətə, xarakteristikaya malik deyil və buna görə də mücərrəd insandır. Başqa sözlə, "Ruh İnsan" cisim və canla əlaqələnməmiş, yalnız fiktiv ruhlararası əlaqədən meydana çıxan insandır. Biz Ruh İnsanı *Homofil* (insan sevən) adlandırırıq. Buradan aşağıdakı ideya aşkarlanır:

Ruh İnsan, Homofil - Fiktiv Ruhla Formal Ruhun vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *"İnsan özünün tam yetkinliyinə onda çatır ki, o tamamilə öz fərdi və ictimai narsizmindən azad olsun. Nəhayət, azadlıq biofilin inkişafı üçün vacib müddəadır. Əgər həyata məhəbbətin inkişafı haqqında danışılırsa, onda "nə üçünsə azadlıq"dan da danışmaq lazımdır, yaratmaq və qurmaq azadlığından."*

E.Frommun şərhində Fiktiv Ruhun Formal Ruhla bağlılığını ifadə edən ayrıca anlayış yoxdur. Buna görə də, bizim homofilə aid xarakteristikalar hesab etdiklərimizi biofilə aid edir və bizə görə yanlış nəticələr çıxarır. "Yaratmaq və qurmaq azadlığı" heç bir canlıya aid xarakteristika ola bilməz. Bəli, canlılar da "yaradır və qurur", amma heç bir canlı öz quruculuğunda azad deyil. Azadlıq yalnız metafizik xarakteristika kimi Ruha xasdır. Ona görə də, Ruhun yaratmaq və qurmaq qabiliyyəti azadlıqla bağlıdır. Fərdi və ictimai narsizmdən azad olan insan İnsanlıq Narsizminə yiyələnir. E.Fromm belə hesab edir ki, əgər qrup narsizminin predmeti ayrı-ayrı xalq, irq və ya siyasi sistem yox insanlıq, bütün insanlıq ailəsi olarsa, güman ki, çox şeyə nail olmaq olar. İnsanlıq narsizmi Fiktiv Ruhun Formal Ruha bağlılığından meydana çıxır ki, insanı xalis subyektiv varlıq kimi təzahür etdirir.

İnsan reallıqlar aləmində - təcrübədə mövcud olduğundan, təcrübə isə fiziki və bioloji mahiyyətdən təşkil olunduğundan, insan İdeal Varlığına yalnız təcrübədən kənara çıxmaqla - **transendensiya** etməklə çata bilər. Beləliklə, biz İdeal İnsanı həm də **Metafizik İnsan** adlandıra bilərik. Hansı ki, özü-özünə görə insanlığı - immanent insanlığı - özündə xalis Ruh kimi təqdim edir.

Bəs özü-özündən ekzistensiya edən insan, yəni Ruhun mövcudolması (Ruhi Akt) özündə nəyi təqdim edir? Hər bir mövcud faktla onun mövcudluq aktı eyni bir xüsusi qanunauyğunluqlara tabedir. İstər cismin

fiziki qanunları, istər canın bioloji qanunları, özündə belə bir həqiqəti aydınlaşdırır ki, mövcudolmanın tabe olduğu qanunlar mütləq şəkildə faktın mövcudluğunu inkar etməsin. Yəni mövcudolma elə qanunlara tabe ola bilməz ki, mövcudluq bunun əsasında inkar olunsun. Riyaziyyat bu asılılığı mücərrəd şəkildə "arqument və funksiya" kimi müəyyən etmişdir. Beləliklə, mövcudluq - arqument, mövcudolma - funksiyadır və arqumentin ixtiyari hər hansı dəyişilmələrində funksiya dəyişilir. Arqumentin dəyişilmələri azadlıq prinsipinə tabe olur. Əksinə, funksional dəyişilmələr azad deyil və arqumentin mövcudluğu ilə sərhədlənmişdir; yəni funksiya asılılıq prinsipinə tabedir. Beləliklə, reallıqlar azadlıqla asılılığın vəhdətində mövcud olurlar.

Ruhi Faktın və Ruhi Aktın (Subyektiv Mənin) tabe olduğu qanun-auyğunluqlar cismin və canın qanunauyğunluqlarından fərqlənir. Belə ki, cismin və canın qanunları başlanğıc səbəbdir; yəni əvvəl qanunlar, sonra onun əsasında mövcudluq və mövcudolma üsulu yaranır. Ruh mümkünlük kimi mövcud varlıqla şərtləndiyindən və ikincili təzahür etdiyindən, əvvəl Subyektiv Mənin real mövcudluğu, sonra onun öz xüsusi qanunları meydana çıxır. Yəni Ruh öz mövcudolmasının məc-musundan öz mövcudluğuna cəhd edir. Bütün yaradılmışların qanunu (mütləq həqiqəti) metafizikada olduğundan, Ruh öz qanunlarına uyğun mövcud olmaq üçün metafizikaya transendensiya vəziyyətində mövcud olur. Buradan da, "Ruh İnsanı" biz **Transendental İnsan** kimi də təyin edə bilərik. Başqa sözlə, Subyektiv Mən təbiət sferasında aşkarlanmayan, yalnız transendensiya üsulu ilə aşkarlanan transendental varlıqdır. Ruh transendensiya ilə əldə etdiyi öz təbiətinin qanunlarını ekzistensiya edərək özündənkənara çıxarır; hansı ki, digər Fiktiv Ruhlarla eyni za-manda özündənkənar varlıq kimi həmin qanunları əxz edərək, ona uyğun mövcudluğa cəhd edir. Təcrübə sahəsində mövcud olan hər şey bir mümkünlüyün ayrı-ayrı mövcud varlığa çevrilməsi ilə mövcuddur; bütünlükdə hissi qavranılan maddi şeylərin ən ümumi qanunauyğunluğu,

həmin mövcudluqların hamısı üçün ən ümumi olan həqiqətdir. Ruh reallıq kimi mövcud olmadığından, o, eyni zamanda özünün mümkünlüyünün bütün imkanlarına uyğun mövcudluğa çevrilir. Ona görə də, Ruhun ən ümumi qanunauyğunluğu Ruhun insanlıq tarixində aldığı bütün mövcudluq formalarının məcmusundan aşkarlanır. Beləliklə, ən ümumi həqiqət obyektiv varlıqlardan üfüqi xətt üzrə (məkan oxu üzrə), Ruhi Varlıqlardan isə şaquli xətt üzrə (yəni zaman oxu üzrə) aşkarlanır.

Ruh öz mümkün varlığının ən ümumi qanunlarını (mövcudluğu potensial, mövcudolması aktual olan varlıq kimi) reallıqlardan fərqli olaraq, aktdan fakta doğru inkişaf edir. Buradan da, biz Ruhun mövcudolmasının qanunauyğunluğunu belə təyin edə bilərik: Subyektiv Mən elə mövcudolma üsulu seçməlidir ki (Ruh mümkün varlıq olduğundan o ən müxtəlif mövcudolma üsulu seçmək imkanına malikdir - məsələn, təbii vəziyyət, sosial vəziyyət və s.), onun məcmusu özündə Vahid İnsanlıq Ruhunun mövcudluğunu - İnsanlığı nümayiş etdirsin. Məsələn: əgər insan öz təbii vəziyyətinə qayıdırsa və ya müvəqqəti olaraq belə vəziyyətə düşürsə, onda ondan Ruhun heç bir əlaməti təzahür etmir. Beləliklə, Ruh digər varlıqlardan fərqli olaraq özü-özünün qanunlarını müəyyən etməyə və həmin qanunların məcmusundan aydınlaşmağa məhkum edilib. Ruhun Subyektiv Mən kimi tabe olduğu qanunlar, azad Ruhun mümkünlüyünün yalnız bir imkanı ilə - mövcud varlıqla şərtlənməsinə imkan verən mümkünlüyü ilə şərtlənmişdir; hansı ki, insanı təsadüflərə görə mövcudolmadan, zərurətə görə mövcudolmaya məcbur edir.

Subyektiv Mənin Təzahürləri:

a. Əxlaq: Biz əxlaqı Ruhun radial enerji formasında qurulma qanunları kimi təyin edirik. Əxlaq ictimai münasibətlərə daxil olan aktiv Fiktiv Ruhun qurulma qanunları kimi mövcuddur. Ruh metafizik varlıq olduğundan, əxlaq da metafizik qanunlar kimi mövcuddur. Buna görə də, əxlaq daxili norma kimi, bunun əksinə Ruhun formal varlığının

qurulmasının xarici normaları **Qanun və Hüquq** kimi çıxış edir. Beləliklə, Əxlaq - daxili qanun, Qanun - xarici əxlaqdır. Əxlaq - metafizik, qanun - kosmik normadır. Ruhun qanunları - təsadüflərdən zərurətə, mütləq azadlıqdan qarşılıqlı asılılığa keçidi - ruhi mövcudolmanın tabe olduğu bütün qanunauyğunluqlar Əxlaq adlandırılır. Əxlaq Ruhun tabe olduğu və metafizikadan əldə etdiyi qanunların məcmusudur; hansı ki, ona uyğun mövcud olmaqla ruhi mövcudluğa çevrilir. Ruhun qanunları aktuallaşmadan meydana çıxdığından, əxlaq anadangəlmə yox, qazanılma prinsip kimi mövcuddur. Əxlaq Subyektiv Mənin mövcudluğunun elə qaydalarıdır ki, yalnız bu qaydalar əsasında Ruhun Formal Varlığı bir tam, vahid kimi hər bir Fiktiv Ruhun mövcudluğundan təzahür edə bilir. Bu qaydalar fəlsəfədə **Etika** elmi tərəfindən öyrənilir. Etika - Subyektiv Mənin İlahi təyinata uyğun mövcudolma qanunlarını öyrənən elmdir. Etika həm də sosial elmlər - psixologiya, sosiologiya, polemologiya, tarix və nəhayət fəlsəfə tərəfindən öyrənilir. Psixologiya və tarix fərddə və insanlıqda əxlaqi ideyaların əmələ gəlməsi, inkişafı və dağılması ilə maraqlanır. Filosof isə əksinə, əxlaqi ideyalara onların əmələ gəlməsi, inkişafı və dağılmasından baxmır. Filosof üçün əxlaqiliyin mövcudluğu şübhəsizdir, amma o, aşkarlanmağa və haqq qazanmağa möhtacdır: filosof üçün əxlaqiliyin mövcudluğunu mümkün edən şərtləri açmaq və onun əhəmiyyətini təyin etmək lazımdır. Əxlaqi məsələlərlə məşğul olduğundan, filosof öz vəzifəsini - əxlaqi ideyaları xarici seyrlə öyrənən psixoloqdan və tarixi hadisələrdən dolayısı ilə əxlaqi ideyaların inkişafı haqqında bilgi toplayan tarixçidən - tamamilə başqa cür görür: vaxtın əvəzlənməsi ilə dəyişən mahiyyəti ilə əxlaqi aləm, fiziki və əqli aləmdən fərqli anlaşılmalıdır. İnsan vicdanında yerləşən vəzifələndirmə, etik formanın icbariliyi ağlın işığı qarşısında bəraət qazanmalıdır və ya onların illüzor xarakteri göstərilməlidir. Başqa sözlə, insan vicdanında yerləşən, vaxta görə dəyişən əxlaqi qaydalar və əxlaqi qaydaların mövcudluğunu mümkün edən şərtlərin və bu qaydaların icbariliyi ağlın işığında (yəni

xalis zəkada) aşkarlanması Etikanın predmetini təşkil edir. Beləliklə, Ruhun mövcudluq qanunlarının cismin qanunlarından fərqli olaraq, vaxta görə dəyişkən, amma bu cür dəyişkən qanunlarla mövcud olan canın qanunlarından fərqli olaraq təkrarlanmayan olduğu, və buna paralel bu qaydaların zərurətə görə mövcudluğu (yəni immanentliyi) və bu qaydaların yalnız xalis zəkada aşkarlanmasının mümkünlüyü aydın olur. Beləliklə də, Ruhun mövcudluq qanunları - əxlaq, metafizikanın tədqiqat obyektinə çevrilir.

Haşiyə: Aristotel, "Etika"

> *"Fəaliyyətlə həyata keçirilən, onun özü naminə, başqa məqsədlərə isə ona görə bizim cəhd etdiyimiz məqsəd varsa, əgər biz başqasına görə hər şeyə cəhd ediriksə, onda aydındır ki, məhz bu xeyir və şərdir. Onun idrakı həyat üçün əhəmiyyətlidir. Digər bütün elmlərin məqsədini əhatə edən və özündə insanlığın ən ali xeyrini saxlayan, baxmayaraq ki, ayrıca şəxs və insan üçün eynilik təşkil edir, daha böyük iş olacaqdır, tamamilə çatılmalıdır və dövlətin xeyri xilas edilməlidir. İnsanın təbiətdə təyini varmı?. İnsanın təyini ağıllı fəaliyyətdir və ya ən azından ruhun ağılsız fəaliyyəti deyildir. Psixi xeyir - ən əhəmiyyətlisidir və biz onları üstünlüklə xeyir adlandırırıq. Fəaliyyət və psixi enerjini ruh mahiyyəsinə aid edirik. Məqsəd müəyyən fəaliyyətdən və enerjidən ibarətdir, bu yolla məqsəd ruhi xeyirlərin sıralarına yerləşdirilib, nəinki xaricə. İnsan həyatı kifayət qədər müxtəlif, tez-tez böyük, tez-tez kiçik təsadüflərlə doludur. Əgər ləyaqətə uyğun xoşbəxtlik ruhi fəaliyyətdədirsə, onda biz ləyaqəti tədqiq etməliyik; yalnız onda ola bilsin biz xoşbəxtliyin təbiətini başa düşə bilərik. Ləyaqətliliyin birini biz dianoetik (intellektual), digərini etik (iradəvi) adlandırırıq. Müdrikliyi, ağıllığı və fərasətlə ağıllı düşünməni dianoetik, əliaçıqlığı və aza qane olmağı etikaya aid edirik."*

Aristotelin etika haqqında baxışlarından aydın olur ki, o, insanın məqsədləri haqqında elə bir məqsəd müəyyən edir ki, insan ya birbaşa o məqsəd naminə, ya da dolayısı ilə başqa məqsədlərə o məqsəd naminə

cəhd edir. O, bu məqsədi hər bir fərd, dövlət və bütün insanlıq üçün eyniyyət təşkil edən xoşbəxtlik və ya xeyir kimi müəyyən edir. Aristotelə görə xeyirlər içərisində ən əhəmiyyətlisi **psixi xeyir**dir; hansı ki, psixi xeyirin enerjisi Ruhun enerjisini təşkil edir. Bundan başqa, Aristotel həm də insanın təyini kimi ağıllı fəaliyyəti, onun ruhi fəaliyyətini ləyaqətə görə xoşbəxtlik kimi təyin etmişdir. Beləliklə, Subyektiv Ruhun metafizik noumeni kimi psixi xeyri və ya ruhi xeyri təyin edə bilərik. Təbiətdə real xeyir və şər yoxdur. Xeyir və şər Ruhun şeyə keçici münasibətidir. Buna görə də, məkan və zaman şərtlərindən asılı olaraq dəyişkən və nisbidir. Məsələn: İlan zəhəri dərman kimi xeyir, amma xalis zəhər kimi şərdir. Amma bundan fərqli olaraq, psixi xeyir metafizik olduğundan mütləqdir; o, dəyişilməyə, inkişafa və dağılmağa məruz qalmır.

Buradan da, Aristotelin fikirlərini ümumiləşdirərək deyə bilərik ki, Ruhi fəaliyyətin məqsədi insanın bilavasitə cəhd etdiyi, hər bir fərd, dövlət və insanlıq üçün eyniyyət təşkil edən psixi xeyrə ağıllı fəaliyyətlə çatmaqdır. Hansı ki, bu yolda o çoxlu sayda tez-tez rast gəldiyi böyük və kiçik təsadüflərlə - özünün mümkünlüyü ilə üzləşir. İnsan bu təsadüflərdən öz məqsədinə uyğun gələn yalnız birini reallaşdırmaqla öz nisbi mövcudluğuna cəhd edir. Metafizika fəlsəfədən fərqli olaraq əxlaqi qaydaların ilkin başlanğıcını, onun digər qaydalardan fərqli təbiətə - mövcud insana daxil olmasını, yəni metafizikadan təcrübəyə transendensiyasını öyrənir. Bura çoxsaylı təsadüflərdən ruhi immanentliyə nail olmağın yolları, vicdanın mahiyyəti və yaranması səbəbləri və həqiqi xoşbəxtliyin təyin olunması və ona çatılması məsələləri daxildir.

Transendental fəlsəfə bütün əxlaqi nizamın və kamilliyin məcmusundan, yəni Ruhun təbiətindən Allah ideyasını aşkarlamağı **Etikoteologiya** adlandırır. Etikoteologiya öz təbiətinə görə doqmatik Allah anlayışı ilə eyniyyət təşkil edir. Metafizika isə əksinə, Allah ideyasından - İlahi yaradılışdan və idarəçiliyin təbiətindən əxlaqın ən ali qanunlarını aşkarlayır.

b. Deliberasiya: İdeal Mənin digər metafizik noumeni kimi **Deliberasiya**nı təyin etmək olar. Biz deliberasiyanı Fiktiv Ruhun Formal Ruhun mahiyyətinə nüfuz etmə qabiliyyəti kimi təyin edirik. Beləliklə, deliberasiya metafizik aləmin tədqiqat üsulu kimi təzahür edir. Deliberasiya metafizik varlıqlarla davranış normalarından ibarətdir. İnsan tədqiq edir, amma tədqiq etdiyi praktikadan fərqli olaraq ona tam aydın və müəyyən deyil. Aristoteldə deliberasiya - motivin ölçülməsi mənasında işlənir, amma motivdən onunla fərqlənir ki, motiv nəsə müəyyəndir, deliberasiya qeyri-müəyyəndir; yəni metafizikdir və təbiət, zərurət, təsadüf və ağıl prinsiplərindən təşkil olunur. Biz deliberasiyanı - bütünlükdə yaranışın sirlərinin Ruha aid hissəsinə Ruhun transendensiya etmə cəhdi kimi dəyərləndiririk; hansı ki, özünün İdeal Mənliyinə çatana kimi insanın fəaliyyətinin əsasında durur. Deliberasiya fərdi transendensiyadır; hansı ki, hər bir adam öz vicdanına müraciət edərək təbiət və zərurət (bədənlə şərtlənmədən) prinsiplərindən çıxaraq, təsadüflər və ağıl prinsiplərinə (Ruha) keçir və buradan özünün metafizik kimliyini müəyyən etməyə cəhd edərək həmin kimliklə təcrübəyə qayıdır.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *"Hər bir ayrıca şəxsiyyət özündə bütün insanlığı daşıyır; "insan situasiyası" (conditio humana) bütün insanlar üçün eynidir və bu, baxmayaraq ki, qaçılmaz olaraq intellektliyə, bacarığa, talanta, artıma və dərinin rənginə münasibətdə fərqlidir. Bu humanist təcrübə insanlığa aid heç nəyin mənə yad olmaması, "mən sənəm"dən, mən başqa insanı başa düşə bilərəm, hansı ki bizim hər ikimizdə insanlığın mövcud olmasının elementləri vardır hissindən ibarətdir. Özünüqavramağın genişlənməsi, şüurun transendensiyası, ictimai dərkedilməzlik sferasının işıqlanması insana özündə bütün insanlığı yaşamaq imkanı verir."*

E.Frommun fikirlərindən çıxış edərək belə bir suala cavab vermək lazım gəlir: İnsanlıq anadangəlmə olaraq hər bir ayrıca adamda vardır, yoxsa hər bir ayrıca adam qazanılma yolla özündə insanlığa malikdir? Bu

sual həm də bundan əvvəlki fəsildə şərh etdiyimiz **Tabula Rasa** problemi ilə bağlıdır. ”İnsan situasiyasının” bütün insanlar üçün eyni olması, hər bir adamın “bütün insanlığı daşıması” və insanda “özündə bütün insanlığı yaşatması üçün” şüurun transendensiyasının tələb olunması göstərir ki, hər bir ayrıca adamda bütün insanlığın olması metafizik hadisədir; hansı ki, Kosmosdan çıxmadan onu aşkarlamaq mümkün deyildir. Qazanılma xarakteristikalar təcrübədən əldə edildiyindən aydın olur ki, hər bir ayrıca adamda bütün insanlığın olması kosmik hadisə ola bilməz. Beləliklə, deliberasiya prosesində fərd özündə olan bütün insanlığı, bədənin və ətraf situasiyanın imkan verdiyi dərəcədə aşkarlaya bilir. Əgər əxlaqla fərd “burada və indi” prinsipi ilə əlaqələndiyi konkret insanlıqla əlaqələnirsə, deliberasiya ilə “müxtəlif zamanlarda və müxtəlif yerlərdə” prinsipi ilə əlaqələndiyi mücərrəd hamı ilə - bütün bəşəriyyətlə əlaqələnir. Deliberasiya insanlığı aşkarlamaq olduğundan, insanlığın istənilən zamanda və istənilən yerdə təzahürü deliberasiyanın predmetinə çevrilir. İnsanlığın deliberasiya ilə aşkarlanması həm də insan mahiyyəti ilə bağlı birmənalı həll olunmamış "İnsanın mahiyyəti varmı?" sualını cavablandırmağa kömək edir.

Haşiyə: E.Fromm, “İnsanın ruhu”

> *“İnsan mahiyyəti haqqında danışmaq olarmı? sualı verdikdə dərhal iki bir-birinə əks nöqteyi-nəzərlə toqquşursan. Biri belədir ki, ümumiyyətlə insanın heç bir mahiyyəti yoxdur. Bu nöqteyi-nəzərə görə, insan onu formalaşdıran mədəni mühitdən başqa bir şey deyil. Digər tərəfdən, ikinci nöqteyi-nəzərə görə insan mahiyyəti vardır. İnsan mahiyyətinin məqbul təyinini tapmaq aşağıdakı dilemmadadır: əgər qəbul etsək ki, insan mahiyyəti müəyyən substansiyadır, onda asanlıqla qeyri-təkamül, qeyri-tarixi mövqeyə keçirsən; hansı ki, belə hesab edir ki, insan özünün ilkin təzahüründən əhəmiyyətli dərəcədə dəyişilməmişdir. Amma altı minillik tarix boyu sivil insanla onun əcdadları arasındakı fərqi nəzərə aldıqda, belə baxışı bölüşdürmək çətindir. Digər tərəfdən, əgər özünü təkamül nəzəriyyəsinin tərəfdarı elan etsən və etiraf*

etsən ki, insan daim dəyişir, onda "minimum" təbiətin məzmunundan və ya insanın mahiyyətindən nə qalar?"

E.Fromm öz əsərində bu suallara cavab verməyə cəhd etmişdir. Biz burada "insan mahiyyəti haqqında danışmaq olarmı?" sualına metafizik cavab tapmağa çalışacağıq. "İnsan mahiyyəti" dedikdə əgər bioloji növ kimi mövcud insan nəzərdə tutulursa, insanın mahiyyəti formaldir və mücərrəd şəkildə insan növündədir və ayrıca bir adamda bioloji insan mahiyyəti yoxdur. Yox əgər "insan mahiyyəti" dedikdə insanın heç bir canlıya xas olmayan xarakteristikaları nəzərdə tutulursa, onda demək olar ki, insan mahiyyəti **"hər bir ayrıca insanda olan bütün insanlıqdan"** ibarətdir; hansı ki, tam tarixi prosesdə təzahür edir. Fərd tarixin kiçik bir hissəsində mövcud olduğundan, onda olan bütün insanlıq, bütün fərdlərin iştirakı ilə ondan kənarda - tarixdən aşkarlanan olur. İnsanlar əvvəlcədən özlərində olan, amma konkret şərtlərdə fərdi səviyyədə təzahür etməyən insanlığı tarixi prosesdə hamı ilə təzahür etdirməklə özünü aktuallaşdırır.

Deliberasiya nəticəsi məlum olmayan və özü-özündə müəyyən olmayana aiddir; hansı ki, bütün deliberasiyaların məcmusu kimi **Allah** - məlum olmayan və özündə müəyyən olmayandır. Buradan da məlum olur ki, deliberasiya həm də Allahın həqiqətinə çatmağı özündə ifadə edir. Aristotelə görə, insan məqsədə görə yox, vasitəyə görə deliberasiya edir. Nəticədə elə vasitələr seçir ki, həmin vasitələr onun məqsədinə çatdırsın; və kim ki əbədi deliberasiya edir, sonsuz sırada çaşır. Bir qayda olaraq normal insan deliberasiya ilə niyyətlərin səbəb-nəticə əlaqəsində ruhi mövcudluğuna cəhd edir və bu fasiləli proses kimi meydana çıxır. Belə ki, insan əvvəl metafizikaya transendensiya edir, orada deliberasiya edərək əxlaqın yeni qaydalarını kəşf edir, sonra təcrübəyə qayıdaraq onu təcrübədə niyyətin əsasına qoyur. Buna uyğun, metafizika sonsuzluq xarakteristikasına malik Allah ideyasına deliberasiya edərək, Ruhun təsadüflərdən zərurətə keçidinin elə ağıllı vasitələrini tapmağa cəhd edir ki, Ruh mövcudolandan mövcudluğa çevrilə bilsin.

c. Ədalət: Subyektiv Mənin aşkarladığı digər bir metafizik ideya **Ədalət**dir. Biz ədaləti Fiktiv Ruhun mücərrəd ölçülüyü kimi təyin edirik. Ədalət həm də fəlsəfənin əsas predmetlərindəndir. Fəlsəfədə ədalət dövlət idarəçiliyinin ən ideal variantını tapmaq cəhdi kimi müəyyən edilir. Yəni ədalət elə idarəçilik qanunlarının aşkarlanmasının əsasında durur ki, məhz İlahi öz yaradılışında həmin qanunlar əsasında bütün mövcudluqları bərabər əsasda yaratmışdır.

Haşiyə: Aristotel, "Etika"

> *"Ədalət Ruhun o qazanılma xüsusiyyətini bildirir ki, onun gücünə insanlar ədalətli fəaliyyətə qabil olurlar, və onun gücünə ədalətli olurlar və ədalətlik istəyirlər. Ədalətli o insandır ki, qanunla hərəkət edir, bütün insanlara bərabər münasibətdə olur. Beləliklə, ədalət bir və eyni vaxtda həm qanuniliyi, həm bərabərölçülüyü bildirir. Qanun bütün insanların xeyrinə olan bütün mümkün münasibətlərə aiddir. Elm və qabiliyyətlər qazanılma ruhi keyfiyyətlərdən fərqlənir, belə ki, bir və eyni qabiliyyət və elm əksiliyi əhatə edir, qazanılma xüsusiyyətlər isə eyni zamanda öz əksiliyini əhatə etmir. Ədalət nisbət, ədalətsizlik bunun əksiliyi kimi qeyri-proporsionallıqdır. Tarazlaşdırıcı ədalət ziyanla xeyirin arasısıdır. Ədalət haqqında danışarkən biz Ruhun ağıllı hissəsini ağılsız hissəsindən fərqləndiririk."*

Aristotelin ədalət haqqında fikirlərindən görünür ki, ədalət bir tərəfdən qanunla, digər tərəfdən bütün insanların xeyrinə bütün insanlarla, Ruhun ağıllı hissəsi ilə ağılsız hissəsinin bir-birindən düzgün proporsiyası ilə, bərabər münasibətə aiddir. Ruhun ağıllı hissəsi bədənin təsirlərinə məruz qalmamış, xalis zəka formasında mövcud olan hissədən, Ruhun ağılsız hissəsi bədənin təsirlərinə məruz qalmış təcrübi ağıldan ibarətdir.

Nə üçün ədalət qazanılmadır və nə üçün öz əksiliyini əhatə etmir? Birincisi, ədalət metafizik noumen kimi yalnız metafizikadan əldə edildiyindən, təcrübədə obyektiv varlıqlara xas olan əksiliklərin vəhdəti prinsipinə tabe olmur. İkincisi, ədalət qazanılma olduğundan, əksiliklərin

tərəflərindən birinin insanın seçimi ilə müəyyənləşir; yəni ağıllı insan heç vaxt xalis zəkanı antinomiyada saxlayacaq, yəni onu evtanaziya edəcək vəziyyətə düşmür. Yalnız ağır ruhi xəstələrdə (məs. şizofreniyada) xalis zəka antinomiya vəziyyətinə düşür. Ruhun ağıllı hissəsinin ağılsız hissəsindən ayırd edilməsi, Ruhun öz mümkünlüyünün nisbi ən ümumi qanunları ilə mövcud olan vəziyyətinin (ruh maddi olmadığından onun hissəsi ola bilməz) xaotik vəziyyətindən ayırd edilməsini özündə ifadə edir. Beləliklə, ədalət ilk növbədə Ruhun özü-özündə qaydalaşma vəziyyətini təqdim edir; hansı ki, bu qaydalaşma mütləq kamilliyə yaxınlaşdıqca, insan da mütləq ədalətə - Ruhun mövcudluğunun ən ümumi qanunlarına çatır.

Biz metafizik üsulla Ruhu eyni vaxtda hər yerdə (yer dedikdə insan bədəni nəzərdə tutulur, çünki Ruhun məkan ölçülüyü olmadığından onun məkanda yeri ola bilməz, yəni hər yer özündə bədən vasitəsilə dolayısı ilə məkanla şərtlənməni özündə təqdim edir) olan tək bir varlıq kimi təyin etmişdik. Lakin Ruh eyni vaxtda müxtəlif bədənlərdə olduğundan, bədənlərin və ətraf şərtlərin müxtəlifliyi Ruhda refleksiya edərək, eyni bir Ruhun eyni vaxtda müxtəlif yerlərdə müxtəlif səviyyələrdə və vəziyyətlərdə aşkarlanmasına səbəb olur. Bu cür müxtəliflik qanunla tənzimlənmə və bütün insanlara, bütün insanların mənafeyinə münasibətlə dəf edilir. Hansı ki, Allah Ruhi mümkünlüyü bir və tək yaratmışdır. Ədalətin ölçüsü ağıldır. Yəni xeyirlə şərin sərhədləri yalnız ağılla müəyyən oluna bilər. Bununla da, etikanın öyrəndiyi predmetlərin siyahısı başa çatır.

d. Dianoəxlaq: Fiktiv Ruhun tangensial enerji formasında daxili qurulmasının qanunlarını biz **Dianoəxlaq** kimi təyin edirik. Başqa sözlə, başqa insanlarla davranışa hazırlaşmanın əsası dianoəxlaq normalarından ibarətdir. Ağıl zamandan asılı olaraq təkmilləşdiyindən, ağlın zamandan asılı təkmillik qanunlarını öyrənən **Dianoetika** etikadan fərqli olaraq insanın sosial davranışlarını yox, həmin davranışların əsasında duran

ağıllılığın qanunlarını öyrənir. Bəs etikadan dianoetikaya, yəni əxlaq normalarından dianoəxlaqa keçid necə baş verir?

Haşiyə: Aristotel, "Etika"

> *"Əgər etik ləyaqətlilik niyyətlə bağlanmış adətdən ibarətdirsə, niyyət isə deliberasiyaya cəhdlə bağlanmışsa, onda belə halda ağıl həqiqidir; niyyət yaxşı olanda, insanın niyyəti və cəhdi eyni olanda, cəhd düzdür. Bu düşüncə və onun həqiqəti təcrübi adlanır."*

Aristotelin fikirlərindən görünür ki, insan mütəmadi metafizikaya transendensiya edərək deliberasiyanı öz niyyətinin əsasına qoyduqda təcrübi həqiqət əldə edir. Təcrübi həqiqət - Ruhun şərti mövcudluğunun qanunlarından ibarətdir. Deliberasiya ilə niyyətin əlaqələnməsi insan fəaliyyətinin niyyətlərində ona məlum olmayan İlahi niyyətin avtomatik iştirakıdır. Hansı ki, insanı onun iradəsi xaricində Ruhun həqiqi metafizik mövcudluğuna istiqamətləndirir. Aristotel dianoetikanın predmetinə incəsənəti, elmi, təcrübülüyü, müdrikliyi və ağlı aid edir. Biz dianoetikanın predmetlərini metafizik noumenlər kimi təyin edirik. Bəs metafizikada dianoetik noumenlər özlərində nəyi təqdim edirlər?

1. İncəsənət: Təcrübi estetikanın - təbii şeylərin xarici görüntüsünün insan fəaliyyətində refleksiyası kimi meydana çıxır. Təcrübi estetika formanın İlahi yaradılışdan asılılığını özündə təqdim edir və hər bir varlıq özünəxas formada - xarici görüntüdə müəyyənləşir. Beləliklə, İncəsənət estetikanın (müəyyənləşmənin) qanunlarını öyrənir və onun əsasında predmetlərin formasına yeni ruhi estetik görüntü verərək, bununla dolayısı ilə öz mövcudluğunun bir tərəfini aydınlaşdırır. Başqa sözlə, istənilən incəsənət əsərində biz Ruhi mövcudluğun bir tərəfini - "ölü ruhi kristalları" aşkarlayırıq; hansı ki, həmin əsərlərdən zövq alarkən həmin kristalları özümüzə (daxilimizə) alırıq, onu içimizdə, öz Ruhumuzda yenidən əridib onu öz Fiktiv Ruhumuza qarışdırırıq və onun

əsasında öz Ruhumuzu ona uyğun yenidən qururuq, yəni daxili görüntü veririk. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İncəsənət - şeylərin xarici görüntüsü əsasında Ruhun mümkün daxili görüntüsünün yaradılma şərtlərinin məcmusundan ibarətdir.

Bu necə baş verir?

Haşiyə: Aristotel, "Etika"

> *"Ağıla istinad edən incəsənət və qazanılma ruhi yaradıcılıq qabiliyyət - bir və eynidir. İstənilən incəsənət nəsə ola bilən və ya ola bilməyəndən yaradılanın genezisinə, yaradıcılığına və nəzəriyyəsinə aiddir. Yaradılanın prinsipi yaradıcı şəxsdədir, yaradılan predmetdə yox. Belə ki, incəsənət mövcud olan və ya zərurətə görə əmələ gələn mövcud olanlara, həmçinin öz mövcudluğunun prinsipinə malik olan təbiətdən mövcud olanlara aid deyil."*

Necə ki yaradılanın prinsipi yaradıcı şəxsdədir, eləcə də Ruhun mümkünlüyünün prinsipləri Yaradıcıda - Allahdadır. Allah özündə olan yaradıcı prinsipi mümkünlüyün sonsuz sayda mövcudluğa keçməsində refleksiya edir. Metafizik olaraq biz deyə bilərik ki, İncəsənət Allahın mahiyyətin varlığından şeyləri yaratmasının qanunlarını - yaradılışın refleksiyanı öyrənməyə cəhd edir (özündə təkrar refleksiya edir) və sonra təcrübədə də həmin qanunlar əsasında ya yaradılmışların kopiyasını çıxarır (yaradır), ya da həmin qanunlar əsasında onların mümkünlüyündən yeni formalar yaratmağa cəhd edir. Məsələn, sürrealizmdə olduğu kimi. Nəticədə, İncəsənət öz inkişafının zirvəsində bütün yaradılmışların yaradılmasının ən ümumi prinsiplərini (ən müxtəlif sənət cərəyanlarının ən ümumi prinsipi kimi) kəşf edir; hansı ki, Ruh bu prinsiplər əsasında özü-özünü yaradır. Başqa sözlə, insan İncəsənətlə bilavasitə Allah tərəfindən artıq yaradılmışların əsasında dolayısı ilə özü-özünü - Ruhun mövcudluğunu Allahın iradəsinə uyğun, amma dolayısı ilə yaratmağı öyrənir. İncəsənət zərurətə görə əbədi şeylərin hər bir sırasının yaradılma

prinsiplərini öyrənir; hansı ki, onların məcmusu özündə təsadüfə görə özü-özündə əbədi keçici mümkünlüyün yaradılma prinsipini təqdim edir.

2. Elm: İncəsənətdən fərqli olaraq Elm daxili görüntünü aşkarlamağa - şeylərin tabe olduğu xüsusi qanunları tapmağa cəhd edir. Bilik özündə hər hansı bir şeyin daxili görüntüsü kimi meydana çıxır. Hansı ki, incəsənətdə olduğu kimi, biliklənməklə hər bir insan öz Ruhunun daxili görüntüsünü formalaşdırmağa cəhd edir.

Haşiyə: Aristotel, "Etika"

> *"Elmin predmeti zərurətdir; deməli o əbədidir, belə ki, necə mövcuddur şərtsiz zərurətə görə əbədidir, əbədi isə yaradılmayıb-dağılmazdır. Elm Ruhun sübutları qazanılma, əldə etmək qabiliyyətidir."*

Metafizik olaraq biz Elmi yaradılanın Yaradıcı prinsipə uyğunluğunun qanunlarını öyrənmə qabiliyyəti kimi təyin edirik. Əgər İncəsənət yaradılmanın qanunlarını öyrənərkən yaradılana ikinci dərəcəli əhəmiyyət verirsə, Elm təcrübi bilik əldə etdiyindən, yaradılanı əsas kimi götürüb, ondan yaradılmanın qanunlarını öyrənərək onlar arasındakı uyğunluğu tapmağa çalışır; hansı ki, bu uyğunluq **Sübut** adlanır. Sübutların məcmusundan Ruh özünü sübut etmək üçün istifadə edir. Beləliklə, İncəsənət Ruhun xarici görüntüsünü, Elm daxili görüntüsünün aydınlaşmasını təmin edir.

3. Təcrübülük: Təcrübülük əsas insani qabiliyyətdir. Təcrübədə olmaq obyekt-subyekt münasibətinə girmək qabiliyyətidir. Təcrübülük - Transendental Fəlsəfənin həm başlanğıcı, həm sonudur. Belə ki, Kantın təbirincə desək, istənilən bilik təcrübədən başlayır, sonra transendensiya nəticəsində metafizikadan əldə edilir, sonra metafizikadan əldə edilən bilik yenidən təcrübənin idrakında istifadə edilir. Beləliklə, biz metafizikanı təcrübülüyün əksi kimi qəbul etsək və həqiqətin həm inkar, həm təsdiq yolu ilə mümkün olduğunu nəzərə alsaq, onda təcrübülüyü metafizikanın əksiliyi kimi, onun inkar etdiklərindən aşkarlanmasının üsulu

kimi qəbul edə bilərik. Başqa sözlə, metafizik olaraq təcrübülük metafizikanın əksiliyi kimi təcrübədən metafizik bilgilərin əldə edilməsidir.

Haşiyə: Aristotel, "Etika"

> *" Biz praktik onu adlandırırıq ki, hər hansı bir yaxşı məqsədə çatmaq üçün, incəsənət sahəsində olmayan, düzgün yol seçir. Təcrübülük nə elmdir, nə incəsənət. Elm ona görə ola bilməz ki, təcrübədə həyata keçən hər şey başqa cür ola bilər; incəsənət ona görə ola bilməz ki, yaradıcılıq və fəaliyyət növünə görə fərqlidir. Beləliklə, yalnız bir düz və ağıllı qazanılma ruhi qabiliyyət qalır ki, insan xeyrinə və şərinə aid olsun. Biz Perikli və ona oxşar olanları praktik sayırıq; belə ki, onlar, onların özləri üçün və bütün insanlar üçün nəyin xeyir olduğunu görmək qabiliyyətindədir. Təcrübülük insani işlərə və deliberasiya etmək mümkün olanlara. daha çox ayrıca şəxsiyyətlərə, xüsusən özü-özünə aiddir."*

Aristotelin şərhindən görünür ki, praktiklik elmin və incəsənətin əldə etdiyi bilgilərin təcrübədə aktuallaşdırılmasının elə optimal yolunun tapılmasıdır ki, bu ilk növbədə insanın özü üçün xeyirli olsun. Bununla yanaşı təcrübülüyün ümumi forması özündə elə yol və ya vasitə seçilməsini təqdim edir ki, bu zaman özü-özünə xeyirli olan, bütün insanlar üçün bir və eyni xeyirli olsun. Əks halda, hər bir insan eyni bir elmi həqiqəti və incəsənət prinsipini fərqli qaydalarda aktuallaşdırmağa cəhd etsə, onda hər bir insanla şərtlənmiş Ruh müxtəliflikdən azad olmaq əvəzinə praktik şeylər kimi daha da əbədi olaraq müxtəlifləşəcək. Yəni necə ki, maddi hissi qavranılan şeylər tək və əbədidir, onun əksiliyi kimi, qeyri-hissi, qeyri-maddi qavranılan Ruh ümumi və əbədi olmağa cəhd edir.

4. Müdriklik: Müdriklik təcrübülüyün əksiliyi kimi insanın metafizikaya daxil olması və metafizik biliklər əldə etməsinin qabiliyyətidir.

Haşiyə: Aristotel, "Etika"

> *"Müdriklik bilik və təbiətdə ən mühüm olanların ağıllı başa düşülməsidir."*

Əgər müdriklik həqiqət axtarmaq elmidirsə, həqiqət metafizikadan təcrübəyə keçərkən entropiyaya və emanasiyaya məruz qalırsa, onda mütləq həqiqəti yalnız təcrübədən metafizikaya keçidlə əldə etmək olar. Müdriklik bu cür keçidləri reallaşdırmaq qabiliyyətidir. İnsanın təcrübədən metafizikaya keçməsi **Dəqiqliklə** bağlıdır. Dəqiqlik - mücərrədlikdir. Yəni insan dəqiq şəkildə təcrübədən metafizikaya daxil ola bilir. Ona görə də, dəqiqlik müdrikliyin xarakteristikası kimi mövcuddur. Məhz bu səbəbdən, dəqiq elmlərdə müdriklik daha aydın təzahür edir. Beləliklə, biz metafizik müdrikliyi ən mühüm metafizik ideyaların idrakı kimi təyin edirik.

SUBYEKTİV MƏNİN TƏZAHÜRLƏRİ

Ruh yalnız mümkünlük xarakteristikasına malik olduğundan, cisim və can varlığının reallıq xarakteristikası ilə əksilik təşkil edir. Bu əksiliklər müxtəlif müstəvilərdə aydınlaşaraq Subyektiv Mənin mahiyyətini təşkil edir. Bura aşağıdakılar aiddir:

1. **Konkretliyin əksiliyi kimi abstraktlıq:** Cisim və can kimliyi bədəndə konkretlik kimi təzahür edir. Ruh bunun əksiliyi kimi **abstraktlıq** keyfiyyətində təzahürlərlə aydınlaşır. Ruh heç bir ölçülüyə malik olmadığından, təzahürlərinin də ölçülüyü yoxdur. Ölçülüyü olmadığından konkretlikdən məhrumdur. Ruh vasitəsiz (reallıqsız), öz xalis varlığından aydınlaşdığından, ruhi varlığın təzahürləri xalis abstraktlıqdır.
2. **Obyekt tələb etmədən bədəndənkənar təzahür:** Cisim və can varlığı bədəndən təzahür etməsinin əksinə, Ruh onların əksiliyi kimi bədəndənkənar təzahür edir. Ruh reallıq xarakteristikasına malik olmadığından, real varlıqların heç bir əlamətini özündə təzahür etdirmir. Beləliklə, ruhi varlıq gerçəkliyin yalnız mümkünlük xarakteristikasına xas əlamətlər təzahür etdirdiyindən, yalnız ekzistensiya vəziyyətində (ya bilavasitə başqa Ruhda refleksiya etməklə, ya da

xarici predmetlərə proyeksiya və ya obyektivizasiya etməklə, yəni onların reallıq xarakteristikasını özündə əks etdirməklə) təzahür edir.

3. **Varlıqların reallığını mümkünlüklərindən ayırmaq qabiliyyəti:** Ruh cisim və canın reallığı ilə ziddiyyət, mümkünlükləri ilə eyniyyət təşkil etdiyindən, onların xalis varlığını özündə refleksiya edərək mövcud varlığın reallığından ayırır və özünün bədəndənkənar təzahürlərində əks etdirir.

4. **Özünürefleksiya:** Real varlıqlar iki müxtəlif xarakteristikaya (reallıq və mümkünlük xarakteristikalarına) malik olduqlarından, özü-özünü refleksiyadan məhrumdur. Ruh əksinə, yalnız bir mümkünlük xarakteristikasına malik olduğundan, həm fərqli mümkünlükləri, həm də öz mümkünlüyünü refleksiya edərək özündə əks etdirir. Ekzistensiya edərək başqa ruhlarla qarşılıqlı münasibətdə dayanıqlı xarici totallıq yaradan Xarici "Mən", insan gerçəkliyinin ruhi varlığı kimi çıxış edir. Başqa sözlə, insan gerçəkliyindən Ruhun öz xalis varlığından təzahürü ayrıca "Mən" kimi meydana çıxarır.

5. **Daxili totallıq:** Bütün reallıqlar hissəvilik xarakteristikasına malik olduğundan, heç bir real varlığın daxili totallığı yoxdur. Mövcud olmada bütün mövcudluqlar eyni bir xarici totallığı - Kosmosu təşkil edir. Kosmos - bütün mövcud varlıqların vahid xarici totallığıdır. Yəni Kosmosdan kənarda mövcud varlıqlar mövcud ola bilməz. Ruhun reallıq xarakteristikası olmadığından, hissəvilik keyfiyyəti də yoxdur; buna görə də daxili totallığa (hissəsi olmamaq) keyfiyyətinə malikdir. Əksinə, eyni bir Formal Ruh eyni yerdə müxtəlif vaxtlarda olduğundan, müxtəlif vaxtlarda yaşayan insanlar "indi və burada" prinsipi ilə xarici totallıq təşkil etmirlər.

6. **Ümumilik:** Ruh reallıqlarla əksilik təşkil etdiyindən, onlarla fərqlilik, amma özü-özü ilə eynilik təşkil edir. Fiktiv Ruhların daxili totallıqlarının bədəndənkənar təzahürü xarici totallığı təşkil edir. Xarici totallıq da hissəvilik keyfiyyətinə malik olmadığından ümumidir; hansı ki, istənilən daxili ruhi totallıqda eyni təzahür refleksiya edib onun

daxili totallığını genişləndirir. Qarşılıqlı münasibətlərdə Fiktiv Ruhlar bir-birinə empatiya etdiyindən, Ruhi Mən ümumilik keyfiyyətinə malikdir. Yəni Real Məndən asılı olmayaraq meydana çıxan əlamətlər məhz Ruh Varlığının təzahürləridir. Beləliklə, Subyektiv Mənin hansı Real Məndən təzahürü formal əhəmiyyət kəsb edir.

7. **Subyektivlik:** Ruhun varlığı təcrübədə obyekt-subyekt əlaqəsindən (xarici görüntüsü olmadığından) xarici seyr ilə aşkarlanmır. Yalnız ya daxili seyr ilə (özü-özünü refleksiya ilə, "Mən" kimi), ya da subyekt-subyekt əlaqəsində qarşılıqlı refleksiya ilə "Mən" və "Sən" kimi aydınlaşır. Buradan da Ruhi Varlıq yalnız özükimilərlə qarşılıqlı əlaqədə (subyekt-subyekt əlaqəsindən) aydınlaşdığından və təcrübədə obyekt-subyekt münasibətindən aydınlaşmadığından, subyektiv varlıq kimi mövcud olur.

> ***Haşiyə:*** *E.Levinas - Subyektin maddi dünyada yerləşdiyi gündəlik mövcudluq (fiziki Mən - s.c) daha çox aradan qaldırmaqla bağlıdır. "Mən"lə özü-özü ilə arasında fərq yaranır. Eyniləşdirilmiş subyekt bilavasitə özünə qayıtmır.*

E.Levinasın fikirlərindən görünür ki, subyektivlik yalnız Real Mənin aradan qaldırılması (yəni Ruhun ondan ekzistensiya edərək özünü ona əksilik kimi qoyması) ilə aydınlaşır. Başqa sözlə, ekzistensiya edən başqa Fiktiv Ruhla qarşılıqlı refleksiyadan aşkarlanan subyektivlik, həmin əlaqələrlə şərtlənmiş şəkildə təzahür etdiyindən, geriyə Real Mənə qayıtmır. Yalnız həmin şərtlərin pozulması ilə yenidən Real Mənlə vəhdət təşkil edərək onun arxasında gizlənir və Real Məndə təzahür etmir, yalnız daxili seyr yolu ilə özü-özünü refleksiya ilə özündə aşkarlanır.

Bütün bu xarakteristikaların məcmusunu özündə təzahür etdirən ruhi varlığın insan gerçəkliyindən təzahür formasını biz **Subyektiv Mən** adlandırırıq. Subyektiv Mən - Ruhlu İnsanın məni kimi bütün orijinal Real Mənlərdə ümumidir; mövcudluğu abstraktdır (yəni xarici görüntüsü yoxdur); təzahürləri bədəndən kənardır (yəni xarici predmetlərdə əks

olunmaqla konkretdir). Bədəndənkənar aydınlaşdığından Real Mən və Kimlik Mənindən aşkarlanmır; özü-özünü və özükimiləri qarşılıqlı refleksiya edir; daxili totallığı ilə xarici totallığı vəhdət təşkil edir, buna görə də həm xarici, həm də daxili təzahürlərə malik olur; digər varlıqların mümkünlüklərini reallıqlarından ayırır, nəticədə onların formasını və mahiyyətini ayrı-ayrılıqda dəyişdirmək imkanı əldə edir.

Bəs Subyektiv Mən necə təzahür edir? İnsan gerçəkliyində Fiktiv Ruhun digər varlıqlarla əlaqəsindən onun üç bir-birindən fərqli halını (təzahür formalarını) aşkarlamaq olar:

A. Arefleksiya: İnsan Ruhu bədənə keçdikdən sonra uzun müddət (mayalanmış hüceyrənin orqanizasiya olması nəticəsində) tam xaotik vəziyyətə düşdüyündən, refleksiya qabiliyyətindən məhrum olur. Yalnız təcrübədə tədricən obyekt-subyekt əlaqəsində gerçək varlıqları özündə refleksiya etməklə özünü nizamlayır və başlanğıc daxili totallıq kimi təzahür edir. Beləliklə, biz Ruhun təzahür imkanı olmayan vəziyyətini **Arefleksiya** vəziyyəti kimi dəyərləndirə bilərik. Arefleksiya vəziyyəti Ruhun bəlli bir müddət ərzində həm daxili, həm də xarici refleksiyadan məhrum olduğu vəziyyətdir. İnsanın Arefleksiya vəziyyəti Ruhun bədənə keçdiyi andan uşaqlığın ilk iki-üç ilinə qədər davam edir. Bu dövrdə uşaq tam heyvana xas instinktiv fəaliyyətdə olur. Arefleksiya vəziyyəti Ruhun məkan və zaman ölçülüyündən məhrum olduğu vəziyyətdir. Ruh arefleksiyadan reflektiv vəziyyətə tədricən keçir. Refleksiya ilk öncə bədənin bir vəziyyətdən başqa vəziyyətə keçməsi ilə bədənin hissi qabiliyyətinin dəyişilməsinin Ruha təsiri ilə başlayır. Və Ruh özündə bu vəziyyəti zaman ölçü hissi kimi aydınlaşdırır. Beləliklə, refleksiyanın başlanğıcı zamanın ölçülənməsidir; hansı ki, bu mərhələdə məkan ölçülüyü sıfra yaxın olur. Yəni Ruh məkanı xarici totallıq kimi (hissələrə ayrılmamış vahid kimi) özündə refleksiya edir. Buradan da uşaqla böyüklərin vaxt hissi (zaman ölçülüyü) fərqlənir.

Haşiyə: A.Adler, “İnsan təbiətini anlamaq”

"İlk böyük kəşf bundan ibarətdir: insan psixikasının əsası ən erkən uşaqlıqda qoyulur."

A.Adlerin fikirlərini inkişaf etdirərək təsdiq edə bilərik ki, Ruhun refleksiyası (psixologiya) erkən uşaq yaşlarından zaman ölçülüyünün hissi kimi meydana çıxır. Sonrakı illərdə, uşaq ətrafa reaksiya verməyə başladığı andan onun reaksiyasına səbəb olan xarici aləmin dəyişikliyi, onda ikinci hissi ölçünü - məkani ölçülük hissini yaradır. Bu iki fərqli ölçülük hissinin (məkan və zaman ölçü hissinin) qarşılıqlı əlaqəsindən və vəhdətindən Refleksiya meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Refleksiya - Fiktiv Ruhun daxildə bədənin dəyişilməsi ilə meydana çıxan fərqlilikdən doğan zaman hissinin və xarici aləmin dəyişilməsi ilə meydana çıxan fərqliliklərdən doğan məkan hissinin özündə əlaqəli əks etdirməsi şərtlərinin məcmusundan ibarətdir.

B. Yuxululuq: Ruhun dövri olaraq sutkanın müəyyən vaxtlarında arefleksiya vəziyyətinə düşməsi onun yuxululuq hali kimi meydana çıxır. Yuxu çox nadir insan qabiliyyətlərindən olub, oyaqlıq qədər Ruhu xarakterizə etməyə imkan verir. Yuxululuq - xarici aləmlə sensor əlaqənin kəsilməsi ilə, əhəmiyyətli hərəkətsizliklə, xarici aləmə marağın düşməsi ilə xüsusi davranış təzahürləri olan funksional, dövri psixi vəziyyətdir. Başqa sözlə, yuxululuq Ruhun daxildə bütün təzahürlərinin keçici olaraq itməsi, özündəşey formasına keçməsidir və ya obrazlı deyilsə, dincəlməsidir. Yuxululuq - ekzistensiya zamanı əldə edilmiş məlumatların Ruhun özündə avtonom qaydada, qeyri-iradi saf-çürük edilməsi (yəni sistemləşdirilməsi) zamanı bədənlə Ruhun əlaqəsinin zəifləməsindən ibarətdir. Belə vəziyyətdə bir tərəfdən bədən özünün ətrafla qarşılıqlı əlaqəsini avtonom davam etdirir, bədənə daxil olan məlumatlar az da olsa ətrafdan hissi təfəkkürə ötürülür; amma Ruh daxildə yalnız ekzistensiya zamanı aldığı məlumatları saf-çürük etdiyindən, hissi təfəkkürü işə salmır. Belə vəziyyət (bir tərəfdən hisslərin daxil olmasının

davam etməsi, digər tərəfdən isə Ruhun özünə qapanması) yuxunu təzahür etdirir. Yuxu daxili görmə kimi təzahür edir; hansı ki, Ruh bilavasitə iştirak etmədiyindən xarici aləmdən hisslər vasitəsilə alınan məlumatlar saf-çürük edilmir. Bəzən belə vəziyyətdə Ruh başqa yaşantılardan (döllənmə anından, mayalanmış hüceyrə vəziyyətindən və ya bədənin orqanizasiya prosesinin seyrindən və ya da doğuş yollarından aldığı məlumatları) yenidən, amma sistemsiz və spontan özündə canlandırır. Ya da xarici ruhi totallıq daxili ruhi totallıqda refleksiya edir. Biz bunu **Yuxugörmə** adlandırırıq. Beləliklə, yuxuda həm gerçək aləmə xas məlumatlar, həm də xarici ruhi totallığa xas metafizik məlumatların xaotik aşkarlanması baş verir. Yuxuda görülən bəzi hadisələrin sonradan baş verməsi xarici totallığın yuxu vəziyyətində Ruhun daxili totallığında refleksiyası ilə; anlaşılmaz və bəzən də qarabasma şəklində aydınlaşan məlumatlar isə ətraf gerçəkliklərdən gələn xaotik məlumatların Ruh-bədən əlaqəsində nizamlanmadan birbaşa Ruha ötürülməsi ilə yaranan obrazlarla bağlıdır.

Yuxugörmə məhz Ruhun tam oyaqlıqdan tam yuxululuğa keçiddə baş verdiyindən, biz yuxugörməni Ruhun hallarının birindən digərinə keçid vəziyyəti adlandırırıq. Yuxululuq, yuxugörmədən insanın yatması - bu Ruhun müvəqqəti olaraq tam qapanması ilə nə xarici ruhi totallıqdan, nə də ətraf gerçəklikdən bədənin hissi yolla məlumat almadığı, özünəqapandığı, refleksiya qabiliyyətinin sönməsi ilə tam qaranlığa (zaman-məkan ölçülüyünün tam itdiyi vəziyyətə) düşməsini özündə təqdim edir.

İnsan nə üçün yatır? Ruhun nizamlanması tədrici və pilləli proses olduğundan, Ruh nə bütün məlumatları birdən ala bilir, nə də aldığı bütün məlumatları eyni dəqiqliklə nizamlaya bilir. Buna paralel, Ruh həm də kifayət qədər artıq məlumat alır ki, həmin məlumatların özündən kənarlaşdırılması yalnız yuxululuq halında mümkün olur. Yəni Şüurun qaydalaşması və yeni idrak üçün hazırlanması yuxululuqda həyata keçir.

Əgər insan daimi oyanıq olsaydı, idrak prosesində əldə edilən məlumatlar təfəkkürü xaotik hala salardı. Yuxu - təfəkkürün spontan nizamlanma prosesidir. Yuxululuq Ruhun bədənlə əlaqələnməsinin zəifləməsinə səbəb olur. Bədən iradi tənzimlənmədən qeyri-iradi tənzimlənmə vəziyyətinə (bədənin Ruhdan asılı olmadan keçici olaraq avtonom vəziyyətə) keçməsidir. Yəni yuxululuq vəziyyətində insan öz təbii vəziyyətinə, heyvani təbiətinə qayıdır ki, bəzən yuxugörmə həm də bədənin təbii vəziyyətinin məlumatlarından təşkil olunaraq qarabasmalar (qorxulu yuxular, yəni vəhşi təbiətdə təklikdə qalmaq) kimi şüurda aydınlaşır.

Bəs Ruh necə yuxululuqdan oyaqlığa və əksinə keçir? Yuxarıda varlıqları şərh edərkən qeyd etdik ki, Cisim Passiv güclə, Can Aktiv güclə, Ruh Yaradıcı güclə mövcud olur. Əgər insan bədənində Aktiv güc üstünlük təşkil edirsə (yəni insan cismin aparıcılığında aktuallaşırsa), insan dərin yuxuya gedir, yəni yuxugörmədən yatır. Yox, bədəndə Aktiv güc Passiv güclə əvəzlənirsə, bu əvəzlənmə mərhələsində insan yuxugörməklə yatır.

V. Oyaqlıq - Ruhun ataraksiyası: Oyaqlılıq - Real Mənin arxasında gizlənmiş Ruhi Varlığın fəallaşmasından və bədəndə öz daxili totallığından təzahür etməsini özündə ifadə edir. Ruhun oyanıqlığı hissi təfəkkür kimi meydana çıxır. Hissi təfəkkür Ruhla bədənin digər varlıqlarla elə qarşılıqlı əlaqəsidir ki, bədənin təcrübədə obyekt-subyekt münasibətlərindən aldığı həqiqət haqqında siqnallar Ruha ötürülür və Ruh bədəndən kənara çıxmadan, daxildə həmin məlumatlardan öz daxili totallığını inkişaf etdirmək üçün istifadə edir. Yəni ruhi oyanıqlıq - xarici aləmin siqnallarını tutmaq, seçmək və şərh etmək, bəzilərini yaddaşa göndərmək, onlara əvvəlki təcrübədən və vərdişlərdən asılı olaraq adekvat və ya qeyri-adekvat davranışla reaksiya vermək üçün bütün orqanizmin Ruhun iştirakı ilə aktivləşməsi vəziyyətidir.

Q. Ekzistensiya: Oyanıq Ruhun öz daxili totallığından Real Mənlə şərtlənməklə xarici totallığa meyli Ekzistensiya və ya Ruhun xaricə boy-

lanmasıdır. Ruh yalnız ekzistensiya vəziyyətində özündənkənar təzahürləri ilə subyektiv varlıq kimi aşkarlanır. Beləliklə, ekzistensiya Ruhun oyanıqlıq halından yuxululuğa əks istiqamətdə fəallaşmasını özündə əks etdirir. Ekzistensiya Ruhun ən başlıca xarakteristikası kimi insanın bütün qabiliyyətlərinin əsasında durur.

Haşiyə: M.Haydeqqer, "Humanizm haqqında məktub"

> *"O ki insandır - yəni, metafizikanın ənənəvi dilində insanın "mahiyyəti" - onun ekzistensiyasındadır. Ekzistensiya Varlığın həqiqətinə əhəmiyyətli daxil olmağı bildirir. Ekzistensiya həqiqətin tarixində insanın yerinin müəyyənləşdirilməsi adlandırılır. "İnsan ekzistensiya edir" frazası həqiqətdə insanın mövcud olmasına cavab vermir və ya o, insanın "mövcudluğu" haqqında suala cavab verir."*

Beləliklə, Haydeqqerin fikirlərindən də görünür ki, ekzistensiya sadəcə Ruhun Real Məndən xaricə meyllənməsi deyil, həm də xarici reallıqların xalis varlığını özündə refleksiya etməklə, onların substansial aləminə daxil olmasını özündə təqdim edir. Yəni ekzistensiya ilə insan Varlığın (xarici aləmin) substansial zonasına daxil olaraq, oradan Varlığın mümkünlüyü haqqında həqiqəti aşkarlayır və əhəmiyyətli dərəcədə Varlığın daxili aləmindən çıxaraq, özündə refleksiya etdiyi həqiqəti Real Məndə daxili totallığının genişlənməsi üçün istifadə edir. Beləliklə, Subyektiv Mənin birinci və ən əsas təzahürü Real Mənin sərhədlərindən kənara çıxma qabiliyyətidir.

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

> *"İnsan olmaq - özü-özünün sərhədlərindən kənara çıxmaq deməkdir. Mən deyərdim ki, insan mövcudluğunun mahiyyəti onun özütranssendensiyasındadır. İnsan olmaq - deməli həmişə nəyəsə və ya kiməsə istiqamətlənmədir; özünü həsr etdiyi işə, sevdiyi insana və ya sitayiş etdiyi Allaha verməkdir."*

V.Franklın fikirləri bir daha təsdiq edir ki, konkret fərddəki Ümumi İnsan ondan ekzistensiya edən insandır. Yəni Ümumi İnsan anlayışı dar

mənada özündə abstrakt ruhi mövcudluğu ifadə edir. Ruhun ekzistensiya ilə varlığa daxil olması və ya çıxması, onu real varlıqlardan (cisimdən və candan) fərqləndirir. Cisim öz real varlığından formaya malik olduğundan, forma isə digər cisimlərlə sədd, sərhəd təşkil etdiyindən, cisimlər real varlıqlarından formanı dağıtmadan bir-birinə daxil olmur və ya bir-birindən çıxmır. Məsələn: mürəkkəb maddələrdə müxtəlif maddələr vəhdət təşkil edir. Həmin vəhdətdən ayrıca bir maddənin çıxarılması üçün mütləq mürəkkəb maddənin forması dağıdılmalıdır. Bu təbiətdə aqreqat hallarının dəyişilməsi kimi sadə proseslərdən, maddələrin parçalanması kimi mürəkkəb kimyəvi proseslərədək fərqli üsullarla mümkün olur. Bu, Leybnis tərəfindən monada üçün müəyyən edilmiş "daxili həcmin keçirilməzliyi" prinsipinin makrokosmosda da keçərli olduğunu təsdiq edirik. Canlıların bir-birinin daxili həcminə keçməsi nisbidir. Tranzit Məndə özü-özündə bir Tranzit Mən digər Tranzit Mənə keçməklə onu inkar edərək aktuallaşır. Libido Məndə bir cins digər cinsin daxili həcminə cinsi əlaqə zamanı keçici daxili olaraq (koitus) onunla ortaq həcmlilik yaradır. Ruh xalis varlıq təyinində olduğundan, bədənin özü-üçün-varlıq təyini ilə ikincili və müvəqqəti şərtləndiyindən, Subyektiv Mən bədənin formasından - Real Məndən çıxıb cismin xalis mövcudluq təyininə daxil ola bilir.

Ruhlu insan Ruhla bədənin vəhdətini tələb etdiyindən, Ruhun bədəndən birdəfəlik çıxıb xarici varlığa keçməsi baş vermir, sadəcə ekzistensiya uzantı kimi baş verir. Yəni Ruh nə bədəndən tam çıxır, nə də xarici real varlığa tam daxil olur. Nəticədə, belə uzantılı ekzistensiya ilə Fiktiv Ruh real varlığın xalis mövcudluğu haqqında məlumat toplayaraq, ondan bədənin daxilində insanın yaşam imkanlarını genişləndirən yeni özü-üçün-varlıq təyini hazırlayır ki, biz bunun birinci hissəsini **biliklənmək**, ikinci hissəsini **yaradıcılıq** adlandırırıq.

İnsan Ruhu mövcud varlığın xalis varlıq təyini ilə eyniyyət təşkil edərək, onunla şərtlənmiş özü-üçün-varlıq təyinindən onu ayırır; nəticədə

xalis forma və xalis həqiqət haqqında bilgiyə malik olur. Varlığın xalis varlığı ilə eyniyyət təşkil etmək biliklənmə kimi təzahür edir. Ruh nə qədər çox mövcud varlıqdan onun xalis varlığı ilə eyniyyət təşkil edirsə, insan bir o qədər bilgiyə sahib olur. Ruh varlığın mahiyyəti əsasında onun mövcud varlığından (onun özü-üçün-varlıq təyininə) öz istədiyi fərqli özü-üçün-varlıq təyini proyeksiya etdikdə, bu proses yaradıcılığı təzahür etdirir. Yəni yaradıcılıq prosesində insan materiyanın substansiyası əsasında onun xalis formasını dəyişdirə bilir və ona yeni süni forma verir. Nəticədə Süni Varlıq sırası - özündə ruhi kristallara malik maddi mədəniyyət nümunələri, alətlər, silahlar, maşın-texnika və s. yaradır. Süni Varlıq - təbii varlığın qanunları əsasında insan tərəfindən yaradılanları əhatə edir. İnsanın yaradıcılığı məhduddur. Yaradıcılıq - yeni maddi və mənəvi dəyərlər yaradan, Ruhun özünü bir daha bədənə geri qaytarmadan xaricdə, xarici predmetlərə köçürməsi kimi psixi prosesdir.

Haşiyə: S.Qrof, "Şəxsüstü görüntülər"

Yaradıcı fəaliyyətdə iki qarşılıqlı əlaqəli və qarşılıqlı əlavə edən hərəkət var:

1. Bölünmənin, parçalanmanın, fərqləndirmənin mürəkkəb ardıcıllığı; başlanğıc ayırd edilməyən birliyi - Şərtsiz Şüuru (mütləq həqiqət kimi qəbul edilə bilər - S.C) sonsuz sayda yaradılan şüur vahidlərinə bölmək. Son məhsulu yaşanan dünyanın sıralarıdır, hər biri qeyri-dəqiq sayda ayrıca vahidlərdir. Şüurun ayrı-ayrı formaları ilə bölünür və seçici özünüdərkə malikdir.

2. Yaradıcılıq prosesində xüsusi növ ayrılma, xüsusiləşdirmək və ya unutma. Şüur vahidləri Kainat Ağlı ilə yaradılmış, öz başlanğıc mənbəyi ilə təması tədricən itirir, həmçinin öz həqiqi təbiiliyinin idrakını; nəticədə fərdi özünəməxsusluq və bir-birindən qeyri-şərtsiz ayrılma hissi inkişaf edir. Kainat kontekstində şüurun ayrı vahidləri özünəməxsus və fərqli necəliyi öz mənbəyi və bir-birindən ayırır, bir

kənara qoyur. Onların təbiəti paradoksaldır - eyni zamanda tam və hissədir.

S.Qrofun yaradıcılıqla bağlı fikirlərində ifadə etdiyi ”Şərtsiz Şüur” İlahi Yaradıcı Gücü özündə ifadə edir; hansı ki, İlahi iradə ilə yaranışı aktuallaşdırır. Yaranışın ikinci səbəbi isə artıq bədənlə şərtlənmiş Aktiv Ruhi Gücdür; hansı ki, bədəndən ayrılaraq xüsusiliyi təqdim edir. Bizcə yuxarıda qeyd etdiyimiz kimi, İlahi Yaradıcı Güc *yaranışda*, Ruhun Yaradıcı Gücü isə *əmələgəlmədə* təzahür edir. Ona görə də İlahi yaradıcılıqla insanın yaradıcılığı sərhədlənmişdir və bu sərhəd insanın özünün İlahi yaradıcılığın məhsulu olmasından ibarətdir; hansı ki, yaradılan Yaradan kimi yarada bilməz. Belə olsaydı, onda insan hər hansı əsəri yaratdığı kimi, əsər də öz növbəsində insanı və ya başqa əsəri yaradardı. Halbuki insanın yaratdıqları da özləri ilə insandan sərhədlənmişdir və özündən çıxmadan insan kimi yarada bilməz. Bu baxımdan, Ruh da bədəndən çıxmadan öz yaranışını təkrarlaya bilməz. İnsan yaradıcılığı əmələgəlmə ilə sərhədli olduğundan, xalis varlıq təyinində dəyişiklik etmək - yaradıcılıq aparmaq qabiliyyətinə malik deyildir. Xalis varlıq təyinindən yaratmaq **Transmutasiya** kimi meydana çıxardı. Beləliklə, insan transmutasiya (bir maddəni başqasına çevirmə - əlkimyanın misi qızıla çevirməsi kimi) qabiliyyətinə malik deyil. İnsan yalnız özü-özündən forma yaradan substansiyadan başqa bir forma yaratmaq gücündədir. Transmutasiya o halda ola bilər ki, insan öz xüsusi şüuru üzərində işləyərkən psixokinetik olaraq şeyləri yenidən yarada bilsin. Yəni öz psixi-ruhi enerjisini özündən kənara birdəfəlik çıxarsın və onun əsasında yeni yaranışa nail olsun. Şeyləri yenidən yaratmaqla onları heçdən yaratmaq eyni qabiliyyətlərdir. Başqa sözlə, yaratmaq - şəklə can vermək kimi yaradıcılıqdır.

İnsan Ruhu materiyadan asılı olduğundan və ona əsaslandığından iki halda transmutasiya yarada bilər:

a. Materiya ilə istənilən şərtlənməni dəf etsin: Birinci variantda materiya ilə şərtlənmə Həqiqətin aydınlaşma qanununa tabe olduğundan, bu qanunun pozulması demək olardı ki, bu da qeyri-həqiqətin təzahürü deməkdir. Deməli, insan yalnız həqiqətlə məhdudlaşmış yalanı transmutasiya edə bilər. Bu da **illüziya** kimi təzahür edər.

b. Ruh başqa bədəndən kənarda, başqa əsasda mövcud ola bilsin: İkincisi, Ruh başqa əsasda mövcud olanda bu halda artıq şüurlu insan aktuallaşa bilmir. Ona görə də, başqa əsasda olan Ruhda bədəndə olan Ruha xas qabiliyyət - yaradıcılıq meydana çıxmır. Məsələn: ölmüş insanın Ruhu yaradıcılıq qabiliyyətinə malik olmur, çünki bədəndən ayrılaraq xarici totallıq kimi mövcud olur. Yəni Ruhun başqa əsasa keçməsi artıq şüurlu insandan fərqli başqa varlığı təzahür etdirir.

Deməli, "nəsə insan" özü transmutasiyaya məruz qalmadıqca transmutasiya edə bilməz. İnsan transmutasiyaya məruz qaldıqda materiyanın transmutasiyası mənasızlaşır. Beləliklə, insanın Allahdan fərqli olaraq transmutasiya edə bilməməsi onun öz həqiqətinin əsas əlamətlərindəndir.

Fiktiv Ruh ekzistensiya nəticəsində həm də eyni zaman və məkanda ekzistensiya edən başqa Fiktiv Ruhlarla bədəndənkənar əlaqələnir, bədəndənkənar bir-birinin daxili həcminə keçir, empatiya edir, hər biri digərinin təcrübədən əldə etdiyi məlumatla tanış olur, ondan həmin məlumatı özünə kopiyalaşdırır, özünün məlumatını ona verir (yəni fikir mübadiləsi edir) və bunun nəticəsində şərti, keçici xarici totallıq təşkil edirlər. Empatiya vasitəsiz bir-birini başa düşmək kimi, fikir mübadiləsi vasitəli (bilavasitə üz-üzə və ya qiyabi üsullarla) reallaşır. Qiyabi fikir mübadiləsində bir Fiktiv Ruh ekzistensiya zamanı təcrübədən əldə etdiyini xarici predmetlərdə obyektivizasiya edir (yəni onların formasına köçürür), başqa bir zamanda başqa bir Fiktiv Ruh ekzistensiya edərək həmin predmetlərin formasında köçürülmüş məlumatı özündə kopiyalayır və daxildə onun əsasında nizamlanır. Xarici totallıqdan istifadə edərək daxildə nizamlanma insanın təkmilləşməsini meydana çıxarır. Bir

Ruhun ekzistensiya edərək digər ekzistensiya etmiş Fiktiv Ruhla əlaqələnməsi, xarici totallığın Ruhun vahidləşməsi və avtonom strukturlaşması **Ünsiyyət**lə həyata keçir. Ünsiyyət - insanın başqa şəxslə təmas etməklə onun Ruhu ilə empatiyaya hazırlıq vəziyyətidir.

Beləliklə, Ruhun ekzistensiyasından insan başqaları ilə birləşir, ətrafdan bilgi toplayır və yaradıcılıqla məşğul olur. Bu üç ruhi fəaliyyət Subyektiv Mənin təzahürü kimi şüurlu insanı xarakterizə edən əsas qabiliyyətlərdir. Ruhun qapalılığında və ya ruhsuz fərd başqaları ilə nə birliyə meyl edir, nə bilik toplaya bilir, nə də yaradıcılıqla məşğul ola bilir. Yəni Subyektiv Mən təzahür etmir, insan öz gerçəkliyində yalnız öz heyvani bədən funksiyalarını təzahür etdirir ki, həmin funksiyaların bir çoxuna görə hətta heyvanlardan da geridə qalır.

M.Haydeqqerin ekzistensiya anlayışı haqqında tərifindən görünür ki, bu termin Ruhun xalis varlıq təyinindən təzahürünü bildirir və bu zaman onun mövcud varlıq və özü-üçün-varlıq təyininə laqeyd qalınır. Ruhun öz xalis varlıq təyinində bədəndən ekzistensiyası **Azadlıq** kimi təzahür edir.

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında" - İnsan azadlığı insanın özü-özündən ayrılma qabiliyyətini bildirir.

Burada "özü-özündən ayrılma" insanın bədənində Ruhun bədəndən ayrılması, yəni daxili refleksiyadan dayanıb yalnız xarici refleksiya etdiyini bildirir. Yəni insan xarici totallığı refleksiya etdiyi qədər bədəndən azad olur, bu da insan azadlığı kimi təzahür edir. Biz Azadlığı Subyektiv Ruhun mühüm təzahürlərindən biri kimi dəyərləndiririk. Subyektiv Mənin Real Məndən azad olması refleksiya edərək, digər obyekt-subyekt və subyekt-subyekt münasibətlərində çoxlu forma və mahiyyətdən azadlıqlar meydana çıxarır ki, bütün bunlar ümumi şəkildə **İnsan Azadlıqlarını** təşkil edir.

Biz Ruhun ekzistensiyası haqqında danışanda Ruhun bədənin mövcud varlığından və özü-üçün-varlıq təyinindən yox, özünün xalis varlıq təyinindən - bədənin təsirlərindən azad olmuş təyinindən, yəni

Ruhun bədəndən azadlığından danışırıq; hansı ki, bu azadlıqda o bədəndən xaric formalarda özünə sintetik mövcud varlıq və özü-üçün-varlıq təyini yaratmaq imkanı qazanır. Ekzistensiya etmək yaratmaq qabiliyyətini reallaşdırmaq deməkdir; hansı ki, həmin yaradılmışlardan Ruh bizə aşkarlanır.

Yuxarıda qeyd etmişdik ki, İlahi Yaradıcı Gücün - Yaranışın Ruhda refleksiyası (Yaradıcılıq Gücü) **İradə** kimi təzahür edir. Buradan da insanın bilik toplaması və yaradıcılıqla məşğul olması iradəvi prosesə çevrilir. Ruh xalis Yaradıcı Güc olduğundan, Ruhlu İnsan özündən ayrılmayan (Ruh ondan ayrılmağından) İradəyə malikdir; hansı ki, başqa heç bir varlıqdan təzahür etmir. Beləliklə, İradəni Subyektiv Mənin xüsusi təzahürlərindən biri kimi dəyərləndirmək olar. Fraqmentar Ruhu bədənlə şərtlənmədən azad edərək, onu yenidən öz tamlığında təzahür etdirmənin daxili meyli İradə kimi təzahür edir. İradənin olması Ruhun şərtləndiyini və insanın bu şərtlərdən azad olmağa cəhd etdiyini göstərir. İradə fərdi səviyyədə Ruhun xarici və daxili təsirlərə münasibətində meydana çıxır. Bədənin Aktiv Gücü yalnız nəsilverməyə sərf olunduqda, Ruhun Yaradıcı Gücü yalnız daxilə yayılaraq ekzistensiya etmək imkanına malik olmur. Nəticədə insan həm də daxili iradəviliyə - özünü ələ almaqlıq, özünü idarə keyfiyyəti üzə çıxır. Beləliklə, İradə heyvani psixikanı və hissiyyatı Ruha tabe etdirir, yəni iradə ilə insan hisslərini və psixikanı idarə edir. Beləliklə, Ruh heyvani instinktlərə təsir edərək onları idarə olunan, tənzimlənən formaya salır. Nəticədə instinktlər sosiallaşır. İnstinktlərin sosiallaşması ilə insan öz seksuallığını, hakimiyyət əzmini və istəməkliyini (cisim və can tələbatlarını) ruhi nəzarətə alır. Buradan da insan seksuallığı - heyvani şəhvətdən, insan - təbiətdən ayrılır.

Haşiyə: Çarlz Tart, "Oyanma. İnsan imkanlarının realizasiyasına maneçiliklərin dəf edilməsi"

"İradə - şərtlənməyə sadə mexaniki reaksiyadır. Ağıl əsl həqiqətdə ola biləcəyindən daha güclü şərtlənib, həqiqi

özünüdərkin əsasında həyatı nəzarətdə saxlayan həqiqi özünəməxsusluq yoxdur."

Bizcə, Ç.Tartın İradəni sadə mexaniki reaksiya kimi dəyərləndirməsi əslində iradənin əsasının fəlsəfi şərhi ilə uyğun gəlmir. İradə Yaradıcı Gücün təzahürü olduğundan, o, mexaniki yox, şüurlu və aktiv ruhi reaksiyadır; hansı ki, bədəni və ətrafı Ruhun refleksiya etməsi üçün ona tabe etdirir.

Fiktiv Ruhun ekzistensiyasına görə iki xüsusi halını aşkarlamaq olar:

a. Subyektiv Mənin Açıq halı: Təcrübədə obyekt-subyekt və subyekt-subyekt münasibətində Ruh ətrafla və başqaları ilə qarşılıqlı əlaqədə olur və bu zaman ətrafı və başqasını refleksiya etməklə özündə əks etdirir. Ruhun Açıq halı onun xarici totallıqdan aşkarlanmasına, yəni girdiyi əlaqələrdən aydınlaşmasına imkan verir. Ruhun ətrafın təsirlərinə (xarici təsirlərə) münasibəti fəaliyyət, iş, yaradıcılıq, əmək və s. kimi meydana çıxır.

b. Subyektiv Mənin Qapalı halı: Subyektiv Mən təzahür etmədikdə daxildə Real Mən və Kimlik Mənləri ilə vəhdətdə daxili seyr yolu ilə bədəni və özü-özünü refleksiya edir. Buradan düşüncə, fantaziya yaranır. Ruhun Qapalı halının təzahürlərindən biri də **Özündən uzaqlaşma**dır. Uzaqlaşma - özünə dalmaqla xarici aləmin işlərində iştirak etməmək, bədəni daxili seyr etməkdən dayanmaq və yalnız özü-özünü refleksiya ilə daxildən xarici totallığı aşkarlamaqdır. Bir qayda olaraq böyük kəşflər, fəlsəfi mühakimələr və peyğəmbərlik özünədalma vəziyyətində aydınlaşır.

E.Levinasın fikirlərindən görünür ki, ekzistensiya edərək xaricdə digər Fiktiv Ruhlarla tam eynilik təşkil etmə dərəcəsində Ruh geriyə qayıtmır, bədəndən xaricdə, xarici totallıq kimi qalmaqda davam edir. Xarici totallıq kimi Ruhun özü-üçün-varlıq və mövcud varlıq təyini olmadığından, başlanğıc totallıqdan fərqli olaraq, Fiktiv Ruhların təşkil etdiyi ikincili xarici totallıq, xarici predmetlərə obyektivizasiya və ya

proyeksiya edilmiş forma kimi meydana çıxır. Bununla da, Subyektiv Mənin ekzistensiyasında başqa Fiktiv Ruhla tam eyniləşmiş və xarici totallıq yaradan Fiktiv Ruh paralel olaraq yaratdığı totallıqda və ya yaratdıqlarında qalmağa davam edir. Buradan da Subyektiv Mənin konkret təzahürləri kimi **"Xarici Mən"** yaranır. Xarici "Mən" iki formada təzahür edir:

Kristallaşmış Subyektiv Mən - Xarici predmetlərdə konkret obyektivizasiya edilmiş Subyektiv Mən: Subyektiv Mən ekzistensiya edərək hər hansı bir xarici varlığın və ya öz bədəninin özü-üçün-varlıq təyinindən aşkarladığı məlumatı istədiyi başqa varlığın formasına köçürür və özünün sintetik özü-üçün-varlıq təyinini (faktiki varlığını) yaradır. Xarici predmetlərin birincili formasına proyeksiya edilmiş ikincili forma - Mədəniyyət kimi təzahür edir. Obyektivizasiya prosesində Subyektiv Mən bədənin Aktiv enerjisi ilə summasiya olunur, həmin enerjini xaricə çıxararaq onun vasitəsilə xarici predmetin Passiv enerjisini neytrallaşdırır. Sonra öz Yaradıcı enerjisi ilə müvafiq formanı yaradır. Hər bir obyektivizasiya prosesində Subyektiv Mən sintetik özü-üçün-varlıq təyini ilə vəhdət təşkil edir və Real Məndən asılı olmayaraq, müstəqil şəkildə həmin parametrlərdən aydınlaşır. Subyektiv Mənin xarici sintetik formalarla vəhdəti mədəniyyət nümunələrindən Ruhun kristallaşması kimi təzahür edir. Kristallaşmış Ruh özü-üçün-varlıq təyini əldə etmiş Ruhdur. Buna görə Kristallaşmış Subyektiv Mən xarici görüntü ilə aydınlaşır. Kristallizasiya prosesi hərəkətdən qalma və ya hərəkətin saxlanmasını özündə təqdim edir. Buradan da, Kristallaşmış Ruh - fiktiv ruhi fəaliyyətin xarici predmetlərdə fəaliyyətdən saxlanmasını özündə təqdim edir.

İdeal Mən - Dəyərə çevrilmiş Subyektiv Mən: Subyektiv Mənlərin özü-özünü və ya qarşılıqlı olaraq bir-birini refleksiya etməklə özlərində əks etdirməsindən İdeal Mən təzahür edir. İdeal Mən Subyektiv Mənlərin konkret zamandakı ən ümumi formasıdır; hansı ki, həmin dövrün

Subyektiv Mənlərinin nisbi həqiqətini (kamillik dərəcəsini) özündə aydınlaşdırır. Subyektiv Mənin İdeal Mənə çevrilməsində aralıq forma kimi **Keçid Məni** meydana çıxır. Keçid Mən - Tranzit Mənlə vəhdətdə meydana çıxan Subyektiv Məndir.

Bədən və ətrafla şərtlənmədən azad olaraq İdeal Məni özündə refleksiya istiqamətində ekzistensiya edən Subyektiv Mən Keçid Mən kimi təzahür edir: İnsan ruhunda həqiqətin aydınlaşması belə bir qanunauyğunluğa tabe olur ki, təfəkkür özündə həqiqətin tam aydınlaşmasına imkan verən vəziyyət almaq üçün (yəni hər bir Subyektiv Mən yalnız xarici totallığı yox, həm də daxili totallığını əldə etmək üçün) başqa Subyektiv Mənlərlə ünsiyyətə anadangəlmə meyl edir. Xarici və daxili totallığın başqalarının iştirakı ilə birgə təmin edilməsi Subyektiv Məni **Şəxsiyyət** kimi ekzistensiya edir. Şəxsiyyət fərdin bədənlə vəhdəti ilə əksilik təşkil edən Subyektiv Mənin cəmiyyətlə vəhdətindən meydana çıxır.

Haşiyə: A.Adler, "İnsan təbiətini anlamaq"

> *"Darvin çoxdan bizim diqqətimizi belə bir fakta cəlb edib ki, zəif canlılar heç vaxt təklikdə yaşamır. Bizə də lazım gəlir ki, istəməsək də insanı da belə zəif canlılara aid edək, belə ki, insan da kifayət qədər güclü deyil ki, tək yaşasın. İnsanlar - ictimai varlıqdır, tənha yox. Başqa həyat formalarından müqayisədə insan həyatı natamam orqanizmdir. Bu natamamlıq və mövcudluğun etibarsızlığı həmişə insan şüurunda mövcud olur.*

A.Adlerin fikirləri yalnız şüurlu insan üçün xarakterikdir. Şüursuz insan digər canlılarla demək olar ki, eyni bioloji qanunlara tabe olduğundan, müəyyən gücə malik olmuşdur və onda şüur olmadığından, özünün başqa canlılarla fərqliliyi ilə bağlı heç bir informasiyaya malik olmamışdır. Belə informasiyanın olmaması onu başqa canlılarla eyniliyini təzahür etdirmişdir. Yalnız insan şüurlaşdığı andan natamamlıq keyfiyyəti qazanmışdır. Nə üçün bioloji insan "nəsə insan"a çevrildikdə o zəif və natamam olur? Yuxarıda qeyd etdik ki, şüurlu insanda Ruhla

bədən qarşılıqlı bir-birinə təsir edir. Bu təsir nəticəsində bədən özünün bioloji tamlığından məhrum olur, instinktlər Ruh tərəfindən idarə olunan təzahürlərə çevrilir; nəticədə bioloji növ kimi insana yaranışdan verilmiş təbii özünümüdafiə mexanizmləri zəifləyir və insan zəif canlıya çevrilir. Digər tərəfdən, bədənlə Ruhun əlaqəsi keçici olduğundan, şüurlu insan həm də özündə etibarsız keçici mövcudluq kimi çıxış edir. Bioloji insanın Ruh tərəfindən zəiflədilməsi, mövcudluğun etibarlılığının azalması və natamamlıq insanın cəmiyyətdə yaşaması ilə kompensasiya edilir.

Yəni zəif, natamam, etibarsız insani xüsusiyyətlərin əksiliyi **Sosiallıq** kimi təzahür edir. Bəs insan necə sosiallaşmışdır və sosiallıq özündə nəyi ifadə edir? Canlılıqdan aydınlaşan həqiqət hər bir canlı növündən eyniyyət kimi aşkarlandığından, bütün canlılar üçün ən ümumi keyfiyyətlər özlərində canlılığın həqiqətini aşkarlayır. Canlılığın ən ümumi keyfiyyəti bioloji qanunlara tabe olmaqla meydana çıxdığından, bütün canlılar eyni bioloji qanunlara tabe olduğundan, canlılıq bütün canlılarda eynidir. Yəni Canlıların Aktiv Gücü bir-birinə bərabərdir. Canlılarda Aktiv Güc iki instinkt formasında işə çevrildiyindən, bu güc onların instinktlərinin fərqliliklərinin vəhdəti ilə eyniləşdirilmişdir. Belə ki, canlılar iki instinktlə - Özünüsaxlama və Nəsilvermə instinkti ilə mövcuddur. Hər bir canlıda bu instinktlər fərqli formalarda bir-biri ilə vəhdət təşkil edərək ümumi canlılıq gücünün realizasiyasını təmin edir. Beləliklə, özünüsaxlama instinkti zəif olan canlılarda nəsilvermə gücü və əksinə, nəsilvermə instinkti güclü olan canlılarda özünüqoruma instinkti zəif olur; amma bütün hallarda hər bir canlıda özünüsaxlama instinktinin nəsilvermə instinkti ilə vəhdəti vahiddir. Formal Ruh bədənə daxil olduqdan sonra, öz xarici totallığına nail olmaq istiqamətində zaman-zaman bədənin Aktiv Gücünü özünün ekzistensiyası üçün utilizasiya edir. Nəticədə insan bir bioloji varlıq kimi digər canlılarla Aktiv Gücün vahidliyinə görə vəhdətdən çıxır və bütün canlılardan fərqli müstəqil Aktiv Gücə malik olur. İnsanın özündə olan Aktiv Gücün vahidliyini itirməsi

dərəcəsində onda çatışmazlıq-natamamlıq meydana çıxır; hansı ki, şüur məhz bu natamamlığı dərinləşdirməklə özünün bədəndən asılılığından xilas olmağa, yəni ekzistensiya etməyə cəhd edir. Bu proses özündə insanın sosiallaşması - təbii instinktlərin gücündən azad olması kimi təzahür edir. Subyektiv Mənin bir təzahürü də məhz özündə nə dərəcədə sosiallıq nümayiş etdirməsi ilə bağlı meydana çıxır. İnsan digər canlılardan nə qədər az Aktiv Gücə malik olursa, onlardan bir o qədər zəif olur; nə qədər zəif olursa, bir o qədər həmin zəifliyini dəf etmək üçün bədəndənkənar əlavə güc əldə etməyə meyl edir. Subyektiv Mənlərin insani gücsüzlüyü bədəndənkənar xarici güclə kompensasiya etməsi sosiallığı təzahür etdirir. Hər bir Subyektiv Mən nə qədər güclü başqa Subyektiv Mənlə empatiya edirsə, bir o qədər güclənir. Məhz xarici kompensator güc kimi çıxış edən başqa Subyektiv Mən - İdeal Mən kimi meydana çıxır. Beləliklə, insan İdeal Mənə çevrilməklə öz natamamlığından doğan gücsüzlüyünü dəf edir. İdeal Mənə çevrilmə iki mərhələdən ibarətdir:

a. İdeal Mənin seçilməsi: Hər bir Real Mən əvvəlcə eyniləşmək istədiyi idealı "Nümunə" kimi seçir. Adətən hər bir insan öz təbiətinin imkanlarına uyğun seçim edir. Yəni, müğənni - sənətkarın, alim - dahinin, əsgər - sərkərdənin obrazını seçir. Bu seçimi müəyyən edən imic, insanla Real Mənin başlanğıc eyniliklərinin mövcud olmasıdır. Məsələn, səsi olmayan heç bir normal insan məşhur bir müğənniyə çevrilməyə cəhd etmir. Yalnız ruhi pozğunluğu olan şəxslərdə idealın seçilməsi Real Mənlə ziddiyyət təşkil edir və belə vəziyyətdə İdeal Mənə çevrilmək şəxsiyyətin ikiləşməsi ilə (bir-birinə ziddiyyət təşkil edən Real Mənlə Subyektiv Mənin bir fərddən təzahür etməsi ilə) müşahidə olunur.

b. Subyektiv Mənin Real Məndən ayrılması: İkinci mərhələdə Subyektiv Mən Real Məndən ayrılır. Bunun üçün o, bədəndən gələn tələbatlardan azad olmaq üçün onun Aktiv Gücünü özündə summasiya edir və özünün ətrafla şərtlənməsinə müqavimət göstərir. Bu, **Ruhi**

Trans vəziyyəti və ya Ruhi Oyanıqlıq yaradır. İnsanda həm də süni yolla da trans vəziyyəti yaratmaq mümkündür. Süni trans Real Mənlə başlanğıc eyniliyə malik olmayan istənilən dəyişkən İdeal Mənə - İrreal Mənə keçidlə müşahidə olunur. Süni trans hipnoz, psixotrop maddələr və ya yoqalarda olduğu kimi xüsusi məşqlərlə yaradılır. Süni trans vəziyyəti təsbit olunmamış, müvəqqəti vəziyyətdir. Yəni insan İrreal Mən vəziyyətində müvəqqəti qalır və sonradan öz Real Məninə qayıdır. Normal trans vəziyyətində isə Subyektiv Mən hər dəfə İdeal Məni özündə refleksiya edə-edə tədricən İdeal Mənə çevrilir. Trans vəziyyətinin yaranması bir çox üsullarla - təhsil, tərbiyə, məşq, təlqin, hipnoz, özünüyenidənqurma və s. kimi üsullarla reallaşdırılır.

c. Subyektiv Mənin Yenidənqurulma mərhələsi: Trans vəziyyəti şəxsiyyətin yenidənqurulması ilə - yəni Ruhun bədən və ətrafdan şərtlənmədən azad olmaqla özündə həqiqətin tam aydınlaşmasına imkan verən vəziyyətin yaratması ilə başa çatır. Heç bir insan tam öz bədəni və ətrafla şərtlənmədən azad ola bilmədiyindən və trans vəziyyətində yeni entropiyaya məruz qaldığından İdeal Mənə tam çevrilmə baş vermir. Bu proses şəxsiyyətin kamilləşmə prosesini özündə təqdim edir. Kamilləşmə - tarixi proses olub son nəticədə bütün insanların özündə eyni tamlıqda vahid İdeal Mənə (Ruhun həqiqətini özündə aydınlaşmasına və aşkarlanmasına imkan verən Mənə - Ruhun xarici formal varlığına, İnsanlığa) Ruhun xarici totallığının tam daxili totallıq kimi refleksiya etməsi ilə başa çatır. Yəni hər bir Subyektiv Mən özü-özündə Ruhun Formal Varlığı kimi təzahür edir. Bununla da Fiktiv Ruhların bir-biri ilə ünsiyyətinə tələb aradan qalxır. Ruh bədəndən və başqalarından mütləq azad olaraq, özü-özü ilə refleksiya kimi həm daxili, həm də xarici totallıq kimi eyniyyətlə təzahür edir.

Haşiyə: Z.Freyd, "Kütlə psixologiyası və insan məninin analizi"

"Şəxsiyyətin psixologiyası, öz ilkin çağırışlarını təmin etməyə cəhd edən ayrıca insanı ayırmır; və o yollarla ki, hər halda nadir

olaraq, yalnız müəyyən istisna hallarda bu ayrıca adamın başqa fərdlərlə münasibətini diqqətə almamaq vəziyyətindədir. İnsanın psixi həyatında həmişə "başqası" mövcuddur. Bir qayda olaraq o nümunə, obyekt, köməkçi və ya rəqibdir və buna görə də şəxsiyyətin psixologiyası lap başdan eyni zamanda həmçinin belə genişlənmiş və tam əsaslanmış mənada birincili sosial ehtiyac hissi (ola bilsin ayrılmaz və ən qədim olmayan) onun əmələgəlməsinin başlanğıcı, daha çox sıx dairədə, məs. ailədə tapmaq olar."

Z.Freydin yuxarıdakı fikirlərində qeyd etdiyi "insanın həyatında həmişə "başqası" mövcuddur" fikri məhz İdeal Mən haqqında təsəvvürdən ibarətdir. İdeal Mənin ən kamil forması - **Mütləq İdeal Mən** - Ruhun Xarici Formal Varlığıdır. Bu, yalnız Ruha xas, onun xalis varlıq təyinindən təzahür edən keyfiyyətlərə malik "İdeal Mən"dir. Bundan fərqli olaraq, Real Mənlə və fərdin düşdüyü sosial mühitlə şərtlənmiş İdeal Mən **Nisbi İdeal Mən** kimi təzahür edir. Bütün nisbi İdeal Mənlərin vəhdətindən Mütləq İdeal Mənin həqiqəti aydınlaşır. Ona görə də, Mütləq İdeal Mən tarixi prosesdə Ruhun Xarici Formal Varlığının yaranmasında, yəni Ruhun mütləq azadlığından aydınlaşır. Bütün deyilənlərdən aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İnsanlıq - Formal Ruhun Ruhun Formal Varlığında refleksiyasının şərtlərinin məcmusundan ibarətdir.

ABSTRAKT İNSAN - XARİCİ İNSANLIQ - RUHUN FORMAL VARLIĞI

Cisimlərin formal varlığı faktiki varlıqları ilə dəyişməz daxili vəhdətdə (xüsusidən), canlıların formal varlığı faktiki varlığı ilə dəyişən daxili vəhdətdə (ümumidən, yəni növdən), Ruhun formal varlığı faktiki varlığı ilə keçici xarici vəhdətdən aşkarlanır. Hər bir Fiktiv Ruh - Formal Ruhun xarici totallığını özündə refleksiya edən daxili totallıqdır. Formal Ruhun Xarici totallığı bütün insanlığın xalis varlıq təyinindən aydınlaşır.

Haşiyə**:** V.Frankl, "İnsan məna axtarışında"

> *" İnsan varlığı Homo sapiens növünün məskunlaşdığı mühiti dəf etməklə xarakterizə olunur. İnsan cəhd edir və onun sərhədlərindən dünyaya - başqa insanlarla dolu və onlarla ünsiyyətə, mənaya və onların realizasiya olduğu dünyaya çıxır və həqiqətən ona nail olur."*

V.Franklın fikirlərindən görünür ki, məna axtarışında insan "məskunlaşdığı mühitdən çıxmağa" cəhd edir. Əgər biz insanı *Unitas Multiplex* kimi təsəvvürə gətirsək, onda insanlığın məskunlaşdığı birincili məkan kimi Bədən götürülə bilər. Beləliklə, məna axtarışında insanın dəf etdiyi birinci mühit Bədən mühitidir. İnsan yalnız məna axtarışında məskunlaşdığı mühiti dəf etmir, həm də mühit (Ruh həmin mühütün - bütünlükdə Kosmosun qanunlarına tabe olmadığından) onu özündən çıxarmağa cəhd edir, yəni ekzistensiya edir. Hər iki halda Ruh məna əldə edir. Birinci halda məna məqsədəyönlü, iradəvi, zərurətə görə; ikinci halda məqsədsiz, qeyri-iradi və təsadüfə görə məna kəşf olunur. İnsanın mühiti dəf etməklə əldə etdiyi mənadan Ruhun Formal Varlığı təşkil olunur.

Beləliklə, bədəndən tam azad olaraq Real Mənə xas heç bir əlamət daşımayan və buna görə də məkan və zaman şərtlərindən azad olmuş, bütün Subyektiv Mənlərin qarşılıqlı empatiyasından Formal Ruhun öz xalis mövcudluğunu özü-özündə refleksiyası **İnsanlığı** özündə təzahür etdirir. İnsanlıq - fərdin **Abstrakt Məni** kimi ətraf və bədənlə şərtlənmədən, keçmiş, indi və gələcək insanlarla xarici totallıq təşkil etmənin yaşantısıdır; hansı ki, abstrakt bəşəri dəyərlər kimi təzahür edir. Abstrakt Mən - insanın öz başlanğıc totallığına meyllərində üzə çıxır və özündə başlanğıcda külli aləmin xalis mövcudluqda olduğu vəziyyət haqqında məlumatlar verə bilər.

Haşiyə: S.Qrof, "Gələcəyin psixologiyası"

> *"Xolotrop vəziyyətlərində (bu mürəkkəb söz özündə "tamlığa çevrilmiş" və ya "tamlıq istiqamətində hərəkət edən" və s. kimi*

mənaları verir) şüur keyfiyyətcə şəkildəyişdirir və xüsusən də çox dərin və əsaslı; amma bununla yanaşı, o orqanik zədələnmələrdə olduğu kimi güclü zədələnmir və zəifləmir. Xolotrop vəziyyət bütün hissi sferalarda qavrayışların həyəcanverici dəyişilmələri ilə xarakterizə olunur. Nə zaman ki biz gözümüzü yumuruq, bizim görmə sahəmiz ya bizim şəxsi tariximizdən, ya da şəxsi və kollektiv şüursuzluğumuzdan çıxan obrazlarla dolur. Bizim yaşantılarımız bizi arxetip və mifoloji varlıqların aləminə cəlb edə bilər. Biz ardıcıl olaraq psixoloji ölüm və yenidəndoğulmanı və transpersonal təzahürlərin geniş spektrini, başqa adamlarla, təbiətlə, Kainat və Allahla birlik hissi kimi hissləri yaşaya bilərik. Xolotrop yaşantı mənəvi təbiəti, Kosmosu və bütün mövcudluğu təsvir edən kosmoloji, mifoloji, dini, fəlsəfi sistemlərin əsas mənbəyidir. O özündə insanlığın adətlərinə və Ruhun həyatına açarı təqdim edir."

S.Qrofun xolotrop adlandırdığı vəziyyət, Abstrakt Mənin (özündə formal ruhi tamlığa çevrilmiş Fiktiv Ruhun) ekzistensiya etdiyi vəziyyətdir; hansı ki, mövcud varlığın (reallıqların) və Formal Ruhun (mümkünlüklərin) xalis varlığından əldə edilmiş ideyaların məcmusundan ibarətdir. İnsan Abstrakt Məni ilə aldığı məlumatları təsəvvür və şərh etmək qabiliyyəti ayrı-ayrı dövrlərdə müxtəlif olduğundan, xolotrop vəziyyətdə alınan eyni bir informasiya gah mif, gah din, gah elm, gah da fəlsəfi mühakimələr kimi meydana çıxır. Buradan da demək olar ki, mühakimələrin formanın müxtəlifliyində bütün bu məlumatlar bir və eyni totallığın müxtəlif interpretasiyalarıdır. Ona görə də Yunqla razılaşmaq lazımdır ki, "insan haqqında mühakimə apararkən ruhun bütün resurslarından istifadə etmək lazımdır".

İnsanın insanlıq nümayiş etdirməsi yalnız **Xolotrop vəziyyətə** keçdikdə mümkün olur; hansı ki, məhz bu vəziyyətdə "keyfiyyətcə şüurda şəkildəyişmə" baş verir, o, Fiktiv Ruhdan Ruhun Formal Varlığına çevrilir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Xolotrop vəziyyət - Fiktiv Ruhun Ruhun Formal Varlığını təşkil etmə şərtlərinin məcmusundan ibarətdir.

Ruhun Formal Varlığı metafizik təbiətli olduğundan, xolotrop vəziyyətdə "mifoloji və arxetip aləm" kimi qavranılanlar metafizik qanunlara tabe olan idrak obyektlərindən təşkil olunur. Mövcud insan xolotrop vəziyyətdə HAMI olaraq Kosmosdan Metafizikaya transendensiya etdiyindən, onun aşkarladığı idrak obyektləri transpersonal-fərdüstü, kollektiv təzahürlər olur. Bəs xolotrop vəziyyətdə insan necə "başqa adamlarla, təbiətlə, Kainat və Allahla birlik hissi" yaşaya bilir? Transendensiya ilə Kosmosdan Metafizikaya keçid özündə reallıqdan mümkünlüyə keçidi təqdim edir; hansı ki, subyektə münasibətdə Metafizik Təklər - Kosmos, Varlıq, Allah və Ruh kimi aşkarlanır. Burada: təbiət və kainat - Kosmosu və Varlığı; başqa adamlar (hamı) - Ruhu özündə təqdim edir. Bütün dediklərimizdən aydın olur ki, insanın Subyektiv Məni xolotrop vəziyyətdə fərdin HAMI kimi metafizik aləmə (reallıqlardan ayrılıb mümkünlüklərdən) həqiqəti dərk etməsində meydana çıxır. S.Qrofun fikirlərindən göründüyü kimi, xolotrop vəziyyət - yəni insanlıq vəziyyəti - Ruhun həyatına (Formal Ruhun təbiətinə) açar rolu oynayır. Başqa sözlə, Formal Ruh yalnız Ümumi İnsanlıqdan (Hamıdan), aşkarlanan Fiktiv Ruhdan xaricdə aşkarlana bilər.

Xolotrop vəziyyətdə (idrak obyektləri metafizik qanunlara tabe olduğundan) yalnız arxetip (keçmişdə və indidə olanlar) yox, həm də gələcək haqqında məlumatlar aydınlaşır ki, həmin məlumatlardan gələcək haqqında qabaqcadan məlumat vermək mümkündür; hansı ki, **Peyğəmbərlik** kimi təzahür edir. Bütün peyğəmbərlərin insanlardan tam təcrid olduqdan sonra Allahdan vəhy alması ilə bağlı dini təsəvvürlər də məhz bununla izah oluna bilər.

Haşiyə: S.Qrof, "Gələcəyin psixologiyası"

"Mağarada, çöldə, arktik buzlaqlarda və ya hündür dağlarda yaşamaq kimi cəmiyyətdən uzun müddət ayrı düşmək və sensor

aclıqda qalmaq - xolotrop vəziyyətin yaranmasında vasitə keyfiyyətində mühüm rol oynayır."

S.Qrofun bu fikirlərini belə bir fakt sübut edir ki, həqiqi peyğəmbərlərin hər biri Adəmdən başlayaraq (Adəm yerə tənha gəlmişdir), həm İbrahim, həm Musa, həm İsa, həm də bizim axırıncı Peyğəmbərimiz məhz insanlardan aralanaraq - İbrahim peyğəmbər səhrada, Musa peyğəmbər çöldə və Sina dağında, Məhəmməd peyğəmbər dağda, mağarada, İsa peyğəmbər öz daxili təkliyindən - Allahdan vəhy almışlar. Hansı ki, vəhy həm real varlıqların, həm Ruhun xalis varlıq təyininin ideyalarının vəhdətindən ibarətdir.

Abstrakt Mən insanda onun Real Məni ilə əksilik təşkil edir. Buna görə də, Abstrakt Mənin təzahüründə bəzi şəxslərdə orqanizm fərqli vəziyyətə keçir. Epilepsiyalarda da məhz ətrafdan patoloji təcrid olunma kimi eyni vəziyyət aydınlaşır. Lakin normal təcrid olunmadan fərqli olaraq, epilepsiyada Ruh qapandığından epileptik tutmalarda həqiqətin aşkarlanması baş vermir.

İnsanın Abstrakt Məni **Super-Eqo** və ya **Ali Mən** kimi mövcuddur. Ali Mən insan təbiətində bütün insanlıqda reallaşacaq Mən kimi Sonuncu İnsanda meydana çıxacağından, özündə insanlığın son məqsədinə (Ruhun real aləmin xarici totallığını özündə refleksiya etməklə mütləq azadlığa qovuşmasına) meyllənir. Belə Məni olmayan insan tam sosial varlıq kimi təzahür etmir.

Haşiyə: A.Adler, "İnsan təbiətini anlamaq"

"İnsanın bütün davranışlarının məqsədə cəhdə əsaslandığını, belə ki, onu başlanğıc şərt yox, həm də ehtimal edilən sonun şərtləndirdiyini mənimsəməklə biz həmçinin o nahiyələri göstərə bilərik ki, hər şeydən tez ən ciddi səhvlər həyata keçiriləcəkdir."

A.Adlerin fikirləri tarixin nə üçün bu qədər uzandığını izah edir. Belə ki, bir tərəfdən heyvanlardan fərqli olaraq (heyvanlar yalnız keçmişdən - irsiyyətlə aldığı məlumatla yaşayır) insan "ehtimal edilən sondan" məlu-

mat almaq imkanına malik olduğundan və bu imkan onda olan və təsadüfi şərtlərin məcmusundan ibarət ruhi aktivliklə bağlı olduğundan, insanın gələcəkdən aldığı istənilən məlumat yalnız təsadüfə görə düz olduğundan, insan ”hər şeydən tez ən ciddi səhvləri” qavrayır və həyata keçirir. Nəticədə insan səhv həyat tərzləri nəticəsində öz subyektiv mənina keçməkdə daha uzun vaxtda, olduqca çətin yolla irəliləyir.

Ali Mənin bütün təzahürlərinin məcmusu **Mənəviyyat** kimi təzahür edir. Mövcud insan Sonuncu İnsanın mənəviyyatından uzaq olduğu qədər öz mənəvi sferasında səhvlər edir. Ali Mənin (Formal Ruhun), Real Mənə (Fiktiv Ruha) münasibəti **Vicdan** kimi təzahür edir. Vicdan - Real Mənin fəaliyyətini daxildən tənzimləyən Abstrakt Mənin təzahürüdür. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Vicdan - fərdi ruhi fəaliyyətin Ruhun Xarici Formal Varlığına uyğunluğunun şərtlərinin məcmusundan ibarətdir.

Vicdan əxlaq, qanun və müxalifətçilik (özü-özünə və başqasına müxalifətçilik) kimi formalarda inkişaf edir. Beləliklə, Ali Mən gerçək “Mən”ə nəzarət edir və ona davranış və fəaliyyətin əxlaqi normalarını müəyyənləşdirir. Ali Mən - **Vicdanın səsi** və ya **Daxili səs** kimi təzahür edir. Ali Mən İdeal Mənlərin bir-biri ilə zəncir təşkil etməsindən təzahür edir. Belə ki, İdeal Mən Məndə olmayan xarici və Mənin ona çatmaq istədiyi xüsusi; Ali Mən isə Mənə paralel onda mövcud olan, Məni idarə edən Ümumi Daxili İdeal Məndir. Ali Mən insanı İdeal Mənlərə istiqamətləndirir. Mən bədənlə sərt şərtlənmiş, Ali Mən bədəndən tam azad olmuş Mənin səviyyəsidir. Beləliklə, Ali Mən Mənin şərtlənməmiş səviyyəsidir. Bu səviyyənin həcmi Mənin sosial rolunu müəyyən edir.

“NƏSƏ İNSAN”IN AKTUALLAŞMASI

Zəruri şərtlərə görə yaranan mövcudluqlar - faktiki varlıqlar - Kosmosda təsadüfi şərtlərə görə digər mövcudluqlarla vəhdətdə mövcud olur. Elə belə, mövcudluğun mövcudolmasını biz **Aktuallaşma**, yəni mövcud-

luqların xarici vəhdətdə bir-birinə qarşılıqlı təsir etməsi kimi təyin edirik. Fəlsəfədə aktuallaşma varlığın dəyişkənliyini - varlığın imkan halından gerçəklik halına keçməsini bildirən anlayış kimi təyin olunmuşdur. Gerçəkliyə keçmək özündə qanunauyğunluğa malik olmağı, inkişafda olmağı və təsir və inkişaf nəticələrinə malik olmağı ifadə edir.

Beləliklə, biz varlığın mövcudluğunun mövcudluğun varlığına keçməsini aktuallaşma adlandırırıq. Mövcud varlıqların aktuallaşmasının səbəbi onlardan kənarda (İlahi iradədə) olduğundan, bu cür aktuallaşmanı **Aktuallaşdırma** kimi də ifadə etmək olar. Aktuallaşdırma özündən başqasını fəaliyyətə gətirməyi ifadə edir ki, bu da Allahın mövcudluğu yaratması kimi qavranılır. Bu mənada, aktuallaşdırma mümkünlüyün varlığının mövcudluq tələbində İlahi iradədən zəruri şərtlərin verilməsi ilə onun mövcudluq əldə etməsini özündə ifadə edir. Varlığın mövcudluğunun mövcudluğun varlığına keçidi məkan və zamanla şərtlənmə kimi baş verdiyindən, aktuallaşdırma ayrılıqda həm məkanda, həm zamanda, həm də vəhdətdə məkan-zaman asılılığında keçidi bildirir. Biz məkan-zaman asılılığında mövcudluğun mövcud olmasını aktuallaşma kimi təyin edirik. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Aktuallaşma-mövcudolmanın şərtlərinin məcmusundan ibarətdir.

Aktuallaşma sözü *akt* sözündən götürülmüşdür. Akt - istənilən baş vermiş fəaliyyət, fəal, fəaliyyət göstərən, canlı, həyati, atil (yəni əsas olmayan) mənalarını verir. Beləliklə, aktuallaşmanı atil olmayanın fəallaşması, həyata keçməsi, gerçəkləşməsi kimi təyin etmək olar. Əgər Fakt (mövcudluq) mövcud varlığın əsası və ya atildirsə, onda Mövcudolma mövcud varlığın aktı, yəni qeyri-əsasın təzahürüdür. Atil olmayan özündə aksidensivliyi, təzahürü təqdim etdiyindən, varlığın aktuallaşması əslində özündə aksidensivliyin, təzahürlərin inkişafını, dəyişilmələrini, əvəzlənmələrini, bir-birinə keçidini və mövcud varlığın başqa varlıqlara (o cümlədən subyektiv varlığa) təsirini ifadə edir. Buradan da aktuallaşmanın özündə mövcudolmanı təqdim etdiyi aydınlaşır. Ak-

tuallaşmanın səbəbi aktuallaşdırılandadır. Yəni aktuallaşdırmadan fərqli olaraq aktuallaşma daxili səbəblə meydana çıxır. Buradan belə bir hökm aşkarlanır: *Zəruri şərtlərə malik olmayan heç nə aktuallaşa bilməz.* Aktuallaşma həm də obyektin subyektə təsirini özündə ifadə etdiyindən, mövcud varlığın varlığın mövcudluğuna keçidi, konkretin abstraksiyalaşması, reallığın idrakının gerçəkləşməsi kimi aktuallaşmadan ibarətdir.

Haşiyə: Abraham Qarold Maslou, "İnsan psixikasının uzaq hüdudları"

> *"Faktla onun əhəmiyyətinin qarşılıqlı münasibəti; nə ki var və nə ki olmalıdır; təsvirin və qiymətləndirmənin əbədi fəlsəfi problemi - fəlsəfə doğulan andan filosofların qarşısında duran dəhşətli problemdir və bu günə kimi həll olunmamışdır."*

A.Maslounun fikirlərində faktla qarşılıqlı münasibətdə olan "əhəmiyyəti", "nə ki varla" münasibətdə "nə ki olmalıdır", "təsvir" əsasında "qiymətləndirmə" özündə aktuallaşmanı xarakterizə edir. Yəni aktuallaşma - faktın əhəmiyyətidir (hansı ki təzahürlərdən aşkarlanır), faktın təsadüfi şərtlərə görə xarici vəhdət təşkil etməsidir (hansı ki həmin şərtlərdən asılı olaraq "var olan"la "olmalı olan" qədər fərqlənir), nəhayət, obyektin subyektlə qarşılıqlı əlaqəsində birincinin ikincidə aktuallaşması (qavranılması), yəni qiymətləndirilməsindən ibarətdir.

Faktiki varlıqların aktuallaşması mövcudluğun zəruri şərtləri əsasında təsadüfi şərtlərdə meydana çıxır. Buradan da, "təsadüf zərurətin təzahür forması" kimi çıxış edir. Yəni hər bir zəruri şərtə malik fakt, yalnız təsadüfə görə başqa zəruri şərtlərə malik mövcudluqlarla təşkil etdiyi xarici vəhdətdən təzahür edir.

"Nəsə insan" (fiktiv varlıq kimi) faktiki varlıqlardan fərqli qaydada aktuallaşır. Belə ki, "nəsə insan" Ruhla bədənin keçici daxili vəhdətində özündə bir-birindən fərqli iki cür şərtlərə: mövcud varlıq kimi bədənin zəruri şərtlərinə və mümkün varlıq kimi təsadüfi şərtlərə və zəruri şərtlər

əldəetmə şərtlərinə malik Fiktiv Ruhdur. Buradan da, "nəsə insan"ın aktuallaşması özündə bir-birindən fərqli iki prosesi təqdim edir:

1. **Daxili aktuallaşma:** Ruhla bədənin daxildə xarici vəhdət təşkil etməsi kimi. Daxili aktuallaşmadan **Mən** təzahür edir.
2. **Xarici aktuallaşma:** Daxili vəhdət təşkil edən "nəsə insan"ın bədəndənkənar digər varlıqlarla xarici vəhdətdə mövcud olması. Buradan **Fərd** və ya **Şəxsiyyət** təzahür edir.

"Nəsə insan"ın Özünüaktuallaşdırmasının təzahürü **Həyat təcrübəsini**, aktuallaşması **Yaşam təcrübəsini** təşkil edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

"Nəsə insan"ın aktuallaşması - bioloji növ kimi insanın həyat təcrübəsinin şərtlərinin məcmusundan; Özünüaktuallaşdırması - yaşam təcrübəsinin şərtlərinin məcmusundan ibarətdir.

Təbiətdə hər bir mövcud varlıq zəruri şərtlərə malik olduğundan, aktuallaşma zəruri şərtlər əsasında, bir zəruri şərtin başqa zəruri şərtə təsiri kimi baş verir. Amma "nəsə insan"ın daxili aktuallaşması zəruri şərtlərə malik bədənlə təsadüfi şərtlərə malik Fiktiv Ruhun qarşılıqlı təsiri ilə baş verdiyindən, bir tərəfdən bədən öz başlanğıc zərurətindən, digər tərəfdən Ruh öz başlanğıc azadlığından məhrum olur. Nəticədə, zəruri şərtlərdən təsadüfi şərtlərə meyl edən mövcudluq və təsadüfi şərtlərdən zəruri şərtlərə meyl edən varlıq meydana çıxır. Beləliklə, "nəsə insan"ın daxili aktuallaşmasında sürəkli olaraq rəqabətdə olan mövcudolma-aktuallaşma meydana çıxır. Biz daxili aktuallaşmanı **Özünüaktuallaşdırma** və ya Mənəvi Aktuallaşma adlandırırıq. Özünüaktuallaşma sözündəki "özü" mövcud varlıqdan fərqli olaraq aktuallaşdırmanın səbəblərinin özündə olmasını ifadə edir. Yəni əgər bütün mövcud varlıqlar İlahi iradə ilə yaradılırsa, Ruhun mövcud varlığı onun "Özü" tərəfindən aktuallaşdırılır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Özü - Ruhun mövcudluğunun aktuallaşdırılmasının şərtlərinin məcmusundan ibarətdir.

A.Q.Maslouya görə özünüaktuallaşdıran insanlar istisnasız olaraq "onlara münasibətdə xarici olan və təbiiliyin tələblərinə cavab verməyən nəyəsə" cəlb olunur. Burada "onlara münasibətdə xarici olan" və "təbiiliyin tələblərinə cavab verməyən nəsə"ni biz Formal Ruh kimi təyin edə bilərik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Özünüaktuallaşdırma - insanların istisnasız olaraq Formal Ruha cəlb olunmağının şərtlərinin məcmusundan ibarətdir.

Haşiyə: Abraham Qarold Maslou, "İnsan psixikasının uzaq sərhədləri"

> *"Özünüaktuallaşdırılan insan, transendensiya edən, universaldır. O, insanlığa məxsusdur. Özünüaktuallaşdıran fərdlər (daha yetkin, insaniləşmiş, artıq təyinə görə) öz baza tələbatlarını ödəmiş, həyatiali motivlərlə idarə olunan adamlar kimi çıxış edirlər. Onları "metamotivləşmişlər" adlandırmaq olar.*

Başqa sözlə, özünüaktuallaşdırma Fiktiv Ruhun bədənin tələbatlarının tam təmin olunması və ya belə tələbatlara cavab verməməsi ilə onun təsirindən azad olmasını və xarici formal varlığa çevrilmə cəhdini özündə təqdim edir. Biz **Metamotivi** Formal Ruhun təzahürü kimi təyin edirik. Beləliklə, metamotivləşmiş o insanlar hesab edilə bilər ki, onlar bədən tələbatlarına laqeyd qalaraq, əsası Formal Ruhda olan motivlər əsasında özünü aktuallaşdırır. Fiktiv Ruh bədənlə əlaqəsinə görə orijinallaşdığından, bədən şərtlərindən azad olmaqla universallaşır. Bütün Fiktiv Ruhlar eyni bir Formal Ruhun eyni vaxtda müxtəlif bədənlərlə şərtlənməsindən təzahür etdiyindən, bütün Fiktiv Ruhların bədən şərtlərindən azad olması, onların məcmusunun Formal Ruhu təşkil etməsinə səbəb olur ki, bu da hər bir fərddə bu və ya başqa səviyyədə, amma tam şəkildə tarix boyu bütün insanların birliyindən aşkarlanan İnsanlıqdan ibarətdir. Formal Ruha cəlb olunmaqla hər bir Fiktiv Ruh özündə Formal Varlığa - faktiki bədənlə müəyyən olunmayan varlığa

çevrilir. Məhz Formal Ruha cəlb olunma şərtlərinə görə insanlar heyvanlardan fərqli olaraq yaşam təcrübəsinə malik olurlar.

Ruhun Formal Varlığı ideyalar və dəyərlər kimi aşkarlanır. Buradan da, özünüaktuallaşdırma Formal Ruhun ideyalarına, dəyərlərə yiyələnmək kimi təyin oluna bilər; hansı ki, Formal Ruha xas olduğundan, hər cür təbii tələbatdan azaddır və bədənə münasibətdə xaricidir, yəni metafizikdir. Aktuallaşma qanunauyğunluğa malik olmağı, yəni nizamlanmağı özündə ifadə etdiyindən, özünüaktuallaşdırmada dəyərlərə istiqamətlənmə dəyərlərlə ruhi özününizamlanmadan ibarət olur. Fiktiv Ruh nizamlandıqca metafizik təbiətindən uzaqlaşır və kosmik təbiət əldə edir. Nəticədə Ruhun Mövcud Varlığının yaranması baş verir. Özünüaktuallaşdırma "nəsə insan"dan Fiktiv Ruhun müstəqil təzahür etmə cəhdindən ibarətdir. Məhz buna görə, ruhi təzahürlər yalnız özünüaktuallaşdırma prosesindən aşkarlanır. Fiktiv Ruhun Formal Ruha çevrilməsi **Şəxsi Artım** kimi qavranılır. Şəxsi artım - "nəsə insan"ın Ruhun Mövcud Varlığına keçməsini özündə ifadə edir.

"Nəsə insan"ın xarici aktuallaşması daxili aktuallaşmadan fərqlənir. Belə ki, mövcud insan kimi bədən digər mövcud varlıqlara xas öz zəruri şərtləri əsasında aktuallaşma prosesinə daxil olur. Amma Fiktiv Ruhun zəruri şərtləri olmadığından, bədənin xarici aktuallaşmasında bədənin əksinə özünə zəruri şərtlər, yəni faktiki varlıq əldə etməyə cəhd edir. Biz bunu aktuallaşmanın əksi kimi **Faktuallaşma** adlandırırıq. Başqa sözlə, daxildə bədən Ruhun təsadüfi şərtləri ilə vəhdətdə şüurlu insan kimi aktuallaşır; xaricdə Ruh bədənin zəruri şərtləri ilə vəhdətdə həmin şərtlərdən özünə xarici mövcudluq yaratmaqla faktuallaşmağa cəhd edir. Faktuallaşma xüsusi proses olduğundan ayrıca fəsildə şərh olunacaq. Beləliklə, "nəsə insan"ın aktuallaşmasında həm də yeni fakt - insan yaradıcılığının məhsulu olan Süni Faktiki Varlıqlar meydana çıxır. "Nəsə insan"ın aktuallaşması həm də birincili aktuallaşmada yaranan ikincili

faktiki varlıqlar arasında baş verir ki, nəticədə Ruhun Mövcud Varlığı təzahür edir.

Ruhun Mövcud Varlığı - "nəsə insan"ın süni faktiki varlıqlarla aktuallaşmasının şərtlərinin məcmusundan ibarətdir.

Aktuallaşmaqla özünüaktuallaşdırma aşağıdakılara görə fərqlənir:

- **Aktuallaşma** - qeyri-iradi, passiv-şüursuz, asılı kosmik prosesdir və mövcudluğun zəruri şərtləri ilə məhdudlaşmışdır.
- **Özünüaktuallaşdırma** - iradəvi, aktiv-şüurlu, azad, metafizik prosesdir.

Bədənin aktuallaşması özündə "nəsə insan"da bədənin Ruhdan ayrılması ilə reallaşır. Bədənin Ruhdan ayrılması - Ruhu özündən kənarlaşdırması ilə aktuallaşması - özünüaktuallaşmanı təqdim edir. Özünüaktuallaşdırma bədənin Ruhun təzahürlərini özündən kənara çıxarılması ilə mümkün olur ki, biz bunu **Ekspressiya** adlandırırıq. Ekspressiya yolu ilə Ruha xas ideyalar hisslərlə kənara çıxarılır. Bədəndə həm də ətrafa heyvanlara xas hissi reaksiya yaranır. Lakin heyvani hissi reaksiyada ağıl iştirak etmədiyindən, bu hisslər özündə məna daşımır. Məsələn, bədənin hərarət hissi ilə nifrət hissini müqayisə edək. Hərarət hissi - bədən temperaturunun artması ilə izafi istiliyin ətrafa çıxarılmasını özündə göstərir və özündə heç bir məna daşımır. Buna görə də ümumidir, yəni fərdiləşməmişdir. Hərarət hissində məna olmadığından, subyektlər arasında münasibət yaratmır. Güclü nifrət hissində də bədənin hərarəti kənara çıxarılır, amma mənaya malik olduğundan, konkret obyektə subyektiv münasibəti ifadə edir.

İnsan özündə cana, cismə və ruha xas varlıq təyinləri saxladığından, bütün varlığın totallığını özündə refleksiya edən Vahid Mən kimi çıxış edir. Bu cür totallığın Ruhda başlanğıc daxili refleksiyası Fiktiv Ruhun daxili totallığı kimi əks olunur. Mən özündə bədənin özü-üçün-varlıq təyinindən Ruhun təzahürü olduğundan, bu təyindən Ruhun bütün təzahürləri xüsusi və orijinaldır; hansı ki, xarici totallıqla ziddiyyət təşkil

edir. Ruhu yalnız bədənin özü-üçün-varlığından azad olduqdan sonra aşkarlamaq olar.

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

> *"İnsan mövcudluğunun fərqləndirici cəhəti, onda antropoloji vahidliyin həyata keçirilməsindən və insanın aşkarlandığı vahid insani varlıq üsulunun və müxtəlif varlıq formasının ontoloji fərqliliyinin olmasıdır. Müxtəlif varlıq formalarını dəf edən, həm də insanı proyeksiya etdiyimiz Ruhla bədənin antinomiyası kimi əksiliyi həll edən insani mövcudluq üsulunun vəhdətini axtarmaq mənasızdır. Onu yalnız xüsusi ali insani təzahürlərində aşkarlamaq olar."*

V.Frankldan sitat gətirdiyimiz fikirdə antropoloji vahidlik Ruhla bədənin - iki müxtəlif mahiyyətin bir mövcudluqda (bir formada) təzahür etməsini ifadə edir. "Vahid insan varlığı" ifadəsi özündə mövcudluğun varlığı ilə varlığın mövcudluğunun vəhdət təşkil etdiyini ifadə edir; hansı ki, bunlardan biri faktiki, digəri fiktiv varlıq kimi ontoloji fərqlilik təşkil edirlər. Ruhla bədənin əlaqəsində, Franklın qeyd etdiyi kimi, insanın vahid mövcudluq üsulunu axtarmaq mənasızdır. Çünki insanda həm cismə, həm cana, həm də ruha xas bir-birindən kəskin fərqlənən və müxtəlif müstəvilərdə proyeksiya olunan mövcudluq üsulları vardır. Hansı ki, birincisi sabit, ikincisi dəyişən zəruri şərtlərin, üçüncüsü isə təsadüfi şərtlərin məcmusundan ibarətdir. İnsan mövcudluğunun sinergetik mövcudluğunda Ruhla bədən antinomiya təşkil edir, ona görə də "nəsə insan" ya konkret mövcudluq, ya da abstrakt Ruh kimi qəbul edilən olur. Amma "nəsə insan"ı bu antinomiyadan kənarda, Ruhla bədənin əlaqəsində, insanın sinergetik mövcudluq üsulunun təzahürlərində (yəni kənara çıxarılmış əlaqələrdə) - Ali İnsan Təzahürlərində tapmaq olar. Buradan da, şüurlu insanın aktuallaşması - Ali İnsan Təzahürləri kimi meydana çıxır. V.Franklın insanın mənası ilə bağlı bu mühakimələri bir daha Ruhun bədənlə antaqonistindən, bədənin özünə yadlaşdırılmasından aşkarla biləcəyini elmi yolla təsdiq edir. Bunun əksinə, bədənin özü-

üçün-varlıq təyinindən bədəndə Ruhu aşkarlamaq, ruhi fəaliyyətdən isə bədəni aşkarlamaq mümkün deyil. Buna görə də, fəaliyyətsiz insandan Ruh aşkarlanmır.

Beləliklə, insan özündə bütün yaranışın sirlərini saxlayır, həm də o yaranışın sirlərini xarici totallıqdan aşkarlamaq vəzifəsini daşıyır. Nəticədə insanın Ruhu ya özü-özünü refleksiya yolu ilə daxildən, ya da varlığın digər formalarının refleksiyası ilə xaricdən Varlığın totallığı (İlahi həqiqət haqqında bilgi) əldə edə bilər və hər iki məlumat bir-biri ilə eyniyyət təşkil etdikdə mütləq həqiqət aşkarlanır.

Haşiyə: N.O.Berdyayev, "İnsanın təyini haqqında"

> *"İnsan problemi fəlsəfənin əsas problemidir. Hələ yunanlar başa düşmüşlər ki, insan yalnız özü-özünü dərketməyə başlayanda fəlsəfəçilik edə bilər. İnsan üçün Varlığın sirri insanda gizlənmişdir. İnsan dünyanın parçalanmış hissəsi deyil, ona tamlıq tapmacası və dünyanı açmaq qoyulmuşdur. İnsanın idrakın predmeti kimi onunla birgə dərk edən olması faktı təkcə qnoseoloji yox, həm də antropoloji əhəmiyyət kəsb edir."*

Berdyayevin insan haqqındakı bu mühakimələri orijinal və yeni olmasa da, bütünlükdə insan haqqında ən müxtəlif fəlsəfi təlimlərin ümumiləşdirilmiş mühakiməsi kimi diqqətəlayiqdir və məncə insan haqqında mühakimələrimizdə bundan əlavə heç bir sitat gətirməyə ehtiyac yoxdur. Beləliklə, obrazlı desək, insan bədən sərhədləri ilə iki yerə ayrılmış, eyni vaxtda iki müxtəlif aləmdə - daxili və xarici aləmdə, həm də bir-birindən tam əksilik təşkil edən material və ruhi aləmdə mövcud olan mürəkkəb varlıqdır. Hansı ki, bədən refleksiya vasitəsi kimi Ruhun materiyanı refleksiya etməsi ilə bu iki aləmi birləşdirməyə yardım edir və bununla da özü ilə şərtlənmiş Ruhdan azad olur; və ya bunun əksinə, Ruh bədəndən azadlıq əldə edir. Ruhun materiya ilə əksilikliyi mövcudluq təyinindədir; hansı ki, yuxarıda qeyd etdik ki, Ruh yalnız xalis varlıq təyininə, mövcud varlıqlar bundan fərqli olaraq mövcud varlıq və özü-üçün-varlıq təyininə malikdir. Bu iki təyin materiyanı Ruhdan fərqli olaraq görünən edir. Ruh

bədənin orqanizasiyası nəticəsində anadangəlmə xaosla doğulduğundan, bədəndə yenidən xarici aləmin refleksiyası ilə nizamlanaraq öz başlanğıc xarici totallığını əldə etməyə və bədəndən azad olmağa cəhd edir. Bu da insan gerçəkliyinin mahiyyətini təşkil edir. "Nəsə insan" mürəkkəb təbiətli olduğundan, onun təzahürləri də sinergetikdir. Başqa sözlə, insanın istənilən təzahürü mahiyyətinə görə üçlüdür. Buna görə də, sinergetik təbiətli insan bir fakt kimi zaman-məkan şərtində fərqli formalarda aktuallaşır. Yəni insanın Cisim Varlığı (cisimlərin mövcudluq üsuluna uyğun özü-özündə özünü təkrarlamaqla) Real Mən kimi; Can Varlığı (özündənolanla, ondan üstünlük təşkil edən formalarda) Nəsil kimi; Ruhi Varlığı (ekzistensiya etməklə, özükimilərlə mövcud olmağa can atmaqla) Subyektiv Mən kimi təzahür edir.

"Nəsə insan"da Ruhla bədənin antinomiyası aktuallaşma ilə faktuallaşmanın ziddiyyəti kimi aşkarlanır. Beləliklə, biz "nəsə insan"da Özünüaktuallaşdırma ilə Özündənfaktuallaşdırmanı ayırd edə bilərik. Özünüaktuallaşdırma daxili və buna görə də mücərrəd; Özündənfaktuallaşdırma xarici və buna görə də konkretdir.

"Nəsə İnsan"ın aktuallaşması gerçək insanın özünün müxtəlif varlıqlarını təzahür etdirməsi ilə baş verir. Başqa sözlə, özünüaktuallaşdırma özündəki varlıqların hər birini aydınlaşdırmaqdan ibarətdir; hansı ki, ya insanın özü-özünü dərki kimi, ya da başqası tərəfindən həmin təzahürlərə uyğun olaraq insanın konkret varlığı aşkarlanır. İnsanda üç müxtəlif varlıq bir gerçəklikdə təzahür etdiyindən, insandakı varlıqların heç biri mütləq ayrılıqda təzahür etmir. Hər bir təzahür insanın sinergetik təbiətinə uyğun çoxsəbəbli olub, hər üç varlığın təzahürlərinin bu və ya başqa intensivlikdə mürəkkəb nəticələri kimi meydana çıxır. Buna görə də, İnsanın ümumi təyinini onun bir-birinə proyeksiya olunmuş üç varlığının eyni vaxtda, bir yerdə (vahid məkan-zaman asılılığında) təzahüründən aşkarlamaq olar.

Səbəb-nəticə əlaqəsinə görə, çoxsəbəblilikdə meydana çıxan nəticələr iyerarxiya təşkil edir. Əsas səbəbin nəticəsi əsas kimi üzdə, digər səbəblərin nəticələri arxa planda, əsas nəticənin arxasından ikincili aydınlaşır. İnsan həm də zamandan asılı olaraq dəyişkən olduğundan, zaman və məkandan asılı olaraq insan gerçəkliyinin həmin şərtlərdə əsas səbəbi dəyişir və buna uyğun nəticədə də dəyişiklik baş verir. Buradan insanın gerçəkliyinin təzahürü ilə bağlı iki prinsip aşkarlayırıq:

1. Mahiyyətlərin aparıcılıq prinsipi: İnsan bir gerçəklik kimi üç müxtəlif varlığı özündə vahid kimi təzahür etdirdiyindən və həmin varlıqların hər birinin digərləri ilə insan gerçəkliyinin təşkilində payı bərabər olduğundan, mütləq insan gerçəkliyi idealda eyni vaxtda hər üç varlığını təzahür etdirir. Lakin insan təbiətdə və cəmiyyətdə modelləşən gerçəkliyə malik olduğundan (yəni təbiətdən və cəmiyyətdən asılı olaraq öz başlanğıc varlıqlarını fərqli təzahür etdirdiyindən), gerçək insan nisbi təzahür edən insan olur və reallıqda bir varlığı digərlərinə görə prioritet təşkil edərək aparıcı olur. İnsan mahiyyətlərinin aparıcılıq prinsipi daxili və xarici şərtlərdən asılı olaraq, insanda mövcud varlıq başlanğıclarından birinin əsas səbəb kimi çıxış etməsini, digər səbəblərin ikincili əhəmiyyət kəsb etməsini özündə təqdim edir. Buna uyğun aydınlaşan nəticə də məhz əsas səbəbin aktuallaşdığı müstəvidə aşkarlanır. İnsan gerçəkliyini təşkil edən varlıqlara uyğun olaraq: Cisim Varlığı - antropoloji; Can Varlığı - seksual; Ruh Varlığı - intellektual müstəvidə təzahür edir. Məsələn: insanda Ruh həmin şərtlərdəki insan gerçəkliyinin əsas səbəbidirsə, onda əsas nəticə düşüncə kimi meydana çıxır; yox, Can əsas səbəb təşkil edirsə, onda əsas nəticə seksuallıqda üzə çıxır və s. İnsan gerçəkliyində hansı başlanğıcın olması təzahürlərdən aydınlaşır. Ona görə də insanı şərh etmək üçün təzahürlərdən çıxış etmək lazım gəlir.

Aparıcılığına və ardıcıllığına görə insan gerçəkliyinin aşağıdakı altı variantını modelləşdirmək olar:

- **a. Ruh + Cisim + Can:** İnsan gerçəkliyinin bu cür sıralanmasında biz əqidə uğrunda canından keçməyə hazır olan insanı - Qəhrəmanı və ya elm naminə həyatından keçməyə hazır Alimi aşkarlayırıq. Belə insan üçün dəyərlər birincili, özünün fiziki mövcudluğu ikincili, seksuallığı (nəsil qayğısı) isə ən axırıncı, üçüncülü əhəmiyyət kəsb edir.
- **b. Ruh + Can + Cisim:** Bu ardıcıllıqda insan gerçəkliyinin Ziyalılığını aşkarlayırıq; hansı ki, əqidə onda aparıcı, nəslə qayğı ikincili, fiziki mövcudluq isə üçüncülü təzahür edir. Belə insanlar ailəsinə və xalqına bağlı olurlar.
- **c. Can + Ruh + Cisim:** Bu ardıcıllıqda Sevən İnsanı aşkarlayırıq; hansı ki, canın təzahürü kimi cinsi məhəbbət daha çox ruhi sferada təzahür edir, cisim varlığı isə üçüncü planda meydana çıxır.
- **d. Can + Cisim + Ruh:** Belə ardıcıllıqda Fədakarlığı - sevən adamın düşünmədən özünü qurban verməkliyinin təzahürlərini aşkarlayırıq. Məsələn, "Leyli və Məcnun" faciəsində olduğu kimi.
- **e. Cisim + Ruh + Can:** Bu ardıcıllıqda Narsist - özünəvurğun adam aşkarlanır. Belə insan üçün bütün şüurlu fəaliyyət yalnız öz eqoistik maraqlarını təmin etməyə yönəlib.
- **f. Cisim + Can + Ruh:** Bu ardıcıllıqda Meşşan və ya Qurman insan meydana çıxır. Onun bütün fəaliyyəti əşya toplamağa və ya qarnını doyurmağa istiqamətlənir. Ruhi dəyərlər onun üçün heç bir məna kəsb etmir.

Beləliklə, aparıcılıq prinsipinə əsasən insan gerçəkliyinin istənilən sosial təzahürünün səbəblərini və digər nəticələrini aşkarlamaq olur.

2. Təzahürlərin əvəzlənmə prinsipi: Ruhdan fərqli olaraq real varlıq ekzistensiya etmir, yəni öz sərhədlərindən çıxaraq özündənkənar təzahürlər göstərmir. Ruh bədəndən ekzistensiya edərkən mahiyyətlərin aparıcılığına tabe olur və real varlıq təyinindən ekzistensiya etdikdə onların təzahürlərini öz təzahürlərində refleksiya edərək əks etdirir. Nəticədə, real varlığın təzahürləri ruhi təzahürlərlə əvəzlənmiş formada

meydana çıxır. Biz bunu **Təzahürlərin Əvəzlənmə Prinsipi** adlandırırıq. Buradan iki cür əvəzlənmə aşkarlanır:

a. Dövri və ya təbii-zəruri əvəzlənmə: Varlıq başlanğıclarının dəyişilməsi həm də həyatın müxtəlif dövrlərindən asılı olaraq dəyişir. Məsələn: İnsan yetkinlik dövrünə qədəm qoymadıqca onda Libido Mən aparıcılıq təşkil etmir, nəticədə Libido Mənin əsas təzahürü olan seksuallıq aydınlaşmır.

b. Situativ, təsadüfi və qeyri-təbii əvəzlənmə: Gerçək insan yaşam prosesində ən fərqli situasiyalara düşür. Həmin situasiyaların xarakterindən asılı olaraq, əvvəlki vəziyyətdə gerçəkliyin əsasını təşkil edən səbəb sonrakı situasiyaya uyğun başqa səbəblə əvəzlənir. Heyvanlarda həyatı saxlama instinkti nəsilvermədən üstün olduğundan, heyvanda varlıq başlanğıcları bir istiqamətli və mexaniki əvəzlənir. İstənilən heyvan nəsli qoruyarkən təhlükə qarşısında ondan imtina edib, özünüqoruma instinkti ilə hərəkət edir. Ruhlu insanda Ruh instinktlərin vəhdətini pozaraq onları öz iradəsinə tabe etdirdiyindən, onların mexaniki əvəzlənməsi şüuri və iradəvi əvəzlənmə ilə dəyişir. Məsələn, insan seksual əlaqəsini xarici şərtlərdən asılı olaraq təxirə salır. Heyvanlarda instinktiv tələbatların ödənilməsini təxirə salma yoxdur. Beləliklə, varlıqların əvəzlənmə prinsipi **Təxirəsalma** ilə reallaşır.

Həqiqət eyniliklərdən aşkarlandığından, insan gerçəkliyinin təzahürlərində aparıcılıq - eyniyyət təşkil edən varlıqdan; əvəzlənmə - fərqlilik təşkil edən varlıqlardan meydana çıxır. Yəni iki insan qarşılıqlı empatiya edirsə, hər ikisi ruhi başlanğıca uyğun fikir mübadiləsinə girir. Əgər qarşılıqlı əlaqədə bir fərd ruhi başlanğıcda, digəri can başlanğıcında təzahür edirsə, onların qarşılıqlı əlaqəsinin baş tutması üçün ya ikinci şəxs Ruhun aparıcılığına keçib birinci ilə fikir mübadiləsinə girir, ya da birincidə ruhi təzahürlər can təzahürləri ilə əvəzlənir, onlar arasında seksual münasibət yaranır. Başqa sözlə, əvəzlənmə prinsipi insan davranışlarının əsasında durur. Eyni əsasla insan varlıqlarından konkret

başlanğıc varlıq xarici seyr ilə aşkarlanır. Məsələn: eyni yaşlı müxtəlif cinslərdə Cisim, eyni cinsli müxtəlif yaşlı insanlarda Can aparıcı başlanğıc kimi aşkarlanır.

"Nəsə insan" iki cür aktuallaşır:

1. **Daxili totallıq kimi aktuallaşma - Özünüaktuallaşdırma:** Buradan Mənəvi Aləm yaranır.
2. **Xarici totallıq kimi aktuallaşma - Başqaları ilə müştərək aktuallaşma:** Buradan Sosial Aləm meydana çıxır.

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

> *"Özünüaktuallaşdırma insanın son təyinatı deyil. Hətta bu onun birinci cəhdi də deyil. Əgər özünüaktuallaşdırmanı özüməqsədə çevirsək, bu insan mövcudluğunun özünütranssendentliyinə ziddiyyət təşkil edər. Özünüaktuallaşdırma - insan həyatının intensionallığının qəsdən edilməmiş nəticəsidir."*

Başqa sözlə, özünüaktuallaşdırma bir vasitə kimi Subyektiv Mənin xarici totallığa keçmə məqsədinə xidmət edir. Özünüaktuallaşdırma Ruhun bədənə üstünlük təşkil etməsində (yəni bədənin Yaradıcı Gücünü öz xalis Yaradıcı Gücünə summasiya etdikdə) baş verir; yəni Ruh bədəndən ekzistensiya edir və ya daxilə dalma ilə özünü refleksiya edir. Ruhdan fərqli olaraq insanın bədəni aktuallaşmış faktdır; yəni artıq doğulma ilə bədənin faktuallaşması başa çatmış və özü-özünü özündə təkrarlayır. Amma Ruh faktuallaşmada olan varlıq olduğundan, ruhi faktuallaşma yarımçıq, natamam, başa çatmamış, qeyri-təkmildir. Buna görə də Ruhun faktuallaşması sürəkli proses kimi başa çatmaq istiqamətində inkişaf edir; biz bunu **Kamilləşmə** kimi qavrayırıq. Kamilləşmə - insanda Ruhun nizamlılığının daha yüksək səviyyəyə qalxması ilə onun xarici totallığı və daxili totallığı daha dəqiq refleksiya etməsi ilə müşahidə olunur. Birincidə insan yeni, daha ali mənəvi keyfiyyətlər əldə edir; ikincidə insan daha çox biliyə malik olur, daha çox yaradıcı güc kimi çıxış edir və daha çox insanla ünsiyyətə girərək onlarla empatiya edir.

Aktuallaşma mövcud varlıqların təsadüfə görə təşkil etdikləri xarici vəhdətdə bir-birinə təsirini ifadə edir. Başqa mövcud varlıq olmadan mövcudluq aktuallaşmır. Buradan da aktuallaşmanı **Başqasınıaktuallaşdırma** kimi də təyin edə bilərik. Ruh mövcudluqlardan fərqli olaraq daxili çoxluğunda vəhdət təşkil etdiyindən, özünün bir Məni digər Mənini aktuallaşdırır. Biz bunu **Özünüaktuallaşdırma** kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Özünüaktuallaşdırma - Fiktiv Ruhun daxili çoxluğunda, öz Mənlərinin daxili vəhdətində bir Məninin digər Məni mövcud etməsinin (mövcudolmasının) şərtlərinin məcmusundan ibarətdir.

Özünüaktuallaşdırma "nəsə insana" xas olduğundan, özünüaktuallaşdırmanın bütün təzahürləri ruhidir. Ruhun özünüfaktuallaşdırması potensialdır. Yəni Ruhun Xarici Formal Varlığı yarananadək özünüfaktuallaşdırma prosesi sürəkli olaraq davam edən prosesdir. Özünüaktuallaşdırma - "nəsə insan"ın öz imkanlarını (yəni hər bir Mənini) daha dolğun üzə çıxarmaq və öz şəxsi imkanlarını inkişaf etdirmək cəhdidir.

Haşiyə: A.Q.Maslou, "İnsan psixikasının uzaq sərhədləri"

> *"Özünüaktuallaşdırma - bu yaşantılara mütləq qərq olmaqdır. Özünüaktuallaşdırma - bu proses onu bildirir ki, hər bizim qarşımıza qoyulmuş seçimdən biz şəxsi artımın xeyrinə həll edirik. Bu özünüaktuallığa hərəkətdir; hansısa "özlüyün" təsdiqi və onun aktuallaşdırılmasının lazım gəldiyini təsdiq etməkdir."*

Beləliklə, A.Maslounun fikirlərindən görünür ki, özünüaktuallaşdırma insanın xalis ruhi varlığa çevrilmə prosesini özündə təqdim edir. Lakin Ruh bədənlə sərhədli olduğundan, bədən isə artıq aktuallaşmasını başa vurduğundan, bədəndə qalmaqla Ruh xalis özünüaktuallığa nail ola bilmir. Buradan da **Xarici Özünüaktuallaşdırma** meydana çıxır. Xarici özünüaktuallaşdırma daxili özünüaktuallaşdırmanın əksiliyi kimi meydana çıxır və birinci inkar edilmədikcə ikinci reallaşmır. Buradan da **Özündənimtina** və ya **Özünü hər şeydən məhrumetmə** meydana çıxır.

Haşiyə: V.Frankl, “İnsan məna axtarışında”

> *“Mən özüm arxa plana keçdiyim dərəcədə öz xüsusi mövcudluğumu unuduram və özümdən daha çox olanı görmək imkanı əldə edirəm. Belə özünüməhrumetmə dünyanı dərketmənin haqqı kimi ödəməli olduğum qiymətdir; hansı ki, öz mövcud varlığımın sadəcə təzahüründən daha böyük varlığın idrakına nail olmalıyam. Başqa sözlə, mən özüm özümə məhəl qoymamalıyam.”*

V.Franklın fikirlərindəki “özüm” sözü bədənlə Fiktiv Ruhun əlaqəsini ifadə edir və konkret bədənin mövcudluğu şərtində mənaya malik olur. Bədənsiz "özüm" meydana çıxmır. ”Özümdən daha çox olan” "nəsə insan"dakı Fiktiv Ruhdur; hansı ki, bədənsiz Formal Ruh kimi mövcud olur və Fiktiv Ruhdan daha çox - bütün insanlardan aşkarlanan Fiktiv Ruhların məcmusu kimi mövcud olur. "Nəsə İnsan"da “özü” arxa plana keçmədikcə, yəni Ruhla bədənin əlaqəsindən kənarda idrak baş vermədikcə, fərd heç vaxt Formal Ruha xas keyfiyyətlərdə idrak etmək imkanına malik olmur. Hansı ki, Formal Ruh xalis mümkünlüyün varlığı kimi həm mövcud varlıqların, həm də varlığın mövcudluğunun həqiqətlərini özündə təqdim edir.

İnsanın “özünə məhəl qoymaması” fikri özündə nəyi ifadə edir? Özünə məhəl qoymaq konkret fərdin mövcudluğu ilə şərtlənməni ifadə edir; hansı ki, hissi qavranılanlarla məhdudlaşmışdır. Özünə məhəl qoymamaq - konkret fərdin abstraktlaşması ilə intuitiv idrak olunanları aşkarlamağı bildirir; hansı ki, hissi qavramanın məhdudiyyətləri aradan qalxır və idrak olunanlar adsız şəxs tərəfindən idrak olunur.

İnsanın özünü məhrum etdiyi Ruhun məskunlaşdığı bədəndir; hansı ki, özünün təkliyi dərəcəsində Ruha ətrafı (yəni onu) dərk etməyə imkan verir. Ruh bədənin sərhədlərindən çıxmaqla reallıqlar aləmindən xarici totallığı refleksiya edərək öz xarici totallığını təmin edir. Beləliklə, bədənin təyinindən Ruhun bədənin cisim kimi xalis varlığından refleksiyası ilə əldə etdiyi daxili totallıq, Ruha həm bədəndən çıxmağa,

həm də ona xarici totallığı dərk etməyə yardımçı olur. Bədən tək kimi, canın onda entropiya mühiti yaratdığından, özündə cisim totallığını təzahür etdirmir. Ruh cismin totallığını bilavasitə bədəndənkənar kaleydoskopik dünyadan (mürəkkəbliklərin və müxtəliflikliərin təşkil etdiyi real aləmdən) əldə edə bilər.

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

> *"Yalnız öz dünyasını "proyektləşdirən" insanın subyekt kimi çıxış etdiyi kaleydoskopizm insan idrakının şəklini çəkir; hansı ki, özünün bütün "dünya proyektlərində" hər dəfə özü-özünü ifadə edir, belə ki, bu proyektləşdirilən "dünya" hər dəfə onun özü kimi - proyektləşdirən subyekt kimi - aşkarlanır."*

ÖZÜNÜAKTUALLAŞDIRMA VƏ ONUN PROSESLƏRİ

V.Franklın fikirlərindəki kaleydoskopizm əslində özünə məhəl qoyan insanın dərk etdiyi aləmi özündə təqdim edir; hansı ki, dəyişən zəruri və təsadüfi şərtlərin məcmusunda hissi qavranılan eyni bir aləm ən müxtəlif layihələr (proyektlər) kimi insan tərəfindən aşkarlanır. Başqa sözlə, dünyanın kaleydoskopunun dəyişilməsi özündə "nəsə insan"ın dəyişilmələrindən başqa heç nə ifadə etmir.

Özünüaktuallaşdırmada bir-biri ilə sıx əlaqədə olan aşağıdakı proseslər baş verir:

Özünüdərk: Hər şeydən əvvəl Ruhun aktuallaşması, insanın özünü yalnız bədəndən ibarət mövcud varlıq olmadığını dərk etməsi və özünün bədənin özü-üçün-varlıq təyinindən müvəqqəti asılı olduğunu anlaması, buna görə də öz xalis mövcudluğundan təzahürə can atması kimi baş verir. Başqa sözlə, Özünüdərk - insanın özünün ictimai statusunu (xarici ruhi totallıqda yerini) və həyati əhəmiyyətli tələbatlarını (daxili totallıqdakı səviyyəsini - bədənə münasibətini) dərk etməsidir. İnsan özünü dərk etdiyi andan özünüaktuallaşdırma başlayır.

Özünüdəyərləndirmə: Hər bir insan özünüaktuallaşdırma prosesinə girərkən öz potensiyasını (ruhi və fiziki potensiyasını) özü-özündə ölçür;

buradan da özünüdəyərləndirmə meydana çıxır. Özünüdəyərləndirmə Ruhun şərtləndiyi öz bədəninə və empatiya etdiyi başqa ruhlara münasibətindən təzahür edir. Özünüdəyərləndirmə Ruhun ekzistensiya istiqamətini müəyyən edir. Əgər bədən Ruhdan artıq yaradıcı gücə malikdirsə, Ruh bədənin tələbatlarının quluna çevrilir və insan cari insan kimi özü-üçün-varlıq təyininə uyğun yaşayır. Belə insanlar insanlığın ballast kütləsini təşkil edirlər; hansı ki, özünüaktuallaşdırmış Ruh belə insanlarda özünü təkrarlamaqla yəqinləşir.

Koqnitivlik: İnsan ağlı sadəcə həqiqətin aydınlaşmasını aşkarlamır, o, özü-özündə həm də öz həqiqətini aydınlaşdırır. Bu sonuncu - koqnitivlik - insan ağlının xaricdən daxil olandan daha çox məlumata malik olmasını bildirir.

Kreativlik: Fərdin bədənin imkanlarından üstün olan yaradıcı qabiliyyəti, yəni özünüaktuallaşdırma gücü Kreativlik kimi təzahür edir. Kreativlik bədəndən Ruhun azadlıq dərəcəsini özündə təqdim edir; hansı ki, özünüaktuallaşdırmanın ölçüsü kimi çıxış edir. Kreativlik - insanın qeyri-adi ideyalar (Ruhun öz xalis varlıq təyinindən aldığı məlumatları) vermək, hamıdan fərqli düşünmək, düşüncə qəliblərinə girməmək və insanın qarşısına çıxan, onun özünüaktuallaşdırmasına mane olan sədləri dağıtma gücü (problemlərin sürətli və müvəffəqiyyətlə həlli) qabiliyyətidir. Bu qabiliyyət xarici totallığın daxili totallıqda refleksiyasından yaranır. Bu xüsusiyyət də koqnitivliyin təzahürlərindəndir. Kreativlik - Ruhun müstəqim bədənin və ətrafın təsirinə məruz qalmadan təzahür etmə imkanıdır.

> ***Haşiyə:*** *A.Q.Maslou - Kreativ şəxsiyyət insanın elə xüsusi növüdür ki, sadəcə hansısa yeni bacarıqlar əldə etmiş adam deyil. onun mahiyyətində olmayan və təbiətinə qoyulmamışları edəndir.*

İnsan necə təbiətinə qoyulmamışları edə bilər? Bütün insanların bacarıqlarının səbəbi Formal Ruhdadır; hansı ki, hər bir fərddə bədənlə şərtlənməklə Fiktiv Ruh kimi təzahür edir. Nəticədə, hər bir Fiktiv Ruh

bədənin zəruri şərtləri ilə şərtlənir və adi fərd bu məhdudiyyətlər çərçivəsində bacarıq nümayiş etdirir. Amma Formal Ruha çevrilmə meylində (özünüaktuallaşdırma səviyyəsindən asılı olaraq), Fiktiv Ruh özündə Formal Ruha xas keyfiyyətlər əldə etdikdə, yəni bədənlə şərtlənmədən azad olduqda, istənilən insana xas bacarığı özündə təzahür etdirə bilir. Beləliklə, kreativ insan - fərdin mahiyyətinə və təbiətinə qoyulmamış, amma Ruhun mümkünlüyündən aşkarlanan bacarıqları özündə nümayiş etdirir. Əslində kreativ insan bir fərddə təzahür edən insanlıqdır. Kreativ insan bədəndən ekzistensiya edərək xarici Formal Ruhla sıx bağlanmış və bununla da bədəndənkənar güclərə sahiblənmiş insandır. Başqa sözlə, insan özündən imtina dərəcəsində kreativləşir. Kreativ insan daha çox Fiktiv Ruh, daha az bədəndir.

Vərdiş: İnsanın özünüaktuallaşdırılmasını təkrarlamaqla möhkəmləndirməsi Vərdiş kimi meydana çıxır. Vərdişsiz özünüaktuallaşdırma dayanıqlıq əldə etmir, buna görə sürəkli və dayanıqlı olmur. Nəticədə insanın hər bir özünüaktuallaşdırma cəhdi yenidən başlatmağa məcbur olur ki, bu da ona növbəti səviyyəyə qalxmağa qoymur. Beləliklə, vərdiş təkrarlar yolu ilə şüurlu tənzim və nəzarət olunma mərhələlərini tələb etməyən fəaliyyət kimi meydana çıxır. Vərdiş şüurla yaradılmış süni avtomatik hərəkətlərdir. Təbii avtomatik hərəkətlərdən spontanlığına görə fərqlənir. Təbii avtonom hərəkətlər xarici stimulların təsiri ilə şərtlənərək spontan meydana çıxır. Vərdiş bundan fərqli olaraq iradəvi aktdır. Vərdiş - yaşam təcrübəsindən, təbii avtonom hərəkətlər - həyat təcrübəsindən meydana çıxır.

Niyyət və ya Motiv: İnsanın özünüaktuallaşdırması (səviyyəsini yüksəltməsi) özündə istiqamətlənmədir. Niyyət - istiqaməti müəyyən edən məqsəd haqqında, məqsədə çatmamışdan Ruhun xarici və ya daxili totallıqdan əldə etdiyi məlumatdır. Niyyət təfəkkürdə gələcəkdə həyata keçiriləcək fəaliyyətin proqramının iradəvi və şüurlu tərtiblənməsindən ibarətdir. Niyyət sonradan həyata keçirilmə prosesində fəaliyyətə çevrilir

və məqsəddə başa çatır. Niyyət - fəaliyyətin abstraksiyasıdır. Niyyətin ideologiyalaşması **Əqidə** formasında meydana çıxır. Əqidə - insanın dəyərlərə istiqamətlənməsinə görə şəxsiyyətin dərk edilmiş tələbatı hərəkətə gətirən daxili mexanizmdir. Motiv məqsəd istiqamətində insanın davranışlarına yön verir. Nəticədə daxili motivasiya əsasında normativ davranışlar - əxlaq normaları meydana çıxır. Bəs insanın özünüreallaşdırılmasında başlıca motiv nədən ibarətdir?

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

> *"Normal insan öz meyllərini və özünüsaxlama (və ya ruhi tarazlığın bərpası) tələbatlarını ödəməyə cəhd etmir. Başlanğıcda, ən azı o, mənanı həyata keçirməyə və dəyərləri reallaşdırmağa istiqamətlənir; yalnız mənanın həyata keçirilməsindən və dəyərlərin realizasiyasından sonra özü-özünü həyata keçirir (realizasiya edir)."*

Beləliklə, insanın motivi Fiktiv Ruhun xarici ruhi totallığı özündə refleksiya etməsini özündə təqdim edir. Yalnız bu baş verdikdən sonra Ruh bədən tələbatlarını ödəmək istiqamətində məqsədəyönlü fəaliyyət göstərir. Buradan da, dəyərlərə istiqamətlənmə insanın ruhi qabiliyyətinin aşağı səviyyədə olmasını (yəni hələ daxili totallığın yaranmadığını, Ruhun xaotik vəziyyətdə olduğunu) göstərir.

İNSANIN XARİCİ ÖZÜNÜAKTUALLAŞDIRMASI

Hər bir Fiktiv Ruh xarici totallıq əldə etmək üçün digər Fiktiv Ruhlarla birləşməyə, bununla da özündə "özündənkənarşey" olmağa cəhd edir. İnsanın özünüaktuallaşdırması bu cəhdin bazis rolunu oynayır; hansı ki, bu keyfiyyətlərin əsasında xarici aktuallaşma baş verir. Xarici özünüaktuallaşdırma aşağıdakı sferalarda baş verir:

1. Hər bir Fiktiv Ruh yalnız başqa Fiktiv Ruhun mövcudluğunda, onunla birlikdə təzahür edir - buradan **İctimailik** keyfiyyəti yaranır.

2. Hər bir Fiktiv Ruh mümkün qədər daha çox Fiktiv Ruhla əlaqələnməyə təbii meyl edir - buradan Ruhun tamlaşma meyli, xarici totallıq - **Birlik** yaranır.
3. Hər bir fraqmentar Ruh özü-özündə xarici totallığı refleksiya edərək tamın keyfiyyətlərinə keçir. Cisimlərdə tamlaşma xarici təzahürdür. Buradan **Kamilləşmə** təzahür edir. Kamilləşmə - Fiktiv Ruhlardan Formal Ruhi Varlığın yaranma prosesi kimi təzahür edir.
4. Hər bir Ruh ictimai gücdən istifadə etməklə fərdi həyatı davam etdirməyə cəhd edir - buradan **Fərdiyyətçilik** doğur.

Birinci üç proses Aktiv Gücün, sonuncu Passiv Gücün üstünlüyü ilə aktuallaşır. İnsanın xarici özünüaktuallaşdırması cəmiyyətdə başqalarının iştirakı ilə xarici proses kimi baş verir. Xarici özünüaktuallaşdırma Fiktiv Ruhun ruhi mövcudluğun faktiki və formal varlığını təşkil etmə cəhdindən ibarətdir. Ruhun mövcud varlığının faktiki varlığı - **Mədəniyyət**, formal varlığı - **Cəmiyyət** kimi təzahür edir. Beləliklə, insanın xarici özünüaktuallaşdırması bir tərəfdən mədəni mühitin (təsisatın) yaradılmasından, digər tərəfdən cəmiyyət təşkil etməsindən ibarətdir. Konkret mədəni mühitlə vəhdət təşkil edən cəmiyyət özündə Ruhun mövcud varlığını təqdim edir.

Haşiyə: A.Adler, "İnsan təbiətinin analizləri"

> *"Problemlərin həlli ictimai həyatın mənbəyi ilə qırılmaz olaraq əlaqəlidir; cəmiyyətin tələbi şəxsiyyətə təsir edir, yalnız müəyyən dərəcədə ona imkan verir ki, özünə təsir etsin."*

A.Adlerin fikirlərindən göründüyü kimi, insanın özünüaktuallaşdırmasına əngəl olan maneələri dağıtması (problemləri həll etməsi) həm də xarici faktorlarla, ictimai həyatla sıx bağlıdır. Buna görə də, xarici aktuallaşma ictimai həyata daxil olmaqla - insanın **Sosiallaşması** ilə xarakterikdir.

Sosiallaşma aşağıdakı mərhələlərdən keçərək reallaşır:

A. Cazibə: İnsanlar bir-biri ilə eynilik və ya fərqlilik nümayiş etdirməklə ictimai münasibətlərə girirlər. Bir insanın başqa insanla eynilik təşkil etməsi onların hər ikisinin ruhlarını ekzistensiyaya meylləndirir. Bu meyl cazibə kimi meydana çıxır. Cazibə "nəsə insanlar" arasında **Simpatiya** kimi təzahür edir. Cazibə nəticəsində fərdlər bir-birinin cazibə sahəsinə daxil olurlar. Cazibə sahəsi - fərdi mövcudluq sferasından ibarətdir. Fərdlər eyni mahiyyətlərinin aparıcılığında eyniyyət təşkil etdikdə onların cazibə sahəsinin gərginliyi artır. Nəticədə hər iki şəxs gərginləşmiş cazibə sahəsindən asılı vəziyyətə düşür.

Haşiyə: A.Adler, "İnsan təbiətini anlamaq"

> *"Empatiya o zaman baş verir ki, bir adam digəri ilə danışır. Başqa şəxsiyyəti eyni zamanda onunla eyniyyət təşkil etmədən anlamaq olmaz."*

Biz Fiktiv Ruhlar arasındakı əlaqəni mövcud varlıqlar və bədənlə Fiktiv Ruh arasındakı əlaqədən fərqli olaraq **Patiya** adlandırırıq. Patiyaya uyğun üç cür cazibə gücü mövcuddur:

a. Ruhun xalis varlıq təyinindən cazibə: Xalis varlıq təyinindən patiya ideyalar vasitəsi ilə aktuallaşır. Eynilik təşkil edən ideya səviyyəsindəki patiya **İntellektual Simpatiya** kimi təzahür edir. İntellektual simpatiya ruh-ruh əlaqəsində meydana çıxır. İntellektual simpatiyada insanlar bir-birinə eynifikirliliyə görə cəzb olunurlar; belə cazibədə insanlar fərqli məkan və zaman şərtlərində yaşamış insanların "kristallaşmış ruhlarından" (yaratdıqları əsərlərdən, yəni Ruhun faktiki varlığından) dolayısı ilə cazibəyə daxil olur.

b. Mövcud varlıq təyininə görə cazibə: İnsanlar mövcud varlıq təyinindən bir-birinə qarşılıqlı hissi təsir edir və bu zaman bu təsir nəticəsində daxili yaradıcı güc ya artır, ya azalır. Biz bunu **Hissi Simpatiya** adlandırırıq. Hissi simpatiya can-ruh əlaqəsində meydana çıxan patiyadır. Hissi simpatiya - insanlar pozitiv hissi təsirlə (bir-birinin daxili yaradıcı gücünü artırmaq imkanına görə) bir-birinə cəlb olunurlar.

c. Özü-üçün-varlıq təyinindən cazibə: İnsanların xarici görüntüsündən (yəni bədənin estetikasından) yaranan patiyanı biz **Fiziki Simpatiya** adlandırırıq. Fiziki simpatiya ruh-can əlaqəsində aşkarlanır. Fiziki simpatiya kimi meydana çıxan bu güc heç bir mahiyyəti olmayan görünüşdən yaranan simpatiyadır. Belə cazibə ən aşağı keyfiyyətli cazibə olub insanın özünüaktuallaşdırmasında heç bir rol oynamır. Ən keyfiyyətli cazibə isə intellektual cazibədir; hansı ki, bilavasitə ruhi səviyyənin dəyişilməsinə yardımçı olur.

Simpatiya növündən asılı olaraq bir çox fərdlərarası əlaqələr yaranır. Əlaqə - iki fərdin bir-biri ilə sürəkli bağlanmasıdır; hansı ki, bir-birinin özünüaktuallaşdırmasında qarşılıqlı yardım edir. Belə əlaqələr xüsusi hisslərlə əmələ gəlir. Hisslərlə yaranan əlaqələrin aşağıdakı ən ümumi formaları vardır:

MƏHƏBBƏT

"Elə-belə" məhəbbət - Fiktiv Ruhların xarici təsirlərə (cisim və candan gələn təsirlərə) xüsusi pozitiv emosional münasibəti özündə ifadə edir. Can-Ruh əlaqəsində libido ilə eşqin vəhdəti Məhəbbət kimi təzahür edir. Məhəbbətin ən sadə forması iki əks cins arasında yaranan cinsi məhəbbətdir. Cins - mövcud insanın özü-üçün-varlıq təyinindən təzahür edir və özü-özündə heç bir mahiyyəti yoxdur. Ruh öz xalis varlığından, özündənkənar özü-üçün-varlıq təyini ilə əlaqələndikdə məhəbbət əlaqələri meydana çıxır. İki cins arasında məhəbbət neyrohumoral yolla tənzimlənən, əsası bədənin bazis tələbatlarında olan, eyni məkan və zaman şərtində insanın mövcud varlıq təyinindən yaranan əlaqədir. Məhəbbət - bioloji enerjinin xüsusi bir növünün (libidonun) ruhi enerjiyə transferi nəticəsində onun güclənməsi və ekzistensiya edərək əks cinsin ruhi emosional sferasında yerləşməsini təqdim edir. Libidonun qarşılıqlı təsiri müxtəlif davranış formaları və münasibətləri yaradır. Libidonun sublimasiya və ya frustrasiyasından asılı olaraq insanın meylləri dəyişir.

Haşiyə: V.Frankl, “İnsan məna axtarışında”

> *“Eyni-varlıqlılıq bir insanın başqa insanda elə mövcudluğudur ki, onun mütləq yadlığında (bütün başqa insanlara münasibətdə yadlıq) və belə birgəliyin yadlığı (yalniz belə) məhəbbətlə qəbul edilir; belə ki, demək olar ki, məhəbbət sözsüz şəxsi və fərdi mövcudluğu özündə təqdim edir.”*

Şəxsi mövcudluğu özündə təqdim edən məhəbbətin aşağıdakı təzahür formaları vardır:

Obyekt Libido: Aktuallaşma prosesində libidonun müəyyən hissəsi seçilmiş obyektə istiqamətlənir. Başqa sözlə, Ruhun başqa obyektin özü-üçün-varlıq təyinində eynilik təşkil etməsi (yəni konkret cinsə mənsub olduğuna görə) onunla əlaqələnməsi obyekt libidonu təzahür etdirir. Obyekt libido - libidonun fokuslaşdığı fərd və ya onun bədənin bəlli bir hissəsidir. Bəzən obyekt libido kimi xarici cansız əşyalar və ya başqa canlılar çıxış edir ki, bu da seksual pozğunluqlar kimi təzahür edir.

Mən Libido: Ruhun xalis varlığının bədənin mövcud varlığı və xarici gerçəkliklərlə vəhdətindən məhəbbət yaranır. Məhəbbət insandan başqa heç bir canlıda təzahür etməyən ruhi keyfiyyətdir. Məhəbbət Ruhun, xarici obyektin və bədənin qarşılıqlı əlaqəsindən meydana çıxır. İnsanın Ruhu ilə bədənin qarşılıqlı refleksiyasından - Ruhun yaradıcı enerjisi ilə bədənin yaradıcı enerjisinin (libidosunun) vəhdəti “Mən Libido”nu yaradır. Mən Libido hissi intellektual münasibətə girən fərdin əlamətidir.

Mən Libido xarici obyektin təbiətindən asılı olaraq aşağıdakı formalarda meydana çıxır:

A. Aktiv özündəşeyə münasibətdə Mən-Libidonun təzahürləri: a. Özünəvurğunluq - Narsisizm: Narsisizm Ruhun bədənlə əlaqəsinin xüsusi formasıdır.

Haşiyə: V.Frankl, “İnsan məna axtarışında”

"İnsan ruhu şərtlənmişdir - nə az, nə də çox. Bədən heç nəyə təsir etmir, o yalnız şərtləndirir; amma insan ruhunun belə şərtləndirilməsi heç də axırıncı yerdə insan ruhunun onun bədəninə bağlılığında olmur."

İnsan ruhunun bütünlüklə bədənə bağlılığı və ekzistensiya etməməsi insanın özünə - öz bədəninə vurğunluğu kimi narsisizmi meydana çıxarır. İnsanın ruhi enerjisinin bədənin yaradıcı enerjisi ilə summasiyasının bütünlüklə ekzistensiya etmədən özü-özündə refleksiyası narsisizmi (özünəvurğunluğu) yaradır. Özünəvurğunluq bədənlə Ruhun vəhdətinin digər bədən və Ruhun vəhdətinin fərqliliyi kimi təzahür edir.

b. Əks cinsə vurğunluq: İnsan Ruhunun xalis varlıq təyinindən əks cinsdən olan başqa bədənin özü-üçün-varlıq təyinini özününküləşdirmək və həmin bədənin xalis varlığı ilə eyniyyət təşkil etməsi əks cinsə vurğunluğu təzahür etdirir. Əks cinsə vurğunluqda Ruhun vəhdətdə olduğu bədənin xalis varlığı ilə fərqliliyindən **Özündənimtina** meydana çıxarır. Nəticədə, əks cinsə vurğunluğun ən ali səviyyəsində özündənimtina meydana çıxır. Böyük məhəbbətlərdə tərəflərin hər cür fədakarlığa, o cümlədən ölümə belə hazır olmaları bunu təsdiq edir. Sevənlərin məhəbbətləri naminə ölümə hazır olması, vəhdət təşkil etdiyi bədənin mövcud varlıq təyini ilə vəhdətdən çıxaraq əks cinsin xalis varlıq təyinindən onunla xarici empatiya etmək cəhdi kimi təzahür edir. Əks cinslərin bir-birinin ayrı-ayrı varlıq təyinləri ilə vəhdət yaratmasından, əks cinsə vurğunluğun aşağıdakı formaları təzahür edir:

Seksuallıq və ya Cinsi Məhəbbət: Bir cinsin özü-üçün-varlıq təyininin digər cinsin özü-üçün-varlıq təyinindən əlaqələrindən cinsi məhəbbət yaranır. Beləliklə, məhəbbət iki fərqli bədənə malik Fiktiv Ruhun bir-birinə empatiya etməsi ilə təkrar hər iki bədəni müştərək zəbt etməsi kimi meydana çıxır. Burada, iki nəfər fiziki varlıq kimi fərqlilik nümayiş etdirsə də, ruhi varlıq kimi eynilik təşkil edir. Bir şəxsin Fiktiv Ruhunun digəri ilə qarışaraq onun bədənini zəbt etməsi öz arxasında

bədənlərin bir bədənə çevrilmə cəhdi yaradır ki, cinsi məhəbbətdə bədənlərin birləşmə cəhdi **Koitus** kimi təzahür edir. Cinsi məhəbbətdə əsas məsələ fiziki simpatiyanın uyğunluğudur. Cinsi məhəbbətdə Fiktiv Ruhlar xalis varlıq təyinində eynilik və ya fərqlilik təşkil edə bilərlər. Mövcud varlıq təyinində laqeydlik meydana çıxır. Beləliklə, cinsi məhəbbət bədənin fiziki görüntüsü əsasında yalnız fiziki zövqü təmin etmək üçün iki bədənin mövcud varlıq təyininə laqeydliyində, xalis varlıq təyininin iştirakının ikinci dərəcəli rol oynadığı vurğunluq kimi meydana çıxır.

Platonik Məhəbbət: İki əks cinsin qarşılıqlı münasibətində özü-üçün-varlıq təyininin fərqliliyində, mövcud varlıq təyininin bir-birinin inkarında, Ruhun xalis varlıq təyinindən birləşməsindən Platonik Məhəbbət - cinsi məqsəd daşımayan cinsi vurğunluq aşkarlanır.

Eros - Məhəbbət oyunları: Əks cinslər arasında vurğunluğun ekzistensiya edilməsinin hər iki fərdin davranışlarına proyeksiya edilməsi və xarici predmetlərə obyektivizasiyasından Eros meydana çıxır. Eros həm maddi, həm də mənəvi vasitələrlə ruhi ekzistensiyanı özündə nümayiş etdirən xarici məhəbbət oyunlarından ibarətdir. Bu vasitələrə məhəbbət davranış formaları, bir-birinə məxsus əşyalar, məktublar və ya təbiətin ayrı-ayrı elementlərinə (gülə, bülbülə və s.) proyeksiya edilmiş emosional yaşantıları yaradan vasitələr aiddir. Erosda hər iki cins xarici totallıqda bir-birinə empatiya edir. Erosun istənilən elementində sevən ruhların kristalları aydınlaşır.

Bədənin yaradıcı enerjisinin ruhi enerji ilə sublimasiyasının ekzistensiyasından libido nəsilvermə funksiyasından çıxarılır və Ruhun xarici totallaşmasına - mədəniyyətin yaranmasına, cəmiyyətin formalaşmasına, dünyagörüşünün sistemləşməsinə obyektivizasiya olunur. Libido bədənin daxilində nəsilvermə kanallarında ya bədənin özü-üçün-varlıq təyinindən, ya da Ruhun xalis varlıq təyinindən ekzistensiya olunur. Birinci halda **destruktivlik**, ikinci halda **yaradıcılıq** təzahür edir.

Libidonun frustrasiyasının aşağıdakı formalarını aşkarlamaq olar:

a. Valideyn məhəbbəti - Köməksizə məhəbbət: Valideynin mövcud varlıq təyinindən (növ həqiqəti kimi) övladın mövcud varlığını refleksiyasından yaranan vəhdət valideyni övlada bağlayan hissi - valideynlik hissini meydana çıxarır. Valideynlik hissi bioloji varlıq kimi övladın köməksizliyini neytrallaşdırmaq, onun özü-üçün-varlıq təyinini ondan çıxarıb, onun mövcud varlıq təyini ilə eyniləşmədən yaranır. Buradan da valideynin övlada münasibəti həm hissi, həm də ruhi xarakter alır. Varlığın valideynlərinin başqa insanlarla xalis varlıq təyinindən refleksiyası (yəni onlarla eyniliyi) və mövcud varlıq təyininə görə fərqliliyindən valideynlərlə övladlar arasında valideyn məhəbbəti meydana çıxır. Sonradan valideyn məhəbbətini özündə refleksiya etmiş Ruh, xalis mövcudluq təyinindən eyniləşdirdiyi istənilən fərdə **Mərhəmət hissi** - köməksizə mərhəmət bəsləyir.

b. Övlad məhəbbəti - Asılılıq hissi: Övladın öz xalis varlıq təyini xaotik olduğundan, yalnız valideynin mövcud varlıq təyinindən onu refleksiya etməsi öz xalis varlıq təyinini valideynin xalis varlıq təyini ilə şərtləndirir. Başqa sözlə, övlad valideyndən fərqli olaraq ona şüuri yox, xalis mövcud varlığının təzahürü kimi hissi münasibət bəsləyir. Buradan **Asılılıq hissi** - övladın mövcud varlığının valideynin xalis varlığından şərtlənməsi meydana çıxır. Belə şərtlənmənin xarici totallığa ekzistensiyasından ictimai asılılıq - tabeçilik yaranır; hansı ki, hakimiyyət münasibətlərinin bir tərəfini təşkil edir. Başqa sözlə, övladın valideynə münasibəti vətəndaşın dövlətə və əksinə, valideynin övlada münasibəti dövlətin vətəndaşa münasibətində refleksiya edir. Buradan da vətəndaş dövlətə hissi-şüuri, dövlət vətəndaşa xalis şüuri münasibət göstərir. Vətəndaşın dövlətə hissi-şüuri münasibətinin dövlətdə obyektivizasiyası dövlət atributları kimi meydana çıxır.

c. Qardaşlıq məhəbbəti: İrsiyyətlə Fiktiv Ruhların əlaqələnməsinin hissi ekspressiyası nəticəsində eyni valideynin övladları arasında qardaşlıq (bacılıq və bacı-qardaşlıq) məhəbbəti yaranır. Qardaşlıq məhəbbəti xarici totallıq kimi ailədaxili qarşılıqlı münasibətə proyeksiya olunur.

d. Dostluq məhəbbəti: Fiktiv Ruhların bir-birinin mövcud varlıq təyininin fərqliliyindən, xalis varlıq təyinlərinin eyniliyindən Dostluq məhəbbəti yaranır. Dostluq məhəbbəti - Mənin Səndə, Sənin Məndə refleksiyası kimi şəxslərarası münasibətdən ibarətdir.

e. İnsanlıq məhəbbəti - Humanizm: Fiktiv Ruhların özlərində Formal Ruhu refleksiya dərəcəsində hər bir insanda olan ən ümumi ruhi təbiətin ekspressiyası nəticəsində insansevərlik - humanizm meydana çıxır. Biz insansevərliyi insanlığa məhəbbət kimi də adlandıra bilərik. İnsanlıq məhəbbəti - özükimilərə məhəbbətdir; hansı ki, Ruhun mövcudluq üsulu belə özükimilərlə mövcud olmaqlığı özündə təqdim edir.

Fiktiv Ruhun xarici totallığın ayrı-ayrı tərəflərini refleksiyasından kollektiv münasibətlər yaranır; hansı ki, bütün fərdlər üçün eynidir və bədənin orijinallığı belə münasibətlərdə kənarlaşdırılır. Biz bunu **Kollektiv Libido** - fərdlərin libidosunun Ruhun iştirakı ilə bədəndən çıxarılması və libidonun xarici totallığının təzahürü adlandırırıq. Kollektiv Libido Ruhun xarici totallığının tərəflərinə uyğun aşağıdakı formaları vardır:

Sosiallaşma: Fiktiv Ruhun xarici totallığı özündə refleksiyası başlanğıc totallıq kimi sosiallaşmanı təzahür etdirir. Sosiallaşma cəmiyyətə - Ruhun ictimai münasibətlərə proyeksiya və obyektivizasiya edilmiş xarici totallığına giriş kimi meydana çıxır.

Kollektivizm: Sosiallaşma nəticəsində Fiktiv Ruhların bir-birini xarici totallıqdan refleksiyası kollektivizm kimi meydana çıxır. Kollektivizm eyni bir kollektivin üzvü kimi onları eyniləşdirir və başqa kollektivlərdən fərqləndirir.

Xalq məhəbbəti: Ruhun mövcud varlıq təyinindən digər Fiktiv Ruhlarla xarici totallıq yaratması **Xalq** kimi təzahür edir. Xalq xarici totallığın xaotik (nizamlanmamış) formasıdır. Xalqı təşkil edən hər bir insanın həmin totallığı özündə refleksiyası xalq məhəbbəti kimi meydana çıxır.

Vətən məhəbbəti: Xarici totallıq kimi xalqın məskunlaşdığı ərazinin özü-üçün-varlıq təyini ilə eyniləşməsindən, torpağa obyektivizasiya və proyeksiya edilməsindən **Vətən hissi** meydana çıxır. Vətən - eyni bir torpaqla şərtlənmiş eyni bir xalqın eyni bir fərdin ruhunda refleksiyasından onda yaranan Abstrakt Mənin şərtlərinin məcmusundan ibarətdir. Xalqla Vətənin vəhdəti **Millət** kimi təzahür edir. Vətənlə xalqın ayrı-ayrılıqda yaratdıqları xarici vəhdətdən insanın mövcud varlığından iki fərqli hiss: yalnız mövcud varlıqdan eyniləşmə ilə (qan əlaqəsi ilə) Etnik Millətçilik; yalnız torpaq əlaqəsinə görə məhəbbət - Vətənpərvərlik hissi yaranır.

Fiktiv Ruhların xarici totallığının obyektivizasiya müstəvisinə görə (Libidonun fəaliyyətə transformasiyasından) insanın mövcud varlıq təyinindən bir çox hisslər yaranır:

a. Əməyə məhəbbət: Əmək insanın mövcud varlığının xarici predmetin özü-üçün-varlıq təyini ilə fərqlilik, onun mövcud varlığı ilə eynilik təşkil etməsi ilə, Ruhun bədənin libidosu ilə xarici predmetləri bədənin istifadəsi üçün yararlı hala salması Əmək kimi meydana çıxır. Əmək - insanın üçlü mahiyyətinə uyğun, özündə həm fiziki şeyin özü-üçün-varlıq təyinini (xammalı), həm bədənin həmin xammala keçmiş libidoz enerjisinə görə mövcud varlığını, həm də xarici predmetin özü-üçün-varlıq təyininin Ruhun ondan çıxarılması ilə onda kristallaşmasını (ruhi təbiəti) özündə əks etdirir. Başqa sözlə, əmək bədənin hər üç varlığından xarici predmetin müxtəlif varlıq təyinlərinə istiqamətlənmə kimi meydana çıxır. Belə istiqamətlənmənin hissi ekspressiyasından əməksevərlik təzahür edir.

b. Mədəniyyətə məhəbbət: Ruhun xarici totallıq kimi xarici predmetin özü-üçün-varlıq təyinini dəyişdirməsi və ona özündən özü-üçün-varlıq təyini proyeksiya etməsi və obyektivizasiyası Mədəniyyəti yaradır. Fiktiv Ruhun mədəniyyət nümunələrindəki ruhi kristalları özündə refleksiyası bədənin mövcud varlığında mədəniyyətə məhəbbət hissi ilə ekspressiya olunur. Mədəniyyətə məhəbbət - insanın öz bədəninin mövcud varlığına (cana), əməyə məhəbbət isə özü-üçün-varlığına (cisminə) məhəbbət kimi yaranır.

c. Fikrə məhəbbət: İnsan ruhunun öz xalis varlıq təyinindən başqalarının xalis varlıq təyinindən refleksiyasının obyektivizasiyası Fikir kimi meydana çıxır. Fikir - özündə mənaya malik, abstrakt xarici totallığın təzahürüdür. Hər bir fraqmentar Ruh eyni bir fikri refleksiya etməklə, onunla eyni daxili totallıq təşkil edir.

d. Həqiqətə məhəbbət: Ruhun bir xalis varlığının xarici totallığının digər xarici totallığı refleksiyası ilə Həqiqət aşkarlanır. Aşkarlanmış Həqiqətin fərdin Fiktiv Ruhunun refleksiyası ilə həmin həqiqət daxili totallığa çevrilir. Həqiqətin daxili totallığının bədənin mövcud varlıq təyini tərəfindən refleksiyasından Həqiqətə məhəbbət hissi meydana çıxır. Həqiqətə məhəbbət Fəlsəfənin mahiyyətini təşkil edir. Hər bir şəxs yalnız həqiqətə məhəbbətə görə filosofluğa başlayır. Həqiqətə məhəbbəti digər faktorlarla birgə fəlsəfənin başlanmasının səbəbi kimi dəyərləndirmək olar.

e. Allaha məhəbbət: Ruhun özü-özündə başlanğıc həqiqəti refleksiya etməsi Allaha məhəbbət kimi meydana çıxır. Allaha məhəbbət təfəkkürün idrak prosesindən kənar meydana çıxır və özündə İlahi həqiqətlərin aşkarlanması (vəhyi) refleksiya edir. Başqa sözlə, Allaha məhəbbət Yaradıcı Gücün özündə refleksiyası, yaradana (Yaradıcı Gücə) bağlılıqdan doğan məhəbbətdir.

f. İnanca görə məhəbbət: İnsanın öz mövcud varlığından Yaradıcı Gücü refleksiyası **İnanc** kimi meydana çıxır. İnanc - İlahi həqiqətin in-

troproyeksiyası kimi, Allaha məhəbbətin əksinə olaraq, İlahi Gücün daxilə köçürülməsi ilə bədənin mövcud varlığının onu refleksiyasından yaranır. Buradan dindarlıq meydana çıxır.

İnsan məhəbbəti onu xarici totallığa, həqiqətə cəlb etdiyindən (Ruh ölməz olduğundan), hətta insanın son nəfəsində belə Ruh həqiqətə meyl edir.

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

> *" İnsan mövcudluğu öz mahiyyətinə görə heç vaxt mənasız ola bilməz. İnsan həyatı lap axıra qədər - onun axırıncı nəfəsinədək, nə qədər ki şüur insanı tərk etməyib - o, dəyərləri reallaşdırmağa və cavabdehlik daşımağa borcludur, məna ilə doludur."*

Nəsə İnsan bədənlə Ruhun əlaqəsində ilk öncə özü-özünə münasibətdə olur. Özü-özünə münasibət özünüdərkin əsasında durur. İnsan həm də başqası ilə ünsiyyətə meyl edir, başqasını dərk etməyə cəhd edir. Fərdin eyni zamanda həm özünü, həm də başqasını dərk vəziyyəti **Şəxsiyyət** kimi təzahür edir. Şəxsiyyət - dərk və özünüdərkə malik, ictimai inkişafın fenomenidir. Şəxsiyyət yaşam təcrübəsində meydana çıxır. Həqiqət vəhdətdən aydınlaşdığından, istənilən varlıq digəri ilə vəhdət təşkil etməklə özündən həqiqəti aydınlaşdırır. İnsan gerçəkliyindən də həqiqət yalnız onun təşkil etdiyi vəhdətdən aydınlaşır. Hər bir varlıq xalis varlıq təyinindən fərqli vəhdət təşkil edir. Cisimlərin vəhdəti - özü-üçün-varlıq təyini səviyyəsində baş verir. Bu, iki cismin məkanda elə qarşılıqlı birləşməsidir ki, bir cismin daxili həcmini sərhədləndirən sərhəd, eyni zamanda başqa cismi ondan ayıran sərhəd kimi çıxış edir. Beləliklə, cisimlər arasındakı sərhəd (təmas halında) özündə bir cismin daxili həcmini müəyyənləşdirməklə onu təsdiq edir, eyni zamanda başqasının onun daxili həcminə keçməsinə imkan verməməklə onu inkar edir. Beləliklə, cisimlərin həqiqəti onların bu cür sərhədə malik olmasından aydınlaşır ki, biz bunu mexaniki aqreqasiya və ya cisimlərin birləşməsi kimi dəyərləndiririk. Canlılarda vəhdət nəsildə aydınlaşır. Yəni iki fərqli

cinsin cinsi hüceyrələri bir-birinin daxili həcminə daxil olaraq bir-birini dəyişdirir və ortaq keyfiyyətə malik birliyə - nəslə çevrilir. Ona görə canlıların həqiqəti yalnız özündə əks cinslərin vəhdətini təqdim edən nəsildə aydınlaşır. Ruhda vəhdət iki Fiktiv Ruhun bir-birinə qarışaraq bir-biri ilə eynilik təşkil etməsindən aydınlaşır. Vəhdət təkamül prosesində mexaniki aqreqasiyadan, birləşmədən qarşılıqlı empatiyada aşkarlanmağa meyl edir və insanda eyni ardıcıllıqla varlıqların yaratdığı vəhdət formalarına uyğun aydınlaşır.

Beləliklə, insan gerçəkliyindən aydınlaşan vəhdətin aşağıdakı formalarını aşkarlamaq olar:

B. Təmas: Cazibə sahəsində insan ilk öncə görünən reallığı ilə (bədənin fiziki görünüşü ilə) birləşməyə meyl edir və başqa fərdlə eyni sərhəd təşkil etmək istiqamətində, yəni onunla toxunana qədər müxtəlif məsafələrdən ona təsir edir.

Haşiyə: V.Frankl, "Naməlum Mən"

> *"Taktil kontakt nəinki yenidoğulmuşun əhatə edən reallığını, həm də öz fiziki mövcudluğunu ən əhəmiyyətli yeni dərketmə növünə çevrilir. Məkanı başa düşmək və ya daha yaxşısı məkanı hiss, öz xüsusi bədəninin sərhədlərini başa düşməkdən asılıdır."*

Təmas məkani ölçülüyün təzahürü olduğundan, həm də V.Franklın qeyd etdiyi kimi, öz mövcudluğunun dərki vasitəsinə çevrilir. Öz mövcudluğunu təmas yolu ilə dərk, başqası ilə kontaktın əksiliyi kimi meydana çıxır. Bunu xüsusən suda olanda aydın hiss etmək olur. Bədəni əhatə edən suyun forması bədənin məkani ölçülüyünü özündə əks etdirir və həmin suyun formasının bədəndə hiss edilməsi, bədənin öz məkani ölçülüyünü hiss etməsi kimi Ruhda refleksiya olunaraq əks olunur. Buna görə də, təmas ilk növbədə iki şəxsin arasındakı məsafəni dəf etməyi tələb edir ki, biz bunu **Məsafəqət etmə** adlandırırıq. İki Fiktiv Ruhun qarşılıqlı əlaqələnməsi onlar arasındakı məsafənin dəf edilməsi ilə nəticələnir. Məsafəqət etmə - məkanla şərtlənmədən azad olmaq meylin-

dən yaranır. Fiktiv Ruhların qarşılıqlı ünsiyyəti məkanı dəf etmədən başlanır. Bir-birindən müəyyən məsafədə olmayan insanlar bir-biri ilə ünsiyyət yarada bilmir. Məsafə ünsiyyətin ölçüsü kimi çıxış edir. Yəni insanlar arasında təmas nə qədər qısa məsafədən reallaşırsa, ünsiyyət bir o qədər güclü olur. Ünsiyyət ruhi şüalanmanın nəticəsində yarandığından, ruhi şüalanma məkanda daha çox və mürəkkəb entropiyaya məruz qaldığından, insanlar nə qədər yaxın məsafədə olursa, bir o qədər bir-biri ilə ünsiyyət yaradırlar. Eləcə də insanlar öz aralarındakı məsafə qədər bir-biri ilə ünsiyyətdən imtina edirlər. Ünsiyyət - eyni məkanı bölüşdürmə hissindən yaranır.

Haşiyə: A.Piz - Bir insanla başqaları arasındakı zona dörd yerə bölünür:

a. İntim zona (15-45 sm). Bu zonanı insan şəxsi mülkiyyət kimi hesab edir. Yalnız lap yaxınlarını bu zonaya buraxır.

b. Şəxsi zona (46 sm-dən 1,22 m-dək). Rəsmi münasibətlərdəki məsafə.

c. Sosial zona (1,22 m-dən 3,6 m-dək). Bu elə məsafədir ki, yad adamlarla saxlamağa cəhd edirik.

d. Kütləvi zona (3,6 m-dən çox). Çoxlu adam olan yerdə saxlamaq istədiyimiz məsafə.

A.Pizin təsnifatını davam etdirsək, beşinci zonanı - **Neytral zona**nı ayırd edə bilərik; hansı ki, insana hər hansı bir təsir məsafəsindən uzaq zonadan ibarətdir. Məsafəyə görə ünsiyyəti biz **Təmas** kimi təyin edirik. Təmas məsafə ölçüsünə görə müxtəlif dərəcələrə bölünür. Təmasın dərəcələnməsi şəxslərarası məsafə ilə şərtlənmişdir. Təmas - iki insanın bir-birinin cazibə sahəsində (hissi-emosional zonada) elə yerləşməsidir ki, əks tərəfdə daxili yaradıcı gücü fəallaşdıraraq onun daxilindəki Ruhu

ekzistensiya etməsinə səbəb olsun. İnsanlararası təmas vasitəli və vasitəsiz olmaqla iki yerə bölünür. Vasitəsiz təmas cisim və can varlığından baş verən təmaslara aiddir; hansı ki, heç bir vasitə olmadan bədənlər birbiri ilə vəhdət təşkil edir. Cisim varlığında xarici vəhdət iki bədənin birbirinə taktil təsir etməsi - **Toxunmaq** kimi aşkarlanır. Can varlığından təmas daxili təmas olub, **Koitusda** (bir cinsin digərinin daxilinə keçməsi kimi) baş verir. Ruhi varlıqdan təmas məsafədən vasitəlidir. Bu cür vasitələr konkret və abstrakt olmaqla **Ünsiyyət vasitələrini** təşkil edir. Ünsiyyət - müəyyən məsafədən Ruhun ekzistensiya etməsi ilə şəxslərarası vəhdətin aydınlaşmasıdır.

ÜNSİYYƏT VƏ KOMMUNİKASİYA

Sosiallaşma (yəni özünüxariciaktuallaşdırma) insanların bazis tələbatlarından olub ruhi tərəflə bağlıdır. Ünsiyyətdə hissi yolla şəxslərarası əlaqə olduğundan, ünsiyyətin təbiəti hansı analizatorun aparıcılığında ünsiyyətin qurulmasından asılıdır. Hər hansı bir ünsiyyətdə müxtəlif analizatorlar müxtəlif həcmdə iştirak edir. Buna uyğun taktil, vizual, verbal ünsiyyət formaları yaranır.

Haşiyə: A.Piz - Tədqiqatlar göstərir ki, insan beyninə daxil olan məlumatların 87%-i gözdən, 9%-i qulaqdan, 4%-i digər orqanlardan daxil olur. Kütlənin sıxlığı artdıqca hər bir adama daha az məkan qalır. Hansı ki, düşmənçilik hissi yaradır. Stresə fizioloji reaksiyaya əhali sıxlığı gətirib çıxarır, nəinki ətraf mühitin aqressivliyi. Həqiqi ünsiyyət üçün əsas göz-gözə ünsiyyətlə mümkündür.

Ünsiyyətin əsasını **Affiliasiya** - ünsiyyətə tələbat, başqa insanların cəmiyyətində olmağa cəhd etmə (dostluq və məhəbbəti təzahür etdirən emosional kontaktın həyata keçirilməsi) təşkil edir. Affiliasiya insan gerçəkliyini təşkil edən üç müxtəlif Mənin bir vahid Məndə vəhdət təşkil etməsinin ekzistensiya edilməsi kimi təzahür edir. Başqa sözlə, insan daxilində üç Mənin bir-biri ilə vəhdətindən başlanğıc sosiallıq meydana

çıxır; hansı ki, ekzistensiya etməklə xarici sosiallığı özündə refleksiya etməklə xarici vəhdətə nail olur. Affiliasiyanın bloklaşması tənhalıq hissi, psixoloji stres yaradır və frustrasiya doğurur. İnsanların bir-biri ilə əlaqəyə girərək qrup yaratmaq qabiliyyəti **Komplementarlıq** kimi təzahür edir. Komplementarlıq affiliasiya hissi ilə bağlıdır. Bu hiss **Mənsubiyyət hissi** kimi Kimlik Məninin aparıcılığında təzahür edir və insanı cəmiyyətdə özünəbənzərləri tapmağa meylləndirir. Komplementarlıq **İdentifikasiya** ilə başlayır. İdentifikasiya - insanın başqa insana və ya insanlar qrupuna oxşamaq arzusunun təzahürüdür. Komplementarlıq sırf ruhi qabiliyyət olub fraqmentar Ruhların xarici totallığı təşkil etmək meylindən çıxır.

> ***Haşiyə:*** *V.Frankl, "İnsan məna axtarışında" - Hər dəfə həyat insana imkan verir ki, öz dəyərlərini bu və ya başqa qrupda reallaşdırsın.*

Affiliasiya motivin yaranmasını şərtləndirir. **Motiv** - şəxslərarası seçimdir. Motiv fərdin bir şəxs və ya qrupla təmasa psixoloji meylini və digər şəxsdən və qrupdan imtinasının mahiyyətini təşkil edir. Motiv ünsiyyət prosesində tərəf müqabilinin müəyyənləşməsidir. Motiv ünsiyyətdə adresatın tapılmasını həll edir. Affiliasiyanın təzahür etməməsindən insan asosial vəziyyətə düşür.

Haşiyə: A.Adler, "İnsan təbiətini anlamaq"

> *"Əgər insan insanlararası ictimai münasibətlərini heyvanlara və ya cansız əşyalara keçirsə, şəxsiyyətin inkişafı tamamilə dayanar."*

Beləliklə, "nəsə insan"ın yalnız aktuallaşması onun Fiktiv Ruhunun təzahürünün qarşısını alır və insan digər bioloji varlıqlar kimi həyat təcrübəsinə malik olur. Buna görə də, Şəxsiyyət - cəmiyyətlə şərtlənmiş Subyektiv Mən - yalnız şəxslərarası ünsiyyətdən aydınlaşır. Ünsiyyət - insanlararası təmasda birgə fəaliyyətə tələbat əsasında yaranan çoxplanlı mürəkkəb prosesdir. İnsan məhz ünsiyyət nəticəsində şəxsiyyətə çevrilir.

Ünsiyyət ictimai təcrübənin ötürülmə yolu kimi mövcuddur. Ünsiyyət zamanı bir şəxsin Ruhu digərinə açılır və yalnız şüur və iradə ilə mümkün olur. Buna görə də ünsiyyət vasitələri kimi Ruhun təzahürləri çıxış edir. Ünsiyyət vasitələri ümumi şəkildə **Kommunikasiyanı** yaradır. Kommunikasiya - sistemlər arasında, o cümlədən şəxslər arasında məlumat mübadiləsindən ibarətdir. Kommunikasiya: adresantdan (kommunikasiya subyektindən), adresatdan (məlumatın göndərildiyi şəxs), məlumatdan (koddan, məlumatı ötürən vasitədən), rabitə kanalından, nəticədən ibarət mürəkkəb prosesdir. Kommunikasiya sistemi fiziki və ya təşkilati olaraq qrup daxilində ünsiyyətin quruluşunu müəyyən edir. Müxtəlif sxemləri vardır: təkər, dairə, zəncir, çoxkanallı və s. İki cür kommunikativ əlaqə ayırd etmək olar: a. Vasitəli: söz, məktub, jestikulyasiya və s. b. Vasitəsiz: **Telepatiya** - fikirlərin vasitəsiz bir şəxsdən digərinə ötürülməsi.

Ünsiyyət prosesində bir Subyektiv Mən ünsiyyət vasitələri ilə digər Subyektiv Mənə "daşınır". Ünsiyyətin üç tərəfi vardır: kommunikativ, interaktiv, perseptiv.

a. Kommunikativ tərəf: Bura nitq, jest, mimika, intonasiya, gözlə kontakt və zaman-məkan təşkilatlanması aiddir. Kommunikativ tərəf müxtəlif formalı siqnalların göndərilməsi və qəbul edilməsinin üsul və vasitələrinin məcmusudur.

b. İnteraktiv tərəf: Bu tərəf qarşılıqlı fəaliyyətin ümumi strategiyasının qurulmasıdır. Ümumi strategiyanın qurulması ünsiyyətə girən tərəflərin eynilik vəziyyəti alması üçün zəruri olan şərtlərin müəyyənləşməsidir. Hansı ki, belə bir-biri ilə empatiya olunmuş Ruh, insanları birgə fəaliyyətə (problemləri birlikdə həll etməyə) və bununla da xarici totallığı yeni səviyyəyə qaldırmağa məcbur edir.

c. Perseptiv tərəf: Bu tərəf refleksiya nəticəsində Ruhda yaranacaq yeni daxili totallığın qabaqcadan məlumatının yaradılmasıdır; yəni başqa

obrazın yaradılması, onunla identifikasiya və onun refleksiyası ilə bağlıdır.

Ünsiyyət prosesində patiyanın formalarından asılı olaraq ən müxtəlif şəxslərarası ünsiyyət formaları meydana çıxır. Ünsiyyət insanın başqaları ilə təmasda fiziki və zehni inkişafı üçün vacib olan ruhi təzahürdür. **Ünsiyyətin formaları:**

A. Şəxslərarası qarşılıqlı təsir: İki və ya daha çox adamın təsadüfi və ya məqsədli, xüsusi və ya kütləvi, uzunmüddətli və ya qısamüddətli, verbal və ya qeyri-verbal şəxsi təmas nəticəsində onların davranışlarının, fəaliyyətinin, münasibətinin və istiqamətinin qarşılıqlı dəyişilməsi. Dar mənada, fərdi fəaliyyətlərin qarşılıqlı şərtlənməsi. Daha dəqiqi, iki fərdin özünüaktuallaşdırılmasının uzlaşdırılması ilə ortaq özünüaktuallaşdırılmanın yaradılmasından ibarət ruhi təzahürdür. Beləliklə, şəxslərarası qarşılıqlı təsir Fiktiv Ruhun **Bağlılıq** şərtləri əsasında reallaşır. Bağlılıq - iki insan arasında yaxın münasibətlərdə olmağa və qarşılıqlı iştiraka sıx emosional əlaqədir. Bağlılıq **Attraksiya**dan başlanır. Attraksiya - bağlılığın formalaşma prosesində, insanların birbirini qavrama prosesində bir şəxsin digəri üçün cəlbedici görünməsini özündə təqdim edir. Cəlbedicilik fərqliliklər və eyniliklər əsasında təzahür etdiyindən, bağlılıq müxtəlif formalarda meydana çıxır. Eyniliklər özü-özündə hansı Məndən yaranmasına görə də iki yerə ayrılır: a. Subyektiv Mənin Sənlə eyniliyi **Dostluq** kimi təzahür edir. Pifaqor belə hesab edirdi ki, həqiqi dost ikinci Mən deməkdir. Dostluq - şəxslərarasında seçimə, davamlı qarşılıqlı bağlılığa və cavab gözləntilərinə əsaslanan ictimai münasibətdir. b. Libido Mənin eyniliyi əsasında yaranan bağlılıq **Cinsi Məhəbbət** kimi təzahür edir. Cinsi məhəbbət əks cinslə eynilik və öz cinsi ilə eynilik təşkil etməklə iki müxtəlif yarımformalarda təzahür edir. Libido Mənin fərqliliklərlə eyniliyin vəhdətindən **Yaxınlıq** və **Qohumluq** əlaqələri yaranır. Real Mənlərin eyniliklə fərqliliyin vəhdətindən Yaxınlıq, Libido Mənin eynilik və

yaxınlığın vəhdətindən Qohumluq bağlılığı təzahür edir. c. İnsan gerçəkliyində müxtəlif Mənlərin daxili eyniliyindən meydana çıxan bağlılıq - **Özünəvurğunluq**: Özünəvurğunluq narsisistik libidonun obyekt libidosuna dəyişilməsindən meydana çıxır. Vurğunluq seksual cəhdlərin eyni vaxtda birbaşa və tormozlanma əsasına istinad edən vəziyyətidir. O, seksual obyekti seksual ideal səviyyəsinə qaldırır.

İnsan gerçəkliyinin fərqliliyində yaranan bağlılıq **Asılılıq** kimi təzahür edir. Asılılıq - Subyektiv Mənlərin fərqliliyindən bir şəxsin digərindən asılı olaraq ekzistensiya etməsini özündə təqdim edir. Asılılıq şəxsiyyət pozğunluğu olub, bir insanın başqa insana o qədər istinad etməsindən meydana çıxır ki, ən sadə qərarlar belə həmin şəxs tərəfindən müstəqil qəbul edilmir. Belə vəziyyət köməksizlik hissi ilə müşayiət olunur. Bağlılığın hüdudi vəziyyəti **Fobiyalar** (qorxular) və **Depressiya** (özünəqapılma)dır. Asılılığın bir forması da ziddiyyət təşkil edən fərqliliklərdən doğan bağlılıqdır. Bunun tipik nümunəsi **Düşmənçilik**dir. Subyektiv Mənlərin fərqliliklərində bir Real Mənin digərinin inkar cəhdindən düşmənçilik təzahür edir. Düşmənçilik şəxslərarası irrasional münasibətlərdən olub, daha çox fiziki müstəvidə aktuallaşır. Bağlılıq Subyektiv Mənlərin qarşılıqlı ekzistensiyasını - **Daxili hərəkətliliyini** şərtləndirir. Daxili hərəkətlilik bağlılıqda olan Subyektiv Mənlərin bir-birini axtarmağa, təmas qurmağa və birgə və qarşılıqlı davranmağa xidmət edən ruhi hərəkətin bir formasıdır. Bağlılıqda təsir daxilidir, təfəkkürdən yaranır və zəruridir. Bağlılığın obyektivizasiyası iki müxtəlif müstəvidə ekzistensiya edilərək xarici ümumi bağlılığı təzahür etdirir. Xarici ümumi bağlılığın iki formasını ayırd etmək olar:

Maddi xarici bağlılıq: Qarşılıqlı bağlılıqda olan Subyektiv Mənlərin üçüncü bir xarici vasitədə bir-biri ilə bağlanması. Məsələn: Vətən müxtəlif insanları bir-biri ilə bağlayır. Bu zaman vətənpərvərlik hissi yaranır. Və ya əsərə görə sənətkarla onun tamaşaçısı arasında pərəstişin yaranması.

Ruhi xarici bağlılıq: Bilavasitə insanları hansısa bir İdeal Mənə və ya konkret bəşəri dəyərlərə görə insanların bir-birinə bağlanması.

Bağlılıq bağlanmış tərəflərin fəaliyyətini əlaqələndirir, nəticədə bağlılıqda meydana çıxan fəaliyyət **Davranış** forması alır. Bir şəxsin başqasının fəaliyyətini tənzimləməsi, onun fəaliyyətini istiqamətləndirməsi, niyyətini, təsəvvürlərini, qiymətini dəyişdirməsi Davranış kimi təzahür edir. Davranış - Subyektiv Mənlərin bağlılığının Kimlik Məninin fəaliyyətində refleksiyası kimi meydana çıxır. Davranış prosesində bir Subyektiv Mənin özünüaktuallaşdırması davam edir, digəri ya dayanır, ya istiqamətini dəyişdirir, ya da geriyə inkişaf edir. Buradan davranış meydana çıxır. Subyektiv Mənlərin fərqliliyindən yaranan asılılığın bir forması **Təlqin**dir. Təlqin - başqa adamların törətdiyi oyanmaya münasibətdə yüksək üzüyolalıqdır. Başqa sözlə, bir Subyektiv Mənin digər Subyektiv Mənin ekzistensiyasını özündə kopiyalaşdırması, onunla süni və müvəqqəti eynilik təşkil etməsi Təlqin kimi meydana çıxır. Təlqin prosesində fərd təlqin edilən təsirə məruz qalmağa subyektiv hazırlıqdır. **Təlqinetmə** - təlqin olunanın həyata keçirilməsi və insanın xüsusi proqramlaşdırılmasına istiqamətlənmədir. Təlqin Ruhun xalis varlıq təyinindən qarşılıqlı əlaqədir. Buna görə də xalis fikirlə reallaşır və müəyyən məsafədən əks tərəfə fikrin ötürülməsi ilə onda daxildən spontan dəyişilmə yaradılır. Buna görə də, təlqin vəziyyətində fərdin şüurluluğu və özünətənqid hissi zəifləyir. Təlqin insanın psixi sferasına birbaşa və ya dolayısı ilə məqsədəyönlü sahiblənmədir. Yəni bir Fiktiv Ruhun ekzistensiya edərək, başqa bədəndəki Fiktiv Ruhu müvəqqəti sıxışdırması, onu yuxululuq vəziyyətinə salması və həmin bədənin Real Məni ilə müvəqqəti vəhdət təşkil etməsidir. Belə vəziyyətdə bir bədən başqa bədəndəki Subyektiv Ruh tərəfindən uzaqdan komanda ilə idarə olunur. Təlqinin dərinləşməsi ilə bir fərdin Subyektiv Məninin digərinin Subyektiv Məninin ekzistensiyasının qarşısını alması **Hipnoz** kimi təzahür edir. Hipnoz - qarşılıqlı təsirin bir forması olub, bir insanın digərini özünüak-

tuallaşdırmadan dayandırmasından ibarət mürəkkəb bağlılıq formasıdır. Hipnoz prosesində bir Subyektiv Mən digərinin şüur sahəsini daraltmaq məqsədi ilə fərdin diqqətini konsentrasiya etməklə xarici agentə (hipnoz edənə) tabe etdirmək məqsədi güdən təsir texnikasıdır. Hipnoz - şüurun iradədən ayrılmış vəziyyətidir. Hipnozda bir gerçək insan mexaniki icraçıya çevrilir, fəaliyyətin tənzimlənməsi, nəzarət olunması və qərarvermə başqasının şüuruna aid olur. Şəxslərarası münasibətin Kimlik Mənindən yaranması ilə **Hüsn-rəğbət** meydana çıxır. Belə ki, şəxslərarası qarşılıqlı təsirdə müəyyən mənada həm də mövcud varlıq təyinindən təsir yaranır ki, bu da hisslərin bir fərdən digərinə köçürülməsi - **Transferi** kimi meydana çıxır. Buradan şəfqət, mərhəmət meydana çıxır. Keçirmə, transfer - insanın insana şüursuz, əvvəllər başqa adamlarla qarşılıqlı təsirdə formalaşmış mənfi və ya müsbət hisslərin köçürülməsini özündə təqdim edir. İnsanın özü-üçün-varlıq təyinindən təsiri, belə varlıq özündə mahiyyəti olmadığından, heç bir təsir yaratmır. Yəni fiziki simpatiyada hər bir tərəf özünüaktuallaşdırma vəziyyətində dəyişikliyə məruz qalmır.

Xarici totallığın fraqmentar Ruha təsiri - Cəmiyyətlə Fərd arasında təsir: İnsan yalnız ayrı-ayrı fərdlərlə yox, eyni zamanda çoxlu adamla və ya obyektivizasiya olunmuş xarici totallıqla təmasda olur. Belə təmasın aşağıdakı əsas formaları vardır:

A. Təhsil: "Nəsə İnsan"ın aktuallaşması qabaqcadan ona verilmiş zəruri şərtlərə əsaslanır və belə aktuallaşma konkret individdən asılı deyil. Aktuallaşma prosesində İndivid sadəcə passiv icraçı rolu oynayır. Amma özünüaktuallaşdırma Fiktiv Ruha xas olduğundan, qabaqcadan verilmiş zəruri şərtlər yoxdur. Buradan da təsadüfi şərtlərin ən müxtəlif kombinasiyalarından özünüaktuallaşdırmanın zəruri şərtlərini əldə etmək zərurəti yaranır. Biz bunu **Öyrənmək** kimi təyin edirik. Öyrənmək - Fiktiv Ruhun özünə mövcudluq şərtləri əldə etməsinin üsul və vasitələrinin məcmusu **Təhsil** kimi meydana çıxır. Abraham Qarold Maslou

"İnsan psixikasının uzaq hüdudları" adlı kitabında ideal kollec ideyasını verir. Bu kollecdə təhsilin məqsədi hər bir tələbənin "öz təyinatını dərk etməsi, onu özü üçün kəşf etməsi. öz xüsusi identikliyini və ondan öz təyinatının idrakını ayırmamağı" öyrənməsindən ibarət olacaqdır. Maslou hətta ideal kollecdə "ölümün ayrıca kurs hesab ediləcəyini" əhəmiyyətli hesab edir. Bizcə ideal kollecin məqsədi Fiktiv Ruhun bədən tələbatlarından asılı olmayaraq, Formal Ruhdan müəyyən şərtlər əldə etməsi ilə ruhi mövcudluğun qurulmasını öyrətməkdən ibarət olacaqdır; hansı ki, bütün mövcud varlıqlarda qurulma İlahi tərəfindən "öyrədilmişdir". Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Təhsil - Fiktiv Ruha mövcudluq əldəetmə öyrədilməsinin şərtlərinin məcmusundan ibarətdir.

Təhsil bir şəxsin və ya abstrakt bilginin bir şəxsdən və ya vasitədən Fiktiv Ruha köçürülmə üsuludur. Təhsil vasitəsilə insan süni totallığı özündə refleksiya edir. Amma təhsilin müəyyən səviyyəsində bu cür süni totallıq əldə etmiş Ruh, həmin totallıqla daxili və ya xarici seyr yolu ilə xalis varlıq təyinindən məlumatlar əldə edə bilir ki, bu **Təhsillilik** və ya **Ziyalılıq** kimi təzahür edir.

B. Tərbiyə: Tərbiyə xarici totallığın davranış normalarını fərdə ötürməklə, onda özünüaktuallaşdırmanın yeni daxili motivasiyası yaradılır. Yəni tərbiyə ictimai tarixi təcrübənin yeni nəslə ötürməklə onların şüuruna və fəaliyyətinə məqsədəyönlü və şüurlu təsir edərək onlarda istiqamət, anlayış, prinsip, dəyərlərə meyl formalaşdırmaqdır. Tərbiyə nəticəsində fərd daha ümumi motivlərlə fəaliyyət göstərir ki, bu da onun xarici totallığı özündə refleksiyasını sürətləndirir. Təhsil və tərbiyə birlikdə insanda xarici totallığın refleksiya vərdişi yaradır; belə fərd müstəqil şəkildə özü ətrafdan və özündən məlumat əldə edərək özünüaktuallaşdırmanı dərinləşdirir və genişləndirir. Biz tərbiyəni təhsil nəticəsində Fiktiv Ruhun əldə etdiyi, mövcudluq üçün vacib olan zəruri şərtlərin qaydaları əsasında ruhi mövcudluq qurma fəaliyyətini

aşılamağın üsulu kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Tərbiyə - Fiktiv Ruhun təhsillə əldə etdiyi, öz mövcud varlıqlarının zəruri şərtlərinin qaydaları əsasında ruhi mövcudluq qurmanın şərtlərinin məcmusundan ibarətdir.

Xarici özünüaktuallaşdırmada insanlar arasında fərqliliklərdən simpatiyanın əksinə olaraq **Antipatiya** meydana çıxır. Üç cür antipatiya ayırd etmək olar:

a. İntellektual antipatiya: Ruhun xalis varlıq təyinindən meydana çıxır və insanların bir-birinin fikir və ideyalarının fərqliliyində refleksiya edir. İntellektual antipatiya bir-birini başa düşməməkdən, bir-birinin fikrini qəbul etməməyə qədər inkişaf edir və sonda ideoloji konfliktlər kimi meydana çıxır.

b. Hissi antipatiya: Mövcud varlıq təyinindən, eyni məkan-zaman şərtində özünüaktuallaşdıran iki şəxs arasında baş verir. İki fərdin hissi-emosional sferası uyğun olmadıqda və ya fərqli olduqda hissi antipatiya meydana çıxır. Hissi antipatiya bir-birinin daxili yaradıcılıq gücünün zəiflətməsinə səbəb olur ki, buradan da nifrət, kin, düşmənçilik kimi hisslər yaranır.

c. Fiziki antipatiya: Belə antipatiya özü-üçün-varlıq təyinindən çıxır və mahiyyəti olmadığından şəxslərarası münasibətdə özünüaktuallaşmaya təsir etmədiyindən dəyişiklik yaratmır.

Antipatiyanın ən ümumi təzahürü **Şəxslərarası konfliktlərdir**. Konflikt - şəxslərarası əlaqədə qarşılıqlı təsir zamanı şəxslər arasında baxışların, ideyaların, maraqların toqquşması nəticəsində qarşıdurmanın yaranmasını özündə təqdim edir. Konflikt düşmənçiliyə hazırlıq mərhələsi təşkil edir. Bir qayda olaraq konfliktlər Subyektiv Mənlərin kəskin fərqliliklərindən meydana çıxır. Ünsiyyətin yaranmaması və ya yaranmış ünsiyyətin pozulması - **Deprivasiya** kimi təzahür edir. Deprivasiyanı konfliktə hazırlıq vəziyyəti kimi dəyərləndirmək olar. Bədəndə

hər hansı başlanğıc gücün artması və ya azalması **Əhval-ruhiyyəni** təzahür etdirir. Əhval-ruhiyyə - insanın psixi həyatının daxili emosional fonudur. Bu fonda Passiv Güc üstünlük təşkil etdikdə Ruhun ekzistensiyası zəifləyir, insan yaradıcılığa, ünsiyyətə və bilik toplamağa meyllənmir, özünə qapanır, əhval-ruhiyyə pozulur və bu **Depressiyada** (Ruh düşkünlüyündə) Ruhun ekzistensiya qabiliyyətinin tam itməsinə qədər inkişaf edir. Aktiv Gücün üstünlük təşkil etməsində insan ya seksuallığı, ya da yaradıcı aktivliyi artır. İnsan gerçəkliyində Ruhun Yaradıcı Gücü üstünlük təşkil etdikdə Ruh ekzistensiya etməyə başlayır; yəni bilik əldə etməyə, yaradıcılığa meyllənir və ünsiyyətcil olur. Əhval-ruhiyyə fərd üçün əhəmiyyətliliyinə görə obyektə və ya hadisəyə verilən reaksiyadır. Əhval-ruhiyyə tam dərk edilməmiş ətrafla (obyekt və ya vəziyyətlə) bağlılıqdır. Əhval-ruhiyyə açılan ruhi vəziyyətdir. Başqa sözlə, Ruhun qapalı haldan açıq hala keçməsi əhval-ruhiyyə ilə tənzimlənir.

SUBYEKTİV MƏNİN - FİKTİV RUHUN ATRİBUTLARI

Ekzistensiya prosesində tədricən bədənlə ziddiyyətdən azad olmuş Fiktiv Ruh özündə yalnız özünə xas xarakteristikalara malik olur ki, biz bu xarakteristikaları **Fiktiv Ruhun Atributları** kimi təyin edirik.

Fiktiv Ruhun atributlarına bədənə xas təzahürlərin iştirak etmədiyi xarakteristikalar aid edilə bilər. Başqa sözlə, Formal Ruhun atributlarının bədəndən təzahürü Fiktiv Ruhun atributları kimi aşkarlanır. Buradan da məlum olur ki, "nəsə insan"ı xarakterizə edən atributların iki tərəfi vardır: birinci tərəf Formal Ruh, ikinci tərəf Bədəndən ibarətdir; hansı ki, ayrı-ayrılıqda heç biri bu atributlarla şərh oluna bilməz. Biz bu atributlarla "nəsə insan"ı və ya şüurlu insanı xarakterizə edirik; hansı ki, şüurluluğa qədər mövcud olmuş insandan kəskin fərqli təzahürlərə malikdir.

Cisimlər və canlılar reallığa malik olduqlarından təcrübədə obyekt-subyekt əlaqəsində aydınlaşaraq hissi təfəkkürlə aşkarlanır. Lakin

Subyektiv Mən təcrübədə yalnız subyekt-subyekt əlaqəsində aydınlaşdığından təcrübə sahəsində bilavasitə hissi təfəkkürlə aşkarlanmır. Subyektiv Mən dolayısı yolla özündənkənar əksləri ilə aydınlaşır. Bu cür aydınlaşmada meydana çıxan keyfiyyət göstəricilərini biz **Atribut**, yəni özündən çıxmayan, amma kənardan onun varlığını təsdiq edən xüsusi keyfiyyətlər kimi qiymətləndiririk. Bundan fərqli olaraq, real varlıqlarda keyfiyyət bilavasitə varlığın özündən aydınlaşaraq onun mahiyyətini təqdim edir. Atributlar Ruhun daxili totallığının ekzistensiyası ilə meydana çıxan keyfiyyətlərdir. Bura aşağıdakılar aiddir:

1. İnsan Ağlı: Ruhun bədəndən xalis varlıq kimi təzahürü **Ağıl** kimi meydana çıxır. Ağıl insanı digər bütün canlılardan fərqləndirən başlıca atributdur. Biz əvvəlki fəsillərdə üç cür ağlı - İlahi Ağıl, Təbiət Ağlı və İnsan Ağlını ayırd etmişdik. İlahi Ağıl heç bir vasitə tələb etmədən mövcud olan ağıldır; hansı ki, bütün vasitələrin yaradılmasının başlanğıc səbəbi kimi çıxış edir. Təbiət Ağlı özündə İlahi Ağlı refleksiya edən, birdəfəlik dəqiq və aydın təzahür edən ağıldır; hansı ki, biz bunu mövcudluqlardan aşkarlanan həqiqət kimi aşkarlayırıq. İnsan Ağlı inkişafda olan, situasiyadan asılı olaraq təzahür edən, ayrı-ayrı adamlarda və ayrı-ayrı dövrlərdə fərqli formalarda təzahür edən ağıldır. Biz İnsan Ağlını bədənlə şərtlənmiş Ruhun həqiqəti kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ağıl - yalnız özündən törəyən ideyaların şərtlərinin məcmusundan ibarətdir.

Ağıl birformalı enerji kimi mövcud olduğundan fiziki ölçüləri yoxdur, onun "miqdarı" bədənlə şərtlənmiş idrak qabiliyyəti ilə ölçülür. Ağıl - insanın idrak qabiliyyətlərinin məcmusunu özündə ifadə edir. Ağıl - düşüncə qabiliyyətinin fərdi psixoloji xarakteristikasıdır.

2. Şüur: Ağlın təzahürü, yəni ruhi qabiliyyətləri ekzistensiya etdirməsi (Ruhu hərəkətə gətirməsi) **Şüuru** meydana çıxarır. Beləliklə, əgər Ağlı Ruhun "şeyi", materiyası və ya enerjisi kimi təsəvvür etsək,

Şüur Ruhun hərəkəti kimi təyin olunan olur. Biz Şüuru Ruhun xalis hərəkəti - obyekt tələb etməyən hərəkət kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Şüur - Ruhun obyekt tələb etməyən hərəkətinin şərtlərinin məcmusundan ibarətdir.

Mövcud varlıqların hərəkətindən fərqli olaraq, Ağıl enerjisi Şüur kimi hərəkətə çevrilir. Yəni Fiktiv Ruh "nəsə insan"da bədənlə ya Ağıl, ya Şüur kimi əlaqələnir. Bu, Ruhun enerji quruluşu ilə bağlıdır. Mövcud varlıqlarda enerji bir-birinə keçməyən, fərqli təzahürlərə malik və fərqli üsullarla idrak edilən iki cür enerjiyə - radial və tangensial enerjiyə bölünür. Ruhun enerji quruluşu bundan fərqli olaraq birformalıdır. Yəni Ruh ya tangensial enerji formasında mövcud olur (bu zaman Ruhun heç bir təzahürü, təsiri aşkarlanmır), ya da radial enerji formasında olur (bu zaman o xalis hərəkət olur). Biz Ruhun tangensial formasını Ağıl, radial formasını Şüur kimi qavrayırıq. Şüur - Ruhun tangensial enerjisinin radial enerjiyə çevrilməklə meydana çıxan ruhi hərəkətdən ibarətdir. Şüurluluq mənimsəmə, anlama, başadüşmə qabiliyyətidir və fərdi keyfiyyət olduğundan, müxtəlif fərdlərdə müxtəlif şüurluluq təzahür edir.

3. Yaddaş: İnsan Ruhunun daxili və xarici aləmlə eynilik təşkil edərək bir daha geri bədənə qayıtmaması və bu eyniliyi özündə (yəni eynilik təşkil edən tərəfinə əksilik təşkil edən tərəfinə) refleksiya yolu ilə daxildə abstrakt obyektivizasiya etməsi **Yaddaş** kimi meydana çıxır. Yaddaş alınma üsulundan asılı olmayaraq məlumatların abstrakt obrazlaşdırılmış formalarda beyində toplanması və lazım gəldikdə onları canlandırıb, onlar əsasında əvvəlki təcrübə və yaşantıdan alınan məlumatların canlandırılma qabiliyyətini özündə ifadə edir. Buradan da yaddaş xalis ruhi əlamət olsa da, beyində toplandığından beynin funksiyalaşması ilə birbaşa şərtlənib. Yaddaş şüurdan sonra İnsan Ruhunun ən mühüm qabiliyyətidir; hansı ki, totallığa meyl yaddaş vasitəsilə həyata keçirilir. Yaddaşsız insan yalnız heyvanlar kimi ruhi yaşantıları təkrar-

layar, nə xaricdə, nə də daxildə obyektivizasiya edə bilməzdi. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Yaddaş - ağıldan və faktdan törəyən və aşkarlanan ideyaların psixi struktur kimi təşkil olunmasının şərtlərinin məcmusundan ibarətdir.

Buna görə də, yaddaşda yalnız qazanılma ideyalar mövcud olur. Yaddaş - hər bir fərdin həqiqətin aydınlaşmasının aşkarlanan nəticələrini özündə toplamaq, saxlamaq və lazım gəldikdə canlandırmaq keyfiyyətidir. Başlanğıc yaddaş - anadangəlmə yaddaş irsi təbiətlidir və növ xüsusiyyətinə malikdir. Bundan fərqli olaraq, qazanılma yaddaş fərdi, orijinaldır. Yaddaş inikasın ruhi forması, təfəkkürün varlığa münasibətinin təzahürüdür. Yaddaşsız insan bioloji varlıqdır. Yalnız irsi yaddaşla mövcud olan insan sadəcə canlıdır. İnsanlar heyvanlardan onunla fərqlənir ki, heyvanlarda anadangəlmə yaddaş sabitdir və güclüdür; insanda anadangəlmə yaddaşa ruhi təzahürlər təsir edərək entropiyaya məruz qoyur. Nəticədə qazanılma yaddaş forması meydana çıxır. Əgər insanda Ruh İrsi yaddaşa təsir edərək onu neytrallaşdırmasaydı (yəni onu zəiflətməsəydi), insan heyvanlar aləminin bir üzvü kimi mövcudluğunu davam etdirməyə məhkum olardı.

Yaddaş necə əmələ gəlir? Təcrübədə insan hissi təfəkkürlə mövcud varlığı özündə refleksiya edir. Nəticədə abstrakt mövcud varlıq xarici totallıqdan daxili totallığa keçirilir. Sonra Ruh abstraksiya edilmiş mövcud varlığı onun özü-üçün-varlıq təyinindən (obrazından) ayırır. Özü-üçün-varlıq təyini xalis forma kimi, Ruhla xalis fərqlilik kimi refleksiya olunur. Ruhda mövcud varlığın özü-üçün-varlıq təyinindən ayrılması **Yaddaşaalma**, sonra onları yenidən abstrakt formada birləşdirmə **Yadasalma**dır. Yadasalma iki halda ola bilər: ya Ruh mütləq fərqlilik kimi fiksə etdiyi obrazı (özü-üçün-varlıq təyinini) yenidən təcrübədən abstraksiya edir və özündə eynilik kimi saxladığı onun xalis varlıq təyini ilə yenidən birləşdirir; və ya özündə eynilik təşkil etdiyi xa-

lis varlıq təyininə özü-özündə abstrakt formada özü-üçün-varlıq təyini ilə birləşdirir. Birinci təkrar təcrübədə, ikinci daxildən (aprior təcrübədən kənar) özü-özündə yadasalmaq kimi meydana çıxır.

4. Obrazlaşdırma: Obraz - mücərrəd özü-üçün-varlıq təyinidir. Heç bir mahiyyətə malik deyil. Xarici görünüşdür. Ruhun özü-üçün-varlıq təyini olmadığından, belə təyini olan predmetlərdən (bədəndən və xarici predmetlərdən) onların xarici varlıq təyinini özününküləşdirir, yəni onların xalis mövcudluğundan ayırır. Belə ayrılmış özü-üçün-varlıq təyininin abstraksiyası **Obraz**dır. Biz mövcud varlıqdan onun özü-üçün-varlıq təyinini xalis mövcud təyinindən ayırdıqda heç bir mahiyyəti olmayan xalis forma alırıq; məsələn, kölgə və ya fotoşəkil kimi. Həmin özü-üçün-varlıq təyini (yəni xalis formalar) beyində fiksə olunur. Sonra yadasalma prosesində biz həmin özü-üçün-varlıq formasını yaddaşımızda yenidən onun bundan əvvəl ayırdığımız mahiyyəti ilə birləşdirib mövcud varlıq təyinini yenidən abstrakt formada aşkarlayırıq ki, nəticədə yadasalma meydana çıxır. Beləliklə, obrazlaşdırma mövcud varlığın tərəflərinin hissi təfəkkürlə ayrılması, onun özü-üçün-varlıq təyininin abstraksiya edilməsidir; xalis varlığa obrazın (özü-üçün-varlıq təyininin) geyindirilməsi kimi baş verir. Ruhun yaddaşaalması, yadasalması və yaddacanlandırması bir-biri ilə əlaqəli prosesdir.

5. Simvollaşdırma: Daxili obyektivizasiyaya paralel Ruhun eyniyyət təşkil edən tərəfinin bədəndən xaricdə qalması xarici yaddaşı - **Simvollaşdırmanın** yaranmasını meydana çıxarır. Simvollaşdırma Ruhun fəaliyyətini (onun totallaşma meylini) özündə fiksə edən ən müxtəlif vasitələrin məcmusu kimi insanı bütün varlıqlardan fərqləndirir. Hətta buna görə bəzən insan simvol yaradan canlı kimi dəyərləndirilir.

SUBYEKTİV MƏNİN DİGƏR MƏNLƏRLƏ ŞƏRTLƏNMİŞ TƏZAHÜRLƏRİ

İnsan üç müxtəlif varlığı bir gerçəklikdə vəhdətdə təzahür etdirdiyindən, hər hansı bir təzahürdə ayrı-ayrı varlıqların bir-birinə hansı nisbətdə aydınlaşması, insan mahiyyətinin dərk edilməsində ən ciddi problemlərdən biri kimi meydana çıxır. Ruhun bədənin və ətrafın özü-üçün-varlıq təyinindən insanın aşağıdakı keyfiyyətləri meydana çıxır ki, bu da onu digər canlılardan fərqləndirir.

Subyektiv Mən öz xalis təzahürləri ilə yanaşı həm də insanın digər Mənləri ilə vəhdətindən ekzistensiya edir. Belə təzahürlər ya ikili, ya üçlü mahiyyətdə meydana çıxır. Həmin təzahürlərə aşağıdakıları aid etmək olar:

1.Qabiliyyət: Mənin bədənin Kimlik Məni ilə şərtlənməklə ekzistensiyasından Qabiliyyətlər meydana çıxır. Qabiliyyət Subyektiv Mənin obyektivizasiyasında bədənin Kimlik Məninin iştirak dərəcəsini özündə əks etdirir. Başqa sözlə, Subyektiv Mənin Kimlik Məninə münasibəti Qabiliyyət kimi təzahür edir. İnsan Ruhunun bədənin və ətrafın özü-üçün-varlıq təyinindən istifadə edərək təzahürü onun xalis varlıq təyinindən fərqli əlamətlər meydana çıxarmasına səbəb olur ki, biz bunu ruhi qabiliyyətlər adlandırırıq. Qabiliyyət - subyektin fərdi psixoloji xüsusiyyətidir. Hər hansı fəaliyyətə başlamaq və onu arzuolunan nəticəyədək başa çatdırmağı özündə ifadə edir. Beləliklə, qabiliyyət Subyektiv Mənin ekzistensiyası zamanı tələb olunan işin bədənin görmə imkanıdır; hansı ki, bədən orqanlarının idarəolunma dəqiqliyi ilə insanlarda fərqli dərəcələrdə meydana çıxır. Qabiliyyət fərdləri eyni situasiyada fərqli imkanlarda üzə çıxarır. Qabiliyyət orqanizmlərin fərqli inkişafı və bununla şərtlənmiş Ruhun fərqli təzahürü ilə bağlıdır. Hər bir bədən özündə şərtlənmiş Ruhun azad təzahürünə bu və ya başqa cür təsir edir, onda aydınlaşan həqiqəti entropiyaya məruz qoyur. Beləliklə, qabiliyyət bədənin Ruh tərəfindən idarə olunmasının əlamətidir.

Qabiliyyətin aktuallaşması **Bacarıq** kimi təzahür edir. Qabiliyyət anadangəlmə təbii təzahürdür. Bundan fərqli olaraq, bacarıq qazanılma olub, müəyyən təcrübəyə və fəaliyyətə əsaslanır. Bacarıq - fəaliyyətin yerinə yetirilməsinin şəxs tərəfindən mənimsənilməsi, qazanılma bilik və vərdişlərin məcmusunun təmin edilməsidir. Müəyyən qaydalara uyğun fəaliyyətin icra olunması (bacarıq), vərdiş və biliklərlə birgə dünyanın düzgün əks edilməsinə kömək edir. Beləliklə, insanın Ruhun imkanlarından istifadə edib müəyyən fəaliyyət göstərməsi onun bacarığı kimi meydana çıxır. Qabiliyyət Ruhun bədəndə daxili şərtlənməsindən meydana çıxırsa, bacarıq xarici şərtlənmə kimi təzahür edir. İnsan qabiliyyətinin bacarıqla vəhdəti **İstedad** kimi təzahür edir.

İstedad - qabiliyyətlərin ali təzahürüdür. İstedadlı olmaq Ruhun qabiliyyətini yaradıcılığa yönəltmək bacarığının olmasıdır. İstedadda qabiliyyət bacarıq kimi yaşla şərtlənmişdir və insanın müəyyən yaş dövrlərində xüsusilə fərqlənən qabiliyyətlərin məcmusudur. İstedad (və ya talant) Fiktiv Ruhun başqalarından fərqli anadangəlmə fərqliliyidir. İstedad ruhi yaradıcılıq potensialıdır. Ruhun bioloji enerjini bədəndən kənara axıtmaq qabiliyyətinin formasıdır. İnsanlarda qabiliyyətə görə beynin anatomik quruluşunda fərqliliklər müşahidə olunur. Beləliklə, istedad həm orqanik, həm funksional, həm də ruhi qabiliyyətdir. Bu üç komponentdən hər hansı birinin olmaması istedadın təzahürünə imkan vermir. Başqa sözlə, istedad birtərəfli xüsusi inkişaf etmiş sosial keyfiyyətlərin əsasını təşkil edən qabiliyyətdir. Ruhi əlamətlərdən ruhi qabiliyyətlər onunla fərqlənir ki, ruhi əlamətlər özü-özündən təzahür edir və bu zaman heç bir vasitəyə (o cümlədən bədənə) yer vermir. Amma ruhi qabiliyyətlərdə Ruhun özünə xas əlamətləri bədənin özü-üçün-varlıq təyinindən meydana çıxır, yəni bədəndən vasitə kimi istifadə edilir. Beləliklə, Ruhun cisim və canın xarakteristikalarından təzahürü insan qabiliyyətləri kimi təzahür edir; hansı ki, bunlarda Ruhun xalis əlamətləri

kimi insanı bir şüurlu (ruhlu) varlıq kimi bütün yerdə qalan varlıqlardan fərqləndirir.

Bəs insan qabiliyyətləri necə yaranır? Qeyd etdik ki, təbiətdə cisimlər özlərində yalnız Passiv Gücü (istəməyi) təzahür etdirir. Onlarda Yaradıcı Güc daxilidir və cismin sərhədləri ilə məhdudlaşıb. Bu güc kənara çıxmadığından cisimlərin iradəsi yoxdur. Canlılıqda hər iki güc fərqli müstəvilərdə bir-birindən ayrılıqda: Passiv Güc canlının fiziki bədənindən xarici güc kimi; Aktiv Güc daxildə yaradıcı güc kimi təzahür edir. Nəticədə Passiv Güc heyvanın vəhşilik (bu güc cisimlərdə təzahür etməyən *Mortido* gücü - ətalət gücü və ya ölüm gücü kimi mövcuddur), Aktiv Güc nəsilvermə kimi təzahür edir. Aktiv Gücün yalnız nəsilvermə funksiyasına malik olmasına görə heyvanlarda şüurluluq aşkarlanmır. Amma balaya münasibət şüurluluğa oxşarlıq təşkil edir ki, bunun da səbəbi həmin güclərin yaranışı refleksiya etmələri ilə bağlıdır. Sadəcə canlılarda yaranışın refleksiyası əmələgəlmə kimi meydana çıxır. Buna görə də heyvanlar yalnız nəsilvermə zamanı iradə nümayiş etdirir, sonra həyatlarını qeyri-iradi davam etdirirlər. Belə fəsli iradəvilik heyvanların həyat təcrübəsi ilə şərtlənmişdir. Başqa sözlə, heyvani iradəvilik daxili hormonların fəallığı kimi meydana çıxır. Buna görə heyvani iradəvilik insani iradəlikdən fərqlənir. İnsanın iradəliliyi nə bədənlə, nə də ətraf aləmlə şərtlənməmişdir və Ruhun özündə olan iradə kimi daimidir. İlahi yaranışın Ruhda refleksiyası insanda iki formada təzahür edir:

a. Quruculuq: Təbii şeylərin daxili qurulma prosesinin xaricdə "nəsə insan" tərəfindən reallaşdırılması Quruculuqdan ibarətdir. Quruculuq - təbii nizama uyğun, təbii şeylərin əsasında yeni formaların yaradılması kimi təzahür edir. Quruculuq Fiktiv Ruhun kosmik qanunlara uyğun fəaliyyətindən, Fiktiv Ruhun insanın mövcud varlığında (bədənin qurulmasını - İlahi yaranışı) dolayi yolla refleksiya etməsi kimi meydana çıxır. Quruculuqda iki mərhələ vardır:

1) Əvvəl insanın Ruhu mövcud varlığın (bədənin və ya xarici predmetlərin) mahiyyətini özündə refleksiya edir, onlarla eyniləşir (yəni onun qanunauyğunluqlarını kəşf edir).

2) Kəşf edilmiş mahiyyət əsasında insan fərqli özü-üçün-varlıq təyini yaradır və ona obyektivizasiya edir. Buradan alətlər, silahlar, məişət avadanlıqları, maşınlar və texnika meydana çıxır. Quruculuq nəticəsində meydana çıxan predmetlər eyni bir mahiyyətdə, amma fərqli özü-üçün-varlıq təyinində olurlar. Quruculuq nəticəsində meydana çıxan əşyalarda özü-üçün-varlıq təyini predmetin mahiyyəti ilə vəhdət təşkil edir və ondan ayrılmır. Məsələn: bir parça dəmirdən balta düzəldilərkən baltanın forması dəmirdən ayrılmır.

b. Yaradıcılıq: Fiktiv Ruhun metafizik qanunlar əsasında xarici qurulma reallaşdırması Yaradıcılıq kimi meydana çıxır. Yaradıcılıq - Fiktiv Ruhun öz xalis varlığında İlahi yaranışı refleksiya etməsidir. Bunun təzahürü kimi insan öz beynində (Ruhda) obrazlar yaradır və onları xarici predmetlərin özü-üçün-varlıq təyininin üzərinə (onu dəyişdirmədən) obyektivizasiya edir. Buradan obrazların simvollaşdırılma vasitələrindən (səslə, forma ilə, rənglə və s.) asılı olaraq incəsənətin ən müxtəlif formaları meydana çıxır. Yaradıcılıq nəticəsində meydana çıxan hər bir predmet özündə iki paralel özü-üçün-varlıq təyininə malik olur: 1. Predmetin mahiyyəti ilə vəhdət təşkil edən özü-üçün-varlıq təyini. Bu, əsərin arxasından ikincili görünüşü təşkil edir, amma dəqiq təyindir. 2. Mahiyyətlə vəhdət təşkil etməyən özü-üçün-varlıq təyini. Bu, birincili görünüşü təşkil edir və predmetdən ayrılandır. Əsər məhz predmetin özü-üçün-varlıq təyininə obyektivizasiya edilmiş, ondan ayrılan mahiyyətsiz özü-üçün-varlıq təyinidir.

Yaradıcılıq varlıq təyininə uyğun üç tarixi mərhələ təşkil edir:

1. **Özü-üçün-varlıq təyininin Ruhda refleksiyasının əsasında yaradıcılıq:** Buradan simvollar, sənətkarlıq, incəsənət meydana çıxır.

2. **Mövcud varlıq təyini əsasında insanın yaradıcılığı:** Buradan maşın və texnika meydana çıxır. Hər bir maşın özündə bədənin bir orqanının və ya ayrıca bir varlığın həyat fəaliyyətinin refleksiyası kimi yaranır və bu üsulla yaradıcılıq Bionika elmi kimi yaranır.
3. **Xalis varlıq təyininin refleksiyasının əsasında yaradıcılıq:** Burada Ruh xalis varlığını refleksiya etdiyi varlığın qurulma-mövcudolma qanunlarını öyrənir, sonra həmin qanunlar əsasında xarici varlığı özü istədiyi kimi yenidən qurur. Cisimlərin yenidən qurulmasından sintetik maddələr; canlıların yenidən qurulmasından geni dəyişdirilmiş bitkilər və bioloji klonlaşdırma; Ruhun özü-özünü yenidən qurmasından yeni ideyalar, nəzəriyyələr, dünyagörüşləri; və özü-özündə yenidən qurulmanın obyektivizasiyasından hesablama maşınları, robotlar və kompüter yaradılmışdır.

2. Psixologiya: Subyektiv Mənin ekzistensiyasına Kimlik Məninin bilavasitə təsir edərək onu entropiyaya məruz qoymasından **Psixologiya** meydana çıxır. Belə ki, Subyektiv Mən bədənlə şərtləndiyindən bədən onu entropiyaya uğradır və öz xalis atributlarında meydana çıxmasına imkan vermir. Bu, fərqli Kimlik Mənlərində fərqli formalarda aydınlaşır. Psixologiya - psixikanın (hissi yaşantıların beyində fiksə olunmasının) Subyektiv Mən tərəfindən yenidən canlandırması ilə meydana çıxan ruhi təzahürlərdəndir. Ali canlıların əsas keyfiyyətlərindən biri psixikadır. Psixika ətrafın təsirinə canlının neyrohormonal cavablar dəstinin təsbit olunmuş formasıdır. Hər bir canlının belə cavabı irsiyyətlə məhdudlaşmış və statikdir. Dəyişməzdir və canlının iradəsi olmadığından daxili müdaxiləyə məruz qalmır. Xarici təsirlər birincili olduğundan, yalnız xarici təsirlərin dəyişilməsi psixikada dəyişilmə yaradır. Ruhun bədənə keçməsi ilə vəziyyət dəyişir; artıq bədən ətrafın təsirlərini özündə passiv əks etdirmir. Yaradıcı gücünə görə Ruh bədənin psixikasını hərəkətə gətirir və onda dəyişən və bir-birini əvəz edən çoxsaylı psixikaların meydana

çıxmasına səbəb olur ki, bütün bunların məcmusu insan psixologiyasını təşkil edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Psixologiya - bütün mümkün canlıların psixikalarının şərtlərinin məcmusundan ibarətdir.

Başqa sözlə, əgər psixika yalnız bir canlıya xas orijinal təzahürdürsə, psixologiya ümumi canlılığa xas universal təzahürdür. Müxtəlif heyvanlara xas psixikaların Ruh tərəfindən əlaqələndirilməsindən psixologiya təzahür edir. Buna görə də insan psixologiyasının ayrı-ayrı elementləri özündə hansısa bir heyvani psixika ilə eynilik təşkil edir.

İnsan psixologiyasının iki tərəfi vardır:

a. Xarici təsirlərlə şərtlənmiş tərəfi.

b. Ruhla - Ruhun orqanizmin cavabına müdaxilə gücü ilə şərtlənmiş tərəfi. İnsanın ruhi enerjisi nə qədər güclüdürsə, insanda bir o qədər xarici təsirlər az rol oynayır, insan daha zəngin psixoloji fəallıq nümayiş etdirir. Ruh nə qədər zəifləyirsə, insan psixologiyası bir o qədər zəifləyir və ruhsuz insanlarda **Psixika** kimi meydana çıxır. Psixika insan tərəfindən başa düşülməyən, şərh olunmayan və kənara çıxarılaraq başqalarına ötürmək və ya xarici predmetlərdə proyeksiya olunmayan təzahürdür. Ruhun psixikaya təsiri ilə insan öz psixoloji vəziyyətini başa düşülənə, şərh edilənə, təsvir edilənə, kənara çıxarılaraq başqasına ötürülə bilən və obyektivizasiya edilə bilən hala salır. Bununla da şəxslərarası münasibətdə bir-birini başa düşür. Psixologiya şəxsin anlanılmasında - onun hansı Mənin aparıcılığında olmasını təyin etmək üçün vasitə rolu oynayır. İnsan yaradıcılığında onun psixoloji durumunun təsiri özündə Ruhun psixikaya təsiri kimi meydana çıxır. Başqa sözlə, Psixologiya insanın ətraf təsirlərə neyrohormonal şüurlu münasibətidir. Buna görə də insan psixologiyası bir tərəfdən onun bioloji təbiəti (yəni antropologiyası, yaşı və cinsi ilə), digər tərəfdən yaşadığı sosial mühitlə (peşəsi, sosial rolu, iyerarxik mövqeyi, vəzifəsi, öhdəliyi və s.) şərtlənib. Beləliklə, demək olar ki, psixologiya hərəkətlənmiş psixikadır. Psixika

anadangəlmə, psixologiya qazanılmadır. Psixologiyanın əsas keyfiyyətlərindən biri onun sürəkli olaraq inkişaf etməsidir. Psixologiyanın təkrarsızlığı Ruhun təbiəti ilə bağlıdır. Psixoloji fəaliyyətdə təkrarlanma yoxdur. Psixologiya konkret ictimai şüur formasının əsasında durur. Belə ki, Mifik şüur - uşaq psixologiyasına; Elmi şüur - yeniyetmə psixologiyasına; Dini şüur - yetkinlik psixologiyasına; Fəlsəfi şüur - ahıllıq psixologiyasına əsaslanır.

3. Emosionallıq: Ruhun bədənin mövcud varlıq təyinindən təzahürü insanın hissi təcrübəsində heyvanlardan fərqli təzahürlər meydana çıxarır ki, bunu **Emosiya** adlandırırıq. Başqa sözlə, Subyektiv Mənin Kimlik Məninə görə ikincili təzahüründən (ondan asılı ekzistensiyasından) emosiya doğur. Emosiya - ruhlanmış hissiyyatdır. Emosiya Ruhun özündə hissi təcrübəni refleksiya etməsidir. Başqa sözlə, hisslərin hiss üzvlərinə keçmədən (yəni onlarda öz enerjilərini azaltmadan) birbaşa beynə ötürülməsi ilə beyində gərginlik yaranır ki, bu da Ruhun oyanıqlığını artırır. İnsanın emosional vəziyyəti xüsusi vəziyyətidir. Emosiya - xarici qıcığın təsirindən qeyri-adekvat olaraq Ruhun qəflətən və çox böyük sürətlə daxildə oyanıq vəziyyətə keçməsidir; hansı ki, xarici qıcığa normadan qat-qat güclü cavabın meydana çıxmasına səbəb olur. Emosiya daxili iblislərin qıcığı entropiyaya məruz qoymasından yaranır.

Haşiyə: A.Adler, "İnsan təbiətinin analizi"

> *"Emosiya - şüurlu və ya təhtəlşüur təsiri altında qəfləti qığılcım kimidir. Biz ona zamanla məhdudlaşmış psixoloji təzahür kimi baxa bilərik. Hiss gizli təzahür deyil. Emosiya şəxsiyyətin mahiyyəti ilə sıx bağlıdır. Ayıran hisslər - kin, kədər, nifrət, qorxu; birləşdirən hisslər - sevinc, həmrəylik."*

Beləliklə, emosiya fərdin Real Mənindən meydana çıxır və özündə daxili totallığı aşağı səviyyədə təzahür etdirir. Nəticədə, insanda özü-özünün müxtəlif Məni ilə fərqlilik təşkil edən keyfiyyətlər meydana çıxır; hansı ki, başqa Məndən təzahür edən insandan fərqli bir insanı meydana

çıxarır. Kimlik Məni dəyişkən olduğundan emosiyalar müvəqqəti və keçicidir. Emosiya - kəskin gərginlik vəziyyəti, davranışın dezor-qanizasiyasını özündə təqdim edir.

4. Xarakter: Subyektiv Mənin Real Mənlə qarşılıqlı əlaqəsindən **Xarakter** yaranır. Real Mən sabit olduğundan, insan xarakteri də sabit cizgilərə malikdir. Ruhun bədənin davamı kimi ətrafın (bədəni for-malaşdıran ətraf mühitin) özü-üçün-varlıq təyinində meydana çıxması xarakter kimi təzahür edir. Başqa sözlə, xarakter Ruhun ətrafla davamlı şərtlənməsinin təzahürüdür. Xarakter iki cür (vasitəli və ya vasitəsiz olmaqla) iki yolla formalaşır:

Vasitəsiz formalaşan xarakter: Vasitəsiz formalaşma konkret bədəndən asılı olmayaraq ətrafın Ruha ən ümumi təsirini özündə əks etdirir. Buradan **Total Xarakter** (eyni ətrafda formalaşmış bütün insan-larda xarakterin ümumi əsası kimi) meydana çıxır. Buradan Kollektiv Xarakterlər yaranır.

Vasitəli formalaşan xarakter: Bu yolla xarakter ətrafın ümumi təsirlərini konkret bədənin daxildə entropiya etməsi ilə meydana çıxır. Məsələn: insanın yaşı, cinsi, antropologiyası, sosial mövqeyi, hətta təhsil səviyyəsi ətrafın vasitəsiz formalaşdırdığı xarakterə təsir edir ki, buradan da **Fərdi Xarakter** aşkarlanır. Amma bütün fərdi xarakterlərin dərin əsasları ümumi xarakterdə kök salıb ki, bu da ayrı-ayrı millətlərdən olan insanların fərdi xarakterləri (hətta fərqləndirici elementlər - cins, yaş, an-tropologiya və s. eyni olsa belə) fərqlilik yaradır.

Beləliklə, xarici şərtlərin və bədənin fərqlilikləri xarakterlərin müxtəlifliyində refleksiya olunur. Ətraf şərtlər nisbi sabit və ölçülü olduğundan, müəyyən sayda insan xarakteri aid etmək olar. Eyni şərtlərdə eyni xarakter formalaşdığından, xarakter qrup keyfiyyəti kimi meydana çıxır. Xarakter ətrafla şərtlənmiş Ruhun davamlı strukturlaşmasıdır. Xarakterin dərin qatlarında coğrafi amillərlə insan biologiyasının ortaq özü-üçün-varlıq təyininə malik olmasını aşkarlamaq

olar. Xarakter - müxtəlif situasiyalarda davranışın ardıcıl və stabil, eyni münasibətlər formasında əqli və psixi təşkilatlanmadır. Xarakter Ruhun zaman-məkan asılılığının təzahürüdür. **Daimi Xarakter** insanın yaşadığı məkanın spesifik şərtlərindən; yaş fərqlilikləri zamanla şərtlənmədən yaranır. Buna görə hər bir xarakter həm də yaşa görə dərəcələnir. **Yaş Xarakteri** ümumi xarakterin fonunda keçicidir. Yaş xarakteri orqanizmdə baş verən bioloji dəyişilmələrə uyğun dəyişilir və orqanizmin bioloji inkişafı başa çatdıqdan sonra daimi xarakter meydana çıxır. Xarakter - fəaliyyətin mahiyyətinə aid olmayan, yalnız onun hərəkətliliyi ilə bağlı olan fərdi xüsusiyyətlərin davamlı kompleksidir.

5. Temperament: Subyektiv Mənin Real Mənlə və Kimlik Məni ilə qarşılıqlı əlaqəsində ekzistensiyası **Temperament** kimi meydana çıxır. Temperament bir tərəfdən xarakter kimi sabit, digər tərəfdən emosiyalar kimi dəyişkən, üçüncü tərəfdən intellekt kimi başa düşüləndir. Ruhun bədənlə şərtlənməsində bədənin bioloji fəallığının Ruha təsiri temperamenti təzahür etdirir. Xüsusi emosional reaksiyalara və əhval-ruhiyyəyə meyllilik temperament enerjililiyinin əlamətidir. Ruhi fəaliyyət müəyyən bioloji enerji sərfi ilə reallaşır. Temperament belə enerji sərfinin ölçülüyü kimi meydana çıxır. Temperament daha çox təbii xüsusiyyətlərlə - fərdi orqanizmin bioloji potensialı ilə bağlıdır.

SUBYEKTİV MƏNİN BƏDƏNİN DİGƏR MƏNLƏRİNƏ MÜNASİBƏTİ

Münasibət sözünün aşağıdakı mənaları vardır:

1. **Bir yerdə götürmək:** Bu mənada, münasibət sözü özündə təcrübədə obyekt-subyekt əlaqəsini ifadə edir. Yəni münasibət obyektlə subyektin bir yerdə təsəvvürə gətirilməsi, onların keçici vəhdətindən həqiqətin dərk edilməsini özündə ifadə edir. Subyektiv Mənin bədənin digər Mənləri ilə münasibətindən bu mənada "nəsə insan" aşkarlanır.

2. **Başqasına keçirmək:** Bu mənada, münasibət sözü mövcud varlığın - obyektin öz həqiqətini varlığın mövcudluğuna - subyektə keçirməsini, refleksiya etməsini özündə ifadə edir. Bu mənada, Subyektiv Mənin bədənin digər Mənləri ilə münasibətindən digər Mənlərin təzahürlərinin Subyektiv Mənlə ekzistensiya edilməsi meydana çıxır.
3. **Özünə çatdırmaq, kiməsə gətirmək:** Bu mənada, münasibət sözü həqiqətin hissi qavrayışla (yəni hisslərin iştirakı ilə) təfəkkürə çatdırılmasını, dərk edən subyektə gətirilməsini ifadə edir. Bu mənada, Subyektiv Mənin bədənin digər Mənləri ilə münasibətindən **Özünüdərk** meydana çıxır.
4. **Ayırmaq, kənarlaşdırmaq, sonraya keçirmək:** Bu mənada münasibət idrak prosesində mövcud varlığın formasının ideyasından, mahiyyətindən ayrılmasını, onları ayrı-ayrılıqda yaddaşa almaqla mövcud varlıqdan kənarlaşdırılmasını, onların əvvəl təşkil etdikləri konkret vəhdəti təsəvvürdə sonradan mücərrəd şəkildə təsəvvürə gətirilməsini özündə ifadə edir. Bu mənada, Subyektiv Mənin bədənin digər Mənləri ilə münasibətindən insandan İnsanlığın (ruhi varlıq kimi) aşkarlanması baş verir.
5. **Rabitə, səbəbi tapmaq, qeyd etmək:** Bu mənada, Subyektiv Mənin bədənin digər Mənləri ilə münasibəti dərk edilən həqiqətin obyekt və subyektlə rabitəsini, idrak prosesində həqiqətin aydınlaşmasının və aşkarlanmasının səbəbinin tapılmasını özündə ifadə edir.
6. **Asılılıqda, rabitədə olmaq, məxsus olmaq:** Bu mənada, Subyektiv Mənin bədənin digər Mənləri ilə münasibəti təfəkkürdə idrak edilən həqiqətin konkret idrak obyektinə məxsus olmasını və onun aşkarlanmasının subyektdən asılılığını özündə ifadə edir.
7. **Daşımaqdan dayanmaq:** Bu mənada münasibət idrak prosesində obyektdən aydınlaşan həqiqətin dəqiq aşkarlanması ilə obyektin naməlumluqdan (özündə subyektə görə qeyri-müəyyən həqiqət

daşımaqdan) dayanmasını bildirir; hansı ki, bununla subyekt obyektə laqeyd qalır və o təkrar idrak prosesinə cəlb olunmur.

Ərəb dilində də münasibət sözü uyğunluq, yarama, layiq olmaq, əlaqə, rabitə, bağlılıq, vəsilə, səbəb, vasitə və s. mənalarına malikdir ki, yuxarıda şərh etdiyimiz mənalarla eynilik təşkil edir. Beləliklə, biz Subyektiv Mənin digər Mənlərə münasibəti dedikdə ən ümumi şəkildə Cisim və Can Məninin özündə daşıdıqları həqiqəti təcrübədə (obyekt-subyekt əlaqəsində) Subyektiv Məndə refleksiya edərək öz həqiqətlərini ona keçirmələrini nəzərdə tutmuş oluruq.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *"İstənilən dövrün və istənilən mədəniyyətin insanı bir və eyni sualla üzləşir: tənhalığı necə dəf etməli, birliyə necə nail olmalı, ayrıca həyatın sərhədlərindən necə çıxmalı və birlik əldə etməli. Sual bir və eynidir, ona görə ki onun kökü bir və eynidir: insanın vəziyyəti və onun mövcud olmasının şərti. Cavab daha çox fərdin özünüdərkindən asılıdır."*

E.Frommun şərhindən göründüyü kimi, "nəsə insan" mövcudluğu fərdin tənhalığı dəf etməsini, birliyə nail olmasını, fərdi həyatın sərhədlərindən çıxıb birlik əldə etməsini tələb edir. İstər cisimlər, istər canlılar zəruri şərtlərə (mövcudluğa) malik olduqlarından, onların problemi öz tənhalıqlarını qorumaq, öz sərhədlərində qalmaq, hər hansı birliyi dəf etməkdən ibarətdir. Fiktiv Ruhun zəruri şərtləri olmadığından, onun nə sərhədi, nə tənhalığı yoxdur; o yalnız bədəni özündə tam refleksiya etdikdə tənhalaşır, bəlli sərhədlərə (ayrıca fərdi həyatın sərhədlərinə) malik olur, nəticədə özünəxas sərhədlərdən və mövcudluqdan məhrum olur. Məhz buna görə də, "nəsə insan" bədənə xas mövcudluq üsulundan xilas olmağa, Ruha xas mövcudluq əldə etməyə cəhd edir. Məhz bu cəhd "nəsə insan" probleminin həlli kimi təzahür edir. "Nəsə insan" problemi Subyektiv Mənin (Fiktiv Ruhun) Real və Kimlik Mənlərinə, yəni bədənə münasibəti ilə həll olunur.

Fiktiv Ruhun insandan təzahür edən (bədəndən və ətrafdan şərtlənmiş) əlamətləri: Fiktiv Ruhlar bədənin mövcud varlığından ikitərəfli məkani ölçülüyündən cinsi, zaman ölçülüyündən yaşa görə şərtlənir və bu şərtlərdən asılı olaraq bir-biri ilə fərqli şəxsi münasibətlərə girirlər. Beləliklə, insanın özünün üçlü mahiyyətinə uyğun üç cür şəxslərarası münasibətdə olur:

1. Özü-üçün-varlıq təyinindən münasibət: Subyektiv Mənin bədənə (Real Mənə) "indi və burada" prinsipi ilə münasibəti özündə Fiktiv Ruhun cəsədə (bədənin cisminə) olan münasibətini ifadə edir.

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

> *" Ekzistensial boşluğun (boşluqla əlaqələnmiş mənanın itirilməsinin dərin hiss edilməsi) səbəbi belədir: heyvanlardan fərqli olaraq instinktlər insana ona nə lazım gəldiyini diktə etmir və dünənki günün adamından fərqli olaraq, ənənələr bugünkü insana diktə etmir ki, ona nə lazımdır. Ona nə lazım olduğunu və nə etməli olduğunu bilmədən, insan özünün nə istəməsi haqqında aydın təsəvvürlərini itirmişdir. Nəticədə o ya başqalarının istədiklərini istəyir (konformizm), ya da başqalarının ondan istədiklərini edir (totalitarizm). Bu iki nəticənin arasında üçüncüsünü - xüsusi nevrotik xəstəlikləri - "noogen nevrozlar"ı qeyd etmək lazımdır. Bu nevrozlar vicdanın çeynənməsindən - ekzistensial frustrasiyadan əmələ gəlir."*

E.Fromm, "İnsanın ruhu" - Şər - xüsusi insan fenomenidir. Bu, insanaqədərki vəziyyətədək reqressivləşmək və xüsusi insani olanları (ağlı, məhəbbəti və azadlığı) məhv etməkdir. Şərdə insan özünün insani varlığının ağırlığından azad olmağa faciəvi cəhd edərkən özü-özünü itirir. Xeyir ondan ibarətdir ki, biz daha çox öz mövcudluğumuza, öz həqiqi mahiyyətimizə yaxınlaşırıq; şər bizim varlığımızla bizim mahiyyətimiz arasında artan yadlıqdan ibarətdir.

Cisim başlanğıcı Passiv Gücdür. Cisimlər sabit zəruri şərtlərdən ibarət olduğundan cisim vəziyyəti "ölü" vəziyyətdir; hansı ki, nə inkişafa, nə tərəqqiyə məruz qalmır. O şey ki inkişaf etmir, o canlılığın əksiliyi; o

şey ki tərəqqi etmir, Fiktiv Ruhun əksiliyi kimi mövcuddur. Buradan da demək olar ki, Cəsəd insan varlığına və mövcudluğuna əksilik kimi çıxış edir. E.Frommun şərhindən göründüyü kimi, "nəsə insan" mövcud insana çevrilmək istiqamətində insanaqədərki ("nəsə insana") vəziyyətə qayıdır; nəticədə Fiktiv Ruha xas ağıl, məhəbbət (eşq) və azadlıq məhv olur. Başqa sözlə, Fiktiv Ruhla bədənin vəhdəti pozulur, "nəsə insan" "burada və indi" prinsipi ilə mövcud olan mövcud insan kimi çıxış edir. Belə vəziyyətdə Fiktiv Ruh yalnız cəsədin təzahürlərini ekzistensiya edir. Məhv edilmiş ağlın əvəzinə dəlilik, məhəbbətin əvəzinə nifrət-kin, azadlığın əvəzinə köləlik meydana çıxır; hansı ki, hər üç təzahürün məcmusu Şər kimi dəyərləndirilir. V.Franklın şərhindən göründüyü kimi Şərin səbəbi "noogen nevrozlar"dır. Noogen nevroz yalnız vicdanın çeynənməsindən meydana çıxmır, həm də Noosferanın yoxsulluğundan və ya fərdin Noosfera ilə mübadilə edə bilməməsindən yaranır. Noogen nevrozlar şizofreniyadan fərqli olaraq sağlam insanlarda ağlın təkmilləşmədən qalması, yəni cəmiyyətin səviyyəsi ilə fərdin səviyyəsi arasındakı kəskin fərqdən yaranır. Şər o insanların fəaliyyətindən meydana çıxır ki, onlar öz cəmiyyətlərindən və öz dövrlərindən aşağı ağıl səviyyəsinə malik olurlar. Noosfera ilə enerji mübadiləsindən qalmış insanda Teosfera və Biosfera ilə enerji mübadiləsi üstünlük təşkil edir. İnsanda Mortido Libidonu üstələyir. Subyektiv Mənin Real Mənə münasibəti cismə xas xarakteristikaları təzahür etdirir. Subyektiv Mənin Real Mənə münasibəti bədənin antropoloji ölçülüyü, insanın fiziki gücü ilə bağlıdır. Hər bir antropoloji ölçülüyün özünəxas təzahür forması vardır; hansı ki, bədənlə Fiktiv Ruhun vəhdətindən müxtəlif psixoloji, xarakteroloji və şüuri özəlliklərə malik olur. Bədənin mücərrəd antropoloji ölçülüyü - köklük, arıqlıq, qısaboyluluq, uzunboyluluq kimi aşkarlanır və eyni yaşda, eyni cinsdən olan fərdlərdə arıqlıq və köklük, eləcə də qısaboyluluq və uzunboyluluq fərqli təzahürlərdə ekzistensiya olunur. Azərbaycanlılarda "Qısa adamın yarısı yerdədir", "Uzun adamın ağlı

topuğunda olar" kimi deyimlər özündə məhz Subyektiv Mənin Real Mənə münasibətini ifadə edir.

2. Mövcud varlıq təyinindən münasibət: Canlılıq iki cür - yaş və cins kimi - dəyişkən zəruri şərtlərdən ibarətdir. Buradan da Subyektiv Mənin Kimlik Məninə münasibətindən iki cür təzahür meydana çıxır: Birinci, yaşla bağlı münasibətlər; ikinci, cinslə bağlı münasibətlər.

a. Yaşla bağlı münasibətlər: Yaş həm bədən, həm də Fiktiv Ruhun fərqliliklərini özündə ifadə edir. Ona görə də, eyni bir Subyektiv Mən ayrı-ayrı yaş dövrlərində eyni bir bədəndən fərqli qabiliyyətləri ekzistensiya edir. Eləcə də eyni bədənin təzahürləri eyni Fiktiv Ruh tərəfindən fərqli qaydada ekzistensiya edilir. Məsələn: fərdin uşaqlıqda təzahür etməyən hansısa qabiliyyəti müəyyən yaş dövründə təzahür edir. Eləcə də fərdin cinsi kimliyi müəyyən yaş dövründən sonra Kişilik və Qadınlıq kimi ekzistensiya edir. Fərdin yaşla bağlı özü-özü ilə bədən fərqliliyi Fiktiv Ruh tərəfindən uşaqlıq, gənclik, qocalıq, ahıllıq kimi ekzistensiya etdirilir; hansı ki, başqalarının eyni bir fərdə müxtəlif vaxtlarda fərqli münasibəti məhz yaş fərqliliyini özündə refleksiya edir.

b. Cinslə bağlı münasibət: Subyektiv Mənin Kimlik Məninə ikinci münasibəti bədənin cinsi mənsubiyyəti ilə bağlıdır. Əks cinslər bir-birinə, yaşa görə özü-özü ilə fərqlilik təşkil edir. Yuxarıda qeyd etdik ki, canlılıq dəyişən zəruri şərtlərdən ibarətdir. Canlılarda şərtlərin dəyişilməsi iki cürdür: Birincisi, şərtlərin dəyişkənliyi birdəfəlik olub, cinslərin bir-birindən fərqliliyini təzahür etdirir. İkincisi, şərtlərin dəyişkənliyi sürəkli olub, fərdin özü-özünə fərqliliyini təzahür etdirir. Canlıların mövcud varlığı iki əks cinsdə eyni bir xalis varlıq təyininin iki fərqli özü-üçün-varlıq təyini ilə daxili vəhdət təşkil etməsi ilə meydana çıxır. Canlılar mövcud varlıqdan mahiyyətə görə (növ uyğunluğuna görə) bir-biri ilə eyniyyət, amma cinsi mənsubiyyətlərinə görə fərqlilik təşkil edirlər. Canlılar özü-üçün-varlıq təyininə laqeyd qaldığından (çünki xalis formadan heç bir təsir yaranmır, buna görə də canlılar cisimlərə heç bir cavab

vermirlər) bir qayda olaraq əks cinslər bir-birinə yalnız növ eyniliyinə görə əlaqələnirlər. Yalnız müəyyən cütləşmə dönəmlərində orqanizmdə müxtəlif hormonların ifrazatının artması ilə hər iki cinsdə daxili mahiyyətin əks istiqamətli daxili entropiyası baş verir. Nəticədə özü-üçün-varlıq təyini ilə eyni növ müxtəlif formalı vəhdət təşkil edir; buradan fəsli olaraq dişilik və erkəklik aktuallaşır. Yəni cinslər bir-birinin cinsi fərqliliyinə reaksiya verməyə başlayırlar. Nəticədə hər iki cinsdə əks cinslə yenidən eyniləşmək meyli yaranır. Bu meyl onları bir-birinin özü-üçün-varlıq təyininin fərqliliyini neytrallaşdırmağa, kənarlaşdırmağa sövq edir. Nəticədə əks cinslər bir-birinin daxili sferasına daxil olmaqla eyni bir varlığa çevrilməyə cəhd edirlər, hansı ki, **Cütləşmə** kimi təzahür edir. Cütləşmə - bir xalis varlığın eyni anda, keçici olaraq, iki fərqli özü-üçün-varlıq təyini ilə vəhdət təşkil etməsindən ibarətdir. Kosmosda bir mahiyyət eyni anda yalnız bir forma ilə vəhdət təşkil etdiyindən, cütləşmə ani kosmik nizamın pozulması kimi təzahür edir; hansı ki, daimi cütləşmə vəziyyətində mövcud varlıq mövcud olmadan məhrum olur. Psixologiyada koitusun ölüm kimi şərh olunması da məhz bununla bağlıdır. Koitus zamanı hər iki bədənin materiyasının bir hissəsi (erkəklərdə sperma, dişilərdə yumurta - eyakulyat) onlardan ayrılır (eyakulyat özündə əvvəlki bədənlərin ölməsini təqdim edir) və yeni bir bədənin qurulmasına başlayır. Cütləşmə nəticəsində eyni növdən olan cinslərarası fərqlilik aradan qaldırılır, hər iki cinsdən kənarlaşdırılır və cinslər öz fərqliliklərini bir-birinə keçirərək ondan azad olurlar. Başqa sözlə, cütləşmənin nəticəsində hər iki cinsin bədənindəki fərqli hormonlar bir-birini neytrallaşdırır və onlar yenidən əvvəlki mahiyyətdə eynilikərinə qayıdır və yenidən bir-birinin özü-üçün-varlıq təyininə laqeyd qalır.

"Nəsə insan"da Ruh bundan fərqli təzahürlər üzə çıxarır. Ruh bədənin hormonlarının bioloji növ mahiyyətinə təsirindən asılı olmayaraq sürəkli olaraq əks cinsin fərqliliyini özündə refleksiya edir və buna görə

də bədəni sürəkli olaraq əks cinsə meylləndirərək, onun özü-üçün-varlıq təyinini onunla eyniyyət təşkil edən növ vəhdətinə uyğunlaşdırmaq, yəni özü ilə eyni özü-üçün-varlıq təyini almağa sövq etdirir. Buradan da cinsi əlaqədə hər bir cins sanki özünün özü-üçün-varlıq təyinini özündən uzaqlaşdırır, əks cinsin analoji təyini ilə vəhdət təşkil edir, nəticədə xarici totallıq yaşantısı yaranır. Bununla da insan fəslilikdən asılı olmayan seksuallığa - mütəmadi daxili istəkdən doğan cinsi əlaqəyə meyl edir ki, bunun əsasında bədənlə Ruhun yaradıcı enerjisinin müxtəlif kombinasiyalarda əlaqələnməsindən Libidonun şəkildəyişmələri (nəsilvermək kimi daxili yaradıcılıq, nəsli qoruma və mədəniyyət kimi xarici yaradıcılıq) yaranır. Eyni bir cinsin özü-üçün-varlıq və mövcud varlıq təyinini Ruhun refleksiya etməsi bioloji cinsliyini sosiallaşdırır. Nəticədə özünü erkəkliyin özü-üçün-varlıq təyini ilə eyniləşdirməsindən (Ruhun həm də formaya bağlanmasından) Kişilik, dişinin öz formasına bağlılığından Qadınlıq meydana çıxır. "Nəsə insan"da bəzən Ruh əks cinsin özü-üçün-varlıq təyinini özündə refleksiya edərək onunla daxili əlaqə qurur. Nəticədə erkəkdə Qadınlıq, dişidə Kişilik ruhi totallığı yaranır; hansı ki, homoseksuallıq və lesbianlıq kimi meydana çıxır.

Subyektiv Mənin Kimlik Məni ilə münasibəti - Eşqlə Libidonun vəhdəti bədəndən **Məhəbbət** kimi ekspressiya edilir. E.Fromm məhəbbəti “insan mövcudluğu probleminin həlli” kimi təyin edir. Buradan aydın olur ki, məhəbbətsiz "nəsə insan" mövcud olmur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Məhəbbət - eşqlə libidonun vəhdətində, "nəsə insan"ın mövcudluğunun şərtlərinin məcmusundan ibarətdir.

Məhəbbətdə libido ilə eşqin nisbətindən müxtəlif məhəbbət formaları meydana çıxır. Məhəbbətdə libido üstünlük təşkil etdikcə daha çox canlılığa xas təzahürlər, eşq üstünlük təşkil etdikdə ruhi təzahürlər aparıcılıq əldə edir. Məhəbbətlə onun formasından asılı olaraq ən müxtəlif formal ruhi varlıqlar meydana çıxır.

Haşiyə: R.Mey, “Məhəbbət və iradə”

> *“Məhəbbət təəccüblü şeydir; hansı ki, bəzi zamanlar həyatın çətinliklərini dəf etməkdə bizə kömək etmişdir, bizim günlərdə özü problem olmuşdur. Yaşam problemlərinin həlli vasitəsi kimi məhəbbətə elə böyük əhəmiyyət verilir ki, insanın özünəhörməti ona malik olmasından asılı olur. Həqiqətən, məhəbbət elə daxili ziddiyyətli təzahür olmuşdur ki, ailə həyatının tədqiqatçılarından bəziləri belə nəticəyə gəlmişlər ki, ”məhəbbət” ailənin daha güclü üzvlərinə zəiflərin tabe olma üsuludur.”*

Qərbdə ənənəvi olaraq dörd tip məhəbbət haqda danışırlar:

1. Seks (və ya libido, və ya ehtiras adlandırdığımız).

2. Eros - yaradıcılığa və ya istehsala cəhd kimi məhəbbət (qədim yunanların fikrinə görə ali varlıq forması və insanlararası münasibət).

3. Filiya - və ya dostluq, qardaşlıq məhəbbəti.

4. Aqape - başqa insanın xoşbəxtliyinə qayğı; hansı ki, prototipi insana İlahi məhəbbətdir. İstənilən insanın həqiqi məhəbbət hissi müxtəlif nisbətlərdə məhəbbətin dörd tipinin qarışığından ibarətdir.

D.f.Qildebrand, “Məhəbbətin metafizikası” - Əgər biz mahiyyətini başa düşmək üçün məhəbbətin şəxsi aktından çıxış ediriksə, onda biz metafizik səviyyədən xalis “psixoloji” səviyyəyə düşürük. Düşünürlər ki, bununla biz immanentə qapanırıq, xalis subyektə cəmləşirik, özümüzü obyektiv, elementar reallıqlar aləmindən təcrid edirik. Bu, tamamilə əsassız mühakimədir. Amma şəxsi varlıq istənilən impersonal varlıqdan iyerarxik olaraq alidir və əgər insan şəxsi mövcudluğa lazımi xüsusi xüsusiyyət verirsə, onda o daha dərin "elə-belə" varlığa və metafizikaya nüfuz edir. Əgər biz insan həyatında mühüm rol oynayan müstəqil şəxsi prafenomendən çıxış etməsək, məhəbbətin mahiyyətini anlamaq yolu əvvəlcədən bağlanacaq. Şəxsi mənəvi aktlara təcrid olunmuş baxıldıqda - onların mənası və dəyəri onların özündə axtarıldıqda yanılırıq. Düşünürlər ki, məhəbbət başqa insanla vəhdətdən çıxarıla bilər. Düşünürlər hissə tamı sevdiyindən onunla bağlıdır. Şəxslərarası həqiqi və

gerçək vəhdət yalnız qarşılıqlı məhəbbətə görə baş verir və istənilən məhəbbət istənilən insanla vəhdətə darıxmaq elementi saxlayır. Şəxsiyyətlərin vəhdəti məhəbbətin mənbəyi deyil, onun səbəbi deyil, bir qayda olaraq məhəbbətin nəticəsidir, onun nailiyyətidir.

E.Fromm, "İnsanın ruhu"-Problemin ("nəsə insan" probleminin - s.c.) tam həlli - şəxslərarası birliyə nail olmaq, məhəbbətdə başqa insanla qovuşmaqdır. Məhəbbət bu yaradıcı şəkildə başqa varlığa keçməkdir; hansı ki, mənim idrak yanğım birləşmə ilə sönür. Qovuşmada mən səni, özümü, hər kəsi dərk edirəm, amma mən heç nə "bilmirəm". Mən yalnız insana xas üsulla bütün canlıların sirrini dərk edirəm - düşüncə ilə yox, bu birliyi yaşamaqla. Məhəbbət hər şeydən öncə hansısa konkret insana münasibətdir. Əsil həqiqətdə bir adamı sevirəmsə, onda mən bütün insanları, bütün dünyanı, həyatı sevirəm.

Biz burada, bir tərəfdən amerikan psixoloqları R.Mey və E.Frommdan, digər tərəfdən alman filosofu D.f.Qildebranddan gətirdiyimiz sitatlarla məhəbbətin metafizikasını aydınlaşdırmaq istəyirik. Psixologiya elmi yalnız cisimlərin və canın, yəni bədənin təsirinə məruz qalmış, onlarla şərtlənmiş Ruhun təzahürlərini öyrənir. Buna görə də psixoloji anlayışlar (o cümlədən məhəbbət anlayışı) özündə xalis ruhi fəaliyyətin zəruri şərtlərini ifadə etmir. Bədənlə birlikdə təzahür edən Fiktiv Ruh bir tərəfdən "həyatın çətinliklərini dəf etməkdə" insana yardımçı olur, digər tərəfdən Ruhun faktuallaşma cəhdində bədənin təsirindən azad olmağa cəhd etdikdə problem yaradır. Əslində yaşam problemlərinin həllində bədən - tələb edən, tabe olan və vasitə kimi; Ruh - idarə edən, yaradıcı, təminatçı və məqsəd kimi çıxış edir. Buna görə də insan nə qədər yaşam problemlərini həll etməyə qadir olursa, bir o qədər öz daxilindəki yaradıcı və idarəedici gücü aşkarlayır, bu da **Özünəinam** kimi qavranılır. Ruhun idarəediciliyi ailə münasibətlərində və daha sonra (prototipi ailə olan) digər sosial təşkilatlarda tabeçiliyin şərtlərini özündə təqdim edir.

Məhəbbətin müxtəlif formaları həqiqi və mütləq məhəbbətin dərəcələnməsindən meydana çıxdığından, hər şeydən öncə mütləq məhəbbətin nədən ibarət olduğunu müəyyənləşdirmək lazım gəlir. Məhəbbət subyekt və obyekt arasında bağlılıq kimi təzahür etdiyindən, biz məhəbbəti ya subyektdən, ya obyektdən aşkarlaya bilərik. Biz subyektivdən aşkarlanan Mütləq Məhəbbəti yalnız Subyektiv Mənə xas məhəbbət kimi təyin edirik. Subyektiv Mən hamıda olan ən ümumi Mən olduğundan, mütləq məhəbbət də hamıdan aşkarlanan məhəbbət ola bilər.

Hamıdan aşkarlanan məhəbbət iki növdür:

1. Özünəməhəbbət: Hər bir mövcudluq "özü"nə malik olduğundan, özünəməhəbbət Real və Kimlik Mənlərindən asılı olmadan hamıdan və hər şeydən aşkarlana bilər. Buna görə də özünə məhəbbət sonuncu varlıqlardan da aşkarlandığından (sonuncu varlıq emanasiyanın başa çatmasını özündə təqdim etdiyindən), özünəməhəbbət mütləq məhəbbətin ən aşağı keyfiyyətli təzahürü kimi təyin etmək olar. Özünəməhəbbət **Eqoizm** kimi təzahür edir; hansı ki, özü Eqonu təşkil edir. Biz hər bir ayrıca mövcudluğun başlanğıc səbəbini Eqo kimi dəyərləndirə bilərik. Bu mənada özünə məhəbbət həm də cisimlərdə və canlı fərdlərdə mövcuddur; sadəcə cisimlərdə ekspressiya və ekzistensiya, canlılarda isə ekzistensiya olmadığından, onlardan qavranılan məhəbbəti insan ağlı ilə aşkarlamaq mümkün deyil. Buna görə də belə məhəbbət varlığın bütün formalarına xas olduğundan mütləqdir. İnsana xas məhəbbət növləri də öz növbəsində bütün insanlara xas deyil. Məsələn: Ana məhəbbəti yalnız analardan aşkarlanır, atalara belə məhəbbət xas deyil; qardaşlıq məhəbbəti də eləcə bacılara xas deyil. Ər-arvad məhəbbəti bir-birindən tam fərqli iki növ məhəbbətdən ibarətdir. Övlad məhəbbəti valideynlərə, valideyn məhəbbəti övladlara xas deyil və s.

2. Məhəbbətin obyektindən aşkarlanan mütləq məhəbbət: Bütün subyektlərin bir və eyni varlığa bağlılığından aşkarlanan bağlılıq mütləq məhəbbəti özündə təqdim edir. Bütün varlıqların başlanğıcı kimi Allah

çıxış etdiyindən, bütün varlıqlar Allahla reflektiv bağlanır. Buradan da bütün varlıqlarda olan ən ali "məhəbbət" özündə **Allaha Məhəbbət** kimi təsəvvür oluna bilər. Allahın həqiqəti emanasiyanın başlanğıcını təşkil etdiyindən mütləqdir; buna görə də Allaha bağlılıq özündə ali mütləqliyi təcəssüm etdirir. Mütləq məhəbbətdən *intentio unionis* - **Daxili Birlik** yaranır. Ali mütləq məhəbbətdən Varlığın daxili birliyi (Mahiyyətin varlığı), ibtidai mütləq məhəbbətdən Subyektin daxili birliyi (Mümkünlüyün varlığı) təzahür edir. Məhəbbət *intentio unionis*-un - daxili birliyin, Formal Ruhun totallığının yaranmasının üsuludur. Sonuncu, mütləq *intentio unionis*-u biz Allah kimi qavrayırıq; hansı ki, bütün varlıqların mahiyyətinin ilkin, tək, vahid başlanğıcıdır. Ona görə də istənilən məhəbbət Allaha qovuşmaq istiqamətində cəhdin müxtəlif mərhələlərindən ibarətdir. Məhəbbətin hər bir mərhələsi özündə xüsusi məhəbbət forması kimi meydana çıxır.

Haşiyə: D.f.Qildebrand, "Metafizika kommunikasiya"

> *"Məhəbbətin formaları üç momentlə bağlıdır: Birincisi, öz gücü ilə; ikincisi, məhəbbətin keyfiyyəti və dərinliyi ilə; üçüncüsü, kateqoriya fərqlilikləri ilə. Aşağıdakı məhəbbət formaları vardır: Allaha məhəbbət, valideynin öz uşağına; öz uşağın öz valideyninə, bacı-qardaş, ləyaqətli hər hansı bir adama məhəbbət, dostluq, kəbin, müqəddəs tematik, yaxın adamlara, fikirlərin uyğun obrazlarına məhəbbət. İstənilən məhəbbət üçün xarakter olan (hörmət yox, əgər məhəbbətdirsə) hər şeydən öncə intentio unionis və məhəbbəti başqa dəyərlərdən fərqləndirən özünü hədiyyə etməkdir."*

Məhəbbətin növlərini D.f.Qildebrandın təsnifatına uyğun təhlil etsək, onda iki qrup məhəbbət aşkarlamaq olar:

A. İnkorporasiya ilə müşahidə olunan məhəbbət: İnkorporasiya fərdlərin bir araya gəlməsindən ibarətdir; hansı ki, belə məhəbbətdə birləşmək - birincili, birlik - ikincilidir. Bu növ məhəbbətdə Eşq seksuallığın əsasında ruhi bağlılıq yaradır. Bura seksual məhəbbət, valideyn-

in övlada, övladın valideynə məhəbbəti, bacı-qardaşın qarşılıqlı məhəbbəti, dostluq məhəbbəti, yaxın adama məhəbbət və s. aiddir; hansı ki, real təmasla birləşmə əsasında ruhi birliyin yaranmasına gətirib çıxarır.

Dostluq məhəbbəti bioloji əsasdan tam azad məhəbbət forması kimi meydana çıxır. Biz dostluq məhəbbətini ümumi şəkildə Ruhi Məhəbbət - **Filiya** adlandırırıq. Filiya - bədənin təsirinin tam aradan qaldırılması ilə meydana çıxır. Xalis məhəbbətin ekzistensiyasından daxili və xarici mücərrəd faktiki Ruh meydana çıxır. Filiya fərdlərarası münasibəti təmin edir; hansı ki, bir fərdi Ruh (daxili çoxluq kimi) başqa xarici fərdi Ruhla (tək kimi) vəhdət təşkil edərək Faktiki Ruh yaradır. Daxili mücərrəd Ruh başqa fərdi xalis məhəbbət hissi ilə öz daxilində mücərrəd şəkildə yaratmaqla, təsəvvürdə ona mücərrəd mövcudluq verməyi, onu öz bədənindən ayrılıqda və öz daxilində saxlamağı ifadə edir; hansı ki, tək mücərrəd faktiki ruh - dost, qardaş və s. formalarda meydana çıxır. Dost və qardaş - başqa fərdin mücərrəd şəkildə (fərdi faktiki ruh kimi) fərdin daxilində mövcudluğudur. Məhz buna görə, Pifaqorun "Dost - ikinci Mən deməkdir" fikri özündə daha çox həqiqəti ifadə edir. İkinci Mən birinci Məndən, fərdin ruhi fəaliyyətində bilavasitə iştirak etməməsi, yəni passiv seyrici mövqe tutması ilə fərqlənir. Buna görə də, fərd hər hansı bir fəaliyyət göstərərkən ikinci Mən sanki nəzarətçi kimi çıxış edir. Buradan da daxili fərdi ruhi fakt özündə vicdana xas funksiya daşıyır. Əgər vicdan yaranışdan İlahi iradə ilə ruhi fəaliyyətə verilmiş zəruri şərtlərin məcmusunu təşkil edirsə, dost vicdanla əldə edilmiş ikincili ruhi fəaliyyətin zəruri şərtlərini özündə təqdim edir. Buradan aşağıdakı pnevmatoloji ideyanı aşkarlamaq olar:

Filiya - daxili tək mücərrəd ruhi faktın yaradılmasının şərtlərinin məcmusundan ibarətdir.

Filiyanın tam şəxsizləşdirilməsi ilə məhəbbətin **Aqape** forması yaranır. Aqape - daxili çoxluğa malik fərdi ruhların ekzistensiyası

nəticəsində xarici mücərrəd ümumi ruhun faktuallaşmasının şərtlərindən; başqa sözlə, mövcud insanın daxili çoxluğunun təzahürü kimi fərdlərin universal xarakteristikası əsasında yaradılan Ümumi Faktiki Ruhun şərtlərinin məcmusundan ibarətdir. Filiya konkret fərdin orijinal xarakteristikasına, Aqape universal xarakteristikaya əsaslanır. Məhz bu şərtlərə görə, fərdi ruhlar xarici mücərrəd ümumi ruhi faktları təşkil edirlər. Əgər Filiyada xarici faktiki ruh daxildə faktuallaşdırılırsa, Aqapedə əksinə fərdi ruh özündən kənar, ümumi mücərrəd faktiki ruhda faktuallaşdırılır. Özündən xaricdə, ümumi faktiki ruhda faktuallaşma mücərrəd olduğundan, yalnız daxildə təsəvvürə gətirilir. Nəticədə xarici mücərrəd faktiki ruh daxildən aşkarlanan xarici ruhi fakt kimi qavranılır. Belə faktlara ailə, dövlət və s. kimi sosial təşkilatlar aiddir. Xarici mücərrəd total tək ümumi faktiki ruhun yaranması ilə insan hissləri, o cümlədən məhəbbət sıradan çıxır. Bu, istənilən prafenomenlə ruhi faktın yaranması prosesinə uyğundur. Məsələn: dostlar arasında mehribançılıq, qarşılıqlı anlaşma və yardımlaşma, bir-birini anlama aradan qalxdıqda, onların hər birinin daxilində saxladığı ikinci Mən - dost ruhu sıxışdırılır və sonda fərdi ruhdan çıxarılır, nəticədə dostluq məhv olur. Və ya "gərginliyin götürülməsi yaradıcı erosu sıxışdıranda sivilizasiya tənəzzülə uğrayır". Beləliklə, total tək xarici ruhi faktın əmələ gəlməsi ilə fərdlərdəki insanlıq hissləri tamamilə sönür və insan öz heyvani təbiətində mövcudluğunu davam etdirir. Ruhi faktların ölümü - məhv olması özündə həmin faktların nisbi ruhi fakt olduğunu göstərir; hansı ki, həqiqi ruhi fakt konkret obyektiv mövcudluq olmadığından ölmür və buna görə də əbədi olur. Biz Aqapenin son məqsədini əbədi mövcudluğa cəhd kimi təyin edə bilərik. Beləliklə, xalis məhəbbətin son məqsədi əbədilik olduğundan, mövcudluğun varlığı kimi faniliklə, yəni ölümlə əksilik təşkil edir. Məhəbbətin ölümə əksiliyi Ruhun Cismə əksiliyinin refleksiyasıdır. İtalyan müəlliflər məhəbbəti və ölümü elə belə də adlandırırlar: məhəbbət - *amore*, ölüm - *morte*. Buradan da belə nəticəyə gəlmək olur ki, insan nə qədər Aqapeyə

malik olursa, bir o qədər ölümə qalib gəlmiş olur. ”Ölməz insan” anlayışı o adamlar haqqında deyilir ki, onlar bütün insanlığa - həm keçmişdə, həm indidə, həm də gələcəkdə yaşayan insanlarla məhəbbətlə əlaqəyə girirlər. Faktiki Ruhun materiyası ağıldan ibarət olduğundan, istənilən Faktiki Ruh özündə müəyyən qədər ağıldan ibarət olur. Buna görə də “hər bir həqiqi məhəbbət təcrübəsi müdrikliklə fərqlənir”. Aqape müdrikliyin sonuna - tam ağıldan ibarət ruhi faktın yaranmasına istiqamətlənir. Tam Ağıl - özündə İlahi Ağlı refleksiya etdiyindən, Aqape - Allaha Məhəbbət kimi meydana çıxır.

Buradan aşağıdakı pnevmatoloji ideyanı aşkarlamaq olar:

Aqape - daxildə təsəvvürə gətirilən Allahı özündə refleksiya edən, mücərrəd xarici ümumi total tək ruhi faktın yaradılmasının şərtlərinin məcmusundan ibarətdir.

B. Dəyərlərə baxışla yaranan məhəbbət: Dəyər ən ümumi mənada başqa insana hərəkəti özündə təqdim edən istiqamətlənmənin şərtlərindən ibarətdir. Fiktiv Ruh məhəbbətlə ekspressiya etdikdən sonra xaricdə hisslərdən ekzistensiya edir, yenidən metafizik azadlıq əldə edir. Bu zaman eyni vaxtda sonsuz sayda çoxlu obyektə bağlanmaq imkanı qazanır. Ruhun bu cür ekzistensiyası onun sonsuz sayda mövcud varlığa yayılmasına səbəb olur ki, bu da Ruhun tək varlığı ilə ziddiyyət təşkil edir. Bunun qarşısı dəyərlərə bağlılığın şərtləri ilə alınır; hansı ki, ekzistensiya etmiş Ruh bədəndən xaricdə metafizik azadlıqdan məhrum olur və yalnız xüsusi mövcudluqlara bağlanır. Ruhun hansı mövcudluğa bağlanmasının zərurətinin şərtlərinin məcmusu **Dəyər** kimi meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Mənəvi Dəyər - ekzistensiya etmiş Fiktiv Ruhların bədəndənkənar eyni bir obyektdə bir-biri ilə bağlanmasının şərtlərinin məcmusundan ibarətdir.

Mənəvi dəyərə məhəbbət birləşmə tələb etmədən intensional təmasla ruhi birlik yaradan formalar aiddir. Bu qrupa aid edilən məhəbbət forma-

ları dəyər obyektlərinə (sevilən fərd və ya arzulanan obyekt) bağlılıq, həmin obyektlərin özündə fərdin fizikadan metafizikaya transendensiya etməsi ilə bağlı şərtləri təqdim etməsindən asılıdır. Yəni belə obyektlər fərdə özündən çıxıb sevilən obyektdə başqa fərdlərlə birləşmək imkanı verir; hansı ki, bu cür transendensiya şərtlərinin saxlanması ilə xarici obyektlə subyekt arasında vəhdət yaranır və Ruhun Formal Varlığı Fakti-ki Varlığı ilə vəhdət təşkil edir. Dəyər obyektlərinin özündə transendensiya şərtlərini saxlaması ilə fərd belə obyektlərin dəyərindən Fövqəldəyərlərə - həmin dəyərlərin yaradılmasının şərtlərinə, yəni Formal Ruhun mahiyyətinə çatır. Hansı ki, dəyərlərə bağlılıqla *intentio unionis* (dəyərlərə qoşulmaq yolu ilə mənəvi yüksəlişin artırılmasına cəhd) yaranır.

Dəyərlərə baxışla yaranan məhəbbətdə eşq seksuallığın iştirakı olmadan birlik yaradır, buna görə də eşqin mahiyyəti yalnız bu növ məhəbbətdən dəqiq aydınlaşır. Bura müqəddəs tematik məhəbbət, fikirlərin uyğun obrazlarına məhəbbət və nəhayət Allaha məhəbbət aiddir. Müqəddəs tematik məhəbbətə dindaşlara olan məhəbbət; fikirlərin uyğun obrazlarına məhəbbətə xalq, vətən məhəbbətini aid etmək olar. Dəyərlərə baxışla məhəbbət, dəyərlərin kateqoriyalarından asılı olaraq ruhi birliyin yaranmasını şərtləndirir. Birinci qrup məhəbbət bilavasitə bədənlə Ruhun iştirakı ilə yaranan başlanğıc məhəbbət olub, aşağı keyfiyyətli məhəbbətdir; hansı ki, həm təbii, həm metafizik təbiətə malikdir. İkinci qrup ali məhəbbət forması olub, yalnız Formal Ruhun iştirakı ilə meydana çıxır və yalnız metafizik təbiətə malikdir. Ali məhəbbət forması başlanğıc məhəbbət formasından sonra və onun əsasında yarandığından, belə məhəbbəti olmayan insanlarda Ali məhəbbət formaları meydana çıxmır. Qurani-Kərimdə qohumlarla bağların qoparılmasının böyük günah olması ilə bağlı ayə də məhz özündə bunu ifadə edir; hansı ki, qohumlara məhəbbəti olmayan insanların Allaha da məhəbbəti ola bilməz.

Dəyərlərə bağlılığın iki ümumi formasını ayırd etmək olar:

1. **Bilavasitə Allahın yaratdığı dəyərlərə bağlılıq:** Kvalitativ dəyərlərə və ya təbii dəyərlərə bağlılıq; Allahın təbiətdə yaratdığı bütün şeylərdəki vəhyi və ya onun abstrakt ekvivalenti kimi xalqların ruhundakı dəyərlərə.
2. **Bilavasitə insanın özünün yaratdığı bəşəri dəyərlərə bağlılıq:** Hansı ki, insan zehninin və qabiliyyətinin nəticəsində mövcud olan bütün şeylərdən aşkarlanır. Başqa sözlə, Formal Ruhun təsirinə məruz qalan və özündə onun izini saxlayan şeylərə - "Ruhun ölü kristallarına" (maddi mədəniyyət nümunələrinə) və onların abstrakt ekvivalentinə - tematik dəyərlərə bağlılıq.

D.f.Qildebrand bu mənada məhəbbəti **Dəyər cavabı** adlandırır. Əgər identifikasiyada Fiktiv Ruhlar eyniliklə Ruhun Formal Varlığını təşkil edirsə, dəyərlərə bağlılıqda Ruhun Faktiki Varlığını təşkil edir. Beləliklə, məhəbbət həm identifikasiya, həm dəyərlərə bağlılıq kimi Ruhun Mövcud Varlığını təşkil etmənin şərtləri kimi çıxış edir. Dəyərlə bağlılıq identifikasiyaya oxşardır.

Haşiyə: D.f.Qildebrand, "Məhəbbətin metafizikası"

> *" Sevilən, sevən üçün yalnız ləyaqətin daşıyıcısı deyil, yalnız həqiqi dəyərlərin sevindirici mücəssəməsi deyil; o, müvafiq dəyərləri yalnız ona xas obraza xas təcəssüm etdirir. Məhəbbət - dəyər cavabıdır; məhəbbətə səbəb olmaq üçün (təəccübdən, sevincdən, vəcdəgəlmədən fərqli olaraq) zəruridir ki, birincisi, bütün insanlığa şəfəq verən müəyyən növ dəyər mövcud olsun; ikincisi, bu dəyərlər tamamilə xüsusi formada onda təcəssüm etsin. Sevilən adama məhəbbətin xeyirli təsiri, başqa adamı sevməyimizin bizdə yeni keyfiyyətlərin çiçəklənməsinə səbəb olması, sevilənin fərdiliyinin gözəlliyindən alovlanmasını göstərir."*

D.f.Qildebrandın fikirləri ilə Freydin identifikasiya ilə bağlı fikirlərini uzlaşdırdıqda məlum olur ki, dəyərlərə bağlılıqla identifikasiya da eyni proses kimi baş verir. Əgər identifikasiyada fərd öz daxili çoxluğunun təkliyindən başqa şəxsin nümunəsində xaricdə başqaları ilə

bağlanaraq Ruhun Formal Varlığını təşkil edirsə, eləcə də dəyərlərə məhəbbətdə, dəyərləri özünə xas obrazda özündə təcəssüm etdirən və bütün insanlığa şəfəq saçan şəxsin və ya əsərin nümunəsində konkret dəyərlərə bağlanaraq Ruhun Faktiki Varlığını təşkil edir; hansı ki, hər ikisinin vəhdətindən Ruhun Mövcud Varlığı aşkarlanır. Məhəbbətin identifikasiya və dəyərlərə bağlılıq kimi ikili çıxış etməsinə görə Ruhun müəyyən səviyyədəki Formal Varlığı ilə ona uyğun Faktiki Varlığı vəhdətə gətirilir. Hər bir dövrün özünə xas identifikasiyası və buna uyğun dəyərlərə bağlılığı meydana çıxır. Dövrlər dəyişdikcə buna uyğun Ruhun varlıq təyinlərinin dəyişməsindən Ruhun mövcud varlığı inkişaf edir. Buna görə də məhəbbət ya insanlararası əlaqələrdən, ya da insanla ətraf predmetlər (təbii və süni yaradılanlararası) əlaqədən aşkarlanır.

Formal Ruhun Faktiki Varlığı fərdi ruhlardan kənarda - **Özündənkənarşey** kimi yaranır. Fərdi ruhlar daxili çoxluğa malik olduğundan və digər fərdi ruhlarla empatiya etdiyindən, fərdi ruhi çoxluq özündənkənar digər fərdi ruhların çoxluğu ilə empatiya edərkən Xarici Tək Varlıq kimi çıxış edir və bütün fərdi ruhların ekzistensiyasından tək bir ruhi fakt yaranır. Formal Ruh ümumbəşəri dəyərlərə baxışla bütün insanların intensional təması ilə öz mövcud varlığına keçir ki, nəticədə təbii mövcud varlıqla Ruhun mövcud varlığı eyni bir Kosmosda bir-birinə özündə ziddiyyət saxlayan əksilik kimi meydana çıxır. Hansı ki, materiya ilə Ruhun qarşılıqlı təsirindən Kosmosdan Metafizikaya qayıdış - **Qiyamət** baş verir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Qiyamət - materiyanın özündə ziddiyyət saxlayan əksiliyi kimi Formal Ruhla qarşılıqlı mübarizəsindən təfəkkürdə idrak olunan yaranışın son prosesinin - total anniqulyasiyanın şərtlərinin məcmusundan ibarətdir.

Haşiyə: Aleksandr Louen, “Məhəbbət və orqazm”

“Ali şüurun məqsədi - obyektiv qanunilikdir. Təbiət üzərində ağalıq çox vaxt onun dağılması ilə başa çatır.”

A.Louenin fikirlərindəki "Ali şüur" və "Obyektiv qanunilik" özündə hansı mənanı verir? Ali Şüur bütün insanlığın şüurunun məcmusu kimi təyin etmək olar; hansı ki, Kosmosun bütün qanunlarını ən dəqiq şəkildə özündə refleksiya edərək, onun obyektiv qanuniliyinə çatır. Həmin qanunilik əsasında necə ki ayrı-ayrı mövcudluqlar dağıdılıb yeni süni mövcudluqlar yaradılır, eləcə də Ali Şüur obyektiv qanunilik əsasında Kosmosu dağıdır; hansı ki, biz bunu Qiyamət kimi qavrayırıq. Obyektiv qanunilik özündə Allahın Kosmosu yaratmasının mütləq həqiqətindən ibarətdir. Buradan da, İlahi yaranışın sirrini kəşf edib və mənimsəyən insan həm Kosmosu, həm də öz Ruhunu gizlilikdən çıxarır və eyni bir ilk başlanğıcdan yaranan Kosmosla Formal Ruh əksiliklər kimi bir-biri ilə birləşərək öz ziddiyyətlərini dəf edir və yenidən öz başlanğıclarına qayıdırlar. Buradan da Eşq həm də Formal Ruhun metafizikaya bağlılığının (metafizik qanunlara tabe olmağın) şərtlərinin məcmusu kimi meydana çıxır; hansı ki, ölçüsüzlüyünə görə təbii təzahürlərdən fərqlənir.

Metafizik qanunlara tabe olan Eşq bədən hissləri ilə birlikdə ekspressiya olunduqda, yəni bədəndən kənara başqa fərdlərə və ya xarici obyektlərə çıxarıldıqda, artıq təbiətin qanunlarına uyğun təzahür edir. Eşqin ekspressiyasının qanunauyğunluqları aşağıdakılardan ibarətdir:

1. **Eyni anda müxtəlif formalarda olan eşq, ekspressiyada eyni anda yalnız bir məhəbbət forması kimi təzahür edir.** Metafizikada Formal Ruha verilmiş bağlılıq şərtləri hər şeylə eyni dərəcədə bağlılıq imkanı kimi mövcud olur (yəni bir eşq sonsuz formalarda eyni anda olur). Lakin eşq bədənlə ekspressiya edilərək Kosmosa keçdikdə eyni anda yalnız bir formada məhəbbət kimi təzahür edir.
2. **Eyni yerdə müxtəlif vaxtlarda olan eşq, ekspressiyada eyni yerdə eyni vaxtda olan məhəbbət kimi təzahür edir.** Yəni metafizikada eşq həm keçmiş, həm indi, həm də gələcəkdə birlikdə mövcud olur. Amma ekspressiyada məhəbbət yalnız ya indidə, ya keçmişdə, ya da gələcəkdə ola bilər. Məsələn: indi uşağı olmayan fərddə övlada

məhəbbət hissi olmur, bu hiss yalnız gələcəkdə ola biləcək hiss kimi mövcud olur. Yaxud valideynə məhəbbət valideynlər dünyasını dəyişdikdən sonra keçmişdə olan hiss kimi aşkarlanır.

3. **Eyni vaxtda həm var, həm yox olan eşq, ekspressiyada eşqin eyni anda varlığı məhəbbət, yoxluğu nifrət kimi təzahür edir.** Nifrət eşqin yoxluğunun ekspressiyasından ibarətdir.

D.f.Qildebrand belə hesab edir ki, şəxsi və mənəvi aktlara təcrid olunmuş şəkildə - onların mənasını və dəyərini onların özündə baxıldıqda yanılma əmələ gəlir. Biz də Qildebrandla razılaşaraq belə hesab edirik ki, şüurlu insanın hər hansı bir aktına təcrid olunmuş şəkildə ya Ruhun, ya da bədənin aktı kimi baxılması yanlışdır. Məhz psixologiyanın banisi Z.Freydin ən ciddi yanlışlığı da ayrıca adamın ilkin istəklərinə yalnız bədənin ilkin istəkləri kimi baxması olmuşdur. D.f.Qildebrand bunu müasir fəlsəfənin və elmin belə bir yanlış mövqeyi ilə izah edir ki, guya ”daha yüksəyi anlamaq üçün daha aşağı ontoloji pillədən ona qalxmaq lazımdır. ontoloji mənada nə qədər aşağıda yerləşirsə, bu və ya başqa təzahürə bir o qədər daha ciddi baxılır. somatik daha mübahisəsiz görsənir, nəinki psixi“ və ya “ontoloji daha ali obyektləri bir o qədər aydın hesab edir, amma çox vaxt belə hesab edirlər ki, iyerarxik daha aşağı analogiyadan çıxış edib daha alini başa düşmək lazımdır”. Z.Freyd də məhəbbəti şərh edərkən məhz ən aydın olan bədənin ilkin istəklərindən çıxış edir və sonda yanlış nəticələrə gəlib çıxır. İstər D.f.Qildebrand, istər Teodor Xaker bunun əksinə belə hesab edirlər ki, “bütün ən aşağı olanları yalnız alidən çıxış etməklə anlamaq olar”. Buradan da məlum olur ki, insan seksuallığını yalnız məhəbbətdən anlamaq olar, nəinki məhəbbəti seksuallıqdan. Çünki emanasiya prosesində ontoloji təkamül həqiqətin pisləşməsi ilə müşahidə olunur; hansı ki, həqiqət daha bulanıq və qeyri-dəqiq anlaşılır.

Psixologiya elmi Ruhla bədənin bağlanmasının təzahürlərini öyrəndiyindən, istənilən psixoloji fakt özündə iki bir-birindən fərqli

başlanğıcı təşkil edir. Biz psixoloji faktlardan bədənin ilkin istəklərini çıxdaş etdikdə, Formal Ruha aid ilkin istəklərin aktlarını əldə etmiş oluruq. Hər bir mövcudluğun başlanğıc istəyi sonsuzluğadək mövcud olmaqdan ibarətdir. Canlılarda Formal Varlıq növdən ibarət olduğundan, hər bir fərd özündə növün davam etdirilməsi istəyini birincili istək kimi özündə təzahür etdirir; hansı ki, biz bunu nəsilvermə kimi təyin edirik. Nəsilvermənin ali canlılarda bioloji üsulu cinsi cütləşmədən ibarətdir. Beləliklə, Ruhun bağlanmaq istəyi ilə bədənin nəsli davam etdirmək istəyindən fərdin birincili istəyi meydana çıxır; hansı ki, Z.Freyd bunu **Libido** kimi təyin etmişdir. Libido - başqasına bağlanmaqla cinsi cütləşmə ilə nəsil verməkdən ibarətdir; hansı ki, insandan başqa heç bir ali canlı cinsi cütləşmədə bağlanma tələb etmir. Libidonun təzahür forması Məhəbbətdir. Başlanğıcda bədənlə Ruhun əlaqəsində bədənin Ruha təsiri güclü olduğundan, libido son məqsədi cinsi əlaqədən ibarət olan seksuallıq kimi - cinsi məhəbbət kimi meydana çıxır və bu zaman ruhi bağlanma əks cinsə münasibətin əsasında durur. Daha sonra Ruh bədənə təsiri artdıqca libido Ruhun ilkin istəyinə uyğun son məqsədi Ruhun Faktik Varlığının yaradılmasından ibarət olan Yaradıcılıq kimi - **Yaradıcılığa məhəbbət** kimi meydana çıxır.

Bədənin Ruhla əlaqəsində bədən emosional ekspressiya yolu ilə Fiktiv Ruhun təzahür və təsirlərini özündən kənara çıxarır, Fiktiv Ruh isə bədənin istəklərinə istiqamət, məqsədəyönlülük verərək onu heyvan bədənindən daha kamil formaya salır. Hər bir emosional ekspressiyada Formal Ruh ekzistensiya edir, yəni xaricdə bədənə xas hisslərdən ayrılaraq xalis ruhi təsir kimi aşkarlanır.

Haşiyə: Aleksandr Louen, "Məhəbbət və seksuallıq"

> *"Seksual davranışı bütünlüklə insandan qoparmaq olmaz; şəxsiyyətin müvafiq modifikasiyası olmadan seksuallıq - onun hissəsi və ya aspekti - dəyişilə bilməz. İnsanın seksual davranışı onun şəxsiyyətini əks etdirir, eləcə də onun şəxsiyyəti onun seksual*

hisslərinin ekspressiyasını özündə təqdim edir. Ağıllılıq daha parlaq şəkildə seksual akta münasibətdə aşkarlanır. Ağıllılığı belə hesab edirlər ki, şəxsiyyət eqo və ya ağılla identifikasiya olunub və bədənin roluna laqeyddir. Biz cinsi aktı birləşmə və qarşılıqlı iştirak haqqında, məhəbbətin ekspressiyası kimi, iki şəxsiyyət arasında kommunikasiyanın dərin forması kimi mühakimə edirik. Seksual şirnikləşmə ağlın bədən üzərində üstünlük təşkil etməsinə paraleldir. Seksuallıq - bioloji prosesdir, hansı ki, enerji artıqlığından asılıdır, onun axıdılması üçün zəruridir. Bədən - ümumi sahədir, hansı ki, seks şəxsiyyətlə birləşir. Seks - məhəbbətin ekspressiyasıdır. Fiziki seksual akt özünə tərəf müqabili ilə ruhi eyniləşməni və başqa insanı başa düşməyi daxil edir. Məhəbbətin və seksin dissosiasiyası vahid insan təbiətinin bir-birinə əks iki kateqoriyaya - bədənə və ruha, təbiətə və mədəniyyətə, düşünən ağıla və heyvani bədənə ayrılması ilə meydana çıxır."

A.Louenin fikirlərindən də görünür ki, insanın məhəbbəti özündə ikili başlanğıca malik olduğu kimi, ikili sona da malikdir. Başqa sözlə, məhəbbət kimi bədəndən ekspressiya olunan eşq bədəndən xaricdə seksuallıqdan ayrılaraq cansız obyektlərə və onlarda təcəssüm olunan dəyərlərə bağlılıq yaradır; hansı ki, əsərlə birlikdə Mədəniyyəti yaradır. Eləcə də mədəniyyət istənilən şəxsin məhəbbətini dissosiasiyaya uğradır, onun ağlını seksuallığından azad edərək ruhi mövcudluğun təşkilində iştiraka məcbur edir. Ruhla bədənin əlaqəsindən asılı olaraq insanın birincili istəyinin aşağıdakı təzahürləri meydana çıxır:

Eşqsiz seks: Ruhun iştirakı olmadan insan seksi özündə heyvani cütləşməni təqdim edir; hansı ki, V.Rayx bunu "döyüşkən seks" adlandırmışdır.

Eşqlə birlikdə seks: Belə seks Ruhla bədənin iştirakı ilə təzahür edir. Buradan insani seksual məhəbbət meydana çıxır. Seksual məhəbbət döyüşkən seksdən həzz alma, "tərəf müqabilini başa düşmə, onunla eynilik təşkil etmək", ona bağlanma kimi meydana çıxır.

Sekssiz eşq: Belə eşqin təzahürü intensional məhəbbətdir. Hansı ki, seks ixtisara salınır, insan xarici obyektlərə və dəyərlərə bağlanır, buradan Yaradıcılıq təzahür edir. Xarici obyektə bağlılıqdan Ruhun mövcud varlığının faktik varlığı (forması), dəyərlərə bağlılıqdan Ruhun Formal Varlığı (mahiyyəti) formalaşır. Sekssiz eşqin tipik nümunəsi Platonik məhəbbətdir.

İnsan məhəbbətinin seksuallıqla yaradıcılıq arasında ən müxtəlif formalarını (Seks-libido, Eros - istehsala və ya yaradıcılığa cəhd, Filiya - dostluq məhəbbəti, Aqape - Allahın insana məhəbbətinə uyğun başqa adam haqqında qayğı, Allaha məhəbbət - həqiqi eşq və s.) aşkarlamaq olar.

Ruhi təsir məhəbbət hissi ilə ekspressiya edilir. İnsanın Ruhun faktik varlığını yaratmaq məhəbbətini (yaradıcılıq hissini) **Eros** kimi təyin etmək olar. Yaradıcılıq - seksuallıqla ruhi təsirin bədəndən kənara - xarici obyektiv gerçəkliklərə çıxarılmasından meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Eros - ruhi təsirin seksuallıqla xarici obyektiv gerçəkliklərə çıxarılmasının şərtlərinin məcmusundan ibarətdir.

Bədənin Ruhun təsirini ekspressiyasını biz Eros adlandırırıq. Erkən antik mifologiyada Eros - "yeri yaratmaq üçün Allahın məhəbbəti" kimi təsəvvür olunmuşdur. Eros "ruha həyatvermək" kimi təsəvvür olunur. Psixoloqlar Erosu "varlığın vəziyyəti" kimi təyin edirlər. Eros - insan varlığının üfüqlərini genişləndirmək cəhdidir; hansı ki, təbiətdə bədənlə məhdudlaşmışdır. "İnsan varlığının üfüqlərini genişləndirmək" fikri Ruhun bədənin məhdudluğunu dəf edərək digər mövcud varlıqlara təsir edərək keçməsini, onlara ilişib qalmasını özündə ifadə edir. Buradan da, insanın şüurlu fəaliyyətindən "canlı ruh", mövcud varlıqlardan aşkarlanan "ölü ruhi kristallar" meydana çıxır. Təsir - substansial xarakteristika olub daxili qurulma prosesinin (mahiyyətlə formanın vəhdətindən) meydana çıxır. Buradan da, qurulma - əvvəl, təsir - sonra olur. Formal Ruhun qurulması mövcud varlığın əksiliyi kimi xaricidir. Yəni Ruhun forması

(mövcudluğu) bədənə münasibətdə xarici, mövcudolması (yəni mahiyyəti) daxilidir. Buradan da forma ilə mahiyyət müxtəlif qanunlar sisteminə tabe olur: yəni Ruh metafizik, onun yaratdığı əsər təbiət qanunlarına tabe olur. Nəticədə Ruhun mövcud varlığında təsir - əvvəl, qurulma - sonra aşkarlanır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhi Təsir - ruhi fəaliyyətin xarici obyektiv gerçəkliklərlə Fiktiv Ruhu vəhdətə gətirməsinin (Ruhun mövcud varlığının qurulmasının) şərtlərinin məcmusundan ibarətdir.

Erosun başqa şəxslərə çıxarılmasında münasibətlərin dolğunluğuna çatmaq cəhdi yaranır; hansı ki, kulminasiyası iki fərdin bir olması kimi meydana çıxır. Başqa sözlə, Eros - fərdlərarası birliyin şərtlərinin məcmusunu özündə təqdim edir. **Əsər** - bədənlə daxili vəhdətdə ekspressiyasından (iki fərqli başlanğıcdan) ibarət mürəkkəb aktdan ibarətdir. Xarici mövcudluğa təsirdə Erosun bədən başlanğıcı konkret işə, hərəkətə çevrilir; Ruhun təsiri - həmin işin saxlanmasına. Nəticədə Erosun xarici obyektlərə təsirindən onlarda ikincili forma - Ruhun Faktik Varlığı, Əsər meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Əsər - bədənlə Ruhun təsirlərinin vəhdətinin (Erosun) şərtlərinin məcmusundan ibarətdir.

Erosda Ruh - eşq, iradə və əsərlə; bədən - öz üzvlərinin (ətrafların, gözün və s.) buna uyğun hərəkətliliyi ilə iştirak edir. Yəni Yaradıcılıq bədənin fəaliyyətinin Ruh tərəfindən kənar mövcudluqların xarici görüntüsünə istiqamətləndirməkdən və onların fəaliyyətini idarə edərək onlara bağlamaqdan və saxlamaqdan ibarətdir.

Haşiyə: R.Mey, "Məhəbbət və iradə"

> *"Eros - yalnız insanı başqa insanla cinsi və ya başqa forma məhəbbətlə birliyə yox, həm də insanı biliyə və həqiqətlə birliyə ehtiraslı arzu yaradan gücdür. Eros insanı özünürealizasiyaya itələyir, amma bu özünürealizasiya passiv dünyanın subyektiv istəkləri və arzuları ilə sırınan deyil. Eros - sivilizasiya yaratmağın daxili stimuludur."*

R.Meyin fikirlərindən görünür ki, Eros həm də insani həqiqətlə (mümkünlüyün varlığı ilə) birliyə cəhd yaradır; hansı ki, bu cəhdin nəticəsində mümkünlüyün varlığının mövcudluq əldə etmiş formalarının zəruri şərtləri aydınlaşdırılır və bu şərtlər əsasında Ruh faktuallaşır. Beləliklə, Erosun yaratdığı insanlararası vəhdət nəsə istehsal etməyə xidmət edir; hansı ki, bunun ən aşağı formasını əmək prosesində dəyər istehsal etmək, ən ali və mücərrəd formasını elmi axtarışlarda bilik əldə etmək kimi təyin edirik. Beləliklə, Eros "bizdən kənarda - şəxslərarası və ya bizi əhatə edən aləmdə olan mənalarla və formalarla mənəvi-emosional qarışmağa" yardım edən "birləşdirici elementdir". Eros varlıqlar (mövcud varlıqla varlığın mövcudluğu və qurulma) arasında körpüdür; hansı ki, Erosa görə faktı əhəmiyyətlə bizim üçün birləşdirir ki, biz bundan həqiqəti idrak edirik. Buradan da Eros həm də idrakın şərtləri kimi çıxış etmiş olur. Erosu qeyri-maddi ruhi faktın (dəyərin və biliyin) yaranmasının şərtlərinin məcmusu kimi təyin edə bilərik. Dəyərlə biliyin vəhdəti **Sivilizasiya** kimi meydana çıxır; buradan da Eros - sivilizasiyanı yaratmağa daxili stimul kimi çıxış edir. Sivilizasiya - daha ümumi, xarici, mücərrəd ruhi faktdır. Freyd Erosu "həyatın lap başlanğıcında funksiyalaşan və ölüm instinktinə əks Həyat İnstinktini təqdim edən hiss" kimi dəyərləndirmişdir. Ölüm birincili mövcudluğun mövcudluq forması olduğundan, həyat ali səviyyədə varlığın mövcudluğunun forması olur; beləliklə biz Erosu ruhi həyatın daxili şərti kimi dəyərləndiririk. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Eros - insanların bir-biri ilə münasibətə girərək dəyər və bilik istehsal etməsinin şərtlərinin məcmusundan ibarətdir.

3. Xalis varlıq təyinindən münasibət: İnsanların bir-birinə xalis varlıq təyinindən münasibəti intellektual münasibət olub, ağlın törətdiyi ideyalarla, qarşılıqlı məlumat mübadiləsi formasında və ya birgə elm öyrənmək, təhsil almaq və s. kimi fəaliyyətlərdə yaranan münasibətləri təzahür etdirir. İntellektual münasibətlər peşə, sosial rol bölgüsünün

eynilik təşkil etməsi ilə şəxslərarası əlaqələrin yaranmasında iştirak edir. Burada bədən və ya ətraf birincili, Ruh ikincilidir. Ona görə də bu əlamətlər daha çox mövcud varlığın təyinindən aşkarlanan həqiqətin əksiliyi kimi Ruhun aşkarlanmasına imkan verir.

SUBYEKTİV MƏNİN ÖZÜ-ÖZÜNƏ MÜNASİBƏTİ

İnsan zaman-məkan asılılığında mövcud varlıq təyinində təzahür etdiyindən, həm də zaman ölçülüyü ilə şərtlənmişdir. Yəni bir canlı kimi insan bədənin zamandan asılılıq qanunlarına tabedir və bu asılılıq Ruhun bədəndən təzahür edən əlamətlərinə, qabiliyyətlərinə və təzahürlərinə təsir edərək onları qradiasiyaya məruz qoyur. Beləliklə, Ruhun bədəndən azad olması həm də onun zaman ölçülüyündən azad olması cəhdinə paralel inkişaf edir. Buradan da insanda **Vaxta istiqamətlənmə** meydana çıxır. Vaxt - zamanın ruhi fəaliyyətlə ölçüləndirilməsi, məhdudlaşdırılması və hissələrə ayrılmasından (keçmiş, indi və gələcək) vaxtlar meydana çıxır. Cisimlər zamanla tək momentli, bir parametrli şərtləndiklərindən onlar "burada və indi" prinsipi ilə mövcud olurlar. Buna görə cisimlərə yalnız bir vaxt - **İndi** - xasdır. Canlılar zamanla bir momentli, çox parametrli şərtlənmişdir. Canlılıq nəsil əlaqəsinə görə (özündən əvvəlki nəslin irsi məlumatı əsasında) əmələ gəldiyindən və "indi və burada" prinsipi ilə mövcud olduğundan, canlılarda iki vaxt - formal varlığa görə **Keçmiş**, mövcud varlığına görə **İndi** xasdır. Canlıların yaranması başa çatdığından və zamanda təkrarlandığından heç bir canlıda **Gələcək** yoxdur. Canlılarda gələcək olmadığından vaxta laqeyddirlər və vaxt canlılarda **Bioloji Saat** kimi bioloji materialın təbiətində, daxildədir və həyat ritmi kimi təzahür edir. Canlılarda irsiyyət sabit olduğundan keçmişlə gələcək bir-birindən fərqlənmir; bu fərqsizlik bütünlükdə canlının zamana laqeyd qalmasını şərtləndirir. "Nəsə insan" yaranma prosesindədir. İnsanlar buna görə orijinal olaraq meydana çıxır. Hər bir dövrün insanı başqasından müxtəlif qabiliyyət, bacarıq və yaradıcılıq im-

kanları ilə fərqlənir. Eləcə də eyni bir ruhi daxili totallıq fərdin ayrı-ayrı yaş dövrlərində fərqli aydınlıqda meydana çıxır. İnsan abstrakt insanlıq Məninə malik olduğundan o, zamanın müxtəlif istiqamətlərində yaşamış insanlarla xarici totallıq təşkil etməyə cəhd edir. Nəticədə Ruh zamanda irəli və geri hərəkət edərək xalis varlıq təyininə uyğun kamilləşir. Biz Fiktiv Ruhun zaman üzrə həm keçmişə, həm də gələcəyə getməsini və eyni zamanda indidə aktuallığını saxlamasını **Zamanla Pulsativ Əlaqə** adlandırırıq. Bu əlaqəyə görə Fiktiv Ruh zamanı vaxta bölərək onda keçmişə və gələcəyə hərəkət edərək, İndini özünün yaranma istiqamətinə və ardıcıllığına uyğun strukturlaşdırır. Başqa sözlə, Fiktiv Ruh üçün vaxt - bioloji saatın ekzistensiya edilməsi (yəni vaxt hissinin zaman ölçüsü kimi kənara çıxarılmasından) ibarətdir. Fraqmentar ruhlar arasında qarşılıqlı təsir qarşılıqlı münasibət yaradır. Bu münasibət zamandan asılılığı ifadə edir və insan münasibətə görə zamandan vaxtı ayırır. Vaxt - zamanın Ruhun qarşılıqlı təsirinin (münasibətin) sürəkliliyidir. İnsan öz bioloji enerjisini mədəniyyət kimi kanallaşdırır və irsiyyətin daxili yolla ötürülməsinə uyğun Ruh haqqında məlumatın xarici ötürülməsini kəşf edir. Ruhun xaricdə öz totallığına istiqamətlənməsinin obyektivizasiyası **Tarixi** yaradır. Beləliklə, Vaxt - zamanın yaradıcılıqla hissələrə ayrılması, Tarix - vaxtın sıralanmasıdır.

> ***Haşiyə:*** *E.Levinas - Vaxt - birləşmiş subyektin faktı deyil, subyektin digərləri ilə əlaqəsinin özüdür.*

Şəxslərarası münasibət patiya əsasında çoxmərhələli proses kimi yaranır. Patiyanın növündən asılı olaraq ruhi ekzistensiya vəziyyətinə keçir; öncə digər fərdlə öz aralarında olan digər real varlıqları dəf etməyə başlayır; hansı ki, onunla fərqlilik təşkil edir. Buradan **Məsafəqət etmə** meydana çıxır. Məsafəqət etmənin ən ibtidai təzahürləri heyvanlar aləmində müşahidə olunur və canlılığın mövcud varlıq təyinindən təzahür edən qida və əks cinsi axtarmaqda meydana çıxır. "Nəsə insan"ın

məsafəqət etməsi iradəvi olub bədən tələbatları ilə şərtlənməmişdir. Ona görə də insan Kosmosa üz tutur.

Şəxslərarası münasibət aşağıdakı mərhələlərdən keçir:

Tanışlıq: Tanışlıq - İki Fiktiv Ruhun bir-biri ilə ünsiyyətində bir-birinin daxili nizamlılığını dərk etmək cəhdindən ibarətdir. Tanışlıq Ruhi birləşməni həyata keçirməyə hazırlıqdır. Ünsiyyət ruhlararası məsafəni (fərqliliyi) dəf etmək üsuludur. Ünsiyyət prosesi ilə Fiktiv Ruhlar bir-biri ilə tanış olur. Ünsiyyətdə bir Ruhdan şüalanan məlumat digər Ruh tərəfindən tutulur. Tanışlıq vəziyyəti eyni vaxtda həqiqətin aydınlaşması və aşkarlanması prosesindən ibarətdir.

Hərəkətlənmə: Tanışlıq başa çatdıqdan sonra Fiktiv Ruhlar xarici totallıq təşkil etmək məqsədi ilə bir-birinə doğru hərəkətlənirlər. Hərəkət - ruhi sıranın mövcudluq üsuludur və üçlü meydana çıxdığından, özündə hərəkətin üçqat mürəkkəbləşməsini ifadə edir. İnsan həm birincili materiyaya xas mexaniki hərəkət, həm heyvanlara xas bioloji hərəkət, həm də yalnız "nəsə insana" xas sosial hərəkət edir. Ruh üçlü asılılıqda olduğundan, insanın hərəkəti həm də tarixidir. Fərdi səviyyədə tarixi hərəkət - **Kamilləşmə**, ictimai qaydada hərəkət - **Tərəqqi** kimi qavranılır.

Haşiyə: K.Koffka - İnsanın inkişafının dörd nahiyəsi:

a) motor nahiyə - hərəkət, vəziyyət;

b) xalis senzor nahiyə - təsəvvürlərin dəyişilməsi;

c) senzomotor nahiyə - hərəkət fenomenləri;

d) intellektuallaşma - bizə təsir edən vəziyyətlə və ona cavabla aralıq fenomenal mərhələ əmələ gəlir; insana təsir edən real əşyaya uyğun olması vacib deyil.

İnsanın cismə xas hərəkəti motor nahiyədə, cana xas hərəkətləri senzomotor nahiyədə, Ruha xas hərəkətləri xalis senzor nahiyədə meydana çıxır. Ruhi hərəkətlənmə qarşılıqlı münasibətlərdə **Davranış** kimi təzahür

edir. Buna görə də demək olar ki, "nəsə insan" davranışları ekzistensial tələbatlarla şərtlənmişdir. Bu tələbatların ödənilməsi istiqamətlilik yaradır. Davranış - bir insanın başqa insanın hərəkətinə təsir etməsi və ya bir insanın başqasının təsiri altında şüurlu və iradəvi hərəkət etməsindən ibarətdir. Burada şüurluluq düşüncə prosesi, iradəlilik məqsədəyönlülüklə bağlıdır. Davranış zamanı insanlar arasında qarşılıqlı asılılıq yaranır. Davranış təsadüfi, müvəqqəti və situativdir (ekzistensialdır). Davranışa səbəb olan təsirlər təbiətdən, optik təcrübədən, emosional və verbal təsirdən ola bilər.

Haşiyə: Torndayk - İstənilən davranış vəziyyətə reaksiyadır.

Davranış məkani əlaqənin bir formasıdır. Məkan özündə mürəkkəb məlumatlar ötürən mühit kimi mövcuddur. İnsan bədəni də ikincili məkandır. İnsan bədəni konkret məkanda ölçülənərək müəyyən bir məlumatı ifadə edir. Məkanın daralması və ya genişləndirilməsi ilə məkanın məlumatlılıq imkanı dəyişir.

Haşiyə: A.Piz - Amerikan antropoloqu Edvard T.Xoll insanın məkani tələbatlarını öyrənmiş və elmi dilə "proksemika" (yaxınlıq) terminini gətirmişdir. İnsanlar əşyaya və ya başqa adama söykənir ki, özünün əşyaya və başqa adama ərazi iddiasını göstərsin. Öz mülkiyyətinə toxunmaqla öz fiziki ölçülərini böyüdür, ətrafdakılara öz böyüklüyünü göstərir. Başqa adama nisbətdə insanın boyu tabeçilik və hökmranlıq hisslərini müəyyən edilməsində vasitə olmuşdur. İnsan öz xüsusi ərazisində olanda üstünlük hiss edir. İnsanlararası fiziki əlaqə onlar arasında qarşılıqlı intim əlaqənin dərəcəsi ilə bağlıdır.

A.Pizin şərhindən görünür ki, bədənin məkani ölçülüyü Ruhda refleksiya edərək fərdi iddiaların, fantaziyaların, hakimiyyət əzminin, intim münasibətlərin əsasını təşkil edir. Davranış - şəxslərarası münasibətlərdə informasiya mübadiləsini təmin edən ən mürəkkəb psixoloji hadisədir. Davranışın ən sadə forması **Poza** ilə ifadə olunur. Poza - insanın xarici təsirə bütün bədəninin ümumi vəziyyətini (məkani ölçülüyünü)

dəyişdirməklə verdiyi cavabdır. Başqa sözlə, poza Real Mənin hərəkətliliyidir. Poza ilə cavab heyvanlar aləmində daha geniş yayılıb. Beləliklə, poza ibtidai davranışın əsasını təşkil edərək Real Mənin aparıcılığında meydana çıxır.

> ***Haşiyə:*** *A.Piz - Şeflen qeyd edir ki, yadlar eyni pozadan qaçmağa cəhd edirlər. Uzun müddət kəbində olan insanlar çox vaxt eyni cür gəzir, oturur və hərəkət edir.*

Buradan da məlum olur ki, insanlar bir-birinə təsir edərək ortaq davranışlara, pozaya və həyat tərzinə yiyələnirlər. Bədənin bir tam kimi məkani hərəkətliliyi bədən enerjisinin izafi sərfinə səbəb olduğundan, eyni reaksiya ayrı-ayrı orqanların xüsusi hərəkətliliyi ilə ifadə olunur. Buradan **Jest** meydana çıxır. Jest - insanın xarici təsirə daha qənaətcil cavabı (bütün bədənin yox, onun bir hissəsi ilə verilən cavabdır). Jest müəyyən bir məlumatı bədən üzvlərinin mürəkkəb hərəkətləri ilə başqasına bildirmək vasitəsidir.

Haşiyə: A.Piz, "Bədən hərəkətlərinin dili"

> *"Ünsiyyətdə istifadə edilən əksər jestlər bütün dünyada mütləq eynidir. Hər bir xalqın verbal dili özünəməxsusdur; eləcə də müxtəlif xalqlarda müxtəlif jestlərin əhəmiyyəti fərqlidir. Hər bir jest müxtəlif sözdür. Söz isə müxtəlif əhəmiyyət daşıyır. İnsan nə qədər yüksək sosial şkalada yerləşirsə, bir o qədər jestlərdən və bədən hərəkətindən istifadə edir. İnsanın yaşlaşması ilə onun jestləri dəyişir, bir o qədər qeyri-aydın olur. İnsanın istifadə etdiyi istənilən əşya öz sahibinə onunla bağlı müəyyən jestlər hazırlamağa imkan verir."*

Göründüyü kimi, davranış və pozada olduğu kimi jestlər də eyni məqsədlərə, amma fərqli forma və enerji sərfi ilə xidmət edir. Bədənin xarici və daxili təsirlərə reaksiyasının bədənin məkanda yerdəyişməsi ilə ifadə edilməsindən cavab **Hərəkət** formasında meydana çıxır. Hərəkətlə cavab məlumatların məkanda yerdəyişmə ilə başqasına ötürülməsində istifadə olunur. Hərəkətlə jestin vəhdətindən ibarət mürəkkəb cavab **Rit-**

ual kimi meydana çıxır. Ritual - mürəkkəb məlumatları ifadə edən hərəkətlər dəsti kimi ibtidai cəmiyyətlərdə geniş istifadə olunub. Əgər jest ayrı-ayrı sözlər kimi mənaya malikdirsə, ritual bütöv bir fikri ifadə edən mətn kimi çıxış edir. Burada jestlər sözləri, hərəkətlər cümlələri əvəz edir. Ritual eyni zamanda həm tamaşaçı, həm də iştirakçıda müəyyən məqsədi, fikri, niyyəti imitasiya edən teatral tamaşa kimidir. Məlumatın bir şəxsdən digərinə yalnız üz cizgilərinin dəyişilməsi ilə ötürülməsindən **Mimika** meydana çıxır. Mimika - hərəkətin bir formasında üzün əzələlərinin hərəkəti ilə sifətin müəyyən xarici görünüş əldə etməsi ilə ünsiyyətin yaradılmasını özündə təqdim edir. Mimika emosiyaları ifadə etdiyindən ekspressiyanın üsulu kimi meydana çıxır.

Haşiyə: *A.Louen, "Bədənin dili", C.Darvin - Mimika və hərəkət ana ilə yenidoğulmuşun ünsiyyətində ən birinci vasitədir.*

Ruhun ekzistensiyası ilə ünsiyyətin yaranmasından **Nitq** əmələ gəlmişdir. Nitqin əmələ gəlməsi ilə bədən ünsiyyət vasitəsi olmaqdan çıxmış və insanlararası ünsiyyət xalis metafizik xarakter almışdır. Nitq - Transendental İnsanın (yəni Fiktiv Ruhun) xüsusi təzahürlərindəndir. Nitqə bədən üzvləri - dodaq və dil yalnız vasitə kimi iştirak edir. Əgər ünsiyyətdə istifadə edilən bütün jestlər bütün xalqlarda eynidirsə, nitq xüsusi təzahür kimi ayrı-ayrı xalqlarda fərqlidir. Bu fərqlilik Fiktiv Ruhun bədənlə əlaqələnməsinin fərqliliyini özündə refleksiya edir.

Davranışın Ali forması **Fəaliyyət** kimi təzahür edir. Fəaliyyət - sistemli, məqsədəyönlü, Subyektiv Mənin ekzistensiyası zamanı obyektivizasiyanı reallaşdıran bədənin mürəkkəb hərəkətliliyidir. Fəaliyyət - qarşılıqlı təsirdə İş formasında cavabdır. İşin hansı gücün iştirakı ilə görülməsindən asılı olaraq üç cür fəaliyyət - fiziki iş, yaradıcı iş və intellektual iş meydana çıxır. Fiziki işin nəticəsi **Əmək**, yaradıcı işin nəticəsi **Mədəniyyət**, intellektual işin nəticəsi **Fikir** kimi meydana çıxır. İnsan həm daxili, həm də xarici təsir nəticəsində iradəvi fəaliyyət göstərir. Biz fəaliyyətə görə təsiri, təsirə görə fəaliyyəti müəyyən edə bilərik.

Fəaliyyət - insanın məqsədəyönlü, iradəvi, düşüncəli, faydalı hərəkətlər kompleksindən ibarətdir. Subyektin xarici aləmlə qarşılıqlı əlaqəsində xarici aləmə təsir edərək öz tələbatlarını ödəməsini özündə ifadə edir. Fəaliyyət zamanı psixi obrazlar obyektdə cəmləşir və xarici əməliyyat daxili əməliyyatla əlaqəli həyata keçirilir. Fəaliyyət cismin, canın və ruhun birgə aktivləşməsi və əlaqələnməsi ilə mümkün olur. Fəaliyyət Fiktiv Ruhun cisim və canla ünsiyyətinin təzahürüdür. İnsanın insanla ünsiyyətindən fərqli olaraq fəaliyyət zamanı entropiya baş vermir; başqa sözlə, şüur başlanğıc vəziyyətini saxlayır. Nəticədə fəaliyyət həm də idrak prosesi kimi təzahür edir. Hər bir fəaliyyət əməl, iş və əməliyyatlardan ibarət mürəkkəb şüurlu prosesdir.

- **Əməl:** Subyektin aktivliyinin sosial formasıdır; hansı ki, məsuliyyət daşıyır və ictimai qiymətləndirilir.
- **İş:** Məqsədə tabe olan əməliyyatların məcmusudur.
- **Əməliyyat:** Fəaliyyətin Fiktiv Ruhda refleksiyasından (yəni əqli və ya məntiqi fəaliyyətin yerinə yetirilməsindən) ibarətdir. Əməliyyat - fəaliyyətin müəyyən sərhədlər daxilindəki xüsusi təzahürüdür. Əməliyyat fəaliyyət vahidi kimi çıxış edir.

Fəaliyyətin üç formasını ayırd etmək olar:

A. İnstinktiv fəaliyyət: Daxili tələbatlarla funksional asılılıqda meydana çıxan və şüurun iştirakı tələb olunmayan fəaliyyət. İnstinktiv fəaliyyət - instinktiv arzuların bu arzuları təmin etmək üçün fərdi fəaliyyət göstərməyə oyandıran meyldir. Meyl - dərkedilməmiş və ya tam dərkedilməmiş tələbatların ödənilməsinə cəhddir, özünəxas istənilən psixi fəaliyyətin və ya davranışın enerji mənbəyidir.

B. Sosial fəaliyyət: İctimai tələbatlarla funksional asılılıqda olub, şüurun aktiv iştirakı ilə həyata keçirilən fəaliyyət.

C. Prososial fəaliyyət: Mücərrəd "nəsə insan"ın fərdi davranışa təsiri Prososial fəaliyyət kimi meydana çıxır. Prososial fəaliyyət - özünü riskə qoyaraq başqalarına və ya ətrafa xeyir verməkdən ibarətdir. Proso-

sial fəaliyyətdə qarşılıqlı şəxslərarası münasibət yaranmadığından birtərəfli davranış kimi meydana çıxır. Digər davranışlardan fərqli olaraq belə davranış öz Daxili Subyektiv Məni ilə şərtlənmədən meydana çıxır.

Davranışın funksiyaları: Atribusiya: Başqasının davranışı əsasında onun xarakterini və davranışın səbəblərini aşkarlamaq üsuludur. Başqa sözlə, Subyektiv Mənin öz atributlarından tərəf müqabilinin kimliyini aşkarlaması Atribusiya kimi meydana çıxır. Atribusiya - Subyektiv Mənin aşkarlanan Subyektiv Mənlə öz atributlarını tutuşdurması kimi meydana çıxır.

Davranışa görə cəmiyyətdə davranışın təşkil olunmasının iyerarxiyası yaranır. Bu iyerarxiyaya görə müxtəlif iyerarxiyalar - xətti iyerarxiya, üçbucaq iyerarxiya, koalisiya və s. meydana çıxır. Hansı ki, davranış formaları özündə Ruhun xarici totallığının strukturlaşmasını əks etdirir. Başqa sözlə, davranış modellərinin məcmusu cəmiyyəti (Ruhun xarici totallığını) təzahür etdirir. Davranışın aşağıdakı formalarını aşkarlamaq olar:

Tabeolma: Başqa insanın əmri ilə davranışın müəyyənləşməsi. Bir şəxsin digər şəxsdən asılı olaraq öz Mənlərini təzahür etdirməsi tabeolma kimi meydana çıxır. Tabe olan özü-özünə yadlaşmış "nəsə insan"dır. Tabe olanın bütün fəaliyyəti tabe edənin məqsədlərinə xidmət edir, fərdi tələbatlar isə ödənməmiş qalır.

Ağalıq etmə: Başqasının davranışını öz əmrləri ilə müəyyənləşdirmədən ibarətdir. Tabe etdirən tərəf belə münasibətlərdə ağalıq edən tərəf kimi çıxış edir. Ağalıq edənin həm özü, həm də başqası öz tələbatlarına xidmət edir.

Davranış iki cür tənzimlənir:

a. Məcburetmə: Bir insanın başqasının onun əmrlərini yerinə yetirmədiyinə görə onu cəzalandıra bilməsi üçün əldə etdiyi hakimiyyətdən meydana çıxır. Məcburetmənin ali forması **Dövlət məcburetməsi** kimi çıxır və istənilən dövlətin əsas şərtlərindən birini təşkil edir. Məcbu-

retmənin abstrakt forması **Avtoritetin gücü** kimi meydana çıxır. Avtoritetin gücü - bir şəxsin nüfuzu ilə başqalarını məcburetmədən ibarətdir.

b. Mükafatlandırma: Subyektlərin bir-birinə bağlılığının maddi təzahürü kimi meydana çıxır. Mükafatlandırma hər hansı bir davranışa təhrik və ya ondan çəkindirmə vasitəsi olub, insan davranışlarının maddi tənzimlənməsini özündə əks etdirir.

SUBYEKTİV MƏNİN ÖZÜ-ÖZÜNƏ MÜNASİBƏTİ

Subyektiv Mənin özü-özünə münasibətindən **Ruhun Formal Varlığı** meydana çıxır. Ruhun Formal Varlığı Fiktiv Ruhun daxili çoxluğunun təşkil etdiyi xarici təklik kimi meydana çıxır. Subyektiv Mənin özü-özünə münasibətindən Ruhun formal varlığa keçməsində iki cür təşkilatlanma inkişaf edir:

1. İdentifikasiya - Ruhun Formal Varlığının yaranması: Mövcud varlıqlar ayrı-ayrı müxtəlif tərkib hissələrdən birləşərək eynilik kimi təzahür edir. Formal Ruh qeyri-maddi olduğundan onun nə tərkib hissəsi, nə də tamın hissəsi vardır. Bəs onda Ruhun Formal Varlığının təşkili necə baş verir? Biz bunu başqa termin yaratmadan psixologiyada işlənən **İdentifikasiya** (yəni Eyniləşmə) kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun Formal Varlığı - hər bir Fiktiv Ruhi Varlığın öz daxili çoxluğunda bir və eyni kimliyə keçməsinin şərtlərindən ibarətdir.

Psixologiyada identifikasiya - başqa insanla bağlı ən erkən təzahür edən emosional əlaqə kimi təyin olunmuşdur. Emosionallıq özlüyündə iki fərqli başlanğıca malikdir: Fenomen - bədənin hissi təzahüründən və Prafenomen - Formal Ruhun hissi təsirindən. Fərdlərarası emosional əlaqə məhəbbətin ən müxtəlif formaları kimi aşkarlanır. Bədənin ilkin istəyinin prioriteti ilə fərdin ilkin istəyinin təzahürünü biz Məhəbbət kimi təyin edirik. Məhəbbət əlaqələrində bir-birindən fərqli iki nəticə alınır.

Birinci nəticə bədənin ilkin istəyinin iştirakı dərəcəsində bədən zövqü; ikincisi, Ruhun ilkin istəyinin iştirakına uyğun yeni ruhi situasiya. Biz ruhi situasiyanın təzahürünü **İnsanlararası Həmrəylik** kimi təyin edirik. Həmrəylik - bədənlə şərtlənmiş Fiktiv Ruhun öz daxili çoxluğunda elə genişlənməsidir ki, həmin genişlənmə ilə bir fərdi bədənin sərhədlərindən çıxır, bütün insan bədənləri ilə bağlanır. Hər bir fərddən "Mən"in belə genişlənməsi nəticəsində Ümuminsanlıq Həmrəyliyi meydana çıxır; hansı ki, hər bir həmrəylik situasiyasından Ruhun Formal Varlığı yaranır.

Haşiyə: D.f.Qildebrand, "Məhəbbətin metafizikası"

> *"Belə təsəvvür var ki, məhəbbət birliyin əlamətidir, birliyin subyektiv manifestasiyasıdır. Məhəbbəti başqa adamla birlikdə çıxarmaq olar. Hissə məhəbbəti sevir, ona görə ki, onunla bağlıdır. Həqiqətdə isə tamamilə aydın deyil ki, məhəbbətin əsasında birlik dayanır. Əksinə, insanlar arasında həqiqi birlik qarşılıqlı məhəbbətdən əmələ gəlir. Şəxsiyyətlərin birliyi məhəbbətin mənbəyi deyil, onun səbəbi deyil, bir qayda olaraq məhəbbətin nəticəsidir, onun nailiyyətidir."*

D.Qildebrandın dediklərini nəzərə alsaq, demək olar ki, məhəbbət əlaqələrində xaricdə insan birləşmələri, həmin birliklərin daxilində isə Ruhi Birlik - Formal Ruhi Varlıq formalaşır. Formal Ruhdan (bütün fərdlərdə mövcud olan ruhi potensiyadan) xarici tək ruhi mövcudluğun mahiyyətinin - Ruhun Formal Varlığının yaradılması bütün insanlar ("indi və burada" prinsipinə tabe olmayan hamı) arasında birliyi tələb edir ki, bunu ən ümumi şəkildə **İnsani Həmrəylik** kimi təyin edirik. İnsani həmrəylik insanlararası Eşqdən (bağlanmadan) meydana çıxır.

Haşiyə: D.f.Qildebrand, "Məhəbbətin metafizikası"

> *" Hər bir adama özü-özü ilə həmrəylik xasdır, hətta qaçılmazdır. Məhəbbətin əsil həqiqətdə mahiyyəti ondan ibarətdir ki, insan başqa insanla maraqlana bilər və nəticədə öz xüsusi personasına münasibətdə onun yerinə ona uyğun həmrəylik əmələ gəlir."*

İnsanın başqa insanın öz Subyektiv Məni ilə eynilik təşkil edən tərəfi ilə maraqlanmasında İnsani Həmrəylik təzahür edir. Buradan da aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İnsani Həmrəylik - hər bir fərddə mövcud olan Subyektiv Mənin özü-özünə münasibətinin şərtlərinin məcmusundan ibarətdir.

Yəni İnsani Həmrəylikdə insan başqalarına yox, məhz yalnız öz Subyektiv Məninə münasibətdə başqaları ilə həmrəy olur. Özündə insanlığın şərtlərinə malik olmayan fərd, başqa insanlarda nə qədər insanilik olsa da, insani həmrəyliyə meyl etmir. İnsani Həmrəylik bütün məhəbbət formalarının vəhdətindən meydana çıxır. Fiktiv Ruhun daxili çoxluğu xaricə müxtəlif məhəbbət formaları kimi çıxarılır və xaricdə bütün məhəbbət formalarının məcmusundan bir və eyni İnsan Həmrəyliyi yaranır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Həmrəylik - Eşqlə insanların bir-birinə bağlanaraq Xarici Ruhun Formal Varlığını yaratmasının şərtlərindən ibarətdir.

Formal Ruhun çoxluğundan Tək Formal Ruhi Varlıq necə meydana çıxır? Z.Freyd belə hesab edir ki, ”identifikasiya - “nümunə” kimi götürülmüş başqasına uyğun öz xüsusi “Mən”ini formalaşdırmağa cəhddir”. Freydin fikirlərindəki “öz xüsusi Mənini formalaşdırmaq” və “nümunə kimi götürülmüş başqası” fikirləri özündə hansı mənanı verir? Bizcə, “öz xüsusi Mənini formalaşdırmaq” Formal Ruhun daxili çoxluğunda bir Məndən digərinə keçidi özündə ifadə edir. Əks halda Ruh qeyri-maddi olduğundan insanın onu formalaşdırması mümkün olmazdı. Beləliklə, identifikasiya prosesində fərd özündə daxili keçidlə öz bir Mənindən digərinə keçir. “Nümunə kimi götürülmüş başqası” burada bütün fərdlərdə mövcud olan Formal Ruhdan Ruhun Formal Varlığının yaradılmasında iştirak etməli olan Məndir. Buna görə də, Freyd qeyd edir ki, ”identifikasiya tamamilə kopiyalaşdırılan şəxsə obyektiv münasibətdən məhrumdur”; hansı ki, obyektiv münasibətdən məhrum olmaq subyektiv münasibətə malik olmağı özündə ifadə edərək, kopiyalaşan

mücərrəd şəxsi bildirir ki, bu da yalnız daxili kimlik kimi aşkarlana bilər. Deməli, ”nümunə kimi götürülmüş başqası” bütün fərdlər üçün daxildə eyni olub, cari situasiyada təzahür etməyən (öz dərinliyində saxladığı) kimliyinin özündən kənarda aşkarlanmasından ibarətdir. Burada "nümunə" - Ruhun Formal Varlığının yaranmasının istiqamətini, “öz Mənini formalaşdırmaq” - daxili keçid prosesini ifadə edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İdentifikasiya - Formal Ruhdan Ruhun Formal Varlığının yaradılmasının şərtlərinin məcmusundan ibarətdir.

Bədənlə əlaqələnən Formal Ruh bədəndən asılı olmadan öz müstəqil mövcudluğuna cəhd edir. Biz Formal Ruhun bədəndənkənar Mövcud Varlığına *intentio unionis* (dəyərlərə istiqamətlənmə yolu ilə ruhi bo-yartımına cəhd) ilə nail olunur. Məhəbbət əlaqələrində Sevilən insan D.Qildebranda görə Obyektiv Xoşbəxtlik, Sevinc və Həzz kimi çıxış edir. Obyektiv Xoşbəxtlik - birləşmədən, Sevinc və Həzz - birlikdən təzahür edir. Buradan da İnsanlığın bir tam kimi birliyindən Formal Ruhun sevinci və ya həzzi meydana çıxır. Bu baxımdan hər bir insanda Fiktiv Fərdi Ruh məhz Formal Ruha xas sevincə və zövqə çatmaq üçün *intentio unionis* ilə başqa insanlarla əlaqəyə girir. Formal Ruhun xalis sevinci onun metafizik təbiətinə xasdır. Buna görə də insan nə qədər çox birliyə nail olursa, bir o qədər təbiətdən metafizikaya doğru meyl edir; hansı ki, təbiətdən fərqli olaraq metafizika İlahi Gücü bilavasitə özündə refleksiya edir. Buradan da məlum olur ki, insan məhəbbətlə ən aşağı səviyyəli xoşbəxtlikdən (Obyektiv Xoşbəxtlikdən), ən ali xoşbəxtliyə (Subyektiv Xoşbəxtliyə) cəhd edir. Obyektiv Xoşbəxtlik başqa şəxslə birləşmədən (seksual məhəbbətlə), ən ali xoşbəxtlik - Subyektiv Xoşbəxt-lik, dəyərlərdə birlikdən (Allaha Məhəbbətdən) meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Məhəbbət - ən aşağı səviyyəli başqa şəxslə birliklə başlayıb, sonda ali dəyərlərdə birliklə Formal Ruhun ekzistensiyasının şərtlərindən ibarətdir.

Obyektiv xoşbəxtlik real təmasla (birləşmə ilə) birlikdən, Subyektiv xoşbəxtlik intensional təmasla yalnız birlikdən meydana çıxır.

"NƏSƏ İNSAN"IN YAŞAM DİNAMİKALARI

İnsan bir gerçəklik kimi özündə eyni zamanda üç varlığın mövcudluq üsulu ilə aktuallaşır. Hər bir ayrıca varlığa xas mövcudluğa cəhd insanda **Yaşam Dinamikalarını** meydana çıxarır. Beləliklə, "Nəsə İnsan"ın varlıqlarına uyğun üç yaşam dinamikası mövcuddur:

A. Real Mənin yaşam dinamikası - Qrup naminə yaşamaq: Real Mənin yaşam dinamikası cisimlərin mövcudluq üsulunun refleksiyası kimi, özü ilə mövcudluğa cəhddən ibarətdir. Cismin Real Mən kimi refleksiyası **Eqo** kimi təzahür edir. Eqo - Fiktiv Ruhun bədəndən asılılığını özündə ifadə edir. Bu cür yaşam dinamikasında bədən əsas, Fiktiv Ruh ikincili rol oynayır.

Haşiyə: V.Frankl, "Naməlum Mən"

> *"Zaman-zaman, hiss orqanları inkişaf etdikcə və məlumatı və kommunikasiyanı daxildə qəbul edən çoxlu sayda qavrayış mərkəzləri meydana çıxdıqca, fərdə yeni vasitələr və ya sistemlər lazım gəlir ki, onları özünüdərki müəyyən səviyyədə saxlamaqdan ötəri inteqrasiyaya qabil olsun. Məhz bu sistemi biz Eqo adlandırırıq. Eqonun vəzifəsi şəxsiyyətin tamlıq hissinin qorunması və təmin edilməsindən ibarətdir."*

V.Franklın fikirlərinə uyğun olaraq, xaricdən gələn informasiyanı orqanizasiyaya məruz qalmamış cisim öz cismi ilə bir tam kimi qəbul edir və onu özündə inteqrasiya edərək təzahür etdirir. Cisimlərdə bu Passiv Güclə şərtləndiyindən **Ətalət** kimi meydana çıxır. Canlılar Aktiv Gücdən yarandığından və canlılar orqanizasiyaya məruz qaldığından, xüsusi mərkəzlər fərqli informasiya mərkəzləri kimi çıxış edir. Həmin

mərkəzlərin vəhdətindən Eqo təzahür edir. Yəni bədən özü-özündə öz mərkəzi kimi çıxış edir. Belə vəziyyətdə orqanizmin bütün gücü həmin mərkəzə istiqamətlənir; hansı ki, canlıların Eqosunu təzahür etdirir. Eqo istənilən mövcudluğun bazisini təşkil edir. Eqo - insanın öz fiziki Mənliyinə bağlanmasıdır. İnsanın eqosunun təmin edilməsi **Həzz hissi** ilə ekspressiya olunur.

> ***Haşiyə:*** *A.Piz - İki tələbatın (qidaya və seksuallığa) təmin edilməsi həzz yaradır. Həzz prinsipi İD üçün fəaliyyət formasıdır, reallıq prinsipi Eqonun işi üçün metod rolu oynayır. Eqonun və reallıq hissinin təbiəti - inkişafın eyni mərhələsinin iki təzahürüdür. Bu, reallığı idarə edən ağlın hissəsi kimi Eqonun təyininə qayıdışdır. Eqo bütün əksiliklərin və əksqoymaların yaradıcısıdır.*

Eqonun təzahürü insanda **Eqoizm** prinsipini meydana çıxarır. Eqoizm - insan varlığında mövcud olan üç müxtəlif Mənin daxildə bir Məndə birləşdirilməsindən ibarətdir. Bunun ekzistensiyası - öz şəxsi tamah məqsədlərinə istiqamətlənmə və başqa insanların və sosial icmanın maraqlarına şüuraltı tələbat kimi meydana çıxır. Bu prinsip başqa insana və ya sosial birliyə öz tamahkar maraqlarına çatmaq üçün vasitə kimi münasibət göstərir. Eqoizm prinsipi ilə yaşam dinamikasında şəxs daha çox asosial olur. Xarici totallığın təşkilində iştiraka meyllənmir.

B. Kimlik Məninin yaşam dinamikası - Nəsil naminə yaşamaq: Kimlik Məni canı özündə refleksiya etdiyindən, canlılara xas özündənolanla mövcudluğa cəhd edir. Buradan bioloji əsasda olan bütün münasibətlər - ailə, tayfa, qəbilə, xalq münasibətləri yaranır. Kimlik Mənində yaşam dinamikası **Eqosentrizm** prinsipinə tabe olur. Eqosentrizmdə Eqo əsas olsa da, Eqo ilə bilavasitə bağlı olanlarla xüsusi münasibət yaranır. Eqosentrizm prinsipi başqa insanların baxışlarından asılı olmayaraq, insanın öz şəxsi perspektivi nöqteyi-nəzərindən dünyaya baxışını təqdim edir. Eqosentrizm - insanların psixoloji təşkilatlanmasını özü ilə eyniləşdirməyə cəhddir.

V. Subyektiv Mənin yaşam dinamikası - İnsanlıq naminə yaşamaq: Subyektiv Mənin yaşam dinamikası Ruhun mövcudluq üsuluna uyğun özükimilərlə mövcudluğa cəhddən ibarətdir. Özükimilərlə əbədiliyə cəhdin xarici totallığından cəmiyyət, millət, dövlət meydana çıxır. Bu cəhdin prinsipi **Altruizm**dir. Altruizm - bioloji mənada bir orqanizmin öz yaşama şansını azaltmağa paralel başqa orqanizmin yaşama şansını artırmasından ibarətdir. Altruizm - nəsil qoruma və sürü şəklində fəaliyyətin əsasında durur. İctimai davranışlarda altruizm özünə qənaət etməklə başqalarına könüllü kömək etmək, başqalarının kədərini bölüşdürmək, başqalarına yardım etməklə dolayısı ilə özünə yardım etmək, qarşılıqlı münasibətlərdə borcla bağlıdır. Altruizmdə şəxsiyyətin istiqamətləndiyi dəyərlərin mərkəzi motivi və əxlaqi qiymətin kriteriyası başqa şəxslərin və ya sosial birliyin maraqları olur.

"NƏSƏ İNSAN"IN MÖVCUD OLMA ÜSULU -EKZİSTENSİYA

Biz Ekzistensiyanı metafizik proses kimi, transendensiyaya əks şüuri hərəkət kimi təyin edirik.

Haşiyə: Nikola Abbanyano, "Ekzistensializmə giriş"

> *"Ekzistensiyanın onun strukturunda əsas hərəkəti transendensiyadır. Mövcudluqla münasibət kimi ekzistensiya transcendentliyə transendensiyadır."*

N.Abbanyanonun ekzistensiya ilə bağlı fikirlərini necə izah etmək olar? Transendensiya obyektiv gerçəkliyin sərhədlərinə çıxmağı, hissi qavrayışdan uzaqlaşmağı özündə təqdim edir; hansı ki, çıxış nöqtəsini obyekt təşkil edir. Gerçəklik isə yalnız onda obyekt kimi çıxış edir ki, Ruh ona münasibəti ilə (özünün mövcudluğuna münasibət yaratmaqla) onu "elə-belə" reallıqdan gerçəkliyə çevirsin. Buradan da obyekt Transendentlik kimi çıxış edir. Buna görə də, ekzistensiya - transendentlik kimi çıxış edənə transendensiya və ya girişdir. Belə ki, əgər transendensiya anlayışı Ağlın təcrübənin sərhədlərindən kənara çıxmağı

(metafizikaya keçidini) özündə ifadə edirsə, onda ekzistensiya bunun əksinə, Metafizikanın (Ruhun) sərhədlərindən çıxıb Təbiətə (canlı bədənə) keçməyi özündə ifadə edir.

Haşiyə: Nikola Abbanyano, "Ekzistensializmə giriş"

> *"Mənim aydın və möhkəm saxlamaq istədiyim tələb - metafizikanın prinsipini istənilən obyektiv və subyektiv interpretasiyadan azad etmək və (eyni qətiyyətlə və sərtliklə) mahiyyət etibari ilə onu insanın formalaşması ilə bağlamaq tələbi - məni bu prinsipin adına yenidən baxmağa və özünün rasional obyektivlik və subyektivlik planına aid olmasına imkan verməyən təyinin axtarışına gətirib çıxarmışdır. Kyerkeqorun və Haydeqqerin ekzistensiya fəlsəfəsi bu formulyasiya üçün mənə terminoloji vasitə vermişdir. Ekzistensiya fikirlə həyat arasındakı xarici yadlaşmanı və təkliyi aradan götürür, onları düşünən həyat vəhdətində formalaşdırır və ya həyatı fikirlə doldurur. Əgər insanın başlanğıc ekzistensiyası mövcudluq problemidirsə, onun fundamental mənası bu problematikliklə təyin olunur. İnsanın etdiyi ekzistensiya (ekzistensiya onun mövcudluq üsuluna xasdır) onu bildirir ki, o mövcudluq kimi yox, mövcudluğa münasibət və bu münasibətin mümkünlüyü kimi formalaşır."*

N.Abbanyanodan gətirdiyimiz fikirlərdən görünür ki, əslində ekzistensiya anlayışı nə xalis obyektivliyi, nə də subyektivliyi şərh edən anlayış deyil. Başqa sözlə, ekzistensiya subyektivliklə obyektivliyi əlaqələndirən, onları vəhdətdə özündə təqdim edən anlayışdır. Yalnız "nəsə insan" ekzistensiya etdiyindən, burada obyektivlik kimi insanın həyatı (bədəni), subyektivlik kimi onun Ruhu götürülür. Beləliklə, ekzistensiyanı bir qədər fərqli şəkildə belə ifadə etmək olar: Özünün xüsusi mövcudluq üsulu olmayanın (yəni Ruhun) mövcud varlığa (yəni həyata və ya canlı bədənə) münasibəti ilə özünə mövcudluq kimi münasibət qazanması - münasibətin mümkünlüyü kimi - ekzistensiyanı təşkil edir. Başqa sözlə, mümkün varlığın mövcud varlığa münasibətindən aşkarlanan mümkün münasibət Ekzistensiyadır. Mümkün münasibət -

obyektiv gerçəkliklərdən fərqli olaraq müstəqil keyfiyyətlərdə təzahür imkanı olmayan Ruhun, bədənin təzahürləri ilə ikincili özünü təcrübədə (obyekt-subyekt münasibətində) dərk olunan vəziyyətə gətirməsindən ibarətdir. Buna görə də, Metafizikin "özünü öyrənməyə cəhd etdiyi varlığa daxil etməsi" ekzistensiya kimi dəyərləndirilir. Ekzistensiya yalnız şüurlu gerçəklik olan insana xas xarakteristikadır.

Haşiyə: Martin Haydeqqer, "Varlıq və Zaman"

> *"Ekzistensiya üsulu ilə mövcud olan mövcudluq - bu insandır. Yalnız insan ekzistensiya edir. Ego cogito, düşünən Mən, Dekart üçün odur ki, bütün cogitationes əvvəlcədən artıq ön-qoyulub və müəyyənləşib. Sual doğurmayan iştirakçıya, şübhəsiz, həmişə əvvəlcədən, müəyyənləşməmişdən qabaq, məhz hər şeyi öz qabağına qoyan və bununla da başqasına əks olan kimi, həqiqi yəqin bilik artıq məlumdur. Ön-şey "əks qoyulana", birincisi tərkib ("nə"), ön-qoyulmuşa ikincisi əksdurana önqoyulmanın özü aiddir. Predmet önqoyulma ilə tərkibin bu vəhdətidir."*

Haydeqqerin insanın "ekzistensiya üsulu ilə mövcud olan" təyinini bir qədər geniş şərh etmək lazım gəlir. Ekzistensiya üsulu ilə mövcud olmaq özündə ümumi şəkildə metafizikadan təbiətə keçməklə mövcud olmağı təqdim edir. İnsan dünyaya gəlməmişdən metafizikada mövcud olur, doğulmaqla təbiətə keçir, yalnız idrakla təbiətdə şüurlu mövcudolana çevrilir. Buna görə də, ekzistensializmdə insan anlayışı fikrən bədəndən kənar götürülən, yalnız düşünən, ağıla malik, ruhi varlıq kimi subyekt mənasını verir.

Haşiyə: Nikola Abbanyano, "Ekzistensializmə giriş"

> *"Həqiqi ekzistensiya - bu mövcudluqla həqiqi münasibətdir; fərdin mövcudluğu ilə (hansı ki, onun gücünə həqiqi mənada Mən olur; yəni şəxsiyyət, subyekt, ağılla mühakimə edən); dünyanın mövcudluğu ilə (hansı ki, öz qaydaları ilə təqdim olunan və həqiqi mənada obyekt kimi çıxış edir); icmanın mövcudluğu ilə (hansı ki, onun gücünə özünü özünün həmrəy birliyində, özünün tarixi taleyində açır)."*

N.Abbanyanonun şərhindən görünür ki, ekzistensiya bir-birindən fərqli mövcudluqlara münasibətdən fərqli mənalar meydana çıxır. Belə ki, Ruh bədənin mövcudluğuna münasibəti ilə öz mövcudluğuna münasibət yaradır. Buradan **Konkret "Mən"**, idrak prosesində xarici varlığın mövcudluğuna münasibətlə özünün mövcudluğuna münasibət kimi **"Düşünən Mən"** meydana çıxır. Həqiqi dünyadakı mövcudluğa münasibətdə onları öz xüsusi qaydaları olan obyekt kimi (yəni subyektə münasibətdə olan gerçəklik kimi) üzə çıxarır. Cəmiyyətə münasibətdə, özünün tarixi mövcudluq üsuluna uyğun öz tarixi taleyini yaradır.

İdrak prosesində ekzistensiya necə mövcud varlığa münasibətindən öz qaydaları olan obyekti müəyyən edir? İdrakın vəzifəsi həqiqəti qeyri-müəyyənlikdən azad etməkdir. İnsan həqiqəti qeyri-müəyyənlikdən yalnız müəyyənliyin iştirakı ilə, onunla müqayisədə, onların fərqindən azad edə bilər. Beləliklə, idrakın başlanması artıq qabaqcadan insanın müəyyənliyə malik olmasını tələb edir. Yəni idrak etməyə başlamaq - qabaqcadan başlanğıc müəyyənliyə malik olmaq deməkdir. Belə müəyyənliyi biz **Daxili Müəyyənlik** (Başlanğıc Müəyyənlik) adlandırırıq. Daxili müəyyənlik olmadan insan xarici qeyri-müəyyənliyə istiqamətlənə bilməz. Yəni "düşünən Mən" müəyyənləşmədən kimin düşünməsi sual altına düşür; əgər düşünən Mən konkret deyilsə, düşünülən şey idraka cəlb oluna bilməz. Başqa sözlə, mücərrəd "düşünən" özündə xalis boş fəaliyyət kimi meydana çıxır. Mübtədasız istənilən fel belə boş fəaliyyəti özündə ifadə edir. Məsələn: gəlmək, getmək, görmək və s.

İki cür daxili müəyyənlik ayırd etmək olar:

a. Elə-belə özü-özündə varlıq kimi müəyyənləşmə: Yəni insan təbiətdənkənar özünün metafizik varlıq olduğunu özü-özünə spontan, düşünmədən kənar "elə-belə" müəyyənləşdirir. Məhz buna görə "mövcudluqla varlığın fərqinin qeyri-müəyyənliyinə" istiqamətlənir ki, onları müəyyənləşdirməklə həmin fərqliliyi dəf etsin. Burada, mövcudluq

- real təbiətdə olanlar; varlıq - metafizik aləmdə olanları ifadə edir. Yəni mövcudluqla varlığın fərqi Təbiətlə Metafizikanın fərqini özündə ifadə edir. Məhz insanın öncədən özü-özündə varlıq kimi müəyyənliyi ekzistensiyanın başlanğıcını təşkil edir. Ekzistensiya insanın öz metafizik təbiətindən Təbiətə - başlanğıc müəyyənlikdən qeyri-müəyyənliyə çıxışıdır; hansı ki, bunun əksinə, **İntensiyada** təbiətdən metafizikaya qayıdış edir. Məsələn: "Bu mənəm" - bu, özü-özündə varlıq kimi müəyyənləşməni ifadə edir. Özü-özündə varlıq kimi müəyyənləşmə özündə başqa varlığın və mövcudluğun istisnasını təqdim edir. Məhz buna görə "mücərrəd düşünən" konkret "düşünən Mən"ə çevrilir. Biz bunu Düşünənin Konkretləşməsi kimi təyin edirik. Bu olmadan təcrübəyə daxil olmaq mümkün deyil, çünki idrakın digər tərəfi (mövcudluqlar) konkret olduğundan, yalnız konkret subyektlə münasibətdə ola bilərlər.

b. Özü-özünü dərk etməklə müəyyənləşmə: Belə müəyyənləşmə mövcudluq və varlıq olan insanda mövcudluğun varlıqdan fərqinin qeyri-müəyyənlikdən azad edilməsini özündə təqdim edir. Yəni insan özü-özünü dərk etməklə Ruhun bədəndən fərqliliyini aşkarlayır. Biz bunu ekzistensiyanın əksiliyi kimi - İntensiya kimi təyin edirik.

Əslində mövcudluqların təzahürünü biz **Başlanğıc Passiv Ekzistensiya** (və ya Obyektin Ekzistensiyası) kimi təyin edə bilərik. Belə ki, istənilən təzahür obyektdən sürəkli çıxış halı kimi meydana çıxır. Passiv ekzistensiya (təzahür) geridönməz ekzistensiyadır. Yəni şeyin ekzistensiyası sonsuzluğa istiqamətlənib. Subyektin ekzistensiyası bundan fərqli olaraq aktiv və dönərlidir, yəni **İnteraktivdir**. Bir tərəfdən, canlı bir növ olan insan (fərd kimi) digər varlıq formaları kimi bilavasitə mövcudluqdur və belə mövcudluğun üsulu sürəkli (fasiləsiz) təzahürdür; yəni fərd həyatda olduqca, zamanla şərtlənməsi davam etdikcə, biz onun mövcudluğunu reallıq kimi dərk edirik. Sürəkli təzahür - mövcudluğun zamanla şərtləndiyi müddətdə özündəki həqiqəti aydınlaşdırmasıdır (həqiqətin özündən kənara çıxarmasıdır). Sürəkli təzahür xariclə daxilin -

forma ilə mahiyyətin vəhdətindən meydana çıxır. Forma ilə mahiyyətin vəhdətində mahiyyət daxili olub, heç bir halda bilavasitə kənara çıxmır, formadan aralanmır, başqa formalara keçmir. Obyektiv gerçəkliklərin mahiyyəti yalnız forma ilə vasitəli təzahür edir. Təzahür - gerçəklikdən ayrılmayan, sürəklilik xarakteristikasına malik və başqalarının təsirini konkret fərdi şeyə istiqamətləndirən xarakteristikadır. Digər tərəfdən, M.Haydeqqerin qeyd etdiyi kimi, insanda həm də digər bütün canlılardan fərqli olaraq (yalnız bioloji növ olan fərddən) interaktiv ekzistensiya üsulu ilə mövcud olan təbiət vardır; hansı ki, bu təbiətində fərd Şəxsiyyət kimi meydana çıxır. Buradan da deyə bilərik ki, insanın ekzistensiyası şəxsiyyəti təşkil edir. İnteraktiv ekzistensiya Ruhun təzahür formasıdır və obyektiv gerçəkliklərin təzahüründən aşağıdakılara görə tamamilə fərqlənir:

1. İnteraktiv ekzistensiya üsulu passiv ekzistensiyadan sürəkliliyə görə fərqlənir. Başqa sözlə, ekzistensiya - fasiləli, təzahür - sürəklidir. Fasiləli təzahür termini özündə nəyi təqdim edir? Əgər fasiləsizlik bilavasitəliyin xarakteristikasıdırsa, onda fasiləliliyi vasitəliyin (dolayılığın) xarakteristikası hesab etməliyik. Beləliklə, insanın ekzistensiya üsulu ilə mövcud olan təbiəti vasitəli mövcud olan təbiətindən meydana çıxır. **Vasitəli mövcudluq** - özünün müstəqil mövcudluğu olmayan, başqasının mövcudluğundan öz xüsusi mövcudluq üsulu ilə (yəni dolayı mövcudluq olan) mövcudluqdur. Hansı ki, bilavasitə mövcudluqla şərtlənmişdir, yalnız ondan təzahür edir və bu zaman bilavasitə mövcud olan sürəkli təzahür etdiyindən, vasitəli mövcud olanın təzahürlərinə yalnız xüsusi şərtlərdə (fasilələrlə) təzahürünə imkan verir. Vasitəli mövcudluğun öz xüsusi forması olmadığından, xarici ilə daxili (və ya forması ilə mahiyyəti) vəhdət təşkil etmir. Yəni bioloji varlıq kimi insanın forması ruhi mahiyyətlə vəhdətdə deyil; ona görə də fərdin xarici seyrindən Ruhun mahiyyətini dərk etmək mümkün deyil, və ya belə vəhdət olmadığından Ruhun daxilinin xarici görüntüsü yoxdur.

2. Ekzistensiyanın təzahürdən ikinci fərqi: ruhi keyfiyyətlərin fərdi mövcudluqdan ayrılması, kənara çıxması, başqa obyektlərə köçürülməsidir. Fərdi mövcudluqdan ayrılma - Ruhun xarici əşyalarda kristallaşma qabiliyyəti ilə bağlıdır; hansı ki, fərddə fəaliyyət kimi mövcud olur. Fərddən ayrılan Ruh xaricdə fəaliyyətdən məhrum kristallaşmış, yəni maddi obyektlərdə donmuş vəziyyət alır. Mədəniyyət nümunələrindəki Ruhun izləri məhz belə kristallaşmanı göstərir. Təzahürlərin kristallaşma xassəsi yoxdur, ona görə də hər hansı bir şeyin təzahürü ondan kənarda onsuz mövcud olmur. Obyektiv gerçəkliklərin tabe olduğu əsas qanunlardan biri başqasının öz daxili aləminə keçməsini istisna etməsidir. Yəni obyektiv gerçəkliklər bir-birinin daxilinə ”keçə” bilmir. Formanın hüdudları məhz özündə belə keçirilməzliyin əlaməti kimi aşkarlanır. Əgər belə keçiricilik olsaydı, onda bir substansiya digərinə keçərdi və hər bir gerçəklik özündə sonsuz sayda şey kimi çıxış edərdi (yəni “hər bir şey hər şey” olardı). Amma Ruh istənilən obyektiv gerçəkliyin daxili aləminə və başqa şəxsin Fiktiv Ruhuna keçə bilir. Məhz buna görə “hər bir insan (Fiktiv Ruh) özündə ümumi insanlıq olur”. Birinci Anlama (idrak), ikinci Empatiya (başa düşmə) kimi meydana çıxır. Ekzistensiya üsulu mahiyyətin formadan müvəqqəti və ya birdəfəlik ayrılması ilə təzahürdən fərqlənir. Təzahür sürəklilik xarakteristikasına malik olduğundan, əbədi şeylərdə əbədilik keyfiyyəti əldə edir. Ruhun forması (bədən) əbədilik xarakteristikasına malik olmadığından (bədən zamandan asılılıq qanunlarına görə ölümlə fanilik əldə etdiyindən), Ruhun ekzistensiyası formadan ayrılma xarakteristikasına malikdir. Formadan ayrılma müvəqqəti (nisbi) və daimi (mütləq) olmaqla iki növdür. Mütləq ayrılma bədənin ölməsi ilə Ruhun bədəni tərk etməsi, birdəfəlik geridönməz ekzistensiya kimi meydana çıxır. Nisbi ayrılmada Fiktiv Ruh ətrafı idrak etmək naminə obyektiv gerçəkliklərə keçərək onların həqiqəti haqqında məlumatı özündə refleksiya edir, sonra yenidən forma ilə ikincili vəhdət təşkil edir.

Ekzistensiyanın mahiyyəti nədən ibarətdir? Nə üçün Ruh ekzistensiya edir? Hər hansı bir varlığın təzahürü özündə yalnız həqiqətin aydınlaşmasını təqdim edir. Ruhun ekzistensiyası isə bir tərəfdən özündə həqiqətin aydınlaşmasını, digər tərəfdən özündə aydınlaşmayan varlıqda aydınlaşan həqiqətin ikincili olaraq özündə aydınlaşdırma cəhdini - **Həqiqətin aydınlaşmasının aşkarlanmasını** təqdim edir. Həqiqətin aydınlaşmasının aşkarlanması Ruhun ekzistensiyasının əsasında durur. Ruh nə qədər çox həqiqəti özündə aşkarlayırsa, bir o qədər ekzistensiya etmək imkanı qazanır. Nə qədər çox ekzistensiya edirsə, bir o qədər mövcud olur. Biz ekzistensiyanı **Mövcudluğun İdrak Məqamı** adlandırırıq. Beləliklə, mövcudluğun idrak məqamı - Ruhun keçici olaraq mövcudluqla vəhdət təşkil etməsi, yəni onun mövcudolması ilə mövcud olması ekzistensiyanın mahiyyətini təşkil edir. Buna görə də idrak prosesi Ruhun mövcudluq üsulu kimi çıxış edir. Bu baxımdan, ekzistensiya Ruhla mövcudluğun elə təmas vəziyyətidir ki, bu vəziyyətdə mövcudluğun həqiqəti Ruhun həqiqətinə çevrilir. Nəticədə Ruhun həqiqəti özündə mövcudluğun həqiqətini təqdim edir. Bununla da insan özü-özünü Metafizikanın predmetinə çevirir. Halbuki elm və fəlsəfədə mövcudluğun həqiqəti Ruhda refleksiya etməklə onda aşkarlanır; başqa sözlə, sanki Ruh özünü idrak obyektindən yadlaşdırır, kənarlaşdırır və yalnız birtərəfli obyektdə aydınlaşan həqiqəti özündə əks etdirir; hansı ki, nisbi bilik kimi meydana çıxır. Metafizik bilgi həm də Ruhun bilgisi olduğundan xalis bilgidir. Buna görə də, metafizik bilgi özündə həm Mövcudluğun, həm Ruhun, həm də hər ikisinin qarşılıqlı əlaqələri haqqında bilgi kimi meydana çıxmalıdır.

Real mövcudluqlar həm eynilik kimi özündə saxlandığından, həm fərqlilik kimi özündən itələndiyindən eyniliklə fərqliliyin - **Cazibə ilə itələnmənin** vəhdəti kimi təzahür edir; yəni özündən çıxmır, başqasına keçmir, sadəcə başqa varlıqlara xarici təsir edir və bu təsirlərdən insan tərəfindən aşkarlanır. Ruh özündən aktual fərqliliyini itələyərək özündə saxladığı potensial fərqliliyə keçir; nəticədə Ruh fərqliliklərin inkarı, yəni

elə-belə itələnmə kimi mövcud olur. Belə itələnmə vəziyyətində özündə eynilik saxlanmadığından (yəni Ruhda daxili vəhdət olmadığından) özündəşeysiz (yəni obyektsiz) itələnən fərqlilik azad şəkildə başqa mövcudluqlara keçir; hansı ki, biz bunu ekzistensiya kimi qavrayırıq. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ekzistensiya - Ruhun özündə mütləq fərqliliyini itələməsi ilə başqa mövcudluqlara keçməsi, onların mövcudluq şərtlərini əldə etməklə onlarda özünə mövcudluq yaratmaq cəhdindən ibarətdir.

Məsələn: Heykəltaraş əvvəlcə bir parça qraniti tədqiq edir, onun təşkilolunma qaydalarını öyrənir, sonra bu qaydalar əsasında onun təbii xarici görünüşünü dəyişir və özü istədiyi formanı onun xarici görünüşünə proyeksiya edir. Nəticədə qranit heykələ çevrilir, bununla da heykəltaraş cisim kimi qraniti ikincili məna daşıyan mövcudluq kimi təqdim etməklə, həmin ikincili mövcudluğun məhz müəllifi kimi özünü təzahür etdirir. Burada müəllif mücərrəd varlıq kimi fərdi Ruhu ifadə edir. Buradan da Ruhi Mövcudluq (yəni Ruhun ”özündəşeyi”) **Özündənkənarşey** kimi meydana çıxır. Ruhun mövcudluğu mövcud olmasından kənarda - xaricdə meydana çıxdığından biz Ruhu özündənkənarşey kimi təyin edirik. Yəni Ruhun şeyi özündə yox, başqa mövcudluqlarda proyeksiya olunur. Faktla Aktın bir-birindən ayrı məkan və zaman şərtlərinə tabe olmasına görə Ruh dolayısı ilə aydınlaşır, başqa sözlə, Ruhun bilavasitəliliyi yoxdur. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır:

Formal Ruhun obyektivliyi və bilavasitəliliyi olmadığından, obyektiv gerçəkliklərin dərkinin idrak üsulları ilə dərk olunmazdır.

Formal Ruh bir tam kimi ekzistensiya etdiyindən ekzistensiya eyni zamanda həm Formal Ruhun təsiri, həm də təzahüründən ibarət olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ekzistensiya - Formal Ruhun təzahürü ilə təsirinin şərtlərinin məcmusundan ibarətdir.

Mövcud varlıqlarda təzahür aksidensial, təsir substansial olduğundan, mövcud olmada təzahürlər kənara çıxır, təsirlər mövcudluqda saxlanılır. Lakin Ruhun mövcudluğu olmadığından, təzahür etdikdə təsirini də özü ilə bərabər kənara çıxarır. Bunu biz ekzistensiya kimi qavrayırıq. Kosmosda mövcud varlıqlarda ekzistensiya baş vermir. Belə ki, təzahür aksidensiya edir (xaricə çıxarılır, itələnir), təsir substansial olaraq mövcudluqda saxlanılır (cəzb edilir). Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ekzistensiya - Ruhun Formal Varlığının bədənin formal varlığını özündən daxilə itələməsi ilə özünün kənara çıxmasının şərtlərinin məcmusundan ibarətdir.

Formal Ruh bədənlə asılılığı dəf edərək xaricə çıxmağa, bədəndən kənar başqa fərdlərə və xarici obyektlərə keçməklə öz başlanğıc təkliyini bərpa etməyə cəhd edir. Bu cəhd ekzistensiyadan ibarətdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ekzistensiya - Formal Ruhun bədənin asılılığından azad olub özünə xüsusi faktiki varlıq yaratmaqla mövcud varlığa çevrilməsinin şərtlərinin məcmusundan ibarətdir.

Haşiyə: Nikola Abbanyano, "Ekzistensializmə giriş"

> *"Fikir mənim üçün öz ifadəsini və təzahürünü gizli həyat gücünün müxtəlif rəngli və müxtəlif formalı perspektivlərin çarlığı kimi təsəvvür olunur. O mənə situasiyanın simvolu kimi gəlir; həyatın özünə əks hərəkət və ziddiyyət kimi; insan həyatı kimi, həyatın mümkünsüzlüyünün simvolu kimi; baxmayaraq ki, özünün başlanğıc gücünü tam əldə edə və onda tam ifadə edə bilmir. Ekzistensiya xarici təkliyi və həyatla fikir arasındakı yadlığı aradan götürür, onları düşünən həyatın vəhdətində və həyatla dolu fikirlə formalaşdırır."*

N.Abbanyanonun fikirlərindəki "gizli həyat gücü", "situasiyanın simvolu", "insan həyatı kimi həyatın mümkünsüzlüyünün simvolu" və "başlanğıc güc", "həyatın özünə əks hərəkət və ziddiyyət kimi" məhz

Formal Ruhu təsəvvürə gətirir; hansı ki, Fikir onun təzahürlərindən biridir. Başqa sözlə, fikirləşmək (yəni fikir sıraları yaratmaq) Formal Ruhun ekzistensiya üsullarından biridir; hansı ki, məhz fikirləşməklə Fiktiv Ruh bədənin ona təsirlərindən azad olur, bununla ondan kənara çıxır və öz həqiqətini müstəqil aydınlaşdırmağa cəhd edir. "Həyatla fikir arasındakı yadlıq" - Formal Ruhla mövcud varlıq arasındakı yadlıqdır; hansı ki, fikirləşən insan öz Ruhunu mövcud varlığa yönəldir, onunla əlaqələnir və reallığı dərk edir.

FORMAL RUHUN TƏZAHÜRÜ

Ruhi təsir olmadan Formal Ruhun daxili çoxluğunun təklik formasında ekzistensiya edilməsini biz **Formal Ruhun Təzahürü** kimi təyin edirik. Ruhi təzahürlərdə ekspressiya baş vermir, yalnız ekzistensiya müşahidə olunur. Ruhi təzahür Formal Ruhu təşkil edən ayrı-ayrı kimliklərin aksidensiyasından ibarətdir. Formal Ruh iki cür təzahür edir:

Konkret fərdi ruhi təzahür: Bədənə münasibətdə Formal Ruhun təzahürlərindən ibarətdir. Bura **Mən, Sən və O** aiddir. Belə təzahürlər bədənə münasibətdə aşkarlandığından fərdidir.

Mücərrəd kollektiv ruhi təzahür: Belə təzahürlər bədənə yox, intensional birliyə münasibətdə aşkarlanan təzahürlər daxildir. Bura **Biz, Siz, Onlar** və müxtəlif kütlə kimlikləri aiddir. Kollektiv təzahürlər müəyyən ideyalara münasibətdə təzahür edir.

FİKTİV RUHUN FƏRDİ TƏZAHÜRLƏRİ: MƏN, SƏN, O

"Nəsə insan" eyni vaxtda özünə münasibətdə **Mən**, başqasına münasibətdə **Sən**, qeyri-müəyyən insanlara münasibətdə müəyyən **O** (və ya müəyyən insanlar üçün qeyri-müəyyən O) kimidir. Özünə münasibət - Özünüdərkin şərtlərinin məcmusundan; Başqasına münasibət - İctimai münasibətlərin şərtlərinin məcmusundan; Müəyyənlərin qeyri-müəyyənə (və ya əksinə) münasibəti - Kütlənin şərtlərinin məcmusundan ibarətdir.

Buna görə də: O-nun mahiyyəti Kütlə psixologiyasından; Sənin mahiyyəti İctimai münasibətlərdən; Mənin mahiyyəti Özünüdərkdən aşkarlanır. Fərdi Ruhun kimlikləri ruhi mövcudolmanın ayrı-ayrı zəruri şərtlərinin məcmusundan meydana çıxır:

1. MƏN - EŞQ: Mən - Eşqin şərtlərinin məcmusundan ibarətdir. Ruhun daxili çoxluğunun formalarından biri Məndir. Mən Ruhun başlanma şərtlərinin məcmusundan ibarət olub, özündə bədənlə Formal Ruhun əlaqəsini ifadə edir. Beləliklə, Mən - Fiktiv Ruh və ya "Bağlayıcı Mən"in şərtlərinin məcmusundan ibarətdir. Mən bədənə münasibətdə daxili olandır. Bədənlə bilavasitə "bağlanmış Mən"in aşkarlanması Özünüdərkdən ibarətdir. Özünüdərk - bədənin Ruha və Ruhun bədənə qarşılıqlı təsirinin şərtlərinin məcmusundan ibarətdir. Hər bir fərd özündə Ruhun aydınlaşdırılmasında bədənin və ya Formal Ruhun nə dərəcədə iştirak etdiyini təqdim edir. "Mən" daxili olduğundan yalnız daxili seyr olunandır və təfəkkürdə özü-özünü refleksiya kimi yaranan daxili əsərdir. Daxili seyrdən bədən aşkarlanmadığından hər bir Mən bədənsiz təsəvvürə gətirilir. Bədənsiz təsəvvürə gətirilən Mən özlüyündə müəyyən "Mən"dir. "Mən"in idrakı metafizik qanunlara tabe olur.

2. SƏN - ƏSƏR: Formal Ruhun əsərinin şərtlərinin məcmusu "Sən"dir. Sən Mənin əksinə xarici seyr olunan, amma daxili Məni dərk olunmayan fərdi ruhi təzahürdür. Fiktiv Ruh bədənlə əlaqəsində bədəni özündənkənar şey kimi təsəvvürə gətirməsindən Sən haqqında təsəvvür yaradır. Biz "nəsə insan"ın bədənin ruhsuz təsəvvürünün şərtlərinin məcmusunu Sən kimi təyin edirik. Beləliklə, Sən - özündə Ruhla əlaqənin şərtlərini saxlayan, amma "Mən" kimi təzahür etdirməyən fərddir. Başqa sözlə, bizdən kənar bilavasitə bədəndən fikrən təsəvvürə gətirilən "Mən" "Sən"dir. Beləliklə, Sən faktiki götürülənin fikrən götürüləndən ayrılması ilə idrak olunur. "Sən"lə "Mən"in vəhdəti konkret fərddir. Sən yalnız Məndən kənardan (xarici təsirdən) aşkarlanan Məndir. Buna görə də Sən **Əsər** kimi meydana çıxır. Beləliklə, Formal Ruhun

əsərinin şərtlərinin məcmusu "Sən"dən ibarət olur. İnsan bədəni özündə vasitəsiz görmür, yalnız başqasından (Sənin təsirindən) bədəni təsəvvürə gətirir. Beləliklə, Sən Məndə əsər kimi meydana çıxır; və ya insan yaradıcılığının məhsulu olan hər şey Sənin kənara çıxarılması (proyeksiya edilməsi) kimi baş verir. Bu, elmdə **İnkorporasiya** (bədənin xaricə çıxarılması) kimi qavranılır. İnkorporasiya - Fiktiv Ruhun bədənlə əlaqəsində bədənin obrazını və ideyasını ayrı-ayrılıqda və ya vəhdətdə kənara çıxarılmasından (yəni kənarda müxtəlif erotlar kimi yaratmasından) ibarətdir. İnkorporasiya texnika, texnologiya kimi təzahür edir. Sən Ruhun təsir etmədiyi Mən kimi təsəvvürə gəlir və buna görə də xarici seyr olunandır. Yəni Sən insanın o kimliyidir ki, o xaricdən başqası tərəfindən, daxildən insanın özü tərəfindən seyr edilir. Daxili seyrlə xarici seyrin rabitəsi ictimai münasibətin başlanğıcını təşkil edir. İnsan başqaları ilə münasibətə girəndə onun Məni Sənindən ayrılır, nəticədə Səni (başqasının Məni) ilə vəhdət təşkil edir; hansı ki, biz bunu ictimai münasibət kimi qavrayırıq. Sən özlüyündə ictimai münasibətin potensiallığı kimi mövcuddur. Sən-kimi Məni olmayan insan ictimai münasibətlərə meyl etmir. Buradan da ifrat Mənləşmə (narsisizm) insanı asosial vəziyyətə salır.

3. O - İRADƏ: Biz Formal Ruhun ölçüləndirmə şərtlərinin məcmusunu "O" kimi təyin edirik. "O", "Mən" kimi bədənsiz təsəvvürə gətirilən, lakin ondan fərqli olaraq qeyri-müəyyən Məndir. "O" potensiya kimi mövcud olan mücərrəd ölçülükdür; hansı ki, konkret bədəndən Mən və Sən kimi aşkarlanır. Buradan da O-nu **İradənin** şərtlərinin məcmusu kimi təyin edə bilərik. "O" nə əsərə, nə eşqə malikdir. Eşqə malik olmadığından konkret bədənlə və ya xarici predmetlə bağlılığı məlum deyil; əsərə malik olmadığından obrazdan təsəvvürə gətirilməyəndir. "O" insanın "Kütlə-Mən"inin və ya Təhtəlşüur Məninin təşkil edir. O, bədənindən çıxarılmış Fiktiv Ruhdur. Təbiətdə Fiktiv Ruh təsəvvürə gəlmədiyindən, ayrı-ayrı bədənlərdən azad olmuş Fiktiv Ruh Ümumi

Bədənlə - Kütlə ilə (yəni çoxlu sayda fərdi bədənlərin aqreqasiyası ilə) bağlanır. Kütlə Məni kütlədə meydana çıxmır; insanlar bir yerə yığışıb kütlə əmələ gətirdikdə, hər bir fərdin daxili çoxluğunun dərinliyində saxlanan (digər Mənlərlə təklənmiş) Mən kimi təzahür edir. Hamıda eynilik təşkil etdiyindən sanki bir Fərdi Ruh hamıya aid olur və ya kütlədə Tək bir Ruh təzahür edir. Fiktiv Ruhun eyni zamanda çoxlu sayda bədənlə bağlanması onun ayrıca bir bədənə aidiyyatını keçici olaraq ləğv edir, təsəvvürə gətirilməsinin qarşısını alır və fərqli insanlar ortaq bir Mənlə mücərrəd şəkildə bağlanır; hansı ki, belə Ortaq Mənin şərtləri "O"nu təşkil edir. "O" yalnız iradənin şərtlərindən ibarət olduğundan, eşqə və əsərə malik deyil. Əsərə malik olmadığına görə O yaradıcı deyil; eşqə malik olmadığından nə başqasına, nə də öz daxili kimliklərinə daimi bağlanmaq imkanına malik deyil. Buradan da Kütlə Məninin dağıdıcı və keçici olması meydana çıxır. Kütlədə hər bir fərd özü ilə yadlaşır. Kütlə Məni konkret fərdi bədənlə əlaqəsi olmadığından "kütlənin bədənindən" - hamının iştirakından təzahür edir.

Haşiyə: Ziqmund Freyd, "Kütləvi psixologiya və insan Məninin analizi"

> *"Hər bir ayrıca adam çoxlu kütlənin tərkib hissəsidir, o müxtəlif tərəfdən identifikasiya ilə bağlıdır və özünün "İdeal Mən"ini müxtəlif obrazlarla yaradır."*

Biz belə hesab edirik ki, Ruh maddi olmadığından hər bir ayrıca adam fiziki bədəninin iştirakı ilə çoxlu kütlənin tərkib hissəsi olur; bunun əksinə Ruhun daxili çoxluğuna görə hər bir adam müxtəlif tərəfdən identifikasiya olunur və özünün "İdeal Mən"ini yaradır. Biz İdeal Məni Formal Ruhun daxili çoxluğu təşkil edən kimliklərin mümkünlüklərinin şərtlərinin məcmusu kimi təyin edirik. Başqa sözlə, İdeal Mən - daxili çoxluğun xaricə ekzistensiya edən təkliyindən ibarətdir; hansı ki, hər bir daxili çoxluğunda təkliyə ayrılmış fərd xaricdə Tək Formal Ruhu yaratmaq naminə müxtəlif kütlələrdə birləşir.

RUHUN FAKTUALLAŞMASİ ve RUHUN MÖVCUDLUGU

Kosmosda Fakt və Aktuallaşma

Kosmosda faktiki varlıq kimi bütün mövcud varlıqlar faktın aktuallaşması nəticəsində gerçəkləşirlər. Yəni, A.N.Uaythedin təyin etdiyi kimi, obyektivizasiya prosesinə - xarici vəhdətdən görünən dünyanı təşkil etmə prosesinə daxil olurlar.

Aktuallaşma prosesində varlıq əvvəl mümkünlüyün varlığının mövcudluq tələbində İlahi İradədən xüsusi daxili zəruri şərtlər alaraq, daxili vəhdət təşkil etməklə mövcudluğa keçir; sonra belə şərtlər almış bütün başqa mövcudluqlarla ən ümumi təsadüfi şərtlərdə xarici vəhdət təşkil edərək aktuallaşır. Zəruri şərtlər yalnız ayrılıqda götürülmüş tək faktiki mövcudluğun özündə saxladığı daxili vəhdətin şərtlərindən, təsadüfi şərtlər isə sonsuz çoxluqla başqa mövcudluqların özündə saxladığı zəruri şərtlərdən ibarətdir.

Buradan da, tək zəruri şərtin təzahürü çoxluqda aktuallaşdığından, təsadüf zərurətin təzahür forması kimi çıxış edir. Zəruri şərtlər nəticə, təsadüfi şərtlər səbəb kimi çıxış edir; hansı ki, təsadüfi şərtlər olmadan heç bir zəruri şərtə malik mövcudluq aydınlaşmır. Beləliklə, mövcudluqlarsız mütləq mövcud olma, yəni xalis təsadüflərin şərtlərinin məcmusu özündə İlahi mahiyyəti təqdim edir, hansı ki, obyekt tələb etmədiyindən idrakı qeyri-mümkündür. Buradan da, xalis mövcud olmanın, xalis təsadüfün və ya ən ümumi səbəbi biz elə belə aktual İlahi güc kimi təyin edə bilərik; hansı ki, Görünən Kosmos faktuallaşmış İlahi güclə aktuallaşan İlahi gücün vəhdəti kimi təyin oluna bilər.

RUHUN MÖVCUDLUĞU VƏ PNEVMATOLOJİ İDEYALAR

Kosmosda fakt tək kimi yaranma, akt çoxluq kimi təkrarlanma (əmələgəlmə) prosesindən meydana çıxır; hansı ki, birinci metafizik, ikinci təbiət qanunlarına tabe olur. Mövcud varlıqlarda əvvəl obyekt, sonra onun hərəkəti meydana çıxır. Başqa sözlə, Kosmosda mövcud olma obyekt tələb edir. Amma ruh, bunun əksinə olaraq, yaranışdan yalnız mövcud olmanın zəruri şərtlərini (Kosmosa görə təsadüfi şərtlərini) aldığından, əvvəl ruhun aktuallığı, xalis hərəkəti, obyekt tələb etməyən hərəkəti - **ruhi fəaliyyət** yaranır, sonra təbiət sferasında ruhi fəaliyyət nəticəsində mövcud varlığın zəruri şərtləri əsasında ruhun faktiki varlığı - ruhi fəaliyyətin obyekti əmələ gəlir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhi fəaliyyət-bilavasitə İlahi İradədən verilən zəruri şərtlərlə yarandığından metafizik qanunlara; **ruhun mövcudluğu** - ruhi fəaliyyət nəticəsində təbiətdəki mövcud varlıqların zəruri şərtləri əsasında ikincili meydana çıxdığından təbiət qanunlarına tabe olur.

Buradan da, ruhun mövcud olması təbii şeylərin qanunlarından asılı olmur, amma faktiki varlığı mövcud varlıqla şərtlənmiş olur. Mövcud varlıqlarda daxili vəhdət bir və eyni sabit şərtlərdən təşkil olunur. Amma xarici vəhdət sonsuz sayda, ən müxtəlif şərtlərdən yaranmış daxili vəhdətə malik mövcudluqlardan təşkil olunduğundan, xarici vəhdət ixtiyari mövcudluqla mümkün olur. Lakin, hər bir ayrılıqda götürülmüş mövcudluğun məkan və zaman ölçüsünün məhdudluğuna görə, eyni zamanda bütün mümkün mövcudluqlarla konkret vəhdət təşkil etmək imkanı olmadığından, xarici vəhdətin şərtləri zəruri şərtlərin vəhdətinə münasibətdə təsadüfi şərtlər kimi meydana çıxır.

Başqa sözlə, təsadüfi şərtlər zəruri şərtlərə görə ümumi və çoxluq olduğundan, eyni bir xüsusi və tək zəruri şərt təsadüfi şərtlərlə ən müxtəlif formalarda, sonsuz sayda, müxtəlif, keçici xarici vəhdət təşkil etmək imkanına malik olur. Buradan da, bütün zəruri şərtlərin məcmusu

təsadüfi şərtlərin sərhədləri daxilində təzahür etdiyindən, **təsadüf zərurətin təzahür forması kimi** meydana çıxır. Yəni xarici təsadüfi şərtlərdən kənarda, təbiətdə heç bir daxili zəruri şərtə malik mövcudluğun təzahür imkanı yoxdur.

Buradan aşağıdakı pnevmatoloji ideya alınır:

Zərurətin istənilən xarici, keçici vəhdət təşkil etməsi təsadüfi şərtlərdən asılı olaraq meydana çıxdığından, zərurətin istənilən təzahürü təsadüflə şərtlənir.

Biz zəruri şərtə malik mövcudluğun təsadüflə şərtlənməsini hər şeyin Allahın iradəsinə tabe olması kimi qavrayırıq; çünki həmin şərtlər mövcudluğun özündən (bütünlükdə Kosmosdan) kənarda aşkarlanır.

Ruh, mümkünlüyün varlığının mövcudluq tələbində İlahi İradədən zəruri şərtlər əvəzinə digər mövcudluqlarla təsadüfə görə şərtlənərək, özünə onların zəruri şərtlərindən süni mövcudluq təşkil etmə şərtlərini alaraq, mövcud insanda bədənin mövcudluğundan aşkarlanır. Yəni, **əvvəl ruhi mövcud olma, sonra ruhi mövcudluq** meydana çıxır. Yəni təbiət sferasında ruh mövcudluq tələbində olan varlıq kimi mövcuddur, hansı ki, bütün mövcudluqlar yalnız metafizikada mövcudluq tələbində olurlar. Beləliklə, *taksis* (qayda/quruluş) mövcudluq tələbində olan varlıqla (fiktiv ruhla) mövcudluq əldə etmiş varlığın (obyektivliyin) totallığını özündə təqdim edir.

Dünya yaranışdan mövcudluq əldə etdiyindən problemi özündədir; ancaq fiktiv ruh öz xüsusi mövcudluq tələbinə şərtləri dünyadan əldə etməyə cəhd etdiyindən, onun problemi özündə yox, dünyadadır. Yəni, fiktiv ruhun özündə konkret təbiət və onun problemi yoxdur. Fiktiv ruh özünə mövcudluq, yəni faktiki varlıq əldə etmək üçün şərtləndiyi bədəndən kənara çıxmağa - mövcud varlıqlarla əlaqələnməyə və onların şərtlərindən özünə mövcudluq əldə etməyə cəhd edir; hansı ki, bu **ekzistensiya** kimi təzahür edir.

Haşiyə: N.Abbanyano, "Ekzistensializmə giriş"

“"İnsana xas mövcudluq üsulundan ibarət ekzistensiya - varlıq yox, varlığa münasibətdir; ancaq məhz varlığa münasibət kimi o, varlığa qayıdır və onda kök salır. Beləliklə, dünya tərkib hissəsi ekzistensiya kimi insan olan mütləq totallıq kimi çıxış edir. Bu totallığın təsdiqi - qoşulma aktıdır, zəruri mənsubluq və hər şeyi əhatə etməyə mütləq qabiliyyətin aşkarlanmasıdır. Özündə dünyanın quruluşunun problemini qoymaq, dünyada mövcudluq kimi özünə problem qoymaq deməkdir. Özünüqoşma aktı ekzistensial transendensiya aktının özüdür. Ekzistensiya - dünyanı mövcudluq şərti kimi formalaşdırmaqdır. Mövcudluğun dünyadakı situasiyası tələbatla təyin olunur. Tələbat insanın dünyadan zəruri asılılığını ifadə edir, belə ki, dünya zərurətlə insanın ona xas olması ilə təyin olunur. Bu xüsusiyyətin zəruriliyi - bu asılılığın özünün zəruriliyidir. Tələbatlarda ifadə olunan insanın dünyadan asılılığı, bumeranq kimi dünyanın totallıq kimi formalaşması məqsədi ilə dünya ilə insan arasında münasibətin zəruriliyini ifadə edir."”

N.Abbanyanonun fikirlərindən görünür ki, ekzistensiya prosesində - obyekt-subyekt əlaqəsində, şüurun materiyaya münasibətində - insan özünü dünyaya daxil etməyə, ona qoşulmağa cəhd edir. Bu zaman dünya da ona qoşulur və bu prosesdə dünya ilə insan bir-birinin qarşılıqlı zərurəti kimi çıxış edir. Dünya insandan öz həqiqətinin aşkarlanması zərurətinə görə, nəsə insan isə dünyadan öz həqiqətinin aydınlaşması zərurətinə görə asılı olur. Nəticədə, insanla dünyanın bir-birindən asılılığı zəruri olur. Nəsə insan öz mövcudluq şərtlərini dünyadan əldə etməyə cəhd etdiyindən, insanın dünyadakı situasiyası total tələbatdan - həm bədən, həm də ruha xas tələbatların məcmusundan ibarətdir. Ruha xas tələbat yalnız fiktiv ruhun mövcudluq şərtləri əldə etməsi ilə bağlıdır.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Nəsə insanın dünyadakı situasiyası - mümkünlüyün varlığının mövcudluq tələbində fiktiv ruhun dünyadan özünə mövcudluq əldə etmənin şərtlərinin məcmusundan ibarətdir. Biz bu situasiyanı **fak-tuallaşma** kimi təyin edirik.

Başqa sözlə, Ruhla obyektiv gerçəkliklərin yaranması bir-birinə əkslik təşkil edir. Buradan da, obyektiv gerçəkliklərin aktuallaşmasına əks olaraq ruhda faktuallaşma - xalis aktın nəticəsində faktın yaranması prosesi təzahür edir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Obyektiv gerçəkliklərin aktı faktın özü-özündə təkrarlanması kimi meydana çıxır; ruhun faktı aktdan asılı, özü-özündə təkrarlanmadan yaranır. Yəni, ruhun faktiki varlığı sürəkli olaraq dəyişir, hansı ki, biz bunu təkmilləşmə və ya kamilləşmə kimi qavrayırıq. Əgər mövcud varlıq başlanğıcda son kamillikdə mövcud olursa, fiktiv ruhun faktiki varlığı yalnız sonda ən kamil forma alır.

Fakt - zəruri şərtlərin məcmusundan ibarət daxili nizamlılığa malikdir. Ruhun başlanğıcda faktı olmadığından, nizamlılığı da yoxdur və buna görə də xalis xaotiklik kimi meydana çıxır. Buradan da, elə belə ruhi fəaliyyətin heç bir qanunu mövcud olmur. Ruh öz aktı ilə özünə mövcudluq təşkil etməklə xaotik haldan nizamlı hala keçir. Yəni, ruhun faktuallaşması fiktiv ruhun qanunlarının aydınlaşması kimi təzahür edir; hansı ki, məhz həmin qanunlardan ruhun həqiqətini aşkarlamaq mümkün olur.

RUHUN NİZAMLANMASI VƏ İDRAK

Bəs ruhun nizamlanması necə baş verir? Ruh idrak prosesində obyektiv gerçəkliyin nizamı əsasında özünü nizamlayır. Gerçəkliyin nizamı haqqında məlumat onun mahiyyəti kimi dalğa təbiətindən şüalanır. Həmin şüalar xarici təsir kimi bədən tərəfindən tutulur və beyinə ötürülür. Beyində gerçəklikdən şüalanan dalğalar - hissəcik təbiətindən ayrılmış dalğalar kimi ruhda refleksiya olunur. Bununla da gerçəkliyin nizamı ruha keçir və ruh tədricən gerçəkliklərin həqiqətini dərk etmə dərəcəsində özündə nizamlanır.

Gerçəkliyin həqiqəti təfəkkürdə necə refleksiya edir? Əvvəlki fəsillərdə İlahi Nurun transformasiyası haqqında qeyd etdik ki, İlahi Nurun dalğa uzunluğunun ifrat qısalması ilə dalğa hissəciyə və o da öz növbəsində daxili qurulma ilə sonda maddəyə; və bunun əksinə dalğa uzunluğunun ifrat uzanması ilə ideyaya çevrilir. Beləliklə, gerçəklik öz dalğa təbiətindən şüalanarkən hissəcik təbiəti ilə vəhdətdən ayrılmış xalis dalğalar beyində sonsuz uzanmaqla fikrə çevrilir. Burada beyin transformator rolu oynayır. Biz belə hesab edirik ki, gerçəkliyin həqiqətinin fikrə çevrilməsi - yəni xarici obyektlərdən şüalanan dalğaların ifrat uzanması məhz beyin qırışlarında reallaşır.

Varlığın mövcudluğu kimi **Formal Ruha** mövcud varlıqlara xas məkanda təkrarlanma (çoxluq) mümkünsüzdür. Beləliklə, formal ruh yalnız təkcə kimi yaranır və heç bir xarici çoxluğa malik olmur. Metafizik qanunlara tabe olan tək formal ruh "eyni vaxtda müxtəlif yerlərdə olmaq" imkanına malik olduğundan, Kosmosda eyni vaxtda sonsuz sayda bədəndən təzahür edir; hansı ki, biz bunu **fərdi ruh** kimi qavrayırıq. Eyni zamanda formal ruh "eyni yerdə müxtəlif vaxtlarda olmaq" imkanına malik olduğundan, hər bir ayrıca bədəndə onun zamandan asılılıq qanunlarına uyğun, müxtəlif vaxtlarda təzahür edir. Nəhayət, formal ruh "eyni zamanda eyni yerdə həm olmaq, həm də olmamaq" imkanına malik olduğundan, konkret fərddən ruh həm aydınlaşır, həm də aydınlaşmır. Ruhun aydınlaşması oyaqlıq, aydınlaşmaması yuxululuq kimi təzahür edir.

Öz təbiətinə görə ruh Yaradana oxşayır; hansı ki, yuxarıda gətirdiyimiz iqtibasdan göründüyü kimi, Plotin Yaradanı - İlk Vahidi - "hər şey olan və bununla birlikdə heç bir mövcudluq olmayan" kimi təyin etmişdi. Yaradanın "hər şey olan və bununla birlikdə heç bir mövcudluq olmayan" təbiəti ruhda refleksiya edərək "hər bir fərddə və bununla birlikdə ən ümumi olan" təbiətini üzə çıxarır. Məhz bu təbiətinə görə, bir

fərdi ruhun fəaliyyəti başqa fərdi ruhlar tərəfindən zamandan və məkandan asılı olmayaraq davam etdirilir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fərdi ruh - mövcudluğu olmadığından, xarici çoxluğa malik olmayan tək formal ruhun eyni vaxtda müxtəlif yerlərdə olmasının; yəni, tək formal ruhun eyni zamanda hər bir adamda fərdi ruh kimi təzahürünün şərtlərinin məcmusundan ibarətdir.

Bu təbiətinə - "hər bir fərddə və bununla birlikdə ən ümumi olan təbiətinə görə" ruhun mövcudluq əldə etməsi - faktuallaşması hər bir fərddə olan ruhda bütün insanlar üçün ən ümumi olanlarda baş verir. Başqa sözlə, fərdi ruh idrak prosesində hamının iştirakı ilə aşkarlanan həqiqət əsasında özündə nizamlanır. Bu proses sonuncu insanda başa çatır. Sonuncu insan özündə mütləq həqiqətin nizamını özündə refleksiya edən ruhun mövcudluğuna malik olur. Belə nizamlılıq hər hansı vasitə ilə mütləq əkslik təşkil etdiyindən, sonuncu insanın meydana çıxması ilə ruh bədəndən ayrılaraq müstəqil həqiqət kimi təzahür edir.

Buradan belə bir pnevmatoloji ideya aşkarlanır:

Obyektiv varlıqlarda əvvəl mövcudluq, sonra mövcud olma; ruhda əvvəl mövcud olma, sonra mövcudluq meydana çıxır. Varlığın mövcudluğu mövcudluğun varlığının həqiqətini refleksiya etməklə özündə mövcudluğa çevrilir.

CƏMİYYƏT VƏ TARİX

Mövcud varlıqlar sabit və ya dəyişən zəruri şərtlərin məcmusu kimi daxili vəhdət təşkil etməklə, qurulma prosesində, yaranma anında ən təkmil formada meydana çıxır və keçid prosesində xaricdə, digər mövcudluqlarla birlikdə, təsadüfi şərtlərin məcmusundan ibarət xarici vəhdət təşkil edirlər. Buradan da, mövcud varlıqda mövcudluq - daxili vəhdətdən, mövcud olma - xarici vəhdətdən təzahür edir. Mövcud varlıqların daxili vəhdəti obyektivliyi və bilavasitəliyi təzahür etdirir;

hansı ki, bilavasitəliyə və obyektivliyə görə mövcud varlıq Ruha münasibətdə **xarici obyekt** statusu alaraq dərk olunur. Ruh da öz növbəsində mövcud varlığa münasibətdə **daxili subyekt** statusu alaraq özünü dərk edən olur.

Varlığın mövcudluğu mövcudluğun varlığından daxili və xarici vəhdətin əks müstəvilərdə proyeksiya olunması ilə bir-birindən fərqlənir. Belə ki:

Birincisi: Obyektin xarici vəhdəti ruhun daxili vəhdəti kimi meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya alınır:

Ruh özündə daxili təsadüfi şərtlərin məcmusundan ibarət olub, daxili keçid prosesində özünün bir fərqliliyindən digər fərqliliyinə keçməklə mövcud olur.

Yəni, ruh mövcudluqdan fərqli olaraq daxildə bir formadan başqa formaya keçir. Bu həm insanın böyüməsi zamanı onun ruhi fəaliyyətinin dəyişilmələri kimi, həm də onun xarici situasiyadan asılı olaraq müxtəlif kimliklərdən çıxış etməsi kimi aşkarlanır. Ruh sürəkli olaraq daxili keçid prosesində olduğundan fərddən konkret və bilavasitə aşkarlanmır.

İkincisi: Obyektiv gerçəkliklərə xas daxili vəhdət ruhda xarici vəhdət kimi meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruh özündən kənarda xarici qurulma prosesində, digər mövcudluqların zəruri şərtlərinin məcmusundan ibarət zəruri şərtlər əldə edərək, onlar əsasında bədəndən xaricdə mövcudluq əldə edir.

Yəni, faktiki ruhi varlıq fərddən xaricdə fərdi fiktiv ruhların müştərək fəaliyyəti ilə qurulur. Ruhun xarici qurulmasından onun həm faktiki, həm də formal varlığı meydana çıxır. Ruhun faktiki varlığı **mədəniyyət**, formal varlığı **cəmiyyət** kimi meydana çıxır. **Cəmiyyət** - mücərrəd ruhi mövcudluqdur. Ruhun qurulmasında - cəmiyyətin təşkilində - iştirak edən "tərkib hissələr" fərdiləşmiş formal ruhlardan

ibarətdir; hansı ki, onlar arasındakı əlaqə ictimai münasibətlər kimi meydana çıxır.

Buradan aşağıdakı pnevmatoloji ideya alınır:

İctimai münasibətlər - cəmiyyətin daxili qurulmasının, yəni iştirakçı fiktiv ruhları bir-biri ilə birləşdirən əlaqələrin, şərtlərinin məcmusundan ibarətdir.

Buradan da məlum olur ki, cəmiyyət ruhun xarici tangensial enerjisini, ictimai münasibətlər ruhun radial enerjisini özündə təqdim edir.

Ruhun özünə İlahi İradədən xüsusi zəruri şərtlər verilmədiyindən, ruh xarici qurulma üçün tələb olunan mövcudluq şərtlərini digər mövcudluqlardan - cisimlərdən və canlılardan əldə edir. Ruh idrak prosesində cisimlərin və canlıların mövcudluğunun daxili qurulma qaydaları əsasında özünə xarici mövcudluq - cəmiyyət yaradır.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Cəmiyyət - bütünlükdə Kosmosun özündə refleksiyasının şərtlərinin məcmusundan ibarətdir.

Mövcud varlıqlar qurulduqdan sonra idraka təqdim edildiyindən, biz Kosmosun yaranması prosesini - tarixini - xarici seyr yolu ilə idrak etmək imkanına malik deyilik. Buna görə də, **Kosmosun tarixi yoxdur**. Kosmosun tarixi Kosmosun yaranmasından ibarətdir, hansı ki, Kosmosun meydana çıxması ilə başa çatmışdır. Yəni, Kosmos özündə başa çatmış tarixin nəticəsi kimi mövcuddur. Bu baxımdan biz metafizikadan təbiətə keçidi həm də Kosmosun tarixi kimi də təyin edə bilərik. Ruh Kosmosdan fərqli olaraq mövcudluqsuz meydana çıxdığından və insana xalis mövcud olma kimi təqdim edildiyindən, və özü öz fəaliyyəti ilə özünə mövcudluq əldə etməyə cəhd etdiyindən, biz ruhun mövcudluğunun yaranmasını xarici seyr edə bilirik; hansı ki, tarix kimi qavrayırıq. Beləliklə, tarix xalis metafizik proses kimi meydana çıxır.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Tarix - bədəndən xaricdə ruhun mövcud varlığının yaranma prosesinin şərtlərinin məcmusundan ibarətdir.

Mövcudluqlara mövcudluq şərtləri İlahi tərəfindən bilavasitə yaranma anında verildiyindən (əvvəl mövcudluq, sonra mövcud olma), Ruha mövcudluq şərtləri İlahi İradə ilə verilmədiyindən, Ruh əvvəl mövcud olma kimi təzahür edir, sonra insan iradəsi ilə mövcudluq əldə etməyə cəhd edir. İnsan iradəsi İlahi iradənin ən pis şəkildə özündə refleksiya etdiyindən, insan iradəsi ilə yaradılan ruhi mövcudluq başlanğıcda ən qeyri-kamil olur, yalnız ən sonda son kamillikdə meydana çıxır. Biz başlanğıc qeyri-kamilliklə son kamillik arasındakı gedişatı **tərəqqi** kimi qavrayırıq. Tərəqqi nəticəsində ruhi mövcudluq kamilləşmə prosesində tədricən bütün insanların iştirakı ilə bütün mövcudluqların zəruri şərtlərinin dərk edilməsinə uyğun, tarixi prosesdə yaradılır.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Tərəqqi - tarixi prosesdə Ruhi mövcudluğun təkmilləşdirilməsi şərtlərinin məcmusundan ibarətdir.

Ruhun mövcudluğu daxili mövcud olmadan, yəni ruhi fəaliyyətdən - mövcud insandan xaricdə qurulduğundan, biz ruhun mövcudluğunu **özündənkənarşey** kimi təyin edirik. Özündənkənar anlayışı ruhi mövcudluğun fəaliyyət göstərən subyektdən kənarda, yəni ruhlu insanın fəaliyyəti nəticəsində onun özündən kənarda, xaricdə qurulmasını özündə ifadə edir. Obyektiv gerçəkliklərdə mövcud olma mövcudluqla vəhdətdə meydana çıxır və ondan asılı olur. Ruhda mövcudluqla mövcud olma buna əks formada əlaqələnir. Belə ki, mövcud olma konkret bədəndə, mövcudluq ondan kənarda - xaricdə olur. Yəni Ruhun mövcud olması ilə mövcudluğu vəhdət təşkil etmir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhi mövcud olma mövcud insanda, konkret bədənlə şərtlənmiş şəkildə; ruhi mövcudluq mücərrəd bədənlə - cəmiyyətdə, bədənin davamı kimi çıxış edən ətrafla şərtlənmiş şəkildə meydana çıxır.

Buradan ikincili Kosmos - *taksis*, insan yaradıcılığının məhsulu olan ikincili süni ətraf - ruhun mövcudluğu aşkarlanır. Beləliklə, obyektiv Ruh obyektiv gerçəkliyin əksiliyi kimi bütün mövcud varlıqların - özündəşeyin zəruri şərtlərinin məcmusunu aşkarlayaraq, onlar əsasında özündənkənarşeyə çevrilməklə yaranmasını başa çatdırır.

Nə üçün ruhun mövcudluğu özündənkənar şey kimi meydana çıxır? Hegelin qeyd etdiyi kimi, **özündəşey özü-özündə eynilikdir**. Fərdi ruh, bunun əksinə, özü-özündə fərqlilik kimi mövcud olduğundan, o yalnız özündən kənar özü-özü ilə eynilik kimi çıxış edir. Məsələn: insan fotosu onun konkret andakı mövcudluğunun özündən xaricdə özü-özündə eynilik təşkil etməsi kimi meydana çıxır; hansı ki, foto ruhun faktiki varlığından ibarətdir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun faktiki mövcudluğu bütün fiktiv ruhların özündənkənar eyniliyindən aşkarlanır.

MƏNA VƏ EKZİSTENSİYA

Biz ruhun aşkarlamağa cəhd etdiyi özündəşeyin zəruri şərtlərinin məcmusunu **məna** kimi təyin edirik. Məna - ruhun mövcudluğunun zəruri şərtlərinin məcmusundan ibarətdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Obyektiv gerçəkliklərdə aydınlaşan həqiqətin aşkarlanması nəticəsində, həmin həqiqət ruhun mövcudluğunun həqiqətini təşkil etdikdə məna şəkli alır.

Mümkünlüyün varlığının mövcudluq tələbinə görə Formal Ruh öz fəaliyyəti ilə özündə mövcudluq əldə etməyə cəhd edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhi fəaliyyətin məqsədi obyektiv gerçəkliklərdən məna aşkarlamaqla mövcudluq əldə etməkdən ibarətdir.

Haşiyə: V.Frankl, "İnsan məna axtarışında"

"İnsan məna əldə etməyə cəhd edir və əgər bu cəhd reallaşmırsa frustrasiya və ya vakuum hiss edir. İnsan həyatı heç bir halda mənadan məhrum ola bilməz; həyatın mənası həmişə tapıla bilər. İnsan məna tapmaq və həyata keçirməkdə hətta obyektiv vəziyyətə görə əhəmiyyətli dərəcədə məhdudlaşsa da azaddır. Mən nəinki kiməmsə ona uyğun fəaliyyət göstərirəm, həm də necə fəaliyyət göstərirəmsə o oluram. İnsan mövcudluğunun özünütransendensiyası! Bu anlayış altında o fakt durur ki, insan varlığı həmişə onun özü olmayan nəsə xaricə, nəyəsə və ya kiməsə istiqamətlənib: həyata keçirilməsi vacib olan mənaya və ya məhəbbətlə cəzb olunduğumuz başqa insana. İşə xidmətdə və ya başqa insana məhəbbətdə insan özü özünü həyata keçirir. Nə qədər o özünü işinə həsr edir, bir o qədər özünü öz tərəfmüqabilinə verir, bir o qədər böyük dərəcədə o insan olur və bununla böyük dərəcədə o, özü özü olur. Beləliklə, mahiyyət etibarı ilə insan o dərəcədə reallaşa bilər ki, özünü unutsun, özünə fikir verməsin. Xeyir və şər bizim nə etməli olduğumuzu və uyğun olaraq nə etməməli olduğumuzu təyin edəcək; xeyir insanın üzərinə qoyulmuş və ondan tələb edilən mənanı həyata keçirməyə xidmət edənləri təqdim edəcək, şər isə bunu həyata keçirməyə mane olanlar olacaq. Məna tapılmalıdır, amma yaradılmamalıdır. Məna nəinki tapılmalıdır, həm də tapıla bilər və insanın məna axtarışını onun vicdanı istiqamətləndirir. Həqiqət bir ola bilər, amma heç kəs fəxr edə bilməz ki, başqası yox, məhz tək o bu həqiqətə malikdir. Məna - hər dəfə konkret vəziyyətin konkret mənasıdır. Hər gün və hər saat yeni məna təqdim edir və hər bir adamı başqa məna gözləyir. Buradan belə çıxır ki, məna vəziyyətdən vəziyyətə, eləcə də insandan insana dəyişməlidir. Ancaq məna hər yerdədir. Mənanın tapılması insan xarakterindən və mühitdən asılı deyil. Həyatda mənadan məhrum vəziyyət yoxdur. Bu onunla izah oluna bilər ki, insan mövcudluğunun mənfi tərəfi kimi bizə təqdim olunan - əsasən, əzabdan, günahdan və ölümdən ibarət faciəvi üçlük - onlara düzgün mövqedən yanaşılsa və uyğun istiqamətdə yanaşılsa, nəsə pozitiv şeyə çevrilə bilər. İnsan mövcud olmasının mahiyyəti onun özünütransendensiyasından ibarətdir."

Loqoterapiya və ekzistensial analiz nəzəriyyəsinin müəllifi, şəxsiyyətin psixologiyası sahəsində avtoritet kimi özünü təsdiq etmiş **V.Franklın** yuxarıdakı fikirlərini şərh etməklə ruhi fəaliyyətin ruhi mövcudluqla əlaqələnməsi, yəni ruhun daxili vəhdəti - mövcud insana münasibətdə xarici vəhdətinin təşkil olunması, yəni ruhi mövcudluğun qurulması ilə bağlı daha aydın təsəvvür əldə edə bilərik.

1. *İnsan məna əldə etməyə cəhd edir, insan həyatı heç bir halda mənadan məhrum ola bilməz, həyatın mənası həmişə tapıla bilər. Məna tapılmalıdır, amma yaradılmamalıdır. İnsanın məna axtarışını onun vicdanı istiqamətləndirir:* Yuxarıda qeyd etdik ki, obyektiv gerçəkliklərin - subyektə münasibətdə xarici olan hər şeyin, o cümlədən bədənin - sabit və dəyişən şərtlərinin məcmusunun idrakı məna kimi meydana çıxır. İnsanın məna əldə etməyə cəhdi ruhun mövcudluğunun zəruri şərtlərini əldə etmə cəhdi kimi təyin olunmalıdır. Ruhi fəaliyyət nəticəsində ruhi mövcudluğun yaranması bu fəaliyyətin yeganə məqsədidir, buna görə də, insan həyatı heç bir halda mənadan məhrum olmur. İnsan həm də idrak qabiliyyətinə görə obyektiv gerçəkliklərdən məna aşkarlayır və buna görə onun təfəkküründə məna tapmağın şərtlərinin məcmusu və iradə, yəni idrak fəaliyyətinin zəruri şərtləri vardır. İnsan xarici obyektiv gerçəkliklərin zəruri şərtlərinin mənasını aşkarlamaqla özünə mövcudluq şərtləri əldə etdiyindən, o, mənanı özündən yarada bilməz, yalnız obyektiv gerçəkliklərdən tapa bilər. Özündən yaradılan məna yalançı məna olub, ruhi mövcudluğun qurulmasında iştirak etmir. İnsan mənanı tapmaqda vicdanı tərəfindən istiqamətləndirilir. Burada, **vicdan** - ruhi mövcudluğun imkanlarının şərtlərinin məcmusundan ibarətdir; hansı ki, ruhi fəaliyyəti ruhi mövcudluğu qurmağa istiqamətləndirir. Vicdandan kənar heç bir fəaliyyət ruhi mövcudluğun qurulmasına xidmət etmir, buna görə də, vicdansız insan öz təbii vəziyyətində - bioloji varlıq kimi yaşayır. Yalnız vicdanın istiqamətləndirməsi ilə insan daxildə heyvani vəziyyətdən ruhi vəziyyətə keçə bilir. Obyektiv gerçəkliklərə məna

İlahi İradə tərəfindən yaranış anında verildiyindən, obyektiv gerçəklik mənaya malik olur. İnsan bundan fərqli olaraq yalnız öz fəaliyyəti nəticəsində, xarici şeylərin mənasından özünə məna, yəni mövcudluğun zəruri şərtlərini əldə etməyə məcburdur. Buna görə də başlanğıcda mənasız olan insan məna tapmaqla ona malik olur. Buradan belə bir pnevmatoloji ideya aşkarlanır:

Nəsə insan özündənkənarda zərurətə görə məna axtarmağa cəhd edən mənasız varlığın şərtlərinin məcmusundan ibarətdir.

2. *Məna - hər dəfə konkret vəziyyətin konkret mənasıdır. Hər gün və hər saat yeni məna təqdim edir. Məna hər yerdədir:* Məna obyektiv gerçəkliklərdən əldə edildiyindən, gerçəkliyə xas olan konkretliyə malikdir. Buna görə də, məna konkret vəziyyətin konkret mənası olur. İnsan konkret mənanı aşkarlamaqla onu mücərrəd mənaya çevirir və bunun əsasında öz mövcudluğunu mücərrəd mövcudluq kimi qurur. Ruhun məqsədi məna aşkarlamaq olduğundan və ruh bütün mövcud varlıqların mənasını aşkarlamağa məhkum olduğundan, hər bir adam məna axtarmağa məcburdur və hər bir saat və hər bir yer özündə ona öz orijinal mənasını təqdim edir. Burada "hər bir saat, hər bir yer" mövcud varlıqların məkan və zamanla şərtlənməsindən ibarətdir; hansı ki, Kosmos bütünlükdə məkan və zaman ölçüsündə mövcuddur və hər bir ölçü ruha öz xüsusi mənasını təqdim edir. Buradan aşağıdakı definat meydana çıxır: **Kosmosda mənasız vaxt və yer yoxdur.** Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Tarix boyu bütün insanlar bütün şeylərin mənasını aşkarlamaqla ondan ruhi mövcudluğun mənasını təşkil edirlər.

3. *İnsan məna tapmaq və həyata keçirməkdə hətta obyektiv vəziyyətə görə əhəmiyyətli dərəcədə məhdudlaşsa da azaddır:* Obyektiv gerçəkliklərdə azadlıq xarici vəhdəti təşkil edən təsadüfi şərtlərin məcmusundan ibarətdir və buna görə də daxili zəruri şərtlərə münasibətdə xaricidir. Ruh obyektin əksiliyi olduğundan, insanda bunun əksinə, təsadüfi şərtlərin məcmusu daxilidir. Yəni, cisimlər xarici vəhdət təşkil

etməkdə xarici azadlığa; insan xarici vəhdəti daxildə təşkil etdiyindən daxili, yəni mənəvi azadlığa malikdir (hansı ki, obyektiv gerçəkliklər bunun əksinə cismən azaddır). **Mənəvi azadlıq** insanın öz bədəninin şərtlərindən və bədənin davamı kimi ətrafın şərtlərindən azadlığını özündə ifadə edir. Yəni insan bədən tələbatlarından asılı olmadan məna axtarışına məcburdur və buna görə də məna axtarışında azaddır. Buradan da, belə bir ideya aşkarlanır:

İnsan gerçəkliklərin mövcudluq şərtlərini - mənanı, biliyi - əldə etməkdə mənən azaddır və bu şərtlər zərurətə görə aşkarlanır.

4. *Mən nəinki kiməmsə ona uyğun fəaliyyət göstərirəm, həm də necə fəaliyyət göstərirəmsə o oluram:* Təbiətdə hər bir varlıq anadangəlmə öz növünə xas həyat fəaliyyəti göstərir və heç bir canlı başqa növə xas fəaliyyət göstərə bilmir. Buradan da, mövcud canlı onun fəaliyyətindən təyin olunan olur. Başqa sözlə, heyvanların fəaliyyəti onların mövcudluğundan meydana çıxır. Ruhlu insan bunun əksinədir. Belə ki, insanın ruhi fəaliyyəti onun mövcud varlığı ilə şərtlənməmişdir və ruhun varlığının mövcudluğu məhz insanın ruhi fəaliyyətinin nəticəsindən asılıdır. Ruhi mövcudluq ruhi fəaliyyətin nəticəsində tədricən meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Hər bir mövcud insanın şüurlu fəaliyyətindən onun ruhi mövcudluğu meydana çıxır. Yəni insan öz ruhi fəaliyyətinin məhsulundan ibarət olur.

5. *İnsan mövcudluğunun özünütransendensiyası! İnsan varlığı həmişə onun özü olmayan nəsə xaricə. istiqamətlənib. Nə qədər o özünü işinə həsr edir. bir o qədər böyük dərəcədə o insan olur və bununla böyük dərəcədə o, özü özü olur:* Bəs insan necə məna əldə edir və necə bu məna əsasında özündənkənar ruhi mövcudluq yaradır? Biz əvvəlki fəsillərdə insanın ən ümumi həqiqəti - mənanı aşkarlamasını Kantın şərh etdiyi **transendensiya** - təbiətdən kənara çıxma üsulu ilə reallaşdığını qeyd etmişdik. Yəni insan obyektiv gerçəkliyin sərhədlərindən kənara çıxmaqla ən ümumi həqiqəti aşkarlamağa nail olur. Aşkarlanmış məna əsasında ruhi mövcudluğun qurulması isə -

ruhi mövcudluq özündənkənar mümkün olduğundan - insandan həm də öz sərhədlərindən kənara çıxmağı tələb edir; hansı ki, V.Frankl bunu **özünütransendensiya** - özkənarına çıxma kimi təyin edir. Mövcud insan öz sərhədlərindən çıxmaqla obyektiv gerçəkliklərə və başqa mövcud insanlara keçir. Obyektiv gerçəkliyə keçməklə aşkarlanan məna başqa mövcud insana keçməklə onun aşkarladığı məna ilə uzlaşdırılır və uyğun mənalar - ümumi məna əsasında mövcud insanlar arasında xaricdə ruhi qurulma reallaşır. Buradan da, ruhi mövcudluq mövcud insanın sərhədlərindən çıxmaqla - başqa şeylərə və insanlara keçməklə mümkün olduğundan, mövcud insan nə qədər özündən kənara çıxırsa, bir o qədər ruhi mövcudluq olur; yəni özü özü olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Şüurlu insan idrak prosesində obyektin sərhədlərindən çıxmaqla obyektiv gerçəkliklərin mövcudluğun ən ümumi şərtlərini - ümumi mənanı aşkarlayır, tapır və həmin mənadan öz sərhədlərindən - mövcud insanın sərhədlərindən - çıxmaqla digər "özündənçıxan" mövcud insanlarla özündənkənar mücərrəd ruhi mövcudluğu - insanlığı yaradır.

6.*Xeyir və şər.* V.Franklın şərhindən aydın olur ki, insan məna axtarışında daxili istiqamətlənmə ilə fəaliyyət göstərir; hansı ki, vicdan kimi təyin olunur. İnsan bir-birinə əks iki istiqamətdə fəaliyyət göstərir. Birincisi, təbii bədən tələbatlarının ödənilməsi istiqamətindəki fəaliyyəti. Bu istiqamətdə fəaliyyət insanı öz təbii vəziyyətinə - heyvanlar aləminə qaytarır. Yəni insan bu istiqamətdə fəaliyyəti ilə təbii vəziyyətə keçir və ruhi mövcudluq yaranmır. İnsanın ruhi mövcudluğunun zəruri şərtlərinin məcmusunun əksiliyi **şər** kimi meydana çıxır. Şər o şərtlərin məcmusudur ki, həmin şərtlərdə ruhi mövcudluq qurulmur. İnsan heyvan kimi mövcud olur. İkinci istiqamət, təbii vəziyyətdən sosial vəziyyətə doğru keçmə istiqamətidir. Sosiallaşma o şərtlərin məcmusudur ki, insan həmin şərtlərdə ruhi mövcudluq əldə edir. Nəyin şər, nəyin xeyir olmasını isə vicdan müəyyən edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Vicdan - İnsan iradəsinə İlahi tərəfindən verilmiş xeyir və şərin zəruri şərtlərinin məcmusundan ibarətdir. Vicdan - ruhi mövcudluğun şərtlərinin iradəvi əldə edilməsində İlahi istiqamətləndirmədir; hansı ki, belə istiqamətlənmə olmadan ruhi mövcudluq mümkünsüzdür.

Həqiqət mövcudluqdan dolayısı ilə aydınlaşdığından, ruhi mövcudluq qurulmadan, yalnız xalis ruhi fəaliyyətdən ruhun həqiqəti aydınlaşmır. Buna görə də, Ruhun problemi ruhda həqiqətin özünü aydınlaşdırıb-aydınlaşdırmaması və əgər aydınlaşdırırsa, onun aşkarlanmasının mümkün olub-olmaması məsələsindən ibarətdir.

Haşiyə: Ditrix F.Hildebrand, "Kommunikasiyanın metafizikası"

> *"Təcrübədə bizə verilmiş canlı məxluqlar arasında insan şəxsiyyəti daha çox özündə «özündə dünya»nı təqdim edir. O ki qaldı ümumiyyətlə o «özündə mövcudluq» xarakteri daşıyır, əlbəttə, artıq bu onun substansial varlığından ibarətdir və bundan daha böyük ölçüdə ondadır ki, o özündə complete (tamamilə) substansiya təqdim edir; hansı ki, elə belə özünün konstitutiv varlığında təkmilləşməyə məruz qala bilməz."*

D.f.Hildebrandın insan şəxsiyyəti ilə bağlı təyinindən görünür ki, həqiqi dünyada, mövcud insan varlığında "özündə dünya" olan substansiya vardır. Biz bu substansiyanı **Ruh** adlandırırıq. Ruhun "özündə dünyası" məhz təbiətin əksliyi kimi metafizik dünyadan ibarətdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun mövcudluğu metafizik mövcudluqdur, buna görə də, təbii mövcudluğun tabe olduğu heç bir qanuna tabe olmur.

Ruh öz mövcudluğunu təbiətin şərtləri əsasında bədən vasitəsi ilə təmin etdiyindən bədənin qanunları ilə şərtlənir; hansı ki, təbiət qanunları kimi mövcuddur. Ruhun bədənlə şərtlənməsi mövcud insanı təzahür etdirir. Buradan da, aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Mövcud insan ruhdan fərqli olaraq, ikili tabeçiliyə: özündəki ruhun mövcud olmasına görə metafizik qanunlara, özündəki bədənin mövcudluğuna görə kosmik qanunlara tabe olur.

Beləliklə, mövcud insanda daxili vəhdət daxili zəruri və təsadüfi şərtlərin məcmusundan, xarici vəhdət xarici təsadüfi şərtlərin məcmusundan təşkil olunur. Buradan da, ruh yalnız xarici təsadüfi şərtlərlə daxili təsadüfi şərtlər uyğun gəldikdə bədəndə fəallaşır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhi təzahür təsadüfi şərtlərdə meydana çıxır; hansı ki, biz xarici təsadüfi şərtləri **vəziyyət** kimi qavrayırıq.

Bu ideya ekzistensializmin əsasında durur. Ekzistensializmə görə bədəndə olan ruhun mövcud olması bədəndən fərqli olaraq sürəkli, fasiləsiz təzahür etmir. Yalnız xarici təsadüfi şərtlər daxili təsadüfi şərtlərlə üst-üstə düşdükdə, ruhun daxili mövcud olması ilə onun xarici təzahürü eynilik kimi meydana çıxır; nəticədə, bədəndə ruhi fəaliyyət xarici seyr yolu ilə aşkarlanır.

Ruhi fəaliyyət nəticəsində obyektiv gerçəkliklərdə əldə edilmiş həqiqət mexaniki olaraq ruhi mövcudluğun əsasını təşkil etmir. Belə olsaydı, onda ruh mövcud varlıqla eyniyyət təşkil edərdi. Ruh obyektiv gerçəkliyin şərtlərindən öz xüsusi həqiqətinə uyğun şərtlər hazırlayır. Bunun üçün ruh həm də sürəkli olaraq obyektiv gerçəkliklərin dərkinə paralel özü özünü dərk etməyə cəhd edir. Yəni özünüdərk - ruhi mövcudluğun tələb etdiyi şərtləri aşkarlamağı özündə təqdim edir; hansı ki, mənimsənilmiş xarici zəruri şərtlər ruhda ruhun daxili zəruri şərtlərinə çevrilir. Beləliklə, mövcud varlığın şərtlərinin transformasiyası ilə ruhun mövcud varlığının şərtləri meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fiktiv Ruh hər şeyi və özü özünü dərk edən metafizik təbiətli varlığın mövcud olmasıdır.

Buradan da, bir tərəfdən ruh bütün mövcud varlıqları dərk etmə ilə qavramaq, digər tərəfdən düşüncə ilə özü özünü və özü özündən digər metafizik obyektləri intuitiv qavramaq imkanına malik olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruh metafizik obyektləri - Varlığı, Kosmosu və Allahı özü öz təbiətindən yalnız intuitiv idrakla qavraya bilər.

Haşiyə: Plotin, "Üç birinci başlanğıc və ya substansiya haqqında"

> *"Özünüdərk hər şeydən əvvəl, istənilən fərdi ruhun və istənilən həyatın əmələ gəldiyi vahid universal ruhun olmasını təsdiq edir. Bu ruh, öz növbəsində tam bir ideyalar sistemini həyata keçirdiyindən, ondan yuxarıda ali başlanğıcın - ilahi, əbədi, dəyişməz, bütün mövcud olanların tam arxetipi kimi yaradıcı Ağlın mövcudluğunu göstərir. Necə ki, Ağıl özündə düşüncə ilə varlığın ikiliyini təqdim edir, o belə ali başlanğıc varlıqdan və düşüncədən yüksək olduğundan hər ikisinin ali başlanğıcı olan Mütləq Vəhdəti ehtimal edir. Beləliklə, Vahid Ağlı, ağıl isə canı yaradır. Bu üç başlanğıc bizə də yad deyil: əksinə, hamısı məcmui şəkildə bizim təbiətə daxil olur və bizim daxili insanı təşkil edir. Bu zaman üçündən sonuncu hissüstü prinsip bizim canlı ruhumuza, ortadakı - bizim mühakiməyə, ən alisi - bizim düşünən ağlımıza uyğundur. Ağıl, biz deyirik ki, İlkvahidin obrazıdır; bu hər şeydən öncə o deməkdir ki, əgər Ağıl İlkvahiddən doğulubsa, onda özündə Atanın təbiətindən çox şeyə malikdir və Ona oxşardır, necə ki işıq günəşə uyğundur." "Birincidən sonra gələn mövcudluqların mənşəyi və qaydaları": "İlkvahid hər şeydir və bununla yanaşı mövcudluqlardan heç biri deyil. Mövcudluğun əmələgəlməsi, birincidən başlayaraq getdikcə daha aşağıya gedir və bu zaman hər bir mərhələ özünün təbiətinə uyğun bu prosesdə yer tutur. Hər bir yeni yaranmış varlıq bir tərəfdən əmələ gəldiyi varlığa nisbətən daha az təkmil olur, digər tərəfdən - ona oxşarlığı o dərəcədə saxlayır ki, onunla əlaqəni saxlayır və ona tabe olur."*

Bizə görə, Plotin dünyanın yaranması haqqında fikirlərində həqiqətə daha çox yaxın olmuşdur. Plotinin fikirlərindəki ayrı-ayrı müddəaları şərh etməklə fikirlərimizin şərhini davam etdirmək məqsədəuyğundur. Beləliklə:

1. **Özünüdərkin "fərdi və vahid universal ruh"un olmasını təsdiq etməsi:** Bu formal ruhun fərdi və bununla birlikdə ümumi olması ilə bağlıdır. Yəni, hər bir insanda mövcud olan fərdi ruh bununla

birlikdə universaldir; yəni bədənlə şərtlənmədən azad olduqda bütün fərdlərdə bir və eynidir. Məhz fərdi ruhun bədənlə vəhdətdən kənar mövcudluğu vahid universal ruh kimi təzahür edir. Özünüdərk - özündə formal ruhu aşkarlamaqdan ibarətdir; hansı ki, bununla birlikdə universal ruh aşkarlanır.

2. **İdeyalar sistemini həyata keçirən ruhun arxetipi kimi yaradıcı Ağıl:** İdrak prosesində insan gerçəkliklərin ideyalarını dərk edən yeganə tək bir varlıq kimi çıxış edir; hansı ki, həmin bütün ideyaları əvvəlcə tək bir Allah yaratmışdır. Buradan da Allah - yaradıcı Ağıl, dərk edən ruha münasibətdə arxetip kimi çıxış edir.

3. **Düşüncə ilə varlığın ikiliyi:** Təcrübədə idrak prosesi obyektlə subyektin vəhdətində reallaşır. Burada varlıq ağılla əkslik kimi çıxış edir. Beləliklə, mövcud mən özündə ikili təbiətə - mövcud varlıqdan və varlığın mövcudluğundan ibarət mürəkkəb mahiyyət kimi təzahür edir.

4. **Mütləq Vəhdətin ehtimal olması:** Mövcud varlıqla varlığın mövcudluğu özündə əkslik kimi meydana çıxdıqlarından, onların hər ikisinin eyni bir başlanğıcı - özündə əkslik saxlamayan mahiyyət olmalıdır, belə ki, əksliklərin hər iki tərəfi ondan yaransın. Plotin bunu Mütləq Vəhdət kimi təsəvvür edir. Biz Mütləq Vəhdəti özü-özü ilə vəhdət təşkil edən və buna görə özündə əkslik saxlamayan vəhdət kimi təyin edirik. Yəni Mütləq Vəhdətdə düşüncə ilə varlıq eyni bir başlanğıca malik olur; hansı ki, Spinozanın təbirincə mahiyyətin varlığından ibarətdir. Mütləq Vəhdət həqiqətin yaranışdan əvvəlki vəziyyətidir, hansı ki, mütləq şəkildə təkdir.

5. **Üçlü təbiətli daxili insan - canlı ruh, mühakimə və düşünən ağıl:** İnsanın üçlü təbiəti yaranış səviyyələri ilə bağlıdır. Hansı ki, birinci səviyyəni mümkünlüyün varlığının mövcudluq tələbində İlahi İradədən aldığı sabit zəruri şərtlərdən ibarət birincili mövcudluqlar - **cisimlər**; ikinci səviyyəni mümkünlüyün varlığının birincili mövcudluqlarda yeni mövcudluq tələbində İlahi İradədən aldığı dəyişən zəruri şərtlərdən ibarət ikincili mövcudluqlar - **canlılar**; üçüncü səviyyəni

mümkünlüyün varlığının ikincili mövcudluqlarda yeni mövcudluq tələbinə İlahi iradədən yalnız mövcud olmanın şərtləri verilmiş **ruh** təşkil edir. Beləliklə, insan üç daxili mənə - cisim kimi **Fiziki Mənə**, canlı kimi **Faktiki Mənə** və ruhi varlıq kimi **Düşünən Mənə** malik olur. Plotinin şərhində insanın fiziki məni təyin olunmur, sadəcə ruhi mən iki müxtəlif mən kimi - mühakimə edən və düşünən ağıl kimi təyin olunur; hansı ki, mühakimə ilə düşünmə bir mənin - düşünən mənin ayrı-ayrı xarakteristikalarından ibarətdir.

6. **Atanın təbiətindən çox şeyə malik və Ona oxşar olmaq:** Təbiətdə xaricdə bir mövcudluq formasından başqasına keçid prosesində hər bir yeni mövcudluq özündən əvvəlki mövcudluğa xas keyfiyyətləri özündə inkar edərək təzahür etdirmir və onları öz dərinliyində saxlayır, buna görə də əvvəlkinə oxşamır və onun malik olduğu heç bir keyfiyyətə malik olmur. Məsələn: xörək duzu heç bir keyfiyyətinə görə onu əmələ gətirən nə Na, nə də Cl-a oxşamır. Əksinə onlarla əks keyfiyyətlərə malik olur. Bu mövcud varlıqların özündənkənar keçid prosesində iştirak etmələri ilə bağlıdır. Amma ruhda keçid daxildə olur və bu zaman ruh özü özünün bir formasından başqa formasına keçir. Buna görə də, daxili özü-özündə keçmədə ruhun özünün bir forması başqa formasına oxşayır və bütün formaları bir və eyni mahiyyətlə şərtləndiyindən hər bir forma özündən əvvəlki ilə oxşar olur. Ruh ilk başlanğıcda yarandığı anda birinci ruhi forma ilk başlanğıca oxşar olur. Buradan da, Düşünən mən kimi Ruh bəzi fəaliyyətlərinə görə Yaradana oxşayır və onun təbiətindəki bəzi fəaliyyətlərə, amma emanativ formada, malik olur.

7. **Hər şey olmaq və heç bir şey olmamaq:** Əgər Yaradan hər şeydirsə və hər bir şey başqalarından fərqlənirsə, onda Yaradan heç vaxt hər şey olması ilə yanaşı bir şey ola bilməz; çünki bu zaman başqa şeylər ola bilməz. Bu "eyni bir varlıq eyni zamanda həm var ola, həm yox ola bilməz" kosmik qanununa zidd olardı. Əslində Allahın hər şey olması onun metafizik təbiətidir; hansı ki, metafizikanın "eyni vaxtda

hər yerdə, bir yerdə müxtəlif vaxtlarda, eyni vaxtda bir yerdə həm var həm yox olmaq" qanunlarına uyğun aşkarlanır. Hər bir şey yalnız Kosmosda meydana çıxır və Kosmik qanunlara tabe olur. Buradan da Allahın hər şey olması, amma heç bir şey olmaması metafizika ilə təbiət qanunlarının fərqliliyini özündə əks etdirir.

8. **Fərqliliklə oxşarlığın vəhdəti:** Yuxarıda qeyd etdik ki, Yaranışla əmələgəlmə bir-birinə iki əks proses - emanasiya və təkamül kimi təzahür edir. Təkamül formanın sadədən mürəkkəbə, ibtidaidən aliyə inkişafını; emanasiya mahiyyətin alidən ibtidaiyə, ən ümumidən orijinala doğru inkişafını özündə təqdim edir. Yəni mövcud varlığın forması nə qədər təkmil olursa, onun mahiyyəti bir o qədər aşağı keyfiyyətli olar. Mövcudluqda forma ilə mahiyyət vəhdət təşkil etdiyindən, təkamüllə emanasiya bir-birinə o dərəcədə əks istiqamətdə inkişaf edir ki, mövcud varlığın vəhdəti saxlansın. Yəni təkamül və emanasiya məhdud prosesdir və mövcudluqların vəhdəti ilə sərhədlənmişdir. Beləliklə, müxtəlifləşmə həm də oxşarlıq saxlayır. Məhz buna görə, bütün mövcud varlıqlar ən təkmil formaya, ən pis mahiyyətə malik olaraq İlk başlanğıc təbiətdən - mütləq həqiqətdən orijinal həqiqət qədər fərqlənirlər, amma eyni zamanda öz orijinallıqlarında mütləq həqiqətə oxşayırlar. Hansı ki, hər bir ayrıca orijinal şeydən ümumiləşdirmə ilə sonda, ən ümumi həqiqəti aşkarlamaq mümkün olur; hansı ki, Allahı özündə refleksiya edir. Buradan aşağıdakı pnevmatoloji ideya alınır:

Mövcud insan təkamüllə emanasiyanın sonunda yarandığından özündə Yaradandan formaca tam fərqlənir, amma mahiyyətcə ona oxşayır. Bu oxşarlığa görə məhz insan həqiqəti özü-özündən dərk edir.

Ruh xalis metafizik varlıq olduğundan fiziki varlıqlara xas heç bir təzahürə malik deyil və buna görə də fenomenlərdən çıxarılan kateqoriyaların heç biri ilə şərh oluna bilməz. Bəs onda "düşünən subyektin mütləq vəhdəti" özündə nəyi təqdim edir? Buradan da, belə bir suala cavab vermək lazım gəlir: "Düşünən subyekt fərdiliyə malikdirmi? Yəni

hər bir fərdin özünə məxsus tək bir ruhu vardırmı?" Ruh noumen olduğundan, fenomeni xarakterizə edən tək və cəm kateqoriyaları ilə şərh oluna bilməz. Belə ki, obyektiv gerçəkliklərin çoxluğu xarici (konkret obyektdən kənarda), təkliyi daxili (yəni konkret obyektdədir); bunun əksinə ruhun çoxluğu daxili (yəni mövcud insanın daxilində), təkliyi ondan kənardadır.

Buradan belə bir pnevmatoloji ideya aşkarlanır:

Ruhun təkliyi insanlıq kimi xarici, ruhun çoxluğu - cəmliyi - şəxsiyyət kimi daxilidir. Təkin mahiyyəti cəm formasından aşkarlandığından, tək kimi insanlıq sonsuz sayda ayrı-ayrı insandan - fərddən və ya hər bir fərdin daxili çoxluq təşkil edən özündən aşkarlanır.

Bəs, fərdlərin çoxluğundan aşkarlanan eyni bir düşünən subyekt - Ruh necə mövcud olur? Bu ruhun tabe olduğu metafizik qanunlarla bağlıdır. Ruh fenomen olmadığından məkan və zamanla şərtlənməmişdir. Buna görə də, obyektlərdən fərqli olaraq "eyni vaxtda müxtəlif yerlərdə ola bildiyindən", özü-özü ilə mütləq vəhdət təşkil edən Vahid İnsanlıq Ruhu eyni vaxtda müxtəlif fərdlərdən təzahür edir.

Bu da "düşünən subyektin özündə heç bir çoxluq saxlamaması kimi" idrak olunur. "Düşünən mən" özündə çoxluq saxlamırsa, onda sonsuz çoxluqda olan fərdlərdən necə eynilik kimi təzahür edir? Bunu Kantın paraloqizmi ilə izah etmək mümkündür. Düşünən subyektin təzahür forması "mən düşünürəm"dir. Təcrübə sahəsində nə qədər fərd varsa, hamısı eyni vaxtda "mən düşünürəm" kimi çıxış edir. Yəni mövcudluğu olmadığından ruh paralel mövcud olma üsulu ilə təzahür edir. Paralel mövcud olma eyni vaxtda hamıda olmaq və düşünmək kimi meydana çıxır. Digər tərəfdən, hər bir fərd eyni vaxtda mən, sən və o olduğundan fərd özü özündə paralellik saxlayır, yəni ruh sadəcə bir-birinə paralel üç fərqli forma anlayış və bir və eyni mahiyyət kimi mövcud olur. Yəni Mən, eyni vaxtda sən və o kimi mövcud olur. Buradan da, mən, sən və o ixtisara salındıqda yalnız "düşünən" qalır; hansı ki, ruhun metafizik təyininə dax-

ildir. "Mən" həm də təki bildirir. Hər bir mən təkdir, onda paralel mövcud olan ruh tək kimi eynilikdir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fərdlərin xüsusi ruhu yoxdur, ruh ümumi kimi fərdi bədənlərdən təzahür edir və bu zaman şərtləndikləri bədənlə şərtlənmə müddətində xüsusilik xarakteristikasına malik olur.

RUHİ MÖVCUDLUĞUN XARAKTERİSTİKASI

Özündənkənar şeydən onun xarakteristikaları bilavasitə təyin edilmədiyindən (özündənkənar şeyin obyektivliyi və bilavasitəliyi olmadığından) onun bütün əlamətləri özündəşeyin fikrən əksiliyindən təyin edə bilərik. Həmin keyfiyyətlərə aşağıdakıları aid edə bilərik:

Özü-özü ilə eyniyyət təşkil etməmək: Özündəşey obyektlərdə özündə saxlanan özü-özü ilə eynilikdən ibarətdir. Ruh, obyektiv gerçəkliklə əkslik təşkil etdiyindən, özündə özü ilə fərqlilik saxlayır və başqaları ilə xarici eyniliyi özündən itələyir. Nəticədə, bütün fərdlərdə eynilik kimi aşkarlananları ruhun əlamətləri kimi, fərqlilik təşkil edənləri bədənin əlamətləri kimi qavrayırıq. Beləliklə, obyektiv gerçəkliklərin özündəşeyinə uyğun ruhun faktı özündənkənarşey kimi meydana çıxır. Fərdi ruh real varlıqla - bədənlə şərtlənmiş meydana çıxdığından, xalis varlıq təyininə görə başqa fərdi ruhlarla eyniyyət təşkil edən ruh, mövcud insan formasında özü-özü ilə eyniyyət təşkil etmir. Buna görə də, özündən aşkarlanmır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Həqiqət yalnız eyniliklərdən aşkarlandığından, Fərdi Ruh özü-özündə sonsuz sayda sürəkli olaraq bir-birini əvəzləyən fərqliliklər kimi gerçəkləşdiyindən, fərdi ruhdan həqiqət bilavasitə aşkarlanmır.

Xaosla yaranıb sonradan tədricən nizamlanmaq: Obyektiv gerçəkliklər əvvəl mahiyyət, sonra formaya malik olur. Mahiyyət özündə bilavasitə İlahi İstəyi, yəni mütləq qanunauyğunluğu - Allahın istəyi ilə eyniyyət təşkil etməyi təqdim edir. Allahın istəyi ilə eynilik təşkil etməyi

biz nizam kimi təyin edirik. Beləliklə, obyektiv gerçəkliklərdə əvvəl nizam yaranır, sonra konkret nizama uyğun forma əmələ gəlir. Yəni obyektiv gerçəkliklərin yaranışı ilə nizamlılığı eyniməqamlıdır. Ruhun da xalis varlığı nizamlılıqdır, lakin ruh bədənə keçməklə üçüncülü mümkünlüyün varlığı kimi təzahür etdiyindən, ruhun xalis varlığı real varlığın mövcud varlıq təyini ilə şərtlənməklə, yəni real varlığın formasından şəriklik istifadə etdiyindən, nəticədə eyni bir formada fərqli mahiyyətlər təzahür etdiyindən ruhun nizamlılığı xaosla əvəzlənir. Buradan həm də ruhlu insanda ruhun mümkünsüzlüyü - mümkünlük "bir formanın bir mahiyyətlə daxili vəhdəti" prinsipinə tabe olduğundan, özündə nizamlılığı saxlayır; ruh isə özündə xaosu meydana çıxır. Xaos - eyni vaxtda müxtəlif qanunlara tabe olmağı özündə təqdim edir. Başqa sözlə, ruhda ikincili yad bədən forması əvvəl, ruhun mahiyyəti sonra yarandığından, obyektiv gerçəklikdən fərqli olaraq, mahiyyətdən forma yox, öz mahiyyəti olan formadan fərdi ruhi mahiyyət təzahür edir. Bu da nizamlılığın - bir mahiyyətin bir forma ilə vəhdət təşkil etməsi (yəni, eyni bir yerdə və eyni vaxtda həm var, həm yox olmağın istisnası) Kosmik qanununun əksinə olaraq; eyni bir formanın iki müxtəlif mahiyyətlə təşkil etməsi (yəni, eyni anda və eyni yerdə həm var, həm yox olmağın) metafizik qanununa uyğun olduğundan, eyni anda müxtəlif qanunlara tabe olmaq kimi meydana çıxır; hansı ki, xaos kimi qavranılır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Forma özündə fərqliliyi, müxtəlifliyi və heçliyi təqdim etdiyindən, özündə nizama malik formasız ümumi formal ruh, bədənlə şərtləndiyi andan, bədənin formasının təsirindən özündə müxtəlifləşmə, fərqliləşmə və heçləşmə təzahür etdirərək fərdi fiktiv ruha çevrilir; və fərdi ruh həm özünün, həm də eyni zamanda bədənin qanunlarına tabe olduğundan, özündə məcmui olaraq xaosu təqdim edir.

Ruh bədənlə şərtləndikdən sonra özündə xaosu təqdim etdiyindən, fərdi ruhun idrakında onda konkret qanunauyğunluq aşkarlamaq mümkün

olmur. Yəni fərdi ruh İlahi istəyə uyğun olmur. Buna görə də fərdi ruhun İlahi istəyə uyğun gəlməsi cəmiyyətin təsiri ilə reallaşdırmağa cəhd edilir; hansı ki, cəmiyyət xarici ümumi ruh kimi özündə bəlli qanunlar saxlayır və öz qanunlarına fərdi tabe etdirməklə onda ruhi nizamlılıq formalaşdırır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Xaotik fərdi ruhların özündən itələdiyi eyniliyindən xaricdə təşkil olunan cəmiyyət, sonradan hər bir fərdi ruha təsir edərək, öz eyniliyini ona keçirir, nəticədə fərdi ruhlarda nizam aşkarlanır.

Ümumi ruh bütün insanların özündən itələdiyi eyniliyin məcmusundan təşkil olunduğundan, bütün insanlar bir yerdə və eyni vaxtda mövcud olmadığından (əksinə müxtəlif vaxtlarda müxtəlif yerlərdə meydana çıxdıqlarından), ümumi ruhi eynilik bütün vaxtlarda və bütün yerlərdə mövcud olan fərdi ruhların özündən itələdiyi eynilikdən təşkil olunur. Bütün vaxtların məcmusu Tarix, bütün yerlərin məcmusu Kosmos kimi təzahür etdiyindən, tam nizamlı özündəşey insanlıq tarixində bütün Kosmosdakı fərdi ruhlardan itələnən eyniliklərin məcmusundan təşkil olunur. Buna görə də istənilən tarixi dövrdə, istənilən yerdə meydana çıxan xarici ümumi ruh - özündənkənarşey qeyri-kamil insanlıq ruhu kimi təzahür edir. Buna görə də, ruhun faktı ilə nizamı eyniməqamlı olmadığından, Özündənkənarşeyin nizamlanması özündəşeydən fərqli olaraq, sürəkli prosesdir və özündəşeydən kənarda müstəqil təzahür etmədiyindən, özündəşeyin nizamı əsasında reallaşır.

Haşiyə: F.Bekon, "Yeni Orqanon və ya təbiətin şərhi üçün həqiqi göstərişlər":

> *"İnsan, təbiətin xidmətçisi və şərhçisidir; nə qədər icra edir və başa düşürsə, bir o qədər onun nizamına işlərlə və düşüncə ilə çatır, bundan artığını o bilmir və bilə bilməz."*

F.Bekonun fikirlərində icra etmək - ruhi yaradıcılığı, başa düşmə - ruhi ekzistensiyanı özündə ifadə edir. Buradan da aşağıdakı pnevmatoloji ideya meydana çıxır:

Ruh nə qədər ekzistensiya edir və yaradıcılıqla məşğul olursa, bir o qədər özündə nizamlanır.

1. **Təklikdə təzahürdən məhrum olmaq:** Özündənkənar şeyin mahiyyəti fərdi ruha münasibətdə özündənkənar olduğundan, başqası - özündənkənardakı - olmadan "özündənkənarşey" təklikdə təzahür etmir. Özündəşeyin təzahürü bilavasitə özü ilə bağlıdır və öz mahiyyəti ilə şərtlənmişdir. Bundan fərqli olaraq, özündənkənar şeyin təklikdə mahiyyəti olmadığından və yalnız özündənkənar şeylərin formasından ikincili aşkarlandığından təklikdə təzahür etmək imkanına malik deyil, yəni ruhun faktiki varlığı təklikdə təzahür etmir. Özündənkənarşeyin xalis mahiyyət kimi formaya malik deyildir; buna görə də təzahür etmək naminə bədənin formasından istifadə edir. Beləliklə, bədən özündənkənar şeyin - ruhun özündənkənar forması faktiki mən kimi qavranılır.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

> *"Biz insan ruhunun yaradılma zamanı ilə bağlı heç nə deməmişik, belə ki, kifayət qədər sübut olunmayıb ki, bədənsiz mövcud olmaq vəziyyətindədirsə Allah onu nə vaxt yaradır. Yalnız aydındır ki, o heç bir vasitədən əmələ gəlmir, belə ki, bu yalnız substansiyanın modusu kimi yaranan şeylərə aiddir; substansiyanın özü əmələ gələ bilməz, yalnız Hərşeyəqadir tərəfindən yaradıla bilər."*

B.Spinozanın Ruhla bağlı şərhindən görünür ki, o, Ruhun vasitədən yaranmadığını və substansiyanın modusu kimi yaranan şeylərə aid olan kimi, Yaradıcı güc tərəfindən yaradıldığını iddia edir. Spinoza modusu - substansiyanın keçici vəziyyətləri kimi təyin etmişdir. Başqa sözlə, modus bütün vaxtlarda yalnız tək bir şeydən aşkarlanmayan keyfiyyətdir. Məhz buna görə, modusla "şeylərin sonsuz çoxluğunu və keçici keyfiyyətləri" ifadə olunur. Məsələn, fərdin uşaqlığı onun modusudur, çünki keçicidir, bütün vaxtlarda eyni bir fərddən aşkarlanmır. Buna paralel, bütün fərdlərdə təzahür etdiyindən, uşaqlıq anlayışı özündə sonsuz sayda uşaq yaşlı fərdi ifadə etmiş olur. Buradan da, əgər Spinozanın

şərhinə uyğun fərdi ruhu təyin etsək aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruh modus kimi ayrıca faktiki fərddə keçici olaraq və eyni zamanda bütün tarix boyu yaşamış faktiki fərdlərdən təzahür edən substansiyanın - mümkünlüyün varlığının - təzahürüdür.

Burada göründüyü kimi, ruhun nə vaxt yaradıldığı məsələsinə Spinoza aydınlıq gətirmir. Zaman dəyişən zəruri şərtlərin məcmusundan ibarət olduğundan və ruha zəruri şərtlər verilmədiyindən aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun yaradılma zamanı yoxdur, yəni ruhun yaranması zamanüstüdür, buna görə də ruh əbədi varlıqdır.

Biz yalnız Ruhun insan bədənində nə vaxt yaranması haqqında təsəvvürlərə malik ola bilərik ki, bu da bədənsiz mövcud olan ruha aid ola bilməz. B.Spinozanın fikirlərindəki "bədənsiz mövcudolma vəziyyəti" ifadəsini necə anlamaq olar? Bu vəziyyət iki mənada mümkündür. Birincisi, insan bədənindən kənarda ruhun müstəqil mövcud olması kimi; ikincisi, bədəndən kənar yaradılaraq bədənə daxil edilməsi kimi. Birinci halda, ruh xalis fəaliyyət kimi təbiət sferasında mövcud ola bilməz, yəni təbiətdə ruhun bədənsiz mövcudolma vəziyyəti istisna olunur; çünki təbiətdə hərəkət obyekt tələb edir, ruhun isə obyektliyi yoxdur. Belə ki, Təbiətdə xalis fəaliyyət yoxdur, bütün fəaliyyətlər vasitəlidir. Ruh vasitədən əmələ gəlmədiyindən vasitəyə aid fəaliyyətə də malik ola bilməz. İkincisi, Ruh bədəndən kənarda yaradılaraq bədənə daxil edilmir. Çünki onda niyə məhz insan bədəninə daxil edilməsi sualı cavabsız qalır. Ruh bədəndə, amma yalnız özünəxas səbəblərdən yaranır; hansı ki, onun yaranmasında bədən ona münasibətdə zəruri şərtlərin məcmusunu özündə təqdim edir, ruh isə bədənə münasibətdə təsadüfi şərtlərin məcmusundan ibarət olur. Zəruri şərtlərin məcmusu kimi bədənlə təsadüfi şərtlərin məcmusu kimi ruh vəhdət təşkil edərək mövcud insanı - ruhlu insanı meydana çıxarır. İnsanın ölümlülüyü, yəni ruhun müəyyən səbəblərdən

bədəni tərk etməsi ruhla bədənin bu cür əlaqələnməsi ilə bağlıdır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun öz xüsusi mövcudluğu olmadığından, Ruhda mövcudluğun zərurətə görə şərtləri yoxdur; zərurətə görə şərtlər olmadığından, ruhun obyektivliyi və bilavasitəliyi də yoxdur.

2. **Xarici fəaliyyətə cəhd etmə:** Fəaliyyət yalnız eynilikdən meydana çıxır. Obyektiv gerçəkliklər özündəşey kimi özü özü ilə eynilik təşkil etdiyindən, yalnız özündəfəaliyyətə cəhd edir. Özündəfəaliyyət öz sərhədlərində olmaqlığı, yəni daxili fəaliyyəti ifadə edir. Fəaliyyət daxili olduğundan biz özündəşeyin daxili fəaliyyətini xarici seyr etmək imkanına malik deyilik. Məsələn, biz maddələrin əmələgəlməsini, canlılarda orqanların daxili fəaliyyətini görə bilmirik. Bundan fərqli olaraq, özündənkənarşey özü-özü ilə yox, özündənkənardakı ilə eyniyyət təşkil etməklə aktuallaşdığından, uyğun olaraq, onun bütün cəhdləri özündən kənara meyllənir ki, bu da ekzistensiya - öz sərhədlərindən kənara çıxma cəhdini təzahür etdirir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Özündənkənar şey kimi ruhun fəaliyyəti xarici olduğundan biz ruhi fəaliyyəti xarici seyr etmək imkanına malikik. (Məsələn, biz hər hansı bir əsərin necə yaradıldığını xarici seyr edirik.)

3. **Özündə başqasını təzahür etdirməklə aktuallaşma:** Cisim dünyasında özündəşey özü-özü ilə eynilik kimi, özü-özündə təkrarlanmaqla aktuallaşır. Buradan da, aktuallaşmada zamandan və məkandan asılı olmayaraq təkrarlanma fakt kimi aşkarlanır. Fərdi ruh özü özü ilə fərqlilik təşkil etdiyindən, özü-özündə təkrarlanmır, ona görə də özündə fakta malik olmur. Fərdi ruhun eyniliyi özündən itələnərək başqa fərdi ruhların eynilikləri kimi təkrarlanır; nəticədə elə belə ruhi fakt fərdi ruhdan kənarda meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhi fakt, ayrıca fərdi ruhdan aşkarlanmadığından, özündənkənar təkrarlanma ilə, özündə başqasını özü ilə eynilik kimi təzahür etdirməklə aktuallaşır.

Yəni hər bir fərdi ruh başqa fərdi ruhla yalnız eyniyyət təşkil etdikdə aktuallaşır. Özündəşeyin əksinə, özündənkənar şey nə qədər özündə özündən kənardakıları - başqasını təzahür etdirirsə, özü bir o qədər aktuallaşır. Buna görə də, məkandan və zamandan asılı olaraq eyni bir ruhi aktuallaşmada fərqli faktlar aşkarlanır. Buradan da, ruhu faktın nisbiliyi meydana çıxır. Digər tərəfdən fiktiv ruh özündənkənar aşkarlandığından özündə aşkarlanmayan olur; yəni özündənbaşqası olmayan yerdə fərddən ruh aşkarlanmır.

4. **Ümumilik:** Ruh həqiqətin hissəciklərə qədərki aydınlaşma üsulunu özündə təqdim etdiyindən, hissəciklərdən əvvəl isə hər hansı bir xüsusi xassə təzahür etmədiyindən, özündənkənar şey ümumiliyə malikdir. Bu Leybnicin monadologiyası əsasında izah oluna bilər. Leybnicə görə "monada ən ümumi mənada ruhdur (substansiyadır) və əgər iki monada mütləq şəkildə bir və eynidirsə - deməli, bir və eynidir". Biz bunu kəmiyyətin ixtisara düşməsi kimi təyin edirik. Yəni, özündə heç bir fərqlilik və müxtəliflik saxlamayan şey çoxluq kimi mövcud ola bilməz. Ruh buna görə özündə mövcudluqlara xas müxtəliflik və fərqlilik saxlamadığından və buna görə mütləq şəkildə bir və eynidir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Bütün fərdlərdə aşkarlanan fərdi ruh ümumi insanlıq ruhundan, yəni hər bir fərdin ruhu onun insanlığından ibarətdir.

5. **Sərhədsizlik:** Özündəşey son nəticə olduğundan sərhədlənmişdir, hər bir fakt yalnız konkret sərhədlə təzahür edir və sərhəd hər bir şeyin özündən yaranır. Bundan fərqli olaraq, özündənkənar şey son nəticədən sonra meydana gəldiyindən, özündən əvvəlki nəticənin xarakteristikasını daşımır, yəni ruhun heç bir sərhədi yoxdur; çünki heç bir özündənkənarşey özü kimi təzahür etmir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruh qeyri-maddi və özündənkənar varlıq olduğundan heç bir sərhədə malik deyildir, yəni ölçüsüzdür.

6. **Konkretlikdən məhrum olmaq:** Konkret kateqoriyası müxtəlif mütəfəkkirlər tərəfindən müxtəlif cür təyin edilmişdir. Biz konkreti - bilavasitə İlahi İradədən zəruri şərtlər verilmiş və buna görə də özü-özü ilə zamandan asılı olmayaraq eynilik təşkil edən, özündəşey kimi, mümkünlüyün mövcudluğu kimi təyin edirik. Zəruri şərtləri olduğundan konkretin xüsusi məkan və zaman ölçüsü vardır. Daxili və xarici vəhdət təşkil etdiyindən təzahür və təsir-əks təsir əlaqəsi ilə aşkarlanandır. Buradan da konkret olan xarici, hissi qavranılan, sərhədləri olan, buna görə də başqa bütün şeylərdən ayrılan keyfiyyətlərə malik olur. Ruha İlahi İradədən bilavasitə zəruri şərtlər verilmədiyindən ruhun özündəşeyliyi, yəni konkretliyi yoxdur. Konkretliyi olmadığından məkan-zaman ölçüsü yoxdur, buna görə də faktiki ayrılıqda götürülməsi imkansızdır. Ruhun daxili vəhdəti olmadığından yalnız xarici vəhdət təşkil etdiyindən fərddən xüsusi təzahür etmir, yalnız xarici təsir-əks təsir əlaqəsindən aşkarlanır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Təzahürləri olmadığından, ruhun aşkarlanması yalnız xaricdə insanların bir-birinə və başqa şeylərə təsir-əks təsir əlaqəsindən, yəni ruhi münasibətlərdən mümkündür.

7. **Subyektivliyə malik olmaq:** Obyektlər əlamətlərindən, yəni predikatlarından müəyyən olunur. Predikat zəruri şərtlərin məcmusundan meydana çıxır. Ruhda zəruri şərtlər olmadığından predikatdan, yəni əlamətlərdən məhrumdur. Ruh xalis fəaliyyət kimi yalnız **predikabiliyadan** aşkarlana bilər. Predikabiliya - fəaliyyətdən dolayısı ilə fəaliyyət göstərənin həqiqətinin aşkarlanmasını özündə ifadə edir; hansı ki, biz bunu subyektivlik kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun obyektiv varlıq olmadığından predikata malik deyil, ruh yalnız işi ilə xalis fəaliyyətdən, predikabiliyadan fərddə olan bədəndən fərqli fəaliyyətin mövcudluğundan aşkarlanır, hansı ki, ruhun subyektivliyindən ibarətdir.

Təcrübədə özündənkənar şey özündəşeylə əksiliyindən aşkarlanır və bu əksilikdə özündəşey obyektivlik, özündənkənar subyektivlik kimi çıxış edir. Ruhun aşkarlanması yalnız özündənkənar şeyin özündənkənarşeylə əlaqəsindən mümkün olur; hansı ki, bu zaman bir-birinə eynilik təşkil edən xalis subyektivlik kimi aşkarlanır. Özündənkənar şeyin aşkarlanması təcrübə sahəsində hissi təfəkkürlə, bilavasitə mümkün deyildir. Obyektivlik obyekt-subyekt əlaqəsində hissi təfəkkürlə aşkarlanma keyfiyyətdir. Özündənkənarşeyin aşkarlanması subyekt-subyekt əlaqəsində, təcrübədən kənar, qeyri-hissi təfəkkürlə mümkün olduğundan özündənkənar şey subyektivdir. Subyektivlik substansional formada təzahür edir.

Haşiyə: J.O.Lametri, "İnsan - maşın"

> *"Biz ona gəlib çıxdıq ki, materiya hərəkətlidir, o müstəqil hərəkət etmək, o hiss etmək və duymaq qabiliyyətinə malikdir. Əgər böyük filosofların təcrübəsinə istinad etsək, bu xüsusiyyətlər, ona hiss etmək və hərəkət etmək qabiliyyəti verən forma substansiya geydirilmədən əvvəl təzahür edə bilməz. Məhz buna görə qədim filosoflar cismin reallığının tərkib hissəsi hesab etmişlər; buradan da onların adı əmələ gəlir: substansial forma."*

Lametrinin fikirlərindən görünür ki, forma heç bir halda substansiyadan əvvəl təzahür edə bilməz və hər bir forma substansiyanın yaratdığı kimi meydana çıxır. Bu qanuna yalnız obyektiv varlıqlar tabe olur. Belə ki, forma xalis heçlik kimi, sırf kosmik təzahürdür. Substansiya bunun əksinə xalis həqiqət kimi metafizik olduğundan həm metafizikadan, həm təbiətdən aşkarlanır; forma isə yalnız təbiətdən aşkarlanan olur. Forma təbiətdənkənar aşkarlanmadığından mənası da olmur. Buradan formanın heçliyi meydana çıxır. Ruh forma yaratmayan substansiya kimi mövcuddur ki, bu da onu forma yaradan substansiyadan - obyektivlikdən fərqləndirir; hansı ki, özündə heçlik kimi formaya malik olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Obyektiv gerçəkliklərin həqiqəti xalis formada yalnız aşkarlanma prosesində ruhda aydınlaşır.

8. **Ölçüsüzlük:** Ölçü məkan-zaman asılılığının dərəcələnməsi kimi meydana çıxır. Ruh zaman və məkandan asılı olmadığından ölçüsüzdür.

Haşiyə: J.O.Lametri, "İnsan-maşın"

> *"Bütün formalarından asılı olmayaraq, necə var cismi əmələ gətirən materiyanın təbiətini öyrənən bütün filosoflar bu substansiyada, mütləq naməlum mahiyyətdən çıxan, müxtəlif xüsusiyyətlər aşkarlamışlar. Beləliklə, birincisi, materiyanın özündə meydana çıxan və buna görə də materiyanın hərəkət gücü və hiss etmək qabiliyyəti əldə edən, müxtəlif formalar almaq qabiliyyəti; ikincisi, onlar tərəfindən materiyanın mahiyyəti kimi yox, atribut kimi qəbul edilən aktual ölçülülük. Ölçülülük - istənilən materiyaya həmişə xas olan xüsusiyyətdir, güclü şəkildə yalnız ona məxsusdur və beləliklə öz predmetinə xasdır."*

Ölçülülük özündəşeyin keyfiyyətidir və varlığın özündən təyin olunur. Ruh özündənkənar şey olduğundan, onun özündən ölçülülüyü aşkarlamaq mümkün deyil. İkincisi, ruh özündəşeyin daxilindədir və heç bir xarici təzahürü ilə özündəşeydən ayrılıqda aşkarlanmayandır. Ölçülülük xarici keyfiyyət olduğundan, ruhun xarici tərəfi olmadığından (o birtərəflidir, yəni eyni zamanda həm xarici, həm də daxilidir) ruhun ölçülülük xarakteristikası ola bilməz. A.Berqson intensivlik dərəcəsinə görə bir-birindən fərqlənən iki cür ölçü ayırd edir: ekstensiv ölçülən və intensiv ölçüyə imkan verməyən. Obyektiv gerçəkliklər xarici forması olduğundan ekstensiv ölçülür, amma intensiv ölçüyə imkan vermir, çünki daxili keçirilməzlik qanununa tabe olur. Bunun əksinə, Ruhun xarici forması olmadığından ekstensiv ölçüyə imkan vermir, əvəzində ekzistensiya qabiliyyətinə malik olduğundan daxili keçirici olur və buna görə də **intensiv** ölçülən olur; hansı ki, biz bu ölçüləri **mənəvi dəyərlər** kimi qavrayırıq. Mənəvi dəyərlər ruhun mücərrəd ölçüsüdür. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun intensiv ölçüsü mənəvi dəyərlər kimi meydana çıxır; hansı ki, insan hansı dəyərlərə malik olursa, onun fərdi ruhu ona müvafiq ölçülər əldə edir. Ən ümumi mənəvi dəyərlər özündə ümumi ruhun intensiv ölçüsünü təqdim edir, hansı ki, bu ölçüdə hər bir insan eyni zamanda bütün insanlıq olur.

Ümumi ruhi mənəvi dəyərlərə üç intensiv ölçü aiddir:

- **Azadlıq:** Fərdi ruhun bədənin və ətrafın asılılığını dəf etməsi.
- **Bərabərlik:** Özündən başqa fərdi ruhlarla eynilik təşkil etməsi.
- **Ədalət:** Vicdanın istiqamətləndirməsinə uyğun fəaliyyət.

Haşiyə: A.Berqson, "Şüurun bilavasitə (vasitəsiz) məlumatları haqqında təcrübə"

> *"Adətən belə ehtimal edirlər ki, şüurun vəziyyəti, hisslər, duyğular, ehtiraslar, cəhdlər artma və azalmaya qabildirlər. Hətta bəzi kimsələr inandırmaq istəyirlər ki, bir duyğu eyni təbiətli başqa duyğudan iki, üç, dörd dəfə intensiv ola bilər. Hətta psixofizikanın əleyhdarları belə hesab edirlər ki, belə təsdiq yerindədir ki, bir duyğu digərindən intensiv, biri digərindən böyükdür. Bununla da onlar etiraf edirlər ki, xalis daxili vəziyyətlər arasında miqdari fərqləndirmə aparmaq olar. Sağlam mühakimə intensiv ölçünü təsəvvür edir, amma fəlsəfi izaha gəldikdə bu görüş bizi qapalı dairəyə cəlb edir."*

Bizcə burada ayrı-ayrı daxili keyfiyyətlərin artması və ya azalması miqdari mənalılığa malik deyil. Vəziyyətlərin intensivliyi onların keyfiyyətinin təzahürünə aiddir. Məsələn: iki müxtəlif acılığa malik şeyin dadına baxdıqda acılığın intensivliyi dəyişir. Bu duyğunun intensivliyinin dəyişilməsi kimi təzahür edir, halbuki təsirin intensivliyinin dəyişilməsini özündə refleksiya edir. Digər tərəfdən eyni acılıq iki fərqli şəxsdə fərqli intensivlikli duyğu yaradır. Buradan da duyğunun intensivliyi ayrı-ayrı şəxslərin dadbilməsinin fərqliliyini özündə refleksiya edir. Amma eyni bir acılığın eyni bir adamda intensivliyinin dəyişilməsi mümkün deyil.

Buradan belə nəticəyə gələ bilərik ki, daxili vəziyyətin özündən qaynaqlanan intensivliyi yoxdur.

9. **Ölümsüzlük (Əbədilik):** Ruh ölçüsüz olduğundan, ölüm zaman ölçülərinin dəyişilməsini özündə təqdim etdiyindən, ölçüsü olmayanın ölçüsünü dəyişdirməsi nonsens olduğundan ruh ölməzdir.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

> *"Substansiya nə özü-özlüyündə, nə başqa yaradılan bu substansiya tərəfindən dağıdıla bilməz, təbiətin qanunlarına görə insan ruhunu ölümsüz hesab etməliyik. Təbiətin qanunları təbii işıqla aşkarlanan Allahın qərarlarının mahiyyətidir. Allahın qərarları dəyişməzdir."*

Cisimlərdə həyat olmadığından ölüm də yoxdur. Canlılara xas ölüm təbiətdə xarici səbəbdən - təsadüfi şərtlərin zəruri şərtləri əvəzlənməsindən meydana çıxır. Ruhun zəruri şərtləri olmadığından o yalnız təsadüfi şərtlərin məcmusu kimi mövcud olduğundan, Ruhda belə əvəzlənmə istisna olunur, ona görə də ruh ölməz olur.

10. **Tədricilik:** Özündənkənar şey özündənkənardakıları eyni vaxtda və bir yerdə özündə təzahür etdirmək imkanına malik deyil, çünki subyekt-subyekt əlaqəsi məkan-zaman asılılığının konkretliyindən məhrumdur. Buna görə də, ruh tədricən varlığının nizamını mənimsəməklə nizamlanır.

RUHDA HƏQİQƏTİN BİLAVASİTƏ AYDINLAŞMASI: AŞKARLANMA

Bundan əvvəl parapsixoloji təzahürlərlə bağlı şərhimizdə hallüsinasiyaların gerçəkliyi olmayan görüntülər kimi meydana çıxdığını qeyd etmişdik. Bu fakt göstərir ki, gerçəkliklə görüntülər arasında zərurətə görə şərtlənmə yoxdur. Buradan da, görüntüsüz gerçəkliklərin mümkünlüyü təsdiq olunur. Yəni əgər hallüsinasiyalar qeyri-gerçək görüntülər kimi təzahür edirsə, onda ruh görüntüsü olmayan və buna görə də təzahür etməyən gerçəklik kimi qavranıla bilər. Biz, təzahür etməyən

gerçəklikləri özündən bilavasitə həqiqət aydınlaşdırmaq imkanı olmayan varlıq kimi təyin edirik. Beləliklə, həqiqətin aydınlaşmasına görə iki cür gerçəklik ayırd etmək olar:

1. **Bilavasitə özündən həqiqəti aydınlaşdıran gerçəkliklər - təzahür edən gerçəkliklər:** Bura Kosmosu təşkil edən istənilən mövcud varlıq aiddir. Beləliklə, mövcud varlıq bilavasitə özündən aydınlaşdırdığı həqiqətlə idrak olunur.
2. **Bilavasitə özündən həqiqəti aydınlaşdırmaq imkanı olmayan gerçəkliklər - təzahür etməyən gerçəkliklər:** Bura hissi qavranılmayan qeyri-maddi gerçəkliklər aiddir. Hər bir gerçəklik özündə bəlli həqiqətə malik olduğundan, belə gerçəkliklər dolayı yolla özündə həqiqəti aydınlaşdırırlar. Bunun ən sadə nümunəsi kimi güzgünü göstərmək olar. Güzgü yalnız o halda güzgü kimi qavranılır ki, özündə başqa bir mövcudluğun xarici görüntüsünü əks etdirsin. Necə ki, belə əksetmə mövcud deyil, güzgü təzahür etmir. Ruh da məhz bu cür dolayı yolla həqiqəti özündən aydınlaşdıran gerçəklik kimi mövcud olur.

Həqiqətin ruhdan bilavasitə aydınlaşmamasının səbəbi ruhun fakta, yəni yaranışdan zəruri mövcudluq şərtlərinə malik olmaması ilə bağlıdır. Həqiqət - faktdan (xalis mövcudludan), yaranış anından aydınlaşdığından; Ruhun mövcudluğu özünün mövcud olmasının nəticəsi kimi sonradan tədricən meydana çıxdığından, ruhun həqiqəti ruhun faktuallaşmasına uyğun tədricən, mərhələ-mərhələ aydınlaşır. Ruh obyektiv gerçəkliklərin həqiqətini mənimsəməklə tədricən faktuallaşdığından, ruhi faktdan aydınlaşan həqiqət gerçəkliklərdən bilavasitə aydınlaşan həqiqətin aşkarlanmasından ibarət olur. Buradan aşağıdakı ideya meydana çıxır:

Ruhun həqiqətinin aydınlaşması - obyektiv gerçəkliklərin həqiqətinin aşkarlanmasının şərtlərinin məcmusundan ibarətdir.

Yəni, Ruh obyektiv gerçəkliklərdə birincili, birbaşa aydınlaşan həqiqəti özündə refleksiya edərək, onu aşkarlayır və aşkarladıqlarından dolayı yolla özü aydınlaşır. **Aşkarlanma** - həqiqətin obyektiv aydınlaşmasının şeydən kənarda - subyektdə ikincili aydınlaşmasından ibarətdir. Aydınlaşma - aktuallaşma prosesində, aşkarlanma - faktuallaşma prosesində meydana çıxır.

Aydınlaşma İlahi İradədən bilavasitə verilən zəruri şərtlərdən meydana çıxdığından, bilavasitə İlahi İradədən asılıdır və buna görə də aydınlaşma birbaşadır. Yəni həqiqətin aydınlaşdığı obyekt onun aydınlaşmasında aktiv iştirak etmir, yalnız passiv vasitə rolu oynayır. Ruha bilavasitə İlahi İradədən zəruri şərtlər verilmədiyindən, ruhda həqiqət birbaşa aydınlaşmır. Bunun əvəzində, Ruha İlahi İradədən mövcud varlıqların zəruri şərtlərini özündə aşkarlamağın - ruhi mövcud olmanın şərtləri verilmişdir. Beləliklə ruh aşkarlanmanın zəruri şərtləri əsasında mövcudluqların varlığının zəruri şərtlərindən aydınlaşan həqiqəti özündə təkrar aydınlaşdırmaqla faktuallaşır. Aydınlaşmadan fərqli olaraq, həqiqətin aşkarlanmasında ruh aktiv vasitə kimi iştirak edir, yəni özündə aydınlaşan həqiqətə müdaxilə etmək imkanına malik olur; hansı ki, biz bunu **iradə** kimi qavrayırıq.

Bu cür bilavasitə aydınlaşma, bilavasitə aydınlaşmadan fərqli qanunlara tabe olur. Bilavasitə aydınlaşmanı biz təbiətin ən ümumi qanunları, bilvasitə (dolayı) aydınlaşmanı təfəkkürün idrak prosesinin tabe olduğu ən ümumi qanunları kimi təyin edirik. Ruhda həqiqətin aşkarlanma ilə aydınlaşması mövcudluqda birbaşa aydınlaşmadan fərqlənir. Əgər mövcud varlıqda həqiqət mövcudluğun özündən - formasından təzahürə görə aydınlaşırsa, Ruhda həqiqət bunun əksinə olaraq - forması olmadığından və buna görə də bilavasitə təzahür etmədiyindən - yalnız özündənkənar xarici şeylərdə, obyektə xas olmayan əlamətlərdən, dolayısı ilə təzahür etməklə aydınlaşır. Başqa sözlə, ruhda həqiqət obyektiv gerçəkliklərdə aydınlaşan həqiqətin aşkarlanması və aşkarlanmış həqiqət

əsasında xarici obyektlərə proyeksiya edilən xarici görüntü ilə aydınlaşır. Belə xarici görüntü mahiyyətin bilavasitə yaratdığı formadan - təbii görüntü-dən fərqli olaraq süni görüntü kimi meydana çıxır və proyeksiya olunduğu obyektin yox, bilavasitə onu yaradan ruhun mahiyyəti ilə xarici vəhdət təşkil edir. Buradan, aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Süni xarici görüntü, ruhun faktiki varlığı - ruhi fəaliyyət nəticəsində, özündənkənar yad mövcudluqların formalarına əlavə forma proyeksiya etmənin şərtlərinin məcmusundan ibarətdir.

Haşiyə: A.Berqson, "Materiya və yaddaş"

> *"Hər şey elə bil, mənim Kainat adlandırdığım obrazların məcmusunda baş verir və həqiqətən yeninin əmələ gəlməsi yalnız nümunəsini mənim bədənimin verən xüsusi növ obrazın iştirakı ilə mümkündür. Mənim bədənimi əhatə edən predmetlər, mənim bədənimin onlara mümkün təsirini əks etdirir. Şübhəsiz ruh hər şeydən öncə xalis birlik kimi - çoxluğa bölünmə kimi - materiyaya əkslik təşkil edir."*

A.Berqsonun fikirlərini inkişaf etdirərək demək olar ki, Kainatda təbii şəkildə öz-özünə özündən əmələ gəlməyən obrazları yaradan xüsusi bir mahiyyət vardır ki, bu mahiyyət insan Ruhudur. Bu obrazlar Kainatda yarandığından, Ruh metafizik varlıq olduğundan, Ruhun özündən kənardadır. Beləliklə, Ruh - özündənkənar obrazlarla (formalarla) aydınlaşan, özündə təzahürlə aydınlaşan mövcudluğun əksliyidir. "Mənim bədənimi əhatə edən şeylərin mənim bədənimin onlara mümkün təsirini əks etdirməsindən" fərqli olaraq, Ruh özünün onu əhatə edən şeylərə təsirinə, onlara əks təsiri iradəvi və aktiv şəkildə edir. Buradan da yaradıcı iş meydana çıxır. **Yaradıcılıq** - ruhu əhatə edən predmetlərin ona təsirinə iradəvi və aktiv əks təsir göstərməsi kimi meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun faktuallaşması insan yaradıcılığının şərtlərinin məcmusundan ibarətdir.

Biz, təfəkkürü ruhun "nəsnə"sinin - ağlın - yəni ruhun atributu kimi, idrak prosesini - ağlın, yəni ruhun hərəkəti kimi qəbul edirik.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"İdeya o qədər özü üçün mövcud olur ki, nə qədər öz mövcudluğunun ümumiliyi kor-təbiiliyə malik olur və ya başqa sözlə, nə qədər obyektivliyin özü anlayış kimi mövcud olur, bir o qədər ideya özü özünün predmeti edir. Ümumilikdən təyin olunan Onun subyektivliyi düşüncədir; bu eynilik təşkil edən ümumiliyi tərk etməyən daxildə xalis fərqlənmədir. Amma müəyyən fərqlilik kimi o növbəti mühakimədir, hansı ki, o totallıq kimi özü özündən itələyir və özünü əvvəlcə xarici universum kimi təqdim edir. Özündə eyni olan bu iki mühakimə, amma eynilik kimi qoyulmamışdır."*

Hegelin fikirlərini şərh etmədən öncə, mövcudluğun varlığı ilə varlığın mövcudluğunun bir-birindən fərqini şərh etmək lazım gəlir. Mövcudluq bilavasitəlik və obyektivliklə, varlıq bilavasitəlik və subyektivliklə xarakterizə olunur. Bilavasitəlik özündən itələnən fərqlilik - xarici forma kimi təzahür edir. Obyektivlik özündə saxlanan özü-özü ilə eynilik kimi özündəşeylikdir. Forma özündəşeydən, yəni obyektivlikdən itələndiyindən, onun əksiliyi kimi subyektivlikdir. Buradan da, mövcudluğun varlığını - **obyektin subyektivliyi** kimi, yəni eyniliyin saxlanması, fərqliliyin itələnməsi kimi təyin etmək olar. Varlığın mövcudluğunun - ruhun - xarici forması olmadığından, yalnız daxili formaya malik olduğundan, bilavasitəliyi yoxdur. Ruh həm də özü-özü ilə eynilik təşkil etmədiyindən obyektivliyə malik deyil. Ruh özü-özündə fərqlilikdən - daxili formadan ibarət olduğundan özündə subyektivlikdir və özü-özündən başqaları ilə eyniliyi itələdiyindən obyektivliyi özündən itələmiş olur. Buna görə də varlığın mövcudluğunu - **subyektin obyektivliyi** (fərqliliyin özündə saxlanması, eyniliyin itələnməsi) kimi təyin edə bilərik. Yəni istər obyektiv gerçəkliklərdə, istər ruhda eyni iki xarakteristika, amma bir-birinə əks nisbətdə mövcuddur və idrak prosesi məhz bu

iki eyni, amma bir-birinə əks əlaqəyə görə mümkün olur. Hissi qavranılan xarici maddi şeyin özü-özü ilə eyniliyi onun obyektivliyidir, hansı ki, özündəşeydə saxlanılır; bunun əksinə şeyin özündən itələdiyi fərqliliyi - hissi qavranılan tərəfi - onun subyektivliyidir, hansı ki, idrak prosesində şeydən itələnən subyektivlik təfəkkürə keçir; bu zaman ruhun öz subyektivliyinə münasibətdə ruhun obyektivliyi kimi çıxış edir. Yəni idrak prosesində mövcud varlığın subyektivliyi, varlığın mövcudluğunun obyektivliyini təşkil edir. Varlığın mövcudluğunun obyektivliyini biz **Ruhun mövcudluğu** kimi təyin edirik; hansı ki, konkret obyektivliyin əksiliyi kimi mücərrəd obyektivlikdən ibarətdir.

Aşkarlama prosesində obyektin subyektivliyi təfəkkürdə subyektin obyektivliyinə refleksiya olunur, nəticədə konkret mövcudluğa uyğun abstrakt mövcudluq meydana çıxır. Başqa sözlə, obyektin özündən itələdiyi forma - subyektivlik, idrak prosesində təfəkkürdə refleksiya olunaraq obraza - daxili formaya - **subyektin obyektivliyinə** çevrilir. Bunun əksinə, subyektin öz mücərrəd obyektivliyini xaricə, obyektə itələməsindən, özünün obyektivliyi obyektin subyektliyində ikincili forma kimi əsərə çevrilir. Hansı ki, ruhun faktiki varlığını təşkil edirlər.

Hegelin idrak haqqındakı yuxarıdakı sitatdakı fikirlərini başqa cür belə şərh etmək olar: Başlanğıcda xaotik şəkildə xalis mövcudluq təyininə malik ruh - və ya ideya - idrak prosesində xarici obyektiv gerçəklikdə aydınlaşan həqiqəti aşkarlamaqla, özündə onların nizamı əsasında özü-özünün bir nisbi xaotik vəziyyətindən nisbi nizamlı vəziyyətinə keçməklə, yəni obyektiv gerçəklikdə aydınlaşan həqiqəti özündə refleksiya etməklə, özünü xarici universumla eyniləşdirməklə - öz totallığının ümumiliyinə doğru hərəkət edir ki, bu hərəkət - "müəyyən fərqlilik kimi növbəti mühakimə olan və totallıq kimi özü-özündən itələmə" - həqiqəti refleksiya dəqiqliyi ilə fərqlənən ideyanın bir təkmillik səviyyəsindən digərinə keçməsi idrak prosesinin mahiyyətini təşkil edir.

Ruhun hərəkət forması kimi idrak cisimlərin və canlıların hərəkətindən hərəkətin səbəbinin məhz özündən qaynaqlanması və buna görə də həmin hərəkətə müdaxilə etmək imkanı ilə fərqlənir. Hansı ki, biz bunu iradə kimi dəyərləndiririk. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İradə - Ruhun səbəbi özündə olan hərəkətliliyinə (fəaliyyətinə), özü-özündə müdaxilə etmək imkanının şərtlərinin məcmusundan ibarətdir.

Cisimlərin mexaniki hərəkətinin səbəbi özündən kənardadır, ona görə də həmin hərəkətə təsir etmək imkanına, yəni iradəyə malik deyillər. Yalnız xarici güclərin təsirindən məkanda hərəkət etdiklərindən, onlar hərəkətə laqeyddirlər. Canlıların hərəkəti zamanla şərtləndiyindən, canlının zamanın hərəkətinə müdaxilə imkanı olmadığından, özünün bioloji hərəkətliliyinə - inkişafına, böyüməsinə və artmasına müdaxilə edə bilmir. Əksinə, həm cisim, həm canlı onların hərəkətliliyini yaradan güclərin hakimiyyəti altında olur.

İdrak iradəvi olduğundan onun hərəkəti cismin və canın hərəkətindən fərqli olaraq kor-təbii sürəklilik xarakteristikasına malik deyil. Yəni idrak prosesinin gedişi ruhun özü tərəfindən tənzimlənir. Bu tənzimlənmə mexanizmlərinin məcmusu **təfəkkür** kimi meydana çıxır. Təfəkkür - idrak prosesinin - ruhi fəaliyyətin şərtlərinin məcmusunu özündə təqdim edir. Başqa sözlə, idrak prosesinin başlanması - onun səbəbləri, gedişi və nəticələrinin əldə edilməsinin tabe olduğu qanunauyğunluqların məcmusu təfəkkür kimi meydana çıxır. İdrak prosesi yalnız təfəkkürün əsasında - bəlli qanunauyğunluqlarla mümkün olur.

Fəlsəfənin əsas məsələsi - təfəkkürün varlığa, şüurun materiyaya münasibəti məsələsinin geniş və konkret həllindən ibarətdir. Bu müddəada təfəkkürü ruhun totallığının təzahürü kimi təyin etsək, onda metafizikanın əsas məsələsinin birinci tərəfini "ruhun materiyaya münasibəti" kimi təyin edə bilərik. Həqiqətin varlıqda vasitəli (formadan) aydınlaşmasından fərqli olaraq, ruhun öz forması olmadığından,

özününküləşdirdiyi xarici formadan, yəni özündənkənarşey kimi aydınlaşır. Buna görə də, cisim və candan fərqli olaraq, ruhun özünəməxsus məkan və zaman ölçüsü - həcmi və forması, sürəkliliyi və s. yoxdur. Ruhun ölçülülüyü olmadığından onda həqiqətin şüalanması xüsusi zonalara bölünmür; buna görə də daxili və xarici şüalanması eyni qanunlara tabe olur. Başqa sözlə, ruh xalis varlıq kimi yalnız daxili - substansional şüalanmadan - düşünən məndən aydınlaşır; hansı ki, real varlıqlardan fərqli olaraq, eyni vaxtda həm də xarici şüalanma kimi meydana çıxır və şəxslərarası əlaqələrdən aşkarlanır. Halbuki, mövcud varlıqların mahiyyətdən doğan xassələri formadan doğan xassələrindən fərqli qanunauyğunluqlara tabe olur, daxili şüalanmadan həmin təzahürlər xarici şüalanmadan fərqli qanunauyğunluqlarla aşkarlanır. Bu, cismin fiziki xassələri ilə kimyəvi xassələrinin fərqli qanunauyğunluqlara tabe olması kimi meydana çıxır.

RUHDA HƏQİQƏTİN ŞÜALANMA MÜHİTLƏRİ

Ruhda həqiqətin şüalanması üç müxtəlif və ardıcıl mühitdən keçir:

A. Bədən mühiti: Ruhun öz forması olmadığından fərddəki ümumi ruh bədənin formasını özününküləşdirir. Belə ortaq mövcudluq forması təbiətdə də müşahidə olunur; hansı ki, **simbioz** kimi meydana çıxır. Simbioz eyni sıradan olan varlıqların ortaq həyat yaşaması kimi aktuallaşır. Amma ruhla bədən fərqli mahiyyətli olduqlarından, onların mövcudluğunun təzahürləri də bir-birindən fərqli təzahür edir. Buna görə də, simbiozda canlılar bir-birinin formasına təsir etmir, sadəcə həyatı bölüşdürürlər; amma ruhla bədən fərqli mahiyyətli olduğundan birgə yaşayışda ruh bədənə, bədən də ruha qarşılıqlı təsir edərək bir-birinin təzahürlərini dəyişdirməyə cəhd edir. Beləliklə, bədəndən keçən ruhi şüalanma bədənin antropologiyasını dəyişdirir və bununla özü də dəyişir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İnsan ruhun bədənə təsiri ilə heyvani növdən - meymunabənzər insandan, sosial varlığa - İnsana çevrilir; və öz növbəsində bədən ruha təsir edərək ruhu xalis fəaliyyətdən məhrum edir.

Kosta Ben Likk də təsdiq etmişdir ki, "insanın şüuru vəziyyəti onun bədəninə təsir edir". Buradan belə bir sual meydana çıxır: Ruhun bədənə təsiri necə baş verir? Yuxarıda qeyd etmişdik ki, forma hərəkətin saxlanmasından meydana çıxır. İnsanda digər mövcudluqlarla eyni bioloji hərəkətlilik saxlandığından, insan bədəninin ümumi quruluşu digər məməlilərlə eynidir. Amma buna paralel, bədəndə ruhi fəaliyyətin saxlanmasından insan bədəni digər məməlilərin bədənindən fərqli poza alır. Buradan da, **Fiquranı**, yəni saxlanmış pozanı - bədənin keçici xüsusi forma almasını - ruhi hərəkətin bədəndə saxlanması kimi təyin etmək olar.

Bu fakt bir daha sübut edir ki, digər mövcudluqlardan fərqli olaraq şüur - ruhun xüsusi qabiliyyəti və ya onun hərəkətliliyi bədəni dəyişdiyindən bədənlə eyni təbiətli deyil. Ruhun bədənə təsir edərək onu dəyişdirməsi insanın dik iki ayaq üstə yeriməsi, başın ölçülərinin digər orqanların ölçülərinə nisbi eyniliyində artması, beynin xüsusi forma alması, əlin xüsusi əmək aləti kimi fəaliyyət göstərməsi, ağzın qida orqanından nitq orqanına çevrilməsi, ətrafların daha mürəkkəb və incə fəaliyyətlərə imkan verməsi və s. ilə müşahidə olunur.

B. Ətraf mühit: Bədən sərhədlərindən xaricə çıxan ruhi şüalar ətraf mühitə keçir və yayılır. Ruh ətraf mühitdə olan bütün gerçəkliklərin substansional zonasına daxil olur, ondan keçir və onların daxili zonasında aydınlaşan həqiqəti özündə refleksiya edərək, onlar haqqında məlumatı da özü ilə birlikdə şüalandırır. Buradan **bilik** meydana çıxır. Bilik - mövcud varlıqda aydınlaşan həqiqətin ruhda refleksiya edərək təfəkkürdə aydınlaşan həqiqətlə müştərək şüalanmasıdır.

Mövcud varlıqlar bir-birinin substansional zonasına daxil ola bilmədiyindən təsir-əks təsir əlaqəsi yaranır. Amma ruh bütün varlıqların

substansional zonasına daxil olduğundan, ruhun heç bir təsirinə heç bir varlıq əks təsir, canlılar isə cavab verə bilmir. Bunun əksinə, heç bir varlıq (ruhun forması olmadığından) onun öz daxili həcmlərinə keçməsinə mane ola bilmir və buna görə də, ona xarici təsir edə bilmir. Ruh varlığın substansional zonasında özündə refleksiya etdiyi nizam əsasında obyektiv gerçəkliklərin formasını dəyişdirir - yəni onları özününküləşdirir və bu dəyişilmələrdən özü də xarici aşkarlanan vəziyyətə keçir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruh ətraf mühitdə xarici predmetlərə ekzistensiya edərək, onların həqiqətini özündə aşkarlamaqla özü də buna uyğun aşkarlanır; yəni öz həqiqətini aydınlaşdırmaqla başqaları tərəfindən aşkarlanır.

Yəni, fərdi ruhun mövcudluğu yalnız idrak prosesindən aydınlaşır. İdrak qabiliyyətinə malik olmayan insan sadəcə bioloji varlıq kimi mövcud olur.

C. Sosial mühit: İnsan təbii mühitdən fərqli olaraq ruhun özününküləşdirdiyi sintetik varlıqlar aləmi yaradır; hansı ki, sintetik mühit və ya **sosial mühiti** təşkil edirlər. Sosial mühit özündə ruhi totallığın izlərini daşıyan təbii mühitə proyeksiya olunmuş ikincili mühitdir. Ruh ruhlararası əlaqənin təzahürlərindən, ruhun radial enerjisinin doldurduğu mühitdən - sosial mühitdən - keçərək özü-özünün substansiyasından həqiqətin ruhda aydınlaşmasının qanunlarını öyrənir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Sosial mühit fərdi ruhların ekzistensiyası nəticəsində yaranan xarici ümumi ruhi enerjidən ibarətdir; hansı ki, hər bir fərdi ruh həmin mühitlə sürəkli olaraq qarşılıqlı ruhi enerji mübadiləsində mövcud olur.

Buradan aydın olur ki, sosial mühitdən kənarda fərdi ruhun mövcudluğu istisna olunur. Başqa sözlə, şüurlu insan cəmiyyətin məhsulu kimi təzahür edir.

D. Neytral mühit: Ruhi şüalar həqiqətin vasitəli aydınlaşmasının ən uzağa göndərdiyi şüalarla qarışaraq onlarla birgə mütləq həqiqəti təşkil edir. Mütləq həqiqət idrak prosesinin başa çatmasında aydınlaşır; hansı ki, idrak prosesi başa çatdığından mütləq həqiqət haqqında insanın hər hansı bilgiyə malik olması istisna olunur. Beləliklə, mütləq həqiqət ruhun elə uzağa şüalanmasında meydana çıxır ki, ruh bədəndən tam ekzistensiya edir, yəni bədəndən ayrılır; buna görə də insan ruhun belə uzaqlıqdan aşkarladığı həqiqətə malik olmur. Ruh mütləq həqiqətə iki cür çatır: birincisi, fərdi səviyyədə (insan öldükdə fərdi ruh bədəndən tam ayrılır və bu ayrılığa görə fərdilik xarakteristikasından azad olaraq, özü-özündə ümumi ruh kimi ən uzağa ekzistensiya edir); ikincisi, ümumi səviyyədə (insanlığın sonunda bütün insanların hər şeyin həqiqətini aşkarlamasından sonra - ümumi ruhi ekzistensiya kimi bütün insanlardan ruhun tam ekzistensiyası kimi).

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İdrak prosesinin sonunu - ruhun faktuallaşmasının başa çatmasını - Allahın həqiqəti (mütləq həqiqət) təşkil edir. Yəni həqiqət Allahdan başlayır, Onda başa çatır.

Ruh yalnız gerçəkliyin xüsusi bir növü ilə - insanla şərtlənmiş formada təzahür edir və insan bədəni ilə şərtləndiyindən və bədən prioritet təşkil etdiyindən, ruh bədəndə qeyri-şərtsiz - azad şəkildə aktuallaşmır. Buna görə də ruhun aktuallaşmasına paralel olaraq, bədəni təşkil edən cismi və bədəndə olan canlılığı da aktuallaşdırır. Nəticədə, insanlıq kimi qavradığımız təzahür üçlü mahiyyətdə meydana çıxır. Bu mahiyyətlərdən ikisi - cisim və can mahiyyəti digər varlıq sıraları ilə eyniyyət təşkil etdiyindən, biz insandakı ruhu yalnız cisim və candan fərqli təzahürlərdən aşkarlaya bilərik. İnsan - özündə ruhu aydınlaşdıran canlı gerçəkliyin bir formasıdır. Çünki insan bir cisim kimi cismin tabe olduğu qanunlara, bir canlı kimi canın qanunlarına tabe olur. Yalnız ruhun tabe olduğu qanunlara görə digər varlıqlardan fərqlənir.

RUHUN MÜSTƏQİL MÜMKÜNLÜK SIRASI

Ruh həqiqətin aydınlaşmasının xüsusi vasitəsini özündə təqdim etdiyindən, özünün bütün forma və təzahürləri ilə müstəqil mümkünlük sırası təşkil edir. Ruhi mümkünlüyün birinci sırasını bədənlə şərtlənmiş fərdi ruhi faktlar təşkil edir. Bədənlə şərtlənmə həqiqətin aydınlaşmasının və aşkarlanmasının ətrafla vasitəli şərtlənmənin orijinal təzahürüdür. Hər bir insan özü özündə fərd kimi çıxış edir. **Fərd** - fərdiləşdirmə tələbatından meydana çıxır. Fərdiləşmə - formal ruhun konkret bədənlə əlaqələnməsi ilə insanın başqalarından fərqləndirən, həmin bədənlə başqa ruhi faktların əlaqəsini istisna edən keyfiyyətdir. Yəni bir bədəndə yalnız bir ruhi daxili totallığın mövcud ola bilməsi şərtidir. Beləliklə, fərd - bio-sosial gerçəklikdir. İnsan bio-sosial aktdan fərqli olaraq, **sosial akt** kimi (yəni xarici totallıq kimi) mövcudluğunu davam etdirdikcə **şəxsiyyətə** - cəmiyyətlə şərtlənmiş sosial vahidə - çevrilir.

Buradan belə bir pnevmatoloji ideya aşkarlanır:

Fərd - bədənlə şərtlənmiş; Şəxsiyyət - cəmiyyətlə şərtlənmiş fərdiləşmiş formal ruhun təzahürüdür.

Cəmiyyət xarici total ruhu özündə refleksiya etdiyindən, şəxsiyyət özündə ruhun mahiyyətini daha aydın və dəqiq aydınlaşdırır. Biz şəxsiyyəti **özünüdərk edən fərdi ruh** kimi təyin edirik. Özünüdərk - başqasını dərkin refleksiyasıdır. Bu, güzgünün yalnız özündə gerçəkliyi əks etdirməsi ilə "güzgü" təbiəti qazanmasına uyğundur. Özündə başqasını əks etdirməyən şey güzgü ola bilmədiyi kimi, ruh da həqiqətin aydınlaşmasını aşkarlamadıqca özü ola bilmir. Beləliklə, Ruhu aydınlaşdıran özündənkənarşey ondan asılı olmayaraq, yəni ruhun mahiyyəti ilə vəhdətdə olmayan ruhi formadır.

Həqiqət Allahı refleksiya etdiyi kimi, Ruh da həqiqəti refleksiya edir. Həqiqətin vasitəli aydınlaşması onu nisbi, aşkarlanması mütləq şəkildə təqdim edir. Həqiqət yalnız özünün əksiliyi ilə aşkarlandığından, həqiqətin özünü aydınlaşdırdığı gerçək vasitələrin heç biri həqiqəti aşkar-

lamaq qabiliyyətinə malik deyildir. Çünki gerçəklik özü özündə əkslik təşkil etmir; belə ki, bu mümkünsüzlük xarakteristikası yaradır. **Mütləq həqiqətin əksiliyi mütləq heçlik olduğundan** və mütləq heçlik ayrılıqda müstəqil mümkünlük olmadığından, mütləq həqiqətin aşkarlanması mütləq mümkünsüzlükdür. Bundan fərqli olaraq, **nisbi həqiqəti nisbi heçliklə** aşkarlamaq olar.

Yuxarıda varlığın yaranmasını şərh edərkən qeyd etdik ki, varlığın xalis mahiyyətini təşkil edən dalğaların bir qismi özündə sıxlaşaraq (dalğanın özündə sıxlaşması İlahi İradəyə tabedir və onun təbiətini aşkarlamaq mümkün deyil) hissəciyə - maddənin başlanğıcına, formanın əsasına çevrilir. Formaya çevrilən dalğalar xalis mahiyyəti təşkil edən dalğalarla əkslik təşkil edir. Yəni xalis mahiyyət artma meylini, forma azalma meylini özündə təqdim edir. Azalma meylinin son nəticəsi heçlik olduğundan, istənilən azalma meyli özündə heçlik totallığını daşıyır. Buna görə də, mövcud varlıqda xalis mahiyyət heçliklə (forma ilə) qarşılıqlı daxili əksilikdə və vəhdətdə təzahür edir. Başqa varlıqdakı xalis mahiyyət varlığın forması ilə xarici əksilik təşkil edərək onu özündə refleksiya edir, amma vəhdət yaratmır. Bu cür refleksiya daxili refleksiyadır və hər bir formada vəhdət təşkil etdiyi yerdə qalan bütün xarici varlıqların mahiyyətini refleksiya edir. Amma Forma yalnız özü özündə olan mahiyyətdən yarandığından, onun vasitəsi kimi onu özündə aydınlaşdırır; bunun əksinə refleksiya etdiyi başqa mahiyyətləri özünə aydınlaşdırmır. Biz bunu **passiv refleksiya** adlandırırıq.

Ruh bundan fərqli olaraq, yalnız xalis mövcudluq təyininə malikdir və ruhun mahiyyətini təşkil edən dalğalar yalnız artma meylini özündə əks etdirir. Ruhun öz xüsusi forması olmadığından, daxili əksilikdən məhrumdur. Onun forması özününküləşdirdiyi yad formalardır və ruhi mahiyyətlə ziddiyyətdədir. Həmin formalar paralel olaraq öz mahiyyətləri ilə vəhdətdədir. Buna görə də, ruhun özündə refleksiya etdiyi -

özününküləşdirdiyi formalar vasitəsi ilə həqiqəti özününküləşdirdiyi formalardan aydınlaşdıra bilir ki, bu da ruhun xüsusi təbiətinə xasdır.

Fərdi ruh - özünüdərk kimi mövcud olur. Yəni fərdi ruhun mövcud olması yalnız daxili seyr yolu ilə fərdin özünə Düşünən Mən kimi məlumdur. Həqiqətin aşkarlanması özünüdərk kimi - özü özündə həqiqəti aydınlaşdırma kimi təzahür edir. Yəni idrak prosesinə malik olmayan fərddə özünüdərk istisna olunur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İnsan özündə nə qədər xarici predmetlərdən aydınlaşan həqiqəti dərk edirsə, buna paralel, özünü-özündə bir o qədər ruhun mövcudluğunu dərk etmiş olur. Özünüdərk başqasını dərkin refleksiyasından ibarətdir.

Nisbi həqiqət vasitəli aydınlaşdığından, vasitədə aydınlaşan həqiqət vasitəsiz aydınlaşan həqiqətlə aşkarlana bilər. Yəni refleksiya xaricə çıxarıla, görünüşə çevrilə bilər. Vasitəsiz aşkarlanma vasitəli aydınlaşmanın əksiliyi kimi, özündə nisbi heçlik kimi - forma kimi - (mütləq heçliyi olmadığından) təzahür edir. Buna görə də, nisbi həqiqət özünün bir-biri ilə əkslik təşkil edən iki meylin (azalma - vasitəsiz aydınlaşma meylinin və artma - vasitəli aydınlaşma meylinə əkslik təşkil etməsi ilə) özü-özünü ruhda aşkarlaya bilər. Başqa sözlə, ruhda forma mahiyyətdən ayrılmadığından ruhi mahiyyət eyni anda həm mahiyyət, həm də formadır. Buna görə də, özü-özündə refleksiya edərək özü-özünü özündən aşkarlaya bilir ki, biz bunu **özünüdərk** adlandırırıq. Gerçəkliklər bu meyllərdən yalnız birini özündə aydınlaşdırdığından həqiqəti aşkarlamaq imkanına malik deyildir; yəni obyektiv gerçəkliklərdə özünüdərk etmə imkanı yoxdur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Həqiqətin artma və azalma meylinin formasız aydınlaşması həqiqətin özü-özünü aşkarlamasına səbəb olur ki, bu da ruhi həqiqət kimi təzahür edir.

Ruh istisnasız olaraq canlıların ən ali sırasını təşkil edən İnsanda təzahür edir. Beləliklə, insan mütləq mümkünlükdür və özündə həqiqəti

aydınlaşdıran bütün vasitələrin, eləcə də onlardan fərqli həqiqəti aşkarlayan ruhun mahiyyətinə malikdir. Belə universal, sinergetik təbiətinə görə insanlar digər canlılardan həyat təcrübəsini inkişaf etdirmək, ətrafı məqsədəyönlü dəyişdirmək və həqiqətin aydınlaşmasını aşkarlamaq qabiliyyəti ilə fərqlənir. Bu qabiliyyətlər təfəkkürün təzahürü kimi meydana çıxır və digər heç bir canlıda müşahidə olunmadığından, idrak prosesi təfəkkürün xüsusi mövcudluq üsulu kimi təzahür edir.

RUHUN MÜMKÜNLÜK OLMASININ SÜBUTLARI

Buradan da, Ruhun mümkünlük olması aşağıdakılara görə təsdiq olunur:

1. Hərəkət varlığın mövcudluq üsulu olduğundan, hər bir varlıq öz mövcudluq üsulundan - hərəkətin forması ilə təyin edildiyindən, müəyyən olunduğundan (yalnız eyni hərəkətli varlıqlar və ya proseslər eyni sıranı təşkil etdiyindən), ruhun hərəkəti - **idrak prosesi** - həqiqətin aşkarlanması nə cisim, nə də can sırasına aid varlıq formaları üçün xarakterik hərəkət olmadığından, və buna görə də özünün xüsusi qanunları olduğundan; deməli idrak yalnız müstəqil sıradan olan mümkünlüyün hərəkət formasıdır və bu hərəkət ruhun xüsusi mövcudluq üsuludur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İdrak prosesi - ruhi mövcud olmanın təzahürünün şərtlərinin məcmusundan ibarətdir.

2. İnsanın ağlı ilə müəyyən olunan keyfiyyətlər heç bir canlıda təzahür etmədiyindən, bu təzahürlərin xüsusi mahiyyətin təzahürləri olduğunu deyə bilərik. Beləliklə, Ruh - həqiqəti aydınlaşdırmanın xüsusi vasitəsidir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ağıl - ruhi mövcud olmanın şərtlərinin məcmusundan ibarətdir.

3. İnsan digər canlılardan dərketmə qabiliyyətinə - həqiqətin aydınlaşmasının aşkarlanmasına görə fərqlənir. Digər bütün varlıqlar isə yalnız həqiqətin aydınlaşmasında vasitə rolu oynayır və heç bir varlıq özündə həqiqətin aydınlaşmasını aşkarlaya bilmir. Yalnız ruh həm

həqiqəti aydınlaşdıran, həm də onun müxtəlif üsullarla aydınlaşmasını aşkarlayan olduğundan, gerçəkliyin müstəqil sırasına aiddir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İdrak prosesində həqiqətin aşkarlanması özündə ruhda həqiqətin aydınlaşmasını refleksiya edir.

4. Fəlsəfənin tərifindən görünür ki, fəlsəfə varlığın və təfəkkürün (idrak prosesinin) ən ümumi qanunauyğunluqlarını öyrənir. Əgər təfəkkür müstəqil sıraya aid olmasaydı, onda varlığın ümumi qanunauyğunluqları ilə dərk edilərdi və onun xüsusi qanunauyğunluqları təzahür etməzdi. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Varlığın ən ümumi qanunauyğunluqlarına tabe olmadığından və bu qanunauyğunluqlarla öyrənilməsi mümkün olmadığından, ruh özünəməxsus ən ümumi qanunauyğunluqlara tabe olan varlığın mövcudluğudur, yəni mümkünlükdür.

AKT VƏ FAKT: ZAMAN VƏ MƏKAN ŞƏRTLƏNMƏSİ

Ruh özündə həqiqəti həm aydınlaşdıran (buna görə də zaman-məkanla şərtlənmiş), həm də aşkarlayan olduğundan (buna görə də zaman və məkanla şərtlənməmiş) vəziyyətdə meydana çıxır. Ruhun zaman-məkan şərtlənməsi onun **faktını**, zaman və məkan şərtlərindən azad olması **aktını** təqdim edir. Yəni ruhun aktuallaşması azadlıqdır - yəni bədənin və obyektiv gerçəkliyin şərtlərindən (məkan-zaman asılılığından) azad olmaqdan ibarətdir. Məkan-zaman asılılığı əbədiliyə və sonsuzluğa əkslik təşkil etdiyindən, ruh əbədi və sonsuz mövcudluq istiqamətində məkan və zaman asılılığından xilas olmaq cəhdindədir; hansı ki, bu cəhd yalnız ruha (təbiətə) xasdır. Bundan fərqli olaraq, cisimlər yaranış anından əbədi və sonsuz mövcudluğa malikdir; canlılar isə öz mövcudluqlarını nəsillə əbədiyyətə və sonsuzluğa daşımağa cəhd edirlər.

Ruh akt kimi daxildə, konkret bədəndə - fərddə; fakt kimi xaricdə, İnsanlıqda - bütün insanlarda təzahür edir. Kosmosda aktuallaşma faktın özü-özündə və özü ilə eynilik kimi məkanda təkrarlanmaqla baş verir. Faktuallaşma, bunun əksinə, ayrı-ayrı fərdlərdə meydana çıxan dəyişilən aktuallaşma, bir və eyni ruhi faktın yaranması ilə müşahidə olunur. Buradan aşağıdakı pnevmatoloji ideya alınır:

Faktuallaşma - ayrı-ayrı fərdlərdə dəyişən daxili ruhi aktuallaşmanın məcmusu nəticəsində xaricdə bir və eyni ruhi faktın yaranmasından ibarətdir.

Ruh özündə mütləq həqiqəti aşkarlamağa meylli olduğundan ayrıca bir vasitədə - fərddə təzahür etməklə buna nail ola bilmir. Ona görə də, ruh bütün insanlarda - məkan və zaman üzrə yaşamış, yaşayan və yaşayacaq insanlarda meydana çıxan ruhi təzahürün məcmusu kimi faktuallaşır. Bu da ruhun faktuallaşmasının tarixi proses olduğunu göstərir. Ruhun məkan şərtlərindən azad olma meyli onun qeyri-maddiliyini, zaman şərtlərindən azad olması tarixiliyini nümayiş etdirir. Ruhun fərdi çərçivədən çıxaraq digərləri ilə birlikdə fakta çevrilməsi ruhun xarici ictimailiyini təşkil edir.

Haşiyə: F.Nicşe, "Zərdüşt belə danışmışdır"

> *"«Həmişə tək olmaq mənim üçün həddən artıq ağırdır» - zahid belə düşünür. «Həmişə bir və bir - zamanla ikini verir». Mən və Mənə həmişə danışıqda həddən ziyadə ciddi-cəhdləşdirir: başqası olmadan bunu necə daşımalı? Zahid üçün dost üçüncüdür. Üçüncü - probkadır; ikisinin danışığının dibsiz dərinliyə enməsinin qarşısını alır. Bütün zahidlər üçün çox sayda dibsiz dərinliklər var! Ona görə onlar belə ehtirasla dostu və onun yüksəkliyini gözləyirlər. Bizim başqasına inamımız, bizim harda özü-özümüzə inanmaq istədiyimizi ifşa edir. Çox vaxt məhəbbətin köməyi ilə istəyirlər ki, nifrətdən sıçrasınlar. Çox vaxt düşünürlər və aşkarlamaqdan ötəri, və sənə hücum edə bilərlər deyə, özlərinə düşmən yaradırlar. «Heç olmasa mənim düşmənim ol» - həqiqi hörmətlilər dostluq xahiş etməyə cəsarət etmədikdə belə deyirlər.*

Əgər sən dost istəyirsənsə, onun üçün müharibə aparmalısan; müharibə aparmaqdan ötəri isə düşmən olmağı bacarmalısan. Sən öz dostunda düşmənə də hörmət etməlisən. Dostunun simasında ən yaxşı düşmənə malik olmalısan."

Nicşenin fərdi münasibətlər haqqında fikirlərindən görünür ki, ayrılıqda götürülmüş hər bir fərd Mən kimi ruhdan və bədənlə Özünün vəhdəti kimi "Mənə"dən ibarətdir. Burada "Mən" - mümkünlük kimi *nəsə*, "Mənə" isə mövcudluq kimi *nədir*. İnsan yalnız mövcud varlığında özü-özündə şeydir və belə vəziyyətdə Ruhun mümkün varlığı mövcud varlığa keçərək ixtisara düşür. Başqa sözlə, bütün insanlardan təklənmiş insanda Ruh təzahür etmir. Belə ki, anadangəlmə təcrid edilmiş uşaqlarda ağlın inkişaf etmədiyi və yaşam təcrübəsi olan insanın uzun müddət insanlardan ayrı yaşamasından yenidən təbii vəziyyətə keçməsi sübut olunmuşdur. Tək adam özü-özünü refleksiya etdiyindən sonsuz refleksiya vəziyyətinə düşür; hansı ki, Nicşe bunu **dibsiz dərinlik** adlandırır. Dibsiz dərinlik dəlilik vəziyyətidir. Başqa sözlə, dəlilik - dibi, nəhayəti olmayan daxili dərinlikdir; hansı ki, insan ətrafla rabitəsi kəsilməklə həmin dərinliyə düşür və öz ruhunun sonsuz sayda mövcudluq tələb etməyən mümkünlüklərindən keçməklə biri-birini əvəzləyən qeyri-real varlıqların mövcudluğu ilə təmasa girir. İnsanı bu dərinliyə düşməkdən yalnız xarici maneələr, obyektiv gerçəklik və başqa özündənkənar reallıqlar xilas edir; hansı ki, idrak prosesində sonlu refleksiyaya keçməklə təbii dəlilik vəziyyətindən ağıllılıq vəziyyətinə keçir. Hər bir reallıq isə "dibli dərinlik"dir, yəni nisbi həqiqətdir; hansı ki, insan idrakı ona çataraq dayanır. Buna görə də, insanın dost və düşmənin məcmusu kimi **başqasına** ehtiyacı yaranır. Məhz bu başqası insanın özü-özünün dərkinin əsasında durur, hansı ki, təklikdə bu baş vermir. Azərbaycanın böyük şairi Bəxtiyar Vahabzadənin aşağıdakı misrası bunu obrazlı, çox dəqiq ifadə edir:

Adamı tez yorar düşüncələr də,

Özünü unudub dərd verər insan.
Özündən başqası olmayan yerdə
İnsan olduğunu unudar insan.

Bəxtiyarın şeirinin birinci misrasındakı "adamı tez yorar düşüncələr də" idrak prosesindən kənar insanın intuitiv qavrama vəziyyətini - yəni xalis özü-özündə düşünməni təsvir edir. Belə vəziyyətdə insan idrak prosesində iştirak etmədiyindən, xarici reallıqları özündə refleksiya edə bilmir, əvəzində yalnız xəyalları - təfəkkürün özü-özündən əsası təbiətdə olmayan fikrən yaradılan varlıqları - refleksiya edir. Hansı ki, sonsuz və nəhayətsiz olduğundan, xəyalların refleksiyasından məna aşkarlanmır; bu isə "yorulmaq", yəni ruhun mövcudluq əldə etməkdən qalması kimi təzahür edir. İnsan öz xəyallarını refleksiya etdiyindən Nicşenin dediyi "dibsiz dərinliyə" düşür; hansı ki, sonsuz olaraq həmin dərinlikdə hərəkət edir. İnsan düşüncəsini dibsiz dərinliyə düşməkdən yalnız məna saxlaya bilər. Xəyallarda məna olmadığından, xalis düşüncədə insan dibsiz dərinliyə sonsuz düşmə vəziyyətində ağıllılıqdan uzaqlaşır, beləliklə "insan olduğunu unudur".

Yuxarıda qeyd etdik ki, faktuallaşma bir tərəfdən xarici gerçəkliklərin idraka təqdim edilməsini, digər tərəfdən başqa ruhlu insanların olmasını tələb edir. Əks halda insan təklikdə yalnız obyektiv gerçəklikləri özündə refleksiya etməklə heyvani vəziyyətdə qalır. Belə ki, heyvanlar da müəyyən sərhədlərdə özlərində həyati tələbatlarını ödəyən gerçəklikləri refleksiya edir. Ruhi vəziyyət isə həm də fərdi idrakı başqalarının fərdi idrakı ilə uzlaşdırmağı tələb edir; hansı ki, ruhi qurulmanın mahiyyətindən ibarətdir. Buna görə də, "özündən başqası olmayan yerdə, insan insan olduğunu unudur"; yəni ruhi qurulma baş vermir. Beləliklə, özü-özünü dərk başqasının dərki əsasında spontan meydana çıxdığından, fərdi qavranılanlar yalnız vəhdətdə təzahür edir. Yəni başqası olmadan özünüdərk mümkün deyildir. Bu da ruhun özündənkənar mahiyyətinin digər bir şərtidir.

RUHUN EKZİSTENSİYASI VƏ KRİSTALLAŞMA

Həqiqət vahid, əbədi olduğu kimi onu aşkarlayan ruh da vahid və əbədi olmalıdır. Ruhun əbədiliyi bədənin vaxtla şərtlənməsi ilə - faniliyi ilə - ziddiyyət yaradır. Bu ziddiyyət ruhun ekzistensiyası ilə həll olunur. Ruh bədəndən kənara çıxmaqla öz mümkünlüyünü konkret bədənsiz davam etdirir. **Ekzistensiya** - bədəndən kənara boylanmaq, bədənlə şərtlənərək bədəndən asılı olmayan təzahürlər göstərməyi özündə ifadə edir. Biz ekzistensiyanı özündənkənar şeyin təzahürü kimi təyin edirik; hansı ki, ekzistensiya etmədikcə mövcudluğu qeyri-mümkündür. Ruhun iki cür ekzistensiyasını aşkarlamaq olar:

a. Maddi ekzistensiya (Konkret ekzistensiya): İnsan yaradıcılığının məhsulu olan konkret hər bir şeydə qeyri-təbii olanın ifadə olunması kimi. Bu, ruhun xaricdə - bədəndən kənarda **kristallaşmasından** ibarətdir. Ruhun kristallaşması insan tərəfindən yaradılanların şeylərin məzmununa hopdurulmuş - ona proyeksiya edilmiş "ruhun şeyidir".

Haşiyə: Cefferi Mişlav, "Şüurun kökləri"

> *"Hər hansı bir əşyanı ələ götürmək və ona diqqət etmək - belə təsəvvür edilir ki, bu zaman bizim ağlımız onun bütün təbii tarixindən keçir", ətrafı şüurlandırır.*

C.Mişlavın fikirlərindəki Ruhun ətrafı "şüurlandırması" özündə ruhun öz "şeyini" - Ağlı - ətraf predmetlərə hopdurmasını ifadə edir. Başqa sözlə, ətraf predmetlərdə insanın şüurlu fəaliyyətinin izləri həmin predmetlərin şüurlandırılmasını özündə təqdim edir. Beləliklə, obyektiv gerçəklik insana təsir edərək təfəkkürdə obraz və təsəvvürlər yaratmasına əks təsir kimi, ruh da öz növbəsində təfəkkürdə mövcud olan mücərrəd obraz və ideyaları xarici predmetlərə proyeksiya edir. İnsanın ağıllanması, təbiətin şüurlandırılmasına paralel inkişaf edir. Qarşılıqlı inkişafın sonunda insanın tam ağıllanmasının başa çatması ətrafın tam şüurlandırılmasının başa çatması ilə nəticələnir; hansı ki, bununla ruhi

mövcud olma bədəndən təbiətə keçərək ruhi mövcudluqlarla vəhdət təşkil edərək öz yaranmasını başa çatdırır. Təbiətin şüurlanmasının başa çatması ilə mövcud insan tam şüursuzlaşır. Yəni artıq insanda ruhi fəaliyyət meydana çıxmır.

Təbiətin şüurlanması ilə, necə ki bədən özündə ikili təbiəti təzahür etdirir, bütün xarici predmetlər özündə ikili təbiəti təzahür etdirir. Şüurlanmamış təbiətdə elə belə hər bir substansiya yalnız bir forma ilə vəhdət təşkil edir və buna görə də heç bir substansiya iki müxtəlif forma kimi aşkarlanmır. Ruhun xarici kristallaşmasında xarici gerçəkliklərdə bir substansiya iki forma ilə - **təbii** və **süni** (ikincili olaraq təbii formaya köçürülən forma ilə - ruhi substansiya ilə) vəhdətdə meydana çıxır. Məsələn: Qranitdən yonulmuş heykəl təbii forma kimi mineralın bir formasını, ondan yonulmuş obraz isə başqa bir varlığın mücərrəd formasını özündə təqdim edir. Biz bu prosesi konkretin xarici mücərrədləşdirilməsi kimi təyin edirik; hansı ki, idrak prosesində konkretin daxili mücərrədləşdirilməsi - onun təfəkkürdə obrazının yaradılması kimi baş verir.

Xarici mücərrədləşdirmə - ruhun bədəndən birdəfəlik ekzistensiyasını özündə təqdim edir. İnsan bədənində ruh bədənlə qarşılıqlı əlaqədə olduğundan, bədənin inkişafı ruhun kamilləşməsini şərtləndirir. Xarici gerçəkliklərdə ruhi kristallar gerçəkliklərlə əlaqələnmir, nəticədə gerçəklik ruhi kristalların kamilləşməsinə səbəb olmur. Buna görə də, ruhi kristallar "ölü ruh" kimi mövcud olur, hansı ki, ruhun əbədiliyi ilə ziddiyyət təşkil edir. Ruhun ekzistensiyasının maddiləşmiş ictimai forması **mədəniyyət** kimi təzahür edir. Bu empatiyanın vasitəli formasını təqdim edir. Vasitəli empatiyada bir fərdi ruh əvvəl xarici predmetlərə ekzistensiya edərək onlara kristallar kimi hopur, sonra başqa fərdi ruhlar həmin ruhi kristalları özünə empatiya edərək onunla qarşılıqlı diffuziya edir; yəni özündə təkrar canlandırır.

b. Mənəvi ekzistensiya: Ətrafın şüurlandırılmasının bir forması da bir şəxsin başqa şəxsi şüurlandırmasından ibarətdir. Bu, **öyrətmək** kimi təzahür edir. Öyrətmək - ruhi mövcud olmaya xas xüsusi insani fəaliyyətdir. Bu cür şüurlandırma vasitəsizdir. Vasitəsiz empatiyada bir fiktiv ruh digəri ilə birbaşa qarşılıqlı diffuziya edir. Bir ruhun başqa ruha ekzistensiyasını biz **mənəvi ekzistensiya** - mücərrəd ekzistensiya kimi təyin edirik. Mənəvi ekzistensiyada ruh mücərrəd formada kristallaşır. Belə mücərrəd kristallaşmış ruh **mənəvi dəyərlər** kimi aşkarlanır.

Ruhun obyektiv gerçəkliklərdən aşağıdakı fərqliliklərini ayırd etmək olar:

Xarici predmetlərə hopdurulmuş ruhi kristallar hopduqları xarici predmetlərdən onunla fərqlənir ki, onlar başqa fərdi ruhlar tərəfindən mənimsənilib, özlərində inkişaf etdirilmə keyfiyyətinə malikdir. **Mənimsəmə** - ruhi kristalları hopduqları xarici predmetlərdən ayırmadan özündə refleksiya etməyi bildirir. Buna görə də eyni bir ruhi kristal milyonlarla fərdi ruh tərəfindən mənimsənilə bilər. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Xarici predmetlərə hopdurulmuş Ruhun kristalları ruhun özü kimi əbədi və sonsuzdur.

Ruh istənilən ixtiyari varlığın daxili həcminə nüfuz edib, özünü onun mahiyyəti (onun haqqında məlumatla, ən sadə məlumatla) eyniləşdirə bilir. Buradan aşağıdakı pnevmatoloji ideya alınır:

Ruh - ən sadə və mütləq həqiqəti özündə aydınlaşdıran, daxili həcminə nüfuz edilən mümkünlükdür.

Digər varlıqlar kimi ruh həm başqa varlıqların və tarixi mühitin təsirlərindən xarici entropiyaya, həm də özününküləşdirdiyi yad formanın (bədənin) daxili təsirlərinə, həm də xalis varlıq kimi öz-özünün təsirinə məruz qalır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun həqiqəti üçqat entropiyaya məruz qalaraq aydınlaşdığından bilavasitə fərddən aşkarlanan həqiqəti dəqiq və həqiqi deyil.

Ruh özündə aydınlaşan həqiqət haqqında məlumatı yalnız özündən kənara yox, həm də özü-özünə şüalandırır - özü-özünə məlumat göndərir; buradan da **özünüdərk** meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruh özü-özünü özündənkənar xarici şey kimi düşünən varlıqdır.

Ruhun aktı xüsusi, faktı ümumidir: Mövcudluqların faktı daxili olduğundan xüsusi, aktı xarici olduğundan ümumidir. Yəni eyni bir sıradan olan sonsuz sayda fərqli gerçəkliklər eyni bir qanunauyğunluqla mövcud olur. Ruh əksinə, bədənin ruha təsirinə görə hər bir insanda fərqli qaydada mövcud olur, amma bütün insanlıqda eyni bir mövcudluq kimi meydana çıxır. Buradan aşağıdakı qanunauyğunluq meydana çıxır:

Fərdlərin fərqli daxili ruhi fəaliyyəti nəticəsində bir ən ümumi xarici ruhi mövcudluq formalaşır.

Özününküləşdirmə: Obyektiv gerçəkliklər özlərindən fərqliliklərini - formanı itələməklə (fərqliliyi özünə yadlaşdırmaqla) özündə eyniliyin şərtlərinin məcmusundan ibarət mövcudluq kimi idrak olunur. Ruh əksinə, eyniliyi özündən itələməklə fərqliliyini özündə saxlayır, nəticədə fərqliliyi özününküləşdirir. Fərqlilik formadan təzahür etdiyindən, ruh fərqliliyi özündə saxlamaqla özünə forma təşkil edir. Yəni, ruhun öz xüsusi forması olmadığından o başqa xarici mövcudluqların formasını özününküləşdirir. Yalnız bu cür yad formaları özününküləşdirməklə ruhi mövcudluq təzahür etmək imkanı əldə edir. Buna görə də ruhun özününküləşdirdiyi yad formalarla öz mahiyyəti daimi vəhdət təşkil etmir. Yəni ruh özü-özü ilə eyniyyət təşkil etmir, o yalnız digər bədənlərin özlərindən itələdikləri ruhi aktuallıqla eyniyyət təşkil edir. Buradan da ruh varlığın özündəşeyi təyininin əksiliyi kimi özünün "özündənkənar" təyinini əldə edir. Buradan aşağıdakı pnevmatoloji ideya meydana çıxır:

Ruh özündənkənar şey kimi mövcudluqdur.

RUHDA AŞKARLANAN HƏQİQƏTİN ŞÜALANDIRILMA ÜSULU

Ruhun mövcudluq üsulu - formasızlığı - yəni özündənkənarşey olması ona ayrılıqda müstəqil gerçəklik kimi öz həqiqətini şüalandırmağa imkan vermir. Digər tərəfdən, tək bir formal ruh sonsuz sayda insan bədənləri ilə əlaqələndiyindən ayrıca bir fərddən yox, hamıdan - keçmişdə yaşamış, indi yaşayan və gələcəkdə yaşayacaq bütün insanlardan özünü aydınlaşdırır və buna görə də, ayrıca bir fərddən formal ruhun mahiyyətini aşkarlamaq mümkün deyildir. Ruh öz həqiqətini aydınlaşdırmaq üçün təkmilləşmə prosesində müxtəlif üsullardan - bilavasitə insan birliklərindən və vasitəli (bədəndən və cansız obyektlərdən) istifadə edir.

Ruhi həqiqət aşağıdakı üç üsuldan biri ilə aydınlaşır:

a. Bədəndən aydınlaşma: Ruhun daxili həcmi olmadığından öz substansional həqiqətini şərtləndiyi vasitənin - bədənin daxili həcminə şüalandırır. Buradan da bədənlə ruh öz həqiqətlərini müştərək həcmdən şüalandırır; hansı ki, şüurlu mövcud insan təzahür edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Şüurlu insan - bədənlə ruhun həqiqətlərini vəhdətdə özündə təzahür edən zəruri və təsadüfi şərtlərin məcmusundan ibarətdir.

b. Obyektiv vasitələrdən aydınlaşma: Bədən ruhla əkslik təşkil etdiyindən, bədən ruh haqqında məlumatı entropiyaya məruz qoyaraq özündən şüalandırır. Buna görə də, ruh öz həqiqətini bədəni ikiqat yadlaşdırma ilə bədəndənkənar üsullarla şüalandırmağa cəhd edir. Buradan da, **taksis** - süni ətraf və onu təşkil edən hər şey - maddi alət və vasitələr meydana çıxır. Ruhun bədəndən kənar öz həqiqətini şüalandırdığı hər bir vasitədə onun həqiqətini izlərindən - donuq "kristallarından" aşkarlamaq olar. Donuq kristallar ruha xas avtonom təkmilləşmə qabiliyyətinə malik olmadığından, ruhun konkret zaman-məkan şərtindəki həqiqətini özündə əks etdirir. Ruh özü məkan və zamanla sərt

şərtlənmədiyindən taksis ruhun həqiqətini özündə tam təqdim etmək imkanında olmur. Buna görə də, insan fəaliyyətinin obyekti olan hər şeydən ruhun izlərini - onun donuq kristallarını - aydınlaşdırmaq mümkündür. Ruhun donuq kristalları kristallaşmış intellektə malik mədəniyyət nümunələrini təşkil edir.

Haşiyə: Hans Ayzenk və Leon Kemin, "İntellektin təbiəti, ağıl uğrunda döyüş"

> *"Mühit və mədəni faktorların intellekt testlərinin həllinə təsiri variativdir. Bir qütbdə bəzən flüid intellekt adlanan bilikdən, təhsildən və ya mədəni faktorlardan ən az asılı olan testlər; digər qütbdə kristallaşmış intellektin testləri - aşağı qabiliyyətə malik adamlardan daha çox, yuxarı qabiliyyətli insanların malik olduğu, biliyə və məlumata əsaslanan testlər yerləşir."*

Beləliklə, bu sitatdan görünür ki, elmi qaydada sübut olunduğu kimi, mədəni mühitin insana təsir edib onun intellektual qabiliyyətini artıran məhz bu mühitdə mövcud olan predmetlərdə kristallaşmış ruhdur; hansı ki, aktiv, canlı bədəndəki ruhla birləşərək onda "əriyir" və onun səviyyəsini - fərdin intellektual qabiliyyətinin intensivliyini artırır. Heç bir maddi mədəniyyət nümunəsi olmayan mühitdə ətraf insana təsir edib onun intellektual qabiliyyətini inkişaf etdirmir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fərdin intellektuallaşması - onu əhatə edən mədəni mühitin şərtlərinin məcmusundan ibarətdir.

Beləliklə, əvvəl ruhi fəaliyyət nəticəsində ətraf şüurlanır, sonra şüurlanmış ətraf (mədəni mühit) fərdləri şüurlandırır; nəticədə, fərdi ruh eyni zamanda həm tək, həm cəm kimi təzahür edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fərdi ruhun təkliyi ayrıca bir fərddən təzahür etməsi kimi, cəmliyi fərdin bütün insanlığın nailiyyətlərini özündən təzahür etdirməsi kimi aşkarlanır.

c. Subyektiv vasitələrdən aydınlaşma: Obyektiv gerçəkliklər özlərində həqiqətin azalma meylini aydınlaşdırdığından, ruhun onlardan vasitə kimi istifadə etdikdə ruhda aydınlaşan artma meyli təbii şeylərin təbiətindəki azalma meyli ilə neytrallaşır - yəni entropiyaya məruz qalır. Buna görə də, heç bir şey özündə ruhun həqiqi mahiyyətini təzahür etdirmək imkanına malik deyil. Həqiqətin şüalanmasının ağıllılığına görə ruh öz həqiqətinin şüalandırmaq üçün subyektiv vasitələr yaradır. Hansı ki, həmin vasitələrdən xalis ruhi təzahürləri aşkarlamaq olar.

RUHUN ENERGETİK QURULUŞU

Ruhun mövcudluq üsulu onun energetik quruluşu ilə şərtlənmişdir. Buna görə də ruhun energetik quruluşu haqqında təsəvvürün yaradılması zəruridir. Varlıqların enerji quruluşunu şərh edərkən qeyd etdik ki, hər bir həqiqəti aydınlaşdıran vasitə bir həqiqəti özündə saxlayan enerjidən - **tangensial enerjidən**, və həqiqət haqqında məlumatı şüalandıran **radial enerjidən** ibarətdir. Hər iki enerji bir-biri ilə əlaqəli eyni vaxtda eyni gerçəklikdə bir yerdə təzahür edir.

Ruhun tangensial enerjisi ayrıca bir gerçəklikdə - fərddə konkret, radial enerjisi isə fərdlərdən kənarda, fərdlərarası ictimai münasibətlərdə abstrakt formada təzahür edir. Yəni ruhun tangensial enerjisi ilə radial enerjisi eyni bir yerdə (gerçəklikdə) - eyni zamanda təzahür etmir. Yəni ruhun totallığı xarici totallıqdır. Buradan da, ruhun ictimai təbiətinin üçüncü səbəbi meydana çıxır.

Formal Ruh vahiddir, hissəsizdir. O cisim və ya can kimi eyni zamanda hissə və tam kimi təzahür etmir. Ruhi enerji ya tam kimi tangensial, ya da hissə kimi radial enerji kimi təzahür edir. Tangensial enerjinin bütünlüklə radial enerjiyə çevrilməsi fərdi ruhu meydana çıxarır. Ruhun tangensial enerjisi daxilidir; ayrı-ayrı fiziki bədənlə şərtlənmiş halda aktuallaşır və həmin anda radial enerjisi olmadığından ayrıca bir bədəndən təzahür imkanı yoxdur. Bundan fərqli olaraq, radial enerji xaricidir;

ayrıca fiziki bədəndən xaricdə fərqli bədənlərlə şərtlənmişdir. Ruhi radial enerji müxtəlif fiziki bədənlərdəki ruhun tangensial enerjilərini əlaqələndirir və bu əlaqə təzahür edəndə hər bir tangensial enerji radial enerjiyə çevrilir. Ruh yalnız insanlararası əlaqədə tam kimi təzahür etdiyindən bədənə münasibətdə "özündənkənar şey"ə çevrilir. Beləliklə, Ruhun tangensial və radial enerjisi eyni vaxtda müxtəlif yerdə olduğundan varlığın dərkedilmə üsulu ilə idrak olunmur.

Ruhun faktuallaşması mövcudluğun varlığının aktuallaşmasından aşağıdakılara görə fərqlənir:

1. Mövcudluğun varlığı zəruri şərtlərdən yarandığından, yarandığı andan özünün faktına mütləq tam və kamil formada malik olur. Amma varlığın mövcudluğunun faktuallaşmasında zəruri şərtlər tədricən və müxtəlif təkmillikdə yarandığından Ruhun faktı hissəvi və qeyri-kamil olur.
2. Mövcudluğun varlığının faktı yaranma, aktı əmələgəlmə prosesindən meydana çıxır. Bundan fərqli olaraq, ruhun aktı - yaranma, faktı - əmələgəlmə prosesindən meydana çıxır. Buna görə də, obyektin yaranması ruhun aktuallaşması ilə, obyektin aktuallaşması ruhun faktı ilə eyni qanunauyğunluqlara tabe olur.
3. Aktuallaşma prosesində mövcudluğun enerjisi faktla akt arasında iki hissəyə ayrılır və hər bir hissə enerji bir-birindən fərqli qanunlara tabe olur. Ruhi faktuallaşmada fakt aktdan tədricən yarandığından ruhi aktla ruhi fəaliyyətin enerjisi bir-birinə keçir və hər iki enerji eyni bir qanunauyğunluğa tabe olur.

Ruh mövcud varlığın bütün formalarından mövcudluq aktına görə fərqlənir. Mövcud varlıqlarda mövcudluq tək kimi, mövcud olma cəm kimi təzahür edir. Ruhun mövcudluğu ictimai - cəm kimi, mövcud olması fərdi - tək kimi çıxış edir. Məsələn: ictimai münasibətlər müxtəlif fərdlər arasında yaranır, amma həmin münasibətlər yalnız ayrı-ayrı iştirakçı fərdlərdən aşkarlanır. Ruhun digər atributları da eyni qanunauyğunluğa

tabe olur. Bu ruhun dərk edilməsində çətinlik yaradır. Ruh tangensial formada ayrı-ayrı fərdlərdə fiktiv formada şəklində gerçəkləşir. Fiktiv ruh - formal ruhi aktdır. Məkani şərtlərdən - konkret insan bədənindən asılıdır. Ruhun radial enerjisi fərdlərarası münasibətlərdə dolayısı ilə tangensial enerjinin radial enerjiyə çevrilməsi ilə təzahür edir. Ruhun radial enerjisi - ruhun gerçəklik faktını təqdim edir və zamandan asılıdır. Zamandan asılılıq tarixin yaranmasını şərtləndirmişdir. Ruhun keyfiyyəti və kəmiyyət ölçüsü yoxdur, o yalnız xüsusiyyətlərlə müəyyən olunandır.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Kəmiyyət xalis varlıqdır; hansı ki, müəyyənlik varlığın özü-özü ilə eyniliyi kimi yox, ondan çıxarılmış və ya laqeydlik kimi qoyulmuşdur."*

Keyfiyyət mahiyyətin özündə əkslik kimi forma yaratmasından meydana çıxır. Keyfiyyətə cisimlərdə xassələr, canlılarda əlamətlər aiddir. Buradan iki cür xassə - mahiyyətdən təzahür edən **kimyəvi xassələr**, formadan təzahür edən **fiziki xassələr** əmələ gəlir. Fiziki xassə radial enerji ilə bağlı olduğundan dəyişkən, kimyəvi xassələr mahiyyətlə bağlı olduğundan sabitdirlər. Canlılarda tangensial enerji hissəvi olaraq radial enerji ilə qarşılıqlı bir-birinə çevrilir, buradan da canlılıq - dəyişkən mövcudluq meydana çıxır ki, bu cür qarşılıqlı mübadilədən canlıların əlamətləri təzahür edir. Əlamət - şərtlərdən asılı olaraq özü-özündə dəyişən xassədir, yəni eyni bir xassənin müxtəlif formalarda təzahürü əlamət kimi meydana çıxır. Ruhun mahiyyəti özündən forma yaratmadığından keyfiyyətə malik olmur. Yəni ruhda xassə meydana çıxmır. Ruhun tangensial enerjisi ilə radial enerjisi qarşılıqlı bir-biri ilə əvəzləndiyindən bu enerjilərin qarşılıqlı çevrilməsi nəticəsində canlılarda meydana çıxan əlamətlərdən də məhrumdur. Ruh yalnız özünün atributlarından və onların təkmillik dərəcəsindən təzahür edir ki, hansı ki sadəcə ruhi enerjinin mövcudluğunu dolayısı ilə təsdiq edir.

Kəmiyyət - keyfiyyətin məkanda ayrı-ayrı müstəqil eyni formalarda təkrarlanmasıdır. Başqa sözlə, mahiyyət və formanın vəhdətdə özündənkənardakı varlıqla eynilik təşkil etməsi və bu zaman ona laqeyd qalması kəmiyyət kimi müəyyən olunur. Ruhun öz forması olmadığından və buna görə də özündənkənardakı fiktiv ruhla mahiyyət və formanın vəhdətinə görə eynilik təşkil etmək imkanına malik deyil; bunun əvəzinə ruhun mahiyyəti özündənkənardakı ruhun mahiyyəti ilə eyniyyət təşkil edən, amma fərqli formada meydana çıxan digər fiktiv ruhlarla eynilik təşkil etmədiyindən, özündənkənardakı ruha laqeyd deyil; yəni ondan fərqlənir, bu fərqliliyə görə onunla münasibətə girir və buna görə də kəmiyyəti olmur.

Beləliklə, ruh istənilən fərddən yalnız münasibət əsasında ümumi təyin olunandır. Ruhun xüsusi halı yoxdur, onun yalnız ümumi halı vardır. Onun xüsusi halı bədənin fərdiliyinin özününküləşdirilməsi ilə meydana çıxır. Obyektiv gerçəklikdə aydınlaşan həqiqət - mahiyyət, formadan vasitəli (formanın hiss üzvlərinə təsiri ilə) aşkarlanır. Tangensial enerji ilə radial enerjinin məcmusundan ayrıca müstəqil fakt haqqında təəssürat yaranır. Mövcud varlıqlarda ayrılıqda nə tangensial enerji, nə də radial enerji təcrübəyə daxil olmur, buna görə də mahiyyətdən və formadan ayrılıqda həqiqətin aşkarlanması baş vermir. Ruh təcrübə sahəsinə müstəqil fakt kimi daxil olmadığından onun tangensial enerjisi ilə radial enerjisi birlikdə, yəni vəhdətdə təzahür etmir. Buna görə də ruh ayrı-ayrılıqda ya tangensial enerjidən, ya da radial enerjidən aydınlaşır. Amma tangensial enerji daxili olduğundan, o xarici seyr yolu ilə aşkarlanmır; yəni kənar şəxs fərddə ruhun olmasını dərk etmir, yalnız həmin şəxs özü daxildən öz ruhunu daxili seyr yolu ilə aşkarlayır ki, bu zaman aşkarladığını xaricə proyeksiya edə bilmir və hər iki halda fərddə ruh görünüş yaratmır. Ruhun forması olmadığından və özündənkənar formada - bədənin formasında təzahür etdiyindən, ayrıca bir şəxsdə radial enerji müstəqil şəkildə təzahür etmir. Radial enerji fərdlərarası münasibətdə

meydana çıxdığından, abstrakt xarici görünüş yaradır ki, bu görünüşdən ruh aşkarlanır.

Yuxarıda diskurs etdiyimiz Leybnicin fikirlərinə söykənərək ruhun hissəsiz olduğunu və vahid bir mövcudluq olduğunu qəbul etdikdə, onda bir vahid ruhun bütün ruhlu insanlarda vəhdətdə təzahür etdiyini aşağıdakı kimi təsəvvür etmək lazım gəlir:

A. Formal Ruhun tangensial enerjisi hər bir ruhlu insanda, radial enerjisi bu insanlararası əlaqələrdədir: Hansı ki, insanın ictimai varlıq olmasının - yəni cəm halında mövcudluğun - səbəbi kimi çıxış edir. Burada, cəm halında mövcudluğu vəhdətdə mövcudluqdan fərqləndirmək lazımdır. Təbiətdə istənilən varlıq istisnasız olaraq digərləri ilə xarici vəhdətdə mövcuddur, amma bu vəhdətə özünün təklikdə mövcudluğunu - öz xüsusi faktını təzahür etdirir. Yəni, fərdi mövcudluq birincili, vəhdətdə mövcudluq ikincili əhəmiyyət kəsb edir. Cəm formasında mövcudluqda vəhdətdə mövcudluq təzahür etsə də, təklikdə mövcudluq - fakt - heç bir halda təzahür etmir. Cəm halında mövcudluq ümumi həqiqəti özündə təzahür etdirdiyindən ruhu yalnız ümumi keyfiyyətlərdən aşkarlamaq olur. Ruhda xüsusi əlamətlər olmadığından, ruhun müxtəlifləşməsi baş vermir. Ayrı-ayrı fərdlərdə ruhun müxtəlif dərəcəli təzahürləri özündə yalnız onlarda bədənlə ruhun əlaqələnmə dərəcəsini, ruhun təkmillik dərəcəsini refleksiya edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhi mövcudluğun təzahür üsulu çoxluqdur, yəni ictimaidir.

Beləliklə, insan ruhunun mövcudluğu - faktı tam və mükəmməl formada yalnız bütün insanlıqdan aydınlaşa bilər ki, bu da sonuncu insanda başa çatır. Bu baxımdan insan ruhunun istənilən dövrdəki təzahürü onun sonuncu təzahürü ilə müqayisədə qeyri-təkmil, yarımçıqdır. Buradan da ruhun faktuallaşma forması kamilləşmə kimi təzahür edir.

B. Cisimlərdə tangensial enerji heç bir halda radial enerjiyə və əksinə çevrilmir və mübadilə olunmur: Ruhda tangensial enerji radial

enerjidən asılı olmayaraq müstəqil mövcud olduğundan təzahür etmir - ruhun forması yaranmır. Radial enerji də öz növbəsində tangensial enerji olmadan mövcud olduğundan mahiyyətə malik olmur. Təzahür hər iki enerjinin əlaqəsindən yarandığından, ruhda hər iki enerji forması yalnız birlikdə, amma bir forma enerji kimi mövcud olduqda təzahür edir. Yəni ruhun tangensial enerjisi bütünlüklə radial enerjiyə çevrilərək təzahür edir. Əksinə, radial enerji tam olaraq tangensial enerjiyə çevrildikdə ruh bədəndə təzahür etməyən potensiya kimi - ruhi mahiyyət kimi mövcud olur.

Beləliklə, ruh tangensial enerji kimi mövcud olduqda radial enerjisi olmadığından təzahür etmir, biz buna görə ruhu təcrübə sahəsində təzahürlərindən aşkarlaya bilmirik; yox əksinə, ruh təzahür etdikdə tangensial enerjisi tamamilə radial enerji ilə əvəzləndiyindən mahiyyəti olmur, buna görə yenə də təcrübədən aşkarlanmır.

Ruhun tangensial enerjisi daxilidir, ayrı-ayrı fiziki bədənlə şərtlənmiş halda aktuallaşır və həmin anda radial enerjisi olmadığından ayrıca bir bədəndən təzahür imkanı yoxdur. Bundan fərqli olaraq, radial enerji xaricidir, ayrıca fiziki bədənlə yox, fərqli bədənlərlə şərtlənmişdir. Ruhi radial enerji müxtəlif fiziki bədənlərdəki ruhun tangensial enerjilərini əlaqələndirir və bu əlaqə təzahür edəndə hər bir tangensial enerji radial enerjiyə çevrilir. Ruh yalnız insanlararası əlaqədə tam kimi təzahür etdiyindən bədənə münasibətdə "özündənkənar şey"ə çevrilir.

Ruhun enerji quruluşundan çıxış edib demək olar ki, ruh fakt kimi aktuallaşmadığından tangensial enerjisi ayrıca bir gerçəklikdə - fərddə konkret, radial enerjisi isə fərdlərdən kənarda, fərdlərarası ictimai münasibətlərdə abstrakt formada təzahür edir. Yəni ruhun tangensial enerjisi ilə radial enerjisi eyni bir gerçəklikdə - eyni zamanda və məkanda təzahür etmir. Buradan da, fərdi ruhun olması ilə bağlı təsəvvürlər yaranır.

Bəs ruhun tangensial enerjisinin təşkil etdiyi "şey" nədən ibarətdir?

Haşiyə: Hegel - "Məntiq elmi"

> *"Şey - mövcudluğun və əsasın təyininin birgə inkişafına qoyulmuş totallıq kimidir. Öz məqamlarından biri - başqasında refleksiya tərəfindən o özündə fərqliliklərə malikdir və buna görə də müəyyən və konkret şeydir. Bu təyin şeylərin mahiyyətinin xüsusiyyətidir və onların şeylə münasibətində öz ifadəsini «malik olmaq» sözündə tapır."*

Hegelin fikirlərindən çıxış etsək demək olar ki, Ruhun mövcudluğu olmadığından konkret şeyi yoxdur. Şeyi olmadığından ruh başqasında refleksiya etmir. Buna görə də, təfəkkürdə ruhun obrazı və təsəvvürləri meydana çıxmır. Buna görə də, "qeyri-müəyyən və abstrakt şeyə" malikdir.

Ruh başqasında varlığın mövcud varlıq təyinində refleksiya olunmur; hansı ki, özündəşeyini təqdim edir və buna görə də fərqliliklərə malik deyildir və buna görə də, abstrakt və qeyri-müəyyəndir. Ruh həm də əsasın təyininə malik olmadığından, mövcudluqla birgə inkişaf etmir. Ruh şeylə münasibətdə olmadığından malik olmaq keyfiyyətindən məhrumdur. Yəni ruhun mövcud varlıqdan fərqli olaraq öz şeyi yoxdur. Biz qeyri-müəyyən və abstrakt şeyi **Ağıl** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ağıl - malik olmaq xüsusiyyəti olmayan, buna görə də keyfiyyəti olmayan, başqa varlıqlarda refleksiya etməyən, amma özükimilərlə - özü-özündə refleksiya edən və bu zaman özündə fərqlilik daşımadığından ona keçən ruhi şeyin şərtlərinin məcmusundan ibarətdir.

Qeyri-müəyyən və abstrakt şey olduğundan biz ağlı ruhun atributu kimi qavrayırıq. Başqa sözlə, biz ağlı ruhun "nəsnə"si kimi qəbul edirik, yəni ağıl ruhun "şeyini" - nəsnəsini təşkil edir. Radial enerji həmin nəsnənin təzahürü kimi təfəkkürü meydana çıxarır. Beləliklə, ruhun mahiyyəti xalis ağıl, ağlın təzahür forması **təfəkkür** kimi təyin edilə bilər.

RUHUN MÖVCUDLUQ ÜSULU

Faktuallaşma prosesində ruhi mövcudluq yaranmağa başladığı andan buna paralel mövcudluq üsuluna malik olur. Ruhun mövcudluq üsuluna aydınlıq gətirmək üçün onu mövcud varlığın mövcudluq üsulları ilə müqayisəli təhlil etmək lazım gəlir. Varlıq anlayışı özündə çoxmənalılıq ifadə edir və onun hər bir mənası özündə varlığın reallığını - həqiqətin aydınlaşmasının yəqinliyini, gerçəkliklə həqiqətin əlaqəsini və həmin reallıqdan həqiqətin aşkarlamasının dəqiqliyini özündə ifadə edir. Buna görə də, varlıq anlayışının bir təyinindən digərinə keçərək varlığın təbiətini, onun özü-özünə və başqa varlıq formalarına, eləcə də təfəkkürə münasibətini başa düşmək olar.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Varlıq - bu yalnız özündə anlayışdır: bu anlayışın təyini təyinin mahiyyətidir; özlərinin fərqliliyində onlar bir-birinə münasibətdə başqa mahiyyətdir və onların sonrakı təyini (dialektik forma) başqasına keçiddir. Bu növbəti təyin eyni vaxtda xaricdə aşkarlanmadır və beləliklə anlayışın mahiyyətini özündə açmaqdır və bununla birlikdə varlığın özünə dalması, özü-özündə dərinləşməsidir."*

Hegelin varlıq anlayışı haqqında fikirlərindən görünür ki, ayrılıqda bir anlayış kimi götürüldükdə, varlıq anlayışı yalnız özü-özünü təyin edir və bu anlayışdan həqiqətin aşkarlanması mümkün deyildir. Amma onun müxtəlif təyinindən yanaşdıqda varlığın gerçəkliyinin təyin edilməsində əhəmiyyəti artır. Bu baxımdan, biz burada ruhu gerçəkliyin təbiətini aydınlaşdırmaq üçün varlıq anlayışının ən müxtəlif təyinlərindən gerçəkliklərin digər formaları ilə müqayisəli təhlil etməyi məqsədə müvafiq hesab edirik. Hegel varlıq anlayışının üç müstəqil təyinini müəyyənləşdirmişdir: Xalis varlıq, Mövcud (nağd) varlıq, "Özündəşey" kimi varlıq. Ayrı-ayrı varlıqlar müxtəlif varlıq təyinlərinə malik oldu-

qlarından, onların mövcudluq üsulu məhz onların varlıq təyinindən aşkarlana bilər.

Birincili mövcudluqlar (cisimlər) hər üç varlıq təyininə malikdir, buna görə də başqasına zərurətə görə ehtiyac olmadan özü-özü ilə mövcudluq əldə edir. Yəni cisimlərdə sabit zəruri şərtlər daxili, dəyişkən təsadüfi şərtlər xaricidir. Buradan da biz, cisimlərin mövcudluq üsulunu **"özü ilə mövcudolmaya cəhd"** kimi təyin edirik. Özü ilə mövcudluğa cəhd konkret başqasının zərurətə görə iştirakının tələb edilməməsini özündə ifadə edir. Yəni, cisimlər elə mövcudluq üsuluna malikdir ki, başqaları ilə təsadüfə görə mövcud olurlar və bu zaman mövcudluğun əsası konkret cismin özündə olur. Mövcudluğun əsası - zəmini özündə olduğundan, cisimlərin mövcud olmasının səbəbi məhz özlərindən aşkarlanır, buna görə də, cisimlər əbədi mövcud olmaya özü ilə cəhd edir.

Canlı fərd, fərdi şeydən - cisimdən fərqli olaraq xalis mahiyyətə, yəni formal varlığa malik deyil. Canlı fərdlərin daxili zəruri şərtləri dəyişkəndir, yalnız nəsildə həmin şərtlərin məcmusu sabit zəruri şərt kimi aşkarlanır. Buna görə də, canlıların xalis varlıq təyini növlərindədir, yəni cəmdən aşkarlanandır. Növ nəsilvermədən aşkarlandığından, biz bu üsulu **"özündənolanla mövcudluğa cəhd"** üsulu kimi təyin edirik. "Özündənolan" anlayışını iki mənada anlamaq olar:

1. Birincisi, özündənolan, yəni özü ilə eynilik təşkil edən; bu mənada özündənolan eyni növdən olan müxtəlif canlı fərdlərin xarici çoxluğunu ifadə edir.
2. İkincisi, özündənolan - formal varlıq əsasında nəsil əlaqəsində bir-biri ilə əlaqələnmiş canlı fərdlərin xarici çoxluğunu özündə ifadə edir.

Canlı fərdlər nəsilvermə ilə özlərinin xarici çoxluğunu yaratdığından hər iki məna demək olar ki, eyni bir həqiqəti özündə təqdim edir.

Fiktiv ruhun yalnız xalis varlıq təyini vardır. Buna görə də, nə özü ilə, nə də özündənolanla mövcudluğa cəhd etməsi mümkünsüzlükdür. Fiktiv ruhlar yalnız bədəndən ekzistensiya etməklə özündənkənar başqa

fiktiv ruhlarla birlikdə ruhun mövcud varlığını təşkil etdiklərindən Fiktiv ruhun mövcudluq üsulunu biz **"başqası ilə mövcudluğa cəhd"** kimi təyin edirik. "Başqası" sözünün də iki mənası vardır:

1. Birinci məna - ruhun faktiki varlığı ilə bağlıdır; hansı ki, ruhun faktiki varlığı tək bir fərdi fəaliyyətlə yox, bütün insanlığın - hamının ruhi fəaliyyətinin nəticəsində meydana çıxır. Beləliklə, biz özündən başqası ilə mövcudluğa cəhdi **hamı ilə birlikdə ruhi fəaliyyətdə mövcudluğa cəhd** kimi anlaya bilərik.
2. İkincisi, ruhun formal varlığı ilə bağlıdır; hansı ki, ictimai münasibətlərlə fiktiv ruhlar bir-biri ilə bağlanaraq ruhun mücərrəd xarici formal varlığını - cəmiyyəti yaradırlar. Buradan da, başqası ilə mövcudluğa cəhd **cəmiyyətdə mövcudluğa cəhd** - başqaları ilə ünsiyyətə cəhd kimi anlaşıla bilər.

Ruhun mövcud varlığı hər iki - faktiki və formal varlığın vəhdətindən (yəni cəmiyyətdə hamının ruhi fəaliyyəti ilə) meydana çıxdığından, biz elə belə ruhun mövcudluq üsulunu özündən başqaları ilə vəhdətdə - hamının cəmiyyətdə ruhi fəaliyyəti ilə mövcudluğa cəhd kimi təyin edə bilərik.

XALİS VARLIQ VƏ HEGELİN MƏNTİQİ

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Xalis varlıq başlanğıcı təşkil edir, buna görə də o bir və eyni vaxtda xalis fikir və qeyri-müəyyən, sadə bilavasitəlikdir; birinci başlanğıc isə müəyyən və vasitəli ola bilməz. Bu xalis varlıq xalis abstraksiyadır və buna görə də mütləq neqativdir; hansı ki, bilavasitə götürüldükdə heçlikdir."*

Hegelin bu fikirlərindən xalis varlığın predikatlarını aşağıdakı kimi ayırd etmək olar:

1. **Başlanğıcı təşkil etmək:** Başlanğıc - xüsusi müxtəliflikləri sırasının əsasını təşkil edən, özü-özündə əbədi təkrarlanan ilk səbəb

(varlığın bütün təzahür formalarının səbəbi kimi) və son nəticə (Ali səbəbin nəticəsi kimi; hansı ki, Ali səbəb son nəticədə qurtarır və sonrakı nəticələr son nəticənin ilk səbəb kimi çıxış etməsi ilə meydana çıxır) kimi həqiqətin təzahür formasıdır. Beləliklə, başlanğıcı müxtəliflikləri sırasının müqayisəsindən aşkarlamaq olar. Ruhun müxtəlifləşməsi təzahürlərinin heç biri cisim və can müxtəlifliklərinin heç biri ilə eyniyyət təşkil etmədiyindən, demək olar ki, ruh xalis varlıq kimi müstəqil başlanğıcı təşkil edir.

2. **Bir və eyni zamanda xalis fikir olmaq:** Mahiyyət haqqında məlumatları daşıyan dalğaların ifrat uzanması ilə onlar ideyaya çevrilir. İdeya fikrin əsasını təşkil edir. Ruhu təşkil edən dalğalar cisim və canı təşkil edən dalğalardan sıxılmaq qabiliyyətinin (yəni şey əmələ gətirmək qabiliyyətinin) olmaması ilə və əksinə, ifrat uzanmaqla ideyaya çevrilmək qabiliyyəti ilə fərqlənir. Buna görə də, ruhu təşkil edən dalğalar ideyaya çevrildiyindən bir və eyni zamanda xalis fikirdir. Xalis fikir materiyadan asılı olmayaraq özü-özündə mövcud olan fikirdir; hansı ki, insan beynindən kənarda ruhun xalis mövcudluq formasından şüalanır. Biz xalis fikri İlahi fikir kimi, yaradılanların ideyasını təşkil edən həqiqət kimi təsəvvür edirik.

3. **Qeyri-müəyyən olmaq:** Qeyd etdik ki, ruh varlığın ən təkmil vasitəsinin - insanın sinergetik mahiyyətini təşkil edərək, can və cisimdən şərtlənmiş və başlanğıcda onlara görə ikincili təzahür etdiyindən və buna görə də emanasiyaya uğradığından xaotik təzahürdür. Xaotiklik qeyri-müəyyənliyi təzahür etdirir.

4. **Sadə bilavasitəlik:** Mövcud varlıqlar obyektivliklə bilavasitəliyin vəhdətində meydana çıxır və bu zaman onların bilavasitəliyi obyektivliklə şərtləndiyindən mürəkkəb bilavasitəlik olur. Formal Ruhun obyektivliyi olmadığından onun bilavasitəliyi şərtsiz meydana çıxır. Yəni Formal Ruh sadə bilavasitəlik keyfiyyətinə - formadan təyin olunmazlıq keyfiyyətinə malikdir. Bu bilavasitəlik həqiqətin ən sadə aydınlaşma üsulunun - dalğa təbiətinin refleksiyasından ibarətdir.

5. **Xalis abstraktlıq.** Hegelin xalis varlıq haqqındakı bu fikirləri kvant fizikasının və dalğa fizikasının varlığın materiyayaqədərki təbiəti haqqında kəşflərinin Hegelin dövründə hələ meydana çıxmaması ilə bağlı olmuşdur. Ona görə də, xalis fikir dalğa formasına malik olduğundan mütləq abstraksiya və ya mütləq heçlik hesab edilə bilməz. Buna görə də, ruh mütləq neqativlik keyfiyyətinə malik deyil; əksinə, xalis pozitivlik keyfiyyətinə malik dalğa təbiətlidir, hansı ki, nisbi neqativlik keyfiyyətinə malik təbiətlə əkslik təşkil edir. Mütləq neqativlik keyfiyyətinə malik olmaq mənadan - mahiyyətdən məhrum olmaqdır ki, bu da həqiqətin mütləq inkarıdır; hansı ki, həqiqət öz inkarından təzahür edə bilməz. Beləliklə, göründüyü kimi, ruh xalis varlığın bütün keyfiyyətlərini özündə əks etdirdiyindən onu xalis varlıq kimi təyin edə bilərik.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruh xalis varlıq kimi materiyanın başlanğıcından xalis pozitivlik keyfiyyətinə malik olması ilə fərqlənir və buna görə də yaranma - təşəkkül prosesinə daxil olmur.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Eyni dəqiqliklə heç nə bilavasitəlik kimi, özü-özünə bərabər olaraq əksinə, varlığın olduğu kimidir. Həqiqət varlıq kimi, eləcə də heç nə özündə onların hər ikisini saxlayır; bu birlik təşəkküldür."*

Bizcə Hegelin fikrindəki "heçlik" anlayışı nisbi mənada qəbul edilməlidir. Hər hansı bir şey məhv olduqdan və ya dağıldıqdan sonra o heç olur, amma enerjinin saxlanması qanununa görə bu mütləq heçlik itmək xarakteristikası daşımayan heçlikdir. Bu heçlik yenidən varlıq olmaq keyfiyyətinə malik heçlikdir. Əgər material dünyanı təşkil edən ən sadə bölünməz şeyin - **atomun** (bölünməsi ilə material vəziyyətin hissəcik vəziyyəti ilə əvəzlənməsinə səbəb olan, hansı ki, özünün bütün qanunları ilə material aləmin tabe olduğu qanunlardan fərqlənir) quruluşuna nəzər salsaq, **elektrondan** (həqiqətin azalma meylini, yəni

neqativliyi, yəni heçlik keyfiyyətini daşıyan mənfi yükdən) və **protonlardan** (özündə həqiqətin artma meylini, yəni pozitivliyi, yəni nəlik keyfiyyətini daşıyan müsbət yükdən) təşkil olunduğunu, təşəkkül tapdığını, qurulduğunu görmək olar.

Bu baxımdan Hegel haqlıdır ki, materiya heçliklə (mənfi yüklə) xalis varlığın (müsbət yükün) vəhdətindən qurulur. Ruh material başlanğıcdan fərqli olaraq yalnız pozitivlik keyfiyyətinə, müsbət yükə, həqiqətin artma meylinə malik olduğundan onda heçlik keyfiyyəti yoxdur və buna görə də xalis əbədilik keyfiyyətinə malikdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Əbədilik keyfiyyəti qurulmanı, təşəkkülü - keyfiyyət dəyişilmələrini - inkar etdiyindən, ruhda qurulma, təşəkkül baş vermir.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Təşəkküldə heçliklə eyniyyət təşkil edən varlıq və varlıqla eynilik təşkil edən heçlik mahiyyətcə itən məqamlardır: özünün daxili ziddiyyətinə görə təşəkkül vəhdətə düşür (fällt), hansı ki, hər iki məqam çıxarılır. Nəticədə, təşəkkülün nəticəsi özündə mövcud (nağd) varlığı təqdim edir. Mövcud varlıq müəyyənliyə malik varlıqdır; hansı ki, bilavasitə və ya müəyyənlik mahiyyətidir, keyfiyyətdir."*

Hegelin bu fikirlərini necə başa düşmək olar? Varlıq - mümkünlüyün varlığı, yəni xalis həqiqət özündə metafizik təbiəti; heçlik - yəni mövcudluq əldə etmə ilə ikincili əmələgələn forma, sırf kosmik təbiəti özündə təqdim edir. Beləliklə, forma xalis şəkildə yalnız Kosmosda əmələ gəlir. Buradan da, forma mövcudluq yox, xalis mövcudolmadan ibarətdir. Forma ilə mahiyyətin vəhdətində ayrı-ayrılıqda hər iki təbiətin xalisliyi itir və mövcud varlıq meydana çıxır; hansı ki, heçliksiz forma, formasız varlıq kimi qavranılmır. Buradan da aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Təşəkkül - metafizik təbiətlə kosmik təbiətin vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Formal Ruh özündə pozitivliklə neqativliyin vəhdətini təqdim etmədiyindən onda təşəkkül baş vermir. Təşəkkül baş vermədiyindən ruh mövcud və ya nağd varlıq kimi təzahür etmir, yəni ruhda təbiətə xas keyfiyyətlər saxlanmır, buna görə də xalis metafizik təbiətdə meydana çıxır. Başqa sözlə, demək olar ki, xalis varlıq kimi formal ruh mövcud varlıq keyfiyyətlərindən məhrumdur. Ruh mövcud varlıq olmadığından hər hansı keyfiyyətdən məhrumdur. Buna görə də, keyfiyyəti olmadığından hissi təfəkkürlə dərk olunmayandır. Buradan da ruhun yoxluğu haqqında təsəvvürlər yaranır. Ruhun yoxluğu haqqında fikir yalnız ruhun mövcud varlıq kimi təcrübə sahəsinə daxil olmamasını özündə təsdiq etdikdə doğrudur; amma onu fikir sahəsində də yoxluq kimi təyin etmək, yəni xalis varlıq kimi inkar etmək səhvdir. Ruh müəyyənlik və vasitəlik keyfiyyətinə malik olmadığından, yəni mövcud varlıq olmadığından, məkan-zamanla konkret şərtlənmir, buna görə də özü-özü ilə münasibətdə olmur.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Özü-özü ilə münasibət kimi özü-üçün-varlıq bilavasitəlikdir; özü-özü ilə inkar münasibətində o özü-üçün-varlıqdır, vahiddir, birdir - o ki özü-özü ilə fərqliliklərə malik deyil, nəticədə özündə başqasını inkar edir."*

Ruh mövcud varlıq kimi təşəkkül tapmadığından onda "özlülük" keyfiyyəti meydana çıxmır. Ruh özlülük keyfiyyətinə malik olmadığından özü-özü ilə münasibətə girmir, özü-özü ilə münasibətə girmədiyindən özü-özü ilə inkar münasibətində olmur, ona görə də ruhda vahidlik, birlik, yəni kəmiyyət keyfiyyəti yaranmır. Buna paralel, ruh özündə başqasını inkar etmir, nəticədə ruh eyni zamanda özündə başqasını təsdiq edir ki, biz bunu **empatiya** kimi - başqası ilə qarışaraq ortaq vəziyyətə keçmə kimi - dəyərləndiririk. Konkret fərddə ruhun təzahür etdirdiyi özü-özünə münasibət, ruhun bədənə münasibətidir; hansı ki, "Mən" - ruhun *burada və indi* prinsipi ilə əlaqələndiyi bədənə;

"Sən" - *orada və indi* prinsipi ilə əlaqələndiyi bədənə; və "O" - *orada və keçmiş və ya gələcək* prinsipi ilə əlaqələndiyi bədənə münasibəti bildirir.

FAKTİKİ RUHİ VARLIĞIN - RUHİ MÖVCUDLUĞUN YARADILMASI

Faktiki mövcudluq müəyyən nizama əsasən mahiyyət əsasında yaradılan forma kimi, xarici götürülməsi mümkünlük xarakteristikasına malik olduğundan, ruhun aktuallaşmasında faktik ruh özündən kənarda, xarici görüntüsü olan, faktiki götürülən şey kimi yaradılır. **Yaradılma** - yaranmanın səbəblərinin özündən kənarda olmasını ifadə edir; hansı ki, Kosmosda mövcudluqlarda mövcudluğun bütün formalarının yaranma səbəbi özündədir. Beləliklə, yaradılma kənar iradə ilə formalaşmağı özündə ifadə edir. Mövcud varlıqların yaranma səbəbi özlərində olduğundan təbiidir, amma ruhun faktiki varlığının yaranma səbəbi ondan kənarda olduğundan metafizikdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun faktiki varlığı - metafizik güclə Kosmosda meydana çıxan süni formaların şərtlərinin məcmusundan ibarətdir.

İnsandan kənarda xarici görüntü yalnız mövcud varlığa xas olduğundan, ruhun faktiki ruhu obyektlərin faktiki görüntüsünə ikincili proyeksiya kimi yaradılır və obyektin xarici görüntüsü öz xarici görüntüsündən dolayı yolla ruhun faktiki varlığının görüntüsünü təqdim edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun faktiki varlığı - obyektiv varlıqların faktiki varlığına yaradıcılıq prosesində mövcud insanın formal ruhi fəaliyyətlə proyeksiya etdiyi və obyektin xarici görüntüsündən seyr edilən ikincili xarici görüntünün şərtlərinin məcmusundan ibarətdir.

Ruhun faktuallaşması necə baş verir? Mövcud varlıqların faktiki varlığı yaranış prosesində, metafizikada meydana çıxdığından, xalis mövcudluq metafizik qanunlara tabe olur və biz onu xarici seyr etmək

imkanına malik deyilik. Mövcud varlığının zəruri şərtləri əsasında mövcud olması təbiət sferasında təzahür etdiyindən, mövcudluğun aktuallaşması sabit qanunlara tabe olur; hansı ki, biz təbiət qanunları kimi qavrayırıq. Aktual ruhda yaranışda yalnız fəaliyyətin şərtləri verildiyindən, Ruhi fəaliyyət metafizik qanunlara, yəni qeyri-sabit qanunlara tabe olur; hansı ki, sosial qanunlar kimi qavrayırıq. Əvəzində, Ruhi faktlar ruhi fəaliyyətdən asılı olaraq əmələ gəldiyindən sabit qanunlara tabe olur. Ruhun faktı təbiət sferasında əmələgəlmə prosesində meydana çıxdığından, biz onu insan yaradıcılığı kimi xarici seyr etmək imkanına malik oluruq.

Ruhun aktuallaşması mövcud varlığın zəruri şərtləri əsasında baş verdiyindən, mövcud varlıq isə forma ilə mahiyyətin vəhdətində idraka təqdim edildiyindən, idrak prosesində fiktiv ruh tərəfindən xarici predmetin daxili vəhdəti pozularaq onun mahiyyəti ilə forması fərqli üsullarda, fərqli qaydada idrak olunur və sonra obyektin bir-birindən ayrılmış mahiyyətindən və formasından subyektlə, yəni ruhi fəaliyyətlə vəhdətdə, ruhi faktlar yaradılır. Buradan iki cür ruhi fakt aşkarlanır:

1. Xarici formanın refleksiyası nəticəsində yaranan obrazların xarici obyektlərlə vəhdətində yaradılan ruhi faktlar. Biz belə faktları **subyektin (obrazın - mücərrəd formanın) obyektivləşməsi** kimi təyin edirik.
2. Xarici mahiyyətin refleksiyası nəticəsində yaranan ideyalarla fiktiv ruhun öz ideyalarının vəhdətindən yaranan, yalnız subyektin özü-özündə yaradılan ruhi faktlar. Biz belə faktları **obyektin (obyektin xalis varlığının) subyektivləşməsi** kimi təyin edirik.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Obyektiv varlıqlarla vəhdətdə yaradılan Ruhi faktların ya mahiyyəti subyektdə, forması obyektdə; ya forması subyektdə, mahiyyəti obyektdə saxlanılır.

Subyektin obyektivləşməsinə aşağıdakılar aiddir:

1. Maddi ruhi faktlar: Bu cür ruhi faktlar maddi yaradıcılıqla əmələ gəlir. Əgər təbii şeylərin mahiyyəti ilə forması vəhdətdə bir yerdə saxlanılırsa, maddi yaradıcılıq nümunələrində xarici predmetin idrak olunan mahiyyəti təfəkkürdə - subyektdə saxlanılır və ona uyğun olaraq subyekt onun formasını xarici predmetlərə proyeksiya edir. Ona görə də, maddi mədəniyyət nümunələri xalis forma kimi mövcud olur və mahiyyətləri onu yaradan subyektdə saxlandığından, obyektiv gerçəkliklərdən fərqli olaraq subyektiv gerçəklik olur; yəni "real mövcud olub, inkişaf etmir, özündə mahiyyəti və xüsusi qanunauyğunluğu olmur, xüsusi təsir və inkişaf nəticələrinə malik olmayan şey" kimi mövcud olur. Buna görə də, maddi mədəniyyət nümunəsi yalnız mücərrədliyi ilə götürülən obyektiv reallıq olur. Məsələn, **ayaqqabını** götürək. Ayaqqabı xalis forma kimi real şeydir və elə belə hazırlandığı materialın mahiyyətini özündə saxlayır və məntiqlə ayaqqabılığı müəyyən olunur. Elə belə də təbii şəkildə hazırlandığı materialın qanunlarını özündə təzahür etdirir. Lakin ayaqqabı kimi mahiyyəti insan təfəkküründə mövcud olur və biz onu bizdən kənar forma kimi bizdə olan mücərrəd ideyası ilə vəhdətə gətirdikdə o ayaqqabı kimi dərk olunur.

Obyektiv gerçəkliklər bir mövcudluqdan digər mövcudluğa keçmək və buna görə də inkişaf etmək qabiliyyətinə malikdir. Lakin ayaqqabı özü-özündə başqa bir maddi mədəniyyət nümunəsinə keçmək imkanına malik deyil, çünki onun keçid imkanının şərtləri, mahiyyəti olmadığından, özündə yox, ondan kənarda - subyektdə mövcud olur və yalnız subyekt ona təsir edərək inkişaf etdirə bilir. Buna görə də, xarici görünüş kimi, insan ayaqqabıdan istənilən başqa bir xarici görünüşə malik şey yarada bilir. Məsələn, konkret ayaqqabının materialından başqa bir əşya, məsələn, oyuncaq hazırlamaq olar. Beləliklə, ayaqqabı ehtimali, yəni yaradılması gələcəkdə olacaq istənilən şeydən fərqlənmir. Maddi ruhi faktların mahiyyəti subyektdə saxlandığından, eyni bir fakt özündən xaricdə - subyektdə saxlanan ən müxtəlif mahiyyətlə vəhdətdə dərk oluna

bilər. Buradan da maddi ruhi faktın müxtəlif təyinləri - **yararlığı** meydana çıxır. Buradan, belə bir pnevmatoloji ideya aşkarlanır:

Maddi ruhi faktların mahiyyəti subyektdə saxlandığından dəyişkəndir; bir forma ən müxtəlif mahiyyətlərlə vəhdətdə dərk olunandır.

Maddi ruhi faktlar necə əmələ gəlir və ya ruh necə maddiləşir? Amerika psixoloqu **Franz Alexander** belə ehtimal irəli sürür ki, hərəkətli psixi enerji "donuq formaya qədər" yığıla bilər; o bunu ruhun cisimləşməsi (*corporealization of the psyche*) adlandırır. Bizə görə, hərəkətli psixi enerji daxildə yığıldığı kimi, xaricdə də yığılır. Ruhi enerjinin yaradıcılıq prosesində xarici predmetlərin xarici görüntüsündə hərəkətinin saxlanmasından və yığılmasından ruhun "cismi" - faktiki varlığı və ya maddi ruhi faktlar meydana çıxır. Beləliklə, maddi ruhi faktlar özündə iki fərqli maddiliyi: bir təbii əsası təşkil edən maddi ruhun proyeksiya olunduğu təbii mövcud varlığı, bir də həmin mövcud varlığın xarici görüntüsünə proyeksiya edilmiş süni mövcud varlığı təqdim edir. Beləliklə, maddi ruhi varlıq, mədəni şey - "nəsə şey" kimi təyin olunan olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Nəsə şey, mədəni şey, ruhun faktiki varlığı - təbii şeylərlə ruhi fəaliyyətlə onlara proyeksiya edilmiş ikincili süni formanın şərtlərinin məcmusundan ibarətdir.

2. Qeyri-maddi ruhi faktlar: Maddi ruhi faktlardan fərqli olaraq qeyri-maddi ruhi faktların mahiyyəti xaricdə - obyektə köçürülür, forması daxildə, subyektdə saxlanılır. Belə faktlar elmi yaradıcılıqla meydana çıxır və **biliyi** təşkil edirlər. Bilik - forması təfəkkürdə saxlanılan, mahiyyəti xarici predmetlərə köçürülərək onların vəhdətindən ruhi faktın əmələgəlməsini özündə təqdim edir. Məsələn, bundan əvvəlki ayaqqabı nümunəsini götürək. Əgər ayaqqabıya qeyri-maddi ruhi fakt kimi baxsaq, onda bizə təqdim edilmiş naməlum şeyi ayaqqabı ilə bağlı bizdə mövcud olan obraz və təsəvvürlərin yaratdığı ideyanı, yəni mahiyyəti həmin

predmetə köçürərək vəhdət yarada bildikdə həmin əşyanın ayaqqabı olduğunu təsdiq edirik.

Haşiyə: R.Mey, "Məhəbbət və iradə"

> *"İnsan inadla biliyə istinad edən varlıqdır. Biliyə gətirən şüurun dəyişilməsi, dünya tərəfindən fərdə təsir edən həm xarici, həm daxili güclərlə və həm də bu güclərin təsir etdiyi insanın özünün istiqaməti ilə şərtlənmişdir."*

Burada "biliyə istinad edən" fikri yalnız ruha aiddir. Bilik şüurun dəyişilməsindən meydana çıxır, şüurun dəyişilməsi isə daxili və xarici güclərin təsirindən. Burada xarici güc kimi mövcud varlıqların zəruri şərtləri, daxili güc kimi ruhi mövcud olmanın zəruri şərtləri çıxış edir.

Obyektin subyektivləşməsinə aşağıdakılar aiddir:

1. Mücərrəd xarici ruhi faktlar: Obyektiv gerçəkliyin idrak prosesinin nəticəsində həm forması, həm mahiyyəti subyektdə saxlanan, amma xarici şey kimi təsəvvürə gətirilən ruhi faktları biz xalis xarici ruhi fakt kimi dəyərləndiririk. Belə faktlara **sosial təşkilatlar** aiddir. Sosial təşkilatların həm forması, həm mahiyyəti mücərrəd şəkildə təfəkkürdə mövcud olur, amma xarici şey kimi təsəvvürə gətirilir. Məsələn, **dövlətin** həm forması subyektivdir (yəni xarici görüntüsü yoxdur), həm də mahiyyəti subyektivdir (çünki biz həmin mahiyyəti hər hansı xarici predmetə proyeksiya etmədən idrak edirik). Amma biz dövləti bizdən kənarda mücərrəd mövcud olan ruhi fakt kimi dərk edirik.

2. Mücərrəd daxili ruhi fakt: Forması və mahiyyəti subyektdə saxlanan və daxili varlıq kimi dərk edilən ruhi faktı biz daxili ruhi fakt kimi təyin edirik. Daxili anlayışı burada xüsusi mənada işlədilir. Ruhi fakt yalnız daxilidir. Belə daxililik xarici olmayan, yəni əkslikliyi olmayan xalis daxililikdir. Ona görə də, xaricdən seyrə imkan vermir, yalnız daxili seyr yolu ilə "görünür". Buna görə də, bizim gördüyümüz heç bir ruhi faktda ayrıca ruhu görə bilmirik. Daxili ruhi faktlar özünüdərk üsulu

ilə aşkarlanır. Özünüdərk - başqasını dərketmə qabiliyyətindən dolayısı ilə aşkarlanmanı təqdim edir.

FİKTİV RUHUN TƏZAHÜRLƏRİ

Ruhun öz xüsusi faktı olmadığından obyektiv gerçəkliklərdə olduğu kimi öz müstəqil təsir və təzahürləri yoxdur. Yalnız bədənlə əlaqələndikdən sonra öz təsir və təzahürlərini bədənin təsir və təzahürləri ilə birlikdə meydana çıxarır. Bədən özü-özlüyündə ikili şərtlərdə mövcud olduğundan, ruhun təsir və təzahürləri buna uyğun üç səviyyədən aşkarlanır:

1. **Xarakter:** Cismin, canın və ruhun birgə təzahürü.
2. **Psixologiya:** Canın və ruhun birgə təzahürü.
3. **Yaradıcılıq:** Ruhun xalis təzahürü.

RUHUN MÖVCUD VARLIĞI

Təbii əmələ gəlməyən, amma xaricdən (Kosmosdan) faktiki götürülməsi mümkünlük olan, fərdi ruhi fəaliyyətin izlərini özündə saxlayan mövcud varlığın süni mövcudluğunu biz **Ruhun mövcud varlığı** kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Təbii mövcud varlıqlarda təbii qanunlara tabe olmayan və süni yolla insanın ruhi fəaliyyəti ilə ona proyeksiya edilən, faktiki götürülərək qavranılan ikincili mövcudluq ruhun mövcud varlığından - faktiki ruhun şərtlərinin məcmusundan ibarətdir.

Ruhun mövcudluğu keçmişdə yaşamış insanların yaratdıqlarının məcmusundan, amma mövcud olması yalnız mövcud insanların - indidə yaşayan insanların fərdi ruhi fəaliyyətlərinin birlikdə onunla daxili vəhdət təşkil etməsindən ibarətdir. Bu əlaqəyə görə keçmişdə yaşayanlar öz fəaliyyətlərinin nəticəsi ilə indidə yaşayanlar eyni bir ruhi vəhdət təşkil edirlər. Yəni ruhun mövcudluğu tarixlə, mövcud olması zamanla şərtlənmişdir. Keçmiş insanların ruhu ruhun mövcud varlığının mövcud-

luğunu, indiki insanların ruhu ruhun mövcud varlığının mövcud olmasını özündə təqdim edir. Biz bunu keçmişin indiyə təsiri və ya keçmiş insanlığın indiki insanlığı formalaşdırması kimi qavrayırıq.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun mövcud varlığı - keçmişdə yaşamış bütün insanların əmək, elm və yaradıcılıq fəaliyyətinin ən ümumi nəticələrinin indidə yaşayan bütün insanların fərdi ruhi fəaliyyətlərinin şərtlərinin məcmusunda mövcud olmasından ibarətdir.

Buradan da, hər bir fərdlə bütün insanlığın vəhdəti aşkarlanır; yəni hər bir insan insanlıqda, bütün insanlıq hər bir insanda mövcud ruhi varlıqdır.

FORMAL RUHUN BƏDƏNLƏ ƏLAQƏSİNİN POZULMASI

Formal ruh bədənlə əlaqələndiyi andan meydana çıxan fiktiv insan varlığı Kosmosun qanunlarına zidd olduğundan, Kosmosda əbədi və sonsuz mövcudluğa cəhd prosesində bədən ondan, o da öz növbəsində bədəndən azad olmağa cəhd edir. Bu cəhd aşağıdakı formalarda meydana çıxır:

1. Ekspressiya: Bədən özü ilə əlaqələnmiş formal ruhun ona təsirlərini özündən xaricə çıxarmaqla onu özündən itələməyə və öz birincili mahiyyətində - ruhla əlaqələnmədən mövcudluğa cəhd edir. Bu zaman bədən müxtəlif hisslərlə ruhi təsirləri özündən kənara çıxarır. Bu proses ekspressiya kimi meydana çıxır. Ekspressiya ruhi şərtlərin bədənin hissləri ilə kənara çıxarılmasından ibarətdir; hansı ki, biz bunun formasını **emosiyalar** kimi qavrayırıq. Bədənin formal ruhu ekspressiyası xarakter və psixoloji tiplər kimi təzahür edir:

- **Xarakter:** Bədənin özünün birincili mövcudluqla vəhdətində formal ruhu özündən kənara çıxarmasından - ekspressiyasından xarakter təzahür edir. Bu mənada xarakter formal ruhla cismin fiktiv varlığının təzahüründən ibarət olur. Cisim ətraf mühiti təşkil

etdiyindən insan xarakteri özündə konkret məkani şərtlərin formal ruha təsirini özündə ifadə edir. Beləliklə, coğrafiyanın formal ruhda refleksiyasından insan xarakterləri yaranır.

- **Psixologiya:** Bədənin özünün ikincili varlığı ilə - canla formal ruhun vəhdətdə ekspressiyasından psixologiya meydana çıxır. Psixologiya dəyişən zəruri şərtlərin məcmusu kimi həyatın formal ruha təsirini özündə ifadə edir. Həyat, canlılıq - nəsilvermə, libido və özünüqoruma instinktləri ilə xarakterizə olunduğundan, insan psixologiyası özündə həyat enerjisinin fərdi realizasiyasını ifadə edir.
- **Şüur:** Bədənin özünün fiktiv varlığı ilə (yəni həm birincili, həm ikincili varlığının vəhdətində) ruhi ekspressiyasından - xarakter və psixologiyanın vəhdətində - şüur meydana çıxır. Buna görə də, şüur özündə həm xarakterin, həm də psixologiyanın şərtlərinə tabe olar. Beləliklə, şüur fiktiv insan varlığına uyğun üçlü ekspressiyadır.

2. Ekzistensiya: Ruhun bədəndən asılı olmayaraq, ondan azad olması - kənara çıxma cəhdini biz ekzistensiya kimi təyin edirik. Ekzistensiya fiktiv ruhun öz xalis mahiyyətini təzahür etdirmə cəhdindən ibarətdir.

Haşiyə: Nikola Abbanyano, "Ekzistensializmə giriş"

> *"Ekzistensiya fikirlə həyat arasında xarici təklənməni və yadlaşmanı aradan qaldırır, onları düşünən həyatın vəhdətində və ya fikirlə dolu həyatda formalaşdırır. O ki insan ekzistensiya edir, ekzistensiyanın ona xas mövcudluq üsulu olması onu bildirir ki, o varlıq kimi yox, varlığa münasibət kimi və bu münasibətin mümkünlüyü kimi formalaşır. Həqiqi ekzistensiya - bu varlıqla həqiqi münasibətdir: fərdin varlığı ilə, hansı ki onun gücünə həqiqi mənada Məndir, başqa sözlə şəxsiyyətdir, subyektdir, mühakimə edən ağıldır; dünyanın varlığı ilə, hansı ki onun gücünə öz nizamından qalır və həqiqi mənada obyekt kimi çıxış edir; birliyin varlığı ilə, hansı ki onun gücünə özünün həmrəyliyində, özünün tarixi taleyində özünü aşkarlayır."*

Biz N.Abbanyanonun şərhinə görə ekzistensiyanın üç mərhələsini ayırd edə bilərik: a) **Özünə münasibətdə ekzistensiya - Mənin aşkarlanması:** Düşüncə prosesində ilk aşkarlanan həqiqət Düşünən Məndir. Mənin aşkarlanması fərdi tale kimi qavranılır. b) **Dünyanın varlığı - ruhun faktiki varlığının yaradılması:** Nəsə insandan ekzistensiya edən ruh təcrübədə obyektiv gerçəkliklərin nizamını aşkarlayır və həmin nizam əsasında öz mövcudluğunu yaratmağa cəhd edir. c) **Birliyin varlığı - ruhun formal varlığının yaradılması:** Fiktiv ruhun bədəndən xaricə ekzistensiyası zamanı subyekt-subyekt əlaqəsində ruhun formal varlığı yaranır; hansı ki, bütün tarix boyu yaşamış nəsə insanların ekzistensiyasının məcmusundan **İnsanlıq** təzahür edir.

Ekzistensiya ruhun bədəndən tam ayrılaraq kənara çıxması kimi baş verir. Ruhun ekzistensiyasından ruhun halları formalaşır. Ruhun iki halı vardır:

- **Oyaqlıq:** Xarici aləmin siqnallarını tutmaq, seçmək və şərh etmək üçün bütün orqanizmin aktivləşməsi vəziyyəti.
- **Yuxululuq:** Xarici aləmlə sensor əlaqənin kəsilməsi ilə, əhəmiyyətli hərəkətsizliklə, xarici aləmə marağın düşməsi ilə xüsusi davranış təzahürləri olan funksional, dövri psixi vəziyyət. Şüurun qaydalaşması və yeni idrak üçün hazırlanması yuxululuqda həyata keçir. Yuxululuq ruhun bədənlə əlaqələnməsinin zəifləməsinə, nəticədə özü-özündə refleksiya imkanının artmasına səbəb olur.

RUHDA AYDINLAŞAN HƏQİQƏTİN ŞÜALANDIRILMA ÜSULU

Ruhun mövcudluq üsulu ona ayrılıqda müstəqil gerçəklik kimi öz həqiqətini şüalandırmağa imkan vermir. Buna görə də, ruh özündə aydınlaşan həqiqəti dolayı və vasitəli aydınlaşdırır. Biz ruhda aydınlaşan həqiqət haqqında məlumatın şüalandırılmasının üç cür vasitəsini ayırd edə bilərik:

1. **Şüurlu insan:** Özündə ruhun aydınlaşmasını şüalandıran bioloji vahiddir.
2. **Taksis:** Bədəndən kənar yaratdıqları vasitəsi ilə öz həqiqətini şüalandırır. Biz insanın "əli dəymiş" istənilən şeydə, donmuş ruhi kristallarda ruhun izlərini dərk edə bilərik.
3. **Entropiya Mələkləri:** Ruhun öz təzahürlərini entropiyadan təmizləmək üçün istifadə etdiyi vasitələr (insan təfəkküründü xarakterizə edən vasitələr).

Ruhun məkani və ya daxili həcmi insan bədənidir. İnsan bədənində ruhda aydınlaşan həqiqətin şüalanması (şüur) üç zonaya bölünür: a) Təfəkkürün bədənin ən uzaq sərhədlərinə göndərdiyi şüalanma - **Bədən şüuru**. b) Yalnız xüsusi bədən üzvünə göndərdiyi şüalanma zonası - **Beyin şüuru**. c) Özü-özünə göndərdiyi şüalanma - **Xalis Zəka (Təhtəlşüur)**.

Haşiyə**:** Kant, "Xalis zəkanın tənqidi":

> *"Ağıl aprior bilginin prinsiplərini verən qabiliyyətdir. Ona görə də, xalis o zəkanı adlandırırıq ki, şərtsiz aprior bilgilərin prinsiplərini saxlayır."*

Kantın fikirlərindən göründüyü kimi, ağıl özündə aprior olaraq xarici totallığın prinsiplərini müəyyənləşdirən prinsiplərə malikdir; hansı ki, idrak prosesində təcrübədən əldə edilmiş məlumatlar xalis zəkanın prinsipləri ilə tutuşdurulmaqla aşkarlanır. Bu proses maddi aləmdə amin turşularından zülalların sintezinə oxşardır.

İNCƏSƏNƏT: RUHUN MÖVCUD VARLIĞININ ESTETİKASI

Ruhun mövcudluğunun faktiki varlığı fiktiv ruhun bədəndən kənar xarici obyektlərlə vəhdət təşkil etməsindən meydana çıxır. Nəsə insanın xarici əşyalara proyeksiya etdiyi ikincili süni görüntü ruhun mövcud varlığının estetikasını təşkil edir. Əgər təbii şeylərin estetikası onların mahiyyətindən, daxildən, avtonom və spontan olaraq zərurətə görə

yaranırsa, ruhun mövcud varlığının estetikası fiktiv ruhun mahiyyətindən, xaricdən, iradəvi və şüurlu olaraq təsadüfə görə yaradılır. Ən ümumi şəkildə ruhun mövcud varlığının estetikasının yaradılmasını biz **İncəsənət** kimi təyin edirik.

Haşiyə: Herbert Markuze, "Eros və sivilizasiya"

> *"Əgər hiss həzzə birləşirsə, mühakimə estetik olur, onun əldə edilməsi - incəsənət."*

Beləliklə, hiss bədənin təzahürlərindən, həzz ruhla bədənin təzahürlərindəndir. Əgər həzz daha çox hissi olursa nəticə daha çox bədənə, yox nə qədər çox intellektual olursa "mühakimə bir o qədər estetik" olur. Mühakimənin estetik olması fikrin obraz və ya təsvirlə ifadə edilməsini özündə ifadə edir. Bu proses özündə yaranışı refleksiya edir. Təfəkkürdə obrazlara çevrilmiş fikrin və ya ideyanın bədəndən kənara çıxarılması və xarici obyektlərə proyeksiyası incəsənət kimi təzahür edir. Fikir və ya ideya ruhun "materiyasını" təşkil etdiyindən, incəsənət əslində ruhu təsvir kimi maddiləşdirmiş olur.

METAFİZİK AZADLIQ: RUHUN BƏDƏNDƏN ÇIXMASI

Ruhun faktuallaşması fiktiv ruhun bədəndən ayrılmasını tələb edir. Ruhun bədəndən ayrılması ən ümumi şəkildə fiktiv ruhun **azadlığından** ibarətdir. Kosmosda mövcud olma təsadüfə görə sonsuz sayda çoxluqla şərtlənmə tələb etdiyindən mövcud varlıqlar Kosmosda mütləq qarşılıqlı asılılıq şərtlərində mövcuddur. Amma mövcudluğun varlığı ilə əkslik təşkil edən varlığın mövcudluğu, yəni Fiktiv ruh kosmik qanunlara tabe olmur və metafizik azadlıqda müstəqil varlığa çevrilir. Nəsə insanın azadlığı **nisbi (sosial)** və **mütləq (metafizik)** olmaqla iki cür meydana çıxır.

1. Nisbi (Sosial) Azadlıq: Ekzistensiya prosesində fiktiv ruhun bədəndən azad olması şərtsiz və ya hissəvi mahiyyət kəsb edir. Hissəvi azadlıq faktuallaşma prosesində bədəndən kənar ruhun donması -

donmuş ruhi kristalların yaranması kimi baş verir. Biz azadlığı ruhun mövcud varlığının əsas şərti kimi təyin edə bilərik.

Haşiyə: N.Abbanyano, "Ekzistensializmə giriş"

> *"Azadlıq seçimi insanı dominant maraqlardan məhrum həyatın qeyri-müəyyənliklərindən azad edir və ona enerjisinin dolğunluğunu qaytarır. İnsan öz təyinatını yerinə yetirməyə hazır olur. Azadlıq Mənin vəhdətini, onun təyinatının vəhdətini, Mənin və onun təyinatının vəhdətini bildirir. Azadlığı anlamaq - bu insanın özü-özünü və özünün dünyadakı təyinatını anlamasıdır."*

N.Abbanyanonun azadlıq haqqındakı fikirlərindən görünür ki, insan həyatında onun əsas marağı - ruhi mövcudluq əldə etmə marağı - yoxdur. Çünki insanın bioloji həyatı mümkünlüyün varlığının mövcudluq tələbinə İlahi iradədən verilmiş şərtlərdən ibarətdir. Beləliklə, həyatda özünün mövcudluq marağını tapmayan fiktiv ruh həyatdan uzaqlaşmağa, öz dominant marağını (mövcudluq əldə etmə marağını) təmin etmək məqsədi ilə bədəndən - həyatdan azad olmağa cəhd edir.

2. Metafizik Azadlıq: Metafizik azadlıq - mövcud varlıqlara xas olmayan və yalnız ruhi mövcud olmanın zəruri şərti kimi təzahür edən əlaqə formasıdır. Təbiət sərt determinizmə tabe olur. Məsələn: Xörək duzunun əmələ gəlməsi sərt determinasiyaya tabe olur. Belə ki, xörək duzu yalnız **Na** və **Cl** elementlərinin iştirakında əmələ gələ bilər, yerdə qalan heç bir variantda xörək duzu əmələ gəlmir. Azadlıq bundan fərqli olaraq, bir zəruri şərtdən ən müxtəlif, çoxlu sayda təsadüfi şərtlərə keçmə imkanı kimi mövcuddur və bu imkandan **seçim** - variantlardan birinə keçmə - azadlıqdan istifadə imkanı meydana çıxır. Ruh mövcud varlıqdan fərqli müstəqil başlanğıc olduğundan, təbiətin tabe olduğu determinizmə olduğu kimi tabe olmur. Buradan da azadlıq meydana çıxır. Azadlıq - natamam determinizmin təzahürüdür; hansı ki, insanın iradəvi müdaxiləsi ilə tam determinizmdən meydana çıxır.

Mütləq azadlıq: Fiktiv ruhun sürəkli olaraq bədəndən kənara çıxması tam şəkildə ölüm prosesində baş verir. Ölüm özlüyündə bioloji prosesdir ki, canlılığın zaman şərtlərinin təzahürlərindəndir. Ölüm bədəni məhv etdiyindən sağ bədəndəki fiktiv ruh cəsədlə əlaqələnə bilmir. Nəticədə, ölmüş adamın cəsədindən fiktiv ruh birdəfəlik və tam ekzistensiya edir. Biz fiktiv ruhun cəsəddən mütləq ekzistensiya etməsini mütləq və ya metafizik azadlıq kimi təyin edirik. Metafizik azadlıq ruhun kosmik sferadan metafizik sferaya keçməsi və yenidən metafizik qanunlara uyğun öz varlığını davam etdirməsini özündə ifadə edir.

RUHUN FORMAL VARLIĞI - CƏMİYYƏT

SOSİALLAŞMA

Mövcudluğun varlığı yaranışın sonunda, varlığın mövcudluğu yaranışın əvvəlində meydana çıxdığından, Kosmosun yaranışının seyri mümkünsüzlük, amma varlığın mövcudluğu yaranışın əvvəlindən meydana çıxdığından onun yaranışının gedişinin seyri mümkünlükdür. Ruhun mövcudluğun yaranması iki proseslə - tərəqqi və sosiallaşma ilə reallaşır. **Tərəqqi** ruhun faktiki varlığının yaranmasını, **sosiallaşma** formal varlığının yaranmasını özündə təqdim edir. Beləliklə, ruhi mövcudluğun faktiki varlığının yaranması xarici seyr yolu ilə - tərəqqi prosesində, ruhun formal varlığının daxili seyri - sosiallaşma prosesində mümkün olur.

Nəsə insan özü-özündə total qeyri-müəyyənlikdir. Yəni, nəsə insanın yaranışdan xalis varlığı yoxdur. Mövcudluqların xalis varlığı onların mövcud varlığından qabaq yarandığından, son kimi hər bir mövcud varlıqdan onların xalis varlığını - mahiyyətini aşkarlamaq mümkündür. Cisimlərin formal varlığı mövcudluğun sabit zəruri şərtləri kimi bilavasitə onların özündən, təkcə mövcudluqlarından; canlıların formal varlığı dəyişən zəruri şərtlər kimi fərdi mövcudluqdan kənarda, ümumi mövcudluq formasından - növdən aşkarlanır.

Nəsə insan sinergetik təbiətlidir və onun bir müəyyən - yəni nəsə insanın mövcudluq varlığından öncə yaranmış xalis varlığı, bir də qeyri-müəyyən - nəsə insanın mövcud varlığından sonra, onun özünün iştirakı ilə, başqaları ilə birlikdə yaratdığı xalis varlığı vardır. Beləliklə, nəsə insanın qeyri-müəyyən varlığı, fiktiv ruhun formal varlığı onun özü tərəfindən, özündən kənarda yaradılır. Nəsə insanın özündən kənarda,

başqaları ilə birlikdə özünün - ruhun müəyyən formal varlığını yaratmasını biz elə belə ən ümumi şəkildə sosiallaşma kimi təyin edirik. Sosiallaşma daxili proses kimi daxili birliyi - intensional birliyi meydana çıxarır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Sosiallaşma - fiktiv ruhların intensional birlik yaratmaqla ruhun formal varlığını təşkil etmələrinin şərtlərinin məcmusundan ibarətdir.

Əgər cisimlərin formal varlığı özündən - təkdən, canlıların formal varlığı nəsildən - özükimilərdən və cəmdən aşkarlanırsa, özündənkənarşey kimi Ruhun mövcud varlığının formal varlığı hər bir fiktiv ruhdan kənarda - fiktiv ruhların bədəndən ekzistensiya edərək xaricdə bir-birinə empatiya etməsi ilə yaranır. Əgər ruhun faktiki varlığının yaranmasında ekzistensiya prosesində fiktiv ruh obyektin subyektivliyinə keçmirsə, bunun əksinə, ruhun formal varlığının yaranmasında fiktiv ruhlar bir-birinin subyektivliyinə keçir və nəticədə yeni subyektivlik yaradır. Biz bu yeni subyektivliyi - ruhun formal varlığını - **İnsanlıq** kimi təyin edirik.

Buradan da, aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Sosiallaşma - subyektiv mənin yeni subyektivlik əldə etmə şərtlərinin, yəni insanlaşmanın şərtlərinin məcmusundan ibarətdir.

Bunu başqa şəkildə insanın insanlıq əldə etməsi kimi də ifadə etmək olar. Fiktiv ruhların bir-birinə qarşılıqlı ekzistensiyası özündə koekzistensiya kimi meydana çıxır. Buradan, aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ruhun formal varlığı - nəsə insanların qarşılıqlı ekzistensiya nəticəsində meydana çıxan ümumi subyektivliklərinin şərtlərinin məcmusundan ibarətdir.

Bəs sosiallaşmanın mahiyyəti nədən ibarətdir? Hər bir insan öz fərdi həyatında insanlığın təbii vəziyyətdən çıxıb ictimai vəziyyətə keçid vəziyyətini yaşayır; sadəcə insanlığın tarixində bu proses yaşlılıq

səviyyəsindən başlayır, hansı ki, fərdi həyatda hər bir fərd öz uşaqlığından uzaqlaşmaqla bu prosesdə iştirak edir. Beləliklə, uşaqların sosiallaşması özündə insanlığın sosiallaşmasının kiçik ölçülü təkrarlanması olduğundan, uşaqların sosiallaşmasının qanunauyğunluqları əsasında insanların başlanğıc sosiallaşmasının təbiətinə varmaq olar. Buna görə də, biz burada uşaqların sosiallaşması ilə bağlı elmi nəticələrə istinad etməyə üstünlük veririk.

Sosiallaşmanı ən ümumi şəkildə belə ifadə etmək olar: Sosiallaşma - insanın daxili ruhi totallığının - öz-özü ilə vəhdətin - başqa insanlarla birgə təşkil etdiyi vəhdəti - ruhun xarici totallığını özündə refleksiya etməsi kimi meydana çıxır. Buradan fərd ikili rolda iştirak edir: bir tərəfdən xarici totallığı təşkil edən element - hissə kimi, digər tərəfdən xarici totallığı özündə refleksiya edən daxili totallıq - tam kimi. Şəxsiyyətin hissə kimi xüsusiyyətləri ilə tam kimi xüsusiyyətləri ayrı-ayrı müstəvilərdə aktuallaşdığından, bir-birindən fərqli xüsusiyyətlərə malikdir. Belə ki, onun hissə kimi mövcudluğundan həqiqət aydınlaşmır, buna görə də fərdin ümumi həqiqəti yoxdur; amma tam kimi mövcudluğundan həqiqət aydınlaşır, yəni şəxsiyyət ən ümumi həqiqətə malikdir. Buna görə də, xarici totallıq yalnız daxili totallıqda refleksiya olunduqda, fərd öz şəxsiyyətinin daxili tamlığından öz həqiqətini aydınlaşdırır; hansı ki, sosiallaşmanın başlıca mahiyyətini təşkil edir.

Haşiyə: Talkott Parsons, "Sosial sistemlər haqqında"

> *"Fəaliyyətin çıxış prinsipi münasibətlər kontekstində ikilik prinsipidir. Hər şeydən əvvəl bu prinsip aktorlar (sosiallaşan fərd - s.c.) arasındakı münasibətlərə aiddir. O, ayrılıqda onların hər birinə və ya hər ikisinə bir yerdə xas deyildir. İkilikdəki əlaqələri iki başlıca istiqamətə ayırmaq olar. Birincisi - normativ nəzarət və ya daha ali təşkil olunmuş varlığın (cəmiyyətin və ya ruhun xarici totallığının - s.c.), şəraitə münasibətdə birinci duran, daha az təşkil olunmuş varlığa (fərdə və ya ruhun daxili totallığına) nəzarəti. Bu ayrılmanın daxili-xarici ölçülülüyüdür. İkinci ölçü - tələbatların və*

ya nümunənin, yəni zamanla potensial vəziyyətdən aktual vəziyyətə keçidin həyata keçirilməsi prosesinin (ruhun aktuallaşmasının - s.c.) zaman ölçülülüyüdür."

Beləliklə, T.Parsonsun professor Blekin "fəaliyyətin ümumi nəzəriyyəsi"nə verdiyi yuxarıdakı şərhini bir qədər başqa formada ifadə etsək, bizim sosiallaşma ilə bağlı müəyyən etdiyimiz definat alınar. Yəni fərd özünün də hissə kimi təşkilində iştirak etdiyi cəmiyyət tərəfindən nəzarət altına alınmaqla sosiallaşır. Buradan da, ictimai nəzarətin ölçüsü, yəni sosiallaşmanın ölçüsü "ayrılmanın daxili-xarici ölçülülüyü" kimi: cəmiyyətin totallığı - xarici ölçülülük, fərdin daxili totallığı - daxili ölçülülük kimi meydana çıxır.

Haşiyə: A.Adler, "İnsan təbiətinin analizi"

"Cəmiyyət - bizim mövcudluğun sonrakı davamı üçün ən yaxşı təminatdır. İctimai həyat instinkti insanlıqda böyük xidmət göstərib - o bizim ətraf narahatlıqlardan müdafiəmizin alətini - insan ağlını itiləmişdir. İctimai həyata uyğunlaşma şəxsiyyət və cəmiyyət kimi mühüm psixoloji funksiyadır."

A.Adlerin fikirlərindən görünür ki, insanın ictimai həyata, yəni başqa insanlarla zərurətə görə birgəyaşayışa uyğunlaşması nəsə insanın ruhi tərəfi ilə bağlıdır; hansı ki, bu uyğunlaşmanın ölçüsü fərdin ağıllılıq dərəcəsi ilə müəyyən olunur. Xarici ölçülülük - cəmiyyətin tipi ilə, daxili ölçülülük - şəxsiyyətin kamilliyi (tipi) ilə müəyyənləşir. Buradan da aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Sosiallaşma prosesi - şəxsiyyətin kamilləşməsi ilə cəmiyyətin təkmilləşməsinin şərtlərinin məcmusundan ibarətdir.

Buna görə də, sosiallaşma prosesi həm fərddən, həm də cəmiyyətdən eyni dərəcədə asılıdır. Sosial fəaliyyətin ikinci ölçüsü - "tələbatların və ya zamanla potensial vəziyyətdən aktual vəziyyətə keçidin" ölçüsü, özünüaktuallaşdırma - fiktiv ruhun bədəndən azad olmaq dərəcəsidir; hansı ki, hər bir fərd öz azadlığı dərəcəsində cəmiyyətin təşkilində iştirak edir və bu azadlıqların məcmusu ruhun xarici totallığından cəmiyyətin

azadlığı kimi aydınlaşır. Buradan da, fərdlə sosiallığın şərtlənməsi - fərdin konkret intellektual səviyyəsindən və hissiyyatlarından asılı olduğundan subyektiv tərəfi; fərdin özünü aktuallaşdırması cəmiyyətlə şərtləndiyindən obyektiv tərəfi təşkil edir. Fərdin subyektiv amil kimi çıxış etməsi onu **sosial obyektə** çevirir. Sosial obyekt - konkret fərd (subyektiv tərəf), abstrakt fərd - şəxsiyyətdir.

Belə ikitərəfli əlaqədə şəxsiyyətin kamilliyi sosial iyerarxiyanın əsasında durur; yəni şəxslər öz sosiallaşma dərəcələrinə görə fərqli ictimai səviyyələr təşkil edir. Cəmiyyətin təkmilliyi sosial təşkilatların əsasında duraraq, onların tipini müəyyənləşdirir. Xarici və daxili ölçülülüyün uyğunluğundan cəmiyyətin dayanıqlığı - stabillik, uyğunsuzluğundan dayanıqsızlığı - ictimai destabilizasiya təzahür edir. Cəmiyyətdə sabitliklə qeyri-sabitlik bir-biri ilə vəhdətdə qarşılıqlı əvəzlənməklə ictimai inkişafı - sosial hərəkətliliyi təmin edir.

Sosiallığın başlanmasının və ictimai inkişafın səbəblərini öyrənmək yalnız tarixi anlamaq baxımından yox, həm də gələcəyi öncədən görmə baxımından vacibdir. Hər bir fəlsəfi təlimin, elmi nəzəriyyənin də əsas vəzifəsi insanlığın qarşısında duran bu iki vəzifəni - tarixi öyrənmək və gələcəyi öncədən görmək üçün müxtəlif yollar təklif etməkdən ibarətdir. İnsan gələcəyi görmədən və keçmişi bilmədən indidə mövcud ola bilməz. Bu da sosiallaşmanın əsas mahiyyətini təşkil edir. İnsan nə üçün sosiallaşır, sosiallığın səbəbləri nədir, ictimai həyat nə üçün müxtəlifdir və nə üçün tarix yaranır və xalqlar alternativ yollarla inkişaf edir? Bütün bu suallar hər bir fəlsəfi təlimin və sosial nəzəriyyənin cavab verməli olduğu suallardır və indiyədək heç bir nəzəriyyə bu sualların mütləq həqiqi cavablarını tapmaq üçün yetərli yol göstərməyib. Digər tərəfdən, tarix inkişaf etdikcə ictimai həyatın bütün sahələri yeni qanunauyğunluqlarla inkişaf edir və ya tamamilə yeni sosial təzahürlər meydana çıxır. Hər bir dövr özündən əvvəlki dövrdən həm də aydınlaşdırdığı sosial həqiqətlərə görə fərqlənir.

Sosial həqiqətlə təbii həqiqətin aydınlaşması bir-birindən fərqlənir. Belə ki, təbii həqiqət başlanğıcdan, yaranma başa çatdığı andan mütləq şəkildə aydınlaşır, insan şüurundan və şəraitdən asılı olaraq tədricən nisbi olaraq aşkarlanır; amma sosial həqiqət - cəmiyyət yaranma prosesində olduğundan və onun mütləq həqiqəti cəmiyyətin formalaşmasının başa çatmasından, yəni tarixin sonunda təzahür edəcəyindən - istənilən dövrdə aşkarlanan sosial həqiqət öz dövrü üçün mütləq həqiqət kimi qavranılır, amma sosial tarix üçün nisbi həqiqət təşkil edir. Beləliklə, həqiqətin nisbiliyi onun aşkarlanmasının tarixiliyi ilə şərtlənir.

Sosiallaşmanın iki səbəbi vardır: **endogen** - ruhun daxili totallığı kimi ümumi Mən və **ekzogen** - ruhun xarici totallığı kimi cəmiyyət. Sosiallaşma bu iki səbəbin vəhdətindən mürəkkəb nəticə kimi meydana çıxır. İnsanın daxili totallığından sosiallaşmanın meydana çıxmasının aşağıdakı səbəbləri vardır:

1. Formal Ruhun insan bədəninə transferi: İnsanın sosiallaşmasının bazis səbəbi formal ruhun bədənə keçməsidir. Ruhun keçmədiyi heç bir bədəndən hətta heyvanlara xas "sosiallıq" belə təzahür etmir. Ruh bədənə keçməklə bədən öz təbii həyatından sosial həyata doğru meyllənməyə başlayır.

Haşiyə: E.Erikson, "Uşaqlıq və cəmiyyət"

> *"İnsan bütün həyatında, in utero (ana bətnində) ilk təkandan sonuncu nəfəsinə kimi coğrafi və tarixi koqerentliyə malik qruplarda formalaşır."*

E.Eriksonun fikirləri də təsdiq edir ki, ana bətninin ilk anından başlayaraq insan konkret coğrafi və tarixi koqerentlik - sosiallıq əldə edir.

2. Nəsə insan mahiyyətlərinin əvəzlənmə meyli: Ruhun bədənə keçməsi ilə həm də bədənə xas heyvani təbiətin əsas iki əlaməti - instinktlər - qeyri-şərtsiz formadan, şərti formaya - ruh tərəfindən idarə olunan formaya keçir. Varlıqların əvəzlənmə prinsipinə görə, instinktləri iradəvi vəziyyətə salan ruh onların bütün təzahürlərini öz təzahürlərində

refleksiya etməklə ekzistensiya edir. Yəni, insan ruhu daxili refleksiya yolu ilə insan varlığının digər iki tərəfini subyektivləşdirib onlarla vəhdət təşkil edir. Başqa sözlə, ruh həm fiziki bədənlə - cisimlə, həm bioloji bədənlə - canla daxili vəhdət təşkil edir, həmin vəhdətdən aydınlaşan orijinal həqiqəti özündə əks etdirir. Beləliklə, ayrıca bir fərddən ekzistensiya edən fiktiv ruh özündə çoXsəbəbilik saxlayır; hansı ki, onun nəticələri ayrı-ayrı xarici müstəvilərdə aydınlaşır. Ruhun ekzistensiya etdiyi daxili vəhdət xaricdə dağılır, onu təşkil edən hər bir mahiyyət xaricdə özünə uyğun mahiyyətlə xarici vəhdət təşkil edərək, konkret varlığa xas xüsusi həqiqəti aydınlaşdırır. Yalnız fiktiv ruhi Mən kimi Subyektiv Mən digər Subyektiv Mənlərlə təşkil etdiyi xarici vəhdətdən ruhun ümumi həqiqətini aydınlaşdırır.

3. Anadangəlmə yarımçıqlıq: İnsan instinktlərinin ruh tərəfindən iradəvi vəziyyətə salınması insanın bioloji təbiətində yarımçıqlıq xarakteristikası yaradır. Yəni insan heyvanlardan fərqli olaraq yarımçıq instinktlərə malik olur və buna görə də şüurlu insanda instinktiv həyat insanın həyat təcrübəsini meydana çıxarmır. O, bu yarımçıqlığı digər belə yarımçıqlıq kompleksi daşıyan başqa fərdlərlə xarici vəhdət təşkil etməklə tamamlaya bilir. Hansı ki, belə tamamlanan instinktiv həyat **yaşam təcrübəsi** kimi meydana çıxır. Yaşam təcrübəsi həyat təcrübəsinin şüurlu və iradəvi reallaşdırılmasını özündə əks etdirir. Yəni insanın, digər canlılardan fərqli olaraq, başlanğıc müstəqil yaşam qabiliyyətinə malik olmaması və bunun nəticəsində başqaları ilə anadangəlmə öz xüsusi həyatını əlaqələndirmə tələbatı sosiallaşmanın səbəbi kimi çıxış edir.

Haşiyə: A.Adler, "İnsan təbiətinin analizi"

> *"Cəmiyyətin köməyindən asılı olan hər bir uşaq ona verən, alan dünya ilə üz-üzədir; hansı ki, özünə uyğunlaşma tələb edir, eyni zamanda həyat tələbatlarını ödəyir. Uşağın inkişafının əsasını onun öz zəifliklərini kompensasiya etmək cəhdi təşkil edir; bu*

natamamlıq hissindən yüzlərlə istedad və qabiliyyət meydana çıxır. Cəmiyyət qanunları uşaq üçün qapalı kitabdır, onda yer tutmaq üçün pis hazırlanıb. Ona verilən hər bir şansa o şübhə və inamsızlıqla baxır, onlar özünütəcridə meyilli və öz öhdəliklərindən yayınmağa meyillidir. Belə uşaqlar dünyanı özünə kəskin düşmənçilik hiss edir və qeyri-iradi bu düşmənçiliyi böyüdür. Onların həyatın qaranlıq tərəfinə marağı işıqlı tərəfinə marağından böyükdür."

Nə üçün cəmiyyət qanunları uşaq üçün "qapalı kitab"dır? Cəmiyyət formal ruhi varlıqdır; uşaqda fiktiv ruhla bədənin əlaqəsi zəif olduğundan və fiktiv ruh bədən vasitəsi ilə ekzistensiya etmədiyindən, uşaq tamamilə təbiət qanunlarına tabedir və onun cəmiyyət qanunlarına tabe olması üçün kifayət qədər iradəsi yoxdur. Yalnız uşaq böyüdükcə, fiktiv ruh bədən üzərində üstünlük təşkil etdikcə, insan təbiət sferasından sosial sferaya keçir və cəmiyyət qanunları onun sosiallaşmasına uyğun tədricən aydınlaşır. Buradan da sosiallaşmanın kimlik Məni ilə şərtləndiyi aydın olur.

4. Canın həqiqətinin növdən aydınlaşması: Bioloji varlıqların həqiqəti cisimlərdən fərqli olaraq növdən aydınlaşır. Yəni eyni bir növdən olan mövcud fərdlərin ən ümumi əlamətləri konkret növə məxsus formal varlığı özündə aydınlaşdırır. İnsan da canlı varlıq kimi öz növünün - bütün insanların - ən ümumi birliyindən aydınlaşan həqiqəti özündə aydınlaşdırır; hansı ki, biz bunu sosiallaşmanın bioloji səbəbi kimi təyin edirik. Təbii sosiallaşma da özündə məhz bunu - növ və növün təzahür forması kimi sürü halında yaşamaqla meydana çıxır. Beləliklə, canın həqiqətinin növdən aydınlaşmasına görə, daxili əlaqə yolu ilə insan nəsilləri bir-biri ilə əlaqələnir və bu əlaqələrin ruhda refleksiyası sosiallaşma kimi təzahür edir.

İnsan gerçəkliyi üç varlığın vəhdətindən təşkil olunduğundan sosiallaşma da müxtəlif varlıq təyinlərinə uyğun aktuallaşır. Beləliklə, sosiallaşma insanın sinergetik təbiətinin təzahürüdür. İnsanın ruhla ekzistensi-

ya olunan tərəflərinin hər birinin özünə uyğun başqaları ilə vəhdət təşkil etməsi onun xarici məqsəd seçimini meydana çıxarır və məqsədə çatmaq üçün fərdin üstünlük verdiyi vasitələr - mahiyyətlərin aparıcılığına uyğun olur. İnsanın məqsəd seçməsi və məqsədə çatmaq üçün vasitələrdən istifadə etməsi onun xarici fəaliyyətinin əsasında durur; hansı ki, iradəviliklə xarakterikdir. Biz fəaliyyəti iradəvi funksiyalaşma kimi təyin edirik; hansı ki, heyvanlarda iradə olmadığından heyvanlarda yalnız müxtəlif bioloji hərəkətlər kimi qeyri-iradəvi funksiyalaşma təzahür edir. Buradan da, sosiallaşmanın əsas xarakteristikası kimi iradəviliyi ayırd edə bilərik.

Haşiyə: F.Tyonnis, "Birlik və cəmiyyət"

> *"İnsan iradəsi bir-birinə çoxformalı münasibətdədir; hər bir belə münasibət özündə icra edən və ya bir tərəfdən çıxan, başqası tərəfindən dözülən və ya müqavimət göstərilən hansısa qarşılıqlı təsiri təqdim edir. Bu təsirlər ancaq elədir ki, bir bədənin və ya iradənin ya saxlanmasına, ya da dağıdılmasına gətirib çıxarır; yəni ya təsdiqedici, ya inkaredici olur. Hər bir belə münasibət özündə hansısa vəhdəti çoxluqda və ya çoxluğu vəhdətdə təqdim edir."*

Beləliklə, F.Tyonnisin bu fikirlərindən belə nəticəyə gəlmək olar ki, fərdlərin iradəvi fəaliyyətində onların digər fərdlərin iradələri ilə eynilik və ya fərqlilik təşkil etməsindən iradənin həqiqətini aydınlaşdırmaq olar. İradənin həqiqəti həmin iradəyə malik fiktiv ruhun həqiqətidir. İradə başlanğıc yaradıcı gücü özündə refleksiya etdiyindən, iradə bilavasitə yaradıcılıqla bağlı meydana çıxır. Fiktiv ruh real varlıqlardan fərqli olaraq iki cür - daxili və xarici totallığa malik olduğundan, iradəvilik də buna uyğun iki cür təzahür edir:

a) **Daxili totallığın iradəsi:** Bu, insanın özünələalması və məqsədə istiqamətlənmədə meydana çıxan iradədir. Başqa sözlə, ümumi daxili total Məni yaradan iradədir. Buradan da daxili iradəvilik fərqli varlıq mənlərindən daxildə vahid mənin təşkil edilməsini təmin edir.

b) **Xarici totallığın iradəsi:** İnsanın ekzistensiya yolu ilə xaricə çıxarılmış ayrı-ayrı mənlərinin başqalarının analoji mənləri ilə birlik yaratmasında - xarici totallığın təşkil edilməsində meydana çıxan xarici iradəvilik.

Haşiyə: F.Tyonnis, "Birlik və cəmiyyət"

> *"İnsan iradəsi anlayışını. iki cür şərh etmək olar. Belə ki, insan tərəfindən həyata keçirilən istənilən ruhi fəaliyyət düşüncənin iştirakı ilə xarakterizə olunur, mən fərqləndirirəm: iradə - onda nə qədər düşüncə var və düşüncə - nə qədər onda iradə var. Hər bir insan özündə qarşılıqlı əlaqə tamlığını təqdim edir, hansı ki, çoxformalı hisslərində, meyllərində öz vəhdətini tapır; belə vəhdəti ancaq birinci anlamında real və ya təbii kimi, ikinci anlamında ideal və ya süni kimi şərh etmək lazımdır. Birinci mənada mən insanın iradəsini mahiyyətli iradə, ikincini - onun seçici iradəsi adlandırıram. Mahiyyətli iradə insan bədəninin psixoloji ekvivalentidir və ya həyatın vəhdət prinsipidir, sonuncu düşüncənin özünə aid olan həqiqət kimi düşünülür; belə iradə özündə orqanizmin baş beyinin hüceyrələrini özündə saxladığı kimi düşüncə saxlayır. Seçici iradə düşüncənin özünün doğulmasıdır və buna görə də həqiqət ona yalnız onun daşıyıcısı ilə - düşüncə subyekti ilə əlaqədə xasdır, baxmayaraq ki, bu həqiqət başqası tərəfindən elə belə dərk edilə və tanına bilər. İnsanlığın sosial və tarixi həyatında mahiyyətli iradə və seçici iradə çox vaxt dərin daxili qarşılıqlı əlaqədə, çox vaxtsa bir-birinə uyğun və ya əks-uyğun olur."*

F.Tyonnisin fikirlərindən görünür ki, o, daxili Mənləri vəhdətə gətirən fiktiv ruhun şərtlərini mahiyyətli iradə kimi, daxili mənin düşüncə qabiliyyətini - ağlın şərtlərini seçici iradə kimi təsəvvür edir. Biz F.Tyonnisdən bir qədər fərqli düşünürük. Bizə görə, mahiyyətli iradə həm insanı düşünməyə, qərar verməyə məcbur edən, həm də onun daxili mənlərini bir vahid Məndə birləşdirən daxili totallığın iradəsidir. Seçici iradə isə bundan fərqli olaraq, insanın şüurlu şəkildə başqaları ilə xarici totallıq yaratmaq iradəsidir; hansı ki, insanın bütün seçimlərində təzahür

edir. Daxili iradə başqası tərəfindən aşkarlanmayan, yalnız fərdin öz Subyektiv Məni tərəfindən aşkarlanan iradədir. Xarici iradə həm də başqa Subyektiv Mənlər tərəfindən aşkarlanır və öz iradələri ilə müqayisədə ona münasibət göstərirlər. Bu münasibət iradə tabeçiliyinin tərəflərini meydana çıxarır. Beləliklə, ruhun həqiqətinin aydınlaşdığı xarici totallıq ictimai münasibət kimi meydana çıxır; hansı ki, sosiallaşma - ictimai münasibətlərə girmə, yəni öz iradəsini başqası ilə eyniləşdirməklə onunla xarici vəhdət yaratmaq, ya da onunla fərqlilik təşkil etməklə ondan ayrılmağı özündə ifadə edir.

İnsan gerçəkliyində instinktlərin sosiallaşması ilə hər bir instinkt həm də fərdləri bir-biri ilə iradəvi əlaqəyə meylləndirir; yəni insan həm özünüqoruma, həm də nəsilvermə instinktlərini ictimai formada və başqa insanların iştirakı ilə, onlarla bilik yaratmaqla reallaşdırır. Bioloji varlıqlarda instinktlər fərdi fəaliyyətə təkan verir. Nəsə insanda instinktlər həm də kollektiv, yəni ictimai fəaliyyətin əsasında durur. Canlılarda **özünüqoruma instinkti** (cismə xas mövcudluq üsulunun canlılarda refleksiyası kimi meydana çıxan instinkt) - mürəkkəb mahiyyətli olub, özündə qidalanmanı - ətrafla aktiv maddələr mübadiləsini, xarici təhlükələrdən müdafiə olunmağı - özünüqorunmanı, nəhayət fərdi bioloji həyatı davam etdirməni - **həyat təcrübəsini**; **nəsilsaxlama instinkti** də öz növbəsində özündə nəsilverməyə hazırlanmanı - yetişkənliyi, cütləşməni - nəsilvermə fəaliyyətini və nəslə qayğını özündə ifadə edir.

Bioloji instinktlərin ruhun təsirindən sosiallaşması ilə bir tərəfdən instinktlər zəifləyir, insan iradəsinə tabe etdirilir, digər tərəfdən həmin instinktlərin təzahürləri ruhda refleksiya olunaraq əks etdirilir, yəni ekzistensiya ilə xaricə çıxarılır. Nəticədə, özünüqoruma instinkti sosiallaşaraq başqaları ilə ortaq yaşam təcrübəsini - kollektivləşməni, təşkilatlanmanı - bir-birindən asılılığı və süni sosial mühit - **taksis** yaratmaqla təbii ətrafın təhlükələrindən qorunmağı meydana çıxarır. Canlılarda

nəsilvermə instinktinin məlumatları daxili yolla bir fərddən digərinə ötürülür və bu zaman bu ötürülməyə yalnız daxili **Maksvel iblisləri** - orqanizmdə baş verən orqanik və funksional dəyişilmələr - təsir edir. Sosiallaşmış instinktlər xarici yollarla ötürüldüyündən kommunikasiyanın formasından asılı olaraq xarici Maksvel iblisləri bir fərdən digərinə ötürülən nəsli informasiyanı entropiyaya məruz qoyur. Nəticədə, sosial həyat növ həyatının sabitliyindən, eyniliyindən və qapalılığından fərqli olaraq, dəyişkən, fərqli və açıq həyat kimi təzahür edir ki, bu da həyat təcrübəsini yaşam təcrübəsindən fərqləndirir. Həyat təcrübəsi ilə yaşam təcrübəsinin vəhdəti eyni bir fərddə təzahür edərək eyni zamanda onun fərdi və ictimai mövcudluğunu müəyyən edir; bu vəhdətdə həyat təcrübəsi bioloji insanın aktuallaşması, yaşam təcrübəsi fiktiv ruhun faktuallaşması kimi yaranır.

Ruh canlılığın instinktlərinə təsir edərək həm də bədənin zaman ölçülülüyünü dəyişir, nəticədə **Tarix** meydana çıxır. Tarix - insan bədəninin zamandan asılılıq qanunlarının ruh tərəfindən entropiya olunaraq özündə refleksiya edib, xarici totallıqda əks etdirməsi kimi yaranır. Buradan da, tarixin qanunları canın zamandan asılılıq qanunlarının refleksiyası kimi aydınlaşır. Vaxt - fiktiv ruhun daxildə zamanı strukturlaşdırması, Tarix - formal ruhun xaricdə məkanı strukturlaşdırması kimi mövcud olur. İnsan bədəni özündə məkani ölçülülüyə malik olduğundan, sosiallaşmanın həm də məkanla şərtlənməsi meydana çıxır. Beləliklə, ruhlu insan üç paradiqma: **yarımçıqlıq** (təbii instinktlərin ruh tərəfindən iradəvi nəzarətə götürülməsi ilə təbiiliyin zəifləməsi), **ictimailik** (başqa şəxslərlə xarici totallığa meyl etməsi), **tarixilik** (ruhun xarici totallığının yaranmasında bütün insanlığın iştirakı) ilə təyin olunur. Buna uyğun, sosiallaşma prosesi də bu üç paradiqma ilə izah oluna və şərh oluna bilər.

Sosiallaşma insanın üçlü təbiətinə uyğun üç müxtəlif müstəvidə inkişaf edir. Cisimlərə xas - **yaranma**, canlılara xas - **təkamül-əmələgəlmə**,

ruha xas **tərəqqi**. Yəni hər hansı bir sosial təzahür tarixin müəyyən dövründə yaranır, inkişaf edir və digər sosial əlamətlərlə vəhdət təşkil edərək tərəqqini üzə çıxarır. Beləliklə də, sosiallaşmanın digər bir xarakteristikası kimi **hərəkətliliyini** qeyd etmək olar. Yəni, heç bir sosial əlamət birdəfəlik başa çatmış vəziyyətdə yaranmır. O əvvəlcə cəmiyyətdə rüşeym halında meydana çıxır, sonra tədricən inkişaf edərək bəlli bir vaxtda öz sonuna çatır. Ona görə də, sosiallıqdan aydınlaşan həqiqət yalnız onun sonunda aydınlaşdığından, o zaman aşkarlana bilər ki, həmin fakt öz son nəticəsini üzə çıxarsın.

Canlı həyat formaların bir-birinə üstünlük təşkil etməsi ilə inkişaf edir; insan sinergetik varlıq olduğundan sosial həyat mahiyyətlərin bir-birinə üstünlük təşkil etməsi ilə tərəqqi edir. Beləliklə, insan ikili - formaların və mahiyyətlərin bir-birinə üstünlüketmə qanununa tabe olur. İnsan həyatında iki cür üstünlüketmə - müvəqqəti və daimi üstünlüketmə aşkarlamaq olar. Müvəqqəti üstünlüketmə - həyat təcrübəsində, daimi üstünlüketmə - yaşam təcrübəsində təzahür edir. Beləliklə, sosiallaşma insan təbiətinin bir tərəfinin daimi üstünlüketmə qanununa əsaslanır. İnsan təbiətinin üstünlüketmə qanunu onu konkret fəaliyyətə səfərbər edir və insanın harada, nə zaman, nə qədər müddətə, necə səfərbər olması ictimai həyatın təşkilini və ictimai inkişafı anlamaq baxımından müstəsna rol oynayır.

Başqa sözlə, sosiallaşma insanların xarici birgəfəaliyyətə cəlb olunması ilə bağlıdır və nə qədər çox insan xarici birgəfəaliyyətdə bir-biri ilə əlaqələnirsə, ictimai sferalar bir o qədər genişlənir və daha kamil strukturlaşır və bir o qədər sürətli templə inkişaf edir. Buradan da, əhali kütləsi ilə ruhun ekzistensiya edib xarici totallıq yaratması arasında əlaqə aydınlaşır. Seyrək yaşayan xalqların iqtisadi, siyasi və mədəni həyatının sıx yaşayan xalqlardan kasıb olması məhz insan kütləsinin ölçüləri ilə bağlıdır. Çin tarix boyu əhalisinin sayına görə ən böyük dövlət olaraq qalmışdır. Tarix göstərir ki, Çinin siyasətə, elmə, fəlsəfəyə verdiyi töhfə

də onun əhali ölçülülüyünə uyğun olmuşdur. Bu, cisim dünyasının sıxlıqla nizamlılığı arasındakı əlaqəni özündə refleksiya edir. Belə ki, cisimlərin aqreqat halı ilə onların sıxlığı və sıxlığı ilə nizamlılığı arasında əlaqə vardır. Maddənin atom və ya molekulları həcmdə nə qədər seyrək yerləşirsə, bir o qədər xaotik hərəkətə meyl edir. Buna görə də, ən böyük sıxlığa malik metallarda molekullar tam daimi nizamlı, mayelərdə müvəqqəti nizamlı, qazlarda isə tam xaotik hərəkətdədir. İnsan cəmiyyəti də məhz insanların sıxlığına görə nizamlanır və strukturlaşır.

Sosiallaşmanı ən ümumi şəkildə elə belə həyat təcrübəsindən yaşam təcrübəsinə keçid kimi təyin etmək olar. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Sosiallaşma - həyat təcrübəsinin yaşam təcrübəsi ilə əvəzlənməsi şərtlərinin məcmusundan ibarətdir.

Həyat təcrübəsi mövcud varlıqdan - canlılıqdan - xalis varlıq təyini ilə iki fərqli özü-üçün-varlıq təyininin (bir təkrarlanan və bir təkrarlanmayan formanın) vəhdət təşkil etməsindən meydana çıxır. Yaşam təcrübəsi isə mövcud varlığın xalis varlığının özü-üçün-varlıq təyinlərindən ayrılması və onların ruhun yaratdığı süni xarici özü-üçün-varlıq təyinləri - subyektiv forma ilə vəhdət təşkil etməsi ilə reallaşır. Beləliklə, həyat təcrübəsindən yaşam təcrübəsinə keçid insanın obyekt-subyekt münasibətinin subyekt-subyekt münasibəti ilə əvəzlənməsi ilə baş tutur.

Ruhlu insan nə üçün həyat təcrübəsindən yaşam təcrübəsinə meyllənir? Başqa sözlə, insan nə üçün sosiallaşır?

Fərdin cəmiyyətə daxil olması, yəni həyat təcrübəsindən yaşam təcrübəsinə keçidi ilk növbədə onun **sosial tələbatı** ilə bağlıdır. Sosial tələbat - icma halında yaşamağa və ya başqaları ilə ünsiyyətə xüsusi daxili ruhi tələbatdan ibarətdir. İcma halında yaşamaq tələbatı təklikdə yaşama imkansızlığı, başqaları ilə ünsiyyətə tələbat ruhun xarici totallıq təşkil etmək meyli ilə bağlıdır. Fiktiv Ruhların özündə Formal Ruhun

keyfiyyətinə keçməsi **identifikasiya** ilə başlayır. İdentifikasiya sosial müqayisə ilə reallaşır; hansı ki, cəmiyyətdə insanlar başqalarını etalon (İdeal Mən) seçərək, öz xüsusi istiqamətini, emosiya və davranışlarını bunun əsasında dəyərləndirir. İstənilən fiktiv ruh üçün etalon Mən hamı üçün başlanğıc təşkil edən Formal Ruhdur. Yəni formal Ruhun eyni vaxtda müxtəlif bədənlərdə olması ilə meydana çıxan fiktiv ruhlar özlərinin vahid başlanğıcına - formal ruha çevrilmək istiqamətində əbədi cəhddədir; hansı ki, insanların mənəvi birliyi kimi təzahür edir. İdentifikasiya ekzistensiya etmiş Mənin öz tərkib elementlərinə parçalanaraq başqalarının uyğun Mənləri ilə birləşməsi prosesini özündə əks etdirir. Başqa sözlə, identifikasiya cəmiyyətə daxil olan şəxsin özünə konkret sosial rol seçməsini təmin edir. İdentifikasiya nəticəsində fərdin Məni **Qrup Məni** keyfiyyəti alır, buradan da qrup mənsubiyyəti yaranır.

Sosial rol almaqla fərd sosial təcrübəni, sosial əlaqə və münasibətləri mənimsəmiş olur. Sosiallaşma nəticəsində fərd cəmiyyətin tələbinə uyğun davranış nümayiş etdirir. Hər bir sosial rol fərdin konkret Məninin tələbatları ilə bağlı olur. Fərdi tələbatların ödənməsi **razılaşmanı** - qrup həyatının tələbləri əsasında könüllü yaşamağı meydana çıxarır. Razılaşma nəticəsində **tanınma** zərurətə çevrilir; hansı ki, hər bir fərd sosial əlaqələrdə bir-birini və ya hakimiyyətlə vətəndaşların bir-birini hüquqi subyekt kimi qarşılıqlı tanıması kimi meydana çıxır. Tanınmanın mahiyyətini Hegel belə şərh edir ki, fərdin tanınma - yəni özünün başqaları və hakimiyyət tərəfindən məhz insan kimi tanınması uğrunda mübarizəsi insan hüquqları uğrunda mübarizəni meydana çıxarır. Bu baxımdan da, identifikasiya özünü başqa insanlarla eyniləşdirməkdən ibarətdir. Fərdlər öz tələbatlarını ödəyə biləcəyi başqa fərdlərlə identifikasiya olunduqdan sonra onlarla vəhdət təşkil etməyə meyllənir. Buradan **inteqrasiya** meydana çıxır. İnteqrasiya - qrupdaxili proses olub, identifikasiyada ifadə olunmuş daxili birliyin, həmrəyliyin yaradılması meylindən ibarətdir. İnteqrasiyada ruhun mürəkkəb sırası - Biz, Siz və Onlar

əmələ gəlir. İnteqrasiya olunmuş fərdlərin birliyinin zaman ölçülülüyü müxtəlif dəyərlərlə təmin edilir. Hansı ki, Yekdillik, Həmrəylik və s. kimi sosial dəyərlər formasında təzahür edərək qrup üzvlərini bir yerdə olmağa meylləndirir. Fərdin hər hansı bir qrupda qalması onun nə dərəcədə düşdüyü sosial şərtlərə uyğunlaşmasından asılı olur. **Sosial uyğunlaşma (adaptasiya)** - fərdin cəmiyyətə daimi inteqrasiyası zamanı sosial mühitə uyğunlaşmasını özündə təqdim edir. Sosial mühitdə hər bir fərdin sosial rolu xüsusi sosial rituallar və normalarla möhkəmləndirilir; hansı ki, **İnisiasiya** kimi meydana çıxır. İnisiasiya - fərdin sosial statusunun formal möhkəmləndirilməsinə yönəlik kompleks fəaliyyət, ayinlərdir. Ayinlər həm də insanların bir qrupdan digərinə - fərqli sosial şərtlərə keçməsində də yardımçı rol oynayır.

Sosial uyğunlaşmanın nəticəsi olaraq **dözümlülük (tolerantlıq)** meydana çıxır. Tolerantlıq - əlverişsiz faktorlara reaksiyanın zəifləməsi və başqalarının razılaşdırılmış rolu ilə razılaşmağı özündə təqdim edir. Tolerantlığı öz növbəsində **Hüquqi sosial təsir** - bir insanın başqasının qərar vermək hakimiyyətini qəbul etməsini üzə çıxarır.

Yaşam təcrübəsinə keçməklə insanlar həyat təcrübəsindən fərqli olaraq bir çox sosiallaşma təsirlərinə məruz qalır. Belə ki, Fiktiv Ruhun Ruhun formal varlığında aktuallaşması onda keyfiyyət dəyişilmələri ilə fərdi qabiliyyətlərin ictimai qabiliyyətlərlə əvəzlənməsi ilə müşahidə olunur. Bu zaman aşağıdakı hallar müşahidə olunur:

Kateqorizasiya: Hər bir canlı anadangəlmə özünün konkret növə məxsusluğu haqqında məlumata malik olur və həmin məlumat əsasında öz növündən olanlarla sürü təşkil edir, başqa növdən olanların hamısı ilə qarşıdurma vəziyyətində olur. İnsan bundan fərqli olaraq, cəmiyyətə, konkret qruplara daxil olması ilə qazanılma qrupaməxsusluğu haqqında məlumat əldə edir. Buradan da, fərdin özünü ayrıca qrupa və ya kateqoriyaya aid etməsi kateqorizasiya kimi meydana çıxır. Kateqorizasiya qrup sərhədlərinin yaradılması prosesini meydana çıxarır. Belə sərhədlər mad-

di və qeyri-maddi simvollardan təşkil olunur. Qrup sərhədləri daxilində **Kollektiv Mən** yaranır. Kollektiv Mən kollektiv şüurla - yəni hamı ilə eyni düşüncədə ictimai münasibətlərə girmə ilə xarakterikdir.

Konformizm: Kateqorizasiya nəticəsində konkret sərhədlərə düşən fərd həmin sərhədlər daxilində müəyyən edilmiş normalara uyğunlaşır. Yəni fərd qrup rəyi ilə şərtlənir. Onun öz şəxsi fikri ikincili əhəmiyyət kəsb edir.

Nonkonformizm: Qrup daxilində sosial tələbatlarını ödəyə bilmədikdə fərd həmin qrupdan çıxmaq üçün ilk növbədə qrup rəyindən azad olmağa, yəni yenidən öz fərdi düşüncəsinin təsiri altında fəaliyyətə cəhd edir. Buradan da nonkonformizm - qrupa tabe olmaqdan imtina - meydana çıxır. Fərdin bir kollektiv məndən uzaqlaşıb digərinə qoşulması nonkonformizmlə həyata keçirilir. Bu zaman fərd bir kollektiv rəylə digər kollektiv rəyə qarşı çıxır.

Beləliklə, insanların müəyyən sosial sərhədlər daxilində bir yerə yığışması - xarici fakt kimi (yəni xarici totallığın məkanda ölçülənməsi kimi); bir yerə yığışmış insanların öz aralarında davamlı, sürəkli münasibətə girməsi - xarici totallığın aktı kimi təzahür edir.

İCTİMAİ HƏYAT - YAŞAM TƏCRÜBƏSİ

Həyat təcrübəsi canıların fərdi mövcudluq üsulundan, yaşam təcrübəsi insanın ictimai mövcudluq üsulundan meydana çıxır. Beləliklə, insan öz fərdiliyi çərçivəsində bioloji varlıq, öz fərdiliyindən kənarda digərləri ilə birlikdə ruhi varlıq kimi çıxış edir. İnsanın öz fərdiliyinin sərhədlərindən, yəni canlılara xas həyat təcrübəsindən azad olub, ruhi varlıq kimi - insanlıq kimi çıxış etməsi bədənin fiktiv ruhu hissiyyatla ekspressiyası ilə reallaşır. Yəni insan digər canlılardan fərqli olaraq elə xüsusi hissiyyata malikdir ki, həmin hissiyyat fiktiv ruhu bədəndən kənara çıxarır və xaricdə digər belə fiktiv ruhlarla qarşılıqlı empatiya prosesində ruhun formal varlığının yaranmasına xidmət edir. Biz bu hissi elə

belə ən müxtəlif formalara malik **məhəbbət** kimi qavrayırıq. Beləliklə, məhəbbət bədənin fiktiv ruhu özündən kənara çıxaran hissi şərtlərin məcmusunu özündə ifadə edir.

Biz elə belə insan təcrübəsini forma yaratmaq kimi, yəni **incəsənət** kimi təyin edirik. Əgər bütün obyektiv gerçəkliklərin xarici estetikası yaradılış prosesində spontan meydana çıxıb özündə ilahi incəsənəti təqdim edirsə, onda insan təcrübəsi də insan yaradıcılığının bütün təzahürlərini özündə təqdim edən incəsənət kimi meydana çıxır.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *"Məhəbbət - bu incəsənətdir, necə ki həyat incəsənətdir. İnsan mövcudluğu probleminin hissəvi həlli var. Problemin tam həlli - şəxslərarası birliyə, məhəbbətdə başqa insanla birləşməkdən ibarətdir."*

Əgər biz incəsənəti formalaşdırma kimi təyin etsək, həyat hər bir canlının həyat təcrübəsinin formalaşması kimi qavranıla bilər. Onda məhəbbət insanın yaşam təcrübəsini formalaşdırma sənəti kimi çıxış edir. Həyat təcrübəsi canlıların faktiki varlığının iştirakı ilə, yaşam təcrübəsi insanın formal varlığının iştirakı ilə baş verir. Nəticədə, həyat təcrübəsindən konkret formalar, yaşam təcrübəsindən mücərrəd formalar yaranır; hansı ki, bütün mücərrəd formaların məcmusu ruhun formal varlığını təşkil edir. E.Fromm məhəbbəti insan mövcudluğunun probleminin həlli kimi təyin edir. İnsan mövcudluğunun həlli fiktiv ruhun faktuallaşmasından ibarət olduğunu nəzərə alsaq, onda məhəbbət fiktiv ruhun faktuallaşmasının hissi kimi təyin oluna bilər. Doğrudan da insan yalnız məhəbbətlə yarada bilir. Burada məhəbbət sözün total mənasında başa düşülməlidir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Yaşam təcrübəsi - ruhun əsəri ilə təbii ətrafa ikincili süni estetika verilməsinin şərtlərinin məcmusundan ibarətdir.

Xarici aləmin, cisim dünyasının canlılıqda refleksiyasından - cisim-canlı əlaqəsindən **həyat təcrübəsi**; bunun əksinə, nəsə insan varlığının

iradəvi olaraq özünü xarici aləmə refleksiya etdirməsindən - cisim-fiktiv ruh əlaqəsindən **yaşam təcrübəsi** meydana çıxır. Başqa sözlə, nəsə insanın ətrafa təsirinin təbii şeylərdə refleksiyası yaşam təcrübəsi kimi təzahür edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Yaşam təcrübəsi - nəsə insanın xarici aləmə refleksiyasının şərtlərinin məcmusundan ibarətdir.

Biz varlıq təyinlərinə uyğun nəsə insanın xarici aləmə refleksiyasının üç səviyyəsini ayırd edə bilərik:

a) **Özü-üçün-varlıq təyinindən refleksiya:** İnsan xarici predmetlərin özü-üçün-varlıq təyininə özünə xas ikincili və süni özü-üçün-varlıq təyini, yəni müxtəlif obrazlar refleksiya edir. Özü-üçün-varlıq təyinindən refleksiya nəticəsində məişət əşyaları, əmək alətləri və silahlar yaranır.

b) **Mövcud varlıq təyinindən refleksiya:** Belə refleksiya həm xarici predmetin özü-üçün-varlıq təyininə, həm də onunla vəhdətdə olan xalis varlıq təyininə eyni zamanda refleksiyadan ibarətdir. Belə refleksiya nəticəsində maşın və mexanizmlər, texnologiya meydana çıxır.

c) **Xalis varlıq təyinindən refleksiya:** Belə refleksiya xarici predmetlərin yalnız ideyasının refleksiyası ilə aktuallaşır. Belə refleksiya nəticəsində "ağıllı" cihazlar - yaddaş imkanı olan kompüterlər, məqsədəyönlü fəaliyyət imkanı olan robotlar, məntiqi imkanı olan hesablama maşınları və özü-özünü tənzimləyən, proqramlaşdıran cihazlar və s. meydana çıxır.

Təcrübə - obyekt-subyekt əlaqəsində subyektin obyektdə aydınlaşan həqiqətini aşkarlaması kimi meydana çıxır. Eləcə də subyekt-subyekt əlaqəsində bir subyektin digərindən onun həqiqətini aşkarlaması və bu zaman öz həqiqətini onun aşkarlaması üçün aydınlaşdırması yaşam təcrübəsi kimi təzahür edir. Yaşam təcrübəsi şüurlaşmış həyat təcrübəsindən, yəni ruhun həyat təcrübəsini özündə refleksiya edərək əks etdirməsindən ibarətdir. Yəni, heyvani instinktlər əsasında təbii şəkildə meydana çıxan canlıların mövcudluq üsulu, ruhun instinktləri zəiflətməsi, onları iradəvi formaya salması və özündə refleksiya edərək əks etməsi ilə

sosiallaşaraq yaşam təcrübəsinə çevrilir. Buradan da, yaşam təcrübəsi özünün dərin qatlarında həyat təcrübəsinin qanunlarına tabe olur. Məsələn, həyat uğrunda mübarizə - yaşam uğrunda mübarizə, qida uğrunda mübarizə - mülkiyyət hüququ uğrunda mübarizə və s. kimi təzahür edir. Yaşam təcrübəsi həyat təcrübəsindən inkişafda olması ilə fərqlənir. Belə ki, heyvanların həyat təcrübəsi başlanğıc təkmillikdə meydana çıxır və min illər davam etsə də, heç bir dəyişikliyə məruz qalmır, konkret növün sabit həyat təcrübəsi kimi sadəcə təkrarlanır. Amma bundan fərqli olaraq, yaşam təcrübəsi qeyri-təkmil yaranır və tədricən tərəqqi prosesində öz təkmil səviyyəsinə çatır.

İnsan ictimai varlıq olduğundan, biz insanı yalnız kollektiv qabiliyyətlərə görə dəyərləndirə bilərik; beləliklə, heç bir fərdi qabiliyyət fərdi insan kimi xarakterizə etmək üçün yetərli deyil. İctimai fəaliyyət bir çox əlamətlərinə görə fərdi fəaliyyətdən fərqlənir. Həmin fərqlərə aşağıdakılar aiddir:

a) İctimai fəaliyyət yalnız öyrənməklə həyata keçirilə bilər. Nəsə insan anadan olduqdan, hətta qısa müddətli ictimai təcrübədən sonra belə digər insanlarla rabitəsi kəsildikdə digər heyvanlarla eyni qaydada instinktiv fəaliyyət göstərir.

b) İctimai fəaliyyətin nəticəsinin bir hissəsi ictimai ehtiyaclara və ya başqalarına ünvanlanır. Belə ünvanı olmayan heç bir fəaliyyət ictimai deyil.

c) İctimai fəaliyyət tarixi inkişaf prosesində daimi təkmilləşməyə məruz qalır. Heyvanlarda da bəzi ilk görünüşdən çox mürəkkəb və təkmil fəaliyyət formasına rast gəlinir. Lakin həmin fəaliyyət minillər boyu heç bir inkişafa məruz qalmır. Bundan fərqli olaraq, insan öz fəaliyyətində tarixi inkişafda lazımsız və ya heyvani qabiliyyətlərini zəiflədir və ya sıradan çıxarır, əvəzində lazımlı və onu heyvanlar aləmindən ayıran qabiliyyətlərini durmadan inkişaf etdirir.

q) İctimai fəaliyyətin nəticəsində şeylər təbii formasını və məzmununu dəyişir.

CƏMİYYƏT

Sosiallaşmış fərdin yaşam təcrübəsinə daxil olması ilə Cəmiyyət meydana çıxır. Cəmiyyət subyekt-subyekt əlaqəsinin aktuallaşdığı ikincili təcrübə sahəsidir. Cəmiyyətin əmələgəlməsində ən mühüm məqam sosiallaşmış şəxsin cəmiyyətə daxil olmasıdır. Psixoloqlar obrazlı olaraq cəmiyyəti "uşağın çətinliklə oxuya bildiyi kitab" adlandırırlar. Eləcə də, həm ibtidai cəmiyyətin yaranmasında ümumiyyətlə insanların sosial həyata başlaması, həm istənilən fərdin cəmiyyət həyatına ilk dəfə daxil olması və ya həm də bir cəmiyyətdən tamamilə başqa fərqli cəmiyyətə keçməsi çox böyük çətinliklərlə müşahidə olunur. Cəmiyyətə daxil olmaq olduqca mürəkkəb və çoxmərhələli prosesdir.

Tərəqqinin gedişində hər bir fərd artıq özünün bilavasitə iştirakı olmadan yaranmış cəmiyyətə doğulur - bu zaman həmin cəmiyyətin ən ümumi xarakteristikasına uyğunlaşmağa məcbur olur, həm də müəyyən vaxtdan sonra ictimai həyatda aktiv iştirak etməklə onun yeni xarakteristikalar əldə etməsinə cəhd edir. Buradan da, şəxsiyyətlə cəmiyyət ikitərəfli əlaqələnir. Cəmiyyət şəxsiyyəti formalaşdırır, şəxsiyyət cəmiyyəti inkişaf etdirir. Hər bir cəmiyyət özünəxas xarakteristikalarla mövcud olsa da, bütün cəmiyyətlər üçün ən ümumi xarakteristikalar mövcuddur; həmin xarakteristikaları təhlil etmədən cəmiyyət-şəxsiyyət münasibətlərindən - yaşam təcrübəsindən aydınlaşan həqiqəti aşkarlamaq olmaz.

Haşiyə: E.Erikson, "Uşaqlıq və cəmiyyət":

> *"Ruh bədəndən ayrılan «şey»dir, cəmiyyət isə - fərddən kənar «şey»dir."*

E.Eriksonun çox dəqiq ifadə edilmiş bu deyimindən belə nəticə çıxarmaq olar ki, cəmiyyət bədəndə olub, ondan ekzistensiya edən fiktiv ruhun bədəndənkənar təşkil etdiyi xarici totallıqdır. Ruhun cəmiyyəti

təşkil etmək üçün bədəndən ekzistensiyası, insan ölərkən bədəni tərk etməsindən fərqlidir. İnsan ölərkən ruh bir daha bədənə qayıtmadan və tam şəkildə ondan çıxır. Amma insan cəmiyyətdə mövcud olduqda, onun ruhu bədənini tam tərk etmir və onunla əlaqəsini itirmir; nəticədə xaricdə başqa subyektiv Mənlərlə birlikdə təşkil olunmuş xarici ruhi totallıqla daxili ruhi totallığın arasında kommunikasiya rolu oynayır. Bu yolla cəmiyyət fərdə təsir edərək onu formalaşdırır, fərd öz daxili totallığından cəmiyyətə verərək onu inkişaf etdirir. Cəmiyyətlə belə asılılıqdan şəxsiyyət - insanın abstrakt məni - Subyektiv Məni meydana çıxır. Beləliklə, cəmiyyəti onu təşkil edən insanların vahid ən ümumi Subyektiv Məni kimi dəyərləndirmək olar; hansı ki, ondan həmin cəmiyyəti təşkil edən insanların özlərində aydınlaşdırdığı ən ümumi həqiqəti aşkarlamaq olur.

Sosiallaşma, ruhun formal varlığının qurulması nəticəsində meydana çıxan mücərrəd strukturu - quruluşu - cəmiyyət kimi təyin etmək olar. Beləliklə, sosiallaşma prosesi nəticəsində cəmiyyət meydana çıxır. Ruhun formal varlığı xaricdə fiktiv ruhların koekzistensiyası nəticəsində yarandıqdan sonra, hər bir fiktiv ruh onu özündə refleksiya etməklə yeni subyektivliyə keçir. Beləliklə, ruhun formal varlığı fikrən xaricdə təsəvvür edilən, amma hər bir fərdin daxilindən faktiki götürülən olur. İnsanlığın fikrən obyektivləşməsi özündə cəmiyyət kimi meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Cəmiyyət - insanlığın xarici qurulmasının şərtlərinin məcmusundan ibarətdir.

Ruhun formal varlığı - daxili və mücərrəd olub, yalnız daxili seyr ilə aşkarlanır. İnsan daxilindəki ruhun formal varlığı ilə bədəndən kənar ruhun faktiki varlığının mücərrəd vəhdətindən ruhun mövcud varlığı meydana çıxır. Ruhun formal varlığı məkanla şərtlənmədiyindən yalnız zaman şərtlərinə malik olur; hansı ki, formal ruhun zaman şərtlərinin məcmusunu **tarix** kimi anlayırıq. Buradan da, tarix ruhun formal varlığının əsas xarakteristikası kimi meydana çıxır. Yəni, ruhun formal

varlığı yalnız tarixi proseslərin mahiyyətindən aşkarlanan olur. Ruhun daxili formal varlığını biz **İnsanlıq** kimi təyin edirik. Hər bir fərddə mövcud insanlıq həmin fərdin fiktiv ruhunun özündə refleksiya etdiyi formal varlıqdan ibarətdir.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *"XVIII-XIX əsrlərdə - Spinoza, Leybnic, Russo, Herder və Kantdan Höte və Marksa qədər - belə bir fikir möhkəmlənmişdir ki, yalnız bir insanlıq mövcuddur, hər bir ayrıca insan özündə bütün insanlığı daşıyır, təbii üstünlüyə imtiyazını iddia edəcək heç bir imtiyazlı qrup ola bilməz. İnsan onda öz tam yetişkənliyinə çatır ki, onda o tam şəkildə həm fərdi, həm də ictimai narsizmindən azad olsun."*

Beləliklə, bütün fiktiv ruhların koekzistensiyasından ruhun vahid formal varlığı yaranır və həmin bir vahid ruhi formal varlıq hər bir ayrıca fərddə refleksiya olunaraq onun tərəfindən daxildə daşınır; hansı ki, həmin fərdin insanlığı kimi təzahür edir. İnsanın narsizmi onun eqosunun təzahürü kimi meydana çıxdığından, hər bir fərd özündə yalnız onda tam insanlığı təzahür etdirə bilər ki, bədənin və mənsub olduğu qrupun şərtlərindən azad olsun. Başqa sözlə, insanlıq - fikrən canlılıqla şərtlənmədən azad olmuş fiktiv ruh kimi təsəvvürə gətirilir. Buradan da, bütün fərdlərin insanlığı eyniyyət təşkil edir.

Haşiyə: Nikola Abbanyano, "Ekzistensializmə giriş"

> *"Qeyri-müəyyənlik - bu insana xas təbiətdir, belə ki, o təbiətə və onun təbiətinin probleminə malik deyil. Özünün bütün aspektlərində insanın mövcud olması - bu varlığın axtarılmasıdır."*

N.Abbanyanonun fikirlərindəki "insan" anlayışını nəsə insan kimi qəbul etmək lazım gəlir. Çünki mövcud varlıqlarda varlıq mövcudluqdan öncə gəldiyindən, onun axtarılmasına ehtiyac qalmır. Əksinə, mümkünlüyün varlığı kimi varlıq mövcudluq tələbində özünə mövcudluq axtarır. Mövcud varlıq kimi insanın konkret təbiəti var və bu təbiət digər

bioloji varlıqlar kimi insan növündən aşkarlanır. Formal Ruhun faktiki bədənlə əlaqəsində yuxarıda qeyd etdiyimiz kimi, nəsə insan meydana çıxır; hansı ki, nəsə insanın təbiəti yalnız onun öz fəaliyyəti nəticəsində aydınlaşır. Bu mənada, insan - öz formal varlığını axtaran və öz fəaliyyəti ilə onu yaradan varlıq kimi təyin oluna bilər. Nəsə insanın yaranışdan öz varlığı olmadığından, o, bu varlığı yalnız özündən kənarda axtara bilər. İnsanın "axtardığı varlığı" onun özündən kənarda tarix boyu bütün insanların iştirakı ilə tapılan formal ruhi varlıqdan ibarətdir. Buradan da, bütün nəsə insanların birliyinin yaradılması zərurətə çevrilir. Fiktiv Ruhların bir-biri ilə bədəndən xaric intensional birlik təşkil etməsindən ruhun formal varlığı - cəmiyyət meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Cəmiyyət - fiktiv ruhların intensional birliyinin şərtlərinin məcmusundan ibarətdir.

Cəmiyyət iki cür birliyin vəhdətindən ibarətdir. Xarici vəhdət - insanların faktiki birliyi kimi xarici görüntünü, daxili vəhdət - intensional birlik kimi daxili görüntünü təşkil edir. Buradan da, cəmiyyəti təşkil edənlər faktiki varlıq, cəmiyyətin tabe olduğu nizam formal varlığı özündə ifadə edir. Cəmiyyət - bir yerə, birgəyaşayışa və birgə fəaliyyətə cəm olunmuş, burada və indi prinsipi ilə əlaqələnmiş mövcud insanların təşkil etdiyi sosial-metafizik "özündəşeydir". Hər bir cəmiyyəti təşkil edən insanların hamısı birlikdə cəmiyyətin vahid bədənini - ictimai bədəni və ya xarici totallığı təşkil edir. Həmin insanların konkret qarşılıqlı münasibətlərinə ruhun refleksiyasından ruhun daxili totallığı yaranır. Hər iki totallığın vəhdətindən cəmiyyətin həqiqəti aydınlaşır. Beləliklə, eyni məkan və zaman əlaqəsində olan insanların öz aralarında daimi qarşılıqlı ictimai münasibətlərə girməsi cəmiyyəti təzahür etdirir. Cəmiyyət özü-özündə mücərrəd nəsə insan kimi mövcuddur.

Cəmiyyət insanın sosiallaşmasının - fərdi varlıqdan ictimai varlığa çevrilməsi ilə, yəni öz təbii vəziyyətindən çıxması nəticəsində meydana

çıxır. Təbii vəziyyətdən çıxmaq özündə təbii varlıq kimi mövcud varlıq təyinindən azad olmaq, özünə xas xalis varlıq təyinindən təzahür etməkdən ibarətdir. Buna görə də, cəmiyyəti müəyyən qrup ruhlu insanın - ruhun xarici totallığının eyni zaman və məkan şərtində olması kimi təyin edilə bilər. Cəmiyyətə daxil olan hər bir şəxs onun üzvünə çevrilir. Beləliklə, cəmiyyət sosial orqanizm kimi mövcuddur. Hər bir üzv cəmiyyətin bir hüceyrəsi kimi, kollektiv mənlər isə onun ayrı-ayrı orqanları kimi çıxış edir. Cəmiyyətin yaranması tarixi prosesdir. Belə zərurət olmadıqda yeni cəmiyyət yaranmır, yaranmış cəmiyyət isə dağılır. Cəmiyyət fərdin daxili totallığının xarici totallıq kimi eyniliyini özündə əks etdirir.

> ***Haşiyə:*** *A.H.Maslou - normal cəmiyyət, aydın aqressivlik olmayan elə cəmiyyətdir ki, fərd bir və eyni işlə həm öz xüsusi maraqlarına, həm də cəmiyyətin digər üzvlərinin maraqlarına xidmət edir.*

Beləliklə, A.H.Maslounun da yazdığı kimi cəmiyyət həyatında fərd öz şəxsi həyatında mövcud olduğu kimi mövcud olur. Obrazlı olaraq demək olar ki, cəmiyyət astarı üzünə çevrilmiş nəsə insandır.

Cəmiyyət fiktiv ruhların - fərdlərin ictimai münasibətlərdə yaratdığı vəhdətdən aydınlaşan - daxili ruhi totallığın ictimai münasibətlərdə obyektivizasiyası ilə meydana çıxan abstrakt xarici ruhi totallıqdır. Cəmiyyət vəhdətdən aşkarlandığı kimi, cəmiyyətin yaranması da özündə vəhdətin təkamülünü əks etdirir. Vəhdət insanların müxtəlif aqreqasiyalarının - birliklərindən təzahür edir və həmin vəhdətdən cəmiyyətin - ruhun xarici totallığı aydınlaşır. Cəmiyyət - insanın eyni vaxtda hər üç məninin müxtəlif ictimai sferalara proyeksiyasından təşkil olunur. Cəmiyyət xaricə açılmış Ümumi İnsan Mənidir. Beləliklə, hər bir cəmiyyət onu təşkil edən insanların daxili totallığını xarici totallıq kimi özündə əks etdirir. Ayrı-ayrı sferalarda proyeksiya olunmuş Mənlər eyni vaxtda müxtəlif ictimai sferalara proyeksiya olduqda, şəxsiyyətin dağılmaması

naminə hər bir Mən Subyektiv Mənlə əvəzlənərək meydana çıxır. Yəni insanın Real Məni və Kimlik Mənləri Subyektiv Mənin təzahürləri ilə ikincili ictimai sferalara proyeksiya olunur ki, buradan da cəmiyyətin abstrakt sferaları təşkil olunur. Beləliklə, biz cəmiyyətdə subyektivizasiya olunmuş üç müxtəlif insan məninin proyeksiya olunduğu abstrakt ictimai sferalar aşkarlaya bilərik; hansı ki, ayrıca fərddən çıxarılır və ictimai münasibətlərə proyeksiya olunur.

Ruhun formal varlığı olan cəmiyyət xarici nizam əsasında formalaşır. Xarici nizam qanun və hüquq kimi təzahür edir. Ruhun formal varlığı - fiktiv ruhların müxtəlif əsaslarda əlaqələnməsindən əmələ gələn, sabit strukturlaşmış, özündə həqiqəti aydınlaşdıran ictimai formadır. Cəmiyyətdə fərdlər kollektiv mənlər vasitəsi ilə və ya müstəqim bir-biri ilə əlaqələnir. Cəmiyyət ruhun xarici totallığını özündə əks etdirir. Buradan da cəmiyyətin bütün xarakteristikaları ruhun xarakteristikaları ilə müəyyən olunan olur.

CƏMİYYƏTİN ƏN ÜMUMİ XARAKTERİSTİKASI

Sosiallaşmış fərdlər xaricdə bir-biri ilə təmasa girərək ən müxtəlif qarşılıqlı münasibətlərdən rəngarəng sosial təcrübə sahəsi - cəmiyyətlər yaradır. Cəmiyyətlər müxtəlif səviyyəli Fiktiv Ruhların təşkil etdiyi vəhdətlər kimi mövcudluqdur və özlərində bir tərəfdən fərdin daxili totallığından səviyyəsinə görə daha ali səviyyəli ruhun xarici totallığını, digər tərəfdən Ruhun formal varlığının xarici totallığından aşağı səviyyəli xarici totallığı təzahür etdirir. Biz, bu iki səviyyə arasında meydana çıxan istənilən xarici ruhi totallığı Ruhun formal varlığının xarici totallığı adlandırırıq.

Fiktiv Ruhlar xaricdə təşkil olunaraq özlərinin fərdi orijinal keyfiyyətlərindən fərqlənən xüsusi keyfiyyətləri olan Ruhun formal varlığını yaradır və cəmiyyətin təşkilində iştirak edən hər bir fiktiv ruh həmin keyfiyyətlərə keçir. Beləliklə, ayrı-ayrı vaxtlarda və yerlərdə mey-

dana çıxan Ruhun formal varlığı özündə Formal Ruhun xüsusi qanunlarını aydınlaşdırır; hansı ki, bütün dövrlərin və istənilən ərazidə formalaşmış cəmiyyətlərin xüsusi qanunauyğunluqlarının məcmusundan formal ruhun ən ümumi qanunauyğunluqlarını aşkarlamaq mümkün olur. Ruhun formal varlığının xüsusi qanunauyğunluqları onun xarakteristikalarından aydınlaşır. Xarakteristika - insan birliyini digər bioloji birliklərdən fərqləndirən ən ümumi ruhi keyfiyyətlərdir. Ruhun formal varlığını, yəni cəmiyyəti xarakterizə edən aşağıdakı təzahürləri ayırd etmək olar:

1. **Emosional fon - ictimai duyğu:** Cəmiyyət fərd kimi fikrə gətirilir. Buna görə də fərdə xas xarakteristikalar ən ümumi və abstrakt formada cəmiyyətlərə də müncər edilir. Nəsə insanın əsas xarakteristikalarından biri hissi təfəkkürə malik olmasıdır. Hissi təfəkkürün birinci mərhələsini duyğular təşkil edir. Cəmiyyətdə konkretlik olmadığından, duyğu təcrübə sahəsində obyekt-subyekt əlaqəsində yarandığından, hər hansı bir cəmiyyətin duyğuları onun fərdlərinin duyğularının sublimasiyası kimi mövcuddur və bu, cəmiyyətin emosional fonunu təşkil edir. Cəmiyyətin emosional fonu hər bir üzvündə refleksiya edərək onları hissi-emosional səviyyədə eyniləşdirir və eyni zamanda başqa cəmiyyətlərdən fərqləndirir.

2. **İctimai rəy - ictimai qavrayış:** Cəmiyyətin ictimai fonu hər bir cəmiyyət üzvündə xeyir və şər, pis və yaxşı, düz və səhv, dost və düşmən, halal və haram haqqında kollektiv qavrayışlar yaradır; həmin qavrayışlar ictimai rəy kimi təzahür edir. İctimai rəy başlanğıcda təhtəlşüurdan yaranır, sonradan ictimai rəyin formalaşdırılması şüuri prosesə çevrilir. İctimai rəy - çoxluğun, kollektiv şüurda düz və səhv hesab etdiklərinin məcmusudur. İctimai rəy ictimai şüurun epizodik, xüsusi təzahürlərindəndir. İctimai rəy şəxsin cəmiyyətdə düşüncəsini və fəaliyyətini istiqamətləndirərək onu başqaları ilə eyni düşünməyə və müştərək fəaliyyətə sövq edir. İctimai rəy mütləq həqiqət və ya yalanı özündə əks etdirmir. O sadəcə konkret məkanda və zamanda ölçülənmiş

cəmiyyəti təşkil edən Fiktiv ruhların ən ümumi düşüncəsini özündə əks etdirir. Buradan da, ictimai rəyi ruhun formal varlığının xarici totallığının atributlarından birinin - empirik dünyagörüşünün ən sadə başlanğıcı kimi dəyərləndirə bilərik; hansı ki, fəlsəfi dünyagörüşündə eyni əhəmiyyət fəlsəfi doskaya aiddir. Başqa sözlə, fəlsəfi doska ictimai rəyin refleksiyası kimi yaranır. İctimai rəy - qrupun ümumi maraqlara aid olan sosial təzahürlərə kollektiv mühakiməsindən ibarətdir. İctimai rəy cəmiyyəti təşkil edən qrupların düşüncə tərzini ifadə etdiyindən, ona görə qrupların sərhədlərini ayırd etmək mümkündür.

3. **İctimai təsəvvür:** Cəmiyyət üzvlərinin çoxluğunun cəmiyyətin quruluşu və ətraf mühit haqqında abstrakt təsəvvürlərinin məcmusu ictimai təsəvvür kimi meydana çıxır. İctimai təsəvvür fərdi təsəvvürdən onunla fərqlənir ki, fərdi təsəvvür şəxsi təcrübəyə əsaslanır, amma ictimai təsəvvür ictimai təcrübənin məhsuludur. Bu baxımdan fərdin ictimai təsəvvürün səhv və ya düz olmasını yoxlamaq imkanı yoxdur. Bəzən fərdi təsəvvürlə ictimai təsəvvür ziddiyyət təşkil edə bilər. Bu zaman cəmiyyətdə narazılıq meydana çıxır. Narazılığın kollektiv xarakter alması və təşkilatlanması cəmiyyətdə ictimai mübarizənin yaranmasına təkan verir.

4. **İctimai əhəmiyyətlilik - ictimai düşüncə:** İctimai təsəvvürlərin ictimai fikrə-mühakiməyə çevrilməsindən ictimai əhəmiyyətlilik yaranır. Hər bir mühakimə qiymətləndirmə ilə müşahidə olunduğu kimi, ictimai əhəmiyyətlilik ictimai rəyə görə verilən qiymətlə aşkarlanır. Bütünlükdə cəmiyyəti təşkil edən böyük çoxluğun ümdə maraqlarına xidmət edən hər şey ictimai əhəmiyyətlilik kimi dəyərləndirilir. İctimai əhəmiyyətlilik həqiqətin aydınlaşmasının aşkarlanma formalarından biridir. Məhz ictimai əhəmiyyətliliyə görə cəmiyyət bir tam kimi mövcud olur.

5. **İctimai Norma - ictimai məntiq:** Məntiq fərdi mühakiməni nizamladığı kimi, ictimai əhəmiyyətliliyin nizamlanması ictimai normalarla reallaşır. İctimai normalar təhtəlşüurdan aydınlaşan qanunlar kimi mövcud olur. Məsələn: əxlaq normaları. İctimai normalar elə normalardır

ki, cəmiyyəti təşkil edən bütün fərdlərin daxili totallığının ən ümumi qanunlara tabe olmasını tələb edir. Ona görə də, ictimai normalara riayət olunması fərdin daxilində tənzim və nəzarət olunur, nəticədə daxili məcburetmə meydana çıxır. Həqiqətin təbiətdə aydınlaşmasından spontan olaraq təbii qanunlar yaranır. Lakin ruhda aydınlaşmada təfəkkürün özü-özünə təsiri ilə entropiya baş verdiyindən, həqiqət normalar kimi idrak olunur. Normalar nisbi həqiqətin formalarından ibarətdir. Normalar - eyni mədəniyyətdə olanların ümumi gözləntiləri, qrupun daxilində edilənlərin yerində və qəbul edilən olması kimi mövcuddur.

6. **İctimai davranış normaları:** Qarşılıqlı birgəfəaliyyət fərdlərin fəaliyyətinin tənzimlənməsini və təşkil olunmasını tələb edir, buradan ictimai davranış normaları meydana çıxır. Cəmiyyətin əksər üzvlərinin düşüncə və davranış üsulu, fiktiv ruhların öz aralarında harmonik fəaliyyəti ictimai davranışı meydana çıxarır. İctimai davranış Ruhun formal varlığının hərəkətliliyini özündə əks etdirir. İctimai davranışlar xüsusi sosial qəliblərin daxilində aktuallaşır. Hər bir cəmiyyət müəyyən sosial qəliblər yaradaraq öz üzvlərini həmin qəliblərə salmaqla onları fərdiliklərindən və orijinallıqlarından azad edir. Belə qəliblərə adət və ənənələr aiddir. Ənənə - nəsildən-nəsilə ötürülən, tarixi formalaşmış davranış və fəaliyyət formalarıdır; hansı ki, hər bir fərd konkret adət və ənənələrə riayət etməklə şəxsiyyətə çevrilir.

Hər bir cəmiyyət düşüncə prosesində şüurlu olaraq mühakimə yolu ilə müxtəlif əqli nəticələr əldə etdiyi kimi, cəmiyyətlər də abstrakt şəxs kimi təhtəlşüurdan müxtəlif abstrakt ictimai əqli nəticələr meydana çıxarır. Belə ictimai əqli nəticələrə aşağıdakılar aiddir:

a) **Xeyir və şər:** Cəmiyyətdə kollektiv şüurla həqiqətin aşkarlanmasının ictimai forması xeyir və şərlə həyata keçirilir. Xeyir və şər özündə düz və səhv olanları refleksiya edir. Başqa sözlə, xeyir və şər həqiqətin təfəkkürdə aydınlaşmasının azalma və artma meyllərinin refleksiyası kimi meydana çıxır. Buradan da, xeyir və şər həm də özündə əksiliklərin sosial refleksiyası kimi meydana çıxır.

b) **Əxlaq:** Şəxslərarası qarşılıqlı əlaqədə bir birgəfəaliyyətdə hər iki şəxs üçün ümumi olan və könüllü qəbul edilən və icra olunan normalar cəmiyyətdə əxlaq normaları kimi meydana çıxır. Əxlaq - cəmiyyət həyatında fərdlərin könüllü razılaşdığı və təbii yolla formalaşan ictimai normalardır. Əxlaq normaları insani gerçəkliyinin özü-üçün-varlıq təyinindən aşkarlanır. Buna görə də, əxlaqın xalis varlıq təyini, yəni mahiyyəti yoxdur. Bir cəmiyyətin əxlaq norması başqa xalqın əxlaq norması ilə və ya bir və eyni xalqın bir tarixi dövrdəki əxlaq norması başqa tarixi dövrdəki əxlaq norması ilə fərqlilik nümayiş etdirir və özündə təklik xarakteristikasına malik olmaqla heçliyi təqdim edir. Nicşenin və digər mütəfəkkirlərin nihilizm haqqındakı fikirləri məhz buradan qaynaqlanır. Beləliklə, əxlaq cəmiyyətdə özü-özündə mövcudluq üsulunun norması kimi meydana çıxır. Yəni əxlaq cisim qanunlarının ruhda refleksiyası kimi mövcuddur.

c) **Qanun:** İnsan gerçəkliyinin mövcud varlıq təyinindən meydana çıxan normalar qanun kimi təzahür edir. Buradan da, qanunlarda emosional yük aşkarlanır; halbuki, əxlaq normaları həyatilikdən uzaq özündə ölümü refleksiya edir. Əxlaq normaları cisim varlığından meydana çıxdığından əbədilik keyfiyyəti daşıyır. Yəni əxlaq normaları dəyişkənliyə meyilli deyil, buna görə də insanlıqla yaşıd olan əxlaq normaları bu gün də aktuallığını saxlayır. Bunun əksinə, qanun insanın mövcud varlıq təyinindən çıxır, mahiyyətə malikdir və özü-üçün-varlıq təyini ilə mahiyyətin uyğunluğuna görə qanun dəyişilmə keyfiyyətini saxlayır. Buradan da, bütün dövrlər üçün eyni olan qanun aşkarlamaq mümkün deyil. Qanun mövcud varlığın mahiyyəti ilə özü-üçün-varlıq təyini arasındakı vəhdəti özündə refleksiya edir.

d) **Hüquq:** İnsan gerçəkliyinin xalis varlıq təyinindən fikir və ya ideya kimi meydana çıxan normalar hüquq kimi meydana çıxır. Hüquq xalis ruhi mahiyyətli olduğundan, özündə formal ruhun üç prinsipinin - azadlıq, bərabərlik və ədalət - aktuallaşma normalarını əks etdirir. Beləliklə hüquq, qanun və əxlaq arasında əlaqə meydana çıxır. Hüquq - qanunda

əxlaqla vəhdət təşkil edən varlıq, əxlaq - hüquqla vəhdət təşkil edən heçlik normasıdır.

Qanun və hüquq əxlaqdan fərqli olaraq müxtəlif müstəvilərdə aktuallaşır. Əxlaq ictimai norma kimi fərdi müstəvidə və fərdlərarası qarşılıqlı münasibətdə; qanun və hüquq ictimai müstəvidə fərd-dövlət münasibətlərində aktuallaşır. Ona görə də, birinci orijinal olduğundan reqlamentasiya olunmur, əksinə qanun və hüquq ümumilik keyfiyyətinə malik olduğundan reqlamentasiya olunur. Fərd-dövlət münasibətləri hakimiyyət münasibətləri kimi meydana çıxdığından qanun idarə edənlərin azadlığının, hüquq idarə olunanların azadlığının normaları kimi bir-biri ilə əkslik təşkil edir. Qanunun sərtliyi hakimiyyəti, hüququn genişliyi fərdi qoruyur. Hər üç norma fərdi maraqların ictimai maraqlarla uzlaşdırılmasına xidmət edir; hansı ki, xarici totallığın mövcudluğu bu uzlaşma ilə şərtlənir.

CƏMİYYƏTİN STRUKTURLAŞMASI

Ruh mövcud varlıqların xarici totallığını özündə refleksiya edərək, ona uyğun strukturlaşmağa cəhd edir. Ona görə də, varlığın həndəsi formalaşmasına uyğun cəmiyyətin abstrakt həndəsi formalarını ayırd etmək olar. Real Mən də şəxsiyyətin öz-özündə sıralanması, yəni aktuallaşması sosial və abstrakt düz xətti yaradır. Eyni bir Real Mənin Libido Mənindən asılı olaraq iki bir-birindən fərqli istiqamətlərdə sıralanmasından, yəni kişi və qadının meydana çıxmasından sosial və abstrakt bucaq yaranır. Hər iki fərqli Libido Mənin Tranzit Mənlə vəhdət təşkil edib, ilk xarici ruhi totallığı təşkil etməsindən sosial üçbucaq - ailə meydana çıxır.

Ailədə hər üç şəxs öz Real Mənlərindən həm cismin xalis varlığını, həm valideyn-övlad münasibətindən növdə aşkarlanan canın xalis varlığını, həm də hər birinin Subyektiv Mənindən ruhun xalis varlığını ekzistensiya edərək, cəmiyyətin ən kiçik quruluşunu - ailəni təşkil edirlər.

Ailə cəmiyyətdə təzahür edən başlanğıc xarici ruhi totallıqdır, hansı ki, istənilən cəmiyyət ailədən başlayır və sonrakı bütün strukturlar ailənin əsasında meydana çıxır. Övlad - özündə vəhdət təşkil edən həm atadan, həm anadan fərqlilikləri ataraq, onların eyniliyindən çıxış edən və özünəməxsus fərqliliyə malik yeni ikincili sosial görüntü kimi təzahür edir. Həmin ikincili görüntünün özü kimi ikincili əks Libido Məninə malik görüntü ilə birləşməsindən ilk sosial həcm - abstrakt piramida meydana çıxır.

Abstrakt piramida sosial struktur elementi kimi, özü kimi piramidalarla birləşərək daha mürəkkəb forma olan tayfanı yaradır. Tayfaların bir-biri ilə birləşməsindən və həmin birliyin məkanla xarici totallıq təşkil etməsindən qəbilə meydana çıxır. Tayfa hərəkətli, qəbilə torpağa təsbit olunmuş passiv forma kimi təzahür edir. Bununla da, tayfa heyvani hərəkətliliyi, qəbilə bitkinin torpaqdan şərtlənməsini özündə təqdim edir. Tayfanın heyvani hərəkətliliyi maldarlığı, yəni heyvani təbiətlə refleksiya edərək onunla xarici totallıq təşkil etməni, qəbilənin torpaqla əlaqəsindən əkinçilik, yəni bitkilərlə birləşərək xarici totallıq yaratmanı meydana çıxarır. Müxtəlif qəbilələrin birləşməsindən torpaqla şərtlənmədən doğan fərqlilik itir və qəbilələr abstraksiya olunur. Abstraksiya olunmuş qəbilə birliyi dövləti meydana çıxarır. Dövlət özündə abstrakt sosial kürə formasını təqdim edərək, ən son və təkmil ictimai struktur kimi aydınlaşır.

Beləliklə, sosial strukturlaşma - cəmiyyətin qurulması ailədən başlayıb dövlətdə başa çatır. Cisim dünyasında olduğu kimi, hər bir sosial struktur digər strukturlardan fərqli münasibətlərdən meydana çıxır. Şəxsiyyət materiyaönü vəziyyətə uyğun hissəciklərin tabe olduğu qanunauyğunluğu özündə refleksiya etdiyindən, şəxsiyyət cəmiyyətin hissəciyi kimi bir tərəfdən dəyişən münasibətlər sisteminə girərək xaos nümayiş etdirir, digər tərəfdən hər bir münasibətdə dayanıqlı fakt kimi çıxış edir; buradan da şəxsiyyətin özündə aydınlaşdırdığı həqiqəti kvant

fizikasının aşkarladığı qanunauyğunluqları özündə refleksiya edir. Şəxsiyyət özünün strukturlaşması kimi ən kiçik sosial strukturdur. Şəxsiyyətdən sonra meydana çıxan ailə cəmiyyətin atomu kimi, mikrosistemlərin - atomun tabe olduğu qanunları özündə refleksiya edir. Ailələrin təşkil etdiyi son sosial struktur - mürəkkəb struktur kimi dövlət özündə makrosistemin - cisimlərin tabe olduğu qanunauyğunluqları özündə refleksiya etdiyindən, məhz mexanikanın qanunlarına uyğun sosial qanunlarla şərh edilə bilər. Dövlət mücərrəd mövcud varlıq kimi təsəvvürə gətirilə bilər, hansı ki, xalis varlıq təyini millətdən, özü-üçün-varlıq təyini dövlət formasından ibarətdir.

Haşiyə: K.Hübner "Millət"

> *“ M.Veber: "Əgər ümumiyyətlə milli ruhu hansısa spesifik vəhdət kimi təsnifləşdirmək məqsədəmüvafiqdirsə, onda ona yalnız xüsusi dövlətinə cəhd kimi baxmaq olar və onda özünə hesabat vermək olar ki, bununla mənşəyinə və formasına görə, kifayət qədər fərqli birlik hissinin ifadəsi bir vəhdətdə əlaqələnir".*

K.Hübnerin fikirlərinə əlavə olaraq demək olar ki, hər bir milli ruh özünəxas dövlət forması ilə vəhdət təşkil edir.

BİRLİK

Cəmiyyətin ümumi enerjisi ruhun enerji quruluşuna uyğun olaraq tangensial və radial enerjilərə bölünür. Cəmiyyətin tangensial enerjisindən birliklər, radial enerjisindən ictimai münasibətlərin aktuallaşdığı ictimai sferalar meydana çıxır. Birliklərlə ictimai sferaların vəhdətindən cəmiyyətin həqiqəti aydınlaşır.

Birlik - istənilən faktın aktuallaşmasında həqiqəti özündə aydınlaşdıran varlığın ən mühüm xarakteristikalarındandır. İki cür birlik aşkarlaqmaq olar:

a) **Mütləq birlik və ya zərurətə görə** - faktın özü-özü ilə birliyi. b) **Nisbi birlik və ya təsadüfə görə birlik** - faktın başqa faktlarla birliyi.

Nisbi birlik qarşılıqlı refleksiya vəziyyətində özündə vəhdətin müxtəlif dərəcələrini əks etdirməsindən yaranır. Nisbi birliyin varlığın formasından asılı olaraq aşağıdakı dərəcələrini ayırd etmək olar:

Mexaniki aqreqasiya: Cisimlər arasında aşkarlanan ən sadə birlik formasıdır. Mexaniki aqreqasiya "indi və burada" prinsipi ilə meydana çıxır. Yəni eyni məkanda, eyni vaxtda paralel aktuallaşma mexaniki aqreqasiya kimi meydana çıxır. Mexaniki aqreqasiyada hər bir varlığın mövcudluq aktı müstəqil, digər belə aktlardan asılı olmadan reallaşır. Başqa sözlə, mexaniki aqreqasiyada faktlar bir-biri ilə əlaqələnmir. Onlar arasında rabitə olmur.

Birləşmə: İki eyni və ya fərqli faktın bir aktda, eyni bir məkanda və eyni zamanda müştərək aktuallaşmasında meydana çıxır. Belə birliklər varlığın mürəkkəb sıralarını təşkil edir. Müştərək aktuallaşmada hər bir varlıq öz mövcudluq aktını digəri ilə müştərək reallaşdırır. Birləşmədə varlıqlar bir-biri ilə bağlanır, onlar arasında rabitə yaranır. Nəticədə birlikdə olan bir varlığa təsir onun vasitəsi ilə digərinə ötürülür.

Eyniləşmə (identifikasiya): İki müxtəlif faktın bir fakta çevrilməsi ilə aktuallaşması eyniləşmə kimi təzahür edir. Eyniləşmə nəticəsində birlik yaradan faktların hər ikisi öz xüsusi mövcudluq aktını inkar edir və yeni fakt kimi aktuallaşır.

Birinci iki birlik real varlıqlara, axırıncı birlik forması mümkün varlığa - ruha xasdır. İnsanın həyat təcrübəsi onun yaşam təcrübəsinin əsası kimi çıxış edir. Buna görə də, cəmiyyətdə zahirən heyvani təbiətli bir çox təzahürlər aşkarlamaq olar. Belə təzahürlərdən biri də heyvanların sürü formasında həyat təcrübəsi əsasında insan kollektivlərinin - birliklərinin mövcudluğudur. Belə ki, hər bir insan birliyinin dərin qatlarında sürü təcrübəsini aşkarlamaq olar.

Haşiyə: A.Adler "İnsan təbiətinin analizi"

"İctimai həyat insanın fərdi həyatını müəyyən edir. İnsanlıq tarixində elə sivilizasiya yoxdur ki, əsası birlik tərəfindən

qoyulmasın; insanlar təklikdə yox, icma şəklində inkişaf edib. Bütün heyvanlar aləmi bizə pozulmaz qanunları nümayiş etdirir; fərdlərin təklikdə mövcudluq uğrunda mübarizədə dayanmaq qabiliyyəti olmayan növləri sürü həyatı şəklində əlavə güc əldə edir."

A.Adlerin fikirlərindən göründüyü kimi, sürü özü bir yeni güc vahidi kimi təzahür edir və sürüyə daxil olan hər bir fərd həmin gücü özündə refleksiya edərək öz tələbatlarını daha əlverişli şərtlərdə ödəyir.

İnsan bədənlərinin xarici görüntüləri özlüyündə sürü formasını təqdim edir və bu forma müxtəlif insan birlikləri kimi meydana çıxır. İnsan birliklərinin yaranması bədən orqanlarının inkişafının tabe olduğu epiqenetik inkişaf qanunlarına uyğun inkişaf edir. Bu inkişaf hər bir orqanın öz yeri, öz əmələgəlmə vaxtı və inkişaf tempinin olması ilə bağlı qanunauyğunluqları özündə təqdim edir. İnsan birlikləri də məkan-zaman ölçülülüyünə və fəaliyyətinə görə bir-birindən fərqlənən birliklər kimi - cəmiyyətin ayrı-ayrı orqanları kimi meydana çıxır. Beləliklə, müxtəlif birliklərin yaranması yerlə, vaxtla və yaranma tempi ilə bağlıdır. Sosiallaşmış insanların bir-birinə münasibəti birlik kimi meydana çıxır.

İnsan gerçəkliyində onun ayrı-ayrı varlıq Mənlərinin daxildə bir-biri ilə əlaqələnib, vəhdət təşkil etməsindən - daxili birliyindən onun ən ümumi Məni yaranır, hansı ki, fərddə aydınlaşan orijinal həqiqəti özündə saxlayır. Hər bir həqiqət özünü təzahür etdirməyə əbədi meylli olduğundan, daxildə saxlanan Mən də təzahür etməyə meyllənir. Həqiqət yalnız vəhdətdən aydınlaşdığından, bu meyllənmədə fərdlərin bir-biri ilə birləşərək müxtəlif vəhdətlərdən özlərinin həqiqətini aydınlaşdırması münasibət kimi meydana çıxır. Hər bir fərdin daxili Məni xaricə təzahür edərək, başqa Mənlərin ayrı-ayrı varlıq Mənləri ilə əlaqələnməsindən ictimai münasibətlər yaranır. İnsan gerçəkliyinin həqiqəti bu münasibətlərin totallığından və səviyyəsindən asılı olaraq, onlardan aydınlaşır.

Haşiyə: Hegel "Məntiq elmi"

"Mövcud olan hər şey münasibətdədir və bu münasibət istənilən mövcudluğun həqiqətidir. münasibət özü-özü ilə və başqaları ilə münasibətin vəhdətidir.

Hegelin fikirlərindən göründüyü kimi, münasibət özü-özünü təsdiq və başqalarını özündə istisnanın təzahürüdür. Beləliklə, biz münasibətlə ya varlığın eyniliyini, ya da fərqliliyini aşkarlayırıq. Eləcə də, konkret varlıq münasibətlə başqa varlıqla eynilik təşkil etməklə ya birləşir, ya da fərqlilik təşkil etməklə ondan ayrılır. Ayrılma - həqiqətin aydınlaşmasının azalma meylini, birləşmə - həqiqətin aydınlaşmasının artma meylini özündə təzahür edir.

İnsanın Ümumi Məni daxildə özü-özü ilə münasibətdə üç fərqli varlıq Mənlərinin birliyindən təşkil olunduğundan, insan daxilindəki münasibət xalis fərqliliklərin münasibətidir. Buna görə də, insan digər varlıqlardan fərqli olaraq daxili mahiyyətə malik deyil, yalnız özündə daxili Mənlərinin bir-birindən ayrılaraq xaricdə başqalarının Mənləri ilə birləşərək - münasibətə girmək - həmin birliklərdən öz həqiqətini aydınlaşdırmaq cəhdindədir. Real varlıqlar ekzistensiya xarakteristikası olmadığından, yalnız Subyektiv Mən Real və Kimlik Mənlərinin təzahürlərini öz təzahürləri ilə əvəzləməklə onlarla keçici eynilik təşkil edərək, öz təzahürləri ilə birlikdə ekzistensiya edir.

Haşiyə: Hegel "Məntiq elmi"

" Daxili - çılpaq forma keyfiyyətində, özü-özünü-refleksiyanın boş forması keyfiyyətində, təzahür və münasibətlərin bir tərəfinin, hansı ki, xarici kimi - başqasında refleksiyanın boş təyini ilə münasibətdə, başqa tərəfdən forma kimi mövcudluğun, həmçinin dəqiq əksiliyinin əsasıdır. Onların eyniliyi dolğun eynilikdir, özü-özündə refleksiya ilə başqasında-refleksiyanın güclərinin hərəkət prosesində qoyulmuş mahiyyətdir. Hər ikisi (daxili və xarici) eyni totallığın mahiyyətidir və onların mahiyyətinin vahidliyini təşkil edir. Xarici buna görə də, birincisi, daxili mahiyyətlə eynidir. O ki daxilidir, mövcud xaricidir və əksinə. Təzahürlər mahiyyətdə

olmayan heç nəyi göstərmir və mahiyyətdə təzahür etməyən heç nə yoxdur."

Hegelin bu mühakiməsini bir qədər sadələşdirilmiş şəkildə bizim yaranış haqqındakı mühakimələrimiz əsasında belə izah etmək olar. Hər bir varlıq eyni bir ideya daşıyan ayrıca bir sonsuz dalğanın bir hissəsinin dalğa uzunluğunun özü-özündə ifrat qısalmasından hissəciyə çevrilməsi və digər hissəsinin öz başlanğıc uzunluğunu saxlaması ilə mövcud olur. Beləliklə, eyni bir dalğanın öz sonsuz uzunluğunu saxlayan dalğa hissəsi - mahiyyət, ifrat qısalmış hissəsi - hissəcik hissəsi - forma kimi mövcud olur. İstər dalğanın mahiyyət kimi sonsuzluğu, istərsə də dalğa uzunluğunun hissəvi olaraq ifrat qısalmasından hissəciyə çevrilən hissəsi eyni bir ideya daşıyan dalğadan meydana çıxdığından, dalğanın hər iki hissəsi - öz başlanğıc uzunluğunda şüalanmağa davam edən hissəsi ilə ifrat qısalmış və forma kimi sonlu şüalanan hissəsi eyni bir ideyanı, amma müxtəlif uzunluqda özündən şüalandırır. Dalğanın başlanğıc sonsuz hissəsi - daxilini, ifrat qısalaraq hissəciyə çevrilən hissəsi - xaricini təşkil edir. Xariclə daxil sonlu və sonsuz kimi bir-biri ilə əksilik təşkil edir, amma eyni bir dalğanın iki fərqliliyi kimi mahiyyətdə eynilik kimi çıxış edir. Daxillə xaricinin fərqlilikləri əsasında meydana çıxan vəhdət varlığın konkret həqiqətini özündə işıqlandırır.

Haşiyə: *Hegel "Məntiq elmi" - Həqiqət mövcudluqla mövcudolmanın və ya daxili ilə xaricinin bilavasitə vəhdət olmasıdır.*

Mövcudluq zəruri şərtlərin, mövcudolma təsadüfi şərtlərin məcmusundan ibarət olduğundan və təsadüf zərurətin təzahür forması kimi çıxış etdiyindən, xarici daxilinin təzahür forması kimi onunla eynilik təşkil edir. Amma eyni bir daxili təsadüfdən asılı olaraq fərqli xarici kimi təzahür etdiyindən, xarici özü-özü ilə fərqlilikdən ibarət olur. Beləliklə, Hegelin mühakimələri ilə eyni qaydada nəsə insana yanaşdıqda, insan yalnız o halda öz həqiqətini aydınlaşdırır ki, onun

daxili Məni ilə formaca əksilik, amma mahiyyətcə eynilik təşkil edən xarici Məni meydana çıxsın və hər iki Mən bir-biri ilə daxili və xarici kimi vəhdət təşkil etsin.

Bu xarici Mən - birliyin mahiyyətidir. Beləliklə, gerçək insan fiziki mövcudluq kimi iki abstrakt formanın - daxili sosiallıqla xarici sosiallığın, yəni daxildə insan gerçəkliyini təşkil edən müxtəlif varlıq Mənlərinin vəhdəti ilə həmin Mənlərin ekzistensiya edərək xaricdə başqalarının uyğun Mənləri ilə birləşərək təşkil etdikləri xarici sosiallığın arasında aktuallaşır. Buradan da Subyektiv Mənin - fiktiv Ruhun formal varlığının həqiqəti meydana çıxır. Buna görə də, ruhun formal varlığını daxili və xarici sosiallığın vəhdətindən eyni bir mahiyyət kimi aşkarlamaq mümkündür. Buradan meydana çıxan definat ondan ibarətdir ki, birliksiz Ruhlu İnsan, Ruhlu İnsansız insan birliyi mövcud deyildir.

İnsanın öz daxili və xarici sosiallığı ilə şərtlənmiş aktuallaşması bütünlükdə ictimai həyat kimi meydana çıxır. İctimai həyat - insanın müxtəlif varlıqlarının, müxtəlif Mənlərinin öz aralarında vəhdət təşkil etməsindən meydana çıxır. Burada müxtəliflik insan gerçəkliyini təşkil edən varlıq başlanğıclarının fərqliliyini, vəhdət - insan Mənlərinin hər birinin Subyektiv Mənin təzahürləri ilə əvəzlənməklə - onları özündə refleksiya etməklə - xaricə çıxarmasını - ekzistensiya etməsini özündə təqdim edir. Ayrı-ayrı Mənlərin bir-biri ilə birləşərək vəhdət təşkil etməsindən ictimai sferalar yaranır. İki cür ictimai sfera aşkarlamaq olar:

a) **Konkret ictimai sfera:** Konkret ictimai sferalara bilavasitə fiziki Mənlərin iştirakı ilə, onun ayrıca bir Məninin aparıcılığında meydana çıxan, xarici görüntü yaradan və bununla da xarici seyr yolu ilə aşkarlanan sferalar aiddir.

b) **Abstrakt sfera:** Belə sferalar fərdlərin iştirakı olmadan, onların ayrıca bir Məninin ruhun təzahürləri ilə dolayısı yolla subyektivizasiyası ilə meydana çıxmasından yaranır, xarici görüntüsü olmur, yalnız daxili seyrlə aşkarlanır.

Birinci sferalar insan birlikləri, ikinci sfera sosial təşkilatlar kimi təzahür edir. Konkret və abstrakt sferaların eyni bir ictimai sferaya təkrar proyeksiyalaşmasından və obyektivizasiya olunaraq vəhdət təşkil etməsindən cəmiyyət meydana çıxır. Başqa sözlə, ictimai sferaların hər biri cəmiyyətə proyeksiya olunaraq vəhdət yaradır və cəmiyyətin həqiqəti həmin vəhdətdən aydınlaşır. Buna görə də, cəmiyyət özündə xalis abstraksiya kimi təzahür edir. Beləliklə, fərdlər konkret ictimai sferalarda proyeksiya olunaraq birlik-vəhdət təşkil etdiyi kimi, ictimai sferalarda bir vahid kimi cəmiyyətdə proyeksiya olunaraq vəhdət təşkil edirlər. İnsanın üç müxtəlif Məni olduğu kimi, istənilən cəmiyyətin də üç əsas müxtəlif konkret sferasını aşkarlamaq olar: Real Mənin proyeksiya olunduğu konkret sfera - **iqtisadi sfera**; Kimlik Məninin proyeksiya olunduğu konkret sfera - **hüquqi sfera**; və Subyektiv Mənin proyeksiya olunduğu konkret sfera - **siyasi sfera**. Hər bir cəmiyyət ayrı-ayrı konkret ictimai sferaların vəhdətini abstraksiya edərək vahid abstrakt ictimai sfera təşkil edir. Buradan da cəmiyyətin ən ümumi sferaları meydana çıxır. Cəmiyyətin vəhdət təşkil etdiyi ictimai sferalarının təklik, ayrılıq xarakteristikası yoxdur. Buradan da həmin sferaların ümumiliyi meydana çıxır. İnsan üçlü Mənə malik olduğu kimi, cəmiyyətin təşkilində də eyni zamanda üç Mən iştirak edir.

REAL MƏNİN PROYEKSİYA OLUNDUĞU BİRLİKLƏR

İnsanın cisim təbiəti onun Real Mənində refleksiya olunur. Cisim insan bədəninin əsasını təşkil etdiyi kimi, insan bədənləri də birlikdə cəmiyyətin "cismini" təşkil edir. Cisim məkani ölçülüklə xarakterizə olunduğundan, Real Mənlərin təşkil etdiyi birliklər də məkani xarakteristikalara malikdir. Real Mənin ictimai təzahürü fərddir. Fərd xarici görüntü kimi özü-üçün-varlıq təyinindən aydınlaşan və aşkarlanan insan vahididir. Fərdlərin passiv mexaniki aqreqasiyası cəmiyyətin əsasını təşkil edir.

İnsanların cisim varlığının məninin - Real Mənlərinin ruhun ekzistensiyası ilə xaricə çıxaraq bir-biri ilə vəhdət təşkil etməsindən cəmiyyətin fiziki sferası meydana çıxır. Real Mən insan gerçəkliyinin təklik xarakteristikasına malik olduğundan, belə Mənlə yaranan birlik konkret fərdlərdən təşkil olunur. Real Mən insan varlığının özü-üçün-varlıq təyini əsasında meydana çıxdığından, Real Mənlərin aqreqasiyasından meydana çıxan birliklərin mahiyyəti olmur. Yalnız xalis forma-heçlik kimi mövcud olur və buna görə də belə birliklər dağıldıqdan sonra heçliyə çevrilir. Mahiyyəti olmadığından ideya kimi abstraksiya olunaraq zamanda mövcudluğunu davam etdirə bilmir. Özü-üçün-varlıq təyinindən yaranan birlikdə Real Mənlər eyniyyətlər kimi çıxış edir. Bunun klassik forması kütlədir. Kütlə yaranışın əksinə çoxluğun təklik kimi mövcud olmasından ibarətdir. Kütlə özü ayrıca bir faktın aktuallaşmasını özündə nümayiş etdirir, hansı ki, onu təşkil edən hər bir fərdin daxili dərinliyində gizlədilir. Kütlə fərdlərin bir-birini kopyalaması kimi meydana çıxır. Real Mən insan gerçəkliyinin əsasını təşkil etdiyi kimi, fiziki sfera da istənilən cəmiyyətin əsasını təşkil edir. Fiziki sfera məkani ölçülərdə təşəkkül tapır və cəmiyyəti təşkil edən fiziki vahidlərlə və formalaşdığı konkret ərazi ilə münasibətlərin vəhdəti kimi mövcud olur. Beləliklə, fiziki sferanı xarakterizə edən iki mühüm amili - fiziki insan kütləsini (insan birliyini) və həmin kütlənin şərtləndiyi fiziki ətrafı ayırd edə bilərik.

1. Fiziki insan kütləsi - insan birliyi: İstənilən cəmiyyət müəyyən sayda fiziki şəxsin eyni zamanda, eyni məkanda birlikdə olması ilə yaranmağa başlayır. Buna görə də, insanların eyni məkanda və eyni zamanda fiziki şəxs kimi münasibətlərindən cəmiyyətin fiziki sferasını təhlil etmək və həmin sferadan aydınlaşan həqiqəti aşkarlamaq olar. Real Mən daxildə digər Mənlərlə təşkil etdiyi vəhdət formasına uyğun, həmin vəhdətin ruhda refleksiyasının ekzistensiyası ilə onlar arasında varlıq formalarının hər birinə xas birlik formaları meydana çıxır.

Haşiyə: F.Tyonnis "Birlik və cəmiyyət"

> *"Birlik davamlı və həqiqi birgə həyatdır, cəmiyyət isə keçici və illüziyordur. Buna görə də birliyin özü canlı orqanizm kimi, cəmiyyət isə mexaniki aqreqat və artefakt kimi başa düşülməlidir."*

Biz F.Tyonnisin fikirlərini belə də ifadə edə bilərik: Birlik - ruhun formal varlığının konkret, xarici, özü-üçün-varlıq təyinindən, cəmiyyət - abstrakt, daxili və xalis varlıq təyinindən ibarətdir. Buradan da birlik - gerçəklik, cəmiyyət - mümkünlükdür; buradan da insanda reallığa malik tərəfin - cisim və can varlığının - xarici vəhdətindən birlik, insanın mümkünlüyə malik tərəfinin - ruhi varlığının - vəhdətindən cəmiyyət meydana çıxır. Yəni birlik Passiv və Aktiv gücün iştirakı ilə, cəmiyyət yalnız Yaradıcı gücün iştirakı ilə meydana çıxır. Buradan da cəmiyyət ruhun xarici totallığı kimi, birlik real varlığın xarici totallığı kimi aydınlaşır. Ən ümumi həqiqət real varlıqla mümkün varlığın vəhdətindən aydınlaşdığından, cəmiyyət birliklərlə vəhdət təşkil etməklə həm birliyin, həm də özünün ən ümumi həqiqətini aydınlaşdırır, yəni cəmiyyətin formasından onun birliklərinin təbiətini, birliklərin formasından cəmiyyətin təbiətini müəyyənləşdirmək mümkündür. Biz burada mexaniki aqreqat anlayışı ilə birliyin görüntüsünü, yəni xalis heçlik kimi mahiyyətdən ayrılmış formasını nəzərdə tuturuq, hansı ki, heç bir zahiri təzahürü mövcud olmur.

Buradan üç cür birlik aydınlaşır:

A. Passiv mexaniki aqreqasiya: İnsanın özü-üçün-varlıq təyinindən yaratdığı və buna görə də birölçülü - yalnız məkan ölçülülüyü ilə şərtlənmiş birliyi passiv mexaniki aqreqasiya kimi meydana çıxır. Mexaniki aqreqasiya eyni məkanla şərtlənmiş fərdlərdən təşkil olunur və müvəqqətidir, xalis formanın təzahürü olduğundan, özündən sonra heç bir iz buraxmır. Heyvan sürüsündən insanların mexaniki aqreqasiyası onunla fərqlənir ki, heyvan sürüsü eyni instinktiv tələbatlara tabe olur. İnsanların mexaniki aqreqasiyasında isə ruh instinktlərə təsir edib onu ən

müxtəlif dərəcələrdə dəyişdiyindən xaotik instinktiv fəaliyyət meydana çıxır. Passiv mexaniki aqreqasiya özündə cismin mövcudluq üsulunu əks etdirir. Cisimlər təbiətdə mövcudluq forması mexaniki aqreqasiyadan ibarətdir. Mexaniki aqreqasiya öz daxili həcminin keçirilməzliyi ilə sərhədlənmiş, öz mövcudluq aktını başqası ilə mübadilə etməməklə cisimlərin öz-özləri və öz-özü ilə əlaqəsindən ibarətdir. Mexaniki aqreqasiya cismin passiv gücü ilə yaranır və ətalət prinsipi ilə aktuallaşır. İnsanların da eyni zamanda və məkanda öz aralarında Kimlik Məni və Subyektiv Mənin iştirakı olmadan, yalnız xalis Real Mən kimi birliyindən mexaniki aqreqat - passiv insan kütləsi meydana çıxır. Passiv insan kütləsində fərdlər yalnız ətalət prinsipinə uyğun bir yerdə olurlar. Yəni bir-birinə xarici təsir etmədikcə öz məkani əlaqələrini və ya hərəkətli vəziyyətlərini saxlayırlar. Başqa sözlə, passiv mexaniki aqreqasiyada şəxslərarası qarşılıqsız münasibət mövcud olur, yəni hər bir fərd digər fərdlərə obyekt kimi münasibət göstərir. Buna görə də onlar arasında heç bir ruhi mübadilə baş vermir. Belə qarşılıqsız münasibət təbiət etibarı ilə obyekt-subyekt münasibəti ilə eynilik təşkil edir, yəni mexaniki aqreqasiyada hər bir şəxs digəri üçün cansız obyekt rolu oynayır. Hər bir cisim məkani ölçülərlə xarakterizə olunduğundan, Passiv Kütlə də məhz məkani ölçülərlə - passiv kütləni təşkil edən bioloji kütlə, həmin kütlənin məkanda tutduğu həcm, nəhayət kütlənin fiziki hərəkətliliyi ilə xarakterizə olunur.

- **Bioloji kütlə** - Tranzit Mənlə şərtlənmişdir. Yəni eyni sayda uşaqla eyni sayda yaşlının bioloji kütləsi fərqli olduğu kimi, onların təşkil etdiyi passiv kütlə də bir-birindən fərqli keyfiyyətlərdə təzahür edir.
- **Kütlənin həcmi** - özündə eyni bioloji kütlənin məkanda paylanmasını əks etdirir. Belə ki, eyni sayda insanın - kütlənin - məkana münasibətindən - məkanda yerləşmə qaydasından asılı olaraq kütlənin sıxlığını təzahür etdirir. İnsanın passiv kütləsi də məhz sıxlıqla xarakterizə olunur. Hər bir fərdin bədəni məkanda özünəməxsus yer tutduğundan

və bu yerlə şərtlənmiş daxili passiv gücə malik olduğundan kütlə sıxlaşdıqca fərdi bədənin məkani ölçüləri daralır, nəticədə məkani ölçülülüyün kiçilməsi ilə Aktiv Gücün gərginliyi artır, bu da Real Məndə daxili aqressivlik yaradır. Əksinə, kütlənin ifrat seyrəkliyində insan daxili gərginlikdən məhrum olur, buna görə də bədənləri mexaniki aqreqasiya təşkil edə bilmir. Kütlənin ölçüləri üçoxlu məkanda hansı ölçülərdə birlik təşkil etməsini özündə ifadə edir. Burada kütlənin eni, uzunu, hündürlüyü passiv kütlə birliyinin fərqli təzahürlərinə səbəb olur. Belə ki, eyni sayda, eyni həcmdə kütlə ayaq üstə bir, oturaq yerdə başqa təbiətli mexaniki aqreqasiya kimi meydana çıxır. Passiv mexaniki aqreqasiyanın abstraksiyası mümkün olmadığından, onun abstrakt sferası yoxdur.

- **Kütlənin fiziki hərəkətliliyi** - kütləni xarakterizə edən amillərdən biri də kütlənin hərəkətliliyidir. Kütlənin hərəkətliliyi kütlə enerjisinin realizasiyasından meydana çıxır. Belə ki, kifayət qədər daxili gərginlik yaradan kütlədə enerjinin boşaldılma forması kimi fiziki hərəkətlilik qaçılmaz olur. Kütlənin fiziki hərəkətliliyi kütlə dağıdıcılığı formasında meydana çıxır. Beləliklə, mexaniki kütlə cisimlərə xas mortido enerjisinin müxtəlif təzahür formalarını özündən ekzistensiya edir.

B. Aktiv mexaniki aqreqasiya: Passiv Mexaniki aqreqasiyanın müvəqqəti təşkilatlanması və konkret müştərək maraqlara cəhdi aktiv mexaniki aqreqasiyanı təzahür etdirir. Başqa sözlə, aktiv mexaniki aqreqasiya həm də eyni zamanla şərtlənmə ilə meydana çıxır. Belə Kütlə - öz aralarında daimi əlaqədə olmayan, daimi strukturlaşmamış, məqsədlərin aydın dərk edilmədiyi, identik emosional vəziyyətdə olan insanların müəyyən vaxt ərzində eyni məkana yığılması və birgə fəaliyyət göstərməsi ilə yaranır. Təsadüfi kütləni aqreqasiyadan məhz birgə maraq və fəaliyyət fərqləndirir. Kütlənin aktı yoxdur. O sadəcə fakt kimi mövcud olur və sonra da izsiz yox olur. Maraqlarına görə müvəqqəti, qəflətən, kortəbii və ya təşkil olunmuş qaydada və ya spontan bir yerə yığışan insanların yaratdığı kütlə - **okkazional kütlə** - aktiv mexaniki aqreqasiyanın nəticəsində yaranır. Fərdlər bir gündə onlarla

belə kütləni təşkil edir, öz maraqlarını təmin etdikdən sonra onu dağıdır və başqasını təşkil edirlər. Okkazional kütlə təşkilatlanmamış, idarə olunmayan, özü-özünə hərəkət edən insan yığımıdır. Okkazional kütlə şüursuzluqla, təsadüfə görə yaradılmış kütlədir. Okkazional kütlənin bariz nümunəsi küçə kütləleridir. Küçə kütləsi şüurun ən aşağı səviyyəsində meydana çıxan və zorakılığa əsaslanan destruktiv insan toplusudur. Belə kütlənin əsas hərəkətverici qüvvəsi fiziki gücdür. Küçə kütləsi təhtəlşüurla yaranır və xaotik olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Küçə kütləsi - təsadüfi ictimai şərtlərin məcmusundan ibarətdir.**

Eyni zamanda, eyni məkanda mexaniki aqreqasiya edən Real Mənlərin aparıcılığında Kimlik Mənlərinin qarşılıqlı münasibətindən aktiv kütlə əmələ gəlir. Aktiv kütlə insanın mövcud varlığından meydana çıxdığından həm özü-üçün-varlıq təyinindən, yəni formadan, həm də həmin forma ilə vəhdət təşkil edən cismin xalis varlığından ibarət olur. Nəticədə, passiv mexaniki aqreqasiyadan fərqli olaraq aktiv mexaniki aqreqasiyada tək bir ideya ilə birləşmiş insan kütləsi meydana çıxır. Həmin ideya abstraksiya olunaraq zamanda qalan mahiyyətdən ibarət olur və başqa vaxtda, başqa yerdə, başqa eyni təbiətli aktiv kütlələrin təşkilində iştirak edir. Kimlik Mənləri Aktiv Gücə malik olduqlarından mexaniki aqreqasiyada fəallıq meydana çıxır. Beləliklə, kütlə fərd kimi fəaliyyətə meyllənir. Aktiv kütlədə fərdlər həm də Kimlik Məni ilə münasibətə girdiyindən fərdlər arasında yenə qarşılıqlı şəxslərarası konkret münasibətlər yaranmır, bunun əvəzində hissi-emosional münasibətlər - kollektiv münasibət meydana çıxır. Yəni bütün kütlə hər bir ayrıca kütlə adamı üçün obyekt rolu oynayır. Aktiv kütlədə Passiv Güc Aktiv Güclə sublimasiya olunur (sublimasiya prosesində sublimasiya aparıcı mahiyyətin təzahürlərində baş verir), nəticədə passiv kütlənin daxili aqressivliyi aktiv kütlənin xarici dağıdıcılığı kimi meydana çıxır. Aktiv kütlənin yaranması ilə canın zamandan asılılıq

qanunları aktiv kütlənin qanunları kimi refleksiya olunur. Beləliklə, aktiv kütlə nəinki məkani ölçülüklə, həm də zaman ölçülülüyü ilə xarakterizə olunur. Canlılar zaman keçdikcə ölümə yaxınlaşdıqları kimi, aktiv kütlə də uzun vaxt ərzində dağılmağa başlayır.

Aktiv kütlədə həm də Real Mən-Kimlik Mənin vəhdətində ayrı-ayrı şəxslərdə həm də zəif də olsa Subyektiv Mən ekzistensiya edir. Nəticədə, kütlədə lider - ideyaya malik Mən meydana çıxır. Kütlədə emosiyalar liderin ideyasını daha qabarıq özündə aydınlaşdırır. Nəticədə, kütlədə hər bir Real Mən Liderin Subyektiv Məni ilə xarici totallıq təşkil edir, bununla da hər bir kütlə adamı liderin iradəsinə tabe olur. Belə vəhdətdə Lider öz Subyektiv Mənində kütlənin digər üzvlərinə xas təzahür etməmiş və ya Real Mənlə ikincili təzahür edən Subyektiv Mənin enerjisini sublimasiya edir. Nəticədə, lider özündə kütlə insanının fərdi mövcudluğuna xas daxili totallıq yaradır. Lider kütlənin Subyektiv Məni, kütlə adamları Subyektiv Məndən məhrum Real və Kimlik Mənləri kimi bir-biri ilə vəhdət təşkil edir. Buradan aktiv kütlənin həqiqəti aydınlaşır. Beləliklə, Real Mənin aparıcılığında fərdin proyeksiya olunduğu ictimai sferanın ən ümumi əlamətlərinə eyni məkan-zaman ölçülərində olmaq, fərdlər arasında qarşılıqsız obyekt-subyekt münasibətinin olması və xarici görüntünün olmasını aid edə bilərik. Aktiv mexaniki aqreqasiyanın abstraksiyasından kütlə adamı meydana çıxır. Aktiv kütlə Real Mənin Subyektiv Mənlə əvəzlənməsi ilə üzə çıxır. Nəticədə, belə kütləyə daxil olan hər bir fərd başqaları ilə kollektiv düşüncəyə görə əlaqələnir. Belə kütlənin tipik nümunəsi **EKSPRESSİV KÜTLƏDİR**. Ekspressiv kütlə hadisəyə eyni münasibət bildirməyə görə yaranan keçici mexaniki aqreqasiyadır. Ekspressiv kütlə eyni vəziyyətdə eyni münasibəti olan fərdlərin yaratdığı kütlədir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ekspressiv kütlə - zəruri dəyişən ictimai şərtlərin məcmusundan ibarətdir.**

C. Orqanik aqreqasiya: İnsan kütlələrinin mexaniki aqreqasiyalarında fərdlərin Subyektiv Mənlərinin aparıcılığında eyni məkanda, eyni zamanda yaratdıqları abstrakt birlik təşkil olunmuş aqreqasiya kimi - Real Mənin aparıcılığında qonşuluq-yaxınlıq, Kimlik Mənlərinin aparıcılığında qohumluq kimi meydana çıxır. Orqanik aqreqasiyalar da Real Mənlər konkret bir ideya əsasında birləşir, amma aktiv mexaniki aqreqasiyadan fərqli olaraq aqreqat davamlı olur. İdeya konkret Real Mənlərin iştirakı ilə onların Subyektiv Mənlərindən təzahür edir. Orqanik aqreqasiyanın təzahür forması fəaliyyətdə olan kütlələrdir. Belə kütlələr əmək, yaradıcılıq və s. kimi kollektiv səylərdə yaranır. Belə kütləyə ordunu, kilsəni, iş yerini və s. göstərmək olar. Orqanik aqreqasiyanın tipik nümunəsi ordudur. Ordu kollektiv şüurla, müəyyən nizamla yaradılan və fiziki güclə xarakterizə olunan təşkil olunmuş fəal mexaniki aqreqasiyadır. Ordu fiziki gücün ruhi təzahürlərdə təşkilatlanması əsasında insan birliyidir. Ordunun digər kütlələrdən fərqi məcburetmədən ibarətdir. Digər kütlələrdən fərqli olaraq, belə kütlələr həm şüurluluğa, həm də qabiliyyətə əsasən yaranır. Məhz cəmiyyət özü-özlüyündə nəhəng fəaliyyətdə olan kütlə kimi təzahür edir. Fəaliyyətdə olan kütləni cəmiyyətdən fərqləndirən fəaliyyətin xüsusiyyətləridir. Belə ki, istənilən fəaliyyət dövrü olduğundan fəaliyyətdə olan kütlə də dövrülülüyə tabe olur. Cəmiyyət isə dövrülülüklə yanaşı həm də müxtəlifləşməyə məruz qalır. Dövrülülüyün istənilən formada pozulması fəaliyyətdə olan kütləni məhv edir. Subyektiv Mən insan gerçəkliyinin ayrı-ayrı varlıqlarını özündə refleksiya edərək ümumi Mən yaradır ki, bu da daxili Mənlərin təşkilatlanması kimi meydana çıxır. Belə ki, istər insanın fiziki mövcudluğu, istər bioloji instinktləri bilavasitə ruhun iştirakı ilə, onun tərəfindən tənzimlənməklə, nəzarət olunmaqla bir-biri ilə əlaqələndirilməklə ekzistensiya olunur. Belə təşkilatlanmış Ümumi Mənin münasibətindən orqanik aqreqasiya meydana çıxır. Orqanik aqreqasiya digər mexaniki aqreqasiyadan onunla fərqlənir ki, belə

orqanizasiya xalis varlıq təyinindən yarandığından çoxsaylı fikir və ya ideyaya əsaslanır. Mən eyni vaxtda fərqli aqreqatlar təşkil edir. Orqanik aqreqasiyanın xarici görüntüsü zəruri olmadığından keçici olaraq meydana çıxır. Məsələn, qohumluq orqanik aqreqasiya kimi abstraksiyadır, amma qohumlar bir yerdə olduqda həm də konkret orqanik aqreqasiya yaradır. Orqanik aqreqasiyada şəxslərarası qarşılıqlı münasibət meydana çıxır və ruh məkan və zamandan asılı olmadığından orqanik aqreqasiyada Real Mənlərin eyni məkanda, eyni zamanda olması zəruri olmur. Başqa sözlə, şəxslərarası münasibətlər dayanıqlı, abstrakt, zaman-zaman görünən birlik yaradan münasibətlər kimi mövcud olur.

Bədən özü-üçün-varlıq təyinində təkdir, ayrıca bir varlıqdır və vəhdətdə olduğu varlıqların hissəsidir. Bundan fərqli olaraq ruh özündə xarici totallığın bəzi əlamətlərini daşıyan, yəni xalis ümumilik olan fiktiv varlıqdır. Buradan da bədənlə ruhun vəhdətə münasibətində fərqlilik yaranır. Hissə - tamın ümumi totallığını daşıyan xüsusi özü-üçün-varlıq təyini olan varlığın mövcudluq formasıdır və mahiyyəti formadan aksidentaldir. Beləliklə, hissə digər hissələrlə birlikdə daşıdığı totallığı özündə refleksiya edən özü-üçün-varlıq təyininə keçməklə mövcud varlıq olur və özü hissə kimi özü-üçün-varlıq təyinindən ayrılır. Ruh xalis daxili totallıqdır və özündə xarici totallığın tamlığını təzahür etdirmir və özündə özü-üçün-varlıq təyini bədənlə ikincilidir, buna görə də ondan aksidensiya edir. Nəticədə, bədən bir tam kimi çıxış etdiyi halda, fiktiv ruh başqaları ilə xarici totallıq təşkil edir. Buradan da insanlar arasında birliklər yaranır. Birliyə daxil olmuş fərd öz mənliyini saxlamaqla ruhun ekzistensiyası əsasında birliyin xarici totallığını özündə refleksiya edir, onu bədənin daxilində birliyin üzvü kimi yenidən təzahür etdirir. Yəni insan nə qədər böyük birliklərə qoşulursa, bir o qədər Ruhun formal varlığına, totallığına yaxın totallıqda refleksiya olunur.

Təşkil olunmuş aktiv mexaniki aqreqasiya: Təşkil olunmuş aktiv mexaniki aqreqasiya hissi-emosional sferada yaranır. Bunun tipik

forması konvensional kütlədir. Konvensional kütlə qabaqcadan elan edilmiş kütləvi əyləncəyə, marağa görə diffuz davranışlar izləyən insanlardan yaranmış mexaniki aqreqasiyadır. Belə kütlə sərgilərdə, yarmarkalarda, karnavallarda, bayram şənliklərində meydana çıxır. Konvensional kütlə hissi sferada yaranır və insanlararası münasibət emosional xarakter daşıyır. Okkazional kütlədən fərqli olaraq konvensional kütlə təşkil olunmuş formada təzahür edir. Mövcudluq şərtləri hər bir üzv üçün qabaqcadan məlum olur. İnsanlar belə kütlələrə iradəvi qoşulur. Fərdlər belə kütləyə eyni vaxtda daxil olur və eyni vaxtda çıxırlar. Belə kütləni sinxron kütlə də adlandırmaq olar.

KİMLİK MƏNLƏRİNİN PROYEKSİYA OLUNDUĞU BİRLİKLƏR

İnsanın iki müxtəlif Kimlik Məni olduğundan, hər bir Kimlik Məni həm ayrılıqda özünəxas, həm də digər Kimlik Məni ilə birlikdə aqreqasiya yaradır. Real Məndən fərqli olaraq Kimlik Mənləri fərqliliklərlə xarakterizə olunur. Kimlik Mənləri müstəqil aqreqasiya yaratmaq imkanına malik olmadığından, Real Mənlərin aqreqasiyalarından ikincili təzahür edir. Buradan da Kimlik Mənlərinin birliklərini Real Mən aqreqasiyalarından yaratdığı aşağıdakı klassik aqreqasiyaları aid etmək olar:

Kimlik Məninin passiv mexaniki aqreqasiyası - Yaşdaşlıq: Ayrıca Tranzit Mənlərin eyni zamanda, eyni məkanda yaratdığı passiv mexaniki aqreqasiya yaşdaşlıq kimi təzahür edir. Yaşdaşlar öz bioloji kimliklərinə görə, yəni zamanda asılılıq qanunlarına görə bir-biri ilə eyniyyət təşkil edir. Yaşdaşlığın məkani ölçülülüyü şərtidir, yəni yaşdaşların eyni məkanda olması zəruri deyil. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Yaşdaşlıq - dəyişən ictimai zəruri şərtlərin məcmusundan ibarətdir.** Yaşdaşlar arasında yaşdaşlığa görə münasibət yaranmır. Sadəcə yaşdaşlıq başlanğıc eynilik kimi digər münasibətlərin, o

cümlədən digər Kimlik Mənlərindən münasibətlərin yaranmasına zəmin təşkil edir. Yaşdaşların dostluq etməsi və ya yaşdaş Libido Mənlərin bir-biri ilə seksual əlaqəyə meyllənməsi bu əsasla bağlı təzahür edir.

Kimlik Məninin təşkil olunmamış aktiv mexaniki aqreqasiyası: Təşkil olunmamış aktiv mexaniki aqreqasiyaya yoldaşlıq, dostluq, sevgililik - seksual bağlılıq aiddir. Eyni Tranzit Mənlərin aktiv mexaniki aqreqasiyası ilə onlar arasında yaranan qarşılıqlı emosional münasibətdən yoldaşlıq, dostluq, sevgililik, yəni şəxslərarası birlik meydana gəlir. Əks Libido Mənlərin bir-biri ilə aktiv mexaniki aqreqasiyasından əkscinslərarası birlik yaranır və belə aqreqasiyanın xarici totallığı məhduddur, daha çox iki şəxs arasında şəxslərarası aqreqasiya kimi meydana çıxır, nəticədə Libido Mənlər arasında qarşılıqlı seksual münasibətlər meydana çıxır. Bununla yanaşı, qrup seksual əlaqələrində çoxsaylı Libido Mənlər iştirak edir ki, bu da aktiv mexaniki aqreqasiyanın xarici totallıq əlaməti daşıdığını göstərir.

Kimlik Məninin konkret orqanik aqreqasiyası - Ailə: Kimlik Mənlərinin - Tranzit Mənlə əks cinsli Libido Mənin ekzistensiya edərək xarici totallıq yaratması ailə kimi meydana çıxır. Ailə bir-biri ilə əksilik təşkil edən iki müxtəlif Libido Mənin eyni bir Tranzit Məndə eyniləşməsi ilə vəhdət yaratmasının ekzistensiyasıdır, hansı ki, Tranzit Mən hər iki əks Libido Mənə görə nəsil kimi çıxış edir və hər üç varlığın mahiyyəti həmin nəsildə aydınlaşır. Tranzit Mən müvəqqəti olduğundan ailədə Tranzit Məndən aydınlaşan həqiqət - növ həqiqəti keçici olur və özü bir Libido Mən kimi yeni bir ailənin yaranması ilə növ həqiqətini özündə aydınlaşdırmaqdan dayanır. Ailə üzvlərinin Subyektiv Mənləri ilə bir-biri ilə qarşılıqlı münasibətindən ailə münasibətləri yaranır. Ailə münasibəti cəmiyyətin əsasını təşkil edən ilk şəxslərarası konkret münasibət kimi mövcuddur, hansı ki, insanın hər üç mahiyyəti eyni dərəcədə bu münasibətlərin yaranmasında iştirak edir. Növ informasiyası daxili yolla

qanla bir şəxsdən digərinə ötürüldüyündən, müxtəlif nəsillər arasında qan birliyi yaranır.

Haşiyə: F.Tyonnis "Birlik və cəmiyyət"

> *"Qan birliyi (blut) mahiyyətli vəhdət kimi, bilavasitə birgəyaşayışı ifadə edərək yer icmasında inkişaf edir və xüsusiləşir, birgəyaşayış isə öz növbəsində vahid istiqamətdə birgə fəaliyyətlə, eyni əhval-ruhiyyə ilə xarakterizə olunan ruhun birliyində inkişaf edir və xüsusiləşir. Yer birliyini heyvaniliyin qarşılıqlı əlaqəsi kimi, ruhun birliyini bərabər ölçüdə - mental həyatın qarşılıqlı əlaqəsi kimi başa düşmək olar, buna görə də sonuncunun əvvəlki ilə əlaqəsi - xüsusi insanilik kimi birliyin ən ali növüdür."*

F.Tyonnisin fikirlərindəki anlayışların mənasını dəqiqləşdirməklə qan birliyinin mahiyyətinə varmaq olar.

1. Mahiyyətli vəhdət - canlılığın birliyi: Mahiyyətli vəhdət ifadəsi özündə xalis varlıq təyinindən - varlığın xüsusi mümkünlüyünün vəhdətini ifadə edir, hansı ki, bu vəhdətə görə insan digər canlılarda olduğu kimi, növ vəhdəti təşkil edir. Biz bunu bioloji vəhdət də adlandıra bilərik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Mahiyyətli vəhdət - mövcud insanın dəyişən zəruri şərtlərinin məcmusundan ibarətdir.** Mahiyyətli vəhdət özündə qan və ya irsi birliyi, yəni mövcud insan növünü - bioloji insanın formal varlığını təqdim edir. Mövcud varlıqlar məkan və zaman şərtində mövcud olduqlarından, mahiyyətli vəhdət həm də özündə məkani şərtləri təqdim edir, hansı ki, biz bunu "birgəyaşayış" kimi qavrayırıq. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Birgəyaşayış - eyni dəyişən zəruri şərtlərlə eyni sabit zəruri şərtlərin məcmusundan ibarətdir.**

İnsanların qan birliyində birgəyaşayışından yer icması meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Yer icması - mahiyyətli vəhdətlə birgəyaşayışın şərtlərinin məcmusundan ibarətdir.**

2. Ruhun birliyi: Yer icmasını təşkil edən fərdlərdə fiktiv ruhun ekzistensiyası eyni şərtlərdə baş verir və nəticədə ekzistensiya şərtlərinin eyniliyinə görə xarici ruhi totallıq - ruhun formal varlığı meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruhi birlik - ruhun formal varlığı - eyni ekzistensiya şərtlərinin məcmusundan ibarətdir.** Yer icmasında ruhi birliyin yaranması Subyektiv Mənin iştirak etməsi ilə mümkün olur, bununla da insan ailəsi heyvan ailəsindən ayrılaraq abstraksiya olunur. İnsan ailəsində hər bir üzv bir tərəfdən qan birliyindən meydana çıxan növün xüsusi həqiqətini, digər tərəfdən həmin birlik üzərində meydana çıxan ruhun xüsusi formal varlığının həqiqətini təzahür etdirir. Ruhun xüsusi formal varlığının ümumiləşməsi ilə xalq - xüsusi insanilik meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Xalq - ruhun formal varlığının dəyişən zəruri şərtlərinin məcmusundan ibarətdir.** İnsanlıq tarixində ailə quruluşu keçməyən heç bir xalq mövcud olmamışdır. Heyvan ailəsi öz məskunlaşdığı ərazini qidalılığına görə ikincili məkani ölçülük kimi təyin edir, amma insan ailəsi üçün yer məkani ölçülülükdən abstraksiya edilərək birincili əhəmiyyət kəsb edir. Ailənin yerlə əlaqəsindən aydınlaşan həqiqət abstrakt formada vətən anlayışı ilə ifadə etdiklərimizi özündə əks etdirir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Vətən - xalqın sabit xarici zəruri şərtlərinin məcmusundan ibarətdir.** Xalqın vətənlə vəhdətindən millət meydana çıxır. Beləliklə, millət bir tərəfdən ruhun xüsusi formal varlığını, digər tərəfdən onun xüsusi faktiki varlığını özündə ifadə edir.

Xüsusi insanilik şərtlərində fərdlərin həm ölmüş insanlarla - onların əsərləri vasitəsi ilə, həm də məkanın keçmiş vəziyyəti ilə şərtlənməsindən qan birliyinin əhəmiyyəti azalır, əvəzində ruhi birliyin əhəmiyyəti artır. Yer icmasında ruhi birliyin əhəmiyyətinin artmasından millət meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Millət - mahiyyətli vəhdətlə ruhi birliyin şərtlərinin məcmusundan**

ibarətdir. Beləliklə, millət xalqdan fərqli olaraq, özündə sabit zəruri şərtləri ifadə etmir və ümumi yaşayış yeri, o cümlədən birgəyaşayış zəruri olmur.

Haşiyə: Kurt Hübner "Millət"

> *"Ailə - bu canlıların ölülərlə və keçmişlə, yəni əcdadlarla qarşılıqlı əlaqəsidir. Amma o həm də nəslin kontinuallığında vəhdət təşkil edən, ümumi işin embrional hüceyrəsidir."*

Kurt Hübnerin fikirlərindən görünür ki, o, milləti daha çox yer icması kimi təsəvvür edir. Buradan da etnik millətçilik təsəvvürü meydana çıxır. Millət ruhun mövcud varlığının yaranması istiqamətində sonuncu birlik formasıdır. Buna görə də, daha az mahiyyətə, daha çox formaya malikdir.

4. Abstrakt orqanizasiya olunmamış aqreqasiya: Libido Mənin öz libidoz enerjisini Subyektiv Mənin iştirakı ilə bədəndən xaricə axıtmasından yaranan birlik yaradıcılıq birliyi kimi meydana çıxır. Yaradıcılıq birliyi Subyektiv Mənin xarici predmetlərin özü-üçün-varlıq təyininə özü-üçün-varlıq təyini proyeksiya etməsində yaratdığı birliklərə daxildir. Subyektiv Mən müxtəlif üsul və vasitələrlə özü-üçün-varlıq təyini yaratdığından ən fərqli yaradıcılıq birliyi - peşələr meydana çıxır.

SUBYEKTİV MƏNİN PROYEKSİYA OLUNDUĞU ABSTRAKT BİRLİKLƏR

Real Mənin abstraksiyasından cəmiyyət üzvü kimi abstrakt vahidlər, cəmiyyət üzvü - şəxsiyyət təzahür edir. Şəxsiyyət - abstraksiya olunmuş Real Məndir və ya əksinə, cəmiyyət fiktiv ruhların təşkil etdiyi ruhun formal birliyidir. Şəxsiyyət abstrakt "Mən", "Sən" və "O" kimi üçlü təzahür edir. Ruh öz Yaradıcı Gücü ilə fərdin Real və Kimlik Mənləri digər fərdlərin onun hansı Məni ilə xarici totallıq təşkil etmək meylindən asılı olaraq ekzistensiya edir. Buradan iki tərəf - meylləndirən və meyl edən tərəf meydana çıxır. Meylləndirən tərəf ümumi "Mən", meyllənən

tərəf "Sən" kimi çıxış edir. Sən iki fiktiv ruhun vəhdətinin - xarici totallığının elə tərəfidir ki, həqiqətin ruhda aydınlaşması onda, aşkarlanması "Mən"də baş verir. Eyni ilə "Sən" aşkarlayıcı - "Mən" aydınlaşdırıcı tərəf olanda "Mən" "Sən"lə əvəzlənir. Beləliklə "Mən" və "Sən" həqiqətin ruhun xarici totallığından aydınlaşması ilə aşkarlanmasının bədənlə şərtlənməsinin iki tərəfi kimi çıxış edir. "O" - aşkarlanma prosesindən kənardakı, ruhda həqiqətin qeyri-müəyyən aydınlaşmasıdır. "O", "Mən" və "Sən"də refleksiya etməyən ruhi vəziyyətdir. "O" ilə ruhun təşkil etdiyi birinci sıra başa çatır. Bu sıra sadə ruhi faktlardan təşkil olunub. Şəxsiyyət, burada özündə cəmiyyətin ən kiçik vahidini - cisimlərdə atom, görüntüdə nöqtə, canlılıqda "hüceyrə" kimi vahid başlanğıc formanı - refleksiya edən ruhi vahid rolu oynayır. Məhz yerdə qalan sonsuz ruhi vahidlər - bəşər tarixindən aşkarlanan və gələcəkdə meydana çıxacaq bütün şəxslərarası münasibətlər və bu münasibətlərdən yaranan birliklər bu vahidin əsasında meydana çıxır. Beləliklə, biz ümumi abstrakt Məni - şəxsiyyəti, yəni eyni zamanda "Mən", "Sən" və "O" olan Real Mənin abstraksiyasını cəmiyyətin "atomu" - ən kiçik sosial vahidi hesab edə bilərik. Şəxsiyyət cəmiyyətin abstrakt görüntüsünün başlanğıc forması, yəni nöqtəsidir, hansı ki, həmin görüntünün reallıq aləmindəki görüntülərin sıralanmasını özündə refleksiya etməklə cəmiyyətdə müxtəlif quruluşlar yaradır. Subyektiv Mənlərin ekzistensiya edərək xaricdə başqa Subyektiv Mənlərlə birliyi iki formada: xarici predmetlərə obyektivizasiya olunmuş formada və obyektivizasiya olunmamış formalarda meydana çıxır. Belə birliklər abstrakt mahiyyətli olub fikir və ideya birlikləri kimi meydana çıxır.

1. Dəyər birlikləri: Subyektiv Mənlərin ən sadə aqreqasiyası abstrakt dəyərlər sferasında baş verir. Dəyər ruhun mövcud varlığının əsasında duran abstrakt qanunauyğunluqdur, hansı ki, yalnız müəyyən dəyərlər sistemində ruhun mövcud varlığı yaranmağa başlayır. Buradan

aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Dəyər - ruhun mövcud varlığının şərtlərinin məcmusundan ibarətdir.**

Hər bir dəyərlər sistemində müvafiq ruhun mövcud varlığı yaranır. Beləliklə, eyni bir ruhun mövcud varlığı dəyərlər sistemindən asılı olaraq müxtəlif formalarda meydana çıxır. Əgər mövcud varlıqların müxtəlif formaları eyni vaxtda və eyni məkanda meydana çıxırsa, ruhun mövcud varlığının müxtəlif formaları yalnız müxtəlif yerlərdə, müxtəlif vaxtlarda yaranır. Dəyərlər sferası Subyektiv Mənlərin obyektivizasiya olmadan proyeksiyalaşmasından meydana çıxır. İnsanlar müxtəlif abstrakt dəyərlər əsasında birlik təşkil edirlər. Bu zaman Real Mən və Kimlik Məni ikincili rol oynayır. Dəyərlər sferasının əsasını ruhun üç başlıca meyli - prinsipi - **azadlıq, bərabərlik və ədalət** təşkil edir.

- **Azadlıq prinsipinin** mütləq mahiyyəti - fiktiv ruhun bədəndən azad olaraq, xarici totallığa - ruhun mövcud varlığına qovuşmaq meylindən ibarətdir. Bu, insanın bazis azadlığını təşkil edir. Ruhu şərtləndirən və bədənin davamı kimi meydana çıxan iki fərqli mühitdən - təbii və sosial mühitin şərtlərindən azad olmaq isə ikincili azadlıq prinsipi, yəni azadlıq dəyəri kimi təzahür edir.
- **Bərabərlik** - ruhun Subyektiv Mənlərinin xarici totallıq təşkil edərək vahidə çevrilmək cəhdinin təzahürüdür. Yəni hər bir Subyektiv Mən başqa Subyektiv Mənlərlə birlikdə ruhun xarici totallığını özündə eyni dərəcədə refleksiya etməklə başqa insanlarla vəhdət təşkil edir. Bu cür bərabərlik mütləq bərabərlik prinsipi kimi meydana çıxır. Azadlıq prinsipi kimi, bərabərlik prinsipi də təbii və sosial mühitlə şərtləndiyindən, ikincili bərabərlik prinsiplərini müəyyən edən bərabərlik dəyərləri yaranır.
- İnsanın daxili totallığı ilə xarici totallığının vəhdətindən **mütləq ədalət prinsipi** meydana çıxır. Ədalət prinsipinin təbii və sosial şərtlərdən təzahürü ədalət dəyərlərini təzahür etdirir. Ruh eyni zamanda paralel olaraq hər üç cəhddə olduğundan (yəni həm bədəndən azad olaraq xarici totallığa keçmək, həm xarici totallığı başqaları ilə bərabər refleksi-

ya etməklə onlarla eynilik təşkil etmək və həm də daxili totallığının xari-ci totallıqla vəhdətinə nail olmaq cəhdindədir), ruhun hər üç prinsipinin vəhdətindən meydana çıxan bəşəri dəyərlər - insanlığın dəyərləri çoxluğu yaranır, hansı ki, Subyektiv Mənlər həmin dəyərlərə proyeksiya olun-maqla dəyərlər sferası təşkil edir. Belə dəyərlər reqlamentasiya olunaraq obyektivizasiya olunur və konkret forma alır. Məsələn: qanunlar, hüquqlar, davranış normaları və s. Buradan da qanun, hüquq və əxlaq abstraksiyanın təkrar konkretləşməsi kimi təzahür edir.

2. Əqidə birliyi: Subyektiv Mənin xalis varlıq təyinindən proyeksiya olunduğu abstrakt sferalardan biri də ictimai fikir sferasıdır. İctimai fikir müxtəlif ideyalardan strukturlaşır. Əqidə birliyinin tipik nümunəsi siyasi partiyalardır. Əqidə özündə ruhun xalis varlığında birliyin yaranmasından meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Əqidə - ruhun xalis varlıq təyinindən birliyinin şərtlərinin məcmusundan ibarətdir.**

3. Elm birlikləri: Subyektiv Mənin proyeksiya olunduğu abstrakt sferalardan biri də elmdir. Elm Ruhun özündə refleksiya etdiyi məlumatların eyniliyinə görə meydana çıxır. Məlumatın formasına və həcminə görə Subyektiv Mənlər müxtəlif elm sahələri yaradır.

4. Peşə birlikləri: Hər bir peşə insanın mövcud varlığının fərqlilikləri ilə şərtlənmişdir. Beləliklə, mövcud varlığına görə eynilik təşkil edən fərdlər eyni peşələrdə birləşir.

5. Düşüncə birliyi - Millət: Subyektiv Mənin ictimai münasibətlərə öz xalis varlıq təyinindən refleksiyası milləti meydana çıxarır. Ruhun ədalət prinsipi əsasında Subyektiv Mənlərin abstrakt aqreqasiyasından millət meydana çıxır. Millətin konkret tərəfi yoxdur. Yalnız subyektiv tərəfi mövcuddur və buna görə də miflə eyni mahiyyətə malikdir.

Haşiyə: K.Hübner "Millət"

"Mifik allahlar - ümumilik əhəmiyyəti daşıyan fərdlərdir. Millət fərdi tarixi-mədəni formanı, xüsusi tarixi tale ilə özündə

təqdim edir, hansı ki, ayrıca bir adamın taleyi kimi nağıl etmək olar. Mifik və milli identifikasiya eyni strukturu nümayiş etdirir. Millət özündə fərdi tarixi-mədəni formanı xüsusi tarixi tale ilə təqdim edir, hansı ki, hər bir ayrıca şəxsiyyətin taleyindən ayrılmış ola bilər."

Nağıl - gerçəkliyin xalis abstraksiya edilərək ruh tərəfindən obrazlaşdırılması kimi meydana çıxır. Millətin taleyini nağıl etmək Subyektiv Mənlərin müxtəlif zamanlarda təşkil etdiyi birliklərin vəhdətini mifləşdirərək ondan həqiqəti aşkarlamaq deməkdir. Yəni Millət Real Mən və Kimlik Mənin iştirakı olmadan ideya səviyyəsində birləşmiş abstrakt insanların yaratdığı birlikdir. Lakin hər bir Subyektiv Mən konkret insan reallığından ekzistensiya etdiyindən öz Real və Kimlik Mənləri ilə rabitədə meydana çıxır.

Haşiyə: K.Hübner "Millət"

"Millətlə identifikasiya heç vaxt yalnız mənəvini ifadə etmir, amma həmişə həmçinin fizikini ifadə edir. Yalnız şəxsiyyətin identikliyi yox, həm də millətin identikliyi özündə insan birgəyaşayışının zəruri şərtidir."

Buradan da abstrakt ruhi birliklərin fərqliliyi meydana çıxır, hansı ki, növbəti mərhələdə millətlər öz fərqliliklərini itirərək bir-biri ilə birləşir və Ruhun ümumi formal varlığını - fiktiv ruhların xarici totallığını yaradır. Milləti xalis fikir birliyi - ruhun xalis varlıq təyinindən yaratdığı, düşüncə səviyyəsində yaranan vəhdət kimi dəyərləndirmək olar, hansı ki, ruhun ibtidai xarici totallığı kimi təzahür edir.

Haşiyə: Kurt Hübner "Millət"

"Siseronun hüquq haqqında təsəvvürləri ondan ibarət olmuşdur ki, hər bir insan, hansı millətə mənsub olmasından asılı olmayaraq, həm də ədalətin hamıya eyni qaydada məcburi olmasına və ilahi mənbələrdən çıxmasına görə, özündə ədalət toxumu daşıyır. Bu səviyyədə artıq milli fərqlilik yoxdur. Ədalət, o cümlədən hüquq - ümumbəşəri nailiyyətdir."

K.Hübnerin fikirlərindən də görünür ki, ədalət hətta millət çərçivəsindən asılı olmayaraq meydana çıxan ümumbəşəri dəyərdir. Bizə görə, yalnız mütləq azadlıq, ədalət və bərabərlik prinsipləri hər hansı milli çərçivədən kənarda təzahür edərək Ümumi insanlığın xarici totallığının şərti kimi təzahür edir. Təbii və sosial mühitlə ikincili şərtlənmiş prinsiplər - bəşəri dəyərlər isə məhz millət çərçivəsində meydana çıxır və hər bir millətin nə dərəcədə insanlığa çevrilmə keyfiyyətindən asılı olaraq fərqli qradiasiyaya məruz qalır. Yalnız dəyərlər sferasının eyniləşməsi ilə yaranan vəhdətdən Formal ruhun həqiqəti aydınlaşır. Abstrakt dəyərlərin konkret insan qruplarında proyeksiyasından və obyektivizasiyasından qruplar meydana çıxır. Qrup - müəyyən əlamətlərinə görə sosial tamdan seçilən, məhdud ölçülü, öz spesifik sərhədləri olan insan birliyidir. Qrup - həqiqətin qarşılıqlı əlaqədə aydınlaşdığı Fiktiv ruhi çoxluqdur. "Biz" və "Siz"dən fərqli qruplar həqiqətin strukturlaşmış ruhda aydınlaşmasını özündə təqdim edir. Qrupun yaranması ilə "qrup Mən"i yaranır. Qrupda həqiqət ruhun tangensial enerjisində yox, radial enerjisində aydınlaşır. Qrup - onu təşkil edən hər bir ayrıca fərddən fərqli və onlarda refleksiya edən ruhu aydınlaşmadır. Strukturda aydınlaşma olduğundan, hər bir qrup özündə struktur nizamını təqdim edir. Beləliklə, qrup xaotik ruhun nizamlanması prosesində meydana çıxan mürəkkəb sıranın ilk təzahürüdür. Qruplar daimi, abstrakt gerçəklikdir. Qrup ruhu örtük kimi fiktiv ruhları örtür və onları öz arxasında gizləyir. Beləliklə, qrup üzvündə həqiqəti ikiqat aydınlaşdırır: birincisi, fiktiv ruhun tangensial enerjisində tranzit "Mən" kimi və strukturlaşmış ruhlarda radial enerjidə aydınlaşan "qrup Mən"i kimi. "Qrup Mən"inin şüuru ictimai şüura keçid şüurudur. Bu forma şüur kollektiv şüurla fərdi şüurun müştərək iştirakı ilə yaranır. Qrupun daha geniş və mürəkkəb forması kollektiv kimi meydana çıxır. Eyni məkan və zaman asılılığında olan və bir-biri ilə davamlı məqsədəyönlü münasibətdə olan fraqmentar ruhların qarşılıqlı əlaqələnməsidir. Kollektivin yaranması fərdi tələbatın kollektiv formada təmin edilməsi məqsədi ilə bağlıdır. Beləliklə, kollektivdə maraq, məqsəd

və birgə fəaliyyət keyfiyyətləri təzahür edir. Kollektiv - qapalı insan birliyidir və buna görə də Kollektiv ruh xüsusi daxili, xüsusi nizama tabe olan insan birliyidir. Kollektiv Mənin bir çox formaları mövcuddur. Bu formalar qrup Məninin birincili və ikincili materiya ilə şərtlənməsindən, vaxt və zamanla şərtlənməsindən yaranır. Qrup Məninin birincili materiya ilə şərtlənməsi kütləni, sinifləri, ordunu əmələ gətirir. Belə Mozaik Ruh fiziki güc və onun şəkildəyişmələri əsasında yaranır.

İCTİMAİ SFERALAR

Mövcud varlıqlar məkan və zaman şərtlərində gerçəkləşdiklərindən ruhun mövcud varlığı da gerçəkləşmə prosesində məkan və zaman şərtləri əldə etməyə cəhd edir. Formal ruhun mücərrəd məkanını biz ictimai sfera kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **İctimai sfera - formal ruhun mücərrəd məkan şərtlərinin məcmusundan ibarətdir.**

Subyektiv Mən fərdin Real və Kimlik Mənlərini əvəzləyərək onları subyektivləşdirir və ekzistensiya edir və xaricdə digər Subyektiv Mənlərlə qarşılıqlı münasibətdə fərdi müxtəlif sferalara proyeksiya edir. Reallıq "eyni zamanda, bir məkanda", yəni "indi və burada" prinsipinə tabe olduğundan, cəmiyyətdə fərd üç müxtəlif Mənlərinin proyeksiyasına uyğun üç müxtəlif sferada eyni zamanda real şəkildə ola bilmədiyindən, eyni zamanda bu sferalardan yalnız birində konkret, digərlərində abstrakt şəkildə iştirak edir. Nəticədə, istənilən vəziyyətdə insanın iki Məni onun Real Mənindən ayrılıqda proyeksiya olunur. Buradan da, fərdin konkret iştirakı tələb olunmadan yaranan ictimai sferaları təşkil etməsi simvolik xarakteristika əldə edir. Yəni konkret fərdi Məni ümumi simvollar əvəzləyir və simvolik sferalar konkret simvolların obyektivizasiyası ilə həm də universallıq əldə edir. Beləliklə, ictimai sferaların aşağıdakı ümumi xarakteristikalarını ayırd etmək olar:

1. **Subyektivləşdirməyə məruz qalmaq:** Abstrakt ictimai sferalarda fərdin real varlıqları ruhi varlığında refleksiya olunaraq əks olunur, nəticədə obyektiv varlığın mahiyyəti onun formasından ayrılaraq subyektiv varlıq kimi təzahür edir. Məsələn, ruhun konkret fiziki bədənə münasibəti sinfi münasibət kimi, ailə münasibətləri mədəni münasibətlər kimi abstrakt ictimai sferaların təşkilində iştirak edir.
2. **Abstraksiya olunmaq:** Ən müxtəlif fərdlər yalnız ən ümumi tərəfləri ilə ictimai sfera yaratdıqlarından, belə sferada iştirakın konkretliyi tələb olunmur, nəticədə hər bir şəxs abstrakt şəxsə çevrilir.
3. **Simvolizə olunmaq:** Subyektiv Mənin özü-üçün-varlıq təyini olmadığından, cəmiyyətin real mövcudluğu Subyektiv Mən və real varlıq Mənlərinin özü-üçün-varlıq təyininin vəhdətindən meydana çıxır, hansı ki, ikinci ruh tərəfindən süni şəkildə yaradılır.
4. **Obyektivizasiya olunmaq:** Fiktiv Ruh özü üçün yaratdığı özü-üçün-varlıq təyinini - simvolları xarici obyektlərə və ya abstrakt ictimai münasibətlərə proyeksiya etməklə onları obyektivləşdirir. Yəni, Abstrakt ictimai sferalar konkret xarici predmetlərə və mənəvi dəyərlərə proyeksiya olunmaqla simvolik mahiyyət əldə edir.
5. **Universallaşma:** Bir cəmiyyətdə meydana çıxmış abstrakt ictimai sfera digər istənilən cəmiyyətdə meydana çıxan ictimai sfera ilə eynilik təşkil edir, nəticədə universallaşma meydana çıxır. Universallaşma ağlın xarakteristikası olduğundan, cəmiyyətlərin universallaşması pozitiv dəyərlərə əsaslanması ilə şərtlənir. Bütün bunlardan aydın olur ki, cəmiyyət ruhun xarici totallığı kimi onun ən ümumi atributlarından təşkil olunur və hər bir cəmiyyətin təkmilliyi onu təşkil edən atributların səviyyəsi ilə müəyyən olunur.

Cəmiyyətdə Subyektiv Mənlərin təşkil etdiyi aşağıdakı üç əsas abstrakt ictimai sferanı ayırd etmək olar:

a. Real Mənin proyeksiya olunduğu iqtisadi sfera: Real Mən fiziki bədənin ruhda refleksiyası kimi meydana çıxdığından Real Mənin proyeksiya olunduğu ictimai sferalar da fiziki parametrlərə - maddiliyə,

ölçülülüyə, məkanla şərtlənməyə, fiziki gücün təzahürü və s. ilə xarakterizə olunur. Real Mənin bədənin davamı olan ətrafla vəhdətdə təşkil etdiyi ictimai sfera **iqtisadi sfera** kimi meydana çıxır. Beləliklə, iqtisadi sfera konkret fiziki Mənlərdən, həmin Mənlərin şərtləndiyi ətrafdan və ətrafla insanlar arasındakı qarşılıqlı münasibətdən - insan-ətraf vəhdətindən təzahür edir. Buradan, aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **İqtisadiyyat - insan bədəninin fiktiv ruh tərəfindən fərddən kənara ekzistensiyasının şərtlərinin məcmusundan ibarətdir.**

Başlanğıcda ətraf bədəndə refleksiya edərək onun yaranmasında iştirak edir. Sonra formalaşmış bədən ətrafda refleksiya edərək iqtisadi sferanı təşkil edir. Beləliklə, iqtisadi sfera ətrafın özü-özünü insandan keçməklə dolayısı ilə refleksiyasından ibarətdir. Ətraf bədəndə refleksiya edərkən həm də ruhda refleksiya olunur və bədənin təkrar ətrafda refleksiyası artıq "ruhlaşmış" ətrafı yaradır, hansı ki, istənilən iqtisadi sfera özündə ətrafın fərqli ruhi atributlarla refleksiyası kimi mövcuddur. Buradan da ağlın ətrafda refleksiyasından iqtisadi bilgilər, ideyalar; simvollaşdırmanın ətrafda refleksiyasından məhsullar; ictimai münasibətlərin ətrafa refleksiyasından iqtisadi münasibətlər və nəhayət təşkilatlanmanın ətrafda refleksiyasından iqtisadiyyatın təşkilati forması - **iqtisadi sistemlər** meydana çıxır. Ruh tarixi inkişaf prosesində formalaşdığından, buna uyğun ruhi atributların ətrafda refleksiyası müxtəlif tarixi dövrlərdə müxtəlif səviyyəli iqtisadi bilgilər, məhsullar, iqtisadi münasibətlər və iqtisadiyyatın təşkili formasını təzahür etdirir. Konkret tarixi dövrün iqtisadi bilgiləri, məhsulları, iqtisadi münasibətləri və iqtisadiyyatın təşkili formasının məcmusundan **iqtisadi formasiyalar** meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **İqtisadi formasiya - ümumi insanlıq bədəninin mücərrəd zaman-məkan şərtlərinin məcmusundan ibarətdir.** İqtisadi formasiyalar iqtisadi sferanın müxtəlif tərəflərinin vəhdəti kimi özündə tarixi dövrün formal ruhunun xarici totallığının həqiqətini aydınlaşdırır.

Beləliklə, iqtisadi sfera bədənin ətrafı özündə refleksiyasının ruh tərəfindən refleksiya olunmaqla əks olunmasından yaranır. Ruhun bədəni özündə refleksiya edərək əks etdirməsi - **ekstrapolyasiya** kimi təzahür edir. Ekstrapolyasiya - ruh tərəfindən bədənin tam kimi və ya onun ayrı-ayrı orqanlarının özü-üçün-varlıq təyinini xarici predmetlərin özü-üçün-varlıq təyininə proyeksiya edilməsini özündə ifadə edir. İqtisadi sferanın yaranmasını aşağıdakı xətti əlaqə kimi təsəvvür etmək olar: *Təbiət - refleksiya - İnsan bədəni - refleksiya - fiktiv ruh - refleksiya - ətraf - ekstrapolyasiya - iqtisadi sfera.*

Buradan görünür ki, əslində iqtisadi sfera təbiətin insandan keçməklə abstraksiya olunması ilə yenidən ikincili mövcud olması kimi meydana çıxır. Buna görə də, təbiət, insan bədəni və iqtisadi sfera özlərinin dərin qatlarında bir-biri ilə eynilik təşkil edir. İqtisadi sferada obyekt-subyekt əlaqəsində obyektin subyektə təsirinə subyektin münasibəti tələbat kimi təzahür edir. Tələbat insanın real varlığının xarici predmetlərlə vəhdətini özündə təqdim edir, hansı ki, insan bu vəhdətə görə öz tələbatlarını ödəmək üçün xarici predmetlərə yönəlir, onlara təsir edir və onlardan istifadə edərək öz tələbatlarını ödəyir. İqtisadi sfera - insanın fiziki mövcudluq tələbatının ödənildiyi sferadır. İnsanın özündə üç müxtəlif Məni olduğundan, onun tələbatları da hər bir Məndən asılı olaraq üçlüdür. Real Mənin tələbatı bədənin fiziki şeyinin qurulmasından, Kimlik Mənin tələbatı - hissi tələbatın - zövqün təmin edilməsindən, Subyektiv Mənin tələbatı - ideyanı özündə refleksiya etməkdən - bilik əldə etməkdən ibarətdir. Hər bir real varlıq da öz növbəsində özündə insana üçlü təsir edərkən üç müxtəlif müstəvidə refleksiya olunur. Yəni xarici predmetin intellektuallığı ruhda, hissi təsiri canda, fiziki təsiri isə bədəni təşkil edən şeydə refleksiya olunur. Beləliklə, tələbatın ödənilməsi prosesində nemət öz təsirlərinə uyğun üç yerə ayrılır, nəticədə onun başlanğıc təbii vəhdəti pozulur, bunun əvəzində tələbatın ödənilməsi bədənin müvafiq Məni ilə tələbatı ödəyən xarici predmetin konkret

tərəfinin vəhdəti kimi meydana çıxır. Beləliklə, xarici predmetin vəhdəti bədən daxili vəhdətlə əvəzlənir. Ruhun xarici predmetin insan reallığının Mənləri ilə yaratdığı daxili vəhdəti özündə refleksiya edib ekzistensiya etməsindən xarici abstrakt vəhdət meydana çıxır. Belə abstrakt vəhdət iqtisadi sferanın mahiyyətini təşkil edir.

İqtisadi sfera insan gerçəkliyinin passiv özündəşeyinin - bədənin fiziki şeyinin - xalis varlıq təyinindən yaranan real varlığın xarici totallığıdır. Başqa sözlə, Real Mənlərin mexaniki aqreqasiyasının cəmiyyətdə ümumi abstrakt təzahürü iqtisadi sferanı təşkil edir. İqtisadiyyat cəmiyyətin Real Məninin şeyi - fiziki bədəni kimi mövcuddur və cəmiyyəti təşkil edən bütün fərdlərin fiziki bədənlərinin məcmusu iqtisadi sferaya proyeksiya olunaraq vahid abstrakt bədən - iqtisadiyyat yaradır. İnsanın hər üç Varlığının yaşam dinamikası bir-biri ilə vəhdətdə təzahür etdiyindən Subyektiv Mən digər varlıqların təzahürlərini ekstrapolyasiya yolu ilə ekzistensiya edərək xaricə çıxarır. Nəticədə, özünüqoruma instinkti, insan bədəninin protoekonomikası - maddələr mübadiləsi - iqtisadiyyatın əsasına keçir. Buradan da iqtisadiyyatı bədəndə baş verənlərə uyğun və ya əksinə, bədəndə baş verənləri iqtisadiyyatda baş verənlərə uyğun izah etmək olur. Buna görə də, fiziki bədənin bütün əlamətləri ən ümumi və abstrakt şəkildə iqtisadi sferada refleksiya olunur. İqtisadi sfera dolayısı ilə maddi sərvətlərlə abstrakt insan bədəninin vəhdətinin simvollaşdırılmasından bu vəhdəti özündə refleksiya edərək əks etdirən ruhun xarici totallığının həqiqətini özündə aydınlaşdırır. İqtisadi sfera cismin mövcudluq üsulunu, canlılığın özünüqoruma instinktini, ruhun özü-üçün-varlıq təyini yaratmaq cəhdini özündə əks etdirir. Mövcudluq aktı hər bir varlıq üçün mütləq əhəmiyyət kəsb etdiyindən, istənilən varlığın birinci cəhdi öz mövcudluq aktını saxlamaqdan ibarətdir. Biz bunu **üstünlüketmə prinsipi** kimi təyin edirik. Üstünlüketmə bütünlükdə mövcud aləmin başlıca prinsipi kimi mövcuddur. Bu prinsipə görə bioloji varlıqların özünüqoruma instinkti

nəsilvermə instinktinin şərti olduğundan, orqanizm birinci növbədə onu təmin etməyə səfərbər olunur. Belə ki, aclıq vəziyyətində özünüqoruma nəslisaxlamaya üstünlük təşkil etdiyindən, aclığa məhkum olmuş heyvanlar ən sonda öz balalarını yeyirlər və hətta bu da mümkün olmadıqda bədəninin bir hissəsini yeməklə digər həyati vacib orqanların həyatı davam etdirməsinə cəhd edirlər. Lakin şüurlu insanda instinktiv təbii üstünlük təşkil etmə qanunu iradəvi xarakter alır və insan iradəvi olaraq üstünlüktəşkiletmə qanununa tabe olur. İnsanın sosiallaşmış instinktləri onu cəmiyyət həyatında iştirakçıya çevirir. İştirakçı - yetkin, konkret məqsədi, iradi gücü və sosial həyata səfərbər olan sosial fərddir.

İqtisadi sferada tələbatların ödənməsi bir-biri ilə əlaqəli müxtəlif proseslərdən keçir. İnsanların bu proseslərdə iştirakı müxtəlif və qeyri-proporsionaldır. İqtisadi sferada iştirak özündə şüurlu insanın səfərbər olmasını - yəni iradəvi fəaliyyətini əks etdirir. İnsan tarixi varlıq olduğundan, iqtisadi sferanın formalaşması da tarixi prosesdə baş verir. İnsanların iqtisadi sferalarda iştirakı onların Real Mənlərinin digər Mənləri ilə necə əlaqələnməsi ilə bağlıdır. Belə ki, aparıcılıq prinsipinə görə, Real Mənin mütləq təzahüründə insan **istehlakçı**, Real Mən-Kimlik Məni-Subyektiv Mən xətti ardıcıllığında **istehlakçı-istehsalçı**, Real Mən-Subyektiv Mən-Kimlik Məni xətti ardıcıllığında **istehlakçı-təşkilatçı** rolunda çıxış edir. Biz hər hansı bir cəmiyyəti təşkil edən bütün insanların iqtisadi proseslərdə iştirakçılığına görə aşağıdakı proporsiyaları ayırd edə bilərik:

A. İstehlakda iştirak: İqtisadi sferanın əsasını - başlanğıcını istehlak təşkil edir. İstehlak şüurlu insanın mövcudluq üsulunun vasitəsidir. Bütün insanlar digər canlılar kimi birincili olaraq özünüsaxlama instinkti əsasında iqtisadi sferada istehlakçı kimi iştirak edir. Bu, insanın təbii vəziyyətinin təzahürüdür. Tarixin başlanğıcında - ibtidai dövrdə təbiət bilavasitə "istehsalçı", bütün insanlar isə "istehlakçı" rolunda çıxış edir. Başqa sözlə, istehlakçılıq 100 faizli səfərbərlik yaradır. Bu dövrün

iqtisadi sferası özündəşey təyinindən (həm təbiət, həm də insan təcrübə sahəsinə hər biri özündəşey kimi mövcud olur) meydana çıxır. İbtidai dövrün iqtisadi sferasının həqiqəti təbiətlə insanın vəhdətindən aydınlaşır. İstehlak iqtisadi sferada təcrübə sahəsində obyekt-subyekt əlaqəsində baş verir. Bu zaman obyekt kimi insanın konkret tələbatını ödəyən nemətlər, subyekt kimi tükəndirici insan çıxış edir. İstehlakda insanlar passiv mexaniki aqreqasiya təşkil edir. Yəni hər bir fərd özü-özündə başqasından asılı olmadan istehlakçıdır. İstehlak mövcudluğu davam etdirmək vasitəsidir. İstehlak özündə məhsulun, əşyaların, nemətlərin, əmtəələrin, xidmətlərin tələbatları ödəməkdən ötəri istifadə edilməsini təqdim edir.

İki cür istehlak ayırd etmək olar:

İstehsal-istehlakı: Resursların istehsal prosesində sərf olunması istehsal-istehlakı kimi meydana çıxır. İstehsal-istehlakında məhsul istehsal prosesinə yönəldilməklə istehlak olunur. İstehsal-istehlakında Subyektiv Mən məhsulun özü-üçün-varlıq təyininə özünün süni özü-üçün-varlıq təyinini proyeksiya edir. Nəticədə ikiqat özü-üçün-varlıq təyini olan yeni mövcud varlıq - əmtəə - istehsalın, iqtisadi fəaliyyətin maddi-əşya formasındakı hasilatı meydana çıxır. Əmtəə təbii nemətlə ruhun özü-üçün-varlıq təyinlərinin vəhdəti kimi meydana çıxır. İnsanın mövcud varlıq təyininin tərəfləri əmtəə ilə fərqlilik təşkil edərək onu xarici şey vəziyyətinə salır. Beləliklə, məhsulun özü-üçün-varlıq təyininə ruhun süni özü-üçün-varlıq təyini proyeksiya etməsi ilə məhsul əmtəəyə çevrilir.

Qeyri-istehsal istehlakı: Bu forma istehlak həyati tələbatların ödənilməsində nemətlərin tükəndirilməsindən ibarətdir. İki cür nemət ayırd etmək olar: birincisi, İlahi tərəfindən yaradılmış **təbii nemətlər** - təbii şəkildə mövcud olan, insan əməyi sərf olunmadan insanın konkret tələbatını ödəyən nemətlər. Belə nemətlər yalnız mövcud varlıq təyini olan nemətlərdir, yəni belə nemətlərin bir xalis varlıq təyini və onunla

vəhdət təşkil edən bir özü-üçün-varlıq təyini vardır. İkincisi, insan tərəfindən hazırlanmış nemətlər - **əmtəə** - istehsal-istehlakı nəticəsində meydana çıxan sosial məhsul. Belə nemətlərin mövcud varlığının bir xalis varlıq təyini, iki fərqli özü-üçün-varlıq təyini vardır. Buradan da, nemətlərin istehlakı zamanı onların mövcud varlıq təyininin xarakterindən asılı olaraq fərqli nəticələrə gətirib çıxarır.

İstehlak prosesinin bir tərəfini subyekt, yəni insan təşkil edir. İnsan özü-özündə mövcud varlıq kimi bir tərəfdən xalis varlıq təyini ilə vəhdət təşkil edən özü-üçün-varlıq təyininə, həm də mümkün varlıq kimi bədənin özü-üçün-varlıq təyini ilə vəhdət təşkil etməyən xalis varlıq təyininə malikdir. Qeyri-istehsal istehlakı - tələbatın ödənilməsində nemətin, məhsulun, əmtəənin varlıq təyinlərinin bir-birindən ayrılması və insanın ayrı-ayrı təyinləri ilə eynilik, yəni vəhdət təşkil etməsi ilə onu məhsul olmaqdan çıxarmasını özündə təqdim edir. İstehlak neməti heçlik etməyi özündə ifadə edir. İnsanla nemətlər təyinlərinin eyniliyindən qeyri-istehsal istehlakında aşağıdakı vəhdətlər meydana çıxır ki, həmin vəhdətlərdən həqiqətin aydınlaşmasının məcmusu istehlakın təbiətini-həqiqətini təşkil edir.

- **a) Xalis varlıq təyinlərinin vəhdəti:** İstehlak prosesində, insanın Subyektiv Məninin aparıcılığında, nemətin xalis varlıq təyini ruhda refleksiya edərək xalis varlıq təyinindən vəhdət - daxili totallıq yaradır. Öz növbəsində Subyektiv Mən nemətin xalis varlıq təyinini özündə refleksiya etdikdən sonra onu əks etdirməklə xarici totallıq yaradır. Buradan məhsulun xalis varlıq təyini, yəni onun ümumi ideyası aşkarlanır. Beləliklə, qeyri-istehsal istehlakının nəticəsində insan öz tələbatını ödəyən nemətlərin istehlakında birlik əldə edir. Yəni insan istehlak prosesində nemət haqqında qabaqcadan konkret məlumata malik olmaqla istehlak prosesinə daxil olur. Eyni bir məhsul bütün istehlakçılar tərəfindən eyni cür refleksiya olunduqda, məhsul onları eyni birliklə birləşdirir, nəticədə istehlaka görə abstrakt təşkil olunmuş mexaniki aqreqasiya yaranır. Belə

aqreqasiyada hər bir istehlakçı məhsulla əlaqəyə girir və yalnız eyni məhsulun istehlakına görə başqa insanlarla birlik təşkil edir. Belə birlikdə fərdlər arasında konkret subyekt-subyekt əlaqəsi yaranmır.

- **b) Mövcud varlıq təyinindən vəhdət:** İstehlak prosesində Real Mənlə Kimlik Məninin birgə iştirakından nemətlə istehlakçı mövcud varlıq təyinindən vəhdət təşkil edir. İnsanın özü-üçün-varlıq təyini keçici olduğundan, nemətin daimi özü-üçün-varlıq təyini ilə ziddiyyət təşkil edir. Nəticədə, istehlak prosesində nemətin xalis varlıq təyini ilə özü-üçün-varlıq təyininin vəhdəti pozulur, nemətin özü-üçün-varlıq təyini xalis varlıq təyinindən ayrılır, əvəzində bədənin özü-üçün-varlıq təyini nemətin xalis varlıq təyini ilə vəhdət təşkil edir. Beləliklə, nemət bədənin hissəsinə çevrilir, yəni nemətin şeyi bədənin şeyinin qurulmasına sərf olunur. Nemətin özü-üçün-varlıq təyini isə heçlik kimi təsəvvürdə saxlanılır. Həmin təsəvvürün simvollaşdırılaraq konkret məhsulun abstrakt obrazına çevrilir. Nemətin xalis varlıq təyini ilə bədənin özü-üçün-varlıq təyininin vəhdəti yararlılıq-faydalılıq kimi təzahür edir. Faydalılıq - insanların əmtəə və xidmətlərin istehlakından aldığı zövq və tələbatların ödənilməsini özündə ifadə edir.
- **v) Özü-üçün-varlıq təyinlərinin vəhdəti:** Əşyaların istehlakında, istehsal prosesində ruhun xarici predmetin özü-üçün-varlıq təyininə proyeksiya etdiyi və həmin şeyin xalis varlığı ilə vəhdət təşkil etmədiyindən müvəqqəti və ondan aksidensiya edən özü-üçün-varlıq təyini - estetikası, istehlakçının özü-üçün-varlıq təyini ilə vəhdət təşkil edir. Bu zaman əşyanın özü-üçün-varlıq təyini nemətin xalis varlıq təyinindən aksidensiya edərək bədənin süni və ya ikincili özü-üçün-varlıq təyini kimi çıxış edir. Məsələn: paltarların istehlakında paltarın özü-üçün-varlıq təyini bədənin özü-üçün-varlıq təyini ilə eyniləşərək aksidensiv vəhdət təşkil edir. Nəticədə, paltarın özü-üçün-varlıq təyini bədənin xarici görüntüsü kimi təzahür edir. Eləcə də, alətlərin, silahların istehlakı, paltarda olduğu kimi, insan bədəninin ayrı-ayrı orqanlarının özü-üçün-varlıq təyini kimi çıxış edir. Özü-üçün-varlıq təyini özündə heçlik

olduğundan, heç bir həqiqətə malik deyildir. Buna görə də, özü-üçün-varlıq təyinlərinin vəhdətindən həqiqət aşkarlanmır. Yalnız özü-üçün-varlıq təyini hissi təfəkkürə təsir edərək bədəndə hiss yaratdığı kimi, özü-üçün-varlıq təyininin bədəninin özü-üçün-varlıq təyini ilə vəhdət təşkil edən əşyalarda hissi təsirə - insan zövqlərinin ödənilməsinə xidmət edir.

Beləliklə, qeyri-istehsal istehlakında nemətlərin tükədilməsində hər bir nemət üç cür nəticəyə səbəb olur: tükəndirici bilik əldə edir, onda yeni hissi-emosional vəziyyət yaranır və onun bədəninin qurulması davam edir.

B. İstehsalda iştirakçılıq: Təbii nemətlər tükənən olduğundan və bir çox nemətlər təbii vəziyyətində insanın tələbatını ödəmədiyindən, yeni nemətlər yaratmaq və ya təbii nemətləri tələbatı ödəyəcək keyfiyyətə keçirmək zərurəti yaranır. Bu zərurət istehsalı meydana çıxarır. İstehsal - insanın tələbatlarını ödəmək üçün maddi nemətlər yaratmağa yönəlmiş fəaliyyət prosesidir. İstehsalda fərd Kimlik Məninin aparıcılığında iştirak etdiyindən özündə canın mövcudluq üsulunu əks etdirir. Yəni, canlılıq özündənolanla mövcudluğu davam etdirmək üsulu ilə aktuallaşır və bu zaman mahiyyət eyni qalmaqla formalar - fərdlər bir-birinə üstünlük təşkil etməklə bir-birini əvəzləyir. İstehsal da məhz insan tələbatlarını ödəyən məhsulların formasının bir-birinə üstünlük təşkil etməsi ilə əvəzlənməsini özündə təqdim edir. Canın mövcudluq üsulundan istehsal üsulu yalnız onunla fərqlənir ki, canlılığın mövcudluq üsulu neqativ, istehsal üsulu pozitiv, yəni şüurlu və iradəvi prosesdir. Yuxarıda qeyd etdik ki, insan heçdən yaratmaq qabiliyyətinə malik deyildir. O, yalnız İlahi tərəfindən yaranmışları təkrar yaratmaq imkanına malikdir. Ruh mümkün varlıq kimi real varlıq olan təbiətlə əksilik təşkil edir, buna görə də təbiətin yaratdıqlarının əksinə yenidən öz tələbatlarını ödəyəcək şəkildə təkrar yaradır. Bununla da, insan bilavasitə təbiətlə birlikdə istehsalçı rolunda çıxış edir. Yaradıcılıq Kimlik Mənlərindən təzahür etdiyindən və Kimlik Mənləri fərqli və keçici olduğundan, istehlakdan

fərqli olaraq, istehsalda iştirak fərqli və keçicidir. Başqa sözlə, istehsal insanın yaradıcı qabiliyyəti ilə şərtləndiyindən bütün insanlar istehsalda iştirak etmir. Nəticədə, cəmiyyətdə insanlar istehsalda iştiraka görə iki qrupa ayrılır. Birinci qrup istehsalçılar, ikinci qrup qeyri-istehsalçılar. Qeyri-istehsalçılar da Kimlik Mənlərinin digər Mənləri ilə əlaqələnməsi qaydasına görə öz növbəsində iki qrupa ayrılır:

Konkret istehsalla Kimlik Mənləri ziddiyyət təşkil edən qeyri-istehsalçılar: Bu qrupa uşaqlar, əlillər və ya konkret istehsalda iştirak gücü olmayan insanlar, məsələn qadınlar aiddir.

Kimlik Məni istehsalla eynilik təşkil edən, lakin ruhun müdaxiləsi ilə istehsalda iradəvi şəkildə iştirak etməyənlər: Bu qrupa istismarçılar - istehsalda iştirak etmədən yalnız istehlakda iştirak edənlər aiddir. İstismarçılar da iki yarımqrupa bölünür; legitim istismarçılar - bura idarə edənlər aiddir; qeyri-legitim istismarçılar - bura konkret sosial rola malik olmayan və yalnız istehlakda iştirak edənlər aiddir. İbtidai cəmiyyətdən çıxdıqdan sonra həm istehsalçılar, həm də qeyri-istehsalçılar kəmiyyət və keyfiyyət dəyişilmələrinə məruz qalır.

Quldarlıq cəmiyyətinin yaranması ilə insanların istehsalda iştirakı disproporsional xarakter alır və istehsalda iştirakçılığa görə bir-birindən fərqli qruplar meydana çıxır. Belə ki, 100 faiz istehlakçıdan təxminən 60-70 faiz istehsalda və xidmətdə iştirak edir, təxminən 30-40 faiz idarəetməyə səfərbər olur. Bu mərhələdə iqtisadi sferanın həqiqəti alətlə (canlı alət kimi qul) insanın (quldarın) vəhdətindən aydınlaşır. Bu dövrün iqtisadi sferası özü-üçün-varlıq təyinindən yaranır, yəni təbii məhsul zahirən istifadəli vəziyyətə salınır, tələbat isə məhsulun real mövcudluğu ilə ödənilir. Quldarlıq dövründə insan mövcud varlığın xalis varlıq təyinini özündə refleksiya etmir. Bu dövr kapitalizmə qədər davam edir. Kapitalizmdə insan həm də mövcud varlığın xalis varlıq təyinindən ona təsir etməyə cəhd edir.

Maddi nemətlərin yaradılmasında insan varlığının xarici predmetlərə refleksiyası məcmu olaraq əmək prosesi kimi təzahür edir. İstənilən istehsalda insanın hər üç Məni, amma fərqli istehsal proseslərində fərqli ardıcıllıqda və həcmdə iştirak edir. İnsan varlığının xarici predmetlərə refleksiya edərək "maddi nemətlər yaratması" əmək kimi təzahür edir. İnsan üçlü Mənə malik olduğu kimi, istehsal prosesində də xarici predmetlərə üç təsir edilərək tələbat üçün yararlı hala salınır:

1. **İnsanın mövcud varlığın xalis varlıq təyinində refleksiyası - süni mövcud varlığın yaradılması:** Əmək prosesində Subyektiv Mənin aparıcılığında insan xarici predmetin yalnız xalis varlıq təyininə refleksiya edərək onun ideyasını özündə aşkarlayır və həmin ideyanı alternativ mövcud varlıq təyinindən aktuallaşdırır. Nəticədə, eyni ideya əsasında təbii şəkildə mövcud olmayan yeni varlıq forması yaradır. Buradan, sintetik və süni nemətlər istehsal olunur.
2. **İnsanın mövcud varlığın həm xalis varlığına, həm də özü-üçün-varlıq təyininə eyni zamanda refleksiyası - mövcud varlığın dəyişdirilməsi:** Əmək prosesində ruh mövcud varlığın həm xalis varlığına, həm də özü-üçün-varlıq təyininə refleksiya edir. Nəticədə, predmetin daxili vəhdətindən aydınlaşan həqiqəti aşkarlayır. Həmin məlumat əsasında mövcud varlığın xalis varlığını özü-üçün-varlıq təyinindən ayırır və onu yeni özü-üçün-varlıq təyini ilə vəhdət təşkil etməsini təmin edir. Nəticədə, təbii məhsulların yeni formaları meydana çıxır. Yeni formaların yaranması xalis varlıqda müəyyən dəyişikliklər etməklə reallaşır. Bu zaman bir mövcud varlığın xalis varlığı ya başqasının xalis varlığı ilə əlaqələndirilir və ya həmin varlığın xalis varlığı hissələrə ayrılır. Birinci birləşmələrlə, ikinci parçalanmalarla reallaşır. Buradan **texnologiya** inkişaf edir. Texnologiya əməlgəlmənin qanunauyğunluqları əsasında yeni məhsulların yaradılmasını özündə təqdim edir. Texnoloji prosesdə ruh əmtəədə proyeksiya olunmadığından texnologiya təbii məhsul yaradır.

3. **İnsanın mövcud varlığın yalnız özü-üçün-varlıq təyininə refleksiyası - mövcud varlıq təyininə süni özü-üçün-varlıq təyininin proyeksiya olunması:** İstehsal prosesində insan yalnız mövcud varlığın özü-üçün-varlıq təyini ilə refleksiya edir. Nəticədə mövcud varlıq öz daxili vəhdətini saxlayır, amma onun özü-üçün-varlıq təyininə ikinci - ondan aksidensiya edən - özü-üçün-varlıq təyini proyeksiya olunur. Buradan əşyalar meydana çıxır.

İnsan bədəninin canlılığının bir tam kimi ətrafda refleksiyası əmək prosesi kimi meydana çıxır. Əmək prosesi - insanla təbiət arasında enerji mübadiləsində bir həlqəni təşkil edir. Belə ki, insan müəyyən enerji sərf etməklə xarici predmetlərdə refleksiya edərək onlardan məhsul istehsal edir, həmin məhsula əlavə edilmiş insan enerjisi məhsulun ümumi enerjisi ilə sublimasiya olunaraq onu istehlak üçün yararlı hala salır. İstehlak prosesində istehlakçı məhsulda sublimasiya olunmuş enerjini öz daxili enerjisi ilə sublimasiya edərək onu tükəndirir. Beləliklə, istehsal-istehlak prosesində təbii nemətlə əməkçinin enerjisi birlikdə istehlakçıya ötürülür. İstehlakçı həmin enerjini müxtəlif fəaliyyətlərlə sərf edərək yenidən ətrafa qaytarır. Enerjinin bu cür dövranının birinci mərhələsi - insan enerjisinin təbii nemətlərin enerjisi ilə sublimasiya etməsi əməyin mahiyyətini təşkil edir. Əmək istehsal prosesinin əsas elementlərindən biridir.

İŞ: Əmək fəaliyyəti bilavasitə işlə həyata keçirilir. İş - Real Mənin əmək prosesində iştirakının təzahürüdür. İş konkret enerji sərfi ilə xarici predmetlərə əlavə hərəkətlilik verilməsindən ibarətdir. Xarici predmetlərə insan tərəfindən iki cür hərəkətlilik verilir: daxili və xarici hərəkətlilik. Xarici hərəkətlilik predmetin məkanda yerinin və ya vəziyyətinin dəyişməsi kimi təzahür edir. Daxili hərəkətlilik xarici predmetin yenidən formalaşması-strukturlaşması kimi təzahür edir. Beləliklə, istənilən işdə xarici predmet hərəkətə gətirilir. Ona görə də, iş özündə yalnız xarici predmetə bir tam kimi insanın təsirini təqdim edir. İşin nəticəsində xarici

predmetin təyinlərinin vəhdəti olduğu kimi qalır. Əmək iş anlayışı ilə sıx bağlıdır. İş insanın fiziki güc tətbiq etmək və fiziki enerji sərf etməklə ətrafı özünə əlverişli vəziyyətə salmaq qabiliyyətidir. Heyvanların iş görmək qabiliyyəti yoxdur, ona görə də heyvanlar ətraflarını dəyişdirə bilmirlər. Tarixi inkişaf prosesində tədricən iş əməyə çevrilir. Əmək işdən əsas aşağıdakı əlamətlərinə görə fərqlənir:

- Hər şeydən əvvəl əmək bilavasitə və ya dolayısı ilə təbii şeylərdən yararlılığın əldə edilməsi - maddi və mənəvi sərvətlərin yaradılması ilə sıx bağlıdır. O işin ki nəticəsində sərvət yaranmır, o iş əməyə çevrilmir.
- İkincisi, əmək işin təşkil olunması ilə yaranır. Təşkil olunmamış heç bir iş əmək hesab edilə bilməz.
- Üçüncü, əməyin nəticəsindən başqalarının faydalanmasının mümkünlüyü. Belə ki, işin nəticəsindən yalnız iş görən faydalanırsa, o əmək hesab edilə bilməz. Beləliklə, əmək kollektiv maraqlara xidmət edən işdir, yəni sosial xarakterə malikdir.
- Əməyin digər bir fərqli cəhəti özü-özünü təkmilləşdirməsidir. İş bu keyfiyyətdən məhrumdur. Əgər eyni bir iş uzun illər eyni üsul və vasitələrlə görülürsə, o əməyə çevrilmir.
- Əməyin işdən fərqli digər bir cəhəti əməyin vaxtın strukturlaşdırılması ilə sıx bağlı olmasıdır. İş vaxtın strukturlaşması ilə bağlı deyil və vaxta görə təxirəsalınandır. Əmək isə vaxta görə təxirəsalınmazdır.
- Əməyin nəticəsi kumulyasiya olunandır, işin nəticəsini kumulyasiya etmək mümkün deyil. Əməyin nəticəsinin kumulyasiyası ona tarixlilik xarakteristikası verir.
- İstənilən əmək bu və ya başqa dərəcədə həm də kollektiv işdir. İş isə mahiyyət etibarı ilə fərdidir.
- Əmək xüsusi bacarıq və bilgi tələb edir. İş görmək üçün sadəcə əqli və fiziki imkan tələb olunur, işin görülməsində bacarıq və bilgi ikinci dərəcəli əhəmiyyət daşıyır.

- İşin haqqı olmur və ya birbaşa ilk nəticədən meydana çıxır. Əməyin haqqı əməyin ayrılmaz atributlarındandır və dolayı və pilləli olaraq son nəticədən əmələ gəlir.
- Əmək - təkrarlanan işdir. İş heç vaxt təkrarlanmır.
- Əmək konkret yerlə bağlıdır. İş yerlə şərtlənməmişdir. Eyni işi müxtəlif ərazilərdə və yerdə görmək olar, amma xüsusi yer və ərazi olmadan konkret əmək mümkün deyil.
- İş orqanizmin bir tam kimi iştirakını tələb edir. Əmək isə yalnız ayrı-ayrı orqanların iştirakını tələb edir.
- İş bölünməzdir, bundan fərqli olaraq əmək bölünəndir.
- İşdə insan həm də özü bilavasitə əmək aləti kimi çıxış edir. Əmək prosesində əmək alətləri insan bədənindən fərqli xarici əşyalardan ibarət olur.
- Əmək konkret peşə ilə bağlı olduğundan daimilik keyfiyyətinə malikdir. İş peşə ilə sıx bağlı deyil və buna görə də müvəqqətidir.
- Əmək prosesdir. İş bu keyfiyyətdən məhrumdur. İşin başlanğıcı ilə sonu eynilik təşkil edir. Amma əmək prosesində başlanğıc, ara və son bir-birindən fərqlənir.
- İş maddi şeylərin mexaniki dəyişilməsinə, əmək funksional dəyişilməsi ilə nəticələnir.

Əmək prosesində insanın hər üç Məni iştirak edir. Hər bir Real Mən istehsal prosesində **işçi qüvvəsi** - ruhun ətrafda refleksiyası üçün tələb olunan işi görən fərd - fəhlə kimi çıxış edir. İnsan əmək prosesində öz Real Məni ilə əmək aləti kimi iştirak edir. Əməyin ixtisaslaşmasından asılı olaraq insan bədəni tam və ya ayrı-ayrı hissələri ilə əmək aləti rolu oynayır. Real Mən əmək prosesində həm bilavasitə fiziki bədən - fəhlə kimi, həm də simvolik olaraq fiziki bədənini ekstrapolyasiyası nəticəsində yaranmış əmək alətləri kimi iştirak edir. Fəhlə öz Subyektiv Mənini ekzistensiya etməklə fəhlə sinfini, əmək prosesində iştirak edən fəhlələrin ümumi ideyasını özündə aydınlaşdıran abstrakt sosial birliyi təşkil edir. Real Mənin əmək prosesində xarici predmetə refleksiyası

fiziki güclə reallaşır, nəticədə xarici predmetin vəhdəti müxtəlif təyinlərindən dəyişdirilir. Əmək prosesində həm də xarici bədən - əməyin tətbiq olunduğu xarici predmet, xarici şey - xammal iştirak edir. Fiziki bədən və xammal mövcud varlıq təyinlərinə, alətlər mövcud varlıq təyininə və onlarda simvollaşdırılmış bədənin özü-üçün-varlıq təyininə malikdir. Buradan əmək prosesində üç xalis varlıq təyini, dörd özü-üçün-varlıq təyini ayırd etmək olar. Özü-üçün-varlıq təyini ilə xalis varlıq təyinləri arasında kəmiyyət fərqliliyi əmək prosesində istehsal olunan məhsulda dəyərə çevrilir. Dəyər məhsulun onun xalis varlığı ilə vəhdət təşkil etməyən xüsusi özü-üçün-varlıq təyinidir, hansı ki, məhsulun xalis varlığı ilə vəhdət təşkil etmədiyindən aksidensivdir və məhsuldan başqa formalara, məsələn pula və s. keçir. Dəyərin məhsulla şərtlənməməsi onun məhsuldan kənar formada mənimsənilməsini - istismarını təmin edir.

Kimlik Mənin refleksiyası bioloji güclə - yaradıcı güc və ya libido gücü ilə reallaşır və xarici predmet yeni hissi şeyə çevrilir. İstehsal prosesinin əsas elementlərindən biri konkret Real Əmək prosesində Kimlik Məninin iştirakı ilə bağlı olaraq əmək həm də zamanla şərtlənir, buradan da əmək prosesində istehsal olunan məhsula sərf olunan vaxt həmin məhsula sərf olunan insan enerjisi ilə vəhdət təşkil edərək, məhsulun nominal dəyərini - məhsulun ondan aksidensiya etməyən özü-üçün-varlıq təyinini təşkil edir. Subyektiv Mənin xarici predmetə refleksiyası intellektual güclə reallaşır və məhsul müəyyən məlumat daşıyan simvolik vahid olur. Əmək - insanların dərk edilmiş, enerji tutumlu, hamı tərəfindən məqsədəuyğun sayılan fəaliyyət olduğundan, əmək prosesində üç mühüm məqamı ayırd edə bilərik: dərk edilmə, enerji tutumu və hamı tərəfindən məqsədəuyğun sayılmaq. Dərk edilmə - insanın Subyektiv Məninin iqtisadi sferada refleksiyası ilə bağlıdır və ideya və ya xalis fikirlə ifadə olunur. Başqa sözlə, əmək prosesində ruhun ağıl atributunun refleksiyasını, enerji tutumu - Subyektin Kimlik Məninin

iqtisadi sferada refleksiyası ilə bağlı olub, insanın yaradıcı gücünün - libido enerjisinin ölçüsünü, hamı tərəfindən məqsədəuyğun sayılma - əməkdə aydınlaşan ümumi həqiqətin aşkarlanmasını - əmək prosesində ekzistensiya edən ruhun xarici totallığını özündə təqdim edir.

ƏMƏK VƏ İQTİSADİ SFERANIN STRUKTURU

Hər bir məhsul özündə insanın hansı Məninin refleksiya etməsinə görə digərlərindən fərqlənir. Buradan **əmək bölgüsü** meydana çıxır.

Tarixi inkişafda əməyin bir-birindən fərqli və insandan müxtəlif güc tələb edən dörd forması meydana gəlir:

1. **Fiziki əmək:** Fiziki güc tələb edən - insanın *Real Məninin* refleksiyası kimi.
2. **Yaradıcı əmək:** Yaradıcı güc tələb edən - insanın *Kimlik Məninin* refleksiyası kimi. Yaradıcı əməyin bir forması hissi güc tələb edən **hissi əməkdir**. Hissi əmək qeyri-maddidir, daha çox obyekt-subyekt əlaqəsində obyektin subyektdə müəyyən hiss yaratması ilə tamamlanır. Yaradıcı əmək təkrar istehsalda dolayı, konkret və material; hissi əmək isə birbaşa, abstrakt və qeyri-maddi (mənəvi) formada mövcud olur.
3. **Zehni əmək:** Əqli güc tələb edən - insanın *Subyektiv Məninin* refleksiyası kimi.

Müxtəlif tarixi dövrlərdə əmək formalarının təzahürü və həcmi müxtəlifdir:

- **İbtidai cəmiyyətdə** əməyin heç bir forması (klassik mənada) təzahür etmir.
- **Quldarlıq quruluşunda** əmək fiziki və yaradıcı formalarda təzahür edir və bu iki əməyin bir-birinə nisbəti uyğun olaraq **10:1** olmuşdur.
- **Feodalizmdə** dinin əmələ gəlməsi ilə əqli əmək yaranmağa başlayır. Beləliklə, əmək formalarının nisbəti **8:1:1** olmuşdur.
- **Kapitalizmdə** hissi əmək meydana çıxır və əmək formaları arasında nisbət **5:1:3:1** olur.

- **İnkişaf etmiş kapitalizmdə** əmək formalarının nisbəti **3:1:5:1** olur.

Zehni əməyin tarixi inkişafı: Zehni əmək zehni fəaliyyətlə məşğul olan insanların əhalinin ümumi sayına nisbətindən asılı olaraq, ayrı-ayrı dövrlərdə müxtəlif həcmlərdə təzahür edir. Quldarlıq quruluşunda zehni əməyin həcmi **0,00%** (filosofların əməyi kimi), feodalizmdə **3-5%** (din xadimlərinin əməyi kimi), kapitalizmdə **10-20%** (alimlərin və pedaqoqların əməyi kimi), postsənaye cəmiyyətində **50-60%** (konstruktor, alim, din xadimi, pedaqoqların əməyi kimi), psixoloji dövrdə **100%** (kiborq insanın əməyi kimi) təşkil edir.

Fiziki əməyin intellektuallaşması: Quldarlıq quruluşunda quldar əməyi intellektual əmək kimi çıxış edir. Feodalizmdə feodal-kəndli əməyində cüzi intellektuallaşma baş verir. Kapitalizmdə maşın və texnikanın tətbiqi ilə fəhlə əməyi intellektuallaşır. Postsənaye cəmiyyətinin fiziki əməyi intellektual əməklə müştərək çıxış edir. Postsənayedə fiziki əmək cüzi dərəcədə qalır, psixoloji dövrdə isə fiziki əməyin hər hansı təzahürü qalmır.

İstehsalın həqiqəti əməklə insanın vəhdətindən aydınlaşır.

MÜBADİLƏDƏ İŞTİRAKÇILIQ

Əmək prosesində həyata keçirilən enerji mübadiləsi həm də istehlak prosesində enerji mübadiləsi ilə müşayiət olunur. Bu iki mübadilənin vəhdətindən iqtisadi sferanın digər bir elementi - **abstrakt enerji mübadiləsi** meydana çıxır. Mübadilə təkrar istehsal silsiləsinin bir mərhələsini təşkil edir.

Bütün mövcud varlıqların faktı vahid kimi yaradılmışdır. Amma varlıqlar kəmiyyət və keyfiyyətinə görə bir-birindən fərqləndiyindən, istənilən mövcud varlığın mövcudluq faktı onun kəmiyyəti ilə keyfiyyətin müəyyən nisbəti ilə vahid təşkil edir. Yəni təbiətdə kəmiyyətin keyfiyyətə və əksinə, keyfiyyətin kəmiyyətə keçmə qanununa

görə, keyfiyyəti yüksək olanın sayı az, keyfiyyəti aşağı olanın sayı çox olmaqla mövcudluğun vahidliyini təşkil edirlər. Kəmiyyətin keyfiyyətə və əksinə keçidi təbii mübadilə kimi təzahür edir və görünən dünyada İlahi ədalət prinsipini özündə əks etdirir. İqtisadi sferada da məhsulların kəmiyyəti ilə keyfiyyəti arasında təbii əlaqələrə uyğun nisbət mövcuddur. Yəni bir keyfiyyətli məhsulun ekvivalenti kimi aşağı keyfiyyətli, amma çox sayda məhsul çıxış edir. İstehsal olunan məhsulun kəmiyyəti ilə keyfiyyəti arasındakı əlaqəsinin iqtisadi sferada refleksiyasından **mübadilə** meydana çıxır.

Mübadilə - bir məhsulun keyfiyyətinin başqa bir məhsulun kəmiyyəti ilə eynilik təşkil etməsi ilə dəyişdirilməsindən ibarətdir. Məhsulun keyfiyyəti insanın mövcud varlığın hansı təyini ilə refleksiyasından meydana çıxır. İnsan mövcud varlığın təyinlərinə nə qədər tam və hərtərəfli refleksiya edirsə, məhsul bir o qədər insanı özündə əks etdirir və bir o qədər keyfiyyətli olur. Ən keyfiyyətli məhsul insanın xalis varlığına, mövcud varlığına və özü-üçün-varlıq təyininə eyni vaxtda refleksiya etdiyi məhsuldur. İnsan nə qədər dərin və hərtərəfli mövcud varlıqda refleksiya edirsə, məhsula sərf olunan əməyin həcmi bir o qədər böyük olur. Əməyin həcmi isə bilavasitə məhsulun dəyərində refleksiya olunur. İnsan təbiətdən ayrıldıqca, əmtəə də təbii nemətlərdən bir o qədər ayrılır, yəni hər hansı bir məhsulda əməyin həcmi artır. Belə məhsul özü də təbii məhsuldan fərqlənir, onun insanda refleksiya imkanları artır.

Feodalizmdən kapitalizmə keçiddə məhsulda əməyin həcmi son həddə çatır, təbiətin payı azalır. İstehsal ixtisaslaşır. Məhsul yerə və zamana görə disproporsional istehsal olunur. Nəticədə, mübadilə funksiyası zərurətə çevrilir. Beləliklə, cəmiyyətdə əhalinin bir hissəsi mübadilədə iştiraka cəlb olunur. Mübadilənin meydana çıxması ilə cəmiyyətin yalnız 30-40 faizi bilavasitə istehsala, 10-15 faizi bölgüyə, 30-40 faizi idarəetməyə, qalan faiz isə mübadiləyə səfərbər olunur.

İqtisadi sferanın bu mərhələdəki həqiqəti əməklə insanın vəhdətindən aydınlaşır.

İnsanla əməyin vəhdətindən həqiqətin aydınlaşması tarixi inkişafda nisbi xarakter daşıyır. Yəni əməklə insanın vəhdətindən yalnız həqiqətlər yox, həm də yanılmalar aydınlaşır. Yanılmalar fərdin əməyə şüurlu yanaşması ilə bağlı - onun məntiqi ilə bağlı meydana çıxır.

Haşiyə: V.Minto, "Deduktiv və induktiv məntiq" - "Məntiqi ardıcıllıq yanılmalardan qorunmağı öyrədir."

Məntiqi yanılmaların səbəbi: səbirsizlik, ənənə, əxlaq, həzz və s.-dir. İstehsal prosesində yanılmaların səbəbi səbirsizlikdir. Səbirsizlik vaxt bölgüsündə səhvlə bağlıdır. Məhz istismar da buna görə vaxtla birbaşa əlaqəlidir. Bölgü ənənələr əsasında həyata keçirilir və ənənələr zamana görə mühafizəkar olduğundan, inkişaf prosesində ənənələr insanı yanıldır. Mübadilə insanın özündən başqasına münasibəti və bu münasibətin davranışlarda üzə çıxması ilə bağlıdır. Əxlaqi naqisliklər mübadilənin məhsuludur. İstənilən istehlak insanda fiziki və ya mənəvi həzz yaradır. İnsanın həzzə meyli onu çaşdırır.

Əmək prosesində yanılmalara görə insanların əməyə cəlb olunması müxtəlif formalarda təzahür edir: istehsal sferasında **istismar**, bölgü sferasında **ədalətsizlik**, mübadilə sferasında **aldatma**, istehlak sferasında **israfçılıq** meydana çıxır. İnsan şüuru həm də hisslərlə bağlı olduğundan, yanılmalar da müxtəlif hisslərin təsirindən baş verir. B.Klarka görə, əmək prosesində insan əzab çəkir, mübadilədə həmin əzabı əvəz edəcək, həzz verəcək vasitələrə dəyişir, istehlakda həzz alır. Beləliklə, əmək sferası əzab, bölgü sferası ədalət, mübadilə qayğı, istehlak həzz hissi ilə şərtlənir.

Əmək sferasında baş verən differensiasiyaya uyğun insanların iqtisadi sferaya cəlb olunma mərkəzləri dəyişir. Cəmiyyətin tipindən asılı olaraq əməyə cəlb olunma müxtəlif mərkəzlər yaradır və tarixi inkişaf prosesində bu mərkəzlər dəyişir. Kapitalizm də daxil olmaqla, uzun əsrlər

fiziki əmək mərkəzi əsas cəlbolunma yeri kimi mövcud olmuşdur. Kapitalizmin ikinci yarısından başlayaraq böyük sürətlə zehni əmək forması yeni cəlbolunma mərkəzi yaradır. Postsənaye dövründə artıq əməyin üçüncü forması - hissi əmək mərkəzi meydana çıxır və şou-biznes iqtisadi həyatda ciddi rol oynamağa başlayır.

Əməyin təşkili: İqtisadi sfera ruhun strukturlaşmasına uyğun strukturlaşır, nəticədə əməyin təşkili meydana çıxır. Əmək işin təşkil olunmasıdır və müxtəlif formasiyalar və siyasi sistemlər əməyin təşkilinə görə bir-birindən fərqlənir.

- **İbtidai cəmiyyətdə** iş meydana çıxmadığından əməyin təşkili meydana çıxmır.
- **Quldarlıq quruluşunda** iş meydana çıxır, əməyin təşkilində yalnız quldarlar iştirak edir və əməyin təşkili qeyri-sabit xarakter daşıyır.
- **Feodalizmdə** əməyin təşkilində həm də feodal-kəndli iştirak edir və əməyin təşkili sabit xarakter alır.
- **Kapitalizmdə** əməyin təşkili yalnız kapitalistə məxsus olur. İqtisadi bürokratiya yaranır.
- **Postsənaye cəmiyyətində** əməyin təşkili ictimai xarakter alır.
- **Psixoloji dövrdə** əmək öz klassik rolunu itirir. Əmək yeni nəsil robotlara həvalə edilir. İnsanlıq əmək prosesində birbaşa iştirak etmir.

Əməyin təşkilindən asılı olaraq müxtəlif **iqtisadi məkanlar** yaranır. İqtisadi məkan quldarlıq quruluşunda mövcud olmur. Feodalizmdə **feodal təsərrüfatı** formasında meydana çıxır (tərəflər mülkədarlar, kəndlilər və sənətkarlardan ibarət olur). Kapitalizmdə **milli iqtisadiyyat** yaranır və tərəflər kimi siniflər meydana çıxır. İmperializm mərhələsində **dünya iqtisadiyyatı** meydana gəlir və tərəflər kimi dövlətlər çıxış edir.

Maddələr mübadiləsinin abstraksiya olunaraq ekzistensiyasının obyektivizasiyasından iqtisadi sferada **əmək münasibətləri** yaranır. Əmək - bədənin ətrafla maddələr mübadiləsinin ekstrapolyasiyasından ibarət prosesdir. **Əmək** - insanı digər bütün canlılardan fərqləndirən şüuri

fəaliyyətdir. Məlumdur ki, heyvanlar arasında da insanlara xas olduqca mürəkkəb fəaliyyətlərə rast gəlinir. Bəzi heyvanlarda yüksək təşkilolunma müşahidə olunur, mürəkkəb konstruksiyalar yaradılır. Bütün bunlara baxmayaraq, insanın analoji fəaliyyəti heyvanlardan ciddi şəkildə fərqlənir:

1. **Şüurluluq və iradəvilik:** İnsanın öz fəaliyyətini idrak etməsi (şüurluluq) və onun icrasında könüllü iştirakı (iradəvilik).
2. **Bacarıq:** İnsanın öz qabiliyyətlərini öyrənməklə reallaşdırması. Heyvanlarda bacarıq yoxdur.
3. **Təkmilləşdirmə:** İnsanın təbii qabiliyyətlərini durmadan təkmilləşdirməsi. Heyvanlar anadan hansı qabiliyyətlə doğulurlarsa, o qabiliyyətlərlə də həyatlarını başa vururlar.
4. **Tarixilik:** İnsan qabiliyyətlərinin tarixi olmasıdır. Heyvanlar aləmində minillərdir ki, eyni növün fərdləri arasında eyni qabiliyyətlər təkrarlanır. İnsan nəsilləri isə tarixin müxtəlif dövrlərində müxtəlif qabiliyyətlər əldə edir və bu qabiliyyətlər tarixi vəzifələrlə şərtlənir.

Maddələr mübadiləsi nəticəsində baş verən bədənin assimilyasiya-dissimilyasiya prosesinə uyğun, iqtisadi sferada istehlak və istehsal münasibətləri abstraksiya olunaraq simvollaşır.

Əməyin nəticəsində mövcud varlıq təyini olan xarici şeylər **məhsula** çevrilir. Məhsulun əsas xarakteristikası **yararlılıqdır**. Biz yararlılığı məhsulun mənası kimi təyin edirik. Yararlılığın iki mənbəyini ayırd etmək olar: a) Mövcud varlığın xalis varlıq təyininin məhsulda təzahürü ilə meydana çıxan yararlılıq. b) İnsanın xalis varlıq təyininin məhsulda refleksiyasından meydana çıxan yararlılıq.

Məhsulda mövcud varlığın yararlılığı istehlak prosesində istehlakçının bədənində, istehsalçının xalis varlıq təyinindən meydana çıxan yararlılıq isə onun ruhunda refleksiya edir. Təbii yararlılıq təkrarlanan, məhdud və məhsulun mövcud varlığı ilə şərtlənmişdir. Amma məhsulda ruhun refleksiyasından meydana çıxan yararlılıq

dəyişkən, qeyri-məhdud və ruhun təkmilləşmə qabiliyyəti ilə şərtlənmişdir. Məhz bu sonuncu insanı təbiətin asılılığından xilas edir və ona yaşam və həyat təcrübəsini genişləndirməyə imkan verir. Bu yeni növ məhsullar - geni dəyişdirilmiş məhsullar, sintetik və süni materialların meydana çıxması insanın artıq təbii şərtlərdən azad olmaq ərəfəsində olduğunu göstərir. Məhsulun forması özündə aydınlaşdırdığı xalis varlıq təyinlərinin nisbətindən meydana çıxır. Hər hansı bir məhsulda ruhun xalis varlıq təyini nə qədər çox aydınlaşırsa, həmin məhsul özündə bir o qədər yararlılıq daşıyır.

Məhsul - ideyadan və maddi yararlılıqdan ibarət, yalnız insan əməyinin nəticəsində yaranan istənilən ictimai rifahın bir formasıdır. Məhsulun ideyası onun təqdimatına xidmət edir. İdeya da məhsulun maddi hissəsi kimi istehlakçıya çatdırılır və məhsulun yararlılığını göstərir. Hər bir məhsulun ideyasını üç cür təqdim etmək mümkündür: a) **Dizayn:** İstənilən məhsul ilk öncə konkret dizaynla (estetika ilə) istehsal edilir və istehlakçıya təqdim edilir. Dizayn məhsulun qəbuledilmə effektini artıran, istehlak zamanı istehlakçıda müəyyən ideya yaradan, ondan ayrılmaz, məhsul istehsalında əməyin xüsusi bir hissəsi ilə, onunla birlikdə yaradılan yararlılığa xidmət edən və məhsulun formasına daxil olan iqtisadi anlayışdır. b) **Qablaşdırma:** Bir qayda olaraq, məhsullar birbaşa "çılpaq" şəkildə istehlakçıya təqdim olunmur, məhsulun həcmindən asılı olaraq onu qorumaq, saxlamaq, daşımaq məqsədi ilə onlar qablaşdırılır. Məhsulun qablaşdırılması onunla bilavasitə müvəqqəti birlikdə təqdim edilən, amma sonradan ondan ayrılan ideyanın konkret formasıdır. Məhsulun qabı insanın paltarının oynadığı rolu oynayır. c) **Reklam:** Məhsulun ideyasını xalis şəkildə, məhsulla birbaşa əlaqəsi olmadan, ondan uzaqda özündə təqdim edən üsul reklamdır. Reklam hər hansı bir məhsulun virtual təqdimatıdır. Bir qayda olaraq, reklam yalnız məhsulu təqdim etmir. O, yararlılığı istehlakçının xəyali arzuları və

istəkləri ilə birlikdə elə təqdim edir ki, istehlakçı həmin məhsulla öz arzularını əlaqələndirə bilsin.

BÖLGÜDƏ İŞTİRAKÇILIQ

Təbiətdə mövcud varlıqlar məkan və zamana görə paylanmış vəziyyətdə vəhdət təşkil edir. İqtisadi sferada buna uyğun məhsulun paylanması **bölgü** kimi təzahür edir. Bölgü - insanın hər hansı bir məhsulun hansı təyinində refleksiya etməsinə uyğun, müvafiq təyindən tələbatı olan insana çatdırılma prosesindən ibarətdir. İnsan orqanizmi müxtəlif orqanlardan ibarətdir və hər bir orqanın öz yeri, funksiyalaşma qabiliyyəti və işləmə müddəti vardır. İqtisadi sferada iqtisadi orqanizmin buna uyğun təşkil olunması bölgü ilə reallaşdırılır.

Quldarlıq ləğv olunduqdan sonra meydana çıxan cəmiyyətlərdə istehsal mürəkkəbləşir və mərkəzsizləşir. Buna paralel yeni ictimai funksiyalar (daimi ordu, kilsə təsərrüfatı, feodal dövlət və s.) yaranır. Nəticədə, iqtisadi sferada bölgü funksiyası zərurətə çevrilir. Bölgünün əmələ gəlməsi ilə iqtisadi sferada yenidən sosial rol bölgüsünə görə cəmiyyətdə qruplaşma baş verir. Əhalinin 50-60 faizi yenə istehsalda, 10-15 faizi bölgüdə, qalan hissə isə idarəetmədə səfərbər olur. İqtisadi sferanın bu dövrdəki həqiqəti dəyərlə məhsulun vəhdətindən aydınlaşır. Bu dövr real varlıq təyini əsasında inkişaf edir.

Cəmiyyətin tipi iqtisadi sferaya əhalinin səfərbər olmasının xarakterindən asılıdır. İqtisadi sferanın ümumi həqiqəti tələb-təklif vəhdətindən aydınlaşır.

İqtisadi sferaya səfərbərlik (əhalinin cəlb olunması): İstehsalçının necə və nə qədər istehsal etməsi ilə istehlakçının tələbini ödəmək qabiliyyətində olmasından asılı olaraq istehsalda səfərbərlik baş verir. Belə ki, əgər bir nəfər özündən başqa bir nəfəri də təmin edəcək qədər istehsal edirsə, onda iştirakçıların ən azı 50 faizi istehsaldan çıxır. Buradan da istehsal qabiliyyətinin artması ilə istehsal sahəsində

səfərbərliyin həcmi arasında əlaqə meydana çıxır. Yəni hər hansı bir istehsalçı özündən başqa nə qədər çox istehlakçının tələbatını ödəmək gücündədirsə, bir o qədər istehsalda səfərbərlik azalır. Biz bunu iqtisadi sferanın ən ümumi həqiqəti hesab edirik.

İqtisadi sferada iqtisadiyyatın ayrı-ayrı mərhələlərində insanların şərtlənməsi fərqli olur. Belə ki, istehsalda səfərbərlik zamanı əmək insanı **təbiətlə**, istehlakda **cəmiyyətlə**, bölgüdə **dövlətlə**, mübadilədə **bir-biri ilə** şərtləndirir. İqtisadiyyatın hər bir mərhələsi fiktiv ruha uyğun olaraq müxtəlif prinsiplər əsasında reallaşır: istehsal - **azadlıq**, mübadilə - **bərabərlik**, bölgü - **ədalət** prinsipi ilə reallaşır.

İqtisadi sferada əhalinin səfərbərliyi ilə onun kollektivləşməsi tərs mütənasib inkişaf edir. İstehlakda iştirakçılıq 100 faizdirsə, onda kollektivləşmə 0 faizdir (başqa sözlə, istehlak fərdidir). Bundan fərqli olaraq, digər üç sferada iştirakçılıq müxtəlif faizlər şəklində üzə çıxır və buna uyğun təşkilatlanma meydana çıxır. Əhalinin ən az sayı bölgüyə səfərbər olduğundan ən sərt təşkilatlanma da müvafiq olaraq bölgüdə meydana çıxır.

İqtisadi sferanı təşkil edən paradiqmalarda insanların iştirakı bir qayda olaraq hər üç məntiqə əsaslanır.

1. **Səlis məntiqlə:** İnsanlar əvvəl istehsal etməyə, sonra onu başqası ilə mübadilə etməyə, daha sonra əldə etdiyini başqaları ilə bölüşdürməyə, sonda özünə çatanı istehlak etməyə cəhd edir.
2. **Qeyri-səlis məntiqlə:** İqtisadi fəaliyyətin ardıcıllığı fərqli insanlarda fərqli ardıcıllıq təşkil etdiyindən insanlar iqtisadi sferaya xaotik cəlb olunur.
3. **Lateral məntiqlə:** İnsanlar iqtisadi sferada həm də başqa sferalara xas fəaliyyət göstərirlər. Nəticədə, ayrı-ayrı fərdlər istehsal etmədən mübadilə etməyə və istehlaka (istismar və ya oğurluq kimi), istehsal və mübadilə etmədən istehlaka (mənimsəmə kimi) fəaliyyət

göstərir. Qeyri-səlis məntiqin səfərbəredici gücü zəif olduğundan bu sahədə səfərbərlik zəif, təşkilatçılıq güclü olur.

İqtisadiyyat xaosdan nizama doğru tarixi inkişafdadır. Məntiqi xaosda iqtisadi mərhələlər ixtisara düşür və insanın mübadilə yolu qısalır. Ən uzun və klassik yol **istehsal-bölgü-mübadilə-istehlakdır**.

- **İbtidai icma cəmiyyətində** insanlar istehlak sferasında səfərbər olmuşlar. Eyni bir iştirakçı həm istehsalçı, həm bölgü, həm mübadilə, həm də istehlak edən rolunda çıxış edir.
- **Quldarlıq quruluşunda** insanlar istehsalçılara (qullara) və istehlakçılara (azad insanlara) və bunlar arasında asılılığı saxlayan və bölgünü həyata keçirən dövlət qulluqçularına bölünür. Artıq səfərbərlik üç müxtəlif sferada (istehsal, bölgü və istehlak) baş verir.
- **Feodalizm dövründə** ticarət müstəqil mübadilə sferası kimi meydana çıxır və bununla da iqtisadiyyat özünün tam differensiasiya olunmamış dörd mərhələdən ibarət olur. İştirakçılar da buna uyğun dörd sferada səfərbər olur.
- **Kapitalizm dövründə** iqtisadi sfera ilə yanaşı hüquq və siyasi sfera yaranır. İndi insanlar həm də siyasi və hüquq sferasında səfərbər olunur.

Hər bir iqtisadi sferanın yaranması ilə yeni iqtisadi faktor əmələ gəlir: İstehlak **sərvətlə**, istehsal **kapitalla**, mübadilə **mülkiyyətlə**, bölgü **şərəflə** şərtlənir. Müxtəlif sferalarda iştirakçıların aktivliyi fərqlidir: İstehlak sferasında bütün iştirakçılar, bölgüdə yalnız seçilmişlər, istehsalda iştirakçıların müəyyən faizi, mübadilədə iştirakçıların yarısı aktivdir.

Bədənin əsası onun fiziki şeyi olduğu kimi, iqtisadi sferanın abstrakt şeyi **mülkiyyətdir**. Mülkiyyət konkret maddi yararlılığa malik, insanın həyatını saxlamağa birbaşa və dolayısı ilə yardım edən hər şeyi özündə simvollaşdırılmış formada təqdim edir. Bədənin konkret Real Mənlə əlaqəsi iqtisadi sferada mülkiyyət münasibətləri kimi meydana çıxır. Hər

bir bədən öz növbəsində sürəkli olaraq ətrafla konkret maddələr mübadiləsindədir.

İqtisadi sfera Real Mən Birliklərinin təbiətinə uyğun üç cür iqtisadi münasibət yaradır:

1. **Xammal:** Real Mənin passiv mexaniki aqreqasiyasının abstraksiyasından.
2. **Mal:** Aktiv mexaniki aqreqasiyasının abstraksiya olunaraq simvollaşmasından.
3. **Dəyər:** Təşkil olunmuş aqreqasiyasının abstraksiya olunaraq simvollaşdırılmasından.

Real Mənlərin iki fərqli Libido Mənlə təzahür etməsindən - cinsi ayrılmanın refleksiyasından **əmək bölgüsü** meydana çıxır.

Haşiyə: A.Adler, "İnsan təbiətini anlamaq"

> *"Əmək bölgüsü insan cəmiyyətinin həyatında ən mühüm faktordur. İnsanlığın qadın və kişilərdən ibarət olması əmək bölgüsünü başqa növə gətirib çıxarır. Xalis fiziki səbəblərdən qadınlar bəzi fəaliyyət formalarına buraxılmır, başqa işlər isə kişilər başqa sahələrdə özlərinin daha yaxşı tətbiqini tapacaqlarından, onlara həvalə edilmir. Əməyin bu bölgüsü bütün ehtimallara görə kor-təbii meydana çıxıb."*

A.Adlerin fikirlərindən də görünür ki, Libido Mənlərinin passiv güclərinin fərqliliyi əmək bölgüsünü meydana çıxarır. Buna paralel, Libido Mənlərin eyniliyinin iqtisadi münasibətlərə refleksiyasından **ailə təsərrüfatı** yaranır. Ailə təsərrüfatlarının iqtisadi sferada abstraksiyalaşdırılıb simvollaşdırılmasından vahid təsərrüfat - əmək bölgüsünün vəhdəti kimi meydana çıxan ən ümumi təsərrüfat meydana çıxır. İnsan bədəninin orqanları və funksiyaları bir-biri ilə vəhdətdə vahid bədəni əmələ gətirdiyi kimi, iqtisadi sferanın ayrı-ayrı elementləri bir-biri ilə vəhdət təşkil edərək **iqtisadi sistemləri** yaradır. Hər bir iqtisadi sistemdə Real Mənlərin orqanizasiya olunmuş aqreqasiyasının abstraksiya və simvolizasiyasından **iqtisadi dünyagörüşü** meydana çıxır,

yəni iqtisadi sferanın xalis varlıq təyinindən təzahürü xalis fikir kimi təzahür edir.

Hər bir iqtisadi sfera özünəxas əqli mühakimə tələb edir:

- **İstehsalçı** hansı xammala, hansı qaydada, necə təsir edib, ondan hansı məhsulu, hansı həcmdə və hansı keyfiyyətdə istehsal edə biləcəyi haqqında düşünür.
- **Bölgü** sferasında olanlar nəyi kimlər arasında hansı nisbətdə bölmək haqqında düşünür.
- **Mübadilədə** kimlə, necə və nəyi mübadilə etmək haqqında düşünür.
- **İstehlakçı** nəyi, hansı həzzi almaq üçün istifadə edəcəyi ilə bağlı düşünür.

İstehlakçının əqli mühakimədə müxtəlif sferalardakı insanlarla əlaqəsi və istehlak üçün lazım olanı əldə etmək üçün gəldiyi əqli nəticənin yolu müxtəlifdir. İstehsalla istehlak arasındakı məsafə ən uzun məsafədir. Bölgü bundan qısa, mübadilə daha qısa məsafədədir. İstehlakda isə məsafə yoxdur. İqtisadi sferanın xalis fikir kimi təzahürü fiktiv ruhda refleksiya olunaraq əks olunmasından meydana çıxması, ona digər fərqli başlanğıclı sferaların xalis varlıq təyinindən təzahürləri ilə eyniləşməsinə imkan verir. Hansı ki, belə eynilikdən ruhun formal varlığının, insanlığın tarixi xarici totallığı - **sosial-iqtisadi formasiyalar** təzahür edir.

Siniflər: Ruhun bərabərlik prinsipi əsasında Real Məninin passiv mexaniki aqreqasiyasında obyektivizasiya olunmuş Subyektiv Mənlərin yaratdığı birlik **siniflər** kimi təzahür edir. Subyektiv Mən Real Məni onun özünüsaxlama instinktinin təzahürlərindən - maraqlarından özündə refleksiya edərək aydınlaşdırır. Siniflər eyni məkan və zamanda eyni maraqlar əsasında Real Mənlərin qarşılıqlı münasibətinin ideyalaşdırılmasından, yəni fikrin həmin birliyə proyeksiya edilməsindən və ya insanların fiziki kütləsinin xalis varlıq təyinindən çıxarılan fikirlərdən meydana çıxır. Siniflərin bir-biri ilə əksilik təşkil edən iki

tərəfi vardır: a) **Konkret tərəf:** Real Mənlərin təşkil etdiyi passiv mexaniki aqreqasiya - yəni konkret insan kütləsi. b) **Abstrakt tərəf:** Konkret sinfi təşkil edən insanların Subyektiv Mənlərinin təşkil etdiyi təşkil olunmuş aqreqasiya tərəfi.

Buradan da siniflər təşkilatlanmış birliklər kimi meydana çıxır. Sinif özünün dərin qatlarında fiziki cismə xas mahiyyətə malikdir və bu baxımdan sinfi münasibət özünün əsasında subyekt-obyekt münasibəti kimi - iqtisadi maraqlar, başqa sözlə **rifah bərabərliyi** şəklində meydana çıxır.

B. KİMLİK MƏNLƏRİNİN PROYEKSİYA OLUNDUĞU MƏDƏNİ SFERA

Kimlik Mənlərinin ekzistensiyasının xarici totallığından cəmiyyətin mədəni sferası formalaşır. Mədəni sfera insan gerçəkliyinin aktiv özündəşeyinin mövcud təyinindən yaranan xarici totallıqdır. Başqa sözlə, mədəniyyət - xalqın ictimai sferada proyeksiyalaşmasının məhsuludur. Aktiv gücdən yarandığından mədəni sfera yaradıcılıqla meydana çıxır.

Haşiyə: T.Parsons, "Sosial sistemlər haqqında"

> *"Simvolik sistemlərin mənşəyindən və inkişafından asılı olmayaraq, insan fəaliyyətinin sisteminin mürəkkəbliyi nisbi stabil sistemlərdir ki, simvolik əhəmiyyəti təsadüfi hallardan asılı deyil. Bu ümumiləşmənin ən mühüm nəticəsi kommunikasiya imkanlarının olmasıdır, belə ki, iki fəaliyyətdə olan şəxsin vəziyyəti heç vaxt identik olmur, ayrıca xüsusi situasiyalardan kommunikasiyanı abstraktlaşdırma qabiliyyəti olmadan mümkün ola bilməzdi. Amma, öz növbəsində, bütün vaxt ərzində, bütün fərdlərə yayılmış simvolik sistemlərin stabilizasiyası, çoxlu iştirakçı şəxsin qarşılıqlı fəaliyyətində kommunikasiya prosesində funksiyalaşmadan saxlanıla bilməzdi. Məhz belə ümumqəbul edilmiş qarşılıqlı fəaliyyətdə funksiyalaşan simvolik sistem mədəni ənənələr adlanır."*

Haşiyə: E.Erikson, "Uşaqlıq və cəmiyyət":

"Mədəniyyət bioloji göstəriciləri inkişaf etdirir və cinslər arasında funksiyaları elə bölməyə cəhd edir ki, onlar eyni zamanda bədənin ramka-sxemlərində həyata keçirilməli olsun, konkret cəmiyyət üçün əhəmiyyətli individual Eqo üçün icra olunan olsun."

Beləliklə, hər iki alimin fikirlərindən belə bir nəticə çıxarmaq olar ki, mədəniyyət Libido Mənin libido obyekti ilə əvəzlənməsi, yəni nəsilvermə enerjisinin xaricə axıdılaraq xarici predmetlərdən "nəsilvermənin" - yəni əsər yaratmanı özündə təqdim edir. Müxtəlif Libido Mənlərin libidoz enerjisi xaricə axıdılarkən fərqliliklərdən azad olur və xaricdə insanlığın vahid libidoz enerjisi kimi meydana çıxır, hansı ki, həmin enerjinin daxilində olan hər bir individə keçərək ona yeni libido Mən yaradır. Belə ikincili libido Mən birincili Libido Məndən fərqli olaraq, daha ümumi, təkmil olur. Bununla da, mədəniyyət öz üzvlərinə universal Kimlik Məni müəyyən edir, bununla da Kimlik Məninə görə fərdlərarası fərqliliklər tədricən itir.

Mədəniyyət də abstrakt ictimai sferalara xas xarakteristikalara malikdir:

1. **Kimlik Mənlərinin subyektivizasiyası:** Tranzit Mənlər və Libido Mənlər real varlıqdan aydınlaşdığından müstəqil ekzistensiya etmək imkanına malik deyillər. Buna görə də, yalnız ruhda refleksiya olunaraq əks olunmaqla ekzistensiya edirlər. Biz bunu Kimlik Mənlərinin subyektivizasiyası adlandırırıq. Kimlik Mənlərinin müxtəlif formaları müxtəlif cür subyektivizasiya olunur. Tranzit Mənlər yalnız özü-üçün-varlıq təyinindən təzahür etdiyindən, konkret mahiyyətə malik olmur və ruhla subyektivizasiya olunarkən özlərində xalis ruhi mahiyyətə malik olurlar. Beləliklə, yaş - ruhun xalis varlıq təyininin heç bir mahiyyəti olmayan Tranzit Mənlərin özü-üçün-varlıq təyininin vəhdətindən meydana çıxır ki, bu da ayrı-ayrı mədəniyyətlərdə müxtəlif Tranzit Mənlərin müxtəlif səviyyələrdə meydana çıxmasına səbəb olur. Məhz Tranzit Mənlərin bu cür müxtəlifləşməsi cəmiyyətin və tarixin formalaşmasında bilavasitə rol oynamasına gətirib çıxarmışdır. Psixotarix elminin banisi L.DeMaus tar-

ixin mənasını uşaqların ayrı-ayrı tarixi dövrlərdə (eləcə də ayrı-ayrı xalqlarda) tərbiyə üsulunun fərqliliklərinin müəyyənləşdirdiyini iddia edir. E.Erikson isə bütünlükdə cəmiyyətin uşaqlığın müxtəlif səkkiz dövrünün ekzistensiyasının nəticəsi olması ilə bağlı nəzəriyyə irəli sürüb və uşaqlığın ayrı-ayrı dövrlərindəki psixoloji əlamətlərin ekzistensiya edərək cəmiyyət həyatında ictimai psixologiyanın əsasında durmasını sübut edib. Biz də öz növbəmizdə, "Tərəqqinin metafizikası" kitabımızda tarixi dövrləri insanın ayrı-ayrı yaş dövrlərinin xüsusiyyətlərinə uyğun şərh etməyə cəhd etmişik.

2. **Kimlik Mənlərinin abstraksiyası:** Ayrı-ayrı Kimlik Mənləri bədənin konkret forması ilə şərtlənmiş fərqli bioloji enerjilərə - yaş və cinslə müəyyən olunan fərqliliklərə malikdir. Kimlik Mənləri bu fərqliliklərdən azad edilməklə ekzistensiya olunduğundan, istənilən insanın Kimlik Mənlərinin ekzistensiyası ən ümumi keyfiyyətlərə malik olur, yəni konkretlikdən məhrum olaraq abstraksiyalaşır. Buna görə də, mədəniyyət nümunələrində əsərlə müəllifinin Real Məni arasında qarşılıqlı münasibət meydana çıxmır.

3. **Kimlik Mənlərinin simvollaşdırılması:** Çoxluğun tam təşkil etməsi və tamın təklikdə refleksiyası yalnız simvollaşdırma ilə mümkün olur.

Haşiyə: Talkott Parsons, "Sosial sistemlər haqqında"

> *"İşarə və simvollar xüsusən orada olur ki, harada ki sosial qarşılıqlı fəaliyyət olur, ümumi əhəmiyyətli olur və fəaliyyət göstərən şəxslər üçün kommunikasiya vasitələrinə xidmət edə bilər. Nə zaman ki, belə kommunikasiyada vasitəçi olmaq qabiliyyətinə malik simvolik sistemlər yaranır, biz mədəniyyətin başlanmasından danışırıq, hansı ki, onun daşıyıcıları - fəaliyyət göstərən şəxslər - onların fəaliyyət sisteminin hissələri olur. Simvolik sistemlərin mənşəyindən və inkişafından asılı olmayaraq, insan fəaliyyətinin mürəkkəbliyi nisbi stabil sistemsiz mümkün deyil; simvolik əhəmiyyəti, hansı ki, bir qayda olaraq xüsusi vəziyyətlərdən asılı olmur."*

T.Parsonsun fikirlərindən bir daha görünür ki, mədəniyyət sadəcə fərdi Kimlik Mənlərinin xarici mexaniki aqreqasiyasının təzahürü deyil. Bədəndən ekspressiya və ekzistensiya ilə kənara çıxarılan libido ilə fiktiv ruhun enerjisi differensiasiyaya, orqanizasiyaya və funksiyalaşmaya məruz qalır. Bu üç prosesin məcmusundan mədəniyyət yaranır. Mədəniyyət yaranmasını aşağıdakı zəruri mərhələdən keçir:

a) **Fiktiv ruhun ekspressiyası - sosial qarşılıqlı fəaliyyət:** Bu mərhələdə qarşılıqlı fəaliyyətdə olan hər bir fərddən libido ilə Fiktiv ruh bədəndən kənara - xaricə çıxarılır.

b) **Hissiyyatın ruhun təzahürlərindən ayrılması - ümuməhəmiyyətlilik:** Xaricə çıxarılan ruhi təzahür hissiyyatdan ayrılır, bununla fərdilik keyfiyyəti itir və ümumi əhəmiyyətlilik kimi fiktiv ruh xarici şeylərə əsər edir. Nəticədə, hər bir təbii şeyin xarici görüntüsünə süni xarici görüntü proyeksiya olunur, hansı ki, müxtəlif simvollardan - süni xarici görüntüdən ibarət olur.

c) **Simvolların mənalandırılması - simvolik sistemlərin yaranması:** Mövcud varlıqların forması mahiyyəti ilə - özü-üçün-varlıq təyini xalis varlıq təyini ilə - vəhdət təşkil etdiyindən, xarici görüntü konkret məna - şeyin ideyasını özündə ifadə edir və bu zaman məna xaricdə, obyektiv gerçəkliyin özündən çıxarılır. Lakin Fiktiv Ruhun əsəri kimi meydana çıxan süni xarici görüntü fiktiv ruhun xalis varlıq təyini ilə vəhdət təşkil etdiyindən süni formanın özündən məna aşkarlanmır, əksinə məna fiktiv ruhdan çıxarılaraq süni görüntüyə müncər edilir. Başqa sözlə, mədəniyyət nümunələrində ağıldan törəyən ideya xarici predmetlərin süni görüntüsü ilə fikrən vəhdətə gətirilir. Xarici təbii şeylərə proyeksiya olunmuş bir fiktiv ruhun özü-üçün-varlıq təyini hər bir fərdin fiktiv ruhu ilə vəhdət təşkil edir. Nəticədə, mahiyyəti fiktiv ruhun xarici çoxluğunda, forması xarici şeylərdə olan ruhun mövcud varlığı - **mədəniyyət nümunələri** meydana çıxır.

d) **Kommunikasiyanın əmələ gəlməsi - nisbi stabil sistemlər:** Mahiyyətlə formanın müxtəlif zaman və məkanda olmasına və formanın

ümumi mahiyyətin xüsusi olmasına görə, mədəniyyət stabil daşıyıcı vasitələr kimi təşkil olunaraq kommunikasiya vasitəsi kimi təzahür edir.

Beləliklə, hər hansı mədəni sferaya daxil olan fərd həmin sferadakı kommunikasiya sistemləri ilə ona xaricdən axıdılan libidoz enerji əldə edir, nəticədə fərd yeni mədəni mühitə uyğunlaşır. Mədəni mühitə uyğunlaşma bədənin ekspressiya imkanlarını və ruhun ekzistensiyasının yeni səviyyəyə qalxmasını özündə ifadə edir. Kimlik Mənləri can varlığından təzahür etdiyindən ekzistensiya zamanı enerjinin bədəndaxili strukturlaşmasına uyğun, bədənin orqanlarının özü-üçün-varlıq təyini həmin enerjilərlə kənara çıxarılaraq obyektivizasiya edilir. Nəticədə, **simvol** yaranır. Simvol bədənin ruh tərəfindən yaradılmış süni özü-üçün-varlıq təyinidir, hansı ki, konkret Kimlik Məni onunla vəhdət təşkil edərək bədəndən xaric totallıq yaradır. Buradan da, simvollarla ayrı-ayrı Libido Mənlər - əks cinslər və Tranzit Mənlər - uşaqlar və böyüklər arasında əlaqə yaranır. Yəni simvollar erkəklik və dişilik, uşaqlıq və böyüklüyə uyğun fərqlilikləri özündə ifadə edir.

Kimlik Mənlərinin abstrakt simvollaşdırılmasından **dil** meydana çıxır. Dil hər bir mədəniyyətin əsasını təşkil edir, hansı ki, dildə olan hər şey mədəniyyətdə aydınlaşır və mədəniyyətdə olan hər şey dildə aşkarlanır. Dil elə bir mühitdir ki, insan ruhu onda hərəkət edir.

> ***Haşiyə:*** *K.Hübner, "Millət" - "Dil - istənilən milli ruhun hərəkət etdiyi mediumdur."*

4. **Kimlik Mənlərinin obyektivizasiyası:** Kimlik Mənlərinin simvollarının konkret xarici predmetlərə proyeksiyasından onların obyektivizasiyası meydana çıxır, hansı ki, biz bunları **maddi mədəniyyət nümunələri** adlandırırıq. Hər bir maddi mədəniyyət nümunəsi özündə konkret Kimlik Mənlərinə xas enerjinin bədəndən kənar strukturlaşması kimi mövcuddur. İstənilən maddi mədəniyyət nümunəsinin iki tərəfi vardır:

I.Real varlıq tərəfi: Bu hər bir maddi mədəniyyət nümunəsinin xarici şeyini təşkil edən təbii tərəfidir (məsələn, ağac, daş, dəmir, kətan, kağız və s.). Həmin tərəfin həqiqəti özünəxas xalis varlıq təyini ilə öz təbii özü-üçün-varlıq təyininin vəhdətindən aydınlaşır.

II.Mümkün varlıq tərəfi: Hər bir maddi mədəniyyət nümunəsinin Kimlik Məninin enerjisi ilə ikincili süni forma almasının onu yaradan, yəni Kimlik Mənini özündə refleksiya edərək əks etdirən ruhun vəhdətidir. Həmin vəhdətdən Kimlik Mənlərinin xarici totallığının həqiqəti aydınlaşır.

5. **Kimlik Mənlərinin universallaşdırılması:** Mədəni sfera - taksis - süni ətraf kimi təşkil olunur. Bədənlə ətraf arasındakı təbii maddələr mübadiləsinə uyğun, Kimlik Mənləri ilə mədəni mühit arasında libido enerjisinin mübadiləsi reallaşır. Hər bir mədəni mühitə düşən şəxs həmin mühitdən libidoz enerji alaraq öz Kimlik Mənini daha ali səviyyəyə qaldırır. Mədəni mühitin fərdi mədəni formalaşdırmasından universal mədəni modellər meydana çıxır və hər bir şəxs öz məxsus olduğu mədəniyyətin modeli kimi formalaşır. Mədəniyyətin yaranması ilə ictimai sferaların bədən və ətraf mühitlə əlaqələnməsi başa çatır.

Haşiyə**:** Talkott Parsons, "Sosial sistemlər haqqında" - Mədəni modelin üç mədəni səviyyəsi:

Koqnitiv ideya və ya əqidələrin sistemi.

Ekspressiv simvolların və ya requlyativ standartların sistemi.

Dəyər-istiqamətlənmə standartlarının inteqrə olunmuş sistemləri.

2. Xalq: Ruhun azadlıq prinsipi əsasında Kimlik Mənlərinin aktiv mexaniki aqreqasiyasında obyektivizasiya olunmuş Subyektiv Mənlərin birliyi **xalq** kimi təzahür edir. Xalqın da sinif kimi iki tərəfi vardır: a) **Konkret tərəf:** Xalqı təşkil edən Kimlik Mənlərinin birliyi. b) **Abstrakt tərəf:** Xalqı təşkil edən insanların Subyektiv Mənlərinin təşkil etdiyi intensional birlik.

Xalqın abstrakt birliyi xalqın **mentaliteti** - xalqın ruhu kimi meydana çıxır. Mentalitet hər bir xalqın azadlıq cəhdlərinin dərəcəsini, xarakterini, üsul və vasitələrini, mahiyyətini özündə əks etdirir. Subyektiv Mən Kimlik Mənlərinin sensitivlik keyfiyyətini - insan fərdinin başqalarının istiqamətləndirmə təsirini qəbul etmə xarakteristikasını özündə refleksiya edərək əks etdirir, hansı ki, ayrı-ayrı qəbul etmə reaksiyalarının ən ümumi tərəfini təşkil edir. Mədəniyyətlə xalqın vəhdəti ruhun mövcud varlığının xüsusi formaları kimi mövcud olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Ruhun xüsusi mövcud varlığı - xalqla onun yaratdığı mədəniyyətin vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.**

C. SUBYEKTİV MƏNLƏRİN PROYEKSİYA OLUNDUĞU SİYASİ SFERA

İnsan gerçəkliyinin özündənkənarşeyinin xalis varlıq təyinindən yaranan xarici totallıq **siyasi sferanı** təşkil edir. Siyasi sfera təbiiliklə hər cür əlaqədən məhrum, mədəniyyət və iqtisadiyyatla ikincili əlaqələnmiş, yalnız Subyektiv Mənlərin yaratdığı vəhdətdən meydana çıxan ictimai sferadır. Buradan da, siyasi sferanı xalis abstrakt sfera kimi qəbul etmək lazım gəlir. Siyasi sfera ruhun xalis varlıq təyinindən yarandığından özündə xalis fikir və ya ideyaların vəhdəti kimi mövcud olur. Siyasi sfera abstrakt insanlığın - millətin - ayrı-ayrı tərəflərinin vəhdəti kimi mövcuddur. Buna görə də, siyasi sfera millətə xas keyfiyyətlərlə xarakterizə olunur. Bura aşağıdakıları aid etmək olar:

1. **İndeterministik olmaq:** Təbiiliklə birbaşa əlaqəsi olmadığından siyasi sferalar determinasiyaya tabe olmur.

Haşiyə: K.Hübner, "Millət"

"Milli dəyişikliklər prosesi determinə edən deyil. Buna görə də, siyasi sferada proseslər həm keçmişə, həm gələcəyə istiqamətdə

hərəkət edir, bəzən isə indidə donub qalır. Buradan da müxtəlif siyasi sferalar meydana çıxır."

2. **Xaotiklik və qeyri-stabillik:** İstənilən cəmiyyət İnsanlığın totallığı kimi insanlıqdan uzaq olduğu qədər özündə xaotiklik nümayiş etdirir. Ruhun Xarici totallığı, xarici aləmi bir tam kimi bütün insanlıq tərəfindən bir nəfər kimi refleksiya olunduqda, xarici totallıq hər cür xaotiklikdən azad ola bildiyindən, istənilən millətin yaratdığı xarici totallıq xaotik və qeyri-stabildir. Siyasi sfera xaotik olduğundan həm də dayanıqsızdır. Buna görə də, siyasi sfera mütəmadi dəyişilməyə meyllənir. Dayanıqsızlıq özündə ruhun mövcud varlığının qurulmasının başa çatmadığını və prosesin davamlılığını özündə ifadə edir.

3. **İdentiklik:** Ruhun reallığı olmadığından fərqliliyi də yoxdur. Buna görə də ruh bədəndən azad olduqca identifikasiyaya - fərqsizləşməyə məruz qalır. Buna görə də istənilən siyasi sfera identik qaydalara əsaslanır, yəni siyasi sferada şəxsiyyətlər bir-biri ilə identifikasiya olunur. Bunun üçün siyasi sferada identifikasiyaedici üsul və vasitələr - qanunlar, qaydalar, hüquq və s. meydana çıxır.

4. **Obyektivizasiya:** Siyasi sfera ictimai münasibətlərə proyeksiya olunaraq obyektivizasiyaya məruz qalır. Nəticədə **dövlət** meydana çıxır. Dövlət atributları bu mənada obyektivizasiyaya məruz qalmış ruhun xarici totallığının simvolları kimi mövcuddur.

İnsan mahiyyətlərinin aparıcılıq və əvəzlənmə prinsipinə görə üç cür siyasi sfera ayırd etmək olar:

1. **Özü-üçün-varlıq təyinindən meydana çıxan siyasi sfera:** Belə sferanın aparıcı Məni Real Mən olduğundan özündə cismə xas ölçülülüyə malikdir. Əsas xarakteristikası əhalinin kütləsi, ərazi və iqtisadi imkanlardır. Belə sferada dövlət forması kimi **imperiyalar**, idarəetmə üsulu kimi **totalitarizm** meydana çıxır.

2. **Mövcud varlıq təyinindən meydana çıxan siyasi sferalar:** Belə sferalarda aparıcı Kimlik Mənləridir. Kimlik Mənlərinin ekzistensiyasından mədəniyyət yarandığından belə sferaların əsas xarakteristikası

mədəniyyətdir. Belə sferalar həm məkan, həm də zaman ölçülülüyünə malikdir. Belə sferaların dövlət forması **milli dövlətlər**, idarəçilik üsulu **demokratiyadır**.

3. **Xalis varlıq təyinindən meydana çıxan siyasi sferalar:** Belə sferaların aparıcı Məni Subyektiv Mənlərdir. Subyektiv Mənlərin xarici totallığı xalis fikir və ya ideyaların vəhdəti kimi meydana çıxdığından belə sferaların dövlət forması **mühacir dövlətlər**, idarəçilik üsulu **liberalizmdir**. Bu üç əsas formadan başqa, bu üç formanın müxtəlif kombinasiyalarından çoxlu sayda aralıq və keçid siyasi sferalar da aşkarlamaq olur.

SOSİAL SİSTEMLƏR

Həqiqət yalnız vəhdətdən aydınlaşdığından, insan gerçəkliyi üç müxtəlif Məninin vəhdəti kimi aktuallaşdığından, ayrılıqda götürülmüş heç bir ictimai sfera ruhun xarici totallığından aydınlaşan həqiqəti özündə aydınlaşdırmır. Buna görə də, həqiqətin özünü aydınlaşdırma meylinə uyğun ictimai sferalar bir-biri ilə vəhdət təşkil edərək ruhun xarici totallığı haqqında həqiqəti aydınlaşdırır; bu vəhdət **sosial sistem** kimi təzahür edir.

Haşiyə: Talkott Parsons, "Sosial sistemlər haqqında"

> *"Lüğət bizə aydınlaşdırır ki, "sistem" - bir-biri ilə münasibətdə və əlaqədə olan və müəyyən vəhdətin tamlığını təşkil edən elementlərin məcmusudur. Bu "tamlıq" anlayışı özündə çox mühüm məna daşıyır. Tamlıq - sistemi təşkil edən elementlərin xüsusiyyətlərinin cəminin sistemin xüsusiyyətlərinin prinsipial toplusunu təşkil etməməsi və sonuncudan tamın xüsusiyyətlərinin çıxarılmasının mümkün olmamasıdır; sistemin hər bir elementinin xüsusiyyət və münasibətləri tamın daxilində yerindən, funksiyasından və s. asılılığıdır."*

Beləliklə, sosial sistem ayrı-ayrı sosial sferaların elə qarşılıqlı münasibəti və əlaqəsini özündə təqdim edir ki, həmin münasibət və

əlaqədən yaranan vəhdət onu təşkil edən hər bir sferadan fərqli olaraq, özündə ruhun xarici totallığının fərdin daxili totallığında refleksiya etməsi ilə həqiqətini aydınlaşdırır və həmin həqiqətin nisbiliyi sistemi təşkil edən sferaların yeri və funksiyası ilə müəyyənləşir. Məsələn, iqtisadi sferanın digər sferalardan prioritet təşkil etdiyi sosial sistemlərdə antidemokratiya, əksinə iqtisadi sferanın başqa sferalarla paritetindən demokratiya inkişaf edir, hansı ki, demokratiya antidemokratiyaya nisbətən özündə ruhun xarici totallığının həqiqətini daha yəqin formada aydınlaşdırır və belə sistemdən aydınlaşan demokratiya və ya antidemokratiya onların ayrı-ayrı sferalarından aydınlaşmır. Hər bir sosial sistemin öz strukturu və davranışı vardır.

- **Sosial sistemin quruluşu:** İctimai sferaların fərqli kombinasiyalarda vəhdət təşkil etməsindən.
- **Davranışı:** Sosial sistemlərin qarşılıqlı fəaliyyətindən meydana çıxır.

Sosial sistemlər sinergizm qanunauyğunluğuna tabe olaraq, məlumatın toplanması, ötürülməsi qabiliyyətinə malikdir. Buna görə də hər bir sistem məlumatı sistemləşdirən, strukturlaşdıran idarəetməyə və özünütəşkilatlanmaya malikdir. Sosial sistemlər fərdi xarici istiqamətləndirici amillər kimi mövcuddur, hansı ki, daxili tələbatların fərdi istiqamətləndirməsindən fərqli olaraq, onun iradəsi xaricindədir. Buradan da sosial sistemdə istiqamətlənmə mühüm əhəmiyyət kəsb edir. Sosial sistemin istiqamətləndirici mexanizmlərinin məcmusu **idarəetmə** kimi təzahür edir. Fərd sosial sistemdə passiv element deyil, o ağla malik olduğundan sosial sistemin istiqamətləndirici mexanizmlərinə şüuri münasibətdə olur. Buradan sosial sistemin aktı meydana çıxır.

Haşiyə: Talkott Parsons, "Sosial sistemlər haqqında"

> *"Akt - sosial sistemin o ölçüdə vahidinə çevrilir ki, hansı ki, aktorlar arasında qarşılıqlı təsir prosesinin hissəsi olur."*

Hər bir akt fərdin kamillik səviyyəsindən asılı olaraq, sosial sistemin müxtəlif iyerarxiyalarında meydana çıxır. Buradan **status-rol** (fərdin konkret iyerarxiya ilə müəyyənləşmiş hüquqları ilə tənzimlənən akt) meydana çıxır, hansı ki, sosial sistemdə mürəkkəb çoxtərəfli qarşılıqlı münasibətlərdə fərdin iştirakçılığını müəyyən edir. Bu üç faktor - **akt, status-rol və iştirakçılıq** sosial sistemlərin tipini müəyyən edən sosial faktorlar kimi çıxış edir. Buradan da, fərdin düşüncəsinin tipi ilə sosial sistemdə istiqamətlənməsi arasında əlaqə yaranır. Düşüncə tipləri məntiqin konkret formaları əsasında meydana çıxdığından, insanların vəhdətə cəlb olunması-istiqamətlənməsi məntiqin müxtəlif formalarına uyğun fərqli qaydalarda meydana çıxır.

- **Stabil cəmiyyətlərdə** fərdlər səlis məntiqlə təbii mübadilə prosesinə uyğun xətti ardıcıllıqla vəhdətə cəlb olunurlar. Bu zaman **istehsal-bölgü-mübadilə-istehlak** xətti əlaqəsi yaranır.
- **Qeyri-stabil cəmiyyətlərdə** cəlbolunmanın xətti əlaqəsi pozulur, onun əvəzinə qeyri-xətti əlaqə meydana çıxır. Nəticədə, alternativli cəlbolunma xətləri meydana çıxır. Belə şəraitdə şəxs xaotik seçimlər seriyası ilə vəhdətə cəhd edir. Belə cəlb olunma qeyri-səlis məntiqə əsaslanır.
- Şəxsiyyət cəmiyyətdə eyni zamanda bir çox sferalarda olmaq zərurətində **lateral məntiqlə**, yəni eyni zamanda bir neçə xətti əlaqədə vəhdət təşkil edir. Nəticədə, fərd, eyni bir insan paralel olaraq iki və daha artıq sferada iştirak etmək imkanı əldə edir.

Hər bir sosial sistem özündə ruhun xarici totallığının bir səviyyəsini və bir tərəfini dəyərlər formasında təzahür etdirir, hansı ki, sosial sistemin hər bir aktoru həmin dəyəri özündə refleksiya etməklə öz daxili totallığını ruhun xarici totallığına uyğunlaşdırır. Beləliklə, dəyərlər digər simvolik sistemlər kimi fərdlərarası qarşılıqlı fəaliyyətdə kommunikasiya rolu oynayır.

Haşiyə: Talkott Parsons, "Sosial sistemlər haqqında"

"Mahiyyət etibarı ilə, şəxsiyyətin dinamik elementləri ilə sosial sistem bir və eyni 'materialdan' hazırlanmışdır, ancaq bu material konseptual olaraq bu iki fərqli sistemin analizi üçün fərqli təşkil olunmalıdır."

Başqa sözlə, fərd və cəmiyyət fərqli özü-üçün-varlıq təyinindən bir və eyni xalis varlıq təyini ilə vəhdət təşkil etməklə mövcud varlığa çevrilir, hansı ki, hər ikisi bir və eyni xalis varlıq təyinindən meydana çıxır.

SOSİAL SİSTEMLƏR ARASINDA QARŞILIQLI MÜNASİ–BƏTLƏR

Formal Ruhun həqiqəti bütün insanlıqdan aydınlaşdığından, fərqli sosial sistemlər bir-biri ilə vəhdət təşkil edərək öz dövrünün formal Ruhunun həqiqətini nisbi olaraq özündə aydınlaşdırır. Sosial sistemlər arasında iki cür vəhdət müəyyənləşdirmək olar:

a) **Üfüqi əlaqələr üzrə vəhdət:** Eyni zamanda müxtəlif məkanda sosial sistemlərin vəhdəti. Belə vəhdət eyni zaman, müxtəlif məkan şərtlərində meydana çıxan sosial sistemlər arasında yaranan vəhdətdən ibarətdir. Məsələn: İkinci Dünya Müharibəsindən sonra meydana çıxan ikiqütblü dünya düzəni belə vəhdəti özündə təqdim edir.

b) **Şaquli əlaqələr üzrə vəhdət:** Eyni məkanda müxtəlif zamanlarda mövcud olan sosial sistemlər arasında vəhdət; eyni bir sosial sistemin eyni məkanda müxtəlif zamanlarda özü-özü ilə təşkil etdiyi vəhdət. Buradan sosial sistemlərin dinamikası - onların təkamülü meydana çıxır. Tarixi inkişaf prosesində bütün sosial sistemlər universallaşma istiqamətində bir-biri ilə eynilik təşkil etmək meylindədir.

Sosial sistemlərin eyniliyi və fərqliliyi onlar arasında fərqli münasibətləri meydana çıxarır. Sosial sistemlər abstrakt olduğu kimi, onlar arasındakı bütün münasibətlər də fərdlərarası subyektiv

münasibətlərə oxşardır. Sosial sistemlər arasında aşağıdakı münasibətləri aşkarlamaq olar:

a) **Xalis varlıq təyinindən sosial sistemlər arasında münasibət - Həmrəylik:** İki müxtəlif fiktiv ruhun və ya ruhun formal varlığının eyni dəyərlər əsasında formalaşması həmrəylik kimi təzahür edir.

b) **Mövcud varlıq təyinindən sosial sistemlər arasında münasibət - Əməkdaşlıq:** İki müxtəlif ruhun formal varlığının qarşılıqlı faydalanmaya əsaslanmış münasibəti əməkdaşlıq kimi təzahür edir. Əməkdaşlıq xüsusi ruhun formal varlıqları arasında fəaliyyətin əlaqələndirilməsi ilə reallaşır. Belə münasibət fərqli sosial sistemlər arasında yaranır.

c) **Özü-üçün-varlıq təyinindən sosial sistemlər arasında münasibət - Düşmənçilik:** Özü-üçün-varlıq təyini orijinallığı meydana çıxardığından belə təyin əsasında sosial sistemlər tək kimi mövcuddur və başqa sistemlə hər hansı əlaqəyə meyl etmir. Nəticədə, sosial sistemlər arasında bir-birini inkar - düşmənçilik meydana çıxır. Həqiqətin aydınlaşmasının azalma meylində ruhun formal varlıqları arasında münasibət düşmənçilik kimi meydana çıxır. Düşmənçilik özündə həqiqətin aydınlaşmasının artma meylini təmin etmək üçün bir ruhun formal varlığının digərini sıradan çıxarmaq cəhdidir. Düşmənçilik rasionallıqla irrasionallığın müştərək təzahürüdür.

İNSANLIĞIN RUHUN FORMAL VARLIĞI - TOTAL "MƏN"

Bəşəriyyətin universal dəyərlər əsasında birləşməsində əmələ gələn vahid tarixi insan birliyi İnsanlığın Formal Ruhu kimi təzahür edir. Ayrı-ayrı sosial sistemlərin vəhdətindən **Total Mən**, özündə ruhun xarici totallığını ən ümumi şəkildə təzahür etdirən abstrakt insanlıq - **bəşəriyyət** yaranır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır: **Bəşəriyyət - Ümuminsanlıq ruhunun formal varlığının zəruri şərtlərinin məcmusundan ibarətdir.**

Bəşəriyyət - formal ruhun vahid xarici totallığıdır, hansı ki, bütün kainatı özündə refleksiya edərək, kosmik nizam əldə edir və hər bir insan

özündə həmin xarici totallığı refleksiya edərək, digər bütün insanlarla bir və eyni vahidə - insanlığın vahidinə çevrilir. Beləliklə, İnsanlıq bir tam kimi özündə Formal Ruhun varlığını xarici totallığından onun həqiqətini aydınlaşdırır, hansı ki, xalis fikir və ya ideyalardan ibarət olur. Total Mən ayrı-ayrı cəmiyyətlərin ictimai sferalarının ümumdünya vəhdəti təşkil etməsindən aydınlaşır. Buradan da üç mühüm proses meydana çıxır:

1. **Qloballaşma:** İqtisadi sferanın yer kürəsininin sərhədlərində vahidləşməsi. Qloballaşma özü-üçün-varlıq təyininin xarici totallığının yaranmasını özündə təqdim edir. Qloballaşma nəticəsində ölçülər, etalonlar, qiymətlər və məhsullar eyniləşir.
2. **Beynəlmiləlçilik:** Beynəlmiləlçilik insanın mövcud varlığının xarici totallığı kimi təzahür edir. Bu zaman bir tərəfdən Kimlik Mənləri arasında fərq aradan qaldırılır, qadınlıq və kişilik nisbi əhəmiyyət kəsb edir, digər tərəfdən tranzit Mənlər eyniləşir (bunun təbii təzahürü vunderkind və akselerasiyadır). Digər tərəfdən, Kimlik Mənin ekstensiyası nəticəsində yaranan mədəniyyət eyniləşir. Vahid dünya dili meydana çıxır.
3. **İnsanlıq (Humanizm):** Dəyərlərin bütün insanlıqda universallaşması. Azadlıq, bərabərlik və ədalət bütün insanlar arasında eyni dəyərlər kimi mövcud olur, həm də bu dəyərlər ruhun mütləq prinsiplərini özündə refleksiya edir. Dəyərlərin ümumiləşməsi ilə siyasi sferada **Dünya dövləti** və **Dünya Vətəndaşı** yaranır. Digər tərəfdən, hər bir fərd özündə dövləti refleksiya edir, dünya dövləti ilə dünya vətəndaşı eyniləşir.

Bu üç prosesə uyğun fərdi səviyyədə üç cür proses aşkarlanır:

1. **Standartlaşma - insanın özü-üçün-varlıq təyinindən eyniləşməsi:** İnsanın istehlak etdiyi hər şeyin və insan bədənlərinin məkani ölçülülüyünün eyniləşməsi. Məhsulların standartlaşması pozitiv proses olduğundan daha sürətli inkişaf edir. İnsan bədənlərinin standartlaşması iki üsulla - təbii və süni üsullarla reallaşır. Təbii yolla

standartlaşma klonlaşdırma ilə mümkündür. Süni yollara məşqlər, kimyəvi təsirlər və s. aiddir.

2. **İdentifikasiya - insanın mövcud varlıq təyinindən eyniləşməsi:** Fərdlərin hamısının hissi təcrübəsinin eyniləşməsi. Bu proses bir tərəfdən hissi təsirlərin eyniləşməsi, digər tərəfdən eyni hisslərin müxtəlif insanlar tərəfindən eyni cavab verilməsi ilə mümkün olur. Burada proses iki müxtəlif üsulla - təbii və süni yollarla inkişaf edir. Süni yollara süni hiss texnologiyaları aiddir. Bura həm kimyəvi maddələrin təsirindən müxtəlif hisslərin yaranması, həm də xüsusi hissi situasiyaların yaradılması aiddir. Təbii yolla identifikasiyaya hissi təsir edən obyektlərin standartlaşması və hissi təsiri qəbul edən analizatorların standartlaşması aiddir.

3. **Unifikasiya - insanların xalis varlıq təyinindən eyniləşməsi:** Xalis varlıq təyini ruhi atributlarla təzahür etdiyindən unifikasiya ağlın, simvolların, ictimai münasibətlərin və sosial təşkilatların eyniləşməsi ilə müşahidə olunur.

Beləliklə, fərdin daxili totallığı ilə Ruhun xarici totallığı vəhdət təşkil edir və bu vəhdətdən Formal Ruhun həqiqəti aydınlaşır. İnsan cəmiyyətlərinin bütünlükdə bəşəriyyəti təşkil etməsi Formal Ruh - **Mütləq Ruh** aktuallaşır. Mütləq Ruh bütün insanların birliyində təzahür etdiyindən, əvvəlki insanla son insan arasındakı bütün insanlarda aydınlaşan ən ümumi keyfiyyətlərin məcmusundan ibarətdir. Formal ruhda aydınlaşan həqiqət həm fərdi fiktiv ruhu, həm də ruhun formal varlığını əhatə edərək onları öz arxasında gizlədir. Beləliklə, bədənlə, ətrafla, irsiyyətlə şərtlənmə tarixlə şərtlənmə ilə əvəz olur. Tarixlə şərtlənən ruhda həqiqət tarixi prosesdə tam aydınlaşır və aşkarlanır. Bu, **tərəqqi** prosesini təqdim edir. Tərəqqi özünün bütün rəngarəngliyinə, uzunmüddətliliyinə və mürəkkəbliyinə baxmayaraq, həqiqətin tam aşkarlanması və təfəkkürdə entropiyadan azad olunmuş şəkildə aydınlaşması prosesindən ibarətdir. Tarixi inkişafın mənası

həqiqətin şərtlənməmiş ruhda aydınlaşmasından ibarətdir ki, bu da Kantın təbirincə desək, **Xalis Zəkanın** təzahüründən ibarətdir.

Ruhun Formal varlığının üç xarakteristikasını ayırd etmək olar:

1. **Tamlaşma:** Ruhun vahid məkani ölçülər əldə etməsi. İnsanlar tarixi inkişaf prosesində qarşılıqlı təsirlə bir-birini refleksiya edir və bu proses bir fərdin bütün insanları özündə empatiya etməsinədək davam edir. Tamlaşma eyni zaman və məkan şərtində Ruhun formal varlığını ayrıca bir fərddə təzahür etdirir.
2. **Tarixilik:** Ruhun vahid zaman ölçülülüyü əldə etməsi. Bir fərdin müxtəlif məkan və zaman şərtlərində bütün insanları özündə empatiya etməsindən Ruhun Formal varlığının tarixilik xarakteristikası yaranır.
3. **Kamillik:** Bu xarakteristika özündə Ruhun real varlığın xalis varlıq təyinindən refleksiya edərək özünün Kosmik nizamlamasını təqdim edir. Kamillik - Ali məqsədlə - bütün insanların eyni məqsədləri ilə - insanlığın yaranışının başlıca vahid məqsədi ilə - bu bəşəri dəyərlər formasında meydana çıxır. Kamilləşmə hər bir fiktiv ruhun özündə ruhun formal varlığının keyfiyyətlərinə keçməsini özündə təqdim edir.

Total Mən bədən və məkanla şərtlənməmiş xalis varlıq təyinindən ruhun təzahür etməsi ilə meydana çıxır. Bununla da, mümkünlüyün üçüncü səviyyədən mövcudluq tələbinə formal ruhun özü-özünə mövcudluq əldə etməsi başa çatır və ruhun müstəqil mövcud varlığı yaranır.

FİKTİV RUHİ VARLIQLAR

Mövcud varlıqlar (təbii, real, obyektiv gerçək varlıqlar) bir substansiyanın bir forma ilə vəhdəti prinsipinə uyğun mövcud olduqlarından, özündə iki və daha çox substansiya saxlayan və ya mahiyyəti forması ilə vəhdətdən ayrılıqda təsəvvürə gətirilən, buna görə təbiət qanunlarına tam tabe olmayan və ya ümumiyyətlə tabe olmayan varlıqları biz **qeyri-təbii**, **fiktiv**, **nəzəri** və ya **ehtimali varlıqlar** adlandırırıq. Belə varlıqlar təbiətdə xüsusi mövcud varlığı - forması ilə mahiyyətinin daxili vəhdəti olmayan, buna görə də xaricdə - zəruri zaman-məkan şərtlərində faktiki götürülməsi mümkün olmayan, yalnız daxildə - təfəkkürdə, təsadüfi şərtlərin məcmusunda ruhun özü-özündə obyektlə subyektin faktiki və formal varlıqlarının sintezindən fikrən yaratdığı, təsəvvürlərdən ibarət, fikrən götürülən formal varlıqlardır.

Şüurlu İnsan özü təbiətdə mövcud olan başlanğıc fiktiv varlıqdır; hansı ki, özündə təbii olanla - bədənlə, qeyri-təbii olanın - ruhun əlaqəsindən aşkarlanır. Burada, əlaqə ilə vəhdət anlayışını fərqləndirmək lazımdır. **Vəhdət** - tərəflərin müstəqil mövcudluğunun istisnası ilə yaranan və ya bunu tələb edən birlik; **əlaqə** - tərəflərin müstəqil mövcudluğunun saxlanması ilə yaranan və ya bunu tələb etməyən birlikdir. Buradan da, vəhdətdə onu təşkil edənlərin xüsusi qanunları aşkarlanmır, əlaqədə bunun əksinə, həm tərəflərin hər birinin, həm də onların hər ikisinin tabe olduğu ortaq qanunlar aşkarlanır. Fiktiv insan varlığında bədən təbiət qanunlarından, bədənlə ruhun əlaqəsində hər ikisi psixoloji qanunlardan, bədənsiz formal ruh cəmiyyətin qanunlarından aşkarlanır. Beləliklə, şüurlu insan eyni vaxtda üç müxtəlif qanunlar

sistemində aşkarlanan varlıq olduğundan, fiktiv varlıq kimi təyin olunmalıdır.

Fiktiv ruhi varlıqlar təbii fiktiv varlıq olan şüurlu insanın təsəvvürlərində ikincili olaraq reflektiv yaranan varlıqlardır.

Haşiyə: Otto Veyninqer, "Metafizika"

> *"İnsan bütün dünyadakı hər şeyə münasibət qurur, bütün şeylər bu və ya başqa formada onun özündə olmalıdır. Dünyanın sistemi mənim üçün insanın sistemi ilə identikdir. Təbiətdə mövcud olan istənilən forma insanın hansısa xüsusiyyətinə uyğundur, insanın hər bir imkanına təbiətdə nəsə uyğundur. Beləliklə, təbiət, təbiətdə hissi qavranılan hər şey, insanda psixoloji kateqoriyalarla izah olunur və yalnız sonuncunun simvolu kimi baxılır."*

O.Veyninqerin şərhi ilə razılaşsaq, onda o şey ki, insan beynində hissi qavramadan kənar intuitiv üsulla idrak olunur, həmin şeyin bu və ya başqa xüsusiyyətinə uyğun nəsə vardır. Buradan da, fiktiv ruhi varlıqlarla bağlı aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İnsanın intuitiv yolla aşkarladığı bütün fiktiv ruhi varlıqların ən azından bir tərəfi təbiətdə - obyektiv gerçəklərdə, digər tərəfi simvol kimi mücərrəd şəkildə metafizikada - formal ruhun özündədir.

Varlığının bir tərəfi ağıldan, digər tərəfi təbiətdən aşkarlanan varlıqlar eyni zamanda həm təbii, həm də qeyri-təbii varlıqlar olur. Buna görə də, belə fiktiv varlıqlar eyni anda həm var - yəni insandan kənarda təbiətdədir, həm də yoxdur - yəni insan təfəkküründə mücərrəd varlıq kimi təsəvvürdən ibarətdir. Başqa sözlə, fiktiv ruhi varlıqlar həm də gerçək insanın özündən, onun ən hüdudi və nadir formalarından aşkarlanır.

Təbiət insan təfəkküründə refleksiya edərək özünün hansısa tərəfi ilə ruhun hansısa xüsusiyyətindən sintez olunan varlıqların yaranmasına səbəb olduğundan, belə varlıqların təbiətini aşkarlamaq üçün refleksiya prosesinin təbiətinə nəzər salmaq lazımdır. Təbiət ölçülü, sabit və dəyişən məkan və zaman şərtlərinin məcmusu kimi mövcuddur. Buna

görə də, təbii varlıqlarda refleksiya ölçülü sabit və ölçülü dəyişən şərtlərlə reallaşır. Təbiətdə iki cür refleksiya vardır:

A. Mövcud varlıqlarda refleksiya:

1. **Əksolunma və ya cisimdə refleksiya:** Cisimlər zəruri sabit şərtlərdə mövcud olduqlarından, cisimlərin bir-birini refleksiyası zamanı əksetmə əks olunanla qarşılıqlı şərtlənir. Nəticədə əks əksolunanla eyni sabit ölçülü olur. Belə zəruri şərtlərlə refleksiyanı biz **əksolunma** və ya **əksetmə** kimi qavrayırıq. Əksolunmada əks olanla əks eynilik təşkil edir və insan tərəfindən onların eyniliyindən qavranılır. Əksolunma ilə həm xarici hərəkət, həm də xarici sabitlik və ya sükunətdə olanlar refleksiya edir. Əksolunma başlanğıc və ya sadə refleksiya kimi təyin oluna bilər.

2. **Tanıma və ya canlılıqda refleksiya:** Canlılar dəyişən ölçülü zəruri şərtlərin məcmusundan ibarət olduğundan, canlılarda refleksiya dəyişən ölçülü əkslərin məcmusundan əldə edilir. Yəni bir canlı zamandan asılı olaraq, başqasında çoxlu sayda fərqli sabit şərtli əkslər yaradır. Yəni eyni bir canlı vaxtdan asılı olaraq fərqli cisimlər kimi əks olunur. Bütün bu fərqli əkslərin bir və eyni canlıya aid olması həmin əkslərin zərurətə görə biri-biri ilə əlaqələndirilməsi ilə mümkündür ki, bu da tanıma kimi meydana çıxır. Buradan aşağıdakı kosmoloji ideya aşkarlanır:

Tanınma - eyni bir varlığın fərqli əkslərindən onun məcmui əksinin zəruri şərtlərinin məcmusundan ibarətdir.

Tanınmanın şərtləri canlıların şərtlərinin zəruriliyindən meydana çıxır. Belə ki, əgər əksolunmada cismin mövcudluğunun şərtlərinin zəruriliyi əksolunma prosesində iştirak etmirsə, bundan fərqli olaraq, canlılarda zərurət tam kənarlaşdırılmır və canlının özündən çıxaraq əkslərinin arasındakı əlaqəyə keçir. Buradan da, dəyişən əkslər arasında zərurət meydana çıxır. Bu zərurətə görə, canlılar dəyişən fərqli əkslərin zərurətə görə vəhdətindən bir-birini refleksiya edirlər, yəni tanıyırlar. Biz bunu daxili hərəkətin refleksiyası kimi təyin edirik.

Dəyişən əksetmənin (tanınmanın) iki formasını ayırd etmək olar:

a. Birtərəfli dəyişilmə ilə tanıma: Belə tanımada əks edən dəyişən, əks olan sabit zəruri şərtlərə malik olur. Bitkilərdə bitilən yer və heyvanlarda yaşam arealı məhz bu cür əksolma ilə tanınır. Yəni, bitkilər özləri dəyişən zəruri şərtlərdə, bitdiyi torpaq isə sabit zəruri şərtlərdə mövcud olur. Bu şərtlərdə bitki böyüməsinə baxmayaraq eyni bitdiyi yerin şərtlərini eyni cür refleksiya edir. Eynilə heyvanlar da anadan olduqları ilk andan yaşam areallarını tanıyırlar və ölənə qədər eyni arealı özlərində refleksiya edirlər.

b. İkitərəfli dəyişilmə ilə tanınma: Dəyişən şərtlərdə mövcud olan canlılar dəyişən şərtlərə malik xarici mövcudluqları özlərində refleksiya edərək tanıyır. Buradan da iki hal meydana çıxır.

- Birincisi, **passiv tanıma**. Belə tanımada bir dəyişən tərəf digər tərəfin dəyişilməsini özü dəyişilməklə tanıyır. Məsələn, bitkilərin dəyişən fəsilləri - iqlim şərtlərini özündə refleksiyasından meydana çıxan tanımada iqlim dəyişdikcə bitki də dəyişilməklə onu refleksiya edir, yəni tanıyır. Buradan da, bitkilərdə fəsli həyat meydana çıxır. Parnikdə sabit iqlim şəraiti yaradıldıqda bitkilər dəyişilmə ilə iqlimi refleksiya etmir, yəni fəsillik meydana çıxmır. Heyvanlar da müxtəlif iqlimləri refleksiya edir. Buradan fəsildən asılı olaraq xəzin dəyişilməsi, rəngin dəyişməsi, qış yuxusuna getmək və s. kimi tanıma meydana çıxır; hansı ki, belə tanıma heyvanlarda həyat təcrübəsi kimi təzahür edir.
- İkincisi, **aktiv tanıma**. Aktiv tanıma yalnız ali inkişaf etmiş heyvanlarda meydana çıxır. Belə tanımada bir dəyişən tərəf, digər dəyişən tərəfin dəyişilməsinə uyğun dəyişmədən onu tanıyır. Məsələn, bir heyvan öz balasını onun böyüməsinə paralel özündə əks etdiyi dəyişən əkslərin zəruri əlaqəsindən məcmu olaraq qavrayaraq tanıyır. Eləcə də heyvanlar fəsildən asılı olmayaraq eyni yerdə yaşamaqda davam edir və s.

B. Varlığın mövcudluğunda - Ruhda refleksiya:

Ruhda əks olunmanın iki formasını təsəvvür edə bilərik:

1. **Formal ruhda refleksiya:** Formal ruh xalis fəaliyyətdən ibarət təsəvvürə gətirilə bilər. Çünki ruh metafizikadan fizikaya potensiya kimi keçdiyindən, özünün heç bir ölçülü, sabit və ya dəyişən zəruri şərti (yəni faktı) yaranmır. Ruhda yalnız ölçüsüz zəruri və dəyişən şərtlər mövcuddur; hansı ki, bunu mücərrədlik kimi qavrayırıq. **Mücərrədlik** - formal ruhun varlığının şərtlərinin məcmusundan ibarətdir. Buradan da, formal ruhda refleksiyadan yalnız mücərrəd əkslər meydana çıxır. Beləliklə, formal ruhda refleksiya - xalis fəaliyyətdə refleksiyadan mücərrəd əkslərin yaranması kimi təsəvvür olunmalıdır. Belə mücərrəd əkslərə obraz və ideyalar aiddir. Bəs fəaliyyətdə refleksiya necə təsəvvür oluna bilər? Formal ruhda ölçüsüz dəyişən və zəruri şərtlər olduğundan nə cisimlərdəki kimi əksolunma, nə də canlılardakı kimi tanınma meydana çıxmır. Formal ruhda refleksiyada təsadüfə görə ölçüsüz əksolunma baş verir. Buradan da, təsadüfə görə əks olunma baş verdiyindən refleksiya olunanın əksinin onunla eynilik təşkil etməsi zəruri olmur. Buradan da formal ruhda əkslə əks olunan arasında səbəb-nəticə əlaqəsi yaranmır və reallıqlar irreallıqlar kimi xaotik qaydada əks olunur.

2. **Təfəkkürdə refleksiya:** Təfəkkür - formal ruhun bədənlə əlaqələnməsi nəticəsində bədəndən ölçülülük əldə etməsinin təzahürü kimi meydana çıxır. Başqa sözlə, təfəkkürü formal ruhun ölçüsüzlüyünün bədənin iştirakı ilə ölçüləndirilməsi kimi təyin etmək olar. Hansı ki, belə ölçülənən ruhu biz fiktiv ruh kimi təyin edirik. Bədən ölçülülüyü özündən hisslər vasitəsi ilə formal ruha ötürür. Yəni canlılıq özündə sabit və dəyişən şərtlərə malik olmasına görə əksetmə və tanınmanın qaydalarını təfəkkürə verir. Təfəkkür həmin nizam əsasında ətrafdan hissi təsirlə bədənin aldığı məlumatı özündə mücərrəd obraz və tanıma kimi refleksiya edir. Mücərrəd əks - obraz, mücərrəd tanıma - ideya kimi yaranır. Buradan da təfəkkürü hissi ölçülülüyə malik formal ruh kimi təyin edə bilərik.

Fiktiv insan ruhunda refleksiya formal ruhda refleksiyadan fərqlənir. Məhz təfəkkürün bu keyfiyyətinə görə ölçülü obyektiv gerçəkliklər təfəkkürdə refleksiya olunduqda özləri ilə eyni ölçülü, amma mücərrəd əkslər yaradırlar. Nəticədə, reallıqlar təfəkkürdə real obraz və ideyalarda əks olunur. Buradan görünür ki, reallığın reallıq kimi əks olunması formal ruhun bədəndən aldığı ölçülülüklə bağlıdır. Bədən formal ruha nə qədər dəqiq ölçülülük təqdim edirsə, formal ruh bir o qədər dəqiq və aydın şəkildə reallığı özündə mücərrəd formada refleksiya edir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fiktiv ruhi varlıqlar - formal ruhun bədəndən dəqiq və yəqin ölçülülük almaması nəticəsində təfəkkürdə yaranan qeyri-real obraz və ideyalardan ibarət mücərrəd varlıqlardır.

Bədənin dəqiq və aydın ölçülülük verməməsi ilə təfəkkürdə yaranan mücərrəd obraz və ideyalardan ibarət fiktiv ruhi varlıqlar konkretlik xarakteristikasına malik deyil; yəni onların xüsusi məkan və zaman ölçülülükləri yoxdur. Konkret zaman-məkan ölçülülükləri olmadığından, sabit xarici görüntü kimi təsəvvürə gətirilmir. Nəticədə, onların əksi - təsviri və tanınması mümkünsüzlükdür. Buradan da, belə varlıqlar ya irreal xarici görüntüyə, ya da real daxili görüntüyə malik varlıqlar kimi təsəvvürə gətirilir. Eyni zamanda sintetik olduqlarından, həm kosmik, həm metafizik qanunlara tabe olur; buradan da özlərində xaosu təqdim edirlər. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fiktiv ruhi varlıqlar - xarici ölçülülüyü, zərurəti və bilavasitəliyi olmayan, irreal xarici görüntüyə malik, özündə xaosu təqdim edən, təfəkkürdə fikrən obyektlə subyektin formal varlıqları ilə faktiki varlıqlarının sintezindən təsəvvürə gətirilən varlıqlardan ibarətdir.

Fiktiv mövcud varlıqlar kimi, fiktiv ruhi varlıqlar da eyni anda həm var, həm də yox olan, yəni həm həqiqətən olan və ya olmayan varlıqlar kimi təsəvvürə gətirilir. Yəni, ruhun özündə yaratdığı fiktiv varlıqlar ya ruhdan kənarda özündə həqiqətən mümkünlük ola bilər, ya da yalnız özündə mümkünlük olmayan boş təsəvvür kimi ola bilər, yəni

mümkünsüzlük kimi həqiqəti yalandan ibarət ola bilər. Buna görə Fiktiv ruhi varlıqları metafizik varlıqlar kimi təyin etmək lazımdır.

Fiktiv ruhi varlıq - yalnız fikrən təsəvvürə gətirilən və təfəkkürdə sintetik yolla fikrən yaradılan və sonra fikrən xaricə proyeksiya edilən varlıqlardan ibarətdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fiktiv Ruhi varlıqlar - mövcudluğu təbii, mövcud olması metafizik və ya mövcudluğu metafizik, mövcud olması təbii olan; buna görə də təbii və metafizik qanunlara eyni vaxtda bir yerdə tabe olan, fikrə gətirilən təsəvvürlərdən ibarətdir. Fiktiv ruhi varlıqlar təsadüfə görə mövcudluq, mövcud olmaya görə zəruri varlıqlardır.

Bədənin ruha ölçülülük verməsinin pozulması dərəcəsindən asılı olaraq müxtəlif fiktiv ruhi varlıqlar yaranır. Belə varlıqları aşağıdakı iki böyük qrupa bölmək olar:

A. İnsanın özünün özü-özündə özünüdərk prosesində yaratdığı daxili fiktiv varlıqlar. Bu cür fiktiv varlıqlar da öz növbəsində real və irreal olmaqla aşağıdakı yarımqruplara ayrılır:

1. Daxili real fiktiv ruhi varlıqlar - daxili real fiktiv ruhi varlıqlara aşağıdakılar aiddir:

- **a. Mövcud fiktiv fərdi ruh - Mən:** Mövcud insanın faktiki bədən ilə formal ruhun sintezindən təsəvvürə gətirilən Fiktiv Ruhi varlığı biz insanın fərdi ruhu kimi qavrayırıq. Fərdi ruh faktiki bədənlə şərtləndiyindən, təsəvvürdə bədənlə eyniləşdirilir və bədənin xarakteristikalarından - oxşarlıq, eynilik və fərqlilik xarakteristikaları ilə qavranılır. Beləliklə, hər bir mövcud fərdin fiktiv fərdi ruhunun varlığı haqqında təsəvvür yaranır. Buradan, aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

  Mövcud insanın fiktiv fərdi ruhu - insan bədəninin yaşantılarını özündə refleksiya edən, bədənlə və bədəndənkənar başqa faktiki varlıqlarla formal ruhun sintezindən vəhdətdə təsəvvürə gətirilməsindən ibarətdir. Dini ruhi anlayış özündə Fiktiv fərdi ruhi varlığı ifadə edir.

• **b. Fiktiv cinsi fərdi ruh:** Mövcud insanın cinsi fərqliliyindən, faktiki bədənlə formal ruhun sintezindən qadın və kişi fiktiv fərdi insan ruhu varlığı yaranır; hansı ki, kişilik və qadınlıq kimi dərk olunur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Kişi və qadın fiktiv fərdi ruh özündə bir-birinə əksilik saxlayan fiktiv fərdi ruhi varlıqlar olduğundan, təfəkkürdə gerçəklikləri biri-biri ilə vəhdətdən və mübarizədən aşkarlanır.

• **c. Androloji fiktiv fərdi ruh:** Eyni bir mövcud insanın zamanla şərtlənmiş faktiki bədəni ilə formal ruhunun sintezinin zamandan asılı olaraq təkrar sintez edilməsi ilə insanın androloji fiktiv fərdi ruhu - uşaqlıq, cavanlıq və ya qocalıq fiktiv ruhi varlıqları yaradılır. Buradan da bəzi filosoflar "insan qocaldıqca ruhu da qocalır" fikrinə gəlirlər və belə hesab edirlər ki, bədənin zamanla şərtlənməsinə uyğun formal ruh da zamanla şərtlənmiş varlıqdır. Buradan, aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Androloji fiktiv fərdi ruh - eyni bir mövcud insanın müxtəlif vaxtlardakı bədəninin faktiki varlığı ilə fərdi formal ruhunun fikrən sintezindən vəhdətdə təsəvvürə gətirilməsindən ibarətdir.

• **d. Hermafrodit şəxsiyyət:** Həqiqi hermafroditlərə eyni zamanda həm kişi, həm qadın orqanlarına malik və buna görə də özündə həm kişi bədəninin, həm qadın bədəninin ölçülülüyünü saxlayan insanlar aiddir. Hermafrodit bədən ruha paralel iki ölçülülük təqdim edir. Amma hər iki ölçülülük dəqiq olduğundan hermafrodit gerçəkliyi olduğu kimi qavrayır. Buradan da, hermafroditin obyektiv gerçəkliklərə dəqiq və aydın refleksiyasında problem meydana çıxmır, yalnız başqa insanlara cinsi yanaşmada ikiləşmə baş verir. Belə ki, qadın bədəninin ölçülülüyündə özünü qadın kimi dərk edərək kişilərə, kişi bədəninin ölçülülüyündə özünü kişi kimi qavrayaraq qadınlara meyl edir. Hermafroditlik nadir anormal gerçəklik olmasına baxmayaraq, elm inkişaf etmədiyi dövrlərdə hermafroditlər fiktiv ruhi varlıq kimi qavranılmış və hətta Avropada XVII əsrə qədər onlar şər varlıqlar

kimi edam edilmişdir. Hermafroditin şər ruh kimi qavranılması onun cinsi ruhi kimliyinin qeyri-dəqiq, yəni birmənalı olmaması ilə bağlı olmuşdur; hansı ki, bədənin paralel ölçülülük verməsi nəticəsində təfəkkürdə ikili təbiətli varlıq kimi dərk olunmuşdur. Bu da gerçək varlığın birtəbiətli olması zərurətinə zidd olduğundan, qeyri-gerçəklik kimi qəbul edilmişdir. Biz hermafroditliyi təbii olanla qeyri-təbii olanın sərhədində meydana çıxan fiktiv ruhi varlıq kimi təyin edirik. Təbiidir - ona görə ki, hər iki cins ayrı-ayrılıqda təbiətdə mövcuddur; qeyri-təbiidir - ona görə ki, iki əks cins eyni bir bədəndən təzahür edir.

2. Daxili irreal fiktiv fərdi insan ruhu - Daxili irreal fiktiv ruhi varlıqlar bədənin formal ruha normal, amma dəqiq və aydın ölçülülük təqdim etməməsindən meydana çıxır. Bədənin ruhla əlaqəsinin normal zəifləməsi **yuxu** kimi meydana çıxır. Yuxu - ruhun bədənlə əlaqələrinin keçici olaraq zəifləməsini özündə əks etdirir, hansı ki insan ruhu bədəndən fərqli olaraq, yuxuda öz fəallığını saxlayır. Nəticədə, ruhda ölçüsüz və ya metafizik ölçülü ideya və obrazlar aşkarlanır; hansı ki, **yuxugörmə** kimi təzahür edir. Formal ruhla bədən əlaqəsinin anormal pozulmasından isə ən müxtəlif vəziyyətlər meydana çıxır. Belə ki, bəzən bədən ruha elə ölçülülük təqdim edir ki, ruh həmin ölçülülükdə faktuallaşma imkanına malik olmur. Bəzən də bədən ruha öz yaşantılarını yanlış ölçülülükdə təqdim edir. Ruhla bədənin əlaqəsinin pozulmasında formal ruh faktuallaşma üçün zəruri ideyaların bir qismini bədən vasitəsi ilə faktdan alır, məlumatın natamamlığını tamamlamaq üçün digər ideyaları ağıldan alaraq faktuallaşır. Əgər formal ruh ağıldan aldığı ideyalar faktdan alınan ideyalara uyğun gəlmirsə, bu zaman faktuallaşmanın müxtəlif səviyyəli pozğunluqları aşkarlanır. Biz formal ruhun faktuallaşmasına təsir edən hissi pozğunluqları **psixi travma** kimi təyin edirik.

Bədəndən qaynaqlanan hissi pozğunluqların iki formasını ayırd etmək olar. Birincisi, bədənin hissi qavrayışda iştirakının pozulması ilə meydana çıxan hissiyyat pozğunluğu. Belə pozğunluqda formal ruh bədəndən

hissiyyat ala bilmədiyindən, bütün ideyaları özü-özündən əldə edərək faktuallaşmaya cəhd edir. İkincisi, bədənin iştirakı ilə meydana çıxan hissiyyat pozğunluğu. Belə halda formal ruh bədəndən yarımçıq və ya yanlış ölçülülük əldə edir və onu tamamlamaq üçün özündə, ağıldan törəyən ideyalarla, onu kompensasiya edir.

Psixi travmalar - bədəndən keçərkən bədəndə cavab yaratmayan, yəni ölçülənməyən, buna görə də ölçüsüzlükdə bilavasitə ruha ötürülən və ruhda faktuallaşmanı pozan hissi qavramalardan ibarətdir.

Haşiyə: Donald Kalşed, "Travmaların daxili aləmi"

> *"Travmaların «daxili aləmi» təsvirinə diqqətimi cəlb edərkən, mən psixikanın hansı şəkildə daxildən insanın rastlaşdığı fövqəladə yaşam vəziyyətlərinə reaksiya verməsini göstərmək məqsədi güdmüşəm. «Travma» sözünü uşaqda həyəcan yaradan və ya dözülməz ruhi əzab verən istənilən yaşantıları ifadə etmək üçün istifadə edirəm. Belə travmaların fərqli cəhəti «bağlı Mən»in həll olması təhlükəsi altında təsəvvür edilməz vahimə yaşantılarıdır - «dezinteqrasiya həyəcanı»dır. Şəxsiyyətin tam anniqulyasiyası ilə təhdid edən dezinteqrasiya həyəcanı insan ruhunu dağıtmağa gətirib çıxara bilər. Travmalaşmış psixika özü-özünü travmalaşdırmaqda davam edir. Psixi travma keçirmiş insanlar həmişə özlərini təkrar travmaya məruz qala biləcəkləri həyat şərtlərində aşkarlayırlar."*

Biz D.Kalşedin fikirlərinə əlavə olaraq obyektlə subyektin əksiliyinə uyğun, daxili travma anlayışının əksiliyi kimi "travmanın daxili" anlayışını müəyyən edirik. Travmanın daxili dedikdə biz bədənin hissi ötürücü funksiyasını pozan və bədəni hissi qavramada iştirakdan məhrum edən ağır fiziki travmaların daxildə formal ruha təsirini nəzərdə tuturuq. Buradan da belə nəticə çıxır ki, hər bir fiziki travma özündə daxili psixi travmaya, hər bir daxili travma xaricdə fiziki travmaya səbəb olur. Psixi travmanın daxili fiziki travması bədəni zədələməyə meyl yaradır. Məsələn, bəzi ruhi xəstələrin öz bədənlərini dağıtmağa, ona xəsarət

yetirməyə cəhd etmələri məhz hər bir psixi travmanın daxili fiziki travmaya malik olması ilə bağlıdır.

Daxili travma ilə travmanın daxilinin eynilik təşkil etməsinə görə, çox ağır fiziki travmalar da psixi travmalar kimi eyni təsir göstərərək ruhu dağıdır. Yəni ruh-bədən əlaqəsində ya bədənin dağılmasını təhdid edən fiziki travma ruha təsir etdikdə, ya da birbaşa ruhun dağılmasını təhdid edən psixi travma ruha təsir etdikdə normal fiktiv fərdi ruhun faktuallaşmasında problem yaranır; hansı ki, ruh faktuallaşmadan aktuallaşma vəziyyətinə düşür.

Birincidə hissi pozğunluq bədən dağıldığına görə, ikincidə bədən hissi qavramanı düzgün həyata keçirmədikdə meydana çıxır. Təbiətdə faktuallaşma ilə aktuallaşma vəhdətdə təzahür etdiyi kimi, ruhun hər bir aktuallaşması faktuallaşmaya səbəb olduqda insan "normal" olur. Əgər aktuallaşma ilə faktuallaşma vəhdət təşkil etmirsə, onda faktuallaşmadan azad aktuallaşan ruh mücərrəd fiktiv fərdi ruhların yaranmasında iştirak edir.

D.Kalşedin şərhindən görünür ki, psixi travmalarda dözülməz ruhi əzab, "bağlanan Mən"in, yəni sosiallaşan Mənin dağılma təhlükəsi, dezinteqrasiya həyəcanı yaranır. Burada "dözülməz ruhi əzab" insan bədəni ilə ruhunun elə ziddiyyətli əlaqəsini ifadə edir ki, ruh bədənlə birlikdə faktuallaşmadan imtina səviyyəsinə gəlib çıxır. Daha sonra ruh xarici formal ruhla da əlaqə imkanını itirir, nəticədə fiktiv insan varlığındakı ruh həm bədəndən, həm də cəmiyyətdən əlaqələrini kəsir və azad aktuallıq vəziyyətinə keçir. Belə vəziyyətə keçən ruh daxildə bədəndən ayrılmaq cəhdini davam etdirir (hansı ki, Kalşed bunu daxili travmatizm kimi şərh edir), xaricdə isə cəmiyyətlə əlaqələrini pozur və cəmiyyətdə onu cəmiyyətlə qopara biləcək şəraitə meyl edir (hansı ki, Kalşedə görə psixi travma ala biləcəyi şəraitə meyldən ibarətdir).

Buradan faktuallaşmanın ləngiməsindən **nevrotiklər**, əks istiqamətdə faktuallaşmadan **transseksuallar** və **cinayətkar**, süni faktuallaşmadan

mücərrəd ruhi varlıqlar (iblis, şeytan, cin), faktuallaşmanın tam dayanmasından - anniqulyasiya, yəni insan ruhunun dağılmasından - **dəlilər** meydana çıxır.

- **a. Nevrotik şəxsiyyət:** Nevroz - anormal ruhi təzahürdür. Başqa sözlə, eşqin özündə ziddiyyət saxlayan əksiliyidir. Ümumiyyətlə, iki cür hissi pozğunluq aşkarlamaq olar. Birincisi, **xarici hissi pozğunluq**, yəni bədənlə xarici hissi obyektlərin əlaqəsində aşkarlanan hissi pozğunluq. Belə pozğunluqlar analizatorların fəaliyyəti ilə bağlıdır və təfəkkürdə refleksiyada ideya dəqiq, obraz bulanıq olur. Məsələn, görmə pozulanda adam həqiqətən nəyisə görür, amma onun obrazı dəqiq olmur. İkincisi, **daxili hissiyyat pozğunluğu**. Daxili hissiyyat pozğunluğu bədənlə formal ruhun əlaqəsindən aşkarlanır. Belə pozğunluq zamanı ideya qeyri-dəqiq, obraz parlaq olur. Yəni obrazın xarici görüntüsü haqqında məlumatlar reallıqdan qat-qat artıq qavranılır. Məsələn, solğun qırmızı qıpqırmızı kimi, boz ya qapqara, ya ağappaq kimi qavranılır. Başqa sözlə, biz bu cür hissi qavramanı **şişirdilmiş hissi qavrama** da adlandıra bilərik. Bu cür hissi qavramada ideya qeyri-dəqiq olduğundan, onun dəqiqləşdirilməsinə cəhd meydana çıxır ki, belə cəhddən rəy yaranır. İnsan bilavasitə rəyi obrazla assosiasiyadan almadığından, rəy ixtiyari olur və çox vaxt rəy obraza uyğun gəlməyən ideya kimi qavranılır. Belə qavrama özünüdərkdə insanın özü haqqında şişirdilmiş ya müsbət, ya mənfi rəyin yaranmasına səbəb olur. Beləliklə, nəticədə orta səviyyəli adam özünü ya dahi kimi, ya da axmaq kimi dərk edir. Nevroz *double vie*-nin (ikili həyatın) şəxsiyyətin hissi polyarlaşmasının, yəni ambivalentliyin ən sadə forması kimi təzahür edir. İdeyanın rəy kimi dərk edilməsi nəticəsində, A.Adlerin təyin etdiyi kimi, "tam və bütün ya ayrı-ayrı simptomlarına görə nevrozun görünüşü təsəvvür olunan son məqsədin təsiri altında, daha çox ona proyeksiya etdiyindən" asılı olur. Əgər insan özünün daxili hissiyyat pozğunluğunda özü böyük bir şəxsiyyət olmaq arzusu ilə yaşayırsa, onda həmin nevrotik bəzən özünə böyük şəxsiyyətlərə

xas əlamətləri proyeksiya etməklə meydana çıxır. Elə belə hissiyyatın tam və dəqiq olmaması natamamlıq yaradır və daxili hissiyyatın pozulmasından insan xarakterində natamamlıq kompleksi meydana çıxır.

Formal ruh bədənlə natamam ölçülülük əldə etdikdə onu tamamlamaqla gerçəkliyi dərk etməyə cəhd edir. Bu zaman tamamlayıcı elementlər ruhun özündən əlavə edilir. Psixologiya elmində bu **kompensasiya** - əvəzin ödənilməsi adlanır. Beləliklə, əgər hissiyyat pozğunluğu və natamamlıq bilavasitə bədəndən qaynaqlanırsa, artıq kompensasiya xalis formal ruhdan meydana çıxır. Ruh bədənin hissiyyat pozğunluğunu və özünün aldığı məlumatın natamamlığını dəf etmək üçün, özündən verdiyi kompensator ideyanı fiksə etməklə son həqiqəti qavramağa cəhd edir. Burada, **fiksasiya** özündə mücərrəd fiktiv varlığın yaradılmasına xidmət edir.

Ruh fiksasiya prosesində gerçəkliyə öz məqsədinə uyğun ideyanı birdəfəlik əlaqələndirir. Formal ruhda reallıq irreallıq kimi əks olunduğundan, formal ruh yalnız irreal ideyaları - insanı idarə edən, onun arzuladığı, rəhbəredici obrazları - modellərə xas ideyaları real ideyalara kompensasiya etməklə fiksasiya edə bilər. Beləliklə, daxili bədən-ruh əlaqəsində bədən hissiyyat pozğunluğu və natamamlıqla, formal ruh kompensasiya və fiksasiya ilə ortaq reallıqla irreallığın vəhdətindən ibarət fiktiv əsas hazırlayırlar; hansı ki, bütün fiktiv ruhi varlıqlar məhz bu əsasdan yaranır.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Nevrotik ruhi fiktiv varlıq - daxili hissiyyatın pozulması və yarımçıqlığı ilə formal ruhun bədənlə əlaqəsində fərdə rəhbərlik edən obraza uyğun özündən irreal ideyalar verməklə kompensasiya edilmiş özünü dərkdən meydana çıxır.

Nevrozlar hissi qavramanın ən sadə pozğunluğunda meydana çıxır. Abraham Maslou "İnsan psixikasının uzaq hüdudları" əsərində nevrozları "şəxsi inkişafın səhvi" kimi təyin etmişdir. Başqa sözlə, nevroz şəxsiyyətin - fiktiv ruhun səhv inkişafı nəticəsində meydana çıxan

anormal fiktiv ruhdur. Nevroz fiktiv ruhun bədənlə əlaqəsinin səhvlərindən meydana çıxır. Nəticədə, gerçəkliyin obrazı təfəkkürdə olduğu kimi qavranılır, amma tanınmada problem yaranır. Obraza uyğun gəlməyən tanınma rəy kimi təzahür edir. Yəni, rəy tanınmanın qeyri-dəqiqliyini özündə təqdim edir. Buradan da, nevrotik şəxs meydana çıxır, hansı ki, öz reallığını ona oxşar reallıq kimi qavrayır; yəni özünü özünün gerçəkliyi ilə yox, öz subyektiv rəyi - hissi qavramanın pozulmasına uyğun və arzuladığı ideyaya uyğun dərk edir. Buradan da yeni fiktiv ruhi varlıq - **nevrotik insan** meydana çıxır. Nevrozlar hissi qavramanın pozğunluğundan meydana çıxdığından, intellektual sferada dəyişikliyə məruz qalmır, sadəcə intellektlə bədənin vəhdətindən meydana çıxan xarakterdə təzahür edir.

Haşiyə: A.Adler, "Nervik xarakter haqqında"

> *"Nevrotiklər - normal insanlardan fərqli olaraq, daha ali dərəcədə inkişaf etmiş xarakterin bir sıra cizgilərinin daha kəskin meydana çıxmasında aşkarlanır. Belə insanlarda həssaslıq, oyanıqlıq, qıcıqlıq, tələqinlik, eqoizm, fanatizmə cazibə, fəaliyyətdən ayrılma, hakimiyyətpərəstlik, qorxaqlıq, şər-xahlıq, fədakarcasına qurbanvermə, yüngül əxlaqlıq, dağınıqlıq və s. kimi hissi pozğunluqlar qeyd olunur."*

Məşhur psixoloq A.Adlerdən gətirdiyimiz sitatdan da görünür ki, nevrozlar xarakterin şiddətlənməsindən - formal ruhla bədənin daxili əlaqəsinin pozulmasından meydana çıxır.

- **b. Fiktiv transseksual fərdi ruh:** Mövcud fiktiv cinsi fərdi ruhun, insanın cinsi fərqliliyinə zidd, faktiki bədənlə sintezindən fiktiv transseksual fərdi ruhi varlıq yaradılır. Belə ruha malik olan dişi cinsində olan özünü kişi, erkək cinsində olan özünü qadın fiktiv ruhi varlıq kimi dərk edir. Transseksualın faktiki bədəni ilə fiktiv fərdi ruhu biri-birinə daxili əksilik saxladığından bədənindən ruhunun, ruhundan bədəninin gerçəkliyi təfəkkürdə aşkarlanır. Yəni transseksuallığın

özündənkənar əksiliyi yoxdur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fiktiv Transseksual fərdi ruh - özü-özü ilə əksilik saxlayan və buna görə gerçəkliyi təfəkkürdə özü-özü ilə vəhdətdən və mübarizədən aşkarlanan cinsi fiktiv fərdi ruhi varlıqdır.

Transseksuallığın əsası homoseksuallıqdadır. Homoseksuallıq da hermafroditliyə oxşar təzahür olub, onunla orqanik əsasın olmamasına görə fərqlənir. Belə ki, homoseksual şəxsiyyətdə orqanik əsas olmamasına baxmayaraq, daxili hissiyyatda özünü əks cinsin nümayəndəsi kimi və ya eyni cinsi əks cinsin nümayəndəsi kimi qavrayır. Buradan da **pederastiya** - cinsi kimliyin əksinə qavranması meydana çıxır. İki cür pederastiya mövcuddur. Özünüdərkdən doğan pederastiya: Belə şəxs özünü əks cinsin nümayəndəsi kimi dərk edir. Belə pederastiya **passiv pederastiya** adlanır. İkincisi, başqasını dərkdən doğan pederastiya: Belə pederastiya zamanı fərd özü ilə eyni cinsdən olanı əks cinsin nümayəndəsi kimi hissi qavrayır. Buradan **aktiv pederastiya** meydana çıxır.

Beləliklə, transseksual bədənin öz ölçülülüyünü tamamilə əks ölçülülük kimi formal ruha təqdim etməsindən meydana çıxır. Yəni qadın bədəni formal ruha kişi bədəninin ölçülülüyünü, kişi bədəni qadın bədəninin ölçülülüyünü təqdim etdikdə təfəkkürdə özünü qavrama əks proyeksiya ilə aktuallaşır. Nəticədə, bioloji kimlik əks ruhi kimlik kimi qavranılır. Belə insanlar özlərini əks cins kimi dərk edir, əks cins kimi davranır və nəhayət bioloji olaraq əks cins olmağa meyl edirlər. Bəzən həm özünü, həm başqasını dərkin pozğunluğu vəhdətdə meydana çıxır. Nəticədə hər iki pozğunluq vəhdətdə aşkarlanır. Yəni insan eyni zamanda həm aktiv, həm passiv olur. Buradan universal pederastiya yaranır. Belə cinsi hissiyyat pozğunluğunda formal ruhun kompensasiyasından və fiksasiyasından **transvestit** meydana çıxır. Transvestit özünü əks cinsin nümayəndəsi kimi hiss edən şəxsdə ruhun ona əks cinsə xas ideyaları -

məs. kişiyə qadın paltarı geyinməyi, qadın kimi davranmağı (maneranı), qadın kimi fəaliyyət göstərməyi (tabeçiliyə meyl), qadın fiqurası almaq cəhdini və s. ideyasını verir. Nəticədə, cinsi hissi pozğunluq daha qabarıq ifadə olunur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Cinsi hissi pozğunluqda və natamamlıqda formal ruhun kompensasiyası və fiksasiyasından fiktiv mücərrəd insan - transvestit yaranır.

Əgər fiktiv fərdi ruhdan transvestitə kompensasiya kimi yeni ideya - qadının bioloji bədəninin ideyası verilirsə və onda bu ideya fiksasiya olursa, onda transvestit transseksuala çevrilir; hansı ki, sonda öz cinsini faktiki dəyişir. Nəticədə, transseksual süni bədəndən, amma təbii fiktiv cinsi ruhdan ibarət fiktiv ruhi varlıq kimi meydana çıxır.

- **c. Qorxulu adam - cinayətkar:** Ruhun formal varlığının xaricdə yaranması prosesində fiktiv fərdi ruhun ruhun formal varlığı ilə əlaqəsinin pozulmasından - fərdi fiktiv ruh, qorxulu insan, yəni **cinayətkar** meydana çıxır. Başqa sözlə, cinayətkar nevrotik və homoseksual fərdin vəhdət təşkil etdiyi xarici kimliyidir. Başqa sözlə, cinayətkar nevrotiklə transseksual ruhun vəhdətindən sintez olunan ruhi varlıq kimi mövcud olur. Nevrotik ruh cinayətkarın təsəvvürlərini, transseksuallıq onun translığını (daxildən xaricə keçidini) müəyyən edir. Necə ki nevrotik və transseksual öz daxili hissiyyat pozğunluğunu fərdi səviyyədə daxili fiksasiya kimi saxlayır, o, cəmiyyət üçün qorxulu adama çevrilmir. Amma nə zaman ki, fərd ona rəhbərlik edən modelə uyğun və ya cinsi kimliyin özünüdərk və başqasını dərkinin pozulması cəmiyyətlə əlaqələrə keçir (yəni fərd cəmiyyətlə nevrotik və trans kimi əlaqəyə girir), buradan qorxulu adam və ya cinayətkar meydana çıxır. Cinayətkar formal ruhun verdiyi kompensator ideyaları cəmiyyət həyatında fəaliyyətlə reallaşdırmağa cəhd edir. Əgər nevrotik və trans özündə təsəvvürdə daxili və fərdi mücərrəd fiktiv ruhi varlıqlar kimi mövcud olursa, cinayətkar xarici və ictimai fiktiv ruhi

varlıq kimi fəaliyyət və davranışlarda mövcud olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Cinayətkar - fiktiv fərdi ruhun formal fərdi ruhla əlaqəsində hissiyyat pozğunluğu və natamamlıqdan fərdi ruhun kompensasiyası və fiksasiyasından ibarət, fərdi fəaliyyət və davranışlardan sintez edilən fiktiv mücərrəd ruhi varlıqdır.

Daxildə fərdi səviyyədə düşüncə ruhun kompensasiyası və fiksasiyası nəticəsində fərdi maraqlara uyğun onun daxildə fəaliyyət və hərəkətlərinə yol və məqsəd müəyyən edirsə, xaricdə ictimai maraqlara və fəaliyyətə məqsəd və yol müəyyən edir. Hansı ki, bu fərd üçün müəyyən edildiyindən, cəmiyyət üçün müəyyən edilmiş normal yol və məqsədlərə ziddiyyət təşkil edir. Buradan da, cinayətkar asosial fiktiv mücərrəd varlıq kimi meydana çıxır.

Haşiyə: Otto Veyninqer, "Sonuncu söz"

> *"Cinayətkar - o adamdır ki, günaha batmağa davam edir və güclənir və günahdan qaçmaq üçün heç nə etmir. O yeganə adamdır ki, özünü bədbəxt hesab etmir, baxmayaraq ki, hərəkətlərinə görə mahiyyətcə ən bədbəxt adamdır. Cinayətkarda dəyərlərə iradə yoxdur.; onda ölənə qədər fasiləsiz dezorqanizasiya gedir, o öldükdən sonra maddi atomlara kimi hissələrə ayrılır. Cinayətkar şüuri vəhdətsiz, hamını birləşdirən «mən»siz yaşayır."*

O.Veyninqerin fikirlərini inkişaf etdirsək, demək olar ki, cinayətkar səhv istiqamətli iradəli, zəif eşqli və əsərsiz insandır. Burada, əks istiqamətli iradə onun formal ruhun qanunlarına tabe olmadığını; zəif eşq - özündə xaricdə məhəbbətin ali formalarınadək yüksələ bilməməsini; əsərsiz - yaradıcı yox, dağıdıcı fəaliyyətə üstünlük verdiyini ifadə edir. Cinayətkarın iradəsində, eşqində və əsərində meydana çıxan dəyişilmələr mücərrəd xarici fiktiv ruhi varlıqlar üçün əsas təşkil edir. Cinayətkar asosial varlıq olması ilə fiktiv mücərrəd daxili ruhi varlıqları fiktiv mücərrəd xarici ruhi varlıqlardan ayırır. Başqa sözlə, cinayətkardan

sintez edilən fiktiv mücərrəd ruhi varlıqlar cəmiyyət sferasından çıxarılaraq təbiət sferasında yaranan varlıqlar kimi qavranılır.

- **q. Monstr:** Cinayətkar ruhdan kompensasiya və fiksasiyası ilə yaranan, amma xarici varlıq kimi fərddən və cəmiyyətdən xaricə çıxarılaraq təbiətdə mövcud olan varlıq kimi qavranılan fiktiv mücərrəd varlıqları **monstr** kimi təyin etmək olar.

Haşiyə: A.Adler, "Nevrotik xarakter haqqında"

> *"Düşüncənin başlıca vəzifəsi - hər şeydən öncə hadisə və fəaliyyətin önündə getmək, yol və məqsədi müəyyən etmək və mümkün qədər çox təsir göstərməkdir. Rəhbərlik edən obrazlar - modellər - gücə, hakimiyyətə, biliyə, bacarığa çatmağa yol göstərir və hamısı birlikdə özündə fiktiv mücərrədliyin formalaşması üçün simvolu təqdim edir."*

A.Adlerin fikirlərindən də görünür ki, formal ruhi varlıq düşüncə prosesində, fiktiv mücərrədliyin formalaşması üçün, fərdin modelinə uyğun arzuladığı hakimiyyətə, gücə, malik olmaqlığa, bacarığa və s. yol göstərən simvol yaradır. Başqa sözlə, fiktiv mücərrəd varlıqlar cinayətkarın təsəvvürlərində yaranır. Monstr - ruhu olan təbii canlı varlıqlar kimi təsəvvürə gətirilir. Əgər biz bütünlükdə cəmiyyəti pozitiv qanunlara tabe olan aləm kimi təyin etsək, onda monstr təbii qanunlara tabe olan fiktiv ruhi varlıq kimi təyin oluna bilər.

Haşiyə: Mişel Fuko, "Normal olmayanlar"

> *"İnsan monstrinin referentiv sahəsi qanundur. Monstr öz mövcudluğu və xarici görünüşü ilə nəinki cəmiyyətin və hətta təbiətin qanunlarını pozması ilə təyin olunan varlıqdır. Beləliklə, monstrun əməlgəlmə sahəsini «hüquqi-bioloji» adlandırmaq olar. Bu məkanda monstr olduqca nadir təzahürdür. O hüduddur - o qanunun eybəcərləşdirilməsidir və bununla yanaşı nadir hallarda aşkarlanan istisnadır. Monstr - mümkün olmayanla qadağan olunanın birləşməsidir. O, son həddə çatan pozğunluqdur. Monstr - bu avtomatik qanundan xaric olan pozğunluqdur; bu onun birinci*

ikimənalılığıdır. İkinci ikimənalılığı odur ki, monstr kortəbiidir, spontandır və məhz buna görə qeyri-təbii olanın təbii formasıdır."

M.Fukonun fikirlərindən göründüyü kimi, o, monstrı da cinayətkarın fiktiv mücərrəd varlığından təsəvvürə gətirir. Biz M.Fukonun fikirlərini inkişaf etdirərək cəmiyyətin sərhədlərindən kənarda fəaliyyətdə olan fiktiv mücərrəd varlıqlar haqqında təsəvvür əldə edə bilərik. Yuxarıda cinayətkarı sosial fiktiv mücərrəd varlıqlarla təbii fiktiv mücərrəd varlıqların sərhədində meydana çıxan varlıq kimi təsəvvür etmişdik. Buradan da, əgər M.Fukonun fikirlərindən monstra aid edilən qanun və cəmiyyətlə əlaqələndirilməni istisna etsək, onda təbii fiktiv mücərrəd ruhi varlıqlar haqqında ilkin təsəvvürlər yarada bilərik. Beləliklə, təbii fiktiv ruhi varlıqların aşağıdakı xarakteristikalarını müəyyən etmək olar:

1. **Canlı kimi təbiətin qanunlarının pozulması ilə yaranmaq:** Təbiətdə bütün canlıların əmələ gəlməsi irsiyyətə əsaslanır, hansı ki, növün həqiqətini - formal varlığı individə verməklə onun təbii mövcudluğunu həqiqi edir. Amma irsiyyətin inkarı ilə yaranan individin formal varlığı olmur. Belə canlı özündə mənası olmadığından, buna görə də formal ruhun kompensasiyası və fiksasiyası ilə verilmiş irreal ideyalardan ibarət tam mənaya malik varlıq olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:
2. **Monstrlar - formaca real, mahiyyətcə irreal varlıqlar kimi cinayətkar ruhdan sintez edilərək, xarici təbii varlıqlar kimi təsəvvürə gətirilən fiktiv mücərrəd ruhi varlıqlardır.**
3. **Son və nadir olmaq:** Təbiətində reallıqla irreallığın vəhdətini təqdim etdiyindən, özündə təfəkkürdə yarana biləcək ən son obrazlarla və təsadüfi ideyalarla təsəvvürə gətirildiyindən çox nadir hallarda - ən sonuncu vəziyyətlərdə aşkarlanır. Başqa sözlə, idrakın heç bir üsulu ilə dərk edilməsi mümkün olmadıqda özünü göstərir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

4. **Təbii fiktiv ruhi varlıqlar - təbii varlıqların ən son obrazları ilə təsadüfi ideyaların vəhdətindən sintez edilərək, çox nadir hallarda fərdi təsəvvürə gətirilən varlıqlardır.**
5. **İmkansızlıq və inkarın vəhdətindən meydana çıxmaq:** Belə varlıqlar nadir hallarda və yalnız təsadüfə görə fərdi təsəvvürə gətirildiyindən, belə varlıqların zərurətə görə ictimai idrakı mümkünsüzlükdür. Mümkünsüzlük imkanın inkarından ibarətdir. İmkansızlıq özündə İlahi iradədən heç bir şərtin verilmədiyini, buna görə də gerçəkləşmənin qadağan olunduğunu özündə ifadə edir. Buradan da, monstrlar Allahın iradəsinə zidd mövcudluq əldə etmiş və Onun iradəsinin inkarı ilə meydana çıxan fiktiv mücərrəd varlıqlar kimi təsəvvürə gətirilir.
6. **Özündə qanunu olmamaq:** Hər hansı bir şey özündə qanuna uyğun əmələ gəlirsə, yəni özündə daxili qanun saxlayırsa, avtomatik xarici qanunlara tabe olur. Monstrlar daxili qanunları olmadığından avtomatik xarici qanunlara tabe olmur. Buradan da, belə fiktiv mücərrəd varlıqların daxili quruluşunun olmaması və xarici keçid prosesində bir mövcudluqdan başqasına keçmədikləri aşkarlanır. Yəni monstrlar nə cisimlər kimi əmələgəlmədən meydana çıxır, nə də canlılara xas çoxalma üsuluna malikdir.
7. **Özü-özünə əksilik saxlamaq:** Obyekt və subyekt bir-birinə əksilik saxlamaqla təcrübəni təşkil edir. Monstrlar özü-özünə əksilik saxladığından təcrübəyə daxil olmur, yəni onları bilavasitə zərurətə görə təcrübədən dərk etmək mümkün deyil. Onlar yalnız daxildə fikrən təsəvvürə gətirilməklə aşkarlanır. Təfəkkürdə həqiqət əksiliyin bir tərəfindən əksiliyi ilə vəhdətdə və mübarizədə aşkarlandığından, monstr özü-özü ilə vəhdətdə və mübarizədə özünün təfəkkürdə aşkarlanmasına əngəl olur və buna görə də qavranılmayan varlıqlar kimi təsəvvürə gətirilir. Monstrların fəaliyyətə gəlməsindən monstrluq xarakteristikası meydana çıxır. Monstrlaşmanın iki əsas formasını ayırd etmək olar: **xalq monstrı**

(və ya fərdi, sadə, tabe olan monstrlar - adamyeyənlər) və **çar monstrı** (vampir, qansoran).

Adamyeyən monstr insanların arxaik təsəvvürlərindən yaranır, hansı ki, kökləri **kannibalizmə** gedib çatır. Başqa sözlə, xalq monstrı indi irreal olan, amma keçmişdə real olan kannibalizmin ideyasını verməklə kompensasiya olunmasından meydana çıxan təsəvvürdür. Belə təsəvvür eyni yerdə zamanın müxtəlif vaxtlarında olma qanununa uyğun yaranır. Yəni, Xalq monstrı həm indiki müasir, həm də eyni zamanda keçmiş - kannibaldir. **Vampirlər** müxtəlif zamanın birlikdə olmasından yox, eyni vaxtda həm olmaq, həm olmamaq qanununa uyğun sintez edilir. Belə ki, çar monstrları xalq monstrlarına (adamyeyənlərə) irreallıq ideyaları verməklə təsəvvürə gətirilən fiktiv mücərrəd varlıq kimi yaradılır. Buradan da, adamyeyən monstrlar təbii, vampirlər tam metafizik təsəvvürlərdən yaranır.

Haşiyə: E.Fromm, "İnsanın ruhu"

> *"Qana arxaik susamaq - insan qanına susamaq, tamamilə özünün təbiətlə əlaqəsinin hakimiyyətindədir. O, ehtirasdan öldürür, beləliklə həyatı transendensiya etsin, belə ki o, irəli getməkdən və tam insan olmaqdan qorxur. Heyvan olan, öz mövcudluğunun fərdəqədərki vəziyyətinə deqradasiya vasitəsi ilə həyata cavab tapmaq istəyən, beləliklə özünü ağlın yükündən azad edən insan üçün qan həyatın essensiyasına çevrilir."*

E.Frommun şərhindən görünür ki, əgər kannibalizm qədim insan adətlərinin yenidən fərddə oyanması kimi təzahür edirsə, qansoranlıq-vampirlik artıq insanaqədərki heyvaniliyin insanda oyanmasıdır.

Vampirlərin yaranması ilə formal ruhun bədəndə kompensasiya və fiksasiya etməklə fiktiv mücərrəd varlıq yaratması başa çatır. Bundan daha artıq hissiyyat pozğunluğunda bədən ruhla əlaqəsini pozur, nəticədə ruh bədəndən heç bir ölçü əldə etmədən öz ölçüsüzlüyünə uyğun ideyalar verir və varlıqlar yaradır. Ölçüsüzlük xalis fəaliyyət kimi meydana çıxdığından, ruhun yaratdığı belə varlıqlar müxtəlif fəaliyyətlərdən

təsəvvürə gətirilir. Fiktiv mücərrəd ruhi varlıqlar normal insan varlığı ilə dəliliyin hüdudlarında yaranan və buna görə də başlanğıcda ağılla təsəvvürə gətirilməsi asan, sonda isə çətin olan və buna görə də ondan birbaşa dəliliyə keçən mücərrəd monstrlar aiddir.

MÜCƏRRƏD MONSTRLAR

Mücərrəd monstrlar iki formada təsəvvürə gətirilir. Birincisi, varlığı təfəkkürdə bəşəriyyətlə vəhdətdən və mübarizədən aşkarlanan **mücərrəd ümumi monstr** - bura **İblis** aiddir. İkincisi, varlığı təfəkkürdə fərdlə vəhdətdən və mübarizədən aşkarlanan **fərdi monstrlar** - bura **Şeytanlar** və **Cinlər** aiddir. Buradan da, İblis təklik kimi, Cinlər və Şeytanlar çoxluq kimi təsəvvürə gətirilir.

a. Ümumi monstr - İBLİS

İblis - Fərdi Fiktiv İnsan Ruhunun çoxluqdan təkliyə keçmiş formal varlığı ilə ruhi mövcudluğun xarici faktik varlığının fikrən sintezindən təsəvvürə gətirilərək yaranan fiktiv ruhi varlıqdır. Başqa sözlə, iblisin faktiki varlığı ictimai və xarici, formal varlığı daxili və təklikdir. Buradan da, tək iblis eyni vaxtda müxtəlif yerlərdə bəşəriyyətə fəlakət gətirən fiktiv ruhi varlıq kimi təsəvvürə gətirilir. İblisin fikrə gətirilməsi yalnız fəaliyyətindən mümkündür. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis - fəaliyyətə görə fikrən götürülən, təfəkkürdə fiktiv ruhun daxili təklənmiş formal ruhi varlığı ilə formal ruhun xarici faktiki varlığının çoxluğu ilə vəhdətindən sintez edilərək təsəvvürə gətirilən fiktiv ruhi varlıqdan ibarətdir.

Bəs İblisin fiktiv varlığı necə yaradılır? Bu suala cavab verməmişdən öncə, iblis sözünün mənasını şərh edək.

Haşiyə: Donald Kalşed, "Travmanın daxili aləmi":

"«Demonik» (daimonic) sözü yunan sözü daiomai sözündən götürülüb, mənası «bölmək»dir və mən deyərdim ki, onu ayrılmış

şüurun vəziyyəti ilə əlaqələndirərdim. Əsl həqiqətdə, məhz daxili aləmin ayrılması bu fiqurun funksiyasıdır. Demon, erkən psixi travma psixikanın inteqrasiyasını mümkünsüz edəndə, psixikanın dissosiativ müdafiəsini personifikasiyası kimi çıxış edir."

D.Kalşedin fikirlərindən görünür ki, iblis tam personifikasiya olunmuş - cəmiyyətdən tamamilə qopmuş və özünün cəmiyyətdən ayrılmasını özündə refleksiya edərək ancaq bölməyə xidmət edən formal ruhun daxili vəziyyətidir. Beləliklə, İblisin daxili səbəbi **ifrat fərdiləşmədir**; hansı ki, hər hansı inteqrasiya qabiliyyəti yoxdur. Cinayətkar da iblis kimi inteqrasiyaya meyilli olmur. Amma cinayətkar ayrı-ayrı fərdlərlə əlaqədən və ya yaşadığı cəmiyyətin ayrı-ayrı nizamından imtina edir; İblis ruh isə bütün insanlıqla inteqrasiyadan və bütün bəşəri dəyərlərdən imtina edir. Beləliklə, İblisin fəaliyyətini bütün mümkün cinayətkarlığın məcmusu kimi təyin etmək olar. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis - ifrat fərdiləşmə ilə dissosiasiya prosesində eqonun bağlayıcı Mən-indən imtina edən və buna görə bütün bəşəriyyətlə hər hansı inteqrasiyaya meyl etməyən, insani cinayətlərin məcmui fəaliyyətindən yalnız bölməyə cəhd edən, şər tək kimi təsəvvürə gətirilən mücərrəd fiktiv ruhdan ibarətdir.

Psixi travmalaşmada normal hallarda travmaya məruz qalan, vəziyyətdən çıxmaq naminə özünün "mən"inin hansısa hissəsindən imtina edir. Hansı ki, bunun üçün "inteqrasiya edən eqo fraqmentlərə bölünməli, yəni dissosiasiya" etməlidir. İblis məhz inteqrasiyanın dissosiasiyaya keçidində fraqmentlərə bölünən eqodan elə "Mən"i çıxarıb atır ki, həmin Mən insanlıqla fərd arasında bağlayıcı rol oynayır. Dissosiasiya prosesində eqonun fraqmentlərə parçalanması formal ruhun dağılması kimi baş verir və buradan formal ruhun yaradıcı enerjisi dağıdıcı enerjiyə çevrilir.

Psixologiyada aqressivliyin dissosiasiya ilə əlaqəsini "psixikanın bir hissəsinin digər hissəsinə hücumu" ilə əlaqələndirirlər. D.Kalşed belə

nəticəyə gəlir ki, "dissosiasiya üçün enerjinin mənbəyi aqressiyadadır". Biz "psixikanın hissəsi" anlayışını fərdi ruhun daxili çoxluğunu təşkil edən "Mən"lər kimi təyin edirik. Buradan da, daxildə çoxluqda mövcud olan formal ruh öz daxili çoxluğunda mübarizəyə girir və çoxluğundan elə təkliyi saxlayır ki, həmin təklik normal vəziyyətdə ruhu quruculuq üçün zəruri olan dağıdıcılığın enerjisini daşıyır. Başqa sözlə, İblis hər cür quruculuq meyllərindən məhrum, yalnız dağıdıcılıq enerjisinə malik, daxili çoxluqdan daxili təkliyə keçmiş formal fərdi ruhdur; hansı ki, tək xarici formal ruha - İnsanlığa əksilik təşkil edir. D.Kalşed belə hesab edir ki, "psixi travmadan əzab çəkən insanda hansısa intrapsixi fiqur və ya güc aydın şəkildə sağalmağa imkan vermir və psixikanı dissosiasiyaya məruz qoyur". Biz belə intrapsixi fiquru formal ruhun öz daxili çoxluğunda yalnız dağıdıcılıq funksiyasına malik "Mən" kimi təyin edirik, hansı ki, digər mənlərlə mübarizədə onların hamısına qalib gəlir və formal ruhda təklikdə təzahür edir.

Haşiyə: D.Kalşed, "Travmaların daxili aləmi":

> *"Uzun illərin işi boyunca mən belə nəticəyə gəlmişəm ki, travma keçirmiş xəstələrin daxili aləmində, iblis (diabolized) formasında təsəvvür edilən, böyük ehtimalla zorakılığın və özünü destruksiyanın personifikasiyasını aşkarlamaq olar. (belə xəstələrin yuxugörməsində iblis cismani zorakılığın ağlasığmaz vəhşiliklərini edir). Xəstəni arasıkəsilməz həyəcan, gərginlik və vahimə ilə dolduran psixika travmanı təhtəlşüur fantaziyalarda əbədiləşdirməyə cəhd edir. Belə iblisanə özünəəzabvermənin «bədəni» və ya məqsədi nə ola bilər? Bunu anlamaq üçün «dyavol» - iblis sözünün mənşəyini araşdırmaq lazım gəlir. Diabolical yunan dilində dia - ara, ayrı, -dan, -dən, və ballon - atmaq sözlərindən əmələ gəlib, yəni bu fel ayırmaq, atmaq mənasını verir. Ümumi qəbul edilmiş mənada - bu mane olan, dağıdan və ya dissosiasiya edəndir. Bu sözün yunan dilində antonimi simvolikdir (symbolic) - yunan dilində bir yerə yığan mənası verir. Nevrotiklərdə dissosiasiyadan alınan materiallar qəbul edilir və inteqrasiya edilir, hansı ki, şəxsiyyətin böyük*

tamlığına gətirib çıxarır. Bu ona görə baş verir ki, nevrotiklərdə onun şəxsiyyətinin daxilində sıxışdırılmış materialları saxlamağa imkan var. Psixi travma keçirmiş şəxslərdə bu material ya somatik səviyyəyə, ya aralarında amnestik mane qaldırılan diskret psixi fraqmentlərə köçürülür. Belə materiallara bir daha qayıtmağa imkan verilmir. Dissosiasiya psixi travmalarda ona görə zəruridir ki, xəstəni fəlakətdən qorumaq mümkün olsun, hansı ki, psixikanın daha dərin arxetip parçalanmasından ibarətdir. İblis imaqo, yaşantıları ayırmaq məqsədini yerinə yetirmək üçün təcrübənin iki nahiyəsində fəaliyyət göstərir. Onlardan biri eqo ilə real xarici aləm arasıdır, ikincisi - daxili aləmi müxtəlif hissələrə ayıran daxili simvolik məkandır. Eqo ilə xarici aləm arasında fəaliyyət göstərərək İblis fiquru şəxsiyyəti asılılıq münasibətlərini müəyyən edən və özündənməmnunluq vəziyyətini saxlayan sahədə kapsullaşdırmağa cəhd edir."

E.Fromm, "İnsanın ruhu":

"Mən üç fenomen üzərində dayanmaq istəyirəm, hansı ki, mənim fikrimə görə, insan istiqamətlənməsinin ən ziyalı və təhlükəli formasındadır: ölmüş insana məhəbbət, narsist biçim və simbioz-insestual meyl. Birlikdə götürüldükdə onlar «parçalama sindromu» əmələ gətirir, hansı ki, insanı dağıtmaq naminə dağıtmağa və nifrət naminə nifrətə oyandırır."

D.Kalşedin fikirlərindən görünür ki, psixologiyada İblis fiquru zorakılığın və özünü fərdiləşdirmənin forması kimi çıxış edir və ağlasığmaz vəhşiliklərin törədilməsi ilə assosiasiya olunur. Burada "təhtəlşüur fantaziyalar" formal ruhun kompensasiyası kimi yalnız özü-özündən aldığı ideyalardan ibarət olur. İblis formal ruhun elə dərin ayrılmasıdır ki, insan özündə ruhun bədənə keçdiyi səviyyədəki mənini aşkarlayır; hansı ki, heyvani vəhşilik kimi təzahür edir. İblis daxildə yaşantıların elə parçalanmasından yaranır ki, artıq həmin parçalardan şəxsiyyət bərpa olunmur. İblis imaqo dissosiasiyada öz parçaladıqlarını somatik səviyyəyə köçürür, bədən də öz növbəsində öz funksiyalarını təklənmiş daxili formal ruha köçürür.

E.Frommdan gətirdiyimiz sitatda "parçalama sindromu"nu təşkil edən fenomenləri ayrı-ayrı şərh etməklə fiktiv ruhun iblis ruhuna necə çevrildiyini anlamaq olar:

1. **Ölmüş insana məhəbbət:** Bu fenomen əslində həyatla əksilik təşkil edən, özündə yalnız Passiv gücün başlanğıcını saxlayan, cismə xas xarakteristikaları özündə ifadə edir. Ölmüş insana məhəbbət diri insana nifrətlə əksilik təşkil edir. Buradan da, əgər birisi ölmüş insana məhəbbət göstərirsə, o, canlıları öldürməklə öz məhəbbət obyektinə çevirməyə cəhd edir. Beləliklə, İblisə xas öldürmə onun ölüyə məhəbbətinin təzahürü kimi meydana çıxır. Ölüm həyatın inkarı olduğundan, iblis həyatın istənilən təzahürünün inkarı ilə öz məhəbbətinə çatır.
2. **Narsist biçimlənmə:** Narsizm özünəvurğunluqdur, hansı ki başqasına bağlılığın əksiliyi kimi təzahür edir. Narsist özündən başqa heç bir başqası ilə bağlılığa malik olmur. Belə dərin narsist xarakter özü naminə hər kəsi, hamını qurban vermək istəyi yaradır. Narsist təkin çoxluğu inkarı kimi meydana çıxır.
3. **Simbioz-insestual meyl:** İnsan cəmiyyətinin formalaşması insestin - heyvani təbiətə xas olan, qan qohumluğu üzrə cinsi əlaqənin qadağan olunması ilə şərtlənmişdir. Bu şərtin pozulması cəmiyyətin dağılmasına səbəb olur. Buradan da iblis qan qohumluğunu (ana ilə oğul, ata ilə qız, bacı ilə qardaş arasındakı cinsi əlaqənin qadağan olunmasını) - insesti aradan qaldırır. Başqa sözlə, simbioz-insest fenomeni insani münasibətlərin inkarı ilə heyvanaltı münasibətlərin yaranmasını özündə ifadə edir.

Beləliklə, bir tərəfdən dağıdıcılıq, öldürməyə meyl, digər tərəfdən başqalarını qurban vermək, üçüncü tərəfdən şəxsi münasibətləri heyvani münasibətlərdən də aşağı səviyyəyə salan fiktiv ruh özündə İblis kimi çıxış edir.

Eqo özündə fiktiv ruhun çoxluğu kimi mövcuddur. Eqonun çoxluğuna **Mən, Sən və O** aiddir. Hansı ki, Freydin psixi strukturun

təbəqələri kimi adlandırdığı *O, Mən və Mən-üstü*nə uyğundur. Biz, Mən, Sən və O-nu formal ruhla bədənin əlaqəsini özündə ifadə edən fiktiv insan ruhunun daxili çoxluğunu təşkil edən tək kimliklər kimi təyin edirik. Burada, **Sən** - insanın bədəni, **Mən** - bədənlə ruhun vəhdəti, **O** - bədəndən ayrılıqda təsəvvürə gətirilən formal ruhdur. **Sən** - ayırıcı - ruhu bədəndən dissosiasiya edən fiktiv ruhun təkliyi; **Mən** - birləşdirən, yəni bədəni ruha və digər fərdlərə birləşdirən fiktiv ruhun təkliyi; **O** - bədəni inkar edən, buna görə də dağıdıcı fiktiv ruhun təkliyi kimi çıxış edir. Məhz buna görə, fərdlərin qarşılıqlı əlaqəsində hər iki fərd bir-birini Sən kimi, hər biri özünü Mən kimi və konkret bədənsiz təsəvvürə gətirdikləri fərdi "O" kimi - formal ruh kimi - qavrayır. Normal insanda - eqonun tamlığında hər üç təklik birlikdə fiktiv fərdi ruhun çoxluğunu təşkil edir və Sən, Mən və O formal ruhun aktuallaşmasında bir-biri ilə qarşılıqlı əvəzlənərək ruhun faktuallaşmasına xidmət edir. Eqonun daxili dağılmasında eqodan Mən və Sən çıxarılır və eqo yalnız "O" kimi - bədənsiz dağıdıcı formal ruh kimi - mövcud olur.

Haşiyə: Herbert Markuze, "Eros və sivilizasiya"

> *"Ən dərin, qədim və ümumi qəbul edilmiş şüursuzluq və ilkin instinktlər «O»-dur. «O», şüurlu, sosial fərddə konstitusiyalaşan zamanın və əksiliklərin təsirindən, formadan və prinsiplərdən azaddır. «O»-nun cəhd etdiyi hər şey - həzz prinsipinə uyğun instinktiv tələblərin təmin etməkdən ibarətdir. Xarici aləmin (ətraf mühitin) təsiri altında «O»-nun hissəsi qavrayış orqanları və qıcıqlanmadan müdafiə edən orqanlarla təchiz olunaraq «O» ilə xarici aləm arasında vasitəçi olan «Mən»-ə keçir."*

H.Markuzedən gətirdiyimiz sitatdakı "ən qədim, dərin və ümumi olan «O»" özündə bədənlə əlaqələnməmiş başlanğıc tək Formal insan ruhunu özündə təqdim edir. Belə "O" yalnız eşqin şərtlərindən ibarət olur; hansı ki, Eros formasında təzahür edir. Başlanğıc Formal Ruh mövcud varlıq olmadığından, zamanın və əksiliklərin təsirinə məruz qalmır, buna görə dəyişmir və kosmosdan dərk olunmur və özündə

mücərrəd yaradıcılıq fəaliyyətlərinin şərtlərinin məcmusundan ibarət olur. Bədənsiz olduğundan forması yoxdur və bədənlə əlaqə şərtləri olmadığından prinsipsizdir. Bu cür "O" yalnız özünütəminlə həzzə cəhd edir. Xarici aləmlə "O" arasındakı vasitəçi "Mən" əslində bədənlə əlaqələnmiş və buna görə də prinsiplərə, formaya və zamandan asılılıq qanunlarına tabe olan faktiki fərddə olan formal ruh - "O"-dur. Bədən özündə zamanla şərtlənməni - ölüm instinktini təqdim edir. Nəticədə, Mən iki instinktlə: "O"-dan gələn Erosla və bədəndən gələn Tanatosla şərtlənir. Buradan da, ölümlü real şüurlu mövcud insan varlığı meydana çıxır.

"Mən"in bədənlə təcrübəni dəf edərək yenidən formal ruha keçməsindən "Sən" yaranır; hansı ki, yalnız qarşılıqlı refleksiya ilə xarici formal ruh kimi meydana çıxır. Artıq "Sən" bədənlə qopmanın, ayrılmanın, yəni ölümün instinktini daşıyır. Buradan da, Sən - "öldürülmüş Mən"lə eyniyyət təşkil edir. İblis imaqosu - Mən və Sən ilə əlaqə təcrübəsi olan və bədənin daxilində onunla əlaqələri qopardığından yenidən formadan və prinsipdən azad və yalnız ölüm instinkti ilə sonsuz olaraq həzzə cəhd edən "O" kimi təyin edilə bilər. Franz Aleksander "hərəkətli psixi enerjinin «topik formaya»dək ixtisara düşməsi" ilə bağlı ehtimal irəli sürür; hansı ki, bunu "ruhun bədənsizləşməsi" (*corporealization of the psyche*) adlandırır. Ruhun bədənsizləşməsi bədənsiz ruhdan fərqli olaraq təcrübə sferasında qalmaqda davam edir. Bütün bu proseslərin məcmusunu Markuze "**fərdin boğulması**" adlandırır. Fərdin boğulması bədəndə formal ruhun azad olmasına və azad fəaliyyətinə səbəb olur; hansı ki, bədənlə əlaqədə fəaliyyət göstərən ruhdan fərqli olaraq "boğulmuş fərdin" ruhu asosiallıq əldə edir, yaradıcı olmur, başqa fərdlərlə və cəmiyyətlə əlaqəyə meyl etmir. "Boğulmuş fərddə" fiktiv insan ruhu tək formal ruh kimi - eqonun ən "dağıdıcı Mən"i kimi - bədənlə əlaqələrini qoparır.

Daxildə çoxluqdan məhrum olmuş formal ruh, xaricdə çoxluq kimi mövcud olan digər fərdi fiktiv ruhlarla ziddiyyət təşkil edir, yəni belə ruha malik fərd heç kimlə ruhi bağlılıq yaratmır. Daxili aqressiv təklənmiş formal ruh faktuallaşma prosesində özünə faktik varlıq əldə etməyə cəhd edərək müstəqil fəaliyyət göstərən mövcud varlığa çevrilməyə cəhd edir. İblis imaqosuna malik formal ruh yalnız faktik ruhdan istifadə etməklə vəhdətdə mövcud varlığa çevrilə bilər. Buradan da, İblis imaqolu ruh xaricdə **fiktiv ruhun əsərləri** ilə vəhdətə cəhd edir.

Ruhun əsəri dedikdə nə nəzərdə tutulur? Biz xarici faktiki ruhun faktlarının **Erosla** yaradıldığını qeyd etmişdik və bu faktları **erot** adlandırırıq. Eros - ruhun əsas təzahürlərindən olan eşqin formalarından biridir. Erot qədim yunan mifologiyasından alınma sözdür və "erosun yaratdığı şey" mənasını verir. Erotun mahiyyətinə varmaq üçün ən ümumi şəkildə fetişizmin inkişaf mərhələlərinə diqqət etmək lazım gəlir.

Formal ruh bədənlə əlaqələndikdən sonra, ətraf aləmin ilkin refleksiyası formal ruhun özü-özünü refleksiyasından ibarət olmuşdur. Belə ki, mövcud varlıqların idrakı formal ruhda qalıcı refleksiya olunmadığı mərhələdə, yəni yaddaş yarananadək, formal ruhun mövcud varlığı refleksiya cəhdində özünürefleksiya kimi baş verir. Özünürefleksiya formal ruhla bədənin əlaqələrindən meydana çıxır; hansı ki, bədənlə ruh eyni bir varlıq kimi qəbul edildiyindən bədənin ruha təsiri ətrafın insana təsiri kimi qavranılır. Bu zaman bədən istənilən xarici predmet, ruh isə həmin predmetə can verən güc kimi təsəvvür olunur. Nəticədə, ruh ətraf aləmi özünün qanunları əsasında dərk edir. Buradan da, Kosmos metafizik qanunlara tabe olan aləm, mövcud varlıqlar metafizik gücə malik varlıqlar kimi dərk olunur. Ətraf aləmin belə dərkindən **fetişizm** meydana çıxır. Fetişizm - mövcud varlığın varlığın mövcudluğu kimi dərk edilməsindən ibarətdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Fetiş - təbii mövcud varlıqlarla formal ruhun vəhdətinin fikrən təsəvvürə gətirilməsinin şərtlərinin məcmusundan ibarətdir.

Fetiş - şeyi canlandırmaq - özündə insan kimi canlanmağı ifadə edir, hansı ki, həm də ruhlanma kimi qavranılır. Biz fetişizmin inkişafını yunan mifologiyası əsasında daha dəqiq izləyə bilərik. Qədim yunanlara görə, həyat bir böyük qəbilə cəmiyyəti kimi təsəvvür olunurdu. Bütün insan münasibətləri və təbiət hadisələri ümumiləşdirilmişdir. Yəni təbiət hadisələri ilə insan münasibətləri bir və eyni qanunauyğunluqlara - metafizik qanunlara - tabe olan gerçəkliklər kimi qəbul edilmişdir. Buradan da, ibtidai şüura görə, təbiətdə olan maddi şeylər canlı qəbul edilmişdir. Nəticədə, fetişizm - təbii maddi şeylərin ruha malik olması haqqında təsəvvürlər meydana çıxmışdır. Fetişizmin başlanğıcında yunanlar predmetlə ruhu vəhdətdə təsəvvür edir və predmetin məhv edilməsi ilə onun ruhunun da öldüyünü düşünürdülər. Daha sonralar, fetiş haqqında belə təsəvvürlər meydana çıxmışdır ki, fetişin ruhu ilə predmeti bir-birindən ayrıdır və predmetdən fərqli olaraq, onun ruhu müstəqildir, başqa qanunlara tabedir və predmetdən daha uzun ömrə, fərqli mövcud olmaya malikdir. Buradan da fetişin ruhu **demon** kimi, fetişin predmetindən differensiasiya edilmiş fetişə demonik gücünün mərkəzi kimi baxılmışdır.

Yunan dilində "demon" sözü bizim İblis kimi qavradığımız varlığı xarakterizə edir. Daha sonralar Yunan mifologiyasında mərkəzləşdirmə cəhdi Olimp dağı ətrafında bütün mifoloji obrazların birləşdirilməsi ilə nəticələnmişdir ki, buradan demonların birliyi haqqında təsəvvürlər yaranmışdır. Sonradan bu təsəvvürlərin ölməsi ilə həmin obrazlar Qədim Yunanların çoxallahlıq dininin və müxtəlif fəlsəfi görüşlərinin bədii ifadə vasitələrinə çevrilmişdir. Bizim eradan əvvəl ilk dəfə sofistlər qədim yunan miflərini bir yerə yığıb, onları şərh etməyə cəhd etmişlər. Yunanların çoxallahlığı özündə fetişizmin ənənələrini daşımaqda davam etmişdir. Onlar demonik mövcudluqları predmetsiz təsəvvür

etmədiklərindən, öz allahlarını da müxtəlif predmetlərlə əlaqələndirmişlər. Məsələn, yunanların baş allahı Zevs daş piramida kimi təsəvvür olunurdu. Digər allahlar da ya daş, ya da ağac parçası kimi təsəvvür olunurdu. Bir tərəfdən də yunanlar allahları insan formasında təsəvvür edirdilər. Buna görə də, yunanlar öz allahlarını daş və ağaclara insan fiquru proyeksiya edərək, onların heykəllərini yaradırdılar. Heykəl əslində qədim yunanlar tərəfindən allahların özü kimi qəbul edilirdi.

Fetişizmin inkişafının sonrakı mərhələsində **animistik demon** təsəvvürləri yaranır. İblis gücünün mərkəzi cansız əşyalardan canlılara köçürülür. Belə təsəvvürlər xaotik formaya və disharmoniyaya malik varlıqlarla bağlı məlumatları meydana çıxarmışdı. Məsələn, Kentavr, qrifon və s. varlıqlarla bağlı təsəvvürlər bu cür dərketmənin məhsulları kimi meydana çıxmışdır. Daha sonra demonik gücün mərkəzi canlılardan çıxarılıb bilavasitə insana yerləşdirilmişdir. Animistik demonlardan **antropomorfik demonlara** keçid artıq demonik gücün ayrı-ayrı insanlarda yerləşdirilməsi ilə müşayiət olunub. Buradan da, antropomorfik varlıqlar - iblisləşmiş insanlar haqqında təsəvvür meydana çıxmışdır. Hansı ki, yunan allahları məhz bu cür - allaha çevrilmiş insanlardan ibarət olmuşdur. Qədim yunan filosofu Evqemer (Euhemerus) allahları həqiqətən demonu olan yaşamış insanlar hesab etmişdir. Buradan göründüyü kimi, Qədim Misirdə fironlar - canlı allahlar, Misir allahları ölmüş fironlar kimi qəbul edilirdi. Fetişizmin sonrakı inkişafında iblis gücü Allahlardan və insandan da çıxarılmış və idrakı qeyri-müəyyən varlığa proyeksiya edilmişdir. Buradan da **metafizik fetiş - İblis** haqqında təsəvvürlər yaranmışdır.

Beləliklə, biz fetişizmin inkişafını aşağıdakı kimi sxematik təsəvvür edə bilərik: **Cisim Fetiş → Animistik Fetiş → Antropomorf Fetiş →Allah Fetiş → İblis.**

Bu dövrün Demon haqqında təsəvvürləri bədii əsərlərdə öz əksini tapır. Məsələn, Homer demonu ani yaranan və yox olan, vahiməli,

qorxunc güc kimi; insanın onun haqqında heç nə bilmədiyi, ona ad qoya və ünsiyyətə girə bilmədiyi, forması və sifəti olmayan, haradansa gələn fəlakət törədib yox olan varlıq kimi təsvir etmişdir. Beləliklə, fetişizmin inkişafının qısa təhlili göstərir ki, əslində demon formal ruhun mövcud varlığa proyeksiya etdiyi öz kimliyidir; hansı ki, ən müxtəlif proyeksiyalardan keçməklə sonda qeyri-müəyyən formal ruh kimi təsəvvür olunur. Fetişizmin tarixi inkişafında demonik mərkəzin proyeksiyasından asılı olaraq təsəvvürə gətirilən varlıqlar insanların yaddaşında paralel yaşamaqda davam etmişdir. Nəticədə, təbii şeylərə demonun proyeksiyasından **Cinlər**, canlılara proyeksiyasından **Şeytanlar**, insanlara proyeksiyasından **Monstrlar**, **Cadugərlər** və ya **Qara maqiyalar** haqqında təsəvvürlər formalaşmışdır.

Demon əvvəllər şər və xeyir güc kimi, amma sonralar yalnız şər güc kimi təsəvvür olunmuşdur. Xeyir kimi təsəvvür olunan demonlar **erotlardan** ibarətdir. Erot qədim yunan Allahı Erosun adından götürülmüş sözdür. Qədim yunanlarda Eros - ağac və ya daş parçası kimi təsəvvür olunan məhəbbət allahıdır. Yunanlara görə Zevs dünyanı yaratmaqla özü Erota çevrilib. Buradan da erot yaradıcılıqla bağlı meydana çıxan əsər kimi qəbul edilib. Erot - gözəlliyə əbədi cəhddə olan demon (ruhi güc) kimi qavranılıb. Buradan da, hər bir erot özündə gözəllik saxlamaqla insanı özünə çəkən istənilən şey nəzərdə tutulur. Biz iki cür erot - təbiətin yaratdığı və insanın yaratdığı erotu ayırd edə bilərik. Təbiətin yaratdığı erot neqativ gücdən yarandığından, onun insanı özünə əbədi bağlamaq və onun ruhi gücü ilə summasiya olunmaq imkanı yoxdur. Amma insan yaradıcılığının məhsulu olan hər bir erot özündə pozitiv güc təqdim etdiyindən, ona bağlanan insanın pozitiv gücü ilə summasiya olunur və insan yeni ruhi səviyyəyə keçir.

Psixologiya elmində Eros - həyat instinkti, yəni yaşamaq eşqi kimi təyin olunmuşdur. Həyat ən ümumi şəkildə yenini yaratmaqdan ibarətdir. Buna görə də, yaşamağı yaradıcı həyat mənasında anlaşılmalıdır və buna

görə də insanlar heyvanlardan yaratmaqla fərqlənir. Eros məhz yaradıcılıq eşqi kimi təzahür edir. Normal halda, təbii şəkildə Eros **Tanatosla** (ölüm instinkti) ilə vəhdət təşkil edir. Əks halda insan öz yaratdıqlarının altında məhv olardı. Buradan da, həyat eşqi həm də, yaradılan artıqların məhv edilməsini özündə təqdim edir. İblis imaqosu Erosla Tanatosun vəhdətində Erosdan Tanatosa keçir və erotda Erosu, həyat eşqini, yəni yaradıcılıq eşqini inkar edərək yalnız Tanatosla - ölüm instinkti ilə, dağıdıcılıq instinkti ilə fəaliyyət göstərir.

Haşiyə: Herbert Markuze, "Eros və sivilizasiya":

> *"Maneəsiz öz məqsədlərini güdən insanın əsas instinkti özünüsaxlama naminə istənilən uzunmüddətli birliklə bir araya sığmazdır: onlar hətta birləşmə olan yerdə də dağıdırlar. İradəolunmaz Eros da onun ələkeçməz ekizi - ölüm instinkti kimi məhvedicidir. Hər iki instinktin dağıdıcı gücü onların təmin olunmasına cəhddən yaranır - özüməqsəd təmin olunma kimi - istənilən anda; hansı ki, mədəniyyət verə bilmir. Buradan da instinktləri onların məqsədindən təxirə salmaq, onlara qadağa qoymaq tələb olunur. İnsanabənzər heyvanlar, yalnız instinktlərin məqsədinə yox, həm də onların «dəyərlərinə» təsir edən, yəni məqsədə çatmaq prinsiplərini idarə edən təbiətlərinin fundamental çevrilməsi ilə insana çevrilmişlər."*

H.Markuzenin fikirlərindən görünür ki, İnsan maneəsiz yalnız öz zövqlərini təmin etməyə meyl edirsə, onda o uzunmüddətli heç bir birliyə daxil olmur. Mədəniyyətin istənilən anda və hədsiz verə bilmədiyi zövqləri özünü təmin etmə naminə meyl edən dağıdıcı "O" idarəolunmaz və heç bir prinsipə tabe olmayan hərəkətli psixika kimi təzahür edir. Belə "O" Erosun təsirinə məruz qalmış qeyri-təbii şeylərlə - faktiki ruhla vəhdət təşkil etdikdə İblisin fiktiv Ruhi varlığı təsəvvürdə sintez olunur. Erosun izlərini özündə saxlayan istənilən mövcud varlığı təbii şeylərdən fərqləndirmək üçün **erot** adlandırmaq olar. Beləliklə, eros nəticəsində yaranan ruhi fakt maddi mövcudluqlara proyeksiya olunduğundan **antikvar** kimi və ya bilavasitə təbiətdən yaradıldığından - **dəyər** və **bilik**

kimi əslində mövcudluqdan asılı olur; hansı ki, mövcudluğun varlığı varlığın mövcudluğuna əksilik təşkil edir. Beləliklə, konkret maddiləşmiş ruhi faktlar özündə iblisanə şey - demon kimi çıxış edir, hansı ki maddilik keçmişə istiqamətləndiyindən ölüdür. Buradan da, ölü ruhi kristallar iblisin ruhu kimi mövcud olur və insanlığa gətirdiyi bəlalar iblisin əməlləri kimi qavranılır. Dəyərlər və bilik, o cümlədən, maddi mədəniyyət nümunələri - antikvar - uğrunda mübarizə bəşəriyyətə gətirdiyi fəlakətlər məhz erosun yaratdığı ölü ruhi faktların təzahürüdür. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Erot - erosun təsirinə məruz qalan, istənilən yaradıcılıq məhsulu kimi ruhun faktik varlığının şərtlərinin məcmusundan ibarətdir.

İki cür erot mövcud olur: fərdi və ümumi. Birincisinə, eyni vaxtda yalnız bir nəfərin tələbatlarını müvəqqəti olaraq ödəmək funksiyasına malik olan erotlar aiddir. Belə erotlar fərdi erosdan meydana çıxır, yəni özündə yalnız bir fərdin erosundan yaranır. Məsələn: konkret ayaqqabı bir nəfər tərəfindən tikilir və bir nəfərin ona olan tələbatını ödəyir; biz belə erotları **fərdi erot** adlandırırıq. İkincisi, müxtəlif vaxtlarda, çoxlu sayda insanın erosundan yaranır və müxtəlif vaxtlarda çoxlu sayda insanın eyni bir tələbatının, maraqlarının, arzularının daimi ödənməsinə xidmət edir - belə erotları **ümumi erotlar** adlandırmaq olar. Məsələn: yol üzərində salınmış körpü və ya çoxlu insan yaşayan bina və s.

Ümumi erotun konkret və mücərrəd formaları vardır. Konkret formaları cansız, mücərrəd formaları canlıdır. Canlı erota özünü xüsusi cəzbedicilik verərək, eyni zamanda müxtəlif kişilərin cinsi tələbatını ödəməyə cəhd edən fahişələri aid etmək olar. Ona görə də, orta əsr Avropasında fahişələrlə iblisin vəhdətdə olduğu təsəvvürə gətirilmişdir və bu vəhdətdə fahişələr iblisin tapşırıqlarını yerinə yetirən fərd kimi qəbul edilmişdir.

Haşiyə: Rollo Mey, "Məhəbbət və İradə":

"Əgər insan belə hesab edirsə ki, onun cəhdi - istənilən adamın təbii həyat təcrübəsinin hissəsi olan öz anasına bağlanmaq cəhdi - hədsiz güclüdür və ya hansısa başqa səbəblərdən onun qarşısını almalıdır, onda o, onu xarici aləmə proyeksiya edir; yataqda yatdığı qadın şərə, iblisə çevrilir, hansı ki onu axtalayır."

R.Meyin şərhindən də görünür ki, qadının kişinin təsəvvürlərində iblisə çevrilməsi məhz onun öz daxilində öz anası ilə - yataqda yatdığı və başqalarına da aid olan qadın arasında əksiliklə bağlıdır; hansı ki, biri ona kişilik bəxş edən, digəri onu onun əlindən alan güc kimi təsəvvürə gətirilir. Başqa sözlə, tək bir qadının bir kişiyə ana, başqasına bacı, üçüncüsünə nənə və nəhayət dördüncüsünə arvad olması qadını təbii şəkildə ümumi edir və qadının öz təbii ümumiliyini özündən kənara çıxardıqda fahişənin fiktiv ruhi varlığı meydana çıxır.

Ümumi erotları fərdi erotlardan fərqləndirmək üçün onları **demon** adlandırmaq olar. Beləliklə, erotlar - fərdi, demonlar - ictimai mədəni şeylərdir. Mədəni - özü-öz daxilində gizli qiyməti olan mənasını verir, yəni mədəni şeylər o şeylərdir ki, onlarda fiktiv ruhi varlığın əsəri vardır. Demon - ümumi erotdur. Platon da "Pir"ində "erot - demondur" fikrinə gəlmişdir. Demon da erot kimi özlüyündə insanlara xidmət etdiyindən xeyirli şeydir və xeyirxah niyyətlərə xidmət edir və ya istifadə olunur. Məsələn, körpü nə qədər möhkəm, etibarlı olsa, bir o qədər insanlar ondan təhlükəsiz keçə bilərlər və körpü tikən insan başqa insanlara xeyirxahlıq edir. Əgər demon özlüyündən çıxarılırsa, yəni mövcud varlığı formal ruhun mövcud olması ilə vəhdətdə təsəvvürə gətirilirsə, onda demon iblisə çevrilir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis - mövcudluğu demon, mövcud olması İblis imaqosuna malik "O" kimi təsəvvürə gətirilən və özündən xaricə çıxarılan fiktiv ruhi varlıqdan ibarətdir.

Bu ideyanı necə anlamaq olar? Yuxarıdakı körpü nümunəsində iblisin nə olduğunu daha asan təsəvvür etmək olar. İki cür körpü ola

bilər. Birincisi, insanların keçidi sərbəst olan və daimi istifadə olunan körpü. Belə körpü adi körpüdür. İkincisi, xüsusi körpü. Belə körpülərdən keçid azad olmur və insanlar istənilən vaxt ondan istifadə edə bilmir. Məsələn, çayların üzərindən salınmış qaldırılan körpülər və ya keçidi pullu olan körpülər. Belə körpüdən insanların istifadəsi insanlar tərəfindən və ya avtomatlarla idarə olunur. Bu zaman körpünün insanların tələbatlarına xidmət etməsi körpünün idarə edilməsi ilə şərtlənir və körpünün idarə olunması onu idarə edən fərdin kimliyindən asılı olur; yəni insanların körpüdən istifadəsi həmin körpünü idarə edən insanın iradəsindən, bacarığından, istəklərindən, insanlara münasibətindən (məhəbbətindən, məsuliyyətindən, tamahkarlığından, niyyətindən və s.) asılı olur. Körpü məhz buna uyğun insanlara xidmət göstərir. Bəzən, tutaq ki, körpünün qaldırılması zəruri olur, onda körpüdən ağır xəstənin keçib həkimə çatması mümkün olmur və xəstə ölür. Buradan da, mövcud insanlar tərəfindən idarə olunan demon təsadüfə görə insanların əleyhinə işləmiş olur.

İndi təsəvvürümüzdə körpünü özlüyündən çıxaraq və onu mövcud insan tərəfindən və ya avtomatik yox, mövcud insandan azad olmuş onun formal ruhu tərəfindən idarə olunduğunu təsəvvürə gətirək. Ruhun bu cür bədənlə əlaqəsinin kəsilməsi mövcud insan öldükdə baş verir. Yəni azad ruh ölüm təcrübəsinə malik olur; hansı ki, yaşayan heç bir insanın fərdi ruhu özündə ölüm təcrübəsinə malik olmur. Buna görə, yaşayan insan ölümün nə olduğunu dərk etmir. Əgər mövcud insan yaşaya-yaşaya onun ruhu onda azad olaraq körpünü idarə edirsə, onda iblis meydana çıxır. Yaşayan insanda ruhun azad olması ilə ruhun insanın tələbat və maraqlarına xidmət etmək zərurəti aradan qalxır, bədənlə şərtlənmədiyindən insan iradəsinə tabe olmur və özü-öz iradəsi ilə özbaşına fəaliyyət göstərir, başqa insanlarla, eləcə də insanlıqla əlaqəsi olmur. Bədənlə əlaqələrini itirdiyindən əsası biologiyada olan məhəbbətin heç bir forması - cinsi, dostluq, insanlıq və nəhayət Allaha

məhəbbət təzahür etmir; əksinə, məhəbbətin əksiliyini saxlayan hisslər - insanlara nifrət, kin, düşmənçilik, nifaq və s. mövcud olur. Bir tərəfdən mövcud insanla ölü kimi əlaqələrini kəsdiyindən özündə ölüm təcrübəsinə malik olan, digər tərəfdən insanın və insanlığın iradəsinə, istəklərinə, maraqlarına, vicdanına tabe olmayan, əksinə özbaşına, insana və insanlığa nifrət hissi ilə çıxış edən fərdi ruh artıq İblisdir. Əgər təsəvvürə gətirsək ki, körpü belə ruha malik insan tərəfindən idarə olunur, onda həmin şəxs insanlığa nifrət, kin və düşmənçilik hissləri bəslədiyindən və özündə sağlam adamda ölü təcrübəsini təzahür etdirdiyindən, həmin insanın bütün fəaliyyəti insanlığın əleyhinə yönələcəkdir. Buradan İblis insan simasında təzahür edir. Onda körpü iblisin vasitəsi kimi ondan keçən insanlara ancaq fəlakət gətirmək üçün istifadə olunacaqdır.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis - tək formal insanlıq ruhuna özündə əksilik saxlayan, neqativ gücə malik, mövcud insanda azad olan, təklənmiş fiktiv fərdi ruhun demonla daxili vəhdətindən ibarət fiktiv ruhi varlıqdır.

İblis insanda yaranır, insan onun varlığını təsəvvürə gətirərək dərk edir və fərdi bəşəriyyətin əleyhinə fəaliyyətlərə istiqamətləndirir. İblis ruhunun bədənlə əlaqəsi xüsusi hallarda o qədər zəifləyir ki, bəzən insan bədənində azad olan ruh ekzistensiya edərək demona keçir. Bu zaman iblis demonun daxili funksiyası kimi təsəvvürə gətirilir. Nəticədə, iblis mövcud insandan kənarda mövcudluğun varlığından təzahür edir. Bizim gətirdiyimiz nümunədə belə vəziyyətdə körpü özü-özlüyündə insanlara fəlakətlər gətirməyə başlayır. İblis daha çox və bütün dövrlərdə yaşayan insanlara düşmənçilik məqsədi güddüyündən daha böyük demonla - yəni ya dəyərinə, ya yararlığına, ya yaradılmasında yaradıcı insanların iştirakının sayına görə daha nəhəng demonlarla - vəhdətə girməyə və bütün bəşəriyyəti məhv etməyə cəhd edir.

Beləliklə, İblis özündə obyektlə subyektin əksiliyini dəf edən, buna görə də əbədi olaraq ayrılmaz şəkildə demonla bağlanan və digər faktiki ruhlarla, o cümlədən bütün insanlıq ruhu ilə özündə əksilik saxlayan, buna görə də gerçəkliyi təfəkkürdə insanlıqla vəhdətdə və mübarizədən, fəaliyyətindən dərk edilən fiktiv fərdi ruhun təsəvvüründən ibarətdir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis - özündə demonun proyeksiya olunduğu mövcud varlığın funksiyalarını mənimsəyərək, hər bir fərdə və bütün insanlığa qarşı mübarizə aparan və nəticədə ruhun faktuallaşmasına əngəl olan, formal ruhun fəaliyyətini özündə təqdim edən fiktiv ruhi varlıqdır.

Beləliklə, iblis fiktiv fərdi ruhun transformasiyası kimi meydana çıxdığından və insan tərəfindən fiktiv varlıq kimi yaradıldığından, kosmosda şüurlu insan yarandıqdan sonra meydana çıxır və insan ruhuna münasibətdə ikincili xüsusi ruhi varlıq kimi mövcud olur. İblisin daxili vəhdəti sintetik olduğundan, nə mövcud varlığa xas təzahürlərə, nə də xalis ruhi mövcud olmaya xas münasibətlərə malik olmur. İblis fiktiv varlıq kimi yalnız xalis fəaliyyət kimi təsir etmək imkanına malik olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis təzahür etmədiyindən və başqa varlıqlara münasibət göstərmədiyindən nə hissi, nə də demonstrativ idrak üsulu ilə qavranılmır. Yalnız fəaliyyətdən fikrən intuitiv qavranan varlıq kimi mövcud olur.

Bəs insanın fərdi ruhu necə iblisə çevrilir?

Haşiyə: R.Mey, "Məhəbbət və İradə":

> *"İblisanə - bu şəxsiyyəti tamamilə özünə tabe edən istənilən təbii funksiyadır. İblis canlı mövcudluq deyil. Bu söz altında insanlıq yaşantılarının - müasir insanın, bizə məlum olduğu kimi bütün bəşəriyyətin ekzistensial reallığı fundamental arxetip funksiyaları başa düşülməlidir. İblisanə - hər bir mövcudluğun özünütəsdiqə, çoxalmağa və əbədiləşməyə cəhdidir. Yunan anlayışında iblis (demon), latın dilində dahi (genii) yaradıcı*

qabiliyyəti ifadə edir. İblisanə şüurla yox, şüur daha çox ictimai məhsuldur, daha çox təbiətlə bağlıdır. İnsanın «özünün özünə çağırışı deyil»."

R.Meyin fikirlərini nümunə əsasında şərh edək. Heykəl - demondur. Heykəl özü-özündə mövcud varlıqdır, amma onun formasına insan xüsusi ikincili forma proyeksiya etdiyindən həm də faktik ruhi varlıqdır. Nəticədə, heykəldə bir formal varlıq (heykəlin hazırlandığı materialın mahiyyəti) və iki fərqli faktiki varlıq (həmin materialın forması - ağac, metal və s. və ona proyeksiya edilmiş mahiyyəti heykəltaraşda olan faktik ruhi varlıq - insan, heyvan və s. fiquru) vəhdət təşkil edir. Həmin heykələ tamaşa edəndə heykəldəki ruhun faktiki varlıqla tamaşaçının fiktiv fərdi varlığı keçici vəhdət təşkil edir və tamaşaçı heykəli qavrayır. Əgər tamaşaçı heykələ daimi bağlanırsa, onda heykəldə dörd cür varlıq - heykəlin hazırlandığı materialın faktiki və formal varlığı, heykəlin faktiki ruhi varlığı və fərdin öz bədənindən qopub ona keçmiş fiktiv ruhi varlığı vəhdət təşkil edir. Bu cür vəhdətdə əgər proyektiv forma - faktiki ruhi varlıq vəhdət təşkil etdiyi mövcud varlığın funksiyalarını (formal varlığını) özündə, ondan kənarda vəhdət təşkil etdiyi fərdi fiktiv ruha ötürməklə onu mövcud varlığın funksiyasına uyğun ruhi fəaliyyət göstərməyə məcbur edirsə, onda həmin fərddən iblis təzahür edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Demonun mövcud varlığın funksiyalarının fərdi ruha keçirməsindən - mövcud varlığın formal varlığı ilə fərdi fiktiv ruhi varlığın daxili vəhdətindən İblis yaranır.

Yəni erosla yaranan yaradıcılıq məhsulları özündə iblisin əsası - insanın formal varlığını özündə vəhdətə gətirən faktiki ruhi varlıq - **demon** kimi mövcud olur. Əslində özü-özündə demon iblisə çevrilmir. Demon o zaman iblisə çevrilir ki, o təklənmiş fərdi fiktiv ruhu - "O"-nu özünə bağlayaraq, onun fəaliyyətini özündə stimullaşdırır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Demonun təklənmiş fiktiv fərdi ruhun fəaliyyətini stimullaşdırması ilə meydana çıxan fərdi fəaliyyət iblisin fəaliyyətindən ibarətdir.

R.Meyin şərhindən görünür ki, iblisanə o şeylərdir ki, onlar şəxsiyyəti tamamilə özünə tabe etdirir. Yəni ruhi fəaliyyət insan iradəsinə yox, demonun təsirinə tabe olur. İblisdə insan iradəsi təzahür etmir. İnsanın idrakı, yaradıcılığı və başqa insanlara münasibəti inkar olunur. İblis insanlara əksilik saxladığından insanların dərk etdiklərinə əks idrak qabiliyyətinə malik olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Mövcud insanların xeyir kimi qavradıqlarını iblis şər kimi, şər kimi qavradıqlarını iblis xeyir kimi qavrayır.

Buna görə də, iblis öz fəaliyyətində yalnız şərə xidmət edir və fəaliyyətinin bütün nəticələri insanlığın əleyhinə yönəlir. Demonun elə belə fəaliyyəti stimullaşdırması özündə özünütəsdiq, çoxalma və əbədiləşmə cəhdləri yaradır. Demonun iblisə çevrilməsi ilə iblis özünü təsdiqə (yəni şər törətməyə qabil varlıq kimi), çoxalmaya (öz fəaliyyətini yaymağa, özünə tərəfdar toplamağa) və nəhayət insandan sonra onun fiktiv ruhi varlığından ikincili yaranmasına baxmayaraq əbədiləşməyə cəhd edir. Demonun iblis yaratması onu yaradan şəxsiyyətlə bağlıdır. Ən ümumi şəkildə demonun yaradıcısını **rəssam** kimi təsəvvür etmək olar; hansı ki, Platon rəssamı "ilahi ağılsızlıq" ekstazına tutulmuş şəxsiyyət kimi təyin etmişdi. Beləliklə, demonda bir tərəfdən ilahilik, digər tərəfdən həmin ilahiliyin ağılsızlıqla ifadə edilməsi durur; hansı ki, demonda əks olunan ağılsızlıq ona bağlanana keçərək onun ağıllılığını dəf edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis - ilahi ağılsızlıqla fəaliyyət göstərən fiktiv ruhi varlıqdır.

Yəni iblisin fəaliyyəti ilahi güclə meydana çıxdığından nəticələri insanüstü olur. Yaradıcılıq - gələcəkdə idrakın başqa üsulları ilə insanlara məlum olacaq həqiqətlərin əvvəlcədən insanlara bildirilməsindən ibarətdir. Məhz buna görə yaradıcılıq əsərindəki ideya (faktiki ruh)

gələcəkdə dərk olunacaq ideya ilə (formal ruhla) vəhdət təşkil etdikdə özündə inkişaf meyli təzahür etdirir. Yəni demon ona bağlanan insanların ruhi fəaliyyətini öz ideyasına uyğun hərəkətləndirir. Buradan da, əsərdə verilmiş ideyanın inkişafının fiktiv fərdi ruhi fəaliyyəti stimullaşdırmasından demon "canlanır". İblis - əsərin ideyasının mövcud insanda spontan və avtonom inkişafıdır, hansı ki, digər ideya və obrazlara assosiasiyada özünü ən müxtəlif formalarda fərddə aşkarlayır; hansı ki, demonun "canlanması" kimi təzahür edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Demonun ideyasının fərdi insan ruhunda canlanaraq avtonom və spontan inkişafı iblislik kimi təzahür edir.

Məsələn, rəsm əsərinin tamaşaçıya təsiri zövqlə nəticələnirsə, həmin əsər demon kimi təyin olunur. Yox əgər əsərin tamaşaçıya təsiri zövqə yox, tamaşaçıda başqa ideyaların yaranmasını - məsələn, onu nəyin bahasına olursa-olsun əldə etməyə, ondan başqa insanlara təsir etmək üçün istifadə etməyə, ondan özünün başqa tələbat və maraqlarını təmin etmək üçün istifadə etmək üçün fəaliyyətə cəhdi - stimullaşdırırsa və bu zaman həmin ideyalar məhz əsərin formal varlığının funksiyalarından çıxırsa, onda həmin əsər iblisanə, tamaşaçı isə iblis olur. Buna görə də, iblis ən gözəl əsərlərə, ən dəyərli şeylərə, ən gözəl qadınlara bağlanan varlıq kimi təsəvvür olunur.

Demon mövcud varlığa proyeksiya olunduğundan, həm də öz canlılığına uyğun mövcud varlığın funksiyalarının fəallaşmasına, yəni fəaliyyətə çevrilməsinə və həmin fəaliyyətin fərdi ruha ötürülməsinə səbəb olur. Nəticədə, ruhun fəaliyyəti mövcud varlığın funksiyalarının əsasında ekzistensiya edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis - mövcud varlıqların funksiyalarının ruhi fəaliyyətə keçməsi ilə meydana çıxır.

Biz mövcud varlığın funksiyasının nədən ibarət olduğunu təsəvvür etmək üçün onu mövcudluqdan məhrum etməklə, yəni tam dağıtmaqla nail ola bilərik. Hansı ki, müasir dövrdə cismin funksiyası atomun parçalanmasından aşkarlanır. Yəni, atomun malik olduğu dağıdıcı enerjini öz daxilində saxlamağı biz cismin əsas funksiyası kimi təyin edirik. Buradan da, demon cismin funksiyasını İblisə verməklə onun əlinə atom silahı kimi güclü bir silah vermiş olur. Beləliklə, İblis - insan yaradıcılığı nəticəsində meydana çıxan xarici ruhi faktlarda fiktiv fərdi ruhun mövcudluğun formal varlığının funksiyalarına tabe olmuş vəziyyətidir; hansı ki, subyekt olaraq özündə obyektiv gerçəkliklə əksilik saxlamır, əksinə özü obyektiv gerçəklik kimi çıxış edərək, subyektə - formal ruha əksilik saxlayır. Mövcudluğun formal varlığından təbii funksiyaları mənimsədiyindən İblis neqativ gücə malik olur.

Nəticədə, iblisin fəaliyyəti təbii fəlakətlər kimi nəticələnir. Buradan aydın olur ki, iblis insanın özünün yaratdığı, özündə yaranan və təbiət qanunlarına tabe olan fiktiv ruhi varlıqdır; hansı ki, neqativ enerjiyə malik olduğundan, özündə mövcudluğa xas istiqamətlənmə - ölümə istiqamətlənmə saxlayır. İblis yalnız "ölü ruhi kristallarda" təbiətlə əlaqələnmədən ibarətdir, buna görə də canlı deyil və özündə ölümü təqdim edir. İblis nə üçün R.Meyin dediyi kimi insanlığın "ekzistensial reallığı, fundamental arxetip funksiyaları" kimi başa düşülməlidir? Arxetip sözü özündə əcdadı, ilk başlanğıcı, əsası, özünün mövcudluğunda keçmiş istiqamətində əlaqələnməni bildirir. Buradan da, arxetip keçmişə - ölümə istiqamətlənmədən aşkarlanır. İnsan canlılığın, canlılıq cismin (birincili mövcudluğun) əsasında reallaşdığından, insanın ekzistensial reallığında, yəni erosla özündən çıxıb ətrafa keçdikdə, demon vasitəsi ilə keçmiş istiqamətdə əlaqələnə biləcəyi sonuncu varlıq mövcudluğun varlığı - cisim olur, hansı ki özündə ölümü təqdim edir. Beləliklə bəşəriyyətin ekzistensial reallığı, fundamental arxetipi

mövcudluğun varlığı - ölü vəziyyətin funksiyalarıdır, hansı ki, iblis anlayışı altında başa düşülən bütün funksiyaların məcmusundan ibarətdir.

Mövcudluğun varlığı - cismin funksiyası fiziki gücün təzahürlərindən ibarətdir, hansı ki, iblis özündə təzahür etdirdiyi fiziki güclərlə dağıdıcılığa, destruktivliyə, fəlakətə və bunların nəticəsində ölümə xidmət edir. Yuxarıda qeyd etdiyimiz kimi, iblisin funksiyalaşması haqqında təsəvvürlərimizi təhlil etdikdə məlum olur ki, iblisin fəaliyyətinin nəticələri ilə bağlı təsəvvürlər təbii fəlakətlərin nəticələrindən əldə edilən təsəvvürlərlə eynilik təşkil edir. Sadəcə, iblisin törətdiyi fəlakətlər zəruri şərtlərə əsaslanır və idarə olunan, tənzim olunan, İblisin iradəsinə tabe olan təbii hadisə kimi meydana çıxır. Məsələn: İldırımın düşməsi təsadüfə görə yanğın törədirsə, iblisin törətdiyi yanğın zərurətə görədir; hansı ki, insanlığın əleyhinə yönəlmə zərurətindən ibarətdir. İldırımın düşməsindən yaranan yanğından insanların zərər çəkməsi təsadüfə bağlıdır, amma iblisin törətdiyi yanğından insanların ziyan görməsi zəruridir. Buradan da, insanlığa böyük fəlakətlər gətirən təbii fəlakətlər eyni zamanda həm də iblisin fəaliyyəti kimi meydana çıxır. İblisin əsas xarakteristikası ictimai olmaması, buna görə də fərdi faktuallaşma cəhdində olması, şüura tabe olmaması, buna görə şüursuzluqdan meydana çıxması, dağıdıcı olması, xeyir və şərin sərhədlərindən kənar (yəni cəmiyyətdən kənarda) olması, insanın insanla əlaqəyə yox, bilavasitə təbiətlə əlaqəyə çağırışın olması, varlığın əsasından - cisimdən çıxması və s.-dir.

İblis - xaricdə tək formal ruhun totallaşmasına imkan verməyən, yaradıcılıqla ruhun faktuallaşması əvəzinə dağıdıcılıqla hər cür yaradıcılığın qarşısını almağa, bununla ümumi ruhun fərdi ruh kimi təzahür etməsinə nail olan fiktiv ruhdur. İblisin istənilən fəaliyyəti şərdir. **Şər** - insanlığın əleyhinə yönəlmiş ən ümumi fəaliyyətdir. Şər vicdanla istiqamətlənməyən ruhun azad fəaliyyətindən ibarətdir. Təbiətdə vicdan olmadığından, təbii azadlıq **vəhşi azadlıq** kimi meydana çıxır və zaman-

zaman təbii azadlıq şər kimi təzahür edir. Vulkanın püskürməsi, zəlzələ, subasma, qar uçqunu, yer sürüşməsi, tufan, fırtına və s. insanlığa böyük ziyan vurduqda şər kimi qavranılır. Təbii şəri **təsadüfə görə şər** kimi təyin etmək olar. Təsadüfə görə şər o şərdir ki, başqa təsadüfdə o şər kimi çıxış etməyə, yəni insanlığa ziyan vurmaya bilər. Bundan fərqli olaraq, İblisin şəri zərurətə görə şərdir. Zərurətə görə şəri istənilən halda təbii şər kimi çıxış edən fəaliyyət kimi təyin etmək olar. Beləliklə, iblis təbii şərin gücündən məqsədə müvafiq istifadə edən və onu bəşəriyyətin əleyhinə istiqamətləndirən fiktiv ruhi varlıq kimi təsəvvürə gətirilir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblisin şəri - istənilən halda zərurətə görə təbii şərlə bəşəriyyətin əleyhinə yönəlmiş fəaliyyətin şərtlərinin məcmusundan ibarətdir.

İblis şəri necə və hardan əldə edir?

Haşiyə: Jan Bodriyar, "Şərin şəffaflığı":

> *"Orqiya - bu müasir dünyada hər bir partlayış anıdır, bu istənilən sferada azadolma anıdır. Siyasi və seksual azadolma, istehsal və dağıdıcı azadolma, qadının və uşağın azadlığı, şüuraltı impulsların azadlığı, incəsənətin azadlığı. Hər şey, nə ki azad olur, qaçılmaz olaraq sonsuz müdaxilələrə və bununla da qeyri-müəyyənliyə və müvəqqətiliyə məruz qalır. Başlanğıcdan sonra dəyərlərin bazar və struktur mərhələsi, parçalanma mərhələsi gəlir. Başlanğıc mərhələ dünyanın təbii vəziyyətinə uyğun gəlmişdir və dəyərlər mövcud təbii adətlərə uyğun inkişaf etmişdir. İkinci mərhələ dəyərlərin ekvivalentliyinə uyğun olmuşdur və dəyərlər ticarətin məntiqi ilə inkişaf etmişdir. Üçüncü mərhələdə qaydaların hansısa əsasları yaranır və dəyərlər mövcud obrazların məcmusuna uyğun inkişaf edir. Dördüncü mərhələdə - fraktal mərhələdə, hansı ki virus və ya dəyərlərin diffuziyası adlandıra bilərik, nə olursa olsun uyğunluq mövcud olmur. Dəyərlər hər hansı məntiqsiz istənilən istiqamətə yayılır, hər bir quyuda və yarıqda olur. Bu mərhələdə artıq, başqa mərhələlərə xas bərabərdəyərlilik mövcud olmur, artıq dəyərlərin öz qanunu olmur; yalnız, təsadüfün iradəsindən asılı olan, dəyərlərin*

epidemiyasına, dəyərlərin metastazının artmasına, onun yayılmasına və səpilməsinə oxşar nəsə vardır. Xeyir artıq şərin o tərəfində olmur, heç nə absis və ordinat sistemində müəyyən vəziyyətə malik olmur. Nə zaman ki, şeylər, işarələr, fəaliyyət öz ideya və konsepsiyasından, mahiyyətindən və dəyərindən, mənşəyindən və təyinatından azad olur, onlar sonsuz özbaşınalıq yoluna düşür. Mövcudluğun mənası çoxdan itsə də, bütün mövcudluqlar funksiyalaşmaqda davam edir. Beləliklə tərəqqinin ideyası itir, tərəqqi davam edir. Öz mahiyyətini itirən istənilən şey, insan kimi, öz kölgəsində azır: onlar xaosa dalır və onda itir. Bütün sahələrdə metafora itir. İqtisadiyyat transiqtisadiyyata, estetika transestetikaya, seksuallıq transseksuallığa olur - bütün bunlar universal köndələn proseslərə birləşir. Bütün kateqoriyalar qarşılıqlı yoluxur, bir sfera digəri ilə əvəzlənir. Mübadilənin mümkün olmadığı hər yerdə terror gəlir. Klonlaşma - bədənin modelləşdirilməsinin axırıncı mərhələsidir. "

Fransız filosofu J.Bodriyardan gətirdiyimiz bu sitatda İblisin şəri necə əldə etməsini asanlıqla şərh etmək mümkündür. J.Bodriyarın "şərin şəffaflığı" fikrini **şərin kütləviləşməsi** kimi də ifadə etmək olar. Şəri kütləviləşdirən **kütləvi istehlakdır**; hansı ki, hər bir istehlak əşyası özü-özlüyündə fərdi demon kimi çıxış edir. İblis və ya ümumi demon isə həmin əşyaların məcmusunu özündə ifadə edir. Bodriyar öz əsərində şərin insanlar arasında yayılmasının fəlsəfəsini şərh edir. İblisin şəri eyni səbəbdən, ancaq kütləviləşmədən və ya kütləvi şərin əsasında duran universallıqdan meydana çıxır. Məsələn: kütləvi istehlakın bir fərdin iradəsindən asılılığı həmin fərddə iblis şərinin təzahürünə əsas yaradır; və ya insanlar arasında mübahisəyə səbəb olan istehlakın dəyəri universal şər kimi summasiya olduqda iblisin şərinə çevrilir.

J.Bodriyarın şərhi əsasında iblisin necə şərə malik olmasını şərh edək. İblisin şəri ilk növbədə **azadolmadan** başlayır. Azadolma azadlığın əksiliyi kimi özündə vicdandan (yəni özü-özündə vəhdət təşkil etməli olduğundan) azadlığını bildirir. Buradan da, formal ruhun vicdan tərəfindən istiqamətlənməsi aradan qalxır, yəni İblis ruhu Allahın

iradəsinə tabe olmur. Allahın iradəsi məkan və zaman şərtləri ilə azadlığı vicdanla vəhdətə gətirdiyindən, vicdandan azad olan fiktiv fərdi ruh eyni yerdə müxtəlif vaxtlarda, eyni vaxtda müxtəlif yerlərdə və eyni yerdə eyni vaxtda həm var, həm yox qanununa tabe olur; hansı ki, iblisin əsas xarakteristikası kimi təsəvvürə gətirilir. Azad olmanın sonsuz müdaxilələrə, qeyri-müəyyənliyə və müvəqqətiliyə yol açmasına görə İblis sonsuz müdaxilələrlə insanlığı qeyri-müəyyənliyə istiqamətləndirir və müvəqqətilik cəmiyyətlərin, ictimai münasibətlərin, hüququn, qanunun, beynəlxalq əlaqələrin ardıcıl olaraq pozulması kimi təzahür edir.

İblisin şəri **bəşəri dəyərlərin keçidindən** - xarici transformasiyasından meydana çıxır. Yuxarıda xarici keçidin yalnız mövcud varlıqlara xas olduğunu, ruhun yalnız daxili keçid imkanı olduğunu qeyd etmişdik. Erotlar özlərində müəyyən dəyər kimi çıxış etdikdə, onlarda olan faktiki ruh xarici keçid - **trans** imkanı qazanır; hansı ki, iblis bu prosesin ən kütləvi və ən ali səviyyəsində meydana çıxır. Bəşəri dəyərlər əslində fiktiv fərdi ruhun mövcudluğu üçün vacib olan şüurlu insanın təbiət qanunlarına tabe olmasını tələb edir; hansı ki, bu qanunların pozulması şərtində insan mövcud varlıq kimi məhvə məhkumdur. Başqa sözlə, bəşəri dəyərlər təbiət qanunlarından sintez edilir. Amma tərəqqinin müəyyən mərhələsində dəyərlər öz əsasından çıxır, artıq təbiilik əsas kimi çıxış etmir. Nəticədə, **sintetik dəyərlər** yaranır. Sintetik dəyərlər mübadiləyə uyğun olaraq ən müxtəlif sferalara keçir.

Nəticədə, yeni sferada obrazların məcmusu ilə əlaqələnmənin qaydaları kəşf olunur. Daha sonra dəyərlər dağılır, **dəyərsizləşmə** təzahür edir, qaydalar isə mücərrəd obrazların məcmusunu özündə ifadə etməkdə davam edir. Belə qaydalar dəyərsizləşdiyindən məntiqsiz olur. Məntiqi olmadığından təsadüfə görə təzahür edir. Təsadüfə görə təzahür etdiyindən zərurətə görə özündə şərə əksilik saxlayan və şərin o tərəfində

yerləşən xeyirlə birgə meydana çıxır. Dəyərsizləşmiş və mücərrəd obrazların məcmusu boş forma kimi mövcud olur, hansı ki, ondan heç bir həqiqət aşkarlanmır. Müasir dövrdə peşəkar idmanda, musiqi ifaçılığında, sənət əsərlərində dəyərlər elə qiymətlərə ekvivalent təşkil edir ki, təbii dəyərlərlə müqayisədə min dəfələrlə artıqlıq təşkil edir. Məsələn, bir sənət əsərinin qiyməti minlərlə insanın gündəlik tələbatını ödəyəcək istehsal məhsullarından bir neçə qat baha qiymətə dəyərləndirilir və ya bir futbolçu milyonlarla dollar müqabilində bir komandadan digərinə transfer edir. Başqa sözlə, həmin əsərlə minlərlə insanın acından ölməsi arasında trans yaranır və İblis məhz bu faktordan istifadə edərək demonların dəyərlərindən şər kimi istifadə edir. Müasir dövrdə İblis şərinin mənbələrindən biri məhz idmanda, əyləncədə və sənətdəki **transdəyərlərdir**.

Belə dəyərlərin Həqiqəti olmadığından "sonsuz özbaşınalıq" kimi təzahür edir. Demonda mövcudluq faktiki ruh kimi İblis Ruhu ilə birləşdiyindən, faktiki varlığı itir, mövcudluğun formal varlığı isə faktik ruhun varlığı ilə vəhdətdə İblis ruhu ilə əlaqələnir, yəni "mövcudluğun funksiyalaşması" İblisin fiktiv formal ruhunun funksiyalarına keçir. Buradan da, mövcudluğun funksiyasının fiktiv ruhun funksiyasına keçməsi ilə obyekt-subyekt əksikliyi aradan qalxır və xaos yaranır. İblis həm mövcud varlıq, həm də varlığın mövcudluğu olur. Mövcudluğun funksiyasının fiktiv ruhun funksiyasına keçməsi daxildə ən müxtəlif keçidlər kimi təzahür edir. Nəticədə, transiqtisadiyyat, transsiyasət, transseksual, transqanun, transestetika və s. təzahür edir. Bütün transların universal köndələn prosesə keçməsindən **xarici universal translıq** keyfiyyəti meydana çıxır.

İblis universal translıq əldə edərək **trans mövcud varlıq** - mövcud varlıqdan varlığın mövcudluğuna və əksinə varlığın mövcudluğundan mövcudluğun varlığına keçid edən fiktiv varlıq kimi təsəvvürə gətirilir. İblis - Mənin modelləşdirməsi kimi meydana çıxmış robotlaşdırma,

klonlaşmanın əksinə mövcud varlığı bədən kimi modelləşdirir. İblis universal translıq xarakteristikasına malik olduğundan, insanların birliyinə xidmət edən istənilən xarici keçidə mane olmaqla şəri təzahür etdirir; hansı ki, nümunə kimi terrorizmi göstərmək olar. Bodriyar terrorizmin mübadilənin - transın - mümkünsüzlüyündən doğduğunu qeyd edir.

Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

İblis - psixi travmaya məruz qalmış, bədənlə dissosiasiya edərək eqonun yalnız "O" Məni kimi vicdandan azad olmuş, xarici universal translıq xarakteristikası əldə edərək varlığın mövcudluğundan mövcud varlığa və əksinə keçid edən, bununla da mövcudluğun varlığını bədən kimi modelləşdirən, xeyirlə birlikdə bəşəriyyətə təqdim edilən, amma təfəkkürdə varlığı şər fəaliyyətindən, təklənmiş fiktiv fərdi ruhla tək formal ruhun ziddiyyətindən aşkarlanan, fiktiv insan ruhu ilə ümumi demonun vəhdətindən sintez edilərək təsəvvürə gətirilən fiktiv ruhi varlıqdır.

2. Evdemon və ya Geni, Dahi: İblisin özündə saxladığı yoxluğu - İblisin bütün keyfiyyətlərinin əksiliyini özündə əks etdirən fiktiv fərdi ruhun varlığını biz **Evdemon** və ya **Dahi** kimi təyin edirik. Evdemon anlayışı *eudaimonia* - yunan dilində xoşbəxtlik mənası verir və "insanda xeyirxah dahiliyin olmasını" ifadə edir. Aristotelin etik konsepsiyası da məhz buna görə "evdemonizm" adlandırılır. **Geni** sözü "insan taleyi ilə idarə edən himayəedici ilahilik" mənasını verir. Geninin əsas xarakteristikası İblislə özündə ziddiyyət saxlayan əksiliyi kimi yoxluğundan, yəni inkarından ibarətdir; hansı ki, iblisin varlığına əks təzahürlər göstərir. Buradan da, dahiliyin təzahürlərinə təhtəlşüurluluqdan doğan, buna görə də ilahi tərəfindən bilavasitə idarə olunmağı, yəni ilahi ağıllılığı, ictimai mahiyyətli bütün insanlığın xeyrinə yönəlmiş insanlığa total çağırışı, ümuminsan ruhunun faktuallaşmasına

xidmət edən yaradıcılığı və insanlığa həqiqi xoşbəxtlik gətirməyi aid edə bilərik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Dahi - İblisə özündə əksilik saxlayan, mövcud insanın bədəni ilə insanlığın ümumi formal ruhunun daxili vəhdətindən fikrən sintez edilmiş, təsəvvürə gətirilən fiktiv ruhi varlıqdır.

İblisin özündə insanlığa əksilik saxlamasının əksinə, mövcud insanda iblisə əksilik saxlama Dahinin fiktiv ruhi varlığı kimi meydana çıxır. Dahinin fiktiv ruhi varlığı evdemonla vəhdətdə təsəvvürə gətirilir. Aristotel xoşbəxtliyi "evdemonizm" anlayışı ilə ifadə etmişdir, hansı ki insanda xeyirxah dahiliyin, yəni inkişafda olan, diri ruhi faktı - mücərrəd ümumi ruhi faktları - yaradan erosun olduğunu özündə ifadə edir. Evdemon o demon hesab edilir ki, o, mövcudluğun formal varlığının fiktiv fərdi ruha keçərək onun fəaliyyətini stimullaşdırmasına imkan vermir, əksinə fərdi fiktiv ruhu özünə keçirərək özündə mövcudluğun təbii funksiyalarını ümuminsanlıq naminə istifadə etməyə stimul yaradır. Nəticədə, fərdi fəaliyyət təbii güclə bərabər, amma pozitiv güc kimi - insan iradəsinə və maraqlarına uyğun fəaliyyət yaradır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Evdemon - demona özündə əksilik saxlayan, buna görə də insanların fəaliyyətini xeyirxahlığa stimullaşdıran faktiki ruhi varlıqdır.

Evdemonun fərdi fiktiv ruhi varlıqla vəhdətindən dahinin fiktiv ruhi varlığı təsəvvürə gətirilir. Dahi psixi təsirlə psixikanın dissosiasiyasından yaranır.

Haşiyə: E.Krecmer, "Dahi insanlar":

> *"Yaxşı və pis mənada dahilik, ilahi təbiət və ruhi xəstəliklər haqqında qədim xalq təsəvvürlərindəki iblisanə mübtəla - kəskin sərhədləndirməyə imkan vermir. Dahi insanlar arasında - ən azından müəyyən qrupda - psixi xəstəliklər və xüsusən psixopatik hüdudi vəziyyətlər kifayət qədər tez-tez rast gəlinir, nəinki orta dərəcədə əhali arasında. Psixopatlar və ruhi xəstələr xaliqin inkişafında hədsiz mühüm rol oynayır. Dahilərdə olduqca çox tez-*

tez psixoz və psixopatiya müşahidə olunur. Dahilərin öyrənilməsində hər şeydən öncə incə hiperestetik tip aşkarlanır. Dahi çox vaxt psixopatoloji komponentlərlə yüksək talant nəticəsində əmələ gəlir."

E.Krecmerin dahiliklə bağlı fikirlərindən görünür ki, dahilik ruhi xəstəliklərin, psixikanın dissosiasiyası fonunda meydana çıxır. Dahilikdə də iblisanə əsas mövcud olur. Lakin iblisdən fərqli olaraq, ona ilahidən verilmiş yüksək talant onu iblis olmaqdan qoruyur və nəticədə dahi kimi təzahür edir. Dahi dissosiasiya prosesində eqonun "Sən" kimi Mənin varlığın mövcudluğundan təzahürüdür. Hansı ki, mövcudluğun varlığından təzahür edən Məndən fərqli olaraq bədənlə şərtlənmir. Belə ki, psixikanın dissosiasiyası nəticəsində dahidə eqonun parçalanmasında "Mən" və "O" inkar edilir, yalnız "Sən" qalır. Belə təklənmiş Sən özündə bütün bəşəriyyətlə eynilik təşkil edir. Buradan da, dahi təfəkkürdə bəşəriyyətlə eyniliyindən, iblislə əksiliyindən aşkarlanan fiktiv təklənmiş fərdi ruh kimi meydana çıxır.

Dahi özündə iblislə vəhdətdə onunla özündə ziddiyyət saxlayan əksilik təşkil etdiyindən, istənilən dahi iş həm də iblis fəaliyyətinə xidmət edə bilər. Dahi özündə iblisə qalib gələrək demonu xoşbəxtliyə xidmət etdirən ilahi təbiətli iradəyə malik olur. Belə iradənin olmaması şərtində, Dahilik iblisin fəaliyyəti kimi təzahür edir. Buna klassik nümunə kimi atomun kəşfini göstərmək olar. Atomun kəşfi və atom enerjisindən dinc məqsədlərlə istifadə bəşər tarixində ən böyük dahiliklərdən biridir. Amma atomun ilahi iradə ilə yox, insan iradəsi ilə istifadəsindən atom silahı meydana çıxmışdır ki, bu silahın istifadəsi iblisin fəallaşması kimi təzahür etmişdir. Atom bombasının partladılmasının nəticələri ilə İblisin əməlləri kimi təsəvvürə gətirilən dəhşət və faciələr arasında demək olar ki, eynilik təşkil edir.

Dahinin bütün fəaliyyəti bir tam kimi insanlığa xeyirxahlıqdan ibarətdir. Dahi özündə iblisə əksilik saxladığından onun gerçəkliyi məhz

təfəkkürdə iblislə vəhdətdən və mübarizədən aşkarlanır. Buna görə də, dahi daimi olaraq İblisi özü ilə vəhdətdə saxlayır və daxildə onunla, xaricdə isə iblis onunla mübarizə aparır. Məhz buna görə də, bütün dövrlərdə özündə iblisanə fiktiv fərdi ruha malik insanlar öz dövrünün dahilərini məhv etməyə cəhd edir.

3. Şeytan: Yuxarıda sitat gətirdiyimiz D.Kalşedin daxili travmatizmlə bağlı fikirlərindən görünür ki: *"Nevrotiklərdə dissosiasiyadan alınan materiallar qəbul edilir və inteqrasiya edilir, hansı ki şəxsiyyətin böyük tamlığına gətirib çıxarır. Bu ona görə baş verir ki, nevrotiklərdə onun şəxsiyyətinin daxilində sıxışdırılmış materialları saxlamağa imkan var. Psixi travma keçirmiş şəxslərdə bu material ya somatik səviyyəyə, ya da aralarında amnestik mane qaldırılan diskret psixi fraqmentlərə köçürülür. Belə materiallara bir daha qayıtmağa imkan verilmir. Dissosiasiya psixi travmalarda ona görə zəruridir ki, xəstəni fəlakətdən qorumaq mümkün olsun, hansı ki psixikanın daha dərin arxetip parçalanmasından ibarətdir."*

Əgər psixi travmaya məruz qalmış şəxsdə dissosiasiyadan alınmış materialları saxlamaq üçün imkan tapılmırsa və həmin materialların diskret psixi fraqmentlərə köçürülməsi baş tutmursa, onda həmin materiallar somatik səviyyəyə köçürüldükdə təkrar-təkrar psixikaya qayıtmasına imkan yaranırsa, psixikanın dərin arxetip parçalanmasında həmin materiallar insanın əsasına, onun heyvani və fiziki mövcudluğuna - mövcud insana köçürülür. Buradan da iki cür fiktiv ruhi varlıq meydana çıxır. Birincisi, insanın ikincili mövcudluğuna - canlılığına, formal ruhla əlaqədən qabaqkı insanaoxşar heyvana köçürülən fiktiv fərdi ruhla bədənin arxetip faktik varlığından **Şeytan**; ikincisi, birincili mövcudluğuna - fiziki kütləsinə köçürüldükdə fiziki funksiya ilə vəhdətindən **Cin**in varlığı sintez olunur.

Ruhun məhz insana oxşar heyvana köçürülməsindən şeytanın fiktiv ruhi varlığının sintezindən yaranan şeytan məhz buna görə insanlar

tərəfindən insan kimi dik yeriyən, heyvanlara xas quyruğu, buynuzu, dərisi tüklə örtülü varlıq kimi təsvir olunur. Şüurlu insan yaranmamışdan qabaq mövcud olmuş "insanabənzər heyvan" ifadəsi nəyi bildirir? Təkamülçülər insanın insanabənzər meymunlardan əmələ gəldiyini iddia edirlər. Bizcə, şüurlu insan meymuna bənzər canlıdan - **protoinsandan** əmələ gəlmişdir; hansı ki, psixikanın arxetip parçalanması nəticəsində onun obrazı aşkarlanır və dissosiasiya nəticəsində ruhi fraqmentlərin həmin obrazlı heyvanla birləşməsindən şeytanın fiktiv ruhi varlığı sintez olunur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Şeytan - təklənmiş fiktiv ruhi varlığın şüurlu insandan öncə mövcud olan meymunabənzər canlı - protoinsan ilə sintezindən təsəvvürə gətirilən fiktiv ruhi varlıqdan ibarətdir.

Şeytan məhz şüurlu insandan öncə mövcud varlığa proyeksiya edilən təklənmiş fiktiv ruh olduğundan, şeytanın fəaliyyəti yalnız təbiətlə bağlıdır və mədəniyyətin izi olan heç bir şeydən - erotlardan - şeytan meydana çıxmır. Əksinə, erotlar özündə şeytanla ziddiyyət saxlayan faktiki ruh kimi onları özündə inkar edir. Yəni mədəniyyətə görə şeytan yoxluq kimi qavranılır. Beləliklə, şeytan faktiki bədəni indi mövcud olmayan, qədim insan bədəni ilə təklənmiş fiktiv fərdi ruhla vəhdətdən sintez edilərək təsəvvürə gətirilir. Somatik səviyyədə sintez edildiyindən, şeytan iblisdən fərqli olaraq yalnız hissiyyatdan fikrə gətirilir. Şeytan da iblis kimi eqonun parçalanması nəticəsində, amma birləşdirici Mənin saxlanması kimi təklənmiş fiktiv fərdi ruhla arxetip insanın vəhdətindən sintez edilir. Şeytanın fiktiv ruhu insan eqosunun qabarmasında Sən və O-nun atılması ilə saxlanan təklənmiş "Mən"dən ibarətdir. Buradan da, şeytanın xüsusiyyətləri eqoizmin ən qabarıq təzahürləri ilə eyniyyət təşkil edir. Narsizm - özünəvurğunluğu başlanğıc şeytani təzahür kimi təyin etmək olar. Şeytan narsistdən məhz bioloji instinktlərlə mövcud olması ilə fərqlənir. Buna görə də, bədən tələbatlarından - şəhvətdən və qidalanmadan qavranılır. Sağlam insanda instinktlər insan iradəsinə tabe

olur, şeytan təsəvvüründə insan iradəsi instinktlərə tabe etdirilir. Şeytana uyan insan, yəni şeytanı özündə refleksiya edən insan öz hissiyyatlarının əsirinə çevrilməsi də bununla bağlıdır. Şeytanın bütün fəaliyyəti fasiləsiz və hüdudsuz bədən tələbatlarının ödənməsindən ibarətdir. Buna görə də, şeytan hissiyyatdan aşkarlanır.

Şeytan - formal ruhun iradəsinin instinktlərə tabe etdirilmiş hissiyyatın şərtlərinin məcmusundan ibarətdir.

Gerçəkliklər bilavasitə və zərurətə görə fərdi şəkildə mövcud olduğundan, şeytan yalnız fərdlə individual təsirlə əlaqəyə girən varlıqlar kimi təsəvvürə gətirilir. Fərdi sferadan aşkarlandığından iblisdən fərqli olaraq şeytan xarici çoxluq kimi təsvir edilir. Şeytana insanın ruhi fəaliyyəti keçmədiyindən, iblisdən fərqli olaraq, təbii şey daxili funksiyasını dəyişmir, eləcə də özündə erot olmadığından təbii şeyin funksiyalarını fərdi ruha keçirmir. Belə vəziyyətdə fərd normal ruhi fəaliyyətini saxlayır, xarici mövcudluq isə öz təbii halından fərqli qavranılır, beləliklə obyekt-subyekt əlaqəsində hissi təsirin qavranılması dəyişir. Belə təsirlərə görə, təbii şey insanı "aldadır", ona özünün təzahürlərinə görə yox, yalnız hissi təsirinə görə həqiqəti dərk etməyə məcbur edir və insan şeytanın təsiri ilə həqiqəti səhv qavrayır. Nəticədə, cismi canlı, canlını cisim kimi qavrayır. Ağı qara, qaranı ağ kimi görür və s. Təsir xarici vəhdətdə meydana çıxdığından və təsadüfə görə şərtlərin məcmusundan ibarət olduğundan, təbii şeylərin şeytan kimi qavranılması təsadüfə görə xüsusi xarici şərtlərdə mümkün olur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Şeytan - təsadüfə görə təzahür edən, öz xüsusi mövcudluğu olmayan, təbii şeylərin mövcudluğuna səhv kimi proyeksiya edilmiş fiktiv ruhi varlıq kimi fikrən təsəvvürə gətirilir.

Şeytanın fiktiv varlığı və onun qavranılması fərdi olduğundan, şeytan haqqındakı təsəvvürlər orijinaldır. Ona görə də, şeytanın ümumi təsviri

yoxdur və ən müxtəlif xarici görünüşdə təsəvvürə gətirilir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Şeytanın xarici görüntüsü haqqında təsəvvürlər fərdi səviyyədə yaradıldığından, orijinal formalara malik varlıq kimi təsvir olunur.

Şeytan hissi əlaqədən dərk edildiyindən fərdidir. Yəni, şeytan yalnız ayrıca bir adama təsir edə bilir. Şeytan özündə fiktiv fərdi ruha əksilik saxlamadığından, onunla zərurətə görə mübarizə aparmır, sadəcə təsadüfə görə fərdi təsir edərək insan idrakını yanıldır, onu yoldan çıxarır. Şeytanın təsiri həqiqətin qavranılmasının qarşısının alınması və ya insanın səhv qavraması kimi təsəvvür olunur. Buradan da aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Şeytan - xalis forma kimi mövcud olan heçlik, ruhi mövcud olmaya xas hissi təsir edən fiktiv varlıqdır.

4. Cin: Psixikanın dissosiasiyasında psixi fraqmentlərin daha dərinə - birincili mövcudluğa göndərilməsindən Cinin fiktiv ruhi varlığı yaranır. Başqa sözlə, cin - xarici görünüşdə ruh kimi təsəvvür olunan, təbii maddi şeylər haqqında təsəvvürlərdən ibarətdir. Buna görə də cin yalnız xarici görüntünün pozulmasından sintez olunur. Buradan da, cinin fiktiv ruhi varlığı mövcud varlığın formal varlığı ilə fiktiv fərdi ruhi varlığın fikrən təsəvvürdə daxili vəhdətin sintezindən yaradılır. Yəni cinin forması fiktiv ruhdan, mahiyyəti cismin mahiyyətindən ibarət olur. Cinin fiktiv ruhi varlığı dissosiasiya prosesində eqonu təşkil edən hər üç mənin kənarlaşdırılması və boş formal ruhla vəhdətdə təsəvvürə gətirilir. Ona görə də, cinlər insanda refleksiya olunmur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Cinin fiktiv ruhi varlığı - mövcud varlıqların formal varlığı ilə ruhun formal varlığının xarici vəhdət təşkil etməsinin fikrən təsəvvürə gətirilməsindən ibarətdir.

Yəni cin mahiyyətinə görə cisim, amma formasına görə ruhi varlıqdır. Əksər miflərdə "cinin şüşədən çıxması" müddəası da məhz

bunun obrazlı deyimdən ibarətdir. Cin özü obyektiv gerçəklik - şey kimi, təsir və təzahürləri ruhi fəaliyyət kimi qavranılan varlıqdır. Cinin təzahür və təsirlərinin ruhi fəaliyyət kimi qavranması, onun xarici görüntüsünün fəaliyyət şəklində təsəvvür edilməsinə səbəb olur. Buradan da, cinin xarici görüntüsü formadan yox - formalaşmadan (yəni dəyişən formalılıqdan), rəngdən yox - rənglənmədən (yəni müşahidə boyu rəngin dəyişilmələrindən), saydan yox - təkrarlanmaqla çoxalmadan ibarət təsəvvür olunur. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Cin - forması, xarici görüntüsü formalaşmaqdan (yəni sürəkli dəyişən forma, rəng və kəmiyyət alan) özündəşeyin təsadüfə görə insana təsir etməsinin fikrən təsəvvürə gətirilməsindən ibarət fiktiv ruhi varlıqdır.

Xarici görüntüsü olduğundan şeytandan fərqli olaraq, cin gözlə görünən, amma hissi təsiri fəaliyyətə çevrildiyindən hiss edilməyən fiktiv ruhi varlıqdan ibarətdir. Tutaq ki, hər hansı bir xarici predmet özü-özündə rəngini, formasını və sayını sürəkli olaraq dəyişir, onda bu cinin fiktiv ruh varlığı kimi qavranılır. Cinin mövcudluğu gerçəkliyin mövcudluğu kimi qəbul edildiyindən, cin şeytandan fərqli olaraq zəruri şərtə malik olur, yəni bilavasitəliyə və zərurətə malikdir. Amma təzahür və təzahürləri ruhi mövcudluq kimi yalnız başqa varlığın zəruri şərtlərindən özündə zəruri şərt əldə etmə cəhdi kimi meydana çıxdığından, dərk edən, simvol və sosial təşkilat yaradan insanlarla və təbii şeylərlə münasibətdə olan varlıq kimi təsəvvür olunur.

İblis insanın daxilində bədənlə ifadə olunan obyektiv mövcudluqla ruhi mövcud olmanın daxili vəhdətindən ibarət fikrə gətirilir. Hansı ki, insanın daxili fiktiv fərdi ruhu kimi təzahür edir. Eyni vəhdətin bədəndən kənarda, xaricdə yaranmasından Cin anlayışı ilə qavranılan fiktiv ruhi varlıq forması meydana çıxır. Beləliklə, cin xarici iblisdir, hansı ki obyektiv mövcudluqda ruhi fəaliyyət kimi təsəvvür olunur. Cinlər xarici varlıqlar olduğundan, onlar insan iradəsinə, insanın maraq və

tələbatlarına tabe olmur və insandan kənarda müstəqil, rabitəsiz və məqsədsiz fəaliyyət göstərirlər. Cinlər iradəvi olmadığından, yəni zəruri şərtləri olmadığından, onlar təsadüfi şərtlərdən ibarət olur və yalnız təsadüf kimi təzahür edirlər. Zərurətləri olmadığından təzahürləri mahiyyətdən ibarət olur. Yəni cinlər yalnız təsadüfən mövcud şeylərdən aşkarlanan varlıq kimi düşünülür. Təsadüf kimi təzahür etdiklərindən, müxtəlif mövcudluqların təsadüfi xarici vəhdətindən, məkan və zamanla şərtlənmədən meydana çıxırlar. Buna görə də, bir təsadüfdə mövcud olurlar, digər təsadüfdə yox. Eləcə də, təsadüfə görə xeyirxah və şər ola bilirlər. Cinlər həm də bütün insanlığın əleyhinə yönəlmədiyindən, faktiki ruhların formal ruh təşkil etməsinə, yəni sosiallaşmaya mane olmur, yaradıcılığın qarşısını almır. Təsirlərinin nəticəsi ictimai yox, yalnız fərdi səviyyədə meydana çıxır. Xarici görüntü ilə aşkarlandığı kimi cinlər görmə ilə insanlara təsir edirlər və təsirləri daha çox insanda hissi təsir (məsələn: qorxu, vahimə və s.) yaradır.

5. Mələk: İblis anlayışı digər metafizik anlayışlarla - mələk və s. birlikdə işlədildiyindən burada mələklər haqqında qısa şərh vermək lazım gəlir. Mümkünlüyün varlığının mövcudluq tələb etməməsi Mələk anlayışı ilə ifadə olunan varlığı özündə təqdim edir. Mələk mövcudluq tələb etmədiyindən, nə bilavasitə zəruri şərtlərə, nə də dolayısı ilə özü zəruri şərtlər əldə etmənin şərtlərinə malikdir. Yəni mələk nə mövcud olan, nə də düşünən varlıqdır. Buradan da, obyekt-subyekt sərhədlərindən kənarda qaldığından, metafizikadan heç bir halda kosmosa keçmədiyindən, mələyin həqiqətini aşkarlamaq insan idrakının imkanlarından kənardır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Mələk - obyekt və subyektin varlıqlarından fikrən daxili vəhdətinin sintezi mümkün olmayan, elə-belə varlıq kimi təsəvvürə gətirilməsindən ibarət fiktiv ruhi varlıqdır.

Buna görə də, B.Spinoza "bizdən mələklər haqqında nəsə deməyi gözləməyin" demişdir. Mələklər nə formaya, nə mahiyyətə malik olmadıqlarından özlərində yoxluqdurlar. Mələkləri Allahdan ayrılmamış İlahi Nurdan yaranan varlıq kimi təyin etmək olar; hansı ki, mahiyyətləri buna görə mütləq həqiqət sferasındadır; hansı ki, insan idrakının mütləq qaranlığının əksiliyi kimi mütləq aydınlıqdır. Güclü işıq insanı kor edib görməyə imkan vermədiyi kimi, mütləq aydınlıq insan idrakını qaraldaraq onu özünü dərkedilməz edir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Mələklər - həqiqəti mütləq olduğundan insan idrakının sərhədlərindən kənarda olan və buna görə əbədi dərkolunmaz varlıqlar kimi fikrən təsəvvürə gətirilən fiktiv ruhi varlıqlardır.

ə. Dəlilik: Bədənlə hissiyyat əlaqəsi tam kəsilmiş və buna görə də ölçüsüz idrak etmək məcburiyyətində qalan formal ruhun idrak etdiklərinin fərddən təzahürünü biz **Dəlilik** kimi təyin edirik. Faktiki olaraq dəlinin referent sahəsi metafizikadan ibarətdir. Yəni formal ruh bədəndən konkret fiktiv ruhi varlıqlardan fiktiv mücərrəd varlıqlar yaratmaqla təbiətə, ondan da dəliliklə metafizikaya keçir. Dəliliklə ölmüş insandan formal ruhun metafizikaya keçməsi arasındakı fərq - dəlidəki formal ruhun bədənlə fasiləli əlaqələnməklə təbiət sferasında qalması və buna görə də müəyyən ideyalarla təzahür etməsidir. Ölmüş insandan formal ruh bədənlə tam əlaqəsini kəsdiyindən, birbaşa metafizikaya keçir və buna görə də, ölmüş insan heç bir ideya vermir. Bədənlə əlaqəsi olmadığından, ondan metafizikaya keçən formal ruh da özünün müstəqil refleksiyasından aldığı ideyaları ifadə edə bilmir.

Dəlilik bədənlə asılılıqdan fasiləli azad olmuş formal ruhun bədəndən onun iştirakı olmadan gerçəkliyi özündə refleksiya etməsindən ibarətdir; hansı ki, formal ruh bədənsiz yalnız irreal (təbii ölçülülüyə malik olmayan) obraz və ideyaları özündə refleksiya etmək imkanına malikdir. Buradan da aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Dəli - formal ruhun bədənlə əlaqəli olmadan birbaşa obyektiv gerçəkliyi refleksiyasından yaranan irreal, təbii ölçülülüyü olmayan obraz və təsəvvürlərdən ibarət Fiktiv mücərrəd varlıqdır.

Mövcud insanda formal fərdi ruhla faktiki bədənin əlaqəsinin pozulmasının fikrən təsəvvürə gətirilməsinin sintezindən fiktiv dəli ruhi varlıq yaradılır. Dəli ruh bilavasitə əlaqələndiyi bədənin yaşantılarını özündə refleksiya etməyən və buna görə də bədənin yaşantılarını fərqli yaşantıları təzahür etdirən fiktiv fərdi ruhdur. Dəlinin fiktiv fərdi ruhu bədəndən fərqli yaşantıları kənardan yox, bədənin öz yaşantılarından, amma təhrif olunmuş formada alır. Dəlinin ruhu zaman-zaman normal vəziyyətinə qayıdır. Nəticədə, sanki bir fərddə iki bir-birindən fərqli ruh aşkarlanır ki, belə ikiləşmənin daxili özünü dərkindən **şizofreniya** meydana çıxır. Şizofreniya paralel hiss etmə, paralel qavrama, paralel simvol yaratma, paralel ictimai münasibətlərə girmə kimi təzahür edir. Bu psixiatriya elmində şəxsiyyətin ikiləşməsi kimi təyin olunub. Şəxsiyyətin ikiləşməsi bir fərdin özündə eyni zamanda özünü iki fərqli şəxs kimi dərk etməsini ifadə edir. Buradan, ətrafın sistemli və məntiqi dərk edilməsi mümkünsüz olur.

Dəlilikdə paralel dərk etmə olduğundan, dərk olunanların ifadə və şərh edilməsində ardıcıllıq olmur, əksinə dəlinin fikirləri ya rabitəsiz, ya da bir-birinə ziddiyyət təşkil edir. Dəlilikdə fiktiv fərdi ruh özü-özündə əksilik saxlayır. Buradan da, fiktiv fərdi ruhun bir vəziyyətdə əldə etdiyi yaşantı digər vəziyyətdə əldə etdiyi yaşantı ilə əksilik daşıyır. Dəli fiktiv ruhun gerçəkliyi fərdi fiktiv ruhun özü-özü ilə vəhdətindən və mübarizəsindən təfəkkürdə idrak olunur. Dəli fiktiv ruhu özündə özünə əksilik saxladığından özünüdərk mümkün olmur, yəni fərd özünü başqa mövcudluqlar kimi dərk edir. Dəlidə fiktiv fərdi ruh özü-özü ilə müxtəliflik təşkil etdiyindən, fərdin fəaliyyəti məqsədəyönlü olmur, əksinə məqsədsiz olur və hətta bəzən mövcud insanın özünə qarşı yönəlir. Dəlinin fiktiv fərdi ruhu özündənkənar mövcud varlığın faktiki

varlığı ilə vəhdət təşkil etdikdə dəli özünü ya cansız əşya, ya hansısa canlı və ya başqa insan kimi dərk edir.

Fiziki varlıqların formal varlığı ilə özündə vəhdətdə təsəvvürdən dəli fiziki mövcudluğun fundamental arxetip funksiyalarını özündə refleksiya edir, nəticədə dəlilərdə destruktivlik meydana çıxır. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Dəlinin fiktiv fərdi ruhu - mövcud insanın özü-özündə öz fiktiv fərdi ruhi varlığı ilə ikincili olaraq başqa mövcudluqların fiktiv və ya formal varlıqlarından özü-özündə fikrən daxili vəhdət sintez etməsindən ibarətdir.

Buradan da dəli ilə normal psixi şəxs arasında fundamental fərq aydınlaşır:

Hər bir normal mövcud insan özü-özündə öz bədəninin faktiki varlığı ilə ruhun formal varlığından özündə fiktiv fərdi ruh təşkil edərək, ikincili olaraq, mövcud varlıqla varlığın mövcudluğunun faktiki və formal varlıqlarından müxtəlif vəhdət sintez etməklə; dəli insan bunun əksinə özünün fiktiv varlığını təşkil etmədən, birincili olaraq özündə mövcud varlıqla varlığın mövcudluğunun fiktiv və mövcud varlıqlarından vəhdət sintez etməklə aşkarlanır.

Vəhşilik (heyvanlıq) dəliliklə nədən fərqlənir? Vəhşilik formal ruhun iştirakı olmadan, canlılığın canlılığı və fiziki ətrafı refleksiyasından meydana çıxır. Bu zaman refleksiya tanıma kimi təbii qanunlara əsaslanır. Vəhşilikdə zorakılıq və destruktivlik instinktivdir, həyatın davam etməsi və özünü qorumaya xidmət edən təbii vəziyyətdir. Amma dəli ruhi təcrübəyə malik və özündə azad formal ruhun fəaliyyətini əks etdirən, pozğunlaşmış fiktiv ruhi varlıqdır; hansı ki, nə təbiətin, nə ruhun qanununa tabe olmur. Dəlilik mövcud olmada xaosdur. Dəliliyin təzahürləri nə instinktlərlə, nə də şüurun tabe olduğu qanunlarla izah oluna bilər. İnstinktlərlə izah olunmazdır, ona görə ki ruhi təcrübə instinktlərin təbiiliyini pozur; şüura ona görə tabe olmur ki, bədənlə

ruhun əlaqəsi olmadığından və bədən formal ruhun irreal ideya və obrazlarına uyğun fəaliyyət göstərdiyindən fəaliyyətin motivi və məqsədi irreal olur. Bədənlə əlaqəsiz dərketmə intuitiv idrak kimi meydana çıxır. Dəlilik də intuitiv idrak kimi meydana çıxır. Buna görə dəliliklə dahilik bir-biri ilə eyniliyə bərabər oxşarlıq təşkil edir. Sadəcə dahilər intuitiv idrakla əldə etdikləri ideyanı hissi və demonstrativ idrakla tənqid etmək imkanına malik olurlar, amma dəlilikdə tənqid etmək imkanı olmur. Ona görə dəlilərdə intuitiv dərk edilən ideyalar inkişaf etdirilmir, nəticədə hər bir ideya başqalarından müstəqil və ayrılıqda meydana çıxır. Buradan da ağlın freniyası - parçalanması baş verir. Yalnız dəlilik vəziyyətində meydana çıxan bəzi ideyalar sağlam psixologiyaya malik şəxslər tərəfindən tənqid və inkişaf etdirilə bilər.

q. Ölünün fiktiv fərdi ruhu: İnsanın fiktiv fərdi ruhunun bədənlə vəhdətdən ayrılıqda formal metafizik varlıqlarla sintezindən ölmüş insanın fərdi ruhu - bədəndən azad olmuş formal ruhi varlığı - təsəvvürə gətirilir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Ölmüş insanın fiktiv fərdi ruhu - bədənlə əlaqə təcrübəsi olan, yəni özündə fərdi yaşantılar haqqında məlumat daşıyan, insanın fərdi ruhunun fikrən bədənlə vəhdətdən kənar metafizik varlıqların formal varlığı ilə sintezindən təsəvvürə gətirilməsindən ibarətdir.

Bu təsəvvürlərə görə ölmüş insanın fiktiv ruhi varlığı onun bədəninin yaşantı və təcrübələrinə malikdir və sonradan metafizikada yenidən həmin bədənlə əlaqəyə girəcək. Azad fiktiv fərdi ruh bədənlə əlaqəsi olmadığından, hissi və demonstrativ idrak qabiliyyətinə malik deyil. Ona görə, belə ruhlara hissi təsir baş vermir. Azad ruh yalnız intuitiv özü-özündə idrak qabiliyyətinə malikdir. Azad ruh əlaqələndiyi bədənlə təcrübənin təsirlərini özündə saxladığından, belə ruh konkret fərdin bədəninin formasında təsəvvür olunur. Bədənlə əlaqəsi olmadığından, bu ruh diri mövcud insanların formal fərdi ruhları, faktiki ruhi varlıqlarla və ümumi insanlıq ruhu ilə heç bir əlaqəyə girmir; ona görə belə ruhların

bədəndən çıxdıqdan sonra əldə etdiyi bilgilər mövcud insana bəlli olmur. Nəticədə, insan ölüm haqqında həqiqət əldə etməkdən məhrum olur. Azad fərdi ruh anlayışı dinin ruh anlayışının mənasına eyniyyət təşkil edir. Azad fərdi ruhun mövcudluğu yoxdur, yalnız xalis ruhi mövcud olmadan ibarət formal varlıq kimi təsəvvürə gətirilir. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Azad fərdi ruh - fərdi insan ruhunun əvvəl əlaqələndiyi bədənindən ayrılan, heç bir fərdi formal və ictimai ruhla əlaqəsi olmayan, mövcudluğu olmadığından heç bir zəruri şərt olmadan özü-özündə təsadüfi şərtlərin məcmusundan ibarət, xalis mövcud olma kimi fikrə gətirilən təsəvvürlərdən ibarət fiktiv ruhi varlıqdır.

Azad ruhun bilavasitəliyi və zəruriliyi yoxdur. Azad ruh insanın fərdi ruhundan ölüm təcrübəsinə malik olması ilə fərqlənir. Belə ki, yaşayan insandakı ruh belə təcrübəyə malik olmadığından, insan üçün ölümün mahiyyəti qaranlıqdır. Azad ruh özündə ölüm təcrübəsinə malik olduğundan, belə təcrübəsi olmayan yaşayan insanların fərdi ruhları ilə əksilik kimi qavranılır; buna görə də onların gerçəkliyi təfəkkürdə diri insanın fərdi fiktiv ruhu ilə vəhdətdən və ziddiyyətdən aşkarlanır. Təfəkkürdən xaricdə azad olmuş ruhla fərdi ruh nə xarici, nə də daxili vəhdət təşkil etmir.

RASİONAL TEOLOGİYA

ALLAH IDEYASI

Rasional teologiya insan düşüncəsi - intuitiv qavrama ilə - Allah haqqında həqiqətin aşkarlanması barədə bilgilərdən ibarətdir. Bu ideyanın başlıca məzmununu və ya Allahın əsas xarakteristikasını **"İstəmək", "Yaratmaq"** və istədiyini yaratmaq üçün **"İradə nümayiş etdirmə"** kimi təyin edə bilərik.

Beləliklə, Rasional Teologiyanın suallandırılması dörd məsələ ilə bağlıdır:

1. Allah ideyası;
2. İlahi Ağıl - Mütləq Həqiqət;
3. İlahi Bacarıq - Yaratmaq Qabiliyyəti;
4. İlahi İradə (refleksiya) - Yaranma, Allahın predikativliyi kimi.

Haşiyə: B. Spinoza "Qısa traktat"

> *"Allahın atributlarından bizə yalnız ikisi, məhz düşüncə və məsafəlilik məlumdur. Biz burada Allahın "xüsusi atributları" adlandırılan atributlardan danışırıq; onların köməyi ilə biz onu özündənkənar yox, özü-özündə təsir edən kimi idrak edirik."*

Biz Spinozanın "düşüncə" kimi təyin etdiyi atributu **İlahi İstək** kimi, "məsafəliliyi" isə **Yaradıcılıq** kimi (özündən kənarda yaratmaq kimi) təyin edirik.

ALLAH İDEYASI: NATURA NATURANS -MÜTLƏQ HƏQİQƏT

Allah ideyası universal ideya olub, şüurun bütün formalarında bir-birindən fərqli üsullarla, fərqli həqiqətlər kimi aşkarlanır və buna görə də Allah haqqında bir-birindən fərqli təsəvvürlər yaranır. Allah ideyası

dində **doqma** kimi, transendental fəlsəfədə **kritik transendental ideal** kimi, metafizikada **doqmatik transendental ideya** kimi şərh edilir. Elm isə ümumiyyətlə Allah ideyasının həqiqətə malik olmasını inkar edir.

Metafizik Allah ideyasını şərh etməmişdən öncə, şüurun müxtəlif formalarında bu ideyanın necə aşkarlanmasına və bu ideya altında hansı həqiqətlərin nəzərdə tutulduğuna qısa şərh vermək lazımdır.

Dini şüurda Allah ideyası

Din Allah ideyasını, onun haqqında həqiqətin bilavasitə onun özü tərəfindən, vasitəli olaraq bir şəxs - **peyğəmbər** vasitəsilə bütün insanlara ötürüldüyünü qəbul edir. Göründüyü kimi, dində bilavasitəlik xarakteristikası Allahın felinin, onun həqiqəti ötürməsinin xarakteristikası kimi təsəvvür olunur. Halbuki, bilavasitəlik şeylərin özünə aid obyektivlik xarakteristikasının predikatıdır. Buradan da Allahın "obyektivlik" olmadığı aşkarlanır.

Dini şüura görə, Allah ideyası dərk edilən yox, **qəbul edilən** ideyadır. Bu ideya fövqəltəbii güc tərəfindən verildiyindən, təbii varlıq olan insan tərəfindən dərk edilməsinin mümkünlüyü inkar olunur. Beləliklə, dinə görə Allah aşkarlanması mümkün olmayan, qəbul edilməsi zəruri olan, mütləq həqiqəti özündə saxlayan idrak obyektidir.

Dində Allah haqqında həqiqət **vəhylə** - bilavasitə Allahın özündən gələn və insanın qeyri-iradi qəbul etdiyi məlumat kimi aşkarlanır. Həqiqətin əldə edilməsində insan qeyri-iradi iştirak edir, buna görə də ona ötürülən qədər həqiqətə malik olur.

Dini şüura görə, Allah ideyası Allahın özü tərəfindən bilavasitə, birdəfəlik, təkmil və tam, ayrıca bir şəxsdə - peyğəmbərdə aydınlaşdırılır. Bu ideya tam aydınlaşdığından ona əlavələr edilməsi, yalnız bir şəxsin təfəkküründə birdəfəlik aydınlaşdığından həm həmin şəxs, həm də başqa insanlar tərəfindən tənqid edilməsi, "Mütləq Təkmil" formada aydınlaşdığından sonradan inkişaf etdirilməsi mümkün deyil.

Bu ideya ayrı-ayrı şəxslər tərəfindən aydınlaşmadığından və Allahın özü tərəfindən bilavasitə verildiyindən, Din Allah ideyasının necə əmələ gəlməsinə laqeyddir. O, Allahın özü tərəfindən ötürülən ideyanı ötürüldüyü formada qəbul edir; ona analitik mühakimə ilə nə əlavə edir, nə tənqid edir, nə də inkişaf etdirir. Buna görə də dinin Allah anlayışı **ehkam** kimi meydana çıxır. Dində Allah ideyası təbiətin həqiqətindən, onun yaradıcısı və tənzimləyicisi kimi dolayısı ilə təsəvvür olunur.

FƏLSƏFƏDƏ ALLAH İDEYASI

Həqiqi Fəlsəfədə Allah ideyası dindən fərqli üsulla aşkarlanır.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Allah bizə Təbiət və Ruh kimi ikili aşkarlanır. Təbiət başlanğıc kimi ideyadır. Təbiətin fəlsəfəsi bizə təbiətin ideyasını vermişdir."*

Hegelin yuxarıdakı fikirlərindən görünür ki, dindən fərqli olaraq elm və fəlsəfə Təbiətin və Ruhun mahiyyətindən Allahı aşkarlamağa cəhd edir.

Feyerbax həqiqi fəlsəfənin üç əlamətini - fəlsəfi fikrə əlavə etməyin, onu tənqid etməyin və onu inkişaf etdirməyin mümkünlüyünü ayırd etmişdir. Həqiqi fəlsəfədə Allah ideyası ayrı-ayrı şəxslər (müxtəlif filosoflar) tərəfindən, dolayısı ilə Varlıqdan keçməklə, tədricən, mərhələ-mərhələ, müxtəlif vaxtlarda aydınlaşdığından **orijinallaşır**. Orijinal ideyalar özündə ən xüsusi həqiqəti ifadə etdiyindən, ən aşağı keyfiyyətli həqiqət olur; ona görə də onun keyfiyyətini yaxşılaşdırmaq, dəqiqləşdirmək - tənqid etmək lazım gəlir. Fəlsəfədə Allah ideyası müxtəlif şəxslərdə və ya bir şəxsdə, amma tədricən, sürəkli proses kimi aydınlaşır.

Haşiyə: F. Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Kritisizmin fərqləndirici cəhəti Allah ideyası deyil, əxlaqi qanunların təsəvvürləri ilə düşünülən Allah ideyasıdır. Heç bir filosof hesab edə bilməz ki, ali prinsipi müəyyən etməklə artıq hər şeyə çatmışdır. Belə ki, bu prinsiplərin özü bu sistemin əsası keyfiyyətində yalnız subyektiv dəyərdir, yəni onun üçün yalnız o dərəcə əhəmiyyətlidir ki, bir o qədər öz təcrübi həllini qabaqlamışdır."*

Şellinqin bu fikirlərindən göründüyü kimi, heç bir filosof öz təlimində mütləq vahid bir ideyanı aşkarlaya bilmir. Mütləq vahid ideyanı aşkarlamaq üçün o özü "Mütləq düşünən Mən", yəni bütün insanlıq olmalıdır. İnsanlıq realizasiya yox, potensiallıqdır və tarix davam etdikcə tədricən təzahür edir. Buna görə də filosofun bütün insanlıq olması mümkün olmadığından, o özündə mütləq vahid ideyanı aşkarlaya bilməz. Digər tərəfdən, fəlsəfi ideyalar subyektiv ideyaları özündə ifadə edir, hansı ki, bilavasitə subyektin özü-özündən - ağıldan törəyən ideya kimi meydana çıxır. Beləliklə, fəlsəfədə Allah ideyası filosofdan kənarda olan hər hansı bir obyektdən yox, filosofun özündən meydana çıxır və bu ideyalar "öz təcrübi həllini tapmayanadək" öz subyektivliyini saxlayır.

Həqiqi fəlsəfədə başlanğıc ideyalar fərqli olduğundan, hər bir filosof yalnız bir ideya əsasında həqiqəti aşkarlaya bilir. Fərqli ideyalarda həmin ideya fərqli aşkarlanır, bunun nəticəsində Allah ideyasına əlavələr etmək - onu tamlaşdırmaq, yəni yeni-yeni başlanğıc ideyalardan yola çıxaraq onu zənginləşdirmək mümkün olur.

Digər tərəfdən, fəlsəfə əxlaqi qanunların təsəvvürləri ilə Allah ideyasını aşkarlamağa cəhd edir. Yəni birbaşa Allahın həqiqəti yox, aşkarlanması mümkün olan həqiqətlərin aşkarlanması mümkün olmayan həqiqətə münasibəti kimi aşkarlanmağa cəhd edilir. Filosofun aşkarladığı Allah ideyasının nisbiliyi "Mən Sən deyiləm" ideyasının refleksiyasıdır. Əgər hər bir adam eyni zamanda hər bir fərd kimi ola bilsəydi, onda onun aşkarladığı ideya hamı üçün eyni olardı. Bu olmadığından, istənilən filosofun aşkarladığı ideya kimlərə görəsə fərqlidir, yəni nisbidir. Bura-

dan da fəlsəfənin Allah ideyasına əlavə etmək, onu tənqid etmək və inkişaf etdirmək imkanı yaranır.

Filosof Allah ideyasını Mütləq Təkmil formada aşkarlaya bilmədiyindən və ardıcıl düşüncə ilə aşkarladığından, həqiqi fəlsəfədə Allah ideyası inkişaf etdirilmə xarakteristikasına malik olur. Beləliklə, fəlsəfədə Allah ideyası özünün inkişaf etdirilməsini tələb edir, ona əlavələrin mümkünlüyünə imkan tanıyır və özünün tənqid edilməsinin vacibliyini şərtləndirir.

Həqiqi fəlsəfədə Allah ideyası filosofun başlanğıc ideyasını müəyyənləşdirən mütləq həqiqət kimi qəbul edilir və filosof öz ideyasının mütləq ideyaya nə dərəcədə uyğunluğu ilə kifayətlənir. Bu zaman o, başqa filosofların başlanğıc ideyasının özünün Allah ideyasına uyğunluğuna laqeyd qalır. Metafizika isə əksinə, mütləq ideyanın özündə nəyi ifadə etməsini aşkarlamağa cəhd edir. Həqiqi fəlsəfədə Allah ideyasını bu və ya başqa şəkildə izah etmək cəhdi yalnız həmin təlimin metafizik baxışlarından ibarət olur. Filosof öz mühakimələrində təbiətin sərhədlərindən kənara çıxmır, o sadəcə təbiəti təşkil edən şeylərin ən ümumi həqiqətindən Allah ideyasını aşkarlamağa cəhd edir. Nə qədər ki filosof təbiət sferasında qalır, onun aşkarladığı ideya da bir o qədər təcrübi biliklərə əsaslanır, hansı ki, bu cür biliklər əslində ağlın antinomiyasına görə Allahın həqiqətini şübhə altına alır. Beləliklə, fəlsəfədə Allah ideyası **şübhəli ideya** kimi şərh olunur. Özündə şübhəlilik saxladığından, şübhə isə həqiqətə yenidən baxılmasını tələb etdiyindən, fəlsəfi Allah ideyası özü ona yenidən baxılmasını tələb edir.

Fəlsəfə ilə metafizikanın sərhədində meydana çıxan **Transendental fəlsəfə** bir tərəfdən fəlsəfəyə və elmə, digər tərəfdən dinə görə fərqli üsulla Allah ideyasını şərh etməyə cəhd edir. Buna görə də transendental fəlsəfənin müddəalarından çıxış edərək metafizik Allah ideyası haqqında fikir söyləmək daha əlverişlidir.

Transendental Allah ideyasının aşkarlanmasında insan iradəvi iştirak edir və aşkarlaya bildiyi qədər həqiqətə malik olur. Transendental fəlsəfədə Allah ideyası ağla əsaslanır və obyektiv aləmin sərhədlərini çıxmaqla təbiətdən aşkarlanmağa cəhd edilir. İ. Kant Allah haqqında transendental ideyanı "ümumiyyətlə düşüncənin bütün predmetlərinin mütləq vəhdəti" kimi təyin etmişdir. Düşüncə predmetlərinə həm də empirik predmetlər aid olduğundan transendental Allah ideyası özünə həm də bütün təbiəti daxil edir.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Əgər bizim ağlımızda tam təyinin əsasında, özündə materialın bütün ehtiyatını saxlayan, buradan şeylərin bütün mümkün predikatlarının götürüldüyü transendental substrat durursa, o substrat bütün reallıqların (omnitudo realitatis) ideyasıdır. Belə halda bütün həqiqi inkarlar sərhəd (Schranken) kimi mahiyyətdən başqa bir şey deyil, əsasında sərhədsiz (hər şey) olmasaydı onlar heç cür adlana bilməzdi."*

İ. Kant transendental ideal haqqında ideyanın anlayışlarının sintezini "sistemdə hissələrin şərtsiz ayırıcı sintezindən" əldə etməyi mümkün saymışdır və bu ideya ilə bağlı dialektik əqli nəticələri əldə etməyi belə şərh etmişdir: *"Mən şərtlərin məcmusundan ona görə nəticə çıxarıram ki, nə qədər ki onlar mənə ümumiyyətlə şeylərin mümkünlüklərinin bütün şərtlərinin mütləq sintetik vəhdətindən, yəni mənim yalnız transendental anlayışlara əsasən bilmədiyim, bütün mahiyyətlərin mahiyyətindən verilə bilən predmetləri ümumiyyətlə düşünüm. şərtsiz zərurət haqqında heç bir anlayış tərtib edə bilmərəm. Bu dialektik əqli nəticəni mən xalis zəkanın idealı adlandırıram."*

Kantin şərhindən görünür ki, transendental fəlsəfədə ideal haqqında əqli nəticə şərtlənənlərdən - şeylərdən yox, mümkünlük kimi onların imkanlarının şərtlərinin məcmusundan çıxarılır; hansı ki, bu şərtlərin məcmusundan şərtləndirən haqqında - ideal haqqında ideya yaradılır.

Beləliklə, xalis ağlın idealı əslində rasional teologiyanın əsas predmetini - Allahı özündə təqdim edir. Kantın dialektik əqli nəticə ilə Allah ideyasının anlayışlarının əldə edilməsini aşağıdakı kimi izah etmək olar:

1. **Təbiət mövcud varlıqların məcmusunu özündə təqdim edir** və hər bir mövcud olan varlıq zərurətə görə, yəni immanent səbəbə görə mövcud olur. Metafizika yalnız mümkün varlıqlardan təşkil olunduğundan, bundan fərqli olaraq təsadüfə görə immanentlik əldə edirlər. Bir mümkün varlığın mövcud olan varlığa çevrilməsində sonsuz sayda variasiyalar meydana çıxa bilər, hansı ki, təsadüflə şərtlənmişdir. Məsələn, canlıların minlərlə növlərə, cinslərə ayrılması canlılıq mümkünlüyünün imkandan asılı olaraq müxtəlif cür aktuallaşmasının nəticəsidir. Belə ki, hər bir canlı həm zamanla, həm məkanla şərtlənməyə görə özündə fərqliliklər saxlayır. Allah ideyası bu cür təsadüfə görə sonsuz mövcud varlığa keçən mümkün varlıqların mümkünlüyünün vəhdətini özündə təqdim edir. Buradan da, mahiyyətlərin mahiyyətini əldə etmiş oluruq.
2. **Təbiətdə mövcud varlıqlar yalnız təzahürlərin məcmusunun vəhdəti şərtində mövcuddur** və hər bir belə məcmui təzahür başqa belə məcmui təzahürlərlə şərtlənmişdir. Təcrübədə belə şərtlənmiş zərurətlərdən anlayış əldə etmək mümkündür. Amma metafizik predmet kimi Allah şərtsiz zərurət olduğundan, yəni özündən başqa heç bir şeyin mövcudluğuna zərurət hiss etmədiyindən, biz təcrübədən fərqli olaraq belə zərurətə görə olan varlıqdan anlayış çıxara, yəni onu idrak edə bilmərik.
3. **Xalis Ruh mümkün varlıq kimi mövcuddur** və biz Allah anlayışını mümkünlüyün bütün şərtlərinin məcmusundan əldə etdiyimizdən, deməli Allah ideyasını məhz Ruhun özü-özündə mütləq vəhdətindən əldə edə bilərik, hansı ki, Ruha görə əlçatmazdır, yəni idealdır.

İdeal nədir? Əgər biz idrak prosesində anlayışların ardıcıllığını şeyə münasibətdə düzsək, onda görərik ki, şeyə ən yaxın olan onun adı, sonra

anlayışlar, terminlər və kateqoriyalar, daha sonra isə ideyalardır. Kant obyektiv reallığa ən uzaq olan anlayışları **ideal** adlandırır. Anlayışlar obyektiv reallıqdan - kamil forma ilə vəhdətdə olan mahiyyətdən - uzaqlaşırsa, bir o qədər formasız kamil mahiyyəti özündə təqdim edir. Beləliklə, sonuncu ideal heç bir formaya malik olmayan xalis mahiyyət - yəni mütləq həqiqətdən ibarət olur ki, bu həqiqəti özündə ifadə edən ideal varlıq Allah kimi təyin olunur. Hər bir obyektiv reallıq emanasiyanın sonu kimi təzahür etdiyindən ən qeyri-kamildirsə, onda həmin reallıqdan ən uzaq ona münasibətdə mütləq kamil olandır. Buradan biz idealı **mütləq kamil olan** kimi təyin edirik.

Transendental fəlsəfə Allah ideyası altında başa düşülən ideyanı transendental ideal (*prototypon transendentale*) kimi müəyyənləşdirir və İlkin mahiyyət kimi Allahı dünyanın səbəbi - dünyanın yaradıcısı kimi şərh edir.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"İstənilən anlayış onun özündə olmayana münasibətdə qeyri-müəyyəndir və "təyinlilik haqqında əsas müddəaya" tabedir; hansı ki, bu müddəaya görə anlayışların bir-birinə zidd olan predikatlarından yalnız biri ona xas ola bilər. İstənilən şey həm də tam təyin prinsipinə tabedir, hansı ki, bu prinsipə görə öz əksikliklərı ilə üst-üstə düşən şeyin bütün mümkün predikatlarından ona biri xas olmalıdır. "Bütün mövcud olanlar tam təyin olunur" müddəası onu bildirir ki, yalnız mövcud yox, həm də bir-birinə zidd bütün mümkün predikatlardan biri həmişə şeyə xasdır. İstənilən şeyin tam təyinliyinin əsasında duran bütün mümkünlüklərin məcmusu ideyası, onu təşkil edə biləcək predikatlara münasibətdə hələ təyin olunmur və dolayısı ilə bütün mümkün predikatların məcmusunu ümumiyyətlə düşünürük. Ancaq yaxından baxdıqda biz birincili anlayış kimi bu ideyanın çoxlu predikatı istisna etdiyini görürük; hansı ki, bilavasitə başqa kortəbii predikatlarla artıq verilmişdir və ya bir-biri ilə yan-yana dura bilməz. Təmizlənərək o, aprior müəyyən anlayışları tam əmələ gətirir və beləliklə, tək şeylər haqqında anlayış yalnız ideya kimi*

təyin olunur və bu ideya xalis zəkanın idealı adlandırılmalıdır. Yalnız ağılda yerləşən, zəkanın idealının predmeti, həmçinin birinci mövcudluq (ens originarium) və ya o hər şeydən üstə durduğundan ali mahiyyət (ens summum), necə ki hər şey ona şərtlənmiş kimi tabedir - bütün mahiyyətlərin mahiyyəti (ens entium) adlanır. Əgər bizim ağlımızda tam təyinin əsası, şeylərin bütün mümkün predikatlarını götürməsi mümkün olan transendental substrat dursa, onda bu substrat bütün reallıqların (omnitudo realitatis) ideyasından başqa bir şey deyil. Belə halda, bütün həqiqi inkarlar, əsasında sərhədsiz olmasaydı onların belə adlandırılması mümkün olmayan sərhədin mahiyyətdən başqa bir şey deyil. Özündə şey anlayışının bütün reallıqlarını belə əldə etməyə malik olmasına görə tam təyin olunan kimi təqdim olunur; bəzi ens realissimum anlayışı isə tək mahiyyətlərin anlayışıdır, elə belə predikatların bir-birinə mümkün ziddiyyətlərindən biri, məhz bilavasitə mövcudluğa xas olanı həmişə onun təyinində olur. Deməli, mövcud olan hər şeyə məxsusluğu zəruri olan, tam təyinin əsasında bütün mövcud olanların mümkünlüklərinin ali və tam material şərtlərini təşkil edən transendental ideal durur, hansı ki, onların mahiyyətinə aid olan bütün predmetlər haqqında ümumiliklə istənilən fikrə gətirməlidir. Bundan artığı, insan ağlına əlçatar olan bu yeganə həqiqi ideal, yeganə halda şey haqqında özü-özündə ümumi anlayış tamamilə özü-özünə təyin olunur və individuum haqqında təsəvvür kimi dərk olunur. Öz ideyamızı hərtərəfli tədqiq edərək və onu hipostazlaşdıraraq biz ilkin mahiyyəti vahidin, sadənin, hərşeyəqadirin, əbədinin və s.-nin mahiyyəti kimi, ali reallığın yalnız anlayışı kimi təyin edə bilərik. Bir sözlə, biz onu bütün predikatların şərtsiz dolğunluğu ilə təyin edə bilərik. Belə mahiyyətin anlayışı transendental mənada Allahın anlayışıdır; beləliklə, xalis zəkanın idealı transendental teologiyanın predmetidir."

İ. Kantın transendental ideal haqqında şərhindən göründüyü kimi, transendental fəlsəfəyə görə **Xalis zəkanın idealı** hər şeyin onunla şərtlənmiş kimi tabe olduğu, hər şeydən üstə durduğu, ağılda yerləşən transendental ideyadır və bu ideya özündə ziddiyyət saxlayan tək şeylərin

tam təyinliyindən əldə edilir. Hər şeyin şərti kimi çıxış etdiyindən transendental Allah ideyası özündə bütün mümkün şərtlərin məcmusu kimi çıxış edir. Şərtlər imkanlar kimi təzahür etdiyindən biz transendental Allah ideyasını bütün imkanların məcmusu, yəni totallığı kimi də təyin edə bilərik. Amma bu zaman imkana malik olmayan, yəni şərtsiz mövcud olan mümkünlüyü nəzərə almırıq; hansı ki, bilavasitə İlahi mümkünlük - mütləq mümkünlük kimi dərk edilir.

Transendental fəlsəfə Allahın varlığının sübutunun yalnız üç üsulunu müəyyən edir:

1. **Fiziko-teoloji sübut** (İ. Kant belə adlandırır);
2. **Kosmoloji sübut**;
3. **Ontoloji sübut**.

Transendental fəlsəfədə Allah ideyasının aşkarlanması fiziko-teoloji sübutlardan başlayır. Fiziko-teoloji sübutlar, adından da göründüyü kimi, qarışıq - təcrübi və dini sübutlardır. Əslində fiziko-teoloji sübutlar həqiqi sübut kimi götürülə bilməz, çünki belə sübutlar əgər fiziki qanunlar əsasında seçilirsə, onda ifadə olunan teoloji sübutluluq keyfiyyəti izah olunmaz qalır və əksinə. Buradan da demək olar ki, fiziko-teoloji sübutlar elə-belə təcrübi və dini sübutların mexaniki aqreqasiyası kimi seçilir. Yəni, mövcud dünyada - təcrübədə Allah ideyasının mahiyyətinə uyğun gəlməyən çatışmayan şeylər və təzahürlər xalis ağıl tərəfindən mövcud təcrübəyə implikasiya edilir. Yəni təcrübənin yetərsizliyi dəf edilir. Digər tərəfdən, empirik bilikləri dini biliklərə implikasiya etməklə dini obyektlər haqqında real təsəvvürlər və obrazlar yaradılır. Nəticədə, transendental Allah ideyası real və ideal təcrübənin məcmusundan aşkarlanır ki, bu da fiziko-teoloji sübutların əsas xarakteristikasını təşkil edir. Bu isə transendental fəlsəfədə Allah ideyasının aşkarlanmasının ikinci qrup çətinliklərini özündə təqdim edir.

İ. Kant həm empirik, həm transendental yolla hissi aləmin sərhədlərindən çıxmağın mümkünsüzlüyünü sübut etməyə cəhd edir və aşağıdakı çətinliklərə düşür:

1. Transendental fəlsəfənin birinci çətinliyi - "Allahın varlığının ontoloji sübutunun qeyri-mümkünlüyü": Metafizikaya görə, əgər hər şey Allahla şərtlənmiş ona tabedirsə, onda onların şərtlərindən şərtləndirəni - Allah ideyasını - sübut etmək olar. Beləliklə, biz transendental fəlsəfənin müddəalarının tənqidi ilə Allah ideyasının metafizik sübutuna cəhd edirik:

a. Transendental fəlsəfəyə görə, mühakiməyə aid olan bəzi anlayışlar istisnasız olaraq şeyə və onların mövcudluqlarına aid olmur. Bu müddəa ağlın antinomiyasına əsaslanır və iki səbəbə görə düz deyil:

Birincisi, elm sübut edir ki, əvvəl yalnız mühakiməyə aid olan kimi qəbul edilən bir çox anlayışlar, sonradan idrakın genişlənməsi nəticəsində şey və onların mövcudluğuna aid edilir. Məsələn, antik fəlsəfədə maddənin ən kiçik bölünməz hissəsi kimi yalnız mühakiməyə aid kimi qəbul edilmiş atom anlayışı, atom fizikasının inkişafı ilə həm də şeyə və onun mövcudluğuna aid olduğu aşkarlanmışdır; və ya Mendeleyevin öz kimyəvi elementlər cədvəlində qabaqcadan xalis mühakimə yolu ilə aşkarladığı elementlər çox sonralar kimya elmi tərəfindən kəşf edilməklə şeyə, və ya süni radioaktiv elementlərin kəşfi ilə şeylərin mövcudluğuna aidliyi aşkarlanmışdır. Buradan da belə bir metafizik müddəa meydana çıxır: "Sağlam ağla aid istənilən mühakimə şeyə və ya mövcudluğa aid ola bilər". Buradan da mühakiməyə aid Allah ideyasını şeylərə və ya onların mövcudluğuna aid ideya kimi qəbul etmək lazım gəlir ki, bu da Allah ideyasının ontoloji sübut olunmasını özündə təqdim edir.

İkincisi, elmin inkişafından asılı olmayaraq, şeyə aid elə ən ümumi anlayışların mövcudluğunu düşünə bilərik ki, tam dolğunluqla mütləq şəkildə mühakiməyə aid olmur.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Özünün mövcudluğunu müəyyən təsirlərlə aşkarlayan, təbiətin bir çox gücləri bizim tədqiqata əlçatmazdır, belə ki, biz onları müşahidə ilə kifayət qədər dərin izləyə bilmirik. Təzahürlərin və onunla bir yerdə bizim hissiyyatımızın başqa ali təzahürə yox, birinə tabe olmasının əsasında duran transendental obyekt bizim tədqiqata əlçatmazdır və əlçatmaz olaraq qalacaqdır; baxmayaraq ki, onların mövcudluğunun faktının özü şübhəsizdir, yalnız çatılmayandır."*

Göründüyü kimi İ. Kant da sübut edir ki, "təbiətin bir çox gücləri bizim tədqiqata əlçatmazdır". Biz hər bir reallığın güclərini idrak imkanına - tədqiq olunmasına, yəni aydınlaşmasının aşkarlanmasına münasibətinə görə üç müxtəlif qrupa bölə bilərik:

1. Bilavasitə sadə və başlanğıc tədqiqatla, hissi qavrama yolu ilə aşkarlanan reallığın gücləri;
2. Mövcud tədqiqatın səviyyəsindən asılı olaraq qavranılmayan, amma tədqiqat üsulunun inkişafından asılı olaraq qavranması mümkün olan reallığın gücü;
3. Tədqiqatın səviyyəsindən asılı olmayaraq, qavranılması mümkünsüzlük olan reallığın gücü.

Biz belə hesab edirik ki, reallığın tədqiqat səviyyəsindən asılı olmayaraq qavranılması mütləq mümkün olmayan güclərin məcmusu özündə ilahi gücün qavranılmasının mümkünsüzlüyünü təqdim edir. Yəni, əgər biz tək bir şeyin hansısa gücünü heç bir halda qavraya bilmiriksə, onda bütün şeylərin zərurətə görə tabe olduğu başlanğıc gücün, mütləq şəkildə qavraya bilməyəcəyimiz məcmui bir gücün olduğunu da qəbul etməliyik; hansı ki, bu qənaəti nisbi qavradığımız şeydən əldə edirik. Məsələn, təcrübədən məlumdur ki, ümumiyyətlə şeylərə və ya onların mövcudluğuna aid anlayışlar tədricən mühakiməyə aid olur və bu proses sonsuz olduğundan (yəni şeyin mütləq həqiqətinə aid anlayışlar dərkolunmaz olduğundan, bununla da onların mühakiməyə mütləq şəkildə aid olmayacağı məlum olduğundan), bu müddəanın doğruluğunu qəbul etməliyik.

Buradan da metafizik olaraq şeylərin mövcudluğuna aid olan, amma mühakiməyə mütləq şəkildə aid olmayan elə anlayışların mövcudluğunu qəbul etmək olar ki, məhz onların əsasında metafizik ideal ontoloji sübut olunan olur.

2. Transendental fəlsəfənin digər bir çətinliyi - Allah ideyasının ontoloji sübutolunmazlığı müddəası həm də obyekt-subyekt münasibətindən meydana çıxır.

Haşiyə**:** İ. Kant, "Xalis zəkanın tənqidi"

> *“ Əgər mühakimənin eyniliyində mən predikatdan imtina edib subyekti saxlayıramsa, onda ziddiyyət yaranır, buna görə mən deyirəm ki, predikat subyektin mövcudluğu üçün zəruridir. Əgər mən predikatla birlikdə subyektdən imtina edirəmsə, onda ziddiyyət yaranmır, belə ki, artıq nəyəsə nəyin ziddiyyətdə ola biləcəyi heç nə qalmır. Eynilə bu mütləq zəruri mahiyyətə də aiddir. "Allah hərşeyəqadirdir" mühakiməsi zərurət mühakiməsidir. İlahini sonsuz varlıq kimi ehtimal etməklə hərşeyəqadirliyi inkar etmək olmaz, hansı ki, bu anlayış Allah anlayışı ilə eyniyyət təşkil edir. Yox əgər siz deyirsinizsə "Allah yoxdur", onda nə hərşeyəqadirlik, nə onun heç bir başqa predikatı verilmir, belə ki, o onun bütün predikatları ilə inkar olunur və bu fikirdə heç bir ziddiyyət yoxdur.”*

İ. Kantın şərh etdiyi, transendental fəlsəfənin bu çətinliyi ümumiyyətlə insanın mövcud varlığının təbiətinə transendental baxışla bağlıdır. İnsan özü transendental mövcudluq olduğundan, transendental fəlsəfə ondan transendensiya edə bilmir, beləliklə insanın mövcudluq üsulu transendental fəlsəfənin mühakimələrindən kənarda qalır. Bunun əvəzinə subyektin transendental anlayışı qoyulur ki, bu anlayışla insanın transendental mövcudluğuna aid olanlar üst-üstə düşmür. Belə ki, transendental fəlsəfə subyekti yalnız obyektin təsirindən aydınlaşan bir təzahür kimi təyin edir; bu halda isə əlbəttə transendental fəlsəfə ontoloji olaraq obyekt-subyekt əlaqəsində ontoloji olaraq Allahı aşkarlaya bilməz, çünki "nəyinsə nəyə ziddiyyəti qalmır". Amma insanın transendental mövcudluğuna aid elə anlayışlar vardır ki, onlar şeyə və ya onların

mövcudluğuna aid deyil, buna görə də predikat subyektin mövcudluğu üçün zəruri olmur, deməli predikatla birlikdə subyektdən imtina zamanı subyektin mümkün varlığı qalır (Ruh əbədi olduğundan). Hansı ki, özündə mümkün ziddiyyətlər saxladığından (bu ziddiyyətlər əsasında obyekt-subyekt əlaqəsində şeyin həqiqəti bilgi kimi ondan çıxarılır) nəyinsə nəyəsə ziddiyyəti potensiallıq kimi saxlanılır. İ. Kanta görə, bu çətinlikdən azad olmağın bir yolu var: "inkar edilməsi mümkün olmayan subyektlərin olmasını təsdiq etmək". Yuxarıdakı mühakimədən göründüyü kimi metafizika məhz belə subyektin olmasını təsdiq etməklə transendental fəlsəfənin əksinə, Allah ideyasının ontoloji təsdiq olunmasının mümkünlüyünü iddia edir. Bunu elə Kantın fikirlərini suallandırmaqla da aşkarlamaq olar: belə ki, predikatla birlikdə subyektin inkarından sonra "nəyinsə nəyəsə ziddiyyəti qalmadığını" kim və necə təsdiq edir? Əgər subyekt inkar olunubsa, onda özünün inkarından sonra ziddiyyətlərin qalıb-qalmadığını mühakiməsini necə reallaşdırır?

Transendental fəlsəfənin ikinci çətinliyi **"Allahın mahiyyəti"** ilə bağlıdır. Əgər Allah ideyası sonuncu varlığın - mahiyyətin varlığının totallığından idrak olunursa və Allah mahiyyətin reflektiv yaradıcısıdırsa (yəni mahiyyətlə Allah birbaşa rabitədə deyil), yəni mahiyyətin varlığı Allahdan əmələ gəlmir, yalnız onun tərəfindən yaradılır, onda biz mahiyyətin varlığına aid olan heç bir anlayışı Allaha aid edə bilmərik. Yəni "Allahın mahiyyəti" anlayışı özündə heç nə ifadə etmir. Çünki Allah ideyası mahiyyət anlayışı ilə mühakimə olunmazdır. Biz mahiyyətin varlığının Allahın refleksiyası ilə yarandığını təsəvvür etdikdə, onda mahiyyətin varlığı yalnız Allahın xalis predikatları ilə eynilik təşkil edir və onlardan birinin və ya hamısının inkarı Allahın yoxluğuna yox, yaranışın baş verməməsinə aid olur. Yəni "Allah yoxdur" - mövcudluqda varlığın (yaradıcı gücün) olmamağını özündə təqdim edir; bunun əksinə "mövcud varlıq" anlayışı Allahın varlığını özündə saxladığı "varlıq" sifəti ilə Allahı təsdiq edir.

Transendental fəlsəfə həm də Allahın varlığının **kosmoloji sübutunun** mümkünlüyünü inkar edir.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Tamamilə kortəbii qurulmuş ideyadan ona uyğun predmetin mövcudluğunun çıxarılması tamamilə qeyri-təbii olardı və yeni başlamış məktəbli uzaqgörənliyini özündə təqdim edərdi. Baxmağa hazırlaşdığımız kosmoloji sübut ali reallıqla mütləq zəruri əlaqəsini saxlayır. Əgər ontoloji sübut ali reallıqdan mövcudluğun zəruriliyinin sübutudursa, onda kosmoloji sübut qabaqcadan mövcud bəzi mahiyyətlərin şərtsiz zərurətindən onun sərhədsiz reallığının sübutundan ibarətdir. O həqiqətən, təbii teologiyanın birinci əsas istiqaməti üçün tamamilə aydın şəkildə bütün sübutları verir. Bu müddəada deyilir: "nəsə mövcuddursa, onda şərtsiz zəruri mahiyyət də mövcud olmalıdır". Kiçik müddəa özündə təcrübənin faktını, böyük müddəa təcrübədən ümumiyyətlə zərurinin mövcudluğuna nəticəni saxlayır. Bu sübut beləliklə təcrübədən başlayır. Kosmoloji sübut adlanır, belə ki, o təcrübənin predmetlərinin bütün xüsusi xüsusiyyətlərindən yayınır, hansı ki, bizim dünya digər mümkün istənilən dünyadan fərqlənəcək. Onda o özünün adına görə, bizim hissi qavradığımız dünyanın xüsusi təbiəti üzərində müşahidəyə ehtiyacı olan fiziko-teoloji sübutlardan da fərqlənəcək. Bu sübut aşağıdakı kimi inkişaf edir: zəruri mahiyyət bir-yeganə üsulla təyin oluna bilər, yəni bilavasitə yalnız bütün mümkün predikatların ziddiyyətlərinin birindən; beləliklə, o öz anlayışı ilə tam təyin olunmuşdur. Şeyin yalnız bir anlayışı ola bilər ki, şeyi tam aprior təyin etsin, o da məhz ens realissimum anlayışıdır. Beləliklə, ən real mövcudluq anlayışı zəruri mahiyyəti düşünülməsi mümkün olan yeganə anlayışdır, deməli ali mövcudluq zərurətə görə mövcuddur. Əgər bütün şərtsiz zərurətə görə mövcudluqlar bununla bir yerdə ən real mövcudluqdursa, həqiqətdir ki, o bütün təsdiqedici mühakimələr kimi, ən azından per accidens-ə görə dövriyyəyə buraxmalıdır; belə olmalıdır ki, bəzi ən real şeylər onunla bir yerdə şərtsiz zərurətə görə mövcudluqdur. Amma istənilən ens realissimum başqa ən real mövcudluqlardan fərqlənmir, ona görə də, nə ki bu anlayışa uyğun gələn bəzi mövcudluqlara aiddir və bu sıranın digər bütün*

mövcudluqlarına da aiddir. Buna görə də mən təsdiq edə bilərəm ki, istənilən ən real mövcudluq zərurətə görə mövcudluqdur. Məhz bu mühakimə ontoloji sübutetmədə də olmuşdur, kosmoloji sübut onu etiraf etmir, amma buna baxmayaraq, onu öz nəticələrinin əsasına və gizli şəkildə qoyur. Ona görə də ali mövcudluğu sübut üçün spekulyativ fəlsəfənin seçdiyi yol da nəinki birinci kimi səhvdir, həm də irada layiqdir; hansı ki, bizi yeni yolla aparmaq əvəzinə, bir qədər yeni yolla gedir və sonra yenidən köhnə yola qayıdır."

Kantın şərhindən görünür ki, Allah ideyasının kosmoloji sübutunun mümkünsüzlüyü aşağıdakı çətinliklərlə bağlıdır:

1. **Kortəbii qurulmuş ideyadan ona uyğun predmetin mövcudluğunun çıxarılması:** Xalis zəkada heç bir kortəbii ideya meydana çıxa bilməz, çünki varlıqdan fərqli olaraq xalis zəka başlanğıcda kortəbii vəziyyətdən nizamlı vəziyyətə keçidlə ideyaları aşkarlayır. Beləliklə, xalis zəkanın istənilən ideyası nizamlılığın təzahürüdür. Bəzi ideyaların spontan meydana çıxması isə ruhun mümkünlüyünün avtorefleksiyası ilə - təfəkkürün özü-özündən qeyri-hissi, qeyri-maddi düşünməsi nəticəsində ağıldan törəyən ideyalar kimi meydana çıxır. Buradan da metafizik olaraq deyə bilərik ki, insan beyninə spontan gələn Allah ideyasının əsasında Allaha ən yaxın təbiətə malik Ruhun özü-özündən əldə etdiyi ideyadır və bu ideya yalnız ruhu təcrübə ilə bağlıdır.

2. **Kosmoloji sübut, ali reallıqla mütləq zəruri əlaqəsini saxlayır:** Refleksiya əlaqənin bir növü kimi müxtəlif təbiətlidir və kosmoloji sübut ali reallıqla buna görə də mütləq zəruri əlaqəsini birbaşa saxlamır. Kosmoloji sübutun mütləq zəruri əlaqəsi Varlıq vasitəsilə, dolayısı yolladır; hansı ki, Varlığın tabe olduğu heç bir qanun kosmosu təşkil edən mövcudluqların qanunları ilə üst-üstə düşmür. Ona görə də, Allah ideyasının kosmoloji sübutunun mümkünsüzlüyü onun ali reallıqla mütləq zəruri əlaqəsinin bilavasitə qəbul edilməsi ilə bağlıdır.

Hansı ki, nizamlı kosmoloji sübut təsadüfə görə mövcud olan varlığın xaotikliyindən dolayısı ilə Allahla əlaqələnir.

3. **Ontoloji sübut ali reallıqdan mövcudluğun zəruriliyinin sübutudursa, onda kosmoloji sübut qabaqcadan mövcud bəzi mahiyyətlərin şərtsiz zərurətindən onun sərhədsiz reallığının sübutundan ibarətdir:** Mövcudluğun zəruriliyinin sübutu mümkün varlığın mövcud varlığa keçməsinin şərtlənməsi ilə bağlıdır və həmin şərtlərə görə bəzi mahiyyətlərin sərhədsiz reallığına imkan vermir, yəni eyni bir aləmdə (eyni şərtə görə) zərurətə görə yalnız bir reallıq mövcud ola bilər. Deməli, zərurətə görə mövcudluq sərhədsiz reallıqla üst-üstə düşmür, onunla eyniyyət təşkil etmir.

4. **"Nəsə mövcuddursa, onda şərtsiz zəruri mahiyyət də mövcud olmalıdır":** Bu müddəa formaya münasibətdə düz deyil, belə ki, forma mövcud heçlikdir, yəni heç bir mahiyyəti olmayan reallıqdır. Buradan da belə alınır ki, mövcud olan bütün nəsələrin zərurətə görə mahiyyətinin olması vacib deyil. Məsələn, kölgə mövcuddur, amma zərurətə görə mahiyyəti yoxdur.

5. **"O, bizim dünyanı digər mümkün istənilən dünyadan fərqləndirəcək təcrübənin predmetlərinin bütün xüsusi xüsusiyyətlərindən yayınır":** Müxtəlif mümkün aləmlər müxtəlif xüsusi xüsusiyyətlərlə mövcud ola bilər, ona görə də müxtəlif aləmlərin mövcudluğunu sübut etmək üçün onların xüsusi xüsusiyyətlərindən imtina etmək, yəni yayınmaq lazımdır. Əks halda bir aləmin xüsusi xüsusiyyətləri digəri ilə ziddiyyət təşkil edəcək. Buradan da kosmoloji ideya Allah ideyasını nəinki sübut edəcək, əksinə onu inkar edəcək.

6. **"Zəruri mahiyyət bir-yeganə üsulla təyin oluna bilər, yəni bilavasitə yalnız bütün mümkün predikatların ziddiyyətlərinin birindən":** Yuxarıda ikili təbiətli, transformasiya və metamorfozaya məruz qalan zərurətə görə mahiyyətlər haqqında (məs. işıq, canlı varlıqlar və s.) yazmışdıq və belə mahiyyətlərin təbiətinə görə bir çox alternativ üsulla, yəni bir-birinə ziddiyyət təşkil edən predikatların

məcmusundan təyin oluna biləcəyini göstərir. Buradan da Allah ideyasının - zəruri mütləq mahiyyətin - "mümkün predikatların ziddiyyətlərinin hər iki tərəfindən bilavasitə təyin oluna biləcəyini" demək mümkündür.

7. **"Şeyin yalnız bir anlayışı ola bilər ki, şeyi tam aprior təyin etsin, o da məhz *ens realissimum* anlayışıdır":** Hər bir şey müxtəlif səviyyədə müxtəlif anlayışlarla *ens realissimum* kimi təyin olunur. Məsələn: Orijinal sıra adla, xüsusi sıra terminlə, ümumi sıra hipotetik konstruktorlarla, nəhayət ən ümumi sıra kateqoriyalarla təyin olunur. Buradan da kosmoloji ideyadan Allah ideyasının sübutu şeyin mütləq anlayışını - onun mümkün varlığı ilə mümkünlüyün varlığının birgə anlayışından ibarət olacaqdır; hansı ki, mahiyyətin varlığının iki birbirindən fərqli mövcudluqları kimi təcrübədən aşkarlanır.

8. **"Ən real mövcudluq anlayışı zəruri mahiyyəti düşünülməsi mümkün olan yeganə anlayışdır":** Reallıq mövcudluğun xarakteristikası olduğundan "ən real" anlayışla Allah ideyasını sübut etmək olmaz. "Ən real" anlayış yalnız Kainatı - zərurətə görə mövcudluqların totallığını özündə təqdim edir. Allah ideyası Kainatdan kənar metafizikadan aşkarlandığından, reallıq yalnız təcrübəyə aid olduğundan, bu anlayışla Allah ideyasını aşkarlamaq olmaz.

9. **"Ali mövcudluq zərurətə görə mövcuddur":** Əgər Ali mövcudluq, yəni Allah zərurətə görə, yəni daxili immanentliyə görə mövcuddursa, onda onun mövcudluğunu şərtləndirən xarici şərt mövcud olmalıdır; bu da onun aliliyi xarakteristikası ilə uyğun deyil. Deməli Allah şey kimi zərurətə görə mövcudluq deyil, sadəcə mütləq varlıqdır və hər cürə zərurətdən kənar olduğundan **mütləq azaddır**. Yəni bütün təsadüflərin məcmusunu özündə təqdim edir, nəinki zərurətə görə olanları. İmmanentlik daxililiyi göstərir, əgər daxililik vardırsa, onda xaricilik də vardır. Allahın təkcəliyi onun özündən başqa heç nəyin olmadığını özündə ifadə etdiyindən, deməli Allahın xaricilik xarakteristi-

kası yoxdur, onda onunla vəhdət təşkil etməli olan daxililik xarakteristikası da ola bilməz. Yəni Allah immanentliyə görə mövcud deyil.

10. **"Bəzi ən real şeylər onunla bir yerdə şərtsiz zərurətə görə mövcudluqdur":** Allah mütləq azad varlıq olduğundan bəzi ən real şeylərin onunla birlikdə şərtsiz zərurətə görə mövcudluğu qeyri-mümkündür, yəni Allah tək və yeganə mütləq azadlıq kimi mövcuddur.

Beləliklə, transendental fəlsəfədə kosmoloji ideya ilə Allah ideyasının sübutunun qeyri-mümkünlüyü kosmoloji predmetlərin anlayışlarının Allah ideyasına keçirilməsi ilə bağlıdır ki, buradan da xalis zəkanın antinomiyası meydana çıxır, yəni biri həqiqət olduqda digəri yalan olur.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Fiziko-teoloji sübutlar əsasında kosmoloji sübutlar, kosmoloji sübutların əsasında isə tək ilkin varlığın ali mahiyyət kimi ontoloji sübutları dayanır və spekulyativ ağlın bu üç yoldan başqa heç bir yolu yoxdur. Ağlın istənilən empirik tətbiqinə üstünlük təşkil edən, ümumiyyətlə sübutun mümkünlüyü müddəası kimi yalnız bir ağlın xalis anlayışı yeganə bir sübutdur."*

Kantın şərhindən göründüyü kimi, Transendental fəlsəfə Allah ideyasını sonuncu ideya kimi götürüb özünün əvvəlki ideyalarından, birindən digərinə keçməklə, sonda Allah ideyasına çatır və bu zaman bir ideyanın qüsuru - qeyri-dəqiqliyi digərinə keçərək sonda Allah ideyasının aşkarlanmasında məcmui qüsur olur və bu da məhz Allah ideyasının aşkarlanmasında çətinlik yaradır.

Bizcə transendental fəlsəfənin, eləcə də digər fəlsəfi cərəyanların Allah ideyasında dolaşıqlığa düşməsinin səbəbi dilin çatışmazlığından yaranan çətinliklərlə bağlıdır. Burada **mövcudluq** və **varlıq** anlayışlarına xüsusilə diqqət etmək lazımdır. Biz bəzən bu sözləri sinonim kimi işlədirik, halbuki bu sözlər bir-biri ilə sinonim təşkil etmir. Əgər sinonim olsaydı, onda "mövcud varlıq" ifadəsini ya "mövcud mövcudluq", ya da

"var varlıq" kimi ifadə etmək olardı ki, hər iki ifadə heç bir məna ifadə etməzdi. Əgər "mövcud varlıq" ifadəsində mövcudluq varlıqla fərqli mənalarda işlənirsə, onda onların mənasını necə şərh etmək olar? **Mövcudluq** metafizikadan çıxmış və fizikaya keçmiş, yəni qurulma prosesini başa çatdırmış, hissi qavranma keyfiyyəti əldə etmiş obyektlərin statusunu ifadə edir. Mövcudluq subyektə münasibətdə olmayan, yəni təcrübəyə daxil olmayan obyektivlikdir. Yəni subyektin iştirakı olmadan - ya ona qədər, ya ondan sonra, ya da onsuz - təbiətdə olandır. Belə mövcudluğun varlığı yoxdur. **Varlıq**, bunun əksinə, təfəkkürdə abstrakt mövcudluqdur; hansı ki, subyektin iştirakı ilə şərtləndiyindən, onsuz özündə yoxluqdur. Buradan iki cür yoxluq ayırd etmək olar:

- **a. Subyektin iştirakçılığı olmadığından meydana çıxan yoxluq - nisbi yoxluq:** Məsələn, hər hansı bir şey təcrübədə konkret idrak edən fərdə təqdim olunmursa, o şey həmin fərd üçün yoxluqdur. Bütün mövcudluqlar bu mənada yoxluqdur. Çünki heç bir mövcudluq subyektin iştirakçılığını tələb etmir.
- **b. Obyektin təqdimatı olmadığından meydana çıxan yoxluq - mütləq yoxluq:** Mütləq yoxluq xalis zəkanı özündə təqdim edir, hansı ki, heç bir reallığın təqdimatı tələb olunmur. Mütləq yoxluğu - təqdimatın tələb olunmamasını - **özündəvarlıq** kimi ifadə etmək olar, yəni idraka təqdim olunması tələb olunmayan hər şey varlıqdır.

Buradan da aydın olur ki, **mövcudluq** yalnız təbiətdə olan, **varlıq** yalnız xalis zəkada olan, **mövcud varlıq** isə obyekt-subyekt münasibətində, yəni təcrübədə olandır.

METAFİZİK ALLAH İDEYASI

Metafizik Allah ideyası özündə həm dinin, həm də fəlsəfənin Allah ideyalarının zəif cəhətlərini istisna edir. Belə ki, bir tərəfdən metafizika transendensiya ilə varlıq aləmindən çıxaraq Allah ideyasının reallıqlardan

aşkarlanmasından imtina edir, digər tərəfdən, subyektin ağlından törəyən ideyaların vəhdətindən onu aşkarlamağa cəhd edərək hər cür doqmatizmə qarşı çıxır. Başqa sözlə, metafizika Allah ideyasını bilavasitə metafizik aləmdən aşkarlayır, hansı ki, təbiətdən fərqli qanunlara tabe olduğundan fərqli idrak üsulu tələb edir.

İdrak prosesində təcrübədə hissi qavranılan hər bir həqiqət **sonların sonu**, nəticələrin nəticəsidir; hansı ki, bilavasitə idrak prosesinə təqdim edilən sonuncu şeydə aydınlaşır. İdrak prosesi məhz həmin şeydən başlayaraq onun əvvəlinə doğru mərhələ-mərhələ gedərək onun əsasında duran həqiqəti aşkarlamağa cəhd edir. Sonların sonu, nəticələrin nəticəsi ideyası **başlanğıcların başlanğıcı**, səbəblərin səbəbi ideyası ilə vəhdətdədir. Əgər sonların sonu, nəticələrin nəticəsinin məcmusundan bütünlükdə təcrübə sferası formalaşırsa, onda başlanğıcların başlanğıcı, səbəblərin səbəbi təcrübədənkənarda, metafizik aləmdə axtarılmalıdır. Buradan da metafizikanın əsas ideyalarından birini başlanğıcların başlanğıcı, səbəblərin səbəbi kimi təyin edə bilərik; hansı ki, özündə idrak prosesinin sonunu, yəni idrak prosesinin başa çatmasını, idrakın gedişatının qurtardığını, ondan o tərəfə hər hansı idrak imkanının istisna edildiyini, bir sözlə bizim İdraküstü Varlıq kimi - Aristotelin "ilk hərəkətverici", İ. Kantın "ağlın requlyativ prinsipi", A.N. Uaythedin "konkretləşdirmənin prinsipi" kimi adlandırdıqları noumeni - Allahı təqdim edir.

Beləliklə, Allah təcrübədə təzahür etməyən obyekt olduğundan, bilavasitə empirik tədqiqatla Allah haqqında hər hansı məlumat əldə etmək mümkün deyil. Allah ideyası özündə başlanğıcların başlanğıcı, səbəblərin səbəbini təqdim etdiyindən, idrak prosesinin də başlanğıcı və səbəbi kimi çıxış edir. Buna görə də, idrak prosesi başlayan andan Allah ideyası insana aydınlaşır və buna görə də elmə məlum olan tarixin ilk günündən Allah ideyası bu və başqa şəkildə - müxtəlif dəqiqlikdə və aydınlıqda - insanlar tərəfindən aşkarlanmışdır.

Allah ideyası necə, nədən və hansı səbəbdən birincili və başlanğıc həqiqət kimi aşkarlanır? Bu sualı cavablandırmaq üçün ümumiyyətlə idrak prosesinin təbiətinə nəzər salmaq lazımdır. Biz pnevmatologiya bölməsində idrak prosesini xüsusi şərh edəcəyimizdən burada yalnız ən ümumi şəkildə dərketmə haqqında bəzi suallandırmalarla kifayətlənirik.

"İdrak prosesi" anlayışında "idrak" və "proses" məfhumları ayrı-ayrılıqda özlərində nəyi ifadə edir?

1. İdrak: Fəlsəfədə idrak - ən ümumi şəkildə Ruhun həqiqəti əldə etmə üsulu kimi təyin edilmişdir. Bəzi filosoflar, xüsusən Leybnits və Lokk tərəfindən idrak anlayışı "bizim iki ideyamızın seyri ilə onlar arasında uyğunluq və ya uyğunsuzluq əlaqəsini qavramaq" kimi təyin edilmişdir. Özlüyündə uyğunluğun dörd forması vardır: eynilik və ya fərqlilik; münasibət; zəruri əlaqə və ya birgə mövcudluq; real mövcudluq. Bunu nəzərə alaraq idrakı iki ideya arasında eyniliyin və ya fərqliliyin, onlar arasında münasibətin, onlar arasındakı əlaqənin və birgə mövcudluğun, nəhayət, real mövcudluğun qavranılması kimi təyin etmək olar.

İdrakın fəlsəfədə ümumi qəbul edilmiş üç pilləsi vardır:

a. İntuitiv idrak: İntuisiya - kifayət qədər məntiqi əsas olmadan məsələnin təcrübi olaraq ani həllini, dərketmə yolundan kənar, bilavasitə ağlın quruluşundan biliyin əldə edilməsini, axtarıb tapmağı özündə ifadə edir. İntuisiya daha çox yaradıcı akt kimi təzahür edir və təhtəlşüurun dərinliyində gizlənmiş yaradıcı akt kimi, təhtəlşüurda zəruri daxili şərtlənmiş yaradıcılıq məqamı kimi, yaranmış davranış stereotiplərinin sərhədlərindən çıxma anı - əsasən məsələlərin həllində məntiqi proqramından çıxış kimi meydana çıxır. Beləliklə, **intuitiv idrak** dedikdə məntiqin proqramından çıxmaqla, məntiqə əsaslanmayan, təhtəlşüurun dərinliklərindəki yaradıcı aktla, ani olaraq, ağlın öz quruluşundan həqiqətin spontan aşkarlanması nəzərdə tutulmalıdır. Buna görə də intuitiv idrakla aşkarlanmış həqiqətin yəqinliyini məntiqlə yoxlamaq mümkün

deyil. Bunu nəzərə almadıqda, elmin və fəlsəfənin tabe olduğu məntiqi proqramla Allah ideyasına yanaşdıqda, bu ideyanı izah etmək mümkün olmur və buna görə də ideyanın dəqiqliyinə şübhə yaranır. İntuitiv idrakı ümumiyyətlə idrak prosesinin başlanğıc mərhələsi kimi ayırd etmək olar. Başlanğıc mərhələ kimi intuitiv idrak həm insanlığın ən ümumi idrak prosesinin başlanğıcını - kollektiv şüuru, həm də hər bir fərdi idrak aktının başlanğıcını - hissi qavramanı təşkil edir. Buradan çıxış edərək demək olar ki, istənilən elmi, fəlsəfi həqiqətin aşkarlanması məhz intuitiv idrakla başladığından, özündə təhtəlşüurun dərinliklərindən meydana çıxan aktla ani reallaşdığından və buna görə də subyektin iradəvi iştirakı və idrak obyektinin subyektə təqdimatı olmadığından xalis metafizik həqiqətlərdən ibarət olur. İntuitiv idrak iki ideya arasında uyğunluğun və ya uyğunsuzluğun intuisiya ilə qavranılmasını özündə təqdim edir. Beləliklə, bu mərhələ hər hansı başqa ideyanın - faktlardan törəyən təcrübi ideyaların - iştirakı olmadan Ruhun özündən aşkarlanan öz iki ideyasının seyri ilə yalnız onların özünə görə uyğunluğunun qavranılmasından ibarətdir. Belə qavrama ilə əldə edilən bilik bizim zəif ağlımıza əlçatar olan ən aydın, ən dəqiqdir və özündə ilkin həqiqəti təqdim edir. İlkin həqiqət iki cürdür: ağıldan və ya faktdan törəyən ideya. Ağlın ideyası zəruri, faktın ideyası təsadüfidir. Ağlın ideyası zəruri olduğuna və ağlın özündən törəndiyinə görə immanentdir, yəni ağlın daxilindən təzahür edir və təzahür etməyə bilmir.

b. Demonstrativ idrak: Bu mərhələnin qavrayışı mühakimə ilə həyata keçirilir. Bu mərhələdə idrak ağlın ideyalarının dolayısı ilə, onlardan kənarda, faktdan törəyən ideyaların iştirakı ilə seyrindən onlar arasındakı uyğunluğun və ya uyğunsuzluğun qavranılmasını özündə təqdim edir. Demonstrativ idrak mərhələsində ağlın ideyalarının qavranılmasında iştirak edən kənar ideyalar **aralıq ideyalar** və ya sübutlar kimi çıxış edir. Belə idrak prosesində hissi qavranılan obyekt bilavasitə idraka təqdim edilsə də, ondan alınan məlumat həqiqəti dəqiq ay-

dınlaşdırmağa imkan vermir; buna görə də intuitiv idrakla aşkarlanan ideyalarla empirik ideyaların əlaqələndirilməsinə zərurət yaranır. Beləliklə, demonstrativ idrakı hissi idrakla intuitiv idrakın vəhdəti kimi təyin etmək olar.

c. Hissi idrak: Hissi idrakın qavrama üsulu hissiyyatdır. Hissi idrak təcrübədə obyekt-subyekt münasibətində bilavasitə hissi qavranılan sonuncu şeydən - aktdan törəyən ideyaların seyri ilə həqiqətin qavranılmasından ibarətdir; hansı ki, qavrama şeylə onun mahiyyətinin seyri ilə onlar arasındakı uyğunluğa görə reallaşır.

2. Proses: Proses *prosedura* sözündən əmələ gəlmişdir. Prosedura sözü gedişat, yürüş, ardıcıl iş, nizam, ayin, işlərin taleyüklü hərəkəti və s. özündə bildirir. Proses anlayışı isə hər hansı təzahürün gedişatı, vəziyyətin ardıcıl dəyişilməsi, inkişaf mərhələsi, hansısa nəticəyə çatmaq üçün ardıcıl fəaliyyətin məcmusu kimi mənaları özündə ifadə edir. Proses başlanğıc, aralıq və son mərhələlərdən ibarətdir. Hər bir proses başlanğıcdan başlayaraq aralıq mərhələləri keçməklə öz sonuna çatmağa meyl edir. Prosesin sonu prosesə xas təzahürlərin istisna olunduğu mərhələ kimi təzahür edir.

Beləliklə, **İdrak prosesi** özündə bizim iki ideyamızın seyri ilə onlar arasındakı uyğunluğu və ya uyğunsuzluğu, o cümlədən ziddiyyəti qavramağımızın gedişatını, ardıcıllığını, nizamlılığını, sonuncu ideyanı qavramağa çatmaq üçün ardıcıl Ruhi fəaliyyətin məcmusunu bildirir.

Bəs idrak prosesi necə başlayır? Əgər idrak "iki ideyanın seyrindən onların uyğunluğu və ya uyğunsuzluğu qavramağı" özündə ifadə edirsə, onda intuitiv idrak prosesinin başlanğıcı mütləq eyni anda seyr edilən ən az iki ideyadan ibarət olmalıdır. Ayrılıqda bir ideyanın təzahüründə idrak prosesə çevrilmir. Yəni idrak yalnız, zəruri olaraq, ağlın özündən eyni zamanda törəyən iki ideyanın paralel təzahüründən başlaya bilər. İdrak ağlın ən zəif vəziyyətindən başlayır və proses ağlın güclənməsinə uyğun daha mürəkkəb ideyaları qavramaq istiqamətində inkişaf edir. Ağlın ən

zəif vəziyyəti ya tarixin əvvəlində yaşamış insanlarda, və ya hər bir fərdin erkən uşaqlıq dövrlərinə təsadüf edir. Ağlın zəif vəziyyəti o vəziyyət hesab edilməlidir ki, ağılda ən az sayda, ən sadə və heç bir kənar ideyanın iştirak etmədiyi və yalnız ağlın özündən törəyən ideyalar mövcuddur. İdrakın başlanması üçün tələb olunan ideyaların ən az zəruri sayı iki ideyadan ibarətdir. Başqa aralıq ideyaların iştirakı istisna olunduğundan ağlın zəif vəziyyətində yalnız intuitiv idrak reallaşır, hansı ki, belə idrakla yalnız ağlın bilavasitə özündən zərurətə görə törəyən və bir-biri ilə əksilik təşkil edən iki ideyadan qavrama baş verir.

İntuitiv idrakla dərk edilən, ağlın özündən törəyən ideyalar təcrübədən kənar - metafizik həqiqətləri özündə təqdim edir. Beləliklə, ağlın zəif vəziyyətində idrak prosesi intuitiv idrakla, yalnız Ruhun özündən aşkarlanan iki metafizik ideyanın seyri ilə onlar arasındakı uyğunluğun və ya uyğunsuzluğun qavraması ilə başlayır. Necə ki intuitiv idrak yalnız Ruhun ideyalarından qavramağa başlayır və bu mərhələdə təcrübi ideyaların hər hansı formada iştirakı istisna olunur, onda bu mərhələdə aşkarlanan həqiqət yalnız ağıldan - xalis zəkadan aşkarlanan ən zəruri, aydın və dəqiq həqiqət ola bilər.

Bu ideyalardan biri həqiqəti aşkarlayan **"Düşünən Mən"**in ideyasıdır; hansı ki, törəndiyi ağlın həqiqətini özündə təqdim edir. Ağlın həqiqəti "düşünən" olmasıdır. Ağıldan başqa düşünmə qabiliyyətinə malik heç nə mövcud deyildir. Ağıl fərdlə - "Mən"lə şərtləndiyindən istənilən düşüncə "Mən"siz mümkün deyil. Buradan da ağlın həqiqətini Düşünən Mən kimi təyin etmək olar. Düşünən Mənin ideyası ümumi idrak prosesinin aşkarladığı birinci, başlanğıc həqiqətindən ibarətdir. Digər ideya isə, necə ki idrak prosesinə başqa heç bir ideya - təcrübədən əldə edilən sonsuz sayda aralıq ideyalar - cəlb edilməmişdir, idrak prosesinin istiqamətləndiyi, nəticəyə - idrak prosesinin sonuna çatmaq üçün ardıcıl fəaliyyətin məcmusundan aşkarlanan sonuncu həqiqəti özündə aydınlaşdıran ideya olmalıdır. Sonuncu ideya özündə birinci ideyanın

həqiqətinə əksilik təşkil edən ideyanı özündə təqdim edir. Əgər onların həqiqətini eynilik təşkil etsəydi, onda iki ideya kimi təzahür etməzdi və nəticədə intuitiv idrak mərhələsi başlamazdı. Beləliklə, əgər birinci ideya ağlın özündən törəndiyinə görə onun ideyasını özündə təqdim edirsə, onun əksiliyi ağıldan törəyən, ağlın törəndiyinin ideyasını özündə təqdim etməlidir. Beləliklə, idrakın aşkarladığı başlanğıc ideya ağıldan törəyən ideya - **Düşünən Mən**, buna paralel və bununla eyni anda idrakın aşkarladığı sonuncu ideya Ağlı (ağlın varlığını təsdiq edən həqiqəti) Törədənin ideyası - **"Yaradıcı O"**nun ideyası olmalıdır; hansı ki, ən ümumi şəkildə özündə Allahın həqiqətini təqdim edir. Beləliklə, Allah ideyası həqiqətin törədicisi kimi təyin oluna bilər.

Ağıldan törənən ağlın həqiqətini özündə təqdim edən ideya həqiqəti insan üçün aydındır, dəqiqdir və dərk ediləndir, hansı ki, biz bunu özünüdərk kimi anlayırıq. Amma sonuncu ideya - ağıldan törəyən ağlı törədənin ideyası - heç bir halda ağıl üçün anlaşılan olmur, çünki ağıldan əvvəldir və ağıldan və faktdan törəyən bütün ideyalar məcmui şəkildə ondan törəyir. Ağıl isə eyni zamanda bu ideyalardan biridir və digər ideyaların çox az bir qismini qavramaq potensiyasına malikdir. Beləliklə, Allah ideyası intuitiv idrakla ağlın ən zəif vəziyyətində, bilavasitə ağıldan törəyən, ən aydın, ən dəqiq ideya kimi idrak prosesinin başlanğıcında birinci ideya ilə vəhdətdə paralel aşkarlanan idrak prosesinin aşkarlaya biləcəyi sonuncu ideyasıdır; hansı ki, bu ideyalardan hər hansı birinin təzahür etməməsi idrakın başlanmasını istisna edir.

İdrak prosesinin sonrakı gedişatında insan təcrübədə hissi qavrayışla faktdan və ağıldan törəyən çoxlu aralıq ideyalar aşkarlayır. Faktdan aşkarlanan aralıq ideyalar çoxaldıqca hissi idrak prosesində birincili aşkarlanan başlanğıc və son haqqında ideyalar arasında sonsuz sayda çoxlu ideyalar seyr edilir; hansı ki, bu ideyalar artıq bir-biri ilə uyğunluğuna görə qavranılır. Həmin ideyalar tədricən idrak prosesinin başlanğıcı ilə sonunu aralıq ideyaları kimi, onları bir-birindən aralayır,

uzaqlaşdırır və nəticədə hissi idrak prosesinin gedişinin müəyyən həddində başlanğıcın və sonun ideyası birlikdə idrak prosesində bilavasitə seyrdə iştirak etmir. Nəticədə, təcrübi biliklər subyekti və Allahı istisna edir, çünki təcrübi ideyalar yalnız bir-biri ilə uyğunluğuna görə hissiyyatla qavranılır, hansı ki, hamısı istisnasız olaraq təcrübədən aşkarlanır. Allah ideyası isə xalis ağılda aşkarlanan ideya kimi yalnız metafizikadan aşkarlanan olur.

İdrak prosesi başlanandan sonra aralıq ideyalar həm bir-birinə uyğunluğuna, həm hər biri ayrı-ayrılıqda başlanğıc və son haqqında idrak prosesinin başlanğıcını təşkil edən "Düşünən Mən"in və "Yaradan O"nun ideyasının seyri ilə onlar arasındakı uyğunluğa və ya ziddiyyətə görə qavranılır. Beləliklə, biz idrak prosesində ideyaların müqayisəsindən qavramanın aşağıdakı növlərini aşkarlaya bilərik:

1. **Allah ideyası ilə Düşünən Mənin ideyasının seyrindən onların bir-birinə uyğunluğunun və ya uyğunsuzluğunun qavranılması:** Uyğunluğun yuxarıdakı növlərini ayrı-ayrılıqda bu cür qavramaya təqdim etdikdə müvafiq olaraq aşağıdakı suallar meydana çıxır:
   - Düşünən Mən Allahla eynilik və ya fərqlilik təşkil edir?
   - Düşünən Mənlə Allah arasında münasibətin təbiəti necədir?
   - Düşünən Mənlə Allah arasında zəruri əlaqə və ya birgə mövcudluq vardırmı?
   - Düşünən Mən və Allah hər ikisi real mövcudluqdurlarmı? Bu sualların cavablarının məcmusu metafizikanın pnevmatologiya bölməsini əhatə edir.
2. **Təcrübədə aktdan törəyən ideyaların Düşünən Mənin ideyasının seyrindən onlar arasındakı uyğunluqdan və ya uyğunsuzluqdan təcrübi biliklərin qavranılması:** Buradan uyğunluğun növlərinə görə aşağıdakı suallar meydana çıxır:
   - Seyr edilən konkret şeylə (obyektlə) Düşünən Mən (subyekt) bir-biri ilə eynilik və ya fərqlilik təşkil edir?

- Seyr edilən şeylə Düşünən Mən arasında münasibət necədir?
- Şeylə Düşünən Mən arasında zəruri əlaqə və ya birgə mövcudluq vardırmı?
- Şey və Düşünən Mən hər biri real mövcudluqlardırmı? Bu suallar fəlsəfənin əsas məsələsinin bir tərəfini - təfəkkürün varlığa, şüurun materiyaya münasibətini özündə cavablandırır. Buradan elmi biliklərin başlanğıcı - birincili fəlsəfə yaranır.

3. **Təcrübədə aktdan törəyən ideyaların "Yaradıcı O"nun ideyası ilə seyrindən, onlar arasındakı uyğunluqdan və ya uyğunsuzluqdan transendental biliklərin qavranılması:** Uyğunluğun növlərinə görə buradan aşağıdakı suallar meydana çıxır:

- Hissi idrak olunan şeylər bir-biri ilə eynilik və ya fərqlilik təşkil edir?
- Hissi qavranılan şeylərin bir-birinə münasibəti necədir?
- Hissi qavranılan şeylər arasında zəruri əlaqə və ya birgə mövcudluq vardırmı?
- Hissi qavranılan şeylər real mövcudluqlardırmı? Bu suallar metafizikanın ontologiya və kosmologiya bölmələrinə aid məsələləri əhatə edir.

4. **Ağıldan törəyən Allah haqqında ideya ilə faktdan və ya aktdan dolayısı ilə törəyən ideyalar məcmusundan təzahür edən "Yaradan O"nun ideyasının seyrindən onlar arasındakı uyğunluqdan və ya uyğunsuzluqdan metafizik biliklərin qavranılması:** Buradan, uyğunluğun növlərinə müvafiq olaraq aşağıdakı suallar meydana çıxır:

- Düşünən Mənin Allah haqqındakı təsəvvürü ilə özü-özündə mütləq var olan Allah bir-biri ilə fərqlilik və ya eynilik təşkil edir?
- Allah şüurla dərk ediləndirmi?
- Ağıldan törəyən Allah ideyası ilə ağlı törədən Allah arasında zəruri əlaqə və ya birgə mövcudluq vardırmı?

- Allah ideyası özündə real mövcudluq kimi Allahın həqiqətini təqdim edirmi? Bu sualları rasional teologiyanın cavablandırmalı olduğu suallara aid etmək olar.

Bu sualları cavablandırmamışdan öncə aşağıdakı digər başqa qəbildən olan suallara cavab vermək zəruridir:

1. İdrak nə üçün prosesdir və bunun səbəbi nədir? Bunun bir çox səbəbləri vardır. Birinci səbəb idrakın həyatla şərtlənməsidir. İnsan bioloji varlıq kimi həyatla şərtlənmişdir. Həyat - xalis sürəklilikdir. Əgər idrak proses olmasaydı, onda insan həyatının sürəkliliyindən fərqli olaraq statik olardı, yəni onun həyatının yalnız bir anında təzahür edərdi. Nəzərə alsaq ki, idrak prosesi insanın həm də tələbatlarına, maraqlarına xidmət edir, onda dəyişən həyata uyğun insanın maraq və tələbatları da dəyişdiyindən idrak dəyişkənlik xarakteristikasına malik olmalıdır. Buradan da idrak həyatı özündə refleksiya etməklə prosesə çevrilir. İkinci səbəb, idrak obyekti ilə bağlıdır. Reallığın tabe olduğu əsas qanun-auyğunluq fəlsəfədə belə bir müddəa ilə ifadə edilmişdir: **"hər şey dəyişir"**. Əgər idrak obyekti kimi çıxış edən hər şey dəyişirsə, onda dəyişən hər şeyi dərk edən idrak da dəyişilməlidir; hansı ki, idrak məqamının dəyişilməsi idrakı proses kimi təzahür etdirir. Əks halda bizim dərk etdiyimiz dəyişən şeyin müəyyən andakı həqiqəti olardı, bu isə həmin şeyin bütünlükdə idrakını istisna edərdi.

Haşiyə: A.N. Uaythed, "Proses və reallıq"

> *"Bütün şeylər dəyişir" frazasının mənasının aydınlaşması metafizikanın başlıca məsələsidir. İki forma qurulma vardır. Onlardan biri - "qovuşma" (concrescence), hansı ki, Lokkun dilində özündə "ayrıca mövcud olanın real daxili konstitusiyalaşmasıdır". İkinci növ qurulma, bu bir ayrıca mövcud olandan digər mövcud olana keçiddir. Yenə də Lokkun dilincə belə qurulma "daima başaçatan" kimi təqdim olunur. Birinci növ qurulmanı mən "birləşmə" adlandırıram, ikinci növ qurulmanı "keçid" adlandırıram. "Birləşmə" onun subyektiv məqsədini təqdim*

edən öz sonuncu səbəbinə istiqamətlənib; "keçid" isə fəaliyyətdə olan səbəbin mexanizmidir, hansı ki, ölməz keçmişdir. Hər bir aktual hadisə əmələ gəldiyi öz xüsusi aləmini təyin edir. Heç bir iki hadisə eynilik aləmlərinə malik ola bilməz. "Birləşmə" - şeylərin universumunun "çoxluğun" onların konstitusiyalaşmasından "bir yeni şeyə tabe olması" nəticəsində individual vəhdət əldə etməsi prosesinin adıdır. Prosesin iki növü vardır - makroskopik və mikroskopik. Makroskopik proses - bu əldə edilmiş aktuallıqdan nailiyyət aktuallığına keçiddir; mikroskopik proses isə sadəcə real şəraitin müəyyən aktuallığa çevrilməsidir."

Göründüyü kimi, A.N. Uaythed təbii prosesləri iki cür təsəvvür edir: birləşmə və keçid. Birləşmə immanent prosesdir. Hər bir şeyin hissələrinin daxildə eyni bir qanuna tabe olması daxili birliyi - şeyin fərdiliyini yaradırlar. Keçid prosesində eyni qanuna tabe olan hissələr bir-birindən fərqli qanunlara tabe olmağa başlayır, nəticədə fərdi birlik dağılır, xarici proses - keçid meydana çıxır, nəticədə bir şey başqa şeyə keçir. Birləşmə prosesi - mümkünlüyün imkanla vəhdətindən aktuallaşmanı, keçid prosesi - şeydə vəhdət təşkil edən aktuallaşmış mümkünlüyün potensial mümkünlüklə əvəzlənməsi ilə yeni aktuallaşmanı özündə təqdim edir. İdrak prosesi metafizik aləmə məxsus olduğundan, onda aktuallaşma istisna olunur. Yəni idrakda birləşmə hadisəsi baş vermir. Nəticədə, idrak yalnız keçiddən - bir mümkünlüyün varlığından digərinə keçiddən - ibarət olur. Buna görə də, idrak prosesində fərdi şey əmələ gəlmir və yalnız mümkünlüyün təzahürü kimi ideyalar əmələ gəlir.

Uaythedin fikirlərini nəzərə almaqla aşağıdakı suallara aydınlıq gətirək. Nə üçün bütün şeylər dəyişir - yəni prosesdədir? Dəyişilmə sonlu və ya sonsuzdur? İdrak prosesi ilə təbii proses bir-birindən nə ilə fərqlənir? İdrak prosesi şeylərin dəyişilmələrinə paralel inkişaf edir, yoxsa dəyişilmələrdən fərqli istiqamətdə gedir?

Ən ümumi şəkildə iki cür hadisə vardır. Birincisi, birdəfəlik, əvvəli və sonu vəhdətdə və eyni anda təzahür edən hadisə; biz bunu **yaranma**

hadisəsi kimi təyin edirik. Yaranma hadisəsində yaranan hər şeyin əvvəli və sonu bir yerdə, eyni anda təzahür edir. İkincisi, əvvəli sonu ilə vəhdət təşkil etməyən və müxtəlif vaxtlarda sürəklilikdə təzahür edən hadisə; biz belə hadisəni **əmələgəlmə** adlandırırıq. Təcrübədə yalnız əmələgəlmə hadisəsi müşahidə olunur, ona görə də biz təcrübi proseslərin hamısını əmələgəlmə hadisəsinin müxtəlif təzahürləri kimi təsəvvür edirik. Əmələgəlmədə əvvəl və son vəhdətdə - eyni vaxtda bir yerdə təzahür etmədiyindən, bütün şeylər əvvəldən sona hərəkətdə bir yerdən başqa yerə, bir vaxtdan başqa vaxta keçidə seyr edilir, hansı ki, biz bunu təbii proseslər kimi dərk edirik. Bütün şeylərin dəyişilməsinin səbəbi öz əvvəlindən sonuna doğru hərəkət edən şeylərin bir yerdən başqasına, bir vaxtdan başqasına keçmə cəhdidir. Bir şeyin bir yerdən başqasına və bir vaxtdan başqasına keçməsi məkan və zamanın ümumi sərhədlərində baş verir. Məkan sonsuz, zaman əbədi olduğundan, proseslər sonlu və keçicidir. Şeylər dəyişilərkən özlərinin əvvəli haqqında həqiqəti gizlədir, əvəzində əvvəlində gizli saxladığı son haqqında həqiqəti aydınlaşdırır. İdrak tam həqiqəti prosesdə aşkarlamaq üçün şeyin əvvəli və sonu haqqında həqiqəti vəhdətdə dərk etməyə cəhd edir. Bu zaman o, idrak prosesində keçmişi yaddaşa alır (əmələgəlmədə şeyin öz sonu haqqında həqiqəti özündə gizlətməsinə uyğun), indini dərk etməklə sonra düşüncədə onları bir-biri ilə vəhdətə gətirərək dəyişən şeyin həqiqətini aşkarlayır. İdrak prosesi dərketmədən (şeyin indi təzahür edən aşkar həqiqətinin qavranılması kimi) düşüncəyə (dərk edilən obyektin özündə gizlətdiyi həqiqətin qavranılması kimi) keçməklə reallaşdığından təcrübədən çıxır, buna görə təcrübi proseslərə xas sonluluq və fanilik xarakteristikalarından azad olur, yəni sonsuz və keçici prosesə çevrilir. Nəticədə idrak prosesi ilə əmələgəlmə prosesi bir-birindən fərqli aləmlərə malik olur. Əgər əmələgəlmə təbii aləmə malikdirsə, onda idrak yalnız metafizik aləmə malik ola bilər. Bunu birbaşa Uaythed də təsdiq edir, hansı ki, ona görə "hər bir aktual hadisə əmələ gəldiyi öz xüsusi aləmini

təyin edir. Heç bir iki hadisə eynilik aləmlərinə malik ola bilməz". Üçüncüsü, həqiqətin emanasiyaya məruz qalmasıdır. İnsan idrakı mütləq həqiqəti aşkarlamaq istiqamətində cəhd edir. Mütləq həqiqət isə idraka əks istiqamətdə emanasiyaya məruz qalaraq nisbiləşir. Nəticədə idrak nisbi həqiqətin dərk edilməsindən onun mütləq dərk edilməsinə doğru inkişaf edir, bu da idrakı prosesə çevirir.

2. Dərk etməyin və düşünməyin bir-birindən fərqi nədən ibarətdir və onların ayrı-ayrılıqda və vəhdətdə idrak prosesində rolu nədən ibarətdir və onlar bir-biri ilə necə əlaqələnir?

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Dərk etməsək də, bizdə həmişə predmetləri özü-özündə şey kimi düşünmək imkanı qalır. Əks halda biz belə mənasız fikrə gələ bilərik ki, təzahürlər olan şeylərsiz mövcuddur. Şübhəsiz bizim istənilən dərketməmiz təcrübədən başlayır. Heç bir dərketmə vaxta görə təcrübədən əvvəl gəlmir, o həmişə təcrübədən başlayır. Baxmayaraq ki, bizim istənilən dərketməmiz təcrübədən başlayır, amma bu o demək deyil ki, o bütünlüklə təcrübədən əmələ gəlir."*

İ. Kantın fikirlərindən görünür ki, idrak prosesi dərketmə imkanı ilə düşünmək mümkünlüyünün məcmusu kimi mövcud olur. Dərketmə ilə düşünmə bir-birindən fərqli proseslərdir; dərketmə təcrübədən başlasa da yalnız təcrübədən əmələ gəlmir və onun əmələ gəlməsində düşüncə də iştirak edir. Amma insan dərk etmədən də düşünmə imkanına malikdir, amma düşünmədən dərketmə qabiliyyətinə malik ola bilməz. Deməli, buradan belə nəticəyə gəlmək olar ki, idrak prosesində düşüncə dərketməyə münasibətdə birincili və əsasdır. Beləliklə demək olar ki, təcrübədən əldə edilən istənilən bilik qarışıq bilikdir, yəni o, başlanğıcda təcrübədən alınsa da, sonra təcrübədən fərqli mənbədən alınan biliyin iştirakı ilə əmələ gəlir və ya təşkil olunur. Buradan da biliyi düşünmə mümkünlüyünün təzahürü kimi təyin edirik. Düşünmə mümkünlüyündən əldə edilən bilik özündə mümkün varlığın həqiqətini təqdim edir, hansı ki, mövcud varlıqlar təcrübəni təşkil etdiyi kimi, mümkün varlıqlar meta-

fizikanı təşkil edir. Təcrübədənkənar əldə edilmiş bilik olmadan təfəkkür təcrübi həqiqətləri mexaniki əksetmə kimi özündə refleksiya edərdi ki, bu da yalnız idrakın statikliyində - qeyri-proses olmasında mümkün ola bilərdi və belə dərketmədə insan ümumi həqiqət haqqında heç bir bilgiyə malik olmazdı.

3. İdrak prosesinin başlanğıcı və sonu vardırmı, əgər vardırsa onlar hansı obyektlərdə saxlanılır? Bu suala cavab verməmişdən öncə belə bir suala cavab vermək lazım gəlir: Düşünmə dərketmədən əvvəldir, ya sonra? Yəni insan əvvəl dərk edir, sonra düşünür, yoxsa əvvəl düşünür, sonra dərk edir? Bu sualın cavabı kimi biz, başlanğıc və sonun hansı statuslu obyektlərdə - dərketmənin və ya düşüncənin obyektlərində olduğunu müəyyənləşdirmiş oluruq. Bu sualı cavablandırmaq üçün ümumiyyətlə şüurun ilkin və ya başlanğıc təzahürünə nəzər salmaq lazım gəlir. Bunun üçün uşaq və ibtidai insan şüurunu tədqiq etmək lazım gəlir; hansı ki, birincisi fərdi şüurun, ikincisi ictimai şüurun başlanğıclarını özlərində təqdim edirlər. Əgər "uşaq şüuruna" və "ibtidai şüura" nəzər salsaq görərik ki, hər iki şüur başlanğıcda xalis düşüncə kimi mövcud olur, yəni uşaq təcrübədən yox, özündən, öz təfəkküründə meydana çıxan düşüncədən aşkarladığı həqiqətlər əsasında təcrübəyə münasibətdə olur və uşaqlarda şeylə onun təzahürləri arasında əlaqəyə görə dərketmə arxa plana keçir. Uşaq ya təzahürsüz şeyi, ya şeysiz təzahürü ayrı-ayrılıqda "dərk edir". Buradan da uşaq şüuru xalis metafizik şüur kimi mövcud olur.

Düşüncəsiz dərketmə mümkün deyil, amma Kantın da təsdiq etdiyi kimi, dərketməsiz düşüncə mümkünlükdür. Bu onu göstərir ki, düşüncə dərketməyə görə əsasdır və birincilidir. Buradan da düşüncəni idrak prosesinin başlanğıcı kimi təyin edə bilərik. Xalis düşüncə təcrübədən kənar olduğundan metafizikdir, buradan da deyə bilərik ki, idrak prosesinin başlanğıcı metafizik statuslu obyektdədir. Düşüncə ruhun atributlarına aid olduğundan demək olar ki, idrak prosesi metafizik statuslu

obyekt olan Ruhdan başlayır. Bundan fərqli olaraq, dərketmə bədənin bilavasitə iştirakı ilə reallaşdığından reallıq statusuna malik obyektlərdən başlayır. Buradan da dərketmə neqativ, düşüncə pozitiv xarakteristikaya malik olur.

Təcrübəni təşkil edən, təzahür edən şey sabitdir, yoxsa dəyişkən? Reallıq statusuna malik obyektlər daxili zərurətə görə - özündə şeyin, xarici təsadüfə görə - təzahürün vəhdətindən ibarətdir. Təzahür şeyin xarici şərtlənməsinə uyğun dəyişdiyindən, xarici şərtlənmə təsadüfi olduğundan, şeylə təzahür arasındakı əlaqə təsadüfə görə mövcuddur və buna görə də həmişə dəyişkəndir. Dərketmə ilə düşüncənin fərqi buradan meydana çıxır: belə ki, dərketmənin obyekti olan reallıq statusuna malik bütün şeylər dəyişkən, düşüncənin predmeti olan metafizik statuslu bütün obyektlər sabitdir. Təcrübədə şeylərin sürəkli dəyişməsi həmin şeyləri dərk edən idrakın da dəyişilməsini şərtləndirir. Şeylər dəyişildiyindən idrakın sonu yalnız dəyişilməyən obyektdə ola bilər. Beləliklə idrak prosesinin sonu da təcrübədən kənar metafizik statuslu obyektdən aşkarlana bilər. Bu obyekti özündə təsəvvür və şərh edən ideya Allah ideyasından ibarətdir.

4. İdrakın sonuncu ideyası olan Allah ideyası nə üçün idrak prosesinin başlanğıcında aşkarlanır? Əgər Allah idrak prosesinin sonunu özündə saxlayan obyektdirsə, onda o nə üçün idrak prosesinin əvvəlində xalis zərurətə görə aşkarlanır? Ümumiyyətlə Allah ideyası nə üçün aşkarlanır və ya onun aşkarlanmasının təxirə salınması mümkünsüzlükdürmü? Allah ideyasının aşkarlanması xalis zəkanın təbiəti ilə izah oluna bilər.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Ağlın öz təbiəti onu öz empirik tətbiqinin sərhədlərindən çıxmağa oyandırır ki, özünün xalis tətbiqində yalnız ideyalar vasitəsilə istənilən idrakın ən son hüduduna çatmağa vuruşsun və*

sakitlik əldə etsin, bəzi müstəqil mövcud olan sistematik tamın dairəsinə qapansın."

İ. Kantın fikirlərindən görünür ki, ağlın Allah ideyasını aşkarlamasının səbəbi ağlın öz təbiətindədir. Belə ki, ağıl oyaqlıq halından sakitlik halına keçməyə meyl edərkən empirik idrakın sərhədlərindən çıxaraq metafizik idrakın sərhədlərinə daxil olur və bu zaman sistematik tamın dairəsinə qapanmaq üçün (təbiət hissələrdən ibarət idraka təqdim olunduğundan təcrübə sahəsində sistematik tama qapanmaq idrak üçün əlçatmazdır) belə tamları aşkarlamağa cəhd edir və nəticədə ən son sistematik tam kimi çıxış edən metafizikanın başlanğıc ideyası kimi Allah ideyasına çatır. Allah ideyası ağlın çata biləcəyi sonuncu ideyadır, hansı ki, ondan o tərəf ideyasızlıq, yəni heçlikdir. Beləliklə, Allah ideyası məna ilə heçliyin sərhədində aşkarlanan ideyadır. Nə üçün ağıl öz təbiətinə görə empirik tətbiqinin sərhədlərindən çıxmağa oyanır? Əgər biz ağlın təbiətini təhlil etsək görərik ki, ağıl empirik qanunauyğunluqların heç birinə tabe olmur və onları inkar edən, onların əksikliyi kimi mövcud olan qanunlarla təzahür edir. Buradan da demək olar ki, ağıl metafizik statuslu obyektin təzahürlərindədir, ona görə də onun öz təbiəti - empirik təbiətdən ayrılıqda götürülmüş xalis zəka kimi - özündə, öz təbiətində olmağa meyl edərkən buna paralel empirik sərhədlərdən çıxmağa və metafizikaya keçməyə oyanır. Buradan da biz ağlın iki sərhədini ayırd edə bilərik. Birincisi, təcrübə ilə sərhədlənmiş məhdud və konkret özündən kənar sərhəd, hansı ki, reallıq statusuna malik idrak obyektinin sərhədlərindən ibarətdir. İkincisi, metafizik statuslu obyektlərlə şərtlənmiş qeyri-məhdud və abstrakt sərhəd. Metafizik statuslu obyektlərin idrakında ağlı sərhədləndirən obyekt olmadığından - çünki belə obyektlər qeyri-sərhədsizdir - ağıl empirik bilgilərdən fərqli olaraq, metafizik obyektlərdən əbədi dəqiqləşməyə möhtac olan həqiqətləri aşkarlayır. Beləliklə, ağıl heç vaxt metafizik statuslu obyektləri hər hansı sərhəd daxilində idrak edə bilmir, buna görə də met-

afizik statuslu obyektlərin heç bir ölçüsü olmur; ölçüsüz olduğundan onların sonuncu həqiqətinə çata bilmir, yəni dərk edə bilmir, amma onu özündə dərketmədən təsəvvür etməyə - düşünməyə cəhd edir. Buradan da, Allah haqqında təcrübi biliklərə əksilik təşkil edən, kritik ağılla izahı mümkün olmayan, qeyri-müəyyən həqiqətlərlə təsəvvür edilən, dərk edilməyən amma düşünülən Allah ideyası doğulur. Beləliklə, əgər yaranmada şeylər sonsuzluqdan sonluluğa, əbədilikdən sürəkliliyə keçirsə, idrak Allah ideyasını kəşf etmək üçün bunun əksinə sonludan sonsuza, sürəklilikdən əbədiyə keçməklə Allah ideyasını aşkarlamış olur.

İndi isə "Allah ideyası sonuncu ideya olsa da nə üçün zəruri olaraq idrak prosesinin başlanğıcında aşkarlanır?" sualını cavablandırmağa cəhd edək.

Şüurun inkişaf tarixi göstərir ki, insan təcrübəyə daxil olduğu ilk andan Allah ideyasına yiyələnib. Elə bir insan qrupu, elə bir dövr tapmaq mümkün deyil ki, orda Allah ideyası ictimai şüurda birincili ideya kimi nəzərə çarpmasın. Buradan belə bir sual doğur: Allah ideyası təsadüfə görə, yoxsa zərurətə görə aşkarlanan ideyalardandır? Əgər təsadüfə görə aşkarlanıbsa, bu təsadüf nə vaxt və nə ilə şərtlənmiş şəkildə təzahür edib və özündə hansı zərurətin təzahür formasıdır və insanlar nəyə görə heyvanlar aləmindən ayrıldığı və təbii vəziyyətdən çıxdığı ilk gündən ən müxtəlif formalarda və aydınlıqda Allah ideyasını aşkarlamışlar?

Təsadüf və zərurətin üç vəziyyətini ayırd etmək olar:

a. Xalis təsadüf: Zərurətlə vəhdət təşkil etməyən, fikrən ayrılıqda götürülmüş təsadüfü biz xalis təsadüf kimi təyin edirik. Xalis təsadüf bundan əvvəlki fəsildə qeyd etdiyimiz kimi metafizik xarakteristikadır və özündə zərurətlə heç bir əlaqə saxlamır. Xalis təsadüf mütləq azadlıq kimi meydana çıxır. Xalis təsadüf zərurətlə vəhdət təşkil etmədiyindən və buna görə də aktuallaşmaq imkanı olmadığından, Allah ideyası da təcrübədən xalis təsadüfə görə aktuallaşa bilməz. Təcrübədə bütün mövcudluqlar vəhdətdə mövcud olduqlarından məkan və zamana görə

şərtlənmiş şəkildə təzahür edirlər, buna görə də təcrübədə məhdud azadlıq və ya şərti azadlıq aşkarlanır. Buna görə də deyə bilərik ki, təcrübədə heç bir halda xalis təsadüf yoxdur. Təcrübə sahəsində nə həqiqətin aydınlaşması, nə də aşkarlanması xalis təsadüfə görə aktuallaşmır. İnsan da təbiət sferasında mövcud olduğundan, nə təbiətdə xalis təsadüfə görə Allah ideyası aydınlaşa bilər, nə də təfəkkürün özü-özündən xalis təsadüfə görə bu ideya aşkarlana bilər.

b. Təsadüf formasında təzahür edən zərurət: Fəlsəfə təsadüflə zərurətin əlaqəsini "təsadüf zərurətin təzahür formasıdır" kimi müəyyən etmişdir. Bu müddəaya görə nə təsadüf, nə təzahür xalis deyil. Belə ki, təsadüf forma kimi, zərurət mahiyyət kimi çıxış edir və ikisinin vəhdətindən mövcudolma meydana çıxır, hansı ki, mövcudluqların üsulu kimi təcrübəni təşkil edirlər. Təcrübədə təsadüfsüz zərurət, zərurətsiz təsadüf təzahür etmir. Buna görə də, təcrübə sahəsində aşkarlanan həqiqətlər təsadüf formasında təzahür edən zərurətə görə mövcud olan həqiqətlərdir. Belə həqiqətlər vəhdətdə mövcud olan mövcudluqların əmələgəlmə prosesində aydınlaşır. Yəni, hər hansı bir həqiqət aşkarlanarkən, mütləq özü ilə vəhdət təşkil edən digər həqiqətin aşkarlanmasına zəmin təşkil edir. Buna görə də təcrübədə ayrılıqda götürülmüş tək şey mövcud deyil və belə mövcudluq yalnız fikrən mövcud ola bilir. İnsan təcrübə sahəsinə daxil olduğu andan həm də təsadüf formasında təzahür edən zərurətə görə aydınlaşan həqiqətləri aşkarlamağa başlamışdır; hansı ki, təsadüf insanın maraqları, tələbatları, şərtləndiyi məkan və zamanla bağlı olmuşdur. Belə həqiqətlər zamanın müxtəlif yerlərində, müxtəlif insanlar tərəfindən, müxtəlif dəqiqlikdə aşkarlanan həqiqətlərə aiddir. Belə həqiqətlər cəmə aid dialektik həqiqətlərə aid olub, əlavə edilməyə, düzəlişlər edilməyə, inkişaf etdirilməyə, yəni kritikaya məruz qalır. Allah ideyası bütün insan qruplarında, tarixin başlanğıcında, yəni şüurlu insanın meydana çıxdığı ilk gündən aşkırlandığından təsadüf formasında

təzahür edən zərurətə görə aşkarlanan ideyalara, yəni kritik təcrübi ideyalara aid deyil.

c. Xalis zərurət: Təsadüflə vəhdət təşkil etməyən, fikrən ayrılıqda götürülmüş zərurəti biz xalis zərurət kimi təyin edirik. Xalis zərurətə yaranmadan əmələgəlməyə keçiddə - aktuallaşmamış faktdan meydana çıxan təzahürlər - özü-özündə təzahür etməmək imkanını istisna edən həqiqətlər tabe olur. Yəni heç bir təsadüf xalis zərurətə görə aydınlaşan və aşkarlanan həqiqətin forması kimi çıxış edərək onu şərtləndirmir. Bu mərhələdə təcrübənin özü meydana gəldiyi kimi, ən ümumi şəkildə təcrübənin əmələ gəlməsinə uyğun şüurlu insanın əmələgəlmə prosesində - yaranmadan əmələgəlməyə keçiddə - düşüncə də əmələ gəlir. Beləliklə, demək olar ki, insan düşüncəsi xalis zərurətə görə aktuallaşır. Bu isə o deməkdir ki, düşüncə şərtlənməmiş, o cümlədən təcrübə ilə mütləq şərtlənməmiş şəkildə aktuallaşır. Beləliklə, xalis zərurətə insanın maraqlarından, tələbatlarından, düşdüyü məkan və zaman şərtlərindən və onun şəxsi iradəsindən asılı olmayaraq, düşüncədə birincili, bütün həqiqətlərin başlanğıcı kimi, spontan və avtonom aşkarlanan aprior həqiqətlər aid edilməlidir. Belə həqiqət həm təcrübi, həm metafizik həqiqətlərin başlanğıcını təşkil etdiyindən həm təcrübədən, həm də aprior olaraq təfəkkürün özü-özündən aşkarlanan bütün həqiqətlər üçün ən ümumi əsas rolu oynayır. Allah ideyası da belə xalis zərurətə görə aşkarlanan ideyadır. Allahın xalis təsadüfə görə aydınlaşan varlığı idrak prosesində düşüncə səviyyəsində xalis zərurətə görə refleksiya edərək aşkarlanır. Allah ideyasının xalis zərurətə görə aşkarlanan ideya olması onunla sübut olunur ki, bu ideya daxili ideya kimi aşkarlanır və buna görə də heç bir hissi obyektin xarici təsirinin və ya subyektin iradəsinin iştirakını tələb etmir; insan iradəsindən asılı olmadan aşkarlandığından, insan onun aşkarlanmasına müdaxilə edə, ondan imtina edə, qarşısını ala, təxirə sala və ya ona nəsə özündən əlavə edə bilmir.

Allah ideyası birincili, şüurun ən aşağı səviyyəsində - ən sadə şüurla və başlanğıcda, mütləq aşkarlanması bu ideyanın xalis zərurətə görə aşkarlanması ilə bağlıdır. Allah ideyası empirik ideyalardan fərqli olaraq idrak prosesində əmələ gəlmir, sadəcə yaranır. Bu, şüurun ümumi təbiətindən meydana çıxır. Bunun səbəbini şərh etmək üçün ibtidai şüurun tabe olduğu qanunauyğunluqlara nəzər salmaq lazımdır, hansı ki, bizim şüurumuzun tabe olduğu qanunlardan kəskin fərqlənir.

Haşiyə: Lyusen Levi-Brül, "Fövqəltəbii ibtidai düşüncədə"

"Keçmişə doğru nə qədər uzağa getsək də, bizim müşahidəyə məruz qalan cəmiyyət nə qədər ibtidai olsa da, biz hər yerdə və bütünlüklə, belə ifadə etmək mümkünsə, çoxsaylı kollektiv təsəvvürlərlə dolmuş sosiallaşmış şüurla qarşılaşırıq, hansı ki, mənşəyi zamanın qaranlıqlarında itən ənənə üzrə bu şüurla qavranılmışdır. Hər hansı bir təcrübəyə toxunmayan fərdi insan şüuru haqqında təsəvvürlər, cəmiyyətəqədər insan haqqında təsəvvürlər kimi fantastikdir. İbtidai insanın şüurunun fəaliyyəti obyektlərin ideyalarına və obrazlarına, o bu ideyaları yaradan hisslərdən, emosiyalardan, ehtiraslardan müstəqil baxmaq üçün hədsiz az differensiasiya etmişdir. Bundan başqa, kollektiv təsəvvürlər kifayət qədər tez-tez fərd tərəfindən onun hissi sferasında dərin təəssürat yaratmaq qabiliyyətinə malik vəziyyətlərdən alınır. Kollektiv təsəvvürlər məntiqi xüsusiyyətlərə və cizgilərə malik deyil. Xalis təsəvvür olmayan kollektiv təsəvvürlər sözün dəqiq mənasında onu göstərir ki, onlar belə hesab edir ki, ibtidai insan mövcud halda nəinki obyektin obrazına malik olur və onu real hesab edir, həm də ondan çıxan və ona təsir edən hansısa fəaliyyətlə bağlı nəyəsə ümid edir və ya nədənsə qorxur. Bu fəaliyyət obyektdən və vəziyyətdən asılı olaraq, ya təsir, ya güc, ya gizli nəhənglik olur, amma fəaliyyətin özü dəyişməz olaraq reallıq kimi qalır və predmet haqqında təsəvvürün elementlərindən birini təşkil edir. Aşağı cəmiyyətlərdə psixi fəaliyyət mistikdir. İbtidai insanın yaşadığı və fəaliyyət göstərdiyi mühitin özü mistikdir. İbtidai insanlar heç nəyi bizim kimi qəbul etmir, həmçinin onların yaşadığı sosial sfera bizimkindən fərqlənir, məhz buna görə də ibtidai insan tərəfindən qavranılan xarici aləm

bizim qavradığımızdan fərqlənir. İbtidai insan üçün bizim başa düşdüyümüz mənada xalis fiziki fakt yoxdur. İbtidai insanlarda həmişə belə olur ki, bəzi mövcudluqlar və predmetlər bütün iştirakçıları istisna edərək, yalnız ayrıca adamlara aşkarlanır. İbtidai insanda olan bütün şeylərə aid təsəvvürlər həmcinsdir. İbtidai insanda dərk edilən fövqəltəbii ilə təbiət arasında məhdudlaşdırıcı xətt yoxdur. İbtidai insan üçün təsadüfi heç nə yoxdur."

İbtidai düşüncənin məşhur tədqiqatçısı L.L. Brüldan gətirdiyimiz sitatdan görünür ki, ibtidai insanda şüurun aşağıdakı özəllikləri vardır:

Sosiallaşmış şüur - şüurun sosiallaşması: Sosiallaşmış şüur ifadəsinin iki mənası vardır. Birincisi, həqiqətin cəmiyyətlə ötürülməsi. Belə ötürülmədə təcrübə - fərdi hissi qavrama - kənarda qalır, həqiqət yalnız ümumi şəkildə insanlara özündən əvvəlki nəsil tərəfindən adət kimi verilir. Körpə uşaqların idrak prosesi də məhz belə başlayır. Valideyn özünün dərk etdiyi həqiqətləri uşağa ötürür. Bu həm də doqmatik dini biliklərin üsuluna uyğundur. Yəni dində də Allah haqqında həqiqətlər insana Allah tərəfindən, onun idrakından kənardan ona ötürülür. Fərdin belə həqiqətə tənqidi yanaşmaq imkanı olmur. Sosiallaşmış şüur ibtidai doqmatik həqiqətləri özündə təqdim edir. Əgər insan nəsillərini bir zəncir kimi təsəvvür etsək və hər bir nəslin özündən əvvəlki nəsildən sosiallaşmış şüur əldə etdiyini nəzərə alsaq, onda insanlığın başladığı birinci insan nəsli sosiallaşmış şüuru necə əldə edir? Bizcə birinci insan nəsli sosiallaşmış şüuru bilavasitə - təhtəlşüurdan, "Yaradan O"dan əldə etmişdir ki, bu da ilk növbədə Allah haqqında həqiqətin ideyasının kəşfinə səbəb olmuşdur. İkincisi, **təbiətin canlılandırılması**, yəni şeylərin şəxsiyyət, təcrübənin cəmiyyət kimi dərk edilməsi. Şeylərin şəxsiyyət kimi dərk edilməsi hər bir şeyin Ruha malik olması təsəvvürünü meydana çıxarır. Bütün şeylərin ruhunun məcmusu həmin ruhların başlanğıcı və səbəbi kimi Allah qəbul edilir. Sosiallaşmış şüur təcrübəyə metafizikanın köçürülməsi kimi meydana

çıxır. Belə ki, təbiət insandan fərqli cansız və ruhsuz real mövcudluqlardan təşkil olunmuş aləm kimi yox, həm də insanın özü tərəfindən ona proyeksiya edilmiş ruhu və canı olan irreallıqlardan təşkil olunmuş aləm kimi dərk edilir. Əslində, ibtidai şüurda reallıqlar onların aktuallığının potensiallıqları ilə vəhdətdə götürülür; hansı ki, həqiqətən, başqa imkanlarda mümkünlüyün başqa dərəcələri kimi reallaşaraq canlılığı təşkil edirlər. Ona görə də, reallıqlarla irreallıqların sintezindən əldə edilən biliklər təbiət etibarı ilə sosiallaşmış şüurun məhsulu kimi meydana çıxır.

Təcrübəyə toxunmamaq: İbtidai şüur təcrübəyə toxunmadan təzahür edir. Təcrübəyə toxunmadığından təcrübəni təşkil edən heç bir xalis fiziki fakt haqqında bilgiyə malik olmur. Təcrübəyə toxunmamaq hissi qavrayışa laqeyd qalmaqla xarakterikdir. Hissi idrak istisna edildiyindən, insan yalnız intuitiv idrakla qavrayır, hansı ki, yuxarıda qeyd etdiyimiz kimi yalnız intuitiv idrakla qavramada zərurətə görə Allah ideyası təzahür edir. İbtidai insan şeylərin onlara təsiri ilə yox, özünün onlar haqqında təfəkkürün özü-özündən aşkarladığı həqiqətlərə uyğunluğa görə dərk edir. Buna görə də, ibtidai şüurun bütün bilgiləri xalis aprior bilgilərdən ibarət olur.

Şeylə onun təzahürlərinin eyniləşdirilməsi: İbtidai şüurda hissi qavrama başlamadığından şeyin hissi təsiri bədənlə məhdudlaşır, təfəkkürdə isə özü-özündə obraz və təsəvvürlər yaranır; hansı ki, konkret hissi təsirlə assosiasiya olunmur. Nəticədə şeylə onun təzahürü bir-birindən ayrılmır, ya təzahür şey kimi, ya şey təzahür kimi qəbul edilir. Yuxarıda qeyd etdik ki, şeylə təzahürün bir-birindən ayrılması ilə şüur təcrübədən metafizikaya keçir. İbtidai şüur bundan fərqli olaraq ya şeyi, ya onun təsirini ixtisara salmaqla, onları ayrılıqda götürməklə metafizikada qalmaqda davam edir. Metafizikada qalan şüur isə yalnız metafizik həqiqətləri idrak imkanına malik olur.

Məntiqə tabe olmamaq - məntiqsizlik: İbtidai şüur bizim şüurumuzun tabe olduğu qanunauyğunluqlara tabe olmur. Bizim məntiqimiz

reallıqlar aləminə uyğun obrazların sıralanması və onlar arasında əlaqələr əsasında dialektik yolla təcrübəni dərk edir. Təcrübəyə toxunmadığından, ibtidai şüur doqmatik şüurdur, o təfəkkürdən aprior aşkarlanmış heç bir həqiqəti özü-özündə kritikaya məruz qoya bilmir. İbtidai düşüncə pro-məntiqi düşüncə kimi mövcud olur, hansı ki, tabe olduğu qanunlar məntiqin qanunlarından kəskin fərqlənir. Belə məntiqə tabe olan düşüncə analizə meylli olmur, bütün aktları sintetikdir, sosial mühitlə verilir, yəni sadəcə öz həqiqətlərini irs kimi özündən əvvəlki nəsillərdən alır, saxlayır və özündən sonrakı nəslə ötürür, ona müdaxilə etmir və ya edə bilmir. Pro-məntiqi düşüncədə istifadə edilən düşüncə elementlərinin böyük əksəriyyəti metafizik təbiətli olduğundan, onlar təcrübədə dərk edilən istənilən hər şeyə implikasiya edilir. Beləliklə, ibtidai insan dərketmə ilə nəinki xarici obyektlərdə aydınlaşan həqiqəti, həm də onlarda aydınlaşmayan həqiqəti dərk etmiş olur; hansı ki, gizli həqiqətlər kimi təsəvvür olunur. Belə gizli həqiqətlərin məcmusundan Allah ideyasının əsası hazırlanır. Allah gizli həqiqətlərin totallığı kimi təsəvvür olunur. Bizim şüurumuz təcrübi aşkar həqiqətlərdən gizli metafizik həqiqətləri aşkarlamağa istiqamətlənib, amma ibtidai insan şüuru metafizikada qaldığından onun üçün metafizik həqiqətlər aşkar, təcrübi həqiqətlər gizlidir; ona görə də o özü üçün aşkar olan metafizik həqiqətlərdən təcrübi gizli həqiqətlərə istiqamətlənir.

Təsiretdirici gücün kəşf edilməsi: İbtidai insan təsir edən şeyi dərk edərkən təsirlə şey arasında, onların hər ikisindən xaric, üçüncü bir gücün - hissi obyektdən təsirlərin təzahürünün xarici səbəbi kimi - nəsəyə münasibətdə olur; ya ona ümid edir, ya ondan qorxur. Beləliklə ibtidai şüur həmişə şeyi ona təsir etdirən xarici gücün mövcudluğunu dərk edir, onu qəbul edir və ona tabe olur, bu gücü həm təsir edən şeydən, həm də təsirə məruz qalan özündən üstün və güclü hesab edir. O bütün şeylərin hamısının birlikdə təsirini aktuallaşdıran gücü Allah kimi kəşf edir. Beləliklə Allah obyekt və subyekt üstü güc kimi təsəvvür olunur.

İdrakın mistifikasiyası: Mistifikasiya reallığa irreallığı proyeksiyalaşdırma kimi meydana çıxır. İbtidai insan metafizikadan özünün intuitiv idrakla aşkarladığı ideyaları təcrübədəki reallıqlara implikasiya etdiyindən, reallıqla onun haqqındakı bilik bir-birinə uyğun gəlmir. Bu cür uyğunsuzluqdan mistik təsəvvürlər doğulur. Aşağı cəmiyyətlərdə bir tərəfdən insanları əhatə edən ətraf, digər tərəfdən bu ətrafı idrak edən psixika mistik xarakteristikaya malikdir.

Aktuallığın mümkünlük kimi idrakı: İbtidai şüur istənilən aktuallığı mümkünlüyün eyniliyi kimi qəbul edir. Buradan möcüzələrlə bağlı təsəvvürlər meydana çıxır. Təcrübədə hər bir reallıq imkanla mümkünlüyün vəhdətini özündə təqdim edir. İbtidai şüurda imkan ixtisara salınaraq reallıq xalis mümkünlük kimi təsəvvür edilir və buna görə də ibtidai şüurda hər bir reallıq bir-birini əvəz edən mümkünlüklərin məcmusu kimi qəbul edilir. Xalis mümkünlüklər metafizik aləmə xas olduğundan, mümkünlüklər məcmui tamından metafizik tam kimi Allah ideyası kəşf edilir. İbtidai şüurda insanın sosial mühiti və bu mühitdə onun dərk etməsi metafizik aləmə xas xarakteristikalara malik olur. Beləliklə Allah bütün möcüzələrin yaradıcısı - hərəkətverici başlanğıc kimi təsəvvür olunur.

Vəhdətin təklik kimi dərk edilməsi: İbtidai şüurda vəhdət təklik kimi dərk olunur. Yəni bu şüura görə mövcud olan hər şeyə aid təsəvvürlər həmcinsdir və bu təsəvvürlər əsasında o yaşadığı aləmi ayrı-ayrı fiziki faktlardan təşkil olunmuş aləm kimi yox, vahid, həmcins, bir-birinə keçmiş tək fiziki fakt kimi qəbul edir. Nəticədə, təbiət tək kimi metafizik təklərin refleksiyası kimi idrak olunur. Xarici aləm tək bir fiziki fakt kimi dərk edən ibtidai insan, onun əksiliyi kimi ondan üstün olan gücü də tək metafizik statuslu obyekt kimi qəbul edir. Buradan da Allah tək təbiətin əksiliyi kimi Mütləq Tək Varlıq kimi təsəvvür olunur.

Metafizika ilə fizikanın fərqləndirilməməsi: İbtidai insanın şüuru təbiətə toxunmadığından o öz başlanğıc metafizik təbiətində mövcud olur

və metafizikadan əldə etdiyi həqiqətləri təcrübəyə mücərrəd etməklə onu dərk etməyə cəhd edir. Nəticədə, ibtidai şüurda təbiətlə fövqəltəbiəti bir-birindən aydın xətlə ayırmır. İbtidai təsəvvürlərdə metafizik xarakteristika demək olar ki, aparıcıdır. Ona görə də, ibtidai şüurda reallıq statusu metafizik statusa xas xarakteristikalarla və əksinə təsəvvür olunur. Buradan Allah haqqında ibtidai dini təsəvvürlər - empirikaya keçirilmiş Allah ideyası meydana çıxır, hansı ki, bütpərəstlikdə öz zirvəsinə çatmışdır.

Bütün bu özəlliklərdən ibtidai düşüncədə Allah ideyasının avtonom və spontan aşkarlanmasının səbəbini müəyyənləşdirmək olar. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, məntiqi dərketmədə şeylə təsiri bir-birindən ayırmaqla idrak təcrübədən metafizikaya keçir. İbtidai insan şeylə onun təsirini bir-birindən ayırmır, onların hər ikisini birlikdə - ya təsir, ya da şey kimi qəbul edir. Məhz buna görə də differensiasiyaya məruz qalmamış şüur öz başlanğıc metafizik vəziyyətində qalır və buna görə də təcrübəyə daxil ola bilmir. Şüur öz metafizik başlanğıcında yalnız metafizik statuslu obyektlər haqqında həqiqətləri aşkarlaya bildiyindən ibtidai şüurda aşkarlanan başlanğıc həqiqətlərin hamısı yalnız metafizik statuslu obyektlərə aid olur. Məhz metafizik obyektlər haqqında məlumatların başlanğıcda aşkarlanması şüurun insan təcrübəyə daxil olduqdan sonra müəyyən müddət öz başlanğıc vəziyyətində qalması ilə bağlı olmuşdur. İbtidai şüur sosiallaşmış şüurdur, yəni hər cür neqativ əsası imtina edən, əksinə dərk edilən hər şeyi pozitiv əsasda qəbul edən şüurdur. Bu da ibtidai şüurun dərketməsinin aprior biliklər kimi meydana çıxmasına səbəb olmuşdur, hansı ki, metafizik xarakteristika kimi meydana çıxır. İbtidai şüur təcrübəyə toxunanadək meydana çıxır, ona görə də təcrübəyə toxunmadan meydana çıxan ibtidai şüur xalis metafizik bilgiləri aşkarlayır. Beləliklə, ibtidai şüur sırf metafizik aləmdə düşüncə ilə idrak etməyə cəhd edir.

Bəs Allah ideyası haradan meydana çıxır? İbtidai şüurda təzahür edən şeydə təsiri təzahür etdirən güc şeydə yox, çünki şey elə təsir kimi

və ya əksinə qəbul edildiyindən, xarici güc kimi qəbul olunur və bu xarici güc təsir və şeydən çox-çox güclü, böyük, sirli, gizli, qorxuducu və ümidverici bir güc kimi aşkarlanır; hansı ki, müasir dünyagörüşündə istər doqmatik, istər kritik Allah anlayışı altında təsəvvür edilən güc də ümidin və qorxunun mənbəyi kimi təsəvvür olunur. İbtidai insan heç bir təsadüfə görə mövcudolmanı dərk etmədiyindən, hər şeyi xalis zərurət kimi dərk edir. İbtidai şüurda səbəbilik zamanla şərtləndirilir. Nə ki əvvəldir, o sonranın səbəbidir, hansı ki, sofistlər tərəfindən *Post hoc, ergo propter hoc* ("bundan sonra, deməli bunun nəticəsidir") kimi ifadə edilmişdir. Müasir insanın məntiqində isə səbəbilik zamanla yox, məkan və zaman şərtindən aşkarlanır. Buradan da bütün sonraların səbəbi kimi əvvəl olan Allah ideyası düşünülür.

İbtidai insanla müasir insan bir-birinə əks keçidlə həqiqəti idrak etməyə cəhd edir. Belə ki, müasir insan təcrübədən metafizikaya, ibtidai insan metafizikadan təcrübəyə transendensiya edir. Nəticədə, bizim üçün idrakın nəticəsi kimi aşkarlanan aprior həqiqətlər ibtidai insan üçün idrakın başlanğıcında ona aşkar olur. Yəni biz hər şeydən Allah ideyasını aşkarlamağa cəhd edirik, ibtidai insan bunun əksinə Allahdan hər şeyi aşkarlamağa cəhd etdiyindən zəruri olaraq Allah ideyasını birincili aşkarlayır.

İdrak prosesində insan təfəkkürdə həqiqət haqqında ideyanın yaradıcısı kimi çıxış edir. Əgər həqiqətdən ideya yaratmaq mümkündürsə, onda həqiqəti ideya kimi yaratmaq da mümkündür. Məhz həqiqətin yaradılmasının düşünülməsi ilkin yaradıcı, bütün həqiqətlərin vahid təkcə başlanğıcı haqqında fikri doğurmuşdur; hansı ki, Allah ideyası kimi rasional teologiyada öyrənilir. Yəni, Ruh özü-özündə təkcə varlıq kimi, hər bir şeydən aşkarladığı həqiqətin özü-özündə təkcə olan varlıq tərəfindən yaradıldığını düşünür. Bu düşüncədən Ruhun özü özünün əksiliyindən Allah ideyasını kəşf edir. Buna görə də, son və başlanğıc haqqında həqiqət paralel olaraq eyni vaxtda kəşf edilir. İdrak

prosesinin başlanğıcını ən kiçik təkcə - **idrak miniması** - "Düşünən Mən" təşkil edir. "Düşünən Mən" özündə sadə ideya yaradan Ruhun təzahürüdür. "Düşünən Mən"siz idrak prosesi təzahür etmir. İdrakın sonunu Düşünən Mənin özü-özündən aşkarladığı ən böyük **"Özü-özündə düşünən"** təşkil edir; hansı ki, bütün düşünən mənlərin özündə yaratdığı ideyaların məcmusunun yaradıcısı kimi aşkarlanır. Buna görə də, Allah ideyasına oxşar ikinci elə bir ideya tapmaq olmaz ki, bütün dövrlərdə, bütün insanlıq üçün aktual ideya kimi çıxış etsin. "Düşünən Mən" insanı digər bütün varlıqlardan və başqa insanlardan fərqləndirən ən sadə başlanğıcdır. İnsan özünün düşünən olmasını dərk etdikdən sonra özündən kənarı düşünməyə başlayır. Beləliklə, özünüdərkin ən kiçik təzahürünü biz idrakın başlanğıcı hesab edə bilərik. Ən böyük təkcə kimi bütün idrak obyektlərinin vahid başlanğıcını özündə təqdim edən metafizik statuslu obyekt çıxış edir.

Metafizik Allah ideyası bilavasitə tək ilkin varlığın ali mahiyyət kimi özündən, dindən və transendental fəlsəfədən fərqli yolla aşkarlandığından, onlarla müqayisədə metafizikada Allah ideyası onun həqiqətini daha aydın və dəqiq şəkildə aşkarlanır. Yəni metafizikanın Allah ideyası, fiziko-teologiyanın əksinə Allah ideyasının aşkarlanmasını çətinləşdirən mövcud təcrübənin bir təbiətli şeylərindən ziddiyyətləri bütünlüklə istisna etməklə, bunun əvəzinə yalnız mövcud təcrübədə aydınlaşan metafizik təbiətli şeyləri - işığı, canı, ruhu, kvantı və s. götürməklə Allah ideyasını aşkarlamağa cəhd edir.

İ. Kantın fikirlərini inkişaf etdirərək, metafizikada idrak prosesində Allah ideyasının əhəmiyyətini izah etmək olar. Biz empirik dərketmədə hər bir şeyi məkan və zaman şərtində - ölçüdə idrak edirik. Baxmayaraq ki, bizə bilavasitə təcrübədən xalis zaman və xalis məkan heç bir halda verilmir, biz idrak prosesində istənilən ölçülü şeyi məhz xalis məkan və zamanın xalis ölçülüyündən fərqinə görə idrak edirik. Yəni bütün şeylərin məkani ölçülərini idrakda qabaqcadan avtonom və spontan veri-

lən sonsuz məkana və əbədi zamana görə aşkarlayırıq. Buradan da, üçüncü ölçülük - sonsuzluğu sonluya keçirən, əbədiliyi sürəkliliyə keçirən idraki ölçülük meydana çıxır. Xalis zəkada idraki ölçülüklərin ən son ölçüsü **idealdır**; hansı ki, Allah ideyası bu idealı özündə təqdim edir. Şeylərin məkan və zaman şərtində idrakına uyğun metafizik statuslu obyektlərin idrakını izah etsək, deyə bilərik ki, bizim ağlımızda nisbi təyinin (çünki həqiqət mütləq nisbi şəkildə idrak olunur) əsasında özündə həqiqətin bütün nisbiliyini saxlayan və buradan mümkünlüyün bütün dərəcələrinin aydınlaşdığı metafizik həqiqət durur, hansı ki, Allah obyektinin ideyasıdır və bu ideyanın bütün inkarları bütün reallıqların təsdiq olunan predikatları kimi mövcuddur. Biz buradan həm də insan ağlının təbii dialektikasının son məqsədini təyin edə bilərik.

Təbiətdə hər bir varlıq öz ölçülüyünü məkan və zamanın ölçüsüzlüyünə, sonsuz və əbədi mövcudolmaya çatdırmaq meylindədir. Eləcə də buna uyğun idrak öz ölçülüyünü bu ölçülüyün əsasını təşkil edən idealın ölçülüyünə çatdırmağa cəhd edir. Məhz bu cəhd idealın kəşfinə cəhd yaradır və buradan Allahın kəşfini insan ağlının təbii dialektikasının son məqsədi kimi təyin etmək olar; hansı ki, metafizik statuslu Allah obyekti insan ağlının sonuncu ölçüsü kimi çıxış edir.

Təbiət mümkünlüyün ən sadə və birincili imkanının təzahürü olduğundan, özündə emanasiyaya məruz qalmış ən aşağı keyfiyyətli sonuncu həqiqəti ifadə edir. Buradan da, empirik biliklər nəinki Allahı təsdiq edir, əksinə onu inkar edir. Amma həqiqətin idrakı nisbidən mütləqə doğru olduğundan təcrübi biliklər Allah haqqında ən aşağı keyfiyyətli bilgilərin əsası kimi mövcud olur və buna görə də, xalis təcrübədən Allah ideyası aşkarlanmır. Allah ideyası idealı, yəni idrak edən subyektdən ən uzaqdakı sonuncu mümkünlükdən aşkarlana bilər ki, belə mümkünlük xalis mümkünlük kimi hər cür imkanı, o cümlədən idrak imkanını da istisna edir. Buna görə də sonuncu xalis mümkünlük kimi Allah özündə nə təzahür, nə idrak imkanı saxlayır. Bəs belə imkana

malik olmayan obyekt haqqında bilgini necə əldə etmək olar? Biz metafizikanın ümumi hissəsində metafizik statusun təşkili ilə bağlı şərhimizdə ən ümumi şərtlərin xalis mənasından həmin obyektlərin xarakteristikalarının əldə edilməsinin mümkünlüyünü şərh etmişdik.

Metafizika mümkünlüklər aləmi kimi var olduğundan metafizikanı yalnız dərketmədən ayrılıqda xalis düşüncə ilə - aprior idrak etmək olar. Təcrübə - təzahürlə birlikdə idraka təqdim edilmiş və hissi qavranılan şeylərdən təşkil olunur. Hissi qavrayışda əvvəl hissiyyatın iştirakı ilə təzahürlər təzahür edən şeydən ayrılaraq təfəkkürə ötürülür. Bununla, konkret təzahür edən şey, təzahürdən ayrılıqda təsəvvür edilən **özündə şeyə** çevrilir. Sonra təfəkkürdə ona ötürülən hissiyyatla təzahür edən şeyin abstrakt obrazı və onun haqqında təsəvvürlərinin vəhdəti yaradılır. Bununla da dərketmə başa çatır. Sonra təfəkkürün özü-özündə abstrakt təzahür edən şey təzahürdən ayrılaraq abstrakt özündə şeyə çevrilir və abstrakt özündə şeylərin əlaqəsi əsasında düşüncə aktuallaşır. Deməli, dərketmə konkret təzahürlə özündə şeyin vəhdətini təqdim edən şeylərin, düşüncə abstrakt özündə şeylərin iştirakı ilə reallaşır. Əgər biz şeylə onun təzahürlərini bir-birindən ayrılıqda idrak etməyə cəhd etsək, onda avtomatik olaraq təcrübədən çıxmış oluruq. Buradan da ümumi şəkildə dərketməni təcrübədən metafizikaya keçid kimi təsəvvür etmək olar. Əksinə, əgər özündə şeylə təzahürləri vəhdətdə dərk etməyə cəhd etsək, onda təcrübəyə daxil olmuş oluruq. Təcrübədən çıxmaq - metafizikaya keçməyi, və əksinə metafizikadan çıxmaq - təcrübəyə keçməyi özündə təqdim edir. İ. Kantın **"dərketmə təcrübədən başlayır"** fikri o deməkdir ki, dərketmə təzahür edən şeydəki həqiqətin refleksiyasından ibarətdir. Bundan fərqli olaraq, şeysiz təzahür və təzahürsüz şey dərketmədən kənara çıxaraq yalnız düşüncənin predmetinə çevrilir. Düşüncə - dərketmədən fərqli olaraq, özündə mümkünlüyün təzahürü olduğundan, təcrübədən kənardan başlayır. Beləliklə, dərketmə ilə düşüncə fərqli başlanğıclara malik olub, idrak prosesini təşkil edən iki elementdir. İdrak

bir proses kimi sürəkli olaraq metafizikadan təcrübəyə - düşüncədən dərketməyə, təcrübədən metafizikaya - dərketmədən düşüncəyə keçidlə dərketməni "əmələ gətirir".

Əgər təcrübədə bütün şeylər dəyişirsə, onda təbiətin əksi olan metafizikada **"heç bir şey dəyişmir"** müddəası düzdür. Nə üçün təcrübəni təşkil edən "bütün şeylərin dəyişməsi" A.N. Uaythedin də iddia etdiyi kimi, metafizikanın məsələsidir? Dəyişmək dəyişməməyin, dəyişməmək dəyişməyin əksiliyi olduğundan, biz əksiliyin bir tərəfindən digər tərəfinin xarakteristikasını aşkarlaya bilərik. Bu mənada, təcrübədə hər şey dəyişdiyindən biz təcrübə əsasında heç bir sabit həqiqət aşkarlaya bilmərik; sabit həqiqət yalnız dəyişməyən şeylərdən aşkarlana bilər ki, məhz belə şeylər metafizikanı təşkil edir. Beləliklə, idrak prosesində təcrübədə ən müxtəlif proseslərdə aşkarlanan dəyişkən həqiqət metafizikaya keçirilərkən hər cür dəyişilmələrdən azad edilir və nəticədə təcrübədən əldə edilən sabit həqiqətlər aşkarlanır. Buradan belə çıxır ki, təcrübəni yalnız dərketmə ilə idrak etmək mümkün deyil, çünki hər şey dəyişkən olduğundan ondan əldə edilən həqiqət də dəyişkən olacaqdır; insan sabit həqiqət əldə etmək üçün həqiqəti dəyişkənlikdən azad etməlidir, bunun üçün isə təcrübədən kənara çıxaraq metafizik biliklərlə (statik, dəyişməyən, əbədi sabit qalan) onları sabitləşdirməlidir. Digər tərəfdən, bu həm də onu göstərir ki, həqiqətin idrakı təcrübə ilə metafizikanın vəhdətində mümkündür.

İDRAKIN PROSESLİYİ VƏ SABİT OBYEKTLƏR

Əgər idrakın prosesliyi şeylərin dəyişməsi və dərketmə ilə düşüncənin bir-birinə keçməsi ilə şərtlənmişdirsə, onda idrak prosesinin sonu şeylərin sabitliyində - **sabit obyektlərdə** və **xalis düşüncə obyektlərində** başa çatır.

Sabit obyektlər yalnız təcrübədənkənar düşünülə bilən obyektlərdən ibarətdir. O obyektlər sabitdir ki, onların hissəsi yoxdur; yəni fərdi

vəhdəti özündə istisna edir və kamil şəkildədir. Fərdi vəhdət ən ümumi vəhdətlə inkar olunduğundan, o obyektlər ki fərdi vəhdəti istisna edir, onlar özlərində ən ümumi vəhdəti təşkil edir. Belə obyektlər isə yalnız **tək** kimi təsəvvür oluna bilər. Tək kimi təsəvvür olunduqlarından "başqasının" iştirakını istisna edirlər; buna görə də təbiətdən aşkarlanan "digərinə keçid" prosesi metafizik aləmdə inkar olunur. Buradan da biz statiklik, yəni dəyişməzlik və ya xalis və mütləq **özü-özündə qalmaqlıq** əldə edirik.

Dəyişməyən, sabit şey - təzahürlərdən ayrılıqda götürülmüş **özündə şeydir**, hansı ki, yalnız düşüncə ilə dərk edilə bilər. Beləliklə, deyə bilərik ki, idrak prosesi dərketmədən ayrılıqda, xalis düşüncə ilə təkcə sabit obyektlərdən əldə edilmiş bilikdə başa çatır. Buradan da deyə bilərik ki, idrak prosesi düşüncədən başladığı kimi, düşüncədə də qurtarır.

Bəs idrakın sonu hansı metafizik obyektdə saxlanılır? İdrak vahid bir proses olduğundan, sonu da başlanğıcı kimi eyni təbiətlidir. Amma son, başlanğıcla əks xarakteristikalara - onunla müqayisədə daha nəhəng, daha böyük, hər şeyi, o cümlədən başlanğıcı da öz sərhədlərinə alan əbədi və sonsuz xarakteristikasına malikdir. Son və başlanğıc eyni təbiətli olduğundan onların aşkarlanma qaydası və müddəti də paralellik təşkil etməlidir. Yəni idrak prosesinin sonunu özündə saxlayan metafizik statuslu obyekt idrak prosesinin sonunda yox, əvvəlində - idrakın başlanğıc obyekti ilə eyni vaxtda aşkarlanmalıdır və aşkarlanır.

Sonun başlanğıcla eyni anda paralel aşkarlanması, başlanğıcdan sona doğru inkişaf edən prosesin düz istiqamətliliyi üçün zəruridir. Əgər Son haqqında bilgi başlanğıc haqqında bilgidən fərqli zamanda aşkarlansaydı, onda sona düzgün istiqamətlənmə mümkün olmazdı. Digər tərəfdən, idrak prosesində hər bir xüsusi ümumidən, məkanda sonsuzluqdan sonluluğa, zamanda əbədiyyətdən keçiciliyə çıxarılaraq dərk edilir. Buna görə də, idrak prosesinə əvvəlcədən elə ümumi, sonsuz və əbədi haqqında

təsəvvür olmalıdır ki, ondan istənilən xüsusini çıxarıb ayrılıqda idrak etmək mümkün olsun. Məhz hər şeyin həqiqətinin ayrılıqda çıxarıldığı ən ümumi həqiqəti özündə təqdim edən obyekt **Allah ideyasını** özündə təqdim edir.

Metafizik statuslu obyektlər təzahür etmədiyindən, bütün metafizik statuslu obyektlər təkcə **özündə şey** kimi düşünülür. Düşüncə prosesinin sonu - idrak prosesinə görə sonuncu, amma yaranış prosesinə görə başlanğıc olan metafizik statuslu obyektdə saxlanılır; hansı ki, bütün başlanğıcların başlanğıcı kimi təsəvvür olunur.

Bütün proseslərin başlanğıcı və sonu olduğu kimi, fərdi idrak prosesinin də bilavasitə həyatla şərtləndiyindən (fərdi həyat isə müvəqqəti olduğundan) başlanğıcı və sonu vardır.

Haşiyə: Nikola Abbanyano, "Ekzistensializmə giriş"

> *"Fikir mənə müxtəlif rəngli və müxtəlif formalı perspektivlər kimi təsəvvür olunur, hansı ki, özünün ifadəsini həyatın gizli gücünün aşkarlanmasında tapır. Ekzistensiya fikirlə həyat arasındakı xarici ayrılığı və yadlığı aradan qaldırır, onları düşünən həyat və ya həyatla dolmuş fikir birliyində formalaşdırır. Amma onun xarakter cizgisi ondan ibarətdir ki, o bu birliyi qabaqcadan müəyyən edilmiş mövcudluq kimi və realizasiyası zəruri və şəxssiz dialektikaya əsaslanmış proses kimi yox, radikal problematika formasında təsəvvür edir. Fikir və həyat özlərinin problematik birliyində insan probleminin tərkib elementlərini əmələ gətirir. Əgər insanın ekzistensiyası başlanğıcda varlığın problemidirsə, onun fundamental mənası məhz bu problematikliklə təyin olunur. O ki insan ekzistensiya edir, ekzistensiya ona xas mövcudluq üsuludur, onu göstərir ki, o varlıq kimi formalaşmır; varlıqla münasibət kimi və bu münasibətin mümkünlüyü kimi formalaşır. Bu cür problematiklik insanın sonluluğunu təşkil edir. İnsan - sonlu varlıqdır."*

N. Abbanyanodan gətirdiyimiz bu sitatdan görünür ki, insan fikri həyatla vəhdət təşkil edərək insan probleminin ayrı-ayrı elementlərini

təzahür etdirir. Bu elementlərdən biri də keçici mövcudluq - sonlu olan fərdin idrak prosesidir; hansı ki, fərdi həyatla vəhdətdə olduğundan, fərdi həyatın başa çatması ilə fərdi idrak prosesi də aradan qalxır. Nəticədə, fərdi həyatla şərtlənmiş idrak yarımçıq, qeyri-təkmil, hissəvi həqiqəti aşkarlamaqla məhdudlaşır. Digər tərəfdən, həyatla vəhdətdə olan fikir xalislik keyfiyyətindən məhrum olur və həyatın təzahürləri ilə (o cümlədən hisslərlə, tələbatlarla, maraqlarla, qabiliyyətlərlə) entropiyaya məruz qalır. Üçüncü tərəfdən, ruh mümkünlüyün üçüncü dərəcəli imkanının aktuallaşması kimi təzahür etdiyindən, zərurətə görə aktuallaşmış birincili imkanın təzahürü olan cisimdən və ikincili imkan kimi yalnız cisimlə şərtlənmiş canlılıqla - həyatla şərtlənmiş təzahür edir. Buradan da, Ruh zərurətə görə mövcud olan varlıqla - mövcud varlıqla canlılıqdan keçməklə şərtlənir; hansı ki, belə şərtlənmə canlılıqdan keçməklə ikincili olduğundan, münasibət kimi təzahür edir. Məhz buna görə də, ruh nə cisim kimi bilavasitə, nə canlılıq kimi dolayısı ilə növdən aşkarlanmır, yalnız onun xarici varlıqlara münasibətindən aşkarlanır. Bu münasibət idrak prosesi kimi təzahür edir və ruh bu prosesdə aşkarlanmış həqiqətləri özündə refleksiya etməsi ilə müəyyənləşir.

Ruh çoxluğu olmayan təkcə olduğundan, hər bir fərddə həyatla şərtlənmiş idrak prosesi bütün insanlıqda bu şərtlərdən azad olur. Nəticədə fərdi idrak prosesi bu və ya başqa dərəcədə başqaları tərəfindən davam etdirilir. İnsanlıq tarixi təzahür olduğundan insanlığa xas təzahürlər, o cümlədən idrak prosesinin ictimailəşməsi elə həqiqətlərin aşkarlanmasına gətirib çıxarır ki, həmin həqiqətlər fərdi idrak prosesində əldə edilmiş həqiqətlərdən fərqli olaraq ən ümumi, ən kamil, ən dəqiq və ən birinci olsun. Bütün insanlığın tarixində rasional idrakın aşkarladığı belə ən ümumi, ən birinci, ən mütləq həqiqəti özündə ifadə edən obyekt **Allah** kimi təsəvvür olunur.

Metafizik statuslu Ali obyekt kimi özü-özünün, bütün obyektlərin və subyektin yaradıcısı, onları tənzimləyən, əlaqələndirən və idarə edən Ali

Güc kimi düşünülən, müxtəlif dillərdə Allah mənası verən obyekti təyin etmək olar.

Hər şeyin ideyasının yaradıcısı Allahdırsa, onda Allahın həm də öz ideyasının yaradıcısı olduğunu qəbul etmək lazımdır. Allahın özü-özünü yaratması özündə öz əbədi və sonsuz mütləq varlığından insan təfəkküründə Allah ideyasını yaratmasını, Obyekt və Subyekti yaratması isə Yoxluqdan onları Var etməsini təqdim edir. Beləliklə, Allah - yalnız özü öz ideyasını təfəkkürdə yaratmaqla "özünü yaradan", özü-özündə isə əbədi və sonsuz varlıqdır. Əbədidir - deməli əvvəli, ortası, axırı yoxdur; sonsuzdur - idraka sığmazdır. Biz Allahı Yaranışın başlanğıcı, (Ruhlu insan yaranışda sonuncu təzahür edən varlıq olduğundan) idrak qabiliyyətinə malik insanın idrakının sonu kimi təsəvvür edirik. Beləliklə, Allah ideyası **başlanğıcların başlanğıcı** və idrakın başa çatdığı **sonu** özündə təqdim edir.

İnsan müdrikliyinin zirvəsi onun aşkarlaya biləcəyi mümkün ideyaların ən sonuncusunu aşkarlamasından ibarətdir. İdrak prosesi Allahda başa çatdığından, Allaha çatan idrak özü-özünü evtanaziyaya məruz qoyur, nəticədə məhv olur. İdrakın evtanaziyası - təsvirin, şərhin, ifadənin və yaddaşın mümkünsüzlüyü kimi meydana çıxır. Buna görə də, insan çatdığı Allah obyekti haqqında onun özündən bilavasitə heç bir bilik əldə etmək imkanına malik deyil. Biz bunu işığa həssas fotokağızda şeylərin əksinin alınması ilə müqayisə edə bilərik. Belə ki, işığa həssas fotokağızlar hər şeyin şəklini işığın ani təsirindən dolayısı ilə özündə əks etdirməsinə baxmayaraq, bilavasitə işığın uzunmüddətli təsirindən özündə heç nəyin, o cümlədən işığın şəklini əks etdirmir və qaralır. Biz insan idrakını işığahəssas fotokağıza oxşatsaq, onda deyə bilərik ki, idrak prosesi ilahi nurun ani dolayı təsiri ilə bütün obyektiv gerçəkliklərin obrazını özündə əks etdirir. Amma bilavasitə Allahın Nurundan özündə hər hansı bir bilgi aşkarlamaq qabiliyyətini itirir. İdrak qaranlıqlaşır. Biz bunu Allahın **bilavasitə idrakolunmazlığı** xarakteristikası kimi təyin edirik.

Digər tərəfdən, işıq mənbəyi öz dibinə kölgə salır, buna görə də insan nə qədər fikrən Allaha yaxınlaşmağa cəhd edirsə, bir o qədər ilahi nurun aydınlaşdırmadığı mütləq qaranlığa - İlahi kölgə sferasına daxil olur; hansı ki, ona heç nə aydınlaşmır.

Başqa sözlə, Allah haqqında həqiqət sonuncu həqiqət olub, müdrikliyin sonudur və mütləq son kimi özündən sonra həqiqət olmadığından özündə başlanğıc saxlamır. Buna görə də özündə başlanğıcı olmadığından metafizik statuslu Allah obyektindən idrak başlamır, yəni Allah obyekt kimi dərk olunmur. Beləliklə, **Allah bütün idrak olunan hər şeyin başlanğıcı, Allah haqqında həqiqət bütün həqiqətlərin sonudur.** Buradan da, Allah əvvəl və son kimi dərk olunur. Onun əvvəl olması hər şeyin yaradıcısı olmasından, onun son olması idrak prosesinin onda başa çatdırmasından ibarətdir.

Allah ideyası xalis müdrikliklə - qeyri-məntiqi müdrikliklə (sofistika) ilə aşkarlanan ideyadır. Müdriklik - həqiqətin idrak qabiliyyətidir. Həqiqətin idrakı özündənkənar obyektlərdə saxlanan həqiqəti təfəkkürün özündə yaratmasından ibarətdir. Necə ki, qabaqcadan bu həqiqətlər təfəkkürdə mövcud olmur, deməli idrak prosesində təfəkkürün özü-özündə yaratdığı yoxdan yaradılır. Təfəkkürdə yoxdan ideyaların yaranması özündə bütün idrak obyektlərində saxlanan həqiqətin Allah tərəfindən yoxdan yaradılmasını refleksiya edir. Buna görə də, biz bütün həqiqətlərin yoxdan yaradılmasını **İlahi Müdriklik** kimi təyin edə bilərik. İlahi müdriklik İlahi yaranış üsulundan ibarətdir. Buradan da deyə bilərik ki, Allah dünyanı xalis müdrikliklə yaratmışdır və buna görə də yalnız müdrikliklə dərk oluna bilər. Müdriklik idrakın vasitəliliyini göstərir. Buradan da, insani müdriklik yaradılanların idrakından Yaradıcı haqqında dolayı yolla həqiqətləri aşkarlamaqdan ibarət olur. Lüter belə hesab edirdi ki, "Allah müdrik insanlarsız mövcud ola bilməz". Çünki müdrik insan özündə Allahın müdrikliyini emanasiyaya məruz qalmış formada refleksiya edir. Lüterin fikrindəki "Allah" ifadəsi yalnız Allah

ideyasına aid ola bilər; onda belə demək olar ki, Allah ideyası yalnız müdrik adamlar tərəfindən aşkarlana bilər və ya müdrikliyin son məqsədi Allah ideyasını aşkarlamaqdır.

Metafizik statuslu obyekt kimi Ali başlanğıc olan Allahın başqa obyektlərdən hansı fərqli tərəfləri vardır? Allah birinci təkcə olduğundan, yəni özündən başqa heç nə olmadığından, həm **başlanğıcların başlanğıcını**, həm **səbəblərin səbəbini** vəhdətdə özündə ifadə edir. Allahdan başqa istənilən obyektdə səbəb və başlanğıc vəhdət təşkil etmir. Allahın özü-özü ilə vəhdətdə olması başlanğıcların başlanğıcı xarakteristikası ilə səbəblərin səbəbi xarakteristikasının bir obyektdə saxlandığını özündə təqdim edir.

Haşiyə: Plotin, "Birinci başlanğıcdan sonra gələn ondan necə əmələ gəlməsi və Tək vahid haqqında"

> *"Hər şeydən yüksəkdə Ali Başlanğıc durur - Tək, Birinci, Mütləq. Ondan ikinci başlanğıc - ağıl, tək-çoxluğun başlanğıcı əmələ gəlir."*

Plotinin fikirlərindən görünür ki, Ali Başlanğıc üç xarakteristikaya - **Təklik, Birincilik, Mütləqlik** xarakteristikalarına malikdir; ona görə də Allah ideyası ilk növbədə bu xarakteristikaların mütləq mənasından aşkarlana bilər.

"Təklik": Bu xarakteristika özündə vəhdəti istisna edən, buna görə də başqa şeyin mövcudluğuna ehtiyacı olmayan, məkanda və zamanda sıralanmayan statusu təqdim edir. Vəhdətin istisna edilməsi zərurətə görə mövcudluğu inkar edir. Allah **qeyri-mövcud varlıqdır**. Yəni Allah yalnız varlıq kimi olmaqdır. Olmaqlıq varlığın təfəkkürdə refleksiyasıdır. İdrak prosesində Allah var olan olur, amma idrakdan kənarda sadəcə "var"dır. Mövcudluğu olmadığından qeyri-hissi, aprior, təfəkkürün özü-özündən qavranılandır. Buna görə də Allah ideyasının aşkarlanması yalnız daxilidir; Ruhun öz təbiətindən aşkarlanandır. Allahın mövcudluğu olmadığından onun mövcudluq üsulu da yoxdur. Mövcudluq üsulu

vəhdətdə və ziddiyyətdə olmaqlığı özündə ifadə etdiyindən Allah heç bir mövcudluqla vəhdət və ziddiyyət təşkil etmir. Beləliklə, Allah heç bir mövcudluğu özündə inkar etmir, buna görə də bütün şeylərin Allah tərəfindən yaradıldığını qəbul etmək lazım gəlir və heç bir şeylə inkar olunmur; buna görə də ayrı-ayrı mövcudluqların tabe olduğu qanun-auyğunluqlardan Allahın varlığını inkar etmək mümkün deyildir. Allah yalnız özü-özü ilə vəhdətdədir, buna görə də yalnız özünün ideyasından aşkarlanandır. Reallıq statusuna malik bütün varlıqların xarakteristikası məkan və zamanla şərtlənmədən sonra əmələ gəldiyindən bu şərtlənmə **sıralanma** kimi meydana çıxır. Məkanda sıralanmadan kəmiyyət, zamanda sıralanmadan keyfiyyət təzahür edir. Allah birincili və tək olduğundan məkan və zamana qədər var olandır; ona görə də özündən sonra gələn məkan və zamanda sıralanmır. Yəni Allahın nə kəmiyyəti, nə keyfiyyəti vardır. Məkanda sıralanmadığından çoxluğu yoxdur, zamanda sıralanmadığından aktı yoxdur. Əgər Allahda səbəblə başlanğıc vəhdət təşkil etməsəydi, onda başlanğıc bir obyektdə, səbəb paralel olaraq başqa obyektdə olardı; bu da Allahın vahid başlanğıc olmasını istisna edərdi.

"Birincilik": "Birinci" sözünün kökünü təşkil edən "bir" riyaziyyatda bütün rasional ədədlər çoxluğunun başlanğıcı kimi çıxış edir. Bu mənada Allahın birinciliyi onun rasionallıqda aşkarlanan bütün həqiqətlərin məhz ondan başlandığını və ondan başqa bütün həqiqətlərin ikincili olduğunu özündə təqdim edir. Birincilik həm də təkin xarakteristikasıdır. Birincilik həm hər şeydən əvvəl, həm hər şeydən yüksək, həm hər şeydən öncə gəlmək, həm də müstəsna əhəmiyyətli olmaq deməkdir.

"Mütləqlik": Bu söz son həddi, xalisliyi, ən ümumiliyi, özü-özündə olmaqlığı, hər şeyə hakimliyi özündə ifadə edir. Son həd - bütün məhdud hədlərdən sonrakını, yəni sonsuzluq xarakteristikasını; xalislik - hissəsi, qarışığı olmamasını, yəni mütləq sadəlik xarakteristikasını; ən ümumilik - bütün xüsusilərin ondan ayrıldığını və ona nisbətdə idrak olunan xarakteristikasını; özü-özündə olmaqlıq - başqasından inkar və

təsdiq olunmaqlığın istisna edildiyini və buna görə də yalnız özü-özünü təsdiq etmək xarakteristikasını və inkarın istisnalılığı xarakteristikasını; hər şeyə hakimlik - hər şeydən böyük güc olmaqlıq xarakteristikasını yaradır. Buradan da Allah haqqında ideyada Allahı - hər şeydən əvvəl (zaman baxımından) gələn, hər şeydən yüksək olan, hər şeydən öncə (əhəmiyyətlilik baxımından) gələn, müstəsna əhəmiyyət (bütün əhəmiyyətlərin müəyyənedicisi olduğundan) kəsb edən, sonuncu, xalis, ən ümumi, hər şeyə hakim, özü-özündə olan həqiqət kimi təyin etmək lazım gəlir.

Bəs Allah ideyası necə yaranır?

Haşiyə: F. Nitsşe, "Zərdüşt belə danışmışdır"

> *"Allah ehtimaldır. Amma mən istəyirəm ki, sizin ehtimalınız sizin yaradıcı iradənizdən uzağa səy etməsin. Siz Allahı yarada bilərsinizmi?. Amma siz sözsüz insanüstünü yarada bilərsiniz. Ola bilsin, mənim dostlarım, siz özünüz yox. Amma siz özünüzü atalarınızdan və əcdadlarınızdan yenidən yarada bilərsiniz: qoy bu sizin ən yaxşı yaratdığınız olsun. Allah ehtimaldır, amma mən istəyirəm ki, sizin ehtimalınız düşünülən çərçivəsində olsun. Siz Allahı düşünə bilərsinizmi? Qoy bu sizə həqiqətə əzmi bildirsin ki, hər şey insani düşünülən, insani görünən, insani hiss edilən olsun! Sizin xüsusi hissinizi siz axıra qədər düşünməlisiniz! Siz "dünya" adlandırdığınızı əvvəl yaratmalısınız: sizin ağlınız, obrazınız, iradəniz, məhəbbətiniz o olmalıdır! Həqiqətən sizin xeyriniz üçün siz İdrakedənsiz!. Əgər Allah mövcud olsaydı, mən Allah olmamaq üçün özümü saxlasaydı, deməli Allah yoxdur. Allah fikirdir."*

Nitsşenin Allah ideyasının metafizik idrakı ilə bağlı fikirlərindən göründüyü kimi, Allah ideyası ehtimal kimi, fikrən yaradılır. Allah - mümkünlüyün ən son imkanını özündə təqdim edir. Son imkan mümkünlüyün bütün imkanlarının aktuallaşmasından sonra aktuallaşa biləcək imkandır; hansı ki, bununla mümkünlük mümkünsüzlüyə - heçliyə keçir. Nitsşenin Allah ideyası pnevmatologiya ilə kosmologiyanın - Ruhla reallıqların vəhdətindən çıxır. Mövcud olduğu dünyanı - obyektiv

gerçəkliyi - öz ağlı, hissi, obrazı kimi yaradan (refleksiya edən) insan, öz atasından və əcdadlarından insanüstünü - müstəqil azad Ruhu kəşf etdikdən sonra, fikrən Allahı mütləq həqiqət kimi tapır. Başqa sözlə, Nitsşenin metafizik Allah ideyası obyektlə (mövcud varlıqla) subyektin (mümkün varlığın) məcmusundan kəşf edildiyindən, öz növbəsində onların hər birinin eyni zamanda vahid başlanğıcı olur; hansı ki, bununla da ağlın antinomiyasını tükəndirən ideyaya çevrilir. Nitsşenin "Mən Allah olmaq üçün özümü saxlayanda, Allah olmur" fikri Allahın yaratdığı insanın, bunun əksinə, Allahın ideyasının yaradıcısı olmasını özündə təqdim edir. Yəni Allahın ideyasını yaratmaq gücündə olan insan, Allahın onu yaratmaq gücünə uyğun həqiqəti dərk etdikdə, metafizik yolla Allahı özündə ideya formasında yaratmış olur. Bununla, insan Allahın yaratdığı mütləq həqiqəti dərk etmək gücü ilə "Allah" olur. Hansı ki, mütləq həqiqət sonsuz olaraq insan üçün dərkedilməzdir və məhz buna görə insan Allah ola bilmir və onun aşkarladığı Allah ideyası əslindən çox-çox uzaq olduğundan nihilizmlə öldürülür. Metafizikada Allah ideyası düşünülə bilindiyi qədər həqiqəti özündə ifadə edir. Buradan Allah ideyası özündə fikrin son ölçülüyü kimi təzahür edir, hansı ki, bu ideyadan o tərəfə hər hansı bir ideyanın olması istisnadır. Beləliklə, metafizika özündə Allah ideyasını bütünlükdə düşüncənin son sərhədlərindən aşkarlamış olur.

ALLAH İDEYASI İLƏ TRANSENDENTAL İDEALIN MÜQAYİSƏSİ

Metafizik Allah ideyası transendental idealdan (Allah ideyasından) fərqli olaraq, aşağıdakılara görə yalnız bütün tək şeylərin tam təyinliliyindən əldə edilmir:

1. **Tam təyinlilik:** Təcrübədə tək şeylərdən (təcrübədə formal tək şey kimi yalnız cisimlər götürülə bilər, tək şey forması və mahiyyəti dəyişməyən şeylərdir) fərqli olaraq, canlılar ancaq özlərinin zamanla

şərtlənmiş, bir-biri ilə ziddiyyət təşkil edən və bir-birinə münasibətdə fərqli olan müxtəlif formalarının ümumi tam təyinliliyindən müəyyən olunur. Məsələn, uşaqlıq, gənclik və qocalıq eyni bir fərdin bir-biri ilə ziddiyyət təşkil edən üç müxtəlif formasıdır və fərd ümumi şəkildə onların (mümkünlük kimi) hər üçünün mücərrəd məcmusu kimi müəyyən olunur və konkret təyin zamanı onun yalnız mövcud forması əsas götürülür; digər formalar potensiallıq kimi müəyyənliyin arxasında kortəbii şəkildə gizlənir. Cisimlərdə isə tam təyinlik yalnız aktuallıqdan - indi və burda mövcudolmadan təyin olunur. Buradan da, transendental ideyanın təyininə (mövcudolanlardan) uyğun tam təyinlikdən müəyyən olunan istənilən fərd transendental ideal kimi təyin oluna bilər. Bu isə insanı da Allah kimi təsəvvür etməyə gətirib çıxarır.

2. **Mövcudluq formalarının məcmusu:** Bəzi canlıların həyatı bir-biri ilə ziddiyyət təşkil edən və mahiyyətinə görə müxtəlif mövcudluq formalarının məcmusu kimi mövcuddur. Məsələn, kəpənək həm sürfə, həm qurd, həm barama, həm də yetkin kəpənək kimi bir-birindən mahiyyətinə görə fərqli dörd həyat formasının məcmusu kimi mövcud olur və biz "kəpənək" anlayışı altında hər dörd mahiyyətin (mümkünlüyünün) məcmusunu ifadə edirik. Bu baxımdan mümkün mahiyyətlərin məcmusundan ideal təyin olunursa, onda kəpənək anlayışı da ideal kimi təbiətdə mövcud olan və xalis zəkada "kəpənək" anlayışında refleksiya edən anlayış olur. Yəni kəpənək də Allahla eyni xarakteristikalı obyekt kimi çıxış etmiş olur ki, bu da qəbul edilməzdir.

3. **Mövcudluq üsulu:** Əgər transendental ideal haqqında mühakimələri yalnız cisimlərin mövcudluq üsulu əsasında əldə ediriksə, onda transendental ideal hər şeyin şərtləndiyi kimi tabe olduğu olmur; çünki canlılıq və ruh ondan kənarda qalır. Hansı ki, mövcudluqları və reallıqları cisimlərin mövcudluq və reallıqlarından kəskin şəkildə fərqləndiyindən eyni kateqoriyalar cədvəli ilə müəyyən olunmur.

4. **Təktəbiətlilik vs. İkilitəbiətlilik:** Transendental fəlsəfə yalnız təktəbiətlilik (reallıq) əsasında və onun mümkünlüklə (başqa reallıqla)

ziddiyyətindən əqli nəticə çıxarır. Amma təbiətdə eyni bir şeyin özü-özündə ikili təbiətli olduğuna görə ziddiyyət saxlamaqla mövcudluğuna rast gəlirik. Məsələn: işıq eyni bir şey kimi özündə iki mümkünlük - dalğa funksiyası və hissəcik təbiətini saxlayır, hansı ki, bir-biri ilə ziddiyyət təşkil edir. Buradan da, biz işığı digər şeylərdən fərqli olaraq özü-özündəki ziddiyyətdən müəyyənləşdiririk, yəni işıq tək şey kimi tam təyinliliklə müəyyən olunur. Transendental ideal haqqında mühakiməni işığa tətbiq etsək, onda transendental ideal kimi həm də işıq təyin olunmalıdır. Hansı ki, bəzi doqmatik idrak formalarında, məsələn, atəşpərəstlikdə, işıq məhz ideal kimi müəyyən edilir.

5. **Reallıqların əsası:** Transendental fəlsəfə transendental ideala mövcud olan hər şeyə məxsusluğu zəruri olan, tam material şərtlərini təşkil edən, materialın bütün ehtiyatlarını özündə saxlayan, transendental substrat kimi baxır və bu ideyanı yeganə halda, şey haqqında özü-özündə ümumi anlayış kimi tamamilə özü-özünə təyin olunan və individuum haqqında təsəvvür kimi dərk olunan ideya kimi dəyərləndirir. Buradan da, transendental ideal özündə yalnız reallıqların (mövcudolanların) əsasında dərk olunan həqiqətləri təqdim etmiş olur. Bütün bunlar transendental fəlsəfənin fiziki aləmə qayıtması ilə düşdüyü idraki çətinliklərdən meydana çıxır. Hansı ki, metafizika əksinə transendental ideyalardan metafizikanın ənginliklərinə getməklə təbiətdən və bununla da yalnız reallıqlar aləmindən idrak olunan mütləq nisbi həqiqətdən uzaqlaşır, nisbi mütləq həqiqətə çatır və oradan da Mütləqin özünün ideyasını əldə edir; bununla da çətinliklərdən azad olur.

Beləliklə, bu qısa şərhdən görünür ki, transendental fəlsəfə öz ideyalarını məhz təcrübi ideyaların dialektik inkişafı nəticəsində əldə etdiyindən, metafizik ideyadan fərqli olaraq, Allah haqqında aydın və dəqiq məlumat verə bilmir və yeganə hal olsa da, Allahı fərd haqqında ümumi anlayışla müəyyən edir. Nəticədə, Allah - bütün insanların məcmusu - **Vahid İnsanlıq** kimi abstrakt təsəvvür olunan fərd kimi çıxış

edir. Hansı ki, buna bənzər yanaşma ilə əksər doqmatik idrak formalarında Allah insaniləşdirilir.

Metafizika transendental fəlsəfənin idealının əsas xarakteristikalarını - "hər şeydən üstə durmaqlıq", "bütün şeylərin onunla şərtlənmiş kimi tabeciliyi" və "birinciliyini" - ondan əxz edir və həmin xarakteristikaları transendental fəlsəfədən fərqli olaraq mövcudluqdan yox, **VAR-lıqdan** əldə edir.

- **Birincisi**, metafizika öz idealını yalnız ağılda mövcud olan kimi yox, **Ali Ağıl** kimi insan ağlından kənarda var olan və onda refleksiya ilə aşkarlanan kimi müəyyən edir. Transendental fəlsəfədə "mövcudolan" kimi təyin olunan ideal, mövcud olmaq üçün "nəsə" ilə qarşılıqlı şərtlənməlidir; əks halda mövcudolan ola bilmir. Əgər şərtlənirsə, onda bütün şərtlərin şərtsiz şərtləndirəni ola bilmir, yəni xalis zəkanın antinomiyası idealı evtanaziyaya məruz qoyur.
- **İkincisi**, "ağılda olan" belə ideal ağılla şərtləndiyindən, ağıl bütün şeylər kimi onunla şərtlənmir; bununla da insan ondan yuxarıda durur (hansı ki, transendental fəlsəfə onu "hər şeydən üstə duran" kimi müəyyən edir). Buradan da, metafizikaya görə ideal ağlından kənarda vardır və ağıl onun varlığını özündə refleksiya etməklə sadəcə onu müəyyən edir. Bundan fərqli olaraq yalnız ağılda olan ideal ağıl tərəfindən təyin olunan olur, yəni ağla tabe olur, buna görə kritikaya məruz qalır və ondan asılı olur; hansı ki, tetik ideyalarla yanaşı antitetik ideyaların "anbarı" kimi mövcud olan ağılda həm də Allahın yoxluğu haqqında ideyalar yaranır.
- **Üçüncüsü**, metafizika Allah ideyasını birinci mövcudluq kimi yox, **birinci VAR** kimi təyin edir; hansı ki, bütün mövcudluqların varlığının əsasında durur, mövcud olanlardan fərqli olaraq şərtlənmədən şərtləndirən, sərhədsiz olduğundan bütün sərhədləri öz içinə alan kimi vardır və özündən kənarda yalnız heçliyi - görüntünü və ya xalis formanı saxlayandır. Buna görə də, heç bir formadan

aşkarlanmayandır. Xalis forma İdealdan kənarda qaldığından onun təzahürü və dəyişilmələri mənasızlıq - heçlik kimi meydana çıxır.

ALLAH İDEYASININ HƏQİQƏTİNİN AŞKARLANMASININ ÇƏTİNLİYİ

Allah ideyası özündə idrakın sonu və varlığın ilk başlanğıc predmeti kimi **nəsənin totallığını** özündə təqdim edir. "Nəsə" metafizikanın əsas anlayışlarındandır. Bəs nəsənin totallığı özündə hansı mənanı ifadə edir?

İnsanlığın bütün bilgilərinin məcmusu bizə **müəyyənlik**, bütün bilmədiklərinin məcmusu **qeyri-müəyyənliyi** təqdim edir. Biz qeyri-müəyyənliyi "nəsə" ilə ifadə edirik. Bu cür "nəsə" "potensial nə" ilə eyniyyət təşkil edir, hansı ki, idrak prosesində aşkarlanmasını gözləyir. Bundan fərqli olaraq, insanlıq üçün mütləq qeyri-müəyyənliyi, Nəsənin totallığını - Allah kimi təyin edə bilərik. Hansı ki, "potensial nə" ilə fərqlilik təşkil edən nəyə malikdir və buna görə də, heç bir halda "potensial nə"yə çevrilmir və beləliklə də idrak prosesində aşkarlanmağı gözləmir. **Mütləq Nəsə** nəliyi bizə heç bir vaxt məlum olmayacaq mütləq qeyri-müəyyənliyi özündə təqdim etmiş olur. Buradan da Allah obyektinin bilavasitə idrak olunmasının mümkünsüzlüyü meydana çıxır.

Buna görə də, biz mütləq qeyri-müəyyənliyi, yəni insan ağlına qapalı olan, heç vaxt, heç cür insan üçün aşkarlanmayan mütləq qeyri-müəyyənliyi Allah ideyası kimi aşkarlayırıq. Allah ideyası özündə mütləq qeyri-müəyyənliyi təqdim etdiyindən, müəyyənlik axtaran və bunun üçün təbiətin sərhədlərində saxlanan və insanın idrakı üçün mümkün olan nisbi qeyri-müəyyənliyə istiqamətlənən təcrübi biliklər Nəsəni öyrənməkdən imtina edir.

Haşiyə: M. Haydegger, "Metafizika nədir?"

> *"Çox təəccüblü işdir: nə zaman ki, elm adamı özünün ən gerçək mahiyyətini öz arxasınca möhkəmləndirir, o aydın və ya qeyri-aydın başqa şey haqqında da danışır. Tədqiqat yalnız*

mövcudluğa aiddir, daha çox nəsəyə; bu mövcudluq və ondan başqası - nəsə; yeganə mövcudluq və ondan üstün - nəsə. Nəsə haqqında elm heç nə bilmək istəmir. Gec-tez bu Nəsənin ciddi elmi konsepsiyası olacaqdır. Biz onun haqqında o vaxt biləcəyik ki, onun haqqında, Nəsə haqqında heç nə bilmək istəmirik."

M. Haydeggerin fikirlərindən görünür ki, Nəsənin konsepsiyası onun haqqında heç nə bilmək istəməməkdən meydana çıxır. İnsan nə üçün Nəsə haqqında heç nə bilmək istəmir? Əgər insan ağlı hər şeyi bilmək istəyirsə, onda o hər şeyin bilgisinin əksini bilmək istəməkdən imtina etməlidir; hansı ki, bu Nəsənin konsepsiyasını təşkil edir. Beləliklə, insanın haqqında heç nə bilmək istəmədiyi Nəsə insanın haqqında hər şeyi bilmək istədiklərinin ən ümumi əksiliyi kimi çıxış edir. İnsan təbiətdəki hər şey haqqında bilmək istədiyindən, onun haqqında heç nə bilmədiyi yalnız metafizikada aşkarlana bilər. Nəsə idrak prosesində əldə edilmiş həqiqətə paralel spontan idrak olunandır; hansı ki, möhkəm biliyə malik olmuş elm adamı onun haqqında ya aydın, ya qeyri-aydın danışır. Nəsə nədir?

Bilik iki cürdür:

1. **Müəyyən bilik** - insan tərəfindən dərk edilmiş və möhkəmləndirilmiş bilik.
2. **Qeyri-müəyyən bilik** - insan tərəfindən aşkarlanmamış, amma aşkarlanması mümkün olan potensial bilik.

Beləliklə, biliklənmə inkişaf etdikcə subyekt hər dəfə potensial biliyi aktual biliyə çevirir və bu zaman növbəti potensial biliklə üz-üzə durur. Bunu qum saatına bənzətmək olar. Qum saatının yuxarı hissəsindən hər bir qum dənəsi aşağı hissəyə düşən kimi onun yerini növbəti qum dənəsi tutur. Bu proses yalnız sonuncu qum dənəsi aşağıya düşəndən sonra başa çatır. Biliklənmə prosesi də qum saatında olduğu kimidir, yəni yalnız potensial biliyin tam həcmdə aktuallaşmasından sonra biliklənmə başa çatacaqdır. Başqa sözlə, idrak elə bir nöqtədə dayanacaqdır ki, artıq insan üçün heç bir potensial bilik qalmasın, yəni nisbi qeyri-müəyyən biliyin

qalması mümkün olmasın. Nisbi qeyri-müəyyənliyin müəyyənləşməsi ilə empirik suallandırma başa çatır.

Haşiyə: M. Haydegger, "Metafizika nədir?"

> *"Bizə ümumiyyətlə Nəsəni düşüncə predmeti etmək mümkünlüyündən imtina edilmişdir. Nəsə haqqında bizim bütün suallandırmamızla biz sona çatırıq - o şərtlə ki, bu məsələdə də "məntiq" son instansiya kimidir, mühakimə vasitədir, düşüncə - Nəsəni öz mənbələrində tutmaq və onun açılmasının mümkün yolları haqqında qərar qəbul etməkdir."*

M. Haydeggerin şərhindən göründüyü kimi suallandırmanın başa çatması ilə Allah ideyası meydana çıxır; hansı ki, Allahın mahiyyətini suallandırmaq mümkün olmur. Yəni, Allahın mahiyyətini aşkarlamaq üçün subyektin heç bir idrak resursu qalmır. Subyektin suallandırma resursu qeyri-müəyyənliklə səbəb-nəticə əlaqəsindədir. Suallandırma onda başa çata bilər ki, nisbi qeyri-müəyyənlik sona çatsın. Beləliklə, bütün mövcudluqlardan ibarət təbiətin ən ümumi bilgisinin əksi kimi Allah ideyası yaranır. M. Haydegger də belə nəticəyə gəlir ki, "Nəsə bütün mövcudluqların məcmusunun inkarıdır, o mütləq qeyri-mövcudluqdur". Qeyri-müəyyən bilik o vəziyyətdə istisna olunur ki, mütləq aydınlıq olsun, yəni bütün həqiqətlər mütləq aşkarlanmış olsun. Biliyin mütləq əldə edilməsi tarixi proses olduğundan təcrübədə onun başa çatması qeyri-mümkündür. Çünki təcrübə sonsuz sayda obyektlərdən ibarət olduğundan, təbiət biliyin potensiallığının sonsuzluğunu özündə təqdim edir. Lakin empirik biliklənmə ilə çatılması mümkün olmayan həqiqətin mütləq aydınlaşmasına empirik bilgilərdən imtina etməklə metafizik biliklərlə çatmaq olar. Belə biliklənmədə təbiət ixtisara salınır və xalis ağıl birbaşa empirik bilgilərdən yan keçməklə biliyin sonuna çatmağa cəhd edir. İdrak prosesində biliyin sonu - idrak prosesinin sonu - bütün biliklərin başlanğıcından ibarətdir. Buradan da, təcrübi biliklərin başlanğıcı, idrakın sonunu özündə təqdim edən Allah haqqında metafizik ideya əldə

edilir. M. Haydeggerin yuxarıdakı fikrindən görünür ki, Nəsə - Allah ideyası elmin haqqında bilməkdən imtina etdiyidir. Elm yalnız empirik bilgiləri bilmək istədiyindən onun haqqında bilgidən imtina etdiyi, beləliklə metafizik bilgi olur. Elm nə qədər Nəsə haqqında bilgidən imtina etsə də, həmişə onun köməyinə müraciət edir, çünki təbiət elmləri metafizik bilgilərinin əksiliyi kimi öyrənilir. Başqa sözlə, metafizik bilgiləri inkar etməklə empirik bilgilər, empirik bilgiləri inkar etməklə metafizik bilgilər əldə edilir. Buna görə də, bu iki bilgi bir-birini inkar edir, yəni biri düz qəbul edildikdə, digəri "yalan" olur. Məsələn, Aristotel necə həqiqi biliyin predmeti kimi material dünyanı qəbul edərək materializmi əsaslandırırsa, onun tam əksinə Corc Berkli həqiqi biliyin predmeti kimi subyekti görür və bununla da subyektiv idealizmi əsaslandırır. İnsanlar isə dilemma qarşısında qalır. Kim haqlıdır? Bizə görə, hər iki cərəyan haqlıdır. Sadəcə bu bilgilərdən biri yalnız təbiət sferasını, digəri ondan kənarın idrak cəhdindən yaranır.

Nəsə mütləq qeyri-müəyyən olduğundan özündə cavab saxlamır. Özündə cavab saxlamadığından onu birbaşa suallandırmaq mümkün deyil; buna görə də Nəsənin suallandırılma inadkarlığı onun haqqında "heç nə - heçlik" cavabını meydana çıxarır. Buna görə də Allah haqqında suallandırma Allahın yoxluğu, heçliyi haqqında ateist fikirləri meydana çıxarmışdır. Amma insan hər hansı bir şeyə sual vermədikcə ondan cavab ala bilmədiyindən, "Nəsəyə necə sual verilməlidir ki ondan cavab alınsın?" məsələsi metafizik problematika kimi qabağa çıxır. Başqa sözlə, Allah ideyasını dərk etmək üçün biz onu necə suallandıra bilərik? Allah ideyasını suallandırmaq üçün hər şeydən qabaq onun üçün müəyyən postulatlar müəyyənləşdirmək lazım gəlir.

1. Postulat: Allah var, amma mövcud deyil. Allah ideyasının kosmoloji sübutu iki bir-birindən fərqli cərəyanların yaranmasına gətirib çıxarıb:

- **a. Deistlər:** Allahı yalnız aktuallaşmayan fakt kimi qəbul edənlər, yəni sadəcə "var"dır prinsipi ilə Allah ideyasını aşkarlayanlar.
- **b. Teistlər:** Allahı aktuallaşma kimi qəbul edənlər, "mövcuddur" prinsipi ilə onu aşkarlayanlar.

Allahın teistik ideyası: Metafizikaya görə bu ideya dəqiq deyil.

- Birincisi, əgər Allah mövcuddursa, mövcudluq xarici şərtlənmədən, yəni təsadüfə görə meydana çıxdığından, onda Allah da şərtlənmişdir. Əgər Allah şərtlənmişdirsə, deməli onu şərtləndirən daha Ali şərt mövcud olmalıdır. Belə mühakimə ilə Allah ilkin başlanğıc, bütün səbəblərin səbəbi, mütləq azad varlıq kimi çıxış etmir.
- İkincisi, mövcudolma bir üsul kimi yalnız mövcudluqlara - bilavasitə Kosmosu təşkil edən və hissi və qeyri-hissi qavranılan maddi şeylərə, faktı aktuallaşan varlıqlara aiddir. Subyektiv Mən də mövcud təcrübədə mövcud olduğundan və bütün mövcudluqlar vəhdətdə mövcud olduğundan, onda Allah həm də Subyektiv Mənlə vəhdət təşkil edir. Subyektiv Mənin mövcudluğu isə yalnız bədənlə vəhdətdən aşkarlandığından Allahla vəhdəti inkar olunur.
- Üçüncüsü, əgər doğrudan da Allah mövcuddursa, onda Allah düşünən Mənlə qarşılıqlı münasibətdə olur, hansı ki, insan üçün idrak olunana çevrilir. Allahın idrakolunmazlığı belə əlaqəni inkar edir.
- Dördüncüsü, Allahın mövcudluğu kosmosun mövcudluğundan daha Ali mövcudluq kimi qəbul edildiyindən, belə ideyada xalis ağıl özündən fiziko-teoloji olaraq Subyektiv Mənlə qarşılıqlı əlaqələri təcrübəyə əlavə edir. Nəticədə Allah ideyasının dəqiqliyinə kölgə düşür.

Allahın deistik ideyası: Deistik Allah ideyası teistik ideyadan fərqli olaraq, Allahı mütləq fakt kimi - **mövcud olmayan varlıq** kimi qəbul edir. Ona görə də onunla subyektiv Mən arasında hər hansı qarşılıqlı əlaqənin mümkünsüzlüyünü, bununla da onun aşkarlanmasının çətinliyini özündə təqdim edir.

Allah ideyasının hissi aşkarlanması: Hiss metafizik noumen olduğundan biz Allah ideyasını hissiyyatla aşkarlaya bilərikmi?

Haşiyə: M. Haydegger, "Metafizika nədir?"

> *"Bizim varlığımızda elə əhval-ruhiyyə varmı ki, bizi Nəsənin özünə yaxınlaşdırsın? Bu baş verə bilər və kifayət qədər nadir halda olsa da, yalnız bir anlığa - vahimənin fundamental əhvalında - gerçəkdən baş verir. Vahimə qorxudan kökünə görə fərqlənir. Qorxuya səbəb və predmetlə məhdudlaşmaq xarakterikdir, qorxaqlıq möhkəm şəkildə aralarında olduğun şeylə bağlıdır. Vahimədə baş itirməyə yer yoxdur. Vahimə həmişə nəyinsə qarşısında yaranır, amma bu konkret şeyin yox. Vahiməyə düşməyimiz nəyinsə qeyri-müəyyənliyindəndir; bu sadəcə müəyyənliyin çatışmazlığı yox, prinsipial olaraq müəyyənliyin təyin edilməsinin mümkünsüzlüyüdür. Vahimə ilə Nəsə açılır."*

M. Haydeggerin fikirlərindən görünür ki, əgər qorxu qeyri-müəyyən bir konkret predmetin subyektə təsirindən meydana çıxırsa və bu zaman konkret qeyri-müəyyənlikdən xilas olmaq üçün başqa bir konkret müəyyənliklərin köməyindən istifadə edirsə, bütün empirik qeyri-müəyyənliklərin təsirinin məcmusunun onda yaratdığı vahimə hissindən xilas olmaq üçün hissi predmetlərin ümumi sərhədindən kənarda olan nəyinsə köməyinə əl atmağa məcbur olur. Yəni insan empirik qeyri-müəyyənliklərin məcmui təsirindən metafizik qeyri-müəyyənliyin köməyinə müraciət edir. Buradan da, zərurətə görə Nəsəni kəşf edir.

İnsan necə hissi yolla Allah ideyasını aşkarlayır?

Haşiyə: Nikola Abbanyano, "Ekzistensializmə giriş"

> *"Mak-Taqqart məhəbbət hissində Mütləqin vəhdətini anlamağın yeganə yol olduğunu etiraf etmişdir və nəticədə Mütləqin rasional konsepsiyasından və insan reallığının özündən imtina etmişdir."*

Göründüyü kimi, Mak-Taqqart insan ağlından yox, onun hisslərinin profenomenlərin mütləqliyindən Mütləqə çatmağı mümkün hesab etmiş

və insan reallığından imtina etmişdir. Profenomen kimi məhəbbət predmetsiz hissdir, onun predmeti insanın xalis fikir varlığıdır. Beləliklə Xalis fikir varlığından Mütləqə çatmaq mümkündür. Hiss yuxarıda qeyd etdiyimiz kimi transendental noumendir və ayrı-ayrı şeylərin həqiqətini fərdi səviyyədə ruha keçirməkdə iştirak edir. Əgər bütün dünyada maddi şeylərin yaratdığı hissi təsiri bir nəfərə keçirdiyi həqiqəti təsəvvür etsək, onda belə alınar ki, həmin adam eyni anda dünyada mövcud olan bütün hissi şeylərin məcmui həqiqəti haqqında bilgi əldə etmiş olar. Bu bilgi Allah haqqında ideyadan başqa bir şey ola bilməz. İstər intellektual, istər hissi yolla Allah ideyasının aşkarlanmasında suallandırma iştirak etmədiyindən cavab metafizik formada aşkarlanır; hansı ki, empirik cavabdan fərqlənir. Belə ki, təcrübi biliklərdə sualın subyektdə, cavabın idrak obyektində olmasından fərqli olaraq, subyektdə Nəsə ilə bağlı sual olmadığından, cavab onun özündən bilavasitə yox, dolayı yolla kənar şeylərdən əldə edilir.

Haşiyə: M. Haydegger, "Metafizika nədir?"

> *"Nəsə özü haqqında bilməyi vahimə vəziyyətində imkan verir - amma mövcudluq kimi yox. Eyni ölçüdə analizin predmeti kimi də çıxış etmir. Elə bil ki, o xalis şəkildə mövcudluğun məcmusunun sıxıcı qocalması ilə bir "sıra"da özünü aşkarlayır. Əksini demək lazımdır: Nəsə eyni zamanda vahimə zamanı mövcudluqların məcmusu ilə çıxış edir. Vahimə ilə varlıq hər halda məhv edilmir, öz arxasınca Nəsəni buraxır. Nəsə mövcudluqla birlikdə xüsusi şəkildə, mövcudluqda isə özünün tam sürüşkənliyi ilə açılır."*

M. Haydeggerin Nəsənin cavabının tapılması ilə bağlı fikirlərini bir qədər başqa şəkildə ifadə etsək, bütün mövcudluqların məcmui təsirindən subyekt metafizikaya keçir, oradan həmin təsirlə bilavasitə birləşməmiş, amma onunla bir sırada aşkarlanan Nəsəyə çatır. İdrak prosesində mövcudluqlar Nəsədən ayrılır və mövcudluqların məcmusundan kənarda metafizik varlıq kimi kəşf olunur. Mövcudluqlardan sürüşdüyündən onlardan aşkarlanmır. Bu prosesdə subyekt Nəsə ilə mövcudluqların məc-

musunu necə ayırır? O vahimədən xilas olmaq üçün mövcudluqların məcmusundan uzaqlaşır və Nəsəyə yaxınlaşır və Nəsəni özündə saxlayır.

ALLAHIN MÖVCUDLUĞUNUN YOXLUĞU

Allah bilavasitə hissi qavrayışla təcrübədən dərk edilmədiyindən, təfəkkürdə refleksiya etmir və buna görə də empirik idraka görə Allah yoxdur. **Yoxluq** - Allahın varlığının təzahür formasıdır. Belə ki, Allahın yoxluğu özündə Allahın hissi qavrayışla idrakolunmazlığını təqdim edir. Allah niyə idrakolunmazdır? Biz hər hansı bir şeyi onun hər hansı bir varlıq təyinindən aşkarlaya bilərik. Əgər Allah obyekt kimi özündə təcrübədən aşkarlanan hər hansı varlıq təyini saxlamırsa, deməli idrak prosesində yoxluq kimi aşkarlanmalıdır. Allahın yoxluğu onun mövcudluğuna aiddir. Beləliklə, Allah **qeyri-mövcud vardır**, yəni aktuallaşmayan mütləq tək total faktdır. Aktuallaşmadığından məkanı və zamanı yoxdur. Əgər mövcud olsaydı, ya düşünən məndə, ya ondan kənarda şey kimi mövcud olardı. Mövcud olmadığından təzahür etmir. Təzahürü olmadığından təfəkkürdə xarici ideya kimi idrak olunmur. Buna görə də Allahı yalnız daxili ideya kimi təfəkkürün özü-özündən aşkarlamaq mümkündür.

Allah ideyası buna görə də təcrübi ideyalardan fərqli üsullarla aşkarlana bilər. İ. Kanta görə istənilən insan idrakı seyrdən başlayır, onlardan anlayışa keçir və ideyalarda qurtarır. Allah metafizik statusa malik olduğundan, reallıq statusuna malik obyektlərdən fərqli olaraq, Kantın müəyyən etdiyi ardıcıllığın əksinə inkişaf edir və yalnız iki mərhələdən ibarət olur. Beləliklə, metafizik Allah ideyasının aşkarlanmasında əvvəl ideya yaranır, ondan noumenlər - mücərrəd anlayışlar çıxarılır, seyr ixtisara salınır. Bununla da Allahın idrak prosesi başa çatır. Buna görə də Allah obyektinin şərhində istifadə edilən anlayışların bir çoxu mütləq mücərrəd anlayışlardır; hansı ki, təfəkkürdə konkret obrazlarla, təsəvvürlərlə, ideyalarla assosiasiya yaratmır.

Əgər təcrübi idrakda anlayışlar təcrübədən bilavasitə - **sintetik anlayışlar** kimi xarici seyr edilən reallıq statusuna malik obyektlərdən və ya sintetik anlayışların əqli mühakiməsi ilə **dialektik anlayışlar** kimi sintetik anlayışlardan ikincili olaraq alınırsa, onda seyrdən kənar anlayışlar necə meydana çıxır? İnsan təfəkküründə təcrübi biliklərin əksiliyi kimi təfəkkürdə avtomatik və spontan aşkarlanan Allah ideyası özü ilə paralel onun aşkarlanmasını təmin edəcək xalis mücərrəd anlayışları yaradır. Beləliklə, reallıqlar təbiətdə yarandığı kimi xalis abstrakt anlayışlar da təfəkkürdə öz-özünə yaranır, yəni təcrübi anlayışlardan fərqli olaraq seyrdən əmələ gəlmir.

Allah mütləq həqiqətin aşkarlanmasının mümkünsüzlüyünün aydınlaşmasıdır. Allah bütün həqiqətlərin məcmusu kimi özündə Mütləq Həqiqəti təqdim etdiyindən, həqiqətin başlıca xarakteristikası aydınlaşma olduğundan, deməli Allah Mütləq Həqiqət kimi aydınlaşır. İnsan idrakı yalnız mütləq nisbi həqiqəti idrak etmək imkanına malik olduğundan, mütləq həqiqət insan idrakının sərhədlərindən kənarda qalır. Biz idrak sərhədlərindən kənarda aydınlaşan həqiqəti **aşkarlanmayan həqiqət** kimi təyin edirik.

"Aşkarlanması mümkün olmayan" ifadəsi özündə nəyi ifadə edir? Bizim idrakımız iki cür - empirik və metafizik anlayışların köməyi ilə həqiqəti aşkarlayır.

- **Empirik anlayışlar** xarici predmetlə əlaqəsi olan anlayışlardır və mənaları həmin predmetlərdən çıxdığından, xarici predmetlə şərtlənmişdir. Xarici predmetlər məkan və zamanla şərtləndiyindən idrak prosesinin gedişində tədricən aşkarlanır. Nəticədə obyektin aydınlaşması ilə onun aşkarlanması arasında məkan-zaman fərqi yaranır.
- **Metafizik anlayışlar** heç bir xarici predmetdən asılı deyil və yalnız özü-özünə aiddir, ağlın miniması kimi mövcuddur və təcrübədən əvvəl başlanğıca aid anlayışlar olduğundan eyni zamanda həm obyekti, həm də onun həqiqətini özündə ifadə edir. Metafizik anlayışlar

düşünən mənin özündən çıxdığından, idrak prosesində düşünən mən təcrübi idrakın başlanğıcı kimi çıxış etdiyindən, belə anlayışlar yalnız təcrübənin mümkünlüyünü, yəni "düşünən mən"dən kənarla "özündə düşünən"in aşkarlanmasına xidmət edir. Əvəzində özü-özünün aşkarlanmasından kənarda qalır.

Haşiyə: İ. Kant, "Xalis zəkanın tənqidi"

> *"Xalis mühakimə anlayışları yalnız empirik tətbiq oluna bilər, nəinki transendental; və xalis mühakimənin əsas müddəası hissi predmetə yalnız mümkün təcrübənin ümumi şərtləri mövcud olduğu vaxt aid edilə bilər. Amma onları heç bir şəkildə ümumiyyətlə şeylərə aid etmək olmaz. Xalis kateqoriyalar, hissiyyatın formal şərti olmadan, yalnız transendental əhəmiyyət kəsb edir, amma heç bir transendental tətbiqə malik deyildir. Ona görə ki, belə tətbiq özü-özündə mövcud deyildir; belə ki, xalis kateqoriyalar tətbiq (mühakimədə) üçün şərt, məhz hansısa bu anlayış altında mümkün predmetə gətirilən formal şərt çatışmır."*

Beləliklə, Kantın da fikirlərindən görünür ki, metafizik anlayışlar şeylərə şərti - "mümkün təcrübənin ümumi şərtləri olduqda" aid edilə bilər və transendental təcrübəyə isə heç bir halda tətbiq oluna bilməz. Əgər nəyəsə nə empirik, nə metafizik anlayışlar tətbiq oluna bilməzsə və insan idrakı üçün üçüncü növ anlayışlara malik deyilsə, onda belə həqiqətləri aşkarlanması insan idrakı tərəfindən mümkün olmayan həqiqətlər kimi təyin etmək zəruridir.

Bəs onda biz Allah ideyası ilə bağlı həqiqətləri metafizik yolla necə əldə edə bilərik? Təcrübi anlayışların mənası xarici predmetdə, özləri düşüncədə mövcuddur. Metafizik anlayışların həm mənası, həm də özləri düşüncədədir. Əgər biz metafizik anlayışların formasını saxlayıb onların mənasını onlardan kənara çıxarsaq və birləşdirsək - **antisipasiya** etsək, onda Allah haqqında ideyanın mənasını əldə edə bilərik. Məsələn, məkan metafizik anlayışdır. Məkanın son mənası sonsuzluqdur. Əgər məkan anlayışını kənarlaşdırıb yalnız sonsuzluğu Allah ideyasına gətirsək, onda

Allahın laməkan - məkandan kənar - sonsuz varlıq olduğu müddəasını alırıq. Eləcə də, digər metafizik anlayışları bu cür tərkibə ayırmaqla onların xalis mənası əsasında Allah ideyasını əldə edə bilərik. Aşkarlanmanın mümkünsüzlüyünün aşağıdakı səbəbləri vardır:

1. **Allahın sonsuzluq xarakteristikası:** Biz sonsuzluğu təsəvvürün imkansızlığı kimi təyin edirik. Yəni təfəkkürdə ölçülənə bilməyən sonsuzluq kimi dərk olunur. Bizim idrakımızla yalnız sonlu şeylərin, konkret sərhədləri olan şeylərin - real şeylərin həqiqəti aşkarlanır. Əgər hər hansı bir şeyin sərhədləri yoxdursa biz onu aşkarlaya bilmirik. İdrak yalnız sonuncu mövcudluqdan mümkün olduğundan, biz yalnız sonlu şeyləri və hadisələri dərk edirik; əgər hər hansı bir şey sonsuzdursa biz onu idrak edə bilmərik.

Haşiyə: B. Spinoza, "Allah, insan və onun xoşbəxtliyi haqqında qısa traktat"

> *"İdrak olunan şeylərin sonsuz çoxunluğu vardır. Sonlu ağıl sonsuzluğu başa düşə bilməz. Sonlu ağıl özü-özünə, özündən kənar nəyəsə müəyyənləşməsə heç bir şey dərk edə bilməz. B. Spinozanın dediyi kimi, Allah əgər insandan kənar sonsuz olandırsa, insan özündən kənar sonsuza istiqamətlənə bilmədiyindən, özü sonlu olduğundan, Allah ideyasını özündən xaricdə sonsuzluqdan aşkarlaya bilməz.*

2. **Allahın əbədilik xarakteristikası:** Əbədilik idrakın sürəkliliyinin əksiliyidir. Yəni idrak prosesində idrakın davam etmə imkansızlığı əbədilik kimi meydana çıxır. Allah ideyasının aşkarlanması Allah əbədi olduğundan əbədiyyətlə mümkündür. Bizim idrak etdiyimiz hər şey bizimlə bəlli zaman fasiləsində müvəqqəti olaraq təcrübəyə daxil olur. O şeyin ki həqiqətinin aşkarlanması əbədilik tələb edir, bizim faniliyimiz fonunda həmin şeyi biz idrak edə bilmərik.

3. **Allahın mütləqlik xarakteristikası:** Biz eyni bir obyektdə əksikliklərin eyni vaxtda təzahürünü mütləqlik kimi təyin edirik. İdrak prosesi konkret orijinal şeydən başlayaraq abstrakt ümumini dərk etməyə

doğru inkişaf edir. Biz ya hissi qavranılan maddi şeylərin ən ümumi həqiqətini, ya qeyri-hissi, qeyri-maddi qavranılanların mücərrəd ideyaların ən ümumi həqiqətini idrak edə bilərik. İnsanın hissi qavranılanlarla qeyri-hissi qavranılanları, yəni özündə əksiliklərin vəhdətini təqdim edən həqiqəti qavraya bilmərik.

Beləliklə, aşkarlanması mümkün olmayan həqiqətin o aydınlaşmasıdır ki, o əbədi, sonsuz, sərhədsiz və əksiklərin vəhdətini özündə təqdim edəndən aydınlaşır. Bəs belə bir aydınlaşmanın mümkünlüyünü (aşkarlanmasının yox, sadəcə aydınlaşmanın mümkünlüyünü) biz necə təsəvvür edə bilərik? Burada şərhə keçmədən demək lazımdır ki, aşkarlanması mümkün olmayan həqiqəti aydınlaşdıran ən ümumi şəkildə Allah anlayışı altında nəzərdə tutulanı təyin etmək olar. Beləliklə, Allahı əbədi, sonsuz, sərhədsiz və əksiliyi olmayan və yalnız varlığı dolayısı ilə idrak oluna bilən mütləq həqiqətin refleksiya etdiyi idrak obyekti kimi təyin etmək olar.

Əvvəlki fəsildə metafizikanı başlanğıcların başlanğıcı və səbəblərin səbəbi haqqında elm kimi təyin etmişdik. Bəs səbəblərin səbəbi və başlanğıcların başlanğıcı kimi çıxış edən varlıq vardırmı? Əgər belə varlıq yoxdursa, deməli səbəblərin səbəbi və başlanğıcların başlanğıcı da ola bilməz. Səbəb-nəticə əlaqəsinə görə əgər başlanğıc yoxdursa, deməli son da yoxdur. Əgər son yoxdursa Kainat və onu dərk edən varlıq da yoxdur.

> ***Haşiyə:*** *Benedikt Spinoza, "Allah, İnsan və onun xoşbəxtliyi haqqında qısa traktat" - Allah tək, ən əhəmiyyətli, ən ümumi, birinci, başlanğıc şeylərə yaxın, immanent səbəbdir.*

Allah o mənada immanent səbəbdir ki, hər bir şeyin substansiyası bilavasitə Allah tərəfindən refleksiya yolu ilə yaradılıb və şeyin qurulması - aktuallaşma - substansiyanın forma yaratması ilə reallaşır. Forma ilə vəhdətdə mövcud olan substansiya məhz şeyin daxili səbəbi kimi çıxış edir; hansı ki, özünün başlanğıcda yaranmasının xarici səbəbi

Allahın iradəsi olmuşdur. Beləliklə, B. Spinozanın fikirlərindən çıxış edərək demək olar ki, səbəblərin səbəbi, başlanğıcların başlanğıcı kimi metafizik obyekti yalnız Allah ideyasının özündə ifadə etdiyini təyin etmək olar. Bəs rasional qaydada Allah ideyası necə meydana çıxır, bu ideya özündə nəyi ifadə edir və şüurda o necə aşkarlanır? Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, rasional teologiyada Allah ideyası - Allahın varlığı **daxili varlıq** formasında, yəni uydurulan-düşünülən varlıq kimi aşkarlanır. Düşünülən varlıq özündə həm həqiqət, həm yalan ola biləcəyindən rasional teologiyada Allah ideyası kritik ideya kimi meydana çıxır. Dini Allah ideyasından fərqli olaraq belə ideya tənqid oluna, əlavə edilə, şərh edilə və inkar edilə bilər.

Biz Allah ideyasını total varlığın - mütləq nisbi həqiqətin əksiliyi kimi təyin edirik. Nisbi mütləq həqiqət iki cür - reallıq (obyekt) və mümkünlük (subyekt) kimi aydınlaşdığından Mütləq nisbi həqiqətin əksiliyi kimi Allah ideyası bir tərəfdən xarici varlıqların totallığından, onlardan xaricdə olan kimi, digər tərəfdən mümkün varlıqların totallığından, ondan xaricdə olan mütləqlik kimi, onların hər ikisinin sintezindən aşkarlana bilər. Necə?

Haşiyə: Fridrix Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Sintezin şərti ümumiyyətlə qarşıdurmadır, məhz müəyyən şəkildə subyektlə obyektin qarşıdurması. Subyektlə obyekt arasında qarşıdurmanın ləğv edilməsindən ötəri, subyekt daha özü-özündən çıxmağa məcbur olmamalıdır, onların hər ikisi mütləq eynilik təşkil etməlidir; yəni ya subyekt obyektdə həll olmalıdır, ya obyekt subyektdə. Əgər bu və ya digər tələb reallaşacaqsa, onda ya obyekt, ya subyekt mütləq ola bilər, yəni sintez tezisdə başa çatar. Əgər subyekt obyektlə eynilik təşkil edirsə, onda obyekt subyektlə şərtlənmir, yəni o özü-özündə şey, mütləq kimi qoyulmuşdur; subyekt isə dərk edən keyfiyyətində sadəcə kənarlaşdırılmışdır. Əgər obyekt subyektlə eyniyyət təşkil edərsə, onda subyekt beləliklə özü-özündə subyekt olur, mütləq subyekt; obyekt dərk olunan kimi,*

ümumiyyətlə predmet kimi ləğv edilən olardı. Bunlardan biri baş verməlidir. Ya subyekt yoxdur, mütləq obyekt var, ya obyekt yoxdur, mütləq subyekt var. Bu mübahisəni necə həll etməli?"

F. Şellinqin fikirlərindən göründüyü kimi, mütləqlik təcrübədə obyekt-subyekt münasibətində birinin digərini istisna etməsi kimi aşkarlana bilər. Allah ideyasının kəşfi ilə Şellinqin suallandırdığı mübahisə həll olunur. Başqa sözlə, subyektin obyektdə, obyektin subyektdə həll olması ilə meydana çıxan ən ümumi eyniliyin həqiqəti özündə Allah ideyasını təşkil edir.

Əgər fikrən təcrübədə idrak olunmadan azad, özü-özündə hissi şeyin mövcudluğunu qəbul etsək, onda həmin obyekt mütləqlik keyfiyyətinə malik olacaq. Amma təcrübədə qavranılmayan hissi şey mümkünlük deyildir; yəni təcrübədə reallıq olub, amma bizim görə, eşidə, toxuna, iyini və dadını hiss edə bilməyəcəyimiz şeyin mövcudluğu qeyri-mümkündür. Buradan da deyə bilərik ki, obyektiv olanların hamısı **nisbilik** keyfiyyətinə malikdir. Obyektdən bu nisbilik çıxarılmadıqca o mütləqlik əldə edə bilməz. Bunun əksinə, əgər təcrübədə obyekt - hissi qavranılan şey - olmadan hissi qavrama mümkün olsaydı, onda subyekt mütləq olardı; yəni şeylər şüura təqdim edilmədən onlardan yalnız xalis hisslərlə - profenomenlərlə həqiqəti aşkarlamaq mümkün olsaydı, onda subyektdə mütləqlik olardı; bu da hissi qavranılmaya zidd olduğundan qeyri-mümkünlükdür.

Bəs obyekt-subyekt münasibətindən mütləqliyi necə əldə edə bilərik? Göründüyü kimi, ayrı-ayrılıqda götürüldükdə nə obyektdə, nə subyektdə mütləqlik yoxdur. Onda mütləqlik hər ikisinin bir-birində əriməsində - obyektin subyekti, eyni zamanda subyektin obyekti istisnasından və buna görə də onların hər ikisindən xaricdə aşkarlana bilər ki, bu da Allahda aşkarlanan mütləqlik kimi yalnız metafizik keyfiyyət olacaqdır. Başqa sözlə, Allahın mütləqliyi obyektlə subyektin həqiqətinin sintezindən aşkarlana bilər.

Haşiyə: Fridrix Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Ağlın tənqidi üçün hansısa bir sistemlə bağlı olmamaq xarakterik olmalıdır, belə ki, həqiqətən bütün sistemlər üçün qanun yazır və ya ən azından onları hazırlayır. İstənilən fəlsəfə sintezin məqsədi kimi mütləq tezisi tələb edir. Amma mütləq tezis yalnız mütləq eynilikdə düşünüləndir. Ona görə də hər iki sistem (doqmatizm və kritisizm) zəruri olaraq mütləq eyniliyə cəhd edir: fərq ondadır ki, kritisizm bilavasitə subyektin mütləq eyniliyinə və yalnız dolayısı ilə təsadüfi olaraq obyektin subyektlə üst-üstə düşməsinə, doqmatizm isə əksinə mütləq obyektlə bilavasitə eyniliyə və yalnız dolayısı ilə - subyektin mütləq obyektlə üst-üstə düşməsinə cəhd edir. Əgər hər iki sistem insan biliyində nəyəsə başa çatmış kimi mütləq prinsipə cəhd edirsə, onda o hər iki sistemin birləşmə nöqtəsi olmalıdır."*

Şellinqin fikirlərindən göründüyü kimi din Allahı mütləq obyektlə eynilik kimi, kritisizm subyektlə mütləq eynilik kimi qəbul edir, metafizik olaraq Allah mütləq subyektlə mütləq obyektin vəhdəti kimi - hər iki sistemin birləşmə nöqtəsi kimi təsəvvür edir. Bütün sistemlər üçün qanun yazan xalis zəka İlahi Ağıl kimi mövcuddur və insan ağlı bu səviyyəyə yüksəlməklə İlahi Ağlı aşkarlamış olur.

Rasional teologiyada iki cür Allah ideyası - ya obyektdən, ya subyektdən aşkarlanan Allah ideyası məlumdur:

1. Əxlaqi Allah ideyası - nəzəri ideya: Subyektdən aşkarlanan Allah ideyası əxlaqi Allah ideyası kimi meydana çıxır. Şərhə keçmədən demək lazımdır ki, ayrılıqda subyektdə mütləqlik olmadığından əxlaqi Allah ideyasında Allahın mütləqliyini aşkarlamaq mümkün deyil. Əxlaqi Allah ideyası özündə Vahid İnsanlıq Ruhunun totallığından, ondan kənarda, onun başlanğıc səbəbi kimi çıxış edən və Ruhun atributlarını faktiki olaraq özündə saxlayan və buna görə də həmin atributlar formal olaraq Ruhda aydınlaşan ideyadan ibarətdir.

Haşiyə: Fridrix Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Mən əxlaqi Allah ideyasına necə gəlirəm? Nəzəri ağıl Allahı başa düşmək üçün kifayət qədər zəifdir və Allah ideyası yalnız əxlaqi tələblərlə realizə oluna bilər. Onda mən Allahı əxlaqi qanunların təsəvvüründə düşünməliyəm. Beləliklə əxlaqi Allah ideyası öz mənəviyyatımı xilas etmək üçün lazımdır; nə qədər ki mən Allahı öz mənəviyyatımı xilas etmək üçün qəbul edirəm, bu Allah Əxlaqi Allah olmalıdır. Əxlaqi Allah ideyasında estetik tərəf və həm də fəlsəfi tərəf tamamilə yoxdur. Onda nəinki nəsə yüksəldilmiş və ümumiyyətlə heç nə yoxdur, o digər antropomorf təsəvvürlər kimi boşdur."*

Şellinqin fikirlərindən göründüyü kimi, o Allah ideyasını mənəviyyatın - Ruhun (ruhun atributlarının) qanunları əsasında aşkarlamağı mümkün hesab edir. Ruh özü metafizik idrak olunduğundan, əxlaqi Allah ideyası da metafizik yolla kəşf edilir; buna görə də Şellinq bu ideyanı nə estetik, nə fəlsəfi tərəfi olmayan boşluq kimi dəyərləndirir. Burada estetik tərəf reallıqların hissi qavranılma keyfiyyətini, fəlsəfi tərəf intellektual qavranılma keyfiyyətini özündə təqdim edir. Əxlaqi Allah ideyasının boşluğu insanın özü tərəfindən, Ruhun ideyaları əsasında müstəqil yaradılmış sadə ideyalarla doldurulur. Beləliklə, Allah insanı yaratdığı kimi, insan da Əxlaqi Allah ideyasında Allahı yaradır. Allah Ruhun ilk başlanğıcı olduğu kimi, ruhi ideyalar da əxlaqi Allah ideyasının ilk başlanğıcı kimi çıxış edir və ya Allah öz yaratdığının sonundan aşkarlanan ideyalarla aşkarlanır.

Haşiyə: Fridrix Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Əxlaqi qanun sizin mövcudluğunuzu Allahın mövcudluğundan sərhədləndirməlidir? Bu qanuna uyğun iradəyə inanmadıqca, Allahı yaxına buraxmayın. Hansı qanunun əsasında bu iradəyə çatmaq istəyirsiniz? Əxlaqi qanunun özünün əsasında? Siz necə əmin ola bilərsiniz ki, bu varlığın iradəsi mövcud qanuna*

uyğundur? Hər şeydən asan olaraq demək olar ki, bu varlığın özü əxlaqi qanunu yaradandır. Əxlaqi qanun mənim iradəmlə izah ediləndirmi? Ola bilsin mən bu qanunu Allah-Təalaya yazıram? Mütləqin sərhədlərini yazmaq? Mən sonuncu varlığam?. Yox, bu səndən tələb olunmur. Sən yalnız əxlaqi qanundan öz əqli nəticəndən çıxış etməlisən, öz sistemini elə qurmalısan ki, əxlaqi qanun onda əvvəl, Allah isə sonra gəlsin. Onda beləliklə sən Allaha çatırsan, sənə öz azadlığını saxlamağa imkan verən əxlaqi qanun artıq onun səbəbiliyinin sərhədlərini qoymağa hazırdır."

F. Şellinqin sitat gətirdiyimiz fikirlərindəki bəzi məqamları bir qədər geniş şərh edək. Əxlaqi qanunla Allah ideyası (Allahın qanunu kimi) eyniyyət təşkil edirmi? Əxlaqi qanun əvvəldir, yoxsa İlahi ideya? Əxlaqi qanunla hansı şərtlə Allah ideyası aşkarlana bilər? Mütləq həqiqət Allahda **eminent** olaraq (pisləşməyə məruz qalmadan mütləq ali səviyyədə olduğundan) və yaradılışdan sonra bütün yaradılanlarda mütləq nisbiləşməyə məruz qaldığından, əxlaq qanunları ilə Allah ideyası eyniyyət təşkil edə bilməz, ona görə də bu qanunlardan mütləq şəkildə Allah ideyasına çatmaq olmaz. Yaranma prosesində hər şeyin həqiqətini Allah öz həqiqətindən yaratdığından Allah əvvəl, əxlaqi ideya sondur; amma idrak yaranışın əksi olduğundan, yaranışda əvvəl olan son, son olan əvvəl gəlir. Deməli əxlaqi qanunlar Allah ideyasından əvvəldir. Allah ideyası sondur. Burada əxlaqi qanunların əvvəl gəlməsi sonra gələn Allah ideyasının daha dəqiq - heç bir marağa (cari həqiqətlər kimi), tələbata (elmi həqiqətlər kimi) cavab vermədən aşkarlanmasını təmin edir. Əxlaqi qanunlar ruhi atributlardan aşkarlandığından, Əxlaqi Allah ideyasındakı Allah Ruhun özündə saxladığı formal atributları faktiki özündə saxladığından, biz Əxlaqi Allah ideyası ilə Allahı formal ruhi atributlardan onların faktiki vəziyyətini müəyyən etməklə, yəni ruhun atributlarını özümüzdə kamilləşdirməklə, yüksəltməklə Allahın atributlarını idrak edə bilərik.

• Ruhun ən ümumi atributu **insan ağlıdır**. Ağıl Ruhda formal, Allahda faktiki saxlanan atributdur. Burada formal sözü aşağı dərəcəni, emanasiyaya məruz qalmaqlığı, mütləq təzahür imkansızlığını özündə ifadə edir. Əgər insan ağlı yalnız yaradılanların qanunlarını (nisbi həqiqəti) idrak etmək gücünə malikdirsə, İlahi ağıl həmin qanunları yaratmaq gücünə malikdir, buna görə də İlahi Ağıl ən kamil, eminent, mütləq ağıl kimi təyin oluna bilər. Beləliklə biz əxlaqi Allah ideyasından Allahın faktiki atributunu bütün varlıqların həqiqətini yaradan İlahi Ağıl kimi təyin edə bilərik.

• Ruhun digər atributu **simvollaşdırmadır**. Simvol insan tərəfindən qabaqcadan məna verilmiş işarədir. Allahın faktiki simvol yaratması məna ilə formanın vəhdətini, yəni görünən aləmdə bütün reallıqları yaratması kimi aşkarlanır. Yaradılmışların forması İlahi Simvol, onların mahiyyəti Allahın həmin simvollarda ifadə etdiyi mənadır. Başqa sözlə, hər bir real varlıq bir İlahi Simvol kimi mövcuddur, hansı ki, insan öz yaratdığı simvollarla onları dərk etməyə cəhd edir.

• Ruhun digər bir atributu **ictimai münasibətdir**. Allahın faktiki atributu bütün real və mümkün olanların öz arasında, o cümlədən reallıqlarla mümkünlüklər arasında, şüurun materiyaya münasibəti də daxil olmaqla, qarşılıqlı münasibət kimi meydana çıxır. Bütün münasibətlər Allahın özü-özü ilə vəhdət təşkil etməsinin ən müxtəlif refleksiyaları kimi mövcuddur. Reallıqlar aləmində bura oxşarlıqlar, eyniliklər və fərqliliklər, ruhi aləmdə materiyanın şüur tərəfindən idrak olunması daxildir. Beləliklə, münasibət Allahın atributu kimi mövcud olduğundan, formal olaraq ruhda saxlanan formal münasibətlə şüurla materiya formal olaraq dərk olunur.

• Nəhayət, ruha aid etdiyimiz digər bir atribut **təşkilatlanmadır**. Təşkilatlanma - fərdlər və qruplar arasında dayanıqlı, tənzimlənən, nəzarət olunan, bir mərkəzdən idarə olunan rabitə yaratmaq, əlaqələndirmək, sinxron fəaliyyət və s. kimi elementlərdən ibarət sosial faktdır. Allahın faktiki təşkilatlandırma atributu bütün

yaradılmışları vəhdətdə - bir təşkilat kimi yaratmasında, bütün varlıqları idarə etməsində və varlıqlararası münasibəti tənzim etməsində təzahür edir. Buna görə də, təbiətdə aşkarlanan istənilən vəhdəti ilahi atributun emanasiyaya məruz qalmış forması kimi təyin etmək olar.

Əxlaqi Allah ideyası ağılla qəbul edilən ideyadır; hansı ki, dində Allah ideyası inamla qəbul edilir. İnam idrak prosesinin sonunda həqiqətin aydınlaşmasının onun təfəkkürdə düzgün aşkarlanmasından meydana çıxır. Dində Allah ideyası inamla aşkarlandığından, idrak prosesindən kənarda dini Allah ideyasının insanlara verildiyi formada yəqin olması qəbul edilir. Əxlaqi Allah ideyası Ruhdan sonra idrak olunur və buna görə də mütləq metafizikdir; çünki ruhun özü təbiətdən sonra idrak olunan ilkin və Allaha münasibətdə nisbi metafizik obyektdir. Ruh nə üçün nisbi metafizikdir? Ruh müstəqil mövcudluq deyil və o təcrübə sahəsində mövcud olan bədənlə şərtlənmişdir. Bədənlə şərtlənmə onu mütləq metafizik obyekt olmaqdan məhrum edir. Deməli Allah varlıqla heç bir halda şərtlənmədiyindən mütləq metafizik obyekt kimi vardır.

Haşiyə: Fridrix Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Əgər hətta siz mənə məndən kənar minlərlə mütləq səbəbiliyin kəşfini və minlərlə ən güclü təcrübi ağlın tələbini təqdim etsəniz də, necə ki mənim nəzəri ağlım dəyişilməz qalır, mən heç vaxt onlara inanmaram. Mütləq obyektə inanmaqdan ötəri mən əvvəlcə gərək bu inamın subyekti kimi özümü kənarlaşdıram."*

Şellinqdən gətirdiyimiz sitatdakı Mütləq obyektə - Allaha inanmaqdan ötəri "özümü inamın subyekti kimi ondan uzaqlaşdırıram" fikri, insan mütləq obyektlə birlikdə olmadığından, yəni onunla təcrübə sahəsində vəhdət təşkil etmədiyindən, fikrən uzaqlaşmağı özündə ifadə edir. Allah fikrən varlıq kimi Allah ideyasını özündə təqdim etdiyindən, Mütləq obyekt haqqında həqiqət - inam - yalnız ondan (Ruhdan) kənar-

dan əldə edilə bilər. Başqa sözlə, Allah ideyasına nisbi metafizik obyekt kimi idrak olunan Ruh özünü mütləq metafizik obyektdən kənarlaşdırmaqla və ya mütləq obyekt haqqında həqiqəti özündən kənarda əldə etməklə malik olur.

2. İdraki Allah ideyası - təcrübi ideya: İdraki Allah ideyası Varlığın totallığından aşkarlanır.

Haşiyə: Fridrix Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"İnsan biliyində mütləq təsdiq olunandan az əsaslanmış müddəa yoxdur. Məhz buna görə, belə müddəa mütləqi təsdiq edir, onun özü üçün əsasa gətirilə bilməz. Biz sübutlar aləminə daxil olan kimi, şərtlənmişlər nahiyəsinə daxil oluruq və əksinə, biz şərtlənmişlər nahiyəsinə daxil olan kimi, biz fəlsəfi problematikalar nahiyəsinə oluruq. Demək olar ki, inanılmaz görünür ki, Allahın varlığının sübutunun tənqidində belə uzun müddət nəzərə belə sadə və daimi həqiqət alınmayıb ki, Allahın sübutu yalnız ontoloji ola bilər. Belə ki, əgər Allah varsa, onda o yalnız ona görə ola bilər ki, o vardır. Onun mövcudolması və mahiyyəti eyniyyət təşkil etməlidir."*

Beləliklə, Şellinqin fikirlərindən görünür ki, Varlıqdan Allahın idrakı yalnız varlıqdan dolayısı ilə sübut oluna bilər. Əgər var olmaq Varlığın predikatıdırsa, onda varlıqsız var olmaq və ya varlıqdan kənar var olmaq Allahı xalis predikat kimi təyin etməyə əsas verir. Yəni varolmaqlıq keyfiyyət kimi Allahdan çıxır və bütün varlıqların var olmasından Allah sübut olunur. Buna görə də, istənilən varlıqda varolmaqlıq onu Allahla əlaqələndirir. Sadəcə Allahda immanent (mütləq) olaraq olan varolmaqlıq varlıqda emanativdir (nisbi). Yaranma özündə immanent var olmaqdan emanativ var olmağa keçidi - *causa transitoria* - təqdim edir.

Haşiyə: Fridrix Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

"Fəlsəfə həqiqətən sonsuzdan sonluya keçə bilmir, amma əksini edə bilər: sonludan sonsuza keçə bilər. Sonlu səbəbilik sonsuzdan öz prinsipinə görə yox, yalnız sərhədlərinə görə fərqlənir."

Nə üçün fəlsəfə sonsuzdan sonluya keçə bilmir? Filosof mövcud varlıqdır, yəni təcrübə sferasında digər sonlu obyektlərlə şərtlənmişdir. Fəlsəfənin sonsuzdan sonluya keçməsi üçün filosofun metafizik aləmə məxsus olması, yəni digər sonlu mövcudluqlarla vəhdətdən kənar olması tələb olunur ki, fəlsəfə sonsuzdan sonluya keçə bilsin. Belə keçiddə fəlsəfə yalnız yaranış prosesini - metafizikadan fizikaya keçidi özündə refleksiya edərdi. Halbuki fəlsəfə yaranış yox, əməlegəlmənin refleksiyası ilə reallıqlardan ən ümumi həqiqəti aşkarlamağa istiqamətlənib. Fəlsəfədən fərqli olaraq, metafizika sonlunun sərhədlərindən çıxaraq sonsuzda əriməyi, bununla da sonsuzu idrak etməyə cəhd edir. Fəlsəfənin keçdiyi sonsuzla metafizikanın meydana çıxdığı sonsuz onunla fərqlənir ki, metafizik sonsuzluq həm sərhədlərinə, həm də prinsiplərinə görə sonludan fərqlənir. Bəs bunu metafizika necə reallaşdırır?

İnsanda şüurun ilk təzahür anı - Ruhun ilkin ataraksiyası - **"Düşünən Mən"in başlanğıcını** təşkil edir. Beləliklə, şüura məlum olan ilk həqiqət özünün başlanması - öz başlanğıcı ilə bağlıdır. Bu həqiqət "Mən"in mahiyyətini təşkil edir. İdrak "Mən"ə məxsus olduğundan, Mən müəyyənləşəndən sonra istənilən həqiqəti idrak prosesində özünə münasibəti ilə, yəni məndən fərqliliyinə görə müəyyən edir. Biz hər hansı bir şey haqqında bilməmiz üçün mütləq onu ondan əvvəlki bilgimizlə tutuşdururuq. İlk idrak olunan obyektin başlanğıcı Mən olduğundan, dərk edilən ilk obyektin idraki başlanğıcı "Mən"ə münasibətdə ilk obyektdə olan kimi mümkün olur. Beləliklə, idrak bir başlanğıcdan digər başlanğıcı aşkarlamaq prinsipi ilə inkişaf edir. Mənim idrakım mənə ən yaxın olandan, Varlığın sonundan - sonuncu var olandan - gerçəklikdən

başlayır. Beləliklə, mənim dərk etdiyim şey həm də özündə "Mən"ə münasibətdə son başlanğıcdır. İdrak prosesində "Mən" özünün ilk başlanğıcından başlayaraq, gerçəklikdəki son başlanğıcdan keçməklə Varlığın ilk başlanğıcına - idrak prosesinin sonuna doğru hərəkət edir.

Cari şüurda idrak prosesində həqiqətin aşkarlanması təsadüfi olduğundan, özündə istənilən həqiqətin başlanğıcının fasiləli, xaotik aşkarlanması - yəni şüurun idrak etdiyi son başlanğıcla onun nə dərəcə fərqlənməsi - əsas məqsədə çevrilir. Biz bunu **başlanğıcların paralel aşkarlanması** adlandırırıq. İkincili fəlsəfə və ya klassik fəlsəfə isə başlanğıcın fasiləsiz, nizamlı və ardıcıl aşkarlanmasına cəhd etdiyindən son başlanğıca münasibətdə həqiqəti ilk başlanğıca münasibətə görə aşkarlamağa cəhd edir. Burada **fasiləsiz aşkarlama** özündə bütünlüklə Allah ideyasına fokuslaşmağı, **nizamlı aşkarlama** - məntiq üsulundan istifadə etməni, **ardıcıl aşkarlama** - varlığın sıralanmasından aşkarlamanı bildirir. Yəni fəlsəfədə Allah ideyasının aşkarlanması qabaqcadan bu ideyanın məqsəd kimi seçilməsini, məntiqi ardıcıllıqla varlığın sıralanmasından onun aşkarlanmasını özündə təqdim edir.

Haşiyə: Dekart, "Fəlsəfənin ilk başlanması"

> *"Özünü dərk edən ağıl hələ digər bütün şeylərə nisbi olaraq şübhələnərək və öz idrakını hansı yolla genişləndirməyə hərtərəfli baxaraq, o hər şeydən əvvəl özündə şeylərin çoxluğunu aşkarlayır. Necə ki o onları sadəcə seyr edir və özündən kənar onlara oxşar hər hansı bir şeyin mövcudluğunu nə inkar, nə təsdiq edir, o yanıla bilməz. O həmçinin bəzi ümumi anlayışlar aşkarlayır, hansı ki, o onlara diqqətlə baxışla özünü inandırdığı kimi, təkmil həqiqət olan müxtəlif sübutlar düzəldir. Allahın mövcud olması haqqında düzgün nəticə bizim Allah anlayışımızda onun mövcudluğunun zəruri olmasından çıxır. Bizim hər hansı bir ideyamız nə qədər obyektiv təkmilləşirsə, biz bir o qədər onun səbəbini təkmil hesab etməliyik. Allahın idrakından onun yaratdıqlarının idrakına keçərkən biz yadda saxlamalıyıq ki, biz sonluyuq, o əbədidir. Biz*

kifayət qədər dərk edilməmiş şey haqqında mühakimə apararkən yanılırıq."

Dekartın Allah haqqında fikirlərindən görünür ki, Allah ideyası fərdi şey kimi dərk edilməmiş çoxluğun ən ümumi şəkildə abstrakt yolla dərkinin, təfəkkürdə abstrakt yolla aşkarladığımız ən ümumi anlayışlarla əlaqələnməsindən meydana çıxır. Beləliklə, Allah ideyası şeylərin abstrakt təsəvvür edilən çoxluğunun ən ümumi anlayışla ifadə edilməsini özündə təqdim edir. Hansı ki, şeylərin çoxluğu reallıqdır. Yəni bütün real çoxluqların hamısı abstrakt formada ən ümumi şəkildə Allahın məcmusuna daxildir. Hansı ki, yaranma prosesində həmin abstrakt çoxluqdan hər bir şey fərdi konkret şey kimi mövcud olur və hər bir fərdi şey buna görə də Allah ideyasının bir hissəsi kimi özündə həqiqət saxlayır.

Allah ideyasının meydana çıxmasının səbəbi bizdən kənarda hansısa zərurətlə yox, məhz bizim daxilimizdə meydana çıxan zərurətlə bağlıdır. Başqa sözlə, bizim malik olduğumuz Allah ideyası özündə şey kimi özündə zərurət yox, özündənkənarda - bizdə zərurət kimi mövcud olanı özündə təqdim edir. Bizdə zərurət - fərdi xüsusi Düşünən Mənin əks tərəfində **Ümumi Düşünən Təkin** olmasını özündə təqdim edir; hansı ki, Ümumi Düşünəndən ayrılıqda fərdi Düşünən Mən idrakolunmazdır. Yəni, mən varamsa Allah da vardır, mən yoxamsa Allah da yoxdur. Düşünən Mən idrak olunan yeganə kamil mütləq həqiqət olduğu kimi, onunla vəhdətdə zərurət kimi aşkarlanan tək Allah da mütləq və kamil olmalıdır. Allahın zərurəti özündə olmadığından, Allahın bilavasitəliyi istisna olunur. Allahın bilavasitəliyi istisna olunduğundan, biz malik olduğumuz Allah ideyasına uyğun olanı bilavasitə idrak imkanından məhrumuq. Allah ideyası dialektik məntiqlə aşkarlandığından, dialektik proses təkmilləşmə istiqamətində inkişaf etdiyindən bizim Allah haqqında ideyamız bu istiqamətinin sonunu, ən təkmili özündə təqdim edir. İnsan nə qədər sonuncu həqiqəti mütləq və dəqiq idrak edirsə, bir o qədər onun ilk səbəbini təkmil və mütləq təsəvvür edir. Beləliklə, bizim

görünən dünyanı idrak imkanımız özündə Allah ideyasının təkmilliyini təqdim edir. Düşünən Mən sonlu olduğundan, onunla vəhdətdə olan çoxluğun ən ümumi anlayışı kimi Allah ideyasındakı təsəvvür edilən əbədi olmalıdır. Belə ki, təklər öz sonluqlarından çoxluğa daxil olmaqla azad olur və mütləq şəkildə mövcud olan bütün sonluların məcmusundan əbədi olan ən ümumi meydana çıxır. Allahın mövcudluğu haqqında şübhələr bilavasitə Allah ideyasından meydana çıxmır, çünki Allah ideyasına şübhə etmək üçün ona bərabər başqa bir ideya olmalıdır, hansı ki, belə ideya da Allahla (mütləq ideyası ilə) eynilik təşkil etməlidir. Eyniliklərdən isə birinə şübhə, digərinə şübhə demək olardı ki, bu üsulla da Allaha şübhə yaranmazdı. Dekartın fikirlərindən görünür ki, insan kifayət qədər dərk etmədiyi şey haqqında yanılır. Belə halda dərk edilməsi insan imkanlarından kənarda olan Allahın varlığı haqqında yanılmaların meydana çıxması yalnız idrakın imkansızlığını özündə əks etdirir.

İnsanın aşkarladığı istənilən ideyanın səbəbi vardır və bu səbəb xaricidir.

Haşiyə: B. Spinoza, "Qısa traktat"

> *"İnsanda ideyanın səbəbi onun fiksiyası deyil, birini digərindən əvvəl dərk etməyə onu məcbur edən hansısa xarici səbəbdir."*

İdeyaların yaranmasının xarici səbəbi idrak üsuluna uyğun iki cürdür:

A. Bilavasitə xarici səbəb: Belə səbəblə yaranan idrak hissi idrak adlanır və bu üsulla əvvəl hissi qavranılan əbədi maddi şeylər şüura bilavasitə təqdim olunur, sonra qavrama prosesində əbədi şeylərdən ən sadə ideyalar aşkarlanır. Sadə ideya xarici əbədi şeylə bilavasitə əlaqəlidir və biri digərini sübut edir. Biz bu cür ideyaları yuxarıda qeyd etdiyimiz faktdan törəyən ideyalara aid edirik.

B. Dolayısı xarici səbəb: Biz bunu qeyri-hissi idrak kimi təyin edirik. Bu üsulla idrak prosesi əvvəl hissi idrakla qavranılan sadə ideyaların təfəkkürdə sintezindən başlayır və mühakimə nəticəsində mürəkkəb ideyalar meydana çıxır. Meydana çıxan mürəkkəb ideya reallıqda heç bir şeylə bilavasitə əlaqəli olmadığından biz bu ideyaların özündə ifadə etdiyi obyektləri mücərrəd varlıqlar kimi təsəvvürə gətiririk. Belə ideyalar ağıldan törəyən ideyalara aid olur.

Beləliklə, ya biz təcrübədə konkret obyektdən - reallıqlardan ideya aşkarlayırıq, ya bunun əksinə təfəkkürün özü-özündən abstrakt yolla aşkarladığımız ideyadan özümüzdə abstrakt obyektlər haqqında obrazlar və təsəvvürlər yaradırıq. Bir qayda olaraq abstrakt aşkarlanmış ideyalar mürəkkəb ideyalar kimi metafizik obyektlərin təsəvvürlərinin yaradılmasına xidmət edir. Rasional teologiyada Allah haqqında təsəvvürlər də məhz hissi qavrayışdan əldə edilmiş əbədi şeylərin sadə ideyalarından ikincili olaraq, təfəkkürün özü-özündə refleksiyasından əldə edilmiş ideyaların abstrakt obyektlərin təsəvvür yaratması kimi meydana çıxır. Buna görə də, Allah ideyasını həm də bütün təbiətdəki əbədi şeylərin sadə ideyalarının məcmusundan aşkarlamaq olar. Lakin təcrübədə şüura məhdud sayda əbədi şeylər təqdim edildiyindən Allah ideyasını sadə ideyalardan aşkarlamaq mümkün olmur. Əbədi şeylərdən ona görə Allah ideyasını aşkarlamaq olar ki, Əbədilik xarakteristikası ilə onlar Allahın bir xarakteristikasını özlərində təqdim edirlər.

Haşiyə: B. Spinoza, "Qısa traktat"

> *"İnsanın Allah ideyasına malik olması, yəqin ki, onun atributlarını dərk etməsi ilə bağlıdır, hansı ki, qeyri-təkmil olan insan tərəfindən yaradıla bilməz."*

B. Spinozanın fikrindəki Allahın atributları Allahın xarakteristikaları və ya onun sifətlərini özündə ifadə edir. Allahın sifətləri xalis predikatdır, yəni subyektlə predikasiya edilməyən predikatdır. Bununla da Allah obyektiv varlıqlardan fərqlənir; hansı ki, obyektiv varlıqda predikat

subyektə predikasiya edilir, yəni onunla vəhdətdə idraka təqdim olunur. Bəs insan Allahın atributlarını - sifətlərini onun bilavasitə iştirakı olmadan necə dərk edə bilir? Təcrübədə gerçəkliklərin idrak prosesində əvvəl obyekt idraka təqdim olunur, sonra idrak prosesində ağıl obyektin atributlarından həmin obyektin həqiqətini idrak edir. Beləliklə, insan əbədi şeylərin sadə ideyasını dərk etdikdə bütün əbədi şeylərdən onların hamısı üçün ümumi olan əbədiliyi də idrak edir. Belə əbədilik çoxluqdan aşkarlanan əbədilik kimi dərk olunur. Sonra insan təklikdən aşkarlanan əbədilik haqqında ideya yaradır. Belə ki, əbədilik əbədi şeylərdən aksidensiya edilir, sonra o mütləq təkə müncər edilir. Bununla da Allahın birinci atributu - Mütləq təkdən idrak olunan **Əbədilik atributu** əldə edilir. İnsan həm də sonsuz çoxluqda olan əbədi şeyləri idrak edir. İnsan ağlı sonsuz çoxluğun ümumi ideyasını dərk edə bilmir və dərkedilməzliyin səbəbi kimi sonsuzluğu aşkar edir. Sonra həmin sonsuzluq əbədi olan mütləq təkə müncər edilir. Buradan da Allahın digər atributu kimi **Sonsuzluq** meydana çıxır. Nəhayət, insan heç bir şeyi mütləq kamil dərk edə bilmir. Mütləq kamillik sonsuzluq və əbədiliklə şərtləndiyindən, insan sonsuz və əbədi olanı mütləq kamillik kimi idrak edir ki, bu da Allahın digər mühüm atributu kimi kəşf olunur. Əməlegəlmə prosesində insan müşahidə edir ki, şeylər bir-birindən fərqli sayda müxtəlif şey əmələ gətirə bilir. Məsələn, bir atanın üç övladı, digərinin beş, başqa birisinin on və s. olur. Mücərrəd olaraq əməlegəlmə əsasında belə nəticəyə gəlinir ki, elə tək bir şey ola bilər ki, o sonsuz çoxluğu əmələ gətirir. Bir şeyin bütün şeyləri əmələ gətirməsi **Yaranma** kimi idrak olunur. Şeylər yarandığı kimi Allah da yaradandır. Beləliklə, Yaratmaq Allahın əsas atributlarından biri kimi təyin oluna bilər.

Haşiyə: B. Spinoza, "Qısa traktat"

> *"Təbiətdə elə mövcudluq vardır ki, bütün atributlar büruzə çıxır; əgər belədirsə, onda yaradılmalı olan hər şeyi yaratmaqdan ötəri ona nəsə çatmaya bilməz."*

Haşiyə: B. Spinoza, "Allah, İnsan və onun xoşbəxtliyi haqqında qısa traktat"

> *"Əgər insan Allah ideyasına malikdirsə, onda Allah formal şəkildə mövcud olmalıdır. Əgər Allah ideyası varsa, onda onun səbəbi formal mövcud olmalıdır və ideyanın obyektiv malik olduğu hər şeyi özündə saxlamalıdır. Allah hər şey olan və ya hər biri özünə görə sonsuz təkmil olan sonsuz atributlara malik mövcudluqdur."*

B. Spinozanın şərhindən görünür ki, əgər ideya varsa, onda həmin ideya formal mövcudluq tələb edir. Formal mövcudluq faktiki mövcudluqdan onunla fərqlənir ki, belə mövcudluq başqa mövcudluqlarla vəhdət təşkil etmir, yəni fikrən qəbul edilən mövcudluq kimi çıxış edir. Hansı ki, istənilən faktiki mövcudluq yalnız başqa mövcudluqlarla vəhdətdə mövcud olur. Beləliklə, Allah heç bir mövcudluqla vəhdət təşkil etmədiyindən o təkdir. Tək olduğundan müqayisə ilə idrakolunmazdır. Bəs Allah ideyasının yaranmasının formal səbəbi nədir? Hissi qavrayışdan əldə edilən hər bir sadə ideyanın səbəbi faktiki mövcudluqdur. Allah faktiki mövcudluq olmadığından, öz ideyasının faktiki səbəbi kimi çıxış etmir. Ona görə də, Allah ideyası təfəkkürün özündən meydana çıxan səbəblə aşkarlanır ki, bu səbəb təfəkkürdən xaricdə səbəbi olan faktiki səbəbdən fərqli olaraq daxilidir və buna görə də fani insanda aydınlaşdığından formaldir. Nə üçün insan Allah haqqında ideyaya gəlib çıxır? İdrak prosesində insan Allahı özünün - Ruhun, hər şeyi dərk edən ağlın əksiliyi kimi, hər şeyə intellektuallıq verən ağıl kimi idrak edir. Əgər fraqmentar Ruh müvəqqəti, qeyri-kamil, orijinal və sonlu bədənlə şərtlənmiş təzahür edirsə, onda onun əksiliyi əbədi, mütləq kamil və ən ümumi xarakteristikalara malik və sonsuzluqla şərtlənmiş olmalıdır. Beləliklə, Ruhun Allah ideyasını yaratmasının səbəbi özünün əksiliyini aşkarlamaq cəhdidir; hansı ki, əksiliklərin vəhdəti qanununa görə, özünün mövcudluğunu təsdiq etmək naminə onu faktiki olaraq özü ilə

ziddiyyətdə və vəhdətdə olan varlıq kimi aşkarlamaq zərurətindədir. Dindən fərqli olaraq, rasional teologiyada Allah ideyası mövcud olan və mövcud ola biləcək hər şeyin məcmusundan aşkarlanır. Təcrübədə insan məhdud sayda reallıqları idrak etdiyindən və yalnız təfəkkürün özü-özündən mümkünlükləri aşkarladığından Allah ideyası yalnız təfəkkürdə abstraksiya ilə aşkarlanır.

Haşiyə: B. Spinoza, "Allah, insan və onun xoşbəxtliyi haqqında qısa traktat"

> *"Bir substansiya başqasını yarada bilməz və bütün atributların ifadə edildiyi Allah mövcuddur; buradan aydındır ki, bütün şeylər onsuz və ya ondan kənarda heç bir şəkildə mövcud ola və dərk edilə bilməz. Bunun nəticəsində biz tam hüquqla deyə bilərik ki, Allah hər şeyin səbəbidir. Məhdud substansiya yoxdur, istənilən substansiya özünəgörə sonsuz təkmil olmalıdır, məhz buna görə Allahın sonsuz ağlında heç bir substansiya onun artıq təbiətdə olduğundan təkmil ola bilməz."*

Əgər B. Spinozanın qeyd etdiyi kimi, bir substansiya digərini yarada bilməzsə, onda onların hər ikisini yaradan qeyri-substansiya və ya istənilən substansiyanı yaradacaq ən ümumi tək bir universal substansiya olmalıdır. Allah məhz hər şeyin substansiyasını yaradan **Substansiyaüstü Varlıqdır**. Allah yalnız substansiyanın səbəbi olduğundan, o bilavasitə emanasiyaya məruz qalmış şeyləri yaratmır, yalnız onların ideyasını - mümkünlüyü yaradır və sonra emanasiya prosesində hər bir ideya spontan və avtonom şəkildə özündə şey kimi təbiətə açılır. Buna görə də, Allahın yaratdığı substansiyalar ən təkmildir. Allahın yaratdıqları ən təkmil olduğundan, onun özü də mütləq təkmildir. Başqa sözlə, Allah ideyasına şeyin substansiyasının təkmilliyindən çatmaq olar; hansı ki, Allahın sonsuz ağlındakı təkmilliklə eyniyyət təşkil edir. Bu da rasional teologiyanın əsas üsulu olmalıdır. Bəs Allah, Spinozanın dediyi kimi, həqiqətən də belədir, hər şeyin səbəbidirsə, onda Allahın öz səbəbi varmı və ya olmalıdırmı?

Haşiyə: *B. Spinoza, "Qısa traktat" - Allah bütün şeylərin birinci səbəbidir, həmçinin özü-özünün səbəbidir - özü-özündən idrak olunur.*

Biz Spinozanın bu mühakiməsi ilə razılaşmırıq.

Birincisi, Allah bilavasitə şüura təqdim edilmədiyindən "özü-özündən dərk olunmur".

İkincisi, Allah ideyası Allah haqqında mütləq həqiqəti özündə aşkarlamır, Allah ideyasının səbəbi təfəkkürdür, çünki bu ideya təfəkkürün özü-özündən aşkarlanır.

Üçüncüsü, Allahın səbəbə ehtiyacı aşağıdakılara görə yoxdur:

- Bundan əvvəlki fəsildə səbəblə bağlı qeyd etdik ki, səbəb mövcudolmanın xarici şərtidir. Mövcudolma reallığın təzahür formasıdır. Allah təbiətdə faktiki mövcudluq olmadığından, onun mövcudolması yoxdur. Əgər mövcudolması yoxdursa, deməli xarici səbəbə ehtiyacı yoxdur. Başqa sözlə, Allahı aktuallaşmayan mütləq fakt kimi təyin edə bilərik. Əgər Allah hər şeyin səbəbidirsə, onda təfəkkürdə yaranan Allah ideyasının da səbəbi Allah özüdür; bu Allahın özü-özünün səbəbi olması demək deyil. Sadəcə Allahın ideyasının yaranması Allahın varlığını sübut edir.
- Təbiətdə şeylərin bir-birinin səbəbi əmələgəlmə ilə bağlıdır. Əmələgəlmə fasiləsiz olduğundan bir şeydən əmələgəlmiş digər şey fasiləsiz səbəbilik əlaqəsinə girir. Ona görə də, hər şeyin səbəbi zəruri olur. Amma Allahın hər şeyin ilkin səbəbi kimi çıxış etməsi Yaranma nahiyəsindədir; hansı ki, şeylər şaquli ox üzrə gedən əmələgəlmədən fərqli olaraq yalnız üfüqi ox üzrə yaranır, yəni Allah əmələgələcək hər bir şeyin ideyasını bir-birinə paralel yaradır. Bununla da özü səbəbiliyin fasiləsizliyindən azad olur, səbəblərin səbəbi kimi çıxış edir. Ona görə də, özü səbəb kimi çıxış etdikdə öz səbəbinin olması zərurətə çevrilmir.

- Səbəb mövcudolmanın xarici şərtidir, Allahdan xaric olmadığından və səbəbi olduğu hər şeyi öz daxilində yaratdığından səbəbsizdir.

Görünən aləmdə əmələgəlmə prosesində bir şey - əmələgətirən, digər şeyin - əmələgələnin başlanğıcı kimi çıxış edir. Buna görə də, hər bir şey başqa şeyə münasibətdə başlanğıc kimi çıxış etdiyindən şeylərin sayı qədər xüsusi başlanğıc aşkarlamaq mümkündür. Yəni görünən aləm başlanğıclar çoxluğu kimi idraka təqdim olunur. Fəlsəfi şüur çox-başlanğıclığı dəf edərək, görünməyən aləmdən - substansial aləmdən ən ümumi başlanğıcları, yəni xüsusi başlanğıcların başlanğıcını aşkarlamağa cəhd edir. Məsələn: İnsan gündəlik həyatda A, B, V çoxluğunda idrak edərkən A-nın başlanğıcını ayrılıqda A1 kimi, B-nin başlanğıcını B1 kimi, V-nin başlanğıcını V1 kimi aşkarlayır və bununla kifayətlənir; yəni düşüncədə fasiləlik yaranır. Cari şüur sonuncu başlanğıcı aşkarlamağı məqsəd seçmədiyindən, idrakı bu istiqamətdə davam etdirmir və başqa təsadüfi çoxluğa, məsələn M, N, L çoxluğuna yönəlir. Filosof bundan fərqli olaraq məqsədyönlü şəkildə A, B, V çoxluğundan birini, məsələn A-nı seçir. Sonra A-nın başlanğıcı kimi A1, A1 başlanğıcı kimi A2-ni, A2-nin başlanğıcı kimi A3 və s. aşkarlayaraq sonuncu A0-a qədər düşüncəni fasiləsiz davam etdirir. A0-da dayanır və bu özündə fərdi şeyin başlanğıcının başlanğıcını təqdim edir.

İnsanın həqiqəti aşkarlaması müdrikliklə reallaşır.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Ümumi rəyə görə müdrikliyin predmeti birinci başlanğıc və səbəbdir. Müdrik o adamı hesab edirik ki, insan üçün asan əlçatmayan və çətin şeyləri dərk edir. Bundan əlavə, istənilən elmdə daha müdrik daha dəqiq və öyrənməyə daha qabiliyyəti olandır. Hər şey haqqında bilgilərin sayılan xüsusiyyətləri daha ümumi formada biliyə malik olanda olmalıdır: belə insana bu biliyin dairəsinə daxil olan şeylərin bütün məcmusu hansısa obrazla məlumdur. Demək olar ki, insan idrakı üçün ən çətini o*

başlanğıcdır ki, o ən ümumi başlanğıcdır: onlar hissi qavrayışdan hər şeydən uzaq olandır. Əsl həqiqətdə daha ilahi elm ən qiymətli olandır. İlahi yalnız bir bu hesab edilə bilər - iki nöqteyi-nəzərdən. Əsl həqiqətdə, ilahi o elmlər hesab edilə bilər ki, hər şeydən daha çox Allah və həmçinin eyni dəqiqliklə - əgər ilahi predmetlər haqqında hansısa elm varsa, o malikdir."

Haşiyə: B. Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

"Əgər insan Allah ideyasına malikdirsə, onda Allah formal şəkildə mövcud olmalıdır. Allah ideyası mövcuddursa, onda onun səbəbi formal olaraq mövcud olmalıdır və ideyanın obyektiv malik olduğu hər şeyi özündə saxlamalıdır. Əgər yalnız insanın uydurması onun ideyalarının səbəbi olsaydı, onda onun üçün nəyisə başa düşmək mümkün olmazdı; amma o nəsə başa düşə bilər. İnsanda ideyanın səbəbi onun saxtakarlığı deyil, onu nəyisə başqasından tez dərk etməyə məcbur edən hansısa xarici səbəbdir."

Aristotelin bu fikirlərindən aydın olur ki, müdriklik insan üçün əlçatmayan, bütün şeylərin hamısının məcmusunun obrazını, ən ümumi başlanğıcı, hissi qavrayışdan ən uzaq olan birinci başlanğıc və səbəbi aşkarlamaq qabiliyyətidir. Aristotelin birinci başlanğıc və səbəb haqqında fikirlərinin ayrı-ayrı müddəalarını bir qədər geniş şərh edək:

İnsan üçün əlçatmaz olan: Burada insan üçün əlçatmaz olanın iki mənasını təyin etmək olar:

a) İnsan üçün təcrübədə əlçatmayan və buna görə də yalnız aprior yolla aşkarlanması mümkün olanlar mənasında.

b) İnsanın aşkarlaması üçün təyin olunmayanlar. Birinci başlanğıc nə üçün təcrübədən aşkarlanmır? Bunun iki səbəbi var: birincisi, təcrübə sahəsində birinci başlanğıc yoxdur, yəni birinci başlanğıc təcrübədən əvvəl mövcud olmuşdur və təcrübəyə keçməmişdir; ikincisi, insan birinci başlanğıcdan çox sonralar yarandığından, birinci başlanğıc haqqında bilavasitə məlumat əldə etmək imkanına malik deyildir. Əgər birinci başlanğıc haqqında bilgilər insan üçün əlçatar olmayan "aşkarlanması

insan üçün təyin olunmayan" həqiqətlərdirsə, onda insan necə onları aşkarlaya bilər? Buradan çıxan nəticə odur ki, insan bilavasitə birinci başlanğıc haqqında bilgi əldə etmək imkanına malik deyil, o yalnız dolayı yolla birinci başlanğıc haqqında təsəvvürlər əldə edə bilər.

Bütün şeylərin məcmusunun ən ümumi obrazı olan: Hər bir ayrılıqda götürülmüş şeyin forması refleksiya yolu ilə təfəkkürdə konkret orijinal obrazlar yaradır. Həmin şeyin vahid obrazı xüsusi obraz kimi meydana çıxır. Tanınma - orijinal obrazların xüsusi obrazlarla tutuşdurulması ilə əldə edilir. Müxtəlif varlıq sıralarından ümumi şeylər meydana çıxır. Ümumi şeylər xüsusi obraz yaratmadığından, onların obrazını müxtəlif **simvollar** əvəz edir. Simvollar - təfəkkürdə yaranan, ümumilərin formasını özündə təqdim edən, abstrakt ümumi obrazlar kimi mövcuddur. Hər bir simvol özündə ümumiləşdirici, yığıcılıq qabiliyyətinə malikdir. Xüsusi obrazlardan fərqli olaraq, simvollar qabaqcadan konkret məna ifadə edir. Buna görə də, şeylərin simvollarla tutuşdurulmasında onların başa düşülməsi - forma ilə mahiyyətinin vəhdətinin anlanılması - mümkün olur. Lakin heç bir simvol əksilik təşkil edən ümumiləri özündə təqdim etmək imkanına malik deyil. Simvollar yalnız eynilik təşkil edən ümumiləri özündə ifadə edir. Ən ümumi şeylər bir-biri ilə eynilik və ya əksilik təşkil edən sonsuz çoxluqdan ibarətdir. Ona görə də onların obrazını sonsuzluq və əksiliklərin vəhdətini özündə ifadə edən təfəkkür məhsulları ifadə edə bilər. Bu vəzifəni yalnız sonsuzluq və əksiliklərin vəhdətini özündə təqdim etmək xarakteristikasına malik ideyalar yerinə yetirir. Şeylərdən əldə edilmiş orijinal, xüsusi və ümumi bilgilərin məcmusu ideyalarla tutuşdurmaqla şeylərin xalis varlığı, xalis fikri, yəni şeylərin özündə aydınlaşdırdığı həqiqət aşkarlanır. Buradan da, ilk başlanğıc haqqında bilginin ideya şəklində aşkarlanmasının mümkünlüyü meydana çıxır; hansı ki, Kainatın ümumi ideyasının əksiliyi kimi aprior yolla əldə edilir.

Ən ümumi biliyə malik olana məlum olan: İnsanlar şüurun formasından və həqiqəti axtarmaq motivindən asılı olaraq ən müxtəlif səviyyəli həqiqətlər aşkarlayırlar. Cari şüurda məqsəd təsadüfi şeylə keçici əlaqəyə girmək olduğundan, belə şüurla ən səthi və keçici, xaotik orijinal bilgilər əldə edilir. Orijinal bilgi yalnız ayrıca bir fərdə məlum olur. Elm zərurətə görə ayrılıqda götürülmüş şeydən onun xüsusi tərəfinin zövqünü və ya tələbatlarını ödəyəcək xüsusi bilgini aşkarlamağa cəhd edir; buna görə də eyni xüsusi bilgiyə görə insanlar elm sahələrində qruplara - peşələrə və ya ixtisas sahiblərinə bölünür. Müxtəlif peşələrin və ixtisas sahiblərinin eyni bir şeyin müxtəlif tərəflərindən əldə etdiyi bilgi ayrı-ayrı fərdlər tərəfindən ümumiləşdirildikdə fəlsəfə meydana çıxır. Fəlsəfə ən ümumi həqiqəti heç bir tələbatını ödəmədən və heç bir zövqünü təmin etmədən, fizikadan həqiqəti tapmaq naminə ən ümumi həqiqəti aşkarlamağa cəhd edir. Metafizika fəlsəfənin aşkarlamağa cəhd etdiyi ən ümumi həqiqətin başlanğıcını öyrənir və bu zaman şeylər haqqında düşünmür. Beləliklə, metafizik bilgilər yalnız filosoflara məlum olur. Filosof olmadan metafizik bilgilərə çatmaq mümkün deyil.

Hissi qavrayışdan ən uzaq olan: Təcrübədə idrak prosesi hissi qavrayışla başlayır. Lakin birincili başlanğıc təcrübəyə keçmədiyindən onun haqqında məlumat hissi qavrayışdan ən uzaq olandan aşkarlanır. Burada hissi qavrayışdan ən uzaq olanı üç mənada başa düşmək olar:

Birincisi, məsafə baxımından hissi qavrayışdan ən uzaq olan: Bu məna "hissi qavrayışdan məsafəyə görə ən uzaq olan" və özündə məkan ölçülüyünü təqdim edir. Məsələn, Kainatın ənginliklərində olanlar hissi qavrayışdan məkan ölçülüyünə görə ən uzaq olandır. Təfəkkür üçün hissi qavrayışdan ən uzaqlıq sonsuzluqdur.

İkinci, zaman baxımından hissi qavrayışdan ən uzaq olan: Bu məna özündə hissi qavrayışın başlamasından əvvəli özündə ifadə edir. Yəni hər hansı bir şeydən hissi qavranılmadan zaman baxımından əvvəl bilginin əldə edilməsi. Bu nəzəriyyə yolu ilə mümkün olur.

Məsələn, Mendeleyev cədvəlində bir çox elementlər nəzəri olaraq qabaqcadan ən ümumi xarakteristikaları müəyyən edilmişdir və bundan çox sonralar həmin elementlər təcrübədə kəşf edilmişdir. Zaman baxımından hissi qavrayışdan ən uzaq əbədilikdir.

Üçüncüsü, hissi qavrayışla qavranılma imkanı ən az olan: Bu məna qavranılma imkanına görə uzaqlığı özündə ifadə edir. Belə ki, biz hissi qavrayışda istənilən şeyi idrak edə bilmirik. Məsələn, işığın və ya səsin məhdud uzunluqda dalğaları görmə və eşitmə ilə qəbul edilir, amma ultra və infra dalğalar analizatorlar tərəfindən tutulmur; buna görə də onlar hissi qavrayışdan ən uzaqda olanlar kimi mövcuddur. Qavranılma imkanı ən az olanın sonu qavramanın mütləq imkansızlığıdır. Hissi qavrayışdan uzaqlıq həm də idrakın pilləliliyi ilə təyin oluna bilər. Yuxarıda idrakın üç pillədən - hissi idrak, demonstrativ idrak və intuitiv idrakdan ibarət olduğunu qeyd etmişdik. Hissi idraka yaxın demonstrativ idrak, uzaq intuitiv idrakdır. Beləliklə hissi idraka ən uzaq olan yalnız intuitiv idrak olunan həqiqətləri özündə təqdim edir.

Beləliklə, birinci başlanğıc və ya səbəbi belə təyin edə bilərik: Birinci başlanğıc və ya səbəb haqqında bilgi - dolayısı ilə, intuitiv idrak mərhələsində, ideya formasında, şeylərdən kənar, hissi qavranılma imkanı olmayan, sonsuz və əbədi obyektdən əldə edilən bilgilərdən ibarətdir. Hansı ki, ümumiləşdirilmiş şəkildə Allah haqqında ideya kimi ifadə edirik.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Bütün şeylərin başlanğıcından əvvəl gələn heç nə mövcud ola bilməz, deməli başlanğıc başqası olan hansısa başlanğıc ola bilməz. Bununla yanaşı şeylərin əksiliklərdən əmələ gəlməsi bütün hallarda bir qədər substratı özündə təqdim edir; deməli, bu sonuncu əksiliklərdə hər şeydən tez üzdə olmalıdır. Deməli bütün əksilik təşkil edən təyinlər həmişə hansısa substrata daxil olur və onlardan heç biri ayrılıqda mövcud ola bilmir. Ancaq hisslərin bilavasitə şahidliyi deyir ki, mahiyyətlər əksilik olmur və mühakimə*

bunu təsdiq edir. Beləliklə, əksiliklərdən heç bir şey tam mənada bütün şeylərin başlanğıcı ola bilməz, bu yer başqasına məxsusdur. Bununla yanaşı bəzi filosoflarda əksiliklərin biri materiya rolunda çıxış edir, məhz biri vahid keyfiyyətində - bərabər kimi - qeyri-bərabərə qarşı qoyulur, hesab edilir ki, məhz çoxluğun təbiəti məhz ondadır, başqaları bu vahid olana çoxluğu əks-ehtimal edir."

Aristotelin əbədi varlıq haqqında mühakimələrindən görünür ki, o əbədi varlığı əksiliklərin vəhdətini özündə təqdim edən substrat kimi təqdim edir. Nə üçün əbədi varlıq məhz əksikliklərin vəhdətini özündə təqdim edir? Əksikliklər bir-birini özündə istisna edən və bir-birinə keçən, buna görə də hər biri sonlu olan tərəflərin mövcudluğunu özündə təqdim edir. Məsələn: ağ və qara. Ağ qaranı özündə istisna etdiyindən ağdır və qara ağ tərəfindən istisna edildiyindən qaradır. Əgər biz ağı tədricən tutqunlaşdırsaq, o tədricən ağlığını itirib sonda qaraya çevriləcəkdir. Bu çevrilmədə ağ itmir, sadəcə öz əksiliyinə çevrilir və əksinə qara eyni qaydada ağa çevrilir. Əksiklər keçicilik xarakteristikasına malik olduğundan əksikliklərin heç bir tərəfi özündə əbədiliyi təqdim edə bilməz. Əksiliyin bir tərəfi özünü tükəndirərək əks tərəfə keçir. Nəticədə, əksiliklərin tərəfi keçici kimi mövcud olur. Amma onların vəhdətində hər ikisindən əbədilik alınır, çünki əksiklərin tərəfləri üçüncü bir tərəfə keçmir və əbədi olaraq bir-birinə keçid vəziyyətində olur. Buradan əksiliklərin vəhdətindən əldə etdiyimiz əbədiliklərdən keçicilik xarakteristikasının uzaqlaşdırılması ilə əksiklərin varlığını özündə ifadə etmiş olur.

İLKİN BAŞLANĞIC VƏ MÜTLƏQ İDEYA

Əgər biz şeylərin formasından onların ilkin başlanğıcını təyin ediriksə, həqiqətən bütün formaların başlanğıcı, onların hər birinə münasibətdə ən təkmil olan hansısa vahid forma olmalıdır.

Məsələn: Həndəsi formaların başlanğıcı kimi **kürəni** başlanğıc forma kimi qəbul etmək olar. Kürə forması bütün digər formalar içərisində

mütləq təkmil formadır, çünki mütləq azad hərəkət qabiliyyətinə malikdir (iqtidarındadır). Buradan da təkmil forma ilə vəhdət təşkil edən təkmil mahiyyət aşkarlanır ki, bu da özündə substrata malik olanı təqdim edir.

Yox, əgər biz şeylərin ilkin başlanğıcını onların özündə aydınlaşdırdığı mahiyyətindən - ideyalarından təyin ediriksə, onda elə təkmil ideya (həqiqət) olmalıdır ki, bütün yerdə qalan istənilən ideya ona münasibətdə nisbi olsun. Başqa sözlə, bütün istənilən nisbi ideyaya münasibətdə mütləq olan ideya, bütün şeylərin birinci başlanğıcını təşkil edənin ideyası kimi qəbul edilə bilər.

"Əksiliklərin vəhdəti" müddəası özündə əksiliklərin əvvəl mövcud olmasını tələb edir; hansı ki, əvvəl olmayan sonranı təşkil edə bilməz ki, sonra onların vəhdəti kimi çıxış etsin. Ona görə də, bir şey ilkin başlanğıcdırsa, ondan əvvəl ola bilməz. Beləliklə, ilkin başlanğıc əksiliklərin vəhdəti kimi mövcud ola bilməz. Əksilik özündə Varlıqla Yoxluğun, maddə ilə ideyanın refleksiyası kimi mövcuddur və yalnız yaranışdan sonra təzahür edir. Yaranışdan əvvəl Varlıq olmadığından və Yoxluq Varlıqla vəhdət təşkil etmədiyindən əksiliklər meydana çıxmır; ona görə də İlkin Başlanğıc **Yoxluqdan** aşkarlana bilər.

Beləliklə, İlkin Başlanğıcı **Mütləq İdeya** kimi, Yoxluqdan aşkarlanan başlanğıc kimi qəbul edə bilərik. Hansı ki, Yoxluq olduğundan təfəkkürdə refleksiya etmir. Təfəkkürdə refleksiya etmədiyindən, o yalnız təfəkkürdə yaradılan ideya kimi aşkarlana bilir. Təfəkkürdə yaradılan ideya olduğundan, şeylərdən aşkarlanan istənilən refleksiv ideya ona münasibətdə nisbi olur.

Birinci başlanğıc və səbəb haqqında bilik - daha ümumi formada, insanlar tərəfindən daha çətin qavranılan, hissi qavrayışdan hər şeydən uzaqda olan, şeylərin bütün məcmusu haqqında daha ümumi formada olan bilikdir. Belə bilik ya hamıdan çox Allahın bildiyi, ya da Allah haqqında bilgidir. Beləliklə, Allah haqqında bilgi Allahın bilgisinin təfəkkürdə refleksiyası kimi meydana çıxır.

Buradan iki şüur forması meydana çıxır:

1. **Din:** Allahın bildiyi bilginin insanlara onların iradəsindən kənar, Allahın özü tərəfindən verilməsi.
2. **Metafizika:** Allah haqqında bilginin insan tərəfindən iradəvi əldə edilməsi.

Bilik intellektin təzahür formasıdır. Buna görə də deyə bilərik ki, Allah haqqında təkmil bilgi **Ali İntellektin** təzahürü kimi mövcuddur.

Haşiyə: Q.V. Leybnits, "Səbəblərin tədqiqinin anaqoji (anagogical) təcrübəsi"

> *"Filosofları da, teoloqları da ali səbəbə aparan anaqoji adlanır. Beləliklə, burada biz onu sübut etməyə başlayırıq ki, təbiətin qanunlarının əsasını başa düşmək yalnız hansısa ağıllı səbəbin mövcudluğunu ehtimal etməklə mümkündür."*

Q.V. Leybnitsin fikirlərini necə başa düşmək olar? Leybnitsin "fasiləsizlik qanunundan" və insan idrakının "heç nə əsassız olmur" prinsipindən çıxış etsək, onda demək olar ki, intellektin formalaşması da fasiləsizdir və əsasa malikdir. Son səbəb - ağılda refleksiya olunan fərdi şeyin intellektuallığıdır. Yəni hər hansı bir şey özündə ideya kimi formalaşdırılması mümkün olan xarakteristikaya malikdirsə, bu xarakteristika **"şeyin ağlı"** kimi təyin oluna bilər. "Şeyin ağlı" fərdin ağlında refleksiya olunan şeyin mahiyyəti və ya həqiqətidir. Bundan fərqli olaraq, şeyin forması ağılda refleksiya olunmur; ona görə də xalis forma "özü-üçün-varlıq" təyini kimi xalis heçlikdir. Başqa sözlə, fərdi intellektin əsası fərdi şeyin ağlıdır. Əgər şeyin ağlı fərdin ağlında refleksiya olunursa, fasiləsizlik qanununa görə, onda onun özü də nəyinsə refleksiyasıdır; hansı ki, bu refleksiya ilk başlanğıc həqiqət olub, özündən əvvəlki olmadığından həm də özü-özündə refleksiya kimi mövcuddur. Biz bunu Allah ideyasının əsas elementi - **İlahi Ağıl** hesab edirik.

Bəs Allahın ağlı, onun biliyi insanın ağlından və biliyindən necə fərqlənir?

Haşiyə: Q.V. Leybnits, "Orta bilik"

> *"Allahın biliyi qeyri-təkmil və aposterior öncəgörmədən ibarət deyil, səbəblərin idrakından ibarətdir və o apriordur. Skotun "İlahi ağıl qabaqcadan təyin etmədiyi heç nəyi (faktiki şeylərdən) dərk etmir, əks halda o mənasızlaşardı" fikri gözəldir. Bəhsində "iradə iki obyektdən ləyaqəti daha güclü təqdim olunanı seçir" fikri də çox görkəmli deyimdir."*

Beləliklə, biz İlahi intellektin insan intellektindən daha bir fərqini ayırd etmiş oluruq. İlahi ağıl yalnız səbəbləri dərk edir (burada dərketmə o mənada deyil ki, bu səbəblər ondan kənarda yaranır və İlahi onu dərk edir; o mənadadır ki, o özü bu səbəbləri yaradır) və nəticə meydana çıxmadığından bilavasitə xalis səbəblərdən aşkarlanan həqiqətlər aprior həqiqətlərdən ibarət olur. Allah nə üçün yalnız səbəbləri dərk edir, nəticələri yox? Yaranışda bilavasitə ideyalar yaradılır. Əmələgəlmədə emanasiya baş verdiyindən forma heçlik kimi meydana çıxır; hansı ki, özündə nəticəni təqdim edir. Beləliklə, nəticə heçlik olduğundan İlahi intellektdə heçlik haqqında bilgi saxlanmır; məhz buna görə insan forma-ya təsir etmək imkanına malik olur. Aposterior həqiqətlər nəticə ilə vəhdət təşkil edən səbəblərdən təşkil olunur; hansı ki, belə həqiqətlər təcrübədə nəticələrdən keçməklə dolayı yolla səbəblərdən həqiqəti dərk edir.

Haşiyə: Ciordano Bruno, "Səbəblər, başlanğıclar və tək haqqında"

> *"İntellektin üç növü vardır: İlahi - hansı ki, olan hər şeydir; Dünyəvi - hansı ki, hər şeyi edəndir; Qalanlar - xüsusi, hansı ki, hamı olur."*

C. Brunonun yuxarıdakı izharından aydın olur ki, o intellektin üç səviyyəsini və ya növünü ayırd edir:

1. **İlahi intellekt:** Ən kamil, ən total, ən universal intellektdir. Hansı ki, mümkün və real olan hər şeyin başlanğıcıdır. İlahi intellekt **yaradıcıdır**. İlahi intellekti C. Bruno "olan hər şey" kimi təyin edir.

Hər şey olan intellekti biz başlanğıc intellekt adlandıra bilərik; hansı ki, bir tərəfdən bütün hər şeyi var edir, digər tərəfdən hamını yaradır və hamını hər şeyi dərk etməsinə, yəni yenidən ilahi intellektin sintezinə sövq edir.

2. **Dünyəvi intellekt:** Bu intellekt yalnız reallıqların ən ümumi qaydaları kimi mövcuddur və Kainatda mövcud olan hər şey bu qaydalara görə əmələ gəlir. Dünyəvi intellekt **əməlgətiricidir** və İlahi intellektə nisbətdə hissəvidir, qeyri-kamildir və xüsusidir. C. Brunonun "hər şeyi edən" adlandırdığı intellekt yalnız "hər şey olan"dan hər şeyi edir. "Hər şey olan" bütün mümkünlüklər, "hər edilən şey" isə reallıqlardan ibarət olur.

3. **İnsani intellekt:** İnsan intellekti dünyəvi intellektlə vəhdət təşkil edərək ilahi intellektə çatmağa cəhd edən ən aşağı səviyyəli intellektdir. Spesifikdir, fərdidir. İnsani intellekt insanlarda olan orijinal ağıldır; hansı ki, hamını meydana çıxarır. Hamı təcrübədə hər şeyi edən ağlı - dünyanın ümumi ruhunu, yəni dünyanın ən ümumi qanun-auyğunluqlarını öyrənməklə özü də "dünyanı edən" intellektə malik olur və bu intellekt sənət yolu ilə təbiətdə olmayan təxsis (süni) ətrafı yaradır.

Hegelin qeyd etdiyi kimi, Allah Təbiət və Ruhdan daxilolma üsulu ilə aydınlaşdığından, Allahın rasional kəşfi ya Təbiətin mahiyyətindən, ya da Ruhun təbiətindən aşkarlana bilər. Ruhla Təbiət əksilik təşkil etdiyindən onların hər birindən Allahın aşkarlanması fərqli üsullarla mümkün olur.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Üç mahiyyət vardır: bir tərəfdən hisslərlə qavranılanlardır (bunlardan biri əbədi, digəri keçicidir), hamı tərəfindən eyni etiraf olunandır (məs. bitkilər, heyvanlar) - belə mahiyyətlər üçün onların elementini göstərmək lazımdır, ya bir, ya da bir neçə; bundan başqa hərəkətsiz mahiyyət vardır, o müstəqil mövcudluğa malikdir. Hisslərlə qavranılan mahiyyət dəyişilməyə məruz qalmışdır və bu dəyişilmə bir-birinə əks olan və ya onlar*

arasındakı aralıq üzvlər tərəfindən baş verir; bu zaman əksduranlar sayından istəniləndən yox, yalnız biri digərinə əks durandan başlayır."

Beləliklə, Aristotelin fikirlərindən göründüyü kimi, təbiətdən aşkarlanan Allah ideyası dəyişilməyə məruz qalan mahiyyəti təqdim edir, ona görə də belə həqiqət mütləq ola bilməz. Başqa sözlə, təbiətdən aşkarlanan Allah ideyası dəyişkənlik və təkmilləşmə xarakteristikasına malik olur. **Hərəkətsiz mahiyyət** - dəyişməyən mahiyyətdir. Təbiətdən dəyişməzlik təzahür etmədiyindən, hərəkətsiz mahiyyət yalnız təbiətdən kənarda aşkarlana bilər. Dəyişmədiyindən belə mahiyyət daha çox zərurətə görə aşkarlanan mahiyyət kimi çıxış edir. Hərəkətsiz mahiyyət - əksiliyi olmayan və ya özünə başqa mümkünlüklərin (mahiyyətlərin) realizasiya üsulunu buraxmayan və təklikdə mövcud olana xas mahiyyətdir; hansı ki, Allah ideyasının mənasını təşkil edir. Aristotel Allah ideyasına istənilən maddi şeyin hərəkətinin xüsusi səbəbini axtarmaqla, "birinci hərəkətverici" kimi gəlib çıxmışdır və məqsəd Allahın təbiətini yox, hərəkətin təbiətini şərh etmək olmuşdur. Buna görə də bir çox səhvlər və dolaşıqlıqlar yaranmışdır. Aristotel fəlsəfəsində Allah ideyası inkişaf etdirilməmişdir. Əksinə, sonrakı dövrlərin materialistləri bu ideyanın inkarı üzərində Allah ideyasına münasibət bildirmişlər.

İstənilən hərəkət nədən başlaya bilər? Əgər təbii hərəkətlərin başlanğıcı da hərəkətli qəbul olunsaydı, onda ilkin hərəkətvericini sonsuzluğa qədər aşkarlamaq mümkün olmazdı. Ona görə də, hərəkətin mənbəyi özünün əksiliyindən - **sükunətdən** aşkarlana bilərdi ki, bu zaman sükunət ilkin səbəb kimi, hərəkət nəticə kimi meydana çıxır. Beləliklə, Allah ideyası əbədi mütləq sükunəti özündə ifadə etmiş olur.

Ruh təbiət sferasına daxil olmadığından Allah ideyası Ruhdan mümkünlük kimi aşkarlana bilərdi; bu zaman Ruhun bir çox keyfiyyətləri Allah ideyasının əsasına daxil edilmiş olur. Beləliklə, Ruhla Allah

arasında az qala eyniliyin qəbul edilməsi bu ideyanın Ruhun mümkünlüyündən aşkarlanması ilə bağlı olmuşdur.

Metafizika Allah ideyasını ya təbiətdən, ya da Ruhun təbiətindən çıxarır.

Haşiyə: Ciordano Bruno, "Səbəblər, başlanğıclar və tək haqqında"

> *"Fəaliyyət göstərən səbəb, ən ümumi fiziki fəaliyyət göstərən səbəb - bu ən ümumi ağıldır, hansı ki, dünya ruhunun birinci və başlıca qabiliyyətidir, onun ən ümumi forması kimidir. Ən ümumi ağıl - bu dünya ruhunun potensial hissəsi və daxili, real və xüsusi qabiliyyətidir. Bu onun özüdür ki, bizim ağlımızın ağlında ideyanı yaratdığı kimi, hər şeyi doldurur, kainatı işıqlandırır və təbiəti öz növlərini yaratmağa oyandırır. Bu ağıl özündən nəsə materiya bildirir və verir, sakit və hərəkətsiz qalaraq hər şeyi yaradir. Şeylərin başlanğıcının əsasına keçmək üçün əvvəlcə mən fəaliyyət göstərən səbəblə artıq sübut olunmuş məlum obrazla eynilik kimi forma haqqında mühakimə aparacağam; belə ki, dünya ruhunun potensiyalarından biri kimi intellekt, artıq bütün təbii şeylərin yaxın fəaliyyət göstərən səbəbi adlandırılmışdır. Hansı formada bir və eyni subyekt bütün təbii şeylərin səbəbi və başlanğıcı ola bilər? Necə o daxili şəkildə aid ola bilər, nəinki xarici?. Canlandıran və formalaşdıran olduğundan kainatın ruhu hissə olmur, başlanğıc mənasına yox, səbəb mənasına malik olur."*

Beləliklə, təbiətdən Allah ideyası Ümumdünya Ruhundan çıxarılır; hansı ki, bu Ruh Kainatı yaradır, işıqlandırır və öz növlərini yaratmağa sövq edir. Bu zaman özü sakit və hərəkətsiz qaldığından, özündə materiyaya nəsə verərkən ondan kənarda qalır. Yəni materiyadan Allahın izləri aşkarlanır, amma Allah ideyası yalnız "təbiətdənsonra"dan, yəni metafizikadan aşkarlanır; belə aşkarlamada Allahın izlərini daşıyan təbiət bir nümunə rolu oynayır və insan bu izlərdən Allah ideyasını aşkarlayır. Allah təbiəti yaratdıqdan (Dünya Ruhu formasında) sonra, Dünya Ruhu özü Kainatı əmələ gətirir və onu idarə edir. Ümumdünya Ruhu İlahini özündə refleksiya edərək, Plotinin qeyd etdiyi kimi, "bizim ruhumuzun bizim

bədənimizə ağalıq etdiyindən daha asan, Dünya Ruhu kainat üzərində ağalıq edir".

Allah ideyası həm də Ruhun təbiətindən aşkarlanır. Ruh özü "təbiətdənsonra" təzahür etdiyindən, Ruhdan Allah ideyası materiyadan fərqli olaraq daha təkmil və hərtərəfli aşkarlana bilir. Başqa sözlə, Allah Ruha özündən nəsə verir və materiyadan fərqli olaraq, bu zaman Ruhda bəzi fəaliyyət və hərəkətlərini saxlayır. Nəticədə, Ruh Allahın bəzi fəaliyyət və hərəkətlərinə uyğun fəaliyyət göstərir və hərəkət edir. İnsanın ağlı, yaradıcılığı, qabiliyyətləri və s. kimi keyfiyyətləri məhz Allahın bəzi sifətlərinə yaxındır, hansı ki, materiya belə qabiliyyətlərdən məhrumdur. Bu baxımdan Ruhdan aşkarlanan Allah ideyası materiyadan aşkarlanan Allah ideyasından daha dəqiq və daha aydındır.

Kainatın Ruhu ilə İnsan Ruhu arasındakı fərq nədən ibarətdir?

Haşiyə: Ciordano Bruno, "Səbəblər, başlanğıclar və tək haqqında"

> *"Əgər bizim ruhumuzun intellektual potensiyası bədəndən ayrılıqda mövcudluq ola bilərsə və əgər o fəaliyyət göstərən mənaya malikdirsə, onda xüsusən Dünya Ruhuna münasibətdə təsdiq etmək zəruridir: Dünya Ruhu ilə insan ruhunun idarəetmə üsulları arasında böyük fərqliliklər vardır. Biri buxovlanmayan kimi dünyanı elə şəkildə idarə edir ki, özü üzərində ağalıq etdiyi şeylərlə bağlı olmur; o başqa şeylərdən məruz qalmır və başqa şeylərlə birlikdə ziyan görmür; o çətinliksiz ali şeylərə gətirilir; bədənə həyat və təkmillik verir, ondan heç bir təkmillik almır və ona görə də bir və eyni predmetlə bağlıdır. İkinci isə əks şərtlərdədir."*

Beləliklə, insan ruhu tək bir predmetə - bədənə buxovlanır, onu idarə edərkən onunla əlaqələnir, başqa şeylərin təsirinə məruz qalır və bədən məhv olduqda mövcudluq üsulundan məhrum olur. Dünya Ruhu ayrılıqda götürülmüş heç bir şeyə bağlanmır, onların hamısını birlikdə idarə etdiyindən şeylərin birinin məhv olmasından ziyan görmür. İnsan Ruhu Kainat Ruhundan fərqli olaraq yaratmaq qabiliyyətinə malikdir.

Kainat Ruhu yalnız əməlgətirmək qabiliyyətinə malikdir. Kainat Ruhu ilə Vahid İnsanlıq Ruhu arasındakı fərq rasionallıqla irrasionallıq arasındakı fərqi özündə təqdim edir.

Haşiyə: A.N. Uaythed, "Proses və reallıq"

> *"Spekulyativ fəlsəfənin idealının həm rasional, həm empirik tərəfi vardır. Rasional tərəf "bağlayıcı" və "məntiqi" terminləri ilə, empirik tərəf "tətbiq edilən" və ya "adekvat" terminləri ilə ifadə olunur. Amma əgər "adekvat" termininin əvvəl izah olunan saxladığı qeyri-müəyyənliyi dəf etsək, hər iki tərəf bir yerdə birləşir. Fəlsəfi sxem bütün təcrübədən universallığın öz xüsusi təminatı olması mənasında "zəruri" olmalıdır; bu zaman biz bilavasitə mahiyyətlə kontakta girməklə özümüzü məhdudlaşdırırıq. O şey ki belə təmasa girmir, dərk olunmayandır; dərk olunmayan isə - dərk olunmamışdır. Ona görə də "kommunikasiya" ilə təyin olunan universallıq kifayət olacaqdır. Universallıqda bu universallıq doktrinası onu bildirir ki, Kainatda onun özündən kənarla, onun rasionallığının pozulması olacaq hər hansı qarşılıqlı münasibətə imkan verməyən mahiyyət vardır. Spekulyativ fəlsəfə məhz belə mahiyyəti axtarır. Filosoflar bu metafizik başlanğıcı hansısa qəti şəkildə formalaşdırmağa cəsarət etmirlər. Özü-özlüyündə dərkolunmaz belə ilk başlanğıc yoxdur."*

A.N. Uaythedin fikirlərindən görünür ki, adekvatlıq terminindən qeyri-müəyyənliyi dəf etdikdə rasionallıqla irrasionallıq (empiriklik) bir yerdə birləşərək universallıq keyfiyyəti yaradır. Bu universallıq özündə onu bildirir ki, Kainatda onun rasionallığını, bununla da universallığını ləğv edəcək, özündən kənarla birləşməyə imkan verməyən mahiyyət vardır. Burada sual meydana çıxır: Kainatdan kənar olan nədir və Kainatda olan, amma onu kənarda olanla birləşməyə qoymayan mahiyyət nədir?

Kainatdan kənar bir tam kimi Kainatın totallığının əksiliyidir; hansı ki, Kainatı təyin edənlərin inkarı ilə aşkarlana bilər. Kainatdan kənar olan bizim təmas edə bilməyəcəyimizdir, çünki bizim təmasımız Kainatdakı

şeylərlə məhdudlaşmışdır. Biz yalnız təmas etdiklərimizi dərk etdiyimizdən, təmas edə bilmədiklərimizi təmas edə bildiklərimizdən fərqli üsulla aşkarlaya bilərik. Hansı ki, Uaythedin dediyi kimi, söz və frazanın ən ümumiliyindən aşkarlamaq mümkündür. Məhz bu cür ən ümumiliyə çatan sözlər metaforlar kimi mövcud olub, bizim Kainatdan aldığımız bilginin metamorfozasını təmin edir. Başqa sözlə, Allah ideyası Kainat ideyasının metamorfozası kimi aşkarlanır.

Metafizika fəlsəfədən fərqli olaraq Allah ideyasını çoxluqdan aşkarlamır. O, yaranış prosesində başlanğıcı öyrəndiyindən, **"ümumi başlanğıcların başlanğıcı"** haqqında təsəvvürləri birbaşa əldə etməyə cəhd edir.

Haşiyə: Ciordano Bruno, "Prinsiplər, başlanğıclar və tək haqqında"

> *"Allahı birinci başlanğıc adlandırarkən biz bir və eyni şeyi müxtəlif mənalarda düşünürük; nə zaman ki, biz təbiətdə başlanğıc və səbəb adlandırırıq, biz müxtəlif şeyləri müxtəlif mənada düşünürük. Biz Birinci Başlanğıcı Allah adlandırırıq, belə ki, ondan aşağıda bütün şeylər müəyyən qaydaya və ya gec, və ya öz təbiətinə, sürəkliliyinə və ləyaqətinə görə olur. Biz Allahı birinci başlanğıc ona görə adlandırırıq ki, bütün şeylər fəaliyyət göstərəndən fəaliyyətin, istehsal olunan şeyin istehsalçıdan fərqləndiyi qədər fərqlənir. Bu iki məna fərqlidir, belə ki, heç də əvvəl mövcud olan və daha layiqli hər şey sonra mövcud olan və az ləyaqətli olanın səbəbi olur və səbəb olan istənilən şey, yaxşı mühakimə edə bilən tamamilə aydın olan, səbəbilikdən əvvəl və daha layiqli olur."*

DİNİ ALLAH İDEYASI İLƏ METAFİZİK ALLAH İDEYASININ MÜQAYİSƏSİ

Rasional teologiya teologiyadan nə ilə fərqlənir?

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Fəlsəfənin və dinin predmeti həqiqətdir və məhz sözün ali mənasında həqiqətdir - o mənada Allahdır və yalnız bir o həqiqətdir."*

Hegelin bu fikirlərindən göründüyü kimi, Allah ideyası həm dində, həm də fəlsəfədə tək bir həqiqət kimi aşkarlanan ideyadır. Tək bir ideya özündə bütün həqiqətlər çoxluğuna nisbətdə aşkarlanan ideyadır, hansı ki, biz bunu **Mütləq Həqiqət** kimi qəbul edirik. Mütləqlik özündə elə totallığı ifadə edir ki, insan ağlı belə totallığı dərk etmək imkanına malik deyil. Belə imkana malik olmadığından bu ideya ilə barışır. Yəni, onu elə-belə də qəbul edir. Həqiqət əksiliklərdən aydınlaşır və reallıqlar aləmində əksiliklərin tərəflərindən aydınlaşan həqiqət bir-birini təkzib edir. Məsələn, bir şey ağdırsa, deməli o qara deyil. Lakin İlkin Başlanğıc vahid həqiqət olduğundan, onda əksiliklərin hər iki tərəfi üçün ümumi olan həqiqət aydınlaşır.

Beləliklə, Allah ideyası Varlıq və Yoxluğu eyni anda özündə təqdim edən ideyadır. Buna görə də "Allah Yoxdur" və "Allah Vardır" fikirləri eyni dərəcədə Allah ideyasının mənasına daxil olur. Yəni, Allah mövcudluq kimi yoxdur, amma Yoxluq kimi vardır. **"Allah mövcudluq kimi yoxdur"** mühakiməsi özündə onu bildirir ki, o maddi deyil və təbiətdən təzahür etmir. **"Yoxluq kimi vardır"** özündə onu bildirir ki, Allah Ruhdan təzahür edir, yəni təfəkkürün özü-özündə refleksiyası ilə Allah ideyası aşkarlanır.

A.N. Uaythed Allah ideyasını konkretləşdirmə prinsipində rola görə postullaşdırır.

Haşiyə: A.N. Uaythed, "Elm və müasir dünya"

> *"Biz həqiqətə onun tükənməz mümkünlüklərə əhəmiyyətli münasibətindən çatırıq. Həqiqətin hər bir təzahürü məhdud mümkünlükdür və buna görə məhdudlaşma şeylərin vəhdətindən formalaşmış spesifik dəyərdən əmələ gəlir. Tək-tək təzahürlər, əgər*

onları bir-birindən təcrid olunmuş kimi şərh etsək, mövcud deyil. Ümumitamlığın aktuallığı bir-birindən təcrid olunmuş əbədi obyektlərin məcmusu və ya həqiqətin bütün təzahürləridir."

A.N. Uaythedin fikirlərindən görünür ki, Allah ideyası özündə tükənməz - sonsuz və əbədi mümkünlüklərin məcmui ideyası kimi meydana çıxır. Kainatda mövcud olanlar isə bu tükənməz mümkünlüklərdən yalnız birini özündə aktuallaşdırmaqla reallığa çevrilir. Beləliklə, Allah ideyası özündə ayrılıqda götürülmüş tək bir şeyin əksiliyi kimi, bütün şeylərin məcmusundan və vəhdətindən aydınlaşan **Təki** təqdim edir. Yəni, ayrı-ayrı şeylərin təkliyindən şeylərin fərqliliyini kənarlaşdırmaqla əldə edilən xalis təklik özündə Allahın əsas xarakteristikasını təqdim edir. Beləliklə biz Allah ideyasını mümkünlüklərin təyinindən aşkarlaya bilərik. Biz həqiqətin əsas xarakteristikası kimi mümkünlüyü təyin edirik. Mümkünlüklər iki yolla aydınlaşır:

- **a. Xalis mümkünlük - potensiya:** Belə mümkünlük qeyri-hissi və qeyri-maddi üsulla aşkarlandığından xalis abstraktdır.
- **b. Qarışıq mümkünlük - reallıq:** Belə mümkünlük potensiyanın aktuallaşmasından, yəni mümkünlüklə imkanın vəhdətindən meydana çıxır və hissi qavranılan maddi şeylərin əsasını təşkil edir və konkretdir.

Haşiyə: Ciordano Bruno, "Səbəblər, başlanğıclar və tək haqqında"

"Mümkünlük reallığa bərabər deyil, belə ki, reallıq məhduddur, mütləq deyil. Bundan başqa, mümkünlük həmişə bir reallıqla məhdudlaşır, belə ki, o heç vaxt birdən artıq spesifikasiya olunmuş və xüsusi varlığa malik deyil. Başlanğıcda devrilmiş istənilən mümkünlük və reallıq birləşmişdir və təkdir, başqa şeylərdə açılmışdır, yayılmışdır və çoxalmışdır. Kainat birinci reallığın və birinci mümkünlüyün kölgəsindən başqa bir şey ola bilməz. Hər halda onda mümkünlük və reallıq mütləq şəkildə bir və eyni ola bilməz, belə ki, onun heç bir hissəsi ola biləcək hər şey deyil. Bundan başqa, o spesifik şəkildə, Kainat açılana, yayılana və fərqləndirici üsula uyğun olandır. Onun başlanğıcı vahid və fərqsiz

formadadır, belə ki, hər şey hər şeydir və bir və eyni sadə şəkildə fərqsiz və fərqdir. Birinci mütləq başlanğıc nəhənglikdir, ölçüdür; belə nəhənglik və belə ölçü ola biləcək hər şeydir. O, böyük və ya kiçik ola biləcək və ya ola biləcək hər şey olmayan, bütün digər bölünən ölçülər kimi bölünəcək ölçü deyil. Bu nəhəngliyin, kiçikliyin, sonsuzluğun, bölünməzliyin və istənilən ölçünün ölçülüyüdür."

C. Brunonun yuxarıdakı fikirlərindən görünür ki, Allah ideyası mümkünlüklə reallığın vəhdətini özündə təqdim edir. Hansı ki, yaranış prosesində mümkünlüklə reallıq bir-birindən ayrılmış, reallıq Kainatı təşkil edən şeylərin təbiətinə, mümkünlük Ruhun təbiətinə keçmişdir. Reallıq açılaraq şeylərə yayılmış, çoxalmışdır; bunun əksinə, mümkünlük açılmadan, yayılmadan, çoxalmadan fərdi insanlıq ruhunun təbiətinə keçmişdir. Beləliklə, hər bir fərdin ruhu bədənlə və ətrafla şərtlənməklə orijinallaşır və buna görə də tək bir insanlıq ruhunu nisbi şəkildə özündə təqdim edir; hansı ki, tarixi inkişafda orijinallaşmış Ruh universallaşaraq vahid mümkünlük kimi yaranır.

Allah ideyası həm birincili olaraq - mümkünlüklərdən, həm də ikincili olaraq - reallıqlardan kəşf edilir. **Birincili Allah ideyası** təbiətdən və ruhdan keçmədən xalis fikir kimi təfəkkürdən aşkarlanır. Yəni əgər biz başlanğıcların başlanğıcını, səbəblərin səbəbini dialektik yolla yox, birbaşa aşkarlayırıqsa, onda bu birincili Allah ideyası kimi meydana çıxır. Yox, əgər biz təbiət və ruh kimi aşkarlananlardan dialektik yolla Allah ideyasını aşkarlayırıqsa, onda bu **ikincili Allah ideyası** kimi meydana çıxır.

Mütləq Yoxluq, yəni Allah ideyası haqqında məlumat insana iki formada aydın olur:

1. **Bilavasitə Varlıqdan keçmədən**, ondan kənar, Ruhda bilavasitə aydınlaşma ilə. Bu cür aydınlaşmadan Allahın dini ideyası yaranır. Dinin Allah ideyası bilavasitə Allahın özündən çıxır və bilavasitə Ruhda aşkarlanır.

2. **Dolayısı ilə**, yəni mövcudluqdan keçməklə. Həqiqi fəlsəfə Allah ideyasını mövcudluqlardan keçməklə - yəni onun o tərəfinə keçməklə aşkarlayır. Fəlsəfənin Allah ideyasını aşkarlama yolu: "Düşünən Mən" → Gerçəklik → Reallıq → Mövcudluq → Varlıq → Allah xətti ardıcıllığı üzrə davam edir.

Metafizika Allah ideyasını mövcudluqdan keçmədən birbaşa Varlıqdan keçməklə dolayı yolla aşkarlayır. Nəticədə, metafizik yol "Düşünən Mən" → Varlıq → Allah kimi aşkarlanması fəlsəfi yola görə qısalır.

Dində Allah özü öz ideyası haqqında məlumat verdiyindən, dini şüur həmin məlumatla məhdudlaşır. Allahın dini yolla aşkarlanmasının yolu daha qısadır: Allah → Düşünən Mən. "Düşünən Mən-Allah" kimi belə məlumatı tənqid etmək mümkün deyil, çünki onda insan Allahla tərəfmüqabil kimi çıxış edir və onun ideyasının aşkarlanmasında onunla eyniləşmiş olur. Bu isə Allahın ideyasına ziddir. Amma fəlsəfədə Allah ideyası dolayısı ilə və ayrı-ayrı şəxslər tərəfindən aşkarlandığından və heç bir adamın ideyası mütləq həqiqətə çatmadığından tənqid oluna bilər. Buradan da iki cür Allah ideyasını aşkarlayırıq:

1. **Doqmatik** - dinə xas vəhy şəklində aşkarlanan Allah ideyası.
2. **Kritik** - kəşf formasında aşkarlanan Allah ideyası.

Buna görə də, başlanğıcların başlanğıcı dində müxtəlif dillərdə eyni bir məna verən "Allah" anlayışı ilə, fəlsəfədə bir-birindən fərqli mənalara malik müxtəlif anlayışlarla (məsələn, Aristoteldə - "İlkin Hərəkətverici", Q. Leybnitsdə - "Təkmil Varlıq", Ş. Qrofda - "Ali Şərtsiz Şüur" və s.) ifadə olunur. Beləliklə, Fəlsəfə çoxlu və müxtəlif Allah ideyası aşkarlayır, bu da Allah ideyasının özündə çoxlu ziddiyyətlər saxlaması deməkdir ki, bu da həqiqətin aşkarlanma qaydasına ziddir. Bunu dəf etmək üçün metafizika fəlsəfədən fərqli olaraq Allaha sifət verməkdən imtina edir.

Haşiyə: *F. Şelling, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar" - Zəif o ağıl deyil ki, o Allahı dərk etmir; zəif odur ki, onu dərk etmək istəyir.*

F. Şellinqin fikirlərindən çıxış edib deyə bilərik ki, Ağlın Allah ideyası özündə həmin ideyanın mütləq dərkedilməzliyini təqdim edir. Metafizik Allah ideyası özündə bizim haqqında heç nə bilmədiyimiz və heç vaxt bilə bilməyəcəyimiz **Mütləq Yoxluğu** özündə təqdim edir.

Yoxluğun bir neçə mənasını ayırd etmək olar:

Məkanda yoxluq və ya maddilik xarakteristikası olmamaq: Belə yoxluq materiyanın əksiliyi kimi mövcuddur və hissi qavranılan maddi şeylərin əksiliyi kimi qeyri-hissi qavranılan qeyri-maddi şeyləri özündə təqdim edir. Məsələn: Sahə.

Zamanda yoxluq və ya idrak imkanı olmamaq: Hər hansı bir şey məkanda ola bilər, amma təcrübədə idraka təqdim olunmadığından dərk oluna bilməz. İdrak təzahür etməmişdən əvvəl hər şey yoxluq olmuşdur.

İntellektual olmayan - heçlik kimi yoxluq: İrreallıqların intellektuallığı, yəni idrak olunma keyfiyyəti olmadığından yoxluğu təşkil edirlər. Belə Yoxluq başqa şeyə keçmədən idrak aktından çıxanları özündə ifadə edir. Məsələn: kölgə, yuxu və s.

Məkan və zamanda yoxluq və ya Mütləq Yoxluq: Belə yoxluq məkan və zaman şərtində olan bütün şeylərin əksiliyi kimi mövcuddur. Məkan və zamanla şərtlənmədən kənarda olan yoxluq, məkan və zaman şərtində olan varlığın əksiliyi kimi varlıqdır. Buradan da, Allah ideyası məkan və zaman şərtlərindən kənarda aşkarlanmasını tələb edir.

Haşiyə: A.N. Uaythed, "Elm və müasir dünya"

"Aristotelin Allah-ilkinhərəkətvericisinin yerinə biz Allahı konkretləşdirmə prinsipi rolunu oynayan kimi postullaşdırırıq. Belə mövqe yalnız ümumi nəticələrin müzakirəsi ilə sübut oluna bilər, hansı ki, real təzahürlərə münasibətdə etmək olar; başqa cür desək, proseslərin realizasiyasına münasibətdə."

Biz həqiqətə onun tükənməz mümkünlüklərə əhəmiyyətli münasibətindən çatırıq. Əbədi obyektlər konkretləşmənin hər bir növünün formalaşmasına daxil edilən və ya çıxarılan həqiqətin təzahürünün iyerarxik strukturunu verir. Beləliklə, biz tək təzahürlərin mümkünlük terminində necə ifadə olunmasını və mümkünlüyün necə tək həqiqi təzahürlərin terminində ifadə olunmasını göstərə bilərik. Amma tək təzahürlər, əgər təcrid olunmuş kimi şərh etsək, mövcud deyil. Aktuallıq bütöv tam olaraq bir-birindən təcrid olunmuş əbədi obyektlərin və ya həqiqətin bütün təzahürlərinin birgəliyidir. Hər bir təzahürdə əbədi obyektlərin qəfil sintezi özündə həqiqətin, əbədilik sferasına xas olan analitikliyin daxil edilməsini təqdim edir. Həqiqi təzahürlərin qarşılıqlı nisbiliyi çərçivəsinə daxil olan, məhz bu realizə olunmuş məsafəliliyin xarici nisbiliyi, hər bir təzahürdə əbədi münasibətlərin bütün dolğunluğunu əhatə edir. Mən bu qəfil realizasiyanı "nizamlanmış tədbirlilik" (*envisagement*) adlandırıram; hansı ki, hər bir təzahürü öz sintezində tutur. Bu nizamlanmış tədbirlilik izah edir ki, necə həqiqət pozitiv faktor keyfiyyətində yoxluq olanı özünün xüsusi inkişafına daxil edir. Bu yanılmaların, həqiqətin, incəsənətin, etikanın və dinin mənbəyidir. Nəticəsi təcrübənin vəhdəti olan, proses kimi hadisələrin bu ümumi konsepsiyası hadisələrin bölünməsini tələb edir: a) substansial aktivlik; b) sintez üçün şərtlənmiş potensiallıq; c) sintezin çatılmış nəticəsi. Bütün həqiqi təzahürlərin vəhdəti müstəqil varlıqlarda substansional aktivliyi analiz etməyə imkan vermir. Hər bir fərdi aktivlik ümumi aktivliyin bilavasitə mövcud şərtlərdə fərdiləşməsinin üsulundan başqa bir şey deyildir. Sintezə daxil olan tədbirlilik, sintez edən fəaliyyətin xarakteristikalarından biridir. Bu ümumi fəaliyyət o mənada bu terminə verdiyimiz mahiyyət deyil ki, onu təzahürlərə və əbədi obyektlərə münasibətdə istifadə edərək. Bu ümumi metafizik müəyyənlik, bütün təzahürlərin əsasında, hər bir təzahür üçün spesifik modusdadır. Onun atributları modusların çoxluğunda və əbədi obyektlər nahiyəsində, bu modusları müxtəlif üsullarla sintez edən

fərdiləşmə qabiliyyətidir. Beləliklə, fərdi çoxobrazlıqda əbədi mümkünlük və modal differensiasiya bir substansiyanın atributlarıdır. Faktiki olaraq metafizik vəziyyətin hər bir ümumi elementi bu substansial fəaliyyətin atributudur. Metafizik situasiyanın digər bir elementi modallığın ümumi atributunun məhdud olmasına baxdıqda aşkarlanandır. Bu element substansial fəaliyyətin atributu kimi təsnif olunmalıdır. Öz təbiətinə görə hər bir modus məhduddur, belə ki, başqa modus ola bilməz. Bu məhdudluqdan başqa ümumi modal fərdiləşmə iki münasibətdə məhdudlaşır: 1. Başqa cür ola biləcək hadisələrin həqiqi gedişi mövcuddur, belə ki, o əbədi mümkünlüyə münasibətdədir, necə varsa belədir. bu məhdudluq əvvəlki seçimin məhdudlaşmasıdır. 2. Bu məhdudluq dəyərlərin qiymətidir. Tədbirliyin fəaliyyətinə xas olan, qəbul edilənlə inkar edilən arasında fərq qoymağa imkan verən, öncədən standartı olmayan dəyər ola bilməz. Beləliklə, metafizik vəziyyətin növbəti elementi keyfiyyətində məhdudluq prinsipi zəruridir. Zəruri kimi hansısa xüsusi, həmçinin faktın özünün spesifik mahiyyəti zəruridir. Bu mülahizənin yeganə alternativi həqiqi təzahürlərin reallığının inkarıdır. Onların aydın irrasional məhdudluğu illüziya kimi qəbul edilməlidir, biz isə hadisələrin pərdə arxasında reallığını axtarmalıyıq. Əgər biz pərdə arxasında alternativ reallığı imtina etsək, substansial fəaliyyətin atributları arasında olan məhdudluqlar üçün əsas təklif etməliyik. Bu atribut özünüizahı olmayan, bütün izahların ondan çıxdığı məhdudluğu təmin edir. Allah sonuncu məhdudluqdur, onun mövcudluğu isə sonuncu irrasionallıqdır. Belə ki, əsasa onun öz xüsusi təbiəti əsaslanan başqa məhdudluq göstərmək olmaz. Allah konkret deyil, amma o konkret fəaliyyətin əsasıdır. Allahın təbiətinin izahı üçün, bu təbiət rasionallığın özünün əsası olduğundan, əsas yoxdur.

A.N. Uaythedin Allah ideyası haqqında fikirlərindən görünür ki, təbiətin mahiyyətindən Allah ideyasının çıxarılması yalnız təbiət təzahürlərinin məcmusundan mümkündür. Əgər təbiət nahiyəsində ayrılıqda tək

bir əbədi obyekt yoxdursa, onda ayrılıqda tək bir obyektin mümkünlüyünü təbiətdən kənarda, metafizik olaraq qəbul etmək olar; hansı ki, Allah ideyasının mahiyyətini təşkil edir. Yəni Allah təbiətdə bir-birindən ayrılıqda təcrid olunmuş kimi mövcud ola bilməyən obyektlərin məcmusunun əksiliyi kimi ayrılıqda tək təcrid olunmuş şəkildə olan varlığın mümkünlüyünü özündə bildirir. Allahın mümkünlüyü tükənməz mümkünlükdür; hansı ki, bütün digər mümkünlüklər ondan çıxır, amma heç bir mümkünlük özündə bütün mümkünlükləri ifadə etmədiyindən, heç bir mümkünlükdən Allahı aşkarlamaq mümkün olmur. Tükənməz mümkünlüklər təbiətdəki şeylərin mahiyyətinə keçərək reallıqları - illüzor fərdiliyi - yaradır. Bundan fərqli olaraq, Allah mütləq həqiqi fərdilikdir və təcrübədə aşkarlanan illüzor fərdilik onun mütləq həqiqi fərdiliyinin moduslarından biri kimi mövcud olur. Allah ayrılıqda təcrid olunmuş mümkünlük olduğundan, təbiətdə isə belə reallıq olmadığından, Allah təbiətdəki şeylərin nə tək-tək hər hansı birindən, nə də bütün şeylərin məcmusundan və ya məcmu təzahürlərindən aşkarlana bilməz. Bu baxımdan təbiətdən aşkarlanan Allah ideyası əslində təbiətdən kənarda - metafizik aşkarlanan ideyanı özündə təqdim edir; hansı ki, məhz təbiətdənkənar - metafizik - olan məhz təbiətdən müəyyənləşir. Biz təbiətin sərhədlərini bilmədən bu sərhədlərdən kənarı özümüz üçün müəyyən edə bilmərik. Təbiət yalnız bu mənada Allah ideyasının aşkarlanmasına xidmət edir. A.N. Uaythed öz Allah ideyasını həm də fərdi mövcudluğun məhdudluq prinsipindən aşkarlayır. Biz məhdudluğu məhdudsuzluğun - sonsuzluğun əksiliyindən aşkarlaya bilərik. Sonsuzluq termini özündə nəyi ifadə edir?

Haşiyə: Aristotel, "Metafizika"

> *"Sonsuzluq (sərhədi olmayan, qeyri-məhdud) - birincisi ondan hərəkəti başa çatdırmaq mümkün olmayanı bildirir, ona görə də o öz təbiətinin gücü ilə bu hərəkəti özünə buraxmır, necə ki, səsi görmək mümkün olmur. Və ya - hərəkətin qurtara bilməyəcəyi şeyə*

münasibətdə və ya sərhədlər və ya başaçatma xasdır, amma faktiki olaraq o malik deyil. Bundan başqa dayanmadan əlavə edilməsi və ya dayanmadan alınması mümkün olanı bildirir. Bəzi müstəqil mahiyyətləri ilə ayrılıqda mövcud olmaq, amma hissi qavranılmayan, sonsuz ola bilməz. Sonsuz bölünməyəndir. Sonsuz həqiqətdə (aktual) mövcud ola bilməz. Sonsuz hissi qavranılan şeylərdə ola bilməz. Sonsuz mürəkkəb və ya sadə ola bilməz. Sonsuz cismin yerində ola bilməz. Sonsuzun ölçüyə, hərəkətə və zamana tətbiqdə mənası bir və eyni deyil, hər yerdə dəqiqliklə hansısa bir təbiət, amma bu sırada növbəti özündən əvvəlkiyə münasibətdən bildirilir; məsələn hərəkət bu bildirilməni uyğun ölçüdən, hərəkətin baş verdiyi məsafədən və ya dəyişilmədən, və ya boydan; zaman isə hərəkətdən asılılıqdan alır."

Beləliklə, Aristotel məhdudsuzluğu, yəni sonsuzluğu hərəkətin başa çatması mümkün olmayan, məkanda yeri olmayan, ölçüsü, hərəkəti və zamanı olmayan, bölünməyən və hissi qavranılan şeylərə xas keyfiyyətlərdən məhrum olan kimi təyin edir. Başqa sözlə, hissi qavranılan hər bir şey məkanda konkret yerə, xüsusi ölçüyə, zamanda sürəkliliyə, sadə və ya mürəkkəb xarakteristikaya malik olmaqla qeyri-məhdud olandan - sonsuzdan fərqlənir.

Uaythedə görə, Allah ideyasının aşkarlanmasının üçüncü prinsipi həqiqi təzahürlərin reallığının inkarından ibarətdir. Təcrübə sahəsində heç bir şey ayrılıqda mövcud olmadığından, hər şey bir-biri ilə vəhdətdə olduğundan və bu vəhdətdə bir-biri ilə qarşılıqlı təsirdə olaraq özlərindən aşkarlanan həqiqəti entropiyaya məruz qoyduğundan (və görünən aləm buna görə illüzor olduğundan), mütləq həqiqəti yalnız reallıq aləmindən - təcrübədən kənar, vəhdət təşkil etməyəndən və buna görə də ayrılıqda götürülmüş təkdən aşkarlamaq olar. Görünən aləmdə - təbiətdə ayrılıqda götürülmüş şey mövcud olmadığından, o yalnız təbiətdən kənarda əldə edilə bilər. Biz bir şeyi başqa şeylə vəhdətdə dərk etdiyimizdən, vəhdətdən kənar mövcud olan şeyi idrak etmək imkanımız yoxdur; buna

görə də Allah ideyası mütləq şəkildə idrakolunmazdır. Bu prinsip Allah ideyasının elementlərindəndir.

Təcrübədə məhdudluq iki səbəbə görə zərurət kimi təzahür edir:

1. **İdrak olunma keyfiyyətinə görə:** İdrak olunma keyfiyyəti sərhədlərə malik olmağı tələb edir. Yəni hər hansı bir şey müəyyən sərhədlərə malik olduqda biz onu abstrakt olaraq vəhdətdən ayıraraq idrak edirik. Məhdudluq sonsuzluğun əksiliyidir, belə ki, heç bir şey sonsuz deyil; əgər sonsuz olsaydı, idrak olunmazdı. Beləliklə, idrak obyektləri idrak olunma keyfiyyətinə görə zəruri olaraq məhdud olmalıdır.
2. **Reallaşma imkanına görə:** Tükənməz mümkünlüklər, Uaythedin qeyd etdiyi kimi, yalnız formal fərdiləşmə ilə reallığa çevrilir. Yəni hər hansı bir mümkünlük mahiyyət kimi özünə özündən forma yaratmaqla mümkünlüklərin vəhdətindən ayrılaraq reallıqların vəhdətinə keçir və bununla da reallıqlar nahiyəsində təzahür edir və bu təzahürlər əsasında idrak olunur. Substansiyanın tabe olduğu əsas qanunlardan biri, bir şeyin eyni vaxtda iki substansiyaya malik olmaması prinsipi də özündə bu həqiqəti ifadə edir.

Başqa sözlə, Allah ideyası bu ideyanın dərkedilməzliyinin məcmusunun əksiliyi kimi, abstrakt, özü-özündə aşkarlanmayan aydınlaşma kimi qəbul edilir. Yəni metafizika Allah ideyasını "O niyə dərkedilməzdir?" sualını cavablandırır.

Allah ideyası niyə dərkedilməzdir?

İdrak "Düşünən Mən"ə xas olduğundan, düşünən mən nə qədər azad düşünə bilirsə, bir o qədər həqiqəti aşkarlayır. İnsanın azad düşünməsinin iki məhdudiyyəti vardır:

1. **Ruhun mövcudluq üsulu ilə bağlı məhdudiyyət:** Ruh yalnız bədənlə şərtlənmiş halda mövcud olur və bədənin imkan verdiyi qədər azad düşünə bilir. Buna görə də, Ruh mütləq azad düşüncədən məhrumdur və Allah ideyasına müstəqil çata bilmir.

2. **Varlığın mövcudluq üsulu ilə bağlı məhdudiyyət:** Varlıq Allahla *causa transitoria* əlaqəsində olmadığından, idrak Varlıqdan həqiqəti dərk etdiyindən, idrak prosesi Varlıqla sərhədlənir. Beləliklə idrak prosesi də *causa transitoria*-dan məhrum olur. Ruh Varlıqdan keçə bilmədiyindən Allahı idrak edə bilmir.

Nə üçün Varlıqdan keçmədən Mütləq Yoxluq, yəni Allah ideyası haqqında heç bir məlumat əldə edə bilmirik? Bunun aşağıdakı səbəblərini ayırd edə bilərik:

- **a.** Bizim idrakımız "var" və "yox"un ziddiyyəti əsasında həqiqəti aşkarlayır. **Var** - "Düşünən Mənə" yaxın olan, yəni idrak prosesinə təqdim olunanı; **yox** - idrak prosesinə təqdim olunmayanı, yəni ondan uzaq olanı özündə təqdim edir. "Düşünən Mən" yoxa yaxınlaşdıqca onun varlığını idrak edir, yəni yox vara çevrilir. Beləliklə, *causa transitoria* xarakteristikası idrakın şərtinə çevrilir. *Causa transitoria* xarakteristikası "enerjilərin çevrilməsi və itməməsi" qanununun əsasında durur. Bu qanuna görə, "təbiətdə enerji heçdən yaranmır, heç də yox olmur, sadəcə bir formadan başqa formaya çevrilir". Bu Yoxluqla qarşılıqlı *causa transitoria* əlaqəsində olan Varlığın başlıca qanunudur; hansı ki, özündə mümkünlüklərin ardıcıl reallaşma imkanını formulyasiya edir.

Varlıq faktla aktın vəhdətini özündə təqdim edir və idrak prosesində varlığın faktından onun aktı idrak edilir. Biz faktdan akta keçərək idrak olunmağı idrakın *causa transitoria* xarakteristikası kimi qəbul edirik.

Beləliklə, *causa transitoria* xarakteristikasına görə biz iki cür həqiqət aşkarlayırıq: Varlıq və Yoxluq. *Causa transitoria*-ya görə Varlıq - Nisbi Yoxluqdur və əksinə Yoxluq - Nisbi Varlıqdır. Yəni Varlıq Yoxluqdan yaranır və Yoxa çevrilir. Bu iki həqiqətlə yanaşı üçüncü növ həqiqət vardır ki, biz bunu **Mütləq Yoxluq** - *causa transitoria* (keçid) xarakteristikası olmayan Yoxluq kimi təyin edirik. Biz Allah ideyasını Mütləq Yoxluq kimi, yəni keçid xarakteristikası olmayan yoxluq kimi təyin edirik; hansı ki, keçid xarakteristikası olan yoxluqdan varlığa keçməməsi ilə

fərqləndiririk. Allahın əsas xarakteristikalarından biri sonsuzluqdur. Bunun əksi olaraq varlığın xarakteristikası sonluluqdur.

Haşiyə: F. Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Heç bir sistem sonsuzdan sona keçidi reallaşdıra bilməz - fikirlərin sadə oyunu ola bilər, əlbəttə, hər yerdə, amma harda olmasından asılı olmayaraq işin mahiyyətinə kömək edir. Heç bir sistem onları ayıran, onlar arasındakı uçurumu doldura bilməz. Ağıl sonsuzluqdan sona keçidi reallaşdırmaq, bununla da öz şüurunda vəhdətə gətirmək istəmişdir. Ağlın bu keçidi reallaşdırmaq cəhdi özünün ifadəsini mütləq tələbdə tapır: sonsuzluqdan sonluya keçid olmamalıdır. Bu tələb özünün əksiliyindən - belə keçid olmalıdır-dan - fərqlənir. Bu sonuncu transsendentdir, o onun gücü çatmayan yerə - sonsuzluq nahiyəsinə tabe olmaq istəyir. Fəlsəfə həqiqətən sonsuzdan sonluya keçə bilmir, amma əksini həyata keçirə bilər - sonludan sonsuza keçə bilər. Sonsuzun sonluya keçidini buraxmamaq cəhdi bununla hər iki sistemi birləşdirməklə və insan ağlı üçün aralıq həlqə təşkil edir. Sonsuzdan sonluya keçidin olmaması üçün sonlunun özünə sonsuza xas meyl, sonsuzda əbədi itmə cəhdi olmalıdır."*

F. Şellinqin fikirlərini bir qədər geniş şərh edək. Ağlın sonsuzdan sona keçidi reallaşdıra bilməməsinin iki əsas səbəbi vardır. Birincisi, ağlın sonsuzdan sona keçidi reallaşdıra bilməsi üçün ağlın başlanğıc olaraq sonsuzda olması tələb olunur. Amma ağıl başlanğıc olaraq sonluda - insanın mövcud varlığında təzahür edir. Məhz buna görə, ağıl sonsuzdan sonluya keçidi reallaşdıra bilmir. İkincisi, sonsuzdan sonluya keçid özündə yaranışı təqdim edir, ağıl yaradılan olduğundan, o yaranmamışdan yaradanın təbiətinə vara bilmir. Yəni, ağıl bir halda sonsuzdan sonluya keçidi reallaşdıra bilər ki, yaranmamış olsun; yaranmayanın isə təzahürü mümkün deyil. Üçüncüsü, ağıl nə qədər çoxluğun idrakını reallaşdırır, bir o qədər idrak imkanı azalır. Sonsuzluq mütləq təkliyi, sonluluq mütləq çoxluğu özündə təqdim edir. Əgər ağıl sonsu-

zdan sonluluğun idrakını reallaşdırmağa cəhd etmək imkanında olsaydı, mütləq təklikdən mütləq çoxluğa keçiddə o dərəcə səpələnərdi ki, idrakı ümumiyyətlə reallaşdırmaq qabiliyyətindən məhrum olardı. Buna görə, heç bir rasional sistem sonsuzun sonluya keçidinin idrakını reallaşdıra bilmir. Sonludan sonsuza keçid isə fəlsəfədə xalis abstraksiya ilə mümkün olur. Bu yolla da fəlsəfə sonludan sonsuza keçidi dəqiq reallaşdıra bilmir. Bunun da bir çox səbəbləri vardır. Birincisi, sonlu elə çoxluğu təqdim edir ki, ağıl onu məcmui idrak edə bilmir; buna görə də bütün sonluların məcmusundan sonsuza keçid mümkün olduğundan ağıl bunu dəqiq reallaşdırmır. İkincisi, ağıl Varlıqla sərhədləyindən Varlığı dəf edə bilmir, dəf etdikdə isə olmaqlıqdan, yəni reallaşdırma imkanından məhrum olur. Nəhayət ağlın *causa transitoria* xarakteristikası olmadığından, yəni varlığa keçmədiyindən Varlıqdan aşkarlanmır. Beləliklə, Varlıq Ruhla Allah arasında sədd təşkil edir; hansı ki, heç bir halda Ruh həmin səddi keçə bilmir.

- **b.** Mütləq Yoxluğun keçid xarakteristikası olmadığından o həm də özü-özü ilə tək bir vəhdət təşkil edir. Biz bunu **mütləq vəhdət** adlandırırıq.

Haşiyə: F. Şellinq, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar"

> *"Sintez yalnız başlanğıc vəhdətin çoxluğunun ziddiyyətindən əmələ gəlir. Belə ki, ziddiyyətsiz sintezə ehtiyac yoxdur orda ki, çoxluq yoxdur, sadəcə vəhdət var; əgər başlanğıc vəhdət yox, çoxluq olan olsaydı, onda ilkin fəaliyyət sintez yox, səpələnmə olardı. Baxmayaraq ki, biz sintezi çoxluqla ziddiyyətdə başlanğıc vəhdət kimi başa düşə bilərik. fəlsəfə başlanğıc sintezi idrak qabiliyyəti faktı kimi ehtimal edə bilər."*

Sintez - çoxluqdan təkliyin alınmasını özündə ifadə edir. Bir şeyi sintez etməmiz üçün onun çoxluğu tələb olunur. Əgər nəsə mütləq təklikdirsə, onda onun sintez etmək həm mümkün olmur, həm də mənasız olur. Şellinqin fikirlərindən görünür ki, Allah haqqında sintez o özü-özü

ilə mütləq vəhdət təşkil etdiyindən, buna görə də onunla tutuşdurulmalı başqa belə başlanğıc vəhdət olmadığından mümkün deyil. Bu Allah ideyasının idrak qabiliyyətinin təbiəti ilə bağlı dərkedilməzliyini göstərir. Allah ideyasının sintezə ehtiyacı olmaması onu analiz etməyin mümkünsüzlüyü ilə də bağlıdır. Belə ki, idrakın sondan başlanğıca, ilk başlanğıcı aşkarlamağa doğru inkişafının istiqaməti mürəkkəbliklərdən sadəliklər istiqamətindədir. Beləliklə, hər bir başlanğıcın başlanğıcı həmin başlanğıcı özündə təqdim edən daha sadədir. Allah ideyası özündə elə mütləq sadə ideyanı nəzərdə tutur ki, onu anlamağımız üçün ondan əvvəl və ondan daha sadə olan ideya yoxdur. Bu baxımdan, Allah ideyası özündə mütləq sadəliyi ifadə etdiyindən analizə - onu hissələrə ayırmağa - imkan vermir, buna görə də sintezə ehtiyac qalmır. İdrak prosesində sonrakı bütün ideyalar Allah ideyasına münasibətdə mürəkkəbliklərin müxtəlif dərəcələnmələri kimi aşkarlanır.

- **c.** Allah ideyasının dərkedilməzliyinin bir səbəbi də Allahın mütləqliyi ilə bağlıdır. *Causa transitoria* xarakteristikasına malik hər şey nisbidir. Təbiətdə şeylər bir-birinə keçdiyindən Ruha görə nisbidir. Ruh isə obyektiv gerçəkliyin substansional aləminə keçib, onda əriyərək onu dərk etdiyinə görə keçicidir, yəni Varlığa görə nisbidir. Allah nə Varlığa, nə də Ruha keçmədiyindən nisbi yox, mütləqdir. Mütləq olduğundan və ruhun ona keçməsinə imkan olmadığından o dərkedilməzdir.
- **d.** Allah ideyasının mahiyyətinin aşkarlanmaması həm də onun suallandırmağın mümkünsüzlüyünü özündə təqdim edir. Allah bütün başlanğıcların başlanğıcını təşkil etdiyindən, bütün başlanğıclara verilən sualdan aşkarlanmır. Biz idrak obyektini və subyektini iki cür suallandırırıq: Obyektiv olanlar "bu nədir?", Subyektiv olan "bu kimdir?". Amma biz elə sual verə bilmərik ki, eyni vaxtda həm obyektin, həm də subyektin həqiqətini bizə aşkarlasın. Əgər "Allah nədir?" sualı versək, onda o obyektlə eynilik təşkil etmiş olur. Yox, əgər "Allah kimdir?" sualı versək, o subyektlə eynilik təşkil etmiş olur. Allahın cari

şüurda ibtidai aşkarlanma üsulu məhz ona suallandırma ilə başlamışdır; nəticədə "Allah nədir?" sualının cavabı kimi o, şey kimi təsəvvür edilmiş, buradan bütpərəstlik meydana çıxmış; "Allah kimdir?" sualı verildikdə, Qədim Yunanıstandakı kimi, Allah-İnsan obrazı yaranmışdır.

Digər tərəfdən, istənilən sual ya başqasını, ya da sual predmetinin özünü tədqiqata cəlb etməni tələb edir. Buna görə də, "Allah nədir?" sualı ya predmet sifətində Allahın özünü, ya da Allahın nə olduğunu bilən başqasını tədqiqata cəlb etməyi tələb edir.

Haşiyə: F. Şellinq, "Doqmatizm və kritisizmin haqqında fəlsəfi məktublar"

> *"Mütləq obyektiv idrak mümkün deyil, obyekt ümumiyyətlə yalnız subyektin fəaliyyətində dərk edilə bilər. O şərtlə ki, subyekt öz sferasından çıxır və sintezə daxil olur."*

İnsan öz sferasından çıxıb varlıqla bərabərhüquqlu sintezdə iştirak edə bilmir. Əgər o bunu bacarsaydı, onda özü də sintez olunan olduğundan, sintez edən keyfiyyətini itirərdi. Beləliklə, əsl həqiqətdə, subyekt öz sferasında qaldıqca obyekti mütləq dərk etmir, öz sferasından çıxdıqda isə idrak qabiliyyətindən məhrum olur (məsələn, ölülər idrak imkanından məhrumdur). Allahı obyektiv varlıq kimi idraka bilavasitə təqdim etmək mümkün deyil, çünki o Varlığa keçməyən mütləq yoxluqdur; nə olduğu heç kimə məlum olmadığından başqasını tədqiqata cəlb etmək mümkün deyil. Məlum olmayanı, yəni Allahı və ya onun haqqında məlumatı olan başqası olmayanı tədqiqata cəlb etmək mümkün olmadığından "Allah nədir?" sualının cavabını da axtarmaq mümkün deyildir.

Haşiyə: F. Şellinq, "Doqmatizm və kritisizmin haqqında fəlsəfi məktublar"

> *"İdrak qabiliyyətinə subyektə xas heç nə, amma zəruri kimi baxılıb; o vaxta kimi, idrak qabiliyyəti ilə bağlı yalançı şərhlə bağlı anlaşılmazlıq qaçılmaz olaraq qalacaqdır. Bu yanılmanı*

aradan qaldırmaq guya idrak qabiliyyəti subyektin mahiyyətinin özündən asılı deyil; yalnız bir idrak qabiliyyətini tənqid bacarmır, belə ki o subyektə o ölçüdə baxa bilər ki, o özü idrak qabiliyyətinin obyektidir, yəni tamamilə ondan fərqlidir."

F. Şellinqin fikirlərini nəzərə alsaq, Allah ideyası yalnız xalis ideya kimi xalis zəkada aşkarlana bilər. Biz **Xalis Zəka** dedikdə bədənlə şərtlənməmiş, bədənin sərhədlərini dəf edən, mütləq Azadlıq əldə etmiş, Varlığın sərhədlərini aşan, Ruhun idrak qabiliyyətini nəzərdə tuturuq; hansı ki, Allahın Xalis ideyasına qarışaraq onda əriyir və bu ərintidən onun həqiqətini özündə aşkarlayır. Belə aşkarlanma isə izhar edilməyən - naməlum olardı.

Allah bütün mövcudluqların Ali Səbəbidir, Varlıq isə onun nəticəsini özündə təqdim edir. Varlığın Allahın nəticəsini özündə təqdim etdiyini Ruh təsdiq edir. Allahla Varlıq qarşılıqlı səbəb-nəticə əlaqəsində olmadığından (təbiətdəki səbəbdən nəticəni, nəticədən səbəbi aşkarlamağın mümkünlüyündən fərqli olaraq), Varlıqdan Allahı aşkarlamaq mümkünsüzlükdür. Yəni Allah Varlıqdan aşkarlanmır, sadəcə onunla birtərəfli reflektiv səbəb-nəticə əlaqəsindədir.

Ağıl yalnız gerçəklikdən həqiqəti dərk etdiyindən, o yalnız nəticə haqqında - son səbəb haqqında ideyaya malik olur. Başlanğıc Səbəb gerçəklikdən kənar olduğundan, ondan Allahı dərk etmək mümkün olmur. Allah yalnız mütləq həqiqətdən dərk oluna bilər. Mütləq həqiqət Allahın özü-özündə refleksiyasında təzahür edir, daxilidir, yəni Allah ideyasının sərhədləri daxilindədir. Başqa ideya ilə onu aşkarlamaq mümkün deyil. Digər tərəfdən, insanın idrak prosesi sonludur, Allah ideyası isə özündə sonsuzluğu təqdim edir; buna görə də sonlu olanın sonsuz olanla eyniyyət təşkil etməsi, yəni insan ağlı ilə Allahı dərk etmək mümkün deyil.

Haşiyə: B. Spinoza, "Ağlın təkmilləşdirilməsi haqqında"

"Dərkolunan sonsuz çoxluq vardır, insan bunlar haqqında hər şeyi dərk edə bilməz, belə ki, insan ağlı sonludur və əgər o heç bir xarici şeylə təyin olunmursa, onda onun nəyisə dərketməsi mümkün olmazdı."

Yalnız zəka xalisləşdikcə Allah haqqında sual vermək və ona cavab vermək mümkün olur. Başqa sözlə, insan ağlı nə qədər zəifdirsə - yəni insanın ağlı xalis zəkadan nə qədər fərqlənirsə, onun Allah haqqında bilgiləri də bir o qədər azdır. Xalis zəka bədəndən azad ruhun atributu olduğundan yalnız ruh bədəndən azad olduğu anda - ölüm anında Allahı dərk edə bilər ki, həmin anda dərk edilənin izharı, ölüm baş verdiyindən, şərh oluna bilməz. Beləliklə, Allah haqqında həqiqət yalnız ölülərə məlumdur, ölülərə məlum olanlar isə dirilərə ötürülə bilmir. Beləliklə, Allah ideyası ilə bağlı ümumi mülahizələri yekunlaşdıraraq deyə bilərik ki, **Allah - dərkolunmaz həqiqətdir.**

Qeyd etmək lazımdır ki, "dərkolunmazlıq" anlayışı "dərkedilməzlik" anlayışından fərqli mənaya malikdir. Birincisi, dərkolunmazlıq idrak obyektinə xas keyfiyyət olub, onun xarakteristikasıdır. Dərkedilməzlik subyektə xas olub, onu xarakterizə edir. Yəni dərkolunmaz o obyektdir ki, idrakın dərketməkliyi olsa da ondan həqiqət aşkarlaya bilməz. Dərkedilməzlik odur ki, subyektin idrak imkanı məhduddur və obyektin həqiqətini dərk etmək üçün yetərli deyil. "Allah dərkolunmazdır" ifadəsi dərk edən subyektin dərketməsindən asılı olmayaraq onu dərk etməyin mümkünsüzlüyünü göstərir. Dərkolunmazlıq idrak imkanının inkarı, dərkedilməzlik idrakın mümkünlüyüdür; hansı ki, müəyyən imkanda dərkedilən olur.

Dərkolunmaz həqiqət ikidir: Allah haqqında həqiqət və Allahın həqiqətini özündə refleksiya edən **Mütləq Həqiqət**. Mütləq həqiqət - Allahı refleksiya edən, onunla bağlanan, amma ona keçməyən, təzahür etməyən həqiqətdir. Mütləq həqiqətin təzahür xarakteristikası alması ilə o **mütləq nisbi həqiqətə** çevrilir. Əslində insan ağlının aşkarlamağa cəhd

etdiyi nisbi mütləq həqiqətdir. Nisbi mütləq həqiqətin üç cür təzahür forması vardır:

a. **Varlıqda təzahür edən mütləq nisbi həqiqət:** Belə həqiqət cisimlərin tabe olduğu ümumi həqiqətin əsasını təşkil edir.

b. **Ruhda təzahür edən mütləq nisbi həqiqət:** Belə həqiqət ruhun tabe olduğu ümumi qanunun əsasında durur.

c. **Varlıqdan ruha və ruhdan varlığa keçən mütləq nisbi həqiqət - keçid mütləq nisbi həqiqət:** Belə həqiqət idrakın tabe olduğu ümumi həqiqətin əsasını təşkil edir.

Həqiqətin aydınlaşması İlahi gücün əlaməti kimi meydana çıxır və buna görə də, insan mütləq nisbi həqiqəti aşkarlamaqla dolayısı ilə Allahı anlamış olur. Amma heç bir həqiqətdə Allah bilavasitə təzahür etmir. Beləliklə, Mütləq nisbi Həqiqət - Allahın insan təfəkküründə özünü dolayısı ilə aşkarlanması üçün aydınlaşmasıdır. Mütləq Həqiqət güzgü kimi Allahı əks etdirir. Amma onda Allahın özü təzahür etmir. Buradan Allah və yaranış və Allahın dərk edilməzliyi ilə bağlı bir neçə definat müəyyənləşdirmək olar:

1. İnsan təfəkkürdə hər şeyi onun aydınlaşdırdığı həqiqətdən dərk etdiyindən, hər bir şey özündə nisbi həqiqəti aydınlaşdırdığından - təklikdə heç bir mümkünlük Allah haqqında həqiqəti (Mütləq Həqiqəti) aydınlaşdırmadığından - insan gerçəklikdən Allahı aşkarlaya bilməz.

2. Bütün vasitələr yalnız məcmui olaraq - mütləq vəhdətdə özündə mütləq həqiqəti aydınlaşdırdığından, insan təfəkkürünün eyni zamanda bütün məcmu reallığı əhatə etmək, yəni mütləq vəhdəti aşkarlamaq imkanı olmadığından, Allah nisbi vəhdətdən, heç bir ayrıca vasitədən aşkarlana bilməz.

3. İnsan təfəkkürü yalnız öz təcrübəsində aydınlaşan həqiqətə uyğun həqiqəti aşkarladığından o, yalnız öz ağlında aydınlaşan həqiqəti dərk edə bilər. Allah haqqında həqiqət hamının təcrübəsində aydınlaşdığından, hamı isə eyni zaman və məkan şərtində reallıq olmadığından, heç

bir insan isə hamını (keçmişdə yaşamış, indi yaşayan və gələcəkdə yaşayacaq insanları) təmsil edə bilmədiyindən, hamıda aşkarlanacaq həqiqəti tək bir insan və ya insanlar qrupu və ya da bir tarixi dövrün insanları aşkarlaya bilməz.

4. Allah həqiqətüstü olduğundan, nisbi həqiqət təfəkkürün idrak prosesini sərhədləndirdiyindən, mütləq həqiqət yalnız Allahı refleksiya etdiyindən və buna görə də ona keçə bilmədiyindən, təfəkkür mütləq həqiqətə çata, həqiqətin "o tərəfində" olan "həqiqətüstünü" həqiqətdən keçməklə dərk edə bilməz.

5. İdrak prosesi yalnız hər hansı bir formada subyektə aid olan, ona təsir və xidmət edən, ona toxunan həqiqətləri əhatə etdiyindən, ona aid olmayan, ona təsir və xidmət etməyən, ona toxunmayan həqiqəti - **indifferent həqiqəti** idrak edə bilməz. Allah bilavasitə insana aid olmadığından, ona təsir və xidmət etmədiyindən, ona bilavasitə toxunmadığından insan onu dərk edə bilməz.

6. Refleksiya kölgə kimidir. Bu mənada Allahla mütləq nisbi həqiqətin əlaqəsi şeylə onun kölgəsi kimidir. Kölgə - mahiyyətsiz təzahürdür, xalis formadır. Onun mahiyyəti özündən kənarda - kölgəsalandadır. Kölgənin əlamətlərindən kölgəsalanın mahiyyətini dəqiqləşdirmək olmaz. Digər tərəfdən, kölgənin aydınlaşması (görünməsi) kölgəsalandan kənardan çıxan işıqla şərtlənib və kölgənin kölgəsalanla əlaqəsini işıq mənbəyinə görə təyin etmək olur. Buna uyğun olaraq, Mütləq nisbi həqiqət də Allahın kölgəsi kimidir. Lakin kənar işıqla yox, kölgəsalanın öz nuru ilə işıqlandığından, işıq - Allahın nuru, kölgəsalanla - Allahla eyni olduğundan, kölgədən (mütləq həqiqətdən) kənar mənbənin iştirakı ilə kölgəsalanı (Allahı) aşkarlamaq mümkün deyil. Kölgəyə edilən hər hansı bir təsir kölgəsalana təsir etmədiyi kimi, mütləq nisbi həqiqətdən Allaha təsir etmək mümkün deyildir. Kölgə həcmi həcmsizlik, kütləni kütləsizlik, reallığı irreallıq formasında təqdim etdiyi kimi, Həqiqət də özündə Allahın sifətlərinin əksiliyini təzahür etdirir. Beləliklə, mütləq nisbi həqiqətin aydınlaşma

xarakteristikasına aid olan həcmilik, kütləlilik, ölçülülük, şeylilik, təzahürlülük, reallıq, zamanlılıq özündə Allahın xarakteristikasına daxil olan zamansızlığı, həcmsizliyi, kütləsizliyi, ölçüsüzlüyü, şeysizliyi, təzahürsüzlüyü, irreallığı təqdim etmiş olur. Bütün bunlara görə, Allah həqiqətdən idrak olunmur. Refleksiya olunan refleksedənin əks tərəfində olduğundan refleksiya istiqamətində refleksedənə çatmaq olmaz. İnsanın idrak prosesi gerçəkliyə istiqamətləndiyindən, Allah gerçəkliyə əks istiqamətdə aydınlaşdığından Allahı dərk edə bilməz.

7. Heç bir refleksiya refleksiya olunanı refleksiya edəndə olduğu kimi refleksiya etmədiyindən mütləq nisbi həqiqət olduğu kimi Allahı təqdim edə bilmir. İnsan təfəkkürü nisbi həqiqətdən Allahı aşkarlamağa cəhd etdiyindən, buna görə də Allahı dərk etmək imkanına malik deyildir. Beləliklə, mümkünlüklə imkanlılığın arasındakı ziddiyyətə görə, insan təfəkkürünün imkanları ilə Allahın varlığının mümkünlüyünü dərk edə bilməz.

8. İnsan ağlı sonlu gerçəklikdən həqiqəti aşkar etmək imkanına malikdir. Sonlu olmaq özündə başa çatmaqdır. Başqa sözlə, təfəkkür determinasiyanın dayandığı yerdən idraka başlayır. Beləliklə, hər bir obyekt özündə son nəticə kimi özünü təqdim edir. Allah Varlığa münasibətdə Başlanğıc Ali Səbəb, özünə münasibətdə Başlanğıc Nəticədir.

Allah ideyasının metafizik aşkarlanması iki mühüm şərtə - bütün mümkün və mövcud varlıqların yaradıcısı olmasına və bütün mümkün və mövcud varlıqları eyni bir üsulla tənzimləməsinə - cavab verməlidir. İstənilən varlıq - daxili və ya xarici - təsadüf və zərurətlə şərtlənmişdir. Allah ideyasının dəqiqliyi onun həm təsadüflər sırasının, həm də zərurətlər sırasının vahid başlanğıcı olması ilə təyin oluna bilər. Zərurətlər sırası faktlar kimi, təsadüflər sırası aktlar kimi mövcuddur. Beləliklə, metafizik Allah ideyası bütün faktların (ağla yerləşən və yerləşməyən; əgər ağıl Allahın idrakı üçün ölçü olsaydı, onda ağıl Allahdan üstün olardı, bu da Allahın Aliliyinə, ilkin və başlanğıc, hər şeydən üstün olması xarakteristikasına zidd olardı) yaradıcısı və onların qarşılıqlı

mövcudolmasının - aktlarının tənzimləyicisi müəyyən edir. Buradan, birinci əlamət həqiqətin Allahdan refleksiya olunmasını, ikinci - həmin həqiqət əsasında yaranışın baş verməsini özündə ifadə edir. Allah ideyasına aid edilən digər bütün əlamətlər ikincili olub bu əlamətlərdən hər hansı birinin və ya eyni zamanda hər ikisinin ikincili refleksiyalarıdır.

AXİRƏT ALƏMİ VƏ BÜTÜNSÜZLÜK

Mütləqdən İlk başlanğıc bütünədək olan yaradılmada heç bir bütün meydana çıxmır. Nəticədə Axirətin gerçəklik şərtləri yaranmır. Axirət Aləmi elə-belə üç mütləqdən ibarətdir: Mütləq Mümkünlük, Mütləq İmkan və Mütləq Yaratma.

Biz mütləq Müəyyənliyin, Mütləq Yaranmanın və Mütləq İmkanın şərtlərindən kənarda ayrıca mövcudluğunu **Cəhənnəm** kimi təyin edirik. Cəhənnəm özündə üç şərtdən - Formadan, Məkandan və Kəmiyyətin şərtlərindən ibarətdir. Buradan da Cəhənnəmdə zamanın, keyfiyyətin və xalis hərəkətin şərtləri yoxdur. Dinlərin Cəhənnəm haqqında bütün izharları özündə bunu ifadə edir. Belə ki, Cəhənnəmdə olan istənilən (şey) mənası olmayan, hərəkət etməyən və məkanda donuq qalmış boş formalardan ibarətdir; hansı ki, Nəsə İnsanın Mütləq Mümkünlüyün şərtlərinə münasibətindən Cəhənnəmin təsəvvürləri meydana çıxır. Buraya mütləq qaranlıq, mütləq imkansızlıq, mütləq vəhdətsizlik, mütləq boşluq və s. aiddir.

İmkanın Mümkünlükdən ayrılıqda şərtlərindən **Cənnət** haqqında izhar meydana çıxır. Cənnət özündə xalis imkanın şərtlərindən - Zamandan, Hərəkətdən və Keyfiyyətdən asılıdır. Buradan da Cənnət haqqında təsəvvürlər mütləq işıq, mütləq doluluq, mütləq imkanlılıq, mütləq vəhdətin izharından ibarət olur.

Mütləq Yaranmanın şərtləri dini bilgilərdə **Mələk** anlayışı ilə ifadə olunur. İlk başlanğıca qədər Mələklər özündə Mütləq Vəhdətin imkansız və mümkünsüzlüksüz vəhdətin şərtlərinin məcmusundan ibarətdir. Bura-

dan da Mələklərin nə imkan, nə mümkünlük şərtləri yoxdur. Onlar Allahın yoxluğu ilə Varlığını bir-birindən ayrılıqda saxlayan, buna görə də heç bir yaranmaya imkan verməyən yaranmanın əksiliyindən ibarətdirlər; hansı ki, İlahinin Mütləq Yaradıcı gücünü özlərində ifadə edirlər. Buradan da Mələklər haqqında dini izharlar məhz Mütləq Vəhdətin, yəni Yaranmanın saxlanmasının izharından ibarətdir. Mələk özündə istənilən yaranmanı idrak etdiyindən (idrak da yaranmanın bir forması olduğundan) idrak olunmayan şərtlərdən ibarətdirlər. Buna görə də Mələklərin yalnız funksiyaları haqqında dini təsəvvürlər var. Həmin təsəvvürlər bütün yaranmanın bütün formasından çıxarılan bəzi yaranmalarla bağlıdır. Buradan Əzrayılın Həyatı alması, Cəbrayılın xəbər verməsi, İsrafilin Axirətə keçidi bildirməsi və s. kimi izharlar aşkarlanır.

YARADANIN ÖZÜ-ÖZÜNÜ YARATMASI

"Yaradan Yaradılmışları Yaratmışdır" müddəasından, Yaradanın özü-özü ilə eynilik və bərabərlik təşkil etməsindən biz **"Yaradan özünü yaratmışdır"** hökmünü alırıq. Yəni, yaradılmışlardan və yaradılmadan ayrılıqda götürdükdə tək bir Yaradan qalır ki, buradan da "Yaradan özü Özünü yaradır" fikri çıxır. Yaradanın özü-özünü yaratması özündə nəyi ifadə edir?

Mütləqi biz hər şeyi yaradan ilk başlanğıc kimi **Allah** sözü ilə adlandırırıq.

Allah təkcə kimi sintetikdir, səslərin təsadüfi sıralanmasından ibarətdir. Buradan da aşağıdakı ideya aşkarlanır:

Təkcə "allah" - səslərin təsadüfi sıralanmasının şərtlərinin məcmusundan ibarətdir.

Təkcə "allahın" özü-özü ilə oxşarlıq təşkil etməsindən hər bir Allah alınır ki, biz bunu hər bir dildə olan Allah sözü kimi təyin edirik. Buradan aşağıdakı pnevmatoloji ideya aşkarlanır:

Allah sözü - hər bir allahın hər bir allahla vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Hər bir allahın hər bir allahla vəhdətindən "bəzi allah" alınır ki, biz bunu **Allah anlayışı** adlandırırıq. Buradan aşağıdakı ideya aşkarlanır:

Allah anlayışı - bəzi allahın bəzi allahla vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Bəzi allahın bəzi allahla vəhdətindən "bütün allah" alınır; hansı ki, biz bunu **Allah məfhumu** kimi təyin edirik. Buradan aşağıdakı ideya aşkarlanır:

Allah məfhumu - bütün Allahın bütün Allahla vəhdətinin şərtlərinin məcmusundan ibarətdir.

Allah ilk başlanğıcı təşkil etdiyindən, bütün təfəkkürün bütün şeylərdən idrak etdiyi bütün mənalardan əksilikləri ataraq **Mütləqləşir**. Bunu aşağıdakı riyazi üsulla alırıq:

Bütün Təfəkkür + Bütün Şeylər + Bütün Məna = Bütün (təfəkkür + şeylər + məna)

Burada (təfəkkür + şey + məna) bütündən kənarlaşdırdıqda **"Bütün"** alırıq; hansı ki, digər şərti bütünlərdən (bütün təfəkkürdən, bütün şeylərdən və bütün Mənadan) fərqli olaraq özgəni özünə buraxmayan, yəni xaricdə inkar edən, özü-özü ilə eyni və özü-özünə bərabər, öz daxilində özünü təsdiq edən Bütündür.

Bu bütünü başqa şərti bütünlərdən fərqləndirmək üçün **Şərtsiz Bütün** və ya **Mütləq** adlandırırıq. Mütləq - bütün başlanğıcların başlanğıcının başlanğıcıdır.

İLAHİ AĞIL - MÜTLƏQ HƏQİQƏT

İdrak ağlın təzahürlərindən biridir. Biz ağlı biliyin strukturlaşması - qurulması kimi təyin edirik. Beləliklə, Allah həqiqəti yaratmaqla qurur - hansı ki, biz bunu İlahi Ağıl kimi təyin edirik, insan isə həqiqəti dərk etməklə öz ağlını qurur. Bununla da insan ağlı İlahi Ağlı özündə refleksiya etmiş olur. İlahi Ağıl həm insan ağlında, həm bütün mümkün gerçəkliklərdə refleksiya etdiyindən, həm də bunların hər ikisinin məcmusuna əkslik kimi refleksiya etməyən xarakteristikaya - Allahın öz təbiəti haqqında həqiqətə malik olduğundan, insan ağlı yalnız nisbi olaraq həqiqətdən təşkil olunur. İlahi Ağıl isə insan ağlına münasibətdə mütləq həqiqət kimi çıxış edir.

Metafizikanın əsas məsələsini Varlığın Allaha, Ruhun isə mümkünlüyə - istənilən həqiqətə münasibəti kimi müəyyən etmək olar. Hansı ki, təbiətin idrakı ilə bağlı fəlsəfənin əsas məsələsi təfəkkürün varlığa, şüurun materiyaya münasibəti kimi müəyyən olunmuşdur. Varlığın Allaha münasibəti dedikdə, Varlığın özündə Allahın təbiətini - mütləq həqiqəti nə dərəcədə təzahür etdirməsini; Ruhun mümkünlüyə münasibəti dedikdə isə, Ruhun başqa varlıqlarda təcəssüm edən Allahın təbiətini - mümkünlükləri təcrübədənkənar (aprior) nə dərəcədə aşkarlaya bilməsini nəzərdə tutmaq lazımdır.

Burada mümkünlük anlayışı özündə insan ağlına sığmağı ifadə edir. Varlıq Allahı, Ruh mümkünlükləri özündə refleksiya etsə də, nə Varlıq Allahı, nə də Ruh mümkünlüklərin həqiqətini tam və mütləq şəkildə özündə refleksiya etmir. Buna görə də, Allahın təbiətinə xas bir çox xarakteristikalar varlıqda təzahür etməyərək, sirr kimi təfəkkürə qapalı qalır. Ruhun aşkarlamasından kənarda elə qeyri-müəyyən sayda

mümkünlüklər qalır ki, onlar yalnız xüsusi imkanlarda aktuallaşaraq gerçəkləşir və idrak üçün əlçatan olur. Bəzi mümkünlüklər isə heç bir halda, heç vaxt təfəkkürdə refleksiya etmir. Bu sonuncunu Allahın öz təbiəti haqqında həqiqət kimi təyin etmək olar. Beləliklə, hər şey İlahi Ağlın sərhədləri daxilində mövcud olur.

Allah öz təbiətini yaratdıqlarının həqiqəti vasitəsi ilə, dolayısı ilə total vahid mümkün varlıq kimi aydınlaşdırdığından, Ruhun ayrı-ayrı tək mümkünlüklərə münasibəti həqiqətin idrak prosesi kimi təzahür edir. Buna görə də, ən müxtəlif dərəcələrdə Allahın varlığını dolayısı ilə özündə ifadə edən həqiqətin aşkarlanmasını idrakın yeganə məqsədi hesab etmək olar.

İdrak prosesi - Ruhun, həqiqətin yaranması isə Allahın fəaliyyəti olduğundan, idrak prosesi dolayısı ilə həm də Ruhun Allaha münasibəti kimi meydana çıxır. Beləliklə, həqiqət məsələsini rasional teologiyanın ən mühüm məsələlərindən biri kimi təyin etmək lazım gəlir.

Hər bir mümkün varlıq yaranışını başa çatdırmaq naminə mövcud varlıq təyini əldə etməyə, yəni təsadüflər sferasından zərurətlər sferasına keçməyə əbədi cəhd edir. Q.Leybnis bu həqiqəti belə ifadə etmişdir:

> *"Bütün mümkünlüklər mövcud olmağı tələb edir, buna görə də istənilən mümkünlük, mövcudluq tələb edən və birinci ilə bir araya sığmayan mümkünlük mane olmasaydı, mövcud ola bilərdi. Əgər təbiətin özündə mahiyyətin mövcudluğa heç bir meyli olmasaydı, onda heç nə mövcud olmazdı: belə ki, demək, bəzi mahiyyətlərin belə meyli var, bəzilərinin yoxdur - deməli, mənasız danışmaq olardı. Belə ki, mövcudluq, göründüyü kimi, bütün mahiyyətlərə bir və eyni şəkildə aiddir."*

Leybnisin fikirlərindən çıxış etsək, onda belə bir sual meydana çıxır: Əgər bütün mümkünlüklər mövcud olmağı tələb edirsə, onda Ruhi mümkünlük də mövcud olmağı tələb edirmi? Və əgər mövcudluq bütün mahiyyətlərə, o cümlədən ruhi mahiyyətə aiddirsə, onda Ruhun mövcudluğa meyli nədən ibarətdir? Əgər Ruhi mümkünlükdə belə bir meyl var-

sa, onda nə üçün digər mümkünlüklərdən fərqli olaraq, Ruhi mümkünlük mövcud varlıq təyini əldə edə bilmir? Əgər mümkünlüklər mövcud olma meylində bir-birinə mane olursa, onda mövcudluqla mümkünlük nə dərəcədə bir-birinə uyğun gəlir?

Mümkünlüyün mövcud olmağı tələb etməsi imkanla şərtlənmişdir. Fəlsəfədə imkan - hadisələrin obyektiv meylinin, bu hadisələrin əmələ gəlməsi üçün şəraitin olmasını və ya ən azı onların əmələ gəlməsinə mane olan şəraitin olmamasını qeyd edən, maddi aləmin inkişafının əsas kateqoriyalarından biri kimi təyin olunmuşdur. Biz imkanı metafizikadan fizikaya keçidin - retransendensiya şərtlərinin məcmusunu özündə ifadə edən kateqoriya kimi təyin edirik. Bütün imkanların məcmusu isə özündə İlahi İradəni təqdim edir, hansı ki, refleksiv güc kimi, bütün mümkünlüklərin mövcudluq tələb etməsinin gücü kimi, onların mövcudluğa keçməsinə xidmət edir.

Allah ideyasını şərh edərkən göstərdik ki, transendental fəlsəfə Allahı həm də bütün şərtlərin məcmusundan aşkarlamağa cəhd edir, hansı ki, bu şərtlər olmadan heç bir mümkünlük mövcudluq əldə etmir. Təbiət vəhdətdə mövcud olduğundan, əslində təbiətdə ayrılıqda götürülmüş xüsusi şərt yoxdur. Bütün şərtlərin vəhdəti təbiətin mövcudluğunun tək bir şərti - imkanı kimi təzahür edir. İlahi İradə Allahın xarakteristikalarından biri olub, Allahın istəyinin - mütləq həqiqətin - total mümkünlüyün mövcud olmaya keçməsinin (yaradılmasının) gücü kimi çıxış edir. İmkan bütün mümkünlüklərdə eyni olmadığından, bütün mümkünlüklər mövcudluğa keçmir. Bunun səbəbi, bir mövcudluq əldə etmiş mümkünlüyün başqa mümkünlüyün mövcudluğa keçməsinə mane olma cəhdidir. Bütün mövcudluqlar buna görə bir-biri üçün həm də imkan kimi çıxış etdiyindən, zərurətə görə iradəyə - refleksiya etmək gücünə - malikdir.

Əgər bütün mümkünlüklər bərabər imkanlara malik olsaydı, onda bütün mümkünlüklər mövcudluq əldə edərdi. Belə halda isə heç bir apri-

or həqiqət olmazdı, mümkünlüyün olması mənasız olardı və birbaşa yalnız mövcudluq olardı. Heç bir mövcudluğun dağılması mümkünsüzlük olardı, o cümlədən ölüm də təzahür etməzdi, əmələgəlmə prosesi yaranmazdı. Digər tərəfdən, hər bir gerçəklik özündə mütləq həqiqətə malik olardı, bu isə hər şeyin Allah kimi çıxış etməsi ilə nəticələnərdi. Bütün mümkünlüklərin bərabər imkanlılığı inkişaf və tərəqqinin təzahürü ilə inkar olunur. Buradan da deyə bilərik ki, bütün mümkünlüklərin mövcudluğa meyli eyni, amma onların mövcudluğa keçid imkanı fərqlidir. Bunun nəticəsi olaraq bir mümkünlük mövcudluğa keçir, digər mövcudluq isə keçmir. Bu həm də mümkünlüklərin mövcudluq əldə etməsinin ardıcıllığını təzahür etdirir. Ruhi mümkünlük reallıqlara görə daha ali imkan tələb etdiyindən (bu imkanlar isə təbiətdə mövcud olmadığından), digər tərəfdən ruhdan əvvəl mövcudluğa keçmiş mümkünlüklər onun mövcudluğa keçməsinə mütləq şəkildə mane olduğundan, yəni Ruhi mümkünlüyün bilavasitə mövcud olma meyli imkansız olduğundan, o, bilavasitə mövcudluğa keçməyən - digər mövcudluğa keçmiş mümkünlüklərdən dolayısı ilə mövcudluq əldə etmiş - mümkünlük kimi mövcuddur. Yəni Ruhi mümkünlük özündə mövcudluq tələbi və meyli saxladığından, imkan istisna edildiyindən, bu tələbi dolayısı ilə başqa mümkünlüklərin mövcudluq üsulu ilə reallaşdırır. Mövcudluqların mümkünlükləri total şəkildə Ruhi mümkünlüyün birbaşa mövcudluğuna mane olduğundan, o, mövcud olmayan mümkünlük kimi təzahür edir və mövcudluğa dolayısı ilə, onun mövcudluğuna mane olan, mövcudluq əldə etmiş mümkünlüklərə münasibəti ilə cəhd edir. Başqa sözlə, Ruh onun mövcud olmasına imkan verməyən başqa mövcudluqlardan meydana çıxan maneələri dəf etməklə, özünün predikatlarını təzahür etdirməsi ilə mövcud olma imkanı əldə edir.

Belə cəhd yalnız mövcud varlıqların mümkünlüyünün məcmusunun necə mövcud varlığa çevrilməsini - onların imkanlarının məcmusu haqqında bilgini - mənimsəməklə mümkün olur. Hansı ki, Ruh belə

mənimsəməni bilik toplamaq kimi reallaşdırır. Bilik - mövcud varlıqların mümkünlükləri haqqında ən ümumi həqiqətidir. Platon biliyi (aisthesis) istənilən növ qavrayışı bildirən termin kimi təyin etmişdir. Bilik toplamaq "özü-özünü düşünməklə" "başqasını düşünmək"in vəhdəti kimi meydana çıxır. Burada "başqasını düşünmək" özündənkənar həqiqəti aşkarlamaq, "özünü düşünmək" mənimsənilmiş həqiqət əsasında özünü dərketməkdən ibarətdir. Biz özünüdərki ruhi mümkünlüyün mövcudluğa keçməsi kimi təyin edirik. Yəni Ruh özünüdərk kimi və o qədər mövcudluqdur. Beləliklə, özünüdərk yalnız özündənkənar gerçəkliyin həqiqətini dərk etməklə reallaşır. Yəni insan nə qədər varlığın həqiqətini dərk edir, bir o qədər Ruh bunun əksi kimi öz mövcudluğuna yiyələnmiş olur, yəni aktuallıq əldə edir.

Əgər varlığın aktuallaşmasını özündə bilik saxlamaq kimi qəbul etsək (hər bir şeyin sürəkli olaraq özündə həqiqət təzahür etməsi hər bir şeydə həqiqətin saxlandığını göstərir), onda Ruhun aktuallaşmasını özündə biliklənmə - bilik əldəetmə kimi təyin edə bilərik. Necə ki, insan dərk edir, deməli, Ruh başqasını düşünən kimi mövcuddur və özü-özünü mütləq düşünən varlığa çevrilməmişdir. Nə zaman ki insan yalnız düşünür, onda insan özünü düşünən varlıq kimi mövcud olur. Beləliklə, idrak prosesinin sonunu insanın mövcud varlığın mümkünlüyünün məcmusu ilə eynilik təşkil edən biliyə malik olması kimi müəyyənləşdirmək olar. Hansı ki, biliklənmə prosesi başa çatır və Ruhi mümkünlük öz mövcud olmaya meyli əsasında müstəqil mövcudluğa çevrilir. Yəni insan artıq hissi qavrayışdan həqiqət əldə etmir. Buradan da, idrak varlığın sonuncu həqiqətini aşkarlamaq istiqamətindəki ruhi proses kimi çıxış edir.

Biz mütləq həqiqəti - başlanğıcların başlanğıcı haqqında həqiqəti idrak imkanında olmadığımızdan, mütləq həqiqət haqqında özümüzün müəyyən etdiyimiz postulatlardan - həqiqət kimi sübutsuz qəbul edilən başlanğıc ideyalardan çıxış edərək mühakimə yürütməyə məcburuq. Pos-

tulat - insanın təcrübədənkənar, özünün həqiqətin eyniliyi kimi qəbul etdiyi fikirlərdən - ağıldan törəyən ideyalardan ibarətdir. Postulatlar metafizik bilgilər olub, təcrübi bilgilərin əsası kimi çıxış edir. Belə postulatlardan biri "Allah istəmişdir və yaratmışdır" müddəasından ibarətdir. Beləliklə, biz bu müddəadan, bilavasitə Allahı xarakterizə edən, birbirindən fərqli iki predikabiliya - Allahdan xəbər verən kateqoriya - ayırd edə bilərik: **İstəmək** və **Yaratmaq**.

İLAHİ AĞLIN TƏZAHÜRÜ - İSTƏMƏK

İlahi Ağlın bir vəziyyətdən başqa vəziyyətə keçməsi onun mütləq hərəkəti kimi meydana çıxır ki, biz bunu **istəmək** kimi təyin edirik.

Biz İlahi istəyi, Allahın özü-özündə mütləq eyniliyi ilə əkslik təşkil edəcək özündən mütləq fərqlilik - ilahi mütləq sükunətlə mütləq hərəkətliliyin fərqinin refleksiyasını - **yaratmaq** kimi təyin edirik. Allahın mövcudluğunu özü-özündə əbədi və sonsuz eynilik yaratmaq kimi təsəvvür etmək olar. Hansı ki, bunun əksiliyi özü-özündə əbədi və sonsuz fərqlilik yaratmaq olacaqdır. Özündən fərqlilik - özünə xas xarakteristikalarla təyin olunmayanı yaratmağı özündə ifadə edir. Buradan da demək olar ki, Allahın yaratmaq istədiyi heç bir şeydən Allahın xarakteristikalarını aşkarlamaq olmaz, yalnız onların eyniliyinin - ən ümumi həqiqətlərinin məcmusunun totallığının əksliyindən Allahın xarakteristikalarını aşkarlamaq olar ki, bu da yaranışa əks proseslə - idrak prosesi ilə reallaşır.

Allahın istəməkliyi, özünün total mümkünlüyünün fərqliliyinin sonsuz sayda ayrı-ayrı mümkünlüklərə ayrılması və bu mümkünlüklərin mövcud olma tələb etməsi ilə, varlığın bütün növlərində öz mövcudluğunu davam etdirməsi - mövcudluğa cəhd üsulu kimi refleksiya edir. Yəni mövcudluğun öz mövcudluğunu davam etdirmə cəhdi, özündə Allahın onu yaratmaq istəyinin sürəkli refleksiyası kimi təzahür edir. Başqa

sözlə, nə ki mövcuddur, bu, Allahın iradəsi ilə onun istəyi kimi mövcuddur. Bu İlahi İradə mövcudluğun mütləq və total vəhdətini təşkil edir.

Haşiyə: Lokk, "Təcrübələr"

> *"Biz özümüzdə, bizim ağlımızın fəaliyyətinin müxtəlif növlərini başlamaq və bizim bədənimizi hərəkət etdirmək və ya onu hərəkətdən saxlamaq, onları davam etdirmək və ya qurtarmaq - yalnız bir fikirlə və ya əmr edən və ya yerinə yetirilməsinə icazə verən və ya verməyən ağlın vəziyyətinə görə - güc tapırıq. Ağlın hansısa ideyaya baxılmasına və ya baxılmamasına sərəncam verməyə və ya bədənin hissələrini sakitlikdən hərəkətə gətirməyə və ya əksinə qabil olan bu güc, bizim iradə adlandırdığımızdır. Bu gücün, hansısa ayrıca fəaliyyəti idarə edən və ya ondan saxlayan həqiqi tətbiqini biz istəmək və ya iradəvilik adlandırırıq."*

Göründüyü kimi, Lokk istəməklə iradəviliyi eynimənalı qəbul edir. Bizcə, istəməklə iradəvilik tam eynilik təşkil etmir. İstəmək - arzulamaq, iradəvilik - arzunun reallaşmasına cəhd mənalarına malikdir. Buradan da, istəməyi passivliyin, iradəviliyi aktivliyin başlanğıcı kimi təyin etmək olar.

Hər bir mümkünlük Allahın mütləq həqiqətini nisbi şəkildə özündə ifadə etdiyindən, Allahın istəyinin mümkünlüklərin həqiqətindən ibarət olduğunu deyə bilərik. Həqiqət - İlahi İstəyin təzahür formasıdır. Buradan da, hər hansı bir şeyin həqiqəti həmin şeyin nə dərəcədə İlahi İstəyə uyğun mövcud olmasını özündə ifadə etmiş olur.

İlahi İstəyin mahiyyətinə varmaq üçün ümumiyyətlə istəyin təbiətini şərh etmək lazım gəlir. İlahi sfera idrak üçün keçilməz olduğundan, biz başlanğıc İlahi İstəyin mənasını yalnız son istəkdən, yəni insanın istəyindən dolayı yolla təxmin edə bilərik.

İstək nədir? İstəmək sözü - *volition* seu *willing* - əsasən aşağıdakı mənaları özündə ifadə edir:

a) **Arzulamaq, həsrətində olmaq, ehtirasla arzulamaq, ciddiyyətlə arzulamaq:** Bu mənada istəmək əvvəlcədən mövcudluğu məlum olanı

istəməyi özündə ifadə edir. İnsan məhz tələbatının və maraqlarının təsiri altında, haqqında qabaqcadan ona məlum olan məlumatlar əsasında nəyisə istəyir. Belə istək şərtlənmiş istəkdir, hansı ki, zəruri şərtlər olmadıqda istək meydana çıxmır. Buna görə də, insan haqqında heç bir məlumatı olmayan, tələbatlarını ödəməyəcək, maraqlarına uyğun olmayan nəyisə istəyə bilməz. Allahın heç bir tələbatı və marağı olmadığından və yaratdıqlarından əvvəl mütləq yoxluq olduğundan, yaratdıqlarını məlumat kimi yaratdığından, İlahi İstək bu mənaya malik deyil.

b) **İradəvilik nümayiş etdirmək, arzusunu izhar etmək:** Bu mənada istək özündə iradəviliyi, nəyisə əldə etməyi bildirir. Allahın istəməyi bu mənada mütləq iradəviliyi özündə təqdim edir, hansı ki, istənilənin yaranmaması bu güclə istisna olunur.

c) **Həvəsə malik olmaq:** Həvəs maraqdan doğur. Allahın marağı olmadığından, İlahi İstəkdə bu məna istisnadır.

d) **Cəhd etmək:** Cəhd özündə zərurətə görə fəaliyyəti ifadə edir. Allah mütləq azad olduğundan, zərurətə görə cəhddən də azaddır. İlahi İstək bu mənaya da malik deyil.

e) **Niyyətlənmək:** Niyyət əldə edilməsi qeyri-müəyyəni arzulamaqdır. Belə arzulamaqda cəhd və iradəvilik təzahür etmir. Başqa sözlə, arzulamaq formal şəkildə təzahür edir. İlahi İstəkdə bu məna ola bilməz, çünki İlahi qeyri-müəyyənlikdən azaddır və O, istəniləni həm də yaratmağa qabildir. İlahi İstək mütləq müəyyənlik xarakteristikasına malikdir.

f) **Hazırlaşmaq:** Bu mənada istək fəaliyyətin başlanğıcı mənasını verir. Belə ki, insan istəyi, hazırlaşmaq mənasında, hər hansı bir fəaliyyət üçün zəruri olan ilkin işlərin görülməsindən və insanın gücünün səfərbər edilməsindən ibarətdir; hansı ki, bunsuz insan arzulanan fəaliyyətə başlaya bilməz. Bu, insanın istədiyi fəaliyyət üçün istənilən vaxtda və yerdə zəruri imkana malik olmaması ilə şərtlənmişdir. Allah hər şeyə qadir və qabil, məkan və zamanüstü olduğundan, Onun fəaliyyətə - Yaratmağa - xüsusi hazırlaşmasına zərurət yoxdur. Yəni Allah istədiklərini yaratmaq gücünə malikdir.

Bəs istəyin səbəbi nədən ibarətdir? İnsanın istənilən başlanğıc istəyi instinktivdir. İnsanda üç cür instinkti ayırd edə bilərik: ikisi onun heyvani təbiəti, yəni bədəni ilə bağlı olan **özünüqoruma** və **nəsilvermə** instinkti, biri isə Ruhi instinkt kimi, yalnız şüurlu insan üçün xas olan **sosiallaşma** instinkti. İnsan o zaman istəməyə başlayır ki, onda ruhi və ya cismani tələbat yaranır. Biz tələbatı ümumi şəkildə - zərurətə görə mövcudluq şərtinin - imkanın təzahür forması kimi təyin edə bilərik. Tələbat mövcudluğun və mövcud olmanın davam etdirilməsi üçün zəruri olanlara ehtiyacdan doğur. Hansı ki, bu ehtiyaclar olmadan mövcud olma davam etmir, yəni mümkünlüyün mövcudluğa keçidinin sürəkliliyi aradan qalxır və proses əks istiqamətdə, mövcudluqsuz mümkünlüyə keçid istiqamətində gedir; bu da ölüm, məhv olma, dağılma və s. kimi təzahür edir.

Tələbat istək yaradır, buna görə də istənilən tələbatın yaranmasına paralel, eyni məqamda istək meydana çıxır və instinktlər insanın fəaliyyətini tələbatı ödəyəcək istəyin təmin olunmasına - əldə edilməsinə yönəldir. Tələbat özündə mövcud olma meylinin sürəkliliyindən meydana çıxır. O yerdə ki tələbat yoxdur, orada sürəklilik, yəni proses də yoxdur. İnsan ağlında Allah ideyası onun mütləq sürəkliliyi - əbədi və sonsuz varlığı ilə, yəni tələbatı ilə assosiasiya olunur. İnsanın instinktlərini kortəbii iradə kimi təyin etmək olar, hansı ki, şüurlu iradədən avtonom və spontan təzahür etməsi ilə fərqlənir. Beləliklə, istək hansısa tələbatla vəhdətdə təzahür edir. İstəmək konkret tələbatı təmin edəcək şeyin ideyasını yada salır. Yada düşən ideya, özü-özündə açılaraq, əvvəlki təcrübədən əldə edilmiş yaşantılarla bilavasitə bağlı olan ən müxtəlif təsəvvürlərlə assosiasiya olunur, daha sonra təsəvvürlər təfəkkürdə konkret obrazları canlandırır. Nəhayət, insan həmin obrazlara uyğun gələn gerçəkliyə istiqamətlənir, onu axtarır, tapır və tələbatını onunla ödəyir. Tələbatın ödənməsi ilə təfəkkürdə meydana çıxan ideya yenidən yaddaşın dərinliyinə enir və öz yerini başqa bir istəyin ideyasına

verir. İnsan yaranışın sonunda meydana çıxdığından, özündə ən pis - aşağı səviyyəli istəyə malik olur və buna görə də onun istəyi ən pis, yəni qeyri-təkmil şəkildə İlahi İstəyi özündə refleksiya edir. İnsanın bütün istədikləri onun mövcudluğunun gələcəyinə xidmət etdiyindən, özündən əvvəl mövcud olur, buna görə də insan öz istədiklərinin mövcudluğuna - mümkünlüklərinin mövcud olma meylini aktuallaşdırmasına - müdaxilə imkanına malik olmur.

İnsan istəyinin aşağı səviyyəli olması bir ideyanın müxtəlif təsəvvürlər oyatması və bir təsəvvürün müxtəlif obrazlarla assosiasiya olması ilə təsdiq olunur. Məsələn: Tutaq ki, insan aclıq hiss edir və bu hiss onda yemək tələbatı yaradır. Yemək tələbatı yaddaşda "yemək" ideyasını meydana çıxarır. Yemək ideyası insanda qabaqcadan yedikləri ilə bağlı onda yaranmış ən müxtəlif və çoxlu sayda yemək təsəvvüründə - menyüdə - açılır. Əgər o konkret bir yeməyə fokuslaşırsa, seçirsə, onda insanda həmin yeməklə bağlı yeməyi təşkil edən komponentlərin obrazları canlanır. Bu zaman yeməyi müəyyən edən ən ümumi obrazlar meydana çıxır. Halbuki, həmin yeməyin texnologiyasında istifadə edilən bir çox şeylərin obrazları, o cümlədən texnologiya prosesi, yeməyi təşkil edən komponentlərin mənbəyi, əldə edilmə üsulu, yeri, zamanı və s. bağlı sonsuz sayda məlumat arxa planda qalır. Beləliklə, insan konkret yemək haqqında ən ümumi təsəvvürlərlə istəyir.

Bəs İlahi İstək necə meydana çıxır? Allahın tələbatı yaratmaqdan ibarətdir. Yaratmaq yoxu var etməyi özündə təqdim edir. Əgər Allahın istəyindən qabaq nəsə olsaydı, onda Allah yaratmazdı, yaradıcı başqa bir güc olardı. Hansı ki, mütləq şəkildə yalnız Ona xasdır. "Allah istəmişdir və istədiyini yaratmışdır" postulatından görünür ki, Allahın istəməkliyi onun Yaratmaq tələbatı ilə, və əksinə, Yaratmaq tələbatı İstəməkliyi ilə vəhdət təşkil edir. Beləliklə, insan istəyindən fərqli olaraq, İlahi İstək İlahi Yaradıcılıqla eyni məqamlı və eyni sferalıdır. Buradan da yaratmaqla istəməkliyin mütləq vəhdəti meydana çıxır. Əgər insanda da

istək əldə etməklə bu cür eyni məqamlı və eyni sferalı olsaydı və mütləq vəhdət təşkil etsəydi, onda o, istədiyi şeyi həmin anda da əldə edə bilərdi. Amma təcrübədə insanda istəklə əldə etmək fərqli sferalarda və fərqli zamanlarda aktuallaşır. Əvvəlcə istək tələbatdan asılı olaraq daxildə, təfəkkürdə - metafizik üsulla yaranır; istənilənin əldə edilməsi isə gerçəklik sferasından, xaricdən, reallıq üsulları ilə əldə edilir. İlahi İstəklə İlahi Yaradıcılıq hər ikisi eyni məqamlı, eyni sferalı - metafizik aləmdə olduğundan, reallıqlar aləminə xas emanasiya istisna olunduğundan, Mütləq Kamillik xarakteristikasına malik olur.

Haşiyə: Benedikt Spinoza, "Allah, insan və onun xoşbəxtliyi haqqında qısa traktat"

> *"Heç bir şübhəsiz ədalətlidir ki, Allah özünün ideyasında olan kimi təkmil yarada bilər; həmçinin Onun tərəfindən dərk olunan şeylər, Onun dərk etdiyindən daha təkmil dərk oluna bilməz."*

Nə üçün Allah hər şeyi öz ideyasında olan kimi ən təkmil yarada bilər və Onun tərəfindən dərk olunan şeylər Onun dərk etdiyindən daha təkmil dərk oluna bilməz? Allahın ən təkmil yaratması onunla təsdiq olunur ki, bunun sübuta ehtiyacı yoxdur. Yəni Allahın yaradılışda və dərketmədə sonuncu kamillik olması mütləq aydın və dəqiq həqiqətdir. Bu, Allahın tək bir yaradan olmasından meydana çıxır. Əgər yaranış Allahdan başqa həm də başqa başlanğıcdan meydana çıxsaydı, onda biz Allahın daha təkmil yaradan olduğunu sübut etməyimiz lazım gələrdi. Bir şeyin ki sübuta ehtiyacı var, deməli, onda həqiqət mütləq aydın və yəqin aydınlaşmır. Ona görə də, Allahın təkmil yaradan olması, O tək olduğundan, bunun sübuta ehtiyacının olmaması ilə təsdiq olunur. Allahdan başqa dərketmə qabiliyyəti yalnız insanda olduğundan, əslində Spinozanın fikirlərindəki müqayisə Allahla insan arasındakı müqayisə kimi qəbul edilməlidir. Buradan da Spinozanın fikirlərini belə ifadə etmək olar: *"Allah tərəfindən dərk olunan şeylər, Onun dərk etdiyindən daha təkmil - insan tərəfindən - dərk oluna bilməz."* Dərk etmə yaranışın

qanunlarını özü üçün aşkarlamaqdan ibarətdir. Buradan da belə bir sual çıxır: Nə üçün insan Allahdan daha təkmil dərk etmək imkanına malik deyil?

1. **Birincisi**, insanın idrak prosesində həqiqətin aydınlaşması onun aşkarlanmasından əvvəldir və buna görə də aydınlaşma ilə aşkarlanma fərqli məqamlarda meydana çıxdığından nisbilik yaranır. İlahi idrakda aşkarlama aydınlaşmadan əvvəldir. Belə ki, Allah əvvəl yaratmaq istədiyi həqiqəti özündə aşkarlayır, sonra onu yaratmaqla aydınlaşdırır. Beləliklə, istənilən həqiqətin aydınlaşması Allahın aşkarlanmasının nəticəsi kimi yaranır. Buradan da Allahın dərketməsinin mütləqliyi meydana çıxır. Yəni Allah özünün özündən dərk etdiyini yaratdığından, Onun istənilən şeyi dərk etməsi mütləqdir.
2. **İkincisi**, təcrübədə aydınlaşma obyektdə, aşkarlanma subyektdə baş verir. Yəni insan özündənkənardan - faktdan törəyən ideyaları dərk edir, Allah isə özünün törətdiyini özündən dərk edir.
3. **Üçüncüsü**, Allahın idrakında həqiqətin yayılma mühiti olmadığından, Allah bilavasitə özünün yaratdığı mütləq həqiqəti bilavasitə dərk edir. Ona görə də Allahın yaratdığı, özünün dərk etdiyi kimi mütləq kamil olur.
4. **Dördüncüsü**, Allah zamanüstü olduğundan, İlahi idrak proses deyil, anidir. Bundan fərqli olaraq, zaman və məkanla şərtlənmiş insan idrakı prosesdir, yəni zamanda sürəkliliyə malikdir. İnsan idrakı proses olduğundan, gedişatda ən müxtəlif şərtlər idraka təsir etmək imkanı əldə edir. Beləliklə, aydınlaşma ilə aşkarlanmanın bir məqamlı olması mütləq dərketməni meydana çıxarır.
5. **Beşincisi**, Allah ilkin başlanğıc həqiqəti, insan yalnız sonuncu həqiqəti idrak edir və həqiqət başlanğıcdan uzaqlaşdıqca nisbiləşir. İnsan Allahın yaratdığını, yəni ondan əvvəl aydınlaşan həqiqəti aşkarlayır. Həqiqətin aydınlaşması təkamülün əksinə emanasiyaya məruz qaldığından pisləşir; nəticədə insan, yaranışın sonuncu varlığı

kimi, təcrübədən dərk etdiyi həqiqətlər həqiqətin ən pis dərəcəsini özündə təqdim etdiyindən, həmin həqiqətin mütləq dərki belə mütləq nisbi olur.

MÜTLƏQ BİRİNCİ MÜTLƏQ İDEYA

İlahi İstək mütləq olduğundan, onda nisbiliyin müxtəliflik, çoxluq və fərqlilik kimi təzahürü inkar olunur. Çoxluluq, fərqlilik və müxtəliflik ideyanın reallıq aləmində müxtəlif gerçəkliklər kimi, təfəkkürdə müxtəlif təsəvvür kimi açılmasından meydana çıxdığından, İlahi İstəyin ideya yaratmaq səviyyəsində başa çatdığını deyə bilərik. Bu baxımdan, Allahın İstəyi varlığın Mütləq Birinci Mütləq İdeyasını yaratmaq olmuşdur, hansı ki, məcmui şəkildə İlahi həqiqət haqqında məlumatı özündə təqdim edir.

Haşiyə: Q.V.Leybnis, "Mütləq birinci həqiqət"

"Ağlın həqiqətləri içərisində mütləq birinci eynilik təşkil edən həqiqətlərdir, faktın həqiqətləri arasında isə - o faktlardır ki, aprior olaraq bütün təcrübə sübut oluna bilər. Belə ki, bütün mümkünlüklər mövcud olma tələb edir, buna görə də istənilən mümkünlük, mövcudluq tələb edən və birinci ilə bir araya sığmayan mümkünlük mane olmasaydı, mövcud ola bilərdi. Buradan belə alınır ki, istənilən halda şeylərin elə kombinasiyası mövcud olur ki, onların ən çox sayı mövcud olur. "Bütün mümkünlüklər mövcudluq tələb edir" tezisi - nəyinsə mövcudluğu qəbul edildikdə aposterior sübut oluna bilər. Belə ki, hər şey mövcuddur, onda bütün mümkünlüklər həmçinin mövcudluq tələb edərdi və eləcə də mövcud olardı. Və ya nəsə mövcud deyilsə, onda nəsənin başqasının qarşısında üstünlüklə niyə mövcud olmasına əsas təqdim edilməlidir. Bu isə yalnız mövcudluğun, ümumi əsasından başqa bir şey kimi müəyyən oluna bilməz; və ya mümkünlüyün, özü öz təbiətindən mövcudluq tələb edən mümkünlük qəbul edildikdə, məhz - mümkünlüyün əsasına uyğun və ya mahiyyətin dərəcəsi kimi müəyyən oluna bilər. Əgər təbiətin özündə mahiyyətin mövcudluğa heç bir meyli olmasaydı, onda heç nə mövcud olmazdı: belə ki, demək, bəzi mahiyyətlərin belə meyli var, bəzilərinin yox - deməli, mənasız danışmaq olardı. Belə ki,

mövcudluq, göründüyü kimi, bütün mahiyyətlərə bir və eyni şəkildə aiddir."

Q.V.Leybnisin fikirlərindəki mütləq birinci həqiqət kimi o həqiqətləri təyin edə bilərik ki, həmin həqiqətlər ən sadədir, ən birinci idrak olunan və həm də hamı tərəfindən ilk idrak olunan ideyalardır. Leybnisə görə, "bizim üçün birinci həqiqətlər təcrübi həqiqətlərdir". Təcrübi həqiqətlər obyekt-subyekt əlaqəsində aşkarlanır və belə aşkarlanmanın başlanğıcı subyektdə olur. Buna görə də, ən sadə, ən birinci və hamı üçün eyni olan belə birinci ideya "Düşünən Mən"in ideyasıdır. "Düşünən Mən", "Kainatın Mütləq İdeyasını Düşünənin" miniması kimi mövcuddur; hansı ki, "Kainatın Mütləq İdeyasını Düşünən" özündə Yaradanı təqdim edir.

Q.V.Leybnisin yuxarıdakı fikirlərindən aşağıdakı bir çox suallar meydana çıxır: Bütün mümkünlüklər tələb etdiklərinə görə mövcuddurlarmı? Əgər mümkünlüklər bir-birinin mövcud olmasına mane olursa, onda hər hansı bir mümkünlüyün mövcudluğu nə dərəcədə həmin mövcudluğun mümkünlüyü ilə eyniyyət təşkil edir? Əgər mümkünlüklərin bir qismi tələb etdiklərinə görə mövcuddursa və digər qismi tələb etdiklərinə baxmayaraq mövcud deyilsə, onda onlar necə təzahür edir və onlar arasındakı əlaqə necədir? Nəhayət, mövcud olma tələb etməyən mümkünlük vardırmı?

Bizcə, heç də bütün mümkünlüklər tələb etdiklərinə görə mövcud deyillər və buna görə də, onların yalnız bir təyini - xalis varlıq və ya xalis fikir təyini vardır. Məsələn: Ruhun mümkünlüyü müstəqil mövcud ola bilmir və buna görə də, Ruhun yalnız xalis varlıq təyini vardır. Bütün mümkünlüklər mövcud olma cəhdində bir-birinə mane olduğundan, heç bir mövcudluqdan aydınlaşan həqiqət - mümkünlüyün mövcudluğu - həmin mövcudluğun mümkünlüyü ilə, reallıqla eynilik təşkil etmir. Buradan da mövcudluqdan aydınlaşan həqiqətin nisbiliyi meydana çıxır. Mümkünlüklərin bir-biri ilə vəhdət təşkil etməsi, mümkünlüklərlə

mövcudluqların bir-birinə ziddiyyət təşkil etməsi ikili əlaqələnmə yaradır. Yəni bütün mümkünlüklər xalis varlıq təyininə görə eynilik kimi, amma mövcud olan mümkünlüklər fərqlilik kimi aşkarlanır. Belə ikili əlaqə nəticəsində Ruh mümkünlük kimi yalnız xalis varlıq təyininə malik olduğundan, mövcud mümkünlüklə - mövcud varlıq təyini olan bədənlə şərtlənmiş şəkildə təzahür edir və bu zaman Ruhi təzahürlər özündə bir çox hallarda bədən təzahürləri ilə birgə meydana çıxır. Bu səbəbdən ruhla bədəni bir-birindən ayırmaq və Ruhu müstəqil mümkünlük kimi təyin etmək mümkün olmur.

Nəhayət, mövcud olma tələb etməyən mümkünlük olmalıdır ki, bütün mümkünlüklərin mövcud olma meylini özündə inkar etsin; əks halda mümkünlüklərin mövcud olma meyli təsdiq oluna bilməz. Bu mümkünlük Allah ideyasının mənasından çıxır və Allahın mümkünlüyü mövcud olma tələb etmədiyindən, heç bir mövcudluqla və ya mövcudluqla əlaqələnmiş mümkünlüklə heç bir əlaqəsi yoxdur. Mövcud olma tələb etməyən mümkünlük özündə istənilən imkanı mütləq şəkildə istisna edən mümkünlükdür - yəni Allahın mümkünlüyünün hər hansı bir şərtə ehtiyacı yoxdur. Buradan da, Allah Şərtsiz Ali Mümkünlük kimi, yəni imkanı inkar edən, xalis mümkünlük kimi təyin oluna bilər.

Nə üçün bütün mümkünlüklər mövcud olma tələb etmir? Mövcudluq tələb edən mümkünlüklərin hamısı mövcud olmur? Əgər bütün mümkünlüklər mövcud olma tələb etsəydi və mövcudluq tələb edən bütün mümkünlüklər mövcud olsaydı, onda mümkünlük sərhədi olan reallıqla eyniləşdiyindən məhdudluq xarakteristikasına malik olardı, bu da mümkünlüyün mənasına zidd olardı. Sərhəd yalnız mövcudluqlara xas olduğundan, mümkünlüyün sərhədləri yoxdur. Mümkünlük mövcud olmadan asılı olmayaraq var olur və yalnız imkandan asılı olaraq mövcud olan mümkünlük kimi təzahür edir. Beləliklə, imkanla vəhdətdə təzahür etməyən mümkünlük - xalis mümkünlük - mövcud olma tələb etməyən mümkünlük kimi meydana çıxır.

Mövcud olan mümkünlüklər emanasiya nəticəsində qeyri-kamil mahiyyət kimi meydana çıxır. Bundan fərqli olaraq, mövcud olmayan mümkünlüklər öz kamilliklərini saxlayır. Bu baxımdan biz Leybnisin belə bir fikri ilə razılaşa bilmərik ki, guya

> *"həqiqi müddəalar eyni olanlardır və ya eyni olanlardan təyinlə sübut olunanlardır; buradan belə çıxır ki, mövcudluğun real təyini ondan ibarətdir ki, mövcud ola bilənlər içərisində ən təkmil olanlar mövcud olur, başqa sözlə özündə daha çox mahiyyətə malik olur".*

Leybnisin fikirlərini aşağıdakı arqumentlər təkzib edir:

1. Əgər bütün mövcud olanlar mümkünlüklərin nəticəsidirsə, onda nəticələr səbəblərdən kamil ola bilməz, əks halda səbəblərdən əvvəl mövcud olmalı idilər. Yəni mövcud olanlar mümkün olanlardan qeyri-kamildir.
2. Əgər mövcud olanlar mümkün olanlar içərisində ən kamil mahiyyətə malik olanlardırsa, onda mövcud olmayan mümkünlüklərin məcmusunu özündə ifadə edən və onların ilk başlanğıcı olan Allah ən qeyri-kamil, heç bir mahiyyətə malik olmayan olur. Bu da həqiqətin iyerarxiyasına, dünyanın yaranmasına və varlığın əmələ gəlməsinə zidd olardı.
3. Əgər mövcud olmada mövcudluq tələb edən mümkünlüklər bir-birinə mane olursa, onda heç bir mümkünlük mütləq şəkildə mövcudluğun mümkünlüyü ilə eynilik təşkil etmir, yəni belə mövcudluqlar kamil ola bilməz.
4. Hər bir mövcudluq özündə xalis fikirdən - ideyadan və formadan, həmin ideyanın yaratdığı "nə"dən ibarətdir. İdrak prosesində "nə" mahiyyətin idrakında vasitə kimi çıxış edir və bu zaman forma özüüçün-varlıq təyininə malik heçliyi özündə təqdim edir. Beləliklə, mövcud olanlar, əksinə, öz mümkünlüklərinin yalnız bir hissəsini mahiyyət kimi saxlayır, digər hissəsini təzahürlərin vasitəsi kimi forma

yaratmağa - heçliyə sərf edir. Buna görə də tam kimi aşkarlanmır və hissəvi olduğundan qeyri-kamil olur.

5. Mövcudluq ayrılıqda götürülmüş təklik kimi idrak olunur və belə idrak nəticəsində fərdi şeydən yalnız orijinal həqiqət aşkarlanır. Orijinal həqiqət ən pis keyfiyyətli həqiqətdir, çünki yalnız özü ilə eyniyyət, yerdə qalan istənilən şeylə fərqlilik təşkil edir. Bundan fərqli olaraq, Ali həqiqət ən ümumi olanlardan aşkarlanandır; hansı ki, belə ən ümumi olanlar şeyin əmələ gəlməsinə qədər mövcud olur, yəni mümkünlüklər mövcud olmamışdan öncə var olanlardan aşkarlanır.

Biz bunu **Mütləq Birinci Mütləq İdeya** adlandırırıq. Nə üçün Leybnisin dediyinin əksinə biz mövcudluq tələb etməyən mümkünlüyün varlığını qəbul edirik?

Haşiyə: Uilyam Arnts, Betsi Ceys, Mark Visente, "Dovşan yuvası"

> *"Eynşteynin şagirdi Devid Bom belə hesab edir ki, kvant mexanikası göstərir: reallıq - bölünməz tamdır, hansı ki, adi məkan və zamanın sərhədlərindən kənarda, dərin qarşılıqlı rabitədədir. O, "gizli nizamın" (gizli, aşkarlanmamış fiziki Kainat) mövcudluğu haqqında konsepsiya irəli sürmüşdür. Bu nizamın sonsuz yenidənqurulması ilə kvant dünyasının fərqli fenomenləri əmələ gəlir. Bomun reallığın təbiəti haqqındakı nəzəriyyəsi "Holoqrafik Kainat nəzəriyyəsi"nin yaradılmasına gətirib çıxarıb. Karl Pribram bu nəzəriyyədən beynin işi və qavrayışın mexanizmini izah etmək üçün istifadə etmişdir."*

Devid Bomun fikirlərindən göründüyü kimi, məkan və zamanın sərhədlərindən kənarda, daha dərin qarşılıqlı rabitədə olan tamlıq ehtimal olunur ki, həmin tamlıqdan kvant fenomenləri əmələ gəlir. Beləliklə, belə tamlığı biz yalnız xalis dalğa funksiyasından ibarət təsəvvür edə bilərik, hansı ki, bilavasitə İlahi Nurdan yaranmışdır. Bu tamlıq mahiyyətin varlığının tamlığıdır; hansı ki, bütün varlıqların, o cümlədən mövcud varlıqlar da daxil olmaqla, ağla sığa biləcək və ya sağlam ağla gələn istənilən həqiqətin - nizamın mənbəyidir. Məhz bu səviyyədən müxtəlif

nizamlar çıxaraq yaranışda iştirak edir. Hələlik bizə üç müxtəlif nizamla mövcud olan aləm məlumdur: **Fiziki aləm**, **Kvant aləmi** və **Təfəkkür - Mənəvi aləm**. Fiziki aləm mövcud varlıqlardan, Kvant fizikası mümkün və ehtimali varlıqların vəhdətindən, Təfəkkür xalis mümkün varlıqdan təşkil olunduğundan, hər üçünün özünəxas nizamı vardır. Ona görə də, "Dovşan yuvası"nın müəllifləri ilə razılaşmaq lazım gəlir ki, *"əgər fizika həqiqi tam həcmli "vahid Kainat nəzəriyyəsini" yaratmalıdırsa, şüur mütləq zəruri olaraq ona daxil edilməlidir"*. Burada Şüur dedikdə insanın şüuru yox, xalis şüur - Kainatı yaradan şüur nəzərdə tutulmalıdır, hansı ki, Kainatın ağlından dolayısı ilə aşkarlanır. İlahi İstək yaratmaq tələbatından meydana çıxmışdır. Yaratmaq yoxluqdan var etməyi özündə təqdim etdiyindən, İlahi İstək yoxluqdan var olanın yaradılmasından ibarət olur. Yoxluqdan var olunanı biz həqiqət kimi təyin edirik; hansı ki, həqiqətə görə əməlgəlmə prosesində təbiət formalaşır.

Biz belə hesab edirik ki, idrak prosesinə münasibətdə birinci həqiqətlər aposterior - təcrübədən aşkarlandığı kimi, sonuncu həqiqətlər, mütləq nisbi həqiqətlər yalnız aprior aşkarlana bilər. Əgər həqiqət aprior aşkarlanırsa, deməli, təcrübədənkənar - mövcudluğu olmayan mümkünlük var ki, onun həqiqətini biz aprior olaraq sonuncu həqiqət kimi qəbul edirik. Hər bir həqiqət özündən sonrakı həqiqətin sübutu üçün əsas təşkil etdiyindən, Leybnisin dediyi kimi, *"mütləq birinci olmayan istənilən həqiqət mütləq birincidən sübut oluna bilər. istənilən ideya ya mütləq birincidən (onun özünün sübut oluna bilməməsini sübut etmək olar) və ya özü mütləq birincidir"*; hər bir nisbi həqiqət aşkarlanan, yəni idrak olunandır. Amma bundan fərqli olaraq, mütləq birinci ideyadan əvvəl heç bir ideya olmadığından, mütləq birinci ideya sübut olunmazdır, yəni idrak olunmayandır.

Mümkünlüklər reallıqdan onunla fərqlənir ki, onlar aprior olaraq, təfəkkürün özü-özünə təsirindən, özü-özündən aşkarlanır və belə aşkarlanma konkret mövcudluq kimi mövcud olmayan mümkünlüyün abstrakt

mövcudluğudur. Lakin sonuncu həqiqət özündən sonra hər hansı bir həqiqət üçün əsas təşkil etmədiyindən, özü əsas kimi idrak olunma tələb etmir.

Mütləq Birinci Mütləq İdeya şeylərin Mütləq İdeyasından fərqli məna daşıyır. Mütləq İdeya hər hansı bir şeydən aydınlaşan həqiqətin həmin şeyin mümkünlüyü ilə eyniyyət təşkil etməsini özündə təqdim edir. Mütləq Birinci Mütləq İdeya isə bütün mümkünlüklərin ilk başlanğıcını təşkil edir və bir tərəfdən özündə İlahi İstəklə eyniliyi, digər tərəfdən İkincili Mütləq İdeyaların məcmusu ilə eyniliyi - yaradılanların həqiqətinin məcmusu ilə eyniliyi özündə təqdim edir.

HƏQİQƏTİN İDRAK ÜSULU - MÜDRÜKLÜK

Biz Mütləq İdeyanı hər şey haqqında olan vahid başlanğıc kimi təyin edirik. Hər şey haqqında bilgiyə malik olmaq insanın müdrüklüyü kimi meydana çıxır. Beləliklə, müdrüklük hər şey haqqında Mütləq İdeyanın aşkarlanmasına cəhdi özündə təqdim edir.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Elm bizim axtarışların məqsədi olduğundan, baxmaq lazımdır ki, elm müdrük adlandırılan hansı səbəblər və başlanğıclarla məşğul olmalıdır. Hər şeydən əvvəl biz belə ehtimal edirik ki, müdrük hər bir predmet haqqında ayrılıqda biliyə malik olmadan hər şeyi bilir. Müdrük o adamdır ki, çətin şeyləri və insan üçün asan əldə edilməyənləri bilir. İstənilən elmdə o adam müdrük hesab edilir ki, o, daha dəqiq, öyrənməyə daha qabiliyyətlidir. Elmlər içərisindən müdrük o hesab edilir ki, xidməti vəziyyətinə görə daha böyük ölçüdə rəhbər rol oynayanın nəticəsinə görə cəlb edən yox, idrak məqsədi ilə, onun özü naminə seçilir. Hər şey haqqında bilgi, kim ki bilgiyə ümumi şəkildə malikdir, onda ola bilər; belə insana hansısa şəkildə bu bilginin dairəsinə daxil olan şeylərin bütün məcmusu məlumdur. İnsan idrakı üçün ən çətin olan ən ümumi başlanğıcı dərk etməkdir. Bütün göstərilən əlamətlər müzakirə olunan adi bir və eyni elmə aid etməyi tələb edir; bu, ilkin başlanğıc və səbəblərə baxmaqla məşğul olan elm olmalıdır.*

Aydındır ki, biz onu heç bir başqa ehtiyac üçün axtarmırıq. Azad insan kimi deyirik ki, bu - başqası naminə yox, özü naminə mövcud olandır; yalnız bircə o, bütün elmlərdən azad olandır: o təklikdə özü-özü üçün mövcud olur."

Aristotelin fikirlərindən görünür ki, şeylərin birinci başlanğıcı və səbəbi haqqında bilgilər əldə etmək müdrüklük kimi təzahür edir. Allah başlanğıcların başlanğıcı və səbəblərin səbəbi kimi çıxış etdiyindən, Allahın özü-özündən əldə etdiyi bilgi Mütləq Müdrüklükdən ibarət olur. İnsanın Allahın təbiətini dərk etməyə istiqamətlənmiş cəhdləri isə İlahi Müdrüklüyə münasibətdə nisbi müdrüklük kimi təzahür edir. Hər bir şeyin başlanğıcı və ya səbəbi həmin şeyin ideyası və ya var olmaq mümkünlüyüdür; hansı ki, ideya ilə onun mümkünlüyünü biz həqiqət kimi təsəvvür edirik. Beləliklə, müdrüklüyü həqiqəti axtarmaq və tapmaq kimi təyin edə bilərik. Bəs həqiqəti kim, necə və haradan axtara və tapa bilər?

Aristotel "Metafizika"sında müdrüklüyün xarakteristikası ilə bağlı aşağıdakıları ayırd etmişdir:

1. **Ayrılıqda hər predmet haqqında biliyə malik olmadan, hər şeyi bilmək:** Bu xarakteristika bilgi predmetinin totallığından bilgini əldə etmək qabiliyyətini özündə göstərir. Məsələn, əgər bütünlükdə hər bir ayrıca cisim haqqında məlumata malik olmadan cisim haqqında ümumi məlumata malik oluruqsa, bu müdrüklük kimi meydana çıxır. Ayrıca bir şeyin həqiqəti yalnız hissi qavrama ilə, amma cəmdən əldə edilən həqiqət demonstrativ və ya intuitiv qavrama ilə mümkün olur. Buradan da müdrüklük daha çox aprior həqiqətləri dərk etməyi ifadə edir. Nə üçün insan ayrılıqda hər predmet haqqında biliyə malik olmadan ümumi biliyə malik olmalıdır və belə biliyi necə əldə etmək olar? İnsan hissi qavrayışda sonsuz sayda faktiki olaraq vəhdətdə mövcud olan, amma formal olaraq fikrən ayrılıqda götürülmüş predmetlərlə əhatə olunub. Hər bir insanın təklikdə - başqalarından ayrılıqda - sonsuz sayda bütün şeyləri hissi qavrayışda idrak etməsi mümkün-

süzlükdür. Buna nə onun həyatının məhdudluğu (sonsuz sayda şeyi idrak etmək üçün fərdi idrak sonsuz proses olmalıdır), nə də təcrübənin təbiəti imkan verir. Belə ki, sonsuz sayda ayrı-ayrı predmetlər bütün məkanı doldurur; məkan sonsuz olduğundan, təcrübə sonlu olduğundan, insan idrakı sonsuz məkandakı sonsuz çoxluqda ayrı-ayrı predmetləri əhatə etmək imkanına malik deyil. Bu mümkünsüzlük, şeylərin bir qismi haqqında bilgiyə malik olmaqla, həmin bilgini həmin şeylərə eynilik təşkil edən yerdə qalan bütün sonsuz sayda şeylərə şamil etməklə mümkünlüyə çevrilir. Ayrı-ayrı şeylərdən alınmış bilginin bütün yerdə qalan şeylərə birbaşa şamil edilməsi ilə, "ayrılıqda hər predmet haqqında bilgiyə malik olmadan hər şeyi bilmək" xarakteristikası meydana çıxır.

2. **Çətin şeyi və insanlar üçün əldə edilməyənləri bilmək:** İnsanların hamısı bilgini hissi idrakla qavrayır; insanların bir hissəsi həqiqəti həm də demonstrativ idrakla qavramağı bacarır; bundan daha az sayda insan isə həqiqəti intuitiv idrakla qavraya bilir. Bundan da daha az sayda insan bilgidən bilgi əldə edir. Beləliklə, bilginin əldə edilmə yolu uzandıqca onun əldə edilməsi çətinləşir və buna paralel onu əldə edənlərin sayı azalır. Nəticədə bilginin elə forması meydana çıxır ki, həmin bilgi insan üçün əldə edilən yox, sadəcə fərdi qaydada ona verilən bilgi olur; hansı ki, intuitiv idrak üçün xarakterik olub, müdrüklüyün digər bir xarakteristikasını təşkil edir.

3. **Daha dəqiq və öyrənməyə qabil olmaq:** Həqiqət nisbidir və buna görə də, insanlara məlum olan istənilən həqiqət mütləq həqiqətə - insanlara məlum olmayan həqiqətə - münasibətdə qeyri-dəqiqdir. Daha dəqiq həqiqət insanın malik olduğu mütləq həqiqətə ən yaxın olan həqiqətdir. Bu isə insandan xüsusi qabiliyyət - məlum olan həqiqətlərdən məlum olmayan həqiqətlərə keçmək bacarığını - mütləq həqiqətə yaxınlaşmaq qabiliyyəti tələb edir; hansı ki, eyni ölçüdə predmetdən bir o qədər uzaqlaşmaqla şərtlənmişdir. Buna görə müdrüklük, predmetdən uzaqlaşmaq dərəcəsində onun birinci

başlanğıc və səbəbləri haqqında bilgiyə çatmaq qabiliyyətidir. Predmetdən uzaqlaşdıqca predmetin faydalılığı da öz əhəmiyyətini itirir. Nəticədə, belə bilgi heç bir faydaya xidmət etmir. Digər tərəfdən, insan faydalanma məqsədi güdmədən belə bilgini əldə etməyə cəhd edir; hansı ki, Aristotel bunu "Azad insan kimi həqiqəti axtarmaq" kimi ifadə etmişdir. Burada azadlıq həm idrak prosesinin predmetdən azadlığını, həm də subyektdən - həqiqəti axtaran fərdin fərdiliyindən azadlığı özündə ifadə edir.

4. **Şeylərin bütün məcmusu məlum olanın o şeylər haqqında ümumi bilgiyə malik olması:** Müdrük, ayrılıqda hər predmet haqqında bilgiyə malik olmadan, aldığı ən ümumi bilgini həmin bilginin əhatə etdiyi şeylərə müncər etməklə onların məcmui məlumluğunu aşkarlayır. Belə məlumluq konkret məlumluqdan fərqlənir. Konkret məlumluq hissi qavrayışla konkret obyektdən əldə edilir. Ümumi bilgini bütün şeylərə müncər etməklə əldə edilən məlumluq abstrakt və şərtidir. Yəni predmet gerçəklik kimi yox, real mövcudluq kimi idrak olunur. Məsələn: Astronomlar Kainatın ənginliklərindəki ulduz assosiasiyaları ilə bağlı ümumi bilgiyə malikdirlər. Bu bilgi bütün ulduz assosiasiyalarını ayrı-ayrılıqda tədqiq etməklə əldə edilmir. Əksinə, bir ulduz assosiasiyası haqqında bilginin ümumiliyindən digər ulduz assosiasiyalarının mövcudluğu haqqında bilgi əldə edilir. Burada bilgi konkret, predmet abstrakt olur; halbuki cari şüurda predmet konkret, onun haqqında bilgi abstrakt olur.

5. **Xidməti vəziyyətinə görə daha böyük ölçüdə rəhbər rol oynayanın nəticəsinə görə cəlb edən yox, idrak məqsədi ilə onun özü naminə seçilən predmet:** Gündəlik həyatda insanlar faydalanmaq üçün bir predmetdən əldə etdiyi bilik əsasında başqa predmetə istiqamətlənir və özünə lazım olan faydanı əldə edir. Nəticədə insan idrak predmetinin seçilməsində azad olmur və başqa predmetdən asılı olur. Belə idrakda eyni vaxtda iki predmet - rəhbər rolu oynayan və asılı predmet - iştirak edir. Buna görə də əldə edilən bilik özündə çox-

başlanğıclığı təqdim edir. Çoxbaşlanğıcdan təkbaşlanğıca keçid üçün predmetin biri ixtisara salınmasını tələb edir; bu da rəhbər rol oynayan olur. Beləliklə, müdrüklüyün predmeti rəhbər rolu oynayan başqa predmetlə, onun özündə bir başlanğıca malik olmasına görə təyin olunur. Hansı ki, birinci başlanğıc üçün istiqamətləndirici rol oynayır.

Biz müdrüklüyün digər bir xarakteristikasını hamıya məlum olacaq bilgiyə malik olmaq kimi təyin edirik. Şərqin məşhur didaktik abidələrindən biri "Qabusnamə"də belə bir fikir vardır: *"Hər şeyi hamı bilə bilər, hamı isə hələ anadan olmayıb."* Beləliklə, ən ümumi həqiqət yalnız hamıya məlum olan həqiqətdir. Burada "hamı" bütün insanlığı - birinci insandan sonuncu insana qədər idrak prosesində iştirak edən hər bir fərdi özündə ifadə edir. Hər bir fərd yalnız hamının bildiyi həqiqəti bilməklə hər şey haqqında ümumi bilgiyə malik ola bilər. Hamı heç bir tarixi dövrdə hələ anadan olmadığından, istənilən fərdin hamıdan əldə etdiyi bilgi nisbi olaraq qalır və belə bilgini biz fərdin malik olduğu şəxsi ümumi bilgi kimi təyin edirik. Bundan fərqli olaraq, bütün insanlara malik olan ən ümumi bilgi - şəxsizləşmiş bilgi kimi, müdrüklüyün əsas xarakteristikasını təşkil edir. Belə bilgi, ümumi mövcudluğun ümumi insanlıqda refleksiyasının bir şəxsdə təzahürü kimi meydana çıxır. Hansı ki, yalnız bu cür bilgi ilə birinci başlanğıc və səbəb haqqında bilgiyə çatmaq olar.

HƏQİQƏTİN MƏNBƏYİ - İLAHİ AĞIL

Həqiqət nədən yaranır? Biz Allahın istəyini Ali Ağlın təzahürü kimi təyin edirik. Əgər həqiqəti idrak etməyi müdrüklük kimi qəbul ediriksə, ona həqiqəti yaratmağı müdrüklüyün başlanğıcı kimi qəbul etmək lazım gəlir. Hansı ki, Ali Ağıl bütün həqiqətlərin ilkin başlanğıcı kimi çıxış edir.

Haşiyə: Aristotel, "Metafizika"

"Ali Ağlı hər şeydən daha ilahiliyi təqdim edir. Əgər O heç nə düşünmürsə, onda Onun ləyaqəti nədədir? Bu vəziyyətində O, yatana oxşayır; ola bilsin O düşünür, amma bu fikrin fəaliyyəti hansısa başqasından asılıdır - bu fikir yox, qabiliyyətdir - onda biz Onda ən yaxşı mahiyyətə malik ola bilmirik; dəyərini O düşüncəyə görə alır. O nə düşünür? Ya özü-özünü, ya nəsə başqa şeyi; əgər nəsə başqasını düşünürsə, onda həmişə bir və eyni şeyi, ya fərqli şeyi düşünür. Bəzi şeylər haqqında düşünmək yersizdir. Ona görə aydındır ki, Ağıl ən ilahi olanı, ən qiymətlini düşünür və dəyişilməyə məruz qalmır. Əgər Ağıl fikir deyilsə, fikrə qabiliyyətdirsə, onda düşüncənin fasiləsizliyi, təbii olaraq, ona yük olacaq. Sonra aydındır ki, bu halda Ağlından daha qiymətli, məhz Ağlın predmeti mövcud olmalıdır. Əgər biz Onda ən yaxşını aşkarlayırıqsa, onda Ağıl özü-özünü düşünür və fikir düşüncə haqqında düşüncədir. Bununla yanaşı həmişə görürük ki, bilik, hissi qavrayış, rəy və mühakimə başqasına, özü-özünə yalnız yanaşı şəkildə istiqamətlənib. Sonra əgər düşünmək və düşünən olmaq müxtəlif şeylərdirsə. fikir varlığı və fikrin predmeti bir və eyni deyil. fikrin predmeti ilə Ağıl o hallarda bir-birindən ayrı deyil ki, orada materiya yoxdur; biz burada eynilik əldə edirik, fikir fikrin predmeti ilə eynini təşkil edir."

Aristotelin Ali Ağılla bağlı mühakimələrindən görünür ki, o, insani ağıl və düşüncənin tabe olduğu qanunauyğunluqlar əsasında Ali Ağlın mahiyyətini şərh etmişdir. Buradan da belə qənaətə gəlmişdir ki, Ali Ağıl özü-özünə istiqamətlənmiş real proses olmalıdır. Baxmayaraq ki, həmişə fikirlə onun predmetini fərqləndirmək lazım gəlir, amma o yerdə ki fikrin predmeti materiyadan azaddır, onlar bir-biri ilə üst-üstə düşür. Fikrin predmeti materiyasız götürüldüyündən hissələrə bölünmür, amma hər dəfə nəsə tamlıq kimi düşünülür; məhz Ali Ağıl əbədiliyin bütün gedişində belə düşünür.

Bizim yaratdığımız anlayışlar bizə məlum olan aləmdəki predmetlərlə bağlı yaradılıb. Allah bizə məlum olmayan aləmdə olduğundan, bizim yaratdığımız anlayışlarla dərk edilə bilməz. Amma bizim idrakımızın başqa rasional üsulu olmadığından, biz nümunə kimi insan

ağlı haqqındakı anlayışları əsas götürüb, Ali Ağıl haqqında təsəvvür əldə etməyə məcburuq. Təbii ki, bu zaman əldə etdiyimiz bilgi Ali Ağıl haqqında bilgi yox, Ali Ağıla oxşar olan Ağıl haqqında, yəni İlahi Ağlın Nisbi bilgisi olacaqdır. Buradan da, biz Allahın İstəyi ilə bağlı yalnız dolayı yolla mühakimə apara bilərik.

Ali Ağıl necə təsəvvür oluna bilər? Hər bir fərd cari şüurla xaotik varlıq aləmində ayrılıqda götürülmüş orijinal şeylər haqqında təsadüfi məişət bilgilərinə malikdir və bu bilgiləri konkret şeylərin xarici totallığından əldə edir. Ümumi insanlar içərisində müəyyən qrup insan zərurətə görə xüsusi elmi biliklərə malikdir və bu bilgiləri ayrılıqda götürülmüş eyni sıradan olan şeylərin eynilik təşkil edən hissəviliyindən əldə edir. Xüsusi elmi biliklərə malik insanlar arasında bəzi tək-tək insan müxtəlif xüsusi bilgilərin ən ümumi əsası haqqında bilgilərə malikdir və o, bu bilgiləri bilgilərdən əldə edir. Göründüyü kimi, insanın bilgisi orijinaldan ümumiyə doğru artdıqca, o, şeydən - materiyadan uzaqlaşır və sonda filosoflar bilgini bilgidən alır. Bu zaman bilginin başlanğıc predmeti ixtisara düşür, yəni heç bir əhəmiyyətə malik olmur. Ali Ağıl bilgini özündən yaratdığından, O öz yaratdığı bilgini hər hansı ilkin bilgisiz yaradır.

İlahi Ağıl insan ağlından iki mənada fərqlənir:

1. İlahi insandan fərqli olaraq bilgi almır, bilgini özündən yaradır; özündən yaratdığından mütləq şəkildə ona malik olur. Burada "almaq" fəaliyyətdir, "malik olmaq" fəaliyyətsizlikdir. Deməli, İlahi Ağıl fəaliyyətlə bağlı deyil. Fəaliyyətlə bağlı olmadığından, fəaliyyətin predmeti ilə vəhdət təşkil etmir və fəaliyyətin predmeti ixtisara düşür. Yəni nə qədər ki bilgini özündən yaradır, onda bilgini almaq üçün predmetə ehtiyac qalmır.

İlahi bilgini yaratdığından həm də bilgini bilgidən almır; nəticədə bilginin alındığı bilgiyə malik olana - subyektə ehtiyac qalmır. Başqa sözlə, insanların şeylərdən və bir-birindən bilgilənməsinin əksinə, İlahi

Ağıl bilgini özü yaradır və yalnız özündən alır. Bilgini özündən yaradıb özündən almaq Ali Ağlın mütləqlik xarakteristikasını yaradır.

Bəs Ali Ağıl bilgini harada və necə yaradır? Ali Ağıl sonsuz və əbədi olaraq İlahi Nurla şüalanır. İlahi Nurun şüalanması İlahi Ağlı həqiqət kimi ondan ayırır. Mütləq İdeyanın İlahi Nurla sonsuz dalğa kimi özü-özündə şüalanması və şüalanma prosesində sonsuz dalğanın entropiya olunması ilə - İlahi Nurun üç əsas başlanğıcı təşkil etməsi ilə - sonlu dalğalara mütləq nisbi həqiqət haqqında məlumat daşıyan dalğaları yaratması baş verir. Beləliklə, biz İlahi İstəyi, İlahi Nuru özü-özündən şüalandırması ilə özündə Mütləq Həqiqəti yaratması səviyyəsində müəyyən edə bilərik. Həmin səviyyədən sonra baş verənlər mütləq nisbi həqiqət kimi ideyanın, daha sonra həmin ideyanı daşıyan dalğanın yaratdığı varlığın və onun ən son nəticəsi kimi insanın istəyi kimi meydana çıxır. İdeyanın istəyi ideyanın mahiyyət və formaya keçməsi - qurulmaya cəhd (fakt) kimi; varlığın istəyi mövcudluğa cəhd (akt) kimi; varlığın sonuncu təzahürü kimi insandakı insanlığın, yəni Ruhun istəyi isə İlahi ideyanı aşkarlamaq - idrak kimi meydana çıxır. Təfəkkürdə ideyanın aşkarlanma forması həqiqəti təşkil edir. Beləliklə, həqiqət İlahi İstəyin son nəticəsi olub, ən müxtəlif səviyyələrdən Varlığın Mütləq Birinci İdeyaya münasibətini özündə əks etdirir.

HƏQİQƏTİN MƏNALANDIRILMASI

"Həqiqət nədir?" sualı insanın rahatlığını əlindən alan, ona müxtəlif yollarla əldə etdiyi başqalarından üstünlükdən məhrum edən, qeyri-müəyyənliyin yaratdığı vəcdi əzabla əvəz edən və nəhayət insanı öz həqiqi missiyasına yönəldən cavabın tapılmasını tələb edir. "Həqiqət nədir və onun fəlsəfi aşkarlanması özündə nəyi ifadə edir?"

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

"Roma konsulu Pilat Xristin dilindən həqiqət sözünü eşitdikdə sualla cavab vermişdir: Həqiqət nədir? - Pilat bu sualı o mənada

vermişdir ki, o, bu sualı həll etmişdir və bilir ki, həqiqətin idrakı mövcud deyil."

Əgər Pilat haqlı idisə, onda idrakı mövcud olmayan həqiqətdirsə, onda idrakı mövcud olan bəs nədir? Əgər həqiqət idrakı mövcud olan deyilsə, onda idrak ümumiyyətlə nə üçün mövcuddur? Burada idrakı mövcud olan idrakı mövcud olmayana əkslik təşkil etdiyindən, Pilatın həqiqət haqqındakı düşüncəsinə görə, insan yalnız həqiqətin əksliyi kimi yalanı dərk etməyə cəhd edir. Yəni yalnız yalanın idrakı mümkündür, həqiqətin idrakı isə mümkünsüzdür; buna görə də insanın dərk etdiyi yalnız yalanlardan ibarətdir. Əksliklər vəhdətdə olduğundan, onda insan həqiqəti bilavasitə dərk etmir, o yalnız yalanı dərk etdikdən sonra onun əksliyi kimi həqiqəti düşünür.

Bəs Roma imperiyasının İsraildəki canişini Pilat nə üçün İsa peyğəmbərə "Həqiqət nədir?" sualını vermişdi? Nə üçün bu sualı istehza ilə soruşmuşdu və nə üçün verdiyi sualın cavabını ondan gözləmədən özü onu cavablandırmışdı? Əgər həqiqətin idrakı həqiqətən mövcud deyilsə, onda ümumiyyətlə həqiqəti necə suallandırmaq olar? Əgər həqiqətin idrakı mümkün deyilsə, bunu yalnız bütün həqiqətləri idraka cəhd etdikdən sonra təsdiq etmək olarsa, onda Pilat bunu - özündə müəyyən həqiqət bildirən "həqiqətin idrakının mövcud olmaması" həqiqətini - necə və haradan bilmişdir? Əgər həqiqətin idrakı mövcud deyilsə, onda Pilatın bunu dəqiq bilməsi də mümkün ola bilməzdi. Həqiqətin idrakı nə üçün Pilata görə mövcud deyil və ya mövcud ola bilməz? Əslində bu sualların bir cavabı var: Pilat İsa peyğəmbərdən həqiqət haqqında heç nə eşitmək istəməmişdir və ya ondan həqiqət haqqında dəqiq və düzgün fikir eşidəcəyindən qorxmuşdu. Niyə? O yerdə ki yalan həqiqətin əvəzinə idrakın yeganə məqsədi olur, orada həqiqətin idrakının mümkünlüyü inkar olunur, o yerdə həqiqət idrakdan kənar elan olunur. Pilat məhz mənsub olduğu gücün elan etdiyi yalanlara görə həqiqətin idrakının mümkünlüyünü inkar etmişdi.

F.Bekon insanların həqiqətdən qaçmalarının səbəbini belə izah etmişdir ki, elə insanlar vardır ki, onlar qeyri-müəyyənlikdən və başgicəllənmədən vəcdə gəlir və belə hesab edirlər ki, əgər hər hansı dəyişməz inamı (həqiqəti) dəstəkləsələr, onlar köləliyə düşəcəklər; belə ki, həqiqət fikirlərdə və eləcə də hərəkətlərdə iradə azadlığına təsir edir. Buradan da, insan öz azadlığının əksliyi kimi həqiqəti qəbul edir və azad qalmaq istəyən insan həqiqəti qəbul etmir.

Bizə görə, bəzi insanların "həqiqət nədir?" sualının cavabını gözləməməyinin digər səbəbləri də vardır:

1. Bəzi insanlar belə hesab edir ki, həqiqət elə mübhəm sirdir ki, insan ağlı onu dərk etməkdən acizdir; buna görə də "həqiqət nədir?" sualına cavab vermək belələri tərəfindən istehza ilə qarşılanır.

2. Bəzi insanlar yalnız yalanlar aləmində rahatlıq və rifah əldə edir və "Həqiqət nədir?" sualının cavabı onların rahatlığını əllərindən alacağından və rifahdan məhrum edəcəyindən bu sualın cavabını eşitmək belə istəmirlər.

3. Həqiqətin nə olduğunu bilənlərin, həqiqətin nə olduğunu bilməyənlərdən üstün olmasına görə birincilər - başqa yollarla qazandıqları üstünlükləri əldən verməmək və ya ən azı öz üstünlüklərinə şübhə yaratmamaq üçün - "Həqiqət nədir?" sualının cavabını bilənləri sevmirlər və onların həqiqətin nə olduğunu demələrinə imkan vermirlər. Pilat da məhz buna görə İsa peyğəmbərdən "Həqiqət nədir?" sualının cavabını eşitmək istəməmişdir. Çünki həm öz hakimiyyətinin, həm öz üstünlüyünün, həm də öz rahatlığının əldən çıxacağından qorxmuşdu.

4. Bəzi insanlar həqiqətin idrakının bütün insanlara yox, yalnız imtiyazlı şəxslərə xas olduğunu qəbul edir və buna görə də imtiyazsız şəxslərin həqiqət haqqında fikirlərindən qaçırlar. Buradan da elmi avtoritarizm meydana çıxır.

Həqiqət sözü bir anlayış kimi özündə hansı mənanı təqdim edir? Yuxarıda Platonun biliyi *aisthesis* - aydınlaşma - istənilən növ qavrayışı

bildirən kimi təsəvvür etdiyini qeyd etmişdik. Bura həm hissi, həm intuitiv, həm də demonstrativ qavrama aiddir. Beləliklə, idrak prosesində bilginin əldə edilməsi davam etdikcə idrakda işıqlanma da davam edir. Əgər insan idrak prosesinin müəyyən həddində artıq yeni bilgi əldə edə bilmirsə (yəni nə hissi, nə intuitiv, nə demonstrativ üsulla qavraya bilmirsə), biz bunu bilginin əldə edilməsinin sonu, *anestezis* kimi - idrakın qaranlıqlaşması kimi təyin edirik. Buradan da biz son bilgini, ən ümumi şəkildə həqiqətin idrak prosesini - istənilən növ qavramanı istisna edən, yəni idrak prosesini dayandıran, onu başa çatdıran bilgini **həqiqət** kimi təyin edirik. Başa çatmış idrak yenidən həmin bilikdən davam edirsə, onda belə bilgi nisbi həqiqətə çevrilir.

Həqiqət anlayışına müxtəlif mütəfəkkirlər tərəfindən ən müxtəlif mənalar verilmişdir ki, mənanın çoxluğu ilə həqiqətin vahidliyi ziddiyyət təşkil edərək, həqiqətin mütləq mənasının aşkarlanmasında problem yaratmışdır.

Biz həqiqəti - idrak prosesində real varlığın təfəkkürdə refleksiya olunan xalis varlıq təyininin ideyası - Spinozanın təbirincə *esse ideae* - kimi təyin edirik. Benedikt Spinoza *esse ideae* - ideyanın varlığını Allah ideyasında obyektiv saxlananlar kimi müəyyənləşdirmişdir. Başqa sözlə, hər bir obyektiv gerçəkliyin özündə Allah ideyası ilə vəhdət təşkil edən varlığı, ideyası - həqiqətdir. Hansı ki, həmin ideya insanlar tərəfindən ya simvolik - müxtəlif işarələrlə - fikri ideya kimi (məsələn, hərəkətlə, rəsmlə, musiqi ilə), ya da birbaşa ideya kimi mümkün varlığın xalis varlıq təyinin ideyası kimi - sözlü ideya kimi ifadə edilə, yəni başqasına ötürülə bilir. B.Rasselə görə, *"Əgər söz düşünülmüş şəkildə deyilirsə, onun hansısa mənası olmalıdır; nə ki o ifadə edir, bu və ya başqa şəkildə mövcud olmalıdır"*. Rasselin fikirlərindəki "düşünülmüş şəkildə deyilən söz" sözə məna verilməsini, yəni mənalı sözü özündə ifadə edir. Burada məna həqiqəti ifadə edir. Həqiqət olan isə hansısa formada mövcud olmalıdır. Burada "mövcud olmaq" mövcudluq tələb etməyən mövcud olma

kimi başa düşülməlidir. Çünki elə həqiqətlər vardır ki, onlar mövcudluq tələb etmədən mövcud olurlar. Belə mövcud olma mümkünlük kimi yalnız intuitiv metafizikadan dərk olunur. Mövcudluq kimi mövcud olmada isə həqiqət hissi idrakla təbiətdən qavranılır. Mümkünlüyün mövcud olma tələbi isə yalnız demonstrativ idrakla qavranılır; hansı ki, bu zaman həqiqətin bir tərəfi təcrübədə mövcudluqdan, digər tərəfi metafizikadan, mümkünlükdən əldə edilir.

İdrak prosesində Ruh həqiqəti aşkarlamaqla, bir tərəfdən real varlığın xalis varlıq təyinindən onun ideyasını, onun mövcud varlıq təyinindəki özü-üçün-varlıq təyini ilə vəhdətdən ayırır; sonra öz xalis varlıq təyinində onu özündə olan ideyada refleksiya edir. Bu iki ideyanın - real varlıqla (yəni gerçəkliklə) mümkün varlığın (yəni Ruhun xalis varlıq təyininin ideyalarının) eyniləşməsindən həqiqət aşkarlanır.

Həqiqət haradan əldə edilir? Bizi əhatə edən hər bir gerçəklik ayrılıqda həm öz xüsusi mövcudluq sirrini - xüsusi həqiqətini, həm də digər gerçəkliklərlə vəhdətdə ümumi-ortaq mövcudluq sirlərini - ümumi həqiqəti özündə daşıyır və təzahür etdirir. Biz xüsusi həqiqəti **daxili həqiqət** - konkret şeyin sərhədləri daxilindən və yalnız ondan bilavasitə aşkarlanan həqiqət kimi təyin edirik. Belə həqiqət konkret idrak obyekti ilə şərtləndiyindən həm də şərti həqiqətdir. Ümumi həqiqəti, bunun əksinə, **xarici həqiqət** kimi təyin etmək lazım gəlir. Xarici həqiqət şeyin sərhədlərindən kənarda, eyni sıradan olan bütün şeylərdən bərabər əsasda, hər bir konkret şeydən isə dolayısı ilə aşkarlanır və ayrılıqda konkret şeylə şərtlənmir. Konkret şeylə şərtlənmədiyindən idrak prosesində şeyin bilavasitə iştirakı tələb olunmur. Konkret şeyin iştirakının tələb olunmadığı idrak intuitiv qavrama ilə aktuallaşır, hansı ki, metafizik həqiqətləri aşkarlayır.

Həqiqət haqqında təsəvvürlərin məcmusu **bilik** kimi meydana çıxır. Xüsusi mövcudluq haqqındakı bilgiləri elm, ümumi mövcudluq haqqındakı bilgiləri fəlsəfə öyrənir. Buradan da deyə bilərik ki, fəlsəfə ümumi

həqiqət haqqında xüsusi bilgidir. Metafizika isə mümkünlüklərin həqiqətini aşkarladığından, fəlsəfədən fərqli olaraq mövcudluqlara laqeyd qalır. Bəs bilgini biz necə əldə edirik?

Haşiyə: Lokk, "İnsanın ağıllanması haqqında təcrübə"

> *"Bizim idrakımız, əgər qavradığımıza uyğun gəlib-gəlməməsinə görə ideyalar abstraktlaşdırılarsa, ən ümumi xarakterə malikdir. Belə ümumi ideyalar haqqında məlum olan hər şey, bu mahiyyəti tapmaq mümkün olan hər bir ayrıca şey üçün də düzgün olacaqdır; başqa sözlə, bu mücərrəd ideyalar və nə ki onlar haqqında məlumdur, həmişəlik və daimi olaraq düz olacaq. Ona görə də istənilən ümumi idrakı biz öz xüsusi ağlımızda axtara və tapa bilərik: yalnız bizim öz xüsusi ideyalarımızı öyrənmək bizə belə idrak verir."*

C.Lokkun bu fikirlərindən görünür ki, qavradığımıza uyğun gələn ideyaların abstraksiyalaşdırılması ilə ən ümumilik xarakteristikası əldə edirik. Ən ümumilik bu ideyaların düzlüyünün daimi və həmişəlik olmasını təmin edir. Həmin ən ümumi və həmişə düz olaraq qalmaq xarakteristikaları, hələ qavramadığımız, heç vaxt bilavasitə qavramayacağımız və ya gələcəkdə qavraya biləcəyimiz ayrıca şeylər üçün də düz olacağını qəbul edirik. Bu iki xarakteristikaya malik təfəkkürdə saxlanan ideyalar həqiqəti təşkil edir. Beləliklə, həqiqət - qavrama prosesində, şeydən abstraksiya yolu ilə, şeydəki Allah ideyasına daxil olan bilgini, təfəkkürdə abstrakt ideya kimi refleksiya etməsi ilə yaranan ideyadır. Başqa sözlə, həqiqət varlıqların, yəni yaradılanların Yaradana - Başlanğıca, yəni Allaha münasibətidir; hər hansı bir şeyin özündə Allah ideyasını nə dərəcədə refleksiya etməsinin ölçüsüdür. Biz "bu mütləq həqiqətdir" dedikdə, bunun Allahın ideyası ilə eynilik təşkil etdiyini bildirmiş oluruq. Beləliklə, həqiqət şeydən alınan, təfəkkürdə saxlanılan ideyadır. Xalis həqiqət nə şeydədir, nə də təfəkkürdə. Şeylər bir-biri ilə əlaqəsinə görə müxtəlif sıralar təşkil edirlər. Əgər biz şeydən Varlığa qədər olan sıraları müəyyənləşdirsək, onda aşağıdakı zənciri əldə etmiş olarıq: **Şey** -

Gerçəklik - Reallıq - Mövcudluq - Varlıq. Buna uyğun olaraq da, həqiqət müxtəlif sıralardan müxtəlif dəqiqlikdə aşkarlanır.

İnsanın istənilən idrak aktının - ya iradəvi, ya qeyri-iradəvi, ya məqsədli, ya məqsədsiz, ya təsadüfi, ya zəruri, ya planlı, ya plansız - yeganə məqsədi həqiqəti idrak etməkdən ibarətdir. Bu baxımdan, insanın şüurlu həyatının missiyasının həqiqəti idrak etmək olduğunu deyə bilərik. Həqiqət şüurun ən müxtəlif formalarında müxtəlif cür aşkarlanır. Biz burada həqiqətin metafizik aşkarlanmasını şərh etməyə cəhd edəcəyik.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

> *"Filosoflar həqiqət sözündən ideyanın obyektlə razılaşmasını və ya razılaşmamasını ifadə etmək üçün istifadə ediblər. Buna görə də həqiqət o ideya adlandırılır ki, bizə şeyləri elə göstərir ki, o necə özü-özünə görə mövcud olur; yalan o ideyalardır ki, şeyləri mövcud olduqlarından başqa cür bizə göstərir. Buradan da bu söz metaforik olaraq adsız əşyalara keçirilib."*

B.Spinozanın fikirlərindən görünür ki, həqiqət obyekt haqqında ideyanın obyektlə eyniliyini özündə təqdim edir. Yəni necə ki hər hansı bir ad konkret bir obyektin forması ilə eynilik təşkil edərək obyektin xarici görüntüsünü idraka təqdim edir, eləcə də hər bir ideya da öz növbəsində obyektin fikir varlığını özündə təqdim edərək, təfəkkürdəki fikirlə obyektin fikir varlığının eyniliyini özündə təqdim edir; bunu biz həqiqət kimi təyin edirik.

"Həqiqət nədir?" Əgər belə sual vermək mümkündürsə (təbii ki, mümkündür, çünki həqiqət məhz "nə"də aydınlaşır), onda həqiqətin "nə" olduğunu da demək mümkündür. Sadəcə elə suallar vardır ki, onlar özlərində elə totallığı və ümumiliyi təqdim edirlər, təbii ki, belə sualların cavabı da özündə o dərəcədə ümumilik və totallıq keyfiyyəti daşımalıdır.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

> *"Həqiqətin ən ümumi kriteriyası yalnız elə kriteriya ola bilər ki, hansı ki, predmetindən asılı olmayaraq bütün biliklərə*

münasibətdə düz ola bilər. Materiyaya münasibətdə biliyin həqiqiliyini ən ümumi əlamətini tələb etmək özündə ziddiyyət saxlayır."

İ.Kantın həqiqətlə bağlı fikirlərindən çıxış edib deyə bilərik ki, şüurun formasından (cari, elmi və ya fəlsəfi), biliyin sahəsindən (dəqiq, təbiət və humanitar elm sahələri) və aşkarlanma vasitəsindən asılı olmayaraq düz olan fikir həqiqətdir. İ.Kantın həqiqət haqqındakı fikirlərini şərh etmək üçün "düz olan" ifadəsinin özündə hansı mənalara malik olmasını müəyyənləşdirmək lazım gəlir.

"Düz" sözü ayrılıqda sadə, həqiqi, həqiqətə görə, birbaşa, sadəcə, bilavasitə, əsl, aşkar hiyləsiz, yalansız, aralıqsız, düzgün cizgili kimi mənalara malikdir. Buradan düzgün, düzgünlük, birbaşa kimi sözlər törəyir, hansı ki, özlərində düzün mənalarını bu və ya başqa bütünlükdə ifadə edirlər. Düz olmaq - düz, düzgün və düzgünlük keyfiyyətləri əldə etmiş aktuallığı özündə ifadə edir. Başqa sözlə, düzün reallaşmasından "düz olan" əmələ gəlir. Buradan biz "düz olan"ın aşağıdakı mənalarını ayırd edə bilərik:

1. **Qanunauyğun olmaq kimi düz olan:** Qanun özündə bəlli bir nizama malik olmaqlığı ifadə edir, hansı ki, məkandan və zamandan asılı olmayaraq dəyişməzdir. Əgər hər hansı bir fikir ondan qabaq abstrakt müəyyən edilmiş qanuna uyğundursa, belə "düz olan fikir" qanunauyğunluq kimi məna verir. Düz olan qanuna münasibətdə ikinci, yalnız xarici olduqda, düzgünlük qanunauyğunluq kimi məna verir. Hər hansı bir şeyin öz daxili qanunu həmin şeyin qanunauyğun olmasını müəyyən etməyə imkan vermir. Buradan da qanunauyğun olmağı orijinalın xüsusiyə münasibəti kimi təyin etmək olar. Qanunauyğunluq həqiqətin ən aşağı dərəcəsidir; hansı ki, qanunların dərəcələnməsi ilə şərtlənmişdir. Qanunauyğun olmaq qanuna əsaslanmaq və qanuna cavab verməklə təyin olunur. Biz qanuna əsaslanmağı **zərurətə görə qanunauyğunluq**, qanuna cavab verməyi **təsadüfə görə qanunauyğunluq** kimi təyin edirik. Zərurətə görə qanunauyğunluq (qanuna

əsaslanmaq), qurulmada qanunauyğunluğu özündə ifadə edir; hansı ki, hər hansı bir reallıq qurularkən müəyyən qayda əsasında qurulursa, onda belə qanuna əsaslanmaq qanunauyğunluq kimi düzgünlükdür. Bu cür qanunauyğunluqda qanun əvvəl, qanunauyğun olan sonradır. Təsadüfə görə qanunauyğunluq (qanuna cavab vermək), kortəbii qurulmuş reallığın qurulmasının daxili qaydalarının təsadüfə görə müəyyən xarici qayda ilə eynilik təşkil etməsini özündə ifadə edir. Burada qanunauyğun olan əvvəl, qanun sonradır.

2. **Ədalətli tələb kimi düz olan:** Mümkünlüklərin mövcudluq tələb etmə meylinin reallaşmasının ölçüsü özündə ədalətli tələb kimi meydana çıxır. Belə tələb olmasaydı, onda mümkünlüklərlə mövcudluqlar arasında heç bir bağlılıq olmazdı, başqa sözlə mümkünlüklərin imkanla şərtlənməsi istisna olunardı. Burada ədalətli tələb mümkünlüyün mövcudluğa keçmə imkanını özündə təqdim edir. Ədalətli tələb, bütün mümkünlüklərin mövcudluq tələb etməsində əldə etdikləri mövcudluğun imkana uyğunluğunu özündə ifadə edir. Bu mənada düzgünlük özündə mümkünlüyün mövcudluğa münasibətini ifadə edir.

3. **Məntiqi olmaq kimi düz olan:** Gerçəkliyin fikir varlığının təfəkkürdə refleksiyasında yaranan abstrakt fikrə uyğunluğu məntiqilik kimi təzahür edir. Bu mənada düzgünlük obyektin fikir varlığının təfəkkürdəki subyektiv fikrə münasibətini özündə ifadə edir.

4. **Həqiqilik kimi düz olan:** Belə düzgünlük özündə həqiqiliyi - fəaliyyətin, obrazın gerçəkliklə bilavasitə şərtlənməsini özündə ifadə edir. Başqa sözlə, forma ilə mahiyyətin vəhdətini özündə ifadə edən düzgünlük həqiqilik mənasını verir. Həqiqi olmaq mövcudluğun gerçəklik xarakteristikasının təzahürüdür; hansı ki, reallıq təfəkkürdə refleksiyasında konkretin mücərrədlə eyniliyini ifadə edir. Həqiqilik burada mahiyyətin formaya münasibətini ifadə edir.

5. **İstiqamətləndirici olmaq kimi düz olan:** Bu cür düz olan birbaşa mənasını verir. İdrak prosesində eyni vaxtda sonsuz sayda çoxluq vəhdətdə çıxış edir. Təfəkkürün bu çoxluqdan ayrılıqda götürülmüş

təki idrak etməsi üçün idrak birbaşa həmin predmetə istiqamətlənir. Bu istiqamətlənməyə görə düz olan, idrak obyektinin seçiminin düzlüyünü özündə ifadə edir. Belə düz olan təkin çoxluğa münasibətini ifadə edir.

6. **Aşkar hiyləsiz, yalansız kimi düz olan:** Yalan həqiqətin əksiyidir. Bəzən yalan ya məqsədli olaraq həqiqət kimi qəbul edilir, bəzən isə idrak prosesində ağıl yalanı həqiqətdən ayıra bilmir. Aşkar hiyləsiz və yalansız olmaq mənasında düz olan, özündə nə idrak subyektinin marağına görə əxlaqi, nə idrakın yetərsiz olduğuna görə əqli yalanın istisna edildiyini özündə ifadə edir.

7. **Bilavasitə kimi düz olan:** Gerçəkliyin əsas xarakteristikalarından biri bilavasitəlikdir; yəni həqiqətin aydınlaşması üçün vasitə rolu oynamaq idrak predmetinin bilavasitəliyi kimi meydana çıxır. Burada düz olan, həqiqətin aydınlaşdığı vasitəyə aid olur. Belə düz olan vasitənin qavramağa münasibətini özündə təqdim edir.

8. **Sadə kimi düz olan:** Sadəlik həqiqətin əsas xarakteristikalarındandır; belə ki, ən ümumi həqiqət özündə ən sadə həqiqət kimi çıxış edir. Buradan da, sadə kimi düz olan həqiqətin nisbiləşməsində mütləqə ən yaxın nisbiliyi ifadə edir. Sadəlik hissəsizliyi, qarışığı inkar etdiyindən, özündə həm də həqiqətin aralıq təzahürlərindən keçmədən aşkarlanmasını ifadə etmiş olur.

9. **Düzgün cizgili kimi düz olan:** İdrak predmetinin başqa predmetlərdən fikrən ayrılıqda götürülməsinin şərti həmin predmetin düzgün cizgiliyidir. Məhz belə cizgiliyə görə şeylər ayrılıqda götürülmüş təklər kimi çıxış edir. Burada düz olan sərhədin şeyə münasibətini özündə ifadə edir.

Beləliklə, "düz olan" ifadəsinin mənalarından çıxış edərək həqiqəti - bütün biliklərə münasibətdə qanunauyğun, ədalətli, məntiqi, həqiqi, birbaşa, hiyləsiz, yalansız, bilavasitə, sadə fikir kimi təyin etmək olar.

Təcrübi biliklərin hər biri yalnız öz predmetinə uyğunluğu ilə düz hesab edildiyindən, onda Kantın həqiqətin ən ümumi meyarı ilə bağlı fikirlərinin biz yalnız metafizik həqiqətlərə aid olduğunu deyə bilərik.

Məhz buna görə, belə həqiqətlər materiyaya münasibətdə özündə ziddiyyət saxlayır. Beləliklə, metafizik həqiqətlər bütün predmetlərdən (materiyadan) kənarda əldə edildiyindən və onların bir vahid əsasından alındığından, onların ayrı-ayrılıqda hər birinə və hamısına bilikdə münasibətdə düzdür.

İnsan təfəkkürü hər şeyi (ümumini), hərtərəfli (total) dərk etmə imkanına malik olmadığından, "həqiqət nədir?" sualının istənilən cavabı həqiqətin totallığına və ümumiliyinə görə nisbi mənanı ifadə edir. Başqa sözlə, istənilən dövrdə, istənilən dəqiqliklə aşkar edilən həqiqət yalnız nisbi həqiqət olaraq qalır. Həqiqətin nisbiləşməsinin sonu həqiqətin şərhinin mümkünsüzlüyüdür. Yəni həqiqət o dərəcədə nisbiləşə bilər ki, biz ümumiyyətlə "həqiqət nədir?" sualına cavab tapa bilmərik. Buradan da həqiqətin idrakının mövcud olmaması haqqında mühakimə doğulub.

HƏQİQƏTİN XARAKTERİSTİKALARI

Hər şey həqiqətlə xarakteristika olunur. Bəs həqiqətin öz xarakteristikalarını müəyyən etmək olarmı? Həqiqətin xarakteristikaları onun nisbiləşməsinin səviyyəsini müəyyən edən parametrlər kimi mövcuddur; hansı ki, onların qarşılıqlı əlaqəsindən həqiqətin dərəcəsini, səviyyəsini, yəni idrak obyektinin idealdan və idrak subyektindən hansı məsafədə olmasını göstərir. Həqiqətin xarakteristikalarına aşağıdakıları aid etmək olar:

1. **Ümumilik:** Eyni sıradan olan varlıqların hər birinin xüsusi həqiqəti ilə birlikdə spontan aşkarlanan və eyni zamanda çoxluğa aid olan həqiqət ümumi həqiqətdir. Ümumi həqiqət ayrılıqda götürülmüş bir şeyin tabe olduğu, amma yalnız varlığın məxsus olduğu sıradan aydınlaşan həqiqətdir. Ümumi həqiqət xüsusi həqiqəti özündə gizlədir; hansı ki, xüsusi həqiqət təzahür etdikdə eyni qaydada onu özündə gizlədir. Ümumi həqiqət anlayışlarla ifadə edilir. Məsələn: "Alma, armud meyvədir". Bu ifadəni "alma meyvədir" və "armud meyvədir"

kimi ifadə etdikdə, meyvə anlayışının iki xüsusi adla birlikdə bərabər əsasda iştirak etdiyini görürük. Deməli, ümumi həqiqət eyni sıradan olan müxtəlif varlıqların xüsusi həqiqətinin eyni sıraya aidliyini təyin edən, onlar arasındakı daxili əlaqəni özündə ifadə edən həqiqətdir. Məsələn: "alma meyvədir", "it heyvandır". Biz hər iki ifadədəki isimlə onların fərqli anlayışlarla bağlandığını görürük. Buna görə də deyə bilərik ki, alma və it ümumi həqiqətə malik deyildir, yəni eyni varlıq sırasını təşkil etmir. Lakin "alma mövcudluqdur", "it mövcudluqdur" kimi ifadə etsək, onda göründüyü kimi, hər iki isim daha ümumi, eyni bir anlayışla əlaqələnir. Buradan da, müxtəlif sıralardan olan varlıqların hər birinin xüsusi həqiqətindən spontan aydınlaşan həqiqəti ən ümumi həqiqət adlandırırıq. Ən ümumi həqiqət varlıq aləmini, təbiəti - qeyri-təbii olanlarla sərhədləyən həqiqətdir. Yəni ən ümumi həqiqətin aşkarlanması ilə varlığın idrakı başa çatır.

Haşiyə: Martin Haydegger, "Varlıq və zaman"

> *"Mövcudluğun həqiqətinin qürubu bildirir: mövcudluğun olması və yalnız mövcudluğun, statusu müəyyən edən özünün əvvəlki müstəsnalığını itirir."*

M.Haydeggerin fikirlərindən görünür ki, mövcudluğun həqiqətinin mütləq idrakı (bir çox hallarda fəlsəfədə səhv olaraq həqiqətin aydınlaşmasının mütləqliyi ilə həqiqətin idrakının mütləqliyi eyniləşdirilir, bu da çox ciddi çətinliklər yaradır) ilə mövcudluq subyekt üçün öz aktuallığını itirir. Burada aktuallığını itirmək statusdan məhrum olmağı bildirir. Haydeggerin fikrindəki "statusu müəyyən edən" ifadə mütləq idrak olunmamış və buna görə də idrak obyekti statusunda çıxış edən mövcudluq mənasını verir; hansı ki, məhz buna görə təcrübədə obyekt-subyekt əlaqəsi yaranır. Əgər mövcudluğun həqiqəti mütləq idrak olunsaydı, onda artıq o, idrak üçün heç bir məna kəsb etməzdi, yəni təcrübədə obyekt-subyekt əlaqəsində olmazdı; bununla da "mövcudluq" ölərdi. Bu, Haydeggerin yuxarıdakı fikrindəki "mövcudluğun qürubu" demək olardı.

İnsan özündənkənar mövcudluqlarsız mövcud olmadığından, mövcudluğun ölməsi eyni zamanda, spontan olaraq "subyektin ölməsinə" də səbəb olardı. Buna görə də subyekt özünün mövcudluğu naminə, mövcudluğun həqiqətinin mütləq idrakını özü-özündə istisna edir. Yəni insan ona görə mövcudluğun həqiqətini nisbi dərk etmir ki, onu mütləq dərk edə bilmir; ona görə nisbi dərk edir ki, bununla mövcudluğu özü ilə vəhdətdə saxlasın, yəni öz mövcudluğunun əsasından məhrum olmasın. Buradan da həqiqətin mütləq dərkedilməzliyinin birinci səbəbini aydınlaşdırmış oluruq.

İ.Kant spekulyativ ağlın son məqsədinə **iradənin azadlığı**, **ruhun ölməzliyi** və **Allahın varlığını** aid edir. Burada "iradənin azadlığı" həm də mövcudluğa aid edilməlidir. Hər bir mövcudluğun mövcud olması onun iradəvi azadlığı kimi meydana çıxır. Mövcudluğun mütləq idrakı onu iradəvi azadlıqdan məhrum edir, çünki onun mütləq həqiqəti təfəkkürdə refleksiya etdikdə konkretlə mücərrədin eyniləşməsi baş verir. Belə halda ya konkret, ya da mücərrəd ixtisara düşür, çünki hər ikisi bir və eyni olur. Amma həqiqətin nisbi idrakına görə heç bir halda konkret şey özünün abstraksiyası ilə eynilik təşkil etmir və onlar arasında həmişə fərqlilik saxlanılır. Bu fərqlilik məhz Kantın dediyi şeyin "iradəvi azadlığıdır".

Beləliklə, şeyin iradəvi azadlığı özündə idrak olunmazlığı, yəni subyektdə tam və mütləq refleksiya etmək zərurətində olmamağı ifadə edir. Buradan da həqiqətin mütləq dərk edilməzliyinin ikinci səbəbi meydana çıxır. Yəni şey öz həqiqətini mütləq aydınlaşdırmaqla öz mövcudluğuna xitam verdiyindən (yəni iradəvi azadlıqdan məhrum olduğundan), öz həqiqətinin gizliliyinə cəhd edir. Belə gizliliyə görə şeyin həqiqəti mütləq dərk edilmir. Yəni şeyin öz həqiqətini gizlətmək imkanı onun iradəvi azadlığını təşkil edir. İradəvi azadlıqdan məhrum şey artıq "ölmüş şey"dir, buna görə də təcrübədən çıxır.

Haşiyə: Martin Haydegger, "Varlıq və zaman"

"Onun başlanğıc həqiqətində Varlığın hadisəsinin gələ bilməsindən öncə, varlığı iradə kimi parçalamaq lazımdır; dünya qəzaya məcbur olmalıdır: yer - boşalmağa, insan - boş əməyə. Yalnız bu qürubdan sonra, uzun vaxtdan sonra Başlanğıcın qəfləti sükunəti baş verəcəkdir."

M.Haydeggerin fikirlərindən görünür ki, Varlığın hadisəsinin - gerçək dünyadan fərqli olaraq metafizik aləmin - gələ bilməsi üçün gerçək dünya qəzaya uğramalıdır. Burada "qəzaya uğrama" fiziki mənada işlənmir. Yəni idrak prosesindən azad olma kimi qəzaya uğramaq nəzərdə tutulur. Həqiqətən də, məhz idrak prosesi istisna olunduğu anda biz yenidən Başlanğıca qayıtmış oluruq; hansı ki, ondan çıxış idrakın başlanması ilə mümkün olub.

Biz şeyin iradəvi azadlıqdan məhrum edilməsinin praktiki üsulu kimi şeyi "dağıdırıq". Şeyin dağıdılması onu öz həqiqətini gizli saxlamaq imkanından, yəni iradəvi azadlıqdan məhrum etməyə gətirib çıxarır. Məsələn, NaCl (xörək duzu) özündə iradəvi azadlığa malikdir və necə ki mövcuddur, biz onun özündəki gizli həqiqətini mütləq dərk edə bilmirik. Buna görə də o, bizim idrak obyektimiz kimi çıxış edir, yəni bizimlə təcrübədə obyekt-subyekt münasibətində olur. Amma NaCl Na və Cl-a parçalandıqda, artıq NaCl-un mövcud olması dayandığından, spontan olaraq onun öz həqiqətini gizli saxlamaq imkanı da aradan qalxır və iradəvi azadlıqdan məhrum olur. Buna görə də o, bizim idrak obyektimiz olmaqdan məhrum olur, bununla da təcrübədə obyekt-subyekt münasibətindən kənarlaşır.

Ən ümumi həqiqət fəlsəfə tərəfindən öyrənilir.

2. Tamlıq: Həqiqətin ikinci xarakteristikası tamlıqdır. Tamlıq eyni bir şeyin həqiqətinin bütün tərəflərinin idrakını özündə təqdim edir. Bir qayda olaraq, biz fikrən ayrılıqda götürülmüş şeydən onun həqiqətinin ya bizim maraqlarımıza, ya da bizim tələbatlarımıza uyğun gələnini idrak edirik. Həqiqətin tamlığı həm də bizə heç bir aidiyyəti olmayan tərəfləri də özündə ifadə edir. Həqiqətin tamlığının bizə aid olmayan tərəfi -

özündə-şeyin həqiqətidir; hansı ki, yalnız şeyə aidiyyəti var və subyektə aidiyyəti olmadığından, bilavasitə təcrübədən idrak olunmur. Beləliklə, tam həqiqəti yalnız təcrübədənkənar, yəni qeyri-hissi qavrama ilə, mütləq faktdan (yəni aktuallaşmamış varlıqlardan), heç bir tələbata və marağa uyğun olmadan, "elə-belə" idrak etmək mümkündür. "Elə-belə" idrakı biz səmimi idrak kimi təyin edirik. Hansı ki, bunun ibtidai formasını Hegel "sadəlövh idrak" adlandırır. Beləliklə, tam həqiqət yalnız təkdən idrak oluna bilər. Biz dörd təklik müəyyən edə bilərik:

- **a) Şeyin təkliyi:** Bütün digər mövcudluqlardan fikrən ayrılıqda tək kimi götürülmüş mütləq fakt.
- **b) Mövcudluqların məcmusundan yaranan təklik - Kainat:** Şeylərin məcmusu yalnız bir təklik təşkil edə bilir, ona görə ki, bütün şeylər üçün bir ən ümumi həqiqət vardır.
- **c) Mümkünlüklərin məcmusu kimi Ruhun təkliyi:** Dərk etmək qabiliyyəti bütün insanlarda eyni bir mahiyyətin təzahürü olduğundan, dərk edən subyekt - "düşünən Mən" özündə təklik kimi çıxış edir. Yəni insanlarda olan ruh öz mahiyyətinə görə bir və eynidir, yalnız bədənlə və ətraf mühitlə şərtlənməyə görə atributlarında fərqlilik müşahidə olunur. Bu, varlığın da tabe olduğu ümumi qanunauyğunluqdur. Məsələn, biz bir və eyni şeyi ən müxtəlif formalara sala bilərik, bu zaman şeyin mahiyyəti dəyişməz qalar. Ruhun forması olmadığından, o nə özü-özünə, nə də bizim tərəfimizdən təcrübədə və ya fikrən müxtəlifləşmir.
- **d) Allahın təkliyi:** Allahın təkliyi bütün çoxluğun ilk başlanğıcı və birinci səbəbi olmasına görə təyin edilir. Yəni Allah ideyası bütün yerdə qalan mövcud və mümkün varlıqların ən ümumi səbəbi və başlanğıcı olduğundan təkdir. Bunu riyaziyyatdan da görmək olar. Məsələn: 1+1=2; 1+2=3; 1+3=4; 1+4=5 və s. Biz burada görürük ki, cəmləmə əməliyyatı nəticəsində alınan ən müxtəlif çoxluqlar (2, 3, 4, 5 və s.) eyni bir rəqəmlə, "1"-lə eyni zamanda paralel bağlılıqdadır. Amma bundan fərqli olaraq, həmin çoxluqlar digər toplananlarla (yəni

2, 3, 4-lə) əlaqələnmir. Çünki onların hər biri də öz növbəsində müxtəlif kombinasiyalardan əmələ gələ bilir (Məsələn: 1+3=4; 2+2=4). Belə halda "5" 4-lə bağlılığa malik olması üçün bir vaxt onu təşkil edən 3-lə, başqa vaxt 2-ilə bağlanmalıdır; yəni ikili təbiətə malik olmalıdır. İkili təbiətlilik nizamsızlıq olduğundan, mürəkkəblik isə nizamın təzahürü olduğundan, ikitəbiətlilik çoxluqdan istisna olunur. Buradan da, Allah vahid kimi bütün sonsuz çoxluqla eyni zamanda əlaqəsi olan təklik kimi təyin olunur. Burada əlaqəsi olmaq Allahın ayrı-ayrı şeylərə keçməsini yox, onlardan kənar səbəb kimi varlığını ifadə edir. Əgər Allah hər bir şeyə keçsəydi, onda fərqli şeylərdə fərqli aşkarlanardı (yəni tək olmazdı) və şeydən asılı olardı (yəni mütləq azad olmazdı). Digər tərəfdən, şeyə keçməklə eyni bir şeyi, ona münasibətdə immanent olduğundan, təkrar-təkrar yaratmaq imkanını itirərdi; çünki immanent olmaqla şeyi təkrar yaratdıqda özü də onunla birlikdə təkrar yaranardı, bu da absurddur. Çünki Allah Yaradıcı olduğundan yaradılmayandır. Allahın yaradıcı imkanının sonsuzluğu Onun hər şeydən kənarda olmasını şərtləndirir. Yalnız bu halda O, hər şeyin yaradıcısı kimi çıxış edir.

Həqiqətin tamlığı, göründüyü kimi, yalnız aprior üsulla əldə edilə bilər, çünki təklərin heç biri - nə mütləq fakt, nə Kainat, nə Ruh, nə də Allah hissi qavranılmadığından təcrübəyə daxil olmur. Təklərdən tam həqiqətin idrakı metafizikanın vəzifəsidir.

3. Mütləqlik: Mütləqlik həqiqətin özü-özündə mövcudluğunun keyfiyyətidir; hansı ki, özündənkənara refleksiya etmir, yəni aydınlaşmır. Mütləq həqiqət başlanğıc həqiqət və idrakın nüfuz edə bilmədiyi həqiqətdir. Həqiqətin aydınlaşması onun emanasiyasına səbəb olduğundan, mütləq həqiqət emanasiyaya daxil olmayan həqiqətdir. Hansı ki, Allah ideyası kimi şərh edilir. Mütləq olmaq idrak üçün hesablanmamaq deməkdir, çünki mütləq həqiqət idraka açıq olsaydı, onda onun mütləq idrakı ilə insan özü Allaha çevrilərdi (Nitsşenin təbirincə "Allahı öldürərdi"). Nitsşe xristianlığın Allah ideyasının

yenidən dəyərləndirilməsini Allahı öldürmək kimi şərh edir. Allahı öldürməklə insan özü Allah olardı. Allah olsaydı, onda "özü" olmazdı. Buradan da insanın Allahı dərk etməsi yalnız özünü inkarla mümkün ola bilər.

Mütləq həqiqət idrakın kənar, onun sonundan sonrakı həqiqətidir. Hansı ki, sonda idrak prosesi dayandığından, təfəkkür idrakın bütün əlamətlərindən - yaddaşa almaqdan, obrazlaşdırmaqdan, simvollaşdırmaqdan, təsəvvür yaratmaqdan, ideyalaşdırmaqdan, şərh və ifadə etmə qabiliyyətindən məhrum olur. Biz bunu idrakın evtanaziyası kimi adlandırırıq. Beləliklə, mütləq həqiqət idrakı zülmətə, mütləq anesteziyaya salan, onu dağıdan, bununla da idrakın sonrakı hər hansı bir gedişinə imkan verməyən həqiqət olur. İnsan təcrübədə narkoz prosesində buna oxşar vəziyyətə düşür. Belə ki, narkoz verilmiş adam ani olaraq qaranlığa dalır və narkozda olduğu vaxt ərzində heç bir qavrama imkanına malik olmur. Bizim Allah haqqında heç nə bilməməyimiz məhz özündə bunu təqdim edir; yəni biz Allah haqqında heç bir obraza, simvola, təsəvvürə, fikrə, ideyaya, şərhə, izaha malik deyilik və ola da bilmərik. Çünki Allahın həqiqəti idrakı təbii narkoz vəziyyətinə salır. Bu vəziyyətdə isə subyekt Allahın mütləq həqiqətini dərk edib-etmədiyini özü üçün müəyyənləşdirə bilməz. Bu, insanın heyvani təbiətinə uyğun vəziyyətdir. Yəni idrakın başa çatması insanı heyvanlarla eyni vəziyyətə gətirir; necə ki şüurlu insan var və insan idraka cəhd edir, o heyvanlardan fərqlənir, nə vaxt ki o mütləqi dərk edir, o yenidən heyvana çevrilir. İnsanın heyvana çevrilməsi ruhun bədəndən ayrılmasını göstərir. Beləliklə, insan mütləq həqiqəti dərk etdiyi anda ruhdan məhrum olur. Buna görə də ehtimal etmək olar ki, ölüm anında insan məhz mütləq həqiqətə çatdığından ruh bədəni tərk edir. Dinlər də məhz yalnız o dünyada Ruhların mütləq həqiqətlə - Allahla birbaşa təmasa girəcəyini bildirir.

Biz Allah ideyasını ən ümumi, tam mütləq həqiqət kimi təyin edirik. Beləliklə, Allah ağla sığan - yəni sağlam məntiqlə dərk edilə bilən - hər şeyin hərtərəfli tam və ən sonuncu Ali Mütləq Həqiqətidir.

Burada ümumilik Allahın səbəblərin səbəbi kimi çıxış etməsini, tamlıq başlanğıcların başlanğıcı olmasını, mütləqlik səbəblərin səbəbinin başlanğıcların başlanğıcına keçməsi ilə yaradılışın başladılmasını özündə ifadə edir.

Həqiqəti təyin etməyə imkan verən paradiqmalara həm də həqiqətin xüsusiyyətləri aiddir. Həqiqətin xüsusiyyətləri onun aşkarlanmasının şərtləri - idrak imkanları kimi çıxış edir.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşdirilməsi haqqında"

> *"Həqiqətin xüsusiyyəti və həqiqi ideyaların mahiyyəti: 1. aydın və dəqiqlikdir; 2. o bütün şübhələri aradan qaldırır, yəni təsdiqedicidir."*

Spinozanın həqiqətin xüsusiyyəti ilə bağlı fikrindəki bəzi ideyaları bir qədər inkişaf etdirmək vacibdir.

1. Aydınlıq: Bu anlayış konkret gerçəklikdə həqiqətin aydınlaşmasının intensivliyini, onun şüalanma keyfiyyətini ifadə edir. Hər hansı bir həqiqət gerçəklikdən asılı olaraq şüalandığından, aydınlıq həm də həqiqətlə obyektin vəhdətini ifadə edir. Aydınlıq özündə vasitə ilə həqiqətin vəhdətini təqdim edir, yəni hər hansı bir həqiqət yalnız ayrıca bir vasitə ilə vəhdətdə aşkarlandıqda aydın olur. Bir neçə şeylə eyni zamanda aydınlaşan həqiqət qeyri-aydındır. Buradan da vasitənin sərhədləri aydınlığın təyininə daxil olur. Aydınlığın iki formasını ayırd etmək olar:

- **a) Kəmiyyətlə müəyyənləşən aydınlıq:** Hər hansı bir vasitə özündə olan həqiqət haqqında nə qədər çox sayda məlumat şüalandırırsa, bir o qədər aydındır. Biz bunu aydınlığın kəmiyyət xarakteristikası kimi - sübut kimi dəyərləndiririk. Məsələn: Tutaq ki, bizə verilmiş iki əşyadan hansının nar olduğunu təyin etməliyik.

Həmin şeylərdən biri haqqında bizə verilən məlumat "yumrudur, qırmızıdır, bərkdir, yeyilməlidir", digəri "yumrudur, qırmızıdır, bərkdir, yeyilməyəndir". Biz burada birinci məlumatlar əsasında narı digər əşyadan ayırırıq. Kəmiyyət aydınlığı şeylərin öz həqiqətini bütün mümkün şüalarla şüalandırması ilə ən yüksək səviyyəyə çatır.

- **b) Keyfiyyətlə müəyyənləşən aydınlıq:** Hər hansı bir varlıq özündə olan məlumatı şüalandırdığı eyni bir şüanı nə qədər davamlı, intensiv şüalandırırsa, bir o qədər aydın olur. Məsələn: Günəş və ulduzlar hər ikisi işıqlı obyektdir. Bu obyektlərdən Günəşin işığın mənbəyi olmasını onun ulduza nisbətən işığı daha parlaq, ardıcıl, davamlı və intensiv şüalandırması ilə müəyyənləşdiririk.

2. Dəqiqlik: Gerçəkliyin təfəkkürdə refleksiyası nəticəsində yaranan təfəkkür strukturlarının - obraz, təsəvvür və fikrin - gerçəkliklə vəhdətini özündə təqdim edir. Buradan da, gerçəkliyin sərhədləri həm də dəqiqliyin xarakteristikasına daxil olur. Beləliklə, həqiqətin xüsusiyyətini aydınlığın dəqiqliklə üst-üstə düşməsi kimi müəyyən etmək olar.

3. Sadəlik: "Sadə" sözünün aşağıdakı mənaları vardır:

- **a) Boş, heç nə ilə tutulmamış, zəbt olunmamış, özü-özü üçün olan:** Hər hansı bir mürəkkəb şeyin həqiqəti özündə bir çox həqiqəti, o cümlədən yalanı (yəni özünə aid olmayanı) qavramaya təqdim edə bilər və belə şeylərdə bir tərkib həm də başqası üçün olur. Məsələn, NaCl-da Na Cl üçün, Cl da Na üçün olur. Əks halda ikisi birlikdə NaCl təşkil edə bilməz. Amma ayrılıqda Na və Cl sadə maddə kimi yalnız özü-özü üçün olandırlar. Təbii xörək duzunda həm də bir çox qarışıqlar olur ki, biz duzu qavrayarkən çox vaxt onun tərkibindəkilərə laqeyd qalırıq. İdrak obyekti mürəkkəbləşdikcə onun özündə aydınlaşdırdığı həqiqət də mürəkkəbləşir. Bu zaman qavrama prosesində mürəkkəbliyin tam dəqiq və bütünlüklə aşkarlanması çətinləşir. Belə çətinliklə qavrama şey haqqında yalanı da meydana çıxarır. Belə həqiqət yalan tərəfindən zəbt olunmuş olur. Mürəkkəblik nə qədər artırsa, onun düzgün idrakı bir o qədər çətinləşir; nəticədə onun

həqiqəti bir o qədər yalanla zəbt olunur. Beləliklə, yalanla zəbt olunmamış sadəlik onu özündə ifadə edir ki, idrakın hər hansı çətinliyi inkar olunur və qavrama yalnız həqiqətin aşkarlanması ilə başa çatır.

- **b) Hamının asanlıqla çatdığı, asan olan:** Həqiqət nə qədər çətin olursa, bir tərəfdən hamı ona asanlıqla çata bilmir, çünki hamının idrakı yuxarı səviyyədə qeyri-bərabərdir. Məsələn, alim savadsız insana görə daha asanlıqla çətin həqiqətləri aşkarlaya bilir. Burada asanlıq idraka aid olur. Digər tərəfdən çatılan həqiqətin özü asan olmur. Yəni həqiqət elə gizlilikdə olur ki, onu aşkarlamaq hətta ən yüksək qavrama qabiliyyəti olana da müyəssər olmur. Burada asanlıq həqiqətin özünə aid olur. Beləliklə, hamının asanlıqla çata biləcəyi "asan olan", idrakın ən aşağı səviyyəsində, qavramanın başlanğıcında aşkarlanması mümkün olanı özündə ifadə edir.
- **c) Düzünə:** İdrak prosesində həqiqətin idrakı ən müxtəlif üsullarla həyata keçirilir. Hissi qavramada bilavasitə idrak obyektindən həqiqət qavranılır; demonstrativ idrakla qavramada idrak obyektindən başqa əlavə sübutlar tələb olunur və belə sübutların sayının və növünün artması ilə həqiqət daha dolayısı ilə qavranılır. Beləliklə, "düzünə" sözü hissi qavramada bilavasitə hissi obyektdən heç bir sübut tələb olunmadan qavranılan həqiqəti özündə ifadə edir.
- **e) Adi, xüsusiliyi olmayan:** Xüsusiliyi olmaq bir şeyin başqasından fərqliliyini özündə ifadə edir. Fərqlilik artdıqca həqiqət mütləqlikdən uzaqlaşır. Ona görə də mütləqə ən yaxın özündə ən az fərqliliyə - xüsusiliyə malik olan olur. Bu mənada adi - mütləqə yaxın olan mənasını verir.
- **d) Açıqlıq, aşkarlıq, səmimi, məhdud ağıllı, müdrüklüyü olmayan, müdrük olmayan, hiyləsi olmayan:** Müdrüklük həqiqəti tapmaq qabiliyyətidir. Əgər hər hansı bir şey müdrükdürsə, bu, həmin şeyin onda həqiqətin tapılmasının əksliyini, yəni həqiqətin tapılmasını özündə çətinləşdirmə xüsusiyyətinin olmasını ifadə etdiyini bildirir. Bu mənada açıqlıq, aşkarlıq, "müdrüklüyü olmayan" - müdrüklüyə

tabe olan, ona mane olmayan, onunla tarazlıq təşkil etməyən və müdrüklüyə imkan verən mənasını verir. Bu mənada sadəlik özündə müdrüklük olmadıqda görə müdrüklüyün onu tapmasına imkan verən aşkar həqiqəti özündə ifadə edir.

Təkamül özündə əmələgəlməni təqdim edir. Əmələgəlmə yaranma ilə əkslik təşkil etdiyindən, bir-birindən əks qanunauyğunluqlara görə fərqlənir. Əgər təkamülün - əmələgəlmənin istiqaməti sadədən mürəkkəbə doğrudursa, onda biz yaranmanı mürəkkəbdən sadəyə doğru mühakimə ilə aşkarlaya bilərik. Beləliklə, sadəlik dərketmə prosesinin sonunda meydana çıxaraq özündə dərk olunmuş həqiqəti təqdim edir.

Haşiyə: David Yum, "İnsan təbiəti haqqında traktat."

> *"Bizim bütün sadə ideyalarımız özünün ilkin təzahüründə, onlara uyğun gələn və dəqiqliklə təqdim etdiyi sadə təəssüratlardan əmələ gəlir. İstənilən sadə təəssüratlar müvafiq ideya ilə, istənilən sadə ideyalar - müvafiq təəssüratla müşayiət olunur. Sadə təəssüratlar həmişə uyğun ideyalardan öncə gəlir, amma heç vaxt əks qaydada olmur. Bizim uyğun qavrayışlarımızın daima birləşməsi - birinin digərinin səbəbi olmasına təkzibedilməz sübutdur; təəssüratların birinciliyi bizim ideyaların səbəbinin bizim təəssüratlarımızın olmasının, əksinə yox, xeyrinə inandırıcı sübutdur. İdeyalar öz xüsusi obrazlarını yeni ideyalarda yaradırlar, amma ehtimal olunduğu kimi başlanğıc ideyalar təəssüratlardan çıxarıldığından, onda bizim bütün sadə ideyaların ya bilavasitə, ya dolayısı ilə uyğun təəssüratlardan yaranması, hər şey, həqiqət olur."*

D.Yumun fikirlərindən göründüyü kimi, həqiqət sadə təəssüratlardan yaranmış sadə ideyalardan ibarətdir; hansı ki, hər ikisi üçün sadəlik eyni xarakteristika kimi çıxış edir.

Sadə təəssüratlar ən sadə real gerçəklikdən meydana gəldiyindən, biz ən sadə gerçəkliyi - həqiqətin aydınlaşmasının və aşkarlanmasının minimumu kimi "nə"ni əsas götürürük. Yəni hər hansı ən sadə ideya özündə "nə"-nin təəssüratını daşıyır. Beləliklə, "nə" həm real gerçəkliyin

ideyasının, həm də təfəkkürdə yaranan ideyanın eyni bir minimumudur. İnkişafın sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru istiqamətinin əksinə olaraq, həqiqət mürəkkəbdən sadəyə, alidən ibtidaiyə doğru mütləqləşir.

Haşiyə: R.Feynman: *"Həqiqəti sadəlik və zərifliyə görə tanımaq olar."*

Beləliklə, mütləq həqiqət ən sadə şeyin - "nə"nin həqiqətidir. Sadəliyin xarakteristikasına ümumilik, tamlıq, vahidlik, universallıq kimi keyfiyyətlər aiddir. Buradan da həqiqəti ən ümumi sadəlik kimi təyin etmək olar. Ən ümumiliyin iki tərəfi vardır: azsaylılıq və eynilik. Beləliklə, fəlsəfə ən azsaylı və ən eynilik təşkil edən qanunauyğunluqları aşkarlamaqla həqiqətə istiqamətlənir.

Haşiyə: M.Klayn, "Riyaziyyat, müəyyənliyin itirilməsi"

> *"XVII əsrin dini riyaziyyatçıları üçün istənilən hərəkətin qanunlarının azsaylı qanunlara tabe olması ilə bağlı fikirlər təbii qəbul edilirdi. Allah Kainatı yaradıb və təbiətin bütün təzahürləri Yaradıcının planına tabe olmaya bilməz. Vahid Ağıl yaratdığından çox güman ki, təbiətdə baş verən bütün təzahürlər bir və eyni əsas qanuna uyğun gəlir."*

M.Klaynın fikirlərindən çıxış edərək demək olar ki, hər şey Allah tərəfindən yaradıldığından, hər şeyə münasibətdə Allah özündə bir və eyni əsas kimi çıxış edir və buna görə də özündə mütləq sadə ideya kimi çıxış edir.

Mütləq eynilik özü-özündə aydınlaşdığından və ən azsaylı - vahid olduğundan, mütləq həqiqət vahid bir qanunauyğunluq kimi özü-özündə olduğundan, təfəkkürün dərk edə bilmədiyi mütləq sadəlikdən ibarətdir.

Vahid - hissələrə bölünməyən, tərkibi olmayan, yalnız özü-özü ilə eynilik təşkil edən, təzahürü olmadığından məntiqin induksiyasına məruz qalmayan, induksiya olunmadığından deduksiya baş verməyən, yəni təfəkkürlə dərk olunmayandır.

4. Yəqinlik: Bu anlayış gerçəklikdə aydınlaşan həqiqətlə onun təfəkkürdə aşkarlanmasının nə dərəcədə üst-üstə düşməsini ifadə edir. Yəqinlik özündə həqiqətlə subyektin vəhdətini ifadə edir. Beləliklə, həqiqətin iki tərəfinin qarşılıqlı əlaqəsi - həqiqətin aydınlaşmasının aydınlığının təfəkkürdə aşkarlanmasının dəqiqləşdirilməsi fəlsəfi şüurun işi kimi meydana çıxır.

5. Təsdiqedicilik: Həqiqət həm təsdiq, həm inkar yolu ilə aşkarlanır. Təsdiq həqiqətin bilavasitəliyini müəyyənləşdirir.

Haşiyə: A.Eynşteyn: "Biz yalnız təbiətin necə qurulmasını və təbii təzahürlərin necə baş verdiyini bilmək istəmirik, həm də bilmək istəyirik ki, nə üçün təbiət belədir, başqa cür deyil."

Eynşteynin yuxarıdakı fikrindəki "nə üçün təbiət belədir" fikri təsdiqedicilik xüsusiyyətidir. Bunun əksinə "nə üçün başqa cür deyil" inkaredicilik xüsusiyyətidir. Beləliklə, inkar həqiqəti dolayısı ilə müəyyənləşdirir. Bu baxımdan təsdiq həqiqətin daha rasional aydınlaşdırma xüsusiyyətinə çevrilir. Məsələn: Alma həqiqətini iki cür aşkar etmək olar: "bu almadır", "bu heyva deyil". Birinci halda (ola bilsin almadır) bütün meyvələr inkar olunur və təqdim edilən meyvənin məhz alma olması sübut olunur. İkinci halda, "bu heyva deyil" o deməkdir ki, təqdim edilən meyvə istənilən meyvə, o cümlədən alma da ola bilər. İkinci halda verilən meyvənin alma olması ehtimal xüsusiyyətinə malik olur. Beləliklə, təsdiqedicilik xüsusiyyəti - həqiqətin konkret bir gerçəklikdən aydınlaşdığını, yerdə qalan bütün gerçəkliklərdə aydınlaşmasının inkar edildiyini özündə təqdim edir.

6. Düzgünlük: Biz həqiqətin xüsusiyyəti kimi düzgünlüyü bura əlavə etməyi məqsədəmüvafiq hesab edirik. Düzgünlük - dəqiqliyin təfəkkürdə refleksiya dərəcəsini göstərir. Həqiqət nə qədər dəqiqdirsə, onun təfəkkürdə refleksiyası bir o qədər düzgün olacaq. Düzgünlüyün iki formasını ayırd etmək olar:

- **Şüurun formasından asılı olmayaraq aşkar edilmiş həqiqətin eyniliyi:** Belə həqiqətə müxtəlif şüur formalarında eyni dəqiqliklə aşkarlanmış həqiqətlər aiddir. Məsələn, istər cari şüurla, istər elmi şüurla, istərsə də fəlsəfi şüurla biz bilirik ki, alma sözü özündə hansı həqiqəti ifadə edir.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

> *"Həqiqətin ən ümumi kriteriyası yalnız belə kriteriyalar ola bilər ki, hansı ki, predmetindən asılı olmayaraq bütün bilgilərə münasibətdə düzgün olsun."*

Bu sitatdan göründüyü kimi, İ.Kant düzgünlüyü həqiqətin ən ümumi kriteriyası kimi müəyyən etmişdir; hansı ki, bütün bilgilərə münasibətdə düzgün olur.

7. Birincilik: Birinciliyin aşağıdakı mənaları vardır:

- **a) Başlanğıc:** Əgər yaranışın mərhələlərini bir sıra kimi təsəvvür etsək, həqiqət bu sırada birincidir, yəni birinci və bilavasitə yaranandır; hansı ki, sonrakı bütün mərhələlər yalnız ondan başlayaraq aktuallaşır. Başlanğıc özündən bütün sonralar üçün əvvəl kimi çıxış edir və bu zaman özünün əvvəlini istisna edir. Beləliklə, bu mənada birinci - əvvəli olmayan və özündən sonrakı bütün sonralar üçün əvvəl olan mənasını verir.
- **b) Tək:** Bu mənada birincilik tayı, bərabəri olmayan mənasını verir. Biz "Allah təkdir" dedikdə, Onun bərabərinin, tayının olmadığını ifadə etmiş oluruq. Həqiqətin tək olması onun bərabərinin, tayının olmamasını özündə ifadə edir. Əgər həqiqət tək olmasaydı, onda hər bir şey özündə bir neçə həqiqət aydınlaşdırardı ki, bu konkret obyektin qavranılmasına mane olardı. Qavrama məhz həqiqətin təkliyinə görə mümkün olur. Fikrən götürülmüş təklik əslində həqiqətin birinciliyini özündə ifadə edir və məhz buna görə hər bir şey fikrən ayrılıqda götürülən olur.
- **c) Sırada yer, sayın getdiyi dəfə:** Hər hansı sıranın əvvəli həmin sıranın birincisidir. Burada birinci sırada yeri özündə ifadə edir. Belə

birincilik başlanğıcdan fərqli olaraq nisbidir və konkret sıranın qavrama istiqaməti ilə şərtlənmişdir.

- **e) Əsas, həqiqi:** Hər hansı bir şeyin özü və kopyası və ya alternativi mövcud olduqda, biz təbii mövcud olanı həqiqi və ya əsas mövcudluq kimi təyin edirik. Buradan da birincilik təbii mövcud olan əsas həqiqət mənasını verir.
- **d) Zamanüstü, başqalarından əvvəl:** Başqalarından əvvəl və ya zamanüstü zamanla şərtlənməməni özündə ifadə edir və sonradan ayrılıqda mövcudluğu bildirir. Təbiətdə əvvəllə sonra vəhdətdə mövcud olur, amma metafizikada əvvəl sonradan ayrılıqda mövcud olur. Bu mənada birincilik formasız həqiqətin təzahürünü özündə ifadə edir, hansı ki, biz bunu mümkünlük kimi qavrayırıq.
- **f) Başlıca, mühüm, əhəmiyyətli:** Bu mənada birincilik çoxmənalılıqda əsas mənanı ifadə edir. Son məna bilavasitə transendensiv mənadır, hansı ki, təbiətin sərhədlərindən çıxmaqla belə mənaya malik olmaq olar.
- **g) İlk:** Belə birincilik özündə idrakda aşkarlanma ardıcıllığına görə birincilik mənasını verir. Məsələn, Ehtimal nəzəriyyəsi ilk dəfə Eynşteyn tərəfindən irəli sürülmüşdür (əslində Paskal/Fermat, amma mətndə belə verilib). Bu o deməkdir ki, buna qədər bu nəzəriyyə haqqında insanlığa heç nə məlum olmamışdır. Beləliklə, ilk - qeyri-müəyyənlikdən müəyyənliyə, gizlilikdən açıqlığa keçən həqiqət mənasını verir.

2. Predmetdən asılı olmayaraq aşkar edilmiş həqiqətin eyniliyi: Bura ən müxtəlif idrak obyektlərindən aşkarlanmış ümumi həqiqətlər aiddir. Məsələn, meyvə anlayışının mənasının almadan, nardan və ya heyvadan asılı olmayaraq müəyyən edilməsi belə dəqiqliyi özündə ifadə edir.

Həqiqətin idrakı prosesi - mövcudluğun təfəkkürdə aşkarlanmasına səbəb olan varlığın öz gerçəkliyi ilə bağlı özündənkənara - başqa varlığa, o cümlədən təfəkkürə göndərdiyi (aydınlaşdırdığı) məlumatların - kosmik

nizamın - təfəkkürün daxildə, varlıqdan ayrılmış şəkildə, özü-özündə aşkar etdiyi kosmik nizam haqqındakı məlumatla eyniləşməsidir.

Mütləq həqiqət - vahid qanunauyğunluq kimi gerçəkliyə suallandırılmış "nə", "kim", "harada", "nə vaxt", "necə", "hansı" və s. kimi sualların heç biri ilə ayrılıqda cavablandırılması mümkün olmayan, təfəkkürdə ideya forması almayan və özü-özündə mövcud olan mahiyyətdir.

HƏQİQƏTİN NİSBİLƏŞMƏSİ - DƏRƏCƏLƏNMƏSİ

Böyük müdrük Heraklit belə hesab edirdi ki, *"Təbiət gizlətməyi sevir"*. Heraklitin fikrini nəzərə alsaq, onda "təbiətdə istənilən həqiqət gizlidir" müddəasını irəli sürə bilərik. İnsanın təbiətlə mübarizəsinin əsasında da məhz həqiqəti təbiətin gizliliyindən çıxarıb onu mütləq dərk etmək cəhdi durur. Lakin bu mübarizədə təbiət həm də insanın özü kimi çıxış etdiyindən, insan özünün həqiqətinin gizlədilməsində iştirak etdiyi həqiqəti gizlilikdən azad edə bilmir. Buradan da belə bir nəticə meydana çıxır: İstənilən dərk olunan həqiqət nisbidir. Beləliklə, nisbilik mütləq həqiqətin idrakının təzahür forması kimi çıxış edir.

Bəs təbiət nə üçün və necə gizlətməyi sevir? Gizlilik aydınlaşmanın məhdudlaşması kimi təzahür edir. Həqiqətin nisbiliyi onun xarakteristika və xüsusiyyətlərinin mövcudluqlarda qeyri-bərabər əlaqələnməsini özündə əks etdirir. Nə üçün həqiqətin xarakteristikaları və xüsusiyyətləri istənilən mümkünlüyün mövcud olma əldə etməsində eyni dəqiqliklə təzahür etmir? Həqiqətin nisbiləşməsinin aşağıdakı səbəbləri vardır:

1. **Mümkünlüklərin mövcudluqlardan fərqlənməsi:** Mümkünlüklər metafizik aləmdə, mövcudluqlar təbiətdə meydana çıxır. Metafizik aləmin qanunları ilə təbiətin qanunları bir-birindən fərqlənir. Metafizikada həqiqət vasitəsiz aşkarlandığından entropiyaya məruz qalmır. Mövcudluqlar bunun əksinə yalnız entropiya mühitində təzahür etdiyindən emanasiyaya məruz qalırlar. Nəticədə, istənilən

mümkünlük öz mövcudluğundan daha dəqiq və aydın təzahür edir. Buradan da Heraklitlə razılaşmaq lazım gəlir ki, *"Gizli harmoniya aşkar harmoniyadan yaxşıdır"*. Gizli harmoniya təbiətdə bilavasitə hissi qavranılmayan aprior aşkarlanan harmoniyanı - metafizik həqiqətləri, aşkar harmoniya bilavasitə təbiətdə hissi qavranılan aposterior aşkarlanan aşkar harmoniyanı - empirik həqiqətləri özündə təqdim edir. Buradan belə çıxır ki, aprior aşkarlanan həqiqətlər aposterior həqiqətlərdən yaxşıdır, yəni aposterior həqiqətlər aprior həqiqətlərə münasibətdə nisbidir.

2. **Mümkünlüklərin bir-birinə mane olması:** Leybnisin qeyd etdiyi kimi, *"mümkünlüklər mövcud olma meylində bir-birinə mane olur"*. Hər bir mümkünlük əbədi və sonsuz mövcud olma tələb edir; bu zaman başqa mümkünlüyün belə bir tələbi ilə ziddiyyətə girir, bu ziddiyyətdən hər bir mümkünlük məhdud mövcud olma əldə etməyə məcbur olur. Buradan da bütün mövcudluqların sərhədli olması meydana çıxır. Mövcudluqların sərhədli olması onların həqiqətinin nisbi aydınlaşmasını şərtləndirir.

3. **Mövcudluqların vəhdətdə təzahür etməsi:** Mümkünlüklərin bir-birinə mane olması təbiətdə mövcudluqların vəhdətdə təzahür etməsini şərtləndirir. Əgər mümkünlüklər bir-birinə mane olmasaydı, onda təbiətdə hər şey başqalarından ayrılıqda mövcud ola bilərdi. Amma təcrübədə ayrılıqda tək şey mövcud deyil, hər şey vəhdətdə mövcuddur. Heraklitə görə *"Təbiət öz aralarında barışan ziddiyyətlərdə olan deyil. Bu əksliklərin bir-birinə bağlanmış vəhdətidir."* Əksliklər həqiqətin iki meylini (artma və azalma meylinin təzahürü), vəhdət həqiqətin özüdür. Buradan belə nəticə çıxır ki, həqiqət bir-biri ilə ziddiyyətdə olanlardan yox, yalnız onların vəhdətindən aydınlaşır. Vəhdətdə təzahür ona gətirib çıxarır ki, Anaksaqorun dediyi kimi, *"Dünyada hər şey bir-birindən ayrı deyil və bir-birindən baltalanaraq ayrılmamışdır. hər şeydə hər şeyin hissəsi vardır. Nusdan - Ağıldan - başqa, bəzi şeylərdə isə Nus da var."* Məhz buna görə hissi qavranılan

hər bir şey özündə həm də sonsuz çoxluqda olan başqa şeyin həqiqətini hissəvi olaraq özündə aydınlaşdırır; nəticədə hər bir şeydən aşkarlanan həqiqət hissəvi olaraq həmin şeyin həqiqəti olur ki, bu da onu nisbi edir. Yalnız şüurlu insanda olan ağıl onun digər varlıqlarda ayrılıqda tək şey kimi mövcud olmasına imkan verir ki, məhz buna görə də, ağılda başqa heç bir şeyin hissəsi olmadığından, o hər şeyi idrak edə bilir. Əgər ağılda da hər şeyin hissəsi olsaydı, onda idraka ehtiyac qalmazdı.

4. **Dəyişiklik, inkişaf və tərəqqi:** Heraklit belə hesab edirdi ki, *"Təbiətdə hər şey daimi dəyişmədədir"*. Nə üçün hər şey daimi dəyişmədədir? Hərəkət materiyanın varlıq formasıdır. Təbiət total imkan kimi mövcuddur, hər bir mümkünlük təsadüfə görə təbiətdə imkan əldə edir. Hərəkət bir təsadüfün digəri ilə əvəzlənməsinə səbəb olur, bu da yeni imkan kimi meydana çıxır; hansı ki, bunun nəticəsində bir mümkünlük digəri ilə əvəzlənərək mövcud olma əldə edir. Biz dəyişilməni - mümkünlüyün mövcud olma əldə etməsinin dərəcələnməsi kimi təyin edirik. Mümkünlüyün ayrı-ayrı dərəcələrinin mümkünlüyün totallığına münasibəti nisbilik kimi təzahür edir.

5. **İdrakın dəyişməsi:** Əgər təbiətdə hər şey daimi dəyişirsə, biz həmin şeylərin həqiqətini yalnız dəyişən idrakla dərk edə bilərik, əks halda hər şey idrakdan sürüşərdi, nəticədə idrak baş tutmazdı. İdrakın dəyişməsi idrak prosesi kimi təzahür edir. İdrakın şeylərin daimi dəyişilməsinə uyğun dəyişməsi şeyləri və idrakı nisbi sabitlik vəziyyətinə gətirir. Beləliklə, nisbi sabitlikdə dərk edilən istənilən həqiqət əslində daimi dəyişən həqiqəti özündə təqdim edir; hansı ki, sabitliyin dəyişməyə münasibətindən nisbilik meydana çıxır.

6. **Hissiyyatın individuallığı:** Həqiqətin nisbiləşməsi həm də hissi idrak prosesində qavramanın hissiyyatla şərtlənməsi ilə bağlıdır. İnsanda elə bir analizator yoxdur ki, onun hissiyyatı digər bir insanda olan analizatorun hissiyyatı ilə eyni olsun və həm də elə iki adam da tapmaq olmaz ki, onda bütün hissi analizatorların ümumi qavrama

qabiliyyəti eyni olsun. Məsələn: görmə qabiliyyəti yaxıngörmə və uzaqgörmə qabiliyyəti kimi oftalmologiyada -10 və +10 dərəcə ilə dərəcələndirilmişdir. Hər bir dərəcə digər dərəcəyə birbaşa keçmir və iki dərəcə arasında daha kiçik dərəcələnmələr (məsələn, 0,1; 0,2; 0,3. və s.) ayırd etmək olar. 0,1 ilə 0,2 arasında da 0,01; 0,02; 0,3. və s. dərəcələr vardır. 0,01 ilə 0,02 arasında da öz növbəsində 0,001; 0,002; 0,003. və s. vardır. Bu cür dərəcələnmə sonsuzluğa qədər davam etdirilməsi mümkün olduğundan yalnız bir görmə hissiyyatının yaxın və uzaqgörməsinin sonsuz variantlarını aşkarlamış oluruq. Digər analizatorların da eyni ilə sonsuz dərəcələnməsini müəyyən edə bilərik. Beləliklə, hissiyyatın dərəcələnməsi hissi qavramanı da nisbiləşdirir.

7. **Varlıqla yoxluğun eyniliyi:** Heraklitə görə *"Varlıq və yoxluq eynidir"*. Biz bunu canlıların nümunəsində daha aydın təsdiq edə bilərik. Hər bir canlı varlıqda sürəkli olaraq ölümün həqiqəti gizlədilir, hansı ki, müəyyən şərtlərdə varlığı özündə gizlədərək aydınlaşır. Buradan da varlıqla yoxluğu mümkünlüyün iki bir-birinə əks qütbləri kimi dəyərləndirmək olar. Varlıq mümkünlüyün başlanğıcı, yoxluq sonudur. Hər ikisi birlikdə mümkünlükdür. Əgər hər şeyi Allahın yaratdığını qəbul ediriksə, onda eyni bir Yaradıcı gücə münasibətdə varlıqla yoxluq eyni olmalıdır. Yalnız insan üçün varlıq yoxluqdan fərqlənir. Biz varlığı qavrayırıq, yoxluğu qavraya bilmirik. Əslində yoxluq idrakın heç bir mərhələsi ilə qavranılması mümkün olmayan həqiqətdir. Allah varlığı - qavranılması mümkün olan həqiqəti, yoxluqdan - qavranılması mümkün olmayan həqiqətdən, yəni öz Ağlından yaratdığından, yoxluqda olan varlığa keçərək təzahür edir. Buradan da hər bir varlıq eyni zamanda özündə yoxluq, hər bir yoxluq eyni zamanda özündə varlığın həqiqətini daşıyır. Buradan da varlıqla yoxluğun vəhdəti meydana çıxır. Nəticədə idrak prosesində varlıqdan aşkarlanan həqiqət həm də yoxluğun həqiqəti olur. Məhz varlıqda yoxluğun həqiqətinin gizlədilməsi varlıqdan aşkarlanan həqiqəti nisbi edir.

Həqiqətin ölçüsü nədir? Biz nə qədər dəqiq şəkildə orijinal, xüsusi, ümumi, ən ümumi, mütləq nisbi həqiqəti aşkarlaya bilərik? Buradan həqiqətin həcmliliyi xarakteristikası meydana çıxır. Həqiqətin ümumiliyi onun həcmliliyindən fərqlənir. Biz ümumi həqiqəti ya hissəvi, ya da tam şəkildə aşkarlaya bilərik. Həqiqətin hissəviliyi ilə onun tamlığı arasındakı fərqi biz həqiqətin həcmliliyi adlandırırıq. Həqiqətin tamlığını totallıq kimi adlandırsaq, onda həqiqətin ölçüsü onun aşkarlanmasının totallığına olan münasibəti ilə müəyyənləşə bilər. Nisbi həqiqət - mütləq nisbi həqiqətin şüur üçün aşkarlanan forma almasıdır. Nisbilik - həqiqətin aydınlaşma formasıdır. Həqiqət yalnız nisbiləşdikdə aydınlaşır, ona görə də həqiqət nisbiləşmədikcə aydınlaşmır və aydınlaşdıqca mütləq nisbiləşir. Mütləq nisbi həqiqətin özünü vasitəli aydınlaşdırması nisbi həqiqət kimi meydana çıxır. İstənilən reallıq özündə bərabər həcmdə mütləq nisbi həqiqəti təqdim edir, çünki bütün mövcud olanların vəhdəti Varlığı təşkil edir. Buna görə də heç bir mövcud olandan mütləq nisbi həqiqəti aşkarlamaq olmur, çünki fərqlilik meydana çıxmır. Digər tərəfdən isə, təfəkkür mövcudluqdan təzahür edən mütləq nisbi həqiqəti mütləq aşkarlaya bilmir, çünki sonsuz sayda mövcudluq təcrübəyə daxil olmur. Buradan da aydınlaşma ilə aşkarlanmanın arasındakı fərqə görə nisbi həqiqət meydana çıxır. Beləliklə, mütləq nisbi həqiqət özü-özündə özü-üçün aydınlaşma, nisbi həqiqət təfəkkürdə aşkarlanma üçün aydınlaşmanı özündə ifadə edir.

"Nisbi" anlayış özü-özündə üç müxtəlif keyfiyyəti ifadə edir:

- **a) Aydınlaşmanın nisbiliyi:** Aydınlaşmanın nisbiliyi mövcudluğun imkanları ilə məhdudlaşmışdır. Heç bir varlıq özündə sonsuz sayda varlığın aydınlaşdırdığı həqiqəti özündə təzahür etdirə bilmir; bu mümkünsüzlükdür. Bunun əksi olsaydı, onda real aləm yalnız eyni bir varlıqdan ibarət olardı. Varlıq aləminin müxtəlif mövcudluqlardan təşkil olunması həqiqətin nisbiliyinin təzahürüdür. Beləliklə, varlıq - mümkünlük, mütləq həqiqətin onda aydınlaşa bilməməsi - mümkün-

süzlükdür. Mümkünlüklə mümkünsüzlüyün əksliyi özündə İlahi İradəni əks etdirir.

- **b) Aşkarlanmanın nisbiliyi:** Bu cür nisbilik özündə varlıqda aydınlaşan həqiqətin nisbiliyinin təfəkkürdə refleksiyasını ifadə edir. Bu nisbilik özündə İlahi İradə ilə insan iradəsinin - obyektlə subyektin ziddiyyətini refleksiya edir. Beləliklə, göründüyü kimi, nisbilik ziddiyyətin təzahürlərindən biridir. Hər hansı nisbi həqiqətin aşkarlanması özündə insan iradəsinin İlahi İradəyə uyğunlaşdırılmasını ifadə edir. Mütləq həqiqətlə onun aşkarlanmasını bir zəncir kimi təsəvvür etsək, aşağıdakı əlaqəni aşkarlaya bilərik:

Allah - Mütləq həqiqət - Mütləq nisbi həqiqət - Varlıq - Nisbi mütləq nisbi həqiqət - Mövcudluq - Təcrübə - Bilik - **Ruh**.

Bu zəncirdə mövcudluqdan sol tərəfdəki mərhələ həqiqətin aydınlaşma ardıcıllığını, sağ tərəf aşkarlanma ardıcıllığını özündə təqdim edir. Mövcudluğun hər iki tərəfi simmetrik olaraq qarşılıqlı refleksiyanı təqdim edir. Yəni nisbi həqiqət bilikdə, mütləq nisbi həqiqət Ruhda refleksiya edir. Mövcudluq özündə həqiqəti eyni vaxtda aydınlaşdıran və onunla aşkarlanan vasitə olduğundan özü-özünü refleksiya edərək "özündə-şey" kimi təzahür edir.

- **c) Anlayışın nisbiliyi:** Həqiqətin aşkarlanması - aydınlaşma haqqında məlumatın bilik formasında Fraqmentar Ruha - subyektə daxil olmasından; aşkarlanmanın təsdiq olunması - Fraqmentar Ruhun bilik əldə etməsinin aşkarlanması, onun başqa şəxsə bildirilməsi, yəni biliyin bir subyektdən digərinə müxtəlif vasitələrlə ötürülməsindən ibarətdir. Biliyin ötürülməsinin ən dəqiq üsullarından biri onu ideya şəklində nitqlə ötürməkdir. Biliyin ideyalaşdırılması nitqdə istifadə edilən sözlərin mənalandırılması ilə mümkün olur. Sözlərin mənalandırılmasından anlayışlar yaranır. Beləliklə, idrak prosesinin əsas mərhələlərindən biri aşkarlanmış həqiqətin anlayışlar formasında simvollaşdırılmasıdır. Anlayışlar nominativ işlə başlayır. Dilçilikdə nominativ iş mövcudluğun adlandırılmasını özündə ifadə edir. Ad -

konkret mövcudluğun təfəkkürdə refleksiyasından yaranan abstrakt mövcudluqdur. Adlandırma təfəkkürdə yaradılmış abstrakt obrazlarla konkret varlığın obrazlarının əlaqələndirilməsidir. Bu iki obraz arasında əlaqələndirmədə meydana çıxan nisbilik abstraktla konkretin ziddiyyətini özündə ifadə edir. Belə ki, təfəkkür simvolları insan şüurunun məhsuludur və onunla şərtlənmişdir. Obyektiv gerçəkliyin obrazı isə özü-özündə mövcuddur və həqiqətlə şərtlənmişdir. Heç bir konkret obraz özünün abstrakt obrazı ilə tam eynilik təşkil etmir, çünki bir tərəfdən mövcudluğun konkret obrazını yaradan bütün siqnallar təfəkkür tərəfindən qəbul olunmur, digər tərəfdən, qəbul edilmiş siqnallar əsasında konkret obrazla tam eynilik təşkil edən abstrakt obraz yaratmaq mümkün olmur. Beləliklə, anlayışların nisbiliyi başlanğıcda obrazların nisbiliyini özündə təqdim edir. Obrazlar adlandırıldıqdan sonra hər bir obrazın özündə vəhdət təşkil etdiyi həqiqət məna formasında adla əlaqələndirilir, hansı ki, anlayış - adla mənanın vəhdətindən ibarətdir. Heç bir obrazla vəhdət təşkil edən həqiqət tam idrak olunmadığından, heç bir anlayışda sözlə vəhdət təşkil edən məna nisbi həqiqətlə eynilik təşkil etmir. Mənanın nisbi həqiqətlə eynilik təşkil etməməsi anlayışların nisbiliyinin ikinci tərəfini təşkil edir.

Həqiqətin nisbiliyi ən ümumi şəkildə faktdan törəyən ideya ilə ağıldan törəyən ideyanın bir-birindən fərqlənməsidir.

Haşiyə: Q.V.Leybnis, "Monadologiya"

> *"İki növ həqiqət var: ağlın həqiqəti və faktın həqiqəti. Ağlın həqiqəti zəruridir və onunla əkslik mümkün deyil; faktın həqiqəti təsadüfidir və onun əksliyi mümkündür. Zəruri həqiqət üçün əsası, onu birinci ideyalara çatanadək ideyalara və daha sadə ideyalara bölməklə, analiz yolu ilə tapmaq olar. Amma həm də kifayət qədər əsas, təsadüfi ideyalar üçün və ya faktın həqiqətində, başqa sözlə, xüsusi əsaslara dağılmanın sərhədsiz çoxfərqliliyinə, təbiətdə şeylərin ölçüsüz müxtəlifliyi səbəbinə görə təfsilata və cisimlərin sonsuzluğa qədər ayrıldığı dünyaya, səpələnmiş yaradılışların həqiqətində, şeylərin sırasında olmalıdır."*

Corc Berkli, "Fəlsəfi qeydlər": "Bizim bütün ideyalar adekvatdır, amma təbiətin qanunlarını bizim dərkimiz qeyri-kamil və qeyri-adekvatdır."

Leybnisin fikirlərindən də görünür ki, ağlın həqiqəti, yəni ağıldan törəyən ideyalar zəruridir və onunla əkslik mümkün deyil. Amma bundan fərqli olaraq faktdan törəyən ideyalar təsadüfidir və buna görə də onlarla əkslik mümkündür.

Digər tərəfdən C.Berkli də təsdiq edir ki, təbiətin qanunlarını bizim dərkimiz qeyri-kamil və qeyri-adekvatdır. Bu qeyri-adekvatlıq özündə həqiqətin nisbiliyinin əsasında durur.

Ağlın həqiqətinin zəruriliyi onun immanentliyi ilə bağlıdır, yəni ağıl daxili vəhdətdə, yalnız özü-özünə münasibətdə mövcuddur. Özü-özündə münasibət özündə təkrarlanmanı təqdim edir, hansı ki, bunu zərurət kimi aşkarlayırıq. Amma fakt bundan fərqli olaraq digər faktlarla xarici vəhdətdə və yalnız başqa faktlara münasibətdə aktuallaşır. Mövcudluğun "hər şey dəyişir" prinsipinə tabe olan başqa faktlara münasibət dəyişilməni özündə təqdim edir. Nəticədə faktın özündə aydınlaşdırdığı həqiqət vəhdətə daxil olanlarla şərtlənir və buna görə də təsadüfilik xarakteristikasına malik olur.

Bəs, Leybnisin müəyyən etdiyi kimi, nə üçün ağlın həqiqəti üçün əkslik mümkün deyil? Ağıl totallıq xarakteristikasına malik Ruhun atributudur. Ruh təklik kimi bilavasitə mövcud olduğundan digər mövcudluqlarla vəhdət təşkil etmir və vəhdət təşkil etmədiyindən əksliyi də yoxdur. Buna görə də ağıl, faktlardan fərqli olaraq, orijinal, xüsusi kimi xarakteristikalara malik deyil. Bunun əvəzində, həqiqətin bütün dərəcələrini özündə refleksiya edən eyni bir insan ağlı totallıq xarakteristikasına malikdir. Yəni insan orijinal, xüsusi, ümumi, ən ümumi həqiqətləri ayrı-ayrı ağıllarla yox, eyni bir ağılla idrak edir. Buradan da xarici əksliklərı özündə refleksiya edən ağıl özündə əksliklərı istisna edir. Faktın həqiqətinin əksliyi ona görə mümkündür ki, fakt

yalnız başqa faktlarla vəhdətdə aktuallaşır; hansı ki, vəhdətdə olan hər şey həm də bir-birinə əkslik təşkil edir, yəni biri digərini istisna edir.

Ağılla faktın həqiqətinin bir-birindən belə fərqlənməsinə baxmayaraq, Leybnisin fikirlərindən görünür ki, həm ağlın, həm də faktın əsası eynidir, yəni həm ağıl, həm fakt üçün ən sadə ideyaları aşkarlamaq mümkündür. Başqa sözlə, ağlın və faktın mümkünlüyünün ideyası onların həqiqətinin əsasını təşkil edir, hansı ki, yalnız analiz yolu ilə çatmaq mümkündür.

C.Berklinin yuxarıda sitat gətirdiyimiz fikirlərindən isə görünür ki, ağılla faktın həqiqətinin əsası eyni olsa da, ağılla faktın həqiqəti eynilik təşkil etmir. Bunun səbəbi idrak prosesindədir. Təbiətdə hər şey öz mütləq qanunları ilə mövcud olur, özündə bilavasitə Allahın ideyasını refleksiya edir, amma ağıl həmin həqiqəti faktdan onun forması ilə dolayısı ilə özündə refleksiya etdiyindən, faktın özündə refleksiya etdiyi mütləq ideyanı olduğu dəqiqlikdə refleksiya etmir. Nəticədə, istənilən idrak aktı nisbi həqiqəti üzə çıxarır, yəni ağlın həqiqəti faktın həqiqətinə adekvat olmur. Yalnız ümumiləşdirmə ilə həqiqət tədricən şeylərin tabe olduğu qanunları eyni dəqiqliklə özündə refleksiya etməyə başlayır.

İdeal - Allah - idrak subyektindən ən uzaqda olan kimi, idrak obyekti - şey - subyektə ən yaxında olan kimi təsəvvür edilir. Beləliklə, İdeal həqiqətin başlanğıcını, şey sonunu özündə təqdim edir. Həqiqət öz başlanğıcında totallığından çıxaraq sonuna - fərdiliyinə doğru inkişaf istiqamətində özünün dəqiqliyini, aydınlığını, düzlüyünü tədricən itirir; nəticədə İdealdan şeyə qədər olan məsafənin müxtəlif səviyyələrində eyni bir həqiqət ən müxtəlif dəqiqlikdə idrak olunur. Buradan idrakın dərəcələnməsi, nisbiləşməsi baş verir. Həqiqətin nisbiləşməsi həm də aşağıdakılarla bağlıdır:

Birincisi, idrak mərhələli proses olduğundan hər bir mərhələdə həqiqətin aşkarlanmasının yəqinliyi başqa mərhələdəkindən fərqlənir.

İkincisi, həqiqətin idrakı prosesi tarixi olduğundan, bir dövrdə aşkarlanan həqiqət digər dövrdə aşkarlanan həqiqətdən fərqlənir.

Üçüncüsü, təcrübədə obyekt-subyekt münasibətində idraka təqdim edilən varlıqlar vəhdətin ən müxtəlif səviyyələrindən təzahür edirlər. Həqiqətin nisbiləşməsi həm də bu vəhdətin səviyyəsini özündə əks etdirir.

Həqiqətin aşkarlanmasının üsulu bir-biri ilə vəhdət və bir-birinə əkslik təşkil edən təsdiq və inkardan ibarətdir. Həqiqətin aydınlaşmasının hər iki meyli - artma və azalma meyli - həqiqətin özündən qaynaqlandığından, bu meyllərin istənilən istiqaməti yenə də həqiqəti aşkarlayır. Belə ki, artma meyli ilə həqiqətin aşkarlanması predikat - təsdiqedici mühakimələrlə, azalma meyli ilə aşkarlanması inkaredici mühakimələrlə - predikabiliya ilə həyata keçirilir. Predikat konkretləşdirmə, predikabiliya abstraktlaşdırma keyfiyyətləridir. Konkretləşmə ilə mövcudluq, abstraktlaşdırma ilə Varlıq haqqında məlumat alınır. Məsələn: hər hansı bir predikat konkret bir obyekti təsdiq edir. Amma predikabiliya konkret bir obyekti yerdə qalan sonsuz abstrakt bütün obyektiv çoxluqla - Varlıqla inkar edir. Yəni predikabiliya ilə bütün mövcud həqiqətlərin hər biri ayrı-ayrılıqda və eyni zamanda hamısı birlikdə konkret obyektin inkarı kimi çıxış edir. Buradan da abstraksiya yaranır. Abstraksiya - mövcudluğu yenidən Varlıqda itirməkdir. Yəni təfəkkürdə fizikadan metafizikaya keçirməkdir.

Predikat özündə başa çatmanı - sonluluğu, predikabiliya özündə həqiqətin sonsuzluğunu təqdim edir. Həqiqətin sonsuzluğu onun aşkarlanmasının nisbiliyini şərtləndirmişdir. Yəni əvvəl aydınlaşma, sonra aşkarlanma təzahür etdiyindən, aydınlaşma sonsuz olduğundan aşkarlanma heç vaxt aydınlaşmaya çata bilmir. İkincisi, aşkarlayan subyektin aktı aşkarlanan obyektin aktı daxilindədir, yəni subyektin özü - ruh - obyektlə - bədənlə şərtlənmişdir. Ona görə də subyekt bir halda mütləq nisbi həqiqəti aşkarlaya bilər ki, obyekt aktının sərhədlərindən

kənara çıxa bilsin, yəni şərtlənmədən azad olsun. Əslində ruhun mövcudluq üsulu belə bir cəhdə istiqamətlənmə ilə şərtlənmişdir. İdrak prosesi özü də belə kənaraçıxma cəhdinin təzahürüdür. Amma necə ki ruh bədəndən çıxaraq müstəqil təzahür etmir, heç vaxt özünün də daxil olduğu gerçəklikdə aydınlaşan həqiqəti tam mənimsəyə bilmir. Beləliklə, həqiqət mütləq-sonsuz, onun aşkarlanması nisbi-sonlu olaraq qalır. Həqiqətin nisbiliyi həqiqətin aydınlaşma meylləri ilə şərtlənmişdir. Həqiqətin aydınlaşmasının artan istiqamətində onun aydınlaşması yəqinləşdikcə, onun aşkarlanması da daha dəqiq olur; əksinə, həqiqətin aydınlaşmasının azalma meylində onun aydınlaşmasının yəqinliyi azaldıqca, aşkarlanmasının dəqiqliyi də çətinləşir. Beləliklə, həqiqətin aşkarlanması onun aydınlaşmasının dərəcələnməsi - qradiasiyası ilə şərtlənmişdir.

> *Haşiyə: L.R.Xabbard: "“Qradient” sözü vəziyyətin zəifləməsi və ya güclənməsini ifadə etmək üçün istifadə edilir. Dərəcələnmə şkalası - kainatda işlərin həqiqi vəziyyətini hər şeydən yaxşı əks etdirən, mövcud digər istənilən məntiqi metodlarla müqayisədə, kainat haqqında düşüncə üsuludur."*

Biz həqiqətin dərəcələnməsini mümkünlüklərin reallaşmasının təzahürü kimi təyin edirik; hansı ki, hər bir dərəcə özündə eyni bir mümkün varlığın bir imkanı kimi aktuallaşır. Buradan da bütün dərəcələrin məcmusu özündə mümkünlüyün varlığının totallığını təşkil etdiyindən, Xabbard tamamilə haqlı olaraq dərəcələnmə şkalasının "kainatda işlərin həqiqi vəziyyətini hər şeydən yaxşı əks etdirdiyini" qeyd edir.

Hegelin obrazlı olaraq dediyi *"həqiqi təbiət mənim ruhumun məhsuludur"* fikri təbiətin insan ruhu tərəfindən yaradıldığını yox, sadəcə insan ruhundan asılı olmadan özündə-şey kimi yaranan təbiətin dərkinin konkret fərdin idrak imkanları ilə şərtləndiyini, yəni idrakın ölçülüyünü göstərir. Beləliklə, idrak obyektiv gerçəkliyin - onda aydınlaşan həqiqətin

aşkarlanma dərəcəsinin abstrakt ölçüsü kimi çıxış edir. Buna görə də insan yaşa dolduqca - böyüdükcə, ağıllandıqca və insanlıq bir vahid kimi tarixi inkişaf etdikcə, onun ətrafındakılar "öz ölçülərini kiçildir", əvəzində idraka cəlb olunan obyektlərin sayı çoxalır. Yəni "mənim üçün təbiət təcrübədən mənim onu dərk etdiyim kimi və dərk etdiyim sərhədlərdə mövcuddur, yerdə qalan mənə yaddır, mən ona laqeydəm, yəni mənim üçün mövcud deyil". Bu baxımdan öz ölçülərinə görə "uşaq dünyası" böyüklərin dünyasından, bilgisiz insanların dünyası bilgili insanların dünyasından, uşaqların böyüklərdən kiçik olduğu qədər, bilginin bilgisizlikdən fərqləndiyi qədər kiçikdir. Beləliklə, idrakın sərhədləri təcrübə sahəsindəki varlığın nisbi sərhədlərini müəyyən edir. İdrak bir proses kimi daima dəyişildiyindən, buna uyğun varlığın sərhədləri də "dəyişir". Bu iki dəyişilmə prosesi birlikdə həqiqətin nisbilik xarakteristikasını təşkil edir.

Varlığa münasibətdə həqiqətin nisbiləşməsi iki mərhələdə təzahür edir:

1. **Mütləq həqiqətin aydınlaşmasında mütləq nisbiləşmə - maksim və ya aksioma:** Varlıq mütləq həqiqəti yalnız nisbi şəkildə özündə refleksiya etdiyindən, mütləq refleksiyanın istisnası mütləq nisbilik kimi təzahür edir. Aksioma, mütləq nisbiləşmə, başa çatmış nisbiləşməni özündə təqdim edir. Mütləq nisbiləşmə - birdəfəlik refleksiya ilə təzahür edən, başa çatmış, sonradan davam etməyən nisbiləşmədir. Məsələn: "A böyükdür". Bu o deməkdir ki, A özü ilə eyni sıradan olan hər şeydən böyükdür, yəni A-nın başqa faktlara münasibəti dəyişməzdir və A-nın böyüklüyü B-yə və B-dən başqa həmin sıradakı istənilən fakta görə böyükdür. Mütləq nisbi həqiqət vasitəli aydınlaşdığından, aydınlaşma vasitəsi onun nisbiliyinin şərti kimi çıxış edir. Mütləq nisbi həqiqətlər özü-özünü təsdiq edən - yəni başqa ideyalarla sübut edilməsinə zərurət olmayan ideyalardan ibarətdir.

Haşiyə: *Lokk, "İnsanın ağıllanması haqqında təcrübə": "Maksimlər insanlara elmi inkişaf etdirməyə və ya hələ məlum olmayan həqiqətləri kəşf etməyə kömək etmir."*

Maksimlər ona görə elmi inkişaf etdirməyə kömək etmir ki, onlar son nəticədir. İnkişaf isə ilk səbəbdən başlandığından, yalnız minimumlar elmi inkişaf etdirməyə və hələ məlum olmayan həqiqətləri aşkar etməyə imkan verə bilər. Minimumların aşkarlanması isə bilavasitə metafizikanın vəzifəsidir.

2. **Mütləq nisbi həqiqətin aşkarlanmasında nisbi nisbiləşmə - teorem:** Teorem nisbiləşmənin sürəkliliyini özündə təqdim edir. Başqa sözlə, həqiqətin nisbiləşməsinin davam etməsində aydınlaşan həqiqətin aşkarlanması teorem kimi ifadə olunur. Buradan da teorem sübuta ehtiyacı olan həqiqət kimi çıxış edir. Sübut - məlum olmayan həqiqətə münasibətdə məlum olan həqiqətdir. Sürəkli nisbiləşmədə həqiqətin sübutu özündən əvvəlki və özündən sonrakı nisbiliklə, məlum həqiqətlə mümkün olur. Məsələn: A B-dən böyükdür, C-dən kiçikdir. Burada B-nin və C-nin ölçülüyü məlum, A-nın ölçülüyü onlarla aşkarlanan naməlumdur. A-nın ölçülüyü B və C-yə münasibətdə dəyişkəndir və onun ölçülüyü B-yə münasibətdə bir, C-yə münasibətdə başqadır. Buradan reallıqlarda aydınlaşan nisbi mütləq nisbi həqiqət meydana çıxır. İdrak prosesi aydınlaşmada nisbiləşmiş mütləq həqiqəti bir anda, birdəfəlik, dəqiq aşkarlamaq imkanına malik deyil. Ona görə də istənilən vaxt aşkarlanma prosesinin kamilliyindən və müddətindən asılı olaraq, nisbi aydınlaşan mütləq həqiqət idrak prosesində təkrar nisbiləşir. Bu cür nisbiləşmə keçici və ya müvəqqəti nisbiləşmədir; hansı ki, zamana görə tədricən mütləq nisbi həqiqətə çevrilir. Nisbi mütləq nisbi həqiqətlər başqa ideyalarla təsdiq olunmasına zərurət olan həqiqətlərdir.

İdraka münasibətdə də həqiqətin iki cür nisbiləşməsini aşkarlamaq olar:

• **a) Miqdari və ya kəmiyyət nisbiliyi:** Bu cür nisbiləşmə mövcud həqiqətlərin hamısının insan ağlına sığmaması ilə bağlı meydana çıxır. Yəni Kainatda mövcud olan həqiqətlərin heç də hamısı mütləq şəkildə idrak prosesinə daxil olmur. Kəmiyyət nisbiliyi daxili səbəblərdən, idrakın nüfuz etmə imkanlarının məhdudluğundan qaynaqlanır və əbədidir.

Haşiyə: Lokk, "İnsanın ağıllanması haqqında təcrübə"

> *"Ruh haqqında elm daha az mümkündür. Bu bizə dərhal bizim idrakımızın hətta təkcə yalnız material şeylərlə bağlı bütün mahiyyətlərlə eyni ölçülü olmadığını göstərir. Əgər buna hələ bizim idrakımızdan uzaq olan, bizim haqqlarında heç bir bilgimiz və onların növləri (özün üçün tərtib edə bilməyəcəyimiz) və gərginlikləri haqqında dəqiq ideyalarımız olmayan, sonsuz sayda mövcud ola biləcək və ya çox güman ki mövcuddur, ruhlara baxılmasını əlavə etsək, onda əmin olacağıq ki, bilgisizliyin göstərilən səbəbi bizdən şübhəsiz maddi dünyadan daha gözəl və böyük olan, demək olar ki, bütün intellektual aləmi nüfuz edilməz qaranlıqda bizdən gizlədir."*

C.Lokkun fikirlərindən görünür ki, intellektual aləmi qaranlığa bürüyən, kifayət qədər çoxlu sayda idrakımızdan uzaq olan və idrakımıza sığmayan mümkünlüklər - mövcud ola biləcək, amma bizə münasibətdə mövcud olmayanlar vardır. Biz bu cür nisbiliyi mütləq nisbilik adlandırırıq. Mütləq nisbilik odur ki, insan heç vaxt həmin nisbiliyi dəf edə bilməz və həmin nisbilik sonsuz olaraq nisbi qalacaq.

• **b) İdraki və ya keyfiyyət nisbiliyi:** Bu cür nisbilik xaricidir; yəni bizim ağlımızın imkanları ilə yox, təcrübədə obyekt-subyekt münasibətində olan obyektlərin öz intellektabelliyini təfəkkürdə mütləq refleksiya etmək (ideal refleksiya, yəni heç bir entropiyaya məruz qalmadan) imkanlarının məhdudluğu ilə şərtlənmişdir. Bu elə həqiqətlərə aiddir ki, belə həqiqətlər insan ağlına hesablanmış, "idrakımızla eyniölçülü" olan, lakin tarixi inkişaf prosesində, ağlın kamilləşmə prosesində ən müxtəlif nəsillər tərəfindən dəqiqləşdirməklə nisbilik

keyfiyyətindən azad edilir və tədricən mütləq nisbi həqiqətə yaxın forma alır. Bu cür nisbi həqiqətlər ən müxtəlif fəlsəfi təlimlərin əsas ideyalarını təşkil edir. Başqa sözlə, fəlsəfə - fəlsəfi fikrin təkrarlanması prosesində fərqliliklərlə inkişaf edir və hər bir fəlsəfi təlim insanlığı mütləq həqiqətə daha bir addım yaxınlaşdırır.

Nisbilik özündə bir tərəfdən idrak prosesinin potensiallığını, digər tərəfdən gerçəkliyin bu potensiallığa uyğun dərkolunan olduğunu təqdim edir. İdrak prosesindən kənarda qalanlar "düşünən mən"ə münasibətdə "mənim üçün" yoxdur və yalnız özü-özünə münasibətdə mövcudluqdur. Hansı ki, Hegel bunu **özündə-şey** adlandırmışdır. İdrak edilib-edilməməsindən asılı olmayaraq istənilən gerçəklik "Özündə-şey" kimi mövcuddur.

Mənim üçün mövcud olanları mənim idrakımla dərk etdiyimdən onları yalnız "Mən" dərk edə bilərəm. Buradan da idrak prosesində dərk edən Ruh - subyekt - prioritet kimi çıxış edir.

Mütləq həqiqəti yalnız şərtsiz - obyektdən və subyektdən kənar - aşkarlamaq mümkün olduğundan, şərtlənmə-aşkarlanma şərtləndirənə-aydınlaşmaya nisbətdə azad olmadığından, təfəkkür mütləq həqiqəti aşkarlamaq azadlığından məhrumdur.

Haşiyə: L.R.Xabbard:

> *"Problemi və onunla bağlı məlumatları qiymətləndirməkdən ötəri dərəcələnmə şkalası lazımdır. Mütləqlər əlçatmazdır - sonsuz ölçülərin istifadə etdiyi məntiqin prinsipi budur."*

V.Frankl, "İnsan məna axtarışında":

> *"Həqiqət yalnız bir ola bilər, ancaq heç kəs o biliyi ilə fəxr edə bilməz ki, bu həqiqətə yalnız o malikdir, başqa heç kim."*

Beləliklə, həqiqətin nisbiliyi həm də aşağıdakılarla əlaqələndirmək lazımdır:

• **A**. Heç bir mövcudluq özündə tam həqiqəti aydınlaşdırmadığından, biz gerçəkliyin hər hansı bir formasından mütləq nisbi həqiqəti aşkarlaya bilmirik.

• **B**. Təfəkkür bilavasitə gerçəkliklə təmasda olmadığından (bu təmas keçirici mühitlə vasitəlidir), onun aşkarladığı həqiqət həm də mühitin təsirinə məruz qaldığından nisbiləşir.

• **C**. Mütləq nisbi həqiqət bir tam kimi elə nəhəng ölçüdə məlumatı özündə ehtiva edir ki, insan ağlının potensialı bu ölçülərə hesablanmayıb.

• **D**. Həqiqətin aydınlaşması tarixi proses olduğundan - tədricən aydınlaşdığından - onun aşkarlaması da tarixi və tədricidir. Fərd tarixaltı olduğundan, insan ömrü həqiqətin tam aydınlaşma müddətinə uyğun olmadığından, zamanla aşkarlanma nisbi həqiqəti üzə çıxarır.

• **E**. İnsan ağlı tarixi inkişaf prosesindədir. Buna görə də eyni həqiqət müxtəlif tarixi dövrlərdə müxtəlif formada və dəqiqlikdə aşkarlanır. Tarix davam etdiyindən həqiqətin aşkarlanmasının dəqiqləşməsi də davam edir. Beləliklə, nisbi həqiqət kanonik, mütləq həqiqət orqanikdir. Yalnız sonuncu adam mütləq həqiqəti dərk edə bilər ki, o da sonuncu olduğundan və ondan sonra gələn olmadığından, onun aşkarlayacağının nədən ibarət olmasını ondan öncəkilər müəyyənləşdirə bilməz.

• **F**. Mütləq nisbi həqiqət mütləq təfəkkür tərəfindən aşkarlana bilər. Biz mütləq təfəkkürü özündə təcrübənin başlanğıcından sonunadək idrak prosesində iştirak etmiş - yəni ekstensiya etmiş insanlıq ruhunun - bütün tarix boyu yaşamış insanların ən ümumi təfəkkürü kimi təyin edirik. Lakin insanların fərdi ömrü eyni olmadığından və buna görə də təcrübə sahəsində fərqli vaxtlarda iştirak etdiyindən və bərabər ekstensiya etmədiklərindən, bütün insanların təfəkkürlərini əlaqələndirmək - birləşdirmək mümkün olmadığından mütləq təfəkkür yaranmır. Bu da mütləq nisbi həqiqətin dərk olunmasını istisna edir.

- **G.** Mövcudluqların həqiqəti entropiya olunmuş şəkildə aydınlaşdığından, bütün təsirlərdən arınmış həqiqətin aşkarlanması mümkün deyil.
- **H.** Həqiqət həm obyektiv, həm də subyektiv formada aydınlaşdığından, subyektiv həqiqətlə obyektiv həqiqət vəhdət təşkil etmədiyindən həqiqət mütləq formada dərkolunmazdır.

Həqiqət mütləq aydınlaşmaya, amma nisbi aşkarlanmaya meyl edir. Bu da həqiqətin nisbiləşməsini şərtləndirir. Nisbi həqiqət mütləq nisbi həqiqətin şərtlənmiş formasıdır və şərtlərdən asılı olaraq nisbi həqiqət qradiasiya edir. Nisbi həqiqətin qradiasiyası - dərəcələnməsi - həqiqətin müxtəlif alternativləri kimi meydana çıxır. Nisbi həqiqətin qanunauyğunluqları xüsusi qanunları təşkil edir. Xüsusi qanunlar - konkret şərtlərdə mütləq həqiqətin təzahür qaydalarından ibarətdir. Nisbi həqiqətin şərtlənməsinə görə xüsusi qanunları üç qrupa bölmək olar:

- **a)** Cismin daxilinə yayılmış məlumatların tabe olduğu nizam - substansiya və ya mahiyyətin tabe olduğu qanunlar.
- **b)** Cismin bilavasitə öz səthinə şüalandırdığı məlumatların tabe olduğu nizam - formanın tabe olduğu qanunlar.
- **c)** Cismin sərhədlərindən kənara şüalandırdığı məlumatın keçdiyi mühitin və ya başqa gerçəkliklərin təsirindən entropiyaya (deformasiyaya) məruz qalmış məlumatları - xassə və ya təzahürlərin tabe olduğu qanunlar.
- **d)** Neytral zonaya şüalanan, entropiyaya məruz qalmamış məlumatların gerçəklikdən kənarda tabe olduğu nizam - nisbi həqiqətin mütləq nisbi həqiqətə çevrilməsi - xüsusi qanunların ümumiləşməsi.

Həqiqət nisbiləşməyə görə varlıqların ardıcıllığına uyğun aşağıdakı formalarda aşkarlanır:

1. **Orijinal və ya unikal həqiqət** (Konkret fərdi şeyin Allaha münasibəti): Belə həqiqətə fikrən ayrılıqda götürülmüş tək bir şeyin yalnız tək bir fərddə refleksiya etdiyi həqiqət aiddir. Şeyin əsas xarakteristikası orijinallıqdır. Biz "şey" dedikdə vəhdətdən kənar götürülmüş

konkret təki nəzərdə tuturuq. Məsələn, bir səbətdəki almaların içərisindən götürülmüş ayrıca bir alma şeydir və şey kimi yalnız ona məxsus, digər almalardan onu fərqləndirən həqiqətə malikdir. Beləliklə, orijinallıq xüsusilərdən və ümumidən fərqlənməni özündə ifadə edir. Hər bir konkret tək şeyin yalnız ona xas orijinal həqiqəti vardır. Orijinal həqiqət ən aşağı səviyyəli və ya ən ilkin, yalandan sonrakı, ondan fərqlənən həqiqətdir. Beləliklə, orijinal həqiqət yalandan sonra aşkarlanmış, onunla ziddiyyət və vəhdət təşkil edən başlanğıc həqiqətdir. Orijinal həqiqət obyekt-subyekt əlaqəsində fərdin təkdən əldə etdiyi həqiqət olduğundan kollektiv şüurla əldə edilmir. Kollektiv şüur şüurun digər bütün formaları üçün başlanğıc rolu oynadığından orijinal həqiqət metafizikdir.

2. **Xüsusi həqiqət** (Gerçəkliyin - xüsusi şeyin - Allaha münasibəti): Xüsusi həqiqətə tək kimi eyni sıranı təşkil edən şeylərin müxtəlif fərdlərdə refleksiyasından aşkarlanan həqiqəti aid etmək olar. Eyni orijinal şeylər birlikdə gerçəklikləri təşkil edir. Məsələn, tək-tək almaların hamısı birlikdə alma meyvəsinin gerçəkliyini təşkil edir. Gerçəkliklər özlərində xüsusi həqiqəti saxlayır; hansı ki, eyni sıradan olan şeylərdən təşkil olunur. Xüsusi həqiqət orijinal həqiqətə malik şeylərin vəhdətindən meydana çıxan həqiqətdir və həm orijinal həqiqətdən, həm də digər sıraların xüsusi həqiqətindən fərqlənir. Məsələn, alma gerçəkliyinin xüsusi həqiqəti həm ayrıca şey kimi bir almanın orijinal həqiqətindən, həm də başqa meyvələrin (tutaq ki, armudun) xüsusi həqiqətindən fərqlənir. Yəni konkret tək almanın orijinal həqiqəti bütün almalarla eynilik təşkil etmir; almaların müxtəlif sortları, növləri və formaları vardır. Xüsusi həqiqət bu müxtəlifllikləri dəf etməklə, orijinal həqiqətlərin vəhdətindən əldə edilir. Xüsusi həqiqət vasitəsi ilə insan kaleydoskopik dünyanı ağlında nizamlayır, reallıqların özünə münasibətini müəyyənləşdirir. Xüsusi həqiqət cari şüurla aşkarlanır. Cari şüur kollektiv şüurun fərdiləşməsi ilə meydana çıxır. Kollektiv şüurdan fərqli olaraq fərdi şüurla aşkarlanmış həqiqətlər başqalarının

aşkarladığı həqiqətlərdən fərqliliklər təşkil edir. Xüsusi həqiqətlər haqqında bilgi xüsusi məkan və zamanla şərtlənməni, xüsusi adam tərəfindən əldə edildiyindən yalanla oxşarlıq təşkil edir.

3. **Ümumi həqiqət** (Reallıqların - ümumi şeylərin - Allaha münasibəti): Oxşar gerçəkliklər bir-biri ilə vəhdətdə reallıqları təşkil edir. Reallıqlar özündə ümumi həqiqəti saxlayır. Ümumi həqiqət xüsusi həqiqətlərin fərqliliklərinin dəf edilməsi ilə əldə edilir. Məsələn, cisim, canlı və insan reallıqdır. Həm cismin, həm canlıların, həm də insanın öz sırasına xas xüsusi həqiqəti vardır. Amma reallıq kimi onların hər üçünü təyin edən eyni həqiqət vardır ki, bu da ümumi həqiqətdir. Ümumi həqiqət müştərək, oxşar gerçəkliklərdən dərk edilən həqiqətlərdir. Yəni həqiqətin bir tərəfi bir şəxs tərəfindən bir vaxtda, digər tərəfi başqa vaxtda, və ya bir tərəfi bir yerdə, digər tərəfi başqa yerdə və ya da başqa şəxs tərəfindən bir yerdə və ya başqa yerdə, bir vaxtda və ya başqa vaxtda aşkarlanır. Müxtəlif vaxtlarda, müxtəlif yerlərdə müxtəlif şəxslər tərəfindən aşkarlanmış həqiqət buna görə də ümumi həqiqət olur. Ümumi həqiqət obyektin müxtəlif tərəflərindən və müxtəlif yanaşmalarla - xüsusi metodlarla - müxtəlif fərdlər tərəfindən birlikdə əldə edildiyindən müxtəlif elmlər tərəfindən öyrənilir. Hegel elmi bilgi əldə etməni "təbiətə təcrübi münasibət" adlandırır; hansı ki, ona görə *"təcrübi münasibətin təbiətin ayrı-ayrı məhsulları və ya bu məhsulların ayrı-ayrı tərəfləri ilə işi olur"*. Bura həm də ayrı-ayrı adamların işini əlavə etsək, təcrübi münasibət haqqında tam təsəvvür əldə etmiş oluruq. Təcrübi münasibət kimi elmin müxtəlifləşməsi obyektin, fəlsəfənin müxtəlifləşməsi subyektin tərəfləri ilə bağlıdır. Heç bir elm ayrılıqda bir nəfərin - alimin düşüncəsinin məhsulu kimi yaranmır, buna görə elmlər ümumi adla (məsələn: fizika, kimya, biologiya) adlanır. Mütləq nisbi həqiqət bütün məkanda və bütün zamanda totallıq kimi Varlıqdan aydınlaşdığından, konkret məkan və zaman şərtində mövcudluqdan aydınlaşan həqiqəti biz **nisbi mütləq nisbi həqiqət** - qısa şəkildə nisbi həqiqət adlandırırıq. Nisbi həqiqət

təcrübədə konkret fərd tərəfindən aşkarlanır. Hər bir fərd özündə Ruhu Fraqmentar olaraq daşıdığından, mütləq nisbi həqiqət isə İnsanlıq Ruhu tərəfindən refleksiya olunduğından, hər bir insan özündə yalnız nisbi həqiqəti dərk etmək imkanına malikdir.

4. **Ən ümumi həqiqət** (Mövcudluğun Allaha münasibəti): Reallıqlar və mövcud ola bilənlər birlikdə mövcudluqları təşkil edir. Yəni həm real olan, həm də nəzəri olaraq ağılla real ola bilməsi ehtimal edilən şeylərin vəhdətindən ən ümumi həqiqət aşkarlanır. Ən ümumi həqiqətin bir tərəfi reallıq, digər tərəfi ehtimali reallıq olduğundan, ən ümumi həqiqət abstrakt həqiqətdir. Yəni ən ümumi həqiqət - təfəkkürdə aşkarlanan, reallıqla təsdiq olunan, ehtimali varlıqlara şamil edilməsi mümkün olan həqiqətdir.

5. **Mütləq nisbi həqiqət** (Varlığın Allaha münasibəti): Bütün mövcudluqların - real və ehtimali mövcudluqların - əsasını Varlıq təşkil edir. Yəni Varlıq özündə həm reallıqların, həm də real ola biləcəklərin əsası kimi çıxış edir. Varlığın özündə aydınlaşdırdığı həqiqət - mütləq nisbi həqiqətdir. Mütləqdir ona görə ki, istənilən və düşünülə bilən mövcudluq üçün eynidir; nisbidir ona görə ki, mütləq şəkildə mövcudluqlardan təzahür etmir. Biz mütləq nisbi həqiqəti metafizik həqiqət adlandırırıq. Buradan da, metafizik həqiqət mövcudluq kimi var olmayan, amma ağılla varlığı qəbul edilən, hissi qavrayışa münasibətdə yoxluq olan obyektlər haqqında məlumatdan ibarət olur ki, biz belə məlumatlar əsasında metafizik statuslu obyektləri aşkarlayırıq. Məsələn, mələklər heç bir zaman və heç bir şərtlə mövcud olmayan, amma varlıqları mövcudluq kimi təsəvvür edilən obyektlərdir.

6. **Mütləq həqiqət** (Allahın özünün özünə münasibəti): Varlıqda refleksiya edərək mütləq nisbi həqiqətə çevrilən Allah ideyası. Bəzi mütəfəkkirlər Allahı mütləq həqiqət kimi qəbul edir. Bizə görə, mütləq həqiqət Allahdan çıxan, hələ Varlıqda refleksiya etməyən həqiqətdir. Beləliklə, Allahdan çıxdığına görə Allahla eyniyyət təşkil etmir,

Varlıqda refleksiya etmədiyindən mütləq nisbi həqiqətdən fərqlənir. Mütləq həqiqət idrakın heç bir halda nüfuz edə bilməyəcəyi, yəni idrakın sərhədlərindən kənarda qalan həqiqətdir. Beləliklə, mütləq həqiqət özündə boş konstruksiyanı təqdim edir, hansı ki, onun haqqında nəsə demək mümkün deyil. Mütləq həqiqət bu keyfiyyətində Allahı insandan ayırır. Onu insan üçün dərkedilməz edir.

HƏQİQƏTİN TƏZAHÜRÜ - AYDINLAŞMA

Hər bir gerçəkliyin başlıca cəhdi - iradəviliyi - öz həqiqətini özündə əbədi saxlamaq, gizlətmək cəhdidir. Gizlədilmiş həqiqət - həqiqətin vasitədə saxlanması - substansiyanı, mahiyyəti təşkil edir. Buna əks olaraq, həqiqət gizlilikdən çıxmağa, yəni aşkarlanmağa cəhd edir. Bu iki cəhdin nəticəsində gerçəkliklərin xassələri, onları hissi qavranılan edən təzahürləri meydana çıxır.

Həqiqətin təzahürü onun haqqında məlumatın vasitədən şüalanması kimi baş verir. Mümkünlüklərin mövcudluğa zərurətə görə keçidində ən sadə imkandan cisimlər yaranır. Cismin öz həqiqəti haqqında öz sərhədlərindən kənara şüalandırdığı məlumat iki qrupa bölünür:

1. **Cisimdən ayrılmaz xassələr - kimyəvi xassələr (Substansial xassələr):** Bu xassələr immanent olub, varlığın hüdudları ilə sərhədlənib. Daxili olduqlarına görə zərurətə görə mövcuddurlar və entropiyaya məruz qalmadıqlarından dəyişməzdirlər. Belə xassələr substansiya ilə funksional asılılıqdadır. Substansial xassələr bilavasitə mahiyyəti xarakterizə edən xassələrdir; hansı ki, kimyəvi xassələri təşkil edirlər. Kimyəvi xassələrin dəyişilməsi mahiyyətin, mahiyyətin dəyişilməsi isə kimyəvi xassələrin dəyişilməsinə səbəb olur. Kimyəvi xassələr bilavasitə cisimlə təmasdan aşkarlanır.
2. **Fiziki xassələr - aksidental (qəza/təsadüfi) xassələr:** Belə xassələr xarici olub, cismin formasını xarakterizə edən xassələrdir. Xarici olduğuna görə təsadüfə görə mövcuddurlar. Fiziki xassələrin dəyişilməsi mahiyyətin dəyişilməsinə səbəb olmadığından, varlığın

dayanıqlılığında dəyişkən olurlar. Xarici olduğundan gerçəkliklə bilavasitə təmas olmadan da müəyyən məsafədən aşkarlanırlar. Belə xassələr məsafədən və bu məsafədəki mühitdən asılı olaraq xüsusi şərtlərdə meydana çıxır, təsadüfi və müvəqqətidir; mühitlə şərtlənmişdir. Fiziki xassələr substansiyaya xarici təsirin refleksiyasını özündə təqdim edir. Xarici təsirlər dəyişdikcə fiziki xassələr də dəyişir. Belə xassələr nisbi şəkildə cismin qanunauyğunluqları haqqında məlumat daşıyır.

Həqiqətin aydınlaşmasının şüalanması zamanı həmin şüalar mühitdən və ya sahədən keçərkən aşağıdakı dəyişilmələrə məruz qalır:

1. **Sadələşmə (seçilmə):** Mürəkkəb tərkibli siqnallar tərkib hissələrinə parçalanır. Nəticədə siqnallar sadələşir. Məsələn, işıqlanma zamanı ağ işığın tərkib hissələrinə ayrılması kimi.
2. **Mürəkkəbləşmə (qarışma):** Siqnallar başqa siqnallarla qarışaraq daha da mürəkkəbləşir. Məsələn, müxtəlif səslər bir-birinə qarışaraq küy əmələ gətirir.
3. **Deformasiya:** Siqnallar kənar təsirlərdən məlumat yükünü dəyişir, deformasiyaya uğrayır. Məsələn, işığın sınması nəticəsində işıq şüası öz istiqamətini dəyişir. Belə dəyişilmədə siqnal təhrif olunur (məsələn, səs dalğalarının yayılmasında maneələrin yaranması kimi).

Məlumat nə qədər sadədirsə, onun şüalanması bir o qədər az entropiyaya məruz qalır. Deməli, bir o qədər substansiyanın tabe olduğu nizama tabe olur. Cisim sadə məlumatı ən uzaq məsafəyə şüalandırdığından, həqiqəti iki yolla - ya cismin daxilindən, ya da neytral sahədəki şüalardan (cismin qanunauyğunluqlarından) aşkarlamaq olar. Ən uzaq neytral sahə dedikdə burada biz Varlığı nəzərdə tuturuq. Yəni mövcudluqların Varlığa göndərdikləri və ya Varlıqdan aşkarlanan məlumatlar ən sadə və mövcudluğa münasibətdə ən uzaq siqnallardır. Beləliklə, substansiya öz-özündə mövcudluqda olan nisbi həqiqət, neytral zonada aşkarlanan Varlıqda olan mütləq nisbi həqiqətdən ibarətdir. Təfəkkür hər iki üsuldan istifadə edərək həqiqəti aşkarlayır. Birinci halda

təcrübi, ikinci halda metafizik bilgilər əldə edilir. Həqiqətlə təzahür qarşılıqlı əlaqədədir və birindən digəri haqqında bilgi əldə etmək mümkündür. Belə ki, mövcudluqdan xaricə göndərilən siqnallardan cismin substansial qanunauyğunluqlarını öyrənmək, daxildə substansiyanın qanunlarını öyrənməklə ondan çıxan ən sadə siqnalların təşkil etdiyi həqiqəti - Varlığı aşkarlamaq mümkündür. Birinci fəlsəfənin, ikinci metafizikanın predmetidir.

Əgər xaricdən alınan məlumatla daxildə saxlanılan məlumat üst-üstə düşürsə, cismin qanunauyğunluğu, yəni həqiqəti aşkarlanmış olur. Qanunauyğunluq - faktdan törəyən ideya ilə (gerçəkliyin həqiqəti ilə) ağıldan törəyən ideyanın (ağlın həqiqətinə) münasibətidir. Bəs qanunauyğunluq özündə nəyi ifadə edir? Ən ümumi şəkildə qanun həqiqətin forması kimi çıxış edir. Həqiqətin forması mahiyyətin vəhdət təşkil etdiyi gerçəkliyin formasından fərqlənir. Belə ki, mahiyyətin vəhdətdə olduğu forma aksidentaldir, heçlikdir və dəyişkəndir. Həqiqətin forması immanentdir, dəyişməzdir və fikir varlığı - məna kimi mövcuddur.

Həqiqəti ən ümumi şəkildə "yaradılanın özündə Yaradanını refleksiya etməsi" kimi təyin etmək olar. Bu gün incəsənət ekspertləri müəllifi bilinməyən hər hansı bir əsərin müəllifini onun yaradıcılıq üslubuna əsaslanaraq asanlıqla təyin etdikləri kimi, həqiqət də aydınlaşdığı vasitənin Allahın yaradıcılıq üslubuna uyğunluğuna görə aşkarlanır. Yəni hər hansı bir vasitənin "İlahi yaradıcılıq üslubuna uyğunluğu" özündə təqdim etməsini həqiqət adlandırırıq. Fəlsəfədə və elmdə "yaradıcılıq üslubuna uyğunluğa" sinonim kimi **qanunauyğunluq** ifadəsindən istifadə olunur. Qanunauyğunluq varlığın yaradılma üslubunu özündə ifadə edir.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşdirilməsi haqqında"

> *"Mahiyyətin varlığı yalnız modusdur; hansı ki, buna görə yaradılan şeylər Allahın atributlarında saxlanılır."*

B.Spinozanın fikrini həm də belə ifadə etmək olar ki, yaradılan şeylərdə Yaradanın atributlarının saxlanma üsulu həqiqətdir. Başqa sözlə, həqiqət - aydınlaşdığı vasitələrin özündə müəyyən İlahi sifətləri əks etdirməsindən ibarətdir. Hər hansı bir vasitədə İlahi yaradıcılığın izləri aşkarlanmırsa, həmin şey özündə həqiqət təzahür etdirmir, yəni o xalis təsadüfilikdən ibarət olur. Varlığın bütün növləri üçün ən ümumi olan belə sifət nizamlılıqdır. Nizam - yaranışın üsulu olduğundan, hər şey yalnız müəyyən nizamla yaradıla bilər; buna görə də şeylərin özündə təzahür etdirdiyi nizamlılıq həqiqətdir. Nizamın aşkarlanması **qanundur**. "Qanun" termini özündə nəyi ifadə edir?

Haşiyə: A.N.Uaythed, "Kosmologiya ideyaları"

"Qanun termininin dörd mənası təyin olunmuşdur:

1. Qanun obyektlərin özünə nəsə immanentdir.

2. Qanun obyektə sırınmadır.

3. Təzahürlərin müşahidə olunan qaydalarıdır, başqa sözlə qanun sadəcə təsvirdir.

4. Qanun şərti şərhdir."

A.N.Uaythedin şərhindən görünür ki, qanun immanentlik, obyektə subyekt tərəfindən verilmə, subyektin obyektdə olanı təsvir etməsi və ya obyektdə olanı şərh etməsidir. Burada qanun termininin mənalarından biri - immanentlik - bilavasitə obyektlə; biri - müşahidə olunan təzahürlərin təsviri və şərti şərh - obyekt və subyektlə; biri - obyektə sırınma - yalnız subyektlə şərtlənmişdir.

1. **İmmanentlik:** İmmanentlik fəlsəfədə "predmetə daxilən mahiyyət mənasına görə aid olan xassə" kimi təyin olunmuşdur. Beləliklə, qanun termininin bir mənası bilavasitə obyektin daxilində mövcud olan mahiyyətin xarakteristikası kimi təyin olunur; hansı ki, subyektin idrak edib-etməməsindən asılı olmayaraq, əbədi obyektlərdə özü-özlüyündə əbədi nizam kimi mövcuddur. Mahiyyət - əvvəl, forma - sonradır (və

ya mahiyyət - ayrılıqda götürülmüş şeydə bazis/əsas, forma - üstqurumdur).

2. **Obyektlərə sırınma:** Qanunun bu mənası sırf subyektlə şərtlənmişdir. Belə ki, sırınma - subyektin abstrakt olaraq təfəkkürdə aşkarladığı qaydanı hər hansı bir obyektə aid etməsi və sonra bu qayda əsasında şeyi təyin etməsini özündə təqdim edir. Sırınmada obyekt ikincili, subyekt birincilidir. Hansı qanunu hansı obyektə sırımaq məhz subyektiv iradədən asılıdır. Bu zaman subyekt təbiət ağlına - təbii qanunlara laqeyd qalır. Qanun bu mənada predmetə münasibətdə xarici, Ruha münasibətdə daxili mahiyyətdir. Belə mənada qanun Ruhun qaydası əsasında obyektiv gerçəkliyin idrakını özündə təqdim edir. Belə halda predmetin daxilində mahiyyət kimi mövcud olan nizam ikinci dərəcəli məna kəsb edir.

3. **"Müşahidə olunan qaydaların təsviri" və "Şərti şərh":** Qanun termininin obyekt və subyektlə şərtlənmiş mənaları bir tərəfdən obyektlə, digər tərəfdən subyektlə şərtlənməni özündə təqdim edir. Belə ki, "müşahidə olunan qaydalar" ifadəsindəki qaydaların mənbəyi, yəni başlanğıcı obyekt və ya hadisələrdir (yəni subyektə münasibətdə xarici olan, obyektə münasibətdə daxili olandır). Müşahidə özündə həqiqətin aydınlaşmasının aydınlığı ilə aşkarlanmasının vəhdətini özündə ifadə edir. Belə ki, müşahidənin aydınlığı obyektdən - həqiqətin təzahüründən, həmin həqiqətin aşkarlanmasının dəqiqliyi isə subyektdən asılı olur. "Şərti təsvir" ifadəsindəki "şərti" sözü təsvirin həm obyektlə, həm də subyektlə şərtləndiyini göstərir. Təsvir isə yalnız subyektə xasdır və onunla şərtlənmişdir. Müşahidə, təsvir və şərh subyektə xas olduğundan, bu mənada aşkarlanan qaydalar nisbi olaraq həqiqəti özündə təqdim edir.

Beləliklə, qanunun yalnız iki mənası - İmmanentlik və Müşahidə olunan təzahürlər - obyektiv gerçəkliklərdən aydınlaşan həqiqətin mənası ilə eynilik təşkil edir. Burada müşahidə olunan təzahürlər (forma) immanentlikdən (mahiyyətdən) meydana gəldiyindən, əslində bu iki

məna mahiyyətlə formanın vəhdətini özündə təqdim edir; hansı ki, hissi qavranılan maddi şeylər kimi təcrübədə obyekt-subyekt münasibətinə girirlər. Digər iki məna - obyektə sırınma və şərti şərh - subyektlə şərtlənərək, subyektdə aydınlaşan həqiqətlə eynilik təşkil edirlər; hansı ki, qeyri-hissi, qeyri-maddi qavranılma nəticəsində aşkarlanırlar. Obyektə sırınmanın formalarından biri yalandır. Həqiqət yalandan bir çox xüsusiyyətlərinə görə fərqlənir. Bu fərqləri bilmədən, insan yalanla həqiqəti differensiasiya edə bilməz.

Dörd cür ümumi qanunauyğunluq aşkarlamaq olar:

- **a) Ən ümumi qanunauyğunluq:** Bütün sıralardan olanların neytral zonaya şüalandırdıqları məlumat, yəni istənilən ixtiyari mövcudluq üçün istənilən şərtlərdə eyni olan ümumi-mütləq həqiqət. Ən ümumi qanunauyğunluqlar dedikdə mütləq həqiqətin - ixtiyari mövcudluq üçün eyni olan, entropiyaya məruz qalmamış ən sadə həqiqətin nəzərdə tutulduğu başa düşülür. Belə həqiqət Varlığın həqiqətidir.
- **b) Ümumi qanunauyğunluq:** Yalnız bir sıradan olan mövcudluqlar üçün eyni olanlar (həqiqət). Məsələn, cisimlərin və ya canlıların, yaxud idrak prosesinin tabe olduğu qanunauyğunluqlar.
- **c) Xüsusi qanunauyğunluq (Ümumi-nisbi həqiqət):** Bir sıradakı ayrıca bir mövcudluğun xarici vəziyyəti ilə müəyyən olunan həqiqət. Məsələn, cisim aləmində mövcud olan ayrıca bir kimyəvi maddənin tabe olduğu qanunauyğunluqlar.
- **d) Orijinal qanunauyğunluqlar:** Ayrıca bir aktın tabe olduğu qanunauyğunluqlar. Bura xalis formadan aşkarlanan orijinal qanunlar aiddir. Xalis forma - özü-üçün-varlıq təyini özündə heçlik təşkil etdiyindən, orijinal qanunlar özündə heçliyi, yəni nisbi həqiqətin əksliyini təqdim edir.

Cismin xarici entropiya ilə şərtlənmiş məlumatları onun xüsusi qanunlarını təşkil edir. Şüurun bu qanunauyğunluqları aşkarlamasına görə üç yerə bölünür:

- **a) Ümumi fəlsəfi şüur:** İxtiyari mövcudluğun neytral zonaya göndərdiyi və entropiyaya məruz qalmamış həqiqəti ifadə edən məlumatı aşkarlayan şüur. Belə şüur nəticəsində dünyagörüşü meydana çıxır. Fəlsəfi dünyagörüşü başlanğıc, son və başlanğıcdan sona hərəkətin tabe olduğu qanunauyğunluqlardan həqiqəti aşkarlayır. İdealizm, materializm və s. kimi fəlsəfi təlimlər buna aiddir.
- **b) Xüsusi fəlsəfi şüur:** Yalnız bir sıranın ümumi qanunauyğunluqlarını öyrənən şüur. Fəlsəfi elm ayrıca bir halın başlanğıc və sonuna doğru hərəkətin qanunauyğunluqlarını aşkarlayır. Məsələn: elmin fəlsəfəsi, əməyin fəlsəfəsi, insanın fəlsəfəsi, dinin fəlsəfəsi və s. Bunun nəticəsində fəlsəfi şərh yaranır.
- **c) Elmi şüur:** Yalnız bir sıradan ayrılıqda bir cismə xas olan, başlanğıcdan sona doğru hərəkətin müəyyən mərhələlərinin tabe olduğu qanunları öyrənən şüur. Elmi şüur həqiqətin entropiyaya məruz qalmasının qanunauyğunluqlarını öyrənir və bu zaman aşkarlanan həqiqətlər entropiyaya məruz qalmış xüsusi həqiqətlərdən ibarət olur.

Fəlsəfə ayrı-ayrı elmlərdən əldə edilmiş məlumatdan onları entropiyadan təmizləməklə ümumi həqiqəti aşkarlamağa cəhd edir. Beləliklə, fəlsəfi şüur iki yolla yaranır: a) birbaşa ümumi həqiqətin özünə yönəlməklə; b) elmi şüurdan istifadə etməklə, yəni xüsusi həqiqətdən ümumiləşdirmə aparmaqla. Birinci yolla fəlsəfə metafizikaya, ikinci yolla elmə keçir.

Nisbi həqiqət gerçəkliyin hissəsindən, parçasından, fraqmentindən aşkarlanır. Nisbi həqiqətin özünü aydınlaşdırdığı vasitələrdən təfəkkürə təsiri **təzahürdür**. Biz təfəkkürün həqiqətə münasibəti ilə gerçəkliyi anladığımızdan, təfəkkürün münasibətdə olduğu hər şeyi həqiqətin təzahürü hesab edə bilərik. Təzahür - özündə həqiqət haqqında ideyanı təfəkkürə çatdıran strukturlaşmış məlumatdır. Gerçəkliyin ideyası - həqiqət, onun aydınlaşma vasitəsi və bu vasitənin bütün əlamətləri arasındakı əlaqəni, həqiqətlə obyekt arasındakı əlaqəni özündə ifadə edən

təfəkkür məhsuludur. İdeya nə qədər bu əlaqəyə uyğundursa, dərk etmə bir o qədər həqiqətlə üst-üstə düşür.

Haşiyə: Q.V.Leybnis, "İdeya nədir?"

> *"Hər şeydən əvvəl ideya altında biz, bizim ağlımızda olanı başa düşürük. Bizim üçün ideya düşüncənin hansısa aktında yox, qabiliyyətindədir. İdeya yaxın qabiliyyət və ya şeylər haqqında düşünmək bacarığıdır."*

Leybnisin fikirlərini inkişaf etdirərək deyə bilərik ki, ideya bir tərəfdən kosmik ağlın strukturu, digər tərəfdən insan ağlının strukturudur. İdrak prosesində obyektin subyektə təsiri ilə onun təfəkkürdə refleksiyası, obyektin ideyasının təfəkkürdə olan ideya ilə eynilik təşkil etməsində obyektin həqiqəti aşkarlanır, yəni qavrama baş verir. Biz ideyanı həqiqət haqqında ümumi məlumat daşıyan şüa kimi təyin edirik; hansı ki, işıq şüasından daha böyük sürətə malik olub ondan əvvəl şüalanır. Biz yalnız işıq şüasından sonrakı görüntülərdən idraka başladığımızdan, ideya başlanğıcdan əvvəlki şüa kimi mövcud olur. Ona görə də ideyanı başlanğıcın başlanğıcı, yəni xalis metafizik anlayış kimi qəbul etmək lazım gəlir. Metafizik anlayış olduğundan, metafizik anlayışlar üçün xarakterik olan ikilitəbiətlilik ona xasdır. Yəni ideya həm mövcudluğun substansiyasını, həm də təfəkkürü təşkil edir. İdrak prosesində substansiyanı təşkil edən ideya təfəkkürdəki ideya ilə refleksiya olunur, yəni eyniləşirlər. Həqiqətin təzahürünün təfəkkürdə ideya formasında inikası **ikincili refleksiyadır**. Birincili refleksiya aydınlaşma prosesində, ikincili refleksiya aşkarlanma prosesində təzahür edir.

Aydınlaşma necə başlayır, necə baş verir? Aydınlaşma necə aşkarlanır? Aydınlaşma ilə gerçəkliyin əlaqəsi necədir? Aydınlaşma ilə aşkarlanma arasında münasibət necədir? Bütün bu sualların cavabı aydınlaşmanın mahiyyətini izah edir. Bizcə, aydınlaşma həqiqətin - varlığın görüntüsü kimi təzahür edir. İki cür görüntü ayırd etmək olar:

- **a) Xarici görüntü:** Hiss üzvləri ilə müəyyən edilən görüntü.
- **b) Daxili görüntü:** Əqli mühakimə ilə müəyyən edilən görünüş.

Həqiqət bu iki görüntünün bir-biri ilə vəhdət təşkil etməsindən aydınlaşır. Aydınlaşmanın aşkarlanması səbəb-nəticə vəhdətinin yaranması ilə baş verir. Bu vəhdətdə idrak prosesində: xaricdə gerçəklik - səbəb, Ruh - nəticə kimi; daxildə gerçəklik - nəticə, Ruh - səbəb kimi çıxış edir. Beləliklə, idrak özündə xarici aləmin aydınlaşmasının daxili aləmə - aşkarlanmaya tərsinə refleksiyasını özündə təqdim edir. Aydınlaşmanın aşkarlanmasına görə iki cür həqiqət aydınlaşdırmaq olar:

A. Aşkarlanması mümkün olmayan aydınlaşma: Heç bir yerdə, heç bir zaman, heç bir vasitə ilə aydınlaşmayan, yalnız özü-özündə aydınlaşan, başlanğıcı və sonu olmayan həqiqət aşkarlanması mümkün olmayan aydınlaşmadan ibarətdir. Belə aydınlaşma Allah haqqında həqiqətləri özündə təqdim edir. Allah haqqında həqiqət hər hansı bir vasitə ilə məhdudlaşmadığından sonsuzdur və sonu olmayan əbədi aydınlaşma prosesi kimi öz-özündə mövcuddur.

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Fəlsəfə və dinin predmeti məhz həqiqətdir, sözün həqiqi mənasında - o mənada ki, Allah və yalnız O, tək həqiqətdir. Sonra hər ikisi son nahiyə ilə - təbiət və insan ruhu ilə, onların bir-birinə münasibəti ilə və onların həqiqəti kimi Allahla məşğul olur."*

Bizcə həqiqət ən ümumi qanunauyğunluq olduğundan, qanunauyğunluq isə özündə ya hissələrin olmasını, ya da özündən başqalarının olmasını tələb etdiyindən, Allah hissəsiz və tək olduğundan, Onun qanunauyğunluğu ola bilməz. Başqa sözlə, Allah həqiqətüstüdür. Allah - mütləq nisbi həqiqətin Onu özündə refleksiya etdiyi qədər həqiqətdir.

B. Aşkarlanması mümkün olan aydınlaşma: Belə aşkarlanma iki cürdür:

- **a) Təbiətdə - təcrübə sahəsində vasitəli aydınlaşma:** Belə aydınlaşma sonsuzun sonluya keçidi ilə baş verir. Sonsuz sonluya müəyyən məkanda, müəyyən zamanda, müxtəlif vasitələrlə özündən kənarda aydınlaşma kimi keçir. Sonlu olmaq özündə başa çatmanı - sonu, son nəticəni təzahür etdirmək deməkdir. Hər bir mövcudluq son nəticədir, buna görə özündən sonra səbəb yaratmır. Başqa sözlə, sonsuz həqiqət obyektdən keçərək onda başa çatır. Həqiqətin başa çatması sərhəd kimi meydana çıxır. Sonsuzluq sərhədsizlik kimi meydana çıxır. Bunun əksinə, sonlu olmaq konkret sərhədlərə malik olmaq deməkdir. Həqiqətin sərhədləri obyektin sərhədləri ilə üst-üstə düşərək özündə nisbi həqiqət haqqında bilgiləri təqdim edir. Buna görə də istənilən sərhəd xüsusi təzahürlərin yaranmasını səbəbləndirir. Sərhədi olmayan heç nəyin xüsusi təzahürü meydana çıxmır. Sonsuzluğun digər bir əlaməti qarşılıqlı determinizm - səbəb-nəticə zənciridir. Bu zəncirdə hər bir səbəb nəticəni, nəticə isə səbəbi şərtləndirir. Fizikadan əvvəl Varlıq və Ruh bu cür qarşılıqlı səbəb-nəticə əlaqəsində olub, hər ikisinin vəhdəti özündə mütləq həqiqətin sonsuzluğunu refleksiya edir. Bundan fərqli olaraq, sonluluqda qarşılıqlı determinasiya baş vermir; hər bir səbəb özündən sonra bir nəticə ilə, həmin nəticə də səbəb rolunda başqa bir nəticə ilə əlaqələnir. Təbiət məhz bu cür səbəb-nəticə əlaqəsində - qarşılıqsız determinasiyada mövcuddur və buna görə də mövcud olanlar sonludur. Sonlu olduqlarından onların sərhədindən hissi təfəkkürlə idrak olunandır. Sonsuz həqiqətin sonluya keçməsi ilə determinasiya dayanır və konkret obyekt özündə axırıncı nəticəni təqdim edir. Hansı ki, başlanğıc Ali Səbəbin - sonsuzluğun - ən uzaq və axırıncı nəticəsindən ibarət olur. Hər bir konkret obyekt mütləq nisbi həqiqətin (Varlığın) müəyyən tərəfini və ya hissəsini öz sərhədlərində saxlamaqla aktuallaşır.

> ***Haşiyə:*** *F.Şelling, "Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar": "Son səbəbilik sonsuzdan öz prinsipinə görə yox, yalnız sərhədlərinə görə fərqlənir."*

- **b) Təfəkkürdə - yalnız insan ruhunda aydınlaşma:** Sonsuzun sonsuz kimi aydınlaşması. Sərhədi olan və determinasiya prosesində heç bir gerçəklik özündə sonsuzluğu təqdim etmək imkanına malik deyil. Yalnız Ruh sərhədsiz olduğundan, səbəb-nəticə əlaqəsinə tabe olmadığından, düşüncə vasitəsi ilə mütləq həqiqət istiqamətində - sonsuzluq istiqamətində təzahür etdiyindən, sonsuz həqiqət təfəkkürdə aydınlaşır. Ruhun dərkedilməzliyinin bir səbəbi özündə sonsuzluq kimi aydınlaşma ilə bağlıdır.

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Adətən düşünürlər ki, mütləq o tərəfdə, uzaqda olmalıdır; amma o tamamilə mövcudluqdur, hansı ki, biz düşünən varlıq kimi həmişə özümüzlə gəzdiririk və istifadə edirik, baxmayaraq ki, onu aydın dərk etmirik."*

Hegelin fikirlərindən göründüyü kimi "düşünən mən" özündə sonsuzluq xarakteristikasına malik olduğundan həm də mütləqlik gəzdirir; amma onun özündə gəzdirdiyi mütləqlik özünə məxsus deyil, onun yaranmasında iştirak edən İlahi İradənin mütləqliyidir. Subyektivlik anlayışı - həqiqətin vasitəsiz aydınlaşmasını özündə ifadə edir. Həqiqətin vasitəsiz aydınlaşması isə sonsuzluğu özündə təqdim edir. Təcrübə sahəsində sonsuzluq istənilən səbəb-başlanğıc kimi çıxış edən vəziyyətdir. Beləliklə, təcrübə sahəsində subyekt özündə son səbəbi təqdim edir. Subyekt səbəb kimi çıxış etdiyindən mütləq nəticəyə səbəb olur. Bu nəticə başlanğıcda səbəb kimi çıxış edən mütləq nisbi həqiqətdir. Mütləq nisbi həqiqət - Varlığın həqiqəti səbəb kimi obyektdə - mövcudolanda nəticələnir. Ümuminsanlığın Ruhu səbəb kimi mövcudolandan həqiqəti idrak etməklə nəticələnir. Beləliklə, idrak prosesində Ümumi İnsanlıq Ruhu təcrübə sahəsində obyektiv gerçəkliyə nüfuz edərək, ondakı nisbi mütləq həqiqətlə vəhdət təşkil edir. Bu vəhdətdən mütləq həqiqət aydınlaşır, hansı ki, idrak prosesindən sonra

gəldiyindən insana məlum olmur. Fəlsəfə bu iki ruhun qarşılıqlı refleksiyasından həqiqəti aşkarlamağa cəhd edir.

Yaranışın iki bir-biri ilə əkslik edən tərəfi - materiya və ruh canda bir-biri ilə vəhdət təşkil edərək mütləq nisbi həqiqəti yenidən yaratmağa cəhd etməsi (aşkarlama), ruhun materiyanın xalis fikrini özündə refleksiyası, yəni passiv gücün aktiv güclə birləşməsi kimi baş verir. Beləliklə, mütləq nisbi həqiqətin iki tərəfi vardır; hansı ki, ayrı-ayrı varlıq sıraları mütləq nisbi həqiqətin bu tərəflərindən birini özündə təzahür etdirməklə mövcuddur. Özündə Passiv Gücü təzahür etdirməyi biz mütləq nisbi həqiqətin təzahürünün **aydınlaşma forması**, özündə yalnız Aktiv Gücü təzahür etdirməyi mütləq nisbi həqiqətin təzahürünün **aşkarlanma forması** adlandırırıq. Mütləq nisbi həqiqət bu iki formanın məcmusundan ibarət olduğundan, mütləq nisbi həqiqət materiyadan aydınlaşmanın ruhda aşkarlanma ilə eyniyyət təşkil etməsində meydana çıxır. Birincidə həqiqətin aydınlaşmasının aydınlığı, ikincidə həqiqətin aşkarlanmasının yəqinliyi başlıca keyfiyyət kimi çıxış edir. İdrakın mahiyyəti isə özündə məhz bunu - materiyada aydınlaşan həqiqətin ruhda aydınlaşan həqiqətlə eyniyyət-vəhdət təşkil etməsindən ibarət olur. Mütləqləşmə və ya xalis fikrə çevrilmə meyli cisimlərdə mənfi yüklərin müsbət yükləri cəlb etməsi və ya cazibə kimi, canlılarda refleksiya edərək dişinin erkəyi cəlb etməsi kimi, ruhda refleksiya edərək materiyanı təfəkkürə cəlb etmək və ya şüurun materiyaya münasibəti kimi meydana çıxır. Bu mühakimələrdən görünür ki, mütləq nisbi həqiqətin daxili qurulma ilə təkrar yaranması canlılıqdan keçməklə vasitəlidir və canlılıqdan kənar xalis varlıq kimi Ruh özü-üçün-varlıq kimi materiyanı refleksiya etmir və ya onun belə imkanı yoxdur; çünki onların varlıq təyinləri bir-birini inkar edir. Beləliklə demək olar ki, refleksiyanın bütün sirri canlılıqda gizlənmişdir, hansı ki, hissi təfəkkürün mahiyyətini təşkil edir.

Aydınlaşma anlayışı özündə həqiqətin özündənbaşqasına, o cümlədən idrak üçün açılmasını ifadə edir. Buradan da "şüurun materiyaya münasibəti"ni həqiqətin materiyada aydınlaşmasının təfəkkürdə aşkarlanması kimi şərh etmək olar. Həqiqət üç cür aydınlaşır:

A. Həqiqətin öz-özündə, birbaşa, varlıqdan və təfəkkürdən asılı olmadan aydınlaşması: Belə aydınlaşma heç bir vasitədə, heç zaman aydınlaşmayan və həqiqətin təfəkkür üçün aşkarlanmayan vəziyyətidir. Bu vəziyyətdə aydınlaşan mütləq həqiqətdir. Mütləq həqiqət ən ümumi vahid bir ideyadan - qanunauyğunluqdan ibarətdir. Aşkarlanma bütün mövcudluqlarla birlikdə götürülmüş ayrıca bir nisbi mütləq nisbi həqiqətin təfəkkürdə öz nizamına uyğun nizam yaratmasıdır. Beləliklə, istənilən idrak prosesinə həm də mütləq nisbi həqiqətin aydınlaşması cəlb olunur. Lakin təfəkkürdə yalnız mütləq nisbi həqiqətin nisbi aşkarlanması baş verir.

B. Həqiqətin vasitəli və vasitə ilə aydınlaşması: Mütləq nisbi həqiqətin müəyyən vasitədə, müəyyən məkanda, müəyyən zaman çərçivəsində aydınlaşması. Həqiqətin vasitəli aydınlaşması nəticəsində mütləq nisbi həqiqət meydana çıxır. Mütləq nisbi həqiqətin aydınlaşma vasitəsi mövcudluğu olmayan Varlıqdır. Mütləq nisbi həqiqət təfəkkürün Varlığa və özü-özünə münasibətində nisbi aşkarlanır. Buradan da aşkarlanan istənilən həqiqət nisbi mütləq nisbi həqiqətdən ibarət olur. Nisbi mütləq nisbi həqiqətin qanunları xüsusi qanunlar kimi təzahür edir. Nisbi mütləq nisbi həqiqət nisbi eyniliklə nisbi fərqliliyin vəhdətindən meydana çıxır.

Haşiyə: F.Şellinq, "Dünya Ruhu haqqında"

> *"Nə mütləq fərqsizlik prinsipini, nə də mütləq eynilik prinsipini həqiqət hesab etmək olmaz; həqiqət bunun və o birisinin birliyindən ibarətdir."*

F.Şellinqin fikirlərindən görünür ki, o, fərqsizliyi eynilikdən fərqli mənaya malik anlayış kimi qəbul edir. Fərqsizlik formadan, eynilik

mahiyyətdən aşkarlandığından, fərqsizliklə eyniliyin birliyi özündə həqiqəti təqdim edir. Məsələn, rəssam bir nəfərin şəklini fərqsiz çəkə bilir, amma həmin şəkil özündə konkret mövcud insanla eynilik təşkil etmir.

C. Həqiqətin təfəkkürdə öz-özünə vasitəsiz aydınlaşması: Bu mütləq nisbi həqiqət kimi meydana çıxır. Mütləq nisbi həqiqətin aydınlaşma vasitəsi təfəkkür özüdür. Buna görə də təfəkkürün ən ümumi qanunauyğunluqları mütləq nisbi həqiqəti təşkil edir.

İdrak prosesi bütünlükdə vasitəli və vasitəsiz həqiqətin aydınlaşmasının aşkarlanması prosesini özündə ifadə edir. Vasitəli aydınlaşma - mütləq nisbi həqiqət - varlığın daxili və xarici şərtlərindən asılı olduğundan, onun mütləq həqiqətə uyğunluğu idrak prosesinin təkmilliyindən asılıdır. Həqiqətin aydınlaşmasının forması **təzahürdür**. Təzahür - həqiqətin aydınlaşmasının məlumat kimi gerçəklikdən şüalanması - mövcudluğun özü haqqında məlumat daşıyan siqnalları ətrafa göndərməsidir. Özü-özündə aydınlaşan və özündənkənara şüalanmayan həqiqət təzahür etmir. Mütləq həqiqət öz-özündə, özü-özü üçün aydınlaşdığından təzahür etmir. Təzahür həm də həqiqətin aydınlaşmasının aşkarlanmasında vasitə rolu oynayır. Beləliklə, təzahür bir tərəfdən aydınlaşma, digər tərəfdən aşkarlanma ilə şərtlənmişdir.

Haşiyə: Böyük filosof əl-Kindi-yə görə istənilən obyektdən güc və ya şüa - istilik, rəng və səs - şüalanır.

Biz də Kindinin şüalanma təlimi əsasında həqiqətin aydınlaşmasını şərh etməyi məqsədə müvafiq hesab edirik. Mövcudluğun gerçəkliyi məhz onun özündə həqiqətin aydınlaşmasını şüalandırmasından ibarətdir. Həqiqətin aydınlaşması - mövcudluğun özündən kənara şüalandırdığı məlumatların məcmusu - gerçəklikdir. Gerçəkliyin aşağıdakı əsas əlamətləri vardır:

1. **Ardıcıllıq:** Həqiqətin aydınlaşmasının ardıcıllığı məkan əlaqəsinin təzahürüdür. Hər bir gerçəklik məkanla şərtlənmişdir və bu

şərtlənmə davam etdikcə həqiqətin aydınlaşması davam edir. Başqa sözlə, ardıcıllıq həqiqətin eyni üsulla, eyni qaydada, eyni bir şeydə aydınlaşmasıdır. Əgər belə ardıcıllıq olmasaydı, bir varlıq ən müxtəlif həqiqətləri özündə aydınlaşdırardı ki, bu da varlığın xaosuna səbəb olardı. Məkan özü gerçəkliyin müxtəlif sıralarının məcmusundan ibarətdir. Hər bir gerçəklik isə məkanın bir sırasını təşkil edir. Məkanda konkret sıraya aid olmayan heç bir gerçəklik təzahür etmir. Məkandan asılılıq gerçəkliyin bu sıralardan konkret birinə aid olmasını özündə təqdim edir.

2. **Dayanıqlıq, fasiləsizlik və əbədilik:** Həqiqətin aydınlaşmasının zamanla şərtlənməsini özündə təqdim edir. Hər hansı bir gerçəkliyin müəyyən vaxt çərçivəsində təzahürü dayanıqlılıqdır. Hər bir dayanıqlılıq özündə fasiləsiz təzahürü şərtləndirir. Fasiləsizlik həm də həqiqətin təzahürünün təfəkkürdə aşkarlanmasını şərtləndirir. Fasiləsiz təzahür etməyən həqiqət təfəkkürdə aşkarlanmır. Hər hansı bir həqiqətin aydınlaşmasının təfəkkürdə aşkarlanması bəlli zaman çərçivəsində mümkündür. Gerçəklik nə qədər fasiləsiz təfəkkürə təsir edirsə, təfəkkürdə onun idrakı bir o qədər asanlaşır. Fasiləsizlikdən proseslər meydana çıxır. Proses aktuallaşmanın təzahürüdür. Fasiləsizlik təbiiliyin təzahürüdür. Süni olanlar fasiləsizliyə malik olmadıqlarından onlar süni elementləri təşkil edirlər. Fasiləsizlik mövcudluğun sürəkliliyinin refleksiyasıdır. Heç bir gerçəkliyin əlamətləri fasilə ilə şüalanmır. Fasiləlilik təsadüfü, fasiləsizlik zərurəti meydana çıxarır. Beləliklə, həqiqət təsadüfdən zərurətə çevrildikcə aydınlaşır və təfəkkürdə aşkarlanır. **Əbədilik** - bir dəfə aydınlaşan həqiqətin sonsuzadək aydınlaşmaqda cəhd etməsini ifadə edir. Həqiqətin aydınlaşmasının geridönməzliyi əbədilik kimi təzahür edir.

Həqiqətin təzahürü bu keyfiyyətlərin müxtəlif intensivliyi və kombinasiyalarından ibarətdir. Həqiqət məlumat şəklində gerçəkliyin müxtəlif formalarından şüalanmaqla təzahür edir. Şüalanma həqiqətin aydınlaşmasının təzahürüdür. Həqiqəti aydınlaşdıra biləcək hər hansı bir

təzahür əgər həmin aydınlaşma haqqında məlumatı şüalandırmırsa, onda gerçəklik təzahür etmir. Şüalandırma - aydınlaşmanın təzahür etməsi - gerçəklikdən kənara həqiqət haqqında məlumat göndərməsidir. Şüalanma varlığın öz həqiqətini (yəni mövcudluq aktını) bildirməsinin, özünü aktuallaşdırmasının üsuludur. Gerçəklikdən şüalanan, onda aydınlaşan həqiqətin elə siqnallarıdır ki, həmin siqnallar məcmui şəkildə gerçəkliyin ümumi nisbi həqiqətini təşkil edir. Hər bir mövcudluğun birinci əlaməti özünün gerçəkliyi haqqında məlumatı digər mövcudluğa ötürməsidir. Öz sərhədlərindən kənara məlumat göndərməyən heç bir şey gerçəkləşə bilməz. Gerçəkləşmənin digər bir şərti onun göndərdiyi siqnallara və ya təsirlərə əks təsirin - başqa mövcudluğun gerçəkliyini bildirən məlumatın yaranmasını - stimullaşdırmasıdır. Bu üsul varlığın vəhdət prinsipini təşkil edir.

Gerçəkliyin özündəki həqiqət haqqında siqnalların şüalandırılması sahəsi - ötürücü ilə qəbuledici arasındakı sahə - dörd zonadan ibarətdir:

- **a) Daxili substansional zona (Mövcudluq zonası):** Hər bir gerçəklik öz səbəbləri haqqında məlumatı yalnız öz daxilində, özü-özünə şüalandırır. Belə gerçəkliyin xarici sərhədlərini keçməyən və gerçəklikdən ayrılmayan şüalanma zonası daxili zonanı təşkil edir. Bu zonadakı şüalar gerçəkliyin substansiyası - mahiyyəti haqqında məlumatları daşıyır. Cismin daxili zonasında onun xüsusi həqiqəti aşkarlanır. Xüsusi həqiqət konkret mövcudluq faktına aid olan məlumatlardan ibarətdir. Məsələn: Almanın həqiqətinə nəzər salaq. Almanın mütləq nisbi həqiqəti onun mümkünlüyüdür. Onun nisbi həqiqəti onun üzvi aləmə məxsus olmasıdır, onun sadə həqiqəti bitki olmasıdır. Onun xüsusi həqiqəti meyvə olmasıdır. Onun orijinal həqiqəti məhz alma olmasıdır. Cismin öz sərhədlərində daxilə şüalandırdığı zona - daxilində saxlanan, ötürülməsi mümkün olmayan məlumat, onun daxili quruluşu, bu quruluşu müəyyən edən qanun-auyğunluqlardan ibarət yalnız mövcudluq aktında olan varlığın daxili

zonası - substansional zonadır. Bu zonaya təsir və bunun nəticəsində daxili həcmin pozulması konkret varlığın mövcudluq faktına son qoyduğundan, daxili məkanın və mövcudluq aktının zamanının sürəkliliyinin qorunması mövcudluq aktının özündən avtonom və spontan meyl kimi meydana çıxır. Bu meylin üç ən ümumi qanun-auyğunluğunu aşkarlamaq olar:

1. Eyni daxili həcmə və eyni sürəkliliyə malik iki müxtəlif mövcud-luq ola bilməz.
2. Hər bir varlıq daxili həcmini və sürəkliliyini əbədiyyətə qədər saxlamağa meyl edir.
3. Mövcudluğun özünü qoruması başqalarının belə cəhdlərinə əkslik təşkil edir. Yəni cisim ya özünü başqa mövcudluğun təsirindən qorumaqla, ya da onu təhdid edən belə mövcudluq aktına son verməklə mövcud ola bilər.

- **b) Təmas zonası (Reallıq zonası):** Gerçəkliyi başqa gerçəkliklə və ya ətraf fonla ayıran sərhədlərinə ümumi xassələri haqqında məlu-matın ötürüldüyü zona. Bu zonadakı məlumatlar gerçəkliyin reallığı haqqında - onun forması haqqında məlumatlardan ibarətdir. Bu zonada gerçəkliyin xüsusi sadə həqiqəti aşkarlanır. Sadə həqiqət - hər hansı bir varlıq sırasının ayrıca bir növünə aid olan həqiqətdir. Cismin öz sərhədlərinə göndərdiyi şüaların yayıldığı zona öz-özlüyündə differen-siasiyaya məruz qalmır.

- **c) Gerçəkləşmə zonası:** Bu zona hər hansı bir gerçəkliyin ak-tuallaşdığı zonadır və onun aktuallaşması bu zonadakı təsirlərlə şərtlənmişdir. Cismin öz sərhədlərindən kənara göndərdiyi şüaların yayıldığı zona (cismin fiziki sərhədindən xaricdəki zona) uzaqlıqla bilavasitə bağlıdır və uzaqlığa görə özü-özündə məsafələrə bölünür. Bu zonaya göndərilən şüalar mürəkkəbdir və özlərində gerçəkliyin xüsusi həqiqəti haqqında məlumatı və ya informasiya kodunu daşıyırlar. Gerçəkliyin aktuallığı - özündə aydınlaşan həqiqət haqqında məlumat siqnallarını özündən xaricə hansı məsafəyədək göndərməsi ilə

müəyyənləşir. Bu zona nisbi həqiqətin aşkarlandığı zonadır. Nisbi həqiqət - varlıqların müxtəlif sıraları üçün ümumi və universal olan məlumatlardır.

- **d) Neytral zona (Varlıq zonası):** Hər bir gerçəklikdən ən uzaq olan bu zonaya özündə aydınlaşan həqiqət haqqında ən ümumi, həm də ən sadə məlumat kodu daşıyan şüalar göndərilir. Bu şüa öz təbiətinə görə universal olduğundan, digər gerçəkliklərdən göndərilən şüa ilə qarışıb ümumi şüa sahəsini yaradırlar. Mütləq nisbi həqiqət məhz belə ən uzaq və ən universal şüalanma zonasında aşkarlana bilər. Bu zonada mövcudluqların sərhədləri yuyulur və bütün mövcudluqlar yenidən Varlığı təşkil edir. Beləliklə, mövcudluq öz sərhədlərini dəf etməklə Varlığa çevrilir, yəni metafizikaya keçir. Forma özü sərhəd olduğundan xalis forma, yəni mövcudluğun özü-üçün-varlıq təyini Varlığa daxil olmur. Mütləq nisbi həqiqət - bütün mümkünlüklər üçün ən ümumi və ən universal olan məlumatdır.

Təzahür - bir gerçəkliyin başqalarına təsiridir. Hər hansı bir təsiri olmamaq aktuallaşmamağı özündə təqdim edir. Təsir göstərən gerçəkliyi **orqanizator**, ona cavab verəni isə **operator** adlandırmaq olar. Orqanizator təsiri hazırlayır, sistemləşdirir, strukturlaşdırır və operatora göndərir. Operator isə öz növbəsində təsiri qəbul edir, ona müvafiq cavab hazırlayır, geri göndərir. Eyni bir gerçəklik eyni vaxtda sonsuz sayda ümumi təsirlərə, həm də bunlardan fərqli olaraq xüsusi təsirlərə - seçici təsirlərə məruz qalır. Ümumi təsir sadə sistemlərdə konkret istiqamətsiz və ünvansız göndərilən təsirlərdir. Cisim dünyasında məhz ümumi təsirlər xarakterikdir. Xüsusi təsir mürəkkəb sistemlərdə konkret ünvana və konkret istiqamətə göndərilən təsirlərdən ibarətdir. Seçici təsirə nümunə kimi mürəkkəb tərkibli qarışığın yandırılmasını göstərmək olar. Mürəkkəb tərkib yandırılarkən tərkibi təşkil edən bəzi elementlər yanıb tərkibdən çıxır, bəziləri tərkibini, bəziləri formasını dəyişir, bəziləri isə heç bir dəyişikliyə məruz qalmır.

Gerçəkliklərin öz sərhədlərindən xaricə şüalandırdığı məlumatlar müxtəlif mühitlərdən keçir və bu zaman həqiqətin aydınlaşması haqqında məlumatları daşıyan siqnallar mühitin təsirinə məruz qalır. Hər bir mühit həqiqətin aydınlaşmasının şüalanmasına müxtəlif intensivlikdə təsir edir. Həqiqətin təzahürünə təsir etməyən mühit yoxdur. Təzahür mühitdən keçərkən ikincili olaraq mühitə təsir edir və mühit də əks təsirlə ona cavab verir. Mühitin ondan keçən istənilən təsirə əks təsiri iki formada baş verir: təsirin deformasiyası və seçilməsi.

Eyni bir gerçəklikdən şüalanan məlumatlar sürətinə, tərkibinə, yayılma məsafəsinə görə müxtəlifdir. Bu müxtəliflik gerçəkliyin müxtəlifliyini müəyyən edir. Həqiqətin təfəkkürdə aşkarlanması da məhz belə müxtəliflik əsasında baş verir. Təfəkkür qənaət prinsipi ilə həqiqəti aşkarlayır. Belə ki, eyniyyət təşkil edən iki gerçəkliyin hər birini ayrı-ayrılıqda təfəkkürdə müstəqil aşkarlanmır. Təfəkkür eyniliklərin çoxluğunda yalnız onlardan birini idraka cəlb edir. Əldə etdiyi həqiqəti avtomatik olaraq digərlərinə şamil edir. Yalnız müxtəliflikər ayrı-ayrılıqda idraka cəlb olunur. Beləliklə, eyni idraki nəticəyə səbəb olanlar eynilik, müxtəlif idraki nəticəyə səbəb olanlar müxtəlifliyi təqdim edir.

Həqiqətin özünü idrak tərəfindən aşkarlanması üçün mümkün olan vəziyyətdə təzahürü həqiqətin aydınlaşmasını təqdim edir. Aydınlaşmanın təfəkkürə münasibətinə görə iki cür aydınlaşma müəyyən etmək olar. Xarici aydınlaşma (Gerçəklikdə aydınlaşma): Təfəkkürə münasibətinə görə xarici aydınlaşma gerçəklik aktının əlamətləri ilə vasitəli aydınlaşmadır. Belə aydınlaşma bir tərəfdən varlığın gerçəklik aktı ilə, digər tərəfdən hiss üzvlərinin imkanları ilə məhdudlaşmışdır. Beləliklə, gerçəklik aktından çıxmayan və hiss analizatorları tərəfindən qəbul edilməsi mümkün olmayan, şüalanmaya malik olmayan həqiqət təcrübə sahəsində şüur tərəfindən dərk edilməzdir.

HƏQİQƏTİN TƏFƏKKÜRDƏ REFLEKSİYASI - AŞKAR-LANMA

Həqiqətin idrak prosesində təfəkkürdə refleksiyasının təzahürü **aşkarlanma** kimi meydana çıxır. Biz aşkarlanmanı konkret aydınlaşmanın mücərrəd aydınlaşmaya keçməsi kimi təyin edirik. Əgər aydınlaşma həqiqətlə obyektin uzlaşmasını özündə təqdim edirsə, aşkarlanma həqiqətlə təfəkkürün uzlaşmasını özündə təqdim edir.

Həqiqətin fəlsəfi tərifindən görünür ki, fəlsəfədə həqiqət - gerçəkliyin (real mövcud olub inkişaf edən, özündə xüsusi mahiyyət və qanunauyğunluq olan, həmçinin xüsusi təsir və inkişaf nəticələrinə malik şey) fikirdə, meyarı praktika olan, doğru, düzgün inikası kimi müəyyənləşib. Buradan da belə nəticə çıxır ki, həqiqiliyin xarakteristikası şeylərin özünə və onların dillə ifadə etməyin vasitələrinə deyil, məhz fikrə aiddir. Bu təyin özündə nəyi ifadə edir? Əgər həqiqətin xarakteristikası "şeylərin özünə aid deyilsə", onda "gerçəkliyin fikirdə doğru-düzgün inikası"nın meyarının fikirdən kənarda (praktikada) olması nə deməkdir? Və bu ölçü nədən təzahür edir? Halbuki, gerçəklik anlayışı məhz "fikirdə inikas edən şey"i özündə ifadə edir.

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Təcrübi olaraq insan təbiətə onda münasibətdə olur ki, o təbiətə hansısa bilavasitə və xarici olan kimi baxsın, həm də o özü bilavasitə və xarici olan kimi çıxış etsin; beləliklə hissli fərd - hansı ki, ancaq hətta bu keyfiyyətdə - tam hüquqla təbiətin predmetlərinə münasibətdə özünü onların məqsədi kimi aparır."*

Hegelin bu fikrindəki digər məqamları şərh etmədən yalnız bir məqama - hissi fərdin (dərk edən subyektin) "təbiətin predmetlərinə münasibətdə özünü onların məqsədi kimi aparması" fikrinə şərh vermək lazım gəlir. İnsan nə üçün özünü təbiətin predmetlərinin məqsədi kimi aparır? Məqsəd çatılmasına cəhd olunandır. Onda, insan özünü elə aparır və ya aparmalıdır ki, təbiətin predmetləri ona çatsın. Təbiətin

predmetlərinin ümumiyyətlə məqsədi ola bilərmi? Əgər təbiətin məqsədi vardırsa, nə üçün o şeyin özündən kənarda - hissi fərddədir? Yox əgər təbiətin məqsədi yoxdursa, onda insanın özünü təbiətin məqsədi kimi aparması özündə nəyi ifadə edir? Məqsəd şüurun xarakteristikalarından biri kimi fəlsəfədə "nəticənin şüurda qabaqcadan duyulması, onun əldə edilməsinə müəyyən fəaliyyətin yönəldilməsi" kimi şərh edilir. Əgər insan özünü təbiətin predmetlərinin məqsədi kimi aparırsa, onda təbiətin predmetləri şüura, duyuma, fəaliyyətə və istiqamətlənməyə malik olmalıdır və ya ən azından insan təhtəlşüurda onu belə qəbul etməlidir. Əlbəttə ki, təbiətin heç bir predmeti (insan istisna olmaqla) bu keyfiyyətlərin hamısına birlikdə malik deyildir. Bəs Hegelin deyimi onda özündə nəyi ifadə edir?

Təbiətin predmetlərinin "şüurluluğu" onların özlərində aydınlaşdırdığı həqiqətdir; hansı ki, sabit və dəyişməz olaraq həmin predmetlərdən fasiləsiz olaraq ətrafa şüalanır. Halbuki, insani şüurluluğa sürəklilik və dəyişkənlik xarakterikdir. Təbiətin predmetlərinin əsasını təşkil edən cisim zamanla bir momentli, bir məqamlı şərtləndiyindən onlarda zaman bölgüsü (əvvəl, indi, axır) yoxdur. Yəni cismin öz "şüurunda" duyduğu yeganə bir başlanğıc və eyni zamanda son nəticə vardır ki, bu da onun öz mövcudluq faktıdır. Hansı ki, Aristotel təbiətin predmetlərinin məqsədi kimi yalnız özünüsaxlamaya (mövcudluq aktına) cəhd etmənin məqsədəyönlü fəaliyyət kimi şərh etmişdir. Və bu cəhd ən ümumi cəhd olduğundan heç bir xüsusidən aşkarlanmır, yalnız abstrakt olaraq xüsusidən əldə edilir; hansı ki, onların məqsədi kimi qəbul etmək olar. Cisim bu nəticəni yaranış anında mövcudluq faktı kimi əldə edir və mövcudluq aktını (insani məqsəddən fərqli olaraq) əldə etmir, sadəcə, həmin nəticəni daha çox əbədiyyət istiqamətində əldə saxlamağa cəhd edir. Bunun nəticəsində cisimlərdə mövcudluğu əbədiyyətə qədər davam etdirmək cəhdi - məqsəd kimi meydana çıxır. Cismin öz mövcudluq aktını saxlamağa istiqamətlənmiş "fəaliyyəti" onun başqa varlıqlara

göstərdiyi təsirlərdir ki, bu təsirlər müxtəlif varlıqlara müxtəlif formada təsir göstərir; bu da öz növbəsində cismin "fəaliyyətinin istiqamətlənməsi" kimi meydana çıxır.

Təbiətin predmetlərində "fəaliyyətin istiqamətlənməsi" də yaranışdan yaranma təzahürdür. Belə təzahür anadangəlmə və qazanılma keyfiyyətlərdən onunla fərqlənir ki, sonuncular yalnız əmələgəlmə prosesində əldə edilir. Yaranışdan yaranma təzahürlər üç cürdür:

- **a) Fiziki təsirlər:** Belə təsirlər yalnız fiziki varlıqlara - cisimlərə təsir edir (onlara "istiqamətlənir") və onlarda əks təsir yaradır.
- **b) Hissi təsirlər:** Belə təsirlər yalnız hissi varlıqlara, canlılara "istiqamətlənir". Heç bir cisim başqa cismin hissi təsirlərinə əks təsir göstərmir. Məsələn, kükürdün iyi başqa cisimlərdə əks təsir yaratmır.
- **c) İntellektual təsir:** Belə təsir yalnız şüurlu varlıqlara istiqamətlənir. İntellektual təsirin vasitəsi ideyadır; hansı ki, təbiətin predmetlərinin mahiyyətini təşkil edir. Yəni varlıq öz ideyasını şüura - intellektual fərdə istiqamətləndirərək onda təsir edir və şüurda həmin təsirə əks-təsir kimi şüurda formalaşmış ideya meydana çıxır ki, bu da özündə cismin təsir etdiyi ideya ilə eyniyyət təşkil edir. Beləliklə, yalnız bu mənada hissi fərd təbiətin predmetlərinə münasibətdə onların məqsədi olur; hansı ki, öz həqiqətini onda aşkarlamağa "istiqamətlənir".

Beləliklə, bizcə həqiqət inikasın hər iki tərəfinə - gerçəkliyə və fikrə aiddir. Bu cür ikili aidiyyətə görə aidiyyət olan tərəflərdən birinin olmaması şərtində həqiqət aşkarlanmır; yəni gerçəklik və fikir olmadan həqiqət aşkarlanmır. Aşkarlanma ifadəsi özündə yalnız prosesi - idrak aktının mahiyyətini - təqdim edir, mövcudluğu yox. Bəs prosesdə təzahür edən xarakteristika prosesdən əvvəl və ayrılıqda mövcud ola bilərmi? Biz kimyəvi birləşmələrdən görürük ki, ayrılıqda hansısa bir xassə təzahür etdirməyən şey (atomlar) kimyəvi reaksiyalarda xüsusi xassələr təzahür etdirirlər (bununla da atomlar kimyəvi element kimi çıxış edirlər). Amma

bu təzahürlər qabaqcadan şeydə potensiya, *esse potentiae* kimi - təzahür etmədən - mövcud olur və bu mövcudluq xassənin mahiyyətlə birbaşa əlaqəsi ilə təyin olunur. Buna görə də deyə bilərik ki, həqiqət yalnız mahiyyətli şeydədir və mahiyyəti olmayan heç nədə həqiqət yoxdur (məsələn, kölgədə olduğu kimi).

Bəs mahiyyətli şey dedikdə nə nəzərdə tuturuq? B.Spinoza mahiyyətin varlığını *esse essentiae* adlandırır.

> ***Haşiyə:*** *Benedikt Spinoza, "Metafizik fikirlərə olan əlavələr": "Mahiyyətli varlıq - yaradılan şeylərin Allahın atributlarını özündə saxlamasının məcmusudur."*

B.Spinozanın fikirlərindən mahiyyətin təbiətinə aydınlıq gətirək. Bunun üçün Spinozanın "Allahın atributları" adlandırdıqlarını müəyyənləşdirmək lazım gəlir. Allahın bizə məlum olan əsas atributları - Allahın istəməyi, yoxluqdan var etməsi (yaratması) və Özünü yaratdıqlarında refleksiya etməsidir. Buradan da mahiyyəti şeyin daxili istəyi və şeyi əmələ gətirən - onu yaradan və başqa şeylərdə refleksiya edən kimi təyin edə bilərik. Hər bir şey mahiyyətinin istədiyi qədər reallığa çevrilir, onu öz mahiyyəti aktuallaşdırır və hər bir şey başqa şeydə refleksiya etdiyi qədər gerçəkləşir. Yəni mahiyyət - şeyi reallığa çevirən, onu aktuallaşdıran və gerçəkləşdirən daxili potensiyadır. Mahiyyət fikirdə ideya ilə ifadə olunmaqlığı - gerçəklikdəki həqiqətin təfəkkürdəki surətinin (əksinin) çıxarılmasının mümkünlüyünü, inikas imkanını özündə ifadə edir. Məhz mahiyyətin mövcudluğu artıq həqiqətin fikirdə inikası ilə bağlı olduğundan, həqiqətin aşkarlanmasının digər tərəfi bilavasitə fikirlə bağlıdır. Yəni fikir olmadan inikas öz-özünə baş vermir. Beləliklə, biz həqiqətin aşkarlanmasını şeyin güzgüdə əks olunmasına bənzədə bilərik. Şeysiz güzgü heç nəyi əks etdirmir, güzgüsüz də heç nə öz-özünə əks olunmur. Lakin bununla da həqiqətə tam məna vermək mümkün deyildir. Belə ki "gerçəkliyin fikirdə inikası" özlüyündə şərti bildirir. Amma bu, həqiqətin gerçəklikdə fikirdən, fikirdə

də öz növbəsində gerçəklikdən ayrılıqda mövcud ola bilməsini inkar etmir.

Beləliklə, həqiqət gerçəkliyin və fikrin ortaq xarakteristikası kimi təyin oluna bilər. Yəni həqiqət həm şeydə, həm də fikirdə mövcud olan mahiyyətlilikdir. Biz bunu şərti olaraq **"Kosmik Ağıl"** və ya **Ümumi Ruh** kimi ifadə edirik. Yəni həqiqət - gerçəklikdə və təfəkkürdə müxtəlif formalarda mövcud olan və bir-biri ilə əkslik təşkil edən (və buna görə də biri digərində inikas edən) Kosmik Ağıldır; təzahür formasına görə birincisi konkret, ikincisi abstraktdır; biri xüsusi, digəri ümumidir; biri tək, digəri cəmdir və s. Biz gerçəkliyin fikrimizdə inikasını bilgi kimi aşkarlayırıq, amma gerçəkliyin bizim ruhumuzu özündə aşkarlayıb-aşkarlamadığını bilavasitə bilə bilmərik. Məhz bu sonuncu təfəkkürdə inikasın meyarının praktikada yox, məhz gerçəklikdə olmasından ibarətdir. Yəni gerçəkliyin doğru-düzgün inikasının meyarı yalnız bizim ruhumuzun gerçəklikdə doğru-düzgün inikasından ibarətdir. Beləliklə, həqiqət subyektlə obyektin konkret təcrübədə qarşılıqlı inikası ilə aşkarlanan Kosmik Ağlın və ya Ümumi Ruhun ölçüsüdür.

İnsan dünyanı dərk etdikcə dünyanın sərhədləri genişlənir. Dünyanın son sərhədi ən ümumi həqiqətin sərhədləri ilə üst-üstə düşdüyündən, insan dünyanın sərhədlərinə çatmaq üçün mütləq nisbi həqiqəti aşkarlamaq istiqamətində cəhd edir.

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Düşüncə şeylərin həqiqi təbiətini o ölçüdə aşkarlayır ki, bu düşüncə mənim fəaliyyətimdir; belə ki, həqiqi təbiət bununla birlikdə mənim ruhumun məhsuludur, məhz bu ruhun düşünən subyekt kimi törəməsidir; o mənim məhsulumdur, mənim sadə ümumiliyim sadəcə özündə mövcud "mən" kimi və ya başqa sözlə, mənim azadlığımın törəməsidir."*

Hegelin bu fikrindəki "həqiqi təbiət mənim ruhumun məhsuludur" ifadəsi obrazlı ifadədir, ona görə də bu obrazlı deyimin özündə nəyi ifadə etdiyini şərh etmək lazım gəlir.

1. **"Həqiqi təbiət":** Birincisi, həqiqi təbiət dedikdə insanın həqiqətini idrak etdiyi təbiətin hissəsini nəzərdə tutmalıyıq. Yəni insan üçün təbiət o qədər həqiqidir ki, bir o qədər onun həqiqətini idrak etmişdir. Buradan da, təbiətin həqiqiləşməsi həqiqətin idrakının nisbiliyi şərtində nisbi olaraq qalır. Beləliklə, insan mütləq həqiqi təbiətin mövcudluğunu dərk etməmiş qalır. İkincisi, həqiqi təbiət o təbiətdir ki, bilavasitə təcrübədə obyekt-subyekt əlaqəsində idrak olunur. İnsanın təcrübədən kənar idrak etdiyi təbiət - metafizika - həqiqi təbiət hesab oluna bilməz.
2. **"Ruhumun məhsuludur":** Birincisi, Ruh abstrakt mövcudluq olduğundan, onun konkret məhsulu ola bilməz; buna görə də təbiət yalnız abstraksiya olunmuş formasında Ruhun məhsulu ola bilər. Yəni idrak prosesində təbiətin təcrübədə, təfəkkürdə obraz və təsəvvürlər kimi refleksiya etməsi təbiəti Ruhun məhsuluna çevirir. Başqa sözlə, təbiətin obrazlarının Ruhda refleksiyası ilə yaranan abstrakt obrazlar Ruhun məhsuludur və insan təbiətlə əlaqəsini məhz bu obraz və təsəvvürlər əsasında qurduğundan, təbiət məhz Ruhun abstrakt məhsulu kimi çıxış edir. Mütləq təbiət - özü-özündə mövcuddur və onun mövcudluğu buna görə mənim Ruhumun məhsulu ola bilməz. Mütləq nisbi həqiqət sonsuzluq xarakteristikasına malik olduğundan, insanı əhatə edən aləm də "sərhədsiz və sonsuz" olaraq qalır. Beləliklə, dünyanın ölçüləri özündə dərk edən Ruhun ölçülərini refleksiya etdiyindən, deyə bilərik ki, fəlsəfə bütün varlığın sərhədləri daxilində onu dərk etməyə istiqamətlənmiş Ruhun cəhdidir.

Həqiqətin aşkarlanmasının iki formasını ayırd etmək olar. Birincisi, faktın həqiqətinin təfəkkürdə refleksiyası ilə aşkarlanma; belə aşkarlanma təbiət haqqında bilgilərdən ibarətdir. İkincisi, ağlın özü-özündə aydınlaşan həqiqətinin aşkarlanması. Belə aşkarlanan bilik xalis

metafizik bilgiləri özündə təqdim edir. Təbiət bilgiləri metafizik bilgilərdən nisbiliyinə görə fərqlənir. Yəni təbiət bilgiləri şərti, metafizik bilgilər xalis bilgilərdir.

İnsanın yer həyatının ilahi missiyası mütləq nisbi həqiqətə - xarici varlığın totallığına çatmaq olduğundan, həqiqətə çatmağın yeganə tək bir üsulu dərketmə olduğundan, insanı digər canlılardan yalnız dərketmə qabiliyyətinə görə fərqləndirmək olar. Beləliklə şüurlu insan - dərk edə-edə yaşayan, yaşaya-yaşaya dərk edən varlıq kimi mövcuddur. Dərk etmək - insanın mövcudluğu ilə birbaşa və ya dolayı yolla əlaqəsi olan (indifferent olmayan) hər şeyin mahiyyətini, onların ifadə etdiyi həqiqəti aşkarlaması, anlaması deməkdir. İnsan həqiqəti aşağıdakı səbəblərə görə aşkarlamağa cəhd edir:

- **a) Cari fərdi həyatın tələbatlarını və ehtiyaclarını ödəmək:** Buradan həyat təcrübəsi meydana çıxır.
- **b) Perspektiv ictimai tələbatlarını ödəmək, həyat sferasını və təcrübəni genişləndirmək:** Buradan yaşam təcrübəsi meydana çıxır.
- **c) Mənəvi tələbatlarını ödəmək:** Özünün, həyatın və dünyanın mahiyyətinə - həqiqətə varmaq üçün bilik toplamaq, heç bir fayda güdmədən özünün gerçəklikdə yerini və missiyasını müəyyənləşdirmək. Buradan ruhi və ya tarixi təcrübə yaranır. Metafizikanın vəzifəsi ruhi təcrübə sahəsində aydınlaşan həqiqəti aşkarlamaqdan ibarətdir.

Bəs həqiqət necə aşkarlanır və onun aşkarlanması nə üçün insandan ötəri zəruridir? Həqiqətin aşkarlanması - onun aydınlaşmasının təfəkkürdə inikasıdır. Həqiqətin aydınlaşması "aşkarlanmaq vəziyyətinə" çatdıqda "təfəkkür" onu aşkarlamaya bilmir. Beləliklə, həqiqətin aşkarlanması həqiqətin aydınlaşması ilə funksional asılılıqdadır. Bu asılılıqda həqiqətin aydınlaşması müəyyənedici, onun təfəkkürdə aydınlaşması müəyyənedilən olduğundan, insan yalnız ona aydınlaşan qədər həqiqəti aşkarlaya bilər. Həqiqət yalnız aşkarlanmaq üçün

aydınlaşmadığından və bütün həqiqətlər insana toxunmadığından, təfəkkür heç vaxt mütləq aydınlaşan bütün həqiqətləri mütləq şəkildə aşkarlaya bilməz. Beləliklə, insan təfəkkürə ünvanlanmış həqiqəti insan təfəkkürünün səviyyəsindən asılı dəqiqlikdə və insana aid aydınlıqda olan qədər aşkarlaya bilir. Mütləq həqiqətin mütləq aşkarlanmasının mümkünsüzlüyü həqiqətin ümumiliyi ilə bağlıdır. Həqiqətin ümumiliyinin iki tərəfi vardır. Bir tərəfdən o, istənilən gerçəklikdən aydınlaşır, buna görə də onu müqayisə yolu ilə (tutuşdurmaqla, analitik mühakimə ilə) aşkarlamaq olmur; digər tərəfdən o bütün insanlarda - vahid insanlıqda aşkarlanır. Heç bir fərd özündə bütün insanlığı təqdim etmədiyindən mütləq həqiqəti aşkarlamaq fərdi şüurun imkanları xaricindədir. Buradan da həqiqətin aşkarlanması ictimai forma alır. Həqiqətin ictimai formada aşkarlanması üç səbəblə bağlıdır:

1. Həqiqət vasitəli aydınlaşdığından, vasitələr parsial (hissəvi) olduğundan, buna görə də idrak prosesinə cəlb edilən hər bir gerçəklik özündə yalnız hissəvi həqiqəti aydınlaşdırır. Buradan hissəvi nisbi həqiqət meydana çıxır.
2. Fərd orijinal olduğundan onun təfəkkürü yalnız orijinal qaydada həqiqəti aşkarlamaq gücündədir. Buradan orijinal həqiqət meydana çıxır.
3. Həqiqətin aşkarlanmasının zaman-məkan şərtlənməsi fərdi mövcudluğun zaman-məkan şərtlənməsindən fərqləndiyindən, heç bir fərd təklikdə öz ağlı ilə hər yerdə və hər zaman təzahür edən mütləq həqiqəti aşkarlaya bilmir. Buradan ümumi həqiqət meydana çıxır.

Məkan-zaman şərtlənməsinin fərqliliyindən iki hal meydana çıxır: a) Fərd məkanla mütləq və konkret şərtləndiyindən məkanda nisbi və abstrakt aydınlaşan həqiqəti fərdi qaydada aşkarlaması mümkün deyil; b) Mütləq həqiqət əbədi, insan müvəqqəti varlıq olduğundan, fərd zamanla aydınlaşan həqiqəti vaxtla aşkarlaya bilmir. Buradan həqiqətin tarixilik keyfiyyəti meydana çıxır. Tarixi həqiqəti yaşamış, yaşayan və yaşayacaq

insanların birgə iştirakı ilə aşkarlamaq mümkün olduğundan idrak prosesi tarixi və ictimai keyfiyyət əldə edir. Beləliklə demək olar ki, həqiqətin aydınlaşmasının aşkarlanması tarixi-ictimai prosesdir. Fəlsəfi şüur tarixi-ictimai idrakın təzahür formasıdır.

Mütləq nisbi aydınlaşan həqiqətin mütləq aşkarlanmamasının da bir çox səbəbləri vardır:

1. Həqiqətin aydınlaşmasının yalnız müəyyən hissəsi təfəkkürdə aşkarlanma keyfiyyətinə malikdir. Başqa sözlə, həqiqətin aydınlaşmasının elə məqamları vardır ki, heç vaxt, heç yerdə və heç bir şərtlə təfəkkür tərəfindən aşkarlana bilməz. Belə həqiqətlərə eyni zamanda hər yerdə aydınlaşan həqiqət, heç zaman heç yerdə aydınlaşmayan həqiqət, ayrılıqda yalnız məkanda və ya yalnız zamanda aydınlaşan həqiqətlər aiddir. Beləliklə, mütləq həqiqət insan ağlının aşkarlamasına tam hesablanmadığından onun təfəkkürdə aydınlaşması mümkün deyildir.
2. İnsanlar yalnız özlərindən əvvəllər - keçmişdə yaşamış insanların aşkarladığı həqiqətlər haqqında məlumat əldə edə bilirlər. Gələcəkdə yaşayacaq insanların aşkarlayacağı həqiqətlər haqqında isə məlumat əldə etmələri qeyri-mümkündür. Buna görə də, əvvəlki dövrlərdə yaşamış insanların idrak qanunauyğunluqlarını bilməklə onların aşkarladığı həqiqəti dəqiqləşdirmək olar. Amma gələcəkdə yaşayacaq insanların təfəkkür imkanları məlum olmadığından, onların aşkarlayacağı həqiqətləri dəqiqləşdirmək olmur. Buna görə də bütün dövrlərdə bütün insanların əldə etdiyi həqiqət yarımçıq və nisbi olaraq qalır.

İdrak prosesində mütləq həqiqət istiqamətində hərəkət özündə həm də anlayışların dəqiqləşdirilməsi istiqamətindədir. Varlıq Allahın iradəsini özündə ifadə etdiyindən Varlığı dəqiqləşdirmək - ondakı nisbiliyi dəf etmək mümkün deyildir. Anlayışın nisbiliyinə görə eyni bir mövcudluq müxtəlif dillərdə və ya müxtəlif tarixi dövrlərdə müxtəlif anlayışlarla ifadə olunur.

Yuxarıda qeyd etdik ki, Refleksiyaedən heç vaxt Refleksiyaolunanı olduğu kimi özündə refleksiya etmir. Bunun əksi olsaydı, onda Refleksiyaedən Refleksiyaolunana çevrilərdi ki, bu da özü-özünü refleksiya olardı; hansı ki, yalnız İlahi Təbiətə xasdır. Refleksiyaedənin Refleksiyaolunanı olduğu kimi özündə refleksiya etməməsi həqiqətin nisbiliyi kimi təzahür edir. Həqiqətin nisbiliyi refleksiyanın səviyyəsindən asılı olaraq aşağıdakı səviyyələrdə meydana çıxır:

- **a)** Mütləq həqiqətin İlahi Təbiəti özündə nisbi refleksiya etməsi - buradan Allah haqqında həqiqətin idrak olunmazlığı meydana çıxır.
- **b)** Varlığın mütləq həqiqəti özündə nisbi refleksiya etməsi - buradan mütləq nisbi həqiqət meydana çıxır; hansı ki, mütləq həqiqətin idrakını özündə dəf edir.
- **c)** Nisbi mütləq həqiqətin varlıqdan nisbi olaraq təzahür etməsi - buradan mövcudluqlar meydana çıxır.
- **d)** Mövcudluqların təzahürlərinin orqanizmə nisbi təsir etməsi - buradan təcrübə meydana çıxır.
- **e)** Orqanizmin xarici qıcıqları nisbi şəkildə impulsa çevirməsi - buradan hissiyyatın nisbiliyi meydana çıxır.
- **f)** İmpulsların nisbi olaraq təfəkkürdə qavrayış yaratması - buradan qavrayışın nisbiliyi meydana çıxır.
- **g)** Qavrayışların nisbi olaraq varlığın obrazını özündə abstraksiya etməsi - burada həqiqətin aşkarlanmasının ümumi nisbiliyi meydana çıxır.

Bu səviyyələrdən birinci 4-ü həqiqətin aydınlaşmasında, digər 3-ü isə həqiqətin aşkarlanmasında meydana çıxan nisbilikdir. Həqiqətin aşkarlanması mərhələli prosesdir və hər bir mərhələ özünəxas xarakteristikaya malikdir.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

> *"Subyektin predikata (yalnız təsdiqedici mühakimə nəzərdə tutulur, belə ki, onun arxasınca inkaredici mühakiməyə deyilənləri tətbiq etmək çətin deyil) münasibətində düşünülən bütün*

mühakimələrdə bu münasibət iki cür ola bilər. Ya B-nin predikatı A subyektinə məxsusdur (hansı ki, bu A-nın anlayışını özündə saxlayır [gizli şəkildə]), və ya B tamamilə A-nın anlayışından kənardadır, baxmayaraq ki, onunla bağlıdır. Birinci halı mən analitik mühakimə, ikincini sintetik adlandırıram."

Kantın fikirlərindən göründüyü kimi, həqiqətin aşkarlanmasında mühakimə birincili və ikincili olmaqla iki növ müddəalardan istifadə edir.

1. Birincili aşkarlanma və ya başlanğıc aşkarlanma: Başlanğıc aşkarlanma həqiqət haqqında ən sadə, ən ilkin məlumatların aşkarlanmasından ibarətdir. Başqa sözlə, ilkin aşkarlanma təcrübəyə daxil olan anda baş verən aşkarlanmadır. Hansı ki, bu ana qədər mövcudluq Varlığa daxil olaraq təfəkkürdə yoxluq kimi refleksiya etmişdir. Təfəkkürdə bütün yoxluqların hamısı - təcrübəyə daxil olmayan sonsuz sayda mövcudluqların hamısı, yəni Varlıq - bir tamı, Varlığın əksliyi kimi vahid Heçnəni təşkil edirlər. Beləliklə, Varlıqdan mövcudluğun ayrılmasına paralel, təfəkkürdə Heçnədən konkret Nənin ayrılması baş verir ki, bu ayrılma başlanğıc aşkarlanmanı özündə təqdim edir. Birincili aşkarlanma öz növbəsində üç cürdür:

- **a) Təcrübə sahəsinə yeni daxil olmuş həqiqətin aydınlaşmasının aşkarlanması.** Məsələn, astronomiyada yeni yaranmış ulduz sistemlərinin kəşf edilməsi kimi.
- **b) Təcrübə sahəsində əvvəllər mövcud olmuş, amma ilk dəfə təfəkkürdə refleksiya etmiş həqiqətin aydınlaşmasının aşkarlanması** və ya hissəvi aşkarlanmış aydınlaşmanın tam aşkarlanması. Məsələn, farmakologiyada uzun müddət istifadə edilmiş dərmanların yeni təsirlərinin müəyyən edilməsi kimi.
- **c) İlk dəfə təcrübə sahəsində həqiqətin aydınlaşmasının aşkarlanması.** Başqa sözlə, təcrübə sahəsinə ilk dəfə daxil olan təfəkkürün həqiqəti aşkarlaması. Məsələn, uşaqların obyektiv

gerçəkliyi dərki bu cür birincili aşkarlama kimi baş verir. Buradan da uşaq fəlsəfəsi meydana çıxır.

Birincili aşkarlanma sintetik mühakimə ilə mümkün olur və belə aşkarlanmada **kanonik bilgi** əldə edilir. Kanonik bilgi metafizik bilgi olub, dərk edilənə ağıllılıq keyfiyyəti verilməsi ilə xarakterikdir. Başqa sözlə, belə bilgi qiymətləndirmə üçün kanon rolu oynayır. Kanonik keyfiyyət özündə vəhdəti ifadə etmir.

2. İkincili aşkarlanma və ya cari aşkarlanma: Təcrübə sahəsində əvvəllər aşkarlanmış bir həqiqətə görə digər bir yeni halın aşkarlanması. Belə aşkarlanma da öz-özlüyündə üç cürdür:

- **a) Birincili aşkarlanmış həqiqətlə oxşarlıq təşkil edən həqiqətin aşkarlanması:** Məsələn: analitik kimyada bir qrupa xas əlamətlərin həmin qrupdan olan yeni kəşf edilmiş elementə olduğu kimi müncər edilməsi. Bu yolla hətta aktuallaşmamış və ya naməlum obyektlər haqqında əvvəlcədən məlumat əldə etmək mümkündür. Məsələn, Mendeleyev cədvəlinin bir çox elementləri, o cümlədən süni radioaktiv elementlərin xassələri haqqında məlumatlar həmin elementlər kəşf edilməmişdən əvvəl aşkarlanmışdı. Belə aşkarlanma analitik mühakimələrlə mümkün olur.
- **b) Birincili həqiqətlə əkslik təşkil edən həqiqətin aşkarlanması:** Bir mövcudluqdan aşkarlanmış həqiqətin əksliyi ilə başqa mövcudluğun aşkarlanması. Məsələn, biz Varlığın əksliyindən Ruhu, Ruhun əksliyindən isə Varlığı dərk edə bilərik.
- **c) Təfəkkürdə abstrakt şəkildə təcrübədənkənar aprior həqiqətlərin aşkar edilməsi:** Belə bilgi **orqanik bilgi** olub, dialektik idrakla əldə edilir. Yəni bir fikirdən başqa fikir yaranır. Nəzəriyyələr bu qəbildən olan bilgiləri əhatə edir.

HİSSİYYATLAR

Hissiyyat aydınlaşan həqiqətin təfəkkürdə aşkarlanmasının vasitəsidir. Həqiqətin təfəkkürdə refleksiyası hissiyyatlar vasitəsi ilə reallaşır. Hissiyyatlar özü-özündə iki cürdür:

a) Dalğa funksiyasından yaranan hissiyyatlar: Belə hissiyyatlar dalğa kimi mövcud olan işıq və səsdən yaranır. Xalis dalğa funksiyasına malik olduğundan qeyri-maddidirlər və daha çox metafizik təbiətlidirlər.

İşıqlanma - həqiqətin gerçəklikdən ən uzaqdan aydınlaşmasının təzahürüdür. İki cür işıqlanma aid etmək olar:

1. **Mütləq işıqlanma:** Özü-özünə işıqlanan, yalnız tangensial enerjidən ibarət olan və bu enerjini sərf etməklə işıqlanan mövcudluqların işıqlanması. Belə işıqlanma sadədir, ümumidir, bircinslidir. Məsələn, Günəş. Günəş özü-özünə işıqlanan mövcudluqdur.
2. **Nisbi işıqlanma:** Başqa mövcudluqdan çıxan işığı əks etdirməklə işıqlanma (radial enerjisini sərf etməklə işıqlanma). Belə işıqlanma mürəkkəbdir, xüsusidir, çoxcinslidir, nisbidir. Nisbi işıqlanma nəticəsində rənglər meydana çıxır.

Özünün dərin qatlarında işıqlanma aydınlaşma ilə aşkarlanmanın şəkildəyişməsidir. Bu mənada çox vaxt bu terminlər digər hadisələri də ifadə etmək üçün yetərlidir.

> ***Haşiyə:*** *C.Tart: "İşıqlanma - gözlə real əşyanı qarışdırmamaq yollarından biridir. İşıqlanma - vəziyyətin fasiləsiz, ardıcıl inkişafıdır."*

Beləliklə, C.Tartın fikirlərindən də göründüyü kimi, işıqlanma gerçəkliyin təcrübədə sürəkliliyini özündə təqdim edir.

Səslənmə - işıqdan fərqli olaraq, səslənmə varlıqətrafı zonaya göndərilən siqnallardandır. Hər bir gerçəklik özünəxas səs çıxarır. Kosmik aləmdə səssiz heç bir mövcudluq yoxdur. Səs varlığın əsas təzahürlərindəndir. Səslənmə iki cürdür:

1. **Özü-özünə səslənmə (Daxili səslənmə):** Özü-özünə səslənmə sadədir, cismin daxili quruluşu ilə bağlıdır, adi qulaqla eşidilmir. Belə səslənmə cismi təşkil edən hissələrin qarşılıqlı əlaqəsi ilə - radial enerji

ilə - şərtlənib. Bu əlaqələr dəyişdikcə səslənmə də dəyişir. Belə səslənmə forma və hərəkətdən meydana çıxır. Müxtəlif formalı, eyni materialdan hazırlanmış əşyalar müxtəlif səs çıxarır.

Başqasının səsinin təsiri ilə səslənmə (Xarici səslənmə): Belə səslənmə əks-səda kimi təzahür edir. Əks-səda ya başqa cismin səsini geri qaytarmaqla, ya da başqa cisimlə bilavasitə qarşılıqlı təsirdə meydana çıxır. Qarşılıqlı təsirdən meydana çıxan səslər həmin təsirlərlə şərtlənmişdir. Hər bir təsir özünəxas orijinal səs yaradır.

b) Hissəcikdən yaranan hissiyyatlar: Belə hissiyyatlar maddi təsirdən yaranır. Bura iy, dad və taktil hiss yaradan təsirlər aiddir.

İyvermə (İylənmə) - səs kimi varlıqətrafı zonaya göndərilən siqnallardandır. İy asanlıqla hissələrə ayrılan maddələrin bir hissəsinin iy orqanlarına təsir edərək digər hissə haqqında məlumat çatdırmasıdır. İy atomların mühitdə müstəqil hərəkəti zamanı hiss üzvlərinə təsir etməsində təzahür edir. Hər bir maddə özünəxas iy hissi yaradır. İylənmənin iki forması vardır:

1. **Mütləq iylənmə:** Bəsit maddələrin atomlarının ayrılması ilə yaranan iy. Başqa sözlə, hər hansı bir iyli maddənin tangensial enerjisi ilə əlaqəli iylər. Belə iylənmədə konkret mövcudluğun aktuallaşması başa çatır.
2. **Nisbi iylənmə:** Mürəkkəb maddələrin xüsusi hallarda tərkibə ayrılması ilə əmələ gələn iylənmə. Belə iylənmə zamanı iylənmənin başa çatması mövcudluğun aktuallığına təsir etmir.

Həqiqətin aydınlaşması haqqında varlığın təmas zonasına göndərilən məlumatlar iki formada strukturlaşır:

- **Dadvermə:** Maddələrin lamisə orqanına təsir edərək təmasla insanda xüsusi dad hissi yaratması kimi təzahür edir. Dad mürəkkəb təzahürdür və özlüyündə acı, şirin, şor, turş olmaqla dörd müxtəlif növdən ibarətdir. Bundan başqa dadvermənin qarışıq formaları da mövcuddur ki, bu formalar özündə iki və daha çox müxtəlif dadın qarışığından təşkil olunurlar.

- **Taktil və ya toxunma:** Taktil siqnal gerçəkliklə ümumi bədən səthinin hər hansı bir sahəsinin təmasında yaranır və taktil siqnallar bilavasitə mühitdən keçmədən obyektdən subyektə ötürülür. Taktil hissiyyatla iki qrup siqnal ötürülür:

a) Hərarət hissi: Hər bir mövcudluğun özünəxas istilik tutumu vardır. Buna görə də digər mövcudluqlarla vəhdətdə obyektlər sürəkli olaraq enerji mübadiləsindədir. Belə mübadilənin təzahürü kimi hərarət meydana çıxır. Cisimlər hərarətə görə iki yerə bölünür:

a. **Soyuq cisimlər:** Təmas zamanı başqa varlıqlardan özünə istilik alan cisimlər.
b. **İsti cisimlər:** Təmas zamanı özündən istilik verən cisimlər. Hərarətə görə hər bir mövcudluğun özünəxas istilik tutumu vardır. Eyni istilik tutumuna malik müxtəlif mövcudluq forması yoxdur.

b) Təzyiq hissi: Obyektlər müxtəlif aqreqat halında mövcud olur. Hər bir aqreqat halı bədən səthinə müxtəlif gücdə təzyiq edir. Təzyiq hissinin qradiasiyası aqreqat hallarına uyğun iki cürdür: bərklik və yumşaqlıq.

B. DAXİLİ AYDINLAŞMA - TƏFƏKKÜRDƏ AYDINLAŞMA

Həqiqətin təfəkkürdə aydınlaşması həm də təfəkkürün öz-özünü aşkarlanması kimi təzahür edir. Belə aydınlaşma daxili aydınlaşmadır. İdrak prosesinə münasibətinə görə təfəkkürdə aydınlaşmanın da iki formasını ayırd etmək olar:

A. İdrak prosesində təfəkkürdə aydınlaşan həqiqət: Belə həqiqətlər iradəvi və şüuri proseslərdə aşkarlanır. Belə aydınlaşmanın bir çox növü vardır:

1. **Nəzəriyyə:** Təcrübədən kənar və təcrübənin ikincili olaraq təfəkkürdə idrak prosesindən aşkarlanması. Nəzəriyyə abstraksiya olunmuş təcrübədir. Sonradan onun doğruluğu təcrübəyə görə

müəyyən edilir. Beləliklə, nəzəriyyənin təcrübə ilə yoxlanılmasından elmi həqiqət əldə edilir.

2. **Ehtimal:** Təcrübənin hər hansı bir formada iştirakı olmadan idrakda həqiqətin təcrübəyə görə aşkarlanması. Ehtimal təfəkkürdə sintez edilmiş həqiqətdir. Təcrübəyə birbaşa tətbiq etməklə ehtimalı yoxlamaq mümkün deyildir.

3. **Mülahizə:** Fəlsəfi doskanın bir forması. Həqiqət haqqında idrak prosesində müəyyən bir fikrin və ya rəyin formalaşdırılması. Ehtimallardan fərqli olaraq mülahizə daha çox subyektivdir və daha çox fərdin özündən meydana çıxır.

4. **Postulat:** Həqiqətin təfəkkürdə aydınlaşmasının xüsusi aşkarlanma üsulu. Postulat mübahisəsiz qəbul edilmiş və bazis həqiqət kimi qəbul edilmiş fikirdən ibarətdir. Sonradan həqiqətin aşkarlanması həmin bazis əsasında aparılır. Beləliklə, postulatlar elmdə metafizik əsası təşkil edirlər.

B. İdrak prosesindən kənarda təfəkkürdə aydınlaşan həqiqət: Həqiqətin öz-özündə aydınlaşması - idrak prosesindən asılı olmadan həqiqətin təfəkkürdə spontan və avtonom aydınlaşması kimi meydana çıxır. Belə aydınlaşma təhtəlşüurda baş verir, təfəkkür tərəfindən qəbul edilir, amma təfəkkürlə aşkarlanmır. Həqiqətin təfəkkürdə aşkarlanmasının spontan və avtonomluğuna görə dörd formasını ayırd etmək olar:

1. **Vəhy:** Aprior həqiqət haqqında məlumatın idrak prosesindən keçmədən insan təfəkküründə spontan və avtonom qəfləti aydınlaşması. Belə aydınlaşma bir qayda olaraq peyğəmbərliyi təzahür etdirir. Belə aydınlaşmada subyekt iradəvi iştirak etmir və ona müdaxilə etmir.

2. **İlham:** Təcrübi həqiqətin hiss üzvlərindən keçmədən yaradıcı fəallığı qəflətən hərəkətə gətirən, idrak prosesindən kənarda, təcrübənin iştirakı olmadan yaranan həqiqətin təfəkkürdə spontan işıqlanması. Vəhydən fərqli olaraq, ilham avtonom işıqlanmır. Burada

yaradıcı şəxsin istedadı, qabiliyyəti, səriştəsi mühüm rol oynayır. İlhamla aydınlaşan həqiqət bir qayda olaraq vizual-görmə şüurunda baş verir. Yaradıcı gözlə həqiqət aşkarlanır və başqalarına eyni üsulla qavranılacaq şəkildə ötürülür. İlhamla alınan həqiqət sözlə ifadə edildikdə ədəbiyyat, rənglə ifadə edildikdə rəssamlıq, səslə ifadə edildikdə musiqi yaranır.

3. **Kəşf:** Təcrübi həqiqətin idrak prosesindən keçərək təfəkkürdə spontan aydınlaşması kəşf kimi təzahür edir. Kəşf məqsədyönlü axtarışın nəticəsində qəfləti öz-özünə aydınlaşmadır. Kəşf avtonomluqdan məhrumdur.

4. **Vəsvəsə:** Həqiqətin aydınlaşması haqqında məlumatın deformasiya olunmuş formada, idrak prosesindən keçmədən təfəkkürdə spontan və avtonom aydınlaşması. Bu keyfiyyətinə görə vəsvəsə vəhyin əksliyi kimi təzahür edir.

HƏQİQƏTİN VASİTƏYƏ MÜNASİBƏTİ

Həqiqət konkret vasitədən aydınlaşır və bu zaman həqiqətin düzlüyü onun vasitəyə münasibətini özündə təqdim edir. İlahi İstəklə - həqiqətlə Yaranış - gerçəklik arasındakı əlaqəni insanın planlı işindən anlamaq olar. Tutaq ki, memar bir şəhərin salınmasında iştirak edir. O, əvvəlcə şəhərin layihəsini tərtib edir, sonra həmin layihə əsasında şəhərin salınmasına başlayır. Bu zaman şəhərin ayrı-ayrı obyektlərinin tikintisi müxtəlif səbəblərdən bu və ya başqa dərəcədə layihədəkindən fərqlənir. Nəticədə, şəhər layihəni mütləq şəkildə özündə əks etdirmir, amma bu tikililərin içərisində elələri də olur ki, layihəni olduğu kimi özündə əks etdirir. Həqiqətin idrakı bunun əksinə baş verir. Yəni idrak prosesində biz artıq görünən aləmdən həqiqəti özümüz üçün aşkarlayırıq. Sonra həmin aşkarlanmış həqiqətin Mütləq İdeyadan - İlahi İstəkdən nə dərəcədə fərqləndiyini müəyyənləşdiririk.

Bertran Rassel müdrüklük haqqında yazır: "Müdrüklük bütün predmetlər üçün ümumi olan əsas formulu tapmaqdır. Biz, öz qanunlarına əməl edən şəhər kimi, buna əməl etməliyik." Rasselin fikirlərini inkişaf etdirərək deyə bilərik ki, görünən aləm öz qanunları ilə mövcud olan bir şəhər kimidir. Gerçəkliklər bu şəhərin tikililəri, həqiqət isə bu şəhərin küçələridir. Bu küçələrin bəziləri düz (ümumi həqiqət), bəziləri dolanbacdır (xüsusi və ya orijinal həqiqət). Küçələr bəzən bir-biri ilə kəsişir (səhv), bəzən də dalanla (yalanlar) qurtarır. Küçə özü tikililərin bir-biri ilə münasibətindən - bir-birindən müəyyən məsafədə və istiqamətdə yerləşməsindən meydana çıxır (şeylərin həqiqəti onların qurulmasının qanunlarını təşkil edir). Küçə özlüyündə boşluqdur - yoxluqdur (həqiqət ideya kimi yoxluqdur). Amma konkret tikilinin (gerçəkliyin) ünvanı (məkan-zaman şərti - aşkarlanması) - yerləşdiyi məkan məhz bu boşluqlarla (həqiqətlə) - küçələrlə müəyyənləşib. Beləliklə, gerçəkliklər özlərində daxili qurulmalarının - mövcudluqlarının qanunauyğunluqlarını daşıyırlar ki, həmin qanunauyğunluqların aşkarlanması özündə həqiqətin idrak edilməsini təqdim edir.

Həqiqət təfəkkürün məhsulu olduğundan subyektivdir və buna görə də mütləq təyindən azaddır. Bu baxımdan fərqli fəlsəfələrdə həqiqət fərqli mənalarda şərh edilir.

Həqiqət həm də idraka münasibətdə müəyyənləşir. Başqa sözlə, həqiqətin aşkarlanmasının onun aydınlaşmasına münasibəti özündə həqiqətin yəqinliyini təqdim edir.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Bir münasibətdə həqiqətə baxmaq çətin, digərində asandır. Bu ondan aydındır ki, heç kəs lazım olan qaydada ona çata bilmir və tamamilə uğursuzluğa da uğramır. Hər kəs nəyinsə təbiəti haqqında və təklikdə nisbi danışır; düzdür, həqiqətin qurulmasına nəsə əlavə etmir və ya az əlavə edir, amma nə zaman ki bunlar hamısı bir yerə yığılır, görünən ölçülər əldə edir. İki cür çətinlik olduğundan, onun səbəbi şeylərdə yox, bizim özümüzdə ola bilər.*

Fəlsəfə həqiqət haqqında elmdir. Əsl həqiqətdə, nəzəri bilgilərin məqsədi həqiqət, praktiki bilgilərin məqsədi işdir. Səbəbi bilmədən həqiqəti bilmərik. Ən həqiqət olan sonrakı şeylər üçün onların həqiqiliyinin səbəbini təşkil edən olacaq. Onda, əbədi mövcud olan şeylərin səbəbi həmişə ən həqiqət olmalıdır; belə ki, onlar vaxtdan-vaxta həqiqət deyillər və onların digər yerdə qalanlara verdiyi mövcudluğu onlara verən hansısa səbəbi yoxdur və beləliklə, hər bir şey hansı ölçüdə mövcudluğa aiddirlərsə, onların həqiqəti də elədir."

Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası" əsərinin ikinci nəşrinə ön söz: *"Yeganə, öz fəlsəfi deyimlərimdə ümumiyyətlə nəyəsə cəhd etmişəmsə və cəhd edirəmsə - bu, həqiqətin elmi idrakıdır."*

Aristotelin fikirlərindən həqiqətin aşkarlanmasının problemlərinə aşağıdakıları ayırd etmək olar:

1. **Heç kəsin lazım olan qaydada ona çata bilməməsi:** Bunun iki səbəbi var: **Birincisi**, hər bir şey eyni bir fərdə yalnız bir tərəfi ilə - xüsusi vəziyyətdə münasibətdə olur, yəni bir tərəfindən aydınlaşan nisbi həqiqəti fərddə refleksiya edir. Total həqiqət isə şeyin tamlığından - hər tərəfindən aydınlaşır. **İkincisi**, hər kəs üçün ən ümumi olan cari şüurdur və hər kəs idrak obyektinə cari şüurla yalnız öz xüsusi maraqlarından yanaşır və bu maraqlara uyğun gəlməyən həqiqətə laqeyd qalır.
2. **Hər kəsin təklikdə yalnız nisbi danışması:** Bunun da öz növbəsində iki səbəbi var. **Birincisi**, insan özündə refleksiya etdiyi nisbi həqiqət haqqında danışır. Burada "nisbi danışmaq" həqiqətin idrakının nisbiliyi ilə bağlıdır. **İkincisi**, insan nisbi refleksiya etdiyi həqiqət haqqında nisbi danışır. Burada "nisbi danışmaq" idrak edilmiş həqiqətin şərhinin nisbiliyi ilə bağlıdır. Yəni insan dərk etdiyi həqiqət haqqında məlumatı dəqiq şəkildə başqalarına çatdıra bilmir.

Biz həqiqətin aşkarlanma probleminə həm də bir şeyin hər şeyə aid olan həqiqəti özündə təqdim edə bilməməsini və bir nəfərin hər şey haqqındakı həqiqəti bilmək imkanının olmamasını ayırd edirik. Reallıqda

elə bir ayrılıqda götürülmüş şey yoxdur ki, bütün mövcudluqların həqiqətini total şəkildə özündə aydınlaşdırsın. Burada da iki hal ayırd etmək olar: **Birincisi**, bütün şeylər eyni məkanda yerləşmədiyindən, şeylər məkani fərqliliyə görə özündə fərqli məkan şərtlərində olan reallıqların həqiqətini aydınlaşdırmır. **İkincisi**, şeylər eyni zaman daxilində olmadıqlarından, fərqli zaman şərtlərində eyni həqiqət aydınlaşmadığından, vaxta görə şeylər özündə bütün reallıqların həqiqətini aydınlaşdıra bilmir.

Bir nəfərin hər şeyi bilmək imkansızlığının da iki səbəbi vardır. **Birincisi**, dərketmənin vaxta və yerə görə şərtlənməsi.

> ***Haşiyə:*** *A.N.Uaythed, "Elm və müasir dünya": "Heç bir insan, heç bir insan birliyi və heç bir dövr dərhal hər şey haqqında düşünə bilməz."*

A.N.Uaythed də təsdiq edir ki, total həqiqəti yalnız bir tam kimi, yalnız ümumi insanlıq - birinci insandan sonuncu insana qədər bütün insanların birliyi (hamı) düşünə bilər. İnsan düşüncəsi həm vaxta (həm də dövrə), həm yerə görə məhduddur. Buna görə də bir nəfər bütün dövrlərə və ya bütün şeylərə aid həqiqəti idrak edə bilmir. **İkincisi**, həqiqətin aydınlaşmasının nisbiliyi. Həqiqət dərhal, eyni vaxtda hər şeydən eyni aydınlıqda işıqlanmadığından istənilən fərdin aşkarladığı həqiqət nisbi və hissəvidir.

Həqiqətin aydınlaşmasının aşkarlanmasının aşağıdakı qanunauyğunluqları vardır:

1. Həqiqət gerçəklikdə vasitəli aydınlaşdığından heç bir mövcudluq özündə mütləq həqiqəti aydınlaşdırmaq imkanına malik deyildir. Buradan şeylərin müxtəlifliyi meydana çıxır.
2. Həqiqətin mütləq şəkildə eyni vaxtda bir fərd tərəfindən aşkarlanmaq imkanı yoxdur. Buradan fərdi idrakın müxtəlifliyi - fərdi şüur - meydana çıxır.

3. Həqiqət eyni vaxtda təzahür etmir. Buradan varlıqların zamanla şərtlənməsi - zaman əlaqəsi meydana çıxır.

4. Həqiqət eyni vaxtda müxtəlif yerdə təzahür etmir. Buradan məkanla şərtlənmə - məkan əlaqəsi meydana çıxır.

5. Mütləq həqiqət mütləq təfəkkürlə aşkarlana bildiyindən, mütləq təfəkkür isə bütün tarixdə yaşayan insanların ümumi təfəkküründün vəhdətini özündə təqdim etdiyindən, həqiqətin aydınlaşması və buna müvafiq aşkarlanması ictimailik və tarixilik keyfiyyəti əldə edir.

6. Eyni bir həqiqət məkan və zamanda olduğu kimi təkrar-təkrar aydınlaşma imkanına malikdir. Buradan kəmiyyət yaranır.

7. Hər bir həqiqət məkan və zaman əlaqəsindən asılı olaraq müxtəlif aydınlıqda aydınlaşır. Buradan keyfiyyət meydana çıxır.

8. Hər bir həqiqət başqa bir həqiqətdən yaranır və özü də başqa bir həqiqəti yaradır. Buradan səbəb və nəticə əlaqəsi təzahür edir.

HƏQİQƏTİN ƏKSLİYİ - YALAN

Həqiqət ya özü-özündən, ya da özünün əksliyindən aşkarlana bilər. Həqiqətin əksliyi **yalan** kimi təzahür edir. Biz yalanı həqiqətin nisbiliyinin mütləqliyi kimi təyin edirik. Ən ümumi şəkildə yalan həqiqətlə onu aydınlaşdıran vasitənin əksliyindən meydana çıxır. Yəni vasitənin özündə istisna etdiyi həqiqət həmin vasitə üçün yalandır.

Bəs yalan nədir? O harada yerləşir? İnsan onu necə tapır və nə üçün insan yalanı aşkarlamağa məhkum edilmişdir? İnsanın tapdığı yalanın həqiqətə münasibəti necə müəyyənləşir? Nə vaxt, necə və niyə insan yalanı dərk edə bilər? Yalanla bağlı bu suallar həm də metafizik suallardır. Öncə qeyd etmək lazımdır ki, yalan mənasızlıq deyil və özü-özündə aydınlaşma ilə aşkarlanmanın uyğunsuzluğundan meydana çıxan həqiqətdir. Yalan gerçəklikdən yox, yalnız birtərəfli qaydada təfəkkürün özündən aşkarlanır. Biz yalanı konkret mövcud olmaya meyl etməyən

mümkünlük kimi təyin edirik. Yalan xalis sırınma qanunauyğunluqdur, hansı ki, konkret idrak obyekti ilə heç bir əlaqəsi yoxdur.

Haşiyə: Lokk, "İnsanın ağıllanması haqqında təcrübə"

> *"Həqiqət nədir? "Həqiqət nədir" məsələsi bir çox əsrlər bundan öncə qoyulmuşdur. Və beləliklə, bütün insanlıq ya işdə, ya sözdə həqiqəti axtarır, onda gərək biz diqqətlə onun nədən ibarət olduğunu araşdıraq və onun təbiəti ilə o qədər tanış olaq ki, ağlın onu yalandan fərqləndirdiyi kimi öyrənək. Mənim baxışıma görə, həqiqət sözün həqiqi mənasında işarələrin işarələdiyi şeylərin bir-birinə uyğun olub-olmamasına müvafiq onları ayırmaq və ya birləşdirməkdən ibarətdir. İşarələrin belə birləşdirilməsi və ya ayrılmasını biz başqa cür "müddəa" - "deyim" (proposition) adlandırırıq. Deyim iki cürdür - fikri və sözlü; ideya və sözlər kimi. Fikri deyim ideyaların sözsüz birləşdirilməsi və ya ayırd edilməsidir. Sözlü deyimdə birləşdirmə və ya ayırma sözlərin təsdiq və ya inkar cümlələri ilə, bizim ideyaların işarələri ilə həyata keçirilir. Fikri deyimlər özündə real və sözlü həqiqətləri saxlayır. Real həqiqət şeylərə uyğun olanlardır. Sözlü deyimlər - hiylə də ola bilər. Bizim mürəkkəb ideyaların substansiyasını təşkil edən keyfiyyət böyük həcmdə xarici, uzaq və dərkolunmaz səbəblərdən asılıdır."*

Haşiyə: F.Şellinq, "Transsendental idealizm sistemi"

> *"İstənilən bilik obyektiv olanla subyektiv olanın üst-üstə düşməsinə əsaslanır. Belə ki, yalnız həqiqi olan bilinir; həqiqət isə təsəvvürlərin uyğun predmetlərlə üst-üstə düşməsindən ibarətdir. Bütün xalis obyektiv olanların məcmusunu bizim bilgimizdə biz Təbiət, bütün subyektiv olanın məcmusunu Mən və ya İntelleqensiya adlandıra bilərik."*

C.Lokkun həqiqət haqqındakı fikirlərindən görünür ki, həqiqət - yalanın əksliyi, simvollarla onların simvollaşdırdığı şeylərin eyniliyi əsasında simvolların birləşdirilməsi və ya ayrılması, yəni fikri müddəadır. Lokkun həqiqətlə bağlı təyinində iki mühüm məqama diqqət etmək lazım gəlir:

a) Yalan nədir, o ağıl tərəfindən necə aşkarlanır?

Yalan həqiqətin əksliyi kimi onunla ziddiyyətdə və həm də vəhdətdədir. İnsan idrakında bilgi kimi aşkarlanan hər şey ya yalan, ya həqiqətdir. Bu baxımdan insan özündə aşkarladığı bilginin yalan və ya həqiqət olduğunu özü-özündə aşkarlaya bilməz. Həqiqəti yalandan ayırmağın bir neçə yolu vardır:

- **Birincisi**, həqiqət təkrarlanmaq, yalan fərqlənmək xarakteristikasına malikdir. Yəni müxtəlif vaxtlarda, müxtəlif yerlərdə əldə edilmiş bilgi eyniyyət kimi təkrarlanırsa, bu həqiqətdir. Eyni bir bilgi zamandan və yerdən asılı olaraq fərqlənirsə, bu yalandır. Buna görə də bilgi nə qədər uzun müddətdə və nə qədər çox yerdə təkrarlanırsa, bir o qədər həqiqətdir. Beləliklə, Mütləq nisbi həqiqət - bütün dövrlərdə, bütün yerlərdə özü-özündə təkrarlanan bilgidir. Bilgi nə qədər az müddətdə və nə qədər çox yerdə fərqlənirsə, bir o qədər yalandır. Beləliklə, Mütləq yalan hər an və hər yerdə özü-özündən fərqlənən bilgidən ibarətdir.
- **İkincisi**, bir şəxsin əldə etdiyi bilgi nə qədər çox insanın əldə etdiyi bilgi ilə eyniyyət təşkil edirsə, bir o qədər həqiqətdir. Buradan da mütləq şəkildə yalnız bir fərdə görə məlum olan həqiqəti yalan kimi təyin etmək olar.

F.Şellinqin fikirlərindən görünür ki, bilik həqiqətlə eynilikdir. Onda həqiqətlə fərqlilik - yalandır. Əgər bilik obyektiv olanla subyektiv olanın üst-üstə düşməsidirsə, təbii olaraq obyektiv olan kimi predmetin, subyektiv olan kimi təfəkkürdəki özünün refleksiyası ilə yaratdığı təsəvvürlərlə üst-üstə düşməsi həqiqətdir. Ən ümumi həqiqət bütün obyektiv olanların məcmusunun - təbiətin, bütün subyektiv olanların məcmusu - Vahid İnsanlıq Ruhunun Məni ilə və ya insanlığın total ağlı ilə üst-üstə düşməsidir. Obyektiv olanlar məkanda müxtəlif yerlərdə, subyektiv olanlar müxtəlif zamanlarda paylandığından, birincinin məcmusu ilə ikincinin məcmusu bir-birindən fərqli şərtlənir. Ona görə də birincinin məcmusu - bütün məkanda olanların dərki bütün zamanlarda olan intelleqensiya ilə -

tarixi intelleqensiya ilə mümkündür. Buradan da həqiqətin idrakının tarixiliyi meydana çıxır. Burada obyektiv olanlar mövcudolmanın varlıqlarını, subyektiv olanlar mümkünlüyün varlıqlarını təşkil edirlər və subyektiv olan obyektiv olanın totallığı ilə yox, yalnız onda mahiyyətlə formanın vəhdətində reallaşmış mümkünlüyün varlığı ilə üst-üstə düşə bilər. Buna görə də idrak prosesi mövcud olan varlığın vəhdətini daxildə pozur; forma xarici olaraq qalır, mahiyyət daxili olaraq mümkünlüyün varlığı ilə eyniləşməyə cəhd edir. Biz bunu həqiqətin idrakı kimi təyin edirik.

Haşiyə: Hegel, "Məntiq elmi"

> *"Fəlsəfi düşüncə bütün insanlıqda fəaliyyətdə olan düşüncədən onunla fərqlənir və bütün insanlara eyni vaxtda, özündə yalnız bir düşüncənin mövcudluğu kimi, onunla eynilik təşkil edən onun insanlığını xəbər verir."*

Beləliklə, Hegelin yuxarıdakı şərhindən də göründüyü kimi, bütün insanlarda olan eyni insanlığın eyni bir düşüncəsi ilə aşkarladığı xalis ideya həqiqətdir. Bu o demək deyil ki, bütün insanlar həqiqəti eyni vaxtda aşkarlayır. Həqiqətin bu cür aşkarlanması ayrıca bir fərddə - filosofda baş verir, amma bu filosofun fərdi düşüncəsində yox, onun ictimai düşüncəsində aşkarlanır. Aşkarlanma anında filosof özündə bütün insanlıq kimi çıxış edir. Buradan da deyə bilərik ki, bütün insanların eyniyyət təşkil edən bilgisi mütləq nisbi həqiqətdir. Bütün insanların bilgisi ilə eyniyyət təşkil etməyən, yalnız bir nəfərin bilgisi isə mütləq yalandır.

- **Üçüncüsü**, idrak prosesində insan birinci yalanı, yoxsa həqiqəti aşkarlayır? Əgər insanın aşkarladığı ilk bilgi həqiqət olsaydı, onda (hələ yalan yaranmadığından) onu necə yalandan ayıra bilərdi? Deməli, istənilən ilkin bilgi təcrübəyə görə yalandır; sonrakı bilgilər isə birinci bilgidən fərqləndiyi qədər həqiqətdir. Buradan da deyə bilərik ki, ən sonuncu bilgi özündən əvvəlki bütün yalanlardan

fərqləndiyi üçün mütləq nisbi həqiqətdir. Nəhayət, şüurun bütün formaları ilə müxtəlif üsul və metodlarla aşkarlanan eyni bir məlumat həqiqətdir.

b) Simvollar haradan çıxır və onların şeylərlə uyğunluğunu kim və necə müəyyən edir?

İnsan bilgini simvollaşdırmaqla əldə edir. Simvollar özündə bir tərəfdən şeyləri, digər tərəfdən həmin şeylərlə bağlı insanda olan bilgini ifadə edir. Buradan da deyə bilərik ki, simvolların mənbəyi şey və təfəkkürdür. Simvolların şeylərlə uyğunluğu təfəkkürdə refleksiya edən şeyin mahiyyəti ilə təfəkkürdə əldə edilən bilginin eyniliyini özündə təqdim edir. Simvolların şeylərə uyğunluğunu simvolu yaradan insan müəyyən edir. Simvol yaradıldığından onların ifadə etdiyi bilgi sintetik bilgi - metafizik müddəadır. Buna görə də simvolların şeyə uyğunluğunu simvolun sintetik bilgisi əsasında inkişaf etdirilən dialektik bilgi ilə müəyyən etmək olur.

Həqiqətin idrak obyektlərindən asılı olaraq müxtəlif dəqiqlikdə aşkarlanmasından həqiqətin dərəcələnməsi meydana çıxır.

Haşiyə: Aristotel, "Metafizika"

> *"Aydın etiraf etmək lazımdır ki, hər şeyə münasibətdə bir mənada deyilən təyin bütün hallarda düz ola bilməz. Aydın şəkildə əkslik təşkil edən mühakimələr vardır, hansı ki, bir yerdə həqiqət ola bilməzlər. Amma həmçinin onlar əlbəttə hamısı yalan ola bilməz. Əgər yalan həqiqəti inkardan başqa bir şey deyilsə, onda hər şey yalan ola bilməz; belə ki, əksliyin iki tərəfindən biri həqiqət olmalıdır. Kim ki hər şeyi həqiqət elan edir, bununla onun öz xüsusi müddəasına zidd olanı da həqiqət elan etmiş olur və beləliklə, öz müddəasını qeyri-həqiqət edir. Kim ki hər şeyi yalan elan edir, həm də öz elanını yalan elan etmiş olur."*

Beləliklə, Aristotelin fikirlərindən görünür ki, həqiqətin qradiasiyaya uğraması həqiqətin aydınlaşdırdığı vasitələrin təbiəti ilə bağlıdır. Bəs insanın əldə etdiyi bilgilərin hamısı nə üçün ya həqiqət, ya da yalan ola

bilməz? Əgər bütün insanlar "təbiətdən bilgiyə cəhd edirsə" və bilginin məqsədi həqiqəti aşkarlamaqdırsa, onda nə üçün bilgiyə cəhddə insan həqiqətlə yanaşı yalan bilgilər də əldə edir? Bunun iki səbəbi vardır:

1. **İdrak obyektindən asılı səbəb:** Heç bir şey özündə bütün şeylərə xas (o cümlədən özü ilə əkslik təşkil edənlərin) həqiqətini aydınlaşdırmadığından, hər bir şeydə hər şeydə olan həqiqətlərə münasibətdə həqiqəti aşkarlamaq olar. Beləliklə, hər bir şey yalnız özündə özünü təsdiq edən həqiqətə malikdir.

2. **İdrak subyektindən asılı səbəb:** Belə səbəblə meydana iki cür yalan çıxır:

a) Düşünülməmiş (məqsədsiz) yalan: Fəlsəfədə belə yalan **idraki yalan** adlanır. Belə yalan idrak qabiliyyətinin yetərsizliyindən meydana çıxır və yalan subyektin heç bir məqsədinə xidmət etmir. Hər bir adam bəlli idrak qabiliyyətinə malikdir və həqiqətin aşkarlanması çətinləşdikcə daha güclü idrak qabiliyyəti tələb olunur. Beləliklə, zəif idrak qabiliyyəti olan subyekt çətin aşkarlanan həqiqəti çox vaxt aşkarlamağa cəhd edərkən yalanı aşkarlamış olur. Yalan - həqiqətin əksliyi olduğundan, həqiqətin istənilən total qeyri-dəqiq aşkarlanması yalan kimi təzahür edir. İdraki yalanın aşkarlanmasının səbəbi obyektiv gerçəklikdir.

b) Düşünülmüş yalan və ya məqsədli yalan: Fəlsəfədə belə yalan **əxlaqi yalan** adlanır. Əxlaqi yalanın meydana çıxmasının səbəbi subyektdir. Belə yalanda yalanla məqsəd vəhdət təşkil edir. Hər bir insan həqiqəti öz maraqlarını təmin etmək naminə axtarır. Bunun da öz növbəsində iki səbəbi vardır. Birincisi, bilavasitə həqiqətlə öz maraqlarını təmin etmək məqsədi ilə həqiqətin axtarılması. İkincisi, həqiqətin əksliyi kimi yalanla öz maraqlarını təmin etmək məqsədi ilə həqiqətin axtarılması. Düşünülmüş yalanın düşünülməmiş yalandan fərqi odur ki, düşünülmüş yalanda subyekt həqiqət haqqında zəruri bilgiyə malik olur və onun əksliyi kimi yalanı müəyyən edərək öz maraqlarını təyin edir. Beləliklə, burada aşkarlanan həqiqət yalanı

uydurmaq üçün axtarılır. Əgər belə olmasaydı, onda öz marağını insanlar yalnız təsadüfə görə təmin edə bilərdi; belə ki, həqiqət haqqında bilgiyə malik olmayan şəxs aşkarladığı məlumatın həqiqət olub-olmadığını müəyyənləşdirə bilməzdi.

3. **İdrak şəraitindən asılı səbəb:** Mühitin məlumatı entropiya etmək imkanı olduğundan hər bir mühit fərqli dərəcələrdə həqiqəti entropiya edir. Digər tərəfdən, subyektin həqiqəti idrak cəhdi də subyektin öz mühitindən asılıdır. Subyektdən asılı olan mühit iki formada meydana çıxır:

***Birincisi, somatik (bədən) mühit:** Bədən hissi qavrayışda qəbuledici və ötürücü rolu oynayır; yəni xarici şeylərin təsirləri bədəndəki analizatorlarla qəbul edilir, seleksiya olunur, seçilir, sadələşdirilir, sonra Ruhda refleksiya edilir. Orqanizmin anormal quruluşunda və ya somatik xəstəliklərdə bir tərəfdən ya xarici təsirlər düzgün və tam həcmdə qəbul edilmir, ya onlar lazımi dərəcədə işlənmir, ya da Ruha refleksiya etmir (məsələn, somatik psixozlar belə əmələ gəlir). Somatik mühit fərdi xarakter daşıdığından yalnız konkret fərdin həqiqəti aşkarlamasında rol oynayır.

***İkincisi, sosial mühit:** Həqiqətin axtarılması cəmiyyətin ictimai şüuru ilə şərtlənmişdir. Belə ki, sosial mühit senzor rolu oynayır və subyekt belə mühitdə həqiqətin axtarılmasında tam azad olmur. Nəticədə həqiqəti dəqiq aşkarlaya bilmir. Məsələn, Orta əsrlər sxolastikasında ciddi elmi kəşflər məhz kilsənin həqiqəti axtarmağı məhdudlaşdırması ilə bağlı olmuşdur. Sosial mühit ictimai şüurla bağlı olduğundan belə mühitin təsirləri kollektiv və mücərrəd olur.

FƏLSƏFİ HƏQİQƏTLƏR

Metafizik həqiqətləri anlamaq üçün fəlsəfi həqiqətlərin mahiyyətinə baxmaq lazımdır. Fəlsəfi həqiqət - ən ümumi həqiqət olduğundan, fəlsəfi həqiqət anlayışının mahiyyətinə varmaq üçün "Ən ümumi qanunauyğun-

luq" ifadəsini də tərkiblərinə uyğun üç müxtəlif anlayışa - **qanunauyğunluq**, **ümumi**, **"ən ümumi"** anlayışlarına ayıraraq onlara ayrı-ayrılıqda şərh vermək lazım gəlir.

A. Qanunauyğunluq: Qanunauyğunluq qanunun qurulmasını özündə əks etdirmək və ya özünün qanun prinsiplərinə tabe olmasını, yaxud hər hansı bir qanunla eynilik təşkil etməni özündə ifadə edir.

Haşiyə: J.Delez, "Fərqlilik və təkrarlanma"

> *"Qanun ona tabe olan subyektlərin oxşarlığını, onların onun formulyasiyasına uyğunluğunu müəyyən edir. Qanun suyun axarlılığı ilə çayın daimiliyini birləşdirir."*

J.Delezin bu fikirlərini belə şərh etmək olar ki, qanun - məkanda konkret yer tutmuş obyektin dayanıqlığını (çayın daimiliyi) onun mahiyyətinin (suyun) zamanda sürəkliliyini (axarlılığını) bir-biri ilə birləşdirərək, obyektin mahiyyətinin dərk edən ruhun (subyektin) nizamlılığına oxşarlığı əsasında formulyasiya edilmiş fikirdir. Beləliklə, qanun necə özündə obyektin mahiyyətinin subyektin nizamına oxşarlığını formulyasiya edirsə, qanunauyğunluq da eyni ilə istənilən obyektin özündə təzahür etdirdiyi mahiyyətə oxşarlığını özündə eləcə formulyasiya edir.

Qanun - təfəkkürdə formulyasiya olunan ideya, qanunauyğunluq - gerçəklikdə aydınlaşan həqiqətin nizamlılığının həmin qanunla eyniyyət təşkil etməsidir. Beləliklə, qanun və qanunauyğunluq biri Ruhun, digəri gerçəkliyin nizamıdır; hansı ki, eyniliklərindən həqiqət aşkarlanır.

Başqa sözlə, istənilən qanunauyğunluq həqiqətin obyektdə aydınlaşmasının məkan-zaman əlaqəsinin təbiətini özündə izhar edən fikrin formulyasiyasıdır. Qanun - aşkarlanması və formulyasiya edilməsi mümkün olan həqiqətdir. İnkişaf sadədən mürəkkəbə doğru baş verdiyindən, qanunauyğunluq sadə həqiqətlərdən başlayaraq mürəkkəb həqiqətlərə doğru uyğunluğu aşkarlamağa cəhd edir. **Sadə həqiqət** - eyni sıradan olan ayrıca bir varlıq faktının xüsusi zaman-məkan asılılığında

gerçəklik kimi təzahürlərinin tabe olduğu və həmin gerçəkliyin başqa hər hansı bir yerdə, hər hansı bir vaxtda, hər hansı bir halda, hər hansı bir həmin sıradan olan başqa varlıq faktında təzahürünü inkar edən, təfəkkürdə ideya forması almaqla onda refleksiya edən kosmik nizamdır.

Qanunauyğunluq - gerçəkliyin aktuallaşmasında konkret obyektdə refleksiya edən və idrak prosesində həqiqətin obyektdən aşkarlanmasını özündə təqdim edən ideyadır.

Qanunauyğunluq bir tərəfdən obyektiv gerçəkliyin özü-özündə aktuallaşma qaydası, digər tərəfdən təfəkkürdə ideyalarla həqiqətin dərkini ifadə etməyin qaydalarıdır. Həqiqət o zaman aşkarlanır ki, hər iki qanunauyğunluq üst-üstə düşsün. Başqa sözlə, təfəkkürün gerçəkliyə uyğun nizamlanması həqiqətin dərk edilməsi kimi meydana çıxır ki, biz bunu qanunauyğunluq adlandırırıq. Varlığın sıralanmasına uyğun olaraq qanunauyğunluqlar müxtəlif səviyyələrdə təzahür edir və hər bir sonrakı səviyyədə aşkarlanan qanunauyğunluq həm də eyni zamanda özündən əvvəlki qanunauyğunluğa tabe olur.

Qanunauyğunluqda birləşdirilmiş iki tərəf - daimiliklə sürəklilik, uyğun olaraq təkrarlanma və eynilik kimi təzahür edir. Beləliklə, daimilik məkandan asılı olaraq təkrarlanmağı, sürəklilik zamandan asılı olmayaraq eyniliyi ifadə edir. Hər hansı bir hal məkanda olduğu kimi təkrarlanmırsa və zamandan asılı olaraq özü-özündən fərqlənirsə, o hal özündə qanunauyğunluq daşımır.

Hər hansı bir fakt məkan-zaman əlaqəsinin spesifikasından asılı olaraq:

- Məkanla prioritet şərtləndikdə (məkanla bir momentli çoxparametrli, zamanla bir momentli birparametrli şərtlənən varlıqlar - cisimlər) - buradan təkrarlanma (birdəfəlilik) meydana çıxır.
- Zamanla prioritet şərtləndikdə (məkandan bir məqamlı birparametrli, zamandan bir məqamlı çoxparametrli - canlılarda) - buradan fərqlilik (sürəklilik) meydana çıxır. Buna görə də canlıların konkret

faktından onların tabe olduğu qanunauyğunluq aşkarlanmır, yalnız həmin canlının növündən onun qanunauyğunluğunu aşkarlamaq olur ki, zamandan asılı olmayaraq fərqli fərdlərdə eynilik təşkil edir.

Təkrarlanma eyniliyi, fərqlənmə müxtəlifliyi təzahür etdirir ki, buna uyğun olaraq üç cür qanunauyğunluq aşkarlamaq olar:

1. Müxtəlifləşmənin və ya görünən dünyanın tabe olduğu qanunauyğunluq: Müxtəlifləşmənin başlıca xarakteristikası fərqlilikdir. Fərqliliyin əksliyi eynilikdir. Amma müxtəlifləşmədə bununla yanaşı üçüncü bir kriteriya - eyni zamanda həm fərqliliyi, həm də eyniliyi inkar edən fərqedilməzlik ayırd etmək lazımdır. Fərqedilməzlik - həqiqətin qaranlıq qalmasını özündə ifadə edir. Həqiqət iki halda qaranlıq qala bilər: ya aydınlaşma qeyri-dəqiq (yəni aydın olmayan) olanda, ya aşkarlanma düzgün olmayanda və ya baş tutmayanda.

Haşiyə: J.Delez, "Fərqlənmə və təkrarlanma"

> *"Fərqedilməzlik iki tərəfə malikdir: differensiasiya olunmamış uçurum - qara qeyri-varlıq, qeyri-müəyyən heyvan; hansı ki, hər şey həll olmuşdur. Həm də, yenidən öz aralarında bağlanmamış, boyunsuz başa, çiyinsiz ələ, gözsüz alına oxşar, hissələrə ayrılmış şəkildə təyinlərin üzdüyü sakit səthə çıxan ağ qeyri-varlıq. Qeyri-müəyyənliklər tamamilə fərqsizlikdir, həmçinin - üzən təyinlər bir-birinə münasibətdə. Fərqlilik müxtəlifliklərdən və təhriflərdən fərqlənir."*

J.Delezin fikirləri əsasında fərqedilməzliyi bir qədər geniş şərh edək.

- **a) Qara qeyri-varlıq:** Bizim aydınlaşmanın qeyri-dəqiq və ya aydın olmamasından yaranan fərqedilməzlik J.Delezin "qara qeyri-varlıq" anlayışına uyğundur. Qaranlıqda bütün şeylər sanki bir-birində həll olur və heç nə xarici görüntüsü olmadığından başqasından seçilmir. Onda biz konkret formadan xüsusi həqiqəti aşkar edə bilmirik. Beləliklə, görünən dünyada görüntünün - konkret formanın olmamasından meydana çıxan fərqedilməzlik özündə qara qeyri-varlığı təqdim edir. Differensiasiya olunmazlıq - qara qeyri-varlıq. Bu cür

fərqedilməzlik differensiasiyadan öncəki vəziyyəti xarakterizə edir. Differensiasiya bir-birindən ayrılmağı özündə ifadə edərək ümuminin xüsusiyə keçidini özündə təqdim edir. Buradan da birinci fərqedilməzliyi ümumilik kimi təyin etmək olar. Başqa sözlə, xüsusiləşmə baş vermədiyindən varlıq özü-özündə refleksiya edir. Differensiasiya mühakimə prosesində analitik məntiqin səbəbi kimi çıxış edir. Mütləq həqiqətin təzahür forması kimi mütləq fərqsizlik meydana çıxır. Təfəkkürdə mütləq həqiqət aşkarlanmadığından mütləq fərqsizlikdə idrak baş tutmur - analiz etmək mümkün olmur.

- **b) Ağ qeyri-varlıq:** Bura biz aşkarlanmanın qeyri-dəqiqliyindən meydana çıxan fərqedilməzliyi aid edirik. Belə fərqedilməzlikdə aydınlaşma təzahür edir, amma aydınlaşan təfəkkürdə tam refleksiya etmir. Belə ki, təfəkkürdə yaranan obraz, təsəvvür və fikirlər fərqlilik xarakteristikası daşımadıqda idrak baş tutmur. Məsələn, tutaq ki, kub, silindr və piramida təfəkkürdə eyni bir obrazda refleksiya olunur. Nəticədə həqiqət aşkarlanmır. Bura mahiyyətin aşkarlanmamasından meydana çıxan fərqedilməzliyi ayırd etmək olar. Belə fərqedilməzlik inteqrasiyanın pozulmasında meydana çıxır. Differensiasiyanın əksinə, artıq differensiasiyaya məruz qalmış, yəni fərqlənmiş varlığın yenidən inteqrasiyası, hissələrin müvafiq şəkildə yenidən bir-biri ilə əlaqələnərək tamı təqdim etməməsindən yaranan fərqedilməzlik. Biz bunu **fərqliliyin fərqsizliyi** kimi adlandırırıq. İnteqrasiya olmadan hissələr tam əmələ gətirmir, tam əmələ gəlmədiyindən obyekt haqqında həqiqət aşkarlanmır. Başqa sözlə, ikinci forma fərqedilməzlik sintetik mühakimənin əsasında dayanır. Beləliklə, differensiasiya və inteqrasiyaya məruz qalmamış varlıq mühakimə yolu ilə dərk olunmur.

Fərqlilik həqiqətin aydınlaşma forması olub, onun aşkarlanmasında başlıca şərtdir. Fərqlilik görünən aləmi yaradır; hansı ki, idrakın vacib şərtidir. Müxtəliflik mahiyyətin fərqliliyinin nəticəsidir, hansı ki, həm formanın fərqsizliyində, həm də fərqliliyində meydana çıxır. Məsələn,

müxtəlif adamlar dedikdə, şüurlu varlıq olan, amma cinsinə, yaşına, antropologiyasına görə bir-birindən fərqlənən, görünüşdə eyni olmayan insanları nəzərdə tuturuq. Müxtəlifləşmə substansiyanın tabe olduğu qanunauyğunluqlardan meydana çıxır.

Haşiyə: Benedikt Spinoza, "İnsan ağlının təkmilləşməsi"

> *"1. Məhdud substansiya yoxdur, istənilən substansiya özünəxas sonsuz təkmil olmalıdır; məhz buna görə ki, Allahın sonsuz ağlında heç bir substansiya artıq təbiətdə olduqlarından daha təkmil ola bilməz. 2. İki bərabər substansiya yoxdur. 3. Bir substansiya başqasını əmələ gətirə bilməz. 4. Allahın sonsuz ağlında təbiətdə formal olaraq mövcud olmayan substansiya yoxdur."*

Spinozanın yuxarıdakı fikirlərindən görünür ki, müxtəlifləşmənin dörd əsas səbəbi var:

1. Hər bir varlıq özündə təkmil həqiqəti aydınlaşdırır. Qeyri-təkmil həqiqət qeyri-təkmil varlıq yaradır ki, aktuallaşmır və aktuallaşmadığından idrak üçün yararsız olur. Başqa sözlə, həqiqət yaranış anında son təkmil şəkildə təzahür edir.
2. İki müxtəlif varlıqda eyni bir substansiya yoxdur. Substansiya ilə forma vəhdət təşkil etdiyindən substansiyanın fərqliliyi formanın fərqliliyinə səbəb olur. Ona görə də iki müxtəlif forma "eyni anda və bir yerdə" substansiya ilə vəhdət təşkil etmir.
3. Əmələgəlmə yaranışdan fərqli olaraq ikincili prosesdir. Əgər bütün yaranışlar son təkmil substansiyadan yaranırsa, onda son təkmillikdə olan bir substansiya özündən təkmil başqa substansiya yarada bilməz; çünki başqası da onu eyni güclə yarada bilər.
4. Mütləq Həqiqət özündə Allahı refleksiya etdiyindən, mütləq nisbi həqiqətdə Allahdan olmayan heç bir substansiya ola bilməz.

Bizi əhatə edən gerçək aləmdə müşahidə edilən müxtəlifləşmə varlıqların özündən müxtəlif siqnalları şüalandırmasının müxtəlif cür entropiyaya məruz qalması ilə meydana çıxır. Məsələn, işıq və səs havadan

və ya sudan keçərkən eyni qanunauyğunluqlara uyğun entropiyaya məruz qalmadığından onlar müxtəlifləşir. Amma istənilən predmetdən çıxan işığın havada və suda entropiyaya məruz qalması eyni qanunauyğunluğa - işığın sınma qanunlarına tabe olur. Bu cür qanunauyğunluq xüsusi qanunauyğunluq olub, yalnız hər hansı bir və eyni faktın aktuallaşmasını təzahür etdirir.

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Mahiyyət xalis eynilik və özü-özündə görünüşdür, necə ki o, özü ilə inkara aiddir, nəticədə özünü özü-özündən itələmədir; beləliklə, mövcud olan özündə fərqlilik təyini saxlayır."*

Hegelin fikirlərindəki "mövcud olanın özündə saxladığı fərqlilik təyini"nin beş növünü ayırd etmək olar:

- **a) Mövcud olanın substansiyası ilə forması arasındakı fərqlilik:** Hər bir mövcud olanın ideyasını daşıyan dalğanın ifrat qısalmış hissəsi formanı, başlanğıc uzunluqdakı hissəsi isə substansiyanı təqdim edir və dalğanın uzunluğuna görə forma substansiyadan fərqlənir. Bu cür müxtəliflik real varlığın istənilən forması üçün xarakterikdir.
- **b) Bir substansiya ilə forma arasındakı fərqliliyin başqa substansiya ilə forması arasındakı fərqlilik:** Belə fərqliliyi eyni bir forma ilə vəhdətdə olan substansiyanın başqa forma ilə vəhdətdə olan substansiyadan fərqliliyi kimi də adlandırmaq olar. Cisim dünyasında müşahidə edilən fərqlilik belə fərqliliklərdəndir.
- **c) Eyni bir substansiyanın müxtəlif formaları arasındakı fərqlilik:** Belə fərqlilik canlılar aləmi üçün xarakterikdir. Eyni bir substansiyanın müxtəlif formaları iki cür - cinsi və yaş fərqliliyini təzahür etdirir.
- **d) Müxtəlif substansiyanın eyni formalı təzahüründən aşkarlanan fərqlilik:** Canlılar aləmində ən müxtəlif növdən olan canlıların erkək və dişisi eyni formalıdır, amma növ fərqliliyi vardır.

- **e) Substansiyanın özü-özü ilə fərqliliyi:** Substansiyanın özü-özü ilə fərqliliyi konkret forması olmayan mümkün varlıq kimi Ruh üçün xarakterik olub, özündə insanın mənəvi kamilləşməsini təqdim edir.

Bir faktdan aydınlaşan xüsusi qanunauyğunluqla həmin faktla eyni olan istənilən gerçəklik avtomatik dərk edilir. Məsələn: İnsan şüurlu varlıqdır. İstənilən şüurlu varlıq insandır. Burada özü-özünü təsdiqlə həqiqət aşkarlanır.

2. Eyniliyin və ya substansial aləmin tabe olduğu qanunauyğunluqlar: Mahiyyətinə və formasına görə bir-birindən fərqlənməyən varlıqlar eyniyyət təşkil edir. Substansial aləm görünməyən aləmdir, amma görünən aləm onu özündə refleksiya etdiyindən, görünən aləmdən müəyyənləşir.

Ümumi qanunauyğunluqlar - yalnız müəyyən sinif gerçəkliklər çoxluğunun məkan və zaman asılılığından asılı olmayaraq tabe olduğu və həmin qanunauyğunluğa görə başqa varlıq sırasının mövcudluğunu inkar edən kosmik nizamdır. Ümumi qanunauyğunluqlar varlığın sıralanmasını səbəbləndirir. Burada eyni sıradan olan müxtəliflikər bir-birini təsdiq etməklə həqiqət aşkarlanır.

3. Ən ümumi qanunauyğunluq: Məkandan və zamandan asılı olmayaraq özü-özündə və özü-özünə mövcud olan müxtəlif varlıq sıralarının tabe olduğu ortaq kosmik nizamdır və bu nizama görə həqiqətin aydınlaşması ilə aşkarlanması vəhdət təşkil edir.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

> *"Həqiqətin ən ümumi kriteriyası, predmetdən asılı olmayaraq, bütün elmlərə münasibətdə düzgün olan kriteriya ola bilər."*

Burada "predmetlərdən asılı olmamaq" fikri özündə mümkünlük xarakteristikasını təqdim edir. Beləliklə, bütün elmlərə münasibətdə düzgün olan kriteriya kimi yalnız mümkünlükdən aşkarlanmış həqiqəti qəbul edə bilərik. Yəni ən ümumi həqiqət mümkünlük səviyyəsindən aşkarlanmış həqiqətdir; hansı ki, predmetsiz (forma ilə mahiyyətin vəhdəti kimi)

olduğundan entropiyaya məruz qalmır. Ən ümumi qanunauyğunluqların - kosmik nizamın - məcmusu mütləq nisbi həqiqətdir. Burada aktla fakt qarşılıqlı olaraq bir-birini təsdiqləyir. Yəni mövcud olan (fakt) gerçəklikdir (akt), gerçək olan mövcuddur.

İnsan təfəkküründün vəzifəsi mütləq nisbi həqiqəti aşkarlamaqdan ibarətdir və buna uyğun olaraq şüurun müxtəlif formaları müxtəlif səviyyəli həqiqətləri aşkarlayır. **Fəlsəfi şüur** isə ən ümumi həqiqəti aşkarlamaq vəzifəsini yerinə yetirir. Buna görə də fəlsəfə təcrübədən əldə edilmiş biliyin ümumiləşdirilməsi kimi meydana çıxır. Beləliklə, həqiqət - ümumi qanunauyğunluqlar kimi mümkünlükdə refleksiya edən, təfəkkürdə aşkarlama ilə ideya forması alan, vasitəli və vasitəsiz mövcud olan gerçəkliklərin bilgisidir.

Ən ümumi bilgi eyni zamanda mövcudluğun bütün tərəflərindən, amma ayrı-ayrı filosoflar tərəfindən təklikdə əldə edildiyindən müxtəlif fəlsəfi təlimlər yaranır.

Haşiyə: Leybnis, Mariya Nizoliyanın "Həqiqi prinsiplər və yalançı fəlsəfəçiliyə qarşı fəlsəfəçiliyin həqiqi metodları haqqında" əsərinin nəşrinə ön söz:

> *"Filosoflar olduqca çox vaxt yerdə qalan bütün adamların gördükləri şeyləri görürlər, amma bu zaman onlar o şeylərə diqqət edirlər ki, başqaları məhəl qoymur. Filosoflar başqalarının heç vaxt qavramadığı cismi və ya cismin xüsusiyyətini qavrayırlar."*

Beləliklə, ən ümumi bilgi təcrübədə hamıya aydınlaşan, amma hamı tərəfindən eyni dəqiqliklə aşkarlanmayan bilgidir. Leybnisin fikirlərindən göründüyü kimi, filosof bu cür bilginin elə tərəflərini aşkarlayır ki, hamı həmin tərəflərə laqeyd qalır və ya heç vaxt qavramır. Bəs bu həqiqətin hansı tərəfləridir ki, hamı laqeyd qalır, amma filosoflar məhz onlara diqqət edir?

Təcrübədə hamı həqiqətin yalnız özünün xüsusi maraqlarına xidmət edən tərəflərinə diqqət edir. Filosof ya hamının ən ümumi maraqlarına

xidmət edən, ya da heç kəsin xüsusi maraqlarına xidmət etməyən həqiqəti aşkarlamağa **a)**cəhd edir. Məhz buna görə də elmdən fərqli olaraq fəlsəfə hamıya aydınlaşan, hamı tərəfindən aşkarlanmayan və hamının başa düşə biləcəyi bilgiləri özündə aşkarlayır.

b) Qavrama qabiliyyəti hamıda eyni dərəcədə inkişaf etmir. Eyni bir şeyi bir nəfər çox, digəri az qavrayır; buradan da xüsusi qavrama meydana çıxır. Filosof hamıdan fərqli ümumi qavramaq qabiliyyətinə malik olur.

Elmi bilgilər öz təbiəti etibarilə fəlsəfi bilgilərdən fərqlənir. Elmi bilgilər obyekt haqqında statik məlumatlardan ibarətdir, amma fəlsəfi bilgilər bundan fərqli olaraq, obyekt haqqında dinamik ideya yaradır. Hegel belə hesab edirdi ki, *"təbiətin fəlsəfəsi bizə təbiətin ideyasını verməlidir"*. Beləliklə, deyə bilərik ki, fəlsəfi bilgilər - fəlsəfi ideya - obyektin ideyasının abstrakt forması kimi meydana çıxır.

Elmi bilgilər mühakimədən keçməklə hissə-hissə insanlar tərəfindən aşkarlanır, bundan fərqli olaraq fəlsəfədə həqiqət haqqında bilgi bir tam kimi konkret filosofa aşkarlanır. Mühakimə analiz-sintez üsulu ilə həyata keçirildiyindən, tam halında aydınlaşan ümumi bilgi mühakimədən keçmir və bu zaman mühakimə yalnız onun doğru-düzgün şərhi ilə məhdudlaşır.

Haşiyə: A.N.Uaythed, "Fəlsəfə üzrə seçilmiş əsərlər"

> *"Hər bir fəlsəfə özündə, aydın şəkildə heç vaxt mühakimə gedişinə daxil olmayan, gizli obrazlı dünyagörüşünün çalarlarını daşıyır."*

A.N.Uaythedin fikirlərindən görünür ki, filosoflar həm də ümumiyyətlə mühakimə gedişinə aydın daxil olmayan həqiqətləri aşkarlayır və görünən - aşkar dünyanın gizli obrazlı dünyagörüşünü yaradırlar. Ən ümumi həqiqət bütün obyektlərlə - hər şeylə, ən ümumi subyekt - bütün insanlar arasında qarşılıqlı münasibətdə, təcrübədə aşkarlandığından buradan üç mümkünsüzlük meydana çıxır:

- a) Bütün obyektiv olanların heç də hamısı təcrübəyə daxil olmur və təcrübəyə daxil olan heç bir obyekt heç də bütün tərəfləri ilə subyektlə münasibətdə olmur.
- b) Təcrübə sahəsində bütün şeylər eyni vaxtda, eyni məkanda subyektlə münasibətdə olmur.
- c) Bütün insanlar eyni zamanda, eyni məkanda təcrübə sahəsində bütün obyektlərə münasibətdə olmur.

Ən ümumi həqiqətin aydınlaşmasının bu cür məhdudiyyətlərinin dəf edilməsi ilə aşkarlanması həqiqətin fəlsəfi izharının obyektə və onun məkan-zaman şərtlənməsinə görə müxtəlifləşməsinin əsasını təşkil edir. Ən ümumi həqiqət yalnız tam şəkildə filosofa aydınlaşdığından, həqiqətin mühakimə yolu ilə hissə-hissə dərk edilmə üsulundan fərqli olaraq, ən ümumi həqiqət bir fərdə - filosofa, mühakimədən keçmədən (təcrübəyə daxil olmadan) aydınlaşır və filosofun işi həmin aydınlaşmanı aşkarlamaqdan ibarət olur. Hər bir fəlsəfi təlim yalnız bir nəfərin - filosofun ağlının məhsulu kimi meydana çıxır. Buna görə də fəlsəfi təlimlər xüsusi adla (məsələn: Platonun fəlsəfi təlimi, Kantın fəlsəfi təlimi, Hegelin fəlsəfi təlimi və s.) adlanır. Bununla da obyekt-subyekt əlaqəsinə görə fəlsəfə elmdən fərqlənir.

METAFİZİK HƏQİQƏTLƏR - SOFİSTİKA - ANTİLOQİKA

Əgər Allah başlanğıcların başlanğıcı, səbəblərin səbəbidirsə, onda məntiqlə sonların sonu, nəticələrin nəticəsi kimi təyin olunacaq varlıq da olmalıdır. Biz şüurlu insanı sonların sonu, nəticələrin nəticəsi kimi təyin edirik. Nə üçün insan sonların sonu, nəticələrin nəticəsi kimi təyin oluna bilər? Protaqor belə hesab edirdi ki, *"İnsan bütün şeylərin - mövcud olanların, nə qədər ki mövcuddurlar, mövcud olmayanların, nə qədər ki mövcud deyillər - ölçüsüdür"*. Buradan iki hal meydana çıxır:

1. Hər hansı bir şey mövcud olan hər şeyin ölçüsü olması üçün onların hamısından sonda mövcudluq kimi mövcud olmalıdır ki, özündən

əvvəlkilər üçün ölçü kimi çıxış edə bilsin. Buna görə mövcud insan sonuncu mövcudluq kimi çıxış etməklə özünəqədər artıq mövcud olan bütün mövcud olanların ölçüsünə çevrilir. Buradan da insanın bütün yaradılanlardan ən təkmil və yaranma ardıcıllığına görə son varlıq olması təsdiq olunur.

2. Hər hansı bir şey bütün başqa mövcud olmayanların ölçüsü olması üçün özü də mövcud olmayan olmalıdır ki, onların ölçüsü olsun. İnsanın da mövcud olmayanların ölçüsü olması üçün, onun mövcud olanların sərhədlərindən kənarda, yəni təbii qanunlara tabe olmayan tərəfi olmalıdır ki, həm də mövcud olmayanların ölçüsü kimi çıxış etsin. Deməli, mövcud insanda eyni zamanda həm də mövcud olmayan təbiət olmalıdır. Bu təbiəti necə təyin edə bilərik? Biz bunu Ruh kimi təyin edirik.

İdrak prosesində forma səbəb kimi çıxış edərək mahiyyətin nəticə kimi təfəkkürdə aşkarlanmasında iştirak edir. Buradan mövcudluqların mahiyyətini onların idrakının nəticəsi kimi təyin etmək olar. Düşüncə prosesində insan idrak prosesində hissi qavranılan mahiyyətlərdən yeni, daha mürəkkəb mahiyyətlər əldə edir. Bu mahiyyətlər təbiətdən əldə edilən həqiqətlər əsasında ondan kənar həqiqətləri özündə ifadə edir. Bununla da düşüncə qabiliyyətinə malik Ruh nəticələrin nəticəsi kimi təzahür etmiş olur. Digər tərəfdən, hər bir gerçəklik mahiyyətin nəticəsidir. İdrak prosesində gerçəkliyin təfəkkürdə refleksiyasında yaranan abstrakt obrazlar nəticənin nəticəsi kimi təzahür edir; hansı ki, digər belə nəticələrin məcmusundan düşüncə prosesində başqa daha ali nəticələr yaranmır. Gerçəkliyin təfəkkürdə refleksiyası konkretin mücərrədləşməsi kimi meydana çıxır. Yəni konkret idrak obyekti təbiətin sərhədlərindən kənarda mücərrəd mövcudluğa - mövcudluğu olmayan mövcudluğa - çevrilir. Buradan insanın fiziki mövcudluğunu - mövcudluqların ölçüsü kimi (sonuncu mövcudluq kimi), onun Ruhi təbiətini - mövcud olmayanların ölçüsü kimi (mövcud olanlardan kənarda olan

mahiyyət - nəticələrin nəticəsi kimi) təyin edirik. Beləliklə insan, Ruha malik mövcud varlıq kimi, hər şeyin - mövcud olanların mövcud olduqları qədər və mövcud olmayanların mövcud olmadıqları qədər ölçüsü kimi çıxış edən sonların sonu, nəticələrin nəticəsi kimi mövcuddur.

İnsanın mövcud olanların ölçüsü olması onun dərketmə qabiliyyəti, mövcud olmayanların ölçüsü olması onun düşüncə qabiliyyəti ilə bağlıdır. Dərketmə təbiətdə bilavasitə hissi qavrama ilə reallaşır. Düşüncə bundan fərqli olaraq təbiətdən kənar intuitiv qavrama ilə reallaşdığından, insan mövcud olmayanları idrak etmək üçün təbiətdən çıxmağa məcburdur. İnsan fiziki mövcudluq kimi təbiətdən çıxa bilməz, çünki bütün mövcudluqlarla vəhdətdə olduğundan bu vəhdətdən kənarda yoxluğa çevrilər. İnsan yalnız ikinci tərəfi ilə - Ruhi ilə - təbiətdən kənara, metafizikaya keçə bilər ki, bu zaman onun əldə etdiyi həqiqətlər metafizik həqiqətlər olur. Ruhun təbiətin sərhədlərindən kənara çıxması insanın fiziki mövcudluğunun daxilində baş verir. Yəni insan özünə dalanda, daxili seyr ilə həqiqəti aşkarlamağa cəhd edəndə, təbiətin sərhədlərindən kənara çıxmış olur.

Biz metafizik həqiqətləri aşkarlayan müdrük insanı **sofist**, metafizik həqiqətlər haqqında elmi **sofistika** kimi təyin edirik. Sofistika qədim dövrlərdə yalan müddəa və ya məntiqə zidd olan mənasında işlənmişdir. Məntiq empirik həqiqətin tədqiq olunma qaydalarının dəstini özündə təqdim edir, amma bilavasitə həqiqəti aşkarlamır. Beləliklə, məntiqi faktdan törəyən ideyaların təfəkkürdə refleksiyası nəticəsində ağılda yaranan ideyaların qaydaları haqqında elm kimi təyin etmək olar. Məntiq faktdan törəyən ideyaların təfəkkürdə refleksiyası nəticəsində meydana çıxan fərqli ideyalar arasında düzgün olanını təyin etməyə xidmət edir, yəni məntiq həqiqət haqqında mübahisənin ümumi qanunlarından ibarət olur. Buradan da biz sofistikanı həqiqətin ümumi qəbul edilmiş ənənəvi qaydalarla - "məntiqə zidd" aşkarlanması kimi təyin edə bilərik və buna görə

də, "məntiqə zidd" sofistik müddəaların heç də həqiqətə mütləq zidd olmadığını təsdiq edə bilərik.

Məntiq "elmlərin elmi" - *scientia scientiarum* - kimi təyin olunmuşdur. Məntiq təcrübi biliklərin əldə edilməsi haqqında elm kimi şərh oluna bilər. Məntiq təbiətin seyri və onun qanunlarının tədqiqi qaydalarını müəyyən etdiyindən təcrübə ilə şərtlənmişdir. Təcrübi biliklər iki cür - hissi və demonstrativ idrakla dərk etmə ilə əldə edilir. Məntiq həqiqətin idrak prosesində yanılmalardan sığortalanmağı təmin edir. Bütün dediklərimizdən aydın olur ki, məntiq faktdan törəyən ideyaların təfəkkürdə refleksiyası qanunlarının aşkarlanmasından ibarətdir; hansı ki, əsas kimi fakt, üstqurum kimi təfəkkür çıxış edir. Məntiqə tabe olan elmlər idrak obyekti ilə obyekt-subyekt münasibətində həqiqəti yalnız təcrübədən, bilavasitə hissi qavranılan idrak obyektindən əldə edirlər. Təbiətdə hissi qavranılan idrak obyektləri aşağıdakı ümumi şərtlərə tabe olur:

- a) Mümkünlüklər yalnız zərurətə görə mövcudluq əldə edərək təbiəti təşkil edirlər.
- b) Təbiətdə hər şey dəyişilmədədir.
- c) Təbiətdə bütün mövcudluqlar yalnız vəhdətdə mövcuddur.
- d) Təbiətdə mövcudluqlar məkan və zamanda sıralar şəklində mövcud olur.
- e) Təbiətdə fikrən ayrılıqda götürülmüş tək şey sərhədlidir (qapalıdır).
- f) Təbiətdə mövcudluqlar birtəbiətlidirlər.

Bəs sofistika məntiqə zidd olmaqla necə həqiqətin aşkarlanmasına xidmət edir? Sofistikanın məntiqə zidd olması özündə metafizik aləmin təbiətdən fərqli qaydalara tabe olmasını əks etdirir. Yəni metafizik aləm təbiətin idrak olunması qaydalarında idrak oluna bilməz. Metafizik statuslu obyektlər təbii obyektlərdən fərqli olaraq aşağıdakı ümumi şərtlərə tabe olur:

1. **İntuitiv idrakla dərk edilmə:** Metafizik həqiqətlər yalnız intuitiv idrakla - təfəkkürün özü-özündən, xalis ağıldan törəyən ideyalarla dərk edilir.
2. **Mövcudluğu olmayan mümkünlüklər kimi müəyyənləşmə:** Metafizika mövcudluq əldə etməmiş mümkünlüklərdən təşkil olunduğundan, metafizik bilgilər təsadüfə görə aşkarlanan bilgilərdən ibarət olur.
3. **İdrak obyektlərinin sabitliyi:** Metafizikada (təbiətdən fərqli olaraq) yalnız təsadüfə görə mümkünlük mövcud olduğundan dəyişilmə istisna olunur.
4. **Vəhdət təşkil etməmək:** Metafizik statuslu obyektlər mövcud olma əldə etmədiklərindən bir-biri ilə vəhdət təşkil etmir.
5. **Sıra təşkil etməmək:** Metafizik obyektlər eyni anda müxtəlif yerlərdə olduğundan onlar çoxluq təşkil etməyən təklər kimi mövcuddur.
6. **Sərhədsizlik:** Metafizik obyektlərin sərhədi olmadığından onlar sonsuzdur.
7. **Çoxtəbiətlilik:** Metafizik statuslu obyektlər çoxtəbiətlidir.

Həqiqətin təbiətin qanunlarından - məntiqin tabe olduğu qanunlardan - fərqli formulyasiya olunmuş fikir kimi aşkarlanması sofistika kimi meydana çıxır. Məsələn, təbiətdə 2+2=4 müddəası istənilən zaman istənilən yerdə düzdür. Amma metafizik aləmdə (məsələn, bir kvant eyni anda müxtəlif yerlərdə ola bildiyindən) 2+2=4; 2+2=0; 2+2=6 və s. ola bilər və bu zaman hər üç müddəa eyni zamanda düz olur. Beləliklə, metafizik həqiqətlər hər hansı şərtsiz aşkarlanan həqiqətlərdir. Sofistikada eyni bir həqiqət fərqli, hətta bir-birinə zidd şərtlərdə düzgün aşkarlanır. Buradan da sofistik həqiqətlər üçün ümumi qanunauyğunluq müəyyən etmək mümkün olmur. Beləliklə, məntiq təcrübi elm kimi yalnız təbii statuslu obyektlərin idrakının qaydalarını özündə təqdim etdiyindən, metafizik həqiqətlərin aşkarlanması qaydalarına şamil oluna bilməz.

İlk sofistlər e.ə. V əsrdə fəlsəfi məktəblərin yarandığı dövrlərdə meydana çıxmışlar. Sofistika fəlsəfədən sonrakı və kollektiv şüurdan əvvəlki idrak mərhələsi olub, mövcud olanların həqiqətlərini inkar etməklə və ya onlara laqeyd qalmaqla mövcud olmayanların həqiqətini aşkarlamağı özündə təqdim edir. Sofistika fəlsəfədən bir çox fərqli xüsusiyyətlərə malikdir. Birincisi, sofistika ayrılıqda bir şəxsə məlum olan mövcud olmayanların həqiqətlərindən ibarətdir. Sofist həqiqəti axtarmaqdan imtina edir. Həqiqəti yalnız təcrübədə axtarmaq mümkündür. Metafizik həqiqətlər bilavasitə - forma olmadan - aydınlaşdığından, onları axtarmağa da əsas qalmır. Beləliklə, həqiqəti tapmaq onu özündən yaratmaq deməkdir. Sofistlər belə hesab edirdilər ki, həqiqəti biliklə - təbiəti öyrənməklə - əldə etmək olmaz, ona görə də onlar təbiət haqqında bilgiləri vacib hesab etməmiş və onlardan imtina etmişlər. Sofistika pisləşmiş həqiqətin yaxşılaşdırılması ilə qələbə qazanmaq kimi şərh edilə bilər (Eristika prinsipi). Sofist ikisi birlikdə təbiəti təşkil edən vasitəni və idrak mühitini dəf etməklə, metafizikaya keçməklə, həqiqəti pisləşmədən azad edir, onu yaxşılaşdırır.

Sofist - Allah həqiqəti yaratdığı kimi, ona oxşar, özündə həqiqət yaradır. Rassel belə hesab edir ki, əgər biz iki rəydən hansının **yaxşı** olduğunu təyin etmək istəyiriksə, onda biz dərhal mütləq həqiqət ideyasına qayıtmalıyıq. Buradan da sofistlə Allahın ideya yaradıcılığı arasında fərq meydana çıxır. Allahın yaradıcılığı sofistin ideya tapmasının ölçüsü kimi çıxış edir. Mütləq həqiqət - ən yaxşı ideyadır. Burada "yaxşı" sözü entropiyaya məruz qalmamağı, nisbiləşməməni, yəni mütləqliyi özündə ifadə edir.

Metafizik həqiqətlərin dərəcələnmədiyindən yalan və səhv olması istisna olunur. Rasselin də fikrindən göründüyü kimi sofistik həqiqətin düzlük, dəqiqlik xarakteristikası yoxdur. Ona görə də metafizik həqiqətlər mövcud olduqlarına görə düz və dəqiqdir. Məhz buna görə də Allah haqqında ideyanın mövcudluğu Allahın varlığı haqqında fikrin ya-

lan olması haqqındakı ideyaların mövcudluq ehtimalını belə istisna edir; yəni, əgər metafizik olaraq Allah ideyası aşkarlanıbsa, o heç bir halda yalan və ya səhv ola bilməz. Buradan da Nitsşenin məşhur fikrinə - *"İnsan Allah olmaqdan dayandıqda, Allah ölür"* fikrinə aydınlıq gətirmək olar. Bu fikir insanın intuitiv idrakı olmadan Allahın varlığının kəşfinin mümkünsüzlüyünü özündə ifadə edir.

Beləliklə, xalis müdrüklüklə aşkarlanan həqiqəti biz **Metafizik həqiqət** kimi təyin edirik. Metafizik həqiqət dəqiqliyinə, düzgünlüyünə və aydınlığına görə cari, elmi və fəlsəfi həqiqətlərdən fərqlənir.

Cari həqiqət - təbiətdəki fikrən ayrılıqda götürülmüş tək fərdi şeydən konkret fərdin aşkarladığı orijinal həqiqətdir.

Elmi həqiqət - təbiətdəki eyni bir çoxluq təşkil edən fərdi şeydən abstrakt çoxlu şəxsin aşkarladığı həqiqətdir.

Fəlsəfi həqiqət - elmi həqiqətlərin hüdudlarını ləğv edərək, vəhdətdə sonsuz çoxluqda aydınlaşan həqiqəti dərk etməklə ən ümumi həqiqəti aşkarlayır.

Metafizika total idrak obyekti kimi təbiətin sərhədlərini dağıdır və təbiətlə metafizikanın vəhdət təşkil edən həqiqətini - mütləq nisbi həqiqəti (ən yaxşı həqiqəti) aşkarlamağa cəhd edir.

İstəmək - istəmək sözü nəyinsə varlığını ağıla gətirməyi özündə ifadə edir. Yəni istəmək "indi və burada" olmayanın "indi və burada" olmasını özündə ifadə edir. Allahın istəməkliyi total İndi kimi zaman və total Burada kimi məkanda olmayanın olmasını özündə ifadə edir. Əgər Allah məkan və zamanı - varlığın şərtlərini yaradırsa, deməli O özü hər cür şərtsiz yaradır. Biz bunu - qeyri-şərtsiz yaratmağı - **Allahın Mütləq Azadlığı** kimi təyin edirik.

Haşiyə: B.Spinoza, "Allah, İnsan və onun xoşbəxtliyi haqqında qısa traktat":

"Həqiqi azadlıq yalnız ondan ibarətdir ki, ilk səbəb oyandırılmır və heç bir başqa şeylə məcbur edilmir və yalnız öz təkmilliyindən bütün təkmilliklərin səbəbidir."

B.Spinozanın fikirlərindən belə nəticəyə gəlmək olar ki, mütləq azadlıq "həmişə oyaq" olan azadlıqdır; ona görə onu oyandırmağa səbəb və vasitə yoxdur. Əgər ilk səbəb "oyandırılırsa", deməli o yatmış vəziyyətdə olur. Əgər O özü İlkdirsə, onda özündən əvvəl heç nə olmadığından oyanmasının səbəbi yoxdur. Buradan da əbədi oyanıqlıq vəziyyətini İlahi azadlığın bir əlaməti kimi təyin edə bilərik. İlk səbəb "məcbur edilmir"; əgər məcbur edilsəydi, məcburiyyətin dərəcəsindən asılı olaraq ilk səbəb müxtəlif təkmillikdə olardı.

İstəmək Allahın digər bir xüsusiyyəti - **Bəsirətdir**. Hər bir şey necə ki var, əbədi mövcudluğa cəhd edir. Şeylər sonlu olduğundan əbədilik şeydən elə sonsuzluqdadır ki, mövcud olan öz mövcudluğunun sonunu "görə" bilmir. Amma Allah hər şeyi yaratdığından yaratdığının əvvəlini və sonunu Özü müəyyən edir. Məhz bu Allahın bəsirəti kimi, hər şeyi görmək qabiliyyəti kimi meydana çıxır.

Varlığın özündə nümayiş etdirdiyi onun özündə aydınlaşdırdığı həqiqət olduğundan, Allahın istəməkliyini Mütləq Həqiqət kimi təsəvvür edə bilərik. Varlığın yaranışını istəmək - Allahın özü-özündə mütləq eyniliyi ilə əkslik kimi özündən mütləq fərqlilik yaratmaq gücünü özündə ifadə edir.

Haşiyə: Aristotel, "Metafizika":

"Mümkünlük bir mənada zərurətlə yalan olmayanı ifadə edir, digər tərəfdən - həqiqi mövcudluğu, üçüncü tərəfdən - həqiqət ola biləcəyi göstərir."

Aristotelin mümkünlük haqqında fikirlərindən görünür ki, mümkünlük (yəni Allahın istədikləri) üç halı özündə ifadə edir:

1. **Zərurətlə yalan olmayan:** Zərurətlə yalan olmayanı zərurətlə yalan olanın əksliyi kimi təyin edə bilərik. Yəni əxlaqi və əqli yanılma ilə

əldə edilməsi mümkün olmayan həqiqət zərurətlə yalan olmayan - mümkünlükdür. Belə mümkünlük idrak prosesindən asılı olmadan mövcud olan mümkünlükdür. Məsələn: Kainatda olan bütün mövcudluqlar zərurətlə yalan olmayan mümkünlüklərdir.

2. **Həqiqi mövcudluq:** Həqiqi mövcudluq forma ilə mahiyyətin vəhdətindən ibarətdir. Burada forma ilə mahiyyətin vəhdətindən forma - hissi təfəkkürün başlanğıcı kimi çıxış etdiyindən, həqiqi mövcudluq kimi mümkünlüyü hissi idrak olunan mümkünlük kimi təyin edirik. Məsələn: bütün gerçəkliklər həqiqi mövcudluq kimi mümkünlükdür.

3. **Həqiqət ola bilmək:** İnsanın hissi təfəkküründən kənarda olan, amma zərurətlə yalan olmayanlar belə mümkünlüklərdən ibarətdir. Belə mümkünlüklər təcrübədən yox, bilavasitə təfəkkürün özü-özündən nəzəriyyə ilə aşkarlanan həqiqətlərdən ibarətdir. Məsələn: insan ağlında nəzəriyyə ilə aşkarlanan bütün ideyalar həqiqət ola biləcək mümkünlükdür.

Beləliklə, Allahın İstəyi mövcudluqlarda, gerçəkliklərdə və ideyalarda təzahür edir.

YARANIŞ - NATURA - İLAHİ BACARIQ

"Allah istəmişdir və istədiyini yaratmışdır" müddəasındakı "yaratmışdır" ifadəsi İlahi Bacarığı - qabiliyyəti özündə ifadə edir. Yaranış "yaratmaq" sözündən əmələ gəldiyindən, yaratmaq sözünün ayrı-ayrı mənalarından onun mahiyyətini anlamaq olar. Yaratmaq sözünün aşağıdakı mənaları vardır:

1. **Varlıq vermək:** Varlıq dərkolunanlıq keyfiyyətidir. Allah öz yaratdıqlarına ideya-həqiqət verməklə onlara *intelligibillik* (intellektebellik) - dərkolunanlıq xarakteristikası verir ki, bu da idrak obyekti statusunu təşkil edir. O şey ki, idraka təqdim olunmur və ya özündə intelligibilliyə malik olmur, biz onu varlıq, yəni var olan kimi təyin edə bilmirik. Bu mənada yaratmaq hər hansı bir idrak obyektinə status vermək, yəni onu idrak üçün təsəvvür olunan etmək mənasını verir. Varlıq yalnız intelligibilliyi olmayana, yəni Yoxluğa verilə bilər. Bu mənada yaratmaq, Yoxluqda olmayan xarakteristikaları ona vermək deməkdir. Yoxluq - idrak statusu olmayan, yəni idraka təqdim olunmayan kimi təyin oluna bilər. Təsəvvür idrak obyektinin refleksiyası nəticəsində təfəkkürdə yarandığından, idrak obyektlərində olan status təsəvvürlərin əsasını, başlanğıcını özündə təqdim edir. Beləliklə, varlıq vermək təsəvvürlərin əsasını yaratmaq və ya birincili, ilkin təsəvvür yaratmaq deməkdir.
2. **Fikrən təşkil etmək:** Bu mənada yaratmaq - təbiətdənkənar fəaliyyət kimi xalis zəkada, fikirdə ideyalardan həqiqəti quraşdırmaq, "uydurmaq" mənasını verir. Allahın bu mənada yaratması varlığın ideyalarının - mahiyyətin varlığının İlahi Ağıldan törəməsini özündə ifadə edir. Yəni İlahi yaradıcılıq Allahın ağlından törəyən, fikrən ideyalardan təşkil olunmaqlığı özündə ehtiva edir. Buradan da

mövcudluqların formalaşması avtonomluq xarakteristikası əldə edir və forma heçlik olduğundan yaranışda forma meydana çıxmır.

3. Yerinə yetirmək: Bunun iki fərqli mənası vardır. Birincisi, yaratmaq icra etməklə bağlıdır. İcra etmək - fikrən təşkil edilənin felən təşkil edilməsindən ibarətdir. Yerinə yetirmək həm də məkanda olmayanı məkanda yalnız ona xas olan yerə qoymaq deməkdir. Allahın yaratması varlıqların məkanda bəlli yer tutması, yəni ölçülənməsi və ya sonsuzluqdan sonluluğa keçməsi kimi baş verir.

4. Düşünmək: Düşünmək təbiətdənkənar xalis zəkada bir ideyadan başqa ideyanı yaratmaq mənasını verir. Bir ideyadan başqa ideyanin yaranması həmin ideyaların vəhdətini meydana çıxarır. Beləliklə, bu mənada yaratmaq vəhdətə gətirməkdən ibarət olur. Yəni İlahi yaradıcılıqda hər şey vəhdətdə yaradılır, hansı ki, ilahi təkliyin refleksiyası kimi mövcud olur.

5. Hesab etmək: Bir şeyin özündən əldə edilən ideyalarla yox, yalnız xaricdən ona şamil edilən ideya ilə dərk edilməsi "hesab etmək"dir. Allah öz yaradıcılığını yaranışdan qabaq heç bir şey olmadığından yalnız hesab etməklə, yəni özündən ideyaları varlıq formalarına müncər etməklə, onlara məna verməklə (yəni konkret varlıq hesab etməklə) yaratmışdır. Hansı ki, Allahın hesab etdiyi varlığın mahiyyəti kimi insan tərəfindən onun özündən idrak olunur.

6. Yoxluqdan var etmək: Bu mənada yaratmaq məkan və zamanda olmayanı və ya məkan və zamanla şərtlənməyəni məkan və zamana gətirmək, onları məkan və zamanla şərtləndirməkdən ibarətdir. Başqa sözlə, yaratmaq hissən qavranılmayana hissən qavranılan xarakteristikası verməkdir. Yəni obyektlə subyektin vəhdətini təşkil etmək deməkdir. Mümkünlüyün mövcudluğa keçidi "yoxdan var olmaq", yəni mövcudluğu olmayan varlığın mövcudluğu olan varlığa keçməsi kimi təzahür edir. Bu mənada yaratmaq mümkünlüyü mövcudluğa keçirməkdən ibarətdir. Biz bunu metafizikadan fizikaya keçid kimi adlandıra bilərik. Bu cür yaratmaq mövcudluqlara aiddir, hansı ki,

varlıq verilənlərdən fərqli olaraq, həm də dolayısı ilə forma, yəni bilavasitəlik verilir. Allah ideyaları özündən törədir, sonra həmin ideyalar emanasiyaya məruz qalaraq forma əldə edir və bilavasitə idrak obyekti statusu qazanırlar. Bu mənada yaratmaqda Allah yalnız dolayısı ilə iştirak edir.

7. İxtira etmək: İxtira mövcud şeylərdən mövcud olmayan mexanizmi yaratmaqdır. İxtira üçün qabaqcadan əsas olmalıdır. Allah ixtira etmir, çünki O, qabaqcadan olmayandan nəsəni yaradır. Bu mənada yaratmaq (yəni ixtira etmək) yalnız insana xasdır.

Beləliklə, biz yaratmaq sözünün mənalarından İlahi Yaradılışı - Allahın fikrən öz mütləq ağlından törəyən ideyaları təşkil etməklə obyektlərə idrak obyekti statusu verməsi, onları Yoxluqdan vəhdətdə var etməsi kimi təyin edə bilərik.

Məntiq elmində obyektin və subyektin (qrammatik mübtəda kimi) təyini predikatla - predmetə xas olan sifətlə (qrammatik sifət kimi) müəyyənləşdirilir. Allah obyekt və ya subyektlə eynilik təşkil etmədiyindən (yəni Allah mübtəda kimi çıxış etmədiyindən), obyektin və subyektin təyin edilmə üsulu ilə təyin edilə bilməz. Buna görə də, Allahı predikatdan müəyyənləşdirmək mümkün deyil, yəni Allahın predikatı (sifəti) yoxdur. Məntiq elmində həm də predmetin təyin edilməsində predikabiliyadan - predikatın əksiliyindən istifadə olunur. Predikabiliya - Aristotel məntiqində xəbərin növlərini ifadə edən anlayış kimi qəbul edilmişdir. Transendental fəlsəfədə İ.Kant predikabiliyanı xalis zəkanın həqiqi əsas anlayışları kimi kateqoriyaların malik olduğu, heç bir halda transendental fəlsəfənin tam sisteminə buraxılmamalı, onlardan xalis törəmə anlayışlar kimi qəbul edir. İ.Kant predikabiliyalara gücü, fəaliyyəti, əzabı, iştirakçılığı, əks-təsiri, əmələgəlməni, itməni, dəyişməni və s. aid edir. Göründüyü kimi, predikabiliya qrammatik feli sifət kimi çıxış edir, hansı ki, idrak obyekti yalnız onun felindən - hərəkətindən təyin olunur. Allah obyekt və subyektə xas xarakteristikaları özündə

inkar etdiyindən (məhz buna görə öz növbəsində obyektdən və subyektdən inkar olunan olur), Allahın təbiəti haqqında məlumatı yalnız onun fellərindən - yəni onun fəaliyyətindən, hərəkətindən, iştirakçılığından, özünün öz halını dəyişdirməsindən müəyyənləşdirmək olar. Elmdə də bəzən belə üsuldan istifadə edirlər. Məsələn, biologiya elmində "sürünənlər fəsiləsi" anlayışı özündə bu canlıların hərəkət formaları ilə təyin olunduqlarını bildirir. Allahın əsas felini "öz istədiklərini yaratmaq" kimi təyin etmək olar.

Rasional teologiyanın ikinci postulatını "Yaradan varsa yaradılan var, yaradılan varsa yaradan var" kimi müəyyən etmək olar. Bu postulata görə, əgər qəbul ediriksə ki, təbiətdəki hər şey yaradılıb, onda onun Yaradıcısının olduğunu da qəbul etmək lazım gəlir. Və ya əgər biz aprior olaraq Yaradıcı Gücün mövcudluğunu qəbul ediriksə, onda onun yaratdıqlarının mövcudluğunu da qəbul etməliyik. Əgər hər hansı bir əsər varsa, deməli onun müəllifi - yaradıcısı da olmalıdır; əgər yaradıcı şəxs varsa, deməli onun yaratdığı hansısa əsər də mövcud olmalıdır. Əks halda əsərsiz şəxsin yaradıcı olduğunu və ya yaradıcı şəxs olmadan yaradılmış əsərin mövcudluğunu qəbul etmək mümkün deyildir.

Reallıqlar aləminin - təbiətin - yaradılan olması aprior mühakimədir. Belə ki, biz təbiət sferasında ola-ola təcrübədən - posterior olaraq, onun yaradıldığını deyə bilmərik. Təbiətin yaradıldığını demək üçün mütləq onun başlanğıcına nüfuz etmək lazımdır, bunun üçün təcrübənin sərhədlərindən çıxmaq, yəni transendensiya etmək lazımdır. Təbiətdən çıxmaqla biz metafizikaya keçirik. Buradan da yaranma metafizik proses kimi təyin olunur.

Yaranma - mahiyyətin varlığından mümkünlüyün varlığına keçmədir. Mahiyyətin varlığı - həqiqətin ideya forması almaq imkanıdır. Biz bu imkanı başlanğıc və ya birincili imkan adlandırırıq, hansı ki, mütləqdir, yəni heç nə ilə şərtlənməmişdir. Mütləq imkan özündə İlahi İradəni təqdim edir. Mümkünlüyün varlığı - fikir kimi ifadə oluna biləcək

ideyanın mövcudluğudur. Mümkünlüyün varlığı faneronlardan ibarətdir. C.S.Pirs faneronu "belə və ya başqa cür, bu və ya başqa mənada mövcud (*is present to*) şüur olan hər şeyin ümumi məcmusu, hər hansı reallığın mövcudluğa uyğun gəlib-gəlməməsi" kimi təyin etmişdir; hansı ki, ingilis fəlsəfəsində ideya kimi qəbul edilən anlayışa yaxındır. Faneron - fenomenlərin əsası və ya ilkin başlanğıcını özündə təqdim edir. Beləliklə, Allahın istəyi (həqiqət) Onun İradəsi ilə (mütləq imkanla) ideya forması alaraq mümkünlüyün varlığı kimi meydana çıxır. Öz növbəsində, mümkünlüyün varlığı ikincili imkanla mövcudluğun varlığına - mümkün varlığa keçir. İkincili imkan mövcudluğa meyl edən mümkünlüklərin birbirinə təsirindən meydana çıxan imkandır və başqa mümkünlüklərin mövcudluq meyli ilə şərtlənmişdir. Bununla da yaranma prosesi başa çatır və əmələgəlmə prosesi başlayır, yəni təbiət meydana çıxır. Metafizika - yaranma ilə, təbiət - əmələgəlmə ilə aktuallaşır.

Yaradanın olmasını, yəni özündən xaricdə səbəbin olmasını inkar etsək, onda qəbul etməliyik ki, hər şey özü-özünü yaradır, yəni yaranma immanent prosesdir. Əgər hər bir şey özü-özünü yaratsaydı, onda bir şeydən başqa şeyin törəməsinə səbəb olmazdı, yəni əmələgəlmə mümkün olmazdı. Təbiətdə seyr edilən əmələgəlmənin mövcudluğu onu göstərir ki, heç nə özü-özündən yaranmır. Yəni yaranış immanent proses deyil, xaricidir. Hər bir şey özünə münasibətdə xarici proseslə yaranır. B.Spinoza yaradanı *Natura naturans* (yaradıcı təbiət) kimi, yaradılanı *Natura naturata* (yaradılan təbiət) kimi təyin etmişdir.

Yaradıcı təbiətlə yaradılan təbiətin qarşılıqlı münasibətindən iki müddəa meydana çıxır:

- **Birincisi:** Yaradanla yaradılan eyni təbiətli ola bilməz, buna görə də fərqli aləmlərdə yerləşirlər ki, bu aləmlərin qanunauyğunluqları birbirindən fərqlənir. Yaradanın qanunauyğunluqları aşkarlanması mümkün olmayan qanunlardan, yaradılanların qanunları aşkarlanması nisbi mümkün olan qanunlardan ibarətdir. Bunun əksinə, eyni təbiətli

olsaydılar, onda eyni məqamlı olduqlarından bir-birini qarşılıqlı yaradardı. Əgər yaradılan yaradılmamışdırsa, yəni Yaradanla eyni məqamlıliq təşkil edirsə, onda yaradılan (insan) necə Yaradanı (Allah ideyasını) yarada bilərdi? İnsanın Allah ideyasına yiyələnməsi Allahın insandan əvvəl olduğunu və onun Yaradıcısı kimi çıxış etdiyini göstərir; hansı ki, sonradan insan təfəkkürdə öz Yaradanının ideyasını ikincili olaraq yaradır.

- **İkincisi:** Yaradanla yaradılan bir-biri ilə yaranma prosesi ilə rabitədədir. Yaranma yaradılanla Yaradanı bir-birindən sərhədləndirən, ayıran proses kimi mövcuddur və bu prosesin qütbləri də təbii olaraq bir-birindən fərqli təbiətdədirlər, əks halda fərqli qütblər təşkil etməzdilər. Allah yaranışın başlanğıcında, varlıqlar (yaradılanlar) yaranma prosesinin sonundadırlar. Yaradıcı təbiət mahiyyət etibarilə xalis zəkaya bənzərdir, hansı ki, özündə özündən fikir yaradır. Xalis zəkada yaranan fikirlər zəkanın öz təbiətindən əmələ gəlir. Buradan çıxış edib deyə bilərik ki, Yaradan yaradılanı öz təbiətindən, amma eynilik kimi yox, fərqlilik kimi yaradır.

Fəlsəfə və elmdə Kainatın yaranması haqqında ümumi qəbul edilmiş təsəvvür yoxdur. Mövcud təsəvvürlərin çoxluğu və müxtəlifliyi elmin və fəlsəfənin bu məsələ ilə bağlı həqiqəti hələlik birmənalı şəkildə aşkarlamadığını göstərir.

Biz Yaranışı İlahi Sükunətin - özü-özü ilə əbədi, sonsuz və mütləq eynilik vəziyyətinin pozulması - Əbədi hərəkətliliyin, yaradıcı fəaliyyətin aydınlaşması kimi təsəvvür edirik. Yaranışın başa çatması İlahi Sükunət istiqamətində əks prosesin, İlahi Sükunətin Bərpasının başlanmasını özündə təqdim edir. Biz birinci prosesi metafizik olaraq Yoxluqdan Varlığın çıxması (yaranış) kimi, ikinci prosesi bir varlıqdan başqa varlığın çıxması (əmələgəlmə) kimi təsəvvür edirik. Əmələgəlmənin başa çatmasını özündə təqdim edən hər bir şey əbədi sükunətə meyl edir. Əmələgəlmə metafizik olaraq Kainatın qurulmasını özündə əks etdirir, hansı ki, Metafizikanın Kosmoqoniya bölməsi məhz bu bilgiləri özündə

təqdim edir və etməlidir. İstər İlahi Sükunətin pozulması, istər yenidən bərpası müxtəlif səviyyələrdə baş verərək, bütünlükdə bir-birinin içərisində olan, çoxsəviyyəli aləmləri özündə təqdim edir ki, bir aləm başqa aləmdən öz qanunauyğunluqlarına görə fərqlənir. Metafizika başlanğıc aləmi və sonrakı aləmlərin başlanğıcları haqqında bilgiləri aşkarlamağa cəhd edir.

Özündə həqiqəti aydınlaşdıran bütün vasitələr - vasitə olduqlarından, konkret bir məqsəd üçün (özlərindən hissəvi həqiqətin aydınlaşması üçün) yaradılmışdır. Beləliklə, varlığın vasitə olması, varlıq özü-özünün məqsədi olmadığından, onun müəyyən məqsəd üçün yaradılmasını şərtləndirir. Yəni yaranışı istənilən varlığın başlıca xarakteristikası kimi təyin etmək olar. Başqa sözlə, istənilən varlıq yaradılmışdır. Əgər varlıq yaranışın nəticəsidirsə, onda yaranışın - mövcud olanın mövcudluğunun - səbəbi vardır və bu səbəb ondan üstün və ondan əvvəl olmalıdır ki, onu yarada bilsin. Yuxarıda qeyd etdiyimiz kimi, əgər yaradılan Yaradanla eyni olsaydı, Yaradan yaradılanı yaratdığı kimi, yaradılan da Yaradanı yaradardı. Yox əgər, Yaradan yaradılanla eyni anda mövcud olsaydı, onda yaranış baş verməzdi. Başqa sözlə, yaradılan varsa, onda onu Yaradan da vardır; yəni mövcud olan varsa, onda ondan əvvəl, onu mövcud edən Güc də mövcuddur. Biz Gücü yaranış prosesini aktuallaşdıran metafizik anlayış kimi və idrak üçün aşkarlanmayan həqiqətlərdən biri kimi təsəvvür edirik.

Yaranışı iki cür təsəvvür etmək olar:

- **a. Daxili güclə yaranış:** Varlıq aləmində hər bir mövcudluğun özünəxas daxili gücü vardır, amma eyni zamanda başqa varlıqlarla vəhdətdə, həm də özünə münasibətdə, xarici güclərin təsiri altındadır. Əgər varlıq yalnız öz daxili gücü ilə mövcud olsaydı, onda ondan kənarda heç bir xarici güc ola bilməzdi və varlıq bir total tamdan ibarət olardı. Amma mövcud olanlar yalnız bir-biri ilə vəhdətdə varlığı bir tam kimi təqdim edir; özü-özlüyündə tam varlıq mövcud deyil.

Buna uyğun, tam varlıq da öz növbəsində tam xarici gücün təsiri altında olmalıdır. Daxili güclə yaranış məqsəddən - öz daxili potensiyasından - yaranan yaranışdır. Materializm məhz yaranışı bu cür müəyyənləşdirir. Yəni materializmə görə materiya bir vasitə kimi özündə aydınlaşan həqiqətdən - özü-özündən - yaranıb. Ona görə materiya ilk başlanğıc və son olub, əbədidir. Əgər belə olsaydı, yaranışın əksiliyi kimi məhvolma da mövcudluğun özü-özündən təzahür edərdi. Bu da əksiliklərin ziddiyyəti qanununa zidd olardı. Yəni mövcud olan bir-birinə əks olan iki eyni güclə, eyni anda mövcud ola bilməz. Əgər məhvolma gücü mövcudludan xaricdədirsə, onda yaranış gücü də ondan xaricdə olmalıdır. Mövcudolma isə bu güclərin mübarizəsinin nəticəsi kimi təzahür edir.

- **b. Xarici güclə yaranış:** Hər bir mövcudluq özündə vasitə olduğundan konkret məqsədə - həqiqətin aydınlaşmasına xidmət edir. Həqiqətin aydınlaşması Ali İradə ilə aktuallaşdığından, bu iradənin Allaha xas olmasını deyə bilərik; yəni yaradılanlar Allah tərəfindən yaradılıb. Din və idealist fəlsəfə varlığın bu yolla əmələ gəlməsini qəbul edir. Material aləmin əsas qanunu səbəb-nəticə əlaqəsinə, yəni determinizmə görə hər bir səbəb özündən kənarda bir nəticəyə gətirib çıxarır. Təbiəti total nəticə kimi təyin etsək, onda onun total səbəbi ondan kənardadır, yəni metafizik aləmdədir. Biz yaranışın xarici güclə, yəni mövcudluqdan kənar güclə baş verdiyini qəbul edirik. Beləliklə, metafizikanın ikinci mühüm anlayışı kimi - "nə"ni (Varı) və "heç nə"ni (Yoxu) yaradan və Yoxu Vara, Varı Yoxa çevirən güc kimi Yaradanı aşkarlamış oluruq. Yaradanın əsas xarakteristikası yaratmaq olduğundan və yalnız Yaradan yaratmaq xarakteristikasına malik olduğundan, Yaradan özlüyündə yaradılmayan olur. Beləliklə, metafizikanın çıxış nöqtəsi kimi yaranmanı qəbul etmək olar. Mövcud olanlar yaranmadan sonra varlığı təşkil etdiyindən, metafizika isə yalnız varlıqdan həqiqəti aşkarladığından, metafizika mövcud olanlara laqeyddir.

Bəs yaranış necə baş vermişdir? Metafizika Varlığın yaranışından başlayaraq həqiqəti aşkarlamağa cəhd edir. Ona görə də yaranış metafizika ilə dinin sərhədini təşkil edir. Belə ki, yaranışdan əvvəlki haqqında məlumat dini şüurla, yaranış və yaranışdan sonrakı (yaranışdan əmələgəlməyə qədərki) məlumatlar metafizikanın predmetinə daxil olur.

Yaratmaq iqtidarında olmaq - bacarmaq - qabil olmaq (*faculties*)

Allah istədiyini yaratmaq qabiliyyətinə - iqtidara malikdir. Buradan "Allah istədiyini yaratmışdır və yaratdığını istəmişdir" müddəası meydana çıxır. Əks halda Allah istədiklərini yaratmaya və ya yaratdıqlarını istəməyə bilərdi ki, bu da özündə mənasızlığı ifadə edərdi. Qabil olmağın refleksiyası fakt kimi meydana çıxır. Beləliklə, Allahın yaratmağı fakt, istəməyi akt kimi təzahür edir. Buradan da faktı və aktı metafizik anlayışlar kimi qəbul edə bilərik. Allahın yaratması mövcud varlıqlarda əmələgətirmə, mümkün varlıqda (Ruhda) qabiliyyət, imkan kimi refleksiya edir.

Haşiyə: Aristotel, *"Metafizika"*

> *"İqtidar adı ilə hər şeydən əvvəl, başqasında olan və ya nə qədər ki başqası olandır, hərəkətin və ya dəyişilmənin başlanğıcı bildirilir. İqtidar o xüsusiyyət adlandırılır ki, buna görə şeylər ümumiyyətlə təsirə məruz qalmır və ya dəyişilməyə əlçatan deyil və ya onları asanlıqla pis tərəfə meylləndirmək mümkün deyil. Başqa mənada iqtidar nəsə adlanır, əgər nəsə başqası ona münasibətdə belə növ iqtidara malikdir. Hansısa tərəfə, ya yaxşı ya pis dəyişmək iqtidarına malik olan belə adlanır. Bütün bu hallarda iqtidar haqqında ona görə danışılır ki, onun nəticəsində indicə ümumiyyətlə əmələgəlmə alınmışdır və ya əmələgəlmə yoxdur."*

Aristotelin iqtidar haqqındakı fikirlərindən Allahın yaratmaq iqtidarını şərh etməyə cəhd edək:

1. **Başqasında olan hərəkətin və dəyişilmənin başlanğıcı olmaq:** Varlıqda hərəkət və dəyişilmələrin başlanğıcı ikilidir: daxili və xarici.

Daxili başlanğıc varlığın özündən qaynaqlanır və zərurətə görə hərəkət və dəyişilmələrin əsasını təşkil edir. Hərəkətin və dəyişilmənin xarici başlanğıcı varlıqdan kənarda, başqa varlıqlardadır və təsadüfə görə hərəkət və dəyişilmələrin əsasını təşkil edir. Bütün varlıqların hərəkət və dəyişilmələrinin həm daxili, həm xarici başlanğıclarının məcmusu başlanğıcların başlanğıcında, yəni İlahi təbiətdədir. Yəni Kosmosda mövcud olan bütün hərəkətlər və dəyişilmələrin başlanğıcı Kainatdan kənarda - Allahdadır. Bu, Allahın iqtidarlığı kimi təzahür edir.

2. **Təsirə məruz qalmamaq və dəyişilmələrin əlçatan olmaması:** Vəhdətdə olan şeylər bir-birinə qarşılıqlı təsir edir. Çünki bir şeyin təsirə qalması üçün başqa şeyin mövcud olması tələb olunur. Yalnız vəhdətdən kənar olan heç bir təsirə məruz qalmır. Allah Vahid olduğundan, yəni heç bir şey Allahla vəhdət təşkil etmədiyindən və Allah özü-özündə vəhdət təşkil etdiyindən, ona təsir edəcək başqası olmadığından Allahın başqasının təsirinə qalmaması onun iqtidarlığını göstərir. Dəyişilmə ya yaxşılaşma, ya pisləşmə imkanını göstərir. Yaxşılaşma istiqamətində dəyişilmə daxili güclə reallaşır. Allah mütləq kamil olduğundan onun yaxşılığa doğru dəyişilmə meyli yoxdur. Pisləşmə istiqamətində dəyişilmə xarici təsirlərdən baş verir; Allaha xarici təsirlər olmadığından o pisləşmir. Əmələgəlmə yaranışdan alınır. Əgər iqtidar "indidə əmələgəlmə" anını bildirirsə, onda yaranışı Allahın iqtidarı kimi təyin edə bilərik.

Allahın yaratması mövcud varlıqlarda əmələgətirmə, mümkün varlıqda qabiliyyət kimi refleksiya olunur.

Allah İdeyasının - bütün ideyaların totallığı kimi çıxış edən başlanğıc ideyanın - əbədi və sonsuz var olması Yaranışın idrak olunmasını özü-özündə zərurətə çevirir. Yəni insan Allah İdeyasını özündə aşkarladığı an Yaranış haqqında həqiqətə istiqamətlənmişdir. Buradan Allah ideyası ilə Yaranışın vəhdət təşkil etdiyini deyə bilərik. Yəni Yaranışsız Allah ideyası, Allah ideyasız Yaranış ayrılıqda idrak olunmazdır. İnsan Allah

ideyasını özündə idrak etməyə istiqamətləndikdə, başlanğıcların başlanğıcını, yəni yaranışın qanunlarını özü üçün aşkarlamağa cəhd edir.

Haşiyə: Benedikt Spinoza, "Metafizik fikirlə olan əlavələr":

> *"Yaranış - heç bir səbəbin çıxış etmədiyi fəaliyyətdir; fəaliyyət göstərən və ya yaradılan şey mövcudluğu üçün Allahdan başqa heç nəyi təklif etmir."*

B.Spinozanın "heç bir səbəbin çıxış etmədiyi" fikrindəki səbəb ikincili səbəbə - başlanğıc səbəbin səbəblərini özündə ifadə edir. Yəni bu fikri belə anlamaq olar ki, yaranış səbəblər çoxluğundan yox, tək bir səbəbdən - Allahdan meydana çıxır ki, buna görə də "yaradılan şeyin mövcudluğu üçün Allahdan başqa heç nəyi təklif etmir".

Yaratmaq - "heç nə"dən, Yoxluqdan, səbəbsizlikdən "nə"ni - nəticəni təzahür etdirməkdir. Biz "heç nə"ni Varlığın başlanğıcını idraka qapalılığı ifadə edən anlayış kimi qəbul edirik. "Heç nə"nin xarakteristikaları kimi əbədi sükunət, mütləq mənasızlıq və mütləq vakuumu (boşluğu) ayırd edə bilərik:

- **a. Əbədi sükunət:** Mütləq hərəkətsizlikdir. Hərəkəti varlığın mövcudluq üsulu kimi aşkarladığımızdan, əbədi sükunət varlığın əksiliyi kimi Yoxluğun xarakteristikası kimi meydana çıxır.
- **b. Mütləq mənasızlıq:** Şüalanmanın - həqiqət haqqında məlumatın yayılmamasının xarakteristikasıdır. Yaranış başlamadıqca yaranışın qanunları - həqiqət də mövcud olmur. Mütləq mənasızlıq yaradılmanın əksiliyidir, yəni Allahın yaratmadığı hər şey mütləq mənasızlıqdan ibarətdir.
- **c. Mütləq boşluq:** "Nə" ilə doldurulmamağın xarakteristikasıdır, hansı ki, məkanın əksiliyi kimi məkansızlığı özündə təqdim edir. Mütləq boşluq ideyaların mövcudluğunun əksiliyi kimi abstrakt təsəvvürdür. Burada mütləq boşluq mütləq məkanın əksiliyini özündə ifadə edir.

Allah "heç nə"ni heçlikdən (yəni əbədi sükunətdən, mənasızlıqdan, mütləq vakuumdan) çıxarmaqla, yəni yaratmağı başlatmaqla ona *causa transitorias* keyfiyyəti - keçid keyfiyyəti verir və bu da yaranışın mahiyyətini təşkil edir. Başqa sözlə, Yaranış məqamı - əbədi sükunətdən hərəkətliliyə, mütləq mənasızlıqdan mənalılığa, mütləq vakuumdan mütləq məkana keçid məqamıdır. Yaranışın sonrakı bütün səviyyələri keçid kimi təzahür edir və keçid Varlığın ən mühüm ümumi xarakteristikası kimi çıxış edir. *Causa transitorias* keyfiyyəti əldə edən "heç nə" "heç"likdən azad olaraq "nə"yə keçir. Biz "Nə"ni idrakın başlanması üçün zəruri olan konkret idrak miniması kimi təyin edirik. "Nə" ən kiçik mənaya, ən kiçik hərəkətə və ən kiçik məkana malik idrakın ümumi şəkildə hər üç idrak forması ilə birlikdə qavradığı "var"dır. Məhz "nə"nin idrakından sonra idrak statusuna uyğun obyektlərin idrakında fərqli üsullarla reallaşır. Bu mənada "nə"ni həm də idrakın başlanğıcı kimi təyin edə bilərik. İdrak prosesi daxili "Nə"dən başlayır. Hissi təfəkkürdə həm də idrak xarici "nə"nin olmasını tələb edir. Buna görə də, "Nə" həm də obyektin əsasını təşkil edən varlığın minimasıdır. Beləliklə, "Nə" metafizik anlayış kimi, özündə obyektin və subyektin ortaq əsasını təşkil edən, ikili təbiətli və Allahın iradəsi ilə "heç"likdən azad var olanı özündə ifadə edir.

Haşiyə: Yilyam Arntc, Betsi Ceys, Mark Busente:

> *"Dövşan yuvası və ya biz özümüz və Kainat haqqında nə bilirik" - Hiqqs hissəciyi. Bu, Kainatda olan bütün digər hissəciklərin kütləsinə bölünmüş, nəzəri olaraq söylənmiş elementar hissəcikdir. O həddən artıq "ağır" olduğundan və öz ağırlığını başqa hissəciklərlə böldüyündən - alimlər onu aşkarlaya bilmir. Onda Hiqqs hissəciyinə özünə ağırlığı nə verir? Ola bilsin ən eksentrik alimlər tezliklə, başqa hissəcikləri onların vəziyyəti (kütlə, yük, spin və s.) ilə bağlı məlumatlarla təmin edən hansısa "məlumat" hissəciklərinin axtarışına başlayacaq.*

Bizcə Hiqqs hissəciyi özündə məhz "nə"dən ibarətdir. Hansı ki, ikili təbiəti ilə bir tərəfdən ən elementar kütləni, digər tərəfdən eyni zamanda həmin kütlənin vəziyyətini ifadə edən məlumatı - həqiqəti təşkil edir.

Allah özü-özündə mütləq eynilik və əbədilik olduğundan, özü-özündən eynilik yaratması (artıq bu eynilik əbədi və sonsuz olduğundan) özü-özünü yaratması kimi mənasızlıq olardı. Allah mütləq mənalılıq olduğundan, ondan mənasızlıq çıxa bilməz. Allahın yaratdığı özündən fərqlilik - özündə Allahın istəyini - məhz bu ilahi başlanğıcı, bir tərəfdən Allaha məxsus keyfiyyəti (özü-özü ilə eyniliyi), həm də həmin keyfiyyətlə əksilik təşkil edən başqası ilə fərqliliyi özündə vəhdətdə və eyni vaxtda aşkarlayan mütləq nisbi həqiqətdir. Mütləq nisbi həqiqət xalis varlıq və ya xalis fikirdir. Xalis fikir fikirdən insan beyninin məhsulu olmaması, ondan kənarda, müstəqil şərtsiz var olması ilə fərqlənir. Beləliklə, hər hansı bir şeyin həqiqəti özündə xalis ideya və ya fikrə malik olmaqlığı ifadə edir, hansı ki, özü-özündə refleksiya etməklə həmin varlığı təsdiq edir, başqasında refleksiya etməklə onları inkar edir. Yəni, mütləq nisbi həqiqət özündə mütləq inkarla mütləq təsdiq keyfiyyətinə malik fikirdir. Mütləq nisbi həqiqət və ya ideya Allahdan fərqlilik olduğundan ondan ayrılır. Xalis fikrin Allahdan ayrılması ilə ilkin məkan yaranır. İlkin məkan varlığın proyeksiya olunduğu və varlığı Allahdan sərhədləndirən xalis ölçülülükdür. İlkin məkanın yaranması ilə mütləq nisbi həqiqət nisbi həqiqətdə refleksiya edir.

Allah istədiyi anda həm də yaratmışdır. Yəni, Allahın istəməkliyi ilə yaratması zamanüstüdür. Allahın yaratmağı özündən yoxluğa məna (yaratmaq istədiyi külli varlığın mahiyyətini) verməkliyidir. Allahın yaratmasının vasitəsi varmı və bu vasitə nədən ibarətdir? Bizim təsəvvürlərə görə, necə ki işıq mövcud varlıqları işıqlandıraraq onların xarici görüntüsünü görməyə təqdim edir, eləcə də Allahın öz işığı (Nuru) yoxluğu işıqlandıraraq mahiyyəti daxili görüntü kimi idraka təqdim edilən edir. Buradan da demək olar ki, Allah mahiyyətin varlığını öz

Nurundan yaratmışdır. Başqa sözlə, Yaranış - Allahın öz Nurundan yoxluğu, "Heç nə"ni işıqlandırması, onu varlıqların ideyasını təşkil edən xalis fikirlə doldurması, onu başlanğıc məkana çevirməsidir. Beləliklə, başlanğıcda bütün mümkün varlıqlar haqqında xalis fikir kimi Allahın yaratdıqları yoxluğu doldurmaqla başlanğıc məkanı təşkil edir; mütləq məkan mütləq vakuumun - yoxluğun əksiliyi kimi meydana çıxır. Mütləq vakuum İlahi Nurla işıqlanmama kimi xarakteristikadır. Biz mütləq vakuumu Yoxluğun totallığı kimi təsəvvür edirik. Yəni Varlığın yaradılmasına qədər İlahi Nurun işıqlandırmaması Mütləq vakuum - Total Yoxluq kimi təsəvvür etmək olar. Buna görə də məkanda yoxluq aşkarlanmır.

Xalis istəmək heç bir fəaliyyət tələb etmədiyindən (passivlik kimi meydana çıxdığından), Allahın istəyini **İlahi Passiv Güc** kimi, yaratmaq fəaliyyət tələb etdiyindən Allahın yaratmasını **İlahi Aktiv Güc** kimi təsəvvür etmək olar; hansı ki, bir-biri ilə vəhdət təşkil edərək yoxluqdan yaranışı təzahür etdirir. İlahi Passiv Güclə İlahi Aktiv Güc üçüncü bir güclə - Yaradıcı güclə əlaqələnir. Yaradıcı gücü biz İlahi İradənin Gücü - İlahi Bacarığın Gücü kimi təsəvvür edirik. Bu üç güc emanasiyaya məruz qalaraq sonda Pirsin şərhinə uyğun olaraq varlığın birincilik, ikincilik və üçüncülük moduslarının və ya Hegelin varlığın təyinlərinin əsasını təşkil edir. Ruh yalnız insanda aktuallaşdığından insan özündə aktiv gücə malikdir və onun da aktiv gücü öz istədiklərini yaratmaq bacarığı ilə məhdudlaşmışdır. İlahi zaman və məkan üstü olduğundan Onun Aktiv Gücü ilə Passiv Gücü eyni məqamlıdır, yəni bir anda və bir yerdədir. Onları bir-birindən ayırmaq və ayrılıqda təsəvvür etmək mümkün deyildir ki, bu iki gücün belə məkan və zamandan asılı olmayaraq vəhdət təşkil etməsi yaranış kimi meydana çıxır.

Passiv güclə Aktiv güc Yaradıcı Güclə əlaqələnir. Biz yaradıcı gücü estetik güc - yaradılanların seyr edilməsinə imkan verən xarakteristikanı yaradan güc kimi təsəvvür edirik. Əgər yaradıcı güc olmasaydı, İlahi Yaradıcılıqda fərqlilik meydana çıxmazdı. Allah yaranışı - başlanğıcı

(ideyanı, fikri) özündən yaradır; hansı ki, həmin başlanğıcdan asılı olaraq Varlıq avtonom - əmələgəlmə ilə Kosmosda başa çatır. Əmələgəlmə - yaranışın varlıqda ətalət üzrə avtonom davam etməsidir. Beləliklə, yaranış xalis fikirdən başlayaraq son formada - əmələgəlmə ilə başa çatır.

İlahi Güclərin özündə refleksiyasına uyğun varlığı bir-birindən fərqli üç cür təyin etmək olar. Həmin təyinləri yeni terminlər yaratmadan, Hegelin varlıq təyininə uyğun, aşağıdakı kimi ifadə etmək olar:

1. **Yaranış kimi varlıq (Xalis fikir və ya Hegelin adlandırdığı kimi, varlığın xalis varlıq təyini):** Yoxdan var olan yaranış kimi varlığı özündə təqdim edir. Xalis varlıq təyinində bütün varlıqlar ideya kimi məkanı doldurur və bir-birini fərqlilik və özü-özləri ilə eynilik təşkil edərək müstəqil ideyalar kimi mövcud olurlar. Biz ideya dedikdə özündə xalis fikir haqqında məlumatdan ibarət dalğa funksiyasının xüsusi formasını nəzərdə tuturuq. Hərçənd ki, hələ elm fikir dalğalarını aşkarlamağın üsul və metodlarını kəşf etməyib, amma bizə görə, işıqdan əvvəl və ondan daha sürətli dalğa forması məhz fikir dalğalarıdır. Hansı ki, düşüncə prosesində təfəkkürdə əmələ gələn ideyalar da məhz belə xüsusi dalğalar kimi başqalarına ötürülür. Varlıqlardan şüalanan belə dalğalar birbaşa təfəkkürə təsir etməklə ideyaların və fikirlərin intuitiv və ya təhtəlşüur aşkarlanmasına səbəb olur. C.S.Pirs "Praqmatizmin başlanğıcı" adlı əsərində varlığın üç modusunu - birinciliyi, ikinciliyi və üçüncülüyü ayırd etmişdir. C.S.Pirs üçüncülüyü - qanun kimi varlıq (gələcəkdə faktları idarə edən modus) kimi, ikinciliyi - gələcək faktı kimi müəyyənləşmiş ümumini xüsusiyyətli edən kimi şərh edir; hansı ki, Hegelin xalis fikir və ya xalis varlıq təyininə uyğundur. Buradan da yaranış kimi varlığı fikir və ya qanun kimi mövcudluğu təyin etmək olar. Yəni, Allah yalnız mövcudluğun qanununu və ya ideyasını, fikrini yaratmışdır.

2. **Əmələgəlmə kimi varlıq:** Əmələgəlmə hər bir varlığın ideyasının özündən forma yaratması ilə (faneronun fenomenə çevrilməsi ilə), özündə olan yaradıcı gücü tükəndirməsi prosesidir;

hansı ki, Hegelə görə mövcud varlıq təyinini təşkil edir. Yəni mövcud varlıq əməlegəlmə prosesində olan, başqa varlıqlarla vəhdət təşkil edən, həm ideyaya (substansiyaya), həm də formaya malik reallıqlardır. C.S.Pirsin varlığın ikincilik modusu mövcud varlıq təyinini özünə ifadə edir. Belə ki, Pirsə görə ikincilik həqiqi fakt kimi - varlığın başqa obyektin olması kimi mövcudluğundan ibarət varlıqdır. Yəni, yalnız vəhdətdə olan və özündə vəhdəti təqdim edən hər şey mövcud varlıq və ya həqiqi faktdır.

3. **Dəyişilmə - forma kimi varlıq:** Əməlegəlmənin başa çatması varlıqda yaradıcı gücün tam tükənməsi ilə mənadan məhrum olan və əməlegəlmə prosesindən çıxmış xalis forma və ya xarici görüntüdür. Hegelə görə, bu özü-üçün-varlıq təyinini təşkil edir. C.S.Pirsin varlığın birincilik modusu - müsbət keyfiyyət imkanı - özü-üçün-varlıq təyinini özündə ifadə edir. Belə ki, Pirs birincilik modusunu belə təsəvvür edir: "Birincilik - Varlığın elə modusudur ki, hər hansı bir şeyin olmasından asılı olmayaraq, varlığa onun subyektin müsbətliyi kimidir. Belə yalnız mümkünlük ola bilər. Gerçəklik orda və o zaman baş verən hadisədir. Hadisənin gerçəkliyi mövcud olanın universumuna onun münasibəti ilə tükənir. Gerçəklikdə heç bir məna yoxdur". Beləliklə, Pirsin birincilik modusu özündə vəhdətdən kənarda varlığı - yalnız özü-üçün-varlıq təyinini təqdim edir, hansı ki, özü-üçün-varlıq təyini də mahiyyətdən kənarda xalis heçlikdir. Əgər yaranışın sonu heçliklə nəticələnirsə, onda başlanğıcı, yəni səbəbi xalis mənadan ibarət olur.

Yaranışın əməlegəlməyə keçməsi ilə zaman meydana çıxır. Zaman yaranışın əməlegəlmə ilə başa çatmasının ölçülülüyüdür. Beləliklə, varlıqda iki ölçülülük aşkarlanır:

1. **Varlığı Allahdan fərqləndirən və ondan sərhədləndirən sonluluq ölçülülüyü:** Biz bunu məkani ölçülülük adlandırırıq. Hər bir şeyin özünəxas məkan ölçülülüyü vardır və bu onun özü-üçün-varlıq təyininə daxildir; buna görə də mövcudluqlar xarici görüntü ilə məkani ölçülülükdən dərk olunur.

2. **Varlığı Allahdan fərqləndirən fanilik ölçülülüyü:** Biz bunu zaman ölçülülüyü adlandırırıq. Hər bir şeyin zaman ölçülülüyü vardır, yəni zamanda bəlli vaxt ərzində mövcuddur və zaman ölçülülüyü onun mövcud varlıq təyininə daxil olur və buna görə də onunla dərk olunur.

Buradan da reallığın iki əsas xarakteristikası - sonluluq və fanilik meydana çıxır. Yəni Allahın istədiyi və yaratdığı varlıq məkan və zamanda yerləşdirilmə kimi reallıqdır, hansı ki, həmin məkan və zaman şərtləri ilə mövcud olur və idrak olunur.

YARANMANIN BAŞLANMASI

Yaranış necə başlamışdır? Yaranış necə baş vermişdir? Yaranışı ən ümumi şəkildə iki cür təsəvvür etmək olar:

- **a. Daxili güclə yaranış:** Varlıq aləmində hər bir mövcudluğun özünəxas daxili gücü vardır, amma eyni zamanda başqa varlıqlarla vəhdətdə, həm də özünə münasibətdə, xarici güclərin təsiri altındadır. Əgər varlıq yalnız öz daxili gücü ilə mövcud olsaydı, onda ondan kənarda heç bir xarici güc ola bilməzdi və varlıq bir tamdan ibarət olardı. Amma mövcud olanlar yalnız vəhdətdə varlığı bir tam kimi təqdim edir; özü-özlüyündə tam varlıq reallıq deyil. Buna uyğun, tam varlıq da öz növbəsində tam xarici gücün təsiri altında olmalıdır. Daxili güclə yaranış məqsəddən - öz daxili potensiyasından - yaranan yaranışdır. Materializm məhz yaranışı bu cür müəyyənləşdirir. Yəni materializmə görə materiya bir vasitə kimi özündə aydınlaşan həqiqətdən - özü-özündən - yaranıb. Ona görə materiya ilk başlanğıc və son olub, əbədidir. Əgər belə olsaydı, yaranışın əksiliyi kimi məhvolma da mövcudluğun özü-özündən təzahür edərdi. Bu da əksiliklərin ziddiyyəti qanununa zidd olardı. Yəni mövcud olan bir-birinə əks olan iki eyni güclə eyni anda mövcud ola bilməz. Əgər məhvolma gücü mövcudludan xaricdədirsə, onda yaranış gücü də ondan xaricdə olmalıdır. Mövcud isə bu güclərin mübarizə sahəsi kimi mövcuddur.

- **b. Xarici güclə yaranış:** Hər bir mövcudluq özündə vasitə olduğundan konkret məqsədə - həqiqətin aydınlaşmasına xidmət edir. Həqiqətin aydınlaşması Ali İradə ilə aktuallaşdığından, bu iradənin Allaha xas olmasını deyə bilərik; yəni yaradılanlar Allah tərəfindən yaradılıb. Din və idealist fəlsəfə varlığın bu yolla əmələ gəlməsini qəbul edir. Material aləmin əsas qanunu səbəb-nəticə determinizmidir. Determinizmə görə hər bir səbəb özündən kənarda bir nəticəyə gətirib çıxarır. Biz yaranışın xarici güclə, yəni mövcudluqdan kənar güclə baş verdiyini qəbul edirik. Beləliklə, metafizikanın ikinci mühüm anlayışı kimi - "nə"ni və "heç nə"ni yaradan və "nə"ni "heç nə"yə, "heç nə"ni "nə"yə çevirən güc kimi Yaradanı aşkarlamış oluruq. Yaradanın əsas xarakteristikası yaratmaq olduğundan və yalnız Yaradan yaratmaq xarakteristikasına malik olduğundan, Yaradan yaradılmayan olur. Beləliklə, metafizikanın çıxış nöqtəsi kimi yaranmanı qəbul etmək olar. Mövcud olanlar yaranmadan sonra varlığı təşkil etdiyindən, metafizika isə yalnız varlıqdan həqiqəti aşkarladığından, metafizika mövcud olanlara laqeyddir.

Bəs yaranış necə baş vermişdir? Metafizika Varlığın yaranışından başlayaraq həqiqəti aşkarlamağa cəhd edir. Ona görə də yaranış metafizika ilə dinin sərhədini təşkil edir. Belə ki, yaranışdan əvvəlki haqqında məlumat dini şüurla, yaranış və yaranışdan sonrakı (yaranışdan əmələgəlməyə qədərki) məlumatlar metafizikanın predmetinə daxil olur.

Allahın istəməsi və yaratması Allahın özü-özündə vəcdəgəlməsi - başlanğıc hərəkətlilik və ya öz halını (Əbədi Sükunətini) dəyişməsi kimi baş verir; hansı ki, özü-özündə vəcdəgəlmə özündə dalğalanma yaradır. Allahın özündə dalğalanması İlahi Nurun şüalanmasına səbəb olur. Başlanğıcda İlahi Nur dalğa funksiyası kimi xalis varlıq təyinini - xalis fikir haqqında həqiqəti özündə şüalandırır. Beləliklə, Allahın yaratdığı xalis fikir özündə ilahi vəcdəgəlməni refleksiya edir. Vəcdəgəlməni biz dalğalanma başlanğıc və ya ilkin hərəkət kimi təsəvvür edirik. Allah xalis varlığı yaratdıqdan sonra hər bir xalis fikir özündə ilahi vəcdəgəlməni

son formayadək saxlamaqla yeni varlıq təyinləri əldə etmək istiqamətində təşəkkül (qurulma) prosesinə - xalis fikrin xalis formaya keçməsi istiqamətində daxili hərəkətliliyə başlamışdır. Xalis fikrin xalis formayadək inkişafı hər bir xalis fikrin özündə saxladığı başlanğıc enerji ilə şərtlənmişdir. Xalis fikrin (mümkünlüklərin) mövcudluğa meyli, Xalis fikrin xalis formaya çevrilməsi, İlahi Nurun dalğa uzunluğunun qısalması ilə, yəni mütləq nisbi həqiqətin yenidən nisbiləşməsi ilə müşayiət olunur. Nisbiləşmə emanasiya kimi başlanğıcdan uzaqlaşdıqca pisləşmə kimi baş vermişdir.

Haşiyə: Hegel: "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Təbiətin bir pillədən digərinə keçidini təmin edən iki forma mövcuddur: təkamül və emanasiya. Təkamül anlayışına görə başlanğıc mərhələ qeyri-təkmildir, formasızdır; özündə işi elə təqdim edir ki, əvvəlcə mən və su varlıqları, onlardan bitkilər, poliplər, molyuskalar, sonra balıqlar əmələ gəlib; bundan sonra insanın əmələ gəldiyi quruda yaşayanlar əmələ gəlmişdir. Dəyişilmələrin emanativ gedişi haqqında təsəvvürləri şərq dünyagörüşü xarakterizə edir; bu - ardıcıl pisləşmə mərhələlərindən ibarətdir. Başlanğıc pillə təkmillikdir, mütləq totallıqdır, Allahdır. O, yaradıcı olmuşdur, ondan qığılcımlar, ildırımlar çıxmışdır, belə ki, ilk əksetmə ən çox ona oxşayan olmuşdur. Bu ilk yaradıcılıq öz növbəsində fəaliyyətsiz qalmamışdır və başqa varlıqları yaratmışdır, amma bu yaratıqlar artıq daha az kamil olmuşdur və bu pisləşmə istiqamətində davam etmişdir. Nəhayət bu sıra inkarla, materiya ilə, şərin zirvəsi ilə qurtarmışdır."*

Hegelin fikirlərindən görünür ki, təbiətin bir pillədən başqasına keçidi iki fərqli proses kimi təsəvvür olunur. Bizcə təkamül və emanasiya mövcud varlığın vəhdət təşkil edən tərəflərinin hərəkəti ilə - bir səviyyədən başqa səviyyəyə keçidi ilə bağlıdır. Belə ki, təkamül formanın hərəkəti, emanasiya mahiyyətin hərəkətini özündə təqdim edir. Başlanğıcda xalis fikir formadan kənar ayrılıqda mövcud olur və buna

görə də özündə ən keyfiyyətli mütləq nisbi həqiqəti təqdim edir, çünki bu mərhələdə həqiqət vasitəsiz aydınlaşır və buna görə də entropiyaya məruz qalmır. Mümkünlüyün mövcudluğa meyli nəticəsində imkandan asılı olaraq mümkünlüklər müxtəlif həcmdə və dərəcədə mövcudluğa keçir; bu zaman hər bir xalis fikir özündən forma yaradaraq mahiyyətlə formanın vəhdətindən ibarət mövcud varlığa çevrilir. Nəticədə, xalis fikrin bir hissəsi formanı - xalis heçliyi təşkil edərək pisləşir, digər tərəfdən digər varlıqların təsirindən entropiyaya məruz qalaraq həqiqətinin aydınlaşması çətinləşir. Allah heç bir formaya malik olmadığından və heç nə ilə vəhdət təşkil etmədiyindən və yalnız özü-özü ilə vəhdət təşkil etdiyindən ən yaxşı həqiqətə - mütləq həqiqətə malik olur. Beləliklə, mümkünlüyün bir pillədən digərinə keçidini - təbiətin yaranmasını hər iki prosesin - təkamülün və emanasiyanın vəhdəti ilə baş verdiyini qəbul edirik. Belə ki, həqiqətin nisbiləşməsi emanativ yolla, varlığın təkmilləşməsi bunun əksinə təkamüllə baş vermişdir.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

"Yaranma Allahda emanatdır.

1. Allah emanat olaraq ona malikdir ki, formal olaraq yaradılmış şeylərdədir. Allah elə atributlara malikdir ki, bütün yaradılan şeylər emanatlığa malikdir.

2. Allah özü-özünü və bütün yerdə qalanları bilir, belə ki, O bütün obyektiv olanlara malikdir.

3. Allah bütün şeylərin səbəbidir və iradənin mütləq azadlığı əsasında fəaliyyət göstərir."

B.Spinozanın fikirlərindən emanasiyanın aşağıdakı səbəblərini aşkarlamaq olar:

a) Allah yaratdıqlarını özünün kamilliyinə uyğun yaratmamışdır. Buna görə də, mütləq nisbi həqiqət Allahla eyniyyət təşkil etmir; başqa sözlə, Allahın təkmilliyi ilə varlığın təkmilliyi əksilik təşkil edir ki, bu da emanativliyin birinci səbəbidir.

b) Allaha bütün şeylərin ideyası məlumdur, çünki hər şeyi O öz istəyi ilə yaratmışdır. Amma hər şeyə yalnız öz həqiqəti məlumdur, buna görə də özündən yalnız öz həqiqətini şüalandırır. Özü haqqında bilmək konkret varlığın mahiyyəti və ya ağıllılığı - intelligibilliyi kimi təzahür edir və mövcudluqlar buna görə özündə başqalarının məlumatını təqdim etmir. Buna görə də varlığın bilgisi Allahın bilgisi ilə əksilik təşkil edir. Buradan da emanativlik xüsusi qanunauyğunluğun səbəbi kimi çıxış edir.

c) Allah eyni zamanda bütün şeylərin səbəbidir, mövcudluq yalnız öz sırasından olan bir şeyin səbəbidir; Allah özü-özündən nəticədir, varlıq özündə başqasından (səbəbdən) nəticədir.

Emanasiya - mütləq nisbi həqiqəti təşkil edən ideya dalğalarının tədricən uzunluqlarının sonsuz qısalması ilə hissəciyə çevrilməsi nəticəsində başlanğıcdan fərqlənməni özündə ifadə edir. Yəni mahiyyət forma ilə əksilik təşkil edir. Birinin kamilliyi digərinin qeyri-kamilliyini təzahür etdirir. Yəni həqiqət nə qədər nisbiləşirsə, onun vasitəsi olan varlıq bir o qədər təkmil olmuşdur ki, özündə nisbi həqiqəti daha təkmil aydınlaşdırsın. Varlığın ən təkmil və son forması insan olduğundan, insan ruhunda aydınlaşan həqiqət həqiqətin ən qeyri-təkmil aydınlaşmasıdır. Buradan da Ruhun Yoxluğu haqqında fikir meydana çıxır. Başqa sözlə, başlanğıcda insan ruhu tam xaos vəziyyətində yaranır. Sonradan varlığın nizamı əsasında dərketmə prosesi ilə tədricən nizam əldə edir. Təkamül nəticəsində varlığın forması kamilləşir (mütləqləşir), əvəzində mahiyyəti pisləşir (nisbiləşir). Emanasiyada formasız kamil mahiyyət tədricən nisbiləşərək kamil formada təzahür edir. Təkamüllə emanasiyanın vəhdətindən Varlığın qanunları aşkarlanır. Yəni Varlıqda ən nisbi (pis) forma ilə onda aşkarlanan ən mütləq (kamil) həqiqətin məcmusu, mövcudluqda ən mütləq forma ilə onda aşkarlanan ən nisbi həqiqətin məcmusu eyniyyət təşkil edir. Buradan da ən kamil mahiyyətə (mütləq həqiqətə) malik formasızlıqla ən nisbi həqiqəti özündə ifadə edən kamil varlıq forması bir-biri ilə eyniyyət təşkil edir. Yəni insanın ruhu

həqiqətən Allahın nurundan yaradılmışdır - onunla eyni təbiətlidir. Beləliklə, başlanğıcda mahiyyətdə olan kamillik xarakteristikası sonda varlığın formasında meydana çıxır və buradan da "son başlanğıc, başlanğıc sondur" qənaəti yaranır. Emanativ yol necə başlanmışdır? Bu yolun dünyagörüşünə görə "Allahdan qığılcımlar, ildırımlar çıxmışdır və bu qığılcımlarda ilk əksetmə ən çox ona oxşamışdır". Burada iki sual meydana çıxır:

1. Allahdan qığılcımlar hara çıxmışdır? Başlanğıcdan əvvəl Allah sonsuzluq və əbədilik keyfiyyətində olduğundan, ondan "çıxma" mümkün deyil. Yəni Allaha görə kənar olan mütləq mənasızlıqdır.
2. Allahdan çıxan qığılcımlarda "əksetmə" nədə baş vermişdir? Belə ki, əksedən olmadan əksetmə mümkün ola bilməzdi.

Bizcə emanasiya Aktiv Güclə Passiv Güc arasındakı vəhdətin pozulması kimi təzahür edir. Pisləşmənin sonunda varlıq Aktiv Güclə Passiv Güc özündə müstəqillik təqdim etməyə görə iki qrupa ayrılmışdır: özündə yalnız Passiv Gücə malik, formaca ən yaxşı (mütləq), mahiyyətcə ən pis (nisbi) varlıq formasına - **Materiyaya** (və ya real varlığa, mövcudluğa) və özündə yalnız Aktiv Gücə malik, yəni ən pis (nisbi) formaya, amma ən yaxşı (mütləq) mahiyyətə malik varlığa - **Ruha**. Beləliklə, materiya və ruh iki vəhdətdə olmuş başlanğıcın sonradan bir-birindən ayrılıb müstəqil və bir-birinə əksilik təşkil edən güclər kimi mövcud olmasını özündə təqdim edir. Beləliklə, varlıq aləmi ilahi keyfiyyətləri güzgü prinsipi ilə əksinə özündə refleksiya edir.

Xalis fikir və ya xalis varlıq təyini özündə təşəkkül prosesi haqqında - yəni mövcudolma haqqında mütləq məlumatdan ibarətdir və təşəkkül prosesində özündən həmin formaları yaradır. Biz xalis fikri - üçüncülüyü obrazlı olaraq toxuma bənzədə bilərik. Hər hansı bir toxum özündə gələcək inkişafının bütün formaları haqqında məlumat saxlayaraq münbit şəraitə düşdükdə, əmələgəlmə prosesində həmin formaları ardıcıl olaraq təzahür etdirdiyi kimi, xalis fikir də özündə mümkün təşəkkül formaları

haqqında malik olduğu məlumatlar əsasında əməlgəlmə prosesində (yəni xalis varlıq təyinindən mövcud varlıq təyininə keçdikdə) həmin formaları eyni ardıcıllıq və dəqiqliklə təzahür etdirir. Hər bir xalis fikir özündə olan məlumat əsasında formaları yaratdıqca, özündə olan başlanğıcı - xalis fikri (məlumatları) tükəndirir, bununla gələcək formalar haqqında daha az məlumata - xalis fikrə malik olur ki, bunu biz nisbiləşmə adlandırırıq. Xalis fikir nisbiləşməyə (emanasiyaya) məruz qalmaqla son təkmil formayadək - özü-üçün-varlıq təyinini əldə edənədək qurulur. Bununla da özündə özünü başa çatdırır, yəni son nəticəyə çevrilir və son nəticə özü-üçün-varlıq, yəni xalis forma kimi meydana çıxır.

Yaradan həm əvvəli, həm sonu yaratdığından yaranışın emanasiyası dönər prosesdir, yəni varlıq yenidən özündə ilahi təbiətə qayıtmaq istiqamətində təkamülün əksinə inkişafa meyl edir. İlahi təbiətə qayıtmaq özündə ən təkmil həqiqəti təzahür etdirmək cəhdindən ibarətdir. Bunun üçün formanın ixtisara salınması - istisnası tələb olunur. Həqiqətin formanın ixtisara salınması ilə təzahürü mücərrədlik kimi meydana çıxır. Mücərrədlik konkretlikdən fərqli qanunauyğunluqlara tabe olduğundan, konkretlərin aləmindən fərqli aləmdə təzahür edir. Təfəkkür məhz mücərrədliklərin təzahür etdiyi təbiətdən fərqli aləm kimi mövcuddur. İdrak isə təbiətdən metafizikaya keçidin - transendensiyanın - konkretlərin mücərrədləşdirmə prosesi kimi çıxış edir. Biz birincili təşəkkülü - mövcudluqların qurulmasını - xarici və ya formanın təşəkkülü; ikincili qurulmanı - biliyin əməlgəlməsini - daxili və ya xalis fikir varlığının təşəkkülü adlandırırıq. Və xarici təşəkkül təbiətdə, materiyada; daxili təşəkkül daxildə, Ruhda baş verir. Xarici qurulmanın əksinə olaraq, daxili qurulma Aktiv Güclə Passiv Gücün bir-birindən ayrılmasına əks istiqamətdə inkişaf etməyə başlamışdır. Bunun nəticəsində özündə nisbi olaraq həm aktiv güclə, həm də passiv gücü eyni vaxtda paralel, amma fərqli müstəvilərdə təzahür etdirərək ak-

tuallaşdıran, özündən istəməkliyi və yaratmağı vəhdətdə təzahür etdirməyən, buna görə də xalis mövcudluq təyininə malik olmayan və ayrılıqda yalnız bir gücü təzahür etdirmədiyindən nə materiya, nə ruh olan, mövcud varlığın xüsusi müstəqil keçici varlıq forması - **canlılıq** əmələ gəlmişdir. Canın yaradıcılığı daxildə nəsil yaratmaq kimi, iradəsi xaricdə formanın saxlanması (həyatı davam etdirmək cəhdi kimi) meydana çıxır ki, bunlar nəsilvermə və özünüqoruma instinktinin əsasını təşkil edir.

Canlılığın təkamülünün sonunda canlılığın ən nisbi mahiyyətə, amma ən kamil formaya malik növü - **İnsan** yaranmışdır. İnsanın iki cür təzahür formasını ayırd etmək olar. Birincisi, *fiziki şəxs* və ya fərd bir bioloji varlıq kimi bütün canlılar içərisində ən təkmil, ən son təşkil olunmuş formadır və özündə heç bir xüsusi mahiyyətə malik deyil və yalnız özündən əvvəlki canlılığın, heyvaniliyin mahiyyətini saxlayır, hansı ki, digər bütün formalarda daha aydın təzahür edir. Bu cür mahiyyətsizlik insanın ən dəqiq forma və ən mahiyyətsiz varlıq kimi mahiyyət əldə etmək zərurətini meydana çıxarmışdır. İkincisi, xüsusi ruhi mahiyyət əldə etmiş *şəxsiyyət*. Şəxsiyyət fərddən fərqli olaraq, heyvaniliyi özündə istisna edən insanın xüsusi təzahür formasıdır, hansı ki, heç bir canlı ilə eyniyyət təşkil etmir. Beləliklə, biz insanda bir-birindən fərqli iki meyl aşkarlaya bilərik. Birinci meyl fiziki şəxslə bağlı olub, bədənin özünə mahiyyət əldə etmə; ikinci meyl ruhun özündə özü-üçün-varlıq təyini (forma) əldə etmə meyli. Hər iki meylin məcmusu bədənin ruhlanması ilə insanın ruha görə şüur əldə etməsinə - ruhun bədənin formasından istifadə edərək mövcud varlığa çevrilməsinə səbəb olmuşdur. Nəticədə ruhlu insan əmələ gəlmişdir. Ruhun cana keçməsi ilə ilk növbədə canda canın iştirakı ilə onun həm passiv, həm də aktiv gücünü refleksiya etməyə, yəni ruh candan istifadə etməklə materiyanın nizamını aşkarlamağa başlamışdır.

Yaranışın iki bir-biri ilə əksilik edən tərəfi materiya və ruh canda bir-biri ilə vəhdət təşkil edərək mütləq nisbi həqiqəti yenidən yaratmağa cəhd etməsi - aşkarlama - ruhun materiyanın xalis fikrini özündə refleksiyası, yəni passiv gücün aktiv güclə birləşməsi kimi baş verir. Aşkarlanma həqiqətin aydınlaşması ilə vəhdətdə həqiqətin iki ən mühüm xarakteristikasından biridir.

İdrak obyektlərinin ən ümumi suallandırması və cavablandırması kimi: "Nə" hardan yaranır və özündə nəyi ifadə edir? Yəni bütün Kainatda mövcud olan total kütləni və həmin kütlənin vəziyyəti haqqında məlumatı yaradan "nə" özü İlahi tərəfindən Yoxluqdan necə Var olur, yəni yaranma necə baş verir?

Haşiyə: Dekart, "Təbii işıq vasitəsilə həqiqətin axtarılması"

> *"Hər bir predmetin anladılması ardıcıllığını ağıllı ruhdan başlamaq lazımdır, belə ki, məhz bizim bütün biliklərimiz ondadır. Ağıllı ruhun təbiətindən və fəaliyyətindən biz onun Yaradıcısına keçə bilərik; onun necə olmasını və həyatda olan hər şeyi hansı şəkildə yaratmasını anlamaqla, başqa yaradılanlara münasibətdə bütün həqiqi olanları görərik, tədqiq edərik ki, hansı dərəcədə bizim hissimiz obyektləri qavrayır və bizim fikirlərimiz hansı şəkildə həqiqət və ya yalandır. Sonra mən maddi cisimlərə aid olan, insanların yaradıcılığını nümayiş etdirirəm. Sonra mən təbiətin yaratdıqlarına və onlarda baş verən dəyişilmələrin səbəblərinə, çoxfərqli xüsusiyyətlərinə keçirəm. Göydə nəyi müşahidə edə biləcəyimizi və nə haqda həqiqi mühakimə çıxaracağımızı deyərək mən insanların təyininə yatmayan nisbi şeylərin ən sağlam tapılmasına, əlavə olaraq hissi şeylərlə ağlasığan şeylərin nisbətinin izahına, həmçinin bunun və o birisinin Yaradana münasibətinə, yaranışın ölməzliyinə və onların varlığının əsrlərin başa çatmasından sonra necə olacağına keçəcəyəm."*

Dekartın fikirlərini şərh etməmişdən öncə demək lazımdır ki, yaranmanın mahiyyətinə varmaq üçün ən sondan - idrakın nəticəsindən və emanasiyanın başa çatmasından başlamaq lazımdır. Əgər biz ilk

başlanğıcı ardıcıllıqda axtarırıqsa, əvvəlcə başlanğıc olmayanı, sonra ara başlanğıcları, ondan sonra isə ilk başlanğıcı, yəni başlanğıca malik olmayanı aşkarlamalıyıq. Dekart yuxarıdakı fikirlərində başlanğıc olmayan sonu *ağıllı ruh* kimi, ara başlanğıc kimi ağıllı ruhu yaradan (ruhu yox, təfəkkür predmetlərini demək daha düzgün olardı - S.C.) mövcudluqları - hissi obyektləri, insanların yaratdıqlarını, təbiətin yaratdıqlarını, nisbi şeyləri (mümkün varlıqlar kimi - S.C.), ilk başlanğıc kimi hissi və qeyri-hissi qavranılan şeylərin - bütün mümkünlüklərin, həqiqətin münasibətdə olduğu Vahidi - Yaradanı qəbul edir. Biz də burada yaranma ilə bağlı təhlilimizdə Dekartın təklif etdiyi hər bir predmetin idrak ardıcıllığına uyğun şərhini məqsədəuyğun hesab edirik.

Ümumi şəkildə Yaranma üç müxtəlif səviyyədə fərqli mənalarda təyin oluna bilər:

Birinci mənada: Yaranma sözü mümkünlüklərin yaranmasını özündə ifadə edir. Mümkünlük - ideya kimi formalaşdırılması mümkün olan qanunauyğunluqların məcmusundan ibarətdir. Bu mənada yaranma ideyaların yaranmasını özündə ifadə edir. Mümkünlük həm obyektiv, həm subyektiv olanları özündə ehtiva etdiyindən, İdeya həm obyektdə, həm subyektdə yaranır. Obyektdə yaranan ideya subyektə görə əvvəldir və birincidir. Bir tərəfdən əvvəldir, ona görə ki, subyektiv varlıq olan insan, obyektiv varlıq olan mövcudluqlardan zaman baxımından sonra əmələ gəlmişdir; başqa sözlə, əmələgəlmə ardıcıllığına görə obyekt subyektdən əvvəldir. Digər tərəfdən əvvəldir, ona görə ki, obyektiv gerçəkliklər təfəkkürdə refleksiya etməklə onda ideyanın yaranmasına səbəb olur; başqa sözlə, hissi qavrayışa münasibətdə obyekt subyektdən əvvəldir. Bir tərəfdən birincidir, ona görə ki, subyekt yalnız obyektlə şərtlənməklə mövcud olur. Digər tərəfdən birincidir, ona görə ki, təfəkkürdəki abstrakt obraz konkret formanın refleksiyası kimi meydana çıxır.

İkinci mənada: Yaranış real varlıqların yaranması mənasında işlənir. Real varlıq şey kimi mövcud olur və mümkünlüklərdən ideyanın konkret

forma ilə vəhdətdə meydana çıxması ilə fərqlənir. Real varlıqların yaranması həm də əmələgəlmə mənası verir. Əmələgəlmə yaranmışdan yarananın əmələgəlməsini özündə ifadə edir. Biz bunu **ikincili yaranma** kimi təyin edirik. Bunun da öz növbəsində iki növü vardır:

- Birinci növ əmələgəlmədə əmələgətirən dəf edilməklə əmələgələn yaranır. Məsələn, təbiətdə müxtəlif maddələrin əmələgəlməsi belə baş verir. Belə əmələgəlmədə əmələgələn yenidən əmələgətirəni əmələ gətirir. Başqa sözlə, belə əmələgəlmədə varlıq yoxluğa çevrilmir, sadəcə bir mövcudluq forması başqa bir mövcudluq forması ilə əvəzlənir.
- İkinci növ əmələgəlmədə əmələgələn əmələgətirəni inkar etmir. Məsələn, canlıların əmələgəlməsi kimi. Yeni nəsil nəsilverənin saxlanması şərtində mövcud olur. Belə əmələgəlmə dönməzdir, yəni əmələgələn əmələgətirəni əmələ gətirə bilmir. Çünki əmələgətirən mövcudluğu saxlayır. Mövcud olanı mövcud etmək mənasızlıqdır.

Üçüncü mənada: Yaranış təfəkkürdə obrazların, ideyaların və fikirlərin yaranması mənasında işlənir. Təfəkkür predmetləri abstrakt forma ilə mümkünlüyün vəhdəti kimi meydana çıxır.

Bəs bu yaranmalardan hansı başlanğıc yaranma kimi qəbul edilə bilər? Biz başlanğıc yaranışı sona münasibətdə aşkarlaya bilərik. Son - özündə başlanğıcı olmayanı özündə təqdim edir. Yaranışda son təfəkkür predmetlərindən ibarətdir. Təfəkkür predmetləri içərisində də başlanğıc predmet öz növbəsində son predmetə görə aşkarlana bilər. Təfəkkürdə son predmet **fikirdir**, hansı ki, həqiqəti ifadə edir. Həqiqət sonsuz olduğundan, həqiqətdən sonra yoxdur. Ona görə də aşkarlanmış istənilən fikir idrakın sonunu özündə təqdim edir. Fikir özündə ideyaların assosiasiyası kimi meydana çıxır. Başqa sözlə, ideyalar ara başlanğıclar kimi mövcuddur, hansı ki, müxtəlif assosiasiyalarda müxtəlif fikirlərin yaranmasında səbəb kimi çıxış edirlər. İdeyalar obrazlardan çıxarılır. Beləliklə, biz obrazları təfəkkürdə yaranan başlanğıc predmet hesab edə

bilərik. Bəs təfəkkürdə obrazların yaranmasının başlanğıc səbəbi nədir? Başlanğıc səbəb - özündə nəticəlik saxlamayan, nəticəyə keçmədiyindən sondan kənarda olandan aşkarlana bilər. Buna görə də obrazların başlanğıc səbəbi təfəkkürdən kənarda yerləşir. Hər bir obraz şeylərin xarici görüntüsünün təfəkkürdə refleksiyası kimi mövcuddur. Beləliklə, idraka münasibətdə hər bir şeyin ilk başlanğıcı onun xarici görüntüsüdür. Xarici görüntü - şeyin idraka münasibətdə başlanğıcı - necə yaranır? Xarici görüntünün meydana çıxmasının üç müxtəlif səbəbi vardır. Bu səbəblərdən biri şeyin sayı, məkani forması və rəngidir. Özü-özündə hər bir fərdi şey öz xüsusi xarici görüntüsünü təşkil edir. Beləliklə, görüntünün təşkil edilməsi bir səbəb kimi çıxış edir. Şey öz görüntüsünü təşkil etsə də, onu müstəqil və azad şəkildə aydınlaşdıra bilmir. Buradan da xarici görüntünün meydana çıxmasının ikinci səbəbini axtarmaq lazım gəlir. Biz bu səbəbi **işıqlanma** adlandırırıq. Aydınlaşma - şeylərə münasibətdə xarici mənbədən çıxan işıq şüalarının şeylərin üzərinə düşərək onları işıqlandırmasından ibarətdir. Şeyin öz daxilindən və özündən çıxan işıq şeyin xarici görüntüsünü aydınlaşdırmır. Xarici görüntü aydınlaşdıqdan sonra o, aşkarlanma vəziyyətinə gəlir. Aşkarlanma da öz növbəsində aydınlaşan xarici görüntüdən kənarda baş verir. Əks halda hər bir şey özü-özünün aydınlaşmasını aşkarlayardı ki, bu da başqasına aşkarlanan olmazdı. Beləliklə, xarici görüntünün üçüncü səbəbini onun **aşkarlanması** kimi təyin etmək olar. Aşkarlanma görmə vasitəsi ilə reallaşır və subyektdən asılıdır. Beləliklə, şeylərin xarici görüntüsü üç müstəqil səbəbin vəhdəti kimi mövcud olur. Bu səbəblərdən hansını başlanğıc səbəb kimi qəbul etmək olar? Başlanğıc səbəb o səbəb hesab edilə bilər ki, o, vahid, universal və ən ümumi olsun.

Şeylər özlərində təklikdə, sonsuz sayda və fərqli xarici görüntü təşkil edirlər. Şeylərin təşkil etdiyi xarici görüntü sonsuz çoxluqda və müxtəliflikdə olduğundan, heç bir şeyin xarici görüntü təşkil etməsi başlanğıc səbəb ola bilməz. Çünki təklik, çoxluq və müxtəliflik universallıq, ümu-

milik və vahidliyə əksilik təşkil edir. Digər tərəfdən, bir şeyin xarici görüntü təşkil etməməsi başqa şeyin həmin xarici görüntünü təşkil etməsinə mane olmadığından, xarici görüntü təşkil etmə əsas ola bilməz. Yəni xarici görüntü aksidensivdir - şeydən ayrılandır. Xarici görüntünün aşkarlanması fərdidir, belə ki, xarici görüntünün aşkarlanması subyektlər (fərdi adamlar) tərəfindən reallaşdırılır. Fərdlər sonsuz çoxluqda, tək kimi və orijinal varlıqlardır. Bir nəfərin şeyin xarici görüntüsünü aşkarlamaması başqa fərdlərin həmin şeyin xarici görüntüsünü aşkarlamalarını istisna etmədiyindən, aşkarlanma əsas səbəb kimi çıxış edə bilməz. Buna görə də xarici görüntünün aşkarlanmasından ümumi, universal və vahid səbəbi aşkarlamaq mümkün deyildir.

Bütün şeylərin xarici görüntüsü işıqla aydınlaşır. İşıq təklik kimi mövcud olduğundan, fərdi şeylərdən və fərdlərdən asılı olmayaraq, istənilən xarici görüntünü ümumi şəkildə, bərabər əsasda işıqlandırır. Beləliklə, işıq birdir, vahiddir, universaldır. Deyilənlərdən belə nəticə çıxara bilərik ki, yalnız işıq universal, ən ümumi və vahid olduğundan xarici görüntünün başlanğıc səbəbi kimi təyin oluna bilər. İşıq olmadan şeylər nə qədər çoxlu və müxtəlif xarici görüntü təşkil edirsə etsin və nə qədər sayda və görmə həssaslığına malik fərd olursa olsun, heç bir şeydən heç bir fərd xarici görüntünü aşkarlaya bilməz. Buradan da işığı xarici görüntünün təzahürünün əsas səbəbi kimi təyin edirik. Əgər ən son yaranmaya - obyektiv gerçəkliklərin xarici görüntüsünün təfəkkürdə refleksiyası nəticəsində obrazların yaranmasına - baxsaq görərik ki, obrazlar şeylərin xarici görüntüsünün refleksiyası kimi yaranır, xarici görüntünü isə işıq aydınlaşdırır, yəni obyektin formasından onu yaradır. Eləcə də işıq formadan kənar müstəqil xarici görüntülər də yarada bilir. Məsələn, irreallıqların - kölgənin, illüziyaların yaranması işıqla bağlıdır. Beləliklə, işıq refleksiyanın yeganə vasitəsi kimi çıxış edir. İşıq insana məlum olan digər bütün şüalardan ən sürətli, ən uzağa yayılan, ən çox məlumat daşıyan, ən universal şüa olduğundan da işığı əsas şüa kimi

təyin etmək lazım gəlir. Hissi qavrayışda işıq birinci və əvvəldir. Hissi qavrayış fərdi şeylərdən mümkündür; şeyin fərdiliyi isə yalnız onun xarici görüntüsündən aşkarlanır.

Haşiyə: Dekart, "Dünya və ya işıq haqqında traktat"

> *"İşığın hiss edilməsini, yəni bilavasitə göz vasitəsilə bizim təsəvvürlərimizdə yaranan ideyanı predmetlərdə olan, bizdə bu hissi yaradandan, yəni alovda və ya Günəşdə olan və işıq adlandırılandan fərqləndirmək lazımdır. Baxmayaraq ki, hər kəs əmindir ki, bizim ağlımızın ideyaları tamamilə əmələ gəldikləri predmetlərə uyğundur, mən kifayət qədər əsas görmürəm ki, belə hesab edəm ki, bu belədir. Məhz ağıl hər dəfə təsir kimi, onu ifadə edən, bizim gözümüzə çatan işığın ideyasını bizə verir. Mən nümunələri ona görə gətirmirəm ki, siz sözsüz düşünəsiniz ki, predmetlərdəki işıq bizim gözümüzdəki işıqdan nəsə başqadır, yalnız ondan ötəri gətirirəm ki, sizdə şübhə yaradam."*

Dekartın fikirlərindən görünür ki, şeylərdən çıxan - Günəşdən və ya alovdan əmələgələn - şeyləri işıqlandıran və bizim gözümüzə çatan işıq bir-biri ilə eyni deyil. Biz də Dekartla razılaşırıq ki, işıq mənbəyindən çıxan işıqla, işıqlanan cisimdən çıxan işıq və nəhayət bizim gözümüzə çatan işıq bir-birinə uyğun deyildir. İşıq mənbəyindən çıxan işıq **xalis işıqdır**, yəni yalnız özündə özü haqqında başlanğıc bilgi daşıyır və bu məlumat yalnız işıq mənbəyinin daxilində işığın əmələgəlməsi və onun mənbənin daxilində məruz qaldığı entropiya ilə bağlı bilgidən ibarətdir. İşıqlanan predmetdən (məsələn, ulduzlardan və ya istənilən görünən şeydən) gələn işıq özündə şeyin formasının ona təsiri, onu entropiyaya məruz qoyması ilə bağlı əlavə məlumatı özündə daşıyır. Şeyin üzərinə düşən işıq həm sadələşir - yəni tərkib hissələrinə ayrılır (buradan şeylərin rəngi aydınlaşır), həm də hissələrə ayrılır (buradan şeylərin halı müəyyənləşir). Nəticədə xalis işıq şey haqqında məlumat daşıyan işığa - siqnala çevrilir. Gözümüzə düşən işıq özündə olan şey haqqında bilgini, məlumatı gözə ötürərək öz yolunu, gözdən keçməklə davam etdirir.

Beləliklə, gözə düşən işıq təkrar təmizlənməyə məruz qalır. Bəs işıq nədir? O necə əmələ gəlir?

Haşiyə: Dekart, "Dünya və ya işıq haqqında traktat"

> *"Yandırılan ağaca təsir edən alovun cismi olduqca sürətli və qabarıq, bir-birindən ayrılıqda hərəkət edən kiçik hissəciklərdən ibarətdir. Belə şəkildə hərəkət edərək alovun hissələri təmasda olduğu (yandırdığı - S.C.) cismin ona kifayət qədər müqavimət göstərə bilməyən hissəciklərini də özü ilə aparır."*

Dekartın fikirləri ikincili işıq və ya sonrakı işığın (alovun təsiri ilə şeylərin yanması zamanı yaranan işığın) təbiəti haqqındadır; hansı ki, başlanğıc işıq alovdan meydana çıxır. Bəs alov nədir və necə əmələ gəlir? Alov istilik və işıq təsirinə malik əməlgəlmə prosesindən ibarətdir. Burada istilik ən kiçik və sürətli hissəciklərin bədənə təsiri kimi meydana çıxır. İşıq istini təzahür etdirən hissəciklərin elə dayanıqsız vəziyyətində meydana çıxır ki, həmin hissəciklər eyni anda dalğa funksiyasına (yəni yalnız xalis hərəkətə) və əksinə hissəciyə (hərəkət edənə) çevrilir. İşığını kobud bənzətmə ilə sürətlə açılıb yığılan yaya bənzətmək olar. Belə ki, varlığı təşkil edən ideya dalğasının ifrat qısalmış hissəsinin (hissəciyə çevrilmiş hissə) yenidən uzanması (yəni hissəciyin dəf edilməsi) və dərhal yenidən qısalması (yəni hissəciyin yaranması) işıq kimi təzahür edir. Beləliklə, işıq yaranma anının təzahürüdür. Biz bir şeyi yandırarkən - şeyin materiyasını parçalayarkən - həmin şeydən başqa təzahürlərlə yanaşı işıq çıxdığını görürük. Əgər şeyi təşkil edən materiyanın dağılmasını təhlil etsək görərik ki, materiyanın bir hissəsi kül kimi (bərk maddə kimi), bir hissəsi yarım kül kimi (qaz halında maddə, yəni his kimi), bir hissəsi istilik kimi (xalis hissəciklərdən ibarət varlıq kimi), bir hissəsi isə işıq kimi (dalğa və hissəciyin qarşılıqlı əvəzlənməsi kimi) ayrılır. Beləliklə, təbii işıq özündə materiyanın əsası kimi şeydə yaranma anından mövcuddur. Mövcudluqda bu əsas yalnız daxili görüntünü təşkil edir. Mövcudluğun əsası olmaqdan azad olan işıq (müstəqil işıq)

mövcudluqla varlığın fasiləsiz bir-biri ilə əvəzlənmə vəziyyətində, əbədi və sonsuz hərəkətdə mövcuddur. Yəni işıq eyni anda həm xalis varlıq (yəni dalğa), həm də mövcudluqdur (yəni hissəcikdir).

"İşıq" anlayışının üç mənasını təyin etmək olar:

1. **İlahi işıq (Nur) mənasında:** Mənbəyi özündə olan, təbii işığın təbiətlərinə uyğun ikili təbiətli, amma ondan fərqli olaraq təbiətləri bir-birini əvəzləməyən, özündə xalis fikir haqqında məlumat daşıyan dalğanı biz ilahi işıq, yəni Nur kimi təyin edirik. Nur şeylərin daxili görüntüsünü - mahiyyətini işıqlandırır. Mənbəyi özündə olduğundan, əbədidir, təfəkkürdə şeyin daxili vəhdətindən aşkarlanır.
2. **Təbii işıq mənasında:** Belə işıq ikili təbiətə - dalğa və hissəcik təbiətinə malikdir, təbiətləri bir-birinə keçən, özündən xaricdə, xüsusi mənbədən çıxan, maddi şeylərin xarici görüntüsü haqqında məlumatı təfəkkürə çatdıran xüsusi dalğadır. Təbii işıq *causa transitorias* vəziyyətində olan Nurun emanasiyaya məruz qalmış formasıdır. Təbii işıq qaranlıqda olan və buna görə də xüsusi xarici görüntüləri görünməyən və bir və eyni ümumi xarici görüntüyə malik (bir və eyni qara şeyin) tək-tək şeylər kimi xarici görüntüsünü aydınlaşdırır. Təbii işıq işıq mənbəyi və şeyin forması ilə şərtlənmişdir. Mənbə və şeylərin forması olmadıqda təbii işıq mövcud olmur.
3. **Ağlın işığı mənasında:** Təbii işıq şeylərin konkret formasını aydınlaşdırdığı kimi, ağlın işığı təfəkkürdə həmin formaların obrazlarını işıqlandırır. Biz ağlın işığını **fikir** adlandırırıq. Fikir təbii işıqdan fərqli olaraq bir - xalis dalğa təbiətlidir, hissəcik təbiətindən azaddır, yəni forma yaratmır. Buna görə də fikir şeylə vəhdət təşkil etmir. İnsan fikirlə istənilən predmetin formasını ifadə edir. Fikri ifadə etmək - mənanı şüalandırmaq deməkdir.

Hər üç işıq birlikdə görünən aləmin idrakını təmin edir. Belə ki, Nur şeyləri təşkil edir, təbii işıq şeylərin xarici görüntüsünü işıqlandırır (yəni forma haqqında məlumatı təfəkkürə ötürür), təfəkkürün işığı təbii işığın dalğa təbiəti ilə summasiya olur, yenidən şeyə yönəlir və ilahi nurun

dalğa təbiəti ilə şeydə summasiya olunur. Nəticədə şeyin mahiyyəti bu yolla fikrə keçir, yəni mahiyyət idrak olunur. İdrak nəticəsində ideya meydana çıxır. Buna görə də ideya üç müxtəlif işığın eyni bir təbiətinin - dalğa təbiətinin vəhdətini özündə təqdim edir.

Biz belə təsəvvür edirik ki, görünən dünyanın başlanğıcında, adi işıq yaranmadığı səviyyədə, xarici görüntünün meydana çıxmadığı sərhəddə, daxili görüntünün - şeyin həqiqətinin, məlumatının yaranmasında da başlanğıc refleksiyanın vasitəsi kimi İlahi İşıq - Nur çıxış edir. İşıq qaranlıqdan şeyləri (xarici görüntünü) aydınlaşdırdığı kimi, İlahi Nur heçlikdən - mütləq vakuumda "nə"ni - mövcudluğun başlanğıcını, xalis həqiqəti (ideyaları) aydınlaşdırır, yəni yaradır.

Haşiyə: *Hegel, "Məntiq elmi": "Yaranış - Mütləq ideyanın fəaliyyətidir."*

Mütləq ideya haqqında məlumat İlahi Nurla şüalanır. Beləliklə deyə bilərik ki, yaranış İlahi Nurdan başlayır. Bəs refleksiya edən nə olmuşdur? Yaranışa qədər "nə" olmadığından, Allahdan kənar mənasızlıq olduğundan, yaranışda refleksiya refleksiya vasitəsinin özündə - İlahi Nurun daxilində baş vermişdir. Beləliklə, İlahi Nur həm yaradıcı vasitə (dalğa funksiyası ilə), həm də yaradılışın başlanğıcı kimi (hissəcik təbiəti ilə) ikili təbiətə malik olmuşdur. Buradan da, başlanğıc yaranışda - ilahi refleksiyada səbəb həm də nəticə olmuşdur. Sonradan əməlgəlmə prosesində refleksiya səbəbin nəticədən ayrılması ilə baş vermişdir. Beləliklə, bizim təsəvvürlərə görə yaranış Allahın Nurunun daxilində baş vermişdir və məhz buna görə Allah hər an hər yerdədir. Buradan da qeyd edə bilərik ki, Allah bizim üçün xarici deyil, daxilidir - mənəvidir, çünki biz onun üçün xarici deyilik, daxiliyik - yəni onun Nurunun daxilindəyik, onun yaratdığıyıq. İlahi Nur özündə xalis "məlumat" hissəciklərindən - ideyaları daşıyan dalğalardan ibarətdir; hansı ki, hər bir hissəcik Nurun hissələrinə uyğun olaraq özlərindəki məlumatı başlanğıclarını təşkil etdikləri varlıq formalarında fərqli üsulla aydınlaşdırırlar.

Təkamül, formanın təkmilləşməsi (Nurun hissəcik təbiətinin üstünlük etməsi, əvəzində dalğa funksiyası təbiətinin ikincilik əldə etməsi) emanasiya, yəni mahiyyətin pisləşməsini özündə ifadə edir. Həqiqət haqqında məlumat daşıyan hər bir dalğa nə qədər çox öz dalğa uzunluğunu ifrat qısalıb hissəciyə çevrilirsə (gələcək formanı təşkil edən başlanğıcı yaradırsa), bir o qədər az xalis fikir kimi mövcud olur. Beləliklə, hər hansı bir faktda formanın əsası genişləndikcə həmin faktda mahiyyətin əsası kiçilir. Mahiyyətin əsasının kiçilməsi emanasiyanı özündə təqdim edir. İlahi Nurun mümkünlüyündən, ilk imkandan, Yoxluqdan (xalis ideyalar aləmindən) Varlıq, yəni ideya haqqında məlumat daşıyan dalğanın entropiyaya məruz qalması ilə "nə" yaranır. "Nə" özü-özünü işıqlandıraraq özü-özünün xarici görüntüsünü təşkil edir. Halbuki, görünən aləmdə hər şeyin xarici görüntüsü yalnız kənar mənbədən çıxan işığın təsiri ilə qaranlıqdan ayrı-ayrı şeylərin görünməsi kimi aşkarlanır. Görünən dünyada şeylər işıqdan qabaq mövcud olur, işıq sadəcə onları işıqlandırmaqla onları aydınlaşdırır. Belə aydınlaşma xarici aydınlaşma kimi xarici görüntünü təzahür etdirir. Lakin Allahın Nuru qabaqcadan mövcud olmayan heçlikdən "nə"ni işıqlandırır, yəni daxili görüntünü aydınlaşdırır. Biz Nuru Mütləq İşıq kimi qəbul edirik. Mütləq işığı mənbəyi özü olan işıq kimi təyin etmək olar. Adi işıq hansısa kənar mənbədən - enerji topasından çıxan şüadır, ona görə də mənbəyindən asılıdır, şərtlənmişdir, keçicidir. Mənbə itdikdə işıqlanma da dayanır. Mütləq işığın mənbəyi özü olduğundan əbədidir, yəni o yaranışın başlanğıcı kimi əbədi olaraq fərdi şeylər kimi mövcuddur, şərtlənməmişdir, çünki mənbəyi özüdür. Başqa sözlə, hər hansı bir şeyin mövcudluğu özü-özünü işıqlandırmanı təqdim edir. Özünü var edir. İlahi Nur da adi işıq kimi ikili təbiətli təsəvvür oluna bilər. Onun birinci təbiəti özündə Allahın istəmək gücünün enerjisini - həqiqət haqqında məlumatı quran enerjini daşıyan dalğa; ikinci təbiəti Allahın Yaradıcı gücünün - İradə enerjisini - həqiqət haqqında məlumatın forma kimi açılmasını təmin edən enerjini

daşıyan hissəcikdən ibarətdir. Adi işıq da özündə Mütləq işığı refleksiya etdiyindən özündə ikili - dalğa və hissəcik təbiətlidir.

İlahi Nur - Mütləq İşıq - İlahi İradə ilə başlanğıc *causa transitorias* xarakteristikası əldə etməklə (yəni İlahi İradə ilə Yaranışa daxil olmaqla) öz təbiətində differensasiyaya və ayrılmaya (emanasiyaya) məruz qalır və bununla da başlanğıc ilahilik xarakteristikasını itirir. Yaranışda bilavasitə İlahi İradə ilə İlahi Nur üç bərabər, amma müxtəlif *causa transitorias* xarakteristikasına malik hissəyə ayrılır. Bu bərabərlik özündə İlahi Ədaləti təzahür etdirir. Beləliklə, İlahi ədalətlə İlahi Nurdan yaranan hər bir başlanğıcın son məcmusu, digər başlanğıcların son məcmusuna bərabərdir. Yəni Kainatda mövcud olan cisimlərin totallığı canlıların totallığına, o da Ruhun totallığına bərabərdir. Cisimlərin totallığı kütlədə, canlıların totallığı həyatda, Ruhun totallığı həqiqəti aşkarlamaqda ifadə olunduğundan, cisimlərin enerjisinin, həyat enerjisinin və ruhi enerjinin bir-birinə bərabər olduğunu demək olar. İlahi Nurun totallığının pozulması emanasiyanın başlanğıcını təşkil edir. Hər şey İlahi Nurdan yarandığından, hər şeyin məcmusu da özündə İlahi Nuru təşkil edir. İlahi Nurun hissələrə ayrılması ardıcıl proses kimi təsəvvür etmək olar. Yəni əvvəlcə İlahi Nurun tamlığından bir hissə ayrılır, emanasiya ilə özünün ən sonuna çatdıqdan sonra öz potensiyasını tam tükəndirir. Həmin nöqtədə İlahi Nurun ikinci hissəsi emanasiyaya daxil olur. Həmin hissədə özünün qurulmasının zirvəsində öz potensiyasını tükəndirdiyindən üçüncü hissə emanasiya prosesinə daxil olur.

İlahi Nurun totallığının pozulmasından sonra, emanasiyaya görə Allah ideyası birbaşa, bilavasitə aydınlaşmır. İlahi Nurun ilahilik keyfiyyətini itirməsindən üç cür mümkünlük meydana çıxır:

1. **Cisimlərin əsası:** Nurun dalğa və hissəcik təbiətinin birlikdə - bir-biri ilə əlaqələnmiş halda, bir-birinə keçmədən (yəni daxili *causa transitorias* xarakteristikasına malik olmadan), yalnız xarici *causa transitorias* xarakteristikasına malik, hərəkətdən qalmasından yaranan

mümkünlük. Buradan forma və mahiyyətin vəhdətindən mövcud olacaq varlıqların - **cisimlərin** əsası yaranmışdır. İlahi Nurun ikili təbiətində bir təbiəti digərinin səbəbi kimi çıxış edir və varlıq özü-özündə qarşılıqlı səbəb-nəticə əlaqəsində olan iki təbiət kimi mövcuddur. İşığın bir təbiəti səbəb kimi, digər təbiətini fəaliyyətə gətirir. İlahi İşığın eyni zamanda hər iki təbiətinin bir-birinə keçmədən təzahürü, əbədi hərəkətdən qalması, yəni işığın mütləq hərəkətsizliyi Varlıq kimi təzahür edir.

Haşiyə: F.Şellinq, "Dünya ruhu haqqında"

> *"Mənim anlamımda təşkilatlanma səbəb və fəaliyyət axınının öz hərəkətini saxlanılmasından başqa bir şey deyil. O yerdə ki təbiət onu saxlamır, o axmaqda (düz xətt üzrə) davam edir; o yerdə ki onu saxlayırlar, o (dairə cızaraq) özü-özünə qayıdır."*

Beləliklə, F.Şellinqin qurulma haqqındakı yuxarıdakı fikirləri də məhz işığın hərəkətdən saxlanması ilə varlığın yaranmasını təsdiq edir.

2. **Canlıların əsası:** Nurun hər iki təbiətinin birlikdə, bir-biri ilə əlaqələnmiş halda, bir-birinə keçən (yəni həm daxili, həm də xarici *causa transitorias* xarakteristikasına malik), hərəkətdən qalmasından yaranan mümkünlük. Buradan sabit mahiyyət dəyişən formanın vəhdətindən mövcud olacaq varlıqların - **canlıların** əsası yaranmışdır.

3. **Ruhun əsası:** İlahi nurun yalnız bir təbiətinin digər təbiətindən ayrılaraq, ayrılıqda xarici *causa transitorias* xarakteristikasına malik, sürəkli hərəkətlilik halını saxlamasından yaranan mümkünlük. Buradan başqa mümkünlüyün forması ilə vəhdət təşkil edərək mövcud varlıq kimi çıxış edən mümkünlük - **Ruhun** əsası yaranmışdır.

Beləliklə, biz yaranışı üç pilləli bir proses kimi təsəvvür edirik və bu prosesin nəticəsində bir-birindən fərqli mövcudluq üsuluna malik üç cür mümkünlüyün - **cisimlərin, canlıların və Ruhun** əsası yaranmışdır.

İLAHİ İRADƏ

Rasional teologiyanın əsas məsələlərindən biri də yaranışın, İlahi İstəyin İlahi Bacarıqla necə reallaşdırılmasıdır. Bununla bağlı aşağıdakı sualların cavablarını tapmaq lazım gəlir: İlahi öz Nuruna *causa transitorias* (keçid xarakteristikasını) - özünün mütləq eyniliyindən mütləq fərqlilik xarakteristikasını necə vermişdir? Başqa sözlə, yaranışın üsulu nədən ibarətdir? Allah öz bacarığı ilə öz istədiyini necə yaratmışdır? Yaradılan özündə yaradılma üsulunu saxlayırmı?

Əgər yaradılanı başlanğıcla sonun daxili vəhdəti, səbəblə nəticənin əlaqələndirilməsi kimi təsəvvür etsək, onda daxili vəhdətə gəlməni (qurulmanı) və səbəblə nəticənin əlaqələnməsini təmin edən bir gücün mövcudluğunu qəbul etməliyik. Biz bu gücü Allahın İstəyini Onun Bacarığı ilə aktuallaşdıran İlahi Gücün idrak obyektlərində refleksiyası kimi təyin edirik. Allah öz istəklərini öz bacarığı və iradəsi ilə aktuallaşdırdığından, bütün idrak obyektlərini təzahür etdirən gücü də həmin obyektlərin iradəvi gücü kimi təyin etmək olar. İdrak obyektlərinin iradəvi gücü onları var edən gücdür.

İradə sözü çoxmənalıdır və onun aşağıdakı əsas mənalarını ayırd etmək olar:

1. **Azadlıq (başqasına tabe olmamaq, köləlikdən və asılılıqdan azad olmaq):** Allah istəməyində və yaratmağında azaddır. Allahın Azadlığı mütləqdir, çünki yaranışdan qabaq Allahın özündən başqa heç nə olmamışdır. Ona görə də, Allah mütləq azad olmuşdur. Allah həm də bacarığını istəyi ilə əlaqələndirmək gücünə malikdir. Təbiətdə şeylər vəhdətdə azad olduğundan, vəhdət daxilində bir şey başqasından bu və ya digər dərəcədə asılı olur. Mövcudluqda asılılığa əkslik təşkil edən güc onun azadlıq gücü və ya iradəsi kimi təzahür edir. Bu mənada

iradə - mümkünlüyün bir dərəcəsinin başqa dərəcəsindən asılı olmadan mövcudluğa meyl etməsini, mümkünlüyün mövcudluğa meylində azad olmasını, varlığın mövcudluğunun başqa varlıqlardan asılı olmamasını (yəni hər bir mümkünlüyün xüsusi mövcudluq forması əldə etmə imkanını), mümkünlüyün zərurətə görə mövcudluq əldə etməsini, mövcudolmada mövcudluqların bir-birindən asılı olmamasını və ya bir-birindən bərabər əsaslarda asılı olmasını ifadə edən və mövcudluqlarda saxlanan İlahi Azadlığın refleksiyası kimi təyin oluna bilər.

Əgər mümkünlüyün bir dərəcəsi başqa dərəcəsindən asılı olsaydı, onda mövcud olma meylində eyni mümkünlüyün bütün dərəcələri eyni məqamda mövcudolmaya keçə bilərdi, nəticədə bir mümkünlük eyni zamanda çoxlu müxtəlif mövcudluq formasında təzahür edərdi. Bu da təbiətdə inkişafı, dəyişilməni, təkamülü və tərəqqini istisna edərdi. Məsələn: hər hansı bir fərd eyni vaxtda həm uşaq, həm gənc, həm də yaşlı kimi mövcud olardı. Dialektik inkişaf mümkünlüklərin mövcudluğa meylində digər mümkünlük dərəcəsindən azad olduğunu və buna görə də yalnız imkana görə bir-birini əvəzlədiyini göstərir.

Əgər mümkünlüyün mövcudluğa meyli başqasından asılı olsaydı, onda heç bir mümkünlük mövcudolma əldə etməzdi, çünki mümkünlüklər mövcudolmada bir-birinə mane olduğundan, başqası özünün sonsuz meyli ilə digərlərinin mövcudluğa keçməsinə mane olardı. Mövcudluqların müxtəlifliyi varlığın mövcudolmada başqalarından asılı olmadığını göstərir, əks halda mövcudluqlar eynilik kimi təzahür edərdi. Təbiətdə hər şey vəhdətdədir; vəhdət qarşılıqlı bərabər asılılığı özündə ifadə edir. Əgər belə qarşılıqlı bərabər asılılıq olmasaydı, onda mövcudluqlar təklik kimi meydana çıxardı, halbuki təbiətdə mövcudluqlar çoxluq kimi təzahür edir. Vəhdətdə qarşılıqlı asılılıq azadlığın təzahür forması kimi meydana çıxır.

2. Hərəkətin geniş imkanı (hərəkət sərbəstliyi, hərəkətin vüsət alması): Mümkünlüyün mövcudluq əldə etmə meyli, mümkünlüyün mövcudluğa keçidinə - başlanğıc hərəkət əldə etməsi ilə mümkün olur.

Buradan da iradəni inkişaf, təkamül və tərəqqi də daxil olmaqla, istənilən hərəkətin başlanğıc səbəbi kimi təyin etmək olar. Mövcudluq mövcudolma formasında təzahür edir, yəni mövcudolma mövcudluğun bütün hərəkətlərinin məcmusu kimi meydana çıxır. Beləliklə, iradə həm də mövcudolmanın sürəkliliyinin başlanğıc gücüdür. Bu gücsüz mövcudluq müstəqil mövcudolmaya, yəni hər hansı hərəkətliliyə malik olmur. Məsələn, süni radioaktiv elementlər iradəvi gücə malik olmadığından təbiətdə müstəqil mövcudolmaya malik deyillər, yalnız başqa mövcudluqların mövcudluğundan ani mövcudluq əldə edərək mövcud olurlar. İradəvi güc mövcudluğun mövcudolma imkanını, onun sərbəstliyini, yəni təzahür etməsini, başqa varlıqlara təsirinin məcmusu kimi çıxış edir. Əgər mövcudluğun hərəkətinin geniş imkanı, hərəkət sərbəstliyi olmasaydı, onda hərəkət materiyanın varlıq forması olduğundan, hərəkətsiz heç bir mümkünlük mövcudluğa keçməzdi (yəni materiyaya malik olmazdı). Bu mənada iradə həm də mövcudluğun müəyyən materiya əldə etmə gücünü özündə ifadə edir.

3. Ağlın yaradıcılıq fəaliyyəti (fəaliyyətin ixtiyariliyi): Allah yalnız mahiyyətin varlığını yaradır və sonra mahiyyətin varlığı öz daxili gücü ilə ən müxtəlif varlıq formalarını özündən əmələ gətirməklə mövcud varlıqda başa çatır. Mahiyyətin varlığının özündən başqa varlıq formalarını əmələ gətirməsi onun ixtiyari olmasını, yəni özünün əmələ gətirə biləcəyi varlıq formasını yaratmasını özündə ifadə edir. Bu zaman əmələ gələnin tabe olacağı nizam əmələ gəldiyindən meydana çıxır. Biz əmələ gətirənin özündə əmələ gələnin qanunlarını saxlamasını idrak obyektinin *intelligibilliyi* (intellektebellik) kimi təyin edirik. İnsan intellekti də özündən yarada biləcəklərinin nizamının məcmusu kimi meydana çıxır. Bütün varlıqlar Allah tərəfindən yaradıldığından, Allah Mütləq İntelligibilliyə malikdir. Burada intelligibillik bir tərəfdən mahiyyətin varlığının ardıcıl, uyğun, bəlli nizamla varlıq təyinlərini əmələ gətirməsini, digər tərəfdən idrak prosesində obyektin həqiqətinin qavranılan olmasını özündə ifadə edir. İnsan idrak

obyektlərinin nizamını aşkarlamaqla öz intellektini gücləndirir, yəni onların nizamı haqqında məlumatlar artdıqca özündə nizam saxlama imkanı genişlənir. Beləliklə, biz iradəni mahiyyətin forma yaratma gücü - öz materiyasını strukturlaşdırmaqla mövcud varlığa çevrilmə gücü kimi təyin edə bilərik.

4. Hakimiyyət və ya güc (başqasının hakimiyyəti altında olmamaq, özbaşınalıq): Hər bir mövcudluğun mövcud olması onun konkret hakimiyyət əzminə malik olduğunu göstərir. Hakimiyyət əzmi başqaları üzərində təsirə malik olmaq və özünü başqalarının məhvedici təsirindən qorumaq gücündən doğur. Beləliklə, iradə özündə mövcudluğun mövcud olmasına imkan verən təsir və əks-təsir güclərinin məcmusunu ifadə edir.

5. Hüquq: Hər bir mövcudluq konkret forma və mahiyyətə malikdir. Mahiyyətin konkret xüsusi forma ilə vəhdət təşkil etməsi onun hüququ kimi təzahür edir. Mövcudluq belə hüquqa malik olmasaydı, onda forma ilə mahiyyətin vəhdəti olmazdı, yəni bir mahiyyət istənilən forma ilə və əksinə, eyni bir forma istənilən mahiyyətlə vəhdətdə təzahür edərdi. Yaxud bir mahiyyət başqa mahiyyətin forması ilə vəhdətə meyl edərdi ki, bu da varlıq aləminin nizamsızlığına (xaosuna) səbəb olardı. Belə halda heç bir idrak obyektindən həqiqəti idrak etmək mümkün olmazdı. Buradan da biz bu mənada iradəni təbii nizamın - təbiət qanunlarının gücü kimi təyin edirik.

6. Cəhd, arzu, istək: Faktın aktuallaşması ilə mövcudluq mövcudolma əldə edir. Hər bir mövcudluq öz mövcud olmasını sonsuzluğa qədər əbədi davam etdirmək, yəni Allahın xarakteristikalarını özündə refleksiya etmək cəhdindədir. Bu cəhd mövcudluğun iradəviliyi kimi meydana çıxır ki, özündə İlahi atribut kimi İlahi İradəni refleksiya edir. Beləliklə, iradə mövcudluğun öz mövcud olmasını davam etdirmək gücü kimi çıxış edir.

7. Məcburetmə, zorlama: Mövcudluqlar vəhdətdə mövcud ola bildiklərindən, mövcudluqların bir-birini vəhdətə gətirməsi məcbu-

retmə kimi meydana çıxır. Burada məcburetmə həm özünü başqaları ilə vəhdətə gətirməni (daxili məcburetməni), həm də başqalarını özü ilə vəhdətə gətirməni (xarici məcburetməni) ifadə edir. Beləliklə, vəhdət yaratmağa məcburetmə gücü varlığın iradəsi kimi təzahür edir.

Bütün bu dediklərimizi ümumiləşdirərək, iradənin bütün mənalarının məcmusundan ona belə bir tərif vermək mümkündür:

İradə - mövcudluqların qarşılıqlı asılılığının və ya hər birinin azadlığının, mövcud olmaq üçün zərurətə görə materiya əldə etməsinin, əldə etdiyi materiyanı strukturlaşdırmaqla ona xüsusi forma verməsinin, mövcudluqların mövcudolma cəhdinin, onları vəhdətə məcbur edən, onların həqiqətini və bununla da təsir-əks təsir kimi təzahür edən təbii qanunlarının gücüdür.

Bəs iradə mövcudluqla necə şərtlənmişdir və onu haradan, necə aşkarlamaq olar? Hər bir mövcudluq yalnız özündə belə bir gücün - iradənin saxlanmasına görə idrak obyekti statusu, yəni dərkedilənlik keyfiyyəti alır; yəni özündə həqiqət təzahür etdirir. Beləliklə, biz mövcudluqda iradəni onda həqiqəti saxlayan güc kimi də təyin edə bilərik. Məhz buna görə də iradə həm də həqiqətin idrak prosesində subyektlə - həqiqəti dərk edən insanla əlaqələnir. Yəni həqiqətin idrakında həqiqətin təfəkkürdə refleksiyası ilə həqiqətin təfəkkürdə saxlanması (yaddaş) özündə idrak obyektlərinin iradəsinin refleksiyası kimi təzahür etmiş olur. Beləliklə də yaddaş insanın özündə həqiqət saxlamaq gücü - iradəsi kimi təzahür edir.

İradə anlayışı fəlsəfədə müxtəlif cür şərh edilir. Bizə görə A.Şopenhauerin iradə anlayışı haqqında şərhləri iradənin mənasını dəqiq müəyyənləşdirmək üçün daha əlverişlidir.

Haşiyə: Artur Şopenhauer, "İradə anlayışı"

"İradə, özü-özündə şey kimi, özünün təzahürlərindən tamamilə fərqlidir və yalnız təzahürdə daxil olduğu bütün formalardan tamamilə azaddır. O, beləliklə, yalnız onun obyektivləşməsinə aid

olur, onun özünə isə yad olur. Hətta ən ümumi formada istənilən təsəvvürlər - subyekt üçün obyektin (təsəvvürü) ona aid olmur; amma forma (vardır), bu ümumi forma Əsasın Qanununda özünün ən ümumi ifadəsini tapan, tabe olandır; hansı ki, məlum olduğu kimi, zaman və məkan məxsusdur, beləliklə, yeganə onlardan çoxluq mövcud və mümkün olur. Mən, bu sonuncu münasibətdə, köhnə sxolastikadan mənimsəyərək, zaman və məkanı fərdiləşmənin prinsipi kimi adlandıracağam. İradə, özü-özündə şey kimi, Əsasın Qanununun onun bütün obrazlarından kənarda yerləşir və beləliklə, tamamilə əsassızdır, baxmayaraq ki, onun hər bir təzahürü Əsasın Qanununa tabedir. Sonra, məkanda və zamanda saysız təzahürlərinə baxmayaraq, o, hər cür çoxluqdan azaddır; o özü birdir: birliyi çoxluğun mümkünlüklərinin əksiliyindən dərk edilən bir obyekt kimi yox; həm də yalnız çoxluqdan ayrılmış kimi əmələ gəlmiş vahid anlayışda yox; məkan və zamanda, fərdiləşdirmə prinsipində, yəni çoxluğun mümkünlüyündə olmayan kimi təkdir. Eyni zamanda iradənin özünün əsassızlığına görə təzahürlərinin hər yerdə tabe olduğu zərurətə baxılmışdı və fəaliyyət azad elan olunmuşdur, hansı ki, o ola bilməz, belə ki, hər bir ayrıca fəaliyyət ciddi şəkildə motivin xarakterə təsirindən zərurətdən meydana gəlir. İstənilən zərurət yalnız nəticənin səbəbə münasibətindən başqa bir şey deyil. Əsasın Qanunu - istənilən təzahürün ümumi forması kimi istənilən təzahür ona tabedir. Sözün sıx mənasında səbəbi mən materiyanın o vəziyyəti hesab edirəm ki, zəruri olaraq başqasını çağırarkən özü törətdiyi dəyişilməyə uyğun dəyişir, hansı ki, belə qayda ilə ifadə olunur: təsir əks-təsirə bərabərdir. Təbiətdə, orqansız və idrakın motivi üçün, qıcıqlanma üçün qavraması olmayan bütün cisimlərin hərəkətinin baş verdiyi, dəyişməz, ümumi qanunlarla fəaliyyət göstərən gücləri özü-özündə şeylərin mahiyyətinin idrakına daxil etməliyik, hansı ki, bizə yalnız bilavasitə öz xüsusi mahiyyətlərinin idrakını təqdim edə bilsinlər və qeyri-üzvi aləmin bizdən bütünlüklə uzaqda olan təzahürlərinə əlavə etməliyik. Biz onlara diqqətlə baxsaq, onda istənilən şeyin mahiyyətini təşkil edən və istənilən təzahürün yeganə nüvəsini bildirəni biz İradə adı ilə adlandırmalıyıq."

Göründüyü kimi, Şopenhauer iradəni obyektin istənilən formasından azad olan "özündə şey" kimi təyin edir və onu öz təzahür formalarından fərqləndirir. Beləliklə, Şopenhauer iradəni özündə şey kimi, özündə şey olan varlıqdan ayrı bir idrak obyekti kimi şərh edir. Biz də Şopenhauerlə razılaşırıq və belə hesab edirik ki, iradə İlahi təbiətin üç müxtəlif gücündən biri kimi müstəqil gücdür. Belə ki, İlahi İstəyin gücü *mahiyyət* (və ya həqiqət) kimi, İlahi Bacarığın potensiallığı müstəqil güc kimi *forma* kimi, forma ilə mahiyyəti vəhdətə gətirməklə yaradılanı - idrak obyektini təzahür etdirən güc isə *iradə* kimi mövcud varlıqdan aşkarlanır.

Beləliklə, bu üç gücün obyektdə refleksiyası bir-birindən ayrı üç müxtəlif qanunauyğunluqlara əsas təşkil etsə də, hər birinin mövcudluğu digərinin mövcudluğu ilə şərtlənmişdir və müstəqil aydınlaşma imkanına malik deyildir; yalnız bilikdə mövcud varlıqdan aydınlaşa bilirlər. Əgər özündə şey kimi varlıq özündə İlahi İstəklə İlahi Bacarığın vəhdətidirsə, onda mövcud varlıq İlahi İstəklə İlahi Bacarığı əlaqələndirən güc kimi mövcuddur ki, üçü birlikdə mövcud varlığı təşkil edir. Buradan İlahi İstək mövcud varlığın mahiyyətində, İlahi Bacarıq mövcud varlığın xarici görüntüsündə (yəni estetikasında), İlahi İradə isə həqiqətin təzahüründə ifadə olunur. Beləliklə, iradə formadan dolayısı ilə həqiqəti təzahür etdirən müstəqil güc kimi təsəvvür oluna bilər.

A.Şopenhauerin fikirlərindən iradə anlayışının aşağıdakı xarakteristikasını təyin edə bilərik:

1. **Obyektivləşməyə aid olmaq - təzahürlərin formasından azad olmaq:** Biz iradəni mahiyyətin forma ilə vəhdət təşkil etməsinin gücü kimi təsəvvür edirik, hansı ki, bu vəhdət təzahürlər formasında aydınlaşır. Nə mahiyyət, nə forma vəhdətdən kənar təzahür etmək imkanına malik deyillər və vəhdətdən aydınlaşan təzahürlər həm mahiyyətə (kimyəvi xassələr kimi), həm də formaya (fiziki xassələr kimi) aid olur. Buna görə də istənilən şeyin hər iki xassəsi yalnız vəhdətdə təzahür edir. Buradan vəhdət yaradıcı güc - istəyin qabiliyyətlə

birləşdirilməsi - təzahürlərin səbəbi kimi çıxış edir. Beləliklə, nəsə təzahür edirsə, o mütləq iradəyə malik olur. Təzahür obyektin əsas xarakteristikasıdır, hansı ki, məhz təzahürlərə görə obyekt hissi qavranılan olur.

Obyektivləşmə özündə obyekt statusu olmayanın - mümkünlüyün, obyekt statusu almasını - mövcudluğun mövcud olmasını, yəni mümkünlüyün mövcudluq meylinin aktuallaşmasını - həqiqətin metafizikadan fizikaya keçidini ifadə edir. İradə bu keçidi təmin edən gücdür. Beləliklə də İlahi İradə, İlahi İstəyin (həqiqətin) İlahi Bacarıqla (yaradıcılıqla) dərk olunan hala (yaradılana) gətirilmə gücü kimi anlaşıla bilər.

İradə təzahürlərə obyektivləşmə prosesində onları təzahür etdirən - hərəkətə gətirən xarici güc kimi daxil olur, amma ən müxtəlif təzahür formalarına münasibətdə azad qalır, yəni hər hansı bir təzahür forması ilə xüsusi olaraq şərtlənmir. Buradan da iradə təzahürün təzahür etməsinə - hərəkətinə aid olur, amma təzahürün özünə aid olmur. Əgər iradə təzahürün özünə aid olsaydı, təzahür isə forma ilə mahiyyətdən meydana çıxdığından, onda iradə həm formaya, həm mahiyyətə aid olardı. Forma heçlik kimi, mahiyyət xalis fikir kimi bir-birinə ziddiyyət təşkil etdiyindən, eyni bir şey, eyni vaxtda, eyni yerdə, bir-birinə ziddiyyət təşkil edənlərin hər ikisinə eyni dərəcədə aid ola bilməyəcəyindən bu mümkünsüzlük olardı.

Əgər iradə təzahür formaları ilə şərtlənsəydi, onda heçlik kimi təzahür formalarının dəyişilmələrində mahiyyətdən ayrılardı, nəticədə obyektivləşmə gücü olmaqdan çıxardı və obyekt yenidən obyektivsizləşməyə məruz qalardı. Digər tərəfdən, iradə - tək, təzahürlər - çoxluq kimi mövcuddur. Beləliklə, ayrıca təkin ümumi çoxluqla şərtlənməsi onun çoxluğu təşkil edən təklərlə xüsusi şərtlənməsini istisna edir. Buradan da iradə istənilən xüsusi təzahürün ən ümumi əsasına aid olur, nəinki hər bir təzahürün xüsusiliyinə. Əgər iradə təzahürün bütün xüsusi formaları ilə eynilik təşkil etsəydi, onda obyek-

tin təzahürləri məkan və zaman şərtlərindən asılı olaraq dəyişkən olduğundan iradə də məkan və zaman şərtlərinə tabe olardı. Bu da məkan və zaman şərtlənməsində təzahürlərin dəyişilmələrinin obyektivsizləşməyə səbəb olması demək olardı. Onda mövcudluqların mövcudolma cəhdinin əsası olmazdı. Məhz təzahürlərin məkan və zamanla şərtlənməsinə görə onlar dəyişkənlik əldə edir, iradə isə onlardan azad olduğundan mövcudluğun mövcud olmasını davam etməsini təmin edir. Buna görə, "iradə, özü-özündə şey kimi, özünün təzahürlərindən tamamilə fərqlidir və yalnız təzahürdə daxil olduğu bütün formalardan tamamilə azaddır, hansı ki, beləliklə, yalnız onun obyektivləşməsinə aid olur, onun özünə isə yad olur".

İradə həqiqətin metafizikadan fizikaya, mümkünlükdən mövcudluğa, ideyadan obyektə keçidi təmin edən, obyektin özünə aid olmayan, amma onda saxlanan, təzahür formaları ilə əlaqələnməyən kənar güc kimi çıxış edir və bu güc obyektdə saxlandıqca həqiqət mövcudluqdan - obyektdən təzahür etmiş olur.

Məhz iradəvi gücə görə, formanın dəyişilmələrində mahiyyət sabit qalır. İradə bilavasitə özündə yalnız İlahi İstəyi və İlahi Bacarığı refleksiya edən obyektə aid olmasa da, təzahür və təsir-əks təsirin səbəbi kimi obyektdən aşkarlanır. Buradan da iradənin obyektdə saxlandığı və o saxlandığı həcmdə və vaxtda obyekti gerçəkləşdirən - ona hissi qavranılma keyfiyyəti verən güc olduğunu demək olar. İradə obyektdə saxlandığından immanentdir və buna görə zərurətlə şərtlənmişdir. Başqa sözlə, zərurət iradənin təzahür forması kimi çıxış edir. Mümkünlüklər yalnız təsadüfə görə var olduqlarından, metafizik aləmdə iradə təzahür etmir.

Mahiyyətin forma əldə etməsi sonsuz uzunluqlu dalğa funksiyasının İlahi iradə ilə sonsuz qısalaraq özündən hissəcik yaratması və bununla da forma yaratmasıdır. Beləliklə, obyektivləşmə mümkünlüyün - sonsuz uzunluqlu dalğa funksiyasının - ifrat qısalması ilə mövcudluğa -

hissəciyə keçməsidir. Bu keçidi reallaşdıran isə İlahi İradəvi gücü özündə refleksiya edən konkret mövcudluğun iradəvi gücüdür.

2. **Obyektin subyekt üçün təsəvvürlərinə aid olmamaq - təsəvvürlərin formasından azad olmaq:** Obyekt haqqında təfəkkürdə yaranan təsəvvürlər bilavasitə hissi qavrama ilə obyektin təzahürlərindən mümkün olur. O şey ki, təzahürlərin formasına aid olmur, təbii şəkildə onların refleksiyasına da aid olmur. Beləliklə, təzahür formalarından azad olan iradə həm də onların təfəkkürdə refleksiyası ilə yaranan təsəvvürlərdən də azad olur. Obyekt haqqında təsəvvürlər özündə yalnız İlahi İstək (həqiqət) və İlahi Yaradıcılıq (obyektin estetikası) aiddir. Həqiqətlə xarici görüntünü - formanı əlaqələndirən iradəvi güc isə belə təsəvvürlərdən kənarda qalır. Beləliklə, iradə iki müxtəlif ilahi gücü vəhdətə gətirən üçüncü müstəqil ilahi güc kimi çıxış edir. Buna görə də "hətta ən ümumi formada istənilən təsəvvürlər - subyekt üçün obyektin (təsəvvürü) ona aid olmur; amma forma (vardır), bu ümumi forma Əsasın Qanununda özünü ən ümumi ifadəsini tapan, tabe olandır; hansı ki, məlum olduğu kimi, zaman və məkan məxsusdur, beləliklə, yeganə onlardan çoxluq mövcud və mümkün olur". Əsas elə ümumi formadır ki, bütün təzahürlərin xüsusi formaları bu ümumi forma ilə şərtlənmişdir. Əgər iradə təzahürlərin xüsusi formalarından azaddırsa, onda Əsasın ən ümumi formasından azad deyil; azad olsaydı, onda bu əsas üzərində meydana çıxan xüsusi təzahür formalarını hərəkətə gətirə bilməzdi. Əsas üç müstəqil gücün vəhdətindən yarandığından, bütün təzahür formaları da özü-özündə belə üçlü şərtlənməyə tabe olur. Şərtlərin çoxluğu obyektivizasiya prosesində çoxluğun mümkünlüyü və mövcudluğunun səbəbi kimi meydana çıxır. Buradan da iradənin Əsasın ümumi formasından asılı olaraq bütün təzahürlərə keçərək onları təzahür etdirməsinin, amma bu zaman onların xüsusi formalarından azad olmasının səbəbi aydınlaşır.

3. **Əsasın qanununun nahiyəsindən kənarda olmaq:** İlahi İradə həqiqəti təzahür etdirən və onun təzahürlərini formalaşdıran güc kimi

təsəvvür oluna bilər. İlahi iradəni özündə refleksiya edən idrak obyektlərinin iradəsi də məhz həmin obyektlərin qavranılma gücü kimi çıxış edir. İradə əsası təşkil edən üç müstəqil gücdən biri kimi ondan kənardadır. Əgər iradə əsasın qanununun nahiyəsində olsaydı, onda o əsası təşkil edən kimi çıxış edə bilməzdi. Başqa sözlə, iradə əsası təşkil etməsinə görə zərurətə görə onun qanununun nahiyəsindən kənardadır. Əsasın qanunu istənilən təzahürün formasının ümumi formaya tabe olmasını özündə ifadə etdiyindən, onda belə tabeçiliyi təmin edən güc də olmalıdır. Bu güc eyni zamanda xüsusi təzahür formalarını təzahür etdirən güc olmalıdır ki, eyni zamanda təzahürlərin formasını ümumi bir formaya tabe olmaqla təzahür etdirsin. Belə bir asılılıq olmasaydı, onda hər obyektdən istənilən təzahür forması və bir təzahür ən müxtəlif formalarda meydana çıxardı ki, bu da obyektlərin daxili xaosuna səbəb olardı. Yəni iradə istənilən təzahür formasını əsasa tabe etdirən xüsusi gücdür.

4. **Fərdiləşmə prinsipinə aid olmamaq:** Şopenhauer zaman və məkana məxsus tabe olanın - yəni obyektin - formasından çoxluğun mümkünlüyü və mövcudluğunu - yəni eyni bir formanın məkanda və zamanda təkrarlanmasını fərdiləşmə prinsipi kimi təyin edir. Çoxluğu təkliyin məkan və zamanda təzahür forması kimi təyin etmək olar. Buradan da təkliyin çoxluq təşkil etməsi fərdiləşmə prinsipini meydana çıxarır. Belə ki, təbiətdə heç bir təklik mümkün olmadığından, təkliyin bilavasitə təzahürü də mümkünsüzlükdür. Təklik yalnız çoxluq təşkil etməklə təzahür edə bilir. Əgər iradə əsasın ən ümumi formasına tək kimi aiddirsə və təzahür formalarından azaddırsa, onda çoxluq formasında təzahürdən də azaddır. Buradan da iradənin fərdiləşmə prinsipindən kənarda olduğunu müəyyən edə bilərik.

Təbiətdə təklikdə (fakt kimi) və vəhdətdən kənar (mövcudolmasız) mövcudluq yoxdur. Yəni təbiətdə mövcudluğun mövcud olması çoxluq formasında və vəhdətdədir. Eyni mümkünlüyün eyni bir imkanda, məkanda təkrarlanmaqla mövcudluğa keçidindən çoxluq əmələ gəlir.

Müxtəlif mövcudluqların eyni zamanda məkanı biçimləməsindən isə vəhdət yaranır. Buradan da biz vəhdəti məkanın mövcudluqları ölçüləndirməsi kimi təyin edə bilərik. Obyektivləşmə mövcudluğun zaman və məkanda ölçülənməsi ilə başa çatır; hər bir mövcudluq məkanda yalnız ona aid xüsusi yerə, zamanda yalnız özünün sürəkliliyi kimi vaxta malik olur. Məhz buna görə də Şopenhauer zaman və məkanı fərdiləşmənin prinsipi kimi təyin edir.

Mümkünlüyün çoxlu mövcudluq əldə etməsi nəticəsində mümkünlük fərqli məkan və zaman şərtlərinə tabe olan mövcudolma əldə edir. Eyni bir mümkünlüyün çoxlu sayda fərqli mövcudolma əldə etməsi fərdiləşməni təzahür etdirir, hansı ki, konkret məkan və zaman şərtlərini özündə ifadə edir. Buradan da aydın olur ki, eyni məkan və eyni zaman şərtində yalnız bir fərdi mövcudluq təzahür edir, hansı ki, həmin mövcudluğun fərdiliyi məkan və zaman şərtini özündə təqdim edir. Buradan da fərdiliyin xarici olduğunu, yəni mövcudluqdan yox, mövcudluğu şərtləndirən zaman və məkandan yarandığını deyə bilərik. İradə isə daxili olduğundan xarici olan fərdiləşmədən kənarda qalır.

Digər tərəfdən, sonsuz mümkünlük mövcudolma əldə edərkən sonsuzluqdan sonluluğa keçir, bu da hər bir mövcudluğu digərlərindən sərhədləndirir. Mövcudluğun sərhədlənməsi, yəni sonlu olması fərdiləşdirmə prinsipinin əsasında durur. Fərdiləşmə ilə vahid iradə ayrıca şeylərdən təzahür edir. Və hər bir fikrən ayrılıqda götürülmüş şeyin iradəvi gücü onun məkan və zaman ölçüləri ilə şərtlənir. Buradan da iradə ilə məkan və zaman arasında əlaqəni aşkarlamaq mümkündür. İradə mümkünlüyün mövcudolma meylində mövcudluğa keçməsi üçün zaman və məkanı ölçüləndirmə, yəni mümkünlüyü sonsuzluqdan sonluluğa, əbədilikdən faniliyə, başqa sözlə, metafizikadan təbiətə keçmə gücü kimi çıxış edir.

5. **Çoxluqdan azad olmaq - bir olmaq:** Fərdi şeylərin məcmusu çoxluq kimi təzahür edir. Beləliklə, çoxluq fərdi şeyə görə xaricidir. İradə yalnız əsasla bağlı olduğundan, çoxluq əsasdan kənar olduğun-

dan buna görə də iradə "məkanda və zamanda saysız təzahürlərinə baxmayaraq, o, hər cür çoxluqdan azaddır". Çoxluqdan azad olduğuna görə də (metafizik statuslu obyekt kimi) təkdir, birdir. İradənin bir olması mövcudluqların bir olmasından fərqlənir. Belə ki, birincisi, "iradənin bir olması çoxluğun mümkünlüklərinin əksiliyindən dərk edilən bir obyekt kimi" deyil. Çoxluğun mümkünlüyünün əksiliyi azlıqdır. İstənilən azlıq da fərdlərdən təşkil olunur. İradə fərdiləşdirmə prinsipindən kənar olduğundan, fərdi şeylərdən təşkil olunmuş çoxluqdan azad olduğu kimi, azlıqdan da azad olmalıdır. Belə olmasaydı, onda iradə çoxluqdan azad, azlıqdan asılı olardı. Bu isə iradənin azadlıq mənasına zidd olardı. İkincisi, iradə "həm də yalnız çoxluqdan ayrılmış kimi əmələ gəlmiş vahid anlayışda" bir deyil, yəni iradə çoxluğu təşkil edən və ondan faktiki olaraq təcrübədə ayrılmış bir obyektin anlayışı kimi də bir deyil. Yəni iradə həm konkret birdən (hissi qavranılan obyekt kimi), həm də onun refleksiyası kimi mücərrəd birdən (anlayış kimi) fərqli birdir. Buradan da məlum olur ki, iradənin bir olması yalnız metafizik mənada qəbul edilə bilər, hansı ki, metafizik statuslu obyektlərin əsas xarakteristikalarından biri kimi məkan və zamanla şərtlənməməni, yəni Şopenhauerin dediyi kimi "məkan və zamanda, fərdiləşdirmə prinsipində, yəni çoxluğun mümkünlüyündə olmayan kimi" təsəvvür oluna bilər.

İradə çoxluğun mümkünlüyündə yox, mümkünlüyün mövcudluğunda olan kimi birdir. Beləliklə, iradə mümkünlüyün mövcudluğa keçidində saysız təzahürlərinə baxmayaraq, hər cür çoxluqdan azaddır. Başqa sözlə, iradə çoxluq yaratsa da, özü çoxluq xarakteristikasına malik deyil, yəni təklik kimi mövcuddur. Əvvəlki fəsildə qeyd etdik ki, metafizik statuslu obyektlər təklik xarakteristikasına malik olduğundan, mümkünlüyün varlığı da təklik kimi təyin olunmalıdır. Bu o deməkdir ki, sağlam ağıla sığan bütün ideyaların totallığı tək bir mümkünlükdür və tək bir mümkünlüyün təzahürü tək bir iradədən asılıdır. Bundan fərqli olaraq, təbiətdə təklikdə heç bir mövcudluq

mövcudolma əldə etmir. Yəni istənilən mövcudluğun təbiətdə mövcud olması çoxluq formasındadır.

Bunu necə izah etmək olar? Metafizik statuslu obyektlər təcrübədən fərqli olaraq, zaman və məkan şərtlərinə tabe olmadığından, eyni bir metafizik obyekt eyni vaxtda müxtəlif yerlərdə və eyni yerdə müxtəlif vaxtlarda olmaq imkanına malikdir. Bundan fərqli olaraq, mövcudluqlar eyni zamanda yalnız bir yerdə ola bilir, hansı ki, biz bunu məkan və zamanla şərtlənmə kimi anlayırıq. Beləliklə, mümkünlüyün eyni imkandan mövcudluğa keçmə meylindən tək mümkünlük eyni zamanda çox yerdə çoxlu sayda eyni mövcudluğa keçir ki, bu da çoxluq kimi təzahür edir. Məsələn, alma mümkünlüyün bir imkanda mövcudluq əldə etməsindən ibarətdir. Amma təcrübədə milyonlarla alma mövcud olur, hansı ki, hamısından yalnız tək bir mümkünlük - almanın xüsusi həqiqəti aşkarlanır. İradə hər cür formadan azad, özündə şey kimi təyin olunursa, onda çoxluq forma ilə vəhdətdə təzahür etdiyindən, iradə çoxluğu əmələ gətirən, amma eyni zamanda onlardan azad olan güc kimi mövcud olmalıdır. Əgər iradə də çoxluq kimi mövcud olsaydı, onda eyni bir şeyin çoxluğu meydana çıxmazdı və hər bir fərdi mövcudluq fərdi mahiyyətə malik olardı, hansı ki, təbiət bunu inkar edir.

Bütün bunları ümumiləşdirib demək olar ki, iradə - özündə həqiqəti çoxluq təşkil edən mövcudluqdan təzahür etdirən, təzahür formalarına aid olmayan, əsası təşkil edən müstəqil xüsusi gücdür. Hansı ki, bu güc hesabına hər bir mövcudluq fərdi şey kimi hissi qavranılan olur.

İRADƏNİN TƏZAHÜR FORMALARI

Şopenhauer iradəni "özünün təzahür formalarından fərqli və onun bütün təzahür formalarından azad, yəni onların obyektivləşməsində onlara daxil olan, amma bu zaman onlara yad olaraq qalan özü-özündə şey" kimi təsəvvür edir. Buradan da məlum olur ki, iradənin təzahür formaları iradənin mənalarına malik deyil və iradə anlayışı ilə onun təzahür forma-

larını anlamaq olmaz. Başqa sözlə, iradənin təzahürü fərqli mənalara malikdir. İradəni anlamaq üçün yalnız onun öz mənaları kifayət deyil, belə ki, onun anlayışına aydınlıq gətirmək üçün ondan fərqlənən, ondan azad olan təzahür formalarının mənalarını anlamaq lazım gəlir. Biz iradənin aşağıdakı təzahür formalarını ayırd edirik:

1. Azadlıq

Azadlıq sözünün aşağıdakı mənaları vardır:

- **Birincisi, öz iradəsi olmaq:** Bu mənada azadlıq bilavasitə iradənin təzahür forması kimi meydana çıxır və hər bir varlıq özündə azad olmağı ilə iradəyə malik olduğunu nümayiş etdirir və əksinə, iradəvi gücü qədər azad olur. Mövcudluqlarda azadlıq obyektin *faktından* aşkarlanır və mövcudluqda azadlıq kimi meydana çıxır. Mövcudluqda azadlıq zərurətə görə daxili vəhdəti təmin edən iradəvi gücdür. Belə gücə görə xarici vəhdət təsadüfə görə mövcud olur. Əgər xarici vəhdət də zərurətə görə olsaydı, onda inkişaf, hərəkət, təkamül və s. baş verməzdi. Məhz bu güclə mümkünlük mövcudluq əldə edərək aktuallaşır. Hər bir mövcudluq yalnız azadlıqda özünəxas quruluş əldə edə bilir.
- **İkincisi, özünəməxsus fəaliyyət imkanı:** Özünəməxsus fəaliyyət öz gücü ilə fəaliyyət mənasını verir. Heç bir mövcudluq özündə başqasına xas fəaliyyət göstərə bilməz, çünki fəaliyyət yalnız daxili güclə şərtləndiyindən xarici güc fəaliyyət yarada bilməz. Başqasının gücü ilə özünəxas fəaliyyət göstərə bilməz, çünki başqasının gücü ona xas öz fəaliyyətinin səbəbi ola bilər. Özünəməxsus fəaliyyətin məcmusu mövcudolma cəhdindən ibarətdir. Hər bir mövcudluq əbədi mövcudolma cəhdindədir; bu cəhdin davam etdirilməsi mövcudolmada azadlıq kimi meydana çıxır. Beləliklə, bu mənada iradə obyektin *aktından* təzahür edir.
- **Üçüncüsü, sıxışdırılmamağın, köləliyin, başqa iradəyə tabe olmanın istisnası:** Mümkünlüklər mövcudolma meylində, mövcudluqlar isə mövcudolmaya əbədi cəhddə bir-birinə mane olurlar. Hər hansı mümkünlük və ya mövcudluq yalnız başqasından gələn belə

maneni dəf etməklə (yəni mümkünlük imkan əldə etməklə, imkansızlığı dəf etməklə) mövcudluğa keçir. Mövcudluq isə başqa mövcudluğun iradəsinə tabe olmamaqla mövcudolmanın sürəkliliyinə nail olur. Buradan da biz azadlığı rəqabətdə olan xarici güclərə qalib gəlmək kimi anlaya bilərik. Qələbə azadlığın əsasıdır.

- **Dördüncüsü, məcbur edilməyən, məcbur olmayan:** Hər hansı bir fəaliyyətin mənbəyi ikilidir: xarici və daxili. Xarici mənbə başqası tərəfindən məcburetmə kimi çıxış edir. Belə fəaliyyətin nəticəsi məcbur edən obyektin məqsədinə xidmət edir, məcbur edilən sadəcə vasitə kimi çıxış edir və nəticə bəzən məcbur olanın mövcud olmasına mane kimi meydana çıxır. Belə fəaliyyət obyektin özündən qaynaqlanmır və xarici məcburetmə aradan qalxanda fəaliyyət də sönür. Daxili mənbə ilə şərtlənmiş fəaliyyət bilavasitə obyektə aid olub, obyektin mövcudluq üsulu ilə bağlıdır.

Beləliklə, azadlığın mənalarından çıxış edib demək olar ki, azadlıq - öz iradəsi olmaq (yəni mövcudluqda və mövcudolmada yalnız özündən asılı olmaq), özünəməxsus, xarici məcburetmə olmadan daxili istəklə və daxili mənbədən meydana çıxan fəaliyyətə malik olmaq, başqaları tərəfindən sıxışdırılmanı, başqa iradəyə tabe olmanı dəf etmək gücünün təzahürü kimi meydana çıxır.

Bütün məcburetmələr vəhdətdə, yəni çoxluq şəklində mövcudolmadan meydana çıxdığından, azadlıq tək kimi var olmağa cəhdin təzahürüdür, hansı ki, iradəyə xas xalis metafizik xarakteristikadır. Buradan da azadlıq özü-özündən avtonom və spontan fəaliyyətdə olmağı, yəni yalnız immanent səbəbdən fəaliyyətə gəlməni, fəaliyyətin və mövcudluğun sərhədsizliyini, şəriksizliyini, şərtsizliyini, hər hansı bir xarici məhdudiyyətin (zərurətin) olmasının istisna olunduğunu özündə ifadə edir. Biz azadlığı əksiliyi ilə vəhdətdən asılı olmamaqlığın təzahürü kimi təsəvvür edirik. Yəni təyini özündən başqa birisi olmayanı biz azad kimi təyin edirik.

Azadlıq İlahi İradənin xarakteristikasıdır. Allahın azadlığı mütləqdir, yəni dərəcələnməmiş azadlıqdır. Təbiətdə emanasiya baş verdiyinə görə azadlıq da pisləşərək təzahür edir, beləliklə də dərəcələnir, yəni nisbi təzahür edir. Allahın Mütləq Azadlığını öz bacarığını öz istədiyi ilə əlaqələndirmək gücü kimi təyin etmək olar. Hansı ki, biz bunu İlahi İradə kimi təyin edirik. Beləliklə, İlahi İradə İlahi İstəkdən və Bacarıqdan fərqli, Onun Mütləq Azadlığının gücü kimi təsəvvür oluna bilər.

Haşiyə: Jan Val: "Azadlıq doktrina deyil, mövcudluq üsuludur."

Beləliklə, Mütləq Azadlığı Allahın mövcudluq üsulu kimi təyin etmək olar. Belə azadlıq özündə həm təzahürdən azad olmağı (yəni Allah təzahürü olmayan varlıqdır), həm idrakdan azad olmağı (Allahın mahiyyəti mütləq dərkedilməzdir) ifadə edir. Təzahürsüzlük və idrakolunmazlıq Mütləqliyin iki xarakteristikasıdır, hansı ki, Allah ideyasının refleksiyası kimi özü-özündə Allahın mütləqliyini ifadə edir. Buna görə də, mütləq azad olmayan insan ruhu, mütləq azad olan Allahı idrak etmək imkanına malik deyildir. Mütləq Azadlıq həm də sonsuzluğun əsasını təşkil edir. Buradan da mütləq azad olmayan hər şeyi sonlu kimi təyin edə bilərik. Mütləq azadlıq - özündən başqa heç nə ilə şərtlənməməni və təfəkkürün aşkarlamaq imkansızlığını bildirir.

Allah öz istəməkliyində və yaradıcılığında Mütləq Azaddır. Azad olmaq mövcudluqda, mövcudolmada, fəaliyyətdə, hərəkətdə, istəkdə, ölçülənməkdə də yalnız özündən asılı olmaqlığı ifadə edir. Təbiətdə isə azadlıq mövcudluğun başqa mövcudluqlarla vəhdətdə mövcud olması kimi meydana çıxır. Vəhdətdə mövcudolma mütləq azadlığın əksiliyi kimi nisbi azadlığı özündə təqdim edir. Buna görə də təbiətdə hər bir mövcudluq mövcudolmaya malik olduğu qədər nisbi azad olur. Hər bir mövcudluğun azadlıq dərəcəsi özündə həmin mövcudluğun mövcudolma iradəsi kimi təzahür edir və bütün mövcud və mümkün olanların azadlığı, yəni iradəvi gücü özündə İlahi İradənin refleksiyası kimi mövcuddur. Buradan da iradə mövcudluğun mövcudolma əldə etməsinin gücü olduğun-

dan, mövcudluğun azadlığı kimi təzahür etdiyini demək olar. Mövcudluğun azadlığı bir mövcudluğun öz mövcud olmasına başqa mövcudluqların mane olmasını dəf etmək gücünü təzahür edir. Belə gücə malik olmayan heç bir mövcudluq mövcudolmaya malik ola bilməz və ya əgər mövcudluq əldə etmişsə, mövcudolmanı davam etdirə bilməz.

2. Təzahür

İradənin aydınlaşma formalarından biri təzahürdür. İradə təzahüretirici güc kimi çıxış etdiyindən, həqiqətin təzahürü onun aydınlaşma forması kimi çıxış edir. Təzahür sözünün aşağıdakı mənaları vardır:

Birincisi, aydın etmək: Aydın etmək qaranlıqda olanı işıqlandırmaq - görünməyəni görünən etmək mənasını verir. Bu mənada iradə həqiqəti görünməzlikdən çıxarıb görünən edən, yəni aşkarlanan hala salan güc kimi çıxış edir. Təzahürlər formanın arxasında qaranlıqda saxlanan həqiqəti işıqlandırmaqla onu aydınlaşdırır. Başqa sözlə, təzahürlə formanın heçliyi dəf edilir, hansı ki, özü ilə vəhdətdə olan həqiqəti qaranlıqda saxlamaqla da heç kimi təqdim edir.

İkincisi, göstərmək, göstərişə qoymaq (nümayiş etdirmək): Görüntünü görməyə təqdim etmək deməkdir. Beləliklə də iradə bir tərəfdən həqiqəti formadan xarici görüntü kimi təzahür etdirir, formanı sərgiləyir; digər tərəfdən, həmin görüntünün görülməsini, yəni təfəkkürdə abstrakt obraz kimi yaranmasını təmin edir. Buradan da iradəsi olmayan obyektin təfəkkürdə refleksiyası istisna olunur.

Üçüncüsü, həqiqətin aşkarlanması: Hissi qavrama zamanı obrazların, təsəvvürlərin və ideyaların yaranması hissi qavranılan obyektin xüsusi gücü ilə bağlıdır, hansı ki, həqiqətin aşkarlanması kimi reallaşır. Beləliklə, təzahür həqiqəti aşkarlama vasitəsi kimi çıxış edir.

Dördüncüsü, irəli sürmək, təqdim etmək: Təcrübədə sonsuz sayda mövcudluq vəhdətdə, eyni zamanda idraka təqdim edilir. Təzahür həmin çoxluqdan ayrıca bir obyekti hissi qavrama üçün irəli sürür, onu idraka təqdim etməklə onun qavranılmasını təmin edir.

Beşincisi, olmaq, özü ilə aşkarlanmaq, kəşf olunmaq: Hər bir obyekt yalnız özü ilə idraka təqdim olunur. Buradan obyektin əsas xarakteristikalarından biri - bilavasitəlik meydana çıxır. Bilavasitəlik obyekt-subyekt münasibətində obyektin iştirakını, onun subyekt tərəfindən kəşf olunduğunu, bununla da obyektin *burda və indi* prinsipinə tabe olduğunu təmin edir. Buradan da iradə obyektin əsas xarakteristikalarından biri kimi bilavasitəliyi təzahür etdirən güc kimi çıxış edir.

Beləliklə, təzahürün mənalarından çıxış edib iradənin həqiqəti təzahür etdirməsini - həqiqətin aydınlaşması, ona xarici forma yaratmaq, formaya xarici görüntü vermək, formanın təfəkkürdə abstrakt obrazını yaratmaq, obyekti hissi qavramaya təqdim etmək, obyektin bilavasitə olmasını və onun idrak tərəfindən kəşf olunmasını təmin edən güc kimi təyin edə bilərik.

Haşiyə: A.Şopenhauer, "İradə anlayışı"

> *"Təbiətdə dəyişməz qanunlarla fəaliyyət göstərən bütün gücləri (və onların ən müxtəlif təzahürlərini - S.C.) istənilən özündə şeyin mahiyyətini təşkil edəni bildirəni və istənilən təzahürlərin yeganə nüvəsi olanı İradə adı ilə adlandırmalıyıq."*

A.Şopenhauerin fikirlərindən görünür ki, o, dəyişməz qanunlarla fəaliyyət göstərən bütün gücləri, özündə şeyin mahiyyətini təşkil edəni bildirəni və istənilən təzahürlərin yeganə nüvəsini, yəni əsası iradə adı ilə adlandırır. Buradan da iradənin fəaliyyəti, aydınlaşmanı və təzahürü özündə ifadə etdiyi aydın olur.

Həqiqət forma ilə vəhdət təşkil etdiyindən, forma heçlik kimi həqiqətin aydınlaşmasını məhdudlaşdırır. Bunun əksinə, həqiqət formadan aydınlaşmağa cəhd edir, nəticədə təzahür meydana çıxır. Beləliklə, biz təzahürü həqiqətin aydınlaşma gücü, yəni formanın heçliyini dəf edərək onunla vəhdətdən ayrılmaq gücü kimi təyin edə bilərik. Təzahür özündə həqiqətin aydınlaşmasını təqdim edir, hansı ki, belə aydınlaşma təbii güclərin fəaliyyəti kimi meydana çıxır.

3. Təsir-əks təsir

İradənin təzahür formalarından biri də təsir və əks-təsirdir. Təsir sözünün aşağıdakı mənaları vardır:

- **Birincisi, güc, qüvvə, gücdən istifadə etmək:** Hər hansı mümkünlüyün başqa mümkünlüyün mövcudolma meylinə mane olması və ya mövcudluqların bir-birinin əbədi mövcudolma cəhdinə mane olması bəlli bir güclə reallaşır. Bu güc təsir kimi meydana çıxır ki, bunu iradəvi gücün təzahür forması kimi təyin etmək olar. Təsirə malik olmaq özünəməxsus gücə, qüvvəyə malik olmaq deməkdir. Mövcudluqlar həm də başqalarının gücündən istifadə etməklə təsir edə bilirlər ki, bu da bir mövcudluğun digərindən daha güclü iradəyə malik olmasını göstərir.
- **İkincisi, nə iləsə hərəkət, fəaliyyət, əməliyyat, iş görmək:** Mövcudolma özlüyündə mövcudluğun bilavasitə iştirak etdiyi bütün hərəkətlərin, mövcudluğun özünəxas fəaliyyətin, mövcudluğun gördüyü işin və mövcudluqla aparılan əməliyyatların məcmusu kimi meydana çıxır. Hər hansı mövcudluq hansısa hərəkətdə iştirak etmək üçün onu bu hərəkətdən kənarlaşdırmağa cəhd edən gücü dəf etmək zərurətindədir, eləcə də başqa mövcudluqları özü ilə hərəkət etdirmək gücündə olmalıdır. Belə güc başqasına təsir və başqasının belə təsirinə əks-təsir kimi meydana çıxır, hansı ki, iradəvi gücün təzahür formalarından biri kimi aşkarlanır.
- **Üçüncüsü, iş görmək, istehsal etmək, nəsə etmək, işdə cəhd, işin olması, baş verməsi:** Mövcudluqlar mövcudolma cəhdində bu cəhdə mane olan hər şeyi aradan qaldırmaq məcburiyyətindədir. Beləliklə də mövcudolmanın sürəkliliyini təmin etmək məqsədi ilə görülən iş də təsir kimi meydana çıxır. Təsirə həm də iş nəticəsində nəsə istehsal etmək, nəsə yaratmaq və ya nəyisə məhv etmək, dağıtmaq kimi təzahürlər də aiddir.
- **Dördüncüsü, həqiqi, düzgün, dəqiq, şübhəsiz, gerçək olmaq (şeyin özündə olan, mövcud olan, əsl həqiqətdə, həqiqətə görə):** Hər

bir mövcudluğun özündə həqiqəti aydınlaşdırması formaya təsirlə mümkündür; hansı ki, formanın heçliyi dəf edilməklə varlıqdan həqiqət aydınlaşır. Formanın dəf edilməsi ilə həqiqətin aydınlaşması obyektin həqiqiliyini (yəni həqiqətin məhz həmin obyektdən aydınlaşdığını), həqiqətin düzgünlüyünü, dəqiqliyini, şübhəsiz olmasını (yəni obyektin özündə başqa həqiqət aydınlaşdırmaq imkansızlığını), obyekt-subyekt münasibətində həqiqəti özündə aydınlaşdıran obyekt kimi bilavasitə iştirak etdiyini (gerçək olduğunu), konkret obyektdən aydınlaşan xüsusi həqiqətin həqiqətin ən ümumi tələblərinə uyğunluğunu, bununla da onun həqiqətə görə olduğunu göstərir. Bu mənada təsir həqiqətin aşkarlanmasında meydana çıxan təsirdir ki, hissi qavranılan obyektlərdən həqiqətin təfəkkürdə refleksiyasını təmin edir.

Haşiyə: A.Şopenhauer, "İradə anlayışı"

> *"Sözün sıx mənasında, mən səbəbi materiyanın o forması hesab edirəm ki, başqasını zəruri olaraq çağıraraq özü yaradılana bərabər dəyişilməyə məruz qalır, hansı ki, 'təsir əks-təsirə bərabərdir' qaydası ilə ifadə olunur."*

Şopenhauerin fikirlərindən görünür ki, o, səbəbi təsir-əks təsir qaydası ilə dəyişilməyə məruz qalan materiyanın forması kimi təyin edir. Buradan da biz iradəni materiyanı dəyişdirmə gücü kimi təyin edə bilərik, hansı ki, bu güclə materiya mövcudluğun mövcudolma əldə etməsi ilə fərdi şeyə çevrilir. Təsir - başqasını öz hakimiyyətinə salmaq gücü, əks-təsir - başqasının tabeçiliyindən azad olmaq gücüdür. Bu özündə mümkünlüklərin mövcudolma əldə etmə meylində, Leybnicin qeyd etdiyi kimi, bir-birinə mane olmasından meydana çıxır. İradə mümkünlüklə əlaqələndiyindən təsir-əks təsir də məhz iradənin təzahür forması olur. Hər bir mövcudluq təsir-əks təsirin tarazlığında mövcud olur. Bu tarazlığın pozulmasında ya mövcudluq başqa mövcudluqların mövcudluğunu məhv edir (yəni onlarla vəhdətdən azad olur), ya da özü

başqa mövcudluqların tabeçiliyinə keçərək öz müstəqil mövcudluğundan məhrum olur.

4. Refleksiya

Azad obyektdən təzahür edən həqiqətin təsir-əks təsir üsulu ilə özündən başqa həqiqət yaratma gücü refleksiya kimi meydana çıxır. Biz refleksiyanı iradənin təzahür formalarının totallığı kimi təyin edirik, hansı ki, iradənin təzahür formalarından hər hansı birinin iştirakından kənarda aktuallaşması istisna təşkil edir. Refleksiya təsirlə əks-təsirin fərqini özündə təqdim edir. Yəni təsadüfi güclərlə zəruri güclərin fərqi refleksiyanın yaranmasına səbəb olur. Həqiqətin özünü formadan bildirməsi, elan etməsi, göstərməsi və özündən yeni həqiqətlər törətməsi refleksiya kimi meydana çıxır.

Refleksiya nədir? Biz ümumi şəkildə törədiciliyi Yaranışın pis keyfiyyətli kopyalaşdırılması kimi təyin edirik. Beləliklə, refleksiya özündə nəsə yaratmaq xarakteristikasını əks etdirir, hansı ki, iradəvi gücün təzahür forması kimi meydana çıxır. Refleksiya sözünün ümumi mənası əksetmə deməkdir. Əksetmə bəlli bir güclə şərtlənmişdir. Belə gücü olmayan heç bir obyekt refleksiya etmək imkanına malik deyil.

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

> *"Refleksiya onlardan birbaşa anlayışlar almaq üçün predmetlərin özü ilə işi yoxdur; o, ruhun elə vəziyyətidir ki, biz hər şeydən öncə anlayışları yaratmaqdan ötəri subyektiv şərt axtarırıq."*

İ.Kantın qeyd etdiyi "anlayışları yaratmaqdan ötəri subyektiv şərt" nədən ibarətdir? Kantın fikirlərindən görünür ki, refleksiya anlayışlar almaqdan ötəri predmetin özü ilə işi yoxdur. Predmet özündə İlahi İstəklə (həqiqətlə) İlahi Bacarığın (formanın) vəhdətidir. Buradan da aydın olur ki, anlayışlar ayrılıqda nə bilavasitə həqiqətdən, nə də bilavasitə formadan alınır. Əksinə, onların hər ikisindən kənarda, amma eyni zamanda onlara aid olan anlayışları verən üçüncü tərəfdən alır, hansı ki, bu üçüncü

tərəf ruhun anlayışları yaratmasından ötəri "subyektiv şərt" axtarmasına sövq edir. Bu üçüncü tərəf həqiqəti formadan təzahür etdirən predmetin **iradəsidir**. Yəni iradə predmetə aşkarlanmaq, kəşf olunmaq keyfiyyəti verən tərəf kimi çıxış edir.

Biz həqiqətin idrakını obyektlə subyektin üst-üstə düşməsi kimi təyin etmişdik. Bu cür üst-üstə düşmədə predmetdən "nəsə" - iradəvi güc subyektə keçir və subyektin daxilində olan "nəsə"dən - ağıldan, biliyin materiyasından özü ilə eynilik təşkil edən bilik - ideya yaradır. Bu cür keçid şeydə olan nəsəni tükəndirmir. Yəni, hər hansı bir predmet milyon dəfələrlə idrak edilsə və ya milyon şəxs tərəfindən eyni vaxtda idraka cəlb olunsa belə, o yenə də idraka cəlb olunmamışdan əvvəlki vəziyyətini hifz edir. İdrak aktı mövcudluğun abstrakt mövcudolmaya cəhdidir. Buradan da aşağıdakı əlaqə meydana çıxır: Metafizikadan mümkünlük mövcudluq əldə etmə meyli ilə mövcudluq əldə edərək təbiətə keçir, təbiətdəki mövcudluqlar təfəkkürdə refleksiya edərək abstrakt mövcudluq əldə edərək yenidən metafizikaya qayıdır. Buradan da dairəvi hərəkət - sonsuzluq yaranır. Beləliklə, refleksiya mövcudluğun mövcudolmaya sonsuz cəhdinin təzahürlərindən biri kimi meydana çıxır.

Onda bəs xarici predmetdən "düşünən mən"ə keçən nədir? Biz bunu xarici predmetin xalis fikrinin şüalanması kimi təsəvvür edirik. Hansı ki, həmin şüalar təfəkkürə daxil olaraq orada özü ilə eynilik təşkil edən ideyaların yaranmasını təmin edir və yoluna davam edir. Biz bunu rentgen şüalarının predmetdən keçərək predmetin şəklini rentgen plyonkasında əks etdirməsinə oxşar proses kimi təsəvvür edə bilərik. Rentgen şüaları predmetdən keçib öz yoluna davam edir, amma predmetdən və rentgen plyonkadan keçəndə obyektin şəklinin plyonkada yaranmasını təmin edir. Predmetin xalis fikrinin şüalanaraq subyektə keçməsi və subyektdə noumen yaratmasını biz **refleksiya** kimi təyin edirik.

Biz refleksiyanın aşağıdakı üç formasını və üç növünü ayırd edə bilərik:

1. Keçici və ya müvəqqəti refleksiya:

Belə refleksiyaya bir şeyin başqa şeydə, həmin şeyin bilavasitə iştirakı ilə şərtlənmiş, xarici görüntüsünün əks olunması aiddir. Keçici refleksiyaya nümunə kimi güzgüdə predmetlərin əks olunmasını göstərmək olar. Belə refleksiyada əksolunma iki tərəfdən - həm əks edəndən, həm də əks olunanın *indi və burda* prinsipinə tabe olması ilə xarakterikdir; əks edənin və əks olunanın sürəkli iştirakçılığını tələb edir. Refleksiya edənlə refleksiya olunanın məkan-zaman şərtləri dəyişdikdə refleksiya dayanır. Buna görə də belə refleksiya keçici, yəni müvəqqəti olur. Keçici refleksiyada yalnız xarici görüntü refleksiya olunur, refleksiya olunanın mahiyyəti refleksiya olunmur.

2. Qalıcı refleksiya:

Belə refleksiyada bir şey başqa şeyi əks etdirərək onu özünün xarici görüntüsünə proyeksiya edir. Nəticədə, keçici refleksiyadan fərqli olaraq, belə refleksiya əks olunanın birdəfəlik iştirakını tələb edir. Qalıcı refleksiyada əks olunanla əks edən *burda və indi* prinsipinə tabe olmur. Belə refleksiyaya deformasiyaları, izləri, fotoşəkli, audio-video materialları və s. aid etmək olar. Qalıcı refleksiyada da refleksiya olunanın mahiyyəti refleksiya edəndə əks olunmur.

3. Yaradıcı refleksiya:

Yaradıcı refleksiya bir şeyin başqa şeydə əks olaraq, onun xarici görüntüsünü dəyişdirməsi, yeni görüntüylə əvəzləməsini özündə əks etdirir. Məsələn, heykəltəraş daş parçasından insan fiquru yaradır. Yaxud rəssam kətanda müxtəlif rənglərdən müxtəlif şəkillər çəkir. Belə refleksiyada refleksiya edən bilavasitə özü yox, dolayısı ilə öz fəaliyyəti ilə refleksiya olunur və biz refleksiya edəni yalnız onun fəaliyyətindən - predikasiyasından müəyyənləşdirə bilərik. Yaranış məhz bu üsulla - Allahın fəaliyyəti kimi yaradılanların meydana gəlməsi ilə baş vermişdir.

İlahi yaradıcılıq insan yaradıcılığından onunla fərqlənir ki, insan əvvəlcədən yaradılmış "var"da öz fəaliyyəti ilə və yalnız formada

(heçlikdə) refleksiya olunub onu dəyişdirə bilir. Allah isə bundan fərqli olaraq "yox"da - mahiyyətin varlığında refleksiya olunaraq "var"ı yaradır. İnsan yaradıcılığı forma ilə məhdudlaşmışdır. İnsan öz fəaliyyəti ilə yalnız şeyin formasında refleksiya olunub onu dəyişdirə bilir. İlahi yaradıcılıq mahiyyətdə refleksiya olub, mahiyyətin yaranması ilə başa çatır. Forma sonradan spontan olaraq mahiyyətdən meydana çıxır. Məhz buna görə insan formaya təsir etmək imkanına malik olur. Formada bilavasitə ilahi fəaliyyət refleksiya olmadığından, insan formada yaradıcı refleksiya edə bilir.

Refleksiyanın növlərinə aşağıdakıları aid etmək olar:

Avtorefleksiya: Tək kimi mövcud olan, çoxluğu olmayan və başqa varlıqlarla hər cür vəhdətdən kənarda olan yalnız özü-özünü refleksiya edə bilər ki, biz bunu avtorefleksiya adlandırırıq. Avtorefleksiya yalnız başlanğıcların başlanğıcına, səbəblərin səbəbinə, yəni Allaha xasdır. Allahın mövcudluq üsulu özü-özünü total refleksiyadan - avtorefleksiyadan ibarətdir. Avtorefleksiya eyni vaxtda həm Refleksiyaolunan, həm də eyni zamanda özündə-özünü Refleksiyaedəndir. Avtorefleksiya vasitəsiz olduğundan, yəni xarici mühitdən keçmədiyindən, entropiyadan azaddır və buna görə də mütləqlik xarakteristikasına malikdir. İstənilən obyekt də özündə sürəkli olaraq özü-özünü refleksiya etdiyindən özü-özü ilə mütləq eynilik təşkil edir. Amma Allahdan fərqli olaraq çoxluqda və vəhdətdə mövcud olduğundan, həm də sonsuz sayda kənar mövcudluğu özündə refleksiya edir ki, bu da mövcudluqların fərqliliyi kimi meydana çıxır. Avtorefleksiyada Allah həm Səbəb (refleksiya olunan), həm də Nəticə (refleksiya edən) kimi mövcuddur. Yəni Allahın təbiəti mütləq şəkildə özündəndir. Buna görə də, başqa hər hansı bir nəticədən - analitik mühakimə ilə və ya səbəbdən - sintetik mühakimə ilə onun təbiətinə nüfuz etmək mümkün deyildir. Allah başlanğıc vahid olduğundan, Allahdan kənarda məkan və zaman olmadığından, onun surətini özündən kənar refleksiya etmək mümkün deyildir. Yəni nə onu təsvir, nə də təsəvvür

etmək - anlamaq mümkün deyildir. Avtorefleksiya - təsvir və təsəvvürə sığmayan Mütləq Azadlıqdır.

Özü-özünü refleksiyanı reallıq aləmində qarşı-qarşıya qoyulmuş iki eyni güzgünün bir-birini əks etdirməsi kimi təsəvvür etmək olar. Biz bu güzgülərdən birində digərinin əksini müəyyənləşdirməyə cəhd etsək, onda aşağıdakı proseslə qarşılaşarıq: Əvvəlcə güzgüləri şərti olaraq sıralayaq və hər bir güzgünün özündə nəyi əks etdirdiyini müəyyənləşdirməyə çalışaq. İlk baxışdan sanki birinci güzgü özündə ikinci güzgünü əks etdirir. Amma birinci güzgünün özündə əks etdirdiyi ikinci güzgüdəki onun özünün ikinci güzgüdəki əksidir, hansı ki, o da ikinci güzgünün birinci güzgüdəki əksidir, hansı ki, öz növbəsində birinci güzgünün ikinci də əksidir. və s. Bu asılılığı simvolik olaraq rəqəmlərlə belə ifadə etmək olar: 1=2(-1); -1=-2(--1); --1=--2(---1); ---1=---2(----1) və s. Bununla da biz sonsuz qarşılıqlı əksetdirməni aşkarlamış oluruq. Buna uyğun, Allahın özü-özünü refleksiyası da sonsuzluq kimi təzahür edir. Sonsuzluq məkansızlığın - məkanla şərtlənmədən azad olmanı, sonsuz uzunluqda vahid bir dalğa funksiyasının xarakteristikasını özündə ehtiva edir. Sonsuzluq özü-özündə refleksiyanın xarakteristikasıdır.

Allahın özü-özünü refleksiyasında məkansızlıq - sonsuzluq yarandığından, məkan isə zamanla vəhdətdə olduğundan, məkansızlıq zamansızlığı şərtləndirir ki, buradan da əbədilik meydana çıxır. Beləliklə, məkanın əksiliyi kimi sonsuzluq, zamanın əksiliyi kimi əbədilik yaranır və sonsuzluqla əbədilik vəhdət təşkil edərək Allahın ən mühüm xarakteristikaları kimi meydana çıxır. İdrak prosesi yalnız məkan-zaman şərtində aydınlaşan həqiqəti aşkarlaya bildiyindən, sonsuzluq-əbədilik (yəni məkansızlıq-zamansızlıq) əlaqəsində hər hansı bir məlumat əldə etmək imkanına malik deyildir ki, bu Allah haqqında məlumatın aşkarlanmasının təfəkkürün imkanları xaricində olduğunu göstərir.

Allahın öz İlahi gücü ilə özündənkənar refleksiyası mütləq nisbi həqiqəti yaradır. Özü-özündə refleksiya sonsuzluq, özündənkənar re-

fleksiya onun əksiliyi kimi sonluluq xarakteristikasını yaradır. Və özündənkənar refleksiyanın başlanğıcı da, sonu da İlahi Təbiətin özüdür. Mütləq həqiqət Allahdan yaranıb, Allaha qayıdan həqiqətdir, yəni Allahın yaratdığı və yalnız ona məlum olan həqiqətdir.

1. **Yaranışda - metafizikada refleksiya:** Yaradılması Allah tərəfindən istənilən şeyin - "nəsə"nin Allahın həmin şeylə bağlı ideyasını - həqiqəti özünə hopdurması (qəbul etməsi) kimi. Buradan daxili görüntü - mümkünlük və ya "məna" yaranır, hansı ki, xalis refleksiya ilə mövcudluğa, xarici refleksiya ilə reallığa çevrilir. Yaranışda refleksiya qabaqcadan mövcud olmayanın - "yox"un İlahi Nuru özünə keçirməklə daxili əksetmə kimi baş verir. Beləliklə, Yaranışda Refleksiya dedikdə həqiqəti özündə əksetdirmə üsulu ilə mövcud ola bilməyəcəyin mövcud ola biləcəyə keçidini - yaranmasını nəzərdə tuturuq.
2. **Təbiətdə refleksiya:** Belə refleksiyanın da öz növbəsində iki forması vardır:

   a. Əmələgəlmədə refleksiya - Özü-özündə refleksiya - Xalis refleksiya: Özü-özündə refleksiya formanın mahiyyəti və ya xarici görüntünün daxili görüntünü özündə əks etdirməsi kimi meydana çıxır. Hər bir gerçəkliyin forması onun mahiyyətinin refleksiyası kimi təzahür edir. Ona görə də forma ilə mahiyyət vəhdət təşkil edir.

Hegel: "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Varlıq özü-özündə görünüşü işıqlandırır və ya xalis refleksiyadır; beləliklə o, özü-özünə münasibətdir, amma bilavasitə kimi yox, refleksiya edən münasibətdir, o özü-özü ilə eynilikdir."*

Hegelin refleksiya anlayışı da özündə daxili görüntü ilə xarici görüntünün vəhdətini ifadə edir. Başqa sözlə, artıq mövcudluq anında olanın öz daxili görüntüsünün (mahiyyətini) özü-özündə xarici görüntü (forma) kimi refleksiyası etməsi xalis refleksiya kimi meydana çıxır. Xa-

lis refleksiya mümkünlüyün sonsuz ideyasının bir hissəsininin ifrat qısalması ilə sonluya keçməsi ilə mümkün olur.

Özü-özündə refleksiya "özünün" məhz özündə yaratmağı - mövcudluğu təqdim edir, hansı ki, Hegelə görə bu "özü-özündə görünüşü işıqlandırmadan" ibarətdir. Özü-özü ilə refleksiya dedikdə biz mahiyyət və formanın eyni zamanda paralel əks edilməsini nəzərdə tuturuq. Bunun iki formasını ayırd etmək olar:

Birincisi, özü-özünü eyni məkan və zamanda refleksiya. Buradan varlığın *faktı* - keyfiyyət əmələ gəlir. Məsələn: bir natriumla bir xlor atomunun birləşməsindən bir natrium-xlor molekulu əmələ gəlir. Və bir molekulda natrium-xlor özü-özünü eyni məkan və zamanda refleksiya edir.

İkincisi, özü-özünü fərqli məkan və zamanda refleksiya. Buradan faktın təkrarlanması - *kəmiyyət* meydana çıxır. Tutaq ki, iki natrium iki xlor atomu ilə birləşir. Nəticədə bir-biri ilə eyni olan iki natrium-xlor molekulu əmələ gəlir. Buradan da natrium-xlorun özü-özünü fərqli məkan və zamanda refleksiyası meydana çıxır.

b. Mövcudluqda refleksiya: Mövcudluqda refleksiyanın da öz növbəsində aşağıdakı formalarını ayırd etmək olar:

Birincisi, özü-özünü özündən kənar başqasında refleksiya - Mövcudluqların bir-birini refleksiyası. Belə refleksiyanın iki növü vardır:

a. Xarici refleksiya: Bir şeyin şəklinin başqa şeydə əks olunması kimi. Fotoşəkil xarici refleksiyaya bir nümunədir. Fotoda obyektin xarici görüntüsü fotokağızın xarici görüntüsünə proyeksiya olunur. Xarici refleksiya mövcud olan şeylərin keçirilməzliyinin əlaməti kimi meydana çıxır.

Haşiyə: Q.V.Leybnic: ".cisimlərin bağlılığından onların keçirilməməzlik, ilişmək və əksetmə (*reflexio*) baş verir."

Q.V.Leybnicin fikirlərindən də görünür ki, o, refleksiyanı ikincili, yaranışdan sonra "cisimlərin bağlılığında" onların keçirilməməzliyinin təzahürü kimi təyin edib.

b. Daxili refleksiya: Mövcud ola biləcək şeyin artıq mövcud şeyi öz daxilinə buraxmaqla, özünü onun dəyişdirməsinə - onun müstəqil mövcudluq üsuluna xitam verməsinə imkan tanıması kimi. Əmələgəlmə belə baş verir. Məsələn, Na-atomunun Cl-atomunda refleksiyasında (birləşməsində) NaCl - xörək duzu əmələ gəlir. Nəticədə Cl və Na atomları öz müstəqil keyfiyyətlərini təzahür etdirə bilmir. Canlılarda da nəsilvermə belə refleksiya kimi yaranır. Belə ki, gələcək nəsil (mövcud ola biləcək şey kimi), valideynlərinin (artıq mövcud olanın) irsi informasiyanı öz daxillərinə buraxmaqla onlardan əmələ gəlir.

İkincisi, özü-özünü özündən kənarda özündə refleksiya: Özü-özünü özündən kənarda özündə refleksiya əmələgəlmə üsulundan ibarətdir. Özü-özünü özündən kənar refleksiyada başlanğıc səbəbin forma və mahiyyəti özündən kənar, amma müəyyən entropiyaya məruz qalmış şəkildə refleksiya edir. Köçürülmə müəyyən mühitdən keçərkən mühitin təsirlərinə məruz qaldığından, heç bir köçürülmə obyekti olduğu kimi mütləq şəkildə özündə əks etdirə bilmədiyindən, obyektin istənilən surəti obyekti özündə nisbi şəkildə əks etdirir. Buradan obyektiv gerçəkliklərin müxtəlifləşməsi hadisəsi yaranır. Mahiyyət və formanın bu cür nisbi əks etdirilməsi varlığın yeni səviyyədən təzahürü kimi meydana çıxır.

3. **Təfəkkürdə refleksiya - ideyanın refleksiyası:** İdeya fikrən formadan ayrılıqda götürülmüş mahiyyətdir və ideyanın yalnız bir - *xalis varlıq* təyini vardır. Bu cür refleksiyaya aşağıdakılar aiddir:

a. Varlığın özü-özündə refleksiyası: İstənilən gerçəklik özündə üç varlıq təyininə malikdir və hər bir təyinin refleksiyası fərqli qanunauyğunluqlara tabe olur. Belə ki, mövcudluqların özü-üçün-varlıq təyini özündə başqa istənilən mövcudluğun özü-üçün-varlıq təyinini refleksiya

edərək fərdi şeylərin fərqliliyini aşkarlayır. Mövcud varlıq təyini eyni sıradan olan mövcudluqların mövcud varlığını özündə refleksiya edərək xüsusi şeylərin eyniliyini meydana çıxarır. Mövcudluqların xalis varlıq təyini onların ideyasını özündə təqdim edir və bu səviyyədə refleksiya varlığın ümumiliyini özündə əks etdirir. Hər bir şeyin xalis varlığı özü-özünü refleksiya etməklə aktuallaşır. Əgər xalis varlıq özünü refleksiyadan qalsaydı, onda aktuallaşmada xalis fikir fərqli həqiqətləri özündə refleksiya edərdi və şeyin özündə aydınlaşdırdığı həqiqət sürəkli olaraq dəyişərdi. Bu da həqiqətin sonsuzluq və əbədilik xarakteristikasına görə istisna olunur. Bunu sadə şəkildə "var vardır" və ya "yox yoxdur" kimi ifadə edə bilərik. Əgər "var yoxdur" və ya "yox vardır" olsaydı, onda inkar qanunu meydana çıxmazdı. Yəni inkar qanunu məhz xalis varlığın özü-özünü refleksiyası və bu zaman digər istənilən xalis varlıq təyinini özündə inkar etdiyini bildirir.

b. Ruhun özü-özünü refleksiyası: Ruhun mövcudluqlardan fərqli olaraq yalnız bir təyini - xalis varlıq təyini vardır. Ona görə də ruhda yalnız ümumilik xarakteristikası aşkarlanır. Ruh həm varlığın xalis varlıq təyinini, həm də öz xüsusi xalis varlıq təyinini refleksiya edir.

Haşiyə: Q.V.Leybnic, "İnsanın ağıllanması haqqında yeni təcrübə"

> *"Zəruri həqiqətlərin mənbəyi olan intellektual ideyalar heç də hisslərdən əmələ gəlmir; elə ideyalar vardır ki, özü-öz üzərində refleksiya edən biz ruhun refleksiyasına borcluyuq. Başqa sözlə, həqiqətin dəqiq idrakı həqiqətən ideyaların dəqiq idrakından sonra baş verir. İntellektual ideyalar və onlardan asılı olan həqiqətlər aydındır: nə o birisi, nə bu birisi hisslərdə kök salmayıb, baxmayaraq ki, hisslər iştirak etməsəydi, biz onlar haqqında heç vaxt düşünməzdik."*

Leybnicin fikirlərindəki "hisslərsiz intellektual ideyalar haqqında düşüncənin yaranmaması" ruhla bədən arasındakı rabitə ilə şərtlənmişdir. Yəni ruh özündə refleksiyanı bədənlə şərtlənmiş şəkildə həyata keçirdiyindən, özündən aşkarladığı istənilən həqiqət bu və ya başqa

şəkildə özündə bədən şərtlərini də əks etdirir. Amma hissi ideyalardan onunla fərqlənir ki, intellektual ideyaların ilk başlanğıcı ruhun özündə, hissi ideyaların ilk başlanğıcı təbiətdə - *tempore vel natura* (təbiətə və ya vaxta görə) olur.

Hər bir refleksiya aktı üç mühüm komponentdən - Refleksiyaolunandan, Refleksiyaedəndən və Reflektiv Gücdən (İradədən) ibarətdir. Daxili Refleksiya istər substansiyanın, istər formanın, istərsə də hər ikisinin bir səviyyəsindən başqa bir səviyyəsinin yaranmasını özündə əks etdirir. Beləliklə, əməlgəlmədə refleksiya Refleksiyaolunanın, Refleksiyaedənin onu özündə (amma onun səviyyəsindən fərqli olaraq yeni səviyyədə) yaratması kimi xüsusi təzahürdür. Burada səviyyə qanunauyğunluqların dərəcələnməsini özündə ifadə edir, hansı ki, müxtəlif səviyyələrdə yalan, səhv, orijinal, xüsusi, ümumi, ən ümumi, mütləq və s. kimi qanunauyğunluqların müxtəlif dərəcələrini aşkarlamaq mümkündür.

Yaranışda refleksiya özündə, "yox"un özündə Mütləq həqiqəti yeni səviyyədən əks etdirməsi ilə Nisbi mütləq həqiqətə keçməsini təqdim edir. Burada keçidi Allahın İradəvi Gücü təmin edir.

İlahi gücün təbiətinə varmaq üçün ümumiyyətlə gücün metafizik anlamını təyin etmək lazım gəlir. Bəs ümumi şəkildə Güc nədir?

Haşiyə: C.Lokk, *"Təcrübələr"*:

> *"Güc ideyası necə əldə edilir? Ağıl hər gün hisslərdən xarici aləmdə onun müşahidə etdiyi sadə ideyaların dəyişilməsini öyrəndikdə, birinin necə sona çatmasını və artıq mövcud olmadığını, əvvəllər mövcud olmayan digərinin mövcud olmağa başladığını gördükdə, onun özündə nə baş verməsi haqqında düşünərək, xarici obyektlərin bəzən hisslərə təsiri nəticəsində, bəzən onun öz qərarları əsasında baş verən öz ideyalarının daimi əvəzlənməsini müşahidə edərək, bundan belə nəticə çıxarır ki, belə əvəzlənmələr fəaliyyətdə olan eyni güclərdən və eyni üsullarla eyni şeylərdə gələcəkdə də baş verəcək. Bir şeyin onun hansısa sadə ideyalarının dəyişilməsi imkanına malik olması, digərini isə bu dəyişilməni həyata keçirmək imkanında olmasını etiraf edir və bu*

yolla bizim güc adlandırdığımız ideyaya gəlir. Güc özündə bəzi münasibətləri - dəyişilməyə və əvəzlənməyə münasibət saxlayır."

Göründüyü kimi, C.Lokk gücün iki əsas xarakteristikasını təyin edib:

- **a. Özündə dəyişilmə imkanı saxlayan mövcud olanın mövcud olmaması:** Biz bunu Varlığın Yoxluğa keçidi kimi təyin edirik, hansı ki, istənilən mövcudluq dəyişilmələrin sonunda yoxluğa keçir.
- **b. Özündə dəyişdirmə imkanı saxlayan mövcud olmayanın mövcud olması:** Biz bunu Yoxluğun Varlığa keçidi kimi təyin edirik. Buradan da İlahi İradəvi Gücü Varlığı Yoxluğa, Yoxluğu Varlığa çevirən kimi təyin edirik. Beləliklə, İlahi güc "heç nə"ni "nə"yə çevirən kimi təyin oluna bilər.

Beləliklə də reflektiv güc özlüyündə refleksiya edənin refleksiya olunanı əvəzləmə cəhdinin gücüdür. Özü-özünü özündən kənar refleksiya yaranış üsulu kimi, bir səviyyədən başqa bir səviyyənin yaranmasını özündə əks etdirir. Beləliklə, bizə görə özü-özünü özündən kənar refleksiya sadəcə güzgüdə nəyinsə şəklinin olduğu kimi əks olunması yox, Refleksiyaolunanın Refleksiyaedəni özündə yeni səviyyədə yaratması kimi xüsusi təzahürdür. Əməlgəlmədə Refleksiyanı bir rəssamın başqa rəssamın əsərinin üzünü köçürməklə ona oxşar, amma ondan fərqli əsər yaratması kimi təsəvvür etmək olar.

Refleksiyanın təbiətini aşkarlamaqla yaranışın mahiyyətinə varmaq olar ki, rasional teologiyanın əsas məqsədlərindən biri də məhz bundan ibarətdir. Yaranış səviyyələri refleksiyaya görə bir-birindən fərqlənir və hər bir səviyyənin özünəxas qanunauyğunluqları meydana çıxır.

İnsan təfəkküründün aprior aşkarladığı, başlanğıcı və sonu olmayan, əbədi və əzəli abstrakt yaradıcı gücü - İlahi güc kimi qəbul etmək olar. İlahi güc Allahın təbiətindən qaynaqlanır və gerçəklik aləmində aşkarlanan bütün güclər bu gücün müxtəlif səviyyəli refleksiyalarından ibarətdir. Başqa sözlə, Kainatda mövcud olan bütün güclərin məcmusu Vahid İlahi Gücün refleksiyasından (özündən yox) ibarətdir. Vahid ilahi

güc Kainatı yaradan və onun ümumi nizamını saxlayan, amma bilavasitə onda aydınlaşmayan, yəni ondan mütləq azad gücdür.

İlahi güc Allahın özü-özünü refleksiyasının Ali Səbəbidir. Allah eyni vaxtda həm Ali Refleksiyaolunan, həm də eyni zamanda özündə-özünü Ali Refleksiyaedəndir. Yəni Allahın təbiəti mütləq şəkildə özündəndir. Buna görə də başqa hər hansı bir nəticədən onun təbiətinə varmaq mümkün deyildir. Bu həm də Mütləq Azadlığıdır, yəni Allah özündən başqa heç nə ilə şərtlənməmişdir.

Refleksiya - həm varlığın yaranışının, həm də onun idrakının vahid üsuludur. Əgər refleksiya idrakın üsulu olmasaydı, onda biz yaranışda və əmələgəlmədə refleksiyanı dərk edə bilməzdik. Başqa sözlə, Ruh - Allahın varlığın mahiyyətinə qoyduğu və varlığın özündə müxtəlif səviyyələrdən özündə təqdim etdiyi həqiqəti özündə refleksiya edərək, Allah necə "yox"dan "var"ı yaradıbsa, elə, amma onun əksinə, "var"dan "yox"u - abstrakt "nə"ni yaradaraq idraka nail olur.

Refleksiya əmələgəlmə prosesində qradasiya (səviyyələnmə) keyfiyyətində təzahür edir. Refleksiyanın aşağıdakı dərəcələrini aşkarlamaq olar:

1. **Vəhdətdə refleksiya:** Vəhdətdə refleksiya yalnız təbiət sferasında aktuallaşır və bir-birinin mövcudluq şərti kimi çıxan bir şeyin başqa şeydə refleksiyasından ibarət olur. Belə refleksiyanın iki formasını ayırd etmək olar:

   a. Vəhdətdə qarşılıqlı refleksiya - neytral refleksiya: Belə refleksiya məkan və zaman şərtində eynilik təşkil edən mövcudluqların bir-birini refleksiyasına aiddir. Hər hansı bir yeni gerçəklik, yeni hal, yeni hərəkət yaratmayan bərabər güclü qarşılıqlı refleksiyanı biz neytral refleksiya kimi təyin edirik. Bu cür refleksiya eyni sıradan sabit məkan-zaman şərtlərində olan, vəhdət təşkil edən varlıqlar sistemində ümumi görünüş və ya mənzərə kimi meydana çıxır. Qarşılıqlı refleksiyada predikat konkret şeyi, predikabiliya onda refleklsiyaedəni özündə

təqdim edir. Görünən dünyada bütün şeylər bir-biri ilə neytral refleksiyada mövcud olur. Vəhdətdə refleksiya təsir-əks təsir əlaqəsi ilə reallaşır. Bu cür refleksiya özünə qarşı digər varlıqdan təsir yaratmaq gücünə malik olur. Təsir müxtəlif sıradan olan gerçəkliklər arasındakı refleksiyanı özündə təqdim edir. Belə refleksiyada məkan şərti sabit qalır, zaman şərti dəyişir.

b. Vəhdətdə qarşılıqsız refleksiya: Belə refleksiyanın da öz növbəsində üç səviyyəsini aşkarlamaq olar:

- **İnikas:** Vəhdətdə qarşılıqsız refleksiyanın başlanğıc dərəcəsi inikasdır. İnikas qalıcı (iz qoyan) refleksiyadır. Bu cür refleksiya eyni sıradan qeyri-bərabər güclərin qarşılıqlı refleksiyasında meydana çıxır.
- **Fəallıq:** Refleksiya nəticəsində refleksiya edənin özünün bir daxili aktivlik səviyyəsindən başqa daxili aktivlik vəziyyətinə keçməsi fəallıq kimi təzahür edir. Bu cür refleksiya kənar təsirin varlığın daxili həcminə keçməklə onun passiv gücünə aktivlik verməsində təzahür edir. Məsələn: cisim dünyasında istilikötürmə hadisəsi; canlılar aləmində cütləşmə belə daxili aktivlik yaradan refleksiya kimi təzahür edir. Fəallıq zamanı məkan və zaman şərtləri bir-birinə paralel olaraq dəyişir.
- **Hərəkətlilik:** Refleksiyaedənin hissələrinin bir-birinə və ya bütünlükdə başqa varlığa nisbətən məkanla şərtlənməsinin dəyişilməsi. Bu hərəkətin istənilən növünü yaradan refleksiyadır. Belə refleksiyada məkan və zaman şərtləri bir-birindən fərqli qaydada dəyişir.
- **Dağılma:** Refleksiyaedənin öz formasını yenisi ilə əvəz olunmasına səbəb olan refleksiya. Hər hansı varlığın bir formadan başqa formaya keçməsi (substansiya ilə forma arasında əlaqənin pozulmasına səbəb olan refleksiya). Aqreqat hallarının əvəzlənməsi, canlılarda modifikasiya və s. bu cür refleksiyanın təzahürlərindəndir. Belə re-

fleksiya məkan və ya zaman arasında vəhdətin pozulması kimi meydana çıxır.

- **Çevrilmə:** Bir varlıqdan başqa varlığın əmələ gəlməsinə səbəb olan refleksiya. Belə refleksiya nəticəsində həm substansiya, həm də forma yenisi ilə əvəzlənir. Cisim dünyasında əməlgəlmə, canlılar aləmində mutasiya bu cür refleksiyanın təzahürlərindəndir. Belə refleksiya yeni məkan-zaman şərtində meydana çıxır.

Allah ideyasını refleksiyanın müxtəlif formalarının təbiətindən aşkarlamaq olar:

A. Vahidin özü-özündə refleksiyası - Allahın avtorefleksiyadan aşkarlanması:

Vahid - hissəsi olmayan, özü-özünü təkrarlamayan, yəni çoxluq formasında təzahür etməyən və buna görə də çoxluqla vəhdətdə olmayan mümkünlüyün totallığıdır. Vahid kimi yalnız Allah mümkünlüyün totallığıdır. Allah vahiddir və gerçəkliyin çoxluğu ilə heç bir halda vəhdət təşkil etmir. Beləliklə, Vahid yalnız özü-özü ilə vəhdətdə olan *vəhdətüstü* təzahürdür. Vahid - keyfiyyəti olmayan xalis abstrakt kəmiyyətdir. Ona görə də vahidin xassələri, əlamətləri, bir sözlə təzahürləri yoxdur. Vahid çoxluqla vəhdət təşkil etmədiyindən, heç bir halda vəhdət təşkil edən heç nə ilə təsdiq və ya inkar oluna bilməz. Vəhdətüstü olduğundan qarşılıqlı refleksiya etmir. Özü yalnız özü ilə münasibətdə olduğundan, öz-özündə refleksiya edir. Öz-özündə refleksiya etdiyindən daxili məkanı - həcmi yoxdur. Özü-özündə refleksiya sonsuzluq keyfiyyətidir və yalnız yaradıcı gücə xasdır. Sonsuz olduğundan zamandan asılı deyildir. Özü-özündə refleksiya özü-özündə mümkünlükdür. Belə refleksiyada səbəb-nəticə əlaqəsi yoxdur. Özü-özünün həm səbəbi, həm də eyni zamanda nəticəsidir. Özü-özündə refleksiya etdiyindən vahiddir və müxtəlifləşmir, oxşarı yoxdur. Özü-özündə refleksiya qarşılıqlı refleksiyanı inkar edir. Qarşılıqlı refleksiya etmədiyindən və buna görə də qarşılığı olmadığından hər hansı qarşılıqla təyin olunmur.

B. Allahın mövcudluqlarda refleksiyasından aşkarlanması - Təkin çoxluqda refleksiyası:

Tək Vahidin say simvolu kimi mövcuddur. Ona görə də varlıq aləmində tək özü-özünü refleksiya xarakteristikasına malik mümkünlük kimi çıxış edir. Amma Vahiddən fərqli olaraq, məkanda təkrarlanmaya, təfəkkürün məhsulu olduğundan, hissələrə malikdir. Məsələn: riyaziyyatda təkin simvolu kimi müəyyənləşmiş 1-0,1; 0,2; 0,3. və s. hissələrə malikdir. Öz növbəsində 0,1-0,01; 0,02; 0,03. və s. hissələrə malikdir. 0,01 də öz növbəsində 0,001; 0,002; 0,003. və s. hissələrə malikdir. Beləliklə, biz təki sonsuz sayda sıfırlarla ifadə edilən hissələr kimi təsəvvür edə bilərik. Vahid isə təsəvvür olunmadığından, onu hissələrə ayırmaq imkanına malik deyilik. Çoxluq xüsusilərin ortaq ümumi keyfiyyətliliyinin təzahürüdür. Müxtəlif keyfiyyətlilər (ümumi keyfiyyətə malik olmayanlar) çoxluq təşkil etmir. Məsələn: bir fərd bir kitabla çoxluq təşkil etmir, çünki kitabla fərdin ortaq keyfiyyəti yoxdur. Amma bir nəfər başqa bir nəfərlə və buna paralel bir kitab da başqa kitabla çoxluq təşkil edir, çünki ümumi keyfiyyətlidirlər. Ümumi keyfiyyətlilərin yaratdığı çoxluq - *xarici totallıq* kimi təzahür edir. Yəni ayrı-ayrı daxili totallığa malik təklərin summasiyasından yaranan çoxluq, onu təşkil edən təklərin heç birində ayrılıqda təzahür etməyən və buna görə də təklərə (daxili totallığa) münasibətdə xarici olan totallığa malik olur və yalnız bu totallıqdan çoxluq kimi təzahür edir.

Allah heç bir reallıqla ümumi keyfiyyətli olmadığından çoxluq kimi təzahür etmir. Ona görə də varlığın xarici totallığı ilə əkslik təşkil edir. Çoxluqda xüsusi keyfiyyətlər müxtəlifliyi özündə təqdim etdiyindən, bütün müxtəlifliklərin vəhdəti kimi təkin həqiqətini özündə refleksiya etməsi ilə mümkün olur. Biz bunu **başlanğıc refleksiya və yaranma** adlandırırıq. Yaranma mümkünlüyün elə ümumi qanunauyğunluğudur ki, hər bir mümkünlük özündə təkliyin xüsusi bir işarəsi kimi, bütün çoxluğun təzahür etdirdiyi və xarici totallıq kimi meydana çıxan ümumi isə

özündə Vahidin bir işarəsi kimi təzahür edir. Buradan da Kainatı - bütün varlıq aləmini - Allahın təbiətinin bir işarəsi kimi təyin etmək olar. Mütləq nisbi həqiqət varlığın xarici totallığı kimi istənilən gerçəkliyə münasibətdə mütləq eyniliklə aydınlaşdığından, varlıqlarda aydınlaşan nisbi mütləq nisbi həqiqətlərin müqayisəsi yolu ilə aşkarlanmır.

İşarə - mümkünlüyə istiqamətləndirmədir, hansı ki, məhz işarələrlə təfəkkür mümkünlüyə istiqamətlənərək həqiqəti inikas etməyə cəhd edir. Buna görə də bütün mümkünlük özündə bir vahid kimi Allahın işarəsi kimi çıxış etdiyindən, təfəkkür isə məkan və zamanla şərtləndiyindən, bütün mümkünlüyə eyni yerdə və eyni zamanda istiqamətlənə bilmədiyindən, Allahı mümkünlükdən inikas etmək imkanı yoxdur. Beləliklə, yaranma - Vahidin çoxluqda (mütləq nisbi həqiqətdə) refleksiyasını özündə əks etdirir. Vahidin çoxluqda refleksiyası birtərəflidir; yəni mütləq həqiqət mütləq nisbi həqiqətdə refleksiya olunur, amma özü onu özündə refleksiya etmir.

V. Çoxluğun çoxluqda refleksiyasından Allahın aşkarlanması:

Bu cür refleksiya əməlgəlmənin əsasında durur. Cisim dünyasında bütün cisimlər eyni zamanda və eyni məkanda bir-birini refleksiya edərək reallığa çevrilirlər. Çoxluğun çoxluqda refleksiyası qarşılıqlıdır. Bir gerçəklik digərini, digəri isə onu refleksiya edir. Buradan da hər hansı bir varlıq qarşılığına görə təyin olunur. Əməlgəlmə ikincili refleksiyadır, yəni artıq yaranmışların bir-birində refleksiyasıdır. Çoxluğun çoxluqda refleksiyasının iki formasını ayırd edə bilərik:

1. **Çoxluğun çoxluqda abstrakt refleksiyası:** Belə refleksiya təsadüfi, ixtiyaridir. Hər bir varlıq sonsuz sayda müxtəlif varlıqlarla refleksiya edə bilər. Belə refleksiya dayanıqlı deyil, keçicidir. Keçici refleksiya təsirlə funksional asılılıqda olan refleksiyadır. Belə refleksiya təsir başa çatdıqdan sonra heç bir iz qoymadan itir. Cisim dünyasında refleksiyanın hər bir siqnala uyğun forması var və bu təsir-əks təsir əlaqəsində meydana çıxır. Səsin refleksiyası əks-səda, işığın re-

fleksiyası görünmə və s.-dir. Çoxluğun çoxluqda abstrakt refleksiyası skalyarlıq xarakteristikasını təzahür etdirir. Belə refleksiyanın istiqaməti olmadığından qeyri-xəttidir. Cisim dünyasında inikas ətalətdə, birdəfəlikdir. Yəni heç bir əlavə təsir olmadan varlıq özünün ilkin vəziyyətini hifz edir və hər bir yeni təsir yenidən inikas olur. İnikas təkrarlanır. Cisimlərdə inikas cismin öz nizamlılığını hifz etməsi ilə müşayiət olunur. Belə ki, inikas edən özünün inikasdan qabaqkı vəziyyətini hifz edir.

2. **Çoxluğun çoxluqda konkret refleksiyası:** Qalıcı statik refleksiya. Qalıcı refleksiya təsirlə funksional əlaqəsində olmayan refleksiyadır. Belə refleksiya da təsir başa çatsa da, onun əks olunması davam edir. Belə refleksiya inikas kimi təzahür edir. İnikas - təsirin təsbit olunmuş əks-təsiridir. Elastik cisimlərdə xarici təsir cismi müəyyən deformasiyaya qoyur, təsir dayandıqdan sonra cisim deformasiyadan əvvəlki vəziyyətinə qayıdır. Beləliklə, təsir əvvəlki vəziyyətə qayıtmada refleksiya edir. Plastik cisimlərdə isə təsir özünəxas refleksiya edərək onları deformasiyaya uğradır. Təsir kəsildikdən sonra cisim öz əvvəlki vəziyyətinə qayıtmır və yeni vəziyyətində təsirin izi təsir olunan obyektə hifz olunur. Qalıcı refleksiya istiqamətli olub xəttidir və vektoriallıq xarakteristikasını təzahür etdirir.

3. **Çoxluğun təkdə refleksiyası:** Çoxluğun təkdə refleksiyası **fərdilik** kimi meydana çıxır. Fərdilik çoxluğun ümumi xassələrinin məkan və zaman şərtlərinə uyğun orijinal formada ayrılıqda təzahür etməsindən yaranır. Başqa sözlə, fərdi çoxluğa daxil olur və eyni zamanda çoxluğa daxil olan digər fərdi olanlardan fərqlənir. Buradan da fərdiliyin iki formada təzahür etməsini aşkarlamaq olar:
   - Fərdiliyin çoxluq kimi aşkarlanması: Məsələn, meşə, sürü.
   - Təklik kimi aşkarlanması: Konkret bir ağac və ya ayrıca bir heyvan.

Belə refleksiya canlılar üçün xarakterikdir. Cisim dünyasında fərdilik təzahür etmir. Fərdilik canlılığın mövcudluq forması olub cisimlərin

mürəkkəb təsirlərinin canlıları fərdiləşdirməsi ilə meydana çıxır. Belə refleksiya da öz növbəsində iki cürdür:

- Keçici refleksiya: Canlılarda keçici refleksiya reflekslərin yaranması kimi baş verir. Yəni hər bir qıcıq konkret refleksin - cavab reaksiyasının əmələ gəlməsinə səbəb olur.
- Qalıcı refleksiya: Belə refleksiya dəyişkənlik kimi təzahür edir. Canlılarda inikas qeyri-iradəvi dinamikdir, yəni həyat şərtlərindən asılı olaraq aktuallaşır. İnikasın özü dəyişilməyə məruz qalır. İnikas təkrarlanmır. Hər bir yeni təsir əvvəlki inikasla əlaqələnir. İnikas müəyyən həddə dəyişilməyə səbəb olur. Canlı özünün bəzi əlamətlərini yenisi ilə əvəz edir. Yeni əlamətlər anadangəlmə əlamətin xarici təsiri özündə inikasının təzahürü kimi meydana çıxır. Canlılarda qalıcı inikas instinkt kimi meydana çıxır. Hər bir nəslin müəyyən xarici və daxili təsirlərin qalıcı cavabları mövcuddur ki, istənilən vaxt həmin cavablar avtomatik və spontan yenidən canlanır.

Q. Təkliyin təklikdə refleksiyası: Təkliyin təklikdə refleksiyası **həyatdır**. Təklik müştərəkliyin təzahürü kimi - həyatın paylaşdırılması kimi - meydana çıxır. Təkliyin təklikdə refleksiyası başqa təkliklərdə refleksiyanı inkar etməklə reallaşdığından qapalı və maddidir. Yəni refleksiya konkret daxili mexanizmlərdə maddi formadan bir təklikdən digərinə ötürülür. Bu irsiyyət kimi təzahür edir. İrsiyyət nəsli refleksiyanı təmin edir. Təkliyin təklikdə refleksiyası bir istiqamətlidir. Hər bir yeni nəsil özündən əvvəlki nəsli refleksiya edir, amma əvvəlki nəsil özündən sonrakını refleksiya etmir. Belə refleksiya hesabına təkamül prosesi meydana çıxır.

G. Çoxluğun ruhda refleksiyası: Belə refleksiya gerçəkliyin Vahid İnsanlıq Ruhunda refleksiyasını özündə təqdim edir. Başqa sözlə, Vahid İnsanlıq Ruhu Kosmik nizamı özündə inikas edərək aktuallaşdığından, ixtiyari gerçəkliyi özündə refleksiya etmək meylindədir. Ruh ictimai formada təzahür etdiyindən onun təkliyi və çoxluğu meydana çıxmır.

Beləliklə, ruh Vahidin (Allahın) çoxluqdakı (Varlıqdakı) refleksiyasını - ən ümumi həqiqətləri özündə təkrar refleksiya etməklə (mütləq nisbi həqiqəti aşkarlamaqla) mümkünlüyə çevrilir. Bu proses kamilləşmə kimi təzahür edir. Kamilləşmə ruhun şərtsizləşməsini özündə təqdim edir. Şərtsizləşmiş ruh tədricən özündə Vahidin ayrı-ayrı işarələrinin keyfiyyətə çevirir; buradan sifətlər - qabiliyyətlər əmələ gəlir. Sifət - Allaha xas imkanların aşağı səviyyədə və müəyyən dərəcədə ruhda təzahür etməsidir.

E. Ruhun özü-özündə refleksiyası: Ruh keyfiyyətə malik olmadığından (keyfiyyət yalnız real varlığın xarakteristikasıdır, ruh isə mümkün varlıq kimi mövcud olduğundan, çoxluq formasında təzahür etməyən mümkünlükdür), Vahidin ümumi işarəsi kimi yalnız ruh çıxış edir. Çünki ruh təklik kimi təzahür etmir, çoxluqda təzahür etdikdə isə konkretləşmir. Ruhun özü-özündə refleksiyasında Fraqmentar ruh özündə Vahid İnsanlıq ruhuna çevrilir. Başqa sözlə, ruh daxili totallıq əldə edir.

Ruhun özü-özünün refleksiyası - **özünüdərk** kimi təzahür edir. Özünüdərk fərd və ya fiziki bədən kimi yox, özündə olan həqiqətin aydınlaşmasının xüsusi sırasına aid mahiyyəti - bədəndən və digər bütün şeylərdən fərqlənən özündəki ruhu aşkarlamaqdan ibarətdir. Ruh varlıqdan fərqli qanunauyğunluqlara tabe olduğundan, ruhun refleksiyası gerçəkliyin refleksiyasından fərqli qaydalara tabe olur. Belə ki, başqaları ilə heç bir əlaqəsi olmayan ayrıca bir şəxsdə ruh - "özündənkənar şey" olmadığından təzahür etmir. Onun şəxsdə təzahürü başqası ilə şərtləndiyindən "özünüdərk" eyni zamanda "özükimiləri dərk"dir, yəni insanlığın anlanılmasıdır. Buna görə də özünüdərk ya "Mən"dən, ya da "Sən"dən həyata keçirilir. Bu baxımdan "Mən" və "Sən" qarşılıqlı refleksiya edən ruhun iki müxtəlif bədəndə aydınlaşmasıdır. Təfəkkürün özü-özündə refleksiyası subyektin eyni zamanda mən, sən və o rolunda çıxış etməsindən ibarətdir. Hər bir "Mən"in eyni zamanda Sən və O olmaq imkanı təfəkkürün özü-özündə refleksiyası kimi meydana çıxır.

Təfəkkürdə qalıcı refleksiya **yaddaş** kimi təzahür edir. Belə ki, ruha təsir edən gerçəkliyin həqiqəti onda qalıcı nizamlanma yaradır. Sonradan həmin qalıcı nizamlanma iradəvi olaraq yenidən canlandırılır və gerçəkliyin bilavasitə iştirakı olmadan onun məlumatı meydana çıxır. Beləliklə, təfəkkürdə inikas bundan fərqli olaraq iradəvi və dinamikdir. Yəni inikas ağlın nizamlılığının dəyişilməsi formasında baş verir. Təsir kəsildikdən sonra təsir-əks təsir əlaqəsi iradəvi olaraq təfəkkürün özü-özündə davam etdirilir. Yəni ağıl həqiqətin ona təsirini öz nizamını təsir edən həqiqətə uyğun şəkildə dəyişməklə inikas edir və sürəkli olaraq hər bir inikas onu öz əvvəlki vəziyyətindən fərqli nizamlı vəziyyətə meylləndirir. Ağlın nizamlılığının dəyişilməsi - refleksiya, bu refleksiyanın aktuallaşması isə **şüurdur**. Şüur o zaman təzahür edir ki, bir tərəfdə həqiqət aydınlaşır, digər tərəfdə bu aydınlaşmanı aşkarlayan subyekt mövcud olur. Beləliklə, gerçəkliksiz və subyektsiz şüur təzahür etmir. Şüur - subyektin obyektin substansial aləminə keçidindən ibarətdir. Məhz bu keçid nəticəsində idrak prosesi - anlama baş tutur. Anlama yaranmanın təfəkkürdə inikasıdır.

Ağlın nizamlanması nümunəyə əsaslanır. Necə ki, canlılar irsi məlumatlara əsaslanaraq həyat təcrübəsini aktuallaşdırır, insan da yaşam təcrübəsində əldə etdiyi həqiqətin aydınlaşmasına görə özünü özündə nizamlayaraq özünü aktuallaşdırır. Refleksiya özündə bu cür nizamlanmanı əks etdirir. Ağlın nümunə əsasında nizamlanmasının (refleksiyanın) aşağıdakı formalarını ayırd etmək mümkündür:

1. **İrsi refleksiya:** Digər canlılardan fərqli olaraq irsi məlumatın insan şüurunda aydınlaşması və təfəkkürə irsiyyətin təsirindən meydana çıxan refleksiyanı biz irsi refleksiya adlandırırıq. Belə refleksiyanın üç sadə formasını ayırd etmək olar:
   - İnsanın tarixəqədərki ilk əcdadı (başlanğıcı) heyvan-insan olduğundan, özünün heyvani tərəfinin təfəkkürə təsir edib onda re-

fleksiya yaratması; insanin heyvani əcdadları haqqında yaratdığı totemistik təsəvvürlər kimi meydana çıxır.

- Tarix başlayandan sonra fərdin özündən çox-çox qabaqlar yaşamış nəsillərin irsiyyətə ötürdüyü məlumatların təfəkkürə təsiri **arxeotiplər** kimi meydana çıxır. Arxeotip - irsiyyətdə "yaşayan" keçmiş nəsillərin yeni nəsillərə təsirindən yaranan refleksiyadır.
- Hər bir fərd bilavasitə öz valideynlərinin irsi əlamətlərini özündə daşıyaraq özündə öz valideynlərini refleksiya edir. Belə refleksiya valideynlərə xas davranışlardan, qabiliyyətlərdən və antropoloji oxşarlıqlardan ibarətdir.

2. Təcrübənin refleksiyası: İstənilən obyektiv gerçəklikdə aydınlaşan həqiqət təfəkkür tərəfindən aşkarlanarkən təfəkkürün həqiqətin qanunauyğunluğuna uyğun nizamlanması təcrübi refleksiyanı yaradır. Təcrübi refleksiya real aləmin idrak olunmasının əsas üsuludur. Təcrübənin refleksiyası özündə gerçəklikdə aydınlaşan həqiqətin - obyektin intelligibilliyinin (yəni onun ideyasının) təfəkkürə köçürülməsindən ibarətdir. İntelligibilliyin intellektə köçürülməsinin üç üsulu vardır:

- Vasitəsiz köçürmə: İnsan analizatorları ilə hiss etdiyi bütün gerçəkliklərdəki intelligibilliyi intellektə köçürür. Bu cür köçürmə ilə cari şüur formalaşır.
- Vasitəli köçürmə: Bəzi gerçəkliklərdə aydınlaşan həqiqəti analizatorlarla aşkarlamaq mümkün olmur, bu zaman xüsusi vasitələrlə gerçəkliyin intelligibilliyi aşkarlanır və təfəkkürə köçürülür. Elmi şüur məhz bu üsuldan istifadə edir.
- Abstraksiyalaşdırma ilə köçürmə: Bəzi gerçəkliklərin intelligibilliyini nə vasitəli, nə də vasitəsiz aşkarlayaraq təfəkkürə köçürmək mümkün deyil. Belə intelligibillik yalnız təfəkkürün özü-özündən köçürməsi ilə reallaşdırılır. Fəlsəfə intelligibilliyin təfəkkürdə özü-özündən köçürmə üsulu ilə həqiqəti aşkarlaması kimi aktuallaşır.

3. Təfəkkürün özü-özünü refleksiyası: Eyni bir şəxsin özü-özünə təsirinin təfəkkürdə nizam yaratması təfəkkürün özü-özündə refleksiyası ilə mümkün olur. Burada iki cür təsiri ayırd etmək mümkündür:

- a. Düşüncə prosesində insanın əvvəlki düşüncəsinin təfəkkürə təsir edib yeni düşüncənin yaranmasına səbəb olması, yəni sonrakı şüurun özünün əvvəlki şüuruna refleksiya etməsi kimi - **avtorefleksiya**. Avtorefleksiyanın yaranması ruhun ikili təbiəti ilə - həqiqəti aydınlaşdıran, həm də eyni zamanda aşkarlayan vasitə olması ilə bağlıdır. Belə təfəkkürdə obyektiv gerçəklikdə aydınlaşan həqiqət ruhda refleksiya edir. Sonra gerçəklik olmadan təfəkkürdə inikas olunmuş abstrakt həqiqət əsasında təkrar refleksiya baş verir. Avtorefleksiya mütləq nisbi həqiqətin aşkarlanma istiqamətində sürəkli proses kimi meydana çıxır, hansı ki, düşüncənin mahiyyətini təşkil edir.
- b. Eyni bir fərdin vital həyatının ayrı-ayrı dövrlərinin şüurunun biri digərindən inkişaf etməsi kimi. Məsələn, uşaqlıq şüuru yeniyetmə şüuruna, o da yetkinlik şüuruna, o da kamillik şüuruna refleksiya edərək onun yaranmasında iştirak edir.

4. İnsanların bir-birini qarşılıqlı refleksiyası: Fərdlərin qarşılıqlı əlaqələrdə bir-birinə təsiri ilə baş verən refleksiya. Bunun da iki formasını ayırd etmək olar:

- a. Cari refleksiya: Bir şəxsin digər şəxsə təsir edərək onun gündəlik şüurunu dəyişdirməsi. Cari refleksiya iki formada - canlı iştirakla və ya vasitəli (subyektin ruhi əlamətlərini özündə əks etdirən vasitələrlə) aktuallaşır. Yazıçı-oxucu, kitab-oxucu, rəssam-tamaşaçı, əsər-tamaşaçı və s. kimi.
- b. Tarixi refleksiya: Özündən əvvəlki nəsillərin yaratdıqları əsərlərin təsiri ilə təfəkkürdə baş verən nizamlanma və həmin təfəkkürün özündən sonra gələcək insanların şüurunda refleksiya edərək onların şüurunu nizamlaması kimi.

5. **Sosial refleksiya:** İctimai şüurun fərdi şüura təsir edib onu nizamlaması sosial refleksiya kimi meydana çıxır. İnsan ictimai varlıqdır və onun ictimai tərəfi cəmiyyət həyatı ilə bağlıdır. Hər bir cəmiyyətin öz üzvlərinin təfəkkürünə təsir edib, onun digərləri ilə qarşılıqlı faydalanmaya meylləndirməsi sosial refleksiyanı təşkil edir. Sosial refleksiya vasitəsi kimi əxlaq normaları, qanunlar və hüquq çıxış edir.

6. **İnsanlığın refleksiyası:** İnsanlıq bütünlükdə dəyərlər sistemi kimi ifadə edilən Vahid İnsanlıq Ruhunun ən ümumi xarakteristikasıdır. Dəyərlərin fərdə (Fraqmentar Ruha) təsir edib onda ümuminsanlıq yaratması insanlığın refleksiyası kimi meydana çıxır.

7. **İlahi təbiətin refleksiyası:** Peyğəmbərlərin, övliyaların təfəkkürünə ilahi təsirdən yaranan refleksiya. İlahi refleksiya insanda ilahi sifətləri təzahür etdirmək meyli yaradır. İlahi refleksiya şərtsiz mütləq həqiqətin refleksiyası olduğundan, mütləq həqiqət isə insan təfəkkürünün aşkarlanması sərhədlərindən kənar olduğundan, həqiqi ilahi refleksiya mümkünsüzlükdür.

İDRAKDA REFLEKSİYA

Yaranışda refleksiyaya dolayısı ilə aydınlıq gətirdiyindən burada idrakda refleksiya ilə bağlı bir qədər geniş şərh etmək lazım gəlir.

Haşiyə: Hegel, "Fəlsəfi elmlərin ensiklopediyası"

> *"Allah bizə ikili şəkildə aşkarlanır: təbiət kimi və ruh kimi. İlahi ideya məhz ondan ibarətdir ki, subyektiv və ruh olmaqdan ötəri o, özündən bu başqasını (təbiəti) həll edir və yenidən onu özünə toplayır. Təbiətin fəlsəfəsinin özü bu qayıdış yolunun hissəsini təşkil edir və təbiətlə ruhun ayrılığını aradan qaldırır və ruha imkan verir ki, öz təbiətini və mahiyyətini təsdiq etsin. Fəlsəfə və dinin predmeti həqiqətdir və məhz sözün ali mənasında həqiqətdir - o mənada ki, Allah və yalnız bir O həqiqətdir. Fəlsəfə bizim gündəlik şüurumuza sübut etməlidir ki, idrakın xüsusi fəlsəfi üsuluna tələbat vardır və hətta belə tələbatı oyandırmalıdır. Dinin*

predmetinə münasibətdə, ümumiyyətlə həqiqətə münasibətdə o göstərməlidir ki, o özü onu dərk etməyə qabildir."

Haşiyə: İ.Kant, "Xalis zəkanın tənqidi"

"Refleksiya ondan birbaşa anlayış almaq üçün predmetin özü ilə birbaşa işi yoxdur; bu ruhun elə vəziyyətidir ki, hansı ki, biz hər şeydən öncə subyektiv şərt tapmaq istəyirik, hansı ki, anlayışları yarada bilək. Refleksiya verilmiş təsəvvürlərin bizim müxtəlif idrak mənbələrimizə münasibətinin dərk edilməsidir və yalnız ona görə onların bir-birinə münasibəti düzgün təyin edilə bilər."

Hegelin fikirlərindən görünür ki, Allah təbiət və ruh kimi aşkarlanır. Amma Allah təbiətdə və ruhda aydınlaşmır. Onda Allahın təbiət və ruh kimi aşkarlanması özündə nəyi ifadə edir və o nədən aşkarlanır? Təbiətdə və Ruhda Allah bilavasitə aydınlaşmadığından, bilavasitə aydınlaşmayanın bilavasitə aşkarlanması mümkün olmadığından deyə bilərik ki, təbiətdə və ruhda Allah dolayi yolla aşkarlanır. Bəs aşkarlanmanın dolayılığı özündə nəyi təqdim edir? Təbiət özündə Mütləq Nisbi həqiqətin müxtəlif dərəcəli refleksiyası kimi mövcuddur.

Biz təbiətdə İlahi nurun iki cür çevrilməsini - yalnız xarici *causa transitorias* xarakteristikasına malik cisimləri və həm xarici, həm də daxili *causa transitorias* xarakteristikasına malik canlıları real gerçəklik kimi qəbul edirik. Ruh isə sürəkli *causa transitorias* xarakteristikasına malik, dolayısı ilə cisim və candan şərtlənmiş mümkün gerçəklik kimi mövcuddur. Buna görə, bir tərəfdən cisim və canla şərtləndiyindən təbiətdədir, digər tərəfdən qeyri-təbiidir, çünki özünün müstəqil mövcudluğu yoxdur. Ruhun belə mövcudluq üsulu ona xarici refleksiya imkanı vermir, yəni başqa heç bir mövcud olan özündə Ruhu əks etdirmir. Amma o, idrak prosesində cisimlərdə xarici refleksiya etmək üçün candan (bədəndən), həm daxili həm xarici refleksiyaya malik real gerçəklikdən istifadə edir. Bu zaman o, canın xarici refleksiya xarakteristikasından onunla şərikli istifadə edir. Belə şərikli istifadə zamanı ruh özünü yaradıcılıqla mövcud-

luqların xarici görüntüsünə proyeksiya edir, yəni refleksiya edir (biz bunu **konkret aktiv refleksiya** adlandırırıq); həm də mövcudluqları özündə candan keçməklə refleksiya edir (biz bunu **abstrakt aktiv refleksiya** adlandırırıq ki, belə refleksiyaya obrazlar, təsəvvürlər, ideyalar-anlayışlar aiddir). Kant bunu "predmetin özü ilə işi olmamaq" kimi təyin edir. Nəticədə, Ruh həm predmetin özü ilə işi olaraq özünü onlarda yaradıcılıq kimi refleksiya edir, həm predmetlərin özü ilə işi olmadan yalnız onların mahiyyətindən onları özündə refleksiya edir. Beləliklə də həm cismin, həm də canın mümkünlük xarakteristikasının məcmusundan Allahın təbiətini dolayi yolla aşkarlamış olur.

Cisim daxili *causa transitorias* xarakteristikasına malik olmadığından əbədi mövcudluq (sonsuzluq) kimi təzahür edirlər. Canlılarda həm xarici, həm daxili *causa transitorias* xarakteristikası olduğundan keçicidirlər (sonludurlar). Beləliklə, sonsuzluğun sonsuzluqda refleksiyası sonlu ilə şərtlənmişdir, hansı ki, bütünlükdə yaranışın mahiyyətini təşkil edir.

5. Yaratmaq

İlahi fəaliyyətin təzahür forması yaratmaqdır. Yaratmaq özündənkənar refleksiya kimi meydana çıxır. Özündənkənar refleksiya - özündən uzaqlaşdırmaq, özünə yadlaşdırmanı bildirir. Allah öz Nurunu özündən kənarlaşdırmaqla yaratmışdır. Burada kənarlaşdırmaq yer-məkan mənasında yox, təbiət baxımından kənarlaşdırmağı özündə ifadə edir. Yəni Allah öz Nurunu öz təbiətindən fərqli təbiətə çevirməklə yaradıcılığa başlamışdır. Allah Ali Başlanğıc və Mütləq Təkmillik xarakteristikasına malik olduğundan onun özündənkənar refleksiyası emanasiyanın (mahiyyətin pisləşməsi) kimi təzahür edir. Beləliklə, özündənkənar yaranış mahiyyətin pisləşməsi istiqamətində inkişaf edən prosesdir. Özündənkənar refleksiya İlahi gücün vəhdətinin pozulması ilə, özü-özündə ikili təbiət əldə etməsi kimi təzahür edir. Birinci təbiət Allahın təcəssüm gücü kimi, ikinci təbiət İlahi sifət (yaradıcı güc) kimi

təzahür edir. Buradan birinci güc əbədi sükunəti, ikinci güc əbədi hərəkətliliyi özündə təqdim edir. Biz birinci gücü **Passiv Güc**, ikinci gücü **Aktiv Güc** adlandıra bilərik. Hər bir yaranış həm də özündə **Yaradıcı Gücün** Aktiv Gücü Passiv Gücü dəyişdirməsini refleksiya edir. Nəticədə, varlıqda bir-birindən fərqlənən üç cür güc aşkarlamaq olar: Varlığı yalnız məkanla şərtləndirən Passiv Güc, varlığı yalnız zamanla şərtləndirən Aktiv Güc və nəhayət zamanla məkanın vəhdətini təmin edən Yaradıcı Güc.

Haşiyə: Q.V.Leybnic, "Birinci fəlsəfənin təkmilləşdirilməsi və substansiya anlayışı haqqında"

> *"Aktiv güc özündə hansısa fəaliyyət və ya entelexiyanı saxlayır və cəhdi təqdim etməklə fəaliyyət qabiliyyəti ilə fəaliyyətin özü arasında ortanı təşkil edir: o özü-özlüyündə həyata keçirilməyə istiqamətlənib və yalnız maneənin dəf edilməsində köməkçi vasitələrə ehtiyacı yoxdur. Mən təsdiq edirəm ki, bu fəaliyyət qabiliyyəti istənilən substansiyaya xasdır və ondan həmişə hansısa hərəkət meydana çıxır; və buna görə cisim substansiyasının özü heç vaxt fəaliyyət göstərməkdən dayanmır. Aydındır ki, materiyanın mahiyyətini yalnız bir ölçüdə və ya hətta məhz nüfuzedilməz hesab edənləri və cismi özü üçün bütünlükdə sükunətdə təsəvvür edənləri nəzərə almaq kifayət deyildir. Bizim mühakimələrdən əmin olmaq olar ki, yaradılan substansiya başqa yaradılan substansiyadakı fəaliyyət gücünü, özünü yox, yalnız sərhədləri və özünün artıq mövcud olan sərhədlərinin (nisus) və ya fəaliyyət qabiliyyətini alır."*

Leybnicin bu fikirləri əməlgəlmə ilə bağlı düz qəbul edilə bilər. Əməlgəlmədə mövcudluq bilavasitə artıq mövcud olduğundan bəlli bir enerji ilə fəaliyyətdə olur. Ona görə hər hansı bir köməkçi gücə ehtiyac qalmır. Amma yaranışda mövcud ola biləcəyə ("heç nə"yə) fəaliyyət üçün enerji və ya entelexiya vermək və ya ona belə enerji keçirmək lazım gəlir. Bu keçirici gücü biz **Yaradıcı Güc** adlandırırıq.

Əbədi sükunətlə (Passiv Güclə), əbədi hərəkətin (Aktiv Gücün) Yaradıcı Gücün iştirakı ilə qarşılıqlı refleksiyasından (vəhdətindən) yaranış meydana çıxır. İstənilən yaranış üç gücü - substansial güc (varlığın faktını yaradan passiv güc), təzahür gücü (varlığın aktını yaradan güc) və aktiv güclə passiv gücü vəhdətdə saxlayan iradəvi gücü özündə təqdim edir.

Yaranma - özündənkənar refleksiya ilə özü-özündə refleksiyanın vəhdətini özündə ifadə edir.

Yaranış gücləri Varlığı meydana çıxarır. Növbəti refleksiya səviyyəsində varlıqdan mövcudluqlar meydana çıxır, hansı ki, əmələgəlmə prosesi kimi təzahür edir. Biz varlıqdan mövcudluğu əmələ gətirən gücə **əmələgəlmə gücü** deyirik, hansı ki, əmələgəlmə anı ilə bağlı olub keçicidir. Əmələgəlmə prosesində meydana çıxan güclər əmələgəlmənin başa çatması ilə ən müxtəlif səviyyəli təbiət güclərində refleksiya edir ki, biz bunu təcrübədən müxtəlif güclər kimi aşkarlayırıq.

Haşiyə: F.Şellinq, "Dünya ruhu haqqında"

> *"Özünə qayıdan hər bir hərəkət öz mümkünlük şərti keyfiyyətində (impuls kimi) hərəkəti oyandıran (elə bil ki, xəttə çıxış edir) müsbət gücü və mənfi gücü (dartma gücü keyfiyyətində) hərəkəti özü-özünə qaytarır (və ya ona düz xətlə getməyə mane olur) təbiətdə hər şey fasiləsiz irəliyə cəhd edir, bunun əsasını başlanğıcda axtarmaq lazımdır, hansı ki, müsbət gücün tükənməz mənbəyidir, təkrar-təkrar hərəkəti oyandırır və fasiləsiz onu dəstəkləyir. Bu müsbət başlanğıc təbiətin birinci gücündən ibarətdir. Amma hansısa görünməyən hakimiyyət dünyanın bütün təzahürlərini məcbur edir ki, əbədi dairəvi hərəkət etsin; bu sonuncunu əsas mənfi gücdə axtarmaq lazımdır, fasiləsiz müsbət gücün təsirini məhdudlaşdırır, bütün hərəkəti onun mənbəyinə qaytarır. Bu mənfi güc təbiətin ikinci gücüdür. Eyni zamanda vəhdətdə və mübarizədə təqdim olunan bu hər iki mübarizə aparan güc dünyanın sistemlərdə formalaşdıran qurucu başlanğıc ideyasına aparır."*

Şellinqin təbiət gücləri haqqındakı təsəvvürləri hər bir reallığın başlıca güclərdir; hansı ki, müsbət güc onun faktının gücü kimi daxili, mənfi güc başqa mövcudluqların mövcudluq gücü kimi onun aktında aşkarlanır. Və ya müsbət güc onun öz mövcudluğunun gücü, mənfi güc onun başqalarının mövcudluğuna müqavimət gücü kimi təzahür edir. Allahın ilahi təbiəti özü-özü ilə refleksiya olduğundan, onun özündənkənar refleksiyası da yeni səviyyədə özü-özünü refleksiya edən mütləq həqiqət kimi meydana çıxır. Özü-özünü yeni səviyyədən refleksiya eyniliyin qarşılıqlı refleksiyası kimi yox, əksiliyin (Allahdan kənarda refleksiya olduğundan) artma və azalma meyllərinin qarşılıqlı refleksiyası kimi meydana çıxır. İnsan təfəkkürünün aşkarlamasının son həddi nisbi mütləq həqiqət olduğundan, təfəkkür mütləq həqiqəti və onun refleksiya etdiyi ilahi gücün təbiətini də aşkarlamaqdan məhrumdur. İlahi gücün Allahın özündən qaynaqlanması, yəni mütləq həqiqətin Allahı refleksiyası özündə Allahın Mütləq Azadlığını əks etdirir. Başqa sözlə, Mütləq Azadlıq Ali Şərtsizləşmənin təzahürü kimi meydana çıxır. Mütləq azadlıq özündə həm aydınlaşmadan, həm də təfəkkürdə aşkarlanmadan azadlığı özündə təqdim edir. Bunun əksinə, mütləq həqiqətin özündə Allahı refleksiyası **Şərti Azadlıqdır** və bu ilahi iradə ilə, onun təzahürü kimi ilahi güclə şərtlənmişdir. Hər bir güzgünün əks etməsi əks olunanla şərtləndiyi kimi, heç bir güzgü öz-özünə, öz gücü ilə (əksolunan olmadan) onu özündə əks etdirə bilmədiyi kimi, mütləq həqiqət də Allahın Ali iradəsi olmadan onu refleksiya edə bilməz. Allahın azadlığı mütləq, sonsuz, əbədi və ölçüsüzdür.

Mütləq həqiqət ən ümumi olduğundan, heç bir xüsusi formada təzahür etmir. Onu yalnız bütün formaların məcmusundan aşkarlamaq olar. Özü sonsuz olanın (Başlanğıc Səbəb) özü-özünü özündən kənarda refleksiyası sonluluq (Başlanğıc Nəticə) keyfiyyətini yaradır. Və özündənkənar refleksiyanın başlanğıcı da, sonu da ilahi təbiətin özüdür. Mütləq həqiqətin iki mühüm xarakteristikası meydana çıxır:

- **A. Azalma - Ali Səbəbin (Allahın) və ya Refleksiyaolunanın təbiəti:** Bu təbiət azalma meyli ilə ifadə olunur. Yəni mütləq həqiqət nisbiləşmə istiqamətində daha az ümumi ilahi təbiəti özündə əks etdirir.
- **B. Artma - Nəticə - Mütləq Həqiqət və ya Refleksiyaedənin təbiəti:** Bu təbiət artma meyli ilə ifadə olunur. Yəni mütləq həqiqət nisbiləşmə istiqamətində gerçəklik daha çox öz xüsusi varlıq təbiətini özündə əks etdirir.

Ali Səbəb özündə Mütləq Azalma meylini təqdim etdiyindən, Mütləq nisbi həqiqətdən Allahı aşkarlamaq mümkün deyildir. Mütləq həqiqət yalnız öz təbiəti ilə (mütləq artma meyli ilə) aydınlaşdığından, mütləq həqiqəti özündə mütləq artımı aşkarlayan mütləq idrakla (azad zəka ilə) aşkarlamaq olar ki, azad zəka xalis şəkildə təzahür etmədiyindən insanın Mütləq həqiqəti aşkarlaması da mümkün deyildir.

Həqiqət haqqında mühakimələr iki cür yaranır:

- **a.** Bilavasitə gerçəkliyin özündən təcrübə sahəsində yaranan sintetik mühakimə. Sintetik mühakimə gerçəkliyin bilavasitə subyektə təsiri ilə meydana çıxır. Allah təcrübə sahəsində aydınlaşmadığından və buna görə də insana təsir etmədiyindən (indifferent olduğundan), sintetik mühakimə ilə dərk olunmur.
- **b.** Dolayı yolla analitik mühakimə ilə. İnsan həm də təcrübə sahəsində və ya təcrübə sahəsindən kənarda Vəhdət təşkil edən bir gerçəklik haqqında həqiqəti artıq sintetik mühakimə ilə dərk olunmuş digəri ilə ya oxşarlığına, ya da fərqliliyinə görə dərk edir. Allah özü-özündə mütləq vəhdət təşkil etdiyindən, onu təsdiq edən və ya inkar edən sintetik mühakimə mümkün olmadığından, analitik mühakimə ilə də dərk oluna bilmir.

Mütləq Azadlığın əksiliyi Şərti Azadlıqdır. Şərti Azadlıq sonsuzluqdan sonluluğa doğru meyl kimi təzahür edir ki, buradan da məkan əmələ gəlir. Mütləq həqiqət özündə artma və azalma meyllərinin vəhdəti kimi yarandığından, artma azalmanın, azalma artmanın sonu kimi təzahür

edir. Buradan sonsuz vahid dalğanın sonlu dalğalara ayrılması baş verir. Sonlu dalğaların müxtəlif kombinasiyalarından sonsuz sayda dalğalar yaranır. Hər bir sonlu dalğa mütləq nisbi həqiqət haqqında ideyaları özündə təqdim edir və bütün sonsuz sayda sonlu dalğalar (varlığın ideyaları) birlikdə ilkin məkanı təşkil edir. Həqiqətin məkan kateqoriyası ilə dərk edilməsi, məkanın həqiqət haqqında məlumat daşıyan dalğalardan təşkil olunması ilə bağlıdır.

Başlanğıc məkan - dalğaların mütləq hərəkətindən tərtib olunur. Mütləq həqiqət özü-özünü total refleksiyadan məhrum olduğuna görə özü-özünü hissəvi refleksiya etməklə mütləq hərəkət edir. Mütləq hərəkət ilkin məkanı təşkil edən dalğaların uzunluqlarının dəyişməsindən ibarətdir. Buradan məkanın ilkin xarakteristikalarından məsafə meydana çıxır.

Dalğaların müəyyən həddədək qısalmasından dalğa ikili təbiət əldə edir. Belə ki, uzunluğun qısalması istiqamətində hissəcik təbiəti, uzunlaşması istiqamətində ideya təbiəti (dalğa funksiyası) yaranır. Belə təbiət dayanıqsızlıqla xarakterizə olunur. Dalğa uzunluğunun sonsuz qısalması ilə dayanıqlılıq xarakteristikasına malik maddənin miniması kimi hissəcik meydana çıxır. Beləliklə, yaranışı sonsuz uzunluqda vahid dalğanın sonsuz qısalıqda sonsuz sayda dalğaya keçməsi kimi təyin edə bilərik. Buradan da kəmiyyətin keyfiyyətə keçidi qanunu yaranır.

Mütləq həqiqətin sonrakı refleksiyası varlıq sıralarının yaranması kimi meydana çıxır. Varlıq sıraları mütləq həqiqətin xarakteristikalarının bir-birindən ayrılaraq fərqli təzahür etməsi kimi baş verir. Belə ki, Ali Səbəb - Mahiyyətdə, Nəticə - Formada refleksiya edir.

Nisbi mütləq həqiqətin azadlığı refleksiya dərəcələri ilə şərtlənmişdir. Başqa sözlə, güzgü yalnız əksolunan qədər əks etdiyi kimi, həqiqət də Allahın onda refleksiya etdiyi qədər azaddır.

Mütləq həqiqət Allahın yeni səviyyədə refleksiyasıdır və bu səviyyənin xarakteristikası da İlahi səviyyənin xarakteristikasından

fərqlidir. Artıq bu səviyyədə mütləq həqiqət Allahı refleksiya etdiyindən özü-özünü refleksiya keyfiyyətindən məhrum olur və Ali Səbəbin Başlanğıc Nəticəsi kimi yaranır.

Nəticədə Mütləq həqiqət kimi sonsuz vahid dalğanın (ideya - *esse ideae*) haqqında məlumatı şüalandıran sonlu iki dalğaya ayrılması baş verir.

Dalğa təbiəti özü-özündə vasitəsiz xalis hərəkəti təqdim edir. İstənilən hərəkət iş görülməsi kimi təzahür edir. Hər bir iş konkret güclə görülür. Buradan da Yaranışı Allahın işi (fəaliyyəti) kimi dəyərləndirmək olar. Əgər yaranış işdirsə, onda işin görülməsinə səbəb olan gücü də aşkarlamaq olar. Yaranış işinin gücü ilahi gücdür. İlahi güc - təbiəti olmayan, buna görə də idrakın heç bir halda nüfuz edə bilməyəcəyi, izah edilməsi mümkünsüzlük olan xalis sintetik anlayışdır. İlahi güc özündə İlahi Nuru, başlanğıcı xalis hərəkətə gətirən, sonsuz uzunluqda, özündə Varlığın total xalis fikri haqqında məlumat daşıyan vahid bir dalğaya çevirən gücdür.

Məkan sonsuz uzunluğa malik vahid dalğanın sonlu uzunluqda çoxlu sayda dalğalar yaratması ilə yaranır. Nisbi mütləq həqiqət özü-özünü refleksiyadan məhrum olduğuna görə başqasında refleksiya istiqamətində mütləq hərəkət edir. Mütləq hərəkət ilkin məkanı təşkil edən dalğaların bir-birində refleksiya etməsi ilə bir-birinin uzunluqlarının dəyişilməsindən ibarətdir.

Yaranma prosesi əmələgəlmə prosesinə keçməklə metafizikadan təbiət yaranır. Yaranma - potensiya (*esse potentiae*), əmələgəlmə - potensiyanın reallaşmasıdır.

Haşiyə: B.Spinoza, "Ağlın təkmilləşməsi haqqında"

> *"Yaratmaq fəaliyyətdir, hansı ki, bu zaman fəaliyyət göstərəndən başqa heç bir səbəb çıxış etmir; və ya yaradılan şey odur ki, mövcud olmaqdan ötəri Allahdan başqa heç nə təqdim etmir."*

B.Spinozanın fikirlərindən görünür ki, yaranma ilə əmələgəlmə bir-birindən prinsipial fərqli iki ən ümumi hadisədir. Buradan yaratmağı "özündənkənar fəaliyyət", əmələgəlməni "özündə fəaliyyət" kimi təyin etmək olar. Məsələn, bədii əsər yaradılır, bitki əmələ gəlir. Bitki toxumun özündən əmələ gəlir, əsər rəssamdan kənarda meydana çıxır. Yaranma təksəbəblidir, yəni vəhdətdən kənar baş verir; əmələgəlmə çoxsəbəblidir və yalnız vəhdət halında meydana çıxır. Başqa sözlə, yaranmanın səbəbi yaradandır, çünki yalnız o, vəhdətdən kənar təklikdə əbədi mövcudluqdur. Səbəb tək olduğundan, hər bir yaranış faktı konkretdir və təkdir, yəni yaranışda müxtəlifləşmə baş vermir. İstənilən yaradılanın səbəbi yaradan olduğundan, özündə yalnız nəticədir. Əmələgəlmənin səbəbi yaradılandır. Ona görə də istənilən əmələ gələn həm səbəb, həm də nəticədir. Amma əmələgəlmədə səbəb çox olduğundan fərqliləşmə baş verir. Yaranmada həm aktiv, həm passiv güc vəhdətdə aktuallaşır, əmələgəlmədə yalnız aktiv güc fəaldır. Yaranmada refleksiya prosesində refleksiya edənlə refleksiya olunan eyni zamanda fərqli məkanda mövcud olur və bir-biri ilə səbəb-nəticə əlaqəsi ilə şərtlənir. Əmələgəlmədə refleksiya edən refleksiya olunanla fərqli məkan və zaman əlaqəsində olur. Başlanğıc səbəbdən nəticəyə keçir və nəticədən müstəqil yeni səbəb kimi çıxış edir. Amma yaranmada başlanğıc səbəb, səbəb kimi refleksiya olunanda qalmaqda davam edir, nəticə refleksiya edəndə şərtlənmiş yeni səbəb kimi çıxış edir. Məsələn, ata öz oğlunda özünü özündən kənarda refleksiya edir. Burada oğul eyni zamanda həm başqası, həm də atanın özü kimi çıxış edir. Ata başlanğıc səbəb kimi qalır və nəticəni təkrarlamaq potensialını saxlayır, nəticə kimi oğul yeni səbəb rolu oynayaraq nəticə kimi öz oğlunu əmələ gətirir. Bu əlaqə yaranışın əsas qanunauyğunluğu kimi təzahür edir. Əmələgəlmə kimi kimyəvi birləşmələri götürmək olar. Məsələn, natrium atomu (Na) ilə xlor atomunun (Cl) birləşməsindən natrium-xlor (NaCl) əmələ gəlir. Bu prosesdə həm natrium, həm də xlor birləşməyə qədərki heç bir xüsusi təzahürlərini üzə çıx-

armır. Əvəzində tamamilə yeni bir gerçəklik - xörək duzu meydana çıxır və xörək duzunun keyfiyyətləri natrium və xlorun keyfiyyətinə əkslik təşkil edir.

İradə - *volition seu willing*: İstəyin reallaşdırılması üçün məqsədəyönlü fəaliyyətə cəhd iradə kimi meydana çıxır. İradə imkanla şərtlənmişdir. İmkansız iradə heç bir fəaliyyət yaratmır. İstənilən varlıq özündə istəklə iradənin vəhdəti kimi meydana çıxır. İradəsiz istək mütləq sonluluq (yəni özü-özü ilə başa çatmaqdır), istəksiz iradə mütləq sonsuzluq (yəni heç bir nəticədə dayanmamaqdır).

Haşiyə: C.Lokk, "Təcrübələr"

> *"Biz özümüzdə bizim ağlımızın fəaliyyətinin müxtəlif növlərini başlamaq və bizim bədənimizi hərəkət etdirmək və ya onu hərəkətdən saxlamaq, onları davam etdirmək və ya qurtarmaq - yalnız bir fikirlə və ya əmr edən və ya yerinə yetirilməsinə icazə verən və ya verməyən ağlın vəziyyətinə görə - güc tapırıq. Ağlın hansısa ideyaya baxılmasına və ya baxılmamasına sərəncam verməyə və ya bədənin hissələrinin sakitlikdən hərəkətə gətirməyə və ya əksinə qabil olan bu güc, bizim İradə adlandırdığımızdır. Bu gücün hansısa ayrıca fəaliyyəti idarə edən və ya ondan saxlayan həqiqi tətbiqini biz İstəmək və ya İradəvilik adlandırırıq."*

Biz Lokkdan fərqli olaraq istəməklə iradəviliyin sinonim olmadığını və bir-birindən fərqli məna daşıdığını iddia edirik. Məsələn, biz tutaq ki, harasa getmək istəyirik. Bu zaman biz heç bir hərəkət və fəaliyyət tələb etmədən öz ağlımızda, daxildə istəyirik. İstəyimizə çatmaq üçün iradə nümayiş etdirdikdə, artıq bizim ağlımız xarici zəruri, məqsədəyönlü fəaliyyətə və ya hərəkətə təkan verir və biz olduğumuz yerdən istədiyimiz yerə doğru hərəkət edirik. Bizi istəyimizə doğru fəaliyyətə gətirən güc iradədir. Lokkun fikirləri xalis iradə ilə bağlıdır və bu fikirlərdən İlahi İradənin təbiətinə dolayısı da olsa aydınlıq gətirmək olar. Beləliklə, istəmək-iradəlilik ağlın "fəaliyyətin başladılması, hərəkət etdirmək və ya hərəkətdən saxlamaq, davam etdirmək və ya qurtarmaq"

fellərinin məcmusunu özündə ifadə edir. Buradan da Allahın İradəsini - Kainatın yaradılmasının başladılması, onu hərəkətə gətirməsi və ya hərəkətdən saxlaması, Varlığın davam etməsi və ya qurtarmasını əmr edən Mütləq ağıl kimi təyin edirik.

Haşiyə: A.Şopenhauer, "İradə anlayışı":

> *"İradə, özündə şey kimi, tamamilə öz təzahüründən fərqlənir və onun bütün formalarından azaddır, hansı ki, yalnız təzahürdə daxil olur və hansı ki, beləliklə, onun obyektivizasiyasına aid olur, ona tamamilə yad olur. Hətta istənilən təqdimatın - obyektin subyekt üçün - ən ümumi formasında ona aid olmur; amma formadır, bu ümumi forma, ümumi ifadəsini zaman və məkana xas olan və nəticədə təklik onlardan mövcud olan və mümkün çoxluğa çevrilən Əsas haqqında qanuna görə tapır."*

A.Şopenhauerin iradə haqqındakı fikirlərindən çıxış edərək deyə bilərik ki, Külli-aləm Allahın iradəsi - onun istəyi ilə yaransa da, bu istək yaranmışların heç birinə daxil olmur. Ona görə də ayrı-ayrı yaradılanlardan İlahi iradə (Passiv güc) aşkarlanmır. Passiv güc bütünlükdə yaranmışların məcmusundan ümumi totallıq kimi meydana çıxır ki, biz bunu kosmik nizamın əsasında duran **İlahi Ətalət Gücü** adlandırırıq.

Yəni "Allah Kainatın yaranmasını istəmişdir" fikri özündə bütün yaranmışların Allahın iradəsi altına düşməsini təqdim edir. Buradan həm də Allahın Ali hakimiyyət Əzmi yaranır ki, yaranış üzərində Allahın Ali Suverenliyini üzə çıxarır. Buna görə də Külli-aləm Allaha toxunur, yəni onun iradəsi altına düşür və Allah hər şeyin Ali suverenidir. Yəni heç bir şeydə onun iradəsi saxlanılmadığından iradəsizdir və buna görə də sürəkli olaraq ilahi iradə ilə ümumi şəkildə mövcuddur. Bütün varlıqlar Allahın ayrıca bir varlıq kimi onun varlığını istəməyini özündə refleksiya edir. Bu istək "mövcudluq"da təzahür edir, hansı ki, mövcud olanın (varlığın) mövcudluğa (ilahi istəyə) münasibəti mütləqlikdir və bu, daxili totallıq kimi hər bir mövcudolma cəhdinin əsasında durur. Beləliklə, hər bir varlığın mövcudluğu onun istəyidir və ya hər bir mövcudluğun ye-

ganə istəyi mövcud olmaqdır. İnsanın da istəməyi özündə yalnız ona toxunanlarla sərhədlənmişdir və bu sərhəddən kənarda sonsuz sayda və müxtəliflikdə yaradılanlar mövcuddur ki, insan onlar haqqında nə xəyal edə bilər, nə onları arzulaya, nə də istəyə bilər. İnsana toxunanlar onun mövcudluq üsulu ilə şərtlənmişdir və təcrübədə meydana çıxır. Və insan öz mövcudluğunun lehinə və əleyhinə olan hər şeyi öz istəyinə-iradəsinə, hakimiyyətinə tabe etdirməyə cəhd edir. Buna görə də hər bir adamın arzuları, xəyalları, istəkləri məhz bu Passiv Gücü fraqmentar olaraq özündə refleksiya edir. Beləliklə, insan yalnız özünə toxunanlarla bağlı istək ifadə edə bilir ki, bu da Allahın istədiklərinin yanında bir zərrədir.

İlahi zaman və məkan üstü olduğundan Onun Aktiv Gücü ilə Passiv Gücü eyni məqamlıdır, yəni bir anda və bir yerdədir. Onları bir-birindən ayırmaq və ayrılıqda təsəvvür etmək mümkün deyildir ki, bu iki gücün belə məkan və zamandan asılı olmayaraq vəhdət təşkil etməsi mütləq həqiqət kimi meydana çıxır.

Özündə həqiqəti aydınlaşdıran bütün vasitələr - vasitə olduqlarından, konkret bir məqsəd üçün - özlərindən həqiqətin aydınlaşması üçün yaradılmışdır. Beləliklə, varlığın vasitə olması, varlıq özü-özünün məqsədi olmadığından, onun yaradılmasını şərtləndirir. Yəni yaranışı istənilən varlığın başlıca xarakteristikası kimi təyin etmək olar. Başqa sözlə, istənilən mövcudluq yaradılmışdır. Əgər varlıq yaranışın nəticəsidirsə, onda yaranışın mövcud olanın mövcudluğunun səbəbi vardır və bu səbəb ondan üstün və ondan əvvəl olmalıdır ki, onu yarada bilsin. Əgər yaradılan yaradanla eyni olsaydı, yaradan yaradılanı yaratdığı kimi, yaradılan da yaradanı yaradardı. Əgər yaradılan yaradandan əvvəl mövcud olmasaydı, onda yaranış baş verməzdi. Başqa sözlə, yaradılan varsa, onda onu yaradan da vardır; yəni mövcud olan varsa, onda ondan əvvəl, onu mövcud edən Güc də mövcuddur.

İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

1. **Aristotel.** *Metafizika* [The Metaphysics]. Tərcümə edən H. Lawson-Tancred. London: Penguin Books, 1998.
2. **Aristotel.** *Fizika* [Physics]. Tərcümə edən R. Waterfield. Oxford: Oxford University Press, 2008.
3. **Berqson, Anri (Bergson, Henri).** *Yaradıcı təkamül* [Creative Evolution]. Tərcümə edən A. Mitchell. New York: Henry Holt and Company, 1911.
4. **Berkli, Corc (Berkeley, George).** *İnsan biliklərinin prinsipləri haqqında traktat* [A Treatise Concerning the Principles of Human Knowledge]. Redaktor J. Dancy. Oxford: Oxford University Press, 1998.
5. **Bonnet, Şarl (Bonnet, Charles).** *Təşkil olunmuş cisimlər haqqında mülahizələr* [Considérations sur les corps organisés]. Amsterdam: Marc-Michel Rey, 1762.
6. **Kuvyer, Jorj (Cuvier, Georges).** *Yer kürəsinin səthindəki çevrilişlər haqqında mülahizələr* [Discours sur les révolutions de la surface du globe]. Paris: G. Dufour et Ed. d'Ocagne, 1825.
7. **Darvin, Çarlz (Darwin, Charles).** *Təbii seçmə yolu ilə növlərin mənşəyi* [On the Origin of Species by Means of Natural Selection]. London: John Murray, 1859.
8. **Eynşteyn, Albert (Einstein, Albert).** *Nisbilik: Xüsusi və Ümumi nəzəriyyə* [Relativity: The Special and the General Theory]. Tərcümə edən R. W. Lawson. New York: Henry Holt and Company, 1920.
9. **Frankl, Viktor E.** *Məna axtarışında duyulmayan haray: Psixoterapiya və humanizm* [The Unheard Cry for Meaning]. New York: Simon & Schuster, 1978. (Mətndəki istinad: *Ağlın arxeologiyası*).
10. **Freyd, Ziqmund (Freud, Sigmund).** *Kütləvi psixologiya və insan Məninin analizi* [Group Psychology and the Analysis of the Ego]. Tərcümə edən J. Strachey. London: The Hogarth Press, 1949.
11. **Hegel, Georq Vilhelm Fridrix.** *Ruhun fenomenologiyası* [The Phenomenology of Spirit]. Tərcümə edən A. V. Miller. Oxford: Oxford University Press, 1977.
12. **Hegel, Georq Vilhelm Fridrix.** *Təbiət fəlsəfəsi* [Philosophy of Nature]. Tərcümə edən M. J. Petry. London: Allen & Unwin, 1970.

13. **Hegel, Georq Vilhelm Fridrix.** *Məntiq elmi* [The Science of Logic]. Tərcümə edən G. di Giovanni. Cambridge: Cambridge University Press, 2010.
14. **Haydeqer, Martin (Heidegger, Martin).** *Varlıq və Zaman* [Being and Time]. Tərcümə edən J. Macquarrie və E. Robinson. New York: Harper & Row, 1962.
15. **Heraklit.** *Fraqmentlər* [Fragments]. Tərcümə edən T. M. Robinson. Toronto: University of Toronto Press, 1987.
16. **Yum, David (Hume, David).** *Təbii din haqqında dialoqlar* [Dialogues Concerning Natural Religion]. London: Robinson, 1779.
17. **Yum, David (Hume, David).** *İnsan təbiəti haqqında traktat* [A Treatise of Human Nature]. Oxford: Clarendon Press, 1896.
18. **Yunq, Karl Qustav (Jung, C. G.).** *Arxetiplər və kollektiv şüursuzluq* [The Archetypes and the Collective Unconscious]. Tərcümə edən R. F. C. Hull. Princeton: Princeton University Press, 1969.
19. **Kant, İmmanuel.** *Mühakimə qabiliyyətinin tənqidi* [Critique of the Power of Judgment]. Tərcümə edən P. Guyer və E. Matthews. Cambridge: Cambridge University Press, 2000.
20. **Kant, İmmanuel.** *Xalis zəkanın tənqidi* [Critique of Pure Reason]. Tərcümə edən P. Guyer və A. W. Wood. Cambridge: Cambridge University Press, 1998.
21. **Lamark, Jan-Batist (Lamarck, Jean-Baptiste).** *Zoologiya fəlsəfəsi* [Zoological Philosophy]. Tərcümə edən H. Elliot. London: Macmillan, 1914.
22. **Le Bon, Qustav (Le Bon, Gustave).** *Kütlə psixologiyası* [The Crowd: A Study of the Popular Mind]. London: T. Fisher Unwin, 1896.
23. **Leybnic, Qotfrid Vilhelm (Leibniz, G. W.).** "Monadologiya" ["The Monadology"]. *Fəlsəfi esselər* [Philosophical Essays] kitabında. Tərcümə edən R. Ariew və D. Garber. Indianapolis: Hackett Publishing, 1989.
24. **Leybnic, Qotfrid Vilhelm (Leibniz, G. W.).** *Teodisiya: Allahın xeyirxahlığı, insanın azadlığı və şərin mənşəyi haqqında oçerklər* [Theodicy]. Tərcümə edən E. M. Huggard. New Haven: Yale University Press, 1952.
25. **Malebranş, Nikola (Malebranche, Nicolas).** *Həqiqət axtarışında* [The Search After Truth]. Tərcümə edən T. M. Lennon və P. J. Olscamp. Cambridge: Cambridge University Press, 1997.
26. **Markuze, Herbert (Marcuse, Herbert).** *Eros və sivilizasiya: Freyd haqqında fəlsəfi araşdırma* [Eros and Civilization]. Boston: Beacon Press, 1955.

27. **Nyuton, İsaak (Newton, Isaac).** *Təbiət fəlsəfəsinin riyazi prinsipləri* [The Principia]. Tərcümə edən I. B. Cohen və A. Whitman. Berkeley: University of California Press, 1999.
28. **Platon.** *Timey* [Timaeus]. Tərcümə edən D. J. Zeyl. Indianapolis: Hackett Publishing, 2000.
29. **Popper, Karl.** *Açıq cəmiyyət və onun düşmənləri* [The Open Society and Its Enemies]. London: Routledge, 1945.
30. **Şellinq, Fridrix (Schelling, F. W. J.).** *Dünya ruhu haqqında* [Von der Weltseele]. Hamburg: Friedrich Perthes, 1798.
31. **Spinoza, Barux.** *Etika* [Ethics]. Tərcümə edən E. Curley. Princeton: Princeton University Press, 1985.
32. **Spinoza, Barux.** *Allah, insan və onun xoşbəxtliyi haqqında qısa traktat* [Short Treatise on God, Man, and His Well-Being]. Tərcümə edən A. Wolf. London: A. & C. Black, 1910.
33. **Teyyar de Şarden, Pyer (Teilhard de Chardin, Pierre).** *İnsan fenomeni* [The Phenomenon of Man]. Tərcümə edən B. Wall. New York: Harper & Row, 1959.
34. **Müqəddəs Kitab (Tövrat).** *Əyyub peyğəmbərin kitabı* [Book of Job]. (Mətndəki istinad: 11:7).
35. **Uaythed, Alfred Nort (Whitehead, Alfred North).** *Proses və Reallıq* [Process and Reality]. New York: Macmillan, 1929.
36. **Volf, Kristian (Wolff, Christian).** *Ümumi Kosmologiya* [Cosmologia Generalis]. Frankfurt: Renger, 1731.

TERMİNLƏR LÜĞƏTİ (QLOSSARİ)

A

Aksidensiya: Varlığın mahiyyəti ilə vəhdət təşkil etməyən, ondan törəyən və ya ona xaricdən əlavə olunan, yalnız təfəkkürdə təyin olunan xassə; substansiyanın əksi.

Aktuallaşma: Mümkünlüyün zərurətə çevrilməsi prosesi; mövcudluğun zaman daxilində dəyişərək yeni formalar alması və gerçəkləşməsi.

Antinomiya (Kant): Xalis zəkanın eyni dərəcədə sübut oluna bilən iki əks hökm (tezis və antitezis) qarşısında qalması halı.

Aprior (Apriori): Təcrübədənkənar, əvvəlcədən verilmiş bilgi; şüurun materiyaya münasibətinin əksliyi haqqında məlumatın əldə edilmə üsulu.

Aşkarlanma: Gizli olanın üzə çıxması; təyin olunan varlığın əsas xarakteristikası olaraq şüur və ya idrak üçün əlçatan olması.

Atribusiya (Attribuo): Predmetə atributlar (xüsusiyyətlər) vermək, onu atributlarla başqa idrak obyektlərindən ayırmaq prosesi.

C

Can (Canlılıq): Məkan və zaman ölçülülüyünə malik olmayan qeyri-maddi varlıq forması; cisimdə aydınlaşan həqiqəti özünə keçirən vasitə.

Causa transitorias (Keçici Səbəb): Spinoza fəlsəfəsindən götürülmüş termin. Bir mövcudluqdan başqa mövcudluğa keçidi ifadə edən, metafizika ilə təbiəti əlaqələndirən aralıq proses; Ruhun nizamlanmamış vəziyyəti.

Concrescence (Birləşmə): Uaythedin terminologiyasında, çoxluğun vəhdətə gəlməsi; müxtəlif mümkünlüklərin birləşərək konkret bir varlıq halına gəlməsi.

D

Dasein (Haydeqer): "Olmaq", "iştirak etmək", gerçək mövcudluq; hissi qavramadan (şüurdan) əvvəl gələn mövcud varlıq.

Daxili İdeya: Mümkünlüyün varlığı; kosmosun bətnində yaranmanı təmin edən, İlahi İradədən şərtlər alan əsas.

Daxili Varlıqlar: Özündə müəyyənliyi olmayan, yalnız təfəkkürdə qeyri-iradi və spontan şəkildə yaranan təyini varlıqlar.

Dialektik forma: Varlığın inkişaf prosesində bir təyinin digərinə keçidi; ziddiyyətlərin vəhdəti və mübarizəsi.

Dimenzional Ontologiya: Varlığın müxtəlif ölçülərdə (bioloji, psixoloji, ruhi) proyeksiyasını öyrənən yanaşma.

E

Ekzistensiya: Ruhun bədənlə ziddiyyəti həll etmək üçün ondan çıxmağa cəhd etməsi, lakin tam çıxa bilməməsi; "başa çatmamış çıxma" halı.

Emansiya (Sudur): İlahi Nurun yayılması, kəsrətə (çoxluğa) ayrılması və ya geri qayıtması prosesi.

Ens ase: Özünə görə varlıq; şüurla təyin olunmaq zərurətindən azad olan, özü-özlüyündə mövcud olan (Mütləq Varlıq).

Ens cogitans: Düşünən mövcudluq (şüurlu insan).

Ens natura: Təbii varlıq; şüurdan əvvəl mövcud olan varlıq.

Ens rationis (Fikrən Varlıq): Təfəkkürdən kənarda qarşılığı olmayan, yalnız ağlın məhsulu olan obyektlər (məsələn, inkar, ximera).

Entropiya (Metafizik): Ruhun və ya mahiyyətin aydınlaşmamış, nizamsız, maddiləşməmiş (ideya olaraq qalan) halı.

F

Faktiki Ruh (Real Mən): Formal Ruhun (zəruri şərtlərin) və Fiktiv Ruhun (təsadüfi şərtlərin) vəhdətindən yaranan, konkret şəxsiyyətdə təzahür edən ruh.

Fiktiv Ruh (Nəsə İnsan): Formal Ruhun konkret bədənlə ilkin, natamam əlaqəsi; "O" (İd) səviyyəsində təzahür edən iradə.

Flux (Qurulma): Daimi axın və dəyişmə prosesi; "Hər şey dəyişir" prinsipinin ifadəsi.

G

Gerçəklik: Ən nisbi həqiqəti, sonuncu nizamı özündə ehtiva edən; səbəb və nəticənin vəhdətindən yaranan mövcudluq səviyyəsi.

H

Hadisə (Phenomenon): Mahiyyətin xarici, hissi qavranılan tərəfi; şüur üçün təzahür edən varlıq.

Həqiqət: Varlıq tərəfindən özündə saxlanılan məna; subyektlə obyektin, forma ilə məzmunun vəhdəti.

X

Xaos: Nizamsızlıq; kosmosun (nizamın) əksi və ya ondan əvvəlki vəziyyət.

Xalis Varlıq (Hegel): Heç bir müəyyənliyi olmayan, xalis abstraksiya; "Heçlik"lə eyni olan ilkin başlanğıc.

İ

İdeal Mən: Fərdin özünü görmək istədiyi mükəmməl ruhi obraz.

İdrakın miniması: "Var" noumeni; ən sadə həqiqətin ən dəqiq idrakı.

İlahi Ağıl: Mütləq Həqiqət; Allahın həqiqəti yaratması və qurması.

İlahi Bacarıq: Allahın "Yaratmaq" qabiliyyəti; Yoxluğa varlıq statusu vermək gücü.

İlahi İradə: Allahın İstəyini Onun Bacarığı ilə aktuallaşdıran, yaranışın "necə"liyini müəyyən edən güc.

İmmanentlik: Daxili zərurət; bir şeyin xaricdən deyil, öz daxili təbiətindən irəli gələn səbəblə tənzimlənməsi.

İntelligibillik (Dərkolunanlıq): Şeyin idrak obyekti olma statusu; varlıq statusu.

İrsiyyət: Formal canlının (səbəbin) faktiki canlıda (nəticədə) təzahür etməsi; nəsillər arasındakı əlaqə.

K

Kamillik: Ruhun Formal varlığının xarakteristikası; insanlığın ali məqsədlə nizamlanması.

Kateqoriyalar: Varlığın ən ümumi cinsləri və ya təfəkkürün dərketmə formaları (məsələn: zaman, məkan, kəmiyyət).

Kosmologiya: Kosmosun bir tam olaraq metafizik idrakı; dünyanın mənşəyi, quruluşu və sonu haqqında ideyalar sistemi.

Kosmos: Zərurət və təsadüfün, İlahi İradə, İstək və Bacarığın vəhdətindən yaranmış nizamlı varlıq sistemi.

M

Maddilik: Varlığın ən sadə forması; məkan və zaman asılılığında olan, hissi təcrübədə qavranılan keyfiyyət.

Mahiyyət (Essentia): Şeyin daxili, sabit və zəruri məzmunu ("nə"liyi); yalnız ağılla dərk olunan tərəf.

Metafizika: Təcrübədənkənar bilgiləri araşdıran, şüurun materiyaya münasibətinin əksliyini (materiyaönü vəziyyəti) öyrənən elm.

Modus (Spinoza): Substansiyanın halı; özü-özündə mövcud olmayan, başqa bir şey vasitəsilə mövcud olan.

Monada (Leybnic): Dünyanın ən sadə, bölünməz, ruhi substansiyası; kainatın güzgüsü.

Mövcudluq (Existentia): Varlığın məkanda yeri (faktı) və zamanda sürəkliliyi (aktı); "var" olanın təzahür forması.

Mücərrədləşdirmə: Şeyi hissi təcrübədən və ya öz sərhədlərindən çıxararaq xalis idraki ölçüyə keçirmə üsulu.

Mümkün Varlıq (Potensiya): Yalnız ideya və intuitiv idrakla qavranılan, gələcəkdə reallaşa biləcək varlıq.

N

Nə (Quid): Mövcud Varlığın başlanğıcı; duyğu yaradan element.

Noumen: Hissi təcrübədən kənar, yalnız zəka ilə dərk olunan "özündə şey"; ontologiyanın predmeti.

O

Obyektivizasiya: Ruhun daxili vəhdətdən xarici vəhdətə keçməsi; ideyanın xarici dünyada reallaşması.

Ontologiya: Varlığın (Ruhun məhsulu olmayanın) intuitiv idrakı haqqında elm; Varlıq ideyasını öyrənən sahə.

P

Pnevmatologiya: Metafizikanın Ruhu (onun mənşəyini, təbiətini və bədənlə əlaqəsini) öyrənən bölməsi.

Predikat: Məntiqi hökmdə subyektə aid edilən əlamət (məsələn, "var" - mütləq universal predikatdır).

R

Rasional Teologiya: İnsan düşüncəsi (intuitiv qavrama) ilə Allah haqqında həqiqətin aşkarlanması.

Refleksiya: Həqiqətin təfəkkürdə əks olunması; yaradılanın Yaradanı, nəticənin səbəbi əks etdirməsi.

Ruh: Varlığın mövcudluğunu ifadə edən, məkan-zaman hüdudlarından kənar, düşüncə və yaradıcılığa malik substansiya.

S

Səbəbiyyət (Kauzallıq): Hadisələrin zəruri əlaqəsi; bir hadisənin digərini doğurması prinsipi.

Sosiallaşma: Ruhun formal varlığının (cəmiyyətin) yaranması prosesi; ruhun daxili seyri.

Substansiya: Varlığın dəyişməz əsası; özü-özündə mövcud olan və özü ilə dərk edilən.

T

Tamlaşma: Ruhun tarixi inkişaf prosesində bütün bəşəriyyəti özündə empatiya edərək vahid məkan ölçüsü əldə etməsi.

Teleologiya: Məqsədyönlülük haqqında təlim; varlığın bir məqsədə xidmət etdiyini öyrənən sahə.

Transendental: Təcrübənin sərhədlərini aşan, lakin təcrübəni mümkün edən ilkin şərtlər (Kant).

U

Universal: Təkliyin və çoxluğun vəhdəti; həqiqətin özü-özündə sayrışan, hər şeyi əhatə edən vəziyyəti.

V

Var (Esse): Mütləq universal predikat; bütün predikatların başlanğıcı; obyektin statusunun əsası.

Varlıq: Ən ümumi həqiqəti özündə aydınlaşdıran başlanğıc; "var"a malik olan; ontologiyanın predmeti.

Vəhdət: Sonsuz çoxluğun tək bir sistemdə birləşməsi (Daxili və Xarici vəhdət).

Y

Yaranış: Yoxluğa varlıq statusunun verilməsi; İlahi İradə, İstək və Bacarığın vəhdətindən doğan akt.

Yoxluq (Heçlik): "Var"ı olmayan; idraka qapalı, gizli həqiqət; varlığın əksliyi.

MÜNDƏRƏCAT

ONTOLOGİYA

VARLIĞIN ABSTRAKT TƏYİNİ 4

VARLIĞIN YARANMASI 18

VARLIĞIN İDRAKI 64

XARİCİ VARLIQLAR 73

DAXİLİ VARLIQLAR 112

KOSMOLOGİYA

KOSMOLOGIYA ƏMƏLƏGƏLMƏ 123

KOSMOSUN STRUKTURLAŞMASI -MÖVCUDLUĞU 192

KOSMOSUN TƏŞKİL OLUNMASI - MÖVCUDOLMA 272

KOSMOSUN QANUNLAR 412

PNEVMOTOLOGİYA

RUH HAQQINDA ƏN ÜMUMİ ANLAYIŞ 491

FORMAL RUH - İDEAL 554

CANDA RUHUN YARANMASI 720

FİKTİV RUH - NƏSƏ İNSAN 833

RUHUN FAKTUALLAŞMASİ ve RUHUN MÖVCUDLUGU 1049

RUHUN FORMAL VARLIĞI - CƏMİYYƏT 1135

FİKTİV RUHİ VARLIQLAR 1236

RASİONAL TEOLOGİYA

ALLAH IDEYASI 1298

İLAHİ AĞIL - MÜTLƏQ HƏQİQƏT 1426

YARANIŞ - NATURA - İLAHİ BACARIQ 1560
İLAHİ İRADƏ 1596
İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT 1652
TERMİNLƏR LÜĞƏTİ (QLOSSARİ)..... 1655
MÜNDƏRƏCAT 1660